*Məni boya-boşa çatdırıb yolumda əziyyətlər çəkmiş babam Qulam Niftulla oğlunun və nənəm Güllü Mehdi qızının əziz xatirəsinə*

# İthaf edirəm

## Aqşin İsabala oğlu Quliyev

# HÜQUQ ENSİKLOPEDİYASI

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı-Qanun-2007

*Elmi redaktor:* **Şahbaz XUDUOĞLU**
Hüquq magistri

*Dil üzrə redaktor:* **Məhin Məmməd qızı Quliyeva,**
Filologiya elmləri namizədi

*Müəllif:* **Aqşin İsabala oğlu Quliyev,** hüquq elmləri namizədi, AMEA-nın Fəlsəfə və Siyasi-hüquqi Tədqidatlar İnstitutunun "Konstitusiya hüququ, dövlət və hüquq nəzəriyyəsi"şöbəsinin aparıcı elmi işçisi

**Hüquq ensiklopediyası** . Bakı-Qanun-2007. 1108 s.

Ensiklopediya hüquq elmini və qanunvericilik təcrübəsini əhatə edən 7 minə yaxın anlayışdan, termindən, söz birləşməsindən və ifadədən ibarətdir. Ensiklopediyada hüquq elminin bütün əsas sahələri, o cümlədən dövlət və hüquq nəzəriyyəsi və tarixi, siyası və hüquqi təlimlər tarixi əhatə olunmuş, həmçinin tətbiqi hüquq elmləri haqqında məlumat verilmişdir. Bundan başqa, kitabda Azərbaycan Respublikasının sahəvi hüquq elmləri, qanunvericilik aktları və digər normativ-hüquqi aktları da öz ifadəsini tapmışdır.

Ensiklopediya ali hüquq məktəblərinin və ali təhsil müəssisələrinin hüquq fakültələrinin tələbələri, aspirantlar, müəllimlər, iqtisadçılar və sahibkarlar, bütün səviyyələrdən olan deputatlar və bələdiyyə işçiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, dövlət qulluqçuları və habelə hüquqla maraqlanan oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Q $\frac{1201000000-13}{\text{AB022051}}$ 07 – 13

Az2

© Qanun, 2007
© Aqşin Quliyev



# ELMİ REDAKTORDAN

Aqşin Quliyev xeyli müddət idi ki, yorulmadan hüquq ensiklopediyası üzərində işləyirdi. Hələ də sovet bürokratiyasının tərkib hissəsi hesab edilən bəzi elmi institutlar, o institutların vərdişlərindən ayrıla bilməyən, elmin yüksək olimpində qocalan akademiklər Aqşin Quliyevin 10 illik zəhmətini qiymətləndirmək əvəzinə onun işinə şərik olmaq istədilər, buna etiraz edildikdə isə böyük zəhmət hesabına başa gəlmiş ensiklopediyanın nəşrini əngəlləməyə çalışdılar.

Hüquq dövlət idarəçiliyilə sıx bağlı bir sahə olduğundan, idarəetmə formaları dəyişdikcə, demək olar ki, hər gün onlarla yeni hüquq terminləri yaranır və adekvat olaraq köhnələri də sıradan çıxır. Bu mənada Aqşin Quliyev bu kitabı bir neçə dəfə yeniləşdirib. Hüquq ensiklopediyası 70 illik sovet dövrünün son illərində, liberal dəyərlərə meyil təzə-təzə yarandığı dönəmdə müəllif kollektivi tərəfindən hazırlanmışdı. 1991-ci ildə "Azərnəşr"in çap etdiyi kitabda cəmi 1000 termin və ifadənin izahı verilmişdi. Bəlkə də həmin dövr üçün o kitabla kifayətlənmək olardı.

İndi biz başqa hüquqi dəyərlər sistemində yaşayırıq, cəmiyyət kimi Avropa ailəsinə qoşulmuşuq, Azərbaycan dövləti çoxtərəfli beynəlxalq müqavilələrin subyektidir, nüfuzlu beynəlxalq təşkilatların üzvüdür. Daxil olduğumuz sferadakı Avropa hüququ, Amerka hüququ yeni hüquqi dəyərləri diktə edir. Bütün bunlar əvvəlkindən tam fərqli yeni bir ensiklopediyanın hazırlanmasını şərtləndirirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra 10 mindən çox normativ hüquqi akt qəbul edilib. Bunların bir hissəsi beynəlxalq təşkilatların ekspertizasından keçib, digər qismini həmin təşkilatlar tövsiyə ediblər. Bəzi qanunlar köklü surətdə yenilənib.

Xüsusən insan hüquqları ilə bağlı çoxlu sayda sovet dövrü üçün yeni olan sənədlər qəbul olunub. Sovet hüquq sistemində epizodik rol oynayan bəzi sahələr artıq böyük instituta çevrilib. Mətbuat azadlığı, sərbəst toplaşmaq azadlığı, bələdiyyə sistemi, hakimiyyət bölgüsü və s. Bu siyahını xeyli artırmaq olar...

Bu kitabın hüquq ensiklopedik lüğəti kimi dəyəri çox yüksəkdir: əvvəla müstəqillik dövründə ilk işdir, ikincisi, son dövrlərə qədər qanunyaradıcı prosesdə işlədilən bütün yeni terminlər toplanıb. Ümumilikdə 7000-dən artiq termin və ifadənin izahı verilib.

Hər bir terminə həcmcə maksimum az yer ayrılıb, məna baxımından qısa və lakonikdir. Bu kitabla tanış olan şəxs hüququn bütün sahələri haqqında ensiklopedik bilgi əldə edəcək.

Sovet dövrünün indi üçün köhnəlmiş hesab edilən terminləri tamamilə yığışdırılıb.

Müəllif kitabı hazırlayarkən çoxlu sayda xarici ölkələrin ensiklopediyalarına müraciət edib. İstifadə olunan ədəbiyyat siyahısında Avropa ölkələrinin nəşrləri daha az yer tutur. Hər halda təkrar nəşrlərdə bu böyük zəhmətin qarşısında son dərəcə xırda görünən qüsurları aradan qaldırmaq çətin olmayacaq.

Hüquqi dovlət anlayışının özündən bəlli olur ki, bu sahədə terminoloji bazanın yaradılması çox vacib məsələdir. Xarici ölkələrdə terminologiya, ensiklopediya məsələlərilə xüsusi institutlar məşğul olur. Bizdə isə, elmin digər sahələrində olduğu kimi, bu sahə də vicdanlı alimlərin ümidinədir. Əlbəttə, mən hər kitab çap edəni vicdanlı hesab etmirəm.

Mən naşirəm. Hüquq sahəsində əksər kitablar bizim kompyuterlərdə, bizim mətbəədə çap olunur. Hüquq sahəsində dərsliklərin də vəziyyəti bizə yaxşı bəllidir. Onlarla müəllim adı çəkərəm, kitablarını ucuz qiymətlərə çap elətdirib az qala min qat bahasına zorla tələbələrə satırlar. Bəraətləri də "biz ki, rüşvət almırıq, kitab satırıq". Belə müəllim ola bilərmi? Mən özəl ali məktəbləri demirəm, amma təəssüf ki, BDU-da qosqoca universitetin adına ləkə salan belə üzdəniraq müəllimlər az deyil. Təhsil ocaqları gərək qiymət dükanı açan müəllimlərdən təmizlənsin, vicdanlı, peşəsinə namusla xidmət edən müəllimlərə qucaq açsın!

Görəsən, orta əsrlərdən bu günə qədər Azərbaycanın hüquq fikirini gecə gündüz araşdıran, bu sahədə onlarla kitab yazan Aşin Quliyevin yeri harda olmalıdır?!

Bu kitab bir nəfərin qələmindən çıxdığından, burada çatışmayan terminlərə, yalnış məqamlara rast gəlinə bilər. Amma nəzərə almaq lazımdır ki, bu kitab müstəqillik dövründə buraxılan ilk ensiklopediyadır. Bu başdan yanlış olan ifadələrə, terminlərə görə üzürxahlıq edir və mütəxəssislərdən xahiş edirik ki, irad və təkliflərini redaksiyaya göndərsinlər. Əmin edirik ki, həmin irad və təkliflər növbəti nəşrlərdə hökmən nəzərə alınacaq.

Latın Amerikası yazıçısı Borxesden soruşurlar: - "Ən çox oxuduğunuz kitab hansıdır?"

- "Latın Amerikası ensiklopediyası" və "Bibliya"- deyə cavab verir. Ümidvaram ki, Aqşin Quliyevin hazırladığı bu kitab barədə də Azərbaycan hüquqşünasları eyni fikri söyləyə biləcəklər.





# Şərti ixtisarlar

AR Ai.M – Azərbaycan Respublikasının Ailə Məcəlləsi
AR VM – Azərbaycan Respublikasının Vergi Məcəlləsi
AR ƏM – Azərbaycan Respublikasının Əmək Məcəlləsi
AR İXM – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi
AR GM – Azərbaycan Respublikasının Gömrük Məcəlləsi
AR Me.M – Azərbaycan Respublikasının Meşə Məcəlləsi
AR MM – Azərbaycan Respublikasının Mülki Məcəlləsi
AR MPM – Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi
AR SM – Azərbaycan Respublikasının Seçki Məcəlləsi
AR SuM – Azərbaycan Respublikasının Su Məcəlləsi
AR TGM – Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsi
AR TM – Azərbaycan Respublikasının Torpaq Məcəlləsi
AR CİM – Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi
AR CM – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
AR CPM – Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi
AR Mən.M – Azərbaycan Respublikasının Mənzil Məcəlləsi

alm. – almanca
ərəb. – ərəbcə
isv. – isveçrə
ita. – italyanca
ing. – ingiliscə

lat. – latınca
türk. – türkcə
fars. – farsca
fr. – fransızca
hol. – hollandca
yun.– yunanca
b.– başqaları
c. – cild
və i.– və ilaxır
və s. – və sair
qəs. – qəsəbə
dəq. – dəqiqə
dən. – dənizi (ad yanında)
d.y. – dəmir yolu
dos. – dosent
e.d. – elmlər doktoru
e.t. – elmi tədqiqat
ər. – ərazi
əh. – əhali
f. – fəsil
iqt.– iqtisadi
inz. – inzibati
inz.m. – inzibati mərkəz
in-t. – institut
k. – kəndi (ad yanında)
kq – kiloqram
koop. – kooperativ
k.t. – kənd təsərrüfatı
km – kilometr
m – metr
mad. – maddə
m.m – maddələr
man. – manat
mln. – milyon
mlrd. – milyard
məs. – məsələ
m.üzvü – müxbir üzvü
prof. – professor

s. – səhifə
sah. – sahəsi
ş. – şəhər
t. – ton
təqr. – təqribən
təs. – təsərrüfat
DİN – Daxili İşlər Nazirliyi
MTN – Milli Təhlükəsizlik Nazirliyi
XİN – Xarici İşlər Nazirliyi
MN – Müdafiə Nazirliyi
ƏN – Ədliyyə Nazirliyi
VN – Vergilər Nazirliyi
Mal.N – Maliyyə Nazirliyi
YEN – Yanacaq və Energetika Nazirliyi
KTN – Kənd Təsərrüfatı Nazirliyi
SN – Səhiyyə Nazirliyi
ƏƏSMN – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
FHN – Fövqəladə Hallar Nazirliyi
M.TN – Mədəniyyət və Turizm Nazirliyi
GİN – Gənclər və İdman Nazirliyi
TN – Təhsil Nazirliyi
RİTN – Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
İİN – İqtisadi İnkişaf Nazirliyi
MSN – Müdafiə Sənayesi Nazirliyi
NK – Nazirlər Kabineti
Nax.MR – Naxçıvan Muxtar Respublikası
MM – Milli Məclis
KM – Konstitusiya Məhkəməsi
AM – Ali Məhkəmə
Apel.M – Apellyasiya Məhkəməsi
AR – Azərbaycan Respublikası
AHİK – Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası
MHŞ – Məhkəmə Hüquq Şurası
İM – İqtisad Məhkəməsi





# Azərbaycan əlifbası

**Aa - a**
**Bb - be**
**Cc - ce**
**Çç - çe**
**Dd - de**
**Ee - e**
**Əə - ə**
**Ff - fe**
**Gg - g**
**Ğğ - ğe**
**Hh - he**
**Xx - xe**
**Iı - ı**
**İi - i**
**Jj - je**
**Kk - ke**
**Qq - qe**
**Ll - el**
**Mm - em**
**Nn - en**
**Oo - o**
**Öö - ö**
**Pp - pe**
**Rr - er**
**Ss - se**
**Şş - şe**
**Tt - te**
**Uu - u**
**Üü - ü**
**Vv - ve**
**Yy - ye**
**Zz - ze**

# -A-


Abandon ... 17
Abdikasiya ... 17
Abolisionist ... 17
Abolisionizm ... 17
Abolisiya ... 17
Abonement ... 17
Abonent ... 17
Abonent borcu ... 17
Abonentləşdirmə ... 17
Abonent poçt dolabı ... 18
Aborigenlər ... 18
Abort ... 18
Abroqasiya ... 18
Absenteizm ... 19
Absolyusiya ... 19
Abstinentli sindrom ... 19
Aclıq ... 19
Açıq akkreditiv ... 19
Açıq çarter ... 19
Açıq depozit ... 19
Açıq dəniz ... 19
Açıq girov kağızı ... 19
Açıq hava məkanı ... 19
Açıq hesab ... 19
Açıq idarəetmə sistemi ... 20
"Açıq qapı" doktrinası ... 20
Açıq müqavilə ... 20
Açıq müsabiqə ... 20
Açıq oferta ... 20
Açıq requlyar depozit ... 20
Açıq səhmdar cəmiyyəti ... 21
Açıq şəhər ... 21
Ad ... 21
Adam-gün ... 21
Adam oğurluğu ... 21
Adam-saat ... 21
Adaptasiya ... 21
Adato ... 21
Addendum ... 22
Adekvat təfsir ... 22
Adət hüququ ... 22
Adət hüququ məhkəmələri ... 22
Adətlər ... 22
Ad hüququ ... 23
Adi səhmlər ... 23
Adi veksel ... 23
Adlı çek ... 23
Adlı emissiya qiymətli kağızları ... 23
Adlı əmanət kitabçası ... 24
Adlı əmanət (depozit) sertifikatı ... 24
Adlı əşya ... 24
Adlı indossament ... 24
Adlı istiqrazlar ... 24
Adlı konosament ... 24
Adlı qiymətli kağız ... 24
Adlı veksel ... 24
Admiral ... 24
Admirallıq ... 24
Admonisiya ... 25
Adoptasiya ... 25
Ad referendum ... 25
Adritura ... 25
Adsız çek ... 25
Adsız indossament ... 25
Adsız konosament ... 25
Adsız qiymətli kağız ... 26
Adsız sığorta polisi ... 26
Adsız veksel ... 26
Ad valorem ... 26
Adyudikasiya ... 26
Adyunkt ... 26
Adyunktura ... 26
Adyülter ... 26
Aerodrom ... 26
Aeroliman tutmaları ... 26
Aeroliman vergiləri ... 26
Afera ... 26
Affekt ... 26







Affidevit ... 27
Affiliasiya ... 27
Affiliasiyalaşdırılmış şəxs ... 27
Afina Məcəlləsi ... 27
Afina tərbiyəsi ... 27
Agens in rebus ... 27
Agent ... 27
Agent-delkredere ... 28
Agent əməliyyatı ... 28
Agentləşdirmə ... 28
Agentlik ... 28
Agent muzdu ... 28
Agent müqaviləsi ... 28
Ager desertus ... 30
Ager kaptivus ... 20
Ager kolonikus ... 30
Ager kompaskuus ... 30
Ager kvestorius ... 30
Ager okkupatorius ... 30
Ager privatus ... 30
Ager privatus vektiqaliskve ... 30
Ager provminsialis ... 30
Ager publikus ... 30
Ager stipendiarius ... 30
Ager tributarius ... 30
Ager vektiqalis ... 30
Ağa ... 30
Ağır cinayətlər ... 31
Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsi ... 31
Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi ... 31
Ağsaqqallar Şurası ... 32
Ağyaxalıqlı cinayətkarlıq ... 32
Axtarış ... 32
Axtarış (inkvizisiya) prosesi ... 32
Aidiyyət ... 32
Aidiyyət çoxluğu ... 33
Ailə ... 33
Ailə başçısını itirməyə görə pensiya ... 33
Ailə həkimi ... 33
Ailə hüququ ... 34
Ailə kəndli təsərrüfatı ... 34
"Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının qanunu ... 34
Ailə qanunvericiliyi ... 34
Ailə Məcəlləsi ... 34
Ailə mülkiyyəti ... 35
Ailənin gəlirləri ... 35
Ailənin orta aylıq gəliri ... 35
Ailə tərbiyəsi ... 35
Ailə üzvü ... 36
Ajio ... 36
Ajio-konto ... 36
Ajiotaj ... 36
Ajur ... 36
Akademik ... 36
Akademik azadlıqlar ... 36
Akademik il ... 36
Akademiya ... 37
Akkit ... 37
Akklamasiya ... 37
Akkord əməkhaqqı ... 37
Akkord sistemi ... 37
Akkreditasiya ... 38
Akkreditiv ... 38
Akkreditivləşdirmə ... 38
Akkreditivli qeyd-şərt ... 38
Akkreditiv üzrə hesablaşmalar ... 38
Akkresiya ... 38
Akkumuliyasiya edilmiş dividend ... 38
A-konto ... 39
Akselerator ... 39
Aksept ... 39
Akseptant ... 39
Aksept bank ... 39
Aksept edən bank ... 39
Aksept evi ... 39
Aksept firması ... 39
Aksept krediti ... 39
Aksept-rambursa-kredit ... 39
Akseptləşdirici müddət ... 40
Akseptləşdirilmiş çek ... 40
Akseptləşdirmə ... 40
Akseptli çek ... 40
Akseptli ödəmə tapşırığı ... 40
Akseptli tratta ... 40
Akseptli veksel ... 40
Aksessiya ... 40
Aksessor hüquq münasibətləri ... 40
Aksessor müqavilə ... 40
Aksessor öhdəlik ... 40
Aksiom ... 40

Aksiya [1] .......... 41
Aksiya [2] .......... 41
Aksiya [3] .......... 41
Aksiz .......... 41
Akt .......... 41
Aktiv .......... 41
Aktiv bank əməliyyatı .......... 41
Aktiv hesablar .......... 41
Aktivlər .......... 42
Aktivlərin dəyəri .......... 42
Aktiv seçki hüququ .......... 42
Aktuari .......... 42
Akustika .......... 42
Akvatoriya .......... 42
Akvizisiya .......... 42
Akvizitor .......... 42
Aqnat qohumluq .......... 43
Aquen Qanunnaməsi .......... 43
Aqnatlar .......... 43
Aqora .......... 43
Aqoranomlar .......... 44
Aqrar hüquq .......... 44
"Aqrar islahatın əsasları haqqında" Azərbaycan Respublikasının qanunu .......... 44
Aqrar islahatlar .......... 45
Aqrar qanunlar .......... 45
Aqreje .......... 46
Aqreman .......... 46
Aleator müqavilələr (əqdlər) .......... 46
Alınmış veksel .......... 46
Alış əməliyyatı .......... 46
Alış fondu .......... 46
Ali Attestasiya Komissiyası .......... 46
Ali baş komandan .......... 46
Alibi .......... 46
Ali Cinayət Məhkəməsi .......... 47
Ali Divan .......... 47
Alienasiya .......... 47
Ali kəndli məhkəməsi .......... 47
Alilik .......... 47
Ali magistratlıq şurası .......... 48
Aliment .......... 48
Aliment öhdəliyi .......... 48
Aliment sazişi .......... 48
Ali Məclis .......... 49
Ali məhkəmə .......... 49
Ali Məxfi Şura .......... 49
Ali Rada .......... 50
Ali Səltənət Şurası .......... 50
Ali Sovet .......... 50
Ali Şura Məclisi .......... 50
Ali təhsil .......... 50
Ali təhsil müəssisəsi (ali məktəb) .......... 51
Ali təhsil müəssisəsinin muxtariyyatı .......... 51
Ali vəzarət divanı .......... 51
Aliyə mühakiməsi .......... 51
Ali Zem Məhkəməsi .......... 51
Alkald .......... 52
Alkoqol .......... 52
Alkoqolizm (alkoqol düşgünlüyü) .......... 52
Alkoqol sərxoşluq .......... 52
Alqı-satqı müqaviləsi .......... 52
Allod .......... 53
Allonj .......... 53
Almenda .......... 53
Alpari .......... 53
Alternat .......... 53
Alternativ aidiyyət .......... 53
Alternativ mülki xidmət .......... 53
Alternativ öhdəlik .......... 53
Alternativ sanksiya .......... 54
Alternativ seçkilər .......... 54
Alternativ səsvermə .......... 54
Altıüzvlü Duma .......... 54
Altinq .......... 54
Alyans .......... 54
Amalqamasiya .......... 54
Aman .......... 55
Ambalaj .......... 55
Amerika depozit iltizamı .......... 55
Amerika depozit şəhadətnaməsi .......... 55
Amerika Dövlətləri Təşkilatı .......... 55
Amerika Kriminologiya Assosiasiyası (AKA) .......... 55
Amneziya .......... 56
Amnistiya .......... 56
Amoralizm .......... 56
Amortizasiya .......... 56
Amortizasiya fondu .......... 56
Amortizasiya müddəti .......... 56
Amortizasiya ödəmələri .......... 56
Amparo .......... 57
Anadangəlmə cinayətkar nəzəriyyəsi .......... 57
Analıq .......... 57





Analitik təfsir .......... 57
Analitik uçot .......... 57
Analitik yurisprudensiya .......... 57
Analogiya .......... 57
Anamnez .......... 58
Anarxiya .......... 58
Anarxizm .......... 58
Anastiqmat .......... 59
Anatosizm .......... 59
And .......... 59
Anderrayter .......... 59
Anderraytinq .......... 59
Andlı hesablayıcılar (talmalar) .......... 59
Andlı iclasçılar .......... 59
Andlılar məhkəməsi .......... 60
Andlı vəkil .......... 60
Anket .......... 60
Anketləşdirmə .......... 60
Anket sorğusu .......... 60
Anklav .......... 60
Anqajement .......... 60
Anqariya .......... 61
Anlaqlıq .......... 61
Anlaqsızlıq .......... 61
Anneksiya .......... 61
Annuitet .......... 63
Annulyasiya .......... 63
Anomiya .......... 63
Anonim .......... 63
Anonim cəmiyyət .......... 63
Anonim hesab .......... 63
Anonim müraciət .......... 63
Anonim yazılar .......... 63
Anons .......... 63
Antarktika .......... 63
Antidempinq rüsumları .......... 64
Antiinhisar qanunvericilik .......... 64
Antiinhisar qanunvericiliyin pozulmasına görə məsuliyyət .......... 64
Antiinhisar orqanlar .......... 65
Antiinhisar siyasət .......... 65
Antiinhisar tənzimləmə vasitələri .......... 66
Antikartel qanunvericilik .......... 66
Antikrez .......... 66
Antipedaqogika .......... 66
Antipsixiatriya .......... 67
Antirəqabət təcrübəsi .......... 67
Antisipasiya .......... 67
Antisipləşdirmə .......... 67
Antitarixləşdirmə .......... 67
Antitrest qanunvericilik .......... 67
Antreprener .......... 68
Antropologiya .......... 68
Antropometriya .......... 68
Apanaj .......... 69
Aparat .......... 69
Apartheyd, aparteid .......... 69
Apatiya .......... 69
Apatrid .......... 69
Apella .......... 69
Apelliant .......... 70
Apellyasiya .......... 70
Apellyasiya instansiyası .......... 70
Apellyasiya instansiyasının qərarı .......... 71
Apellyasiya Məhkəməsi .......... 71
Apellyasiya şikayəti .......... 72
Apolid .......... 73
Apologiya .......... 73
Apostil .......... 73
Apostilləşdirmə .......... 73
A rationibus .......... 73
Arbalet .......... 74
Arbitr .......... 74
Arbitraj .......... 74
Arbitraj barışığı .......... 74
Arbitraj xərcləri .......... 74
Arbitraj iclasçıları .......... 74
Arbitraj idarəedicisi .......... 75
Arbitraj komissiyası .......... 75
Arbitraj komitəsi .......... 75
Arbitraj məhkəməsi .......... 75
Arbitraj-prosessual hüququ .......... 75
Arbitraj-Prosessual Məcəlləsi .......... 75
Arbitraj sazişi .......... 75
Arbitraj sövdələşməsi .......... 76
Areopaq .......... 76
Argentarilər .......... 76
Argentorat .......... 76
Arxipelaq keçidi .......... 76
Arxiv .......... 76
Arxivarius .......... 77
Arxiv fondu .......... 77
Arxiv xidməti .......... 77
Arxiv işi .......... 77
Arxiv sənədi .......... 77
Arxiv sənədlərinin daimi mühafizəsi .......... 77
Arxiv sənədlərinin mülkiyyətçisi .......... 78
Arxiv sənədlərinin müvəqqəti mühafizəsi .......... 78
Arxiv sənədlərinin sahibi .......... 78

Arxont ... 78
Aristokratiya ... 78
Arktika ... 78
Arqument ... 78
Armanopulo Altıkitabı ... 78
Armator ... 78
Artel ... 78
Arthaşastra ... 79
Artikul ... 79
Asenda ... 79
Asento ... 79
Asessor ... 80
"Asimmetrik" federasiya ... 80
Asosiallıq ... 80
Aspirant ... 80
Aspirantura ... 80
Assambleya ... 80
Assiqnat ... 80
Assimilyasiya ... 81
Assizlər ... 81
Assosiasiya ... 81
Assosiasiyalaşdırılmış dövlət ... 81
Assosiasiyalaşdırılmış kooperativlər ... 81
Assosiasiyalaşdırılmış şəxs ... 82
Assosiativ dindirmə ... 82
Astronim ... 82
Aşkarlıq ... 82
Atabəy ... 82
Atalıq ... 82
Ataman ... 82
Atributlu əlaqələr nəzəriyyəsi ... 83
Atropat ... 83
Attestasiya ... 83
Attestat ... 83
Atteşe ... 83
Attorney ... 83
Attorney-general ... 83
Audiensiya ... 83
Audit ... 83
Auditor ... 84
Auditor fəaliyyəti ... 84
Auditor firması ... 84
Auditor-general ... 84
Auditor hesabatı ... 84
Auditor xidməti ... 84
Auditorların attestasiyası ... 84
Auditor rəyi ... 84
Auditor yoxlaması ... 84
Auksion ... 84
Auksionçu ... 84
Auksion qaydaları ... 84
Auksion qiyməti ... 84
Auksion müqaviləsi ... 84
Auksion ticarəti ... 85
Autentik ... 85
Autentik mətn ... 85
Autentik təfsir ... 85
Autodafe ... 85
Autopsiya ... 85
Autrayt ... 85
Autsayder ... 85
Aval ... 85
Avalçı ... 85
Aval krediti ... 86
Avallaşdırma ... 86
Avans ... 86
Avans hesabatı ... 86
Avesta ... 86
Aviasiya ... 88
Aviasiya hadisəsi ... 88
"Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunu ... 89
Aviasiya insidenti ... 89
Aviasiya məmulatı ... 89
Aviasiya personalı ... 89
Aviasiya təhlükəsizliyi ... 89
Aviayüklər qaiməsi ... 89
Avista ... 89
Avizo ... 89
Avropa Birliyi ... 90
Avropa çeki ... 90
Avropa dollarları ... 90
Avropa hüququ ... 90
Avropa İqtisadi Birliyi (AİB) ... 91
Avropa İqtisadi Zonası (AİZ) ... 91
Avropa istiqrazı ... 91
Avropa İttifaqı (Aİ) ... 91
Avropa Komissiyası (Avropa Birlikləri Komissiyası) ... 91
Avropa Kömür və Polad Birliyi ... 92
Avropa qrupu ... 92
Avropa Məhkəməsi ... 92
Avropa Parlamenti ... 92
Avropa Sərbəst Ticarət Assosiasiyası ... 93
Avropa Şurası (AŞ) ... 93
Avropa təhlükəsizliyi ... 93
Avropa valyutaları ... 93





Avropa valyuta sistemi (AVS) ... 93
Avropa valyuta vahidi ... 94
Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ... 94
Avtarkiya ... 94
Avtokrat ... 94
Avtokratiya ... 95
Avtomobil tarifi ... 95
Avtoreferat ... 95
Avtoritar ... 95
Avtoritarizm ... 95
Avtoritet ... 96
Avtorizasiya ... 96
Avuarlar ... 96
Avunkulat ... 96
Aydenti-kit ... 96
Ayətullah əl-üzma ... 96
Ayrıca konsul ... 97
Ayrı-seçkilik ... 97
Azad dinləyici ... 97
Azad iqtisadi zona ... 97
Azadlığın məhdudlaşdırılması ... 97
Azadlıqdan məhrumetmə (azadlığın məhdudlaşdırılması) ... 98
Azadlıq və şəxsi toxunulmazlıq hüququ ... 99
Azad liman ... 99
Azad mandat ... 99
Azadolmalar ... 99
Azadolunmuşlar ... 99
Azad tədavül ... 100
Azad tərbiyə ... 100
Az ağır cinayətlər ... 100
Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizasiyası, Kriminalistika və Kriminologiya Problemləri İnstitutu (AETMEKKPİ) ... 100
"Azərbaycan Respublikası əhalisinin dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunu ... 100
Azərbaycan Respublikası hökuməti ... 101
Azərbaycan Respublikası Milli Məclisinin sədri ... 101
Azərbaycan Respublikasının Ailə Məcəlləsi ... 101
Azərbaycan Respublikasının Ali Məhkəməsi ... 101
Azərbaycan Respublikasının apellyasiya məhkəmələri ... 102
Azərbaycan Respublikasının Baş naziri ... 102
Azərbaycan Respublikasının büdcə hüquqları ... 102
Azərbaycan Respublikasının büdcə sistemi ... 102
Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi ... 103
Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ... 103
Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ... 103
Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ... 103
Azərbaycan Respublikasının dövlət bayrağı ... 103
Azərbaycan Respublikasının dövlət gerbi ... 103
Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ... 104
Azərbaycan Respublikasının dövlət himni ... 104
Azərbaycan Respublikasının dövlət komitələri ... 104
"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" konstitusiya aktı ... 104
Azərbaycan Respublikasının dövlət nazirlikləri ... 105
Azərbaycan Respublikasının dövlət rəmzləri ... 105
Azərbaycan Respublikasının dövlət sərhədləri ... 105
Azərbaycan Respublikasının dövlət standartı ... 105
Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ... 105
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ... 106
Azərbaycan Respublikasının Əmək Məcəlləsi ... 106
Azərbaycan Respublikasının gömrük fəaliyyəti (işi) ... 106
Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ... 106
Azərbaycan Respublikasının gömrük orqanları ... 106
Azərbaycan Respublikasının gömrük siyasəti ... 106

Azərbaycan Respublikasının hərbi məhkəmələri ..... 107
Azərbaycan Respublikasının Hərbi Prokurorluğu ..... 107
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ..... 108
Azərbaycan Respublikasının inzibati-ərazi quruluşu ..... 108
Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ..... 108
Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsi ..... 108
Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ..... 108
Azərbaycan Respublikasının Konstitusiyası ..... 108
Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ..... 109
Azərbaycan Respublikasının Meşə Məcəlləsi ..... 109
Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ..... 109
Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (MSK) ..... 109
Azərbaycan Respublikasının Milli Məclisi ..... 109
Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ..... 110
Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ..... 110
Azərbaycan Respublikasının Mülki Məcəlləsi ..... 110
Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi ..... 110
Azərbaycan Respublikasının Nazirlər Kabineti ..... 110
Azərbaycan Respublikasının Prezidenti ..... 111
Azərbaycan Respublikasının Prokurorluğu ..... 112
Azərbaycan Respublikasının Seçki Məcəlləsi ..... 112
Azərbaycan Respublikasının Su Məcəlləsi ..... 112
Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ..... 112
Azərbaycan Respublikasının Vergilər Nazirliyi ..... 112
Azərbaycan Respublikasının Vergi Məcəlləsi ..... 113
Azərbaycan Respublikasının yerli iqtisad məhkəmələri ..... 113
Aztəminatlı ailə ..... 113





## Aba — Abo

**Abandon** *(İng. abandonment; fr. abandon)* – yük və ya gəmi sahibinin (sığortaçının) özünün sığorta edilmiş gəmiyə, yaxud yükə olan hüquqlarından bunun üçün tam sığorta məbləği alması ilə əlaqədar imtina etməsi. Yük və ya gəmi sahibi a.-a ona görə müraciət edir ki, sığorta hadisəsi nəticəsində özünə vurulmuş zərərin həcmini sübut etmək vəzifəsindən azad olsun. Sığorta edən və ya mənfəət alan a. barəsindən sığorta edən təşkilata aşağıdakı halda məlumat verə (və bütün sığorta məbləğini ala) bilər: a) gəmi xəbərsiz itkin düşdükdə; b) gəmi və (və ya) yük yararsız vəziyyətə (faktiki olaraq tamamilə məhv olduqda) düşdükdə; c) tamamilə məhv olmuş gəminin bərpası və ya təmiri iqtisadi cəhətdən məqsədəuyğun olmadıqda; ç) gəminin təmiri və ya yükün təyin edilmiş limana daşınması iqtisadi cəhətdən sərfəli olmadıqda; d) elə keçmə təhlükəsi ilə əlaqədar sığorta edilmiş gəmi və ya yük (elə keçirmə altı aydan artıq uzandıqda).

**Abdikasiya** *(ing. abdication)* – monarxın taxt-tacdan rəsmi kənarlaşdırılması. Adətən ötən yüzilliklərdə monarxiya idarəçilik formasına malik olan ölkələrdə tətbiq edilmişdir.

**Abolisionist** (ing. abolitionist) – köləliyin və ya hər hansı bir qanunun ləğvinin tərəfdarı. A.-lər adətən cəmiyyətin mütərəqqi fikirli, tərəqqipərvər üzvlərindən ibarət olmuşlar.

**Abolisionizm** (lat. abolitio – ləğv etmə, məhv etmə; ing. abolitionism) – hər hansı qanunun ləğvinə nail olan ictimai hərəkat. XVIII əsrin sonu - XIX əsrin başlanğıcında ABŞ-da zəncilərin köləliyinin ləğv edilməsi uğrunda hərəkat, Böyük Britaniya, Fransa və Qərbi Avropanın bir sıra digər ölkələrinin müstəmləkələrində köləliyin ləğvi uğrunda hərəkatlar. A. quldar - plantasiyaçılara qarşı torpaq uğrunda mübarizə aparan fermerlərin geniş dairələrini, zavod və fabrik fəhlələrini, mütərəqqi ziyalıları, zənci azadlıq hərəkatının üzvlərini, eləcə də quldarlığı ABŞ-ın kapitalizm yolu ilə inkişafına buxov hesab edən burjuaziyanın qabaqcıl nümayəndələrini öz sıralarında birləşdirirdi. A. ABŞ-da 1861-1865-ci illər vətəndaş müharibəsinin ideoloji zəminlərinin hazırlanmasında böyük rol oynamışdır.

**Abolisiya** *(lat. abolitio – ləğv etmə, məhv etmə; ing. abolition)* – hər hansı qərarın, qanunun və ya digər normativ-hüquqi aktın ləğv edilməsi.

**Abonement** (fr. abonnement) - bir qayda olaraq, müəyyən müddət ərzində nədənsə (kino-teatrda oturacaq yerindən, telefondan və i.a.) istifadə etmək hüququ, eləcə də bu hüququ təsdiq edən sənəd.

**Abonent** *(fr. abonner – abunə yazdırmaq, abunə yazılmaq; alm. abonnent)* – **1)** abonementdən istifadə edən fiziki və ya hüquqi şəxs; **2)** əşyadan əvəzsiz istifadə (kitabxananın abonenti və i.a.) etmə və ya əvəzli xidmət göstərmə (telefon şəbəkəsinin abonenti, elektrik enerjisi istehlakçısı və i.a.) haqqında müqavilənin bir tərəfi.

**Abonent borcu** – kommunal təsərrüfatı, rabitə müəssisəsi və təşkilatları tərəfindən göstərilən xidmətlərin haqqının istehlakçı (abonent) tərəfindən müəyyən edilmiş güzəştli müddətdə ödənilməsi öhdəliyi.

**Abonentləşdirmə** *(fr. abonner – abunə yazdırmaq, abunə yazılmaq)* – **1)** abonentlə nəyisə almaq; **2)** hər hansı əşya və ya predmetdən müəyyən müddətə istifadə etmək hüququnun əldə edilməsi.



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Abonent poçt dolabı** – yaşayış evlərinin xarici divarına bərkidilən, habelə poçt göndərişlərinin ünvançıların əldə etməsi üçün kənd yerlərinin tədarük məntəqələrində müəyyən edilmiş yerdə qoyulan xüsusi qutudan ibarət olan dolab.

**Aborigenlər** – hər hansı ərazinin, yaxud ölkənin köklü sakinləri. Müasir hüquqda a. dedikdə adətən inkişaf etmiş və inkişaf etməkdə olan bəzi ölkələrin ibtidai icma həyat tərzini qoruyub saxlamaqda olan köklü xalqları və ya etnik qrupları (Amerika hinduları, eskimoslar, Yeni Zelandiya maoriləri və başqaları) başa düşülür. A. son dərəcə geri qaldıqlarına görə adaptasiya oluna bilmirlər. Buna görə də a.-in həyat tərzinə əsasən qanun onlar üçün xüsusi hüquqi status nəzərdə tutur. Bu status adətən xüsusi ehtiyatların yaradılmasını, onların ümummülki vəzifələrdən (vergilərin ödənilməsindən, hərbi xidmətdən, dövlət vəzifələri tutmaqdan) azad edilməsini, özünüidarənin ənənəvi institutlarının (rəhbərlər şurasının və i.a.) və adətlərin, eləcə də təbiətdən istifadənin və sənətkarlığın (ovçuluğun, balıqçılığın, müxtəlif əl işlərinin) ənənəvi formalarını tanınmasını müəyyən edir. Hazırda ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya, Braziliya, Paraqvay, Hindistan a. haqqında çox inkişaf etmiş qanunvericiliyə malikdir. Bu ölkələrin bəzisində a.-in statusu konstitusiyada təsbit edilmişdir. Belə etniklərə Okeaniyada da təsadüf olunur *(həmçinin bax: avtoxtonlar)*.

Köklü azsaylı xalqların və etnik qrupların xüsusi hüquqi statusu Azərbaycan Respublikasında da qanunvericilik yolu ilə müəyyən edilmişdir.

**Abort** *(lat. abortus – uşaqsalma)* – uşaqlıq boşluğunda döl yumurtalığının çıxarılması yolu ilə hamiləliyin süni yolla kəsilməsi. Hər bir qadın analıq haqqında məsələni sərbəst surətdə həll etmək hüququna malikdir. A. qadınların arzusu ilə hamiləliyin 12, xüsusi göstəricilərə görə hamiləliyin 22, tibbi göstəricilərin olduğu halda isə və qadının razılığı ilə hamiləliyin 28 həftəyədək (hamiləlik 28 həftədən artıq olduqda doğum vaxtından əvvəl aparılır) olduğu müddətdə aparılır. A. göstərilən fəaliyyət növü üçün lisenziyası olan müəssisələrdə və bu sahədə xüsusi hazırlığa malik olan həkim tərəfindən aparılmalıdır. A.-un qanunsuz aparılması cinayət məsuliyyətinə səbəb olur. Qanunsuz abort etməyə görə Azərbaycan Respublikası CM-in 141-ci maddəsində cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

**Abroqasiya** *(lat. abrogatio)* – faydasız olduğuna və ya zamanın ruhuna zidd olduğuna görə köhnəlmiş qanunun ləğv edilməsi. A. yeni qanunla elan olunur. Aşağıdakı a.-lar fərqləndirilir: a) xüsusi a.- köhnə qanunun yenisi ilə tamamilə əvəz edilməsi;

b) deroqasiya - köhnə qanunun qismən ləğv edilməsi; c) obroqasiya - köhnə qanuna zəruri dəyişikliklər edilməsi; ç) subroqasiya – köhnə qanuna əlavələr edilməsi.

**Absenteizm** *(lat. absens – iştirak etməmək; ing. absenteeism)* – **1)** seçicilərin dövlət hakimiyyətinin nümayəndəli orqanlarına seçkilərdən və ya referendumda iştirak etməkdən könüllü olaraq imtina etməsi; **2)** əkinçilik a.-i - torpaq sahibliyi forması. Torpağın mülkiyyətçisi onun becərilməsində bilavasitə iştirak etməməklə pul gəliri alır.

**Absolyusiya** *(lat. absolutio – bağışlama; ing. absolution)* – təqsirləndirilən şəxsi cəzadan azad edən prosessual xarakterli





məhkəmə aktı. Məhkəmənin bu prosessual aktı əsasında təqsirləndirilən şəxs məhkəmə zalından azadlığa buraxılır.

**Abstinentli sindrom** - xroniki alkoqolizmin və narkomanlığın başlıca əlamətlərindən biri. Alkoqollu içkilərin (narkotik maddələrin) qəbulunun dərhal dayandırılması və ya dozasının azaldılması nəticəsində səhhətin bir sıra somatik və psixoloji pozulması (əsmə, titrəmə, ürək döyüntülərinin artması, yuxunun pozulması və i.a.) ilə xarakterizə olunur.

**Aclıq** – hakimiyyət orqanlarının fəaliyyəti əleyhinə və onlara qarşı verilən tələblərin möhkəmləndirilməsi kimi etiraz əlaməti olaraq qida qəbul etməkdən ibarət sosial akt, hərəkət. Məhkumların etirazları, fəhlələrin və digər kateqoriya işçilərin öz iqtisadi və siyasi hüquqları uğrunda mübarizəsi də a.-ın formalarından biridir. A. bütün sosial-iqtisadi formasiyalarda müşahidə edilmiş ictimai hadisədir.

**Açıq akkreditiv** – alıcının akkreditivi geri çağırmaq hüququna malik olmadığı akkreditiv. bu a.-ın satıcıya heç bir təminat vermədiyinə görə ondan son dərəcə nadir hallarda istifadə olunur.

**Açıq çarter** – malın növünün və təyinat limanının göstərilmədiyi çarter. Bir qayda olaraq, gözlənilən malın tonunun rezervləşdirilməsindən ibarətdir.

**Açıq depozit** – müştərinin banka verdiyi qiymətli kağızları bağlı qaydada yerləşdirmədiyi bank əməliyyatı. A. d-in aşağıdakı növləri vardır: a) açıq requlyar depozit; b) açıq irrequlyar depozit; c) məhdud requlyar depozit; ç) rəqəm depoziti.

**Açıq dəniz** *(beynəlxalq hüquqi rejim)* – dünya okeanının hər hansı dövlətin ərazi suları xaricində yerləşən və bütün dövlətlərin ümumi istifadəsində olan hissəsi. A.d.-dən istifadə hüququ beynəlxalq hüquqda hamılıqla qəbul edilmiş a.d.-in sərbəstliyi prinsipinə əsaslanır. Bu prinsip a.d. haqqında 1958-ci il Cenevrə konvensiyasında nəzərdə tutulmuşdur.

Bütün dövlətlər a.d.-dən ticarət gəmiçiliyi və hərbi gəmiçilik, dəniz ovçuluğu, kabel və boru kəmərləri çəkmək, elmi-tədqiqatlar və i.a. üçün istifadə edə bilərlər. A.d.-də hər bir gəmi yalnız bayrağı altında üzdüyü dövlətə tabedir. Bayraq yurisdiksiyasından istisna kimi hər hansı hərbi gəminin, müəyyən əsaslar olduqda, başqa dövlətin gəmisini a.d.-də saxlamaq və yoxlamaq hüququ vardır. Müharibə zamanı a.d. hərbi əməliyyatlar meydanı ola bilər *(həmçinin bax: dəniz hüququ)*.

**Açıq girov kağızı** – girov qoyulmuş əmlaka qarşı borc məbləğinin arta bildiyi girov kağızı.

**Açıq hava məkanı** – sahil dövlətlərinin dəniz ərazilərindən kənarda yerləşən və deməli, hər hansı bir ölkənin ərazi tərkibinə daxil olmayan Yer atmosferinin bir hissəsi. Açıq dəniz haqqında 1958-ci il Cenevrə konvensiyasının 2-ci maddəsinə və dəniz hüququ üzrə BMT-nin 1982-ci il konvensiyasının 87-ci maddəsinin 1-b bəndinə uyğun olaraq a.h.m. (və ya beynəlxalq hava məkanı) bütün dövlətlərin hava aparatlarının sərbəst uçuşu üçün açıqdır.

**Açıq hesab** – hesablaşma-kredit münasibətlərinin formalarından biri; a.h. zamanı satıcı əmtəələri alıcı üçün boşaldır və onun ünvanına əmtəəbölüşdürmə sənədlərini göndərir. Bu halda satıcı borc məbləğini alıcının onun üçün açdığı hesabın

debetinə aid edir. Alıcı borcu hissə-hissə ödəyir və bu zaman kontraktla şərtləşdirilmiş intervallar da nəzərə alınır. Borc məbləğinin ödənilməsi əmtəələrin hər bir partiyasının boşaldılmasından sonra müəyyən müddətin keçməsilə üst-üstə düşür.

**Açıq idarəetmə sistemi** *(bax: idarəetmə sistemləri).*

**"Açıq qapı" doktrinası** - 1899-cu ildə ABŞ-ın dövlət katibi C. Heyin (Geyin) Böyük Britaniya, Almaniya, Rusiya, İtaliya, Fransa və Yaponiya hökumətlərinə notalarında irəli sürülmüş doktrina. Bu qəbildən olan notalar (bilavasitə dokrinanın özü) Çində ABŞ-ın iqtisadi və siyasi hökmranlığını möhkəmləndirməyə yönəldilən siyasətini pərdələmək məqsədinə xidmət etmişdir. Notalarda ABŞ Çinin "nüfuz dairələrinə" bölünməsi faktı ilə razılaşmaqla yanaşı, bu ölkədə "açıq qapılar" saxlamağı, bu və ya digər dövlətin "nüfuz dairəsi"ndə Amerika kapitalistləri üçün bərabər hüquq və imkanlar tələb edirdi. Nota alan dövlətlər, xüsusilə də Böyük Britaniya və Rusiya cavab notalarında birbaşa "A.q." d-na qarşı çıxmasalar da, onun öz nüfuz dairələrinə tətbiqi ilə əlaqədar bəzi qeyd-şərtlər irəli sürürdülər. Buna baxmayaraq, ABŞ-ın dövlət departamenti 1900-cü ilin martında elan edirdi ki, müraciət olunan dövlətlər "A.q." d.-na qoşulduqlarını bildirmişlər (lakin bu bəyanat dövlətlərin heç biri tərəfindən təkzib edilməmişdi).

1921-1922-ci illərdə keçirilmiş Vaşinqton konfransında ABŞ "A.q." d.-nın rəsmi surətdə tanınmasına nail ola bilmişdir. ABŞ sonralar digər ölkələrdə öz rəqiblərini sıxışdırıb aradan çıxartmaq vasitəsi kimi və müstəmləkəçilik siyasətinin bir aləti kimi "A.q." d.-ndan istifadə etmişdir.

**Açıq müqavilə** - başqa dövlətlərin də qoşula biləcəyini nəzərdə tutan ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilə. A.m., bir qayda olaraq, bütün və ya bir çox xalqlar və dövlətlər üçün maraqlı olan universal xarakterli müqavilədir. BMT-nin Nizamnaməsi, atmosferdə, kosmosda və su altında nüvə silahlarının yayılmaması haqqında 1963-cü il Moskva müqaviləsi belə müqaviləyə misal ola bilər.

**Açıq müsabiqə** - AR-in mülki qanunvericiliyinə uyğun olaraq müəyyən hərəkəti yerinə yetirməyə görə mükafatlandırma barədə açıq elan (AR MM-in 1082.1-ci maddəsi). Bu zaman hərəkəti yerinə yetirən şəxslər (iştirakçılar) bir və ya bir neçə nəfərdən ibarət münsiflər heyətinin və ya mükafatı təyin etmiş şəxsin verdiyi prizi almaq üçün müsabiqədə iştirak etməkdən ötrü işlərin təqdim edilməsi barədə ərizə verirlər. Priz qalibə sifariş veriləcəyi vədindən də ibarət ola bilər.

Vaxtında təqdim edilmiş işin müsabiqənin şərtlərinə uyğun gəlib-gəlmədiyi və iştirakçılardan kimin üstünlük verilməyə layiq olduğu barədə qərar müsabiqənin şərtlərindən göstərilən şəxs tərəfindən, şərtlərdə bu göstərilmədikdə isə müsabiqəni elan etmiş şəxs tərəfindən qəbul olunur. Qərar bütün iştirakçılar üçün məcburi qüvvəyə malikdir və ondan məhkəməyə şikayət verilə bilməz. Əgər prizin verilməsi proseduru və şərtləri başqa şəkildə tənzimlənmişsə, bu qayda tətbiq olunmur (AR MM-in 1082.3-cü maddəsi).

**Açıq oferta** (bax: oferta).

**Açıq requlyar depozit** - müştəri tərəfindən banka verilmiş qiymətli kağızların, müqavilədə birbaşa göstəriş olmadığı halda,





bankda müştərinin əmlakı kimi qalması barədə bank öhdəliyinin götürüldüyü açıq depozit növü (müntəzəm mühafizə müqaviləsi).

**Açıq səhmdar cəmiyyəti** - iştirakçıları özlərinə məxsus olan səhmləri digər səhmdarların razılığı olmadan özgəninkiləşdirmə hüququna malik olan səhmdar cəmiyyəti. A.s.c. buraxdığı səhmlər üçün açıq abunə yazılışı aparmağa, onları qanunla və digər normativ-hüquqi aktlarla müəyyən edilmiş şərtlər əsasında sərbəst surətdə satmağa haqlıdır. A.s.c. illik hesabat, mühasibat balansı, gəlirlərin və itkilərin hesabları barədə ümumi məlumat üçün bütün məlumatları dərc etdirməyə borcludur.

**Açıq şəhər** *(beynəlxalq hüquqda)* - müharibə zamanı döyüşən dövlətlərdən birinin müdafiə edilməyən elan etdiyi və buna görə də hərbi əməliyyatlar meydanına çevrilməyən şəhər. A.ş. statusu 1907-ci il Haaqa konfransında qəbul edilən "Quru qoşunların müharibəsi qanunları və adətləri haqqında" əsasnaməyə əsaslanır. Həmin əsasnamənin 25-ci maddəsinə uyğun olaraq "müdafiə olunmayan şəhərlərə, kəndlərə, yaşayış evlərinə və ya tikililərə hər hansı üsulla hücum etmək və onanı dağıtmaq" qadağandır. Məsələn, İkinci Dünya müharibəsi zamanı Paris və Roma a.ş. elan edilmişdi.

**Ad** - fiziki (insanı) və hüquqi (idarə, müəssisə və təşkilatı) şəxsi, habelə kollektivi, müəyyən canlıları fərqləndirmək üçün işlədilən xüsusi ifadə. Azərbaycan Respublikasında xüsusi xidmətə və əldə edilən müxtəlif nailiyyətlərə görə xüsusi fəxri adların (məsələn, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar hüquqşünas, xalq artisti və i.a.) verilməsi təcrübəsindən istifadə edilir *(həmçinin bax: ad hüququ).*

**Adam-gün** - sərf olunmuş iş vaxtının miqdarını, bir nəfərin bir iş günü müddəti ərzində yerinə yetirdiyi işi hesablama vahidi. İşçinin bir iş günü ərzində işlədiyi saatların miqdarından asılı olmayaraq sərf edilmiş a.-g. onun işə çıxması hesab olunur. Yerinə yetirilmiş a.-g.-lə yanaşı bir iş günü ərzində boşdayanmaların, müxtəlif səbəblərə (məzuniyyətdə, xəstə olmağa və i.a. olmağa) görə işə çıxmamağın, bayram və istirahət a.-g.-lərinin uçotu aparılır. İş vaxtının daha dəqiq ölçüsü yerinə yetirilmiş (işlənilmiş) adam-saatdır.

**Adam oğurluğu** - şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 144-cü maddəsində nəzərdə tutulmuşdur. Müxtəlif məqsədlərlə törədilən kriminal əməllərdə ifadə olunur.

**Adam-saat** - sərf olunmuş iş vaxtının miqdarını, hər bir işçinin bir saat ərzində yerinə yetirdiyi işi hesablama vahidi. İstehsalat müəssisələrində yerinə yetirilmiş a.s.-ların miqdarı işçilərin gün, ay, rüb, il ərzində iş vaxtı və iş vaxtından əlavə işlədikləri saatların toplanması ilə müəyyən edilir. İşçilərin öz iş yerlərində, yaxud yardımçı yerlərdə müxtəlif səbəblərə (işə gecikməyə, növbədaxili boşdayanmaya və i.a.) görə işləmədiyi a.-s.-ların miqdarı da bu qayda ilə müəyyən edilir.

**Adaptasiya** *(lat. adaptatio – uyğunlaşma)* – qüvvədə olan dövlətdaxili hüquq normalarının həmin dövlətin qanunvericiliyində heç bir dəyişikliklər edilmədən onun yeni beynəlxalq öhdəliklərinə uyğunlaşdırılması.

**Adato** - "tərtib edildiyi gündən". Reyestrdə və ya veksellərin uçota alındığı

yaxud ona etiraz edildiyi kitabda qoyulan işarə. A. o deməkdir ki, veksel, onun tərtibindən işarə edilmiş vaxtda ödəmə müddəti üçün verilmişdir.

**Addendum** *(lat. addere – əlavə etmək; ing. addendum)* – tərəflərin işləyib hazırladıqları və imza etdikləri müqaviləyə, o cümlədən çarterə etdikləri əlavə. Tərəflərin qarşılıqlı razılığı əsasında sığorta və ya yenidənsığorta müqavilələrinin şərtlərinə edilən əlavələr də a. adlanır.

**Adekvat təfsir** – *(bax: hərbi təfsir)*

**Adət hüququ** - hər hansı bir ictimai mühitdə (sinif, sosial qurum və ya təbəqə, qrup daxilində) kortəbii surətdə yaranan və uzun müddət ərzində vərdiş halına keçən, dövlət tərəfindən bəyənilən və sanksiyalaşdırılan normaların (davranış qaydalarının) məcmusu. A.h. dövlət və hüquq meydana gəldikdən sonra hökmran təbəqənin (qrupların) mənafelərini ifadə edən adətlərin əsasında yaradılmışdır. dövlət və hüquq nəzəriyyəsi, o cümlədən dövlət və hüquq tarixinə görə verir ki, a.h. hüququnun ən ilkin formasıdır. Onun bir qismi hökmran təbəqənin mənafeləri baxımından zaman keçdikcə bir sıra dəyişikliklərə məruz qalmışdır. Dövlət tərəfindən sanksiyalaşdırılmış adətlər əsasında formalaşmış a.h. dünyanın bir çox qədim dövlətlərində sistemləşdirilmişdir. Qədim Babilistanda tərtib edilmiş "Hammurapi Qanunları"nı, Hindistanda "Manu Qanunları"nı, Romada "XII Cədvəl Qanunları"nı - türk dövlətlərində Töröni (adətlər toplusu) və i.a. misal göstərmək olar. A.h. mütləqiyyətin meydana gəlməsinədək feodalizm dövründə hüququn ən səciyyəvi forması olmuşdur. Burjua ictimai münasibətlərinin və istehsal üsulunun təşəkkül tapması və inkişafı, istehsal və əmtəə dövriyyəsinin genişlənməsi, başqa sözlə, dövlət tərəfindən hüquq normalarının xüsusi sisteminin formalaşdırılması nəticəsində a.h. öz yerini tədricən dövlətin müəyyən etdiyi hüquqa verməyə başlamışdır. Lakin dünyanın bir çox ölkələrində, o cümlədən bəzi ölkələrin məhkəmə təcrübəsində a.h. normalarından hələ də istifadə olunur. Beynəlxalq (ümumi və xüsusi) hüquqda, xüsusilə də beynəlxalq ticarət münasibətlərində a.b. normalarının çəkisi daha böyükdür. Azərbaycan Respublikası qanunvericiliyində (məsələn, mülki hüquq, ailə və nikah hüququ və i.a.) də a.h. normalarına müstəsna hallarda yer verilmişdir.

**Adət hüququ məhkəmələri** – bir sıra dövlətlərdə məhkəmə orqanlarının müstəqil növü; adət hüququ əsasında fəaliyyət göstərir və onun normaları (adətləri) tətbiq edirlər. Bu məhkəmələr bir qayda olaraq fəaliyyət göstərdikləri ölkənin məhkəmə sisteminə malik deyillər və yalnız dövlət məhkəmələri tərəfindən baxılan mübahisələrin qüvvədə olan qanunvericiliklə tənzim edilə bilməyən hissəsini tənzimləyirlər. Belə məsələlərə adətən qəbilə – tayfa üzvləri arasında yaranan mübahisələr aid edilir. A.h.m. Tropik Afrikanın bəzi ölkələrində və Okeaniyada uğurla fəaliyyət göstərirlər. 1993-cü ildə belə məhkəmə institutu MDB-yə daxil olan Qırğızıstanda da təşkil edilmişdir.

**Adətlər** – müəyyən cəmiyyətdə və ya ictimai birlikdə uzun illər ərzində təkrar edilən, uzunömürlü olması nəticəsində cəmiyyət üzvləri üçün vərdişə çevrilən və nəsildən-nəslə keçən adi davranış qaydalarının məcmusu. "A." termini çox zaman "ənənə" və "mərasim" ("ayin") terminləri ilə eyniləşdirilir. Lakin öz mənasına görə "ənənə" daha geniş anlayışdır. Mərasim isə a.-in yalnız bir növüdür. A. əsasən kapitalizmə-qədərki dövrlərdə cəmiyyət üzvləri arasında geniş yayılmış, bir neçə yüzilliklər ərzində insanların sosial-iqtisadi və mədəni həyatında mühüm rol oynamaqla yanaşı, qarşılıqlı münasibətlərin əsas tənzimləyicisi olmuşdur. A. fərdlərin müəyyən sosial və mədəni təcrübəni mənimsəmələri vasitəsi olub, həmin təcrübəni nəsildən-nəslə ötürmüş, cəmiyyətdə sabitliyi saxlayaraq təbəqələrarası və qruplardaxili münasibətlərin tənzim edilməsində rol oynamışdır.

Dövlət və hüquq əmələ gəldikdən sonra a.-in hökmran təbəqə tərəfindən bəyənilən normaları dövlət tərəfindən sanksiyalaşdırılmış, *onların bir çoxuna məcburi* qüvvə (qanun qüvvəsi) verilmişdir. Bununla da a.-ə əməl edilməsi, onların artıq könüllülük əsasında deyil, bu normaların özünün təbiətindən doğan məcburiyyət əsasında yerinə yetirilməsi dövlət tərəfindən təmin edilmişdir. Mütərəqqi adətlər dünyanın müxtəlif xalqları içərisində bu gün də yaşamaqdadır.

**Ad hüququ** – hər bir fiziki şəxsin (insanın) addan, ata adından və soyaddan ibarət ad alması hüququ. Fiziki şəxs hüquq və vəzifələri öz adı ilə əldə edir və həyata keçirir. O, qanunla nəzərdə tutulmuş qaydada təxəllüsdən (ayamadan, uydurma addan) istifadə edə bilər. Hər bir fiziki şəxsin qanunla müəyyən edilmiş qaydada öz adını dəyişdirmək hüququ vardır. Adın dəyişdirilməsi əvvəlki adla əldə edilən hüquq və vəzifələri xitam etmir, yaxud onları dəyişmir.

Başqa şəxsin adı ilə hüquq və vəzifələr əldə edilməsinə yol verilmir. Fiziki şəxsin adından qanunsuz istifadə nəticəsində ona vurulmuş maddi və ya mənəvi ziyan qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilməlidir. Azərbaycan Respublikasında a.h. ilə əlaqədar olan məsələlər AR MM-in müvafiq (26-cı maddə) normalarına müvafiq surətdə tənzim edilir.

**Adi səhmlər** – qeyd edilmiş miqdarda və üstün qaydada dividendlər əldə etməyə hüquq verməyən, lakin üstün səhmlərdən fərqli olaraq səhmdarların ümumi yığıncağında səsvermə yolu (səsvermə hüququ olmadan) ilə təşkilat-emitentin idarə edilməsində iştirak etməyə imkan verən səhmlər. Buna görə də a.s.-i səsverən səhmlər adlandırırlar.

**Adi veksel** *(ing. promissory note a single)* – qiymətli kağız; borclu tərəfindən kreditorun adına verilməli olan öhdəlik. A.v.-ə solo - tək, yeganə veksel də deyilir. Belə vekseldə ancaq bir şəxsin - ödənci ödəməyə borclu olan şəxsin imzası olur. A.v. müəyyən məbləğ pulun ayrılmış müddət ərzində və ya tələb üzrə şərtsiz olaraq ödənilməsindən ibarətdir.

**Adlı çek** *(bax: çek).*

**Adlı emissiya qiymətli kağızları** *(ing. inscribed emission stock)* – hüquqların keçməsi və onlarda təsbiq edilmiş hüquqların həyata keçirilməsi sahibinin mütləq eyniləşdirilməsini tələb edən, sahibləri haqqında məlumat emitentə qiymətli kağızların sahiblərinin reyestri formasında açıqlanmalı olan qiymətli kağızlar. A.e.q.k. haqqında əsas qaydalar "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının qanununda müəyyən edilir.

**Adlı əmanət kitabçası** *(bax: əmanət kitabçası).*

**Adlı əmanət (depozit) sertifikatı** *(bax: əmanət (depozit) sertifikatı).*

**Adlı əşya** – poçt sənədləri və poçt bağlamaları üzərində poçt rabitəsi obyektinin adının, bağlamanın qəbulu və çatdırılması tarixinin göstərilməsi üçün istifadə olunan qurğu. A.ə. haqqında qaydalar "Rabitə haqqında" Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilir.

**Adlı indossament** *(ing. registered indossament)* – veksel üzrə hüququn verildiyi şəxsin adının göstərildiyi indossament. Belə indossamentə malik olan şəxs də onu öz növbəsində adlı və ya bank indossamenti şəklində başqasına verə bilər.

**Adlı istiqrazlar** – sahibi xüsusi kitabda qeydə alınan istiqrazlar. Kuponlu istiqrazlardan fərqli olaraq a.i. kuponsuz olurlar.

**Adlı konosament** *(ing. bile of lading)* – beynəlxalq dəniz gəmiçiliyində yüklərin daşınması prosesində yük sahibi ilə daşıyıcının qarşılıqlı münasibətlərini aydınlaşdıran, təyinat limanında yükün konkret şəxsə verilməsini rəsmiləşdirən sənəd. Qiymətli kağızları olan birjalar və banklar onları daha yüksək qiymətə satmağa çalışırlar. Bunun üçün onlar qiymətli kağızların alınması barədə saxta sövdələşmələr imzalamaq, geniş reklam etmək, müəssisənin parlaq (əlverişli) perspektivi haqqında şayiələr yaymaq (aksiyaları daha yüksək qiymətə satılmaq üçün çıxarılmış müəssisə haqqında) və digər yollarla birjada süni ajiotaj yaradırlar. Banklar hətta həmin qiymətli kağızları alacaq maraqlı şəxslərə kredit də verirlər. Riskdən qaçmaq üçün bu cür kreditlər yüksək faizlərlə verilir. Kağızların məzənnəsinin süni surətdə artırılması sonradan həmin məzənnənin kəskin azalması (aşağı düşməsi) ilə nəticələnir.

**Adlı qiymətli kağız** *(ing. registered stock)* – müəyyən şəxsin adına yazılan və yalnız həmin şəxsə ondan istifadə hüququ verən qiymətli kağız. A.q.k.-ların bəzi növlərinin buraxılışı və dövriyyəsi Azərbaycan Respublikasının 14 iyul 1998-ci il tarixli "Qiymətli kağızlar haqqında" və 16 iyun 2000-ci il tarixli "Qiymətli kağızlar bazarında investorların hüquqlarının müdafiəsi haqqında" qanunları ilə tənzim edilir *(bax: qiymətli kağızlar).*

**Adlı veksel** *(ing. registered lill)* – vekseldə ancaq adı göstərilən şəxsin ödəmə almaq hüququna malik olduğunu legitimləşdirən (qanuniləşdirən, onu səlahiyyətli şəxs qismində təqdim edən) veksel forması.

**Admiral** *(ər. əmir əl-bəhr – dənizdə hökmran; hol. admiraal)* – hərbi dəniz donanmalarında hərbi rütbə. Qərbi Avropada XII əsrdə, Rusiyada XVII əsrin sonu - XVIII əsrin əvvəllərində I Pyotr tərəfindən təsis edilmişdir. 1940-cı ildən kontr-admiral, vitse-admiral və donanma admiralı rütbələri mövcuddur. Müvafiq surətdə kontr-a. general-mayor; aitse-a. general-leytenant; admiral general-polkovnik; donanma a.-ı isə ordu generalı rütbəsinə uyğundur. Donanma admiralı rütbəsi keçmiş SSRİ-də 1955-ci ildə təsis edilmişdir.

**Admirallıq** – XVII əsrin sonundan başlayaraq Böyük Britaniyada ali idarəetmə orqanı və hərbi-dəniz qüvvələrinə komandanlığı həyata keçirən təşkilat. Rusiyada 1700-1712-ci illərdə admirallıq əmri – hərbi-dəniz donanmasında inşaat işləri aparan, donanmanı silahla təchiz edən mərkəzi dövlət müəssisəsi; 1718-1827-ci illərdə admirallıq kollegiyası – hərbi-dəniz donanmasının mərkəzi dövlət idarəetmə orqanı; 1827-1917-ci illərdə admirallıq şurası – dəniz idarələrini idarə edən orqan fəaliyyət göstərmişdir.





**Admonisiya** *(ing. admonation)* – götürülmüş borc məbləğinin ödənilməsi predmetinə verilən yazılı öhdəliyin təqdim edilməsi.

**Adoptasiya** *(lat. adoptio – övladlığa götürmə)* – hüquqi nəticələrə səbəb olan övladlığa götürmə. A. bir sıra fərqlərlə yunan və Roma hüququnda yayılmışdı. Məsələn, Qortin şəhər nizamnaməsinə uyğun olaraq, hətta özünün oğulları olan hər bir kişi bazar meydanında xalq yığıncağı qarşısında övladlığa götürmə ayinini qəbul edə bilərdi. Afina hüququna görə, ancaq kişi cinsindən olan uşaqlara malik olmayan tamhüquqlu vətəndaşlar övladlığa götürmək hüququna malik idilər. Papiri qanunlarına uyğun olaraq həm kişilər, həm də qadınlar heç bir məhdudiyyət olmadan a. hüququna malik idilər. Roma hüququnda pretorun iştirakı ilə uşaqların ata ailəsindən azad edilib başqa ailəyə verilməsi hüquqi aktından ibarət övladlığa götürmənin qüvvədə olması ilə yanaşı, ailənin ata hakimiyyətinin şamil edilmədiyi şəxslərin xalq yığıncağı qarşısında övladlığa götürülməsi də mövcud idi. İlk əvvəllər bu hüquqa ancaq kişilər, sonralar isə – imperiya dövründə qadınlar hətta azadlığa buraxılanlar da malik olmuşdur. Övladlığa götürmə səbəblərinə ən müxtəlif amillər xidmət edə bilərdi. Lakin ən başlıcası nəsli qoruyub saxlamaqdan ibarət idi. A. bəzi hallarda ailə əlaqələrinin siyasi məqsədlərlə müəyyən edilməsinə də xidmət edirdi. Roma imperiyası dövründə a. taxt-tacın varisinin müəyyən edilməsində xüsusi rol oynamışdır. Məsələn, Yuli Sezar nəvəsini – gələcək imperator Avqustu övladlığa götürmüşdü. Eramızın 98-ci ilindən II əsrin ortalarınadək a. taxt-tacın varisinin seçilməsinin yeganə üsulu olmuşdur.

**Ad referendum** – beynəlxalq hüquqda beynəlxalq müqavilənin dövlət nümayəndəsi tərəfindən şərti imzalanması. Bu, müqavilənin özü üçün məcburiliyini qəbul edən və ya onun mətni ilə razılaşdığını bildirən dövlətin ilkin razılığının ifadə üsuludur. A.r.-un dövlət tərəfindən təsdiqi onun qəti imzalanması deməkdir. Təsdiq geriyə qüvvəyə malikdir. Yeni dövlət a.r.-u imzaladığı andan müqavilənin tərəfinə çevrilir.

**Adritura** *(ing. adriation)* – **1)** yükün birbaşa təyinat yerinə göndərilməsi; **2)** veksel əməliyyatlarında vaxtı keçmiş və ya etiraz edilmiş vekselin bilavasitə onu vermiş şəxsə cərimə tutulması üçün təqdim edilməsi.

**Adsız çek** *(bax: çek).*

**Adsız indossament** *(ing. bearer indossament)* – indossantın ancaq imzası salınmış order vekseli. Buna bəzən blank indossamenti də deyilir. Blank indossamenti heç bir rəsmiləşdirmə aparılmadan faktiki verilmə yolu ilə başqasına təqdim oluna bilər və onu təqdim edən istənilən şəxs onun qanuni sahibi hesab olunur.

**Adsız konosament** – beynəlxalq gəmiçilikdə yüklərin daşınması prosesində yük sahibi ilə yükdaşıyanın qarşılıqlı münasibətlərini müəyyən edən sənəd. A.k.-ın və-

rilməsi və malın alınması hüququ onu təqdim edənə sadə ötürmə yolu ilə verilir.

**Adsız qiymətli kağız** *(ing. bearer stock)* – hər hansı bir ad yazılmamış və təqdim edən istənilən şəxsin istifadə hüququ olan qiymətli kağız.

**Adsız sığorta polisi** – mənfəət götürən şəxsin xeyrinə, adı göstərilmədən bağlanmış sığorta müqaviləsini təsdiq edən sənəd.

**Adsız veksel** – sənədi təqdim edən istənilən şəxsin ödənişi almaq hüququ olan veksel növü.

**Ad valorem** – qiymətli yüklərin və ya gömrük rüsumlarının daşınması üçün ödəmələrin hesablanması metodu. Belə hesablamanın yük vahidinə görə deyil, onun qiymət faizləri üzrə aparılmasını nəzərdə tutur.

**Adyudikasiya** – ərazi mübahisəsinin beynəlxalq arbitraj və ya məhkəmə tərəfindən dinc yolla həlli üsulu. A. ərazinin əldə edilməsinin hüquqauyğun üsuludur. Mübahisəyə beynəlxalq məhkəmədə və ya arbitrajda baxılarkən mübahisə edən dövlətlərin mübahisəli əraziyə sahib olmaq üçün məcmu halda kifayət qədər hüquqi əsaslarının olub-olmaması müəyyən edilməlidir. Beynəlxalq məhkəmə və arbitraj mübahisəni həll edərkən müəyyən tərəfin mübahisəli ərazi üzərində hüququ olduğunu yalnız təsdiq edir.

**Adyunkt** *(lat. adjunctus – birləşdirilmiş)* – **1)** bir sıra Qərbi Avropa ölkələrində və 1917-ci ilədək Rusiyada elmi təkmilləşmə keçən şəxs, professorun köməkçisi; **2)** adyunkturada məşğul olan zabit; **3)** hərbi məktəblərdə, eləcə də silahlı qüvvələrin elmi-tədqiqat müəssisələrində pedaqoji və elmi-tədqiqat fəaliyyətinə hazırlaşan zabit.

**Adyunktura** – Silahlı Qüvvələrin və Daxili İşlər Nazirliyinin (DİN-in) ali məktəblərində və elmi-tədqiqat müəssisələrində elmi-pedaqoji kadrların hazırlanmasının əsas formalarından biri. Mülki ali təhsil müəssisələrində fəaliyyət göstərən aspiranturaya bərabər tutulur. A.-nı bitirən və dissertasiya müdafiə edən zabit elmlər namizədi alimlik dərəcəsi alır.

**Adyülter** *(fr. adultere)* – ər-arvad qeyri-sadiqliyi *(bax: zinakarlıq)*.

**Aerodrom** – hava gəmilərinin enməsi, qalxması və yerdə hərəkəti üçün tam və ya qismən nəzərdə tutulan, müvafiq bina, qurğu və avadanlığı olan torpaq və ya su səthinin müəyyən sahəsi.

**Aeroliman tutmaları** – aerolimanlarda hava gəmilərinin enməsi və uçuş etməsi zamanı bu limanlardan istifadəyə görə səlahiyyətli dövlət orqanları tərəfindən tutulan müəyyən edilmiş pul məbləğləri.

**Aeroliman vergiləri** – səlahiyyətli dövlət orqanları tərəfindən hava gəmilərinin enməsi və uçuşu zamanı aerolimanlardan istifadəyə görə tutulan pul vergiləri.

**Afera** *(fr. affaire – iş; ing. shady transaction)* – fırıldaqçı, şübhəli əqdlərin bağlanması ilə məşğul olma, dələduzluq.

**Affekt** *(lat. affectus – ruhi həyəcan, qəzəb)* – dərin sarsıntılarla, şüurun daralması və özünənəzarətin aşağı düşməsi ilə xarakterizə olunan güclü, sürətlə yaranan və sürətlə davam edən psixi vəziyyət. A.-in iki növü məlumdur: a) fizioloji a.; b) patoloji a.

Fizioloji a.-in (qəzəbin, hirsin, qorxunun) insan psixikasına böyük qüvvə ilə təsir edən xassəyə malik olmasına baxmayaraq, o, insanı öz davranışını dərk etmək, öz hərəkətlərinə nəzarət etmək və onlara cavab vermək imkanından məhrum etmir. Ona görə də fizioloji a. vəziyyətində (ruhi həyəcan vəziyyətində) törədilən cinayət şəxsin cinayət məsuliyyətinə cəlb olunmasını istisna etməsə də, o, müəyyən şəraitlə məsuliyyəti yüngülləşdirən hal sayıla bilər.

Patoloji a. insan psixikasının müvəqqəti pozulmasından ibarətdir. Patoloji a. zamanı şüurda dərin düşgünlük və öz hərəkətlərinə hesabat vermək və onlara rəhbərlik etmək qabiliyyətinin itirilməsi baş verir. Belə vəziyyətdə ictimai təhlükəli əməl törətmiş şəxs anlaqsız hesab olunur və cinayət məsuliyyətinə cəlb edilmir.

**Affidevit** *(ing. affidavit)* – Böyük Britaniya və ABŞ-da şahidin şəxsən gəlməsinin qeyri-mümkün və ya çətin olduğu hallarda notarius və ya buna səlahiyyətli olan digər vəzifəli şəxs tərəfindən andla verilən və təsdiq edilən yazılı ifadə, yaxud ərizə.

**Affiliasiya** *(ing. affiliate – birləşdirmək)* – üzvlüyə qəbul etmə; təsərrüfat subyektini birləşdirmə.

**Affiliasiyalaşdırılmış şəxs** – təsərrüfat cəmiyyətinin iştirakçısı, yaxud bir neçə qarşılıqlı əlaqəli iştirakçıları və ya təsərrüfat cəmiyyətində səhmdar və rəhbər kimi cəmiyyətin vəsaitlərindən və onun fəaliyyətinin nəticələrindən öz şəxsi ehtiyacları üçün istifadə etmək qabiliyyətinə malik rəhbər vəzifə ilə məşğul olan şəxs.

A.ş. anlayışı özündə əmlak asılılığından daha çox idarəedicilik asılılığından ibarət olan münasibətləri ehtiva edir. Bu, hüquqi şəxsin idarəetmə orqanlarının fəaliyyətinin təşkili və həmin fəaliyyətə təsirlə əlaqədar subyektlər arasındakı asılılıqdır. Belə halda labüd mövcud ola bilən əmlak asılılığı idarəedicilik asılılığının mövcudluğunun şərti deyil, onun nəticəsi kimi təzahür edir.

**Afina Məcəlləsi** – Pablik Rileyşens Beynəlxalq Assosiasiya üzvlərinin məcburi əməl etdikləri etik qaydalar, sistemləşdirilmiş normalar toplusu. Həmin qayda və normalar 1965-ci ilin may ayında qəbul edilmiş, 1968-ci ilin aprel ayında isə ona bir sıra əlavələr edilmişdir.

**Afina tərbiyəsi** – e.ə. VII-V yüzilliklərdə qədim şəhər-dövləti (şəhər-respublikası) Afinada yaradılmış tərbiyə sistemi. Sparta tərbiyəsi kimi a.t. də Qədim Yunanıstanda ən məşhur tərbiyə sistemlərindən biri hesab edilmişdir. A.t. o dövr üçün ən demokratik tərbiyə sistemi olub, özündə əqli, əxlaqi, estetik və fiziki tərbiyənin vəhdətini ehtiva etmişdir.

**Agens in rebus** *(lat.* – Roma imperiyasında imperatorun gizli xidmətində fəaliyyət göstərmiş agent. Gizli xidmətin əməkdaşları ordunu (frumetarini) təmin edən qulluqçular içərisindən seçilirdilər. Onlar xüsusi uniforma daşıyır və polisin keşikçəkmə hissəsini təşkil edirdilər. Tam hakimiyyətə malik olan bu agentlər əhalini vahimə içərisində saxlayırdılar. Onlar imperator Diokletianın hakimiyyəti dövründə yeni vəzifə yerləri də əldə etmişdilər.

**Agent** *(lat. agens – hərəkət edən; ing. agent)* – **1)** geniş mənada işgüzar tapşırıqları yerinə yetirən nümayəndə (belə funksiyanı həm fiziki, həm də hüquqi şəxslər yerinə yetirə bilərlər); müvəkkil edilmiş fiziki və ya hüquqi şəxs. AR mülki hüququnda agent müqaviləsinin tərəfi. AR Mülki Mə-

cəlləsinin 790-cı maddəsinə uyğun olaraq agentin ümumi vəzifələri mülki qanunvericilikdən (Mülki Məcəllənin 778-ci maddəsindən) irəli gəlir; **2)** axtarış və ya kəşfiyyat xidmətinin əməkdaşı. A. müəyyən mükafatlandırılma əsasında qulluq edir.

**Agent-delkredere** – əlavə mükafat almaqla prinsipiala satınalma qiymətinin daxil olmasına təminat verən agent. A.-d. prinsipiala alıcının ödəmə qabiliyyətinin olmamasından irəli gələn itkiləri ödəməyi öhdəsinə götürür.

Lakin əgər prinsipialın müqavilədən irəli gələn öz öhdəliklərini pozduqda və ya əmtəənin ödənilməli olan dəyərinin məbləği mübahisəli olduqda, alıcı əmtəənin dəyərini bu əsasa görə ödəməkdən imtina etdikdə a.-d. buna görə cavab vermir.

**Agent əməliyyatı** – qiymətli kağızların alıcıya satılması üzrə dilerin maliyyə təcrübəsində göstərdiyi xidmət. A.ə. bir tərəfin – tapşırığı ilə malların razılığa gəlinmiş ərazidə alınması və ya satılması ilə əlaqədar faktiki və hüquqi hərəkətlərdən ibarətdir. A.ə. zamanı diler broker rolunda çıxış edir. Dilerin abunəçi rolunda çıxış etdiyi vaxt a.ə.-nı abunədən fərqləndirmək lazımdır. A.ə. dedikdə bu sözün geniş mənasında hüquqi hərəkətlərin edilməsi başa düşülür.

**Agentləşdirmə** *(bax: agent müqaviləsi).*

**Agentlik** – **1)** hüquqi şəxslərin və ya vətəndaşların tapşırıqlarını mütəmadi surətdə yerinə yetirən təşkilat (məsələn, reklam agentliyi, rieltor agentlik və i.a.; **2)** hər hansı təşkilatın yerli şöbəsi. Məsələn, bank a.-yi bank şöbəsinin funksiyalarını yerinə yetirir və bu zaman onun hüquqlarından istifadə edir. Yaxud mətbuat a.-yi informasiyaların toplanması və onların işlənib hazırlanması ilə məşğul olur, eyni zamanda da kütləvi informasiya vasitələrini belə informasiyalarla təchiz edir; **3)** bir sıra ölkələrdə dövlət idarəçilik orqanlarının adı (məsələn, Rusiya kosmik agentliyi); **4)** bəzi beynəlxalq təşkilatların adı (məsələn, *Atom Enerjisi üzrə Beynəlxalq Agentlik – ATEBA*).

**Agent muzdu** – qüvvədə olan tariflərlə və agent müqaviləsinin şərtləri ilə müəyyən edilən məbləğdə agentin xidmətlərinin mükafatlandırılması. Ticarət agentinin sabit aylıq muzd və (və ya) əqdlərin dövriyyəsindən və miqdarından asılı muzd almaq hüququ mülki qanunvericiliklə müəyyən edilir. AR Mülki Məcəlləsinin 792.2-ci maddəsinə uyğun olaraq muzd müqavilədə əsasən hesablanır. Əgər o, müqavilə ilə tənzimlənirsə, ticarət agentinin özünün təqdim etdiyi mallar və ya bunlara oxşar mallar üçün işgüzar adətlərə uyğun qəbul edilmiş muzda bərabər muzd almaq hüququ vardır. İşgüzar adətlər olmadıqda müqavilənin istənilən iştirakçısı bütün hallar nəzərə alınmaqla ağlabatan muzdun müəyyənləşdirilməsi üçün məhkəməyə müraciət edə bilər. Ticarət agentinin komisyon muzd almaq hüququ AR Mülki Məcəlləsinin 793-cü maddəsində nəzərdə tutulmuşdur. Ticarət agenti komisyon muzdunun hesablanması üçün zəruri olan mühasibat uçotu sənədləri də daxil olmaqla tapşıranın bütün sənədlərini nəzərdən keçirmək hüququna malikdir.

**Agent müqaviləsi** – mülki-hüquqi müqavilə (ticarət nümayəndəsi haqqında müqavilə). AR Mülki Məcəlləsinin 789.1-ci maddəsinə uyğun olaraq ticarət nümayəndəsi





haqqında müqaviləyə görə, sənətkarlıq şəklində müstəqil fəaliyyətlə məşğul olan şəxsə (ticarət agentinə) alqı-satqı müqavilələrinin, habelə xidmətlər yaradılmasına dair müqavilələrin (ticarət əqdlərinin) bağlanmasında hər hansı istehsalçının, sənayeçinin və ya tacirin (tapşıranın) adından və hesabına vasitəçilik xidmətləri göstərmək və (və ya) bunları bağlamaq barəsində uzunmüddətli tapşırıq verilir. Həm fiziki, həm də hüquqi şəxslər ticarət agenti ola bilərlər. Aşağıdakılar ticarət agenti ola bilməzlər: a) vasitəçilik fəaliyyəti və ya əqdlərin bağlanması ilə təsadüfdən-təsadüfə məşğul olan şəxslər; b) ticarət və xammal birjalarında işləyən şəxslər; c) tapşıranla əmək müqaviləsi bağlamış şəxslər.

AR Mülki Məcəlləsinin 790-cı maddəsinə uyğun olaraq ticarət agentinin aşağıdakı vəzifələri vardır: 1) vasitəçilik qaydasında tapşıran üçün əqdləri bağlamağa çalışmaq və ya əqdləri bağlamaq, habelə tapşıranın müştərilərinin sayının optimal surətdə artmasına çalışmaq; 2) bütün sifarişlər və (və ya) bağlanmış müqavilələr barəsində tapşırana bildiriş vermək; 3) özündə olan hər bir zəruri informasiyanı tapşırana bildirmək; 4) tapşıranın əsaslı sərəncamlarını yerinə yetirmək; 5) tapşıranın məhsullarına və xidmətlərinə oxşar məhsulları və xidmətləri öz hesabına və ya tapşıranın hesabına təklif etmək üçün tapşıranın qabaqcadan razılığını almaq.

A.m.-ndə ticarət agentinin öhdəsinə başqa, o cümlədən aşağıdakı vəzifələr də düşə bilər: a) müəyyən mövzular üzrə müntəzəm hesabat vermək; b) sifarişlər və müqavilələr üzrə minimum dövriyyəyə (kvotaya) nail olmaq; c) zərurət olduqda və ayrıca muzd müqabilində tapşıran üçün malları saxlamaq və göndərmək, habelə belə onun borclarından məbləğləri tutmaq.

A.m.-nə xitam verilməsi AR MM-in 794-cü maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə uyğun olaraq ticarət nümayəndəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə, əgər müqavilənin qüvvədə olması konkret müddətlə məhdudlaşdırılmayıbsa, müqavilədə müəyyənləşdirilmiş müddətdə xitam verilir. Lakin əgər tapşıranın dinməz və ya birbaşa razılığı ilə ticarət agenti öz fəaliyyətini davam etdirirsə və ya əgər ilkin müqavilədən sonra yeni müqavilə bağlanırsa, hesab edilir ki, müqavilə lap əvvəldən qeyri-müəyyən müddətə bağlanmışdır. Qeyri-müəyyən müddətə bağlanmış müqaviləni istənilən iştirakçı ləğvetmə haqqında xəbərdarlıq edilməsinin ağlabatan müddətini gözləməklə ləğv edə bilər. Ağlabatan müddət birinci il ərzində azı 1 ay, ikinci il ərzində azı 2 ay və əgər müqavilənin qüvvəsi iki ildən çox davam edirsə, 3 ay təşkil edir.

Ticarət nümayəndəsi haqqında müqavilənin hər bir iştirakçısı aşağıdakı hallarda xəbərdarlıq müddətini gözləmədən istənilən vaxt müqaviləni ləğv edə bilər: 1) öz vəzifələrini əhəmiyyətli dərəcədə pozan digər iştirakçıya bu barədə yazılı xəbərdarlıq edildikdə, o, müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra da öz vəzifələrini pozmaqda davam etdikdə: 2) müqavilə iştirakçılarından heç birinin cavabdeh olmadığı fövqəladə hallar baş verdikdə və bu hallar ləğvetməyə dair bildiriş vermiş iştirakçıdan müqaviləni qüvvədə saxlamağı tələb etməyi artıq ağlabatan etmədikdə. Bu, a.m.-nə fövqəladə hallarda xitam verilmə adlandırılır.

**Ager desertus** *(lat.)* – Qədim Roma dövlətində sahibləri tərəfindən atılmış torpaqlar; Qədim Romada boş qalmış torpaqların sahəsi eramızın II əsrindən başlayaraq xüsusilə artmağa başlamışdır.

**Ager kaptivus** *(lat.)* – Roma tərəfindən işğal edilən və sonradan onun ərazisinin bir hissəsinə çevrilən torpaqlar.

**Ager kolonikus** *(lat.)* – Roma dövləti torpaqlarının bir hissəsi. Bu torpaq sahələri Roma vətəndaşlarına və ya koloniyaların əsasının qoyulduğu zaman müttəfiqlərə verilirdi.

**Ager kompaskuus** *(lat.)* – Romanın dövlət ərazisinin bir hissəsi. A.k.-dan əkinçilik üçün istifadə olunmurdu. Belə ərazilərə meşələr, biçənəklər daxil idi.

**Ager kvestorius** *(lat.)* – Roma tərəfindən işğal edilən və satılması kvestorların ixtiyarında olan torpaqlar. Kvestorlar tərəfindən satılan torpaqlar irsi və üzərinə vergi qoyulan torpaqlar hesab olunurdu. Bu torpaq sahəsinin sahibi onu satmaq hüququna malik idi.

**Ager okkupatorius** *(lat.)* – **1)** Roma dövləti tərəfindən becərilən, kiminsə mülkiyyəti olmayan və istənilən şəxsə əvəzsiz istifadəyə verilən torpaqlar; **2)** işğal edilmiş, lakin hələ becərilməyən, ager kaptivusa oxşar ərazilər. Roma vətəndaşları bu torpaqları becərə bilərdilər. A.o. Roma dövlətinin torpaq fondunun bir hissəsini təşkil edirdi.

**Ager privatus** *(lat.)* – Roma vətəndaşlarının xüsusi mülkiyyətində olan və üzərinə vergi qoyulmayan torpaqlar.

**Ager privatus vektiqaliskve** *(lat. üzərinə vergi qoyulan şəxsi torpaq)* – əyalətlərdə, ilk növbədə Şimali Afrikada Roma dövlətinin torpaq fondunun bir hissəsi. Bu torpaqlar dövlət xəzinəsinə əvəzi ödənilməklə Roma vətəndaşlarının mülkiyyətinə verilirdi.

**Ager provminsialis** *(lat.)* – kiminsə xüsusi mülkiyyəti olmayıb, Roma xalqına və ya imperatora məxsus olan əyalət torpaqları.

**Ager publikus** *(lat.)* – Roma dövlətinin torpaqları; ilk əvvəllər Roma şəhər icmasına məxsus olan torpaqlardan ibarət olmuşdur. İmperiyanın erkən dövrünədək İtaliyada bütün dövlət torpaqları Roma vətəndaşları arasında bölüşdürülmüşdü və xüsusi mülkiyyət sayılırdı. Roma dövlətində A.p. ayrı-ayrı şəxslərin də istifadəsinə verilə bilərdi, lakin o, hüquqi cəhətdən Roma xalqının və ya imperatorun mülkiyyəti olaraq qalırdı.

**Ager stipendiarius** *(lat. üzərinə vergi qoyulan torpaqlar)* – Roma dövlətinin əyalətlərdəki torpaq fondunun bir hissəsi; imperiya dövründə isə senatın əyalətlərindəki Roma dövlətinə məxsus torpaq fondu hissəsi. Bu torpaqlar yerli sakinlərə uzunmüddətli icarəyə verilir və onların müvəqqəti mülkiyyəti olurdu.

**Ager tributarius** *(lat.)* – Roma dövlətinin imperator əyalətlərində yerləşən və istifadə üçün kəndlilərə icarəyə verilən torpaqlar.

**Ager vektiqalis** *(lat. üzərinə vergi qoyulan torpaqlar)* – Qədim Roma dövlətində senzor tərəfindən xüsusi icarəyə verilən torpaqlar.

**Ağa** *(türk. cənab)* – **1)** Yaxın və Orta Şərqin bir sıra ölkələrində yuxarı təbəqə nümayəndələrinin daşıdığı titul – bəy, mülkədar, zadəgan; **2)** Osmanlı imperiyasında orta əsrlərdə zabit rütbəsi; **3)** orta əsrlərdə yüksək vəzifə sahiblərinə, varlı təbəqə nümayəndələrinə müraciət forması.





**Ağır cinayətlər** – sanksiyasında on ilədək müddətə azadlıqdan məhrumetmə növündə cəza nəzərdə tutulan əməllər *(bax: cinayətlərin təsnifatı)*.

**Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsi** – birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxan məhkəmə orqanı. Azərbaycan Respublikasının ədalət mühakiməsini həyata keçirən məhkəmə sisteminə daxildir. Qanunla nəzərdə tutulmuş hallarda və qaydada ağır cinayətlərə dair işlərə birinci instansiya üzrə baxılması üçün bu məhkəmənin tərkibində andlılar məhkəməsi yaradıla bilər. Ağır Cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsi hakimlərinin sayı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyən edilir. Bu məhkəmə sədrdən, onun müavinindən və hakimlərdən ibarətdir. O, Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində təşkil edilir. Naxçıvan Muxtar Respublikası istisna olmaqla, yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir. Həmin məhkəmə orqanı məhkəmə statistikasını təhlil edir, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikası qanunvericiliyi ilə özünə aid edilən digər səlahiyyətləri həyata keçirir. Onun təşkili və fəaliyyət qaydası, sədri və sədrin müavininin səlahiyyətləri, habelə sədrin müavininin əvəz edilməsi qaydası "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının qanunu (25-30-cu maddələr) ilə müəyyən edilir.

**Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi** – birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş hərbi xidmət əleyhinə olan cinayət işlərinə baxan məhkəmə orqanı. Azərbaycan Respublikasının ədalət mühakiməsini həyata keçirən məhkəmə sisteminə daxildir. Qanunla nəzərdə tutulmuş hallarda və qaydada ağır hərbi cinayətlərə dair işlərə birinci instansiya üzrə baxılması üçün bu məhkəmənin tərkibində andlılar məhkəməsi yaradıla bilər. Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası hərbi məhkəməsi hakimlərinin sayı Azərbacan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyən edilir. Bu məhkəmə sədrdən, onun müavinindən və hakimlərdən ibarətdir. O, Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində təşkil edilir, yurisdiksiyası Azərbaycan Respublikası Silahlı Qüvvələri qarnizonlarının bütün hərbi hissələrinə şamil edilir. Həmin məhkəmə orqanı məhkəmə statistikasını təhlil edir, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir. Onun təşkili və fəaliyyət qaydası, sədri və sədrin müavininin səlahiyyətləri, habelə sədrin müavininin əvəz edilməsi qaydası "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının qanunu (36-41-ci maddələr) ilə müəyyən edilir.

**Ağsaqqallar Şurası** – 1795-ci ildə respublikanın III ilində Konstitusiya tərəfindən yaradılmış Fransa Qanunvericilik Korpusunun iki palatasından biri. Yaşı 40-da az olmayan şəxslər içərisindən senz və ikidərəcəli seçki hüququ əsasında seçilirdi. AŞ Beşyüzlər Şurası tərəfindən verilən qanun layihəsini yalnız bəyənə və ya rədd edə bilərdi. AŞ özü isə qanunvericilik təşəbbüsü hüququna malik deyildi. Beşyüzlər Şurası tərəfindən verilən təklif AŞ-da beş gün ərzində üç oxunuşda müzakirə edilirdi. 1799-cu il 10 noyabr 18 brümer çevrilişindən sonra buraxılmışdır.

**Ağyaxalıqlı cinayətkarlıq** – dövlət funksiyalarını həyata keçirməyə səlahiyyətli olan vəzifəli şəxslərin (məmurların) törətdikləri cinayətlərin məcmusunun şərti adı. Bu anlayış hüquq elminə (kriminologiyaya) amerikalı kriminoloq E.Starlend tərəfindən gətirilmişdir.

**Axtarış** – mühakimə icraatında həyata keçirilən istintaq hərəkətlərinin bir növü. A. cinayətin törədilməsi alətlərinin, cinayətkar yolla əldə edilmiş əşya və predmetlərin, iş üçün əhəmiyyəti olan digər əşyaların və sənədlərin aşkar edilib götürülməsi məqsədilə, habelə axtarışda olan şəxslərin, mülki iddia üzrə alına bilən, yaxud məhkəmənin qərarı ilə müsadirə edilə bilən əmlakın aşkar edilməsi üçün binaların, evlərin, mənzillərin, müəyyən ərazilərin, şəxsin bədəninin və geyiminin *(həmçinin bax: şəxsi müayinə)* məcburi qaydada yoxlanılmasından ibarətdir.

A. həmçinin ibtidai istintaqdan və ya məhkəmədən gizlənən təqsirləndirilən şəxslərin, hökmün icrasından boyun qaçıran və ya islaholunma yerlərindən qaçan məhkumların, itkin düşmüş şəxslərin yerlərinin müəyyən edilməsi üçün müstəntiqin, təhqiqat aparan şəxsin, məhkəmənin və həbs yerləri müdiriyyətinin, eləcə də Daxili İşlər Nazirliyinin müvafiq orqanlarının həyata keçirdikləri tədbirlərin məcmusundan ibarətdir.

A. müstəntiq və ya təhqiqat aparan şəxsin, həmçinin məhkəmənin qərarı əsasında aparıla bilər. A. hal şahidlərinin iştirakı ilə aparılmalıdır. A.-ın nəticəsi haqqında protokol tərtib edilir.

**Axtarış (inkvizisiya) prosesi** – cinayət prosesinin Orta əsrlər və Yeni dövrün başlanğıcı dövrü üçün səciyyəvi olan tarixi formalarından biri. A.p.-nin səciyyəvi xüsusiyyəti müqəssirin cinayət prosesində çəkişmə hüququnun olmamasından, ittihamın hakimin, ittihamçının və müdafiəçinin şəxsində bir funksiyada təzahür etməsindən ibarət idi. İnkvizisiya prosesi cinayət törətmiş şəxsin eyni orqan tərəfindən axtarışından, istintaqından və məhkəməsindən ibarət idi. İstintaq icraatı və məhkəmə baxışı gizli və yazılı formada aparılırdı. Formal sübutlar nəzəriyyəsi qüvvədə olmuşdur. Bu prosesdə fiziki işgəncələr vermə adi hal olmuşdur. Müqəssir tərəfindən öz təqsirini (bəzən törətmədiyi cinayətə görə) etiraf etməsi həlledici ittiham və cəzalandırma amili idi.

**Aidiyyət** – hüquq və sair hüquqi işlər haqqında mübahisənin müvafiq dövlət orqanının, ictimai orqanın və ya münsiflər məhkəməsinin səlahiyyətinə aid edilməsi.

Hüquqlarla bağlı mübahisələrin böyük əksəriyyəti məhkəmələr tərəfindən həll edilir. A.-ə uyğun olaraq hər bir orqan ancaq özünə aidiyyəti olan məsələləri nəzərdən keçirib həll edə bilər. Əgər konstitusiya məhkəməsindən həll edilməli məsələ haqqında ərizə ümumi yurisdiksiyalı məhkəməyə daxil olmuşdursa, hakim (məhkəmə) həmin ərizəni qəbul etməkdən imtina edir. Aidiyyətin pozulduğunun artıq başlamış prosesdə aşkar edildiyi hallarda iş üzrə icraat dayandırılmalıdır.

**Aidiyyət çoxluğu** – məlum kateqoriya işlərin həllinin qanunla bir neçə orqanının səlahiyyətinə aid edilməsi. Belə ki, vətəndaşlar və (və ya) təşkilatlar arasındakı əmlak mübahisələri ancaq iqtisad məhkəmələri tərəfindən deyil, həm də münsiflər məhkəməsi tərəfindən, eləcə də ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən həll edilə bilər. Qanunla işin aidiyyəti olan bir neçə orqanın seçilməsi üsuluna görə a.ç. alternativ, müqaviləli, imperativ, şərti və qarışıq aidiyyətə bölünür.

**Ailə** – qüvvədə olan qanunvericilikdə geniş istifadə edilən termin; lakin o, hüquqi deyil, sosioloji səciyyə daşıyır. Hüququn müxtəlif sahələrində (mülki hüquqda, ailə, əmək hüququnda) həmin terminə müxtəlif mənalar verilir. A. ailə hüququ nəzəriyyəsində (hüquqi mənada) şəxslər dairəsinin nikahdan, qohumluqdan, övladlığa götürmədən və ya uşaqların ailəyə qəbul edilməsinin sair formalarından irəli gələn şəxsi əmlak və qeyri-əmlak əlaqələri kimi müəyyən edilir. Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə uyğun olaraq cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

A. sabit ictimai birlik kimi neolit dövrünün axırlarında meydana gəlmişdir. Onun bütün inkişaf mərhələlərində insanların əmək və məişət birliyinin əsas forması qəbilə olmuşdur. Qəbilə konkret tarixi şəraitindən, hər şeydən əvvəl, qadınlar və kişilər arasında əmək bölgüsünün xarakterindən asılı olaraq matriarxat, yaxud patriarxat quruluşa malik olmuşdur.

İnkişaf etmiş demokratik dövlətlərdə sosial həyatın müxtəlif sahələrində əxlaqi amillərin rolunun artması ilə əlaqədar a.-nin də ictimai rolu artır. Sivilizasiyalı cəmiyyətlərdə əxlaq və hüquq normaları a.-nin möhkəmləndirilməsinə yönəldilmişdir.

**Ailə başçısını itirməyə görə pensiya** – Azərbaycan Respublikasının qanunvericiliyinə görə əmək pensiyasının bir növü. Belə pensiya hüququna ölənin himayəsindəki əmək qabiliyyəti olmayan ailə üzvləri malikdirlər. "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası qanununun 40-cı maddəsinə uyğun olaraq ailə başçısının öhdəsində olub-olmamasından asılı olmayaraq aşağıdakı əmək qabiliyyətli olmayan ailə üzvləri pensiya almaq hüququna malikdirlər: a) müharibədə həlak olmuş vətəndaşların uşaqları, valideynləri, dul arvadları; b) vəfat etmiş vətəndaşların uşaqları, eləcə də yaşından və əmək qabiliyyətindən asılı olmayaraq valideynlərdən biri və ya ər (arvad). Vəfat edənin öhdəsində olmamış valideynlər sonralar gəlir mənbəyini itirdikdə, övladının ölümü ilə əlaqədar pensiya almaq hüququna malikdirlər.

**Ailə həkimi** – ailə üzvlərinə onların cinsindən və yaşından asılı olmayaraq ilkin tibbi yardım göstərmək üzrə xüsusi çoxyönlü hazırlıq keçmiş həkim. Azərbaycan Respublikasında a.h.-ləri "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası qanununun (qanun 1997-ci il iyunun 26-da qəbul edilmişdir) qəbulundan sonra fəaliyyət göstərməyə başla-

mışlar. A.h.-nin fəaliyyət qaydası Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmişdir.

Göstərilən qanunun 16-cı maddəsinə uyğun olaraq dövlət ailə üzvlərinin sağlamlığını qorumaq qayğısını öz öhdəsinə götürür.

**Ailə hüququ** – Azərbaycan Respublikasının ənənəvi hüquq sahələrindən biri. Digər hüquq sahələri kimi a.h. da özündə Azərbaycan Respublikasının ailə qanunvericiliyini, ailə hüququ elmini və müvafiq surətdə tədris fənnini ehtiva edir.

A.h. ər-arvad, valideynlərlə uşaqlar arasında şəxsi əmlak və qeyri-əmlak münasibətlərini tənzim, nikaha daxil olmaq şərtlərini və qaydasını, nikaha xitam verilməsi və onun etibarsız sayılması qaydalarını müəyyən edir. A.h. valideynlərin himayəsindən kənarda qalmış uşaqların ailəyə yerləşdirilməsi qayda və formalarını da müəyyən edir. A.h. ailə münasibətlərinin hamısını deyil, onların yalnız müəyyən hissəsini tənzimləyir, onların zahiri sərhədlərini müəyyən edir. Ailə hüquq münasibətlərinin subyektləri bu münasibətlər daxilində sərbəst hərəkət edirlər. Hüquq imperativ normaların köməyi ilə nikaha daxil olmanın və ona xitam verilməsinin şərtlərini, valideynlərlə uşaqlar arasında hüquqi əlaqələrin müəyyən edilməsi və valideynlik hüquqlarından məhrum etmə qaydalarını müəyyən edir.

**Ailə kəndli təsərrüfatı** – ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi ilə mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi yaratmadan kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyətinin (məhsulların istehsalını, emalını, saxlanmasını, daşınmasını və satılmasını) birgə həyata keçirən təsərrüfat.

A.k.t.-nın tərkibi bir nəfərdən, ailə üzvlərindən və onlarla qoyhumluq və ya digər münasibətlər əsasında birgə fəaliyyət göstərən şəxslərdən ibarət ola bilər. A.k.t. kənd yerlərində qanunvericiliklə qadağan olunmayan və məhdudiyyət qoyulmayan bütün iqtisadi fəaliyyət növləri ilə məşğul olan təsərrüfatçılıq subyektidir və onun fəaliyyəti sahibkarlıq sayılmır. A.k.t.-nın statusu onların uçotunu aparan orqan tərəfindən ailə üzvlərinə verilən sənədlə rəsmiləşdirilir.

**"Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında ailə kəndli təsərrüfatı fəaliyyətinin hüquqi və təşkilati əsaslarını müəyyən edən qanunvericilik aktı.

Həmin qanun 14 iyun 2005-ci il tarixdə qəbul edilmişdir. Üç fəsil və 14 maddədən ibarətdir.

**Ailə qanunvericiliyi** *(bax: Ailə Məcəlləsi).*

**Ailə Məcəlləsi** – ailə-nikah münasibətlərini və onlarla əlaqədar münasibətləri tənzim edən normativ-hüquqi aktların məcmusu. Azərbaycan Respublikasının Ai.M Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulan əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına uyğun olaraq ailə münasibətlərinin yaranmasının və möhkəmlənməsinin, onlara xitam verilməsinin prinsiplərini, ailə münasibətləri iştirakçılarının hüquq və vəzifələrini, dövlət orqanlarının bu sahədəki vəzifələrini, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması qaydalarını tənzimləyən normaları müəyyən edir.

AR-in yeni Ai.M 1999-cu il dekabrın 28-də qəbul edilmiş və 2000-ci il iyunun





1-dən qüvvəyə minmişdir. Ai.M 8 bölmədən, 28 fəsildən və 195 maddədən ibarətdir. Ai.M-in 1.2-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının ailə qanunvericiliyinin başlıca məqsədlərindən biri analığın, atalığın və uşaqların qanunla mühafizə edilməsindən ibarətdir. Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanınır.

Ailənin ümumbəşəri prinsiplər əsasında qurulması; ailə münasibətlərinin qadın və kişinin könüllü nikah ittifaqı, bütün ailə üzvlərinin maddi mülahizələrdən azad olan qarşılıqlı məhəbbəti, dostluğu və hörmət hissləri əsasında qurulması; ailədə uşaqların ictimai tərbiyə ilə üzvi əlaqədar şəkildə vətənə sədaqət ruhunda tərbiyə edilməsi; ana və uşaqların mənafeyinin hərtərəfli müdafiəsi və hər bir uşağın xoşbəxt həyatının təmin edilməsi; ailə münasibətlərində zərərli adətlərin aradan qaldırılması; uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissinin tərbiyə edilməsi Ai.M-in əsas vəzifələridir (Ai.M-in 3-cü maddəsi).

**Ailə mülkiyyəti** – bir sıra dövlətlərdə mülkiyyətin müstəqil formalarında (növlərindən) biri; bu mülkiyyətin məzmunu və subyektləri ayrı-ayrı hüquq sistemlərində bir-birindən əhəmiyyətli dərəcədə fərqlənə bilər.

AR-in ailə qanunvericiliyində, eləcə də ailə hüququ nəzəriyyəsində "a.m." terminindən istifadə olunmur. Azərbaycan Respublikası MM-in 32-37-ci maddələrində "ər-arvadın birgə mülkiyyəti", "ər-arvadın hər birinin mülkiyyəti" ifadələrindən istifadə olunur. Nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzrlü səbəblərə görə müstəqil qazancı olmayan ər (arvad da) də ümumi əmlak üzərində hüquqa malikdir.

**Ailənin gəlirləri** – ailə üzvlərinin bütün növ gəlirləri, o cümlədən ailə üzvlərinə bağışlanmış hədiyyələr, mülkiyyətdən, ailə üzvlərinə məxsus əmlakdan, şəxsi yardımçı təsərrüfatdan əldə olunan və yaxud əldə oluna biləcək və natural formada gəlirlərin toplusu.

**Ailənin orta aylıq gəliri** – ailənin gəlirinin orta aylıq göstəricisi. Ailəyə sosial yardımın məbləği orta aylıq gəlir əsasında müəyyən edilir. Sosial yardımın məbləği ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının *(bax: ehtiyac meyarı)* məcmusu arasında yaranan fərq məbləğində hesablanır.

**Ailə tərbiyəsi** – ailənin böyük (yaşlı) üzvlərinin və ailə həyat tərzinin uşaqlara müntəzəm, məqsədəuyğun təsiri. A.t.-nin əsas və ümumi vəzifəsi uşaqları mövcud sosial şəraitdə həyata hazırlamaq, daha məhdud və konkret vəzifəsi isə onlara ailə şəraitində şəxsiyyətin normal şəkildə formalaşması üçün zəruri olan bilik, bacarıq və vərdişlər aşılamaqdır. A.t.-nin məqsəd və vəsaitləri sosial-iqtisadi və siyasi quruluşdan, mədəniyyətin inkişaf səviyyəsindən asılıdır.

Vətəndaş cəmiyyətində a.t.-nin məqsədi şəxsiyyətin hərtərəfli – əqli, fiziki,

əxlaqi, estetik inkişafının bünövrəsini qoymaq, uşaqları əməyə və elmi bilikləri əldə etməyə alışdırmaq, müstəqil yaradıcılıq fəaliyyətinə marağını inkişaf etdirmək, habelə ətrafdakılara hörmət və həssaslıqla yanaşmağı dərk etdirməkdən ibarətdir.

**Ailə üzvü** – ailə münasibətləri əsasında hüquqlara malik olan və vəzifələr daşıyan şəxs.

**Ajio** *(ing. agio)* – **1)** nominal olaraq qızılın kəmiyyət məlumatlarından ibarət kağız pul nişanlarının kəmiyyəti üzərində qızılın bazar qiymətinin yüksəlməsi; **2)** pul nişanlarının, veksellərin və onlardan nominal dəyəri olan digər qiymətli kağızların bazar kursunun yüksəlməsinin kənara qoyulması; **3)** nağd qiymətli malla təcili əqd üzrə qiymətli mal arasında müsbət fərq; **4)** kağız pulların qızıla, yaxud "zəif" valyutanın "güclü" valyutaya dəyişdirilməsi üçün komisyon ödəmələri.

**Ajio-konto** *(ing. agio-conta)* – qiymətli kağızların birja kurslarının və ya mallar üzərində qiymətlərin kəskin dəyişməsi nəticəsində yaranan gəlir və ya itkilərin əks olunduğu hesab. Öz portfelində qiymətli kağızları olan birja möhtəkirləri və banklar onları yüksək qiymətlə satmağa cəhd göstərirlər. Qiymətli kağızların kursunun süni vasitələrlə yüksəldilməsi labüd surətdə birja qiymətlərinin kəskin aşağı düşməsinə gətirib çıxarır.

**Ajiotaj** *(ing. agiotage)* – mənfəət əldə etmək məqsədilə birja kağızlarının və ya malların qiymətlərinin möhtəkirliklə süni olaraq yüksəldilməsi və ya aşağı salınması.

**Ajur** *(fr. a your – bu günədək)* – təsərrüfat əməliyyatlarının aparıldığı gün bütün hesab qeydlərinin edildiyi vaxt mühasibat uçotunun vəziyyəti. A. daha geniş mənada uçot-hesablama işlərinin müəyyən edilmiş müddət ərzində yerinə yetirilməsi deməkdir.

**Akademik** – Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının həqiqi üzvlərinin elmi adı. A.-lər müvafiq akademiyaların ümumi yığıncağında gizli səsvermə yolu ilə seçilirlər. A.-liyə namizədləri elmi idarələr, ali təhsil müəssisələri və ayrı-ayrı elm xadimləri irəli sürə bilərlər.

İkipilləli struktura malik olan akademiyalarda a.-liyə üzvlük alidir. Bir sıra ölkələrin akademiyalarında "Fəxri A." rütbəsi də mövcuddur.

**Akademik azadlıqlar** – şəxsiyyətin təhsil və elmi tədqiqatlar sahəsində realizə olunan spesifik hüquq və azadlıqlar qrupunun hamılıqla qəbul olunmuş adı. Təqdim edilən a.a. elmi həqiqətlərin azad, sərbəst axtarışı, onların azad surətdə ifadə edilməsi və yayılması üçün optimal şərtlərin müəyyən edilməsinə görə akademik məsuliyyətdən ibarətdir. A.a. professor-müəllim heyəti içərisindən olan pedaqoji işçilərə, ali təhsil müəssisələrinin elmi işçilərinə (aspirantlara, doktorantlara, o cümlədə dinləyicilərə) və tələbələrə verilir. Ali təhsil müəssisəsinin pedaqoji işçisinin öz tədris prеdmetini öz mülahizəsinə görə azad şəkildə ifadə etmək hüququ vardır. O, elmi tədqiqatları özünün bəyəndiyi metodla aparmaq hüququna malikdir. Ali təhsil müəssisəsinin pedaqoji işçisi tədqiqat üçün mövzu seçməkdə azaddır. O cümlədən hər bir tələbə meyl etdiyi elm sahəsinə dair bilikləri mənimsəməkdə tam azaddır.

**Akademik il** – ali təhsil müəssisələrində dərslərin başlanmasından qurtarmasınadək





(cari ilin payızından – sentyabrından növbəti ilin yayına qədər – iyuladək) olan müddət. Təqribən 9-10 ay davam edir. A.i. terminindən bir sıra xarici ölkələrdə istifadə olunur. Azərbaycan Respublikasında bütün ali təhsil müəssisələrində işlədilən "tədris ili" termini a.i. termininə uyğundur.

**Akademiya** – bir çox elmi tədqiqat idarələri, cəmiyyət və tədris müəssisələrinin adı. "A" sözü qədim yunan əsatirinin qəhrəmanı Akademin adından götürülmüşdür. Eramızdan əvvəl IV əsrdə Afina yaxınlığında, həmin qəhrəmanın adının verildiyi yerdə antik dövrün görkəmli yunan filosofu Platon tələbələrinə mühazirələr oxuyurdu. Buna görə də mütəfəkkirin məktəbi (Afina fəlsəfə məktəbi) a. adlandırılmışdır.

Orta əsrlərdə müsəlman Şərqi ölkələrində a. tipli bir sıra elmi müəssisə - Bağdadda "Hikmət evi" (IX əsr), Xarəzmdə "Məmun akademiyası" (XI əsrin əvvəli), Marağa (XIII əsr) və Səmərqənd (XV əsr) rəsədxanaları nəzdində elmi-tədqiqat ocaqları məşhur olmuşdur.

XV-XVI yüzilliklərdə İtaliyada humanitar elmlərlə (əsasən dil və ədəbiyyat məsələləri ilə) məşğul olan cəmiyyətlərə a. deyilirdi. XVII əsrin ikinci yarısında Qərbi Avropanın ayrı-ayrı ölkələrində bir çox elm sahəsini birləşdirən a.-lar yaradılmışdır. 1724-cü ildə Peterburq a.-sı təşkil olunmuşdur.

Hazırda dünya ölkələrinin əksəriyyətində kompleks tipli a.-lar və ya ona müvafiq elmi idarələr, habelə sahə a.-ları vardır. Rusiya Federasiyasının Elmlər Akademiyası, ABŞ-ın Elmlər Akademiyası, London Kral Cəmiyyəti, Fransa İnstitutu və i.a. buna misal ola bilər.

AR-in ali elmi idarəsi olan Elmlər Akademiyası 1945-ci ildə Bakıda təşkil edilmişdir. 1923-cü ildə elmi-tədqiqat işləri aparmaq üçün Ə.B. Haqverdiyevin sədrliyi ilə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yaradılmışdır. 1929-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu təşkil edilmiş, 1932-ci ildə isə bu İnstitut əsasında SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsi təsis edilmişdir. SSRİ XKS-nin 1945-ci il 23 yanvar tarixli qərarı ilə filial Azərbaycan SSRİ EA-ya çevrilmişdir. Bu idarə hazırda Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası adını daşıyır. ARMEA elmi və elmi-pedaqoji fəaliyyətin müəyyən sahələri üçün kadrların hazırlanmasını, yenidən hazırlanmasını və onların ixtisaslarının artırılmasını həyata keçirir; fundamental və tətbiqi elmi tədqiqatları yerinə yetirir; öz fəaliyyət sferasında aparıcı elmi və metodoloji mərkəz kimi fəaliyyət göstərir.

**Akkit** – ödəmənin (və ya veksel valyutasının) alınması haqqında veksel üzərində edilən ödəmə qeydi. A. onun verildiyi, təhvil verildiyi və reqress qaydasında ödənildiyi zaman aparılır.

**Akklamasiya** *(lat. acclamatio)* – beynəlxalq təşkilatlarda və konfranslarda qərarların əsas vermədən qəbul edilməsi metodu. A qərarların alqışlarla, replikalarla və i.a. ilə bəyənilməsinə (qəbuluna) əsaslanır. İştirakçıların belə reaksiyası qərarların qəbulu əsasına xidmət edir.

**Akkord əməkhaqqı** *(bax: əməkhaqqı).*

**Akkord sistemi** – əməyin ödənilməsi sisteminin bir növü. A.s. zamanı işçilərin əməyi işə sərf edilən müddət nəzərə alınmadan işin həcminə uyğun olaraq razılaşma yolu ilə eyni vaxtda ödənilir *(həmçinin bax: əməkhaqqı).*

**Akkreditasiya** *(lat. accredere – etimad göstərmə)* – **1)** beynəlxalq hüquqda ölkə nümayəndəsinin beynəlxalq təşkilatın xarici nümayəndəliyi nəzdindəki təşkilatda təyin edilməsi və tanınması prosesi. A. özündə müvafiq orqana və ya qəbul edən dövlətin (təşkilatın) rəsmi şəxsinə təyin edilən nümayəndənin müvafiq səlahiyyətlərinin olduğunu təsdiq edən aktın təqdim edilməsini ehtiva edir; **2)** jurnalistlərin təyin edilməsi və səlahiyyətlərinin tanınması *(həmçinin bax: xarici müxbirlərin akkreditasiyası)*; **3)** milli hüquqda dövlət orqanları tərəfindən müxtəlif növ subyektlərin (təhsil müəssisələrinin, elmi təşkilatların, tibbi müəssisələrin, kommersiya banklarının və i.a.) xüsusi səlahiyyətlərinin tanınması (təsdiq edilməsi) qaydası. Məsələn, təhsil müəssisəsinin a.-sı dedikdə onun dövlət statusunun (tipinin, növünün) müəyyən edilməsi (təsdiqlənməsi) qaydası nəzərdə tutulur.

**Akkreditiv** *(lat. accreditivus – vəkalətnamə)* – müştərinin tapşırığı ilə onun müqavilə üzrə kontragentinin xeyrinə verilən bankın şərti pul öhdəliyi; nağdsız hesablaların əsas vasitələrindən biri. AR Mülki Məcəlləsinin 977-ci maddəsinə uyğun olaraq akkreditiv üzrə hesablaşmalar zamanı ödəyicinin akkreditiv açılması haqqında tapşırığı və göstərişi ilə hərəkət edən bank (emitent bank) vəsait alana vəsait ödəməyi və ya köçürmə vekselini ödəməyi, aksept etməyi və ya uçota almağı və ya bu səlahiyyətləri başqa banka (icraçı banka) verməyi öhdəsinə götürür. Vəsait alana vəsaiti ödəyən və ya köçürmə vekselini ödəyən, aksept edən və ya uçota alan emitent banka icraçı bank haqqında qaydalar tətbiq olunur.

**Akkreditivləşdirmə** *(bax: akkreditasiya).*

**Akkreditivli qeyd-şərt** – akkreditiv üzrə çatmalı olan ödəmələrin əldə olunmasınadək malların daşınması zamanı eksportyorun itki və ya zərər riskindən müdafiəsini təmin edən və sığorta cəmiyyəti tərəfindən verilən polis şərti.

**Akkreditiv üzrə hesablaşmalar** – alıcının akkreditiv ərizəsinə uyğun olaraq göstərilən xidmətə və ya yüklənmiş mala görə satıcının bank hesabına vəsait köçürülməsi üçün tapşırıq verdiyi xarici hesablaşma forması. Akkreditivin məbləği qədər pul vəsaiti alıcının hesabından akkreditiv hesabına köçürülür və yaxud alıcıya həmin miqdarda borc verilir. Akkreditivlər adətən 45 gün müddətinə açılır. AR Mülki Məcəlləsinin 977.2-ci maddəsinə uyğun olaraq akkreditiv üzrə hesablaşmaların həyata keçirilməsi qaydası, qanunla, habelə ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və bank təcrübəsində tətbiq edilən işgüzar dövriyyə adətləri ilə tənzimlənir.

**Akkresiya** *(lat. accretio – genişləndirmə, artırma)* – beynəlxalq hüquqda dövlətin ərazisinin yeni yaranmış quru sahələr hesabına təbii genişlənməsi. Məsələn, çayların mənsəbində yaranan deltalar çayın mənsub olduğu dövlətin quru ərazisinin genişlənməsi sayılır. Ərazi suları hüdudlarında yeni adaların yaranması da a.-ya aid edilir. Dövlətin quru ərazisinin genişlənməsinin hər iki üsulu ərazi sularının xarici sərhədlərinin yerdəyişməsinə təsir göstərə (əgər onların xətti dəyişərsə) bilər.

**Akkumuliyasiya edilmiş dividend** – səhm sahiblərinə vaxtında ödənilməmiş dividendlər. A.e.d. növbəti ildə ödənilməlidir.





**A-konto** *(ita. a conto – hesabına)* – eksportyorla ilkin hesablaşma qismində həmin eksportyorun hesabları əsasında imperator tərəfindən həyata keçirilən ödəmə.

**Akselerator** *(ing. acceleratator)* – sərmayə (investment) həcminin məhsul buraxılışı (output) həcminin dəyişilməsindən asılılığını müəyyən edən göstərici. A modelinə görə məhsulun həcmi ilə sərmayə qoyuluşunun artımı düzmütənasibdir.

**Aksept** *(lat. acceptus – qəbul edilmiş)* – **1)** mülki hüquqda şəxs tərəfindən ona ünvanlanmış ofertanın (müqavilə bağlamaq təklifinin) qəbul edilməsi. A. tam və danışıqsız olmalıdır. Əgər a. təklif edən şəxs tərəfindən təklifdə qeyd edilən müddətdə alınmışdırsa, o, oferta ilə şərtsiz razılaşma hesab olunur; **2)** bank hesablaşmalarında alıcının vekseli (vekselli aksept), çeki (çekli aksept) və i.a. ödəməyə razılıq verməsi. Çekli aksepta yalnız bəzi ölkələrdə (məsələn, ABŞ-da və başqalarında) qanunvericiliklə yol verilir; **3)** sığortalaşdırmada sığorta edənin (yenidən sığorta edənin) nümayəndəsi tərəfindən qeyd olunan gözüyumulu riskdə və onda göstərilən şərtlərlə iştiraka razılığı təsdiq etmək üçün öz adını, soyadını və atasının adını gözüyumulu qeyd etməsi. Ad, soyad və atasının adı ilə birlikdə adətən iştirakın ölçüsü və müqavilə münasibətlərinə daxil olma tarixi də qeyd edilir.

**Akseptant** *(lat. acceptans)* – təqdim edilmiş hesab, veksel üzrə ödəmə öhdəliyini öz üzərinə götürmüş şəxs. Belə ödəmə öhdəliyi müvafiq müqavilədən də irəli gələ bilər.

**Aksept bank** – xarici ticarətin kreditləşdirilməsi üzrə ixtisaslaşdırılmış bank.

**Aksept edən bank** – köçürmə vekselini "aksept edən" bank.

**Aksept evi** – bir sıra xarici ölkələrdə xarici ticarətin kreditləşdirilməsi üzrə ixtisaslaşdırılmış bank müəssisəsi. A.e.-ndə kommersiya veksellərinin aksepti və ya eksportyorların trattaları, depozit-ssuda əməliyyatları, məsləhət xidmətləri, şirkətlərin qatılması və ya ləğv edilməsi üzrə əməliyyatlarda vasitəçilik kimi əsas əməliyyatlar həyata keçirilir.

**Aksept firması** – məhsulların və məmulatların milli istehsalçılarda, satın alınmasının realizəsində çətinliyi olan eksportyorların akseptli maliyyələşdirilməsi üzrə ixtisaslaşdırılmış maliyyə idarəsi; kreditlər üçün ödəmələr əmtəə qəbzləri ilə aparılır. Aksept krediti trattalar halında rəsmiləşdirilir.

**Aksept krediti** – bir qayda olaraq, eksportyorlar tərəfindən banklara qoyulan köçürmə veksellərinin aksepti; xarici ticarətin bank kreditləşdirilməsinin formalarından biridir. Bank öz vəsaitlərini aksept əməliyyatlarına qoymasa da, ödəmə müddətinin müddəti gəldiyi zaman trattanı ödəməyə (kredit formal olaraq eksportyor tərəfindən təqdim olunur) borcludur.

**Aksept-rambурs-kredit** – aksept kreditinin bir növü; bu zaman importyorun bankı sonuncunun köçürmə vekselini (trattasını) akseptləşdirir, onları nəzərə alır və eksportyora nağd ödəmə verir. Bu kreditin şərtləri (limit, müddət, faizli norması və i.a.) banklararası ilkin razılaşmaların predmeti qismində çıxış edir. Bank tərəfindən öz borclarının importyora ödənilməsi (borcların silinməsi) də banklararası sazişdə razılaşdırılır.

**Akseptləşdirici müddət** – ödəməyə verilən vekselin ödənilməli olduğu vaxt (müddət).

**Akseptləşdirilmiş çek** – bank akseptinə malik olan, həmin akseptdə göstərilən məbləği alıcının hesabına daxil olmasına təminat verən çek.

**Akseptləşdirmə** – qiymətli kağızların təminatlandırılmış yerləşdirilməsi; səhmlərin alqı-satqısı zamanı vasitəçi firmaların göstərdikləri xidmət növü. Öz səhmlərini buraxan şirkət yayılmaları üçün onları firmaya verir. Bütün səhmlərin yayılmasının bəzən mümkün olmadığına görə belə firma adətən müəyyən riskə getmiş olur.

**Akseptli çek** *(bax: çek aksepti).*

**Akseptli ödəmə tapşırığı** – bank akseptinə malik olan tapşırıq; yəni ödəyənin hesabında ödəmə üçün zəruri olan vəsaitlərin olması haqqında təsdiqləmə.

**Akseptli tratta** – qiymətli kağızlar üzrə ödəmə müddətinin meydana gəlməsinədək belə kağızların digər sahibinə satıla bilən qiymətli kağızlardan biri. Bank tərəfindən akseptləşdirilmiş ödəmə müddəti olan vekselə bankın qiymətli kağızı kimi baxılır. Ondan əsasən beynəlxalq ticarətin maliyyələşdirilməsi zamanı istifadə olunur. Məsələn, xarici istehsalçının öz mallarını importyora (eksportyorun və ya importyorun kreditləşdirilməsi forması) satılması.

**Akseptli veksel** *(bax: veksel aksepti).*

**Aksessiya** – **1)** bir əşyanın digər əşyaya hüquqi mənsubiyyəti; bunun sayəsində həmin əşya mənsubiyyəti olduğu digər əşya olmadan yeni mülkiyyətçinin sahibliyinə keçmir; **2)** mülkiyyətin (hər şeydən əvvəl daşınmaz əmlakın) genişlənməsi; **3)** müqaviləyə və ya sazişə qoşulma (birləşmə).

**Aksessor hüquq münasibətləri** – digər (əsas) hüquq münasibətlərinə əlavədən ibarət olan hüquq münasibətləri; bunsuz a.h.m. öz mənasını və əhəmiyyətini itirir. Məsələn, girov, tapşırıq, borc müqavilələrindən yaranan hüquq münasibətləri.

**Aksessor müqavilə** *(lat. accessio – əlavə, mənsubiyyət)* – əsas müqaviləyə əlavə edilən və hüquqi cəhətdən ondan asılı olan müqavilə. (Əsas) öhdəliyi təmin edir və ondan ayrı (təcrid edilmiş halda) mövcud ola bilməz. A.m. həm qanunun tələb etdiyi formaya əməl edilməklə ayrıca sənəd şəklində, həm də onun şərtlərinin əsas müqaviləyə daxil edilməsi yolu ilə tərtib edilə bilər. A.m.-nin və əsas müqavilənin tərəfləri adətən üst-üstə düşürlər.

**Aksessor öhdəlik** – yalnız digər (başlıca) müqavilələrlə əlaqədar olaraq mövcud olan əlavə müqavilə.

**Aksiom** *(yun. axioma – qəbul edilmiş müddəa)* – təsdiqə, sübuta ehtiyacı olmayan fikir və ya müddəa. "A." terminini ilk dəfə Aristotel işlətmişdir. Bu terminin ən mühüm təzahürünə XVIII əsrdə Fransada bir siyasi-hüquqi sənədlərin işlənib hazırlanması zamanı təsadüf edilmişdir. Belə ki, 1789-cu il "İnsan və vətəndaş hüquqları bəyannaməsi"ndə "törədilən bir cinayətə görə yalnız bir cəza verilməsi", "təyin edilən cəzanın cinayətin ağırlıq dərəcəsinə mütləq müvafiq olması", "qanunda nəzərdə tutulmamış hərəkətin, əməlin cinayət hesab edilməməsi" və i.a. kimi müddəalar müasir dövrdə hüquqi aksiomlar qismində səslənir. Bu müddəalar öz aktuallığını və əhəmiyyətini bu gün də saxlamaqdadır.





**Aksiya**[1] *(holl. aktie; alm. aktie) (bax: səhm).*

**Aksiya**[2] *(lat. actio – hərəkət)* – Roma hüququnda ilk əvvəllər istənilən hüquqi akt, sonralar isə məhkəmə prosesində ittiham, şikayət, xüsusi iddia. Məsələn, əgər şəxs hesab etsəydi ki, qonşunun torpaq sahəsindəki hər hansı yenilik yağış suyunun onun torpaq sahəsinə axmasına və bunun nəticəsində ona maddi ziyan vurulmuşdursa o, "yağış suyundan müdafiə ilə əlaqədar şikayətlə" qonşudan ona vurulmuş ziyanın ödənilməsini tələb edə bilərdi. Şantaj edildiyi halda vurulmuş ziyan məhkəməyə "qorxudan yaranan hərəkətlə əlaqədar şikayət" verməklə tələb oluna bilərdi. Aldatma zamanı isə məhkəməyə "aldatma ilə əlaqədar şikayət" verilə bilərdi.

**Aksiya**[3] *(lat. actio – sərəncam, icazə, tələb)* – maddi-hüquqi mənada səhmdar cəmiyyətində iştirak etmək hüququ, o cümlədən: a) səhmdar cəmiyyətinin fəaliyyətindən divident şəklində gəlirin bir hissəsini əldə etmək hüququ; b) cəmiyyətin ləğv edildiyi zaman onun əmlakının bölüşdürülməsində iştirak etmək hüququ; c) cəmiyyətin işlərinin idarə olunmasında iştirak etmək hüququ. Aksiya sahiblərinin (aksionerlərin) digər hüquqları, məsələn, cəmiyyətin fəaliyyətinə dair məlumat almaq hüququ yardımçı səciyyə daşıyır.

**Aksiz** *(fr. accise; lat. accidere – kəsirəm)* – kütləvi istehlak mallarına (məsələn, duza, çaya, tütünə, şəkərə və i.a.), həmçinin nəqliyyat xidmətlərinə, kommunal və i.a. xidmətlərə qoyulan dolayı vergi növlərindən biri; aksizlər alıcılar (istehlakçılar) tərəfindən ödənilir.

Tutulma üsuluna görə a. fərdi və universal aksizlərə bölünür. Fərdi aksizlər malların və xidmətlərin ayrı-ayrı növləri üçün müəyyən edilir və malın (xidmətin) ölçü vahidindən möhkəm norma üzrə tutulur. Universal aksizlər isə ümumi dövriyyədən tutulur və malların və ya xidmətlərin dəyərinin faizləri ilə müəyyən edilir.

**Akt** *(lat. actus – hərəkət, actum – sənəd)* **1)** xəta, hərəkət; **2)** rəsmi sənəd. Hüquqi a. dövlət orqanı, vəzifəli şəxs tərəfindən onların qanunla müəyyən edilmiş formada (qanun, fərman, qərar və i.a.) öz səlahiyyətləri daxilində verilir və məcburi qüvvəyə malik olur. Normativ aktlar, ekspertiza aktları, vətəndaşlıq vəziyyəti aktları kimi terminlər də müasir hüquqda istifadə olunur *(həmçinin bax: hüquqi akt).*

**Aktiv** *(lat. activus – fəal)* – **1)** idarə, müəssisə və təşkilatın hər cür mülkiyyəti-texnoloji qurğular və avadanlıqlar, maşınlar, binalar, ehtiyat hissələri, bank əmanətləri, sərmayə və patentlər, qiymətli kağızlar; **2)** mühasibat balansının müəssisənin maddi və qeyri-maddi (qudvild) sərvətlərini əks etdirən hissəsi; yenidən və təkrar istehsal prosesinin rollarına görə qruplaşdırılmış vəsaitlərin tərkibini, yerləşdirilməsini və onlardan istifadəni səciyyələndirir; **3)** balansların bəzi növləri üzrə (məsələn, ödəmə balansı və i.a. üzrə) xərclər üzərində gəlirlərin yüksəldilməsi.

**Aktiv bank əməliyyatı** – bankların uçot-kredit əməliyyatları və bank sərmayələri.

**Aktiv hesablar** – müxtəlif maddi sərvətlərin artması və azalmasını göstərən mühasibat hesabları. A.h.-a kassa, alınmış veksellər, ödəniş alınan hesablar, avansla ödənilmiş məsariflər, torpaq, avadanlıqlar, binalar, tikililər və i.a. daxildir.

**Aktivlər** – müəssisənin malik olduğu və ya onun istifadəsində olan qiymətli vəsaitlər. İnzibati binalar və istehsalat binaları, anbarlar, nəqliyyat vasitələri, maşın və avadanlıqlar aktivlərə daxildir. Hesablama texnikası (hesablayıcı texniki vasitələr, pul vəsaitləri, xammal və digər komponentlər, satış üçün hazırlanmış məhsullar da a.-ə aid edilir (*həmçinin bax: aktiv)*.

**Aktivlərin dəyəri** – AR VM-in 143-cü maddəsinə uyğun olaraq aktivlərin dəyərinə onların alınması, gətirilməsi, istehsalı, tikilməsi, quraşdırılması və qurulması üçün çəkilən xərclər, həmçinin vergi ödəyicisinin gəlirdən çıxmaq hüququna malik olduğu xərclər istisna edilməklə, aktivlərin dəyərini artıran digər xərclər daxil edilir.

A.d.-ni əlavə dəyər vergisi ilə eyniləşdirmək olmaz. Əlavə dəyər vergisi malların istehsalının və göndərilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin bütün mərhələlərində ödənilir.

**Aktiv seçki hüququ** – vətəndaşların seçkili dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına seçmək, habelə ümumxalq səsvermələrində (referendumlarda) iştirak etmək hüququ. A.s.h. dövlətlərin əksəriyyətində cinsindən, məşğuliyyət növündən, əmlak vəziyyətindən, təhsilindən və i.a. asılı olmayaraq yetkinlik yaşına (seçmək və seçilmək hüququna malik olan) bütün vətəndaşlara məxsusdur. Bir sıra ölkələrdə yerli özünüidarə orqanlarına seçkilərdə A.s.h. xarici vətəndaşlara da məxsusdur.

**Aktuari** – şəxsi sığorta sahəsində mütəxəssis; uzunmüddətli həyat sığortası üzrə tarif məzənnələrinin hesablanması metodlarının işlənib hazırlanması ilə əlaqədar hesablaşmalarla məşğul olur.

**Akustika** *(yun. akustikos – eşitmə)* – kriminalistikada geniş mənada fizikanın dalğanın ən aşağı tezlikdən ən yüksək tezliyədək möhkəmliyini tədqiq edən bölməsi; məhdud mənada səs haqqında təlim. Fonoskopik (vokalqrafik) ekspertizanın elmi əsaslarının mühüm elementlərindən biridir.

**Akvatoriya** – dəniz, körfəz, buxta və yaxud limanda müəyyən sərhəd daxilindəki su sahəsi. A.-nın sərhədləri təbii, süni və ya şərti səciyyə daşıyır. Müvafiq ölkəyə aid a. onun su fonduna daxildir. Azərbaycan Respublikasının Su Məcəlləsinin 5-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının daxili suları və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi (su obyektləri) Azərbaycan Respublikasının su fondunu təşkil edir. Təbiətdə yerləşməsinə, fiziki-coğrafi, inzibati-ərazi xüsusiyyətlərinə və digər əlamətlərinə görə Azərbaycan Respublikasının su fondu yerüstü, yeraltı, sərhəd su obyektlərindən və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən ibarətdir.

**Akvizisiya** *(lat. aqcuisitio – əldə etmə)* – **1)** akvizitor tərəfindən yeni müştərilərin, yeni yüklərin, yeni sığortaların cəlb edilməsi; **2)** birjada aksioner və ya aksionerlər qrupu tərəfindən müəssisənin bütün səhmlərinin satın alınması. Bir müəssisənin digər müəssisə tərəfindən satın alınmasının (məsələn, müəssisələrin bir-birinə qatıldığı hallarda) heç də həmişə satın alınan müəssisənin istəyi ilə həyata keçirilmədiyinə görə belə hallarda adətən "düşmənçilik" a. haqqında danışılır.

**Akvizitor** *(ing. acquisitor)* – **1)** nəqliyyat və ya sığorta şirkətlərinin yeni müştəriləri





cəlb edən sığorta işçisi; **2)** yeni yüklərin və yükgöndərənlərin cəlb edilməsi ilə məşğul olan nəqliyyat şirkəti agenti *(həmçinin bax: Akvizisiya)*.

**Aqnat qohumluq** *(ing. agnation)* – Roma vərəsəlik hüququnda nəinki qan qohumları, həm də miras qoyanın hakimiyyəti altına gələn, yeni ev sahibinin böyük ailəsinin tərkibinə daxil olan şəxslər vərəsələr (agnati) hesab olunurdular. A.q. tarixən birinci formalaşmış qohumluqdur. Məhz bu qohumluq Roma hüququnun erkən dövrlərində əsasən vərəsəliyi müəyyən etmişdir A.q. çərçivəsində vərəsələr 4 şərti dərəcəyə bölünürdülər. Birinci dərəcə – düzünə yaxınlar *(sui heredes)*: ev sahibinin hakimiyyəti altında olan onun bütün qan qohumları və digər yaxınları, o cümlədən övladlığa götürülənlər və *in mancipii-də* olanlar birinci dərəcəli vərəsələr hesab olunurdu. Ailə əmlakının ümumi kütləsinə əmlakını daxil etmək şərtilə azad edilmiş uşaqlar da bu dərəcəyə aid edilirdi. Bu dərəcədən olan vərəsələrə miras nəsillikcə keçirdi, yəni miras əmlak nəslin budaqları üzrə paylarla – qohumluq ümumiliyinin şərti dərəcələri ilə bölüşdürülürdü. İkinci dərəcə – yaxın qohumlar *(aqynati proximi)*: qardaşlar, bacılar, ana (əgər ana *cum manu* formasında bağlanmış nikahda olardısa) ikinci dərəcəli vərəsələr sayılırdı. Bu dərəcədən olan bütün vərəsələr özlərinə çatan miras əmlakı bərabər paylarla bölüşdürürdülər. Bütün digər qohumlar üçüncü dərəcəli vərəsələri təşkil edirdilər. Roma hüququnun sonrakı inkişaf dövründə qohumlar qohumluğun 6-7 dərəcəsi (əminəvəsi, dayınəvəsi, xalanəvəsi, bibinəvəsi, qardaşlarının uşaqları və bacılar da daxil olmaqla) ilə məhdudlaşdırılmışdır. Vərəsələrin bu dərəcəsinə qohumluq dərəcəsinin yol verdiyi qanunsuz doğulan uşaqlar da aid edilirdi. Miras əmlak nəsillikcə keçirdi. Dördüncü dərəcəni ömür sürmüş ər-arvad (hər şeydən əvvəl arvad) təşkil edirdi və o, əvvəlki dərəcələrdən olan vərəsələrin olmadığı, yaxud digər əvvəlki vərəsələr mirası qəbul etməyi arzu etmədikləri hallarda vərəsəliyə çağırılırdı.

**Aquen Qanunnaməsi** – Aquen Məclisinin xristian dininə aid qəbul etdiyi qanunlar. Qanunnamə təxminən 498-ci ildə Albaniyanın hökmdarı III Vaçaqan tərəfindən çağırılmış məclisdə qəbul edilmişdir. Qanunnamə məhdud heyət tərəfindən – III Vaçaqan başda olmaqla 20-yə yaxın yepiskop və keşişlərin iştirakı ilə qəbul edilmişdir. Qanunnamə 21 bənddən ibarətdir. Onun 1-4-cü bəndləri dini vəzifələrin tutulması ilə əlaqədar maliyyə; 5-ci bəndi vergi; 6 və 8-ci bəndi hüquq; 7 və 9-cu bəndi din; 10-11-ci bəndləri ailə-nikah; 12-14-cü bəndləri tibbi-məişət məsələlərinə, qalan bəndləri isə müxtəlif sosial məsələlərə həsr edilmişdir. Xristian dini ayinlərinə düzgün əməl edilməsinə dair göstərişlər qanunnamədə xeyli yer tutur. Qanunnamədə onun iştirakçılar tərəfindən imzalandığı və III Vaçaqan möhürü ilə təsdiq edildiyi göstərilir.

**Aqnatlar** *(lat. agnates – ata tərəfdən qohum; ing. agnates)* – Roma hüququnda bir nəfər qəbilə başçısından kişi xətti ilə gələn bütün ailə üzvləri, habelə ailəyə nikah bağlanması və ya övladlığa götürmə nəticəsində daxil olan ailə üzvləri *(həmçinin bax: aqna qohumluq)*.

**Aqora** *(yun. agora – bazar meydanı)* – Homer Yunanıstanı dövründə azad vətən-

daşların xalq yığıncağının, məhkəmənin və ya hərbi yığıncağın keçirildiyi meydan. Sonralar yığıncaqların keçirilməsi üçün şəhər ictimai həyatının mərkəzi rolunu oynayan meydan da a. adlandırılmağa başlamışdır. Meydanın kənarlarında ictimai və mədəni binalar, habelə ticarət köşkləri yerləşdirilirdi. Afinadakı a. buna parlaq misal ola bilər. O, Periklin hakimiyyəti dövründə özünəməxsus zahiri görkəm almışdır.

**Aqoranomlar** *(yun. agora – bazar meydanı)* – polis funksiyasına malik olan, Afinada bazarların fəaliyyətinə nəzarəti həyata keçirən bazar nəzarətçiləri, vəzifəli şəxslər. 10 nəfər üzvdən (5 üzv Afina, 5 üzv isə Periya üçün) ibarət olan a. kollegiyası adətən bir il müddətinə seçilirdi. Misirdə Ptolemeyin hökmranlığı illərində hər bir dairədə yerləşən a. bağlanan xüsusi əqdləri protokollaşdırır və qeydiyyatdan keçirirdilər.

**Aqrar hüquq** – Azərbaycan Respublikasında və bir sıra digər ölkələrdə kompleks şəkildə ixtisaslaşdırılmış hüquq sahəsi, kənd təsərrüfatı sahəsində yaranan aqrar (torpaq, əmlak, əmək, təşkilati idarəetmə) ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemi. Kompleks şəkildə ixtisaslaşdırılmış hüquq sahəsi kimi aqrar hüququn hüquqi tənzimetmə predmetini hüququn ancaq bu sahəsinə xas olan ictimai münasibətlərin müəyyən qrupu təşkil edir.

Hüquq ədəbiyyatında "kənd təsərrüfatı hüququ" terminindən də istifadə olunur. Bu, mahiyyətinə görə "aqrar hüquq" termininin sinonimidir. Lakin "aqrar hüquq" termini aşağıdakı səbəblərə görə daha geniş məzmun kəsb edir: 1) a.h. hüququn bu sahəsinin spesifikliyini daha dəqiq əks etdirir, çünki o, aqrar münasibətlər kimi ələmətə görə xüsusi kompleks hüquq sahəsindən ibarətdir; 2) a.h. bu kompleks hüquq sahəsinin formalaşması və inkişafının mühüm subyektiv amili kimi dövlətin aqrar siyasətinin ifadəsinin və təsbitinin hüquqi formasına xidmət edir; 3) hüququn bu müvafiq sahəsinin formalaşmasının hüquqi əsasını dövlətin qanunvericilik fəaliyyəti nəticəsində təşəkkül tapan və normativ aktların məzmunundan, qanunvericilik sistemindən asılı olaraq mövcud olan aqrar qanunvericilik təşkil edir; 4) xarici ölkələrdə (Almaniya, ABŞ, Böyük Britaniya, İtaliya, İspaniya, Yaponiya və Fransada) sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi təcrübəsi nəzərə alınmalıdır, çünki xatırladılan ölkələrdə kənd təsərrüfatının hüquqi problemləri üzrə tədqiqatlar yarım əsrdən artıqdır ki, intensiv surətdə aparılır və "Aqrar hüquq" kursu tədris olunur.

Müasir a.h. hüquqi tənzimetmənin bir-birilə qarşılıqlı əlaqədə olan iki – torpağın becərilməsi, bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı prosesində xüsusi olaraq kənd təsərrüfatı fəaliyyəti sahəsində təşəkkül tapan aqrar münasibətlərin ənənəvi sahəsini; habelə aqrar hüquqla tənzim edilən münasibətlər sahəsini əhatə edir. Bundan başqa, a.h. torpaq, əmlak, əmək hüquq münasibətləri ilə yanaşı, kənd təsərrüfatı fəaliyyəti sahəsində təşkilati-idarəetmə münasibətlərini də tənzim edir.

**"Aqrar istehsalatın əsasları haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasının aqrar-sənaye kompleksinin (aqrar bölmənin) islahatının əsas istiqamətlərini və onların hüquqi təminatını tənzim edən qanunvericilik aktı. Qanun 1995-ci il 18 fevralda qəbul





edilmişdir. Həmin qanunda aqrar islahatın məqsəd və vəzifələri, əsas istiqamətləri və prinsipləri; aqrar bölmədə yeni mülkiyyət münasibətlərinin formalaşdırılmasına; müxtəlif növlü təsərrüfatların yaradılmasına; aqrar bölmənin dövlət tərəfindən təminatlandırılmasına və i.a. dair normalar nəzərdə tutulmuşdur. Qanun 4 fəsildən və 17 maddədən ibarətdir. Həmin qanunun müddəaları aqrar islahat sahəsində digər normativ aktlar üçün də əsas rol oynayır.

**Aqrar islahatlar** – torpaq sahibliyi və torpaqdan istifadə sisteminin dəyişdirilməsi, təkmilləşdirilməsi ilə əlaqədar həyata keçirilən dövlət tədbirləri. A.i. ilk dəfə XVII-XIX yüzilliklərdə Qərbi Avropanın bir sıra ölkələrində burjua inqilabları dövründə keçirilmişdir. Belə ki, a.i. İngiltərə və Fransa kimi ölkələrdə feodal ictimai münasibətlərinə və istehsal üsuluna güclü zərbə vurmuş, kənd təsərrüfatının kapitalist yolu ilə inkişafına təkan vermişdir. İlk burjua inqilabları feodal münasibətlərini tam ləğv edə bilmədiyinə görə a.i. bir sıra ölkələrdə burjua münasibətlərinin formalaşması və inkişafı prosesində hakim dairələrin mənafeləri naminə keçirilmişdir. Buna Prussiyada 1807-1811-ci illərdə, Rusiyada 1861-ci ildə və Rumıniyada 1864-cü ildə keçirilmiş a.i.-ı misal göstərmək olar. Rusiyada 1906-1916-cı illərdə də Stolıpinin aqrar islahatı keçirilmişdir.

İkinci dünya müharibəsindən sonra inkişaf etmiş və milli istiqlaliyyət qazanmış bir sıra kapitalist ölkələrində a.i.-ın keçirilməsilə əlaqədar qanunlar qəbul edilmişdir. A.i. haqqında 1946-cı ildə Yaponiyada, 1950-ci ildə İtaliyada, 1952-ci ildə Yunanıstanda, 1952-ci ildə Misir Ərəb Respublikasında, 1951-ci ildə Hindistanda, 1958, 1963 və 1966-cı illərdə Suriyada, 1961-ci ildə İndoneziyada, 1948, 1953 və 1962-ci illərdə Birmada, 1964-cü ildə Tunisdə və i.a. ölkələrdə qanun qəbul edilmişdir.

A.i.-da başlıca məqsəd kənd təsərrüfatında burjua istehsal üsulunun formalaşmasına və inkişafına yol açmaq olmuşdur. Bununla əlaqədar kəndlilərin torpaq uğrunda hərəkatının güclənməsi nəticəsində Latın Amerikasının bir sıra ölkələrində, o cümlədən 1915 və 1921-ci ildə Meksikada, 1960-cı ildə Venesuelada, 1952-ci ildə Qvatemalada, 1953-cü ildə Boliviyada, 1961-ci ildə Kolumbiyada a.i. keçirilmişdir. Peruda 1969-cu ildə keçirilmiş a.i. daha demokratik səciyyə daşımışdır. Burada istehsalat nəticəsində təqribən 8 milyon hektar mülkədar torpağı müsadirə edilərək kəndlilərə paylanmışdır. Ekvadorda 1973-cü ildə keçirilmiş a.i. nəticəsində kənddə yarımfeodal münasibətləri tamamilə ləğv edilmişdir.

**Aqrar qanunlar** *(lat. leges agrariare; ing. agrarian laws)* – torpaq ehtiyatlarına sahibliklə, onlardan istifadə və onların üzərində sərəncam verməklə əlaqədar əmələ gələn ictimai münasibətləri tənzim edən qanunlar. Hüquqi tənzimetmənin bu sahəsinə maraq hələ qədim dövrdə formalaşmışdır. Məsələn, Roma hüququnda a.q. əsasən dövlətə məxsus torpaqlar üzərində (aqer publicus) sahiblik hüququnu tənzim edirdi. Qədim Romada a.q. ilk dəfə çar dövründə verilmişdir. Romada eramızdan əvvəl III ildə verilmiş ən mühüm a.q.-dan biri lex agraria olmuşdur. Həmin qanun Semironi Qrakx tərəfindən Roma müstəmləkəçilərinə ayrılmış torpaq sahələrinin hüquqi statusunu müəyyən edirdi.

**Aqreje** *(fr. agrege – cəmiyyətdə qəbul edilən)* – Fransada universitetin tam kursunu bitirən məzunlara verilən alimlik dərəcəsi. A. litseylərdə və universitetlərin təbii elmlər və humanitar fakültələrində pedaqoji fəaliyyətlə məşğul (tədris etmək) olmaq hüququ verir.

**Aqreman** *(fr. agrement, agreer sözündəndir – bəyənmək)* – beynəlxalq hüquqda dövlətin konkret şəxsi digər dövlətin diplomatik nümayəndəliyin başçısı qismində qəbul etməyə verdiyi razılıq. A. almadan müvafiq şəxsin diplomatik nümayəndəliyin başçısı qismində rəsmi şəkildə təyin edilməsi praktiki olaraq mümkün deyil. Təcrübədə yaranmış qaydada və diplomatik münasibətlər haqqında 1961-ci il Vena Konvensiyasına uyğun olaraq a.-dan imtinanın motivləşdirilməsi məcburi ola bilməz. A. sorğusu və ona cavab, bir qayda olaraq, konfidensial qaydada həyata keçirilir. Beynəlxalq nəzakət qaydalarına uyğun olaraq bu cavab mümkün qədər ən qısa müddətdə verilməlidir.

**Aleator müqavilələr (əqdlər)** – mülki hüquqda müqavilənin bağlanması zamanı icrası tərəflərə məlum olmayan hallardan asılı olan riskli müqavilələr. A.m. özündə mənfəətlərin dəqiq və müqavilənin icra olunduğu halda mümkün itkilərin hesablanmasını qeyri-mümkün edən şərtləri ehtiva edir. Sığorta, satıcını ömürlük saxlamaq şərtilə evin alqı-satqı müqaviləsi, qumar oyunları ilə əlaqədar olan müxtəlif əqdlər a.m.-ə aid edilir.

**Alınmış veksel** – hüquqi əhəmiyyət kəsb edən sənəd olub, gələcəkdə müəyyən edilmiş tarixdə müəyyən pul məbləğinin ödənilməsi barədə yazılı borc öhdəliklərinin uçotu üçün nəzərdə tutulur.

**Alış əməliyyatı** – Rusiyada 1861-1906-cı illərdə kəndlilər tərəfindən onlara 1861-ci il torpaq islahatları nəticəsində verilmiş torpaq nadellərinin mülkədarlardan satın alınması. Satın alma məbəğini mülkədarlara dövlət ödəyirdi. Kəndlilər həmin məbləği hər il 6 faiz ödəməklə (satın alma ödəməsi) 49 il ərzində ödəməli idilər.

Qarşılıqlı ödəmələr 1905-1907-ci illər inqilabı nəticəsində dayandırılmışdır.

**Alış fondu** – bazarı tənzimləmək üçün səhm buraxan şirkətlərin yaratdığı fond. Buraxılmış səhmlərin qiymətinin buraxılış qiymətinə bərabər və ya ondan aşağı olduğu halda, şirkət səhmlərin bir hissəsini özü alır.

**Ali Attestasiya Komissiyası (AAK)** – Azərbaycan Respublikasında alimlik elmi dərəcələrinin və elmi rütbələrin verilməsini həyata keçirən ali icra hakimiyyəti orqanı. AAK-nın başlıca vəzifəsi yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində nəzarəti həyata keçirməkdən və elmi tədqiqatların aparılmasında vahid dövlət siyasətini yerinə yetirməkdən ibarətdir. AAK 1991-ci ildə yaradılmışdır

**Ali baş komandan** – həm müharibə dövründə, həm də dinc dövrdə dövlətin silahlı qüvvələrinin ali komandanı; ən yüksək hərbi vəzifə. A.b.k. vəzifəsini bir sıra ölkələrdə konstitusiyaya uyğun olaraq prezident (məsələn, ABŞ-da, Fransada), kansler (AFR-də), imperator (Yaponiyada) və başqaları icra edir. AR Konstitusiyasının 9-cu maddəsinin III hissəsinə uyğun olaraq AR-in Prezidenti AR Silahlı Qüvvələrinin ali baş komandanıdır.

**Alibi** *(lat. alibi – başqa yerdə)* - cinayətin törədildiyi anda şübhə edilən və ya təqsirləndirilən şəxsin təqsirsizliyinin sübutu







kimi onun başqa yerdə olması faktı. Kriminalistikada şübhəni rədd etmək üçün cinayətin törədildiyi anda şübhə edilən şəxsin başqa yerdə olduğunu təsdiq edən mühüm sübut. A.-nın hüquqi mənada sübut edilməsi şübhə edilən və ya təqsirləndirilən şəxsin vəzifəsi deyil, imkanıdır.

Kriminalistika əvvəlki a.-ni (cinayətin törədilməsinədək təmin edilən və düşünülmüş a.-ni) və sonrakı a.-ni (yəni cinayətkarın cinayəti törətdikdən sonra düşünüb qurduğu a.-ni) fərqləndirir. A.-nın bu formalarından birinin sübut edilməsi müəyyən hallarda cinayətkar əməlin planlaşdırılmasına və intensivliyinə, habelə onun törədilməsinə münasibətdə nəticələr çıxarmağa imkan verir. Əgər a. tarixi aspektdə nəzərdən keçirilərsə, xalis obyektiv a.-dən (cinayətin törədildiyi yerdə deyil, başqa yerdə olmanın sübut edilməsi) a.-nın subyektiv formasınadək inkişafını göstərmək zərurəti yaranır. Burada "hardasa başqa yerdə" anlayışına "kimsə, başqası" ("mən cinayətin törədildiyi yerdə olsam da, onu törətməmişəm") və "birtəhər, başqa cür" ("öz qabiliyyətimə və şəxsiyyətimə görə mən belə cinayəti törətməyə qadir deyiləm") anlayışları əlavə edilir.

**Ali Cinayət Məhkəməsi** - Rusiya imperiyasında XIX yüzilliyin ikinci yarısında və XX yüzilliyin əvvəlində fəaliyyət göstərmiş ali fövqəladə məhkəmə orqanı. Dekabristlərin siyasi prosesinin (1826-cı ildə), D.V. Karakazovun (1866-cı ildə), A.K. Solovyovun (1879-cu ildə) və başqalarının mühakiməsinin aparılması üçün yaradılmışdır. 1906-cı ildən birinci instansiya məhkəməsi kimi iri cinayət işlərinə baxmışdır.

**Ali Divan** – eyni saraydan (həmsaraylılar) olanlar və dövlət kəndliləri üçün Rusiyada XVIII əsrdə II Yekaterina tərəfindən geniş ərazili quberniyalarda 1775-ci il quberniya islahatları zamanı təsis edilmiş məhkəmə müəssisəsi. AD-yə iki sədr başçılıq edirdi. Hər iki sədr quberniya idarəsinin təqdimatı ilə senat tərəfindən təyin edilirdi. AD-nin 10 nəfərdən ibarət olan iclasçıları yerli kəndlilər tərəfindən onların öz içərisindən və ya zadəganlar içərisindən 3 il müddətinə seçilirdilər. AD-nin tərkibi və səlahiyyətləri Ali Zem Məhkəməsinin *(bax: Ali Zem Məhkəməsi)* tərkibinə və səlahiyyətlərinə uyğun idi. AD aşağı divanlar üçün quberniya apellyasiya instansiyası qismində fəaliyyət göstərirdi. 1796-cı ildə ləğv edilmişdir.

**Alienasiya** – **1)** özgəninkiləşdirmə, girov qoyma, satma; satma və ya başqasına vermə hüququ; **2)** səhm, kapital, qiymətli şeylər sahibinin əvəz edilməsinə aparan əməliyyat (məsələn, satma, başqasına vermə və i.a.).

**Ali kəndli məhkəməsi** – Baltikyanı quberniyalarda volost məhkəmələri tərəfindən qəti həll edilməyən işlər üçün apellyasiya və həmin məhkəmələr tərəfindən qəti qərar çıxarılan işlər üçün kassasiya instansiyasından ibarət olub 1889-cu il 9 iyul tarixli qanunla təsis edilmiş məhkəmə müəssisəsi. A.k.m. sədrdən və iki üzvdən ibarət idi. Sədr dünyəvi hakimlər üçün tələb edilən senzə malik şəxslər içərisindən ədliyyə naziri tərəfindən təyin edilirdi. Volost məhkəmələrinin sədrləri növbə ilə üzv olurdular. Dünyəvi hakimlərin qurultayı a.k.m.-nə münasibətdə kassasiya və yüksək instansiya rolunu oynayırdı.

**Alilik** – konstitusiya hüququnda aşağıdakı bir sıra mənalarda işlədilən (tətbiq edilən) termin:

*1) qanunun aliliyi (bax. qanunun aliliyi)* qanun formasına malik olan aktın digər normativ-hüquqi aktlarla müqayisədə daha yüksək hüquqi qüvvəyə malik olması;

*2) ərazi aliliyi* – dövlətin özünün razılığı olmadan onun ərazisinin dəyişdirilməsinin qeyri-mümkünlüyü.

**Ali magistratlıq şurası** – Fransa, İtaliya, Portuqaliya, Rumıniya, Kolumbiya, Əlcəzair və bir sıra digər ölkələrdə dövlət hakimiyyətinin xüsusi orqanı. A.m.ş.-nın başlıca *vəzifəsi hakimlər və prokurorlar* vəzifəsinə namizədlər seçməkdən, habelə hakimlərin intizam şurası funksiyasını həyata keçirməkdən ibarətdir. A.m.ş.-na, bir qayda olaraq, dövlətin prezidenti sədrlik edir. A.m.ş.-nın üzvləri ya respublikanın (Fransa və Əlcəzairdə) prezidenti tərəfindən təyin edilir, ya parlamentin palataları tərəfindən (Rumıniyada) seçilir, ya da sair üsulla (məsələn, İtaliyada a.m.ş.-nın üzvlərinin üçdə iki hissəsi hakimlər korpusunun özü tərəfindən seçilir, üçdə bir hissəsi isə parlament tərəfindən seçilirlər. Kassasiya məhkəməsinin birinci sədri və baş prokuror a.m.ş.-nın tərkibinə vəzifəyə görə daxil olunurlar) müəyyən edilir.

**Aliment** *(lat. - qida, saxlama, maddi təminat)* – ailə hüququnda saxlamaq; təmin etmək üçün vəsait. A.-in əsasını ailə münasibətləri – nikah, oğulluğa (qızlığa) götürmə və i.a. təşkil edir. Yetkinlik yaşına çatmayan uşaqlar, bir sıra hallarda isə ailənin yaşlı əmək qabiliyyəti olmayan üzvləri a. hüququna malikdir. AR Ailə Məcəlləsinin 75-ci maddəsinə uyğun olaraq valideynlər uşaqlarını saxlamadıqda uşaqların saxlanması üçün vəsait (aliment) valideynlərdən məhkəmə qaydasında tutulur. A. ödənilməsi barədə valideynlər (onlardan biri) uşaqları saxlamadıqda və məhkəməyə bu barədə iddia verilmədikdə müvafiq icra hakimiyyəti orqanı yetkinlik yaşına çatmayan uşaqlar üçün a. tutulması haqqında valideynlərə (onlardan birinə) qarşı iddia qaldırmaq hüququna malikdir.

**Aliment öhdəliyi** - alimentin ödənilməsi haqqında bağlanmış sazişdən irəli gələn öhdəlik. Ailə qanunvericiliyinə uyğun olaraq ər və arvad bir-birinə maddi cəhətdən kömək etməlidirlər. Bu köməyin göstərilməsindən imtina edildikdə və ər-arvad arasında alimentin ödənilməsi barədə saziş olmadıqda əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan ər və ya arvad bunu zəruri vəsaitə malik olan digər tərəfin aliment ödəməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdirlər.

**Aliment sazişi** - alimentin ödənilməsi barədə (alimentin miqdarı, ödənilmə miqdarı, ödənilmə qaydası və şərtləri) aliment ödəməli olan şəxslə onu alan şəxs arasında, aliment ödəməli olan və (və ya) onu alan şəxs fəaliyyət qabiliyyəti olmayan şəxs olduqda isə həmin şəxslərin qanuni nümayəndələri arasında bağlanan saziş. A.s. yazılı formada bağlanır və notariat qaydasında təsdiq edilir. Sazişin qanunla müəyyən olunmuş formasına əməl edilməməsi AR-in Mülki Məcəlləsində nəzərdə tutulmuş nəticələrə səbəb olur. Saziş notariat qaydasında təsdiq edildikdə icra vərəqəsi qüvvəsinə malik olur.

A.s.-nin bağlanması, icrası, dəyişdirilməsi, pozulması və etibarsız sayılması üçün AR Mülki Məcəlləsinin mülki-hüquqi əqdlərin bağlanması, icrası, dəyişdirilməsi, pozulması və etibarsız sayılması haqqında normalar tətbiq olunur. Saziş tərəflərin qarşılıqlı razılığı əsasında istənilən vaxt dəyişdirilə və pozula bilər. Sazişi icra etməkdən birtərəfli qaydada imtina etməyə və onun şərtlərinin birtərəfli qaydada dəyişdirilməsinə yol verilmir. Tərəflərin maddi və ailə vəziyyətində əsaslı dəyişiklik olduqda və sazişin dəyişilməsi və pozulması üçün razılıq əldə edilmədikdə, maraqlı tərəf bu sazişin dəyişdirilməsi və ya pozulmasından ötrü məhkəmə qarşısında iddia qaldırmaq hüququna malikdir. Aliment öhdəliklərinin xitamı qanunvericiliklə müəyyən edilir. AR Ailə Məcəlləsinin 113-cü maddəsinə uyğun olarq aliment ödənilməsi barədə saziş əsasında müəyyən olunmuş öhdəliklərə tərəflərdən birinin ölümü nəticəsində, sazişin müddəti bitdikdə və ya sazişlə nəzərdə tutulmuş əsaslar üzrə xitam verilir. Məhkəmə qaydasında tutulan alimentin ödənilməsinə aşağıdakı hallarda xitam verilir: a) uşaq yetkinlik yaşına çatdıqda və ya yetkinlik yaşına çatmamış tam fəaliyyət qabiliyyəti əldə etdikdə; b) aliment ödənilən uşaq övladlığa götürüldükdə; c) aliment alan şəxsin maddi yardıma ehtiyacının ödənildiyi və ya əmək qabiliyyətinin bərpa olunduğu məhkəmə tərəfindən müəyyən olunduqda; ç) aliment alan şəxs və ya aliment ödəyən şəxs öldükdə; d) əmək qabiliyyəti olmayan və ya ehtiyacı olan aliment alan ər və ya arvad yeni nikaha daxil olduqda.

**Ali Məclis** – Azərbaycanda XVI əsrdə Səfəvilər dövlətində ali dövlət orqanlarından biri. Səfəvi şahlarının taxt-taca çıxması AM-də elan olunurdu. Məsələn, II Şah İsmayıl vəfat etdikdən sonra AM-in iclası çağırılmış və Məhəmməd Xudabəndi şah elan edilmişdir. AM-in qərarı şahın sağlığında onun razılığı və rəyi olmadan dərhal icra oluna bilməzdi. Müvəqqəti şahsızlıq dövründə isə Məclisin qərarı əsas hesab olunaraq icra edilirdi. AM yalnız ölkənin mühüm məsələlərinin müzakirəsilə əlaqədar deyil, cari məsələlərin həlli məqsədilə də çağırılırdı. Səfəvilərdə yüksək dövlət vəzifələrinə təyinat məsələlərinin nəzərdən keçirilməsi, habelə xarici ölkə səfirlərinin qəbulu üçün də AM çağırılırdı.

**Ali məhkəmə** – dövlətin ali məhkəmə orqanı. A.m.-nin səlahiyyətinə, bir qayda olaraq, dövlətin müstəqil tərkib hissələri (ştatlar, əyalətlər, kantonlar və i.a.) arasındakı mübahisələrin həll edilməsi daxildir. Bundan başqa o, yüksək vəzifəli şəxslərin cinayətlərinə və ən mühüm dövləti cinayətlərə dair işlərə baxır. A.m. adətən yüksək apellyasiya instansiyası kimi fəaliyyət göstərir və ölkənin bütün aşağı məhkəmələrinin *(bax: Apellyasiya Məhkəməsi)* qərarlarından verilən şikayətə baxır. Bəzi (məsələn, ABŞ-da) dövlətlərdə A.m. həm də konstitusiyanın və konqres, ştatlar, federal hökumət orqanları tərəfindən qəbul edilmiş qərarların konstitusiyaya uyğunluğu haqqında məsələlərlə (konkret işlərə baxılması ilə əlaqədar) bağlı qərarların təfsiri funksiyasını həyata keçirir. Digər (məsələn, AFR-də) dövlətlərdə xatırladılan funksiyanı A.m. ilə yanaşı xüsusi konstitusiya məhkəmələri həyata keçirirlər. A.m. müxtəlif dövlətlərdə özünəməxsus rəsmi ada malik ola bilər. Məsələn, o, İtaliyada Ali Kassasiya Məhkəməsi, İsveçrədə Federal Məhkəmə, Estoniyada Dövlət Məhkəməsi adlanır, Qədim Yunanıstanda olduğu kimi, müasir Yunanıstanda da Areopaq adlanır.

**Ali Məxfi Şura** – Rusiyada 1726-1730-cu illərdə ali dövlət müəssisəsi. Üzvləri 7-8 nəfər olmuşdur. I Yekaterina tərəfindən

məşvərətçi orqan kimi yaradılmışdır; faktiki isə dövlət əhəmiyyətli məsələləri həll edirdi. AMŞ mütləqiyyəti öz xeyrinə məhdudlaşdırmağa cəhd göstərməklə, ilk vaxtlar I Pyotrun siyasətini davam etdirmişdir. 1727-ci ildə şurada A.D. Menşikov başlıca rol oynamışdır. II Pyotrun ölümündən sonra (1730-cu ildən) feodal aristokratiyasını müdafiə etmək məqsədilə Anna İvanovanı hakimiyyətə dəvət etmiş şura üzvləri müəyyən müqavilə şərti irəli sürmüşlər. Anna İvanovna hakimiyyətə gəldikdən sonra müqavilə şərtini pozmuş və A.m.ş.-nı 1730-cu ilin martında ləğv etmişdir.

**Ali Rada** – Ukrayna Respublikası Parlamentinin adı.

**Ali Səltənət Şurası** *(bax: məclisi əla).*

**Ali Sovet** – keçmiş SSRİ-də (1936-1988-ci illərdə, 1988-ci ildən SSRİ xalq deputatları Qurultayının daimi fəaliyyət göstərən orqanı) və onun tərkibinə daxil olan müttəfiq respublikalarda ali dövlət hakimiyyəti orqanı. Qanunvericilik hakimiyyətini yerinə yetirirdi.

**Ali Şura Məclisi** – Azərbaycanda XVI əsrdə Səfəvilər dövlətində ali dövlət orqanlarından biri. Hüquqi cəhətdən tam səlahiyyətli, sərbəst qərar qəbul edən orqan olmuşdur. AŞM, adətən qərarlar çıxarmaqla kifayətlənmir, onların icrasına nəzarəti də həyata keçirirdi. Səfəvi taxt-tacına yeni şah təyin edilməsində AŞM həlledici səlahiyyətə malik idi. Onun yazılı qərarı yeni şahın təyin edilməsi üçün əsas hüquqi sənəd idi. Məhz buna görə də həmin sənəd tac qoyma mərasimində uca səslə oxunmalı idi. Şah Süleyman dövründə AŞM ilə yanaşı ikinci dövlət orqanı olan "Dövlət Şurası" da fəaliyyət göstərmişdir. Dövlət Şurasında ölkənin idarə olunmasına, iqtisadi inkişafına, maliyyə və ticarət məsələlərinə, hərbi işlərə dair müxtəlif qərarlar qəbul edilirdi. Bu şura həm də Yüksək Divan və ya Dövlət heyəti adını daşımışdır. Heyətin üzvləri (müşavirlər) təcrübəli və bilikli şəxslərdən ibarət idi.

İstər AŞM-in, istərsə də Dövlət Şurasının çıxardığı qərarlar şahın ciddi nəzarəti altında idi. Belə ki, şah malik olduğu mütləq hakimiyyəti hər hansı bir digər vəzifə sahibi və ya məşvərətçi orqanla bölüşdürmürdü. I Şah Abbasın dediyi kimi: "Adətən heç bir padşah öz vəzirlərinə, sərkərdələrinə və əmirlərinə arxayın olmamalı və onlara tam arxalanmamalıdır. Səltənətin və ölkənin idarə edilməsini vəzirlərə, sərkərdələrə və ya əmirlərə tapşırmış şah bədbəxt olacaqdır. Buna görə də mən ölkənin bütün işlərini öz iradəm və şəxsi məsuliyyətim ilə yerinə yetirirəm".

**Ali təhsil** – elm, texnika və mədəniyyətin müasir nailiyyətlərindən yaradıcı şəkildə istifadə etməklə hazırlıq yönümlü nəzəri və əməli məsələlərin həllinə imkan verən sistemləşdirilmiş bilik və təcrübi vərdişlərin məcmusu. "A.t." termini ali təhsil müəssisələrində elm və mədəniyyətin müxtəlif sahələri üçün yüksək ixtisaslı kadrlar hazırlanması mənasında da işlədilir.

Qədim Şərq ölkələrində (Misir, Babilistan, Assuriya və Çində) eramızdan bir neçə min il əvvəl yüksək elmi biliklər verən məktəblər yaradılmışdır. Bu məktəblərdə gənclər filosof-mütəfəkkirlərin və şairlərin əsərlərini öyrənir, təbiət hadisələri və qanunları, göy cisimləri, mineral bitki və heyvanlar haqqında məlumatlarla tanış olurdular. Qədim Yunanıstanda təhsil sistemlərinin yaradılmasına xüsusi diqqət yetirilirdi. Platonun təklif etdiyi üçmərhələli təhsil sisteminin son mərhələsini a.t. təşkil edirdi.

Lakin müasir mənada a.t. yalnız orta əsrlərdə yaranmışdır. XI-XII yüzilliklərdə təlimdə ancaq nəzəri tədqiqatlara deyil, həm də müşahidə və təcrübəyə əsaslanan dünyəvi ali təhsil müəssisələri İtaliyanın Saleron şəhərində tibb məktəbi meydana gəlmişdir. XII-XIII əsrlərdə Avropanın bir sıra ölkələrində universitetlər təsis edilmişdir. Şərqdə ilk ali təhsil müəssisələri X-XI əsrlərdə yaradılmışdır. Bağdaddakı Nizamiyyə mədrəsəsi (XI əsr), Təbrizdəki "Dar üş-şəfa" ("Şəfa evi") mədrəsəsi (XIV əsrin əvvəli) öz dövrünün ali təhsil müəssisələri olmuşlar.

Keçmiş SSRİ-nin ərazisində ilk ali təhsil müəssisələri Gürcüstandakı Kolxida (IV əsr), İkalto və Gelati (XI-XII əsrlər) akademiyaları olmuşdur. 1632-ci ildə ilk rus-Ukrayna ali təhsil müəssisəsi-Kiyev-Mogila Akademiyası, 1687-ci ildə isə Moskva Slavyan-Yunan-Latın Akademiyası açılmışdır. 1725-ci ildə Peterburqda Akademiya Universiteti, 1755-ci ildə isə Moskva Universiteti təsis olunmuşdur.

Azərbaycanda ilk ali təhsil müəssisəsi - Azərbaycan Dövlət Universiteti 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyəti tərəfindən təsis edilmişdir.

**Ali təhsil müəssisəsi (ali məktəb)** – AR qanunvericiliyi ilə əsaslandırılan, fəaliyyət göstərən və hüquqi şəxs statusuna malik olan təhsil müəssisəsi. A.t.m.-nin statusu onun növündən, təşkilati-hüquqi formasından, dövlət akkreditasiyasının olub-olmamasından asılı olaraq müəyyən edilir.

**Ali təhsil müəssisəsinin muxtariyyəti** – kadrların seçilməsində və yerləşdirilməsində, öz nizamnaməsinə uyğun olaraq elmi fəaliyyətin, tədris və maliyyə-təsərrüfat fəaliyyətinin həyata keçirilməsində ali təhsil müəssisəsinin qanunvericiliklə müəyyən olunmuş qaydada təsdiq edilmiş sərbəstliyi (müstəqilliyi).

**Ali vəzarət divanı** – Azərbaycanda XVI əsrdə Səfəvilər dövlətində mərkəzi idarəçilik orqanlarından biri. İlkin Səfəvilər dövründə təsis olunmuş və mərkəzi dövlət aparatının strukturuna daxil edilmişdir. A.v.d.-na vəziri-əzəm başçılıq edirdi. Vəziri-əzəm (baş vəzir) dövlətin idarə olunmasında mühüm rol oynamışdır. O, dövlətdə şahdan sonra ən yüksək vəzifə sahibi hesab olunurdu. Vəziri-əzəm eyni zamanda da şahın naibi və müavini sayılırdı (həmçinin bax: etimad əd-dövlə).

**Aliyə mühakiməsi** – Birinci dünya müharibəsi dövründə –1916-cı ildə Suriya, Livan və Fələstin milli-azadlıq hərəkatı rəhbərlərinin mühakimə olunduğu məhkəmə prosesi. 1916-cı ilin yazında ərəb milli hərəkatının başçıları həbs edilmiş və Livanın Aliyə şəhərində hərbi məhkəməyə (tribunala) verilmişlər. 1916-cı il mayın 6-da hərəkatın ən görkəmli rəhbərləri xalq qarşısında edam olunmuşlar. Həmin gün Livan Respublikasında hər il matəm günü kimi qeyd olunur.

**Ali Zem Məhkəməsi** – Rusiyada 178[?]-ci ildə aparılan ümumi quberniya islahatları zamanı zadəganlar üçün II Yekaterina tərəfindən təsis edilmiş məhkəmə müəssisəsi. AZM-in tərkibinə senat tərəfindən təsdiq edilən iki sədr və yerli zadəganlar tərəfindən seçilmiş 10 nəfər iclasçı daxildir. İclasçılar 3 il müddətinə seçilirdilər. AZM-in nəzdində prokuror və məhkə-

mə nəzarətçisi də fəaliyyət göstərirdi. Məhkəmə mülki işlər və cinayət işləri üzrə departamentlərə bölünürdü və quberniya apellyasiya instansiyası qismində fəaliyyət göstərirdi. O, aşağı qəza və aşağı zem məhkəmələri üçün apellyasiya instansiyası rolunu oynayırdı. İddianın dəyəri 100 rubldan yuxarı olmayan işlər AZM-də qəti həll edilirdi. AZM 1976-cı ildə I Pavel tərəfindən ləğv edilmişdir.

**Alkald** *(isp. alcalde)* – İspaniyada və bir sıra Latın Amerikası ölkələrində bələdiyyə şurasının sədri; şəhər hakimi.

**Alkoqol** *(ing. alcohol; isp. alcohol)* – spirtli içki. Kriminalistika təcrübəsində metil (metanol ağac spirti) və etil (etanol) bir-birindən fərqləndirilir. Metil spirti zəhərlənməyə səbəb olur, o cümlədən spirtli içkilər onun vasitəsilə yararsızlaşdırılır. Etil spirti, hər şeydən əvvəl, sərxoş vəziyyətdə olan yol hərəkəti iştirakçılarının vəziyyətinin qiymətləndirilməsində, a.-un təsiri altında törədilən hüquq pozuntusunun, ölümcül zəhərlənmələrin (ölümün səbəbinin, meyitin məhkəmə-tibbi yarılmasının) müəyyən edilməsində maraq kəsb edir. A.-un hətta mötədil dozası eşitmənin, görmənin, vərdişlərin (avtomobili idarə etmək iqtidarında olmamaq, yazı xəttinin dəyişməsi) əhəmiyyətli dərəcədə pozulmasına səbəb olmaqla orqanizmə və psixikaya, reaksiyanın sürətinin dəyişməsinə, diqqətin, müşahidə etmənin pozulmasına təsir göstərir. A. qəbul etmiş şəxslərdə tormozlanma, yüngülfikirlilik, habelə riskə hazırlıq qeyd edilir. Sərxoşluğun mərhələləri müxtəlifdir. O, sadə formadan şüurun dərindən pozulması ilə tam sərxoşluq formasınadək yüksəlir.

**Alkoqolizm (alkoqol düşkünlüyü)** – spirtli içkilərin müntəzəm qəbul edilməsi nəticəsində baş verən və spirtli içkilərə hərisliklə səciyyələndirilən xəstəlik. A. psixi və fiziki pozğunluqlar törədir, şəxsin ictimai münasibətlərdə iştirakına mənfi təsir göstərir. Xroniki a. xəstəlik hesab olunur.

"A." terminini elmə ilk dəfə 1849-cu ildə İsveç həkimi M.Huss gətirmişdir. Bu terminin müasir bioloji və tibbi mənası onun sosial məzmunu ilə qırılmaz surətdə bağlıdır. Lakin cəmiyyətə qarşı hüquqazidd davranışdan ibarət olan adi sərxoşluğu (bax: sərxoşluq) xəstəlik sayılan xroniki a. ilə eyniləşdirmək olmaz. A. sərxoşluqdan törəyir. Ümumiyyətlə, alkoqol hüceyrələr üçün zəhərdir, xüsusilə də beyin hüceyrələri onun təsirinə çox həssasdır. Qəbul edilmiş spirtli içki asanlıqla qana sovrularaq mərkəzi sinir sistemində bir sıra pozğunluqlar törədir.

AR Cinayət Məcəlləsinin 93.1.4-cü maddəsinə uyğun olaraq cinayət törətmiş, alkoqolizmdən və ya narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə məhkəmə tərəfindən tibbi xarakterli məcburi tədbirlər təyin edilə bilər. Yaxud həmin məcəllənin 70.5-ci maddəsinə uyğun olaraq məhkəmə şərti məhkum etmə növündə cəza təyin edərkən məhkumun üzərinə...alkoqolizmdən ...müalicə kursu keçmək... vəzifəsini qoya bilər.

**Alkoqol sərxoşluq** *(bax: sərxoşluq)*.

**Alqı-satqı müqaviləsi** – mülki-hüquqi müqavilələrin ən çox yayılmış növlərindən biri. AR Mülki Məcəlləsinin 567-ci maddəsinə uyğun olaraq alqı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür.





A.s.m. ikitərəfli, əvəzli müqavilələrə aid edilir. Onun predmetini əşya (əmlak) təşkil edir. Alqı-satqı müqaviləsində nəzərdə tutulmuş əşyanı satıcı alıcıya verməyə borcludur. Müqavilədə digər qaydanın nəzərdə tutulmadığı hallarda satıcı əşyanı alıcıya verməklə eyni vaxtda onun ləvazimatını, habelə əşyaya aid olan, qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulan sənədləri (texniki pasportu, keyfiyyət sertifikatını, istismar təlimatını və i.a.) də verməyə borcludur.

AR-in mülki qanunvericiliyi möhlətlə, kreditlə, avtomatlardan istifadə ilə, pərakəndə ticarətlə. nümunələr üzrə alqı-satqının, habelə ayrı-ayrı əmlak növlərinin satışının alqı-satqı müqaviləsinin hüquqi rejiminin xüsusiyyətlərini nəzərdə tutur. Tədarük, enerji təchizatı, daşınmaz əmlakın satılması, müəssisələrin satılması müqaviləsi a.s.m-nin xüsusi növlərini təşkil edir.

**Allod** *(alm. allod; al – tam, od – sahiblik)* – qədim german tayfalarında və Qərbi Avropanın erkən feodal dövlətlərində fərdi-ailə torpaq mülkiyyətinin sərbəst surətdə özgəninkiləşdirilməsi. Feodal ictimai münasibətlərinin inkişafı ilə xırda a.-ların əksəriyyəti asılı kəndli saxlancına, iri və orta torpaq sahiblərinin a.-ları isə benefisiya və feodlara çevrilmişdir. Mövcud olduğu dövrün qəlibi kimi inkişaf etmiş feodalizm şəraitində də mövcud olmuşdur.

**Allonj** *(fr. allonge – əlavə etmə)* – veksel blankında, onun təslimi, zəmanəti və ya təminatı üçün qeydə yer olmadığı hallarda vekselə yapışdırılan əlavə vərəqə (indossament). Ondakı birinci təslim qeydinə vekseldən başlayıb a.-da qurtarmaq qəbul edilmişdir. Onda aval da edilə bilər.

**Almenda** *(alm. allmende)* – erkən orta əsrlərdə german xalqlarında (sonra isə Qərbi Avropa ölkələrində) bir və ya bir neçə ərazi icmasının (markların) ümumi istifadəsində olan torpaq (biçənəklər, meşələr, otlaqlar, balıq tutma yerləri) sahələri.

**Alpari** *(ita. al pari, alla pari – bərabər)* – qiymətli kağızların və ya valyutaların birja, bazar qiymətinin onların nominal dəyərinə uyğunluğu (paritet).

**Alternat** *(lat. alternus – ikisindən biri)* – beynəlxalq hüquqda müqavilə mətninin onun iştirakçıları tərəfindən növbə ilə imzalanmasını tənzimləyən qayda. Razılığa gələn tərəflər üçün nəzərdə tutulan beynəlxalq sazişin nüsxəsində birinci onun adı (tərəflərin ümumi siyahısında), müvəkkil edilmiş şəxslərin imzası, möhür və müqavilənin ona tərəfdar çıxan dövlətlərin dilində mətni yerləşdirilir. İmzalandıqdan sonra müqavilənin tərəflərdə qalan nüsxəsi də a. adlanır.

**Alternativ aidiyyət** – öz hüquqlarının müdafiəsini arayan şəxsin seçdiyi aidiyyət.

**Alternativ mülki xidmət** – vətəndaşın hərbi xidmət əvəzinə çəkməli olduğu başqa bir xidmət növü. AR Konstitusiyasının 76-cı maddəsinin II hissəsinə uyğun olaraq vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir.

**Alternativ öhdəlik** – borclunun razılaşdırılmış iki və ya daha artıq hərəkəti; bu hərəkətlərdən birinin edilməsi öhdəliyin icrası deməkdir. Borclu bir kreditora əmlakın müxtəlif növlərini verməklə iki və ya daha artıq hərəkətlərdən birini icra edir.

Əgər qanunvericilikdə və ya öhdəliyin şərtlərində sair hal nəzərdə tutulmamışdırsa, a.ö. icra olunan zaman borclu bu və ya digər əmlakı kreditora verib-verməməyi və onun xeyrinə məhz hansı, hər şeydən əvvəl, etməyə borclu olduğu hərəkəti edib-etməməyi seçməyə haqlıdır.

**Alternativ sanksiya** – keçən yüzilliyin 80-ci illərində adətən təyin edilən cinayət-hüquqi sanksiyanın əvəz edildiyi tədbir. Münaqişələrin tənzim edilməsi üçün cinayət-hüquqi reqlamentləşdirmənin alternativ variantları qismində aşağıdakılar təklif olunurdu: 1) ayrı-ayrı cinayət tərkiblərinin aşağıdakı üç mümkün nəticələrlə dekriminallaşdırılması: a) cinayət cəzasından (məsələn, aborta, homoseksualizmə görə) tam və ya qismən azad etmə; b) cinayət məsuliyyətini inzibati məsuliyyətlə əvəz etmə; c) münaqişəli situasiyaları mülki hüquq normalarından istifadə etməklə tənzimləmə; 2) cinayətkarın cəzalandırılması əvəzinə ona terapiya tətbiq edilməsi (narkotiklərlə əlaqədar cinayətlərə görə təcrübədə 1982-ci ildən realizə olunur); 3) gündəlik həyatda münaqişələrin həllinin qeyri-formal və qismən də formal üsullarından istifadənin genişləndirilməsi. Burada yayınan davranışın – yayılmış hadisənin, cinayət qaydasında törədilən cinayətlərin böyük hissəsinin, bir qayda olaraq, təqib edilməməsi (latent cinayətkarlıq mövcuddur) nəzərdə tutulur. Qanun pozuntusu ilə əlaqədar olan münaqişəli situasiyaların adətən cinayət-hüquqi təsir vasitələrinin tətbiqi olmadan həll edildiyinə görə bu strateji xətti – münaqişəli situasiyaların qeyri-formal yolla həllini inkişaf etdirmək lazımdır.

**Alternativ seçkilər** – öz aralarında rəqabət aparan iki və ya daha çox namizədlər içərisindən hər hansı bir orqana vəzifəli şəxsin seçilməsi.

**Alternativ səsvermə** – majoritar seçki sisteminin məhsuldarlığının yüksəldilməsi üçün onun keçirilməsi zamanı tətbiq edilən seçki üsulu. Artıq birinci turda iki, üç, dördturlu səsvermə öz səmərəsini göstərir. A.s. zamanı seçici bülletendə namizədlərdən hər hansı birinə münasibətdə üstünlükləri qeyd edir. Səslər hesablanarkən, əgər birinci üstünlüyə görə namizədlərdən heç biri mütləq çoxluğu toplamazsa, az müvəffəqiyyətli namizədə verilmiş səslər ikinci üstünlüyə uyğun olaraq qalan namizədlər arasında bölüşdürülür. Bu qayda namizədlərdən birinin səslərin mütləq əksəriyyətini toplamasınadək davam edir.

**Altıüzvlü Duma** - 1785-1870-ci illərdə Rusiyada, 1846-cı ilədək Sankt-Peterburqda və 1862-ci ilədək Moskvada fəaliyyət göstərmiş şəhər özünüidarəsinin icra orqanı. 6 nəfər üzvdən ibarət olmaqla 3 il müddətinə seçilirdi. AD əsasən şəhərin abadlaşdırılması məsələləri ilə məşğul olurdu.

**Altinq** *(isp. althing; ing. althing)* İslandiyanın ikipalatalı parlamentinin adı.

**Alyans** *(fr. alliance)* – (adətən dövlətlər və təşkilatlar arasında) ittifaq, yaxud birləşmə.

**Amalqamasiya** *(ing. amalgamation)* – **1)** şirkətlərin, korporasiyaların bir-birinə qovuşması, birləşməsi; bir korporasiyanın digərinə qatılması; **2)** əvvəllər müstəqil olan bankların rəqabət-mübarizə prosesində bir-birinə qovuşması; bank kapitalının mərkəzləşdirilməsi formalarından biri. A.-nın iki növü fərqləndirilir: a) bir iri bankın digərini özünə birləşdirməsi (qatması); b) bankların qovuşması yolu ilə yeni bankların yaradılması.





**Aman** *("təhlükəsizlik")* – müsəlmanın rəqibə, adətən qeyri-müsəlmana verdiyi təhlükəsizlik təminatı. Quranda belə termin yoxdur, lakin onun əvəzinə civar ("himayədarlıq"), yəni "müdafiə öhdəliyi" istilahından istifadə olunur. Ələ keçirilmiş həyatın və əmlakın toxunulmazlığına təminat verilməsi mənasında a. termininə ilk dəfə Xalid İbn əl-Validin 634-cü ildə Dəməşqlə bağladığı müqavilədə təsadüf olunur. A.-nın zimmədən fərqi ondan ibarətdir ki, bu, sonradan müəyyən qarşılıqlı öhdəliyin irəli gəlmədiyini təcəssüm etdirən aktdır. A.-dan mühafizə məktubu formasında qeyri-müsəlmanın müsəlman ölkəsinə təhlükəsiz gəlməsinə təminat verən sənəd kimi istifadə edilmişdir. A.-nın bu forması Avropa ölkələrinin Osmanlı imperiyası ilə müqavilə münasibətlərinin bərqərar olması üçün əsas olmuşdur.

**Ambalaj** *(fr. emballage qablaşdırma)* – beynəlxalq ticarətdə qablaşdırma xərcləri, qablaşdırma materialı.

**Amerika depozit iltizamı** şirkətin – xarici dövlətin rezidentinin ABŞ ərazisində yerləşdirildiyi prosesdə əldə etdiyi səhmlərə sahibliyini təsdiq edən iltizam; bazarda sərbəst dövriyyədə olur.

**Amerika depozit şəhadətnaməsi** – xarici şirkətin səhmlərinin depozitdə və ya ABŞ-ın bank müəssisəsinin nəzarəti altında olduğunu təsdiq edən sənəd. A.d.ş.-indən əqdlərə kömək etməkdən və xarici qiymətli kağızlar üzərində mülkiyyətin ABŞ-a köçürülməsini sürətləndirməkdən ötrü istifadə olunur.

**Amerika Dövlətləri Təşkilatı (ADT)** – Qərb yarımkürəsində beynəlxalq məhəlli təşkilat. Formal olaraq qitədə sülh və təhlükəsizliyi müdafiə etmək məqsədinə xidmət edir. Əslində isə Amerika dövlətlərinin hərbi-siyasi blokudur. 1948-ci ildə Boqota şəhərində (Kolumbiya) yaradılmışdır. ADT ABŞ-ın Latın Amerikası ölkələrinə iqtisadi və siyasi təcavüz alətidir. Təşkilatın üzvləri arasında qarşılıqlı müdafiə müqaviləsi və i.a. hərbi sazişlər də bağlanmışdır. ADT-yə Latın Amerikasının 23 ölkəsi və ABŞ daxildir. 1972-ci ildən Kanada, İspaniya, Fransa, İtaliya, Hollandiya, Qayana və İsrail daimi müşahidəçi qismində ADT-də təmsil olunurlar. 1962-ci ildə Kuba ABŞ təzyiqi ilə təşkilatdan xaric edilmişdir. ADT-nin ali orqanı Amerika Dövlətləri Konfransıdır (ADK). Konfrans 5 ildən bir çağırılır. Daimi icra və inzibati orqanı Vaşinqtonda yerləşən ADT Şurasıdır.

**Amerika Kriminologiya Assosiasiyası (AKA)** – dünyanın ən böyük kriminoloqlar təşkilatı. 1941-ci ildə yaradılmışdır. AKA-da hüquq elminin müxtəlif sahələri ilə məşğul olan on minlərlə alim-tədqiqatçı fəaliyyət göstərir. Onların əksəriyyəti ABŞ-da çalışan alimlərdir. Assosiasiyanın üzvləri kriminologiyanın müxtəlif cərəyan və istiqamətlərini təmsil edirlər. Onların arasında həm sol kriminoloqlara, həm də hüquqi-ekstremist yönümlü kriminoloqlara təsadüf etmək olar. AKA-nın hər il keçirilən iclaslarında kriminologiyanın ən yeni və son nailiyyətləri haqqında alimlərin məruzələri dinlənilir, ölkənin, habelə digər dövlətlərin kriminoloq-alimləri xidmətə görə mükafatlandırılır. Assosiasiyanın fəaliyyətinin təşkili onunla asanlaşdırılmışdır ki, AKA-da kriminologiya tədris

fənni sayılır, bu elmi öyrənən tələbələr isə təhsilini başa vurduqdan sonra nəinki sosial xidmətə, həm də dövlətin idarəçilik orqanlarına, o cümlədən hüquq-mühafizə sahələrinə həvəslə dəvət olunurlar.

**Amneziya** *(a...+yun. mneme – yaddaş, xatirə)* – xatirələrin olmaması və ya müəyyən dövrün hadisə və sarsıntıları haqqında natamam xatirələr. A. patoloji sərxoşluğun simptomlarından biridir. A.-nın müxtəlif növləri şüurunun bir çox xəstəlikləri zamanı müşahidə olunur. A. anlayışından məhkəmə tibbi, psixiatriya ekspertizalarının və digər ekspertizaların aparılmasında, dindirmə və sair istintaq hərəkətləri prosesində istifadə olunur.

**Amnistiya** *(yun. amnestia – unutma, bağışlama)* – cinayət törətmiş şəxslərin qeyri-müəyyən dairəsinin cinayət məsuliyyətindən və ya cəzadan tam, yaxud qismən azad edilməsi və ya cəzanın daha yüngül cəza ilə əvəz edilməsi; cəzanın çəkilməmiş hissəsinin azaldılması və ya onu çəkən şəxslərin üzərindən məhkumluğun götürülməsi. AR-də a. AR Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndinə uyğun olaraq AR prezidenti tərəfindən elan olunur.

A. ümumi (a. haqqında aktın digər şərtləri nəzərə alınmaqla Cinayət Məcəlləsinin müəyyən maddələrində nəzərdə tutulmuş cinayətləri törətmiş şəxslərə aid edilir) və qismən, yəni ayrı-ayrı məhkumlar barəsində (bağışlama formasında həyata keçirilir) ola bilər. A. yalnız A. haqqında aktın qüvvəyə minməsinədək baş vermiş cinayətlərə aid edilir. A. hüququ ali nümayəndəli qanunvericilik orqanına və ya dövlət başçısına verilir.

**Amoralizm** *(yun. a - inkar şəkilçisi + lat. moralis – əxlaqi)* – hər cür əxlaq normalarının inkarı, əxlaqsızlığın ictimai davranış prinsipi səviyyəsinə qaldırılması. A. cəmiyyətdə əxlaqi dayaqların və hamılıqla qəbul edilmiş davranış normalarının inkarında ifadə olunur. O, əxlaqi dəyərləri rədd etməkdən ibarət olan mənəviyyatsızlıqdır.

**Amortizasiya** *(lat. amortisation - ödəmə)* – **1)** əsas fondların sıradan çıxmasının pulla ifadəsi; sıradançıxma vəziyyətinə görə əmək vasitələrinin dəyərinin tədricən onların köməyi ilə istehsal olunan məhsulun üzərinə köçürülməsi prosesindən ibarətdir. A. ayırmaları istehsal xərclərinə daxil edilir və məhsulun realizə edilməsindən sonra əsas fondların bərpası üçün istifadə olunur. Sürətli a. amortizasiya ayırmalarının fəaliyyət normalarının yüksəldilməsindən ibarətdir; **2)** vergi qoyulmuş əmlakın dəyərinin azalması (kapitallaşdırılmış vergi məbləği səviyyəsində).

**Amortizasiya fondu** – əsas fondların sadə və genişləndirilmiş istehsalı üçün nəzərdə tutulmuş pul vəsaitləri. A.f. ikili iqtisadi təbiətə malikdir. Yəni o, eyni vaxtda əsas fondların itkilərinin ödənilməsi və onların genişləndirilmiş istehsalı prosesinə xidmət edir.

**Amortizasiya müddəti** – istehsal vasitələri dəyərinin amortizasiya ödəmələri hesabına vaxtında tam ödənilməsi. A.m. amortizasiya normalarının hesablanmasına xidmət edir. A.m. əksər ölkələrdə dövlət tərəfindən tənzim olunur.

**Amortizasiya ödəmələri** – əsas fondların itkisinin onların dəyər ifadəsində tədricən ödənilməsi. A.ö.-nin tam və qismən bərpası fərqləndirilir. Tam bərpa etmə əsas fondların ancaq fiziki deyil, həm də mənəvi itkilərini aradan qaldırmalıdır.







Qismən bərpa etmə isə əsas fondların əsaslı təmiri üçün nəzərdə tutulur.

**Amparo** *(isp. amparo – himayədarlıq, müdafiə, yardım)* – İspaniyanın və Latın Amerikasının bir sıra ölkələrinin (Meksikanın, Ekvadorun, Perunun və başqalarının) hüququnda şəxsiyyətin əsas konstitusiya hüquqlarının müdafiə vasitəsi olan xüsusi prosedur; konstitusiya şikayətilə çox oxşardır. A.-nun fərqləndirici cəhəti onun fərdi səciyyə daşımasından ibarətdir. Məsələn, Meksika Konstitusiyasının 107-ci maddəsinə uyğun olaraq federal məhkəmə tərəfindən insan hüquqlarının pozulması haqqında işlər üzrə çıxardığı qərar konkret iş üzrə müdafiədən ibarətdir və özündə qanun və ya şikayət edilmiş hərəkətlər barəsində ümumi ərizəni ehtiva etmir.

**Anadangəlmə cinayətkar nəzəriyyəsi** – cinayətkarlığın səbəbləri konsepsiyası; XIX yüzillikdə Ç.Lombrozo tərəfindən işlənmişdir. A.c.n. insanların müəyyən bir hissəsinin cinayətkarlığa (cinayətlər törətməyə) bioloji mənsubiyyətini əsaslandırır. Bu nəzəriyyənin məlumatları müasir kriminologiya elmi tərəfindən təsdiq edilmir. Onun əsasını cinayət hüququnun antropoloji məktəbi təşkil edir.

**Analıq** – **1)** qadının – ananın uşaq doğması, saxlaması və tərbiyə etməsilə əlaqədar hüquq və vəzifələrinin məcmusu. Nikahda olan valideynlərdən törəyən uşaqların ana mənşəyi valideynlərin nikahda olmaları haqqındakı vətəndaşlıq vəziyyəti aktı (kəbin şəhadətnaməsi) ilə təsdiq olunur. Valideynlər nikahda olmadıqda uşaqların ana mənşəyi onların ata və analarının birgə ərizəsinə əsasən müəyyən edilir. Ana doğum haqqında şəhadətnamədə uşağın valideyni kimi qeyd edilir; **2)** ögey ana mənasında da işlədilir.

**Analitik təfsir** – hüquq normalarının məzmununun aydınlaşdırılması məqsədi ilə təhlil (analiz) metodunun tətbiqinə əsaslanan təfsir. A.t.-in vəzifəsi hüquq normalarının (qanunların) tərkibinin keyfiyyət göstəricilərini öyrənməkdən, təhlil etməkdən ibarətdir.

**Analitik uçot** – analitik hesabların köməyi ilə müəssisələrin təsərrüfat əməliyyatlarının və vəsaitlərinin mühasibat uçotunun müfəssəlləşdirilməsi.

**Analitik yurisprudensiya** *(yun. analytikos – təhlilə aid olan və lat. jurisprudentia* – hüquqşünaslıq, hüquqşünasların elmi və təcrübi fəaliyyətinin məcmusu) – qüvvədə olan hüququn hərtərəfli nəzəri təhlili və ondan təcrübədə səmərəli istifadə məqsədilə onun elmi cəhətdən təhlil edilməsi sistemi. Müasir a.y. ən yeni hüquqi pozitivizmin modelləşdirilməsindən ibarətdir.

**Analogiya** *(yun. analogia – uyğunluq, oxşarlıq)* – hüquqda hüquqi tənzimlənmə tələb edən, lakin birbaşa qanunla və ya qanunqüvvəli aktla nəzərdə tutulmayan oxşar hüquq normalarının ictimai münasibətlərə tətbiqi (qanunun analogiyası). Belə normaların – müvafiq hüquq sahəsinin və ya hüquq institutunun hüquqi tənzimetməyə dair ümumi başlanğıclarının və prinsiplərinin olmadığı hallarda hüququn analogiyası mövcud olur. Müəyyən məsələnin hüquqi vasitələrlə həll edilməli olduğu vaxt belə həllin qanunvericiliklə nəzərdə tutulmadığı və ya natamam nəzərdə tutulduğu hallarda a. hüquqi vasitəyə xidmət

edir *(həmçinin bax: qanunun analogiyası; hüququn analogiyası).*

**Anamnez** *(yun. anamnesis – xatirə, xatırlama, yadasalma)* – tibbi müayinə zamanı müayinə olunan şəxsin özündən və (və ya) onu tanıyan şəxslərdən sorğu yolu ilə xəstəliyin inkişafı, xəstəlikdən irəli gələn həyat şəraiti haqqında əldə olunan məlumatların məcmusu. Bu məlumatlar diaqnoz qoymaq, proqnozlaşdırma, məhkəmə-tibbi ekspert tədqiqatları üçün onlardan istifadə məqsədilə toplanır.

**Anarxiya** *(yun. anarchia – hakimiyyətsizlik, başsızlıq)* – cəmiyyətin dövlətsiz quruluşu. "A." termini bu sözün həqiqi mənasında, adətən fəlakəti, qeyri-mütəşəkkilliyi, iğtişaşı və i.a. bildirir.

**Anarxizm** *(yun. anarchia – hakimiyyətsizlik)* – dövləti məhv etməyi və dövlətsiz sosial quruluş yaratmağı özünün məqsədi elan edən siyasi cərəyan; dövlətin bütün idarəçilik formalarından, cəmiyyətin hüquq institutları vasitəsilə idarə olunmasından imtina edən, məcburi hakimiyyətin hər cür formasını vətəndaşların azad və könüllü assosiasiyası ilə əvəz etməyə cəhd göstərən siyasi istiqamət kimi a. ideyaları hələ antik dövr və orta əsrlər dövrü mütəfəkkirlərinin əsərlərində ehtiva olunmuş, sonradan ingilis yazıçıları tərəfindən inkişaf etdirilmişdir. O cümlədən U. Qodvin özünün 1793-cü ildə yazdığı "Siyasi ədalət haqqında mükalimələr" adlı əsərində "dövlətsiz cəmiyyət" anlayışını işləyib hazırlamışdı.

A.-də ənənəvi olaraq 4 əsas istiqamət – fərdi, mütüelist, kollektiv və kommunist istiqamətlər fərqləndirilir. Fərdi a. nəzəriyyəsinin əsasını insanın mütləq azadlığı ideyası təşkil edirdi. Belə ki, insan öz istək və hərəkətlərində (davranışında) nə mövcud dini ehkamlarla, nə hüquq normaları, nə də əxlaqla bağlı olmamalı idi (M. Ştirner. "Onun sərvəti də yeganədir", 1845-ci il).

"Azad müqavilə" (XIX əsrin sonu – D. Uorren, B. Taker) əsasında əmtəə mübadiləsi prinsipi P.J. Prudon tərəfindən yaradılmış mütüelizm nəzəriyyəsinin başlıca müddəası olmuşdur. Eyni vaxtda cəmiyyətin sərbəst xüsusi istehsalçıları olan bütün cəmiyyət üzvləri arasında əmtəələrin pulsuz, ekvivalentli mübadiləsinin təşkili və onların fəaliyyətinin xalq bankı vasitəsilə minimum faizlə maliyyələşdirilməsi, Prudonun fikrincə, şəxsiyyətin dövlətdən tam qeyri-asılılığı demək idi.

Prudonun XIX əsrin 60-cı illərində yayılmış ideyaları kollektiv a. tədricən sıxışdırmağa başlamışdır. Bu istiqamətin başlıca nəzəriyyəçisi M.A. Bakunin olmuşdur. O, hesab edirdi ki, istənilən formada olan dövlət kütlələrə zülm etmək alətidir və onun dərhal inqilabi yolla məhv edilməsi uğrunda çıxış edir. Dövəti inkar edən Bakunin fəhlələrin parlament seçkilərində və nümayəndəli dövlət hakimiyyəti orqanlarına seçkilərdə iştirakı əleyhinə çıxırdı. Torpaqlara, əmək vasitələrinə kollektiv şəkildə malik olan kəndli və fəhlə assosiasiyalarının "azad federasiyasına" əsaslanan cəmiyyət onun sosial idealı idi.

Kollektiv a.-in ənənəvi ideyaları kommunist a.-in nəzəriyyəçisi P.A. Kropotkin tərəfindən davam etdirilmişdir. Onun təliminin əsasını "qarşılıqlı yardımın biososioloji qanunu" təşkil edirdi. Guya bu qanun adamların bir-biri ilə mübarizəyə deyil, əməkdaşlığa göstərdikləri təbii səylərini müəyyən edir. Kropotkinin fikrincə, buna görə də istehsalın və bölgünün kommunist





prinsiplərinə əsaslanan azad kommunaların federasiyasına keçid yalnız dövlət hakimiyyətini və xüsusi mülkiyyəti inqilabi yolla dağıtmaqla mümkündür.

XIX yüzillikdə a. ideyaları Fransa, İsveçrə, İspaniya, İtaliya və ABŞ-da bir qədər geniş yayılmışdır. Bununla belə, təşviqat yolu ilə xalqı üsyana təhrik etmək müvəffəqiyyətsizliklə nəticələnmişdir. Rusiyada a. ideyaları XIX əsrin sonunda ziyalı xalqçılar arasında müəyyən təsirə malik olmuş. 1905-1907-ci illər inqilabı gedişində, xüsusilə də 1917-ci ilin dövlət çevrilişi dövründə xüsusilə geniş yayılmışdır.

**Anastiqmat** *(yun. anastigmat – inkar etmək)* – optik sistemlərə xas olan bütün aberrasiyaları (o cümlədən anastiqmatizmi) təcrübi olaraq aradan qaldırılmış fotoobyektiv. Fotoqrafiyada, kinoçəkilişdə və videoyazı aparatlarında tətbiq edilir. Müasir foto-kino və videoyazı aparatları kriminalistikada da istifadə olunur.

**Anatosizm** *(yun. anatokismos – mürəkkəb faizlər)* – faizlərin faizinin tutulması, faizlərin nəinki ilkin məbləğdən, həm də keçən müddət ərzində artan faizlərdən hesablanması.

**And** – rəsmi və təntənəli sədaqət vədi (andı). Adətən ölkə prezidenti seçilən və vəzifəsinin icrasına başlayan şəxs sədaqət andı içir. Azərbaycan Respublikasında həmçinin notariusun, polis əməkdaşının, prokurorun, hakimlərin, gömrükçünün, insan hüquqlarının müdafiəsinə müvəkkil edilmiş şəxsin a. içməsi nəzərdə tutulmuşdur.

**Anderrayter** *(ing. underwriter)* – **1)** investisiya qiymətli kağızlarının (səhmlərin, istiqrazların) xüsusi mükafat verilməsi əsasında razılaşdırılmış şərtlər onların buraxılışının bazarda yerləşdirilməsilə əlaqədar emitentə təminat verən şəxs. Müəyyən edilmiş müddət bitdikdən sonra a. buraxılışın yerləşdirilməmiş hissəsini öz hesabına satın almağa borcludur. Azərbaycan Respublikasında a. fəaliyyəti ilə adətən investisiya şirkətləri məşğul olurlar; **2)** sığorta (yenidən sığortalaşdırma) təşkilatı və ya "Llyod" sindikatı tərəfindən sığorta riskini qəbul etməyə müvəkkil edilmiş şəxs. Bu şəxs sığorta portfelinin formalaşdırılmasına məsuldur. O, riskin müvafiq dərəcəsinin, mükafatın məzənnəsinin və sığorta etmə şərtlərinin müəyyən edilməsi üçün zəruri biliyə və təcrübəyə malik olmalıdır.

**Anderraytinq** – qiymətli kağızların (səhmlərin, istiqrazların) bazarda ilkin yerləşdirilməsi.

**Andlı hesablayıcılar (talmalar)** – yüklərin əsasən ayrı-ayrı yerlərə daşınması zamanı gəminin boşaldılması və yüklənməsi prosesində hesab aparan şəxslər. Xarici limanlarda a.h.-ın ixtisaslaşdırılmış təşkilatları fəaliyyət göstərir.

**Andlı iclasçılar** – Azərbaycan Respublikası qanunvericiliyinə görə andlı iclasçılar siyahısına daxil olunan və cinayət işlərinə baxılması yolu ilə ədalət mühakiməsinin həyata keçirilməsinə xidmət edən vətəndaşlar *(bax: andlılar məhkəməsi)*. A.i. institutu Azərbaycanda XX yüzilliyin 90-cı illərində təsis edilmişdir. Fəaliyyəti qabiliyyətli 25 yaşına çatmış və məhkumluğu olmayan vətəndaşlar a.i. ola bilərlər. Konkret cinayət işinə baxılması üçün a.i. məhkəmə aparatı tərəfindən təsadüfi seçim metodu ilə seçilirlər.

**Andlılar məhkəməsi** – ədalət mühakiməsinin həyata keçirilməsində xalqın bilavasitə iştirakı prinsipini əks etdirən məhkəmə sisteminin ən demokratik institutlarından biri.

Andlılar məhkəməsi klassik variantda andlı iclasçılar skamyasından - müəyyən konkret işə baxılması və fakt məsələsini (cinayət faktını) həll etmək üçün 6, 12 nəfərlik kollegiyadan və ya təsadüfi metodla seçilmiş sair vətəndaşlardan, habelə hüquq məsələsini həll edən bir (bəzən bir neçə) peşəkar hakimdən ibarət olmuşdur. Andlı hakimlər verdikt əsasında hökm çıxarır və cəza tədbiri müəyyən edirlər. A.m. bir qayda olaraq, birinci instansiya kimi ciddi cinayət işlərinə baxır və onun qərarından apellyasiya şikayəti verilmir. Bu məhkəmə XII-XV yüzilliklərdə İngiltərədə yaranmış və 1789-1793-cü illər Böyük Fransız inqilabından sonra Avropada, habelə dünyanın bir çox digər ölkələrində geniş yayılmışdır. Hazırda a.m. institutu ABŞ-da, Böyük Britaniyada, Kanadada, İrlandiyada, İsveçrədə və digər ölkələrdə fəaliyyət göstərir.

**Andlı vəkil** - 1864-1917-ci illərdə Rusiyada dairə məhkəməsində və ya məhkəmə palatasında dövlət qulluğunda olan vəkil.

**Anket** *(fr. enquete - təhqiqat)* - sosioloji tədqiqatların aparılması prosesində respondent tərəfindən müstəqil surətdə tərtib edilməli olan sualların siyahısı. Tərtib edilmiş sualların cavabları tədqiqatçını maraqlandıran məlumatlar haqqında informasiya almağa imkan yaradır və beləliklə, ümumiləşdirmə üçün əsas empirik materiala xidmət edir.

**Anketləşdirmə** – konkret sosial tədqiqatın texniki vasitəsi – anketin tərtib edilməsi, yayılması və öyrənilməsi; zəruri materialların anketin köməyi ilə toplanması *(həmçinin bax: anket).*

**Anket sorğusu** - anketin köməyi ilə aparılan sosial-psixoloji tədqiqat metodu. A.s. müxtəlif formalarda aparıla bilər. Təcrübədə şifahi (müsahibə) və yazılı *(bax: anketləşdirmə);* fərdi və qrup; adi və qiyabi a.s. geniş yayılmışdır. Hansı formada aparılmasından asılı olmayaraq, a.s. zamanı seçimin həcmini və eynicinsliyini, nəticələrin yayılması mümkünlüyünü müəyyən etmək tələb olunur.

A.s kriminalistik elmi tədqiqatların aparılmasında, yeni ekspert metodlarının səmərəliliyinin aydınlaşdırılmasında, təhqiqatların yüksək keyfiyyət yollarının müəyyən edilməsində, müstəntiqlərin və ekspertlərin əməyinin elmi təşkilində və i.a. geniş istifadə olunur. Anket sorğusu cinayətlərin kriminalistik xarakteristikasının müxtəlif elementləri haqqında əsaslandırılmış təsəvvürlər əldə etməyə, konkret xüsusi kriminalistik metodikaların işlənib hazırlanması zamanı istintaq hərəkətlərinin tipik ardıcıllığının, taktiki üsulların (kombinasiyaların) növlərinin müəyyən edilməsinə imkan yaradır.

**Anklav** (fr. enclave - açarla bağlayıram) - bir dövlətin ərazisinin digər dövlətin və ya bir neçə dövlətin quru ərazisi ilə bütünlüklə əhatə olunmuş hissəsi. A.-ın mövcudluğu, məsələn, digər ölkənin ərazisindən keçib getmək hüququ ilə, habelə sair mühüm həyati problemlərlə əlaqədar olan müəyyən beynəlxalq hüquqi nəticələrin meydana çıxmasına səbəb olur.

**Anqajement** *(fr. engagement – öhdəlik, muzd)* - tamaşalarda, konsertlərdə və sair tamaşa tədbirlərində iştirak etmək üçün artistə müqavilə ilə müəyyən müddətə həvalə olunan dəvət (dəvətnamə).





**Anqariya** *(yun. angareia)* - beynəlxalq hüquqda döyüşən tərəflərdən birinin ərazisində yerləşən bitərəf dövlətlərə məxsus gəmilərdən və digər nəqliyyat vasitələrindən həmin ərazini təmsil edən dövlət tərəfindən hərbi məqsədlərlə istifadə edilməsi. A.-ya yalnız son zərurət hallarında və sonradan kompensasiya ödənilməsi şərtilə yol verilir. A.-nın bu məhdudiyyəti müharibə qanunları və adətləri haqqında 1907-ci il Haaqa konvensiyasında nəzərdə tutulmuşdur.

**Anlaqlıq** - cinayət hüququnda psixi cəhətdən sağlam olan insanın normal vəziyyəti a. insanın öz hərəkətlərinə və davranışına cavab vermək və onlara rəhbərlik etmək qabiliyyətində ifadə olunur. Anlaqlıq cinayət məsuliyyətinə cəlb etmənin və təqsirin zəruri şərtidir. Məhkəmə-psixiatriya ekspertizası bunun əksini müəyyən etdikdə a. ehtimal olunur. AR Cinayət Məcəlləsinin 19-cu maddəsinə uyğun olaraq qanunda nəzərdə tutulmuş cinayəti törətmiş anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb edilir.

Böyük ictimai təhlükə törətməyən və ya ağır cinayəti törətdiyi zaman psixi inkişafın kəmağıllıqla və ya başqa psixi pozuntu ilə əlaqədar olmayan geriliyi səbəbindən öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini tam dərk etməyən və ya həmin əməli idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir (AR Cinayət Məcəlləsinin 20.3-cü maddəsi).

**Anlaqsızlıq** - cinayət hüququnda ictimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman anlaqsız vəziyyətdə olmuş, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllıq və sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməyən və ya onu idarə edə bilməyən şəxsin vəziyyəti (AR Cinayət Məcəlləsinin 21.1-ci maddəsi).

Cinayət qanunvericiliyi anlaqsızlıq vəziyyətinin iki kriteriyasını müəyyən edir: a) tibbi (bioloji) anlaqsız; b) hüquqi (psixoloji) anlaqsızlıq. Tibbi kriteriya psixi xəstəliyin olması deməkdir və qanunda belə xəstəliyin aşağıdakı dörd növü nəzərdə tutulur: 1) xroniki ruhi xəstəlik; 2) ruhi fəaliyyətin müvəqqəti pozulması; 3) kəmağıllıq (oliqofreniya); 4) sair psixi xəstəlik vəziyyəti.

Xatırladılan xəstəliklərdən insanda birinin olması onun hələ anlaqsız hesab edilməsi üçün kifayət edə bilməz. İnsanın anlaqsız hesab edilməsi üçün hüquqi kriteriyanın mövcudluğu da tələb olunur. Hüquqi kriteriya cinayət törədən və psixi cəhətdən xəstə olun şəxsin yol verdiyi əməlin kriminal xarakterini dərk etməməsi və ya öz hərəkətlərini idarə, onlara rəhbərlik etmək iqtidarında olmamasından ibarətdir. AR Cinayət Məcəllәsinn 21.2-ci maddəsinə uyğun olaraq ictimai təhlükəli əməl (hərəkət və ya hərəkətsizlik) törətmiş şəxs barəsində məhkəmə tərəfindən CM ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlər tətbiq edilir.

**Anneksiya** *(lat. annexio – birləşmə)* – başqa dövlətin ərazisinin zorakılıqla birləşdirilməsi. Beynəlxalq hüquq a. ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı və yenilməzliyi prinsiplərinin pozulması kimi qadağan edir. A. tarixdə başqa dövlətin ərazisinin zorakılıqla və ya sair yolla işğal olunmasında, habelə onun

zorla birləşdirilməsi haqqında müvafiq hüquqi aktın verilməsində təzahür etmişdir. Hər hansı dövlətin və ya xalqın ərazisində dəyişiklik edilməsi hüququ həmin dövlətə, yaxud onun xalqına məxsusdur. AR Konstitusiyasının 2-ci maddəsinin III hissəsinə uyğun olaraq AR ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız AR Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

**Annuitet** *(lat. annuitas – illik ödəmələr)* – **1)** uzunmüddətli dövlət borclarının istiqrazlarla illik ödənilməsi rentası; **2)** dövlətin özünün uzunmüddətli borcları; kreditor həmin borclar üzrə hər il müəyyən gəlir (renta) əldə edir. Həmin gəlirlər əsaslı məbləğin tədricən ödənilməsi hesabı ilə onun üzərinə gələn faizlərlə müəyyən edilir. A. hazırda təcrübədə tətbiq edilmir; **3)** Böyük Britaniyada və digər ingilisdilli ölkələrdə müxtəlif növdən, o cümlədən rentadan, faizlərdən və i.a. ibarət olan illik ödəmələr.

**Annulyasiya** *(lat. annullo – məhv edirəm)* – hər hansı hüquqi aktın, sazişin və ya müqavilənin, yaxud hüquqların və ya səlahiyyətlərin ləğv olunması, etibarsız elan edilməsi.

**Anomiya** *(ing. anomie)* – E. Dürkheymin özünün "İntihar" (özünüöldürmə) adlı kitabına daxil etdiyi anlayış. "A." anlayışından hamılıqla qəbul edilmiş davranış normalarının olmadığı sosial strukturun adlandırılması üçün istifadə edilmişdir. Tənzimləmə sisteminin və nəzarətin olmaması (və ya dağılması) nəticəsində fərdlər xarici idarəetmə və nəzarət mexanizmlərinin çatışmazlığını hiss etmək şəraitində olurlar. Bununla yanaşı sosial münasibətlər, sosial mühit, insanların birliyi (həmrəyliyi) üçün real təhlükə yaranır. Dürkheymin fikrincə, a. vəziyyəti başlıca olaraq sosial dəyərlərin sürətli əvəzolunması ilə müəyyən edilir. Əgər Dürkheyin a.-ya cəmiyyətin vəziyyəti kimi baxırsa, bu cərəyanın digər nümayəndələri bunu anonim şəkildə hər bir fərdin vəziyyəti hesab edirlər.

Robert Merton rədd edilmiş davranışın izahı üçün Dürkheymin a. nəzəriyyəsini daha da inkişaf etdirmişdir. Mertonun fikrincə, bütün sosial strukturlar institut vasitələrinə və sosial formasiya mədəniyyətilə müəyyən edilmiş məqsədlərə nail olma qabiliyyətinə malikdirlər. Bu məqsəd və vasitələr bir-biri ilə ziddiyyətdədir. Cəmiyyət müəyyən məqsədləri (mülkiyyətə, əmlaka sahib olmanı) məqbul sayır, insanların bunlara nail olmaları üçün onların səyini təbliğ edir və mükafatlandırır. Bu prosesdə cəmiyyətin bütün üzvləri göstərilən məqsədlərə nail olmaq üçün qanuni vasitələrdən (üsullardan) istifadə etmədə bərabər imkanlara malikdirlər. Belə qruplara, hər şeydən əvvəl, sosial nərdivanın aşağı pillələrində olan əhali təbəqələri mənsubdurlar. Həmin məqsədlərə nail olmanın üsullarına, məsələn, təhsil almaq, peşəyə yiyələnməklə yanaşı, həm də ümumi mədəni səviyyə və cəmiyyətdə tutulan mövqe aid edilir.

Mertonun fikrincə, bunlar olmadıqda "konformluluqla" yanaşı sosial adaptasiyanın sair imkanları da təzahür edir. O, bunları "innovasiya", "ritualhq", "geri çəkilmə" adlandırır. Kriminologiya üçün innovasiya kateqoriyası daha böyük maraq doğurur. Merton bunu a. ilə cinayətkar davranış arasında əlaqə kimi səciyyələndirir. Məqsədlərə nail olmanın institut yollarından yayınmaq və onları qanunsuz (qeyri-leqal) yollarla əvəz edən "İnnovator" məqsədə nail olma vasitəsi kimi cinayətkar davranışdan istifadə etməyə cəhd göstərir.





**Anonim** (yun. anonymos – adsız, imzasız) – **1)** öz adını, yaxud təxəllüsünü məktubunda və ya əsərində gizli saxlamış müəllif; **2)** müəllifinin adı məlum olmayan, yaxud göstərilməyən əsər.

Senzuranın güclü təqib etdiyi dövrlərdə yazarların əksəriyyəti (mütərəqqi, demokratik fikirli ziyalılar) öz əsərlərini imzasız nəşr etdirmək məcburiyyətində qalmışdır. M.F. Axundov istibdad və cəhalət, fanatizm əleyhinə yazdığı "Kəmalüddövlə məktubları" fəlsəfi traktatını imzasız nəşr etdirməyə məcbur olmuşdur. Azərbaycanda rus çarizminin mürtəce siyasət yeritdiyi bir şəraitdə "Molla Nəsrəddin" jurnalında nəşr edilən məqalələrin böyük əksəriyyəti imzasız, yaxud qondarma təxəllüslərlə dərc edilmişdir.

**Anonim cəmiyyət** – Fransada və bir sıra başqa ölkələrdə səhmdar cəmiyyətin adı.

**Anonim hesab** – hesab üzrə əməliyyatların yerinə yetirilməsi haqqında tələb təqdim etmiş şəxsin şəxsiyyətinin bank tərəfindən müəyyən edilməməklə aparılan bank hesabı, vəsaitlər üzərində sərəncam. A.h.-da olan vəsaitlər üzərində sərəncam vermək hüququna malik olan şəxslərin eyniləşdirilməsi nömrələrin (sayların), kodların, parolların və sair vasitələrin (bank müştərisinin adı istisna olmaqla) köməyilə həyata keçirilir. A.h.-ın müvafiq müqavilənin təsdiqi üçün müştəriyə bank tərəfindən verilmiş sənəddə göstərilən hesab nömrəsinin (sayının). köməyilə səlahiyyətli şəxsin eyniləşdirilməsi növü çox geniş yayılmışdır.

**Anonim müraciət** – ali dövlət hakimiyyəti, yerli özünüidarə orqanına və ya sair instansiyaya ünvanlandırılan, lakin müəllifin adı, soyadı, atasının adı və ya ev ünvanı, xidməti ünvanı göstərilməyən müraciət. Əgər müraciətdə ad göstərilsə də, lakin ünvanın göstərilmədiyi halda da müraciət a. hesab olunur. Ərizədə, məktubda göstərilən məlumatların hamısı olduqda, lakin müraciətin müəllifinin başqa vətəndaş olduğu müəyyən edildiyi halda da o, a.m. hesab olunur.

A.m.-də müəllif haqqında məlumatların olmaması müraciətdə törədilən və ya hazırlanmaqda olan cinayət, yaxud qanunun sair pozuntusu haqqında siqnalın diqqətsiz saxlanmasına əsas ola bilməz.

**Anonim yazılar** – müəllifi məlum olmayan yazılar. A.y. imzasız və ya başqasının imzası ilə icra oluna bilər. A.y. öz xarakterinə görə qeyri-qanuni və qeyri-əxlaqi hərəkətdir. Belə yazılar bir çox hallarda şəxsiyyətin şərəf və ləyaqətinin alçaldılması kimi qiymətləndirilir.

**Anons** *(fr. annonce – kütləvi bildiriş, elan)* – tamaşa, konsert, kinofilm və i.a. haqqında əvvəlcədən verilən müxtəsər elan.

**Antarktika** – coğrafi mərkəzi Cənub qütbü olan beynəlxalq ərazi, Yer kürəsinin cənub yarımkürəsində yerləşən rayon. Antraktidanı, ona bitişik olan adaları və şelf buzlaqlarını, habelə Atlantik və Hind okeanının, Sakit okeanın cənub hissələrini əhatə edir. Sahəsi təqribən 52,5 milyon kvadrat kilometrdir. A.-nin beynəlxalq hüquqi rejimi 1959-cu il dekabrın 1-də Vaşinqtonda imzalanmış A. haqqında müqavilə ilə tənzim olunur. Müqavilə 1961-ci il iyunun 23-də qüvvəyə minmişdir.

Müxtəlif dövrlərdə İngiltərə, Fransa, Norveç, Çili, Argentina, Avstraliya və Yeni Zelendiya Antarktikanı bölüşdürməyə təşəbbüs göstərmişdir. Lakin bu, dövlətlər arasında mübahisə və toqquşmalara səbəb olmuşdur. Xatırladılan müqaviləyə uyğun olaraq A.-nın bütün ərazisi bitərəf və demilitarizasiya zonasıdır və burada istər dinc, istərsə də müharibə dövründə hərbi məqsədlər üçün fəaliyyət qadağan olunur. A.-dan elmi məqsədlərlə istifadə edilir.

**Antidempinq rüsumları** – gömrük rüsumlarının xüsusi növü; Azərbaycan Respublikasının "Gömrük tarifi haqqında" 1995-ci il 20 iyun tarixli qanununun 8-ci maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə uyğun olaraq antidepinq rüsumları idxal olunan malların qiyməti Azərbaycan Respublikası gömrük ərazisinə gətirildiyi andan ixrac olunduğu ölkədəki real dəyərindən xeyli aşağı olduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, Azərbaycan Respublikasında bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir.

**Antiinhisar qanunvericilik** – iqtisadi, təşkilati və sair məhdudiyyət və stimulların (vergilərin məzənnə sisteminin, kreditlərin verilməsi zamanı üstünlüklərin qanunvericilik tərifinin, inhisarçı-müəssisələrdə qiymətyaratma proseslərinin tənziminin, xırda və orta müəssisələrin yaradılması üçün əlverişli hüquqi şəraitin formalaşdırılmasının, vicdanlı rəqabətin mükafatlandırılmasının, "firmaların sui-qəsdinə", etibarsız reklama və i.a. görə hüquqi sanksiyaların) müəyyən edilməsi yolu ilə alıcıların istehsalçının inhisarından müdafiəsini təmin etməyə xidmət edən hüquq normalarının və institutlarının sistemi.

AR-in a.q.-i AR-in Konstitusiyasından, AR-in "Antiinhisar fəaliyyəti haqqında" 1993-cü il 4 mart tarixli qanunundan, AR Prezidentinin fərmanlarından, AR hökumətinin qərar və sərəncamlarından ibarətdir. "Antiinhisar fəaliyyəti haqqında" qanunun 2-ci maddəsinə uyğun olaraq həmin qanun Azərbaycan Respublikasının bütün ərazisində fəaliyyət göstərir və bütün hüquqi və fiziki şəxslərə şamil edilir. Qanun təsərrüfat subyektlərinin, icra hakimiyyəti və idarəetmə orqanlarının xarici ölkələrin fiziki və hüquqi şəxsləri ilə bağladıqları sazişlərin və müqavilələrin milli bazarda rəqabətin məhdudlaşdırılmasına gətirib çıxardığı hallarda da tətbiq edilir. Qanun təsərrüfat subyektlərinin ixtira, ticarət nişanları və müəlliflik hüquqlarından irəli gələn münasibətlərinə, onların bu hüquqlardan qəsdən rəqabəti məhdudlaşdırmaq məqsədilə istifadə etməsi halları istisna olmaqla, şamil edilmir.

**Antiinhisar qanunvericiliyin pozulmasına görə məsuliyyət** – "Antiinhisar fəaliyyəti haqqında" qanunun 18-ci maddəsinə uyğun olaraq bu qanunun pozulmasına görə təsərrüfat subyektləri, onların rəhbərləri və müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri aşağıda nəzərdə tutulan məsuliyyəti daşıyırlar:

1. Təsərrüfat subyektləri:

– müvafiq icra hakimiyyəti orqanının qanuni göstərişlərini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə hər gecikdirilmiş günə görə minimum əməkhaqqı məbləğinin 50 mislinədək, lakin minimum əməkhaqqı məbləğinin 20 min mislindən az olmamaq şərti ilə;





– müvafiq icra hakimiyyəti orqanına həmin qanunun 13-cü, 13.1-ci və 16-cı maddələrində göstərilmiş məlumatları və sənədləri vermədikdə, yaxud düzgün olmayan məlumatlar verdikdə, minimum əməkhaqqı məbləğinin 5 min mislinədək maliyyə sanksiyası şəklində cərimə olunurlar.

Cərimənin miqdarı müəyyən edilərkən təsərrüfat subyektlərinin iqtisadi vəziyyəti nəzərə alınır.

2. Təsərrüfat subyektlərinin rəhbərləri və icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri:

– müvafiq icra hakimiyyəti orqanının qanuni göstərişlərini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə xəbərdarlıq və ya minimum əməkhaqqı məbləğinin 200 mislinədək;

– həmin qanunun 13-cü və 13.1-ci və 16-cı maddələrinin tələblərinə əməl etmədikdə və sənədləri təqdim etmədikdə xəbərdarlıq və ya minimum əməkhaqqı məbləğinin 150 mislinədək inzibati qaydada cərimə olunurlar.

3. Bu maddənin 2-ci bəndində nəzərdə tutulmuş şəxslər eyni hərəkətləri il ərzində iki dəfə (inzibati təsir tədbirləri tətbiq edildikdən sonra) təkrar etdikdə qanunvericilikdə müəyyən edilmiş qaydada cinayət məsuliyyəti daşıyırlar.

4. Bu maddənin 1-ci bəndində maliyyə sanksiyası şəklində tutulan cərimələr müvafiq icra hakimiyyəti orqanı bu barədə qərar qəbul etdikdən sonra 30 gün ərzində mübahisəsiz qaydada dövlət büdcəsinə tutulur.

Təsərrüfat subyektləri cəriməni vaxtında ödəmədikdə və ya qismən ödədikdə müvafiq icra hakimiyyəti orqanı cərimənin, həmçinin hər gecikdirilmiş günə görə cərimənin ümumi məbləğinin, yaxud ödənilməmiş hissəsinin 1 faizi məbləğində peniyanın ödənilməsi üçün məhkəməyə müraciət edə bilər.

5. Antiinhisar qanunvericiliyin pozulması haqqında işlərə baxılma qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Antiinhisar orqanlar** – inhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması üzrə dövlət siyasətini *(bax: antiinhisar siyasət)*, digər dövlət orqanlarının bu sahədəki fəaliyyətinin əlaqələndirilməsini öz səlahiyyətləri daxilində yerinə yetirən mərkəzi icra hakimiyyəti orqanı. A.o. AR-in şəhərlərin, rayonların və onlara daxil olan inzibati ərazi vahidlərinin icra hakimiyyəti idarəetmə orqanlarının sistemindən ibarətdir.

"Antiinhisar fəaliyyəti haqqında" qanunun 4-cü maddəsinə uyğun olaraq idarəetmə funksiyalarını yerinə yetirən (dövlət sifarişlərinin yerləşdirilməsi, material ehtiyatları limitlərinin ayrılması və s.) ittifaqlar, assosiasiyalar, konsernlər, konsorsiumlar və müəssisələrin digər birlikləri də a.o.-na aid edilir.

**Antiinhisar siyasət** – AR qanunvericiliyinə uyğun olaraq inhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması üzrə yerinə yetirilən dövlət siyasəti. A.s. AR-in müvafiq mərkəzi icra hakimiyyəti orqanı, habelə bu sahədə fəaliyyətləri əlaqələndirilən digər dövlət orqanları tərəfindən həyata keçirilir. AR-in antiinhisar siyasətini həyata keçirən AR-in mərkəzi icra hakimiyyəti orqanı "Antiinhisar fəaliyyəti haqqında" qanunun tələblərinin pozulmasına görə icrası məcburi olan göstərişlər verə bilər və

qanunvericilikdə müəyyən olunmuş digər səlahiyyətləri yerinə yetirə bilər.

**Antiinhisar tənzimləmə vasitələri** – "Antiinhisar fəaliyyəti haqqında" qanunun 13-cü maddəsinə uyğun olaraq təsərrüfat subyektlərinin hökmran mövqelərindən sui-istifadə və ya rəqabəti məhdudlaşdıran hərəkətlərinin qarşısını almaq məqsədilə müvafiq icra hakimiyyəti orqanı aşağıdakılara dövlət nəzarətini həyata keçirir:

– təsərrüfat subyektlərinin birləşdirilməsinə və qovuşmasına (əgər bu, müvafiq əmtəə bazarında payı 35 faizdən çox olan təsərrüfat subyektlərinin yaranması ilə nəticələnərsə);

– aktivlərinin ümumi dəyəri minimum əməkhaqqı məbləğinin 75 min mislindən artıq olan təsərrüfat subyektlərinin qovuşmasına və birləşməsinə;

– aktivlərinin ümumi dəyəri minimum əməkhaqqı məbləğinin 50 min mislindən artıq və bələdiyyə müəssisələrinin ləğv edilməsinə (məhkəmənin qərarı ilə müəssisələrin ləğv edilməsi halları istisna olmaqla) və bölünməsinə (əgər bu, müvafiq əmtəə bazarında payı 35 faizdən çox olan təsərrüfat subyektlərinin yaranması ilə nəticələnərsə);

1. Bu maddənin 1-ci bəndində nəzərdə tutulan hallarda təsərrüfat subyektlərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi müvafiq icra hakimiyyəti orqanının razılığı əsasında həyata keçirilir. Belə təsərrüfat subyektlərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi haqqında qərar qəbul edən şəxslər və ya təsərrüfat subyektləri razılıq almaq üçün müvafiq icra hakimiyyəti orqanına vəsatət təqdim edir. Vəsatətə dövlət qeydiyyatı üçün qanunvericiliyə uyğun təqdim olunan sənədlər və əsas məhsulun (xidmətlərin) müvafiq əmtəə bazarında satışının həcminə dair məlumat əlavə olunur.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu maddənin 1-ci bəndində nəzərdə tutulan hallarda təsərrüfat subyektlərinin yaradılmasına, yenidən təşkilinə və ləğv edilməsinə razılıq vermək üçün onlardan digər sənədlərin tələb olunmasına yol verilmir.

Müvafiq icra hakimiyyəti orqanı lazımi sənədləri aldıqdan sonra 15 gündən gec olmayaraq vəsatətlə müraciət edənə qəbul olunmuş qərar barədə yazılı məlumat verir.

2. Bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının razılığı olmadıqda təsərrüfat subyektlərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi müvafiq icra hakimiyyəti orqanının iddiası üzrə məhkəmənin müvafiq qərarı ilə etibarsız hesab edilə bilər.

**Antikartel qanunvericilik** – Avropanın bir sıra ölkələrində, o cümlədən AFR-də, Avstriyada və İsveçrədə antiinhisar qanunvericiliyin adı.

**Antikrez** *(yun. antichresis)* – Roma hüququnda girov alan kreditorla borclu arasında bağlanan müqavilə. A. müqaviləsinə uyğun olaraq girov qoyulmuş əşyanın faizlə hesabını və ya borcun məbləğini nəzərə almadan girov əşyanın bəhərlərini götürə bilərdi. A. Orta əsrlər Avropasında da geniş yayılmışdı. Yeni dövrdə Fransanın 1804-cü il Mülki Məcəlləsində nəzərdə tutulmuşdur.

**Antipedaqogika** – uşaqlara və yeniyetmələrə hər hansı tərbiyəvi təsiri qətiyyətlə inkar edən cərəyan; bu cərəyanın nümayəndələri gənc nəslin pedaqoji və tərbiyəvi proseslər olmadan birgə təlimi uğrunda çıxış edirlər. E. Braunmül a. terminindən istifadə edərkən tərbiyəni beyinlərin yuyulması kimi qiymətləndirmişdir. Pedaqoji tərbiyənin rolunu kəskin surətdə tənqid edən bu cərəyanın meydana gəlmə səbəbi uşaqların, ən azı cəmiyyətin ayrı-ayrı təbəqələrinin pedaqoqlara qarşı düşmənçiliyi ola bilər. Antipedaqogika cərəyanı nümayəndələrinin fikrincə, hər il yüz minlərlə yeniyetmə pedaqoqlar tərəfindən sərt davranışa məruz qalır ki, bu da kriminaloji baxımdan yolverilməzdir. A. nümayəndələrinin ən yumşaq tələblərindən biri daha humanist məktəblərin yaradılmasından ibarətdir.

**Antipsixiatriya** – psixi xəstəliklərdən əziyyət çəkən şəxslərin ənənəvi müalicə metodları, onların qapalı müalicə müəssisələrində yerləşdirilməsi əleyhinə çıxan psixiatrların və sosial elmlər nümayəndələrinin hərəkatı. A. termini sosial elmlərə, o cümlədən kriminologiya elminə 1967-ci ildə Kuper tərəfindən daxil edilmişdir. A. tərəfdarlarının tənqidi bir tərəfdən psixi xəstələrin onlar üçün xüsusi olaraq nəzərdə tutulan psixiatriya klinikalarında qapalı şöbələrdə yerləşdirilməsi əleyhinə yönəlmişdir, belə ki, onların fikrincə, şəxsin uzun müddətə təcrid edilməsi insan ləyaqətini alçaldır. Digər tərəfdən isə bu hərəkat klassik təbabətdə qəbul edilmiş və hakimiyyət orqanlarının ənənəvi olaraq dərk etdikləri (bu halda həkimlə xəstə arasındakı münasibətlər əleyhinə, çünki həkim belə xəstə üzərində hakimiyyətə malik olur) "xəstəlik" anlayışının özünün əleyhinə çıxır. A. tərəfdarlarının mövqeyinə görə xəstəlik sosial-şərtləndirilmiş hadisədir. Buna görə də a. hərəkatının nümayəndələri psixiatriyanın demokratikləşdirilməsi uğrunda çıxış edirlər. Buna müvafiq olaraq psixi cəhətdən xəstə olan şəxslərə yanaşmanı və reaksiya formalarını dəyişdirməyə qadir olan başlıca amil kimi həkimlə xəstə arasındakı münasibətlər də demokratikləşdirilməlidir. Ancaq bu yolla və psixi xəstəlikləri doğuran sosial dayaqları dəyişdirməklə xəstəliyin aradan qaldırılmasına nail olmaq olar. İtaliya və İngiltərədə aparılmış eksperimentlər psixi xəstəliklər zamanı repressiv tədbirlərin tətbiqi olmadan da keçinməyin mümkünlüyünü sübut etmişdir.

**Antirəqabət təcrübəsi** – bazara başqa istehsalçıların daxil olmasını məhdudlaşdırmağa imkan verən oradakı hökmran mövqeyi ələ keçirmək yolu ilə inhisarlar tərəfindən rəqabət mübarizəsi normalarının pozulması. Belə inhisarlar rəqabət mübarizəsi normalarını pozmaqla yanaşı, qiymətləri istədikləri kimi müəyyən edir və kommersiya fəaliyyətinin başqa şərtlərini irəli sürürlər.

**Antisipasiya** *(lat. anticipatio)* – borc öhdəliyinə görə pulun razılaşdırılmış müddətədək ödənilməsi. Bu sazişə uyğun olaraq uzunmüddətli ödəmənin mövcud olduğu halda alıcı faizin orta məzənnəsi əsasında güzəşt hüququ əldə edir.

**Antisipləşdirmə** – hadisələri qabaqlamaqla nəyisə qısa müddət ərzində təcili etmə və ya borcu ödəmə.

**Antitarixləşdirmə** – hər hansı hüquqi sənədi, normativ aktı və ya qiymətli kağızı (məsələn, vekseli) arxa tarixlə təqdim etmə.

**Antitrest qanunvericilik** – inkişaf etmiş bir sıra ölkələrdə antiinhisar qanunvericiliyin bir hissəsi. A.q. inhisarçılıq qüdrətinin məhdudlaşdırılmasına yönəldilmiş

və ABŞ-da özünün yüksək inkişaf səviyyəsinə çatmışdır. Bu baxımdan 1890-cı il Şerman qanunu, 1914-cü il Kleyton qanunu, 1950-ci il Keyler-Kefover qanunu, habelə ABŞ Ədliyyə Nazirliyinin və məhkəmələrinin qərarları tarixə yaxşı məlumdur.

A.q. rəqabəti məhdudlaşdırmaq məqsədilə birləşmələri və ya sövdələşmələri, alıcıları və ya satıcıları ancaq müəyyən firma və ya şirkətlə müstəsna dərəcədə ticarət əlaqələri yaratmağa məcburiyyəti, səhmləri rəqabət aparan firmalardan almağı qeyri-qanuni hesab edir. Alıcı və ya satıcıları yanıldan reklamları qadağan edir.

XX yüzilliyin 30-cu illərində ABŞ məhkəmələri firmaların nəinki bazar davranışı, həm də bazar strukturu əsasında onların əleyhinə cinayət işləri qaldırmağa başlamışdılar. Birləşmənin özünün miqyası və onun bazar üzərində nəzarət dərəcəsi cinayət-hüquqi cəhətdən cəzalandırmanın səbəbi ola bilərdi. A.q.-in fəaliyyətə başladığı zaman birləşmələrin ABŞ bazarları üzərində nəzarət dərəcəsi 60 faizdən 5,7 faiz arasında olmuşdur. Keçən yüzilliyin 80-90-cı illərində a.q.-inin tətbiqi qeyri-müəyyən və liberal olmuşdur. Hüquqşünaslar "ağıl prinsipindən" (ticarətin yalnız "ağılsız" məhdudlaşdırılması qeyri-qanuni elan edilə bilər) istifadəyə meyl edirlər. Kleyton qanununa görə əmək əmtəə deyildir. Müəyyən edilirdi ki, fəhlə təşkilatları ticarətin məhdudlaşdırılması üçün sövdələşmə kimi tövsif edilə bilməz və onların fəaliyyəti a.q.-in qüvvəsi altına düşmür.

**Antreprener** *(fr. entrepreneur – sahibkar)* – **1)** xüsusi müəssisə sahibliyi fəaliyyətini həyata keçirən, yeni biznes və i.a. yaradan şəxs; **2)** incəsənətin bəzi növlərində menecer və sahibkar, tamaşa müəssisəsinin – antreprizanın (teatrın, sirkin və i.a.) *xüsusi sahibi.*

**Antropologiya** *(ing. antropologie)* – geniş mənada insan haqqında elm, yaxud insanın mənşəyi və onun sosial-iqtisadi, sosial-mədəni, psixi və fiziki xassələrindən asılı olmayaraq fiziki cəhətdən təşkilinin təkamülü haqqında təlim.

Uzun müddət antropobiologiya (irsi problemlərin öyrənilməsi ilə məşğul olurdu), antropomorfologiya (insan irqi problemini öyrənən elm), antropometriya (insanın bədən hissələrinin öyrənilməsi ilə məşğul olmuşdur; hazırda kriminalistika elmi çərçivəsində insanın yaşının müəyyən edilməsi üzrə ekspertizalar aparılır) kimi təbiətşünaslıq elmlərinə istiqamətləndirilmiş a. indi kriminologiyanın problemlərini də öyrənir.

Antropoloji təlimlər 1933-cü ildən 1945-ci ilədək olan dövrdə öz inkişafının ən yüksək pilləsinə qalxmışdır. Bu dövr ərzində "irqlərin gigiyenası" tədqiq edən çoxsaylı kafedralar, laboratoriya və institutlar meydana gəlmişdi. Hitlerin "xalqların antropologiyasına" arxalanan kitabı – "Mayn kampf" da həmin dövrün məhsuludur. Xatırladılan dövrdə nasional-sosializm (faşist partiyası) a.-dan öz siyasi məqsədləri üçün asanlıqla istifadə edə bilmişdir ki, bu da həmin "bitərəf" elmin mümkün sui-istifadələri haqqında şəhadət verir *(həmçinin bax: hüquqi antropologiya).*

**Antropometriya** *(yun. anthropos – insan + metreo – ölçürəm)* – XIX yüzilliyin ortalarında belçikalı Adalar Ketle tərəfindən şəxslərin eyniləşdirilməsi məqsədilə bədən hissələrinin ölçülməsinin tövsiyə edilmiş üsulu. A.-nın başlıca prinsipi müşahidələrə və statistik göstəricilərə əsaslanır. Təsdiq edilir ki, insan bədəninin ayrı-ayrı hissələrinin ölçüləri müəyyən yaş həddindən başlayaraq dəyişilməz qalır və eyni ölçülərdə olan iki insan bədəni mövcud deyildir.





1988-ci ildə Bertlon Paris şəhər polisinə işləyib hazırladığı insan bədəninin ölçülməsi üsulunu təqdim etmişdir. Həmin üsul vasitəsi ilə 11 ölçü aparılmışdır: bədənin (boyun) uzunluğu; əmgəkdən (təpə sümüyündən) oturacağadək (oturma boyu) olan uzunluq; qolların (əllərin) yellənmə uzunluğu; başın uzunluğu; baş nahiyəsinin eni; sağ qulağın uzunluğu; sağ qulağın eni; sol ayağın altının (pəncənin) uzunluğu; sol əlin orta barmağının uzunluğu; sol əlin adsız barmağının uzunluğu; sol bazu önünün (dirsəyin) uzunluğu. 1895-ci ildən cinayətkarların eyniləşdirilməsinin daktiloskopiyasının tətbiq edilməsinədək, o cümlədən Almaniyada insanın eyniləşdirilməsi a.-nın köməyi ilə həyata keçirilmişdir.

**Apanaj** *(fr. apanage)* – kral domeninin bir hissəsi; 1832-ci ilədək Fransada və bəzi digər Avropa monarxiyalarında feodal suverenləri tərəfindən onların kiçik oğullarına, qardaşlarına adətən ömürlük verilən daşınmaz əmlak, mülk.

**Aparat** – **1)** hər hansı idarəetmə və ya təsərrüfat sahəsinə xidmət edən bir və ya bir neçə müəssisə; **2)** hər hansı təşkilatın və ya birliyin bütün işçiləri; idarə, müəssisə və ya təşkilatın ştat tərkibi.

**Aparteyd, aparteid** *(bur (afrikaans) dilində apartheid – ayrı yaşamaq)* – irqi ayrı-seçkilik forması; insanlıq əleyhinə beynəlxalq cinayətlərdən biri sayılır. A. əhalinin müəyyən qrupunun irqi mənsubiyyətindən asılı olaraq onların siyasi, sosial-iqtisadi və ərazi təcridinədək (təcridetmə də daxil olmaqla) vətəndaşlıq hüquqlarından məhrum edilməsi deməkdir. A. həm də müəyyən irqi ayrı yaşamağa məcbur etmək siyasətidir.

A.-dən cənubi Afrika Respublikasında (CAR-da) Afrikanın bantu xalqlarına və qeyri-avropalı, yaxud qarışıq mənşəli digər etnik qruplarına qarşı qəddar ayrı-seçkilik siyasətinə əsaslanan irqi seqreqasiya prinsipi kimi istifadə edilmişdir. A. 1948-ci ildən rəsmi dövlət siyasətinə çevrilmişdir. Bu siyasət XX yüzilliyin 90-cı illərinədək davam etmişdir. Apartheyd cinayətinin aradan qaldırılması və cəzalandırılması haqqında 1973-cü il konvensiyası a.-i insanlıq əleyhinə cinayət kimi tövsif edir (konvensiyanın 1-ci maddəsi).

**Apatiya** *(yun. a – inkar şəkilçisi + pathos – ehtiras, həvəs)* ətrafdakılara, ümumiyyətlə hər şeyə laqeyd, etinasız münasibət. A. vəziyyətində olan insanın daxili inamı, maraqları aşağı düşür və ya tamamilə itir, ətraf aləmə emosional reaksiyası olmur. A. bir çox hallarda psixi fəallığın zəifləməsi (abuliya) ilə nəticələnir. Belə vəziyyətdə ictimai təhlükəli əməl törədən şəxslərə məhkəmənin qərarı ilə məcburi xarakterli tibbi tədbirlər tətbiq edilə bilər.

**Apatrid** *(apolid) (yun. apatris, apolis – atalıqdan, vətəndən məhrum edilmiş)* – vətəndaşlığı, təbəəliyi olmayan şəxs. AR qanunvericiliyində istifadə olunan terminologiyaya görə vətəndaşlığı olmayan şəxs *(həmçinin bax: vətəndaşlığı olmayan şəxs).*

**Apella** *(yun. xalq yığıncağı)* – Qədim Spartada fəaliyyət göstərmiş nümayəndəli hakimiyyət orqanı – xalq yığıncağı. A.-da ölkə-

nin 30 yaşına çatmış tamhüquqlu vətəndaşları iştirak edirdi. A. əsasən eforları və şura üzvlərini seçir, müharibə elan olunması, sülh, yaxud müttəfiqlik müqavilələrinin bağlanması və ya ləğv edilməsi haqqında qərarlar qəbul edirdi. A. eforlar tərəfindən çağırılırdı və yalnız baxılmaq üçün çara və şuraya qabaqcadan təqdim edilmiş məsələləri nəzərdən keçirmək hüququna malik idi. Qərarlar iştirakçıların səsverməsi əsasında qəbul edilirdi. Eforlar və gerusiya a.-nın qərarını dövlət üçün zərərli hesab etdikləri halda onlar həmin qərarı ləğv edə bilərdilər.

**Apelliant** – məhkəmə prosesində apellyasiya şikayəti vermiş tərəf.

**Apellyasiya** *(lat. appellatio – müraciət)* – işə yenidən baxılması məqsədilə məhkəmənin həm cinayət işləri, həm də mülki işlər üzrə qərarından daha yüksək məhkəmə instansiyasına edilən müraciət. A. ikinci instansiya məhkəməsi tərəfindən işə mahiyyəti üzrə yenidən baxılmasından ibarətdir. Bu zaman ikinci instansiya məhkəməsi iş üzrə yeni hökm çıxarır. İkinci instansiya (apellyasiya) məhkəməsi barəsində şikayət verilmiş hökmü yalnız şikayətdə (protestdə) göstərilən hallar çərçivəsində yoxlayır. Apellyasiya məhkəməsi iş üzrə öz qərarını başlıca olaraq işin yazılı materialları üzrə çıxarır.

A. ilk dəfə Fransada ölkənin 1808-ci il Cinayət-Prosessual Məcəlləsinə daxil edilmişdir. Sonradan o, Avropanın digər ölkələrinin qanunvericiliyinə də daxil edilmişdir. A. Rusiyada 1864-cü il məhkəmə islahatları nəticəsində tətbiq edilmiş, 1917-ci il oktyabr dövlət çevrilişindən sonra cinayət mühakimə icraatında tətbiq edilməmişdir. A. keçən yüzilliyin sonuna doğru Azərbaycanda hüquqi islahatların keçirilməsi prosesində ölkə qanunvericiliyinə daxil edilmişdir.

**Apellyasiya instansiyası** – arbitraj məhkəməsinin qanuni qüvvəyə minməmiş qərarlarından verilmiş şikayətlərə baxan arbitraj məhkəməsi. A.i.-nda apellyasiya şikayətlərinə işlərə birinci instansiya arbitraj məhkəməsi tərəfindən baxılan qaydada qanunvericiliklə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla baxılır. Məsələn, belə qayda Rusiya Federasiyasının Arbitraj-Prosessual Qanunvericiliyində (APQ-də) nəzərdə tutulmuşdur. Qanunvericilikdə ancaq birinci instansiya arbitraj məhkəməsi üçün müəyyən edilmiş qaydalar a.i.-nda tətbiq edilmir. A.i.-da işə baxılarkən arbitraj məhkəməsi işə işin materiallarında olan və əlavə olaraq təqdim edilmiş sübutlar əsasında təkrarən baxır. Əgər ərizəçi özündən asılı olmayan səbəblərə görə birinci instansiya məhkəməsində əlavə sübutları təqdim etmək imkanının olmadığını əsaslandırarsa, əlavə sübutlar arbitraj məhkəməsi tərəfindən qəbul edilir. Məhkəmə apellyasiya şikayətinin dəlilləri ilə əlaqədar deyildir və o, qərarın qanuniliyini və əsaslılığını tam həcmdə yoxlayır. İşə birinci instansiya məhkəməsində baxılması zamanı təqdim edilməmiş yeni tələblərə a.i.-nda baxılmır və onlar, ümumiyyətlə, qəbul olunmurlar. Arbitraj məhkəməsi işə a.i.-nda baxarkən aşağıdakı qərarlardan birini çıxarmağa haqlıdır: 1) məhkəmənin qərarını dəyişmədən, şikayəti təmin etmədən saxlamaq; 2) qərarı tam, yaxud qismən ləğv etmək və yeni qərar qəbul etmək; 3) qərarı dəyişdirmək; 4) qərarı tam, yaxud qismən ləğv etmək, iş üzrə icraata xitam vermək və ya iddianı tam, yaxud onun bir hissəsini baxılmamış saxlamaq *(həmçinin bax: apellyasiya instansiyasının qərarı)*.

**Apellyasiya instansiyasının qərarı** – Rusiya Federasiyasında (RF-də) arbitraj məhkəməsinin apellyasiya şikayətinə baxılmasının nəticələri üzrə qəbul etdiyi prosessual akt (qərar). RF APQ-nin 159-cu maddəsinə uyğun olaraq a.i.q. bütün hakimlər tərəfindən imzalanır. A.i.q.-nda aşağıdakılar göstərilməlidir: 1) qərarı qəbul edən arbitraj məhkəməsinin adı, işin nömrəsi və qərarın qəbul edildiyi tarix, qərarı qəbul edən məhkəmənin tərkibi, iclasda iştirak edən şəxslərin səlahiyyətləri göstərilməklə onların soyadları, birinci instansiya məhkəməsində qəbul edilmiş qərarın tarixi və onu qəbul etmiş hakimlərin soyadları; 2) işdə iştirak edən, apellyasiya şikayəti verən şəxslərin adları; 3) qəbul edilmiş qərarın mahiyyətinin qısa təsviri; 4) qərarın qanuniliyi və əsaslılığı haqqında qaldırılmış məsələnin əsasları; 5) apellyasiya şikayəti sorğusunda təsvir edilən dəlillər; 6) iclasda iştirak edən şəxslərin izahatları; 7) işin arbitraj məhkəməsinin nəticələrinin əsaslandığı sübutlar və arbitraj məhkəməsinin məhkəməsi tərəfindən müəyyən edilən halları, bu hallar barəsində arbitraj məhkəməsinin nəticələrinin əsaslandığı sübutlar və arbitraj məhkəməsinin bu və ya digər sübutları rədd etdiyi, işdə iştirak edən şəxslərin istinad etdikləri qanunları və sair normativ-hüquqi aktları qəbul etmədiyi dəlillər, habelə qərar qəbul edilərkən məhkəmənin rəhbər tutduğu qanunlar və sair normativ aktlar; 8) birinci instansiya məhkəməsinin qərarı ləğv edilərkən və ya dəyişdirilərkən apellyasiya instansiyası məhkəməsinin birinci instansiya məhkəməsinin nəticələri ilə razılaşmadığı motivlər; 9) apellyasiya şikayətinə baxılmasının yekunları üzrə əldə edilmiş nəticələr.

A.i.q.-nda tərəflər arasında bölüşdürülən məhkəmə xərcləri də göstərilir. Qərar çıxarıldığı andan qanun qüvvəsinə minir. Qərar qəbul edildiyi gündən 5 gün ərzində sifarişli məktubla və şəxsi imza ilə təqdim edilmə haqqında bildirişlə işdə iştirak etmiş şəxslərə göndərilir. A.i.q.-ndan şikayət verilə bilər.

**Apellyasiya Məhkəməsi** – Azərbaycan Respublikasında qanunla səlahiyyətlərinə aid edilmiş mülki cinayət və inzibati xətalara dair, eləcədə iqtisadi mübahisələrə dair işlər üzrə, hərbi məhkəmələrin işləri üzrə apellyasiya instansiya məhkəməsi. Apel.M. AR-in paytaxtı Bakıda eləcədə Əli bayramlı, Sumqayıt, Gəncə, Şəki və Naxçıvan şəhərlərində təşkil edilir, onların yurisdiksiyası həmin məhkəmələrin əhatə etdiyi müvafiq ərazilərlə şamil edilir. "Məhkəmələr və hakimlər haqqında" AR qanununun 62-ci maddəsinə uyğun olaraq Apellyasiya Məhkəməsi Rəyasət Heyətindən, Mülki İşlər üzrə Kollegiyadan, Cinayət və İnzibati Xətalara dair İşlər üzrə Kollegiyadan və İqtisadi mübahisələrə dair işlər üzrə Kollegiyadan və Hərbi Məhkəmələrin işləri üzrə Kollegiyadan ibarətdir. Apellyasiya Məhkəməsinin kollegiyalarında işlərə baxmaq üçün məhkəmə tərkibləri yaradılır. Apellyasiya Məhkəməsi hakimlərinin tərkibinə məhkəmənin sədri, onun müavini, məhkəmə kollegiyalarının sədrləri və hakimləri daxildirlər. Apellyasiya Məhkəməsi hakimlərinin

sayı AR Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

Apel.M-in Rəyasət Heyətinin tərkibi və səlahiyyətləri, Rəyasət Heyətinin iş qaydası, kollegiyaların səlahiyyətləri, Apel.M sədrinin səlahiyyətləri, sədrin müavininin səlahiyyətləri, kollegiya sədrlərinin səlahiyyətləri, Apel.M. sədr müavininin və kollegiya sədrlərinin əvəz edilməsi qaydası haqqında normalar "Məhkəmə və hakimlər haqqında" AR qanununda (63-69-cu maddələr) nəzərdə tutulmuşdur.

**Apellyasiya şikayəti** – birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş qərarından (hökmündən) işdə iştirak edən şəxs tərəfindən yuxarı instansiya (apellyasiya) məhkəməsinə verilən şikayət. AR Cinayət-Prosessual Məcəlləsinin 382.1-ci maddəsinə uyğun olaraq cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraat materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə baxılması zamanı birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökm və ya qərarlardan apellyasiya şikayəti və ya apellyasiya protesti üzrə icraat CPM-in 381-407-ci maddələrinin müddəalarına müvafiq olaraq aparılır.

Məhkum edilmiş şəxsin mənafeyinə aid hissədə – məhkum edilmiş şəxs, onun qanuni nümayəndəsi və ya müdafiəçisi; bəraətin dəlil və əsaslarına aid hissədə – bəraət almış şəxs, onun qanuni nümayəndəsi və ya müdafiəçisi; tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə dair – yetkinlik yaşına çatmamış şəxsin özü, onun qanuni nümayəndəsi və ya müdafiəçisi; tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə dair – barəsində tibbi xarakterli məcburi tədbir tətbiq edilmiş şəxsin qanuni nümayəndəsi və müdafiəçisi, xəstəliyin xüsusiyyəti ona öz hüquqlarından istifadə etməyə mane olmadıqda isə həmin şəxsin özü; tərəfindən birinci instansiya məhkəməsində irəli sürülmüş tələblər daxilində zərər çəkmiş şəxsin mənafelərinə aid hissədə – zərər çəkmiş şəxs (xüsusi ittihamçı) və onun nümayəndəsi; mülki iddiaya dair hissədə – mülki iddiaçı, mülki cavabdeh, onların qanuni nümayəndələri və ya nümayəndələri apellyasiya şikayəti vermək hüququna malikdirlər.

A.ş. bu şikayəti vermək hüququna malik olan şəxslər tərəfindən hökm və ya məhkəmənin digər qərarının elan olunduğu andan 20 gün müddətində aşağıdakı hallarda verilir: a) ittiham və ya bəraət hökmü çıxarıldıqda; b) cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın dayandırılması haqqında qərar çıxarıldıqda; c) cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi haqqında qərar çıxarıldıqda; ç) hakimə (hakimlərə) etirazın təmin edilməsi haqqında qərar çıxarıldıqda; d) cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırma zamanı CPM-in 303.3-cü maddəsində nəzərdə tutulmuş kobud pozuntuların aradan qaldırılması üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə qərar çıxarıldıqda; e) məhkəmə baxışının dayandırılması və cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının yeni ittihamın irəli sürülməsi üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi barədə qərar çıxarıldıqda; ə) xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsindən imtina olunması barədə qərar çıxarıldıqda; f) tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qərar çıxarıldıqda; g) tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qərar çıxarıldıqda.





A.ş. hökm və ya qərar çıxarmış birinci instansiya məhkəməsi vasitəsi ilə verilir. A.ş.-nin verilməsi müddəti üzrlü səbəblərə görə buraxıldıqda CPM-in 383-cü maddəsində göstərilən şəxslər hökm və ya qərarı çıxarmış birinci instansiya məhkəməsi qarşısında buraxılmış müddətin bərpa edilməsi haqqında vəsatət qaldırmaq hüququna malikdirlər. A.ş.-ndə aşağıdakılar göstərilməlidir: a) şikayətin ünvanlandığı apellyasiya instansiyası məhkəməsinin adı; b) şikayəti verən şəxsin adı; c) hökm və ya qərar çıxarmış birinci instansiya məhkəməsinin adı; ç) hökm və ya məhkəmənin digər yekun qərarının qısa məzmunu və apellyasiya şikayəti, şikayəti verən şəxsin mülahizələrinə görə onun qanunsuzluğunun, əsassızlığının, yaxud ədalətsizliyinin nədən ibarət olması; d) şikayəti verən şəxsin xahişi; d) şikayətə əlavə olunan sənədlərin siyahısı.

A.ş.-nin baxışı nəticəsində apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin hökm və ya qərarını dəyişdirmək, şikayəti təmin etmədən saxlamaq haqqında qərar çıxarmaq, birinci instansiya məhkəməsinin hökmünü ləğv edərək yeni hökm çıxarmaq, icraata xitam verilməsi barədə qərar çıxarmaq, hökm və ya qərarın dəyişdirilməsi haqqında qərar qəbul etmək hüququna mlikdir. Apellyasiya instansiyası məhkəməsinin yekun qərarı elan olunduğu andan dərhal sonra qüvvəyə minir.

**Apolid** *(bax: apatrid).*

**Apologiya** *(ing. apology)* – **1)** hərfən müttəhimi şifahi və ya yazılı formada müdafiə etmək, Sokratın Platona və Ksenofonta istinad etdiyi apologiyasını buna klassik misal göstərmək olar. Erkən xristianlıq dövründə a. xristianlıq etiqadının müdafiəsi yönümündə yazılmış əsər kimi başa düşülməyə başlamışdır. Məsələn, Tertullianın "Apologetika" əsəri; **2)** qeyri-obyektiv müdafiə, yaxud qeyri-mötədil tərif (bir qayda olaraq, mədh etmə).

**Apostil** – 1961-ci il Haaqa konvensiyasına uyğun olaraq həmin konvensiyanın iştirakçısı olan dövlətlərin rəsmi sənədlərinə vurulan xüsusi ştamp. Həmin ştampın vurulmasında məqsəd bu rəsmi sənədləri diplomatik və ya konsul leqallaşdırılması zərurətindən azad etməkdən ibarətdir. Konvensiyanın 5-ci maddəsinə uyğun olaraq a. sənədi imzalamış şəxsin imzasının həqiqiliyini, keyfiyyətini, sənədə vurulmuş möhürün və ştampın lazımi səviyyədə həqiqiliyini təsdiq edir.

**Apostillyasiya** – 1961-ci il Haaqa konvensiyasını imzalamış bütün iştirakçı dövlətlərdə tanınmış rəsmi sənədlərin təsdiqinin yüksək dərəcəsi. Apostilin həqiqiliyini konvensiyanı imzalamış istənilən ölkənin xarici işlər nazirliyində yoxlamaq olar.

**A rationibus** *(lat. rationes – hesab)* – Qədim Romada imperiya dövründə təsis edilmiş və maliyyə məsələlərinin idarə edilməsilə məşğul olan orqan. Saray nəzdində fəaliyyət göstərmişdir. A.R. ilk əvvəllər imperatorun azadlığa buraxılmış şəxsləri,

sonralar isə cəngavərlər təbəqəsindən olan yüksək rütbəli məmurlar tərəfindən idarə edilmişdir. Həmin məmurların müavinlərinin azadlığa buraxılmış şəxslərdən ibarət olması ehtimal edilir. Zaman keçdikcə bu idarə Roma imperiyasının bir növ maliyyə nazirliyinə çevrilmişdir.

**Arbalet** *(lat. arcus – yay, kaman və ballista – tullayıcı mərmi)* – orta əsrlərdə Avropanın bir sıra ölkələrində müharibə zamanı istifadə edilən tullayıcı əl silahı; 100 metrədək istifadə olan hədəfi zərərsizləşdirmək qabiliyyətinə malik olmuşdur. Kriminalistika təcrübəsində bəzən cinayətin aləti qismində təsadüf olunur.

**Arbitr** *(lat. arbiter)* – iqtisadi xarakterli mübahisələri münsiflik yolu ilə həll edən vasitəçi, hakim (bax. münsiflər məhkəməsi). A. tərəflərin qarşılıqlı razılığı əsasında seçilir. Bəzi ölkələrdə qüvvədə olan arbitraj qanunvericiliyinə uyğun olaraq vəzifəli şəxs də a. adlandırılır. Arbitrajın üzvü olmuş şəxsə də a. deyilir.

**Arbitraj** – münsiflər məhkəməsinin tərəflərinin seçdikləri (təyin etdikləri iqtisadi mübahisələrin və ya əmək mübahisələrinin həlli üsulu *(bax: beynəlxalq kommersiya arbitrajı, münsiflər məhkəməsi)*. A. bir sıra ölkələrdə təşkilatların və sahibkar-vətəndaşların iştirakı ilə iqtisadi mübahisələri həll edən orqan *(məsələn, bax: arbitraj məhkəməsi)* kimi fəaliyyət göstərir. Valyuta arbitrajı da mövcuddur. Bu, müxtəlif bazarlarda valyuta qiymətlərindəki fərqlərdən gəlir əldə edilməsi məqsədilə valyutanı bir bazardan satın almaqla eyni vaxtda onu digər valyuta bazarında realizə etməkdən ibarətdir.

**Arbitraj barışığı** – arbitraj baxışı prosesində işin həlli nəticəsində mübahisə edən tərəflərin barışması.

**Arbitraj xərcləri** - işlərə arbitraj məhkəməsində baxılması ilə əlaqədar sərf edilən pul məsrəfləri. A.x. dövlət rüsumlarından və ödəmələrindən ibarətdir. Buraya arbitraj məhkəməsi tərəfindən təyin edilmiş ekspertizaların aparılması, şahidlərin çağırılması, sübutların yerinə müayinə edilməsi, habelə məhkəmə aktlarının icrası ilə əlaqədar olan pul məbləğləri daxildir. A.x. işə baxılmasında iştirak edən şəxslərə şamil olunur və xərclər onların arasında proporsional qaydada bölünür. Dövlət rüsumlarının ödənilməsi üçün iddianın dəyəri (qiyməti) müəyyən edilir. İddiaçı müəyyən edilmiş qaydada dövlət rüsumunu ödəməkdən azad edildikdə həmin rüsum dövlət büdcəsinin nəfinə cavabdehdən tutulur. Buna cavabdehin dövlət rüsumunu ödəməkdən azad edilmədiyi hallarda yol verilir.

**Arbitraj iclasçıları** - arbitraj iclasçıları siyahısına daxil edilən, arbitraj məhkəməsində işlərə baxılmasında qanunla müəyyən edilmiş qaydada iştirak edən vətəndaşlar. "A.i." anlayışı RF-in Federal Qanunvericiliyinə ilk dəfə 1995-ci ildə "Rusiya Federasiyası Arbitraj-Prosessual Məcəlləsinin tətbiqi" ilə əlaqədar daxil edilmişdir. Məcəllənin tətbiqilə əlaqədar RF-in Yüksək Arbitraj Məhkəməsinə işlərə a.i.-nın cəlb edilməsilə baxılması üzrə eksperiment aparılması tapşırılmışdır. Eksperiment işlərə birinci instansiyada kollegial baxılması zamanı aparılır. 25 yaşına çatan, sahibkarlıq və sair iqtisadi fəaliyyət sahəsində xüsusi biliyə və iş təcrübəsinə malik olan şəxslər a.i. ola bilərlər. Onlar işlərə baxılmasında





və qərarların qəbulunda peşəkar hakimlərlə bərabər surətdə iştirak edirlər. Məhkəmənin tərkibinə bir peşəkar hakim və iki a.i. daxildir. İşə kollegial tərkibdə baxıldığı hallarda məhkəmənin tərkibinə üç peşəkar hakim və iki a.i. daxil edilir.

**Arbitraj idarəedicisi** – arbitraj məhkəməsi tərəfindən təyin edilən, borclunun əmlakının xarici idarəçiliyi funksiyası həvalə olunan şəxs *(həmçinin bax: xarici idarəçilik)*.

**Arbitraj komissiyası** – birjanın nəzdində təsis edilən komissiya; birjanın əqdlərində qeydiyyatdan keçmiş iştirakçılar arasında mübahisələrin həll edilməsi ilə məşğul olur.

**Arbitraj komitəsi** – birja üzvləri arasında mübahisələrin həll edilməsi üçün, habelə birjanın üzvü olmayan müştərilərin müraciət etdikləri hallarda onlarla birja üzvləri arasında yaranmış mübahisələrin həlli məqsədilə arbitrləri təyin edən orqan.

**Arbitraj məhkəməsi** – bir sıra ölkələrdə xüsusi məhkəmə aidiyyətinə (xüsusi yurisdiksiyalı məhkəmələr) malik olan iqtisadi mübahisələri və konstitusiya qanunu ilə səlahiyyətlərinə aid sair mübahisələri həll etmək yolu ilə ədalət mühakiməsini həyata keçirən məhkəmə orqanları növü. A.m.-nin əsas vəzifəsi aidiyyətində olan mübahisələri həll etdiyi zaman idarə, müəssisə, təşkilatların və vətəndaşların sahibkarlıq və sair iqtisadi fəaliyyət sahəsində pozulmuş və ya mübahisəli hüquqlarını, qanuni mənafelərini müdafiə etməkdən; sahibkarlıq və sair iqtisadi fəaliyyət sahəsində qanunçuluğun möhkəmləndirilməsinə və hüquq pozuntularının qarşısının alınmasına yardım etməkdən ibarətdir. A.m.-nin fəaliyyəti qanunçuluq, hakimlərin müstəqilliyi, təşkilatların və vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi, çəkişmə və tərəflərin hüquq bərabərliyi, işlərə baxılmasının açıqlığı prinsipləri əsasında qurulur.

**Arbitraj-prosessual hüququ** – bir sıra ölkələrdə hüququn müstəqil sahəsi (arbitraj prosesi). A.-p.h. mülki, inzibati və sair hüquq münasibətlərindən əmələ gələn iqtisadi mübahisələr üzrə arbitraj məhkəmələri tərəfindən işlərə baxılması prosesində yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusudur. A.-p.h.-nun predmetini təşkilatların, sahibkar vətəndaşların mübahisələri və arbitraj məhkəməsinin səlahiyyətlərinə aid edilən sair işlər təşkil edir. Bu baxımdan arbitraj prosesi mühakimə icraatının müstəqil növü kimi çıxış edir və təbii olaraq mülki prosesdən ayrılır.

**Arbitraj-Prosessual Məcəlləsi** – RF-də iqtisadi mübahisələrin və sahibkarlıq, sair iqtisadi fəaliyyət sahəsində yaranmış mübahisələrin arbitraj məhkəmələrində mühakimə icraatı qaydasını tənzimləyən hüquq normalarının birləşdirildiyi və sistemləşdirildiyi qanunvericilik aktı. RF-də RF-in Arbitraj-Prosessual Məcəlləsi (APM) fəaliyyət göstərir.

**Arbitraj sazişi** - müqavilə xarakterli olub-olmamasından asılı olmayaraq tərəflər arasında konkret hüquq münasibətləri ilə əlaqədar yaranan və ya yarana bilən bütün və ya bir qisim mübahisələrin arbitraj məhkəməsinə verilməsi haqqında saziş. A.s. həm arbitraj sövdələşməsi *(bax: arbitraj sövdələşməsi)*, həm də ayrıca saziş kimi bağlana bilər. A.s. yazılı formada bağlanır.

**Arbitraj sövdələşməsi** - bağlanılmalı olan müqavilədən (kontraktdan) və ya bu müqavilə ilə əlaqədar yarana bilən mübahisələrin həll edilməsi yeri və qaydası haqqında həmin müqavilədə (kontraktda) nəzərdə tutulan şərt.

**Areopaq** *(yun. Areios pagos, hərfən Ares təpəsi)* – **1)** Qədim Afinada hakimiyyət orqanı; qədim mühakimə icraatının iclaslarının keçirildiyi yerin adıdır. Ares təpəsi öz adını, mənşəyini mifik dövrün təsəvvürlərindən götürmüşdür. Ares təpəsində həyata keçirilən ədalət mühakiməsi cinayət mühakimə icraatını yerinə yetirirdi. A. qəbilə-tayfa quruluşu dövründə ağsaqqallar şurası kimi fəaliyyət göstərmişdir. E.ə. VIII yüzillikdən başlayaraq onun üzvləri ömürlük seçilmiş arxontlardan ibarət olmuşdur. Arxontların A.-ın tərkibinə 594-cü ildə Salon tərəfindən daxil edildiyi də güman olunur. A. qanunların icrasını müşahidə edir, zərurət yarandıqda vəzifəli şəxsləri məsuliyyətə cəlb edə bilirdi. O, şuranın və xalq yığıncağının qərarlarına öz etirazını bildirə bilərdi. Efialtın 462-ci il qanunu ilə a. öz hüquqlarını itirmiş, yalnız cinayət məhkəməsi kimi fəaliyyət göstərməyə başlamışdır. Eramızın 130-cu ilində Adrianın hakimiyyəti illərində isə A.-ın ali hakimiyyət orqanı kimi əvvəlki hüquqları bərpa edilmiş, lakin onun fəaliyyəti böyük əhəmiyyət kəsb etməmişdir; **2)** Yunanıstanda ali məhkəmənin adı.

**Argentarilər** – Qədim Romada pul əmanətlərinin qəbulu və ssudaların verilməsilə məşğul olan bankirlər. A. öz müştəriləri arasında nağdsız hesablaşmalar da aparırdılar.

**Argentorat** *(ing. argentorate)* – qapalı daktiloskopik izlərin aşkar edilməsi və götürülməsi üçün kriminalistikada bir vasitə kimi tətbiq edilən alüminium tozu.

**Arxipelaq keçidi** – Birləşmiş Millətlər Təşkilatının (BMT-nin) dəniz hüququ üzrə 1982-ci il konvensiyasının 53-cü maddəsinə uyğun olaraq açıq dənizin bir hissəsindən digər hissəsinə fasiləsiz, sürətli və manesiz tranziti məqsədilə arxipelaq-dövlət tərəfindən müəyyən edilmiş dəniz dəhlizi və ya onun üzərində yerləşən hava dəhlizi ilə normal gəmiçilik və uçuş hüququnun həyata keçirilməsi qaydasında gəminin (hava gəmisinin) arxipelaqdan və ona bitişik olan ərazi sularından keçidi. Əgər arxipelaq-dövlət tərəfindən dəniz və hava dəhlizləri müəyən edilməzsə, a.k. hüququ adətən beynəlxalq gəmiçilik üçün istifadə edilən yollarla həyata keçirilə bilər. Bütün gəmilər və uçuş aparatları a.k. hüququndan istifadə edirlər.

**Arxiv** *(lat. archivum, yun. archeion – hökumət idarəsi)* – **1)** hər hansı müəssisə və ya şəxslərin fəaliyyətinə aid olan sənədlərin, çəkilişlərin və əlyazmaların məcmusu; **2)** sənədlərin saxlandığı (qorunduğu təşkilatın binası; **3)** sənədli materialların saxlandığı müəssisə.

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli qanununa uyğun olaraq "arxiv" anlayışı "arxiv sənədlərinin məcmusu, onların komplektləşdirilməsini, uçotunu, mühafizəsini və istifadəsini həyata keçirən arxiv təşkilatları və ya idarələrinin, müəssisələrin struktur bölmələri" kimi müəyyən edilmişdir. Qanunun 6-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında dövlət, ictimai, dini və digər təşkilatlar, vətəndaşlar qanunvericilikdə müəyyən olunmuş qaydada arxiv yaratmaq hüququna malikdirlər.

Dövlət arxiv fondunun sənədləri alqı-satqı, yaxud mülkiyyət formasının dəyişdirilməsini nəzərdə tutan müqavilələrin obyekti ola bilməz və yalnız qanunvericilikdə müəyyən olunmuş qaydada istifadəyə verilə bilər.

**Arxivarius** *(ing. archivarius)* – arxiv sənədlərinin, materiallarının qoruyucusu, arxiv təşkilatının əməkdaşı.

**Arxiv fondu** – tarixi və məntiqi baxımdan bir-biri ilə bağlı olan arxiv sənədlərinin məcmusu.

**Arxiv xidməti** – arxiv işinin həyata keçirilməsi, arxiv, fondunun formalaşdırılması, mühafizə edilməsi və ondan istifadə olunması məqsədilə təşkil edilən xidmət növü. "Milli arxiv fondu haqqında" qanunun 15-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında arxiv işinin həyata keçirilməsi, milli arxiv fondunun formalaşdırılması, mühafizəsi və istifadəsi məqsədilə arxiv və kargüzarlığın vahid dövlət sistemini birləşdirən dövlət arxiv xidməti yaradılır.

**Arxiv işi** – arxivlərin komplektləşdirilməsi, mühafizəsi, uçotu və arxiv xidmətinin təşkili. AR-də arxiv işinə dövlət idarəetməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir. "Milli arxiv fondu haqqında" qanunun 20-ci maddəsinə uyğun olaraq dövlət və qeyri-dövlət idarə, müəssisə və təşkilatları, vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və əcnəbilər, o cümlədən xarici ölkələrin vətəndaşları olan azərbaycanlılar arxiv fondlarının zənginləşdirilməsi, arxiv xidmətinin təkmilləşdirilməsi və arxiv işi üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsində iştirak edə bilərlər.

**Arxiv sənədi** – mühafizə edilən və ya edilməli olan, informasiya daşıyıcısının növündən asılı olmayaraq dövlət, cəmiyyət və ya öz mülkiyyətçisi üçün tarixi, elmi, mədəni əhəmiyyət kəsb edən sənəd. Dövlət arxiv fondunun sənədləri dövlət mülkiyyətinin obyekti kimi mühafizə olunur *(bax: arxiv sənədlərinin daimi mühafizəsi, arxiv sənədlərinin müvəqqəti mühafizəsi).*

"Milli arxiv fondu haqqında" qanunun 9-cu maddəsinə uyğun olaraq mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasında qanunvericilikdə müəyyən olunmuş qaydada fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların sənəd fondları həmin təşkilatların mülkiyyətidir. Dövlət orqanları tərəfindən arxiv sənədlərinin götürülməsi və ya müsadirə olunması qanunvericilikdə müəyyən olunmuş qaydada həyata keçirilir.

**Arxiv sənədlərinin daimi mühafizəsi** – həmin sənədlərin arxivdə, muzeydə və kitabxanada müddətsiz mühafizəsi. A.s.d.m. arxiv işi sahəsində dövlət vəzifələrindən biri hesab olunur.

**Arxiv sənədlərinin mülkiyyətçisi** – arxiv sənədləri üzərində sahiblik, onlardan istifadə və onların üzərində sərəncam vermək hüququna malik olan subyekt. "Milli arxiv fondu haqqında" qanunun 9-cu maddəsinə uyğun olaraq mülkiyyət formasından asılı olmayaraq, arxiv sənədlərinin mülkiyyətçilərinin hüquqlarına dövlət təminat verir.

**Arxiv sənədlərinin müvəqqəti mühafizəsi** – dövlət və yerli özünüidarə orqanları, dövlət idarə, müəssisə və təşkilat-

ları tərəfindən arxiv sənədlərinin "Milli arxiv fondu haqqında" AR qanununda nəzərdə tutulmuş müddətdə mühafizəsi.

**Arxiv sənədlərinin sahibi** – arxiv sənədlərinə sahiblik və onlardan istifadə hüququnu tam həcmdə, onların üzərində sərəncam vermək hüququnu qanunvericilikdə müəyyən olunmuş həddə həyata keçirən subyekt.

**Arxont** *(yun. archont; ing. regent)* – Afinada (qədim yunan polislərində – şəhər-dövlətlərində) hər il seçilən 9 nəfər yüksək vəzifəli şəxslərdən biri. Afinada ilk əvvəllər a.-ların sayı 3 nəfərdən ibarət olmuşdur. E.ə. VII yüzilliyin ortalarına doğru onların sayı 9 nəfərə çatdırılmışdır. Hər bir a. müəyyən bir funksiyanı yerinə yetirmişdir. Şəhər idarəçiliyinin başında a.-eponim durur, dini funksiyanı, məsələn, qurban verilməsi tədbirini və bayramların keçirilməsini a.-basiley yerinə yetirirdi. A.-polemark qoşuna başçılıq edirdi. Hüquqi məsələlər 6 nəfər a.-dan ibarət xüsusi kollegiya olan a.-fesmofetlərə həvalə edilmişdi. Salonun hakimiyyəti illərindən sonra - e.ə. V yüzillikdə a. vəzifəsi öz əhəmiyyətini itirmişdir. Buna bir tərəfdən strateqlərin rolunun artması və digər tərəfdən a. vəzifəsinin püşkatma yolu ilə seçkili olması səbəb olmuşdur.

**Aristokratiya** *(yun. aristokratia, aristos sözündəndir – ən yaxşı + kratos – hakimiyyət)* – **1)** sinfin və ya sosial qrupun yüksək, imtiyazlı təbəqəsi, varlı, adlı-sanlı əyanlar zümrəsi; **2)** dövlətin idarəçilik forması. Belə idarəçilik formasında dövlət hakimiyyəti imtiyazlı, kübar təbəqənin nümayəndələrinin əlində olur. Dövlət əyanlar hökmranlıq etdiyinə görə a. demokratiyaya, bəzən də monarxiyaya zidd idarəçilik forması hesab olunur.

**Arktika** *(yun. arktikos – şimal)* – Yer kürəsinin şimal qütb sahəsi. Avrasiya və Şimali Amerika materiklərinin şimal sahillərini, Şimal Buzlu okeanı və onun bütün adalarını, eləcə də Atlantik və Sakit okeanlarının yanaşı hissələrini tutur. RF, Norveç, Kanada, Danimarka və ABŞ Arktikyanı dövlətlər hesab olunurlar. A.-nın hüquqi rejimi qüvvədə olan beynəlxalq dəniz hüququ normaları və Arktikayanı dövlətlərin milli qanunvericiliyi ilə müəyyən edilir.

**Arqument** *(lat. argumentum; ing. argument)* – sübutun əsasına xidmət edən məntiqi dəlil. A. sübutun müqəddəm şərti, yəni onun əsasıdır.

**Armanopulo Altıkitabı** – Biznes hüququnun sonuncu hüquq abidəsi; 1345-ci ilə yaxın Fessaloni (indiki Saloniki şəhəri) hüquqşünası və hakimi Armanopulo tərəfindən tərtib edilmiş hüquq normalarının toplusu. A.A.-nda Bizansın mülki və cinayət hüququ təsvir edilmişdir. Müəllif öz qarşısına Proxironu tamamlamaq vəzifəsini qoymuşdur. A.A. Bizans imperiyasında geniş yayılmış, imperiyanın süqutundan sonra isə Yunanıstanın (həm Türkiyənin istilası dövründə, həm də istiqlaliyyət əldə etdiyi dövrdən sonra) və Bessarabiyanın ərazisində xeyli müddət fəaliyyət göstərmişdir.

**Armator** *(armator)* – dəniz sığortaçılığında gəmi sahibi və ya onun dəniz gəmisini mülkiyyət hüququ olmadan istismar edən etibarlı nümayəndəsi (onun müvəkkil etdiyi şəxs). A. gəmini reysdə olduğu zaman təchiz edir, ekipaj tutur, kapitan dövət və onun hərəkətlərinə görə məsuliyyət daşıyır.

**Artel** *(ing. artel, work association)* – kollektiv təsərrüfatın ümumiləşdirilmiş istehsal vasitələri əsasında istehsalatın aparılması üçün fiziki şəxslərin könüllü birliyi, bu birliyin adı. A. üzvləri birliyin işində şəxsi əməkləri ilə iştirak etməklə yanaşı, onun yaradılmış fonduna üzvlük haqqı (daxilolma haqqı, üzvlük payı və i.a.) də keçirirlər. A.-in əmlakı onun mülkiyyəti hesab olunur. AR-in mülki qanunvericiliyinə uyğun olaraq "A." termini istehsalat kooperativi mənasında işlədilir.





"**Arthaşastra**" – qədim hind siyasi və hüquqi fikrininin dövrümüzədək gəlib çatmış böyük abidəsi; bu abidəni həm də siyasət və dövləti idarəetmə mədəniyyəti haqqında traktat adlandırırlar. A.-nın eramızdan əvvəl IV yüzilliyin sonunda Mauryalar sülaləsinin banisi çar Çandraquptanın müşaviri Kautilya tərəfindən tərtib edildiyi ehtimal olunur.

A.-nın mətni XX yüzilliyin başlanğıcında aşkar olunmuş və ilk dəfə 1909-cu ildə nəşr edilmişdir. A. beş kitabdan ibarətdir. Siyasi nəzəriyyələrin kökləri (mənbələri) haqqında irəli sürülən müddəalar sözün məhdud mənasında Qədim Hindistanın əsas nəzəriyyələrindən birinə – "Nitişastra"ya da aiddir. Bu, hər şeydən əvvəl, A.-nın I-V kitablarının hamısında ifadə olunur.

Traktatın II kitabında müxtəlif nəzarətçilərin, əsasən maliyyə idarələrinin fəaliyyətindən bəhs olunur. Bu da təsdiq edir ki, hind nəzəriyyəçiləri dövlət idarəçiliyi haqqında elmlə ("dandaniti" ilə) yanaşı, maliyyə-təsərrüfat barəsində elmə ("vartta"ya – "gəlirlər haqqında" elmə) də yaxından bələd olmuşlar. A.-ya uyğun olaraq, əgər dandaniti düzgün və qeyri-düzgün siyasəti ("naya-anaya"nı) müəyyən edirsə, vartta mənfəəti və qeyri-mənfəəti ("artxa-anartxa"nı) nəzərdə tuturdu.

A.-nın III və IV kitabları mühakimə icraatı məsələlərinə həsr edilib. IV kitabda cinayətkarların cəzalandırılması haqqında xüsusi əsər xatırladılır. Maraqlıdır ki, qədim hind siyasi ədəbiyyatında ceza təlimi "danda" termini ilə ifadə edilir və bunun özü də, yəni cəzalandırma da dövləti idarəetmə siyasətinə aid edilir.

A.-nın "Dharmasthiya" adlanan III kitabını "məhkəmə idarəsi" və ya "hakimlərin fəaliyyət sahəsi" ("dharmastha") kimi də izah etmək olar. Eyni zamanda IV kitabda "ictimai qaydanın mühafizəsi haqqında" xüsusi danışılır. İctimai qayda hər bir azad hindlinin öz "dharma" qanununa ciddi əməl etməsilə mühafizə olunmalı idi.

Bundan başqa, A.-da cəmiyyət və dövlət (icma, kasta, ailə, mülkiyyət, köləlik və muzdlu əmək), qədim hind hüququ (mühüm hüquqi anlayışlar, məhkəmə və proses, əmlak hüququ və onun anlayışı) haqqında məsələlərə və i.a. problemlərə, onların təhlilinə geniş yer verilmişdir. Abidə qədim hind hüququnun, onun formalaşması və təkamülü prosesinin öyrənilməsi baxımından tükənməz bir mənbədən ibarətdir.

**Artikul** *(lat. articulus – bölmə; maddə)* – **1)** I Pyotr tərəfindən yaradılmış hərbi nizamnamə; **2)** qanunun maddəsi; **3)** məmulatın, əmtəənin tipi, onun rəqəmlə və ya hərflə işarə edilməsi (adlandırılması).

**Asenda** *(isp. hacienda)* – Latın Amerikası ölkələrinin əksəriyyətində iri malikanə; Argentina və Çilidə estansiyaya, Braziliyada isə fazendaya uyğundur.

**Asento** *(isp. asiento – saziş)* – müqavilə; belə qəbildən olan müqavilələrə uyğun olaraq XVI-XVIII yüzilliklərdə İspaniya zənci kölələrin Şimali Amerika müstəmləkələrinə aparılmasına icazə vermişdir. Buna eyni zamanda da müstəmləkə hüqu-

qu deyilir. Həmin hüquq 1701-ci ildən Fransaya, 1713-1750-ci illərdə isə Böyük Britaniyaya məxsus olmuşdur.

**Asessor** *(lat. assessor – iclasçı)* – **1)** Qədim Romada qanunların icrası ilə məşğul olan vəzifəli şəxs. Pretorlara, propretorlara, prokonsullara, əyalət rəislərinə, sonralar isə müxtəlif məhkəmə funksiyalarının həyata keçirilməsi üçün prefektlərə kömək etmək məqsədilə təyin edilirdi. İmperiya dövründə a. (müxtəlif adlar altında) imperatorun yanında hüquq məsləhətçiləri kimi fəaliyyət göstərmişlər. A. imperatora öz məsləhətləri ilə kömək etməklə yanaşı, mürəkkəb məhkəmə işləri üzrə rəylər də verirdilər; **2)** Orta əsrlərdə və Yeni dövrdə Avropanın bir sıra ölkələrində (Fransada, Polşada və alman knyazlıqlarında) bəzi məhkəmələrin üzvləri. A. bəzi hallarda ədalət mühakiməsinin aparılmasında senyora kömək edirdi; **3)** çar Rusiyasında inzibati vəzifə, habelə mülki rütbə (kollegiyanın a.-u.).

**"Asimmetrik" federasiya** – federativ dövlət quruluşu modeli. Belə quruluş şəraitində federasiyanın subyektləri qeyri-bərabər konstitusiya-hüquqi statusa və müvafiq surətdə bərabər olmayan səlahiyyətlər həcminə malik olurlar. RF, Hindistan, Kanada, Braziliya, Tanzaniya və bir sıra digər dövlətlər belə federativ quruluşa malikdirlər.

**Asosiallıq** – mövcud davranış qaydaları çərçivəsindən kənara çıxmanın (yayınmanın) təsviri üçün istifadə olunan termin. Rədd edilən davranış anlayışının (yayınmanın, delinkvensiyanın) asosiallığın sinonimi qismində çox nadir hallarda işlədilməsinə baxmayaraq, bu anlayışların hər ikisinin arxasında qarşılıqlı əlaqə sistemi mövcuddur. Sosialogiya və sosial psixologiya rədd edilən davranış, psixoloqlar və psixoanalitiklər isə asosiallıq problemini tədqiq edirlər. Kriminologiya elmi isə bu istiqamətin hər ikini nəzərdən keçirir. Çünki a. anlayışı başsızlıq, nəzarətsizlik (yetkinlik yaşına çatmayanlara münasibətdə) anlayışları ilə sıx bağlıdır.

**Aspirant** – ali peşəkar təhsilə malik olub elmlər namizədi alimlik dərəcəsi almaq üçün aspiranturada *(bax: aspirantura)* təhsil alan və dissertasiya tədqiqatı hazırlayan şəxs.

**Aspirantura** *(lat. aspiro – səy edirəm, yaxınlaşmağa çalışıram)* – Azərbaycan Respublikasında ali məktəblərdə və elmi-tədqiqat müəssisələrində elmi işçilərin və kadrların hazırlanması forması. A.-da təhsil həm əyani, həm də qiyabi formada həyata keçirilir. A. vasitəsilə elmin bütün əsas sahələri üzrə kadrlar hazırlanır.

**Assambleya** *(ing. assembly; fr assemblee)* – **1)** beynəlxalq təşkilatlarda bəzi rəhbəredici orqanların adı; BMT-nin bütün dövlətlərin – BMT üzvlərinin nümayəndələrindən ibarət olan Baş Məclisi *(bax: BMT-nin Baş Məclisi)*; **2)** bir sıra ölkələrdə parlamentin və ya onun palatalarından birinin adının tərkib hissəsi. Məsələn, Uruqvayda – Baş Assambleya; Mavrikidə – Qanunvericilik Assambleyası; Anqolada – Xalq Assambleyası; Haiti və Nikraquada – Milli Assambleya və i.a.

**Assiqnat** – *(fr. assignatis; lat. assig – təyin edirəm)* – 1789-1796-cı illərdə Fransada tədavüldə (dövriyyədə) olmuş kağız pul. Böyük Fransız burjua inqilabı dövründə 3-5 faizli qiymətli dövlət kağızları qismində buraxılmışdır.





**Assimilyasiya** *(ing. assimilation)* – əcnəbilərə və qastarbayterlərə aid olan problemlə əlaqədar istifadə edilən (o cümlədən kriminalogiyada) termin. Bu, digər millətlərdən olan şəxslərin gəldikləri (məskunlaşdıqları) ölkənin mədəniyyətinə, dilinə və eləcə də qanunlarına (hüquq qaydalarına) tədricən uyğunlaşması deməkdir. Belə uyğunlaşma yalnız irqi ayrı-seçkiliyin olmadığı hallarda tam və müvəffəqiyyətli hesab oluna bilər. Bu cəhətdən a. inteqrasiyadan fərqlənir. İnteqrasiya prosesində azlıqların hüquqları köklü əhalinin hüquqları ilə tarazlaşdırılır. A. prosesində isə belə tarazlaşdırma müxtəlif sosial münaqişələrlə müşayiət olunduqda, vəziyyət kriminal xarakter alır.

**Assizlər** *(lat. assisae; ing. assises)* – **1)** orta əsrlər İngiltərəsində bəzi kral aktlarının (məsələn, böyük münsiflərin – ittihamedici andlıların yaradılması haqqında Klarendon a.-i) adı; **2)** İngiltərədə orta əsrlər şəraitində məhkəmə iddiasının (daşınmaz əmlak üzərində sahiblik hüququnun bərpa edilməsi haqqında) xüsusi formaları; **3)** bir sıra ölkələrdə cinayət işlərinə baxılması ilə əlaqədar andlıların iştirakı ilə həyata keçirilən səyyar məhkəmə orqanı.

**Assosiasiya** *(bax: hüquqi şəxslərin birlikləri; şirkətlər və ittifaqlar)*.

**Assosiasiyalaşdırılmış dövlət** *(azad surətdə birləşən dövlət)* – dövlətlərarası (mahiyyətinə görə isə, adətən dövlətdaxili) münasibətlərin xüsusi formasını ifadə etmək üçün istifadə olunan anlayış. A.d. dedikdə adətən öz suverenliyinin bir hissəsini könüllü olaraq başqa dövlətə verən dövlət başa düşülür. Belə hallarda dövlət, hər şeydən əvvəl, müdafiə, xarici siyasət əlaqələri, pul dövriyyəsinin təşkili ilə bağlı səlahiyyətlərini başqa dövlətə verir. Məsələn, faktiki olaraq ABŞ-ın müstəmləkəsinə çevrilmiş Puerto-Riko a.d. hesab olunur.

**Assosiasiyalaşdırılmış kooperativlər** – "Kooperasiya haqqında" AR-in 1996-cı il 7 fevral tarixli qanununun 31-ci maddəsinin 1-ci hissəsinə uyğun olaraq kooperativlər öz fəaliyyətini əlaqələndirmək, hüquqlarının müdafiə edilməsini təmin etmək, ümumi mənafelərini dövlət orqanlarında və digər orqanlarda, təşkilatlarda təmsil etmək məqsədilə və digər məqsədlərlə könüllülük əsasında sahə, ərazi və başqa prinsiplərə əsasən ittifaqlar (assosiasiyalar) yarada bilərlər.

İttifaqın üzvlüyünə başqa hüquqi şəxslər də daxil ola bilərlər. İttifaqın tərkibinə daxil olan kooperativlər və hüquqi şəxslər öz təsərrüfat müstəntiqlərini və hüquqi şəxs statuslarını saxlayırlar. İttifaqın üzvləri onun xidmətlərindən əvəzsiz olaraq istifadə etmək hüququna malikdirlər. İttifaq təsisçilərin təsdiq etdikləri təsis müqaviləsi və nizamnamə əsasında fəaliyyət göstərir. İttifaqın tərkibinə daxil olan üzvlər öz səlahiyyətlərinin bir hissəsini ittifaqa həvalə edə bilər.

İttifaq hüquqi şəxsdir, nizamnamə səlahiyyətlərini həyata keçirmək üçün müvafiq əmlaka malikdir, bank idarələrində onun hesablaşma hesabı və digər hesabları, öz adı göstərilən möhürü vardır. İttifaqın üzvü öz arzusu ilə onun tərkibindən çıxmaq hüququna malikdir. İttifaqın nizamnaməsini pozan ittifaq üzvü ittifaqın nizamnaməsində nəzərdə tutulan qaydada onun tərkibindən xaric edilə bilər.

**Assosiasiyalaşdırılmış şəxs** – komisiyon evlərin xidmətçisi, habelə agentlər və onlarla əlaqədar müştərilərin axtarışı ilə məşğul olan, agentlərin əmrlərini qəbul edən, onların hesablaşma hesablarını aparan, onlarla daimi əlaqə saxlayan, birjaya daxil olmaq taktikası haqqında agentlərə tövsiyələr verən şəxs. A.ş. ABŞ-da birja ticarətinin tənzimi ilə məşğul olan dövlət orqanında – Əmtəə Fyuçers Ticarət Komissiyasında qeydiyyatdan keçməlidir.

**Assosiativ dindirmə** *(kriminalistikada)* – dindirmənin, dindirilən şəxsin yaddaşında assosiativ əlaqələrdən istifadə ilə əlaqədar taktiki üsullarından biri. A.d., hər şeydən əvvəl, dindirmənin predmetini təşkil edən hadisələr arasında müvəqqəti əlaqələrin bərpa edilməsi üçün tətbiq edilir. A.d. zamanı adətən hadisənin dindirilən şəxs tərəfindən unudula bilən etibarlı faktlarına və hallarına toxunulur. Belə dindirmə üsulu dindirilən şəxsin hadisə ilə əlaqədar unutduqlarının bərpasına kömək edir.

**Astronim** *(bax: təxəllüs).*

**Aşkarlıq** – **1)** ədalət mühakiməsinin mühakimə icraatının aparıldığı zaman ictimai tanışlığı və müzakirəni nəzərdə tutan demokratik prinsip; **2)** dövlət orqanlarının və ictimai təşkilatların fəaliyyəti haqqında etibarlı məlumatların alınmasının mümkünlüyü, ictimai həyatın özünün açıqlığı; yığıncaqlar və mitinqlər, küçə yürüşləri, söz və mətbuat azadlığının real təminatı. A. prinsipi kütləvi informasiya vasitələri üzərində senzuranı, habelə hamılıqla qəbul edilmiş digər demokratik hüquq və azadlıqların boğulmasını istisna edir.

**Atabəy** – səlcuq sultanları vəliəhdlərinin tərbiyəçisi; vəzifə. Səlcuqilər dövründə meydana çıxmışdır. A. adını daşıyan ilk şəxs sultan Alp Arslanın vəziri Nizamülmülk olmuşdur. Alp Arslan onu oğlu Məlikşaha tərbiyəçi təyin etmiş, iliq, ata, xoca və atabəy adları ilə çağırmışdır. Məlikşah sultan vəzifəsini tutduqdan sonra Nizamülmülkə rəsmi olaraq a. adı verilmişdir (1073-cü ildə). Böyük Səlcuqilər dövründə a. yüksək vəzifə və titul olmuşdur. A.-lər əmirlər içərisindən seçilirdilər. Monqol istilasından sonra da a. titulu qalmaqda davam etmişdir. "Atabəy əzəm" (böyük a.) ləqəbi ən böyük əmrə verilirdi.

Orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində azyaşlı şahzadələrin a.-ləri tədricən hakimiyyəti əllərinə alırdılar. A. vəzifəsi getdikcə irsi xarakter alırdı. Türk mənşəli sülalə və dövlətlərdə a. vəzifəsi saxlanmışdı. Qaraqoyunlu dövlətində də a. vəzifəsi qalmışdı. Səfəvilər dövründə a. adı lələ adı ilə əvəz edilmişdi. Qacarlarda şahzadələrin tərbiyəçilərinə lələbaşı deyilirdi. Məmlüklər dövründə Misirdə hərbi rəisə də a. deyilirdi. Əyyubilər və Misir məmlüklərində a. əsgəri vəzifə və ada çevrilirdi (a. əl-əsakir, a. əl-ceyş). Gürcü çariçası Tamaranın dövründə (1184-1213) gürcü a.-ləri hərbi komandan vəzifəsini tuturdular.

**Atalıq** *(ailə hüququnda)* – uşağın müəyyən kişidən törəmə faktı. A. vətəndaşlıq vəziyyətinin qeydiyyatı orqanlarında doğum haqqında qeydiyyatla təsdiq edilir. Nikahda olan şəxslərdən törəyən uşaqların anasının əri onların atası hesab olunur. Valideynlər nikahda olmadıqda uşağın atası onun ata və anasının birgə ərizəsinə əsasən müəyyən edilir. A. ögey ata mənasında da işlədilir.

**Ataman** *(a. sözünün türk mənşəli olduğu ehtimal olunur)* – **1)** dövlətdən asılı olmayan qeyri-nizami hərbi dəstənin (bir çox hallarda quldur dəstənin) başçısı; **2)** kazaklarda qoşun və əlahiddə hissə komandiri. Əvvəllər seçilir, sonralar isə yerli hərbi və mülki idarələrin başçısı təyin edilirdi. Hazırda RF-də a. rütbəsi bərpa edilmişdir.





**Atributlu əlaqələr nəzəriyyəsi** – insanın ətraf aləmin təsiri altında bu təsirə uyğun olaraq öz davranışının nəticələrinə reaksiya vermək və xüsusilə də onu qabaqcadan görmək bacarığı ilə əlaqədar sosial rolu icra etməyə meylli olmasına, səy göstərməsinə dair nəzəriyyə. İnsanın belə meyl və səyi kriminoloji baxımdan güman edilir. Davranışın xüsusi modeli "başqaları üçün əhəmiyyətli olanları" gözləməyə uyğun surətdə qurulur.

A.ə.n.-nə görə, insanın belə səyli davranışı fərdin özünün və digərlərinin şəxsiyyətlərarası münasibətlərdə baş verənlərin həyata keçirilməsi zamanı psixoloji xassələrini qavraması ilə əlaqədar proseslərin izahında mühüm rol oynayır. Hamılıqla qəbul edilmiş əhəmiyyətli cəhətlərə (gözləmələrə) fərdin reaksiyasının uyğun gəlməməsi kriminoloji nöqteyi-nəzərdən ünsiyyət prosesində sosial-psixoloji münaqişələrin meydana çıxması haqqında şəhadət verir.

**Atropat** – Azərbaycanın ərazisində mövcud olmuş Qədim Midiyada dövlət xadimi, sərkərdə. A.-ın adı ilə adlanan, antik mənbələrdə Midiya-Atropatena, Atropat Midiyası, Kiçik Midiya, Atropatiya, Atropatena adları ilə tanınan dövlətin (eramızdan əvvəl IV yüzilliyin sonuncu rübü) və eramızın I yüzilliyinin əvvəllərinədək hakimiyyət sürmüş Atropatilər sülaləsinin başçısı.

**Attestasiya** *(lat. attestatio – şəhadət, təsdiq)* – işçinin ixtisasının, məhsulun keyfiyyətinin, işçi yerlərinin, şagirdlərin bilik səviyyəsinin müəyyən edilməsi; sorğu, xasiyyətnamə.

**Attestat** *(lat. attestor – şəhadət verirəm)* – **1)** orta təhsil müəssisəsini bitirmək, elmi rütbə verilməsi haqqında sənəd; **2)** hərbi qulluq üzrə pul göndərişlərinin verilməsi, ezamiyyətlərə göndərmə, habelə digər zəruri ehtiyacları ödəmə zamanı hərbi qulluqçulara təqdim edilən sənəd.

**Atteşe** *(fr. attache, hərfən – təhkim edilmiş)* – **1)** ilk və kiçik diplomatik vəzifələrdən biri, rütbə. AR-də və bir sıra digər dövlətlərdə kiçik diplomatik rütbələrdən (dərəcələrdən) biri hesab olunur; **2)** hərbi, hərbi-dəniz, hərbi-hava a.-ləri – diplomatik nümayəndəliyin vəzifəli şəxsləri; **3)** mətbuat a.-si (press-atteşe) – diplomatik nümayəndəlikdə mətbuat məsələlərinə baxan vəzifəli şəxs.

**Attorney** *(ing. attorney)* – ingilisdilli ölkələrdə: **1)** hər hansı bir şəxsə və ya şirkətə hüquqi xidmətlər göstərilən etibarlı nümayəndə; **2)** ittihamçı və ya müdafiəçi funksiyasını yerinə yetirən vəzifəli şəxs. Məsələn, a. ABŞ-da cinayət mühakimə icraatında dövlət ittihamçısı funksiyasını yerinə yetirir.

**Attorney-general** *(bax: baş attorney).*

**Audiensiya** *(lat. audientia – dinləmə)* – yüksək dövlət vəzifəsini tutan şəxsin yanında rəsmi qəbul; dövlət başçısı tərəfindən diplomatik nümayəndənin qəbulu.

**Audit** *(ing. audit)* – təşkilatın fəaliyyətinə müştərinin istəyilə mühasibat hesabatının təftiş növündə aparılan maliyyə nəzarəti forması (audit yoxlaması *(həmçinin bax: auditor fəaliyyəti)*).

**Auditor** *(lat. auditor – dinləyici, şagird, müstəntiq)* – **1)** şirkətin fəaliyyətinin maliyyə-təsərrüfat vəziyyətini yoxlayan (audit), habelə ona həmin şirkətin rəhbərliyi ilə bağlanmış kontrakt əsasında məsləhətverici xidmətlər göstərən şəxs. Ancaq xüsusi təhsilə və iş təcrübəsinə, dövlət lisenziyasına malik olan şəxs a. ola bilər; **2)** Rusiya imperiyasında hərbi-məhkəmə idarələrində mövcud olmuş vəzifə.

**Auditor fəaliyyəti** *(audit)* – şirkətin, firmanın mühasibat kitabının, hesablarının, hesabatlarının və i.a., bir qayda olaraq, müstəqil mütəxəssislər və ya təşkilatlar (auditor firmaları) tərəfindən maliyyə yoxlanışı, təftiş edilməsi. AR qanunvericiliyi a.f. (auditi) auditorların (auditor firmalarının) mühasibat (maliyyə) hesabatlarının, ödəmə-hesablaşma sənədlərinin, vergi bəyannamələrinin, digər maliyyə öhdəliklərinin və iqtisadi fəaliyyət subyektlərinin tələblərinin müstəqil qeyri-müəssisə yoxlamasının həyata keçirilməsi üzrə sahibkarlıq fəaliyyəti kimi müəyyən edir. Bu fəaliyyət həm də sair auditor xidmətlərinin göstərilməsi kimi müəyyənləşdirilir. A.f.-nin əsas məqsədi təsərrüfat subyektlərinin mühasibat (maliyyə) hesabatlarının etibarlılığını müəyyən etməkdən ibarətdir.

Auditor yoxlamasının iki növü fərqləndirilir: a) məcburi auditor yoxlaması; b) təşəbbüs yolu ilə aparılan auditor yoxlaması. Məcburi auditor yoxlaması AR-in qanunvericilik aktları ilə birbaşa nəzərdə tutulduğu, təşəbbüs yolu ilə auditor yoxlaması isə təsərrüfat subyektinin qərarı ilə irəli sürüldüyü hallarda aparılır. Məcburi auditor yoxlaması müvafiq dövlət orqanlarının tapşırığı ilə aparıla bilər. Belə yoxlamadan yayınma məhkəmədə, o cümlədən iqtisad məhkəməsində iddia qaldırılması ilə nəticələnə bilər.

**Auditor firması** *(bax: auditor fəaliyyəti, audit).*

**Auditor-general** *(bax: baş auditor).*

**Auditor hesabatı** – müstəqil, ictimai əsaslarla fəaliyyət göstərən mühasibin hesabatı. A.h. maliyyə hesabatına əlavə olunur. O, özündə auditorun hesabatın etibarlılığı və onun hamılıqla qəbul edilmiş standartlara uyğunluğu haqqında rəyini ehtiva edir.

**Auditor xidməti** – təsərrüfat təşkilatlarının maliyyə-təsərrüfat əməliyyatlarının, mühasibat uçotunun və hesabatlarının həyata keçirilməsinə təftişlər və yoxlamalar yolu ilə haqqı ödənilmə əsasında nəzarəti həyata keçirən təşkilat.

**Auditorların attestasiyası** – auditorların öz vəzifələrini peşəkarlıqla yerinə yetirmələrinin təmin edilməsi məqsədilə həyata keçirilən attestasiya. Auditor fəaliyyəti ilə müstəqil və ya auditor firmaları tərkibində məşğul olmaq istəyən bütün vətəndaşlar a.a.-ndan keçirlər.

**Auditor rəyi** – illik maliyyə hesabatının ayrılmaz hissəsi olan rəsmi sənəd. A.r. auditor tərəfindən imzalanır və özündə onun mühasibat uçotunun aparılmasına verilən hesabat tələblərinə uyğunluğunu ehtiva edir.

**Auditor yoxlaması** *(bax. auditor fəaliyyəti).*

**Auksion** *(bax: hərrac).*

**Auksionçu** *(bax: hərracçı).*

**Auksion qaydaları** *(bax: hərrac qaydaları).*

**Auksion qiyməti** *(bax: hərrac qiyməti).*

**Auksion müqaviləsi** *(bax: hərrac müqaviləsi).*





**Auksion ticarəti** *(bax: hərrac ticarəti).*

**Autentik** – həqiqi, ilkin mənbədən irəli gələn.

**Autentik mətn** – beynəlxalq müqavilənin iştirakçı dövlətlər tərəfindən işlənib hazırlanmış və razılaşdırılmış qəti mətni. İkitərəfli müqavilənin mətni adətən hər iki tərəfin, çoxtərəfli müqavilələrin mətni isə həmin müqavilənin işlənib hazırlanması üçün konfrans çağıran beynəlxalq təşkilatda rəsmi dil qismində qəbul edilmiş dildə tərtib edilir. Beynəlxalq müqavilələrin yekun maddələrində, bir qayda olaraq, həmin müqavilənin bütün mətninin bərabər şəkildə autentik olduğu göstərilir.

**Autentik təfsir** – normativ təfsir növlərindən biri; dövlət orqanı tərəfindən müəyyən edilmiş hüquq normasının mətninin həmin orqanın özü tərəfindən təfsir edilməsindən ibarətdir. A.t. hüquq normasının mənasının düzünə izahı ilə səciyyələndirilir və onu tətbiq edən üçün məcburi xarakter daşıyır.

**Autodafe** *(isp. və port auto-de-fe, hərfən – inam aktı)* – İspaniyada, Portuqaliyada inkvizisiya məhkəməsinin hökmünün təntənəli surətdə elan edilməsi, habelə hökmün özünün kütlənin gözləri qarşısında (adətən məhkumların açıq şəkildə tonqalda yandırılması) icra olunması. Birinci a. XIII yüzilliyə təsadüf edir, sonuncu isə 1826-cı ildə Valensiyada icra edilmişdir.

**Autopsiya** *(yun. auto – özü + opsis – görmə)* – ölümün səbəblərinin müəyyən edilməsi üçün meyitin qəbirdən çıxarılması.

**Autrayt** *(ing. autright)* – müqavilədə müəyyən edilmiş müddətə uyğun olaraq, "forvard" məzənnəsi üzrə ödənilən adi təcili valyuta sövdələşməsi.

**Autsayder** *(ing. autside)* – bir qayda olaraq, inhisarçı birliklərə daxil olmayan kiçik və orta müəssisə.

**Aval** *(ing., fr. aval)* – mülki hüquqda üçüncü şəxs tərəfindən xüsusi təminat qeydi növündə edilən veksel tapşırığı və ya çek üzrə ödəmə təminatı. A. çekin üz tərəfi ilə və ya əlavə vərəqədə (allonjda) və onun kim tərəfindən və kimin üçün verildiyi göstərilməklə təqdim edilir. Onun kimin üçün verildiyi göstərilmədikdə, a.-ın çek sahibi tərəfindən verildiyi hesab olunur. A. avalçı tərəfindən onun yaşayış yeri və qeydin edildiyi tarix göstərilməklə imzalanır. Avalçının hüquqi şəxs olduğu hallarda onun yerləşdiyi yer və qeydin edildiyi tarix göstərilir; Azərbaycan Respublikası MM-in 1057-ci maddəsinə uyğun olaraq çek məbləğinin ödənişinə avalçı tərəfindən aval (çek zaminliyi) vasitəsi ilə tamamilə və ya qismən təminat verilə bilər. Ödənişə belə təminatı, ödəyici bank istisna olmaqla, hər hansı üçüncü şəxs və ya artıq çekdə imzası olan şəxs verə bilər.

**Avalçı** – aval vasitəsi ilə veksel (və ya çek) üzrə ödəməyə təminat verən şəxs. Aval verən şəxs veksel üzrə borclu olan hər hansı şəxslərdən birinin öhdəliklərinin yerinə yetirilməsini öz üzərinə götürür. Bu zaman şəxsin təminat verdiyi öhdəliyin formaya əməl etməmə istisna olmaqla hər hansı əsasa görə etibarsız sayıldığı halda belə, aval öhdəliyi etibarlı hesab olunur. AR MM-in 1016-cı maddəsinə uyğun olaraq avalçı avalı kimin əvəzinə vermişdirsə, onun qədər məsuliyyət daşıyır. Onun öhdəliyi təminat verdiyi öhdəliyin etibarsız olduğu halda da qüvvədə qalır. Avalçı köçürmə vekselini ödəyərək həmin vek-

seldən irəli gələn hüquqları təminat verdiyi şəxsə qarşı və köçürmə vekselinə görə onun qarşısında mükəlləfiyyətli olanların hamısına qarşı əldə edir.

**Aval krediti** – müştərinin veksel üzrə təminatlandırılan öhdəliyinin ödənilməsi üçün verilən bank krediti. Azərbaycan Respublikası MM-in 1008-ci maddəsinə uyğun olaraq təqdim edildikdə və ya təqdim edildikdən sonra müəyyən vaxt ərzində ödənilməli olan köçürmə vekselində veksel verən şərt qoya bilər ki, veksel məbləğinin üstünə faizlər hesablanacaqdır. Faiz dərəcəsi vekseldə göstərilməlidir. Belə göstəriş olmadıqda şərt yazılmamış sayılır. Faizlərin hesablanmağa başlandığı gün göstərilmədikdə onlar vekselin tərtib edildiyi gündən hesablanmalıdır.

**Avallaşdırma** – avalın rəsmiləşdirilməsi. Köçürmə vekseli üzrə ödəniş veksel zaminliyi vasitəsilə tamamilə və ya qismən təmin edilə bilər. Aval üçün ödəyici və ya veksel verən olmayan avalçının köçürmə vekselinin üz tərəfində qoyduğu imza kifayətdir.

**Avans** *(ing. advance; fr. avance)* – şərtləşdirilmiş ödəmələr və ya qarşıdan gələn xərclər hesabına borclu tərəfindən kreditora qabaqcadan verilən pul məbləği və ya əmlak dəyərli sair ödəmə. A. bir qayda olaraq pul formasında verilir. Lakin hər hansı maddi sərvət, məhsul və ya ödəmələr hesabına verilən sair əşyalar da avansa xidmət edə bilər. Beh kimi a. da müqavilənin bağlanmasının sübutu qismində çıxış edir. Lakin behdən fərqli olaraq a. öhdəliyin real icrasını təmin etmir. Çünki öhdəlik icra edilmədikdə a. geri qaytarılmalıdır və buna görə də o, müqavilənin icrasının təminat üsulu ola bilməz. Əgər müqavilə tərəflərinin yazılı sazişində ödəmənin beh olduğu birbaşa göstərilməmişdirsə, qabaqcadan ödənilən hər cür ödəmə a. sayılır. Müqavilə öhdəliyinin lazımi qaydada icra edildiyi halda a. son ödəməyə hesablanır.

**Avans hesabatı** – bəraətverici sənədlər əlavə edilməklə alınmış (təhtəlhesab) məbləğlərin istifadəsini rəsmiləşdirən sənəd. Xərclənmiş (maddi sərvətlərin və i.a. əldə edilməsinə) vəsaitlərin əks etdirilməsi və onların cari xərclərdən silinməsi üçün idarə, müəssisə və ya təşkilatın mühasibat şöbəsinə təqdim edilir.

**"Avesta"** – zərdüştiliyin müqəddəs kitablar toplusu; – Azərbaycanın ən qədim siyasi və hüquqi abidəsi.

A.-da Azərbaycan xalqının ulu əcdadlarının dini, etik, fəlsəfi, siyasi-hüquqi görüşləri, dövlətin idarəçilik forması və ictimai quruluş məsələləri öz parlaq əksini tapmışdır.

Tədqiqatların məlumatına görə, A.-nın tərkib hissələri eramızdan əvvəl I minilliyin birinci yarısındı, ayrı-ayrı hissələri isə eramızdan əvvəl II-ci minillikdə tərtib edilmişdir. A.-nın vətəninin Qədim Azərbaycanın ərazisində mövcud olmuş Midiya quldarlıq dövləti, müəllifinin isə Zərdüşt olduğu güman edilir.

İlkin A.-nın şifahi formada yayıldığı, sonradan Zərdüştün tələbi ilə yazıya alındığı ehtimal edilir. Eramızın IX yüzilliyində yazılmış "Dinkərd" ilahiyyat ensiklopediyasında A.-nın 21 kitabdan ("nask"dan) ibarət olması haqqında məlumat verilir. A. bu həcmdə Azərbaycanın Xilafət tərəfindən işğalınadək mövcud olmuşdur. Hər bir nask xüsusi olaraq A. mətnindən və həmin





mətnlərin şərhindən, təfsirindən ibarət olmaqla, öz xüsusi adına malik olmuşdur.

"Dinkərd" ensiklopediyasında nasklaнın məzmunu haqqında da məlumatlar verilmişdir. Belə ki, I kitab xeyirxahlıq və nəcabət, II kitab dini mərasimlər, III kitab zərdüştiliyin etiqadları və onun dini-etik, fəlsəfi doktrinası, IV kitab dünyanın yaranması, bu dünya və axirət dünyası, ölülərin dirilməsi və məşhər günü, V kitab astronomiya, VIII kitab hüquq normaları (adət hüquq normaları – A.Q.), X kitab hökmdar Kəştasp və onun şahlığı, Zərdüştün Kəştaspa təsiri, XIII kitab Zərdüştün uşaqlığı və xeyirxah əməlləri, XV kitab işdə (əməldə – A.Q.), çəki və ölçüdə ədalətlilik, möminlərin yolu, XVI kitab mülki və hərbi qanunlar, yaxın qohumlarla nikah, etiqad prinsipləri, XVII kitab mərasim, kahinlərin vəzifələri, günaha görə axirət cəzaları, astrologiya, XIX kitab ("Vendidad" – "Divlər əleyhinə qanun") murdarlıq və təmizləmə mərasimi, XX kitab xeyirxahlar, ruhun ölümdən sonrakı taleyi, nəhayət, XXI kitab Ahura Məzdanın və Ameşaspentin (ölməz müqəddəsin – A.Q.) tərifi haqqında müddəaları özündə ehtiva edir.

A.-da "cəmiyyət" və "dövlət" anlayışları eynilik təşkil edir. Abidənin ideyasına görə, cəmiyyətin əsas struktur vahidləri aşağıdakılardır: 1) cəmiyyətin aşağı vahidi hesab olunan ev – ailə. Kölələr də buraya daxil edilir; 2) qəbilə, qəbilə icması; 3) bir neçə qohum icmaları birləşdirən tayfa; 4) tayfaların ittifaqından təşkil edilən vilayət. Bu anlayış A.-da "Dahya" termini ilə ifadə edilmişdir. Dahyanın və ya bir neçə vilayətin birliyi müasir dövrdə "dövlət" termininə uyğundur.

Dualizm fəlsəfəsi A.-dakı dini-fəlsəfi, etik və siyasi dünyagörüşün əsasını təşkil edir. Cismani aləmdə işıqla qaranlıq, ictimai həyatda isə ədalətlə zorakılıq arasında daimi barışmaz mübarizə gedir. Dini aləmdə həmin mübarizənin mərkəzində Hörmüz (Ahura Məzda) və Əhrimən (Anhra Manyu) arasındakı münaqişə durur. Əsas mübarizə də bu iki qüvvə – Xeyir (Hörmüz) və Şər (Əhrimən) arasında cərəyan edir.

Dövrümüzə qədər gəlib çatmış və elmin bu gün malik olduğu A. aşağıdakı kitablardan ibarətdir: 1) Yəsna; 2) Vispered; 3) Vendidad; 4) Yəştlər; 5) müxtəlif kiçik tərkib hissələr, onlardan ayrılan dua və fraqmentlər.

***Yəsna*** – "sitayiş", "tanınma" deməkdir və A.-nın əsasən ibadət etmə mətnlərindən ibarət olan hissəsini təşkil edir. Bu kitab 72 fəsildən ibarətdir. Onun 17 fəslini "Qatlar" əhatə edir. Qatlar 5 hissədən ibarətdir. Xeyir və şər mövzusu Qatlarda xüsusi yer tutur. Zərdüştün ideyasına görə, "xeyirxah əməllərin faydalı, günahın isə zərərli olmasına şübhə etmək lazım deyil, iş ondadır ki, Hörmüz mənim dostum, Əhrimən isə düşmənimdir; inam yolu birdir. Və bu yeganə yol xeyirli fikir, xeyirli söz, xeyirli əməllər yoludur. Digər ("yeganə") yol isə şər fikir, şər söz, şər əməllər yolu, qaranlıq və ölümdür. Bu yol əvvəl-axır məhv ediləcəkdir".

***Vispered*** - "bütün hakimlər" deməkdir. Bu kitab təxminən 25 fəsildən (müxtəlif əlyazmalarda fəsillərin sayının 23, 24 və 26 olduğu da göstərilir), fəsillər isə müxtəlif allahlara dua ilə müraciətlərdən ibarətdir. Vispereddə ehtiva olunan ideyalar A.-nın əsasını təşkil edən dünyanın işıqlı və qaranlıq başlanğıcının dualist ideyasıdır. A. dualizmində, hər şeydən əvvəl, oturaq həyat tərzi keçirən əkinçi qəbilələri ilə köçəri maldarlar arasındakı antaqonizm

və düşmənçilik öz əksini tapmışdır. Valideynlərə (ümumiyyətlə, yaşlılara) hörmət etmək, onlara qayğı ilə yanaşmaq Vispered dualizminin səciyyəvi xüsusiyyətlərindən biridir. "Atanı, ananı və rəhbəri incitməkdən kənar olun ki, siz özünüz ifşa olunmayasınız, qəlbiniz isə günaha batmasın".

***Vendidad*** – "divlər əleyhinə qanunlar" deməkdir. Bu kitab 22 fəsildən (farqarddan) ibarətdir. Vendidadın I fəsli coğrafi məzmun daşıyır. II fəsil Yima (Cəmşid) haqqında və onun şahlığı dövründə torpaqların genişləndirilməsinə dair əfsanədir. III fəsildə torpağın tərifindən, əkinçiliyin üstünlüyündən və təsərrüfat cinayətlərindən bəhs olunur. IV fəsil hüquqi məzmun daşıyır. V-XII fəsillər adamların və əşyaların meyitlərə toxunmaqla murdarlanması və onların pakolma qaydalarını XIII-XIV fəsillər itlə rəftar etmə (burada itin tərifi də verilir) qaydalarını XV-XVI fəsillər din və əxlaq əleyhinə cinayətlər, eləcə də qadınlarla davranış qaydalarını və həmin qaydaları pozmağa görə məsuliyyət, XVII fəsil dırnaq və saç (tel) kəsmək qaydalarını, XVIII fəsil həqiqi və yalançı möminliyi, XIX fəsil cinayətlərin qarşısının alınmasına dair duaları, XX-XXI fəsillər xəstəliklər və süni həkimlik qaydaları, XXII fəsil isə Əhrimənin şər əməlləri haqqında Hörmüzün Zərdüştə söyləmələrinə dair müddəaları əhatə edir.

***Yəştlər*** – "pərəstiş" deməkdir. Bu kitab öz məzmununa görə A.-nın ən qədim hissəsi sayılır. O, müxtəlif təbii qüvvələrə, eləcə də günəşə, aya, küləyə həsr olunmuş 22 dua-himndən ibarətdir. Kitab mifoloji mətnlərlə zəngin olan bir hissədir. Qədim Azərbaycanın, zərdüştiliyin yayıldığı Orta Asiyanın köçəri maldarlarının həyat tərzi, dünyagörüşü və dini təsəvvürləri məhz Yəştlərdə özünün tam və əhatəli əksini tapmışdır. Hind vədlərindəki analoji obraz və süjetlərlə üst-üstə düşən mifoloji obrazların və süjetlərin böyük əksəriyyəti də Yəştlərdə qorunub saxlanmışdır.

***Fraqmentlərə*** A.-nın dövrümüzədək gəlib çatmamış ayrı-ayrı hissələri, yaxud iqtibaslar, habelə fraqmentlər növündə müxtəlif zərdüştilik əsərləri daxildir. Məsələn, iki qədim əlyazmada 17-ci naskın (kahin məcəlləsi, o dövrün klerikal təşkili haqqında məlumatlar) fraqmentləri qorunub saxlanmışdır. 20-ci naskın ölümdən sonra ruhun taleyi haqqında hekayətinin də ayrı-ayrı hissələri dövrümüzədək gəlib çatmamışdır. A.-ya aid (ona daxil olan) ayrı-ayrı söz və ifadələr öz təfsirləri ilə birlikdə qorunub saxlanılmışdır.

Zərdüştiliyin dualist sistemi sonrakı dövrlərdə meydana gəlmiş ictimai-siyasi hərəkatların, xüsusilə də maniliyin ideoloji dünyagörüşünə böyük təsir göstərmişdir. Zərdüştiliyin dualizminə pavlikanlığın və katarların dini-fəlsəfi təlimində də təsadüf olunur.

**Aviasiya** – hava məkanından insanın hava gəmisi vasitəsilə istifadə etməsinə və bunun üçün lazımi şəraitin yaradılmasına yönəldilən fəaliyyət və təsisatların məcmusu.

**Aviasiya hadisəsi** – uçuş məqsədi ilə hava gəmisinə bütün şəxslərin mindiyi andan hava gəmisini tərk etdiyi anadək hava gəmisinin zədələnməsi və ya konstruksiyasının dağılması, itməsi və ya tamamilə əlçatmaz yerə düşməsi nəticəsində hər hansı şəxsin ölümü və ya bədən xəsarəti alması ilə bağlı hadisə





(həmin nəticələrin təbii səbəblərdən, şəxsin özünün və ya başqa şəxslərin təqsiri üzündən, yaxud sərnişinlərin və ekipaj üzvlərinin daxil ola bildiyi zonalardan kənarda gizlənən biletsiz sərnişinlərlə əlaqədar baş verdiyi hallar istisna olmaqla).

**"Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında Azərbaycan Respublikasının hava məkanından istifadəni tənzimləyən və aviasiya sahəsində fəaliyyətlərin ümumi prinsiplərini müəyyən edən qanunvericilik aktı.

Həmin qanun 2005-ci il 24 iyun tarixdə qəbul edilmişdir. Qanun on bir fəsil və 51 maddədən ibarətdir.

**Aviasiya insidenti** – aviasiya hadisəsi ilə nəticələnməyən, hava gəmisinin istifadə olunması ilə bağlı olan, istismarın təhlükəsizliyinə mənfi təsir göstərən və ya göstərə bilən hadisə.

**Aviasiya məmulatı** – hava gəmilərinin ehtiyat hissələri, ləvazimatları və uçuşların hərəkətsizliyi üçün digər zəruri avadanlıqlar.

**Aviasiya personalı** – ali, texniki və ya xüsusi hazırlıq keçmiş və ixtisas qeydləri əks olunmuş şəhadətnamələrə, vəsiqələrə (sertifikatlara) malik olan və aviasiya sahəsində müəyyən işlərin yerinə yetirilməsinə buraxılan mütəxəssislər.

**Aviasiya təhlükəsizliyi** – insan və material ehtiyatları daxil olmaqla aviasiyanı qanunsuz müdaxilə aktlarından qorumaq üçün tədbirlər kompleksi.

**Aviayüklər qaiməsi** – "*A*" hava daşıması müqaviləsi; göndərmə limanında yükgöndərən tərəfindən tərtib edilir və yüklə eyni vaxtda yük daşıyana təqdim olunur. A.q. adətən üç orijinal və altı surətdən ibarət yazılır. Orijinalın birinci nüsxəsi yük daşıyana, ikinci nüsxəsi yükü alana, üçüncü nüsxəsi yükgöndərənə təqdim olunur. Qaimənin surəti yük daşıyanda, yükgöndərəndə, yükü alanda, yükün göndərildiyi və yükü göndərən limanlarda, habelə gömrükdə qalır.

**Avista** *(ita. a vista)* – veksel və ya pul hesabları sənədi üzərində ödəmə müddəti haqqında yazı (qeyd). A.veksel üzrə həmin vekselin təqdim edilməsilə və ya onun təqdim edildiyi gündən keçən müddət ərzində ödəmənin həyata keçirilməli olduğunu təsdiq edir.

**Avizo** *(ing. aviso; ita. avviso)* – bank təcrübəsində müştərilərin hesabları üzrə əməliyyatların yerinə yetirilməsi haqqında bir bankın digər banka göndərməli olduğu yazılı bildiriş. Daha geniş mənada a. dedikdə bir kontragent tərəfindən digərinə qarşılıqlı hesablaşmaların vəziyyətindəki dəyişikliklər, yaxud ödəmələrin köçürülməsi, malların, məhsulların və i.a. göndərilməsi haqqında göndərməli olduğu istənilən yazılı bildiriş başa düşülür. A. da adətən onun sayı (№-si), tarixi və əməliyyatın məzmunu, məbləğ, ödəyənin və alanın adı göstərilir. "A." termini bankın bilavasitə müştəriyə, onu akkreditivin açılması, pul göndərilməsi və i.a. haqqında xəbərdar etməsi üçün göndərdiyi sənədlərə də tətbiq edilir. A.-nun göndərilməsi qaydası adətən korrespondensiya, banklararası sazişlərlə və ya müştərilərlə müqavilə ilə şərtləndirilir. Kredit təşkilatlarının filialları arasındakı əməliyyatlar üzrə həmin təşkilatlar arasında qarşılıqlı münasibətlərdə a.-dan geniş istifadə olunur.

**Avropa Birliyi (AB)** *(ing. Eurorean Community (EC)* – üç formal müstəqil, lakin qarşılıqlı əlaqədə olan regional iqtisadi təşkilatın – 1951-ci ildə yaradılmış Avropa Kömür və Polad Birliyinin (AKPB-nin), Atom Enerjisi üzrə Avropa Birliyinin (AVRATOM-un) və 1957-ci ildə yaradılmış Avropa İqtisadi Birliyinin (AİB-in) birliyi. Hazırda AB sisteminə xeyli sayda digər Avropa inteqrasiya institutları da daxildir. 1992-ci ildə ümumi müdafiə və valyuta-maliyyə sistemi də daxil olmaqla siyasi ittifaqın yaradılması haqqında Maastrixt sazişlərinin bağlanması (bu sazişlər 1993-cü ildə qüvvəyə minmişdir) ilə əlaqədar olaraq AB Avropa İttifaqı adlanmağa başlamışdır.

AB-nin mənzil-qərargahı Belçikanın paytaxtı Brüssel şəhərində yerləşir. Birliyə daxil olan ölkələr onun ümumi siyasətini müəyyən edir. AB-nin ümumi siyasətinin həyata keçirilməsi onun daimi orqanı olan AB komissiyasına həvalə edilmişdir. AB üzvü olan ölkələrin texniki ekspertləri kənd təsərrüfatı, nəqliyyat və ya ticarət sahəsində həyata keçirilməli olan siyasətlə əlaqədar xüsusi məsələləri həll etmək üçün müntəzəm surətdə görüşlər keçirirlər.

**Avropa çeki** - Avropa bank sisiteminin iştirakçısı olan hər hansı bir ölkədə ödəməyə qəbul olunan çek. A.ç. qabaqcadan hər hansı pul ödəməsi olmadan verilir və bir ay müddətədək bank krediti hesabına ödənilir. A.ç. başlıca olaraq turistlər tərəfindən istifadə olunur.

**Avropa dollarları** *(ing. eurodollars)* – ABŞ dollarının təşkilatlar və xüsusi şəxslər tərəfindən Qərbi Avropa ölkələri banklarında yerləşdirilən və bu banklar tərəfindən nağdsız formada kreditlər verilməsi üçün istifadə edilən müvəqqəti azad pul vəsaitləri. A.d.-ından müxtəlif maliyyə əməliyyatların həyata keçirilməsi, məsələn, qısamüddətli kreditlərin verilməsi, yaxud Avropa istiqrazı adlanan dollar istiqrazlarının alınması üçün geniş istifadə olunur.

**Avropa hüququ** – hüququn müxtəlif sahələrinə aid beynəlxalq və milli hüquq normalarının intensiv surətdə inkişaf edən müfəssəl kompleksi. Geniş mənada A.h. dedikdə Avropada praktiki olaraq onun bütün beynəlxalq təşkilatlarının təşkili və fəaliyyətini, iqtisadi, sosial, siyasi, elmi və mədəni münasibətlərin bütün məcmusunu əhatə edən münasibətlərin hüquqi tənzimlənməsi başa düşülür. Bu mənada A.h. regional hüquq, bütövlükdə beynəlxalq hüququn tərkib hissəsi kimi çıxış edir.

Məhdud mənada A. h. dedikdə müəyyən dərəcədə Aİ-ni hüquqi tənzimetmə ilə tamamlayan Avropa birlikləri hüququ başa düşülür. Belə hüquq artıq bir çox cəhətlərinə görə beynəlxalq hüquqdan aralanmış və Aİ-nin konfederativ təbiətinə uyğun olan xüsusi hüquqi fenomendən ibarətdir. Aİ-nin hüquqi aktları öz növbəsində iki kateqoriyaya bölünür: 1) beynəlxalq-hüquqi aktlar (ilkin hüquq): təsisedici müqavilələr, müqavilə-sazişlər və bu müqavilələri təftiş edən protokollar; 2) təkrar hüquq (Aİ-nin əsas institutları və orqanları tərəfindən qəbul edilən hüquqi aktlar). Avropa Şurası və Aİ Komissiyası reqlamentlər, direktivlər, qərarlar, tövsiyələr və rəylər verirlər.

A.h. Avropa qitəsində ümumi-hüquqi, iqtisadi (ticarəti, investisiya prosesləri, çoxmillətli korporasiyaların yaradılması və i.a.), maliyyə, əmək, ekoloji münasibətləri, hüquq və azadlıqların müdafiəsini və bir çox digər məsələləri tənzim edir. A. h. həm də yeni tədris fənni və A.h.-nu, onun tarixini, daxili qanunauyğunluqlarını, inkişaf ənənələrini və i.a. öyrənən hüquq elmidir.





**Avropa İqtisadi Birliyi (AİB)** – 12 Qərbi Avropa ölkəsinin (Belçika, Böyük Britaniya, Danimarka, Yunanıstan, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Hollandiya, Portuqaliya, Fransa və Almaniyanın) daxil olduğu inteqrasiya qruplaşması. Roma müqaviləsinə uyğun olaraq 1957-ci ildə yaradılmışdır. 1960-cı illərin sonunda vahid gömrük ittifaqı yaradılmış, gömrük rüsumları, qarşılıqlı ticarətdə say məhdudiyyətləri ləğv edilmiş, üçüncü ölkələrə münasibətdə vahid gömrük tarifi müəyyən edilmişdir. 1992-ci ilin sonuna doğru vahid daxili bazarın yaradılması prosesi başa çatdırılmışdır.

AİB 1993-cü ildə tərkib hissəsi qismində Avropa İttifaqı tərkibinə daxil olmuşdur.

**Avropa İqtisadi Zonası (AİZ)** *(bax: Avropa Sərbəst Ticarət Assosiasiyası (ASTA)).*

**Avropa istiqrazı** *(ing. eurobond)* – borc alan tərəfindən Avropa bazarında uzunmüddətli borcu alarkən buraxdığı borc öhdəliyi; qiymətli kağız növü. A.i.-ından emissiya zamanı valyuta kimi də istifadə olunur.

**Avropa İttifaqı (Aİ)** – özündə beynəlxalq təşkilatın və federativ dövlətin cəhətlərini əlaqələndirən dövlətlərarası birlik. 1993-cü ildə Avropa Birliyi bazasında yaradılmışdır. Aİ haqqında 1992-ci ildə Maastrixtdə (Hollandiya) Avropa Birliyinə daxil olan 12 üzv-dövlətlərin dövlət başçıları və hökumətləri tərəfindən imzalanmış müqavilə 1993-cü il noyabrın 1-də qüvvəyə minmişdir. Müqavilə milli vətəndaşlığa əlavə olaraq Aİ vətəndaşlığını müəyyən edir. Aİ üç əsasa əsaslanır: a) Avropa İttifaqı haqqında müqavilə ilə nəzərdə tutulan əməkdaşlığa əlavə və formalarla Avropa Birliyinə; b) beynəlxalq təhlükəsizlik sahəsində siyasətə və birgə xarici siyasətə; c) daxili siyasətdə və hüquqi siyasətdə əməkdaşlığa.

1997-ci il mayın 1-dək Aİ-yə 15 üzv-dövlət daxil idi: Avstriya, Almaniya, Belçika, Böyük Britaniya, Danimarka, Yunanıstan, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Hollandiya, Portuqaliya, Finlandiya, Fransa, İsveç. Aİ-nin orqanları aşağıdakılardır: 1) Avropa Şurası; 2) Avropa Parlamenti; 3) Avropa İttifaqı Şurası; 4) Avropa Komissiyası; 5) Avropa Məhkəməsi. Bu orqanlar öz səlahiyyətlərini Avropa birliklərinin yaradılması haqqında müqavilələrin ruhuna, dəyişiklik və əlavələrlə sonradan qəbul edilən müqavilə və aktlara, Aİ haqqında müqaviləyə uyğun olaraq həyata keçirirlər.

**Avropa Komissiyası (Avropa Birlikləri Komissiyası)** – Avropa İttifaqının (Avropa birliklərinin) başlıca orqanlarından biri. 20 üzvdən və 15 hökumət tərəfindən ümumi razılığa görə Avropa Parlamentinin bəyannməsi ilə təyin edilən sədrdən ibarətdir. İcra orqanı hesab olunur. Komissiyanın hər bir üzvünə müəyyən fəaliyyət sahəsi təhkim edilmişdir. O, siyasi müşavirlərin və inzibati aparat (baş direktorluq, xüsusi xidmətlər və i.a.) tərəfindən yardım edilən məsləhətçilərin ("kabinetin") böyük olmayan qrupuna arxalanır. Komissiya Avropa İttifaqı Şurasının qərarları əsasında Avropa İttifaqının siyasətini və onun qəbul etdiyi qərarları bilavasitə realizə etmək yolu ilə həyata keçirir. Komissiya üzvləri öz hökumətlərinin göstərişlərindən asılı deyillər və onla-

ra Avropa Parlamenti tərəfindən nəzarət edilir (etimadsızlıq votumu).

**Avropa Kömür və Polad Birliyi** *(AKPB)* – Avropanın ümumi kömür və polad bazarı. 1951-ci ildə qəbul edilmiş "Şuman planı"na (Fransanın xarici işlər naziri Şumanın adı ilə adlandırılmışdır) uyğun olaraq yaradılmışdır. Həmin plana əsasən Belçika, İtaliya, Lüksemburq, Hollandiya, Almaniya və Fransa ilə birlik üzvü olan ölkələr arasında kömür, dəmir filizi və metal qırıntıları ilə ticarətə mane olan tarifləri, kvotaları və valyuta məhdudiyyətləri ləğv edilmişdir. Nəticədə AKPB Avropa birliklərinin digər beynəlxalq müəssisələrinin yaradılması prosesində model kimi tətbiq edilmişdir.

**Avropa qrupu** – deviant davranışın və sosial nəzarətin öyrənilməsi ilə məşğul olan qrup. Bu qrupa sosial nəzarət institutlarının inkişaf problemləri ilə məşğul olan hüquqşünas-alimlər (xüsusilə də kriminoloqlar) və təcrübi işçilər daxildir. A. q.-nun qarşısında duran vəzifə repressiv siyasətin əksinə olaraq iqtisadiyyat və siyasət sahəsində demokratikləşmə proseslərinə yardım etmək məqsədi ilə nəzəriyyələrin və siyasi problemlərin təhlilini aparmaqdan, habelə konkret təcrübi tədbirlərin həyata keçirilməsindən ibarətdir. A.q.-nun üzvləri özlərini elmi və siyasi cərəyanların nümayəndələrinə, eləcə də digər elmi cəmiyyətlərin alternativ ənənəli cərəyanlarına aid edirlər.

1973-cü ildə A. q. İtaliyada özünün ilk konfransını keçirmişdir. Konfrans radikal kriminologiyaya həsr edilmişdi. Həmin vaxtdan başlayaraq hər il dünyanın müxtəlif ölkələrində keçirilən belə konfranslarda cinayət siyasətinə və sosial siyasət problemlərinə həsr olunan məsələlər nəzərdən keçirilir. 1978-ci ildən A.q.-nun konfrans və iclaslarının materialları "Workinq Papers in European Criminology" məcmuəsində nəşr olunur. Bundan başqa, qrupun üzvlərinə hər il özündə ən yeni xarici məlumatları ehtiva edən "New-sletter" təqdim edilir. A. q.-na müxtəlif Avropa ölkələri nümayəndələrinin daxil olduğu "Steering Committee" başçılıq edir.

**Avropa Məhkəməsi** – Avropa İttifaqının əsas orqanlarından biri. Tərkibi 15 hakimdən ibarətdir. Onlara müşavirlər qismində 9 nəfər baş prokuror (ümumi razılığa görə 6 il müddətinə təyin edilirlər) kömək edir. AM müqavilələrin interpretasiyası və tətbiqi zamanı hüquqla əməl olunmasına nəzarət edirlər. Məhkəmə üzv-dövlətlər; birlik orqanları və üzv-dövlətlər; birliklə xüsusi şəxslər arasındakı mübahisələri həll edir. Bundan başqa, məhkəmə ekspert rəyləri hazırlayır, ilkin qərarlara (milli məhkəmənin vəsatəti ilə) görə məsuliyyət daşıyır. A.m. Lüksemburq şəhərində yerləşir.

**Avropa Parlamenti** – Avropa İttifaqının məsləhət və tövsiyəedici orqanı. Aİ-nin 12 ölkəsi – Belçika, Böyük Britaniya, Danimarka, Yunanıstan, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Hollandiya, Portuqaliya, AFR və Fransa ilə təmsil olunur. AP-nin 626 deputatı birbaşa seçkilər yolu ilə 5 il müddətinə seçilirlər. Seçkidə Birlik üzvü olan ölkələrin əhalisi iştirak edir.

AP-nin yaradılması Qərbi Avropanın siyasi inteqrasiyası yolunda mühüm addımdır. AP daxilində deputatlar milli mənsubiyyət əlamətlərinə görə deyil, partiya fraksiyaları üzrə birləşirlər. AP-nin iclaslarında Avropa qitəsinin inkişafına dair müxtəlif məsələlər, başlıca olaraq Aİ-nın mühüm məsələləri nəzərdən keçirilir. Həmin





məsələlər iqtisadi inkişafı, valyuta və siyasi inteqrasiya, ətraf mühitin mühafizəsi (ekologiya), insan hüquqlarına əməl edilməsi və i.a. problemlərini əhatə edə bilər.

AP-də hər bir ölkədən olan deputatların sayı daimidir. Ən böyük dövlətlər – Böyük Britaniya, İtaliya, AFR və Fransa 81 yerə, İspaniya 60 yerə, Hollandiya 25 yerə, Belçika, Yunanıstan və Portuqaliya hər biri 24 yerə, Danimarka 16 yerə, İrlandiya 15 yerə və Lüksemburq 6 yerə malikdir.

AP işinin gedişində Qərbi Avropanın inteqrasiyasına yanaşmada iki əsas ənənə yaranmışdır. Onlardan biri inteqrasiya məsələləri üzrə neoliberal mövqe ilə bağlıdır. Onun mahiyyəti mövcud milli bazarların birləşməsinə milli institutların minimum qarışmasından ibarətdir. Digər ənənə isə əhalinin sosial müdafiəsinə yönələn xüsusi tədbirlərin işlənib hazırlanması ilə bağlıdır. Bunun tərəfdarları vahid iqtisadi məkanın yaradılması çərçivəsində məqsədyönlü ekoloji siyasət yeridilməsini zəruri hesab edirlər. AP Strasburq (Fransa) şəhərində yerləşir.

**Avropa Sərbəst Ticarət Assosiasiyası** *(ASTA)* – regional qruplaşma. 1960-cı ildə Stokholm konvensiyasının müddəalarına uyğun olaraq yaradılmışdır. ASTA-nın tərkibinə Avstriya, İslandiya, İsveç, İsveçrə, Norveç və Portuqaliya daxildir. Finlandiya bu təşkilatın assosiasiya edilmiş üzvüdür. Danimarka və Birləşmiş Krallıq əvvəllər ASTA-nın üzvü olsalar da, 1973-cü ildə AB-nə daxil olmaları ilə onun tərkibindən çıxmışlar. Assosiasiyanın üzvü olan hər bir ölkənin özünün gömrük tarifləri siyahısı vardır və onlar AB ilə ticarət sazişi bağlamışdır. Bu sazişdə bəzi strateji mallar istisna olmaqla sənaye mallarının əksər növlərinin tariflərinin qarşılıqlı ləğvi nəzərdə tutulur. Beləliklə, AB və ASTA əslində sərbəst ticarət zonası təşkil edirlər. Bu yaxınlarda AB və ASTA üzvü olan ölkələr yeni saziş bağlamaqla iqtisadi inteqrasiyanın dərinləşdirilməsi haqqında razılığa gəlmişlər.

**Avropa Şurası (AŞ)** – Avropa İttifaqının (Avropa Birliklərinin) başlıca orqanlarından biri. Üzv-dövlətlərin dövlət və hökumət başçıları və Avropa Komissiyasının sədri, onun müavinləri – xarici işlər nazirləri və komissiyanın üzvlərindən biri AŞ-nin üzvləridir. AŞ ildə iki dəfədən az olmayaraq həmin vaxtda Avropa İttifaqı Şurasında başçılıq edən üzv-dövlətin nümayəndəsinin sədrliyi altında öz iclasını keçirir.

**Avropa təhlükəsizliyi** – bütün maraqlı dövlətlər tərəfindən Avropada sülhün və təhlükəsizliyin təmin edilməsi üzrə kompleks şəkildə birgə qəbul edilən tədbirlər sistemi.

**Avropa valyutaları** *(ing. eurocurrencies)* – inkişaf etmiş bir sıra ölkələrin hüdudlarından kənarda onların emissiyasının dövriyyəsində olan və orada kredit və hesablaşma əməliyyatları üçün istifadə edilən valyutaları – avrodollarlar, AFR avromarkaları, İngiltərə avrosterlinqləri, avroiyenlər və i.a. A. v. banknot formasına malik deyillər və onlar banklarda hesablar üzrə köçürmə yolu ilə nağdsız formada dövr edirlər.

**Avropa valyuta sistemi (AVS)** – Avropa İttifaqına daxil olan ölkələrin valyuta kurslarının mübadiləsində qiymətlərin enib-qalxmasını azaltmaq və Avropada sabit valyuta zonası yaratmaq üçün həmin ittifaq çərçivəsində yaradılmış valyuta mexanizmi. AVS AB-nin tərkibinə daxil olan

iştirakçı-dövlətlərin tam iqtisadi və siyasi inteqrasiyasına nail olmaq vasitəsi kimi vahid ümumavropa valyuta vahidinin (avronun) tətbiq edilməsini nəzərdə tutur.

**Avropa valyuta vahidi** *(bax: ekyü).*

**Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB)** – ixtisaslaşdırılmış beynəlxalq iqtisadi təşkilat. Regional inkişaf bank təşkilatı kimi rəsmi qaydada 1991-ci ilin aprelində açılmışdır. Avropa İttifaqı üzvü olan bütün ölkələr də daxil olmaqla, onun işində 59 dövlət iştirak edir. AYİB-in işində AB Komissiyası və Avropa İnvestisiya Bankı da iştirak edir. 1993-cü il yanvarın 1-nə olan rəsmi məlumata görə AYİB-in nizamnamə kapitalı 10 milyard ekyü (1 ekyü 1,25 ABŞ dollarına bərabər olmuşdur) təşkil etmişdir. Bu kapitalın 10 faizi ABŞ-ın, 8,5 faizi Böyük Britaniya, Almaniya, İtaliya və Fransanın (hər biri üçün eyni faizlə) payına düşür. AB-nin qalan üzvlərinin payı 0,2 faizdən 3,4 faizədək təşkil edir. Keçmiş SSRİ-nin payı 6 faiz olmuşdur. Mərkəzi və Şərqi Avropa ölkələrinin (Bolqarıstan, Macarıstan, Polşa, Çexiya, Slovakiya, Yuqoslaviya və Ruminiyanın) payı ümumilikdə 6,5 faiz təşkil edir. AYİB-in məqsədi Şərqi Avropada bazar iqtisadiyyatının və demokratiyanın bərqərar olmasına nail olmaqdan ibarətdir.

AYİB Londonda yerləşir. Burada İdarə Rəhbərlərinin Şurasının (bütün ölkələr təmsil olunurlar) və Direktorlar Şurasının (23 üzvdən ibarət) iclasları keçirilir. Bank həm xüsusi strukturlara, həm də dövlət strukturlarına iqtisadiyyatı inkişaf etdirmək üçün borclar verir. Bu zaman vəsaitlərin 60 faizi xüsusi sektora, 40 faizi isə dövlət sektoruna yönəldilməlidir.

AYİB müstəsna dərəcədə kommersiya əsasları ilə fəaliyyət göstərir. Beynəlxalq valyuta fondundan (BVF) fərqli olaraq konkret layihələr üzrə ancaq məqsədli kreditlər verir və bu baxımdan o, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) ilə böyük oxşarlığa malikdir. AYİB məqsədli kreditlərdən başqa düzünə investisiyaları da həyata keçirir, həmçinin məsləhətlər və rəylər formasında bank işçilərinin və menecerlərin ixtisaslarının artırılması kurslarının keçirilməsinə yardım göstərir, məhsulların bölüşdürülməsi sisteminin təşkilinə kömək edir. Bank belə yardımları göstərmək üçün xüsusi vəsaitlərə malik deyil və bundan ötrü o, digər ehtiyatları, o cümlədən Avropa İttifaqı ölkələrində yaradılmış xüsusi fondları bu işə cəlb edir. AYİB Şərqi Avropa ölkələrinin (MDB ölkələri də daxil olmaqla) ekportunu maliyyələşdirə bilən yeni bankın yaradılması uğrunda çıxış edir.

**Avtarkiya** *(yun. autarkeia – özünütəminetmə; ing. autarchy)* – ayrıca bir ölkə daxilində qapalı təsərrüfatın yaradılması. Qapalı təsərrüfat siyasəti yeridilməsi nəticəsində bütün əcnəbi tərəfdaşlarla ənənəvi qarşılıqlı iqtisadi əlaqələr qırılır. Bu siyasətin əsas vasitələri mallara görə verilməli olan yüksək məhdudlaşdırıcı rüsumların müəyyən edilməsindən, istehlak mallarının qiymətlərinin yüksəldilməsindən, digər ölkələrlə iqtisadi və ticarət əlaqələrinin, habelə qarşılıqlı münasibətlərin inkişafına manelər törədilməsindən ibarətdir. Bu zaman əmtəə - bazar münasibətləri yalnız ətraf aləmdən təcrid edilmiş təsərrüfat daxilində qorunub saxlanılır.

**Avtokrat** *(yun. autokrates – müstəbid, özbaşına bildiyini edən)* – qeyri-məhdud, təkbaşına ali hakimiyyətə malik olan hökmdar; mütləq hakim. Məsələn, Hitlerin, Mussolinin, Kaudilyonun, Stalinin adları tarixə a. "liderlər" kimi düşmüşdür. İfrat qəddarlıq a. "liderlərə" xas olan səciyyəvi xüsusiyyət olmuşdur. A. "liderlərin" qəddarlığı və özbaşınalıqları həm də əksər hallarda onların şəxsiyyətinə pərəstişlə müşayiət olunmuşdur.

**Avtokratiya** *(yun. autokrateia)* – bir şəxsin qeyri-məhdud nəzarətsiz tam hakimiyyətdən ibarət idarəçilik forması; mütləqiyyət, istibdad. Belə idarəçilik forması adətən avtoritar liderlər tərəfindən yaradılır və idarəetmə sistemi bir şəxsə – həmin sistemi yaradana məxsus olur. Belə sistem XX yüzilliyin 20-30-cu illərində İtaliya və Almaniyada mövcud olmuşdur.

**Avtomobil tarifi** – **1)** ölkə ərazisindən keçən beynəlxalq yollarda vətən müəssisələri yüklərinin avtomobillərlə daşınması üçün ödəmə tarifi - ölkə ərazisi ilə vətən avtomobil nəqliyyatı vasitəsilə xarici ticarət yüklərinin daşınması qiymətlərinin hesablanması və ödənilməsi üzrə normativ sənəd; **2)** xarici ərazidən keçən beynəlxalq yollarda vətən müəssisələri yüklərinin avtomobillərlə daşınması üçün müəssisələr tərəfindən verilən ödəmə tarifi – xarici ərazi ilə vətən avtomobil nəqliyyatı vasitəsilə xarici ticarət yüklərinin daşınması qiymətlərinin hesablanması və ödənilməsi üzrə normativ sənəd. Ödəmə xarici valyuta ilə aparılır.

**Avtoreferat** – elmi-tədqiqat əsərinin (məsələn, namizədlik, doktorluq dissertasiyasının) qısa məzmununun müəllif tərəfindən əlyazma hüququnda ifadə edilməsindən ibarət elmi iş (risalə). A. Ali Attestasiya Komissiyasının (AAK-ın) müəyyən etdiyi elmi-texniki tələblərə uyğun yerinə yetirilməlidir. Belə ki, onun həcmi (neçə çap vərəqindən olması), forması və məzmunu AAK-ın təsdiq edilmiş əsasnaməsi ilə müəyyən edilir.

**Avtoritar** – **1)** hakimiyyəti sözsüz tabeliyə əsaslanan diktator; **2)** öz hakimiyyətini, şəxsi təsirini, şəxsi diktaturasını təsdiq etməyə cəhd göstərən dövlət (hökumət) başçısı.

**Avtoritarizm** *(lat. auctoritas – hakimiyyət, təsir; ing. authoritarism;)* – siyasi rejimin növlərindən biri; dövlət hakimiyyətinin təşkilinin antidemokratik, bir qayda olaraq, şəxsi və ya sinfi diktaturaya əsaslanan sistemi. A. demokratiya və totalitarizmlə yanaşı mövcud olur. Bu rejim çox və ya az dərəcədə siyasi azadlıqların, hər şeydən əvvəl, müxalifətçi təşkilatların və mətbuatın azad fəaliyyətinin məhdudlaşdırılmasını, əsas (və ya bütün) dövlət hakimiyyətinin bir şəxsin (prezidentin, monarxın, baş nazirin) və ya şəxslər qrupunun əlində cəmləşməsini nəzərdə tutur. A. şəraitində seçkilər və referendum hökumətin nəzarəti altında keçirilir və adətən formal və ya saxtalaşdırılmış xarakter daşıyır. Hakimiyyətin real mexanizmi və ictimai-siyasi münasibətlərin xarakteri konstitusiya normalarına və qanunlara uyğun gəlmir, yaxud konstitusiya prinsipləri və ya qanunlar antidemokratik ruhda dəyişdirilir. Avtoritar rejimlər öz cəhətlərinin ifadəlilik dərəcəsinə görə son dərəcə mötədil diktaturadan (məsələn, Fransada 1958-1969-cu illərdə Şarl və Qoll rejimi) açıq diktaturayadək (hərbi, hərbi polis və i.a.) yüksələ bilər. Hər hansı a. şəraitində hökumətin cəmiyyət üzərində nəzarəti əhatəli səciyyə daşımır. Bu da a.-i totalita-

rizmdən fərqləndirir. A. ictimai (və ya "yeni") qaydanın yeganə qarantı kimi elan, yaxud yüksək rifah qismində bəyan edilir. Əslində isə istər ictimai qayda, istərsə də yüksək rifah halı demokratik rejimlər tərəfindən daha səmərəli şəkildə realizə olunur.

**Avtoritet** *(lat. auctoritas – hakimiyyət, təsir; ing. authority)* – bir şəxsin (prezidentin, imperatorun, baş nazirin) və ya şəxslərin qrupunun (imperator sarayının, parlamentin) digər bərabərhüquqlu şəxslərə münasibətdə daha yüksək siyasi mövqeyini təmin edən, dövlət-hüquqi qaydada reqlamentləşdirilməyən hakimiyyəti (nüfuzu). A.-in müasir mənası öz başlanğıcını qədim latın anlayışından götürür və o, fiziki və ya hüquqi şəxsin ictimai həyatın müxtəlif sahələrində dərin biliyə əsaslanan səlahiyyətləri, öz fəaliyyəti sahəsində əldə etdiyi nailiyyətləri, habelə şəxsin (təşkilatın) özünün yüksək təsir və nüfuz dairəsinə malik olması deməkdir.

**Avtorizasiya** *(ing. autorization)* – bank işində elektron sənədi, kartoçkanı, yaxud özünü təqdim edən şəxsin səlahiyyətlərinin və ya müəllifliyinin təsdiq edilməsi. Adətən elektron sənədlərin a.-sı, maqnitli və ya prosessorlu kartoçkaların və bank sisteminin xüsusi istifadəçilərinin bilavasitə onların fiziki parametrlərinə (əl-barmaq izlərinə, əlin ovuc hissəsinin cizgilərinə) görə a.-sı fərqləndirilir. Sənədin özünün bəzi rəqəmli parametrlərinin, habelə müəllifə məxsus gizli tarixin köməyilə elektron sənədlərin a.-sı rəqəmli (elektron) imza kimi geniş yayılmışdır.

**Avuarlar** *(fr. avoir; ing. holdings;)* – əmlak, sərvət. Geniş mənada ödəmələrin aparıldığı və ya öhdəliklərin silindiyi müxtəlif (məsələn, pul vəsaitləri, çeklər, veksellər, akkreditivlər) aktivlər. Məhdud mənada a. dedikdə əmanətlərin və asanlıqla realizə oluna bilən qiymətli kağızların aid edildiyi bank vəsaitləri başa düşülür. Hər hansı bir ölkəyə məxsus olan bu vəsaitlərin məcmusu xarici a. adlanır. Xarici bankların hesablarında yerləşən a. xüsusi şəxslərin və təşkilatların bank əmanətlərindən ibarət ola bilər.

**Avunkulat** *(lat. avunculus – dayı – ananın qardaşı)* – ana tərəfindən qardaşla (dayı ilə) bacıoğlu arasında hüquq və vəzifələri müəyyən edən adət. Patriarxat dövründə uşaqların ana nəslindən olan qohumlarla əlaqələrini qoruyub saxlayırdı. Bir çox qədim və bəzi müasir xalqlara (qalıq kimi) məlumdur. Məsələn, a. qədim germanlarda və yunanlarda (Afrika qitəsinin və Okeaniyanın müasir xalqlarında) dayı ilə bacıoğlu arasında sıx qohumluq əlaqəsində, habelə dayının öz oğlu ilə müqayisədə bacıoğluna daha böyük qayğı ilə yanaşmasında ifadə olunur.

**Aydenti-kit** *(kriminalistikada)* – eyniləşdirmə komplekti zahiri görkəmin təsviri elementləri olan şəffaf plyonkaların (lentlərin) bir-birinin üzərinə qoyulması yolu ilə tərkib portretlərinin (sintetik portretlərin) hazırlanması metodu. A.-k. ilk dəfə *1965-ci ildə şərif* Makdonald və Amerikanın "Taund-send" firmasının bir qrup mütəxəssisi tərəfindən təklif edilmişdir. Bu metod Azərbaycan Respublikasının kriminalistika təcrübəsində hələ də öz tətbiqini tapmamışdır.

**Ayətullah əl-üzmə** *("Allahın bayrağı", "Allahın möcüzəsi"* – şiə müctəhidləri arasında fiqh məsələlərinə dair müstəqil surətdə qərar çıxarmaq hüququna malik olan ən şərəfli rütbə (sahibi). A. termini xatırladılan mənada XIX yüzilliyin ikinci yarısından işlədilər, lakin XX əsrin 40-cı illərindən başlayaraq *geniş tətbiq edilməyə başlamışdır.* XII əsrdə Məhəmməd əl-Qəzəlinin əsərlərində "Allah tərəfindən törədilən möcüzə" mənasında işlədiyi də ehtimal olunur.





**Ayrıca konsul** – diplomatik nümayəndəlikdən ayrıca fəaliyyət göstərən konsul idarəsinə başçılıq edən şəxs (konsul). A.k. təmsil etdiyi dövlət tərəfindən təyin edilir. Bu zaman konsulun təyin edildiyi ölkənin səlahiyyətli orqanına xüsusi sənəd – patent göndərilir. Konsul dairəsinin müəyyən etdiyi hədlərdə konsul funksiyasının həyata keçirilməsi üçün ona getdiyi ölkənin XİN tərəfindən icazə (ekzekvatura) verilir. A.k. öz fəaliyyətində təmsil etdiyi dövlətin diplomatik nümayəndəliyinə (əgər varsa) hesabat verir və bununla yanaşı, öz hökuməti ilə müstəqil qarşılıqlı əlaqə də saxlayır. Beynəlxalq hüquq a.k.-un 4 dərəcəsini müəyyən edir: 1) bay konsul; 2) konsul; 3) vitse-konsul; 4) konsul agenti. Digər dərəcələrin mümkünlüyü də istisna olunmur.

**Ayrı-seçkilik** *(diskriminasiya)* – **1)** irqi və ya milli mənsubiyyətinə, cinsinə və i.a. görə müəyyən qrup vətəndaşların hüquqlarının məhdudlaşırılması, yaxud ləğv edilməsi. A.- s. bəzi hallarda ölkədən çıxarılmaqla da müşayiət oluna bilər. Bir sıra dövlətlərdə vətəndaşları irqi və ya milli mənsubiyyətinə görə təqib etmə (o cümlədən qətlə yetirmə), onların vətəndaşlıq hüququnu məhdudlaşdırma (irqi a.-s.), seçki hüquqlarını ləğv etmə (siyasi a.-s.) halları geniş yayılmışdır. Bəzi dövlətlərdə a.-s.-yin başqa formaları (eyni iş fəaliyyətinə görə kişilərə nisbətən qadınlara az əməkhaqqı verilməsi, mütərəqqi görüşlərinə görə dövlət vəzifəsindən kənarlaşdırmaq və i.a.) da tətbiq olunur; **2)** beynəlxalq münasibətlərdə bir dövlətin vətəndaşına, nümayəndəsinə və ya təşkilatına nisbətən öz hüquqlar verilməsi. Hər hansı dövlət ona qarşı yönəldilən ayrı-seçkiliyə retorsiya formasında cavab tədbirləri görür. Dünyanın inkişaf etmiş demokratik dövlətləri beynəlxalq münasibətlərdə ayrı-seçkiliyə qarşı mübarizə aparırlar.

**Azad dinləyici** – ali məktəblərdə bütün tədris məşğələlərində iştirak etməyə, habelə dövlət imtahanlarına (bütün yoxlama və kurs imtahanlarını verdikdən sonra) buraxılan, lakin tələbə hüququ və imtiyazları olmayan şəxs. Keçmiş SSRİ-də axşam və qiyabi təhsil sistemi yaradıldıqdan sonra a.d.-lik ləğv edilmişdir.

**Azad iqtisadi zona** – müvafiq dövlətin ərazisi daxilində milli qanunvericiliklə müəyyən və təsdiq edilən zona; həmin ərazi daxilində təsərrüfat və sahibkarlıq fəaliyyəti üçün gömrük, valyuta, vergi, viza xarakterli müəyyən güzəştli şərtlər müəyyən edilir. Məsələn, azad bank zonası, offşorlar, azad ticarət zonası, texnoloji parklar və i.a.

**Azadlığın məhdudlaşdırılması** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə əsas cəza növlərindən biri. AR CM-in 53.1-ci maddəsinə uyğun olaraq azadlığın məhdudlaşdırılması ittiham hökmü çıxarılanadək on səkkiz yaşı tamam olmuş məhkumların cəmiyyətdən təcrid olunmadan, lakin nəzarət altında xüsusi müəssisələrdə saxlanmasından ibarətdir.

Bu cəza növü aşağıdakı müddətə təyin edilir: 1) məhkumluğu olmayan və qəsdən cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslərə – bir ildən üç ilədək müddətə; 2) ehtiyatsızlıqdan cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslərə – bir ildən beş ilədək müddətə.

A.m.-na məhkum olunmuş şəxs cəzasının icrasından qərəzli boyun qaçırdıqda, a.m. onun təyin edildiyi müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunur. A.m. cəzası azadlıqdan məhrum etmə cəzası ilə əvəz edildikdə, A.m. cəzasının müddəti azadlıqdan məhrum etmə cəzasının müddətinə günə-gün hesabı ilə hesablanır. A.m. birinci və ikinci qrup əlillərə, hamilə qadınlara və ya səkkiz yaşınadək uşağı olan qadınlara, qocalığa görə pensiya yaşına çatmış qadın və kişilərə, habelə müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara təyin edilmir.

**Azadlıqdan məhrumetmə (azadlığın məhdudlaşdırılması)** – cinayət hüququnda cəza növlərindən biri. AR CM-in 53-cü maddəsinə uyğun olaraq azadlığın məhdudlaşdırılması ittiham hökmü çıxarılanadək on səkkiz yaşı tamam olmuş məhkumların cəmiyyətdən təcrid olunmadan, lakin nəzarət altında xüsusi müəssisələrdə saxlanılmasından ibarətdir. Azadlığın məhdudlaşdırılması məhkumluğu olmayan və qəsdən cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslərə – bir ildən üç ilədək; ehtiyatsızlıqdan cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslərə – bir ildən beş ilədək müddətə təyin edilir. İctimai işlər və ya islah işləri azadlığın məhdudlaşdırılması ilə əvəz edildikdə bu cəza növü bir ildən az müddətə də təyin edilə bilər. Azadlığın məhdudlaşdırılmasına məhkum edilmiş şəxs cəzanın icrasından qərəzli boyun qaçırdıqda, azadlığın məhdudlaşdırılması onun təyin edildiyi müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunur. Azadlığın məhdudlaşdırılması cəzası azadlıqdan məhrum etmə cəzası ilə əvəz edildikdə azadlığın məhdudlaşdırılması cəzasının müddəti azadlıqdan məhrum etmə cəzasının müddətinə günə-gün hesabı ilə hesablanır. Azadlığın məhdudlaşdırılması birinci və ikinci qrup əlillərə, hamilə qadınlara və ya səkkiz yaşınadək uşağı olan qadınlara, qocalığa görə pensiya yaşına çatmış qadın və kişilərə, habelə müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara təyin edilmir.

Azadlığın məhdudlaşdırılması Azərbaycan Respublikası cinayət qanunvericiliyi üzrə cəzaların sisteminə daxil edilən yeni cəza növüdür. Bu cəza yalnız törədilmiş cinayətə görə məsuliyyət müəyyən edən maddənin sanksiyasında nəzərdə tutulan hallarda tətbiq edilə bilər. Azadlığın məhdudlaşdırılması məhkuma psixoloji təsir göstərilməsini nəzərdə tutmaqla onun şəxsi hüquq və azadlıqlarının məhdudlaşdırılması, davranışı üzərində nəzarət qoyulması, müvafiq rejim tələblərinə əməl etməyə məcbur edilməsi və xüsusi müəssisələrdə saxlanılması yolu ilə cəzanın məqsədinə nail olunmasına əlverişli şərait yaradır. Ona görə də azadlığın məhdudlaşdırılması zamanı bu məqsədə nə dərəcədə nail olunması cəzanı təyin edən məhkəmələrdən daha çox onun icrasını həyata keçirən xüsusi müəssisələrin fəaliyyətindən asılıdır.





**Azadlıq və şəxsi toxunulmazlıq hüququ** *(bax: şəxsi toxunulmazlıq).*

**Azad liman** – azad iqtisadi zonanın bir növü; müvafiq dövlətin liman ərazisinin gömrük ərazisi tərkibinə daxil deyil. Su hovuzları (hövzələri), anbarların yerləşdikləri sahələr və müxtəlif qurğulara malik olan emalatxanalar a.l.-a daxildir. A.l. gömrük rüsumları və vergilərinin qismən və ya tam olmaması əsasında malların güzəşt rejimi ilə gətirilməsi, aparılması və reeksportu şəraitində fəaliyyət göstərir.

**Azad mandat** – seçki prinsiplərinin bir növü; bu qaydaya uyğun olaraq nümayəndəli hakimiyyət orqanının deputatı seçicilərin sorğuları ilə bağlı olmur və öz fəaliyyətində onların qarşısında məsuliyyət daşımır. Müvafiq surətdə belə deputatın geri çağırılması da mümkün olmur. A.m. prinsipi praktiki olaraq bütün demokratik dövlətlərdə tətbiq edilir. A.m.-ın əksini imperativ mandat təşkil edir.

**Azadolmalar** - AR-in vergi qanunvericiliyinə uyğun olaraq aksizdən azad edilən mallar (əmtəələr) nəzərdə tutulur. AR-in Vergi Məcəlləsinin 188-ci maddəsinə uyğun olaraq aşağıdakılar aksizdən azad edilir: 1) fiziki şəxsin fərdi istehlakı üçün 3 litr alkoqollu içkinin və 3 blok siqaretin idxalı, həmçinin Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı yanacaq; 2) Azərbaycan Respublikası ərazisində tranzitlə daşınan mallar; 3) təkrar ixrac üçün nəzərdə tutulan mallar istisna edilməklə, malların Azərbaycan Respublikasının ərazisinə müvəqqəti idxalı; 4) təkrar ixrac üçün nəzərdə tutulan və girovla təminat verilən mallar.

AR Vergi Məcəlləsinin 188-ci maddəsinin 1-ci hissəsində göstərilən aksizdən azadolmalar yalnız o zaman tətbiq edilir ki, gömrük rüsumlarından azadolmaların şərtlərinə əməl edilmiş olsun. Əgər gömrük rüsumu tutulması məqsədləri üçün idxal, rüsumun geri qaytarılması rejiminin təsiri altına düşürsə və ya azadolmanın şərtləri pozulduğu üçün gömrük rüsumunun ödənilməsi tələb edilirsə, həmin rejim aksizin tutulmasına da tətbiq edilir.

**Azadolunmuşlar** – Qədim Yunanıstanda və Qədim Romada, həmçinin erkən feodalizm dövründə Qərbi Avropanın bir sıra ölkələrində azad edilən və ya azadlıqlarını satın alan qullar. Keçmiş sahiblərindən müəyyən dərəcədə asılı qalan a.-ın hüququ azad vətəndaşlara nisbətən məhdud idi.

Klassik Roma hüququnda a.-ın hüquqi vəziyyəti bu şəxslərin hüquqlarından asılı olaraq müəyyən edilirdi. Məsələn, kvirit mülkiyyətçisi tərəfindən azadlığa buraxılan qul Roma vətəndaşlığı hüququ əldə edirdi. Ancaq qulun mülkiyyət hüququ sivil hüquqa deyil, pretor ediktlərinə əsaslanan şəxslər tərəfindən azadlığa buraxıldıqda ancaq latın vətəndaşlığı hüququ əldə edə bilərdi. Yustinianın vaxtında bu fərq aradan qaldırıldı. Əgər manumissiya qanuna uyğun həyata keçirilərdisə, o halda azadlığa buraxılan qul Roma vətəndaşı olurdu. Lakin Roma vətəndaşlığı əl... edən azadlığa buraxılmış qul (yaxud libertin) öz hüquqi vəziyyətinə görə azad doğulanlara tam bərabər tutulmurdu. A.-ın hüquq qabiliyyətində məhdudiyyətlər xüsusi hüquq sahəsində də mövcud olmuşdur. Məsələn, imperator Avqusta qədər a. azad doğulanlarla nikaha daxil ola bilməzdilər. A.-ın sonralar silkindən olanlarla ni-

kaha daxil olmasına qadağan isə Yustiniana qədər saxlanılmışdır. Digər tərəfdən, libertin keçmiş sahibindən (öz patronundan) asılı vəziyyətdə idi.

**Azad tədavül** – gömrük hüququnda gömrük sərhədindən keçirilən malların və ya predmetlərin üzərində sərəncam vermək (gömrük nəzarəti olmadan) hüququ.

**Azad tərbiyə** – XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Qərbi Avropanın bir sıra ölkələrində mövcud olmuş pedaqoji konsepsiya. Uşaq tərbiyəsində ifrat fərdiyyətçiliyi, onun şəxsiyyətini və davranışının bütün cəhətlərini boğmağa, məhdudlaşdırmağa əsaslanan tərbiyəni qətiyyətlə rədd edən konsepsiya olmuşdur. Uşağın bütün qüvvə və bacarığının qeyri-məhdud inkişaf etdirilməsi A.t. tərəfdarlarının idealı idi. A.t. ideyaları J.J. Russonun pedaqoji görüşləri ilə sıx bağlı olmuşdur. A.t.-nin ilk təbliğatçılarından biri İsveç qadın yazıçısı E. Key olmuşdur. O, özünün "Uşaq əsri" (1900) kitabında uşaqlara sərbəst inkişaf hüququ verilməsinin, gündəlik həyatda yalnız zəruri olan şeylərin təlim olunmasının tərəfdarı kimi çıxış edirdi. Alman pedaqoqları H. Şarrelman, F.Qansberq, L. Qurlitt və başqaları müəllim və şagirdlərə yaradıcılıq azadlığı, öz fəaliyyətini sərbəst ifadə etmək hüququ verilməsi tələblərini irəli sürürdülər.

Rusiyada a.t. ideyalarını L.N. Tolstoy inkişaf etdirmişdir. O, 1859-cu ildə a.t. prinsiplərinə əsaslanan məktəb açmışdı.

A.t. ideyaları demokratik əhval-ruhiyyəli xırda burjuaziyanın və burjua ziyalılarının bir hissəsinin mövcud cəmiyyətə qarşı narazılığının ifadə formalarından biri idi.

**Az ağır cinayətlər** – sanksiyasında beş ildən artıq olmayan müddətə azadlıqdan məhrumetmə növündə cəza nəzərdə tutulan əməllər *(bax: cinayətlərin təsnifatı).*

**Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminalogiya Problemləri İnstitutu (AETMEKKPİ)** – Azərbaycan Respublikasının aparıcı məhkəmə-ekspertiza müəssisəsi. 1956-cı ildə respublikanın paytaxtı Bakı şəhərində ekspertiza müəssisəsi kimi Bakı elmi-tədqiqat kriminalistika laboratoriyası təşkil edilmişdir. AETMEKKPİ ekspertiza müəssisəsinin təşəkkülü prosesinin məntiqi davamı kimi formalaşmışdır.

1960-cı ildə həmin laboratoriya bazasında Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutu (Azerb.ETMEİ) yaradılmışdır. İnstitutda məhkəmə-xətt ekspertizası, sənədlərin texniki ekspertizası şöbələri, ballistika, trosoloji ekspertizaların aparılması üçün şöbələr, habelə kimyəvi, inşaat-mühəndis, bioloji, mühasibat ekspertiza şöbələri və i.a. laboratoriyalar fəaliyyət göstərir. İnstitut məhkəmə-ekspertizası, eləcə də kriminalistika, cinayət hüququ və cinayət prosesi sahəsində kadrların hazırlanmasında böyük işlər aparır. O, təhqiqat və istintaq sahəsi üzrə mütəxəssislərin ixtisaslarının artırılmasında böyük rola malikdir. İnstitutda elmi kitabxana və ümumiləşdirmə şöbəsi də fəaliyyət göstərir. AETMEKKPİ Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin nəzdində yerləşir. Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2006-cı il tarixli Fərmanı ilə AETMEKKPİ Ekspertiza mərkəzi adlandırılmışdır.

**"Azərbaycan Respublikası əhalisinin dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında Azərbaycan Respublikası əhalisinin dövlət reyestri – müasir informasiya texnologiyaları vasitəsilə formalaşdırılması, aparılması, istifadəsi informasiya mühafizəsinin hüquqi və təşkilati əsaslarını müəyyən edən qanunvericilik aktı.

Həmin qanun 21 aprel 2006-cı il tarixdə qəbul edilmişdir. O, üç fəsil və 14 maddədən ibarətdir.

**Azərbaycan Respublikası hökuməti** *(bax: Azərbaycan Respublikasının Nazirlər Kabineti).*

**Azərbaycan Respublikası Milli Məclisinin Sədri** – Azərbaycan Respublikası qanunvericilik orqanının başçısı. Azərbaycan Respublikası Milli Məclisi deputatları içərisindən 5 il müddətinə seçilir. Sədrin səlahiyyət müddəti Milli Məclisin səlahiyyət müddəti qədərdir. MM-in Sədri məclisin birinci iclasında millət vəkilləri içərisindən seçilir. MM-in Sədri onun növbədənkənar sessiyalarını çağırmaq hüququna malikdir. Sədrin şəxsiyyəti toxunulmazdır.

**Azərbaycan Respublikasının Ailə Məcəlləsi** *(bax: Ailə Məcəlləsi).*

**Azərbaycan Respublikasının Ali Məhkəməsi** – Azərbaycan Respublikasının ən yüksək məhkəmə orqanı. 1923-cü il fevralın 13-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin (MİK-in) qərarı ilə yaradılmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq AM ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki işlər, cinayət işləri və digər işlər üzrə ali məhkəmə orqanıdır; o qanunla müəyyən edilmiş prosessual qaydalarda ümumi və ixtisaslaşdırılmış məhkəmələrin işinə nəzarəti həyata keçirir; məhkəmələrin praktikasına aid məsələlər üzrə izahatlar verir. AM-in hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

AM Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində təşkil edilir, onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir. AM-in tərkibinə Ali Məhkəmənin sədri, onun müavinləri və hakimlər daxildir. AM Plenumdan və kassasiya kollegiyalarından ibarətdir. AM-də mülki işlər üzrə, iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və inzibati hüquqpozmalara dair işlər üzrə və hərbi məhkəmələrinin işləri üzrə məhkəmə kollegiyaları təşkil edilir. AM hakimlərinin sayı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyən edilir. Qanunların düzgün tətbiqi və elmi təkliflərin hazırlanması məqsədilə AM-in yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir. AM-də hakimlərdən ibarət tərkibdə intizam kollegiyası təşkil edilir.

AM-in Plenumu AM-in sədrindən, onun müavinlərindən, hakimlərindən, İqtisad Məhkəməsinin sədrindən, Apellyasiya Məhkəməsinin sədrindən və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrindən ibarət tərkibdə fəaliyyət göstərir. AM-in Plenumunun səlahiyyətinə daxil olan məsələlərin dairəsi "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası qanununun 79-cu maddəsində nəzərdə tutulmuşdur.

AM-in Plenumu üç ayda bir dəfədən az olmayaraq çağırılır. AM-in sədri AM-in Plenumunun iclaslarına sədrlik edir. AM-in Plenumunun iclaslarında Azərbaycan

Respublikasının Baş prokuroru və müvafiq icra hakimiyyəti orqanının rəhbəri iştirak edirlər. Plenumun iclaslarında əlavə kassasiya qaydasında və ya yeni açılmış hallar üzrə işlərin baxılmasında müdafiə tərəfinin iştirakı təmin edilir. İclaslara digər şəxslər də dəvət oluna bilər. Plenumun çağırılması vaxtı və müzakirəyə çıxarılan məsələlər barədə Plenum üzvlərinə və Plenumda iştirak edən digər şəxslərə Plenuma ən geci 10 gün qalmış məlumat verilir, qərar layihələri və başqa materiallar onlara təqdim olunur. AM-in Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Plenumun iclası səlahiyyətli sayılır. Qərarlar açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul olunur. Üzvlər məhkəmə işləri üzrə səsvermədə bitərəf qala bilməzlər. Plenuma sədrlik edən başqa hakimlərlə yanaşı səsvermədə iştirak edir və axırıncı səs verir.

AM kollegiyalarının səlahiyyətləri, onların iş qaydası, AM sədrinin səlahiyyətləri, onun müavinlərinin səlahiyyətləri, sədrin və onun müavinlərinin əvəz edilməsi qaydası və i.a. məsələlər "Məhkəmələr və hakimlər haqqında" qanunla müəyyən edilir (81-85-ci maddələr).

**Azərbaycan Respublikasının apellyasiya məhkəmələri** *(bax: apellyasiya məhkəmələri).*

**Azərbaycan Respublikasının Baş naziri** – Azərbaycan Respublikası hökumətinin başçısı. Azərbaycan Respublikasının B.n-ni Azərbaycan Respublikası MM-in razılığı ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir. BN vəzifəsinə namizədlik haqqında təklifi Azərbaycan Respublikasının Prezidenti onun öz vəzifələrinin icrasına başladığı gündən bir ay və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefa verdiyi gündən iki həftə müddətindən gec olmayaraq Azərbaycan Respublikası MM-in müzakirəsinə təqdim edir. MM Azərbaycan Respublikasının B.n. vəzifəsinə namizədlik haqqında qərarı həmin namizədliyin təqdim edildiyi gündən bir həftədən gec olmayaraq qəbul edir. Göstərilən qayda pozularsa və ya Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi namizədlərin Azərbaycan Respublikasının B.n. vəzifəsinə təyin olunmasına üç dəfə razılıq verilməzsə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının B.n.-ni Azərbaycan Respublikası MM-in razılığı olmadan təyin edə bilər (Azərbaycan Respublikası Konstitusiyasının 118-ci maddəsi). Azərbaycan Respublikası B.n.-nin səlahiyyət müddəti 5 ildir.

**Azərbaycan Respublikasının büdcə hüquqları** – Azərbaycan Respublikasının Prezidenti; Azərbaycan Respublikasının Milli Məclisi və Azərbaycan Respublikası hökuməti tərəfindən büdcə fəaliyyəti sahəsində həyata keçirilən hüquq və vəzifələrin (səlahiyyətlərin) məcmusu. AR-in büdcə hüququ statusunun xüsusiyyətləri əsasında onun büdcə hüquqlarını aşağıdakı iki qrupa bölmək olar: a) suveren dövlət kimi AR-in büdcə hüquqları; b) AR-in yerli büdcələrə münasibətdə büdcə hüquqları.

**Azərbaycan Respublikasının büdcə sistemi** – "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası qanununun 3-cü maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında büdcə sistemi Azərbaycan Respublikasının dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən ibarətdir.





AR-in büdcə sistemində büdcə məlumatlarının bütün səviyyələrdə müqayisəsini təmin edən vahid büdcə təsnifatı tətbiq edilir.

**Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi** *(bax: Cəzaların İcrası Məcəlləsi).*

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsi** *(bax: Cinayət Məcəlləsi).*

**Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi** *(bax: Cinayət-Prosessual Məcəllə).*

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi** – Azərbaycan Respublikasında icra hakimiyyəti orqanı. DİN öz səlahiyyətləri daxilində insan və vətəndaşın hüquq və azadlıqlarının, onun qanuni mənafelərinin müdafiəsi, hüquq qaydasının mühafizəsi və asayişin qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində dövlət idarəçiliyini həyata keçirir, habelə daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərini bilavasitə realizə etməklə yanaşı Azərbaycan Respublikası DİN-in daxili qoşunlarının təşkili və fəaliyyətinə rəhbərliyi həyata keçirir.

**Azərbaycan Respublikasının dövlət bayrağı** – Azərbaycan Respublikasının dövlət rəmzlərindən biri. Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin II hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının d.b. bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündən ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir. Azərbaycan Respublikasının d.b.-nin təsviri konstitusiya qanunu ilə müəyyən edilir.

"Azərbaycan Respublikasının dövlət bayrağı haqqında" Azərbaycan Respublikasının qanunu 1991-ci il fevralın 5-də qəbul edilmişdir. Həmin qanunla Azərbaycan Respublikasının d.b. haqqında əsasnamə təsdiq edilmişdir. Əsasnamədə d.b.-nın Azərbaycan dövlət suverenliyinin rəmzi olması göstərilir. D.b.-nın qaldırıldığı yerlər və hansı əlamətdar günlərdə qaldırılması və i.a. nəzərdə tutulur. Azərbaycan Respublikasının d.b. müqəddəs rəmzdir və onun hər cür təhqir edilməsi qanuna əsasən cəzalandırılır.

**Azərbaycan Respublikasının dövlət gerbi** – Azərbaycan Respublikasının dövlət rəmzlərindən biri. Azərbaycan Respublikasının d.g.-nin təsviri konstitusiya qanunu ilə müəyyən edilir.

"Azərbaycan Respublikasının dövlət gerbi haqqında" Azərbaycan Respublikasının qanunu 1993-cü il yanvarın 19-da qəbul edilmişdir. Həmin qanunla d.g. haqqında əsasnamə təsdiq edilmişdir.

Əsasnaməyə uyğun olaraq Azərbaycan Respublikasının d.g. Azərbaycan dövlətinin müstəqilliyi rəmzidir. D.g. palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının d.g.-nin rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. D.g.-nin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı rəngdədir. Qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri və palıd qozaları qızılıdır.

Əsasnamədə d.g.-nin qabarıq təsvirinin vurulduğu yerlər nəzərdə tutulur. D.g.-nin təs-

virindən istifadə etmək hüququ Azərbaycan Respublikasının MM tərəfindən verilə bilər.

**Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi** – Azərbaycan Respublikasında icra hakimiyyəti orqanı. AR DGK ölkənin gömrük orqanlarının vahid sisteminə rəhbərliyi həyata keçirir. DGK gömrük məqsədləri üçün malların ekspertizasını və tədqiqini aparmaqdan ötrü gömrük laboratoriyaları yaradır, gömrük işi sahəsində elmi-tədqiqat işlərinin aparılması, kadr hazırlığı və onların ixtisasının artırılması məqsədi ilə elmi-tədqiqat müəssisələri, peşəyönümlü təhsil-tədris müəssisələri, gömrük fəaliyyətinin yerinə yetirilməsinə kömək edən hesablama mərkəzləri, poliqrafiya, tikinti-istismar idarələri, digər idarə və təşkilatlar yarada bilər. Gömrük orqanlarının, gömrük laboratoriyalarının, elmi-tədqiqat və tədris müəssisələrinin, idarə və təşkilatların əmlakı dövlət mülkiyyətidir. DGK bu əmlakın idarə edilməsi üzrə mülkiyyətçi səlahiyyətlərini həyata keçirir.

**Azərbaycan Respublikasının dövlət himni** – Azərbaycan Respublikasının dövlət rəmzlərindən biri. Azərbaycan Respublikasının d.h-nin musiqisi və mətni konstitusiya qanunu ilə müəyyən edilir.

"Azərbaycan Respublikasının dövlət himni haqqında" Azərbaycan Respublikasının qanunu 1992-ci il mayın 27-də qəbul edilmişdir. Azərbaycan Respublikası MM-in qərarına əsasən "musiqisi Üzeyr Hacıbəyovun, mətni Əhməd Cavadın olan "Azərbaycan marşı" Azərbaycan Respublikasının dövlət himni kimi təsdiq" edilmişdir.

**Azərbaycan Respublikasının dövlət komitələri** – Azərbaycan Respublikasında ümumdövlət xarakterli funksiyaları həyata keçirən xüsusi səlahiyyətli icra hakimiyyəti orqanları. D.k nazirlik və idarələrin fəaliyyətini əlaqələndirir, sahələrarası dövlət idarəçiliyi məsələlərinin elmi səviyyədə işlənib hazırlanmasını təmin edir.

**"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" konstitusiya aktı** – Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə barəsində Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da qəbul edilmiş qərarı əsasında qəbul olunmuş konstitusiya aktı 1991-ci il oktyabrın 18-də qəbul edilmişdir. Hər il 18 oktyabr Azərbaycan Respublikasının dövlət müstəqilliyi günü kimi qeyd olunur.

Aktın I fəsli "Ümumi müddəalar", II fəsli "Azərbaycan xalqı" III fəsli "Azərbaycan dövləti", IV fəsli "İqtisadi münasibətlər" V fəsil "Siyasi münasibətlər" və VI fəsli "Yekun müddəaları" adlanır. Akt 32 maddədən ibarətdir.

Aktın preambulunda 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının "İstiqlal Bəyannaməsi"ni qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdiyi qeyd edilir. Preambulun sonunda deyilir: "Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlaliyyət Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixil bəyannaməsini rəhbər tutaraq bu konstitusiya aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir".

**Azərbaycan Respublikasının dövlət nazirlikləri** – Azərbaycan Respublikasında icra hakimiyyəti orqanları. Müvafiq sahələr üzrə təşkil edilən d.n. öz səlahiyyətləri daxilində ümumdövlət təyinatlı funksiyaları yerinə yetirirlər. Hər bir d.n. Azərbaycan Respublikası hökumətinin strukturuna daxildir. D.n.-nin başçıları (nazirlər) hökumətin üzvləri sayılırlar. Azərbaycan Respublikasında Ədliyyə, Daxili İşlər, Təhsil, Səhiyyə, Milli Təhlükəsizlik, Müdafiə, Ekologiya və Təbii Sərvətlər, Vergilər, Maliyyə nazirlikləri və i.a. nazirliklər fəaliyyət göstərir.

**Azərbaycan Respublikasının dövlət rəmzləri** *(bax: Azərbaycan Respublikasının dövlət bayrağı; Azərbaycan Respublikasının dövlət gerbi; Azərbaycan Respublikasının dövlət himni).*

**Azərbaycan Respublikasının dövlət sərhədləri** – Azərbaycan Respublikasının dövlət ərazisinin (quru və su ərazisinin, yer təkinin, dəniz və hava fəzasının) hüdudlarını müəyyən edən xətlər və bu xətlər üzrə keçən şaquli səthlər. Azərbaycan Respublikası d.s. onun dövlət suverenliyinin ərazi hüdudlarıdır.

"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının qanunu 1991-ci il dekabrın 9-da qəbul edilmişdir. Azərbaycan Respublikasının dövlət sərhədinin dəyişdirilməsi yalnız referendum yolu ilə həll oluna bilər.

**Azərbaycan Respublikasının dövlət standartı** – Azərbaycan Respublikasında standartlaşdırma obyektləri üçün norma, qayda və tələblər kompleksini müəyyən edən normativ-texniki sənəd. Azərbaycan Respublikasının d.s.-ları məcburi və tövsiyə olunan tələbləri nəzərdə tutur. Müvafiq standartların təsiri şamil edilən icra hakimiyyəti orqanları və təsərrüfat subyektləri d.s.-larının məcburi tələblərinə əməl etməlidirlər. Azərbaycan Respublikasının mənafelərini qorumaq və yerli məhsulların (işlərin, xidmətlərin) rəqabət qabiliyyətini yüksəltmək məqsədi ilə zəruri hallarda standartlarda ənənəvi texnologiyanın imkanlarını qabaqlamaqla gələcək üçün ilkin tələblər də nəzərdə tutula bilər. d.s.-larında nəzərdə tutulan tələblər Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmamalıdır. D.s.-larının tövsiyə olunan tələbləri aşağıdakı hallarda şərtsiz yerinə yetirilməlidir: a) qanunvericilik aktlarında nəzərdə tutulduqda; b) məhsulu hazırlayan (tədarükçü) tərəfindən məhsulun həmin tələblərə uyğunluğu bəyan edildikdə.

Azərbaycan Respublikasının d.s. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 1996-cı il 16 aprel tarixli qanunu ilə tənzim edilir.

**Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi** – Azərbaycan Respublikasında təbiəti mühafizə və təbii ehtiyatlardan istifadə üzrə icra hakimiyyəti orqanı. Əvvəllər Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi adı altında fəaliyyət göstərmişdir.

ETSN qanunvericiliyə uyğun olaraq digər dövlət orqanları ilə birlikdə dövlət nəzarətini (təbii obyektlərin mühafizəsi və təbii ehtiyatlardan istifadə sahəsində) həyata keçirir. Torpaq, su, meşə, yerin təki, mineral ehtiyatların və digər təbii ehtiyatların mühafizəsi və onlardan səmərəli istifadə digər sahəvi qanunlara uyğun olaraq

həyata keçirilir. ETSN-in hüquqi statusu aşağıdakı funksiyaları yerinə yetirməsindən irəli gəlmişdir. Həmin funksiyalara əlaqələndirmə, normayaratma, nəzarət-təftiş, icazəverici, məlumatverici, ekoloji maarifləndirmə, təbii qoruqları mühafizə etmə və ekologiya sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmə daxildir.

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi** – Azərbaycan Respublikasında icra hakimiyyəti orqanı. ƏN aşağıdakı əsas vəzifələri həll edir: a) Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası hökumətinin normayaratma fəaliyyətinin hüquqi təminatında iştirakını; b) məhkəmə islahatının təşkilati-hüquqi cəhətdən təmin edilməsini; c) ümumi yurisdiksiyalı məhkəmələrin və hərbi məhkəmələrin fəaliyyəti üçün zəruri şəraitin təmin edilməsini; ç) icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının dövlət qeydiyyatını; d) siyasi partiyaların, ictimai birliklərin, dini təşkilatların və digər ictimai qurumların nizamnamələrinin qeydiyyatını; e) hüquqi xidmətlər sisteminin təşkili və inkişafını; ə) ədliyyə orqanlarının, idarə və təşkilatlarının kadrlarla təmin edilməsini; f) vətəndaşların hüquqlarının və qanuni mənafelərinin beynəlxalq-hüquqi mühafizəsində iştirakını.

**Azərbaycan Respublikasının Əmək Məcəlləsi** *(bax: Əmək Məcəlləsi).*

**Azərbaycan Respublikasının gömrük fəaliyyəti (işi)** – AR GM-in 1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının gömrük işini malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinin qaydaları və şərtləri, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələri təşkil edir.

G.f. (işi) icra hakimiyyəti orqanlarının fəaliyyətinin tərkib hissəsidir. Bu fəaliyyətə ümumi rəhbərliyi AR Prezidenti, AR hökuməti həyata keçirir. G.f.-nə (işinə) bilavasitə rəhbərliyi həyata keçirən icra hakimiyyəti orqanı AR DGK-dır.

**Azərbaycan Respublikasının Gömrük Məcəlləsi** *(bax: Gömrük Məcəlləsi).*

**Azərbaycan Respublikasının gömrük orqanları** – Azərbaycan Respublikasında bilavasitə gömrük işini həyata keçirən dövlət idarəçilik orqanları. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 7-ci maddəsinin 1-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasında gömrük işi hüquq-mühafizə orqanları olub, vahid sistem təşkil edən gömrük orqanları tərəfindən həyata keçirilir. AR-in g.o. sisteminə AR DGK gömrük idarələri, AR-in gömrükləri və gömrük postları daxildir. Qanunvericilikdə müəyyən edilmiş hallar istisna olmaqla heç bir dövlət orqanının AR DGM-in və AR-in digər qanunvericilik aktlarının müddəalarına uyğun fəaliyyət göstərən g.o.-nın səlahiyyətinə toxunan məsələlər üzrə qərar qəbul etmək, onların funksiyalarını icra etmək və ya dəyişmək, onlara başqa vəzifələr tapşırmaq və ya fəaliyyətinə digər formada müdaxilə etmək hüququ yoxdur.

**Azərbaycan Respublikasının gömrük siyasəti** – AR dövlətinin daxili və xarici siyasətinin tərkib hissəsi. AR GM-in 2-ci maddəsinə uyğun olaraq AR-in g.s.-nin məqsədi aşağıdakılardan ibarətdir: a) AR-in gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin tənzimlənməsi vasitələrindən daha səmərəli istifadənin təmin edilməsi; b) AR-in daxili bazarının qorunması; c) milli iqtisadiyyatın inkişafının stimullaşdırılması: ç) Azərbaycan dövlətinin iqtisadi siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə kömək edilməsi; d) AR Konstitusiyasına, AR GM-in və AR digər qanunvericilik aktlarına uyğun olaraq müəyyən edilən digər məqsədlərin yerinə yetirilməsi.

AR g.s. gömrük işini beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəldir. Azərbaycan Respublikasında gömrük işi hamılıqla qəbul edilmiş beynəlxalq normalar və təcrübə ilə uyğunlaşdırma və eyniləşdirmə istiqamətində inkişaf etdirilir.

**Azərbaycan Respublikasının hərbi məhkəmələri** – Azərbaycan Respublikasında Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, hərbi-dəniz donanmasında, digər hərbi birləşmələrində məhkəmə hakimiyyətini həyata keçirən ümumi yurisdiksiyalı məhkəmələr. H.m. Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qarnizonlarının yerləşdiyi ərazilərdə bu məhkəmələrin fəaliyyət dairəsinə aid edilmiş hərbi hissələrin sayı nəzərə alınmaqla təşkil edilirlər. Onların yurisdiksiyası təşkil olunduqları qarnizonların hərbi hissələrinə şamil edilir. H.m.-in təşkili, olduğu yerlər və onların fəaliyyət dairəsi AR-in qanunvericiliyi ilə müəyyən edilir.

AR-in h.m.-i birinci instansiya məhkəmələri kimi qanunla onların səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxırlar. Onlar məhkəmə statistikasını təhlil edir, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, AR qanunvericiliyində nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirirlər.

**Azərbaycan Respublikasının Hərbi Prokurorluğu** – ixtisasladırılmış prokurorluq olmaqla Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hərbi birləşmələrdə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası qanunu ilə və Azərbaycan Respublikasının digər qanunları ilə hərbi prokurorluqlara aid edilmiş səlahiyyətləri həyata keçirən orqan.

AR h.p. tutulmuş və həbs edilmiş hərbi qulluqçuların saxlandığı yerlərdə, intizam hissələrində, eləcə də cəzaların hərbi hissələrdə icra edilməsi zamanı qanunlara və hərbi nizamnaməyə əməl olunmasına nəzarət edir. H.p. öz vəzifələrini hərbi idarəetmə orqanlarından və komandanlıqdan asılı olmayaraq icra edir. Hərbi prokurorluqların işçiləri xidməti vəzifələrin icrası ilə əlaqədar bütün hərbi idarəetmə orqanlarının, hərbi hissələrin, hərbi müəssisə və idarələrin binа və ərazilərinə maneəsiz daxil ola bilərlər. "Prokurorluq haqqında" Azərbaycan Respublikasının qanununun 12-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna Azərbaycan Respublikasının hərbi prokurorluqları aiddir.

Hərbi prokurorluqlar AR-in Silahlı Qüvvələri hərbi qarnizonlarının yerləşdiyi ərazilərdə, bu prokurorluğun fəaliyyət dairəsinə aid edilmiş hərbi hissələrin sayı nəzərə alınmaqla təşkil edilir. Azərbaycan Respublikasının h.p.-na vəzifəsinə görə Baş prokurorun müavini hesab edilən Azərbaycan Respublikasının hərbi prokuroru rəhbərlik edir. O, Azərbaycan Konstitusiyasının 133-cü maddəsinin IV hissəsinə uyğun olaraq vəzifəyə təyin və vəzifədən azad edilir.

AR h.p.-nda idarə, şöbə və digər struktur bölmələri yaradıla bilər. İdarə və şöbələrin rəisləri və müavinləri hərbi prokurorun böyük köməkçiləri və köməkçiləri hesab edilir. İdarə və şöbələrdə prokurorlar və müstəntiqlər təyin edilə bilər.

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi** – Azərbaycan Respublikasında icra hakimiyyəti orqanı. AR XİN AR-in xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla əlaqələri və münasibətləri sahəsində dövlət idarəçiliyini həyata keçirir.

**Azərbaycan Respublikasının inzibati-ərazi quruluşu** – Azərbaycan Respublikası ərazisinin ayrı-ayrı hissələrə (rayonlara, şəhərlərə, şəhərdə rayonlara) bölgüsü. Azərbaycan Respublikasında i.ə.q.-nun məqsədi bütün dövlət mexanizminin, xüsusilə yerli hakimiyyət orqanları sisteminin (yerli idarəçiliyin) daha səmərəli təşkili və fəaliyyət göstərməsidir. İ.ə.q. təbii-tarixi və sosial-iqtisadi şərait (təbii ehtiyatlar, təsərrüfatın xarakteri və inkişaf səviyyəsi, əhalinin sayı, sıxlığı və i.a.), milli xüsusiyyətlər (əhalinin milli-etnik tərkibi, məişət adət-ənənələri) və i.a. nəzərə alınmaqla müəyyən edilir.

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi** *(bax: İnzibati Xətalar Məcəlləsi).*

**Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi** – Azərbaycan Respublikasında konstitusiya məhkəmə icraatı vasitəsi ilə müstəqil məhkəmə hakimiyyətini həyata keçirən konstitusiya nəzarəti üzrə məhkəmə orqanı. 1997-ci ildə yaradılmışdır. AR-in KM 1997-ci il 24 noyabr tarixdə qəbul edilmiş "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası qanunu əsasında fəaliyyət göstərir. Qanunun 3-cü maddəsinə uyğun olaraq KM-in əsas məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etməkdir. KM-in əsas vəzifələri AR Konstitusiyasının 130-cu maddəsinin III hissəsində nəzərdə tutulmuş məsələləri həll etməkdən, AR Konstitusiyasının 130-cu maddəsinin IV hissəsində göstərilmiş orqanların sorğusu əsasında AR Konstitusiyasını və qanunlarını şərh etməkdən və AR Konstitusiyası ilə nəzərdə tutulmuş başqa səlahiyyətləri həyata keçirməkdən ibarətdir.

KM-in fəaliyyəti AR Konstitusiyasının aliliyi, ədalət, müstəqillik, kollegiallıq və açıqlıq prinsipləri əsasında qurulur. KM öz səlahiyyətlərinə aid edilən məsələlərə dair qərarlar qəbul edir. Bu qərarlar AR ərazisində məcburi qüvvəyə malikdir. Qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, AR hökumətlərarası müqavilələri AR-in KM-in qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür. AR dövlətlərarası müqavilələri isə qüvvəyə minmir.

KM müstəqil dövlət orqanıdır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və digər məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqnlarından, siyasi partiyalardan, ictimai birliklərdən, həmkarlar ittifaqlarından, onların vəzifəli şəxslərindən, həmçinin hüquqi və fiziki şəxslərdən asılı deyildir.

**Azərbaycan Respublikasının Konstitusiyası** – Azərbaycan dövlətinin əsas qanunu. Azərbaycan Respublikasının Konstitusiyası ölkə ərazisində yüksək hüquqi qüvvəyə və birbaşa qüvvəyə malikdir 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmişdir. AR Konstitusiyası preambuldan, 12 fəsildən, 158 maddədən və keçid müddəalarından ibarətdir. Konstitusiya Azərbaycan Respublikasının konstitusiya quruluşunu, insanın və vətəndaşın hüquq və azadlıqlarını, ali dövlət hakimiyyəti orqanlarının təşkilini, qanunvericilik sistemini təsbit edir.

**Azərbaycan Respublikasının Maliyyə Nazirliyi** – Azərbaycan Respublikasında icra hakimiyyəti orqanı. MN dövlətin vahid maliyyə siyasətinin aparılmasını təmin edir və ölkədə maliyyə təşkilatlarına ümumi rəhbərliyi həyata keçirir.

Azərbaycan Respublikası MN-in əsas vəzifələri aşağıdakılardan ibarətdir: a) vahid maliyyə siyasətinin strateji istiqamətlərinin işlənib hazırlanması və həyata keçirilməsi; b) dövlət büdcə layihəsinin tərtib edilməsi və icra olunması; c) dövlət maliyyəsinin sabitliyinin və onun ölkənin sosial-iqtisadi inkişafına, təsərrüfatçılığın səmərəliliyinə fəal təsirinin təmin edilməsi, habelə maliyyə bazarının inkişafı üzrə tədbirlərin həyata keçirilməsi; ç) maliyyə ehtiyatlarının AR-in sosial-iqtisadi inkişafının öncül istiqamətləri üzrə mərkəzləşdirilməsi, eləcə də məqsədli maliyyələşdirmənin həyata keçirilməsi; d) ölkə iqtisadiyyatına xarici sərmayələrin və kredit ehtiyatlarının cəlb edilməsi üzrə təkliflərin işlənib hazırlanması; e) maliyyə-büdcə planlaşdırılması, maliyyələşdirmə və hesabat metodlarının təkmilləşdirilməsi; ə) büdcə və qeyri-büdcə fondları vəsaitlərinin səmərəli və məqsədli sərf edilməsinə maliyyə nəzarətinin həyata keçirilməsi.

**Azərbaycan Respublikasının Meşə Məcəlləsi** *(bax: Meşə Məcəlləsi).*

**Azərbaycan Respublikasının Mənzil Məcəlləsi** *(bax: Mənzil Məcəlləsi).*

**Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (MSK)** – Azərbaycan Respublikasında mərkəzi seçki orqanı. MSK 18 üzvdən ibarətdir. Üzvlər Azərbaycan Respublikasının Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan (bitərəf) və onların namizədliklərini təqdim edən deputatları, 6 üzvü deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları təmsil edir. 2 namizəd maraqlı tərəflərlə razılaşdırılır. Bir namizəd Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanın nümayəndələri ilə, digər namizəd isə deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaların nümayəndələri ilə razılaşdırılır. MSK-nın üzvləri ali təhsilli olmalıdırlar. MSK-nın vəzifələri, fəaliyyətinin istiqamətləri, üzvlərinin fəaliyyət təminatları, komissiyanın işinin təşkili və i.a. AR SM ilə tənzim edilir.

**Azərbaycan Respublikasının Milli Məclisi** – Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən orqan. MM-in say tərkibi 125 deputatdan ibarətdir. MM-in deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Hər çağırışın səlahiyyət müddəti 5 ildir. Hər çağırışın seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir. MM deputatlarının səlahiyyət müddəti MM-in çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır.

AR Konstitusiyasının 85-ci maddəsinin I hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının yaşı 25-dən aşağı olmayan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilər.

MM öz səlahiyyətlərinə aid məsələlər üzrə Konstitusiya qanunları, qanunlar və qərarlar qəbul edir. MM-də konstitusiya qanunları, qanunlar və qərarlar AR Konstitusiyası ilə nəzərdə tutulmuş qaydada qəbul edilir. Deputatlar səsvermə hüququnu şəxsən həyata keçirirlər. MM-in qərarlarında icra hakimiyyəti və məhkəmə orqanlarına konkret tapşırıqlar nəzərdə tutula bilməz. AR-in MM-ində qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri AR MM-in müzakirəsinə təqdim etmək hüququ) AR MM-in deputatlarına, AR Prezidentinə, AR Ali Məhkəməsinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında AR MM-in müzakirəsinə verdiyi qanun və ya qərar layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur. Belə qanun və qərar layihələrində dəyişikliklər qanunvericilik təşəbbüsü hüququndan istifadə edən orqanın razılığı ilə edilə bilər.

AR MM-in qəbul etdiyi qanunlar qəbul edildiyi gündən 14 gün müddətində AR Prezidentinə imzalanmaq üçün təqdim edilir. Təcili plan olunan qanun layihəsi AR Prezidentinə imzalanmaq üçün qəbul edildiyi gündən 24 saat ərzində təqdim edilir. Qanunun və MM-in qərarının özündə başqa qayda nəzərdə tutulmadıqda, qanun və qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi** – Azərbaycan Respublikasında icra hakimiyyəti orqanı. AR Prezidentinin tabeliyindədir. MTN öz xüsusi səlahiyyətləri ilə yanaşı hüquq-mühafizə funksiyasını da yerinə yetirir.

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi** – Azərbaycan Respublikasında icra hakimiyyəti orqanı. Ölkənin Silahlı Qüvvələrinin təşkili və fəaliyyəti ilə əlaqədar ümumi rəhbərliyi həyata keçirir. AR MN-in əsas vəzifəsi AR Silahlı Qüvvələrinin şəxsi heyətinin döyüş hazırlığını və döyüş qabiliyyətini təmin etməkdən, habelə orduda və hərbi-dəniz donanmasında hərbi intizamı möhkəmləndirməkdən ibarətdir.

**Azərbaycan Respublikasının Mülki Məcəlləsi** *(bax: Mülki Məcəllə).*

**Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi** *(bax: Mülki-Prosessual Məcəllə).*

**Azərbaycan Respublikasının Nazirlər Kabineti** – Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanı. AR Prezidenti tərəfindən icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə yaradılır. AR-in Nazirlər Kabineti AR Prezidentinə tabedir və onun qarşısında cavabdehdir. NK-nın iş qaydasını AR Prezidenti müəyyən edir.

AR Konstitusiyasının 115-ci maddəsinə uyğun olaraq AR NK-nın tərkibinə AR Baş naziri, onun müavinləri, nazirlər və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər.

AR NK iclaslarına, bir qayda olaraq, AR baş naziri sədrlik edir. AR NK aşağıdakı səlahiyyətləri yerinə yetirir: a) AR dövlət büdcəsinin layihəsini hazırlayıb AR Prezidentinə təqdim edir; b) Azərbaycan Respublikası dövlət büdcəsinin icrasını təmin edir; c) maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin edir; ç) dövlətin iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir; d) dövlətin sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir; e) nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir; ə) AR Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

Ümumi qaydalar müəyyən etdikdə AR NK qərarlar, başqa məsələlər üzrə sərəncamlar qəbul edir. AR NK-nın qərar və sərəncamlarında başqa qaydanın nəzərdə tutulmadığı hallarda onlar dərc edildiyi gündən qüvvəyə minir (AR Konstitusiyasının 120-ci maddəsi).

**Azərbaycan Respublikasının Prezidenti** – Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsinə uyğun olaraq Azərbaycan dövlətinin başçısı. O, ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir. AR Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. AR-in Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır. AR-in Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

AR Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanıdır. AR icra hakimiyyəti Prezidentə məxsusdur.

AR Konstitusiyasının 100-cü maddəsinə uyğun olaraq yaşı 35-dən aşağı olmayan, AR ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan AR vətəndaşı AR-in Prezidenti seçilə bilər.

AR-in Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir. Hər bir kəs verməde iştirak edənlərin üçdə iki səs çoxluğu ilə seçilir. O kəs ancaq iki dəfə AR prezidenti seçilə bilər. AR prezidenti and içdiyi gündən öz səlahiyyətlərinin icrasına başlamış sayılır. AR prezidenti toxunulmazlıq hüququna malikdir. Onun şərəf və ləyaqəti qanunla qorunur. AR Prezidenti və onun ailəsi dövlət hesabına təmin edilir. Prezidentin və onun ailəsinin təhlükəsizliyini xüsusi mühafizə xidmətləri təmin edir.

AR Prezidentinin səlahiyyətləri AR Konstitusiyasının 109-cu maddəsində nəzərdə tutulmuşdur.

AR-in Prezidenti qanunları ona təqdim edildiyi gündən başlayaraq 56 gün ərzində imzalayır. Qanunun AR Prezidentinin etirazına səbəb olduğu hallarda o, qanunu imzalamadan öz etirazları ilə birlikdə göstərilən müddət ərzində AR-in MM-in qaytara bilər. AR Prezidenti tərəfindən imzalanmamış Konstitusiya qanunları hüquqi qüvvəyə minmir.

AR Prezidenti AR ərazisinin müəyyən hissəsi faktiki işğal olunduqda, xarici dövlət və ya dövlətlər AR müharibə elan etdikdə, AR qarşı real silahlı hüum təhlükəsi yarandıqda, AR ərazisi mühasirəyə alındıqda AR-in bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində AR-in MM-nin təsdiqinə verir. Bu qayda eynilə fövqəladə vəziyyət tətbiq edilməsinə də aiddir.

Ümumi qaydalar müəyyən etdikdə AR-in Prezidenti fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir.

Fərman və sərəncamlarda başqa qayda nəzərdə tutulmadıqda, onlar dərc edildiyi gündən qüvvəyə minir.

AR Konstitusiyasının 107-ci maddəsinə uyğun olaraq AR Prezidentinin vəzifədən kənarlaşdırılması təşəbbüsü AR Prezidenti ağır cinayət törətdikdə AR Konstitusiya Məhkəməsinin təşəbbüsü ilə AR Ali Məhkəməsinin 30 gün müddətində verilən rəyi əsasında AR MM-i qarşısında irəli sürülə bilər. AR MM-in deputatlarının 95 səs çoxluğu ilə qəbul olunmuş qərar əsasında AR prezidenti vəzifədən kənarlaşdırıla bilər. AR Prezidentinin vəzifədən kənarlaşdırılması haqqında qərar AR Konstitusiya Məhkəməsinin AR MM-in müraciət etdiyi gündən başlayaraq 2 ay ərzində qəbul olunmalıdır. Bu müddətdə göstərilən qərar qəbul edilməsə, AR Prezidentinə qarşı irəli sürülmüş ittiham rədd edilmiş hesab olunur.

**Azərbaycan Respublikasının Prokurorluğu** – Azərbaycan Respublikası adından ölkənin ərazisində qüvvədə olan qanunların icrasına nəzarəti həyata keçirən mərkəzləşdirilmiş orqanlar sistemi. AR Prokurorluğu AR Konstitusiyasının 133-cü maddəsinin I hissəsinə uyğun olaraq qanunla nəzərdə tutulmuş qaydada qanunların eyni cür və dürüst icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir.

AR Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorların AR Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır. AR Baş prokurorunu AR Prezidenti AR MM-in razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir.

AR Baş prokurorunun müavinlərini, respublika ixtisaslaşdırılmış prokurorluqlara rəhbərlik edən prokurorları, Naxçıvan Muxtar Respublikası Prokurorunu AR Baş prokurorunun təqdimatı ilə AR-in Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. Ərazi və ixtisaslaşdırılmış prokurorları AR Prezidentinin razılığı ilə Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və vəzifədən azad edir.

"Prokurorluq haqqında" AR qanununun 8-ci maddəsinə uyğun olaraq AR Prokurorluğunun sisteminə AR-in Baş Prokurorluğu, AR Hərbi Prokurorluğu, AR NP, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu, rayon (şəhər) prokurorluqları, hərbi ixtisaslaşdırılmış prokurorluqlar, habelə tədris elm müəssisələri, mətbəə, sosial-məişət, təsərrüfat təyinatlı digər qurumlar daxildir.

AR Baş Prokurorluğu prokurorluğun mərkəzi aparatıdır. Baş Prokurorluğun strukturuna idarə, şöbə və digər qurumlar daxildir. Baş Prokurorluq bütün prokurorluq orqanlarının fəaliyyətinə rəhbərlik edir.

**Azərbaycan Respublikasının Seçki Məcəlləsi** *(bax: Seçki Məcəlləsi).*

**Azərbaycan Respublikasının Su Məcəlləsi** *(bax: Su Məcəlləsi).*

**Azərbaycan Respublikasının Torpaq Məcəlləsi** *(bax: Torpaq Məcəlləsi).*

**Azərbaycan Respublikası Vergilər Nazirliyi** – Azərbaycan Respublikasında icra hakimiyyəti orqanı. VN ölkədə dövlətin vahid vergi siyasətinin aparılmasını təmin edir və vergilərin dövlət büdcəsinə mədaxilinə ümumi rəhbərliyi həyata keçirir. VN-in fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Vergilər Məcəlləsi və digər müvafiq qanunvericilik aktları təşkil edir. VN öz fəaliyyətini digər dövlət hakimiyyəti orqanlarından asılı olmayaraq müstəqil həyata keçirir. VN-in və onun orqanlarının öz səlahiyyətləri daxilində qəbul edilən qərarları bütün hüquqi və fiziki şəxslər üçün məcburidir.

**Azərbaycan Respublikasının Vergi Məcəlləsi** *(bax: Vergi Məcəlləsi).*

**Azərbaycan Respublikasının yerli iqtisad məhkəmələri** – Azərbaycan Respublikasının iqtisadi mübahisələrə baxılması üzrə yerli məhkəmə orqanları. İM qanunla müəyyən edilmiş qaydada müvafiq ixtisaslaşdırılmış məhkəmələrin işinə nəzarəti həyata keçirir. Azərbaycan Respublikası Konstitusiyasının 132-ci maddəsinin II hissəsinə uyğun olaraq İM-in hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının MM-i təyin edir.

Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2006-cı il tarixli Fərmanı ilə Azərbaycanda 1 və 2 saylı Bakı, Sumqayıt, Əli Bayramlı, Gəncə, Şəki və Naxçıvan yerli iqtisad məhkəmələri təşkil edilmiş və onların yurisdiksiyası müəyyənləşdirilmişdir.

**Aztəminatlı ailə** – orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailə.

# -B-


Babilik (babizm) ........ 121
Babuvistlər ........ 121
Babuvizm ........ 121
Bac ........ 121
Bacaqlı ........ 122
Bacdar ........ 122
Bacılıq (bacılaşma) ........ 122
Bağbaşı ........ 122
Bağışlama ........ 122
Bağışlama forması (vədi) ........ 122
Bağışlamaqdan imtina ........ 123
Bağışlamaq hüququ ........ 123
Bağışlama müqaviləsi ........ 123
Bağışlamanın ləğvi (xitamı) ........ 123
Bağlı depozit ........ 123
Bağlı gömrük anbarı ........ 123
Bağlı müqavilə ........ 124
Bağlı valyuta ........ 124
Baxış ........ 124
Bakalavr ........ 124
Baqaj ........ 124
Baqaj qəbzi ........ 124
Baqqal ........ 124
Balans ........ 125
Balansarxası hesab ........ 125
Balans cədvəli ........ 125
Balansdankənar hesab ........ 125
Balans dəyəri ........ 125
Balans gəliri (itkisi) ........ 125
Balans göstəriciləri ........ 125
Balans hesabatı ........ 125
Balanslaşdırılmış büdcə ........ 125
Balans transferti ........ 126
"Balıqçılıq haqqında" Azərbaycan Respublikasının qanunu ........ 126
Balıqçılıq zonası ........ 126
Bali ........ 126
Ballistika ........ 126
Ballistik ekspertiza ........ 126
Banalitet ........ 126
Banda ........ 126
Banderol ........ 127
Bandit ........ 127
Banditizm ........ 127
Bank ........ 127
Bank aksepti ........ 127
Bank bileti ........ 127
Bank çeki ........ 128
Bank-emitent ........ 128
Bank əmanəti ........ 128
Bank əməliyyatları ........ 128
Bank fəaliyyəti ........ 128
Bank gəliri ........ 128
Bank hesabı ........ 128
Bank hesabı müqaviləsi ........ 128
Bank hesabı müqaviləsinin bağlanması ........ 129
Bank holdinqi ........ 129
Bank hüququ ........ 129
Bank xidmətləri ........ 129
Bankın əməliyyat kassası ........ 130
Bank inhisarı ........ 130
Bank investisiyası ........ 130
Bankir ........ 130
Bankir evləri ........ 130
Bank işi ........ 130
Bank kapitalı ........ 130
Bank kitabçası ........ 130
Bank komissiyası ........ 131
Bank konsorsiumu ........ 131
Bank köçürməsi ........ 131
Bank krediti ........ 131
Bank qaydaları ........ 131
Banklararası kredit ........ 132
"Banklar haqqında" Azərbaycan Respublikasının qanunu ........ 132







Bankların agent funksiyası ........ 132
Bankların amalqamasiyası ........ 132
Bankların hesabları ........ 132
Banklar qrupu ........ 132
Bank ləğvetməsi ........ 132
Bank məzənnəsi ........ 132
Bank-müxbir ........ 132
Bank nəzarəti ........ 132
Banknot ........ 132
Bank olmayan kredit təşkilatı ........ 132
Bank proviziyası ........ 133
Bank sertifikatı ........ 133
Bank sənədləri ........ 133
Bank sirri ........ 133
Bank sistemi ........ 133
Bank ssudası ........ 133
Bank təcrübəsi ........ 133
Bank tədavülü ........ 134
Bank təminatı ........ 134
Bank tənzimləməsi ........ 135
Bank trattası ........ 135
Bank vekseli ........ 135
Bank zəmanəti ........ 135
Bantustanlar, houmlendlər ........ 135
Baranta ........ 135
Baratriya ........ 135
Barbar qanunlar ........ 136
Barbar pravdaları ........ 136
Barışdırıcı hakim ........ 136
Barışdırıcı məhkəmə ........ 136
Barışıq ........ 136
Baron ........ 136
Baronet ........ 137
Barrister ........ 137
Barter əqdi (barter) ........ 137
Basiley (basilevs) ........ 137
Baskak ........ 137
Basma ........ 137
Basmaçılıq ........ 137
Başa çatmamış cinayət ........ 137
Başa çatmış cinayət ........ 137
Baş agent ........ 138
Baş akt ........ 138
Baş attorney ........ 138
Baş auditor ........ 138
Baş hərbi məhkəmə ........ 138
Baş kitab ........ 138
Baş konsul ........ 138
Baş kortesler ........ 139
Başqa işə keçirmə ........ 139
Baş qərargah ........ 139
Başlıq ........ 139
Baş lisenziya ........ 139
Baş magistrat ........ 139
Baş mərz ........ 139
Baş nazir ........ 139
Baş opsion ........ 139
Baş podratçı ........ 139
Baş prokuror ........ 139
Başpulu ........ 139
Baş redaktor ........ 140
Baş reqlament ........ 140
Baş saziş ........ 140
Baş ştatlar ........ 140
Baş (əsas) yük ........ 140
Batinilik ........ 140
Batraklar ........ 140
Bayə ........ 140
Bayraq ........ 141
Bayraq dövləti ........ 141
"Bayramlar haqqında" Azərbaycan Respublikasının qanunu ........ 141
Bayramlıq ........ 141
Baytarlıq sertifikatı ........ 141
"Baytarlıq təbabəti haqqında" Azərbaycan Respublikasının qanunu ........ 141
Bazar ........ 141
Bazargünü məktəbi ........ 142
Bazar qiyməti ........ 142
Baziliki, vasiliki ("çar qanunları") ........ 142
Bazis ........ 142
Bazis ili ........ 143
Bazis qiyməti ........ 143
Bazis növü (markası) ........ 143
Bazis riski ........ 143
Bazis şərtləri ........ 143
Bazis valyutası ........ 143
Beh ........ 143
Benefis ........ 144
Benefisi ........ 144
Benefisiar ........ 144
Berbout-çarter ........ 144
Berçizm ........ 144

Berq-imtiyaz ... 144
Berq-kollegiya ... 144
Berqleri ... 144
Berq-reqlament ... 145
Bers-not ... 145
"Bertilonaj" ... 145
Best ... 145
"Beşinci respublika" ... 145
"Beşkitab" ... 145
Beylisin mühakiməsi ... 146
Beynəlxalq adət ... 146
"Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının qanunu ... 146
Beynəlxalq Atom Enerjisi Agentliyi (BAEA) ... 146
Beynəlxalq birjalar ... 147
Beynəlxalq borclar ... 147
Beynəlxalq cinayət ... 147
Beynəlxalq cinayət ədalət mühakiməsi ... 147
Beynəlxalq cinayət hüququ ... 147
Beynəlxalq cinayətlər ... 148
Beynəlxalq cinayət məhkəməsi ... 148
Beynəlxalq çaylar ... 148
Beynəlxalq danışıqlar ... 148
Beynəlxalq delikt ... 148
Beynəlxalq Demokrat-Hüquqşünaslar ... 149
Assosiasiyası (BDHA) ... 149
Beynəlxalq dəmir yolları ... 149
Beynəlxalq dəniz hüququ ... 149
Beynəlxalq Dəniz Hüququ üzrə Tribunal ... 149
Beynəlxalq Dəniz Təşkilatı (BDT) ... 149
Beynəlxalq Elektrik Rabitəsi İttifaqı (BERİ) ... 150
Beynəlxalq Ədalət Mühakiməsinin Daimi Palatası (BƏMDP) ... 150
Beynəlxalq Əmək Təşkilatı (BƏT) ... 150
Beynəlxalq əmtəə hərracları ... 150
Beynəlxalq ərazi ... 151
Beynəlxalq ərazinin icarəsi ... 151
Beynəlxalq gömrük hüququ ... 151
Beynəlxalq hava hüququ ... 151
Beynəlxalq hesablaşma ... 151
Beynəlxalq Hesablaşma Bankı (BHB) ... 151
Beynəlxalq hesab vahidləri ... 151
Beynəlxalq Hərbi Tribunal ... 152
Beynəlxalq himayəçilik ... 152
Beynəlxalq hökumətlərarası təşkilatlar ... 152
Beynəlxalq humanitar hüquq ... 152
Beynəlxalq hüquq (ümumi hüquq) ... 152
Beynəlxalq Hüquq Akademiyası ... 152
Beynəlxalq Hüquq Assosiasiyası ... 153
Beynəlxalq-hüquqi adətlər ... 153
Beynəlxalq-hüquqi məsuliyyət ... 153
Beynəlxalq Hüquq İnstitutu ... 153
Beynəlxalq-hüquqi tanıma ... 154
Beynəlxalq hüquq münasibətləri ... 154
Beynəlxalq hüquq norması ... 154
Beynəlxalq hüquq pozuntusu ... 154
Beynəlxalq hüquq sahəsi ... 155
Beynəlxalq hüquq subyektliliyi ... 155
Beynəlxalq hüququn doktrinası ... 155
Beynəlxalq hüququn əsas prinsipləri ... 156
Beynəlxalq hüququn lokal norması ... 156
Beynəlxalq hüququn məcəlləşdirilməsi ... 156
Beynəlxalq hüququn mənbələri ... 156
Beynəlxalq hüququn obyekti ... 156
Beynəlxalq hüququn predmeti ... 157
Beynəlxalq hüququn sistemi ... 157
Beynəlxalq hüququn subyektləri ... 157
Beynəlxalq hüququn ümumi norması ... 157
Beynəlxalq xüsusi dəniz hüququ ... 158
Beynəlxalq xüsusi hüquq ... 158
"Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının qanunu ... 158
Beynəlxalq ikiqat vergi qoyuluşu ... 158
Beynəlxalq iqtisadi hüquq ... 158
Beynəlxalq iqtisadi təşkilatlar ... 159
Beynəlxalq informasiya mübadiləsi ... 159
Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) ... 159
Beynəlxalq insan hüquqları hüququ ... 159
Beynəlxalq İnvestisiya Təminatları Agentliyi (BİTA) ... 159
Beynəlxalq Jurnalistlər Təşkilatı (BJT) ... 160
Beynəlxalq kanallar ... 160
Beynəlxalq kartel ... 160
Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fondu (BKTİF) ... 160
Beynəlxalq Kommersiya Arbitrajı ... 160
Beynəlxalq Kooperativ Alyansı (BKA) ... 160
Beynəlxalq kosmos hüququ ... 160





Beynəlxalq kredit ... 161
Beynəlxalq Kriminologiya Cəmiyyəti (BKC) ... 161
Beynəlxalq qeyri-hökumət təşkilatları ... 161
Beynəlxalq Qırmızı Xaç ... 161
Beynəlxalq qulluqçular ... 162
Beynəlxalq lizinq ... 162
Beynəlxalq lotereyalar ... 162
Beynəlxalq Maliyyə Korporasiyası (BMK) ... 162
Beynəlxalq maliyyə-sənaye qrupları ... 162
Beynəlxalq Məhkəmə ... 162
Beynəlxalq məhkəmə qaydası ... 163
Beynəlxalq Məhkəmənin məsləhət rəyi ... 163
Beynəlxalq mübahisələr ... 163
Beynəlxalq müqavilə ... 163
Beynəlxalq müqavilələr hüququ ... 164
Beynəlxalq müqavilənin bağlanması ... 164
"Beynəlxalq müqavilənin bağlanması, icrası və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının qanunu ... 164
Beynəlxalq müqavilənin bağlanması qaydası ... 165
Beynəlxalq müqavilənin denonsasiyası ... 165
Beynəlxalq müqavilənin geriyə qüvvəsi ... 165
Beynəlxalq müqavilənin xitamı ... 165
Beynəlxalq müqavilənin qəbulu ... 165
Beynəlxalq müqavilənin qüvvəyə minməsi ... 166
Beynəlxalq müqavilənin novasiyası ... 166
Beynəlxalq müqavilənin obyekti ... 166
Beynəlxalq müqavilənin subyektləri ... 166
Beynəlxalq müqavilənin təfsiri ... 167
Beynəlxalq müqaviləyə qoşulma ... 167
Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT) ... 167
Beynəlxalq mülki proses ... 167
Beynəlxalq nəzakət ... 168
Beynəlxalq poçt rabitəsi ... 168
Beynəlxalq sanksiyalar ... 168
Beynəlxalq servitutlar ... 168
Beynəlxalq standartlar ... 168
Beynəlxalq terrorçuluq ... 168
Beynəlxalq təminatlar ... 169
Beynəlxalq təşkilatlar ... 169
Beynəlxalq təşkilatlar hüququ ... 169
Beynəlxalq təşkilatların inzibati tribunalları ... 169
Beynəlxalq təşkilatların nizamnamələri ... 169
Beynəlxalq Ticarət Arbitrajı ... 169
Beynəlxalq Ticarət Palatası (BTP) ... 169
Beynəlxalq ticarət şəbəkələri ... 169
Beynəlxalq ticarət terminləri ... 169
Beynəlxalq uçuşlar (reyslər) ... 170
Beynəlxalq Valyuta Fondu (BVF) ... 170
Beynəlxalq vergi hüququ ... 170
Beynəlxalq vəzifəli şəxs ... 170
Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) ... 170
Beyt ül-mal ... 170
Bədbəxt hadisə ... 170
Bədən xəsarətləri ... 171
"Bədən tərbiyəsi və idman haqqında" qanun ... 171
Bəhailik ... 171
Bəhrə ... 172
Bəxşiş ... 172
Bələdiyyə ... 172
Bələdiyyə bankları ... 172
Bələdiyyə borcu ... 172
Bələdiyyə hüququ ... 172
Bələdiyyə istiqrazı ... 173
Bələdiyyə korporasiyası ... 173
Bələdiyyə qulluğu ... 173
"Bələdiyyə qulluğu haqqında" qanun ... 173
Bələdiyyə qulluqçusu ... 173
Bələdiyyələrarası məhkəmələr ... 173
Bələdiyyələrə seçkilər ... 173
"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" qanun ... 173
Bələdiyyələrin əraziləri ... 174
"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" qanun ... 174
Bələdiyyələrin ittifaqları ... 174
"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" qanun ... 174
"Bələdiyyələrin statusu haqqında" qanun ... 174
Bələdiyyələr və bələdiyyə orqanları ... 175
Bələdiyyə mənzil fondu ... 175
Bələdiyyə mülkiyyəti ... 175

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" qanun ........ 176
Bələdiyyə müşaviri ........ 176
Bələdiyyənin daimi və başqa komissiyaları ........ 176
Bələdiyyənin iclası ........ 176
Bələdiyyənin icra orqanı ........ 176
Bələdiyyənin nizamnaməsi ........ 177
Bələdiyyə orqanları ........ 177
Bələdiyyə orqanlarının vəzifəli şəxsi ........ 177
Bələdiyyə rayonu (dairəsi) ........ 177
Bələdiyyə sifarişi ........ 177
Bələdiyyə şurası ........ 177
Bələdiyyə üzvü ........ 177
"Bələdiyyə üzvünün statusu haqqında" qanun ........ 178
Bələdiyyə vəzifəsi ........ 178
"Bərabərlər qəsdi" ........ 178
Bərabərlik ........ 178
Bərabər nümayəndəlik ........ 179
Bərabər seçki hüququ ........ 179
Bərabər vergiqoyma ........ 179
Bərabər vətəndaşlıq ........ 179
Bəraət (bəraət hökmü) ........ 179
Bəst ........ 179
Bəşəriyyət əleyhinə olan cinayətlər ........ 180
Bəy, bay, bey, biy ........ 180
Bəyannamə ........ 180
Bəylərbəyi, bəylərbəy ........ 180
Bəylərbəyilik ........ 181
Bəyzadə (bəyim) ........ 181
Bidət ........ 181
Bidətçilik ........ 181
Bikameralizm ........ 181
Biqamiya ........ 181
Bilavasitə demokratiya ........ 181
Bilet ........ 181
Bilinqvizm ........ 182
Bill ........ 182
Bill-broker ........ 182
Bimetallizm ........ 182
Binokulyar lupa ........ 182
Biokriminologiya ........ 182
Bioloji ekspertizalar ........ 182
Bioloji (bakterioloji) silah ........ 182
Biometriya ........ 183
Biosid ........ 183
Bipatridlər ........ 183
Bipatrizm ........ 183
Bipolidlər ........ 183
Bir ........ 183
Birdəfəlik lisenziya ........ 183
Birgə fəaliyyət ........ 183
Birgə müəssisə ........ 184
Birgə mülkiyyət ........ 184
Birinci gecə hüququ ........ 184
Birinci imperiya ........ 184
Birinci instansiya məhkəməsi ........ 184
Birja ........ 185
Birja auksionu ........ 185
Birja brokerləri ........ 185
Birja bülleteni ........ 185
Birja dairəsi ........ 185
Birja dərəsi ........ 185
Birja dövriyyəsi ........ 185
Birja əqdi ........ 185
Birja əmtəəsi ........ 185
Birja gəliri ........ 185
Birja komitəsi ........ 186
Birja kursu ........ 186
Birja qadağanları ........ 186
Birja qanunvericiliyi ........ 186
Birja qiyməti ........ 186
Birja qiymət komissiyası ........ 186
Birja məlumatı ........ 186
Birja məzənnə komissiyası ........ 186
Birja məzənnəsi ........ 186
Birja möhtəkirliyi ........ 187
Birja müştərisi ........ 187
Birja notariusu ........ 187
Birja rüsumu ........ 187
Birja sessiyası ........ 187
Birja şurası ........ 187
Birja ticarəti ........ 187
Birja vasitəçiləri ........ 187
Birja vergisi ........ 187
Birja yığıncağı ........ 187
Birləşmək hüququ ........ 188
Birləşmə müqaviləsi ........ 188
Birləşmiş millətlər ........ 188
Birləşmiş Millətlər Təşkilatı (BMT) ........ 188
Birləşmiş Millətlər Təşkilatının Baş Katibi ........ 188
Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi ........ 188
Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Hüquq Komissiyası ........ 189
Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Məhkəməsi ........ 189
Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası (YUNSİTRAL) ........ 189
Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası ........ 190
Birləşmiş Millətlər Təşkilatının "İnsan hüquqları bəyannaməsi" ........ 190
Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı ........ 190
Birləşmiş Millətlər Təşkilatının Katibliyi ........ 190
Birləşmiş Millətlər Təşkilatının Qəyyumluq Şurası ........ 190
Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi ........ 191
Birləşmiş Millətlər Təşkilatının sistemi ........ 191
Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası (BMT TŞ) ........ 191
Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı (YUNESKO) ........ 192
Birlik ........ 192
Birmandatlı dairələr ........ 192
Birpalatalı sistem (monokkmeralizm) ........ 192
Birpartiyalı sistem ........ 192
Birtərəfli akt ........ 192
Birtərəfli əqd ........ 192
Birtərəfli müqavilə ........ 193
Birtərəf zona ........ 193
Bitərəf hökumət ........ 193
Bitərəflik ........ 193
"Bitki karantini haqqında" qanun ........ 193
"Bitki mühafizəsi haqqında" qanun ........ 194
Biyar ........ 194
Bizans hüququ ........ 194
Biznes ........ 194
Biznesmen ........ 194
Blank ........ 194
Blanket normalar ........ 194
Blanket saxtakarlıq ........ 194
Blank indossamenti ........ 195
Blankizm ........ 195
Blank krediti ........ 195
Blanko-veksel ........ 195
Blank transferti ........ 195
Blok ........ 195
Blokada (hərbi) ........ 195
Bodmereya bondu ........ 195
Boqdo-gegen ........ 195
Boqomolçuluq ........ 196
Bolşeviklər ........ 196
Bolşevizm ........ 196
Bomj ........ 196
Bonapartizm ........ 196
Bond anbarı ........ 196
Bonifikasiya ........ 196
Bonitar mülkiyyət ........ 196
Bonitirləşdirmə ........ 196
Bonlar ........ 196
Bonus ........ 196
Borc (müqavilə) ........ 197
Borc kitabı ........ 197
Borclu ........ 197
Borclunun təqsir prezumpsiyası ........ 197
Borc öhdəliyi ........ 197
Borc tələbi ........ 197
Borcun bağışlanması ........ 198
Borcun konversiyası ........ 198
Bordero ........ 198
Boss ........ 198
Boşanma ........ 198
Boyar duması ........ 198
Boyarlar ........ 198
Boykot ........ 198
Böhtan ........ 199
Bölünən akkreditiv ........ 199
Bölünməz əşya ........ 199
Böyük Azadlıqlar Xartiyası (BAX) ........ 199
"Böyük dövlətlər" ........ 199
Böyük Xalq Xuralı ........ 200
Böyük ictimai təhlükə törətməyən cinayətlər ........ 200
"Böyük Kazimirin statutları" ........ 200
Böyük knyaz ........ 200
Böyük Millət Məclisi ........ 200
"Böyük münsiflər" ........ 200
"Böyük səfirlik" ........ 200

"Böyük yeddilər" ... 200
Brahmanizm ... 200
Brahmanlar ... 201
Brakeraj ... 201
Brakonyer ... 201
Brakonyerlik ... 201
Bravo ... 201
Bretton-vud valyuta sistemi ... 201
Brifinq ... 202
Briqada podratı və briqada təsərrüfat hesabı ... 202
Broker ... 202
Broker gildiyaları ... 202
Broker fəaliyyəti ... 202
Broker firması ... 202
Brokeric ... 202
Broker komissiyası ... 202
Broker kontoru ... 202
Broker kreditləri ... 202
Broker qeydi ... 202
Broker mükafatı ... 202
Broker nümayəndəlikləri ... 202
Broker yeri ... 203
Bronlama ... 203
Brutto ... 203
Brutto-faizlər ... 203
Brutto-gəlir ... 203
Brutto-icarə ... 203
Brutto-məzənnə ... 203
Brutto-mükafat ... 203
Brutto-pay ... 203
Buhenvald ... 203
Bukinqnot ... 203
Bukmeker ... 203
Bulanjizm ... 203
Bulava ... 204
Bule ... 204
Bulıgin duması ... 204
Bulla ... 204
Bum ... 204
Bundesrat ... 204
Bundestaq ... 204
Buraxılış ... 204
Burjua hüququ ... 204
Burqqraf ... 205
Burqomistr ... 205
"Burqund pravdası" ... 205
Burmistr ... 205
"Buryat Qanunnaməsi" ... 205
Bustamante Məcəlləsi ... 205
Butleger ... 205
Butlegerlik ... 205
Büdcə ... 205
Büdcə cədvəli ... 206
Büdcədənxaric məqsədli fondlar ... 206
Büdcədənxaric vəsaitlər ... 206
Büdcə dövrü ... 206
Büdcə güzəşti ... 206
Büdcə hesabları ... 206
Büdcə hüquqları ... 206
Büdcə hüququ ... 206
Büdcə ili ... 206
Büdcə intizamı ... 206
Büdcə kəsiri ... 207
Büdcə krediti ... 207
Büdcə qanunu ... 207
Büdcə quruculuğu ... 207
Büdcə maliyyələşdirilməsi ... 207
Büdcə müəssisələri ... 207
Büdcə nəzarəti ... 207
Büdcə öhdəliyi ... 207
Büdcə prosesi ... 207
Büdcə sənədləri ... 207
Büdcə sistemi ... 207
Büdcə tənzimləməsi ... 207
Büdcə təsnifatı ... 208
Büdcə təşəbbüsü ... 208
Bülleten ... 208
Bürgerlik ... 208
Bürger məktəbi ... 208
Büro ... 208
Bürokrat ... 208
Bürokratiya ... 208
Bürokratizm ... 208
Bürovuz ... 208







**Babilik (babizm)** – XIX yüzilliyin 40-cı illərində İranda şiəlik əsasında meydana gəlmiş dini təriqət; ideyaları bidətçilik ideologiyasına yaxın olmuşdur. B.-in başlıca müddəaları təriqətin banisi Babın "Bəyan" kitabında şərh edilmişdir. B. təliminə görə Quran və şəriətə əsaslanan qanunlar köhnəlmişdir, onları "Bəyan" kitabında şərh edilmiş yeni, mahiyyətcə burjua tipli qanunlar əvəz etməlidir. B.-yin demokratik ideyaları Babın şagirdləri Məhəmmədəli, Bərfuruş, Qürrətəleyi və başqaları tərəfindən inkişaf etdirilmişdir. Onlar bütün vergilərin, mükəlləfiyyətlərin və xüsusi mülkiyyətin ləğv edilməsi, əmlakın ümumiləşdirilməsi, qadınlara kişilərlə bərabər hüquqlar verilməsi və sosial bərabərlik uğrunda çıxış edirdilər. B. bidətçilik hərəkatı öz məqsədinə üsyanlar yolu ilə də nail olmağa səy göstərmişdir. Babi üsyanları (1848-1852) yatırıldıqdan sonra Babın şagirdlərindən olan Bəhaulla b.-in radikal məzmunlu təlimini rədd etmiş və yeni, kosmopolit bəhailik *(bax: bəhailik)* təlimini yaratmışdır.

**Babuvistlər** – babuvizm doktrinasının və onun nəzəriyyəçisi Qrakx Baböfün ardıcılları. B. açıq surətdə belə bir fikir irəli sürürdülər ki, xüsusi mülkiyyət adamların əksəriyyəti üçün demək olar ki, illüziya olaraq qalacaqdır. Bu hüquqdan hamı istifadə edə bilməyəcəkdir. Ona görə də qanun qarşısında bərabərlik "şərti bərabərlikdən", "qanunun faydasız saxtakarlığından" ibarətdir. Onlar Parisdə üsyan qaldırılmasını və bunun bütün respublikada demokratik elementlərin meydana gəlməsinə gətirib çıxara bilən inqilabi hərəkat şəraiti yaradılmasını təklif edirdilər. Üsyanın qaldırıldığı gün inqilabçılardan ibarət Milli Konvent təsis edilməli idi. Bundan sonra dərhal zəhmətkeşlərin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlər (xalqa pulsuz çörək verilməsi, onun ərzaqla təminatı, yoxsulların inqilab düşmənlərinin evlərində yerləşdirilməsi və i.a.) həyata keçiriləcəkdir. B. varlılar əleyhinə qanunvericilik tədbirlərinin qəbulunu tələb edirdilər. Faydalı əməklə məşğul olmayan bütün şəxslər "əcnəbi" elan olunurdular. Onlara siyasi hüquqlar verilməməli idi. Xüsusi mülkiyyətin tədricən aradan qaldırılmasına yönələn tədbirlər həyata keçirilməli idi. Yoxsulların xeyrinə öz əmlakından imtina etməyən varlılar xalq düşməni sayılırdılar. Xalq silahlı qüvvə kimi təşkil edilməli idi; faydalı əməklə məşğul olanların hamısına silah verilirdi. Silahlı zəhmətkeşlərdən ibarət olan xalq məclisi konventin qanunvericilik aktlarını həyata keçirirdi.

B.-in ideyaları kommunizm konsepsiyası ilə haşiyələnmişdi. Onların proqram layihələrində biliklərdə qeyri-bərabərlik doğuran elmin və mədəniyyətin inkişafına müəyyən inamsızlıq ifadə olunurdu. Buna görə də alimlərin varlığı və fəaliyyəti b. həyəcanlandırırdı. Onların fikrincə, fiziki və əqli əməyin uyğunsuzluğu bərabərlik üçün təhlükəli idi. İnqilab nəticəsində dövlət hakimiyyəti xalqın deyil, xalqı aldatmağa cəhd göstərən siyasi intriqaçılardan ibarət bir para ziyalıların əlinə keçə bilərdi. B.-lərin ideyaları XIX yüzillikdə kollektivizm və kommunizm siyasi ideologiyasının inkişafına böyük təsir göstərmişdir.

**Babuvizm** – XVIII yüzilliyin ikinci yarısında Fransada meydana gəlmiş siyasi-hüquqi doktrina. "İctimai nizam gizli direktoriyası"nın rəhbəri və bu cəmiyyətin nəzəriyyəçisi Qrakx Baböfün (1760-1797)

siyasi-hüquqi doktrinası belə adlandırılırdı. Məhz bu doktrina gizli cəmiyyətin proqram sənədi olmuşdur *(həmçinin bax: Babuvistlər).*

**Bac** *(fars. vergi, xərac, rüsum, təzminat)* – **1)** orta əsrlərdə bəzi Şərq ölkələrində, o cümlədən Azərbaycanda vergi, rüsum (yol haqqı). Bir yerdən başqa yerə aparılan mal və i.a. görə alınırdı. Həcmi qeyri-müəyyən idi. "B." termininə bir sıra orta əsr məxəzlərində (o cümlədən Nizaminin "Xosrov və Şirin" əsərində) təsadüf edilir. B. ticarətin inkişafına və şəhər həyatının canlanmasına mane olmuşdur; **2)** məğlub olmuş ölkənin qalib gəlmiş ölkəyə verdiyi təzminat. "Bac-xərac" kimi də işlədilmişdir.

**Bacaqlı** – XVIII yüzilliyin sonu - XIX yüzilliyin əvvəllərində Azərbaycanda işlədilən Niderland (holland) qızıl dukatlarının azərbaycanca adı. Avstriya qızıl sikkələri, habelə Fətəli şahın kəsdirdiyi bəzi qızıl sikkələr də b. adlanırdı.

**Bacdar** *(fars)* – orta əsrlərdə bəzi Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda gömrük paylayan məmur. Varlı təbəqələrin nümayəndələri içərisindən təyin olunurdu. B. xüsusi silahlı dəstələrlə şəhər darvazalarının önündə, yolayrıcılarındakı məntəqələrdə dururdu. Əsasən, başqa ölkələrdən gəlmiş tacirlərdən alınan rüsuma "torpaqbasdı" deyilirdi. Xanlıqlar dövründə (XVIII yüzillikdə) rüsum toplayan rahdar adlanırdı.

**Bacılıq (bacılaşma)** – qan qohumluqları olmayan iki və ya daha artıq qadın arasında qohumluq əlaqələrinə bərabər tutulan, qarşılıqlı dostluq münasibətlərinə əsaslanan birlik, ittifaq. Yaranması əsasən ibtidai icma quruluşunun dağılması dövrünə təsadüf edir. B. zamanı tərəflər and içir və müxtəlif mərasimlər keçirilirdi. Bacılaşanlar təhlükə üz verdikdə və ya ehtiyac yarandıqda bir-birinə qarşılıqlı yardım etməyə borclu idilər. Cənub slavyanlarında bəzi hallarda qardaşlaşanların arvadları da bacılaşırmış. Azərbaycanda 1920-ci ilin aprelinə qədərki dövrdə b. siğə duası oxunmaqla baş verirmiş. Bacılaşanların qardaşları bir-birindən qız ala bilməzdilər.

**Bağbaşı** – orta əsrlərdən başlayaraq XIX yüzilliyin 20-ci illərinədək Azərbaycanda bağ sahəsinə malik olan şəxslərdən alınan natural vergi. B. bütün məhsulun (meyvə növlərinin) təqribən onda birindən ibarət idi. O, bəzən bağın sahəsinə və meyvə ağaclarının sayına görə də müəyyən edilirdi. Xanlıqlar dövründə eyni vergi bağpulu adlandırılmışdır. Bağpulu feodalların xeyrinə zəhmətkeş kəndlilərdən zorla toplanan çoxsaylı vergi mükəlləfiyyətlərindən biri olmuşdur.

**Bağışlama** *(bax: amnistiya).*

**Bağışlama forması (vədi)** – bağışlamanın etibarlı olub-olmamasını əks etdirən kriteriya. AR MM-in 668-ci maddəsinə uyğun olaraq bağışlama forması (bağışlama vədi) aşağıdakı hallarda etibarlı sayılır: 1) daşınmaz əşyaların və ya həmin əşyalara hüquqların bağışlanması zamanı bağışlama müqaviləsi notariat qaydasında təsdiqləndikdə; 2) rəsmi reyestrlərdə qeydə alınması tələb edilən daşınar əşyaların bağışlanması zamanı bağışlama müqaviləsi notariat qaydasında təsdiqləndikdə; 3) daşınar əşyaların bağışlanması zamanı hədiyyə verən əşyanı hədiyyə alana verdikdə; 4) tələblərin və digər hüquqların bağışlanması zamanı onlar MM-in tələblərinə uyğun yazılı surətdə keçirildikdə; 5) gələcəkdə bağışlama vəd edildikdə, bu vəd notariat qaydasında təsdiqləndikdə.





**Bağışlamaqdan imtina** – hədiyyə verənin onu verməkdən müəyyən (üzdə olan) səbəblərə görə imtina etməsi. AR MM-in 673-cü maddəsinə uyğun olaraq hədiyyə verən aşağıdakı hallarda bağışlamaqdan imtina edə bilər: 1) hədiyyə alan hədiyyə verənin və ya onun yaxın qohumunun barəsində ağır cinayət törətdikdə; 2) hədiyyə alan ailə hüquq münasibətlərinə uyğun olaraq onun üzərinə qoyulmuş vəzifələri hədiyyə verənin və ya onun yaxın qohumlarının biri barəsində kobudcasına pozduqda; 3) o, bağışlama ilə bağlı öhdəlikləri əsassız olaraq icra etmədikdə.

Hədiyyə verən bağışlamaq barəsində verdiyi vədi aşağıdakı hallarda ləğv edə və onun icrasından imtina edə bilər: 1) MM-in 673.1-ci maddəsində nəzərdə tutulan hallarda; 2) vəd verildikdən sonra hədiyyə verənin əmlak münasibətləri bağışlamanı onun üçün son dərəcə ağır yükə çevirə biləcəyi dərəcədə dəyişdikdə; 3) vəd verildikdən sonra hədiyyə verənin ailə hüquq münasibətləri üzrə əvvəllər olmamış, yaxud çox cüzi həcmdə olmuş öhdəlikləri yarandıqda.

İmtina yalnız onun əsasının hədiyyə verənə məlum olduğu gündən bir il ərzində imtina haqqında bildirişin hədiyyə alana çatdığı halda qüvvədədir. Hədiyyə verənin həmin ilin sonunadək öldüyü halda imtina hüququ qalan müddət üçün onun vərəsələrinə keçir. Bağışlamaqdan imtina edildikdə hədiyyə alan, əgər bağışlanmış predmet onun mülkiyyətindədirsə, hədiyyəni qaytarmağa borcludur.

**Bağışlamaq hüququ** *(bax: əfvetmə).*

**Bağışlama müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. AR MM-in 666.1-ci maddəsinə uyğun olaraq bağışlama müqaviləsi sağ ikən bağlanan elə müqavilədir ki, onun əsasında hədiyyə verən öz əmlakının bir hissəsini bağışlamaqla hədiyyə alanı zənginləşdirir, həm də bu cür bağışlama hədiyyə alan tərəfindən heç bir cavab xidməti ilə şərtləndirilmir. Bağışlama müqaviləsi hədiyyə alanın hədiyyəni qəbul etməsi ilə bağlanmış sayılır. Əgər bağışlama öhdəliklə şərtləndirilməyibsə, hədiyyənin qəbul edildiyi ehtimal olunur.

Bağışlama predmeti əşyalar, hədiyyə verənə və ya üçüncü şəxsə qarşı əmlak hüquqları (tələblər), habelə hədiyyə alanın hədiyyə verən və ya üçüncü şəxs qarşısında əmlak vəzifəsindən azad edilməsi ola bilər. Mənəvi və ya əxlaqi borcun icrası bağışlama sayılmır.

**Bağışlamanın ləğvi (xitamı)** – AR MM-in 674-cü maddəsinə uyğun olaraq aşağıdakı hallarda bağışlama imtina hüququnun həyata keçirilməsinə zərurət olmadan ləğv (xitam) edilir: 1) bağışlanması vəd edilmiş əşya itirildikdə və ya məhv olduqda; 2) hədiyyə verənin əmlakı üçün müsabiqə icraatı başlandıqda. Hədiyyə verən vaxtaşırı xidmətlər göstərməyi öhdəsinə götürdükdə, əgər ayrı şərt qoyulmayıbsa, bu öhdəliyə onun ölümü ilə xitam verilir.

**Bağlı depozit** – müştərinin banka bağlı və ya möhürlənmiş şəkildə verdiyi əşya ilə bağlı bank əməliyyatı. Bank həmin əşyanı açmaq hüququna malik deyil.

**Bağlı gömrük anbarı** – gömrük anbarının bir növü. Belə anbarda mallar gömrük anbarlaşdırılması qaydalarına əməl edilməklə saxlanılır. Həmin qaydalara uyğun olaraq anbarın xidmətlərindən istifadə hüququ ancaq müəyyən şəxslərə verilir.

**Bağlı müqavilə** *(beynəlxalq hüquqda)* – bu müqavilənin müddəalarına uyğun olaraq onun iştirakçılarının dairəsi bir sıra kriteriyalara müvafiq surətdə məhdudlaşdırılır.

**Bağlı valyuta** – konvertasiya olunmayan, bir ölkə daxilində dövr edən və başqa valyuta ilə dəyişdirilməyən milli valyuta. B.v. xarici valyutanın gətirilməsi və aparılması, alınması və satılması, habelə dəyişdirilməsi üzrə qadağanlar və məhdudiyyətlər qoyan ölkələrdə olur.

**Baxış** – AR qanunvericiliyinə uyğun olaraq vergi orqanının (vəzifəli şəxsin) həyata keçirdiyi yoxlama növü. AR Vergi Məcəlləsinin 41-ci maddəsinə uyğun olaraq səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxsinin yoxlamanın dolğun və obyektiv keçirilməsi üçün bütün halların ayırd edilməsi məqsədi ilə vergi yoxlaması keçirilən vergi ödəyicisinin ərazilərinin, binalarının, habelə sənədlərin və əşyaların həmin orqanın əsaslandırılmış qərarı əsasında baxışını keçirmək hüququ vardır.

Aşağıda göstərilən hallar istisna olmaqla, səyyar vergi yoxlaması keçirilmədən ərazilərin, binaların, sənədlərin və əşyaların baxışının keçirilməsinə yol verilmir: 1) sənədlər və əşyalar vergi orqanının vəzifəli şəxsi tərəfindən əvvəl həyata keçirilmiş səyyar vergi yoxlaması zamanı əldə edilmişdirsə; 2) həmin sənədlərin və əşyaların sahibinin razılığı vardırsa.

B. müşahidəçilərin iştirakı ilə həyata keçirilir. B. keçirildiyi zaman vergi yoxlaması həyata keçirilən şəxsin və (və ya) onun nümayəndəsinin, habelə mütəxəssislərin baxışda iştirak etmək hüququ vardır. B.-ın keçirilməsi barəsində protokol tərtib edilir.

**Bakalavr** *(lat. baccalaureus)* – ölkələrin əksəriyyətində tələbə tərəfindən əsas ali təhsilin proqramını mənimsədikdən sonra əldə etdiyi elmi (alimlik dərəcəsinin) dərəcənin ilk pilləsi (ali məktəbdə 3-5 il təhsil alma). Fransada və bəzi başqa ölkələrdə orta məktəb kursu üzrə bütün imtahanları müvəffəqiyyətlə vermiş şəxs. AR-də keçən yüzilliyin 90-cı illərindən tətbiq edilir.

**Baqaj** – sərnişinə məxsus və daşınmaq üçün onun tərəfindən nəqliyyat təşkilatına verilən əşyalar. "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının 1999-cu il 11 iyun tarixli qanununun 9-cu maddəsinə uyğun olaraq yüklərin, sərnişinlərin, baqajın və poçtun daşınması və nəqliyyat-ekspedisiya xidmətlərinin həyata keçirilməsi qanunvericiliyə uyğun olaraq bağlanmış müvafiq müqavilələr əsasında aparılır.

Daşıyıcı yükü, sərnişini və baqajı ayrı-ayrı nəqliyyat növləri üzrə məcəllələr, nizamnamələr, daşıma qaydalarına dair normativ-hüquqi aktlar və müqavilələr ilə müəyyən edilmiş müddətdə təyin at məntəqəsinə çatdırmalıdır. Daşıyıcı müştəridən baqajı daşımaya qəbul etdiyi andan onu sərnişinə təhvil verənə qədər həmin baqajın qorunmasını təmin etməlidir.

**Baqaj qəbzi** *(bax: sərnişin daşıma müqaviləsi).*

**Baqqal** *(ər. göyərti, tərəvəz satan)* – müxtəlif ərzaq mallarının satışı (ticarəti) ilə məşğul olan şəxs. B. sözü ərəblərdən farslara və türklərə, türklərdən isə Avropa xalqlarına (əsasən, Balkan ölkələri xalqları vasitəsilə) keçmişdir. Yaxın Şərq ölkələrində b.-lar şəhər ticarətində mühüm rol oynayırlar. Ərzaq malları mağazalarına verilən "baqqaliyyə", "bakaleya" adı da b. sözündən törəmədir. Keçmiş SSR İttifaqının müttəfiq respublikalarının ticarət şəbəkəsində ərzaq malları mağazalarına b. adı verilməklə, bu sözdən geniş istifadə olunurdu.





**Balans** *(fr. balance, hərfən tərəzi mənasını verir)* – geniş mənada hər hansı bir hadisəni və ya vəziyyəti onun ayrı-ayrı hissələrini, yaxud cəhətlərini müqayisə etmək yolu ilə xarakterizə edən göstəricilərin sistemi *(həmçinin bax: mühasibat balansı; xarici ticarət balansı).*

**Balansarxası hesab** – idarə, müəssisə və ya təşkilata mənsub olmayıb, lakin onların istifadəsində, yaxud müvəqqəti sərəncamında olan vəsaitin (məsələn, icarəyə götürülmüş əsas vəsait, mühafizə üçün qəbul edilmiş avadanlıq və i.a.) uçotu üçün təyin edilmiş mühasibat hesabı. B.h. ikili yazılış tətbiq edilmədən sadə uçot sistemi ilə aparılır. Balans tərtib olunarkən bu hesablanma nəticəsində alınan məlumat yekundan sonra, yeni "balansın arxasında" göstərilir.

**Balans cədvəli** – bir tərəfində passivlərin (kapitalın), digər tərəfində isə aktivlərin olduğu iki hissəyə ayrılmış cədvəl. Balansda passivlərin və aktivlərin cəmi bərabər olur.

**Balansdankənar hesab** – 1) bankın mühasibat uçotunda bankın aktivlərinə aid olmayan dəyərlər, habelə pul sənədləri və əməliyyat aparılması üçün sərəncamların nəzərə alındığı hesab. B.h.-da inkassoya (ödəniş almaq üçün) verilmiş ehtiyat fondunun pul biletləri və sikkələri, mühafizə üçün qəbul olunan dəyərlər, çek və qəbz kitabçaları, ödənilməli olan akkreditivlər və i.a. nəzərə alınır; 2) valyutanı geri almaq hüququ verən bank hesabı. Bu hesabda satılmış valyuta vəsaitlərinin manatla miqdarı göstərilir.

**Balans dəyəri** – yığımın çıxılan puluna görə uzunmüddətli aktivin ilkin dəyəri kimi aktivin b.d.; daha geniş mənada müvafiq hesabın qalığının azaldılması nəzərə alınmaqla həmin aktivin dəyəri.

**Balans gəliri (itkisi)** – müəssisənin bütün əməliyyatlarının və balans bəndlərinin qiymətləndirilməsi nəticəsində müəyyən edilmiş, məhsulların (işlərin, xidmətlərin) reallaşdırılmasından, əsas vəsaitlərdən, müəssisənin digər əmlakından və realizasiyadan kənar gəlirlərdən bu əməliyyatlar zamanı çəkilən bütün xərcləri çıxdıqdan sonra qalan maliyyə nəticələri. Məhsulların (işlərin, xidmətlərin) və malların realizasiya gəliri (itkisi) realizasiyadan əldə olunmuş gəlirlərdən (əlavə dəyər vergisi, aksizlər, ixracat vergisi və digər ayrılmalar çıxılmadan) istehsal və realizasiya xərclərini çıxmaqla tapırlar. İl ərzində b.g. (itkisi) balansda ayrı-ayrı açılmış maddələrdə əks etdirilir: balansın passivliyindən alınmış gəlir, balansın aktivində isə onun avansdan istifadəsi və ya faktiki itkilər göstərilir. Valyuta balansının illik hesabatına isə, yalnız ödənilməmiş itkilər və ya hesabat ilində bölüşdürülməmiş gəlir daxil edilir.

**Balans göstəriciləri** – təşkilatın fəaliyyətini, satılma səviyyəsini, ümumi gəlirin həcminin (faizlə) dövriyyə həcminə, xalis gəlirin məbləğinin ümumi gəlirin məbləğinə, əldə edilmiş kreditlərin məbləğinin dövriyyə həcminə, ehtiyatların hərəkət sürətinə və i.a. münasibətini xarakterizə edən göstəricilər.

**Balans hesabatı** – *(bax: mühasibat balansı).*

**Balanslaşdırılmış büdcə** – gəlir və xərc arasında heç bir fərqin olmadığı büdcə (kəsiri olmayan büdcə). Belə halda

dövlət əlavə vəsait axtarışında olmur və borca düşmür.

**Balans transferti** *(ing. balance transfert)* – adlı qiymətli kağızların verildiyi şəxs göstərilmədən həmin kağızlara olan mülkiyyət hüququnun ona verilməsi haqqında mülkiyyətçi (bu kağızları verən şəxs) tərəfindən imzalanan sənəd.

**"Balıqçılıq haqqında" Azərbaycan Respublikasının qanunu** – AR-də balıqçılığın təşkilinin idarə edilməsinin və balıq ehtiyatlarının artırılmasını, ondan istifadəni və bu ehtiyatların mühafizəsinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı. Qanun 8 fəsil, 42 maddədən ibarətdir.

**Balıqçılıq zonası** – ilk əvvəllər 12 dəniz milinədək sahilyanı su zolağından ibarət olmuş zona; bəzi sahilyanı dövlətlər tərəfindən birtərəfli qaydada müəyyən edilirdi. Nəticədə bir sıra dövlətlər öz yurisdiksiyasını eni 200 dəniz milinədək olan sahilyanı rayonlara bitişik dənizüstü canlı ehtiyatlara şamil etmişdir ki, bu da dəfələrlə digər dövlətlərin narazılığına səbəb olmuş, bəzən isə mübahisələrə gətirib çıxarmışdır. Belə mübahisələrin həlli məqsədilə BMT-nin dəniz hüququ üzrə 1982-ci il konvensiyasında iqtisadi (balıqçılıq zonası) zona institutu tanınmış və ətraflı şəkildə reqlamentləşdirilmişdir.

**Bali** – orta əsrlər Fransanın şimal hissəsində kral məmuru, inzibati-məhkəmə dairəsinin (balyajın) başçısı. B. vəzifəsi 1789-cu il Böyük fransız inqilabı zamanı ləğv edilmişdir.

**Ballistika** *(bax: məhkəmə ballistikası).*

**Ballistik ekspertiza** – odlu silahın tətbiqi ilə əlaqədar faktların müəyyən edilməsi üzrə aparılan kriminalist ekspertiza növü. B.e. zamanı aşağıdakılar həyata keçirilir: a) silah və sursatların qrup mənsubiyyəti müəyyən edilir; b) silah və sursatların, cinayətin digər alətlərinin eyniləşdirilməsi aparılır; c) açılmış atəşin halları (yeri, ardıcıllığı, distansiyası, üsulları və texniki şərtləri) müəyyən edilir; ç) silahın üzərinə gizli qalmış nişanələr müəyyənləşdirilir. Ballistika sahəsində məhkəmə ekspertlərinin tərcübəsində odlu silahların ekspertiza tədqiqatının aparılması (ekspertizanın bu sahəsilə adətən ekspert-trasoloqlar məşğul olurlar) hallarına da təsadüf olunur.

**Banalitet** *(fr. banalite, banal sözündəndir)* – feodal Qərbi Avropasında ilk əvvəllər inhisar hüququ; senyor məhz bu hüquq vasitəsilə ictimai əhəmiyyət kəsb edən əmlaka (məsələn, dəyirmana) malik olmaqla kəndliləri ondan haqqını ödəməklə istifadə etməyə məcbur edə bilirdi. Daha sonralar b. kəndlilərdən yığılan pul tutmalarından ibarət olmuşdur. Kəndlilər həmin pulu senyora müvafiq təsərrüfat əməliyyatlarını öz evində həyata keçirmək hüququ əldə etdiyinə görə ödəyirdi.

**Banda** *(ita. banda)* – cinayət hüququnda vətəndaşların üzərinə və ya təşkilatlara, habelə qanunla mühafizə edilən müxtəlif obyektlərə basqın etmək məqsədilə yaradılan sabit silahlı qrup. B. adətən ən azı iki şəxsin hələ müfəssəl şəkildə məlum olmayan və bir neçə cinayətin törədilməsi üçün birləşməsindən ibarət olur. Bunlar, hər şeydən əvvəl, müstəqil xarakterli cinayətlər olurlar. Məhkəmə təcrübəsində yaranmış təcrübəyə görə, b. müəyyən müddət üçün nəzərdə tutulan mütəşəkkil birlik kimi də müəyyən edilir. Belə birlikdə (banda üzvlərinin ümumi iradə ifadəsinin ol-





masına baxmayaraq) hamı bir nəfərin iradəsinə tabe olur. B. üzvləri vahid məqsəd güddüklərinə görə, onlar belə münasibətlərdə özlərini vahid tam kimi hiss edirlər.

**Banderol** *(fr. banderole – bağlama)* – mətbuat əsərlərinin (qəzet və jurnalların), işgüzar kağızların və xırda əmtəələrin poçtla göndərişinin bir növü. Rüsumun ödənilməsi nişanəsi kimi əmtəənin üzərinə yapışdırılan yarlıq da b. adlanır.

**Bandit** – sabit silahlı qrupdan ibarət olan bandanın üzvü. B., üzvü olduğu cinayətkar birlikdə birgə iştirakçı kimi, həm təşkilatçı və icraçı, həm də bandanın başçısı rolunu ifa edə bilər.

**Banditizm** – ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayət; AR CM-in 217-ci maddəsində (XXV fəsil) nəzərdə tutulmuşdur. B. təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmək məqsədilə sabit silahlı qruplar (bandalar) təşkil etməkdən, belə qruplara (bandalara) rəhbərlik etməkdən; sabit silahlı qruplarda (bandalarda) və ya onların törətdikləri basqınlarda iştirak etməkdən ibarətdir.

AR Ali Məhkəməsi Plenumunun 7 iyul 1996-cı il tarixli qərarının 6-cı bəndinə uyğun olaraq banditizm cinayəti vətəndaşlara və ya təşkilatlara basqın etmək məqsədilə sabit silahlı qrup (banda) təşkil edildiyi andan, bandanın planlaşdırdığı cinayətin törədilib-törədilməməsindən asılı olmayaraq başa çatmış hesab olunur. Deməli, b. kəsik tərkibli cinayətdir. Bandada iştirak etmə də başa çatmış cinayət hesab olunur.

**Bank** – AR qanunvericiliyinə uyğun olaraq fiziki və hüquqi şəxslərin pul vəsaitini depozitə cəlb etmək, həmin vəsaiti müddətlilik və faizlə geri qaytarmaq şərti ilə öz adından və öz hesabına yerləşdirmək, fiziki və hüquqi şəxslərin hesablarını açmaq və aparmaq əməliyyatlarının məcmusunu həyata keçirmək üçün müstəsna hüquqa malik kredit təşkilatı.

Digər təşkilatlar özlərinin adlandırılmasında b. sözündən istifadə etmək hüququna malik deyillər. "Banklar haqqında"AR qanununun 4.2-ci maddəsinə uyğun olaraq "bank" sözünün işlədildiyi mətndən bu sözün bank fəaliyyətinə aid edilmədiyinin tam aydın olduğu hallardan başqa, bank fəaliyyəti ilə məşğul olmayan hüquqi şəxsin adında "bank" sözünün ("bank" sözü olan söz birləşməsinin) istifadəsi qadağandır.

**Bank akseptі** – **1)** bankın ödəmə sənədlərinin ödənilməsinə verdiyi razılıq, onların ödənilməsi təminatının forması; bank askeptantının müvafiq yazıları ilə rəsmiləşdirilir; **2)** bank və ya bank olmayan kredit təşkilatı tərəfindən ödəmələrin bir aydan altı ayadək müddətə təminatlandırdığı (akseptləşdirildiyi) vekselləq. Hazırlıqla (yaxud eksportla) ödəmələrin alıcılardan daxil olması arasındakı dövrdə işləri təmin etmək məqsədilə kapitalın istehsalçılara və eksportyorlara verilməsi üçün istifadə olunur.

**Bank bileti** – banknot, emissiya banklarının buraxdığı kredit pul nişanı. XVII yüzillikdə ödəmə vasitəsi kimi pul funksiyası əsasında yaranmışdır. B.b. ilk dəfə İngiltərə bankı tərəfindən buraxılmışdır (1694). İnhisarçı kapitalizmə qədərki dövrdə qızıl və veksel təminatının olması b.b.-nə müəyyən sabitlik vermişdir.

**Bank çeki** – kommersiya ödəmələrinin (avans, təminat məbləğlərinin və digər məbləğlərin ödənilməsi) həyata keçiril-

məsi üçün istifadə olunan çek; başlıca olaraq qeyri-əmtəə ödəmələrinin aparılması zamanı tətbiq edilir. B.ç. pul vəsaitlərinin bir dövlətdən digər dövlətə köçürülməsində geniş yayılmışdır. Belə köçürmələr zamanı bank-çekverən qabaqcadan bildiriş (avizo) də göndərə bilər. Belə b.ç. avizolaşdırılmış bank çeki adlandırılır və bank – dəyici tərəfindən ancaq bildiriş gəldikdən sonra ödənilir. Müasir şəraitdə bank-müxbirlər b.ç. qarşılıqlı ödənilməsi haqqında qabaqcadan bildiriş göndərilmədən razılaşmaya üstünlük verirlər. Bu, hesablaşmaları həm sürətləndirir, həm də sadələşdirir.

**Bank-emitent** – tədavül (emitiasiya edən) pul nişanları və ya (adətən kommersiya bankı) qiymətli kağızlar və ödəmə-hesablaşma sənədləri buraxan (bir qayda olaraq mərkəzi) bank.

**Bank əmanəti** – mülki-hüquqi müqavilənin bir növü; AR MM-in 944.1-ci maddəsinə uyğun olaraq bank əmanəti (depozit) müqaviləsinə görə bir tərəf (bank) başqa tərəfdən (əmanətçidən) və ya başqa tərəf üçün (əmanətçi üçün) daxil olmuş pul məbləğini (əmanəti) qəbul edərək müqavilədə nəzərdə tutulmuş şərtlərlə və qaydada əmanət məbləğini əmanətçiyə qaytarmağı və onun üçün faizlər ödəməyi öhdəsinə götürür.

Əmanətin qoyulduğu hesab üzrə bank ilə əmanətçinin münasibətlərinə bank hesabı müqaviləsi haqqında qaydalar tətbiq olunur, bir şərtlə ki, MM-in "Bank əmanəti" fəslinin müddəalarında ayrı hal nəzərdə tutulmasın və ya bank əmanəti müqaviləsinin mahiyyətindən ayrı hal irəli gəlməsin. Hüquqi şəxslərin əmanətlərdə (depozitlərdə) olan pul vəsaitini başqa şəxslərə köçürməyə ixtiyarı yoxdur.

**Bank əməliyyatları** – bankların və digər kredit təşkilatlarının həyata keçirə bildikləri əməliyyatlar. B.ə. "Banklar haqqında" qanunun 32-ci maddəsi ilə tənzimlənir.

**Bank fəaliyyəti** – həyata keçirilməsi AR qanunvericiliyinin imperativ göstərişlərinə və AR Mərkəzi Bankının normativ aktlarına uyğun olan fəaliyyətin (əməliyyatların) bütün növləri. B.f. ancaq kredit təşkilatında qeydiyyatdan sonra və AR Mərkəzi Bankının icazəsini (lisenziya) almaqla mümkündür.

**Bank gəliri** – bank tərəfindən özünün verdiyi kreditlərə görə faizlər arasındakı fərqdən əldə etdiyi gəlir; bank tərəfindən əmanətlər üzrə ödədiyi faizlər arasındakı fərqlər.

**Bank hesabı** – müştərinin banka verdiyi pul tələblərinin uçotu məqsədilə bank işində tətbiq edilən uçot vahidi. B.h. bank hesabı müqaviləsindən *(bax: bank hesabı müqaviləsi)* əmələ gəlir. B.h.-nın müvafiq kateqoriyaları üçün nəzərdə tutulan bank əməliyyatları yolu ilə bank hesabı müqaviləsinin icrası prosesinin uçotu prosesidir. B.h. AR-in mülki qanunvericiliyində nəzərdə tutulan toplayıcı kateqoriyadır.

**Bank hesabı müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. AR MM-in 954-cü maddəsinə uyğun olaraq bank hesabı müqaviləsinə görə bank müştəriyə (hesabın sahibinə) açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürür. Bank hesabda olan





pul vəsaitinə dair müştərinin maneəsiz sərəncam vermək hüququna qarantiya verməklə, bu vəsaitdən istifadə edə bilər.

Bank müştərinin pul vəsaitindən istifadə edilməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz, habelə müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz.

**Bank hesabı müqaviləsinin bağlanması** – bank hesabı müqaviləsi yazılı formada bağlanır. B.h.m.-nin formasına riayət edilməməsi bu müqavilənin etibarsızlığına səbəb olur. Belə müqavilə əhəmiyyətsizdir.

AR MM-in 956-cı maddəsinə uyğun olaraq bank hesabı müqaviləsi bağlanarkən müştəriyə və ya onun göstərdiyi şəxsə tərəflərin razılaşdırdığı şərtlərlə bankda hesab açılır. Bank həmin növ hesabların açılması üçün bankın elan etdiyi, qanunda nəzərdə tutulmuş və qanuna əsasən bank qaydaları ilə müəyyənləşdirilmiş tələblərə uyğun şərtlər əsasında hesab açmaq təklifi ilə müraciət etmiş müştəri ilə bank hesabı müqaviləsi bağlamalıdır.

Hesab üzrə müvafiq əməliyyatların aparılması qanunla, bankın nizamnaməsi və ona verilmiş xüsusi icazə (lisenziya) ilə nəzərdə tutulduqda, bankın həmin hesabın açılmasından imtina etməyə ixtiyarı yoxdur, amma belə imtinanın bank xidmətinə qəbul etməyə bankın imkanının olmaması ilə bağlı olduğu və ya buna qanunla, yaxud başqa hüquqi aktlarla yol verildiyi hallar istisna təşkil edir. Bank hesabı müqaviləsinin bağlanmasından bank əsassız boyun qaçırdıqda müştərinin onu müqavilə bağlamağa məcbur etmək tələbi ilə məhkəməyə müraciət etməyə ixtiyarı vardır. Bank hesabı müqaviləsi bağlamaqdan əsassız boyun qaçıran bank müştəriyə bununla vurulmuş zərərin əvəzini ödəməlidir.

**Bank holdinqi** – bir və ya bir neçə kredit təşkilatları tərəfindən qəbul edilməli olan qərarı müəyyən etmək imkanına malik olan kredit təşkilatı. Belə imkan kredit təşkilatının bir və ya bir neçə kredit təşkilatlarının nizamnamə kapitalında, yaxud bir və ya bir neçə kredit təşkilatları tərəfindən bağlanan müqavilədə üstün iştirakı əsasında əmələ gəlir.

**Bank hüququ** – kommersiya banklarının və AR Mərkəzi Bankının fəaliyyətilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının sahələrarası kompleksi. B.h.-nun tərkibinə həm mülki hüquq (kommersiya təşkilatları kimi bankların yaradılmasını və fəaliyyətini, kredit təşkilatları və bu təşkilatlarla onların müştəriləri arasında münasibətləri tənzim edir), həm də maliyyə hüququ (kredit sisteminin əsas prinsiplərini, AR Mərkəzi Bankının statusunu müəyyən edən, Mərkəzi Bankla kommersiya bankları arasındakı münasibətləri tənzimləyən, bankların yaradılmasını və fəaliyyətini, habelə xüsusi maliyyə institutları kimi digər kredit təşkilatlarının fəaliyyətini tənzim edən) normaları daxildir. Bununla əlaqədar olaraq b.h.-nu maliyyə hüququnun sahədaxili hissəsi hesab etmək olmaz. AR-in hüquq elmində b.h. anlayışı XX yüzilliyin 90-cı illərində meydana gəlmiş və hazırda ali təhsil müəssisələrində eyni adlı fənn tədris olunur.

**Bank xidmətləri** – bu xidmətlərə aşağıdakılar aiddir: a) müştərilərin və bank müxbirlərinin tapşırığı üzrə hesablaşmaların hə-

yata keçirilməsi və onlara kassa xidməti göstərilməsi; b) yerli və xarici müştərilərə və müxbir-banklara hesab açılması və aparılması; c) sərmayə sahiblərinin və ya sərəncam verənlərin tapşırığı üzrə kapital qoyuluşunun maliyyələşdirilməsi; ç) müştərilərin tapşırığı əsasında ödəmə sənədləri və qiymətli kağızların alqı-satqısı və onlarla bağlı digər əməliyyatların həyata keçirilməsi; d) üçüncü şəxslərin əvəzinə, icrası pul formasında nəzərdə tutulmuş zəmanətin (zaminlik), qarantiya və digər öhdəliklərin verilməsi; e) müştərinin tapşırığı üzrə xarici valyutaların alınması; ə) müştərinin tapşırığı ilə qiymətli kağızların, metalların və onlardan hazırlanmış məmulatların alınması; f) müştərinin tapşırığı üzrə vəsaitlərin cəlb olunması və yerləşdirilməsi, qiymətli kağızların idarə olunması (trast əməliyyatları) ilə əlaqədar fəaliyyət; g) broker və məsləhət xidmətləri göstərilməsi, lizinq əməliyyatlarının həyata keçirilməsi.

**Bankın əməliyyat kassası** – bankda olan bütün nağd pulların məcmusu; pulların qəbulunu, verilməsini və saxlanmasını təmin edən bank bölməsi. B.ə.k.-nın tərkibinə mədaxil və məxaric kassaları, pulların mübadiləsi üçün kassalar, axşam kassaları, pulların yenidən hesablanması kassaları və i.a. daxildir.

**Bank inhisarı** – bank əməliyyatlarının aparılmasında hökmranlıq edən iri banklar və onların birlikləri (sindikatlar, kartellər və i.a.). İri banklar b.i. əsasında yüksək gəlirlər əldə edirlər.

**Bank investisiyası** – **1)** bank ehtiyatlarının (bir qayda olaraq, uzun müddətə) dövlət istiqraz vərəqələrinə, aksiyalara və digər qiymətli kağızlara sərmayə qoyuluşu. Bununla vəsaitlərin səfərbər edilməsinə və əlavə gəlirlərin əldə olunmasına nail olunur; **2)** bank vəsaitlərinin qiymətli kağızlara sərmayə qoyuluşu.

**Bankir** – bankın sahibi və ya iri bank səhmlərinin sahibi.

**Bankir evləri** – xarici ölkələrdə ayrı-ayrı bankirlərə, yaxud banklar qrupuna, birliklərə və təsərrüfat kooperativlərinə məxsus olan bank müəssisələri. B.e. istər XIX yüzillikdə, istərsə də müasir mərhələdə maliyyə-inhisar qruplarının mərkəzi kimi mühüm rol oynayırlar. Bu evlərin xüsusiyyəti bundan ibarətdir ki, onlar kooperativin təşkilati-hüquqi formasına malik olmaqla səhmdar şirkətləri ilə iştirak sistemi vasitəsilə səhmlər zərfinə nəzarəti öz əllərində saxlayırlar. B.e.-ni bəzən bank kontorları da adlandırırlar.

**Bank işi** – dövlət, firma və şəxslərə kreditlərin verilməsi və ödənişlərin aparılması üzrə fəaliyyət *(həmçinin bax: bank fəaliyyəti)*.

**Bank kapitalı** – **1)** bankların istifadə etdikləri pul kapitallarının məcmusu. B.k.-na xüsusi vəsait (səhm kapitalı, bankirin xüsusi və ehtiyatda olan kapitalı və cəlb olunmuş vəsait, sənaye müəssisələrinin əmanətləri və i.a.) daxildir; **2)** bankların xüsusi kapitalı. B.k. sahibinə sənaye və ticarət mənfəətinə bərabər miqdarda bank mənfəəti gətirir. Borc kapitalından fərqli olaraq, b.k. sahibkarın xüsusi kapitalıdır.

**Bank kitabçası** – fiziki şəxslə bank arasında bank əmanəti müqaviləsinin bağlanmasını və əmanət üzrə həmin şəxsin hesabına pul vəsaitinin qoyulmasının əks olunduğu sənəd. Bank əmanəti müqaviləsində





adlı b.k.-nın və ya adsız b.k.-nın verilməsi nəzərdə tutula bilər. B.k.-nda bankın adı və olduğu yer, əmanət filiala qoyulduqda isə həm də müvafiq filialın adı və olduğu yer, əmanət üzrə hesabın nömrəsi, habelə hesaba götürülmüş pul vəsaitinin bütün məbləğləri, hesabdan silinmiş pul vəsaitinin bütün məbləğləri və b.k.-nın banka təqdim olunduğu anadək hesabdakı pul vəsaitinin qalığı göstərilməli və bank tərəfindən təsdiq edilməlidir. Əgər ayrı hal sübuta yetirilməyibsə, b.k.-nda göstərilmiş əmanət haqqında məlumatlar bankla əmanətçi arasında əmanət üzrə hesablaşmalar üçün əsasdır.

AR MM-in 953.2-ci maddəsinə uyğun olaraq bank əmanəti verilməsini, əmanət üzrə faizlərin ödənilməsini və əmanət üzrə hesabdan pul vəsaitinin digər şəxslərə köçürülməsinə dair əmanətçinin sərəncamlarının icrasını bank kitabçası təqdim olunduqda həyata keçirir. Adlı bank kitabçası itirildikdə və ya təqdim olunmaq üçün yararsız vəziyyətə düşdükdə, əmanətçinin ərizəsi üzrə bank ona yeni bank kitabçası verir. İtirilmiş adsız bank kitabçası üzrə hüquqların bərpası adsız qiymətli kağızlar üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**Bank komissiyası** – öz müştərilərinin mənafeləri üçün bank əməliyyatlarının həyata keçirilməsinə görə aparılan komissiyon ayırmaları.

**Bank konsorsiumu** – iri kredit əməliyyatlarının birgə aparılması və borcluların öz borclarını ödəmədikləri halda iştirakçıların hər biri üçün itkinin məhdud hədd olmasına nail olmaq məqsədilə biri baş konsorsium olan banklar qrupu (sindikat). B.k.-nun üzvləri tam müstəqilliklərini saxlamaqla yanaşı, digər bank birliklərinin iştirakçısı da ola bilərlər. B.k. iştirakçıları üzvlük haqqı hesabına öz vahid fondunu yaradır, habelə banklararası kreditdən istifadə edir. B.k. xüsusi olaraq yaradılan icra orqanı və ya b.k.-nun iştirakçılarından biri tərəfindən idarə olunur.

**Bank köçürməsi** – **1)** hesablaşmaların formalarından biri; bir bank tərəfindən digərinə ünvanlandırılan ödəmə tapşırığının köməyi, habelə xüsusi banklararası razılaşmanın olduğu zaman bank çekləri və ya sair ödəniş sənədləri vasitəsi ilə həyata keçirilir. Ödəyici bank ödəmə tapşırığının köçürmə məbləğini alıcıya öz hesabına ödəyir, lakin o, bank-köçürəndən müvafiq ödəməni tələb etməyə də haqlıdır; **2)** müəyyən məbləğin digər şəxsin xeyrinə köçürülməsinə dair bir şəxsin banka verdiyi tapşırıq.

**Bank krediti** – **1)** kredit müqaviləsinə uyğun olaraq bank və ya başqa kredit təşkilatının (kreditorun), borc götürənə şərtləşdikləri miqdarda pul vəsaitini (krediti) verəcəyi öhdəliyi, borc götürənin isə həmin vəsaiti sələmi ilə qaytaracaq öhdəliyi. Kredit müqaviləsi qaydaları borc müqaviləsi qaydaları ilə eynilik təşkil edir; **2)** şəxsi kapitalın və ya cəlb olunmuş bank kapitalının müvəqqəti olaraq istifadəyə verilməsi. Kreditin üç forması fərqləndirilir: a) forvet; b) faktorinq; c) "alıcıya verilən kredit".

**Bank qaydaları** – qanunvericilik normalarına aid olmayan, kredit təşkilatlarının fəaliyyətini tənzimləyən hüquq normaları. B.q. əsasən təlimatlar, sərəncamlar, təlimat məktubları və teleqramlar formasında mövcud olurlar. Belə normalarla adətən kredit təşkilatları tərəfindən qiymətli kağızların buraxılması qaydaları, ödəmə və sair bank sənədlərinin rəsmiləşdirilməsi qaydası, bank hesablaşmaları (bu və ya di-

gər ödəmə sənədlərinin köməyilə) qaydası, müxtəlif bank əməliyyatlarının, o cümlədən müştərilərə xidmətin həyata keçirilməsi qaydaları müəyyən edilir.

**Banklararası kredit** – kredit müqaviləsinə görə borc götürən bank, həmin vəsaiti öz təsərrüfat tələblərini müəyyənləşdirməyə deyil, öz müştərilərinə borc vermək üçün götürdüyü kredit forması. Bu cür müqavilələri adətən kredit ehtiyatlarının alınması adlandırırlar.

**"Banklar haqqında" Azərbaycan Respublikasının qanunu** – AR-də bankların təşkili və fəaliyyətini tənzimləyən qanunvericilik aktı. 2004-ci il qəbul edilmişdir. Qanun 11 fəsildən və 94 maddədən ibarətdir.

**Bankların agent funksiyası** – bank tərəfindən fiziki və hüquqi şəxslərin onların əmlaklarına sərəncam verilməsi üzrə tapşırıqlarının yerinə yetirilməsi. Bu zaman mülkiyyət hüququ banka keçmir, sahibkarın özündə qalır.

**Bankların amalqamasiyası** – bank kapitalının mərkəzləşdirilməsi formalarından biri olub, rəqabət mübarizəsi prosesində iki və daha çox müstəqil bankların birləşməsi. Amalqamasiyanın iki növü mövcuddur: 1) bir böyük bank tərəfindən digərinin udulması; 2) bankların birləşməsi nəticəsində yeni bankın yaranması.

**Bankların hesabları** – AR MM-in 970-ci maddəsinə uyğun olaraq əgər qanunla, başqa hüquqi aktlarla və ya onlara uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə ayrı hal nəzərdə tutulmayıbsa, MM-in "Bank hesabı" fəslinin qaydaları müxbir hesablarına və bankların digər hesablarına da şamil edilir.

**Banklar qrupu** – buraxılacaq qiymətli kağızlara abunə prosesində fərdi maliyyə məsuliyyətini qəbul edən, əvvəlcədən razılaşdırılmış emitent qiyməti üzrə müəyyən vaxtda buraxılışın müəyyən hissəsinə öz adına olan investisiya dilerləri qrupu.

**Bank ləğvetməsi** – bankın bank aktivləri və passivləri münasibətləri və strukturları ilə müəyyən edilən öhdəlikləri vaxtında ödəmək qabiliyyəti.

**Bank məzənnəsi** – banka kredit ehtiyatlarından istifadəyə görə ödənilən bank faizi güzəştlərinin səviyyəsi.

**Bank-müxbir** – **1)** müxbir müqaviləsi əsasında digər bankın ödəmələri və hesablaşmaları üzrə xüsusi açılmış hesab (hesablı müxbir) və ya üçüncü bankda (hesabsız müxbir) bank-müxbir vasitəsilə tapşırıqları yerinə yetirən bank; **2)** digər banka münasibətdə əmanətçi qismində çıxış edən bank.

**Bank nəzarəti** – bank fəaliyyətinə mərkəzi banklar tərəfindən həyata keçirilən nəzarət. "Banklar haqqında" AR qanununun 46.2-ci maddəsinə uyğun olaraq banklar və xarici bankların yerli filialları yerlərdə yalnız Milli Bankın inspektorları və ya Milli Bank tərəfindən təyin edilən kənar auditorlar tərəfindən ildə bir dəfə yoxlanılır.

**Banknot** *(ing. bank-notes)* – dövlət və ya özəl emissiya banklarının bank bileti (faizsiz öhdəlik); veksel və malların girov altında ssuda əməliyyatları qaydasında buraxılan və ssuda müddəti qurtardıqda banka qaytarılan əsas kredit növüdür.

**Bank olmayan kredit təşkilatı** – ayrı-ayrı bank əməliyyatlarını həyata keçirmək üçün Milli Bankdan lisenziya almış hüquqi şəxs. Milli Bankın lisenziyası olmadan hüquqi və fiziki şəxslərin bank fəaliyyəti ilə məşğul olması AR qanunvericiliyi ilə qadağan olunur.

B.o.k.t.-nın bank xidmətləri bazarının inhisara alınmasına, habelə bank işində rəqabətin məhdudlaşdırılmasına yönəldilmiş sazişlər bağlanması və razılaşdırılmış əməliyyatlar aparması qadağandır. Kredit təşkilatları sığorta, ticarət və istehsal fəaliyyəti ilə məşğul ola bilməzlər.

**Bank proviziyası** – Qərb ölkələrində banklar tərəfindən dövlət istiqrazlarının yerləşdirilməsində iştiraklarına görə aldıqları komisyon mükafat növü. Bank vasitəçi-komisyonçu qismində iştirak edərək, istiqrazın məbləğindən müəyyən faizə görə öz xidmətlərini göstərir.

**Bank sertifikatı** – banka köçürülmüş əmanətin məbləğini təsdiq edən təqdimetmə kağızı və ya adlı qiymətli kağız, yaxud əmanətçinin banka və ya onun filialına köçürdüyü pul məbləğini müddətin keçməsilə əlaqədar geri almağa hüquq verən sənəd. Depozit və əmanət sertifikatları fərqləndirilir *(bax: depozit sertifikatı; əmanət sertifikatı).*

**Bank sənədləri** – bank əməliyyatlarının həyata keçirilməsi üçün özündə zəruri və kifayət edən məlumatları ehtiva edən sənəd. B.s. həmin məmulatların qanuniliyini təsdiq edir və mühasibat uçotunda əməliyyatları əks etdirən əsasdırlar.

**Bank sirri** – bank təşkilatının öz müştərilərinin və müxbirlərinin əməliyyatlarının, hesablarının və əmanətlərinin sirrini saxlamağa verdiyi təminat. AR MM-in 967-ci maddəsinə uyğun olaraq bank hesabının və bank əmanətinin, hesab əməliyyatlarının və müştəri haqqında məlumatların sirrinə bank təminat verir. B.s. təşkil edən məlumatlar yalnız müştərilərin özlərinə və ya nümayəndələrinə verilə bilər. Dövlət orqanlarına və onların vəzifəli şəxslərinə bu cür məlumatlar yalnız qanunla nəzərdə tutulmuş hallarda və qaydada verilə bilər. B.s. təşkil edən məlumatlar bank tərəfindən açıqlandığı halda, hüquqları pozulmuş müştəri bankdan vurulmuş zərərin əvəzini ödəməyi tələb edə bilər.

**Bank sistemi** – milli bankların, bank institutlarının, bu və ya digər ölkədə ümumi pul-kredit mexanizmi çərçivəsində fəaliyyət göstərən kredit idarələrinin müxtəlif növlərinin məcmusu; kredit sisteminin tərkib hissəsi. B.s. özündə mərkəzi bankı *(bax: mərkəzi bank)*, kommersiya bankları şəbəkəsini və digər kredit-hesablaşma mərkəzlərini ehtiva edir. Mərkəzi bank dövlət emissiya və valyuta siyasətini yeridir və ehtiyat sisteminin nüvəsi kimi çıxış edir. Kommersiya bankları bank əməliyyatlarının bütün növlərini həyata keçirirlər.

**Bank ssudası** – *(bax: istiqrazlar).*

**Bank təcrübəsi** – **1)** bankların fəaliyyəti. Bu mənada b.t. AR-in mülki qanunvericiliyində bank hüququnun mənbəyi qismində, işgüzar dövriyyə adətləri kimi istifadə olunur; **2)** dəfələrlə təkrarlanmaları nəticəsində sabit normalar kimi təşəkkül tapan və bankların fəaliyyətini tənzimləyən hüquqi adətlər. Normativ-hüquqi aktlarda konkret təsbit edilmələrinə baxmayaraq, icraları dövlətin məcburiyyət qüvvəsi ilə təmin edilən işgüzar dövriyyə adətlərindən ibarətdirlər. Bu mənada b.t.-indən AR-in qanunqüvvəli normativ aktlarında və beynəl-

xalq müqavilələrində tez-tez istifadə olunur. B.t. xarici iqtisadi münasibətlərdə xüsusi rol oynayır. Müvafiq müqavilənin (məsələn, dokumentar akkreditivlər üçün qayda və adətlərin unifikasiyalaşdırılması, birinci tələb üzrə təminatlar üçün qaydaların unifikasiyalaşdırılması) tərəflərinin mülahizəsi ilə tətbiq edilən b.t.-nin beynəlxalq məcəlləşdirilməsi də mövcuddur.

**Bank tədavülü** – mərkəzi banklar tərəfindən tədavül və ödəniş vasitələri qismində buraxılmış bank biletlərinin fəaliyyəti.

**Bank təminatı** – AR-in mülki qanunvericiliyinə uyğun olaraq öhdəliklərin icrasının təmini üsullarından biri. AR MM-in 478-ci maddəsinə uyğun olaraq qarantiyaya əsasən qarant, bank, digər kredit idarəsi və ya sığorta təşkilatı (digər şəxsin (prinsipialın) xahişi ilə prinsipialın kreditoruna (benefisiara) qarantiya öhdəliyinin şərtlərinə uyğun olaraq benefisiar pul məbləğinin ödənilməsi barədə yazılı tələb təqdim etdikdə həmin məbləği ödəyəcəyi barədə yazılı öhdəlik verir. Öhdəliklərin icrasının üsulu kimi B.t.-nın mahiyyəti prinsipialın benefisiar qarşısında öz öhdəliklərini (əsas öhdəliyi) lazımi qaydada icra etməkdən, icranı təmin etməkdən ibarətdir. B.t. verilməsinə görə prinsipial qaranta şərtləşdirilmiş muzd ödəyir. AR MM-in 480-ci maddəsinə uyğun olaraq qarantın benefisiar qarşısında qarantiya ilə nəzərdə tutulan öhdəliyi müstəqil öhdəlikdir və icrasının təminatı üçün verildiyi əsas öhdəlikdən, hətta qarantiyada bu öhdəliyə istinad edilsə belə, asılı deyildir.

Ümumi qaydaya görə, b.t. geri götürülməzdir. Yəni əgər qarantiyada ayrı qayda nəzərdə tutulmayıbsa, o, qarant tərəfindən geri götürülə bilməz. B.t. üzrə benefisiara mənsub olan, qaranta qarşı tələb irəli sürmək hüququ başqa şəxsə verilə bilməz. Əgər qarantiyada ayrı müddət nəzərdə tutulmayıbsa, qarantiya verildiyi gündən qüvvəyə minir.

AR MM-in 484-cü maddəsinə uyğun olaraq benefisiarın qarantiya üzrə pul məbləği ödənilməsinə dair tələbi qarantiyada göstərilmiş sənədlər qoşulmaqla, qaranta yazılı formada təqdim edilməlidir. Tələbdə və ya ona qoşmada benefisiar prinsipialın təminatı üçün qarantiya verilmiş əsas öhdəliyi pozmasının nədən ibarət olduğunu göstərməlidir.

AR-in MM-i (485-ci maddə) benefisiarın tələblərinə baxılarkən qarantın vəzifələrini də müəyyən edir. Benefisiarın tələbini aldıqda qarant bu barədə ləngimədən prinsipiala məlumat verməli və tələbin surətini ona aid olan bütün sənədlərlə birlikdə prinsipiala təqdim etməlidir. Qarant qoşulmuş sənədlərlə birlikdə benefisiarın tələbinə qarantiyada göstərilmiş müddətdə, müddət göstərilmədikdə isə ağlabatan müddətdə baxmalı, həmin tələbin və ona qoşulmuş sənədlərin qarantiya şərtlərinə uyğun gəlib-gəlmədiyini müəyyənləşdirməyə ciddi diqqət göstərməlidir. AR MM-in 486.1-ci maddəsinə uyğun olaraq əgər benefisiarın tələbi və ya ona qoşulmuş sənədlər qarantiya şərtlərinə uyğun deyildirsə və ya qarantiyada təyin edilmiş müddət qurtardıqdan sonra qaranta təqdim edilmişdirsə, qarant bu tələbi ödəməkdən imtina edir. Qarant benefisiarın tələbini ödəməkdən imtina etdiyi barədə benefisiara dərhal məlumat verməlidir. MM-in 468.2-ci maddəsinə görə, əgər benefisiarın tələbini ödəyənə qədər qaranta məlum olsa ki, qarantiya ilə təmin edilmiş əsas öhdəlik





tamamilə və ya müvafiq hissədə artıq icra edilmişdir, digər əsaslara görə xətm edilmişdir və ya etibarsızdır, bu barədə o, dərhal benefisiara və prinsipiala məlumat verməlidir. Bu cür məlumat verildikdən sonra qarant benefisiardan təkrarən aldığı tələbi ödəməlidir.

**Bank tənzimləməsi** – AR Mərkəzi Bankının bank nəzarəti funksiyası ilə sıx bağlı olan funksiyalarından biri. Lakin əgər nəzarət başlıca olaraq kredit təşkilatları tərəfindən qanunun və AR Mərkəzi Bankının müəyyən etdiyi normativlərin tələblərinə əməl edilməsindən ibarətdirsə, b.t. müxtəlif növ alətlərin və metodların köməyilə kredit təşkilatlarının fəaliyyətinə fəal və nizami təsiri nəzərdə tutur. B.t.-nin və bank nəzarətinin ümumi məqsədi bank sistemində sabitliyi qoruyub saxlamaqdan və əmanətçilərin, kreditorların mənafelərini müdafiə etməkdən ibarətdir.

**Bank trattası** – eyni bankın həm vekselçi, həm də ödəyici qismində çıxış etdiyi köçürmə vekseli. B.t. hesablaşmalar alətidir və satıla bilmə dərəcəsinə görə nağd pullara yaxındır. O, çek deyil, çünki vekselçi və ödəyici qismində eyni bir şəxs çıxış edir. Müştərinin xahişi ilə b.t.-nı adətən bankın yerli şöbəsi baş kontorun adına yazır; bu halda müştəri etibarlı ödəniş sənədinə malik olur. Müştəri bu sənədlə lazımi məbləği başqa şəhərdə də əldə etmək imkanına malik olur.

**Bank vekseli** – buraxılmış bank vekselinin üzərində qeyd olunmuş şəxsə və ya onun hüquqi varisinə qoyulmuş müddətdə müəyyən pul vəsaitlərinin ödənilməsi barədə bankın birtərəfli, məcburi sayılmayan öhdəliyi. B.v.-nin hüquqi mahiyyəti bankın müştərisinə göstərdiyi xidmətin mükafatla həyata keçirilməsi öhdəliyidir. Lakin bu öhdəlik sənəddə öz əksini tapmır, təcrübədə isə istifadə (məsələn, pul vəsaitinin daxil edilməsi) olunur.

**Bank zəmanəti** – öhdəliklərin təmin edilməsinin üsullarından biri. AR-in mülki qanunvericiliyinə görə bank və ya digər kredit təşkilatı b.z. əsasında başqa şəxsin (prinsipialın) xahişi ilə kreditorun prinsipialına (benefisiara) pul məbləğinin ödənilməsinə dair yazılı öhdəlik verir *(bax: bank təminatı).*

**Bantustanlar, houmlendlər** *(bantustans, homelands – milli vətənlər)* – Cənubi Afrika Respublikasının (CAR-ın) hakimiyyət orqanları tərəfindən 1960-cı illərdə tayfa əlaməti üzrə formalaşdırılmış dövlət təsisatları. Bəyan edilirdi ki, b.-ın yaradılmasında məqsəd qaradərili əhalinin müstəqilliyini təmin etməkdən ibarətdir. Müxtəlif rejimli 10 b. yaradılmışdır. Onların 4-ü müstəqil, 6-sı isə özünüidarə ərazisi elan edilmişdir.

**Baranta** *(türk. quldurcasına qaçış)* – cinayət hüququnda müstəsna dərəcədə əşyaların sahibini və ya onun qohumlarını təqsirkar tərəfindən vurulmuş zərərə görə məcburi mükafatlandırma məqsədi ilə mal-qaranın və ya digər əmlakın özbaşına şəkildə ələ keçirilməsi. Oktyabr dövlət çevrilişinə qədərki Rusiyanın köçəri xalqları arasında geniş yayılmışdı. RSFSR-in 1926-cı il və Özbəkistan SSR-in birinci cinayət məcəllələsində keçmişin yerli adətlərindən ibarət cinayətlər sırasına aid edilmişdir.

**Baratriya** *(ing. barratry)* – dəniz hüququnda kapitan və ya gəmi komandası tərəfindən yükə və gəmiyə qəsdən vurulan zərər. Belə zərər, adətən gəmi sahibinə xəbər verilmədən vurulur. B. riski sığorta edilir.

**Barbar qanunlar** *(lat. leges barbarorum)* – Qərbi Roma imperiyası ərazisində dövlətlərini yaratmış german tayfalarının adət hüquq normalarından ibarət olan qanunvericilik aktları. B.q. V-IX yüzilliklər ərzində tətbiq edilmişdir. Vestqot, Burqund, Saliça, Ripuar, Aleman, Bavar, Sakson, Anqlosaks (ingilis-sakson) və sair qanun topluları məlumdur. B.q. (Anqlosaks qanunları istisna olmaqla) latınca yazılmış və onlara Roma hüququnun müəyyən təsiri olmuşdur. B.q. kral və hersoqların təşəbbüsü ilə yazılmış, formalaşmaqda olan feodal sinfinin imtiyazlarını möhkəmləndirmişdir. Əsasən mühakimə icraatının həyata keçirilməsini, cinayət hüququnu tənzim edən b.q.-ında xüsusi və bəzi ümumi hüquq normaları da ehtiva olunmuşdur. B.q. Qərbi Avropada meydana gələn ilk feodal dövlətlərinin ictimai quruluşunu öyrənmək üçün çox mühüm mənbədir. Onlarda qəbilə-tayfa quruluşundan feodalizmə keçid dövrünün müxtəlif mərhələsi müşahidə olunur. B.q. xarakterinə görə əkinçilik qanununa, şəriət normalarına və i.a. yaxındır. Feodalizm quruluşunun möhkəmlənməsi ilə b.q. öz əhəmiyyətini tədricən itirmişdir.

**Barbar pravdaları** – *(bax: barbar qanunlar).*

**Barışdırıcı hakim** *(bax: barışdırıcı məhkəmə).*

**Barışdırıcı məhkəmə** – Qərbi Avropanın bir sıra dövlətlərində xırda cinayət işlərinə və mülki işlərə baxan məhkəmə orqanı. İlk dəfə XIV yüzillikdə İngiltərədə, sonralar isə XVII yüzillikdə Şimali Amerikada, XVIII yüzilliyin sonunda (1959-cu ildə ləğv edilmişdir) Fransada, 1864-cü ildə məhkəmə islahatı prosesində Rusiyada yaradılmışdır.

Rusiyada b.m.-lər sahə barışdırıcı hakimlərindən və barışdırıcı hakimlərin qurultayından (apellyasiya instansiyasından) ibarət idi. 1889-cu ildə b.m.-lər ləğv edilmiş, onların səlahiyyətləri qəzalarda zemstvo rəislərinə, şəhərlərdə isə şəhər hakimlərinə verilmişdir.

Böyük Britaniyada 1972-ci il yanvarın 1-dən yalnız magistrat məhkəmələrinin barışdırıcı hakimləri fəaliyyət göstərirlər. Barışdırıcı hakimlər ömürlük təyin edilirlər. Merlər və yerli özünüidarə orqanlarının sədrləri vəzifə etibarı ilə barışdırıcı hakimlər hesab olunurlar. Barışdırıcı hakim vəzifəsi pulsuz olduğundan bu vəzifəni tutmaq varlı təbəqədən olan nümayəndələrin imtiyazıdır. ABŞ-da b.m. eyni zamanda məhdud səlahiyyətli aşağı instansiya məhkəməsi hesab olunur və bir qayda olaraq, kənd yerlərində fəaliyyət göstərir.

Azərbaycanda b.m. 1968-ci ilin fevralından sonra qəzalarda və qəzaların ayrı-ayrı polis sahələrində təşkil edilmişdi. Sahə b.m.-si birinci, qəza b.m.-si apellyasiya instansiyası hesab edilirdi. B.m.-də hakim işlərə təkbaşına baxırdı. Hakimin vəzifəsi, hər şeydən əvvəl, tərəfləri barışdırmaqdan ibarət idi. Böyük oktyabr dövlət çevrilişindən sonra b.m. ləğv edilmişdir.

**Barışıq** – döyüşən tərəflər arasında xüsusi saziş əsasında həyata keçirilməli olan hərbi əməliyyatların müvəqqəti dayandırılması. B.-ın iki növü fərqləndirilir: a) yerli barışıq; b) ümumi barışıq.

**Baron** *(lat. baro – german mənşəli söz, ilkin mənası adam, kişi deməkdir)* – Qərbi Avropada kralın bilavasitə vassalı; sonralar feodal titullarından biri kimi işlədilmiş. VI-VII yüzilliklərdə cəmiyyətin yuxarı təbəqəsinə mənsub olan adam (qadınlara baronessa deyilirdi). Rusiyada b. titulunu I Pyotr Baltikyanı ölkələrdəki alman zadəganlarının yuxarı təbəqəsi üçün təyin etmişdi. İngiltərədə b. titulu indi qalır.





**Baronet** – İngiltərədə irsi zadəgan titulu. 1611-ci ildə təsis edilmişdir. B. yuxarı əyanlarla (aristokratiya ilə) aşağı zadəganlar arasında orta mövqeyi tutur.

**Barrister** *(ing. barrister, bar sözündəndir – məhkəmə zalında arxasında hakimlərin yerləşdiyi keçid)* – vəkil, Böyük Britaniyada vəkillik peşələrinin nümayəndələrindən biri. Solisitordan fərqli olaraq b. bütün məhkəmə proseslərində iştirak edir; o, ən mürəkkəb hüquqi məsələlər üzrə rəylər verir.

**Barter əqdi (barter)** – xarici ticarətlə tətbiq edilən dəyişmə müqaviləsinin adı. Dəyərinə görə ekvivalentli əmtəələrin, işlərin, xidmətlərin, intellektual fəaliyyətin nəticələrinin mübadiləsini nəzərdə tutan əqdlər b.ə.-lərinə aid edilir. Həmin termin ingilis dilindən əxz edilmiş neologizmdir. AR-in normativ-hüquqi aktlarında geniş tətbiq edilir.

**Basiley (basilevs)** *(yun. basileus)* – Qədim Yunanıstanda böyük olmayan yaşayış məntəqəsinin hökmdarı; sonralar hərbi hakimiyyətə, kahinlik və məhkəmə hakimiyyətinə malik olmuş tayfa və ya tayfa ittifaqı başçısı. B. vəzifəsi əvvəllər seçkili olmuş, sonralar isə irsən keçməyə başlamışdır. Afinada çar hakimiyyətinin (eramızdan əvvəl XI yüzilliyin məlumatına görə) ləğvindən sonra arxontlardan biri b. adlandırılmışdır. Spartada b. çar titullarından biri, ellinist dövlətlərində monarxların adı, Bizansda isə imperatorların rəsmi titulu olmuşdur.

**Baskak** – əhali ilə hesablaşmalar aparmağa və tabe edilmiş ölkələrdə vergiləri toplamağa borclu olan tatar məmurlarının adı. Rusiyada monqol-tatar işğalı dövründə (XIII-XV yüzilliklərdə) vergi toplayan tatar məmurları da b. adlandırılırdı.

**Basma** – XIII-XV yüzilliklərdə monqol-tatar xanları tərəfindən etimadnamə kimi təqdim edilən lövhəcik.

**Basmaçılıq** *(türk dillərində basmaq – hücum etmək, basqın etmək)* – 1917-1926-cı illərdə Orta Asiya respublikalarında sovet hakimiyyətinə qarşı aparılan silahlı milli-azadlıq hərəkatı. B. yerli feodalların və milli burjuaziyanın Rusiya müstəmləkəçiliyinə qarşı sinfi mübarizə forması kimi təzahür etmişdir. Bu hərəkatın yatırılmasında Rusiya çarizminin hərbi maşınının və yerli kommunistlərin (bolşeviklərin) rolu olmuşdur. Basmaçıların sonuncu böyük dəstəsi 1933-cü ilin mayında Qaraqum səhrasında darmadağın edilmişdir.

**Başa çatmamış cinayət** – cinayətin törədilməsi mərhələsini səciyyələndirən anlayış. B.ç.c. cinayətə hazırlıqdan və cinayət törətməyə cəhd etməkdən ibarətdir. Həm cinayətə hazırlıq, həm də cinayət törətməyə cəhd etmə düzünə qəsdlə törədilir. Cinayətə hazırlığa və cinayətə cəhdə görə məsuliyyət həll edilərkən AR CM-in 28-ci və 29-cu maddələrinə və CM-in xüsusi hissəsinin müvafiq (uyğun) maddəsinə istinad olunur.

**Başa çatmış cinayət** – şəxsin törətdiyi əməldə qanunda nəzərdə tutulan konkret cinayət tərkibinin obyektiv və subyektiv əlamətlərinin tam həcmdə mövcud olması ilə xarakterizə olunan cinayət. Cinayətin bitməsi (bitmə vaxtı) qanunvericiliklə müəyyən edilmiş cinayət tərkibinin quruluşundan asılıdır. Maddi quruluşa malik olan cinayət tərkiblərində nəzərdə tutulmuş cinayətlər bu

tərkibdə göstərilən ictimai təhlükəli nəticə baş verən vaxtdan bitmiş sayılır. "Formal cinayətlər" onların nəzərdə tutulan cinayət tərkiblərində göstərilən hərəkətin və ya hərəkətsizliyin törədildiyi andan bitmiş sayılır.

**Baş agent** – prinsipial üçün zəruri olan hərəkətlər kompleksini və buna digər agentləri (subagentlik) cəlb etmək vəzifəsini öz üzərinə götürən şəxs. B.a.-in prinsipialla qarşılıqlı münasibətləri uzun və ya qeyri-müəyyən müddətə bağlanan baş agent müqaviləsi ilə müəyyən edilir.

**Baş akt** – gəmidən yerlərin sayına, kütləyə və keyfiyyətə görə AR limanı tərəfindən import yükün qəbulunu rəsmiləşdirən sənəd. B.a. import yükü üzrə əmtəənin satıcısı tərəfindən öhdəliklərin yerinə yetirilməsini təsdiq edir.

**Baş attorney** *(ing. attorney – general)* – Böyük Britaniyada, ABŞ-da, Braziliyada, Venesuelada və bəzi digər ölkələrdə ədliyyə orqanının yüksək vəzifəli şəxslərindən biri. Böyük Britaniyada b.a. nazirlər kabinetinin üzvü, hökumətin baş hüquq məsləhətçisidir və dövlətin mənafelərinə toxunan hüquqi işləri və məhkəmə işlərini aparır, xüsusi siyasi əhəmiyyət kəsb edən işlər üzrə məhkəmədə dövlət ittihamını müdafiə edir. ABŞ-da b.a. ədliyyə departamentinin başçısı – naziridir. O, eyni zamanda da federal hökumətin baş hüquq məsləhətçisidir. B.a. vəzifəsi ABŞ-ın bir neçə ştatında mövcuddur.

**Baş auditor** *(ing. auditor – general)* – keçmiş ingilis müstəmləkələri olmuş bir sıra (Hindistanda, Nepalda, Keniyada, Mavrikidə, Barbadosda, Zambiyada) ölkələrdə dövlətdə maliyyə-büdcə nəzarəti xidmətinə başçılıq edən yüksək vəzifəli şəxs. Respublikanın prezidenti və ya baş nazirin məsləhəti ilə parlamentdə təsdiq edilməklə general-qubernator tərəfindən təyin edilir. B.a. bu vəzifədə müəyyən yaş həddinədək (məsələn, Zambiyada 60 yaşınadək) qalır və öz vəzifəsindən ancaq impiçment qaydasında azad edilə bilər. O, b.a. xidmətini sərbəst surətdə formalaşdırır.

**Baş hərbi məhkəmə** – Çar Rusiyasında 1864-cü il məhkəmə islahatından sonra təsis edilmiş yüksək hərbi məhkəmə orqanı. Sədrdən, daimi (hərbi hüquqşünaslar içərisindən) və müvəqqəti üzvlərdən ibarət tərkibdə fəaliyyət göstərmişdir. Əsasən, hökumət senatının yerinə yetirdiyi funksiyaları həyata keçirmiş və ümummülki məhkəmələrlə qarşılıqlı əlaqədə fəaliyyət göstərmişdir.

**Baş kitab** – memorial orderləri qeyd etmək üçün nəzərdə tutulan baş jurnal (kitab). Kitab ötən ilin yekunlarına əsasən, ilin əvvəlində olan qalıqların yazılışı ilə başlayır. Yazılış ay ərzində tərtib olunmuş memorial orderlər əsasında aparılır. Memorial orderlərin cəmi "Orderlərin cəmi" qrafasına yazılır, sonra isə müvafiq subhesabların debet və kreditləri yazılır. Ay ərzində bütün subhesabların debet və krediti üzrə dövriyyə (tədavül) miqdarı "Orderlərin cəmi" qrafasının yekununa bərabər olmalıdır. İkinci sətirdə isə növbəti aya qalıqlar (subhesablar üzrə) qeyd olunur.

**Baş konsul** – ayrıca baş konsulluğa başçılıq edən diplomatik şəxs. Onun hüquqi vəziyyəti və işlərinin xarakteri, ümumiyyətlə konsulla xasdır. Konsulla B.k. arasındakı fərqlər formal səciyyə daşıyır və həmin fərqlər təmsil olunan dövlətlə gəlmə dövlət arasındakı müəyyən edilmiş konsul münasibətləri-





nin səviyyəsini əks etdirir. Ayrı-ayrı hallarda b.k.-a xüsusilə də beynəlxalq təşkilatlarda siyasi və ya nümayəndəlik xarakterli funksiyalar da tapşırıla bilər. AR-in təcrübəsində b.k. təyin etmək praktikası tətbiq edilir.

**Baş korteslər** – İspaniyanın ikipalatalı parlamentinin adı.

**Başqa işə keçirmə** – AR ƏM-in 59-cu maddəsinə uyğun olaraq işçiyə əmək müqaviləsində nəzərdə tutulmayan başqa peşə, ixtisas və vəzifə üzrə əmək funksiyasının yerinə yetirilməsini həvalə etmək başqa işə keçirmə sayılır və buna yalnız işçinin razılığı ilə, həmçinin yeni əmək müqaviləsi bağlanılmaqla yol verilir.

**Baş qərargah** – **1)** 1815-1917-ci illərdə Rusiyada fəaliyyət göstərmiş ali hərbi idarəçilik orqanlarından biri; **2)** ali hərbi idarəçilik orqanı; dövlətdə bilavasitə ali baş komandana və ya müdafiə nazirinə tabe olur. Keçmiş SSRİ-də b.q. 1935-ci il sentyabrın 22-də Fəhlə-Kəndli Qızıl Ordusu qərargahının əvəzinə yaradılmışdır.

**Başlıq** – gəlin köçürülərkən oğlan evindən qız evinə verilən pul və ya mal. Bir sıra xalqlar arasında hələ də yaşamaqda davam edir. Bəzi hallarda ailənin müflisləşməsinə, qızın qaçırılmasına da səbəb olur.

**Baş lisenziya** – səlahiyyətli dövlət orqanlarının bir və ya bir neçə növ malın idxalı və ya ixracı üçün, müəyyən müddətə miqdar məhdudiyyəti qoymadan verdiyi icazə.

**Baş magistrat** – 1720-ci ildə Sankt-Peterburqda təsis edilmiş, kollegiya hüququnda fəaliyyət göstərmiş mərkəzi dövlət idarəsi. Bütün magistratların işin əlaqələndirməklə yanaşı, onlar üçün apellyasiya instansiyası məhkəməsi kimi də fəaliyyət göstərmişdir.

**Baş mərz** – XVIII yüzilliyin ikinci yarısı və XIX yüzilliyin birinci yarısında Rusiyanın köklü quberniyalarında xüsusi sahibkarlar (mülkədarlar) arasında torpaqların fərqləndirilməsi və onların dövlət torpaqlarından mərkəzləşdirilməsi.

**Baş nazir** – Avstraliyada, Azərbaycanda, Böyük Britaniyada, Belorusda, Qırğızıstanda, Estoniyada, İtaliyada, Kanadada, Latviyada, Litvada, Namibiyada, Portuqaliyada, Rumıniyada, Slovakiyada, Sloveniyada, Finlandiya və Fransada hökumət başçısı vəzifəsinin adı.

**Baş opsion** – fraxtaçıların çarterdə şərtləşdirilmiş yüklər içərisindən yükvurma və (və ya) yük boşaltma limanının çarterdə sövdələşdirilmiş seçiminə dair hüququ.

**Baş podratçı** – podrat müqaviləsinin ixtisaslaşdırılmış podrat təşkilatlarına – subpodratçılara işlərin ayrı-ayrı növlərinin və komplekslərinin yerinə yetirilməsini tapşıran tərəfi. B.p. podrat işləri kompleksinin həyata keçirilməsi və onların lazımi keyfiyyəti, qüsurların və çatışmazlıqların vaxtında aradan qaldırılması üçün sifarişçi qarşısında tam məsuliyyət daşıyır.

**Baş prokuror** – müvafiq ölkə prokurorluğunun yüksək vəzifəli şəxsi. B.p. dövlətin vahid mərkəzləşdirilmiş prokurorluq orqanları sisteminə başçılıq edir. Vəzifəyə respublika prezidentinin təqdimatı üzrə parlamentdə təsdiq edilməklə təyin və həmin vəzifədən azad edilir.

**Başpulu** – Azərbaycanda xanlıqlar dövründə (XVIII yüzillikdə) adambaşına, əsa-

sən, kişilərdən alınan can vergisi; evlilərdən ikiqat artıq alınırdı. Həcmi qeyri-müəyyən idi. Şamaxı xanlığında b. 20 yaşdan yuxarı olan kişilərdən alınırmış. B. Bakı və Qarabağ xanlıqlarında otaqxərci, Naxçıvan xanlığında evpulu, Şəki xanlığında tüstüpulu adlanmışdır. B. əhali üçün ağır yük hesab olunmuşdur.

**Baş redaktor** – "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli qanununa uyğun olaraq mətbu nəşrə rəhbərlik edən şəxs. Qanunun 22-ci maddəsinə uyğun olaraq mətbu nəşrin redaksiyasına baş redaktor (redaktor) rəhbərlik edir.

**Baş reqlament** – Rusiyada XVIII-XIX yüzilliklərdə qüvvədə olmuş dövlət mülki xidmət nizamnaməsi. 1720-ci ildə buraxılmışdır. B.r.-lə kollegiyaların vəzifəli şəxslərinin vəzifələrini, kollegiyalarda işlərin müzakirə olunması qaydalarını, kargüzarlığın təşkili qaydasını, kollegiyaların senatla və yerli hakimiyyət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyən edirdi. B.r. yanaşı, Ştatskotorlar, Admirallıq kollegiyası, Kommers, Kamer, Berq və Manufaktur kollegiyalar (reqlamentlər) də fəaliyyət göstərmişdir.

**Baş saziş** *(bax: kollektiv saziş).*

**Baş ştatlar** – 1302-1789-cu illərdə Fransada mövcud olmuş, ilahiyyatçı deputatlardan, zadəganlardan və üçüncü təbəqədən ibarət olan ali silki-nümayəndəli təsisat. B.ş. kral tərəfindən çağırılırdı. Onun çağırılmasında başlıca məqsəd vergilərin toplanması üçün nümayəndələrin razılığını almaqdan ibarət idi. B.ş. üçüncü təbəqə deputatları 1789-cu ildə özlərini Milli Məclis elan etmişdilər.

**Baş (əsas) yük** – dəniz gəmilərində daşınan, qablaşdırılmış ədədi istənilən yük. Qabsız daşınan digər yüklərdən (taxıldan, kömürdən, filizdən və i.a.) fərqli olaraq belə yükün daşınması xüsusi qayğı tələb edir.

**Batinilik** *(ər. batini – daxili, içi)* – islam dinində təriqətçi dini-fəlsəfi təlim. VIII yüzillikdə hakim feodal ideologiyasına qarşı müxalifətçi cərəyan (hərəkat) kimi meydana gəlmişdir. B. özündə maniliyin və məzdəkiliyin ideoloji əlamətlərini ehtiva edirdi. B.-in dini-fəlsəfi ideologiyasının meydana gəlməsinə qədim yunan fəlsəfəsinin və buddizmin də təsiri olmuşdur. B. eyni zamanda ictimai-siyasi hərəkat kimi Xilafətin təsir dairəsində olan ölkələrdə kəndlilərin və şəhərlilərin orta təbəqəsinin mənafelərinə xidmət etmişdir. Ziddiyyətli təlim olan b.-də ortodoksal islamın bəzi ehkamlarına qarşı mütərəqqi ideyalar da olmuşdur. Bu təlimdən ismaililik və qərmətilik, xürrəmilik hərəkatlarında və sufilik cərəyanında bir nəzəriyyə kimi istifadə olunmuşdur.

**Batraklar** – muzdla tutulmuş kənd təsərrüfatı işçiləri (fəhlələri); var-yoxdan çıxmış kəndlilər də b. adlandırılmışdır.

**Bayə** *(islamda)* – itaət etmə və tabe olma andı. B.-nin kökləri geniş yayılmış hansısa şəxsin hakimiyyətini açıq surətdə tanımaq adətinə bağlıdır. Tabe olmağa razılıq əlaməti olaraq and içən şəxs (bu, hər bir şəxs tərəfindən ya ayrı-ayrılıqda, ya da qrup halında yerinə yetirilirdi) əlləri ilə andı qəbul edənə toxunma ayinini yerinə yetirirdi.

B. vasitəsi ilə ali hakimiyyət daşıyıcısının varisinin təsdiqi, yaxud müqavilənin (əhdin, əhd etmənin), canişinlərin və məmurların yüksək vəzifəyə təyin edilməsinin və onlara tabe olanların verilməsinin təsdiqi baş verirdi.





Teokratik idarəçilik formasının mövcud olduğu müsəlman ölkələrində b. adəti indi də qorunub saxlanmaqdadır. Lakin islamda b. haqqında vahid fikir təşəkkül tapmamışdır. İstər müxtəlif islam məzhəbləri arasında, istərsə də onların daxilində b.-in zəruriliyinə, onun yerinə yetirilməsinə aid fikir ayrılıqları ətrafında mübahisələr bu gün də davam edir.

**Bayraq** – üzərində dövlət, təşkilat, yaxud hərbi hissə, birləşmə və gəminin fərqlənmə nişanı olan yazı, rəmz, bəzək nəqş edilmiş və ağac dəstəyə bərkidilmiş qumaş parça *(həmçinin bax: dövlət bayrağı, hərbi bayraq).*

**Bayraq dövləti** – bayrağı altında qanuni üzən müvafiq gəminin mənsub olduğu dövlət. Gəmiyə öz bayrağını verən b. d. həm də gəminin milliliyini müəyyən edir. Gəmilərə öz bayrağı altında üzmək hüququnu hər bir dövlət özü müəyyən edir, habelə bu gəmilərə həmin hüququ təsdiq edən müvafiq sənədlər verir. B.d. inzibati, texniki və sosial məsələlərdə öz yurisdiksiyasını, həmçinin bayrağı altında üzən gəmilərə nəzarəti səmərəli surətdə həyata keçirməlidir. O, bayrağını verdiyi gəminin üzdüyü dənizdə təhlükəsizliyin təmin edilməsi üçün hamılıqla qəbul edilmiş zəruri beynəlxalq qaydaları nəzərə alaraq tədbirlər görməlidir.

**"Bayramlar haqqında" Azərbaycan Respublikasının qanunu** – "Bayramlar haqqında" AR-in qanunu 1992-ci il oktyabr tarixdə AR-in MM-i tərəfindən qəbul olunmuş, ona 6 fevral 1996-cı il, 27 iyun 1997-ci il və 29 may 1998-ci il tarixdə əlavə və dəyişikliklər edilmişdir. Həmin qanuna uyğun olaraq aşağıdakı günlər müəssisələrdə, idarələrdə, təşkilatlarda qeyri-iş günü olmaqla AR-in bayramı hesab edilmişdir:

1 yanvar – Yeni il; 8 mart – Qadınlar günü; Novruz bayramı – iki gün; 28 may – Respublika günü; 15 iyun – Azərbaycan xalqının Milli Qurtuluş günü; 26 iyun – Silahlı Qüvvələr günü; 18 oktyabr – Dövlət Müstəqilliyi günü; 12 noyabr – Azərbaycan Respublikasının Konstitusiya günü; 17 noyabr Milli Dirçəliş günü; 31 dekabr – Dünya Azərbaycanlılarının həmrəylik günü; Qurban bayramı; Ramazan bayramı.

**Bayramlıq** – **1)** Azərbaycanda orta əsrlərdə feodalların xeyrinə kəndlilərdən alınan vergi. XIV yüzillikdən məlumdur. B. həm natural şəkildə, həm də pulla alınırdı; **2)** Azərbaycanda Novruz və Qurban bayramlarında toplanan vergi növü. Başqa vergilər kimi b. da əhali üçün ağır yüklərdən biri olmuşdur.

**Baytarlıq sertifikatı** – import (eksport) edilən mal-qaranın (canlı və kəsilmiş halda), quşların (canlı və kəsilmiş halda) və onlardan emal olunmuş məhsulların qeyri-yoluxdurucu olduğunu və onların yoluxdurucu xəstəliklər olmayan rayonlardan keçəcəyini təsdiqləyən sanitar sənəd.

**"Baytarlıq haqqında" Azərbaycan Respublikasının qanunu** – AR-də baytarlıq fəaliyyətinin hüquqi və təşkilati əsaslarını müəyyən edir, ölkənin baytarlıq (baytarlıq-sanitariya) sağlamlığını, dövlət baytarlıq nəzarətində olan yüklərin təhlükəsizliyini, əhalinin heyvan və insanlar üçün ümumi olan xəstəliklərdən mühafizəsini təmin edən subyektlər arasındakı münasibətləri tənzimləyən qanunvericilik aktı. Qanun 9 fəsil, 44 maddədən ibarətdir.

**Bazar** – əmtəə tədavülü dairəsi. Ərazi sərhədləri və miqyasına görə, yerli, milli

(daxili) bazarlar və dünya (xarici) bazarları fərqləndirilir. B.-da ayrı-ayrı əmtəə istehsalçılarının əmək məsrəflərinin sosial xarakteri bütünlüklə təzahür edir, əmtəələrin dəyər kəmiyyətini, bazar dəyərini müəyyən edən ictimai-zəruri istehsal şərtləri aşkar olunur.

B. mexanizminin başlıca elementlərinə qiymət, tələb və təklif daxildir. Sosial tələbat səviyyəsini əks etdirən tələb kəmiyyəti əhalinin alıcılıq qabiliyyəti ilə məhdudlaşır. Təklif ictimai istehlakın dinamikasını göstərir və satılmaq üçün b.-a daxil olan əmtəələrin (bazar fondlarının) məcmusundan ibarətdir. B.-da qiymətin hərəkəti, son nəticədə əmək məhsuldarlığının, ictimai istehsalın həcminin və proporsiyasının dəyişməsini, pul gəliri dinamikasını əks etdirir.

**Bazargünü məktəbi** – yaşlıların, o cümlədən fəhlələrin, kəndlilərin və sənətkarların bazar günləri təhsil aldıqları məktəb. B.m. ilk dəfə XVIII yüzillikdə İngiltərədə təsis edilmiş və tədris olunan fənlərin məzmununa görə dini-tərbiyəvi mahiyyət daşımışdır. Rusiyada mədəni-maarif müəssisəsi kimi ilk b.m. 1858-ci ildə Poltavada, 1859-cu ildə isə Kiyevdə yaradılmışdır.

Azərbaycanda – Bakıda ilk b.m. 1905-1907-ci illərdə açılmışdır. O, qısa bir müddət ərzində "cümə" məktəbi adı altında fəaliyyət göstərməyə başlamışdır. Sovet hakimiyyəti dövründə b.m. yaşlılar üçün başqa tipli məktəblərlə (məsələn, gecə, fəhlə-gənclər məktəbləri ilə) əvəz edilmişdir. Hazırda belə məktəblər fəaliyyət göstərmir.

**Bazar qiyməti** – malın (işin, xidmətin) tələblə təklifin qarşılıqlı təsiri nəticəsində təşəkkül tapan qiyməti. AR Vergi Məcəlləsinin 14.2-ci maddəsinə uyğun olaraq qanunvericilikdə başqa hallar nəzərdə tutulmamışdırsa, vergitutma məqsədləri üçün malların (işlərin, xidmətlərin) qiyməti tərəflərin əməliyyatda (əqddə) təsbit etdikləri qiymət qəbul edilir. Əks hal sübuta yetirilmirsə, bu qiymət bazar qiyməti kimi qəbul edilir.

Vergilər bazar qiyməti nəzərə alınmaqla hesablanır. B.q. mal (iş, xidmət) satılan anadək, lakin malın (işin, xidmətin) təqdim edildiyi andan 30 gün keçənədək (əvvəl və ya sonra) ən yaxın tarixdə eyni (analoji) mal (iş, xidmət) üçün müvafiq əməliyyatlar zamanı təşəkkül tapan qiymətlərə əsasən müəyyən edilir. Bu zaman qiymətli kağızın b.q. həmin qiymətli kağızın təqdim edildiyi andan əvvəlki ən yaxın tarixdə həmin emitentin eyni qiymətli kağızları üçün fond birjasının katirovkasına əsasən müəyyənləşdirilir, bu şərtlə ki, kotirovkalar müəyyən edilmiş qaydaya uyğun elan edilsin.

**Baziliki, vasiliki** *("çar qanunları")* – Bizans imperatoru Lev Mudrı tərəfindən 888-889-cu illərdə tərtib edilən və Yustinian Külliyyatının (Yustinian Digestlərinin) normativ materiallarından istifadəni asanlaşdırmaq məqsədilə yenidən işlənib hazırlanmış qanunvericilik toplusu. 60 kitabdan ibarət olan toplu yunan dilində tərtib edilmişdi. Özünün rəsmi "Baziliki" ("Bazilevs") titulunu isə imperatorun adından götürmüşdür. Bəzi mənbələrdə ona imperator qanunları da deyilir.

**Bazis** *(yun., ing. basis)* – **1)** geniş mənada əsas, özül, bünövrə, dayaq; **2)** marksist konsepsiyada iqtisadi bazis – adamlar arasında tarixən təşəkkül tapan, ona müvafiq üstqurumu, yəni siyasi, hüquqi və digər münasibətlərin, təsisatların və ictimai şüurun müxtəlif formalarını müəyyən edən istehsal münasibətlərinin məcmusu.





**Bazis ili** – qiymətlərin indeksinin müəyyən edilməsi zamanı əsas kimi qəbul edilən il.

**Bazis qiyməti** *(ing. basis price cost)* – **1)** beynəlxalq ticarətin indeksinin müəyyən edilməsi zamanı (həm bütün, həm də müəyyən qrup mallar üzrə) əsas qismində qəbul edilən qiymət; **2)** xarici ticarət qiymətlərinin müəyyən edilməsi zaman məmulatın (müəyyən parametrlərə uyğun olaraq) nümunə kimi qəbul edilən qiyməti.

**Bazis növü (markası)** – fyuçers əqdinin, fyuçersin əsasını təşkil edən əmtəə növü, markası. Fyuçers birjalarında kontraktın əsası adətən əmtəələrin yayılmış növü, markaları hesabına genişlənir. Bunun da əsasında b.n.-nün qiymətinin müxtəlif əlavələri və güzəştləri müəyyən edilir.

**Bazis riski** – təcili əqdlərdə nağd və fyuçers qiyməti arasında əlverişsiz qarşılıqlı münasibət riski.

**Bazis şərtləri** – nəqliyyat vasitəsinə münasibətdə (tədarük, daşımaların ödənilməsi, risk və yükün saxlanması) yükün vəziyyətini müəyyən edən şərtlərdən asılı olaraq əqdin tərəflərinin əsas hüquq və vəzifələri. "İnkotermis" beynəlxalq ticarət terminlərinin təfsiri üzrə qaydalar külliyyatı mövcuddur. Bundan məqsəd belə terminlərin müxtəlif ölkələrdə edilən təfsirlərindəki fikir ayrılıqlarından və anlaşılmazlıqlarından qaçmaqdan ibarətdir. "İnkotermis" 1936-cı ildə verilmiş və tranportirovkaların texnologiyasında dəyişikliklərlə əlaqədar ona yenidən 1990-cı ildə baxılmışdır. Hazırda o, 1990-cı il redaksiyasında tətbiq edilir.

Beynəlxalq ticarət terminləri öz mahiyyətinə görə müxtəlif olan dörd əsas kriteriya üzrə qruplaşdırılmışdır. Birinci qrup terminlərə görə, satıcı əmtəəni alıcının sərəncamına satıcıya məxsus olan binada verir. İkinci qrup terminlərə görə, satıcı əmtəəni satıcını müəyyən edən daşıyıcıya tədarük etməyə borcludur. Üçüncü qrup terminlərə görə, satıcı əmtəənin daşınmasına dair müqavilə bağlayır, lakin onun məhvi və ya xarab olması və ya artıq əmtəənin yüklənməsindən və göndərilməsindən sonra baş vermiş hadisələrdən irəli gələn əlavə xərclər üçün riski öz üzərinə götürmür. Dördüncü qrup terminlərə görə, əmtəənin təyinat yerinə çatdırılması üçün zəruri olan bütün xərcləri, riskləri öz üzərinə götürməyə borcludur.

**Bazis valyutası** *(ing. basis currency)* – bu və ya digər ölkədə, yaxud maliyyə mərkəzində digər valyutalara, məsələn, ABŞ dollarına, ingilis funt sterlinqinə və i.a. kotirovka edilən valyuta.

**Beh** – müqavilə bağlanarkən tərəflərdən birinin digərinə müqavilə bağlanmasını təsdiq edən və onun icrasını təmin etmək üçün verdiyi pul məbləği. Həmin məbləğ müqavilədə nəzərdə tutulan ödəmələr hesabına verilir. B. məbləğindən asılı olmayaraq, b. haqqında saziş yazılı formada olmalıdır. AR MM-in 491.3-cü maddəsinə uyğun olaraq müqavilə üzrə tərəfin verəcəyi ödənilmiş məbləğin beh olub-olmadığına şübhə yarandıqda, o cümlədən AR MM-in 491.2-ci maddəsində müəyyənləşdirilmiş qaydaya riayət edilməməsi nəticəsində şübhə yarandıqda həmin məbləğ, əgər əksi sübuta yetirilməsə, avans kimi ödənilmiş sayılır.

Öhdəliyin icrasına başlanana qədər ona tərəflərin razılaşması üzrə və ya icranın mümkün olmaması nəticəsində xitam ve-

rildikdə beh qaytarılmalıdır. Əgər müqavilənin icra edilməməsi üçün beh vermiş tərəf məsuliyyət daşıyırsa, beh digər tərəfdə qalır. Əgər müqavilənin icra edilməməsi üçün beh almış tərəf məsuliyyət daşıyırsa, o, digər tərəfə behin iki mislini ödəməlidir. Bundan əlavə, müqavilənin icra edilməməsi üçün məsuliyyət daşıyan tərəf, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, beh məbləği hesaba alınmaqla, zərərin əvəzini digər tərəfə ödəməyə borcludur (AR MM-in 492-ci maddəsi).

**Benefis** *(fr. benefice – qazanc, mənfəət)* – incəsənət sahəsində bir və ya bir neçə aktyorun - benefisiantın xeyrinə verilən tamaşa. Tamaşanın xərci ödənilmək şərtilə yığılan gəlirin hamısı, yaxud onun bir hissəsi benefisianta verilirdi. İlk b. tamaşası 1735-ci ildə Fransada olmuş, 1783-cü ildən Rusiyada da keçirilmişdir. Azərbaycanda ilk b. 1889-cu ildə keçirilmiş və keçmiş SSRİ-də 1925-ci ildə ləğv edilmişdir.

**Benefisi** *(lat. beneficium – yaxşılıq, iltifat sözündən)* – **1)** Qədim Romada imtiyaz (məsələn, imperiya dövründə müxtəlif vergi imtiyazları, imperatorların bəxşişi və i.a.); **2)** erkən orta əsrlərdə Qərbi Avropada müəyyən qulluq çəkmə (başlıcası hərbi qulluq) şərtinə görə kral və ya feodal tərəfindən bəxşiş kimi verilən (vərəsəlik hüququ olmadan) torpaq sahibliyi. Benefisiarlar tədricən benefisinin ömürlük bəxşişindən irsi feodal mülkiyyətinə - feoda (lenə) çevrilirdilər.

**Benefisiar** *(lat. beneficium – iltifat)* – mənfəət əldə edən. Yəni müqaviləyə və ya sair qanuni əsasa görə nemətlərdən istifadə edən şəxs. Azərbaycan Respublikası mülki qanunvericiliyinin (AR MM-in XXIV fəsli, 478-490-cı maddələri) öhdəliklərin icrasının təmin edilməsi üsullarına dair normaların müvafiq hissəsini özündə əks etdirir.

**Berbout-çarter** – ekipajsız gəminin fraxt müqaviləsi. Bu müqaviləyə görə gəmi sahibi şərtləşdirilmiş ödəmə (fraxt) üzrə ekipaj tərəfindən qablaşdırılmış yükün yüklənməsini müəyyən müddətə fraxtçının istifadəsinə və sahibliyinə verməyi öhdəsinə götürür.

**Berçizm** – ABŞ-da ifrat sağçı, döyüşkən (müharibə meylli) mürtəce ideya-siyasi cərəyan. Bu cərəyanın tərəfdarları "Con Berç Cəmiyyəti" adlanan təşkilatda birləşmişdir.

**Berq-imtiyaz** – Rusiya hökumətinin dağ-mədən sənayesində siyasətini müəyyən edən 1719-cu il qanunvericilik aktı. Bu akt zavodlar üzərində irsi mülkiyyət hüququna təminat verir, dəmir filizinin sərbəst satışını, faydalı qazıntıların çarın mülkiyyəti olduğunu elan edirdi. Akt 1807-ci ilədək qüvvədə olmuşdur.

**Berq-kollegiya** – Rusiyada dağ-mədən sənayesinə rəhbərlik etmiş orqan. 1719-cu ildə I Pyotrun təşəbbüsü ilə təsis edilmiş, 1719-1731, 1742-1783 və 1797-1807-ci illərdə fəaliyyət göstərmişdir. Berq-imtiyazı və berq-reqlamenti, habelə adlı (fərdi) fərmanları və senat fərmanlarını rəhbər tutmuşdur.

**Berqleri** *(ing. burglar)* – Böyük Britaniyanın, ABŞ-ın və başlıca olaraq keçmiş ingilis müstəmləkələri və dominionları olan bir sıra digər dövlətlərin cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş spesifik cinayət növü. İngilis ümumi hüququna görə, b.-yə ağır cinayət – felonii məqsədilə gecə vaxtı özgəsinin mənzilinə sındırmaqla soxulma kimi tərif verilirdi. B. son dərəcə təhlükəli cinayət hesab olunur və planlaşdırılmış cinayətin bədniyyətli şəxs tərəfindən törədilib-törədilməməsindən (daha dəqiq ifadə edilərsə, başa çatdırılıb-çatdırılmamasından) asılı olmayaraq müstəqil surətdə cəzalandırılması nəzərdə tutulurdu.

ABŞ hüququnda b.-nin müəyyən edilməsində daha geniş təfsir ənənəsi aşkar olunur. Bəzi ştatların qanunlarına görə, əməlin b. kimi qiymətləndirilməsi üçün təqsirkarın hətta sındırmaya meyl etməyərək, icazə olmadan hər hansı binaya (o cümlədən nəqliyyat vasitəsinə) qanunsuz daxil olması, nəinki felonini, eləcə də istənilən cinayəti törətməsi kifayət edir.

**Berq-reqlament** – Berq-imtiyazın inkişafı üçün ona əlavə olaraq verilmiş 1739-cu il qanunvericilik aktı. B.-r. sənayeçilərin gəlir vergisini azaltmış, votçinniklərin öz torpaqlarında faydalı qazıntıları emal etmək hüququnu ləğv etmişdir. Həmin akt əcnəbilərə rus sənayeçilərinin malik olduqları eyni hüquqları vermişdir. 1807-ci ildə öz əhəmiyyətini itirmişdir.

**Bers-not** – dəniz daşımaları müqaviləsi. Bu müqavilə tramplarda az həcmli yüklərin, habelə xətdə olan gəmilərdə böyük həcmdə olan yüklərin daşınması üçün tətbiq edilir.

**"Bertilonaj"** *(bax: antropometriya).*

**Best** *(fars. best)* – **1)** İranda qədim adət hüququna əsaslanan və intiqamdan qorunma sığınacağı. Sığınacaq axtaran məsciddə, sərdabədə, ali ruhani şəxsin evində, səfirlikdə gizlənə bilərdi. Hakimiyyət orqanları tərəfindən təqib edilən şəxs göstərilən yerlərdən güc tətbiq edilməklə çıxarıla bilməzdi; **2)** axtarışdan gizlənmə.

**"Beşinci respublika"** – Fransada de Qoll hökumətinin işləyib hazırladığı 1958-ci il konstitusiyası əsasında qurulmuş siyasi quruluş. "B.r." siyasi quruluşu parlamentin səlahiyyətlərini məhdudlaşdıraraq icraedici hakimiyyət orqanının, xüsusilə də prezidentin səlahiyyətlərini genişləndirmişdir. Konstitusiyaya uyğun olaraq prezident vaxtından əvvəl Milli Məclisi buraxıb yeni seçkilər təyin etmək, fövqəladə şərait yarandıqda isə bütün hakimiyyəti öz əlində cəmləşdirmək hüququna malik idi. 1962-ci ildən ancaq prezident seçkilərinin keçirilməsi qaydası dəyişdirilmişdir. Fransanın demokratik qüvvələri B.r. konstitusiyanın yenidən nəzərdə keçirilməsi tələbi ilə çıxış edirdilər.

**"Beşkitab"** – qədim yəhudi xalqının dini-fəlsəfi və siyasi-hüquqi abidəsi. Əhdi-ətiqin ən mühüm və nüfuzlu komponentlərindən biri hesab olunan bu abidə iudist ənənəsinə görə "Tora" – "Təlim" adlandırılır. Adından göründüyü kimi beş kitabdan ibarət olan həmin "Təlim"in müəllifi Moisey (Musa peyğəmbər) hesab olunur. Abidədə yəhudilərin və onların ən qədim əcdadlarının, tarixi-mifoloji təsəvvürləri ifadə olunur. O, Yəhva ilə xalq arasında siyasi ittifaqın yaranmasını, inkişafını və onun daha da dərinləşməsinin tarixi prosesini əks etdirir.

Yəhvanın öz xalqı ilə bağladığı müqavilə haqqında mifoloji təsəvvürün İudey-İsrail cəmiyyətinin sosial-siyasi təcrübəsinə aparıb çıxarması şübhə doğurmur. Belə ki, məsələn, israillilərin Hevronda şah seçdikləri David onlarla müqavilə bağlamışdır. Şah sərkərdəlik və inzibati idarəçilik funksiyasını icra etməyi, xalq isə onun hakimiyyətini tanımaq vəzifəsini öz üzərinə götürmüşdü. Şahla onun təbəələri arasında bağlanan bu müqavilə münasibətləri cəmiyyətlə səmanın (yer üzü ilə göylərin) qarşılıqlı əlaqəsinin təzahürü kimi çıxış edirdi.

Tarixə məlum olan bu ilk müqavilə ümumbəşəri səciyyə daşıyırdı. O, həm də Yəhvanın birinci insanla bağladığı müqavilə idi. Sosial-siyasi təcrübənin təkmilləşməsinə aparıb çıxaran bu ilk müqavilə İudey-İsrail monoteizminin eramızdan əvvəl I minilliyin birinci yarısında cəmiyyəti lərzəyə salan kəskin sosial-siyasi münaqişələrin nəticələrinin ifadəsi kimi qızğın ideya mübarizəsi şəraitində təşəkkül tapmışdır. Bu münaqişələr xüsusi mülkiyyət münasibətlərinin formalaşması prosesində yaranmışdır.

"Təlim"də diqqəti cəlb edən cəhətlərdən biri qanunların Moiseyə bilavasitə allah tərəfindən verilməsinə dair mifik təsəvvürlərdir. Buna görə də peyğəmbər qanunverici Moiseyin rəhbərliyi altında yəhudilərin Misirdən çıxmasından bəhs edən əsatir "Təlim"də xüsusi yer tutur. Elə bu baxımdan da adətən qanunvericiliklə tənzimlənməli olmayan hallar "Təlim"də dövlət qanunvericiliyinin tərkib hissəsi kimi təqdim edilir. Eyni zamanda dini qanunvericilik də öz təbiətinrə də hərbi əməliyyatlar meydanına çevrilməyən şəhər. A.ş. statusu 1907-ci il Haaqa konfransında qəbul edilən "Quru qoşunların müharibəsi qanunları və adətləri haqqında" əsasnaməyə əsaslanır. Həmin əsasnamənin n lum mənbələrini allahın iradəsi əvəz edir. Beləliklə, qanun ilahi bir təlimə çevrilir. Buna görə də qədim yəhudi mifologiyasında sıravi insanın həyatında baş verən ağır bədbəxtliklər, onun həqiqətdən (haqq yolundan, ədalətdən) uzaqlaşması dünyanın nizamının pozulması kimi yozulur. Bütün bunlar "Beşkitab"da Moiseyin moizələrində Yəhvaya, yəni İsrailin vahid və həqiqi allahına xəyanət kimi qiymətləndirilir, günah kimi təfsir olunur.

"Təlim" qanunlar külliyyatı kimi öz quruluşuna görə topludan ibarət olan bir sıra eynitipli hüquq institutlarını özündə ehtiva edir. Hər bir toplu bitkin bir tamdan ibarətdir.

**Beylisin mühakiməsi** – rus uşağı A. Yuşinskini guya dini məqsədlə öldürməkdə əsassız təqsirləndirilən yəhudi M. Beylisin 1913-cü ildə Kiyevdə aparılmış mühakiməsi. İstintaq 1911-ci ildən 1913-cü ilədək davam etmişdir. Əsl qatilləri gizlədən çar hökumətinin məqsədi milli ədavəti qızışdırmaq və zəhmətkeş kütləni siyasi mübarizədən uzaqlaşdırmaq idi. Qabaqcıl rus ziyalıları (M. Qorki, V.Q. Korolenko, A.A. Blok və başqaları), xarici ölkələrin ictimai xadimləri (A. Frans və başqaları) b.m.-nə qarşı çıxış etmişlər. Müxtəlif şəhərlərdə etiraz nümayişləri keçirilmişdir. Beylisin məhkum ediləcəyi təqdirdə Peterburqda tətillər keçiriləcəyi nəzərdə tutulmuşdu. İctimaiyyətin təzyiqi altında andlı iclasçılar Beylisin barəsində bəraət verdikti çıxarmışdır.

**Beynəlxalq adət** *(bax: beynəlxalq-hüquqi adət)*..

"**Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının qanunu** – AR-in qanunvericilik aktı. 1999-cu il noyabrın 18-də qəbul edilmişdir. Qanun AR-in tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əməl edilməklə beynəlxalq ticarət arbitrajına tətbiq edilir. 8 fəsil və 36 maddədən ibarətdir.

**Beynəlxalq Atom Enerjisi Agentliyi (BAEA)** – hökumətlərarası beynəlxalq təşkilat; 1955-ci ildə yaradılmışdır. 1956-cı ildə BMT ilə bağlanmış saziş əsasında onun ümumi sisteminə daxil edilmişdir.







BAEA aşağıdakı səlahiyyətlərə malikdir: a) bütün dünyada atom enerjisinin mülki məqsədlər üçün öyrənilməsini, inkişaf etdirilməsini və ondan istifadəni mükafatlandırmaq və müdafiə etmək; b) öz üzvləri arasında onların istəyilə xidmətlər və material mübadiləsində vasitəçilik etmək; c) atom enerjisindən dinc məqsədlərlə istifadə üçün materiallardan, xidmət və avadanlıqlardan istifadəni təmin etmək; ç) atom enerjisindən dinc istifadə sahəsində elmi və texniki informasiya ilə mübadiləni mükafatlandırmaq; d) nüvə materiallarından hərbi məqsədlərlə istifadənin qarşısını almaq üçün tədbirlər görmək; e) BMT-nin bu məsələlərə görə məsul olan orqanları və institutları sistemi ilə birlikdə sağlamlığın təhlükəsizliyi və mühafizəsi sahəsində normalar müəyyən etmək.

**Beynəlxalq birjalar** – *(bax: birja).*

**Beynəlxalq borclar** – beynəlxalq maliyyə öhdəlikləri üzrə müvafiq dövlətin xarici dövlətlərin kreditlərindən, beynəlxalq valyuta-maliyyə təşkilatlarının istiqraz və kreditlərindən, xarici bankların kreditlərindən yığılan borcları, onların məbləği. Rəsmi xarici borc (dövlətin borcu və dövlət tərəfindən təminat verilən xüsusi borc) və dövlət təminatı olmayan xüsusi borc bir-birindən fərqləndirilir. Beynəlxalq borclar dedikdə dövlət borcunun bir hissəsi kimi rəsmi xarici bank nəzərdə tutulur.

**Beynəlxalq cinayət** *(bax: beynəlxalq cinayətlər).*

**Beynəlxalq cinayət ədalət mühakiməsi** – cinayət deliktlərinə və beynəlxalq xarakterli cinayətlərə baxılması üçün dünya birliyi dövlətləri tərəfindən yaradılan beynəlxalq məhkəmə mexanizmi və qaydası. B.c.ə.m. ideyası beynəlxalq hüququn doktrinasında XX yüzillikdə fəal müzakirə olunmağa başlamışdır. Bu zaman nasist cinayətlərinin və yapon militaristlərinin cinayətlərinin istintaqının aparılması üçün iki məhkəmə mexanizmi – Nürnberqdə və Tokioda beynəlxalq tribunal yaradılmışdı. 1993-cü ilin fevralında BMT-nin Təhlükəsizlik Şurası Yuqoslaviyada hərbi cinayətlərin istintaqının aparılması üçün beynəlxalq tribunalın yaradılması haqqında qərar qəbul etmişdi.

**Beynəlxalq cinayət hüququ** – xüsusi qaydada, yəni beynəlxalq müqavilələrdə nəzərdə tutulan cinayətlərə görə istintaqın aparılması və cəza tətbiq edilməsi, eləcə də həmin cinayətlərin qarşısının alınması ilə əlaqədar dövlətlər arasında əməkdaşlığı tənzimləyən *norma və prinsiplərin sistemi.* B.c.h. beynəlxalq hüququn sahələrindən biridir. O, dövlətlərin milli cinayət hüququ ilə sıx bağlıdır. B.c.h.-nun kompleks xarakteri (o, özündə cinayət, cinayət-prosessual hüququn və cinayət-islah hüququnun normalarını ehtiva edir); hərbi cinayətkarlara və insanlıq əleyhinə cinayətlərə iddia müddətinin tətbiq edilməməsi; universal və ərazi beynəlxalq müqavilələr növündə xüsusi mənbələr və yardımçı (beynəlxalq tribunalların və milli məhkəmələrin hökmləri) mənbələr; beynəlxalq birlik tərəfindən qəbul edilmiş hüququn ümumi prinsiplərinə uyğun olaraq törədildiyi anda cinayət hesab olunan cinayətkar aksiyalara münasibətdə beynəlxalq tribunalların nizamnamələrinə geriyə qüvvə verməsi; dövlətlər və hüquqi şəxslər növündə cinayətin xüsusi subyekti; xüsusi sanksiyalar və i.a. onun başlıca xüsusiyyətidir. B.c.h.-nda beynəlxalq cinayətlərə və

beynəlxalq xarakterli cinayətlərə görə məsuliyyət müəyyən edilmişdir.

**Beynəlxalq cinayətlər** – bəşər sivilizasiyası üçün xüsusi təhlükəli olan, beynəlxalq hüququn norma və prinsiplərini pozan cinayətlər. Təcrübədə dövlətlərin cinayətkar siyasətini realizə edən vəzifəli şəxslərin cəzalanmalı olan əməlləri bu cinayətlərin ən təhlükəlisidir. Bu cinayətlərə görə beynəlxalq siyasi və maddi məsuliyyət daşıyan dövlətlərlə yanaşı, dövlətlərin rəhbərləri, yüksək vəzifəli şəxsləri və cinayətkar siyasətin digər icraçıları da həmin cinayətlərin subyektləri olurlar.

B.c.-in siyahısı ilk dəfə Beynəlxalq Hərbi Tribunalın Nizamnaməsində 1945-ci ildə və Uzaq Şərq üzrə Analoji Nizamnamədə 1946-cı ildə tərtib edilmişdir. Nürnberq prosesi üzrə Beynəlxalq Hərbi Tribunalın Nizamnaməsinin 6-cı maddəsində həmin cinayətlər üç qrupa bölünmüşdür: 1) sülh əleyhinə olan cinayətlər; 2) hərbi cinayətlər; 3) insanlıq əleyhinə olan cinayətlər. Hərbi cinayətlərə və insanlıq əleyhinə olan cinayətlərə iddia müddətinin tətbiq edilməməsi haqqında 1968-ci il konvensiyasında ilk dəfə olaraq b.c. ayrıca (dördüncü) qrupa – bəşəriyyət əleyhinə olan cinayətlərə ayrılmışdır.

Beynəlxalq hüququn göstərişlərinə uyğun olaraq b.c.-ə görə məsuliyyət dövlətlərin milli cinayət qanunvericiliyində nəzərdə tutulur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin VII bölməsi (16-17-ci fəsilləri) sülh və bəşəriyyət əleyhinə olan cinayətlərə həsr edilmişdir.

**Beynəlxalq cinayət məhkəməsi** *(bax: beynəlxalq cinayət ədalət mühakiməsi).*

**Beynəlxalq çaylar** – iki və ya daha artıq dövlətin ərazisindən keçən və istifadəsi beynəlxalq hüquq münasibətlərinin predmeti olan çaylar. Məsələn, Dunay, Konqo, Amazon və i.a. belə çaylar hesab olunur. B.ç.-ın hər bir hissəsi sərhədləri daxilində keçən dövlətin suverenliyi altında yerləşir. Belə ki, b.ç.-ın ayrı-ayrı sahələri müvafiq sahilboyu dövlətin ərazisi hesab olunur və onun yurisdiksiyasına tabedir. B.ç.-dan keçən bütün xarici gəmilər, sularından keçdiyi ölkələrin üzmə qanunlarına əməl etməlidirlər. Mühüm b.ç.-ın hüquqi rejimi bütün sahilboyu dövlətlərin razılığı ilə müəyyən edilir. B.ç. içərisində bir neçə dövlətin ərazisini hissələrə ayıran və adətən beynəlxalq gəmiçilik üçün açıq olmayan sərhəd çayları fərqləndirilir.

**Beynəlxalq danışıqlar** – qarşılıqlı maraqdan ibarət olan məsələlərə dair fikir mübadiləsi, beynəlxalq münasibətlərin müxtəlif sahələrində əməkdaşlığın müəyyən edilməsi, qorunması və inkişafı, prinsiplərin müəyyənləşdirilməsi və onların adekvat hüquqi vasitələrin köməyilə tənzim edilməsi, beynəlxalq müqavilələrin işlənib hazırlanması və bağlanması, dövlətlərarası strukturların yaradılması, həmçinin mübahisələrin, o cümlədən hərbi xarakterli münaqişələrin həll edilməsi üçün beynəlxalq hüquq subyektlərinin işgüzar ünsiyyətinin ən səmərəli formalarından biri.

**Beynəlxalq delikt** – beynəlxalq hüquq normalarının, prinsiplərin və ya müqavilə öhdəliklərinin pozulmasından ibarət olub, beynəlxalq hüquq subyektinin beynəlxalq məsuliyyətə səbəb olan hərəkəti (hərəkətsizliyi). Pozuntuya yol verən subyekt delinkvent adlanır. B.d.-in həmişə qəsdlə törədilən əməl olub-olmaması haqqında məsələ beynəlxalq hüquq nəzəriyyəsində mübahisəlidir.





**Beynəlxalq Demokrat-Hüquqşünaslar Assosiasiyası (BDHA)** – mütərəqqi, demokratik fikirli hüquqşünasların beynəlxalq təşkilatı. İkinci dünya müharibəsi gedişində Müqavimət hərəkatı iştirakçılarından olan Fransa hüquqşünaslarının təşəbbüsü ilə 1946-cı ildə yaradılmışdır. Nizamnaməsinə görə BDHA-nın məqsədi bütün ölkələrin hüquqşünasları arasında əlaqə yaradılmasına və fikir mübadiləsinə kömək etməkdən, xalqlar arasında sülh və əməkdaşlıq naminə demokratik hüquq və azadlıqların müdafiəsi işində, bütün xalqların istiqlaliyyətini möhkəmləndirmək uğrunda onların birgə fəaliyyətini təmin etməkdən ibarətdir. BDHA-nın mənzil-qərargahı Brüsseldə yerləşir. BMT-nin İqtisadi və İctimai Şurasında və YUNESKO nəzdində məşvərətçi statusa malikdir. Məqsəd və fəaliyyəti BDHA-nın məqsədlərinə uyğun olan hər bir milli və beynəlxalq hüquqşünaslar birliyi onun üzvü ola bilər. BDHA-nın ali orqanı 3 ildə bir dəfə çağırılan konqresdir. Konqres milli assosiasiyaların nümayəndələrindən şura seçir, əməli rəhbərliyi isə şuranın seçdiyi büro həyata keçirir.

**Beynəlxalq dəmir yolları** – müxtəlif dövlətlər arasında sərnişinlərin, yüklərin, yük baqajlarının və baqajların daşındığı beynəlxalq nəqliyyat növü. Belə dəmir yolları AR ilə Müstəqil Dövlətlər Birliyinin (MDB-nin) iştirakçısı olan ölkələr arasında da mövcuddur.

**Beynəlxalq dəniz hüququ** – dövlətlərin, beynəlxalq təşkilatların dənizlərdən, okeanlardan və onların ehtiyatlarından, həmçinin bir sıra hallarda dəniz rayonları üzərindəki hava məkanından (məsələn, boğazlardan, açıq dənizdən) istifadə ilə əlaqədar yaranan qarşılıqlı münasibətləri tənzimləyən hüquq normalarının və prinsiplərinin məcmusu. B.d.h. beynəlxalq hüququn mühüm sahələrindən biridir. Açıq dənizdə azad gəmiçilik və onun üzərində azad uçuş, xarici gəmilərin ərazi dənizlərindən dinc keçid hüququ, gəmilərin beynəlxalq boğazlardan tranzit keçid və onların üzərindən uçan aparatların keçid hüququ b.d.h.-nun spesifik norma və prinsipləridir. B.d.h.-nun başlıca mənbəyi BMT-nin dəniz hüququ üzrə 1982-ci il Konvensiyasıdır. Konvensiya 1994-cü ilin oktyabrında qüvvəyə minmişdir.

**Beynəlxalq Dəniz Hüququ üzrə Tribunal** – BMT-nin dəniz hüququ üzrə 1982-ci il konvensiyasının təfsirinə və ya tətbiqinə aid olub, mübahisələrin həllinin və tənziminin əsas vasitələrindən biri. Dünyanın əsas hüquq sistemlərinin nümayəndəliyi və ədalətli coğrafi nümayəndəlik tribunalda təmsil edilmişdir. Nümayəndəlik konvensiya iştirakçısı olan dövlətlərin müşavirləri içərisindən gizli səsvermə yolu ilə 9 il müddətinə seçilən 21 nəfər üzvdən ibarətdir. BDHT-nin statutu konvensiyaya əlavə edilən sənəddə ifadə edilir və həmin sənədə uyğun olaraq tribunal BMT-nin Beynəlxalq Məhkəməsinin Statutuna çox oxşardır. Tribunalın qəbul etdiyi qərar məcburi qüvvəyə malikdir və qətidir.

**Beynəlxalq Dəniz Təşkilatı (BDT)** – beynəlxalq hökumətlərarası təşkilat; BMT-nin ixtisaslaşdırılmış müəssisəsi kimi 1959-cu ildən fəaliyyət göstərir. BDT bir aparat kimi hökumətlər arasında beynəlxalq gəmi ticarətinə aid texniki məsələlər üzrə əməkdaşlığa və informasiya

mübadiləsinə xidmət edir; hökumətlərin beynəlxalq gəmi ticarətinə toxunan diskriminasiya hərəkətlərinin və artıq məhdudiyyətlərinin aradan qaldırılmasına yardım göstərir, habelə dənizdə təhlükəsizliyin (o cümlədən iqtisadi təhlükəsizliyin) təmin edilməsi üzrə normalar qəbul edir.

**Beynəlxalq Elektrik Rabitəsi İttifaqı (BERİ)** – BMT-nin ixtisaslaşdırılmış müəssisələrindən biri; beynəlxalq hökumətlərarası təşkilatdır. BERİ elektrik rabitəsinin yaxşılaşdırılması və ondan səmərəli istifadə edilməsi üçün beynəlxalq əməkdaşlığı müdafiə edir və genişləndirir; elektrik rabitəsi sahəsində inkişaf etməkdə olan ölkələrə texniki yardım göstərir; texniki vasitələrin inkişafına və elektrik rabitəsinin optimal istismarına kömək edir. Beynəlxalq teleqraf ittifaqı kimi 1865-ci ildə yaradılmışdır.

**Beynəlxalq Ədalət Mühakiməsinin Daimi Palatası (BƏMDP)** – daimi fəaliyyət göstərən beynəlxalq məhkəmə orqanı. Millətlər birliyinin orqanı olmasa da, onun mövcudluğu dövründə fəaliyyət göstərmişdir. BƏMDP formal olaraq 1946-cı ilin fevralınadək mövcud olmuşdur. Onun hakimlərinin səlahiyyət müddəti bitdikdən sonra palata öz funksiyasını öz varisi – BMT-nin Beynəlxalq Məhkəməsinə vermişdir. BƏMDP-nin fəaliyyəti onun statutu, habelə palatanın özü tərəfindən işlənib hazırlanmış və onun mühakimə icraatının qaydalarını müəyyən edən reqlamentlə tənzim edilirdi. BƏMDP əvvəlcə Millətlər Birliyinin Şurası və Məclisi tərəfindən 9 il müddətinə seçilən 11, sonra isə 15 nəfər hakimdən ibarət olmuşdur. Palatanın yurisdiksiyası dövlətlərarası mübahisələrə şamil olunurdu. Palatanın müxtəlif kateqoriya mübahisələr üzrə yurisdiksiyası 47 dövlət tərəfindən qəbul edilmişdi.

**Beynəlxalq Əmək Təşkilatı (BƏT)** – 1919-cu ildə yaradılmış hökumətlərarası təşkilat. BƏT 1946-cı ildə BMT-nin ilk ixtisaslaşdırılmış idarəsi olmuşdur. Onun tərkibinə 170-dən artıq dövlət daxildir. BƏT bərabər hüquqlarla və əmək şəraitinin mühafizəsi və yaxşılaşdırılması, tam məşğulluğun və yüksək həyat şəraitinin təmin edilməsi, sahibkarlar və zəhmətkeşlər arasında əməkdaşlığı mükafatlandırmaq üzrə tədbirlərin işlənib hazırlanması məqsədilə hökumətləri, sahibkarları və zəhmətkeşləri birləşdirir. Konvensiya və tövsiyələr işləyib hazırlayır. BƏT-in strukturunu Beynəlxalq əmək konfransı; İnzibati Şura; Beynəlxalq əmək bürosu; Üçtərəfli komitələr; Regional konfranslar və xüsusi konfranslar təşkil edir.

**Beynəlxalq əmtəə hərracları** – fərdən müəyyən edilən əmtəələrin və ya qabaqcadan müayinədən keçirilən, yaxud alıcının ən yüksək qiymət təklif etdiyi əmtəələr partiyasının (lotların) açıq ticarəti yolu ilə əvvəlcədən təyin edilmiş yerdə və şərtləşdirilmiş vaxtda satışı üzrə müntəzəm olaraq təşkil edilən beynəlxalq bazarlar. B.ə.h.-nda xəzlərin, yuyulmamış yunun, çayın, tütünün və i.a. alqı-satqısı üzrə çoxsaylı əqdlər bağlanır. Ədviyyatlar, cod tük, güllər, ayrı-ayrı ağac növləri, atlar, tərəvəzlər, meyvələr və i.a. da hərrac ticarətinin predmeti ola bilər. Ayrı-ayrı əmtəələr üçün hərrac ticarətinin ənənəvi mərkəzləri (məsələn, xəz dərilər üçün Sankt-Peterburq, Leypsiq, London; yuyulmamış yun üçün London, Liverpul, Antverpen; çay üçün Kəlkütte, Kolombo, London) təşəkkül tapmışdır.





**Beynəlxalq ərazi** – dövlətin coğrafi məkan ərazisi hüdudlarından kənarda yerləşən, müstəsna olaraq heç bir dövlətə məxsus olmayıb bütün bəşəriyyətin və bütün dövlətlərin ümumi istifadəsində olan, hüquqi statusu və rejimi beynəlxalq hüquqla müəyyən edilən ərazi. B.ə.-lərə açıq dəniz, onun üzərindəki hava məkanı, qitə şelfi hüdudlarından kənarda yerləşən dənizin dibi, Antraktika, kosmik fəza (məkan), Ay və digər göy cisimləri aid edilir.

**Beynəlxalq ərazinin icarəsi** – müəyyən bir dövlətin öz ərazisinin hər hansı hissəsini və həmin hissədə yerləşən obyektlərin (qurğuları) müəyyən məqsəd və şərtlərlə müəyyən müddətə digər dövlətə istifadə üçün müqavilə əsasında verməsi. İcarəyə verən dövlət həmin əraziyə münasibətdə öz suverenliyini qoruyub saxlayır. Belə təcrübədən beynəlxalq nəqliyyat yollarının inşası və istismarında, kanallar və boru kəmərləri çəkilişində, limanlarda azad zonaların müəyyən edilməsində və i.a. istifadə olunur. 2005-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan boru kəmərini buna misal göstərmək olar.

**Beynəlxalq gömrük hüququ** – dövlətlər və (və ya) beynəlxalq təşkilatlar arasında gömrük məsələləri üzrə beynəlxalq əməkdaşlıq sahəsində münasibətləri tənzim edən müqavilələr əsasında müəyyən edilən beynəlxalq-hüquqi norma və prinsiplərin (öhdəlik və qaydaların) məcmusu.

**Beynəlxalq hava hüququ** – beynəlxalq hava yollarından istifadə məqsədilə dövlətlər arasında beynəlxalq münasibətləri tənzim edən beynəlxalq norma və prinsiplərin məcmusundan ibarət olan beynəlxalq hüququn sahələrindən biri. B.h.h. hava yollarının müəyyən edilməsi, onlardan istifadənin həyata keçirilməsi və inkişafı gedişində yaranan dövlətlərarası münasibətləri tənzimləyir. B.h.h.-nun predmetini dövlətlər arasında hava hüdudları və beynəlxalq hava yollarının hüquqi rejiminə aid olan münasibətlər təşkil edir. Dövlətlər arasında hava yolları beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri, müxtəlif dövlətlər arasında bağlanmış çoxtərəfli və ikitərəfli sazişlərdə ehtiva olunan prinsip və normalar əsasında tənzim edilir.

**Beynəlxalq hesablaşma** – müxtəlif dövlətlərin idarə, müəssisə, bank və ayrı-ayrı hüquqi şəxslərin arasında pul hesablaşması. Xarici ticarət, kredit, investisiya, nəqliyyat xidmətləri və turizm, xarici ölkədə diplomatik nümayəndəliyin saxlanması, xarici ölkəyə ezamiyyət və nümayəndə heyətinin getməsi və i.a. ilə əlaqədardır. B.h.-da əsas yeri xarici ticarət üzrə hesablaşmalar tutur. B.h.-nın böyük hissəsi bank vasitəsi ilə nağdsız hesablaşma qaydasında aparılır.

**Beynəlxalq Hesablaşma Bankı (BHB)** – beynəlxalq maliyyə əməliyyatları, habelə valyuta-maliyyə məsələlərində qarşılıqlı məsləhətləşmələr aparmaq məqsədi ilə yaradılmış bank; 1930-cu ildə İsveçrənin Bazel şəhərində təsis edilmişdir. BHB formaca səhmdar cəmiyyətidir. 1958-ci ildən Avropa Valyuta Sazişi çərçivəsində Avropa Kömür və Polad Birliyinin maliyyə funksiyasını həyata keçirən agent kimi fəaliyyət göstərir.

**Beynəlxalq hesab vahidləri** – beynəlxalq ödəmələr və ehtiyat vəsaitləri qismində, habelə beynəlxalq borc öhdəliklərinin, ödəmələrin, valyuta ehtiyatlarının, depo-

zitlərin və kreditlərin müqayisə edilməsi üçün tətbiq edilən şərti valyuta vahidləri.

**Beynəlxalq Hərbi Tribunal** – ikinci dünya müharibəsinin əsas hərbi cinayətlərinin təqib olunması və hərbi cinayətkarların cəzalandırılması üçün yaradılmış beynəlxalq məhkəmə orqanı. Avropa dövlətlərinin əsas hərbi canilərinin mühakiməsi üçün SSRİ, ABŞ, Böyük Britaniya və Fransa hökumətləri arasında hitlerçilərin törətdikləri cinayətlər üçün məsuliyyət haqqında 1943-cü il Bəyannaməsinə uyğun olaraq 1945-ci il avqustun 8-də yaradılmışdır. Uzaq Şərq üzrə beynəlxalq hərbi tribunal 1946-cı il yanvarın 19-da Yaponiyanın paytaxtı Tokioda yaradılmışdır. Tribunalda 11 dövlət təmsil olunmuşdu (SSRİ, ABŞ, Çin, Böyük Britaniya, Avstraliya, Kanada, Fransa, Hollandiya, Yeni Zelandiya, Hindistan və Filippin). Tribunal Yaponiyanın əsas hərbi canilərinin məhkəmə prosesini aparmışdır.

**Beynəlxalq himayəçilik** – BMT-nin Baş Məclisi tərəfindən təsdiq edilən sazişlər əsasında himayəçilik sisteminə daxil edilmiş və BMT-nin nəzarəti altındakı ərazilərin idarəçiliyi (əgər ərazi BMT-nin Təhlükəsizlik Şurası tərəfindən strateji zona kimi tanınmışdırsa). BMT Nizamnaməsinə uyğun olaraq himayə sisteminə aşağıdakı ərazilər daxil edilmişdir: a) əvvəllər mandat altında olan ərazilər; b) ikinci dünya müharibəsi nəticəsində düşmən dövlətlərdən qoparılmış ərazilər; c) dövlətlər (həmin ərazilərin idarə olunmasına məsul olan dövlətlər nəzərdə tutulur) tərəfindən himayə sisteminə könüllü daxil edilən ərazilər.

**Beynəlxalq hökumətlərarası təşkilatlar** – müəyyən beynəlxalq problemlərin həlli üzrə və müxtəlif sosial quruluşlu dövlətlərin hərtərəfli əməkdaşlığına yardım edilməsi üçün hökumətlərin səylərinin əlaqələndirilməsi məqsədilə beynəlxalq sazişlər və ya sair təsisedici aktlar əsasında yaradılan dövlətlərin daimi birlikləri. B.h.t. beynəlxalq təşkilatların bütün cəhətlərini özündə ehtiva edir. BMT-nin özü, YUNESKO və başqaları ümumdünya hökumətlərarası təşkilatlara misal ola bilər.

**Beynəlxalq humanitar hüquq** – müharibə aparılmasının beynəlxalq konvensiya və adət normalarının (müharibə qanunları və adətlərinin) məcmusu. B.h.h. döyüşən dövlətlər, habelə bu dövlətlərlə bitərəf dövlətlər arasındakı münasibətləri tənzimləyir. B.h.h.-un təyinatı hərbi vasitə və metodları humanistləşdirməkdən ibarətdir. B.h.h.-un normaları həmçinin hərbi əsirləri, mülki əhalini və müharibənin digər qurbanlarını müdafiə edirlər.

**Beynəlxalq hüquq (ümumi hüquq)** – dövlətlər və beynəlxalq münasibətlərin digər subyektləri arasında siyasi, iqtisadi, elmi-mədəni və i.a. münasibətləri tənzim edən normalar sistemi. B.h.-da başqa hüquq sahələri kimi tarixi kateqoriyadır və dövlətin yaranması ilə formalaşmağa başlamışdır. B.h.-un ayrı-ayrı institutları hələ Qədim Misirdə, Hindistanda və Yunanıstanda meydana gəlmişdir. Onun nəzəri müddəaları qədim yunan və Roma alimlərinin əsərlərində öz əksini tapmışdır. Müasir beynəlxalq hüquq hamılıqla qəbul olunmuş norma və prinsiplərdən, yəni bütün dövlətlər tərəfindən tanınmış və onlar üçün məcburi səciyyə daşıyan normalardan, prinsiplərdən ibarətdir.

**Beynəlxalq Hüquq Akademiyası** – beynəlxalq tədris və elmi tədqiqatlar mərkəzi. 1923-cü ildə Karneginin vəsaiti və







Egida fondu hesabına yaradılmışdır. Akademiyanın işində 50-dən artıq ölkənin yüksək ixtisaslı hüquqşünasları (beynəlxalq hüquq sahəsinin mütəxəssisləri) – alimlər, müəllimlər və təcrübi işçilər iştirak edirlər. Akademiyanın məqsədi beynəlxalq hüquq sahəsində elmi tədqiqatlar aparmaqdan və müxtəlif ölkələrin beynəlxalq hüquq sahəsindəki hüquqşünasları və elmi-hüquqi təşkilatları arasında qarşılıqlı əlaqələr və əməkdaşlıq yaratmaqdan ibarətdir.

**Beynəlxalq Hüquq Assosiasiyası** – beynəlxalq hüquq sahəsindəki hüquqşünasların beynəlxalq qeyri-hökumət elmi təşkilatı. 1873-cü ildə Brüsseldə yaradılmışdır. 1895-ci ilədək Xalqlar Hüququnun İslahatı və məcəlləşdirilməsi üzrə Assosiasiya adlanırdı. Assosiasiyanın tərkibinə milli şöbələr (50 ölkədən), habelə beynəlxalq hüquq sahəsinin aparıcı mütəxəssislərindən ibarət fərdi üzvlər, hüququn başqa sahələrinin nümayəndələri, siyasi xadimlər, diplomatlar daxildir. BHA-nın 5 mindən artıq üzvü vardır. Onun nizamnaməsinə uyğun olaraq təşkilatın başlıca məqsədi beynəlxalq hüququn öyrənilməsindən və inkişaf etdirilməsindən, müqayisəli hüquqi tədqiqatlar aparılmasından, hüquqi mübahisələrin həlli barəsində təkliflər irəli sürülməsindən, eləcə də xalqlar arasında qarşılıqlı anlaşmaya yardım edilməsindən ibarətdir. BHA-nın ali orqanı 2 ildə bir dəfə çağırılan konfransdır. Konfranslararası dövrdə onun fəaliyyətinə əsasən milli şöbələrin başçılarından ibarət olan İcraiyyə Şurası rəhbərlik edir.

**Beynəlxalq-hüquqi adətlər** – beynəlxalq təcrübədə təşəkkül tapmış davranış qaydaları; beynəlxalq hüququn subyektləri üçün hüquqi cəhətdən məcburi səciyyə daşıyır. Beynəlxalq müqavilə kimi, adətlər də hüququn əsas mənbəyidir. Müqavilə normalarından fərqli olaraq B.-h.a. müəyyən qaydanın formuləsində dəqiq ifadə olunan hüquqi sənəddən ibarət deyildir. B.-h.a. üçün uzun müddət ərzində tətbiq edilmə və hüquqi məcburiyyətdə inandırma xarakterikdir. Bu zaman uzun müddətlilik dövlətlərin təcrübəsində nisbi xarakter daşıyır. B.-h.a. ilk növbədə dövlətlərin təcrübəsi prosesində yaranır. Hazırda beynəlxalq təşkilatların qərarları adət normalarının yaradılmasında böyük rol oynayırlar. Beynəlxalq təşkilatlar öz fəaliyyəti prosesində də adət normalarının yaranmasına yardım edirlər.

**Beynəlxalq hüquqi məsuliyyət** – beynəlxalq-hüquqi öhdəliyin pozulması nəticəsində beynəlxalq hüquq subyektinin digər subyektə vurduğu zərəri aradan qaldırmaq, yaxud maddi zərərin əvəzini ödəmək vəzifəsi. Vurulmuş zərərin əvəzinin bu qayda ilə ödənilməsi xüsusi beynəlxalq müqavilə ilə nəzərdə tutulduğu halda müttəq məsuliyyət meydana gəlir.

**Beynəlxalq Hüquq İnstitutu** – beynəlxalq elmi mərkəz. 1873-cü ildə Belçikanın Gente şəhərində beynəlxalq hüququn tərəqqisinə və onun məcəlləşdirilməsinə yardım məqsədilə məşhur hüquqşünas-alimlər tərəfindən yaradılmışdır. İnstitutun tərkibinə onun sessiyalarında seçilən həqiqi üzvlər (60 nəfərdən çox olmaqla) və müxbir üzvlər (72 nəfərdən çox olmamaqla) daxildir. Dünyanın 40-dan artıq ölkəsinin beynəlxalq hüquq sahəsindəki görkəmli hüquqşünasları institutun üzvüdür. BHİ-nin plenar orqanı 2 ildə bir dəfə çağırılan sessiyadır. Sessiyalararasındakı

dövrdə institutun işinə büro rəhbərlik edir. Sessiyalarda beynəlxalq hüququn aktual problemləri müzakirə olunur, həqiqi və müxbir üzvlər seçilir, institutun prezidenti, vitse-prezidentləri (3 nəfərdən ibarət) və baş katib seçilir. Sessiyalardakı müzakirələrdə konvensiyalar layihəsi qəbul olunur. Sessiyaların materialları xüsusi toplularda ("Annuaire de institut de Droit international") nəşr olunur. BHİ-nin mənzil qərargahı Brüsseldə yerləşir.

**Beynəlxalq-hüquqi tanıma** – mövcud dövlətlərin beynəlxalq hüquqa uyğun olaraq yeni dövlətləri və ya hökumətləri, yaxud digər orqanları onlarla rəsmi və ya qeyri-rəsmi, tam və ya natamam, daimi və ya müvəqqəti münasibətlər müəyyən etmək məqsədilə tanıması. B.h.t.-nın növləri aşağıdakılardır: a) dövləti tanıma; b) hökuməti tanıma; c) üsyan etmiş tərəfi tanıma; ç) milli-azadlıq hərəkatı təşkilatını (orqanını) tanıma; d) müqavimət hərəkatı təşkilatını tanıma. B.h.t.-nın ənənəvi forması de-yure və de-fakto tanımadır. Bəyanat rəsmi tanıma hesab olunur.

**Beynəlxalq hüquq münasibətləri** – beynəlxalq hüquq normaları ilə tənzim edilən beynəlxalq münasibətlər. Subyektiv hüquq və vəzifələrin daşıyıcıları – dövlətlər, öz müstəqilliyi uğrunda mübarizə aparan millətlər və xalqlar, hökumətlərarası təşkilatlar həmin münasibətlərin iştirakçılarıdır. B.h.m.-ndə iştirak edən dövlətlər beynəlxalq hüququn yaradıcıları kimi çıxış edirlər. Bu münasibətlərin iştirakçılarının subyektiv hüquq və vəzifələri onların mümkün və lazımi davranışını müəyyən edirlər. B.h.m. öz sosial məzmununa görə müxtəlifdirlər. Onlar dövlətlər arasındakı müxtəlif sosial-iqtisadi quruluşdan və i.a. təşəkkül tapırlar.

**Beynəlxalq hüquq norması** – dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin davranışının hüquqi-məcburi qaydası. B.h.n. beynəlxalq hüququn subyektlərinin iradəsinin razılaşdırılmış nəticəsi kimi çıxış edir. Beynəlxalq-hüquqi öhdəliklərə, beynəlxalq hüquq normalarına bütün subyektlər tərəfindən könüllü əməl edilməsi müstəqil və xüsusi hüquqi sistem kimi beynəlxalq hüququn səciyyəvi cəhətlərindəndir. B.h.n.-nın yaradılmasının iki üsulu mövcuddur: 1) beynəlxalq müqavilələr; 2) beynəlxalq-hüquqi adətlər. Müqavilə və adətlərin hüquqi-məcburi qüvvəsi eynidir. Bu, dövlətlərin təcrübəsi, BMT Nizamnaməsi, BMT-nin Beynəlxalq Məhkəməsinin Statutu, beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vena konvensiyası ilə təsbit edilmişdir. B.h.n. beynəlxalq hüququn subyektlərinin (başlıcası dövlətlərin) sayına görə təsnif edilə bilər. Bu baxımdan beynəlxalq hüquq normaları universal, regional və lokal normalara ayrılırlar.

**Beynəlxalq hüquq pozuntusu** – dövlət və ya beynəlxalq hüququn digər subyekti tərəfindən öz beynəlxalq öhdəliklərini pozmada ifadə olunan beynəlxalq hüquqazidd əməl. Dövlətlərin və beynəlxalq təşkilatların hüququnu, dövlətlərin bir-biri və ya beynəlxalq təşkilatlar qarşısında öhdəlikləri pozması b.h.p.-na aiddir. B.h.p. hüquqazidd hərəkət və ya hərəkətsizliyin nəticəsi ola bilər. Beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri, beynəlxalq müqavilələr, dövlətin hüquqları, şərəf və ləyaqəti, onun əmlak hüquqları, beynəlxalq təşkilatların hüquqları, əcnəbilərin hüquq və mənafeləri, diplomatik nümayəndələrin, onların şəxsi heyətinin və əməkdaşlarının toxunulmazlığı b.h.p.-nun obyekti ola bilər. B.h.p. müəyyən maddi və ya qeyri-maddi zərərin vurulmasına səbəb olur. Dövlətlər, beynəlxalq təşkilatlar və fiziki şəxslər beynəlxalq hüquq pozuntusunun subyekti ola bilərlər.

**Beynəlxalq hüquq sahəsi** – beynəlxalq hüququn spesifik predmetini təşkil edən və beynəlxalq hüququn obyektlərinin spesifik qrupu ilə bağlı olan müəyyən sahədə beynəlxalq hüququn subyektləri arasındakı münasibətləri tənzimləyən hüquq normalarının və prinsiplərinin məcmusu. B.h.s.-nin hər birinin norma və prinsiplərinin məcmusu bütövlükdə beynəlxalq hüququn tərkib hissəsidir. Onlar beynəlxalq hüququn əsas prinsiplərinin hüquq münasibətlərinin müəyyən sahəsində tətbiqini konkretləşdirərək, həmin prinsiplərə əsaslanır və onlara zidd ola bilməzlər. Bir sıra beynəlxalq hüquq sahəsi üçün onların norma və prinsiplərinin ərazi və məkan (dünya okeanının, hava hüdudlarının, kosmik fəzanın akvatoriyası rejiminin hüquqi statusunu müəyyən etmək səciyyəvidir. Beynəlxalq dəniz hüququ, beynəlxalq hava hüququ, beynəlxalq kosmos hüququ, beynəlxalq müqavilələr hüququ, beynəlxalq ticarət hüququ və i.a. beynəlxalq hüququn sahəsi kimi hamılıqla tanınmışdır.

**Beynəlxalq hüquq subyektliliyi** – beynəlxalq hüququn subyekti qismində beynəlxalq hüquq normalarının qüvvəsinə bilavasitə tabelik. Bir qayda olaraq, beynəlxalq hüquq normaları, müqavilələr və adətlərlə müəyyən edilən hüquq və vəzifələrin mövcudluğunda təzahür edir. B.h.s.-nə ancaq dövlətlərarası münasibətlərin iştirakçıları malik ola bilər. Yalnız belə iştirakçılar beynəlxalq hüququn subyekti ola bilər. Dövlətlərarası münasibətlərin iştirakçıları öz aralarında onların qarşılıqlı münasibətlərini tənzimləyən normalar, yeni beynəlxalq hüquq normaları yaradırlar. Beynəlxalq hüququn ilkin və törəmə subyektləri fərqləndirilir. Dövlətlər (beynəlxalq hüququn əsas subyektləri), habelə öz müstəqilliyi uğrunda mübarizə aparan millətlər ilkin, beynəlxalq təşkilatlar (hökumətlərarası) törəmə subyektlər hesab olunurlar. Fərdlər və ya ictimai (qeyri-hökumət) beynəlxalq təşkilatlar dövlətlərarası münasibətlərin iştirakçıları ola bilmədiklərinə görə, təbii ki, beynəlxalq hüququn subyekti də ola bilməzlər.

**Beynəlxalq hüququn doktrinası** – geniş mənada – konkret tarixi şəraitdə beynəlxalq hüququn mahiyyəti və təyinatı haqqında görüşlər və konsensiyalar sistemi; məhdud mənada beynəlxalq hüquq sahəsində çalışan hüquqşünasların elmi əsərləri. B.h.d. beynəlxalq hüququn köməkçi mənbəyidir. BMT-nin Beynəlxalq Məhkəməsinin Statutunun 38-ci maddəsində qeyd edilir ki, məhkəmə "müxtəlif millətlərin ümumi hüququ üzrə hüquq normalarının müəyyən edilməsi üçün köməkçi vasitə qismində ən ixtisaslı mütəxəssislərin doktrinasını" tətbiq edir. İxtisaslı hüquqşünasların doktrinası beynəlxalq müqavilələrin və beynəlxalq təşkilatların qərar layihələrinin işlənib hazırlanmasına, beynəlxalq hüquq normalarının düzgün təfsir edilməsinə kömək edir. Doktrinalarda beynəlxalq təfəkkürün beynəlxalq hüquq normalarına çevrilə bilən yeni qaydaları işlənib hazırlanır və formulə edilir.

**Beynəlxalq hüququn əsas prinsipləri** – müəyyən tarixi mərhələdə beynəlxalq həyatın mühüm məsələlərinə dair beynəlxalq münasibətlərin subyektlərinin hamılıqla və ümumiləşdirilmiş şəkildə tanınmış davranış normaları. B.h.ə.p. BMT Nizamnaməsində nəzərdə tutulur və bu təşkilatın üzvü olan dövlətlər üçün məcburi hüquqi qüvvəyə malikdir. Beynəlxalq hüququn digər subyektləri üçün də bu prinsiplər məcburi səciyyə daşıyır. Həmin prinsiplər beynəlxalq adət xarakterinə malikdir. B.h.ə.p. BMT Nizamnaməsinin 2-ci maddəsində aşağıdakı kimi formulə edilmişdir: a) BMT-nin bütün üzvlərinin suveren bərabərliyi; b) nizamnamə öhdəliklərinin vicdanla yerinə yetirilməsi; c) beynəlxalq mübahisələrin BMT-nin bütün üzvləri tərəfindən dinc vasitələrlə həll edilməsi.

**Beynəlxalq hüququn lokal norması** – beynəlxalq hüququn subyektlərinin məhdud dairəsi (iki və ya bir neçə subyekt arasında) arasında müəyyən beynəlxalq münasibətlər sahəsini tənzimləyən hüquqi cəhətdən məcburi davranış qaydası. Eyni coğrafi rayonda yerləşən beynəlxalq hüquq subyektlərinin B.h.l.n.-nın hüquqi qüvvəsini tanıdıqları zaman o, regional və qeyri-regional səciyyə daşıya bilər. Sonuncu halda beynəlxalq hüququn müxtəlif rayonlarda yerləşən subyektləri arasında münasibətləri tənzim edir. B.h.l.n. müasir beynəlxalq hüququn hamılıqla tanınmış norma və prinsiplərinə uyğun olmalıdır. Əks təqdirdə onların heç bir hüquqi qüvvəsi olmur.

**Beynəlxalq hüququn məcəlləşdirilməsi** – beynəlxalq hüququn qüvvədə olan normalarının təkmilləşdirilməsi (onların dəqiqləşdirilməsi, normalar arasındakı ziddiyyətlərin aradan qaldırılması, köhnəlmiş normaların ləğv edilməsi), yeni normaların yaradılması prosesi. Müasir şəraitdə məcəlləşdirmə prosesi, bir qayda olaraq, dövlətlərarası təşkilatların fəaliyyəti çərçivəsində gedir. Bu istiqamətdə xüsusi olaraq bundan ötrü BMT-nin Baş Məclisi tərəfindən yaradılmış daimi köməkçi orqan – Beynəlxalq Hüquq Komissiyası (BHK) böyük iş aparır.

**Beynəlxalq hüququn mənbələri** – beynəlxalq hüququn subyektlərinin razılaşdırılmış iradə ifadəsi nəticəsində beynəlxalq hüquq normalarının mövcud olduğu forma. B.h.m. öz hüquqi təbiətinə görə eynidir. Beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adətlər beynəlxalq hüququn əsas mənbələridir. Beynəlxalq təşkilatların qərarları, beynəlxalq məhkəmə orqanlarının aktları, dövlətlərin daxili qanunları, milli məhkəmələrin qərarları, beynəlxalq hüququn doktrinası beynəlxalq hüququn köməkçi mənbələri olsalar da, beynəlxalq hüququn bilavasitə mənbələri hesab olunurlar.

**Beynəlxalq hüququn obyekti** – dövlətin daxili səlahiyyətinə müstəsna dərəcədə aid olmayan maddi və qeyri-maddi nemətlər, hərəkətlər və hərəkətlərdən imtina etmə; bunun əsasında beynəlxalq hüququn subyektləri hüquq münasibətlərinə daxil ola bilərlər. B.h.o. beynəlxalq hüquqa təsir göstərir, belə təsirin özü isə beynəlxalq hüququn predmeti kimi çıxış edir. Deməli, b.h.o.-ni beynəlxalq hüququn predmetindən, yəni beynəlxalq hüquq münasibətlərinin özündən fərqləndirmək lazımdır. B.h.o. beynəlxalq hüququn sahələrinin bölgüsündə nəzərə alınır. Belə ki, diplomatik hüquq dövlətlərin nəinki diplomatik əlaqələr sahəsindəki münasibətlərini tənzimləyir, həm də diplomatik nümayəndəliklərin statusunu müəyyən edir; beynəlxalq dəniz hüququ dəniz və okeanlardan istifadə üzrə münasibətləri əhatə etməklə yanaşı, həm də dəniz hüdudlarının rejimini müəyyən edir.





**Beynəlxalq hüququn predmeti** – beynəlxalq hüququn norma və prinsipləri ilə tənzim edilən beynəlxalq münasibətlər, yəni beynəlxalq hüququn subyektlərinin öz hüquq və vəzifələrini realizəetmə prosesində təşəkkül tapan hüquq münasibətləri. B.h.p. bu hüququn sahələrə bölgüsünün əsasında durur. Subyektlərin beynəlxalq hüquqla tənzim edilməyən münasibətləri onun predmetinə daxil deyildir (məsələn, parlamentlərarası əlaqələr). Beynəlxalq hüquq elminin predmeti anlayışı da mövcuddur ki, bu da həmin elmin nəyi öyrəndiyini göstərir.

**Beynəlxalq hüququn sistemi** – beynəlxalq hüququn qüvvədə olan normalarından ibarət olub, beynəlxalq hüququn öz prinsiplərinə malik olan, institutlara və yarımsahələrə bölünən qarşılıqlı əlaqəli sahələrinin məcmusu. Bu normalar beynəlxalq hüququn sisteminin elementləri kimi, subyektlərin dairəsinə (universal, bütün dövlətlər üçün məcburi, məhdud dairəli dövlətlər üçün lokal və məcburi) və öz hüquqi qüvvəsinə görə eyni deyildir. Beynəlxalq hüquq normaları qarşılıqlı əlaqəli olduqlarına görə, onların hər birinin məzmununa bütün beynəlxalq hüquq sisteminin kontekstində baxılmalıdır. B.h.s. müəyyən dərəcədə beynəlxalq hüquq elminin sistemini şərtləndirirsə də, lakin onunla üst-üstə düşmür. Subyektiv xarakterə malik olan b.h.s. özündə beynəlxalq hüququn əsas prinsiplərini və onun sahələrini ehtiva edir. Beynəlxalq müqavilələr hüququ, əhalinin statusunu tənzimləyən norma və prinsiplər, dövlətlərin ərazi rejimini və sair ərazilərin rejimini müəyyən edən norma və prinsiplər, beynəlxalq dəniz hüququ, beynəlxalq hava hüququ, beynəlxalq kosmos hüququ, diplomatik hüquq, konsul hüququ və i.a. həmin sahələrə aiddir.

**Beynəlxalq hüququn subyektləri** – beynəlxalq münasibətlərin iştirakçıları; beynəlxalq hüquq və vəzifələrə malik olub onların çərçivəsində və beynəlxalq hüquq əsasında onları həyata keçirirlər. Beynəlxalq hüququn əsas subyektlərinə dövlətlər və müstəqillik uğrunda mübarizə aparan millətlər və öz milli dövlətini yaradan millətlər; ikinci dərəcəli subyektlərə beynəlxalq təşkilatlar, beynəlxalq təşkilatı təsis edənin aktı ilə müəyyən edilən beynəlxalq təşkilatlar daxildir. Deməli, beynəlxalq təşkilatların hüquq və səlahiyyətlərinin həcmi təsisçi dövlətlər tərəfindən müəyyən edilir. Fiziki şəxslər və dövlətdaxili təşkilatlar (o cümlədən millətlərarası təşkilatlar, ticarət və sənaye şirkətləri, korporasiyalar) b.h.s. deyildir. Onlar dövlətlərin müstəsna yurisdiksiyası altındadır. Belə təşkilatların beynəlxalq aləmdəki statusu daxil olduqları dövlətin milli qanunvericiliyi ilə müəyyən edilir.

**Beynəlxalq hüququn ümumi norması** – hüquq münasibətlərinin müəyyən növü ilə əlaqədar hüquqi cəhətdən məcburi davranış qaydası qismində bütün və ya əksər dövlətlər tərəfindən tanınan norma. Beynəlxalq hüququn bütün əsas (hamılıqla qəbul olunmuş) prinsipləri, ümumi çox-

tərəfli müqavilələr norması, habelə adət hüququnun bir çox normaları beynəlxalq hüququn ümumi normasına aiddir. Beynəlxalq hüququn ümumi normaları içərisində imperativ normalar xüsusilə mühüm əhəmiyyət kəsb edirlər.

**Beynəlxalq xüsusi dəniz hüququ** – beynəlxalq xüsusi hüququn sahədaxili hüquq sahələrindən biri; normaları dövlət orqanlarının, təşkilatların və vətəndaşların dəniz ticarəti ilə əlaqədar özündə xarici elementlərin mövcudluğunu ehtiva edən münasibətlərini tənzim edir. Dövlətdaxili qanunvericilik və beynəlxalq müqavilələr b.x.d.h.-nun mənbələridir. B.x.d.h. (beynəlxalq ümumi və milli dəniz hüququ ilə yanaşı) dəniz hüququnun tərkib hissəsidir.

**Beynəlxalq xüsusi hüquq** – beynəlxalq xarakterli mülki hüquq münasibətlərini tənzim edən hüquq normalarının məcmusu. Bu hüquq münasibətlərində ya əcnəbilər, xarici hüquqi şəxslər və xarici ölkələr iştirak edir, ya da xarici ölkələrdəki əmlak həmin hüquq münasibətlərinin obyektləri hesab olunurlar. B.x.h. normaları başlıca olaraq beynəlxalq iqtisadi və elmi-texniki əməkdaşlıq nəticəsində yaranan münasibətləri tənzimləyir. B.x.h. beynəlxalq ümumi hüquqla bağlıdır. B.x.h.-un bir sıra normaları bilavasitə beynəlxalq ümumi hüququn əsaslarından irəli gəlir. B.x.h.-un mənbələri ikili xarakterə malikdir. Həmin mənbələrin bir hissəsi dövlətlərin daxili qanunlarından, digər hissəsi isə beynəlxalq müqavilələrdən və bir sıra beynəlxalq adətlərdən irəli gəlir.

**"Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının qanunu** – xarici elementli mülki-hüquqi münasibətlərə tətbiq olunmalı hüquq normalarını müəyyən edən qanunvericilik aktı; 2000-ci il iyunun 6-da qəbul edilmişdir. Qanunun 1.2-ci maddəsinə uyğun olaraq xarici elementli mülki-hüquqi münasibətlərə tətbiq olunmalı hüquq bu qanunla bərabər, həm də digər müvafiq qanunvericilik aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ümumi qəbul olunmuş beynəlxalq adətlər, habelə tərəflərin razılığı əsasında müəyyən edilir. Qanun 7 fəsil və 30 maddədən ibarətdir.

**Beynəlxalq ikiqat vergi qoyuluşu** – vergi ödəyicinin vahid zaman ərzində eyni obyektə münasibətdə vergilərinin iki (və ya daha artıq) dövlətdə vergilərinin müqayisə edilən (üst-üstə qoyulan) qoyuluşu. B.i.v.q. əmtəələrin və xidmətlərin mübadiləsinə, kapitalların, texnologiyaların və adamların hərəkətinə mənfi təsir göstərir. Bu, iki əsas üsulla aradan qaldırılır: birtərəfli (daxili vergi qanunvericiliyinin köməyilə) və çoxtərəfli (iki və ya daha artıq dövlət arasında ikiqat vergi qoyuluş haqqında müqavilələrin köməyilə) üsulla.

**Beynəlxalq iqtisadi hüquq** – beynəlxalq hüququn formalaşmış müasir hüquq sahələrindən biri; beynəlxalq hüququn subyektləri arasında iqtisadi münasibətləri tənzim edən, özünün təşəkkül və inkişaf mərhələsində olan prinsip və normaların məcmusundan ibarətdir. B.i.h. normaları beynəlxalq iqtisadi münasibətlər sahəsində dövlətlərin suveren hüquqlarının, dövlətlərin sosial sistemlərindən asılı olmayaraq onların bərabərhüquqlu əməkdaşlığının həyata keçirilməsinə yardım etmək məqsədinə xidmət edirlər. Realizə olunma mexanizmindən asılı olaraq b.i.h.-un prinsiplərini 2 qrupa bölmək olar. Birinci qrupa







iqtisadi dediskriminasiya, iqtisadi əməkdaşlıq, dövlətlərin öz sərvətləri və ehtiyatları üzərində sarsılmaz suverenliyi, ölkələrlə xarici iqtisadi əlaqələrin əlverişli formasını azad surətdə seçmək prinsipi aiddir. Bunlar ümumməcburi prinsiplər olduğuna görə, onların tətbiqi prosesində hər bir konkret müqaviləyə daxil olunmaları tələb edilmir. İkinci qrupa milli rejim və qarşılıqlı əlaqələr üçün daha əlverişli şərait yaradılması prinsipi aiddir. Bu prinsip yalnız konkret müqavilələrə müvafiq müddəaların daxil edildiyi halda ayrı-ayrı dövlətlər üçün məcburi xarakter alır. B.i.h.-un öz daxili sahələri mövcuddur. Beynəlxalq ticarət hüququ, beynəlxalq valyuta-maliyyə hüququ, elmi-texniki əməkdaşlıq hüququ və i.a. həmin sahələrə daxildir.

**Beynəlxalq iqtisadi təşkilatlar** – hökumətlər və ya dövlət orqanları, maraqlı ölkələrin təsərrüfat təşkilatları arasında bağlanan müqavilələr (sazişlər) əsasında yaradılan müxtəlif növ təsisatlar sistemi. B.i.t. təsərrüfat təşkilatlarının hərəkətlərinin (qərarlarını) əlaqələndirmək, iqtisadiyyatın, elm və texnikanın müəyyən sahələrində istehsalat-təsərrüfat fəaliyyətinin kooperativləşdirilməsi və ya birgə aparılması üçün yaradılır. B.i.t. pay üzvlük haqları hesabına təşkil edilir, nizamnamə əsasında fəaliyyət göstərir. Bu təşkilatlar iştirakçı tərəflərin nümayəndələrinin bərabər hüquqlarla fəaliyyət göstərdiyi rəhbər orqanlara malikdirlər.

**Beynəlxalq informasiya mübadiləsi** – müvafiq ölkənin dövlət sərhədləri vasitəsilə informasiyalardan istifadə edənlərin zəruri məlumatlara malik olmalarının təmin edilməsi üzrə informasiyaların verilməsi və alınması ilə əlaqədar mübadilə. Həm də dövlətlərin milli qanunvericilik aktları ilə tənzimlənir.

**Beynəlxalq İnkişaf Assosiasiyası (BİA)** – Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının filialı; bankın qərarı ilə inkişaf etməkdə olan ölkələrə (ancaq BYİB-in üzvü olan dövlətlərə) güzəştli şərtlərlə (bəzən faizsiz əsasla 50 ilədək müddətə) kreditlər və istiqrazlar vermək üçün 1960-cı ildə yaradılmışdır. Öz nizamnaməsinə malik olsa da, faktiki olaraq BYİB tərəfindən idarə olunur və bəzən bankla birlikdə layihələrin kreditləşdirilməsini həyata keçirir. 1995-ci ilin rəsmi məlumatına görə 156 dövlət BİA-nın üzvüdür. BİA-nın strukturu idarə rəisləri şurasından; icra direktorluğundan; prezidentdən ibarətdir. Prezident istisna olmaqla digər iki struktur bölməsi BYİB-in tərkibində də mövcuddur. İnzibati fəaliyyəti əvəzçilik qaydasında BYİB-in heyəti həyata keçirir.

**Beynəlxalq insan hüquqları hüququ** – beynəlxalq hüququn XX yüzilliyin 90-cı illərdə təşəkkül tapmış yeni sahəsi. Fərdlərin hüquqlarının və əsas azadlıqlarının beynəlxalq müdafiəsini tənzim edən və milli hüquq üçün beynəlxalq standartlardan ibarət olan norma və prinsiplərin sistemindən ibarətdir. Xalqların hüquqları ilə əlaqədar olan məsələlər də beynəlxalq hüququn bu sahəsində nəzərdən keçirilir.

**Beynəlxalq İnvestisiya Təminatları Agentliyi (BİTA)** – Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının 1988-ci ildə yaradılmış üzvi təşkilatı; hüquqi müstəqilliyə və maliyyə müstəqilliyinə malikdir. BİTA-nın məqsədi xüsusilə də inkişaf etməkdə olan ölkələrdə istehsalat məq-

sədlərinə xidmət edən investisiyaları mükafatlandırmaqdan, ümumdünya bankının institutlar qrupunun fəaliyyətinə yardım etməkdən; qeyri-kommersiya risklərinin sığortası və yenidən sığortası (valyuta vəsaitlərinin transferti, müqavilələrin pozulması, müharibə və vətəndaş iğtişaşları) daxil olmaqla bir dövlətin BİTA-nın üzvü olan digər dövlətə investisiyasına təminatlar verməkdən ibarətdir.

**Beynəlxalq Jurnalistlər Təşkilatı (BJT)** – milli jurnalistlər ittifaqlarını, jurnalist qruplarını və ayrı-ayrı jurnalistləri birləşdirən beynəlxalq təşkilat. 1946-cı ildə Kopenhagendə jurnalistlərin beynəlxalq konqresində təsis edilmişdir. 1926-cı ildə təsis edilmiş Beynəlxalq Jurnalistlər Federasiyasının varisidir. Sülhün müdafiəsi, beynəlxalq dostluğun möhkəmləndirilməsi, düzgün informasiya uğrunda mübarizə BJT-nin əsas məqsədidir.

**Beynəlxalq kanallar** – hüquqi rejimləri beynəlxalq hüquq xarakterli sazişlərlə müəyyən edilən dəniz kanalları. B.k.-dan beynəlxalq gəmiçilikdə istifadə olunur. Bundan başqa, onların hərbi-strateji əhəmiyyəti də vardır. Süveyş kanalını, Panama kanalını və Kil kanalını onlara misal göstərmək olar.

**Beynəlxalq kartel** *(ing. international cartel)* – beynəlxalq sahibkarlıq təcrübəsində müxtəlif ölkələrin satış bazarlarının, xammal mənbələrinin bölüşdürülməsi, başlıca olaraq bir sahə çərçivəsində inhisar qiymətlərinin müəyyən edilməsi haqqında inhisar ittifaqı, sazişi.

**Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fondu (BKTİF)** – BMT-nin ixtisaslaşdırılmış idarəsi; 1977-ci ildə təsis edilmişdir. BKTİF-in əsas vəzifəsi inkişaf etmiş ölkələrdə yoxsul kənd əhalisi üçün nəzərdə tutulan layihə və proqramların həyata keçirilməsi yolu ilə bu ölkələrdə kənd təsərrüfatının yüksəldilməsindən ötrü əlavə vəsaitləri səfərbər etməkdən ibarətdir.

**Beynəlxalq Kommersiya Arbitrajı** – beynəlxalq xarakterli əqdlər üzrə mübahisələri həll edən münsiflər məhkəməsi. B.k.a. anlayışı beynəlxalq təcrübəyə XX yüzilliyin 90-cı illərinin sonuna doğru daxil olmuşdur. Həmin institut əvvəllər "Ticarət arbitrajı", yaxud "Xarici ticarət arbitrajı" terminləri ilə adlandırılırdı.

**Beynəlxalq Kooperativ Alyansı (BKA)** – beynəlxalq kooperativ təşkilatları birliyi; 1895-ci ildə Londonda yaradılmışdır. BKA milli, məhəlli ittifaqları, əsasən, istehlak, kredit və kənd təsərrüfatı kooperativləri federasiyasını birləşdirir. Öz nizamnaməsi əsasında fəaliyyət göstərir. BKA-nın əsas məqsədi bütün ölkələrdə kooperasiyanın inkişafına kömək etməkdən, kooperasiya hərəkatının prinsip və metodlarını yaymaqdan, kooperativlərin mənafelərini müdafiə etməkdən və onlarla qarşılıqlı əlaqələr yaratmaqdan, uzun dövr üçün sülh təhlükəsizlik şəraiti yaradılmasına kömək etməkdən ibarətdir. BKA-nın BMT-də məsləhətçi statusu var.

**Beynəlxalq kosmos hüququ** – kosmik məkanın və səma cisimlərinin tədqiq edilməsi və onlardan istifadə olunması prosesində, habelə onların hüquqi rejiminin müəyyən edilməsində dövlətlər arasında münasibətləri tənzimləyən hüquq normaları və prinsiplərinin məcmusu. B.k.h. BMT Nizamnaməsinin prinsipləri də daxil olmaqla, ümumi beynəlxalq-hüquqi prinsiplərə əsaslanır.





**Beynəlxalq kredit** – beynəlxalq iqtisadi münasibətlərin inkişafı prosesində pul vəsaitlərinin və maddi vəsaitlərin hərəkət formalarından biri. B.k.-in mahiyyəti, forması və vəzifəsi tətbiq olunduğu sosial-iqtisadi şəraitlə müəyyən olunur.

**Beynəlxalq Kriminologiya Cəmiyyəti (BKC)** – 1938-ci ildə Birinci beynəlxalq kriminologiya konqresində təsis edilmiş beynəlxalq təşkilat. Təsis edildiyi vaxtadək 1934-cü ildə Parisdə Fransa və İtaliya tərəfinin təşəbbüsü ilə müxtəlif cəmiyyətlərin – kriminologiya, cinayətkarlığın profilaktikası, cinayət biologiyası və cinayət antropologiyası cəmiyyətlərinin birləşməsi baş verdi. Cinayətin antropologiyası üzrə İtaliya professoru Benino de Tullioya kriminoloqların beynəlxalq cəmiyyətdə birləşməsini yenidən təşkil etmək tapşırılmışdı. Həmin anadək isə kriminologiya empirik deyil, fəlsəfi elmlərə aid edilirdi.

BKC-nin əsas məqsədi cinayətkarlığı beynəlxalq səviyyədə öyrənməkdən, bununla əlaqədar alimlərin və təcrübi işçilərin – cinayətkarlıq fenomeninin öyrənilməsində maraqlı olan mütəxəssislərin səylərini birləşdirməkdən ibarətdir. Bununla yanaşı, cinayətkarlığın qarşısının alınması imkanları axtarılır; bu vəzifənin həllinə milli institutların fəaliyyətinin əlaqələndirilməsinin müxtəlif növləri xidmət edir. Öz fəaliyyətini həyata keçirən BKC 5 ildən bir beynəlxalq konqreslər, seminarlar təşkil edir, onların materiallarını müntəzəm surətdə "Kriminologiyanın beynəlxalq annalları" jurnalında nəşr etdirir.

BKC qəti olaraq 1949-cu ildə formalaşmışdır. Elə həmin ildə cəmiyyətin Nizamnaməsi qəbul edilmiş və buna uyğun olaraq BKC BMT-nin məşvərətçi statusunu almışdır. BKC hazırda dünyanın 15 ölkəsində öz nümayəndəliyinə malikdir.

BKC-yə prezident və 4 vitse-prezident başçılıq edir. Cəmiyyətin elmi işlərinin təşkili ilə Elm Komitəsi məşğul olur. Komitənin tərkibinə prezident, 2 nəfər vitse-prezident və katib daxildir. Onlardan başqa, komitənin daha 18 nəfər üzvü vardır. Elmi komitənin vəzifəsi müxtəlif ölkələrdə hər il keçirilən beynəlxalq kollekviumları və seminarları, beynəlxalq konqresləri (10-cu beynəlxalq konrqes Hamburqda keçirilmişdir) hazırlamaqdan ibarətdir. BKC-nin Elm Komitəsi 1969-cu və 1975-ci ildə Monreal və Genuyada yaradılmış beynəlxalq kriminoloqlar mərkəzlərinin işinə başçılıq edir.

**Beynəlxalq qeyri-hökumət təşkilatları** – qeyri-hökumət xarakterli milli qruplar, ittifaqlar və xüsusi şəxslərin beynəlxalq birliyi. B.q.t. milli qruplar, ittifaqlar və xüsusi şəxslər tərəfindən siyasi, iqtisadi, elmi-texniki, mədəni, humanitar və insan fəaliyyətinin sair sahələrində beynəlxalq əməkdaşlığa yardım göstərmək məqsədilə yaradılmışdır. B.q.-h.t. statusuna malik olmaq üçün belə birliyin ikidən artıq dövlətdə fəaliyyət göstərməsi, öz məqsədlərinə görə beynəlxalq məqsədlərə, habelə maliyyə imkanlarına, müvafiq struktura malik olması tələb edilir.

**Beynəlxalq Qırmızı Xaç** – Qırmızı Xaç, Qırmızı Aypara, Qırmızı Şir və Günəş milli cəmiyyətlərini birləşdirən təşkilat. 1863-cü ildə yaradılmışdır. BQX-nin bütün təşkilatlarının fəaliyyəti yaralı və xəstələrə, si-

lablı toqquşmalar zamanı əsir düşmüş hərbi əsirlərə, təbii fəlakətdən zərər çəkənlərə yardım edilməsinə yönəldilmişdir. BQX-nin ali orqanı, onun statusuna uyğun olaraq, adətən 4 ildə 1 dəfə çağırılan konfransdır. Konfranslararası dövrlərdə işçi orqanı kimi ildə 2 dəfə çağırılan və növbəti konfransa hazırlıqla məşğul olan Daimi Komissiya fəaliyyət göstərir. Daimi Komissiya 9 nəfər üzvdən ibarətdir. Üzvlərin 5 nəfəri konfransın özü tərəfindən seçilir, 2 nəfəri BQX, qalan 2 nəfəri isə Qırmızı Şir və Günəş tərəfindən təyin edilir.

**Beynəlxalq qulluqçular** – beynəlxalq təşkilatların ştatlı əməkdaşları. B.q. öz xidməti səlahiyyətlərini icra edərkən vətəndaşı olduqları dövlətdən və beynəlxalq təşkilatın mənzil-qərargahının yerləşdiyi dövlətdən asılı olmurlar. B.q.-ın statusu müvafiq təşkilatın nizamnamə sənədləri və beynəlxalq müqavilələr ilə müyyən edilir.

**Beynəlxalq lizinq** – lizinq forması: belə forma zamanı lizinqverən və ya lizinqalan Azərbaycan Respublikasının qeyri-rezidentidir. B.l. müqaviləsi iştirakçılarının hüquq və vəzifələri "Beynəlxalq maliyyə lizinqi haqqında" konvensiya ilə, müvafiq ölkənin milli qanunvericilik normaları ilə tənzim edilir.

**Beynəlxalq lotereyalar** *(ing. international lotteris)* – iki və ya daha artıq bələdiyyənin inzibati ərazisində keçirilən lotereyalar. Bu ərazilərdən biri AR-ə, heç olmasa biri və ya ona bərabər tutulan ərazi xarici dövlətə mənsub ola bilər.

**Beynəlxalq Maliyyə Korporasiyası (BMK)** – 1956-cı ildə yaradılmış və 1957-ci ildə BMT-nin ixtisaslaşdırılmış idarəsi statusunu almış hökumətlərarası beynəlxalq təşkilat. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə sıx əlaqəsinin (onun filialıdır) olmasına baxmayaraq, öz pul vəsaitlərinə malik olan müstəqil hüquqi şəxsdir. BMK-nın tərkibinə 124 dövlət daxildir. Korporasiyanın rəsmi məqsədi ona üzv olan, xüsusilə də iqtisadi cəhətdən zəif inkişaf edən ölkələrdə xüsusi müəssisələrin artırılması yolu ilə onların inkişafına yardım etməkdən və onların fəaliyyətini stimullaşdırmaqdan ibarətdir. BMK-nın mənzil-qərargahı Vaşinqtonda yerləşir.

**Beynəlxalq maliyyə-sənaye qrupları** – *(bax: transmilli maliyyə-sənaye qrupları).*

**Beynəlxalq Məhkəmə** – BMT-nin 6 əsas orqanlarından biri və bu təşkilatın əsas məhkəmə orqanı. BM-in 1945-ci il iyunun 26-da imzalanan və həmin il oktyabrın 24-də qüvvəyə minmiş Statutu BMT Nizamnaməsinin ayrılmaz tərkib hissəsidir.

BMT-nin üzvü olan dövlətlər BM-in Statutunun iştirakçıları hesab olunurlar. BMT-nin üzvü olmayan dövlətlər də BMT Təhlükəsizlik Şurasının zəmanəti ilə BMT Baş Məclisinin müəyyən etdiyi şərtlər əsasında Statutun iştirakçısı ola bilərlər. Lixtenşteyn, San-Marino və İsveçrə Statutun belə iştirakçısıdır.

BM 15 nəfər hakimdən ibarətdir. Üzvlər 9 il müddətinə seçilir. Eyni dövlətin 2 vətəndaşı B.m.-nin üzvü ola bilməz. BM-in üzvləri Münsiflər (Arbitraj) Məhkəməsinin daimi palatasının milli qrupları tərəfindən irəli sürülən namizədlərdən BMT TŞ və BMT BM-in sessiyası gedişində seçilirlər.

BM daimi fəaliyyət göstərən orqandır. O öz sədrini, vitse-sədrini seçir, katibini təyin edir və öz iş qaydasını müəyyənləşdirir. BM-də rəsmi dil ingilis və fransız dilləridir. Baxılan işlərdə tərəflər qismində yalnız dövlətlər çıxış edə bilər. BM-yə müraciət fakültativ xarakter daşıyır. Yeni dövlətlər mübahisələri onun həlli üçün bağladıqları saziş-barışıq əsasında verirlər. Lakin bir sıra dövlətlər BM-in yurisdiksiyasını məcburi qaydada tanıyır.

İşlərə beynəlxalq hüquq normaları əsasında baxılır. Bu zaman beynəlxalq konvensiyalar, adətlər və beynəlxalq prinsiplər rəhbər tutulur. BM-də işlərə baxılması iki hissədən ibarətdir: yazılı və şifahi. İşlərə, bir qayda olaraq, açıq baxılır. Qərar işdə iştirak edən hakimlərin səs çoxluğu ilə qəbul olunur.

**Beynəlxalq məhkəmə qaydası** – beynəlxalq məhkəmə tərəfindən mübahisəyə baxılmasından və həmin iş üzrə tərəflər üçün məcburi qüvvəyə malik qərar çıxarılmasından ibarət olan mübahisələri dinc yolla tənzimetmə vasitəsi. B.m.q. Beynəlxalq Məhkəmə tərəfindən həyata keçirilir. O, dövlətlərarası sazişlər əsasında yaradılır. Sazişdə Beynəlxalq Məhkəmənin formalaşdırılması, səlahiyyət qaydası və strukturu, habelə mühakimə icraatının əsas qaydası müəyyən edilir. Müfəssəl qayda Beynəlxalq Məhkəmənin özü tərəfindən hazırlanır və qəbul olunur. Belə ki, BMT-nin Beynəlxalq Məhkəməsi BMT Nizamnaməsi və Beynəlxalq Məhkəmənin Statutu ilə təsis edilmiş və onun əsasında fəaliyyət göstərir. B.m.q. 2 hissədən – yazılı və şifahi mühakimə icraatından ibarətdir.

**Beynəlxalq Məhkəmənin məsləhət rəyi** – BMT Beynəlxalq Məhkəməsinin daxil olan müvafiq sorğulara uyğun olaraq müxtəlif hüquqi məsələlər üzrə verdiyi rəy. Rəyi soruşmaq hüququna BMT Nizamnaməsinə uyğun olaraq BMT-nin TŞ-si, habelə BMT-nin BM-in icazəsi ilə onun digər ixtisaslaşdırılmış orqanları malikdir. Rəy vasitəsilə soruşulan suallar Beynəlxalq Məhkəməyə yazılı ərizə formasında verilir. Ərizəyə zəruri olan bütün sənədlər əlavə edilir. Rəy məcburi qüvvəyə malik deyildir. Lakin bəzi beynəlxalq müqavilələr üçün onlar tərəflər arasında həlledici xarakter daşıyır. Mövcud olduğu müddətdə Beynəlxalq Məhkəmə BMT TŞ-nin və BM-in, habelə YUNESKO-nun və digər beynəlxalq təşkilatların sorğusu ilə 20-dən artıq məsləhət rəyi vermişdir.

**Beynəlxalq mübahisələr** – faktlar və ya hüquqi məsələlər üzrə dövlətlər arasında yaranan mübahisələr. B.m. ikitərəfli və çoxtərəfli ola bilər. BMT Nizamnaməsində aşağıdakı b.m. fərqləndirilir: a) beynəlxalq sülhün və və təhlükəsizliyin qorunmasına təhlükə yaradan beynəlxalq mübahisələr; b) hüquqi xarakterli beynəlxalq mübahisələr; c) sair beynəlxalq mübahisələr.

B.m.-in dinc yolla həll edilməsi beynəlxalq münasibətlərin əsas prinsiplərindəndir və bir çox beynəlxalq aktlarda təsbit edilmişdir. B.m.-in həlli vasitələrinə aşağıdakılar daxildir: danışıqlar, müayinələr, vasitəçilik, barışıq, arbitraj və məhkəmə baxışı; məhəlli orqanlara, yaxud məhəlli sazişlərə və ya tərəflərin seçdikləri dinc vasitələrə müraciət edilməsi.

**Beynəlxalq müqavilə** – iki və ya daha artıq dövlət, yaxud beynəlxalq hüququn digər subyektləri arasında iqtisadi, siyasi və i.a. münasibətlərdə qarşılıqlı hüquq və vəzifələrin yaranmasına, dəyişməsinə və xitam olunmasına yönələn saziş. B.m. beynəlxalq hüququn əsas mənbəyidir. İştirak-

çıların sayından asılı olaraq b.m. ikitərəfli və çoxtərəfli (dini və universal) ola bilər. Çoxtərəfli müqavilələr açıq (müqavilədə nəzərdə tutulmuş qaydada ona qoşulmaq olar) və bağlı (müqaviləni imzalayan dövlətlər yalnız müqavilə iştirakçılarının razılığı ilə ona qoşula bilər) ola bilər. B.m., bir qayda olaraq, yazılı formada bağlanır və preambuladan, tənzim edilən münasibətlərin mahiyyətinə aid qərardan və son qərardan ibarət olur. B.m. müxtəlif adlara malik bütün beynəlxalq sazişləri əhatə edən cinsi anlayışdır. Müqavilə, müahidə (pakt), saziş, traktat, konvensiya, bəyannamə, kommunike, protokol və i.a. b.m.-yə aiddir. Bu və ya digər adların möhkəm müəyyən edilmiş təyinatı mövcud deyildir. Adından asılı olmayaraq, bütün müqavilələr eyni hüquqi qüvvəyə malikdir. Onlar, bir qayda olaraq, yazılı formada bağlanırlar. Şifahi b.m.-yə az təsadüf olunsa da, onun da bağlanması (məsələn, centlmen sazişi) mümkündür. B.m. hüquqi və qeyri-hüquqi ola bilər. Qeyri-hüquqi b.m. etibarsız hesab olunur. B.m. imzalandıqdan dərhal sonra qüvvəyə minir. Bundan sonra isə rəsmi hökumət mətbuatında dərc olunur.

**Beynəlxalq müqavilələr hüququ** – beynəlxalq hüquq sahəsi. Onun normaları beynəlxalq müqavilələrin etibarlı olması şərtlərini, bağlanması qaydasını, qüvvədə olması, dəyişdirilməsi və onlara xitam verilməsi şərtlərini müəyyən edir. Hüququn bu sahəsinin obyekti, sözün geniş mənasında beynəlxalq müqavilənin özüdür. B.m.h. beynəlxalq hüququn aparıcı mənbələrindən biridir. Onun bir sıra normaları (məsələn, müqavilələrə əməl etmək prinsipi, onların qeydiyyat qaydası və i.a.) mühüm beynəlxalq sənədlərdə, o cümlədən BMT Nizamnaməsində təsbit edilmişdir. B.m.h.-nun əsas mənbəyi beynəlxalq-hüquqi adətlərdir.

**Beynəlxalq müqavilənin bağlanması** – beynəlxalq hüququn müqavilə normasının bərqərar olması və dövlətlər arasında sazişlərin bir sıra ardıcıl mərhələlərdə və hüquqi hərəkətlərdə ifadə olunmaqla formalaşması prosesi. Müqavilənin bağlanması prosesinin məzmunu qarşılıqlı maraq, niyyət, mövqe, qanunvericilik və tərəflərin təcrübəsindən, danışıqların (razılaşmaların) mahiyyətindən, predmetindən, məqsəd və formalarından asılı olur. Beynəlxalq müqavilənin bağlanması mərhələləri müqavilə bağlamaq təşəbbüsünün irəli sürülməsindən, çıxış və danışıqlardan, habelə onların aparılmasından, müqavilə mətninin tərtibindən və qəbulundan, onun autentikliyinin müəyyən edilməsindən və müqavilənin məcburiliyinə razılıq verilməsindən ibarətdir. Bu mərhələlər diplomatik təcrübədə tətbiq edilən xeyli çoxşaxəli konkret formalardan fərqlənir.

**"Beynəlxalq müqavilənin bağlanması, icrası və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının qanunu** – AR Konstitusiyasına, hamılıqla tanınan beynəlxalq hüquq prinsiplərinə və normalarına müvafiq surətdə, adından asılı olmayaraq, AR-in bütün yazılı beynəlxalq müqavilələrinin (müqavilə, saziş, konvensiya, pakt, protokol, məktub və ya notaların mübadiləsi və başqa adlı beynəlxalq müqavilələr) bağlanması, icrası və ləğv edilməsi qaydalarını müəyyən edən qanunvericilik aktı. Qanun 1995-ci il iyunun 13-də qəbul edilmişdir. 5 fəsil və 26 maddədən ibarətdir.





**Beynəlxalq müqavilənin bağlanması qaydası** – dövlətdaxili qaydalarla və beynəlxalq hüquq normaları ilə, eləcə də beynəlxalq-hüquqi adətlərlə müəyyən edilən qayda. Qanunvericilik aktları, göstəriş və təlimatlar, dövlət orqanları və onların nümayəndələrinin müqavilələrin bağlanmasına dair səlahiyyətlərinə aid digər aktlar, danışıqlar aparılması və onlara baxılması və reallaşdırılması qaydasından ibarətdir. Müqavilələrin imzalanması, təsdiqi, qəbulu, ratifikasiyası və onlara qoşulma, ratifikasiya edilmiş etimadnamələrdə mübadilə qaydaları və müqavilələrə aid digər sənədlər haqqındakı aktlar dövlətdaxili qaydalara aid edilir. Bu qaydalara əməl edilməsi hər bir dövlətin daxili işi olsa da, dövlətdaxili normalarda aşkar pozuntular olmamalıdır. Dövlətlərin hüquq qabiliyyətinə və onların nümayəndələrinin səlahiyyətlərinə toxunan norma və adətlər, müqavilə mətninin hazırlanması və qəbulu, müqavilə öhdəliklərinə razılığın ifadə olunması, müqavilənin şərtlərinə qeydlər edilməsi (onda düzəlişlər aparılması), müqavilənin etibarlılığı beynəlxalq hüquq normalarına və adətlərə aiddir. Bu qaydaların bəzisi "Beynəlxalq müqavilələr hüququ haqqında" 1969-cu il Vena konvensiyasında nəzərdə tutulmuşdur.

**Beynəlxalq müqavilənin denonsasiyası** – ikitərəfli beynəlxalq müqavilənin fəaliyyətinin dayandırılması və ya çoxtərəfli müqavilədə şərtləndirilmiş qaydada və müddətdə ondan çıxmaq üsulu. İştirakçılardan birinin müqavilənin fəaliyyətinin dayandırılması və ya ondan çıxmaq məqsədi barəsində tərəfləri tərəfdar etməsi denonsasiyanın ümumi şərtidir. Belə xəbərdarlıq müqavilə iştirakçılarının daxili qanunvericiliyinə uyğun olaraq qəbul olunan qərar vasitəsi ilə həyata keçirilir. Denonsasiya qaydasına əməl edilməməsi onun etibarsız hesab edilməsinə səbəb olur. Çoxtərəfli denonsasiyalar yalnız denonsasiya haqqında bəyanat verən dövlət üçün hüquqi qüvvə xarakterinə malik olur.

**Beynəlxalq müqavilənin geriyə qüvvəsi** – müqavilənin özündə ifadə edilən sazişə görə, müqavilə iştirakçılarının öz aralarında onun müddəalarının müqavilə qüvvəyə minənədək mövcud olan hadisə və faktlara onun qüvvəsinin şamil olunması şərti. Beynəlxalq müqavilələrin, bir qayda olaraq, geriyə qüvvəsi yoxdur. Bu o deməkdir ki, onlar yalnız konkret iştirakçı üçün beynəlxalq müqavilənin qüvvəyə minməsindən sonra mövcud olan hadisə və faktlara şamil oluna bilərlər. Beynəlxalq müqavilələr haqqında 1969-cu il Vena konvensiyası b.m.g.q.-nin olmaması haqqında müddəa nəzərdə tutur.

**Beynəlxalq müqavilənin xitamı** – beynəlxalq müqavilənin öz məcburi qüvvəsini itirməsi. B.m.x.-nın hüquqauyğun və hüquqazidd üsulları fərqləndirilir. Əgər beynəlxalq müqavilənin hüquqauyğun xitamı müqavilənin özünün müddəalarına və ya beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanırsa, beynəlxalq müqavilənin hüququazidd xitamı həmin norma və prinsiplərə zidd olur. Beynəlxalq müqavilənin qeyri-qanuni xitamı beynəlxalq hüquq pozuntusuna və beynəlxalq məsuliyyətə səbəb olur. Denonsasiya, ləğvetmə, rəddetmə və novasiya b.m.x.-nın növləri hesab olunur.

**Beynəlxalq müqavilənin qəbulu** – dövlətin beynəlxalq müqaviləyə razılığını ifadə etmə formalarından biri. B.m.q.-nu hazırlanmış müqavilə mətninin qəbulu ilə

qarışdırmaq olmaz. Müqaviləyə səs verən dövlət onun mətnini qəbul edir, lakin ondan irəli gələn öhdəliklərə hələ razılığını bildirmir. Müqavilə üzrə öhdəliklərin qəbulu növbəti mərhələlərdə – beynəlxalq müqavilənin bağlanması prosesində baş verir. B.m.q. adətən müqavilənin özündə nəzərdə tutulmuş vaxtda (tarixdə) və onda göstərilən formada həyata keçirilir.

**Beynəlxalq müqavilənin qüvvəyə minməsi** – hüquqi fakt; bunun qüvvəsi ilə beynəlxalq müqavilə onda göstərilən şərtlərlə iştirakçı dövlətlər üçün məcburi hüquqi qüvvə əldə edir. B.m.q.m. qüvvəyə minməmiş beynəlxalq müqavilənin müvəqqəti tətbiqindən fərqlənir. B.m.q.m. anı müəyyən hərəkətlərin (imzalama) edilməsi və ya hər hansı hadisənin (konkret tarix, ratifikasiyadan sonra müddətin keçməsi, başqa müqavilənin qüvvəyə minməsi və i.a.) meydana çıxması ilə bağlı ola bilər. Müqavilədə onun qüvvəyə minməsi və ya tərəflərin müqaviləni qüvvəyə minmiş hesab etmələri barəsində heç bir fakt, yaxud razılığın olmadığı hallarda, onun imzalandığı andan qüvvəyə minməsi prezumpsiyası qüvvədə olur.

**Beynəlxalq müqavilənin novasiyası** – beynəlxalq müqavilənin şərtlərini yeni şərtlərə uyğunlaşdırmaq məqsədilə onların tam və ya qismən təzələnməsi yolu ilə köhnə öhdəliklərin yenilərilə əvəz edilməsi, təzələnməsi. Müqavilənin qüvvədə olduğu müddət ərzində onun iştirakçılarının sazişi ilə həyata keçirilir. Novasiya bütövlükdə müqaviləyə, yaxud onun müəyyən bir hissəsinə aid ola bilər.

**Beynəlxalq müqavilənin obyekti** – maddi və ya qeyri-maddi nemət, hərəkət və ya hərəkətsizlikdən çəkinmə; həm beynəlxalq, həm də dövlətdaxili məsələlər beynəlxalq müqavilənin obyekti ola bilər. Həlli dövlətin müstəsna daxili səlahiyyətinə aid olan daxili məsələlər beynəlxalq müqavilənin obyekti ola bilməzlər. Dövlətin daxili səlahiyyətinə aid olan bəzi məsələlər dövlətin suverenliyinə hörmət, onun daxili işlərinə qarışmamaq və i.a. şərtilə beynəlxalq müqavilənin obyekti ola bilər. Belə ki, teleqraf, dəmiryolu, avtomobil nəqliyyatı, əcnəbilərin hüquqi vəziyyəti və i.a. beynəlxalq müqavilənin obyekti ola bilər. Obyektin növündən asılı olaraq beynəlxalq müqavilələr aşağıdakı qruplara bölünürlər: a) obyekti ümumi sülh, xalqların təhlükəsizliyi, dövlətlərarası dinc qonşuluq münasibətləri olan siyasi müqavilələr; b) obyekti qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq olan iqtisadi müqavilələr; c) obyekti bütün ölkələrin mədəni və elmi inkişaf məsələlərindən ibarət olan mədəniyyət və elm məsələləri üzrə müqavilələr.

**Beynəlxalq müqavilənin subyektləri** – beynəlxalq hüququn bütün subyektləri, yəni öz müstəqilliyi uğrunda mübarizə aparan dövlətlər, millətlər, beynəlxalq təşkilatlar. Beynəlxalq müqavilələrin əksəriyyəti müasir beynəlxalq hüququn əsas subyektləri olan dövlətlər tərəfindən bağlanmışdır. Beynəlxalq müqavilələri bağlamaq hüququ dövlətlərin beynəlxalq hüquq subyektliliyinin ən mühüm elementidir. Müqavilədə bir qrup dövlətin vahid tərəf (müqavilənin qrup subyektləri) qismində iştirakı istisna olunmur. Federasiya üzvü olan dövlət federasiyasının konstitusiyası ilə nəzərdə tutulan şərtlərlə müqavilələrdə iştirak edə bilər. Öz müstəqilliyi uğrunda





mübarizə aparan millətlərin müqavilə hüquq subyektliliyi onların beynəlxalq hüquq subyektliliyinin bir hissəsini təşkil edir. Beynəlxalq hüququn subyekti olan hər bir millət hüquq subyektliliyinə və beynəlxalq müqavilələr bağlamaq hüququna malikdir. Beynəlxalq təşkilatlar öz aralarında və ayrı-ayrı dövlətlərlə, yaxud bir qrup dövlətlə müqavilələr bağlaya bilər. Beynəlxalq təşkilatların hüquq subyektliliyi sırf xüsusi xarakter daşıyır, yəni bütövlükdə və tam şəkildə onların fəaliyyətindən asılı olur. Beynəlxalq təşkilatların müqavilələrinə beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vena konvensiyası şamil olunur.

**Beynəlxalq müqavilənin təfsiri** – müqavilə iştirakçılarının həqiqi niyyətlərinin və müqavilənin şərtlərinin əsl mənasının aydınlaşdırılması. Təfsirin məqsədi beynəlxalq müqavilənin şərtlərinin mümkün qədər daha tam realizə olunmasından ibarətdir. Təfsir beynəlxalq hüququn əsas prinsiplərindən birinin – pacta sunt servandanın həyata keçirilməsini təmin edir. Beynəlxalq müqavilələrin qrammatik, məntiqi, teleoloji, sistematik, tətbiqedici və məhdudlaşdırıcı, tarixi təfsiri üsulları fərqləndirilir.

**Beynəlxalq müqaviləyə qoşulma** – dövlətin beynəlxalq müqaviləyə razılığını ifadə etmə formalarından biri. Əgər dövlət başlanğıcdan müqavilənin iştirakçısı olmamışdırsa, o, həmin müqaviləyə özünün nəzərdə tutduğu şərtlərlə qoşula bilər. B.m.q. adətən çoxtərəfli müqavilələrə münasibətdə tətbiq olunur və xüsusi aktın depoziriyə verilməsi, yaxud xüsusi protokolun imzalanması ilə həyata keçirilir. B.m.q. razılığı ifadə etmə forması kimi yalnız beynəlxalq müqavilə ilə əlaqədar ola bilər.

**Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT)** – BMT-nin ixtisaslaşdırılmış idarəsi; mülki aviasiya fəaliyyətinin bütün aspektləri üzrə dövlətlərin beynəlxalq əməkdaşlığını təşkil edir və əlaqələndirir. BMAT-a 183 dövlət daxildir. BMAT-ın təsisedici aktı Beynəlxalq Mülki Aviasiya haqqında 1944-cü il konvensiyasıdır. Konvensiyanın mətninə təşkilatın nizamnaməsinin əsas müddəaları daxil edilmişdir. BMAT-ın məqsədi beynəlxalq aeronaviqasiyanın prinsip və metodlarını işləyib hazırlamaqdan, beynəlxalq hava nəqliyyatının planlaşdırılmasına və inkişafına yardım etməkdən, uçuş-texniki qaydaları təkmilləşdirməkdən və uçuşların təhlükəsizliyini təmin etməkdən ibarətdir.

**Beynəlxalq mülki proses** – beynəlxalq xüsusi hüququn sahələrindən biri; məhkəmədə və ya arbitrajda əcnəbilərin və xarici hüquqi şəxslərin hüquqlarının müdafiəsilə əlaqədar prosessual xarakterli qaydaların məcmusundan ibarət olan mühakimə icraatı. "Beynəlxalq mülki proses" termini şərti xarakter daşıyır. B.m.p.-ə adətən aşağıdakılar aid edilir: 1) əcnəbi və ya beynəlxalq elementlə mülki, ailə və əmək hüquq münasibətləri üzrə meydana çıxmış işlərə münasibətdə məhkəmə aidiyyətinin müəyyən edilməsi; 2) əcnəbi vətəndaşların və ya xarici hüquqi şəxslərin məhkəmədə prosessual vəziyyəti; 3) xarici dövlətin, onun diplomatik və konsul nümayəndələrinin prosessual vəziyyəti; 4) sənədlərin təqdim edilməsi və ya ayrı-ayrı prosessual hərəkətlərin yerinə yetirilməsi və xarici məhkəmələrin tapşırıqlarının icrası haqqında məhkəmə tapşırıqları ilə xarici məhkəmələrə müraciət edilməsi; 5)

xarici məhkəmə qərarlarının tanınması və məcburi qaydada icra olunması; 6) notarial hərəkətlərin edilməsi; 7) xarici arbitraj sazişlərinin tanınması; 8) mübahisələrə arbitrajda baxılması; 9) xarici arbitraj qərarlarının məcburi qaydada icra olunması.

Hər bir dövlət öz məhkəmələrinin səlahiyyət həddini müstəqil həll edir. Bir sıra hallarda məhkəmə aidiyyəti məsələləri beynəlxalq müqavilələrlə müəyyən olunur. B.m.p.-ə aid olan əsas beynəlxalq sazişlər mülki proses məsələlərinə dair 1954-cü il Haaqa, "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vena, "Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında" 1958-ci il Nyu-York konvensiyaları ilə tənzimlənir. Xarici ticarət arbitrajı haqqında 1961-ci il Avropa konvensiyası da mövcuddur.

**Beynəlxalq nəzakət** – beynəlxalq əlaqələrdə iştirak edən dövlətlərin davranış qaydası (məsələn, xüsusi saziş olmadıqda diplomatik agentin və onun baqajının gömrük yoxlamasından və gömrük rüsumundan azad olunması). Hər hansı dövlət tərəfindən diplomata həmin dövlətin ərazisindən maneəsiz keçməsi üçün lazım olduğundan artıq imtiyaz və immunitet verilməsi də b.n.-in ifadəsidir. Beynəlxalq hüquq normalarından fərqli olaraq b.n. qaydaları hüquqi cəhətdən məcburi xarakter daşımır. Bununla belə, b.n. qaydalarına riayət edilməməsi qeyri-səmimilik aktı kimi qiymətləndirilir. Tarixən b.n. beynəlxalq hüquq normalarının əsası olmuşdur.

**Beynəlxalq poçt rabitəsi** – müxtəlif dövlətlərin yurisdiksiyası altında olan təşkilatlar arasında poçt göndərişləri mübadiləsi.

**Beynəlxalq sanksiyalar** – doktrinada və təcrübədə aşağıdakı mənalarda işlədilən termin: a) pozucu dövlət üçün qeyri-əlverişli nəticələri göstərən beynəlxalq hüquq normalarının struktur elementi; b) beynəlxalq təşkilatlar, hər şeydən əvvəl, BMT tərəfindən həyata keçirilən məcburetmə tədbirləri; c) beynəlxalq cinayətin nəticəsi kimi, beynəlxalq-hüquqi məsuliyyətin xüsusi siyasi forması; ç) beynəlxalq hüquq pozuntusuna cavabdan ibarət olan fərdi və kollektiv məcburi tədbirlər; d) beynəlxalq hüquq pozuntusu törədən və məsuliyyətdən yayınan dövlətə qarşı dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən tətbiq edilən məcburi tədbirlər.

**Beynəlxalq servitutlar** – keçmişdə yayılmış konsepsiya. Bu konsepsiyaya görə, dövlətlərin xarici ərazinin hamısına və ya onun müəyyən bir hissəsinə aid hüquqları. Hər cür növdən olan tranzitlər, xarici ərazinin icarəsi və xarici ərazilərdəki hərbi bazalar, bitərəfləşdirilmiş (neytrallaşdırılmış) ərazilər və i.a. b.s.-a aiddir. B.s. konsepsiyası Roma hüququndan yaranmışdır. Beynəlxalq hüquqda onun həm tərəfdarları, həm də əleyhdarları vardır.

**Beynəlxalq standartlar** – hava gəmilərinin və aviasiya məmulatının fiziki xassələrinə, konfiqurasiyalarına, material hissələrinə, texniki xüsusiyyətlərinə, habelə aviasiya personalına dair tətbiqi Beynəlxalq Mülki Aviasiya Təşkilatı tərəfindən zəruri hesab edilən tələblər.

**Beynəlxalq terrorçuluq** – beynəlxalq miqyasda adamların mənasız məhvinə səbəb olan, dövlətlərin və onların nümayəndələrinin normal diplomatik fəaliyyətini pozan, beynəlxalq əlaqələrin və görüşlərin, habelə dövlətlər arasında nəqliyyat əlaqələrini çətinləşdirən ictimai təhlükəli





əməllərin məcmusu. B.t.-a qarşı qəbul edilmiş "Beynəlxalq-hüquqi aktlara hava gəmilərini qanunsuz ələ keçirməyə qarşı mübarizə haqqında" 1970-ci il, "Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönələn qanunsuz aktlarla mübarizə haqqında" 1971-ci il konvensiyaları və i.a. misal göstərmək olar.

**Beynəlxalq təminatlar** – beynəlxalq hüquq normalarına əməl edilməsini və beynəlxalq öhdəliklərin yerinə yetirilməsini təmin edən hüquqi prinsip və vasitələrin məcmusu.

**Beynəlxalq təşkilatlar** – siyasi, iqtisadi, sosial, elmi-texniki, mədəni və i.a. sahədə ümumi məqsədlərə nail olmaq üçün dövlətlərin, yaxud qeyri-hökumət xarakterli milli cəmiyyətlərin (assosiasiyaların) və fərdi üzvlərin birliyi. B.t. dövlətlər arasında çoxtərəfli əməkdaşlığın ən mühüm formalarından biridir.

**Beynəlxalq təşkilatlar hüququ** – hökumətlərarası beynəlxalq təşkilatların orqanlarının strukturunu və iş qaydasını, onların struktur bölmələri arasında qarşılıqlı münasibətləri, habelə onların vəzifəli şəxslərinin və qulluqçularının təyin edilməsi qaydasını və xidməti statuslarını tənzim edən normaların məcmusu. Beynəlxalq təşkilatların hüquq normaları onların təsis aktlarında, təşkilatların orqanlarının qərarlarında, təşkilatların öz qulluqçuları ilə bağladıqları kontraktlarda ehtiva olunur.

**Beynəlxalq təşkilatların inzibati tribunalları** – kirayə haqqında müqavilələr və ya beynəlxalq təşkilatların katibliklərinin qulluqçularının təyin edilməsi şərtlərinə əməl olunmasına dair şikayətlər üzrə işləri dinləyib qərar qəbul etmək üçün hökumətlərarası beynəlxalq təşkilatlar tərəfindən təsis edilən xüsusi məhkəmə orqanları. B.t.i.t. BMT Baş Məclisinin 24 noyabr 1949-cu il tarixli 351 (IV)-ci dərkənarı ilə yaradılmışdır. Bu tribunalların strukturunu və fəaliyyətini tənzim edən normalar ya onun müvafiq plenar orqanının, ya da təşkilatın bilavasitə təsis müqavilə aktı ilə müəyyən edilir.

**Beynəlxalq təşkilatların nizamnamələri** – beynəlxalq təşkilatın xarakterini, fəaliyyətinin məzmununu, əsas vəzifələrini və məqsədlərini müəyyən edən beynəlxalq çoxtərəfli saziş və ya sair təsisedici akt. Bu nizamnamələr, adətən təşkilatların əsas orqanlarını (ümumi yığıncaqlarını, icra orqanlarını, katibliklərini və i.a.), onların hər birinin səlahiyyət dairəsini, habelə onların yaradılması və onlarda üzvlüyün qaydalarını müəyyən edir.

**Beynəlxalq Ticarət Arbitrajı** *(bax: Beynəlxalq Kommersiya Arbitrajı).*

**Beynəlxalq Ticarət Palatası (BTP)** – dünyanın 100-dən artıq ölkəsinin ticarət-sənaye palatasını və sahibkarlar təşkilatını birləşdirən beynəlxalq qeyri-hökumət təşkilatı; əsası 1919-cu ildə qoyulmuşdur. BTP-nin mənzil-qərargahı Parisdə yerləşir.

**Beynəlxalq ticarət şəbəkələri** – malların satın alınması üsulu, sifarişlərin və podratların verilməsinin yerləşdirilməsi; müxtəlif ölkələrin bir neçə tədarükçüsündən və ya podratçısından qabaqcadan müəyyən edilmiş müddətdə təkliflərin cəlb edilməsi sahəsində fəaliyyət göstərirlər.

**Beynəlxalq ticarət terminləri** *(bax: bazis şərtləri).*

**Beynəlxalq uçuşlar (reyslər)** – Azərbaycan Respublikasının və digər dövlətin sərhədlərini keçməklə hava gəmiləri vasitəsilə yerinə yetirilən uçuşlar.

**Beynəlxalq Valyuta Fondu (BVF)** – beynəlxalq valyuta-maliyyə təşkilatı, BMT-nin ixtisaslaşdırılmış müəssisəsi. BVF beynəlxalq ticarətin və valyuta əməkdaşlığının inkişafına yardım edərək valyuta qiymətlərinin tənzimi normalarını müəyyən və onlara əməl olunmasına nəzarət edir; valyuta paritetlərinin sabitliyini müdafiə edir, ödəmələrin çoxtərəfli sistemini işləyib hazırlayır və valyuta məhdudiyyətlərini aradan qaldırır, habelə ödəmə balanslarının natarazlığı ilə əlaqədar valyuta çətinliklərində öz üzvlərinə kredit ehtiyatları verir. BVF 1944-cü ildə Bretton-Vudsda beynəlxalq valyuta-maliyyə konfransında yaradılmışdır.

**Beynəlxalq vergi hüququ** – xarici elementli vergi qoyuluşunu tənzim edən beynəlxalq hüquq (geniş mənada milli hüquq) normalarının məcmusu. B.v.h.-nun əsas məqsədi vergi sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirməkdən, ikiqat vergi qoyuluşunu və vergi ödəyənlərin diskriminasiyasını aradan qaldırmaqdan, vergilərdən yayınmanın qarşısını almaqdan, habelə vahid bazar yaratmaq üçün vergi sisteminin ahəngdarlığını təmin etməkdən ibarətdir.

**Beynəlxalq vəzifəli şəxs** – adətən beynəlxalq təşkilatın katibliyində qulluqda, həmin katibliyin heyət üzvü olan hər hansı dövlətin vətəndaşı. BMT Nizamnaməsinin 100-cü maddəsinə uyğun olaraq baş katib və digər b.v.ş.-lər öz vəzifələrini icra edərkən təşkilat üçün kənar olan hər hansı hökumətdən və ya hakimiyyət orqanından sorğu, yaxud göstəriş almamalıdır. Onlar öz mövqelərinə mənfi təsir göstərə bilən hər hansı hərəkətlərdən çəkinməlidirlər. B.v.ş. ancaq təşkilat qarşısında məsuldur.

**Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB)** – hökumətlərarası kredit-maliyyə təşkilatı. BYİB aşağıdakı vəzifələri həyata keçirir: a) üzv ölkələrin iqtisadi inkişafını stimullaşdırır; b) beynəlxalq ticarətin inkişafına yardım və ödəmə balanslarını müdafiə edir. BYİB formal (ümumdünya bankı tərkibində) olaraq BMT-nin ixtisaslaşdırılmış idarəsidir, lakin bankın nizamnaməsinə və BYİB ilə BMT arasında imzalanmış sazişlərə uyğun olaraq bank qərar qəbul etməkdə müstəqildir.

**Beyt ül-mal** *(ər. "mal evi", xəzinə)* – **1)** Xilafət dövründə dövlət xəzinəsi. Xəlifə Ömər B.m.-ı başlıca dövlət maliyyə idarəsi kimi təsis etmişdi. Əməvilər sülaləsinin hakimiyyəti dövründə (661-750) əsaslı şəkildə təkmilləşdirilmiş b.-m. Dəməşq şəhərində yerləşirdi. B.-m.-ın gəlirini vergilər, müharibədə əldə edilmiş qənimətlərin böyük hissəsi, vərəsəsi olmayan şəxslərin əmlakı və i.a. təşkil edirdi. B.-m.-ın əmlakları hüquqi baxımdan iki sahəyə ayrıldığına görə sədəqə (dövlətin ictimai yardım fondu (və xərac) dövlət gəlirlərini özündə cəmləşdirən fond) şöbələri mövcud idi. Abbasilər sülaləsi dövründə (762-1258) və Osmanlı imperiyasının hakimiyyəti illərində də b.-m. dövlətin mühüm maliyyə idarəsi kimi fəaliyyət göstərmişdir; **2)** orta əsrlərdə müsəlman dünyasında ianə üçün toplanan pulların və qiymətli malların saxlandığı yer.

**Bədbəxt hadisə** – əmək qanunvericiliyinə görə işlə əlaqədar əmək vəzifələrinin yerinə yetirilməsi prosesində və ya qanunda xüsusi





olaraq nəzərdə tutulduğu hallarda işçinin orqanizminin qəflətən zədələnməsi, səhhətin pozulması (zərər çəkmiş şəxsin qəsdi nəticəsində baş vermədikdə) ilə müşayiət olunan hadisə. B.h. dövlət sosial sığortası üzrə müavinətlər, təqaüdlər haqqında qanunvericilik aktları ilə müəyyən edilir. İşçinin əmək vəzifələrinin yerinə yetirilməsi ilə bağlı olan və müəssisənin təqsiri nəticəsində əmələ gəlmiş istehsalat şikəstliyi onun zərər çəkmiş işçi qarşısında maddi məsuliyyət daşıması üçün əsaslardan biridir.

**Bədən xəsarətləri** – kriminalistik baxımdan bədənin anatomik bütövlüyünün və ya orqanizmin, onun orqanlarının fizioloji funksiyalarının pozulması yolu ilə bir şəxsin digər şəxsin sağlamlığına vurduğu zərər. Cinayət qanununda insan sağlamlığına qəsdən ağır zərər vurma (AR CM-in 126-cı maddəsi), qəsdən az ağır zərər vurma (AR CM-in 127-ci maddəsi), qəsdən yüngül zərər vurma (AR CM-in 128-ci maddəsi), qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində ağır və ya az ağır zərər vurma (AR CM-in 129-cu maddəsi), zəruri müdafiə həddini aşmaqla ağır və ya cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla ağır və ya az ağır zərər vurma (AR CM-in 130-cu maddəsi), ehtiyatsızlıqdan az ağır və ya ağır zərər vurma (AR CM-in 131-ci maddəsi) fərqləndirilir.

B.x.-nin ağırlıq dərəcəsi məhkəmə-tibb və ya məhkəmə-psixiatriya ekspertizalarının rəyi əsasında müəyyən edilir. Qəsdən sağlamlığa yüngül xəsarət vurmaq haqqında işlərə ancaq zərər çəkmiş şəxsin şikayətilə başlanılır və ona tərəflərin barışması ilə xitam verilə bilər. B.x.-nə dair bütün qalan işlər üzrə istintaq daxili işlər orqanlarının müstəntiqləri tərəfindən aparılır. Zərər çəkmiş şəxsin, sair şəxslərin ərizələri, tibb müəssisələrinin, polisin, növbə çəkmə əməkdaşlarının məlumatları cinayət işi başlamanın səbəbinə xidmət edə bilər.

B.x.-nə dair işlərin istintaqı prosesində aşağıdakı hallar sübut edilməlidir: a) xəsarətlərin olması, xarakteri və ağırlıq dərəcəsi; b) onların vurulması anında həyat üçün təhlükəliliyi; c) xəsarətlərin zəruri müdafiə, son zərurət və ya affekt vəziyyətində vurulub-vurulmaması; ç) vurulmuş xəsarətlərin nəticələri (görmə, eşitmə qabiliyyətinin, yaxud hər hansı orqanın və ya onun funksiyasının itirilməsi, əmək qabiliyyətinin ən azı üçdə birinin itirilməsi, hamiləliyin pozulması, sifətin eybəcərləşdirilməsi).

**"Bədən tərbiyəsi və idman haqqında" qanun** – Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində yaranan münasibətləri tənzimləyən, dövlət siyasətini müəyyənləşdirən, bədən tərbiyəsi və idmanla hər kəsin məşğul olmaq hüququna təminat verən qanunvericilik aktı. Bu qanun 23 dekabr 1997-ci il tarixdə qəbul edilmişdir. Qanun 4 fəsil və 30 maddədən ibarətdir.

**Bəhailik** – kosmopolit dini-siyasi cərəyan. Yaxın Şərq, Qərbi Avropa ölkələrində, ABŞ-da, qismən də çar Rusiyasında yayılmışdı. Cərəyanın banisi Babın şagirdi, Bəhaülla ("Allahın nuru") ləqəbi ilə məşhur olan Mirzə Hüseyn Əli olmuşdur. B. XIX yüzilliyin ortalarında İranda babi üsyanlarının məğlubiyyətindən sonra təqibdən qaçan babilərin təriqəti kimi yaranmışdır. Bəhailərin fikrincə, Allaha sitayişin mahiyyəti sənət, ticarət və s. ilə məşğul olmaqdır. Babiliyin inqilabi-de-

mokratik elementlərindən imtina edən b.-in əsas müddəaları Bəhaüllanın Quranı və Babın "Bəyan"ını əvəz etmək məqsədilə yazdığı "Ən müqəddəs kitab"da ifadə edilmişdir. Xüsusi mülkiyyəti və sosial bərabərsizliyi müdafiə edən, siyasi mübarizənin əleyhinə çıxan b. milli sərhədləri, dövlət müstəqilliyini və suverenliyini inkar edir, elm və dini birləşdirməyi zəruri hesab edirdi. İran komprador burjuaziyasının mənafeyini müdafiə edən b. insanları "qardaşlığa" səsləməklə yalnız "sinfi sülhü" deyil, həm də müstəmləkəçiliyə qarşı mübarizədən əl çəkməyi təlqin edirdi. Bu cəhətlərinə görə b. ABŞ, İngiltərə və Almaniya müstəmləkəçilərinin diqqətini cəlb etmiş, həmin ölkələrdə sosial-etik təlim kimi yayılmışdır. Çar Rusiyası da bəhailərə himayəçi münasibət bəsləmişdir. Bəhaüllanın varisi Əbdülbəha (1844-1921) b.-i fəal təbliğ etdiyi üçün İngiltərə hökuməti ona ser titulu vermişdir. İkinci dünya müharibəsindən sonra bəhailər "vahid dünya dövləti" yaradılmasına çağırırdılar. B.-in əsas mərkəzləri ABŞ-da və AFR-dədir.

**Bəhrə** – orta əsrlərdə Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda torpaq və sudan istifadə edən kəndlilərdən məhsulla (buğda, arpa, düyü və i.a.) alınan feodal rentası. B. ayrı-ayrı dövrlərdə müxtəlif həcmdə (məhsulun təxminən 1/10 - 1/4-i qədər) toplanmışdır. XIII-XIV yüzilliklərdə sahibkar torpaqlarının artması ilə əlaqədar b. geniş yayılmışdır. B. Azərbaycanda malcəhət, dəhyek, caharyek və i.a. adları ilə yayılmışdır. Xanlıqlar dövründə əsas vergilərdən olan b. kəndliləri talamaq vasitələrindən birinə çevrilmişdi.

**Bəxşiş** *(bax: bağışlama).*

**Bələdiyyə** *(ər. şəhər idarəsi – şəhər sözündəndir)* – bir sıra ölkələrdə seçkili yerli idarə və özünüidarə orqanı. Bəzi ölkələrdə (məsələn, ABŞ və Böyük Britaniyada) yalnız şəhər idarə orqanları b. adlanır. Bir qayda olaraq, merin, burqomistrin və i.a. başçılığı ilə seçkili kollegiya və icra aparatından ibarətdir. Müvafiq inzibati vahidin əhalisi tərəfindən seçilir. Abadlıq, səhiyyə, yerli polis, dövlət məktəbləri və i.a. məsələlərə baxır. Əsas gəlir mənbəyi əhalidən tutulan yerli vergilərdir. B. mənzil fondunun, bələdiyyə mülkiyyətinin və digər əmlakın mülkiyyətçisi ola bilər. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının 2 iyul 1999-cu il tarixli qanununun 2-ci maddəsinin 1-ci hissəsinə uyğun olaraq bələdiyyə qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti, yerli büdcəsi və seçkili bələdiyyə orqanları olur və o, Azərbaycan Respublikasının Konstitusiyası ilə və bu qanunla səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Bələdiyyələr bərabərlik əsasında qurulur və fəaliyyət göstərirlər.

**Bələdiyyə bankları** – bələdiyyə müəssisələrinin mülkiyyətində olan banklar. Azərbaycan Respublikasında b.b.-nın yaradılmasının hüquqi əsası yerli özünüidarənin təşkilindən sonra yaranmışdır.

**Bələdiyyə borcu** – bələdiyyə borclarından (borc götürmələrindən) yaranan öhdəliklər. Bu borclar bələdiyyə orqanı tərəfindən üçüncü şəxslərdən qəbul etdiyi öhdəliklər hesabına əmələ gəlir.

**Bələdiyyə hüququ** – bir sıra ölkələrdə konstitusiya hüququnun sahədaxili hüquq







sahəsi. Özündə yerli özünüidarənin təşkilini tənzimləyən normalar sistemini ehtiva edir. Azərbaycan Respublikasında konstitusiya hüququnun belə sahədaxili hüquq sahəsi hələ formalaşmamışdır.

**Bələdiyyə istiqrazı** – pul vəsaitlərinin bələdiyyə orqanının mülkiyyətinə verilməsi. Bələdiyyə orqanı həmin vəsaiti eyni məbləğdə və həm də faizi ödənilməklə qaytarmağa borcludur.

**Bələdiyyə korporasiyası** – ingilis-sakson (anqlsaks) hüquq sistemli ölkələrdə hüquqi şəxs hüquqlarına malik olan iri şəhər özünüidarə icmaları. ABŞ-da bütün iri şəhər icmaları belə statusa malikdir. Pakistanda isə bu statusdan əhalisi 500 mindən az olmayan şəhərlər istifadə edirlər.

**Bələdiyyə qulluğu** – yerli özünüidarə orqanlarının səlahiyyətlərini icra etmək üçün həmin orqanlarda daimi peşə fəaliyyəti. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası qanununun 25-ci maddəsinə uyğun olaraq bələdiyyə orqanlarında vəzifə tutan şəxslər bələdiyyə qulluqçularıdır. Bələdiyyə qulluğunun hüquqi tənzimlənməsi, o cümlədən bələdiyyə qulluqçusunun statusu, bələdiyyə qulluğunun həyata keçirilməsi şərtləri və qaydası Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir. Bələdiyyə orqanlarında qulluq müddəti dövlət qulluğu haqqında qanunvericiliyə uyğun olaraq güzəştlər və təminatlar verilməsi üçün hesablanan staja daxil edilir.

**"Bələdiyyə qulluğu haqqında" qanun** – bələdiyyə qulluğu ilə əlaqədar münasibətləri və Azərbaycan Respublikasında bələdiyyə qulluqçularının hüquqi vəziyyətini tənzimləyən qanunvericilik aktı. Qanun 30 noyabr 1999-cu il tarixdə qəbul edilmişdir. O, 14 maddədən ibarətdir.

Bələdiyyə qulluğunun hüquqi tənzimlənməsi, o cümlədən bələdiyyə qulluqçusunun statusu, bələdiyyə qulluğunun həyata keçirilməsi şərtləri və qaydası Azərbaycan Respublikasının Konstitusiyası "Bələdiyyə qulluğu haqqında" qanun, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir.

**Bələdiyyə qulluqçusu** – yerli özünüidarə orqanlarında təyin olunmaqla vəzifə tutan və ödənişli əsaslarla xidmət göstərən şəxs. Bələdiyyə üzvləri və bələdiyyələrin fəaliyyətinin təmin olunması ilə birbaşa bağlı olmayan vəzifələri yerinə yetirən şəxslər bələdiyyə qulluqçusu hesab edilmirlər.

**Bələdiyyələrarası məhkəmələr** – Rusiya Federasiyasında (Moskva şəhərində) keçmiş rayon xalq məhkəmələrinin adı.

**Bələdiyyələrə seçkilər** – "Bələdiyyələrin statusu haqqında" AR qanununun 27-ci maddəsinə əsasən bələdiyyələrə seçkilər vətəndaşların qanunla müəyyənləşdirilmiş seçki hüquqları təmin edilməklə, ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi, gizli səsvermə yolu ilə həyata keçirilir. Bələdiyyələrə seçkilər "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikasının qanununa uyğun keçirilir. Azərbaycan Respublikasının dövlət orqanları bələdiyyələrə seçkilərin demokratik əsasla keçirilməsinə təminat verirlər.

**"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi**

**haqqında" qanun** – bu qanunun 1-ci maddəsinə uyğun olaraq bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyətlə əlaqədar, tarixi və digər yerli xüsusiyyətləri, müvafiq yerli əhalinin rəyini nəzərə almaqla birləşərək, yaxud ayrılaraq yeni bələdiyyə təşkil edə bilərlər.

Qanun 14 aprel 2000-ci il tarixdə qəbul edilmişdir. O, 9 maddədən ibarətdir.

**Bələdiyyələrin əraziləri** – bələdiyyələrin yerli özünüidarə ilə əlaqədar öz səlahiyyətlərini həyata keçirdikləri inzibati vahidlər. "Bələdiyyələrin statusu haqqında" Qanunun 12-ci maddəsinə uyğun olaraq yerli özünüidarənin Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilmiş ərazilərdə yaradılan bələdiyyələr həyata keçirirlər. Müəyyən ərazidə əhalinin sayına görə vətəndaşlar yerli özünüidarəni həyata keçirmək hüququndan məhrum edilə bilməzlər.

B.ə.-nin müəyyənləşdirilməsi və dəyişdirilməsi, o cümlədən bələdiyyələr təşkil edilərkən, yenidən təşkil edilərkən və ya ləğv olunarkən onların hüdudlarının müəyyənləşdirilməsi və dəyişdirilməsi tarixi və digər yerli xüsusiyyətləri, müvafiq ərazi əhalisinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilir.

**"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" qanun** – bələdiyyələrin ərazi hüdudlarını və torpaq sahələrinin sərhədlərini nəzərdə tutan qanunvericilik aktı. Qanun 7 dekabr 1999-cu ildə qəbul edilmişdir.

"Bələdiyyələrin statusu haqqında" qanuna uyğun olaraq bələdiyyələrin sayının təsdiq olunmuş siyahısı həmin qanuna əlavə edilmişdir. Bu qanunun 3-cü bəndinə əsasən bələdiyyə mülkiyyətində olan torpaqlara sahiblik, habelə onlardan istifadə və onlara dair sərəncam verilməsi sahəsində idarəetmə mülki və torpaq qanunvericiliyinin, habelə şəhərsalmanın əsasları haqqında və memarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunlarının tələblərinə və bələdiyyənin nizamnaməsinə uyğun həyata keçirilir.

**Bələdiyyələrin ittifaqları** – "Bələdiyyələrin statusu haqqında" qanunun 10-cu maddəsinə uyğun olaraq bələdiyyələr öz fəaliyyətini əlaqələndirmək, hüquq və mənafelərini daha səmərəli həyata keçirmək məqsədilə ittifaqlar yarada bilərlər. Həmin ittifaqlar qanunvericiliyə uyğun qaydada qeydiyyata alınmalıdır. Bələdiyyə ittifaqlarına bələdiyyələrin səlahiyyətləri verilə bilməz.

**"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" qanun** – bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsinin prinsiplərini, yerli büdcə prosesinin əsaslarını və bu sahələrdə bələdiyyələrin səlahiyyətləri və onların müvafiq icra hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətlərini tənzimləyən qanunvericilik aktı. Bu qanun 7 dekabr 1999-cu ildə qəbul edilmişdir. O, 15 maddədən ibarətdir.

Qanunun 2-ci maddəsinə əsasən bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsi ilə əlaqədar yaranan münasibətlər Azərbaycan Respublikasının Konstitusiyası ilə, bu qanunla, "Bələdiyyələrin statusu haqqında", "Dövlət büdcəsi haqqında", "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ-hüquqi aktları ilə tənzimlənir.

**"Bələdiyyələrin statusu haqqında" qanun** – Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq yerli özünüidarəni





həyata keçirən bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatlarını müəyyən edən qanunvericilik aktı. Bu qanun 2 iyul 1999-cu ildə qəbul edilmişdir. O, 8 fəsil və 56 maddədən ibarətdir.

**Bələdiyyələr və bələdiyyə orqanları** – "Bələdiyyələrin statusu haqqında" qanunun 14-cü maddəsinə uyğun olaraq bələdiyyələr Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə, bu qanuna və özlərinin nizamnamələrinə əsasən təşkil edilən, bələdiyyə üzvlərindən ibarət olan seçkili yerli özünüidarə orqanlarıdır. Bələdiyyələrin say tərkibi "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikasının qanunu ilə müəyyənləşdirilir. Bələdiyyələrin nizamnamələrinə uyğun olaraq bələdiyyə orqanları yaradılır və onlara yerli özünüidarə məsələlərini həll etmək üçün səlahiyyətlər verilir. Bələdiyyələr və onların orqanları dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir. Dövlət orqanları və dövlətin vəzifəli şəxsləri tərəfindən yerli özünüidarənin həyata keçirilməsinə yol verilmir. Bələdiyyələrin və onların orqanlarının strukturu bu qanun və bələdiyyələrin nizamnamələrinə uyğun olaraq müəyyənləşdirilir.

**Bələdiyyə mənzil fondu** – Azərbaycan Respublikasının mənzil qanunvericiliyinə uyğun olaraq şəhər və rayonların, onlara daxil olan inzibati-ərazi vahidlərinin mülkiyyətində olan mənzil fondları bələdiyyələrin əməli təsərrüfat idarəçiliyinə verilə bilər. Bələdiyyə malik olduğu mənzil fonduna sahiblik edir, ondan istifadə edir və onun üzərində sərəncam verir.

**Bələdiyyə mülkiyyəti** – yerli maliyyə, dövlət mülkiyyətində olan və bələdiyyələrin istifadəsinə verilmiş bələdiyyə əhalisinin tələbatının ödənilməsinə xidmət edən bütün növdən olan daşınar və daşınmaz əmlak.

"Bələdiyyələrin statusu haqqında" qanunun 33-cü maddəsinə uyğun olaraq bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti, bələdiyyənin büdcədənkənar fondları, bələdiyyə əmlakı, habelə bələdiyyə torpaqları, bələdiyyə müəssisələri və təşkilatları, bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları, dövlət mülkiyyətində və xüsusi mülkiyyətdə olmayan yollar, bələdiyyə, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri, digər daşınar və daşınmaz əmlak daxildir.

Bələdiyyələr bələdiyyə mülkiyyətini idarə edirlər. Bələdiyyə mülkiyyətinin tərkibinə daxil olan əmlak barəsində mülkiyyət hüququnu bələdiyyələr, Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hallarda isə bilavasitə əhali həyata keçirir. Qanuna uyğun olaraq bələdiyyələr yerli əhalinin mənafeyi naminə, bələdiyyənin hüdudları daxilində olan torpaqlardan istifadə şərtlərini müəyyənləşdirə bilərlər. Bələdiyyə mülkiyyətinin özəlləşdirilməsi qaydasını və şərtlərini əhali bilavasitə və ya bələdiyyə müstəqil surətdə müəyyənləşdirir. Bələdiyyə mülkiyyəti obyektlərinin özəlləşdirilməsindən daxil olan vəsaitlər bütünlüklə yerli büdcəyə daxil olur.

Bələdiyyə mülkiyyətindən yalnız Azərbaycan Respublikasının Konstitusiyasında və "Bələdiyyələrin statusu haqqında" qanunda nəzərdə tutulmuş bələdiyyə vəzifələri üçün istifadə oluna bilər. Dövlət

bələdiyyə mülkiyyətini müdafiə edir, subsidiyalar, kreditlər, qrantlar vermək yolu ilə onun artmasına imkan yaradır.

**"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" qanun** – yerli özünüidarəetmənin iqtisadi əsasını təşkil edən bələdiyyə əmlakının yaranması əsaslarını müəyyən edən qanunvericilik aktı. Qanun 7 dekabr 1999-cu ildə qəbul edilmişdir. O, 6 maddədən ibarətdir.

Bələdiyyə əmlakı haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyası, Mülki Məcəlləsi, bu qanun və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarından ibarətdir.

**Bələdiyyə müşaviri** – bələdiyyə şurasının üzvü olan şəxs.

**Bələdiyyənin daimi və başqa komissiyaları** – "Bələdiyyələrin statusu haqqında" qanunun 17-ci maddəsinə uyğun olaraq bələdiyyə öz səlahiyyətinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilməsi və hazırlanması üçün, habelə bələdiyyənin qərarlarının həyata keçirilməsinə yardım göstərilməsi, bələdiyyənin tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət üçün daimi və başqa komissiyalar yarada bilər.

Bu komissiyalar səlahiyyətləri daxilində fəaliyyətlərinin təşkili məqsədilə öz işlərinə ekspertlər cəlb edə bilərlər. Komissiyalar yaradılarkən yerli əhəmiyyətli məsələlər nəzərə alınır və onlar "Bələdiyyənin daimi və başqa komissiyaları haqqında" əsasnamə, bələdiyyənin nizamnaməsi əsasında fəaliyyət göstərirlər. Belə komissiyaların əsas vəzifələri aşağıdakılardan ibarətdir: 1) yerli əhəmiyyətli sosial müdafiə və sosial inkişaf, ekologiya, iqtisadi inkişaf, yerli xidmət üzrə proqramlar hazırlayıb, bələdiyyənin iclasına və ya yerli əhalinin müzakirəsinə çıxarmaq; 2) yerli əhəmiyyətli məsələləri müzakirə etmək, bələdiyyə iclaslarında müzakirə üçün proqramlar, arayışlar, qərar layihələri və başqa materiallar hazırlamaq; 3) bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlamaq; 4) seçicilərin tapşırıqlarının yerinə yetirilməsinin təşkilinə və yoxlanılmasına kömək etmək.

Daimi və başqa komissiyalar onları seçmiş bələdiyyə qarşısında məsuliyyət daşıyır və ona hesabat verirlər.

**Bələdiyyənin iclası** – "Bələdiyyələrin statusu haqqında" qanunun 16-cı maddəsinə uyğun olaraq bələdiyyənin iclası ayda bir dəfədən az olmayaraq bələdiyyənin sədri tərəfindən çağırılır. B.i. bələdiyyə üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli hesab olunur.

B.i.-ları bələdiyyə ərazisində yaşayan əhalinin azı 10 faizinin, yaxud bələdiyyə üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır. İclaslarda bələdiyyə üzvlərinin və digər iştirakçıların məsuliyyəti bələdiyyənin nizamnaməsi ilə tənzimlənir.

Azərbaycan Respublikası Konstitusiyasının 145-ci maddəsinin II hissəsinə uyğun olaraq bələdiyyə iclaslarında baxılan məsələlərə dair bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qərarlar qəbul edilir.

Bələdiyyənin bütün iclaslarının protokolları tərtib edilir.

**Bələdiyyənin icra orqanı** – bələdiyyənin icra aparatı. Bu aparat bələdiyyənin icra orqanı hesab olunur. İcra aparatı bələdiyyənin sədrindən və onun "Bələdiyyələrin statusu haqqında" qanunla və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilmiş qaydada formalaşdırdığı struktur bölmələrindən və bələdiyyənin nizamnaməsinə müvafiq surətdə yaradılan digər strukturlarından ibarətdir. Bələdiyyənin icra aparatının fəaliyyətinə bələdiyyənin sədri rəhbərlik edir.

Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini Bələdiyyə Şurasının qərarına əsasən bələdiyyənin sədri təyin edir.

**Bələdiyyənin nizamnaməsi** – bələdiyyənin təşkili və fəaliyyət prinsiplərini, məqsəd və vəzifələrini, bələdiyyə üzvlərinin hüquq və vəzifələrini, habelə məsuliyyətini və i.a. nəzərdə tutan normativ-hüquqi akt.

B.n. bələdiyyənin iclasları və ya vətəndaşların yığıncaqları tərəfindən qəbul edilir. Nizamnamə Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçməlidir. Onun qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

"Bələdiyyələrin statusu haqqında" qanunun 8-ci maddəsinin 4-cü bəndinə uyğun olaraq bələdiyyənin nizamnaməsini dövlət qeydiyyatına almaqdan imtina edilməsinə ancaq onun Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının aktlarına zidd olması əsas verə bilər. Dövlət qeydiyyatına almaqdan imtina edilməsi barədə vətəndaşlar və bələdiyyələr məhkəmə qaydasında şikayət verə bilərlər. B.n. qeydiyyata alındığı gündən qüvvəyə minir.

**Bələdiyyə orqanları** – bələdiyyə tərəfindən yaradılan, yerli əhəmiyyətli məsələləri həll etmək səlahiyyətləri verilən və dövlət orqanları sisteminə daxil olmayan seçkili və başqa orqanlar *(həmçinin bax: bələdiyyələr və bələdiyyə orqanları).*

**Bələdiyyə orqanlarının vəzifəli şəxsi** – yerli özünüidarə orqanlarında təşkilatçılıq-sərəncamçılıq funksiyalarını yerinə yetirən və dövlət qulluqçuları kateqoriyasına aid olmayan, kontrakt (əmək müqaviləsi) üzrə işləyən şəxs.

**Bələdiyyə rayonu (dairəsi)** – bəzi dövlətlərdə, yaxud onların ayrı-ayrı hissələrində aşağı səviyyəli inzibati-ərazi vahidi. Məsələn, Bakı şəhərində müvafiq ərazi sakinlərinin özünüidarəsinin həyata keçirildiyi rayon bələdiyyə rayonu, yəni bələdiyyə inzibati-ərazi vahidi hesab olunur. Bələdiyyə rayonunun (dairəsinin sərhədləri və adı müvafiq şəhər icra hakimiyyəti tərəfindən (şəhər merinin təqdimatı əsasında) müəyyən edilir.

**Bələdiyyə sifarişi** – "Bələdiyyələrin statusu haqqında" qanunun 37-ci maddəsinə uyğun olaraq bələdiyyələr öz maddi və maliyyə vəsaitlərindən istifadə edilməklə bələdiyyə ərazisinin abadlaşdırılması, əhaliyə kommunal xidmətlər göstərilməsi, sosial infrastruktur obyektlərinin tikintisi və təmiri, müvafiq ərazi əhalisinin məişət və sosial-mədəni tələbatının ödənilməsi üçün zəruri məhsulların istehsalı, xidmətlərin göstərilməsi və digər işlərin görülməsi üçün sifarişçi kimi çıxış edə bilərlər.

**Bələdiyyə şurası** – bəzi ölkələrdə (Fransada, Meksikada, Rumıniyada) yerli özünüidarənin kollegial seçkili orqanının adı. Bələdiyyə şurasının icra orqanı, bir qayda olaraq, mer hesab olunur.

**Bələdiyyə üzvü** – bələdiyyə seçkilərində seçilmiş, mandatı ərazi seçki komissiyası tərəfindən təsdiq edilmiş şəxs.

B.ü.-nün bələdiyyənin iclaslarında müzakirə olunan məsələlər barəsində çıxış etmək, təkliflər və düzəlişlər vermək, qeydlər etmək, çıxış edənlərə və ya təyin edilməsinə razılıq verilən vəzifələrə göstərilmiş namizədlərə sual vermək, arayış vermək, səsvermədə iştirak etmək hüququ vardır.

"Bələdiyyələrin statusu haqqında" qanunun 15-ci maddəsinə uyğun olaraq əməkhaqqını bələdiyyədən alan b.ü.-nün əsas iş yeri bələdiyyə hesab olunur. O, bələdiyyənin və tərkibinə seçildiyi daimi komissiyanın iclasları zamanı daimi iş yerində orta əməkhaqqı saxlanılmaqla öz istehsal və ya xidməti vəzifəsini yerinə yetirməkdən azad edilir. B.ü. bələdiyyənin, bələdiyyənin iclasları arasındakı dövrdə isə bələdiyyə sədrinin qabaqcadan razılığı olmadan əmək müqaviləsi ilə işlədiyi yerdə müdiriyyətin təşəbbüsü ilə işdən çıxarıla bilməz, yaxud intizam tənbehi qaydasında azmaaşlı işə keçirilə bilməz. B.ü. 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verir. B.ü. səlahiyyət müddəti ərzində hər hansı səbəbdən bələdiyyə tərkibindən çıxdıqda müvafiq bələdiyyə ərazisində "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikası qanununa uyğun olaraq seçkilər keçirilir.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi əsasları, onların səlahiyyətlərinə xitam verilməsi əsasları və qaydası "Bələdiyyələrin statusu haqqında" qanunun 21-23-cü maddələri ilə tənzimlənir.

**"Bələdiyyə üzvünün statusu haqqında" qanun** – bələdiyyə üzvünün hüquqi vəziyyətini tənzimləyən qanunvericilik aktı. Bu qanun 18 aprel 2000-ci il tarixdə qəbul edilmişdir. Qanun 4 fəsil və 16 maddədən ibarətdir.

Qanunun 1-ci maddəsinə uyğun olaraq bələdiyyə üzvünün statusu Azərbaycan Respublikası Konstitusiyası, bu Qanun və Azərbaycan Respublikasının digər qanunvericilik aktları, habelə bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir.

**Bələdiyyə vəzifəsi** – Azərbaycan Respublikasında bələdiyyə orqanı tərəfindən müvafiq qanunvericilik aktına uyğun olaraq nizamnamə əsasında müəyyən edilən vəzifə. Bələdiyyə vəzifəsini daşıyan şəxs yerli əhəmiyyətli məsələlər üzrə səlahiyyətlərə malik olur və bu səlahiyyətlərin həyata keçirilməsi üçün məsuliyyət daşıyır.

**"Bərabərlər qəsdi"** – XVIII yüzilliyin sonunda Qrakx Baböfün rəhbərlik etdiyi utopik inqilabi kommunizm təlimində "bərabərlik naminə qəsdin" adını bildirən termin. Utopik inqilabi kommunizm ideyaları "bərabərlik naminə qəsd"ə dair proqramda formulə edilmişdi. Baböf hesab edirdi ki, kommunizm quruluşu islahatlar yolu ilə yaradıla bilməz. Onun yaradılması və bərqərar olması üçün qətiyyətli mübarizə aparılması zəruridir. O, məhz bu mübarizənin təşkili məqsədilə "İctimai nicatın gizli direktoriyası"nı yaratmış və həmin direktoriya hazırlanmaqda olan "Bərabərlər qəsdi" xalq üsyanının ideya və təşkilati mərkəzi olmuşdur.

**Bərabərlik** – insan cəmiyyətində fərdlərin eyni vəziyyətini, onların tarazlığını bildirən anlayış. B. müxtəlif tarixi dövrlərdə müxtəlif məzmuna malik olmuşdur. Hələ antik dövrdə Aristotel bərabərliyi ədalət kateqoriyası ilə sıx əlaqələndirmiş və bununla yanaşı məhz ədalətin bərabərliyin





əsasına xidmət etdiyini vurğulamışdır. XIV əsrin sonu - XV əsrdə Qərbi Avropa intibahının görkəmli humanistləri (məsələn, Bruni, Poco) bərabərlik dedikdə, vətəndaşların dövlət idarəçiliyində və ədalət mühakiməsinin həyata keçirilməsində iştirakını nəzərdə tutmuşlar. Müasir mərhələdə b. dedikdə, hər şeydən əvvəl, insanların sosial-siyasi və hüquq bərabərliyi, eləcə də hamının qanun qarşısında bərabərliyi (o cümlədən qadının kişi ilə hüquqca bərabərliyi) anlaşılır.

**Bərabər nümayəndəlik** – seçki sistemi prinsipi; bu prinsipə görə eyni nümayəndəli orqanın hər bir deputatı seçicilərin bərabər sayından seçilməlidir. Təbəqə, korporativ, konfessional, etnik və ya regional nümayəndəlik sistemlərində b.n. istisna olunur.

**Bərabər seçki hüququ** – seçki sistemi prinsipi; aşağıdakı üç şərti nəzərdə tutur: **1)** hər bir seçici səslərin eyni sayına malikdir (hər şeydən əvvəl, digər variantlar da mümkündür; məsələn, AFR-də seçiciyə iki səs verilir: birinci seçki dairəsi üzrə deputatların seçilməsi üçün; ikinci bundestaqa əyalət siyahısı üzrə seçkilər üçün); **2)** hər bir deputatın seçicilərin eyni sayını təmsil etməsi lazımdır; **3)** seçicilərin əmlak, milli, dini, və ya digər əlamətlərə görə dərəcələrə (kuriyalara) bölgüsünə yol verilmir.

**Bərabər vergiqoyma** – ödəyicilərin hər biri üçün bərabər vergi məbləğinin müəyyən edildiyi halda tətbiq edilən vergiqoyma metodu. Başqa sözlə, can (ən qədim və sadə vergi növü) vergisi. Bu metod əmlak vəziyyətini nəzərə almadığına görə istisna hal kimi tətbiq edilir. Bəzi məqsədli vergiləri buna misal göstərmək olar.

**Bərabər vətəndaşlıq** – bir sıra dövlətlərin konstitusiya hüququnda prinsip; bu prinsipə uyğun olaraq vətəndaşlıq əldə etmə əsaslarından (üsullarından) asılı olmayaraq, vətəndaşlar bərabər hüquqlara, azadlıqlara vəzifələrə malikdirlər. Bəzi dövlətlərdə natural (anadangəlmə) vətəndaşlar naturallaşdırılmış vətəndaşlara nisbətən daha geniş hüquqlara malikdirlər. Məsələn, ABŞ-da, Estoniyada, Filippində ancaq bu ölkədə doğulmuş vətəndaşlar dövlətin prezidenti ola bilərlər. Rumıniyada və Estoniyada naturallaşdırılmış vətəndaşlar bir sıra hallarda vətəndaşlıqdan məhrum oluna bilərlər.

**Bəraət (bəraət hökmü)** – təqsirləndirilən şəxsin ona elan olunmuş ittihamda təqsirsizliyinin məhkəmə tərəfindən tanınması. B. hökmü cinayət hadisəsi mövcud olmadıqda və ya müəyyən edilmədikdə, təqsirləndirilən şəxsin hərəkət və ya hərəkətsizliyində cinayət tərkibinin əlamətləri olmadıqda, yaxud törədilmiş əməldə təqsirləndirilən şəxsin iştirakı sübut edilmədikdə çıxarılır. Məhkəmənin hökmü ilə b. almış şəxs onun əsasından asılı olmayaraq məhkum olunmamış hesab olunur. B. hökmü çıxarılarkən əmlak müsadirəsi ilə əlaqədar tətbiq edilmiş tədbirlər və habelə seçilmiş qətimkan tədbiri ləğv edilir. B. alan şəxs məhkəmənin hökmü elan edildikdən dərhal sonra məhkəmə zalında həbsdən azad olunur. B. hökmü kassasiya qaydasında yalnız prokurorun protesti, habelə zərər çəkmiş şəxsin və ya b. almış şəxsin (əgər o, b. hökmünün motivlərindən və əsaslarından narazı qalarsa) şikayəti əsasında ləğv oluna bilər.

**Bəst** *(fars. sığınacaq, toxunulmaz yer)* – İranda qədim adətə əsaslanan ərazi toxu-

nulmazlığı hüququ. Daha mötəbər və müqəddəs dini yerlərdə (məsciddə, məbəddə, sərdabədə və i.a.) sığınacaq verilməsi adəti Müsəlman Şərqi ölkələrində geniş yayılmışdır. XIX yüzillikdən başlayaraq ərazi toxunulmazlığı hüququ olan səfirliklər, diplomatik nümayəndəliklər və i.a. idarələrdən də b. kimi istifadə edilmişdir. B.-dən çox zaman hakimiyyət orqanlarının zorakılığından və təqiblərindən xilas olmaq, yaxud belə tədbirlərə qarşı etiraz əlaməti kimi də istifadə olunmuşdur. Belə hallarda b. kütləvi nümayişə çevrilir, bazarlar, mağazalar, emalatxanalar və digər iaşə obyektləri isə sahibkarlar tərəfindən bağlanırdı. İran inqilabı dövründə (1905-1911-ci illərdə) b.-dən geniş istifadə edilmişdir.

Ümumiyyətlə, sığınacaq, toxunulmaz yer tapmaq adətindən çox qədim dövrlərdən istifadə edilmişdir. Məsələn, Qədim Misirdə, hətta ağasının zülmündən xilas olmaq üçün qaçaraq məbəddə gizlənən qul geri verilmir və o, məbədin köləsinə çevrilirdi.

**Bəşəriyyət əleyhinə olan cinayətlər** – millətlərin və dövlətlərin varlığı əsasları, onların mütərəqqi inkişafı və dinc beynəlxalq ünsiyyəti üçün təhlükə yaradan beynəlxalq cinayətlər. Hərbi və bəşəriyyət əleyhinə olan cinayətlərə iddia müddətinin tətbiq edilməməsi haqqında 1968-ci il konvensiyası ilə ilk dəfə olaraq ayrıca cinayətlər qrupuna ayrılmışdır. Silahlı basqın və ya işğal nəticəsində dinc əhalinin zorla köçürülməsi, apartheidin, habelə genosidin (soyqırımın) nəticəsi kimi qeyri-insani hərəkətlər həmin qrupa aid edilmişdir. Apartheid cinayətlərinin qarşısının alınması və cəzalandırılması haqqında 1973-cü il konvensiyası irqi ayrı-seçkiliyi də bunlara bənzər cinayət kimi tanımışdır. Müstəmləkəçilik və ekosid də b.ə.o.c. qrupuna aid edilir.

**Bəy, bay, bey, biy** – türkdilli xalqlarda əvvəllər tayfa başçılarına, sonralar feodal əyanlarına verilən ad. Bir sıra başqa dillərə də keçmişdir. Qızıl Orda xanı Özbək (1312-1342) müsəlmanlığı qəbul edən monqol feodallarına – noyonlara b. adı verirdi. Türkiyədə mahal hakimlərinə (sancaqbəyi), yüksək rütbəli zabitlərə (alabəyi-polkovnik), bəylərbəyi - general-qubernator və i.a. b. rütbəsi verilirdi (1934-cü ildə ləğv edilmişdir). 1705-1957-ci illərdə Tunisin irsi hakimləri b. adlanırdı. İranın bəzi yerlərində tayfa başçıları b. titulu daşıyırlar. 1920-ci ilədək Azərbaycanda hakim təbəqələrin nümayəndələrinə b. deyilirdi. Xanlıqlar dövründə irsi b.-lər və bu adı xan fərmanına əsasən alan b.-lər olmuşdur. İrsi b.-lərin imtiyazı daha yüksək olmuşdur. B. sözü keçmişdə dövlət idarələrində işləyən azərbaycanlı məmurlara və ümumiyyətlə ziyalılara müraciət forması kimi də işlədilirdi. Azərbaycanlılarda yeni evlənən oğlana da (adətən toy günü) b. deyilir.

**Bəyannamə** – dövlətin, müxtəlif siyasi partiyaların, beynəlxalq və dövlətlərarası təşkilatların əsas prinsiplərinin və mövqelərinin rəsmi elan edilməsi (məsələn, hüquq bəyannaməsi). Xüsusi şəxsin, yaxud təşkilatın məlumatı, bəyanatı.

**Bəylərbəyi, bəylərbəy** – yüksək vəzifə və titul. **1)** Səfəvilər dövlətində bəylərbəyilikləri idarə edən canişin. Səfəvi şahları b.-ləri azərbaycanlılardan (qızılbaş əyanları və şahzadələrindən) təyin edirdilər. İnzibati hakimiyyət b.-nin əlində idi. Yerli qoşuna da o başçılıq edirdi. B. adətən, xan titulu daşıyırdı. B.-lər bəzən şaha tabe olmaqdan da boyun qaçırırdılar. XVI əsrdə b. vəzifəsi Qarabağ və Astrabadda qacar, Farsda zülqədər, Girmanda əfşar, Təbrizdə təkəli və türkman, Heratda şamlı, Həmədanda təkəli, Şirvan və Çuxursəddə ustaclı tayfasından olan əmirlərin əlində idi. B.-lərin nüfuzunun artmasından ehtiyat edən Səfəvi şahları XVII əsrin əvvəllərindən onların hüquqlarını məhdudlaşdırmağa çalışmış, lakin buna tam nail ola bilməmişlər; **2)** Osmanlı imperiyasında əyalət hakimi. Müharibə zamanı qoşuna, 1864-cü ildən isə yeniçəri hissələrinə də başçılıq edirdi. Xidmətlərinə görə b.-yə xass torpaqları verilirdi. B. paşa və mirimiran titulu da daşıyırdı.

**Bəylərbəyilik** – Osmanlı imperiyasında və Səfəvilər dövlətində (XVI-XVIII əsrlərdə) ən böyük inzibati ərazi vahidi. Bəylərbəyi idarə edirdi. XVII əsrdə Səfəvilər dövləti 13 b.-ə bölünmüşdü. Azərbaycanın ərazisi 3 b.-ə (Şirvan – mərkəzi Şamaxı, Qarabağ – mərkəzi Gəncə, Azərbaycan – mərkəzi Təbriz) ayrılmışdı. Səfəvilər dövlətində şaha və hökmdar sülaləsinə məxsus torpaqlar heç bir b.-ə daxil deyildi.

**Bəyzadə (bəyim)** – **1)** bəy oğlu, bəy nəslindən olan adam. 1920-ci ilədək Azərbaycanda hakim təbəqəyə mənsub adamların oğlan uşaqlarına da b. deyilirdi; **2)** 1920-ci ilədək Azərbaycanda bəy arvadına və ümumiyyətlə kübar ailələrdə qadınlara müraciət forması. Hazırda "bəyim" qadın adı kimi işlədilir.

**Bidət** *(ər. "yenilik gətirmək", küfr)* – hakim dinin əsas ehkamlarını qəbul etməyən "yeni" təlim. B. bütün dünya dinlərində mövcud olmuşdur. Forma etibarı ilə dini təriqət olsa da, mahiyyətinə görə müxtəlif sosial qrupların ictimai-siyasi mənafelərindəki ziddiyyətləri pərdələyir. B.-lər dinin hökmran olduğu dövrdə səciyyəvi siyasi mübarizə formalarından biri olmuşdur.

İslam dini hər cür b.-in əleyhinə mübarizə aparmağı dindarların zəruri vəzifəsi hesab edir. İslam dinində b. məfhumu xristianlıqdakı b. (yeres) məfhumundan daha genişdir. İstər islam, istərsə də xristian dinində b.-in həmişə din xadimlərinin ən kəskin təqib və terrorlarına məruz qalmasının əsas ictimai səbəbi cəmiyyətdəki ziddiyyətlər olmuşdur. Orta əsrlərdə b.-lər, ümumiyyətlə, feodal hakimiyyətinə qarşı etirazların ideoloji ifadə forması kimi çıxış etmişdir. İslamda xaricilik, qərmətilik, ismaililik, hürufilik və i.a. kimi bidətlər, xristianlıqda isə zəvvarlıq, bürgerlik, lollardlar, çaşniklər və taboritlər kimi yeretik hərəkatlar orta əsrlərdə geniş yayılmışdı.

**Bidətçilik** *(bax: bidət).*

**Bikameralizm** *(bax: ikipalatalı sistem).*

**Biqamiya** *(lat. bi – iki (x) + yun. gamos – nikah; ing. bigamy)* – ikinikahlılıq, ikiarvadlılıq.

**Bilavasitə demokratiya** *(bax: demokratiya).*

**Bilet** – **1)** özündə müvafiq göstəriciləri əks etdirən müəyyən formaya malik sənəd. Adətən təqdim edilir. Bəzən ixtisaslaşmış təşkilat tərəfindən adlı formada da rəsmiləşdirilir. B., ona malik olan subyektin təşkilat-emitentin peşə fəaliyyətinin predmetini təşkil edən xidmətlərdən istifadə etməsinin legitimliyi hüququnu təsdiq edir. Məsələn, gediş b.-i sərnişin daşıma müqaviləsinin bağlanmasını təsdiq edir; **2)** şəxsin müəyyən ictimai təşkilata

mənsubiyyətini (məsələn, partiya bileti, həmkarlar ittifaqı bileti) təsdiq edən sənəd; **3)** şəxsin müəyyən dövr ərzində bir qədər məhdudlaşdırılmış ərazidə (məsələn, ovçuluq bileti) müəyyən fəaliyyət növü ilə məşğul olmaq hüququnu təsdiq edən sənəd; **4)** tarixən təşəkkül tapmış və sabit söz birləşmələrində (məsələn, bank bileti, dövlət bankı bileti, dövlət xəzinə bileti) sənədin adlandırılması üçün istifadə edilən termin.

**Bilinqvizm** – dövlətdə (parlamentin işində, icra hakimiyyətində, sair orqanlarda) bərabər və eyni dövlət statusuna malik olan iki dildən istifadə olunması. B. Kanadada, Belçikada, Belarusda, Finlandiyada və bəzi ölkələrdə mövcuddur.

**Bill** *(ing. bill)* – Böyük Britaniyada, ABŞ-da, Kanadada və digər ingilisdilli ölkələrdə qanunvericilik orqanlarının müzakirəsinə təqdim edilən qanun layihəsi, habelə bəzi konstitusiya aktlarının (məsələn, hüquqlar haqqında bill) adı. Parlamentin qəbul etdiyi b. dövlət başçısı tərəfindən bəyənildikdən sonra qanuni qüvvəyə minir.

**Bill-broker** – valyuta və fond birjalarında veksellərin (adətən xarici veksellərin) alqı-satqısı əməliyyatlarında peşəkarcasına vasitəçilik edən şəxs.

**Bimetallizm** – iki qiymətli metalın (qızıl və gümüşün) ümumi ekvivalent rolu oynadığı pul sistemi. B.-də hər iki nəcib metaldan kəsilən sikkələr pulun bütün funksiyalarını yerinə yetirir və eyni əsaslarla tədavülə buraxılır. XVI-XIX yüzilliklərdə Qərbi Avropada geniş yayılmışdı. B.-in iki növü məlumdur: 1) paralel valyuta sistemində qızıl və gümüş arasındakı qiymət nisbəti qızıl və gümüşün bazar dəyərinə müvafiq olaraq kortəbii surətdə müəyyən edilirdi; 2) ikili valyuta sistemi XVIII-XIX yüzilliklərdə bir sıra ölkələrdə (Fransada, ABŞ-da) mövcud olmuşdur. Bu ölkələrin hökumətləri qızıl və gümüş arasındakı qiymət nisbətini (paritetini) təyin edirdi. B.-dən qızıl monometallizmə keçilməsinə şərait yaranmışdır.

**Binokulyar lupa** – xırda obyektlərə eyni vaxtda hər iki gözlə baxmaq üçün tətbiq edilən optik cihaz. İki dəfədən dörd dəfəyədək böyütməni təmin edir. Kriminalistik ekspertizaların və sair məhkəmə ekspertizalarının aparılması zamanı ekspert təcrübəsində geniş istifadə olunur.

**Biokriminologiya** *(yun. bios – həyat + lat. crimen – cinayət + yun. logos – söz, anlayış, təlim; ing. biocriminology)* – kriminologiyada mövcud olan istiqamətlərdən biri. Cinayəti bioloji amillərlə müqayisə etməklə izah edir. Məsələn, bəzi şəxslərin cinayət törətməyə anadangəlmə meyilli olmaları.

**Bioloji ekspertizalar** – bioloji obyektlərin xassə və əlamətlərini tədqiq edən məhkəmə ekspertizalarının bir növü. Zooloji, botaniki, ixtioloji, ornitoloji ekspertizalar, yabanı məhsulların ekspertizası b.e.-a aiddir. B.e. bitki və ya yabanı mənşəli obyektlərin eyniləşdirilməsi vəzifəsini həll edir, onların qrup mənsubiyyətini müəyyənləşdirir.

**Bioloji (bakterioloji) silah** – təsiri xəstəlik törədici xassələrə və döyüş bioloji vasitələrinə əsaslanan kütləvi qırğın silahı. Onun səmərəliliyi böyük olmayan ərazidə gizli tətbiq edilmə mümkünlüyü, insanlara, heyvanlara və digər canlı varlıqlara təsirinin aşkar olunması çətinliyi, habelə düşmənə güclü psixoloji təsir göstər-





məsi və qoşunu, əhalini müdafiə etməyin, nəticələrin aradan qaldırılmasının çətinliyi ilə müəyyən edilir.

B.s. 1925-ci il Cenevrə protokolu ilə qadağan edilmişdir. Lakin onu birinci dünya müharibəsində atları zəhərləməklə Almaniya, İkinci dünya müharibəsində isə Yaponiya tətbiq etməyə cəhd göstərmişdir. B.s. ABŞ-da da işlənib hazırlanmışdır. Onun tətbiqi bəşəriyyət əleyhinə cinayət hesab olunur. BMT 1972-ci ildə bir sıra ölkələrin təşəbbüsü ilə b.s.-ın hazırlanmasını, istehsalını və bakterioloji ehtiyatların toplanmasını qadağan etmək haqqında konvensiya qəbul etmişdir. Konvensiya 1975-ci ildən qüvvədədir.

**Biometriya** – insanın eyniləşdirilməsi məqsədilə onun fiziki xarakteristikası haqqında məlumatların toplanması, nəzərdən keçirilməsi və saxlanması prosesi. Gözlərin tor qişasının, əllərin həndəsi ölçülərinin tədqiqi, daktiloskopiya, səslərin tanınması və rəqəmli (elektron halda qorunan) fotoqrafiya ən geniş yayılmış biometrik sistemlərdir. Hazırda biometrik sistemlər dünyanın bütün ölkələrində tətbiq edilir.

**Biosid** *(hərfən həyatın məhv edilməsi)* – insanlıq əleyhinə olan beynəlxalq cinayət. Ekosiddən fərqli olaraq b. ancaq insan və digər canlı varlıqlar əleyhinə yönəldilmişdir. O, kütləvi qırğın silahlarının köməyi ilə adamları və canlı təbiəti kütləvi surətdə məhv etmək deməkdir.

**Bipatridlər** *(bi... + yun. patris – vətən)* – beynəlxalq hüquqda eyni vaxtda iki və ya daha artıq dövlətin vətəndaşlığında, yəni iki vətəndaşlığı olan şəxslər. Bu, aşağıdakı hallarda ola bilər: 1) vətəndaşlığın müəyyən edilməsində "qan hüququ" (ius sanguinus) prinsipini tətbiq edən dövlətin vətəndaşlarından "ərazi hüququ" (ius soli) prinsipindən istifadə edən ölkənin ərazisində doğulan uşağın vətəndaşlığı müəyyən edildikdə; 2) qadın əcnəbi şəxslə nikahda olduqda. Vətəndaşı olduğu ölkənin qanunvericiliyi nikahdan sonra qadını vətəndaşlıqdan çıxartmırsa, ərin yaşadığı ölkə isə onu avtomatik surətdə vətəndaşlığa qəbul etdikdə; 3) vətəndaşlıq naturallaşma yolu ilə dəyişdirildikdə (naturallaşan şəxsin vətəndaşlığının dəyişdirilməsi barədə həmin şəxsin vətəndaşı olduğu dövlətin qabaqcadan razılığı olmalıdır).

**Bipatrizm** *(bax: çoxvətəndaşlıq)*.

**Bipolidlər** *(bax: eynilə bipatridlər)*.

**Bir** *(mold. bəxşiş, vergi)* – Moldovada XV yüzillikdə mövcud olmuş vergi növü. Bu vergi kəndlilərdən həyətyanı sahənin məhsulundan bəxşiş şəklində alınırdı. XVI-XVIII yüzilliklərdə Türkiyədə sultan üçün hədiyyələrin toplanması da b. adlanırdı.

**Birdəfəlik lisenziya** – bir il ərzində əqdin həyata keçirilməsi üçün zəruri olan müddətə verilən hər bir ayrı-ayrı əqd üzrə malların import və eksportuna verilən icazə (lisenziya).

**Birgə fəaliyyət** - sahibkarlıq fəaliyyətinin subyektləri arasında sadə birgə fəaliyyət müqaviləsi əsasında yaranan münasibətlər. Bu, gəlir əldə etmək və ya qanuna zidd olmayan sair məqsədlərə nail olmaq üçün öz əmanətlərini (pul vəsaitlərini) birləşdirən şəxslərin fəaliyyətindən ibarətdir. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün b.f. tərəflərini ancaq fərdi sahibkarlar və (və ya) kommersiya təşkilatları təmsil edə bilərlər. Bu fəaliyyət növündən əmələ gələn münasibətlər mülki qanunvericilik normaları ilə tənzimlənir.

**Birgə müəssisə** – iki və ya daha artıq milli yurisdiksiyaların kapitalında şəxslərin iştirak etdikləri firmalardan birinin adı. Keçmiş SSR İttifaqında sovet və əcnəbi tərəfdaşların iştirak etdikləri müəssisələr (1987-1990-cı illərdə) belə adlanırdı.

**Birgə mülkiyyət** – mülkiyyətçilərdən hər birinin payı məlum olmayan kollektiv mülkiyyətin bir növü. B.m. hüququ əmlaka eyni zamanda sahiblik, ondan istifadə və onun üzərində sərəncam vermək sahəsində kollektivin (şəxslər qrupunun) qanunla qorunan hüquqlarının məcmusudur. AR MM-in 222-ci maddəsinə uyğun olaraq birgə mülkiyyətin əmələ gəlməsi üçün əsas olmuş ümumiliyin iştirakçıları birgə mülkiyyətin mülkiyyətçiləridir. Əgər birgə mülkiyyətin mülkiyyətçiləri arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onlar ümumi əmlaka birgə sahiblik edir və ondan birgə istifadə edirlər.

B.m.-də olan əşyaya dair sərəncam vermək hüququ bütün birgə mülkiyyətçilərin razılığı ilə həyata keçirilir və əmlaka dair sərəncam verilməsi haqqında əqdi mülkiyyətçilərdən hər hansı birinin bağlanmasından asılı olmayaraq bu razılıq ehtimal olunur. B.m.-in hər bir mülkiyyətçisi, onların razılaşmasından başqa qaydanın irəli gəlmədiyi halda, ümumi əşyaya dair sərəncam verilməsi haqqında əqdlər bağlaya bilər. Birgə mülkiyyətçilərdən birinin ümumi əmlaka dair sərəncam verilməsilə əlaqədar bağladığı əqd həmin mülkiyyətçinin lazımi səlahiyyətlərinin olmaması mülahizələrinə əsasən digər iştirakçıların tələbi ilə yalnız o halda etibarsız sayıla bilər ki, əqdin başqa tərəfinin bunu bildiyi və ya bilməli olduğu sübut edilsin. B.m.-in digər mülkiyyətçiləri razılıq verdikdə borclu ayrıca birgə mülkiyyətçiyə olan tələbini əvəzləşdirə bilməz.

AR MM-in 223-cü maddəsinə uyğun olaraq birgə mülkiyyət hüququna əşyanın özgəninkiləşdirilməsi və ya birgə mülkiyyətin əmələ gəlməsinə əsas vermiş ümumiliyin mövcudluğuna son qoyulması ilə xitam verilir. Birgə mülkiyyətin mülkiyyətçiləri tərəfindən ümumi əşyanın *bölünməsi* və ya onlardan birinin payının ayrılması mülkiyyətçilərdən hər birinin payı qabaqcadan müəyyənləşdirildikdən sonra həyata keçirilə bilər. Ümumi əşya bölünərkən və ondan pay ayrılarkən mülkiyyətçilərin payları, əgər onların razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, bərabər sayılır. Ümumi əşyanın bölünməsi və ondan pay ayrılması əsasları və qaydası AR MM-in 220-ci maddəsinin müddəalarına əsasən müəyyənləşdirilir.

**Birinci gecə hüququ** *(lat. jus primae noctis)* – orta əsrlərin feodal mükəlləfiyyətlərindən biri; senyorun ərə gedən öz kəndli qadınını ilk toy gecəsi öz gərdəyinə gətirirdi. Bu feodal adəti XIII yüzillikdə ingilislər tərəfindən şotland qadınlarına müntəzəm surətdə tətbiq edilmişdir. Ərə gedən qızın nişanlısının müqaviməti əksər hallarda (baxmayaraq ki, belə müqavimətə görə pul mükəlləfiyyəti də tətbiq edilirdi) onun öldürülməsi ilə nəticələnirdi.

**Birinci imperiya** – Fransada Konsulluq dövrünü əvəz edən imperator I Napoleonun hökmranlığı dövrü (1804-1814-cü illər və 1815-ci ilin 20 martından 22 iyununadək olan dövr). B.i.-nın süqutundan sonra Burbonlar sülaləsinin monarxiyası bərpa edilmişdir.

**Birinci instansiya məhkəməsi** – məhkəmədə işin hallarını bilavasitə tədqiq və müəyyən edən, həmin iş üzrə müvafiq qərar və ya hökm çıxaran səlahiyyətli məhkəmə instansiyası. Cinayət-prosessual qanunla müəyyən edilmiş hallarda b.i.m. qərardad çıxarır.

**Birja** *(holl. beurs, alm. borse)* – mütəşəkkil surətdə rəsmiləşdirilən və mütəmadi fəaliyyət göstərən bazar. Qiymətli kağızlarla fond birjası, standart və nümunəvi əmtələrlə əmtəə birjası ticarət edir. Valyuta birjaları yalnız bəzi ölkələrdə (AFR-də, Fransada) qalmışdır. Çünki xarici valyutalarla əməliyyatlar praktiki olaraq bankların əlinə keçmişdir. Sərbəst əmək ehtiyatları əmək birjasında bölüşdürülür. Fraxta birjası da mövcuddur.

**Birja auksionu** – əmtəələrin birjada satışı forması. Bu prosesdə satıcının təyin etdiyi qiymət əsasdır. Əmtəə isə onun üçün ən yüksək qiyməti təklif edən alıcıya verilir. B.a. müasir birja ticarətində əhəmiyyətli rol kəsb etmir.

**Birja brokerləri** – hüquqi şəxslərin qulluqçuları və ya nümayəndələri; birja üzvləri və birja vasitəçiləri.

**Birja bülleteni** – qiymətli kağızların kurslarının və əmtəələrin dəyərlərinin nəşr edildiyi mətbuat orqanı. Birjanın bu orqanı müntəzəm surətdə nəşr olunur. Bəzi birjaların b.b.-ində hər bir birja sərvətinin dövriyyə məbləği göstərilir. Əgər həmin gün əmtəələr və ya qiymətli kağızlarla əqdlər bağlanmamışdırsa, kursun əvəzinə məlumat qiyməti nəşr edilir. B.b., bir qayda olaraq, gündəlik nəşr edilir. Bülleten, adətən iqtisadi-maliyyə yönümlü qəzet və jurnallarda çap olunur.

**Birja dairəsi** – fyuçers (xüsusilə də birjanın binası nəzərdə tutulduğu vaxt) bazarı. Bu terminin mənası onunla izah edilir ki, London metallar birjasının birjaçıları və digər Avropa dövlətlərinin bəzilərində birjaçılar dairəvi şəkildə oturur və ya ayaq üstdə dayanırlar.

**Birja dərəsi** – birjanın yerləşdiyi sahə; onun döşəməsi bütöv zalın döşəməsinə nisbətən daha aşağı səviyyədə olur. Bu, birja üzvlərinə birja əqdlərini bağlamaq üçün icazə verilən yerdir.

**Birja dövriyyəsi** – birjada müəyyən dövr ərzində qiymətli kağızlar və ya əmtəələrlə əlaqədar bağlanan əqdlərin həcmi. Ticarət birjasında realizə olunmuş əmtəələrin və ya fond birjasında reallaşdırılmış qiymətli kağızların dəyərlərinin məbləği ilə müəyyən edilir. Fond birjasında b.d.-nin göstəricisinə realizə edilmiş qiymətli kağızların sayı da xidmət edir.

**Birja əqdi** – birja ticarəti gedişində birja əmtəəsinə münasibətdə birja ticarətinin iştirakçıları tərəfindən bağlanan, birja tərəfindən qeydə alınan müqavilə (saziş). Birjada bağlanan, lakin göstərilən tələblərə uyğun olmayan əqdlər birja əqdləri hesab olunmurlar.

**Birja əmtəəsi** – müəyyən növdən və keyfiyyətdə olan əmtəənin dövriyyədən götürülməməsi; o cümlədən birja tərəfindən müəyyən edilmiş qaydada birja ticarətinə buraxılan əmtəyə dair standart kontrakt və konosament.

**Birja gəliri** – fond birjasında qiymətli kağızların ticarətindən gələn gəlir. B.g. aşağıdakı növlərdə daxil olur: a) təsisedici gəlir – birja kursu üzrə qiymətli kağızların satışından əldə edilən məbləğlə səhmdar cəmiyyətinə qoyulan real kapitalın dəyəri

arasındakı fərqlər; b) qiymət gəliri – həmin anda səhmlərin və ya kağız pulların kursu ilə onların əldə edilməsi qiyməti arasındakı fərqlər.

**Birja komitəsi** – birja idarəçiliyi orqanı (ABŞ-da idarəedicilər şurası; Böyük Britaniyada birja şurası). Birja üzvlərinin ümumi yığıncağı tərəfindən müəyyən müddətə seçilir. Əsas funksiyaları aşağıdakılardır: a) birja üzvlüyünə qəbulu və əməliyyatların aparılması qaydasına tənzim edən nizamnaməyə əməl olunmasına nəzarət etmək; b) qiymətli kağızların və birja bülletenlərinin buraxılışını müşahidə etmək; c) brokerləri təyin etmək; ç) birja üzvləri arasında, habelə birja üzvləri ilə onların müştəriləri arasında münaqişələri həll etmək; d) digər təşkilatlarla (o cümlədən dövlət təşkilatları ilə) və mətbuatla əlaqə yaratmaq.

**Birja kursu** *(bax: birja qiyməti).*

**Birja qadağanları** – birjada qadağan olunan fəaliyyət növləri (bir şəxsin bağladığı miqyas əqdləri; birja ticarəti iştirakçılarının razılaşdırılmış hər hansı hərəkəti; yalan məlumatların verilməsi). B.q. qiymətlərə təsir göstərə bilər.

**Birja qanunvericiliyi** – birjanın fəaliyyətini tənzimləyən normativ-hüquqi aktların sistemi. İnkişaf etmiş ölkələrdə b.q. qiymətlərlə manipulyasiyanın və müflisləşmənin qarşısını alır. Birja ticarətini tənzimləyən qanunvericilik son 20 ildə nəzərə çarpacaq dərəcədə gücləndirilmişdir. Birja ticarəti əvvəllər bir çox ölkələrdə birjaların özləri tərəfindən işlənib hazırlanan norma və qaydalarla tənzimlənirdi. 1973-cü ildən ABŞ-da fyuçers birjalarında bütün əməliyyatların tənzimlənməsi ilə Əmtəə Fyuçers Ticarəti üzrə Komissiya məşğul olur. Onun şəxsi heyəti prezident tərəfindən təyin olunur və konqresdə təsdiq edilir. 1986-cı ilədək İngiltərədə əmtəə birjalarının fəaliyyətini İngiltərə Bankı müşahidə edirdi. 1986-cı ildən isə bu vəzifə Qiymətli Kağızlar və Sərmayələr üzrə Şuraya həvalə edilmişdir. Fransada belə tənzimləmə funksiyası fyuçers Əmtəə Bazarı üzrə Komissiyaya, Yaponiyada isə müxtəlif nazirliklərə (maliyyə, kənd təsərrüfatı, xarici ticarət və sənaye nazirliyinə) verilmişdir.

**Birja qiyməti** – birja ticarəti qaydasında realizə olunan əmtəələrin qiyməti. B.q.-ləri haqqında məlumatlar mətbuat orqanlarında və ticarət birjaları bülletenlərində müntəzəm olaraq çap edilir.

**Birja qiymət komissiyası** – qiymətli kağızların kurslarını və ya dövriyyədə olan əmtəələrin qiymətlərini aşkar edib nəşr etdirən birja orqanı. Bağlanmış əqdlər haqqında dəllallar və birja üzvləri tərəfindən təqdim edilən məlumatların düzgünlüyünü müşahidə etmək onun funksiyasına daxildir. B.q.k. tərkibi birja üzvləri tərəfindən seçilir.

**Birja məlumatı** – 1) fond birjasında qeydiyyatdan keçmiş qiymətli kağızlara dair əqdlər haqqında məlumatların verildiyi sənəd; 2) birjada qeydə alınmış əqdlər haqqında məlumatların verildiyi tiker lenti.

**Birja məzənnə komissiyası** – birjanın dövriyyəsində olan qiymətli kağızların və malların məzənnəsini təhlil və dərc edən birja təşkilatı (orqanı).

**Birja məzənnəsi** – müvafiq birjanın məzənnə komissiyasının qeydiyyat və dərc etdirdiyi qiymətli kağız və malların birja ticarəti kursu. B.m. mütəhərrik olması ilə fərqlənir və gün ərzində dəyişir. Birja məzənnələri gündəlik bülletenlərdə dərc olunur.

**Birja möhtəkirliyi** – möhtəkirlik gəlirləri əldə etmək məqsədilə birjada qiymətli kağızlarla və ya əmtəələrlə əlaqədar bağlanan əqdlər. Belə möhtəkirlik gəlirləri əqdlərin bağlanması və icrası zamanı qiymətlər arasındakı fərqlərdən əldə edilir.

**Birja müştərisi** – birjanın üzvü olmayan, lakin birja komitəsinin qərarı ilə birja əməliyyatlarının həyata keçirilməsində iştiraka buraxılan şəxs. Birja müştəriləri birjaya daimi, müvəqqəti və ya birdəfəlik əqdlərin bağlanması üçün buraxıla bilərlər. Əqdlər isə bir qayda olaraq, ancaq dəllal vasitəsilə bağlanırlar. B.m. birjanın idarə edilməsində və onun orqanlarına seçkilərdə iştirak etmir.

**Birja notariusu** – birja dövriyyəsinə aid olan müqavilələri və digər sənədləri təsdiq edən şəxs. Başlıca olaraq əcnəbilərlə bağlanan birja əqdləri notarius qaydasında təsdiq edilməlidir. B.n. sahibləri əcnəbilər olan veksellərlə əlaqədar protestlər vermək səlahiyyətinə malikdir. B.n. ölkələrin bir qismində birja komitəsi, digərlərində isə ədliyyə orqanları tərəfindən təyin edilir.

**Birja rüsumu** – birja əqdlərini bağlamaq hüququ üçün qiymətli kağızların alıcılarından birja komitəsi tərəfindən tutulan pul məbləği. Bu rüsumun məbləği satış qiymətinin adətən 2 faizini təşkil edir.

**Birja sessiyası** – birjanın iş gününün müvəqqəti intervalı. Bu interval ərzində əqdlər bağlanır. Ona birjanın işinin rəsmi saatı (rəsmi iş saatı) da deyilir. B.s. ərzində qiymətlərin qeydi b.s.-nın sədri vasitəsilə daşıma müddətləri üzrə ciddi növbəliliklə gedir.

**Birja şurası** – birjanın idarəetmə orqanı. B.ş.-nın funksiyası ölkələrin böyük əksəriyyətində birja komitələrinin funksiyaları ilə eynilik təşkil edir.

**Birja ticarəti** – əmtəələrin, valyutaların və qiymətli kağızların birjanın vasitəçiliyi ilə həyata keçirilən ticarəti. Birjalarda ticarət əqdləri əmtəələrin standart partiyalarına münasibətdə bağlanır.

**Birja vasitəçiləri** – broker firmaları, broker kontorları və müstəqil brokerlər. Broker firması Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq yaradılan kommersiya təşkilatıdır. Broker kontoru kommersiya təşkilatının ayrıca balansa və hesablaşma hesabına malik olan filialı və ya əlahiddə bölməsidir. Müstəqil brokerlər müəyyən edilmiş qaydada sahibkar qismində qeydiyyatdan keçmiş, öz fəaliyyətlərini hüquqi şəxs yaradılmadan həyata keçirən fiziki şəxslərdir. B.v. birja ticarətində vasitəçiliyi həyata keçirmək sahəsində müstəsna hüquqa malikdirlər. B.v. ilə müştərilər arasındakı münasibətlər müvafiq müqavilə əsasında müəyyən edilir. Birja öz səlahiyyətləri daxilində b.v. ilə onların müştərilərinin qarşılıqlı münasibətlərini tənzimləyə bilər. O, hətta qaydanı pozan b.v.-nə müəyyən edilmiş qaydada sanksiya da tətbiq edə bilər.

**Birja vergisi** – birja dövriyyəsindən verilən vergi. Fond birjasında qiymətli kağızların dövriyyəsi vergi ödəmə obyekti hesab olunur.

**Birja yığıncağı** – birja üzvlərinin iş seansı. Bu seans prosesində bilavasitə və ya bro-

kerlər vasitəsilə birja yığıncağı üzvləri arasında qiymətli kağızların və ya birja əmtəələrinin alqı-satqısı üzrə əqdlər bağlanılır.

**Birləşmək hüququ** – insan və vətəndaşın əsas konstitusiya hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 58-ci maddəsinə əsasən hər kəsin başqaları ilə birləşmək hüququ vardır. Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir. Heç kəs hər hansı birliyə daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz. Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi güdən birliklər qadağandır. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.

**Birləşmə müqaviləsi** – Azərbaycan Respublikasının mülki qanunvericiliyində qoşulma müqaviləsi.

Qanunvericilikdə nəzərdə tutulmuş hallar olduqda, öz sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar müqaviləyə qoşulmuş tərəfin müqaviləni ləğv etmək və ya dəyişdirmək haqqında irəli sürdüyü tələb (əgər həmin tərəf müqavilənin hansı şərtlərlə bağlandığını bildirsə və ya bilməli idisə) yerinə yetirilməməlidir.

**Birləşmiş millətlər** – İkinci dünya müharibəsi zamanı (1939-1945-ci illərdə) antihitler koalisiyasına daxil olan və Birləşmiş Millətlər Təşkilatını yaradan dövlətlərin ümumi adını göstərən termin. Rəsmi sənədlərdə, həmçinin Birləşmiş Millətlər Təşkilatının qısaldılmış adı (BMT).

**Birləşmiş Millətlər Təşkilatı (BMT)** – universal beynəlxalq təşkilat. 1945-ci ildə antihitler koalisiyası aparıcı dövlətlərinin (SSRİ-nin, ABŞ-ın, Çinin, İngiltərənin və Fransanın) təşəbbüsü ilə təhlükəsizliyi təmin edən təşkilat kimi yaradılmışdır. BMT-nin başlıca məqsədi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaqdan və möhkəmləndirməkdən, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdən, beynəlxalq sülhə qarşı təhlükələri aradan qaldırmaq və onların qarşısını almaq üçün səmərəli kollektiv tədbirlər qəbul etməkdən, işğalçılıq aktlarını dayandırmaqdan, beynəlxalq münaqişələrin dinc vasitələrlə həllinə nail olmaqdan və i.a. ibarətdir. Hazırda BMT-nin tərkibinə 200-ə yaxın dövlət daxildir. BMT-nin başlıca orqanları aşağıdakılardır: BMT-nin Baş Məclisi; BMT-nin Təhlükəsizlik Şurası; BMT-nin İqtisadi və Sosial Şurası; BMT-nin Qəyyumluq Şurası; BMT-nin Beynəlxalq Məhkəməsi; BMT-nin Katibliyi; BMT-nin Baş Katibliyi.

**Birləşmiş Millətlər Təşkilatının Baş Katibi** – BMT Nizamnaməsinin 97-ci maddəsinə uyğun olaraq bu təşkilatın baş inzibati vəzifəli şəxsi. BMT-nin Baş Katibi BMT-nin Təhlükəsizlik Şurasının zəmanəti ilə BMT-nin Baş Məclisi tərəfindən təyin edilir. B.K. bu keyfiyyətdə Baş Məclisin, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şuranın (EKOSOS-un) və Qəyyumluq Şurasının bütün iclaslarında iştirak edir, habelə bu orqanlar tərəfindən ona həvalə olunmuş digər funksiyaları yerinə yetirir.

**Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin baş orqanlarından biri. BMT-nin Nizamnaməsinə görə hər biri eyni hüquqlara malik olan bütün üzv-dövlətlərdən ibarətdir. BMT-nin BM geniş səlahiyyətlərə malikdir. BMT Nizamnaməsinə uyğun olaraq, yaxud Nizamnamənin nəzərdə tutduğu hər hansı orqanın səlahiyyəti və vəzifəsinə daxil olan hər cür məsələləri və işləri müzakirə etmək, BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına belə məsələlərə və işlərə dair hər cür (bəzi istisnalarla) tövsiyələr vermək, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması işində əməkdaşlığın ümumi prinsiplərini nəzərdən keçirmək, beynəlxalq sülhün və təhlükəsizliyin mühafizə olunmasına dair hər cür məsələləri müzakirə etmək səlahiyyətinə malikdir.

BM-in qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv-dövlətlər üçün məcburi deyil, lakin BMT-nin daxili həyatına dair bir sıra məsələlərdə bu qərarlar məcburi səciyyə daşıyır. BMT üzvlüyünə qəbul və üzvlüyündən çıxarma, Təhlükəsizlik Şurası üzvlərinin seçilməsi, BMT-nin Baş Katibinin təyin edilməsi və i.a. məcburi xarakterə malikdir. BM-in qərarları səsvermədə iştirak edən üzvlərin səs çoxluğu, mühüm məsələlər üzrə qərarlar isə səsvermədə iştirak edən üzvlərin 2/3-nin ixtisaslı səs çoxluğu ilə qəbul edilir.

BM-in hər il növbəti sessiyası çağırılır. BMT üzvlərinin əksəriyyətinin tələbi, yaxud Təhlükəsizlik Şurasının qərarı ilə xüsusi və fövqəladə xüsusi sessiya çağırıla bilər. Sessiyada BMT üzvü olan dövlət bir səsə malik 5 nümayəndə (və onların 5 müavini), habelə zəruri miqdarda müşavir və ekspertlərlə təmsil oluna bilər.

BM-in nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə fəaliyyət göstərir: 1) tərksilah da daxil olmaqla siyasi məsələlər və təhlükəsizlik məsələləri üzrə komitə; həmin məsələlər üzrə xüsusi siyasi komitə; 2) iqtisadi məsələlər və maliyyə məsələləri üzrə komitə; 3) ictimai, humanitar məsələlər və mədəniyyət məsələləri üzrə komitə; 4) qəyyumluq və özünüidarəetməyən ərazilər məsələləri üzrə komitə; 5) inzibati məsələlər və büdcə məsələləri üzrə komitə; 6) hüquq məsələləri üzrə komitə; 7) baş komitə. Bunlardan başqa 2 daimi komitə – inzibati məsələlər və büdcə məsələləri üzrə məşvərətçi komitə və üzvlük haqları üzrə komitə də fəaliyyət göstərir. Bu komitələrlə yanaşı BMT-nin xüsusi komitə və komissiyaları da yaradılır.

**Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Hüquq Komissiyası** – BMT Baş Məclisinin yardımçı orqanı; tərkibi və səlahiyyətləri komissiya haqqındakı əsasnamə (Baş Məclisin 1947-ci il 21 noyabr tarixli qətnaməsi ilə təsdiq edilmişdir) ilə müəyyən olunmuşdur. Komissiyanın məqsədi beynəlxalq hüququn mütərəqqi inkişafına və onun məcəllələşdirilməsinə kömək etməkdən ibarətdir. Komissiyanın üzvləri Baş Məclis tərəfindən 5 il müddətinə seçilən beynəlxalq hüquq sahəsində nüfuzlu mütəxəssis hesab olunan 34 nəfər ixtisaslı hüquqşünasdan ibarətdir. Onların hər biri vətəndaşı olduğu dövlətin deyil, öz adlarından müstəqil surətdə çıxış edirlər. BHK-nın layihələri əsasında bir sıra mühüm konvensiyalar qəbul edilmişdir.

**Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Məhkəməsi** *(bax: Beynəlxalq Məhkəmə)*.

**Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası (YUNSİTRAL)** – BMT Baş Məclisinin yardımçı orqanı; beynəlxalq ti-

carət hüququnun inkişafına kömək məqsədilə 1966-cı ildə yaradılmışdır. YUNSİTRAL bir sıra aktlarla yanaşı əmtəələrin beynəlxalq alqı-satqısında iddia müddəti haqqında 1974-cü il Konvensiyasını və ona düzəlişlərə dair 1980-ci il protokolunu, "Malların dəniz daşıması haqqında" 1978-ci il konvensiyasını, "Əmtəələrin beynəlxalq alqı-satqısı müqavilələri haqqında" BMT-nin 1980-ci il konvensiyasını işləyib hazırlamışdır.

**Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası** – BMT-nin əsas orqanlarından biri; 1946-cı ildə yaradılmışdır. Mənzil qərargahı Cenevrədə yerləşir. Şuranın 54 üzvü vardır. Tərkibinin 1/3-i BMT Baş Məclisi tərəfindən hər il yenidən seçilir (3 il müddətinə). Şuraya seçkilər aşağıdakı yer bölgüsü əsasında keçirilir: Afrika 14 yer, Asiya 11 yer, Latın Amerikası 10 yer, Qərbi Avropa və digər dövlətlər 13 yer. İqtisadi və Sosial Şura (EKOSOS) BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan nümayəndələrindən təşkil edilir. O, BMT-nin ixtisaslaşdırılmış idarəsi kimi onun iqtisadi və sosial fəaliyyətini əlaqələndirir, Nizamnaməsinə uyğun olaraq iqtisadiyyat, mədəniyyət, maarif, səhiyyə sahəsində beynəlxalq məsələlərə dair tədqiqatlar aparır, məruzələr hazırlayır, tövsiyələr verir, BMT Baş Məclisinin iqtisadi və sosial sahələrə aid tövsiyələrini həyata keçirir. EKOSOS-un ali orqanı ildə iki dəfə çağırılan sessiyadır. Xüsusi sessiyalar da çağırıla bilər. Şuranın nəzdində müxtəlif funksional vəzifələri yerinə yetirən komitə və komissiyalar fəaliyyət göstərir. BMT-nin Baş Məclisi hər il EKOSOS-a üç il müddətinə 18 üzv seçir.

**Birləşmiş Millətlər Təşkilatının "İnsan hüquqları bəyannaməsi"** *(bax: "İnsan hüquqları haqqında bəyannamə").*

**Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı** – BMT-nin Baş Katibinə tabe olan və bütün adamlar tərəfindən mülki, iqtisadi, sosial, siyasi və mədəni hüquqların müdafiəsinə və həyata keçirilməsinə cavab verən beynəlxalq vəzifəli şəxs. Ali komissar vəzifəsi BMT Baş Məclisinin 1993-cü il 23 dekabr tarixli qətnaməsi ilə təsis edilmişdir. O, BMT Baş Məclisi tərəfindən 4 il müddətinə təyin edilir və vəzifəsinə görə BMT-nin Baş Katibinin müavini hesab olunur.

**Birləşmiş Millətlər Təşkilatının Katibliyi** – BMT-nin başlıca orqanlarından biri; tərkibi BMT-nin Baş Katibindən və müvafiq heyətdən ibarətdir. Katiblik BMT-nin digər orqanlarının işinə yardım edir, onların qərar və tövsiyələrini həyata keçirir, inzibati-texniki funksiyanı yerinə yetirir, o cümlədən bəzi materialları icraya hazırlayır, məruzələri, BMT-nin qətnamələrini və digər sənədlərini tərcümə edir, nəşr etdirir və yayır, iclaslarda edilən nitqlərin şifahi tərcüməsini təmin edir, onların stenoqrafik və qısa hesabatlarını tərtib və nəşr edir, lazımi ünvanlara göndərir, habelə BMT-nin arxivlərdəki sənədlərinin saxlanmasını həyata keçirir.

**Birləşmiş Millətlər Təşkilatının Qəyyumluq Şurası** – BMT-nin əsas orqanlarından biri. Bu şura beynəlxalq qəyyumluq sisteminə daxil olan ərazilərə dair BMT-nin funksiyalarını həyata keçirir. Şura 1946-cı ildə yaradılmışdır. Onun əsas məqsədi dövlətlərin qəyyumluqlarında olan ərazilərin əhalisinin sosial-iqtisadi və siyasi tərəqqisinə, habelə onların özünü idarə və istiqlaliyyət istiqamətində inkişafına qəyyum dövlətlərin kömək göstərmələrinə nəzarət etməkdən ibarətdir. BMT Nizamnaməsinin 86-cı maddəsinə uyğun olaraq Qəyyumluq Şurasına üç kateqoriyadan olan BMT üzvləri daxildir: 1) qəyyumluq ərazilərini idarə edən BMT üzvləri; 2) Təhlükəsizlik Şurasının qəyyumluq ərazisi olmayan daimi üzvləri; 3) Baş Məclisin üç il müddətinə seçdiyi BMT-nin üzvü olan digər dövlətlər. Şurada qəyyumluq ərazilərini idarə edən üzvlərlə belə əraziləri idarə etməyən üzvlərin sayı bərabər olmalıdır.

**Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi** – beynəlxalq çoxtərəfli saziş. BMT-nin N. İkinci dünya müharibəsi illərində antihitler koalisiyasının başlıca iştirakçıları (SSRİ, ABŞ, Böyük Britaniya, Fransa və Çin) tərəfindən işlənib hazırlanmış, 1945-ci il iyulun 26-da San-Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən (həmin ölkələr, həmçinin Polşa BMT-nin ilk üzvləri hesab olunurlar) imzalanmış və 1945-ci il oktyabrın 24-də qüvvəyə minmişdir. BMT-nin N. preambuldan, 19 fəsildən və BMT-nin Beynəlxalq Məhkəməsinin Statutundan ibarətdir. Nizamnamədə BMT-nin fəaliyyətinin əsas prinsipləri, o cümlədən onun bütün üzvlərinin suveren bərabərliyi, böyük dövlətlərin – BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvlərinin yekdilliyi (veto hüququ), qəbul edilmiş öhdəliklərin bütün üzvlər tərəfindən vicdanla yerinə yetirilməsi, beynəlxalq mübahisələrin dinc həlli, BMT üzvlərinin hər hansı dövlətin ərazi toxunulmazlığına və ya siyasi müstəqilliyinə qarşı qüvvə hədəsindən və ya qüvvə tətbiq edilməsindən imtina etməsi, işğalçıya məcburi tədbirlərin tətbiqi üzrə hərəkətlərdə BMT-nin yardım göstərməsi, dövlətlərin daxili işlərinə BMT-nin qarışmaması formulə edilmişdir. Nizamnamə BMT üzvlüyünə qəbul qaydasını, başlıca orqanların (Baş Məclisin, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şuranın, Qəyyumluq Şurasının, Beynəlxalq Məhkəmənin və Katibliyin) strukturunu və səlahiyyətlərini və i.a. tənzim edir.

**Birləşmiş Millətlər Təşkilatının sistemi** – Birləşmiş Millətlər Təşkilatının özündə ehtiva etdiyi beynəlxalq təşkilatların və BMT-nin 14 ixtisaslaşdırılmış idarəsinin məcmusu.

**Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası (BMT TŞ)** – BMT-nin daimi fəaliyyət göstərən əsas siyasi orqanı. BMT Nizamnaməsinə uyğun olaraq TŞ-yə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına görə məsuliyyət həvalə olunmuşdur. TŞ BMT-nin üzv-dövlətlərinin nümayəndəliyi əsasında fəaliyyət göstərir. Şura 15 üzvdən ibarətdir. Onlardan 5-i (ABŞ, Böyük Britaniya, Rusiya, Çin və Fransa) daimi üzvlərdir. TŞ-nin müəyyən edilmiş qaydada qəbul etdiyi qərarlar hüquqi cəhətdən BMT-nin üzv-dövlətləri üçün məcburidir. BMT-nin TŞ beynəlxalq münaqişəyə gətirib çıxaran və ya çıxara bilən hər bir mübahisəni tədqiq etməyə, belə mübahisələrin tənzimlənməsi qaydalarına və ya metodlarına dair tövsiyələr verməyə, məcburiyyət tədbirləri haqqında qərarlar qəbul etməyə, o cümlədən zərurət yarandıqda sülhü pozan və ya işğal aktı törədən dövlətlərə münasibətdə silahlı qüvvələrdən istifadə etməyə haqlıdır. Həll edilən məsələlər üzrə qərarlar 9 səs çoxluğu ilə qəbul edilir. BMT TŞ-nin daimi üzvlərindən heç biri əleyhinə səs verə (yekdillik prinsipi) bilməz.

**Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı (YUNESKO)** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış təşkilatı. 1946-cı ildə yaradılmışdır. YUNESKO-nun məqsədi təhsil, elm və mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığı mükafatlandırmaq vasitəsilə sülhün və təhlükəsizliyin qorunmasına yardım etməkdən, BMT Nizamnaməsinə uyğun olaraq irqi, cinsi, dil və ya dini mənsubiyyətindən asılı olmayaraq qanunçuluğu və ədaləti, insanın əsas hüquq və azadlıqlarını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikası da daxil olmaqla 1995-ci il məlumatına görə YUNESKO-nun 183 üzvü vardır.

**Birlik** – Belçika Federasiyası subyektlərinin mədəni-linqvistik muxtariyyət prinsipi əsasında qurulmuş adı. Belçikada cəmi üç b. mövcuddur: 1) flamando birliyi; 2) franko birliyi; 3) almandilli birlik.

**Birmandatlı dairələr** – seçkili nümayəndəli orqanların üzvlərinin seçildikləri ərazi vahidləri. Hər bir b.d.-də neçə deputatın seçilməsindən asılı olaraq birmandatlı (uninominal) və çoxmandatlı (polinominal) seçki dairələri fərqləndirilir. B.d. ümumdövlət (proporsional seçki sistemində dövlət başçısının seçildiyi zaman) və ərazi (bir qayda olaraq, majoritar və bəzən də proporsional seçki sistemində) seçki dairələri ola bilər.

**Birpalatalı sistem** ***(monokameralizm)*** – parlamentlərin palatalara bölgüsünü istisna edən struktur *(bax: ikipalatalı sistem)*. B.s. unitar dövlətlər (Tanzaniya Federasiyası, Birləşmiş Ərəb Əmirlikləri istisna olmaqla) üçün səciyyəvidir. Son illərdə bir sıra unitar dövlətlərin b.s.-dən ikipalatalı sistemə (Rumıniya, Polşa, Çexiya, Xorvatiya, Qırğızıstan) və əksinə, ikipalatalı sistemdən b.s.-ə keçidi (İsveç, Danimarka, Yeni Zelandiya) müşahidə olunur.

**Birpartiyalı sistem** – cəmiyyətin siyasi təşkilini səciyyələndirən institut. B.s. adətən totalitar və avtoritar rejimli dövlətlər üçün xarakterikdir. Belə rejimdə cəmiyyətdə əsas "rəhbəredici rol" hakim (tək) partiyaya verilir. Ölkədə yeganə olan həmin partiya (həm də rəhbər rolu ifadə olunmaqla) özünün konstitusiya təsbitini tapır. Hazırda b.s. Çində, Kubada, Vyetnamda və Laosda fəaliyyət göstərir.

**Birtərəfli akt** – beynəlxalq hüququn subyekti tərəfindən birtərəfli qaydada qəbul edilən və beynəlxalq-hüquqi əhəmiyyətə malik olan hərəkət. Dövlətin iradə ifadəsi və ya hərəkəti yalnız o halda hüquqi cəhətdən birtərəfli akt kimi tanınır ki, beynəlxalq hüquq həmin hərəkəti hüquqi nəticələrin meydana gəlməsilə bağlamış olsun, yəni bu hərəkət beynəlxalq hüquqa görə hüquqi fakt əhəmiyyəti kəsb etsin. B.a.-ın göstərilən təyinata malik olması üçün iradə ifadəsinin beynəlxalq-hüquqi nəticələrin yaranmasına istiqamətləndirilməsi zəruridir. Belə ki, beynəlxalq hüquq subyektinin hər cür b.a.-ı göstərilən nəticələrin yaranmasına gətirib çıxarmaya bilər. B.a. hüquqi nəticələrindən asılı olaraq hüquqauyğun və hüquqazidd ola bilər. B.a.-dan başlıca olaraq hüququ tətbiqetmə sahəsində istifadə olunur. B.a.-ın hüquqyaratma prosesinə təsir göstərməsinə baxmayaraq o, beynəlxalq hüququn mənbəyi deyildir. B.a.-ın ən geniş yayılmış formalarına bəyannamə və notalar daxildir. B.a.-ın etibarlılığı iradə ifadəsi formasından asılı deyildir.

**Birtərəfli əqd** *(bax: birtərəfli müqavilə)*.





**Birtərəfli müqavilə** – mülki hüquqda öhdəliyin yalnız tərəflərdən birinin (məsələn, borc alanın) üzərinə düşən, digər tərəfin isə bu öhdəliyə müvafiq surətdə tələb etmək hüququ olan müqavilə. Belə müqavilə digər şəxslər üçün yalnız qanunda nəzərdə tutulan hallarda, yaxud tərəflərin razılığı ilə öhdəliklər yarada bilər. B.m. həmişə əvəzsiz səciyyə daşıyır. Vəsiyyəti b.m.-yə ən tipik nümunə göstərmək olar.

**Bitərəf zona** – beynəlxalq hüquqda hərbi əməliyyatlara hazırlığın və oradan hərbi əməliyyat meydanı kimi istifadənin qadağan edildiyi müəyyən coğrafi rayon. Bir qayda olaraq, qurunun, habelə dənizin sərhədboyu və ya mübahisəli hissəsi b.z. elan edilir. B.z. ona marağı olan dövlət tərəfindən birtərəfli qaydada, yaxud beynəlxalq müqaviləyə əsasən yaradılır. Sahilboyunda olan hər hansı dövlət digər dövlətlər arasında aparılan müharibə müddətində öz təhlükəsizliyini qorumaq məqsədilə müvəqqəti b.z. (məsələn, Belçikanın, Braziliyanın, Hollandiyanın, Yaponiyanın qanunvericiliyi ilə belə bitərəf zonalar müəyyən edilmişdir) və ya daimi b.z. (məsələn, Panama kanalının ABŞ-la Panama arasında 1903-cü il müqaviləsinə əsasən bitərəfləşdirilməsi) yarada bilər.

**Bitərəf hökumət** – siyasi partiyaların nümayəndəliyi prinsipinə əsaslanmayan, ciddi peşəkar və ya bitərəf əsasda fəaliyyət göstərən hökumət. B.h. əvvələn, ölkədə ümumiyyətlə siyasi partiyaların olmadığı və ya onların fəaliyyətinin qadağan edildiyi və qeyri-leqal şəraitdə fəaliyyət göstərdiyi (məsələn, mütləq monarxiyanın mövcud olduğu Səudiyyə Ərəbistanında, Küveytdə və i.a.) vaxt yaradılır. Texnokratik b.h. Argentinada, Braziliyada, Nigeriyada və bir sıra digər ölkələrdə hərbi rejim şəraitində mövcud olmuşdur.

İkincisi, b.h. Rusiya Federasiyası tipində bəzi "fövqəlprezidentli" respublikalar üçün səciyyəvidir. Belə ölkələrdə parlamentin hökuməti dəstəkləməsi böyük əhəmiyyət kəsb etmir. Parlamentli dövlətlərdə b.h. partiya liderləri deyil, ali məmurlar tərəfindən yaradılan işgüzar (məmur hökuməti, xidməti hökumət) hökumətdir. Belə hökumətin vəzifəsi adətən hökumətin təşkil edildiyi zaman parlament maneəsini aradan qaldırmaqdan, parlamentin yeni tərkibinin seçkisini təşkil etməkdən ibarətdir.

**Bitərəflik** *(beynəlxalq hüquqda)* – **1)** müharibə zamanı bitərəflik döyüşən dövlətlərin heç birinin tərəfində iştirak etməmək, onların heç birinə kömək göstərməmək, öz ərazisini onların istifadəsinə verməmək və i.a. haqqında üzərinə öhdəlik götürmüş (birtərəfli qaydada, yaxud müqaviləyə əsasən) dövlətin hüquqi vəziyyəti. Bitərəf dövlətlərin hüquq və vəzifələri quruda müharibə aparıldıqda 5-ci Haaqa konvensiyası ilə, suda müharibə aparıldıqda isə 13-cü Haaqa konvensiyası ilə tənzim edilir; **2)** daimi bitərəflik – heç zaman müharibədə iştirak etməmək (özünümüdafiə və təcavüz halları istisna olmaqla), heç bir hərbi (o cümlədən müdafiə xarakterli) ittifaqa daxil olmamaq, ərazisində hərbi bazaların yaradılması və digər hərbi məqsədlərlə istifadə edilməsinə icazə verməməkhaqqında üzərinə öhdəlik götürmüş dövlətin hüquqi vəziyyəti. Tanınmış daimi bitərəflik və təminatlı daimi bitərəflik fərqləndirilir. Tanınmış daimi bitərəfliyə Avstriyanı, təminatlı daimi bitərəfliyə isə İsveçrəni misal göstərmək olar.

**"Bitki karantini haqqında" qanun** – Azərbaycan Respublikası ərazisində bitki

karantininin təşkili və həyata keçirilməsinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı. Bu qanun 23 aprel 1996-cı il tarixdə qəbul edilmişdir. O, 6 fəsil və 16 maddədən ibarətdir.

Bitki karantininin həyata keçirilməsi ilə əlaqədar münasibətlər bu qanunla və buna uyğun qəbul edilmiş digər qanunvericilik aktları ilə tənzimlənir. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində bu qanunda nəzərdə tutulan qaydalardan fərqli qaydaların müəyyən edildiyi hallarda beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

**"Bitki mühafizəsi haqqında" qanun** – Azərbaycan Respublikası bitki örtüyünün mühafizəsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyən qanunvericilik aktı. O, Azərbaycan Respublikası ərazisində bitki aləminin mühafizəsinin təşkili və həyata keçirilməsinin hüquqi əsaslarını müəyyən edir. 3 dekabr 1996-cı il tarixdə qəbul edilmişdir. Qanun 6 fəsil və 16 maddədən ibarətdir.

**Biyar** *(fars. biqar – muzdsuz, müftə)* – işləyib-ödəmə rentası; feodal torpaq rentasının formalarından biri. B. feodalizm dövründə geniş yayılmışdı. Şərq ölkələrində b. feodal rentasının heç də başlıca forması olmayıb, natural və pul rentaları ilə yanaşı mövcud olmuşdur.

B. istilahına Azərbaycanda VI-VII yüzilliklərdə təsadüf olunur. Eyni mənanı daşıyan "süxrə" və "kilan" da yayılmışdı. Azərbaycanda b.-ın qalıqları 1920-ci ilədək mövcud olmuşdur.

**Bizans hüququ** – VI-XV yüzilliklərdə Bizans imperiyasında qüvvədə olmuş hüquq. B.h.-nda kanonik (kilsə hüququ) və dünyəvi hüquq paralel şəkildə qüvvədə olmuşdur. B.h.-nun tarixi əhəmiyyəti Bizansın Avropada, qismən də Asiyada oynadığı rolla müəyyən edilir. B.h.-nun əsas mənbəyi imperatorların verdikləri qanunlar və Yustinian Məcəlləsi olmuşdur.

**Biznes** *(ing. business)* – dünyanın müasir ölkələrində sahibinə gəlir gətirən iqtisadi fəaliyyət. Gəlir və ya sair şəxsi gəlir gətirən iqtisadi-təsərrüfat fəaliyyətinin hər bir növü biznes hesab olunur.

**Biznesmen** *(ing. businessman)* – iş adamı, işgüzar şəxs, kommersant, müəssisə sahibi, habelə gəlirli işlə məşğul olan adam.

**Blank** *(fr. blanc – ağ)* – künc və ya mərkəz ştamplı, yaxud ştamp mətninin və ya sair mətnin hər hansı üsulu ilə çap olunmuş kağız vərəqəsi. B.-dan sənədin (lisenziya, pasport, vəsiqə, anket, ərizə və i.a. blankları) tərtib edilməsi üçün istifadə olunur. B.-ların iki növü fərqləndirilir: a) özündə nömrəni (bəzən seriyanı) ehtiva edən və müəyyən edilmiş üsullardan biri ilə qeydə alınan ciddi hesabat blankları; b) xüsusi istifadə rejiminə malik olan blanklar.

**Blanket normalar** – dövlət orqanlarına, vəzifəli şəxslərə davranış, qadağan və i.a. qaydasını müstəqil surətdə müəyyən etmək ixtiyarı verən hüquq normaları. B.n.-da həmin normativ aktın hər hansı digər müvafiq normasına deyil, başqa normativ-hüquqi aktlara (onların müvafiq normalarına) istinad edilir.

**Blanket saxtakarlıq** – saxtakarlığın xüsusi növü; belə saxtakarlıq zamanı cinayətkar rəsmi sənəd blankını onu imzalayan şəxsin iradəsi əleyhinə və ya onun razılığı olmadan doldurur.







**Blank indossamenti** – nəqliyyat qaiməsində, konosamentdə, çekdə, vekseldə və ya digər dövriyyə sənədində dərkənar. B.i. üzrə sənədlərə malik olan şəxs onu sadə tapşırıqlı başqa şəxsə verə bilər. İndossamenti təqdim edən şəxs faktiki olaraq onun sahibi hesab olunur.

**Blankizm** – fransız inqilabçısı və utopik kommunisti Lui Ogüst Blankinin (1805-1881) adı ilə bağlı olan və inqilabi mübarizədə sui-qəsdçilik tərəfdarlarının görüşlərini əks etdirən siyasi cərəyanın təlimi. Mövcud rejimi qəfil silahlı çıxış yolu ilə devirmək məqsədi güdən gizli məhdud təşkilat yaradılmasını müdafiə edən blankiçilər qeyri-leqal təşkilatı təhlükədən qorumaq üçün geniş kütlələr arasında təbliğatdan imtina edir, obyektiv vəziyyətlə razılaşmır, inqilabi şəraitin mövcudluğunu nəzərə almır, əsas ümidlərini zərbənin qəflətən endirilməsinə və hökumətin müqavimətə hazır olmamasına bağlayırdılar.

**Blank krediti** – əmtəə-maddi sərvətlər və ya qiymətli kağızlarla təmin olunmayan kredit. Banklar tərəfindən sənaye, ticarət, kənd təsərrüfatı (fermer təsərrüfatlarına) müəssisələrinə və xüsusi şəxslərə verilir. B.k.-ndən əsasən bankla uzunmüddətli münasibətlərə malik olan müştərilər istifadə edirlər.

**Blanko-veksel** – bir və ya bir neçə adi rekvizitlərin (məsələn, veksel sahibinin imzasının, məbləğin, tarixin) olmadığı veksel. Həm transsant, həm də blank aksepti nəticəsində ödəyici tərəfindən buraxıla bilər. Bir-birinə etibar edən işgüzar adamlar arasında daxili və beynəlxalq dövriyyədə tətiq edilir.

**Blank transferti** – adlı kağıza olan mülkiyyət hüququnun verilməsi haqqında onun sahibinin imzaladığı sənəd. Sənəddə onun təqdim ediləcəyi şəxsin adı göstərilmir.

**Blok** *(bax: seçki bloku)*.

**Blokada** *(hərbi) (ing. blockade – mühasirə, təcrid)* – beynəlxalq hüquq nöqteyi-nəzərindən hərbi əməliyyatların aparılması forması. Mühasirəyə alınmalı olan obyektin öz xarici əlaqələrini həyata keçirməsinə yol verilməsi məqsədi ilə onun təcrid edilməsindən ibarətdir. Quru, dəniz və hava b.-sı tətbiq oluna bilər. Dəniz b.-sı *(bax: dəniz blokadası)* daha çox tətbiq edilir. B.-dan hər hansı dövlətə təzyiq göstərilməsi vasitəsi kimi onun iqtisadi *(bax: iqtisadi blokada)* və ya siyasi cəhətdən təcrid olunmasına yönəldilmiş tədbirlər sistemi qismində də istifadə olunur.

**Bodmereya bondu** – gəminin və yükün girov qoyulması ilə alınan pul borcu. Borcu verən tərəfindən borcluya verilən bu iltizam nəticəsində o, dənizdə üzmə riskinin iştirakçısına çevrilir və yolda gəmi məhv olduqda öz vəsaitlərini ödəmək hüququnu itirir. O, eyni zamanda bodmereya borcunu sığorta etmək hüququna malikdir.

**Boqdo-gegen** *(monqolca hərbi mənada – əlahəzrət)* – Monqolustanda lama kilsə başçısının titulu. XVII yüzilliyin ortalarında Monqolustanda lamaizm hakim din kimi bərqərar olduqdan sonra yüksək rütbəli lama dini xadiminə verilən ad. İlk b.g. 1641-ci ildə undur-gegen (1635-1724) olmuşdur. Monqolustanda xalq inqilabından sonra (1921-ci ildən sonra) b.g. məhdud hüquqlu monarx kimi fəaliyyət göstərirdi. Həlledici rol isə xalq hökumətinə məxsus idi. 1924-cü ildə sonuncu b.g.-in ölümündən sonra Monqolustan Xalq Respublikası elan olunmuşdur.

**Boqomolçuluq** *(bax: zəvvarlar hərəkatı).*

**Bolşeviklər** – bolşevizm marksist siyasi fikir cərəyanının ardıcılları. Bolşeviklər partiyasında birləşmişdilər.

**Bolşevizm** – beynəlxalq fəhlə hərəkatında inqilabi, ardıcıl marksist siyasi fikir cərəyanı. V.İ. Leninin yaratdığı yeni tipli proletar partiyasında, bolşeviklər partiyasında təcəssüm olunan b. XX yüzilliyin əvvəlində Rusiyada meydana gəlmişdir. B. dünya inqilabi hərəkatının mərkəzi Rusiyaya keçdiyi dövrdə, marksizmin bünövrəsi zəminində yaranmışdır. B.-in nəzəri əsasını marksizm-leninizm siyasi təlimi təşkil edirdi.

**Bomj** *("qeyri-müəyyən yaşayış yeri" söz birləşməsi)* – müəyyən (daimi və ya müvəqqəti) yaşayış yerinə malik olmayan şəxs. Azərbaycan Respublikasında b.-un sosial müdafiəsi dövlət müəssisələri tərəfindən həyata keçirilir. Məsələn, daimi və ya müvəqqəti yaşayış yeri olmayan qocalar, əlillər xüsusi təyinatlı yaşayış yerlərində (qocalar, əlillər evində) yerləşdirilirlər.

**Bonapartizm** – 1) Napoleon Bonapartın və Lui Bonapartın imperatorluğu dövründə Fransada mövcud olmuş dövlət hakimiyyəti metodu (rejimi); 2) hərbi qüvvəyə, bürokratik aparata və polisə arxalanan iri burjuaziyanın mövcud olmuş əksinqilabi formalarından biri. B. sosial demoqoqluğu fəal şovinist təbliğat və təcavüzlə birləşdirir, xarici siyasət sahəsində demokratik azadlıqları boğurdu.

**Bond anbarı** – rüsum ödənilmədən import malları saxlamaq üçün gömrüyün ixtiyarında olan anbar. Malların b.a.-ndan yalnız ölkə daxilinə göndərildiyi halda rüsum ödənilir. Malların b.a.-nda saxlanması müəyyən müddətlərlə məhdudlaşdırılır. Müəyyən edilmiş müddətlər keçdikdən sonra mallar dövlətin nəfinə keçir.

**Bonifikasiya** *(fr. bonification – yaxşılaşdırıram)* – 1) keyfiyyəti müqavilə ilə nəzərdə tutulduğundan yüksək olan, daha yüksək standartlara cavab verən əmtəələrin qiymətlərinə edilən əlavə; 2) xaricə aparılan əmtəələrin dünya bazarında rəqabət qabiliyyətini yüksəltmək məqsədilə onlara görə tutulmuş vergilərin qaytarılması; 3) borcluların müəyyən kateqoriyalarına verilmiş kredit üzrə faizin miqdarını azaltmağa imkan verən dövlət subsidiyası; 4) eyni vaxtda ödənilən pul ödəməsi.

**Bonitar mülkiyyət** – Qədim Romada pretor hüququna əsaslanan mülkiyyət. Əşyanın mansipasiya mərasimi olmadan əldə edildiyinə görə, b.m. sivil hüquq tərəfindən tanınmırdı. B.m.-in sivil hüquqla tanınan mülkiyyətə çevrilməsi əşyanı əldə etmə müddətinin başa çatmasından sonra baş verirdi.

**Bonitirləşdirmə** – gələcəkdə istifadə məqsədi ilə damazlıq heyvanların, eləcə də torpaq yerlərinin *(bax: torpaqların bonitirləşdirilməsi)* və digər əkin məhsullarının keyfiyyətinin qiymətləndirilməsi.

**Bonlar** *(lat. bonus – yaxşı)* – 1) xəzinədarlar, bələdiyyələr və ya xüsusi firmalar tərəfindən alıcı və ya ödəyici vəsaitlər qismində buraxılan qısamüddətli borc öhdəlikləri; fond birjasında məzənnələşdirilirlər; 2) kolleksiya predmetinə çevrilmiş istifadə olunmayan kağız pullar; 3) xırda pul qismində müvəqqəti buraxılan xırda dəyərli kağız pul nişanları.

**Bonus** *(lat. bonus – yaxşı)* – əlavə mükafat. Ticarət vasitəçisi tərəfindən onun öz iştirakı ilə dövriyyənin ümumi məbləğinə qoyulan faiz növündə əldə edilən mükafatdır. Belə mükafat əlavə güzəştdən də ibarət ola bilər. İngilis termini olan "bonus" söz birləşmələrində müxtəlif əlavələri, məsələn, yaşa, uzun müddətə, müddətdən artıq vaxta görə verilən güzəştləri bildirmək mənasında da işlədilir.





**Borc (müqavilə)** – borc müqaviləsinə görə iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür (AR MM-in 739.1-ci maddəsi).

Borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, kredit müqaviləsi adlandırılır. Müstəqil peşə fəaliyyəti şəklində pul borc verməklə məşğul olan şəxslər əlavə olaraq peşəkarlıq qaydasında kreditlər verilməsi haqqında müddəaları gözləməlidirlər. Borc müqaviləsi şifahi bağlanır. Tərəflərin razılığı ilə yazılı formada da istifadə edilə bilər. AR MM-in 741-ci maddəsinə uyğun olaraq əgər müqavilənin iştirakçıları borcun faizlər ilə verilməsini şərtləşdirərlərsə, faizlər müvafiq surətdə bir ilin sonunda ödənilməli, borc bir il başa çatanadək qaytarılmalıdırsa, borcun qaytarılması ilə bir vaxtda ödənilməlidir.

**Borc kitabı** – debitorların və alıcıların borc öhdəliklərinin nəzərə alındığı kitab (sənəd). Bir qayda olaraq, pərakəndə satış ticarətində və kiçik müəssisələrdə tətbiq edilir.

**Borclu** *(mülki hüquqda)* – borc müqaviləsində tərəflərdən biri (borc alan). B. digər tərəfin - kreditorun xeyrinə və ya onun tələbi ilə müəyyən hərəkətlər etməli (pulu, yaxud əmlakı qaytarmalıdır) və ya onları etməkdən çəkinməlidir. Birtərəfli müqavilələrdə yalnız bir tərəf (məsələn, borc müqaviləsində borclu), ikitərəfli müqavilələrdə isə hər iki tərəf borclu olur. Borclu öhdəliyi adətən şəxsən icra edir. Lakin borclu qismində dövlət təşkilatı (hüquqi şəxs) çıxış etdikdə, o, yalnız müəyyən edilmiş qaydalarla nəzərdə tutulduğu hallarda öhdəliyin icrasını (tam və ya qismən) üçüncü şəxsin üzərinə qoya bilər.

**Borclunun təqsir prezumpsiyası** – mülki hüquqa görə borclunun vəziyyəti; belə vəziyyətə uyğun olaraq öhdəliyi icra etməyən və ya onu lazımi qaydada icra etməyən borclu təqsirli hesab olunur və onun üzərinə öz təqsirsizliyini sübut etmək vəzifəsi qoyulur.

**Borc öhdəliyi** – kreditin (borcun) alındığı zaman borc alan tərəfindən kreditora verilən sənəd. B.ö.-ndə kreditin (borcun) məbləği və ödənilməsi müddəti göstərilir. Bu sənədə görə borc alan krediti (borcu) şərtləşdirilmiş müddətdə qaytarmağı, kreditor isə onu borc alandan həmin müddət keçdikdən sonra almağı öhdəsinə götürür. Veksellər, istiqrazlar, müqavilələr, kredit sazişləri və i.a. b.ö.-nin fomalarıdır.

**Borc tələbi** – borcun ödənilməsinin tələb edildiyi ödəmə sənədi. AR MM-in 743-cü maddəsinə uyğun olaraq əgər borc alanın əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşərsə, bu isə borcun qaytarılması tələbi üçün təhlükə yaradarsa, borc verən borcun dərhal qaytarılmasını tələb edə bilər. Bu hüquq həmçinin borc alanın əmlak vəziyyəti müqavilə bağlanmazdan əvvəl

pisləşdikdə, borc verənə isə bu yalnız borc müqaviləsi bağlandıqdan sonra məlum olduqda da qüvvədədir.

**Borcun bağışlanması** – öhdəliyin xitamı üsullarından biri. AR MM-in 546-cı maddəsinə uyğun olaraq kreditorun borclunu onun üzərinə düşən vəzifədən azad etməsi (borcun bağışlanması) ilə öhdəliyə xitam verilir, bu şərtlə ki, həmin hərəkət kreditorun əmlakı barəsində başqa şəxslərin hüquqlarını pozmasın.

**Borcun konversiyası** – dövlət borclarının idarə edilməsi üzrə həyata keçirilən tədbirlərdən biri; əvvəllər buraxılmış dövlət istiqrazlarının kreditin ödənilmə müddətini uzadan yeni istiqrazlarla əvəz edilməsi. B.k.-nda borc faizlərinin miqdarında (azalır və ya qalxır) da dəyişikliklər baş verir.

**Bordero** – sığortaya qəbul edilən və yenidən sığorta edilməli olan risklərin siyahısı. B. sığorta edən tərəfindən yenidən sığorta olunana öz aralarındakı müqavilədə göstərilən müddətdə göndərilir.

**Boss** *(ing. boss)* – **1)** sahibkar, xüsusi müəssisə, idarə sahibi; **2)** ABŞ-da demokratlar və respublikaçılar partiyalarının yerli təşkilatlarına rəhbərlik edən şəxs. Boslar seçki kompaniyalarında inhisarların mənafelərinə uyğun namizədlərin seçilməsi üçün seçiciləri pulla ələ almağa, hədə-qorxuya və şantaja əl atırlar.

**Boşanma** *(bax: nikahın pozulması).*

**Boyar duması** – **1)** Kiyev dövlətində knyazın yanında drujina üzvlərindən və knyaza yaxın olan şəxslərdən ibarət şura; **2)** feodal pərakəndəliyi dövründə knyazın yanında və böyük udel knyazlıqlarında əyan vassalardan ibarət şura; **3)** XV əsrin sonu - XVIII əsrin əvvəlində mərkəzləşmiş Rus dövlətində böyük knyazın (çarın) yanında aristokratiyanın daimi silki-nümayəndəli orqanı; qanuni-məşvərətçi xarakterə malik olmuşdur.

**Boyarlar** – **1)** X-XVII yüzilliklərdə Rus dövlətində feodalların yüksək təbəqəsi. Böyük knyazdan sonra dövlətin idarə edilməsində mühüm yer tuturdular. B. slavyan tayfa ittifaqlarının süqutu dövründə (VI-IX yüzilliklərdə) meydana gəlmişdir. B. knyazın vassalı olub, onun qoşununda xidmət etməyə borclu idilər. Lakin onlar toxunulmazlıq hüququna, istədiyi vaxt başqa knyaza xidmətə keçmək və i.a. imtiyazlara malik idilər. Feodal pərakəndəliyi dövründə (XII-XV yüzilliklərdə) b.-ın iqtisadi qüdrəti artmış, siyasi təsiri güclənmişdir. Mərkəzləşmiş Rus dövlətinin yaranması (XV yüzilliyin sonu) ilə b.-ın hüquqları məhdudlaşmışdır. B.-a ən güclü zərbəni çar IV İvanın opriçina siyasəti vurmuşdur; **2)** XV-XVII yüzilliklərdə Rus dövlətində hakim təbəqələrdən dövlət xidmətində olan şəxslərə verilən yüksək rütbə. Bu rütbə Boyar Dumasına daxil olmaq hüququ verirdi. XVIII yüzilliyin sonunda ləğv edilmişdir; **3)** XVII yüzillikdə Rusiyada feodal və mülkədarlara tabe olan adamlar. Belə adamlara da boyarlar deyilirdi; **4)** Rumıniyada təqribən XIV yüzillikdə yaranmış və 1945-ci ildə aqrar islahatı nəticəsində ləğv olunmuş feodal sinfi.

**Boykot** *(ing. boycott)* – **1)** ilk dəfə 1880-ci ildə İrlandiya icarədarları tərəfindən onlarla sərt rəftar edən malikanə müdiri Ç.K. Boykota qarşı tətbiq edilmiş tədbir. "B." termini də onun adından götürülmüşdür; **2)** beynəlxalq hüquqda – bir dövlətin





başqa dövlətlə və ya bir qrup dövlətlə ticarət, maliyyə əlaqələri yaratmaqdan və ya saxlamaqdan imtina etməsi. BMT Nizamnaməsində b. sülhün qorunub saxlanması üçün məcburi tədbirlərdən biri (silahlı qüvvələrdən istifadə edilməsi) kimi nəzərdə tutulmuşdur. B. təzyiq tədbirləri (yəni hər hansı dövlətin qanunsuz hərəkətlərinə qarşı tətbiq edilən cavab tədbiri) formasında da ola bilər; **3)** iqtisadi boykot – b.-un ən geniş yayılmış forması. B. dövlətlərarası iqtisadi əlaqələrin bütün formalarını və ya ayrı-ayrı sahələrini əhatə edə bilər. Xarakteri və məzmunu onu hansı dövlətin və nə məqsədlə tətbiq etməsindən asılıdır; **4)** əmək münasibətlərində – fəhlələrin sahibkarlara qarşı mübarizə vasitələrindən biri. Fəhlələr b. edilən müəssisənin sahibkarı üçün işləməkdən və ya həmin müəssisənin məhsulunu almaqdan mütəşəkkil surətdə imtina edirlər.

**Böhtan** – yalan olduğunu bilə-bilə, hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitələrində yaymadan ibarət olan cinayət əməli. AR CM-in "Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər"ə həsr edilmiş XIX fəslində (147-ci maddə) nəzərdə tutulmuşdur.

**Bölünən akkreditiv** – özündə göstərilən məbləğ çərçivəsində bir neçə akkreditivin açılmasına imkan verən akkreditiv.

**Bölünməz əşya** – mülki hüquqa görə naturada bölünə bilməyən və təyinatı dəyişdirilə bilməyən əşya (predmet). B.ə.-ya mülkiyyət hüququ ilə ondan pay əldə etmənin xüsusiyyətləri AR MM-də nəzərdə tutulmuş normalarla müəyyən edilir.

**Böyük Azadlıqlar Xartiyası (BAX)** – 1215-ci il iyunun 15-də İngiltərə kralı Torpaqsız İohanın imzaladığı 63 maddədən ibarət hüquqi sənəd. BAX-ın imzalanmasına kral hakimiyyətinin güclənməsindən narazı qalan baronların üsyanı səbəb olmuşdur. Xartiyanın maddələrinin çoxu baronların kral üzərində müvəqqəti qələbəsini təmin edərək feodalların mənafeyini əks etdirirdi. BAX cəngavərlərin və azad kəndlilərin yuxarı təbəqəsinin mənafelərinə qismən uyğun idi. Xartiya kral hakimiyyətinin qanunla məhdudlaşdırılmasının əsasını qoymuşdur. O, 1215-ci ilin sonunda ləğv edilmişdir. Lakin sonralar onu kral III Henrix, I Eduard və II Eduard bəzi istisnalarla təsdiq etmişdilər.

**"Böyük dövlətlər"** – öz hərbi-siyasi potensialı sayəsində beynəlxalq sistemə və beynəlxalq-hüquqi münasibətlər sisteminə təsir göstərən dövlətlər. İkinci dünya müharibəsindən sonra b.d. formal şəkildə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri (ABŞ, Böyük Britaniya, Rusiya Federasiyası (1991-ci il dekabrın 25-dək SSRİ), Çin və Fransa) hesab olunurlar. B.d.-in müasir statusu dövlətlərin suveren bərabərliyi prinsipinə zidd deyildir. Onların beynəlxalq həyatdakı real rolu siyasi-hüquqi münasibətlər sisteminin möhkəmlənməsinə xidmət edir. B.d.-in BMT Nizamnaməsində təsbit edilmiş xüsusi statusu formal olaraq sülhün və ümumi təhlükəsizliyin qorunması üçün böyük məsuliyyət daşımaları ilə izah olunur. B.d. məhz bu məsuliyyətə uyğun olaraq və ondan irəli gələn vəzifələrə görə xüsusi hüquqa malikdirlər. Həmin hüquq bu ölkələrin BMT-nin Təhlükəsizlik Şurasında yekdillik prinsipində təcəssüm olunur.

**Böyük Xalq Xuralı** – Monqolustan Xalq Respublikasının ali qanunvericilik orqanı (parlament). Əhali tərəfindən 4 il müddətinə seçilir. BXX sədrdən, onun müavinindən, katibdən və 6 üzvdən ibarət olan Rəyasət Heyətini seçir.

**Böyük ictimai təhlükə törətməyən cinayətlər** – sanksiyası azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalar və iki ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutan əməllər. Belə əməllər həm qəsdən, həm də ehtiyatsızlıqdan törədilə bilər.

**Böyük Kazimirin statutları** *(bax: Vislis-Petrokovsk statutları).*

**Böyük knyaz** – **1)** X-XV yüzilliklərdə Rus dövlətində böyük knyazlıqların və XV əsr və XVI əsrin ortalarında dövlətin başçısı; **2)** Rusiya imperiyasında - imperator familiyasının üzvü, imperatorun yaxın qohumu; **3)** Rusiya imperatorunun tam titulunun bir hissəsi.

**Böyük Millət Məclisi** – Türkiyə Respublikasının ali qanunvericilik orqanı (parlament). 1920-ci il aprelin 23-də azadlıq müharibəsi gedişində çağırılmışdır. BMM-in yaradılması ilə Türkiyədə demokratik qüvvələr hakimiyyətə gəlmişdir. 1920-ci il aprelin 26-da BMM-in sədri Mustafa Kamal Paşa Atatürk V.İ. Leninə göndərdiyi məktubda Türkiyə ilə RSFSR arasında diplomatik əlaqə yaratmağı təklif etmişdir.

BMM 450 nəfər millət vəkilindən (deputatdan) ibarətdir. 30 yaşına çatmış hər bir türk vətəndaşı Məclisə seçilə bilər. BMM-ə seçkilər 5 ildən bir keçirilir. BMM-nin üzvləri yalnız onları seçmiş seçiciləri deyil, bütün milləti təmsil edirlər.

**Böyük münsiflər** *(ing. grand yury)* – ABŞ hüququnda konkret cinayət işi üzrə şəxsə ittiham elan edilməsi və müqəssiri məhkəməyə verməninin mümkünlüyü haqqında məsələnin həll olunması üçün əsasların yoxlanılması məqsədi ilə yaradılan andlılar kollegiyası. Cinayətin işinin məhkəməyə göndərildiyi halda müqəssirin işinə andlıların "kiçik münsiflər"inin iştirakı ilə baxılır.

**"Böyük səfirlik"** – 1697-1698-ci illərdə Qərbi Avropada rus diplomatik nümayəndəliyi. Başlıca məqsədi Qara dəniz sahillərində hegemonluq əldə etmək üçün Türkiyə əleyhinə ittifaqı möhkəmləndirmək və genişləndirmək, həmçinin Qərbdə hərbi donanmanın quruluşu ilə tanış olmaq, Rusiyaya hərbi mütəxəssislər dəvət etmək və i.a. olmuşdur. Tərkibi təqribən 250 nəfərdən ibarət olan səfirliyə Pyotr Mixaylov adı ilə I Pyotrun özü başçılıq edirdi. "B.s." öz məqsədinə nail ola bilməmişdir. Bununla yanaşı Türkiyə əleyhinə ittifaqı möhkəmləndirməyin qeyri-mümkünlüyü də aydın olmuşdur.

**"Böyük yeddilər"** – başçıları müntəzəm olaraq yüksək səviyyədə görüşlər keçirən iqtisadi cəhətdən daha çox inkişaf etmiş dövlətlər – ABŞ, Böyük Britaniya, Yaponiya, Almaniya, Fransa, İtaliya və Kanada. Bu dövlətlərin müntəzəm görüşləri ümumi (strateji) siyasi, habelə iqtisadi qərarların işlənib hazırlanması üçün keçirilir.

**Brahmanizm** – Hindistanda sinfi münasibətlərin (xüsusilə quldarlığın) inkişafı dövründə (eramızdan əvvəl I minilliyin birinci yarısında) Veda dini-fəlsəfi təliminin dəyişikliyə uğraması nəticəsində əmələ gəlmiş dini cərəyanlardan biri. B.-in dini-fəlsəfi təlimi öz ifadəsini Mahabharatada, Brahmanada, Upanişadlarda, Bhavaqat-gitada və i.a. dini-fəlsəfi məzmunlu hind abidələrində tapmışdır. Təbiət qüvvələri ilə yanaşı, ictimai qüvvələri də ilahiləşdirən b. təlimində animistik etiqada da təsadüf olunur. Dövlətin və cəmiyyətin təbəqələrə (kastalara) bölgüsünü müdafiə edən b. buddizmə qarşı mübarizədə və onun təsiri altında eramızın I minilliyində hinduizm şəklinə düşmüşdür. B. həm də böyük ideoloji təsir gücünə malik olmuş, cəmiyyətin yüksək təbəqələrinin mənafelərini müdafiə etməklə köləliyə, hüquqsuzluğa və qeyri-bərabərliyə haqq qazandırmışdır.

**Brahmanlar** – Hindistanda Veda təliminə görə cəmiyyətin kasta bölgüsündə ən yüksək pilləni tutan təbəqənin (varnanın) nümayəndələri. Hind mifoloji mətnlərinə görə b. allah Puruşun dilindən yaranmışdır. Onlar yalnız idarə etmək üçün yaranmışlar və allaha ibadətdən savayı heç bir fəaliyyət növü ilə məşğul olmamalı idilər. B. hətta axirət dünyasında da cəmiyyəti idarə edirdilər.

**Brakeraj** – əmtəənin keyfiyyətinin, onun qablaşdırılmasının, xarici görkəminin müvafiq standartlara və satış əqdlərinə uyğunluğunun yoxlanması. Xüsusi dövlət təşkilatları və ya andlı brakerlər adlanan xüsusi şəxslər tərəfindən həyata keçirilir. Rəsmi əmtəəşünaslar (brakerlər) tərəfindən əmtəələrin müayinəsi zamanı zay əmtəənin aşkar edilməsi də b. adlandırılır.

**Brakonyer** *(fr. braconier – qadağan olunmuş ovla və balıq tutmaqla, meşə qırmaqla məşğul olan adam)* – ovetmə, balıqtutma qaydalarını və heyvanlar aləminin mühafizəsi haqqında qanunvericiliyin tələblərini pozan şəxs *(bax: brakonyerlik).*

**Brakonyerlik** – ovetmə, balıqtutma qaydalarını və heyvanlar aləminin mühafizəsi haqqında qanunvericiliyin tələblərini pozmaqla vəhşi heyvanların ovlanması. B.-yə aşağıdakılar aid edilir: 1) ovçu bileti, lisenziyası, yaxud dövlət orqanının digər icazəsi olmayan şəxs tərəfindən ovetmə və ya balıqtutma; 2) ilin qadağan olunmuş mövsümündə, qadağan olunmuş yerlərdə və ya qadağan olunmuş üsulla (alətlə) ovetmə və ya balıqtutma; 3) ovlanması qanunvericiliklə tamamilə qadağan olunan heyvan və quşları, habelə balıq və başqa su heyvanlarını ovlama və ya tutma; 4) vəhşi heyvanları normadan artıq ovlama, yaxud tutma, habelə onları lisenziyada, yaxud digər icazədə göstərilən artıq miqdarda tutma; 5) yararlı quşların yumurtalarını, tükünü yığmaq, yuvaları, yataqları dağıtmaq və heyvanlar aləminin mühafizəsi qaydalarını digər formada pozma. B. inzibati xəta, habelə cinayət kimi qiymətləndirilə bilər. AR CM-in "Ekoloji cinayətlər"dən bəhs edən 28-ci fəslinin 256-261-ci maddələri b.-yə görə cinayət məsuliyyəti nəzərdə tutur.

**Bravo** *(ita. bravo – əla)* – XVII-XVIII yüzilliklərdə İtaliyada muzdla tutulan qatil, cani.

**Bretton-vud valyuta sistemi** – Qərbi Avropa ölkələrinin beynəlxalq iqtisadi əlaqələri ilə şərtləşən pul münasibətlərinin (hesablaşmaların və ödəmələrin) təşkilinin formalarından biri. B.v.a.s. İkinci dünya müharibəsindən sonra (1944-cü ildə müəyyən edilmişdi) fəaliyyət göstərmişdir. Bu sistemdə dünya pulu rolunu qızıl ilə yanaşı Amerika dolları da yerinə yetirirdi. ABŞ sənaye istehsalında və ticarətdə özünün inhisarçı mövqeyinə arxalanaraq, bu valyuta mexanizmini Qərbi Avropa ölkələrinə müncər etmişdi.

Bütün kapitalist ölkələrinin dövlət qızıl ehtiyatlarının 3/4-nə malik olan ABŞ hər hansı ölkənin emissiya bankları tərəfindən

təqdim edilən dolları qızıla dəyişməyi üzərinə götürmüşdü.

**Brifinq** *(ing. briefing (brief) – qısa)* – rəsmi şəxslərin kütləvi informasiya vasitələri nümayəndələri ilə qısamüddətli görüşü. Belə görüşdə hökumətin və ya müvafiq orqanın müəyyən məsələ üzrə mövqeyi qısa şəkildə ifadə olunur və ya beynəlxalq danışıqların gedişi, tərəflərin baxışları haqqında qısa məlumat verilir.

**Briqada podratı və briqada təsərrüfat hesabı** – istehsaldaxili təsərrüfat hesabına əsaslanan əməyin təşkili metodu. Müdiriyyətin və təsərrüfat hesablı briqadanın qarşılıqlı öhdəlikləri podrat müqaviləsi şəklində rəsmiləşdirilir. Müqaviləyə görə hər iki tərəf maddi məsuliyyət daşıyır. Əmək son nəticəyə (əmtəələrin istehsalına və ya müqavilə ilə müəyyən edilmiş müddətdə göstərilən xidmətlərə) görə ödənilir.

**Broker** *(ing. broker)* – qiymətli kağızlar bazarında) (fond birjasında) və ya əmtəə birjasında qiymətli kağızların, yaxud birja əmtəəsinin alqı-satqısı üzrə funksiyaları yerinə yetirən vasitəçi. Adətən agent, komissiya və ya tapşırıq *(bax: broker fəaliyyəti)* müqaviləsi əsasında fəaliyyət göstərir. Roman-german hüquq terminologiyasında b. dəllal, kommersiya agenti, vasitəçi, ticarət nümayəndəsi adlandırılır.

**Broker gildiyaları** – birja vasitəçilərinin və brokerlərinin peşəkar birlikləri; belə birliklər həm də birjaların nəzdində yaradıla bilərlər. B.g. və onların assosiasiyaları qanunvericilik tərəfindən ictimai təşkilatlar üçün müəyyən edilmiş qaydalar və şərtlər əsasında yaradılırlar.

**Broker fəaliyyəti** – müştərinin adından və onun hesabına, müştərinin adından və öz hesabına və ya öz adından və müştərinin hesabına birja vasitəçisi tərəfindən bağlanan birja əqdi. Broker firmaları, broker kontorları və müstəqil brokerlər tərəfindən həyata keçirilir. Qiymətli kağızlar bazarının b.f. ilə məşğul olan peşəkar iştirakçısı da broker adlandırılır.

**Broker firması** – birja brokeri qismində fəaliyyətin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq yaradılan kommersiya təşkilatı.

**Brokeric** – broker tərəfindən alınan mükafat. Bu mükafat əqdin dəyər faizi şəklində (məsələn, qiymətli kağızların satışı zamanı) və ya malların partiyasına görə ödənilməli olan müəyyən məbləğ halında müəyyən edilə bilər.

**Broker komissiyası** – göstərdikləri vasitəçilik xidmətlərinə görə mükafatdan brokerin öz xeyrinə hesabladığı ödənc.

**Broker kontoru** – birjalar haqqında qanunvericiliyə uyğun olaraq ayrıca balansa və hesablaşma hesabına malik olan və broker fəaliyyətini həyata keçirən idarə, müəssisə və təşkilatın filialı, yaxud digər əlahiddə bölməsi.

**Broker kreditləri** – broker-diler firması tərəfindən müştərilərə qiymətli kağızlar almaq üçün verilən kreditlər (bu kağızlar adətən girovla verilir).

**Broker qeydi** – broker tərəfindən öz müştərisinə göndərilən əqdin bağlanması haqqında qeyd.

**Broker mükafatı** – əqdlərin bağlanmasına görə birja brokerinə verilən mükafat.

**Broker nümayəndəlikləri** – birja əməliyyatlarının aparılması üçün kommersiya banklari nəzdində açılan vasitəçilik nümayəndəlikləri. Bu nümayəndəliklər qiymətli kağızların, veksellərin, səhmlərin və kağız pulların yerləşdirilməsi üçün alıcıların axtarılmasında müəssisələrə, təşkilatlara və xüsusi şəxslərə kömək edirlər.

**Broker yeri** – birjada üzvlük, müəyyən birjanın ticarət şəbəkəsində iştirak etmək hüququ. B.y. öz şəxsi ehtiyacları üçün mal alaraq, möhtəkirlik əməliyyatı keçirməklə müştərilərin sifarişləri üzrə əqdlər bağlayaraq birja dairəsində sərbəst şəkildə əqdlər bağlamağa; birja əməliyyatlarının aparılması üçün ən aşağı xərcləri (birja üzvü olmayanların gəlirindən tutulan ödəmələrdən fərqli olaraq, birja üzvləri, bir qayda olaraq, birja ödəməsindən azad edilirlər və komissiya gəliri növündə müəyyən gəlir əldə etmək hüququna malikdirlər) keçirməyə; ilk növbədə məlumat əldə etməyə və müştərilərə informasiyalı kommersiya xidmətləri göstərməyə; birjanın idarə edilməsində iştirak etməyə imkan verir. Birja üzvləri illik üzvlük haqqını ödəməyə borcludurlar.

**Bronlama** *(bax: yaşayış sahəsini bronlama).*

**Brutto** *(ita. brutto – kobud, qaba)* – əmtəənin bağlama (tara) ilə birlikdə kütləsi. B. həm də xərclərin hesablanmadığı xalis gəlir mənasında işlədilir *(bax: NETTO).*

**Brutto-faizlər** – gəlirlərin mənbəyindən tutulmalı olan vergilərin hesablanmasınadək faiz ödəmələri.

**Brutto-gəlir** – vergilər də daxil olmaqla hər hansı hesablamayadək qiymətli kağızlar və ya daşınmaz əmlak üzərinə kapital qoyuluşları üzrə gəlir.

**Brutto-icarə** – icarə haqqında saziş. Bu sazişə görə icarəçi öz mülkiyyətinə göstərilən xidmət üçün bütün cari xərcləri ödəyir.

**Brutto-məzənnə** – sığorta üzrə üzvlük haqqının (ödəmələrin) tarif məzənnəsi; sığorta əməliyyatlarının aparılması, ehtiyat fondunun yaradılması, xəbərdaredici tədbirlərin maliyyələşdirilməsi üzrə xərclərin ödənilməsi üçün istifadə edilən netto-məzənnənin və yükün məbləği.

**Brutto-mükafat** – brutto-məzənnədən və sığorta məbləğinin miqdarından hesablanan sığorta üzrə üzvlük haqqının məbləği.

**Brutto-pay** – şəxsi tutma və yenidənsığorta məbləğləri də daxil olmaqla sığortaçı tərəfindən riskə qəbul olunan sığortanın ümumi məbləği.

**Buhenvald** – alman faşist həbs düşərgəsi. Veymar ətrafında 1937-ci ildə yaradılmışdır. İlk adı Ettersberq olub. 8 il ərzində təqribən 239 min antifaşist və hərbi əsir b.-ın məhbusu olmuşdur. B. 1945-ci il aprelin 11-də ləğv edilmişdir. B.-da 18 millətdən olan 56 min məhbusa işgəncə verilmiş, təqribən 10 min məhbus öldürülmüşdür.

**Bukinqnot** – yüklərin uzağa daşınmasına dair dəniz daşıması kontraktının bir növü. Fraxt kontraktından fərqli olaraq bu kontraktın əsasında reys çarteri şərti durur. B. xəttin konosamenti şərtlərinə əsaslanır.

**Bukmeker** – oyun zamanı, başlıca olaraq cıdır və qaçış yarışlarında pul məzənnələrini totalizatora qəbul edən şəxs.

**Bulanjizm** – XIX yüzilliyin 80-ci illərində Fransada meydana gəlmiş şovinist hərəkat. Başçısı general Bulanje olmuşdur. Üçüncü Respublikanın iqtisadi və siyasi

böhranı şəraitində yaranmışdı. Hərbi diktatura yaratmaq istəyən bulanjistlər konstitusiyanın yenidən nəzərdən keçirilməsini, parlamentin buraxılmasını tələb edir, Almaniyaya qarşı qisasçı müharibə şüarını irəli sürürdülər. Bulanjenin monarxistlərlə əlaqəsinin ifşasından sonra hərəkət zəifləmişdir.

**Bulava** – XIX yüzilliyədək Türkiyədə, Polşada və Ukraynada hakimiyyət rəmzi.

**Bule** *(yun. bule)* – **1)** Qədim Afinada və digər yunan şəhər-dövlətlərində (polislərdə) dövlət şurası; **2)** eramızdan əvvəl V yüzilliyin əvvəllərinədək zadəgan və oliqarxiya polislərində hakim əyanlar şurası. Bu şuranın üzvləri ömürlük seçilirdilər; **3)** demokratik polislərdə ali icraedici hakimiyyət və dövlət nəzarəti orqanı. Həmin orqan müəyyən müddətə seçilir və xalq yığıncağında müzakirə olunacaq işləri hazırlayırdı. B. Afinada daha məşhur olmuşdur. O, Solonun islahatı (eramızdan əvvəl 594-cü ildə) ilə yaradılmışdı və 400-lər şurası adlanırdı. Klisfen tərəfindən yaradılmış b. 500-lər şurası (şuraya yenidən yaradılmış hər bir filialdan 50 nəfər seçilirdi) adlanırdı.

**Bulıgin duması** – çar Rusiyasında məşvərətçi dövlət nümayəndəli orqanı yaradılması haqqında qanun layihəsinin tarixə düşmüş adı. Qanun layihəsini 1905-ci ildə çar hökumətinin daxili işlər naziri A.Q. Bulıgin hazırlamışdı. Məqsəd kütlələri inqilabdan uzaqlaşdırmaq, həmçinin burjuaziyanın müxalifətçiliyinə son qoymaqdan ibarət olmuşdur. B.d.-nın çağırılması 1905-ci ilin oktyabrındakı inqilabi hadisələr nəticəsində baş tutmamışdır.

**Bulla** *(lat. bulla)* – **1)** orta əsrlərdə imperator tərəfindən verilən fəxri-fərman və ya qərar; **2)** Roma papaları tərəfindən verilən sərəncam və ya məktub. Qızıl möhür bəndlənmiş mühüm imperator sənədləri qızıl b. adlanırdı.

**Bum** *(ing. boom)* – kapitalist sənayesi və ticarətinin qısamüddətli ehtikar yüksəlişi. Əmtəə qiymətinin və qiymətli kağızların məzənnəsinin artması, birja möhtəkirliyinin azğınlığı və i.a. ilə səciyyələnir. B. sürətlə silahlanma ilə də sıx əlaqədar olmuşdur.

**Bundesrat** *(alm. bundersrat – hərfi mənada ittifaq şurası)* – AFR ərazi nümayəndəliklərinin orqanı, ərazi hökumətinin 41 nümayəndəsindən (hər bir ərazinin hökuməti əhalinin sayına görə 3-5 nümayəndə təyin edir) ibarətdir. Faktiki olaraq AFR parlamentinin yuxarı palatası hesab olunur.

**Bundestaq** *(alm. bundestag – hərfi mənada ittifaq məclisi)* – AFR-də ali nümayəndəli orqan; 4 il müddətinə seçilir. Formal olaraq parlamentdir, faktiki isə AFR parlamentinin aşağı palatası hesab olunur.

**Buraxılış (gömrük hüququnda)** – Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən malların və ya nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsindən sonra şəxsin tam sərəncamına verilməsi. Malların və nəqliyyat vasitələrinin müəyyən olunmuş məhdudiyyətlərə, tələblərə və ya şərtlərə riayət edilməsi haqqında şəxsin öhdəlikləri ilə müşayiət olunan buraxılış şərti buraxılış hesab olunur.

**Burjua hüququ** – kapitalist istehsal üsulunun meydana gəlməsi və burjua ictimai münasibətlərinin təşəkkülü ilə əmələ gəlmiş hüquq. B.h. əsasən ilk burjua inqilablarından sonra formalaşmış və hüququn tamamilə yeni tipi kimi cəmiyyətin tərəqqisində özünəməxsus rol oynamışdır. O, tarixən feodal hüququnu əvəz etmiş, xüsusilə də burjua inqilablarından sonra məhsuldar qüvvələrin inkişaf xarakterinə tam uyğun olmuşdur.







**Burqqraf** *(alm. burggraf)* – orta əsr alman şəhərlərində (ilk əvvəllər burqlarda) kral (və ya yepiskop-şəhər senyoru) tərəfindən təyin edilən vəzifəli şəxs. B. inzibati, hərbi hakimiyyətə və məhkəmə hakimiyyətinə malik idi. Ona şəhər rəisi də deyilirdi.

**Burqomistr** *(alm. burgermeister)* – bəzi ölkələrdə (AFR-də, Belçikada, Hollandiyada, Avstriyada) yerli idarəçilik orqanlarında yüksək vəzifəli şəxs. B. mərkəzi hökumətin nümayəndəsi hesab olunur, bələdiyyə qulluqçularını təyin və azad edir, büdcənin tərtibində və icra olunmasında iştirak edir.

B. ya bələdiyyə şurası (məsələn, AFR-in ərazilərinin əksəriyyətində), ya da bilavasitə əhali tərəfindən (AFR-in Bavariya, Baden-Vürtenberq ərazilərində) seçilir, yaxud hökumət tərəfindən (məsələn, Hollandiyada) təyin edilir.

**"Burqund pravdası" (Lex Burgundionum)** – V əsrin sonu - VI əsrin başlanğıcında burqund krallarının qüvvədə olmuş qanunlarının rəsmi toplusu; 517-ci ildə kral Qundobad tərəfindən buraxılmışdır. Toplu burqundların öz aralarında və burqundlarla romalılar arasında münasibətləri tənzimləyirdi. Bir qədər sonra qəbul edilmiş qərbi german tayfalarının "pravdalarına" (məsələn, Lanqobard) nisbətən Roma hüququnun böyük təsirinə məruz qalmışdır.

**Burmistr** – XVIII əsrin sonu – XIX əsrin birinci yarısında Rusiyada mülkədar malikanələrini idarə edən şəxs. 1861-ci il islahatlarından sonra volost starşinalarını da bəzən b. adlandırırdılar.

**"Buryat Qanunnaməsi"** – Anqara çayı sahilində yaşayan buryatların (bulaqatların) adət hüquqlarını özündə ehtiva edən sənədin şərti adı. "B.Q."-ni 1693-cü ildə buryat tayfa əyanlarının danışıqları əsasında rus hərbi xidmətçisi B. Serebrennikov yazmışdır. 11 maddədən ibarət olan "B.Q." buryatların tarixini, hüquqi görüşlərini öyrənmək üçün qiymətli mənbədir.

**Bustamante Məcəlləsi** – beynəlxalq xüsusi hüququn ərazi (Latın Amerikası ölkələri üçün) məcəllələşdirilmiş ən əhəmiyyətli sistemləşdirilmiş qanunvericilik aktlarından biri; Kubanın beynəlxalq hüquq üzrə hüquqşünası və diplomatı Sançes de Bustamante-i-Sirven Antonio (1865-1951) tərəfindən (onun rəhbərliyi altında) hazırlanmışdır.

**Butleger** *(ing. bootegger)* – Qərbi Avropanın bir sıra ölkələrində spirtli içkilərin qadağan olunmuş daşınması, satışı və tədarükü ilə məşğul olan şəxs.

**Butlegerlik** – spirtli içkilərin qanunsuz istehsalı (saxtalaşdırılması və kontrabandası ilə əlaqədar fəaliyyət.

**Büdcə** – dövlət hakimiyyəti orqanlarının funksiyalarının təmin edilməsi üçün pul vəsaitlərinin yaranması və xərclənməsi forması. B. gəlirləri hər bir səviyyədə Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun formalaşdırılır. Belə formalaşdırmanın əsasını b. müstəqilliyi prinsipi təşkil edir. B.-nin müstəqilliyi gəlirlərin xüsusi mənbələrinin olması və onlardan istifadənin istiqamətinin müəyyən olunması hüququ ilə təmin edilir. Bu prosesdə b. gəlirlərinin xüsusi mənbələrinə

aşağıdakılar aid edilir: a) b.-nin hər bir səviyyəsi üçün qanunla təsbit edilmiş gəlir mənbələri; b) dövlət hakimiyyəti orqanları tərəfindən müstəqil olaraq müəyyən edilən əlavə mənbələr.

**Büdcə cədvəli** – büdcə gəlirlərinin və xərclərinin rüblər üzrə bölüşdürülməsi və onun kəsirlərinin maliyyələşdirilməsi mənbələrindən mədaxil haqqında sənəd. B.c. büdcə vəsaitlərinin alıcılar arasında mərsəflərini bölüşdürür və o, büdcə təsnifatına uyğun olaraq tərtib edilir.

**Büdcədənxaric məqsədli fondlar** – Azərbaycan Respublikasının maliyyə sisteminin həlqələrindən biri; dövlətin məqsədli fondlarının və pul vəsaitlərinin yerli fondlarının növlərindən biridir. Sosial və iqtisadi b.m.f. fərqləndirilir. Azərbaycan Respublikasının Pensiya fondu, Əhalinin Məşğulluğuna dair Dövlət Fondu, Sosial Sığorta Fondu sosial fondlara aiddir. İqtisadi məqsədli fondlara yol fondları, Azərbaycan Respublikasının Gömrük Sisteminin İnkişaf Fondu aiddir. Bundan başqa, sahəvi və sahələrarası büdcədənxaric fondlar da mövcuddur.

**Büdcədənxaric vəsaitlər** – dövlətin məqsədli təyinata malik olan və dövlət büdcəsinə daxil olmayan pul vəsaitləri. B.v. büdcədənxaric məqsədli fondlarda akkumuliyasiya edilir.

**Büdcə dövrü** – təsdiq edilmiş büdcənin fəaliyyət göstərdiyi müddət.

**Büdcə güzəşti** – maliyyə ili ərzində 6 aydan artıq olmayan müddətə digər büdcə təşkilatına geri qaytarmaq şərtilə əvəzsiz və ya əvəzli əsaslarla verilən büdcə vəsaiti.

**Büdcə hesabları** – **1)** büdcə müəssisələrinin banklardakı hesabları; **2)** xüsusi şəxslərə kreditlər verilməsi forması. Bu zaman müştəri müqavilə ilə müəyyən edilmiş məbləği müntəzəm olaraq özünün bankdakı hesabına köçürür, bank isə kredit vermək zərurəti yarandığı halda müştərinin hesablarını ödəyir.

**Büdcə hüquqları** – Azərbaycan Respublikasının büdcə fəaliyyəti sahəsində Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisi və hökuməti tərəfindən həyata keçirilən hüquq və vəzifələrinin (səlahiyyətlərinin) məcmusu. Azərbaycan Respublikasının büdcə-hüquqi statusunun xüsusiyyətləri əsasında onun hüquqlarını aşağıdakı 2 qrupa bölmək olar: 1) Azərbaycan Respublikasının suveren dövlət kimi b.h.; 2) Azərbaycan Respublikasının aşağı büdcə müəssisələrinə münasibətdə b.h.

**Büdcə hüququ** – maliyyə hüququnun əsas sahədaxili hüquq sahələrindən biri. Ölkənin büdcə quruculuğunu müəyyən edən və pul vəsaitləri fondlarının formalaşdırılması və onlardan istifadə üzrə ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusundan ibarətdir. Azərbaycan Respublikasında b.h.-un əsas mənbələri Azərbaycan Respublikasının Konstitusiyası və büdcə təsnifatıdır.

**Büdcə ili** – təsdiq edilmiş dövlət büdcəsinin icra olunduğu 12 təqvim ayı müddəti.

**Büdcə intizamı** – bütün dövlət hakimiyyəti və idarəetmə orqanları, idarə, müəssisə və təşkilatlar tərəfindən büdcə qarşısında maliyyə öhdəliklərinin vaxtında və dəqiq yerinə yetirilməsindən, büdcə vəsaitlərinin yalnız lazımi məqsədlər üçün müəyyən edilmiş norma və qaydalara uyğun şəkildə əməl edilməklə xərclənməsindən ibarətdir. B.i.-na əməl edilməməsinə görə məsuliyyət ilk növbədə kreditləri bölən vəzifəli şəxslərin üzərinə düşür.

**Büdcə kəsiri** – dövlətin ümumi xərclərinin onun ümumi gəlirindən çox olması.

**Büdcə krediti** – büdcə xərclərinin maliyyələşdirilməsi forması; pul vəsaitlərinin hüquqi şəxslərə verilməsini və əvəzli əsaslarla qaytarılmasını nəzərdə tutur.

**Büdcə qanunu** – ümumdövlət qanunvericilik aktı. Bu akt konkret dövr və müddətlər üçün büdcəni müəyyən edir, onun fəaliyyət qaydasını və büdcə ehtiyatları üzrə əsas təyinatını tənzimləyir.

**Büdcə quruculuğu** – Azərbaycan Respublikasının büdcə qanunvericiliyinə uyğun olaraq büdcə sisteminin təşkili, onun quruculuq prinsipləri. B.q. birliyə, tamlığa, reallığa, aşkarlığa və ölkənin büdcə sisteminə daxil olan bütün büdcələrin müstəqilliyinə əsaslanır.

**Büdcə maliyyələşdirilməsi** – öz xərclərinin tam və ya qismən ödənilməsi üçün idarə, müəssisə və təşkilatlara dövlət büdcəsindən verilən və geri qaytarılmayan vəsaitlər. Bazar iqtisadiyyatı şəraitində özünümaliyyələşdirmə daha mühüm yer tutur. Eyni zamanda da b.m. elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, habelə ayrı-ayrı müəssisələrin, sahələrin və regionların inkişaf etdirilməsinin zəruri vasitəsidir.

**Büdcə müəssisələri** – bütün zəruri vəsaitləri dövlət büdcəsindən alan qeyri-istehsal müəssisələr (məsələn, sosial-mədəni sahələr, dövlət hakimiyyəti və idarəetmə orqanları, məhkəmə, prokurorluq və i.a.).

**Büdcə nəzarəti** – dövlətin maliyyə nəzarətinin üzvi tərkib hissəsi. Bu nəzarət vasitələ büdcə layihəsinin tərtibi, nəzərdən keçirilməsi və onun realizəsi haqqında hesabatın hazırlanması prosesində büdcə vasitələrinin yaranması, bölüşdürülməsi və həmin vəsaitlərdən istifadə yoxlanılır.

**Büdcə öhdəliyi** – büdcəni icra edən orqan tərəfindən müvafiq büdcə vəsaitlərinin müəyyən müddət ərzində xərclənməsi ilə əlaqədar qəbul edilən öhdəlik.

**Büdcə prosesi** – dövlətin büdcəni formalaşdırması, nəzərdən keçirməsi, onun təsdiqi və icrası üzrə, habelə büdcənin icrası haqqında hesabatın tərtibi və təsdiqi ilə əlaqədar büdcə hüquq normaları ilə reqlamentləşdirilmiş fəaliyyəti. B.p. maddi büdcə hüquq normalarının tətbiqi qaydalarını nəzərdə tutur.

**Büdcə sənədləri** – büdcə gəlirlərini və məsrəflərini əks etdirən sənədlər. Plan, hesabat sənədlərinə və əməli sənədlərə bölünürlər.

**Büdcə sistemi** – Azərbaycan Respublikası büdcə müəssisələrinin iqtisadi münasibətlərə və hüquq normalarına əsaslanan sistemi. B.s.-nin birliyi vahid hüquqi baza, vahid büdcə təsnifatından istifadə, büdcə sənədlərinin vahid forması, bir büdcə səviyyəsindən digərinə zəruri statistik məlumatların və büdcə məlumatlarının verilməsi ilə təmin edilir.

**Büdcə tənzimləməsi** – dövlət büdcəsi gəlirlərinin bölüşdürülməsinin ikinci (əlavə) qaydası. Azərbaycan Respublikasının büdcə qanunvericiliyinə uyğun olaraq b.t. büdcə prosesinin tərkib hissəsi olub, müxtəlif səviyyəli büdcələr arasında maliyyə ehtiyatlarının qismən yenidən bölüşdürülməsindən ibarətdir. B.t. metodlarının aşa-

ğıdakı 4 qrupu mövcuddur: 1) büdcə gəlirlərini tənzimləyən mənbələrin müəyyən edilməsi və bölüşdürülməsi; 2) büdcə mənbələrinin özlərinin yenidən bölüşdürülməsi; 3) yuxarı büdcələrin vəsaitləri hesabına aşağı büdcələrə əvəzsiz yardım göstərilməsi; 4) bir büdcənin vəsaitlərindən digərlərinə güzəştlə vəsaitlər verilməsi.

**Büdcə təsnifatı** – büdcə gəlirlərinin və xərclərinin eyni əlamətlərə görə sistemləşdirilmiş qruplaşdırılması. B.t. xüsusi hüquqi aktla rəsmiləşdirilir. Azərbaycan Respublikası b.t.-na uyğun olaraq vahid iqtisadi, funksional (predmet), müəssisə və qarışıq b.t.-ndan istifadə olunur.

**Büdcə təşəbbüsü** – parlament üzvlərinin hökumət tərəfindən təqdim edilən büdcə layihəsinə dəyişikliklər etmək hüququ. Bir sıra ölkələrin parlamentləri belə hüquqdan məhrum edilmişdir.

**Bülleten** *(fr. bulletin)* – **1)** sosial əhəmiyyətə malik hadisə, məsələ və ya iş haqqında qısa rəsmi məlumat; **2)** müəyyən məsələlərə həsr olunmuş dövri, yaxud daimi nəşr (məsələn, Azərbaycan Respublikası Ali Məhkəməsinin bülleteni və i.a.); **3)** deputatlığa namizədin soyadı yazılmış səsvermə vərəqəsi.

**Bürgerlik** *(alm. bürgertum, bürger – şəhərli sözündəndir)* – geniş mənada orta əsrlərdə Qərbi Avropada şəhər hüququnun şamil olunduğu əhali, şəhər icmasının bütün üzvləri. Məhdud mənada şəhər əhalisinin azad sənətkarlardan, ortabab və xırda tacirlərdən ibarət orta təbəqəsi. Şəxsi azadlıq və şəhər məhkəməsinin müstəsna tabeliyində olmaq, öz mülkiyyətini idarə etmək hüququ və i.a. imtiyazlar bürgerliyin mütləq əlamətlərini təşkil edirdi.

**Bürger məktəbi** – XVII-XVIII yüzilliklərdə Almaniya şəhərlərində sənətkar, xırda tacir və başqalarının uşaqları üçün açılmış yüksək tipli ibtidai məktəb. B.m. şəhər xırda burjuaziyasının yüksək ibtidai təhsilə olan ehtiyacını ödəyir, zadəganlara orta məktəbi (gimnaziyanı) öz əlində saxlamaq, digər təbəqələrə mənsub uşaqların oraya daxil olmasının qarşısını almaq imkanı verirdi. XIX yüzillikdə b.m. 4 illik ali-ibtidai (4 illik ibtidai təhsildən sonra) və ya 6 illik realni məktəbə çevrilmişdir.

**Büro** *(fr. bureau)* – **1)** hər hansı bir təşkilatda, cəmiyyətdə, müəssisədə, kollektivdə müəyyən, başlıca olaraq rəhbər işin aparılması üçün seçilən və ya təsis edilən kollegial orqan; **2)** əsasən əhaliyə xidmətlər göstərmək funksiyasını yerinə yetirən (məsələn, məişət bürovuzu) bəzi müəssisələrin və ya onların şöbələrinin adı.

**Bürokrat** *(fr. bureaucrate)* – **1)** bürokratiyaya mənsub olan şəxs; **2)** öz vəzifələrini formal surətdə, işin ziyanına olaraq yerinə yetirən şəxs; formalist, süründürməçi.

**Bürokratiya** *(fr. bureaucratic – dəftərxana + yun. kratos – hakimiyyət, hökmranlıq)* – **1)** feodal-mütləq və kapitalist dövlətində məmurların yüksək təbəqəsi, ali məmurlar hakimiyyəti; **2)** bürokratizm metodu ilə eynilik təşkil edir.

**Bürokratizm** – **1)** mərkəzi icra hakimiyyətindən ayrılmağa əsaslanan iqtisadi, siyasi və sosial idarəetmə sistemi; **2)** özbaşınalıq və hərcmərclikIə səciyyələnən idarəetmə metodu.

**Bürovuz** *(bax: məişət bürovuzu).*





# -C-


Cagir ........ 211
Cagirdar ........ 211
Camaat ........ 211
Cani ........ 211
Canişin ........ 211
Canişinlik ........ 211
Cari hesab ........ 211
Cariyə ........ 211
Casus ........ 211
Casusluq ........ 211
Cavabdeh ........ 212
Cehiz ........ 212
Cek-pot ........ 212
Centlmen sazişi ........ 212
Centri ........ 212
Cerrimendrinq ("seçki coğrafiyası") ........ 212
Cəmiyyət ........ 212
Cəmiyyətin siyasi təşkili ........ 213
Cərimə ........ 213
Cəza ........ 213
Cəzadan şərti olaraq vaxtından
əvvəl azad etmə ........ 213
Cəzaları birləşdirmə ........ 214
Cəzaların icrası qanunvericiliyi ........ 214
Cəzaların İcrası Məcəlləsi ........ 214
Cəzanı ağırlaşdıran hallar ........ 214
Cəzanı başqa cəza ilə əvəz etmə ........ 215
Cəzanın çəkilməmiş hissəsinin daha
yüngül cəza ilə əvəz edilməsi ........ 215
Cəzanın fərdiləşdirilməsi ........ 215
Cəzanın icrası ........ 215
Cəzanın məqsədi ........ 216
Cəzanın növləri ........ 216
Cəzanın sistemi ........ 216
Cəzanı yüngülləşdirən hallar ........ 217
Cəza siyasəti ........ 217
Cəza tədbiri ........ 217
Cəza təyin etmə ........ 217
Cimkrouizm ........ 218
Cinayət ........ 218
Cinayət axtarışı ........ 218
Cinayət barəsində xəbər verməmə
və ya qabaqcadan vəd etmədən
cinayəti gizlətmə ........ 218
Cinayətdə iştirakçılıq ........ 218
Cinayət etməyə cəhd ........ 219
Cinayətə hazırlıq ........ 219
Cinayət əməli ........ 219
Cinayətə sui-qəsd ........ 219
Cinayət hadisəsi ........ 220
Cinayət-hüquqi xəbərdarlıq
(prevensiya) ........ 220
Cinayət hüquq norması ........ 220
Cinayət hüququ ........ 220
Cinayət hüququ elmi ........ 221
Cinayətin edilmə mərhələləri ........ 221
Cinayətin fenomenologiyası ........ 221
Cinayətin icraçısı ........ 221
Cinayətin köməkçisi ........ 221
Cinayətin məqsədi ........ 222
Cinayətin motivi ........ 222
Cinayətin obyekti ........ 222
Cinayətin obyektiv cəhəti ........ 223
Cinayətin predmeti ........ 223
Cinayətin psixologiyası ........ 223
Cinayətin sosiologiyası ........ 223
Cinayətin statistikası ........ 223
Cinayətin subyekti ........ 223
Cinayətin subyektiv cəhəti ........ 224
Cinayətin təhrikçisi ........ 224
Cinayətin təşkilatçısı ........ 224
Cinayətin törədilməsi hipotezası ........ 224
Cinayətin tövsifi ........ 224
Cinayət işi ........ 225

Cinayət işi başlama ........ 225
Cinayət işinə xitam vermə ........ 225
Cinayətkar ........ 225
Cinayətkar birlik (cinayətkar təşkilat) ........ 225
Cinayətkarcasına etinasızlıq ........ 226
Cinayətkarcasına özünəgüvənmə ........ 226
Cinayətkar əməl ........ 226
Cinayətkar gəlir ........ 226
Cinayətkarın şəxsiyyəti ........ 226
Cinayətkarın tutulması ........ 227
Cinayətkar qrup ........ 227
Cinayətkarları qaytarma (ekstradisiya) ........ 227
Cinayətkarlığın coğrafiyası ........ 227
Cinayətkarlığın dinamikası ........ 228
Cinayətkarlığın indeksi ........ 228
Cinayətkarlığın səbəblərinin diffuziyası ........ 228
Cinayətkarlığın səviyyəsi ........ 228
Cinayətkarlıq ........ 228
Cinayətkarlıqla beynəlxalq mübarizə konvensiyaları ........ 228
Cinayət qanunu ........ 229
Cinayət qanunvericiliyi ........ 229
Cinayətlə əlaqədarlıq ........ 229
Cinayətlərin çoxluğu ........ 229
Cinayətlərin qeydiyyatı ........ 230
Cinayətlərin məcmusu ........ 230
Cinayətlərin residivi ........ 230
Cinayətlərin tədqiqatı metodikası ........ 231
Cinayətlərin təkrarlığı ........ 231
Cinayətlərin təsnifatı ........ 231
Cinayət Məcəllesi ........ 231
Cinayət məsuliyyəti ........ 231
Cinayət məsuliyyətindən azad etmə ........ 232
Cinayət məsuliyyətinə cəlb etmənin yaş həddi ........ 232
Cinayət məsuliyyətinin differensiasiyası ........ 233
Cinayət mühakimə icraatı ........ 233
Cinayət prosesi ........ 233
"Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu ........ 233
Cinayət prosesini həyata keçirən orqanlar ........ 233
Cinayət prosesinin funksiyaları ........ 233
Cinayət prosesinin iştirakçıları ........ 233
Cinayət prosesinin mərhələləri ........ 234
Cinayət prosesinin tərəfləri ........ 234
Cinayət-prosessual forma ........ 234
Cinayət-prosessual hüquq ........ 234
Cinayət-prosessual qanun ........ 234
Cinayət-prosessual qanunvericilik ........ 234
Cinayət-Prosessual Məcəllə ........ 234
Cinayət-prosessual təminatlar ........ 235
Cinayət-statistik müşahidə (cinayətkarlığın müşahidəsi) ........ 235
Cinayət təqibi ........ 235
Cinayət təqibini istisna edən hallar ........ 235
Cinayət törətməkdən könüllü imtina etmə ........ 236
Cinsi cinayətlər ........ 236
Cirə ........ 237
Cismani cəza ........ 237
Cizyə ........ 237
Coğrafi opsion ........ 237
Coğrafi rotasiya ........ 237
Cunta ........ 237
Cütbaşı (cüfbaşı, cütpulu) ........ 237








**Cagir** *(fars. tutulmuş yer)* – XVI-XVIII yüzilliklərdə Moğol Hindistanında hakim feodal torpaq sahibliyi forması. Cagirdar *(bax: cagirdar)* c.-dən öz xeyrinə dövlət torpaq vergisi yığır, bunun əvəzində muzdlu atlı dəstə saxlayırdı. C. irsən keçmirdi. O, XVIII yüzilliyədək yalnız hökmdar tərəfindən verilirdi.

**Cagirdar** – cagir sahibi. Moğol imperiyasında c.-lar hakim feodal sinfinin yuxarı təbəqəsini təşkil edirdilər. Onlar əslən müsəlmanlardan ibarət idilər. Müstəmləkə dövründə (Böyük Britaniya müstəmləkəsi nəzərdə tutulur) bir sıra torpaq sahibləri də c. adlanırdı. XX yüzilliyin 50-ci illərində Hindistanda keçirilən islahatlar nəticəsində c.-ların torpaqları müsadirə edilmişdir.

**Camaat** - qan qohumluğu əlaqələri əsasında yaranmış sosial təsisat forması. C. Dağıstanda feodal münasibətlərinin təşəkkülü mərhələsində meydana gəlmiş, Dağıstan Rusiyaya birləşdirildikdən sonra ləğv edilmişdir. Azərbaycanın şimal-qərb rayonunda Car-Balakən camaatlığı mövcud olmuşdur.

**Cani** *(bax: cinayətkar).*

**Canişin** *(fars. – hökmdar əvəzi, müavin)* – **1)** XV-XVI yüzilliklərdə Rusiyada qəzanı idarə edən vəzifəli şəxs; **2)** XVIII-XX yüzilliklərin əvvəllərində canişinliyin başçısı. Azərbaycanda Sasanilərin təyin etdiyi hakimlər, habelə Xilafət dövründə əmirlikləri idarə edən ərəb sərkərdələri də c. adlanırdı.

**Canişinlik** – **1)** 1775-1796-cı illərdə Rusiyada 2-3 quberniyadan ibarət olan inzibati ərazi vahidi; canişin tərəfindən idarə olunurdu; **2)** milli ucqarlarda idarəetmə sistemi. 1815-1874-cü illərdə c. çar Polşasında, 1844-1883-cü illər və 1905-1917-ci illərdə Qafqazda mövcud olmuşdur. Azərbaycanda c. Sasanilər dövründə mövcud olub.

**Cari hesab** – bankların və əmanət kassalarının əmanət əməliyyatları növlərindən biri. C.h.-a əmanət müddətsiz qoyulur. Ehtiyac olduqda əmanətçi hesabdakı əmanətindən götürə, eləcə də əlavə pul qoymaqla onu artıra bilər. C.h.-da əsasən müəssisələrin sərbəst pul kapitalı və kassa ehtiyatı, əhalinin isə əmanətləri saxlanılır.

**Cariyə** – keçmişdə Yaxın Şərqin bir sıra ölkələrində, o cümlədən Azərbaycanda saraylarda və varlı evlərində xidmət edən qulluqçu, qaravaş, kəniz. Müharibə vaxtı əsir düşmüş, yaxud bir hakim tərəfindən digərinə bağışlanmış qızlardan ibarət olan c.-lərə bəzən toxuculuq, tikiş və i.a. sənətlər öyrədilirdi. Şəriətə görə kəbin kəsdirməklə C.-yə evlənmək olardı. C. əsasən qırx yaşından sonra azad edilirdi.

**Casus** *(lat. agens, agentis fəaliyyət göstərən)* – **1)** axtarış və ya kəşfiyyat xidmətinin əməkdaşı; **2)** işgüzar tapşırıqları yerinə yetirən idarənin və i.a. nümayəndəsi (agent), yaxud buna müvəkkil edilmiş şəxs.

**Casusluq** – dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 276-cı maddəsində nəzərdə tutulmuşdur. Dövlət sirri olan məlumatları xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə vermədə, yaxud vermək məqsədilə oğurlamada, toplamada və ya saxlamada, habelə xarici ölkələrin xüsusi xidmət orqanlarının tapşırığı ilə Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə olaraq istifadə etmək üçün sair məlumatları ver-

mədə, vermək məqsədilə oğurlamada və ya toplamada istifadə olunur.

**Cavabdeh** – məhkəmədə baxılan mülki işin, yaxud iqtisad məhkəməsində baxılan təsərrüfat mübahisəsinin tərəflərindən biri. C. işdə iddia tələbinə görə iştiraka cəlb edilir. Vətəndaşlar, hüquqi şəxslər c. qismində çıxış edə bilərlər. İqtisad məhkəməsində isə yalnız hüquqi şəxs hüququndan istifadə edən idarə, müəssisə və təşkilatlar, həmçinin digər istehsal-təsərrüfat vahidləri c. kimi iştirak edə bilərlər.

**Cehiz** – valideynlərin və qohumların gəlinə oğlan evinə köçürüldüyü zaman bağışladıqları əmlak (əşya, pul, bəzək məmulatları, paltar, avadanlıq və i.a.). C. vermək ənənəsi qəbilənin dağılması və monoqom nikaha keçid dövründə meydana gəlmişdir. Bu ənənə indi də davam etdirilir. Əksər ölkələrdə qanunla kişinin ailə mülkiyyətini, o cümlədən arvada c. kimi verilmiş mülk, torpaq sahəsi, müəssisə və i.a. təkbaşına idarə etmək hüququ vardır.

**Cek-pot** *(ing. jack-pot, jackpot)* – ötən tirajın oynanılmamış (udulmamış) məbləğlərinin birləşdirilməsi hesabına lotereyada ən iri uduş.

**Centlmen sazişi** – şifahi formada bağlanan müqavilə növü (beynəlxalq hüquqda). C.s. bağlayanlar öz üzərinə qarşılıqlı öhdəliklər götürür və onların yerinə yetirilməsinə dair centlmen sözü verirlər (bu, dilimizdə məcazi mənada "kişi sözü" kimi işlədilir). Müasir dövrdə c.s.-ni, məsələn, eyni xarici siyasət proqramı ilə çıxış edən dövlətlər qiymət, kvota və i.a. barəsində razılığa gələn inhisarlar bağlayırlar.

**Centri** *(ing. gentru, gentle – alicənab, əsilzadə)* – **1)** öz təsərrüfatlarını kapitalist münasibətləri əsasında quran "burjualaşmış" zadəganlar (yeni zadəganlar). XV-XVI yüzilliklərdə meydana gəlmişlər. İngiltərə burjua inqilabı (XVII yüzillik) nəticəsində c.-lərin ali təbəqəsi iri burjuaziya ilə birlikdə hakimiyyətə gəlmişdir; **2)** feodal Çinində imtiyazlı mülkədarların avropalaşmış adı (şenşi).

**Cerrimenderinq** *("seçki coğrafiyası")* – bərabər nümayəndəlik (deputatların sayının seçicilərin sayına bərabər olması) prinsipini pozan seçki dairələrinin yaradılmasının pozucu metodunu adlandırmaq üçün ABŞ-da tətbiq edilən termin. Müxalifət partiyaları seçicilərini bir və ya bir neçə dairədə mərkəzləşdirmək və digər dairələrdən üstün olmaq üçün seçicilərin bərabər olmayan sayından ibarət dairələr (ərazi formasında) yaradılır. "C." termini 1912-ci ildə karikaturaçı rəssamın Massaçusets ştatında yaradılan belə dairələrdən birini təsvir etdiyi (salamandra şəklində), qəzetin naşiri isə həmin rəsmi Gerrymander (ştatın qubernatoru E.Cerrinin soyadı ilə) adlandırdığı vaxt meydana gəlmişdir.

**Cəmiyyət** – geniş mənada insanların tarixən təşəkkül tapmış birgə yaşayış və fəaliyyət formalarının məcmusu. C. canlı sistemlərin xüsusi, yüksək mərhələsi kimi meydana gəlmişdir; bu, sosial təşkilatların, institutların, qrupların fəaliyyəti və inkişafında, eləcə də sosial ziddiyyətlərdə təzahür edir. Məhdud mənada bəşər tarixinin müəyyən mərhələsi (ictimai-iqtisadi formasiya, formasiyalararası və formasiyalardaxili tarixi pillə, məsələn, erkən feodalizm cəmiyyəti) və ya ayrıca fərdi c. (məsələn, burjua cəmiyyəti) və ya sosial münasibətlərin müəyyən forması (məsələn, Hegeldə dövlətə qarşı qoyulan cəmiyyət) kimi başa düşülür.





**Cəmiyyətin siyasi təşkili** – müəyyən siyasi funksiya yerinə yetirən dövlət (və ya qeyri-dövlət) sosial təsisatları sistemi. Əsas həlqə olan dövlətlə yanaşı, c.s.t.-nə siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqları və i.a. təşkilatlar da daxildir. Siyasi hakimiyyətin həyata keçirilməsi prosesindəki ictimai münasibətlər, həmin siyasi təşkilin ibarət olduğu idarə, müəssisə və təşkilatların fəaliyyətinin məzmununu təşkil edir və müəyyənləşdirir.

**Cərimə** – AR CM-in 44.1-ci maddəsi ilə müəyyən edilmiş hallarda və məbləğdə məhkəmə tərəfindən təyin edilən pul tənbehi. C. törədilmiş cinayətin ağırlığı və məhkumun əmlak vəziyyəti nəzərə alınmaqla Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş minimum əməkhaqqı məbləğinin yüz mislindən beş min mislinədək miqdarda təyin edilir. C. əlavə cəza kimi məhkəmələr tərəfindən yalnız AR CM-in xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda təyin edilə bilər. C.-ni ödəməkdən boyun qaçıran şəxslərə bu cəza növü ictimai işlər, islah işləri və ya müəyyən müddətə azadlıqdan məhrumetmə ilə əvəz oluna bilər. C. həm əsas, həm də əlavə cəza növüdür. O, əlavə cəza kimi tətbiq edilən hallarda qanunda nəzərdə tutulmalıdır. C. mülkiyyət əleyhinə, habelə iqtisadi fəaliyyət əleyhinə edilən cinayətlərə görə məsuliyyət müəyyən edən əksər normaların sanksiyalarında nəzərdə tutulur. C. inzibati tənbeh tədbiri (inzibati cərimə) kimi də tətbiq edilə bilər. AR İXM-in 25.1-ci maddəsinə uyğun olaraq c. hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təyin edilən və təqsirləndirilən şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləğidir. İnzibati cərimə məhkumluq yaratmır.

**Cəza** – məhkəmənin hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbir. C. cinayət törətməkdə təqsirli hesab olunan şəxsə tətbiq edilir və həmin şəxs barəsində AR CM ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir. C. sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir. Beləliklə, cəza dövlət tərəfindən, dövlətin adından məhkəmənin hökmü ilə tətbiq edilən məcburiyyət tədbiridir. C. törədilən cinayətə görə tənbehdir. Tənbeh c.-nın yetirdiyi maddi, mənəvi və fiziki məhrumiyyətləri ifadə edir, c.-nın mahiyyətini əks etdirir. C. məhkumluq yaradır. Məhkumluq törədilən cinayətə görə hər hansı cəzaya məhkum edilən şəxsin hüquqi vəziyyətidir.

**Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə** – cəzadan azad etmənin bir növü. AR CM-in 76.1-ci maddəsinə uyğun olaraq məhkəmə islah işləri, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama, hərbi xidmət üzrə məhdudlaşdırma və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxsin islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gələrsə, onu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər. Bu halda, şəxs tamamilə və ya qismən əlavə cəzadan da azad edilə bilər.

**Cəzaları birləşdirmə** – hökmlərin cəmi üzrə cəza təyin edilərkən yeni hökm üzrə təyin edilmiş cəzanın çəkilməmiş hissəsinin tamamilə və ya qismən birləşdirilməsi. Məhkəmə tam və ya qismən toplamanın tətbiqi məsələsini həll edərkən cinayətin ağırlığını, təqsirləndirilən şəxsin şəxsiyyətini, məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları nəzərə alır. Cinayətlərin cəmi üzrə cəza təyin edilərkən qəti cəzanın son həddi daha ağır cəza nəzərdə tutan maddənin sanksiyasındakı əsas cəzanın yüksək həddini aşmamağı tələb edirsə, hökmlərin cəminə görə cəza təyini qaydalarını nəzərdə tutan müvafiq normada belə məhdudiyyət qoyulmur. Qanuna görə hökmlərin cəmi üzrə cəza təyinində qəti cəzanın həddi əməlin tövsif edildiyi maddələrin sanksiyalarındakı cəza növlərinin yüksək həddi ilə məhdudlaşmır. Hökmlərin cəmi üzrə cəza təyin edilərkən hökmlərdən ən azı birində nəzərdə tutulan əlavə cəza qəti cəzaya birləşdirilə bilər.

**Cəzaların icrası qanunvericiliyi** – Azərbaycan Respublikasında məhkəmə tərəfindən təyin edilən cəzaların icrası və çəkilməsi qaydalarını və şərtlərini müəyyən edən qanunvericilik aktı. Həmin qanunvericilik aktı Azərbaycan Rempublikasının Cəzaların İcrası Məcəlləsindən, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Cəzaların İcrası Məcəlləsi** – Azərbaycan Respublikasında məhkəmə tərəfindən təyin edilən cəzaların icrası və çəkilməsi qaydalarını və şərtlərini müəyyən edən sistemləşdirilmiş qanunvericilik aktı. AR CİM 2000-ci il 14 iyun tarixdə təsdiq edilmiş və həmin il sentyabrın 1-dən qüvvəyə minmişdir. Məcəllə Ümumi və Xüsusi hissədən, yeddi bölmə və iyirmi bir fəsildən, 182 maddədən ibarətdir.

**Cəzanı ağırlaşdıran hallar** – cəza təyin edilərkən məhkəmə tərəfindən nəzərə alınan hallar. AR CM-in 61-ci maddəsinə uyğun olaraq cəzanı ağırlaşdıran hallar aşağıdakılardır: 1) cinayətlərin təkrar törədilməsi, cinayətlərin residivi; 2) cinayətin ağır nəticələrə səbəb olması; 3) cinayətin qabaqcadan əlbir olmuş bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədilməsi; 4) cinayətin törədilməsində xüsusilə fəal iştirak etmə; 5) psixi pozuntulardan əziyyət çəkən və ya sərxoş vəziyyətdə olan şəxslərin, habelə cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxslərin cinayət törətməyə cəlb olunması; 6) cinayətin milli, irqi və ya dini düşmənçilik, dini fanatizm, digər şəxslərin qanuni hərəkətlərinə görə qisas almaq zəminində, tamah məqsədi ilə və ya sair alçaq niyyətlərlə, habelə başqa cinayəti ört-basdır etmək və ya onun törədilməsini asanlaşdırmaq məqsədi ilə törədilməsi; 7) cinayətin müqəssir üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın, habelə azyaşlı, qoca və ya köməksiz vəziyyətdə olan və ya müqəssirdən asılı vəziyyətdə olan şəxsə qarşı törədilməsi; 8) cinayətin öz qulluq və ya ictimai borcunu yerinə yetirən şəxsə və ya onun yaxın qohumlarına qarşı törədilməsi; 9) cinayətin zərərçəkmiş şəxsə qarşı xüsusi amansızlıqla, əzab və ya işgəncə verməklə törədilməsi; 10) cinayətin odlu silahdan, partlayıcı vasitələrdən





və ya digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə etməklə törədilməsi; 11) cinayətin fövqəladə vəziyyət, təbii və ya digər ictimai fəlakət şəraitində, habelə kütləvi iğtişaşlar zamanı törədilməsi; 12) cinayətin hakimiyyət nümayəndəsinin xüsusi geyimlərindən və ya sənədlərindən istifadə etməklə törədilməsi; 13) cinayətin qulluq mövqeyinə və ya müqaviləyə əsasən təqsirkara göstərilən etimaddan istifadə etməklə törədilməsi.

**Cəzanı başqa cəza ilə əvəz etmə** – cinayət qanunvericiliyinə görə məhkəmə tərəfindən hökmlə müəyyən edilmiş cəzanın icrası prosesində onun başqa cəza ilə əvəz edilməsi.

**Cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi** – cəzadan azad etmənin bir növü. AR CM-in 77-ci maddəsinə uyğun böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxsin cəzasını çəkdiyi dövrdə davranışını nəzərə alaraq, məhkəmə cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edə bilər. Bu halda şəxs tamamilə və ya qismən əlavə cəzadan da azad edilə bilər. Cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəza müddətinin ən azı üçdə bir hissəsi çəkildikdən sonra tətbiq edilə bilər. Cəzanın çəkilməmiş hissəsinin əvəz edilməsi zamanı məhkəmə AR CM-in 42-ci maddəsində nəzərdə tutulmuş istənilən daha yüngül cəza növünü, hər cəza növü üçün CM ilə müəyyən edilmiş həddə seçə bilər.

**Cəzanın fərdiləşdirilməsi** – cinayət hüquq nəzəriyyəsinə görə cəzanın qanunda nəzərdə tutulmuş həddə təyin edilməsi. Bu halda törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirləndirilən şəxsin şəxsiyyəti, məsuliyyəti ağırlaşdıran və yüngülləşdirən hallar nəzərə alınır. Məhkəmə cəzanı fərdiləşdirərkən törədilmiş cinayətin az ağır, ağır və xüsusilə ağır cinayətə aid edilib-edilməməsini müəyyən etməklə, ilk növbədə onun xarakterini və ağırlıq dərəcəsini nəzərə alır. Bu halda cinayətin hansı üsulla, kimlərlə birgə törədilməsinə, cinayətin hansı mərhələlərə (hazırlıq, sui-qəsd və ya bitmiş) çatdırılmasına və i.a. diqqət yetirilir. C.f.-ndə cinayətin qəsdən, yaxud ehtiyatsızlıqdan törədilməsi, məqsədi və motivi nəzərə alınır.

**Cəzanın icrası** – Azəprbaycan Respublikasında səlahiyyətli dövlət orqanlarının məhkəmənin cəzanın tətbiqi haqqında ittiham hökmünün göstərişlərinin həyata keçirilməsi üzrə fəaliyyəti. Cəzanın tətbiqi, hər şeydən əvvəl, onun məhkəmə tərəfindən cinayət və cinayət-prosessual qanunvericiliyi normalarına uyğun olaraq təyin edilməsini, ikincisi isə onun cinayət və cinayət-icra qanunvericiliyi normalarına uyğun olaraq faktiki həyata keçirilməsini nəzərdə tutur. Cəza icra edildikdə dövlət və məhkum arasında özünəməxsus ictimai münasibətlər əmələ gəlir. Bu səbəbdən cəzanın həyata keçirilməsi iki mövqedən nəzərdən keçirilməlidir: 1) cəzanı icra edən səlahiyyətli orqanlar qismində çıxış edən dövlətin mövqeyindən; 2) cəzanı çəkən məhkumun mövqeyindən. C.i. qanun üzrə konkret cəzanın məzmununu təşkil edən hüquqi məhdudiyyətlərin həyata keçirilməsidir. Azadlıqdan məhrumetmə,

azadlığı məhdudlaşdırma, islah işləri növündə cəzanın icrasında göstərilmiş hüquqi məhdudiyyətlərin həyata keçirilməsi islahedici-tərbiyəvi təsirlərin tətbiq edilməsilə tamamlanır.

**Cəzanın məqsədi** – sosial ədalətin, pozulmuş hüquqların bərpa, məhkumların (məhbusların) islah edilməsi, eləcə də cəza çəkən məhkumların yeni cinayətlər və digər şəxslər tərəfindən cinayətlər törədilməsinin qarşısının alınması. C.m. siyasi və hüquqi fikir tarixinin bütün dövrlərində böyük zəka sahiblərinin diqqət mərkəzində olan, bütövlükdə cəmiyyətin qabaqcıl ziyalılarını düşündürən problemlərdən biri olmuşdur. C.m.-nə dair təlimlərdən ikisini fərqləndirmək olar: 1) mütləq cəza nəzəriyyəsi; 2) nisbi cəza nəzəriyyəsi. Mütləq cəza nəzəriyyəsi tərəfdarlarının fikrincə, cəzanın məqsədi mütləq, mücərrəd ideyadır. Cəza törədilmiş cinayətə görə əvəz çıxmaqdan savayı heç bir utilitar (faydalı) məqsəd izləmir. Bu nəzəriyyə dövlətin cəza tətbiq etmək hüququnu şərtsiz qəbul edir. Öz növbəsində nisbi cəza nəzəriyyəsini də 3 qrupa bölmək olar: a) ümumi xəbərdarlıq nəzəriyyəsi; b) xüsusi xəbərdarlıq nəzəriyyəsi; c) qarışıq nəzəriyyə. Nisbi nəzəriyyəyə görə cəza müəyyən utilitar məqsədə nail olmaq üçün və məhkumu islah etməkdən ötrü tətbiq edilir. XIII yüzilliyin dahi Azərbaycan mütəfəkkiri N.Tusi göstərirdi ki, cəzalar yalnız o halda labüddür ki, cinayət baş vermiş olsun. Cəza cinayətə müvafiq surətdə müəyyən edilməlidir. XIX yüzilliyin görkəmli mütəfəkkiri A.Bakıxanov da belə mövqedən çıxış edərək qeyd edirdi ki, şəri (cinayəti) cəzalandırmaq lazımdır. Edilmiş pislik adamların səadəti naminə cəzalandırılmalıdır. Cəzasızlıq özü şərdir, çünki o, adamlara pislik gətirir. XVIII yüzilliyin tanınmış italyan hüquqşünas-mütəfəkkiri Ç. Bekkariya qeyd edirdi ki, sərt olsa da, həmişə tətbiq edilməyən cəza ilə müqayisədə daha yumşaq və labüd tətbiq edilməsinə inam olan cəza daha güclü təəssürat yaradır. İ.Kant cəzaya dair baxışlarını mənəvi əvəz nəzəriyyəsində (maddi əvəz nəzəriyyəsinin bir növü kimi) əsaslandırır. Bu nəzəriyyəyə görə insan məlum tələblərə malik olan idrakla doğulur. Ədalətin təntənəsindən həzz almaq, ədalətsizliyi rədd etmək insanın təbii halı hesab edilir. Cəzanın tətbiqi ilə bağlı ədalət mühakiməsinin fəaliyyəti mənəvi qəti imperativi rəhbər tutur. Hər hansı əmələ görə cəza insanın mənəvi təbiətinin tələblərindən irəli gəlir. Cəza cinayətin doğurduğu yamanlığa bərabər yamanlıq yetirir. Başqasını təhqir etməklə, soymaqla eyni zamanda özünü təhqir etmiş, soymuş olursan. Başqasını öldürməklə özünü öldürürsən.

**Cəzanın növləri** *(bax: cəzanın sistemi).*

**Cəzanın sistemi** – bir-biri ilə qarşılıqlı əlaqədə olan, müəyyən funksiyaya malik, ağırlığına görə qanunla müəyyən edilən qaydada düşünülmüş cəza növlərinin qəti siyahısı. C.s. aşağıdakı əlamətləri ilə səciyyələndirilir: a) cəza növləri arasında qarşılıqlı əlaqənin olması; b) sosial mühitin mənfi hallarının neytrallaşdırılması (zərərsizləşdirilməsi); c) cəza növlərinin qəti (bitkin) siyahısının olması; ç) cəzanın növünün, həddinin, tətbiqi əsaslarının və qaydalarının ancaq qanunda əks etdirilməsi.

C.s. əsas və əlavə cəzalardan ibarətdir. İctimai işlər, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli





hərbi hissədə saxlama, azadlığın məhdudlaşdırılması, müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə əsas cəzalara aid edilir (AR CM-in 43.1-ci maddəsi). Cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə həm əsas, həm də əlavə cəza kimi tətbiq edilə bilər (AR CM-in 43.2-ci maddəsi). Xüsusi və ya hərbi rütbədən məhrumetmə, nəqliyyat vasitələrini idarəetmə hüququndan məhrumetmə, əmlak müsadirəsi və Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma yalnız əlavə cəza kimi tətbiq edilir (AR CM-in 43.3-cü maddəsi).

**Cəzanı yüngülləşdirən hallar** – cəza təyin edilərkən məhkəmə tərəfindən nəzərə alınan hallar. AR CM-in 59-cu maddəsinə uyğun olaraq cəzanı yüngülləşdirən hallar aşağıdakılardır: 1) hadisələrin təsadüfi axarı zəminində ilk dəfə olaraq böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətin törədilməsi; 2) cinayətin yetkinlik yaşına çatmayan şəxs tərəfindən törədilməsi; 3) cinayətin hamilə qadın tərəfindən törədilməsi;4) cinayət törətmiş şəxsin himayəsində azyaşlı uşağın olması; 5) cinayətin ağır həyat şəraiti nəticəsində və ya mərhəmətlilik niyyəti ilə törədilməsi; 6) cinayətin fiziki və ya psixi məcburiyyət təsiri altında, yaxud maddi, xidməti və ya sair cəhətdən asılılıq nəticəsində törədilməsi; 7) cinayətin zəruri müdafiənin, ictimai təhlükəli əməl törətmiş şəxsin tutulmasının, son zərurətin, əsaslı riskin, əmrin və ya sərəncamın icra edilməsinin qanunla müəyyən edilmiş şərtlərini pozmaqla törədilməsi; 8) cinayətin zərərçəkmiş şəxsin qanunsuz və ya əxlaqsız hərəkətlərinin təsiri altında və ya bu hərəkətlər nəticəsində qəflətən baş vermiş güclü ruhi həyəcan (affekt) vəziyyətində törədilməsi; 9) könüllü gəlib təqsirini boynuna alma, cinayətin açılmasına, onun digər iştirakçılarının ifşa edilməsinə, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışına və tapılmasına fəal kömək etmə; 10) cinayətin törədilməsindən bilavasitə sonra zərərçəkmiş şəxsə tibbi və ya digər yardım göstərilməsi, cinayət nəticəsində dəymiş maddi və mənəvi zərərin könüllü olaraq ödənilməsi və ya aradan qaldırılması, zərərçəkmiş şəxslə razılıq əldə etməyə cəhd edilməsi, zərərçəkmiş şəxsə dəymiş zərərin azaldılmasına yönəldilmiş digər hərəkətlərin edilməsi.

**Cəza siyasəti** – müəyyən cəmiyyətdə dövlətin özünün iqtisadi, siyasi və digər məqsədlərini qorumaq məqsədi ilə cinayətkarlığa qarşı mübarizə metodları və vasitələri (cinayətkarlıqla mübarizə siyasəti), həmin metod və vasitələrin sistemi. C.s.-nin məzmunu dövlətin sosial-iqtisadi, siyasi-hüquqi, mənəvi-psixoloji, əxlaqi və mədəni mənafeləri ilə müəyyən edilir. C.s. dövlətin daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir.

**Cəza tədbiri** - dövlətin məcburiyyət tədbiri formalarından biri. Məcburiyyət azlıq barəsində tətbiq edilən tədbirdir və o, çoxluğun inamına əsaslanır. Bununla belə, cinayətləri doğuran səbəblərin neytrallaşdırılmasına yönəldilən sosial-iqtisadi, siyasi, mənəvi-psixoloji və mədəni-tərbiyəvi tədbirlərə də mühüm əhəmiyyət verilir.

**Cəza təyin etmə** - törədilmiş cinayətə görə qanunun məsuliyyət nəzərdə tutan maddəsi ilə müəyyən edilmiş həddə AR CM-ə uyğun olaraq məhkəmənin dövlətin

adından həyata keçirdiyi tədbir. C.t.e. cinayət hüququnun qanunçuluq, ədalətlilik, humanizm, cəzanın fərdiləşdirilməsi, cəzanın əsaslandırılması və i.a. kimi ümumi və xüsusi prinsiplərə əsaslanır.

**Cimkrouizm** *(ing. jimcrowism, Jim Grow – ABŞ-da zəncilərə verilən təhqiramiz ləqəb)* –ABŞ-da zənci əhaliyə qarşı tətbiq edilən irsi ayrı-seçkilik tədbirləri sistemi. ABŞ-da Vətəndaş müharibəsindən (1861-1865-ci illər) sonra yaranmış və Cənub ştatlarında xüsusilə geniş yayılmışdır.

**Cinayət** – cinayət qanunvericiliyinə görə AR CM ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi (cinayət sayılır – AR CM-in 14.1-ci maddəsi). Cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin (hərəkət və ya hərəkətsizliyin) əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir.

C.-in klassik formal tərifi Fransanın 1971-ci ildə və az sonra 1810-cu ildə qəbul edilən cinayət məcəllələrində verilmişdir. Həmin definisiya cüzi dəyişikliklərlə indi də cinayət qanununda saxlanılır. Hüquqi varislik prinsipinin tələblərinə əməl edərək Fransanın 1992-ci il Cinayət Məcəlləsində də sosial təhlükəlilik dərəcəsinə görə, yaxud əməlin yetirdiyi ziyanın ağırlıq dərəcəsindən asılı olaraq cinayətlərin kriminal əməl, kriminal xəta və kriminal pozuntu kimi növləri fərqləndirilir.

Müxtəlif dövrlərdə yaşayan tanınmış görkəmli mütəfəkkirlər, o cümlədən Azərbaycanın XIII əsr məşhur alimi N.Tusi c.-i nizam-intizamı pozan şər (cinayət əməli) əməl kimi səciyyələndirmişdir. İtaliyalı Ç. Bekkariya hələ 1764-cü ildə yazdığı “Cinayətlər və cəzalar” məşhur əsərində yazırdı: “Cinayətlərin həqiqi ölçüsünü onların cəmiyyətə vurduğu zərər müəyyənləşdirir”.

**Cinayət axtarışı** – Azərbaycan Respublikasında polis orqanları sistemi. Şəxsiyyətə, vətəndaşların mülkiyyətinə, ictimai qaydaya və təhlükəsizliyə, hüquq qaydasına qarşı yönəldilən cinayətlərin qarşısını almaq, onların törədilməsi səbəb və şəraitini aradan qaldırmaq, üstünü açmaq sahəsində əməliyyat-axtarış tədbirlərini və öz səlahiyyətlərinə aid digər tədbirləri həyata keçirirlər.

**Cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə** – ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 307-ci maddəsində nəzərdə tutulmuşdur. Ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməməkdə ifadə olunur.

**Cinayətdə iştirakçılıq** – cinayət qanunvericiliyinə görə iki və ya daha çox şəxsin qəsdən cinayət törətməkdə birgə iştirakı (AR CM-in 31-ci maddəsi). Cinayətdə birgə iştirakçılıq hər bir iştirakçının hərəkətinin başqasının hərəkəti üçün şərt olmasını və bir-birini tamamlamasını; kriminal əməlin, yaxud ictimai təhlükəli nəticənin bütün iştirakçılar üçün olmasını; habelə hər bir iştirakçının əməli ilə kriminal nəticə arasında səbəbli əlaqənin olmasını nəzərdə tutur.

İştirakçıların fəaliyyət birliyi onların təqsirinin fərdi xarakterini inkar etmir. Ümumi olan ictimai təhlükəli nəticə hər bir iştirakçının müxtəlif xarakterdə və dərəcədə fəallığı ilə maddiləşir. İştirakçıların nəticənin meydana çıxmasında rolundan, qəsdinin əqli və iradəvi elementinin məzmunundan asılı olaraq onların hər birinin təqsiri müəyyən edilir. C.i. üçün kriminal niyyətin ümumiliyinin məcburi olması heç də iştirakçıların hamısının motivinin də ümumi olmasını nəzərdə tutmur. Birgə törədilən əməldə iştirakçıların müxtəlif motivlərlə hərəkət etməsi istisna edilmir. C.i. həm başa çatmış cinayətlərdə, həm də cinayətə hazırlıq və cinayətə cəhd etmədə mümkündür.

**Cinayət etməyə cəhd** – başa çatmayan (çatdırılmayan) cinayət. AR CM-in 29-cu maddəsinə uyğun olaraq bilavasitə cinayət törətməyə yönəldilmiş qəsdən edilən əməl (hərəkət və ya hərəkətsizlik), şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatdırılmamışdırsa, cinayət etməyə cəhd hesab olunur.

**Cinayətə hazırlıq** – cinayət qanunvericiliyinə görə cinayət törətmək üçün vasitə və ya alət axtarma, əldə etmə və ya hazırlama, yaxud cinayət törətmək üçün başqaları ilə əlaqəyə girmə, sövdələşmə və yaxud cinayət törətmək üçün qəsdən başqa cür şərait yaratma zamanı cinayətin şəxsin iradəsindən asılı olmayaraq başa çatdırılmaması. Yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq cinayət məsuliyyətinə səbəb olur. C.h. obyektiv cəhətdən aşağıdakı hərəkətlərdə ifadə olunur: 1) cinayəti etmək üçün vasitə və ya alət axtarma; 2) vasitə və ya alət hazırlama; 3) cinayət törətmək üçün başqaları ilə əlaqəyə girmə; 4) cinayəti törətmək üçün sövdələşmə; 5) cinayət törətmək üçün başqa cür şərait yaratmaq. C.h. adətən fəal hərəkətlərlə edilir. Lakin kriminal əmələ hazırlığın hərəkətsizliklə edilməsi də istisna edilmir. C.h. subyektiv cəhətdən ancaq düzünə qəsdlə edilir. Hər bir hazırlıq hərəkəti özünün predmet məzmununun konkretliyi ilə fərqlənməlidir. Hazırlıq hərəkətlərinə yol verən şəxsin həm də öz şüuru ilə törətməyi qət etdiyi konkret cinayətin əsas elementləri əhatə olunmalıdır.

**Cinayət əməli** *(bax: cinayət).*

**Cinayətə sui-qəsd** – bilavasitə cinayətin törədilməsinə yönəldilən və qəsdən edilən hərəkət, təqsirləndirilən şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatdırılmayan hərəkət (cinayət). C.s.-q.-in üç obyektiv əlaməti fərqləndirilir: 1) hərəkət bilavasitə cinayət törətməyə yönəldilir; 2) cinayətkar qəsd şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatdırılmır; 3) təqsirli əməl başa çatdırılmır. C.s.-q. subyektiv cəhətdən düzünə qəsdlə törədilməsilə səciyyələndirilir. O, məqsədyönlü kriminal fəaliyyətdir. Özü də cinayətin icrasına başlanğıc formada olan kriminal fəaliyyətdir. Törədilən hərəkətlərin xarakterinə və meydana çıxması gözlənilən kriminal nəticəyə yaxınlığına görə sui-qəsdin 2 növü fərqləndirilir: a) başa çatmayan sui-qəsd; b) başa çatmış sui-qəsd. Başa çatmayan sui-qəsd cinayəti başa çatdırmaq üçün şəxsin zəruri saydığı hərəkətlərin müəyyən hissəsini yerinə yetirə bilməməsindən ibarətdir və buna görə də cinayət başa çatmır. Başa çatmış sui-qəsddə şəxs cinayəti başa çatdırmaq üçün kifayət hesab olunan hərəkətləri yerinə yetirir, lakin onun iradəsindən asılı olmayan səbəblərə görə cinayət başa çatmır. Cinayət hüququ nəzəriyyəsində yararsız sui-qəsd növü də fərqləndirilir. Yararsız sui-

qəsd şəxsin səhvi ilə bağlı olur. Bu sui-qəsdin özünün də 2 növü vardır: a) yararsız obyektə edilən sui-qəsd; b) yararsız vasitələrlə edilən sui-qəsd. Yararsız vasitələrin özü də aşağıdakı növlərə ayrılır: a) mütləq yararsız vasitələr; b) yararsız vasitələr.

**Cinayət hadisəsi** – cinayət-prosessual qanunvericiliyinə görə özündə törədilmiş cinayətin əlamətlərini əks etdirən hadisə.

**Cinayət-hüquqi xəbərdarlıq (prevensiya)** – cinayət məsuliyyəti və onun həyata keçirilməsilə vahiməyə salma, cinayətkarın islah olunmasına yardım edilməsi, onun cinayət törətməkdə fiziki imkanlardan məhrum edilməsi, daha ağır cinayətlər törətməsinin qarşısının alınması və cinayət hüququnun tərbiyəvi təsir göstərməsi yolu ilə realizə olunan profilaktiki fəaliyyətin bir növü. C.-h.x.-ın əsas metodlarına cinayət məsuliyyətinin və cəzanın xəbərdaredici metodu, həmçinin cinayətkarlıqla mübarizədə vətəndaşların hüquqi fəallığının stimullaşdırıcı və cinayət törətmiş şəxslərdə peşmançılığın təzahür etməsinə nail olmaq metodu daxildir. Cinayət hüquq normaları, cinayət hüquq normalarından istifadə aktları (tədbirləri), zəruri müdafiə hüququnun realizəsi, azadlıqdan məhrum etmə, cinayət-hüquqi təbliğat aktları və i.a. c.-h.x.-ın vasitələri hesab olunur. C.-h.x.-ğın obyektləri qismində, hər şeydən əvvəl, cəzasızlıq, cinayət-hüquqi avamlıq, cinayət-hüquqi nihilizm, qanuna riayət etməyən vətəndaşların passivliyi kimi kriminoloji amillər çıxış edirlər. Hüquq-mühafizə orqanları, xüsusi detektiv xidmətləri və başqaları c.-h.x.-ğın subyektləri hesab olunurlar.

**Cinayət hüquq norması** – cinayət qanunu ilə müəyyən edilən ümummәcburi davranış qaydası. Davranış qaydalarına riayət edilməsi qanunla müəyyən edilən əsaslara uyğun dövlət məcburiyyətilə təmin edilir. C.h.n. qarşılıqlı əlaqədə olan normaların məcmusu kimi cinayət hüququnun tərkib hissəsidir. Normanın və hüququn bir-birinə münasibəti hissənin tama olan münasibəti kimidir. Hüquq normasız təsəvvür edilə bilməz. Hüquq normativ tələblər çoxluğunu tam kimi müəyyən edir. Normaların çoxluğu daxili inteqrasiya əsasında hüququ yaradır. Cinayət hüquq nəzəriyyəsində c.h.n.-larının qadağanedici, öhdəlik müəyyənedici, səlahiyyətverici və stimullaşdırıcı növləri fərqləndirilir.

**Cinayət hüququ** – hüququn müstəqil sahəsi; cinayət hüquq normalarının məcmusu. C.h. mövcud *ictimai münasibətlər sistemi* üçün təhlükəli olan əməllərin cinayət olmasını və cəzalandırılmasını müəyyən edən hüquq normalarının məcmusudur. C.h.-nun muxtar durumu əməllərin kriminallığının müəyyən edilməsi, onların xarakterinə görə məsuliyyətin fərqləndirilməsi, bunun üçün sanksiyaların qurulması, habelə qanunun tətbiqi ilə bağlı əsasların müəyyən edilməsi kimi məsələlərin uğurlu həllinə imkan verir. Beləliklə, c.h. vahid hüquq sisteminin müstəqil sahəsi kimi cinayət məsuliyyətinin prinsiplərini və əsaslarını, cinayət sayılan əməllərin dairəsini, cinayətə görə tətbiq edilən cəzanın növlərini və həddini, cinayət məsuliyyətindən və cəzadan azad etmənin şərtlərini müəyyən edən, dövlət hakimiyyətinin ali orqanı – Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilən hüquq normalarının məcmusudur.

C.h. sistemdaxili element kimi cinayət qanunvericiliyində (Cinayət Məcəlləsində) daha geniş anlayışa malikdir. C.h. cinayət qanunvericiliyini və cinayət hüquq yaradıcılığı ilə və qanunun tətbiqi təcrübəsilə bağlı cinayət hüquq münasibətlərini də əhatə edir. Cinayət hüquq münasibətləri cinayət qanunu ilə rəsmi qüvvəyə minən andan cəza hədəsi ilə cəmiyyətin qeyri-sabit üzvlərinə cinayətdən çəkindirici sosial-psixoloji təsir göstərir.

**Cinayət hüququ elmi** – cinayət və cəza haqqında cinayət-hüquqi baxışların, ideyaların və təsəvvürlərin sistemi. C.h.e. hüquq elminin müstəqil sahəsi kimi cinayət hüquq normalarını, ayrı-ayrı şəxslərin cinayət törətməsilə yaranan cinayət hüquq münasibətlərini, cinayət hüquq normalarının sosial zərurətlə bağlılığını, cinayət hüquq normalarının tətbiqinin səmərəliliyini tədqiq edir və öyrənir. C.h.e.-ndə məsuliyyətin əsasları, cinayət tərkibi, təqsir kimi məsələlərin araşdırılmasına üstün yer verilir. O, ilkin kriminal fəaliyyət, cinayətdə iştirakçılıq, cinayətlərin çoxluğu kimi institutları da tədqiq edir. C.h.e.-nin predmetinə həmçinin sosial-hüquqi anlayış kimi cəza daxildir. Cəzanın anlayışı, məzmunu, məqsədi, sistemi, tətbiqi, cinayətkarlıqla mübarizədə onun rolu və yeri məsələləri nəzəri cəhətdən araşdırılır. C.h.e.-nin predmetinə həm də cinayət qanunvericiliyinin təcrübədə tətbiqi məsələsi daxildir.

**Cinayətin edilmə mərhələləri** – xarakterinə və qurtarma vaxtına görə bir-birindən fərqlənən, qəsdən törədilən cinayətlərin hazırlanması və bilavasitə törədilməsilə bağlı olan pillələr. C.e.m. kriminal niyyətin həyata keçirilməsinin pillələridir. Cinayət hüququ nəzəriyyəsində və məhkəmə təcrübəsində cinayətin törədilməsinin 3 mərhələsi fərqləndirilir: 1) cinayətə hazırlıq *(bax: cinayətə hazırlıq)*; 2) cinayətə sui-qəsd *(bax: cinayətə sui-qəsd)*; 3) cinayətin başa çatması. C.e.m.-nə bütün cinayətlərdə təsadüf olunmur. Həmin mərhələlər (pillələr) ehtiyatsızlıqla törədilən cinayətlərdə mümkün deyil.

**Cinayətin fenomenologiyası** – cinayətkarlığın təzahür formaları haqqında təlim. Kriminologiyanın konkret cinayətlərin və kriminal sferaların təhlilinə həsr edilən xüsusi bölməsi.

**Cinayətin icraçısı** – cinayət qanunvericiliyinə görə cinayəti bilavasitə törətmiş və ya başqa şəxslə birlikdə onun törədilməsində bilavasitə iştirak etmiş şəxs (birgə icraçılıq), eləcə də AR CM ilə nəzərdə tutulmuş hallarda cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərdən istifadə etməklə cinayəti törətmiş şəxs (AR CM-in 32.2-ci maddəsi). İcraçının hərəkətlərində cinayət qanununda nəzərdə tutulmuş başa çatmış cinayət tərkibi mövcud olur. Cinayətə hazırlıq və sui-qəsddə isə bilavasitə hazırlıq hərəkətlərini görən və ya sui-qəsdi həyata keçirən şəxs icraçı hesab olunur. Birgə icraçılıqda icraçıların hərəkətləri zahirən bir-birindən fərqli görünə bilər.

**Cinayətin köməkçisi** – cinayət qanunvericiliyinə görə cinayətin törədilməsinə məsləhətləri, göstərişləri və məlumatları ilə, cinayət törədilməsi üçün alət və ya vasitələr verməklə və ya maneələri aradan qaldırmaqla yardım etmiş şəxs, habelə cinayət törətmiş şəxsi, cinayətin alətlərini və ya vasitələrini, cinayətin izlərini, yaxud cinayət yolu ilə əldə edilmiş alətləri

gizlətməyi, belə alətləri almağı və yaxud satmağı qabaqcadan vəd etmiş şəxs (AR CM-in 32.5-ci maddəsi). Digər iştirakçılardan fərqli olaraq köməkçi müəyyən hallarda, icraçı cinayəti törətdikdən sonra da öz cinayətkar fəaliyyətini davam etdirə bilər. İntellektual köməkçilik təhrikçiliyə çox oxşayır. Lakin ondan qəsdin məzmununa və cinayətkar fəaliyyətin vaxtına görə fərqlənir. Belə ki, köməkçinin qəsdinin məzmunu başqasında cinayət törətmək qətiyyəti artıq əmələ gəldikdən sonra həmin cinayətin törədilməsinə kömək göstərməyi arzu etməkdən ibarətdir. Fiziki köməkçilik cinayətin hazırlanması və ya edilməsi zamanı icaraçıya (və ya birgə icraçılara) maddi və ya fiziki kömək göstərilməsində ifadə oluna bilər. Köməkçiliyin bu forması, bir qayda olaraq, müəyyən fəal hərəkətlərdə ifadə olunur.

**Cinayətin məqsədi** – cinayətin subyektiv cəhətinin elementlərindən biri. C.m. işin istintaqı zamanı təqsir kimi aydınlaşdırılır. Belə məqsəd cinayət törədilənədək yaranır. Cinayətin subyektiv cəhətinə qəsd və ya ehtiyatsızlıq vasitəsilə deyil, müstəqil daxil olan məqsəd şəxsin törədəcəyi cinayətin xarici aləmdə edəcəyi arzu olunan dəyişiklik barəsindəki təsəvvürüdür. Məqsəd tələbatla, maraqla, sərvətlə sıx bağlıdır. Bu o deməkdir ki, müəyyən məqsədin yaranması obyektiv varlıqla əlaqədardır. C.m. cinayətkarın öz təsəvvüründə yaratdığı sərvətin obrazı, mənzərəsidir ki, şəxs buna nail olmağa cəhd göstərir. C.m. təqsirləndirilən şəxsin cinayətin törədilməsilə əlaqədar şüurunda gedən prosesi xarakterizə edir. Beləliklə, c.m. şəxsin ictimai təhlükəliliyini əks etdirən hallardan biridir. Cəza təyini zamanı, cəzanın növünün və həddinin seçilməsində bu, nəzərə alınır.

**Cinayətin motivi** – cinayətin subyektiv cəhətinin elementlərindən biri. C.m. işin istintaqı zamanı təqsir kimi aydınlaşdırılır. C.m. cinayət törədilənədək yaranır. Motiv cinayətin subyektiv cəhətinə qəsd və ya ehtiyatsızlıq vasitəsilə deyil, müstəqil daxil olur. C.m. ittihamnamədə və hökmdə göstərilir. Motiv maddi təbiətə malikdir, onun əsasını insanın müxtəlif maddi və mənəvi sərvətlərə olan tələbatı təşkil edir. Motivdən kənarda insanın fəal fəaliyyətindən danışmaq qeyri-mümkündür. Motivin məzmununu açmaqla şəxsin konkret vəziyyətdə başqa cür deyil, məhz nə üçün belə hərəkət etməsi izah olunur. Motiv insanın şüurlu fəaliyyətinin nüvəsidir. Cəzanın fərdiləşdirilməsində c.m.-nin mühüm əhəmiyyəti vardır.

**Cinayətin obyekti** – cinayət hüquq normaları (cinayət qanunu) ilə kriminal qəsdlərdən mühafizə olunan ictimai münasibət (münasibətlər). Qanunla mühafizə olunan ictimai münasibətlər törədilmiş cinayətdən hər bir halda zərər çəkir. Obyektə yetirilən zərərin mexanizmini dərk etmək üçün ilk növbədə onun məzmununu araşdırmaq, daxili elementləri ilə tanış olmaq lazımdır. C.o. olan ictimai münasibətlərin aşağıdakı daxili elementləri fərqləndirilir: 1) ictimai münasibətlərin predmeti (əmlak, digər maddi və mənəvi sərvətlər); 2) ictimai münasibətlərin subyektləri (fiziki və hüquqi şəxslər); 3) ictimai münasibətlərin məzmunu (hüquq və vəzifələr). Cinayət hüququ nəzəriyyəsi cinayət qanunvericiliyi normalarının təhlili əsasında cinayətin obyektlərinin ümumi, xüsusi, cinsi və bilavasitə növlərini fərqləndirir. Cinayətin ümumi obyekti cinayət hüquq normaları ilə mühafizə olunan ictimai münasibətlərdir. Xüsusi obyektlər cinayət hüquq normaları ilə mühafizə olunan, bir-biri ilə qarşılıqlı əlaqədə olan eynicinsli (cinsi obyekt) ictimai münasibətlər qrupudur. Bilavasitə obyekt xüsusi obyektin bir hissəsidir. Ayrı-ayrı cinayətlərin qəsd etdiyi ictimai münasibətlərin konkretləşdirilməsində bilavasitə obyekt anlayışından istifadə olunur.

**Cinayətin obyektiv cəhəti** – müəyyən zamanda və məkanda, müəyyən şəraitdə baş verən, mövcud ictimai münasibətlərə ziyan vuran ictimai təhlükəli qəsdin zahiri cəhəti. Obyektiv cəhət cinayəti konkretləşdirən əlamətlərdən biridir. O, subyektin ictimai təhlükəli əməlini, yetirdiyi zərəri xarakterizə edir. C.o.c.-nin daha qabarıq nəzərə çarpan xarici əlamətlərindən qanuna ancaq "hərəkət" və "hərəkətsizlik" məfhumları daxil edilmişdir. Hərəkət insan davranışının fəal, hərəkətsizlik isə onun passiv formasıdır. C.o.c. əməlin zahiri cəhətini, ictimai təhlükəli nəticəni, əməllə nəticə arasındakı səbəbli əlaqəni, zamanı, məkanı və cinayətin baş verdiyi şəraiti, həmçinin onun törədilməsi üsulunu əhatə edir.

**Cinayətin predmeti** – qəsdin yönəldiyi obyektin elementi. Obyektin elementlərindən birinə, yaxud bir neçəsinə təsir göstərməklə təqsirləndirilən şəxs qanunla mühafizə edilən ictimai münasibətləri pozur. Müxtəlif maddi əşyalar (məsələn, saxta pul və ya qiymətli kağızlar, mülkiyyətin müxtəlif formaları) c.p. ola bilər. C.p.-ndən fərqli olaraq, cinayətin törədilməsində istifadə edilən alət və vasitələrin obyekt hesab olunan ictimai münasibətlərlə heç bir əlaqəsi yoxdur.

**Cinayətin psixologiyası** – psixologiyanın sahəsi; hüququ pozan fərdin şəxsiyyətinin psixoloji strukturunu tədqiq edir, yəni şəxsiyyəti məcmu halda cinayətkarın xarakteri ilə birlikdə, həmçinin onun törədilən cinayətə psixi münasibətini (motivi, təsəvvürü, peşmançılığı) öyrənir.

**Cinayətin sosiologiyası** – sosiologiyanın sahəsi; kütləvi hadisə kimi cinayətkarlığı öyrənir və onun ictimai cəhətdən şərtləşən səbəblərini aşkar etməyə səy göstərir.

**Cinayətin statistikası** – kriminologiyanın cinayətkarlığı və kütləvi sosial hadisə kimi onunla mübarizənin nəticələrini öyrənən sahəsi, həmçinin statistikasının eyni predmetə malik olan sahəsi.

**Cinayətin subyekti** – ictimai təhlükəli əməli törədən və buna görə qanuna uyğun olaraq cinayət məsuliyyəti daşımaq qabiliyyətinə malik olan şəxs. C.s. fiziki, anlaqlı, qanunla müəyyən edilmiş yaş həddinə çatmış şəxs ola bilər. Hüquqi şəxslər cinayətin subyekti ola bilməzlər. Bəzən qanunvericilik subyekti xarakterizə edən əsas ümumi əlamətlərlə yanaşı, AR CM-in Xüsusi hissəsinin normalarının dispozisiyasına cinayətlərin bütün subyektləri üçün tipik olmayan əlavə əlamətləri də əlavə edir. Bu halda cinayətin xüsusi subyekti mövcud olur. Xüsusi subyekt ümumi əlamətlərlə yanaşı əlavə əlamətlərə də malik olur. Məsələn, hərbi xidmət əleyhinə olan cinayətlər bölməsinə daxil edilmiş cinayətlərin subyekti ancaq hərbi qulluqçular, vəzifə cinayətlərinin subyekti isə ancaq vəzifəli şəxslər ola bilərlər.

**Cinayətin subyektiv cəhəti** – cinayətin bilavasitə törədilməsi ilə əlaqədar şəxsin psixi fəaliyyəti. C.s.c. ictimai təhlükəli əməli etməyə qətiyyət yaradan dərk edilən tələbatı, əməlin obyektiv əlamətlərinin şüurda inikasını (yaxud inikas imkanını) və bunlara münasibəti ifadə edir. C.s.c. - *təqsir* (qəsd və ehtiyatsızlıq, motiv və məqsəd, emosiya) baş verən cinayətin elementləri kimi, həmçinin müəyyən növ cinayətin subyektiv cəhətini xarakterizə edən tərkib əlamətləri *kimi fərqləndirilir. C.s.c.-ni* xarakterizə edən tərkib əlamətləri qanunda göstərilir və o, təqsiri, cinayətin motiv və məqsədini nəzərdə tutur, eləcə də ictimai təhlükəli əməldə bunların olub-olmamasını araşdırıb *müəyyən etməyi, törədilmiş* konkret əməldə şəxsin təqsirinin olub-olmamasını aydınlaşdırmağı tələb edir.

**Cinayətin təhrikçisi** – cinayət qanunvericiliyinə görə ələ alma, sövdələşmə, hədə-qorxu gəlmə və ya digər üsullarla başqa şəxsi cinayət törətməyə sövq edən şəxs (AR CM-in 32.4-cü maddəsi). Təhrikçi öz fəaliyyəti ilə başqasının iradəsinə təsir göstərərək, onda cinayət törətmək qətiyyətini yaradır. Təhrikçilik fəaliyyəti həmişə konkret olur. Cinayəti törətməyə həmişə konkret şəxs (şəxslər) təhrik edilir. Müəyyən cinayətlərdə təhrikçi bir neçə şəxs də ola bilər. Təhrikçi nəinki icraçını, həmçinin təşkilatçını, köməkçini və başqa iştirakçını da cinayətə sövq edə bilər. Ona görə də köməkçiliyə təhrikçilik, təhrikçiliyə təhrikçilik və i.a. faktiki surətdə mümkündür. Anlaqsız şəxsi və ya yetkinlik yaşına çatmayan şəxsi hər hansı cinayətin törədilməsinə sövq edən şəxs təhrikçiliyə görə deyil, həmin cinayətin icraçısı kimi məsuliyyət daşımalıdır. Çünki anlaqsız şəxs cinayətin subyekti ola bilməz.

**Cinayətin təşkilatçısı** – cinayət qanunvericiliyinə görə cinayətin törədilməsini təşkil etmiş və ya həmin cinayətin törədilməsinə rəhbərlik etmiş, eləcə də mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) yaratmış və ya bunlara rəhbərlik etmiş şəxs. *Cinayətin təşkili onun törədilməsinin hazırlanması üzrə* müxtəlif hərəkətlərin məcmusundan ibarətdir. Cinayətin törədilməsinə rəhbərlik etmə bilavasitə cinayətin *törədilməsi prosesində iştirakçıların fəaliyyətinə başçılıq etmə* (məsələn, iştirakçılara lazımi göstərişlər vermə, onları təlimatlandırma) şəklində təzahür edir. Təşkilatçı iştirakçıların ən təhlükəlisi hesab olunur. Təşkilatçılıq fəaliyyəti həmişə düzünə qəsdlə *xarakterizə edilir. Təşkilatçı* cinayətkar dəstənin fəaliyyətini istənilən istiqamətə yönəltmək imkanına malik olur.

**Cinayətin törədilməsi hipotezası** – cinayətin müəyyən üsulla həyata keçirilməsi haqqında ehtimal; cinayət cəhətdən cəzalanmalı əməlin aşkar edildiyi zaman (əvvəlki istintaqın nəticələrinin cinayətkar hadisənin açılmasını təminatlandırmaq üçün kifayət etmədiyi vaxt) tətbiq edilən kriminalistik təfəkkür metodu. C.t.m. etibarlı, lakin kifayət qədər olmayan məlumatların hələ sübut edilməli olan müvəqqəti eksperimental mülahizələrlə birləşdirilməsindən ibarətdir.

**Cinayətin tövsifi** – törədilən konkret əməlin cəhətləri ilə cinayət hüquq normalarında nəzərdə tutulan tərkib əlamətləri arasında eyniliyi (uyğunluğu) müəyyən etməklə, müvafiq hüquqi sənəddə öz əksini tapan və cinayət-hüquqi nəticələrə səbəb olan əmələ verilən cinayət-hüquqi qiymət. C.t. üç mərhələni əhatə edir: 1) işin faktiki hallarının müəyyən edilməsi və cinayət-hüquqi əhəmiyyət kəsb edən əlamətlərin ön plana çəkilməsilə, eləcə də tövsifin bu mərhələsində faktiki baş vermiş kriminal əməlin obyekti, obyektiv cəhəti, subyekti və subyektiv cəhəti araşdırılır; 2) baş vermiş əməli nəzərdə tutan cinayət hüquq norması seçilir və onun məzmunu şərh edilir; 3) seçilmiş hüquq normasında nəzərdə tutulan tərkib əlamətləri ilə araşdırılan ictimai təhlükəli əməlin faktiki əlamətləri müqayisə edilir və bunların uyğun olub-olmaması hüquqi aktda təsbit olunur.





**Cinayət işi** – cinayət-prosessual qanunvericiliyə görə törədilən və ya törədilməsi ehtimal edilən cinayətlə əlaqədar cinayət təqibinin həyata keçirilməsi zamanı toplanmış materialların məcmusu.

**Cinayət işi başlama** – cinayət prosesinin birinci mərhələsi; cinayət təqibi üzrə məhkəməyəqədərki icraatdan ibarətdir. Bu mərhələdə prokuror, müstəntiq, təhqiqatçı və ya hakim törədilmiş və ya törədilməsi hazırlanan cinayət barəsində ərizə və məlumatları nəzərdən keçirir, bundan sonra c.i.b. və ya onu rədd etmək haqqında qərar qəbul olunur. C.i.b.-nın səbəblərinə aşağıdakılar xidmət edə bilər: 1) fiziki şəxslərin yazılı və ya şifahi məlumatları; 2) hüquqi şəxslərin (vəzifəli şəxslərin) məlumatları. Belə məlumatlar məktub, yaxud təsdiq edilmiş teleqram, telefonoqram, radioqram, teleks və ya digər qəbul edilmiş müraciət formasında olmalıdır; 3) kütləvi informasiya vasitələrinin məlumatları. Kütləvi informasiya vasitələrinin məlumatları mətbuatda, radio və televiziyada əks etdirildikdən sonra cinayət təqibi orqanlarına göndərilməlidir; 4) törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların cinayət təqibi orqanı tərəfindən bilavasitə aşkar edilməsi. Bu, c.i.b.-sına aşağıdakı hallarda səbəb olur: a) təhqiqatçı, müstəntiq və ya prokuror cinayətin törədilməsini göstərən halları, yaxud cinayətin törədilməsindən dərhal sonra onun izlərini və *nəticələrini* aşkar *etdikdə*; b) təhqiqatçı cinayət haqqında məlumatı öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda; c) müstəntiq cinayət haqqında məlumatı öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda; ç) prokuror cinayət haqqında məlumatı öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda; d) məhkəmə cinayət haqqında məlumatı ədalət mühakiməsinin hər hansı icraatı üzrə həyata keçirdiyi zaman öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda.

**Cinayət işinə xitam vermə** *(bax: cinayət təqibini istisna edən hallar).*

**Cinayətkar** – ictimai təhlükəli əməl törətmiş şəxs. Şəxs yalnız məhkəmə tərəfindən (məhkəmənin hökmündə) təqsirləndirilən şəxs kimi tanındıqdan sonra c. hesab oluna bilər. Bundan əvvəl isə o, cinayət məsuliyyətinə cəlb edilməli və məhkəməyə verilməlidir. C. konkret fərddir. Bununla yanaşı, cinayət törətmiş şəxsləri bəzi əlamətlərinə (konkret əməlin xarakterinə, növünə) görə müəyyən qruplara (tiplərə) ayırmaq olar. Məsələn, oğrular, qarətçilər, talançılar, dələduzlar, xuliqanlar, terrorçular və i.a.

**Cinayətkar birlik (cinayətkar təşkilat)** – Azərbaycan Respublikasının cinayət hüququnda ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi üçün yaradılan mütəşəkkil qrup (təşkilat), yaxud eyni məqsədlə yaradılmış mütəşəkkil qrupların birliyi. C.b. yaratmış, yaxud belə birliyə rəh-

bərlik edən şəxs AR CM-in xüsusi hissəsinin müvafiq maddələri ilə nəzərdə tutulan hallarda belə birliyin yaradılmasına və ona rəhbərlik etməyə, həmçinin c.b.-in onun qəsdi ilə əhatə olunan törətdiyi bütün cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilməlidir. C.b.-ə daxil olan digər şəxslər AR CM-in xüsusi hissəsinin müvafiq maddələri ilə nəzərdə tutulan hallarda belə birlikdə iştiraka, həmçinin törədilməsində iştirak etdikləri cinayətlərə hazırlıqda və ya onlarda iştiraka görə cinayət məsuliyyətinə cəlb olunurlar.

**Cinayətkarcasına etinasızlıq** – ehtiyatsızlıqdan törədilən cinayətin bir növü. AR CM-in 26.3-cü maddəsinə uyğun olaraq şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatsızlıq göstərərək qabaqcadan görkəmli olduğu və görə biləcəyi halda onları görməmişdirsə, bu əməl (hərəkət və ya hərəkətsizlik) cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş cinayət hesab olunur. C.e.-ın bir forma kimi xüsusiyyəti ondan ibarətdir ki, onun əqli məqamının (əməlin ictimai təhlükəli nəticələrinin baş verə biləcəyi imkanının qabaqcadan görülməməsi) və iradəvi məqamının (əməlin ictimai təhlükəli nəticələr verə biləcəyi imkanının lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olması və görə bilmək imkanının mövcudluğu) məzmunu mənfi xarakterə malikdir. Ehtiyatsızlığın bu növü obyektiv və subyektiv meyarların köməyi ilə müəyyən olunur. Obyektiv meyar şəxsin öz əməlinin ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını qabaqcadan görməli olması normativ xarakter daşıyır və şəxsin lazımi diqqət və ehtiyatsızlıq göstərəcəyi təqdirdə həmin nəticələri qabaqcadan görmək vəzifəsindən ibarətdir. Subyektiv meyar şəxsin yol verdiyi hərəkətin (hərəkətsizliyin) ictimai təhlükəli nəticələr doğuracağı imkanını dərk edə biləcəyi halda dərk etməməsi konkret halda fərdi keyfiyyətlərini (intellektual səviyyəsini, səhhətinin vəziyyətini, biliyini, təcrübəsini, peşəsini və i.a.) nəzərə almaqla onun əməlin baş verdiyi şəraiti düzgün qiymətləndirməsi və lazımi nəticə çıxarması qabiliyyəti ilə şərtləşir.

**Cinayətkarcasına özünəgüvənmə** – ehtiyatsızlıqdan törədilən cinayətin bir növü. AR CM-in 26.2-ci maddəsinə uyğun olaraq şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını qabaqcadan görmüş, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman etmişdirsə, bu əməl (hərəkət və ya hərəkətsizlik) cinayətkarcasına özünəgüvənmə nəticəsində törədilmiş cinayət hesab olunur. Əməlin ictimai təhlükəli nəticələr verə biləcəyi imkanının qabaqcadan görülməsi bu cinayətin əqli məqamının, kifayət qədər əsas olmadan ictimai təhlükəli nəticələrin qarşısının alınacağının güman edilməsi isə həmin cinayətin iradəvi məqamının məzmununu təşkil edir.

**Cinayətkar əməl** *(bax: cinayət əməli).*

**Cinayətkar gəlir** – cinayətkar yolla əldə edilən pullar, qiymətli kağızlar, digər maddi sərvətlər və intellektual dəyərlər, yaxud belə sərvətlərə olan hüquqlar, həmçinin qeyri-maddi nemətlər.

**Cinayətkarın şəxsiyyəti** – cinayət qanununu pozmaqda təqsirli bilinən şəxsin, onun cəmiyyət əleyhinə davranışına təsir





edən digər şərtlər də nəzərə alınmaqla onu xarakterizə edən sosial əhəmiyyətli xassələrin, əlamətlərin, əlaqə və münasibətlərin məcmusu. C.ş., eləcə də insan şəxsiyyəti özündə əxlaqi-psixoloji xassələrin – görüşlərin, əqidə və inamın, həyati məqsədlərin, intellektual, emosional və iradəvi xüsusiyyətlərin müəyyən sistemini ehtiva edir. C.ş.-nin əxlaqi-psixoloji xassəsi onun sosial xassə və təzahürləri ilə vəhdət təşkil edir və onlara vahid tam kimi baxılmalıdır.

**Cinayətkarın tutulması** – ictimai təhlükəli əməl törətmiş şəxsin müvafiq hakimiyyət orqanlarına məcburi gətirilməsi (təslim edilməsi). C.t. cinayət məsuliyyətinə cəlb etmənin reallaşdırılmasının təmini üsullarından biri kimi çıxış edir. Cinayətkar tutularkən zəruri tədbirlərin tətbiqi nəticəsində vurulmuş zərər cinayət tərkibi yaratmır. AR CM-in 37.1-ci maddəsinə uyğun olaraq cinayət törətmiş şəxsin səlahiyyətli dövlət hakimiyyəti orqanlarına gətirilməsi və ya yeni cinayətlər törətməsinin qarşısının alınması məqsədi ilə tutulduğu zaman ona zərər yetirilməsi, əgər həmin məqsəd üçün bütün digər təsir imkanlarından istifadə lazımi nəticə verməmişsə və bunun üçün zəruri olan tədbirlərin həddi aşılmamışdırsa, cinayət sayılmır.

Tutulan şəxsə tətbiq edilən tədbirlərin onun törətdiyi əməlin ictimai təhlükəlilik dərəcəsinə uyğun gəlməməsi və heç bir zərurət olmadan ona həddən artıq zərər vurulması cinayət məsuliyyətinə səbəb olur. Belə ki, AR CM-in 37.2-ci maddəsinə uyğun olaraq cinayət törətmiş şəxsin tutulması üçün tətbiq edilən vasitələrin və üsulların törədilmiş əməlin və həmin əməli törətmiş şəxsin ictimai təhlükəlilik dərəcəsinə, habelə tutulmanın hallarına aşkar surətdə uyğun gəlməməsi və zərurət olmadan şəxsə açıq-aşkar həddən artıq zərər vurulması şəxsin tutulması üçün zəruri olan tədbirlərin həddini aşmaq hesab olunur. Həddi bu qaydada aşma yalnız qəsdən zərər vurulduqda cinayət məsuliyyətinə səbəb olur.

**Cinayətkar qrup** – qabaqcadan əlbir olmaqla cinayət törədən şəxslər qrupu. Qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilən cinayətlər AR CM ilə müəyyən edilmiş əsaslara görə və nəzərdə tutulan hədlərdə daha ciddi cəzaya səbəb olur. İctimai təhlükəli əməllərin c.q. tərəfindən törədilməsi məsuliyyəti ağırlaşdıran tövsifedici əlamətlərdən biri kimi qiymətləndirilir.

**Cinayətkarları qaytarma (ekstradisiya)** – dövlətin beynəlxalq xarakterli cinayətə görə təqib edilən şəxsi cinayət məsuliyyətinə cəlb etmək, yaxud çıxarılmış hökmün icrası üçün onu digər dövlətə verməsi (ekstradisiya etməsi). C.q. məsələsi dövlətlərin həm daxili hüququ, həm də beynəlxalq müqavilələrlə (bir qayda olaraq, ikitərəfli hüquqi əlaqələr vasitəsilə) tənzim edilir. C.q. haqqında çoxtərəfli müqavilələr də bağlanır. Məsələn, Latın Amerikası dövlətləri arasında bağlanmış 1933-cü il müqaviləsi, 1957-ci il Avropa Konvensiyası çoxtərəfli müqavilələrdir.

**Cinayətkarlığın coğrafiyası** – cinayətkarlığın yayıldığı ərazi. C.c. kriminoloji tədqiqatlar vasitəsilə müəyyən edilir. Bu zaman müəyyən ərazi əhalisinin strukturu haqqında məlumatlar cinayətkarlığın müvafiq rəqəmləri ilə müqayisə edilir. Belə kriminoloji tədqiqatlar adətən cinayətkarlığın qarşısının alınması və onunla mübari-

zənin gücləndirilməsi məqsədlərinə xidmət edirlər.

**Cinayətkarlığın dinamikası** – seçilmiş bütün dövr ərzində cinayətkarlığın (onun vəziyyəti, strukturu) kəmiyyət ölçüsünü səciyyələndirən göstərici; cinayətkarlığı dinamikada, yeni inkişafda ümumiləşdirməyə inkan verən göstərici.

**Cinayətkarlığın indeksi** – cəmiyyətdə cinayətkarlığın miqyaslarının *statistik* göstəricisi; törədilmiş və qeydə alınmış cinayətlərin sayının şəxslərin (ictimai təhlükəli əməlləri törədənlərin) müəyyən sayına münasibətini əks etdirən göstərici. C.i.-ni bəzən cinayətkarlığın səviyyəsi də adlandırırlar. Müəyyən dövr ərzində regionda (və ya ölkədə) törədilmiş cinayətlərin mütləq kəmiyyəti barəsində də danışmaq olar, lakin bu, artıq c.i. deyil, məhz onun mütləq kəmiyyəti olacaqdır. Kriminologiyada isə söhbət cinayətkarlığın strukturu və dinamikası haqqında gedir.

**Cinayətkarlığın səbəblərinin diffuziyası** – çoxsaylı *ictimai hadisə* və proseslərdə cinayətkarlığın səbəblərinin daimi və kəsilməyən keçidini, yayılmasını, qarışmasını əks etdirən mürəkkəb obyektiv və qanunauyğun proses. Kriminologiyada c.s.d. cinayətkalığın səbəbiyyət kompleksinə aid edilir.

**Cinayətkarlığın səviyyəsi** – cinayətkarlığın kəmiyyət xarakteristikalarından biri. Törədilmiş cinayətlərin sayının əhalinin sayına (10 min və ya 100 min əhali; digər kəmiyyət də mümkündür) olan qarşılıqlı nisbətində ifadə olunur. C.s.-nin göstəricisi müvafiq formula üzrə hesablanan cinayətkarlığın əmsalıdır. Əmsalların köməyilə müxtəlif zaman dövründə əhalisi müxtəlif olan ayrı-ayrı ərazilərdə cinayətkarlığın yayılması və intensivliyi səviyyəsini müqayisə etmək mümkündür.

**Cinayətkarlıq** – cəmiyyətin müəyyən inkişaf mərhələsində yaranmış sosial hadisə. Hər hansı konkret zamanda və məkanda müəyyən dövlətin ərazisində törədilmiş bütün cinayətlərin məcmusu ilə səciyyələndirilən c.-ın xarakteri və forması ayrı-ayrı ictimai-iqtisadi formasiyalarda müxtəlif olmuşdur. Onun səviyyəsi və quruluşu da tarixi inkişafın müxtəlif dövrlərində cəmiyyətin inkişafına uyğun şəkildə dəyişikliklərə uğramışdır. Cinayətkarlıq səviyyəsinə (cinayətlərin və cinayətkarların mütləq sayına və ya, məsələn, əhalinin hər 100 min nəfərinə düşən əmsala görə), strukturuna (cinayətlərin növlərinə və iri qruplarına, ictimai təhlükəlilik dərəcəsinə və i.a. görə bölünməsi), cinayətkarlar kontingentinin xüsusiyyətlərinə (cinsə, yaşa, peşə, ixtisas növünə və i.a. görə), dinamikasına (müəyyən zaman ərzində vəziyyətinin dəyişməsi) görə xarakterizə olunur. Cinayətkarlıq bütün quruluşlara xas olan sosial hadisədir.

**Cinayətkarlıqla beynəlxalq mübarizə konvensiyaları** – ayrı-ayrı dövlətlərə və onların vətəndaşlarının həyatına qarşı yönələn ağır cinayətlərlə birgə mübarizə haqqında beynəlxalq sazişlər. Bu konvensiyalara aşağıdakılar daxildir: 1) "Pornoqrafik əşyaların və vasitələrin hazırlanmasına və yayılmasına qarşı mübarizə haqqında" (1923-cü il); 2) "Köləliklə mübarizə haqqında" (1926-cı il); 3) "Saxta pul nişanları kəsməklə mübarizə haqqında" (1929-cu il); 4) "Təcavüzkarlığın müəyyən edilməsi haqqında" (1933-cü il); 5) "Terrorçuluğun qarşısının alınması və aradan qaldırılması haqqında" (1939-cu il); 6) "Genosid cinayətinin qarşısının alınması və belə cinayətə görə cəzalandırma haqqında" (1954-cü il); 7) "Narkotik vasitələr haqqında" (1961-ci il); 8) "Hava gəmilərində törədilən cinayətlər və bəzi başqa hərəkətlər haqqında" (1963-cü il); 9) "Hava gəmilərinin qanunsuz ələ keçirilməsi ilə mübarizə haqqında" (1970-ci il); 10) "Apartheid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" (1973-cü il).





**Cinayət qanunu** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən ibarət olan qanun. C.q. Azərbaycan Respublikasının ali qanunvericilik orqanı (Azərbaycan Respublikasının Milli Məclisi) tərəfindən qəbul edilən, cinayət məsuliyyətinin prinsiplərini və əsaslarını, hansı əməllərin cinayət olduğunu və belə əməlləri törətməkdə təqsiri olan şəxslər barəsində tətbiq ediləcək cəzaları, məsuliyyətdən və cəzadan azad etmənin şərtlərini müəyyən edən hüquq normalarından ibarət aktdır. O, yalnız AR CM-ə daxil edildikdən sonra tətbiq edilə bilər.

Öz məzmununa görə c.q.-nun iki növü fərqləndirilir: 1) cinayət hüququnun vəzifələrini və prinsiplərini, məsuliyyətin əsaslarını, cəzanın sistemini və növlərini, tətbiqi şərtlərini və digər ümumi müddəaları müəyyən edən normalar. Bunlar cinayət hüququnun ümumi hissəsinin normalarıdır; 2) hansı ictimai təhlükəli əməllərin cinayət hesab edildiyini və belə əməlləri törətməkdə təqsiri olan şəxslərə tətbiq ediləcək cəzaları nəzərdə tutan normalar. Belə normalar cinayət qanunvericiliyinin xüsusi hissəsinə daxildir.

**Cinayət qanunvericiliyi** – cinayət məsuliyyətinin əsaslarını, həddini və cinayət hesab olunan əməlləri, həmçinin onların törədilməsinə görə cəzanın növlərini və ölçüsünü müəyyən edən hüquq normalarının məcmusu. C.q. cinayətkarlıqla mübarizənin hüquqi bazası, cinayət-hüquqi siyasətin istiqamətlərinin başlıca məzmun komponentidir. Azərbaycanın Respublikasının c.q. ölkənin cinayət qanunlarından (AR CM-dən) *ibarətdir.* AR CM-də c.q. ilə əlaqədar olan bütün prinsipial müddəalar öz əksini tapır.

**Cinayətlə əlaqədarlıq** – başqa şəxs tərəfindən hazırlanan, yaxud törədilən cinayətin qarşısının alınmasına, eləcə də açılmasına yönəldilən fəaliyyətdə iştirak etməməkdən ibarət qəsdən yol verilən cinayəti gizlətmədə, cinayəti xəbər verməmədə, cinayətə yol verməmədə ifadə olunan ictimai təhlükəli, qeyri-hüquqi fəaliyyət. Cinayətdə iştirakçılıqdan fərqli olaraq cinayətlə əlaqədar törədilən cinayətlə əlaqədə olsa da, onunla səbəbli əlaqədə olmur. C.ə.-da təqsirləndirilən şəxslərin *məsuliyyəti bir-birindən* asılı olmur. İştirakçılıqla müqayisədə c.ə. nisbətən az ictimai təhlükəlidir.

**Cinayətlərin çoxluğu** – konkret şəxs tərəfindən törədilən, iki və ya daha çox müstəqil cinayət tərkibinin əlamətləri olan, iki, yaxud daha çox ictimai təhlükəli əməl. C.ç.-na daxil olan hər bir əməldə müstəqil cinayət tərkibi mövcud olmalıdır. Çoxluğa daxil olan hər bir cinayət törədilmə faktından irəli gələn hüquqi əhəmiyyətini saxlamalıdır. Cinayətin hüquqi nəticəsinin saxlanması o deməkdir ki, belə əmələ görə cinayət məsuliyyətinə cəlb etmə müddəti hələ keçmiş olur, törədilən cinayətə görə

cəza hələ çəkilmir, yaxud məhkumluq götürülməmiş və ya ödənilməmiş olur.

**Cinayətlərin qeydiyyatı** – kriminalistik uçot; cinayətlərin qarşısının alınması və açılması məqsədilə diqqəti cəlb edən obyektlərin əlamətlərinin rəsmiləşdirilməsinin, obyektlər barəsində məlumatların saxlanması və sistemləşdirilməsinin üsul və vasitələrinin məcmusu. C.q. üçün adətən kartoteka tərtib edilir. İstintaq və məhkəmə orqanları belə məlumatların obyektləri eyniləşdirmək, axtarış və i.a. üçün istifadə edirlər. Axtarışda olan, tutulan və xəbərsiz itkin düşmüş şəxslər, əşyalar, cinayət faktları c.q. obyektləridir. İnsanların qeydə alınması anket məlumatlarına, zahiri əlamətlərə, əl-barmaq izlərinin papilyar naxışlarına görə aparılır.

**Cinayətlərin məcmusu** – cinayət-hüquqi anlayışlardan biri. AR CM-in 17.1-ci maddəsinə uyğun olaraq CM-in müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, həmin cinayətləri törətmiş şəxs onlardan heç birinə görə məhkum olunmamışdırsa və ya qanunla müəyyən edilmiş əsaslar üzrə cinayət məsuliyyətindən azad edilməmişdirsə, habelə bu cinayətlərdən heç birinə görə cinayət məsuliyyətinə cəlbetmə müddəti keçməmişdirsə, cinayətlərin məcmusunu yaradır.

Bir hərəkətlə (hərəkətsizliklə) AR CM-in iki və daha çox maddəsi ilə nəzərdə tutulmuş iki və daha çox cinayətin törədilməsi cinayətlərin ideal məcmusunu yaradır. Şəxs AR CM-in müvafiq maddələrinə uyğun olaraq cinayətlərin məcmusunu yaradan hər cinayətə görə cinayət məsuliyyətinə cəlb edilir. AR CM-in xüsusi hissəsində həm ümumi, həm də xüsusi normada nəzərdə tutulmuş cinayətin törədilməsi cinayətlərin məcmusunu yaratmır və bu halda xüsusi norma tətbiq olunur.

**Cinayətlərin residivi** – cinayət qanunvericiliyinə görə qəsdən cinayət törətməyə görə əvvəllər məhkum olunmuş şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi (AR CM-in 18.1-ci maddəsi). Qəsdən cinayət törətməyə görə əvvəllər iki dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs, yenidən qəsdən ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunduqda, ağır cinayət törətməyə görə əvvəllər azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən ağır cinayət törətdikdə təhlükəli hesab olunur. Cinayətlərin residivi aşağıdakı hallarda xüsusi təhlükəli sayılır: 1) qəsdən az ağır və ya ağır cinayət törətməyə görə əvvəllər hər hansı ardıcıllıqla üç dəfədən az olmayaraq azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən qəsdən cinayət törətməyə görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunduqda; 2) ağır cinayət törətməyə görə əvvəllər iki dəfə və ya xüsusilə ağır cinayət törətməyə görə əvvəllər bir dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən ağır cinayət törətdikdə; 3) ağır və ya xüsusilə ağır cinayət törətməyə görə əvvəllər azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən xüsusilə ağır cinayət törətdikdə. AR CM-in 83-cü maddəsi ilə nəzərdə tutulmuş qaydada götürülmüş və ya ödənilmiş məhkumluqlar, habelə 18 yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərə görə məhkumluqlar residivin müəyyən olunması zamanı nəzərə alınmır. AR CM ilə nəzərdə tutulmuş əsaslarla və hədlərdə cinayətlərin residivinə görə daha sərt cəza tətbiq edilir.





**Cinayətlərin tədqiqatı metodikası** – cinayətlərin cinayət-hüquqi, kriminalistik xarakteristikası və cinayət-prosessual tələblərin nəzərə alınması ilə istintaqın vəzifələrinin daha yaxşı həll edilməsi üçün işlənib hazırlanmış, cinayətlərin müxtəlif növlərinin spesifik şəraitdə istintaqı sahəsində müstəntiqin fəaliyyətinin üsul və vasitələrinin sistemi.

**Cinayətlərin təkrarlığı** – cinayət qanunvericiliyinə görə CM-in eyni bir maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki dəfə və ya iki dəfədən çox törədilməsi (AR CM-in 16.1-ci maddəsi). AR CM-in müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi yalnız həmin məcəllənin xüsusi hissəsində birbaşa göstərilən hallarda cinayətin təkrar törədilməsi (təkrarlığı) hesab olunur. Əvvəllər törətdiyi cinayətə görə AR CM ilə müəyyən edilmiş qaydada cinayət məsuliyyətindən azad olunmuş, yaxud məhkumluğu götürülmüş və ya ödənilmiş şəxs tərəfindən həmin cinayətin yenidən törədilməsi cinayətin təkrar törədilməsi (təkrarlığı) hesab edilmir.

**Cinayətlərin təsnifatı** – bütün cinayət əməllərinin hər hansı ümumi əlamətə əsasən cinayət törətmiş şəxslər barəsində yaratdığı hüquqi nəticələri göstərməklə qanunvericilik yolu ilə təsbit edilən bölgüsü (növlərə ayrılması). AR CM-in 15-ci maddəsinə uyğun olaraq formal meyar əsasında cinayətlərin ağırlıq dərəcəsinə görə aşağıdakı təsnifatı nəzərdə tutulmuşdur: 1) böyük ictimai təhlükə törətməyən cinayətlər. Buraya qanunla barəsində iki ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə, yaxud daha yüngül olan başqa cəzalar nəzərdə tutulan qəsdən və ya ehtiyatsızlıqdan törədilən cinayətlər daxildir; 2) az ağır cinayətlər. Bu cinayətlərə qanunla barəsində beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulan qəsdən və ya ehtiyatsızlıqdan törədilən cinayətlər aid edilir; 3) ağır cinayətlər. Bu cinayətlərə qanunla barəsində on ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəza nəzərdə tutulan qəsdən və ya ehtiyatsızlıqdan törədilən cinayətlər aiddir; 4) xüsusilə ağır cinayətlər. Qanunla qəsdən törədilməsinə görə barəsində on ildən artıq azadlıqdan məhrum etmə və ya daha ağır cəza nəzərdə tutulan əməllər xüsusilə ağır cinayətlər hesab olunurlar.

**Cinayət Məcəlləsi** – Azərbaycan Respublikasında törədilmiş ictimai təhlükəli əməllərə (hərəkət və ya hərəkətsizliklərə) görə cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxslərin cəzalandırılmasını, cəzaların həddini və ölçüsünü nəzərdə tutan cinayət qanunlarından ibarət sistemləşdirilmiş qanunvericilik aktı.

AR CM Azərbaycan Respublikasının 1999-cu il 30 dekabr tarixli qanunu ilə təsdiq edilmiş, 2000-ci il sentyabrın 1-də qüvvəyə minmişdir. AR CM ümumi və xüsusi hissələrdən, on iki bölmədən, otuz beş fəsil və 353 maddədən ibarətdir.

**Cinayət məsuliyyəti** – hüquqi məsuliyyətin bir növü. C.m. cinayət törədən şəxsin cəzanın tətbiqi ilə şəxsi və əmlak xarakterli məhrumiyyətlərə məruz qalması və dövlət qarşısında cavabdeh olmaq öhdəliyidir. C.m. dövlət tərəfindən müəyyən

edilir. O, cinayət törətməkdə təqsiri olan şəxsin dövlət adından mühakimə edilməsini və onun barəsində cəzanın tətbiqini nəzərdə tutur. C.m.-nin əsasını yalnız cinayət qanununda nəzərdə tutulmuş ictimai təhlükəli əməlin təqsirli törədilməsi, yəni cinayət əməli təşkil edir. Deməli, təqsirlilik və ya cinayət tərkibi hələ ayrı-ayrılıqda c.m.-nin əsası ola bilməz. Çünki təqsirlilik məhz cinayət tərkibinin əlamətidir. Cinayət qanununda nəzərdə tutulmuş ictimai təhlükəli əməlin qəsdən və ya ehtiyatsızlıqdan törədilməsi də hələ özlüyündə c.m. doğura bilməz. C.m. cinayətin törədildiyi anda meydana gəlir. Cinayət tərkibi yalnız bu zaman mövcud olur. Buna görə də cinayət tərkibini ancaq törədilmiş cinayətkar əməldə axtarmaq lazımdır. Beləliklə, c.m.-nin əsası yalnız cinayət (hərəkət və ya hərəkətsizlik) ola bilər.

C.m.-nin məzmununu aşağıdakı dövlət məcburiyyət tədbirləri müəyyən edir: a) törədilən cinayət əməli və onu törətməkdə təqsiri olan şəxs dövlət adından mühakimə edilir (məhkəmə törədilmiş əmələ dövlət adından ictimai-hüquqi qiymət verir, qanuna uyğun olaraq törədilmiş əməlin cinayət olduğunu, onu törətməkdə təqsiri olan şəxsin cinayətkar olduğunu qeyd edir); b) məhkəmə təqsirləndirilən şəxs barəsində törədilən əmələ görə qanunla müəyyən edilən sanksiya əsasında cəza tətbiq edir.

C.m.-nin meydana gəlməsi, reallaşdırılması və c.m.-nə son qoyulması cinayət hüquq münasibətləri çərçivəsində baş verir. Deməli, c.m. cinayətin törədilməsi ilə yaranan cinayət hüquq münasibətlərinin tərkib hissəsi, onun elementidir.

C.m. və insanın iradə azadlığı problemi böyük nəzəri və təcrübi əhəmiyyət kəsb edən məsələlərdəndir. Ona görə də c.m. hüquqi əsasa malik olmaqla yanaşı, həmçinin də sosial və psixoloji əsaslara malikdir.

**Cinayət məsuliyyətindən azad etmə** – cinayət qanunvericiliyinə görə səmimi peşmanlıqla (AR CM-in 72-ci maddəsi), zərərçəkmiş şəxslə barışmaqla (AR CM-in 73-cü maddəsi), şəraitin dəyişməsi (AR CM-in 74-cü maddəsi) və müddətin keçməsi (AR CM-in 75-ci maddəsi) ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə.

**Cinayət məsuliyyətinə cəlb etmənin yaş həddi** – cinayət məsuliyyətinin ümumi şərti. Cinayət qanunvericiliyinə görə AR CM ilə müəyyən edilmiş yaş həddinə çatmış və cinayət törətmiş anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb edilir. AR CM-in 20-ci maddəsinə uyğun olaraq cinayət törədilənədək 16 yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir. 14 yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə, ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir. AR CM-in 20.1 və 20.2-ci maddələrində nəzərdə tutulmuş yaş həddinə çatmış yetkinlik yaşına çatmayan, lakin böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayəti törətdiyi zaman psixi inkişafın kəmağıllıqla və ya başqa psixi pozuntu ilə əlaqədar olmayan geriliyi səbəbindən öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterinin və ictimai təhlükəliliyini tam dərk etməyən və ya həmin əməli idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir.

**Cinayət məsuliyyətinin differensiasiyası** – cinayət qanunvericiliyinin inkişafına və yeniləşdirilməsinə xidmət edən prinsiplərin və əsas istiqamətlərin məcmusu. C.m.d. əslində cinayət qanunvericiliyinin inkişaf istiqamətlərinin islahatı kimi də səciyyələndirilə bilər. C.m.d prinsip kimi cinayətkarlıqla mübarizə sahəsində əsas və rəhbəredici ideyalardan biridir. C.m.d. cəzanın fərdiləşdirilməsilə sıx bağlıdır.

**Cinayət mühakimə icraatı** *(bax: cinayət prosesi).*

**Cinayət prosesi** – **1)** prokurorluq, istintaq, təhqiqat və ya məhkəmə orqanlarının cinayət-prosessual hüquqla müəyyən edilən qaydada cinayət işləri başlama, onların istintaqı və həlli sahəsində fəaliyyəti (bu fəaliyyətin ümumiləşdirilmiş adı); **2)** cinayət prosesinin formalaşması və inkişaf qanunauyğunluqlarını, onun əsas anlayışlarını və prinsiplərini, normativ qaydaları və onların həyata keçirilməsini və i.a. öyrənən müstəqil hüquq elmi sahəsi.

**"Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında cinayət işi üzrə zərər çəkən şəxslərin, şahidlərin və cinayət prosesində iştirak edən digər şəxslərin təhlükəsizliyinin təmin edilməsi və sosial müdafiəsini nəzərdə tutan tədbirlər sistemini müəyyənləşdirən qanunvericilik aktı.

Bu qanun 1998-ci il 1 dekabr tarixdə qəbul edilmişdir. O, beş fəsil və 24 maddədən ibarətdir.

**Cinayət prosesini həyata keçirən orqanlar** – cinayət-prosessual qanunvericiliyə görə icraatında cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallar olan təhqiqat, istintaq, prokurorluq orqanları və ya məhkəmələr.

**Cinayət prosesinin funksiyaları** – cinayət prosesinin müstəqil subyektləri tərəfindən həyata keçirilən cinayət-prosessual fəaliyyətin əsas istiqamətləri. Cinayət prosesində 3 əsas c.p.f. fərqləndirilir: 1) ittiham funksiyası; 2) müdafiə funksiyası; 3) işi həlletmə funksiyası. İttiham funksiyası cinayət məsuliyyətinə cəlb edilən şəxsi cinayəti törətməkdə ifşa edən və ona qanuni və ədalətli cəza təyin edilməsini təmin edən prosessual fəaliyyətdən ibarətdir. İttihamı təkzib etmək, təqsirləndirilən şəxsə bəraət qazandırmaq və ya onun məsuliyyətini yüngülləşdirmək məqsədilə həyata keçirilən prosessual fəaliyyət müdafiə funksiyasının məzmununu təşkil edir. İşi həlletmə funksiyası cinayət məsuliyyətinə cəlb edilmiş şəxsin təqsirli bilinib cinayət cəzasını məhkum edilməsindən ibarətdir.

**Cinayət prosesinin iştirakçıları** – qanunla onlara verilən hüquq və vəzifələrdən istifadə etməklə müəyyən cinayət-prosessual funksiyanı həyata keçirən dövlət orqanları, vəzifəli şəxslər, ictimai təşkilatlar və

vətəndaşlar. C.p.i. müəyyən cinayət-prosessual funksiyanı həyata keçirən subyektlərdir. Yəni onlar cinayət-prosessual fəaliyyətin subyektləri hesab olunurlar. Cinayət prosesini həyata keçirən orqanlar prokurorluq, istintaq, təhqiqat və məhkəmə orqanları; cinayət mühakimə icraatı gedişində müəyyən prosessual fəaliyyəti həyata keçirən ayrı-ayrı vətəndaşlar – təqsirləndirilən, şübhə edilən və zərər çəkən şəxs, müdafiəçi, mülki iddiaçı və mülki cavabdeh, qanuni nümayəndələr c.p.i. hesab olunurlar.

**Cinayət prosesinin mərhələləri** – hər bir konkret cinayət işi üzrə icraatın keçdiyi mərhələlər. Bu mərhələlərdən hər biri cinayət mühakimə icraatı qarşısında duran ümumi vəzifələrdən irəli gələn konkret vəzifələrə malik olmaqla, cinayət-prosessual hərəkətlərin, prosessual münasibətlərin və bunların prosessual cəhətdən rəsmiləşdirilməsinin xüsusiyyətləri ilə səciyyələndirilir. C.p.m. aşağıdakılardır: 1) cinayət işi başlama; 2) təhqiqat və ibtidai istintaq (ibtidai araşdırma); 3) məhkəməyə vermə; 4) məhkəmə baxışı və hökmün çıxarılması; 5) apellyasiya və kassasiya qaydasında icraat; 6) yeni açılmış hallara görə icraat.

**Cinayət prosesinin tərəfləri** – cinayət-prosessual qanunvericiliyə görə çəkişmə və hüquq bərabərliyi əsasında məhkəmə baxışında ittihamı və müdafiəni həyata keçirən cinayət prosesinin iştirakçıları.

**Cinayət-prosessual forma** – cinayət işinin başlanmasından hökmün icra edilməsinə və ya icraya yönəldilməsinədək cinayət prosesinin hər bir mərhələsinin, həmçinin ayrı-ayrı istintaq və məhkəmə hərəkətlərinin həyata keçirilməsinin şərtlərini, qaydasını və ardıcıllığını müəyyən edən forma. C.-p.f. prosessual qanunvericilik normaları ilə tənzim edilir.

**Cinayət-prosessual hüquq** – təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının cinayət işlərinin başlanması, istintaqı, məhkəmədə baxılması və həll edilməsi üzrə fəaliyyətini və bu fəaliyyətdən yaranan prosessual münasibətləri tənzimləyən hüquq normalarının məcmusu. C.-p.h.-un müəyyənedici və tənzimedici rolu bununla müəyyən edilir ki, o, cinayət işlərinin icraatı üzrə fəaliyyətin vəzifələrini, bunu həyata keçirən dövlət orqanlarının, vəzifəli şəxslərin və icraatda iştirak edən bütün digər şəxslərin səlahiyyətlərini və vəzifələrini, cinayətin açılması, cinayətkarların cəzalandırılması vasitələrini və tədbirlərini, bu tədbirlərin tətbiq edilməsi şərtlərini, əsaslarını və qaydalarını müəyyən edir. C.-p.h. cinayətlərin istintaqı və məhkəmədə həll edilməsi üzrə təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının fəaliyyətini tənzim etməklə yanaşı, həmin fəaliyyətin həyata keçirilməsinin prosessual qayda və formalarını da tənzimləyir.

**Cinayət-prosessual qanun** *(bax: cinayət-prosessual qanunvericilik).*

**Cinayət-prosessual qanunvericilik** – cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamasını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi prosedurlarını müəyyən edən qanunvericilik aktı. C.-p.q. AR-in CPM-indən ibarətdir.

**Cinayət-Prosessual Məcəllə** – Azərbaycan Respublikasında cinayətin əlamət-







lərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamasını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi qaydalarını müəyyənləşdirən sistemləşdirilmiş qanunvericilik aktı.

AR CPM Azərbaycan Respublikasının 2000-ci il 14 iyul tarixli qərarı ilə təsdiq edilmiş və 2000-ci il sentyabrın 1-də qüvvəyə minmişdir. O, ümumi və xüsusi hissələrdən, on bir bölmədən, əlli səkkiz fəsil və 521 maddədən ibarətdir.

**Cinayət-prosessual təminatlar** – ədalət mühakiməsinin təminatları. Bu təminatlar cinayət prosesi iştirakçılarının hüquqlarını və qanuni mənafelərini təminetmə vasitəsi kimi çıxış edirlər. Həmin təminatlar cinayət prosesi iştirakçılarının hər birinin mənafeyinə xidmət edir və cinayət mühakimə icraatının mahiyyətindən irəli gəlir. C.-p.t. öz məzmununa görə müxtəlifdir. Məsələn, təqsirləndirilən şəxsə ittihamda tam və konkret elan, onun mahiyyətini izah etmək, ittihamla edilən hər hansı dəyişiklik barəsində ona xəbər vermək, ittiham elan edildikdən sonra təqsirləndirilən şəxsi dərhal dindirmək, təqsirləndirilən şəxsin məsuliyyətini yüngülləşdirən hallar barədə məlumatı olan şahidi (şahidləri) dindirmək, kimin ekspert təyin edilməsi haqqında onu xəbərdar etmək və i.a. c.-p.t.-a. aid edilə bilər. Bu təlimatların reallaşması müstəntiqin vəzifəsinə daxildir.

**Cinayət-statistik müşahidə (cinayətkarlığın müşahidəsi)** – cinayətkarlığa kriminoloji nəzarətin mürəkkəb çoxmərhələli prosesi. Bu müşahidə prosesində 3 məcburi mərhələ fərqləndirilir: 1) cinayətkarlığın statistik müşahidəsi və ya onun haqqında məlumatların toplanması və onların qeydiyyatı; 2) toplanmış məlumatların qruplaşdırılması; 3) statistik məlumatların tədqiq və təhlil edilməsi. Statistik müşahidə işlənib hazırlanmış plan üzrə həyata keçirilir. Plan aşağıdakıları nəzərdə tutur: a) c.-s.m.-nin məqsəd və vəzifələrinin müəyyən edilməsi; b) onun obyektinin (cinayətin, cinayətkarın, bunlara təsir tədbirlərinin) müəyyən edilməsi; c) cinayətin ilkin informasiya mənbəyinin seçilməsi və i.a. Toplanmış məlumatların qruplaşdırılması C.-s.m.-nin ikinci mərhələsidir. O, ölçü vahidlərinin, yəni cinayətlərin kartoçkalarında onları törətmiş şəxslərin sistemləşdirilməsini nəzərdə tutur. C.-s.m.-nin üçüncü mərhələsini təşkil edən statistik məlumatların tədqiq və təhlil edilməsi yekun mərhələdir və onun köməyilə əldə edilmiş nəticələr (göstəricilər) ümumiləşdirilir.

**Cinayət təqibi** – cinayət-prosessual qanunvericiliyə görə cinayət hadisəsinin müəyyən edilməsi, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin ifşa olunması, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin təmin edilməsi məqsədilə həyata keçirilən cinayət-prosessual fəaliyyət.

**Cinayət təqibini istisna edən hallar** – cinayət-prosessual qanunvericiliyə uyğun olaraq iş üzrə icraatı rədd edən, yaxud başlanmış icraata xitam verilməsini zəruri edən hallar. AR CPM-in 39-cu maddəsinə uyğun olaraq aşağıdakı hallarda cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət tə-

qibinə isə xitam verilməlidir (o cümlədən cinayət işi başlana bilməz, başlanmış cinayət işi üzrə icraata isə xitam verilməlidir): 1) cinayət hadisəsi olmadıqda; 2) əməldə cinayət tərkibi olmadıqda; 3) cinayət məsuliyyətinə cəlbetmə müddətləri keçdikdə; 4) cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin baş verdiyi anda onu törətmiş şəxs cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmadıqda; 5) şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətdikdən sonra öldükdə; 6) şəxs barəsində eyni ittiham üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya digər məhkəmənin cinayət təqibini qeyri-mümkün edən ləğv edilməmiş qərarı olduqda; 7) şəxs barəsində eyni ittiham üzrə təhqiqatçının, müstəntiqin və ya prokurorun cinayət işi başlanmasının rədd edilməsi və ya xitam verilməsi haqqında ləğv edilməmiş qərarı olduqda; 8) zərər çəkmiş şəxsin şikayəti olmadıqda; 9) zərər çəkmiş şəxslə təqsirləndirilən şəxs barışdıqda; 10) şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli anlaqsız vəziyyətdə törətdikdə; 11) cinayət qanunu müddəalarının qüvvəsinə görə şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün əsaslar olduqda; 12) amnistiya aktına əsasən şəxs cinayət məsuliyyətindən azad edilməli olduqda. Hər hansı şəxs barəsində başlanmış cinayət təqibinə həmçinin onun cinayət törədilməsinə aidiyyəti olmadıqda və ya təqsirliliyi sübuta yetirilmədikdə xitam verilir. AR CPM-in 39.1.1, 39.1.2. və 39.2-ci maddələrində nəzərdə tutulmuş hallarda cinayət təqibi bəraətverici əsaslarla xitam edilmiş hesab olunur.

**Cinayət törətməkdən könüllü imtina etmə** – başa çatmayan (çatdırılmayan) cinayət. AR CM-in 30.1-ci maddəsinə uyğun olaraq cinayəti başa çatdırmaq imkanına malik olduğunu dərk edən tərəfindən cinayətə hazırlıq hərəkətlərinin və ya bilavasitə cinayət törətməyə yönəldilmiş əməlin (hərəkət və ya hərəkətsizliyin) dayandırılması cinayəti törətməkdən könüllü imtina etmə sayılır. Cinayəti başa çatdırmaqdan könüllü olaraq qəti imtina edən şəxs cinayət məsuliyyətinə cəlb olunmur. Həmin şəxs yalnız o halda cinayət məsuliyyətinə cəlb olunur ki, onun törətdiyi əməldə başqa bir cinayətin tərkibi olsun. Cinayətin təşkilatçısı və cinayətə təhrikçi müvafiq dövlət hakimiyyəti orqanlarına vaxtında məlumat verməklə və ya digər tədbirlər görməklə icraçı tərəfindən cinayətin başa çatdırılmasını aradan qaldırdıqları halda cinayət məsuliyyətinə cəlb olunmurlar. Köməkçi, bilavasitə cinayət törətməyə yönəlmiş əməllər başlananadək icraçıya qabaqcadan vəd olunmuş köməkdən imtina etmişdirsə və ya artıq göstərilmiş köməyin nəticələrini aradan qaldırmışdırsa, cinayət məsuliyyətinə cəlb olunmur. Təşkilatçı və ya təhrikçi AR CPM-in 30.4-cü maddəsi ilə nəzərdə tutulan hərəkətləri ilə icraçı tərəfindən cinayətin törədilməsinin qarşısını ala bilmədikdə, məhkəmə cəza təyin edərkən onların hərəkətlərini yüngülləşdirici hal hesab edə bilər.

**Cinsi cinayətlər** – cinsi toxunulmazlığa qarşı edilən cinayətkar qəsdlər. Azərbaycan Respublikasının cinayət qanunvericiliyi cinsi cinayətlərə aşağıdakı cinayətkar qəsdləri daxil edir: 1) zorlama (AR CM-in 149-cu maddəsi); 2) seksual xarakterli zorakılıq hərəkətləri (150-ci maddə); 3) seksual xarakterli hərəkətlərə məcbur etmə (151-ci maddə); 4) on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə (152-ci maddə); 5) əxlaqsız hərəkətlər (153-cü maddə). Bu kateqoriyadan olan əməllər şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər kimi sistemləşdirilir (AR CM-in 20-ci fəsli).







**Cirə** – XVI yüzillikdə Azərbaycan Səfəvilər dövlətində sənətkarlara güzəşt qismində verilən ərzaq payı. Bu pay şahın emalatxanasında işə şahın fərmanı ilə qəbul edilən şəxslərə verilirdi. Bu şəxslər bəzi imtiyazlara malik olmaqla yanaşı, həmçinin də sənətkarlıq təşkilatlarında birləşmiş sənətkarlardan fərqli olaraq xüsusi vergi növü olan "boniçə"dən azad idilər.

**Cismani cəza** – quldarlıq və feodal hüququnda mövcud olmuş cəza tədbiri. C.c. məhkuma fiziki əziyyət, işgəncələr verməkdən ibarət idi. Belə cəza tədbirlərinə əli, qolu, əl barmaqlarını, ayağı, dili, qulağı (qulaqları) kəsmək, burun pərələrini qoparmaq, gözü (gözləri) çıxarmaq, qamçı və ya çubuq, həmçinin qırmanc zərbələri (bəzən ölüncəyədək), damğalamaq, daşqalaq etmək, şaqqalamaq və i.a. aid idi.

**Cizyə** – Şərq ölkələrinin qeyri-müsəlman əhalisindən tutulan can vergisi. XVIII yüzilliyin sonunda Osmanlı imperiyasında xəracla qarışmışdır.

**Coğrafi opsion** – fraxtçının çarterdə göstərilən limanlar içərisindən yükləmə və ya boşaltma limanını seçmək hüququ. Bu hüquqdan (şərtdən) çarterdə müəyyən edilmiş müddətdən gec olmayaraq ilkin verməklə ərizə yalnız bir dəfə istifadə oluna bilər. Əlverişli şəraitdə və malların yüklənməsi, boşaldılması proqramının aydın olmadığı vaxt tonnajların kütləvi fraxtında c.o. geniş tətbiq edilir.

**Coğrafi rotasiya** – yüklənmiş gəminin istiqaməti və ya onun gedişi istiqamətində bir neçə limanda boşaldılması haqqında çarter şərti. Şərtləşdirilmiş limanlardan biri ilkin boşaltma və geri qayıtma limanı olduqda, c.r. birbaşa da ola bilər.

**Cunta** *(ita. junta)* – yerli özünüidarənin İtaliya sistemində kommunaların, əyalətlərin şuraları və vilayətlərin müşavirləri tərəfindən seçilən inzibati kollegial (icra orqanı) orqan. C. öz fəaliyyəti barəsində şuranın hər bir iclasında məlumat verir. Vilayət və əyalətlərin sədrləri şurada sədrlik edir, onun aktlarını elan edir və gündəlik işlərə rəhbərliyi həyata keçirirlər.

**Cütbaşı (cüfbaşı, cütpulu)** – orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda mövcud olmuş vergi. Mövsüm ərzində bir cüt öküzlə şumlanmış əkin sahəsinin məhsuluna görə alınırdı. Natura bəzən də pulla toplanırdı. II Şah Abbasın (1642-1666) 1656-cı il fərmanına əsasən soyurqal torpaqlarından c. alınmırdı.

# -Ç-

Çağırış icraatı ..... 239
Çağırış vərəqəsi ..... 239
Çar ..... 239
Çarter ..... 239
Çay qaiməsi ..... 239
Çay nəqliyyatı ..... 239
Çek ..... 239
Çek aksepti ..... 239
Çek balansı ..... 239
Çekin məzmunu ..... 239
Çek kitabçası ..... 240
Çek sahibi ..... 240
Çek vizası ..... 240
Çek zaminliyi (aval) ..... 240
Çeşid ..... 240
Çəkişmə prinsipi ..... 240
Çəpərləmə ..... 240
Çərçi ..... 241
Çərxçi ..... 241
Çərik ..... 241
Çingiz xanın Yasası ..... 241
Çinş ..... 241
Çinşeviklər ..... 241
Çinş hüququ ..... 241
Çoxarvadlılıq ..... 241
Çoxdərəcəli seçkilər ..... 241
Çoxərlilik ..... 241
Çoxnikahlılıq ..... 241
Çoxpartiyalılıq ..... 241
Çoxtərəfli beynəlxalq müqavilələr ..... 242
Çoxtərəfli əqdlər ..... 242
Çoxvətəndaşlıq ..... 242
Çöpbaşı ..... 242





**Çağırış icraatı** – itirilmiş təqdimedici sənədlərə dair hüquqların bərpa olunmasının məhkəmə qaydası. Ç.i. xüsusi icraatın bir növüdür. Onun məqsədi təqdimedici sənədi itirmiş şəxsin hüquqlarını müdafiə etməkdən ibarətdir. İki növ sənəd itdikdə ç.i. aparılır: 1) təqdimedici əmanət kitabçası; 2) dövlət istiqraz vərəqələrinin saxlanmağa verilməsi haqqında saxlama şəhadətnaməsi.

**Çağırış vərəqəsi** – məhkəmənin çağırış vərəqəsi; məhkəməyə çağırış haqqında rəsmi bildiriş. Ç.v.-ndə onun kimə göndərildiyi, hansı qisimdə çağırıldığı və haraya göndərildiyi, çağırılan şəxsin nə vaxt (hansı gündə, saat neçədə) və kimin yanına, yaxud haraya gəlməsi göstərilir. Ç.v.-ndə gəlməmənin nəticələri də göstərilir. Vətəndaşın müstəntiqin (təhqiqatçının) yanına gəlməsi də ç.v. ilə rəsmiləşdirilir.

**Çar** *(lat. caesar – sezar)* – Roma imperatorlarının titulu. Ç. titulu 1547-1721-ci illərdə Rusiyada dövlət başçılarının rəsmi titulu olmuşdur. Bolqarıstanda monarxlar XIX yüzilliyin sonundan başlayaraq bu ölkədə xalq respublikası elan edilənədək – 1946-cı ilədək ç. titulunu daşımışdır.

**Çarter** *(ing. charter)* – beynəlxalq dəniz ticarətində yükdaşıma müqaviləsinin bir növü. Çarter müqaviləsinə görə bütün gəminin, onun bir hissəsinin və ya gəmidə müəyyən yerlərin verilməsi şərtləri ilə müəyyən edilir. Ç. müqaviləsi çarter adlanan sənədlə rəsmiləşdirilir. Beynəlxalq hava yollarında ç. hava gəmisinin bütövlükdə, yaxud onun bir hissəsinin sərnişin, yük, poçt daşıması üçün və ya digər məqsədlərlə fraxtı haqqında müqavilədir.

**Çay qaiməsi** – yük daşıyan tərəfindən çayla yükgöndərənə təqdim edilən nəqliyyat sənədi; yükün qəbulunu təsdiq edir və yükdaşıyanın üzərinə yükü təyinat limanında yükalana vermək vəzifəsini qoyur.

**Çay nəqliyyatı** – əsasən daxili – həm təbii (çay, göl), həm də süni (kanal, su anbarı) su yolları ilə yük və sərnişin daşıyan nəqliyyat növü. Ç.n. bir neçə dövlətin xarici ticarət daşımalarına xidmət edən magistral, o cümlədən beynəlxalq (məsələn, Dunay), ölkə daxilində iri rayonlar arasındakı daşımalara xidmət edən rayonlararası (məsələn, Volqa) və rayondaxili əlaqələrə xidmət edən (məsələn, Kür) çay yollarına ayrılır.

**Çek** *(ing. chesk – veksel, müqavilə, sənəd)* – orderli qiymətli kağız; ifadə etdiyi pul məbləğinin çek sahibinə ödənilməsi barədə çek verənin banka verdiyi və heç nə ilə şərtləşdirilməyən yazılı sərəncamından ibarətdir.

**Çek aksepti** – çeklərin verilməsinə bankın verdiyi razılıq; bir sıra ölkələrin, məsələn, ABŞ-ın qanunvericiliyində nəzərdə tutulmuşdur.

**Çek blankı** – tipoqrafiya üsulu ilə hazırlanan və çeklərin yazılması üçün nəzərdə tutulan sənəd forması. Ç.b. özündə məcburi rekvizitləri - "çek"in sənədin mətninə daxil edilmiş adını; ödəyicinin konkret pul məbləğinin ödəmə tapşırığını; hesabın nömrəsini və ödəyicinin adını və i.a. ehtiva etməlidir. Rekvizitlər əl ilə doldurulmalıdır.

**Çekin məzmunu**– çekdə göstərilən rekvizitlər. Çekdə aşağıdakı rekvizitlər göstərilməlidir: 1) sənədin mətninə daxil edilmiş "çek" adı; 2) müəyyən pul məbləğini ödəmək barədə sadə və heç nə ilə şərtləşdirilməyən tapşırıq; 3) ödənişi icra etməli olan bankın adı; 4) ödəniş yeri; 5) çekin tərtib edildiyi yer və tarix; 6) çek verənin (çek sahibinin) imzası. AR MM-in 1049.3-

cü maddəsinə uyğun olaraq bankların yalnız elə çek blankları verməsinə icazə verilir ki, orada mətbəə üsulu ilə çap edilmiş aşağıdakı məlumatlar olsun: ödəyici bankın adı, ünvanı və telefon nömrəsi; çek verənin (çek sahibinin) adı və ünvanı; ödəyici bankın hesab nömrəsi.

**Çek kitabçası** – çek formulyarlarının risaləşdirilmiş (broşürolaşdırılmış) bloku. Ç.k. əmanətçiyə hesabın açıldığı zaman verilir. Müştəri çeklərin köməyi ilə nəinki cari hesabdan nağd pulları ala, həm də digər fiziki və hüquqi şəxslərlə bilavasitə hesablaşa bilər. Çeklər, bir qayda olaraq, tipoqrafik üsulla xüsusi kağızda hazırlanmış xüsusi blanklarda rəsmiləşdirilir və ardıcıl nömrələrlə təchiz olunurlar. Bank çeklərindən fərqli olaraq onları "Çek kitabçası çekləri" adlandırırlar.

**Çek sahibi** – çek verən şəxs. Müəyyən şəxsə verilmiş və ödənişə təqdim olunmuş çek indosamment vasitəsi ilə başqa şəxsə verilə bilər. Ç.s. çeki itirdikdə, əlində çek olan şəxs, onun adsız çek və ya indosamment vasitəsi ilə verilən çek olmasına baxmayaraq, çeki yalnız o halda qaytarmağa borcludur ki, onu vicdansız yolla əldə etmiş olsun və ya əldə edərkən kobud ehtiyatsızlıq etmiş olsun.

**Çek vizası** – bank-ödəyicinin çekverənin hesabına həmin çek üzrə nağd ödəməsi barədə qeydi. Hazırda praktiki olaraq tətbiq edilmir.

**Çek zaminliyi (aval)** – qiymətli kağızlarla hesablaşmaların bir növü. AR MM-in 1057-ci maddəsinə uyğun olaraq çek məbləğinin ödənişinə avalçı tərəfindən aval (çek zaminliyi) vasitəsilə tamamilə və ya qismən qarantiya verilə bilər. Ödənişə belə qarantiyanı, ödəyici bank istisna olmaqla, hər hansı üçüncü şəxs və ya artıq çekdə imzası olan şəxs verə bilər.

**Çeşid** – ayrı-ayrı əlamətlərə görə fərqlənən məhsulun və malların növlərinin siyahısı. Ç. (nomenklatura) qrup çeşidinə və müfəssəl çeşidə bölünür. Qrup çeşidi müxtəlif növ istehsal-texniki təyinatlı məhsulların və xalq istehlakı mallarının siyahısıdır. Müfəssəl çeşid dedikdə, ayrı-ayrı əlamətlərinə (markasına, yönümünə, artikuluna, naxışına, reseptinə, qablaşdırılmasına və i.a.) görə fərqləndirilən məhsulların və malların tərkibi nəzərdə tutulur.

**Çəkişə prinsipi** - mülki işə hərtərəfli və düzgün baxılması və onun həlli üçün zəruri olan faktiki və sübutedici materialların tamlığını təmin edən prinsip. Ç.p. özündə 2 mühüm komponenti ehtiva edir. Hər şeydən əvvəl, cinayət prosesindən fərqli olaraq mülki prosesdə işin faktiki hallarının aşkar edilməsi vəzifəsi hər hansı dövlət orqanının və ya vəzifəli şəxsin iştirakını nəzərdə tutmur. Digər tərəfdən isə mülki prosesdə *sübut etmək vəzifəsi tərəflərin* (iddiaçı və cavabdehin) üzərinə düşür.

**Çəpərləmə** *(ing. enclosures)* – icma torpaqlarının və qaydalarının spesifik ləğvi forması; kəndlilərin kütləvi ekspropriasiyası (ilkin kapital yığımının əsası) formalarından biri. Ç. klassik formada XIII yüzilliyin sonu – XIX yüzilliyin əvvələrində İngiltərədə mövcud olmuşdur. XVII yüzillikdə İngiltərə burjua inqilabından sonra, aqrar münasibətlərin kapitalistcəsinə formalaşması gedişində daha da güclənmişdir. XVIII yüzillikdə ç. prosesinə parlament müdaxilə etmiş və onun barəsində bir sıra xüsusi aktlar verməklə onu leqallaşdırmışdır. Ç. Niderland, Fransa və Almaniyada da geniş yayılmışdır.





**Çərçi** – XX yüzilliyin əvvəlində Azərbaycanda xırdavat alveri ilə məşğul olan səyyar satıcı. Ç. şəhər dükanlarından və iri tacirlərdən borc, yaxud nağd pulla alınmış xırdavat (ədviyyat, boyaq iynə-sap, qayçı və i.a.) və digər məişət ləvazimatlarını qazancla kənd əhalisinə satmaqla məşğul olurdu.

**Çərxçi** – orta əsrlərdə Azərbaycanda, o cümlədən bəzi qonşu Yaxın Şərq ölkələrində xüsusi hərbi süvari dəstənin döyüşçüsü. Osmanlı imperiyasında çorxəçi adlanırdı. Ç. dəstələri təcrübəli və cəsur döyüşçülərdən təşkil edilirdi.

**Çərik** – orta əsrlərdə Yaxın Şərqin bir sıra ölkələrində, o cümlədən Azərbaycanda qeyri-nizami döyüşçü dəstəsi. Müharibə vaxtı ayrı-ayrı vilayətlərdən yerli feodalın başçılığı ilə ordunun köməyinə göndərilən ç.-lər adətən hərbi təlim keçməyən şəxslərdən təşkil edilirdi.

"Köməkçi qoşun", "başıpozuq", "könüllü ləşkər", "çətə", "sərazad" və i.a. da adlanırdı. Ç. dəstələrinin üzvləri müharibə qurtardıqdan sonra öz yerlərinə qayıdırlar.

**Çingiz xanın Yasası** – monqol adət hüququnun toplusu. Yasa Çingiz xan tərəfindən onun 1206-cı ildə Böyük Xaqan seçilməsindən sonra tərtib edilmişdir. Yasa erkən feodal monarxiyasının tipik məcəlləsi olmuşdur. O, monqol dövlətinin daha möhkəm birləşməsinə xidmət etmişdir. Ç.x.Y. Qızıl Ordada da qüvvədə olmuşdur (Ordanın islamlaşdırılmasınadək). Yasa monqol hüququnun sonrakı abidələrindən biri olmuşdur. Ç.x.Y. Azərbaycanda (monqol istilası dövründə) da fəaliyyət göstərmişdir.

**Çinş** *(pol. czynsz)* – feodal Avropasında senyora məhsul və ya pul formasında müntəzəm olaraq ödənilən töycü.

**Çinşeviklər** – XIX yüzillikdə Litvada və Belarusiyanın Rusiyaya bitişik olan Qərb rayonlarında şəxsən azad olan kəndlilər *(həmçinin bax: çinş hüququ)*.

**Çinş hüququ** – XIII-XVI yüzilliklərdə Avropa ölkələrində torpaq mülkiyyətinin xüsusi növünü (torpaq sahibləri olan feodal-senyorlarla kəndlilər arasında münasibətləri) tənzim edən hüquq normalarının məcmusu. Torpaq saxlayan kəndlilər çinşeviklər *(bax: çinşeviklər)* adlanırdılar. Feodallar məhz ç.h. əsasında öz torpaqlarını uzunmüddətli istifadəyə verirdilər. Bu hüquq irsi torpaqlardan müddətsiz istifadəni də möhkəmləndirirdi. Torpaq mülkiyyəti formasını tənzimləyən ç.h. əmtəə-pul münasibətlərinin inkişafı ilə öz əhəmiyyətini itirməyə başlamışdır.

**Çoxarvadlılıq** *(bax: ikiarvadlılıq)*.

**Çoxdərəcəli seçkilər** – seçki sistemi. Bu sistemə görə nümayəndəli orqanın deputatlarını, dövlət başçısını seçicilər bilavasitə seçmir. Onlar yalnız sonrakı səsvermədə iştirak etmək üçün nümayəndələri (seçiciləri) seçirlər. Məsələn, ABŞ-ın prezidenti belə seçki (dolayı seçkilər) yolu ilə seçilir.

**Çoxərlilik** – nikahın ən qədim tarixi formalarından biri *(bax: poliqamiya)*.

**Çoxnikahlılıq** *(bax: poliqamiya)*.

**Çoxpartiyalılıq** – müasir demokratik dövlətlərdə cəmiyyətin siyasi həyatının təşkilinin əsas konstitusiya prinsiplərindən

biri; siyasi və ideoloji plüralizm prinsipinin ən ümumi ifadəsindən ibarətdir. Bu prinsip ilk dəfə olaraq Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir. Konstitusiyanın 58-ci maddəsində elan edilir ki, "hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir. Heç kəs hər hansı birliyə daxil olmağa və ya onun üzvlüyünə daxil olmağa məcbur edilə bilməz. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər".

**Çoxtərəfli beynəlxalq müqavilələr** – beynəlxalq hüququn ikidən çox subyektinin iştirak etdiyi, qoşulduğu müqavilələr. Ç.b.m. aşağıdakılara bölünür: 1) universal müqavilələr – iştirakçıları dövlətlərin mütləq əksəriyyətindən ibarət olan və beynəlxalq birliyin mənafelərini əks etdirən müqavilələr; 2) regional müqavilələr – regional beynəlxalq təşkilatların yaradılması, yaxud ayrı-ayrı ərazilərdə müəyyən məsələlər üzrə dövlətlərin münasibətlərinin reqlamentləşdirilməsi məqsədindən ibarət olan müqavilələr; 3) BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq bağlanan kollektiv özünümüdafiə müqavilələri; 4) ayrı-ayrı məsələlər üzrə dövlətlər arasında münasibətləri reqlamentləşdirən müqavilələr.

**Çoxtərəfli əqdlər** *(bax: əqdlər).*

**Çoxvətəndaşlıq** – şəxsin eyni vaxtda iki (ikili vətəndaşlıq, bipatrizm) və ya daha çox dövlətin vətəndaşlığına mənsubiyyəti. Ç. həm doğum, həm də başqa şəxsin dövlətin vətəndaşlığına qəbulu nəticəsində yarana bilər. Ç. məsələsi ayrı-ayrı ölkələrin konstitusiya hüququnda müxtəlif cür həll edilir. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsində müəyyən edilir ki, "Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır." Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır". Azərbaycan Respublikasında yüksək dövlət vəzifələrini ancaq Azərbaycan Respublikasının vətəndaşı olan şəxslər tuta bilərlər.

**Çöpbaşı** – Azərbaycanda xanlıqlar dövründə (XVIII yüzilliyin II yarısı – XIX yüzilliyin əvvəlləri) yaylaq və qışlaqlarda otlaq sahiblərinin mal-qaranın otarılmasına görə maldarlardan aldıqları vergi. Ç. əsasən pul formasında ödənilirdi. Vergi başlıca olaraq otlaq ərazisinə görə alınırdı. Quba, Şamaxı, Bakı xanlıqlarında daha geniş yayılmışdı.





# -D-


Dağ qoşunları ........ 249
Dağ-mədən hüququ ........ 249
Dağ-mədən vergisi ........ 249
Daxau ........ 249
Daxili audit ........ 249
Daxili dəniz suları ........ 249
"Daxili kabinet" ........ 249
Daxili qoşunlar ........ 249
"Daxili qoşunların statusu haqqında" qanun ........ 249
Daxili qüsurlar ........ 249
Daxili lizinq ........ 250
Daxili sular ........ 250
Daxili Təhlükəsizlik Komissiyası ........ 250
Daxili ticarət ........ 250
Daxili veksel ........ 250
Daimi bitərəflik (neytrallıq) ........ 250
Daimi nümayəndəlik ........ 250
Daimi ordu ........ 250
Daimi renta ........ 250
Daimi renta alan ........ 251
Dairə ........ 251
Dairə məhkəmələri ........ 251
Daktiloskopik iz ........ 251
Daktiloskopiya ........ 251
"Damazlıq işi haqqında" qanun ........ 251
Damğalama ........ 252
Daminifikasiya ........ 252
Damno ........ 252
Dampinq ........ 252
Dampo ........ 252
Danda ........ 252
Dandaniti ........ 252
Daosizm ........ 252
Dar əl-hərb ........ 252
Dar əs-sülh ........ 253
Daruğa, daruqə ........ 253
Daruğalıq (darğalıq) ........ 253
Daşıma müqaviləsi ........ 253
Daşınar əmlak ........ 253
Daşınmaz əmlak ........ 253
Daşınmaz əmlakla birləşmiş daşınar əmlak ........ 253
Daşqalaq ........ 254
Davam edən cinayətlər ........ 254
Davranış ........ 254
Davranış məcəllələri ........ 254
Dayə ........ 254
Dayı ........ 254
Daym ........ 254
Daymə ........ 254
Debentura ........ 254
Debet ........ 254
Debet qalığı ........ 255
Debet memorandumu ........ 255
Debillik ........ 255
Debitor ........ 255
Debitor borcu ........ 255
Debrifinq ........ 255
De-fakto ........ 255
Defeksiya ........ 255
Defisit ........ 255
Deflyasiya ........ 255
Dekadaktiloskopiya ........ 255
Dekan ........ 255
Dekort ........ 256
Dekret ........ 256
Dekretali ........ 256
Dekret-qanunlar ........ 2[illegible]
Dekretləşdirmə ........ 256
Dekret məzuniyyəti ........ 256
Dekriminallaşdırma ........ 256
Dekurionlar (kurialllar) ........ 256
Dekuver ........ 256
Delegiya qanunvericiliyi ........ 256
Delfi metodu ........ 257
Delikt ........ 257
Delikt hüququ ........ 257

Delikt qabiliyyəti 257
Delikt məsuliyyəti 257
Delikt öhdəliyi 257
Delimitasiya 257
Delinkvent 257
Delinkvent davranış 257
Delinkventlik 258
Delinkvent mənsəb 258
Delistinq 258
Delkredere 258
Demaqogiya 258
Demaqoq 258
Demarkasiya 258
Demarkasiya xətti 258
Demarketinq 259
Demarş 259
Demerec 259
Demilitarizasiya 259
Demilitarizasiyalaşdırılmış zona 259
Demokratikləşdirmə 259
Demokratiya 259
Demoqrafiya 260
Demonetizasiya 260
Demos 260
Demping 260
Denasifikasiya 260
Denaturallaşdırma 260
Dendroloji parklar və botanika bağları 261
Denominasiya 261
Denonsasiya 261
Departament 261
Departizasiya 261
Depo 261
Depolitizasiya 261
Deponent 262
Deponent edilmiş akkreditiv 262
Deponentləşdirmə 262
Deport 262
Deportasiya 262
Depozit 262
Depozitar fəaliyyət 262
Depozitari 262
Depozitar kitabxana 263
Depozitar müqavilə 263
Depozitar trast-şirkət 263
Depozit bankları 263
Depozit əməliyyatları 263
Depozit institutları 264
Depozit kassası 264
Depozit müqaviləsi 264
Depozitor 264
Depozit sertifikatı 264
Depozit şəhadətnaməsi 264
Depressiv vəziyyət 264
Depressiya 264
Deputasiya 264
Deputat 264
Deputat etikası 264
Deputat fəaliyyəti 265
Deputat fəaliyyətinin formaları 265
Deputatın geri çağırılması 265
Deputatın statusu 265
Deputat korpusu 265
Deputat qrupları 265
Deputatların intizam məsuliyyəti 265
Deputatlar palatası 265
Deputat mandatı 265
Deputat sorğusu 265
Deputat toxunulmazlığı 266
Dermatoqlifika 266
Deroqasiya 266
Desant 266
Desant gəmiləri 266
Deseqreqasiya 266
Desemvirlər 266
Desimasiya 266
Desosiallaşmış ailə 266
Despot 266
Despotat 266
Despotiya 267
Despotizm 267
Desyatin 267
Deşarj məktub 267
Detektiv 267
Detektiv ədəbiyyat 267
Determinantlar 267
Determinasiya 267
Determinizm 267
Devalvasiya 267
Deviant 268
Deviant davranış 268
Deviantlıq 268
Deviasiya 268
Devizlər 268
Devolyusiya 268





De-yure 269
Dezadaptasiya 269
Dəbbə pulu 269
Dəfinə 269
Dələduzluq 269
Dəllal 269
Dəmiryol daşımaları 270
Dəmiryol nəqliyyatı 270
Dəmiryol nəqliyyatı torpaqları 270
Dəmir yolu 270
Dəmir yolu qaiməsi 270
Dəniz agentləşdirməsi 270
Dəniz Arbitraj Komissiyası (DAK) 270
Dəniz brokeri 270
Dəniz dəhlizləri 270
Dənizdə kömək göstərməmə 270
Dəniz hüququ 271
Dəniz quldurluğu 271
Dəniz nəqliyyatı 271
Dəniz piyadası 271
Dəniz protesti 271
Dəniz sığortası 272
Dəniz vasitəçiliyi 272
Dərviş ordenləri 272
Dəstə 272
Dəyişdirmə müqaviləsi 272
"Dhammada" 273
"Dharma" 273
"Dharmasutra" 273
"Dharmaşastra" 273
Diaspor 274
Diffamasiya 274
Differensial assosiasiya 274
Differensiasiya 274
Differensiya 274
Differensiyalaşdırılmış eyniləşdirmə 274
Differensiyalaşdırılmış əlaqə 275
Different 275
Diffuz-əlaqə metodu 275
Digestlər 275
Diggerlər 275
Diktat 276
Diktator 276
Diktatura 276
Diler 277
Diler fəaliyyəti 277
Dimayz-çarter 277
Din 277
Dinc əhali 277
Dinc yanaşı yaşamağın beş prinsipi 277
Dinc yanaşı yaşamaq 277
Dindirmə 278
Dini birlik 278
Dini etiqad azadlığı 278
"Dini etiqad azadlığı haqqında" qanun 278
Dini hüquq 278
Dini icma 279
Dini qrup 279
Dini qurumlar 279
Dini məhkəmələr 279
Dini tədris müəssisələri 279
Dini təşkilat 280
Dini vəzifə (missiya) 280
Diokletian edikti 280
Diplom 280
Diplomat 280
Diplomatika 280
Diplomatik agent 280
Diplomatik akt 280
Diplomatik dil 280
Diplomatik immunitet 280
Diplomatik korpus 281
Diplomatik kuryer 281
Diplomatik müdafiə 281
Diplomatik münasibətləri kəsmə 281
Diplomatik müşahidəçi 281
Diplomatik nümayəndəlik 281
Diplomatik pasport 282
Diplomatik poçt 282
Diplomatik protokol 282
Diplomatik rütbələr 282
Diplomatik sığınacaq 282
Diplomatik viza 282
Diplomatik yazışma 283
Diplomatiya 283
Diplomatiya hüququ 283
Dipsomaniya 283
Direktiv 283
Direktor 283
Direktorat 283
"Direktoriya" (Beşlər şurası) 283

Direktoriya (icra direktoriyası) ................ 283
Direktorluq ................ 284
Disbursment hesab ................ 284
Disbursment xərclər ................ 284
Diskont ................ 284
Diskontçu ................ 284
Diskontinuitet ................ 284
Diskontlu istiqraz ................ 284
Diskont məzənnə ................ 284
Diskont siyasət ................ 284
Diskresion hakimiyyət ................ 284
Diskresiya ................ 285
Diskriminasiya ................ 285
Dislokasiya ................ 285
Dismisl ................ 285
Dispaç ................ 285
Dispaşa ................ 285
Dispaşyor ................ 285
Disponent ................ 285
Disponlaşdırma ................ 285
Dispozisiya ................ 285
Dispozitivlik ................ 285
Dispozitiv norma ................ 286
Dissident ................ 286
Distansiya ................ 286
Distansiya fraxtı ................ 286
Distribyutor ................ 286
Distrikt ................ 286
Divan ................ 286
Divani ................ 286
Diversifikasiya ................ 286
Dividend ................ 287
Dividend kuponu ................ 287
Dividend ödəməsi ................ 287
Dividen ................ 287
Diyə ................ 287
Diyə qanunu ................ 287
Dizajo ................ 287
Dizo ................ 287
Dofin ................ 287
Doj ................ 287
Dokimasiya ................ 287
Doktorant ................ 287
Doktrina ................ 287
Doktrinal təfsir ................ 287
Dolayı ................ 287
Dolayı işğal ................ 287
Dolayı (yanakı) qəsd ................ 288
Dolayı seçkilər ................ 288
Dolayı (yanakı) sübutlar ................ 288
Dolayı vergilər ................ 288
Dolayı (evantual) votum ................ 288
Domen ................ 288
Dominat ................ 289
Dominion ................ 289
Dominionluq edən vəziyyət ................ 289
Domisil ................ 289
Domisiliant ................ 289
Dondt metodu ................ 289
Donor ................ 289
Dosent ................ 289
Dotal əmlak ................ 289
Dotasiya ................ 289
Dou-Cons indeksi ................ 290
Doza ................ 290
"Dörd ailə" (Çində) ................ 290
Dördüncü respublika ................ 290
Dövlət ................ 290
Dövlət aparatı ................ 291
Dövlət arbitrajı ................ 291
Dövlət bankı ................ 291
Dövlət başçısı ................ 291
Dövlət bayrağı ................ 292
Dövlət baytarlıq nəzarəti ................ 292
Dövlət borcu ................ 292
"Dövlət borcu haqqında" qanun ................ 292
Dövlət büdcəsi ................ 292
Dövlət büdcəsi borcları (ssudalar) ................ 292
"Dövlət büdcəsi haqqında" qanun ................ 293
Dövlət büdcəsinin balansı ................ 293
Dövlət büdcəsinin gəlirləri ................ 293
Dövlət büdcəsinin xərcləri ................ 293
Dövlət büdcəsinin kassa icrası ................ 293
Dövlət büdcəsinin kəsiri ................ 293
Dövlət çevrilişi ................ 293
Dövlət Departamenti ................ 293
Dövlət dili ................ 293
"Dövlət dili haqqında" qanun ................ 293
Dövlət dini ................ 293
Dövlət Duması ................ 294
Dövlət ehtiyatı ................ 294
Dövlət ekoloji ekspertizası ................ 294
Dövlət elmi-texniki siyasəti ................ 294
Dövlətəbənzər təsisatlar ................ 294
Dövlət əhalinin məşğulluq fondu ................ 294
Dövlətə xəyanət ................ 294





Dövlət əmlakının alıcıları ................ 295
Dövlət əmlakının özəlləşdirilməsi ................ 295
"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanun ................ 295
Dövlət əmlakının özəlləşdirilməsi üsulları ................ 295
Dövlət əmlakının satıcısı ................ 295
Dövlət əmlakının təsnifatı ................ 296
Dövlət ərazisi ................ 296
Dövlət fabriki ................ 296
Dövlət forması ................ 297
Dövlət gerbi ................ 297
Dövlət geroldiyası ................ 297
Dövlət gəliri ................ 297
"Dövlət gənclər siyasəti haqqında" qanun ................ 297
Dövlət gildiyası ................ 297
Dövlət hakimiyyəti ................ 297
Dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlər ................ 297
Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər ................ 297
Dövlət himni ................ 298
Dövlət hüququ ................ 298
Dövlət xərcləri ................ 298
Dövlət xəzinə bileti ................ 298
Dövlət xəzinə öhdəlikləri ................ 298
Dövlət xəzinəsi ................ 298
Dövləti cinayətlər ................ 298
Dövlət idarəçiliyi ................ 299
Dövlət immuniteti ................ 299
Dövlətin borc öhdəlikləri ................ 299
Dövlətin büdcədənxaric fondu ................ 299
Dövlətin daxili borcunun ləğvi ................ 299
Dövlətin daxili səlahiyyətləri ................ 299
Dövlətin devizi ................ 299
Dövlətin ərazisi ................ 300
Dövlətin hava ərazisi ................ 300
Dövlət (fiskal) inhisarı ................ 300
Dövlətin xarici borcları ................ 300
Dövlətin idarə olunmasında iştirak etmək hüququ ................ 300
Dövlətin meliorativ sistemi ................ 300
Dövlətin müdafiə sifarişi ................ 300
Dövlətin müvəqqəti təbiət qoruqları ................ 301
Dövlətin növü (tipi) ................ 301
Dövlətin suverenliyinə hörmət prinsipi ................ 301
Dövlət intizamı ................ 301
Dövlətin yurisdiksiyası ................ 301
Dövlət istiqrazları ................ 301
Dövləti tanıma ................ 302
Dövlət ittihamçısı ................ 302
Dövlət kapitalizmi ................ 302
Dövlət katibi ................ 302
Dövlət kəndliləri ................ 302
Dövlət komitələri ................ 302
Dövlət kontraktı ................ 302
Dövlət korporasiyası ................ 303
Dövlət krediti ................ 303
Dövlət qiymətli kağızı ................ 303
Dövlət qulluğu ................ 303
"Dövlət qulluğu haqqında" qanun ................ 303
Dövlət qulluqçusu ................ 303
Dövlət quruculuğu ................ 303
Dövlət quruluşu ................ 303
Dövlət quruluşu forması ................ 304
Dövlətlərarası standartlar ................ 304
Dövlətlərin ərazi bütövlüyü prinsipi ................ 304
Dövlətlərin əsas hüquq və vəzifələri ................ 304
Dövlətlərin hüquq varisliyi ................ 305
Dövlət mexanizmi ................ 305
Dövlət meşə kadastrı ................ 305
Dövlət Məclisi ................ 305
"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" qanun ................ 305
Dövlət məhkəməsi ................ 306
Dövlət mənzil fondu ................ 306
Dövlət mənzil sertifikatı ................ 306
Dövlət müəssisəsi ................ 306
Dövlət mühafizəsi ................ 306
Dövlət mükafatları ................ 306
Dövlət mülkiyyəti ................ 306
Dövlət müşaviri ................ 306
Dövlət naziri ................ 306
Dövlət nəzarəti ................ 307
Dövlət ovçuluq fondu ................ 307
Dövlət özəlləşdirmə opsionu ................ 307
Dövlət özəlləşdirmə payı ................ 307
Dövlət pensiyası ................ 307

Dövlət pensiya sığortası ........ 307
Dövlət poçt ödəmə nişanları ........ 307
Dövlət rejimi ........ 307
Dövlət reyestri ........ 307
Dövlət reyestrinin informasiya sistemi ........ 307
Dövlət reyestrinin istifadəçiləri ........ 307
Dövlət rüsumu ........ 308
"Dövlət rüsumu haqqında" qanun ........ 308
Dövlət sanitar nəzarəti ........ 308
"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ........ 308
Dövlət sərhədinin toxunulmazlığı prinsipi ........ 308
Dövlət sərhədləri ........ 309
Dövlət sığortası ........ 309
Dövlət sifarişi ........ 309
Dövlət sirri ........ 309
"Dövlət sirri haqqında" qanun ........ 309
Dövlət sirrini mühafizə sistemi ........ 310
Dövlət sirrini yayma ........ 310
Dövlət standartı ........ 310
Dövlət su kadastrı ........ 310
Dövlət suverenliyi ........ 310
Dövlət şəhərsalma kadastrı ........ 310
Dövlət şurası ........ 310
Dövlət təbiət qoruqları ........ 310
Dövlət təbiət yasaqlıqları ........ 311
Dövlət təhlükəsizlik orqanları ........ 311
Dövlət təhlükəsizliyi ........ 311
"Dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə görə vətəndaşa məxsus ola bilməyən əmlak növləri haqqında" qanun ........ 311
Dövlət təltifləri ........ 312
Dövlət torpaq kadastrı ........ 312
"Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında" qanun ........ 312
Dövlət valyuta inhisarı ........ 312
Dövlət vergi xidməti ........ 312
Dövlət vergiləri ........ 312
Dövlət və hüquq nəzəriyyəsi ........ 312
Dövlət vəzifəsi ........ 313
Dövlət yerin təki fondu ........ 313
Dövlət yol polisi ........ 313
Dövlət zavodu ........ 313
Dövriyyə konosamenti ........ 313
Dövriyyə sənədləri ........ 313
Döymə ........ 313
Döyüş ........ 314
Döyüşə hazırlıq ........ 314
Döyüş əmri ........ 314
Döyüşən ordu və donanma ........ 314
Döyüş hazırlığı ........ 314
Döyüş qrupu ........ 314
Döyüş maşını ........ 314
Döyüş nizamı ........ 315
Döyüş raketi ........ 315
Döyüş sursatı ........ 315
Draft ........ 315
Drakont qanunları ........ 315
Draqo Doktrinası ........ 316
Dred Skottun işi ........ 316
"Dreyf" ........ 316
Dreyfus işi ........ 316
Dromonomaniya ........ 316
Drujina ........ 316
Drup metodu ........ 317
Duayen ........ 317
Dualist monarxiya ........ 317
Dualist respublika ........ 317
Dublikat ........ 317
Duma ........ 317
Duma boyaları ........ 317
Duma dyakları ........ 317
Duma rütbələri (rütbəlilər) ........ 318
Duma zadəganları ........ 318
Duopoliya ........ 318
Duopsoniya ........ 318
Dustaqxana ........ 318
Duumvirlər ........ 318
Dünya bazarı ........ 318
Dünya qiymətləri ........ 318
Dünya müharibələri ........ 318
Dünya təsərrüfatı ........ 318
Dünya valyuta sistemi ........ 318
Düşərgə ........ 318
Düzünə (birbaşa) qəsd ........ 319
Düzünə sübutlar ........ 319
"Dvina nizamnamə qramotası" ........ 319
Dyak ........ 319
Dyesmo ........ 319







**Dağ qoşunları** – dağlarda hərbi əməliyyatlar aparmaq üçün xüsusi təlim keçmiş ümumqoşun, artilleriya, mühəndis və i.a. hissə və birləşmələri. D.q. yüngül silah, dağ geyimi və i.a. ilə təchiz edilir və əlahiddə dağ-atıcı (piyada) alayları, briqada və diviziyalarından ibarət olur. D.q.-na dağ artilleriyası və digər döyüş vasitələri daxildir.

**Dağ-mədən hüququ** – dağ-mədən sənayesi sferasında və onun əlaqədar fəaliyyət sahəsində əmlak, torpaq, əmək, maliyyə münasibətlərini, inzibati münasibətləri və təbiəti mühafizəyə dair ictimai münasibətləri tənzimləyən hüquq normalarının kompleksindən ibarət hüquq sahəsi. Bu hüquq sahəsinin əsas mənbəyi yerin təki haqqında qanunvericilikdir.

**Dağ-mədən vergisi** – yerin təkinin tədqiqi ilə məşğul olan dağ-mədən sənayeçilərindən dövlət tərəfindən tutulan xüsusi vergi.

**Daxau** – faşist Almaniyasında ilk həbs düşərgəsi. Münxenin 17 km-liyində Daxau şəhəri yaxınlığında 1933-cü ilin martında yaradılmışdır. Mövcud olduğu müddətdə D.-ya 24 ölkədən (o cümlədən SSRİ-dən) 250 min məhbus salınmışdır. Bunlardan təqribən 70 mini vəhşicəsinə işgəncələrə məruz qalmış, yaxud öldürülmüş, 140 mini başqa həbs düşərgələrinə köçürülmüşdür. Azad edilənədək burada sağ qalan 30 min məhbus olmuşdur.

**Daxili audit** – qəbul edilən qərarların düzgünlüyünün qiymətləndirilməsi, səhvlərin və i.a. aşkar edilməsi məqsədi ilə şirkətin maliyyə hesabatının onun xüsusi təyin edilmiş əməkdaşı tərəfindən yoxlanması.

**Daxili dəniz suları** – dövlətin və deməli, onun suveren ərazisinin daxili sularının tərkib hissəsi. Dünya okeanının dövlətin quru ərazisi ilə onun ərazi dənizi arasındakı hissəsinə daxil edilirlər.

**"Daxili kabinet"** *(Bax: kabinet).*

**Daxili qoşunlar** – Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq həvalə olunmuş vəzifələri yerinə yetirməklə şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar və digər qəsdlərdən, hüquqazidd hərəkətlərdən qoruyan qoşunlar. D.q.-ın fəaliyyəti haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Daxili qoşunların statusu haqqında" Azərbaycan Respublikasının qanunundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, habelə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və digər müvafiq orqanların normativ aktlarından ibarətdir.

**"Daxili qoşunların statusu haqqında" qanun** – Azərbaycan Respublikası daxili qoşunlarının təşkili və fəaliyyətinin əsas prinsiplərini, vəzifələrini, daxili qoşunlar hərbi qulluqçuların hüquqlarını və i.a. müəyyən edən qanunvericilik aktı. Bu qanun 8 fevral 1994-cü il tarixdə qəbul olunmuş, ona 7 oktyabr 1997-ci il, 30 dekabr 2003-cü il, 5 mart 2004-cü il tarixlərdə bəzi əlavə və dəyişikliklər edilmişdir. Qanun dörd fəsildən, yekun müddəalarından və 30 maddədən ibarətdir.

**Daxili qüsurlar** – sığorta olunmuş yükə xas olan xassələr; bu xassələr yükün məhv olmasına (çürüməsinə, öz-özünə yanmasına, partlamasına) və xarab olmasına gətirib

çıxara bilər. D.q. nəticəsində meydana çıxmış itkilər sığorta ilə ödənilmir, çünki təbii xassələr risk anlayışına daxil edilmirlər.

**Daxili lizinq** *(bax: lizinq).*

**Daxili sular** *(beynəlxalq hüquqda)* – daxili su yolları (müəyyən dövlətin ərazisindəki çaylar, kanallar, göllər, su anbarları) və hər tərəfdən yalnız bir dövlətin quru ərazisi ilə əhatə olunan dənizlər. D.s.-a həmçinin dəniz limanları, sahilləri eyni bir dövlətə məxsus xarici və daxili reyd və körfəzlər aiddir. Giriş hissəsində eni 24 mildən artıq olmayan və sahilləri bir dövlətə məxsus körfəzlər də şamil edilir. D.s. sahilboyu dövlətin yurisdiksiyasına aiddir.

**Daxili Təhlükəsizlik Komissiyası** – ABŞ konqresi nümayəndələr palatasının daimi komissiyası. Rəsmən ABŞ-da "pozucu və Antiamerika təbliğatı"nın genişlənməsi ilə mübarizə məqsədi ilə 1934-cü ildə "Antiamerika fəaliyyətini təhqiq edən komissiya" adı ilə yaradılmışdır. 1938-ci ildə müvəqqəti komissiya statusu almış, İkinci dünya müharibəsindən sonra mütərəqqi fikirli şəxslərin və təşkilatların təqibinin genişləndiyi şəraitdə daimi komissiyalar sırasına keçirilmişdir (1946). 1969-cu ilin fevralından DTK adlanır.

**Daxili ticarət** *(bax: ticarət).*

**Daxili veksel** – tərtib edildiyi və ödənildiyi yerin veksel sahibinin özünün yerləşdiyi ölkədəki veksel.

**Daimi bitərəflik (neytrallıq)** – dövlətin beynəlxalq-hüquqi və (və ya) konstitusiya-hüquqi statusu; bu statusa uyğun olaraq müharibə baş verdiyi halda dövlət öz üzərinə döyüşən dövlətlərdən hər hansı birinin tərəfindən müharibəyə (döyüş əməliyyatlarına qoşulmamaq) daxil olmamaq, döyüşən tərəflərə bilavasitə hərbi yardım göstərməmək öhdəliyini götürür. Digər dövlətlərin üzərinə d.b.-ə hörmət etmək vəzifəsi qoyulur. Daimi neytral dövlət dinc dövrdə hərbi ittifaqlara və bloklara daxil olmamalıdır. Beynəlxalq hüquqda d.b. çoxtərəfli beynəlxalq müqavilələr və ya bəyannamələrlə müəyyən edilə bilməz. Hazırda 1815-ci il 20 noyabr tarixli Vena konqresi ilə elan olunmuş bəyannamə ilə müqavilələli d.b. statusundan İsveçrə istifadə edir. Bitərəflik haqqında 1955-ci il 26 oktyabr tarixli konstitusiya qanunu ilə Avstriya da d.b. statusuna malikdir.

**Daimi nümayəndəlik** – keçmiş sovet dövlətində SSRİ Nazirlər Soveti yanında müttəfiq respublikanı təmsil etmiş orqan, SSR İttifaqının hökumət orqanları ilə müttəfiq respublikalar arasında daimi təcrübi əlaqəni həyata keçirirdi. Nümayəndəliklərin hamısı Moskva şəhərində yerləşirdi. D.n.-ə müttəfiq respublika hökumətinin təyin etdiyi daimi nümayəndə başçılıq edirdi. Bəzi muxtar respublikaların da tərkibinə daxil olduğu müttəfiq respublikanın Nazirlər Soveti yanında daimi nümayəndəliyi, o cümlədən Azərbaycan SSR-də Naxçıvan Muxtar SSR-in daimi nümayəndəliyi fəaliyyət göstərirdi.

**Daimi ordu** *(bax: ordu).*

**Daimi renta** – renta müqaviləsinin növlərindən biri. Bu müqaviləyə görə renta müddətsiz ödənilir. Vətəndaşlar və qeyri-kommersiya təşkilatları (əgər bu, qanuna zidd olmazsa və həmin təşkilatların fəaliyyət məqsədlərinə uyğun olarsa) d.r.-nı əldə edənlər qismində çıxış edə bilərlər.





D.r.-nın ödəyicisi onu satın almaq yolu ilə renta ödəməkdən imtina etməyə haqlıdır. AR MM-in 874-cü maddəsinə uyğun olaraq daimi renta alan aşağıdakı hallarda ödəyicinin rentanı satın almasını tələb edə bilər: 1) daimi renta müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, renta ödəyicisi onun ödənilməsini bir ildən çox gecikdirdikdə; 2) renta ödəyicisi renta ödənişini təmin etmək öhdəliklərini pozduqda; 3) onun rentanı müqavilə ilə müəyyənləşdirilmiş miqdarda və ya müddətlərdə ödəməyəcəyinə aşkar dəlalət edən hallar yarandıqda; 4) renta ödənilməsi üçün verilmiş daşınmaz əmlak ümumi mülkiyyətə daxil olduqda və ya bir neçə şəxs arasında bölüşdürüldükdə; 5) müqavilədə nəzərdə tutulmuş digər hallarda.

**Daimi renta alan** – mülki qanunvericiliyə uyğun olaraq fiziki şəxs, habelə qeyri-kommersiya təşkilatı. Fiziki şəxslər və ya qeyri-kommersiya təşkilatları daimi rentanı bunun qanuna zidd olmadığı və öz fəaliyyət məqsədlərinə uyğun olduğu hallarda alırlar. AR MM-in 871.2-ci maddəsinə uyğun olaraq daimi renta müqaviləsi üzrə renta alanın hüquqları Mülki Məcəllənin 871.1-ci maddəsində göstərilmiş şəxslərə tələbin güzəşti yolu ilə verilə bilər və vərəsəlik üzrə və ya hüquqi şəxslər yenidən təşkil olunduqda hüquq varisliyi qaydasında keçə bilər, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın.

**Dairə** – **1)** bir sıra dövlətlərdə (məsələn, İslandiyada, Portuqaliyada) inzibati ərazi vahidi. Rusiya Federasiyasında muxtar dairələr mövcuddur; **2)** müxtəlif təyinatlı müvəqqəti təsisat, məsələn, seçki dairəsi; **3)** müəyyən orqanların səlahiyyətlərinin şamil olunduğu ərazi, məsələn, məhkəmə dairəsi, notarial dairə və i.a.

**Dairə məhkəmələri** – Rusiyada 1864-1917-ci illərdə mövcud olmuş ümumi məhkəmələr sisteminin əsas həlqələrindən biri. Adətən, əhalinin sayı və işlərin həcmi nəzərə alınmaqla bir neçə qəzanın ərazisində yaradılırdı. D.m.-nin sədri və üzvləri ədliyyə nazirinin təqdimatı ilə imperator tərəfindən təyin edilirdi. Hakimlərin sayından asılı olaraq d.m.-nin tərkibində divanxana yaradılırdı. Mülki işlərə və cinayət işlərinə birinci instansiya kimi baxmaq bu divanxanaların səlahiyyətinə aid edilmişdi. D.m. bəzən dünyəvi hakimlərin qurultaylarına münasibətdə ikinci instansiya kimi də çıxış edirdi.

**Daktiloskopik iz** – insan tərəfindən predmetlər üzərində qoyulmuş papilyar xətlərin izi.

**Daktiloskopiya** *(daktilo... + skoreo - baxıram)* – şəxsin kriminalistik eyniləşdirilməsi, cinayətlərin qeydiyyatı və cinayətkarların axtarışı məqsədilə əl-barmaq izlərinin quruluşunu öyrənən kriminalistika elminin bölməsi. D. hadisə yerində aşkar edilən əl-barmaq izlərinə görə şəxsin kriminalistik eyniləşdirilməsinə, daktiloskopik qeydiyyat vasitəsilə cinayətkarın əvvəllər məhkum olunub-olunmamasını müəyyən etməyə, naməlum meyitin eyniləşdirilməsinə, xəbərsiz itkin düşmüş şəxslərin axtarılmasına, bir şəxsin bir neçə cinayət törətməsi və ya bir cinayətin bir neçə şəxs tərəfindən törədilməsi faktını müəyyən etməyə imkan verir.

**"Damazlıq işi haqqında" qanun** – Azərbaycan Respublikasında heyvandarlıqda damazlıq işinin hüquqi əsaslarını

müəyyən edən qanunvericilik aktı. Bu qanun 26 mart 1996-cı il tarixdə qəbul edilmişdir. Bu qanuna 23 noyabr 2001-ci il, 23 aprel 2002-ci ildə əlavə və dəyişikliklər edilmişdir. O, dörd fəsil və 17 maddədən ibarətdir.

**Damğalama** – ən qədim dövrlərdən XIX yüzilliyədək (daxil olmaqla) rüsvayedici cəza növü; cinayətkarın bədəninə (onun müəyyən hissəsinə) vurulan damğa onun "oğru", "talançı", yaxud "qatil" olmasına işarə idi.

**Daminifikasiya** – itkilər vermə.

**Damno** *(lat. damnum – itki)* – **1)** qiymətli kağızların onların nominal dəyərindən (nominal qiymətindən) aşağı satışı zamanı bu kağızların kursundakı itki; **2)** xarici veksellərin inkassonun uçotuna qəbulu üçün bank tərəfindən müştəridən tutulmalı olan xüsusi ödəmə.

**Dampinq** – tullantıların dənizdə batırılması, tullantıların və ya digər materialların gəmilərdən hər cür tullanması; tullantıların uçan aparatlardan, platformalardan və ya sair süni qurğulardan atılması. Əksər dövlətlərin qanunvericilik aktları dövlət orqanlarının icazəsi olmadan d.-i qəti olaraq qadağan edir.

**Dampo** – xarici veksellərı inkassolaşdırdığına görə bankın mükafatlandırılması.

**Danda** – Qədim Hindistanda quldarlıq dövründə mövcud olmuş cəzalar sistemi. İmperator Çandraquptanın müşaviri Kautilyanın "Dharmaşastra" və "Arthaşastra"sında xatırladılır.

**Dandaniti** – Qədim Hindistanda quldarlıq dövründə cəza verilməsi haqqında təlim. Kautilyanın "Arthaşastra"sında ifadə edilmişdir.

**Daosizm** *(çin. "dao" – yol)* – dao haqqında təlim. Eramızdan əvvəl VI-V yüzilliklərdə yaranmış daosizmin banisi çinli Laoszı olmuşdur. Şah (imperator) hakimiyyətinin ilahi mənşəyi haqqında ideyaları özündə ehtiva edən d. məzlumların istismarına haqq qazandıran qanunların əleyhinə çıxmışdır. "Seyrək əhalisi olan kiçik dövlət" ideyası Lao-szının siyasi idealı idi. D.-in əsas ideyaları "Dao-de szin" adlı kitabda ifadə edilmişdir. Kitabda göstərilir ki, təbii qanunları (təbii hüquqları) pozduqları üçün hökmdarları cəza gözləyir. D.-ə görə, sərtlik və müstəbidlik öz əcəli ilə ölür. D.-in ideyaları passivlik və dinisxolastikadan, fanatizmdən tam azad olmasa da, dünya siyasi-hüquqi fikrinin inkişafında mühüm rol oynamışdır.

**Dar əl-hərb** *(ər. "müharibə ərazisi")* – dar əs-sülhün hüdudlarından kənarda yerləşən qeyri-müsəlman ölkələri. Müsəlman hüquqşünasları tərəfindən bu ölkələrə müsəlmanlarla müharibə vəziyyətində olan ərazilər kimi baxılırdı. Hərbi əməliyyatların aparılmadığı şərait barışıq kimi qiymətləndirilirdi.

**Dar əs-sülh** *(ər. "sülh müqaviləsi ərazisi")* – işğal zamanı müsəlmanlarla sülh müqaviləsi bağlayan vilayətlərin ümumiləşdirilmiş adı. D.ə.s. xəracın miqdarını və işğal ərazilərindəki qeyri-müsəlman əhalinin hüquqi vəziyyətini müəyyən edirdi. Müqavilənin şərtlərinə daxil edilməyən vilayətlərdə əvvəlki qaydalar fəaliyyət göstərirdi. İşğal altında olan vilayətlərin sakinlərinə (əhl əs-sülhlərə) əhl əz-zimmə kimi baxılırdı. Lakin həmin vilayətlərin tacirləri zimmələrə nisbətən ticarət rüsumunu ikiqat artıq ödəyirdilər. Ancaq bu





müddəalar çox zaman mücərrəd səciyyə daşıyırdı, çünki müqavilənin qüvvəsinin real olduğu məqamda hüquqi nəzəriyyə hələ kifayət qədər işlənməmişdi. VII yüzilliyin sonuna doğru həmin müddəaların formulə edildikləri vaxt müqavilə bağlamış vilayətlərin əksəriyyəti Xilafətin tərkibinə daxil olmuşdular. Xilafətin süqutundan sonra müsəlman hökmdarların idarə etdikləri bütün vilayətlərə əhalinin tərkibindən və qonşu xalis müsəlman dövlətlərlə münasibətlərin xarakterindən asılı olmayaraq dar əl-islam kimi baxılırdı. Qeyri-müsəlman dövlətləri ilə bağlanmış müqavilələr isə adi dövlətlərarası saziş xarakterini daşımışdır.

**Daruğa, daruqə** *(monqolca – daruxu – sıxmaq, daraltmaq, məcazi mənada – möhürləyən)* – darğa. Orta əsrlərdə monqol istilasına məruz qalmış ölkələrdə, o cümlədən Azərbaycanda monqol xanının vergi toplayan və əhalini siyahıya alan nümayəndəsi, inzibati məmur darğa adlanırdı. Darğalar lazım gəldikdə yerli əhalidən yardımçı hərbi dəstələr təşkil edir, asayişi qoruyur və i.a. işlərlə məşğul olurdular. Sonralar Qızıl Ordada baskak, b...i Şərq ölkələrində şəhnə adlandırılan darğalar əsasən hökmdar tərəfindən təyin edilirdilər.

Azərbaycanda XVI yüzillikdə Səfəvilərin hakimiyyəti illərində şəhərlərin ümumi idarəçiliyində, xüsusilə də inzibati idarəçilikdə D.-ların (daruqələrin) rolu böyük olmuşdur. Şardenin fikrincə, "daruqə cinayət işləri üzrə hakim və rəis" idi. Daruqələr və onlara tabe olan polis idarələri öz quruluşuna görə divanbəyi institutunun tərkibinə daxil olmaqla, bilavasitə onlara tabe idilər. Daruqələr bilavasitə şahın fərmanı ilə təyin olunur və işdən azad edilirdilər. Şəhərdə ictimai asayişin qorunması, insanların əmlakının və hüquqlarının mühafizəsi, sabitliyin saxlanması ilə bağlı bütün məsələlər daruqənin səlahiyyətinə aid edilmişdi.

**Daruğalıq (darğalıq)** – XVI-XIX yüzilliklərdə Azərbaycanda daruğanın (daruqənin) xeyrinə alınan vergi. Qeyri-qanuni vergi növü olan d.-ın miqdarı dəqiq deyildi. Adətən bəhrə və malcəhət vergisinin beşdəbir hissəsini təşkil edirdi. D. arpa, buğda, çəltik və i.a. məhsullardan natural şəkildə toplanırdı. Bəzən pulla da əvəz olunurdu. Kəndi çox olan feodallar d.-ın müəyyən hissəsini özləri mənimsəyirdilər.

**Daşıma müqaviləsi** *(bax: yük daşınması müqaviləsi; sərnişin daşınması müqaviləsi).*

**Daşınar əmlak** – torpaqla əlaqədar olmayan, ona təhkim olunmayan, daşınmaz əmlakın əksi olan əmlak. Özü hərəkət edə bilən əşyalar (heyvanlar) d.ə.-a aid edilirlər. Pullar, məcburi tələb hüquqları, qiymətli kağızlar, borc şəhadətnamələri, icra vərəqələri d.ə. hesab olunurlar.

**Daşınmaz əmlak** – torpaq sahələri, onun üzərində yerləşən binalar, sair tikililər və obyektlər. Azərbaycan hüququna uyğun olaraq bütün əşyalar daşınar və daşınmaz əşyalara bölünürlər. Torpaq yeraltı sərvətlər, sular, meşələr və i.a. bu kimi obyektlər üçün müəyyən edilən xüsusi rejim onların iqtisadi təyinatından irəli gəlir. Müasir dövlətlərdə daşınmaz əmlaka (xüsusilə də torpağa) mühüm əhəmiyyət verilir.

**Daşınmaz əmlakla birləşmiş daşınar əmlak** – funksional olaraq daşınmaz əmlakla əlaqədar olan və onunla birlikdə icarəyə verilən daşınar əmlak (kənd təsərrüfatı, tikinti maşınları, nəqliyyat vasitələri və i.a.).

**Daşqalaq** – bir sıra müsəlman ölkələrində (o cümlədən islam respublikalarında) indi də qüvvədə olan ölüm hökmünü icra etmə üsullarından biri. Məsələn, bu cəzalandırma üsulu Əfqanıstanda ölümə məhkum olunmuş şəxsi (xüsusilə də qadınları – əxlaqsız hərəkətlərinə görə) sürətlə qaçan heyvanın quyruğuna bağlayaraq, heyvanı daşlıq olan yerlərdən qaçırırlar. İran İslam Respublikası Cinayət Məcəlləsinin 119-cu maddəsinin 2-ci hissəsinə əsasən ölümə məhkum edilmiş şəxs divarın önündə dayandırılır, ondan bir qədər aralı isə ona atılacaq 25 ədəd daş parçası düzülür. Lazımi adamlar şəxs həlak olanadək həmin daşlarla onun müxtəlif nahiyələrinə zərbələr vururlar.

**Davam edən cinayətlər** – ümumi kriminal məqsədə doğru yönələn bir sıra eyni ictimai təhlükəli hərəkətlərin birlikdə yaratdığı vahid cinayət əməli. D.e.c. üçün aşağıdakı əlamətlər səciyyəvidir: a) bu cinayət bir-birindən zaman etibarı ilə ayrılan bir sıra müstəqil eyni növdən olan cinayət əməlidir; b) bütün hərəkət aktlarının vahid niyyətlə bağlı olduğu əməldir; c) belə hərəkət aktları CM-in xüsusi hissəsinin bir norması ilə əhatə olunur və konkret cinayət növünü yaradır.

**Davranış** – insanın sosial həyat şəraitində formalaşan hərəkət və fəaliyyəti, rəftarı *(həmçinin bax: hüquqauyğun davranış).*

**Davranış məcəllələri** – beynəlxalq ticarət hüququnun köməkçi mənbələrindən biri. Beynəlxalq iqtisadi münasibətlərin qeyri-dövlət tənzimlənməsinin nümunəsidir. Məsələn, 1937-ci ildə Beynəlxalq Ticarət Palatasının reklam təcrübəsinin Beynəlxalq Məcəlləsi qəbul olunmuş, 1949-cu, 1955-ci, 1966-cı, 1973-cü və 1986-cı ildə yenidən nəzərdən keçirilmişdir. Beynəlxalq Franşizlər Assosiasiyası tərəfindən müvafiq müqavilələrin bağlanmasına dair Davranış Məcəlləsi buraxılmışdır. Öz təbiətinə görə oxşar olan sənədlər birjalar və bank assosiasiyaları, habelə ayrı-ayrı firmalar tərəfindən yaradılırlar.

**Dayə** – azyaşlı uşaqları saxlayan xidmətçi qadın. XIX yüzilliyin sonu və XX yüzilliyin əvvəllərində əsasən varlı ailələr d. saxlayırdılar. Ağır xəstələrə xidmət edənlərə də d. deyilir.

**Dayı** *(türk. dayı, hərfi mənası dayı, məcazi mənası – cəsur)* – **1)** Osmanlı imperiyasında yençəri ordularında zabit rütbəsi; 2) 1671-ci ildən 1830-cu ilədək (Fransa Əlcəzairi işğal edənədək) Əlcəzairdə yençəri zabitləri şurasının ömürlük seçdiyi Əlcəzair hakimi. Sonuncu d. Hüseyn (1818-1830-cu illər) olmuşdur; **3)** 1590-1705-ci illərdə Tunisdə türk yençərilərinin komandirlərinə və bəzən də ölkəni idarə edənlərə d. deyilirdi; **4)** qədim türklərdə qəhrəmanlıqları ilə ad qazanmış igidlərə alp deyildiyi kimi, d. da deyilirdi; **5)** azərbaycanlılarda qohumluq (ananın qardaşı) bildirən termin.

**Daym** *(ing. dime)* – ABŞ-da xırda pul; dolların 1/10-inə, yaxud 10 sentə bərabərdir.

**Daymə** – feodal Yaponiyasında sahibkar knyaz. XIV-XV yüzilliklərdə mərkəzi hökumətdən asılılığı olmamışdır. 1867-1868-ci illər proburjua inqilabından sonra d. böyük pul kompensasiyası almaqla öz torpaqlarından məhrum edilmişdir.

**Debentura** *(lat. debere)* – rüsumun qaytarılması haqqında gömrük şəhadətnaməsi.

**Debet** *(lat. debet – o, borcludur)* – mühasibat hesablarının sol tərəfinin adı. Bütün





təsərrüfat əməliyyatları bir hesabın debetinə və digər hesabın kreditinə yazılır. Aktiv hesabda debet nəzərdə tutulmuş məbləğin artmasını, passiv hesabda isə azalmasını göstərir.

**Debet qalığı** – borc.

**Debet memorandumu** – **1)** alıcını ona müvafiq hesabın alınmasının debetləşdirilməsi haqqında xəbərdar etmək üçün satıcı tərəfindən istifadə olunan sənəd; **2)** bank tərəfindən əmanətçiyə təqdim olunan sənəd. Bank bu sənəd vasitəsilə əmanətçini müəyyən hadisələr nəticəsində onun bank hesabının ixtisar edilməsi haqqında xəbərdar edir.

**Debillik** *(lat. debilis – zəif)* – psixi inkişafın ləngiməsi, oliqofreniyanın nisbətən yüngül forması, dərəcəsi.

**Debitor** *(lat. debitor)* – **1)** idarə, müəssisə və ya təşkilata borcu olan hüquqi, yaxud fiziki şəxs; **2)** mülki hüquqda borclu.

**Debitor borcu** – hüquqi və ya fiziki şəxslərlə təsərrüfat qarşılıqlı münasibətlərinin yekununda bu şəxslərdən birlik, idarə, müəssisə və yaxud təşkilat üçün hesablanan borcların məbləği. D b. təsərrüfat fəaliyyətinin normal prosesi və ya maliyyə, hesablaşma, yaxud ödəmə intizamının pozulması ilə şərtləşə bilər. O, vəsaitlərin müvafiq müəssisənin dövriyyəsindən çıxarılmasını və onların debitorlar tərəfindən istifadəsini səciyyələndirir. Təsərrüfat fəaliyyətində normal (qanuni) və müddəti keçmiş d.b. fərqləndirilir.

**Debrifinq** *(ing. debriefing)* – **1)** qeyri-rəsmi istintaq təcrübəsində dindirilən şəxsin bildiklərinin hamısının aşkar edilməsinə xidmət edən ətraflı, çoxgünlü dindirmələr; **2)** tapşırıqdan qayıtmaqla əlaqədar kosmonavtın, kəşfiyyatçının və i.a. etdiyi ətraflı məruzə; tapşırığın yerinə yetirilməsindən sonra təhqiqat zamanı ekipajın dindirilməsi.

**De-fakto** *(lat. de facto)* – faktiki, faktiki olaraq tanıma. D.-f. dövləti və ya hökuməti tanımanın beynəlxalq formalarından biridir. D.-f. rəsmi, lakin tam olmayan tanıma deməkdir. Adətən müvəqqəti səciyyə daşıyır və de-yure tanımadan əvvəlki keçid mərhələsidir *(bax: dövləti tanıma).*

**Defeksiya** *(ing. defection – dönüklük)* – ingilis-sakson hüquq sisteminə malik olan bir sıra ölkələrdə deputatların hakimiyyətin nümayəndəli orqanının bir partiya fraksiyasından digərinə keçməsini bildirən termin. Hindistanda deputat mandatından məhrum olma qorxusu altında d.-nı qadağan edən xüsusi qanun qəbul edilmişdir.

**Defisit** *(lat. deficit – çatışmır)* – xərcin gəlirdən çox olması, zərər. D. pul ehtiyatlarına (kassa və ya maliyyə defisitləri), həm də maddi sərvətlərə (xammal, yanacaq və i.a. əmtəələrin çatışmazlığı) aid edilə bilər.

**Deflyasiya** (lat. deflatio) – artıq kağız pulların tədavüldən çıxarılması yolu ilə pul kütləsinin azaldılması. D. çox zaman pul islahatlarından əvvəl olur. O, uçotlu bank məzənnələrinin yüksəldilməsi, vergilərin artırılması, dövlət qiymətli kağızları satışının genişləndirilməsi yolu ilə realizə olunur.

**Dekadaktiloskopiya** *(bax: daktiloskopiya).*

**Dekan** *(lat. decanus – on nəfər insanın rəisi)* – ali məktəbdə fakültə rəhbəri. Bir qayda olaraq, fakültənin professor, müəllim heyəti və elmi əməkdaşları tərəfindən seçilir.

Çünki cinayətkar əməl təsadüfi deyil, təkrar olunan elementdir.

**Delinkventlik** – kriminologiyada şəxsiyyətin hüquq pozuntularını doğuran və ya onların törədilməsinə maksimum şərait yaradan keyfiyyətlərin, yaxud hadisə və proseslərin xassəsi. D. məhdud mənada cinayətkarlıq anlayışının sinonimidir.

**Delinkvent mənsəb** – müəyyən mühitdə antiictimai xətalar, hüquq pozuntuları, o cümlədən cinayətlər yolu ilə delinkvent (hüququ pozan şəxs) tərəfindən öz şəxsi nüfuzunu təsdiq etməsi, yüksəltməsi. Yetkinlik yaşına çatmayan delinkventlərin özlərini yetkin şəxslər kimi göstərməyə, cəsarətlərini, o cümlədən hüquqazidd hərəkətlərlə qabiliyyət və bacarıqlarını nümayiş etdirməyə səy etmələrini buna misal göstərmək olar.

Kriminologiya elminə görə fəal delinkvent nüfuz tədricən artaraq cinayətkar nüfuza keçir: D.m.-in ən yüksək dərəcəsini (pilləsini) cinayət "generalları", qanunda oğrular, cinayət aləminin sair elitar nüfuzlarının mövqeyi təşkil edir.

**Delistinq** *(ing. delisting)* – birjanın və ya şirkətin özünün qərarı ilə səhmin birja siyahısından çıxarılması; listinqi əbədi imtiyazlardan məhrum etmək deməkdir. D. səhmin artıq mövcud olmadığı, şirkətin aktivlərsiz qaldığı və ya müflisləşdiyi, şirkətin listinq haqqında sazişi pozduğu hallarda aparılır.

**Delkredere** *(ita. del credere)* – komisyonçunun komitent qarşısında onun (komisyonçunun) üçüncü şəxslə bağladığı müqavilənin icrası üçün zəmanəti. D. üçün komisyonçu xüsusi mükafat alır. AR MM-in 809-cu maddəsinə uyğun olaraq komisyonçu tapşırılmış işi vicdanla aparmalı və komitentin mənafelərini qorumalıdır. Komisyonçu əqdləri vicdanlı üçüncü şəxslərlə bağlamalı və komitentin razılığı olmadan üçüncü şəxslərə kredit verməməlidir. Komisyonçu öz işlərinin gedişi, o cümlədən komisyon tapşırığının icrası gedişi barəsində komitentə məlumat verməlidir. Komisyonçu komitentin icazəsi olmadan onun adını açıqlamamalıdır.

**Demaqogiya** – yalançı və populist vədlər, yaltaqlıq və faktları qəsdən təhrif etmək yolu ilə aldatma. Xalq kütlələrinin etimadını qazanmaq üçün siyasi xadimlər və onların əlaltıları tərəfindən istifadə olunur. Seçki kompaniyalarında, mətbuat, radio və televiziyada xüsusilə geniş tətbiq edilir.

**Demaqoq** *(yun. demagogos – xalq rəhbəri, siyasətbaz)* – əvvəllər Qədim Yunanıstanda, xüsusilə də Afinanın klassik dövründə demokratik istiqamətli siyasi xadimlərə (Femistokla, Periklə və başqalarına) verilən ad. Demokratiyanın siyasi düşmənlərinin fəaliyyəti nəticəsində bu termin tədricən mənfi məna kəsb etmiş və o, yalançı, populist vədlər vermək, xalq məclislərinə yaltaqlanmaq və i.a. vasitələrlə ucuz şöhrət və nüfuz qazanmağa səy göstərən xadim anlayışına çevrilmişdir. "D." sözü müasir siyasi terminologiyada bu mənada işlədilir *(bax: demaqogiya)*.

**Demarkasiya** *(lat. demarcatio – fərqləndirmə; ing. demarcation)* – müvafiq yerdə dövlət sərhədlərinin müəyyən edilməsi.

**Demarkasiya xətti** – **1)** hərbdə – sülh müqaviləsi və ya hər hansı bir sazişlə daimi sərhəd müəyyən edilənədək barışıq zamanı döyüşən dövlətlərin qoşunlarını ayıran xətt (zona); **2)** məğlub olmuş dövlətin ərazisini işğal zonalarına ayıran xətt; **3)** qonşu ölkələr arasında mübahisəli ərazidə müvəqqəti müəyyən edilən xətt (zona).

D.x. döyüşən tərəflər, işğalçı və ya münaqişə vəziyyətində olan dövlətlər arasında xüsusi sazişlə müəyyən edilir.

**Demarketinq** *(ing. demarceting)* – reklam və ya xidmətlər üçün qiymətlərin yüksəldilməsi, yaxud vəsaitlərin azaldılması vasitəsi ilə alıcıların defisit mallara olan tələbatının aşağı salınması.

**Demarş** *(fr. demarche)* – hər hansı hökumət orqanına və ya dövlətə (adətən, diplomatik sahədə) təsir göstərmək məqsədilə verilən bəyanat, yaxud görülən tədbir. D., yaranmış beynəlxalq problemin normal diplomatik tədbir vasitəsilə həllinə nail olunmadığı və ya onun tənzim edilməsi üçün təcili tədbirlərin qəbulunun tələb edildiyi hallarda tətbiq edilir. D.-ın məzmunu xahişdən, etirazdan, tələbdən, təklifdən və i.a. ibarət olur. D. hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına əməl edilməklə həyata keçirilməlidir və o, dövlətlər arasında beynəlxalq sülhün, dostluq əlaqələrinin və qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi məqsədlərinə xidmət edir. Beynəlxalq təcrübədə d.-a, hər şeydən əvvəl, diplomatik immunitetlərin və imtiyazların kobudcasına pozulması səbəb olur.

**Demerec** *(ing. demurrage)* – dəniz hüququnda gəminin limanda müqavilə ilə şərtləndirilmiş müddətdən əlavə boş dayanması üçün yük sahibinin (kirayəçinin) gəmi sahibinə ödədiyi cərimə. D.-in məzənnəsi adətən, çarterlərdə nəzərdə tutulur. "D." termini ilə bir sıra hallarda yüklü gəminin sadəcə olaraq yubanması da adlandırılır.

**Demilitarizasiya** – tərk-silah edilmə; beynəlxalq müqavilə ilə hər hansı dövlətə hərbi sənayeyə malik olmağın, silahlı qüvvələr saxlamağın, müəyyən edilmiş saydan artıq müdafiəedici qurğuların tikintisinin qadağan olunması *(bax: ərazinin demilitarizasiyası)*.

**Demilitarizasiyalaşdırılmış zona** – beynəlxalq müqaviləyə və ya dövlətdaxili qanunvericilik aktına görə dövlətin hərbi qurğularının və digər obyektlərinin ləğv edildiyi, silahlı qüvvələr saxlamağın qadağan edildiyi ərazi zonası. Bir qayda olaraq, potensial düşmən tərəflərin barışığı üçün müəyyən edilir. 1919-cu il Versal sülh müqaviləsi ilə yaradılmış Reyn d.z.-nı buna misal göstərmək olar.

**Demokratikləşdirmə** – demokratik prinsiplərin tədricən bərqərar olması, demokratik quruluşun qurulması və inkişafı, cəmiyyətin demokratik əsaslar üzərində yenidən qurulması prosesi.

**Demokratiya** *(yun. demkratia – xalq hakimiyyəti; demos – xalq və kratos – hakimiyyət)* – müasir anlamına görə konstitusiyanın və qanunların aliliyi, xalq hakimiyyəti və siyasi plüralizm, vətəndaşların azadlığı və bərabərliyi, insan hüquqlarının özgəninkiləşdirilməməsi kimi prinsiplərin tanınmasına əsaslanan dövlət quruluşu forması. Hakimiyyətlərin bölgüsü, xalq nümayəndəliyi sisteminin inkişaf etdirilməsi əsasında respublika idarəçilik forması şəratində realizə olunur.

D. dövlətin (Qədim Afinada) əmələ gəlməsi ilə birlikdə meydana gəlmişdir. Müasir cəmiyyətlərdə azlığın hüquqlarının müdafiəsi, əsas dövlət orqanlarının seçkili olmasının həyata keçirilməsi, vətəndaşların hüquqlarının və siyasi azadlıq-

larının olması, onların hüquq bərabərliyi, qanunların aliliyi, konstitusiyaçılıq, hakimiyyətlərin bölgüsü şəraitində çoxluğun hakimiyyəti deməkdir.

Bilavasitə (əsas qərarlar bütün vətəndaşlar tərəfindən referendumda qəbul edilir) və nümayəndəli (qərarlar seçkili orqan – parlament tərəfindən qəbul olunur) d. fərqləndirilir. D. institutu özünün tam inkişafına və realizəsinə hüquqi dövlətdə nail olur.

**Demoqrafiya** *(yun. demos – xalq + ...qrafiya)* – əhali haqqında elm. "D." terminini ilk dəfə fransız alimi A. Qiyar 1855-ci ildə işlətmişdir. D. ictimai elmdir və o, əhalinin strukturu, yerləşməsi, yerinin dəyişməsi və dinamikasında baş verən sosial-iqtisadi, həmçinin bioloji və coğrafi amil, səbəb və şərtlər əsasında hadisə və proseslərin qanunauyğunluqlarını tədqiq edir. Bunların əsasında d. əhali nəzəriyyəsini, əhali siyasətini işləyib hazırlayır. O, bir çox humanitar elmlərlə (tarix, sosiologiya, iqtisadiyyat, etnoqrafiya, sosial gigiyena, statistika, hüquq) sıx bağlıdır.

**Demonetizasiya** – nəcib metalların (gümüşün və qızılın) öz pul funksiyasını itirməsi. Gümüş bu funksiyasını hələ XIX yüzilliyin sonunda, qızıl isə XX yüzilliyin ortalarına doğru itirmişdir. D. özünün beynəlxalq-hüquqi təsbitini Beynəlxalq Valyuta Fondunun nizamnaməsində tapmışdır. 1978-ci il aprelin 1-dən qızılın rəsmi qiyməti və bu təşkilatın üzvləri arasında qızılla hesablaşmalar ləğv edilmişdir. Hələ bundan əvvəl qızıl kredit pulları vasitəsi ilə daxili və beynəlxalq dövriyyədən praktiki olaraq sıxışdırılıb çıxarılmışdır.

**Demos** *(yun. demos)* – Qədim Yunanıstanda xalq, yəni əhalinin aristokratiyaya (evpatridlərə) qarşı duran əsas tam hüquqlu hissəsi. Kölələr d.-a daxil edilmirdilər. Qədim Yunanıstanda vətəndaşlıq hüququna malik olan azad əhali də d. adlanırdı. Eramızdan əvvəl VI-V yüzilliklərdə şəhər əhalisinin də bir hissəsi d.-a daxil edilmişdi. Eramızdan əvvəl V yüzilliyin sonu - IV yüzilliyin əvvəlindən başlayaraq əsasən şəhər əhalisinin yoxsul hissəsi d. adlandırılırdı.

**Demping** *(ing. dumring)* – əmtəənin xarici bazarda daxili bazardakına nisbətən daha aşağı qiymətlə satışı. Demping əmtəələrinin ədalətli rəqabət qaydalarını pozduğuna və yerli istehsalçılara itkilər verdiyinə görə d. təcrübəsi beynəlxalq ticarətdə iştirak edən ölkələrdə tənqid edilmişdir. Dövlət antidempinq rüsumları tətbiq etməkdə qanuni hüquqa malikdir.

**Denasifikasiya** – demokratik dəyişikliklər məqsədi ilə Almaniyanın dövlət, ictimai-siyasi və iqtisadi həyatın faşist rejimi hökmranlığı qalıqlarından təmizləmək üçün həyata keçirilən tədbirlər. 1945-ci il Potsdam konfransının və Almaniyada 1945-ci ilin oktyabrında yaradılmış Nəzarət Şurasının qərarlarına əsasən d.-nın həyata keçirilməsi üçün nasional-sosialist (faşist) partiyasının, onun filiallarının və nəzarəti altında olan təşkilatların, faşist qanunvericiliyinin ləğvi, hərbi canilərin, fəal nasistlərin məhkəməyə verilməsi və i.a. nəzərdə tutulmuşdu.

**Denaturallaşdırma** – naturallaşdırma haqqında qərarın ləğv edilməsi, yəni əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin müvafiq dövlətin vətəndaşlığına qəbul olunması. Qərar, bir qayda olaraq, şəxs tərəfindən onun vətəndaşlığa qəbul olunması





əsasına xidmət etmiş təqdim edilən məlumatların etibarsız olduğu halda ləğv edilir.

**Dendroloji parklar və botanika bağları** – Azərbaycan Respublikasının 2000-ci il 24 mart tarixli "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Qanunun 35-ci maddəsinə uyğun olaraq bitki aləminin müxtəlifliyini qoruyub saxlamaq və onu zənginləşdirmək məqsədilə yaradılan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik olan ərazilər.

Belə ərazilər respublika və ya bölgə əhəmiyyətli ola bilər. D.p. və b.b.-nın təşkili üçün torpaq sahələri qanunvericiliklə müəyyən edilmiş qaydada onların daimi istifadəsinə verilir. Həmin parklarda və bağlarda onların vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar olmayan və orada yetişdirilən bitkilərin məhvinə səbəb ola bilən hər hansı fəaliyyət və təsir qadağan edilmişdir.

**Denominasiya** – pul tədavülünü qaydaya salmaq və milli valyutaya böyük dəyərlilik vermək məqsədi ilə ölkənin pul vahidinin (onun adı dəyişdirilmədən) iriləşdirilməsi. D.-ya çox zaman texniki təminatın (pul nişanlarının çapı, müxtəlif əskinaslar arasında zəruri qarşılıqlı əlaqəyə əməl olunması, iri nominallı dəyişdirmə sikkələrinin (xırda pul sikkələrinin) hazırlanması) mürəkkəbliyi (xüsusilə də inflyasiya şəraitində) səbəb olur.

**Denonsasiya** *(fr. denoncer)* – beynəlxalq müqavilə iştirakçılarından birinin müqaviləni yerinə yetirməkdən imtina etməsi və bununla da onu qüvvədən salması. D. etmək hüququ və şərtləri, bir qayda olaraq, müqavilənin özündə nəzərdə tutulur. İştirakçılardan birinin müqavilənin fəaliyyətini dayandırmaq və ya ondan çıxmaq niyyəti haqqında tərəflərə vaxtında bildirməsi d.-nın ümumi şərtidir. Belə bildirmə müqavilə iştirakçısının daxili qanunvericiliyə uyğun olaraq qəbul etdiyi qərarla aparılır. D. qaydasına əməl edilməməsi onun etibarsız sayılmasına səbəb olur. D. qaydaları beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vena konvensiyası ilə tənzim edilir.

**Departament** *(fr. departament)* – **1)** Fransada və bir sıra başqa ölkələrdə əsas inzibati ərazi vahidi. D.-in özünüidarə orqanı Baş Şura və onun seçdiyi departament komissiyasıdır. Mərkəzi hakimiyyətin nümayəndəsi prefektdir; **2)** bir sıra dövlətlərdə (məsələn, ABŞ-da, İsveçrədə, Rusiya Federasiyasında) idarə və nazirliklərin adı; **3)** bəzi beynəlxalq təşkilatların (məsələn, BMT aparatında inzibati bölmə) adı; **4)** inqilabaqədərki Rusiyada və bəzi başqa ölkələrdə ali inzibati şöbə, məhkəmə idarəsi.

**Departizasiya** – dövlət müəssisələri və təşkilatları daxilində siyasi partiyaların təsirinin aradan qaldırılması, onların fəaliyyətinin qadağan olunması (məsələn, ordunun departizasiyası, daxili işlər orqanlarının departizasiyası).

**Depo** *(ing. depot)* – bank termini; adətən, kredit təşkilatlarına saxlanmağa verilən qiymətli kağızlara və sərvətlərə tətbiq edilir. İnkişaf etmiş ölkələrdə d. əmanətçinin aldığı ssudaların təmin olunmasına da xidmət edə bilər. Onun şərtləri qiymətli kağızların idarə olunmasını, yəni həmin kağızlarla müvafiq kredit təşkilatından faizlər depozitorunun xeyrinə dividendlərin alınması nəzərdə tutula bilər.

**Depolitizasiya** – birtərəfli siyasi istiqamətin və ya ifrat dərəcədə siyasiləşmənin aradan qaldırılması.

**Deponent** *(lat. deponens; ing. depositor)* – qiymətli kağızların saxlanması və (və ya) qiymətli kağızlar üzərində hüquqların uçotu üzrə depozitarinin xidmətlərindən istifadə edən şəxs.

**Deponent edilmiş akkreditiv** – açıldığı zaman bank-emitentin akkreditivin məbləğini ödəyicinin hesabına köçürməyə borclu olduğu akkreditiv.

**Deponentləşdirmə** – **1)** pul məbləğlərinin, qiymətli kağızların (səhmlərin, veksellərin, istiqrazların, çeklərin) və digər sərvətlərin kredit müəssisəsinə saxlanca verilməsi; **2)** beynəlxalq müqavilənin, ratifikasiya edilmiş qramotun, beynəlxalq müqaviləyə qoşulmaq haqqında sənədlərin əslinin depozitarinin saxlancına verilməsi.

**Deport** – **1)** qiymətlərini aşağı salmaq hesabı ilə qiymətli kağızlarla təcili bağlanmış birja əqdi; **2)** əqd üzrə hesabların vaxtını uzatmaq razılığına görə edilən güzəşt.

**Deportasiya** *(lat. deportatio)* – qovma, sürgün etmə. Fransanın cinayət hüququnda "d." adı altında xarici müstəmləkələrə sürgün etmənin xüsusi növləri başa düşülürdü. Bu cəza növü XVIII-XIX yüzilliklərdə həm cinayətkar-residivistlərə, həm də siyasi cinayətkarlara (məsələn, Paris kommunaçılarına) tətbiq edilmişdir. Geniş mənada d. dedikdə şəxsin və ya şəxslər kateqoriyasının başqa dövlətə və ya başqa yerə adətən konvoyun müşayiəti ilə məcburi surətdə sürgün edilməsi başa düşülür. D. bəzən bu və ya digər dövlətə qanunsuz gəlmiş xarici vətəndaşlara, yaxud vətəndaşlığı olmayan şəxslərə tətbiq edilir. Məsələn, keçmiş SSRİ-də 1920-1940-cı illərdə bütöv xalqların (çeçenlərin, inquşların, kalmıkların, o cümlədən qismən də azərbaycanlıların) kütləvi represiya aktı kimi d. olunması məlumdur.

Azərbaycan Respublikasının cinayət hüququnda d. beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadıqda, əhalini qanuni yerləşdiyi yerlərdən başqa ölkəyə qovma və ya digər məcburi hərəkətlərlə didərgin salma kimi müəyyən edilmişdir (AR CM-in 107-ci maddəsi).

**Depozit** *(lat. depositium – saxlanca verilmiş əşya)* – saxlanmaq üçün kredit müəssisəsində (banklarda, əmanət kassalarında) yerləşdirilən pul vəsaitləri və ya qiymətli (səhmlər, istiqrazlar) kağızlar; kreditora verilməsi üçün borclu tərəfindən məhkəməyə ödənilən pul məbləği (və ya qiymətli kağız).

**Depozitar fəaliyyət** – qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin növlərindən biri; bu fəaliyyət qiymətli kağızların sertifikatlarının saxlanması və (və ya) qiymətli kağızlar üzərində hüquqların uçotu və bu hüquqların keçməsi üzrə xidmətlərin göstərilməsindən ibarətdir. Qiymətli kağızlar bazarının d.f.-i həyata keçirən peşəkar iştirakçısı depozitari adlanır. Qiymətli kağızların saxlanması və qiymətli kağızlar üzərində hüquqların uçotu üzrə depozitarinin xidmətlərindən istifadə edən şəxs deponent adlanır. Onların münasibətlərini tənzimləyən müqavilə depozitar müqavilə adlanır.

**Depozitari** *(fr. depositaire)* – **1)** depozitlərin etibar edildiyi fiziki və ya hüquqi şəxs; **2)** qiymətli kağızlar bazarında depozitar fəaliyyəti həyata keçirən peşəkar iştirakçı. Ancaq hüquqi şəxs depozitari ola bilər. D. deponentin qiymətli kağızları üzərində sərəncam vermək, onları idarə etmək və ya deponentin adından hər hansı hərəkəti etmək hüququna malik deyildir. O, yalnız deponentin tapşırığı ilə depozitar müqavilədə nəzərdə tutulduğu hallarda qiymətli kağızlarla əlaqədar hər hansı hərəkəti həyata keçirə bilər. D. deponent edilmiş qiymətli kağız sertifikatlarının saxlanması üçün mülki-hüquqi məsuliyyət daşıyır; **3)** beynəlxalq müqavilənin mətninin əslini saxlayan dövlət və ya beynəlxalq təşkilat. Bir və ya bir neçə dövlət, beynəlxalq təşkilat, yaxud təşkilatın baş icraedici vəzifəli şəxsi d. ola bilər. Məsələn, BMT-nin Baş Katibi bu təşkilat çərçivəsində bağlanan bir sıra çoxtərəfli müqavilələrin depozitarisi vəzifəsini həyata keçirir. D. danışıqlarda iştirak edən dövlətlər tərəfindən müəyyən edilir. Universal xarakterli müqavilələrdə çoxsaylı dövlətlərin mənafeyi naminə onların bir neçəsi d. təyin edilə bilər.

**Depozitar kitabxana** – az istifadə edilən kitabların və sənədlərin saxlandığı kitabxana. Azərbaycan Respublikasında d.k. funksiyasını M.F. Axundov adına Azərbaycan Respublikası Milli Kitabxanası, Azərbaycan Milli Elmlər Akademiyasının Əsaslı Kitabxanası, Respublika Elmi-Texniki Kitabxanası yerinə yetirir.

**Depozitar müqavilə** – depozitar fəaliyyət prosesində depozitar ilə deponent arasında münasibətləri tənzim edən müqavilə. Depozitari bağlanmış d.m.-sinin ayrılmaz tərkib hissəsi olan həyata keçirdiyi depozitar fəaliyyətin şərtlərini təsdiq etməyə borcludur. O, deponentin malik olduğu qiymətli kağızlar üzərində sərəncam vermək, onları deponentin adından idarə etmək hüququna malik deyildir.

D.m. aşağıdakı mühüm şərtləri nəzərdə tutmalıdır: a) müqavilə predmetinin birmənalı şəkildə müəyyən edilməsi, yəni qiymətli kağız sertifikatlarının saxlanması və (və ya) qiymətli kağızlar üzərində hüququn uçotu üzrə xidmətlər təqdim olunması; b) deponentləşdirmə sərəncamı barəsində deponent tərəfindən depozitariyə informasiya verilməsi qaydası; c) müqavilənin fəaliyyət müddəti; ç) depozitarinin xidmətlərinin müqavilə ilə nəzərdə tutulmuş miqdarda və qaydada ödənilməsi; d) depozitarinin deponent qarşısında hesabatının forması və müntəzəmliyi; e) depozitarinin vəzifələri.

**Depozitar trast-şirkət** – bir sıra xarici ölkələrdə brokerlərə, dilerlərə və bank müəssisələrinə məxsus olan depozitli qiymətli kağızların sahibi olan banklara məxsus müstəqil korporasiya. Bu korporasiya brokerlərə, dilerlərə və bank müəssisələrinə məxsus olan depozitli qiymətli kağızların sahibi kimi onların hesablarını debetləşdirmə və kreditləşdirmə yolu ilə istifadəçilər arasında qiymətli kağızların alınmasını və tədarükünü, bağlanmış əqdlər üzrə istifadəçilər arasında ödəmələri təmin edir.

**Depozit bankları** *(bax: banklar).*

**Depozit əməliyyatları** – kredit təşkilatlarının hüquqi və fiziki şəxslərin pul vəsaitlərini əmanətlərə və yerləşdirməyə cəlb etmək üzrə əməliyyatları. Feal və passiv d.ə. fərqləndirilir. Feal d.ə. bir bankın müvəqqəti azad ehtiyatlarının digərlərində yerləşdirilməsindən ibarətdir. Passiv d.ə. isə pul vəsaitlərinin müddətlə və ya tələb üzrə əmanətə cəlb olunmasını əks etdirir. Bazarda dövr edən borc öhdəlikləri, depozit sertifikatları, veksellər və i.a. d.ə. sferasına daxildir.

**Depozit institutları** – pul vəsaitlərini açıq depozit hesablarına daxil etmək yolu ilə onları səfərbər edən maliyyə müəssisələri. D.i.-ndan fərqli olaraq qeyri-depozit müəssisələri ehtiyatları sığorta polislərinin satışı, pensiya haqlarının qəbulu, qiymətli kağızların realizəsi vasitəsilə cəlb edirlər.

**Depozit kassası** – bankda bölmə, depozitlərin qəbulu və saxlanması üçün nəzərdə tutulan sair kredit, yaxud büdcə təşkilatı. Bu zaman pul depozitləri (əmanətləri) bankların dövriyyəsində iştirak edir, yeni gəlir gətirən aktivlərdə yerləşdirilir. D.k.-nda qiymətli kağızlar (səhmlər, istiqrazlar), məhkəmə orqanlarının və inzibati idarələrin iddialarının təmini, məhkəməyə gəlmə ilə əlaqədar pul məsrəfləri saxlanılır. Büdcə müəssisələrinin d.k.-ndan pul məbləğlərinin, qiymətli kağızların saxlanması üçün istifadə olunur.

**Depozit müqaviləsi** *(bax: bank əmanəti müqaviləsi).*

**Depozitor** – **1)** depozitin sahibi; **2)** pul məbləğini almaq hüququna malik olan (hansı səbəbə görə isə müəyyən müddətdə idarə (müəssisə) tərəfindən ödənilməyən məbləğ) fiziki və ya hüquqi şəxs.

**Depozit sertifikatı** *(bax: əmanət (depozit) sertifikat).*

**Depozit şəhadətnaməsi** – sahibinin depozitdə yerləşdirilmiş vəsait üzərində hüququnu təsdiq edən sənəd.

**Depressiv vəziyyət** – *(bax: affekt).*

**Depressiya** *(lat. depressio – boğma, susdurma)* – düşgünlük, zəifləmə, durğunluq. Endogen d. üzvi dəyişikliklərlə şərtləşir və orqanizmin vəziyyətilə əlaqədar ruhi xəstəliyə əsaslanır. D.-nın belə növləri niyyətin, iradənin boğulmasını və təfəkkürün tormozlanmasını şərtləndirir, təqsirin və günahın beynə daxil olmuş ideyalarını ortaya çıxarır. Melanxoliya D.-nın daha tez-tez təsadüf olunan təzahür formasıdır. D.-nın reaktiv növləri qəflətən baş verən hadisələrdən irəli gəlir. Məhz belə hadisələr müvafiq (ümidsiz, qəmli, kədərli) şəxsin psixikasına çox güclü təsir edir. D. çox zaman intihara aparıb çıxarır. D.-nın ən güclü forması maniakal-depressiv psixozdur.

**Deputasiya** *(lat. deputatio)* – yuxarı instansiyalara vəsatət vermək üçün hər hansı təşkilat, müəssisə və yığıncaq tərəfindən seçilmiş nümayəndəlik, şəxslər qrupu.

**Deputat** *(lat. deputatus – elçi)* – qanunvericilik və ya dövlətin sair nümayəndəli orqanına, yaxud yerli özünüidarə orqanına seçilən şəxs, əhalinin müəyyən hissəsinin (bu orqanda) – öz dairəsinin və ya bütün millətin seçicilərinin nümayəndəsi. Peşəkar (əksər demokratik dövlətlərdə) və ya qeyri-peşəkar, yəni əsas fəaliyyətindən ayrılmamaqla işləyir. D.-ın statusu konstitusiya və xüsusi qanunlarla müəyyən edilir.

**Deputat etikası** – deputatların parlamentdaxili ünsiyyətinin əxlaqi və mənəvi normalarının məcmusu. D.e.-na əməl etmək zərurəti hər bir deputatın nəinki əxlaqi, həm də hüquqi vəzifəsidir və bu, ictimai, intizam təsir vasitələri ilə təmin olunur. Parlamentlərdə belə vasitələrin tətbiq edilməsi üçün xüsusi komissiyalar yaradılır. Məsələn, Azərbaycan Respublikası Milli Məclisində etika komissiyası yaradılmışdır. D.e.-nın pozulmasına görə konkret məsuliyyət, bir qayda olaraq, parlamentin reqlamentində müəyyən edilir.





**Deputat fəaliyyəti** *(bax: deputat fəaliyyətinin formaları).*

**Deputat fəaliyyətinin formaları** – Azərbaycan Respublikası Milli Məclisi deputatlarının fəaliyyətinin aşağıdakı formaları fərqləndirilir: a) Milli Məclisin iclaslarında iştirak etmək; b) Milli Məclisin müvafiq komissiyalarının iclaslarında, o cümlədən birgə iclaslarında iştirak etmək; c) Milli Məclisin müvafiq tapşırıqlarının yerinə yetirilməsində iştirak etmək; ç) Milli Məclisin iclaslarında çıxışlarda iştirak etmək; d) deputat sorğusu ilə müraciət etmək; e) seçicilərlə işləmək, onlarla görüşlər keçirmək.

**Deputatın geri çağırılması** – keçmiş sosialist və bir sıra digər dünya dövlətlərində (ABŞ-ın bəzi ştatlarında, Nigeriyanın 1989-cu il konstitusiyası ilə) müvafiq dairə seçicilərinin iradə ifadəsi əsasında səsvermə yolu ilə nümayəndəli hakimiyyət orqanının deputatının səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi.

**Deputatın statusu** – dövlət hakimiyyətinin nümayəndəli orqanları deputatlarının hüquqi vəziyyəti; deputat mandatının siyasi-hüquqi təbiəti, onun əmələ gəlməsi, xitam olunması və deputatların səlahiyyət müddətinin, onların fəaliyyət təminatlarının, həmçinin hesabat dövrlərinin başa çatması ilə əlaqədar olan ictimai münasibətləri tənzimləyən normaların məcmusu ilə müəyyən edilir. D.s.-nu təsbit edən hüquq normaları konstitusiyalarda, xüsusi qanunlarda və parlamentin palatalarının reqlamentlərində nəzərdə tutulur.

**Deputat korpusu** – bütün səviyyələrdən olan seçkili orqanlar deputatlarının məcmusu. Hər hansı nümayəndəli orqanın deputat korpusu həmin orqanın bütün deputatlarını əhatə edir.

**Deputat qrupları** – bir sıra ölkələrdə parlament fraksiyasına daxil olmayan deputatların birləşməsi. Məsələn, Rusiya Federasiyasının parlamentində belə birləşmələr mövcuddur. RF Dövlət Dumasının Reqlamentinə uyğun olaraq deputat qrupları və fraksiyalar bərabər hüquqlara malikdirlər. Say tərkibi ən azı 35 nəfərdən ibarət olan d.q. qeydiyyatdan keçirilir.

**Deputatların intizam məsuliyyəti** – seçkili vəzifəli şəxslər kimi deputatların hüquqi məsuliyyətinin xüsusi növü; parlamentin palatalarının və digər nümayəndəli orqanların reqlament normalarının, yaxud deputat etikasının pozulmasına görə meydana çıxır. Müasir demokratik dövlətlərdə deputatlara adətən sözdən, müzakirə olunan məsələ ilə əlaqədar sözdən və çıxışdan məhrum etmə, iclas zalından çıxarma, məzəmmət, aylıq deputat əməkhaqqından müəyyən məbləğin tutulması və i.a. kimi xəbərdarlıq tədbirləri tətbiq edilir.

**Deputatlar palatası** – Yunanıstanın birpalatalı parlamentinin, Boliviya, Braziliya, Venesuela, Dominakan Respublikası, İtaliya, Kolumbiya, Meksika, Nikaraqua, Ruminiya, Çexiya və Çili parlamentlərinin aşağı palatalarının adı.

**Deputat mandatı** *(bax: mandat).*

**Deputat sorğusu** – deputatın dövlət hakimiyyəti orqanına, yaxud vəzifəli şəxsə hər hansı məlumatı, izahatı və i.a. almaq tələbi və ya xahişi ilə rəsmi müraciəti. Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikası Milli Məclisinin deputatı və ya deputatlar qrupu Azərbaycan Respublikası hökumətinə, Azərbaycan Respublikasının Baş

Prokurorluğuna, icra hakimiyyəti orqanlarının rəhbərlərinə sorğu ilə müraciət etmək hüququna malikdirlər.

**Deputat toxunulmazlığı** *(bax: parlament immuniteti).*

**Dermatoqlifika** – papilyar xətlərlə yaranan dəri relyefi naxışlarını öyrənən elm. D.-nın məlumatlarından kriminalistikada geniş istifadə olunur.

**Deroqasiya** *(lat. deragatio; ing. derogation)* – köhnə qanunun qismən ləğv edilməsi.

**Desant** *(fr. descente – çıxarılma-endirmə)* – döyüş əməliyyatı vəzifəsini yerinə yetirmək üçün düşmən ərazisində çıxarılmaqdan ötrü nəzərdə tutulmuş və ya çıxarılmış xüsusi qoşun növü. Miqyas və məqsədlərinə görə taktiki, operativ, strateji və xüsusi məqsədli d. növləri vardır. D. hava, dəniz, tanklar vasitəsilə və qarışıq üsullarla çıxarılır *(həmçinin bax: desant gəmiləri; hava desantı).*

**Desant gəmiləri** – dəniz desantlarını daşıyan və sahilə çıxaran suüstü döyüş gəmiləri sinfi. D.g.-ndən ilk dəfə Rusiyanın Qara dəniz donanmasında Birinci dünya müharibəsi (1914-1918) dövründə istifadə edilmişdir. Böyük, orta və kiçik ölçülü d.g. və katerləri olur. D.g.-nin aşağıdakı növləri vardır: a) universal d.g.; b) piyada və tank d.g.; c) desant nəqliyyat dokları; ç) vertolyot daşıyan d.g. və vertolyot-desant nəqliyyat dokları; d) qoşun və yük d.g.; e) desant katerləri.

Müasir d.g.-nin suyaoturma dərinliyi az, desant tutumu böyükdür; hər cür şəraitdə desant çıxarır və qəbul edir, fırtınalı hava şəraitində böyük məsafə qət edə bilir. D.g.-nin taktiki-texniki göstəriciləri onların istifadə məqsədindən asılıdır. Desant əməliyyatları gedişində onlar döyüş gəmiləri və dəniz donanması aviasiyasının mühafizəsi ilə hərəkət edirlər.

**Deseqreqasiya** *(ing. desegregation)* – ləğv etmə, seqreqasiyanı aradan qaldırma, seqreqasiya siyasətindən imtina etmə.

**Desemvirlər** *(lat. decemviri, decem – on və vir – kişi)* – Qədim Romada 10 nəfərdən ibarət olan kollegiya; xüsusi dövlət tapşırıqlarını yerinə yetirmək üçün seçilirdi. Məsələn, D.-in fəaliyyəti nəticəsində eramızdan əvvəl 451 və 450-ci illərdə XII Cədvəl Qanunları tərtib edilmişdir.

**Desimasiya** – püşkatma ilə hər 10 nəfərdən birinin edam olunması. Qədim Romada və bəzi başqa dövlətlərdə hərbi (döyüş meydanından kütləvi surətdə qaçma) və bəzi digər cinayətlərə (qulların qiyamı) görə tətbiq edilən cəza tədbiri olmuşdur. Bu cəza tədbiri Rusiyanın XVIII əsr cinayət qanunvericiliyinə də məlum idi.

**Desosiallaşmış ailə** – kriminogen ailənin növlərindən biri; belə ailədə desosiallaşmanın səmərəsi müşahidə olunur *(bax: sosiallaşma).*

**Despot** *(yun. despotes - hökmdar)* – **1)** dövlətdə öz təbəələrinə münasibətdə qeyri-məhdud hakimiyyətə malik olub özbaşınalığı rəhbər tutan hökmdar; **2)** başqalarını öz iradəsinə tabe olmağa məcbur edən, hərəkətlərində heç kəslə hesablaşmayan müstəbid.

**Despotat** – XIII-XV yüzilliklərdə yaranan və Bizansdan yarımasılılıqda, lakin faktiki müstəqil olan bir sıra yunan dövlətlərinin şərti adı. Bu dövlətlərin hökmdarları despot (Bizans əyanlarının ali titulu) adlandırılırdı.





**Despotiya** *(yun. despoteia)* – **1)** qeyri-məhdud hakimiyyət; qeyri-məhdud monarxiya idarəçilik forması, istibdadla xarakterizə olunan hakimiyyət, siyasi rejim, hakimiyyətdə tam özbaşınalıq. D. ölkə hökmdarının öz təbəələrinə qarşı amansız rəftarı ilə səciyyəvidir; **2)** qeyri-məhdud hakimiyyətin hökmran olduğu ölkə.

**Despotizm** – istibdad; qeyri-məhdud hakimiyyətə malik olan hökmdarın öz ölkəsində yaratdığı siyasi rejim. D. ətrafdakılara, tabelikdə olanlara (təbəələrə), ümumiyyətlə ölkə əhalisinə münasibətdə müstəbidlikdə və özbaşınalıqda təzahür edir.

**Desyatin** *(lat. decima)* – **1)** ruhanilərin və məbədlərin saxlanması üçün əhalidən məhsulun (yaxud başqa gəlirin) onda bir hissəsi həcmində alınan vergi. Qədim dövrlərdə bir sıra sami xalqlarda mövcud olmuş desyatin sonralar Qərbi Avropa ölkələrinin xristian kilsələrinə də keçmişdir. Rusiyada X yüzillikdən mövcud olan desyatin XIX yüzillikdə ləğv edilmişdir. Müsəlman ölkələrində "D." sözünə "zəkat" və "üşr" terminləri uyğun gəlir; **2)** torpaq sahələrini ölçmək üçün metrlik ölçü sistemindən əvvəl istifadə edilmiş ölçü vahidi.

**Deşarj məktub** – indossatın indossanta onun özünü veksel üzrə məsul qismində cəlb etməməsi müraciəti ilə əlaqədar məktubu.

**Detektiv** *(ing. detective; lat. detectio – açma, ifşa etmə)* – kriminal polis idarəsinin casusu (xəfiyyəsi). D. bütün zəruri əməliyyatları adətən öz mülahizəsinə görə aparır.

**Detektiv ədəbiyyat** – əsasən kriminal əməllərdən bəhs edən bədii ədəbiyyat növü; faktların məntiqi təhlili ilə sirli cinayətlərin açılmasından, xəfiyyələrin (detektivlərin) macəralarından bəhs edən roman, povest və hekayə. D.ə.-da münaqişə əsasən ədalətin qanunsuzluqla toqquşması üzərində qurulur. Amerika yazıçısı Edqar Po d.ə.-ın banisi hesab olunur. U.U. Kollinz, A.K. Doyl, G.K. Çesterton, A. Kristi, J. Simenon, Azərbaycan yazıçısı Cingiz Abdullayev və başqalarının detektiv əsərləri məşhurdur. Dəhşətli cinayətlərin, qətl və qarətlərin, seksual pozğunluqların təsviri və ifşası d.ə.-ın səciyyəvi xüsusiyyətidir.

**Determinantlar** *(kriminologiyada)* – hadisələr doğuran, onları şərtləndirən konkret amillər (hallar).

**Determinasiya** *(kriminologiyada)* – obyektiv surətdə mövcud olan şeylərin və proseslərin şərtliliyi. Hər hansı hadisə öz-özünə, ətraf gerçəklikdən kənarda yaranmır, əksinə bu, real gerçəkliklə əlaqədar olmaqla, konkret amillərdən və hallardan doğur.

**Determinizm** *(kriminologiyada)* – bütün hadisə və proseslərin qarşılıqlı əlaqəsinin və səbəblərinin obyektiv qanunauyğunluqları haqqında elm. Bu elmin nailiyyətlərindən kriminologiyada geniş istifadə olunur.

**Devalvasiya** *(lat. devalvatio)* – **1)** dünyanın pul standartı ilə müqayisədə milli valyutanın dəyərinin azalması; **2)** valyutanın rəsmi kursunun aşağı düşməsi; inflyasiyadan sonra valyutanın sabitləşməsi metodu.

D. pul vahidinin qızıl tərkibinin qanunvericilik vasitəsilə azaldılması, yaxud kağız nişanlarının qızıla və ya xarici valyutaya nisbətən məzənnəsinin aşağı salınması yolu ilə həyata keçirilir. D. ixracatı təşviq edir, ancaq dövlətin xarici borcunu artırır, idxalat mallarının qiymətlərini bahalaşdırır.

**Deviant** – deviant davranışa malik olan şəxs. Belə şəxslərin dörd kateqoriyasını fərqləndirmək olar: 1) ən kriminogen kateqoriya kimi cinayət törətmiş şəxs; 2) cinayət törətməsini gözləmək olan şəxs; 3) cəmiyyət əleyhinə davranışa malik olan şəxs (bu kateqoriyaya adətən çətin tərbiyə olunan, baxımsız 14 yaşınadək olan yetkinlik yaşına çatmayan şəxslər aid edilir); 4) öz aqressiv, qeyri-əxlaqi və ehtiyatsız davranışı ilə cinayətdən zərər çəkmiş şəxs.

**Deviant davranış** – hüquq, əxlaq normalarından yayınan davranış. D.d.-ın əsas növləri cinayətkar, qeyri-cinayətkar hüquqazidd və qeyri-əxlaqi davranışdan ibarətdir. D.d. şəxsiyyətin asosial inkişafının, ona əlverişsiz sosial situasiyaların təsirinin nəticəsidir. Belə ki, mənfi sosial amillər "şəxsiyyətin zəif yerlərinə" təsir göstərməklə d.d. yaradır.

Hazırda bu fenomeni öyrənən müəyyən bilik sahəsi – sosial yayınmalar nəzəriyyəsi formalaşır. Məlum olduğu kimi, cinayətkarlıq d.d.-ın ən ictimai təhlükəli növü olmaqla əsasən kriminologiya tərəfindən öyrənilir. Sosial yayınma həm müsbət, həm də mənfi xarakterə malik ola bilər. Bu isə öz növbəsində qiymətləndirici amillərin çoxluğundan asılıdır. D.d. yayınan davranış növü kimi ancaq mənfi xarakterə malikdir.

**Deviantlıq** – 1951-ci ildə kriminoloq E. Lemert tərəfindən irəli sürülən, stiqmatizasiya nəzəriyyəsi ilə sıx bağlı olan nəzəriyyə. D.-ın mahiyyəti ilkin deviantlığa sosial reaksiyanın şişirdilmiş qiymətləndirilməsindən ibarətdir. Cinayətkar davranışın səbəbli mexanizmində rol başlıca hərəkətedici qüvvələrə verilir.

**Deviasiya** *(lat. deviatio – yayınma)* – dəniz gəmisinin müqavilə ilə müəyyən edilmiş və ya adi yoldan yayınması. D.-nın standart halları adamların, gəminin xilas edilməsindən, gəmidə olan şəxslərə tibbi yardım göstərilməsindən və i.a. ibarətdir. Deviasiya ingilis-amerikan müqavilə hüququnda da müqavilənin əhəmiyyətli şərtlərindən yayınma mənasını verir.

Məqsədlərdən və müşayiətedici hallardan asılı olaraq d. vurulmuş ziyana və daşıma üzrə öhdəliklərin icrası müddətinin keçməsinə görə sifarişçinin məsuliyyətinə səbəb olan hərəkət, habelə sifarişçini məsuliyyətdən azad edən hal kimi də hesab oluna bilər. Konosamentdə, çarterdə, sığorta polisində bir qayda olaraq, d.-nın mümkünlüyünü nəzərdə tutan qeyd-şərt ehtiva olunur. Belə deviasiyalı qeyd-şərtin olduğu zaman yükə vurulan mümkün ziyana görə məsuliyyəti sığortaçı daşıyır.

**Devizlər** – xarici valyutada beynəlxalq hesablaşmalar üçün nəzərdə tutulmuş ödəmə vasitələri. Bankların d.-lə əqdləri əsasən xarici ticarət, kapitalın hərəkəti, qismən də beynəlxalq turizm və digər qeyri-ticarət ödəmələri üzrə hesablaşmalarla əlaqədar olaraq bağlanır.

Köçürmə, xarici banka qoyulan çek və akkreditiv, ödəmə tələbi, ödəmə tapşırığı, xaricdə ödənilməli olan veksel, habelə xarici bank biletləri (banknotları) və sikkələri d.-ə aid edilirlər.

**Devolyusiya** *(ing. devolution)* – Böyük Britaniyanın və bəzi digər ölkələrin konstitusiya-hüquq təcrübəsində mərkəzi hökumət orqanları tərəfindən öz səlahiyyətlərinin bir hissəsini inzibati ərazi vahidlərinin hakimiyyət orqanlarına verilməsini bildirən termin. Bu zaman hökumət siyasətin əsas istiqamətlərinə və bütün sahələrdə qanunvericiliyə görə məsuliyyəti qoruyub saxlayır. Qanunvericilik (bəzi məsələlər üzrə qanunlar vermək hüququ) d.-sı və inzibati (mərkəz tərəfindən müəyyən edilmiş siyasəti və qanunları həyata keçirmək hüququ) d. fərqləndirilir.

**De-yure** *(lat. de yure – hüquqi)* – beynəlxalq hüquqda dövləti və ya hökuməti tam şəkildə rəsmən tanıma.

**Dezadaptasiya** *(kriminologiyada)* – bir çox potensial və real hüququ pozanlar (o cümlədən residivistlər və avaralar) üçün sosial mühitin şəraitinə uyğunlaşmağın zəifliyi və ya tamamilə olmaması.

**Dəbbə pulu** – müqavilə ilə müəyyənləşdirilən, öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda borclunun kreditora ödəməli olduğu pul məbləği (cərimə, penya). Əgər öhdəliyin məzmununu hərəkətdən çəkinmək təşkil edirsə, dəbbə pulu hərəkətin edildiyi andan tutulmalıdır. Dəbbə pulunun ödənilməsi tələbi üzrə kreditor ona zərər vurulduğunu sübuta yetirməyə borclu deyildir. Əgər borclu öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyət daşımırsa, kreditor dəbbə pulunun ödənilməsini tələb edə bilməz. Müqavilənin tərəfləri dəbbə pulunun miqdarını sərbəst müəyyənləşdirə bilərlər və bu, mümkün zərərdən çox ola bilər. Əgər öhdəliyin icrası barədə vəd mülki qanunvericiliyə görə etibarsız sayılırsa, həmin öhdəliyin icra edilməməsi üçün dəbbə pulu haqqında qəbul edilmiş razılaşma da, hətta həmin vədin etibarsızlığı tərəflərə məlum olsa belə, etibarsızdır. Əgər borclu öz öhdəliyini icra etdiyinə görə dəbbə pulu tutulması barədə mübahisə edirsə, o, icranı sübuta yetirməlidir, bu şərtlə ki, öhdəlik hərəkətindən çəkinməkdən ibarət olmasın (AR MMİ-in 462-ci maddəsi).

**Dəfinə** – torpağa basdırılmış və ya sair üsullarla gizlədilmiş pul və ya qiymətli əşyalar. AR MM-in 187-ci maddəsinə uyğun olaraq ...bunların mülkiyyətçisini müəyyənləşdirmək mümkün olmadıqda, dəfinənin gizlədildiyi əmlakın (torpaq sahəsinin, tikilinin və s.) mənsub olduğu şəxslə dəfinəni aşkar etmiş şəxsin mülkiyyətinə, həm də əgər onların razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, bərabər paylar şəklində daxil olur.

D. onun gizlədildiyi torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisinin razılığı olmadan qazıntı aparan və ya sərvət axtaran şəxs tərəfindən aşkar edildikdə, həmin torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisinə verilməlidir. Aşkar edilən d. tarix və ya mədəniyyət abidələrinə aid, elmi dəyərli əmlak olduqda dövlət mülkiyyətinə verilməlidir. Bu zaman d.-nin gizlədildiyi torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisi və d.-ni aşkar etmiş şəxs birlikdə d.-nin dəyərinin 50 faizi miqdarında bəxşiş almaq hüququna malikdirlər.

**Dələduzluq** – etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlidir.

**Dəllal** *(ər.)* – ticarətdə alıcı ilə satıcı arasında vasitəçilik edən şəxs. D. qiymət barədə tərəfləri razı salır, əvəzində isə tərəflərin birindən və ya hər ikisindən vasitəçi-

lik haqqı alır. D. əvvəllər şəhər ticarətində müəyyən rola malik olmuşdur. Orta əsrlərdə bir növ peşəyə çevrilmiş dəllalıq Azərbaycanda da geniş yayılmışdır. Sabit satış qiyməti olmayan Şərq ölkələri bazarlarında d.-ın xidmətindən indi də istifadə edilir. Qərb ölkələrində dəllallar makler adı altında fəaliyyət göstərirlər.

**Dəmiryol daşımaları** – Azərbaycan Respublikasında mülki hüquq münasibətlərinin obyekti kimi daşıma növlərindən biri; dəmiryol nəqliyyatının inkişafı və fəaliyyətinin xüsusi şərtlərini müəyyən edir.

D.d. beynəlxalq-hüquqi tənzimlənmənin obyekti kimi həmsərhəd olan ölkələrin dəmiryolları arasında bağlanan sazişlərin predmetindən ibarətdir.

**Dəmiryol nəqliyyatı** – Azərbaycan Respublikasının ixtiyarında olub, vahid istehsalat-texnoloji kompleksdən ibarət olan ümumi istifadəli nəqliyyat növlərindən biri. Azərbaycan Respublikasında d.n. idarəçiliyini respublikanın nəqliyyat nazirliyi həyata keçirir.

**Dəmiryol nəqliyyatı torpaqları** – dəmiryol nəqliyyatı idarələrinin və müəssisələrinin əvəzsiz daimi (müddətsiz) istifadəsinə verilmiş dövlət təyinatlı torpaqlar.

**Dəmir yolu** – dəmiryol nəqliyyatının əsas dövlət unitar müəssisəsi; mərkəzləşdirilmiş idarəetmə və digər dəmiryol nəqliyyatı və nəqliyyatın digər növləri ilə qarşılıqlı fəaliyyət vasitəsilə iqtisadiyyatın və əhalinin daşımalara olan ehtiyaclarının ödənilməsinə xidmət edir.

**Dəmir yolu qaiməsi** – yüklərin dəmir yolu nəqliyyatı ilə daşınması müqaviləsi. Yüklərin qarışıq nəqliyyatla daşındığı hallarda çıxış dəniz ticarət limanlarınadək xarici ticarət daşımalarında istifadə olunur.

**Dəniz agentləşdirməsi** – mülki-hüquqi müqavilə; bu müqaviləyə görə dəniz agenti gəmi sahibinin tapşırığı ilə və onun hesabına öz adından və ya gəmi sahibinin adından müəyyən limanda və ya ərazidə mükafat almaqla hüquqi və sair hərəkətlər etməyi öhdəsinə götürür. Dəniz agenti gəminin limana gəlməsi, oraya çatması və limandan çıxması ilə əlaqədar müxtəlif formallıqları yerinə yetirir, liman müdiriyyəti və yerli hakimiyyət orqanları ilə əlaqələrin yaradılmasında gəmi kapitanına kömək edir, yük sənədlərini rəsmiləşdirir, fraxtı inkassolaşdırır və dəniz daşıması müqaviləsindən irəli gələn sair tələbləri həyata keçirir.

**Dəniz Arbitraj Komissiyası (DAK)** – müstəqil və daimi fəaliyyət göstərən münsiflər məhkəməsi; beynəlxalq kommersiya (ticarət) arbitrajı haqqında qanunvericiliyə uyğun olaraq səlahiyyətinə aid edilmiş mübahisələri həll edir.

**Dəniz brokeri** *(bax: dəniz vasitəçiliyi).*

**Dəniz dəhlizləri** – BMT-nin dəniz hüququ üzrə 1982-ci il konvensiyası ilə tətbiq edilmiş hüquqi kateqoriya; sahilyanı dövlətlərin xarici gəmilərin və hərbi gəmilərin öz ərazi sularından (ərazi dənizində), boğazlardan keçməsinin, habelə həmin ərazilər üzərindən uçuşun xüsusi şərtlərini müəyyən etmək hüququ deməkdir.

**Dənizdə kömək göstərməmə** – açıq dənizdə törədilən beynəlxalq xarakterli cinayət. Belə əmələ görə məsuliyyət dənizdə kömək göstərilməsinə və xilas etməyə aid bəzi qaydaların birləşdirilməsi üçün 1910-cu il Brüssel konvensiyasında nəzərdə tutulmuşdur. Sonrakı illərdə həmin cinayətə görə məsuliyyət həmçinin dənizdə insan həyatının mühafizəsi üzrə 1978-ci il Beynəlxalq konvensiyasında, dənizdə axtarış və xilas etmə üzrə 1979-cu il Beynəlxalq konvensiyasında, habelə BMT-nin dəniz hüququ üzrə 1982-ci il konvensiyasında nəzərdə tutulmuşdur. Bu konvesiyalarda gəmi batması və hava gəmilərinin məcburi olaraq dənizə enməsi nəticəsində fəlakətə uğrayan insanların xilas edilməsi qaydaları tənzim edilir.

**Dəniz hüququ** – ticarət və hərbi dəniz gəmiçiliyi, balıqçılıq və dəniz ovçuluğu, bioloji və mineral dəniz ehtiyatlarının çıxarılması, elmi tədqiqatlar aparılması sahəsində münasibətləri tənzimləyən hüquq normalarının məcmusu.

Müasir dövrdə d.h.-nun 3 sahəsi mövcuddur: 1) milli dəniz hüququ; 2) beynəlxalq dəniz hüququ; 3) beynəlxalq xüsusi dəniz hüququ. Milli dəniz hüquq normaları ölkədaxili qanunvericilikdə, beynəlxalq dəniz hüququ normaları əsasən beynəlxalq konvensiyalarda, beynəlxalq xüsusi dəniz hüququ normaları isə milli qanunvericilikdə və beynəlxalq müqavilələrdə nə..ərdə tutulur. D.h.-nun başlıca mənbəyi Azərbaycan Respublikasının 2001-ci ildə qəbul edilmiş Ticarət Gəmiçiliyi Məcəlləsidir (TGM).

**Dəniz quldurluğu** – xüsusi sahibkar, yaxud dövlət gəmiləri tərəfindən açıq dənizdə ticarət gəmilərinin və digər mülki gəmilərin qanunsuz olaraq zəbt, qarət edilməsi, yaxud batırılması. Müharibə şəraitində gəmilərin, sualtı qayıqların və hərbi gəmilərin bitərəf ölkələrin ticarət gəmilərinə hücum etməsi də d.q.-na bərabər tutulur. Müasir beynəlxalq hüquqda yaranmış adət normalarına əsasən quldur gəmiləri və onların heyətləri heç bir dövlət tərəfindən müdafiə edilməməlidir. Quldur gəmisi açıq dənizdə təqib edilə bilər, müqavimət göstərdikdə isə hər hansı dövlətin hərbi gəmisi onu batıra bilər. Quldur gəmisinin heyəti qanunla təqib edilməli və cəzalandırılmalı, gəmi isə onu zəbt etmiş dövlətin qanunları ilə müsadirə olunmalıdır. Beynəlxalq hüququn d.q.-na aid adət normaları açıq dəniz haqqında 1958-ci il Cenevrə konvensiyasında məcəllələşdirilmişdir.

**Dəniz nəqliyyatı** – gəmilərin yük və sərnişin daşımasını həyata keçirən nəqliyyat növü. D.n. daxili və beynəlxalq daşımalarda geniş tətbiq olunur. Azərbaycan Respublikasında d.n.-nın inkişafında Xəzər gəmiçiliyinin böyük rolu vardır.

**Dəniz piyadası** – dənizdə və quruda döyüş əməliyyatları aparmaq üçün nəzərdə tutulmuş və xüsusi hazırlıq keçmiş qoşun növü. Hərbi Dəniz Donanmasına (HDD-na) daxildir. D.p. İngiltərədə 1664-cü, Rusiyada 1705-ci, ABŞ-da 1775-ci ildə meydana gəlmiş, keçmiş SSRİ-də vətəndaş müharibəsi (1918-1920) dövründə yaradılmışdır. Müasir dövrdə d.p. daha da təkmilləşdirilmiş, yeni texnika və silah növləri ilə təchiz edilmişdir.

**Dəniz protesti** – gəminin üzdüyü və ya dayandığı vaxt gəmi sahibinə əmlak iddiasının verilməsi üçün əsas ola bilən hadisə, yaxud qəza baş verdiyi hallarda gəmi sahibinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək məqsədi ilə gəmi kapitanının müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş (tərtib edilmiş) yazılı ərizəsi. Notarius və ya konsul idarəsinin vəzifəli şəxsi tərəfindən

tərtib edilmiş d.p. aktı müəyyən hallarda gəmini gömrük ödəmələrindən azad edir.

**Dəniz sığortası** – mülki-hüquqi müqavilə; bu müqaviləyə görə sığortaçı D.s. ilə nəzərdə tutulmuş təhlükələrin və ya təsadüflərin meydana çıxdığı zaman şərtləşdirilmiş ödəmə (sığorta mükafatı) ilə sığorta edilənə və ya xeyrinə belə müqavilənin bağlandığı digər şəxsə vurulmuş zərərin ödənilməsini öhdəsinə götürür. Dəniz ticarəti ilə əlaqədar hər cür əmlak mənafeyi – gəmi, tikilməkdə olan gəmi, yük, fraxt, habelə sərnişinin gediş haqqı, yükdən gözlənilən gəlir və i.a. d.s.-nın obyekti ola bilər.

**Dəniz vasitəçiliyi** – mülki-hüquqi müqavilə; bu müqaviləyə görə vasitəçi (dəniz brokeri) etibar edənin adından və onun hesabına gəmilərin alqı-satqı müqavilələrinin bağlanması, fraxtlaşdırma və gəmilərin yedəyə alınması, habelə dəniz sığortalanması müqavilələrinin bağlanması zamanı vasitəçilik xidmətləri göstərməyi öhdəsinə götürür.

**Dərviş ordenləri** – dərvişlərin ittifaqı və ya qardaşlığı. İslamın yayıldığı ölkələrdə XI yüzillikdə yaranmışdır. D.o.-nin öz nizamnamələri, ruhanilik iyerarxiyası olmuşdur. Bu ordenlərin üzvləri zahidlərə və müqəddəs hamilərə sitayiş edirdilər. D.o.-nin ideoloji əsasını sufilik təlimi təşkil edirdi. D.o.-nin ən məşhurları qədərilik, nəqşibəndilik, yasəvilik, mövləvilik, bəktaşilik, ticanilik və sənusilik olmuşdur. Ordenlərin tərkibi yekcins olmamışdır. Həm səfillər, həm də varlılar və hökumət məmurları dərviş ola bilərdilər. Məsələn, Liviya kralı sənusilik ordeninin başçısı olmuşdur. D.o. iri mülkiyyətə, o cümlədən geniş torpaq mülklərinə sahib idilər. İri feodallardan olan bəzi dərvişlər dövlət siyasətində də mühüm rol oynamışlar. Türkiyədə d.o. ilə feodal monarxiya üsul-idarəçiliyi arasında sıx əlaqə olmuşdur. Yalnız Xilafətin süqutundan və sultanlığın ləğvindən, respublika idarəçilik forması bərqərar olduqdan sonra d.o. buraxılmış, onların xanəgahları bağlanmışdır. 1939-cu ilə qədər Əlcazairdə d.o.-nin sayı 4 minədək olmuşdur.

D.o. Azərbaycanda da fəaliyyət göstərmişdir. Sührəverdiyyə, Səfəviyyə, Nəqşibəndiyyə və i.a. ordenləri misal göstərmək olar. Səfəviyyə ordeni daha məşhur olmuşdur.

**Dəstə** – hərbdə – döyüş tapşırıqlarını və ya xüsusi tapşırıqları yerinə yetirmək üçün nəzərdə tutulmuş bölmə və hissələrin müvəqqəti və ya daimi birləşməsi. Kəşfiyyat, hücum, mühafizə, mülki müdafiə, partizan d.-ləri də olur. Sərhəd qoşunlarında əlahiddə əsgəri hissə də d. adlanır. Hərbi Hava Qüvvələrində (HHQ) eskadrilya tərkibinə daxil olan taktiki bölmə D. hesab olunur.

**Dəyişdirmə müqaviləsi** – mülki-hüquqi müqavilə; bu müqaviləyə görə tərəflərdən hər biri başqa tərəfin mülkiyyətinə bir əşyanın müqabilində digər əşyanı verməyi öhdəsinə götürür. Həmin müqaviləyə alqı-satqı haqqında göstərişlər müvafiq surətdə tətbiq edilir. D.m. üzrə münasibətlərin hər bir iştirakçısı digər tərəfə verəcəyini vəd etdiyi əşyanın satıcısı və aldığı əşyanın alıcısı sayılır.

D.m.-ndə başqa qaydanın nəzərdə tutulmadığı halda dəyişdirilməli mallar bərabər qiymətli sayılır, onların verilməsi və qəbul edilməsi xərclərini isə hər bir halda müvafiq vəzifələri daşıyan tərəf çəkir. D.m.-nə uyğun olaraq dəyişdirilən mallar qeyri-bərabər qiymətli sayıldığı halda, aldığı malın qiymətindən aşağı qiymətli mal verməli olan tərəf qiymət fərqini, əgər





müqavilədə ödənişin başqa qaydası nəzərdə tutulmayıbsa, bilavasitə malı vermək vəzifəsini icra edənədək və ya icra etdikdən sonra ödəməlidir (AR MM-in 662-ci və 663-cü maddələri).

**"Dhammada"** – "Qanun yolu"; qədim hind siyasi və hüquqi fikrinin abidələrindən biri. Eramızdan əvvəl IV yüzilliyin sonu – III yüzillikdə meydana gəlmiş bu abidə buddizmin kilsə qanunlarının (kanonlarının) toplusundan ibarətdir. "D."-da brahmanizmin əksinə olaraq bütövlükdə buddizmə xas olan cəzaların rolunun və miqyasının məhdudlaşdırılması ənənəsi ətraflı ifadəsini tapmışdır. Təqsirin olmadığı zaman cəzanın tətbiq edilməsinin yolverilməzliyi abidədə xüsusi olaraq qeyd edilir. Buddizmin özünün dini təlimində "D."-nın təriflənməsi həm də qanunçuluğun, həyatdakı qanuni yolun tərifləməsi demək idi. Bunun dərk edilməsi və "D."-nın göstərişlərinə əməl edilməsi müvafiq biliklərə malik olmağı, əxlaqi və əqli səylər göstərilməsini tələb edirdi. "D."-ya görə qanunçuluq yolu həm də ədalət və müdriklik yoludur. "Qanunsuz yolda olan müdrik özünə müvəffəqiyyət arzulamır".

**"Dharma"** – Qədim Hindistanda insanın əməl etməli olduğu qanunların və kasta (varna) adətlərinin, dini, əxlaqi, ictimai vəzifələrin, yerinə yetirilməsi ruhun xoşbəxt köçürülməsini təmin edən mənəvi normaların, habelə nikah-ailə öhdəliklərinin geniş dairəsini əhatə edən termin. "D." spesifik hindusit termini olsa da, o, Qərbi Avropanın "hüquq", "qanun" kimi anlayış-terminləri ilə analoji mənaya malikdir. "D." qanununu pozmaq, həyati qanun kimi onun göstərişlərindən kənara çıxmaq və tələblərini yerinə yetirməmək müvafiq kastaya mənsub olan şəxsin cəmiyyətdən təcrid edilməsi də daxil olmaqla sərt cəzaların tətbiqinə səbəb olurdu. "D." qədim hind quldarlıq cəmiyyətində şəxsiyyətin mənəvi inkişafının aşağıdakı dörd prinsipinin ümumiləşdirilmiş göstəricisi qismində çıxış edirdi: 1) artha (fayda vermək, faydalı işlərlə, peşə ilə məşğul olmaq); 2) kama (həyatdan, onun gözəlliklərindən zövq almaq); 3) dharma (sosial ədalət, ədaləti olmaq, haqqı, ədalətli müdafiə etmək); 4) mokşa (mənəvi azadlıq, ruhən sərbəst olmaq). "D." ilə əlaqədar yaranmış ideoloji fikirlər Şərqin siyasi və hüquqi fikrinin inkişafında mühüm rol oynamışdır.

**"Dharmasutra"** – Qədim Hindistanın siyasi və hüquqi fikrinin mühüm abidələrindən biri. Meydana gəlməsi eramızdan əvvəl I minilliyin birinci yarısına təsadüf edir. Abidədə brahmanların həyat, məişət və təsərrüfat məsələləri ilə yanaşı, cinayət və cəzalara, xüsusi mülkiyyətə, ailə və nikaha, kasta quruluşuna, habelə dövlət hakimiyyətinə dair fikirlərə də xeyli yer verilmişdir. "D."-nın müxtəlif brahman məktəbləri tərəfindən tərtib edildiyi də ehtimal olunur.

**"Dharmaşastra"** – Qədim Hindistanın siyasi və hüquqi fikrinin mühüm abidələrindən biri. "D." eramızdan əvvəl I minilliyin birinci yarısında hüquqi toplu kimi müxtəlif brahman məktəblərinin ardıcılları tərəfindən tərtib edilmişdir. Abidə hind quldarlıq cəmiyyətində sosial-iqtisadi münasibətləri tənzim etmiş mənbələrdən biri kimi, hindlilərin sosial-psixoloji və etik sərvətləri haqqında da zəngin məlumatlar verir. "D."-da şahın məhkəmə fəaliyyətinə, məhkəmə təcrübəsinə, cinayət və cəzalara, əm-

lak, ailə və nikah, vərəsəlik münasibətlərinə dair məsələlərə geniş yer verilmişdir. Abidədə ifadə olunan siyasi və hüquqi fikirlər Şərqdə siyasi-hüquqi təlimlər tarixinin inkişafında və zənginləşməsində mühüm rol oynamışdır. Müasir dövrdə aparılmış elmi tədqiqatların nəticələrinə görə "D."-nın hüquqi materiallarının məzmunu Hindistanın böyük siyasi-hüquqi abidələrindən biri olan "Arthaşastra"-nın mətnlərinin köməyi ilə daha səlis aydınlaşdırılmışdır. D. Derretin məntiqinə görə "D."-nın tərtibçiləri öz qarşılarına heç də hüquqi mətnlər işləyib hazırlamaq məqsədini qoymamışdılar. Onların diqqət mərkəzində yüzilliklər ərzində təşəkkül tapmış və formalaşmış həyatın bütün hallarına mükəmməl yanaşmanı ehtiva edən sosioloji görüşləri sistemləşdirmək olmuşdur. Şübhəsiz ki, "D."-nın tərtibçiləri olan brahmanlar həyat təcrübəsini dərindən mənimsəmişdilər.

**Diaspor** *(yun. diaspora – səpələnmə)* – millətin (etnik birliyin) xeyli hissəsinin yaşadığı ölkədən xaricdə olması. D. zorla köçürtmə, genosid təhlükəsi, iqtisadi və coğrafi amillərin təsiri nəticəsində yaranmışdır. "D." termini ilk dəfə yəhudilərin eramızdan əvvəl VI yüzilliyin əvvəlində Babilistan padşahı II Navuhodonosor və sonra isə eramızın I-II yüzilliklərində romalılar tərəfindən qovularaq Fələstindən kənarda yaşamaları ilə əlaqədar işlədilmişdir. Hazırda dünyanın bir çox ölkələrində yəhudi d.-u ilə yanaşı, Azərbaycan d.-u da formalaşmaqda və inkişaf etməkdədir. Bu d. dünya azərbaycanlılarının birliyi şüarı altında formalaşır.

**Diffamasiya** *(lat. diffamare – ləkələmək, pisləmək)* – **1)** hər hansı bir şəxsi rüsvay (həqiqi və ya saxta) edən məlumatların mətbuatda dərc edilməsi *(bax: böhtan)*; **2)** bəzi dövlətlərin cinayət hüququnda insanı ləkələyən məlumatların yayılması. Böhtandan fərqli olaraq d. zamanı insanı ləkələyən məlumatlar böhtan xarakterli olmaya da bilər.

**Differensial assosiasiya** *(kriminologiyada)* – müxtəlif asosial, o cümlədən cinayətkar birliklərin təbiəti və xarakteri, onların mədəniyyəti (submədəniyyəti) haqqında konsepsiya. D.a. hadisəsi differensiyalaşdırılmış əlaqə və anomiyaların əlaqələndirilməsi ilə submədəniyyət nəzəriyyəsinin əsasında durur.

**Differensiasiya** *(fr. differentiation – müxtəliflik)* – kriminalistikada və məhkəmə ekspertizasında bir qrupa və ya müxtəlif qruplara (cinslərə) məxsus olan obyektlər arasında müxtəliflik əlamətlərinin aşkar edilməsi və qiymətləndirilməsi.

**Differensiya** *(ing. difference)* – fyuçers əqdinin bağlandığı gün hesablaşma qiyməti ilə sonrakı hesablaşma qiymətləri arasındakı fərq. Kontraktın cari hesablaşma qiymətilə ləğv edildiyi halda d. gəlir və itkilərdən ibarət olur.

**Differensiyalaşdırılmış eyniləşdirmə** *(kriminologiyada)* – Amerika sosioloqu və kriminoloqu Qlaser tərəfindən E. Saterlendin differensiyalaşdırılmış əlaqə nəzəriyyəsinin inkişafı sahəsində işlənib hazırlanmış konsepsiya. Qlaser insanın nümunə (cinayətkar, yaxud qeyri-cinayətkar davranış) seçimi qarşısında olduğu vaxt ona müxtəlif amillərin qarşılıqlı təsiri mexanizmini aydınlaşdırmağa səy göstərmiş, habelə insanın müxtəlif hüquqi əhəmiyyətli situasiyalarda davranışını təhlil etmişdir.





**Differensiyalaşdırılmış əlaqə** *(kriminologiyada)* – Amerika kriminoloqu E. Saterlend tərəfindən 1939-cu ildə təklif edilmiş və 1947-ci ildə işlənib hazırlanmış nəzəriyyə. Bu, hələ 1890-cı ildə fransız sosioloqu Qabriel Tard tərəfindən "təqlid etmə qanunu" kimi formulə edilmiş cinayətkar təlim ideyasının inkişafı sahəsində cinayətkar davranışa dair sosial əhəmiyyətli ilk nəzəriyyədir.

D.ə. nəzəriyyəsinin əsasına cəmiyyətin differensiyalaşdırılması ideyası xidmət etmişdir. Burada söhbət bir hissəsi qanunun tələblərinə əməl edən, digər hissəsi isə bu tələblərə əməl etməyən cəmiyyət barəsində gedir. Məhz bunun nəticəsində hüquqla cinayətkar mədəniyyət arasında münaqişə yaranır. Belə münaqişə zonasında olan insan bu və ya digər mədəniyyətin nümayəndələri ilə, yaxud qeyri-cinayətkar və cinayətkar davranış nümunələri ilə əlaqəyə girir. Belə kommunikasiya prosesində insan davranışın həmin nümunələrini (stereotiplərini) mənimsəyir, o cümlədən cinayətkar davranışı öyrənir. Belə öyrənmə bilavasitə "şagird" və "müəllim"in, həm də yaxın ətrafın qarşılıqlı təsiri altında mümkün olur. Daha kənar amillər – müxtəlif birliklər, kütləvi informasiya vasitələri və i.a. cinayətkar təlimdə ikinci dərəcəli rol oynayırlar.

D.ə. nəzəriyyəsi kriminologiyada başqa bir ada – mədəni transmissiya nəzəriyyəsi adına da malikdir. D.ə. nəzəriyyəsi bəzən differensiyalaşdırılmış assosiasiya nəzəriyyəsi ilə eyniləşdirilir ki, bununla da heç bir vəchlə razılaşmaq olmaz.

**Different** *(lat. differens)* – ticarət əməliyyatlarında əmtəələrin sifarişi və onların alınması zamanı qiymətlərində mövcud olan fərq.

**Diffuz-əlaqə metodu** – ballistik tədqiqatlarda atəş məhsulları tərkibinə daxil olan metalların aşkar edilməsinin kimyəvi metodu. Əridilmiş metal ionlarının diffuziyası nəticəsində xüsusi olaraq hazırlanmış əlaqələndirici obyekt (məsələn, foto kağızı) odlu silahın xəsarət yetirdiyi zonada metalları aşkar edə bilər. Metalın olması, intensivliyi və metalın yığılma zonası xəsarətin mənşəyi və atəşin məsafəsi haqqında mülahizə yürütməyə imkan verir.

**Digestlər** *(lat. digesta)* – Yustinian Külliyyatının bir hissəsi; 533-cü ildə imperator Yustinianın hakimiyyəti dövründə buraxılmışdır. O, həm də məcəlləşdirilmiş Bizans hüququnun əsas hissəsini təşkil edir. D. Mülki Hüquq Külliyyatı (corrus yuris civilis) adı ilə tanınmışdır. D. Roma "klassik" hüquqşünaslarının əsərlərindən parçaların sistemli toplusundan ibarətdir. 50 kitaba bölünür. Əmlak, ailə, vərəsəlik və öhdəlik hüquq münasibətlərini tənzimləyən xüsusi hüquq D.-in əsas məzmununu təşkil edir. Cinayət hüququndan və prosessual hüquqdan "qorxulu kitablar" adlanan hissədə bəhs edilir. D. XVIII-XIX yüzilliklərdə Roma hüququnun resepsiyasının əsas mənbəyi olmuş, burjua hüquq nəzəriyyəsi və mülki hüququn inkişafında mühüm rol oynamışdır.

**Diggerlər** *(ing. diggers, hərfi mənası qazıyanlar)* – XVII yüzillikdə İngiltərədə bur[illegible] inqilabı dövründə inqilabçı demokratiyanın ifrat sol cinahının nümayəndələri. İnqilabın inkişafı prosesində azadlıq və mülkiyyətin, dövlətin və hüququn qarşılıqlı əlaqəsi haqqında məsələ fəal şəkildə müzakirə olunurdu. İkinci vətəndaş müharibəsinin qızğın çağında bu məsələnin özünəməxsus həllini levellər, yaxud diggerlər təklif etmişdilər.

Levellər 1649-cu ildə şimali Georgi təpəsində kommuna təşkil etmiş və burada icma torpaqlarını birgə belləməyə başladıqlarına görə onları "diggerlər", yəni "qazıyanlar" adlandırmağa başlamışlar.

D. diggerlik ictimai-siyasi hərəkatında birləşmişdilər. Hərəkatın ən görkəmli nəzəriyyəçisi Cerard Uinstenli (1609) idi. Uinstenli yazırdı ki, inqilab qurtarmamışdır. Monarxiyanın və lordlar palatasının ləğv edilməsi tam diqqətə layiqdir. Lakin xüsusi mülkiyyətin qorunub saxlanmasınadək nifrət olunan kral hakimiyyəti məhv edilməyəcəkdir. Uinstenli siyasi və hüquq fikir tarixində azadlıq anlayışını formulə edən ilk mütəfəkkirlərdəndir. Bu azadlıq anlayışı kommunizmi o dövrün burjua ideologiyasından fərqləndirən başlıca cəhət idi. Uinstenlinin fikrincə, "həqiqi respublika azadlığı torpaqdan azad istifadə etməkdən ibarətdir. Əsl azadlıq insanın yaşamaq üçün yemək və vəsait əldə etdiyi yerdə mövcuddur". 1652-ci ildə Uinstenlinin "Azadlıq qanunu" kitabı dərc edilmişdir. Kitabda inqilabi hakimiyyətin və qanunların köməyi ilə əmlak ümumiliyi quruluşunun yaradılmasına yönələn tədbirlərin bütöv bir proqramı ifadə olunurdu. Kommunizm nəzəriyyəsi tarixində məhz Uinstenli ilk dəfə xüsusi mülkiyyətə əsaslanan quruluşdan ümumi mülkiyyət əsasında qurulan quruluşa keçid dövrünün zəruriliyi, bu keçid dövründə varlılar üzərində inqilabi hakimiyyət haqqında yazmışdır. O, tarixdə ilk dəfə olaraq ümumi mülkiyyətə əsaslanan dövlətin konstitusiya layihəsini təsvir etmişdir. Həmin layihə 62 qanundan ibarət idi.

Diggerlərin ideyaları İngiltərədə geniş yayılmasa da, onlar XVIII yüzilliyin ortalarında Fransada kommunizm nəzəriyyəsinin inkişafına təsir göstərmiş, Uinstenlinin siyasi-hüquqi görüşləri siyasi və hüquqi təlimlər tarixinin inkişafında özünəməxsus rol oynamışdır.

**Diktat** *(lat. dictatus)* – **1)** öz şərtlərini, güclü tərəfin tələblərini digər, hansısa münasibətdə daha zəif olan tərəfə qəbul etdirən siyasət; siyasi və iqtisadi təzyiqin, hərbi hədənin köməyi ilə məcburetmə; **2)** razılığa gəlmiş tərəflərdən birinin digər tərəfə qeyri-bərabər beynəlxalq müqaviləni məcburiyyətlə qəbul etdirməsi.

**Diktator** *(lat. dictator)* – **1)** Qədim Romada yeganə ekstraordinar magistratura. D. senatla razılaşdırılmaqla konsullar içərisindən təyin edilirdi. Müharibədə və ölkə daxilində təxirəsalınmaz və sürətli hərəkətləri tələb edən hər hansı böhranlı situasiya d.-un təyin edilməsi üçün əsas ola bilərdi. D. təyin edilən şəxs yüksək mülki, hərbi hakimiyyətə və məhkəmə hakimiyyətinə eyni vaxtda malik olurdu. D. qanunvericilik hakimiyyətinə malik idi. Plebey tribunalarının vetosu da daxil olmaqla, qarşıdurmanın heç bir qanuni üsulu onun üçün qorxulu deyildi. Bütün digər magistratlar öz fəaliyyətlərini D.-un hakimiyyəti altında davam etdirirdilər. D.-un səlahiyyət müddəti 6 ay idi. Respublika diktaturalarından sonuncusu eramızdan əvvəl 220-ci ildə mövcud olmuşdur.

**Diktatura** *(lat. dictatura – qeyri-məhdud hakimiyyət)* – dövlətdə hakimiyyətin qeyri-demokratik metodlarla həyata keçirilməsi; avtoritar siyasi rejim. Məsələn, şəxsi diktatura. Qədim Romada magistratlardan biri D. adlanırdı.





**Diler** *(ing. dealer)* – **1)** topdansatış qiymətlə aldığı məhsulları pərakəndə satış qiymətlə realizə edən sahibkar. D., bir qayda olaraq, iri sənaye korporasiyasının agenti olur və onun diler şəbəkəsində fəaliyyət göstərir; **2)** qiymətli kağızların, valyutaların, qiymətli metalların alqı-satqısı ilə məşğul olan fond birjasının və ya bankın üzvü. D. öz adından və öz hesabına fəaliyyət göstərir.

**Diler fəaliyyəti** – qiymətli kağızlar bazarında peşəkar fəaliyyət növlərindən biri *(bax: diler)*.

**Dimayz-çarter** – çarter növü; gəmini kirayə müqaviləsi. Bu müqaviləyə görə gəmi sahibi gəmini razılaşdırılmış müddətə fraxtaçıya verdiyi vaxt gəminin komanda heyəti və üzvləri fraxtaçının qulluqçuları olurlar. Fraxtaçı, ekipajın əməkhaqqı da daxil olmaqla, gəminin bütün xərclərini öz üzərinə götürür.

**Din** *(bax: dövlət dini)*.

**Dinc əhali** – beynəlxalq hüququn müharibə qanunlarına və adətlərinə aid olan hissəsinə uyğun olaraq hərbi əməliyyatlarda, yaxud müqavimət hərəkatında bilavasitə iştirak etməyən mülki əhali, şəxslər. Dəniz müharibəsi şəraitində həm müharibə edən, həm də bitərəf ölkələrin ticarət və sərnişin gəmilərinin sərnişinləri d.ə.-yə bərabər tutulur. D.ə.-nin hüquqi rejimi quruda müharibə aparılması qanunları və qaydaları haqqında 1907-ci il 4-cü Haaqa konvensiyası və müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında 1949-cu il Cenevrə konvensiyası ilə müəyyən edilmişdir. D.ə.-yə hərbi əməliyyatlar zamanı immunitet verilir. D.ə. ilə heç bir ayrı-seçkiliyə yol verilmədən humanistcəsinə rəftar edilməlidir. Adamları girov saxlamaq, kollektiv şəkildə cəzalandırmaq, hədələmək və i.a., məhkəmə qərarı olmadan məhkum etmək və onlara cəza tətbiq etmək qadağan olunur. D.ə.-si olan şəhərlər və yaşayış məntəqələri hava bombardmanına, top atəşlərinə və i.a. məruz qalmamalıdırlar.

**Dinc yanaşı yaşamağın beş prinsipi** – **1)** dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə qarşılıqlı hörmət; **2)** hücum etməmək; **3)** bir-birinin daxili işlərinə qarışmamaq; **4)** hüquq bərabərliyi və qarşılıqlı fayda; **5)** dinc yanaşı yaşamaq.

D.y.y.b.p. (pança şila – hind dilində beş prinsip) ilk dəfə Hindistanla Çin Xalq Respublikası (ÇXR) arasında ticarət və Çinin Tibet rayonunun Hindistanla əlaqəsi haqqında sazişin preambulunda ifadə edilmişdir (1954). Bu prinsiplər Bandunq konfransının (1955) qərarlarında və digər beynəlxalq sənədlərdə öz əksini tapmışdır.

**Dinc yanaşı yaşamaq** – müxtəlif sosial quruluşa malik olan dövlətlər arasında mövcud olan münasibətlər tipi. D.y.y. dövlətlərarası mübahisəli məsələlərin həllində müharibədən imtina edilməsini, həmin məsələlərin danışıqlar yolu ilə tənzimlənməsini, hüquq bərabərliyini, qarşılıqlı anlaşma və etimadı, bir-birinin mənafelərinin nəzərə alınmasını, daxili işlərə qarışmamağı, hər bir xalqın istədiyi sosial-iqtisadi və siyasi quruluşu seçmək hüququnun tanınmasını, bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə ciddi hörmət edilməsini, tam bərabərlik və qarşılıqlı fayda əsasında iqtisadi, mədəni, elmi-texniki əməkdaşlığın yaradılmasını və inkişaf etdirilməsini nəzərdə tutur.

**Dindirmə** – prosessual hüquqda hüquq-mühafizə orqanının səlahiyyətli vəzifəli şəxsi tərəfindən qanunla müəyyən edilmiş qaydada qanunda göstərilən şəxslərdən aydınlaşdırılmalı olan hallar barəsində məlumatların alınması, onların istintaq və ya məhkəmə hərəkətləri protokolunda qeyd edilməsi. D. mülki, cinayət, arbitraj və inzibati prosessual qanunvericilik tərəfindən nəzərdə tutulmuşdur. D. cinayət prosesində mühüm istintaq hərəkətlərindən biridir. Cinayət prosesində təqsirləndirilən və şübhə edilən şəxsin, şahidin (şahidlərin) və zərər çəkmiş şəxsin (şəxslərin) dindirilməsi fərqləndirilir.

**Dini birlik** – Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasının ərazisində daimi və qanuni əsaslarla yaşayan sair şəxslərin birgə etiqad etmələri və etiqadı yaymaları məqsədilə yaradılmış könüllü birliyi. Öz məqsədlərinə uyğun olaraq D.b. aşağıdakı əlamətlərə malikdir: a) dini etiqad; b) Allaha sitayiş etmə, digər ayin və mərasimləri yerinə yetirmə; c) öz ardıcıllarına dini biliklər vermə və onları dini ruhda tərbiyələndirmə.

D.b.-lər dini qruplar və dini təşkilatlar formasında da yaradıla bilərlər.
Dövlət hakimiyyəti orqanlarında, dövlət və bələdiyyə idarələrində, hərbi hissələrdə d.b.-lər yaratmaq qadağan olunur.

**Dini etiqad azadlığı** – hər bir kəsin dinə öz münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və yaymaq hüququ. Hər bir şəxsin dinə münasibətini müəyyənləşdirməsində, dinə etiqadında, ibadətlərdə, dini ayin və mərasimlərin icrasında iştirak etməsində, dini öyrənməsi yolunda hər hansı maneçiliyə yol verilmir. Dini etiqadların, dini həyat tərzinin və ibadətlərin zor işlədilməklə və ya insanlar arasında nifaq salmaq məqsədi ilə təbliği, dini etiqada məcbur etmək qadağandır.

D.e.a.-nın həyata keçirilməsində yalnız dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə görə və Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə müvafiq olan hüquq və azadlıqların mühafizəsi üçün zəruri hallarda məhdudiyyətlər qoyula bilər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılması qadağandır. Valideynlər və ya onları əvəz edən şəxslər, qarşılıqlı razılıq əsasında, uşaqları özlərinin dini əqidəsinə və dinə münasibətinə müvafiq olaraq tərbiyə edə bilərlər.

**"Dini etiqad azadlığı haqqında" qanun** – Azərbaycan Respublikasında Respublika Konstitusiyasına uyğun olaraq dini etiqad azadlığının və dini qurumların fəaliyyətinin əsas təminatını müəyyən edən qanunvericilik aktı. Bu qanun 20 avqust 1992-ci il tarixdə qəbul olunmuş, 7 iyun, 5 oktyabr, 27 dekabr 1996-cı 10 noyabr 1997-ci il 23 noyabr 2001-ci il, 4 iyun və 3 dekabr 2002-ci il tarixlərdə ona əlavə və dəyişikliklər edilmişdir.

Qanun altı fəsil və 31 maddədən ibarətdir.

**Dini hüquq** – hüququn əsas tarixi formalarından biri; buna ilkin mənbə qismində dünyəvi dövlət hakimiyyətinin deyil, müqəddəs yazılarda və ya nəsihətlərdə, kitablarda ifadə olunan Allah iradəsi kimi baxılır. Formal mənada D.h.-un mənbəyi bilavasitə müqəddəs yazıların mətnləri,





müqəddəs kitablar (məsələn, Quran), belə yazı və kitabların ilahiyyatçı doktrinalar tərəfindən verilmiş təfsirləri, kilsə aktları, dini-hüquqi adətlər, ilahiyyatçı hüquqşünasların fitvaları, habelə dini hüquq normalarının təsbit edildiyi və sistemləşdirildiyi dövlət qanunvericilik aktları ola bilərlər. D.h.-un ərazi deyil, şəxsi xarakteri onun səciyyəvi xüsusiyyətidir. D.h.-un göstərişləri əksər hallarda ölkədə ancaq müvafiq dini icmanın nümayəndələrinə şamil olunur. Başqa dinlərin daşıyıcıları bu normaların qüvvəsi altına düşmürlər. Hazırda müsəlman hüququ, hindus hüququ və kanonik hüquq d.h.-un daha çox inkişaf etmiş sistemləridir.

**Dini icma** – dinə birlikdə ibadət və digər dini tələbatı ödəmək məqsədilə könüllülük əsasında birləşmiş dindar şəxslərin dini qurumu. Azərbaycan Respublikasında təşkilat məsələlərində islam dini icmaları Qafqaz Müsəlmanları İdarəsinə tabedirlər, qeyri-islam dini icmalarının Azərbaycan Respublikasında və xaricdə fəaliyyət göstərən dini mərkəzlərə (idarələrə) tabe olmaq və tabeliyini dəyişdirmək hüququ vardır.

**Dini qrup** – dini birliyin formalarından biri; vətəndaşların könüllü birliyi. D.q. birgə etiqad etmək və etiqadı yaymaq məqsədi ilə yaradılır, öz fəaliyyətini dövlət qeydiyyatı olmadan və hüquqi şəxsin hüquq qabiliyyətini əldə etmədən həyata keçirir. D.q.-un fəaliyyəti üçün bina və zəruri olan əmlak istifadəyə onun iştirakçıları tərəfindən verilir. D.q.-u gələcəkdə dini təşkilata çevirmək niyyətilə yaradan vətəndaşlar həmin təşkilatın yaradılması və fəaliyyətinin başlanması haqqında yerli özünüidarə orqanını xəbərdar edirlər. D.q. Allaha sitayiş etmək, digər dini ayin və mərasimlər keçirmək, habelə dini təlim vermək və öz ardıcıllarının dini tərbiyəsi ilə məşğul olmaq hüququna malikdir.

**Dini qurumlar** – dini icmalar, idarə və mərkəzlər, dini qardaşlıqlar, dini tədris müəssisələri və onların birlikləri. D.q. öz mərkəzi (idarələri) ilə təmsil olunurlar. D.q. yetkinlik yaşına çatmış şəxslərin dini etiqad azadlığı hüququnun birgə həyata keçirilməsi, həmçinin dini etiqadı və dini yaymaq üçün yaradılmış könüllü təşkilatdır. D.q. öz nizamnamələrinə (əsasnamələrinə) uyğun olaraq fəaliyyət göstərirlər.

**Dini məhkəmələr** – bəzi ölkələrdə dini hüquq normalarını tətbiq edən qeyri-dövlət məhkəmə orqanı. Bu orqanların iki növü fərqləndirilir: 1) dünyanın bir çox ölkələrində (Böyük Britaniyada, İspaniyada, Rusiyada) fəaliyyət göstərən kilsə (dini hüquq əsasında kilsədaxili mübahisələrə baxırlar) məhkəmələri; 2) xüsusi dini (dini hüquq əsasında olsa da, daha geniş əhatəli məsələlərə – nikah-ailə, vərəsəlik mübahisələrinə baxırlar) məhkəmələr.

Prinsip etibarı ilə şəriət məhkəmələri də d.m. kateqoriyasına daxildir. Lakin məlum olduğu kimi, şəriət məhkəmələri müsəlman ölkələrinin bir çoxunda qarışıq, dövlət-ictimai təbiətə malikdirlər.

**Dini tədris müəssisələri** – din xadimləri və dini ixtisaslar üzrə digər xadimlər hazırlanması üçün yalnız dini mərkəz və idarələr tərəfindən yaradılan müəssisələr. Dini mərkəz və idarələr birdən çox ali dini tədris müəssisəsi yarada bilməzlər. D.t.m. ilə dini mərkəz və ya idarələr arasında münasibətlər təsis sənədləri ilə müəyyən edilir. Əyani ali və orta d.t.m.-ndə

təhsil alanlar dövlət tədris müəssisələrində təhsil alanlar üçün müəyyən olunmuş hüquq və güzəştlərdən istifadə edirlər.

**Dini təşkilat** *(bax: dini qurumlar).*

**Dini vəzifə (missiya)** – vətəndaşların dini birliyi; dini etiqadı yaymaq və vətəndaşları dini təcrübəyə cəlb etmək üçün yaradılır.

**Diokletian edikti** *(Edictum Diocletiani)* – Roma imperatoru Qay Avreli Valeri Diokletianın eramızın 301-ci ilində ehtikarlıq və sələmçiliklə mübarizəyə qarşı yönələn edikti. Bu ediktə uyğun olaraq ərzaq məhsullarının, geyim şeyləri və bəzək məmulatlarının sabit qiymətləri, habelə sənətkarlar və günəmuzd işləyənlər üçün əməkhaqqının möhkəm həddi müəyyən edilmişdir. Ediktin qüvvəsi bütün imperiyaya şamil olunurdu. Edikt sonralar imperiya ərazisinin ayrı-ayrı təsərrüfat sahələrində də tətbiq edilmişdir. D.e. bununla yanaşı maliyyə ehtikarlığına şərait yaratdığına görə tezliklə ləğv edilmişdir.

**Diplom** *(yun. diploma – ikiqat bükülmüş sənəd sözündən)* – **1)** ali məktəbi və ya orta ixtisas təhsili məktəbini bitirmək haqqında, həmçinin elmi dərəcə və ya ad verilməsi barədə rəsmi sənəd; **2)** idarənin, təşkilatın və ya fiziki şəxsin müəyyən fəaliyyəti həyata keçirmək (məsələn, ticarəti idarə etmək) hüququnu təsdiq edən sənəd; **3)** müxtəlif müsabiqələrdə, yarışlarda, sərgilərdə və i.a. nailiyyətə görə təqdim edilən mükafat.

**Diplomat** *(fr. diplomate)* – xarici işlər idarəsinin xarici dövlətlərlə rəsmi əlaqəni həyata keçirməyə müvəkkil edilmiş vəzifəli, diplomatik fəaliyyətlə məşğul olan şəxs. D. bu və ya digər xarici siyasi funksiyalarını daimi, yaxud müvəqqəti əsaslarla həyata keçirir. O, bir qayda olaraq, diplomatik immunitetə malikdir.

**Diplomatika** – hüquqi aktların (rəsmi və xüsusi) forma və məzmununun öyrənilməsi ilə məşğul olan köməkçi tarixi fənn. İlk əvvəllər d. sənədlərin əsilliyi haqqında xüsusi elm kimi başa düşülmüşdür. Hazırda dünya ölkələrinin əksəriyyətində müasir d.-nın tədqiqat obyekti hüquqi aktların mənşəyi məsələsinin yeni şəkildə öyrənilməsidir.

**Diplomatik agent** – diplomatik əlaqələr haqqında 1961-ci il Vena konvensiyasına uyğun olaraq diplomat, yəni diplomatik nümayəndəliyin diplomatik heyətinin tərkibinə daxil olan üzv.

**Diplomatik akt** – xarici əlaqələr orqanlarının və beynəlxalq hüququn subyektlərinin vəzifəli şəxslərinin siyasi və ya hüquqi nəticələrə (məsələn, diplomatik münasibətlərin yaradılması, etimadnamələrin təqdimatı, mövqeyi izhar etməklə bağlı bəyanat və i.a.) səbəb olan hərəkəti, yaxud bəyanatı. Yazılı diplomatik sənədlər (müqavilə, nota, memorandum və i.a.) də d.a.-a aid edilir.

**Diplomatik dil** – diplomatik sənədlərdə və danışıqlarda istifadə edilən dil. İkitərəfli beynəlxalq müqavilələrdə adətən hər iki tərəfin dilindən istifadə olunur və hər iki dil bərabərhüquqlu dil kimi tanınır. Qədim dövrlərdə Aralıq dənizi ölkələri beynəlxalq əlaqələrdə yunan və latın dillərini tanıyırdı. Yeni dövrdə yeni dillərə – ispan, bir qədər sonra isə fransız və ingilis dilinə keçid başlanmışdır. Müasir dövrdə D.d. kimi BMT-nin rolunun artması ilə əlaqədar ingilis, alman, fransız, ərəb, ispan və rus dilləri ən işlək dillərə çevrilmişdir.

**Diplomatik immunitet** – xarici dövlətlərin diplomatik nümayəndəliklərinə və onların əməkdaşlarına verilən hüquq və





güzəştlərin məcmusu. D.i. məsələlərini tənzim edən beynəlxalq hüquq normaları diplomatik əlaqələr haqqında 1961-ci il Vena konvensiyasında məcəlləşdirilmişdir. D.i.-ə aşağıdakılar daxildir: a) diplomatik nümayəndəliyə verilən güzəşt və imtiyazlar; b) diplomatik nümayəndəliyin başçısına və heyətinə verilən şəxsi güzəşt və imtiyazlar. Nümayəndəliyə verilən d.i.-ə binaların və arxivlərin toxunulmazlığı, öz hökuməti ilə əlaqə saxlamaq azadlığı, təmsil olunan dövlətin bayrağını və gerbini diplomatik nümayəndəliyin binasından asmaq hüququ, vergi və rüsumlardan azad edilmək, habelə gömrük güzəştləri daxildir. Ərazisindəki nümayəndəliyin binasını hər cür hücumlardan və hər hansı hüquq pozuntularından qorumaq hər bir dövlətin borcudur.

**Diplomatik korpus** – dövlətdə fəaliyyət göstərən xarici diplomatik nümayəndəliyin başçılarının, heyətin məcmusu. D.k.-a diplomatik heyətin ailə üzvləri də daxildir. Diplomatın ailə üzvlərinə onun arvadı (əri) və yetkinlik yaşına çatmış uşaqları, habelə beynəlxalq adətlərə görə diplomatın onunla birgə yaşayan və onun himayəsində olan yaşlı subay qızları aid edilir. D.k. protokollu kateqoriyadır.

**Diplomatik kuryer** – diplomatik poçtu daşımağın tapşırıldığı rəsmi şəxs. D.k. diplomatik immunitetdən istifadə edir.

**Diplomatik müdafiə** – xaricdə yerləşən vətəndaşlarının konstitusiya və ya beynəlxalq sazişlərlə təsbit edilmiş konvensiyalı hüquq və azadlıqlarının boğulduğu və ya pozulduğu (yaxud buna cəhdlər göstərildiyi) hallarda onların dövlət tərəfindən müdafiəsi. Ayrı-ayrı hallarda maraqlı dövlətlər arasında xüsusi razılaşmaya əsasən vətəndaşların (fiziki və hüquqi şəxslərin) üçüncü dövlətlər tərəfindən d.m.-nə ("nümayəndəli müdafiə") də yol verilir.

**Diplomatik münasibətləri kəsmə** – diplomatik akt; münasibətlərin bu anınadək mövcud olan diplomatik əlaqələri kəsir. D.m.k. silahlı münaqişələrin baş verdiyi, beynəlxalq hüquq subyektliliyinin itirildiyi (məsələn, dövlətin başqa bir dövlətlə qarışması), sosial inqilabın baş verdiyi, həmçinin hökumətin konstitusiya yolu ilə dəyişdirildiyi hallarda mümkündür. BMT Nizamnaməsində d.m.k. Təhlükəsizlik Şurasının beynəlxalq sülhü hədələyən dövlətə qarşı təsir (sanksiya) tədbiri qismində qəbul etdiyi qərara uyğun olması göstərişi nəzərdə tutulmuşdur.

**Diplomatik müşahidəçi** – dövlətin və ya beynəlxalq təşkilatın beynəlxalq konfransların, təşkilatların və orqanların işində iştirak etmək üçün göndərilən nümayəndəsi. D.m.-nin buraxılış və səlahiyyət qaydası prosedur qaydaları ilə müəyyən edilir. Belə nümayəndə, adətən səs vermək, sənədləri imzalamaq və i.a. hüququna malik olmur.

D.m.-nin göndərilməsi təcrübəsi dövlətin və ya beynəlxalq təşkilatın beynəlxalq orqanın və ya konfransın işində iştirak etmək marağının olduğu hallarda tətbiq olunur. Belə dövlət və ya beynəlxalq təşkilatlar beynəlxalq konfransların və orqanın iştirakçısı deyillər və ya onların qərarları ilə əlaqədar olmaq istəmirlər.

**Diplomatik nümayəndəlik** – bir dövlətin başqa dövlətlə xarici əlaqələrini həyata keçirən orqan. D.n.-ə səfir (səfirlik), elçi, yaxud işlər vəkili (missiya) başçılıq edir. D.n.-in tərkibinə iqtisadi, siyasi şöbə-

direktordan ibarət olan hökumət). D. Beşyüzlər Şurası və Ağsaqqallar Şurasının seçdiyi 5 üzvdən (direkordan) ibarət idi. D.-nın daxili siyasəti iri burjuaziyanın mənafeyini qorumaqla inqilabi hərəkata qarşı yönəldilmişdi. Onun xarici siyasəti işğalçı xarakter daşıyırdı. Fransa qoşunlarının 1799-cu ildəki müvəffəqiyyətsizlikləri d.-nın mövqelərini son dərəcə sarsıtmışdır. Napoleon Bonapartın etdiyi onsəkkizinci brümer (1799-cu ilin 9-10 noyabrı) dövlət çevrilişi d.-nın varlığına son qoymuş və hərbi-burjua diktaturasının qurulmasına gətirib çıxarmışdır; **2)** Qədim Afinada 500-lər şurasının seçdiyi orqan; 5 üzvdən (direktordan) ibarət olmuşdur.

**Direktorluq** – başında direktorun durduğu idarənin, müəssisənin rəhbər orqanı. İdarə və ya müəssisənin cari fəaliyyətinə aid olan bütün məsələlərin həlli, işlərə rəhbərlik d.-un səlahiyyətinə daxildir.

**Disbursment hesab** – agent tərəfindən aparılan, lakin gəmi sahibi tərəfindən ödənilən gəmiyə göstərilən xidmətlərə görə çəkilən xərclərin hesabı. Bu hesab gəmi kapitanı tərəfindən təsdiq edilir. D.h.-ın ödəmə forması agentlə gəmi sahibi arasındakı razılaşmaya əsasən müəyyən edilir.

**Disbursment xərclər** – liman vergilərinin bütün növləri, stividor işləri, yedəkləmə, bunker xidmətləri, talman xidmətləri, ərzaqla təchizat daxil olmaqla gəminin limanda yerləşdiyi vaxt çəkilən xərclər. Bu xərclər ümumi qəza aktı ilə də əlaqədar ola bilər.

**Diskont** *(ing. discount)* – **1)** vekselin uçotu; **2)** veksellərin uçotu zamanı banklar tərəfindən tutulan faiz; **3)** birja və valyuta əqdlərində əmtəələrin qiymətlərində (məsələn, əgər əmtəənin keyfiyyəti nəzərdə tutulmuş standartlardan aşağıdırsa) edilən güzəşt; **4)** forvard kursu ilə valyutaların dərhal tədarükü zamanı mövcud olan kurs arasındakı müxtəliflik.

**Diskontçu** – xəzinə veksellərinin və adi veksellərin alqı-satqı əməliyyatlarını həyata keçirən təşkilat.

**Diskontinuitet** *(ing. discontinuity – fasiləsizliyin olmaması)* – həmin sessiyada parlamentə çıxarılan bütün qanun layihələrinin sessiyanın başa çatmasınadək təsdiq edilməli olduğunu nəzərdə tutan qayda. Parlamentin hər bir sessiyasına onun fəaliyyətinin təşkilati cəhətdən bitməsi kimi baxılan ölkələrdə tətbiq edilir (məsələn, Böyük Britaniyada, ABŞ-da). Digər ölkələrdə (məsələn, Fransada) d. yoxdur, çünki bu ölkələrdə parlamentin fasiləsiz işlədiyi israr olunur.

**Diskontlu istiqraz** – bir qayda olaraq, təkrar bazarda nominaldan aşağı qiymətə satılan istiqraz.

**Diskont məzənnə** – hökumət qiymətli kağızlarının uçotu və ya kreditin verilməsi zamanı mərkəzi bankın tutduğu faiz məzənnəsi.

**Diskont siyasət** – ssuda kapitallarının tələb və təkliflərinə, ödəmə balansının vəziyyətinə və valyuta kurslarına təsir göstərmək məqsədi ilə mərkəzi banklara tərəfindən uçot məzənnələrinin yüksəldilməsi və ya aşağı salınması siyasəti.

**Diskresion hakimiyyət** *(ing. discretionary rower)* – dövlət, hökumət başçılarına, yaxud digər yüksək vəzifəli şəxsə müəyyən şəraitdə (məsələn, fövqəladə vəziyyət şəraitində) öz istədiyi kimi hərəkət etməyə qanunla verilən hüquq. Dövlətə, yaxud inzibati orqanlara, ayrı-ayrı dövlət məmurlarına və hakimlərə d.h. verilməsi bəzi ölkələrdə geniş tətbiq edilir.

**Diskresiya** *(lat. discretio)* – hər hansı bir məsələnin vəzifəli şəxs və ya dövlət təşkilatı tərəfindən öz mülahizəsinə görə həll edilməsi.

**Diskriminasiya** – *(lat. discriminatio – fərqləndirmə)* – dövlətlərin, hüquqi və fiziki şəxslərin digər dövlətlər, hüquqi və fiziki şəxslərlə müqayisədə hüquqlarının boğulmasını bildirən ümumhüquqi termin. D.-nın bütün formaları demokratik dövlətlərdə daxili hüquqla, habelə beynəlxalq hüquqla qadağan olunur. Həmin termin Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunvericilik aktlarında da istifadə olunur.

**Dislokasiya** *(hərbdə)* – dinc şəraitdə quru qoşunlarının hissə, birləşmə və hərbi idarələrinin ölkənin müəyyən ərazisində (yaşayış məntəqələri, xüsusi hərbi şəhərcik və düşərgələrdə) yerləşdirilməsi; HHQ hissə və birləşmələrinin təyyarə meydanlarında, HDD gəmilərinin limanlarında və hərbi-dəniz bazalarında dayanması.

**Dismisl** *(beynəlxalq hüquqda)* – diplomatın xüsusi şəxs elan edilməsi. D.-in hüquqi nəticəsi ondan ibarətdir ki, müvafiq şəxsə dövlətin yurisdiksiyası adi əcnəbi vətəndaşa aid edildiyi dərəcədə şamil olunur. Diplomatın arzuolunmaz şəxs (persona non qrata) elan edildiyi zaman, üzrlü səbəblər olmadan gəldiyi dövlətdə olduğu müddətdə o, d. meyilli olur.

**Dispaç** *(ing. dispatch – sürət)* – yük sahibinin gəminin vaxtından əvvəl yüklənməsini və boşaldılmasını qurtardığına görə gəmi sahibinin ona (fraxt edənə) verdiyi mükafat.

**Dispaşa** *(fr. dispache)* – ümumi qəzaya görə itkilərin hesablanması və həmin itkilərin reysin təşkilində iştirak edən tərəflər (fraxt edənlər, gəmi sahibləri) arasında bölüşdürülməsi.

**Dispaşyor** *(fr. dispacheur)* – dispaşanı həyata keçirən rəsmi ekspert.

**Disponent** *(lat. disponens – yerləşdirən, bölüşdürən)* – **1)** firmanın işləri üzrə müvəkkil edilmiş sərəncam verən, idarə edən şəxs; **2)** komisyonçuların və ya bank müxbirlərinin hesablarında sərbəst məbləğlərə malik olan fiziki və ya hüquqi şəxs.

**Disponlaşdırma** – bank müxbirlərinin və ya komisyonçuların hesablarında sərbəst məbləğlər üzərində sərəncam vermə.

**Dispozisiya** *(lat. dispositio – bölüşdürmə)* – müəyyən qeyd-şərti, qadağanı özündə ehtiva edən hüquq normasının bir hissəsi. Məsələn, qanunun cinayət əməlinin, müqavilənin və i.a. əsas əlamətlərini ifadə edən hissəsi.

**Dispozitivlik** *(lat. dispositivus)* – müqavilə iştirakçılarının və ya məhkəmə baxışı iştirakçılarının öz mülahizələrinə görə hərəkət etmək hüququ. D. mülki prosesin müxtəlif mərhələlərində təzahür edir. Məsələn, qanunvericiliyə görə iddiaçı iddianın əsasını və ya predmetini dəyişdirməyə, iddia tələblərinin miqdarını artırmağa və ya azaltmağa, yaxud iddiadan imtina etməyə haqlıdır. Cavabdeh iddianı etiraf etməyə haqlıdır. Tərəflər işi barışıq sazişi ilə də qurtara bilərlər. İddiaçının iddiadan imtina etməsi, iddianın cavabdeh tərəfindən etiraf olunması və tərəflərin barışıq sazişi qanuna zidd olarsa və ya hər hansı bir şəxsin hüquqlarının və qanunla müha-

fizə edilən mənafeyinin pozulması ilə müşayiət olunarsa, məhkəmə belə hərəkətləri qəbul etmir.

**Dispozitiv norma** *(bax: hüquq norması).*

**Dissident** *(lat. dissidens)* – razı olmayan, əleyhinə olan) - dövlətdəki hökmran ideologiyanı qəbul etməyən, onun əleyhinə olan, başqa cür düşünən və başqa təfəkkürə malik insan. Orta əsrlərdə Qərbi Avropada katolisizmdən üz çevirənləri kilsə bidətçi (yeres) adlandırırdı. Dissidentlərin mülki hüquqları barəsində məsələ XVI-XVII yüzilliklərdə İngiltərədə (dissenterlər) və Fransada (hugenotlar), XVII-XVIII yüzilliklərdə Polşada xüsusilə kəskin xarakter almışdır.

**Distansiya** *(lat. distantia – məsafə)* – **1)** hərbdə – ardıcıl düzülmüş hərbi sıra, rəsmi keçid, yaxud döyüş nizamlarında hərbi qulluqçular, bölmə, maşın, silah və i.a. arasında, həmçinin uçuşda olan təyyarələr arasında məsafə; **2)** dəmir yolunda – müvafiq yol idarələrinə tabe olan yol təsərrüfatı vahidi. Dəmir yolu nəqliyyatında yol, siqnallaşma və rabitə, bina, qurğu və i.a. d.-lar vardır.

**Distansiya fraxtı** – daşımanın proporsional məsafəsindən tutulan daşıma ödəməsi. Əsasən möhkəm tarif məzənnələrinin olmadığı hallarda tətbiq edilir.

**Distribyutor** *(ing. distributor)* – uzunmüddətli əsasda müəyyən istehsalçı ilə müqavilə üzrə əldə olunan əmtəələrin satışını həyata keçirən topdansatış təşkilatı. D. əmtəələri satın alır, öz adından və öz hesabına realizə edir. D. bəzən əmtəələrin texniki müşayiətini öz mütəxəssisləri vasitəsilə təmin edir. İstehsalçı ilə d. arasındakı müqavilə bəzən qarışıq xarakter daşıyır və özündə françizm (kommersiya konsessiyasını) öhdəliyini ehtiva edir.

**Distrikt** *(ing. district)* – bəzi xarici ölkələrdə inzibati dairə, məhkəmə və seçki dairəsi.

**Divan** *(fars.)* – **1)** ərəb istilalarının ilk dövründə xəlifə Ömərdən başlayaraq (634-644) dövlət gəlirinin qeydə alındığı, siyahıların saxlandığı yer; **2)** Əməvilər və Abbasilər dövründə vergilər və maliyyə işləri ilə məşğul olan dövlət idarəsi. "D." termini digər hökumət idarələrinə də şamil olunurdu; **3)** Osmanlı imperiyasında böyük vəzirdən, müftidən və başqa vəkillərdən ibarət olan dövlət şurası; **4)** Dunay knyazlıqları, Moldova və Voloxiyada dövlət şurası, ali məsləhətçi və icraçı orqan.

Rumıniya yaranandək (1859-cu ilədək) Buxarestdə, Krayovada və Yasda ali məhkəmə orqanı d. adlanırdı. Müasir müsəlman ölkələrinin bəzisində inzibati işlər və məhkəmə işləri üzrə hökumət idarəsi d. adlanır.

Azərbaycanda Səlcuqilər, Eldəgəzlər, Elxanilər, Cəlairilər, Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər dövründə dövlətin və təsərrüfatın bu və ya digər sahəsinin idarə edilməsini özündə cəmləşdirən müxtəlif təyinatlı divanlar mövcud olmuşdur.

**Divani** *(fars.)* – mülki divan – orta əsrlərdə Yaxın Şərqin bir sıra ölkələrində, habelə Azərbaycanda torpaq mülkiyyəti forması. Dövlətin ixtiyarında olan torpaqlar d. adlanırdı. D. torpaqlarından toplanan gəlir xəzinəyə daxil olur, dövlət aparatının, qoşunun və i.a. saxlanmasına sərf edilirdi. D. torpaqlarını satmaq və bağışlamaq olardı. XII-XVI yüzilliklərdə Azərbaycanda d. torpaq mülkiyyəti üstün yer tutmuşdur. İqta torpaq mülkiyyəti çox vaxt d. torpaqları hesabına genişlənirdi.

**Diversifikasiya** – istehsalların sayının və əmtəələrin nomenklaturasının (xidmətlə-





rin) artırılması; müəssisələr tərəfindən nizamnamə fəaliyyəti çərçivəsində özləri üçün yeni olan sahələrdə həyata keçirilir.

**Dividend** *(lat. dividendus – bölünməli olan şey)* – səhm sahibinin aldığı gəlir. D. səhmdar cəmiyyəti gəlirlərinin bir hissəsindən ibarətdir. O, səhmdar cəmiyyəti mənfəətlərinin həmin ildəki miqdarından asılı olaraq verilir.

**Dividend kuponu** – qiymətli kağız kuponu (mərz talonu). Bu kuponun təqdim edilməsilə ilin yekunları üzrə kuponda göstərilən dividendlər ödənilir.

**Dividend ödəməsi** – səhmdar cəmiyyəti gəlirinin dividendlərin cəmiyyətə ödəməli olduqları məbləği neçə dəfə ötüb keçdiyini göstərən say.

**Dividend yazışması** – dividend alan bütün səhm sahiblərinin yazışması. D.y.-nın tarixi, adətən ödəməyə 3 həftə qalmış elan olunur. D.y. gedişində səhm sahibləri, bir qayda olaraq, hesabın rekvizitlərini bildirirlər.

**Diyə** – eynilə diyə qanunu *(bax: qanbahası).*

**Diyə qanunu** *(bax: qanbahası).*

**Dizajo** – qiymətli kağızların və ya pul nişanlarının birja kursunun öz nominal dəyərləri ilə müqayisədə azalmaya tərəf yayınmaları. D. adətən nominala faizli münasibətdə ifadə olunur.

**Dizo** *(bax: intizam təcridxanası).*

**Dofin** *(fr. daurhin)* – XIV yüzilliyin ortalarından 1830-cu ilədək Fransada taxt-tacın varisinin titulu.

**Doj** – VIII-XVIII yüzilliklərdə Venetsiya ticarət respublikasının seçkili və ömürlük başçısı. XII yüzilliyədək d.-un hakimiyyəti demək olar ki, qeyri-məhdud xarakter daşımışdır. Sonradan o, tacir respublikasının ("sinyorluğun", "100-lər Şurasının") ali orqanlarından asılı vəziyyətə düşmüşdür. Genuya ticarət respublikasının başçıları da d. adlandırılırdı.

**Dokimasiya** – Qədim Afinada mövcud olmuş xüsusi yoxlama; vəzifəyə seçki və ya püşkatma ilə seçilmiş bütün şəxslər yoxlamadan keçməyə borclu idilər. Arxontlar d.-dan şura və məhkəmə, qalan vəzifəli şəxslər isə ancaq məhkəmə qarşısında keçirdilər. D. zamanı sınaqdan keçirilən şəxsə müəyyən suallar verilirdi. Məqsəd namizədin tutacağı vəzifə üçün zəruri olan şərtləri (yaş, senz, dövlətin xeyrinə borcun olub-olmaması və i.a.) təmin edib-etməməsini müəyyən etməkdən ibarət idi. Yoxlayıcı suallar həm də namizədin ictimai və siyasi fizionomiyasını aşkar etməkdən ötrü verilirdi.

**Doktorant** – elmlər namizədi alimlik dərəcəsinə malik olan və elmlər doktoru alimlik dərəcəsini almaq üçün dissertasiyasını işləyib hazırlamaqdan ötrü doktoranturaya qəbul edilmiş şəxs.

**Doktrina** *(lat. doctrina)* – nəzəriyyə; elmi, fəlsəfi və ya siyasi-hüquqi təlim, siyasi mövqe, rəhbər nəzəri, yaxud siyasi-təcrübi prinsip.

**Doktrinal təfsir** *(bax: qanunun doktrinal təfsiri).*

**Dolayı işğal** – beynəlxalq hüquqda hər hansı dövlətin nizami silahlı qüvvələrinin tərkibinə formal olaraq daxil olmayan və ya öz mənsubiyyətini onun adı altında gizlədən silahlı bandalar, qruplar, nizami qüvvələr, yaxud muzdlular tərəfindən törədilən işğal. Belə qüvvələr bəzən müəyyən dövlət tərəfindən təşkil edilir, yaxud

onun adından və ya onun tapşırığı ilə fəaliyyət göstərir.

**Dolayı (yanakı) qəsd** – qəsdin elə növüdü ki, cinayət törətmiş şəxs öz hərəkət və ya hərəkətsizliyinin ictimai təhlükəli olduğunu dərk edir, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görür və onların baş verməsinə şüurlu olaraq yol verir. Əqli elementinə görə d.q. düzünə qəsdlə ümumilik təşkil edir. Hər iki növ qəsddə təqsirləndirilən şəxs öz əməlinin ictimai təhlükəli nəticələrini qabaqcadan görür. Lakin iradəvi elemetinə görə bu qəsdlər bir-birindən fərqlənir. D.q.-in iradəvi elementi ictimai təhlükəli nəticələrin baş verməsinə şüurlu surətdə yol vermə ilə xarakterizə olunur. D.q.-də şəxsin iradəsi cinayətin nəticəsinə görə fəal olmur və passiv mövqe tutur. Ona görə də, bir qayda olaraq, d.q.-lə törədilən cinayət düzünə qəsdlə törədilən cinayətə nisbətən az təhlükəlidir. D.q.-də ictimai təhlükəli nəticə subyektə nə son məqsəd kimi, nə də başqa məqsədə nail olma vasitəsi kimi lazım deyildir. D.q.-də baş vermiş ictimai təhlükəli nəticə – təqsirləndirilən şəxsin başqa, onun arzu etdiyi məqsədə yönəldilmiş hərəkətlərinin əlavə, ikinci dərəcəli nəticəsi olur. Bu nəticə həmin şəxsin hərəkətlərinin motivindən irəli gəlir ki, bu da ona lazım deyildir. D.q.-in mahiyyəti ondan ibarətdir ki, şəxs öz hərəkət və ya hərəkətsizliyi nəticəsində ona nə son, nə də aralıq məqsədi kimi lazım olmayan ictimai təhlükəli nəticənin baş verməsi imkanını qabaqcadan görsə də, yenə də onu edir. D.q.-in bir xüsusiyyəti də ondan ibarətdir ki, o, formal tərkibli cinayətlərdə mümkün deyildir.

**Dolayı seçkilər** *(bax: çoxdərəcəli seçkilər).*

**Dolayı (yanakı) sübutlar** – baş faktı deyil, sübutedici faktı müəyyən edən sübutlar. Sübutedici faktlar işdə olan digər sübutların məcmusu ilə baş fakt haqqında, yəni cinayətin şübhə edilən şəxs tərəfindən törədilməsi haqqında nəticə çıxarmağa əsas verə bilər. Ayrılıqda götürülmüş d.s. iş üzrə hər hansı nəticəyə gəlmək üçün əsas ola bilməz. Bunun üçün d.s. cəm halda götürülməli, onlar bir-biri ilə üzvi surətdə bağlı olmalı, habelə müəyyən sistem təşkil etməlidirlər. Hər bir d.s. sübut edilməli faktla səbəbli əlaqədə olmalıdır. D.s.-ın sistemindən yalnız bir nəticə – sübutetmə predmetinə daxil olan, bu və ya digər faktın sübut edilməsi haqqında nəticə çıxarılmalıdır. Əgər d.s.-ın məcmusu müxtəlif nəticəyə gəlməyə əsas verərsə, bu, ittiham hökmünün əsasına daxil edilə bilməz. D.s. həm ittihamedici və bəraətverici, həm də ilkin və törəmə sübutlar ola bilər.

**Dolayı vergilər** – vergi ödəyənin gəlirləri ilə müəyyən edilən birbaşa vergilərdən fərqli olaraq qiymətə və ya tarifə əlavə növündə müəyyən edilən, əmtəə və xidmətlər üçün tutulan vergilər. Mal istehsal edən və ya xidmətlər göstərən müəssisənin mülkiyyətçisi öz əmtəələrini onlara edilən əlavələri nəzərə almaqla qiymət (tarif) üzrə satır və öz gəlirindən dövlətə müvafiq vergi məbləği keçirir. Yəni mahiyyət etibarı ilə mülkiyyətçi d.v.-in toplayıcısı, alıcı isə vergi ödəyicisi qismində çıxış edir.

**Dolayı (evantual) votum** *(bax: votum).*

**Domen** *(lat. dominium – sahiblik)* – **1)** Qərbi Avropada orta əsrlərdə feodalın öz təsərrüfatını idarə etdiyi mülk (votçina); **2)** kral mülkünün vərəsəlik torpaqlarının məcmusu (kral domeni).





**Dominat** *(lat. dominatus – hökmranlıq)* – Qədim Romada III yüzilliyin sonunda imperator Diokletian tərəfindən yaradılmış qeyri-məhdud monarxiya.

**Dominion** *(ing. dominion - sahiblik)* – keçmiş Britaniya imperiyasının özünüidarə edən hissələrinin adı; 1931-ci ildən sonra müstəqillik qazanmış, lakin Millətlər Birliyinin tərkibində üzv kimi qalmış, ingilis monarxını dövlət başçısı qismində tanıyan keçmiş ingilis koloniyaları da d. adlanırdılar. Hazırda "d." termini istifadədən çıxmışdır.

**Dominionluq edən vəziyyət** ***(bazarda)*** – antiinhisar qanunvericiliyə görə əvəzə malik olmayan təsərrüfat subyektinin (bir neçə subyektin) əmtəə bazarında müstəsna vəziyyəti. D.e.v. müvafiq əmtəə bazarında malların dövriyyəsinin ümumi şəraitinə həlledici təsir göstərir.

**Domisil** – **1)** bir sıra xarici dövlətlərin hüququnda vətəndaşın daimi yaşayış yeri və ya hüquqi şəxsin qeydə alındığı yer. D.-in bir neçə növü mövcuddur: "Mənşə domisili". Məsələn, arvadın başqa ölkədə yaşamasına baxmayaraq, o da ərinin malik olduğu d.-ə malik olur. "Rezidentlik" anlayışından fərqli olaraq, fiziki şəxs, bir qayda olaraq, ancaq bir ölkədə d.-ə malik ola bilər. Hüquqi şəxslərdə də d. və rezidentlik anlayışları üst-üstə düşməyə bilər. Şirkət ancaq qeydə alındığı ölkədə domisilləşdirilə bilər. Lakin onun rezidentliyi şirkətin nəzarət və idarə mərkəzinin yerləşdiyi ölkə tərəfindən tənzimlənir; **2)** veksellərə münasibətdə – veksel üzrə ödəmə yeri; bu yer veksel sahibinin yaşayış yeri ilə üst-üstə düşməyə bilər.

**Domisiliant** – vekseldə göstərilən üçüncü şəxs; o, vekseli ödəyicinin yaşayış yerində və ya başqa yerdə ödəməlidir.

**Dondt metodu** – seçkilərdə mandatların proporsional nümayəndəlik sistemi üzrə bölüşdürülməsi metodu; belçikalı riyaziyyatçı D. Ondt tərəfindən ixtira edilmişdir. Bu metoda uyğun olaraq seçki dairəsində hər bir partiya siyahısı ilə əldə olunan səslərin sayını ardıcıl olaraq siyahıların sayına uyğun olan rəqəmədək – 1, 2, 3, 4 və i.a. bölürlər. Sonra alınan xüsusi rəqəmləri çıxma qaydasında bölüşdürürlər. Əvəz edilməli mandatların sayına uyğun olan xüsusi sıra nömrəsi ümumi bölüşdürücü olur. Hər bir siyahı ümumi bölüşdürücünün bu siyahı ilə səslərin neçə dəfə say aldığı qədər yer alır. Həmin metod Bolqarıstanda, Estoniyada, Latviyada, Polşada, Rumıniyada və bir sıra başqa ölkələrdə tətbiq edilir.

**Donor** – **1)** tibbi məqsədlər üçün qan verən şəxs; **2)** öz orqanlarının və (və ya) toxumalarının başqa insanın orqanizminə köçürülməsinə razılıq verən şəxs.

**Dosent** *(lat. docens – öyrədən)* – Azərbaycan Respublikasında, elmlər namizədi alimlik dərəcəsi almış, ali tədris müəssisələrində müəllimlik fəaliyyəti ilə, elmi tədqiqatla və metodiki işlə məşğul olan şəxsə verilən elmi ad (rütbə).

**Dotal əmlak** *(lat. dos)* – eynilə cehiz.

**Dotasiya** *(lat. dotatio – bəxşiş, qurban)* – aşağı təsərrüfat vahidlərinin, müəssisə və təşkilatların planlaşdırılmış və ya balanslı, dırılmış itkilərini ödəmək (yerini doldurmaq) üçün nəzərdə tutulan büdcə vəsaiti. D. müəssisələrin işini yaxşılaşdırmaq, hərbi sənayeyə maliyyə yardımı göstərmək, mühüm sosial obyektləri maliyyələşdirmək və azmənfəətli sahələrə əsaslı vəsait qoymaq forması kimi tətbiq edilir. Elmi tədqiqatların aparılması üçün də d. ayrılır.

**Dou-Cons indeksi** – ABŞ-ın iri şirkətlər qrupunun səhm kurslarının orta göstəricisi; "Dou-Cons" şirkəti tərəfindən XIX yüzilliyin sonundan dərc olunur. D.-C. indeksinin hesablama metodu dəfələrlə dəyişmişdir. Müasir şəraitdə ümumi indeks 30 sənaye, 20 nəqliyyat və 15 kommunal şirkətlərinin səhm kurslarının təhlili əsasında hesablanır. D.-C. indeksi ABŞ-da cari təsərrüfat konyukturasının göstəricisinə xidmət edir və Amerikanın işgüzar dairələrinin müxtəlif iqtisadi və siyasi hadisələrə reaksiyasını əks etdirir.

**Doza** *(yun. dosis – porsiya; ing. dose)* – toksikologiyada farmakoloji və toksikoloji qüvvəyə malik olan dərman maddələrinin orqanizmə yeridilməsinin müəyyən edilmiş miqdarı. Birdəfəlik, birgünlük, kiçik, orta və yüksək müalicəvi, zəhərləyici və öldürücü dozalar vardır.

**"Dörd ailə" (Çində)** – 1927-ci ildən 1949-cu ilədək Çini idarə etmiş irticaçı qomindan qrupu. Çan Kay-şi, Sun Tszı-ven, Kun Syan-si, Çen Qofu və Çen-Li-fu qardaşları ailələrinin nümayəndələrindən ibarət idi. Yarımmüstəmləkə Çin şəraitində yetişmiş özünəməxsus dövlət-inhisarçı bürokratik kapitalı təmsil edirdilər. Dövlət hakimiyyətini ələ keçirən və ölkənin iqtisadiyyatında əsas mövqeləri inhisara alan "D.a." Çin xalqını ağır sosial-iqtisadi və siyasi vəziyyətə salmışdır. Çində 22 illik hökmranlıqları dövründə onlar 20 milyard ABŞ dollarından çox olan kapital toplamışdılar. Ölkədə xalq inqilabının qələbəsindən sonra (1949) "D.a."-nın kapitalı müsadirə edilmişdir.

**Dördüncü respublika** – Fransada əslində 1944-cü ildən (ölkə alman-faşist işğalçılarından azad edildikdən sonra) 1958-ci ilədək mövcud olmuş respublika. Fransa tarixində qəbul olunmuş dördüncü konstitusiyaya uyğun olaraq belə adlanırdı. D.r.-nın konstitusiyası (1946-cı ildə qəbul edilmişdir) qüvvəyə minənədək "müvəqqəti rejim" (1944-1946-cı illərdə) mövcud olmuşdur. 1958-ci ildən beşinci respublika dövrü başlanmışdır.

**Dövlət** – **1)** dövlət nəzəriyyəsində verilən tərifə görə cəmiyyətin birliyini və bütövlüyünü təmin edən, cəmiyyət işlərinin idarəçiliyini, suveren ümumi hakimiyyəti dövlət mexanizmi vasitəsi ilə həyata keçirən, hüquqa ümummәcburi xarakter verən, vətəndaşların hüquqlarını, azadlıqlarını, qanunçuluğu və hüquq qaydasını təmin edən siyasi təşkilat.

D. nəhəng və mürəkkəb sosial hadisə kimi cəmiyyətin müxtəlif təbəqələrinin, siyasi partiyaların və hərəkatların mənafeyinə birbaşa və bilavasitə təsir edir. D.-in yerinə yetirdiyi vəzifə və funksiyaların çoxşaxəliliyi baxımından heç bir başqa təşkilat onunla rəqabət aparmaq iqtidarında deyildir. D. son dərəcə mürəkkəb və daxili ziddiyyətlərə malik ictimai-siyasi hadisədir.

D.-in definisiyası (anlayışı, tərifi), onun xarakteristikası onu həm icma quruluşundan, həm də cəmiyyətin qeyri-dövlət təşkilatlarından fərqləndirən əlamətlərin aydınlaşdırılması vasitəsilə konkretləşdirilə bilər. Həmin əlamətlər aşağıdakılardır: 1) əhalinin ərazi təşkilatı və ümumi hakimiyyətin ərazi hüdudlarında həyata keçirilməsi; 2) ümumi (dövlət hakimiyyəti) hakimiyyət; 3) dövlət suverenliyi; 4) dövlətin və hüququn qarşılıqlı əlaqəsi.

D.-in mahiyyəti ondakı başlıca və dərin məna kimi onun məzmununu, təyinatını və fəaliyyətini müəyyən edir. D.-in mahiyyətinin başlıca komponenti hakimiyyət, onun məxsusluğu, cəmiyyətdəki təyinatı və fəaliyyətidir. Başqa sözlə, D.-in mahiyyəti haqqında məsələ dövlət hakimiyyətinin kimə məxsus olması, bu hakimiyyəti kimin və kimlərin mənafeləri naminə həyata keçirməsi məsələsidir.

D. iki mühüm funksiyanı - daxili və xarici funksiyanı yerinə yetirir. D.-in daxili funksiyası mülkiyyətin formalarını, hüquq qaydasını, təbiəti və ətraf mühiti mühafizə etməkdən, iqtisadi, sosial, elmi-texniki tərəqqini inkişaf etdirmək funksiyasından ibarətdir. Xarici funksiya ölkəni xarici hücumlardan müdafiə etməkdən, müharibə aparmaq, sülhü qorumaq və qarşılıqlı-faydalı ticarət əlaqələri yaratmaqdan ibarətdir.

Formasiya kriteriyası üzrə dövlətin tiplərini aşağıdakı kimi təsnifləşdirmək olar: a) Şərq dövlətləri; b) quldarlıq dövlətləri; c) feodal dövlətləri; ç) burjua dövlətləri; d) sosialist və sosializmə keçid dövlətləri. Siyasi rejimdən asılı olaraq d.-in aşağıdakı növlərini fərqləndirmək olar: a) totalitar dövlətlər; b) avtoritar dövlətlər; c) liberal dövlətlər; ç) demokratik dövlətlər.

D.-in tarixən iki idarəçilik forması mövcud olmuşdur: 1) monarxiya; 2) respublika. Tarixə monarxiyanın qeyri-məhdud monarxiya, silki-nümayəndəli monarxiya, mütləq (mütləqiyyət) monarxiya, konstitusiyalı monarxiya kimi növləri məlumdur. Hazırda parlamentli, prezidentli və qarışıq respublikalar fərqləndirilir.

Dövlət quruluşu formasına görə unitar dövlət, federativ dövlət (federasiya) və konfederasiya məlumdur;

**2)** konstitusiya (dövlət) hüququna görə d. dedikdə, ölkə miqyasında fəaliyyət göstərən rəsmi hakimiyyət orqanlarının (hökumətin, parlamentin, məhkəmələrin və başqa orqanların) məcmusu başa düşülür;

**3)** beynəlxalq hüququn subyekti kimi beynəlxalq münasibətlərin əsas iştirakçısı. Bu mənada d. hakimiyyətin siyasi təşkilatı kimi özündə müəyyən ərazili əhalini də ehtiva edir. Beynəlxalq hüquq nöqteyi-nəzərindən d.-i səciyyələndirən başlıca keyfiyyət onun suverenliyidir.

**Dövlət aparatı** – konstitusiya hüququ elmində praktiki olaraq dövlətin funksiyalarını həyata keçirən orqanların sistemi. Məhdud mənada d.a. dedikdə, gündəlik dövlət idarəçiliyini yerinə yetirən icra hakimiyyəti (inzibati orqanların) orqanlarının məcmusu başa düşülür. D.a. dövlət mexanizminin tərkib hissəsidir. Geniş mənada d.a. silahlı qüvvələri, kəşfiyyatı, cəza orqanlarını və digər güc orqanları kimi dövlət hakimiyyətinin mühüm vasitələrini əhatə edir.

**Dövlət arbitrajı** – keçmiş SSRİ-də, o cümlədən Azərbaycan SSR-də müxtəlif nazirliklərin və ya mərkəzi idarələrin müəssisələri və təşkilatları arasındakı təsərrüfat mübahisələrini həll edən orqan. Hazırda Azərbaycan Respublikasında bu orqan İqtisad məhkəməsi ilə əvəz edilmişdir *(bax: iqtisad məhkəməsi)*.

**Dövlət bankı** – dövlətin mülkiyyətində olan kredit müəssisəsi.

**Dövlət başçısı** – dövlətin ali nümayəndəsi hesab olunan və bir qayda olaraq, icra hakimiyyətinin daşıyıcısı olan yüksək vəzifəli şəxs. Monarxiya idarəçiliyi formasına malik olan (Böyük Britaniya, İsveç, İspaniya, Yaponiya) dövlətlərdə dövlətin başında hakimiyyətə irsən gələn monarx (imperator,

kral, şah), respublikalarda isə ya bilavasitə əhali tərəfindən (məsələn, Azərbaycan Respublikasında, Rusiya Federasiyasında, Meksikada), ya da dolayı (ABŞ-da, Argentinada) və ya çoxdərəcəli (İtaliyada, AFR-də, Hindistanda) seçki qaydasında seçilən prezident durur. Prezidentli respublikalarda (ABŞ-da, Meksikada) d.b. eyni vaxtda da icra hakimiyyətinin başçısıdır. ABŞ-da, Argentinada və Afrikanın bəzi ölkələrində prezident həm də hökumətin başçısıdır. D.b., ona konstitusiya ilə verilən geniş səlahiyyətlərə malik olur. O, silahlı qüvvələrin ali baş komandanı olmaqla yanaşı, veto, əfv, parlamenti buraxmaq, qanunvericilik təşəbbüsü hüququna və i.a. hüquqlara da malikdir. Parlamentli respublikalarda d.b.-nın bütün səlahiyyətləri faktiki olaraq onun adından hökumət tərəfindən həyata keçirilir.

**Dövlət bayrağı** – dövlətin rəsmi fərqləndirici nişanı, onun rəmzlərindən biri. Bayraq həm də dövlətin suverenliyinin rəmzidir. Onun təsviri qanunla (bir qayda olaraq, konstitusiya qanunu ilə) müəyyən edilir. Üzərində müvafiq dövlətin gerbi, yaxud digər emblemi təsvir edilən bir, yaxud çoxrəngli qumaşdan ibarət olur.

**Dövlət baytarlıq nəzarəti** – dövlət baytarlıq xidməti idarəçilik orqanlarının, müəssisələrinin və təşkilatlarının xəstə heyvanların profilaktikasına, heyvandarlıq məhsullarının baytarlıq təhlükəsizliyinin təmin olunmasına, baytarlıq haqqında qanunvericilik tələblərinin pozulması qarşısının alınmasına, aradan qaldırılmasına yönələn fəaliyyəti.

**Dövlət borcu** – Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq, əgər respublikanın qanunvericilik aktları ilə sair hal müəyyən edilməmişdirsə, Azərbaycan hökumətinin (Nazirlər Kabinetinin) hüquqi və fiziki şəxslər qarşısındakı borc öhdəlikləri. D.b. Azərbaycan Respublikası hökumətinin sərəncamında olan bütün aktlarla təmin edilir. Borc öhdəlikləri aşağıdakı 3 formada ifadə oluna bilər: 1) Azərbaycan Respublikası hökumətinin şəxsində dövlət tərəfindən alınan kreditlər; 2) qiymətli kağızların buraxılışı yolu ilə həyata keçirilən dövlət istiqrazları; 3) Azərbaycan Respublikası hökuməti tərəfindən təminatlandırılan başqa formalardakı borc öhdəlikləri.

**"Dövlət borcu haqqında" qanun** – Azərbaycan Respublikasının dövlət borcu (borc öhdəlikləri) ilə əlaqədar olaraq dövlətlə hüquqi və fiziki şəxslər arasındakı münasibətləri tənzimləyən qanunvericilik aktı. Bu qanun 29 dekabr 1992-ci il tarixdə qəbul edilmişdir, 7 maddədən ibarətdir.

**Dövlət büdcəsi** – müvafiq hakimiyyət orqanları vasitəsi ilə dövlətə məxsus funksiyaların yerinə yetirilməsini təmin etmək üçün lazım olan pul vəsaitinin qanunla müəyyən olunmuş qaydada yığılması və xərclənməsi forması. Bütün demokratik dövlətlərdə d.b.-nin qəbulu parlamentin ən mühüm səlahiyyətlərindən biridir. D.b.-nin layihəsi, bir qayda olaraq, parlamentə dövlət başçısı və ya hökumət tərəfindən təqdim olunur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 2-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında qanun layihəsi Azərbaycan Respublikasının Milli Məclisinin təsdiqinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunur.

**Dövlət büdcəsi borcları (ssudalar)** – yerli büdcələrə qaytarılmaq şərti ilə müəyyən müddətə verilən vəsaitlər.





**"Dövlət büdcəsi haqqında" qanun** – Azərbaycan Respublikasında hər büdcə ili üzrə dövlət büdcəsinin tərtibi, təsdiqi, icrası və icraya nəzarətin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən qanunvericilik aktı. Bu qanun 18 may 1999-cu il tarixdə qəbul edilmişdir, o, 23 maddədən ibarətdir.

**Dövlət büdcəsinin balansı** – dövlətin pul gəlirlərinin və xərclərinin qarşılıqlı əlaqəsi. Gəlirlər üzərində xərclərin artırılması büdcə kəsiri yaradır.

**Dövlət büdcəsinin gəlirləri** – qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət büdcəsinə daxil olan vergilərin, rüsumların, digər ödənişlərin və daxilolmaların toplusu.

**Dövlət büdcəsinin xərcləri** – büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən ayrılan vəsaitlər.

**Dövlət büdcəsinin kassa icrası** – dövlət büdcəsinə daxilolmaların yığılmasını və onun büdcə təsnifatına müvafiq ünvanlı istifadəsini təmin edən icra mexanizmi.

**Dövlət büdcəsinin kəsiri** – dövlət büdcəsi xərclərinin gəlirlə təmin olunmayan məbləği.

**Dövlət çevrilişi** – konstitusiya hüququ elmində konstitusiya (dövlət) quruluşunu zorakılıqla və konstitusiyanı pozmaqla devirmə, yaxud dəyişdirmə, habelə dövlət hakimiyyətini zorla ələ (mənimsəmə) keçirmə. D.ç. ordunun həlledici iştirakı ilə törədildikdə o, hərbi çevriliş adlandırılır.

**Dövlət Departamenti** *(Departament of State)* – ABŞ-da 1789-cu ildən xarici işlər nazirliyi vəzifəsini (funksiyasını) yerinə yetirən əsas xarici siyasət idarəsi. DD-ə dövlət katibi başçılıq edir. O, hüquqi cəhətdən məşvərətçi orqan hesab edilir. DD ABŞ Prezidentinin və Konqresinin hazırladığı xarici siyasət xəttini həyata keçirən orqandır. DD daxili işlərə dair bir sıra funksiyaları (məsələn, qanunlar dərc etmək) da yerinə yetirir.

**Dövlət dili** *(bax: rəsmi dil).*

**"Dövlət dili haqqında" qanun** – Azərbaycan Respublikasının ərazisində Azərbaycan (Azərbaycan türkcəsinin) dilinin hüquqi statusunu müəyyən edən qanunvericilik aktı. Bu qanun 30 sentyabr 2002-ci il tarixdə qəbul edilmişdir. Qanun 3 fəsildən, yekun müddəalarından və 20 maddədən ibarətdir. 10 iyun 2003-cü ildə qanunun 6-cı maddəsinin dəyişdirilməsi yeni redaksiyada verilmişdir. 19 maddədən ibarətdir. Həmin qanun fərdlərarası qeyri-rəsmi münasibətlərdə hansı dillərdən istifadə edilməsini tənzimləmir.

Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinə əsasən Azərbaycan Respublikasında dövlət dili Azərbaycan dilidir.

**Dövlət dini** – məscidin (kilsənin) dövlətin rəsmi təşkilatının bir hissəsi olduğunu ifadə edən konstitusiya hüquq institutu. Bu, aşağıdakılarda təzahür edir: 1) dövlət məscidi (kilsəni) maliyyələşdirir; 2) şeyxin (şeyxlərin), müqəddəslərin təyin olunmasında iştirak edir; 3) həmin məscidin (kilsənin) daxili fəaliyyətini tənzimləyən aktları təsdiq edir; 4) onun nikahları, doğumları və ölümü qeydə alması kimi funksiyaları həyata keçirməsini tanıyır. D.D. institutu Böyük Britaniyada (anqlikanlıq), İsveçdə, Norveçdə, Danimarkada, İslandiyada (lüteranlıq), Yunanıstanda (pravoslavlıq), İordaniyada, İranda, Mərakeşdə (islam) və i.a. mövcuddur.

**Dövlət Duması** – **1)** 1906-1917-ci illərdə Rusiya imperiyasında məhdud qanunvericilik hüququna malik olmuş, 1905-1907-ci illər inqilabı nəticəsində yaradılmış nümayəndəli (parlamentin aşağı palatası) orqan. Kurial sistemi üzrə seçilirdi, seçkilər qeyri-bərabər və qeyri-düzünə idi. D.D. Rusiya imperiyasının əsas qanunlarını dəyişdirmək hüququna malik deyildi, onun qərarları Dövlət Şurası (parlamentin yuxarı palatası) tərəfindən ləğv edilə bilərdi. İmperator ancaq öz qarşısında məsul olan hökumət vasitəsi ilə ölkənin idarə olunması üzrə bütün hakimiyyəti əlində saxlayırdı. D.D. 1917-ci il Fevral inqilabı nəticəsində ləğv edilmişdir; **2)** Rusiya Federasiyasının Konstitusiyasına uyğun olaraq Federal Məclisin aşağı palatası. 450 deputatdan ibarətdir və 4 il müddətinə seçilir. Seçkilərin qaydası federal qanunla müəyyən edilir. D.D.-nın başlıca səlahiyyəti federal qanunları qəbul, habelə Rusiya Federasiyası hökumətinin təşkilində və onun fəaliyyətinə nəzarətdə iştirak etməkdən ibarətdir.

**Dövlət ehtiyatı** – dövlətin maddi sərvətlər ehtiyatı. Bu sərvətlər dövlətin səfərbəredici ehtiyaclarının, fövqəladə halların nəticələrinin ləğvində birinci növbəli işlərin təmin edilməsini; sənayenin və təsərrüfatın müxtəlif sahələrinə, idarə, müəssisə və təşkilatlara dövlət yardımı göstərilməsini; daxili bazarda tələblə təklif arasında disproporsiyanın yarandığı halda xammalın mühüm növləri ilə və yanacaq-enerji ehtiyatları ilə təchizatın müvəqqəti pozulması zamanı iqtisadiyyatı sabitləşdirmək məqsədilə dövlət tərəfindən kömək edilməsini; humanitar yardım göstərilməsini və bazara tənzimedici təsir edilməsini nəzərdə tutur.

**Dövlət ekoloji ekspertizası** *(bax: ekoloji ekspertiza).*

**Dövlət elmi-texniki siyasəti** – dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsi; dövlətin elmə və elmi-texniki fəaliyyətə münasibətini ifadə edir, dövlət hakimiyyəti orqanlarının elm, texnika və elmin, texnikanın nailiyyətlərinin realizə olunması sahəsində məqsədlərini, istiqamətlərini və fəaliyyət formalarını müəyyənləşdirir.

**Dövlətəbənzər təsisatlar** – beynəlxalq hüququn dövlətin bəzi əlamətlərinə (cəhətlərinə) malik olan, lakin hamılıqla qəbul olunmuş mənada dövlət olmayan subyektlərinin xüsusi növü. D.t.-a "azad şəhərlər" (1923-1939-cu illərdə Dansiq, 1947-1954-cü illərdə Triyest) aid edilir. Belə şəhərlər dövlətlər arasında müvəqqəti "dondurulmuş" mübahisəli ərazilərdə yaradılırdı. Müasir Vatikan şəhər-dövləti d.t.-a aiddir.

**Dövlət əhalinin məşğulluq fondu** – əhalinin məşğulluğuna kömək göstərilməsi sahəsində dövlət siyasətini həyata keçirən dövlət hakimiyyəti orqanı. D.ə.m.f. vətəndaşların məşğulluğuna kömək göstərilməsi üzrə vəsaitlərdən məqsədli istifadəyə və həyata keçirilən tədbirlərin maliyyələşdirilməsinə nəzarəti təşkil edir və həyata keçirir.

**Dövlətə xəyanət** – Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl – düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə. D.x. dövlətin təhlükəsizliyi əleyhinə ən ağır cinayətdir. AR CM-in 274-cü maddəsində nəzərdə tutulmuşdur.





**Dövlət əmlakının alıcıları** – dövlət əmlakının özəlləşdirilməsi zamanı alıcılar qismində aşağıdakılar çıxış edirlər: 1) Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər; 2) "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası qanununun (2000-ci il mayın 16-da qəbul edilmişdir) 9.2-ci maddəsində göstərilənlərdən başqa Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış bütün hüquqi şəxslər; 3) xarici hüquqi şəxslər.

Dövlət əmlakının özəlləşdirilməsi zamanı aşağıdakılar alıcı qismində çıxış edə bilməzlər: 1) səhmlərin və ya nizamnamə fondundakı payın 20 faizdən çoxu dövlət mülkiyyətində olan hüquqi şəxslər; 2) icra hakimiyyəti orqanları; 3) bələdiyyə orqanları.

Yerli investorların dövlət əmlakının özəlləşdirilməsinin bütün forma və üsullarında məhdudiyyətsiz iştirak etmək hüququ vardır.

**Dövlət əmlakının özəlləşdirilməsi** – Azərbaycan Respublikasının "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanununa (2000-ci il mayın 16-da qəbul edilmişdir) uyğun olaraq dövlət əmlakının müəyyən edilmiş qaydalara müvafiq şəkildə alıcıların mülkiyyətinə verilməsi.

**"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanun** – Azərbaycan Respublikasında dövlət mülkiyyətində olan əmlakın özəlləşdirilməsinin təşkilati, iqtisadi və hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı. Bu qanun 16 may 2000-ci il tarixdə qəbul edilmişdir. O, üç fəsildən, yekun müddəalarından və 33 maddədən ibarətdir.

**Dövlət əmlakının özəlləşdirilməsi üsulları** – "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası qanununun 16-cı maddəsinə uyğun olaraq dövlət əmlakının özəlləşdirilməsinin aşağıdakı üsulları həyata keçirilir:

1) özəlləşdirilən dövlət müəssisələrinin əmlakının əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satışı; 2) dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi; 3) dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclarında satışı; 4) dövlət əmlakının hərraclar vasitəsilə satışı; 5) dövlət əmlakının investisiya müsabiqəsi vasitəsilə satışı; 6) icarəyə verilmiş dövlət əmlakının satışı; 7) dövlət müəssisələrinin müflis elan edilməsi yolu ilə satışı.

Dövlət əmlakının hansı üsulla özəlləşdirilməsi "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası qanununa və dövlət proqramına müvafiq olaraq dövlət əmlakının özəlləşdirilməsi barədə qərar qəbul etmiş müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Dövlət əmlakının satıcısı** – "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanunun 8-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi prosesində dövlət əmlakının satıcısı qismində müvafiq icra hakimiyyəti orqanı çıxış edir. Dövlət əmlakının satıcısı aşağıdakı funksiyaları həyata keçirir: 1) müəyyən olunmuş qaydada dövlət əmlakının registrini aparır; 2) qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət əmlakının özəlləşdirilməsi üzrə ko-

missiya yaradır; 3) özəlləşdirməyə açıq elan edilmiş dövlət əmlakını satılan anadək müəyyən edilmiş qaydada idarə edir; 4) özəlləşdirmədən qabaq müəssisələrin restrukturizasiyası və sağlamlaşdırılması ilə bağlı təkliflər hazırlayır və bu sahədə öz səlahiyyətləri çərçivəsində tədbirlər həyata keçirir; 5) özəlləşdirməqabağı dövlət müəssisələrinin idarəetməyə verilməsi barədə təkliflər irəli sürür; 6) məqsədəuyğun hallarda özəlləşdirilməsi nəzərdə tutulan dövlət müəssisələrinin müflis elan olunmasına dair təkliflər irəli sürür; 7) özəlləşdirmə prosesində yaradılan səhmdar cəmiyyətlərinin təsisçisi və dövlət səhmlər zərfinin saxlayıcısı kimi çıxış edir; 8) dövlət əmlakının özəlləşdirilməsi nəticəsində əldə edilən pul vəsaitinin statistik və mühasibat hesabını aparır və onun dövlət büdcəsinə köçürülməsini təmin edir; 9) səhmdar cəmiyyətlərində (və ya müştərək müəssisələrdə) dövlət əmlak payının, həmçinin dövlət əmlakının satışı zamanı alıcıların alqı-satqı müqaviləsində müəyyən edilmiş öhdəliklərin uçotunu aparır; 10) müəssisələrin nizamnamə kapitalında dövlətə məxsus paya və səhmlərə görə dövlət büdcəsinə dividend köçürülməsini təmin edən tədbirləri həyata keçirir.

Dövlət əmlakı satıcısının fəaliyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş normativ-hüquqi akta uyğun olaraq tənzimlənir.

**Dövlət əmlakının təsnifatı** – "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanunun 6-cı maddəsinə uyğun olaraq dövlət mülkiyyətində olan əmlak özəlləşdirilməsi baxımından aşağıdakı kimi təsnifləşdirilir: 1) özəlləşdirilməsi qadağan olunan əmlak; 2) özəlləşdirilməsi barədə qərar qəbul edilən anadək dövlət mülkiyyətində saxlanılan əmlak; 3) müvafiq icra hakimiyyəti orqanının qərarı ilə özəlləşdirilən əmlak; 4) dövlət əmlakı satıcısının qərarı ilə özəlləşdirilən əmlak.

Azərbaycan Respublikasının dövlət mülkiyyətində saxlanılan aşağıdakı əmlak növlərinin özəlləşdirilməsi qadağandır: 1) yerin təki, meşə fondu, su ehtiyatları, dövlət sərhəd zolaqları və üzərindəki daşınmaz əmlak, hava məkanı, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun suları, geostasionar orbitlərdəki peyk rabitəsi vasitələri; 2) qorunan və xüsusi qaydada istifadə olunan təbiət əraziləri; 3) Azərbaycan xalqının tarix və mədəniyyət abidələri (yerli əhəmiyyətli tarix və mədəniyyət abidələri istisna olmaqla), dövlət muzeyi, dövlət arxivi və mərkəzi dövlət kitabxanasının eksponatları və fondu; 4) Azərbaycan Respublikasının müdafiəsini və təhlükəsizliyini təmin etmək üçün saxlanılan hərbi hissələrin, daxili qoşunların və sərhəd qoşunlarının, gömrük orqanlarının operativ istifadəsində olan əmlak və i.a.

**Dövlət ərazisi** – yer kürəsinin müəyyən dövlətin suverenliyində (yurisdiksiyasında) olan hissəsi. D.ə.-nin tərkibinə quru ərazi (dövlət sərhədləri hüdudunda yerləşən quru hissə), sular (daxili sular və ərazi suları), quru ərazi və su üzərindəki hava hüdudları daxildir. Quru və su ərazisinin yeraltı sərvətləri də həmin dövlətin sərvətləri hesab olunur.

**Dövlət fabriki** – dövlətin maşın sənayesinin tətbiqinə əsaslanan sənaye müəssisəsi; iri maşınlı istehsal forması. İqtisadi mənada "fabrik" anlayışı "zavod" anlayışının eynidir. Adətən yüngül sənaye və





hasilat sənayesi sahələrinin müəssisələri fabrik adlanır. Fabrik XVIII yüzilliyin sonuncu və XIX yüzilliyin birinci rübündə sənaye çevrilişi nəticəsində meydana gəlmişdir. Azərbaycanda ilk fabrik 1829-cu ildə (Şəkidə) yaradılmışdır.

**Dövlət forması** – məhdud mənada dövlətin idarəçilik forması; geniş mənada dövlət quruluşu forması (unitar, federativ, konfederativ dövlət). D.f. anlayışına siyasi rejim (yəni dövlət hakimiyyətinin həyata keçirilməsinin üsul və metodlarının məcmusu) də daxildir. Dövlət formalarını müəyyən edən başlıca amil cəmiyyətin maddi həyat şəraitidir. Kapitalizmdə idarəçiliyin respublika formasının təşəkkül tapması cəmiyyətin iqtisadi inkişafının əsas göstəricilərindən biri kimi çıxış etmişdir.

**Dövlət gerbi** – dövlətin rəsmi emblemi olan fərqləndirici nişan; bayraqlarda, pul nişanlarında, möhürlərdə və digər bir sıra rəsmi sənədlərdə təsvir olunur. D.g.-nin məzmunu, yəni təsviri konstitusiya qanunu (Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsi) ilə müəyyən edilir.

**Dövlət geroldiyası** – Rusiya Federasiyası Prezidentinin yanında fəaliyyət göstərən xüsusi orqan; vəzifəsi Rusiya Federasiyasının rəsmi rəmzlərinin yaradılması və onlardan istifadə üzrə işlərin gedişini təmin etməkdən, bayraqları yaratmaqdan, hərbi qulluqçuların və sair dövlət qulluqçularının geyim qiyafələrinin modellərini hazırlamaqdan ibarətdir.

**Dövlət gəliri** *(bax: dövlət büdcəsi).*

**"Dövlət gənclər siyasəti haqqında" qanun** – Azərbaycan Respublikasında gənclər siyasətinin həyata keçirilməsinin hüquqi, iqtisadi, siyasi və təşkilati əsaslarını, eləcə də əhalinin digər sosial qrupları ilə gənclərin əsl hüquq bərabərliyinin təmin olunmasına yönəldilmiş hüquq və vəzifələr sistemini müəyyən edən qanunvericilik aktı. Bu qanun 13 noyabr 1991-ci il tarixdə qəbul olunmuş, 1997-ci il 10 oktyabr tarixdə ona əlavə və dəyişiklik edilmişdir. O, 22 maddədən ibarətdir.

**Dövlət gildiyası** *(Bax: gildiyalar).*

**Dövlət hakimiyyəti** – dövlətin həyata keçirdiyi siyasi, ümumi hakimiyyət. D.h. cəmiyyətə siyasi rəhbərliyin, yaxud bütün cəmiyyətin ümumməcburi iradəsinin həyata keçirilməsi vasitəsidr. D.h.-nin səciyyəvi xüsusiyyəti onun cəmiyyətin hakimiyyət idarəsini dövlət aparatının (dövlət mexanizminin) köməyi ilə həyata keçirməsindən ibarətdir.

**Dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlər** – Azərbaycan Respublikasının cinayət hüququna görə dövlət hakimiyyəti əleyhinə olan cinayətlərin bir növü. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin XI bölməsi, XXXIII fəslində (308-ci maddə – Vəzifə səlahiyyətlərindən sui-istifadə, 309-cu maddə – Vəzifə səlahiyyətlərini aşma, 310-cu maddə – Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, 311-ci maddə - rüşvət alma, 312-ci maddə – rüşvət vermə, 313-cü maddə - Vəzifə saxtakarlığı, 314-cü maddə —Səhlənkarlıq) nəzərdə tutulmuşdur.

**Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər** – Azərbaycan Respublikasının cinayət hüququna görə dövlətin konstitusiya

quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər. Bu kateqoriya cinayətlərdə qəsdin obyekti qismində konstitusiya quruluşunun əsasları, dövlətin təhlükəsizliyi, dövlət hakimiyyəti orqanlarının normal fəaliyyəti, qulluğun mənafeləri, ədalət mühakiməsinin normal həyata keçirilməsi və idarəetmənin müəyyən edilmiş qaydası çıxış edir. D.h.ə.c. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin XI bölməsi, XXXI fəslində (274-cü maddə – Dövlətə xəyanət, 275-ci maddə – Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyal dövlət orqanlarına qarşı istifadə etmə, 276-cı maddə – Casusluq, 277-ci maddə – Dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə (terror aktı), 278-ci maddə – hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, 279-cu maddə – Qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma, 280-ci maddə – Silahlı qiyam, 281-ci maddə – Dövlət əleyhinə yönələn açıq çağırışlar, 282-ci maddə – Təxribat, 283-cü maddə – Milli, irqi sosial və ya dini düşmənçiliyin salınması, 284-cü maddə – Dövlət sirrini yayma, 285-ci maddə – Məzmununda dövlət sirri olan sənədləri itirmə) nəzərdə tutulmuşdur.

**Dövlət himni** – rəsmi dövlət rəmzi olan proqram xarakterli təntənəli melodiya. Azərbaycan Respublikasının Dövlət Himninin musiqi mətni Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsinə əsasən Konstitusiya Qanunu ilə müəyyən edilir.

**Dövlət hüququ** – əsasən "konstitusiya hüququ" termininə analoji olan termin. Bu termin almandilli və bir sıra ölkələrdə, o cümlədən Rusiya Federasiyasında dövlətin sosial-iqtisadi, siyasi və ərazi quruluşunun əsaslarını tənzim edən, vətəndaşların əsas hüquq və azadlıqlarını təsbit edən və həmin dövlətin dövlət hakimiyyəti orqanlarının sistemini müəyyənləşdirən hüquq sahəsini adlandırmaq üçün işlədilir.

**Dövlət xərcləri** *(bax: dövlət büdcəsi).*

**Dövlət xəzinə bileti** – dövlətin öhdəliyi, pul vəsaitləri sahiblərinin ödəməsi və onlara öhdəliyə sahib olma müddəti ərzində gəlir əldə etmək hüququ haqqında şəhadət verən əhali arasında yerləşdirilən qiymətli kağız növü. 5 ildən 25 ilədək olan uzunmüddətli öhdəliklər kuponlara malik olurlar. İllik gəlirlər həmin kuponlar üzrə ödənilir. Öhdəliklər qısamüddətli kuponlara malik olmurlar, gəlirlər isə öhdəliklərin satın alınması və ödənilməsi zamanı ödənilir.

**Dövlət xəzinə öhdəlikləri** – sahibləri tərəfindən pul vəsaitlərinin büdcəyə köçürülməsini təsdiq edən dövlət qiymətli kağızlarının könüllülük əsasında (əhali və hüquqi şəxslər arasında) yerləşdirilməsi növü. Bu, dövlət qiymətli kağız sahiblərinə həmin kağızlara sahib olduqları bütün müddət ərzində qeydə alınmış gəlir hüququ verir. D.x.ö. büdcə icrasının optiimistləşdirilməsi və inflyasiyanın sürətinin aşağı salınması məqsədi ilə buraxılır. Azərbaycan Respublikasında d.x.ö.-nin emitenti Azərbaycan Respublikasının Maliyyə Nazirliyidir. Öhdəliklər müvəkkil edilmiş bankın hesablarında sənədləşdirilməmiş qeydlər formasında buraxılır və tədavül olunurlar.

**Dövlət xəzinəsi** *(bax: xəzinə).*

**Dövləti cinayətlər** *(bax: dövlət hakimiyyəti əleyhinə olan cinayətlər).*





**Dövlət idarəçiliyi** – dövlətin fəaliyyət formalarından biri. D.i. dövlət hakimiyyətinin müvafiq idarəetmə orqanları vasitəsi ilə reallaşdırılmasını təmin edir. O, sosial idarəetmənin mühüm tərkib hissəsidir. D.i.-ndə dövlətin daxili və xarici vəzifələrini (funksiyalarını) həyata keçirən, dövlətin sosial və siyasi mənafelərini təmin edən bütün dövlət orqanları bu və ya digər dərəcədə iştirak edirlər. Bu orqanların sistemi, onların arasındakı əlaqələr və idarəetmə səlahiyyətləri (hüquq və vəzifələri) və onların bölgüsü, onların tabelik dərəcələri konstitusiya ilə və digər normativ-hüquqi aktlarla müəyyən edilir.

**Dövlət immuniteti** – beynəlxalq hüquqda bütün dövlətlər tərəfindən qəbul edilmiş hal. D.i. dövlətin suverenliyi prisipindən və dövlətlərin suveren bərabərliyindən irəli gəlir. D.i. bir dövlətin digər dövlətə məxsus məhkəmə aidiyyətindən azad olması deməkdir. Belə ki, xarici dövlətin özü razılıq vermədən o, başqa dövlətin məhkəməsində cavabdeh ola bilməz. Belə razılıq olmadan başqa dövlətə qarşı iddia da verilə bilməz. İddianın təmin edilməsi üçün xarici dövlətin əmlakı üzərinə həbs qoyula və həmin əmlaka məhkəmə qərarının icrası üzrə məcburi tədbirlər yönəldilə bilməz. Xarici dövlətin mülkiyyəti barəsində mülkiyyətçi dövlətin ləyaqətinə sığışmayan hər hansı hərəkətə yol verilmir. Belə mülkiyyət toxunulmazdır.

**Dövlətin borc öhdəlikləri** – borca münasibəti təsdiqləyən hər cür qiymətli kağızlar. Belə qiymətli kağızlarda borclu qismində dövlət, dövlət hakimiyyəti və idarəetmə orqanları çıxış edir.

**Dövlətin büdcədənxaric fondu** – dövlət büdcəsi xaricində yaranan pul vəsaitlərinin yaranması və xərclənməsi forması.

**Dövlətin daxili borcunun ləğvi** – dövlətin borc öhdəliklərindən tam imtina etməsi; bir qayda olaraq, siyasi hakimiyyətin dəyişməsi kimi son tədbirlə şərtləşir. Dövlətə qarşı hər hansı qeyri-konstitusiya aktı ilə əlaqədar əldə edilmiş borclar legitim hakimiyyət tərəfindən öhdəlik kimi qəbul olunmur. Azərbaycan Respublikası Konstitusiyasının 20-ci maddəsində deyilir ki, Azərbaycan dövlətinə qarşı qiyama və ya dövlət çevrilişinə kömək məqsədi ilə alınmış borclar Azərbaycan Respublikası tərəfindən öhdəlik kimi qəbul edilə və ödənilə bilməz.

**Dövlətin daxili səlahiyyətləri** – dövlətə məxsus olub, beynəlxalq-hüquqi tənzimetmənin predmeti olmayan səlahiyyətlərin, hüquq və vəzifələrin məcmusu. D.d.s. anlayışı dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinin komponentlərindən biri kimi BMT Nizamnaməsində nəzərdə tutulmuşdur. D.d.s.-nin fəaliyyət sahəsi müxtəlif məsələlərin beynəlxalq-hüquqi cəhətdən tənzim edilməsində dövlətin iştirak dərəcəsindən asılı olaraq dəyişə bilər. Lakin hər bir halda dövlətin müstəsna daxili səlahiyyətlər dairəsi toxunulmaz qalır. Məsələn, dövlətin ictimai və dövlət quruluşunun əsasları.

**Dövlətin devizi** – bir çox xarici ölkələrdə dövlətin və onun suverenliyinin əsas rəmzlərindən biri; dövlətin və cəmiyyətin, onun ideoloji əsaslarının ən ali sərvətlərini ifadə edən qısa kəlmədən ibarətdir. Məsələn, "Birlik, qanun və azadlıq" AFR-in, "Allah və şəxsiyyətin hüququ" Böyük Britaniyanın dövlət devizidir. D.d., bir

qayda olaraq, dövlət gerbində yerləşdirilir. Lakin o, bilavasitə konstitusiyada da təsbit oluna bilər. Azərbaycan Respublikası özünün dövlət devizinə malik deyil.

**Dövlətin ərazisi** – yer məkanının hər hansı bir dövlətin hakimiyyəti altında olan, onun suverenliyi altına düşən hissəsi. D.ə.-inə aşağıdakılar daxildir: a) materikin (qitənin) və adaların quru sahələri (yerin təki ilə birlikdə); b) daxili suların (çayların, göllərin, süni su obyektlərinin), daxili dəniz sularının (dəniz limanları, körfəz sularının, hövzələrin, limanların, ekstuarilərin sularının) və ərazi sularının (ərazi dənizlərinin) daxil olduğu su məkanı; c) yer və su üzərində yerləşmiş yer atmosferinin hissəsindən ibarət olan hava məkanı. Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin II hissəsinə əsasən Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

D.ə.-in xarici hüdudları müəyyən dövlətlərdə bağlanmış sazişlərə uyğun olaraq dövlət sərhəddi xətti ilə göstərilir. Müvafiq ərazi suvereninin razılığı olmadan d.ə.-ndən hüquqi şəxslərin istifadəsi yolverilməzdir və qeyri-mümkündür.

**Dövlətin hava ərazisi** – dövlətin quru və su ərazilərinin üzərində yerləşən hava məkanı; dövlətin suverenliyi altında olur və onun ərazilərinin tərkibinə daxildir. Dövlətin quru və su ərazisinin sərhədlərindən keçən şaquli səth dövlətin hava ərazisinin yan (ətraf) sərhədləridir. D.h.ə.-nin yüksək həddi beynəlxalq hüquqla müəyyən edilmişdir.

**Dövlət (fiskal) inhisarı** – dövlətin kütləvi istehlak (tütün, duz və i.a.) mallarının istehsalı və realizəsi üzərində inhisarı. Dövlətin istehsalı və hər hansı malın realizəsini öz inhisarına götürdüyü halda d.i. tam, habelə ancaq istehsalın və ya ancaq reallaşdırmanın inhisara götürüldüyü halda d.i. qismən ola bilər.

**Dövlətin xarici borcları** – dövlətin beynəlxalq maliyyə öhdəlikləri üzrə borcunun məbləği; bu borclar xarici dövlətlərin və beynəlxalq valyuta-maliyyə təşkilatlarının, habelə xarici bankların verdiyi kreditlərdən yaranır.

**Dövlətin idarə olunmasında iştirak etmək hüququ** – insan və vətəndaşın əsas konstitusiya hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər. Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər.

**Dövlətin meliorativ sistemi** *(bax: meliorasiya sistemləri).*

**Dövlətin müdafiə sifarişi** – dövlətin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin zəruri səviyyəsinin qorunub saxlanması məqsədi ilə dövlət ehtiyacları üçün lazım olan məhsulların tədarükünü nəzərdə tutan hüquqi akt. Həmin akt əsasında dövlətin silahlı qüvvələri döyüş silahları, sursatları, hərbi texnika və digər hərbi ləvazımatlar ilə təchiz olunur. Xidmətlər göstərilməsi üzrə işlərin yerinə yetirilməsi, habelə dövlətin digər xarici dövlətlə hərbi-texniki əməkdaşlığı sahəsində eksport-import tədarüklərinin həyata keçirilməsi də d.m.s. ilə əhatə olunur.





**Dövlətin müvəqqəti təbiət qoruqları** – nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətdə müəyyən müddətə qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədi ilə müvəqqəti yaradılan ərazilər.

**Dövlətin növü (tipi)** – müəyyən ictimai-iqtisadi formasiyanın mahiyyətini ifadə edən dövlətin vəhdətdə götürülmüş mühüm əlamətlərinin məcmusu. Öz forması, sistemi və i.a. əlamətlərinə (cəhətlərinə) görə fərqlənən müxtəlif dövlətlər əsas əlamətləri ilə bir-birinə uyğun, yekcins və həmnöv ola bilər *(həmçinin bax: dövlət).*

**Dövlətin suverenliyinə hörmət prinsipi** – beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərindən biri; özündə dövlətin siyasi müstəqilliyini, onun ərazi üstünlüyünü və bütövlüyünü, digər dövlətlərlə bərabər hüquqluluğunu, özünün siyasi, sosial, iqtisadi və mədəni sistemini sərbəst surətdə seçmək və inkişaf etdirmək hüququnu tanımaq və bu hüquqlara hörmət etmək kimi müddəaları ehtiva edir. D.s.h.p. BMT Nizamnaməsində və bir sıra digər beynəlxalq-hüquqi aktlarda təsbit edilmişdir.

**Dövlət intizamı** – dövlətin öz orqanları, idarə, müəssisə və təşkilatlar üzərinə qoyduğu dövlət öhdəliklərinin icrasında müəyyən edilmiş fəaliyyət qaydasına bütün hüquqi və fiziki şəxslərin riayət etməsi. D.i. qanunçuluğa, hüquq qaydasına və müqavilə öhdəliklərinə ciddi əməl olunmasını tələb edir. D.i.-nın tərkib hissələri maliyyə və müqavilə intizamından, habelə xidməti (qulluq) intizamdan ibarətdir. Təsərrüfat fəaliyyəti sahəsində d.i.-nın mühüm elementlərindən biri müqavilə intizamıdır. Azərbaycan Respublikasında maliyyə fəaliyyətinin spesifikliyi ilə müəyyən edilən bu intizam maliyyə sisteminin bütün sahələrinə şamil olunur.

**Dövlətin yurisdiksiyası** *(beynəlxalq hüquqda)* – işlərə öz səlahiyyətlərinə uyğun olaraq baxmaq və həll etmək üzrə dövlət orqanlarının məhkəmə və inzibati hüquqları. Beynəlxalq hüquqda dövlətin ərazi və şəxsi (milli) yurisdiksiyası fərqləndirilir. Ərazi yurisdiksiyası dedikdə müəyyən ərazi hüdudlarında həyata keçirilən dövlət yurisdiksiyası nəzərdə tutulur. Şəxsi (milli) yurisdiksiya dövlət tərəfindən onun öz ərazisindən kənarda, məsələn, açıq dənizdə yerləşən öz vətəndaşlarına münasibətdə həyata keçirilir. Milli qanunvericilikdə nəzərdə tutulduğu hallarda d.y. həmin dövlətin vətəndaşlarına, onların xarici ərazilərdə yerləşdikləri zaman da şamil oluna bilər, lakin bu yurisdiksiya beynəlxalq sazişlə sair hal nəzərdə tutulmadığı halda dövlətin öz ərazisində həyata keçirilə bilər. Bu və ya digər dövlətin yurisdiksiyasının tətbiqi haqqında rəqabətli yurisdiksiya mövcud olduqda məsələ müvafiq beynəlxalq müqavilələr və ya beynəlxalq hüquqi adətlər əsasında həll edilir.

**Dövlət istiqrazları** – dövlətin (və ya onun yerli orqanlarının) borclu və kreditor kimi çıxış etdiyi kredit münasibətləri növü. D.i.

adətən pul formasında buraxılır. D.i. qısamüddətli (cari), ödənilmə müddəti 1 ilədək olan, ortamüddətli (1 ildən 5 ilədək) və uzunmüddətli (5 ildən çox), gəlirliyinə görə isə faizli və uduşlu olur. D.i. yığılma yerinə görə daxili d.i.-na və xarici pul bazarlarında realizə olunan xarici d.i.-na bölünürlər.

**Dövləti tanıma** ***(beynəlxalq hüquqda)*** – beynəlxalq hüquq münasibətlərinin subyekti kimi, yeni dövlətlərin beynəlxalq səhnəyə çıxması prosesini tənzimləyən normaların məcmusu. D.t.-nın əsas növləri yeni dövlətləri və "qeyri-konstitusiya yolu ilə" adlanan yolla (inqilab, vətəndaş müharibəsi, yaxud dövlət) hərbi çevriliş (çevriliş nəticəsində) hakimiyyəti ələ keçirən və ya hakimiyyət başına gələn yeni hökumətləri tanımadır. D.t.-nın əsas formaları de-yure və de-fakto tanımadır. Beynəlxalq hüquqda daha geniş mənada tanıma dövlətin hər hansı konkret faktı təsdiq edən formal aktıdır (yaxud hərəkətidir).

**Dövlət ittihamçısı** – məhkəmədə cinayət işinə baxılarkən dövlət ittihamını müdafiə edən vəzifəli şəxs (prokuror). Azərbaycan Respublikasında dövlət ittihamını prokurorlar, onların müavinləri və köməkçiləri müdafiə edirlər. D.i.-nın müdafiə edilməsi, yeni məhkəmə baxışında prokurorun iştirakı mühakimə icraatının açıqlığı elementlərindən biridir.

**Dövlət kapitalizmi** – kapitalist istehsalı (yenidən istehsalı) prosesində dövlətin bilavasitə iştirak etdiyi iqtisadi sistem. D.k. ölkənin iqtisadi inkişafının sürətləndirilməsinə yönəldilmiş dövlət tədbirləri kompleksindən ibarətdir. D.k. mahiyyəti bu və ya digər ölkənin konkret tarixi şəraiti və iqtisadiyyatının spesifikliyi ilə müəyyən olunur.

**Dövlət katibi** – Avropanın və Amerika qitəsinin bir sıra dövlətlərində ali dövlət məmurlarının daşıdıqları vəzifə adı. Məsələn, ABŞ-da dövlət departamentinin rəhbəri, xarici işlər idarəsinin başçısı dövlət katibidir. D.k. prezident tərəfindən təyin edilir və onun yaxın əməkdaşlarından biri kimi fəaliyyət göstərir. Böyük Britaniyada bəzi idarələrin (daxili işlər, müdafiə nazirliyi və i.a.) başçıları d.k. adlanırlar. Belçikada isə d.k. nazir müavinidir. Portuqaliyada d.k. baş nazirin köməkçisi və ayrı-ayrı idarələrin rəhbəri qismində fəaliyyət göstərir.

**Dövlət kəndliləri** – XVIII yüzillikdə və XIX yüzilliyin birinci yarısında Rusiyada keçmiş qara camaatdan, torpaqsız kəndlilərdən və həmhəyətlilərdən yaranmış təbəqə. Bu kəndlilər dövlət torpaqlarında yaşayır, dövlətin xeyrinə mükəlləfiyyət daşıyır və şəxsən azad hesab olunurdular. 1886-cı ildə torpaq üzərində tam mülkiyyət hüququ əldə etmişdilər.

**Dövlət komitələri** *(bax: Azərbaycan Respublikasının dövlət komitələri).*

**Dövlət kontraktı** – əmtəələrin dövlət ehtiyacları üçün tədarükü müqaviləsi. Bu müqaviləyə görə tədarükçü (icraçı) istehsal etdiyi əmtəələri dövlət sifarişçisinə, yaxud onun göstərişi ilə sair şəxsə verməyi, sifarişçi isə tədarük olunmuş əmtəələrin dəyərini ödəməyi öhdəsinə götürür. D.k. tədarükçü (icraçı) tərəfindən qəbul edilən dövlət sifarişi əsasında bağlanır. D.k.-nın bağlanması dövlət sifarişçisi üçün həmişə məcburi xarakter daşıyır. İcraçı isə yalnız qanunla müəyyən edilən hallarda belə müqavilənin iştirakçısı olur.





**Dövlət korporasiyası** – qeyri-kommersiya təşkilatı üzvlüyünə malik olmayan, əmlak üzvlük haqqı əsasında Azərbaycan Respublikası tərəfindən təsdiq edilən və sosial, idarəetmə funksiyalarını və sair ictimai faydalı funksiyaları həyata keçirmək üçün yaradılan qeyri-kommersiya təşkilatı. Dövlət qanunu əsasında yaradılır. Ona dövlət tərəfindən verilən əmlak d.k. mülkiyyəti hesab olunur. D.k. Azərbaycan Respublikasının, Azərbaycan Respublikası isə öz növbəsində d.k.-nın öhdəliklərinə görə cavab vermir. D.k. yalnız fəaliyyət məqsədlərinə nail olmaq çərçivəsində sahibkarlıq fəaliyyətini həyata keçirə bilər. D.k.-nın hüquqi vəziyyətinin xüsusiyyətləri qanunla müəyyən edilir.

**Dövlət krediti** – tərəflərdən biri dövlət, digəri kreditorlar və ya borclular - fiziki və hüquqi şəxslər olan kredit münasibətlərinin məcmusu.

**Dövlət qiymətli kağızı** – istiqrazların yerləşdirilməsi və pul ehtiyatlarının səfərbər edilməsi məqsədi ilə mərkəzi hökumət orqanları və yerli hakimiyyət orqanları vasitəsi ilə buraxılan əskinaslar, xəzinə veksellləri və digər dövlət öhdəlikləri.

**Dövlət qulluğu** – inzibati hüququn mərkəzi institutlarından biri; dövlət orqanları səlahiyyətlərinin realizəsi üzrə peşəkar fəaliyyət. "Dövlət qulluğu haqqında" qanunun 2-ci maddəsinə uyğun olaraq dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir.

**"Dövlət qulluğu haqqında" qanun** – Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 21 iyul 2000-ci il tarixdə qəbul edilmişdir. O, altı fəsildən, yekun müddəalarından və 35 maddədən ibarətdir.

**Dövlət qulluqçusu** – Azərbaycan hüququna görə qanunvericiliklə müəyyən edilmiş qaydada maaşlı dövlət qulluğu vəzifəsini tutan və Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikası vətəndaşı. D.q.-na maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər. Siyasi və ya inzibati vəzifə tutan və hakimiyyət səlahiyyətləri alan d.q. dövlət vəzifəli şəxsidir. Deputatlar və hakimlər d.q.-ları sayılmırlar. Azərbaycan Respublikasının əmək qanunvericiliyinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası qanunu (2000-ci il iyulun 21-də qəbul edilmişdir) ilə nəzərdə tutulan müddəaları d.q.-na şamil olunur.

**Dövlət quruculuğu** – bir sıra xarici ölkələrdə konstitusiya-hüquq institutları kompleksinin adı; dövlət hakimiyyət orqanlarının sistemini, onların səlahiyyətlərini, qarşılıqlı əlaqələrini, təşkil olunma qaydalarını (məsələn, Monqolustanda), bəzən isə inzibati ərazi quruculuğunu (məsələn, Rusiya Federasiyasının subyektlərindən biri olan Başqırdıstanda) müəyyən edən normaları birləşdirir. Analoji institut Braziliyada "dövlətin təşkili", Özbəkistanda isə "dövlət hakimiyyətinin təşkili" adlanır.

**Dövlət quruluşu** – dövlətin daxili struktur elementlərinin sabit əlamətlərini, onla-

nın qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini əks etdirən ictimai-siyasi münasibətlərin məcmusu. D.q.-nun xarakteri cəmiyyətin sosial-iqtisadi quruluşu ilə şərtləşir və ölkədəki siyasi qüvvələrin konkret nisbətindən asılı olur. D.q., bir qayda olaraq, ölkənin konstitusiyasında və onun əsasında qəbul edilmiş konstitusiya qanunlarında, habelə digər normativ-hüquqi aktlarda təsbit olunur.

**Dövlət quruluşu forması** – konstitusiya hüququ elmində dövlətin və ya dövlətlərin ittifaqını təşkil edən ərazi təşkilatı üsulu. Dövlətlərin quruluş formalarının iki növü fərqləndirilir: federasiya və unitar *(bax: unitarlıq)* dövlət. Çoxmillətli əhali tərkibinə malik olan ölkələrə münasibətdə bəzən "milli dövlət quruluşu forması" anlayışından da istifadə olunur.

**Dövlətlərarası standartlar** – iki dövlətin qarşılıqlı razılıq əsasında qəbul və bir-biri ilə müvafiq münasibətlərdə istifadə etdiyi standartlar, norma, qayda və tövsiyələr. D.s. hər bir dövlətin milli qanunvericilik aktı ilə müəyyənləşdirilir. Azərbaycan Respublikasının dövlətlərarası standartlarla əlaqədar münasibətləri "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 1996-cı il 16 aprel tarixli qanunu ilə tənzimlənir.

**Dövlətlərin ərazi bütövlüyü prinsipi** – beynəlxalq hüququn əsas prinsiplərindən biri; dövlətlərarası münasibətlərdə sabitliyin təmin olunmasına xidmət edir. 1945-ci ildə BMT Nizamnaməsinin qəbul edildiyi zaman təsdiq edilmiş bu prinsipin mahiyyətini dövlətin ərazisini istənilən qəsdlərdən müdafiə etmək təşkil edir. BMT Nizamnaməsi istənilən dövlətin ərazi bütövlüyünə toxunulmazlığına və siyasi müstəqilliyinə qarşı qüvvə tətbiq edilməsini və ya belə qüvvə tətbiqilə hədələməni qadağan edir.

**Dövlətlərin əsas hüquq və vəzifələri** – beynəlxalq hüququn subyekti kimi dövlətin normal mövcudluğunu əks etdirən hüquq və vəzifələrinin məcmusu. Dövlət bu hüquq və vəzifələrə özünə xas olan suveren keyfiyyətinin qüvvəsi ilə malik olur. D.ə.h.və.v. dövlətlər tərəfindən konkret beynəlxalq hüquq münasibətlərində iştirak etmə prosesində əldə edilən hüquq və vəzifələrdən fərqlənir. Bu hüquq və vəzifələrin məzmunu və sayı beynəlxalq təfəkkürün inkişafının müxtəlif mərhələlərində dəyişmişdir. Onların məzmunu beynəlxalq hüququn əsas prinsipləri ilə qırılmaz surətdə bağlıdır. BMT Baş Məclisinin tapşırığı ilə Beynəlxalq Hüquq Komissiyası (BHK) d.ə.h.və.v.-nin bəyannaməsinin 14 maddədən ibarət olan layihəsini işləyib hazırlamış və 1949-cu ildə BMT-yə təqdim etmişdir. Lakin layihə qəti olaraq bəyənilməmişdir. Layihəyə aşağıdakıların əlavə olunması təklif edilmişdir: a) müstəqillik və dövlət suverenliyi hüququ; b) bərabərlik və bərabərhüquqlu əməkdaşlıq hüququ; c) xalqların və dövlətlərin öz müqəddəratını təyin etmək hüququ; ç) beynəlxalq əməkdaşlıq və beynəlxalq ünsiyyət hüququ; d) fərdi və kollektiv özünümüdafiə hüququ; e) sülh şəraitində və dinc yaşamaq hüququ. Aşağıdakı vəzifələrin əlavə olunması təklif edilmişdir: a) hər hansı başqa dövlətin daxili işlərinə qarışmamaq; b) öz mübahisəsini başqa dövlətlərlə dinc vasitələr əsasında həll etmək; c) başqa dövlətin müstəqilliyinə və suverenliyinə hörmətlə yanaşmaq; ç) öz beynəlxalq öhdəliklərini vicdanla yerinə yetirmək.





**Dövlətlərin hüquq varisliyi** – bir dövlətin hüquq və vəzifələrinin digər dövlətə keçməsi və ya hansısa əraziyə məsul olan dövlətin dəyişməsi. D.h.v. ilə əlaqədar olan hüquq münasibətləri aşağıdakı hallarda yaranır: birincisi, ərazinin bir hissəsi bir dövlətdən digərinə keçdikdə; ikincisi, yeni dövlət yarandıqda. İkinci hal da öz növbəsində aşağıdakı hallarda mövcud ola bilər: a) əvvəllər metropoliyadan asılı olan ərazidə yeni müstəqil dövlət yarandıqda; b) iki və ya daha çox dövlət birləşdikdə; c) vahid dövlət bölündükdə və ya daha çox yeni dövlət yarandıqda; ç) mövcud olan dövlətdən ayrılan ərazinin bir hissəsində və ya hissələrində dövlət yarandıqda. D.h.v.-nin nəticələrinin (hüquqi yekunlarının) müxtəlifliyi "təmiz lövhə" (latınca *"tabula rasa"*) prinsipinin qüvvəsi altına düşür. Bu vaxt beynəlxalq hüququn yenidən yaranmış subyekti öz sələfinin öhdəlikləri ilə əlaqədar olmur. Hüquqi nəticələr həm də kontinuitet (latınca *"continuum"* – fasiləsiz, bütövlükdə) prinsipinin qüvvəsi altına düşür. Bu o deməkdir ki, sələf dövlətin öhdəlik və hüquqlarının qüvvəsi xələf dövlətə münasibətdə fasiləsizdir. Kontinuitet prinsipi tam dərəcədə d.h.v. hallarının daşınmaz dövlət mülkiyyətinə tətbiq edilir, daşınar obyektlər isə belə mülkiyyət yaranarkən yeni subyektin əmanəti nəzərə alınmaqla ədalətli payla xələf dövlətə keçirlər. Bu variant dövlət borclarına münasibətdə də qüvvədə olur.

**Dövlət mexanizmi** – dövlət hakimiyyətini həyata keçirmək vasitələri olan dövlət orqanları və təsisatları sistemi. D.m. bir-birinə qarşılıqlı təsir göstərən və dəqiq işləyən, bir-biri ilə daxili vəhdətdə olan hissələrdən (elementlərdən) ibarət mürəkkəb bir mexanizmdir. Bu mexanizmin tərkib hissələri dövlət hakimiyyəti və idarəetmə orqanlarından, məhkəmə və prokurorluqdan, ordu hissələrindən və polis orqanlarından ibarətdir. D.m.-nin həcmi, quruluşu son nəticədə cəmiyyətin iqtisadi əsası, dövlətin özünün mahiyyəti ilə müəyyən edilir.

**Dövlət meşə kadastrı** – Azərbaycan Respublikasının meşə qanunvericiliyinə uyğun olaraq meşə fondunun dövlət uçotu meşə fondundan səmərəli istifadəni, onun mühafizəsini, qorunmasını və meşələrin bərpasını təşkil etmək, meşə fondunun kəmiyyət və keyfiyyət dəyişmələrinə müntəzəm nəzarət etmək, dövlət orqanlarını, bələdiyyələri, əlaqədar fiziki və hüquqi şəxsləri meşə fondu barədə məlumatla təmin etmək məqsədilə aparılır. Meşə fondunun dövlət uçotu göstəricilərinin məlumatları dövlət meşə kadastrının aparılmasında istifadə edilir. Göstəricilərin siyahısını, habelə müvafiq sənədlərin formalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Meşə fondunun dövlət uçotunun aparılması və onun qaydası Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müəyyən edilir.

**Dövlət Məclisi** – Macarıstan Respublikasında ali dövlət hakimiyyəti orqanı. DM ölkənin 18 yaşına çatmış vətəndaşları tərəfindən gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki əsasında 5 il müddətinə seçilir.

**"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" qanun** – Azərbaycan Respublikasında dövlət məhkəmə ekspertizası fəaliyyətinin hüquqi, təşkilati əsaslarını və başlıca istiqamətlərini müəyyən edən, məhkəmə ekspertizasının təşkili və

aparılması zamanı yaranan ictimai münasibətləri tənzimləyən qanunvericilik aktı. Bu qanun 18 noyabr 1999-cu il tarixdə qəbul edilmişdir. O, beş fəsildən, yekun müddəalarından və 43 maddədən ibarətdir.

Məhkəmə ekspertizası Azərbaycan Respublikası məhkəmələrinin səlahiyyətinə aid olan mülki işlər, cinayət işləri və digər işlər üzrə icraat prosesində həyata keçirilir.

**Dövlət məhkəməsi** – **1)** Estoniya Respublikası Ali Məhkəməsinin rəsmi adı; **2)** Finlandiyada yüksək vəzifəli şəxslərin törətdikləri cinayətlər və sair hüquq pozuntuları haqqında işlərə baxan xüsusi məhkəmə orqanı.

**Dövlət mənzil fondu** – dövlətə məxsus yaşayış evləri və başqa tikililərdəki yaşayış sahələri. D.m.f. yerli icra hakimiyyəti orqanlarının (yerli icra hakimiyyəti orqanlarının mənzil fondu), nazirliklərin, dövlət komitələrinin və baş idarələrin (idarə mənzil fondu) ixtiyarındadır.

**Dövlət mənzil sertifikatı** – fövqəladə situasiyalar və təbii fəlakətlər nəticəsində yaşayış sahəsindən məhrum olmuş vətəndaşlara dövlət tərəfindən verilən adlı qeyri-dövriyyə qiymətli kağızları. Belə sertifikatın özgəninkiləşdirilməsinə yol verilmir.

**Dövlət müəssisəsi** *(bax: unitar müəssisə).*

**Dövlət mühafizəsi** – dövlət hakimiyyəti orqanlarının dövlət mühafizə obyektlərinin mühafizəsini təmin etmək sahəsində funksiyası; hüquqi, təşkilati, mühafizəedici, rejimli, əməliyyat-axtarış, texniki və i.a. tədbirlərin məcmusu əsasında həyata keçirilir. D.m. dövlətin konstitusiyası əsasında həyata keçirilir.

**Dövlət mükafatları** – Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq təsis edilmiş orden və medallar, fəxri fərmanlar ("İstiqlal" ordeni, "Şah İsmayıl" ordeni, "Azərbaycan bayrağı" ordeni, "Şöhrət" ordeni, "Tərəqqi" medalı, "Hərbi xidmətlərə görə" medalı, "Sərhəddə fərqlənməyə görə" medalı və i.a.).

**Dövlət mülkiyyəti** – dövlətə məxsus mülkiyyət, dövlətdə mülkiyyətin aparıcı forması; dövlətin müstəsna mülkiyyətindədir. Azərbaycan Respublikasının mülkiyyəti Azərbaycan xalqına məxsusdur. Naxçıvan Muxtar Respublikasının dövlət mülkiyyəti Azərbaycan Respublikasının dövlət mülkiyyətinə daxildir. Respublika ərazisi hüdudlarında, torpaq, yerin təki, daxili sular və ərazi suları, qitə şelfi, bitkilər və heyvanlar aləmi, hava hövzəsi Azərbaycan Respublikasının müstəsna mülkiyyətidir. Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinə əsasən Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz. Azərbaycan Respublikasının dövlət maliyyə ehtiyatları hesabına yaradılmış və başqa dövlətlərin ərazisində yerləşən müəssisələr və ya onların hissələri də Azərbaycan Respublikasının dövlət mülkiyyətidir.

**Dövlət müşaviri** – dövlət qulluğunun baş dövlət vəzifələrini tutan dövlət qulluqçularına verilən ixtisas dərəcəsi. 1,2,3-cü dərəcəli d.m.-ləri mövcuddur. Həmin dərəcələr dövlət başçısı tərəfindən verilir.

**Dövlət naziri** – **1)** Norveçdə hökumətin başçısı; **2)** Yaponiyada portfelsiz nazir; **3)** Böyük Britaniyanın nazirlikləri strukturlarında nazirlərin müavinləri və iri bölmələrin rəhbərləri.





**Dövlət nəzarəti** – dövlət hakimiyyətinin həyata keçirilməsi formalarından biri; qanunlara və dövlət orqanları tərəfindən verilmiş digər normativ-hüquqi aktlara əməl olunmasını təmin edir. D.n. müxtəlif orqanlar tərəfindən realizə olunur. Belə orqanlara parlamenti, hesablama palatasını, konstitusiya məhkəməsini, ombudsmanı, seçici komissiyasını misal göstərmək olar. Müvafiq surətdə parlament nəzarəti, maliyyə nəzarəti və konstitusiya nəzarəti fərqləndirilir.

**Dövlət ovçuluq fondu** – dövlətin qanunvericiliyinə görə dövlətin ixtiyarında olan ərazilərdə olan vəhşi heyvanlar və quşlar aləmi. D.o.f.-ndan istifadəyə ovçuluğun müəyyən edilmiş qaydalarına əməl etməklə icazə verilir.

**Dövlət özəlləşdirmə opsionu** – xarici investora dövlət əmlakının özəlləşdirilməsində dövlət özəlləşdirmə çeklərindən istifadə etmək hüququ verən, nağdsız formada buraxılan adlı qiymətli kağız.

**Dövlət özəlləşdirmə payı** – "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq dörd özəlləşdirmə çekindən ibarət, Azərbaycan Respublikasının 1997-ci il 1 yanvar tarixinə qeydiyyatda olan hər bir vətəndaşına dəyəri ödənilmədən paylanmış və çeklə özəlləşdirilən dövlət əmlakının orta hesabla 1/8000000 hissəsini ifadə edən adsız (təqdim edənə), nağd şəkildə buraxılan qiymətli kağızların məcmusu.

**Dövlət pensiyası** – vətəndaşlara dövlətin sosial təminat fondlarından verilən pensiya.

**Dövlət pensiya sığortası** – qocalığa, əlilliyə, ailə başçısını itirməyə və yaşa görə vətəndaşların əmək pensiyasını təmin etmək məqsədi ilə iş verənlərin və vətəndaşların məcburi sığorta ödəmələri hesabına həyata keçirilən sığorta növü.

**Dövlət poçt ödəmə nişanları** – poçt göndərişləri üçün ödənilən və poçt xidmətlərinin ödənilməsini təsdiq edən poçt markaları və sair nişanlar.

**Dövlət rejimi** – dövlət hakimiyyətini həyata keçirmək üçün istifadə edilən üsul və metodların məcmusu. Siyasi rejim anlayışı *(bax: siyasi rejim)* d.r. anlayışından daha genişdir. Çünki siyasi rejim cəmiyyətdə bütün siyasi hakimiyyətin, siyasi həyatın və bütövlükdə siyasi sistemin həyata keçirilməsi üsulları və metodlarını əhatə edir. D.r. isə yalnız dövlət həyatı sahəsinin, onun təzahür formalarının, həmçinin onun funksiyalarının həyata keçirilməsi metodlarından və formalarından ibarətdir.

**Dövlət reyestri** – Azərbaycan Respublikasının vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə sənədləşdirilmiş informasiyanı əks etdirən dövlət informasiya ehtiyatı.

**Dövlət reyestrinin informasiya sistemi** – dövlət reyestrinin fəaliyyətini təmin edən xüsusi proqram, texniki, telekommunikasiya, linqvistik, hüquqi və təşkilati vasitələrin nizama salınmış məcmusu.

**Dövlət reyestrinin istifadəçiləri** – öz səlahiyyətlərinə uyğun olaraq dövlət reyestrinin məlumatlarından istifadə edən dövlət və yerli özünüidarəetmə orqanları, Azərbaycan Respublikasının vətəndaşları,

habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər.

**Dövlət rüsumu** – müvafiq dövlət orqanları (məhkəmə, iqtisad məhkəməsi, notariat və i.a.) tərəfindən müəyyən funksiyaların yerinə yetirilməsi ilə əlaqədar tutulan pul məbləği. D.r. aşağıdakı hallarda tutulur: a) məhkəməyə iddia ərizəsi, xüsusi icraat üzrə ərizə və ya şikayət verildikdə; b) məhkəmədə baxılan işdəki sənədlərin surətləri çıxarıldıqda; c) iqtisad məhkəməsinə iddia ərizəsi və ya məhkəmənin qərarından şikayət ərizəsi verildikdə; ç) notariatda sənədlərin surətləri çıxarıldıqda və i.a. Sadə (müəyyən məbləğdə tutulan) və proporsional (faizlə tutulan) d.r. fərqləndirilir. Sadə d.r. müəyyən edilmiş məbləğdə tutulur. Məsələn, məhkəmənin qərardadı, qətnaməsi və ya hökmü üçün tutulan rüsum məbləği. Qanunvericiliklə d.r.-nu ödəməkdən tam və ya qismən azad etmə halları da müəyyən edilə bilər.

**“Dövlət rüsumu haqqında” qanun** – Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş işlərin görülməsi və xidmətlərin göstərilməsi üçün vətəndaşlardan, idarə, müəssisə və təşkilatlardan tutulan dövlət rüsumları ilə əlaqədar münasibətləri tənzimləyən qanunvericilik aktı. Bu qanuna 4 dekabr 2001-ci il tarixdə qəbul olunmuşdur indiyə qədər 8 əlavə və dəyişikliklər edilmişdir. O, 29 maddədən ibarətdir.

**Dövlət sanitar nəzarəti** – əhalinin sanitariya-epidemioloji salamatlığını, əlverişli ətraf mühiti təmin edən və əhalinin sağlamlığını qoruyub möhkəmləndirmək, adamların fəal ömrünü uzatmaq məqsədi güdən sanitariya-gigiyena tədbirləri və epidemiya əleyhinə tədbirlər kompleksinin həyata keçirilməsindən ibarət olan fəaliyyət. Bu fəaliyyət dövlət sanitariya-epidemioloji xidmət orqanları və idarələri tərəfindən həyata keçirilir. O, sanitariya qanunvericiliyinin, insan sağlamlığının qorunması sahəsində beynəlxalq standartların və dövlət standartlarının tələblərinin yerinə yetirilməsini təmin etməyə, sanitariya qaydaları və normaları, gigiyena normativləri pozuntularının qarşısını almağa, bunları vaxtında aşkara çıxarıb ləğv etməyə, təqsirli şəxsləri məsuliyyətə cəlb etməyə yönəldilmişdir.

**“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında dövlət satınalmalarının iqtisadi, hüquqi və təşkilati əsaslarını müəyyənləşdirir, satınalmalar zamanı dövlət vəsaitindən səmərəli və qənaətlə istifadə edilməsi, müsabiqə və aşkarlıq əsasında bütün malgöndərənlərə (podratçılara) bərabər rəqabət mühiti yaradılması prinsipləri və qaydalarını müəyyən edir. Qanun 27 dekabr 2001-ci ildə qəbul edilmiş və 3 fevral 2002-ci ildən qüvvəyə minmişdir. Ona 22 noyabr 2002-ci il və 21 oktyabr 2002-ci ildə əlavə və dəyişikliklər edilmişdir. Qanun 8 fəsildən, 63 maddədən ibarətdir.

**Dövlət sərhədinin toxunulmazlığı prinsipi** – beynəlxalq hüququn hamılıqla tanınan prinsiplərindən biri; yerlərdə sərhəd xətlərinin hər hansı birtərəfli qaydada dəyişdirilməsini qadağan edir. Sərhəd xəttini özbaşına, qarşılıqlı razılıq olmadan keçmə beynəlxalq sazişlərin və müvafiq dövlətin daxili qaydalarının pozulması deməkdir. Dövlət sərhədində hər hansı dəyişiklik-





lər yalnız müvafiq dövlətlərin qarşılıqlı razılığı və beynəlxalq hüquq normaları əsasında baş verə bilər. Hər bir dövlət öz suverenliyi və o cümlədən ərazi toxunulmazlığı, üstünlüyü sayəsində onun sərhədlərinin vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin keçməsinin qaydalarını özü müəyyən edir. Bu zaman beynəlxalq hüququn norma və prinsipləri nəzərə alınmaqla maraqlı dövlətlərdə sazişlər də nəzərə alınır.

**Dövlət sərhədləri** – dövlət ərazisinin hüdudlarını müəyyən edən xətlər. Dövlətin quru və su sərhədləri dövlətlərarası sazişlərlə müəyyən edilir. D.s.-nin müəyyən edilməsinin iki mərhələsi vardır: 1) sərhədlərin istiqamət və vəziyyətinin sazişlə müəyyən edilməsi (delimitasiya); 2) sərhədlərin yerlərdə müəyyən edilməsi (demarkasiya). Sahilboyu dövlətin ərazi sularını açıq dənizdən ayıran dəniz sərhədləri, bir qayda olaraq, həmin dövlətin qanunvericiliyi ilə ərazi sularının hamılıqla qəbul edilmiş eni hüdudlarında (3-12 mil) müəyyən edilir. Quru və dəniz sərhədlərinin üzərindən keçən şaquli səth dövlətin hava fəzası və yerin təkinin sərhəddidir. Sərhəd nişanları ilə müəyyən edilmiş dövlət sərhədləri toxunulmazdır.

**Dövlət sığortası** – xüsusi pul (sığorta) fondu yaradılmasına (iştirakçıların ödənişləri hesabına) dair tədbirlər. Dövlət sığorta fondu vəsaitlərindən ixtisaslaşdırılmış dövlət sığorta təşkilatları maddi ziyanın əvəzini ödəyir, kortəbii qüvvələrin, bədbəxt hadisə ilə əlaqədar, yaxud digər hallarda pul məbləğini ödəyir. D.s. məcburi (qanundan irəli gələn sığorta) və könüllü (müqavilədən irəli gələn sığorta) sığorta formasında həyata keçirilir. D.s. öz obyektinə görə əmlak sığortasına (tikililərin, nəqliyyat vasitələrinin, əkənəklərin, ev heyvanlarının, ev əmlakının və i.a.) və şəxsi sığortaya (həyatın, sağlamlığın, əmək qabiliyyətinin) bölünür.

**Dövlət sifarişi** – səlahiyyətli dövlət təşkilatı tərəfindən digər təşkilata dövlət ehtiyacları üçün zəruri olan malların tədarükü, işlərin görülməsi və xidmətlərin göstərilməsi haqqında verilən təklif (sifariş). Dövlət ehtiyacları üçün zəruri məhsulların satın alınmasını həyata keçirən sifarişçini hökumət təsdiq edir. Belə sifarişçi qismində icra hakimiyyəti orqanı, dövlət idarə və müəssisələri çıxış edə bilərlər.

**Dövlət sirri** – Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub dövlət tərəfindən mühafizə olunan və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır.

Məhkəmə icraatı zamanı, o cümlədən ibtidai istintaq mərhələsində dövlət sirri müvafiq prosessual qanunvericilikdə nəzərdə tutulmuş qaydada mühafizə olunur. Məlumatlar və məlumat daşıyıcıları qanunçuluq və əsaslılıq prinsiplərinə uyğun olaraq məxfiləşdirilir. Məlumatlar onların sahə, idarə və ya proqram-təyinat mənsubiyyətinə uyğun olaraq dövlət sirrinə aid edilir.

**“Dövlət sirri haqqında” qanun** – Azərbaycan Respublikasının təhlükəsizliyini təmin etmək məqsədi ilə məlumatların dövlət sirrinə aid edilməsi, mühafizəsi və istifadə edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyinin açılması ilə əlaqədar hüquqi və fiziki şəxslər arasında yaranan müna-

sibətləri tənzimləyən qanunvericilik aktı. Bu qanun 7 sentyabr 2004-cü ildə qəbul edilmişdir. O, yeddi fəsildən və 32 maddədən ibarətdir.

**Dövlət sirrini mühafizə sistemi** – dövlət sirrini mühafizə edən orqanların, dövlət sirri təşkil edən məlumatların və bu məlumatların daşıyıcılarının mühafizəsi üçün onlardan istifadə etdikləri vasitə və metodların, habelə bu məqsədlə həyata keçirilən tədbirlərin məcmusu.

**Dövlət sirrini yayma** – şəxs tərəfindən ona etibar edilmiş və ya xidməti vəzifəsinə və yaxud işinə görə ona məlum olan dövlət sirrini təşkil edən məlumatların (dövlətə xəyanət əlamətləri olmamaqla) yayılması. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 284-cü maddəsində nəzərdə tutulmuş dövlət hakimiyyəti əleyhinə olan cinayətlərdən biri.

**Dövlət standartı** – Azərbaycan Respublikasında standartlar kateqoriyasının əsas kateqoriyalarından biri.

**Dövlət su kadastrı** – Azərbaycan Respublikasının su qanunvericiliyinə uyğun olaraq dövlət su kadastrı su obyektləri, su ehtiyatları, su obyektlərindən istifadə və su obyektləri istifadəçiləri haqqında məlumatların məcmusundan ibarətdir (AR CM-in 26-cı maddəsinin 1-ci hissəsi).

D.s.k. Azərbaycan Respublikasında vahid sistem üzrə aparılır və suların dövlət uçotu məlumatlarına əsaslanır. Su obyektlərinin istifadəçiləri tərəfindən d.s.k.-na daxil edilməli olan məlumatların müvafiq icra hakimiyyəti orqanlarına təqdim edilməsi məcburidir. D.s.k.-nın məlumatları müvafiq icra hakimiyyəti orqanlarının qərar qəbul etməsi üçün əsasdır. D.s.k. müvafiq icra hakimiyyəti orqanları tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada aparılır.

**Dövlət suverenliyi** *(bax: suverenlik).*

**Dövlət şəhərsalma kadastrı** – şəhərsalma fəaliyyəti, o cümlədən daşınmaz obyektlərin dəyişdirilməsi üçün zəruri olan informasiyalı məlumatlar sistemi. Şəhər və kənd yaşayış məntəqələrinin, bələdiyyə təşkilatlarının ərazilərini əhatə edir. D.ş.k.-nın əsasını dövlət torpaq kadastrı və şəhərsalma fəaliyyətinin informasiyalı sistemi üçün zəruri olan sair məlumatlar təşkil edir. D.ş.k. Azərbaycan Respublikası üçün vahid olan sistem üzrə aparılır.

**Dövlət şurası** – **1)** 1810-1906-cı illərdə Rusiya imperiyasında fəaliyyət göstərmiş ali qanunməşvərətçi orqan. 1906-1917-ci illərdə Rusiya parlamentinin yuxarı palatası. D.ş. üzvlərinin yarısı imperator tərəfindən təyin olunur, qalan yarısı isə xüsusi silkli və peşəkar kuriyalar tərəfindən seçilirdi; **2)** bəzi xarici dövlətlərdə (Belçikada, Fransada, İspaniyada, Hollandiyada, Lüksemburqda, Kolumbiyada) inzibati ədliyyənin ali orqanı, konstitusiya nəzarəti orqanı, yaxud dövlət başçısının yanında (ayrı-ayrı ölkələrdə eyni vaxtda) məşvərətçi-məsləhətçi orqan; **3)** İsveçdə, Norveçdə, Finlandiyada, Koreyada, Çində hökumətin rəsmi adı; **4)** Dağıstan Respublikasında respublika başçısının funksiyasını yerinə yetirən kollegial orqan; **5)** Udmurt Respublikasında ali nümayəndəli orqan, həmçinin qanunvericilik və nəzarət orqanı.

**Dövlət təbiət qoruqları** – Azərbaycan Respublikası qanunvericiliyinə əsasən səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətdə qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədi ilə yaradılan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik olan ərazilər.

D.t.q. xüsusi ekoloji, elmi və mədəni dəyərə malik olan təbiət obyektlərinin (səciyyəvi və nadir landşaftlar, nadir geoloji törəmələr, bitki və heyvan növləri və i.a.) yerləşdiyi ərazilərdə (torpaq və su məkanı; akvatoriya sahələrində) yaradılır. D.t.q.-nın əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazilərə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir. D.t.q. elmi təşkilatların və əlaqədar təşkilatların rəyi nəzərə alınmaqla müvafiq dövlət orqanlarının təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının qərarı ilə təşkil edilir. D.t.q.-nın təşkili üçün ayrılmış torpaq sahələri onların daimi istifadəsinə verilir. D.t.q.-nın torpaqlarından, habelə onun hüdudlarında olan sudan, bitki və heyvanlar aləmindən təsərrüfat məqsədləri üçün istifadə olunması qadağan edilir. Hər bir dövlət təbiət qoruğunun əsasnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

**Dövlət təbiət yasaqlıqları** – Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq təbiət komplekslərinin və ya onların komponentlərinin qorunması və ya bərpası, habelə ekoloji tarazlığın saxlanması üçün xüsusi əhəmiyyət daşıyan ərazilər. D.t.y. torpaq mülkiyyətlərindən, istifadəçilərindən və icarəçilərindən torpaq sahələri alınmadan qanunvericiliklə müəyyən edilmiş qaydada onların torpaq sahələrində təşkil edilə bilər. D.t.y. respublika və ya bölgə əhəmiyyətli ola bilər. Onlar müxtəlif profilli, o cümlədən kompleks, bioloji, paleontoloji, hidroloji və geoloji profilli ola bilər. D.t.y. müvafiq dövlət orqanının təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının qərarı ilə təşkil edilir.

**Dövlət təhlükəsizlik orqanları** – dövlətin hüquq-mühafizə sisteminin mühüm tərkib hissəsi; əsas fəaliyyəti mövcud dövlət (konstitusiya) quruluşu, dövlətin daxili və xarici təhlükəsizliyi əleyhinə olan cinayətlərin qarşısının alınması və açılmasına yönələn xüsusi orqanlar. Kəşfiyyat-məlumat xarakterli, ali dövlət orqanlarının mühafizəsi, hökumət əlaqələrinin təmin edilməsi, dövlət sərhədlərinin mühafizə olunması da d.t.o.-nın funksiyasına daxildir. Demokratik dövlətlərdə d.t.o. terrorçuluq, dövlətə xəyanət, şpionçuluq və təxribat kimi cinayətkar əməllərlə mübarizə aparırlar. Dövlət xadimlərinin həyat və sağlamlığına edilən qəsdlərlə, hakimiyyəti zorakılıq yolu ilə ələ keçirməklə və silahlı qiyamlarla mübarizə işi onların fəaliyyətində mühüm yer tutur. Qeyri-demokratik (avtoritar, totalitar) dövlətlərdə d.t.o.-nın fəaliyyəti həm yuxarıda göstərilən cinayətlər, həm də rejimin siyasi opponentlərinin dinc ictimai fəallığı əleyhinə yönəldilir.

**Dövlət təhlükəsizliyi** – mövcud dövlət quruluşunu və ictimai quruluşu, dövlətin ərazi toxunulmazlığını və müstəqilliyini düşmən dövlətlərin və digər xüsusi dövlət orqanlarının təxribatçılıq fəaliyyətindən, həmçinin ölkə daxilindəki gizli düşmən qüvvələrinin qanunazidd əməllərindən mühafizə etmə tədbirlərinin məcmusu.

**"Dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə görə vətəndaşa məxsus ola bilməyən əmlak növləri haqqında" qanun** – "Azərbaycan Respublikasında mülkiyyət haqqında"

Azərbaycan Respublikasının 1991-ci il 9 noyabr tarixli qanununa uyğun olaraq qəbul edilmiş həmin qanunvericilik aktında vətəndaşa məxsus ola bilməyən əmlakların aşağıdakı növləri nəzərdə tutulur: 1) yivli odlu və ağır silahlar; 2) silah və döyüş sursatı istehsal edən müəssisələr; 3) döyüş sursatları (ov silahları üçün sursatlar istisna edilməklə); 4) partlayıcı maddələr və partlama vasitələri; 5) döyüş təyinatlı hərbi texnika; 6) radioaktiv maddələr; 7) xammal şəklində olan qiymətli metallar və onların istehsal vasitələri; 8) qiymətli kağızlar istehsalı üzrə avadanlıq; 9) müdafiə, milli təhlükəsizlik və daxili işlər nazirliklərinin əmlakı; 10) xüsusi məxfi rabitə vasitələri, onların şifrələri və istisman haqqında ədəbiyyat; 11) müdafiə, milli təhlükəsizlik və daxili işlər nazirliklərinin operativ-istintaq fəaliyyəti üzrə informasiya sistemləri, sənədləri və arxivləri; 12) hərbi səfərbərlik təyinatlı qurğular, anbarlar və vasitələr; 13) təsərrüfat-məişət, tibbi əhəmiyyətlilərdən başqa, şüalanma verən aparatlar.

Bu qanun 10 noyabr 1992-ci il tarixdə qüvvəyə minmişdir.

**Dövlət təltifləri** – dünyanın bir sıra ölkələrində vətəndaşların elm, mədəniyyət və texnika sahəsində əldə etdikləri nailiyyətlərə, kəşf və ixtiralara görə dövlət tərəfindən adlı mükafatlara layiq görülmələri.

**Dövlət torpaq kadastrı** – Azərbaycan Respublikası torpaq qanunvericiliyinə uyğun olaraq torpaq istifadəçiliyinin dövlət qeydiyyatı, torpaqların kəmiyyət və keyfiyyətcə uçotu, bonitirləşdirilməsi və iqtisadi qiymətləndirilməsi üzrə məlumatların məcmusu.

**"Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında" qanun** – Azərbaycan Respublikasında dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu işlərinin tənzim edilməsinin hüquqi əsaslarını müəyyənləşdirən qanunvericilik aktı. Bu qanun 22 dekabr 1998-ci il tarixdə qəbul edilmişdir. O, altı fəsildən və 25 maddədən ibarətdir.

**Dövlət valyuta inhisarı** – dövlətin valyuta sərvətləri ilə əməliyyatlar aparmaq və ya belə əməliyyatların aparılmasını müəyyən orqanlara, müəssisələrə, idarələrə, birliklərə verməyi həll etmək, valyuta vəsaitlərindən istifadə qaydasını müəyyənləşdirmək sahəsində müstəsna hüququ. D.v.i. valyuta əməliyyatlarının tənzimlənməsini, valyuta vəsaitlərindən istifadəyə nəzarəti, onların səmərəliliyini yüksəldən tədbirlərin realizəsini nəzərdə tutur.

**Dövlət vergi xidməti** – vergi qanunvericiliyinə əməl olunmasına nəzarəti həyata keçirən dövlət idarəçilik orqanlarının sistemi. D.v.x.-nin başlıca vəzifəsi vergi qanunvericiliyinə əməl edilməsinə nəzarətin vahid sistemini təmin etməkdən ibarətdir.

**Dövlət vergiləri** – AR VM-in 6-cı maddəsinə uyğun olaraq dövlət vergilərinə aşağıdakılar aiddir: 1) fiziki şəxslərin gəlir vergisi; 2) hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa); 3) əlavə dəyər vergisi; 4) aksizlər; 5) hüquqi şəxslərin əmlak vergisi; 6) hüquqi şəxslərin torpaq vergisi; 7) tranzit yol vergisi; 8) mədən vergisi; 9) sənədləşdirilmiş sistem üzrə vergi.

**Dövlət və hüquq nəzəriyyəsi** – dövlət və hüququn əmələ gəlməsinin, təşəkkülünün və inkişafının ümumi qanunauyğunluqlarını, habelə ayrıca götürülmüş ictimai-iqtisadi formasiya və sivilizasiyalar çərçivəsində fəaliyyət göstərmiş dövlət və hüququn əmələ gəlməsi, təşəkkülü və inkişafının spesifik qanunauyğunluqlarını öyrənən ictimai-siyasi elm və müstəqil tədris fənni.

**Dövlət vəzifəsi** – Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarında, habelə digər dövlət orqanlarında Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq müvafiq dövlət orqanının səlahiyyətləri icra və təmin etmək üzrə vəzifələrin müəyyən edilmiş dairəsinə malik olan, haqqı ödənilən və öz vəzifələrinin icrası üçün məsuliyyət daşıyan vəzifə.

D.v. dövlət orqanının normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan struktur vahididir. Həmin vəzifəni tutan şəxsin səlahiyyət və funksiyalarının hüdudları həmin orqanın səlahiyyətindən asılı olaraq müəyyən edilir. D.v.-ləri həmin vəzifələrin funksiyalarının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tutulması üsullarından asılı olaraq siyasi, inzibati və yardımçı vəzifələrə bölünürlər.

Siyasi vəzifələr 1-ci kateqoriya dövlət orqanları rəhbərlərinin, rəhbərlərin birinci müavinlərinin və müavinlərinin, 2-ci kateqoriya dövlət orqanları rəhbərlərinin vəzifələridir. Siyasi vəzifəyə dövlət qulluqçuları Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada və müddətə qanunvericilik və icra hakimiyyəti orqanlarının qərarı ilə təyin edilir və ya seçilirlər. İnzibati vəzifələr 1-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin, 2-ci kateqoriya dövlət orqanları rəhbərləri müavinlərinin, 3-cü kateqoriya dövlət orqanları rəhbərlərinin, onların müavinlərinin və 1-ci, 2-ci və 3-cü kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin vəzifələri, habelə dövlət qulluqçuları tərəfindən peşəkarlıq əsasında tutulan mütəxəssis vəzifələridir. Əgər qanunvericiliklə digər hal müəyyən edilməzsə, inzibati vəzifəyə dövlət qulluqçuları müsabiqə qaydası ilə təyin edilirlər. İnzibati vəzifəni tutan şəxsin hüquqi statusu müvafiq orqanın səlahiyyətlərini müəyyən edən qanunvericilik aktları ilə, habelə vəzifə təlimatı ilə müəyyən edilir. Yardımçı vəzifələr əmək müqaviləsi (kontraktı) bağlanması yolu ilə tutulan vəzifələrdir.

**Dövlət yerin təki fondu** – yerin təkinin geometrikləşdirilmiş blokundan ibarət olan və Azərbaycan Respublikası ərazisi hüdudlarında və onun qitə şelfində yerin təkinin istifadə edilməyən hissəsi olub istifadə edilməli olan sahələr.

**Dövlət yol polisi** – yol hərəkəti təhlükəsizliyinə, hərəkətin tənzimlənməsinə əməl olunmasına nəzarəti həyata keçirən orqan.

**Dövlət zavodu** – başlıca olaraq istehsal vasitələri hazırlayan, istehsal proseslərinin mexanikləşdirildiyi dövlət sənaye müəssisəsi.

**Dövriyyə konosamenti** – əmtəə-müşayiətedici sənəd (konosament); bu sənədin sahibi əmtəə üzərində mülkiyyət, həmçinin sənədin şərtlərinə uyğun olaraq onu vermək hüququna malikdir. D.k. onu təqdim edənin adına, yaxud kağızda adına keçirilmiş şəxsin adına tərtib edilməlidir.

**Dövriyyə sənədləri** – ingilis-amerikan hüquq sistemində roman-german hüquq sistemindəki qiymətli kağızlar institutuna uyğun gələn kateqoriya. D.s. eyni məqsədləri güdür və onlar eyni xassələrə malikdirlər, lakin onlara özlərinə məxsus bir sıra yuridik-texniki xüsusiyyətlər də xasdır.

**Döymə** – sağlamlığın qısa müddətə pozulmasına və ümumi əmək qabiliyyətinin cüzi itirilməsinə səbəb olmayan qəsdən döymə

və ya sair zorakı hərəkətlərlə fiziki ağrı yetirmə. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 132-ci maddəsində nəzərdə tutulmuş şəxsiyyət əleyhinə olan cinayət.

**Döyüş** *(hərbdə)* – vuruşan tərəflərin bölmə, hissə və birləşmələrinin mütəşəkkil silahlı toqquşması. D. yerdə, havada və dənizdə aparıla bilər. D. nəzəriyyəsi və təcrübəsi hərbi taktikaya aiddir. D.-dən məqsəd düşmənin qruplarını məhv etməkdən və mühüm mövqeləri ələ keçirməkdən ibarətdir.

**Döyüşə hazırlıq** – hər bir silahlı qüvvə (qoşun) növünün döyüş tapşırıqlarını yerinə yetirməyə hazırlıq səviyyəsini göstərən vəziyyət. Orduların kütləvi qırğın islahı ilə təchiz olunması və bu silahın qəfil və bir istiqamətdə tətbiqi imkanı d.h. qarşısında yüksək tələblər qoyur. Silahlı qüvvələr hər vaxt fəal döyüş əməliyyatlarına başlamağa hazır olmalıdır. Bu məqsədlə müasir ordularda qoşunların daim (gündəlik) d.h. vəziyyətində saxlanması nəzərdə tutulur. Daimi d.h. qoşunların şəxsi heyətlə, silah, texnika, maddi vəsait ehtiyatları ilə komplektləşdirilməsi, həmçinin şəxsi heyətin yüksək təlimi ilə təmin edilir.

**Döyüş əmri** – komandirin döyüş şəraitində qəbul etdiyi qərarın həyata keçirilməsi üçün tabeliyində olan qoşunlara verdiyi əmr. D.ə.-ndə düşmən qruplaşmasına və fəaliyyətinə qiymət verilir, hissənin (bölmənin) əməliyyat zolağında vəzifəcə yüksək rəisin tabeliyində olan vəsaitin vəzifələri və ondan istifadə qaydası, qonşu hissələrin vəzifələri və aralarındakı sərhəd xətləri, tabelikdə olanlara döyüş tapşırığı və hazırlıq vaxtı, idarəetmə məntəqələrinin yerləşmə yeri və i.a. göstərilir.

**Döyüşən ordu və donanma** – müharibənin əvvəlindən sonunadək hərbi əməliyyat aparmaq üçün dövlətin istifadə etdiyi silahlı qüvvələr. D.o. və d. üçün ehtiyat hazırlamaqdan və onu təchiz etməkdən ötrü nəzərdə tutulan arxadakı silahlı qüvvələr buraya daxil deyil. D.o. və d.-nın şəxsi heyəti azuqə, sursat və pulla xüsusi norma üzrə təmin olunur, növbəti əsgəri ad verildikdə və pensiya müəyyən olunduqda üstünlüyə malik olur.

**Döyüş hazırlığı** – hərbi qulluqçuların ayrı-ayrı kateqoriyalarının, bölmə, hissə, birləşmə və qərargahların döyüş əməliyyatı aparmaq üçün (arxa cəbhə orqanlarının, arxa cəbhənin təchizatı üçün) öyrədilməsi. D.h. bütün ölkələrin silahlı qüvvələrində həm dinc dövrdə, həm də müharibə dövründə keçirilir. D.h. formaları aşağıdakılardan ibarətdir: a) taktiki məşğələlər; b) müxtəlif taktiki təlimlər; c) yerli şəraitdə və topoqrafik xəritələr üzrə keçirilən hərbi oyunlar; ç) qərargah məşğələləri; d) qoşun manevrləri və i.a.

**Döyüş qrupu** – döyüş tapşırığını yerinə yetirmək üçün qüvvə və vasitələrin daimi və ya müvəqqəti birləşməsi. D.q. ilk dəfə Birinci dünya müharibəsi gedişində alman və fransız ordularında yaradılmışdır. Pulemyot və ya atıcı bölmələrindən, yaxud dəstələrindən (10-20 nəfər, 1 əl pulemyotu) ibarət olmuşdur. XX yüzilliyin 30-cu illərində əsas kapitalist ölkələri ordularında ləğv edilmişdir. 1942-ci ildən etibarən alman-faşist ordularında tərkibinin 30-40 faizini itirmiş diviziyalar d.q. adlanırdı.

**Döyüş maşını** – döyüşdə işlədilən, mühərriklə hərəkətə gətirilən, tamamilə və ya qismən zirehlənmiş tırtıllı (təkərli) maşın. D.m.-na tank, piyada qoşunlarının döyüş maşını, zirehli avtomobil, zirehli tranportyor, zirehli qatar və i.a. aiddir. Artilleriya d.m.-na minaatanlar, çoxlüləli reaktiv qurğular və i.a., hava hücumundan müdafiə d.m.-na zenit-raket kompleksi, zenit artilleriyası, zenit pulemyotu daxildir.

**Döyüş nizamı** – döyüşün aparılması üçün bölmə, hissə və birləşmələrin (gücləndirmə vasitələri ilə birgə) yerləşdirilməsi (düzülüşü). D.n.-nın forma və elementləri çoxəsirlik tarixə malikdir. Dövlətin meydana gəlməsi ilə əyanların drujinaları təşkil edilmiş, daha mükəmməl silah növləri (nizə, qılınc, ox və i.a.) meydana çıxmışdır. Bu silahlardan daha yaxşı istifadə etmək səyi döyüşçülərin sıra və cərgələrlə düzülüşünü şərtləndirmişdir. Bu, d.n.-nın ilk forması olmuşdur. Qədim Şərqin quldar dövlətlərinin qoşunları cərgə şəklində vuruşurdular. Qədim Yunanıstanda (eramızdan əvvəl VI yüzillikdə) d.n.-nın əsasında falanqa (nizə, qılınc və qalxanla silahlanmış, sıx birləşmiş ağır piyadaların monolit düzülüşü) təşkil edilirdi. Falanqa vahid taktiki düzüm rolunu oynayırdı. Qədim Romada manipula formasına (60-120 nəfərdən ibarət bölmə) keçid falanqa ilə müqayisədə irəliyə doğru mühüm addım olmuşdur. 3 xətt manipula legionu təşkil edirdi.

Birinci dünya müharibəsinin əvvəlində döyüşən orduların d.n. döyüşən hissə və ehtiyatlardan ibarət idi. Rota və batalyonlar, döyüşçülər arasında məsafə 1-2 addım olmaqla, sıx atıcı zolağı formasında düzülürdü. İkinci dünya müharibəsində d.n. daha dərin və manevrli şəkil almışdır. D.n.-nın inkişaf perspektivləri qırğın silahlarının təkmilləşdirilməsi və yenilərinin yaradılması, hissə və birləşmələrin bu silahlarla təchiz edilməsi ilə müəyyən olunur.

**Döyüş raketi** – qırğın vasitələrini hədəfə çatdırmaq üçün uçan raket. Konstruksiyasına görə ballistik və qanadlı raket, idarə olunan və idarəolunmayan raket növləri vardır. D.r.-ləri təyinatına görə tank əleyhinə, taktiki, operativ-taktiki və strateji (qitələrarası) raketlərə bölünürlər.

**Döyüş sursatı** – bilavasitə canlı qüvvələri və texnikanı məhv etmək, qurğuları dağıtmaq və xüsusi tapşırıqları (ərazini işıqlandırmaq, tüstüyə bürümək, təşviqat ədəbiyyatı yaymaq və i.a.) yerinə yetirmək üçün silahlanma vasitələrinin əsas tərkib hissələrindən biri. D.s.-larına artilleriya mərmiləri, raket və torpedaların partladıcı başlıqları, atıcı silahların patronları, qumbara, aviasiya bombaları, fuqaslar, mühəqdis və dəniz minaları, tüstü şaşkaları aiddir.

**Draft** *(ing. draft – layihə, seçim)* – peşəkar idmançı ilə bağlanan müqavilə (Kanada və ABŞ-da) növü. Bu müqaviləyə görə idmançı ancaq onunla müqavilə bağlamış idman klubunda çıxış etməyə borcludur.

**Drakont qanunları** – Qədim Afinada tərtib edilmiş ilk yazılı hüquq. D.q. eramızdan əvvəl 621-ci ilə yaxın Afina arxontu Drakont tərəfindən verilmişdir. Qanun quldarlıq quruluşunun möhkəmləndirilməsi məqsədinə xidmət etmişdir. Qətlə aid olan hissə istisna olmaqla, həmin qanunlar dövrümüzədək tam həcmdə gəlib çatmamışdır. Həmin hissə qəsdlə və ya ehtiyatsızlıqla adamöldürməyə görə məsuliyyətin müxtəlif dərəcələrini müəyyən edir. Ehtiyatsızlıqla adamöldürməyə dair işlərə baxılması üçün Drakont eforların xüsusi kol-

legiyasını təsis etmişdi. Qəsdən adamöldürmə işlərinə isə areopaqda baxılırdı. D.q. öz sanksiyalarının sərtliyi ilə seçilirdi. Xüsusi mülkiyyətə qəsd etmə amansızcasına cəzalandırılırdı. Hətta meyvə-tərəvəz oğurluğuna görə də ölüm cəzası tətbiq edilirdi. D.q.-ndan ədalətsiz və sərt normalar, habelə "Əjdaha qanunları" və "Əjdaha tədbirləri" adları miras qalmışdır.

**Draqo Doktrinası** *(beynəlxalq hüquqda)* – beynəlxalq borcların alınması üçün bir dövlətin digər dövlətə silahlı müdaxiləsinin yolverilməzliyi prinsipini müəyyən edir. 1902-1903-cü illərdə Avropa dövlətləri – Almaniya, İngiltərə və İtaliya Venesueladan borcun alınması məqsədi ilə bu ölkəyə silahlı müdaxilə etmək qərarına gəlmişdir. Bu müdaxilə ilə əlaqədar olaraq Argentinanın xarici işlər naziri Draqo öz ölkəsinin Vaşinqtondakı səfirinə 29 dekabr 1902-ci il tarixli məktubunda yazırdı: "Dövlət borcu hərbi müdaxilə etmək üçün səbəb ola bilməz". Hələ 1868-ci ildə Meksikaya (1861-1862-ci illərdə) ingilis-fransız-ispan hərbi müdaxiləsindən sonra başqa argentinalı hüquqşünas və diplomat Kalvo nəinki silahlı, həm də diplomatik müdaxilənin yolverilməzliyi prinsipini elan etmişdi. D.D. öz hüquqi təsbitini 1907-ci ildə 2-ci Haaqa konvensiyasında qəbul edilən Draqo-Porter konvensiyasında tapmışdır.

**Dred Skottun işi** – amerikalı kölə-zəngi Dred Skottun məhkəmə işi. Öz ağası ilə quldarlığın mövcud olmadığı İllinoys və Viskonsin ştatları ərazisində 1834-1838-ci illərdə yaşamış D. Skottun azadlıq əldə etmək üçün 1848-ci ildə məhkəməyə müraciət etməsi ilə əlaqədar başlanmışdır. Məhkəmə prosesi təqribən 8 il davam etmişdir. 1857-ci ildə ABŞ Ali Məhkəməsinin qərarına görə Skott kölə elan olunmuşdur.

**"Dreyf"** *(kriminologiyada)* – dəstədə cinayətkar davranışı submədəniyyətə təsir göstərən nəticə kimi deyil (çünki dəstədə yeniyetmələrlə qalan cinayətkar gənclər arasında heç bir fərq olmur), "dreyf" adlandırılan hamılıqla qəbul olunmuş normativ sistem nəticəsində cinayətkar qrupla əlaqələrin qısa müddətə kəsilməsinin nəticəsi kimi izah edən nəzəriyyə. "D."-dən qopardılma hallan müqavimət göstərilməməsi nəticəsində baş verir. Məhz belə hallarda cinayətkar dəstənin üzvləri özlərinin cinayətkar davranışına haqq qazandırır və ya onu özləri üçün kriminal davranış kimi neytrallaşdırırlar. Belə "neytrallaşdırma texnikası" (Matza, Sayke) haqq qazandırmanın müxtəlif formalarında - məsuliyyətin inkar edilməsində, zərər vurulmasında, cinayətin qurbanlarında, tənqid edənləri tənqid etməkdə, daha mühüm hallara istinad etmədə, yüksək məqsədlərdə Robin Qud sindromuna nüfuz etməkdə təzahür edir.

**Dreyfus işi** – 1894-cü ildə Fransa mürtəce hərbçilərinin fitnəkarlığı nəticəsində Fransa Baş qərargahı zabiti, yəhudi A. Dreyfusu Almaniyanın xeyrinə casusluqda ittiham edən ədalətsiz məhkəmə prosesi. Hərbi məhkəmə heç bir sübut olmadan Dreyfusu ömürlük katorqa cəzasına məhkum etmişdir. 1899-cu il sentyabrın 19-da hökumətin təqdimatı ilə Dreyfus prezident tərəfindən əfv edilmiş, 1906-cı ildə isə ona tam bəraət verilmişdir.

**Dromonomaniya** *(bax: impulsiv hərəkətlər).*

**Drujina** – Qədim Rus dövlətində knyazın başçılıq etdiyi silahlı dəstə. Müharibələrdə, xalq üsyanlarının yatırılmasında, knyazın məhkəmə-inzibati hakimiyyətinin həyata keçirilməsində iştirak edirdi.





**Drup metodu** – proporsional seçki sistemi zamanı mandatların bölüşdürülməsi metodu; ilk dəfə 1868-ci ildə H. Drup tərəfindən təklif edilmişdir. T. Xerin *(bax: Xer metodu)* metodu üzrə seçici xüsusinin müəyyən edilməsi zamanı bütün mandatları bölüşdürməyə imkan verən xüsusi əldə edilənədək məxrəcə 1, 2, 3, 4... rəqəmləri əlavə olunur.

**Duayen** *(fr. doyen – ağsaqqal)* – beynəlxalq hüquqda diplomatik korpusun ağsaqqalı (məskən salınmış ölkədə diplomatik nümayəndələr arasında rütbəsinə görə yüksək, vaxt etibarı ilə daha çox fəaliyyət göstərmiş və yaşca yaşlı olan şəxs diplomatik korpusun protokol başçısı olmalıdır). D. təbriketmə, başsağlığı mərasimlərində və başqa tədbirlərdə diplomatik korpusun adından çıxış edir. Bəzi ölkələrdə onların adətlərinə görə Vatikanın diplomatik nümayəndəliyinin başçısı – papanın nunsisi d. olmalıdır.

**Dualist monarxiya** *(lat. dualis – ikili)* – parlamentli monarxiya ilə *(həmçinin bax: monarxiya)* yanaşı konstitusiyalı monarxiyanın iki növündən biri. Mütləq monarxiyadan parlamentli monarxiyaya tarixən keçidin formasıdır. D.m.-da monarxın hakimiyyəti konstitusiya ilə məhdudlaşdırılsa da, monarx həm formal (yeni konstitusiya normalarının qüvvəsi sayəsində), həm də daha çox faktiki (demokratik institutların zəifliyi sayəsində) cəhətdən geniş hakimiyyət səlahiyyətlərini qoruyub saxlayır. Bu da onu həmin dövlətin bütün siyasi sisteminin mərkəzində saxlayır. D.m. şəraitində hökumət monarx və parlament qarşısında formal olaraq ikili məsuliyyət daşısa da, real şəkildə, bir qayda olaraq, monarxın iradəsinə tabe olur. Hazırda Mərakeşdə, İordaniyada, Tailandda, Nepalda və Malayziyada d.m. mövcuddur.

**Dualist respublika** – konstitusiya hüququ elmində "prezidentli respublika" termininin sinonimi qismində istifadə olunan termin.

**Dublikat** *(lat. duplicatio – ikiləşmiş)* – hər hansı yazılı sənədin (pasportun, şəhadətnamənin, attestatın, vəsiqənin, diplomun və i.a.) ikinci və ya daha sonrakı nüsxəsi. D. sənədin əsli ilə bərabər hüquqi qüvvəyə malikdir. Daha aydın ifadə edilərsə, d. sənədin surəti deyil, onun əslidir. Verilən nüsxədə "dublikat" sözü qeyd edilir. "Dublikat" sözü sənədin ilkinin itirildiyini göstərir.

**Duel** *(fr. duel – müharibə, döyüş)* – iki nəfər arasında odlu silahdan növbəli atəş açmaqla gedən təkbətək döyüş. D. tərəflərdən birinin əvvəlcədən müəyyən edilmiş şərtlərlə çağırışı ilə təyin edilir. D.-də adətən ilk atəşi çağırılmış şəxs açır. D. sekundantın (duel şahidinin) iştirakı ilə aparılır.

**Duma** – 1993-cü ildən Rusiya Federasiyası subyektlərinin bəzilərində (məsələn, Moskva şəhər duması, Vladimir vilayətində Vilayət duması, Stavropol diyarında Dövlət duması) nümayəndəli hakimiyyət (qanunvericilik) orqanının adı.

**Duma boyarları** – XV-XVII yüzilliklərdə Rus dövlətində Boyar dumasının iştirakçıları.

**Duma dyakları** – XVI-XVII yüzilliklərdə Rus dövlətində aşağı duma rütbələri. Boyar duması qərarlarının və çar fərmanlarının layihələrini tərtib edir və kargüzarlıq işləri ilə məşğul olurdular.

**Duma rütbələri (rütbəliləri)** – XV yüzilliyin sonu - XVII yüzillikdə Rus dövlətində vəzifəli şəxslər, yəni Boyar dumasının iclaslarında və duma komissiyalarının işində iştirak etmək hüququna malik olan boyarlar, okolniçilər, duma zadəganları və duma dyakları. D.r. yüksək saray vəzifələrini tutur, diplomatik danışıqlarda iştirak edir və yerli mübahisələri araşdırırdılar.

**Duma zadəganları** – XV-XVII yüzilliklərdə Rus dövlətində Boyar duması üzvlərinin "şərəfə" görə (boyar və okolniçilərdən sonra) üçüncü rütbəsi.

**Duopoliya** *(lat. duopoleo – satıram)* – bazarda eyni məhsulu təklif edən iki istehsalçının mövcud olduğu situasiya. D. qismən inhisarla eynilik təşkil edir.

**Duopsoniya** *(lat. duopsoneo – alıram)* – bazarda eyni məhsulun ancaq iki alıcısının olduğu situasiya.

**Dustaqxana** – həbs evi, qazamat *(bax: həbsxana).*

**Duumvirlər** *(lat. duumviri)* – iki Roma magistratı; eyni hüquqlara malik olmaqla yanaşı, eyni funksiyaları yerinə yetirirdilər. D. sənədlərin mahiyyətini izah etmək üçün seçilir, yaxud təyin edilirdilər.

**Dünya bazarı** – ticarət-iqtisadi münasibətlərlə bir-biri ilə bağlı olan ayrı-ayrı ölkələrin milli bazarlarının məcmusu. D.b. ilk dəfə kapitalist istehsal üsulu əsasında dünya kapitalist bazarı kimi formalaşmışdır. D.b.-nın müasir inkişaf fazasının xüsusiyyəti dövlətlərarası sazişlər əsasında ictimai sistemləri müxtəlif olan ölkələr arasında kompleks və uzunmüddətli əməkdaşlığı təkmilləşdirməkdən ibarətdir.

**Dünya qiymətləri** – dünya bazarında istehsalın yaranan beynəlmiləl (dünya) qiymətinin pul ifadəsi. İstehsalın beynəlmiləl qiyməti dünya ticarətində üstünlük təşkil edən əmtəələrin istehsalı şərtləri ilə müəyyən olunur. D.q.-nin formalaşması prosesində daxili qiymətlər gömrük rüsumlarından, vergilərdən, müxtəlif subsidiyalardan və i.a. "təmizlənir".

**Dünya müharibələri** *(bax: müharibə).*

**Dünya təsərrüfatı** – beynəlxalq ictimai əmək bölgüsü sistemi və ayrı-ayrı milli təsərrüfatların bir-birilə iqtisadi əlaqəsi. D.t. beynəlxalq ticarət-iqtisadi, elmi-texniki əlaqələrin və maliyyə əlaqələrinin bütün tərəf və istiqamətlərini birləşdirir. D.t. inkişafının əsas xüsusiyyətləri və meyilləri ictimai istehsalın fəaliyyətinin obyektiv qanunauyğunluqları ilə müəyyən olunur. D.t. tarixən kapitalist istehsal üsulu əsasında formalaşmışdır.

**Dünya valyuta sistemi** – dünya təsərrüfat əlaqələri ilə şərtləşən valyuta-iqtisadi münasibətlərin məcmusu. Beynəlxalq ödəmə vasitələrinin (milli, xarici və kollektiv beynəlxalq valyutaların) müəyyən dəsti, valyuta mübadiləsi, beynəlxalq dövriyyənin valyuta-ödəmə vasitələri ilə təmin edilməsi mexanizmi, beynəlxalq hesablaşmaların formalarının reqlamentləşdirilməsi unifikasiyası, beynəlxalq valyuta və qızıl bazarlarının rejimi, bank müəssisələrinin beynəlxalq və milli şəbəkəsi d.v.s.-nin tərkib elementləridir.

**Düşərgə** *(hərbdə)* – qoşunların yaşayış məntəqələrindən kənarda, yerinə yetiriləcək tapşırığa müvafiq olaraq qurulan dayanacaq yeri. Hərbi d. eramızdan əvvəl məlumdur. Səfərlərdə salınan qısamüddətli







(müvəqqəti) və möhkəmləndirilmiş döyüş mövqeyi kimi istifadə olunan uzunmüddətli d.-lər olmuşdur. D. quruculuğu Qədim Romada xüsusilə inkişaf etmişdi. XIX yüzilliyin ikinci yarısında artilleriya və sair dağıdıcı vasitələrin meydana gəlməsi ilə möhkəmləndirilmiş qoşun dayanacağı kimi d. də öz əhəmiyyətini tədricən itirmişdir. Hazırda bəzi dövlətlərin silahlı qüvvələrində təlim D.-ləri mövcuddur.

**Düzünə (birbaşa) qəsd** – şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş və bunları arzu etmişdirsə, cinayətin düzünə (birbaşa) qəsdlə törədilməsini əks etdirən təqsir forması. Təqsirin bu formasında şəxsin öz hərəkət və ya hərəkətsizliyinin ictimai təhlükəli nəticələrini arzu etməsi müxtəlif formalarda təzahür edə bilər. Şəxsin bu nəticələrin baş verməsini öz fəaliyyətinin son məqsədi kimi arzu etməsi mümkündür. Bu, şəxsin həmin vaxtda arzu etdiyi nəticənin onun son məqsədə çatmasında bir mərhələ də ola bilər. İctimai təhlükəli nəticənin baş verməsini arzu etmənin təzahürü səbəblərinin qəsdin düzünə (birbaşa) hesab edilməsi üçün əhəmiyyəti yoxdur.

**Düzünə sübutlar** – baş faktı bilavasitə müəyyən edən faktiki məlumatlar. Sübutetmə predmetinə daxil olan hər hansı halın mövcud olub-olmamasını özündə əks etdirən məlumatlar düzünə sübut hesab olunur. Beləliklə, bir mənbədən alınan d.s. vasitəsilə cinayət tərkibinin müxtəlif cəhətlərinə aid olan hallar müəyyən edilə bilər. D.s. ittihamedici və bəraətverici, həm də ilkin və törəmə sübutlar ola bilər.

**"Dvina nizamnamə qramotası"** – rus hüquq abidəsi; 1397-ci ildə Böyük Moskva knyazı I Vasili tərəfindən verilmişdir. Qramota Dvina torpağında canişin idarəçiliyini tənzimləyir, boyarların, qismən də tacirlərin hüquqlarını və mülkləri ni müdafiə edirdi.

**Dyak** *(yun. diakonos – qulluqçu)* – Rus dövlətində XVIII yüzilliyədək müxtəlif idarə dəftərxanalarının rəisi, kargüzarı. Yerli özünüidarə müəssisələrinin işinə rəhbərlik edən şəxs də D. adlanırdı. D. XV yüzillikdən torpaq sahibi statusu almış, XV-XVII yüzilliklərdə duma məmurları tərkibində fəaliyyət göstərmişdir *(bax: duma dyakları).*

**Dyesmo** *(isp. diermo)* – kilsənin saxlanması üçün ispan əhalisindən və XVI-XIX yüzilliklərdə Amerikada portuqal koloniyalarından tutulan desyatin vergisi.

# -E-


Ecəssurət ... 323
Edam ... 323
Edifakt ... 323
Edikt ... 323
Edil ... 323
Ediplər kompleksi ... 323
Eduskunt ... 323
Efirlə bildiriş ... 323
Eforat ... 323
Eforlar ... 324
Ehtimal olunan təminatlar ... 324
Ehtiyac meyarı ... 324
Ehtiyat akkreditiv ... 324
Ehtiyat fondu ... 324
Ehtiyat fondu torpaqları ... 324
Ehtiyat qoşunları ... 324
Ehtiyatsızlıq ... 325
Ehtiyatsızlıqla törədilən cinayət ... 325
Ehtiyat torpaqlar ... 325
Ekipaj ... 325
Ekkauntinq ... 325
Ekklesiya ... 325
Eklektizm ... 325
Ekologiya ... 325
Ekologiya hüququ ... 325
Ekoloji cinayətlər ... 326
Ekoloji ekspertiza ... 326
Ekoloji fəlakət ... 326
Ekoloji fəlakət zonaları ... 327
Ekoloji fondlar ... 327
Ekoloji insan hüquqları ... 327
Ekoloji müharibə ... 327
Ekoloji sığorta ... 327
Ekoloji təhlükə ... 328
Ekoloji təhlükənin subyekti ... 328
Ekoloji təhlükəsizlik ... 328
"Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunu ... 328
Ekoloji təhlükəsizlik sahəsində dövlət siyasəti ... 328
Ekoloji təhlükəsizlik sahəsində fəaliyyətin informasiya təminatı ... 328
Ekoloji təhlükəsizliyin təmin edilməsi ... 328
Ekosid ... 328
Eksgibisionizm ... 329
Ekshumasiya ... 329
Ekspansiya ... 329
Ekspatriant ... 329
Ekspatriasiya ... 329
Ekspedisiya ... 329
Ekspeditor (nəqliyyat komisyonçusu) ... 330
Eksperiment ... 330
Eksperimental məktəb ... 330
Eksperimental tədqiqatlar ... 330
Ekspert ... 330
"Ekspert elmi - hakim" nəzəriyyəsi ... 330
Ekspert evristikası ... 331
Ekspertiza ... 331
Ekspert situasiyası ... 331
Ekspert texnologiyası ... 331
Ekspert tədqiqatı ... 331
Ekspert təşəbbüsü ... 331
Eksport ... 332
Eksport bankları ... 332
Eksport krediti ... 332
Eksport kvotası ... 332
Eksport lisenziyası ... 332
Eksport lizinqi ... 332
Eksport malları ... 332
Eksport mükafatları ... 332
Eksport nəzarəti ... 332
Eksport subsidiyası ... 332
Eksportun diversifikasiyası ... 332
Ekspoze ... 332
Ekspressiya ... 333
Ekspropriasiya ... 333







Ekssedent ... 333
Ekssedent (yenidən sığorta) müqaviləsi ... 333
Ekssedent müqaviləsi ... 333
Eksses ... 333
Eksternat ... 333
Eksterritoriallıq ... 333
Ekstradisiya ... 333
Ekstrafraxt ... 334
Ekstrapolyasiya ... 334
Ekstraordinar proses ... 334
Ekstraordinar sessiya ... 334
Ekstremist ... 334
Ekstremizm ... 334
Ekyü ... 334
Ekzegetlər ... 334
Ekzekusiya ... 335
Ekzekvatura ... 335
Ekzoqamiya ... 335
Eqoizm ... 335
Elan olunmuş kapital ... 335
Elçi ... 335
Elektoral ədliyyə ... 335
Elektorat ... 335
Elektrik stulu ... 335
"Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunu ... 335
Elektron birjası ... 336
Elektron - hesablama maşınları (EHM) üçün proqram ... 336
Elita ... 336
Elmi ad ... 336
Elmi cəmiyyətlər ... 336
Elmi dərəcə ... 336
Elmi fəaliyyət ... 337
Elmi işçi ... 337
Elmi rəhbər ... 337
Elmi şura ... 337
Elmi - texniki fəaliyyət ... 337
Elmi təşkilat ... 337
Elmlər doktoru ... 337
Elmlər namizədi ... 337
Emal ... 337
Emansipasiya ... 338
Embarqo ... 338
Emblem ... 338
Emeritura ... 338
Emfitevzis ... 338
Emissar ... 338
Emissiya ... 338
Emissiya bankları ... 338
Emissiya əməliyyatları ... 338
Emissiya gəliri ... 338
Emissiya hüququ ... 339
Emissiya intizamı ... 339
Emissiya kursu ... 339
Emissiya qiymətli kağızı ... 339
Emissiya prospekti ... 339
Emissiya vergisi ... 339
Emitent ... 339
Emitləşdirmə ... 339
Emosiya ... 339
Empiriya ... 339
Endokronoloji nəzəriyyə ... 340
Endoqamiya ... 340
"Enerji resurslarından istifadə haqqında" Azərbaycan Respublikasının qanunu ... 340
Enerji -techizat müqaviləsi ... 340
Ensiklika ... 340
Ensiklopediya ... 340
Epanaqoqa ... 340
Epataj ... 340
Epidemiya ... 340
Epikantus ... 341
Epiqamiya ... 341
Epilepsiya ... 341
Epizootiya ... 341
Epistat ... 341
Erini ... 341
Erqastul ... 341
Erlər ... 341
Erotik materiallar ... 341
Eses ... 341
Esiment ... 341
Eskadra ... 341
Eskadra minadaşıyıcısı (esmines) ... 342
Eskadrilya ... 342
Eskadron ... 342
Eskort ... 342
Eskrou ... 342
Estoppel ... 342
Estrada doktrinası ... 342
Eşafot ... 342
Eşelon ... 342
Eşevenlər ... 343

Eşikağası (eşikağasıbaşı) ........ 343
Etatizm ........ 343
Etibardan sui-istifadə ........ 343
Etibar edən ........ 343
Etibar edilmiş mülkiyyət (trast) ........ 343
Etibarı itirmə ........ 343
Etibarlı fondlar ........ 343
Etibarlı idarə edən ........ 344
Etibarlı pay fondları ........ 344
Etibarlı şəxs ........ 344
Etibarnamə ........ 344
Etiket ........ 344
Etiqad azadlığı ........ 344
Etimadnamə ........ 344
Etimadsızlığın konstruktiv votumu ........ 345
Etimadsızlıq votumu ........ 345
Etimad votumu ........ 345
Etiologiya ........ 345
Etiraz edilmiş veksel ........ 345
Etnik nümayəndəlik ........ 345
Etoliya ittifaqı ........ 346
Ev ........ 346
Evakuasiya ........ 346
Evakuasiya məntəqəsi ........ 346
Evantual qəsd ........ 232
Evantual votum ........ 346
Evbaşı vergi ........ 346
Ev dustaqlığı ........ 346
Ev heyvanları ........ 346
Ev həbsi ........ 346
Eviksiya ........ 347
Evpulu ........ 347
Evristika ........ 347
Ev sahibi ........ 347
Ev sahibliyi ........ 347
Ev sahibliyi pasportu ........ 347
Evtanaziya ........ 347
Evtina ........ 347
Eydetizm ........ 348
Eydsvoll Konstitusiyası ........ 348
Eyniləşdirmə ........ 348
Eynilik nişanları ........ 348
Eyzenhauer doktrinası ........ 348







**Ecəssurət** *(ing. edge – kənar, sərhəd; yun. skopeo – nəzərdən keçirirəm, tədqiq edirəm)* – şəxsiyyətin eyniləşdirilməsi məqsədilə papilyar xətlərin kənarlarında əyriliklərdən (çıxıntı və girintilərdən) istifadə olunmasının mümkünlüyünü öyrənən kriminalistik daktiloskopiyanın bir bölməsi.

**Edam** – **1)** ölüm cəzasının icra olunması üsullarından biri. Azərbaycanda XX yüzilliyin onuncu illərinədək tətbiq edilmişdir. E. ən ifşaedici cəza növü hesab edilmişdir. Ondan həm də kütləvi qorxutma və vahimələndirmə vasitələrindən biri kimi istifadə olunmuşdur. E. adətən xüsusi olaraq nəzərdə tutulan meydanlarda və kütlənin çox olduğu yerlərdə icra olunurdu. Bu cəzaya məhkum edilmiş şəxsin cəsədi dar ağacından asılmış vəziyyətdə bir neçə gün saxlanılırdı; **2)** kriminalistikada boğma forması; adətən özünüöldürmə (intihar) zamanı tətbiq edilir. Adi kəndir (ip), yumşaq naqil, bel kəməri və i.a. boğmanın alətı kimi istifadə oluna bilər. Boğma zamanı ölüm asfiksiya nəticəsində baş verir.

**Edifakt** *(ing. edifact)* – BMT yanında idarəetmədə, ticarətdə və nəqliyyatda məlumatlar mübadiləsi üçün universal qaydalar sistemi; özündə ticarətdə və nəqliyyatda istifadə olunan məlumatların 600-dən artıq elementlərini ehtiva edir. Həmin elementlər 4 əsas komponentdə qruplaşdırılmışdır. Göstərilən məlumatlar xüsusi məlumat orqanında dərc edilmiş və beynəlxalq təşkilat tərəfindən standartlar üzrə təsdiq olunmuşdur.

**Edikt** *(lat. edictum)* – Qədim Romada şifahi bəyanat, o cümlədən magitrantın bəyanatı. Zaman keçdikcə "E." terminindən daha geniş mənada magistratın hər cür ümumi elanı və ümumi məlumatı mənasında istifadə edilmişdir. Adətən məhkəmə magistratları (pretorlar, kurul edilləri, əyalət hakimləri) tərəfindən vəzifəyə başladıqları zaman elan edilir və yazılı formada qeyd olunurdu. Həmin e.-lərdə məhkəmə magistratları öz fəaliyyət proqramlarını bəyan edirdilər.

**Edil** *(lat. aedes – məbəd)* – şəhər magistratı. Qədim Roma e.-ləri daha məşhur olmuşdur. Eramızdan əvvəl 491-ci ildən başlayaraq e. xalq tribununun köməkçisi hesab olunurdu. Eramızdan əvvəl 367-ci ildə Litsinin və Sekstinin hakimiyyəti dövründə verilən qanunlarla e.-ə patrisilər içərisindən seçilən iki e. də əlavə edilmişdir. Bazarların vəziyyətinə, çörəyin paylanmasına və dövlət xəzinəsinin müdafiəsinə nəzarət etmək e.-in funksiyasına daxil idi. E. öz əhəmiyyətini imperiya dövründə itirmişdir.

**Ediplər kompleksi** *(kriminologiyada)* – oğlan uşağında öz valideynləri ilə münasibətlərdən irəli gələn təəssüratların məcmusu; anaya meyl və ataya rəqib kimi münasibət. Öz adını qədim yunan mifik qəhrəmanı çar Ediptin adından götürmüşdür. Edipt özü arzu etmədən bəzi halların təsiri altında atasını öldürərək, öz anası ilə evlənmişdir.

**Eduskunt** – Finlandiyanın birpalatalı parlamentinin adı.

**Efirlə bildiriş** – Azərbaycan Respublikasının müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında qanunvericiliyinə uyğun olaraq əsərlərin, ifaların, fonoqramların, yayım təşkilatının verilişlərinin radio və televiziya vasitəsi ilə (kabel televiziyası istisna olmaqla), o cümlədən peyklərin köməyi ilə kütləyə çatdırılması.

**Eforat** *(yun. ephoroi – nəzarətçilər)* – Qədim Spartada ildə bir dəfə seçilən 5 nə-

fər ali vəzifəli şəxslərdən ibarət olmuş kollegiya, ali nəzarət orqanı. E. tam hüquqlu vətəndaşların yığıncağında seçilirdi. Eramızdan əvvəl VIII yüzilliyin ortalarında təsis edilmişdi. Azlıq təşkil edən əyanların mənafeyini ifadə edən e. Spartada mövcud oliqarxiya rejiminin dayağı olmuşdur. Eramızdan əvvəl VI yüzilliyin ortalarında idarəetmədə və mühakimə icraatının həyata keçirilməsində E. geniş səlahiyyətlərə malik olan mühafizəkar qüvvə kimi çıxış etmişdir. Eramızdan əvvəl III yüzillikdə öz əhəmiyyətini itirmişdir.

**Eforlar** *(bax: eforat).*

**Ehtimal olunan təminatlar** – polisin sığorta mətninə daxil edilməyən, lakin mövcudluğu sığorta üzrə müqavilənin ayrılmaz tərkib hissəsi qismində ehtimal olunan təminatlar. Məsələn, gəmilərin reysə (səfərə) sığortalanması zamanı sığorta edən tərəfindən gəminin reysə hazır vəziyyətdə olduğu ehtimal edilir. İfadə olunan təminatlarla yanaşı, e.o.t.-ın pozulması sığorta edəni məsuliyyətdən azad edir.

**Ehtiyac meyarı** – əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan həddi.

**Ehtiyat akkreditiv** – əsas kontrakt üzrə əmr verən (importyor) tərəfindən öz öhdəliklərinin yerinə yetirilmədiyi halda bank-emitentin alıcı-benefisiarlar qarşısında ödənişi göstərilən məbləğ həddində ödəmək öhdəliyi.

**Ehtiyat fondu** – səhmdar cəmiyyətində itkilərin, habelə istiqrazların ödənilməsi və sair vəsaitlərin olmadığı halda cəmiyyətin səhmlərinin satın alınması üçün nizamnamə ilə nəzərdə tutulmuş həcmdə xüsusi pul fondu. E.f.-nun minimum həcmi nizamnamə fondunun 15 faizindən az, maksimum həcmi isə 25 faizdən çox olmamalıdır. E.f. cəmiyyətin balans mənfəətindən ayırmalar hesabına yaradılır. Ayırmaların konkret həcmi nizamnamədə mənfəətin 5-10 faizi həddində nəzərdə tutulmalıdır

**Ehtiyat fondu torpaqları** – Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə uyğun olaraq dövlətin və bələdiyyələrin ehtiyat torpaqları.

Dövlət ehtiyat fondu torpaqlarına bələdiyyələrin, vətəndaşların və hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və icarəsinə verilməmiş dövlət torpaqları daxildir. İstifadə hüququna xitam verilmiş, habelə konservasiya nəticəsində təsərrüfat dövriyyəsindən çıxarılmış torpaq sahələri dövlət ehtiyat fondu torpaqlarına aid edilir.

Bələdiyyələrin ehtiyat fondu torpaqlarına yaşayış məntəqələrinin perspektiv inkişafı üçün cəlb olunan torpaqlar; hüquqi və fiziki şəxslərin istifadə və icarə hüququna xitam verilən bələdiyyə torpaqları; ehtiyat məqsədləri daşıyan digər bələdiyyə torpaqları aid edilir.

E.f.t.-nın istifadəsinə onların müvafiq kateqoriyaya keçirilməsindən sonra yol verilir. Bu torpaqlardan istifadə qaydaları müvafiq normativ hüquqi aktlarla müəyyən edilir (AR TM-in 33-cü maddəsi).

**Ehtiyat qoşunları** – dinc dövrdə səhra qoşunları ilə müqayisədə az tərkibdə saxlanan və yalnız müharibə şəraitində tam halda istifadə olunan qoşun növü. Qalalarda və ölkənin daxilində qarnizon xidməti, nəqliyyat yollarının mühafizəsi və döyüşən ordunun gücləndirilməsi üçün nəzərdə tutulurdu. E.q. XIX yüzilliyin ikinci yarısında və XX yüzilliyin əvvəlində Rusiyada, Avstriya-Macarıstanda və Fransada mövcud olmuşdur. Rusiyada 1864-cü ildə yaradılmış, 1910-cu ildə ləğv edilmişdir. Avstriya-Macarıstan və Fransada isə birinci dünya müharibəsinədək (1914-1918) saxlanılmışdır.

**Ehtiyatsızlıq** *(bax: təqsir).*

**Etiyatsızlıqla törədilən cinayət** – AR CM-in 26.1-ci maddəsinə uyğun olaraq cinayətkarcasına özünəgüvənmə və ya cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik).

**Ehtiyat torpaqlar** – Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə uyğun olaraq istifadə olunan və ya istifadə oluna bilən torpaqlar.

E.t.-dan istifadə və onların mənimsənilməsi müvafiq icar hakimiyyəti orqanlarının və bələdiyyələrin ərazinin inkişaf planlaşdırılması haqqında qərarlarına əsasən həyata keçirilir. E.t.-dan istifadənin planlaşdırılması sosial-iqtisadi proqramlar, yerquruluşu, şəhərsalma, təbiətqoruyucu və digər sənədlər əsasında ərazinin uzunmüddətli inkişaf perspektivlərini müəyyən etmək məqsədilə aparılır.

**Ekipaj** *(fr. equipaqe – at arabası: təchizat)* – **1)** yüngül sərnişin arabalarının ümumi adı; **2)** gəminin, təyyarənin, tankın şəxsi heyəti.

**Ekkauntinq** *(ing. accounting)* – sahibkarlıq fəaliyyətinin maliyyə məlumatlarının müxtəlif növlərinin toplanması, təsnifatı, təhlili və sənədli şəkildə rəsmiləşdirilməsi ilə əlaqədar olan funksional sahəsi. Bundan başqa, e. auditlə, yəni e.-in düzgün aparılmasına nəzarətlə bağlıdır. Onun başlıca məqsədi maliyyə əməliyyatlarının aparılmasından, müvafiq sənədlərin tərtib edilməsindən ibarətdir. Tərtib edilən sənədlər içərisində mədaxillər və balans hesabatı, büdcə smetaları və i.a. hesabatlar fərqləndirilir.

**Ekklesiya** *(yun. ekklesia – xalq yığıncağı)* – Qədim Yunanıstanda xalq yığıncağının ən geniş yayılmış adı. E. quldarlıq demokratiyasının hökmranlığı dövründə Afina dövlətində qanunvericilik orqanı kimi fəaliyyət göstərmişdir. E. demokratik polislərdə qanunvericilik hakimiyyətinə, icra və məhkəmə hakimiyyətinə malik olan ali dövlət orqanı idi. E.-da bütün azad və tamhüquqlu vətəndaşlar səs vermək hüququna malik idilər. Quldarlıq cəmiyyətinin demokratikləşdirilməsi gedişində (Afinada Solonun və Klisfenin islahatları) e.-nın siyasi hüquqları genişlənmişdir. Belə ki, vəzifəli şəxslər seçilir, onların vəzifələrinin icrasına nəzarət olunur, müharibə və sülh haqqında qərarlar qəbul edilirdi. Oliqarxiya quruluşu polislərdə e.-nın hüququ müxtəlif şura və kollegiya tipli digər dövlət orqanları tərəfindən məhdudlaşdırılmışdı. E., bir qayda olaraq, öz vəzifəsini Bule ilə birlikdə yerinə yetirirdi. Xristianlarda dindarlar icması, bəzən isə bütövlükdə kilsə e. adlandırılırdı.

**Eklektizm** *(kriminalogiyada)* – müxtəlif cinsli, çox zaman isə bir-birinin əksi olan prinsiplərin, görüşlərin və nəzəriyyələrin mexaniki surətdə birləşdirilməsi.

**Ekologiya** – ətraf mühitin tarazlığını və bu tarazlığın pozulmasına təsir edən təbii amillər və antropogen (insan fəaliyyəti) və fiziki prosesləri öyrənən elm.

**Ekologiya hüququ** – təbii ehtiyatlardan istifadə, onların mühafizəsi ilə, habelə ətraf mühiti insanların yaşaması üçün əlve-

rişli vəziyyətdə saxlamaqla əlaqədar insanın ətraf mühitlə qarşılıqlı əlaqələrindən yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu. E.h. özündə riyaziyyatın, fizikanın, kimyanın və eləcə də humanitar elmlərin ən son nailiyyətlərini ehtiva edən müstəqil hüquq elmi sahəsidir. O, özünün müstəqil öyrənmə və tədqiqat predmetinə malikdir.

**Ekoloji cinayətlər** – Azərbaycan Respublikasının cinayət hüququnda ətraf mühitin sağlamlığına və onun ayrı-ayrı elementlərinə (obyektlərinə) qəsd edən cinayətlər. AR-in yeni CM-ində e.c.-ə ilk dəfə olaraq ayrıca bir fəsildə (CM-in 28-ci fəsli, 247-261-ci maddələri) verilmişdir. İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma: ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma; baytarlıq qaydalarını və bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma; suyu (su mənbələrini) çirkləndirmə; atmosferi (havanı) çirkləndirmə; dəniz mühitini çirkləndirmə; sahilyanı şelf haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozma; torpaqları korlama; yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma; balıqları və başqa su heyvanlarını qanunsuz tutma; balıq ehtiyatlarının qorunması qaydalarını pozma; qanunsuz ov etmə; qanunsuz ağac kəsmə; meşələri məhv etmə və ya korlama; xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma e.c.-ə daxildir.

**Ekoloji ekspertiza** – təsərrüfat fəaliyyətinin ətraf mühitə ola bilən mənfi təsirinin və onlarla bağlı nəticələrin aşkar edilməsi, qarşısının alınması və proqnozlaşdırılması, ətraf mühitin keyfiyyət normativlərinə və ekoloji tələblərə uyğunluğunun müəyyən edilməsi məqsədi ilə aparılan ekspertiza. Azərbaycan Respublikasında e.e.-nı müvafiq icra hakimiyyəti orqanı və ictimai təşkilatlar "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının 1999-cu il 8 iyun tarixli qanunu ilə nəzərdə tutulmuş qaydada həyata keçirirlər.

E.e.-nın aşağıdakı növləri vardır: a) dövlət ekoloji ekspertizası; b) ictimai ekoloji ekspertiza. Dövlət ekoloji ekspertizasına aid edilən obyektlər haqqında ekspertin müsbət rəyi olmadan sənaye və ərzaq məhsullarının istehsalı, işlərin, xidmətlərin yerinə yetirilməsi və ya Azərbaycan Respublikasının ərazisinə gətirilməsi qadağandır. Dövlət ekoloji ekspertizası təsərrüfat fəaliyyəti və başqa fəaliyyətlər nəticəsində ətraf mühitə təsirin qiymətləndirilməsinin dolğunluğunu və düzgünlüyünü, qəbul olunan qərarların ekoloji təhlükəsizlik dərəcəsini, təbii ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin mühafizəsi barədə təklif olunan tədbirlərin səmərəsini müəyyənləşdirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanları tərəfindən təşkil olunur və həyata keçirilir.

İctimai ekoloji ekspertiza ictimai birliklər və ya əhalinin digər qrupları tərəfindən həyata keçirilə bilər. İctimai ekoloji ekspertizanın həyata keçirilməsinin təşkilati formaları və ekoloji ekspertiza sahəsində ictimai birliklərin səlahiyyətləri qanunvericiliklə müəyyən edilir. İctimai ekoloji ekspertizanın rəyi məlumat və tövsiyə xarakteri daşıyır.

**Ekoloji fəlakət** – insanların həyatı və fəaliyyəti şəraitində və ətraf mühitdə dönməz dəyişikliklərlə səciyyələnən fövqəladə ekoloji vəziyyət.







**Ekoloji fəlakət zonaları** – təsərrüfat fəaliyyəti və digər fəaliyyət nəticəsində təbii mühitdə insanların sağlamlığının pisləşməsinə, təbii tarazlığın pozulmasına, təbii ekoloji sistemin dağıdılmasına, flora və faunanın pozulmasına səbəb olan dərin dönməz dəyişikliklərin baş verdiyi ərazilər, yaxud onların sahələri. Belə zonalar fövqəladə ekoloji vəziyyət zonalarının elan edilməsi qaydasında elan olunurlar.

E.f.z.-nda həmin ərazi zonasında yaşayan əhaliyə xidmətlərin göstərilməsi istisna olmaqla, təsərrüfat obyektlərinin fəaliyyəti dayandırılır, tikinti işləri, təsərrüfat obyektlərinin yenidən qurulması qadağan olunur, təbiətdən istifadənin bütün növləri əhəmiyyətli dərəcədə məhdudlaşdırılır, təbii ehtiyatların bərpası və təbii mühitin sağlamlaşdırılması üzrə əməli tədbirlər görülür.

**Ekoloji fondlar** – ətraf mühitin mühafizəsində təxirəsalınmaz tədbirlərin, ona vurulan zərərin aradan qaldırılmasının və kompensasiya verilməsinin, ətraf mühitin mühafizəsi sahəsində başqa tədbirlərin maliyyələşdirilməsi üçün yaradılan fondlar. E.f. təbiətdən istifadəyə görə ödəmələr, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə alınan cərimələr, qanunvericilikdə müəyyən edilmiş qaydada müsadirə edilən ovçuluq və balıqçılıq alətlərinin və qeyri-qanuni əldə edilən məhsulların satışından daxil olan vəsaitlər, qrantlar, könüllü ianələr, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan başqa daxilolmalar hesabına təşkil edilir.

**Ekoloji insan hüquqları** – insanın konstitusiya hüquqlarının xüsusi növlərindən biri, bu hüquqların meydana gəlməsi həm dünya miqyasında, həm də milli miqyasda ekoloji böhranın kəskinləşməsi ilə bağlıdır. E.i.h.-nın konstitusiya səviyyəsində təsbit edilməsi XX yüzilliyin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərindən başlanmışdır. E.i.h.-na, hər şeydən əvvəl, sağlam ətraf mühitdə yaşamaq, ekoloji hüquq pozuntusu nəticəsində insan sağlamlığına və əmlaka vurulmuş zərərin ödənilməsi, təbii (ətraf) mühitin vəziyyəti haqqında etibarlı məlumat almaq hüququ aid edilir.

**Ekoloji müharibə** – rəqibin təbii ətrafına təsir göstərmək (havanın, əkinlərin, suyun çirkləndirilməsi və ya zəhərləndirilməsi, flora və faunanın məhv edilməsi) yolu ilə ona zərər vurulması. E.m. beynəlxalq hüquqla qadağan olunmuşdur. Həmin qadağan təbii mühitə təsir vasitələrindən hərbi, yaxud hər hansı sair istifadənin qadağan edilməsi haqqında BMT tərəfindən 1977-ci il tarixdə qəbul edilmiş konvensiyada təsbit olunmuşdur *(həmçinin bax: ekosid)*.

**Ekoloji sığorta** – hüquqi şəxslərin və vətəndaşların, onların mülkiyyət obyektlərinin və həmin obyektlərdən gəlirlərinin ekoloji və təbii fəlakət, qəza baş verdiyi hallarda könüllü və məcburi dövlət sığortası.

E.s. təbii ehtiyatlardan istifadə zamanı müəyyən sığorta hadisəsi baş verəcəyi halda ətraf mühitə və üçüncü şəxslərə vurulan zərərin ödənilməsinə görə təbii ehtiyatlardan istifadəçi olan hüquqi və fiziki şəxslərin mülki məsuliyyətinin sığortasıdır. Ekoloji cəhətdən təhlükəli fəaliyyət növləri ilə məşğul olan hüquqi və fiziki şəxslər qanunla nəzərdə tutulmuş qaydada məcburi sığortalanırlar. Hüquqi və fiziki şəxslər ekoloji risklərdən könüllü qaydada sığortalana bilərlər. Könüllü e.s.-nın növləri, şərtləri və qaydaları sığorta olunan hüquqi və fiziki şəxslərlə sığortaçılar arasında müqavilə əsasında həyata keçirilir.

**Ekoloji təhlükə** – insanın və cəmiyyətin həyati vacib maraqlarına, ətraf mühitə antropogen və təbii təsirlər nəticəsində təhlükə yaradan vəziyyət.

**Ekoloji təhlükənin subyekti** – fəaliyyəti təhlükəli ekoloji vəziyyət yarada bilən hər hansı idarə, müəssisə, təşkilat, habelə fiziki şəxs.

**Ekoloji təhlükəsizlik** – insanın və cəmiyyətin həyati vacib maraqlarının, ətraf mühitin ona antropogen və təbii təsirlər nəticəsində yaranan təhlükələrdən qorunmasının təmin edilməsi.

**"Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında ekoloji təhlükəsizliyin təmin olunmasının hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edən qanunvericilik aktı. Bu qanun 8 iyun 1999-cu il tarixdə qəbul edilmiş, ona 21 fevral 2001-ci ildə əlavə və dəyişiklik olunmuşdur. Qanun 13 maddədən ibarətdir.

**Ekoloji təhlükəsizlik sahəsində dövlət siyasəti** – insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyinin tərkib hissəsi. E.t.s.d.s.-nın əsas istiqamətləri aşağıdakılardır: 1) ölkənin inkişaf strategiyasının formalaşdırılmasında və həyata keçirilməsində ekoloji təhlükəsizliyin üstün qaydada təmin edilməsi; 2) ekoloji təhlükəsizliyi ümumdünya, regional və yerli səviyyədə təmin etmək məqsədilə beynəlxalq əməkdaşlığın inkişafı: 3) biosferin və onun bütün komponentlərinin qorunub saxlanmasının insanların həyatı və fəaliyyəti üçün ekoloji cəhətdən təhlükəsiz şəraitin təminat sisteminin yaradılması: 4) ölkənin ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində dövlət və yerli özünüidarəetmə orqanlarının uzlaşdırılan fəaliyyətinin təmin edilməsi; 5) təhlükəli fövqəladə ekoloji vəziyyətin qarşısının alınması, onun gələcək nəsillərə təsir göstərə biləcək nəticələr də daxil olmaqla aradan qaldırılması üzrə tədbirlərin hazırlanması və ardıcıl həyata keçirilməsi; 6) ətraf mühitə təsir edən təsərrüfat fəaliyyətinin və sair fəaliyyətin ekoloji təhlükəsizliyin təmin edilməsi mövqeyindən nizama salınması.

Ekoloji təhlükəsizlik sahəsində hüquq normalarının pozulması nəticəsində insanların həyat və sağlamlığına zərər vurulması və ya təhlükə törədilməsi insan hüquqlarının pozulması kimi qiymətləndirilir. Ekoloji təhlükəsizliyin tələblərinə riayət edilməsi təbii ehtiyatlara mülkiyyət, sahiblik və onlardan istifadə hüquqlarının həyata keçirilməsinin məcburi şərtidir.

**Ekoloji təhlükəsizlik sahəsində fəaliyyətin informasiya təminatı** – ekoloji təhlükəsizlik sahəsində fəaliyyətin informasiya təminatını ətraf mühitin və təbii ehtiyatların monitorinqini aparan orqanlar həyata keçirirlər. E.t.s.f.i.t.-nın maliyyələşdirilməsi və maddi-texniki təchizatı qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət büdcəsi və digər maliyyə mənbələri hesabına həyata keçirilir.

**Ekoloji təhlükəsizliyin təmin edilməsi** – təhlükəli ekoloji vəziyyətlərin yaranması və inkişafının qarşısının alınması, habelə onların nəticələrinin, o cümlədən gələcəkdə təsir göstərə biləcək nəticələrin aradan qaldırılması üzrə tədbirlər sistemi.

**Ekosid** – bitki və ya heyvanat aləminin kütləvi surətdə məhv edilməsi, atmosferin və ya su ehtiyatlarının zəhərləndirilməsi, habelə ekoloji fəlakətə səbəb olan sair hərəkətlərin törədilməsi. E. bir sıra ölkələrin cinayət qanunvericiliyində sülh, təhlükəsizlik və insanlıq əleyhinə olan cinayət kimi nəzərdə tutulur. Son illər beynəlxalq hüquqda e.-in beynəlxalq cinayət kimi tanınması ənənəsinə təsadüf olunur.







**Eksgibisionizm** – cinsi pozğunluğun bir növü: şəxs ehtirasını öz cinsiyyət orqanlarını lüt halda nümayiş etdirməklə təmin edir. Bu, masturbasiya ilə də müşayiət oluna bilər. Eksgibisionist hərəkətlər bilə-bilə yetkinlik yaşına çatmayan şəxsin iştirakı ilə törədildikdə, həmin hərəkətlər AR CM-in 153-cü maddəsi ilə əxlaqsız hərəkətlər kimi töfsif edilir. Digər hallarda isə bu hərəkətlər xuliqanlıq kimi tövsif edilə bilər.

**Ekshumasiya** *(eks... +lat. humus – torpaq)* – meyitin basdırıldığı yerdən (qəbirdən) çıxarılması. Cinayət-prosessual qanunvericiliyə görə e. müstəntiqin qərarı əsasında aparılır. Qərarda e.-nın məqsədi göstərilir. Meyitin müayinəsi, o cümlədən təkrar müayinəsi, ölənin (öldürülənin) şəxsiyyətinin müəyyən edilməsi, həmçinin ekspertiza aparılması üçün həyata keçirilən e. zamanı hal şahidləri, məhkəmə-tibb eksperti, zəruri hallarda isə digər mütəxəssislər iştirak edirlər.

**Ekspansiya** *(lat. expansio – yayılma, genişlənmə)* – inhisar birliklərinin və qruplarının hökmranlıq dairəsinin genişlənməsi. E. istər iqtisadi (məsələn, kapital ixracı), istərsə də qeyri-iqtisadi metodlarla (işğal etmə, diplomatik təzyiq göstərmə) həyata keçirilir. E. bəzi hallarda işğalçılıq müharibələrinə, xalqların siyasi müstəqillikdən məhrum edilməsinə səbəb olur.

**Ekspatriant** – öz vətənini tərk etməyə məcbur olan vətəndaşlığını itirən şəxs: emiqrantdan fərqli olaraq e. bir qayda olaraq vətəndaşlığını itirir.

**Ekspatriasiya** *(lat. ex patria – vətən sözündən)* – vətəndaşlığın itirilməsi. Bəzi dövlətlərin (məsələn, ABŞ-ın) vətəndaşlıq haqqında qanunvericiliyinin vətəndaşlığın itirilməsinə aid olan hissəsi. E.-nın mahiyyəti ondan ibarətdir ki, konkret dövlətin vətəndaşının başqa dövlətdə naturallaşdırılmasının ilkin vətəndaşlığın öz-özünə itirilməsinə səbəb olur. Vətənin hüdudlarından adətən vətəndaşlıqdan məhrum olma ilə nəticələnən könüllü və ya məcburi qaydada çıxarılma da e. hesab olunur.

**Ekspedisiya** *(lat. expeditio – qaydaya salma)* – mülki hüquqda müqavilə. Yük daşıma müqaviləsinə görə daşıyıcı əşyaları haqq (yüklərin daşınması üçün haqq) müqabilində olduqları yerdən təyinat yerinə daşımağı (yola salmağı), yola salan və ya yükü alan isə daşımanın dəyərini ödəməyi öhdəsinə götürür (AR MM-in 850.1-ci maddəsi).

Yük göndərən daşımanın təşəbbüsçüsü olan və daşıyıcı ilə müqavilə bağlayan şəxsdir. Yük göndərən həm yükün daşımadan əvvəl olduğu şəxs, həm də yükün göndərildiyi şəxs (yük alan) ola bilər. Yükün itirildiyi və ya məhv olduğu halda daşıyıcı onun tam dəyərini ödəyir. Əgər yük daşıyıcı tərəfindən daşımaya qəbul edildikdən sonra üç ay ərzində çatdırılmazsa, əksi sübut edilənədək itirilmiş sayılır. Bundan başqa, daşıyıcı çatdırmanın gecikdirilməsi və ya yükün zədələnməsi və ya qismən məhv olması ilə bağlı bütün zərər üçün məsuliyyət daşıyır. Daşıyıcı daşımanı tamamilə və ya qismən başqa daşıyıcının vasitəsilə həyata keçirdiyi halda da məsuliyyət daşıyır. Onun daşıma üçün yükü verdiyi daşıyıcıya qarşı reqres hüququ saxlanılır.

**Ekspeditor (nəqliyyat komisyonçusu)** – nəqliyyat ekspedisiyası müqaviləsinin tərəfi. E. üçüncü şəxslər (daşıyıcılar) vasitəsilə yüklərin ilkin yerindən təyinat yerinə daşınmasını öz adından, lakin yük göndərənin hesabına təşkil edən şəxsdir.

Daşıyıcılar ilə münasibətlərdə e. yük göndərənin hüquq və vəzifələrinə malikdir. E. yük göndərənin göstərişlərinə əməl etməlidir. O, daşıyıcıları öz məsuliyyəti ilə seçir. Əgər e. daşımanı tamamilə və ya qismən özü həyata keçirirsə, daşıyıcının hüquq və vəzifələrinə malik olur. Əgər bir neçə yük göndərənin əşyalarına aralıq və son təyinat yerləri eynidirsə, e. bu əşyaları qruplaşdıraraq yığma nəqliyyat təşkil edə bilər. Bütün hallarda o, yük göndərənin mənafelərini qorumalı və göstərişlərinə əməl etməlidir. O, qarşıya çıxan bütün çətinliklər barəsində yük göndərənə məlumat verməldir.

E.-un öz xidmətləri üçün muzd almaq və yük göndərən üçün çəkdiyi xərclərin əvəzinin ödənilməsi hüququ vardır. E.-un muzdu daşıyıcıların muzdlarının məbləğinin faiz dərəcəsindən (komisyon muzdundan), habelə daşımanın dəyəri və e.-un muzdu da daxil olmaqla, əvvəldən axıradək bütün daşıma xərcləri üçün muzddan ibarət ola bilər. E. yük göndərənin göstərişlərindən bütün kənaraçıxmalar üçün onun qarşısında məsuliyyət daşıyır. O, daşıyıcıların təqsiri üçün də məsuliyyət daşıyır, amma daşıyıcıları seçərkən lazımi vicdaqlılıq göstərdiyini sübuta yetirdiyi hallar istisnalıq təşkil edir (AR MM-in 852-ci maddəsi).

**Eksperiment** *(bax: istintaq eksperimenti, məhkəmə eksperimenti).*

**Eksperimental məktəb** – təlim-tərbiyəyə dair elmi fəaliyyətləri, yeni tərtib edilmiş tədris planını, proqramını, əyani və texniki vasitələri, dərslikləri təcrübədə sınaqdan keçirən, müəyyən pedaqoji hadisədə səbəb-nəticə əlaqələrini öyrənən, təlim və ya tərbiyə üsulunun təsirini tədqiq edən məktəb. Belə məktəblər adətən elmi-tədqiqat pedaqogika institutlarının nəzdində fəaliyyət göstərirlər.

**Eksperimental tədqiqatlar** – elmi araşdırmaların aparılması və ya praktiki təcrübə əsasında əldə olunmuş biliklərə əsaslanan və insanın həyat və sağlamlığının qorunmasına yönələn elmi fəaliyyət.

**Ekspert** *(lat. expertus – təcrübəli)* – elm, texnika, incəsənət və digər peşə sahəsində xüsusi biliklərdən istifadə etməklə rəy verməyə qadir olan, cinayət prosesində marağı olmayan, öz razılığı əsasında materialların tədqiqinin aparılması üçün cinayət prosesini həyata keçirən orqan və ya onun tələbi ilə ekspert müəssisəsinin rəhbərliyi tərəfindən təyin edilmiş şəxs (AR CPM-in 97.1-ci maddəsi). E. cinayət prosesi iştirakçılarının təklif etdikləri şəxslər sırasından təyin edilə və ya müdafiə tərəfindən dəvət oluna bilər. E. qarşısına qoyulmuş suallar üzrə rəy vermək üçün kifayət qədər elm, texnika, incəsənət və digər peşə sahələrinə aid xüsusi biliklərə malik olmalıdır. Şəxs cinayət prosesinin hüquqi məsələləri üzrə e. qismində təyin oluna və ya digər formada cəlb edilə bilməz.

**"Ekspert elmi-hakim" nəzəriyyəsi** – alman alimi Mittermayer tərəfindən XX yüzilliyin 60-cı illərində irəli sürülmüş konsepsiya. Bu nəzəriyyəyə uyğun olaraq ekspertiza cinayət sübutlarının xüsusi növüdür. O, dolayı (yanakı) sübutlara və ya dəlillərə çox oxşayır. Mittermayerin məntiqinə görə, əsas cəhət müəyyən sübutun mahiyyətinin aparıcı ixtisaslı adamların predmet üzrə fikir və mülahizələrinin ibarət olduğu fikir olmalıdır. Ekspertlər faktın elmi hakimləridir.

**Ekspert evristikası** – ekspert metodikalarında təsvir edilməyən, konkret ekspert tədqiqatı prosesində ekspert tərəfindən müstəqil surətdə tədqiq edilən qeyri-standart ekspert vəzifələrinin həll edilməsi üsulu.

**Ekspertiza** – cinayət işləri və ya mülki işlər üzrə faktiki məlumatların və halların müəyyən edilməsi məqsədilə prosessual qanunvericilikdə nəzərdə tutulmuş qaydada ekspertlər tərəfindən aparılan tədqiqat *(həmçinin bax: ekspert tədqiqatı).*

**Ekspert situasiyası** – tədqiqatın müxtəlif mərhələlərində ekspert vəzifəsinin həlli strukturunu müəyyən edən amillərin sistemi. Bu amillər hazırlıq mərhələsində əsas məlumatlarda ehtiva olunurlar. Növbəti mərhələlərdə tədqiqatın mövcud nəticələri belə amillər qismində çıxış edirlər. E.s.-nı yaradan amillərin sistemi daha ehtimaledici fərziyyələrin irəli sürülməsi, onların yoxlanması metodlarının seçilməsi və tədqiqatın planlaşdırılması əsasına xidmət edir.

**Ekspert texnologiyası** – məhkəmə-ekspert müəssisələrində məhkəmə ekspertizalarının aparılmasının daha rasional və səmərəli təşkilinin zəruri qaydalarının, üsul və vasitələrinin məcmusu. "E.t." termini 1984-cü ildə rusiyalı kriminalist-alimlər M.Y.Seqay və V.K.Strinj tərəfindən təklif edilmişdir.

**Ekspert tədqiqatı** – ekspertizaya təqdim edilmiş obyektlərin tədqiq edilməsi prosesi. E.t. ümumi halda bir-birini ardıcıl əvəz edən aşağıdakı mərhələlərdən ibarətdir: a) hazırlıq (ekspert müayinəsi də daxil olmaqla) mərhələsi; b) analitik (və ya ekspertiza obyektlərinin ayrılıqda tədqiqi mərhələsi) mərhələ; c) sintetik (və ya müqayisəli tədqiqat mərhələsi) mərhələ; ç) tədqiqatın nəticələrinin qiymətləndirilməsi və nəticələrin formalaşdırılması mərhələsi.

E.t.-nın hazırlıq mərhələsi ekspertizanın başlanğıc mərhələsidir. Bu mərhələ ekspertizaya təqdim olunmuş materiallarla, əsas məlumatlarla, ekspert müayinəsi ilə tanışlıq, ekspert fərziyyələrinin irəli sürülməsi, metodların seçilməsi və maddi bazanın hazırlanmasından ibarətdir.

E.t.-nın analitik mərhələsində ekspertiza obyektlərinin hər birinin əlamətləri və xassələri təhlil edilir, obyektləri fərdiləşdirən əlamətlərin məcmusu aşkar olunur. Bu mərhələ, bir qayda olaraq, maddi sübutların tədqiqi ilə başlanır, sonra isə müqayisəli materialın əlamətləri tədqiq edilir.

E.t.-nın sintetik mərhələsi müqayisə edilən obyektlərin kompleks əlamətlərinin üst-üstə qoyulmasından, ekspertiza obyektlərinin etalonlarla, modellərlə, standartlarla və i.a. müqayisə edilməsindən ibarətdir. Bu mərhələnin vəzifəsini obyektlərin eyniliyinin, oxşarlığının, fərqinin aşkar edilməsi təşkil edir. Bir sıra ekspert vəzifələrinin həlli üçün bu, əsas mərhələdir.

Nəticələrin formalaşdırılması e.t.-nın son mərhələsidir. Aralıq nəticələrin qiymətləndirilməsi bütün tədqiqat ərzində həyata keçirilir. Qəti qiymət bu mərhələdə verilir, nəticələr üçün əsaslar müəyyən olunur.

**Ekspert təşəbbüsü** – ekspert tapşırığında nəzərdə tutulmayan, lakin iş üçün əhəmiyyəti olan faktların və halların ekspertin şəxsi mülahizəsinə görə müəyyən edilməsi. Ekspertin belə təşəbbüs hüququ prosessual qanunvericilikdə nəzərdə tutulur. E.t.,

hər şeydən əvvəl, ekspert tərəfindən cinayətin törədilməsinə şərait yaratmış halların müəyyən edilməsində ifadə olunur.

**Eksport** – malların, əsərlərin, xidmətlərin, intellektual fəaliyyətin nəticələrinin, o cümlədən bunlara olan müstəsna hüquqların geri gətirmə haqqında öhdəliklər olmadan Azərbaycan Respublikasının gömrük ərazisindən aparılması. E. faktı malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçdiyi andan qeydə alınır.

**Eksport bankları** – xarici ticarətin kreditləşdirilməsini, valyuta əməliyyatlarının, eksport və import üzrə hesablaşmaları həyata keçirən, dövlət təşkilatlarının, digər təşkilatların və vətəndaşların xarici ticarət fəaliyyətinə xidmət göstərmək sahəsində ixtisaslaşmış kredit təşkilatları.

**Eksport krediti** – xarici firmaların və dövlətlərin kreditor ölkədə mal satın almaları məqsədilə eksportyorlar (firmalar, banklar və hökumətlər) tərəfindən onlara verilən kredit.

**Eksport kvotası** – xalq təsərrüfatı, onun ayrı-ayrı sahələri, bu və ya digər növ məhsulların istehsalı üçün eksportun əhəmiyyətini səciyyələndirən keyfiyyət göstəricisi.

**Eksport lisenziyası** – sərbəst gətirilməsinə, aparılmasına və ya tranzit edilməsinə yol verilməyən müəyyən saylı malların gətirilib-aparılması (və ya tranziti üçün – tranzit lisenziyası) üçün dövlət orqanlarının verdiyi xüsusi icazə.

**Eksport lizinqi** – lizinq şirkətinin milli firmadan avadanlıqlar alıb sonradan onları xaricdəki icarəçilərə verməsi ilə əlaqədar bağlanan əqd.

**Eksport mallar** – Azərbaycan Respublikasının gömrük ərazisindən aparılmalı (çıxarılmalı) olan mallar. Xarici ticarət predmetləri, sərnişinlər tərəfindən aparılan əmtəələr həmin mallara aid edilir.

**Eksport mükafatları** – maliyyə və dəyər xarakterli iqtisadi stimullaşdırma növlərindən biri. E.m.-ndan dövlət tərəfindən müəyyən növ məhsulların xaricə aparılması və bu zaman xarici tərəfdaşlara xidmətlər göstərilməsilə əlaqədar istifadə edilir.

**Eksport nəzarəti** – malların, əsərlərin, xidmətlərin, intellektual fəaliyyətin nəticələrinin, o cümlədən bunlara olan müstəsna hüquqların ölkədən aparılmasına dövlət tərəfindən nəzarətin xüsusi rejimi. Belə nəzarət xarici ticarət fəaliyyətinin həyata keçirildiyi zaman silahların, hərbi texnikanın və ikiqat təyinatlı əmtəələrin aparılmasına münasibətdə Azərbaycan Respublikasının milli mənafelərini müdafiə etmək məqsədilə müəyyən edilir.

**Eksport subsidiyası** – eksportun büdcə mənbələri hesabına dövlət stimullaşdırılmasının üsullarından biri. Belə subsidiyalaşdırma elmi-tədqiqat, təcrübə-konstruktor işlərini və eksport icraatını birbaşa maliyyələşdirmə formasında, habelə eyni məqsədlər üçün güzəştli kreditlər verilməsi yolu ilə mümkündür.

**Eksportun diversifikasiyası** – eksport üçün nəzərdə tutulmuş məhsul növlərinin və adlarının sayının artırılması.

**Ekspoze** *(ing., fr. expose)* – **1)** hər hansı sənədin, əsərin, yaxud onlardan çıxarışın qısa şəkildə ifadə olunması; **2)** qısa məlumat, hesabat; Avropanın parlament təcrübəsində – baş nazirin və ya xarici işlər nazirinin cari, başlıca olaraq xarici siyasət məsələlərinə dair qısa məlumatı.





**Ekspressiya** *(kriminologiyada)* – mimikada, pantomimdə, intonasiya və nümayişkaranə hərəkətdə hisslərin təzahürünün ifadəliliyi (səlistliyi) və zahiri təzahür qüvvəsi.

**Ekspropriasiya** *(eks... +lat. propris – xüsusi)* – **1)** əmlakın dövlət hakimiyyəti orqanları tərəfindən məcburi surətdə (əvəzsiz, yaxud haqqı ödənilməklə) özgəninkiləşdirilməsi. E.-nın obyekti həm daşınar əmlak, həm də daşınmaz əmlak ola bilər. E. müsadirə və rekvizisiya formasında həyata keçirilir; **2)** bir sosial sinfin digər sinfi (sinif daxilində isə bir təbəqənin digərini) iqtisadi yolla və ya zorakılıqla mülkiyyətdən və əvvəlki sosial mövqeyindən məhrum etməsi.

**Ekssedent** – riski qəbul edən sığorta şirkəti tərəfindən özünün tutduğu artıq məbləğin yenidən sığorta riskinin məbləği. Əgər belə e.-in məbləği riskin tam yenidən sığortası üçün kifayət etməsə, yenidən sığorta edilməli olan riskin tam yenidən sığortasınadək ikinci və üçüncü e. tətbiq edilir.

**Ekssedent (yenidən sığorta) müqaviləsi** – proporsional yenidənsığorta müqavilələrinin ən geniş yayılmış forması. Bu müqavilənin şərtlərinə uyğun olaraq sığortaya qəbul edilmiş bütün risklər limit və ya ekssedent çərçivəsində yenidənsığortaya verilməlidirlər.

**Ekssedent müqaviləsi** *(bax: ekssedent (yenidən sığorta) müqaviləsi).*

**Eksses** *(lat. exsessus – çıxış, geri çəkilmə, yayınma)* – kəskin toqquşma: ictimai qaydanın (asayişin) pozulması.

**Eksternat** *(lat. externus – xarici, kənar)* – təhsil müəssisəsində bilavasitə oxumayan şəxslərin burada keçirilən təhsil kursu üzrə imtahan verməsi sistemi. Bu yolla təhsil alanlara ekstern deyilir. İmtahan dövründə eksternə əlavə məzuniyyət verilir. Müvəffəqiyyətlə imtahan verən eksternlər məktəbi bitirənlərlə eyni hüquqa malik olur və müvafiq sənəd (şəhadətnamə və ya attestat) alırlar.

**Eksterritoriallıq** *(eks... +lat. territorialis – ərazidə)* – beynəlxalq hüquqda dövlətin xarici ölkə başçılarına, diplomatik nümayəndələrə və digər vəzifəli şəxslərə verdiyi imtiyazların məcmusu, yaxud ayrıca imtiyazı. Müxtəlif beynəlxalq təşkilatların əməkdaşları müqavilə əsasında e.-dan istifadə edə bilərlər. Bu imtiyazlar diplomatik əlaqələr haqqında 1961-ci il və konsul əlaqələri haqqında 1963-cü il Vena konvensiyalarına uyğun olaraq verilir. Hərbi dəniz və hava gəmiləri də xarici ərazilərin hüdudlarında burada qanuni yolla olduqları zaman e.-dən istifadə edirlər. Bu, BMT-nin dəniz hüququ üzrə 1982-ci il konvensiyasının 32-ci maddəsilə müəyyən edilmişdir.

**Ekstradisiya** *(lat. extraditio)* – şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün bir dövlət tərəfindən digərinə verilməsi. Müasir konstitusiyalar və qanunlar, bir qayda olaraq, öz vətəndaşlarının xarici dövlətə verilməsini qeyd-şərtsiz olaraq qadağan edirlər. Əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin verilməsinə, adətən, ancaq beynəlxalq müqavilə ilə nəzərdə tutulduğu hallarda yol verilir. Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə uyğun olaraq qanunvericiliklə ölüm cəzasının hələ də qüvvədə olduğu dövlətlərə şəxslərin verilməsinə yol verilmir. Bu, eyni dərəcədə siyasi əqidəsinə görə təqib etmənin mövcud olduğu dövlətlərə də aiddir.

E. Azərbaycan Respublikasında "cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" qanunla tənzimlənir (15

may 2001-ci il). Bu qanunun 2-ci maddəsinə görə, xarici dövlət tərəfindən verilməsi sorğu edilən şəxs yalnız onun törətdiyi əməl Azərbaycan Respublikasının və sorğu edən dövlətin qanunvericiliyinə uyğun olaraq cinayət sayıldıqda və həmin əməlin törədilməsinə görə azı bir il azadlıqdan məhrumetmə cəzası, yaxud daha ağır cəza növü nəzərdə tutulduqda verilə bilər.

**Ekstrafraxt** – yenidən yükləmənin və (və ya) boşaltmanın əlavə limanlarına görə fraxt məzənnələrinə edilən əlavə.

**Ekstrapolyasiya** *(lat. extra – artıq +polare – diqqətlə düzəltmək)* – hadisənin bir hissəsinə aid olan nəticələri onun digər hissələrinə şamil edilməsi; cinayətkarlığın kriminoloji proqnozlaşdırılmasının üç əsas metodlarından biri. Kriminologiyada E. statistik sıraların müəyyən dövr üçün illər üzrə formalaşdırılması yolu ilə həyata keçirilir. Həmin sıralarda cinayətkarlığın istiqaməti, xarakteri, dəyişiklik sürəti və strukturu ifadə olunur.

**Ekstraordinar proses** – Qədim Roma hüququnda xüsusi iddialara fövqəladə ədliyyə qaydasında baxılıb araşdırılması. E.p.-də məhkəmə iclasına çağırılma və işə məhkəmədə baxılması magistratlar və ya hakimlər tərəfindən həyata keçirilirdi. İddiaçının şikayəti müəyyən olunmuş aidiyyəti üzrə verilir, protokola daxil edildikdən sonra bu barədə cavabdehə məlumat verilirdi. Tərəflərin məhkəməyə gəlməsi qeyd-şərsiz tələb idi. Tərəflərin mənafeləri naminə nümayəndəliyə yol verildiyinə görə, işə tərəflərdən birinin gəlmədiyi halda da baxılırdı.

Hakim işə mahiyyəti üzrə baxır, onu hüquqlar nöqteyi-nəzərindən qiymətləndirir və qərar - hökm çıxarırdı. Xüsusi iddialar üzrə hökmlərdə hökmün icrası pul və ya natura formasında nəzərdə tutula bilərdi. Hökmdən icerarxiya tabeliyi qaydasında şikayət verilə bilərdi. Hökmün icrası əlavə olaraq xüsusi iddiaların verilməsini və ya prosessual hərəktlərin yerinə yetirilməsini tələb etmirdi. O, ərazinin inzibati və ya polis hakmiyyət orqanları ilə sıx əlaqədə olan icraçılar tərəfindən icra olunurdu.

E.p. aşağıdakı prinsiplərə əsaslanırdı: 1) çəkişmə (məhkəmə iş üzrə məlumatları toplamır, buna tərəfləri təhrik edirdi); 2) mühakimə icraatının qapalı olması; 3) əsas məhkəmə prosedurlarının protokollaşdırılması; 4) məhkəmə rüsumlarının ödənilməsinin məcburliyi (rüsumlar dəftərxana xərclərinin və işin məhkəməyəqədərki hazırlığına sərf edilən xərclər üçün tutulurdu).

**Ekstraordinar sessiya** *(bax: sessiya)*.

**Ekstremist** – son baxışların və son tədbirlərin tərəfdarı olan şəxs.

**Ekstremizm** *(lat. extremus – sonuncu)* – son baxışlara və tədbirlərlə tərəfdar çıxmaq (əsasən siyasətdə).

**Ekyü** *(European Currency Unit-in qısaldılmış adı)* – Avropa İttifaqının hesablaşma vahidi: avronün tətbiqinədək Avropa valyuta sisteminin əsası olmuşdur. E.-nün dəyəri "valyuta səbəti" əsasında Avropa İttifaqına daxil olan ölkələr tərəfindən müəyyən edilirdi.

**Ekzegetlər** *(yun. exegetes – təfsirçilər)* – Qədim Afinada qanunların, adət normalarının və müqəddəs hüququn təfsirçiləri. E.-dən biri qədim attik nəsli əyanları içərisindən xalq yığıncağı tərəfindən ömürlük seçilir, digəri isə delfi orakulunun göstərişi ilə təyin olunurdu.





**Ekzekusiya** *(lat. exsecutio – icra)* – **1)** hökmün (ölüm cəzası və ya bədən cəzaları haqqında) icra olunması; **2)** bədən cəzası.

**Ekzekvatura** *(lat. exsequare – yerinə yetirmək, icra etmək)* – **1)** konsul ekzekvaturası – məskunlaşdığı dövlətdə konsula öz funksiyalarını yerinə yetirmək üçün verilən icazə. Qanunvericiliyə görə dövlətin daxili işlər nazirliyi tərəfindən verilir; **2)** məhkəmə qətnamələrinin ekzekvaturası – bir ölkənin məhkəməsi tərəfindən çıxarılan qətnamənin digər ölkədə məcburi icrası üçün icazə. E., bir qayda olaraq, ikinci instansiya məhkəməsi tərəfindən həyata keçirilir.

**Ekzoqamiya** *(ekzo...+ yun. gamos – nikah)* – müəyyən kollektiv və ya qohum üzvlər arasında nikah münasibətlərini qadağan edən adət. E. ibtidai cəmiyyətdə daha geniş yayılmışdı. E. ilə qəbilə endoqamiyasının qovuşduğu hallar da olmuşdur. Bəzən e. geniş bir kütləni əhatə edirdi. İbtidai cəmiyyətin dağılması və xüsusi mülkiyyətin meydana gəlməsi ilə e. aradan çıxmış, öz yerini qan qohumları arasında nikahın qadağan olunmasına vermişdir.

**Eqoizm** *(fr.egoisme, lat. ego – mən sözündəndir)* – insanı cəmiyyətə və adamlara münasibətdə xarakterizə edən əxlaqi keyfiyyətlərdən biri. İnsanın öz davranışında yalnız öz şəxsi mənafelərini rəhbər tutmasında, cəmiyyətin və başqalarının mənafeyi ilə hesablaşmamasında ifadə olunur. E. fərdiyyəçiliyin təzahür formalarından biridir. O, qeyri-əxlaqi səciyyə daşıyır.

**Elan olunmuş kapital** – cəmiyyətin yaradıldığı zaman onun təsis sənədlərində, yaxud emissiya prospektində göstərilən kapital. Şirkətin tədavülə buraxılmış bütün səhmlərinin nominal dəyəri, nominal dəyərə malik olmayan (qanuna görə səhmlərin kapitalın hesabına aid edilə bilən hissəsi istisna olmaqla) bütün səhmlərin satışından əldə edilən gəlirlər və digər vəsaitlər kapitalın məbləğini təşkil edirlər.

**Elçi** – **1)** diplomatik rütbələrdən biri (səfər rütbəsindən aşağı olan rütbə). E. bir qayda olaraq missiyaya başçılıq edir; **2)** evlənmək məqsədi ilə oğlan evinin qız evinə göndərdiyi nümayəndə. Adətən, oğlanın yaxın qohumlarından (əmi, dayı, böyük qardaş, əmi arvadı, yaxud dayı arvadı) və bir nəfər ağsaqqaldan ibarət olur. Qız evində e.-lərə şirinçay verilməsi son razılıq əlaməti hesab olunur.

**Elektoral ədliyyə** – bir sıra ölkələrdə seçki tədbirləri ilə və dövlət orqanlarına seçkilərlə əlaqədar olan mübahisələrə baxılması və onların həlli üçün təsis edilmiş xüsusi məhkəmə və ya kvazimәhkəmə orqanı.

**Elektorat** *(lat. elector – seçici)* – parlament, prezident və ya bələdiyyə seçkilərində müəyyən siyasi partiyanın nümayəndələrinə səs verən bütün seçicilər. Adətən hər bir siyasi partiyanın və ya namizədin öz elektoratı olur.

**Elektrik stulu** – ABŞ-da ölüm cəzası haqqında hökmün icra olunması üçün tətbiq edilən qurğu; yüksək gərginliyə malikdir. E.s. ilk dəfə 1890-cı ildə tətbiq edilmişdir.

**"Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında elektrik və istilik enerjisi istehsal edən daimi qurğuların layihələşdirilməsi, inşası, istismarı və onlardan istifadənin hüquqi əsaslarını müəyyən edən qanunvericilik

aktı. Bu qanun 28 dekabr 1999-cu il tarixdə qəbul edilmişdir. Qanun üç fəsil və 15 maddədən ibarətdir.

**Elektron birjası** – ticarəti kompyuter şəbəkələri ilə həyata keçirən birja. E.b. ilk dəfə Bermud adalarında təşkil edilmişdir (1894). Birja dairəsini qüdrətli EHM əvəz etmişdir. 1990-cı ildə ABŞ-ın bir sıra böyük birjalarında e.b. gecə vaxtı tətbiq edilmişdir.

**Elektron-hesablama maşınları (EHM) üçün proqram** – Azərbaycan Respublikasında "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası qanununa görə EHM və digər kompyuter qurğuları üçün nəzərdə tutulmuş məlumat və komandaların məcmusunun müəyyən nəticəni almaq məqsədilə EHM-ə verilməsinin obyektiv forması. Kompyuter proqramını və ya məlumat bazasını qanuni əsasla əldə etmiş şəxs müəllifin və ya müəlliflik hüququnun digər sahibinin razılığı olmadan və müəllif haqqı vermədən nəticələrin əldə olunmasını qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirə bilər (qanunun 24-cü maddəsi).

**Elita** *(fr. elite)* – **1)** cəmiyyətin, müəyyən təbəqənin hər hansı bir hissəsinin ən görkəmli nümayəndələri, yaxud cəmiyyətin ayrı-ayrı zümrələrinin yüksək təbəqəsi; **2)** bəzi dövlətlərin silahlı qüvvələrində seçmə hərbi birləşmələr.

**Elmi ad** – pedaqoji və ya elmi-tədqiqat fəaliyyətindən asılı olaraq yüksək ixtisaslı elmi işçilərə verilən ad. Azərbaycan Respublikasında assistent, dosent, kiçik elmi işçi, baş elmi işçi, aparıcı elmi işçi, professor elmi adları, habelə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının müxbir üzvü, həqiqi üzvü (akademik) adları qəbul edilmişdir. Bəzi elmi adlar (dosent, baş elmi işçi, professor) Ali Attestasiya Komissiyası (AAK) tərəfindən təsdiq edilir. Bir sıra xarici ölkələrdə professor elmi adı, bir qayda olaraq, kafedra müdiri vəzifəsində işləyənlərə verilir.

**Elmi cəmiyyətlər** – elmi təqiqatla məşğul olan mütəxəssislərin, hər hansı elm sahəsi ilə maraqlananların könüllü cəmiyyətləri. Əsas fəaliyyəti elmi əsərlərin müzakirəsi və nəşrindən, elmi tədqiqatlar üçün vəsaitlər dərc etdirməkdən və i.a. ibarətdir. İstehsalatda çalışan alim və mütəxəssisləri elmi-texniki cəmiyyətlər birləşdirir. Elmlə maraqlanan gənclərin ali məktəblərdə və digər tədris müəssisələrində yaradılan cəmiyyətləri də e.c. adlanır. Məsələn, tələbə elmi cəmiyyəti, məktəb elmi cəmiyyəti və i.a.

E.c. beynəlxalq elmi ittifaqlar və birliklər çərçivəsində ölkələr arasında elmi-texniki əməkdaşlığın inkişafında mühüm rol oynayır, elmi əsərlərin geniş mübadiləsini aparır, elmi konfranslar, simpoziumlar, konqreslər keçirirlər.

**Elmi dərəcə** – müəyyən bilik sahəsində ali təhsilli mütəxəssisə verilən ixtisas dərəcəsi. Azərbaycan Respublikasında magistr, elmlər namizədi və elmlər doktoru elmi dərəcələri vardır.

Avropa ölkələrində elmi kadrların əsas attestasiya sistemləri ingilis-amerikan və fransız sistemləridir. ABŞ-da elmi dərəcə akademik dərəcə adlanır. İngiltərə və ABŞ-ın ali məktəblərini bitirənlərə elmlər (və ya sənətlər) bakalavrı elmi dərəcəsi verilir. İngilis-amerikan sistemində ikinci elmi dərəcə (və ya sənətlər) magistri adlanır. Sonrakı elmi dərəcə fəlsəfə doktoru və





ABŞ-ın bəzi universitetlərində elmlər doktorudur. Fəlsəfə doktoru elmi dərəcəsi Avstraliyada, Argentinada, Danimarkada, İranda, Kanadada, Meksikada və Türkiyədə də vardır. Təhsil və elmi səviyyəyə aid diplomların müvafiqliyini xüsusi hökumətlərarası konvensiyalar müəyyən edirlər.

**Elmi fəaliyyət** – yeni biliklərin əldə olunmasına və tətbiqinə yönəldilən fəaliyyət, o cümlədən fundamental, tətbiqi elmi tədqiqat.

**Elmi işçi** – elmi problem üzərində müstəqil çalışan və ya onun kollektiv həllində iştirak edən elmi-tədqiqat müəssisəsi işçisi. Azərbaycan Respublikasında assistent, kiçik elmi işçi, baş elmi işçi, dosent, professor və i.a. ad və vəzifələri vardır. Kiçik elmi işçi adı elmi-tədqiqat idarəsi elmi şurasının qərarına əsasən direktorun əmri ilə təsdiq edilir. Baş elmi işçi adı elmi əsərləri, ixtirası olan, müsabiqə yolu ilə baş elmi işçi vəzifəsinə seçilən, azı 5 il elmi-pedaqoji (o cümlədən 3 il elmi) stajı olan, həmin idarədə azı 1 il baş elmi işçi, şöbə və ya laboratoriya rəhbəri vəzifəsində işləyən elmlər doktoruna və ya elmlər namizədinə verilir.

**Elmi rəhbər** – elmlər namizədi elmi dərəcəsi almaq üçün çalışan aspiranta və ya dissertanta elmi məsləhət və istiqamət verməkdən ötrü təyin edilmiş yüksək ixtisaslı mütəxəssis (adətən, elmlər doktoru). E.r. aspirantla (dissertantla) birgə iş planı tərtib edir, ümumi nəzəri ədəbiyyatı mənimsəməkdə ona kömək edir.

**Elmi şura** – Azərbaycan Respublikasında ali məktəb və elmi idarələrdə elmi-tədqiqat işlərinin əsas istiqamətlərini müəyyənləşdirən məşvərətçi orqan. E.ş.-nın tərkibinə rektor (dekan), direktor, direktor müavini, elmi katib, görkəmli alimlər daxil olurlar. Ali məktəbin (fakültənin) elmi şurası tədris planını, elmi-tədqiqat və təlim-tərbiyə məsələlərini müzakirə edir, boş yerləri tutmaq üçün müsabiqə və seçkilər keçirir, müəllimləri və elmi işçiləri elmi ad almağa təqdim edir.

Elmi dərəcə vermək hüququna malik olan ixtisaslaşdırılmış E.ş.-nın iş prinsipi əsasnamə ilə şərh edilir. Doktorluq və namizədlik dissertasiyası müdafiə etmək hüququ verən ixtisaslaşdırılmış elmi şuralar ən qabaqcıl elmi-tədqiqat idarələrində və ali məktəblərdə yaradılır.

**Elmi-texniki fəaliyyət** – texnoloji, iqtisadi, sosial, humanitar problemlərin və digər mühəndis problemlərinin həll edilməsi, vahid sistem kimi elmin, texnikanın və istehsalatın fəaliyyətinin təmin olunması üçün yeni biliklərin əldə edilməsinə və tətbiqinə yönələn fəaliyyət.

**Elmi təşkilat** – təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq fəaliyyət göstərən hüquqi şəxs, habelə əsas elmi və (və ya) elmi-texniki fəaliyyəti elmi işçilərin hazırlığını həyata keçirən elmi işçilərin ictimai birliyi.

**Elmlər doktoru** – elmi dərəcə, bir qayda olaraq, artıq elmin müvafiq sahəsi üzrə elmlər namizədi alimlik dərəcəsinə malik olan şəxslərə verilir.

**Elmlər namizədi** – elmi dərəcə; ali təhsilli, namizədlik minimumlarını ödədikdən və namizədlik disssetasiyasını müdafiə etdikdən sonra ali təhsilli şəxsə verilir.

**Emal** – mülkiyyət hüququ əldə etmənin əsaslarından biri. AR MM-in 188-ci maddəsinə uğyun olaraq əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, şəxsin özünə

mənsub olmayan materialların emalı yolu ilə hazırlandığı yeni daşınar əmlaka mülkiyyət hüququnu materialların mülkiyyətçisi əldə edir. Emalın dəyəri materialların dəyərindən əhəmiyyətli dərəcədə yüksək olduqda, yeni əmlaka mülkiyyət hüququnu vicdanla hərəkət edərək materialları özü üçün emal etmiş şəxs əldə edir.

Müqavilədə sair qaydanın nəzərdə tutulmadığı hallarda özünün materiallarından hazırlanmış əmlaka mülkiyyət hüququ əldə edən mülkiyətçi emalın dəyərini emal edən şəxsə ödəməlidir, yeni əmlaka mülkiyyət hüququnu emal edən şəxs əldə etdikdə isə o, materialların dəyərini onun mülkiyyətçisinə ödəməlidir. Materialları emal etmiş şəxsin vicdansız hərəkətləri nəticəsində onları itirən materialların mülkiyyətçisi yeni əmlakın öz mülkiyyətinə verilməsini və ona vurulan zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

**Emansipasiya** *(lat. emancipatio)* – asılılıqdan, zülm və zorakılıqdan azad olma (qurtulma). E. hüquqlarda məhdudiyyətlərin, qeyri-bərabərliyin ləğvindən ibarətdir.

**Embarqo** *(isp. embargo – həbs qoyma, qadağan etmə)* – **1)** hər hansı ölkədən və ya hər hansı ölkəyə qızılın, əmtəələrin, yaxıd qiymətli kağızların gətirilib-aparılmasının dövlət hakimiyyəti tərəfindən qadağan edilməsi; **2)** başqa ölkələrə məxsus gəlirlərin öz ölkəsinin limanına girməsinin dövlət hakimiyyəti tərəfindən qadağan edilməsi, habelə başqa dövlətə məxsus olan gəmilərin, yüklərin və silah-sursatların tutulub saxlanması. E. beynəlxalq hüquq təcrübəsində tətbiq edilir.

**Emblem** – müəyyən anlayış, yaxud ideyanı (fikri) ifadə edən şərti və ya rəmzi təsvir. Məsələn, ağ göyərçin sülh rəmzidir.

**Emeritura** – inqilabaqədərki Rusiyada xüsusi dövlət təqaüdünün adı; istefaya gedən dövlət qulluqçularına verilirdi. Kimsəsizlərə, dul qalanlara emerital kassadan verilən müavinət də e. adlanırdı.

**Emfitevzis** *(yun. emphyteusis – peyvənd edirəm, əkirəm)* – Roma və bir sıra başqa dövlətlərin hüququnda özgə torpaqlarından irsi uzunmüddətli istifadənin (torpaq icarəsinin) xüsusi növü. Belə hüquqda həmçinin icarəyə götürülmüş torpaq sahəsində qurğular tikmək, məhsul yığmaq, torpaq sahəsini irsən vermək, müəyyən şərtlərlə sahəni girov qoymaq, onu bağışlamaq və satmaq nəzərdə tutulur. Torpaq sahəsinin istifadəçisi mülkiyyətçiyə hər il qabaqcadan icarə haqqını ödəyir və dövlət vergilərini verir.

**Emissar** *(lat. emissarius – elçi, göndərilən)* – son dərəcə məxfi olan tapşırıqla hər hansı siyasi təşkilat və ya dövlət tərəfindən (adətən, başqa ölkəyə) göndərilən şəxs, nümayəndə.

**Emissiya** *(lat. emissio – buraxılış)* – tədavülə pul və ya qiymətli kağızlar buraxılması. E. XVIII-XIX yüzilliklərdə Avropa ölkələrində xüsusi rol oynamışdır.

**Emissiya bankları** – nağd pulların (pul nişanlarının) buraxılması (emissiyası) sahəsində inhisar hüququna malik olan mərkəzi və ya sair dövlət bankları.

**Emissiya əməliyyatları** – səhmdar cəmiyyətlərinin, bankların, xəzinədarların və digər müəssisələrin pulların tədavülə buraxılması və qiymətli kağızların emissiyası üzrə fəaliyyəti.

**Emissiya gəliri** – bankların və maliyyə şirkətlərinin qiymətli kağızların emissiyasından əldə etdikləri gəlir. Öz kapitalını artırmaq üçün səhmlərin yeni buraxılışına meyl edən səhmdar cəmiyyətləri adətən səhmlərin yerləşdirilməsini böyük pul kapitalına malik olan banklara verirlər. Banklar öz növbəsində səhmlərin yerləşdirilməsi üçün öz filiallarının şəbəkəsindən və çoxsaylı müştərilərdən istifadə edirlər. Yenidən buraxılmış səhmlərin realizəsini öz üzərinə götürən banklar onları səhmdar cəmiyyətlərindən satdıqları məzənnəyə nisbətən daha aşağı məzənnə ilə satın alırlar.

**Emissiya hüququ** – pulların və ya qiymətli kağızların tədavülə buraxılması ilə əlaqədar münasibətləri tənzim edən hüquq normalarının məcmusu.

**Emissiya intizamı** – emissiya əməliyyatları üçün müəyyən edilmiş rejimə emitentlər tərəfindən əməl olunması.

**Emissiya kursu** – qiymətli kağızların emissiyasının həyata keçirildiyi kurs; emitentin maliyyə vəziyyətindən, onun ssuda kapitalları bazarındakı mövqeyindən, faiz məzənnələrinin dinamikasından asılı olaraq müəyyən edilir. Dövlət qiymətli kağızlarının kursu açıq bazarda əməliyyatlar yolu ilə mərkəzi banklar tərəfindən tənzimlənir.

**Emissiya qiymətli kağızlar** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə hər cür qiymətli kağız, o cümlədən eyni zamanda aşağıdakı əlamətlərlə xarakterizə olunan adsız qiymətli kağız; təsdiq edilməli olan əmlak və qeyri-əmlak hüquqlarının məcmusunu təsbit edir.

**Emissiya prospekti** – emissiya qiymətli kağızların qarşıda duran buraxılışı haqqında zəruri məlumatları özündə ehtiva edən müəyyən formaya malik sənəd; səlahiyyətli dövlət orqanlarında qeydiyyatdan keçirilir və ümumi məlumat üçün qanunvericiliklə müəyyən edildiyi hallarda dərc olunur.

**Emissiya vergisi** – qızıl standartı şəraitində müəyyən limiti aşan bank biletləri emissiyasının qızılla ödənilməməsi ilə əlaqədar ödənilən vergi. Tədavülə həddən artıq çox buraxılması nəticəsində pulla təminatdan əhalinin verdiyi itkilər də e.v. adlanır.

**Emitent** *(lat. emittere – buraxmaq; ing. emitter)* – geniş mənada pulların və ya qiymətli kağızların emissiyasını həyata keçirən subyekt. Hüquqi şəxslər və ya icra hakimiyyəti orqanları, yaxud həvalə edilmiş hüquqların həyata keçirilməsi üzrə qiymətli kağızların sahibləri qarşısında öz adından öhdəliklər daşıyan yerli özünüidarə orqanı e. ola bilər.

**Emitləşdirmə** – tədavülə pullar və qiymətli kağızlar (səhmlər, istiqrazlar) buraxmaq, emissiya həyata keçirmək.

**Emosiya** *(lat. emovere – həyəcanlandırmaq, əsəbləşdirmək; fr. emotion)* – gerçəkliyin əks etdirilməsi prosesində insanda yaranan hissi hal. Emosional hallar (əhval-ruhiyyə, affekt və ehtiras) təsir qüvvəsinə və cərəyanetmə müddətinə görə zəif şiddətli olmaqla bir-birindən fərqlənir. E.-ların inkişafında baş beynin yarımkürələrində gedən proseslərin və qabıqaltı törəmələrin mühüm əhəmiyyəti vardır. Baş beyin qabığı ilə qabıqaltı törəmələrin qarşılıqlı əlaqəsinin kəsilməsi e.-ların pozulmasına səbəb olur.

**Empiriya** *(kriminologiyada)* – **1)** xarici aləmin hiss orqanları vasitəsilə qavranılmasında insan təcrübəsi; **2)** eksperimentdən fərqli olaraq, adi təbii şəraitdə həyata keçirilən müşahidə.

**Endokronoloji nəzəriyyə** *(kriminologiyada)* – cinayət törətməyə meyilli olan insanın cinayətkar davranış qabiliyyətini izah edən, onun endokrin sisteminin vəziyyətinin və fəaliyyətinin xüsusiyyətləri ilə fərqlənən az yayılmış tibbi-kriminoloji konsepsiya. Cinayətkar davranışın səbəblərinin izah olunmasında bu konsepsiyaya M. Şlapp, E. Smit, L. Berman və başqaları tərəfdar çıxmışdır.

**Endoqamiya** *(endo... +yun. gamos – nikah)* – müəyyən ictimai qrup (qəbilə, tayfa, kasta) daxilində nikah adəti. İbtidai cəmiyyətdə qəbilə ekzoqam, tayfa isə endoqam idi. İbtidai icma münasibətlərinin dağıldığı dövrdə bir sıra xalqlarda (malaqasilərdə, ərəblərdə və i.a.) qəbilə, yaxud daha çox qəbilədaxili qruplar – patronimiyalar endoqam olmuşdur. Bu, əmlakı yaxın qohumlarda saxlamaq məqsədindən irəli gəlmişdir. Azərbaycanda e.-nın olması haqqında Moisey Kalankatuklunun "Alban tarixi" əsərində məlumat verilir.

**"Enerji resurslarından istifadə haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasının enerji resurslarından istifadə sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və sosial əsaslarını, habelə onun həyata keçirilmə mexanizminin əsas istiqamətlərini müəyyən edən, bu sahədə dövlət ilə hüquqi və fiziki şəxslər arasında münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 30 may 1996-cı il tarixdə qəbul edilmişdir. Qanun səkkiz fəsil, 33 maddədən ibarətdir.

**Enerji-təchizat müqaviləsi** – alqı-satqı müqaviləsinin növlərindən biri. Bu müqaviləyə görə enerji təchizatı təşkilatı birləşdirilmiş şəbəkə vasitəsilə abonentə (istehlakçıya) eneji verməli, abonent isə qəbul etdiyi enerjinin haqqını ödəməlidir. Müqavilədə enerjinin istehlak rejimi, istismar təhlükəsizliyi, istifadə olunan cihaz və qurğuların saz halda olmalarına dair şərtlər də nəzərdə tutulur.

**Ensiklika** *(yun. enkyklios – dairəvi)* – Roma papasının bütün katoliklərə və ya ayrıca bir ölkənin katoliklərinə göndərdiyi məktub. E. dini etiqad və ictimai-siyasi məsələlərə aid olur. Katolik kilsəsinin qanunlarına görə e. müzakirə oluna bilməz və onun icra edilməsi məcburidir. Roma papası e. vasitəsilə katolisizmin yayıldığı ölkələrdə katoliklərin ictimai fikrini formalaşdırmağa və sosial-siyasi münasibətlərə təsir göstərməyə çalışır.

**Ensiklopediya** *(yun. enkyklapaideia – biliklər dairəsi)* – bütün elm və əməli fəaliyyət sahələrinə dair sistemli və yığcam məlumat verən elmi nəşr. E.-larda məlumatlar və materiallar əlifba sırası ilə düzülür. Məzmununa görə universal, universal-milli e.-lar və sahəvi e.-lar olur.

**Epanaqoqa** *(yun. epanagoge, hərfi mənası yenidən canlandırma, qaytarma)* – Bizansda 879-cu ildən sonra hakimlər üçün tərtib edilmiş rəhbər göstərişlər. Proxiron əsasında işlənib hazırlanmışdır.

**Epataj** *(kriminologiyada)* – hamılıqla (ümumən) qəbul olunmuş norma və qaydaları pozan münaqişəli ədəbsizlik, ədəbazlıq, davranış.

**Epidemiya** *(yun. epidemia – yoluxucu xəstəlik)* – müəyyən əhali qrupu arasında və ya müəyyən ərazidə sürətlə və fasiləsiz olaraq yayılan infeksion xəstəlik. E.-nın ən təhlükəli forması pandemiyadır. E.-nın bu forması dünya ərazisinin əksər hissəsini əhatə (məsələn, qripp) edir. E. ölkədə fövqəladə vəziyyət elan olunmasının əsaslarından biridir.





**Epikantus** *(kriminalistikada)* – yuxarı göz qapağından keçməklə göz bucağını qismən və ya tamamilə örtən dəri qırışı. E.-dan siqnal çəkilişindən və portret-kriminalistik ekspertiza istifadə olunur.

**Epiqamiya** *(alm. epigamie)* – müxtəlif yunan dövlətlərində vətəndaşlar arasında müqavilə ilə nikah bağlanmasının təminatlı hüququ. Eramızdan əvvəl 451-ci ildə e. haqqında qanun nikaha daxil olan hər iki tərəfdən tam vətəndaşlıq hüquqlarının olmasını tələb edirdi. Ellinizm dövründə e. dövlətlərarası münasibətlərdə müttəfiqlərin müqavilə öhdəliklərində xüsusi olaraq qeyd olunurdu.

**Epilepsiya** *(bax: ruhi xəstəlik).*

**Epizootiya** – çoxsaylı heyvanlar (həm ev heyvanları, həm də vəhşi heyvanlar) arasında və ya əhəmiyyətli ərazilərdə eyni vaxtda yayılan xəstəlik. E. ölkədə fövqəladə vəziyyət elan olunması əsaslarından biridir.

**Epistat** *(yun. epistates – rəis)* – yerli idarəçilik orqanlarında vəzifəli şəxs. Qədim Afinada və Yunan-Roma Misirində püşkatma yolu ilə təyin edilən məhkəmə və polis orqanlarının rəisi vəzifəsində çalışan şəxs e. adlanırdı. Ptolomeylər dövründə məbədlərin əmlakına nəzarət edən çar məmuruna da e. deyilirdi.

**Erini** *(yun. erinyes)* – Qədim yunan əsatirində intiqam (qisas) alma və cəzalandırma allahı (mələyi); cinayətkarları təqib edir və onlara cəza verirdi. E. səmimi peşimançılığını ifadə edən cinayətkarlara münasibətdə allah-xeyirxaha (evmenidə) çevrilirdi.

**Erqastul** *(lat. ergastulum)* – Qədim Romada qulların saxlandığı yeraltı həbsxana (zindan). E.-da saxlanan qandallanmış qullar xüsusi ağır işləri yerinə yetirirdilər.

**Erllər** – qədim ingilis-sakson pravdalarında (VII yüzillikdə) sıravi icmaçılar olan kerllərin əksinə olaraq əyanlar zümrəsinə mənsub olan şəxslər. E. rütbəsi 1066-cı il normand işğalından sonra qorunub saxlansa da, tədricən özgəninkiləşdirilməyən, bölünməyən və nəsildə yaşlı şəxsə keçən xüsusi xidmətlə əlaqədar olmayan fəxri titula çevrilmişdir. E. qitənin "qraf" tituluna uyğundur.

**Erotik materiallar** – oxucuda, tamaşaçıda və ya dinləyicidə seksual reaksiyaya səbəb olan insan hərəkətlərinin (çılpaq halda) təsvirini əks etdirən əsərlər, nəşr əsərləri, təsvirlər (foto-şəkillər), kompyuter proqramları, kino-filmlər, video-yazılar, teleradio verilişləri.

**Eses** *(alm. SS - Schzsiztaffeln – mühafizə dəstələri)* – faşist Almaniyasında hərbiləşdirilmiş imtiyazlı təşkilat kimi fəaliyyət göstərmişdir.

**Esiment** *(yun. esiment – rəis)* - eramızdan əvvəl VI yüzillikdə yunan şəhərlərində daxili çaxnaşmaların qarşısını almaq sahəsində fövqəladə səlahiyyətlərə malik olan hakim, məsələn, Pittak Mitilend şəhərində, Xarond isə Katan şəhərində E. olmuşdur. Bəzi şəhərlərin, məsələn, Meqarenin, Miletin və Naksosun dövlət məmurları da e. adlanırdı.

**Eskadra** *(fr. eskadre – dördbucaq şəklində hərbi düzülüş)* – **1)** hərbi dəniz donanmasında müxtəlif gəmilərin əməli-taktiki birləş-

məsi. İki və ya daha çox gəmi divizionundan ibarət inzibati və ya taktiki hissə. E.-ya döyüş gəmilərindən əlavə flaqman gəmiləri, həmçinin üzən baza və yardımçı gəmilər də daxil ola bilər; **2)** ikinci dünya müharibəsi (1939-1945) zamanı bəzi xarici ordularda hərbi hava qüvvələrinin birləşməsi.

**Eskadra minadaşıyıcısı (esmines)** – düşmən gəmilərinə torpeda və artilleriya zərbələri endirmək, kəşfiyyat aparmaq, döyüş və konvoy gəmilərini qorumaq, sualtı qayıqları tapıb məhv etmək və minalanmış manеələr düzəltmək üçün hərbi gəmi. E.m.-nın silahları torpedalardan, raketlərdən, universal toplardan, zenit avtomatlarından və minalardan ibarət olur.

**Eskadrilya** *(fr. eskadrille)* – hərbi və mülki aviasiyanın bir neçə kiçik dəstədən ibarət olan bölməsi (9-25 təyyarə, vertolyot). Bir neçə E. aviaalay (aviaqrup, aviacinah), mülki aviasiyada isə dəstə təşkil edir. Müasir hərbi aviasiyada əsas taktiki və atəş bölməsidir.

**Eskadron** *(fr. eskadron)* – 3-4 zavoddan və iki dəstədən (idarə və təsərrüfat) ibarət nizami süvari qoşun bölməsi. E. 120-dən 200-dək süvaridən ibarət olmuşdur (XX yüzilliyin əvvəlində).

**Eskort** *(fr. eskorte – müşayiət)* – **1)** hərbi konvoy, mühafizə, müşayiət dəstəsi; **2)** hərbi gəmilərin və nəqliyyat gəmilərinin eskadra mina gəmiləri, keşikçi gəmilər, sualtı qayıqlar və ya təyyarələr ilə müşayiət olunması; **3)** nəqliyyat təyyarələrinin və digər təyyarələrin, məsələn, dövlət xadimlərini aparan təyyarələrin qırıcı təyyarələrlə müşayiət olunması; **4)** rəsmi şəxslərin qarşılanması və yola salınması, dəfn mərasimi zamanı və i.a. hallarda təyin edilən fəxri eskort.

**Eskrou** *(ing. escrow)* – ingilis-amerikan hüququnda üçüncü şəxsin pul məbləğinin digər şəxsin adına deponent edilməsi; həmin məbləğ şəxsə məlum xidmətləri yalnız yerinə yetirdikdən sonra verilir.

**Estoppel** *(lat. estoppel)* – dövlətin beynəlxalq müqavilələrin icrasının kəsilməsinə, dayandırılmasına və ya həmin müqavilələrin etibarsız hesab olunması əsasına istinad etmə hüququnu itirməsi. Bu müddəa beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vena konvensiyasının 45-ci maddəsində nəzərdə tutulmuşdur.

**Estrada doktrinası** *(beynəlxalq hüquqda)* – yeni hökumətlərin tanınmasına dair 27 sentyabr 1930-cu il koomunikesində Meksikanın xarici işlər naziri X.Estrada tərəfindən formulə edilmiş doktrina. “Hökumətlərin qeyri-formal tanınması doktrinası” adlanır. Tobara doktrinasının əksinə olaraq e.d. belə hesab edir ki, müəyyən ölkənin hökumətinin tanınması xarici dövlətlərin xüsusi aktının olmasını tələb etməməlidir.

**Eşafot** *(fr. echafoud – taxta meydança)* – üzərində qətl, rüsvayçı cəza tədbirləri və i.a. həyata keçirilən taxta meydança. E. orta əsrlərdə geniş yayılmışdı. O, bir sıra ölkələrdə (Fransada, Rusiyada) XIX yüzilliyin sonunadək mövcud olmuşdur.

**Eşelon** *(fr. echelon – pillə; bölüşdürmə, düzmə)* – **1)** döyüş nizamının dərininə bölünmüş hissəsi və ya qoşun dəstələri (hərəkət zamanı); **2)** hərbi strategiyada-müharibənin gedişində dövlətin cəbhə boyu ardıcıllıqla düzülən silahlı qüvvələrinin növbəti qruplaşması; **3)** hərbi hissələrin





daşınmasında daşınma vahidi (qatar, avtomobil dəstəsi, təyyarə qrupu).

**Eşevenlər** *(fr. echevins)* – feodal Fransasının şimal şəhərlərində vəzifəli şəxslər; inzibati funksiyalara və (və ya) məhkəmə funksiyalarına malik idilər. Senyorlar tərəfindən təyin edilir və ya şəhərlilər tərəfindən seçilirdi. E. institutu 1789-cu ildə Böyük Fransa inqilabı gedişində ləğv edilmişdir.

**Eşikağası (eşikağasıbaşı)** – XV yüzillikdən XIX yüzilliyin əvvəlinədək Azərbaycanda mövcud olmuş vəzifə. Səfəvilər dövründə e. sarayda məclis, toy və mərasimlərin keçirilməsinə, elçi və qonaqların qəbul olunmasına, xanlıqlar dövründə isə xanlığın daxili işlərinə, ictimai tikintilərə, xan malikanəsinin idarə olunmasına və i.a. nəzarət edirdi.

**Etatizm** *(fr. etat – dövlət)* – bəzi hallarda cəmiyyətin iqtisadi həyatında dövlətin rolunun gücləndiyini göstərmək üçün işlədilən termin. “E.” terminini (dövlətin mərkəzləşdirilməsi mənasında) ədəbiyyata XIX yüzilliyin sonunda İsveçrə burjua liberalı N. Dro gətirmişdir. Dövlət kapitalizminin təzahür formalarından biri olan e. Türkiyə Respublikasının ilk dövrləri üçün daha səciyyəvi olmuşdur. Hələ 1922-ci ildə Mustafa Kamal Paşa Atatürk “bilavasitə dövlət əhəmiyyətli idarə və müəssisələri” dövlətləşdirməyi (e.-in türkcə “dövlətçilik” adı da bununla əlaqədardır) təklif etmişdir. Sonralar e. atatürkçülərin əsas prisiplərindən biri olmuş, 1931-ci ildə Cümhuriyyət Xalq Partiyasının proqramına və hətta Türkiyə hökumətinin rəsmi iqtisadi doktrinası kimi Türkiyə Respublikasının 1937-ci il Konstitusiyasına daxil edilmişdir.

**Etibardan sui-istifadə** – aldatma ilə yanaşı dələduzluq törətmənin üsullarından biri.

**Etibar edən** – müəyyən hüquqi əhəmiyyətli hərəkətlərin yerinə yetirilməsini digər şəxsə (vəkalət alana) etibar edən fiziki və ya hüquqi şəxs, tapşırıq müqaviləsinin bir tərəfi; hüquqi hərəkətlər vəkalət verənin adından və onun öz hesabına yerinə yetirilir.

**Etibar edilmiş mülkiyyət (trast)** – ingilis-amerikan hüququnda mülkiyyətin xüsusi forması; mahiyyəti bir şəxsin – vəkalət alan mülkiyyətçinin ona digər şəxs – trastın təsisçisi (settlor) tərəfindən verilən mülkiyyəti idarə etməsindən ibarətdir. Bu zaman sanki mülkiyyət hüququnda nəzərdə tutulmuş səlahiyyətlərin “parçalanması” baş verir. Vəkalət alan mülkiyyətçi əldə etdiyi əmlakdan ancaq təsisçi tərəfindən göstərilən məqsədlərə uyğun istifadə edir. Bundan başqa o, öz hüququnu özü üçün deyil, digər şəxslər-mənfəət götürənlər (benefisiarlar) üçün həyata keçirir. Mənfəət götürən qismində həm təsisçinin özü, həm də onun göstərdiyi şəxslər çıxış edə bilər. Vəkalət alan mülkiyyətçi qismində isə hüquqi orqanlar, qəyyum və i.a. kvazivəkalətalan mülkiyyətçilər) çıxış edə bilərlər.

**Etibarı itirmə** – müdiriyyətin təşəbbüsü ilə əmək müqaviləsinə xitam verilməsinin əlavə əsaslarından biri. E.i. ilə əlaqədar işdən yalnız bilavasitə pul vəsaitləri və əmtəə sərvətləri sahəsində çalışan işçilər təqsirli hərəkətlərə yol verildikdə çıxarıla bilərlər.

**Etibarlı fondlar** – ingilis hüququna görə hansısa etibar edilmiş şəxsin onun nəzarətinə verilmiş əmlakı üçüncü şəxslərin (fond benefisiarlarının) xeyrinə idarə etmək öhdəliyi. Həm etibar edilmiş şəxsin özü, həm də əmlakı idarə edən üçüncü şəxslər sırasına daxil ola bilərlər. Deməli, e.f. hüquqi şəxs hesab olunmurlar.

**Etibarlı idarə edən** – əmlakın idarə təsisçisinin mənafeləri üçün vəkalətlə idarəçiliyini həyata keçirən şəxs.

**Etibarlı pay fondları** – bir sıra ölkələrdə vətəndaşların xırda əmanətlərini akkumlyasiya edən kredit-maliyyə idarələri. E.p.f. səhmdar cəmiyyətləri deyillər və öz kapitallarını payları satmaq yolu ilə səfərbər edirlər.

**Etibarlı şəxs** – **1)** seçki birliyi tərəfindən deputatlığa namizədliyə cəlb olunmuş şəxs, yaxud seçki kampaniyasına kömək etmək üçün seçkili vəzifəyə namizədliyə cəlb olunmuş şəxs; **2)** müflisləşmiş hüquqi şəxsin ləğv edildiyi və ya yenidən təşkil edildiyi zaman onun əmlakını idarə etmək üçün arbitraj tərəfindən təyin olunan, yaxıd kreditorların yığıncağında seçilən marağı olmayan fiziki və ya hüquqi şəxs; etibar edənin onun əvəzinə müəyyən funksiyaların yerinə yetirilməsinin tapşırıldığı (belə tapşırıq notariusda təsdiq edilməlidir) şəxs; **3)** digər şəxsin adından və onun tapşırığı ilə əqd bağlayan şəxs: bu zaman etibarlı şəxs ona etibarnamə əsasında verilmiş səlahiyyətlər çərçivəsində hərəkət edir.

**Etibarnamə** – mülki hüquqa görə bir şəxsin üçüncü şəxslər qarşısında təmsilçilik üçün başqa şəxsə verdiyi yazılı vəkalət (AR MM-in 362.1-ci maddəsi). Təmsil edilən təmsilçinin əqd bağlaması üçün yazılı vəkaləti bilavasitə müvafiq üçüncü şəxsə təqdim edə bilər. Notarial forma tələb edən əqdlərin bağlanması üçün etibarnamə notariat qaydasında təsdiq edilməlidir.

Əmək haqqının və əmək münasibətləri ilə bağlı digər haqların, müəlliflərin və ixtiraçıların haqlarının, pensiyaların, müavinətlərin və təqaüdlərin, fiziki şəxslərin banklardakı əmanətlərinin və poçt göndərmələrinin, o cümlədən pul və bağlamaların alınması üçün etibarnamə etibar edənin işlədiyi və ya təhsil aldığı təşkilat, onun yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı və müalicə olunduğu stasionar müalicə müəssisəsinin müdiriyyəti tərəfindən də təsdiq edilə bilər. Hüquqi şəxs adından etibarnamə onun rəhbərinin və ya nizamnaməsi ilə buna vəkil edilmiş digər şəxsin imzası ilə, həmin təşkilatın möhürü vurulmaqla verilir.

Etibarnamənin qüvvədə olma müddəti üç ili keçə bilməz. Əgər etibarnamədə müddət göstərilməyibsə, o, bağlandığı gündən bir il ərzində qüvvəsini saxlayır. Bağlandığı tarix göstərilməyən etibarnamə əhəmiyyətsizdir. Xaricdə hərəkətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulan və qüvvədə olma müddəti göstərilməyən etibarnamə notarius tərəfindən təsdiqləndikdə etibarnaməni vermiş şəxs tərəfindən ləğv edilənədək qüvvəsini saxlayır.

**Etiket** *(fr. etiquette)* – **1)** monarx saraylarında, diplomatik dairələrdə qəbul edilmiş davranış qaydaları; **2)** hər hansı bir elitada qəbul edilmiş davranış və nəzakət qaydaları; **3)** hazırlayıcının adı və ünvanı, əmtəənin istehlak xassələri və keyfiyyəti, qiyməti, yaxud qeyd olunan məlumatlardan biri göstərilməklə əmtəə, eksponat və i.a. üzərinə yapışdırılmış yarlıq.

**Etiqad azadlığı** *(bax: dini etiqad azadlığı).*

**Etimadnamə** *(beynəlxalq hüquqda)* – diplomatik nümayəndələrin təyin edildikləri zaman təqdim etdikləri sənəd. Diplomatik nümayəndənin missiyasının və şəxsiyyətinin nümayəndəli (diplomatik) xarakterini təsdiq edir. Səfir və elçilər üçün e. bir dövlət başçısından digərinə müəyyən edilmiş formada yazılır, müvafiq surətdə imzalanır və möhürlənir. E.-də onu göndərənin və alanın adı və titulu (rütbəsi), diplomatik nümayəndənin adı və rütbəsi, ona bütün əlaqələrdə məhz həmin dövlətin nümayəndəsi kimi "inanmaq" (etimad göstərmək) xahiş edilir. Diplomatik nümayəndə e.-ni dövlət başçısına onunla ilk görüş (audensiya) zamanı təqdim edir, onun təsdiq edilmiş surəti isə qabaqcadan xarici işlər idarəsinin başçısına göndərilir. Diplomatik nümayəndə vəzifəsini tərk etdiyi zaman övdətnamə təqdim edilir.

**Etimadsızlığın konstruktiv votumu** – hökumət başçısına etimadsızlıq votumunun xüsusi forması; parlament üzvlərinin əksər səs çoxluğu ilə və ya palametin, hökumətin qarşısında məsul olduğu palatası tərəfindən onun üçün varis seçilməsində ifadə olunur. AFR-in, Sloveniyanın, Papua-Yeni Qvineyanın və bəzi başqa dövlətlərin konstitusiyalarında nəzərdə tutulmuşdur. Bu hökumət böhranını aradan qaldırmağa imkan verir.

**Etimadsızlıq votumu** – parlament təcrübəsində (bir qayda olaraq, parlamentin aşağı palatasında) hökumətin, yaxud ayrıca nazirin siyasi xəttinin, müəyyən aksiyasının və ya qanun layihəsinin ifadə olunan bəyənilməməsi. E.v. haqqında məsələnin qoyuluşu təşəbbüsü hökumətin özü, parlament fraksiyası və ya deputatlar qrupu tərəfindən irəli sürülə bilər. Hökumətə e.v. təcrübədə onun istefaya getməsinə və yeni hökumətin formalaşdırılmasına (hökumət böhranı ilə əlaqədar), yaxud parlamentin aşağı palatasının buraxılmasına və vaxtından əvvəl seçkilərin keçirilməsinə səbəb olur.

**Etimad votumu** – parlament təcrübəsində (bir qayda olaraq, parlamentin aşağı palatasında) hökumətin, yaxud ayrıca nazirin siyasi xəttinin, müəyyən aksiyasının və ya qanun layihəsinin ifadə olunan bəyənilməsi. E.v. haqqında məsələnin qoyuluşu təşəbbüsü hökumətin özü, parlament fraksiyası və ya deputatlar qrupu tərəfindən irəli sürülə bilər.

**Etiologiya** *(kriminologiyada)* – hadisələrin (məsələn, təbabətdə xəstəliyin) əmələ gəlməsi səbəbləri və şəraiti haqqında təlim *(həmçinin bax: cinayətkarlığın etiologiyası).*

**Etiraz edilmiş veksel** – veksel sahibinin borclunun ödənişdən imtina etdiyini notarial qaydada təsdiqlədiyi veksel. Etirazın vaxtında edilməsi (ödənişin növbəti günündən sonra bir neçə gün ərzində) veksel sahibinə borcluya görə solidar məsuliyyət daşıyan bütün şəxslərə qarşı iddia qaldırmaq imkanı verir.

**Etnik nümayəndəlik** – nümayəndəli hakimiyyətin təşkili prinsipi; bu prinsipə uyğun olaraq nümayəndəli müəssisələrin deputatları ölkənin (və ya onun ərazisinin) bütün əhalisini deyil, onun müəyyən, onları bilavasitə seçən etnik qruplarını təmsil edirlər. Son dərəcə nadir hallarda tətbiq edilir, çünki bu, bərabər nümayəndəlik prinsipinə ziddir və deməli, vətəndaşların hüquq bərabərliyi kimi mühüm prinsipi ilə tam əkslik təşkil edir. E.n. bir sıra demokratik dövlətlərdə yardımçı səciyyə daşıyır və köklü azsaylı xalqların mənafelərinin müdafiəsinin konstitusiya üsuluna xidmət edir. Məsələn, Hindistanın, Sloveniyanın, Krım Respublikasının və bəzi digər dövlətlərin parlamentinə deputatların azsaylı

hissəsi milli dairələr üzrə və ya kiçik etnik qruplardan sair üsulla seçilirlər.

**Etoliya ittifaqı** – Qədim Yunanıstanın Etoliya vilayətində yaşamış icmaların siyasi birliyi. E.i. ilk əvvələr tayfa ittifaqı xarakteri daşımışdır. Eramızdan əvvəl III yüzilliyin ikinci yarısında öz qüdrətinin ən yüksək dərəcəsinə çatmışdır. E.i.-nın tərkibinə Etoliyadan başqa, Orta Yunanıstanın bir sıra vilayətləri, Fessaliyanın bir hissəsi, Peloponnesin bir sıra şəhərləri də daxil idi. E.i. federativ və demokratik əsaslar üzərində qurulmuşdu. İttifaqa daxil olan icmalar öz daxili muxtariyyətini xeyli dərəcədə saxlamışdır. Lakin mühüm məsələlər məsələn, xarici siyasət) ittifaq hökumətinin səlahiyyətinə aid idi. E.i.-nın eramızdan əvvəl 189-cu ildə Romaya qarşı durmaq cəhdləri tam məğlubiyyətə uğramış və o, Romanın tabeliyinə keçmişdir.

**Ev** – insanın yaşayış və güzəranının ən mühüm maddi vasitələrindən biri. Azərbaycan Respublikasında yaşayış evləri ən ibtidai plan quruluşundakı mərhələdən müasir səviyyəyədək böyük inkişaf yolu keçmişdir. E. insan cəmiyyəti tarixinin bütün dövrlərində əhalinin ən mühüm sosial ehtiyacı, həlli dövlətin sosial siyasətindən, əsaslı tədbirlərindən son dərəcə asılı olan problemlərdən biri olmuş və olmaqda davam edir. Bu, müasir dövrdə bütün dünya miqyasında ən kəskin sosial problemlərdən biri olaraq qalmaqdadır.

**Evakuasiya** *(lat. evacuare – boşaltmaq)* – **1)** yaralıların, əsirlərin, əhalinin, habelə qənimət və maddi vəsaitlərin hərbi əməliyyat meydanından arxaya köçürülməsi; **2)** qoşunların əvvəlcə tutduqları rayonlardan çıxarılması; **3)** düşmənin hücumu, yaxud təbii fəlakət təhlükəsi altında olan ərazidən əhalinin, müxtəlif obyektlərin, habelə qiymətli sərvətlərin köçürülməsi.

**Evakuasiya məntəqəsi** – müharibə zamanı yaralılara və xəstələrə tibbi yardım göstərən və onları arxadakı müalicəxanalara göndərən müalicə və evakuasiya-nəqliyyat idarəsindən ibarət təşkilat. Tabeliyində hosbital, sanitariya nəqliyyatı, camaşır-dezinfeksiya dəstəsi və i.a. olur.

**Evantual qəsd** *(lat. eventus – hadisə)* – eynilə dolayı qəsd *(bax: qəsd)*.

**Evantual votum** *(bax: votum)*.

**Evbaşı vergi** – birbaşa vergi növlərindən biri. Bu verginin obyekti yaşayış evləri və digər (ambarlar, ticarət köşkləri və binaları) tikililərdir.

**Ev dustaqlığı** – müxtəlif ölkələrin cinayət prosesində qətimkan tədbirlərindən biri. AR CPM-in 163.1-ci maddəsinə uyğun olaraq ev dustaqlığı qətimkan tədbiri qismində təqsirləndirilən şəxsi həbsdə saxlamadan və cəmiyyətdən tam təcrid etmədən, lakin məhkəmənin qərarı ilə müəyyən edilmiş azadlıq və digər bir sıra hüquqlara məhdudiyyətlər qoyulmasından ibarətdir.

E.d. qətimkan tədbirinin tətbiqinə CPM-in 157.8-ci maddəsində nəzərdə tutulmuş hallarda müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun qərarına əsasən xitam verilə bilər.

**Ev heyvanları** – kənd təsərrüfatı təyinatlı heyvanlar istisna olmaqla, insan tərəfindən tam və ya qismən saxlanılan zooloji növlər.

**Ev həbsi** – şəxsi azadlığı məhdudlaşdırma formalarından biri *(həmçinin bax: ev dustaqlığı)*.





**Eviksiya** – mülki hüquqda alıcının əldə etdiyi əmlakı onun satışınadək yaranmış motivlərə (məsələn, üçüncü şəxsin mülkiyyət hüququnun satıcıya deyil, ona məxsus olmasına istinad etməsi motivi üzrə) görə ondan məhkəmə qaydasında geri alınması. AR MM-in 573.1-ci maddəsinə uyğun olaraq alqı-satqı müqaviləsi icra edilənədək əmələ gəlmiş əsaslar üzrə üçüncü şəxslər əşyanı alıcıdan geri aldıqda, satıcı, alıcının həmin əsasların mövcudluğunu bildiyini və ya bilməli olduğunu sübuta yetirməsə, alıcıya dəymiş zərərin əvəzini ödəməyə borcludur.

Alıcının əldə etdiyi malı ondan üçüncü şəxslərin tələb etdiyi halda satıcının məsuliyyətdən azad edilməsi və ya məsuliyyətin məhdudlaşdırılması haqqında tərəflərin razılaşması əhəmiyyətsizdir.

**Evpulu** – orta əsrlərdə Yaxın Şərqin bəzi ölkələrində, o cümlədən Azərbaycanda vergi növlərindən biri. E. ailə üzvlərinin sayından asılı olmayaraq hər bir evdən alınırdı. XIII-XIV yüzilliklərdə xane-şümari (fars dilində – evpulu) adı ilə toplanırdı. Vergi yığan məmurların özbaşınalığını nisbətən məhdudlaşdırmaq üçün xane-şümarinin miqdarı Uzun Həsənin Qanunnaməsində (hər evdən ildə 7 axça) müəyyənləşdirilmişdir. E. XVIII-XIX yüzilliklərdə Qarabağ xanlığında otaqxərci, Şəki xanlığında tüstüpulu və i.a. adlarla toplanmışdır.

**Evristika** *(kriminalogiyada)* – informasiya defisitli əsas situasiyalarda idrak axtarışının təşkili nəzəriyyəsi və praktikası.

**Ev sahibi** – yaşayış sahəsinin (evin, binanın) mülkiyyətçisi. E.s. evin və ya binanın daşınmaz əmlak qismində kompleks şəkildə – kondominium şəklində mülkiyyətçisi kimi müəyyən edilir. E.s. həm də ümumi əmlakda paylı mülkiyyətin iştirakçısıdır.

**Ev sahibliyi** – qüvvədə olan normalar çərçivəsində fərdi mənzil tikintisi üçün verilmiş müəyyən torpaq sahəsində yerləşməklə mülkiyyət hüququ əsasında vətəndaşlara məxsus olan yaşayış evinin və ya yardımçı tikililərin məcmusu. E.s. yaşayış evi mülkiyyətçisinin və onun ailə üzvlərinin xarakterinə və əhəmiyyətinə görə müxtəlif tələbatını təmin etməyi nəzərdə tutur. Bu tələbatlardan ən əsası mənzilə olan ehtiyacdır.

**Ev sahibliyi pasportu** – daşınmaz əmlakın vahid kompleksi kimi kondominiumun qeydiyyatdan keçirildiyi rəsmi sənəd, habelə kondominiumda və ondakı əqddə daşınmaz əmlaka olan hüquq. E.s.p. ərazi və ya yerli texniki inventarlaşdırma bürosu tərəfindən memarlıq və şəhərsalma orqanlarının torpaqdan istifadəyə və torpaq ehtiyatlarına dair, dövlət əmlakının əməli idarəçiliyi üzrə məlumatları əsasında tərtib edilir. Kondominiumla idarəçiliyin formalarından asılı olaraq ev sahiblərində, yaxud sifarişçi xidmət orqanında saxlanılır.

**Evtanaziya** *(yun. eu – yaxşı və thanatos – ölüm)* – xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və ya onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırma. AR CM-in 135-ci maddəsində nəzərdə tutulan, həyat və sağlamlıq əleyhinə olan cinayətlərdən biridir.

**Evtina** *(yun. euthyne)* – Qədim Afina qanunvericiliyinə görə vəzifəli şəxs tərəfindən vəzifəyə gəlmə müddətinin başa çatmasından sonra təqdim edilən hesabat. E. dövlət tərəfindən sərf edilmiş vəsaitlərin

yoxlanması ilə başlayırdı. Əgər yoxlama qeyri-qənaətbəxş hesab olunardısa, iş andlılar məhkəməsinə verilirdi və vəzifəli şəxs sui-istifadədə, israfçılıqda və ya rüşvətxorluqda ittiham edilirdi. Vurulmuş zərərin onqat ödənilməsinədək cəza tətbiq edilə bilərdi. Vəzifəli şəxsin maliyyə sahəsindəki sui-istifadəsilə əlaqədar olmayan əməlinə filiallar tərəfindən baxılır, sonra isə iş səlahiyyətli məhkəmə orqanına verilirdi.

**Eydetizm** *(yun. eidos – obraz)* – kriminalistikada predmetlərin hiss orqanlarına öz təsirini dayandırması ilə onların parlaq və görünən obrazlarının saxlanmasında ifadə olunan obraz yaddaşının bir növü. E.-ə malik olan insan qavradığı predmetləri öz yaddaşında yenidən canlandırmır, onları sanki görməkdə davam edir. Bu da həmin insana dindirmə zamanı yaddaşında olanları tam canlandırmağa imkan verir.

**Eydsvoll Konstitusiyası** – 1814-cü il mayın 17-də Müəssisələr Məclisinin Eydsvoll şəhərində qəbul etdiyi Norveç Konstitusiyası. Konstitusiya Norveçin İsveçə birləşdirilməsi planlarına qarşı genişlənən milli azadlıq hərəkatı şəraitində qəbul olunmuşdur. EK Norveçi azad və müstəqil elan edir, ölkənin idarə olunmasında icraedici hakimiyyəti krala həvalə etsə də, bir sıra hüquq və azadlıqlar verilməsini (söz, mətbuat, şəxsiyyətin toxunulmazlığı və i.a.) nəzərdə tutur. Napoleon Fransanın məğlubiyyətindən sonra Avropa ölkələrində irticanın qələbə çalması şəraitində qəbul edilmiş EK-nı F.Engels o dövrdə Avropada mövcud olan bütün konstitusiyaların ən demokratiki adlandırmışdır.

**Eynilәşdirmə** *(kriminalistikada)* – istintaqı aparılan hadisə ilə əlaqədar olaraq şəxsin və ya predmetin müəyyən edilməsi məqsədi ilə həmin obyektlərin maddi əksi üzrə müqayisə edilməsi prosesi. Kriminalistik eyniləşdirmə dörd mərhələdən keçir: 1) müqayisəli tədqiqata hazırlıq, 2) obyektlərin ayrılıqda tədqiqatı: 3) müqayisəli tədqiqat: 4) müqayisəli tədqiqatın nəticələrinin qiymətləndirilməsi.

**Eynilik nişanları** – ad və ya nişanlar: bunların köməyi ilə gömrük orqanı rəsmiləşdirilmiş yükləri, predmetləri və nəqliyyat vasitələrini yenidən tanıya bilərlər. E.n. qismində binalar və ya yük yerləri, müxtəlif plomblar, möhürlərin və ştempellərin izləri, surətləri və i.a. tətbiq edilə bilər. Bunlar eyniləşdirmə vasitələri adlandırılırlar.

**Eyzenhauer doktrinası** – ABŞ-ın Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatlarını yatırmağa yönəldilmiş xarici siyasət doktrinası. ABŞ-ın dövlət katibi C.F.Dalles tərəfindən hazırlanmış, prezident D.Eyzenhauerin konqresə 1957-ci il 5 yanvar tarixli məktubunda irəli sürülmüşdür. Doktrinanın əsasını ABŞ hakim dairələrinin Misirə qarşı İngiltərə-Fransa-İsrail təcavüzü (1956) boşa çıxdıqdan və müstəmləkəçi dövlətlərin Yaxın və Orta Şərqdəki mövqelərinin zəifləməsi nəticəsində yaranmış "qüvvələr boşluğu"nu doldurmaq səyi təşkil edirdi. Doktrina bu rayonun mürtəce rejimlərinə geniş hərbi və iqtisadi yardım göstərilməsini, həmçinin bu işdə ABŞ silahlı qüvvələrindən istifadə edilməsini (konqresin razılığı olmadan) nəzərdə tuturdu.





# -Ə-

Əbədi əmanətlər ........ 353
Əcnəbilər ........ 353
Əcnəbilərin hüquqlarının minimum standartı ........ 353
"Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikasının qanunu ........ 353
Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mənzil hüququ ........ 353
Əcnəbi müxbirlərin akkreditasiyası ........ 353
Əczaçılıq fəaliyyəti ........ 353
"Əczaçılıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu ........ 353
Ədalət hüququ ........ 354
Ədalətli bölgü tələbi ........ 354
Ədalət mühakiməsi ........ 354
Ədalət mühakiməsi əleyhinə olan cinayətlər ........ 354
Ədalət mühakiməsi hüququ ........ 355
Ədalət mühakiməsindən imtina ........ 355
"Ədalət mühakiməsinin rəsmi emblemi haqqında" Azərbaycan Respublikasının qanunu ........ 355
Ədəb idarəsi ........ 355
Ədliyyə ........ 356
Ədliyyə işçilərinin rütbə dərəcələri ........ 356
Ədliyyə müşaviri ........ 356
Əfəndi ........ 356
Əfvetmə ........ 356
Əhali ........ 357
Əhali miqrasiyası ........ 357
Əhalini deportasiya etmə və ya məcburi köçürmə ........ 357
Əhalini məhv etmə ........ 357
Əhalinin gəlirinin differensiasiyası ........ 357
Əhalinin radiasiyası təhlükəsizliyi ........ 357
"Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının qanunu ........ 357
"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının qanunu ........ 357
Əhalinin siyahıya alınması ........ 358
Əhd ........ 358
Əhdnamə ........ 358
Əhl ........ 358
Əhli-xibrə ........ 358
Əhval (əhval-ruhiyyə) ........ 358
Əxilər ........ 358
Əxilik ........ 358
Əxlaq ........ 359
Əxlaqsız hərəkətlər ........ 359
Əxlaqsızlıq yuvaları saxlama ........ 359
"Əkinçilik qanunu" ........ 359
Əks-həmlə ........ 359
Əks-hücum ........ 360
Əks-zərbə ........ 360
Əqd ........ 360
Əqdin etibarsızlığı ........ 360
Əqdnamə ........ 360
Əqd pasportu ........ 360
Əqd valyutası ........ 361
Əqli mülkiyyət ........ 361
Əlahiddə məktəb ........ 361
Əlavə dəyər vergisi ........ 361
Əlavə gəmi sənədləri ........ 361
Əlavə idxal rüsumu ........ 361
Əlavə qətnamə ........ 361
Əlavə məhkəmə qərarı ........ 362
Əlavə məsuliyyət ........ 362
Əlavə mükafat ........ 362
Əlavə olunmuş dəyər ........ 362
Əlavə pay ........ 362

Əlavə seçkilər ... 362
Əlavə və təkrar ekspertiza ... 362
Əlavə vergi ... 362
Əlavə yaşayış sahəsi ... 362
Əldən çıxmış faydanın sığortası ... 362
Ələm ... 362
Əlil ... 363
"Əlillər prosesi" (moskvalıların prosesi) ... 363
Əlillik ... 363
Əlillik pensiyası ... 363
"Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu ... 363
Əlverişli ətraf mühit hüququ ... 364
Əmanət ... 364
Əmanət bankı ... 364
Əmanətçi ... 364
Əmanət həbsi ... 364
Əmanət kassaları ... 364
Əmanət kitabçası ... 364
Əmanətlərin yenidən qiymətləndirilməsi ... 365
Əmanət sertifikatı ... 365
Əmək arbitrajı ... 365
Əmək azadlığı ... 365
Əmək birjası ... 365
Əmək ekspertizası ... 365
Əmək funksiyası ... 365
Əməkgün ... 366
Əməkhaqqı ... 366
Əməkhaqqı hesabına avans ... 366
Əməkhaqqından tutmalar ... 366
Əməkhaqqının verilməsi müddətləri ... 367
Əmək hüququ ... 367
Əmək intizamı ... 368
Əmək kitabçası ... 368
Əmək kollektivi ... 368
Əmək qabiliyyəti ... 368
Əmək qabiliyyəti olmayan şəxslər ... 368
Əmək qabiliyyəti yaşı ... 368
Əmək qabiliyyətsizliyi ... 368
Əmək qanunvericiliyi ... 369
Əmək qanunvericiliyini pozmağa görə məsuliyyət ... 369
Əmək Məcəlləsi ... 369
Əmək məzuniyyəti ... 370
"Əmək miqrasiyası haqqında" Azərbaycan Respublikasının qanunu ... 370
Əmək mübahisələri ... 370
Əmək mühafizəsi qaydalarını pozma ... 370
Əmək müqaviləsi (kontraktı) ... 371
Əmək münaqişələri ... 371
Əmək normaları ... 372
Əmək pensiyası ... 372
"Əmək pensiyası haqqında" Azərbaycan Respublikasının qanunu ... 372
Əmək pensiyasının baza hissəsi ... 372
Əmək pensiyasının müəyyən edilməsi ... 372
Əmək pensiyasının sığorta hissəsi ... 372
Əmək pensiyasının yığım hissəsi ... 372
Əmək sazişi ... 372
Əmək stajı ... 372
Əmək şəraiti ... 372
Əmək şikəstliyi ... 373
Əmək veteranları ... 373
Əməl ... 373
Əməli idarəetmə ... 373
Əməli idarəetmə hüququ ... 373
Əməli lizinq ... 373
Əməliyyat ... 373
Əməliyyat-axtarış fəaliyyəti ... 373
"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu ... 374
Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma ... 374
Əməliyyat-axtarış tədbirləri ... 374
Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ... 374
Əməliyyat-axtarış tədbirlərinin tətbiqinin şərtləri ... 375
Əməliyyat günü ... 375
Əməliyyat-qeydiyyat işi ... 375
Əməliyyat sənəti ... 376
Əməyin mühafizəsi ... 376
Əməyin mühafizəsi fondu ... 376
Əməyin mühafizəsi xidmətləri ... 376
Əməyin mühafizəsinin əsas prinsipləri ... 377
Əməyin ödənilməsi təminatları ... 377
Əmir ... 378





Əmirlik ... 378
Əmlak ... 378
Əmlak bölgüsü ... 378
Əmlak cinayətləri ... 379
Əmlak hüquqları ... 379
Əmlakı ehtiyatsızlıqdan məhv etmə və ya zədələmə ... 379
Əmlakı əsassız əldə etmə ... 379
Əmlakı qəsdən məhv etmə və ya zədələmə ... 379
Əmlakın kontribusiya dəyəri ... 379
Əmlakın qalıq dəyəri ... 380
Əmlakın siyahıya alınması ... 380
Əmlak kirayə müqaviləsi ... 380
Əmlak marağı ... 381
Əmlak müsadirəsi ... 381
Əmlak senzi ... 381
Əmlak sığorta müqaviləsi ... 381
Əmlak sığortası ... 381
Əmlak üzərinə həbs qoyma ... 381
Əmlak vergisi ... 382
Əmlak zərəri ... 382
Əmr ... 382
Əmr icraatı ... 382
Əmr icraatı qaydasında baxılan iddianın aidiyyəti ... 382
Əmri icra etməmə ... 382
Əmrin və ya sərəncamın yerinə yetirilməsi ... 382
Əmtəə ... 382
Əmtəə anbarı ... 382
Əmtəə bazarı ... 382
Əmtəə birjası ... 382
"Əmtəə birjası haqqında" Azərbaycan Respublikasının qanunu ... 383
Əmtəə birjasının hüquqları və vəzifələri ... 383
Əmtəə birjasının idarəetmə orqanları ... 384
Əmtəə birjasının üzvləri ... 384
Əmtəə çatışmazlığı ... 384
Əmtəə çeki ... 384
Əmtəədən dövlətin xeyrinə imtina etmə ... 384
Əmtəə-girov krediti ... 384
Əmtəə kağızları ... 384
Əmtəə krediti ... 385
Əmtəə qaiməsi ... 385
Əmtəələr ... 385
Əmtəələr haqqında məlumat ... 385
Əmtəələri məhv etmə ... 385
Əmtəə-nəqliyyat qaiməsi ... 385
Əmtəə nişanı ... 385
Əmtəə nişanı kimi qeydə alınan nişanlar ... 385
Əmtəə nişanına dair hüquqların verilməsi ... 386
Əmtəə nişanının ilkinliyi ... 386
Əmtəə nişanı üzərində müstəsna hüquq ... 386
Əmtəə nişanlarından qanunsuz istifadə etmə ... 386
Əmtəə nişanlarının və coğrafi göstəricilərin hüquqi mühafizəsi ... 386
"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının qanunu ... 386
Əmtəə-sərəncam sənədləri ... 387
Əmtəəşünaslıq ekspertizası ... 387
Əmtəə (kommersiya) vekseli ... 387
Ən böyük orta metod ... 387
Ər-arvad ... 387
Ər-arvadın bir-birini saxlamaq vəzifəsi ... 387
Ər-arvadın birgə mülkiyyəti ... 387
Ər-arvadın əmlakının qanuni rejimi ... 388
Ər-arvadın hər birinin mülkiyyəti ... 388
Ər-arvadın mülkiyyətinin müqavilə rejimi ... 388
Ər-arvadın öhdəlikləri üzrə məsuliyyət ... 388
Ər-arvadın soyad seçmək hüququ ... 389
Ərazi aliliyi ... 389
Ərazi bütövlüyü ... 389
Ərazi dənizi ... 389
Ərazi iddiası ... 389
Ərazi kollektivləri ... 389
"Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının qanunu ... 389
Ərazilərarası cinayətkar əlaqələr ... 389

Ərazi mübahisəsi ..... 390
Ərazi müdafiəsi ..... 390
Ərazinin demilitarizasiyası ..... 390
Ərazi sazişi ..... 390
Ərazi sığınacağı ..... 390
Ərazi suları ..... 390
Ərazi toxunulmazlığı ..... 390
Əraziyə görə məhkəmə aidiyyəti ..... 390
Ərəb Dövlətləri Cəmiyyəti ..... 390
Ərizə ..... 390
Ərizəçi ..... 391
Ərizənin baxılmamış saxlanması ..... 392
Ərzaq dəstələri ..... 391
Ərzaq məhsullarının məhkəmə ekspertizası ..... 391
Ərzaq sapalağı ..... 391
Ərzaq vergisi ..... 391
Əsas dövlət qanunları ..... 391
Əsas gəmi sənədləri ..... 391
Əsas kirayəçi (yaşayış sahəsinin kirayəçisi) ..... 392
Əsas qanun ..... 392
Əsaslı qoyuluş diversifikasiyası ..... 392
Əsaslı risk ..... 392
Əsaslı təmir ..... 392
Əsas məzuniyyət ..... 392
Əsasnamə ..... 393
Əsassız varlanma ..... 393
Əsas və əlavə cəzalar ..... 394
Əsas və əlavə inzibati tənbehlər ..... 394
Əsas vəsaitlər ..... 394
Əsərin elan olunması ..... 394
Əsgər ..... 394
Əsginas ..... 394
Əsir ..... 394
Əsirlikdə olan hərbi qulluqçunun cinayətkar hərəkətləri ..... 394
Əsl olmayan tərəfin əvəz edilməsi ..... 395
Əşya ..... 395
Əşya hüququ ..... 395
Əşyaların mülki dövriyyəsi ..... 395
Əşyaların verilməsi ..... 395
Əşyaların yüklülüyü ..... 396
Əşyalar toplusunun sığortası ..... 396
Əşyanın lombardda girovu ..... 396
Əşyanın yerləşdiyi yer qanunu ..... 396
Əşyaya sahiblik ..... 396
Ətraf mühit ..... 397
Ətraf mühitə zərərli təsir ..... 397
Ətraf mühitin ekoloji tarazlığının normalaşdırılması ..... 397
Ətraf mühitin keyfiyyət göstəriciləri ..... 397
Ətraf mühitin monitorinqi ..... 397
Ətraf mühitin mühafizəsi ..... 397
"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunu ..... 397
Əüzay hüquq məktəbi ..... 397
Əvariz ..... 398
Əvəzçilik ..... 398
Əvəz edilən xərclər ..... 398
Əvəzgün ..... 398
Əvəzli əqdlər ..... 399
Əvəzli xidmət göstərmə müqaviləsi ..... 399
Əvəzli müqavilə ..... 399
Əvəzsiz əqdlər ..... 399
Əvəzsiz istifadə müqaviləsi ..... 399
Əvəzsiz müqavilə ..... 399
Əyalət ..... 400
Əyalət ştatları ..... 400







**Əbədi əmanətlər** – dövlət kreditinin formalarından biri, şərti əmanətin bir növü. Ə.ə. - in məbləği bankın və ya digər kredit müəssisəsinin mülkiyyətinə verilir. Əmanətçi ancaq faizləri almaq hüququna malik olur.

**Əcnəbilər** – Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxslər.

**Əcnəbilərin hüquqlarının minimum standartı** – beynəlxalq müqavilələrə və adətlərə uyğun olaraq dövlətlərin öz ərazisində olan əcnəbilərə verməli olduğu hüquqların minimum həddi. Ə.h.m.s. müəyyən hüquqi səviyyədir. Dövlət həmin səviyyəni aşağı endirə bilməz. Ə.h.m.s. başlıca olaraq ABŞ-ın Qərbi Avropa ölkələrinin hüquq ədəbiyyatında yayılmışdır. Həmin səviyyə Azərbaycan Respublikasında "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" qanunla tənzim edilir.

**"Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə əlaqədar ictimai münasibətləri tənzimləyən qanunvericilik aktı. Bu qanun 13 mart 1996-cı io tarixdə qəbul olunmuşdur. Qanun dörd fəsil və 29 maddədən ibarətdir.

**Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mənzil hüququ** – Azərbaycan Respublikasının mənzil qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının qanunları ilə digər qaydalar müəyyən edilməyibsə, Azərbaycan Respublikası vətəndaşları üçün müəyyən edilmiş əsaslarla və qaydada dövlət, idarə fondlarından və ictimai fondlardan mənzil almaq hüququ vardır (AR Mən.M-in 1-1-ci maddəsi).

**Əcnəbi müxbirlərin akkreditasiyası** – Azərbaycan Respublikasında akkreditə olunmuş əcnəbi müxbirlərin və xarici informasiya vasitələrinin digər nümayəndələrinin hüquqi statusu və peşə fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi və müvafiq dövlətlərarası müqavilələrlə tənzim edilir. Azərbaycan Respublikasında müəyyən edilmiş qaydada akkreditə olunmamış əcnəbi müxbirlər xarici hüquqi şəxslərin nümayəndəliklərinə şamil edilən hüquqlardan istifadə edir və vəzifələr daşıyırlar.

**Əczaçılıq fəaliyyəti** – dərman vasitələrinin elmi axtarışı, hazırlanması, sınaqdan çıxarılması, istehsalı, keyfiyyətinə nəzarət, əldə edilməsi, saxlanması, yayılması və satışı, dərman xammalının toplanması və tədarükü ilə bağlı olan fəaliyyət növü.

**"Əczaçılıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında dərman vasitələri hazırlanmasının, sınaqdan çıxarılmasının, istehsalının, saxlanmasının, idxalının, ixracının və satışının hüquqi, iqtisadi və təşkilati əsaslarını və Azərbaycan Respublikası ərazisində əczaçılıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin dərman vasitələri ilə davranışını tənzimləyən qanunvericilik aktı.

Bu qanun 5 noyabr 1996-cı il tarixdə qəbul olunmuş və "Dərman vasitələri haqqında" 22 dekabr 2006-cı il tarixli Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi ilə əlaqədar qüvvədən düşmüşdür.

**Ədalət hüququ** – ingilis-amerikan *(anql-saks)* hüquq sistemində presedent hüququnun bir hissəsi: hüququn bu hissəsi XV yüzilliyin başlanğıcından XIX yüzilliyin sonunadək mövcud olmuş kanslar ingilis məhkəməsinin qərarları əsasında təşəkkül tapmışdır. Zərurət olduqda ümumi hüquqda təşəkkül tapmış qapalı sistemin sərt çərçivəsindən kənara çıxan kanslerin presedentlər yaradan qərarları hüquqi sənəd hesab olunmurdu. Çünki həmin qərarlar ümumi hüququn tələblərinə uyğun şəkildə deyil, ədalətin tələblərinə cavab verən halda qəbul olunurdu. Lordkansler tərəfindən kanonik (kilsə adət hüquq normaları) prinsiplər və Roma hüququ istifadə olunurdu. Bu da ona ümumi hüququn köhnəlmiş normalarını aradan qaldırmağa kömək edirdi. İngiltərədə 1873-1875-ci illərdə keçirilmiş məhkəmə islahatı nəticəsində ə.h.-nun ümumi hüquqla formal olaraq arışması baş verirdi. Lakin ə.h. indi də mülkiyyət və müqavilə hüququnun, o cümlədən zərərin ödənilməsinin, müqavilə öhdəliklərinin icrasının məcburiliyinin bəzi institutlarını tənzimləyir.

**Ədalətli bölgü tələbi** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə miras payının bərabərləşdirilməsi göstərilmiş xidmətlərə və mirasın həcminə uyğun olaraq ədalətlə aparılmalıdır. Əmlak bölgüsü zamanı miras payının bərəbərləşdirilməsi məbləği mirasın ümumi məbləğindən çıxılır və bərabərləşdirmə tələbinə hüququ olan miras şərikinin payına əlavə edilir (AR MM-in 1299-cu maddəsi).

**Ədalət mühakiməsi** – dövlət fəaliyyəti forması. Ə.m.-nin mahiyyətini məhkəmələr tərəfindən onların səlahiyyətinə aid edilmiş cinayət işlərinə və mülki işlərə baxılması və onların həll edilməsi təşkil edir. Ə.m. qanunla müəyyən edilmiş ciddi prosessual qaydada həyata keçirilir. O, mövcud sosial qayda-qanunların mühafizəsinə və möhkəmləndirilməsinə xidmət edir. Ə.m.-nin məqsədi bütün idarə, müəssisə və təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar tərəfindən qanunların tələblərinə ciddi əməl olunmasını təmin etməkdən ibarətdir. Ə.m. yalnız məhkəmə tərəfindən həyata keçirilir. Buna uyğun olaraq məhkəmənin hökmü və qanuni əsaslar olmadan heç kəs cinayət törətməkdə təqsirləndirilə və ya məsuliyyətə cəlb olunaraq cinayət cəzasına məhkum edilə bilməz.

**Ədalət mühakiməsi əleyhinə olan cinayətlər** – Azərbaycan Respublikasının cinayət hüququna görə əsas obyekti ədalət mühakiməsinin normal fəaliyyətinə qəsd etməkdən ibarət olan cinayətlərin bir növü. AR CM-in otuz ikinci fəsli (286-307-ci maddələri) ədalət mühakiməsi əleyhinə olan cinayətlərə həsr olunmuşdur. Ədalət mühakiməsinin, ibtidai istintaqın həyata keçirilməsinə mane olma; ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmə; ədalət mühakiməsinin və ya ibtidai istantaqın həyata keçirilməsi ilə əlaqədar hədələmə və zor tətbiq etmə; məhkəməyə hörmətsizlik etmə; təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etmə; qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə; qanunsuz olaraq tutma, həbsə alma və ya həbsdə saxlama; ifadə verməyə məcbur etmə; sübutları saxtalaşdırma; bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və qərar çıxarma; bilə-bilə yalan xəbərçilik etmə; bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə; şahidin və ya zərər çəkmiş şəxsin ifadə verməkdən imtina etməsi; ifadə verməkdən boyun qaçırmağa, yalan ifadə və ya rəy verməyə, yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma; təhqiqat və ya ibtidai istintaq məlumatlarını yayma; məhkəmə və hüquq-mühafizə orqanları işçiləri barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma; əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma; siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş, yaxud müsadirə olunmalı əmlak barəsində qanunsuz hərəkətlər; azadlıqdan məhrum etmə yerindən, həbsdən və ya mühafizə altından qaçma; azadlıqdan məhrum etmə növündə cəza çəkməkdən boyun qaçırma; məhkəmənin hökmünü, qərarını, yaxud digər aktının icra etməmə; cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə ədalət mühakiməsi əleyhinə olan cinayətlərə aiddir.

**Ədalət mühakiməsi hüququ** – insanın əsas maddi hüquq azadlıqlarının müdafiəsinin təmin olunmasına xidmət edən mühüm və bunun sayəsində konstitusiya ilə təsbit edilən prosessual hüquqların kompleksi. "Ə.m.h" aylayışın özü Azərbaycan Respublikası Konstitusiyasında konkret normada nəzərdə tutulmasa da, insan və vətəndaşın prosessual hüquqlarını özündə ehtiva edən müddəalar təsbit edilmişdir. Konstitusiyanın 60-67-ci maddələrini buna misal göstərmək olar.

**Ədalət mühakiməsindən imtina** – dövlətin səlahiyyətli orqanlarının ölkə qanunvericiliyinə uyğun olaraq əcnəbi vətəndaşın pozulmuş hüquqlarını bərpa etməkdən, ona vurulmuş zərəri ödəməkdən və ya onun hüquqlarının pozulmasında təqsiri olan şəxsləri məsuliyyətə cəlb etməkdən imtina etməsi, yaxud bunu istəməməsi. Ə.m.i. geniş mənada dövlət tərəfindən əcnəbilər üçün müəyyən edilmiş öz rejiminə əməl etməməsi deməkdir. Deməli, bu anlayış özünün hərfi mənasına görə yalnız məhkəmə orqanlarının fəaliyyətinə tətbiq edilmir. Ə.m.i. hər bir halda diplomatik müdafiə (yardım) göstərilməsi üçün əsasdır.

**"Ədalət mühakiməsinin rəsmi emblemi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında ədalət mühakiməsinin rəsmi embleminin təsvirinin təsdiq edilməsi haqqında qanunvericilik aktı. Bu qanun 22 iyun 1999-cu il tarixdə qəbul edilmişdir.

Ədalət mühakiməsinin rəsmi emblemi Azərbaycan Respublikası bayrağının üçrəngli rəmzi təsvir olunmuş Azərbaycan Respublikasının xəritəsinin fonunda ayaq üstə gözü bağlı, sağ əlində tərəzi, sol əlində isə üzü aşağı qılınc tutmuş qadın təsvirindən ibarətdir. Təsvir çevrə daxilində yerləşdirilmiş və çevrə aşağı tərəfdən postamentin içərisindən yuxarı istiqamətə doğru möhkəmlik, sarsılmazlıq, dözümlülük, güc və şöhrət rəmzi olan palıd ağacının yaşıl rəngli budaqları ilə əhatə edilmişdir. Çevrənin yuxarı hissəsində qızılı fonda "Azərbaycan Respublikası" sözləri yazılmışdır. Postament üstündə dayanmış qadının təsviri monoxrom rənglə işlənmişdir. Qızılı rəngdə olan postamentin üzərində "ədalət mühakiməsi" sözləri yazılmışdır. Qadının başı üzərində günəş şüaları təsvir edilmişdir. Emblemin arxa tərəfində postamentin üzərində "1999-cu il" sözləri yazılmışdır.

**Ədəb idarəsi** – XVIII yüzilliyin ortalarından XIX yüzilliyin sonunadək Rusiya imperiyasında fəaliyyət göstərmiş polis orqanları; əsasən paytaxtlarda və quberni-

ya şəhərlərində mövcud olmuş bu orqanlar tədricən bağlanmışdır. Ə.i. yerli hökumətin sərəncamlarını və məhkəmə hökmlərini icra edirdi. 1870-ci ilədək şəhərin abadlıq işlərini həyata keçirmişdir. 1864-cü ilədək xırda cinayət işləri və mülki işlər üzrə bəzi məhkəmə yunksiyalarını da yerinə yetirmişdir.

**Ədliyyə** – *(ərəb. ədalət, qanunçuluq)* – bütün məhkəmə və eləcə də hüquq-mühafizə orqanlarının, hüquqi idarələrin sistemi, onların təşkilatı fəaliyyətinin məcmusu.

**Ədliyyə işçilərinin rütbə dərəcələri** – "Ədliyyə işçilərinin rütbə dərəcələri haqqında" əsasnamə ilə müəyyən edilən rütbə dərəcələri. Ə.i.r.d. 11 dərəcəyə bölünür: həqiqi dövlət ədliyyə müşavirləri; I, II, III dərəcəli ədliyyə müşaviri; baş ədliyyə müşaviri; ədliyyə müşaviri; kiçik ədliyyə müşaviri; I, II, III dərəcəli hüquqşünas; kiçik hüquqşünas. Rütbə dərəcəsi ali hüquq təhsilli və hüquqşünas ixtisaslı vəzifələr tutan işçilərə növbəlik qaydasında tutduğu vəzifə, peşə qabiliyyəti və əmək stajı nəzərə alınmaqla verilir. Növbədənkənar rübtə dərəcəsi əsasnamənin 10-cu maddəsində nəzərdə tutulmuş hallarda verilə bilər. Rütbə dərəcəsi işçiyə həmişəlik verilir və qanunla müəyyən edilmiş qaydada o, rütbədən məhrum edilə bilər. Rütbə dərəcəsi olan ədliyyə işçiləri üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş geyim forması və fərqlənmə nişanları müəyyən edilir. "Ədliyyə işçilərinin rütbə dərəcələri haqqında" əsasnamə 6 dekabr 1993-cü il tarixli 767 saylı qanunla təsdiq edilmişdir.

**Ədliyyə müşaviri** – məhkəmə orqanları və hüquq idarələri sistemində (istintaqda, prokurorluqda) çalışan işçilərin rütbə dərəcələrinin adı. Ədliyyə işçilərinin rütbə dərəcələri *(bax: ədliyyə işçilərinin rütbə dərəcələri)* bu rütbələr haqqındakı 6 dekabr 1993-cü il tarixli qanunla müəyyən edilir.

**Əfəndi** *(türk. efendi, yun. aythenta – hökmdar, cənab sözündən)* – Osmanlı imperiyasında müraciət forması; əvvəllər sultan da daxil olmaqla əyan, adlı-sanlı cənab mənasında daha geniş şəxslər dairəsinə aid edilirdi. XIX yüzillikdən sultan nəslindən olan şahzadələrə, ilahiyyat elminin nümayəndələrinə, xaricilərə və müsəlman olmayanlara, qadınlara (xanım əfəndi), dövlət məmurlarına (ə. onların rütbəsinin tərkib hissəsi sayılırdı), həmçinin bütün savadlı mülki şəxslərə nəzakətli müraciət forması kimi işlədilirdi. Türkiyə Respublikasında rütbələrin və bütün köhnə müraciət formalarının ləğvi (1934) ilə ə.-nin rəsmi müraciət forması kimi işlədilməsinə son qoyulmuşdur. Hazırda Türkiyədə, əsasən, danışıq dilində hörmət əlaməti olaraq işlədilir.

**Əfvetmə** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə əfvetmə fərdi qaydada müəyyən edilmiş şəxs barəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Cinayət törətməyə görə məhkum olunmuş şəxs əfvetmə aktı ilə cəzanın qalan hissəsini çəkməkdən azad edilə bilər, yaxud ona təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər. Ömürlük azadlıqdan məhrum etmə cəzası əfv qaydasında iyirmi beş ildən çox olmayan müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilə bilər. Əfvetmə aktı ilə cəzasını çəkmiş şəxsin məhkumluğu onun üzərindən götürülə bilər (AR CM-in 82-ci maddəsi).

**Əhali** – Yer kürəsində, yaxud konkret qitədə, ərazidə, ölkədə, şəhərdə, rayon və digər yerlərdə yaşayan adamların məcmusu.

**Əhali miqrasiyası** – insanların yaşayış yerini dəyişməsi ilə əlaqədar bir yerdən başqa yerə köçməsi. Xarici (qitələrarası və dövlətlərarası), daxili (rayonlararası) və kənd yerlərindən şəhərlərə köçürmək, həmçinin daimi, müvəqqəti və mövsümi ə.m. fərqləndirilir. Yeni yerdə 6 aydan çox yaşamış şəxs miqrasiya etmiş hesab olunur. Hər gün uzaq məsafəyə işə getmək, həmçinin turizm, ziyarət (səyahət) və i.a. ə.m. hesab olunmur, çünki bu zaman əsas yaşayış yeri dəyişmir.

**Əhalini deportasiya etmə və ya məcburi köçürmə** – sülh və bəşəriyyət əleyhinə olan cinayətlərdən biri. AR CM-in 107-ci maddəsinə uyğun olaraq beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadıqda, əhalini qanuni yerləşdiyi yerlərdən başqa ölkəyə qovma və ya digər məcburi hərəkətlərlə didərgin salmada ifadə olunur.

**Əhalini məhv etmə** – sülh və bəşəriyyət əleyhinə olan cinayətlərdən biri. AR CM-in 105-ci maddəsinə uyğun olaraq soyqırım əlamətləri olmadan əhalini bütövlükdə və ya qismən məhv etmədə ifadə olunur.

**Əhalinin gəlirinin differensiasiyası** – maddi və mənəvi nemətlərin cəmiyyət üzvləri arasında qeyri-bərabər bölüşdürülməsi dərəcəsini səciyyələndirən mühüm sosial-iqtisadi göstərici. İctimai məhsulun əhali qrupları arasında bölüşdürüldüyü miqdar, yaxud pay nisbəti, həm də bu bölgü prinsiplərinin özü hakim istehsal münasibətləri ilə müəyyən edilir.

**Əhalinin radiasiya təhlükəsizliyi** – indiki və gələcək nəsillərin sağlamlığının ionlaşdırıcı şüalanmanın zərərli təsirindən qorunması. Ə.r.t.-nin təmin edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur: a) təşkilati-hüquqi, mühəndis-texniki, sanitariya-gigiyena, tibbi-profilaktik, təlimat və təhsil xarakterli tədbirlər kompleksinin; b) dövlət və özünüidarə orqanları, ictimai birliklər, hüquqi və fiziki şəxslər tərəfindən radiasiya təhlükəsizliyi sahəsində qayda, norma və normativlərə əməl olunması tədbirlərinin; c) radiasiya şəraiti və radiasiya təhlükəsizliyi tədbirlərinin barəsində əhaliyə məlumat verilməsi.

**"Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında şüa mənbələri sahəsində qəzasız fəaliyyətin, əhalinin radiasiya təhlükəsindən qorunması və sağlamlığının mühafizə edilməsinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı. Bu qanun 30 dekabr 1997-ci il tarixdə qəbul edilmişdir. Qanun 6 fəsil və 28 maddədən ibarətdir.

**"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması sahəsində vətəndaşlarla dövlət orqanları, eləcə də dövlət və qeyri-dövlət səhiyyə sistemlərinin subyektləri arasında yaranan münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 26 iyun 1997-ci il tarixdə qəbul olunmuş, ona indiyə qədər müvafiq tarixlərdə 16 əlavə və dəyişiklik edilmişdir. Qanun 10 fəsil və 62 maddədən ibarətdir.

**Əhalinin siyahıya alınması** – müəyyən zaman məqamında, yaxud dövründə ölkənin hər bir sakinini səciyyələndirən demoqrafik, iqtisadi və sosioloji məlumatların toplanması prosesi. Ə.s.a.-nın məqsədi əhalinin sayı, tərkibi və yerləşməsi haqqında məlumatlar əldə etməkdən ibarətdir. Bütün ölkə üçün eyni olan sualların siyahısından ibarət olan həmin məlumatlar dairəsinə demoqrafik (məsələn, cins, yaş, nikahda olma vəziyyəti), iqtisadi (məsələn, məşğuliyyət, yaşayış vasitələri mənbəyi), etnik (milliyyət, ana dili) və digər əlamətlər (adətən ailənin tərkibi haqqında məlumatlar) daxil edilir.

**Əhd** *(ər.)* – **1)** nəyisə, kimisə öhdəliyə götürmə, söz vermə, yaxud öz üzərinə hər hansı öhdəlik götürmə; əhd bağlamaq – nədənsə razılığa gəlmək, yaxud nəyisə qərara almaq; **2)** bağlaşma, müqavilə; **3)** bir hökmdarın hakimiyyəti dövrü.

**Əhdnamə** – bağışlama kağızı, müqavilənamə, müahidənamə.

**Əhl** *(ər.)* – qədim dövrlərdə və erkən orta əsrlərdə ərəblər arasında (əsasən köçəri ərəblərdə) patriarxal ailə; bir çadırın (xeymənin) sakinləri (üzvləri). Belə sakinlər qövm adlanırdı. Sosial təşkilatın ali forması qəbilə idi. Ə.-ə ailə başçısının nəsli, onun qardaşları və qardaşı uşaqları, habelə nəslin üzvləri tərəfindən oğulluğa, yaxud qardaşlığa götürülmüş qullar və asılı şəxslər də daxil olurdu. Ə.-in xüsusi mülkiyyətinə ev və onun daşınar əmlakı, malqara aid idi. Becərilən torpaqlar, otlaqlar və su arxları qəbilənin xüsusi mülkiyyəti kimi qohumlar və ayrı-ayrı nəsillər tərəfindən istifadə olunurdu. Ə. şərifini qorumaq, qan intiqamı və i.a. yalnız ə.-in deyil, bütün qəbilə üzvlərinin borcu hesab olunurdu.

**Əhli-xibrə** *(bax: ekspert).*

**Əhval (əhval-ruhiyyə)** – insanın rəftar və fəaliyyətində müəyyən iz buraxan ümumi emosional hal. Şadlıq, fərəh, ruh yüksəkliyi, əməksevərlik kimi müsbət ə. gümrahlığa, işgüzarlığa, xoşrəftalığa; ruh düşkünlüyü, kədər, qüssə, tənbəllik kimi mənfi ə. isə əzginliyə, süstlüyə, laqeydliyə, bəzi hallarda isə kriminal elementlərin təzahürünə səbəb olur. Ə. müxtəlif obyektiv amillərin təsiri ilə yaranır. Ə.-ın yaranması şəxsiyyətin cəmiyyətdəki mövqeyi ilə sıx əlaqədardır.

**Əxilər** – Abbasilər Xilafəti dövründə (750-1258) yaranmış və XIII yüzillikdə İranda, Orta Asiyada, xüsusilə Kiçik Asiyada geniş yayılmış dini xarakterli ictimai-siyasi təşkilatın üzvləri. "Əxi" sözünün izahı ilə əlaqədar iki mülahizə mövcuddur. Bəzi tədqiqatçılara görə bu termin ərəb dilində "qardaşım", digərlərinə görə "əxi" (aki; aka) qədim türk sözü olub, "nəcib", "alicənab", "comərd", "səxavətli" deməkdir. Müxtəlif peşə və təbəqələrə mənsub şəhər sənətkarlarının birliyindən ibarət olan ə.-in xüsusi nizamnamələri (fütüvvətnamələri) vardı. Nizamnaməyə əsasən ə. dörd əsas dini-əxlaqi normaya (şəriətə, həqiqətə; təriqətə və mərifətə) əməl etməli, yoxsullara, kimsəsizlərə və qəriblərə yardım göstərməli, zülmkarlara qarşı birgə mübarizə aparmalı idilər. Daxili iyerarxiyaya malik olan ə. təşkilatının başında ağsaqqal (əxi baba) dururdu.

**Əxilik** – əxilərin dini-fəlsəfi təlimi. XII yüzilliyin axırlarında xəlifə Nəsrəddin (1180-1225) tərəfindən yaradılmış rəsmi dini-siyasi təşkilat olan fütüvvənin bir sıra xarakterik cəhətini özündə əks etdirmişdir. Əxilər hətta öz təşkilatının nizamnaməsini fütüvvətnamə adlandırmışlar. Türkiyədə geniş yayılmış ə.-də şiəlik ünsürləri güclü olmuşdur. Ə. antifeodal çıxışlar zamanı şəhər sənətkarlarının ideoloji silahı idi. İnsanların hüququna hörmət etməyi və ehtiyacı olanlara maddi yardım göstərməyi vacib sayırdı. Ə. görə insanlar öz hüquqlarını silah gücünə müdafiə etməlidir. Bununla belə, ə. əsasən iqtisadi mübarizəni üstün tuturdu. O, din azadlığına, əqidə sərbəstliyinə laqeyd qalmamış, insanlığı və qardaşlığı təbliğ etmişdir. Ə. Azərbaycanda (xüsusilə Gəncədə) şəhər sənətkarları arasında geniş yayılmışdır. Məlumata görə Azərbaycanın dahi şair-mütəfəkkiri Nizami Gəncəvi əxilərin Gəncə təşkilatının üzvlərindən biri olmuş və təşkilata maddi yardım göstərmişdir.





**Əxlaq** – ictimai şüur formalarından biri; ictimai həyatın bütün sahələrində (ailədə, məişətdə, əmək prosesində, elm və siyasətdə) insanların davranışını tənzim edən sosial institut. Ə. insanların öz davranışlarında rəhbər tutduqları prinsip, norma və qaydaların məcmusu və onların həyatda bir-birinə, ailəyə, millətə və bütövlükdə cəmiyyətə olan münasibətinin ifadəsidir.

Ə.-ın səciyyəvi xüsusiyyəti insan hərəkətlərini qiymətləndirməkdir. Onun insan davranışı üçün vacib saydığı norma və tələblər tarixən müəyyən cəmiyyətin, sinfin xeyir və şər, əxlaqi borc, vicdan, ədalət və ədalətsizlik, rəhm və qəddarlıq və i.a. haqqındakı təsəvvürlərini ifadə edir. Ə. insanların dünyagörüşü, əxlaqi baxışları, əqidə və inamı ilə sıx bağlı olan kateqoriyadır.

**Əxlaqsız hərəkətlər** – şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlərdən biri. AR CM-in 153-cü maddəsinə uyğun olaraq təqsirkar üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxsə qarşı zor tətbiq etmədən əxlaqsız hərəkətlər törətmədə ifadə olunur.

**Əxlaqsızlıq yuvaları saxlama** – ictimai mənəviyyat əleyhinə olan cinayətlərdən biri. AR CM-in 244-cü maddəsinə uyğun olaraq fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvaları təşkil etmədə, saxlamada və ya bu məqsədlər üçün mənzil sahələri vermədə ifadə olunur.

**"Əkinçilik qanunu"** – Bizans hüququ abidəsi. Bu qanunlar toplusunun VII-VIII yüzilliklərdə Kiçik Asiyada tərtib edildiyi ehtimal olunur. Roma hüququnun bir sıra normalarından, həmçinin Bibliyanın bəzi müddəalarından istifadə edilməklə adət hüququnun yazıya köçürülməsindən ibarətdir. "Ə.q." bir çox xüsusiyyətlərinə görə barbar qanunnamələrinə də yaxındır. O, VII yüzillikdə Bizansa slavyan və başqa xalqların soxulmasından sonra Bizans kəndinin öyrənilməsində mühüm mənbədən ibarətdir. "Ə.q." orta əsrlərdə Bolqarıstan, Serbiya, Rumıniya və Qədim Rus dövlətinin hüququna böyük təsir göstərmişdir.

**Əks-həmlə** – müdafiə olunan qoşunların düşmən qoşunlarına etdiyi həmlə. Döyüş nizamını yararaq araya soxulmuş düşmənin darmadağın edilməsi və itirilmiş taktiki vəziyyətin bərpası üçün tətbiq edilir. Ə.-h. müdafiədə qoşunların fəallıq təzahürlərindəndir və bir qayda olaraq, müdafiədəki qoşunların ikinci eşelonu və ehtiyat qüvvələri ilə (hücum edilməyən sahələrdən birinci eşelon qüvvələrinin bir hissəsi cəlb olunmaqla) həyata keçirilir. Ə.-h.-nin müvəffəqiyyəti ciddi hazırlıq, qəfil və qəti əməliyyatlarla təmin edilir.

**Əks-hücum** – müdafiə olunan qoşunlara qarşı döyüşlərdə zəifləmiş düşmənin hücumu zamanı onu darmadağın etmək məqsədi ilə operativ və ya strateji miqyaslı hücumun xüsusi növü. Adi hücumdan fərqli olaraq müdafiə vuruşmasının gedişində hazırlanır.

**Əks-zərbə** – müdafiə vuruşması gedişində müdafiə xəttini yarmış və ya onun içərilərinə doğru irəliləmiş düşmən qruplaşmasına müqabil tərəf qoşunlarının vurduğu zərbə. Ə.-z. müdafiənin fəal xarakterdə olduğunu göstərir və əsasən müdafiə xəttini yarmış düşmən qüvvələrinin darmadağın edilməsi və itirilmiş operativ vəziyyətin bərpa olunması məqsədi ilə vurulur. Müvəffəqiyyətli ə.-z. mübarizənin gedişində (müdafiədə olan qoşunların xeyrinə) dönüş və əks-hücum üçün əlverişli şərait yarada bilər.

**Əqd** – mülki hüquq elminə görə mülki hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişməsinə və xitam olunmasına yönələn birtərəfli, ikitərəfli və ya çoxtərəfli ifadənin ifadəsi.

Əqdlər birtərəfli və müqavilə şəklində (ikitərəfli və ya çoxtərəfli) ola bilər. Mülki qanunvericiliyə və ya tərəflərin razılaşmasına uyğun olaraq bağlanması üçün bir tərəfin iradə ifadəsinin zəruri və yetərli olduğu əqd birtərəfli əqd sayılır. Müqavilənin bağlanması üçün iki tərəfin razılaşdırılmış iradə ifadəsi (ikitərəfli əqd), yaxud üç və ya daha çox tərəfin razılaşdırılmış iradə ifadəsi (çoxtərəfli əqd) zəruridir.

Birtərəfli iradə ifadəsinin etibarlı olması həmin iradə ifadəsinin çatdırıldığı andan asılıdır. Belə ki, başqa tərəfin qəbul etməsi tələb olunan iradə ifadəsi digər tərəfə çatdığı andan etibarlı olur. Əgər başqa tərəf qabaqcadan və ya dərhal öz imtinasını bildirərsə, iradə ifadəsi etibarsız sayılır. Birtərəfli ə. onu bağlamış şəxs üçün vəzifələr yaradır. Ə. başqa şəxslər üçün yalnız mülki qanunvericilikdə və ya həmin şəxslərlə razılaşmada müəyyən edilmiş hallarda vəzifələr yarada bilər.

Tərəflərin hüquq və vəzifələrinin əmələ gəlməsini baş verib-verməyəcəyi məlum olmayan hallardan asılı etdikləri zaman ə. şərtlə bağlanmış hesab olunur. Qanunvericiliyin müəyyən etdiyi tələblərə zidd olan, yaxud icrası mümkün olmayan şərt etibarsız sayılır. Belə şərtdən asılı olan ə. tamamilə etibarsızdır.

Ə.-lər şifahi və ya yazılı formada (sadə və ya notarial qaydada) bağlana bilər. Qanunvericiliklə müəyyən olunmuş formaya əməl edilməsi zəruridir. Belə formanın müəyyən edilmədiyi hallarda tərəflər onu özləri müəyyənləşdirə bilərlər.

Ə.-in notarial qaydada təsdiq edilməsindən əsassız boyun qaçıran tərəf ə.-in bağlanmasının ləngidilməsi nəticəsində vurulan zərərin əvəzini digər tərəfə ödəməlidir. Ə.-dən irəli gələn hüquqların dövlət qeydiyyatına alınması tələbinə riayət edilməməsi onun etibarsızlığına səbəb olur. Belə ə.-lər əhəmiyyətsiz sayılır. Dövlət qeydiyyatından əsasız boyun qaçıran tərəf bu hüquqların qeydiyyatının ləngiməsi nəticəsində dəyən zərərin əvəzini digər tərəfə ödəməlidir (AR MM-in 324-336-cı maddələri).

**Əqdin etibarsızlığı** *(bax: əqd).*

**Əqdnamə** – əqdin şərtlərini nəzərdə tutan və onun bağlanmasını rəsmiləşdirən hüquqi sənəd. Ə. əqd bağlayan şəxslər tərəfindən imzalanır.

**Əqd pasportu** – əmtəələrin eksportyoru – Azərbaycan Respublikasının rezidenti tə-





rəfindən rəsmiləşdirilən və özündə valyuta nəzarətinin həyata keçirilməsi üçün zəruri olan xarici iqtisadi əqd haqqında məlumatların standartlaşdırılmış formada ehtiva edən valyuta nəzarətinin əsas sənədi.

**Əqd valyutası** – əmtəənin qiymətinin xarici ticarət kontraktında müəyyən edildiyi və ya təqdim edilən beynəlxalq kreditin məbləğinin ifadə olunduğu valyuta. Ə.v. qismində, bir qayda olaraq, nisbi sabit valyutalardan istifadə olunur.

**Əqli mülkiyyət** *(bax: intellektual mülkiyyət).*

**Əlahiddə məktəb** – fiziki və ya psixi qüsurları olan uşaqlar üçün nəzərdə tutulan ümumtəhsil məktəb. Belə məktəb adətən kar-lallar, nitqi tutulanlar (zəif olanlar), korlar, ağıldan kəmlər və başqaların üçün yardımçı təhsil müəssisə kimi yaradılır. 1979-cu ilin rəsmi məlumatına görə Azərbaycanda 20 ə.m. fəaliyyət göstərmişdir.

**Əlavə dəyər vergisi** – Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq əlavə dəyər vergisi Azərbaycan Respublikası ərazisində malların istehsalı, işlərin görülməsi, xidmətlərin göstərilməsi və tədavül prosesində onların dəyərinə *əlavənin bir hissəsinin,* gətirilən və vergi tutulan bütün malların dəyərinin bir hissəsinin büdcəyə tutulması formasındadır.

ƏDV mallar istehsalının və göndərilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin bütün mərhələlərində ödənilir. Vergi tutulan dövriyyədən ödənilməli olan ƏDV-nin məbləği bu cür dövriyyədən hesablanan verginin məbləği ilə vergi qanunvericiliyinin müddəalarına uyğun olaraq verilən hesab-fakturalara müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərq kimi müəyyən edilir.

**Əlavə gəmi sənədləri** – ticarət gəmiçiliyi qanunvericiliyinə görə gəmidə əsas gəmi sənədləri ilə yanaşı, əlavə olaraq nəzərdə tutulmuş sənədlər. AR TGM-in 19-cu maddəsinə uyğun olaraq gəmidə TGM-in 18-ci maddəsində (əsas gəmi sənədləri) göstərilmiş sənədlərə əlavə olaraq, təsnifat cəmiyyətinin təsdiq olunmuş qaydalarında nəzərdə tutulmuş sənədlər də olmalıdır.

**Əlavə idxal rüsumu** – import məhsulların və vətən məhsullarının (bir qayda olaraq, kənd təsərrüfatı məhsullarının) qiymətlərinin bərabərləşdirilməsi məqsədi ilə import edilən mallardan tutulan rüsum.

**Əlavə qətnamə** – birinci instansiya məhkəməsinin mülki iş üzrə çıxardığı prosessual sənəd. Mülki-prosessual qanunvericiliyə uyğun olaraq iş üzrə qətnamə çıxarmış hakim işdə iştirak edən şəxslərin ərizəsi ilə və ya onları xəbərdar etməklə öz təşəbbüsü ilə aşağıdakı hallarda əlavə qətnamə çıxara bilər: 1) işdə iştirak edən şəxslər tələblərdən hər hansı biri üzrə sübutlar təqdim etmiş və izahatlar vermişlərsə, bu tələblər barədə qətnamə çıxarılmamışsa; 2) hüquq barədə məsələ həll etmiş hakim alınmalı məbləğin, verilməli əmlakın miqdarını, yaxud cavabdehin etməli olduğu hərəkətləri göstərməmişsə; 3) məhkəmə xərcləri haqqında məsələ hakim tərəfindən həll edilməmişsə.

Ə.q.-nin çıxarılması barədə məsələyə qətnamənin qanuni qüvvəyə minməsinə qədər baxıla bilər. Ə.q. məsələsinin məhkəmə iclasında müzakirəsindən sonra məhkəmə tərəfindən çıxarılır. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməməsi ə.q.-nin çıxarılması məsələsinə

baxmağa mane olmur. Ə.q. çıxarmaqdan imtina etmək və ya ə.q.-nin çıxarılması barədə məhkəmə qərardadından şikayət verilə bilər (AR MPM-in 229-cu maddəsi).

**Əlavə məhkəmə qərarı** *(bax: əlavə qətnamə).*

**Əlavə məsuliyyət** *(bax: hüquqi məsuliyyət).*

**Əlavə mükafat** – əlavə risqlərin sığortalanmasının əvvəllər razılaşdırılmış şərtlərinə sığortaçı tərəfindən daxil edilən əlavə sığorta muzdu. Bir sıra hallarda müəyyən risqlər sığorta ilə ödənildiyinə görə sığorta şərtlərindən çıxarılırlar.

**Əlavə olunmuş dəyər** – təşkilatın satdığı məhsulların (göstərdiyi xidmətlərin) və materialların dəyəri ilə onların istehsalına sərf edilmiş dəyər arasındakı fərq. Bu göstəricidən əlavə dəyər vergisinin tutulması üçün istifadə olunur.

**Əlavə pay** – kooperativ üzvlərinin öz arzuları ilə məcburi paydan artıq ödədikləri pay haqqı (üzvlük haqqı). Bu zaman kooperativ üzvləri qanunvericiliklə nəzərdə tutulmuş qaydada və məbləğdə dividend əldə edirlər.

**Əlavə seçkilər** – ümumi seçkilər arasındakı müddətdə deputat mandatından məhrum edilmiş ayrı-ayrı deputatların əvəzinə yenilərinin seçilməsi məqsədi ilə keçirilən seçkilər.

**Əlavə və təkrar ekspertiza** – cinayət-prosessual qanunvericiliyə uyğun olaraq qoyulmuş suallara ekspert tam cavab vermədikdə və ya tədqiqat aparılmış obyektlərə dair müstəntiq əlavə suallarıı yarandıqda, aparılmış tədqiqatın və ya rəydəki boşluğun aradan qaldırılması üçün həmin və ya başqa ekspert tərəfindən aparılan ekspertiza (əlavə ekspertiza). Ekspertin rəyi kifayət qədər əsaslı olmadıqda və ya şübhə doğurduqda, yaxud onun əsaslandığı sübutlar etibarsız (qeyri-mötəbər) hesab edildikdə və ya ekspertiza aparılmasının prosessual qaydaları pozulduqda təkrar ekspertiza aparılır (AR CPM-in 267-ci maddəsi).

**Əlavə vergi** *(bax: əlavə dəyər vergisi).*

**Əlavə yaşayış sahəsi** – mənzil sahəsinin normasından artıq verilən yaşayış sahəsi. Mənzil qanunvericiliyinə görə adətən bəzi xroniki xəstəliklərin ağır formalarına tutulmuş vətəndaşlar üçün, habelə işinin şəraitinə və xarakterinə görə belə sahə alması zəruri olan vətəndaşlar üçün mənzil sahəsinin norması artırıla bilər.

Azərbaycan Respublikasında qanunvericiliyə görə (Mən.M.-in 40-cı maddəsinin 1-ci hissəsi) mənzil sahəsi norması adambaşına 12 kv.metr müəyyən edilir. Ə.y.s. həm ayrıca otaq şəklində, həm də 10 kv.metrdən 20 kv.metrədək ölçüdə verilən yaşayış sahəsindən ibarət olur.

**Əldən çıxmış faydanın sığortası** – mülki qanunvericiliyə görə müqavilə ilə nəzərdə tutulduğu halda sığorta, sığorta hadisəsinin baş verməsi nəticəsində əldən çıxmış faydaya da şamil edilir.

**Ələm** *(ər. bayraq)* – müəyyən tayfanı, ölkəni, ordunu, təriqəti və i.a. fərqləndirən əlamət, bayraq. Hələ islamın meydana gəlməsindən əvvəl hər bir ərəb tayfasının ə.-i olmuşdur. Ə.-lər rənginə görə bir-birindən fərqlənmişdir. O, Əməvilərdə ağ, Abbasilərdə qara, Teymurilərdə sarı və qırmızı, Ağqoyunlu və Qaraqoyunlularda ağ, Səfəvilərdə isə yaşıl rəngdə olmuşdur. Səfəvilər dövründə ancaq döyüşlərdə şücaət və qəhrəmanlıq göstərənlərə ə. gəzdirmək hüququ verilirdi. Ə. sonralar Yaxın Şərqin bir sıra ölkələrində dini mahiyyət kəsb edərək müxtəlif təriqətlərə məxsus əlamətə çevrilmişdir. Şiə ə.-i ağacının ucuna əl fiquru taxılır. Dini mərasimlərdə (xüsusilə məhərrəmlik mərasimində) ə. gəzdirilir. Ə. gəzdirənlərə ələmdar (bayraqdar) deyilir.





**Əlil** – fiziki və ya psixi xəstəlikdən doğan qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxs. Şəxs Həkim-Əmək Ekspert Komissiyası (HƏEK) tərəfindən ekspert müayinəsindən sonra müvafiq rəyin çıxarılması yolu ilə ə. sayılır. HƏEK-in rəyi ə.-lik qrupunun səbəbini, habelə fərdi bərpa proqramını təsdiq edən rəsmi sənəddir. Ə. kimi tanınan şəxsə ə.-lik vəsiqəsi verilir. Vəsiqənin formasını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən və təsdiq edir. Azərbaycan Respublikasında ə.-lərin sosial müdafiəsi 25 avqust 1992-ci il tarixli qanunla tənzim edilir.

**"Əlillər prosesi" (moskvalıların prosesi)** – "Ümumrusiya sosial inqilab təşkilatı" (moskvalılar dərnəyi də adlandırılır) üzvlərinin mühakimə olunduqları proses. Bu proses 1877-ci il fevralın 21-dən (martın 5-dən) martın 14 (26)-dək Peterburqda davam etmişdir. Bu, Rusiyada fəhlələrin və qadınların çıxış etdiyi ilk siyasi proses idi. Mühakimə olunanlar mövcud quruluşu devirmək məqsədi daşıyan gizli təşkilatın üzvləri olmaqla təqsirləndirilmişlər. Məhkəmədə P.A.Alekseyev, S.İ.Bardina, G.F.Zdanoviç inqilabi nitqlər söyləmişlər. Prosesin əsas hadisəsi P.A.Alekseyevin nitqi olmuş, Bardina və Alekseyevin nitqləri gizli çap edilmişdir. Məhkəmə 10 nəfəri katorqaya, 26 nəfəri Sibirə sürgünə məhkum etmiş, 3 nəfərə bəraət vermiş, qalanlarını isə müxtəlif cəzalara məhkum etmişdir. Proses beynəlxalq ictimaiyyətin də diqqətini cəlb etmişdir.

**Əlillik** – xəstəlik, yaxud şikəstlik nəticəsində öz peşəsi (ixtisası) üzrə əmək qabiliyyətinin həmişəlik və ya uzun müddətə tam və ya qismən itirilməsi. Ə. öz səviyyəsinə görə əhalinin müxtəlif növ tibbi yardıma olan ehtiyacının, sosial yardımın və dövlət yardımının, əmək güzəştlərinin, maddi təminatın ölçüsü ilə müəyyən edilir.

Azərbaycan Respublikasında əlillər "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında" qanunda, BMT Baş Məclisinin qəbul etdiyi əlillərin hüquq bəyannaməsində, Azərbaycan Respublikasının Konstitusiyasında və başqa qanunvericilik aktlarında təsbit edilmiş bütün sosial-iqtisadi, siyasi, şəxsi hüquq və azadlıqlara malikdirlər. Əlillər barəsində ayrı-seçkilik qadağandır və belə hərəkət qanunla təqib olunur.

**Əlillik pensiyası** – Azərbaycan Respublikası qanunvericiliyinə görə əmək pensiyasının bir növü. Ə.p. əlilliklə bağlı təyin edilir və əlilliyin səbəbləri ilə əlaqədardır. Əmək şikəstliyi və peşə xəstəliyi nəticəsində ə.p. əmək stajının müddətindən asılı olmayaraq təyin edilir. 20 yaşadək olan vətəndaşların ümumi xəstəlik nəticəsində şikəst olduqları halda da ə.p. əmək stajının müddətindən asılı olmayaraq təyin edilir. Bütün digər hallarda ə.p.-nın təyin edilməsi üçün şikəstliyin baş verməsinədək müəyyən müddət əmək stajının olması zəruridir.

**"Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında əlillər barəsində dövlət siyasətini müəyyən edən, əlilliyi doğuran səbəblərin

aradan qaldırılmasına, əlillərin reabilitasiyasına, ictimai həyatın bütün sahələrində iştirak etmək üçün əlillərin bütün başqa vətəndaşlarla bərabər imkanlar almasına, öz fərdi qabiliyyətlərinə və maraqlarına müvafiq surətdə dolğun həyat sürməsinə kömək göstərən lazımi şəraitin yaradılmasına təminat verən qanunvericilik aktı.

Bu qanun 25 avqust 1992-ci il tarixdə qəbul olunmuş, ona 24 iyun 1994-cü il, 8 avqust 1995-ci il, 26 mart 1996-cı il, 25 aprel 1996-cı il, 7 fevral 1997-ci il, 11 aprel 1997-ci il, 13 iyun 1997-ci il, 10 oktyabr 1997-ci il, 26 mart və 4 iyun 1999-cu il, 20 fevral, 15 noyabr və 23 noyabr 2001-ci il, 30 aprel və 22 noyabr 2002-ci il, 9 mart, 18 may və 3 avqust 2004-cü il tarixlərdə əlavə və dəyişikliklər edilmişdir. Qanun yeddi bölmə, 55 maddədən ibarətdir.

**Əlverişli ətraf mühit hüququ** – insanın ekoloji hüquqları vəsiləsinə aid olan əsas konstitusiya hüquqlarından biri. İlk dəfə olaraq İspaniyanın 1978-ci il konstitusiyasında elan edilmişdir. Bu, 1995-ci ildə Azərbaycanda da özünün konstitusiya təsbitini tapmışdır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsində deyilir ki, "hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar olan sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır".

**Əmanət** – idarə, müəssisə və təşkilatların, habelə vətəndaşların kredit müəssisələrində saxlanılan pul vəsaiti. Ə. vətəndaşların pula qənaətinin əmanət kassalarında, dövlətin milli bankında və ya kommersiya (özəl banklarda) banklarında saxlaması formasıdır.

**Əmanət bankı** – əsas funksiyası əhalinin pul əmanətlərini və müvəqqəti sərbəst pul vəsaitlərini cəlb etməkdən ibarət olan kredit müəssisəsi.

**Əmanətçi** – bank əmanəti müqaviləsinə görə pul məbləği müqaviləsi üzrə öz öhdəliklərini verən tərəf. Bank əmanəti müqaviləsi bağlanmazdan qabaq ə. bankdan onun maliyyə vəziyyəti haqqında məlumatları tələb etməyə haqlıdır. Ə. pul vəsaitlərinin saxlanmasını tələb edə, əmanət üzrə hesablaşmaların həyata keçirilməsinə dair banka tapşırıqlar verə bilər. AR MM-in 945.2-ci maddəsinə uyğun olaraq hüququ çatmayan şəxs tərəfindən və ya qanunla müəyyənləşdirilmiş qayda, yaxud ona uyğun qəbul edilmiş bank qaydaları pozulmaqla fiziki şəxsdən əmanət qəbul olunduqda, əmanətçi əmanət məbləğinin dərhal qaytarılmasını, habelə onun faizlər ödənilməsini və bundan əlavə, əmanətçiyə vurulmuş bütün zərərin əvəzinin verilməsini tələb edə bilər.

**Əmanət həbsi** *(bax: hesabın həbsi).*

**Əmanət kassaları** *(bax: əmanət bankı).*

**Əmanət kitabçası** – fiziki şəxslə bank əmanəti müqaviləsinin bağlanmasını və onun əmanət üzrə hesabına pul vəsaitinin qoyulmasını təsdiq edən sənəd. Bank əmanəti müqaviləsində adlı əmanət kitabçasının və ya adsız bank kitabçasının verilməsi nəzərdə tutula bilər. Ə.k.-ında bankın adı və olduğu yer, əmanət filiala qoyulduqda isə həm də müvafiq filialın adı və olduğu yer, əmanət üzrə hesabın nömrəsi, habelə hesaba köçürülmüş pul vəsaitinin bütün məbləğləri, hesabdan silinmiş pul vəsaitinin qalığı göstərilməli və bank tərəfindən təsdiq edilməlidir. Digər hal sübut edilmədikdə, əmanət kitabçasında göstərilmiş əmanət haqqında məlumatlar bankla əmanətçi arasında əmanət üzrə hesablaşmalar üçün əsasa xidmət edir (AR MM-in 953-cü maddəsi).





**Əmanətlərin yenidən qiymətləndirilməsi** – kredit-maliyyə müəssisələrində əmanətlərin dəyərinin dəyişdirilməsi (əmanətlərin dəyər məbləğinin aşağı salınması və ya yüksəldilməsi); adətən, pul islahatı prosesində baş verir.

**Əmanət sertifikatı** – banka keçirilmiş əmanətin məbləğini və əmanətçinin (sertifikat sahibinin) müəyyən müddət keçdikdən sonra əmanət məbləğini sertifikatda nəzərdə tutulmuş faizlə almaq hüquqlarını təsdiq edən qiymətli kağız. Əmanət sertifikatı vətəndaşa, depozit sertifikatı isə hüquqi şəxsə verilir.

**Əmək arbitrajı** – bir sıra ölkələrdə kollektiv əmək mübahisələrinə (münaqişələrinə) baxmaq üzrə ikinci (barışdırıcı komissiyadan sonra) məcburi instansiya. Ə.a. mübahisə tərəflərinin təşəbbüsü ilə yaradılır.

**Əmək azadlığı** – insanın sosial-iqtisadi və mədəni hüquqları qrupuna aid olan əsas konstitusiya hüquqlarından biri. Adətən özündə insanın öz əmək qabiliyyəti üzərində azad sərəncam vermək imkanını, fəaliyyət və peşə növü seçmək hüququnu, habelə məcburi əməyin qadağan olunmasını ehtiva edir. Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində deyilir: "Əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Heç kəs zorla işlədilə bilməz. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir. Hər kəsin təhlükəsizlik və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əməkhaqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. İşsizlərin dövlətdən müavinət almaq hüququ vardır. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir".

**Əmək birjası** – iş qüvvəsinin alqı-satqı sövdasında olan fəhlə və sahibkarlar arasında vasitəçilik edən idarə. Ə.b. XIX yüzilliyin birinci yarısında Almaniya və Böyük Britaniyada yaranmışdır. Hazırda işsizliyin aradan qaldırılması məqsədi ilə ə.b. dünyanın, demək olar ki, əksər ölkələrində, o cümlədən Azərbaycanda da (əmək yarmarkası adı ilə) mövcuddur.

**Əmək ekspertizası** – əmək qabiliyyəti vəziyyətinin qiymətləndirilməsi. Səhiyyə haqqında qanunvericiliyə uyğun olaraq ə.e. səlahiyyətli orqanlar və müəssisələr tərəfindən həyata keçirilir. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinin müayinəsi HMK, uzun müddətə, yaxud daimi itirilmiş müayinəsi isə HƏEK tərəfindən aparılır.

**Əmək funksiyası** – əmək müqaviləsində nəzərdə tutulan bir və ya bir neçə vəzifə (peşə) üzrə işçinin yerinə yetirməli olduğu işlərin (xidmətlərin) məcmusu.

AR ƏM-in 54-cü maddəsinə uyğun olaraq əmək funksiyasının yerinə yetiril-

məsi üçün işəgötürən aşağıdakı əmək şəraitini təmin etməlidir: 1) peşə (vəzifə) adlarının, ixtisaslarının, əməyin ödənilməsi dərəcələrinin müəyyən edilməsi; 2) əməyə görə haqqın miqdarının müəyyən edilməsi və onun ödənilməsi; 3) əmək normaları və əməyin qiymətləndirilməsi normalarının müəyyən edilməsi; 4) sanitariya və gigiyena normalarına cavab verən iş yerinin və iş şəraitinin yaradılması; 5) əməyin mühafizəsi, texniki təhlükəsizlik normalarının gözlənilməsi; 6) əmək funksiyasının ƏM ilə müəyyən edilmiş iş vaxtı müddətindən artıq olmayan iş vaxtında yerinə yetirilməsini; 7) ƏM ilə müəyyən edilmiş istirahət vaxtından, məzuniyyətlərdən istifadə olunmasını; 8) işçilərin qanunvericiliklə müəyyən olunmuş məcburi dövlət sosial sığorta edilməsini; 9) əmək müqaviləsində, kollektiv müqavilələrdə nəzərdə tutulan şərtləri.

**Əməkgün** – ictimai təsərrüfatda kolxozçuların sərf etdikləri əməyin və bölüşdürülən gəlirin miqdarı (ölçüsü). Ə. keçmiş SSRİ-də 1930-1960-cı illərdə tətbiq edilmişdir.

**Əməkhaqqı** – müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusu.

AR ƏM-in 16-cı maddəsində nəzərdə tutulmuş ayrı-seçkiliyə yol verilməməsi prinsiplərini pozaraq işçilərin əməkhaqqı məbləğinin hər hansı şəkildə azaldılması və onlara dövlətin müəyyən etdiyi minimum əməkhaqqı miqdarından az əməkhaqqı verilməsi qadağan edilir. İşçinin heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əməkhaqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. Minimum əməkhaqqı dedikdə iqtisadi, sosial şərait nəzərə alınmaqla qanunvericiliklə ixtisassız əməyə və xidmətə görə aylıq əməkhaqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normativ başa düşülür.

Aylıq iş vaxtı normasını işləmiş və əmək funksiyasını yerinə yetirmiş işçinin aylıq əməkhaqqı dövlət tərəfindən müəyyən edilmiş minimum əməkhaqqının məbləğindən aşağı ola bilməz. Kollektiv müqavilələrdə, sazişlərdə qanunvericiliklə müəyyən olunmuş minimum əməkhaqqından daha yüksək məbləğ nəzərdə tutula bilər. Əməkhaqqı sistemi ilə nəzərdə tutulan mükafatlar, əməkhaqqına əlavələr, artımlar, habelə iş vaxtından kənar vaxtlarda görülən işlərə göər verilən ödəmələr və digər ödənclər minimum əməkhaqqının məbləğinə daxil edilmir. Minimum əməkhaqqının məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Əməkhaqqı hesabına avans** *(bax: əməkhaqqının verilməsi müddətləri).*

**Əməkhaqqından tutmalar** – Azərbaycan Respublikasının əmək hüququna görə işəgötürən tərəfindən yalnız qanunvericiliklə nəzərdə tutulan hallarda həyata keçirilən tutmalar..

Əməkhaqqında müvafiq məbləğlər qanunla müəyyən edilən hallar istisna edilməklə yalnız işçinin yazılı razılığı ilə, yaxud məhkəmənin qərarı ilə tutula bilər (AR ƏM-in 175-ci maddəsinin 1-ci hissəsi). İşəgötürənin sərəncamı ilə işçinin əməkhaqqından yalnız aşağıdakı ödənişlər tutulur: a) qanuvericiliklə müəyyən edilmiş müvafiq vergilər, sosial sığorta haqları və digər icbari ödəmələr; b) məhkəmənin qətnaməsi (qərarı) ilə icra sənədlərində müəyyən edilmiş məbləğ; c) işəgötürənə işçinin (tam maddi məsuliyyət daşıdığı hallar istisna olmaqla) təqsiri üzündən onun orta aylıq əməkhaqqından artıq olmayan miqdarda vurduğu ziyanın məbləği; ç) müvafiq iş ilinə görə məzuniyyətə çıxmış və həmin iş ili bitənədək işdən çıxdığı halda məzuniyyətin işlənməmiş günlərinə düşən məzuniyyət pulu; d) xidməti ezamiyyətə göndərilən işçiyə avans olaraq verilmiş ezamiyyə xərclərinin ezamiyyətdən qayıtdıqdan sonra artıq qalmış borc məbləği; e) mühasibat tərəfindən ehtiyatsızlıqdan səhvən yerinə yetirilən riyazi əməliyyatlar nəticəsində artıq verilmiş məbləğlər; ə) təsərrüfat ehtiyaclarından ötrü malların, əmtəələrin alınması üçün verilmiş, lakin xərclənməmiş və vaxtında qaytarılmamış pulun məbləği: f) kollektiv müqavilələrdə nəzərdə tutulan hallarda müəyyən edilmiş məbləğ.

İşdənçıxma müavinəti və qanunvericiliyə müvafiq olaraq vergi tutulmayan digər ödənclərdən məbləğlərin tutulmasına yol verilmir. Hesabda səhvə yol verilməsi halları istina olmaqla, işəgötürən tərəfindən işçiyə artıq verilmiş əməkhaqqı, o cümlədən müvafiq qanun və digər normativ-hüquqi aktların düzgün tətbiq edilməməsi nəticəsində verilən məbləğlər işçidən tutula bilməz. İşçinin ərizəsində göstərdiyi məbləğdə və müddətlərdə əməkhaqqının müvafiq hissəsi kommunal xərclərin, bankdan aldığı ssudaların, kreditlərin və digər şəxsi borclarının ödənilməsi üçün tutularaq kreditorlarla göndərilə bilər. İşçi belə ərizə ilə işəgötürənə müraciət etməyibsə, onun kreditorlarının tələbi ilə işçinin borcları əməkhaqqından tutula bilməz.

**Əməkhaqqının verilməsi müddətləri** – əmək qanunvericiliyinə uyğun olaraq aylıq əməkhaqqı işçilərə, bir qayda olaraq, iki hissəyə bölünərək (avans olaraq və qalan hissəsi məbləğində) 16 gündən çox olmayan vaxt fasiləsi ilə ayda iki dəfə verilməlidir. Əmək haqqı illik dövr üçün hesablanan işçilərə isə ayda bir dəfədən az olmayan müddətdə verilməlidir.

Kollektiv müqavilədə, yaxud əmək müqaviləsində əməkhaqqının verilməsinin başqa müddətləri də müəyyən edilə bilər. Əməkhaqqının verilməsi günü istirahət və ya bayram günlərinə təsadüf etdikdə o, bilavasitə həmin günlərdən əvvəlki gündə verilir. İşçi işdən çıxarkən ona düşən bütün ödənclər tam məbləğdə işdən çıxdığı gün verilir.

Əməkhaqqının verilməsi işəgötürənin təqsiri üzündən gecikdirildikdə və bu hal fərdi əmək mübahisəsi yaratmadıqda, hər gecikdirilmiş gün üçün işçiyə əməkhaqqının azı 1 faizi məbləğində ödənc verilməlidir. Bu hal əmək mübahisəsi yaratdıqda, həmin mübahisə ƏM-in "Əmək mübahisələri" bölməsində nəzərdə tutulan qaydada həll edilir (ƏM-in 172-ci maddəsi).

**Əmək hüququ** – **1)** bir sıra dövlətlərdə insanın (və ya ancaq vətəndaşın) əsas iqtisadi konstitusiya hüquqlarından biri. Əmək hüququnun konstitusiyada təsbit edildiyi bəzi demokratik ölkələrdə (məsələn, İtaliyada, Bolqarıstanda) bu, dürüst hüquqi məzmuna malik deyil və dövlətin yalnız işləmək arzusunda olanlar üçün müvafiq şərait yaratmaq vəzifəsi kimi ifadə olunur. Bu hüquq Azərbaycan Respublikasının Konstitusiyasında fərdi və ictimai rifahın əsası kimi təsbit edilmişdir; **2)**

işçilərin əmək münasibətlərini, habelə əmək münasibətləri ilə əlaqədar digər məsələləri tənzim edən hüquq normalarının məcmusu.

**Əmək intizamı** – hüquq normaları il və digər sosial normalarla tənzim edilən təşkilati münasibətlər sistemi. Bu sistem çərçivəsində birgə əmək fəaliyyəti baş verir. Ə.i.-nın xarakteri istehsal münasibətlərinin tipi ilə müəyyən edilir. Onun məzmunu əmək qanunvericiliyində, daxili əmək intizamı qaydalarında, kollektiv müqavilələrdə, müxtəlif təlimatlarda, eləcə də əmək qanunvericiliyi sisteminə daxil olan digər normativ-hüquqi aktlarda konkretləşdirilir. Ə.i.-nın pozulması zamanı intizam tənbehi, ictimai məzəmmət tədbiri tətbiq edilir. Ə.i.-nın pozulması ilə əlaqədar işlərə əmək kollektivində baxılır.

**Əmək kitabçası** – əmək qanunvericiliyinə görə işçilərin əmək fəaliyyətinin mərhələlərini (əmək fəaliyyəti tarixlərini) əks etdirən hüquqi sənəd. Ə.k. işçinin idarə, müəssisə və təşkilatlar, ictimai təşkilatlar və kooperativ təşkilatları ilə əmək müqaviləsi bağladıqdan sonra 5 gün ərzində rəsmiləşdirilir. Əvəzçilik üzrə işləyənlər üçün ə.k. işçinin yalnız əsas iş yerində açılır.

**Əmək kollektivi** – işəgötürənlə əmək münasibətlərində olan, AR ƏM ilə və digər normativ-hüquqi aktlarla müəyyən edilmiş əmək, sosial-iqtisadi hüquqlarını birgə həyata keçirmək və qanuni mənafelərini kollektiv halında müdafiə etmək səlahiyyətinə malik müvafiq iş yerlərində çalışan işçilərin birliyi (AR ƏM-in 3-cü maddəsi).

**Əmək qabiliyyəti** – insana müəyyən həcmdə və keyfiyyətdə işi yerinə yetirməyə imkan verən sağlamlıq vəziyyəti. Vətəndaşın ə.q. 16 yaşdan başlayır. Ə.q.-nin son həddi qadınlar üçün 55, kişilər üçün 60 yaşdır. Peşə və xüsusi əmək qabiliyyəti işə qəbul zamanı qabaqcadan tibbi müayinə qaydasında həkimlər qrupu tərəfindən müəyyən edilir. Ə.q.-nin vəziyyəti səhiyyə müəssisələrində Həkim-Məsləhət Komissiyası (HMK), Tibbi-sosial Ekspert Komissiyası (TSEK) tərəfindən müəyyənləşdirilir.

**Əmək qabiliyyəti olmayan şəxslər** – əlillər, o cümlədən 16 yaşadək əlil uşaqlar, 62 yaşına çatmış qadınlar, 67 yaşına çatmış kişilər, 3 və daha çox uşaq doğub 8 yaşınadək tərbiyə etmiş, yaxud uşaqlıqdan əlil övladını 8 yaşınadək tərbiyə etmiş 57 yaşına çatmış qadınlar, ana vəfat etdiyinə, yaxud analıq hüququndan məhrum edildiyinə görə 3 və daha çox uşağı və ya uşaqlıqdan əlil övladını növbəti nikah bağlamadan təkbaşına 8 yaşınadək böyüdən 62 yaşına çatmış kişilər, vəfat etmiş şəxsin 18 yaşına çatmamış, yaxud 18 yaşına çatanadək əlil olmuş 18 yaşından yuxarı uşaqları (əyani təhsil alanlar təhsili bitənədək, lakin 23 yaşdan çox olmamaqla).

**Əmək qabiliyyəti yaşı** *(bax: əmək qabiliyyəti).*

**Əmək qabiliyyətsizliyi** – sağlamlıq vəziyyəti, yaş ilə əlaqədar və qanunla nəzərdə tutulan digər hallarda əmək qabiliyyətinin itirilməsi. Ə.q. aşağıdakı kimi müəyyənləşdirilir; dərəcəsinə görə – tam əmək qabiliyyətsizliyi; qismən əmək qabiliyyətsizliyi; əmək funksiyalarının gələcəkdə bərpa olunmasından asılı olaraq – müvəqqəti əmək qabiliyyətsizliyi; daimi (uzun müddət davam edən) əmək qabiliyyətsizliyi; əmək fəaliyyətinin növlərinə görə – ümumi əmək qabiliyyətsizliyi; peşə əmək qabiliyyətsizliyi. Ə.q. HMK, yaxud TSEK tərəfindən müəyyən edilir.

**Əmək qanunvericiliyi** – Azərbaycan Respublikasının əmək qanunvericiliyi (sistemi) Azərbaycan Respublikasının Əmək Məcəlləsindən, Azərbaycan Respublikasının müvafiq qanunlarından, müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyəti çərçivəsində qəbul etdikləri normativ-hüquqi aktlardan, əmək məsələləri ilə, sosial-iqtisadi məsələlərlə əlaqədar Azərbaycan Respublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Əmək qanunvericiliyini pozmağa görə məsuliyyət** – işəgötürənlərin, işçilərin və digər fiziki şəxslərin əmək qanunvericiliyi sisteminə daxil olan sair normativ-hüquqi aktlarla müəyyən olunmuş hüquqları pozmağa, onları hər hansı şərtlə və ya qaydada məhdudlaşdırmağa, habelə bu hüquqlardan sui-istifadə etməyə, əmək müqaviləsi ilə müəyyən edilmiş öhdəlikləri, vəzifə funksiyasını yerinə yetirməməyə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyəti. Əmək qanunvericiliyinin pozulmasına görə məsuliyyət maddi məsuliyyətdən, intizam məsuliyyətindən, inzibati məsuliyyətdən və cinayət məsuliyyətindən ibarətdir.

İşçi və ya işəgötürən əmək müqaviləsi ilə müəyyən edilmiş öhdəliklərini, əmək funksiyasını, habelə AR ƏM-in və əmək qanunvericiliyi sisteminə daxil olan digər normativ-hüquqi aktın tələblərini pozaraq biri digərinin hüquqlarına və qanunla qorunan mənafelərinə müəyyən ziyan vurduqda, AR ƏM-in 186-cı maddəsində nəzərdə tutulmuş intizam məsuliyyətinə cəlb edilir.

Əmək qanunvericiliyini pozan işçi, işəgötürən və ya digər fiziki şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda və müəyyən edilmiş qaydada inzibati məsuliyyətə cəlb olunurlar.

İctimai təhlükəli əməlləri ilə qanunvericiliklə müəyyən edilmiş əməyin mühafizəsi qaydalarını və ya işçilərin, işəgötürənlərin hüquqlarını və qanuni mənafelərini, yaxud ƏM-in tələblərini hər hansı formada kobud şəkildə pozan şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda və müəyyən edilmiş qaydada cinayət məsuliyyətinə cəlb olunurlar.

**Əmək Məcəlləsi** – müvafiq hüquq normaları ilə əmək münasibətlərində işçilərin və işəgötürənlərin əmək, sosial, iqtisadi hüquqları və bu hüquqlarla bağlı müvafiq təminatların minimum səviyyəsinin, Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulan əmək, istirahət, təhlükəsiz və sağlam şəraitdə işləmək hüququnun, habelə digər əsas insan hüquqlarının təmin edilməsi prisipləri və qaydalarının, Azərbaycan Rspublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Beynəlxalq Əmək Təşkilatının konvensiyalarına və digər beynəlxalq hüquq normalarına uyğun olaraq əmək münasibətlərinin yaranması, dəyişməsi, onların xitam olunması və bu münasibətlərin iştirakçılarının hüquqlarının mühafizəsi sahəsində işçilərin, işəgötürənlərin, habelə müvafiq dövlət hakimiyyəti orqanlarının hüquqlarını, vəzifələrini tənzim edən normaların təsbit edildiyi sistemləşdirilmiş qanunvericilik aktı.

ƏM 1 fevral 1999-cu il tarixdə təsdiq edilmiş, həmin il iyulun 1-dən qüvvəyə minmişdir. ƏM on üç bölmə, qırx səkkiz fəsil, 317 maddə və əlavələrdən ibarətdir.

**Əmək məzuniyyəti** – işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi müddət.

Ə.m. işçilərin hüququdur. Əlavə iş yerində əvəzçiliklə işləyən işçilərin də AR ƏM ilə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququ vardır. İşçilərin ƏM ilə müəyyən edilmiş məzuniyyət hüququ və ondan istifadə qaydaları məhdudlaşdırıla bilməz. Məzuniyyətdə olduğu müddət ərzində işçinin iş yeri, vəzifəsi (peşəsi) və ƏM-də nəzərdə tutulmuş hallarda orta əməkhaqqı saxlanılır, habelə işəgötürənin təşəbbüsü ilə əmək müqaviləsinin pozulması və işçinin intizam məsuliyyətinə cəlb edilməsi yolverilməzdir. Bu müddət işçinin əmək stajına, həmçinin ixtisas üzrə stajına daxil edilir.

AR ƏM-in 112-ci maddəsinə uyğun olaraq işçilərin məzuniyyət hüququ aşağıdakı məzuniyyət növləri ilə təmin edilir; a) əsas və əlavə məzuniyyətlərdən ibarət olan əmək məzuniyyəti: b) uşağına qulluq etmək üçün qadınların sosial məzuniyyəti; c) təhsilini davam etdirmək və elmi yaradıcılıqla məşğul olmaq üçün verilən təhsil və yaradıcılıq məzuniyyəti; ç) ödənişsiz məzuniyyət. Əmək müqaviləsində, habelə kollektiv müqavilədə məzuniyyətlərin digər növləri də nəzərdə tutula bilər.

Ə.m. hər il müvafiq iş ili üçün verilir. İş ili işçinin işə götürüldüyü gündən başlanır və növbəti ilin həmin günü başa çatır. Əgər işçinin iş ili onun əmək məzuniyyətinə çıxmaq üçün müraciət etdiyi vaxtda başlamayıbsa, belə halda ona əmək məzuniyyəti yalnız iş ili başlanandan sonra verilə bilər. Bir iş ilinə görə yalnız bir əmək məzuniyyəti verilə bilər. Təqvim ili ərzində işçinin iki iş ilinə görə məzuniyyət hüququ olduqda o, həmin təqvim ilində hər iki iş ilinə görə məzuniyyətdən birlikdə və ya ayrı-ayrılıqda istifadə edə bilər (AR ƏM-in 113-cü maddəsinin 3-cü hissəsi).

**"Əmək miqrasiyası haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında əmək miqrasiyası proseslərinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edən, əmək miqrasiyası sahəsində yaranan münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 28 oktyabr 1999-cu il tarixdə qəbul edilmişdir. Qanun dörd fəsil və 22 maddədən ibarətdir.

**Əmək mübahisələri** – işəgötürənlə işçi arasında əmək qanunvericiliyinin və əmək qanunvericiliyi sisteminə daxil olan digər normativ-hüquqi aktların tətbiqi məsələləri üzrə (iddia xarakterli mübahisələr), yaxud lazımi əmək şəraitinin yaradılması, habelə mövcud əmək şəraitinin dəyişdirilməsi üzrə (qeyri-iddia xarakterli mübahisələr) qanunla müəyyən edilmiş qaydada həll edilən fikir ayrılıqları. Ə.m.-nə baxılması qaydası qanunvericiliklə (AR ƏM-in 259-303-cü maddələri) tənzimlənir. Ə.m. kollektiv və fərdi əmək mübahisələrini əhatə edir.

**Əmək mühafizəsi qaydalarını pozma** – insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərdən biri. AR CM-in 162-ci maddəsinə görə texniki təhlükəsizlik və ya əmək mühafizəsinin başqa qaydalarına riayət edilməsi vəzifəsi həvalə edilmiş şəxs tərəfindən bu qaydaların pozulması nəticəsində ehtiyatsızlıqdan insan sağlamlığına ağır və ya az ağır zərər vurmada, eləcə də insan ölümünə səbəb olmada ifadə olunur.





**Əmək müqaviləsi (kontrakt)** – işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilə.

Əmək müqavilələri sərbəst bağlanır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Ə.m.-nin tərəflərindən biri işəgötürən, digəri isə işçidir. 15 yaşına çatmış hər bir şəxs işçi kimi ə.m.-nin tərəfi ola bilər. Qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edilmiş şəxslə ə.m. bağlana bilməz. Tam fəaliyyət qabiliyyəti olmayan şəxs işəgötürən ola bilməz. Ə.m.-nin məzmunu və quruluşu qanunvericiliyin tələblərinə əməl edilməklə tərəflərin razılığı əsasında müəyyən edilir. Ə.m. yazılı formada bağlanır. Tərəflərin razılığı ilə ə.m. AR ƏM-ə əlavə edilmiş nümunəvi formaya uyğun olaraq tərtib edilir. Ə.m. *iki* nüsxədən az olmayaraq tərtib olunub tərəflərin imzası (möhürü) ilə təsdiq edilir və onun bir nüxəsi işçidə, digər nüsxəsi isə işəgötürəndə saxlanılır.

Ə.m. qabaqcadan müddəti müəyyən edilmədən (müddətsiz) və ya 5 *ilədək müddətə (müddətli)* bağlana bilər. Müqavilədə onun hansı müddətə bağlanması göstərilmədikdə, həmin müqavilə müddətsiz bağlanmış hesab olunur. Müddəti müəyyən edilmədən bağlanmış ə.m. hər iki tərəfin razılığı olmadan birtərəfli qaydada müddətli Ə.m. ilə əvəz edilə bilməz. Əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə işin və ya göstərilən xidmətlərin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olduğu hallarda ə.m. müddəti müəyyən edilmədən bağlanmalıdır.

Ə.m.-ndə başqa hal nəzərdə tutulmadıqda o, tərəflərin imzaladığı gündən qüvvəyə minir. Ə.m.-nin hər hansı dövlət orqanında və ya digər qurumlarda qeydiyyata alınması, təsdiq edilməsi yolverilməzdir. Ə.m. işçinin peşəkarlıq səviyyəsini, müvafiq funksiyasını icra etmək bacarığını yoxlamaq məqsədi ilə sınaq müddəti müəyyən edilməklə bağlana bilər. Sınaq müddəti 3 aydan artıq olmamaq şərti ilə müəyyən edilir. Ə.m. bağlanarkən sınaq müddəti yaşı 18-dən az olan şəxslərlə, müsabiqə yolu ilə müvafiq tutanlarla və tərəflərin razılığı ilə müəyyən edilən digər hallarda müəyyən edilmir (AR ƏM-in 42-53-cü maddələri).

**Əmək münaqişələri** *(bax: əmək mübahisələri).*

**Əmək normaları** – işçilər üçün texnikanın, texnologiyanın əldə edilmiş səviyyəsinə uyğun olaraq müəyyən edilən hasilat, vaxt, xidmət və işçilərin say normaları.

Əməyin təşkilinin və ödənilməsinin kollektiv formaları şəraitində, qəbul edilmiş əmək normaları bazasında hesablanan genişləndirilmiş, habelə kompleks əmək normaları da tətbiq edilə bilər. İş yerlərinin attestasiyası keçirilərək səmərəliliyi daha da artırarkən və əmək məhsuldarlığının artmasını təmin edən yeni texnika, texnologiya və təşkilati-texniki tədbirlər tətbiq edilərkən mövcud əmək normaları mütləq yeni normalarla əvəz edilməlidir. Hasilat normaları elə müəyyən edilməlidir ki, tam iş vaxtı ərzində işçi əmək funksiyasını yerinə yetirmək imkanına malik olsun və onun əməkhaqqının məbləği qanunvericiliklə müəyyən edilmiş minimum məbləğdən aşağı olmasın.

*Əmək normalarının tətbiqi, dəyişdirilməsi* və onlara yenidən baxılması kollektiv müqavilələrlə müəyyən edilir, kollektiv müqavilə bağlanmadıqda isə həmkarlar ittifaqları ilə razılaşdırma əsasında işəgö-

törənlər tərəfindən həyata keçirilir. Yeni əmək normalarının qəbulu və tətbiqi barədə işçilərə ən azı 2 ay qabaqcadan rəsmi məlumat verilməlidir (AR ƏM-in 147 və 148-ci maddələri).

**Əmək pensiyası** – "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli qanunu ilə nəzərdə tutulmuş qayda və şərtlərlə müəyyən edilən və məcburi dövlət sosial sığorta olunan şəxslərin onlara əmək pensiyası təyin olunduqdan əvvəl aldıqları əməkhaqqı və digər gəlirlərin, yaxud sığorta olunan şəxslərin ölümü ilə əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədi ilə vətəndaşlara verilən aylıq pul ödənişi.

**"Əmək pensiyası haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında vətəndaşların əmək pensiyası hüquqlarının yaranmasının əsaslarını, bu hüquqların həyata keçirilməsi qaydalarını və əmək pensiyası təminatı sistemini müəyyən edən qanunvericilik aktı.

Həmin qanun 7 fevral 2006-cı il tarixdə qəbul edilmişdir. O, on fəsil və 47 maddədən ibarətdir.

**Əmək pensiyasının baza hissəsi** – əmək pensiyalarının birinci pilləsi olmaqla əmək pensiyalarının sosial müdafiəsinin dövlət təminatı.

**Əmək pensiyasının müəyyən edilməsi** – əmək pensiyasının təyin edilməsi, onun məbləğinin yenidən hesablanması və əmək pensiyasının bir növündən digərinə keçid.

**Əmək pensiyasının sığorta hissəsi** –əmək pensiyalarının ikinci pilləsi olmaqla, fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalının gözlənilən pensiya ödənişi müddətinin aylarının sayına nisbəti şəklində hesablanan məbləğ.

**Əmək pensiyasının yığım hissəsi** – əmək pensiyalarının üçüncü pilləsi olmaqla, fərdi hesabın yığım hissəsində qeydə alınmış pensiya kapitalının (*bax: pensiya kapitalı*) gözlənilən pensiya ödənişi müddətinin *(bax: gözlənilən pensiya ödənişi müddəti)* aylarının sayına nisbəti şəklində hesablanan məbləğ.

**Əmək sazişi** *(bax: əmək müqaviləsi).*

**Əmək stajı** – işçinin əmək və sair ictimai-faydalı fəaliyyətinin vaxtı (davamiyyəti). Ə.s. pensiyaya, məzuniyyətə çıxmaq hüququ üçün əsasa xidmət edir. Müvəqqəti əmək qabiliyyətsizliyinə görə müavinətin, bir sıra hallarda isə hətta əməkhaqqının miqdarı ə.s.-na görə müəyyən edilir. Ə.s. ümumi, fasiləsiz, xüsusi növlərinə görə fərqləndirilir.

Ümumi ə.s. xarakterindən, davamiyyətindən (müddətindən) asılı olmayan əmək və digər ictimai-faydalı fəaliyyətin zaman etibarı ilə toplusundan (cəmindən) ibarətdir. Fasiləsiz ə.s. işçi kimi bir idarə, müəssisə və təşkilatda fasiləsiz işləmə müddətidir. Xüsusi (sahəvi) ə.s., yəni işin məzmununa, əmək və iqlim şəraiti əlamətlərinə görə fərqləndirilir. Xüsusi ə.s. ümumi və fasiləsiz ola bilər.

**Əmək şəraiti** – işçinin öz əmək funksiyasını səmərəli və faydalı yerinə yetirmək üçün minimum normaları ƏM-də nəzərdə tutulan, habelə əmək müqaviləsində (kollektiv müqavilədə, sazişdə) tərəflərin özlərinin müəyyən etdiyi əmək, sosial və iqtisadi normaların məcmusu.





Qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, əmək şəraitinin şərtləri birtərəfli qaydada dəyişdirilə bilməz. İstehsalın və əməyin təşkilində dəyişikliklər edilməsi zərurəti yarandıqda işçinin peşəsi, ixtisası və vəzifəsi üzrə işi davam etdirməklə əmək şəraitinin şərtlərinin dəyişdirilməsinə yol verilir (AR ƏM-in 3-cü və 56-cı maddələri).

**Əmək şikəstliyi** – əmək hüququna görə işlə əlaqədar bədbəxt hadisə nəticəsində sağlamlığın müvəqqəti, yaxud daimi (uzun müddətə) pozulması, orqanizmin zədələnməsi. Ə.ş. nəticəsində müvəqqəti əmək qabiliyyətsizliyinə görə işçilər üçün müavinət qazancın 100 faizi miqdarında təyin edilir. Ə.ş. nəticəsində işçinin əlil olmasına görə təqaüd əmək stajının müddətindən asılı olmayaraq müəyyənləşdirilir. Ailə başçısı itirildikdə (onun ölümü əmək şikəstliyi nəticəsində baş verərsə), onun himayəsindəki əmək qabiliyyəti olmayan şəxslərə təqaüd almaq hüququ verilir.

**Əmək veteranları** – qocalığa və yaşa görə təqaüdə çıxmaq hüququna, habelə lazımi əmək stajına malik olan şəxslər.

**Əməl** *(hüquqda) – (bax: cinayət).*

**Əməli idarəetmə** *(bax: əməli idarəetmə hüququ).*

**Əməli idarəetmə hüququ** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə əşya hüquqlarının xüsusi növü. Bu hüquq səlahiyyətlərin həcminə görə mülkiyyət hüququndan xeyli geri qalır. Qanunvericiliyə uyğun olaraq ə.i.h.-nun subyektləri ancaq dövlət idarə, müəssisə və təşkilatları ola bilər. Bu hüquqi şəxslər onlara təhkim edilmiş əmlaklara münasibətdə öz fəaliyyətlərinin məqsədlərinə müvafiq surətdə mülkiyyətçinin tapşırıqlarını həyata keçirirlər.

**Əməli lizinq** – lizinqin bir növü; lizinqin bu növünə görə lizinq alana müqavilə müddəti qurtardıqdan sonra lizinq predmetini əldə etmək və ya kirayələmək vəzifəsi həvalə edilə bilər və ya belə hüquq verilə bilər, bu şərtlə ki, müqavilə öz predmetinin tam amortizasiyası ilə bitməsin. Qəti dəyər hesablanarkən amortizasiya faktı bütün hallarda nəzərə alınmalıdır. Əgər müqavilədə müvafiq müddəa yoxdursa, lizinq alanın lizinq predmetini əldə etməyə ixtiyarı çatır (AR MM-in 747.3-cü maddəsi).

**Əməliyyat** *(bax: hərbi əməliyyat).*

**Əməliyyat-axtarış fəaliyyəti** – müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri-aşkar üsullarla qanunda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsindən ibarət olan fəaliyyət növü.

Ə.-a.f. insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini və hərbi sirri, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etmək məqsədi ilə həyata keçirilir. Ə.-a.f.-nin vəzifələri aşağıdakılardır; 1) hazırlanan və törədilən cinayətlərin qarşısının alınması; 2) törədilmiş cinayətlərin aşkar edilməsi və açılması; 3) cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi; 4) təhqiqat, istintaq və məhkəmə orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması; 5) naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi.

Ə.-a.f. qanunçuluq, humanistlik, insan hüquq və azadlıqlarına hörmət, konspirasiya, aşkar və gizli iş üsullarının uyğunlaşdı-

rılması prinsiplərinə əsaslanır. Qanunvericilikdə sair hal nəzərdə tutulmadıqda, hər hansı şəxsin vətəndaşlığı, milliyyəti, cinsi, yaşayış yeri, sosial və əmlak vəziyyəti, qulluq mövqeyi, ictimai birliklərə mənsubiyyəti, dinə münasibəti və siyasi baxışları əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə mane ola bilməz.

**"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquq münasibətlərini tənzimləyən və əməliyyat-axtarış tədbirlərinin tətbiqində hüquqi təminatlar sistemini müəyyənləşdirən qanunvericilik aktı.

Bu qanun 28 oktyabr 1999-cu il tarixdə qəbul edilmişdir. Qanun üç fəsildən, 21 maddədən və keçid müddəalarından ibarətdir.

**Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma** – Azərbaycan Respublikasının cinayət hüququna görə ədalət mühakiməsi əleyhinə olan cinayətlərdən biri. AR CM-in 302-ci maddəsinə görə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən belə tədbirlərin keçirilməsi, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olan şəxslər tərəfindən həmin tədbirlərin qanunvericiliklə müəyyən edilmiş əsaslar olmadan keçirilməsi zamanı şəxsin hüquq və qanunla qorunan mənafelərinin əhəmiyyətli dərəcədə pozulmasında ifadə olunur.

**Əməliyyat-axtarış tədbirləri** – " Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli qanununun 10-cu maddəsinə uyğun olaraq tətbiq edilən tədbirlər sistemi. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri qanunla müəyyən edilmiş qaydada aşağıdakı əməliyyat-axtarış tədbirləri tətbiq edə bilərlər: 1) vətəndaşların soğusu; 2) soraqlaşma; 3) telefon danışıqlarına qulaqasma; 4) poçt, teleqraf və digər göndərişlərin yoxlanması; 5) texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması; 6) məhkumların məktublarının yoxlanılması; 7) nəqliyyat vasitələrinə baxış keçirilməsi; 8) binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə daxil olma və baxış keçirmə; 9) binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların və torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi; 10) insanların güdülməsi; 11) şəxsiyyətin eyniləşdirilməsi; 12) nəzarət qaydasında mal alınması; 13) əşya və sənədlərin tədqiqi; 14) müqayisəli tədqiqat üçün nümunələrin toplanması; 15) nəzarətli göndəriş; 16) cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil olma; 17) hüquqi şəxsin yaradılması; 18) əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi.

**Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi** – "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanununun 14-cü maddəsinə uyğun olaraq əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi əməliyyat-axtarış fəaliyyəti subyektinin rəhbərliyinin nəzarəti altında həyata keçirilir.

Əməliyyat-axtarış fəaliyyəti subyektinin müvəkkil edilmiş şəxsi əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi zamanı bilavasitə və birbaşa rəisinə tabedir. Rəisindən açıq-aşkar qanunsuz əmr və ya göstəriş aldıqda o, qanunu rəhbər tutmalı və əməliyyat-axtarış fəaliyyəti subyektinin tabeliyi üzrə yuxarı orqanına bu barədə məlumat verməlidir. Subyektin müvəkkil edilmiş şəxsi tərəfindən rəisinin əmrini və ya göstərişini yerinə yetirdiyi vaxtda cinayət baş verərsə və ya verəcəyi ehtimal olunarsa, bu barədə subyektin tabeliyi üzrə onun yuxarı orqanına və yaxud məhkəməyə şikayət verə bilər.





Qanunla buna birbaşa müvəkkil edilmiş şəxslər istisna olmaqla, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin və onların vəzifəli şəxslərinin qanuni hərəkətlərinə heç kəs müdaxilə edə bilməz. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya sistemlərindən, video və səsyazmadan, kino və fotoçəkilişlərdən, həmçinin vətəndaşların həyatı və sağlamlığına, ətraf mühitə zərər vurmayan digər texniki və başqa vasitələrdən istifadə oluna bilər. Obyektiv səbəblərə görə bu tədbirlərin tətbiqinin qeyri-mümkün edən şəraitdə (qarşısı alına bilməyən fövqəladə hadisə baş verdikdə və ya qarşısı alına bilməyən qüvvə mane olduqda, yaxud ictimai təhlükəsizliyə real təhlükə yarandıqda) onların həyata keçirilməsi dayandırılır.

**Əməliyyat-axtarış tədbirlərinin tətbiqinin şərtləri** – "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli qanununun 13-cü maddəsinə uyğun olaraq qanunla mühafizə edilən yazışma, telefon, poçt-teleqraf və digər rabitə üsulları ilə ötürülən məlumatların sirrinin qorunması, eləcə də mənzil toxunulmazlığı ilə əlaqədar əməliyyat-axtarış tədbirlərinin tətbiqinə ancaq cinayət hazırlayan, cinayət törətməyə sui-qəsd edən, cinayət törədən, həmçinin məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran şəxslər barədə məlumat toplamaq, dəlillərin gizlədilməsinin və məhv edilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilən tədbirlər nəticəsində əldə olunmuş məlumatların cinayət işi üzrə sübut ola biləcəyini və axtarılan şəxslərin tutula biləcəyini güman etmək üçün kifayət qədər əsas olduğu halda icazə verilir. Telefon və digər danışıqlara qulaq asılması və onların yazılması, texniki rabitə kanallarından və digər vasitələrdən informasiyanın çıxarılması, poçt-teleqraf göndərişlərinin yoxlanılması və mənzillərə baxış keçirilməsi ilə əlaqədar tətbiq edilən əməliyyat-axtarış tədbirlərində iştirak edən şəxslərdə həmin tədbirlərin tətbiqinə dair qərar və özlərinin xidməti vəsiqələri olmalıdır.

Şəxs tərəfindən cinayətin törədilməsi və ya hazırlanması barədə kifayət qədər əsas olduqda, onun özü və əlaqələri haqqında məlumat almaq məqsədi ilə tətbiq edilən tədbirdə insanın səhhətinə və ətraf mühitə ziyan vuran texniki vasitə, psixotrop, kimyəvi və digər maddələrdən istifadə edilməsi qadağandır. Əməliyyat-axtarış tədbirləri tətbiq edilərkən əməliyyat-axtarış subyektinin müvəkkil edilmiş şəxsləri, həmin tədbirlərin cinayətkar qəsdlərin cəmiyyətin mənafeyinə vura biləcəyi ziyanın ictimai təhlükəlilik dərəcəsinə uyğunluğunu gözləməyə borcludurlar.

**Əməliyyat günü** – bankın iş gününün birinci yarısı; bu zaman vaxtı ərzində sənədlərin, o cümlədən ödəmə sənədlərinin qəbulu həyata keçirilir.

**Əməliyyat-qeydiyyat işi** – həyata keçirilmiş əməliyyat-axtarış tədbirlərinin

əməliyyat-axtarış fəaliyyətinin subyekti tərəfindən məcburi qeydiyyatı.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunun 15-ci maddəsinin II hissəsinə uyğun olaraq əməliyyat-axtarış fəaliyyətinin subyektində məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran, cinayət törətməkdə şübhəli olan və ya itkin düşən şəxslər haqqında eyni hüquqazidd hərəkətlərə görə yalnız bir əməliyyat-qeydiyyat işi aparılmalıdır. Keçirilən tədbirlərin nəticələri əməliyyat-qeydiyyat işində əks olunmalı və sistemləşdirilməlidir. Ə.-q.i. onu aparan əməliyyat-axtarış fəaliyyətinin subyektində saxlanılır.

Ədalət mühakiməsi naminə hallar istisna olmaqla, cinayətin törədilməsində qanunla müəyyən edilmiş qaydada təqsiri sübuta yetirilməyən şəxs haqqında əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş materiallar bir il müddətində saxlanılır, sonra isə məhv edilir.

**Əməliyyat sənəti** – hərb sənətinin tərkib hissəsi; hərbi əməliyyat meydanında silahlı qüvvələrin operativ birləşmələrinin aparacağı birgə və müstəqil əməliyyatların hazırlanması və keçirilməsini nəzəri və təcrübi məsələlərini əhatə edir. Ə.s. hərbi tədris müəssisələrində hərbi-nəzəri fənn kimi tədirs olunur.

**Əməyin mühafizəsi** – əmək prosesində insanın sağlamlığını və iş qabiliyyətini təmin edən qanunvericilik aktlarının, təşkilati, texniki, gigiyenik və müalicə-profilaktiki tədbirlərin, habelə vasitələrin məcmusu.

Əməyin mühafizəsi normaları və qaydalarının işçilərin, istehsalat təcrübəsi keçən tələbə və şagirdlərin, müəssisələrdə işə cəlb edilən hərbi qulluqçuların, məhkəmə hökmlərinin icrası yerlərində işləyən məhkumların, təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına, habelə hərbi vəziyyətdə və fövqəladə vəziyyət rejimində işlərin görülməsinə cəlb edilən şəxslərin çalışdıqları bütün iş yerlərində tətbiq edilməsi son dərəcə vacibdir.

**Əməyin mühafizəsi fondu** – dövlət və müəssisələr səviyyəsində müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsis edilən fond. Dövlət Əməyin Mühafizəsi Fondu dövlət büdcəsindən ayırmalar; müəssisələrin mənfəətinin bir faizi miqdarında ayırmalar; əməyin mühafizəsi normalarını və qaydalarını pozan inzibati qaydada cəzalandırılmış vəzifəli şəxslərin ödədikləri cərimələrin qanunvericiliklə müəyyən edilmiş hissəsi: müəssisələrin, vətəndaşların könüllü ödəmələri və başqa ödəmələr hesabına yaradılır.

**Əməyin mühafizəsi xidmətləri** – əmək qanunvericiliyinə görə əməyin mühafizəsi işinin təşkili və əməyin mühafizəsi üzrə qanunvericiliyin tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi üçün iqtisadiyyatın bütün sahələrinin müəssisələrində yaradılan xidmətlər.

Ə.m.x. tərkibinə əmək qanunvericiliyini, əməyin mühafizəsi normalarını mükəmməl bilən mütəxəssislər daxil edilir. Min nəfərdən çox işçinin çalışdığı müəssisələrdə sənaye-sanitariya laboratoriyası təşkil olunur, habelə əməyin gigiyenası üzrə həkim vəzifəsi təsis edilir. Ə.m.x.-nin mütəxəssisləri əməyin mühafizəsi qaydalarına və normalarına əməl olunmasına nəzarət etmək, aşkara çıxarılmış pozuntuların aradan qaldırılması barədə vəzifəli şəxslərə icrası məcburi olan göstərişlər vermək, habelə əməyin mühafizəsi haqqında qanunvericiliyi pozan şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə işəgötürənə təqdimatlar vermək hüququna malikdirlər. Ə.m.x.-nin mütəxəssisləri öz vəzifələrinə aid olmayan işlərin yerinə yetirilməsinə cəlb edilə bilməzlər və vəzifə borclarını düzgün və keyfiyyətli yerinə yetirməməyə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. İşəgötürən ə.m.x.-ni yalnız əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqanın razılığı ilə yenidən təşkil və ya ləğv edə bilər (AR ƏM-in 223-cü maddəsi).

**Əməyin mühafizəsinin əsas prinsipləri** – Azərbaycan Respublikasının əmək qanunvericiliyinə uyğun olaraq dövlət hakimiyyəti orqanları, mülkiyyətçilər, işəgötürənlər və işçilər tərəfindən əməyin mühafizəsinin təmin olunması əsasən aşağıdakı prinsiplərlə həyata keçirilir: 1) dövlət hakimiyyəti orqanlarının, mülkiyyətçilərin, işəgötürənlərin və işçilərin əmək şəraitinin və əməyin mühafizəsinin yaxşılaşdırılmasına, istehsal qəzalarının, xəsarətlərinin, zədələrinin və peşə xəstəliklərinin qarşısının alınmasına yönəldilmiş fəaliyyət birliyi; 2) işçinin həyatının və sağlamlığının müəssisənin istehsal fəaliyyətinin nəticələrindən üstün tutulması; 3) əməyin mühafizəsi sahəsində fəaliyyətin iqtisadi və sosial siyasətin digər istiqamətləri ilə, habelə ətraf mühitin mühafizəsi sahəsində fəaliyyətlə əlaqələndirilməsi; 4) mülkiyyət və təhkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisələr üçün əməyin mühafizəsi sahəsində vahid tələblərin müəyyən edilməsi; 5) əməyin mühafizəsi tələblərinin bütün müəssisələrdə yerinə yetirilməsinə müstəqil və səmərəli nəzarətin həyata keçirilməsi; 6) əməyin mühafizəsi sahəsində ümumbəşəri elmi-texniki tərəqqidən, qabaqcıl təcrübədən geniş istifadə edən, habelə təhlükəsizlik texnikasının və texnologiyasının səmərəli mühafizə vasitələrini hazırlayan və tətbiq edən işəgötürənlərin müvafiq qaydada və vasitələrlə həvəsləndirilməsi; 7) müəssisələrdə əməyin yüksək mühafizəsi şəraiti yaradılmasına yönəldilmiş vergi siyasətinin aparılması; 8) əməyin mühafizəsinin maliyyələşdirilməsində dövlətin iştirakı; 9) əməyin mühafizəsi normalarının müntəzəm olaraq təkmilləşdirilməsi; 10) işçilərin xüsusi geyim və ayaqqabı, digər fərdi mühafizə vasitələri ilə, müalicə-profilaktik yeməklə və digər vasitələrlə pulsuz təmin edilməsi; 11) təhsil müəssisələrində əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması; 12) istehsalatda baş vermiş hər bir bədbəxt hadisənin təhqiq edilməsi, uçota alınması, təhlil edilməsi və bunun əsasında istehsalat xəstəliklərinin, zədələrinin və peşə xəstəliklərinin vəziyyəti barədə işçilərə dürüst məlumatların verilməsi; 13) istehsalatda bədbəxt hadisələrdən zərər çəkmiş və ya peşə xəstəliklərinə tutulmuş işçilərin mənafelərinin sosial, maddi və mənəvi müdafiəsi; 14) həmkarlar ittifaqlarının, müəssisələrinin və ayrı-ayrı fiziki, züquqi şəxslərin əməyin mühafizəsini təmin etməyə yönəldilmiş fəaliyyətinə hərtərəfli yardım olunması; 15) əməyin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq münasibətlərinin genişləndirilməsi (AR ƏM-in 209-cu maddəsi).

**Əməyin ödənilməsi təminatları** – müəssisənin maliyyə vəziyyətindən asılı olmayaraq işçiyə onun gördüyü işin müqabilində müəyyən edilmiş əməkhaqqının ödənilməsi öhdəliyi. AR ƏM-in 178-ci maddəsinə uyğun olaraq işçiyə aylıq əməkhaqqının ödənilməsində təqsirkar

olan işəgötürən qanunvericilikdə nəzərdə tutulan qaydada müvafiq məsuliyyətə cəlb edilməlidir. İşçinin müəyyən edilmiş əməkhaqqı müəyyənləşdirilmiş müddət ərzində ödənilməlidir.

Müəssisənin ləğv edildiyi hallarda birinci növbədə işçilərin əməkhaqqı, sosial müdafiə xarakterli bütün ödəmələri, o cümlədən istifadə etmədiyi məzuniyyətə görə pul əvəzi, AR ƏM-in 77-ci və 239-cu maddələri ilə müəyyən edilmiş, habelə müəssisənin fəaliyyəti dayandırıldığı günə işçiyə verilməli olan digər ödənclər işəgötürən tərəfindən ödənilməlidir. Müəssisənin müflisləşməsi nəticəsində iflasa uğradığı hallarda isə işçiyə həmin ödənclər qanunvericilikdə nəzərdə tutulmuş qaydada ödənilməlidir. Bu ödəncləri ödəmək üçün işəgötürənin maddi-maliyyə vəziyyətinin imkan vermədiyi hallarda, işçilərə həmin ödənclər müəssisənin əmlakı satılmaqla və ya müvafiq normativ-hüquqi aktlarla müəyyən edilən qaydada dövlət tərəfindən yaradılmış təminat sistemi ilə ödənilməlidir.

**Əmir** *(ər. başçı, hökmdar)* – müsəlman ölkələrində sərkərdə, hakim. Ərəb Xilafətində ilk xəlifələr və Əməvilər dövründə orduya komandanlıq edənlər ə. adlanır və adətən işğal edilmiş vilayətlərə canişin təyin olunurdular. Xəlifə Ömərdən başlayaraq xəlifələr həmir əl-möminin ("möminlərin hökmdarı") adlanırdı. IX-X yüzilliklərdə Abbasilər dövründə xəlifələrin himayəsində olan feodal hakimləri, Xilafətdən nominal asılılıqda olan canişinlər (Əqləbilər, Tulunilər, Tahirilər) və ya müstəqil dövlət yaradan hakimlər (Qəznəvilər, Büveyhilər və başqaları) ə. adlanırdı. X yüzilliyin sonu və XI yüzilliyin əvvəlində müxtəlif rütbəli feodal hakimləri və sərkərdələri (Səlcuqilər, Əyyubilər, Məmlüklər dövlətində) də ə. adlandırmağı başlamışdı. Əmir Teymur da bu titulu daşıyırdı. Səfəvilər dövründə İranda əyalət hakimləri (adətən tayfa başçıları – xanlar və sultanlar), Əfqanıstanda Dost Məhəmməddən başlayaraq Bərəkzəilər sülaləsinin hökmdarları ə. titulunu daşıyırdılar. XVIII yüzilliyin sonundan Buxara xanlığının hakimləri də özlərini ə. adlandırırdılar. XX yüzillikdə monarxiya quruluşunun hökm sürdüyü bəzi ərəb ölkələrində (məsələn, Səudiyyə Ərəbistanında, Küveytdə, Birləşmiş Ərəb Əmirliklərində) şahzadələr ə. adlanır.

**Əmirlik** – müsəlman ölkələrində əmirin başçılıq etdiyi feodal dövləti, yaxud feodal mülkü. Ərəb Xilafətində ə.-in başçısını xəlifə təyin edir, yaxud təsdiqləyirdi. Sonralar həm müstəqil, həm də vassal dövlətlər (məsələn, Nəcd, Şəmmar, Əsir əmirlikləri, Birləşmiş Ərəb Əmirlikləri dövləti) ə. adlanırdı. Dövlət birləşməsinə ə. adının verilməsi şərti xarakter daşıyır və bu, əsasən yaranmış ənənələrdən irəli gəlir.

**Əmlak** – aşağıdakıları ifadə etmək üçün işlədilən termin: 1) müəyyən şəxsin sahibliyində olan əşyaların və maddi sərvətlərin məcmusu (bu mənada "əmlak" terminindən qanunvericilikdə daha çox istifadə olunur); 2) başqa şəxsdən əldə edilən əşyaların və əmlak hüquqlarının məcmusu; 3) sahibinin əmlak vəziyyətini səciyyələndirən əşyaların, əmlak hüquq və vəzifələrinin məcmusu.

**Əmlak bölgüsü** – əmlakın mülkiyyətçilərinin ümumi paylı və birgə mülkiyyət hüquqlarına xitam verilməsi üsulu. Ümumi əmlak, bir qayda olaraq, təsərrüfat təyinatına zərər yetirilmədən natura ilə bölünür.





Ər və arvadın ümumi birgə mülkiyyəti olan əmlak bölündükdə onların payı bərabər hesab olunur. Lakin məhkəmə, yetkinlik yaşına çatmayan uşaqların mənafelərini, yaxud ər-arvaddan birinin diqqətəlayiq mənafeyini nəzərə almaqla bu qaydadan kənara çıxa bilər. Miras qalmış əmlakın bölgüsü mirası qəbul edən vərəsələrin razılığı ilə onların hər birinə düşən hissəyə müvafiq olaraq (hələ doğulmamış, ana bətnində olan vərəsənin payına düşən hissəsini ayırmaq şərtilə) aparılır. Vətəndaşların ümumi mülkiyyətində olan yaşayış evi o halda bölünə bilər ki, evin paylara düşən hissəsi (otaqları) bir-birindən təcrid edilmiş şəkildə olsun və yaxud yenidənqurma işlərinin aparılması ilə həmin hissələri bir-birindən təcrid etmək mümkün olsun.

**Əmlak cinayətləri** *(bax: mülkiyyət əleyhinə olan cinayətlər).*

**Əmlak hüquqları** – hüquq münasibətləri iştirakçılarının əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam verməklə əlaqədar, habelə iqtisadi dövriyyə iştirakçıları arasında həmin əmlakın bölüşdürülməsi və mübadiləsi (əmtəələrlə, xidmətlərlə, görülmüş işlərlə, pulla, qiymətli kağızlarla və i.a.) sahəsində əmələ gələn maddi tələblərlə (əmlak tələbləri ilə) bağlı olan subyektiv hüquqlar.

Mülki qanunvericilikdə müəyyən edilmiş hüquqi faktlardan və digər hərəkətlərdən əmələ gələn ə.h. ilə yanaşı, mülki əmlak hüquqları qanunla nəzərdə tutulmayan, lakin mülki qanunvericiliyin ümumi əsaslarına və mənasına zidd olmayan hərəkətlərdən də əmələ gələ bilər. Belə ki, ailə üzvlərinin əmlak hüquqları (məsələn, ər-arvadın birgə yaşadıqları dövrdə qazandıqları əmlak) onların şəxsi hüquqları ilə sıx surətdə bağlıdır.

**Əmlakı ehtiyatsızlıqdan məhv etmə və ya zədələmə** – mülkiyyət əleyhinə olan cinayətlərdən biri. AR CM-in 187-ci maddəsinə uyğun olaraq özgənin əmlakını ehtiyatsızlıqdan məhv etmə və ya zədələmədə, zərər çəkmiş şəxsə xeyli miqdarda ziyan vurmada, odla və ya başqa yüksək təhlükə mənbəyi ilə ehtiyatsız davranma üzündən baş verməklə külli miqdarda ziyan vurmada ifadə olunur.

**Əmlakı əsassız əldə etmə** – qanunla və ya əqdlə müəyyən edilmiş əsas olmadan (yaxud sonradan öz qüvvəsini itirmiş əsasla) şəxsin başqasının hesabına əmlak əldə etməsi və ya saxlaması. Belə hallarda yeni öhdəlik, yəni həmin əmlakı qaytarmaq öhdəliyi əmələ gəlir. Əmlakı əsassız əldə edən şəxs həmin əmlakı qaytarmalı və ya bu əmlakı əsassız yolla əldə etdiyini birdiyi (yaxud bilməli olduğu) vaxtdan həmin əmlakdan əldə etdiyi (və ya edə biləcəyi) gəlirin hamısını ödəməlirdir.

**Əmlakı qəsdən məhv etmə və ya zədələmə** – mülkiyyət əleyhinə olan cinayətlərdən biri. AR CM-in 186-cı maddəsinə uyğun olaraq özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmədə, zərər çəkmiş şəxsə xeyli miqdarda ziyan vurmada, habelə külli miqdarda ziyan vurmada, əmlakı yandırmada, partlatmada və ya başqa ümumi təhlükəli üsulla törədilmədə ifadə olunur.

**Əmlakın kontribusiya dəyəri** – Azərbaycan Respublikasının ticarət gəmiçiliyi qanunvericiliyinə görə əmlakın (gəminin, yükün və fraxtın) ümumi dəyəri, hansına ki, uyğun olaraq ümumi qəzanın bölüşdürülməsi qaydasında əvəzi ödənilən zərərin

ödənilməsi üçün təyin edilir (əmlakın kontribusiya dəyəri), gəmi səfərini başa çatdırdıqdan sonra bu, əmlakın həqiqi xalis dəyəri əsasında müəyyənləşdirilir. Məbləğin daxil edilmədiyi həmin dəyərə, qurban verilmiş əmlakın ümumi qəzanın bölüşdürülməsi qaydasında əvəzi ödənilən məbləğ əlavə edilir. Əmlakın konstribusiya dəyəri müəyyənləşdirilərkən ümumi qəza halında bu əmlaka dair çəkilən bütün əlavə xərclər, TGM-in 271-ci maddəsində müvafiq olaraq xüsusi kompensasiyanın verilməsi haqqında qərara əsasən ümumi qəza hesab edilən və ya gəmiyə aid olan xərclər istisna olmaqla çıxılır (AR TGM-in 241-ci maddəsi).

**Əmlakın qalıq dəyəri** – vergi qanunvericiliyinə görə müəssisənin balansında olan əsas vəsaitlərin ilkin dəyərinin həmin əsas vəsaitlərə hesablanmış amortizasiyasının məbləği qədər azaldılan dəyər (AR VM-in 13-cü maddəsi).

**Əmlakın siyahıya alınması** – mülki qanunvericiliyə görə əmlakın qorunması məqsədi ilə notariat orqanı mirası siyahıya alır və saxlamaq üçün vərəsəyə və ya başqa şəxsə verir, həm də mirasın açıldığı yerdə olmayan vərəsələrin axtarılması üçün tədbirlər görür (AR MM-in 1319-cu maddəsi).

**Əmlak kirayə müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. Ə.k.m.-nə görə kirayəyə verən əşyanı kirayəçinin istifadəsinə verməyi, kirayəçi isə bunun üçün kirayəyə verənə kirayə haqqı ödəməyi öhdəsinə götürür (AR MM-in 675-ci maddəsi).

Kirayəyə verilmiş əşya ilə bağlı yüklükləri, dövlət vergilərini və yerli vergiləri, ayrı razılaşma olmadıqda, kirayəyə verən ödəməlidir. Kirayəyə verənin digər xərclərinin, o cümlədən kirayəyə verilmiş əşyanın yaxşılaşdırılması xərclərinin əvəzini ödəmək vəzifəsi AR MM-in özgə işlərini tapşırıqsız aparmaq haqqında müddəaları ilə müəyyən edilir. Kirayəçi kirayəyə götürdüyü əşyanın müqavilə üzrə istifadəsi nəticəsində dəyişməsi və ya pisləşməsi üçün məsuliyyət daşımır.

Kirayəyə verənin icazəsi olmadan kirayəçinin kirayəyə götürdüyü əşyanı kirayəyə verənin ailəsinin tərkibinə daxil olmayan üçüncü şəxsin istifadəsinə vermək, o cümlədən əşyanı ikinci əldən kirayəyə vermək hüququ yoxdur. Əgər kirayəyə verən icazə verməkdən imtina edirsə, kirayəçi qanunla müəyyənləşdirilmiş müddəti gözləməklə hüquq münasibətlərini bu şərtlə ləğv edə bilər ki, obyektiv baxıldıqda üçüncü şəxs icazədən imtina üçün mühüm əsaslar verməsin.

Kirayə müddətinin bir aydan qısa olduğu hallarda əmlak kirayəsi haqqı həmin müddətin sonunda ödənilməlidir. Əgər kirayə müddəti bir aydan çox olarsa, əmlak kirayəsi haqqı zərurət olduqda hər ayın sonunda hissə-hissə ödənilməlidir. Kirayəçi mənsub olduğu istifadə hüququnu hər hansı fərdi səbəblərə görə həyata keçirə bilmədikdə əmlak kirayəsi haqqını ödəməkdən azad edilmir.

Kirayə müqaviləsi üzrə hüquq münasibətlərinə müqavilənin bağlandığı müddət bitdikdə xitam verilir. Kirayə müqaviləsində müddətin müəyyən edilmədiyi hallarda kirayə hüquq münasibətlərinin istənilən iştirakçısı AR MM-in 690-cı maddəsinin göstərişlərinə uyğun olaraq müqavilənin ləğvinə dair bildiriş verə bilər. Bildiriş yazılı formada verilməlidir. Bildirişdə müqavilənin ləğvi əsasları göstərilməlidir.

AR MM-in 695.1-ci maddəsinə uyğun olaraq kirayəçinin öldüyü halda kirayə müqaviləsi üzrə hüquq münasibətləri başqa kirayəçinin olduğu zaman davam etdirilir. Başqa kirayəçilər olmadıqda kirayə müqaviləsi üzrə hüquq münasibətləri vərəsələr vasitəsilə davam etdirilir. Növbəti kirayəçinin və ya vərəsənin qanunla müəyyən edilmiş xəbərdarlıq müddətlərini gözləməklə kirayə müqaviləsi üzrə hüquq münasibətlərinin ləğvinə dair bildiriş vermək hüququ vardır.

**Əmlak marağı** – sığorta obyekti olan əmlak; belə marağa münasibətdə hüquq və öhdəlik, yəni sığortalıya maddi zərər vurulmasının predmeti ola bilən hallarla əlaqədar sığortalının üçüncü şəxslər qarşısında məsuliyyəti yarana bilər.

**Əmlak müsadirəsi** – əmlakın bütünlüklə, yaxud onun bir hissəsinin vətəndaşların şəxsi (xüsusi) mülkiyyətindən məhkəmə qaydasında əvəzsiz olaraq dövlətin mülkiyyətinə götürülməsi. Ə.m. cinayət hüququnda əlavə cəza tədbirlərindən biridir. AR CM-in 51-ci maddəsinə uyğun olaraq əmlak müsadirəsi məhkumun cinayət törədərkən istifadə etdiyi alət və vasitələrin, habelə cinayət yolu ilə əldə etdiyi əmlakın məcburi qaydada və əvəzsiz olaraq dövlətin nəfinə alınmasından ibarətdir.

Ə.m. yalnız CM-in xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda təyin olunur. Məhkum və onun himayəsindəki şəxslər üçün zəruri olan və cəzaların icrası haqqında qanunvericiliklə müəyyən edilən əmlak müsadirə oluna bilməz.

**Əmlak senzi** – seçki qanunvericiliyinin tələblərindən biri; bu tələbə uyğun olaraq seçki (aktiv və ya passiv) hüququ ancaq müəyyən dəyəri olan və ya müəyyən edilmiş məbləğdən aşağı olmayan vergilər ödəyən əmlak sahibi olan vətəndaşlara verilir. Ə.s. XIX yüzillikdə dünya ölkələrinin əksəriyyətində mövcud olmuşdur. Vətəndaşların hüquq bərabərliyi prisipinə zidd olan ə.s.-nə hazırda, demək olar ki, təsadüf olunmur.

**Əmlak sığorta müqaviləsi** – sığorta müqaviləsinə görə bir tərəf (sığortaçı) müqavilə ilə şərtləşdirilmiş haqq (sığorta haqqı) müqabilində digər tərəfə (sığortalıya) və ya sığorta müqaviləsi xeyrinə bağlanmış başqa şəxsə (faydalanan şəxsə) müqavilədə nəzərdə tutulan hadisənin (sığorta hadisəsinin) baş verdiyi təqdirdə həmin hadisə nəticəsində sığortalanmış əmlaka dəymiş zərərin əvəzini, yaxud sığortalının digər əmlak mənafeləri ilə bağlı zərərin əvəzini müqavilə ilə müəyyənləşdirilmiş məbləğ (sığorta məbləği) həddində ödəməyi (sığorta ödənişi verməyə) öhdəsinə götürür (AR MM-in 883-cü maddəsi).

**Əmlak sığortası** – obyekti maddi sərvətlər olan sığorta növü. Ə.s.-nın obyekti qismində binalar, qurğular, avadanlıqlar, yaşayış binaları, evin əmlakı, kənd təsərrüfatı məhsulları, heyvanlar və i.a. çıxış edir. Ə.s. zamanı zərərin meydana çıxdığı halda şəxsi sığortada olduğu kimi sığorta məbləği deyil, sığorta əvəzi ödənilir.

**Əmlak üzərinə həbs qoyma** – əmlakın siyahıya alınması ilə onun üzərində sərəncam vermək hüququnun qadağan edilməsi. Ə.ü.h. məhkəmə qərarlarının icrasının təmin edilməsi tədbirlərindən biridir. Ə.ü.h. müstəntiq tərəfindən, əmlak müsadirəsi nəzərdə tutulan cinayətlər haqqındakı işlərdə hökmün əmlak müsadirəsinə aid olan hissəsinin icrasını təmin etmək üçün də tətbiq edilir. Müstəntiqin ə.ü.h. qərarı haqqında protokol tərtib edilir, onun surə-

ti imzalanaraq əmlakın sahibinə verilir. Ə.ü.h. əmlak hüquqlarının məhdudlaşdırılmasıdır, yəni belə əmlakı satmaq, bağışlamaq, dəyişdirmək, kirayə vermək və girov qoymaq olmaz.

**Əmlak vergisi** – daşınar və daşınmaz əmlaka qoyulan birbaşa vergi növü. "Əmlak vergisi" anlayışı hələ qədim yunanlara və romalılara məlum olmuşdur. Burjua münasibətlərinin təşəkkülü və inkişafı ilə əlaqədar olaraq əmlak vergisini gəlir vergisi əvəz etmişdir. Əmlak vergisi müstəqil vergi növü kimi ABŞ-da, Böyük Britaniyada, Kanadada, Almaniyada və bir sıra ölkələrdə indi də mövcuddur.

**Əmlak zərəri** – fiziki, yaxud hüquqi şəxsin əmlakına ziyan vurulması və ya bağlanmış müqavilənin icrası nəticəsində dəymiş zərər *(həmçinin bax: zərər)*.

**Əmr** – 1) rəhbərin (rəisin) aktı; 2) silahlı qüvvələrdə rəisin tabelikdə olanlara onlar üçün qanun olan verdiyi yazılı və ya şifahi sərəncam. Ə. hüquqi təbiətinə görə normativ akt və hüquq tətbiq etmə aktı ola bilər. Ə. verildiyi vaxtdan qüvvəyə minir.

**Əmr icraatı** – məhkəmə əmri əsasında borcun alınması ilə əlaqədar mülki mühakimə icraatının müstəqil növü *(həmçinin bax: məhkəmə əmri)*.

**Əmr icraatı qaydasında baxılan iddianın aidiyyəti** – mülki-prosessual qanunvericiliyə uyğun olaraq əmr icraatı qaydasında işlərə baxılarkən ərizə AR MPM-in 4-cü fəslində müəyyən edilmiş aidiyyəti üzrə məhkəməyə verilir.

**Əmri icra etməmə** – hərbi xidmət əleyhinə olan cinayətlərdən biri. AR CM-in 328-ci maddəsinə uyğun olaraq rəisin onunla müəyyən edilmiş qaydada verdiyi əmri tabelikdə olan şəxsin yerinə yetirməkdən açıqcasına imtina etməsində, habelə əmrin başqa şəkildə qəsdən yerinə yetirməməsində və bununla da hərbi xidmətin mənafelərinə əhəmiyyətli dərəcədə zərər vurmasında ifadə olunur.

**Əmrin və ya sərəncamın yerinə yetirilməsi** – cinayət hüququna görə müəyyən edilmiş qaydada verilmiş və icrası şəxs üçün məcburi olan əmr və ya sərəncam yerinə yetirərkən həmin şəxs tərəfindən AR CM ilə qorunan obyektlərə zərər vurulması cinayət sayılmır. Belə zərərə görə qanunsuz əmr və ya sərəncam vermiş şəxs cinayət məsuliyyəti daşıyır. Bilə-bilə qanunsuz əmri və ya sərəncamı yerinə yetirməklə qəsdən cinayət törətmiş şəxs ümumi əsaslarla cinayət məsuliyyətinə cəlb olunur. Qanunsuz əmr və ya sərəncamın yerinə yetirilməməsi cinayət məsuliyyətinə səbəb olmur (AR CM-in 40-cı maddəsi).

**Əmtəə** – satış üçün istehsal olunmuş mal, məhsul. Ə. ikili xassəyə malikdir: istehlak dəyəri və dəyər. İstehlak dəyəri şeyin insan tələbatını ödəmək xassəsidir, yəni onun faydalılığıdır. Əmtəədə maddiləşmiş ictimai əmək əmtəənin dəyərini təşkil edir.

**Əmtəə anbarı** – anbar saxlancı müqaviləsinin tərəflərindən biri.

**Əmtəə bazarı** – Azərbaycan Respublikasının ərazisində özünün əvəzedicisinə, yaxud qarşılıqlı əvəzləyicisinə malik olmayan əmtəələrin dövriyyə sahəsi.

**Əmtəə birjası** – müəyyən edilmiş birja qaydaları əsasında əvvəlcədən təyin olunmuş yerdə və vaxtda aşkar kütləvi sövdələşmə şəklində həyata keçirilən topdansatış ticarət bazarını təşkil etmək məqsədi güdən hüquqi və (və ya) fiziki şəxslərin könüllü birliyi əsasında yaradılan hüquqi şəxs statuslu təşkilat.

Ə.b. müstəqil hüquqi şəxsdir və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş təşkilat şəklində yaradılır. O, bilavasitə birja ticarətinin təşkili və onun tənzimlənməsi ilə bağlı fəaliyyəti həyata keçirir. Ə.b. bilavasitə birja ticarətinin təşkili ilə bağlı olmayan kommersiya fəaliyyəti ilə məşğul olmur və mənfəət (gəlir) götürməyi qarşısına məqsəd qoymur.

Ə.b. təsisçilərin ümumi yığıncağında təsdiq edilmiş nizamnamə əsasında fəaliyyət göstərir. Nizamnamədə ə.b.-nın adı və yerləşdiyi yer, təsisçilərin tərkibi, ə.b.-nın idarəetmə strukturu və nəzarət orqanı, onların funksiyaları, hüquqları və qərarlar qəbul etmə qaydası, nizamnamə fondunun məbləği, fondların siyahısı və onların formalaşması qaydası, birja ticarəti qaydalarının hazırlanması və qəbulu qaydası, birja üzvlərinin maksimum sayı, üzvlüyə qəbul, üzvlüyün dayandırılması və ona xitam verilməsi qaydası, birja ticarətinin digər iştirakçılarının hüquq və vəzifələri, birja iştirakçıları arasında yaranmış mübahisələrin həlli qaydası və i.a. məlumatlar göstərilir.

Ə.b. onun ali idarəetmə orqanının, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda məhkəmənin, yaxud iqtisad məhkəməsinin qərarı ilə ləğv edilə bilər.

**"Əmtəə birjası haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikası ərazisində əmtəə birjalarının yaradılması və fəaliyyəti, birja ticarəti, əmtəə birjalarında fəaliyyətin hüquqi təminatları üzrə münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 25 may 1994-cü il tarixdə qəbul olunmuş, 5 noyabr 1996-cı il, 5 oktyabr 2001-ci il və9 oktyabr 2005-ci il tarixlərdə ona əlavə və dəyişikliklər edilmişdir. Qanun üç fəsil və 22 maddədən ibarətdir.

**Əmtəə birjasının hüquqları və vəzifələri** – "Əmtəə birjası haqqında" qanunun 5-ci maddəsinə əsasən ə.b. aşağıdakı hüquqlara malikdir; 1) "Əmtəə birjası haqqında" qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq bütün birja iştirakçıları üçün məcburi olan birja ticarəti qaydasını müəyyən etmək; 2) dövlət standartlarını nəzərə almaqla nümunəvi kontraktlar işləyib hazırlamaq; 3) gün ərzində birja əqdlərinin qiyməti birja komitəsi (birja şurası) tərəfindən müəyyən edilmiş həddən çox dəyişdikdə, birja ticarətini qaydalarını müvəqqəti dayandırmaq: 4) birjada qeyri-birja əqdləri bağlanmasını həyata keçirən birja iştirakçılarına qarşı nizamnamədə nəzərdə tutulmuş sanksiyaları tətbiq etmək; 5) birja əqdlərində mübahisələri həll etmək üçün münsiflər məhkəməsi səlahiyyətində arbitraj komissiyası yaratmaq; 6) digər birjalarda, o cümlədən xarici ölkə birjalarında öz nümayəndəsini saxlamaq; 7) birja bülleteni, soraq kitabçaları və digər məlumat və reklam informasiyaları dərc etmək.

Ə.b.-nın vəzifələri aşağıdakılardır: a) birja ticarətinin həyata keçirilməsi üçün şərait yaratmaq; b) birja üzvlərinə və iştirakçılarına təşkilati və digrə xidmətlər göstərmək; c) birja iştirakçılarının tələbi ilə birjada alqı-satqı obyekti olan rəal əmtəənin keyfiyyətinin ekspertizasını təşkil etmək.

**Əmtəə birjasının idarəetmə orqanları** – "Əmtəə birjası haqqında" qanunun 13-cü maddəsinə əsasən ə.b.-nın ali və idarəetmə orqanı onun üzvlərinin ümumi yığıncağıdır. Ümumi yığıncaqlar arasındakı müddətdə ə.b.-na rəhbərliyin birja komitəsi (birja şurası) həyata keçirir. Ə.b.-nın nəzarət (təftiş) komissiyası onun nəzarət orqanıdır. Birja komitəsi (birja şurası) və nəzarət (təftiş) komissiyası ə.b. üzvlərinin ümumi yığıncağı tərəfindən seçilir, onların səlahiyyəti və hüquqları Ə.b.-nın nizamnaməsi ilə müəyyən edilir. Ə.b.-nın fəaliyyətinə operativ rəhbərliyi birja komitəsinin (birja şurasının) təyin etdiyi idarə heyəti həyata keçirir. İdarə heyəti birjanın fəaliyyət göstərməsini təmin edir və onun bütün struktur bölmələrinə rəhbərlik edir. Birjanın struktur bölmələri birja komitəsinin (birja şurasının) təsdiq etdiyi əsasnaməyə uyğun fəaliyyət göstərir.

**Əmtəə birjasının üzvləri** – əmtəə birjasının nizamnamə fondunun yaradılmasında iştirak edən və (və ya) birjanın nizamnaməsi ilə müəyyən edilmiş qaydada üzvlük haqqı və ya digər məqsədli ödənişlər verən hüquqi və fiziki şəxslər.

"Əmtəə birjası haqqında" qanunun 11-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq ə.b.-nın bu və ya digər qulluqçuları, rəhbərləri birjanın qulluqçusu olan müəssisə və təşkilatlar, ali və yerli dövlət hakimiyyəti və idarəetmə orqanları, banklar, kredit və sığorta təşkilatları, siyasi partiyalar, həmkarlar ittifaqları, ictimai birliklər, dini təşkilatlar və xeyriyyə təşkilatları, qanunla sahibkarlıq fəaliyyəti hüququndan məhrum edilmiş fiziki şəxslər ə.b.-nın üzvü ola bilməzlər. Ə.b. öz üzvlərinə müvafiq şəhadətnamə verir.

**Əmtəə çatışmazlığı** – əmtəənin (işin, xidmətlərin) standarta, müqavilənin şərtlərinə, adətən, əmtəənin (işin və xidmətlərin) keyfiyyətinə verilən tələblərə uyğunsuzluğu.

**Əmtəə çeki** – müəyyən edilmiş formada sənəd; alınan əmtəənin dəyəri alıcı tərəfindən ödənildikdən sonra mağaza tərəfindən ona verilən və satış faktını təsdiqləyən sənəd. Təminatının müəyyən edilmədiyi alınmış əmtəədə çatışmazlıq, qüsur aşkar edən alıcı həmin əmtəəni 14 gün müddətində dəyişdirmək, yaxud onu qaytararaq ödədiyi məbləği geri almaq hüququna malikdir.

**Əmtəədən dövlətin xeyrinə imtina etmə** – gömrük rejimi; bu zaman şəxs gömrük rüsumları, vergilər tutulmadan, habelə iqtisadi siyasət tədbirləri tətbiq edilmədən əmtəədən imtina edir. Belə imtinaya Azərbaycan Respublikasının gömrük orqanının icazəsi ilə yol verilir.

**Əmtəə-girov krediti** – əmtəələrin toplusunun girovla verildiyi kredit

**Əmtəə kağızları** – anbarda saxlanılan və əmtəə sənədlərində göstərilən malların verilməsinə hüquq verən qiymətli kağızlar. Ə.k. order şəklində, yaxud yük verənin və ya mal sahibinin adına yazıla bilər. Əgər hər hansı mala əmtəə kağızı yazılmışdırsa, anbar sahibi həmin malı yalnız bu sənəddə göstərilmiş ixtiyarlı şəxsə verə bilər və verməlidir.

AR MM-in 1078-ci maddəsinə uyğun olaraq anbar sahibinin və ya fraxt verənin verdiyi əmtəə kağızlarında aşağıdakı məlumatlar göstərilməlidir: 1) sənədin tərtib edildiyi yer və tarix, sənədi vermiş şəxsin imzası; 2) sənədi vermiş şəxsin adı və yaşayış yeri və ya olduğu yer; 3) malları anbarda saxlayan şəxsin və ya göndərənin adı və yaşayış yeri və ya olduğu yer; 4) saxlanılan və ya saxlanmağa verilən malların keyfiyyəti, miqdarı və əlamətləri göstərilməklə adı; 5) tutulmalı olan və ya qabaqcadan ödənilmiş rüsumlar və haqlar; 6) maraqlı şəxslərin mallar və rəftar barəsində qəbul etdikləri xüsusi sazişlər; 7) əmtəə sənədləri nüsxələrinin sayı; 8) həmin sənəd üzrə ixtiyarlı şəxsin adının göstərilməsi və ya əmr barədə qeyd-şərt və ya təqdim edənin göstərilməsi.

**Əmtəə krediti** – mülki hüquqda kredit müqaviləsinin bir növü. Bu müqaviləyə uyğun olaraq tərəflər arasında, onlardan birinin digər tərəfə müəyyən cinsi əlamətlərə malik olan əşyanı verməsi öhdəliyini nəzərdə tutan müqavilə bağlana bilər.

**Əmtəə qaiməsi** – əmtəə-maddi sərvətlərin buraxılışı və qəbulu üzrə əməliyyatı rəsmiləşdirən ilkin mühasibat sənədi. Ə.q. qiymətli kağızdır.

**Əmtəələr** – gömrük hüququna görə xarici ticarət alqı-satqısının və ya mübadilənin (barterin) obyekti olan, dövlət və ya gömrük sərhəddindən keçirilən predmetlər. Belə predmetlər eksport, import və tranzit əmtəələrindən ibarət ola bilər. Gömrük sərhəddindən keçirilmə məqsədindən asılı olaraq həmin predmetlər kommersiya və qeyri-kommersiya əmtəələrindən də ibarət ola bilər.

**Əmtəələr haqqında məlumat** – əmtəələrin seçilmək imkanını təmin edən məlumat. Məlumat aşağıdakılardan ibarət olmalıdır: 1) əmtəələrin (işlərin, xidmətlərin) əsas istehlak xassələrinin siyahısı; 2) əmtəələrin məcburi tələblərə uyğun olmalı olduğu standartların adları; 3) istehsalçının təminat öhdəlikləri; 4) əmtəələrdən (işlərdən, xidmətlərdən) təhlükəsiz istifadənin qaydaları və şərtləri; 5) təmir aparmış müəssisələrin xidmət müddəti, ünvanları; 6) zəruri olan texniki sənədlər.

**Əmtəələri məhv etmə** – gömrük rejimi; bu zaman xarici əmtəələr və nəqliyyat vasitələri gömrük rüsumları, əlavə dəyər vergiləri, aksizlər, sair vergilər tutulmadan, habelə iqtisadi siyasət tədbirləri tətbiq edilmədən gömrük nəzarəti altında məhv edilirlər. Əmtəələri məhv etmə Azərbaycan Respublikasının gömrük qanunvericiliyi ilə tənzimlənir.

**Əmtəə-nəqliyyat qaiməsi** – yüklərin avtomobil nəqliyyatı ilə daşınması müqaviləsini təsdiq edən sənəd. Beynəlxalq yükdaşımada həmin sənəd 4 orijinal nüsxədə tərtib edilir. Birinci nüsxə yükgöndərəndə, ikinci nüsxə yüklə göndərilir, üçüncü və dördüncü nüsxələr yükdaşıyanda qalır. Ə.-n.q. qiymətli kağızdır.

**Əmtəə nişanı** – sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı bir uzlaşması (kombinasiyası).

**Əmtəə nişanı kimi qeydə alınan nişanlar** – "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının *12 iyun 1998*-ci il tarixli qanununun 4-cü maddəsinə əsasən əmtəə nişanı kimi aşağıdakı nişanlar qeydə alına bilər: sözlər, şəxsi adlar, hərflər, rəqəmlər, təsviri elementlər, əmtəələrin forması və ya onların qablaşdırılması, rənglərin və yuxarıda göstərilənlərin hər hansı uzlaşması.

**Əmtəə nişanına dair hüquqların verilməsi** – "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının 12 iyun 1998-ci il tarixli qanununun 28-ci maddəsinə uyğun olaraq əmtəə nişanının sahibi əmtəə nişanından istifadə hüququnu lisenziya müqaviləsi, əmtəə nişanına dair hüququ isə müqavilə əsasında həmin nişanın aid edildiyi əmtəələrin və xidmətlərin hamısı və ya bir hissəsi barədə başqa şəxsə verə bilər. Bu müqavilələr dövlət rüsumu ödənilmək şərti ilə müvafiq icra hakimiyyəti orqanında qeydə alınır və onların barəsində məlumatlar rəsmi bülletendə dərc olunduqdan sonra başqa şəxslərin hüquqazidd hərəkətlərinə tətbiq olunur.

**Əmtəə nişanının ilkinliyi** – əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydə alınması barədə iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarix.

Ə.n.i. Paris konvensiyasının iştirakçısı olan ölkədə birinci iddia sənədinin verildiyi tarixdən də müəyyənləşdirilə bilər (konvensiya ilkinliyi). Bu halda iddia sənədi həmin tarixdən 6 ay ərzində müvafiq icra hakimiyyəti orqanına daxil olmalıdır.

**Əmtəə nişanı üzərində müstəsna hüquq** – əmtəə nişanının qüvvədə olduğu müddətdə nişan sahibinin Azərbaycan Respublikasının ərazisində onun barəsində istədiyi kimi sərəncam vermək hüququ.

Əmtəə nişanı sahibinin icazəsi olmadan onun əmtəə nişanı ilə eyni və ya oxşar əmtəə nişanından eyni və ya oxşar olan əmtəə və xidmətlərdə başqa şəxslərin istifadəsi qadağandır. Eyni və ya oxşar olan əmtəə nişanları istehlakçılarda yanlış təsəvvür yaratdıqda da bu şərt nəzərə alınır. Geniş tanınmış əmtəə nişanına aid olan əmtəə və xidmətlər barəsində yanlış təsəvvür yarada bilən eyni və ya oxşar olan əmtəə nişanının istifadəsi tanınmış əmtəə nişanı sahibinin maraqlarına toxunmaq hesab olunur. Müstəsna hüquq əmtəə nişanının müstəqil əmtəə nişanı kimi qeydə alına bilməyən elementlərinə şamil edilmir.

**Əmtəə nişanlarından qanunsuz istifadə etmə** – iqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərdən biri. AR CM-in 197-ci maddəsinə uyğun olaraq özgənin əmtəə və ya xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə etmənin təkrar törədilməklə xeyli və ya külli miqdarda ziyan vurmada ifadə olunur.

**Əmtəə nişanlarının və coğrafi göstəricilərin hüquqi mühafizəsi** – "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" qanunun 3-cü maddəsinə əsasən Azərbaycan Respublikasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeydə alınan əmtəə nişanlarının və coğrafi göstəricilərin hüquqi mühafizəsi "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" qanunla müəyyənləşdirilmiş qaydalara və nişanların beynəlxalq qeydiyyatına dair Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə və müqavilələrə uyğun olaraq həyata keçirilir. Azərbaycan Respublikasında qeydə alınmayan, lakin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə görə qüvvəsi olan əmtəə nişanı və coğrafi göstərici "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" qanuna uyğun olaraq mühafizə edilir.

**"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydə alınması, hüquqi mühafizəsi və istifadəsi ilə bağlı münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 12 iyun 1998-ci il tarixdə qəbul edilmişdir. Qanun altı fəsil və 37 maddədən ibarətdir.

**Əmtəə-sərəncam sənədləri** – əşya (əmtəə) məzmunlu öhdəliklərin əmələ gəlməsi əsasında xidmət edən kauzal qiymətli kağızlar. Mülki hüquqa görə konosamentin və ya ona digər sair əmtəə-sərəncam sənədlərinin verilməsi əşyanın verilməsinə bərabər tutulur. Ə.-s.s.-nin verildiyi şəxs öz sələfindən asılı olmayaraq əmtəəni tələb etmək hüququnu əldə edir. Konosamentdən başqa, varrant, ikili anbar şəhadətnaməsi, sadə anbar şəhadətnaməsi də ə.-s.s.-nə aid edilir.

**Əmtəəşünaslıq ekspertizası** *(kriminalistikada)* – əmtəələrin istehsal xüsusiyyətlərini, standartlaşdırılmasının texnoloji normalara uyğunluğunu, onların çeşidlərinin və strukturunun formalaşmasının qanunauyğunluğunu müəyyən etmək məqsədi ilə təyin edilən ekspertiza növü.

**Əmtəə (kommersiya) vekseli** – əmtəələrin kreditlə alqı-satqısı üzrə real əqdlər əsasında yaranan xüsusi veksel.

**Ən böyük orta metod** – proporsional seçki sistemində səslərin növbəti bölüşdürülməsi metodu; belə bölüşdürmə zamanı tutulmamış yerlər ardıcıllıqla ən böyük orta mövqeyə malik olan siyahıya verilir. Bu metod iri partiyalar üçün daha əlverişlidir.

**Ər-arvad** – bir-biri ilə nikahda olan şəxslər. Ər-arvadın şəxsi və əmlak münasibətləri ailə qanunvericiliyi ilə müəyyən edilir. Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq ər-arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər. Analıq, atalıq, uşaqların tərbiyəsi, eləcə də ailənin digər məsələləri ər-arvadın hüquq bərabərliyi prinsiplərinə uyğun olaraq birgə həll edilir.

Ər (arvad) özünə məşğuliyyət, sənət və yaşayış yeri seçməkdə azaddır. Ər-arvad ailədə öz münasibətlərini qarşılıqlı yardım və hörmət əsasında qurmalı, ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərməli, övladlarının inkişafı üçün əlverişli şərait yaratmalı və onların sağlamlığının qayğısına qalmalıdırlar.

**Ər-arvadın bir-birini saxlamaq vəzifəsi** – ər-arvadın bir-birinə maddi cəhətdən kömək göstərmək, yardım etmək vəzifəsi. Azərbaycan Respublikasının ailə qanunvericiliyinə görə bu köməyin göstərilməsindən imtina edildikdə və ər-arvad arasında alimentin ödənilməsi barədə saziş olmadıqda aşağıdakılar buna zəruri vəsaitə malik olan digər tərəfin aliment ödəməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdirlər: 1) əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan ər və ya arvad; 2) hamiləliyi dövründə və ümumi uşaqlarının doğulduğu gündən üç il ərzində arvad; 3) ümumi əlil uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad-uşaq 18 yaşına çatana qədər; 4) I qrup əlil ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad.

**Ər-arvadın birgə mülkiyyəti** – ər-arvadın nikah müddətində əldə etdikləri əmlak. Azərbaycan Respublikasının ailə qanunvericiliyinə görə ər-arvadın ümumi birgə mülkiyyətinə onların hər birinin əmlak, sahibkarlıq və ya intellektual fəaliyyə-

ti nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcə də xüsusi təyinatı olmayan digər pul ödəmələri (şikəstlik, sağlamlığın bu və ya digər formada pozulması nəticəsində əmək qabiliyyətinin itirilməsinə görə ödənilən məbləğ, maddi yardımın məbləği və i.a); ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən daşınar və daşınmaz əşyalar, qiymətli kağızlar, kredit idarələrində və ya sair kommersiya təşkilatlarına qoyulmuş paylar, əmanətlər, kapitaldan olan paylar və əmlakın ər-arvaddan kimin adına əldə olunmasından, yaxud əmanətin kimin adına və ya kim tərəfindən qoyulmasından asılı olmayaraq nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak daxildir.

Nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzrlü səbəblərə görə müstəqil qazancı olmayan ər (arvad) da ümumi əmlak üzərində hüquqa malikdir (AR Ai.M-in 32-ci maddəsi).

**Ər-arvadın əmlakının qanuni rejimi** – ər-arvadın birgə mülkiyyətinin qanuni rejimi. Ər-arvadın əmlakının qanuni rejimi nikah müqaviləsində sair hallar nəzərdə tutulmadıqda fəaliyyət göstərir. Kəndli (fermer) təsərrüfatı üzvlərinin birgə mülkiyyəti üzərində ər-arvadın istifadə, sahiblik və sərəncam hüquqları Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq müəyyən olunur (AR Ai.M-in 31.3-cü maddəsi).

**Ər-arvadın hər birinin mülkiyyəti** – ər-arvadın nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak. AR Ai.M-in 34.2-ci maddəsinə uyğun olaraq zinət əşyaları istisna olmaqla, fərdi istifadə şeyləri (geyim, ayaqqabı və i.a.) nikah zamanı ər-arvadın ümumi vəsaiti hesabına əldə edilsə də, ər-arvaddan kimin istifadəsində olubsa, ona məxsusdur.

**Ər-arvadın mülkiyyətinin müqavilə rejimi** – ər-arvadın əmlak hüquqlarını və vəzifələrini nəzərdə tutan, nikah müqaviləsi (nikah sazişi) ilə müəyyən edilən rejim. Ailə qanunvericiliyinə görə nikah müqaviləsi ilə ər-arvad birgə mülkiyyətin qanunla müəyyən olunmuş rejimini dəyişərək, ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər. Nikah müqaviləsi ər-arvadın mövcud olan və gələcəkdə əldə edəcəkləri əmlaka dair bağlana bilər (AR Ai.M-in 38-ci maddəsi).

**Ər-arvadın öhdəlikləri üzrə məsuliyyət** – Azərbaycan Respublikasının ailə qanunvericiliyinə görə ər-arvaddan birinin öhdəlikləri üzrə ödəmə yalnız onun şəxsi əmlakına və ər-arvadın ümumi əmlakı bölünərkən həmin əmlakdan ona çata biləcək paya yönəldilə bilər. Ər-arvadın ümumi öhdəlikləri üzrə, habelə arvaddan birinin öhdəlikləri üzrə alınmış vəsaitin ailə ehtiyacları üçün istifadə olunduğu məhkəmə tərəfindən müəyyən edildikdə, həmin ərin (arvadın) öhdəlikləri üzrə ödəmə onların ümumi əmlakına yönəldilir. Bu əmlak kifayət etmədikdə, həmin öhdəliklər üzrə ər-arvad onların hər birinin əmlakı ilə birgə məsuliyyət daşıyırlar. Yetkinlik yaşına çatmayan uşaqlarının vurduğu zərərə görə ər-arvad mülki qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar. Bu halda ödəmənin ər-arvadın







əmlakına yönəldilməsi AR Ai.M-in 41.2-ci maddəsinə uyğun olaraq həyata keçirilir (AR Ai.M-in 41-ci maddəsi).

**Ər-arvadın soyad seçmək hüququ** – Azərbaycan Respublikasının ailə qanunvericiliyinə uyğun olaraq ər-arvad öz arzuları ilə onlardan birinin soyadını özləri üçün ümumi soyad seçə, yaxud onlardan hər biri nikahdan əvvəlki soyadını saxlaya və ya öz ərinin (arvadının) soyadını öz soyadı ilə birləşdirə bilər. Nikaha daxil olanların biri və ya hər ikisi qoşa soyada malik olduqda, soyadların birləşdirilməsinə yol verilmir. Ər-arvadın birinin soyadını dəyişdirməsi digərinin soyadının dəyişdirilməsinə səbəb olmur. Nikah pozulduqda ər (arvad) ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadını bərpa etmək hüququna malikdir (AR Ai.M-in 30-cu maddəsi).

**Ərazi aliliyi** – dövlətin öz ali hakimiyyəti çərçivəsində vətəndaşlıqdan (hüquqi şəxsin milliyyətindən) asılı olmayaraq ərazisində yerləşən bütün şəxslərə və təşkilatlara münasibətdə hakimiyyətini həyata keçirməsi. "Ə.a." anlayışı "dövlətin yurisdiksiyası" anlayışından genişdir, çünki ərazi aliliyi dövlətin yurisdiksiyasını da özündə ehtiva etməklə dövlət hakimiyyətinin bütün konstitusiya formalarında (qanunvericilik, icra, inzibati və məhkəmə) tamlığını ifadə edir.

**Ərazi bütövlüyü** *(bax: dövlətlərin ərazi bütövlüyü prinsipi).*

**Ərazi dənizi** – sahil boyunca, habelə daxili sulardan kənarda yerləşən dəniz zolağı. Müəyyən genişlikdə olan bu dəniz zolağına sahilyanı dövlətin suverenliyi şamil olunur. Ə.d.-nin xarici sərhədi sahilyanı dövlətin dəniz sərhədidir. Hazırda dəniz dövlətlərinin böyük (130 dövlət) əksəriyyəti 12 dəniz milinədək həddə ə.d. eninə malikdir. Lakin 20-ə yaxın dövlət beynəlxalq hüquqla müəyyən edilmiş limiti aşan ə.d. eninə malikdir.

**Ərazi iddiası** – hər hansı bir dövlətin müəyyən bir ərazi üzərində öz suverenliyini bərqərar etmək məqsədilə oraya etdiyi iddia. İki və ya daha çox dövlətin eyni bir əraziyə belə iddiaları ikitərəfli və çoxtərəfli ərazi iddiası hesab olunur. Belə hallarda ərazi mübahisələri yaranır.

**Ərazi kollektivləri** – Fransada və keçmiş fransız müstəmləkəsi olmuş ölkələrin əksəriyyətində bütün inzibati ərazi vahidlərinin ümumi adı. Ə.k. Fransada kommunalar, departamentlər, dənizkənarı ərazilər, regionlar hesab olunur (1982-ci ildən etibarən).

**"Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasının ərazi quruluşunun və inzibati ərazi bölgüsünün, habelə ərazi vahidlərinin qeydiyyatının, sərhədlərinin müəyyən edilməsinin və dəyişdirilməsinin, adlandırılmasının və ya onların adlarının dəyişdirilməsinin hüquqi əsaslarını, eləcə də Azərbaycan Respublikasının ərazi quruluşu və inzibati ərazi bölgüsü ilə bağlı digər məsələlərin tənzimlənməsində dövlət orqanlarının və bələdiyyələrin səlahiyyətlərini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 13 iyun 2000-ci il tarixdə qəbul edilmişdir. Qanun dörd fəsildən və 15 maddədən ibarətdir.

**Ərazilərarası cinayətkar əlaqələr** *(kriminologiyada)* – mütəşəkkil cinayətkar qrupu səciyyələndirən əlamət; belə cinayətkar qrupun tərkibinə iki və ya daha çox ərazidə

cinayətlər törətmiş iştirakçılar daxil olur. İki və ya daha çox ərazidə fəaliyyət göstərən bir neçə mütəşəkkil cinayətkar qrupun qarşılıqlı hərəkəti də ərazilərarası cinayətkar əlaqələr kateqoriyasına aid edilir.

**Ərazi mübahisəsi** – müəyyən ərazinin mənsubiyyəti ilə əlaqədar dövlətlər arasında yaranan mübahisə (beynəlxalq mübahisə). Tərəflərin fikir ayrılığı, habelə birtərəfli ərazi iddiası ə.m. deyildir.

**Ərazi müdafiəsi** – dövlətin müdafiə sisteminin tərkib hissəsi; əhalinin, obyektlərin və kommunikasiyaların düşmənin təxribatçı və ya terrorçu hərəkətlərindən müdafiə edilməsi məqsədi ilə təşkil edilir. Azərbaycan Respublikasında ə.m.-nin ümumi vəzifələri və təşkili Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

**Ərazinin demilitarizasiyası** *(beynəlxalq hüquqda)* – müəyyən ərazidə hərbi istehkamların və tikililərin ləğvi, həmçinin həmin ərazidə hərbi qüvvələrin saxlanmasının qadağan edilməsi. Ə.d. (tam və qismən) buna marağı olan dövlətlər arasındakı müqaviləyə əsasən həyata keçirilir. Müasir beynəlxalq hüquqda nüvə silahı saxlanmayan zonaların yaradılması ə.d. formasıdır. Burada köhnə nüvə silahının istehsalı, saxlanması və ona xidmət etmək üçün qurğuların yerləşdirilməsi qadağan olunur.

**Ərazi sazişi** *(bax: kollektiv saziş).*

**Ərazi sığınacağı** – öz ölkəsinin ərazisində siyasi motivlərə görə təqiblərdən gizlənən hər hansı şəxsə və ya şəxslərə dövlət tərəfindən verilən gizlənmək imkanı *(bax: siyasi sığınacaq hüququ)*. Ə.s.-nı siyasi sığınacağın digər növündən – diplomatik sığınacaqdan fərqləndirmək lazımdır.

**Ərazi suları** *(bax: ərazi dənizi).*

**Ərazi toxunulmazlığı** *(bax: dövlətlərin ərazi toxunulmazlığı prinsipi).*

**Əraziyə görə məhkəmə aidiyyəti** *(bax: məhkəmə aidiyyəti).*

**Ərəb Dövlətləri Cəmiyyəti** – müstəqil ərəb dövlətlərinin məhəlli təşkilatı; əsası 1945-ci il martın 22-də Misir, Suriya, İraq, Livan, Transiordaniya (1950-ci ildən İordaniya), Səudiyyə Ərəbistanı və Yəmən (1962-ci ildən Yəmən Ərəb Respublikası) nümayəndələrinin Qahirə konfransında qoyulmuşdur. 1953-cü ildə Liviya, 1950-ci ildə Sudan, 1958-ci ildə Tunis və Mərakeş, 1961-ci ildə Küveyt, 1962-ci ildə Əlcəzair, 1967-ci ildə Yəmən Xalq Demokratik Respublikası, 1971-ci ildə Qatar, Bəhreyn, Oman və Birləşmiş Ərəb Əmirlikləri, 1973-cü ildə Mavritaniya, 1974-cü ildə Somali, 1977-ci ildə Cibuti Respublikası bu təşkilata daxil olmuşdur. Fələstin Azadlıq Təşkilatı 1964-cü ildən təşkilatın işində iştirak edir. Cəmiyyətin nizamnaməsi iştirakçı dövlətlər arasında münasibətlərin möhkəmləndirilməsini, onların siyasi fəaliyyətinin əlaqələndirilməsini, istiqlaliyyət və suverenliyinin müdafiə olunmasını, ərəb ölkələrinin ümdə mənafelərindən irəli gələn ümumi məsələlərin nəzərdən keçirilməsini və i.a. nəzərdə tutur.

**Ərizə** – şəxsin (bir neçə şəxsin) idarə, müəssisə və təşkilata, yaxud onun vəzifəli şəxsinə rəsmi yazılı müraciəti. Şikayətdən fərqli olaraq ə. vətəndaşın hüquqlarının və qanuni mənafelərinin pozulması ilə əlaqədar olmur və həmin pozuntunun aradan qaldırılması tələbindən ibarət deyildir. Ə., ilk növbədə vətəndaşın hüququnun,







yaxud qanuni mənafeyinin həyata keçirilməsi üçün (məsələn, işə qəbul, öz xahişi ilə işdən çıxmaq: mənzil verilməsi haqqında müraciəti), idarə, müəssisə və təşkilatların işindəki nöqsanları aradan qaldırmaq və ya onları aşkar etmək, bir sıra hallarda isə işləri yaxşılaşdırmağa dair təkliflər irəli sürmək üçün verilir.

**Ərizəçi** – özünün həqiqi və ya ehtimal olunan hüquqlarının müdafiəsi üçün cinayət prosesini həyata keçirən orqanlara və ya məhkəməyə müraciət edən şəxs (AR CPM-in 7.0.2-ci maddəsi).

**Ərizənin baxılmamış saxlanması** – mülki-prosessual qanunvericiliyinə görə iddia ərizəsinin məhkəmə tərəfindən baxılmamış saxlanması. AR MPM-in 259-cu maddəsində nəzərdə tutulan əsaslar olduqda məhkəmə iddia ərizəsinin baxılmamış saxlanma haqqında qərardad çıxarır.

İddianın baxılmamış saxlanması üçün səbəb olan şərait aradan qaldırıldıqdan sonra maraqlı şəxs ümumi qaydada ərizə ilə məhkəməyə yenidən müraciət etməyə haqlıdır (AR MM-in 260.4-cü maddəsi).

**Ərzaq dəstələri** – Rusiyada 1917-1920-ci illərdə taxıl və digər ərzağın tədarükü və mühafizəsi üçün fəhlə, matros və yoxsul kəndlilərdən yaradılmış dəstələr. İlk ə.d. 1917-ci ilin noyabrında taxılçılıq quberniyalarına göndərilmişdir. ÜRMİK-in 1918-ci il 27 may tarixli dekreti ilə yerli ərzaq orqanları nəzdində də fəhlə dəstələri təşkil olunmuşdur. Ə.d. RSFSR Xalq Ərzaq Komissarlığının vahid ərzaq ordusuna daxil idi.

**Ərzaq məhsullarının məhkəmə ekspertizası** – əsasən dövlət əmlakı və ictimai əmlakın oğurluğu cinayətlərinin istintaqı prosesində təyin edilən ekspertiza növü. Bu növ ekspertiza ərzaq məhsullarının növünü, alkoqollu içkilərin standarta uyğun olub-olmamasını, istehsal prosesində texnoloji normalara əməl edilib-edilməməsini, məhsulların saxta hazırlanması faktını və üsulunu müəyyən etmək məqsədi ilə aparılır.

**Ərzaq sapalağı** – Rusiyada XX yüzilliyin 20-ci illərində kənd təsərrüfatı məhsullarının tədarük sistemi. Kəndlilər tərəfindən taxıl və digər ərzaq məhsullarının artığının (şəxsi və təsərrüfat ehtiyacları üçün müəyyən edilmiş normadan artığı) möhkəm qiymətlərlə məcburi surətdə dövlətə təhvil verilməsindən ibarət idi. Vətəndaş müharibəsi dövründə tətbiq edilmişdir.

**Ərzaq vergisi** – Rusiyada XX yüzilliyin 20-ci illərində kəndli təsərrüfatlarından ərzaq sapalağının əvəzinə alınan natural vergi. Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin (ÜRMİK-in) 1921-ci il 21 mart tarixli dekreti ilə tətbiq edilmişdir.

**Əsas dövlət qanunları** – bir sıra ölkələrdə, məsələn, Rusiya imperiyasında Rusiyanın dövlət quruluşuna aid olan qanun müddəaları külliyyatı. Rusiyada ə.d.q. ilk dəfə 1832-ci ildə M.M.Speranskinin rəhbərliyi altında məcəllələşdirilmişdir. 1905-ci il 17 oktyabr manifestinin dərc edilməsilə əlaqədar olaraq həmin külliyyat yenidən nəzərdən keçirilmiş, bundan sonra o, mahiyyət etibarı ilə Rusiyanın ilk konstitusiyasına çevrilmişdir.

**Əsas gəmi sənədləri** – Azərbaycan Respublikasının ticarət gəmiçiliyi qanunvericiliyinə görə gəminin aşağıda göstərilən əsas gəmi sənədləri olmalıdır: 1) Azərbaycan Respublikasının dövlət bayrağı altında üzmək hüququ haqqında şəhadətnamə; 2) gə-

miyə mülkiyyət hüququ haqqında şəhadətnamə; 3) gəminin üzgüçülüyə yararlılığı haqqında şəhadətnamə; 4) sərnişin şəhadətnaməsi (sərnişin gəmisi üçün); 5) ölçü şəhadətnaməsi; 6) yük çeşidi haqqında şəhadətnamə; 7) gəmi heyətinin tərkibi haqqında şəhadətnamə; 8) neftlə çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnamə; 9) çirkab sularla çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnamə; 10) zibillə çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnamə; 11) gəmi radiostansiyasının fəaliyyəti üçün xüsusi icazə və radiojurnal (gəminin radiostansiyası olduqda); 12) gəmi heyəti üzvlərinin siyahısı; 13) gəmi jurnalı; 14) maşın jurnalı (texniki mühərrikli gəmilər üçün); 15) çirkab sularla əməliyyatlar jurnalı; 16) zibillə əməliyyatlar jurnalı; 17) neft tankerləri olmayan gəmilər üçün neft əməliyyatları jurnalı; 18) neft tankerləri üçün neft əməliyyatlar jurnalı; 19) sanitar jurnalı; 20) səfərə çıxmaq hüququ haqqında gəmi sanitar şəhadətnaməsi; 21) sərnişinlərin siyahısı (sərnişin gəmisi üçün); 22) beynəlxalq dəniz təşkilatının tələblərinə uyğun digər sənədlər (AR TGM-in 18-ci maddəsi).

**Əsas kirayəçi (yaşayış sahəsinin kirayəçisi)** – yetkinlik yaşına çatmış vətəndaş özü, yaxud ailə üzvləri ilə birlikdə (bu halda əsas kirayəçi kirayə verən qarşısında yalnız ailə üzvlərinin mənafeyini təmsil edir) kirayə müqaviləsi üzrə yaşayış sahəsinin haqqı ödənilməklə onu istifadəyə götürür. Ə.k. və onun ailə üzvləri (o cümlədən yetkinlik yaşına çatmayanlar), habelə onun ailə üzvləri sırasından çıxıb onunla birlikdə yaşayış sahəsindən istifadə sahəsində yaşamaqda davam edən şəxslər yaşayış sahəsində eyni hüquq və vəzifələrə malikdirlər.

**Əsas qanun** *(bax: konstitusiya).*

**Əsaslı qoyuluş diversifikasiyası** – sərmayəçi tərəfindən kapitalın müxtəlif qiymətli kağızlar arasında bölüşdürülməsi. Dünya təcrübəsində qiymətli kağızların hər bir növünə sərmayənin portfelin ümumi dəyərinin 10 faizi miqdarında qoyulması qəbul edilmişdir. Qiymətli kağızların növünə, iqtisadiyyatın sahələrinə, ərazilər və ölkələrə, ödənmə müddətinə görə Ə.q.d.-ları fərqləndirilir.

**Əsaslı risk** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə ictimai faydalı məqsədə nail olmaq üçün əsaslı risk nəticəsində CM ilə qorunan obyektlərə zərər vurulması cinayət sayılmır. Göstərilən məqsədə risk ilə əlaqədar olmayan hərəkətlə (hərəkətsizliklə) nail olmaq mümkün deyildirsə və risk edən şəxs CM ilə qorunan obyektlərə zərər dəyməsini aradan qaldırmaq üçün zəruri tədbirləri görmüşdürsə, risk əsaslı ehsab edilir. Bilə-bilə insanların həyatı üçün təhlükə ilə, ekoloji və ya digər fəlakət təhlükəsi ilə müşayiət olunan risk əsaslı hesab edilmir.

**Əsaslı təmir** – öz normativ ehtiyatlarını sərf etmiş əsas fondların aktiv və passiv hissələrinin yeniləşdirilməsi, yaxud əsas fondların istismar ehtiyatlarından istifadə məqsədi ilə onun hələ sərf olunmamış elementlərinin bərpa edilməsi. Avadanlıqların ə.t. onların keyfiyyətinin və iş qabiliyyətinin bərpa edilməsi üzrə kompleks işlərin görülməsindən ibarətdir. Ə.t. prosesində, bir qayda olaraq, avadanlıqların müasirləşdirilməsi də həyata keçirilir.

**Əsas məzuniyyət** – əmək qanunvericiliyinə görə işçinin əmək müqaviləsində





göstərilmiş peşəsi (vəzifəsi) üzrə minimum müddəti AR ƏM-in 114-cü maddəsinin 2-ci və 3-cü hissələrində nəzərdə tutulmuş məzuniyyət.

İşçilərə ödənişli ə.m. 21 təqvim günündən az olmayaraq verilir. Aşağıdakı işçilərə ödənişli Ə.m. 30 təqvim günü müddətində verilməlidir: 1) kənd təsərrüfatı məhsullarının istehsalında çalışan işçilərə; 2) məsul vəzifələrdə (vəzifənin məsulluğu işin xüsusiyyətləri nəzərə alınmaqla işəgötürən tərəfindən müəyyən edilir) çalışan dövlət qulluqçularına, müəssisənin rəhbər işçilərinə və mütəxəssislərinə; 3) xüsusi rejimli tədris müəssisələri istisna olmaqla, tədris müəssisələrində pedaqoji iş aparmayan rəhbər işçilərə və inzibati-tədris heyəti işçilərinə, habelə məktəbdənkənar uşaq müəssisələrinin rəhbərlərinə; 4) tədris müəssisələrinin metodistlərinə, baş ustalarına, istehsalat təlimi ustalarına, təlimatçılarına, emalatxana rəhbərlərinə, kitabxanaçılarına, laborantlarına, dayələrə, dəyişək xidmətçilərinə, bədii rəhbərlərinə; 5) elmi dərəcəsi olmayan elmi işçilərə; 6) həkimlərə, orta tibb işçilərinə və eczaçılara.

Natamam iş vaxtı (natamam iş günü və ya natamam iş həftəsi) şəraitində işləyən işçilərə əmək məzuniyyəti tam iş vaxtı şəraitində işləyən işçilərə verilən əmək məzuniyyəti müddətində, yerinə yetirdikləri və ya çalışdıqları vəzifəyə uyğun olaraq verilir (AR ƏM-in 114-cü maddəsi).

**Əsasnamə** – ümumi məcəlləşdirmə xarakterli normativ-hüquqi akt. Ə. dövlət orqanının, yaxud orqanlar sisteminin strukturunu, funksiyalarını, səlahiyyətlərini və ya dövlət orqanlarının müəyyən hallarda fəaliyyət qaydasını müəyyən edir, yaxud konkret məsələyə dair təşkilati, əmlak və əmək münasibətlərinin məcmusunu (məsələn, kəşflər, ixtiralar haqqında) tənzim edir.

**Əsassız varlanma** – hüquqi əsas olmadan bir şəxsin (varlanmış şəxsin) başqa şəxsin (məhrum olanın) əmlakından nə isə götürməsi nəticəsində varlanması.

Ə.v. yalnız o zaman baş verir ki, bu cür varlanmaya haqq qazandıran qanuni əsas və ya müqavilə əsası olmur. Hüquqi əsas olmadan varlanma həmçinin o hallarda baş vermiş sayılır ki, bu cür varlanma həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənir.

Varlanmış şəxs əldə etdiklərini məhrum olanın tələbi ilə ona qaytarmalıdır. Qaytarma vəzifəsi aşağıdakılara da şamil edilir: a) əldə edilənlərdən götürülən fayda; b) əldə edən şəxsin əldə etdiklərinə əsasən və ya onlar üçün kompensasiya kimi əldə etdiyinə və ya qəsdən əldə etmədiyinə. Əldə edilənləri vermək mümkün olmadıqda, onların dəyəri ödənilir.

Öhdəliyin icrası üçün deyil, varlanmış şəxsin hər hansı hərəkəti yerinə yetirməsi və ya yerinə yetirməməsi üçün varlanmış şəxsə nə isə verən məhrum olan, varlanmış şəxsin əməli gözlənilən məqsədə uyğun olmadıqda verdiyini geri tələb edə bilər. Aşağıdakı hallarda qaytarma tələbi istisna edilir: 1) əgər məqsədə çatılması əvvəlcədən qeyri-mümkün idisə və verən bunu bilirdisə; 2) əgər verən məqsədə çatmağa vicdansızcasına mane olmuşsa.

Varlanmış şəxs aldığı əşya üçün çəkdiyi xərclərin kompensasiyası hüququna malikdir. Varlanmış şəxs varlanarkən arxayın olmuşsa, faydalı qurğuların əvəzi yalnız o halda ödənilir ki, bunlar qaytarma anında

hələ mövcud olan dəyər artmasına səbəb olsun. Əsassız varlanma obyektini qaytarmaq hüququ məhrum olana öz hüququnun məlum olduğu vaxtdan ən geci iki il sonra müddətin keçməsinə görə qüvvədən düşür. Qalan hallarda müddətin keçməsi ümumi göstərişlərə uyğun müəyyənləşdirilir (AR MM-in 1091-1095-ci maddələri).

**Əsas və əlavə cəzalar** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə uyğun olaraq ictimai işlər, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama, azadlığın məhdudlaşdırılması; müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə cəza növləri yalnız əsas cəza kimi tətbiq edilir.

Cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəza növləri həm əsas, həm də əlavə cəza kimi tətbiq edilir.

Xüsusi və ya hərbi rütbədən məhrum etmə, nəqliyyat vasitələrini idarəetmə hüququndan məhrum etmə, əmlak müsadirəsi və Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəza növləri yalnız əlavə cəza kimi tətbiq edilir (AR CM-in 43-cü maddəsi).

**Əsas və əlavə inzibati tənbehlər** – Azərbaycan Respublikasının inzibati xətalara dair qanunvericiliyinə uyğun olaraq xəbərdarlıq, inzibati cərimə və ya inzibati həbs yalnız əsas inzibati tənbeh növləri kimi tətbiq edilir. İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişlə alınması, yaxud müsadirəsi, inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması, əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma həm əsas, həm də əlavə inzibati təbeh növləri kimi tətbiq edilə bilər. Bir inzibati xətaya görə bir əsas tənbeh, yaxud əsas və əlavə tənbeh tətbiq edilə bilər.

**Əsas vəsaitlər** – vergi qanunvericiliyinə görə istifadə müddəti bir ildən çox olan və AR VM-in 114-cü maddəsinə uyğun olaraq amortizasiya edilməli olan maddi aktivlər.

**Əsərin elan olunması** – müəlliflik hüququnda müəllifin razılığı ilə əsəri ilk dəfə ictimaiyyətin diqqətinə çatdırmaqdan ibarət olan hərəkətlərin – əsərin dərcinin, açıq nümayişinin, efirdə açıq surətdə ifa olunmasının və i.a. həyata keçirilməsi.

**Əsgər** – 1) hərbi qulluqçuların sıravi heyəti; 2) geniş mənada döyüşçü, hərbçi.

**Əsginas** – rus kağız pulunun – assiqnasiyasının azərbaycanca adı; ilk dəfə 1769-cu ildə II Yekaterinanın dövründə buraxılmışdır. Ə. buraxılmasının səbəbi bilavasitə Türkiyə ilə müharibə idi. Ə. emissiyasının artması, xüsusilə hərbi məqsədlər və zadəgan torpaq sahibliyinin saxlanması ilə əlaqədar xərclərin artması ə.-ın qiymətdən düşməsinə səbəb olmuşdur. I Nikolay dövründə pul sistemi əsaslı surətdə dəyişdirilmiş, gümüş monometalizmin müəyyən olunması ilə 1849-cu ildə Ə. ləğv edilmişdir.

**Əsir** *(bax: hərbi əsir).*

**Əsirlikdə olan hərbi qulluqçunun cinayətkar hərəkətləri** – hərbi xidmət əleyhinə olan cinayətlərdən biri. AR CM-in 346-cı maddəsinə uyğun olaraq əsirlikdə olan hərbi qulluqçunun başqa hərbi





əsirlərə qarşı zorakılıq etməsində və ya onlarla amansızcasına rəftar etməsində ifadə olunur.

**Əsl olmayan tərəfin əvəz edilməsi** – mülki-prosessual qanunvericiliyə görə iddia tələb hüququ olmayan şəxs tərəfindən verildikdə və ya iddia cavab verməli olmayan şəxsə verildikdə məhkəmə iddiaçının razılığı ilə, işi xitam etmədən ilk iddiaçını və ya cavabdehi əsl iddiaçı və ya cavabdehlə əvəz edə bilər. İddiaçı özünün başqa şəxslə əvəz edilməsinə razı olmadıqda, həmin şəxs mübahisə predmeti barədə müstəqil tələb irəli sürən üçüncü şəxs kimi işə daxil ola bilər. İddiaçı cavabdehin başqa şəxslə əvəz edilməsinə razı olmadıqda, məhkəmə bu şəxsi ikinci cavabdeh kimi işə cəlb edə bilər. Əsl olmayan tərəf əvəz edildikdən sonra işə əvvəldən baxılmağa başlanır (AR MPM-in 54-cü maddəsi).

**Əşya** – hüquqda xarici (maddi) aləmin təbiətdə təbii vəziyyətdə olan, yaxud insan tərəfindən yaradılan predmeti. Ə. əmlak hüquq münasibətlərinin əsasıdır. Mülki hüquqda pullar və qiymətli kağızlar da ə. hesab olunur.

Müxtəlif əsaslara görə ə. aşağıdakı kateqoriyalara bölünür: 1) cinsi əlamətləri ilə fərdi – müəyyən əlamətlərinə görə müəyyən edilən əşyalar; 2) bölünən və bölünməz əşyalar; 3) istehlak olunan və olunmayan əşyalar. Baş əşya və onun mənsubiyyəti də fərqləndirilir.

**Əşya hüququ** – 1) obyekti əşya olan subyektiv mülki hüquq. Ə.h.-na malik olan şəxs bu hüququ sərbəst surətdə, digər (borclu) şəxslərin yardımına ehtiyac duymadan həyata keçirir. Mülkiyyətçi ə.-ya sahiblik, ondan istifadə və onun üzərində sərəncam vermək hüququnu qanunla müəyyən edilmiş həddə öz mülahizəsinə görə realizə edir; 2) mülki hüququn əsas institutlarından biri; subyektiv mülkiyyət hüququnu və sair subyektiv əşya hüquqlarını tənzimləyən normaların məcmusu.

**Əşyaların mülki dövriyyəsi** – mülki qanunvericiliyə görə əşyalar dövriyyədən çıxarılmayıbsa və ya onların dövriyyəsi məhdudlaşdırılmayıbsa, universal hüquq varisliyi qaydasında (vərəsəlik, hüquqi şəxsin yenidən təşkili) və ya başqa üsulla əşyalar sərbəst özgəninkiləşdirilə və ya bir şəxsdən başqasına keçə bilər. Mülki dövriyyədə olmasına yol verilməyən əşyalar (mülki dövriyyədən çıxarılmış əşyalar) qanunvericilikdə birbaşa göstərilməlidir. Yalnız dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və ya dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən əşyalar (mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar) qanunla müəyyənləşdirilmiş qaydada təyin edilir (AR MM-in 136-cı maddəsi).

**Əşyaların verilməsi** – cinayət-prosessual qanunvericiliyə görə Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı xarici dövlətin sorğu edən səlahiyyətli orqanının xahişi ilə aşağıdakı əşyalara verir: 1) şəxsin verilməsinə səbəb olan cinayətin törədilməsi zamanı istifadə edilən əşyalar, o cümlədən cinayətin aləti, cinayət nəticəsində əldə edilmiş və ya ona görə haqq kimi alınmış əşyalar, habelə bu qaydada əldə edilmiş əşyaların əvəzinə cinayətkarın aldığı əşyalar; 2) cinayət işində sübuti əhəmiyyətə malik ola biləcək əşyalar. AR CPM-in 505.1-ci maddəsində göstərilən əşyalar, həmçinin şəxsin ölümü, qaçması və ya digər hallarla əlaqədar onun verilməsi mümkün olmadıqda da ve-

rilir. CPM-in 505.1-ci maddəsində göstərilən əşyalar Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanına cinayət işi üzrə sübut kimi lazım olduqda, onların verilməsi iş üzrə icraat qurtaranadək təxirə salına bilər. *Verilmiş əşyalara üçüncü şəxslərin hüququ qüvvədə qalır.* İş üzrə icraat qurtardıqdan sonra bu əşyalar onları xarici dövlətin səlahiyyətli hakimiyyət orqanına vermiş Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanına əvəzsiz olaraq qaytarmalıdır (AR CPM-in 505-ci maddəsi).

**Əşyaların yüklülüyü** – mülki qanunvericiliyə görə qanun və ya əqd əsasında əşyaya mülkiyyət hüququnun hər hansı formada məhdudlaşdırılmasıdır (AR MM-in 138.1-ci maddəsi). AR MM-in 323-cü maddəsinə uyğun olaraq daşınmaz əşya elə yüklü edilə bilər ki, xeyrinə yüklülük müəyyənləşdirilən şəxsə torpaq sahəsi üzrə müəyyən vaxtaşırı öhdəliklər icra edilməli olar.

**Əşyalar toplusunun sığortası** – mülki qanunvericiliyə uyğun olaraq əgər əşyaların toplusu sığortalanıbsa, sığorta topluya daxil olan bütün əşyalara şamil edilir (AR MM-in 909-cu maddəsi).

**Əşyanın lombardda girovu** – mülki qanunvericiliyə uyğun olaraq şəxsi istehlak üçün nəzərdə tutulmuş daşınar əşyanın fiziki şəxslərdən qısamüddətli kreditlərin təmin edilməsi məqsədilə girov götürülməsini sahibkarlıq fəaliyyəti qaydasında buna xüsusi icazəsi (lisenziyası) olan ixtisaslaşdırılmış təşkilatlar – lombardlar həyata keçirə bilərlər.

Əşyanın lombardda girovu haqqında müqavilə lombardın girov bileti verməsi yolu rəsmiləşdirilir. Saxlanca qoyulan əşyalar lombarda verilir. Lombard girov götürdüyü əşyanı onun girova qəbul olunduğu anda eyni növlü və keyfiyyətli əşyanın bazar qiymətinə uyğun müəyyənləşdirilən qiymətinin tam məbləğində girov qoyanın xeyrinə sığorta etdirməlidir. Lombardın girov qoyulmuş əşyadan istifadə etmək və ona dair sərəncam vermək hüququ yoxdur. Lombard girov qoyulmuş əşyanın itirilməsi və zədələnməsi üçün məsuliyyət daşıyır.

Əşyanın lombardda girovu ilə təmin edilmiş kredit məbləği müəyyənləşdirilmiş müddətdə qaytarılmadıqda, lombard həmin əşyanı açıq hərracda realizə edə (sata) bilər. Bundan sonra lombardın girov qoyana (borcluya) qarşı tələbləri, hətta girov qoyulmuş əşyanın satışından götürülmüş məbləğ onların tam ödənilməsi üçün yetərli olmadıqda belə, ləğv edilir. Lombardlar tərəfindən fiziki şəxslərin onlara mənsub əşyanın girovu müqabilində kreditləşdirilməsi qaydaları qanunvericiliklə müəyyənləşdirilir. Əşyanın lombardda girovu haqqında müqavilənin girov qoyanın hüquqlarını AR MM-in ona verdiyi hüquqlara nisbətən məhdudlaşdıran şərtləri əhəmiyyətsizdir (AR MM-in 302-ci maddəsi).

**Əşyanın yerləşdiyi yer qanunu** – beynəlxalq xüsusi hüquq təcrübəsində təşəkkül tapmış ilk kolliziya bağlılıqlarından (təhkimetmə formulası) biri. Ə.y.y.q. mülki hüquq münasibətlərinin obyekti olan əşyanın ərazisində yerləşdiyi dövlətin hüququnun tətbiq edilməsi deməkdir. Bu qanun həmçinin də müvafiq dövlətin milli hüququnda təsbit olunmadığı hallarda (beynəlxalq adət sayəsində) də tətbiq edilir.

**Əşyaya sahiblik** – mülki qanunvericiliyə görə əşyaya faktiki sahibliyə nail olmaqla əldə edilən *sahiblik* (AR MM-in 159-cu maddəsi).





Əşya sahibinin məhdud əşya və ya şəxsi sahiblik hüququnun həyata keçirilməsi üçün kiməsə verdiyi hallarda, onların hər ikisi sahib hesab olunurlar. Onlardan birincisi vasitəli, ikincisi isə vasitəsiz sahib sayılır. Əşyanın mülkiyyətçisi hüququ ilə əşyaya sahib olan öz əşyasının sahibi, əşyanın hər hansı başqa sahibi isə özgə əşyasının sahibidir. Əşyaya faktiki sahib olmağa mahiyyətcə müvəqqəti iqtidarsızlıq və ya imkansızlıq əşyaya sahibliyi ləğv etmir.

Sahiblik əşyanın özünün verilməsi ilə verilir. Əvvəlki sahibin iradəsi ilə əldə edilən əşyaya faktiki sahibliyi həyata keçirməyə qadir olduqda verilmə baş tutur. Sahibin iradəsi olmadan sahiblikdən məhrumetmə və onu pozma qadağan edilmiş özbaşınalıq sayılır. Sahiblik qadağan edilmiş özbaşınalıq yolu ilə pozulduqda, sahib pozucudan pozuntulara son qoymağı tələb edə bilər.

Əşyanın vicdansız sahibi onu mülkiyyətçisinə qaytarmalı və əşyanı saxlaması ilə bağlı bütün zərərin əvəzini ödəməli, habelə əldə etdiyi bəhərin əvəzini ödəməlidir. Əşyanın vicdanlı sahibi öz ehtimal edilən hüququna uyğun olaraq əşyadan fayda götürdüyünə və ondan istifadə etdiyinə görə ixtiyarlı şəxsə zərərin əvəzini ödəməyə borclu deyildir. O, əvəzi ödənilərkən yoxa çıxan və ya zərər çəkən şeyin əvəzini ödəməyə borclu deyildir (AR MM-in 160-168-ci maddələri).

**Ətraf mühit** - *insan fəaliyyətindən asılı* olmayaraq onu əhatə edən canlı və cansız təbiətin məcmusu.

**Ətraf mühitə zərərli təsir** – ekoloji sistemin ayrı-ayrı komponentlərinin kəmiyyət və keyfiyyətcə dəyişməsinə, ekoloji tarazlığın pozulmasına səbəb olan kimyəvi və bioloji, zərərli fiziki, texniki, dağ-mədən işlərində texnologiyanın pozulması, təbii resurslardan israfçılıqla istifadə edilməsi ilə müşayiət olunan fəaliyyət.

**Ətraf mühitin ekoloji tarazlığının normalaşdırılması** – insan yaşayışı üçün ətraf mühitin yararlı olmasını müəyyən edən və bioloji müxtəlifliyin qorunub saxlanmasının, ekoloji sistemlərin sabit istifadəsini təmin edən ətraf mühitin keyfiyyət göstəricilərinin müəyyən edilməsi.

**Ətraf mühitin keyfiyyət göstəriciləri** – səlahiyyətli dövlət orqanları tərəfindən təsdiq edilmiş insan sağlamlığını və ətraf mühitin mühafizəsini təmin edən normativ texniki sənədlərin və standartların tələblərinə cavab verən məhsullar və ətraf mühitin tarazlığının ilkin göstəriciləri.

**Ətraf mühitin monitorinqi** – təbii və antropogen təsirlər nəticəsində ətraf mühitə yayılan zərərli qaz, maye və bərk haldakı tullantılara kəmiyyət və keyfiyyət cəhətdən nəzarətin elmi əsaslarla həyata keçirilməsi.

**Ətraf mühitin mühafizəsi** – ətraf mühitdə təbii mövcud olan maddi varlıqların ilkin kəmiyyət və keyfiyyətcə dəyişmələrə yol verilməməsi, qorunub saxlanması.

**"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 8 iyun 1999-cu il tarixdə qəbul olunmuş, ona 21 fevral 2001-ci il tarixdə əlavə və dəyişiklik edilmişdir. Qanun on altı fəsil və 82 maddədən ibarətdir.

**Əüzay hüquq məktəbi** – islamın hüquq məktəblərindən biri. Bu məktəb suriyalı alim Əbdürrəhman İbn Əl Əüzayın adı

(708-774) ilə adlandırılır. Əüzay Bol Bəkdə anadan olmuşdur. O, XVIII yüzillikdə hədislər sahəsində böyük alimlərdən biri kimi məşhurlaşmışdır. Əüzay və onun əsasını qoyduğu hüquq məktəbinin nümayəndələri Quranda və ya Sünnədə dəqiq mətnləri olduğu hallarda, Qiyasdan və mülahizələrin digər formalarından istifadənin əleyhinə çıxmışdır. İmam Əüzay ömrünün böyük hissəsini Beyrutda yaşamış və orada da vəfat etmişdir. Onun banisi olduğu məktəb nəinki Suriyada, həm də İordaniyada, Fələstindəvə Livanda, habelə İspaniyada yayılmışdır.

Ə.h.m. Suriyada hüquqi fikrin baş məktəbi kimi V yüzilliyədək mövcud olub. Bu vaxt Şafiilər hüquq məktəbindən olan Əbu Zara Məhəmməd İbn Osman Dəməşqin hakimi təyin edilmişdir. Əbu Zara "Müxtəsər Əl Müzəni" (Şafiilərin fiqh üzrə əsas kitabı) kitabını əzbər öyrənən şagirdlərdən hər birinə 100 dinar mükafat verilməsi təcrübəsini tətbiq edirdi. Belə təcrübə təbii olaraq Şafiilər məktəbinin Suriyada səylə yayılmasına gətirib çıxartmış və Əüzay məktəbinin ardıcıllarının XI yüzillikdə sayının azalmasına və onların tədricən bir nəfər də olsun qalmamasına səbəb olmuşdur. Lakin ə.h.m.-nin fiqh elminə tövhəsi sənədlərlə rəsmiləşdirilmiş və bu günədək müxtəlif islam hüquq məktəblərinin fiqhin müqayisəli təhlilinə dair əksər kitablarına daxil edilmişdir.

**Əvariz** *(ər. təsadüfi hadisələr )* – orta əsrlərdə Azərbaycanda və Yaxın Şərqin bir sıra ölkələrində fövqəladə vergi. Ə. müharibə, saray şənlikləri və i. a. hadisələrlə əlaqədar olaraq təcili xərcləri ödəmək üçün toplanırdı. "Ə". termini cəm halda "əfarizat" kimi də işlədilirdi. Bu vergi Qəznəvilər dövründən məlum idi. Elxanilər dövründə ə. toplanması daimi xarakter almış və o, zəruri səbəblər olmadan da toplanmışdır. Verginin miqdarı qeyri-müəyyən idi. Səfəvilər dövründə yerli hakimlərin rəiyyət üzərində qoyduğu hər cür fövqəladə vergi və mükəlləfiyyət ə. adlanırdı. Xanlıqlar dövründə kənd əhalisi mülkədar üçün ə. adı ilə iki gün artıq işləməli idi (bəzi yerlərdə pulla da əvəz olunurdu). Ə. mükəlləfiyyəti Azərbaycanda 1870-ci ilədək mövcud olmuşdur.

**Əvəzçilik** – işçinin əsas vəzifəsi ilə yanaşı eyni vaxtda digər vəzifəni (əməkhaqqı ödənilməklə) də tutması, habelə əsas işdən başqa digər daimi işi (əməkhaqqı ödənilməklə) yerinə yetirməsi. Ə.-yə qanunla nəzərdə tutulan hallarda müvəqqəti tədbir kimi icazə verilir. Ə. üzrə yalnız başqa-başqa idarə, müəssisə və ya təşkilatlarda (bir sıra istisnalardan savayı) işləməyə icazə verilir.

**Əvəz edilən xərclər** – Azərbaycan Respublikasının ticarət gəmiçiliyi qanunvericiliyinə görə ümumi qəzaya aid ediləcək xərclərin əvəzinə çəkilən hər hansı bir əlavə xərc ümumi qəza hesab edilir (əvəz edilən xərclər). Əvəz edilən xərclər, belə xərclər nəticəsində ümumi qəzanın hər hansı bir iştirakçısının əldə etdiyi qənaətdən asılı olmayaraq, yalnız qarşısı alınmış xərclər həddində ödənilir.

**Əvəzgün** – işçilərə işdən kənar vaxtda iş üçün əvəz kimi verilən istirahət günü. İstirahət günündə işləyənə yaxın iki həftə ərzində əvəzgün verilir. Ə. vermək mümkün olmadığı hallarda (işçinin işdən çıxması və qanunvericilikdə nəzərdə tutulmuş başqa hallarda) istirahət günündə iş haqqı ikiqat ödənilir. Bayram günündə iş vaxtının aylıq normasından artıq işləmiş işçilərin







arzusu ilə ona əlavə ödəmə əvəzinə başqa istirahət günü verilə bilər.

**Əvəzli əqdlər** – mülki hüquq elmində əqdlər; bağlanmış belə əqdlərə uyğun olaraq tərəflərdən birinin müəyyən hərəkətləri yerinə yetirmək vəzifəsi digər tərəfin maddi və ya digər neməti verməklə əlaqədar qarşılıqlı vəzifəsinin yaranmasına uyğun olur. Əqdlərin əvəzli olması onların təbiəti və ya tərəflərin sazişi ilə müəyyən oluna bilər. Əvəzli əqdlər, bir qayda olaraq, əmlakın mülkiyyətə müvəqqəti istifadəyə verilməsilə bağlı olur.

**Əvəzli xidmət göstərmə müqaviləsi** – müqavilə növü; bu müqaviləyə görə icraçı sifarişçinin tapşırığı ilə xidmətlər (müəyyən hərəkətlər etməyi və ya müəyyən fəaliyyəti həyata keçirməyi) göstərməyi, sifarişçi isə bu hərəkətlərin və ya fəaliyyətin müqabilində onların haqqını ödəməyi öhdəsinə götürür.

**Əvəzli müqavilə** – mülki-hüquqi müqavilələrin bir növü. Müqaviləyə görə tərəf öz vəzifələrinin icrası müqabilində haqq və ya digər qarşılıqlı əvəz almalıdırsa, həmin müqavilə əvəzli sayılır (AR MM-in 397. 1-ci maddəsi). Ə.m. zamanı bir kontragent tərəfindən əmlak təqdim edilməsi digər kontragentin əmlak təqdim etməsi ilə nəticələnir. Məsələn, alqı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür. Tərəflərin eynidəyərli əmlak verdiyi zaman əvəzlilik ekvivalentlilik xarakteri daşıyır. Mülki-hüquqi müqavilələrin böyük əksəriyyəti əvəzlidir.

**Əvəzsiz əqdlər** *(bax: əvəzli əqdlər).*

**Əvəzsiz istifadə müqaviləsi** – mülki - hüquqi müqavilələrin bir növü. Əvəzsiz istifadə müqaviləsinə görə hər hansı əşyanı kirayəyə verən onu kirayəçinin istifadəsinə verməyi öhdəsinə götürür, kirayəçi isə həmin əşyanı kirayəyə verənə qaytarmağı öhdəsinə götürür, özü də bu öhdəlikləri iştirakçılar əvəzsiz icra etməlidirlər.

Əvəzsiz istifadəyə verilən əşyanı kirayəyə verən kirayəçi qarşısında yalnız qəsdən və ya kobud ehtiyatsızlıq üzündən törədilmiş əməllər və ya qüsurlar üçün məsuliyyət daşıyır. Kirayəçi əvəzsiz istifadəyə götürülmüş əşyanın adi saxlanması və ona qulluq üçün zəruri olan xərcləri çəkməlidir. Kirayəçinin əvəzsiz istifadəyə götürdüyü əşyadan müqavilədə göstəriləndən savayı, başqa təyinatla istifadə etməsinə icazə verilmir. Kirayəyə verənin icazəsi olmadan onun həmin əşyanı üçüncü şəxslərin istifadəsinə vermək hüququ yoxdur.

Kirayəçi əvəzsiz istifadəyə götürdüyü əşyanı müqavilədə müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra qaytarmağa borcludur. Əgər kirayə müddəti müəyyənləşdirilməyibsə, kirayəçi əşyanı əvəzsiz istifadə məqsədlərinə uyğun istifadə etdikdən sonra qaytarmalıdır. Kirayəçi əvəzsiz istifadəyə götürdüyü əşyanı üçüncü şəxslərin istifadəsinə verdiyi halda, şübhə halında kirayəyə verən əşyanın qaytarılmasını üçüncü şəxslərdən də istənilən vaxt tələb edə bilər (AR MM-in 732-736- cı maddələri).

**Əvəzsiz müqavilə** – mülki-hüquqi müqavilələrin bir növü. Müqaviləyə görə bir tərəf digər tərəfdən haqq və ya digər qar-

şılıqlı əvəz almadan ona nə isə verməyi öhdəsinə götürərsə, həmin müqavilə əvəzsiz sayılır (AR MM-in 397.2-ci maddəsi). Mülki qanunvericilik normalarından, eləcə də müqavilənin məzmunundan və ya mahiyyətindən digər hallar irəli gəlmədikdə, müqavilənin əvəzli olduğu ehtimal edilir. Müqavilələrin əvəzli və ya əvəzsiz müqavilələrə bölgüsü tərəflərin əmlak məsuliyyəti haqqında məsələnin həlli baxımından əhəmiyyət kəsb edir.

**Əyalət** – **1)** Qədim Romada Romanın hakimiyyəti altında olan ərazilər (İtaliyadan kənarda); Ə.-lər Roma canişinləri tərəfindən idarə olunurdular; **2)** XVIII yüzillikdə Rusiyada inzibati ərazi vahidi. Ə.-lərin yaradılmasına 1711-1712-ci illərdə başlanmış, 1719-cu ildə artıq təqribən 45 əyalət olmuşdur. Ə.-ə voyevoda, quberniya şəhərlərində qubernator başçılıq edirdi. Ə.-lər qəzalara bölünürdü. 1775-ci ildə ləğv edilmişdir; **3)** bir sıra xarici dövlətlərdə (İtaliyada, İspaniyada) iri inzibati ərazi vahidinin adı.

**Əyalət ştatları** – orta əsrlər Fransasının bir sıra əyalətlərində silki-nümayəndəli orqanlar; ə.ş. əyalətlər üçün bütün Fransa miqyasında əhəmiyyətə malik olan Baş ştatlar qədər əhəmiyyətə malik idilər.





# - F -


Fabrik ........ 403
Fabrik ağsaqqalları ........ 403
Fabrik qanunvericiliyi ........ 403
Fahişəliyə cəlb etmə ........ 403
Faizlər ........ 403
Faktiki nikah ........ 403
Faktlar ........ 403
Faktların müəyyən edilməsi ........ 403
Faktların notarial təsdiqi ........ 403
Faktorinq ........ 403
Faktorinq müqaviləsi ........ 404
Faktoriya ........ 404
Faktotum ........ 404
Faktura ........ 404
Fakultativ protokol ........ 404
Fakultativ referendum ........ 404
Faqih ........ 404
Falaqqa ........ 404
"Falanqalar" ........ 404
Familiya ........ 404
Fas ........ 405
Fastlar ........ 405
Faşizm ........ 405
Fatum ........ 405
Federal dairə ........ 405
Federal ərazilər ........ 405
Federalizm ........ 405
Federal kansler ........ 406
Federal kolliziya hüququ ........ 406
Federal məcburiyyət ........ 406
Federal müdaxilə ........ 406
Federal Təhqiqatlar Bürosu (FTB) ........ 406
Federasiya ........ 406
Federativ quruluş ........ 407
Federativləşdirmə (federallaşma) ........ 407
Federativ müqavilə ........ 407
Feldeger ........ 407
Feldfebel ........ 407
Feldmarşal ........ 407
Feloniya ........ 407
Femida ........ 407
Feminizm ........ 407
Fenomenoloji hüquq məktəbi ........ 408
Feod ........ 408
Feodal ........ 408
Feodal dövləti ........ 408
Feodal hüququ ........ 408
Feodal rentası ........ 408
Feodosi Məcəlləsi ........ 409
Ferma ........ 409
Fermer ........ 409
Fermer təsərrüfatı ........ 409
Fəaliyyət qabiliyyəti ........ 409
Fərari ........ 409
Fərarilik ........ 409
Fərdən müəyyən edilən şey ........ 409
Fərdi eyniləşdirmə nömrəsi ........ 410
Fərdi əmək mübahisəsi ........ 410
Fərdi hesab ........ 410
Fərdi hesabın sığorta hissəsi ........ 410
Fərdi hesabın yığım hissəsi ........ 410
Fərdi uçot ........ 410
Fərman ........ 410
Fərraş ........ 410
Fərraşpulu ........ 410
Fərziyyə ........ 411
Fideikomiss ........ 411
Fidusiar ........ 411
Fidusiya ........ 411
Fikir və söz azadlığı ........ 411
Fiksçyur-not ........ 411
Fiksiya ........ 411

Fiqh ... 411
Fila ... 412
Filer ... 412
Filial ... 412
Filiasiya ... 412
Firma ... 412
Firon ... 412
Fisk ... 412
Fiskal ... 412
Fiskal gəliri ... 413
Fiskal rüsumlar ... 413
Fiskal siyasət ... 413
Fitnəkarlıq ... 413
Fitva ... 413
Fiziki şəxs ... 413
Fob ... 413
Foqt ... 413
Folketinq ... 413
Fond ... 413
Fond bazarı ... 413
Fond birjası ... 414
Fondlar ... 414
Fonoskopiya ... 414
Forfeytinq ... 414
Formal sübutlar ... 414
Formal tərkibli cinayətlər ... 414
Formaryaj ... 415
Formula ... 415
Formulyar ... 415
Formulyar hüquq ... 415
Formulyar proses ... 415
Fors-major ... 416
Forum ... 416
Forvard əqdi ... 416
Forvard kontraktı ... 416
Forvard müqaviləsi ... 416
Fototexniki ekspertiza ... 416
Fövqəladə Hallar Nazirliyi (FHN) ... 417
Fövqəladə qanunvericilik ... 417
Fövqəladə vəziyyət ... 417
"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunu ... 418
"Fövqəlprezidentli" respublika ... 418
Fraxt ... 418
Fraxt avansı ... 418
Fraxt birjası ... 419
Fraxt brokeri ... 419
Fraxtçı ... 419
Fraxtedən ... 419
Fraxtın indeksi ... 419
Fraxtlaşdırma ... 419
Fraxt məzənnəsi ... 419
Fraxt orderi ... 419
Fraksiya ... 419
Françayzi ... 419
Françayzinq ... 419
Françayzinq müqaviləsi ... 419
Françayz müəssisə ... 420
Franko ... 420
Fransız Mülki Məcəlləsi (Napoleon Məcəlləsi) ... 420
Franşiza ... 420
Fratriya ... 420
Frenologiya ... 420
Frihold ... 420
Fritrederlər ... 421
Fritrederlik ... 421
Fueros ... 421
Füru əl-fiqh ... 421
Fyuçers birjası ... 421
Fyuçers əqdi ... 421







**Fabrik** *(lat. fabrica – emalatxana, faber – usta)* – maşın sisteminin tətbiqinə əsaslanan sənaye müəssisəsi; iri maşınlı istehsal forması. Siyasi-iqtisadi mənada "f." anlayışı "zavod" anlayışının eynidir. Adətən yüngül və hasilat sənayesi sahələrinin müəssisələri f. adlanır (məsələn, tikiş, toxuculuq fabriki). F. XVIII yüzilliyin sonuncu rübü – XIX yüzilliyin I rübündə sənaye çevrilişi nəticəsində meydana gəlmişdir. Azərbaycanda f. ilk dəfə 1829-cu ildə (Şəkidə) yaradılmışdır.

**Fabrik ağsaqqalları** – Böyük Britaniya həmkarlar ittifaqları hərəkatında müəssisə və idarələrdə fəhlələrin seçkili nümayəndələri. XIX yüzilliyin sonunda meydana gəlmişdir.

**Fabrik qanunvericiliyi** – sənaye kapitalizmi dövründə fabrik və zavodlarda fəhlələrin əmək şəraitini tənzimləyən qanunvericilik. Böyük Britaniya parlamentinin toxuculuq sənayesində yetkinlik yaşına çatmayan şəxslərin əmək şəraitini tənzimləyən 1802-ci və 1919-cu illərdəki aktları ilk fabrik qanunları olmuşdur. F.q. tədricən sənayenin başqa sahələrini də əhatə etmişdir. XIX yüzilliyin ortalarından f.q. Avropanın digər ölkələrində də tətbiq edilməyə başlamışdır.

**Fahişəliyə cəlb etmə** – ictimai mənəviyyat əleyhinə cinayətlərin bir növü. AP CM-in 243-cü maddəsində nəzərdə tutulmuşdur. Zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, şantajla, əmlakı məhv etməklə və ya zədələməklə, yaxud aldatmaqla, gəlir və ya digər fayda əldə etmək məqsədi ilə fahişəliyə cəlb etmədə ifadə olunur.

**Faizlər** – borclunun kreditora borc (ssuda) ilə götürdüyü pul müqabilində verdiyi haqq. F. kredit idarələrinin (bankların, əmanət banklarının) əməliyyatları üçün, habelə qanunvericilikdə müəyyən edilmiş digər hallarda tutulur. Kredit idarələri verdikləri kreditlər üçün, yəni aktiv əməliyyatlar üçün f. alır, kooperativ təşkilatlarına və vətəndaşlara onlardan aldıqları vəsait üçün, yəni passiv əməliyyatlar üçün isə faizlər ödəyirlər.

**Faktiki nikah** – qanunla müəyyən edilmiş qaydada rəsmiləşdirilməmiş ər-arvad münasibətləri. Ailə hüququnda faktiki nikah ailə qanunvericiliyi ilə müəyyən edilmiş hüquq və vəzifələr əmələ gətirmir. F.n. münasibətlərinin məhkəmə qaydasında tanınmasına yol verilmir.

**Faktlar** *(bax: hüquqi faktlar)*.

**Faktların müəyyən edilməsi** – hüquqi əhəmiyyəti olan faktların müəyyənləşdirilməsi. F.m.e. mülki prosesdə xüsusi icraatlı işlərin kateqoriyasıdır. Məhkəmə hüquqi əhəmiyyəti olan digər faktları da müəyyən etmək hüququna malikdir. Hüquqi faktlar məhkəmə qaydasında o zaman müəyyən edilir ki, ərizəçi həmin faktları təsdiq edən lazımi sənədləri əldə edə bilməsin, yaxud itirilmiş sənədlərin bərpası mümkün olmasın (məsələn, arxivin məhv olması nəticəsində və i.a.).

**Faktların notarial təsdiqi** – Azərbaycan Respublikasının notariat qanunvericiliyinə uyğun olaraq notarius hüquqi əhəmiyyətə malik olan sənədləri, o cümlədən vətəndaşlara onların şəxsiyyətini (fotoşəkil yapışdırılmış sənədlər də daxil olmaqla) təsdiqləyən sənədləri təsdiq edə bilər.

**Faktorinq** *(ing. faktoring)* – müştərinin dövriyyə kapitalının kreditləşdirilməsilə əlaqələndirilən ticarət kommissiya əməliyyatlarının bir növü. F. bir sıra dövlətlərdə

pul tələblərinin güzəşti yolu ilə maliyyələşdirmə müqaviləsi əsasında həyata keçirilir.

**Faktorinq müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. AP MM-in 655. 1-ci maddəsinə uyğun olaraq faktorinq pul tələbinin güzəşt edilməsi müqabilində maliyyələşdirilməlidir. Faktorinq müqaviləsinə görə bir tərəf (faktor) üçüncü şəxs (borclu) barəsində müştərinin (kreditorun) üçüncü şəxsə mal verməsindən, işlər görməsindən və ya xidmətlər göstərməsindən irəli gələn pul tələbinin hesabına digər tərəfə (müştəriyə) pul vəsaiti verir və ya verməyi öhdəsinə götürür, müştəri isə bu pul tələbini faktora güzəşt edir və güzəşt etməyi öhdəsinə götürür.

**Faktoriya** *(lat. factoria)* – **1)** Avropa tacirlərinin müstəmləkə ölkələrindəki ticarət kontorları və yaşayış məntəqəsi; **2)** ayrı-ayrı sənaye rayonlarında ticarət-təchizat və hazırlıq məntəqəsi.

**Faktotum** *(lat. fac totum – hər şeyi et)* – kiminsə tapşırığını sözsüz, qeyd-şərtsiz icra edən etibarlı şəxs

**Faktura** *(lat. factura)* – əmtəənin (məhsulun) faktiki tədarükünü, xidmətləri və va əmtəələrin dəyərini təsdiqləyən və satıcı tərəfindən alıcının adına verilən yazılı hesab (sənəd).

**Fakultativ protokol** – beynəlxalq hüquqda çoxtərəfli beynəlxalq müqavilənin bir növü; adətən əsas müqavilənin bağlanması ilə və ona əlavə (lakin onun ayrılmaz hissəsi olmayan) qismində daxil edilməsilə əlaqədar müstəqil sənəd qismində imzalanır.

**Fakultativ referendum** *(bax: referendum).*

**Faqih** *(ərəb. bilici)* – ilahiyyatçı hüquqşünas, ilahiyyat-hüquq kompleksinin (fiqhin) bilicisi. F.barəsində anlayış VII yüzilliyin ikinci yarısında təşəkkül tapmışdır. F.-lər öz fəaliyyətində Quran və Sünnəyə hüququn əsas mənbələri kimi yanaşırlar. Onlar öz elmi dərkənarlarında fiqhin vahid sistemini yaratmağa səy göstərirlər. Fiqhi yaxşı bilmək qazı və məmurlar üçün həmişə zəruri olmuşdur və indi də zəruri hesab edilir. IX yüzilliyə doğru f.-lər şəhər əhalisinin nüfuzlu təbəqəsini təşkil etmişdir. Onlar hazırda da böyük təsir gücünə malikdirlər.

**Falaqqa** – bəzi müsəlman ölkələrində, o cümlədən XX yüzilliyədək Azərbaycanda yayılmış cəzavermə aləti. Müqəssirin ayaqlarını uzun ağaca bərkidilmiş 2 kəmərin arasından keçirib bağlayır və nazik çubuqla döyəcləyirdilər. Məktəb və mədrəsələrdə şagirdlərə cismani cəza vermək üçün f.-dan geniş istifadə edilmişdir.

**"Falanqalar"** – fransız utopik sosialisti Şarl Furyenin lahiyəsinə görə ideal cəmiyyətin ilkin özəkləri, istehsal və istehlak birlikləri. Əmək "f ".-nın üzvləri üçün mühüm tələbat olmalı, onların işlədikləri cəmiyyətdə şəhərlə kənd, fiziki əməklə əqli əmək arasındakı fərqlər aradan qalxmalı idi. Ş. Furyenin heç bir elmi əsası olmayan bu xülyası siyasi və hüquqi fikir tarixində, xüsusilə də həmin tarixin müəyyən hissəsini təşkil edən sosialist ideyalarının inkişafında özünəməxsus rol oynamışdır.

**Familiya** *(lat. familia – ailə)* – **1)** şəxs doğulduqdan sonra ona verilən nəsli soyad. Şəxsə, adətən atanın soyadı verilir. F. övladlığa götürmə zamanı, nikaha xitam verildikdə və i.a. hallarda dəyişdirilə bilər. Uşaqların soyadı valideynlərin soyadı ilə müəyyən edilir. Nikahda olmayan ananın uşağına ananın soyadı verilir; **2)** ailə, nəsil; **3)** Qədim Romada qan qohumları ilə yanaşı, qulların da daxil olduğu hüquqi təsərrüfat vahidi.





**Fas** *(ing. fac, free alongside ship sözlərinin ilk hərfləri – gəmi bortu boyu boşdur)* – dəniz daşımalarında əmtəələrin alqı-satqı sövdəsi növü. F.-ın şərtinə görə satıcı əmtəəni alıcının göstərdiyi yükləmə yerinə gətirməlidir. Əmtəənin qiymətinə onun gəmi bortuna gətirilmə xərci də daxildir. Gəmi bortuna yükləmə xərclərini isə alıcı ödəyir.

**Fastlar** *( lat. dies fasti – məhkəmə qərarları günü)* – Qədim Romada ali kahinlər tərəfindən mühakimə icraatı üçün ilin əlverişli və əlverişsiz günlərə bölgüsü. F. Roma təqviminin əsasında dururdu. "F." anlayışı Romanın vəzifəli şəxslərinin illik siyahısına keçirilirdi.

**Faşizm** – totalitar-hüquq tipli sosial-siyasi hərəkat rejimi, ideologiya və dövlət rejimi. F., bu sözün dəqiq mənasında XX yüzilliyin 20-40-cı illərində İtaliyanın siyasi həyatının fenomeni olmuşdur. Həmin yüzilliyin 30-cu illərindən başlayaraq "f." termini digər rejimlərə – Almaniyada nasional-sosialist, İspaniyada hərbi-falangist və Portuqaliyada hərbi-polis rejiminə də şamil edilmişdir. F. özünün bütün müxtəlif təzahürlərində demokratiyanın mütərəqqi institutlarına və dəyərlərinə qarşı duran "yeni qayda" adlandırılan mürtəce rejimdən ibarət olmuşdur. F. həmişə kütləvi totalitar siyasi partiyaya (hakimiyyətə gələn belə partiya inhisarçı siyasi qüvvəyə çevrilir) arxalanmışdır. Kütləvi ideoloji və fiziki terror f.-in əlində ən kəsərli silah olmuşdur. F. partiyalarının liderləri böyük şəstlə "fürer", "rəhbər", "duçe", yaxud "kaudilo" adlandırılmışdır.

**Fatum** *(lat. fatum)* – qədim romalılarda allahların iradəsinin, qarşısıalınmaz taleyin mücəssəməsi. Stoiklərə görə dünyanı idarə edən aqil qüvvə.

**Federal dairə** – federativ quruluşa malik bir sıra dövlətlərdə (ABŞ-da, Braziliyada, Venesuelada, Meksikada, Argentina və Avstraliyada) ərazisində federasiyanın paytaxtının yerləşdirildiyi xüsusi inzibati ərazi vahidi. Argentinada f.d. federal paytaxt dairəsi, ABŞ-da Kolumbiyanın federal dairəsi, Avstraliyada paytaxt ərazisi adlandırılır. F.d. digər subyektlərlə eyni bərabərdə ya federasiyaya daxil ola (Braziliyada), ya da onun tərkib hissəsi ola bilər. Lakin o, federasiyanın subyekti ola və bilavasitə federal hökumət tərəfindən idarə edilə bilməz (ABŞ, Meksika, Venesuela). F.d. ilk dəfə 1790-cı ildə ABŞ-da iki ştat – Merilend və Virciniya tərəfindən İttifaqın yeni paytaxtının – Vaşinqton şəhərinin tikilməsi üçün güzəştə gedilən torpaqlarda yaradılmışdır.

**Federal ərazilər** – federativ quruluşa malik bir sıra dövlətlərdə (ABŞ-da, Braziliyada, Venesuelada, Avstraliyada, Kanadada) federasiyanın tərkibinə federal orqanlarda qanunverici muxtariyyat hüquqları və nümayəndəliyi olmayan xüsusi inzibati ərazi vahidləri. F.ə.-ə adətən ölkənin əhalisi son dərəcə seyrək olan və mənimsənilməyən hissələri aid edilir. Tamhüquqlu federasiya subyektlərinin yaradılmasının mümkün və ya məqsədəuyğun olmadığı kiçik adalar da f.ə.-inə daxildir.

**Federalizm** *(fr. federalisme; lat. foedus – ittifaq)* – **1)** dövlət quruluşunun federativ

prinsiplər əsasında yaradıldığı sistem. F. federasiya prinsipinə əsaslanan mütəşəkkil strukturdur; **2)** bəzi ölkələrdə federativ dövlət quruluşu uğrunda hərəkat.

**Federal kansler** – AFR-də və Avstriyada federal hökumətin başçısı.

**Federal kolliziya hüququ** – federativ dövlətlərdə yuridik qaydaların məcmusu. Bu qaydalar, əvvələn, rəqabət aparan iki qanundan hansının (əgər bir-birlərinə ziddirlərsə) qüvvədə olmalı olduğunu, ikincisi, konkret situasiyada hansı qanunun (hüquq normasının) tətbiq edilməli olduğunu (əgər həmin situasiya bir neçə qanunun (hüquq normasının) qüvvəsi altına düşərsə) müəyyənləşdirir.

**Federal məcburiyyət** *(bax: federal müdaxilə)*.

**Federal müdaxilə** – federal quruluşa malik olan bir sıra dövlətlərdə (ABŞ-da, Braziliyada, Venesuelada, Hindistanda, AFR-də) federal konstitusiya ilə və ya qanunla müəyyən edilmiş qaydada mərkəzin federasiyanın subyektinin işlərinə qarışması. Belə müdaxiləyə federasiya subyektinin federasiya konstitusiyasını və ya qanunlarını pozduğu halda yol verilir. F.m. adətən, federativ dövlətin başçısının xüsusi dekretilə elan edilir və o, təqsirli vəzifəli şəxslərin məcburi qaydada vəzifədən azad olunması, onların yerinə mərkəzin nümayəndəsinin təyin edilməsi, federasiya subyektlərinin qanunvericilik orqanlarının buraxılması, subyektlərin ərazisinə federal qoşunların yeridilməsi və digər repressiv tədbirlərin tətbiqilə müşayiət oluna bilər. Hindistanda f.m. institutu "prezident idarəçiliyi", AFR-də "federal məcburiyyət" adlandırılır. Azərbaycan Respublikasının konstitusiya hüququna f.m. institutu məlum deyil.

**Federal Təhqiqatlar Bürosu (FTB)** *(Federal Buerau of investigation (FBI)* – ABŞ-da ədliyyə nazirliyinin idarəsi. FTB qarşısında ABŞ federal qanunvericiliyinin pozulması ilə əlaqədar təhqiqat işləri aparmaq və dövlətin təhlükəsizliyini təmin etmək, həmçinin bu sahədə ABŞ dövlət aparatının bütün orqanlarının fəaliyyətini əlaqələndirmək vəzifəsi qoyulmuşdur. FTB hədə-qorxu, böhtan, təqib, xəfiyyəçilik və təxribat kimi hərəkətlərə (cinayətkar əməllərə) qarşı da mübarizə aparır.

**Federasiya** *(fr. federation, lat. federatio – birlik, ittifaq)* – dövlət idarəçilik forması; yuridik cəhətdən müəyyən siyasi müstəqilliyə malik təsisatlardan ibarət mürəkkəb (ittifaq dövləti) dövlət. F.-nı təşkil edən dövlət təsisatları (ştatlar, torpaqlar, əyalətlər) onun subyektləridir və onlar özlərinin xüsusi inzibati ərazi bölgüsünə malikdirlər. Unitar dövlətdən fərqli olaraq f. ali hakimiyyət orqanlarının iki sisteminə – federal orqanlara və federasiya üzvlərinin müvafiq orqanlarına malikdir. Federal orqanlar öz səlahiyyət və funksiyalarını bütün ölkə ərazisində həyata keçirirlər. F.-nı təşkil edən dövlət təsisatları bu sözün xüsusi mənasında dövlət deyillər. Onlar suverenliyə, ittifaqdan birtərəfli qaydada çıxmaq hüququna, beynəlxalq münasibətlərdə iştirak etmək hüququna malik (onlar yuridik cəhətdən bu hüquqdan məhrumdurlar) deyillər. Federal konstitusiyanın və ya qanunvericiliyin pozulduğu hallarda mərkəzi hakimiyyət f.-nın subyekti barəsində məcburiyyət tədbirləri görmək hüququna malikdir *(bax: federativ müdaxilə)*. F.-nın məcburi elementlərindən biri federal parlamentin ikipalatalı struktura malik olmasıdır. Milli (linqivistik) amilin rolundan asılı olaraq f.-nın strukturunun müəyyən edilməsində ərazi (ABŞ, Avstraliya, Avstriya, AFR, Argentina, Venesuela, Braziliya, Meksika), milli (Hindistan, Belçika, Nigeriya, Pakistan) və milli-ərazi qarışıq əsasında (Rusiya Federasiyası, İsveçrə, Kanada) f. fərqləndirilir.

**Federativ quruluş** – federativ dövlətin təşkilinin konkret üsulu *(bax: federasiya)*; federasiya subyektlərinin federal hakimiyyət orqanları ilə, həmçinin subyektlərin öz arasında qarşılıqlı münasibətlərin xarakterini müəyyən edir.

**Federativləşdirmə (federallaşma)** – unitar dövlət quruluşundan federativ quruluşa keçidə yönəldilən konstitusiya islahatı. F. son illərdə Belçikada və faktiki olaraq Rusiya Federasiyasında təzahür etmişdir.

**Federativ müqavilə** – bir sıra dövlətlərdə (məsələn, Rusiya Federasiyasında) konstitusiya hüququnun federativ münasibətləri tənzimləmək sahəsindəki əsas mənbələrindən biri.

**Feldeger** *(alm. feldyager)* – xüsusilə mühüm, son dərəcə məxfi, gizli göndərişlərin və digər xidməti göndərişlərin göndərilməsi sahəsində çalışan hərbi kuryer və ya hökumət kuryeri.

**Feldfebel** *(alm. feldwebel)* – inqilaba qədərki rus ordusunda və bəzi başqa dövlətlərin ordusunda unter-zabitlərdən ən böyüyünün rütbəsi (süvariyə aid edilmirdi). Rota komandirinin inzibati məsələlər və təsərrüfat məsələləri üzrə bilavasitə köməkçisi, zabit yerində olmadığı müddətdə isə onun müavini hesab olunurdu. F. rütbəsi hazırda AFR-in silahlı qüvvələrində mövcuddur.

**Feldmarşal** *(alm. feldmarchall)* – bəzi dövlətlərin ordusunda yüksək hərbi rütbə. XVI yüzillikdə alman dövlətlərində (knyazlıqlarında), 1700-cü ildə isə Rusiyada general-feldmarşal rütbəsi təsis edilmişdir. F. rütbəsi hazırda Böyük Britaniyanın və bir sıra digər dövlətlərin də ordusunda saxlanmaqdadır.

**Feloniya** *(ing. felony)* – ABŞ-ın və Böyük Britaniyanın cinayət hüququnda ictimai təhlükəliliyinə görə dövlətə xəyanət (trizn) və misdiminor arasında olan ağır cinayətlər kateqoriyası.

**Femida** *(yun. themis – themidos)* – Qədim yunan mifologiyasında ədalət mühakiməsi ilahəsi. F. Zevsin arvadı idi. Əvvəllər adət hüququnun, davranış normalarının, sonralar isə ədalət mühakiməsinin təcəssümü olan f. gözübağlı (qərəzsizlik rəmzi kimi) və əlində tərəzi tutmuş vəziyyətdə təsvir olunur. F.-nın məcazi mənası haqq-ədalət divanı deməkdir.

**Feminizm** *(fr. feminisme; lat. femina – qadın)* – bir sıra dövlətlərdə qadınlara kişilərlə bərabər hüquqlar verilməsi uğrunda mübarizə aparan ictimai hərəkat. Sufrajistlərdən fərqli olaraq f. tərəfdarları qadınların da dövlət vəzifələrinə təyin edilməsini, sosial hüquqlarının təmin olunmasını və i.a. tələb edirlər. F. ilk dəfə XVIII yüzillikdə Şimali Amerikada və Fransada meydana gəlmiş, təşkilatları isə XIX yüzilliyin ikinci yarısından yaranmağa başlamışdır. 1925-ci ildə beynəlxalq feminist

təşkilatlarının birləşmiş daimi komitəsi (1934-cü ildən Beynəlxalq Qadın Təşkilatlarının Əlaqə Komitəsi adlanır) təsis edilmişdir. Beynəlxalq Demokratik Qadınlar Federasiyası bu və ya digər şəkildə qadınların və uşaqların hüquqları uğrunda, müharibə, faşizm və irtica qüvvələrinə qarşı mübarizə aparan feminist təşkilatlarla sıx əməkdaşlıq edirlər.

**Fenomenoloji hüquq məktəbi** – XX yüzillikdə meydana gəlmiş burjua hüquq məktəbi (hüquqi fikir cərəyanı). Bu hüquq məktəbi fenomenologiyaya əsaslanır. Onun konsepsiyasına görə hüququn əsasını qanunvericilikdən asılı olmayan varlıq təşkil edir. A. Reynax, F. Kaufman, Q. Koniq və başqaları həmin məktəbin nümayəndələridir.

**Feod** *(lat. feodum, feudum; yun. fihu, fehu – əmlak, mal-qara, pul, sahiblik)* – orta əsrlərdə Qərbi Avropada torpaq sahibliyi, yaxud təsbit edilmiş (pul, yaxud natural formada). Süzeren bunları öz vassalının irsi sahibiliyinə bu şərtlə verir ki, o, əvəzində süzerenin xeyrinə feodal xidmətini, ilk növbədə hərbi, saray xidmətlərini yerinə yetirsin və adətə uyğun olaraq tədiyələrini ödəsin. F. Qərbi Avropada inkişaf etmiş feodalizm dövründə hakim təbəqənin ən səciyyəvi mülkiyyət forması olmuşdur.

**Feodal** – feodalizm dövründə torpaq mülkiyyətçisi, feodun sahibi.

**Feodal dövləti** – quldarlıq cəmiyyətinin dağılması nəticəsində yaranmış yeni dövlət növü (tipi). F.d.-nin iqtisadi əsasını torpaq və digər istehsal vasitələri üzərində feodal mülkiyyəti təşkil edirdi. Əhalinin əsas kütləsini təşkil edən kəndlilər feodallardan natamam iqtisadi və siyasi asılılıqda idilər. F.d.-nin ilk inkişaf mərhələlərində feodallar arasında münasibətlər vassallıq – süzerenlik prinsipinə əsaslanmışdır. Bu prinsipə görə torpaqı əldə edən feodal (vassal) torpaq verən feodala (süzerenə) tabe olurdu. Mərkəzləşmiş f.d.-lərinin yaranması ilə vassallıq – süzerenlik bütün əhalinin monarxa ümumi tabeliyi (təbəəliklə) ilə əvəz edilmişdir. F.d. öz mahiyyətinə görə təhkimli kəndlilər və bütün azad yoxsullar üzərində feodalların diktaturası idi. F.d.-nin monarxiya, silki-nümayəndəli monarxiya və mütləq monarxiya kimi idarəçilik formaları mövcud olmuşdur. F.d.-nin formalarından biri də şəhər-respublikalar idi. Venetsiyanı, Genuyanı, Pskovu, Novqorodu və başqalarını buna misal göstərmək olar.

**Feodal hüququ** – feodal cəmiyyətinin iqtisadi və sosial-siyasi münasibətlərinə uyğun olan hüququn tarixi tipi; feodalların qanunda ifadə olunan idarəsi. F.h. öz normalarında feodalların iqtisadi və siyasi hökmranlığını, təhkimli kəndlilərin əsarətdə saxlanmasını təsbit edirdi. F.h. silki xarakter daşıyırdı və imtiyazlı hüquq idi. O, eyni cinayətkar əməllərə görə ayrı-ayrı təbəqələrin nümayəndələrinə münasibətdə müxtəlif cəza tədbirləri müəyyən edirdi. F.h.-nun xüsusiyyətlərindən biri də onun partikulyarizmi idi. Onun sistemində kanonik (kilsə hüququ) hüquq mühüm yer tuturdu. Belə ki, f.h.-nun normalarının əksəriyyəti kilsə kanonlarından ibarət idi. F.h.-nun müxtəlif mənbələri (adətlər, məhkəmə presedentləri, normativ aktlar və i.a) vardır.

**Feodal rentası** – torpaq rentasının formalarından biri; əvvəlcə işləyib ödəmə rentası (biyar) formasında, sonra məhsul rentası





(natural töycü) formasında və nəhayət, feodalizmin dağıldığı dövrdə pul rentası (pul töycüsü) formasında mövcud olmuşdur.

**Feodosi Məcəlləsi** *(Codex Theodosianus)* – Qədim Romada imperator konstitusiyalarının ilk rəsmi toplusu. FM 438-ci ildə tərtib edilmişdir. O, özündə imperator Konstantinin dövründə başlamış tərtib edildiyi ilədək qüvvədə olan imperator konstitusiyalarını ehtiva edirdi. FM 16 kitaba, hər bir kitab da öz növbəsində titullara bölünürdü. Hər bir titul öz daxili quruluşuna malik idi. Ayrı-ayrı konstitusiyalar titullarda xronoloji ardıcıllıqla düzülmüşdür. Bu məcəllədən sonra verilmiş imperator konstitusiyaları Feodosi novellaları adlandırılmışdır.

**Ferma** *(ing. farm, departament; fr. ferme)* – **1)** şəxsi torpaqda və ya icarəyə götürülmüş torpaqda öz istehsal fəaliyyətini həyata keçirən xüsusi kəndli kənd təsərrüfatı müəssisəsi; **2)** kənd təsərrüfatı istehsalat kooperativinin ixtisaslaşdırılmış təsərrüfat həlqəsi və ya kənd təsərrüfatı tədris müəssisəsində yardımçı təsərrüfat.

**Fermer** *(ing. farmer)* – kənd təsərrüfatında sahibkar, yaxud kənd təsərrüfatı müəssisəsinin sahibi.

**Fermer təsərrüfatı** *(bax: kəndli-fermer təsərrüfatı).*

**Fəaliyyət qabiliyyəti** – vətəndaşların və ya hüquqi şəxslərin öz hərəkətləri ilə hüquqlar əldə etmək və özü üçün hüquqi vəzifələr yaratmaq qabiliyyəti. F.q. anlayışı mülki hüquq normaları ilə tənzim edilən münasibətlərdə daha çox tətbiq edilir. Vətəndaşın öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və özü üçün mülki vəzifələr yaratmaq qabiliyyəti (mülki fəaliyyət qabiliyyəti) tam həcmdə onun yetkinlik yaşına çatması ilə əmələ gəlir. Ruhi xəstəliklər və ya kəmağıllıq nəticəsində öz hərəkətlərinin nəticəsini başa düşməyən, yaxud onlara nəzarət edə bilməyən vətəndaş məhkəmə tərəfindən f.q. olmayan şəxs hesab edilir və onun üzərində qəyyum təyin olunur. F.q. məhkəmə tərəfindən məhdudlaşdırıla bilər. Bu zaman həmin şəxslərin üzərində himayəçi təyin edilir. Hüquqi şəxsin f.q. onun hüquq qabiliyyətinə uyğundur. Bəzi ölkələrdə vətəndaşın f.q. 21 yaşdan əmələ gəlir.

**Fərari** *(ərəb. qaçma, yayınma)* – **1)** qoşun hissəsini, yaxud döyüş yerini özbaşına tərk etmiş və ya hərbi xidmətdən yayınmış şəxs (hərbi qulluqçu); **2)** vətəndaşlıq və ya ictimai borcunu yerinə yetirməkdən imtina edən, ona tapşırılmış postu buraxıb gedən şəxs.

**Fərarilik** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 334-cü maddəsində nəzərdə tutulmuşdur. Hərbi qulluqçunun xidmətdən üç aydan artıq müddətə hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsində və ya xidmət yerinə qayıtmamasında (gəlməməsində), yaxud müddətindən asılı olmayaraq hərbi xidmətdən boyun qaçırmaq məqsədi ilə hərbi hissəni və ya xidmət yerini özbaşına buraxıb getməsində və ya xidmət yerinə qayıtmamasında (gəlməməsində) ifadə olunur.

**Fərdən müəyyən edilən şey** – müəyyən fərdi əlamətlərə və nişanələrə malik olan əşya, predmet. Bu, ya həmcins şeylərdən ayrılmış (xüsusiləşdirilmiş, əlahiddələşdirilmiş) şeydir, ya da xüsusi, yalnız özünəməxsus əlamətləri olan şeydir. F.m.e.ş. öz təyinatına görə növ əlamətləri ilə müəyyən edilən şeylərin ümumi kateqoriyasına aid olan (məsələn, üzərində

orijinal tikmə, naxışları olan köynək) şeydir. Şey, müqaviləyə görə başqa şəxsin mülkiyyətinə verildikdə, yaxud qanuna görə dövlət idarələrinin və ya digər təşkilatların əməli idarəçiliyinə verildikdə həmcins şeylər arasında fərdiləşir. F.m.e.ş. həm əşya hüquq münasibətlərinin, həm də öhdəlik hüquq münasibətlərinin predmeti ola bilər.

**Fərdi eyniləşdirmə nömrəsi** – dövlət reyestrinə barəsində məlumat daxil edilən şəxsə müəyyən edilmiş qaydada verilən və şəxs barəsində müvafiq məlumatları birmənalı müəyyən etməyə imkan verən vahid təkrarolunmaz kod.

**Fərdi əmək mübahisəsi** – əmək qanunvericiliyinə uyğun olaraq əmək müqaviləsinin, kollektiv müqavilənin, sazişin şərtlərinin, tərəflərin öhdəliklərinin yerinə yetirilməsi, habelə AR ƏM-in və digər normativ hüquqi aktların tətbiqi zamanı işə götürənlə işçi arasında fərdi qaydada yaranan fikir ayrılığı.

**Fərdi hesab** – dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən hər bir sığorta olunan şəxsə uçot dövründə daimi (dəyişməz) sosial sığorta nömrəsi ilə açılmış şəxsi hesab.

**Fərdi hesabın sığorta hissəsi** – müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş nisbətlərə uyğun olaraq sığorta olunan şəxslər üzrə ödənilmiş və əmək pensiyasının sığorta hissəsinin hesablanması üçün nəzərə alınan dövlət sosial sığorta haqlarının qeydə alındığı subhesab.

**Fərdi hesabın yığım hissəsi** – müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş nisbətlərə uyğun olaraq sığorta olunan şəxslər üzrə ödənilmiş və əmək pensiyasının yığım hissəsinin hesablanması üçün nəzərə alınan məcburi dövlət sosial sığorta haqlarının, eləcə də bu vəsaitlərin dövriyyəsindən əldə edilən gəlirlərin toplandığı subhesab.

**Fərdi uçot** – sığorta olunanların qanunvericiliklə nəzərdə tutulan sosial müdafiə hüquqlarının təminatı üçün zəruri məlumatların fərdi qaydada qeydiyyatının və uçotunun təşkili.

**Fərman** – **1)** ali dövlət hakimiyyəti orqanının (dövlət başçısının) hüquqi aktı. Hüquqi məzmununa görə normativ fərman, yaxud müəyyən hüquq normalarını müəyyənləşdirən fərman və fərdi fərman, yəni hüquq normasını konkret hadisəyə tətbiq edən fərman mövcuddur (məsələn, şəxsin vəzifəyə təyin edilməsi, mükafatlandırılması barəsində fərman); **2)** Azərbaycan Respublikasında Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə əsasən fərman vermək səlahiyyəti Azərbaycan Respublikası Prezidentinə məxsusdur; **3)** parlamentli dövlətlərdə fərman dövlət başçısının (prezidentin) verdiyi hüquqi aktdır. Fövqəladə f.-ların verilməsi də geniş yayılmışdır. Belə fərmanlar qanun qüvvəsinə malikdir və parlament tərəfindən qəbul edilmiş qanunların qüvvəsini dayandıra bilər.

**Fərraş** *(ərəb. nökər, xidmətçi, gözətçi)* – orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda saray xidmətçisi, yataq ağası. Sonralar polis məmurları, gözətçilər və başqaları da f. adlandırılmışdır.

**Fərraşpulu** – XVIII yüzillikdə xanlıqlar dövründə Azərbaycanda mövcud olmuş qeyri-qanuni vergi. Qarabağ xanlığında





geniş yayılmışdır. Fərraşın xeyrinə toplanırdı və adı da buradan meydana gəlmişdir. Həcmi qeyri-müəyyən olan f. əhalini soymaq üçün hökmran sinfin əlində vasitəyə çevrilmişdir.

**Fərziyyə** *(bax: istintaq fərziyyəsi).*

**Fideikomiss** *(lat. fideicommissum – inama tapşırıq)* – roma hüququnda vəsiyyət sərəncamı növü. Onun vasitəsilə vəsiyyət edən vəsiyyət (və ya qanun) üzrə vərəsəyə, bir qayda olaraq, passiv varis qabiliyyətinə malik olmayan üçüncü şəxsin xeyrinə bu və ya digər hərəkətləri etməyi tapşırırdı. F. leqatlar üçün nəzərdə tutulan heç bir məhdudiyyətlə əlaqədar olmayan qeyri-formal imtina idi. Qanun üzrə digər vərəsələrin mənafelərinə əməl edilməsi zamanı bütün vərəsəliyi tam surətdə üçüncü şəxsə f. qismində verməyi tapşırmaq olardı (universal fideikomiss). Vəsiyyət tapşırığı vərəsəlik hüquqları ilə əlaqədar olmayan üçüncü şəxslər üçün də etibarlı ola bilər. Məsələn, vəsiyyət edən borcun vərəsəyə deyil, üçüncü şəxsə qaytarılmasına dair borcluya tapşırıq verə bilər.

**Fidusiar** *(ing. fiduciary)* – xarici ölkələrin sahibkarlıq hüququnda öhdəliklərin tərəflərindən biri; əmlakın idarəçiliyinin etibar edilməsindən irəli gəlir. F. öz üzərinə ona etibar edilmiş əmlakın idarəçiliyi ilə əlaqədar öhdəlikləri götürə bilər və bunun üçün o, mülkiyyətçinin qarşısında yuridik məsuliyyət daşıyır.

**Fidusiya** *(lat. fiducia; ing. fiducion, fiducion)* – xarici ölkələrin sahibkarlıq hüququnda etibara əsaslanan əqd (məsələn, trast əməliyyatları).

**Fikir və söz azadlığı** – əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının bir növü. Konstitusiya ilə təsbit edilən azadlıqlara daxildir. Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə əsasən hər kəsin fikir və söz azadlığı vardır. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz. İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.

**Fiksçyur-not** *(ing. fixture-note)* – gəminin fraxt edilmə faktını və onun əsas şərtlərini (gəminin adını və onun verilməsi müddətlərini, boşaltma və yükləmə limanlarını, yük işlərinin normalarını, fraxtın məzənnəsini) özündə ehtiva edən ilkin sənəd. Həmin sənəd sonradan çarterlə əvəz olunur.

**Fiksiya** *(lat. fictio – uydurma)* – mövcud olmayan şey, uydurma, yalan. F. həqiqət kimi yozulan yalandan ibarətdir (məsələn, hüquqi fiksiya).

**Fiqh** *(ərəb.)* – müsəlman hüquq nəzəriyyəsi. F. müsəlman cəmiyyətinin həyat normalarının əməli surətdə hazırlanması üçün Qurandan, Sünnədən və onların təfsirindən istifadə edilməsi prinsiplərini hazırlayır. F. bilavasitə qanunun izahı ilə məşğul olduğu üçün bəzən bu termin geniş mənada dini fənlərin bütün məcmusunu və ya ümumiyyətlə, müsəlman ilahiyyatını ifadə etmək üçün işlədilir. Terminoloji baxımdan f. müsəlman həyatının bütün sahələrində dini qanunların düzgün əks etdirilməsi problemləri ilə məşğuldur. Onun fəaliyyət dairəsinə dövlət həyatının, dini və mülki həyatın qaydaları, mərasimlərin icra olunması qaydaları, ailə, cinayət və vərəsəlik hüququ, etik normalar və inzibati idarəetmə normaları daxildir. F.-i 2

hissəyə – sırf nəzəri məsələlərlə məşğul olan Üsul əl-Fiqhə (Fiqhin "kökləri") və tətbiqi məsələlərlə məşğul olan Firu əl-Fiqhə (Fiqhin "budaqları") bölürlər. F.-in başlıca nəzəri problemlərindən biri hüququn mənbələri məsələsidir. F. Quranı və hədisləri (Məhəmməd peyğəmbər haqqındakı rəvayətləri) əsas mənbələr hesab edir.

**Fila** *(yun. phyle)* – Qədim Yunanıstanda qəbilə-tayfa birlikləri; sonralar mahalları təşkil etmişlər. F.-da hakimiyyət xalq yığıncağına, ağsaqqallar şurasına və seçilən basilevsə (f.-nın başçısına) məxsus idi. Quldarlıq dövlətlərinin inkişafı ilə əlaqədar qəbilə-tayfa f.-larını da ərazi f.-ları əvəz etmişdir.

**Filer** *(fr. fileur)* – xəfiyyə, gizli (məxfi) polisin agenti.

**Filial** *(lat. filialis – oğulluq; filius – oğul)* – hər hansı təşkilatın (idarənin, müəssisənin və i.a.), yəni hüquqi şəxsin bir hissəsi olan təşkilat. F. həmin təşkilatın funksiyalarını tam həcmdə, yaxud onun yerləşdiyi yerdən kənarda yerinə yetirir. F.-ın rəhbəri mülki dövriyyədə f.-ı açmış hüquqi şəxsdən aldığı etibarnaməyə əsasən hərəkət edir. F. ölkə qanunvericiliyi ilə müəyyən edilmiş qaydada açıla bilər.

**Filiasiya** *(lat. filialis – oğulluq)* – konstitusiya hüququnda doğum əsasında vətəndaşlıq əldə edilməsi. F. zamanı harada doğulmasından ("qan hüququ" ilə) və ya ərazisində doğulduğu dövlətdən, yaxud valideynlərinin vətəndaşlığından ("nəsil hüququ" ilə) asılı olmayaraq uşaq vətəndaşlıq əldə edir.

**Firma** *(ita. firma; firmare – imza etmək)* – **1)** müəssisələrin istehsalat birliyi; **2)** ticarət, yaxud sənaye müəssisələrinin adı (firma adı); 3) sənaye mülkiyyəti adı. Firma adı hüququ həmin hüquqi şəxsin müstəsna hüququdur. Firma adı hüququ müəssisənin faktiki olaraq ondan istifadə etməyə başladığı andan əmələ gəlir. Firma adı xüsusi olaraq qeydə alınmır. Firma adı hüququ şəxsin şəxsi qeyri-əmlak hüququdur. O, özgəninkiləşdirilə bilməz və hüquqi şəxs ləğv edildikdə və ya onun firma adı dəyişdirildikdə ləğv edilir. Firma adı hüquqi pozulduqda (digər təşkilat tərəfindən əsassız olaraq istifadə edildikdə) maraqlı hüququ şəxs bu pozuntunu aradan qaldırmaq üçün məhkəməyə, iqtisad və ya münsiflər məhkəməsinə müraciət edə bilər.

**Firon** *( Qədim Misir dilində per-o, hərfən böyük ev; qədim yəhudi dilində parox, yun.)* – Qədim Misir padşahı; XXII sülalədən başlayaraq hökmdarların titulu. Etiqada görə f. Günəşin oğlu, Qorun yerdəki təcəssümü, Osirisin varisi hesab olunurdu. Polşa arxeoloqlarının köməyilə XXI-XX sülalə f.-larının portretləri 1980-ci ildən bərpa edilir.

**Fisk** *(lat. fiscus, hərfən – səbət)* – Qədim Romada respublika dövründə hərbi kassanı bildirən termin; Avqustun dövründən (eramızdan əvvəl I minilliyin sonu – eramızın I yüzilliyinin əvvəli) senat kassasından fərqli olaraq imperatorun idarəsi də f. adlanırdı. Sonralar (IV yüzillikdən) f. termini ümumdövlət xəzinəsini bildirirdi.

**Fiskal** *(lat. fiscalis – xəzinəyə aid olan; fiscus – dövlət xəzinəsi)* – 1711-1729-cu illərdə Rusiyada dövlət məmuru; dövlət idarələrinin və vəzifəli şəxslərin fəaliyyətinə (əsasən maliyyə fəaliyyətinə) nəzarəti həyata keçirirdi.







**Fiskal gəliri** – geniş mənada dövlət xəzinəsi gəlirinin məcmusu, məhdud mənada qeyri-demokratik dövlətin gəliri. Bu f.-n alınması yalnız xəzinənin zənginləşdirilməsi məqsədinə xidmət edir. Məsələn, dövlət fiskal inhisarlarından (şərab, tütün inhisarları və i.a. inhisarlar) və dövlət müəssisələrindən, sikkələrin korlanmasından alınan gəlir.

**Fiskal rüsumlar** – dövlət bücəsinin gəlir hissəsinin təmin edilməsi məqsədi ilə müəyyən edilən rüsumlar.

**Fiskal siyasət** - hökumət gəlirlərinin və xərclərinin tənzim edilməsi üzrə dövlətin həyata keçirdiyi maliyyə tədbirlərinin məcmusu, iqtisadiyyatın dövlət tənzimlənməsinin mühüm vasitələrindən biri.

**Fitnəkarlıq** – **1)** təhrikçilik, ayrı-ayrı şəxslərin, qrupların, təşkilatların ağır, bəzən isə hətta təhlükəli nəticələrə səbəb olan, yaxud ola biləcək niyyəti; **2)** terrorçu təşkilatların, mürtəce mövqeli mühafizəkar partiyaların və niyyəti müxtəlif təhlükəli aktlar törətməkdən ibarət olan qrupların xüsusi nümayəndəsinin (fitnəkarın) mütərəqqi və radikal yönümlü təşkilatların ifşa olunmasına, nüfuzdan salınmasına və dağıdılmasına yönəlmiş cinayətkar hərəkətləri.

**Fitva** *(ərəb. rəy, qərar)* - hər hansı hüquqi və ya dini məsələ barəsində qazının, yaxud hər hansı xüsusi şəxsin sorğusuna cavab olaraq müftinin və ya digər mötəbər din xadiminin yürütdüyü rəsmi mühakimə, çıxardığı qərar. F. şifahi formada verilir və ya xüsusi sənəd şəklində tərtib olunur. F. ya qazının qərar çıxarması, ya da sorğu verənin özünün bu və ya digər əməlini götür-qoy edib seçməsi üçün əsas ola bilər. F. müsəlmanların hüquqi təcrübəsinin oxşar hadisələrinə əsaslanmalıdır. Bu isə onun presedentli xarakterini göstərir.

**Fiziki şəxs** – insanı mülki hüquq və vəzifələrin subyekti qismində bildirmək üçün işlədilən mülki-hüquqi termin. Hüquq münasibətlərinin iştirakçısı (daşıyıcısı) olmaq üçün f.ş. hüquq qabiliyyətinə malik olmalıdır.

**Fob** *(ing. fob, free on board – hərfən gəmi bortu boşdur)* – dəniz daşımalarında əmtəə alqı-satqısı növü. F.-un şərtinə görə satıcı əmtəəni limana gətirməli və alıcının göstərdiyi gəmiyə yükləməlidir. Əmtəənin gəmi bortuna gətirilməsi xərcləri əmtəənin dəyərinə daxildir. Bəzi limanlarda f. şərtinə görə mal göndərilərkən yükləmə xərclərini alıcı ödəyir.

**Foqt** *(alm. vogt – müdafiəçi)* – orta əsrlər Qərbi Avropasında kilsə votçinasının dünyəvi vəzifəli şəxslərinin məhkəmə funksiyasına, inzibati və fiskal (maliyyə) funksiyaya malik olan nümayəndə (belə səlahiyyətlərə malik vəzifəli şəxs).

**Folketinq** – Danimarkada 179 deputatdan ibarət olan birpalatalı parlament; 4 il müddətinə seçilir. 20 yaşına çatmış vətəndaşlar f.-ə seçilə bilərlər.

**Fond** *(lat. fondus; fr. fond – əsas, bünövrə)* - mülki qanunvericilikdə bölgü planına əsasən ayrılmış məhsulun alıcılara paylanması və ya onlardan alınması üçün səlahiyyət. Məhsul üçün f. həmin məhsulun alınmasından ötrü ayrılmış müddətdə qüvvədə olur. Bir ildən az müddətə verilmiş f.-lar qanunvericilikdə digər müddət müəyyən edilmədikdə, plan ilinin sonunadək qüvvədə olur.

**Fond bazarı** – müxtəlif birjalar vasitəsilə və birjadanxaric bazarda qiymətli kağızların mütəşəkkil ticarətini əhatə edən ümumi termin.

**Fond birjası** – müstəsna olaraq fəaliyyət predmeti qiymətli kağızların normal tədavülü üçün zəruri şəraitin yaradılması, onların bazar qiymətlərinin müəyyən edilməsi (qiymətli kağızlara olan tələb və təklif arasında tarazlığı əks etdirən qiymət), həmçinin onlar haqqında lazımi informasiyanın yayılması, qiymətli kağızlar bazarı iştirakçılarının yüksək peşəkarlıq səviyyəsi nümayiş etdirmələri üçün şərait yaratmalı olan təşkilat.

**Fondlar** – **1)** ehtiyatlar (məsələn, mənzil, torpaq fondu, ailə fondu); **2)** müəssisələr tərəfindən istifadə olunan maddi fondlar, pul vəsaitləri fondları (məsələn, əsas istehsal fondları, əməkhaqqı fondu); **3)** müəyyən yaranma və istifadə olunma qaydasına malik olan vəsaitlərin mənbələri (məsələn, nizamnamə, anbar fondu); **4)** möhkəm gəlir gətirən qiymətli kağızlar.

**Fonoskopiya** *(kriminalistikada)* – səslərin izlərini öyrənən xüsusi tədqiqatlar növü. İnsan səsinin f.-sı danışanın sosial xarakteristikasını (təhsilini, peşəsini, mədəni səviyyəsini); emosional vəziyyətini (sakitliyini, çılğınlığını, narahatlığını); şifahi nitqin formalaşdığı ərazini (şivələri, dialektləri); fiziki (bioloji) xarakteristikanı (cinsi, yaşı, boyu); psixo-fizioloji xüsusiyyətləri (müxtəlif xəstəliklər zamanı normalardan yayınmanı) və nitq etmə qabiliyyətini (qiraəti, deklamasiyanı, natiqliyi) müəyyən etməyə imkan verir. F. tədqiqatları şəxsiyyətin eyniləşdirilməsinə kömək edir.

**Forfeytinq** *(ing. forfaiting)* – kreditlə satma zamanı həyata keçirilən əməliyyat. Bank (forfeytor) importyerin vekselini (trattasını) malın dəyəri üzrə eksportyerin haqqının ödənilməsini ləngitmədən təmin etməklə, malın tədarükündən dərhal sonra buraxır.

**Formal sübutlar** – gücü və əhəmiyyəti qanunla müəyyən edilmiş şərtlərə uyğun olaraq zahiri və formal əlamətləri ilə müəyyən olunan sübut növləri. F.s. sistemi (qanuni, leqal sübutlar) axtarış, təqib (inkvizisiya) prosesi ilə sıx bağlı olmuş və mütləqiyyət dövründə geniş yayılmışdır. F.s. Rusiyada I Pyotrun qanunvericiliyində, sonralar 1832, 1842 və 1857-ci il Qanunlar Toplusunda öz ifadəsini tapmışdır. Qanun bütün f.s.-ı tam dəyərli və natamam dəyərli (bitkin və qeyri-bitkin) sübutlara bölürdü. Ən tam dəyərli, bitkin sübut müqəssirin şüurlu etirafı idi və bu, "sübutlar şahzadəsi" və ya "bütün aləmin ən yaxşı şahidi" adlandırılırdı. F.s. sistemi təqib prosesi ilə birlikdə ləğv edilmişdir. Müasir dövlətlərin cinayət-prosessual qanunvericiliyində rəsmi olaraq sübutların məhkəmə tərəfindən azad (sərbəst) surətdə qiymətləndirilməsi sistemi qəbul edilmişdir.

**Formal tərkibli cinayətlər** – cinayət qanunvericiliyilə nəzərdə tutulan və cinayət hüququnda şərti olaraq formal adlandırılan cinayətkar əməl. Bu cinayət tərkibləri üçün təqsirləndirilən şəxsin hərəkət və ya hərəkətsizliyinin hər hansı nəticələrinin üzdə olması tələb edilmir. F.t.c. qanunazidd hərəkətin (hərəkətsizliyin) törədildiyi və ya qanunla tələb olunan hərəkətin (hərəkətsizliyin) edilmədiyi andan başa çatmış hesab olunur. Belə hallarda hərəkət və ya hərəkətsizliyin özü bitmiş cinayət tərkibini yaradır. F.t.c.-də cinayətə hazırlıq və sui-qəsd mərhələləri mövcud olmur. Bu əsaslara görə də belə əməllərdə təqsirləndirilən şəxsin hərəkət və ya hərəkətsizliyi ilə meydana çıxmış nəticələr arasında səbəbli əlaqənin müəyyən edilməsi tələb olunmur. Qanunla nəzərdə tutulmuş hərəkətin (hərəkətsizliyin) törədilməsi cinayət tərkibi üçün kifayət edir. Maddi tərkibli cinayətlərdə isə məsələ başqa cür həll edilir. Formal və maddi tərkibli cinayətlərin fərqləndirilməsi cinayətlərin düzgün tövsif edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.





**Formaryaj** *(fr. formariage)* – bir sıra Avropa dövlətlərinin feodal hüququnda feodal-asılı kəndlilərin nikah azadlığını məhdudlaşdıran norma. Erkən orta əsrlərin f.-ı əsasən servlər təbəqəsindən olan əhali kütləsinə şamil edilirdi və onların nikaha daxil olması üçün senyorun razılığının olması zəruri idi. Bu norma sonradan asılı kəndlilərin başqa kateqoriyalarına da şamil edilmişdir. Lakin bu zaman senyorun razılığı tələb olunmurdu. Nikaha daxil olan şəxs feodala müəyyən məbləğdə pul rüsumu ödəməli idi.

**Formula** *(hüquqda) (lat. formula – forma, qayda)* – hər hansı hüquq qaydasının, hüquq münasibətinin, qanunun və i.a. dəqiq ümumi tərifi; f. müəyyən şəraitdə bütün xüsusi hallara əlavə edilir. Ümumiyyətlə isə, qısa formada ifadə edilən hər cür tərif (qayda, definisiya) müəyyən bir formulada əks olunur.

**Formulyar** – **1)** sahibkarlıq hüququnda tipik müqavilə; şərtləri iri təşkilatlar tərəfindən işlənib hazırlanır və imzalanmaq (birləşmək) üçün kontragentə təqdim edilir. Təqdim edilən şərtləri dəyişdirməyə, hətta müzakirə etməyə kontragentin heç bir imkanı olmur. F.-ın tətbiqini reqlamentləşdirən qaydalar beynəlxalq təşkilatlar və kommersiya mərkəzləri tərəfindən işlənib hazırlanır; **2)** inqilabaqədərki Rusiyada zabit və məmurların qulluq siyahısı.

**Formulyar hüquq** *(ing. formular low)* – formulyarların şərtlərinə əsaslanan, müəyyən ticarət əməliyyatları və sair əməliyyatlar üzrə ixtisaslaşmış iri təşkilatlar tərəfindən işlənib hazırlanan şərtləri əks etdirən hüquq. Belə tipik müqavilələrlə (hüquq normaları ilə) tənzim edilən müqavilə münasibətləri mülki hüququn və ticarət hüququnun qüvvə sferasından çıxarılmır. Şəxsi formulyarlar hüququn mənbələri deyil, lakin qanunvericilikdə ehtiva olunan dispozitiv hüquq normaları müvafiq hüquq münasibətlərinin iştirakçılarına formulyarların köməyilə onları müfəssəl tənzimləmək imkanı verir. Formulyarlar hüququn bütöv sahələrini əhatə etdiklərinə görə onlar xarici dövlətlərin təcrübəsində geniş yayılmışdır və onu bəzən xüsusi f.h. adlandırırlar.

**Formulyar proses** *(lat. actiones per formulas)* – Qədim Roma mühakimə icraatında mövcud olmuş məhkəmə prosesi. Bu prosesdə mübahisənin predmeti (iddia) tələb irəli sürmüş tərəf deyil, pretor tərəfindən formulə edilirdi (prosesin adı bundan götürülmüşdür). İddiaçı və cavabdeh işi magistrat qarşısında istənilən ifadələrlə ifadə edir, diqqət mərkəzində hər şeydən əvvəl, tərəflərin həqiqi maraqları və real hallar dururdu. Analoji hallar üzrə əvvəllərdə olan qədim hüququn tələbləri nəzərə alınmırdı. Mübahisənin yuridik məzmununu, mahiyyətini pretor izah edir (pretor həm də hüquq məsləhətçisi qismində çıxış edir və eyni zamanda ali hüquqi nəzarəti təmsil edirdi) və iddianın mahiyyətini məhkəməyə ünvanlanmış xüsusi qeyddə – formulada ifadə edirdi.

Formulanın göstərişləri qanunun işə dair tələbləri ilə bağlı deyildi və o, ancaq işdə müəyyən edilirdi. Formula pretorun şəxsi hüquq yaradıcılığından ibarət idi. Məhz belə formulalar onların hakimiyyət səlahiyyətlərinin həcmini təcəssüm etdi-

Prezidentinin ölkə konstitusiyasına müvafiq surətdə dövlətin müdafiəsi mənafeyinə uyğun olaraq f.v. (hərbi vəziyyət) elan etmək hüququ vardır. "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının 8 iyun 2004-cü il tarixli qanununun 6-cı maddəsinə uyğun olaraq fövqəladə vəziyyətin müddəti 60 gündən çox ola bilməz. Bu müddət başa çatdıqda fövqəladə vəziyyət Azərbaycan Respublikası Milli Məclisin qərarı ilə ləğv edilir, yaxud 60 gündən çox olmayan müddətə uzadılır. Qanunun 4-cü maddəsinin 1-ci hissəsinə əsasən Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərdə fövqəladə vəziyyət respublika Prezidentinin fərmanı ilə tətbiq edilir. Qanunun 30-cu maddəsində göstərilir ki, fövqəladə vəziyyət elan edildikdə belə qərarın səbəbləri haqqında BMT-nin Baş Katibinə və Avropa Şurasının Baş Katibinə 3 gün müddətində məlumat verilməsi üçün tədbirlər görülür.

**"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunu** – fövqəladə vəziyyət şəraitində hüquq normaları tətbiq etmək, ayrı-ayrı qanunların, yaxud onların bəzi normalarının qüvvəsini dayandırmaq, hökumətə və dövlət idarəetmə orqanlarına fövqəladə səlahiyyətlər vermək barəsində məsələləri müəyyən edən qanunvericilik aktı.

Bu qanun 8 iyun 2004-cü il tarixdə qəbul olunmuş və 32 maddədən ibarətdir.

**"Fövqəlprezidentli" respublika** – konstitusiya hüququ elmində respublika idarəçilik formasının adlandırılması üçün istifadə olunan, dövlət hakimiyyətinin bütün əsas həlqələrinin yuridik və faktiki cəhətdən prezidentin əlində cəmləşdiyini səciyyələndirən termin. Konstitusiya bəzən belə prezidentə öz mülahizəsinə görə parlamenti buraxmaq, ölkədə fövqəladə və hərbi vəziyyət elan etmək, qanunqüvvəli dekretlər vermək, yerli idarəetmə orqanlarının başçılarını, hakimləri və i.a. təkbaşına vəzifəyə təyin və ondan azad etmək kimi qeyri-məhdud səlahiyyətlər verir. Belə dövlətlərdə prezidentin öz vəzifəsindən kənarlaşdırmağın konstitusiya mexanizmi, demək olar ki, olmur. "F."r.-lara "klassik" nümunə göstərmək çətindir.

**Fraxt** *(hol. vracht, alm. fracht)* – yükün, yaxud sərnişinin daşınması müqabilində nəqliyyat vasitəsi sahibinə verilən haqq. "F." anlayışı müxtəlif növ nəqliyyat (dəniz, çay, avtomobil, hava) daşımalarında tətbiq edilir, lakin dəniz nəqliyyatı daşımalarında daha geniş tətbiq edilir. F. nəinki yükün, yaxud sərnişinin daşınması haqqı, hətta bəzi hallarda (müqavilə şərtlərindən asılı olaraq) yükləmə və boşaltma haqqı da daxil edilir.

**Fraxt avansı** – **1)** fraxtçı və ya yükgöndərən tərəfindən yükvurma limanının xərclərinin ödənilməsinə verilən pul məbləği. F.a.-na adətən fraxtın haqqı qismində baxılır və o, geri qaytarılmır. Bununla əlaqədar yük sahibinin ona sığorta marağı vardır və beləliklə, f.a. sığorta obyekti ola bilər; **2)** ümumi fraxtın hesabına ödənilən ilkin ödəmə. Əgər daşıma müqaviləsində yükün göndərilməsinin təyinat limanında ödənilməsi göstərilərsə, gəmi kapitanı yükvurma limanında xərclərin ödənilməsi üçün fraxtın ümumi məbləğinin 1/3-dək miqdarda ona avans ödənilməsini tələb etmək hüququna malikdir. Bu ödəniş konosamentə qeyd edilir və təyinat limanında ödənilən fraxtdan hesablanır.







**Fraxt birjası** – fraxt edilən gəmilərin daimi fəaliyyət göstərən bazarı; ərazi əlamətləri, beynəlxalq əlamətlər, mal əlamətləri və digər əlamətlər üzrə təşkil edilir. Fraxt məzənnələrinin tonuna olan tələb və təklif, onun səviyyəsi, fraxtetmə müqavilələrinin şərtləri və i.a. haqqında bütün informasiyalar f.b.-nda mərkəzləşdirilir. Beynəlxalq əhəmiyyətli ən mühüm fraxt mərkəzlər Londonda, Hamburqda, Genuyada, Tokioda, Honkonqda və Nyu-Yorkda yerləşir. Bu mərkəzlər adətən məhdud məsuliyyətli şirkətlər kimi fəaliyyət göstərirlər.

**Fraxt brokeri** – komissiya müqaviləsi bağlanarkən gəmi sahibi ilə fraxtçı arasında vasitəçi olan broker. Brokerin komissiya əldə etmək hüququ və onun miqdarı çarterdə qeyd edilir.

**Fraxtçı** – fraxtlaşdırma müqaviləsində yükü təyinat limanına daşınmaya təqdim edən tərəf. F. şərtləşdirilmiş yükü vaxtında təqdim etməyə və şərtləşdirilmiş fraxtın dəyərənin ödənilməsini təmin etməyə borcludur.

**Fraxtedən** – fraxtlaşdırma müqaviləsində tərəf; bütün gəminin və ya onun müəyyən hissəsinin təqdim edilməsi şərtilə yükün təyinat limanına daşıması vəzifəsini muzdla həyata keçirir.

**Fraxtın indeksi** – gəmi standartının dəyərindən asılı olaraq və gəmilərin ölçüsündən və onların marşrutundan asılı olmayaraq, fraxtın tanker məzənnələrinin üst-üstə qoyulması üçün cədvəl. Tankerlərin fraxtının məzənnəsinin Beynəlxalq cədvəli və tankerlərin fraxtının məzənnəsinin Amerika tarif cədvəli əvəzinə 1969-cu ildə işlənib hazırlanmışdır.

**Fraxtlaşdırma** – gəmi kirayəsi və ya kirayəyə vermə müqavilələrinin bağlanması üzrə fəaliyyət. Adətən xüsusi şirkətlər və ya şəxslərin (fraxt brokerlərinin) xüsusi birlikləri tərəfindən həyata keçirilir.

**Fraxt məzənnəsi** – dəniz daşımasının qiyməti. F.m. özündə iki komponenti ehtiva edir: a) nəqliyyat xidmətlərinin göstərilməsi zamanı tutmalar; b) orta gəlir. F.m.-nin miqdarı fraxtın növündən, onun qüvvədə olma müddətindən, reyslərin sayından asılı olaraq müəyyən edilir. Normalar artırılan zaman F.m.-nin miqdarı aşağı düşür, azaldılan zaman isə yüksəlir.

**Fraxt orderi** – fraxtçı tərəfindən öz brokerinə tonun fraxtlaşdırılmasına görə verilən tapşırıq. F.o. özündə əqdlərin bağlanması üçün zəruri olan bütün məlumatları ehtiva edir.

**Fraksiya** *(lat. fractio – parçalanma)* – **1)** ən qədim və ilkin mənasına görə peşə və ya sex mənafeləri üzrə birləşmiş insan qrupu; **2)** bu və ya digər siyasi partiya daxilində partiya proqramının əsas prinsipial müddəalarına zidd siyasi proqramla çıxış edən xüsusi qruplaşma; **3)** parlament daxilində müxtəlif siyasi baxışlı deputatlardan ibarət ayrı-ayrı qrup (qruplar).

**Françayzi** *(ing. franchise – imtiyaz) – (bax: françayz müəssisə).*

**Françayzinq** – bir sıra ölkələrdə kommersiya konsessiyası müqaviləsinə uyğun olaraq həyata keçirilən sahibkarlıq fəaliyyəti.

**Françayzinq müqaviləsi** – mülki-hüquqi müqavilənin bir növü. AR MM-in 723-cü maddəsinə uyğun olaraq françayzinq elə bir uzunmüddətli öhdəlik münasi-

# -G-

Gecə vaxtı ... 424
Gecə vaxtı işin müddəti ... 424
Gelieya ... 424
General ... 424
Generalissimus ... 424
General-kapitanlıq ... 424
General-qubernator ... 424
General-qubernatorluq ... 424
General-prokuror ... 424
Genişləndirici təfsir ... 424
Genosid ... 425
"Geodeziya və kartoqrafiya haqqında" Azərbaycan Respublikasının qanunu ... 425
Geomorlar ... 425
Geosiyasət ... 425
Gerb ... 425
Gerb (akt) kağızı ... 425
Gerb markası ... 425
Gerb nişanı ... 426
Gerb rüsumu ... 426
Gerb vergisi ... 426
Gerilya ... 426
Geriyə fraxt ... 426
Geriyə tələb ... 426
Geriyə tratta ... 426
Gerontokratiya ... 426
Gerusiya ... 426
Gestapo ... 426
Getman ... 426
Getto ... 427
Gəlir vergisi ... 427
Gəmi ... 427
Gəmi agenti ... 427
Gəmi heyətinin statusu ... 427
Gəmi heyətinin tərkibi ... 427
Gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərməməsi ... 427
Gəmilərin agentləşdirilməsi ... 428
Gəmilərin neftlə çirkləndirmədən vurulan zərərə görə məsuliyyəti ... 428
Gəmilərin toqquşmasından vurulan zərərin əvəzinin ödənilməsi ... 428
Gəmilərin və digər əmlakın xilas edilməsi ... 428
Gəminin müəyyən müddətə fraxtetmə müqaviləsi ... 428
Gəminin adı ... 428
Gəminin milliliyi ... 429
Gəminin tutumu ... 429
Gəminin üzərinə həsb qoyulması ... 429
Gəminin və ya inşa edilməkdə olan gəminin ipotekası ... 429
Gəmi sahibi ... 429
Gəmi üzərində mülkiyyət ... 429
Gəmiyə dəniz girovu ... 429
Gəzit, gezid ... 429
Gənc mütəxəssislər ... 429
Gərək yaraq ... 430
Gildiya ... 430
Gilyotin ... 430
Giperinflyasiya ... 430
Girov ... 430
Girova xitam verilməsi ... 430
"Girov haqqında" Azərbaycan Respublikasının qanunu ... 431
Girov (ipoteka) hüququ ... 431
Girov indossamenti ... 431
Girovqoyan ... 431
Girov qoyulmuş əmlakın satılması ... 431
Girov müqaviləsi ... 431
Girov predmeti ... 431
Girov (ipoteka) predmeti ola bilən torpaq sahələri ... 432
Girovsaxlayan ... 432
Girovun növləri ... 432
Gizli dəftərxana ... 432
Gizli etiqad ... 432
Gizli əlbirlik ... 432
Gizli müşavir ... 432
Gizli oğurluq ... 432
Gizli səsvermə ... 432
Gizli sığorta ... 432
Gizli şura ... 433
Göbəkkəsmə ... 433
Gödək parlament (qısa parlament) ... 433
Gömrük anbarı ... 433
Gömrük anklavı ... 433
Gömrük baxışı ... 433
Gömrük bəyannaməsi ... 433
Gömrük brokeri ... 433
Gömrük buraxılışı ... 433
Gömrük daşıyıcısı ... 433
Gömrük dəyəri ... 433
Gömrük ərazisi ... 434
Gömrük ərazisində malların emalı ... 434
Gömrük ərazisindən kənarda malların emalı ... 434
Gömrük fakturası ... 434
Gömrük gəlirləri ... 434
Gömrük güzəştləri ... 434
Gömrük hərracı ... 434
Gömrük hüquq pozuntuları ... 434
Gömrükxana ... 434
Gömrük xidməti ... 434
Gömrük ilkin əməliyyatları ... 435
Gömrük işi ... 435
Gömrük işi sahəsində cinayətlər ... 435
Gömrük ittifaqı ... 435
Gömrük kvotası ... 435
Gömrük qısa bəyannaməsi ... 435
Gömrük laboratoriyaları ... 435
Gömrüklər ... 435
Gömrük Məcəlləsi ... 436
Gömrük müayinəsi ... 436
Gömrük müşayiətedici sənədi ... 436
Gömrük müvəkkili ... 436
Gömrük nəzarəti ... 436
Gömrük nəzarəti altında malların emalı ... 436
Gömrük nəzarəti altında olma müddəti ... 436
Gömrük nəzarəti zonaları ... 436
Gömrük orqanları ... 437
Gömrük ödənişləri ... 437
Gömrük ödənişlərinin ödənilməsindən yayınma ... 437
Gömrük postu ... 437
Gömrük rejimi ... 437
Gömrük rəsmiləşdirilməsi ... 437
Gömrük rəsmi nişanı ... 437
Gömrük rüsumları ... 438
Gömrük sərhədi ... 438
Gömrük sistemi ... 438
Gömrük siyasəti ... 438
Gömrük statistikası ... 438
Gömrük şərti buraxılışı ... 438
Gömrük tarifi ... 438
"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunu ... 438
Gömrük uniyası ... 439
Gömrük vergiləri ... 439
Göndərilən mallar üçün hesablaşmalar ... 439
Göndərmə müqaviləsi ... 439
Göndərmə zamanı tara və qab ... 439
Göyərtə yükü ... 439
Gözətçi (növbətçi) ... 439
Gözlənilən pensiya ödənişi müddəti ... 439
Güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi ... 439
Gülüstan müqaviləsi ... 440
Gümüş valyuta ... 440
Güzəşt ... 440

**Gecə vaxtı** – Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində yerli vaxtla saat 22.00-dan səhər saat 7.00-dək olan vaxt müddəti (AR CPM-in 7.0.35-ci maddəsi)

**Gecə vaxtı işin müddəti** – Azərbaycan Respublikasının əmək qanunvericiliyinə uyğun olaraq axşam saat 22.00-dan səhər saat 6.00-dək olan gecə vaxtı işin müddəti. Əgər işçinin gündəlik iş vaxtının ən azı yarısı gecə vaxtına düşərsə, belə halda həmin iş vaxtının gecə vaxtına düşən hissəsi bir saat qısaldılır (AR ƏM-in 97-ci maddəsi).

**Gelieya** – eramızdan əvvəl VI-V yüzilliklərdə Qədim Afinada fəaliyyət göstərmiş andlılar məhkəməsi. G. 30 yaşına çatmış vətəndaşlar içərisindən hər il püşkatma yolu ilə seçilən 6000 üzvdən ibarət idi. Hər biri 500 üzvdən ibarət olan 10 kollegiyadan – dikasteriyadan ibarət olmuşdur. G. digər məhkəmələrin qərarlarından verilən şikayətlərə baxır və bir sıra mühüm işlər, o cümlədən dövləti cinayətlər və vəzifə cinayətləri haqqında işlər üzrə birinci instansiya qismində fəaliyyət göstərirdi. G. həmçinin vəzifəli şəxslərin fəaliyyəti üzərində nəzarəti həyata keçirir və xalq yığıncağının qərarlarını qəti olaraq təsdiq edirdi.

**General** *(lat. generalis – ümumi, başlıca)* – bir sıra ölkələrdə silahlı qüvvələrin ali zabitlər heyətində rütbə. G. rütbəsi ilk dəfə XVI yüzillikdə Fransada tətbiq edilmişdir. Azərbaycan Respublikasında g. rütbəsi ölkə prezidentinin fərmanı ilə verilir.

**Generalissimus** *(lat. generalissimus – ən başlıca)* – bir sıra ölkələrdə ən ali hərbi rütbə. G. rütbəsi ilk dəfə 1569-cu ildə Fransada təsis edilmişdir. Rusiyaya XVII yüzilliyin sonundan məlum idi. Sovet İttifaqının g. rütbəsi ancaq İ.S.Stalinə verilmişdir. XX yüzillikdə xarici ölkələrdə g. rütbəsinə F.Franko (İspaniya), Çan-Qayşi (Çin) və Kim ir Sen (KXDR) malik olmuşdur.

**General-kapitanlıq** – XVI yüzillikdə və XIX yüzilliyin başlanğıcınadək İspaniyanın Amerika koloniyalarındakı əraziləri; general-kapitanların idarəçiliyi altında olan g.-k.-lar İspaniyanın nəzarəti altında idi. Kapitanlıqlara başçılıq edən general-kapitanlar ispan tacı tərəfindən təyin edilirdi. General-kapitanlar nominal cəhətdən vitse-krallığa daxil olsalar da, faktiki olaraq müstəqil siyasi-inzibati ərazilərin başçıları hesab olunurdular.

**General-qubernator** – **1)** çar Rusiyasında general-qubernatorluqda yerli idarəetməyə başçılıq edən ali rütbəli məmur; **2)** millətlər birliyinə daxil olan dövlətlərdə (keçmiş dominionlarda) dövlət başçısı hesab olunan İngiltərə kralının (kraliçasının) nümayəndəsi.

**General-qubernatorluq** – Rusiyada 1775-ci ildən 1917-ci ilədək mövcud olmuş inzibati ərazi vahidi; general-qubernatorun tabeçiliyində olan bir, yaxud bir neçə quberniyanı və vilayəti birləşdirirdi. 1905-1907-ci illərdə Azərbaycanda iki müvəqqəti g.-q. mövcud olmuşdur.

**General-prokuror** – Rusiya imperiyasında mövcud olmuş yüksək dövlət vəzifələrindən biri. G.- p. dövlət aparatının fəaliyyətində qanunçuluğu müşahidə edir və Senata başçılıq edirdi. 1802-ci ildən etibarən həm də Ədliyyə Nazirliyinə başçılıq edirdi.

**Genişləndirici təfsir** *(bax: qanunun genişləndirici təfsiri).*





**Genosid** *(yun. genos – qəbilə, tayfa; lat. caedere – öldürmək)* – ayrı-ayrı əhali qruplarının irqi, milli, yaxud dini motivə görə kütləvi surətdə məhv edilməsi (soyqırım). G. bəşəriyyət əleyhinə ən ağır cinayətlərdən biridir. G. cinayətləri faşizmə, irqi və milli ədavəti, "ali" irqlərin "aşağı" irqlər üzərində hökmranlığını və i.a. təbliğ edən mürtəce "nəzəriyyələrə" əsaslanır. İkinci dünya müharibəsi illərində hitlerçilər işğal etdikləri ölkələrdə əhaliyə qarşı kütləvi miqyasda g. cinayətləri törətmişlər. G.-in cəzaya layiqliyi beynəlxalq hərbi tribunalların (Nürnberq və Tokio proseslərinin) nizamnaməsində, habelə "Genosid cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında" beynəlxalq konvensiyada (BMT Baş Məclisinin 1948-ci il dekabrın 9-da bəyəndiyi sənəddə) müəyyən edilmişdir. BMT 1965-ci ildə irqi ayrı-seçkiliyin (apartheidin) bütün formalarının ləğvi haqqında konvensiya qəbul etmişdir.

G.-in dəhşətləri Azərbaycan xalqından da yan keçməmişdir. 1918-ci ilin martında erməni faşizmi və daşnaksutyun partiyasının qaniçən cəlladları Bakıda, Şamaxıda, Gəncədə, Qubada və ölkənin digər bölgələrində 10 minlərcə azərbaycanlını ancaq azəri türkü olduqlarına görə qətlə yetirmişdir.

**"Geodeziya və kartoqrafiya haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında geodeziya, topoqrafiya və kartoqrafiya işlərinin təşkilini, idarə edilməsinin və onların nəticəsi olan elmi-texniki məhsulların, materialların və məlumatların hazırlanmasının, istifadəsinin və mühafizəsinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 17 aprel 1998-ci ildə qəbul edilmişdir. O, altı fəsil və 32 maddədən ibarətdir.

**Geomorlar** *(yun. geomoroi, ge – torpaq, meiromai – payımı alıram)* – Qədim Yunanıstanda xırda, orta və iri torpaq sahibləri: 1) Qədim Afinada əkinçilər, azad əhalinin üç qrupundan (evpatridlər və demiurqlarla yanaşı, sənətkarlar, tacirlər) biri; 2) Sirakuzada və Samos adalarında aristokratlar, iri torpaq mülkiyyətçiləri.

**Geosiyasət** – XIX yüzilliyin sonu - XX yüzilliyin başlanğıcında meydana gəlmiş siyasi konsepsiya; bu konsepsiyaya uyğun olaraq dövlətlərin xarici siyasəti (geosiyasi strategiyası və i.a.) əsasən coğrafi amillərlə (ölkənin coğrafi mövqeyi, təbii ehtiyatları, iqlimi) qabaqcadan müəyyən edilir. Bu siyasətdən xüsusilə də alman faşizmi tərəfindən xarici ekspansiyaya haqq qazandırılması üçün istifadə edilmişdir.

**Gerb** *(pol. herb; alm. erbe – irs)* – sahibinin tarixi ənənələrini əks etdirən və ya rəmzi əhəmiyyət kəsb edən emblem; irsi fərqləndirmə nişanı və fiqurların, əşyaların uyğunlaşdırılması. G. aşağıdakı əsas qruplara bölünür: a) dövlət gerbi; b) torpaq gerbi; c) şəhər, əyalət, yaxud vilayət gerbi. Korporativ gerb (orta əsr sexləri), nəsli gerb (zadəgan və aristokratların) də fərqləndirilir. Spesifik tarixi mənbə olan gerbi heraldika öyrənir. G. bayraqlar, möhürlər, pullar və i.a. üzərində həkk olunur və ya təsvir edilir.

**Gerb (akt) kağızı** – aktların və sənədlərin (veksellərin, müqavilələrin və i.a.) yazılması üçün nəzərdə tutulan xüsusi kağız; gerb nişanlarının bir növü.

**Gerb markası** – gerb nişanının növü. G.m.-nın satılması yolu ilə inzibati orqanlara və məhkəmə orqanlarına mülki-hüquqi xarakterli ərizə verildiyi zaman gerb vergisi tutulur.

**Gerb nişanı** – kommersiya və maliyyə sənədlərinin – müqavilələrin, veksellərin, çeklərin və xüsusi markaların tərtib edilməsi üçün nəzərdə tutulan xüsusi blank. Belə blankların satılmasına görə dövlət gerb vergisi tutur.

**Gerb rüsumu** – mülki-hüquqi əqdlərə dair sənədlərin rəsmiləşdirilməsi zamanı ayrı-ayrı şəxslərdən və təşkilatlardan tutulan xüsusi dövlət rüsumu. G.r. gerb blanklarının və markalarının satılması yolu ilə tutulur. G.r. ilk dəfə 1624-cü ildə Hollandiyada tətbiq edilmişdir. Rusiyada 1699-cu ildə I Pyotr tərəfindən qanuniləşdirilmişdir.

**Gerb vergisi** – müxtəlif növ əqdləri rəsmiləşdirən sənədlər üzərinə, şirkətin qeydiyyatına və səhmdar kapitalının artırılmasına, etibarnaməyə, icarə haqqında müqaviləyə, qiymətli kağızların, səhmlərin, istiqrazların, qəyyumluq haqqında sazişin, vasitəçiliyin və nümayəndəliyin üzərinə qoyulan vergi.

**Gerilya** *(isp. guerrill – müharibə)* – İspaniyada və Latın Amerikası ölkələrində partizan müharibəsinin adı. İspaniya inqilabı dövründə (1808-1814-cü illər) ispan g.-sı məşhurdur.

**Geriyə fraxt** – daşıyıcıdan asılı olmayan səbəblərə görə yükün təyinat limanında saxlanması mümkün olmadıqda, yükün göndərmə limanına geri qaytarılmasına görə yük sahibi tərəfindən ödənilən fraxt.

**Geriyə tələb** – üçüncü şəxsin öhdəlikləri-ni icra edən, belə icradan irəli gələn hərəkətləri hüquqi zərurətə səbəb olan şəxsin tələbi. G.t. reqressiv tələb də adlandırılır.

**Geriyə tratta** – mülki qanunvericiliyə görə iddia irəli sürmək hüququ olan şəxs, əgər əks razılaşma yoxdursa, onun qarşısında müəlləfiyyətli şəxslərdən birinə ödəniş müddəti təqdim edildiyi an çatan, həmin şəxsin yaşayış yeri üzrə ödənilməli olan yeni veksel vermək vasitəsilə ödənişi ala bilər (geriyə tratta) (AR MM-in 1041-ci maddəsi).

**Gerontokratiya** *(yun. geron – qoca kratos – hakimiyyət)* – hakimiyyətin ağsaqqallara məxsus olduğu şəraitdə idarəetmə prinsipi. "G". termini etnoqrafiyaya XX yüzilliyin başlanğıcında daxil olmuş, sonradan ibtidai icma quruluşunda, daha sonra isə sinifli cəmiyyətdə hakimiyyət strukturunu adlandırmaq üçün ondan istifadə edilmişdir. Stalin, Tito, Mao Tsedun, Begin, Brandt, Reyqan kimi fiqurların müasir politoloji tədqiqatları göstərir ki, yaş həddi durğunluq dövrünü keçirən siyasi sistemlərdə liderlikdə həm yardıma, həm də əngəllərə xidmət edə bilər.

**Gerusiya** *(yun. gerusia)* – Qədim Yunanıstanda şəhər-dövlətlərində ağsaqqallar şurası.

**Gestapo** *(alm. gestapo – qısaldılmış adıdır, Geheima Staatspolizei)* – faşist Almaniyasında gizli dövlət polisi. G. 1933-cü ilin aprelində faşizmin düşmənlərinin fiziki cəhətdən məhv edilməsi ilə yaradılmışdır. G.-nun ölüm düşərgələrində yüz minlərlə antifaşist istintaqsız və məhkəməsiz vəhşicəsinə qətlə yetirilmişdir. 1936-cı ildən g.-nun imperiya üzrə başçısı H. Himler olmuşdur. G. 1945-ci ildə ləğv edilmişdir.

**Getman** *(pol. hetman – başçı)* – **1)** XV yüzillikdə Çexiyada taborluların qoşun başçısı; **2)** XVI-XVIII yüzilliklərdə Polşada vəzifə; daimi muzdlu qoşun başçısının titulu. 1581-ci ildən etibarən g. vəzifəsi ömürlük verilməyə başlamışdır; **3)** XVI yüzilliyin ikinci yarısında Ukraynada reyestr kazaklarının başçısı. 1708-ci ildən etibarən çar hökuməti təyin etməyə (1722-1727-ci illərdə mövcud olmamışdır) başlamışdır. 1764-cü ildə g. vəzifəsi ləğv edilmişdir; **4)** XVIII yüzillikdə Moldaviyada qoşun başçısı.

**Getto** *(ita. ghetto)* – orta əsr Avropa şəhərlərində yəhudilərin məcburi yaşaması üçün müəyyən edilmiş hissə. "G". termini XVI yüzillikdə ehtimal ki, 1516-cı ildə Venetsiyada top emalatxanalarının yanında salınmış yəhudi məhəlləsi ilə əlaqədar meydana gəlmişdir. G. XIX yüzilliyin birinci yarısında (Roma gettosu 1870-ci ildə) ləğv edilmişdir. İkinci dünya müharibəsi gedişində nasistlərin yaratdığı və əslində iri ölüm düşərgələri olan gettolarda on minlərlə yəhudi məhv edilmişdir.

**Gəlir vergisi** – fiziki və hüquqi şəxsləri gəlirlərindən tutulan birbaşa vergilərin əsas növü. Azərbaycan Respublikasında g.v. daimi yaşayış yeri olan və ya olmayan respublika vətəndaşlarından, xarici ölkə vətəndaşlarından, habelə vətəndaşlığı olmayan şəxslərdən tutulur. Azərbaycan Respublikasında daimi yaşayış yeri olan fiziki şəxslərə təqvim ilində respublikanın ərazisində üst-üstə azı 183 gün yaşayan şəxslər aid edilir. Respublikada g.v. ilə əlaqədar münasibətlər "Azərbaycan Respublikasında fiziki şəxslərdən gəlir vergisi tutulması haqqında" 24 iyun 1992-ci il tarixli qanunla tənzim edilir.

**Gəmi** – özü hərəkətedən və ya özü hərəkətetməyən, ticarət gəmiçiliyi məqsədləri üçün istifadə olunan üzən qurğu.

**Gəmi agenti** – dəniz agenti müqaviləsi əsasında gəmi sahibinə xidmətlər göstərən şəxs. Dəniz agenti müqaviləsinin məzmununu tapşırıq, saxlama və podrat təşkil edir. G.a. adətən yükgöndərənləri və müvafiq dövlət orqanlarını gəminin gəlmə vaxtı haqqında xəbərdar edir, müxtəlif liman formallıqlarının yerinə yetirilməsini təşkil edir, gəmiyə xidmət (istilik, su və ərzaq təchizatı ilə) göstərir, yük sənədlərini rəsmiləşdirir, gəmi sahibinin mənafelərini müdafiə edir.

**Gəmi heyətinin statusu** – Azərbaycan Respublikasının dövlət bayrağı altında üzən gəmi heyətinin hüquqi statusu. Bu status, həmçinin gəminin istismarında iştirak edən heyət üzvləri və gəminin heyət üzvləri ilə gəmi sahibi arasında münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müəyyənləşdirilir (AR TGM-in 41.1-ci maddəsi).

**Gəmi heyətinin tərkibi** – gəmi kapitanından, gəminin komandir heyətinin digər üzvlərindən və sıravi heyətdən ibarət olan tərkib. Azərbaycan Respublikasının ticarət gəmiçiliyi qanunvericiliyinə görə gəminin komandir heyətinə gəmi kapitanından başqa kapitanın köməkçiləri, mexaniklər, elektromexaniklər, radiomütəxəssislər və gəmi həkimi daxildir. Müvafiq icra hakimiyyəti orqanı gəminin komandir heyətinə digər mütəxəssislərini də aid edə bilər. Sıravi heyət gəminin komandir heyətinə daxil olmayan şəxslərdən ibarətdir (AR TGM-in 42-ci maddəsi).

**Gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərməməsi** – hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 269-cu maddəsində nəzərdə tutulmuşdur. Dəniz və ya sair su yolunda fəlakətə uğrayanlara gəmi

kapitanı tərəfindən öz gəmisi, onun heyəti və sərnişinləri üçün ciddi təhlükə olmadan kömək edə bildiyi halda kömək göstərilməməsində ifadə olunur.

**Gəmilərin agentləşdirilməsi** – gəminin sahibi və ya gəmi fraxtaçısı olan prinsipialla müqavilə üzrə agent tərəfindən limanda prinsipialın mənafelərinin təmsil və müdafiə olunması ilə əlaqədar hərəkətlərin yerinə yetirilməsi. Tapşırılan hərəkətlər agent tərəfindən prinsipialın adından yerinə yetirilir və məsələlərin geniş dairəsi malik olurlar. Həmin məsələlərə liman xidmətləri ilə gəminin dayancaq yerinə verilməsi vaxtının qaydasının razılaşdırılması, yüklərin emalı, karantin, gömrük və sərhəd proseslərinin yerinə yetirilməsi, müvafiq sənədlərin rəsmiləşdirilməsi və i.a. aiddir.

**Gəmilərin neftlə çirkləndirmədən vurulan zərərə görə məsuliyyəti** – hadisə baş verdiyi andan çirkləndirmə nəticəsində gəmi tərəfindən vurulan hər hansı bir zərərə görə müəyyən edilmiş məsuliyyət. AR TGM-in 251-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, çirkləndirmə nəticəsində vurulan hər hansı bir zərərə görə məsuliyyət gəmi mülkiyyətçisinin üzərinə düşür.

**Gəmilərin toqquşmasından vurulan zərərin əvəzinin ödənilməsi** – dəniz gəmiləri, habelə dəniz gəmiləri ilə digər gəmilər toqquşduqda bu gəmilərə, onlarda olan insanlara, yükə və ya başqa əmlaka vurulan zərərin əvəzi AR TGM-in XVIII fəslində müəyyən edilmiş qaydalara (246-249-cu maddələr) uyğun olaraq ödənilir.

**Gəmilərin və digər əmlakın xilas edilməsi** – dəniz nəqliyyatı daşımalarında xilasetmə haqqında müqavilələrə uyğun olaraq gəmilərin və digər əmlakın xilas edilməsi. Xilasetmə tədbirlərinin həyata keçirilməsi zamanı AR TGM-in XX fəslində nəzərdə tutulan (TGM-in 267-275-ci maddələri) normalar tətbiq edilir.

**Gəmini müəyyən müddətə fraxtetmə müqaviləsi** – dəniz ticarət gəmiçiliyi müqavilələrinin bir növü. G.m.m.f.m.-nə (taym-çarter) görə gəmi sahibi sərtləşdirilmiş haqq (fraxt) müqaviləsində fraxtedənə ticarət gəmiçiliyinin məqsədləri üçün gəmini və gəmi heyəti üzvlərinin xidmətlərini müəyyən müddətə istifadəyə verməyi öhdəsinə götürür. Taym-çarter yazılı formada bağlanmalıdır (AR TGM-in 152-ci maddəsi). Taym-çarterdə başqa hal nəzərdə tutlmadıqda fraxtedən taym-çarterlə ona verilmiş hüquqlar çərçivəsində öz adından taym-çarterin qüvvədə olduğu bütün müddətə və ya həmin müddətin bir hissəsinə gəminin fraxta verilməsi haqqında üçüncü şəxslər ilə müqavilə bağlaya bilər (subtaym-çarter). Subtaym-çarterin bağlanması fraxtedəni gəmi sahibi ilə bağladığı taym-çarterin icrasından azad etmir (AR TGM-in 155.1-ci maddəsi).

**Gəminin adı** – gəminin dövlət gəmi reyestrində və ya gəmi kitabında qeydiyyata alınmış adı. G.a. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada gəmi mülkiyyətçisi tərəfindən verilir. Gəmi üzərində mülkiyyət hüququ başqasına keçdikdə və ya kifayət qədər olan digər əsaslarla gəminin adı dəyişdirilə bilər. Gəminin qeydə alınmış ipotekasını saxlayanlar gəminin adının dəyişdirilməsi barədə dərhal məlumatlandırılır (AR TGM-in 13-cü maddəsi).





**Gəminin milliliyi** – Azərbaycan Respublikasının dövlət bayrağı altında üzmək hüququndan istifadə edən gəmi. Belə gəmi Azərbaycan Respublikasının milli mənsubiyyətinə məxsus olan gəmi hesab olunur. Azərbaycan Respublikasının milli mənsubiyyətinə malik olan gəmi Azərbaycan Respublikasının dövlət bayrağını daşımalıdır (AR TGM-in 10-cu maddəsi).

**Gəminin tutumu** – gəmilərin ölçülməsinə dair beynəlxalq müqavilələrə uyğun olaraq gəminin müəyyən edilmiş ümumi tutumu.

**Gəminin üzərinə həbs qoyulması** – Azərbaycan Respublikasının yurisdiksiyası hüdudlarında olduğu zaman məhkəmənin və ya dəniz işləri üzrə qanunla həbs etmək səlahiyyəti verilmiş münsiflər məhkəməsinin qətnaməsi əsasında dəniz tələblərini təmin etmək üçün gəmi üzərinə qoyulan həbs; gəminin hərəkətinin saxlanılmasını və ya məhdudlaşdırılmasını əks etdirən sanksiya. Gəmi üzərinə yalnız dəniz tələbi üzrə həbs qoyula bilər. Gəmi üzərinə həbs hətta onun limandan çıxmağa hazır olduğu zaman da qoyula bilər (AR TGM-in 300-cü maddəsi).

**Gəminin və ya inşa edilməkdə olan gəminin ipotekası** – ticarət gəmiçiliyi qanunvericiliyinə görə gəminin və ya inşa edilməkdə olan gəminin ipotekası pul öhdəliyinin təmin edilməsi məqsədilə gəmi və ya inşa edilməkdə olan gəmi mülkiyyətçisinin (ipoteka verənin) və kreditorun (ipoteka saxlayanın) müqavilələri ilə müəyyən edilir. İpoteka müqaviləsi notariat qaydasında təsdiqlənməlidir və gəminin qeydiyyata alındığı reyestrdə qeydə alınmalıdır (AR TGM-in 293-cü maddəsi).

**Gəmi sahibi** – gəminin mülkiyyətçisi olmasından və ya gəmidən başqa qanuni əsaslarla istifadə etməsindən asılı olmayaraq, gəmini öz adından istismar edən şəxs.

**Gəmi üzərində mülkiyyət** – gəmi üzərində mülkiyyətin formalarından biri. AR TGM-in 7-ci maddəsinə uyğun olaraq gəmi üzərində mülkiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan bütün mülkiyyət formalarında olur. Gəminin mülkiyyətçisi gəmiyə münasibətdə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və digər şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini pozmayan istənilən hərəkəti həyata keçirə bilər.

**Gəmiyə dəniz girovu** – gəmi sahibinə dair tələbləri təmin edən girov. Gəminin məcburi satılması halı istisna olmaqla, gəmiyə mülkiyyət hüququnun keçməsindən, onun qeydiyyatından və ya bayrağının dəyişdirilməsindən asılı olmayaraq, dəniz girovu gəmini yüklü etməkdə davam edir (AR TGM-in 289-cu maddəsi).

**Gəzit, gezid** *(fars.)* – bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda mövcud olmuş vergi. Sasanilər dövründən məlumdur. G. 20-50 yaşlı kişilərdən hökmdarın xeyrinə toplanırdı. İldə bir dəfə toplanan bu vergi pulla ödənilirdi. I Xosrov Ənuşirəvanın dövründə (531-579) vergi ödəyənlərin varidatına və gəlirinə əsasən həcmi təxmini müəyyən edilirdi. Kahinlər, hərbçilər və katiblər g.-dən azad idilər. Müharibədə məğlub olmuş ölkənin verdiyi xərac da çox vaxt g. adlanırdı. Bəzi tədqiqatçıların fikrincə, "cizyə" termini g. sözündəndir.

**Gənc mütəxəssislər** – ali məktəbləri, orta ixtisas və ya peşə məktəblərini qurtardıqdan sonra istehsalatda çalışan (çalışmaq üçün göndərilən) şəxslər. G.m. bir sıra güzəştli hüquqlara malikdirlər. Məsələn, on-

lar 3 il ərzində ştatların ixtisarı ilə əlaqədar işdən çıxarıla bilməzlər, yaxud bəzi sosial hüquqlardan (məsələn, mənzil sahəsində) imtiyazlı şərtlərlə istifadə edirlər.

**Gərək yaraq** – orta yüzilliklərdə bəzi Şərq ölkələrində, o cümlədən Azərbaycanda mövcud olmuş vergi növü. G.y. monqol-tatar istilası dövründən məlumdur. O, əsasən xanın, onun xanımının, şahzadələrin (vəliəhdlərin) və əmirlərin xərcləri üçün sərf edilirdi. G.y. məmurlar tərəfindən toplanır və saray xəzinəsinə təhvil verilirdi.

**Gildiya** *(alm. gilde – korporasiya)* – Qərbi Avropada, xüsusilə də erkən orta yüzilliklərdə fəaliyyət göstərmiş müxtəlif təsərrüfat-iqtisadi cəmiyyətlər (o cümlədən dini, siyasi, qarşılıqlı yardım təşkilat və qurumları). G. daha məhdud mənada tacirlərin (İngiltərədə sənətkarlar birliyi, sexlər) birliyindən ibarət idi. Rusiyada g. XVIII-XIX yüzilliklərdə tacirlər təbəqəsi birliyi kimi mövcud olmuşdur. G. kapitalist istehsal və ictimai münasibətlərinin inkişafı ilə əlaqədar öz əhəmiyyətini tamamilə itirmişdir.

**Gilyotin** *(fr. guillotine)* – Fransada Böyük Fransa inqilabı dövründə (1792) tətbiq edilmiş edam dəzgahı (məhkumların boynunun vurulması üçün düzəldilmişdi). G. həkim J.Gilyotenin (dəzgahın adı da buradandır) təklifi ilə düzəldilmişdir. 1981-ci ildə Fransanın Milli Məclisi ölüm cəzasını ləğv etməklə əlaqədar olaraq g. vasitəsilə edamın tətbiqini də dayandırmışdır.

**Giperinflyasiya** – əmtəələrin qiymətlərinin və tədavüldə olan pulların kütləsinin müstəsna dərəcədə sürətlə yüksəlməsi; pul vahidlərinin dərhal qiymətdən düşməsinə, ödəniş dövriyyəsinin və normal təsərrüfat əlaqələrinin pozulmasına, həyat səviyyəsinin fəlakət həddinə çatmasına gətirib çıxarır.

**Girov** – cinayət-prosessual qanunvericiliyə görə şəxsin həbsdən azad edilməsi üçün ödənilən məbləğ. AR CPM-in 164-cü maddəsinə uyğun olaraq girov qismində qətimkan tədbirini böyük ictimai təhlükə törətməyən və ya az ağır, habelə ehtiyatsızlıq üzündən ağır cinayətləri törətməkdə ittiham olunan şəxsin həbsdən azad edilməsi, lakin onun cinayət prosesini həyata keçirən orqanın sərəncamında qalmasını təmin etmək məqsədilə məhkəmə tərəfindən müəyyən edilmiş pul məbləğini (qiymətli kağız) və ya digər qiymətli əşyaları dövlət bankında məhkəmənin depozitinə qoymaqdan ibarətdir. Məhkəmənin qərarı ilə girov qismində daşınmaz əmlak da qəbul edilə bilər. Girovun qətimkan tədbiri qismində seçilməsi məsələsinə məhkəmə tərəfindən yalnız müdafiə tərəfinin vəsatəti əsasında həbs qətimkan tədbirinin seçilməsi haqqında qəbul olunmuş qərarın əvəz edilməsi kimi baxıla bilər.

Girovun qoyulması həm təqsirləndirilən şəxsin əmlakı və vəsaiti, həm də onun yaxın qohumlarının və ya digər fiziki və hüquqi şəxslərin əmlakı və vəsaiti hesabına həyata keçirilə bilər. Girovun dəyərini sübut etmə vəzifəsi girov qoyanın üzərinə düşür.

**Girova xitam verilməsi** – mülki qanunvericiliyə görə girova aşağıdakı hallarda xitam verilir: 1) girovla təmin edilmiş öhdəliyə xitam verildikdə; 2) AR MM-in 283.3-cü maddəsində nəzərdə tutulan əsaslar olduqda girov qoyanın tələbi ilə; 3) əgər girov qoyan AR MM-in 288.2-ci maddəsində nəzərdə tutulan hüquqdan istifadə etməyibsə, girov qoyulmuş əşya məhv olduqda və ya girov qoyulmuş hüquqa xitam verildikdə; 4) girov qoyulmuş əmlak açıq hərracda satıldıqda (AR MM-in 294-cü maddəsi).

**"Girov haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında girov (ipoteka) hüququ ilə əlaqədar münasibətləri tənzimləyən qanunvericilik aktı. Bu qanun 3 iyul 1998-ci il tarixdə qəbul edilmişdir. O, yeddi fəsil və 51 maddədən ibarətdir.

**Girov (ipoteka) hüququ** – girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququ, eyni zamanda borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin təmin edilməsi üsulu (AR MM-in 269.1-ci maddəsi).

*G. və i. hüququ əşya hüquqlarının məhdudlaşdırılmasından ibarətdir.* Girov daşınar əşyalara (ipoteka obyekti olan daşınar əşyalardan başqa) əşya hüquqlarının məhdudlaşdırılmasıdır. İpoteka daşınmaz əşyalara, habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalara əşya hüquqlarının məhdudlaşdırılmasıdır. Girov və ipoteka girov qoyanın (borclunun) girov saxlayan (kreditor) qarşısında əsas öhdəliyinin icrasının təmin edilməsi üçün əlavə (aksessor) öhdəlikdir. Əşyaya girov və ipoteka hüququ mülkiyyət hüququna aid olan hər şeyə şamil edilir.

**Girov indossamenti** – mülki qanunvericiliyə görə əgər indossamentdə girovu nəzərdə tutan qeyd-şərt qoyulmuşdursa, veksel saxlayan köçürmə vekselindən irəli gələn bütün hüquqları həyata keçirə bilər, lakin onun qoyduğu indossamentin yalnız yenidən tapşırma indossamenti kimi qüvvəsi vardır.

**Girovqoyan** – girov qoyulan əmlaka (hüquqlara) mülkiyyət və ya tam təsərrüfatçılıq səlahiyyəti hüququ olan, əsas borc üzrə borclu kimi, yaxud girovu təqdim edən üçüncü şəxs kimi Azərbaycan Respublikasının və ya xarici ölkələrin fiziki və hüquqi şəxsi.

**Girov qoyulmuş əmlakın satılması** – "Girov haqqında" Azərbaycan Respublikasının 3 iyul 1998-ci il tarixli qanununun 30-cu maddəsinə uyğun olaraq ödəniş yönəldilməsi haqqında bildiriş girovqoyana təqdim edildikdən ən azı 30 gün keçdikdən sonra girovsaxlayanın girov qoyulmuş əmlakı satmaq və satışdan əldə edilmiş hasilatın hesabına təminatlı borcu ödəmək hüququ vardır.

**Girov müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. AR MM-in 280-ci maddəsinə uyğun olaraq g.m. yalnız formada bağlanmalıdır. G.m.-ndə tərəflərin adı və yaşayış yeri (olduqları yer), girovun predmeti, girovla təmin edilən öhdəliyin mahiyyəti, ölçüsü və icra müddəti göstərilməlidir. Qanunla nəzərdə tutulan hallarda g.m. notariat qaydasında təsdiqlənməli, girov hüququ isə dövlət qeydiyyatına alınmalıdır. AR MM-in 280-ci maddəsinin qaydalarına riayət edilməməsi g.m.-nin etibarsızlığına səbəb olur və belə müqavilə əhəmiyyətsiz sayılır.

**Girov predmeti** – ipoteka predmeti olan əşyalar, habelə mülki dövriyyədən çıxarılmış əşyalar və kreditorun şəxsiyyəti ilə qırılmaz bağlı olan tələblər, o cümlədən alimentlər, həyata və ya sağlamlığa vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında tələblər və digər şəxsə güzəşt olunması qanunla qadağan edilmiş sair hüquqlar istisna olmaqla, istənilən əşyalar və tələblər (AR MM-in 276.1-ci maddəsi).

Bölünməz əşyalar hissə-hissə girov qoyula bilməz. Əşyanın mülkiyyətçisinin razılığı olmadan icra hüququnun girov qoyulmasına yol verilmir.

**Girov (ipoteka) predmeti ola bilən torpaq sahələri** – "Girov haqqında" Azərbaycan Respublikasının 3 iyul 1998-ci il tarixli qanununun 41-ci maddəsinə uyğun olaraq ipoteka haqqında müqavilə üzrə fiziki və hüquqi şəxslərin mülkiyyətində olan torpaq sahələri girov qoyula bilər. Yaşayış məhəllələrində ümumi istifadədə olan torpaqların, o cümlədən şəhərsalma qaydalarına uyğun olaraq binalar və tikililər ucaldılmasına yol verilməyən şəhər torpaqlarının, xüsusi mühafizə olunan ərazilərdəki torpaqların, habelə xüsusi istifadə şəraitinə malik zonalardakı sahələrin tərkibindən dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin ipotekasına yol verilmir. Torpaq qanunvericiliyinə uyğun olaraq ipotekasına yol verilməyən sahələr istisna olmaqla, dövlət və ya bələdiyyə mülkiyyətində olan başqa torpaq sahələri ipoteka haqqında müqavilə üzrə girov qoyula bilər.

**Girovsaxlayan** – kreditor; borclunun öhdəliyinin lazımi qaydada icra edilməsini təmin etmək məqsədi ilə girovu qəbul edən Azərbaycan Respublikasının və xarici ölkələrin fiziki və hüquqi şəxsi.

**Girovun növləri** – mülki qanunvericiliyə görə girov aşağıdakı növlərdə ola bilər: 1) saxlanc; 2) əşyanın lombardda girovu; 3) hüquqların girovu; 4) pul vəsaitinin girovu; 5) sabit girov; 6) dövriyyədəki malların girovu (AR MM-in 300-cü maddəsi).

**Gizli dəftərxana** – XVIII yüzillikdə Rusiyada fəaliyyət göstərmiş mərkəzi dövlət idarələrindən biri; siyasi istintaq və məhkəmə orqanı. G.d. 1718-ci ildə I Pyotr tərəfindən çareviç Aleksey Pyotroviçin işi üzrə istintaqın aparılması üçün təsis edilmişdi. 1726-cı ildə ləğv edilmiş, 1731-ci ildə isə dəftərxana işlərinin gizli axtarışı adı altında yenidən bərpa edilmişdir. G.d. Senatın nəzarəti altında fəaliyyət göstərirdi.

**Gizli etiqad** – qanunla mühafizə olunan məxfiliyin müstəqil növü, azad dini etiqadın təminatlarından biri. Belə qayda *etiqad* edənlərlə möminlər arasında münasibətlərin xüsusi etibarlı xarakterini müəyyən edir və dövlətin buna hörmətlə yanaşmasını nəzərdə tutur. G.e. qanunla mühafizə olunur.

**Gizli əlbirlik** – beynəlxalq ticarətdə vicdansız rəqabətin formalarından biri. Qapalı ticarətlə məşğul olanların əlbirliyi. Bazarların bölüşdürülməsi haqqında qeyri-rəsmi sazişlər, qiymətlərin qeyri-rəsmi qaydada müəyyən edilməsi və i.a. g.ə.-in növlərini təşkil edir. Ticarət iştirakçılarının qabaqcadan əlbirliyi qanunsuz əqdlərin bağlanmasına gətirib çıxarır.

**Gizli müşavir** – çar Rusiyasında dərəcələr üzrə cədvələ görə 3-cü dərəcəli mülki rütbə. Həqiqi g.m. – 2-ci dərəcəli mülki rütbə. Rusiyada 200 il ərzində ancaq 9 nəfər 1-ci dərəcəli mülki rütbəyə layiq görülmüşdür. 1-3-cü dərəcələr imperatorun mülahizəsi ilə verilirdi. Həmin rütbə dərəcələri nazir vəzifəsinə bərabər tutulurdu.

**Gizli oğurluq** *(bax: oğurluq).*

**Gizli səsvermə** *(bax: seçki sistemi).*

**Gizli sığorta** – xidməti sirrin, habelə kommersiya sirrinin bir növü. Sığorta edən öz peşə fəaliyyəti nəticəsində ona sığorta olunanın fəaliyyəti haqqında məlumatları yaymağa haqlı deyildir. Sığortanın gizliliyinin pozulmasına görə sığorta edən xidməti sirri və ya kommersiya sirrini yaymağa görə məsuliyyət daşıyır.





**Gizli şura** – XIII - XIX yüzilliklərdə İngiltərədə fəaliyyət göstərmiş orqan; parlamentdən keçməli olmayan işləri kralın (kraliçanın) iştirakı ilə həll edirdi. XVIII yüzillikdə nazirlər kabineti g.ş.-dan ayrılmışdır. Parlamentarizmin inkişafı və nazirlər kabineti hakimiyyətinin güclənməsi ilə əlaqədar g.ş. öz əhəmiyyətini tədricən itirmiş, XIX yüzilliyin 90-cı illərinədək onun yalnız ticarəti, əkinçiliyi və xalq maarifini idarə edən komitələri fəaliyyət göstərmişdir.

**Göbəkkəsmə** – oğlan və qız uşağının göbəyi kəsildiyi vaxtdan adaxlanması (nişanlanması). Kuzen nikahı ilə bağlı olan g. adəti bir sıra xalqlar, o cümlədən azərbaycanlılar arasında da yayılmışdır.

**Gödək parlament (qısa parlament)** – XVII yüzillikdə İngiltərədə burjua inqilabı ərəfəsində bir aydan az (13 aprel - 5 may 1640-cı il tarixdə) iclas keçirmiş parlament *(həmçinin bax: uzun parlament).*

**Gömrük anbarı** – gətirilən malların saxlanc dövründə gömrük rüsumları, vergilər alınmadan və mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən onların gömrük nəzarəti altında saxlancından, ixrac gömrük rejiminə uyğun aparılması nəzərdə tutulan malların AR GM-ində nəzərdə tutulan güzəştlər verilməklə gömrük nəzarəti altında saxlancından ibarət gömrük rejimi (AR GM-in 40-cı maddəsi).

**Gömrük anklavı** – bir dövlətin ərazisində mövcud olan, digər dövlətin gömrük ərazisinin hissəsi hesab edilən ərazi.

**Gömrük baxışı** – dövlətin gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük orqanları tərəfindən faktiki yoxlanmasının həyata keçirilməsi; yüklərin yoxlanması.

**Gömrük bəyannaməsi** – gömrük nəzarəti üçün zəruri olan məlumatlar haqqında gömrük orqanlarına yazılı və ya şifahi bəyanetmə sənədi. Bəyanetmə müəyyən edilmiş formada (elektron cihazlar vasitəsilə) mallar və nəqliyyat vasitələri, onların gömrük rejimi haqqında və gömrük məqsədləri üçün lazım olan digər dəqiq məlumatların verilməsi yolu ilə həyata keçirilir. Mallar onların gömrük rəsmiləşdirilməsini həyata keçirən Azərbaycan Respublikasının gömrük orqanlarına bəyan edilir.

**Gömrük brokeri** – Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq yaradılan və gömrük işi sahəsində müəyyən haqq almaqla vasitəçilik edən hüquqi şəxs.

**Gömrük buraxılışı** – Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən malların və ya nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsindən sonra şəxsin tam sərəncamına verilməsi.

**Gömrük daşıyıcısı** – Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq yaradılmış və Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyətindən gömrük daşıyıcısı kimi fəaliyyət göstərmək üçün lisenziya almış hüquqi şəxs olan müəssisə.

**Gömrük dəyəri** – Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq g.d.-nin müəyyən edilməsi (malların dəyərinin müəyyənləşdirilməsi) gömrük qiymətlərinin beynəlxalq təcrübəsində qəbul edilmiş prisiplərinə əsaslanır və Azər-

baycan Respublikasının gömrük ərazisinə gətirilən mallara şamil olunur. Malların gömrük qiyməti sisteminin tətbiqi qaydası Azərbaycan Respublikasının gömrük tarifi haqqında qanunvericiliyinin müddəaları əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

**Gömrük ərazisi** – gömrük qanunvericiliyinin tam həcmdə tətbiq edildiyi müvafiq dövlətin ərazisi. Azərbaycan Respublikasının g.ə. Azərbaycan Respublikasının quru ərazisindən, ərazi və daxili suların və həmin ərazilər üzərindəki hava məkanından ibarətdir.

**Gömrük ərazisində malların emalı** – ixrac gömrük rejiminə uyğun olaraq emal məhsullarının Azərbaycan Respublikası gömrük ərazisinin hüdudlarından kənara aparılması şərtilə, iqtisadi siyasət tədbirləri tətbiq edilmədən və idxal gömrük rüsumları və vergilər qaytarılmaqla, xarici malların Azərbaycan Respublikası gömrük ərazisində müəyyən olunmuş qaydada emalı üçün istifadə edilməsindən ibarət olan gömrük rejimi.

**Gömrük ərazisindən kənarda malların emalı** – Azərbaycan mallarını iqtisadi siyasət tədbirləri tətbiq edilmədən ixrac edib, onlardan Azərbaycan Respublikasının gömrük ərazisindən kənarda emal üçün istifadə edilməsindən və sonra emal məhsullarının, tamamilə və ya qismən gömrük rüsumlarından, vergilərdən azad etməklə və onlara iqtisadi siyasət tədbirləri tətbiq etmədən, bu məhsulların Azərbaycan Respublikasının gömrük ərazisində sərbəst dövriyyə üçün buraxılışından ibarət olan gömrük rejimi.

**Gömrük fakturası** – kommersiya fakturasına əlavə edilən və importçu ölkələrin gömrük orqanlarına təqdim olunan xüsusi hesab. Müəyyən olunmuş standart formada doldurulur. G.f. özündə kommersiya fakturasına əlavələrə dair məlumatları ehtiva edir.

**Gömrük gəlirləri** – gömrük qaydalarına görə pul vəsaitlərinin dövlət büdcəsinin gəlir maddəsinə daxil olması. G.g. malların gömrük dəyəri nəticəsində yaranır və o, gömrük rüsumlarından, gömrük ödənişlərindən, cərimələrdən və gömrük orqanları tərəfindən müsadirə edilmiş malların (əmlakın) realizəsindən əldə olunan vəsaitdən ibarətdir.

**Gömrük güzəştləri** – malların, qiymətli sərvətlərin, şəxsi əşyaların və digər predmetlərin aparılması, gətirilməsi və ya tranzit zamanı hüquqi və fiziki şəxslərə verilən üstünlüklər. G.g. ümumtətbiqedici gömrük rejimindən edilən istisnalar kimi təzahür edirlər. G.g.-nin iki növü fərqləndirilir: 1) əsasını beynəlxalq müqavilələrin təşkil etdiyi konvensiyalı g.g.; 2) birtərəfli qaydada müvafiq dövlət tərəfindən müəyyən edilən birtərəfli g.g. Diplomatik əlaqələr haqqında 1961-ci il Vena konvensiyasında nəzərdə tutulan üstünlükləri konvensiyalı g.g.-nə misal göstərmək olar.

**Gömrük hərracı** – Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən götürülmüş malların açıq ticarəti şəklində reallaşdırılmasının xüsusi qaydası.

**Gömrük hüquq pozuntuları** *(bax: gömrük işi sahəsində cinayətlər).*

**Gömrükxana** *(bax: gömrük orqanları).*

**Gömrük xidməti** – **1)** gömrük orqanlarında həyata keçirilən dövlət xidmətinin tərkib hissəsi. Bu xidmətin gömrük orqanlarında həyata keçirilməsi qaydası Azərbaycan Respublikasının gömrük qanunvericiliyi ilə tənzimlənir; **2)** geniş mənada gömrük işinin həyata keçirilməsində bilavasitə iştirak edən gömrük orqanlarının, habelə sair orqan və təşkilatların, onların həlqə və strukturlarının, gömrük orqanları vəzifəli şəxslərinin hüquqi statusuna dair qaydaların məcmusu.

**Gömrük ilkin əməliyyatları** – malların və nəqliyyat vasitələrinin əsas gömrük rəsmiləşdirilməsi və müəyyən gömrük rejimi altında yerləşdirilməsinə qədər gömrük işinə olan bütün ilkin hərəkətlər. İlkin əməliyyatlar malların və nəqliyyat vasitələrinin əsas gömrük rəsmiləşdirilməsinin və onların müəyyən gömrük rejimi altında yerləşdirilməsinin asanlaşdırılmasına və tezləşdirilməsinə xidmət edir.

**Gömrük işi** – AR GM-in 1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının gömrük işini malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinin qaydaları və şərtləri, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələri təşkil edir.

**Gömrük işi sahəsində cinayətlər** – AR CM-in 206, 207 və 209-cu maddələrində nəzərdə tutulan ictimai təhlükəli əməllər. G.i.s.c.-ə qaçaqmalçılıq (AR CM-in 206-cı maddəsi), Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların Azərbaycan Respublikasının ərazisinə qaytarılmaması (207-ci maddəsi), gömrük ödənişlərinin ödənilməsindən yayınma (209-cu maddə) ilə əlaqədar olan sair əməllər aid edilir. Bu cinayətkar əməllər Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə uyğun cəzalandırılır.

**Gömrük ittifaqı** – dövlətlərarası birlik; belə birlik çərçivəsində malların daşınması üçün tariflər əhəmiyyətli dərəcədə aşağı salınır. G.i.-nın iştirakçısı olan dövlətlərin hamısı üçün eyni olan ümumi gömrük tarifi müəyyən edilir.

**Gömrük kvotası** – müəyyən dövlətlərə və ya dövlətlər qrupuna idxal və ya ixrac olunan mallara dəyər və kəmiyyət hədlərinin tətbiq edilməsi.

**Gömrük qısa bəyannaməsi** – Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə görə mallar və nəqliyyat vasitələri gömrük rejimi altında yerləşdirilənədək tətbiq edilən bəyannamə (AR GM-in 141-ci maddəsinin 1-ci hissəsi). Qısa bəyannamənin *formasını* və orada göstərilməli olan məlumatların siyahısını Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı müəyyən edir. Qısa bəyannamə daşıyıcı tərəfindən mallar və nəqliyyat vasitələrinin təqdim edilməsi ilə eyni vaxtda, yaxud Azərbaycan Respublikası gömrük orqanının icazəsi ilə mallar və nəqliyyat vasitələrinin təqdim edildiyi gündən sonrakı növbəti iş günündən gec olmayaraq verilir.

**Gömrük laboratoriyaları** – gömrük məqsədlərindən ötrü malların ekspertizasının və tədqiqatlarının aparılması üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində yaradılan laboratoriyalar.

**Gömrüklər** – müvafiq dövlət orqanlarının müəyyən funksiyaları icra edərkən qanunvericilikdə göstərilən məbləğdə tutduqları pul rüsumları. Qeydiyyat və gerb

rüsumları, poçt, məhkəmə və vərəsəlik gömrükləri daha geniş yayılmışdır. Dövlət gömrükləri yerli büdcələrin nəfinə keçirilir.

**Gömrük Məcəlləsi** – Azərbaycan Respublikasının sistemləşdirilmiş qanunvericilik aktlarından (məcəllələrindən) biri. Gömrük Məcəlləsi gömrük işinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən, Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin, suverenliyinin və maraqlarının qorunmasına, Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatı ilə əlaqələrinin genişlənməsinə, gömrük işi sahəsində təsərrüfat subyektlərinin, fiziki şəxslərin və dövlət orqanlarının hüquqlarının müdafiəsinin təmin olunmasına, onların öz vəzifələrini yerinə yetirmələrinə yönələn qanunvericilik aktıdır. Məcəllə 10 iyun 1997-ci il tarixdə qəbul olunmuş, ona indiyə qədər 17 əlavə və dəyişikliklər edilmişdir.

**Gömrük müayinəsi** *(bax: gömrük baxışı).*

**Gömrük müşayiətedici sənədi** – gömrük yükünün bir gömrük idarəsindən digərinə göndərildiyi (daşındığı) halda tərtib edilən sənəd.

**Gömrük müvəkkili** – gömrük orqanının (gömrükxananın) vəzifəli şəxsi; nəqliyyat vasitələri, mallar və sair əmlaklar üzərində dövlət gömrük nəzarətini həyata keçirir və belə nəzarəti təşkil edir. G.m. gömrük nəzarətini eksporta mal göndərən idarə və birliklərdə də həyata keçirir.

**Gömrük nəzarəti** – gömrük işi haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə, həmçinin icrasına nəzarət Azərbayan Respublikasının gömrük orqanlarına həvalə edilmiş, Azərbaycan Respublikasının digər qanunvericiliyinə və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə riayət edilməsini təmin etmək məqsədi ilə həyata keçirilən tədbirlər sistemi (toplusu).

**Gömrük nəzarəti altında malların emalı** – Azərbaycan Respublikasının gömrük ərazisində xarici mallardan gömrük rüsumları və vergilər alınmadan, həmçinin onlara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən müəyyən edilmiş qaydada gömrük nəzarəti altında istifadə edilməsi və sonradan emal məhsullarının sərbəst dövriyyə üçün buraxılışı və ya digər gömrük rejimi altında yerləşdirilməsindən ibarət olan gömrük rejimi.

**Gömrük nəzarəti altında olma müddəti** – Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə görə mallar və nəqliyyat vasitələri, gömrük nəzarətinin başlandığı andan gömrük rejiminə uyğun olaraq, gömrük nəzarəti başa çatanadək gömrük nəzarəti altında yerləşir (AR GM-in 188-ci maddəsinin 1-ci hissəsi). Gətirmə zamanı gömrük nəzarəti mallar və nəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük sərhədini keçdiyi andan başlayır. Aparma zamanı isə gömrük nəzarəti gömrük bəyannaməsi qəbul edildiyi andan başlanır. AR GM-ində nəzərdə tutulmuş hallar istisna olmaqla, mallar və nəqliyyat vasitələri buraxıldığı andan gömrük nəzarəti başa çatır. Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılan mallar və nəqliyyat vasitələri buraxılarkən onlar Azərbaycan Respublikasının gömrük sərhədini keçdiyi andan gömrük nəzarəti başa çatır.

**Gömrük nəzarəti zonaları** – gömrük qanunvericiliyinə görə Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının gömrük sərhədi boyunca, gömrük rəsmiləşdirilməsi yerlərində, Azərbaycan Respublikası gömrük orqanlarının olduğu yerlərdə və Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanının müəyyən etdiyi digər yerlərdə gömrük nəzarəti zonaları yaradılır və rejim qaydaları müəyyən edilir. G.n.z.-nın yaradılması və onların nişanlanması qaydalarını Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı müəyyən edir. Azərbaycan Respublikasının qanunvericilik aktlarında bilavasitə nəzərdə tutulan hallar istisna olmaqla, istehsalat və digər kommersiya fəaliyyətinin həyata keçirilməsinə, bu zonalardan malların, nəqliyyat vasitələrinin, hüquqi və fiziki şəxslərin, o cümlədən digər dövlət orqanlarının vəzifəli şəxslərinin belə zonaların sərhədini keçməsinə və bu zonaların daxilində hərəkətinə yalnız Azərbaycan Respublikası gömrük orqanlarının icazəsi ilə və onların nəzarəti altında yol verilir (AR GM-in 178-ci maddəsi).

**Gömrük orqanları** – hüquq-mühafizə işini həyata keçirən gömrük orqanları, bu orqanların vahid sistemi. Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı haqqında əsasnamə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. G.o. bu əsasnaməyə uyğun fəaliyyət göstərirlər. Azərbaycan Respublikası gömrük orqanlarının vahid sisteminin müəyyən olunması, gömrük orqanlarının yaradılması, yenidən təşkili və ləğv edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**Gömrük ödənişləri** – müəyyən olunmuş qaydada Azərbaycan Respublikası gömrük orqanları tərəfindən alınan gömrük rüsumları, vergilər, gömrük yığımları, hüquqi və fiziki şəxslərə gömrük fəaliyyəti üçün lisenziyaların verilməsinə görə alınan yığımlar, haqlar və digər ödənişlər.

**Gömrük ödənişlərinin ödənilməsindən yayınma** – iqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərin bir növü. AR CM-in 209-cu maddəsində nəzərdə tutulmuşdur. Xeyli miqdarda gömrük ödənişlərinin ödənilməsindən yayınmada ifadə olunur.

**Gömrük postu** – Azərbaycan Respublikası gömrük orqanlarının bölməsi; müəyyən məntəqədə və ya konkret ərazidə gömrük rəsmiləşdirilməsini və gömrük nəzarətini həyyata keçirir. Gömrükdən (gömrükxanadan) fərqli olaraq g.p. hüquqi şəxs hüquqlarına malik deyil. Başqa sözlə, g.p. gömrük idarəsinin struktur bölməsidir və o, gömrük idarəsinin yurisdiksiyası altına düşən ərazidə yerləşir.

**Gömrük rejimi** – gömrük məqsədləri üçün Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin statusunu müəyyən edən müddəaların məcmusu.

**Gömrük rəsmiləşdirilməsi** – AR GM-in müddəalarına və tələblərinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin müəyyən gömrük rejimi altında yerləşdirilməsi qaydası və bu rejimin fəaliyyətinin başa çatması.

**Gömrük rəsmi nişanı** – rəqəm və (və ya) hərflərin, habelə ad və rəmzlərin nəqliyyat vasitələrinin və malların görünən yerlərində kombinasiyalaşdırılması ilə əlaqədar səlahiyyətli orqanlar tərəfindən təsdiq edilən və qeydiyyatdan keçirilən nişanı; yüklərin eyniləşdirilməsi gömrük nəzarəti məqsədlərinə xidmət edir.

**Gömrük rüsumları** – Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə malların idxalı və ixracı zamanı alınan ödənişlər.

**Gömrük sərhədi** – Azərbaycan Respublikasının quru ərazisindən, daxili sulardan, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən (o cümlədən onda yerləşən adalar, süni adalar, qurğular və tikililər) və onların üzərindəki hava məkanından ibarət olan sərhəd. Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudları, həmçinin sərbəst gömrük zonalarının və sərbəst anbarların predmetləri Azərbaycan Respublikasının gömrük sərhədidir.

**Gömrük sistemi** – ancaq gömrük siyasətinin realizi edilməsini təmin edən dövlət strukturlarını və sair strukturları deyil, həm də onların fəaliyyətinin təcrübi formalarını və gömrük qanunvericiliyini əhatə edən ən ümumi və tutumlu anlayış.

**Gömrük siyasəti** – Azərbaycan Respublikasında dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi. Azərbaycan Respublikasında g.s.-nin məqsədi aşağıdakılardan ibarətdir: 1) Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin tənzimlənməsi vasitələrindən daha səmərəli istifadənin təmin edilməsi; 2) Azərbaycan Respublikasının daxili bazarının qorunması; 3) milli iqtisadiyyatın inkişafının stimullaşdırılması; 4) Azərbaycan dövlətinin iqtisadi siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə kömək edilməsi; 5) Azərbaycan Respublikasının Konstitusiyasına, AR GM-ə və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq müəyyən edilən digər məqsədlər.



**Gömrük statistikası** – gömrük qanunvericiliyinə görə ali dövlət hakimiyyəti orqanlarının və Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş digər dövlət orqanlarının Azərbaycan Respublikası xarici iqtisadi fəaliyyətin vəziyyəti barədə məlumatla təmin edilməsi, valyuta nəzarəti, həmçinin dövlət büdcəsinə gömrük ödənişlərinin daxil olmasına nəzarət edilməsi, Azərbaycan Respublikası xarici ticarətinin vəziyyəti və inkişafının təhlili məqsədilə Azərbaycan Respublikası gömrük orqanları malların gömrük sərhədindən keçirilməsi barədə məlumatları toplayır, sistemləşdirir və gömrük statistikası məlumatlarının lazımi orqanlara təqdim edilməsini tənzim edir. G.s. aparılarkən məlumatların, beynəlxalq məlumatlarla və Azərbaycan Respublikasında istifadə olunan dövlət statistikası məlumatları ilə müqayisə olunmasını təmin edən metodologiyadan istifadə olunur (AR GM-in 206-cı maddəsi).

**Gömrük şərti buraxılışı** – malların və nəqliyyat vasitələrinin müəyyən olunmuş məhdudiyyətlərə, tələblərə və ya şərtlərə riayət edilməsi haqqında şəxsin öhdəliklə-ri ilə müşayiət olunan buraxılışı.

**Gömrük tarifi** – Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusu.

**"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında daxili bazarın xarici bazarda səmərəli əlaqəsini təmin etməklə xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tarifinin formalaşdırılması və tətbiqi, həmçinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçən mallardan rüsum tutulması qaydalarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 20 iyun 1995-ci il tarixdə qəbul olunmuş və indiyə qədər ona bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanun yeddi fəsil və 37 maddədən ibarətdir.





**Gömrük uniyası** – vahid gömrük tarifi olan iki və ya bir neçə dövlətin ümumi gömrük ərazisində birləşməsi *(həmçinin bax: gömrük ittifaqı).*

**Gömrük vergiləri** – alınması Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə olunmuş icbari ödənişlər.

**Göndərilən mallar üçün hesablaşmalar** – mülki qanunvericiliyə görə alıcı göndərilən malları göndərmə müqaviləsində nəzərdə tutulan hesablaşma qaydasını və formasını gözləməklə ödəyir. Əgər tərəflərin razılaşmasına hesablaşma qaydası və forması müəyyənləşdirilməmişdirsə, hesablaşmalar ödəniş tapşırıqları ilə həyata keçirilir (AR MM-in 637.1-ci maddəsi).

**Göndərmə müqaviləsi** – mülki-hüquqi müqavilənin bir növü. Bu müqaviləyə görə mal göndərən – sahibkarlıq fəaliyyətini həyata keçirən satıcı istehsal etdiyi və ya satın aldığı malları sahibkarlıq fəaliyyətində və ya şəxsi, ailə, ev və digər bu cür istifadə ilə bağlı olmayan başqa məqsədlər üçün istifadə edilməkdən ötrü şərtləşdirilmiş müddətdə və ya müddətlərdə alıcıya verməyi öhdəsinə götürür (AR MM-in 627.1-ci maddəsi).

**Göndərmə zamanı tara və qab** – mülki qanunvericiliyə görə, əgər göndərmə müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, alıcı (mal alan) malın göndərildiyi çoxdəfəlik taranı və paketləmə vasitələrini müqavilə ilə müəyyənləşdirilmiş qaydada və müddətlərdə qaytarmağa borcludur. Malın digər tərəfi, habelə qabı mal göndərənə yalnız müqavilədə nəzərdə tutulmuş hallarda qaytarılmalıdır (AR MM-in 638-ci maddəsi).

**Göyərtə yükü** – Azərbaycan Respublikasının ticarət gəmiçiliyi qanunvericiliyinə görə daşıyıcı yükü göyərtədə yalnız daşıyıcı ilə yükgöndərən arasında razılaşmaya əsasən daşıya bilər. Yükün göyərtədə daşınması barədə daşıyıcı ilə yükgöndərən arasında razılaşma olduqda, daşıyıcı bu barədə konosamentə və ya dənizlə yük daşıması müqaviləsinin olmasını təsdiq edən digər sənəddə qeyd aparılmalıdır. Belə qeyd olmadıqda daşıyıcı yükün göyərtədə daşınması barədə yükgöndərənə razılaşmaya gəldiklərini sübut etməlidir. Lakin daşıyıcı konosamenti vicdanla əldə edən şəxsə, o cümlədən yükalana münasibətdə belə üçüncü şəxsə münasibətdə razılaşmaya istinad edə bilməz (AR TGM-in 105-ci maddəsi).

**Gözətçi (növbətçi)** – tapşırılmış postun mühafizəsi və qorunması üzrə hərbi vəzifəni yerinə yetirən silahlı qarovul.

**Gözlənilən pensiya ödənişi müddəti** – "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli qanununun məqsədləri üçün müəyyən edilən və əmək pensiyasının sığorta və yığım hissələrinin hesablanmasında istifadə olunan göstərici.

**Güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi** – narkotik vasitələrin və psi-

xotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olan cinayətlərin bir növü. AR CM-in 240-cı maddəsində nəzərdə tutulmuşdur. Narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədi ilə qanunsuz hazırlamada, emal etmədə, əldə etmədə, saxlamada, daşıma və ya göndərmədə, habelə bu maddələri və ya onları hazırlamaqda, yaxud emal etmək üçün avadanlığı qanunsuz satmada ifadə olunur.

**Gülüstan müqaviləsi** – 1813-cü il oktyabrın 24-də (noyabrın 5-də) Gülüstan kəndində Azərbaycanı ikiyə parçalamaq məqsədi ilə çar Rusiyası ilə İran arasında bağlanmış müqavilə. Müqavilə 1824-cü il sentyabrın 15-dən qüvvəyə minmişdir. Rusiya ilə İran arasında sülh müqaviləsinin bağlanması əslində Azərbaycanın cənub hissəsinin İranın ərazisinə keçməsi, Şimali Azərbaycanın isə zorla Rusiyaya qatılması demək idi.

**Gümüş valyuta** – tədavüldə olan tam dəyərli gümüş sikkə, yaxud bilavasitə gümüşə dəyişdirilən pul vahidi.

**Güzəşt** – hər hansı şəxsə üstünlük vermək, onu müəyyən olunmuş qaydaları,vəzifələri yerinə yetirməkdən qismən azad etmək (məsələn, vergi, təqaüd güzəştləri və i.a.), yaxud yerinə yetirmək şərtlərini yüngülləşdirmək.





# -H-


Haaqa konvensiyaları ........ 445
Habeas korpus aktı ........ 445
Hacib ........ 445
Hadisə ........ 445
Hadisə yerinin müayinəsi ........ 445
Haker ........ 445
Hakim ........ 445
Hakimə etiraz etmə ........ 446
Hakimiyyət ........ 446
Hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə ........ 446
Hakimiyyətin mənimsənilməsinə yol verilməməsi ........ 447
Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama ........ 447
Hakimiyyətlərin bölgüsü ........ 447
Hakimiyyət nümayəndəsi ........ 447
Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə ........ 447
Hakimlərin intizam məsuliyyəti ........ 447
Hakimlərin müstəqilliyi ........ 447
Hakimlərin müşavirə sirri ........ 448
Hakimlərin toxunulmazlığı ........ 448
Haqlılıq ........ 448
Haqsız işgüzarlıq davranışı ........ 448
Haqsız rəqabət ........ 449
"Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının qanunu ........ 449
Haqsız sahibkarlıq fəaliyyəti ........ 449
Hal şahidləri ........ 449
Hamilə qadının və ya himayəsində üç yaşınadək uşağı olan qadının hüquqlarını pozma ........ 449
Hamiləlik ........ 449
"Hammurapi Qanunları" ........ 449
Haram ........ 450
Hauptvaxt ........ 450
Hava daşımaları ........ 450
Hava daşıması haqqında müqavilə ........ 450
Hava əlaqələri ........ 450
Hava ərazisi ........ 450
Hava gəmisi ........ 451
Hava gəmisinin ekipajı ........ 451
Hava gəmisinin istismarçısı ........ 451
Hava gəmisinin kapitanı (komanda verən pilotu) ........ 451
Hava gəmisinin sahibi ........ 451
Hava hərəkəti ........ 451
Hava hərəkətinə xidmət ........ 451
Hava hərəkətinin idarə edilməsi (hava hərəkətinə dispetçer xidmətinin göstərilməsi) ........ 451
Hava hüququ ........ 451
Hava qanunvericiliyi ........ 451
Hava limanı ........ 451
Hava məkanı ........ 451
Hava sərhədi ........ 452
Hava sığortası ........ 452
Hava və ya su nəqliyyatı gəmisini, yaxud dəmir yolu qatarını qaçırma ........ 452
Hayrinq ........ 452
Hec ........ 452
Hecer ........ 452
Hecləşdirmə ........ 452
Hegemonçuluq ........ 452
Hemblinq ........ 452
Hereditas ........ 452
Hereditas fidekomissalar ........ 452
Hersoq ........ 452
Her T. metodu ........ 453
Hesabat verən şəxs ........ 453
Hesab-faktura ........ 453

Hesabın aksepti ........ 453
Hesablama komissiyası ........ 453
Hesablama məhkəməsi ........ 453
Hesablama palatası ........ 453
"Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunu ........ 453
Hesablaşma çeki ........ 453
Hesablaşma hesabı ........ 454
Hesablaşmalar ........ 454
Hesablaşmaların aksept forması ........ 454
Hesablaşma sənədləri ........ 454
Heyvanlar aləmi ........ 454
"Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının qanunu ........ 454
Heyvanlar aləmindən istifadə ........ 454
Heyvanlar aləminin mühafizəsi ........ 454
Həbs ........ 454
Həbs cəzası ........ 455
Həbsxana ........ 455
Həcz ........ 455
Həddi-büluğa çatmamışlar ........ 455
Hədd-islam ........ 455
Hədə-qorxu ilə tələb etmə ........ 455
Hədis ........ 455
Hədiyyənin restitusiyası ........ 455
Həkim-Əmək Ekspertizası (HƏE) ........ 456
Həkim-Əmək Ekspert Komissiyası (HƏEK) ........ 456
Həkimlik sirri ........ 456
Həkim-Məsləhət Komissiyası (HMK) ........ 456
Həmkarlar ittifaqları ........ 456
"Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının qanunu ........ 456
Hənbəli hüquq məktəbi ........ 456
Hənəfi hüquq məktəbi ........ 457
Hərbi bilet ........ 457
Hərbi canilər ........ 457
Hərbi casuslar ........ 457
Hərbi demokratiya ........ 457
Hərbi dövr ........ 457
Hərbi əməliyyat ........ 457
Hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə ........ 457
Hərbi əmlakı itirmə ........ 458
Hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə ........ 458
Hərbi əsir ........ 458
Hərbi fənd (biclik) ........ 458
Hərbi gəmi ........ 458
Hərbi gəmiləri idarəetmə qaydalarını pozma ........ 458
Hərbi-Həkim Komissiyası (HHK) ........ 458
Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə ........ 458
Hərbi hüquq ........ 459
Hərbi xidmət
"Hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikasının qanunu ........ 459
Hərbi xidmət əleyhinə olan cinayətlər ........ 459
"Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunu ........ 460
Hərbi xidmət keçməkdən boyun qaçırma ........ 460
Hərbi xidmət üzrə məhdudlaşdırma ........ 460
Hərbi idarə orqanları ........ 460
Hərbi intizam ........ 460
Hərbi kəşfiyyatçı ........ 460
Hərbi Kollegiya ........ 461
Hərbi komissarlıq ........ 461
Hərbi qulluqçular ........ 461
"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunu ........ 461
"Hərbi qulluqçuların maddi məsuliyyəti haqqında" əsasnamə ........ 461
"Hərbi qulluqçuların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının qanunu ........ 462
"Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının qanunu ........ 462
Hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə ........ 462
Hərbi məhkəmələrin aidiyyəti ........ 462
Hərbi mükəlləfiyyət (əsgəri mükəlləfiyyət) ........ 462
Hərbi nizamnamələr ........ 462
Hərbi nümayəndəlik ........ 463
Hərbi polis ........ 463
Hərbi Prokurorluq ........ 463
Hərbi-səhra məhkəmələri ........ 463





Hərbi sirr ........ 463
Hərbi soyğunçuluq ........ 463
Hərbi vəzifələr ........ 463
Hərbi vəzifəlilər ........ 464
Hərbi vəziyyət ........ 464
"Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunu ........ 464
Hərəkət ........ 464
Hərəkətsizlik ........ 464
Hərfi təsvir ........ 464
Hərrac ........ 464
Hərracçı ........ 464
Hərracın təşkili ........ 465
Hərrac qaydaları ........ 465
Hərrac qiyməti ........ 465
Hərrac ticarəti ........ 465
Həvalə qeydi ........ 465
Həyat sığortası müqaviləsi ........ 465
Himayəçilik ........ 465
Himn ........ 465
Hipnoz ........ 465
Hipoteka ........ 465
Hipoteza ........ 465
Holoskop ........ 466
"Hortenzi Qanunu" ........ 466
Hökm ........ 466
Hökmün icrası ........ 466
Hökmün konfirmasiyası ........ 466
Hökumət ........ 466
Hökumət başçısı ........ 467
Hökumət böhranı ........ 467
Hökumət koalisiyası ........ 467
Hökumətlərin hüquq varisliyi ........ 467
Humanitar hüquq ........ 467
Humanitar yardım ........ 467
Humanizm prinsipi ........ 467
Hüquq ........ 467
Hüquq ailəsi ........ 468
Hüquqçu ........ 469
Hüquqda boşluq ........ 469
Hüquq düşüncəsi ........ 469
Hüquq elmi (hüquqşünaslıq) ........ 469
Hüquq Elmləri Assosiasiyası (HEK) ........ 470
Hüquq fəlsəfəsi ........ 470
Hüquqi adət ........ 470
Hüquqi aktlar ........ 470
Hüquqi davranış ........ 470
Hüquqi dövlət ........ 470
Hüquqi dövlət nəzəriyyəsi ........ 470
Hüquqi ehkam ........ 471
Hüquqi əməl ........ 471
Hüquqi faktlar ........ 471
Hüquqi fors-major ........ 471
Hüquqi hadisə ........ 471
Hüquqi hərəkət ........ 471
Hüquqi idealizm ........ 471
Hüquqi kibernetika ........ 471
Hüquqi konstruksiyalar ........ 471
Hüquqi qayda ........ 471
Hüquqi məsuliyyət ........ 472
Hüquqi nihilizm ........ 472
Hüquq institutu ........ 472
Hüquqi psixologiya ........ 472
Hüquqi sistem ........ 472
Hüquqi statistika ........ 472
Hüquqi şəxs ........ 472
Hüquqi şəxsin adı ........ 473
Hüquqi şəxsin balansı ........ 473
Hüquqi şəxsin binalarının (otaqlarının) toxunulmazlığını pozma ........ 473
Hüquqi şəxsin hüquq qabiliyyəti ........ 473
Hüquqi şəxsin ləğvi ........ 473
Hüquqi şəxsin məsuliyyəti ........ 473
Hüquqi şəxsin nizamnaməsi ........ 474
Hüquqi şəxsin olduğu yer ........ 474
Hüquqi şəxsin orqanları ........ 474
Hüquqi şəxsin şəxsi qanunu ........ 474
Hüquqi şəxsin yaradılması ........ 474
Hüquqi şəxsin yenidən təşkili ........ 474
Hüquqi şəxslərin hüquq varisliyi ........ 474
Hüquqi şəxslərin ittifaqları ........ 474
Hüquqi texnika ........ 475
Hüquqi terminlər ........ 475
Hüquqi təcrübə ........ 475
Hüquqi tənzimetmə ........ 475
Hüquqi tənzimetmə metodu ........ 475
Hüquqi təsir ........ 476
Hüquqi ünvan ........ 476
Hüquqi vəzifə ........ 476

Hüquqi vəziyyət ........ 476
Hüquqi yardım (dövlətlər arasında) ........ 476
Hüquq qabiliyyəti ........ 476
Hüquq qaydası ........ 476
Hüquq mədəniyyəti ........ 477
Hüquq məsləhətçisi ........ 477
Hüquq məsləhətxanası ........ 477
Hüquq-mühafizə orqanları ........ 477
Hüquq münasibətləri ........ 477
Hüquq norması ........ 477
Hüquq pozuntusu ........ 478
Hüquq sahəsi ........ 478
Hüquq sistemi ........ 478
Hüquq subyektliliyi ........ 478
Hüquqşünas ........ 478
Hüquqşünaslıq ........ 478
Hüququn analogiyası ........ 478
Hüququn əlamətləri ........ 479
Hüququn formaları ........ 479
Hüququn funksiyaları ........ 479
Hüququn kolliziyası ........ 479
Hüququn mənbələri ........ 479
Hüququn obyekti ........ 479
Hüququn resepsiyası ........ 479
Hüququn sistemi ........ 479
Hüququn sosiologiyası ........ 480
Hüququn subyekti ........ 480
Hüququn tətbiqi ........ 480
Hüququ tətbiqetmə aktları ........ 480
Hüququ tətbiqetmə təcrübəsi ........ 481
Hüquq varisliyi ........ 481
Hüquqyaratma ........ 481








**Haaqa konvensiyaları** – **1)** müharibə qanunları və adətləri haqqında beynəlxalq konvensiyalar. Bu beynəlxalq sənədlər 1899-cu və 1907-ci illərdə 1-ci və 2-ci Haaqa konfranslarında qəbul edilmişdir. 1899-cu il 1-ci Haaqa konfransında 3 konvensiya qəbul edilmişdi – beynəlxalq toqquşmaların dinc yolla həlli haqqında; quruda müharibə aparılması qanunları və adətləri haqqında; Cenevrə konvensiyalarının (1864-cü il 10 avqust) dəniz müharibəsinə tətbiq edilməsi haqqında. 1907-ci ildə 2-ci Haaqa konfransında 13 konvensiya qəbul edilmişdir: 1) beynəlxalq toqquşmaların dinc yolla həlli; 2) quruda müharibə aparılması qanunları və adətləri; 3) quruda müharibə aparılan zaman bitərəf dövlətlərin və şəxslərin hüquq və vəzifələri; 4) hərbi əməliyyatlar başlanan zaman düşmən ticarət gəmilərinin vəziyyəti; 5) hərbi ticarət gəmilərinin hərbi gəmilərə çevrilməsi; 6) müharibə zamanı bitərəf dövlətlərin hüquq və vəzifələri haqqında və i.a.; **2)** beynəlxalq xüsusi hüquq sahəsində konvensiyalar (1902-1905-ci illər, 1951-ci və 1956-cı illərdə qəbul edilmişdir). 1902-1905-ci illər Haaqa konvensiyalarını (nikah haqqında, boşanma və ər-arvadın məhkəmə yolu ilə ayrılması haqqında, yetkinlik yaşına çatmayanların üzərində himayəçilik haqqında və i.a.) yalnız bir sıra Avropa dövlətləri təsdiq etmiş və Birinci dünya müharibəsinin başlanması ilə onlar da öz qüvvəsini itirmişdir.

**Habeas korpus aktı** *(Habeas Corpus Act)* – Böyük Britaniyada əsas konstitusiya aktlarından biri. H.k.a. 1679-cu ildə qəbul edilmişdir. Bu akt müqəssiri həbs etmə və məhkəməyə cəlb etmə qaydalarını müəyyən edirdi. H.k.a.-na görə tutulub saxlanması qanunsuz hesab edilən şəxsin özünün və ya onun nümayəndəsinin bunun səbəblərinin aydınlaşdırılması üçün yuxarı hakimlər instansiyasına müraciət etmək hüququ var idi. H.k.a. mütərəqqi hadisə olsa da, o dövrdə demokratiyanın bəzi institutları kimi məhdud səciyyə daşımışdır.

**Hacib** *(ərəb. xidmətçi, qapıçı, kamerger)* – orta əsrlərdə Yaxın Şərq ölkələrində sarayda ən yüksək vəzifələrdən biri. H. saray mərasimlərinin təşkilində mühüm rol oynamışdır.

**Hadisə** *(bax: hüquqi hadisə).*

**Hadisə yerinin müayinəsi** – cinayətin izlərini və digər maddi sübutları tapmaq, götürmək, cinayətin törədilməsi şəraitini, habelə onun açılması üçün əhəmiyyəti olan başqa halların aydınlaşdırılması məqsədi ilə həyata keçirilən istintaq hərəkəti. H.y.m. müstəqil və təxirəsalınmaz istintaq hərəkətidir. Bu hərəkətin səciyyəvi xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o, cinayət işi başlamadan əvvəl də aparıla bilər. Müayinəyə cəlb edilən obyektlərdən asılı olaraq onun aşağıdakı növləri vardır: a) hadisə yerinin müayinəsi; b) predmetlərin müayinəsi; c) sənədlərin müayinəsi; ç) meyitin tapıldığı yerdə onun xarici müayinəsi; d) bilavasitə hadisə yeri olmayan ayrı-ayrı yerlərin müayinəsi; e) heyvanların müayinəsi.

**Haker** *(ing. hasker)* – informatika sferasında müxtəlif növ qanunsuz hərəkətlər edən şəxs. Belə halda h. informasiya almaq, proqram məhsullarında müdafiəni qanunsuz çıxarmaq məqsədi ilə özgənin kompyuter şəbəkəsinə qanunsuz olaraq daxil olur.

**Hakim** – Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həmin vəzifəyə təyin edilmiş şəxs (məhkəmənin sədri, onun müavini, kolle-

giyanın sədri və ya birinci apellyasiya, yaxud kassasiya instansiyası məhkəməsinin hakimi). Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinə əsasən yaşı 30-dan aşağı olmayan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilər. Hakim heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməz, siyasi fəaliyyətlə məşğul ola bilməz. Azərbaycan Respublikasında hakimlərin statusu "Məhkəmələr və hakimlər haqqında" qanunla tənzimlənir.

**Hakimə etiraz etmə** – hakimin işə baxmaqdan kənar edilməsi. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə görə h.e.e. o halda əsaslı sayıla və şərtsiz təmin edilə bilər ki, hər hansı şəxsin cinayət prosesində hakim qismində iştirakını istisna edən aşağıdakı hallardan heç olmasa biri olsun: 1) şəxs hakim vəzifəsinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təyin edilmədikdə; 2) hakim Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun müvafiq cinayət işinə və ya cinayət təqibi ilə bağlı digər materiala baxılması üçün lazımi səlahiyyətlərə malik olmadıqda; 3) hakim həmin cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh və ya onların qanuni nümayəndəsi, yaxud nümayəndəsi olduqda; 4) hakim həmin cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə şahid qismində dindirildikdə və ya dindirilə bilərsə; 5) hakim həmin cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hal şahidi, məhkəmə iclas katibi, tərcüməçi, mütəxəssis, yaxud ekspert qismində əvvəllər iştirak etdikdə; 6) hakim birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsində, həmçinin yeni açılmış hallar üzrə həmin həmin cinayət işinin və ya cinayət təqibi ilə bağlı digər materialın baxılmasında hakim *qismində iştirak etdikdə;* 7) hakim ittiham və ya müdafiə tərəfindən cinayət prosesinin istənilən iştirakçısı ilə, habelə belə iştirakçının qanuni nümayəndəsi ilə qohumluq və ya şəxsi asılılıq münasibətində olduqda; 8) hakimin cinayət təqibi ilə birbaşa və ya dolayı yolla maraqlı olmasına əsaslar olduqda, habelə onun qərəzsizliyinə şübhə olduğu digər hallarda.

**Hakimiyyət** – öz iradəsinə tabe etmək, başqalarının hərəkətlərini idarə etmək, yaxud onlara sərəncam vermək imkanına malik olan nüfuz. İnsan cəmiyyətinin yaranması ilə meydana gəlmiş h. həmişə müxtəlif formalarda müşayiət olunmuşdur. "H." termini müxtəlif forma və aspektlərdə işlədilir. Məsələn, valideyn (adətən, ata) hakimiyyəti, dövlət hakimiyyəti (bura adətən qanunvericilik, icra və məhkəmə hakimiyyəti aid edilir), siyasi hakimiyyət və i.a.

**Hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə** – Hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 341-ci maddəsində nəzərdə tutulmuşdur. Rəisin və ya vəzifəli şəxsin hakimiyyətdən və ya öz qulluq mövqeyindən sui-istifadə etməsində, hakimiyyət həddini və ya qulluq səlahiyyətini aşmasında, hakimiyyətdən qəsdən istifadə etməməsində ifadə olunur.







**Hakimiyyətin mənimsənilməsinə yol verilməməsi** – konstitusiya prinsiplərindən biri. Azərbaycan Respublikası Konstitusiyasının 6-cı maddəsinə əsasən Azərbaycan xalqının heç *bir hissəsi, sosial* qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

**Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama** – dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 278-ci maddəsində nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərdə ifadə olunur.

**Hakimiyyətlərin bölgüsü** – vahid dövlət hakimiyyətinin bir-birindən asılı olmayan və qanunla ona verilmiş hakimiyyət səlahiyyətini müstəqil surətdə həyata keçirən dövlət orqanlarının (qanunvericilik, icra və məhkəmə hakimiyyətinin) funksiyalarının bölgüsü prinsipi. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin III hissəsinə əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölgüsü prinsipi əsasında təşkil edilir: qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi, icra hakimiyyətini Azərbaycan Respublikasının Prezidenti, məhkəmə hakimiyyətini isə Azərbaycan Respublikasının məhkəmələri həyata keçirirlər.

**Hakimiyyət nümayəndəsi** – hüquqa görə dövlət hakimiyyəti, yaxud dövlət idarəçiliyi orqanlarının funksiyasını həyata keçirən vəzifəli şəxs. H.n. vətəndaşlara, idarə və təşkilatlara icrası məcburi olan göstərişlər verə bilər. Belə səlahiyyət, məsələn, polis orqanları, dövlət sanitariya müfəttişliyi, vergi müfəttişliyi, dövlət yanğın nəzarəti orqanları işçilərinə verilmişdir. H.n. müəyyən hallarda məcburiyyət tədbirləri də tətbiq edə bilər. H.n. qanunlara ciddi riayət etməklə öz səlahiyyətləri daxilində hərəkət etməlidir.

**Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə** – idarəetmə qaydası əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 315-ci maddəsində nəzərdə tutulmuşdur. Xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə zor tətbiq etmə, zor tətbiq etməklə müqavimət göstərmədə və ya onun yaxın qohumlarına qarşı həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə və ya belə zor tətbiq etmə hədəsi ilə hədələmədə ifadə olunur.

**Hakimlərin intizam məsuliyyəti** – hakimlər barəsində tətbiq edilən tədbirlərin bir növü. Hakimlər yalnız aşağıdakı əsaslara görə intizam məsuliyyətinə cəlb edilə bilərlər: a) işlərə baxarkən qanunvericiliyin tələblərini kobudcasına pozduqda; b) məhkəmə etikasını pozduqda; c) əmək intizamını kobudcasına pozduqda; ç) hakim adına ləkə gətirən ləyaqətsiz hərəkətə yol verdikdə.

**Hakimlərin müstəqilliyi** – ədalət mühakiməsinin konstitusiya prinsiplərindən biri. Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinə əsasən hakimlər müstəqildir, yalnız Azərbaycan Respubli-

kasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar. Hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə hakimiyyətinə məhdudiyyət qoyulması, qanunazidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir.

**Hakimlərin müşavirə sirri** – prosessual hüquqda qanuni, əsaslı hökm və ya qətnamə çıxarılmasının mühüm şərti, hakimlərin müstəqilliyi və ancaq qanuna tabe olmalarının təminatı. Hökm və ya qətnamə məhkəmə tərəfindən müşavirə otağında çıxarılır. Müşavirə otağında hakimlərin müşavirəsi zamanı yalnız həmin iş üzrə məhkəmə tərkibinə daxil olan hakimlər ola bilər. Başqa şəxslərin (məsələn, ehtiyat andlı iclasçıların, məhkəmə iclas katibinin və i.a.) orada olmasına yol verilmir. Hökmlə yanaşı, qanunla nəzərdə tutulan hallarda müvafiq qərardadların da müşavirə otağında çıxarılması hakimlərin müşavirə sirri anlayışına daxildir. Hökm (qətnamə) çıxarılarkən hakimlərin müşavirə sirrinin pozulması hökmün (qətnamənin) şərtsiz ləğv edilməsinə səbəb olur.

**Hakimlərin toxunulmazlığı** – səlahiyyət müddəti ərzində hakimlərin şəxsiyyətinin, şərəf və ləyaqətinin qanunla qorunması. Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinə əsasən hakimlər toxunulmazdır. Hakim cinayət məsuliyyətinə yalnız qanunda nəzərdə tutulan qaydada cəlb oluna bilər. Hakimlərin səlahiyyətlərinə yalnız qanunda nəzərdə tutulmuş əsaslarla və qaydalara müvafiq surətdə xitam verilə bilər. Hakimlərin vəzifədən kənarlaşdırılması təşəbbüsünü hakimlər cinayət törətdikdə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Ali Məhkəməsinin rəyi əsasında Azərbaycan Respublikasının Milli Məclisi qarşısında irəli sürə bilər. Müvafiq rəyi Azərbaycan Respublikasının Ali Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin sorğusundan 30 gün müddətində təqdim etməlidir. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının İqtisad Məhkəməsi hakimlərinin işdən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikasının Milli Məclisində 83 səs çoxluğu ilə qəbul edilir; başqa hakimlərin işdən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikasının Milli Məclisində 63 səs çoxluğu ilə qəbul edilir.

**Haqlılıq** – insanın cəmiyyətə, başqa insanlara müəyyən əxlaqi (həmçinin hüquqi, siyasi və i.a.) münasibətini bildirən vəziyyət (hal).

**Haqsız işgüzarlıq davranışı** – haqsız rəqabətin formalarından biri. İşgüzarlıq davranışı sahəsində aşağıdakı hərəkətlərə yol verilmir: a) müəyyən vaxt ərzində rəqabət və ya onun müəyyən formasından əl çəkmək haqqında tərəf müqabili ilə (kontragentlə) bağlanmış və bazar subyektlərinin təsərrüfat fəaliyyətinə ciddi məhdudiyyətlər yaratmayan sazişin pozulması; b) rəqibin işgüzarlıq əlaqələrini pozmaq məqsədilə digər bazar subyektlərinə əsassız çağırışlar (müraciətlər) edilməsi və belə əlaqələrin yaradılmasına maneçilik törədilməsi.





**Haqsız rəqabət** – bazar subyektinin sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər bazar subyektlərinə (rəqiblərinə) zərər vura bilən, yaxud onların işgüzarlıq nüfuzuna xələl gətirə bilən hərəkətləri.

**"Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında haqsız rəqabətin qarşısının alınmasının və aradan qaldırılmasının təşkilati-hüquqi əsaslarını müəyyən edən, sahibkarlıq fəaliyyətinin ədalətli üsullarla aparılmasına hüquqi zəmin yaradan, bazar subyektlərinin haqsız rəqabət metodlarından istifadəyə görə məsuliyyətini nəzərdə tutan qanunvericilik aktı.

Bu qanun 1995-ci il 2 iyun tarixdə qəbul edilmişdir. O, üç fəsil və 15 maddədən ibarətdir.

**Haqsız sahibkarlıq fəaliyyəti** – haqsız rəqabətin formalarından biri. Sahibkarlıq fəaliyyəti sahəsində aşağıdakı hərəkətlərə yol verilmir: 1) bazar subyektinin elmi-texniki, istehsalat və ya ticarət fəaliyyətinə dair məlumatların, o cümlədən kommersiya sirrinin qanunsuz əldə edilməsi, istifadə olunması və yayılması; 2) rəqibin üzərində əsassız üstünlük qazanmaq məqsədilə onun təsərrüfat qərarlarının qəbul edilməsinə və icrasına qanunsuz vasitələrlə təsir göstərilməsi; 3) əmtəələrin məcburi əlavə çeşidlə satışı; 4) müqavilələrdə əsassız birtərəfli üstünlüklərin nəzərdə tutulması; 5) qiymətlərin artırılması nəzərdə tutulduğu günədək, yaxud qiymətlərin artmasına şərait yaratmaq məqsədilə əmtəələrin təsərrüfat dövriyyəsindən çıxarılması və ya dövriyyəyə buraxılmaması.

**Hal şahidləri** – müstəntiqin, yaxud təhqiqat aparan şəxsin dəvəti ilə istintaq hərəkətlərinin (hadisə yerinin müayinəsinin, axtarışın, eksperimentin və i.a.) aparılmasında iştirak edən və həmin işdə marağı olmayan şəxslər. Adətən 2 nəfərdən az olmayan h.ş. zərər çəkmiş, şübhə edilən və ya təqsirləndirilən şəxsin qohumları içərisindən ola bilməzlər. Polis, istintaq və ya təhqiqat aparan orqanların əməkdaşları h.ş. qismində iştirak edə bilməzlər.

**Hamilə qadının və ya himayəsində üç yaşınadək uşağı olan qadının hüquqlarını pozma** – insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 164-cü maddəsində nəzərdə tutulmuşdur. Qadının hamiləliyinə və ya himayəsində üç yaşınadək uşağı olmasına görə onunla əmək müqaviləsini əsassız olaraq ləğv etmədə ifadə olunur.

**Hamiləlik** – qadın orqanizmində mayalanmış yanmhüceyrədən əmələ gələn, doğumla nəticələnən dölün fizioloji inkişaf prosesi. Hamiləliyə və doğuma görə məzuniyyət hər bir müvafiq dövlətin milli qanunvericiliyində nəzərdə tutulur. Təqsirkar üçün aşkar surətdə hamilə vəziyyətində olan qadını öldürmə həyat və sağlamlıq əleyhinə olan cinayətlərdən biri kimi (AR CM-in 120.2.8-ci maddəsi) qiymətləndirilir.

**"Hammurapi Qanunları"** – Babilistanda şah Hammurapi dövründə (eramızdan əvvəl təqribən 1760-cı ildə) tərtib edilmiş qanunlar toplusu (sistemləşdirilmiş adət hüquq normaları). Toplu Qədim Şərq quldarlıq hüququnun ən görkəmli abidələrindən biridir. Mətni bazalt sütunu üzərində mixi yazısı ilə həkk edilmiş "H.Q." 1901-1902-ci il-

lərdə fransız arxeoloqlarının arxeoloji ekspedisiyası tərəfindən Suz şəhərində (İran) tapılmışdır. Bu mətn hazırda Luvrda saxlanılır. "H.Q"-nın mətni giriş, 282 maddə (paraqraf) və sonluqdan ibarətdir. Qanunların maddələri mövzular üzrə qruplaşdırılmışdır: proses, mülkiyyət hüququ, şah xidmətində durmaq, nikah və ailə hüququ, öhdəlik hüququ və i.a. Hər bir mövzu həm cinayət hüququ, həm də mülki hüquq baxımından şərh edilir. "H.Q."-nda babil cəmiyyətinin təbəqələrə (aviliumlara və muşkenumlar) bölgüsü də öz ifadəsini tapmışdır.

**Haram** *(islamda "qadağan edilən"; məhzur istilahının sinonimi)* – **1)** günahdan və qadağandan (halalın əksinə) ibarət olan xəta, təqsirli (günahlı) hərəkət. H. barəsində məsələ fiqhin ehkam bölməsinə daxildir. Müxtəlif h. hərəkətləri təkcə məzhəbə mənsubiyyətdən deyil, həmçinin də yerli şəraitdən asılı olaraq qiymətləndirilir. Onun qiymətləndirilməsində hətta faqihin şəxsiyyətinin də rolu vardır. Belə qiymətləndirmə həddində aşağıdakı üç daxili kateqoriya da mövcuddur: 1) batil – mütləq qadağan; 2) fasid – digər qadağanlar; 3) səhih – düzgün, yəni özündə hər hansı pozuntunu ehtiva etməyən hərəkət; **2)** nikah-ailə münasibətlərində prinsip etibarı ilə nikaha daxil olması qeyri-mümkün olan şəxsləri bildirən istilah; **3)** qəbulu qadağan olunan qida məhsulları; **4)** qadağan edilən oyunlar və əyləncəli musiqilər; **5)** Həcc ziyarəti zamanı zəvvarlara həvalə olunan qadağanlar kompleksi.

**Hauptvaxt** *(alm. hauptwache, hərfən baş qarovul)* – həbsdə olan, hərbi hissənin komandanlığı tərəfindən qısa müddətə həbs cəzası verilən hərbi qulluqçuları saxlamaq üçün xüsusi kamera və ya otaq. Hərbi hissə komandiri tərəfindən intizam cəzası tədbiri kimi h.-da saxlama müddəti 10 gündən artıq ola bilməz.

**Hava daşımaları** – müəyyən haqq müqabilində hava gəmisi ilə sərnişin, baqaj və yüklərin, habelə poçt göndərişlərinin daşınması.

**Hava daşıması haqqında müqavilə** – hüquqi müqavilələrin bir növü. Azərbaycan Respublikasının hava qanunvericiliyinə uyğun olaraq hava yolu ilə sərnişin daşınaq haqqında müqaviləyə əsasən aviasiya müəssisəsi (daşıyıcı) biletdə göstərilmiş reyslə uçan hava gəmisində sərnişinə yer verməklə sərnişini və onun baqajını təyinat məntəqəsinə çatdırmağı, sərnişin öz baqajını təhvil verdikdə isə baqajı da təyinat məntəqəsinə çatdırmağı və onu almağa ixtiyarı olan şəxsə verməyi öhdəsinə götürür. Sərnişin daşıma haqqını müəyyənləşdirilmiş tarif üzrə ödəməyi, təyin edilmiş normadan artıq baqaj təhvil verdikdə isə bu baqajın da daşınması haqqını ödəməyi öhdəsinə götürür (AR "Aviasiya haqqında" qanununun fəsli).

**Hava əlaqələri** – hava daşımaları məqsədi ilə ardıcıl olaraq həyata keçirilən uçuşlar.

**Hava ərazisi** *(hüquqda)* – hər hansı bir dövlətin quru və su sahəsi üzərindəki fəza. H.ə. dövlətin suverenliyi altındadır və onun ərazisinə daxildir. Dövlətin quru və su ərazisinin sərhəd həddi boyunca uzanan şaquli düz səth hava ərazisinin sərhədi hesab olunur. H.ə.-nin hündürlüyü 110-130 kilometrə qədərdir. Hava ərazisindən istifadə qaydası müvafiq dövlətin milli qanunvericiliyi ilə müəyyən edilir.





**Hava gəmisi** – Azərbaycan Respublikasının "Aviasiya haqqında" qanununun 1.0.13-cü maddəsinə görə hava ilə qarşılıqlı təsir hesabına atmosferdə qalan (yer və su səthindən əks olunan hava ilə qarşılıqlı təsir istisna olmaqla) hər hansı aparat.

**Hava gəmisinin ekipajı** – uçuş vaxtı hava gəmisinin idarə edilməsi və xidmət göstərilməsi üzrə hava gəmisinin bortunda müəyyən vəzifələri yerinə yetirmək üçün hava gəmisinin müvafiq sahibi və ya istismarçısı tərəfindən təyin olunan şəxslərdən ibarət heyət.

**Hava gəmisinin istismarçısı** – hava gəmisinin istismarı ilə məşğul olan və ya bu sahədə öz xidmətlərini göstərən şəxs.

**Hava gəmisinin kapitanı (komanda verən pilotu)** – kapitan vəzifələrinin icrasına və uçuşun təhlükəsiz yerinə yetirilməsinə görə cavab vermək üçün təyin edilən pilot.

**Hava gəmisinin sahibi** – hava gəmisi üzərində mülkiyyət, icarə və ya istifadə hüququna malik olan şəxs.

**Hava hərəkəti** – hava gəmilərinin uçuşları və ya manevr meydanında hərəkətləri.

**Hava hərəkətinə xidmət** – hava hərəkətinə uçuş-informasiya, aerometeoroloji, məsləhət xidmətlərinin göstərilməsi, hava hərəkəti xidmətinin qəza haqqında xəbərdar edilməsi, hava hərəkətinin idarə edilməsi, hava hərəkətinə dispetçer, o cümlədən rayon dispetçer, yaxınlaşma dispetçer və aerodrom xidmətlərinin göstərilməsi.

**Hava hərəkətinin idarə edilməsi (hava hərəkətinə dispetçer xidmətinin göstərilməsi)** – hava gəmilərinin bir-biri ilə və ya manevretmə meydanında olan maneələrlə toqquşmalarının qarşısının alınması, hava hərəkəti axınının sürətləndirilməsi və nizamlı axınının saxlanması məqsədi ilə hava hərəkətinə göstərilən xidmət.

**Hava hüququ** – hava sahəsindən (hüdudlarından) istifadə və havada uçuş qaydalarının tənzim edilməsi ilə əlaqədar hüquq normalarının məcmusu. H.h. özündə milli (dövlətdaxili) və beynəlxalq hüquq normalarını birləşdirir. Milli hava hüququ (dövlətdaxili hüquq) hər hansı bir dövlətin hava sahəsindən istifadəsini və milli hava ərazisində uçuşları tənzim edən dövlətdaxili hüquq normalarından ibarətdir. Beynəlxalq hava hüququ hava sahəsindən istifadə zamanı dövlətlərin hüquq və vəzifələrini tənzimləyən hüquq normalarının məcmusudur.

**Hava qanunvericiliyi** – Azərbaycan Respublikasının hava məkanında hava gəmilərinin uçuşları üçün istifadə olunan qanunvericilik. Belə qanunvericiliyə Azərbaycan Respublikasının "Aviasiya haqqında" qanunu, Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələr, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada təsdiq edilən "Azərbaycan Respublikasının hava sahəsindən istifadə haqqında" əsasnamə, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları daxildir.

**Hava limanı** – hava gəmilərinin qəbulu və yola salınması, hava daşımalarına xidmət göstərilməsi üçün nəzərdə tutulan və müvafiq aerodromu, aerovağzalı, digər yerüstü tikililəri, lazımi avadanlığı olan qurğular kompleksi.

**Hava məkanı** – Azərbaycan Respublikasının ərazisi, Xəzər dənizinin (gölünün)

Azərbaycan Respublikasına məxsus sektoru və daxili suları üzərində hava sahəsi.

**Hava sərhədi** *(bax: hava ərazisi).*

**Hava sığortası** – hava risklərindən – hava gəmisinin sığotasından ("aviokasko"), hava gəmisi sahibinin əmlak məsuliyyətindən, yüklərin daşınmasından ("aviokarqo"), ekipajın və hava gəmisi sərnişinlərinin həyatı ilə bağlı bədbəxt hadisələrdən irəli gələn əmlak sığortası və şəxsi sığortanın növlərinin məcmusu.

**Hava və ya su nəqliyyatı gəmisini, yaxud dəmir yolu qatarını qaçırma** – ictimai təhlükəsizlik əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 219-cu maddəsində nəzərdə tutulmuşdur. Hava və ya su nəqliyyatı gəmisini, yaxud dəmir yolu qatarını qaçırmada, habelə belə gəmiləri və ya qatarı qaçırmaq məqsədilə ələ keçirmədə ifadə olunur.

**Hayrinq** *(ing. hiring)* - **1)** əmlakın ortamüddətli icarəsi (6 aydan 3 ilədək); **2)** əmtəəyə mülkiyyət hüququ verilmədən eksportun ortamüddətli kreditləşdirilməsinin formalarından biri. Bu halda əmtəə kreditin maddi təminatı qismində çıxış edir.

**Hec** *(ing. hedge – çəpər)* – birja terminologiyasında qiymətlərin mümkün düşməsini sığotalayan təcili əqd. Belə növ əməliyyat ABŞ-da fond və opsion bazarlarında aparılır.

**Hecer** – fyuçers birjasında hecləşdirmə əməliyyatını həyata keçirən sahibkar (firma, bank, fermer və ya digər təsərrüfat subyekti). Möhtəkirə nisbətən h.-ə daha əlverişli vergi rejimi şamil edilir. Bundan başqa, vicdanı h.-lərə birjada bağlanan kontraktların məhdudlaşdırılması aid edilmir. H.-ə münasibətdə təminat depozitləri və marjlarla fyuçers kontraktlarının ödənilməsinin güzəştli rejimi tətbiq edilir.

**Hecləşdirmə** – xarici ticarət və kredit əməliyyatları yolu ilə valyuta risklərinin və digər risklərin sığortalanması, ticarət və kredit əqdlərinin dəyişdirilməsi, mümkün itkilərin ödənilməsi üçün ehtiyatların yaradılması. Ən məhdud mənada – xarici valyutada qarşılıqlı tələblər və öhdəliklər yolu ilə valyuta riskinin sığortalanması. H.-in ən yayılmış növü təcili valyuta əqdi hesab olunur.

**Hegemonçuluq** *(beynəlxalq hüquqda)* – dövlətlərin beynəlxalq münasibətlərdə digər ölkələr və xalqlar üzərində ağalığına cəhd göstərməsində təzahür edən səciyyəvi siyasət forması. H. dövlətlərin və xalqların bərabərliyi prinsipinin inkarı olub, BMT Nizamnaməsinin təsbit etdiyi dövlətlərin bərabər suverenliyi prinsipinə ziddir.

**Hemblinq** – qumar oyunlarının təşkili; cinayətkar fəaliyyət növü. ABŞ-ın bir çox ştatlarında cinayət cəhətdən cəzalanmalı əməllərdən biri kimi geniş yayılmışdır. Təşkilatçı bu oyunları təşkil etməklə yanaşı, belə oyunlarda özü də iştirak edir.

**Hereditas** *(lat. hereditas – vərəsəlik)* – Qədim Roma sivil hüququna görə vərəsəlikdə (universal vərəsəlik hüququ) hüquqi varislik: vəsiyyət və ya qanun üzrə. XII Cədvəl Qanunları aqnat qohumların vərəsəliyinə üstünlük verirdi.

**Hereditas fidekomissalar** *(lat. hereditas fideicommissaria)* – Qədim Roma vərəsəlik hüququna görə vərəsənin hereditas fidekomissalar qismində verməli olduğu vərəsəlik (və ya mirasın bir hissəsi).

**Hersoq** *(lam. herzog)* – qədim germanlarda tayfanın hərbi rəhbəri. Orta əsrlərdə Qərbi Avropa ölkələrində tayfa knyazına, feodal pərakəndəliyi dövründə iri torpaq sahiblərinə (feodallara), feodal pərakəndəliyinin ləğvindən sonra ali zadəganlara da h. deyilirdi.





**Her T. metodu** – müəyyən seçki dairəsində deputat yerlərinə verilmiş səslərin ümumi sayının bölgüsü yolu ilə seçki kvotasının müəyyən edilməsi üsulu. Müəllifin adı (Tomas Her) ilə adlandırılmışdır. Bolqarıstanda, Macarıstanda, Rumıniyada, Sloveniyada, Slovakiyada, Estoniyada və bir sıra başqa ölkələrdə tətbiq edilir.

**Hesabat verən şəxs** – müəyyən işlərin (tapşırıqların) yerinə yetirilməsi üçün verilmiş pul vəsaitlərinin və ya maddi sərvətlərin istifadəsi haqqında əsaslandırılmış sənədli hesabat verməyə borclu olan vəzifəli şəxs.

**Hesab-faktura** - keçmiş SSR İttifaqında (müttəfiq respublikalarda) mal göndərənin buraxılmış məhsula, görülmüş işə, göstərilmiş xidmətə görə alıcıdan ödəniş almaq üçün yazdığı sənəd.

**Hesabın aksepti** – bankda inkassoya çıxarılan hesabın tam ödənilməsinə verilən razılıq; bankdakı hesab əmtəə-maddi sərvətlərə, yerinə yetirilən işlərə və göstərilən xidmətlərə görə tədarükçü tərəfindən təqdim olunur.

**Hesablama komissiyası** – səhmdar cəmiyyətinin köməkçi orqanı; cəmiyyətin səhmdarları içərisindən təşkil edilir.

**Hesablama məhkəməsi** – Fransada, Braziliyada, Rumıniyada, Portuqaliyada, Türkiyədə və bir sıra başqa ölkələrdə dövlət maliyyə nəzarətinin xüsusi kvaziməhkəmə orqanlarının adı.

**Hesablama palatası** – dövlətdə ali maliyyə (maliyyə-iqtisadi) nəzarəti üzrə kollegial orqanın dünyada geniş yayılmış adı. ABŞ-da Baş Hesablama İdarəsi, Braziliyada, Əlcəzairdə, Fransada və Rumıniyada Hesablama məhkəməsi adlanır. H.p.-nın hüquqi vəziyyəti və səlahiyyət dairəsi müxtəlifdir. Dövlətlərin əksəriyyətində onlar parlamentin köməkçi orqanı kimi çıxış etməklə onun nəzarət funksiyasının icrasını təmin edirlər. Lakin, məsələn, İtaliyada h.p. konstitusiya ilə hökumətin köməkçi orqanı kimi təsbit edilmişdir. Bir sıra ölkələrdə (Yunanıstanda, Bolqarıstanda, Portuqaliyada, Fransa və Yaponiyada) məhkəmə orqanının səlahiyyətlərinə malikdir.

Azərbaycan Respublikasında h.p. Azərbaycan Respublikasının Milli Məclisinə hesabat verən, daimi fəaliyyət göstərən dövlət büdcə nəzarəti orqanıdır. Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsinə əsasən o, Milli Məclis tərəfindən yaradılır.

**"Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikası Hesablama Palatasının statusunu, funksiyalarını, təşkilati strukturunu, fəaliyyət formalarını və prinsiplərini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 1999-cu il 2 iyul tarixdə qəbul edilmişdir. O, dörd fəsil və 22 maddədən ibarətdir.

**Hesablaşma çeki** – pul öhdəliklərinin icrası. AR MM-in 1063.1-ci maddəsinə uyğun olaraq çek verən, habelə hər hansı çek sahibi çekin üz tərəfində "hesablaşma" qeydi və ya eyni mənalı başqa qeyd yazmaqla, çekin nağd pulla ödənilməsini qadağan edə bilər. Bu halda ödəyici çekin ödənişini yalnız hesabdan hesaba keçirmə

yolu ilə (hesablaşma, köçürmə, nağdsız hesablaşmalar) icra edə bilər. Hesabda yazı ödəniş sayılır. "Hesablaşma" qeydinin pozulması etibarsız sayılır. Yuxarıdakı göstərişləri yerinə yetirməyən ödəyici vurulan zərərin əvəzini çəkin məbləğindən artıq olmayan miqdarda ödəməyə borcludur.

**Hesablaşma hesabı** – hüquqi şəxsin və ya fərdi sahibkarın bank hesabı; hüquqi şəxs və ya fərdi sahibkar bu hesab vasitəsilə bütün hesablaşmaları bankın iştirakı ilə aparmağa borcludur. Kommersiya banklarında da şəxsi dövriyyə vəsaitləri və müstəqil balansı olan təşkilatlar üçün h.h. açıla bilər.

**Hesablaşmalar** – pul öhdəliklərinin icrası. Mülki qanunvericiliyə görə sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan vətəndaşların iştirakı ilə h. məbləğlər məhdudlaşdırılmadan nağd pullarla və ya nağdsız hesablaşmalar yolu ilə aparıla bilər. Hüquqi şəxslər arasında, habelə vətəndaşların iştirakı ilə, lakin sahibkarlıq fəaliyyəti ilə əlaqədar olmayan h. nağdsız qaydada (əgər qanunla sair hal nəzərdə tutulmamışdırsa) aparılır.

**Hesablaşmaların aksept forması** – tədarükçü tərəfindən alıcıya bank vasitəsilə təqdim edilməli olan ödəmə tələbləri üzrə nağdsız hesablaşmaların əsas formalarından biri. H.a.f. iki növdə tətbiq edilir: a) müsbət akseptdə (alanın yazılı razılığı ilə); b) mənfi akseptdə.

**Hesablaşma sənədləri** – idarələrin (müəssisə və təşkilatların) buraxılmış əmtəə-maddi sərvətlərə, yerinə yetirilmiş işlərə və göstərilmiş xidmətlərə görə, həmçinin digər ödəmələr üzrə nağdsız qaydada pul vəsaitləri köçürmələrinə dair yazılı formada rəsmiləşdirilmiş tələbləri və ya tapşırıqları. Ödəmə tapşırıqları və hesablaşma çekləri əsas hesablaşma sənədləri sayılırlar.

**Heyvanlar aləmi** – Azərbaycan Respublikasının bütün ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, quruda, suda, torpaqda və havada təbii olaraq sərbəst, yarımsərbəst və qeyri-sərbəst şəraitdə daimi, müvəqqəti və köçəri yaşayan vəhşi heyvan növlərinin kəmiyyət məcmusu.

**"Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında heyvanlar aləminin mühafizəsinin və istifadəsinin hüquqi əsaslarını tənzim edən qanunvericilik aktı.

Bu qanun 1999-cu il 4 iyun tarixdə qəbul edilmişdir. O, doqquz fəsil və 56 maddədən ibarətdir.

**Heyvanlar aləmindən istifadə** – insanların maddi və mənəvi tələbatının ödənilməsi məqsədilə heyvanlar aləmi obyektlərinin təbii mühitdən ayrılmaqla və ya ayrılmamaqla öyrənilməsi, artırılması, ovlanması və digər fəaliyyət növləri.

**Heyvanlar aləminin mühafizəsi** – heyvanlar aləmi obyektlərinin bioloji müxtəlifliyinin və həyat fəaliyyətinin qorunub saxlanması.

**Həbs** – cinayət-prosessual qanunvericiliyinə görə qətimkan tədbiri qismində AR CPM-də nəzərdə tutulmuş hallarda və ya qaydada təqsirləndirilən şəxsin azadlığını müvəqqəti məhdudlaşdırmaqla həbsdə saxlanılma yerində (istintaq təcridxanalarında) saxlanılması. H. yalnız azadlıqdan məhrumetmə növündə nəzərdə tutulan işlərdə və azadlıqda qalmış şəxsin istintaqdan, məhkəmədən yayınması, gizlənməsi





və cinayətkar fəaliyyətini davam etdirəcəyini ehtimal etməyə əsas verən hallarda son qətimkan tədbiri kimi tətbiq edilir.

**Həbs cəzası** – azadlıqdan məhrumetmə növündə cəza çəkməyin ağır forması. H.c. Azərbaycan Respublikasında nadir hallarda tətbiq edilir. Çünki azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxslər cəzasını, bir qayda olaraq, islah-cəza müəssisələrində çəkirlər. H.c. ağır cinayətlər törətmiş şəxslərə, xüsusi-təhlükəli residivistlərə tətbiq edilir. İslah-cəza rejimini qərəzli şəkildə pozanları (yetkinlik yaşına çatmayanlar istisna olmaqla) islah-cəza müəssisəsindən müəyyən müddətə həbsxanaya keçirməyə yol verilir. Cəza müddətinin həbsxanada çəkilməmiş hissəsi islah-cəza müəssisəsində çəkilir. Azərbaycan Respublikasında ölüm cəzasının ləğvi ilə əlaqədar olaraq ömürlük həbs cəzasının da tətbiqi nəzərdə tutulmuşdur.

**Həbsxana** *(ərəb. salmaq, bağlamaq - xanə)* – azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxslərin qanunla müəyyən edilmiş qaydada cəzasını çəkdiyi xüsusi yer. İstintaqda olan şəxslər də həbsxanada saxlanılır. İlk həbsxanalar Avropada XVI yüzillikdə meydana gəlmişdir.

**Həcz** – dövlət tərəfindən əmlakın mülkiyyətçidən (vətəndaşdan, ictimai təşkilatdan və digər hüquqi şəxslərdən) dəyəri ödənilməklə dövlət mənafeyi, yaxud ictimai mənafelər üçün alınması *(həmçinin bax: rekvizisiya).*

**Həddi-büluğa çatmamışlar** *(bax: yetkinlik yaşına çatmayanlar).*

**Hədd-islam** *(ərəb. tutma, tədbir)* – əxlaq və ictimai qayda əleyhinə cinayətlərə görə şəriət normalarına uyğun olaraq tətbiq edilən cəza. H.-i. əxlaqsız hərəkətlər, yalançı şahidlik, sərxoşluq, qumar oyunları, ticarət qaydalarını pozma, dələduzluq və i.a. üstündə təyin edilir. O, cəza tədbiri kimi şəxsiyyət deyil, qanun əleyhinə olan cinayətlərə görə tətbiq edilir. H.-i. yalnız məhkəmənin hökmü ilə təyin edilir və 40-dan 100-dək qırmanc və ya dəyənək zərbəsi vurmaqla həyata keçirilir. İslamın erkən dövrlərində şəriət normalarına görə h.-i. böyük məbləğdə pul cərimə si ilə əvəz oluna bilərdi. Bu qayda bəzi islam dövlətlərinin qanunvericiliyində nəzərdə tutulmuşdur.

**Hədə-qorxu ilə tələb etmə** – mülkiyyət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 182-ci maddəsində nəzərdə tutulmuşdur. Zərər çəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə özgənin əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmədə ifadə olunur.

**Hədis** *(islamda "yenilik", "məlumatlar", "rəvayətlər")* – Məhəmməd peyğəmbərin kəlamları və hərəkətləri haqqında rəvayətlər; müsəlman icmasının dini-hüquqi məsələlərinin müxtəlif cəhətlərinə toxunurlar.

**Hədiyyənin restitusiyası** – bağışlama müqaviləsindən irəli gələn hüquq. AR MM-in 671-ci maddəsinə uyğun olaraq hədiyyə verən hədiyyə alanın ondan qabaq ölməsi halı üçün bağışlanmış əşyanın restitusiyası hüququnu özündə saxlayır. Torpaq sahələri və ya onlara əşya hüquqları bağışlanarkən bu cür restitusiya hüququ daşınmaz əmlakın dövlət reyestrində qabaqcadan qeydə alına bilər.

**Həkim-Əmək Ekspertizası (HƏE)** – əmək qabiliyyətinin itirilməsi dərəcəsini və onun səbəblərini müəyyənləşdirmək üçün xəstənin tibbi müayinəsindən ibarət olan ekspertiza. HƏK Həkim-Əmək Ekspert Komissiyası tərəfindən həyata keçirilir. HƏK-in əlillik qrupunu müəyyən etmək və daha yüngül iş şəraiti təmin etmək haqqında qərarı təqaüd və müavinət təyin edilməsi, şikəstlik nəticəsində vurulmuş zərərin ödənilməsi, işlə təmin edilmə, başqa işə keçirmə və i.a. üçün əsasdır. HƏK-in qərarı arayış şəklində rəsmiləşdirilərək verilir.

**Həkim-Əmək Ekspert Komissiyası (HƏEK)** – mövcud əlilliyin səbəb və dərəcəsini, müəyyən xəstəlik və ya anatomik qüsur nəticəsində əmək qabiliyyətinin daimi, yaxud uzun müddətə itirilməsini təyin edən həkim komissiyası. Ümumi və ixtisaslaşdırılmış HƏEK-lər fəaliyyət göstərirlər.

**Həkimlik sirri** – xəstənin razılığı olmadan həkimin xəstə (xəstələr) haqqında məlumatları yaymamaq vəzifəsi. H.s.-ni qorumaq cəmiyyətin mənafeyi ziddinə olduqda qüvvədən düşür. Həkim qeydə alınması zəruri olan yoluxucu və ya parazitar xəstəlikləri aşkar etdikdə, xəstələri məcburi müalicəyə cəlb etməyə və lazım gələrsə xəstə haqqında istintaq və məhkəmə orqanlarına məlumat verməyə borcludur.

**Həkim-Məsləhət Komissiyası (HMK)** – xəstələrin düzgün müalicə və profilaktikasına nəzarət edən, xəstəlik üçün verilən günləri artıran xüsusi komissiya. HMK həmçinin mübahisəli məsələləri, əmək qabiliyyətini itirmiş xəstələrin ekspertiza məsələlərindəki münaqişələri həll edib onları həkim-ekspert komissiyasına göndərir, xəstəni bir işdən digərinə keçirir, xəstəliyə görə akademik məzuniyyəti rəsmiləşdirir, sanatoriya-kurort müalicəsi üçün göstəriş verir.

**Həmkarlar ittifaqları** – istehsal və ya qeyri-istehsal sahələrində çalışan işçilərin, habelə pensiyaçıların və təhsil alan şəxslərin, sosial, iqtisadi və əmək hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün iş yeri, peşələr, sahələr üzrə və respublika səviyyəsində fərdi üzvlük prinsipi əsasında könüllü birləşdiyi, nizamnamələri və "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının qanunu (1994-cü il 24 fevral tarixdə qəbul edilmişdir) əsasında fəaliyyət göstərən müstəqil ictimai, qeyri-siyasi təşkilat.

**"Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının qanunu** – İnsan Hüquqlarının Ümumi Bəyannaməsinə, Beynəlxalq Əmək Təşkilatının konvensiya və tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikasında həmkarlar ittifaqlarının hüquqlarının, onların üzvlərinin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün fəaliyyət təminatlarını müəyyən edən qanunvericilik aktı.

**Hənbəli hüquq məktəbi** – sünnilikdə məzhəb, islamda dördüncü hüquq məktəbi. Bu məktəbin banisi Əhməd ibn Məhəmməd ibn Hənbəl (780-855-ci illər, Bağdad) hesab olunur. H.h.m. islamda yeniləşmə, dəyişikliklər, təkmilləşdirmələr və təkamülün əleyhinə olmuş məzhəb idi. O, islam dinini ilkin şəkildə olduğu kimi mənimsəməyi və yalnız Qurana, hədisə itaəti təbliğ etmişdir. O, hüquqi (fiqh məsələlərində) məsələlərdə Rəy və Qiyasa qarşı çıxmış, məzarların ziyarət edilməsini bütpərəstliyin qalığı kimi qiymətləndirmişdir. H.h.m. XIV-XV yüzilliklərdə tənəzzülə





uğramışdır. O, həmçinin vəhabiliyin ideya mənbəyi olmuşdur. İslamı "paklaşdırıb" ilkin vəziyyətinə qaytarmaq və "təmiz" islam dövləti yaratmaq bu məktəbin əsas ideyalarından biri olmuşdur.

**Hənəfi hüquq məktəbi** – sünnilikdə məzhəb, islamda birinci hüquq məktəbi. Bu məktəbin əsasını Əbu Hənifə (Numan ibn Sabit ibn Tavus, Bağdad) qoymuşdur. H.h.m.-nin təliminə görə müsəlman hüququnda (şəriətdə) faqihlərə müqayisə (Qiyas) əsasında Rəy verməyə icazə verilməli, fiqh bölmələrə və fəsillərə ayrılmalıdır. Bu məktəbin nümayəndələri, ən görkəmli ardıcılları mənşəcə Orta Asiyalı olmuşlar. H.h.m. orta əsrlərdə İraqda, Türkiyədə, Azərbaycanda, Dağıstanda, Əfqanıstanda və Suriyada geniş yayılmışdır.

**Hərbi bilet** – Azərbaycan Respublikasında həqiqi hərbi xidmətə çağırılan və ya ehtiyata (istefaya) göndərilən vətəndaşlara müvafiq hərbi komissarlıq tərəfindən verilən sənəd.

**Hərbi canilər** – hərbi cinayətlərin, sülhə və bəşəriyyətə qarşı cinayətlərin təşkilatçıları, təhrikçiləri, başçıları, icraçıları və iştirakçıları. Hərbi cinayətlərin növləri, tərkibi və cəza tədbirləri Beynəlxalq Hərbi Tribunalın Nizamnaməsində müəyyən edilmişdir. H.c.-in fərdi cinayət məsuliyyəti bir sıra beynəlxalq müqavilə və sazişlə, bəzi növ hərbi cinayətlərə görə məsuliyyət isə ayrı-ayrı dövlətlərin milli (dövlətdaxili) cinayət qanunvericiliyi ilə müəyyən edilir.

**Hərbi casuslar** – düşmən qoşunlarının yerləşdiyi ərazidə (rayonda) və ya onun arxasında gizli kəşfiyyat xarakterli əməliyyatları yerinə yetirən şəxslər. "Müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il Cenevrə konvensiyasına I saylı əlavə protokolun 49-cu maddəsi müəyyən edir ki, "silahlı qüvvələrin tərkibindən olan, casusluqla məşğul olduğu vaxt düşmən tərəfin hakimiyyəti altına düşən şəxs hərbi əsir statusu hüququna malik deyil və onunla casus kimi rəftar edilə bilər". VI Haaqa konvensiyasının 30-cu maddəsinə uyğun olaraq "yerində tutulan casus ilkin məhkəmə olmadan cəzalandırıla bilməz". Əsir götürüldükdən sonra öz ordusuna qaytarılmış casus öz əvvəlki hərəkətlərinə (casus qismində) görə məsuliyyət daşımır.

**Hərbi demokratiya** – ibtidai icma cəmiyyətinin dağılması və onun qalıqlarının saxlanması mərhələsində hərbi başçıların hakimiyyətini bildirmək üçün L.H.Morqanın işlətdiyi termin. H.d. dövründə tayfa başçıları qəbilə-tayfa şuralarında hakimiyyəti tədricən ələ almışlar. Azərbaycanda h.d. Tunc və Dəmir dövrlərində mövcud olmuşdur. Qədim alban (Qafqaz) tayfalarında ilk hakimiyyət üsulu h.d. formasında mövcud idi.

**Hərbi dövr** – bir dövlətin digər dövlətlə əslində müharibə vəziyyətində olduğunu göstərən mərhələ. H.d. müharibənin başlanması ilə və ya hərbi əməliyyatların başlandığı andan müəyyən olunur.

**Hərbi əməliyyat** – silahlı qüvvələrin bir və ya bir neçə növünün endirdiyi zərbə, keçirdiyi döyüşlərin məcmusu.

Quru, dəniz, hava, hava-desant, hücum və müdafiə, strateji, cəbhə (ordular qrupu), ordu donanma əməliyyatları olur.

**Hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə** – Hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 348-ci maddəsində nəzərdə tutulmuşdur. Silahı, döyüş sursatını, hərbi texnikanı və ya sair hərbi əmla-

kı ehtiyatsızlıqdan zədələmədə və ya məhv etmədə ifadə olunur.

**Hərbi əmlakı itirmə** – Hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 347-ci maddəsində nəzərdə tutulmuşdur. Hərbi qulluqçulara xidməti istifadə üçün verilmiş silahın, döyüş sursatının, nəqliyyat vasitələrinin, texniki təchizat əşyalarının və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozmada ifadə olunur.

**Hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 349-cu maddəsində nəzərdə tutulmuşdur. Silahı, döyüş sursatını, hərbi texnikanı və ya sair hərbi əmlakı qəsdən məhv etmədə və ya zədələmədə (digər cinayətin əlamətləri olmadıqda) ifadə olunur.

**Hərbi əsir** *(beynəlxalq hüquqda)* – döyüşən tərəfin hərbi qüvvələrinə məxsus olub (partizan dəstələri, könüllü dəstələr, müqavimət hərəkatı iştirakçıları və digər kombatantlar - müharibə edən dövlətlərin hərbi qüvvələri tərkibinə daxil olan və hərbi döyüşlərdə iştirak edənlər daxil olmaqla) düşmənin hakimiyyəti altına düşən şəxs. Bəzi qeyri-kombatantlar da (hərbi müxbirlər, ticarət donanması və mülki aviasiya ekipajlarının üzvləri) h.ə.-ə. aid edilir. H.ə.-in rejimi "Quruda müharibə aparılması qanunları və adətləri haqqında" əsasnamə (1907-ci il 4-cü Haaqa konvensiyasına əlavə) və hərbi əsirlərlə davranış qaydaları haqqında 1949-cu il Cenevrə konvensiyası ilə tənzim edilir.

**Hərbi fənd (biclik)** – beynəlxalq humanitar hüquqda düşməni çaşdırmağa və ya onu fikirləşmədən tələsik hərəkət etməyə təhrik edən hərəkətlər; bu, hərbi münaqişələr zamanı (silahlı toqquşmalarda) beynəlxalq hüququn tətbiq edilən hər hansı normasının pozulması demək deyildir. Yalan əməliyyatlar aparılmasını, yalan məlumatların yayılmasını, tələlər qurulmasını və i.a. buna misal göstərmək olar.

**Hərbi gəmi** – hər hansı dövlətin silahlı qüvvələrinə məxsus olan, belə gəmiləri öz milli mənsubiyyətinə görə fərqləndirən zahiri nişanlara malik olan, həmin dövlətin hakimiyyətinin xidmətində olan və soyadı hərbi qulluqçuların siyahısına və ya ona ekvivalent olan sənədə daxil edilmiş zabitin komandanlığı altında və nizami hərbi intizama tabe olan ekipaja malik olan gəmi (BMT-nin dəniz hüququ üzrə 1982-ci il konvensiyasının 29-cu maddəsi). H.g. açıq dənizdə bayraq dövlətindən başqa, hər hansı bir dövlətin yurisdiksiyasının tam immunitetindən istifadə edir (Konvensiyanın 95-ci maddəsi).

**Hərbi gəmiləri idarəetmə qaydalarını pozma** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 353-cü maddəsində nəzərdə tutulmuşdur. Hərbi gəmiləri idarəetmə və ya istismar qaydalarını pozmada ifadə olunur.

**Hərbi-Həkim Komissiyası (HHK)** – Hərbi-Həkim Ekspertizasının orqanı. HHK hərbi qulluqçuların, hərbi vəzifəlilərin fiziki inkişafından və səhhətindən asılı olaraq onların hərbi xidmətə yararlılığını təyin edir. Hərbi xidmətlə əlaqədar xəstələnmələrin, yaralanmaların, kontuziyaların, sınıqların səbəbini öyrənir, xəstəliklə bağlı məzuniyyətə ehtiyac olub-olmamasını aydınlaşdırır. HHK hərbi hissələrdə və hərbi müalicə müəssisələrində müalicə-profilaktika işlərinə nəzarət edir.

**Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə** – Hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 333-cü maddəsində nəzərdə tutulmuşdur. Çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsində və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsində (üç gündən artıq) ifadə olunur.

**Hərbi hüquq** – Azərbaycan dövləti tərəfindən müəyyən edilən, Silahlı Qüvvələrin quruculuğu, həyat və məişəti, fəaliyyəti sahəsində münasibətləri tənzimləyən və hərbi qulluq çəkmənin qaydasını, şəxsi heyətin, hərbi qulluqçuların və hərbi münasibətlərin digər iştirakçılarının hüquq və vəzifələrini, məsuliyyətini müəyyən edən hüquq normalarının məcmusu.

**Hərbi xidmət** – Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq respublikanın Silahlı Qüvvələrinə tapşırılan vəzifələrin yerinə yetirilməsi üzrə dövlət xidmətinin xüsusi növü. H.x. həqiqi hərbi xidmətdən və ehtiyatda hərbi xidmətdən ibarətdir.

**"Hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın və hərbi vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 1992-ci il 10 iyun tarixdə qəbul olunmuş, ona 15 əlavə və dəyişiklik edilmişdir. Qanun yeddi bölmə və 29 maddədən ibarətdir.

**Hərbi xidmət əleyhinə olan cinayətlər** – çağırış və ya kontrakt üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində, digər qoşun birləşmələrində və hərbi birləşmələrdə hərbi xidmət keçən hərbi qulluqçuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifələrin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn cinayətlər.

H.x.ə.c. AR CM-in XII bölməsinin otuz beşinci fəslində (328-353-cü maddələr) nəzərdə tutulmuşdur. Əmri icra etməmə (328-ci maddə), rəisə müqavimət göstərmə və ya onu qulluq vəzifəsini pozmağa məcbur etmə (329-cu maddə), rəisə qarşı zorakı hərəkətlər etmə (330-cu maddə), hərbi qulluqçunu təhqir etmə, döymə və ya ona işgəncə vermə (331-ci maddə), tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma (332-ci maddə), hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə (333-cü maddə), fərarilik (334-cü maddə), öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma (335-ci maddə), qarovul xidmətinin nizamnamə qaydalarını pozma (336-cı maddə), daxili xidmətin və ya patrul xidmətinin nizamnamə qaydalarını pozma (337-ci maddə), döyüş növbəsi çəkmə qaydalarını pozma (338-ci maddə), sərhəd xidməti qaydalarını pozma (339-cu maddə), ictimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmət qaydalarını pozma (340-cı maddə), hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə (341-ci maddə), qulluğa səhlənkar yanaşma (342-ci maddə), müharibə aparma vasitələrini düşmən üçün qoyub getmə (343-cü maddə), batmaqda olan gəmini tərk etmə

(344-cü maddə), döyüş meydanını özbaşına tərk etmə və ya silah işlətməkdən boyun qaçırma (345-ci maddə), əsirlikdə olan hərbi qulluqçunun cinayət hərəkətləri (346-cı maddə), hərbi əmlakı itirmə (347-ci maddə), hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə (348-ci maddə), hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə (349-cu maddə), silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma (350-ci maddə), maşınları idarəetmə və istismar qaydalarını pozma (351-ci maddə), uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma (352-ci maddə), hərbi gəmiləri idarəetmə qaydalarını pozma (353-cü maddə), hərbi xidmət əleyhinə olan cinayətlərə daxildir.

**"Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə həqiqi hərbi xidmət və ehtiyatda hərbi xidmət keçilməsinin qaydasını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 1992-ci il 3 noyabr tarixdə qəbul olunmuş, ona 13 əlavə və dəyişiklik edilmişdir. Qanun dörd bölmə və 26 maddədən ibarətdir.

**Hərbi xidmət keçməkdən boyun qaçırma** – idarəetmə qaydası əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 321-ci maddəsində nəzərdə tutulmuşdur. Qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırmada ifadə olunur.

**Hərbi xidmət üzrə məhdudlaşdırma** – cinayət qanunvericiliyinə görə əsas cəzaların bir növü. AR CM-in 50-ci maddəsinə uyğun olaraq h.x.ü.m. kontrakt (bağlaşma) əsasında hərbi xidmət keçən və hərbi xidmət əleyhinə cinayət törətməyə görə məhkum olunmuş hərbi qulluqçulara CM-in xüsusi hissəsinin müvafiq maddəsində nəzərdə tutulmuş hallarda, habelə kontrakt (bağlaşma) əsasında hərbi xidmət keçən və başqa cinayət törətməyə görə məhkum olunmuş hərbi qulluqçulara CM-in xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş islah işləri əvəzinə iki aydan iki ilədək müddətə tətbiq edilir. H.x.ü.m. cəzasına məhkum olunmuş şəxsin qazancından dövlət nəfinə beş faizdən iyirmi faizədək məbləğdə pul tutulur. H.x.ü.m. cəzasına məhkum olunmuş şəxs cəzasını çəkdiyi müddətdə vəzifəsində və ya rütbəsində yüksələ bilməz, cəzasının müddəti isə növbəti hərbi rütbənin verilməsi üçün xidmət illərinə hesablana bilməz.

**Hərbi idarə orqanları** – **1)** dövlətin hərbi-inzibati orqanları; **2)** hərbi əməliyyat gedişində və ya müharibə nəticəsində işğal olunmuş ərazini idarə edən orqanlar.

**Hərbi intizam** – Azərbaycan dövləti tərəfindən ölkənin Silahlı Qüvvələrinin şəxsi heyəti üçün hərbi nizamnamələrdə və digər hərbi-hüquqi normativ aktlarda müəyyən edilmiş qanunlara, davranış və rəftar qaydalarına hərbi qulluqçuların ciddi və dönmədən əməl etməsi. H.i.-a əməl etmək hər bir hərbi qulluqçunun borcudur. H.i.-a əməl edilməsi məcburi xarakter daşıyır.

**Hərbi kəşfiyyatçı** – düşmənin hərbi əməliyyat və ya döyüş əməliyyatları apardığı ərazidə (rayonda) məlumatları toplayan şəxs; bu tapşırığı öz ordusunun formasında yerinə yetirir, yəni döyüşən dövlətin silahlı qüvvələrinə mənsubiyyətini gizlətmir. Bu şəxsin düşmən əlinə keçdiyi halda ona hərbi əsir rejimi şamil edilir. H.k.-nı hərbi casusdan fərqləndirmək lazımdır. Çünki hərbi casus özünün əsl simasını və fəaliyyətini gizlədir.

**Hərbi Kollegiya** – Azərbaycan Respublikası Ali Məhkəməsinin tərkibinə daxil olan üç məhkəmə kollegiyasından biri. HK-ya kollegiyanın sədri başçılıq edir. Azərbaycan Respublikası Ali Məhkəməsi Hərbi Kollegiyasının sədri "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının qanununda və digər qanunvericilik aktlarında müəyyən edilmiş səlahiyyətləri həyata keçirir. HK işlərə birinci instansiya məhkəməsi kimi, kassasiya instansiyası kimi, habelə nəzarət qaydasında protestlər üzrə yeni açılmış hallar barəsində rəylər üzrə baxır (baxa bilər). HK-nın iclaslarında işlərə baxılması qaydası Azərbaycan Respublikasının mülki-prosessual və cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilir.

**Hərbi komissarlıq** – Azərbaycan Respublikasında hərbi səfərbərlik və qeyd-çağırış işlərini həyata keçirən yerli hərbi idarə orqanı. H.k.-lar respublikanın bütün şəhər və rayonlarında fəaliyyət göstərirlər. Onlar Azərbaycan Respublikasının Hərbi Komissarlığına tabedirlər. H.k.-lar Azərbaycan Respublikası Müdafiə Nazirliyinin idarələri olub, eyni zamanda rayon və şəhər icra hakimiyyətinin şöbəsi hüququnda fəaliyyət göstərirlər.

**Hərbi qulluqçular** – silahlı qüvvələrdə həqiqi hərbi xidmətdə olan vətəndaşlar. H.q.-a aşağıdakı şəxslər aid edilir: zabitlər, müddətdən artıq xidmət hərbi qulluqçuları, hərbi tədris müəssisələrinin kursantları, müddətli xidmət çavuşları, starşinaları, əsgərləri və matrosları. Vətəndaşlar Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Silahlı Qüvvələrinə çağırıldıqları, könüllü qaydada və ya bağlaşma üzrə Silahlı Qüvvələrdə xidmətə daxil olduqları, toplanışlara çağırıldıqları, hərbi tədris müəssisələrinə daxil olduqları gündən h.q. statusu əldə edir və Azərbaycan Respublikası Silahlı Qüvvələrində xidmətdən buraxıldıqları, hərbi tədris müəssisələrindən çıxarıldıqları və ya kənar edildikləri, toplanışı başa çatdırdıqları gündən bu *statusu itirirlər*. H.q.-ın hərbi statusu "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının qanunu (bu qanun 1991-ci il 25 dekabr tarixdə qəbul edilmişdir) ilə müəyyən edilir.

**"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədilə onların həyatının və səhhətinin dövlət icbari şəxsi sığortası qaydalarını və şərtlərini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 1997-ci il 20 may tarixdə qəbul edilmişdir. 3 əlavə və dəyişiklik edilib. 11 maddədən ibarətdir.

**"Hərbi qulluqçuların maddi məsuliyyəti haqqında" əsasnamə** – hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin dövlətə vurduqları maddi ziyana görə məsuliyyətin əsaslarını, vurulmuş ziyanın miqdarının müəyyən edilməsinin və ödənilməsinin qaydalarını tənzimləyən normativ hüquqi akt. Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci

il 10 yanvar tarixli qərarı ilə təsdiq edilmişdir. Əsasnamə 3 bölmə və 20 maddədən ibarətdir. O, ümumi müddəaları, maddi məsuliyyət məsələlərini, ziyanın miqdarının müəyyən edilməsi və ödənilməsinə dair qaydaları əhatə edir.

**"Hərbi qulluqçuların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Dövlət Sərhədini Mühafizə Komitəsinin zabit heyəti, gizirləri, miçmanları və müddətdən artıq hərbi qulluqçuları, habelə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Prezidenti mühafizə xidmətinin sıravi və rəis heyəti, onların ailələri üçün Azərbaycan Respublikasının ərazisində vahid dövlət pensiyaları sistemini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 1992-ci il 29 aprel tarixdə qəbul edilmişdir. 9 əlavə və dəyişiklik edilib. O, səkkiz bölmə və 58 maddədən ibarətdir.

**"Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında hərbi qulluqçuların statusuna dair qaydaları, hüquqi təminatları nəzərdə tutulan və hərbi qulluqçuların məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 1991-ci il 25 dekabr tarixdə qəbul edilmişdir. 21 əlavə və dəyişiklik edilib. O, 5 bölmə və 31 maddədən ibarətdir.

**Hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 331-ci maddəsində nəzərdə tutulmuşdur. Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar bir hərbi qulluqçunun digərini təhqir etməsində ifadə olunur.

**Hərbi məhkəmələrin aidiyyəti** – məhkəmə aidiyyətinin bir növü. AR CPM-in 68-ci maddəsinə uyğun olaraq hərbi məhkəmələr birinci instansiya məhkəməsi qismində fəaliyyət göstərirlər. Hərbi məhkəmələr müharibə və ya hərbi xidmət əleyhinə olan böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə dair, habelə hərbi qulluqçular tərəfindən törədilmiş böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə dair işlərə baxırlar. Göstərilən cinayətlər hərbi qulluqçu olmayan şəxsin iştirakı ilə törədilərsə, onun barəsində işə də hərbi məhkəmə tərəfindən baxılır. Hər bir hərbi məhkəməyə yalnız məhkəmənin fəaliyyət dairəsində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar aiddir.

**Hərbi mükəlləfiyyət (əsgəri mükəlləfiyyət)** – əhalinin (əsasən 18 yaşdan) öz ölkəsinin silahlı qüvvələrində qanunla müəyyən edilmiş hərbi xidmət borcu. H.m. ilk dəfə Fransada 1798-ci ildə həyata keçirilmişdir. Çoxsaylı ordular yaratmaq məqsədi ilə XIX yüzillikdə digər dövlətlərdə də h.m.-lər keçirilmişdir.

**Hərbi nizamnamələr** – hərbi qulluqçuların davranış və fəaliyyətini, həyat və məişətini, silahlı qüvvələrdə xidmətini, bölmə, hissə və birləşmələrin şəxsi heyətinin hazırlanmasını tənzimləyən hərbi-hüquqi normativ aktlar. H.n. hərbi qulluqçuların döyüş fəaliyyətinin və qabiliyyətinin əsaslarını təşkil edən hərbi sənədlərdir. Onlarda döyüş təcrübəsi, dinc dövrdə keçirilən müxtəlif təlimlərin təcrübəsi,







hərbi-nəzəri fikrin nailiyyətləri cəmləşdirilmişdir. Azərbaycan Respublikasında ilk nizamnamələrin tərtibi işinə 1992-ci ildən başlanmışdır. Azərbaycan Respublikası Silahlı Qüvvələri qarnizon və qarovul xidmətlərinin müvəqqəti nizamnaməsi (1993-cü il) və Müvəqqəti intizam nizamnaməsi (1993-cü il) Azərbaycan Respublikası Milli Məclisinin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələri, tövsiyələri və təlimatları haqqında" 1992-ci il 27 may tarixli 144 saylı qərarına əsasən hazırlanmışdır.

**Hərbi nümayəndəlik** – qarşı tərəflərin razılığı əsasında bir dövlətin hərbi təşkilatının xarici dövlətə müəyyən tapşırıqla göndərilən nümayəndəsi (heyət və ya qrupu). H.n. diplomatik statusa malik olur.

**Hərbi polis** – bir sıra dövlətlərin (ABŞ-ın, Böyük Britaniyanın, AFR-in və başqalarının) silahlı qüvvələrində yollarda hərəkətə nəzarət edən, fərariləri tutan və hərbi cinayətlərin təhqiqatını, istintaqını aparan xidmət (polis xidməti).

**Hərbi Prokurorluq** – Azərbaycan Respublikasında vahid respublika prokurorluğu sisteminin tərkib hissəsi. HP Azərbaycan Respublikası Silahlı Qüvvələrində fəaliyyət göstərir. HP Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qoşun növlərinin, hərbi idarələrin, hərbi donanmanın, qarnizonların hərbi prokurorlarından ibarətdir. O öz səlahiyyətlərini heç bir yerli və hərbi orqanlardan asılı olmayaraq həyata keçirir və yalnız Azərbaycan Respublikasının Baş prokuroruna tabedir. Baş hərbi prokuror Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 5 il müddətinə təyin edilir.

**Hərbi-səhra məhkəmələri** – Qərbi Avropanın bir sıra ölkələrində ümumi hərbi məhkəmələrə nisbətən işlərə baxılmasını sürətləndirmək məqsədi ilə yaradılan fövqəladə hərbi məhkəmə orqanı. H.-s.m. xüsusi qanunvericilik normaları vasitəsilə fəaliyyət göstərir. Yalnız müharibə vaxtı deyil, həm də inqilabi hərəkatlarla mübarizə aparmaq üçün dinc dövrdə də yaradılır. H.-s.m. hərbi komandanlıq tərəfindən təyin edilən zabitlərdən təşkil edilir.

**Hərbi sirr** – dövlət tərəfindən xüsusi mühafizə olunan hərbi xarakterli (məzmunlu) məlumatlar. H.s. eyni zamanda da dövlət sirrini təşkil edir.

**Hərbi soyğunçuluq** – müharibə cinayətlərinin bir növü. AR CM-in 118-ci maddəsində nəzərdə tutulmuşdur. Döyüş meydanında ölmüş və ya yaralanmış şəxslərin əmlakını talamada ifadə olunur.

**Hərbi vəzifələr** – Hərbi qulluqçular tərəfindən tutulmalı olan ştat vəzifələri. H.v. və bu vəzifələrə uyğun hərbi rütbələr hərbi hissələrin (gəmilərin, idarəetmə orqanlarının, idarələrin, hərbi məktəblərin) ştatlarında nəzərdə tutulur.

Hərbi qulluqçular müdafiə zarakterli işlərin yerinə yetirilməsi üçün özlərinin razılığı ilə müvafiq icra hakimiyyəti orqanının (11), yaxud Azərbaycan Respublikası Milli Məclisi sədrinin qərarına əsasən hərbi xidmətdə saxlanılmaqla, dövlət hakimiyyəti və idarəetmə orqanlarına, müəssisələrə, idarələrə və təşkilatlara ezam oluna bilərlər.

Hərbi qulluqçuların xidmətdə və bir hərbi vəzifədən başqa hərbi vəzifəyə keçirilməsi (12) " Hərbi xidmətkeçmə haqqında" əsasnamə ilə müəyyən edilir.

Hərbi qulluqçular ali zabitlər tərəfindən tutulmalı olan hərbi vəzifələrə, qanunvericilikdə başqa qaydada nəzərdə tutulmamışdırsa, müvafiq icra hakimiyyəti orqanının (11) təqdimatına əsasən müvafiq icra hakimiyyəti orqanının (11) tərəfindən təyin olunurlar.

Hərbi vəzifələr "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası qanununun 11-ci maddəsilə müəyyən edilir.

**Hərbi vəzifəlilər** – silahlı qüvvələrdə hərbi və ya alternativ xidmətdən ehtiyata buraxılmış hərbi qulluqçular. H.v. ehtiyatda olduqları dövrdə hərbi (təlim və ya yoxlama) və xüsusi toplanışlara çağırılırlar. Fövqəladə vəziyyət şəraitində h.v. fövqəladə hadisələrin qaşısının alınmasında və ya nəticələrin aradan qaldırılmasında iştirak etmək üçün Azərbaycan Respublikası Prezidentinin qərarı ilə 3 ayadək müddətə xüsusi toplanışlara çağırıla bilərlər. H.v. hüquq pozuntuları törətməyə, toplanışlardan boyun qaçırmağa, hərbi intizamı və ictimai asayişi pozmağa görə qanunvericiliklə nəzərdə tutulmuş maddi, inzibati məsuliyyət, intizam və cinayət məsuliyyəti daşıyırlar. H.v.-in hüquqi statusu "Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilir.

**Hərbi vəziyyət** – ali dövlət hakimiyyəti orqanının qərarı ilə müstəsna hallarda (müharibə, təbii fəlakət və i.a.) ölkədə, yaxud onun ayrı-ayrı hissələrində müəyyən edilən xüsusi vəziyyət. H.v. şəraitində dövlət hakimiyyəti orqanlarının müdafiə, ictimai asayişin təmini və milli dövlət təhlükəsizliyi sahəsindəki funksiyaları hərbi orqanlara keçir.

Azərbaycan Respublikasında hərbi vəziyyət Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə tətbiq edilir. Ölkədə h.v.-in tətbiqi əsasları, qaydası, müddəti, hərbi vəziyyətdə səfərbərlik, belə şəraitdə görülən tədbirlər, qanunvericilik orqanının fəaliyyəti və i.a. "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 1994-cü il 6 yanvar tarixli qanunu ilə müəyyən edilir.

**"Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının digər qanunlarına və beynəlxalq öhdəliklərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisində hərbi vəziyyətin elan və tətbiq edilməsinin əsaslarını, qaydalarını və hüquqi nəticələrini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 1994-cü il 6 yanvar tarixdə qəbul olunmuş, ona 5 əlavə və dəyişiklik edilmişdir. Qanun 17 maddədən ibarətdir.

**Hərəkət** *(bax: hüquqi hərəkət).*

**Hərəkətsizlik** *(bax: cinayətkarcasına hərəkətsizlik).*

**Hərfi təfsir** *(bax: qanunun hərfi təfsiri).*

**Hərrac** *(lat. austio – açıq ticarət satışı)* – ən yüksək qiymət təklif edən şəxslə alqı-satqı müqaviləsindən ibarət olan ticarətin bir növü. H. (auksion) ticarəti məcburi və könüllü ola bilər. H. ticarəti ya əmlakın sahibi, ya da komisyonçu qismində çıxış edən xüsusi təşkilat tərəfindən təşkil edilə və həyata keçirilə bilər.

**Hərraççı** – hərracı həyata keçirən fiziki şəxs. Mülki hüquq nöqteyi-nəzərindən həmin şəxs hərracda satış üçün prinsipialın əmlakı verdiyi agentdir. O, alış qiymətini əldə etmək hüququna malikdir. Adi səlahiyyətlər daxilində fəaliyyət göstərən h. prinsipiala onun göstərişlərinin pozulması barədə də məlumatlar verir.





**Hərracın təşkili** – mülki-hüquqi müqavilənin bağlanması şərtlərindən biri. AR MM-in 415.1-ci maddəsinə uyğun olaraq auksionlar və müsabiqələr açıq və qapalı ola bilər. Açıq auksionda və açıq müsabiqədə istənilən şəxs iştirak edə bilər. Qapalı auksionda və qapalı müsabiqədə yalnız bu məqsəd üçün dəvət olunan şəxslər iştirak edirlər.

Qanunda başqa qaydanın nəzərdə tutulmadığı hallarda hərracın təşkilatçısı onun keçirilməsini onun keçirilməsindən 30 gün əvvəl bildirməlidir. Bildirişdə hərracın vaxtı, yeri və forması, onun predmeti və keçirilmə qaydası, o cümlədən hərracda iştirakın rəsmiləşdirilməsi, hərracı udan şəxsin müəyyənləşdirilməsi, habelə başlanğıc qiymət haqqında məlumatlar olmalıdır. Əgər hərracın predmeti müqavilə bağlamaq hüququdursa, qarşıdakı hərrac barəsində bildirişdə bunun üçün verilən müddət göstərilməlidir.

**Hərrac qaydaları** – malların (əmtəələrin) hərraca çıxarılmasını və onların satışını, kontraktların rəsmiləşdirilməsini və satın alınmış malların əldə edilməsini tənzimləyən qaydalar.

**Hərrac qiyməti** – hərracda malların (əmtəələrin) satış dəyərini əks etdirən qiymət.

**Hərrac ticarəti** – malların açıq ticarətlə satışı; bu zaman satılan əşya, predmet alıcının mülkiyyətinə verilir. H.t., bir qayda olaraq, əmlakın alqı-satqısı üzrə münasibətlərdə komisyonçu qismində çıxış edən ixtisaslaşmış təşkilat tərəfindən həyata keçirilir. Analoji mexanizmə məhkəmənin qətnaməsi ilə öhdəliyi icra edə bilməyən borclunun əmlakının məcburi hərracı da malikdir.

**Həvalə qeydi** *(bax: indosamment).*

**Həyat sığortası müqaviləsi** – mülki-hüquqi müqavilənin bir növü. AR MM-in 928-ci maddəsinə uyğun olaraq həyat sığortası şəxsən sığortalıya və ya başqa şəxsə aid ola bilər. Əgər həyat sığortası müqaviləsi başqa şəxsin xeyrinə bağlanırsa, həmin şəxsin və ya onun qanuni nümayəndəsinin yazılı razılığı zəruridir.

**Himayəçilik** – vətəndaşların şəxsi və əmlak hüquqlarının və qanuni mənafelərinin hüquqi müdafiəsi formalarından biri.

**Himn** *(yun. hymnos)* – təntənəli mahnı. Dövlət himni, inqilabi, hərbi, dini, tarixi hadisələrin, qəhrəmanların və i.a. şərəfinə səsləndirilən himnlər məlumdur. Böyük Fransa inqilabı dövründə inqilabı himnlər ("Marselyeza") meydana gəlmişdir. Hazırda müasir dövlətlərin hamısında dövlət himni mövcuddur.

**Hipnoz** *(yun. hypnos – yuxu)* – hipnozçunun sözlə təlqin nəticəsində insanda yuxuyabənzər vəziyyət yaratması. H. çox qədimdən məlumdur. H.-un tətbiqi indiyədək Azərbaycan Respublikası hüququ ilə tənzim edilməməsinə baxmayaraq, onun müalicədənkənar məqsədlə və həkim olmayan şəxslər tərəfindən tətbiq edilməsi qadağan olunur. Müasir hüquqi doktrina cinayət işlərinin istintaqı (dindirmə) zamanı h.-dan istifadəni yolverilməz hesab edir.

**Hipoteka** *(lat. hipotheca)* – Qədim Roma mülki hüququnda girov müqaviləsinin formalarından biri. Həmin müqaviləyə görə borclunun mülkiyyətində və sahibliyində qalırdı. "H." termini əsasən Yustinian hüququnda, klassik dövr hüququnda isə daha geniş yayılmışdı. Yalnız hüquqşünas Qrotsidən sonra h. qəti olaraq daşınmaz əmlakın girovu kimi müəyyən edilmişdir.

**Hipoteza** *(yun. hypo thesis – əsas, güman)* hüquq normasının hüquqi, struktur (qurulu-

şu) hissəsi. Hüquq normasının hansı şərtlərlə icra olunmasını izah edən hissə həmin normanın h.-sı adlanır. Qanunvericilik orqanı normanın h.-sında bir və ya bir neçə faktiki halları müəyyən edir ki, onların baş verməsi ilə subyektlərin hüquq və vəzifələri meydana gəlir. Normanın h.-sı, bir qayda olaraq, "əgər" sözü ilə başlayır. H. normanın göstərişlərini konkretləşdirir və onun dispozisiyasının hüdudlarını göstərir.

**Holoskop** *(bax: kriminalistik qoloqrafiya).*

**"Hortenzi Qanunu"** – Qədim Romada patrisilərin silki imtiyazdan məhrum edilməsi haqqında üsyançı plembeylərin təzyiqi ilə imperator Kvint Hoptenzinin eramızdan əvvəl 287-ci ildə tətbiq etdiyi qanun. Bu qanuna görə tribut komitsiyalarında plebeylərin qəbul etdikləri qərarlar qanun qüvvəsi alır və bütün Roma xalqı üçün məcburi hesab edilirdi.

**Hökm** – məhkəmənin cinayət işi üzrə çıxardığı qərar, ədalət mühakiməsinin mühüm yekun hüquqi aktı (sənədi). Cinayət prosesində h.-ün 2 növü mövcuddur: 1) ittiham hökmü; 2) bəraət hökmü. İttiham hökmü təqsirləndirilən şəxsin təqsirini müəyyən və təsdiq edən sənəddir. Bəraət hökmü isə təqsirləndirilən şəxsin təqsirsizliyini müəyyən və təsdiq edən sənəddir. H.-dən şikayət və ya protest vermə müddəti bitdikdən sonra o, qanuni qüvvəyə minir. Barəsində şikayət və ya protest verilmiş h. ləğv edilmədikdə, o, yuxarı instansiya məhkəməsində baxıldıqdan sonra qüvvəyə minir.

**Hökmün icrası** – məhkəmənin və qanunla müəyyən edilmiş digər orqanların və vəzifəli şəxslərin qanuni qüvvəyə minmiş hökmün göstərişlərini təcrübi cəhətdən yerinə yetirmək (icra etmək) üzrə fəaliyyəti. İttiham hökmünün icrası 3 mərhələdən keçir: 1) hökmün icraya yönəldilməsi; 2) icranın yerinə yetirilməsi; 3) cəzanın icrası. Bəraət hökmü elan edildikdən dərhal sonra icra olunur. Qanunla müəyyən edilmiş müstəsna hallarda ittiham hökmünün icrası təxirə salına bilər. H.i.-nı təxirəsalma məsələsini məhkum olunmuş şəxsin, onun qanuni nümayəndələrinin və ya yaxın qohumlarının, müdafiəçisinin vəsatəti, yaxud prokurorun təqdimatı ilə məhkəmə həll edir.

**Hökmün konfirmasiyası** – bir sıra xarici dövlətlərin cinayət hüququnda məhkəmə hökmünün qanunla müəyyən edilmiş qaydada təsdiqi.

**Hökumət** – dövlətin ali kollegial icra orqanı. Ayrı-ayrı dövlətlərdə müxtəlif ada malikdir. O, Fransa, İtaliya və Polşada Nazirlər Şurası, Böyük Britaniyada və Özbəkistanda Nazirlər Kabineti, Koreya Xalq Respublikasında Dövlət Şurası və i.a. adlanır. Bitərəf, birpartiyalı və koalision h.-lər fərqləndirilir. H.-in formalaşdırılması qaydası idarəçilik formasından asılıdır. Parlamentli ölkələrdə o, dövlət başçısının tapşırığı ilə birpalatalı parlamentdə yerlərin əksəriyyətini və ya ikipalatalı parlamentdə aşağı palatanı qazanmış partiyanın lideri (koalision h.-də isə partiya liderləri) tərəfindən formalaşdırılır. Prezidentli respublikalarda (belə orqanın konstitusiya ilə nəzərdə tutulduğu ölkələrdə) prezident tərəfindən onun təyin etdiyi hər bir üzvdən təşkil edilir. Bir sıra dövlətlərdə (Belorusda, Qazaxıstanda, Qırğızıstanda, Özbəkistanda) h. və onun üzvləri parlament tərəfindən təsdiq edilməlidir. H.-in üzvləri (nazirlər, partfelsiz nazirlər, dövlət nazirləri, dövlət katibləri və i.a.) konkret mərkəzi idarələrə rəhbərlik edir, parla-







mentli respublikalarda onlar adətən parlamentin üzvü olmalıdırlar. Prezidentli respublikalarda isə nazir vəzifəsi deputat mandatı ilə bir arayasığmaz hesab edilir. Bu qayda yarımprezidentli ölkələrdə də mövcuddur. Parlamentli respublikalarda h. parlament (ikipalatalı parlamentdə aşağı palata) qarşısında kollegial məsuliyyət daşıyır. Bu o deməkdir ki, h. parlamentdə əksəriyyəti itirdikdə (məsələn, hökumət koalisiyasının parçalandığı, dağıldığı zaman), ya istefaya getməli (bu, hökumət böhranının başlanması ilə əlamətdardır), ya da parlamenti buraxaraq vaxtından əvvəl parlament seçkiləri təyin etməlidir. Federativ dövlətlərdə mərkəzi (federal) h. və federasiyasının tərkibinə daxil olan subyektlərin h. mövcuddur. H. ya tam tərkibdə, ya da h.-in yaratdığı daha məhdud kollegiya (Böyük Britaniyada, Hindistanda və başqa ölkələrdə kabinet) tərkibində fəaliyyət göstərə bilər.

**Hökumət başçısı** – bir sıra ölkələrdə dövlətin ali kollegial icra orqanının rəhbəri (parlamentli respublikalarda – baş nazir, nazirlər şurasının sədri, kansler; prezidentli respublikalarda – prezident) *(həmçinin bax: hökumət).*

**Hökumət böhranı** – parlamentdə hökumətin əksəriyyətin etimadını və ya qarşısında məsuliyyət daşıdığı parlament palatasının dəstəyini itirməsi. H.b. etimadsızlıq votumunun ifadə edildiyi andan başlanır. Bundan sonra hökumət ya istefaya gedir (tam tərkibdə), ya da parlamenti buraxaraq vaxtından əvvəl parlament seçkiləri təyin edir. H.b. yeni formalaşdırılmış hökumətə etimad votumunun ifadə edilməsinədək uzanır.

**Hökumət koalisiyası** *(bax: koalision hökumət).*

**Hökumətlərin hüquq varisliyi** – dövlətdə daxili dəyişikliklər zamanı hüquq və vəzifələrin keçməsi. Məsələn, hökumətin qeyri-konstitusiya yolu ilə əvəz edildiyi zaman əvvəlki hökumət tərəfindən xarici dövlətlərlə bağlanmış müqavilələrə yeni hökumətin münasibət məsələsi meydana çıxır. Mövcud nöqteyi-nəzərlərdən birinə uyğun olaraq hökumətin dəyişməsi dövlətlərin hüquq və vəzifələrinə təsir göstərmir.

**Humanitar hüquq** *(bax: beynəlxalq humanitar hüquq).*

**Humanitar yardım** – bir sıra dövlətlərin qanunvericiliyinə görə xarici ölkələrin aztəminatlı əhali qrupunun həyat şəraitinin və məişətinin yaxşılaşdırılması məqsədilə onlara ərzaq, birinci zərurət malları və digər lazımi predmetlərlə əvəzsiz köməklik göstərilməsi (fiziki və hüquqi şəxslər vasitəsilə həyata keçirilir).

**Humanizm prinsipi** – demokratik dövlətlərdə hüququn prinsiplərindən biri. Geniş mənada insana, şəxsiyyətə və cəmiyyətə baxışların tarixən dəyişən sistemi deməkdir. H.p. Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmişdir. Konstitusiyanın 12-ci maddəsinin 1-ci hissəsində deyilir: "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir". AR CM-in 9-cu maddəsində göstərilir ki, "Cinayət Məcəlləsi insanların təhlükəsizliyini təmin edir. Cinayət törətmiş şəxsə tətbiq edilən cəza və digər cinayət-hüquqi xarakterli cismani əzab vermək və ya insanı ləyaqətini alçaltmaq məqsədi daşıya bilməz". H.p. həmçinin AR CPM-in 12-16-cı maddələrində öz ifadəsini tapmışdır.

**Hüquq** – dövlət tərəfindən rəsmi qaydada müəyyən edilən və qorunan, dövlətin

iradəsini ifadə edən davranış qaydalarının sistemi. H. ictimai münasibətlərin normativ tənzimləyicisidir. Dövlət h.-un vasitəsi ilə insanların mümkün və zəruri olan davranışlarının eyni ölçüsünü müəyyən edir. H.-un normativliyi onun ümumiliyində ifadə olunur. Dövlət xalqın iradəsini qanunda ifadə etməklə ona bütün cəmiyyət üçün məcburi olan ümumi xarakter verir. H. yalnız dövlət tərəfindən müəyyən edilir. O, dövlətin hüquqyaratma (qanunyaratma) fəaliyyəti nəticəsində, yaxud mövcud davranış qaydalarını dövlətin sanksiyalaşdırması nəticəsində yaranır.

H. həmişə dövlətin məcburetmə qüvvəsi ilə təmin edilir. Hüquq normalarının sistemliliyi onların daxili birliyi, uzlaşması ilə xarakterizə olunur ki, bu da normaların vahid sosial təbiəti ilə şərtləşir. Hüquq normaları qarşılıqlı əlaqədə olub vahid hüquq sisteminin sahələrini əmələ gətirir. H. rəsmi müəyyənliyi ilə səciyyələndirilir. Dövlət h.-un köməyi ilə insanların davranışının həddini dəqiq müəyyən edir, hüquqi qadağanetməni dürüst şəkildə formulə edir. Dövlət və hüququn qarşılıqlı əlaqəsi onların ictimai inkişafdakı rolları ilə şərtləşir. Dövlət və hüquq vahid məqsəd və vəzifələrə, eyni sosial təyinata malikdirlər. Dövlət və hüquq eyni tarixi dövrdə və eyni səbəblərdən yaranmış və birlikdə inkişaf edir və təkmilləşirlər. Dövlət və hüququn müştərək qarşılıqlı təsiri onların bir-birindən asılılığında da ifadə olunur. Dövlət h.-dan öz funksiya və vəzifələrini həyata keçirmək vasitəsi kimi istifadə edir. O, h. vasitəsilə xalqın iradəsinə ümumməcburi qüvvə verir, dövlət hakimiyyətinin təşkili prinsiplərini təsbit edir, cəmiyyəti idarəetmə üsullarını qanunilәşdirir, ictimai münasibətləri xalqın mənafeyinə uyğun tənzimləyir. H. da öz növbəsində dövlətdən həm yaranması, həm də həyata keçirilməsi cəhətdən asılıdır. H.-un tarixi zəruriliyi ictimai münasibətlərin daimi inkişafından, bu münasibətləri hamı üçün ümumi olan normalarla tənzim etmək lüzumundan və istehsalın tərəqqisindən irəli gəlmişdir. H.-un meydana gəlməsinin əsas yolları mövcud davranış qaydalarının sanksiyalaşdırılması və yeni normaların müəyyən edilməsi olmuşdur. Hüquq normalarının müəyyən edilməsi dövlətin hüquqyaratma fəaliyyəti nəticəsində hüquq normalarının yaradılması deməkdir. H. ümummәcburi yuridik qüvvəyə malikdir. O, dövlət hakimiyyətinin bütün cəmiyyət üçün məcburi olan rəsmi sərəncamıdır. Buna görə də h. həmişə dövlət məcburiyyət qüvvəsi ilə təmin edilir və onun pozulması dövlət tərəfindən cəzalandırılır. H.-un məzmununu dövlət iradəsi təşkil edir, çünki bu iradə dövlət tərəfindən rəsmi normativ hüquqi aktlarda təsbit edilir. Eyni ölçünün müxtəlif fərdlərə tətbiqindən ibarət olan h. öz normalarında insanların hüquq və azadlıqlarını, qanuni mənafelərini, həmçinin vəzifələrini, onların davranışının dəqiq həddini müəyyənləşdirir. Bununla da o, insanların davranışını elə istiqamətləndirir ki, ictimai münasibətlər təsbit edilsin və möhkəmləndirilsin.

**Hüquq ailəsi** – müqayisəli hüquqşünaslığın mərkəzi anlayışlarından biri; hüquq mənbələrinin ümumiliyini, əsas anlayışları, hüququn strukturunu və onun formalaşmasının tarixi yollarını birləşdirən milli hüquq sistemlərinin çox və ya az dərəcədə geniş məcmusundan ibarətdir. "H.a." termini ikili mənaya ("milli" və "dünyəvi") malik olan "Hüquq sistemi" termini ilə yanaşı istifadə edilir. H.a.-in təsnifləşdirilməsi alim-komparativistlər arasında uzun mübahisə predmetidir. H.a.-nin ən nüfuzlu təsnifatı aşağıdakı kimidir: a) ümumi hüquq (ingilis-amerikan hüquq sistemi), qitə hüququ (roman-german hüquq sistemi); b) adət hüququ (tropik Afrika və Okeaniyanın hüquq sistemi); c) müsəlman hüququ (müsəlman hüquq sistemi); ç) Hindus hüququ (Hindus hüquq sistemi); d) ənənəvi hüquq (Uzaq Şərq hüquq sistemi). Skandinav və Roma-Holland hüquq sistemi də hüquq ailəsinə daxil edilir. XX yüzilliyin 90-cı illərinədək sosialist hüququ da h.a.-nə aid edilirdi. Lakin sovet-kommunist rejimi devrildikdən sonra sosialist cəbhəsinə daxil olan ölkələrin əksəriyyətində radikal bazar münasibətləri islahatları nəticəsində həmin hüquq sisteminin varlığı (Kuba, KXR və Vyetnam istisna olmaqla) qeyri-müəyyən qaldı. Dünyanın bəzi dövlətləri öz tarixi inkişafının xüsusiyyətləri sayəsində h.a.-lərindən birinə mənsub ola bilərlər. Məsələn, Şotlandiyanın hüququ ümumi hüququn və roman-german hüququnun qarışığından ibarətdir. Azərbaycan Respublikasının hüququ roman-german (qitə) hüquq sisteminə daxildir.

**Hüquqçu** *(bax: hüquqşünas).*

**Hüquqda boşluq** – hüquqi tənzimetmə və ya hüquqi təsir dairəsində mövcud olan ictimai münasibətləri tam və ya qismən tənzimləyən hüquq normasının (normaların) olmaması. H.b. probleminə hələ qədim dövrlərdə diqqət yetirilmişdir. Platonun, Aristotelin və digər qədim filosof-mütəfəkkirlərin, hüquqşünasların əsərlərində buna təsadüf edilir. Boşluq hüquq sisteminin natamamlığını, qanunvericilik tərəfindən ictimai münasibətlərin əhatəli nəzərə alınmamasını göstərir. H.b. qanunvericilik tərəfindən yeni normalar yaradılması və ya qüvvədə olan normanın (normaların) dəqiqləşdirilməsi (zənginləşdirilməsi) yolu ilə aradan qaldırılır.

**Hüquq düşüncəsi** – insanların hüquq haqqında, hüququn qiymətləndirilməsinə, inkişafına dair tələblərini əks etdirən baxışlar, təsəvvürlər və hisslər sistemi. H.d. bütün xalqın həm qüvvədə olan, həm də keçmişin və gələcəyin hüquq sistemlərinə olan münasibətidir. Bu münasibət bir tərəfdən ideya və təsəvvürlərdə, digər tərəfdən isə emosiya, əhval-ruhiyyə, vərdiş və hisslərdə ifadə olunur. H.d. normativ-tənzimləyici əhəmiyyətə malikdir. H.d.-nin xüsusiyyəti ondan ibarətdir ki, o, ümummәcburi davranış həddinin müəyyən olunmasını tələb edir, ictimai münasibətlər iştirakçılarının hüquq və vəzifələrinin dairəsini müəyyənləşdirmə zərurətini əsaslandırır. H.d.-nin daxili quruluşu iki elementdən – hüquqi ideologiya və hüquqi psixologiyadan ibarətdir. Hüquqi görüşlər və təsəvvürlər hüquqi ideologiyanı, hüquq barəsində emosiyalar, hisslər, əhval-ruhiyyə isə hüquqi psixologiyanı əmələ gətirir. H.d.-ində hüquqi psixologiya aparıcı yer tutur. Subyektlərinə görə ictimai, qrup və fərdi h.d. fərqləndirilir.

**Hüquq elmi** ***(hüquqşünaslıq)*** – xüsusi sosial normalardan ibarət olan hüququ, bütövlükdə dövlətin və cəmiyyətin siyasi sisteminin təşkili və fəaliyyətinin hüquqi formalarını öyrənən ictimai (humanitar) elm sahəsi. Hazırda h.e. bir neçə sahələrdən (konstitusiya hüququ; ailə hüququ; əmək hüququ; mülki hüquq; cinayət hüququ; mülki proses; cinayət prosesi; inzibati hüquq; beynəlxalq hüquq və i.a.) ibarətdir.

**Hüquq Elmləri Assosiasiyası (HEA)** *(İnternational Assosiation of Legal Scinses)* – beynəlxalq qeyri-hökumət təşkilatı. HEA 1955-ci ildə YUNESKO-nun himayəsi altında Parisdə (Fransa) təşkil edilmişdir. Assosiasiyanın əsas məqsədi hüquq elmlərinin inkişafına kömək etməkdən ibarətdir. Onun üzvləri 2 kateqoriyaya – milli komitələrə və əlaqəli üzvlərə bölünür. Assosiasiyanın rəhbər orqanı Beynəlxalq Müqayisəli Hüquq Komitəsidir (BMHK). HEA-nın rəsmi dili ingilis və fransız dilidir.

**Hüquq fəlsəfəsi** – hüquqşünaslığın və dövlətşünaslığın ümumi növləri, problemləri haqqında elm. H.f. antik fəlsəfədə (Platon, Aristotel, Sokrat), maarifçilik fəlsəfəsində (təbii hüquq doktrinası) və klassik alman fəlsəfəsində (Hegel) mühüm yer tutmuşdur. H.f. hüquq elminin tərkib hissəsi, hüququn dəyərini öyrənən mükəmməl biliklər sistemidir. H.f. XIX yüzilliyin sonundan başlayaraq hüququ (onun fəlsəfə köklərini) öyrənən elmə çevrilmişdir. XX yüzilliyin ortalarından etibarən neorealizmə, ekzistensializmə və neotomizmə əsaslanan cərəyanlar h.f.-ndə mühüm rol oynamağa başlamışdır.

**Hüquqi adət** *(bax: adətlər).*

**Hüquqi aktlar** – müəyyən hüquqi nəticələrə səbəb olan, hüquq münasibətləri yaradan, onları dəyişdirən və xitam edən, ictimai münasibətləri hökmran istehsal vasitələrinin təmin edilməsi, möhkəmləndirilməsi və inkişafı üçün tənzimləyən, xalqın mənafeyinin həyata keçirilməsinə yönəldilmiş rəsmi yazılı sənədlər. H.a. normativ aktlara, yəni ictimai münasibətlərin müəyyən sahəsini (növünü) tənzim edən hüquq normalarından ibarət olan aktlara və konkret hüquq subyektləri üçün fərdi hüquq və vəzifələr yaradan fərdi aktlara bölünürlər.

**Hüquqi davranış** – qanunun göstərişlərinə uyğun olan hərəkət (hüquqauyğun davranış). Qanunun göstərişlərinə uyğun olmayan davranış hüquq pozuntusu kimi qiymətləndirilir. H.d. insanın zahiri fəaliyyəti ilə hüquqi tələblərin yerinə yetirilməsinə onun daxili münasibətinin vəhdətindən ibarətdir. Hüquq subyektinin, onun hüquq normasına müvafiq olan hərəkət və ya hərəkətsizliyində təzahür edən zahiri davranışı h.d.-ın obyektiv cəhətini təşkil edir. Bu və ya digər meyarlardan asılı olaraq h.d.-ın müxtəlif növləri fərqləndirilir. O, hərəkət və hərəkətsizlik formasında ola bilər. Realizə formalarından asılı olaraq h.d. hüquqa əməl etmə, ondan istifadə, onu icra etmə, yaxud tətbiqetmə formasında ola bilər. H.d.-ın 3 növü vardır: a) sosial-fəal davranış; b) konformist davranış; c) marginal davranış.

**Hüquqi dövlət** – özündə insan hüquqlarının sarsılmazlığının dövlət tərəfindən bəyan edilməsini, hüquq və azadlıqların təminatının əsas mexanizminin müəyyən edilməsini, dövlətin, onun orqanlarının, vəzifəli şəxslərin konstitusiya və qanunlar çərçivəsində fəaliyyəti vəzifələrinin konstitusiya vasitəsilə müəyyənliyini, məhkəmənin müstəqilliyinin konstitusiya prinsipini, digər qanunlara münasibətdə konstitusiyanın aliliyi prinsipini, həmçinin beynəlxalq hüquq normalarının milli hüquq normaları qarşısında üstünlüyü prinsipini təcəssüm etdirən sosial dövlət. Dövlətin belə xarakteristikası AFR Konstitusiyasının 20-ci maddəsinin 3-cü abzasında parlaq əksini tapmışdır.

**Hüquqi dövlət nəzəriyyəsi** *(Rechtsstaat, ingilis-sakson terminologiyasında "hüququn hökmranlığı" – Rule of low)* – dövlət haqqında yeni nəzəriyyələrdən biri, müasir hüquq nəzəriyyəsi. H.d.n.-nə görə dövlət öz fəaliyyətində hüquqla bağlıdır və onun müəyyən etdiyi çərçivədən kənara çıxmamalıdır. "H.d." terminini elmə ilk dəfə İ.Kant gətirmişdir. Həmin nəzəriyyə XIX yüzilliyin ortalarında geniş yayılmış, alman hüquqşünasları Q.Ellinek və L.Şteyn onun ən görkəmli nümayəndələri olmuşlar.

**Hüquqi ehkam** – dünya yurisprudensiyasında hüquq elmi cərəyanlarından biri. Bu ehkam hüququn mənşəyi və mahiyyəti, onun inkişaf qanunauyğunluqları, ictimai həyatın digər sosial hadisələri ilə qarşılıqlı əlaqəsi haqqında məsələlərin tədqiqi zəruriliyini inkar edir. H.e. cərəyanı hüququn vəzifəsini müsbət (qüvvədə olan) hüquqda ehtiva olunan materialların təsviri və ümumiləşdirilməsi ilə məhdudlaşdırır. Hüquqi təriflərin sadəcə təsvirinə, hüquqi anlayışların formal təhlilinə və hüquq normalarının formal təsnifatına üstünlük verir. Həmin cərəyan öz adını "Hüquqi ehkamı" yeganə öyrənmə obyekti olmasından götürmüşdür. İngiltərəli Ostin, almaniyalı Merkel, Birlinq, Zomlo və başqaları bu cərəyanın nümayəndələridir.

**Hüquqi əməl** *(bax: hüquqi faktlar).*

**Hüquqi faktlar** – hüquq normasında nəzərdə tutulan və hüquq münasibətlərinin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunmasının əsasını təşkil edən həyati hallar. Hüquqi nəticələrin xarakterinə görə h.f. aşağıdakı kimi təsnifləşdirilir: a) hüquq münasibətlərinin əmələ gəlməsinə; b) dəyişməsinə; c) xitam olunmasına səbəb olan h.f. insanların iradə ifadəsilə əlaqəsindən asılı olaraq h.f.-ın 2 növü fərqləndirilir: 1) hadisə (hüquqi hadisə); 2) hərəkət (hüquqi hərəkət). İnsan iradəsi ilə əlaqəsi olmayan faktlar hadisə adlanır. Məsələn, insanın doğulması, bədbəxt hadisə və i.a. hərəkətlər insanların iradəsi ilə əlaqədar olan hüquqi faktlardır. İradənin pozitivi hüquqi nəticələri ilə əlaqəsindən asılı olaraq hüquqi hərəkətlər hüquqi aktlara və hüquqi əmələ bölünürlər. Hüquqi aktlar arzu olunan hüquqi nəticələrin baş verməsinə yönəlmiş (məsələn, vətəndaşa mənzil verilməsi) hərəkətlərdir. Hüquqi əməl isə elə hərəkətdir ki, burada hüquqi nəticə şəxsin arzusundan asılı olmayaraq baş verir.

**Hüquqi fors-major** *(bax: fors-major).*

**Hüquqi hadisə** *(bax: hüquqi faktlar).*

**Hüquqi hərəkət** *(bax: hüquqi faktlar).*

**Hüquqi idealizm** – hüquqi nihilizmin əksi olan hadisə; hüquqi tənzimetmənin imkanlarını, yəni hüququn insanların real davranışını müəyyən etmək imkanını bəyan edir. Qanunvericiliyin hüquqi idealizmi bəzən müvafiq sosial şəraitdə mümkün olmayan halları tənzimləyən normativ aktların qəbul edilməsinə gətirib çıxarır. Belə aktlar deklarativ səciyyə daşıyır, hüquqa inamı itirməklə yanaşı, hüquqi nihilizmin səbəblərindən biri kimi çıxış edir.

**Hüquqi kibernetika** *(bax: kriminalistik kibernetika).*

**Hüquqi konstruksiyalar** – hüquqi texnikanın elementləri; hüquqi materialın elə struktur yerləşdirilməsindən ibarətdir ki, onun vasitəsilə hüququn daxili elementləri, müvafiq şəxslərin vəzifələrinin və məsuliyyətinin formaları səciyyələndirilir.

**Hüquqi qayda** *(bax: hüquq qaydası).*

**Hüquqi məsuliyyət** – hüququn tələblərini icra etməyə görə dövlət məcburiyyəti. "H.m." termini əksər hallarda şəxsin üzərinə qoyulmuş vəzifələrin indi və gələcəkdə həyata keçirilməsinə görə məsuliyyəti mənasında işlədilir. Bu, pozitiv məsuliyyətdir. Pozitiv məsuliyyət qarşısında cəmiyyət üzvlərinin vətəndaşlıq borcu ilə əlaqədar olan faydalı hərəkətlərin həyata keçirilməsindən ibarətdir. Qeyri-qanuni əmələ hüquq pozuntusuna görə məsuliyyət retrospektiv məsuliyyət adlanır. H.m. hüquqi tənzimetmə sahəsidir. Sanksiyanın tətbiqi üsullarından asılı olaraq h.m.-in cərimə (cəza) və hüquqbərpaedici (əmlak məsuliyyəti) növləri vardır. Birinci növə cinayət, intizam məsuliyyəti və inzibati məsuliyyət daxildir. Məsuliyyətin bu növü dövlətin məcburiyyət tədbirinin tətbiqilə əlaqədardır. İkinci növ məsuliyyət (əmlak məsuliyyəti) mülki-hüquqi məsuliyyətdir.

H.m. inzibati məsuliyyətdən, intizam məsuliyyətindən, mülki-hüquqi məsuliyyətdən maddi məsuliyyətdən və cinayət məsuliyyətindən ibarətdir.

**Hüquqi nihilizm** – qanuna və hüquqi dəyərlərə mənfi (spektik) münasibətlə səciyyələndirilən hüquq düşüncəsinin, sosial (şəxsiyyətin, qrupun davranışının) davranışın formalarından biri. Təcrübədə (gündəlik həyatda) hüquqi göstərişlərə etinasızlıqda, onları təcrid etmədə ifadə olunur. H.n. fərdin şüurlu hərəkətidir. H.n. hüquqazidd davranışın və cinayətkarlığın səbəblərindən biri kimi çıxış edir.

**Hüquq institutu** – hüquq sahəsi daxilində ayrılmış hüquq normaları qrupu. H.i.-nda tənzim edilən həmcins ictimai münasibətlər növü ümumi əlamətlərinə görə birləşdirilir. Hüququn daxili quruluşu h.i.-larının müxtəlifliyi ilə səciyyələndirilir. Məsələn, vətəndaşlıq, seçki hüququ konstitusiya hüququnda; cəza institutu cinayət hüququnda; mülkiyyət hüququ mülki hüquqda təsbit edilmişdir.

**Hüquqi psixologiya** – hüquqi reqlamentləşdirmə sferasında psixi qanunauyğunluqların təzahürlərini öyrənən və istifadə olunan elmi-təcrübi fənn (tətbiqi psixologiya sahəsi). H.p. özündə kriminal psixologiya, məhkəmə psixologiyası, yetkinlik yaşına çatmayanları islahetmə (penitensiar psixologiya) psixologiya bölmələrini ehtiva edir.

**Hüquqi sistem** – hüquq sistemini, bütün hüquqi təsisatları, hüquqi hadisələri əhatə edən sistem. Normaların yaradılması və onların realizəsi üzrə fəaliyyət müxtəlif aktların, məsələn, hüquqyaratma ilə əlaqədar olan aktların, məhkəmə qərarlarının və i.a. köməyilə həyata keçirilir. Belə fəaliyyətin əsasını hüquq normaları təşkil edir. Ümummecburi normalar sistemi olan hüquq, qanunvericilik və hüquq-mühafizə orqanları bütün hüquqi hadisələrlə birlikdə cəmiyyətin hüquqi sistemini təşkil edirlər.

**Hüquqi statistika** – kəmiyyət göstəricilərini öyrənən, hüquqi proseslərin dinamikasını səciyyələndirən tətbiqi hüquq elmi. H.s. kriminoloji tədqiqatlar sahəsində xüsusilə böyük əhəmiyyət kəsb edir. Buna görə də cinayət statistikası və məhkəmə statistikası h.s.-nın başlıca bölmələri hesab olunur.

**Hüquqi şəxs** – mülkiyyətində ayrıca əmlakı olan, öz öhdəlikləri üçün bu əmlakla cavabdehlik daşıyan, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə edən və həyata keçirən, vəzifələr daşıyan, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malik olan qanunla müəyyən edilmiş qaydada qeydiyyatdan keçmiş, xüsusi yaradılmış qurum.





**Hüquqi şəxsin adı** – hüquqi şəxsin təşkilati-hüquqi formasını göstərən ad. AR MM-in 50.1-ci maddəsinə uyğun olaraq qeyri-kommersiya təşkilatının adında hüquqi şəxsin fəaliyyətinin xarakteri göstərilməlidir.

**Hüquqi şəxsin balansı** – hüquqi şəxsin müstəqil olmalı olan balansı. AR MM-in 121-ci maddəsinə uyğun olaraq öz fəaliyyətinin əvvəlində və sonralar təsərrüfat ilinin sonunda hüquqi şəxs onun kapitalı ilə öhdəlikləri arasında nisbəti göstərən balans (ilkin balans, balans) tərtib etməlidir. Hər təsərrüfat ilinin sonunda təsərrüfat ili üçün gəlirlərin və xərclərin müqayisəsi (mənfəətlə zərərin hesabı) tərtib edilir. Balans və mənfəətlə zərərin hesabı illik (yekun) balansı təşkil edir. İllik balans lazımi mühasibat uçotu prinsiplərinə müvafiq surətdə işlərin lazımi gedişinə uyğun müddətdə tərtib edilir.

**Hüquqi şəxsin binalarının (otaqlarının) toxunulmazlığını pozma** – insan və vətəndaşların konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 158-ci maddəsində nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan hüquqi şəxslərin mülkiyyətində və ya icarəsində olan binalara (otaqlara) daxil olmaqda ifadə olunur.

**Hüquqi şəxsin hüquq qabiliyyəti** – mülki hüquq qabiliyyəti. AR MM-in 44-cü maddəsinə uyğun olaraq hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır. Hüquqi şəxsin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı andan xitam verilir. Kommersiya hüquqi şəxsləri qanunla qadağan edilməyən fəaliyyət növlərini həyata keçirmək üçün zəruri mülki hüquqlara malik ola və mülki vəzifələr daşıya bilərlər. Siyahısı qanunvericiliklə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə hüquqi şəxslər yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilərlər.

**Hüquqi şəxsin ləğvi** – hüquqi şəxsin mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsi. Hüquqi şəxs aşağıdakı hallarda ləğv edilə bilər: 1) təsisçilərin (iştirakçıların) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə, o cümlədən hüquqi şəxsin mövcudluğu üçün nəzərdə tutulan müddətin qurtarması və ya yaradılması zamanı qarşıya qoyulan məqsədin əldə edilməsi ilə əlaqədar olaraq; 2) hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanun pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayıldığı halda; 3) lazımi xüsusi icazə (lisenziya) olmadan fəaliyyət və ya qanunla qadağan edilmiş fəaliyyət həyata keçirildikdə və ya qanunvericilik digər şəkildə dəfələrlə və ya kobudcasına pozulduqda və ya ictimai birlik və fond onun nizamnamə məqsədlərinə zidd fəaliyyətlə müntəzəm məşğul olduqda, həmçinin AR MM ilə nəzərdə tutulan digər hallarda məhkəmənin qərarı ilə.

**Hüquqi şəxsin məsuliyyəti** – mülki-hüquqi məsuliyyət. AR MM-in 52-ci maddəsinə uyğun olaraq hüquqi şəxs öz öhdəlikləri üçün ona mənsub bütün əmlakla cavabdehdir. MM-də və ya hüquqi şəxsin ni-

zamnaməsində nəzərdə tutulan hallar istisna olmaqla, hüquqi şəxsin təsisçisi (iştirakçısı) hüquqi şəxsin öhdəlikləri üçün, hüquqi şəxs isə təsisçinin (iştirakçının) öhdəlikləri üçün cavabdeh deyildir.

**Hüquqi şəxsin nizamnaməsi** – hüquqi şəxsin təsis sənədi; təsisçilər tərəfindən təsdiq edilir. Bir təsisçinin yaratdığı hüquqi şəxs həmin təsisçinin təsdiq etdiyi nizamnamə əsasında fəaliyyət göstərir. H.ş.n.-ndə hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, həmçinin onun ləğvi qaydası müəyyənləşdirilir. Qeyri-kommersiya hüquqi şəxsinin nizamnaməsində onun fəaliyyətinin predmeti və məqsədləri müəyyən edilir. Nizamnamədə dəyişikliklər o, dövlət qeydiyyatına alındığı andan üçüncü şəxslər üçün hüquqi qüvvəyə minir. Lakin hüquqi şəxslər və onların təsisçiləri (iştirakçıları) həmin dəyişiklikləri nəzərə almaqla hərəkət etmiş üçüncü şəxslərlə münasibətlərdə həmin dəyişikliklərin qeydə alındığına istinad edə bilməzlər.

**Hüquqi şəxsin olduğu yer** – hüquqi şəxsin fəaliyyət göstərən orqanının yerləşdiyi yer.

**Hüquqi şəxsin orqanları** – hüquqi şəxsin seçkili və ya təyinatlı idarəetmə orqanları. AR MM-in 49.1-ci maddəsinə uyğun olaraq hüquqi şəxslər qanunvericiliyə və nizamnaməyə uyğun fəaliyyət göstərən öz orqanları vasitəsilə mülki hüquqlar əldə edir və öhdələrinə mülki vəzifələr götürürlər. Hüquqi şəxsin orqanlarının seçilməsi və ya təyin edilməsi qaydası nizamnamə ilə müəyyənləşdirilir.

**Hüquqi şəxsin şəxsi qanunu** – beynəlxalq xüsusi hüququn termini; xarici hüquqi şəxsin yaradılması qaydasını, fəaliyyətini və ləğvini tənzim edən müəyyən hüquq normaları deməkdir. H.ş.ş.q. həmçinin həmin qurumun (birliyin) ümumiyyətlə hüquqi şəxs olub-olmamasını müəyyən edir. Şəxsi qanunun müəyyən edilməsi zərurəti kolliziyalı məsələlərin həlli zamanı da yaranır. Məhkəmənin hüquqi şəxsi hansısa dövlətin hüquq sisteminə "müncər etməyə" borclu olduğu vaxt belə qanun meydana çıxır.

**Hüquqi şəxsin yaradılması** – hüquqi şəxsin təşkili (formalaşdırılması). AR MM-in 45.1-ci maddəsinə uyğun olaraq hüquqi şəxs onun təsis edilməsi və nizamnaməsinin hazırlanması yolu ilə yaradılır. Əgər hüquqi şəxs bir neçə təsisçi tərəfindən yaradılarsa, təsisçilər müqavilə bağlayaraq hüquqi şəxsin nizamnaməsini, onun yaradılması üzrə birgə fəaliyyət qaydasını, özlərinin əmlakının ona verilməsi və onun fəaliyyətində iştirak edilmə şərtlərini müəyyən edirlər.

**Hüquqi şəxsin yenidən təşkili** – bir neçə hüquqi şəxsin birləşməsi, bir-birinə qoşulması, yaxud onların bölünməsi, bir-birindən ayrılması. AR MM-in 55-ci maddəsinə uyğun olaraq hüquqi şəxsin yenidən təşkili onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə həyata keçirilə bilər.

**Hüquqi şəxslərin hüquq varisliyi** *(bax: hüquqi şəxsin yenidən təşkili).*

**Hüquqi şəxslərin ittifaqları** – qeyri-kommersiya təşkilatlarının bir növü. AR MM-in 117-ci maddəsinə uyğun olaraq kommersiya təşkilatları özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi əmlak mənafelərinin təmsil və müdafiə edilməsi məqsədi ilə ittifaqlar yarada bilərlər. Əgər iştirakçılarının qərarı ilə ittifaqa sahibkarlıq fəaliyyətini həyata keçirmək həvalə edilərsə, belə ittifaq MM ilə nəzərdə tutulan qaydada təsərrüfat ortaqlığına və ya cəmiyyətə çevrilir və ya sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyəti yarada və ya belə cəmiyyətdə iştirak edə bilər. Qeyri-kommersiya təşkilatları özlərinin fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərinin təmsil və müdafiə edilməsi məqsədi ilə ittifaqlar yarada bilərlər.







**Hüquqi texnika** – hüquqi aktların həm məzmununun və strukturunun işlənib hazırlanması, həm də onların həyata keçirilməsi zamanı tətbiq edilən müəyyən üsulların, qaydaların və metodların məcmusu. H.t.-nın elementini hüquqi terminologiya, hüquqi konstruksiyalar, normativ hüquqi aktların düzülüşü üsulları təşkil edir. H.t.-nın növləri qanunvericilik texnikasından, məhkəmə texnikasından və i.a. ibarətdir.

**Hüquqi terminlər** – hüquqi texnikanın elementi; dövlət-hüquqi anlayışların şifahi ifadəsi. H.t.-in köməyilə dövlətin normativ-hüquqi göstərişlərinin məzmunu ifadə və təsbit edilir. H.t.-i üç qrupa bölmək olar: 1) ümumi terminlər (adi mənalarda və bütün anlayışlarda istifadə olunmaları ilə xarakterizə edilirlər); 2) xüsusi-yuridik terminlər – xüsusi hüquqi məzmuna (məsələn, zəruri müdafiə, iddia müddəti və i.a.) malik olmaları ilə səciyyəvidirlər; 3) xüsusi – texniki terminlər – xüsusi biliklər sahəsini – iqtisadiyyatı, təbabəti, texnikanı (məsələn, transgenli orqanizm və i.a.) əks etdirirlər.

**Hüquqi təcrübə** – sosial-hüquqi təcrübə ilə birlikdə toplanmış hüquqi (yuridik) göstərişlərin dərc edilməsi, təfsiri və realizə olunması üzrə fəaliyyət. İctimai münasibətlərin xarakterindən və yenidən təşkili üsullarından asılı olaraq h.t.-nin hüquqyaratma, hüququ tətbiqetmə, sərəncamverici, interpretasiya tipini və digər tiplərini, subyektlərə görə isə qanunvericilik, istintaq, məhkəmə və notariat tipini fərqləndirmək lazımdır.

**Hüquqi tənzimetmə** – hüquq normalarının (yuridik normaların) köməyi ilə dövlətin ictimai münasibətlərə təsiri prosesi. H.t. hüquqi tənzimetmə predmetinə və metoduna əsaslanır. H.t.-nin predmetini hüquq normalarının (yuridik normaların) müvafiq qrupu ilə təsbit edilən ictimai münasibətlərin müəyyən forması təşkil edir. Məsələn, dövlət qulluğu ilə əlaqədar olan münasibətlər inzibati hüququn predmetinə daxildir. Hüquqi tənzimetmə metodu dedikdə, hüquq normalarının (yuridik normaların) ictimai münasibətlərə təsir göstərməsi üsulu nəzərdə tutulur.

**Hüquqi tənzimetmə metodu** – hüquq normalarının (yuridik normaların) ictimai münasibətlərə təsir göstərməsi üsulu. H.t.m. imperativ və dispozitiv tənzimetmə metodlarına bölünür. İmperativ metod hüquq normaları ilə tənzim edilən ictimai münasibətlərin iştirakçısına hakimiyyət təsiri üsuludur. İnzibati hüquq və ya cinayət hüququ buna misal ola bilər. Dispozitiv metod isə bərabərhüquqlu tərəflər olan ictimai münasibətlər iştirakçıları arasında münasibətləri tənzimetmə üsuludur. Bu üsul tərəflərə özlərinin hüquq normaları ilə tənzim edilən qarşılıqlı münasibətlərinin formasını seçməyə imkan verir. Həmin metod özündə tənzimetmənin aşağıdakı üç üsulunu ehtiva edir: a) müəyyən hüquqların verilməsi; b) hüquqi xarakterə malik məlum hərəkətləri etməyə icazə ve-

rilməsi; c) müəyyən qarşılıqlı münasibətlərdə iştirak edən şəxslərə öz davranışını seçmək imkanı verilməsi (müəyyən forma seçmək hüququnun verilməsi).

**Hüquqi təsir** – ictimai həyata, ideologiyaya, insanların şüuruna hüququn təsiretmə prosesi. İctimai həyatın bütün sahələri, həmçinin hüququn tənzim etmədiyi, lakin onun təsir dairəsinə daxil olan sosial-iqtisadi və siyasi münasibətlər h.t.-in predmetini təşkil edir. Bu mənada hüquq digər sosial amillərlə əxlaq, siyasət və i.a. yanaşı onların formalaşmasına və inkişafına təsir göstərir. H.t. xüsusi hüquqi vasitələrlə əlaqədar deyildir. O, müxtəlif – sosial, ideoloji, informasiya və i.a. mexanizmlərin köməyilə həyata keçirilir. Bu halda hüquq ideoloji amil kimi fəaliyyət göstərir. H.t. müəyyən mənada hüququn qeyri-hüquqi fəaliyyət sahəsidir.

**Hüquqi ünvan** –hüquqi şəxsin rəhbər orqanının (orqanlarının) rəsmi olaraq yerləşdiyi ünvan. H.ü.-ı faktiki ünvandan fərqləndirmək lazımdır. Faktiki ünvanda əslində təşkilatın baş ofisi (idarəsi) yerləşir. Səhmdar cəmiyyəti, məhdud məsuliyyətli cəmiyyət, banklar və bank fəaliyyəti haqqında qanunlarda hüquqi deyil, poçt ünvanı barəsində danışılır. Poçt ünvanı ilə həmin hüquqi şəxslərlə əlaqələr həyata keçirilir.

**Hüquqi vəzifə** – müvafiq (konkret) hüquq münasibəti iştirakçısının, yəni bu vəzifənin daşıyıcısının qanunla müəyyən edilən lazımi davranış ölçüsü.

**Hüquqi vəziyyət** *(bax: hüquqi faktlar).*

**Hüquqi yardım (dövlətlər arasında)** – dövlətlərin ədliyyə orqanlarının (məhkəmələrin, prokurorluqların, notariatların) mülki işlər, ailə-nikah və cinayət işləri üzrə bir-birinə hüquqi yardım göstərmək sahəsində əməkdaşlığı (müqavilələr, sazişlər əsasında). H.y. haqqında müqaviləyə görə bir dövlətin vətəndaşları başqa dövlətin ərazisində həmin dövlətin öz vətəndaşları kimi şəxsi hüquqlardan və əmlak hüquqlarından istifadə edirlər. Onlar başqa dövlətin məhkəmə və prokurorluq orqanlarına, notariat kontorlarına və i.a. maneəsiz surətdə müraciət edə bilərlər. Onlara öz ölkəsinin vətəndaşları kimi prosessual hüquqlar verilir.

**Hüquq qabiliyyəti** – fiziki şəxslərin (vətəndaşların) və hüquqi şəxslərin qanunla nəzərdə tutulmuş hüquqlara malik olması və vəzifələr daşıması. Azərbaycan Respublikasında vətəndaşlar, dövlət idarə, müəssisə və təşkilatları, ictimai birliklər və siyasi partiyalar h.q.-nə malikdirlər. Bütün vətəndaşlar bərabər h.q.-nə malikdir. Azərbaycan Respublikasının ərazisində yerləşən əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin (bəzi istisnalarla) Azərbaycan Respublikası vətəndaşları ilə bərabər h.q. vardır. H.q. bir sıra konkret subyektiv hüquq və vəzifələrin yaranması üçün zəruri olan ilkin şərtdir. H.q. dövlət tərəfindən qorunur. Vətəndaşların hüquq qabiliyyəti onların doğulduğu andan əmələ gəlir. Lakin o, tam şəkildə, vətəndaş qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda reallaşır.

**Hüquq qaydası** – qanunlara dönmədən və dəqiq əməl olunmasına əsaslanan ictimai münasibətlər sistemi. H.q. anlayışı ictimai qayda anlayışına daxildir. O, ictimai qaydanın bir hissəsidir. H.q. hüquq normasının təsiri ilə yaranır və hüquqi tənzimetmənin nəticəsi kimi çıxış edir. H.q. hüquqla birlikdə yaranır və bütün inkişafı boyu onu müşayiət edir. H.q. qanunçuluq anlayışı ilə sıx bağlıdır. Onlar bir-birini şərtləşdirir və bir-birinə qarşılıqlı təsir göstərir. H.q. insanların hüquqi davranışı, hərəkətləri, dövlət orqanlarının, vəzifəli şəxslərin, ictimai birliklərin və i.a. qanuni hərəkətləri, yəni hüquq subyektləri tərəfindən qanuna ciddi əməl edilməsi nəticəsində yaranır. H.q. qanunçuluğa dürüst əməl edilməsinin nəticəsidir. Qanunçuluğun pozulması isə h.q.-nın da pozulması deməkdir. Deməli, qanunçuluq h.q.-nın əsasını təşkil edir.





**Hüquq mədəniyyəti** – qanunu bilməyi, onun zəruriliyinə, ədalətliliyinə inam və daxili tələbata görə həyata keçirilməsini nəzərdə tutan anlayış. H.m. hüquq düşüncəsi anlayışı ilə sıx bağlıdır. Lakin h.m. daha geniş anlayışdır. H.m. anlayışı hüququ bilmə; onun zəruriliyinə, ədalətliliyinə inam, hüquqi məsuliyyətin labüdlüyünə inam, yüksək səviyyəli hüquq qaydası, qanunvericilik texnikası, qanunvericiliyin təkmilləşdirilmiş vəziyyəti; hüququtətbiqetmə və hüququicra bacarığı, vətəndaşların sosial hüquqi fəallığı komponentlərindən ibarətdir. H.m. ictimai, qrup və fərdi, eləcə də peşə h.m.-nə ayrılır.

**Hüquq məsləhətçisi** – Azərbaycan Respublikasında müxtəlif idarə, müəssisə və təşkilatlarda, həmçinin tədris müəssisələrində, istehsal və qeyri-istehsal sahələrində, ictimai birliklərdə və siyasi partiyalarda, şirkət və assosiasiyalarda, nazirliklərdə hüquqi xidməti icra edən şəxs (hüquqşünas).

**Hüquq məsləhətxanası** – Azərbaycan Respublikasında vətəndaşlara müxtəlif hüquqi xidmətlər göstərən, hüquqi yardım edən idarə. H.m. Vəkillər Kollegiyası tərəfindən əhaliyə hüquqi yardım göstərmək və qüvvədə olan qanunvericiliyi şərh etmək üçün yaradılır. Vətəndaşlara müxtəlif hüquqi xidmətlər haqqı ödənilməklə göstərilir.

**Hüquq-mühafizə orqanları** – qanunçuluğun qorunması, cinayətkarlıqla və digər hüquq pozuntuları ilə mübarizə funksiyasını həyata keçirən dövlət orqanlarının məcmusu (sistemi). H.-m.o.-na məhkəmə, prokurorluq, daxili işlər, milli təhlükəsizlik, gömrük orqanları aid edilir.

**Hüquq münasibətləri** – hüquq normaları ilə tənzim edilən ictimai münasibətlərin məcmusu. H.m.-nin iştirakçıları dövlət tərəfindən təmin edilən subyektiv hüquqları həyata keçirir və hüquqi vəzifələri icra edirlər. H.m. formasında onun hüquqi əlaqələri konkret və ümumi səciyyə daşıya bilər. Konkret h.m. hüquqları və vəzifələri konkret müəyyən edilən iştirakçılar arasında hüquqi əlaqədir. Ümumi h.m. başlıca olaraq mühüm, əsas münasibətləri tənzim edən konstitusiya normalarına əsaslanır. Ümumi h.m.-ndə tərəflərdən biri qismində dövlət özü çıxış edir. H.m. ideoloji münasibətlərin xüsusi formasıdır. H.m. hüquq normaları ilə sıx bağlıdır. İctimai həyatda yalnız h.m. hüquq normaları ilə nəzərdə tutulmuş hüquq münasibətləri yaranır. H.m. dövlət məcburiyyətinin tətbiqi ilə həmişə təmin edilir. H.m. həmişə iradəvi xarakter daşıyır. Bu münasibətlər müxtəlif meyarlardan asılı olaraq konstitusiya, mülki, cinayət və ailə hüquq münasibətlərinə bölünürlər. H.m. iştirakçıları vəzifələrinin xarakterinə görə aktiv və passiv h.m. fərqləndirilir. H.m.-nin iştirakçıları arasında hüquq və vəzifələrin bölgüsündən asılı olaraq sadə və mürəkkəb h.m. fərqləndirilir.

**Hüquq norması** – dövlət tərəfindən müəyyən və mühafizə edilən, ictimai münasibətləri xalqın mənafeyinə uyğun tənzimləyən ümummәcburi davranış qaydası.

Hər bir h.n. ümumi davranış qaydasıdır. Dövlət onun vasitəsilə fərdlərin hüquq və vəzifələrini müəyyənləşdirir. H.n. hamı üçün məcburidir və nəzərdə tutduğu eyni tipli həyati hallara (situasiyalara) aiddir. H.n.-nın tətbiqi dövlət məcburiyyətilə təmin edilir. Onun tələblərinin pozulması hüquqi nəticələrə səbəb olur. Buna görə də h.n. ümummecburi səciyyə daşıyır.

**Hüquq pozuntusu** – hüquqa zidd olan və cəmiyyətə zərər vuran hərəkət və ya hərəkətsizlik. H.p. şəxsin hüququazidd təqsirli davranışıdır. H.p. hüquq subyektinin iradə ifadəsi ilə əlaqədar olan əməli, yəni hərəkət və ya hərəkətsizliyidir. Yalnız qanuna zidd olan hərəkət və ya hərəkətsizlik h.p. hesab oluna bilər. H.p. şəxsin cəmiyyət üzvlərinin ümumi iradəsi, onların ümumi mənafeyi əleyhinə yönələn hüquqazidd davranışıdır. H.p. cəzalanmalı əməldir (hərəkət və ya hərəkətsizlikdir). Buna görə də hər bir h.p. şəxsi mənafeyin ictimai mənafeyə qarşı qoyulması kimi qiymətləndirilir. H.p.-nun 2 növü fərqləndirilir: xəta və cinayət.

**Hüquq sahəsi** – oxşar ictimai münasibətləri tənzim edən xüsusiləşdirilmiş hüquq normaları və hüquq institutları. H.s. hüquq sisteminin əsas bölməsi olmaqla, ayrı-ayrı hüquq institutlarından əmələ gəlir. Hüquq normalarının, hüquq institutlarının və onlara müvafiq olan hüquq münasibətlərinin bir sahədə birləşdirilməsi müəyyən ictimai münasibətlərin xüsusiyyətlərindən irəli gəlir, xüsusi hüquqi rejimə, yəni onların özünəməxsus metod və mexanizmlə tənzimlənməsinə olan obyektiv zərurəti ifadə edir. Konstitusiya hüququ, ailə hüququ, mülki hüquq, cinayət hüququ, inzibati hüquq, maliyyə hüququ, mənzil hüququ, aqrar hüquq, mülki-prosessual hüquq, cinayət-prosessual hüquq və i.a. hüququn ən mühüm sahələridir.

**Hüquq sistemi** – **1)** konkret dövlətin (bəzən isə onun əlahiddə hissəsinin) hüququnun mənbələrinin və yurisdiksiyalı orqanlarının məcmusu. Daha geniş mənada özündə həmçinin aşağıdakı bir sıra digər komponentləri birləşdirir: a) hüquq mədəniyyəti; b) hüquqi ideologiya; c) hüquq elmi və i.a. Qeyri-dövlət hüquq institutları (vəkillik, notariat, hüquq firmaları, hüquqşünasların peşə birlikləri və i.a.) da h.s.-nə daxildir. Əgər h.s. dövlət miqyasında fəaliyyət göstərirsə, söhbət "milli hüquq sistemi" barəsində gedir. Ərazi h.s. dedikdə isə (məsələn, ABŞ-da federal h.s. ilə yanaşı, ştatların da hüquq sistemləri mövcuddur) bir ölkənin (federasiyanın) ayrı-ayrı hissələrinin h.s. nəzərdə tutulur. "H.s." anlayışını "hüququn sistemi" anlayışından fərqləndirmək lazımdır; **2)** eynilə hüquq ailəsi *(həmçinin bax: hüquq ailəsi).*

**Hüquq subyektliliyi** *(bax: hüququn subyekti).*

**Hüquqşünas** – hüquq (elmləri) sahəsində mütəxəssis; hüquq sahəsində çalışan və bu sahədə xüsusi biliyə malik olan şəxs.

**Hüquqşünaslıq** *(bax: hüquq elmi).*

**Hüququn analogiyası** – müəyyən hüquqi işə hüququn ümumi prinsiplərinin tətbiqi əsasında baxılması. H.a.-ndan həmin işi bilavasitə və ya oxşar əlamətləri nəzərdə tutan hər hansı bir normanın mövcud olmadığı hallarda istifadə edilir. İnzibati hüquq pozuntuları zamanı h.a.-na yol verilir. Hüququn digər sahələrində isə analogiyanın tətbiqi yolverilməzdir. Cinayət qanunvericiliyi hüquq normasının analogiya üzrə tətbiqinə yol vermir. Mülki qanunvericilikdə analogiyanın saxlanması həyati hadisələrin, situasiyaların çoxşaxəliliyi, qanunvericilik tərəfindən bunların hamısının qabaqcadan nəzərə alına bilməməsindən irəli gəlir. Ona görə də mülki qanunvericilikdə analogiyanın tətbiqi saxlansa da, bu, son dərəcə məhdud səciyyə daşıyır.





**Hüququn əlamətləri** – hüququ səciyyələndirən və onu digər sosial normalardan fərqləndirən əlamətlər. Həmin əlamətlər aşağıdakılardır: 1) hüquq xalqın, cəmiyyətin və dövlətin özünün dövlət iradəsidir; 2) hüquq yalnız dövlət tərəfindən müəyyən edilir; 3) hüquq həmişə dövlətin məcburiyyət qüvvəsi ilə təmin edilir (sanksiyalaşdırılır); 4) hüquq rəsmi müəyyənliyə malikdir.

**Hüququn formaları** *(bax: hüququn mənbələri).*

**Hüququn funksiyaları** – hüququn cəmiyyətdə yerinə yetirdiyi vəzifələri. H.f. hüquqi tənzimetmə prosesinin əsas istiqaməti, ictimai həyatın müxtəlif sahələrinə onun təsir etməsidir. Hüquq ictimai həyatın maddi əsasları ilə şərtləşən sosial təyinatını öz funksiyaları vasitəsilə həyata keçirir. H.f. aşağıdakılardır: a) tənzimetmə; b) qoruma; c) statik; ç) dinamik; d) ideoloji təsir.

**Hüququn kolliziyası** *(bax: kolliziya hüququ).*

**Hüququn mənbələri** – hüququn başlanğıcı. Hüququn mənbəyi dedikdə onun öz başlanğıcını haradan, nədən götürdüyü, rəsmi ifadə forması nəzərdə tutulur. Hüquq normalarının hüququn ümumi nəzəriyyəsində ifadə (təsbit edilməsinin) olunmasının konkret üsulu nəzərə alınmaqla aşağıdakı dörd əsas hüquq mənbəyi fərqləndirilir: 1) normativ hüquqi akt; 2) normativ müqavilə; 3) hüquqi adət; 4) məhkəmə presedenti. Bu mənbələrin hamısı dövlətlə sıx bağlıdır və dövlət hakimiyyəti orqanlarının hüququyaratma fəaliyyəti nəticəsində yaranmışdır.

**Hüququn obyekti** – hüquq münasibətləri iştirakçılarının subyektiv hüquq və vəzifələri ilə mühafizə və istifadə edilməli olan maddi, mənəvi və digər sosial nemətlər (sərvətlər). H.o. hüquq münasibətləri iştirakçılarının (subyektlərinin) qanuni maraqları ilə əlaqədardır. Maddi nemətlər (məsələn, bağışlama, saxlanc, alqı-satqı), qeyri-maddi nemətlər (məsələn, ad hüququ, müəlliflik hüququ), müəyyən hərəkəti etmək və ya onu etməkdən çəkinmək hüquq münasibətlərinin obyekti ola bilər.

**Hüququn resepsiyası** – müəyyən ölkədə, yaxud əvvəlki tarixi dövrdə yaranmış hüququn başqa dövlət (dövlətlər) tərəfindən mənimsənilməsi (resepsiyası). Başqa ölkənin hüququnun zorla tətbiqindən (müharibə və ya işğal nəticəsində) fərqli olaraq, h.r. daha yüksək dərəcədə inkişaf etmiş hüquq sistemlərinin mənimsənilməsindən (özününküləşdirilməsindən) ibarətdir. Roma hüququnun mənimsənilməsini (XII yüzillikdən başlayaraq) h.r.-na misal göstərmək olar. Roma hüququnun resepsiyası indi də davam edir.

**Hüququn sistemi** – hüququn bir-birilə daxili vəhdətdə bağlı sahələrə ayrılması ilə xarakterizə edilən daxili quruluşu (düzülüşü). H.s. hüquqi tənzimetmə predmetinə görə sahələrə bölünür. H.s. obyektiv səciyyə daşıyır, obyektiv surətdə mövcud ictimai münasibətlərin vəziyyətini əks et-

dirir. Müasir dövlətlərdə hüquq ümumi hüquqa və xüsusi hüquqa bölünür. Dövlət orqanları arasında, bu orqanlarla vətəndaşlar arasında münasibətləri ümumi hüquq, ayrı-ayrı fiziki şəxslər, firmalar, şirkətlər və müəssisələr arasındakı münasibətləri isə xüsusi hüquqi hüquq reqlamentləşdirir.

**Hüququn sosiologiyası** – hüquq nəzəriyyəsinin sosial təcrübədə yenidən yaranan problemlərə hüququn reaksiyası. H.s. hüquq sisteminin sosial fəaliyyətinin sosioloji bazada öyrənilməsi və sosioloji təcrübənin elmi istiqamətinin formalaşması nəticəsində yaranmışdır. Hüquq sistemində sosioloji tədqiqatlar aparılması sosiologiyanın və hüququn öz daxilində aparılır. Bu da dövlət quruculuğunun və hüquqi quruculuğun aktual məsələlərinin öyrənilməsinə və həllinə kompleks şəkildə yanaşmadan ibarətdir.

**Hüququn subyekti** – dövlət tərəfindən mühafizə edilən subyektiv hüquqlara və hüquqi vəzifələrə malik olan vətəndaşlar və təşkilatlar. H.s.-ləri hüquq qabiliyyətinə və fəaliyyət qabiliyyətinə malik olmalıdırlar. H.s.-nə vətəndaşlar (fiziki şəxslər), dövlət, dövlət orqanları, ictimai birliklər və siyasi partiyalar daxildir. "Vətəndaşlar" kateqoriyasına Azərbaycan Respublikası vətəndaşları, Azərbaycanda olan əcnəbilər (onlara verilmiş hüquq qabiliyyəti həddində), həmçinin vətəndaşlığı olmayan şəxslər daxildir. Azərbaycan dövləti hüququn xüsusi subyektidir. O, hüququn subyekti kimi, konstitusiya hüquq münasibətləri sahəsində çıxış edir.

**Hüququn tətbiqi** – səlahiyyətli dövlət orqanlarının hüquq normalarının konkret hadisəyə tətbiqinə yönəlmiş fəaliyyəti (hüququ tətbiqetmə). H.t. aşağıdakı hallarda mövcud olur: 1) hüququn subyektləri hüquqlarını özləri realizə edə bilmədikdə (məsələn, nikahın bağlanması, təqaüd təyin edilməsi və i.a.); 2) hüququn subyektləri pozulmuş subyektiv hüquqlarını özləri bərpa edə bilmədikdə (məsələn, atalığın müəyyən edilməsi, aliment alınması, işə bərpa olunma və i.a.); 3) hüquqi məsuliyyətin müəyyən edilməsi hallarında (məsələn, müəssisəyə vurulmuş zərərin ödənilməsi, cinayət cəzasının təyin edilməsi); 4) bəzi subyektiv hüquqlardan istifadəni təmin etdikdə (məsələn, öhdəliklərin icrasının təmin edilməsi üsullarından istifadə). Hüquq normalarının tətbiqi 2 cəhəti – dövlətin həm hüquq normalarının tətbiqinin təşkilini, həm də tətbiq aktı qəbulu sahəsindəki fəaliyyətini əhatə edir. Hüquq normalarının tətbiqi hüququn realizə formalarından biri olmaqla, səlahiyyətli dövlət orqanlarının təşkilati fəaliyyətindən və xüsusi tətbiq aktı qəbul etməsindən ibarətdir.

**Hüququ tətbiqetmə aktları** – dövlət-hakimiyyət iradəsini özündə ehtiva edən konkret hüquqi iş üzrə səlahiyyətli orqanın müəyyən formada ifadə olunan və ictimai münasibətlərin fərdi tənziminə yönələn rəsmi aktları. H.t.a.-nı digər hüquqi aktlardan, o cümlədən normativ hüquqi aktlardan fərqləndirmək lazımdır: a) normativ hüquqi aktlar ümumi xarakter daşıyır və ictimai münasibətlərin müəyyən növünü tənzimləyir; b) hüquq normasını müəyyən edir, dəyişdirir və ya xitam edir; c) hüquqi tənzimetmənin ümumi normativ əsası kimi çıxış edir. H.t.a. isə səlahiyyətli orqanın lazımi qaydada rəsmiləşdirilən və yazılı formada





tərtib edilən qərarıdır (məsələn, hökm, qətnamə, qərardad və i.a.)

**Hüququ tətbiqetmə təcrübəsi** – məhkəmələrin və digər hüququ tətbiqetmə orqanlarının hüquq normalarının təfsirindən, onlardakı boşluqların aradan qaldırılmasından və onların məzmununu aydınlaşdırmaqdan ibarət olan hamılıqla qəbul olunmuş hüquqi əhəmiyyətə malik təcrübəsi.

**Hüquq varisliyi** – **1)** hüququn qanuna, yaxud sazişə əsasən bir şəxsdən digərinə keçməsi. H.v. zamanı hüquq münasibətlərinin yeni obyekti əvvəlkini əvəz edir, lakin ondakı keçmiş hüquq və vəzifələr dəyişmir. Mülki hüquqda, ailə hüququnda və əmək hüququnda yalnız əmlak hüquq və vəzifələri vərəsəlik yolu ilə keçir. Şəxsi hüquqlar (məsələn, müəlliflik hüququ, şərəf və ləyaqət) özgəninkiləşdirilmir. Subyektin şəxsiyyətilə bağlı olan əmlak hüquqları barəsində varisliyə yol verilmir. Məsələn, aliment hüququnu başqasına vermək olmaz. Ümumi hüquq varisliyi (universal hüquq varisliyi) və xüsusi (sinqulyar) hüquq varisliyi fərqləndirilir. Birinci halda hüquq varisinə həm hüquqlar, həm də vəzifələr keçir (məsələn, vəsiyyət üzrə hüquq varisliyi). Xüsusi hüquq varisliyində isə ayrı-ayrı hüquqların bir şəxsdən digərinə keçməsi (məsələn, tələbin güzəşti) baş verir; **2)** prosessual hüquq varisliyi – mülki prosesdə iştirak edən maraqlı şəxsin maddi hüquq münasibətində hüquq varisi ilə əvəz edilməsi. P.h.v. vətəndaşın ölməsi, hüquqi şəxsin ləğvi (ümumi hüquq varisliyi), həmçinin tələbin güzəşti hallarında əmələ gəlir; **3)** beynəlxalq hüquqda – dövlətlərin hüquq varisliyi yeni dövlətin yaranması, dövlətin başqa dövlətin tərkibinə daxil olması, dövlətlərin bir-birindən ayrılması zamanı və i.a. hallarda baş verir, hüquqlar, vəzifələr bir dövlətdən digərinə keçir.

**Hüquqyaratma** – dövlətin hüquqyaradıcılıq sahəsində fəaliyyətinin forması. Hüquq normasını müəyyən edən, dəyişdirən, yaxud xitam edən normativ aktların yaradılmasına yönəldilən h. dövlətin müstəsna hüququdur. Lakin dövlətin səlahiyyət verdiyi ictimai təşkilatlar, referendum (ümumxalq səsverməsi) vasitəsilə xalq da h.-nın subyekti ola bilər. H. prosesi 3 mərhələdən keçir: a) qanun layihəsinin hazırlanması; b) qanunun təsdiq edilməsi; c) qanunun elan olunması. H. 2 üsulla həyata keçirilir: a) müəyyənləşdirmə üsulu, yeni normativ aktın bilavasitə qəbul edilməsi; b) sanksiyalaşdırma üsulu, yeni dövlətin qeyri-hüquqi xarakterli davranış qaydalarını təsdiq etməsi və onlara ümummecburi hüquqi qüvvə verməsi.

# - X -


Xabarovsk prosesi ........ 484
"Xaç atası" ........ 484
Xaqan ........ 484
Xaqanlıq ........ 484
Xalis mənfəət ........ 484
Xalq ........ 484
Xalq demokratiyası ........ 484
Xalq deputatı ........ 484
Xalq hakimiyyəti ........ 485
Xalqın suverenliyi ........ 485
Xalqın vahidliyi ........ 485
Xalqı təmsil etmək hüququ ........ 485
Xalq komissarı ........ 485
Xalq komissarlığı ........ 485
Xalq konstitusiyası ........ 485
Xalq qoşunu ........ 485
Xalq məclisi ........ 485
Xalq nümayəndəliyi ........ 485
Xalq palatası ........ 485
Xalq sorğusu ........ 485
Xalq təbabəti ........ 485
Xalq təşəbbüsü ........ 486
Xalq tribunları (plebey tribunları) ........ 486
Xalq vetosu ........ 486
Xalq vəkili ........ 486
Xan ........ 486
Xanım ........ 486
Xanlıq ........ 486
Xaos ........ 486
Xarab etmə ........ 486
Xarakter ........ 486
Xarassment ........ 487
Xarici bank ........ 487
Xarici dövlət borcu ........ 487
Xarici investisiya ........ 487
Xarici investisiyalar ........ 487
"Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının qanunu ........ 487
Xarici investorlar ........ 487
Xarici legion ........ 487
Xarici mallar ........ 487
Xarici müayinə (baxış) ........ 487
Xarici ticarət ........ 488
Xarici Ticarət Birliyi ........ 488
Xarici ticarət əqdləri ........ 488
Xarici ticarət fəaliyyəti ........ 488
Xarici ticarət yükləri ........ 488
Xarici valyuta ........ 488
Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama ........ 488
Xarici veksel ........ 488
Xarici vətəndaşlar ........ 488
Xartiya ........ 489
Xatın (xatın) ........ 489
"Xeyirxah xidmətlər" ........ 489
Xeyriyyəçilik fəaliyyəti ........ 489
Xeyriyyə təşkilatı ........ 489
Xəbərdarlıq ........ 489
Xəbər verməmə ........ 489
Xəlifə ........ 489
Xəncər ........ 489
Xərac ........ 489
Xəstəlik vərəqəsi ........ 490
Xəstəliyə görə cəza çəkməkdən azad etmə ........ 490
Xəstəyə kömək göstərməmə ........ 490
Xəta ........ 490
Xətşünaslıq ........ 490
Xətti-hərəkət ........ 490
Xəzinə ........ 490
Xəzinə biletləri ........ 491
Xəzinə bonları ........ 491
Xəzinədar ........ 491
Xəzinə emissiyası ........ 491
Xəzinə idarəsi ........ 491
Xəzinə notları ........ 491
Xəzinə öhdəlikləri ........ 491
Xəzinə vekseli ........ 491
Xidməti silah ........ 491
"Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının qanunu ........ 491
Xidməti yaşayış sahəsi ........ 491
Xilafət ........ 491
Xiroqrafa ........ 491
Xitam vermə ........ 492
Xoloplar ........ 492
Xrematistlər ........ 492
"Xromosom" metodu ........ 492
Xroniki psixi pozğunluq ........ 492
Xuliqanlıq ........ 492
Xunta ........ 492
Xural ........ 492
Xüms ........ 492
Xürrəmilik ........ 493
Xüsusi dəyəri olan əşyaları talama ........ 493
Xüsusi hüquq ........ 493
Xüsusi hüquqlardan məhrum etmə ........ 493
Xüsusi xarakterli aviasiya fəaliyyəti ........ 493
Xüsusi icraat ........ 493
Xüsusi ittiham ........ 493
Xüsusi ittihamçı ........ 494
Xüsusi qərardad ........ 494
Xüsusi mühafizə olunan təbiət əraziləri ........ 494
Xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma ........ 494
"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının qanunu ........ 494
Xüsusi mühafizə olunan təbiət obyektləri ........ 494
Xüsusi mülkiyyət ........ 494
Xüsusi protest ........ 495
Xüsusi rəy ........ 495
Xüsusi şikayət ........ 495
Xüsusi-təhlükəli residivist ........ 495
Xüsusi-ümumi ittiham ........ 495
Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə ........ 495

**Xabarovsk prosesi** – 1925-ci il Cenevrə protokolu ilə qadağan olunmuş bakterioloji müharibəyə hazırlıq və belə müharibə aparmaqda təqsirləndirilən 12 nəfər yapon hərbi canisi üzərində qurulmuş məhkəmə prosesi. Proses 1949-cu il dekabrın 25-29-da Xabarovsk şəhərində Primorsk hərbi dairəsinin hərbi tribunalında keçirilmişdir. Müxtəlif müddətlərə azadlıqdan məhrum edilməklə cəzalarını islah-əmək düşərgələrində çəkməli olan müttəhimlərin təqsiri tam sübuta yetirilmişdir. Prosesin materiallarından aşkar edilmişdir ki, Mancuriya yaponlar tərəfindən işğal olunduqdan dərhal sonra onun ərazisində bakterioloji müharibəyə hazırlıq aparılan xüsusi gizli dəstələr yaradılmışdır. 731 saylı dəstə SSRİ-nin, Çinin və Monqolustanın əhalisi arasında epidemiyanın yayılması üçün "ixtisaslaşdırılmışdır". Bir qədər sonra Nankin yaxınlığında yaradılmış 1644 saylı "Ey" dəstəsi də bununla məşğul olmuşdur. 100 saylı dəstə mal-qaranın və əkinlərin məhv edilməsi üçün bakterioloji vasitələr hazırlayır və sınaqdan keçirirdi. Yalnız 731 saylı dəstədə hər il 500-600 adam vəhşicəsinə məhv edilmişdir. Yapon hərbi caniləri bakterioloji vasitələrdən Xalxin-Qol (1939-cu ildə) çayı döyüşlərində də istifadə edilmişdir.

**"Xaç atası"** *(ing. godfather)* – cinayətkar təşkilatın, birliyin, həmçinin mafiya qruplaşmalarının rənbəri.

**Xaqan** *(türk. kagan)* – erkən orta əsrlərdə bir çox türkdilli xalqlarda dövlət başçısının titulu. "X." termininə ilk dəfə 312-ci il Çin salnamələrində təsadüf edilir. X. titulunu əvvəllər jujanların başçıları daşımışdır. VI yüzilliyin ortalarından bu titulu Türk xanlığının hökmdarları qəbul etmiş, sonradan xanlıqla genetik surətdə bağlı olan başqa türkdilli xalqlara və dövlətlərə (avarlara, Yenisey qırğızlarına, xəzərlərə və i.a.) keçmişdir. VIII yuzilliyin sonu– IX yüzilliyin əvvəlində slavyan tayfalarından olan polyanlar xəzərlərin hakimiyyətindən azad olduqdan sonra Kiyev knyazları da x. titulunu qəbul etmişlər.

**Xaqanlıq** – erkən orta əsrlərdə türkdilli xalqlarda ictimai-siyasi birlik. X. xaqan tərəfindən idarə olunurdu. Hun, avar, türk və xəzər x.-ları məşhur olmuşdur.

**Xalis mənfəət** – Azərbaycan Respublikasının vergi qanunvericiliyinə görə mənfəət vergisi çıxıldıqdan sonra qalan mənfəət (AP VM-in 13.2.19-cu maddəsi).

**Xalq** – **1)** geniş mənada – bir ölkənin bütün əhalisi; **2)** insan birliyinin tarixi formalarından biri. Etnik inkişaf baxımından qəbilə və tayfa birliyinin davamı, tarixən mövcudluq cəhətdən isə quldarlıq və feodalizm cəmiyyətinin meydana gəlməsi üçün səciyyəvidir. İctimai əmək bölgüsünün meydana gəlməsi, xüsusi mülkiyyətin yaranması, mübadilə və ticarətin inkişafı ayrı-ayrı tayfaların xalq halında birləşməsi ilə nəticələnmişdir.

**Xalq demokratiyası** – cəmiyyətin siyasi cəhətdən təşkili forması; Avropa və Asiya qitəsinin bir sıra dövlətlərində XX yüzilliyin ortalarında istiqlaliyyət uğrunda mübarizə nəticəsində bərqərar olmuşdur. X.d.-nın əsas xüsusiyyətləri ümumi və bərabər seçki hüququnun qorunub saxlanmasından, çox partiyalı sistemin bərqərar olmasından və i.a. ibarətdir.

**Xalq deputatı** – Azərbaycan Respublikasında ali nümayəndəli hakimiyyət orqanında xalqın səlahiyyətli nümayəndəsi, elçisi (millət vəkili). Deputatın hüquqi statusu, onun seçicilərlə, dövlət orqanları ilə, ictimai təşkilatlarla və siyasi qurumlarla qarşılıqlı münasibətlərinin əsasları Azərbaycan Respublikası Konstitusiyası və, "Deputatların hüquqi statusu haqqında" qanunla tənzim edilir. Deputata səlahiyyət seçildiyi gündən verilir və yeni seçkilərin başlandığı gün bitir. X.d. deputat toxunulmazlığı hüququna malikdir. Seçicilərin etimadını doğrultmayan x.d. vaxtından əvvəl geri çağırıla bilər.

**Xalq hakimiyyəti** *(bax: demokratiya).*

**Xalqın suverenliyi** – xalqın öz müqəddəratını sərbəst və müstəqil surətdə həll etməyə dair konstitusiya prinsipi. Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsinə əsasən sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

**Xalqın vahidliyi** – xalqın bölünməzliyini bildirən konstitusiya müddəası. Azərbaycan Respublikası Konstitusiyasının 5-ci maddəsinə əsasən Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikasının vətəndaşlarının ümumi və bölünməz vətənidir.

**Xalqı təmsil etmək hüququ** – bilavasitə xalq tərəfindən seçilən səlahiyyətli nümayəndələrin konstitusiya hüququ. Azərbaycan Respublikası Konstitusiyasının 4-cü maddəsinə əsasən xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa heç kəsin xalqı təmsil etmək hüququ yoxdur.

**Xalq komissarı** *(bax: xalq komissarlığı).*

**Xalq komissarlığı** – keçmiş Sovet dövlətində (1917-1946-cı illərdə) dövlət idarəçiliyinin mərkəzi orqanı. X.k.-na xalq komissarı tərəfindən rəhbərlik edilirdi. Komissarlıqlar ilk dəfə 1917-ci ilin oktyabrında – dövlət çevrilişindən sonra yaradılmışdır. 1946-cı ildə nazirliklərə çevrilmişdir.

**"Xalq" konstitusiyası** – konstitusiya hüququ elmində (parlament və ya təsis məclisi tərəfindən deyil, monarx tərəfindən bəxşiş edilən) xalqın istədiyi üsulla qəbul edilən konstitusiyanı adlandırmaq üçün istifadə olunan termin.

**Xalq qoşunu** – müharibə dövründə hərbi xidmətə çağırılmayan vətəndaşlardan (əsasən könüllülərdən) ibarət hərbi birləşmələr. Geniş xalq kütlələrinin xarici işğalçılara qarşı mübarizədə iştirakının formalarından biri olan x.q. qədim dövrlərdən məlumdur.

**Xalq məclisi** – **1)** Albaniyada xalq tərəfindən 4 il müddətinə seçilən adi dövlət hakimiyyəti orqanı; **2)** Misirdə, Mozambikdə və bir sıra başqa ölkələrdə birpalatalı parlamentin adı.

**Xalq nümayəndəliyi** – seçkili nümayəndələr vasitəsilə yaradılan xalq hakimiyyəti sistemi.

**Xalq palatası** – Hindistan Parlamentinin aşağı palatasının adı.

**Xalq sorğusu** – eyni̇lə məşvərətçi referendum.

**Xalq təbabəti** – xəstəliklərin baş verməsi, heyvan, bitki və mineral mənşəli maddələrin müalicə xüsusiyyətləri, həmçinin xəstəliklərin profilaktika və müalicəsində bir sıra praktik üsullar, gigiyenik vərdişlər

haqqında xalq tərəfindən toplanmış empirik məlumatların məcmusu.

**Xalq təşəbbüsü** – bir sıra xarici ölkələrin (İtaliya, İspaniya, Avstriya, İsveçrə) konstitusiya hüququnda institut; qanunvericilik təşəbbüsünün bilavasitə əhali tərəfindən realizə olunması hüququ. Bunun üçün qanun layihəsinin müdafiə edilməsindən ötrü müəyyən sayda imzanın (İtaliyada – 50 min, İsveçrədə – 100 min, Avstriyada – 200 min, İspaniyada – 500 min) toplanması tələb olunur.

**Xalq tribunları (plebey tribunları)** – Eramızdan əvvəl 494-cü ildən Qədim Romada plebeylərin içərisindən seçilən vəzifəli şəxslər. X.t. plebeylərin hüquqlarını müdafiə edir və onların xeyrinə qanunlar həyata keçirirdilər. Onlar magistrat və senatın qərarlarını ləvğ etmək hüququna malik idilər. Tribunların şəxsiyyəti toxunulmaz və müqəddəs hesab olunurdu. İmperiya dövründə x.t. əslində real əhəmiyyətini itirmişdir.

**Xalq vetosu** – ayrı-ayrı dövlətlərdə bilavasitə demokratiya institutu, referendumun (xalq səsverməsinin) bir növü. Parlament tərəfindən artıq qəbul edilmiş aktın ləğv edilməsi məqsədilə seçicilərin təşəbbüsü ilə keçirilən (bunun üçün müəyyən sayda imza toplanması tələb olunur) referendum. X.v. institutu o cümlədən İsveçrə Konstitusiyasının 89-cu maddəsində nəzərdə tutulur.

**Xalq vəkili** *(bax:ombudsman)*.

**Xan** *(türk dillərində xaqan, xakan, kaqan – hakim, monarx)* – **1)** orta əsrlərdə Şərqdə feodalların adının sonuna əlavə edilən titul. Türk tayfa başçıları və monqol sərkərdələri x. adlanırdı. Monqol istilasından sonra Azərbaycanda rəis, əmir sözləri də x. sözü ilə əvəz edilmişdir. Orta Asiyada, Azərbaycanda xanlıqlar dövründə hökmdarlar da x. adlanırdı; **2)** çinlilərin özlərinə verdikləri ad.

**Xanım** – orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda xan arvadı və ümumiyyətlə kübar ailələrdə qadınlara müraciət forması. Hazırda qadın adı (bəzən də müxtəlif adlara əlavə olaraq, məsələn, Bikəxanım, Püstəxanım, Dünyaxanım və i.a.) kimi işlədilir. Qadına hörmət əlaməti olaraq da x. deyə müraciət edilir.

**Xanlıq** – orta əsrlərdə türkdilli xalqlarda ictimai-siyasi birlik. X. xan tərəfindən idarə olunurdu. Krım, Həştərxan və Kazan x.-ları daha məşhur olmuşdur. XVIII yüzilliyin 40-cı illərində Şimali Azərbaycanda 10-dan artıq x. meydana gəlmişdir. Onlardan Qarabağ, Quba, Şəki, Xoy x.-ları Azərbaycanın siyasi həyatında mühüm rol oynamışdır. Azərbaycanda x.- lar XIX yüzilliyin ikinci yarısınadək mövcud olmuşdur. Cənubi Azərbaycanda x.-ların sayı 50-dən çox olmuşdur.

**Xaos** *(yun. chaos)* – tam qarışıqlıq, özbaşınalıq.

**Xarab etmə** *(bax: zədələmə)*.

**Xarakter** *(yun. charakter – iz, əlamət, fərqləndirici cəhət)* – həyat şəraiti və tərbiyənin təsiri ilə insanda yaranan və möhkəmlənən, şəxsiyyətləri bir-birindən fərqləndirən münasibət və davranış sistemi. Hər hansı konkret şəraitdə insanın davranış tərzini müəyyənləşdirməyə imkan verən mürəkkəb fərdi xüsusiyyət onun x. əlamətidir. Bu sistem hüquqi psixologiyada və məhkəmə psixologiyasında geniş tətbiq edilir.





**Xarassment** – ABŞ cinayət hüququnda şəxsiyyətin şəxsi həyat toxunulmazlığını təqiblə pozan cinayət. X. zamanı təqiblər telefon zəngləri, məktublar vasitəsilə müşayiət olunur. Adətən seksual motivlərlə törədilir.

**Xarici bank** – "Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli qanununun 1-ci maddəsinə uyğun olaraq qeydə alındığı ölkənin qanunvericiliyinə əsasən bank fəaliyyəti ilə məşğul olan hüquqi şəxs.

**Xarici dövlət borcu** – dövlətin xarici borclar və həmin borclar üzrə faizlərlə əlaqədar ödəmədiyi borclar. Belə borclar müvafiq dövlətin beynəlxalq banklara və xarici dövlətlərin banklarına, hökumətlərə, xüsusi xarici banklara olan borclarından yaranır. Cari x.d.b ödəmə müddəti cari ildə və ya yaxın büdcə ilində meydana çıxan borclardır. Əsaslı x.d.b. ödəmə müddəti hələ meydana çıxmamış borclardır.

**Xarici investisiya** – xarici investorların mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti və başqa növ fəaliyyət obyektlərinə qoyduqları əmlakın və əmlak hüquqlarının bütün növləri, o cümlədən intellektual fəaliyyətin nəticələrinə hüquqlar və əşya hüquqlarına aid olmayan digər hüquqlar.

**Xarici investisiyalar** *(bax: xarici investisiya)*.

**"Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasının ərazisində xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi prinsiplərini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 15 yanvar 1992-ci il tarixdə qəbul olunmuş, ona indiyə qədər 8 əlavə və dəyişiklik edilmişdir. Qanun yeddi bölmə və 43 maddədən ibarətdir.

**Xarici investorlar** – "hüquqi şəxslər olmayan, mülki hüquq qabiliyyəti təsis edildiyi dövlətin qanunvericiliyinə uyğun olaraq müəyyən edilən və göstərilən dövlətin qanunvericiliyinə müvafiq surətdə Azərbaycan Respublikasının ərazisində investisiyanı həyata keçirmək hüququna malik olan xarici hüquqi şəxslər və ya xarici təşkilatlar." Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikası qanununun ikinci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında xarici investorlar aşağıdakılar ola bilər: a) xarici hüquqi şəxslər; b) xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xaricdə daimi yaşayış yeri olan Azərbaycan Respublikası vətəndaşları. Bu şərtlə ki, onlar vətəndaşı olduqları və ya daimi yaşadıqları ölkədə təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış olsunlar; c) xarici dövlətlər; ç) beynəlxalq təşkilatlar.

**Xarici legion** – 1831-ci ildə Fransada, 1920-ci ildə isə İspaniyada təşkil edilmiş muzdlu hərbi birləşmələrin adı. X.l.-lar əsasən simasını itirmiş cinayətkar əcnəbi ünsürlərdən ibarət tərkibdə təşkil edilirdi. Onlardan başlıca olaraq müstəmləkələrdə milli-azadlıq hərəkatlarını və istiqlaliyyət uğrunda çıxışları yatırtmaq üçün istifadə olunurdu.

**Xarici mallar** – **1)** xarici mənşəyə malik olan, sərbəst dövriyyəyə həmin dövlətin hüdudlarından kənarda buraxılan mallar; **2)** "Azərbaycan" kateqoriyasına mənsub olmayan istənilən mallar.

**Xarici müayinə (baxış)** – gömrük nəzarətinin bir növü; nəqliyyat vasitələrinin və ya yüklərin zahiri yoxlamasından (bağlamaları açmadan) ibarətdir.

**Xarici ticarət** – dövlətlər arasında malların ixrac və idxalından ibarət olan ticarət. X.t., o cümlədən xidmətlər göstərilməsi əsasən xarici ticarət kontraktları ilə rəsmiləşdirilən kommersiya əqdləri vasitəsilə həyata keçirilir. Ölkənin X.t.-i dövlət tərəfindən tənzim edilir. Bunun üçün gömrük tarifi, lisenziyalaşdırma, kontingentləşdirmə və i.a. vasitələrdən istifadə olunur.

**Xarici Ticarət Birliyi** – Azərbaycan Respublikasında hüquqi şəxsin hüquqlarına malik olan müstəqil təşkilat. XTB binagüzarlıq qaydasında idxal və ixrac əməliyyatlarının və onlarla əlaqədar digər əməliyyatların aparılması üçün yaradılır və xarici ticarət sahəsində müstəsna hüquqa malikdir. XTB-nin hüquqi vəziyyəti Azərbaycan Respublikası qanunvericiliyinin ümumi normaları ilə, həmçinin bəzi xüsusi aktlarla, nizamnamələrlə müəyyən edilir. Mülki qanunvericiliyə uyğun olaraq XTB öz öhdəliklərinə görə müstəqil əmlak məsuliyyəti daşıyır. Dövlət, onun orqan və təşkilatları XTB-nin öhdəlikləri üçün məsuliyyət daşımır. XTB də öz növbəsində dövlətin və onun orqanlarının öhdəlikləri üçün cavabdehlik daşımır.

**Xarici ticarət əqdləri** – malların, xidmətlərin, yaradıcılıq fəaliyyəti məhsullarının və i.a. mübadiləsi üzrə idxal və ixrac əməliyyatlarının aparılmasını əks etdirən əqdlər. Belə əqdlər bağlanarkən tərəflərdən heç olmasa biri xarici vətəndaş, yaxud xarici hüquqi şəxs olmalıdır. Alqı-satqı, podrat, daşıma və i.a. x.t.ə.-nin əsas növləridir.

**Xarici ticarət fəaliyyəti** – malların, xidmətlərin, işçilərin, informasiyaların, intellektual fəaliyyət nəticələrinin, o cümlədən onlara olan müstəsna hüquqların (intellektual mülkiyyət) beynəlxalq mübadiləsi sahəsində sahibkarlıq fəaliyyəti.

**Xarici ticarət yükləri** – xarici ticarət müqavilələri və ya kontraktları əsasında ölkəyə gətirilən və ya aparılan mallar.

**Xarici valyuta** – **1)** tədavüldə olan və müvafiq xarici dövlətdə və ya dövlətlər qrupunda qanuni ödəmə vasitəsi olan, həmçinin tədavüldən götürülən və ya çıxarılan, lakin mübadilə edilən banknot, xəzinə biletləri, sikkələr növündə pul nişanları; **2)** xarici dövlətlərin pul vahidlərində hesablarda və beynəlxalq pul və ya hesablaşma vahidlərində olan vəsaitlər.

**Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 208-ci maddəsində nəzərdə tutulmuşdur. Təşkilat rəhbərləri tərəfindən xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının müvəkkil edilmiş bankının hesabına məcburi qaydada köçürülməli olan xeyli miqdarda xarici valyuta vəsaitlərini xaricdən qaytarmamada ifadə olunur.

**Xarici veksel** – xaricdə verilən, yaxud xaricdə akseptləşdirilməli və (və ya) ödənilməli olan veksel.

**Xarici vətəndaşlar** – Azərbaycan Respublikasında xarici dövlətin vətəndaşlığını daşıyan, Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslər (əcnəbilər). X.v.-ın hüquqi vəziyyəti Azərbaycan Respublikası qanunvericiliyi ilə tənzimlənir. X.v. Azərbaycan Respublikası konstitusiya hüququnun, mülki hüququn, əmək hüququ-





nun və cinayət hüququnun subyektləri hesab olunurlar. Onlar nisbətən məhdud dairədə Azərbaycan Respublikası vətəndaşlarının istifadə etdikləri hüquq və vəzifələrin daşıyıcısıdır. X.v. Azərbaycan Respublikası Konstitusiyasına hörmət və ölkə qanunlarına əməl etməlidirlər.

**Xartiya** *(lat. chartia; yun. chartes – kağız, forma)* – sosial təbəqələrin siyasi tələblərini əks etdirən sənədlərin adı (məsələn, Böyük Azadlıqlar Xartiyası).

**Xatun (xatın)** – türkdilli xalqlarda hökmdar arvadına və şahzadə qızlara verilən ad. Sonralar digər Şərq ölkələri arasında da yayılmışdır. X.-lar dövlətin idarə olunmasında, siyasi həyatda mühüm rol oynamışlar. "X." adına "Kitabi - Dədə Qorqud" dastanlar toplusunda da təsadüf olunur (burla xatun). Hazırda qadın adı kimi də işlədilir.

**"Xeyixah xidmətlər"** – beynəlxalq hüquqda dövlətlər arasındakı mübahisələrin dinc yolla həlli vasitələrindən biri. "X.x." dedikdə hər hansı dövlətin və ya beynəlxalq təşkilatın mübahisə edən tərəflər arasında əlaqə yaradılmasına və münaqişənin dinc yolla həllinə yönəldilmiş danışıqlar aparılmasına köməyi başa düşülür. "X.x." mübahisə edən tərəflər üçün məcburi olmayan məsləhət xarakteri daşıyır. "X.x." göstərən dövlət danışıqlarda, yaxud mübahisənin həllində bilavasitə iştirak etmir. Bununla da "x.x." vasitəçilikdən fərqlənir. "X.x." həm sülh, həm də müharibə şəraitində tətbiq edilə bilər.

**Xeyriyyəçilik fəaliyyəti** – Azərbaycan Respublikasının vergi qanunvericiliyinə görə fiziki şəxs və (və ya) xeyriyyə təşkilatı tərəfindən həyata keçirilən və maddi və ya digər köməyə (yardıma) ehtiyacı olan fiziki şəxslərə və ya bilavasitə bu cür kömək (yardım) göstərən təşkilatlara, o cümlədən xeyriyyə təşkilatlarına, birbaşa bu cür təmənnasız kömək (yardım) göstərməkdən, o cümlədən əvəzsiz pul köçürməkdən ibarət olan fəaliyyət.

**Xeyriyyə təşkilatı** – Azərbaycan Respublikasının vergi qanunvericiliyinə görə xeyriyyəçilik fəaliyyətini həyata keçirən qeyri- kommersiya təşkilatı.

**Xəbərdarlıq** *(bax: inzibati tənbeh).*

**Xəbər verməmə** *(bax: cinayət gizlətmə).*

**Xəlifə** *(ərəb. müavin, canişin, varis, xələf)* – Məhəmməd Peyğəmbərin ölümündən (632-ci il) sonra müsəlman icması və teokratik müsəlman dövlətinin – Xilafətin dini və dünyəvi başçısı. X.-lər əvvəllər Məhəmmədin, Əməvilər dövründə isə Allahın yer üzündə canişini hesab edilirdilər. Abbasilər sülaləsinin süqutundan (XIII əsr) sonra bütün müsəlmanlar üzərində başçı x. hesab olunurdu. Birinci x. Məhəmmədin ən yaxşı silahdaşı Əbu Bəkr, ikinci Ömər, üçüncü Osman, dördüncü isə Əli olmuşdur. Onlar "rəşidi xəlifələri" təxəllüsünü qazanmışlar. X. titulunu Türkiyə sultanları da qəbul etmişdilər.

**Xəncər** – əlbəyaxa və ya yaxın məsafəli döyüşdə istifadə edilən soyuq silah. Bir və ya ikiağızlı qısa tiyədən (şiş uclu) və dəstəkdən ibarət olur.

**Xərac** *(ərəb.)* – orta əsrlərdə islam ölkələrində müsəlman əhalidən alınan əsas torpaq vergisi. "Mal", "mal-cəhət", "bəhrə" terminlərinin sinonimi olan x. pul və ya natura formasında toplanırdı. X.-ın əsasən 2

forması olmuşdur: 1) müqasəmə; 2) misah. Müqasəmə istehsal olunan məhsulun müəyyən hissəsinin natura şəklində alınması idi. Misah isə ölçulmüş və xüsusi dəftərdə qeyd edilmiş əkin sahələrindən alınan vergiyə deyilirdi. XV yüzillikdən başlayaraq "x." termini aradan çıxmış və getdikcə malcəhət adlanmağa başlamışdır. X. bəzən bütün torpaq vergilərinin məcmusundan ibarət olmuşdur. O, Azərbaycanda orta əsrlərdə müsəlman əhalidən toplanan vergilərin təqribən 25 faizini təşkil etmişdir.

**Xəstəlik vərəqəsi** – əmək qabiliyyətinin olmaması haqqında vərəqə. X.v. işçinin əmək qabiliyyətini müvəqqəti itirməsini təsdiq edən sənəddir. Xəstəlik və ya şikəstlik nəticəsində əmək qabiliyyətini müvəqqəti itirdikdə müalicə edən hakim təkbaşına hər dəfə 3 gündən çox olmayan müddətə, ümumiyyətlə isə həmin halda 6 gündən çox olmayan müddətə işçiyə x.v. verməyə haqlıdır. Müalicə həkimi x.v.-ni 6 gündən artıq müddətə yalnız həkim - məsləhət komissiyası, yaxud onu uzatmağa səlahiyyəti olan şəxs (şöbə müdiri, baş həkim və ya onun müavini) təsdiq etdikdən sonra uzada bilər. Stasionarda (xəstəxanada) müalicə zamanı x.v. bütün müalicə müddəti üçün müalicə edən həkim tərəfindən şöbə müdiri ilə birlikdə verilir. Bir həkimi olan müalicə müəssisələrində (kənd yerlərində) x.v xəstəliyinin bütün müddəti üçün həkim tərəfindən verilir. Müalicə həkimi olmayan yerlərdə, habelə üzən gəmilərdə feldşerə, tibb məntəqəsinin müdürünə x.v. vermək hüququ verilə bilər. Uşaqlı analara uşağına baxmaq üçün x.v. verilir.

**Xəstəliyə görə cəza çəkməkdən azad etmə** – cinayət qanunvericiliyinə görə cəzadan azad etmənin bir növü. AR CM-in 78.1-ci maddəsinə uyğun olaraq cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş və bunun nəticəsində öz əməlinin (hərəkət və hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya həmin əməli idarə etmək imkanından məhrum olmuş şəxs cəzadan və ya cəzanın qalan hissəsini çəkməkdən azad olunur. Belə şəxs barəsində məhkəmə tərəfindən AR CM ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Cinayət törətdikdən sonra cəzanın çəkilməsinə mane olan sair ağır xəstəliyə düçar olmuş şəxs məhkəmənin qərarı ilə cəza çəkməkdən azad edilə bilər. İntizam xarakterli hərbi hissədə saxlama növündə cəza çəkən hərbi qulluqçular, onların hərbi xidmətə yararsız hesab edilməsinə səbəb olan xəstəliklərə düçar olduqda cəzanın qalan hissəsini çəkməkdən azad edilirlər. Belə hallarda məhkəmə həmin şəxslərə cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz edə bilər.

**Xəstəyə kömək göstərməmə** – həyat və sağlamlıq əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 142-ci maddəsində nəzərdə tutulmuşdur. Qanunvericiliyə və ya xüsusi qaydalara müvafiq olaraq xəstəyə kömək etməyə borclu olan tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsində ifadə olunur.

**Xəta** *(bax: inzibati xəta).*

**Xətşünaslıq** *(bax: məhkəmə-xətt ekspertizası).*

**Xətti-hərəkət** *(bax: istintaq taktikası).*

**Xəzinə** – **1)** xan, şah və çarların, böyük knyazların və udel knyazlarının, məscid və monastırların və i.a. pul, daş-qaş və digər maddi sərvətlərinin saxlandığı yer; **2)** mərkəzləşdirilmiş dövlətlərdə ölkənin maliyyə ehtiyatlarının məcmusu.

**Xəzinə biletləri** – dövlətin, bir qayda olaraq, xəzinə idarəsinin büdcə kəsirini ödəmək üçün buraxdığı kağız pullar. Belə biletlər qızıla dəyişdirilmir.

**Xəzinə bonları** – orta və uzunmüddətli dövlət öhdəliklərinin bir növü; adətən 5 ildən 25 ilədək müddətə buraxılır və dövlət bazarının qiymətli kağızları hesab olunurlar.

**Xəzinədar** – xəzinəyə baxan, xəzinə işləri ilə məşğul olan fiziki şəxs.

**Xəzinə emissiyası** – tədavülə kağız pul buraxılması; xəzinə idarəsi, yaxud dövlətin digər maliyyə orqanı tərəfindən həyata keçirilir. X.e. inflyasiya xarakteri də daşıya bilər. Ondan adətən böhranlı vəziyyətlərdə istifadə olunur.

**Xəzinə idarəsi** – bir sıra dövlətlərdə (ABŞ-da, Böyük Britaniyada, Fransada) dövlət büdcəsinin kassa icrasını yerinə yetirən dövlət maliyyə orqanı. X.i. vergilər, rüsumlar, gömrüklər və i.a. gəlirlər tutulmasını təşkil edir, dövlət büdcəsində nəzərdə tutulan xərclərə vəsait buraxır, bir sıra hallarda kağız pul emmissiyasını həyata keçirir.

**Xəzinə notları** – **1)** xəzinə emissiyası qaydasında buraxılan kağız pulların bir növü; **2)** Orta müddətli dövlət öhdəliklərinin bir növü.

**Xəzinə öhdəlikləri** – qiymətli kağız sahiblərinin pul vəsaitlərinin büdcəyə keçirilməsini təsdiq edən və sahibliyin bütün müddəti ərzində qeyd edilmiş gəliri almaq hüququ verən dövlət qiymətli kağızları.

**Xəzinə vekseli** – **1)** dövlətin qısamüddətli istiqraz öhdəliyi; **2)** ABŞ hökumətinin qısamüddətli kuponsuz borc öhdəliyi; **3)** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin qısamüddətli borc öhdəliyi. Adətən "x.v." adı altında buraxılan qiymətli kağızlar. X.v.-nin adından savayı veksellə heç bir ümumi əlaqəsi yoxdur.

**Xidməti silah** – insanların həyat və sağlamlığının qorunması, təbiətin, təbii ehtiyatların, mülkiyyətin, qiymətli və təhlükəli yüklərin, xüsusi göndərişlərin mühafizəsi ilə bağlı vəzifələri yerinə yetirən şəxslər tərəfindən istifadə olunması üçün nəzərdə tutulan silah.

**"Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında xidməti və mülki silahın və onun sursatının dövriyyəsi, habelə onun müstəsna hallarda tətbiqi ilə bağlı yaranan hüquq münasibətlərini tənzimləyən qanunvericilik aktı.

**Xidməti yaşayış sahəsi** – əmək münasibətlərinin xarakterindən asılı olaraq iş yerində və ya onun yaxınlığında yaşamalı olan vətəndaşların köçməsi üçün nəzərdə tutulan yaşayış sahəsi. X.y.s.-nin verilməsi haqqında qərar ixtiyarında belə yaşayış sahəsi olan idarə, müəssisə və təşkilatın müdiriyyəti, icra hakimiyyəti orqanları, ictimai təşkilatlar, həmçinin qoşun hissəsinin komandanlığı tərəfindən verilir.

**Xilafət** – müsəlman teokratiya sistemi, həmçinin xəlifələrin başçılıq etdikləri feodal ərəb-müsəlman dövlətlərinin adı. VII yüzilliyin əvvəllərində Qərbi Ərəbistanda Məhəmməd Peyğəmbərin təşkil etdiyi müsəlman icması (ümmə) xilafətin özəyi olmuşdur.

**Xiroqrafa** *(yun. öz əli ilə imza etmə)* – Qədim Romada şahidlərin iştirakını tələb

etməyən tipik borc öhdəliyi. Öhdəlik birinci şəxsin adından tərtib edilirdi.

**Xitam vermə** *(bax:cinayət işinə xitam vermə).*

**Xoloplar** – Rusiyada X yüzillikdə və XVIII yüzilliyin əvvəlində feodaldan asılı olan əhali kateqoriyası. Xolop hüquqi vəziyyətinə görə köləyə yaxın idi. "Xolop" termini salnamədə ilk dəfə 986-cı ildə işlədilmişdir. Sahibkar xolopu sata, bağışlaya, öldürə və borc əvəzi verə bilərdi. XVII yüzilliyin sonunda x.-ın bir hissəsinə torpaq verilmiş və onların üzərinə mükəlləfiyyətlər qoyulmuşdur. 1722-1724-cü illərdə can vergisinin tətbiqilə əlaqədar olaraq x.-ın digər qrupu təhkimli kəndlilərə çevrilmişdir.

**Xrematislər** *(yun. chrematitium – dövlət işlərilə məşğul olanlar)* – Ptolomeylər dövründə Misirdə fəaliyyət göstərmiş çar hakimləri. Məhkəmə kollegiyası 3 nəfər xrematistdən (hakimdən) ibarət olurdu. Eramızdan əvvəl III yüzillikdə x.-ə İsgəndəriyyədən olan isaqoq tərəfindən başçılıq edilirdi. Eramızdan əvvəl II yüzillikdən başlayaraq mülki işləri həll edən bu kollegiya daimi yerli məhkəmələrə çevrilmişdir.

**"Xromosom" metodu** *(kriminologiyada)* – cinayətkar davranışın səbəblərini xromosom anomaliyalarla izah etmək cəhdi (kriminoloq N. Yakobe və başqaları tərəfindən irəli sürülmüşdür). Məsələn, yeni "xromosom" nəzəriyyələrindən birində təsdiq edilir ki, kişilərdə müəyyən üçhəlqəli kombinasiya – bir qadın, iki kişi xromosomunun olması onlarda aqressivliyi həddən artıq inkişaf etdirir, onları çox zaman qanunla münaqişəyə girməyə vadar edir. Kriminologiyada "x." m.-nun əhəmiyyətinin qiymətləndirilməsi ziddiyyətlidir və bu sahədə tədqiqatlar davam etdirilir.

**Xroniki psixi pozğunluq** – xroniki ruhi xəstəlik, yəni psixikanın uzun sürən pozğunluğu. X.p.p. bəzən səhhətin yaxşılaşması və ya pisləşməsilə müşayiət olunur. Lakin o, özündən sonra sabit psixi çatışmazlığın nişanələrini qoyur. Şizofreniya, epilepsiya, paranoya, maniakal-depressiv psixoz, xoşniyyət iflic və i.a. belə xəstəliklərə aiddir.

**Xuliqanlıq** – ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlərin bir növü. AP CM-in 221-ci maddəsində nəzərdə tutulmuşdur. İctimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, vətəndaşlar üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilən qərəzli hərəkətlərdə ifadə olunur.

**Xunta** *(isp. yunta - kollegiya, yığıncaq, birlik)* – ispandilli ölkələrdə müxtəlif ictimai-siyasi təşkilat, birlik, ittifaqların, həmçinin dövlət orqanlarının adı. Latın Amerikasının bir sıra ölkələrində hərbi (dövlət çevrilişi) çevriliş nəticəsində hakimiyyətə gəlmiş qüvvələrə (hökumətlərə) də x. (hərbi x.) deyilir. "X." termininindən bir sıra ölkələrdə mövcud mürtəce rejimləri adlandırmaq üçün də istifadə edilir. Məsələn, 1973-cü il sentyabrın 11-də Çilidə baş vermiş hərbi çevriliş nəticəsində hakimiyyəti ələ keçirmiş hərbi nazir Pinoçetin yaratdığı rejimi buna misal gətirmək olar.

**Xural** *(bax: böyük xalq xuralı).*

**Xüms** *(ərəb. beşdə bir)* – Quranda rəsmiləşdirilmiş vergi növü. Şəriətə əsasən müharibələrdə əldə edilmiş bütün qənimətlərdən beşdə bir hissəsi x. kimi Məhəmməd Peyğəmbərin nəslinə dul qadınlara və yetimlərə, dilənçilərə və şikəstlərə, qərib və kimsəsizlərə çatmalı idi. Əməvilər dövründə (661-750-ci illərdə) x.-ün çox hissəsini dövlət mənimsəyirdi. Dövlətin faydalı qazıntı mədənlərindən aldığı vergi də x. adlanırdı.





**Xürrəmilik** – Azərbaycanda IX yüzillikdə Ərəb Xilafətinə qarşı yaranmış ictimai-siyasi (bidətçilik hərəkatı) hərəkat; xürrəmilər adı ilə məşhurlaşmışdır. X.- in ictimai-siyasi ideologiyası dualist məzmun (xeyirlə şərin mübarizəsi) daşısa da, o, insanlar arasında sosial bərabərlik, əmlak bərabərliyi, insan haqlarının müdafiəsi, sosial-siyasi azadlıq, maddi nemətlərin bərabər bölgüsü və i.a. ideyaları təbliğ etmişdir. Azadlıq və ümumi bərabərlik X.-in rəhbəri Babəkin böyük şüarı olmuşdur. X.-in sosial-siyasi ideyaları Azərbaycanın siyasi və hüquqi fikir tarixinin zənginləşməsində görkəmli rol oynamışdır.

**Xüsusi dəyəri olan əşyaları talama** – mülkiyyət əleyhinə olan cinayətlərin bir növü. AP CM-in 183-cü maddəsində nəzərdə tutulmuşdur. Xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaları və ya sənədləri üsulundan asılı olmayaraq talamada ifadə olunur.

**Xüsusi hüquq** – toplayıcı anlayış; vətəndaşların, fərdi mülkiyyətçilərin, sahibkarların, müxtəlif növ birliklərin (korporasiyaların) maraqları sahəsində münasibətləri, həmçinin ümumi hüquqdan fərqli olaraq şəxsi münasibətlərdə ümumi mənafeləri tənzimləyən və mühafizə edən hüquq sahəsi. X.h.-un nüvəsini mülki hüquq təşkil edir. Ticarət hüququ da x.h.-un əsasına xidmət edir.

**Xüsusi hüquqlardan məhrum etmə** – inzibati tənbeh tədbirinin bir növü. Müəyyən hüququ (məsələn, nəqliyyat vasitəsini idarə etmək, ov etmə hüququnu) müntəzəm surətdə pozan vətəndaşlar barəsində qanunla müəyyən edilən müddətədək tətbiq edilir.

**Xüsusi xarakterli aviasiya fəaliyyəti** – kənd təsərrüfatı, tikinti, səhiyyə, aerofotoçəkiliş, topoqrafik və spektrofotoçəkiliş, müşahidə və keşikçəkmə, axtarış və xilasetmə, hava reklamı və s. sahələrdə xüsusi xidmətləri təmin etmək üçün həyata keçirilən uçuşlar.

**Xüsusi icraat** – mülki prosesdə birinci instansiya məhkəməsində icraat növlərindən biri. Aşağıdakı işlərə x.i. qaydasında baxılır: a) hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi; b) vətəndaşın itkin düşmüş, yaxud ölmüş hesab olunması; c) vətəndaşın məhdud fəaliyyət qabiyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab olunması; ç) əmlakın sahibsiz hesab olunması; d) vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitabında qeydiyyatların düzgün olmamasının müəyyən edilməsi; e) itirilmiş məhkəmə icraatının və ya icra üzrə icraatın bərpa edilməsi; ə) notariusların və notariat əməliyyatlarını yerinə yetirən orqanların hərəkətlərindən şikayətlər, itirilmiş təqdimedici sənədlərə dair hüquqların bərpa edilməsi (çağırış icraatı). Məhkəmə maraqlı şəxsin və ya təşkilatın ərizəsi əsasında x.i. barədə iş qaldıra bilər.

**Xüsusi ittiham** – yalnız zərər çəkmiş şəxsin (onun qanuni nümayəndəsinin) şikayəti ilə başlanan və zərər çəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda (hökm çıxarılana-

dək) xitam edilən işlər üzrə cinayət-hüquqi təqib forması. İttihamı zərər çəkmiş şəxsin özü müdafiə etdiyiyinə görə o, x.i. adlanır. Qəsdən sağlamlığa ağır zərər vurma, döymə və işgəncə vermə, təhqir və i.a. kimi cinayətlərə dair işlərə xüsusi ittiham qaydasında baxılır. X.i.-lı işləri hakim başlayır. Zərər çəkmiş şəxs köməksiz vəziyyətdə olduqda və öz hüquqlarını şəxsən müdafiə etmək imkanı olmadıqda, yaxud təqsirləndirilən şəxsdən asılı vəziyyətdə olduqda, işin xüsusi sosial əhəmiyyət kəsb etdiyi (zərər çəkmiş şəxsin şikayətinin olmadığı vaxt) hallarda prokuror öz təşəbbüsü ilə iş başlaya və ya başlanmış işə qarışa bilər.

**Xüsusi ittihamçı** – cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hallarda məhkəmədə ittiham irəli sürən və onu müdafiə edən zərər çəkmiş şəxs.

**Xüsusi qərardad** – cinayət prosesində məhkəmənin (hakimin) çıxardığı prosessual sənəd. X.q. hökmlə eyni vaxtda çıxarılır. Həmin sənəddə cinayətin törədilməsinə imkan yaratmış səbəb və şəraitin aradan qaldırılması, məhkəmə təhqiqatı və ibtidai istintaq zamanı yol verilmiş qanun pozuntusu, yarı-yarı vətəndaşların istehsalatda, məişətdə və ya ictimai yerlərdə düzgün olmayan davranışı haqqında məsələlər əks olunur. X.q.-ın surəti müvafiq idarə, müəssisə və təşkilat rəhbərlərinə, məhkəmə təhqiqatı və ya ibtidai istintaq aparılmasına məsul olan vəzifəli şəxslərə göndərilir. X.q.-ın surətini almış vəzifəli şəxslər gördükləri tədbirlər haqqında məhkəməyə bir ay müddətinə məlumat verməlidirlər. X.q.-dan prokuror protest verə bilər.

**Xüsusi mühafizə olunan təbiət əraziləri** – xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq, su (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanı.

**Xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma** – ekoloji cinayətlərin bir növü. AR CM-in 261-ci maddəsində nəzərdə tutulmuşdur. Qoruqların, milli parkların, təbiət abidələrinin və ya dövlət tərəfindən xüsusi mühafizə olunan təbiət ərazilərinin mühafizə rejimini pozmaqda ifadə olunur.

**"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasının ərazisində xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkilinin və mühafizəsinin, xüsusi mühafizə olunan təbiət obyektlərinin qorunmasının hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 24 mart 2000-ci il tarixdə qəbul edilmişdir. O, on beş fəsil və 50 maddədən ibarətdir.

**Xüsusi mühafizə olunan təbiət obyektləri** – elmi, mədəni, estetik və sağlamlaşdırma dəyəri olan, nadir, nəsli kəsilmək təhlükəsi qarşısında olan, səciyyəvi, xüsusi mühafizə rejimli zooloji, botanik, dendroloji, hidroloji, geoloji, geomorfoloji, hidrogeoloji, meşə landşaft və torpaq obyektləri.

**Xüsusi mülkiyyət** – ayrı-ayrı şəxslərin sahibliyində olan mülkiyyət. X.m. hüquqi istehsal vəsaitlərinə, qeyri-istehsal təyinatlı predmetlərə və sərvətlərə, pul vəsaitlərinə və qiymətli kağızlara, onlardan istifadənin nəticələrinə sahiblik, onlardan istifadə və onların barəsində sərəncam vermək sahəsində ayrı-ayrı şəxslərin qanunla qorunan hüquqlarının məcmusundan ibarətdir. X.m. hüququ həyata keçirilərkən qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hədlərdə muzdlu əməyin tətbiqi mümkündür. Vətəndaş məhsuldar və ya yaradıcı əməkdə öz qabiliyyətindən istifadə etməkdə müstəsna hüquqa malikdir. Azərbaycan Respublikasında vətəndaşların x.m. hüquqları Azərbaycan Respublikasının Konstitusiyası və AR Mülki Məcəllləsi ilə tənzimlənir. Konstitusiyanın 29-cu maddəsində göstərilir ki, hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Xüsusi mülkiyyət hüququ qanunla qorunur. Məhkəmənin qərarı olmadan heç kəs mülkiyyətdən məhrum edilə bilməz. Dövlət vərəsəlik hüququna təminat verir.

**Xüsusi protest** *(bax: protest).*

**Xüsusi rəy** – mülki iş, yaxud cinayət işi üzrə məhkəmənin səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə razılaşmayan hakimin şəxsi (xüsusi) rəyi. X.r. hakimlərin müşavirə otağında tərtib edilir. O, hakimlərin müstəqilliyinin mühüm hüquqi təminatıdır. X.r. işə əlavə edilir, lakin məhkəmənin iclas salonunda elan olunmur. Haqqında x.r. verilmiş mülki iş və cinayət işi (əgər apellyasiya instansiyası məhkəməsində baxılmamışdırsa) qətnamə və ya hökm qüvvəyə mindikdən sonra həmin işə nəzarət qaydasında protest vermə barədə məsələnin həlli üçün yuxarı məhkəmənin sədrinə göndərilməlidir.

**Xüsusi şikayət** – prosessual hüquqda birinci instansiya məhkəməsinin qərardadından, yaxud hakimin təkbaşına çıxardığı qərardan verilən şikayət. Burada "xüsusi" sözü onu bildirir ki, şikayət, işi mahiyyəti üzrə həll edən məhkəmənin qətnaməsindən deyil, işin ayrı-ayrı halları üzrə çıxarılan məhkəmə qərardadından verilir. Hakimin cinayət işi başlamağı rədd etmək qərarından, iddia ərizəsini rədd etmək barəsində məhkəmə iclasında qaydanı pozmağa görə cərimə qoyulması haqqında qərardadından x.ş. verilə bilər.

**Xüsusi-təhlükəli residivist** *(bax: residiv cinayətkarlıq).*

**Xüsusi-ümumi ittiham** – cinayət işləri üzrə icraat forması. Bu işlər yalnız zərər çəkmiş şəxsin (yaxud onun nümayəndəsinin) şikayəti ilə başlanır, lakin xüsusi ittihamlı işlərdən fərqli olaraq, bu halda zərər çəkmiş şəxsin təqsirləndirilən şəxslə barışması ilə cinayət işinə xitam verilmir. Zorlama, müəlliflik və ya ixtiraçılıq hüquqlarını pozma və i.a. kimi cinayət işləri x.-ü.i. qaydasında başlanır.

**Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə əlavə cəza növlərindən biri. AR CM-in 48-ci maddəsinə uyğun olaraq ağır və ya xüsusi ilə ağır cinayət törətmiş şəxsin məhkum olunması zamanı məhkəmə cinayətin xarakterini, təqsirkarın şəxsiyyətini və işin digər hallarını nəzərə alaraq onu xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsinin zəruriliyi nəticəsinə gəldikdə, bu barədə xüsusi və ya hərbi rütbəni, fəxri adı və dövlət təltifini vermiş orqana müvafiq təqdimat göndərir.

# -İ-

İbn ............ 503
İbtidai araşdırma ............ 503
İbtidai həbs ............ 503
İbtidai istintaq ............ 503
İbtidai məktəb ............ 503
İcarə ............ 503
İcarəçi birlikləri ............ 504
İcarəçilər ............ 504
İcarəçinin əmlak hüquqlarının müdafiəsi ............ 504
İcarə haqqı ............ 504
"İcarə haqqında" Azərbaycan Respublikasının qanunu ............ 504
İcarə müəssisəsinin yaradılması ............ 504
İcarə müqaviləsi ............ 505
İcarə müqaviləsinin dəyişdirilməsi, pozulması, xitamı və uzadılması ............ 505
İcarə podratı ............ 505
İcarəyə götürülmüş torpağın təsviri ............ 506
İcarəyəverənlər ............ 506
İcarə zamanı mülkiyyət ............ 506
İcbari sığorta ............ 507
İcbari təhsil ............ 507
İcbari tibbi müayinələr ............ 507
İcma ............ 507
İcma mülkiyyəti ............ 507
İcma palatası ............ 507
İcma torpaq sahibliyi ............ 507
İcraatın təzələnməsi ............ 507
İcraçı ............ 507
İcraçının ekstsessi ............ 508
İcraedici bank ............ 508
İcraedici hakimiyyət ............ 508
İcra hakimiyyəti başçısı ............ 508
İcra hakimiyyəti orqanları ............ 508
İcra imtiyazı ............ 508
İcra qeydi ............ 509
İcra mümkün olmadığına görə öhdəliyin xitamı ............ 509
İcranın qeyri-mümkünlüyü ............ 509
İcranın qəbulunun ləngidilməsinin nəticələri ............ 509
İcra sənədləri ............ 509
İcra üzrə icraat ............ 509
İcra vərəqəsi ............ 509
İctihad ............ 510
İctimai birlik ............ 510
İctimai birliklərin mülkiyyəti ............ 510
İctimai fond ............ 510
İctimai hərəkat ............ 511
İctimai işlər ............ 511
İctimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmət qaydalarını pozma ............ 511
İctimai qəbiristanlıq ............ 511
İctimai quruluş (quruculuq) ............ 511
İctimai məhkəmələr ............ 511
İctimai mənəviyyat əleyhinə olan cinayətlər ............ 512
İctimai müəssisə ............ 512
İctimai müqavilə ............ 512
İctimai münasibətlər ............ 512
İctimai rəy ............ 512
İctimai rəy sorğusu ............ 512
İctimai sərvət ............ 512
İctimai təhlükəlilik ............ 512
İctimai təhlükəsizlik ............ 512
İctimai təşkilat ............ 513
İctimai və dini təşkilat
İçməli suyun sənaye məqsədləri üçün istifadəsinin məhdudlaşdırılması ............ 513





İdalqo ............ 513
İdarə ............ 513
İdarə aidiyyəti ............ 513
İdarə aktivləri ............ 513
İdarə arbitrajı ............ 513
İdarəçilik formaları ............ 513
İdarəetmə qaydası əleyhinə olan cinayətlər ............ 514
İdarə heyəti ............ 514
İdarə iqtisad məhkəməsi ............ 514
İdarə mənzil fondu evlərində yaşayış sahəsi verilməsi qaydası ............ 514
İddia ............ 515
İddiaçı ............ 515
İddiaçının seçilməsinə görə aidiyyət ............ 515
İddiadan imtina ............ 516
İddia ərizəsi ............ 516
İddia hüququ ............ 516
İddia icraatı ............ 516
İddia icraatına keçid ............ 516
İddiaların birləşdirilməsi ............ 516
İddia müddəti ............ 516
İddianın cavabdehin olduğu yerə görə verilməsi ............ 516
İddianın dəyişdirilməsi ............ 516
İddianın etirafı ............ 517
İddianın qiyməti ............ 517
İddianın təmin edilməsi ............ 517
İddia tələbi ............ 518
İdentifikasiya ............ 518
İdeologiya ............ 518
İdeoloji təxribat ............ 518
İdxalat ............ 518
İdxalat gömrüyü ............ 518
İdxalın vaxtı ............ 518
İdmançı ............ 518
İdman silahı ............ 518
İdman və həvəskar balıq ovu üçün su obyektlərindən istifadə ............ 518
İfadə ............ 518
İfadələrin yerində yoxlanması ............ 519
İfadə vermək üzrə immunitet ............ 519
İfadə verməyə məcbur etmə ............ 520
İftira ............ 520
İğtişaş ............ 520
İxracat[1] ............ 520
İxracat[2] ............ 520
İxracat gömrüyü ............ 520
İxracat krediti ............ 520
İxracın vergiyə cəlb edilməsi ............ 520
İxtisas ............ 520
İxtisaslı əmək ............ 520
İxtisas təhsili ............ 521
İxtira ............ 521
İxtiraçılıq hüququ ............ 521
İxtiraçılıq və patent hüquqlarını pozma ............ 521
İxtiyarlı şəxsin və yüklü olan mülkiyyətçinin hüquqlarının müdafiəsi ............ 521
"İxvan əs-səfa" ............ 521
İkiarvadlılıq (və ya çoxarvadlılıq) ............ 521
İkihakimiyyətlilik ............ 522
İkiqat anbar şəhadətnaməsi ............ 522
İkiqat gömrük tarifi ............ 522
İkiqat kurs ............ 522
İkiqat qeyd ............ 522
İkiqat sığorta ............ 522
İkiqat sığortanın etibarsızlığı ............ 522
İkiqat vergi qoyuluşu ............ 522
İkiqat votum ............ 522
İkili tarif ............ 522
İkili valyuta ............ 522
İkili vətəndaşlıq ............ 523
İkinci imperiya ............ 523
İkinci instansiya ............ 523
İkinci ipoteka ............ 523
İkinci respublika ............ 523
İkinikahlılıq ............ 523
İkipalatalı sistem (bikamerelizm) ............ 523
İkipartiyalı sistem ............ 523
İkivalyutalı istiqraz ............ 523
İki və ya daha çox gəmi mülkiyyətçisinin birgə məsuliyyəti ............ 523
İqab ............ 524
İqamətgah ............ 524
İqta ............ 524
İqtadar ............ 524

İqtidar ... 524
İqtisadi azadlıq ... 524
İqtisadi blokada ... 524
İqtisadi cinayətkarlıq ... 524
İqtisadi fəaliyyət sahəsində olan cinayətlər ... 525
İqtisadi kriminologiya ... 525
İqtisadi mübahisələr ... 526
İqtisadi siyasət tədbirləri ... 526
İlhaq ... 526
"İlin fəsilləri cəmiyyəti" ... 526
İlkin aksept ... 526
İlkin əməliyyatlar ... 526
İlkin qərarlar ... 527
İlkin müqavilə ... 527
İlkin sübutlar ... 528
İlkin şikayət vermə ... 528
İlkin vəziyyəti bərpa etmək vəzifəsi ... 528
İlk sığorta haqqı ... 528
İlotlar ... 528
İltizam ... 529
İmam ... 529
İmamlıq ... 529
İmbesillik ... 529
İmbibisiya ... 529
İmic ... 529
İmmiqrant ... 529
İmmiqrant statusu ... 529
İmmiqrasiya ... 530
"İmmiqrasiya haqqında" Azərbaycan Respublikasının qanunu ... 530
İmmiqrasiya haqqında vəsatət ... 530
İmmiqrasiya kvotası ... 531
İmmunitet ... 531
İmperativ aidiyyət ... 531
İmperativ mandat ... 531
İmperativ normalar ... 532
İmperator ... 532
İmperiya ... 532
İmperiya cəngavərləri ... 532
İmperiya seymi ... 532
İmpiçment ... 532
İmplementasiya ... 532
İmport ... 532
İmportçu ... 532
İmport əqdi ... 532
İmport gömrük rüsumları ... 532
İmport karantin icazəsi ... 533
İmport kvotası ... 533
İmport lisenziyası ... 533
İmport lizinqi ... 533
İmport rüsumları ... 533
İmport tənzimləməsi ... 533
İmpresario ... 533
İmpulsiv hərəkətlər ... 533
İmtahan ... 533
İmtahan bileti ... 533
İmtahan-yoxlama sessiyası ... 533
İmtiyaz ... 533
"İmtiyazlı tarif" ... 534
İnauqurasiya ... 534
İndeks ... 534
İndeks qeyd-şərti ... 534
İndeksləşdirmə ... 534
İndeksli cinayətlər ... 534
İndemnitet ... 534
İndent ... 534
İndent-agent ... 534
İndependentlər ... 534
İndigenat ... 535
İndikativ tənzimləmə ... 535
İndossament ... 535
İndossant ... 535
İndossantın məsuliyyəti ... 535
İndossat ... 535
İndossent ... 535
İndulgensiya ... 535
İndult ... 535
İndus hüququ ... 535
İnfamis ... 536
İnfant ... 536
İnfanteriya ... 536
İnfantilizm ... 536
İnflyasiya ... 536
İnflyasiya qeyd-şərti ... 536
İnformasiya ... 536
İnformasiya ehtiyatları ... 536
İnformasiya ehtiyatlarından istifadə qaydalarını pozma ... 536
İnformasiya hüquq sistemi ... 536
İnformasiya hüququ ... 536
"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunu ... 537
İnformasiya istifadəçisi ... 537
İnformasiyalaşdırma ... 537
İnformasiya modeli ... 537
İnformasiya mühafizə qaydalarını pozma
İnformasiya prosesləri ... 537
İnformasiya sistemi ... 537
İnformasiya texnologiyaları ... 537
İnform-cinayətkarlıq ... 537
İnfraksiya ... 538
İngilis-amerikan hüquq sistemi ... 538
İngilis-sakson pravdaları ... 538
İnhisar ... 538
İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma ... 538
İnhisar fəaliyyəti ... 538
İnhisar hüququ ... 538
İnhisar qiyməti ... 539
İnhisar mənfəəti ... 539
İnhisar rentası ... 539
İnjinirinq ... 539
İnkassator ... 539
İnkasso ... 539
İnkasso sənədi ... 539
İnkassosiyalaşdırılmalı olan ödəmə tələbləri ... 539
İnkassosiyalaşdırma ... 539
İnkasso şöbəsi ... 539
İnkasso tapşırığı ... 539
İnkasso tapşırığının icrası ... 539
İnkasso vekseli ... 540
İnkişaf bankı ... 540
İnkorporasiya ... 540
İnkoterms ... 540
İnkriminallaşdırma ... 540
İnkvilin ... 540
İnkvizisiya ... 541
İnkvizisiya prosesi ... 541
İnkvizitor ... 541
İnqilabi tribunallar ... 541
İnqumasiya ... 541
İnnovasiya bankı ... 541
İnnovasiya fəaliyyəti ... 541
İnpol (İNPOL) ... 541
İnsan hüquqları ... 542
İnsan hüquqları haqqında müahidələr ... 542
İnsan Hüquqları haqqında Ümumi Bəyannamə ... 542
İnsan Hüquqları üzrə Komissiya ... 542
İnsan Hüquqları üzrə Komitə ... 542
"İnsan immunçatışmazlığı virusu ilə yoluxdurma ... 542
"İnsan immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin yayılmasının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunu ... 542
İnsanların xilas edilməsi ... 543
İnsanları zorakılıqla yoxa çıxarma ... 543
"İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının qanunu ... 543
İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi ... 543
İnsayder ... 543
İnsest ... 543
İnsinuasiya ... 544
İnspirasiya ... 544
İnstansiya ... 544
İnstinkt ... 544
İnstitusionalizm ... 544
İnstitusiyalar ... 544
İnstitusiya sistemi ... 544
İnstitut ... 544
İnsurreksiya ... 544
İnteqrasiya ... 544
İntellektual investisiyalar ... 544
İntellektual mülkiyyət ... 544
İntellicens servis ... 545
İntendant ... 545
İntendant xidməti ... 545
İnteraksionist konsepsiyalar ... 545

İnterdikt ... 545
İntergessoi ... 545
İnternat məktəb ... 545
İnternirləşdirmə ... 546
İnternunsi ... 546
İnterpelliyasiya ... 546
İnterpol ... 546
İnterpolzasiya ... 546
İnterpretasiya ... 546
İntersessiya ... 546
İntihar zamanı əvəz ödəmədən azad edilmə ... 546
İntiqam ... 546
İntizam ... 546
İntizam batalyonu ... 547
İntizam həbsi ... 547
İntizam xarakterli hərbi hissədə saxlama ... 547
İntizam xarakterli hərbi hissələr ... 547
İntizam xətası ... 547
İntizam məsuliyyəti ... 547
İntizam nizamnaməsi ... 547
İntizam təcridxanası ... 547
İntizam tənbehi ... 548
İntuisiya ... 548
İnvestisiya ... 548
İnvestisiya bankları ... 548
İnvestisiya fəaliyyəti ... 548
"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu
İnvestisiya fondu ... 548
İnvestisiya hüququ ... 549
İnvestisiya institutu ... 549
İnvestisiya qiymətli kağızı ... 549
İnvestisiya layihəsi ... 549
İnvestisiya mübahisələri ... 549
İnvestisiya payı ... 549
İnvestisiya sertifikatı ... 549
İnvestisiya siyasəti ... 549
İnvestisiya şirkəti ... 549
İnvestisiya vergi krediti ... 549
İnvestitura ... 550
İnvestor ... 550
İnzibatçı ... 550
İnzibatçılıq ... 550
İnzibati akt ... 550
İnzibati araşdırma ... 550
İnzibati baxış ... 550
"İnzibati" baş nazir ... 551
İnzibati cərimə ... 551
İnzibati çıxarma ... 551
İnzibati ədliyyə ... 551
İnzibati ərazi quruluşu (bölgü) ... 551
İnzibati ərazi vahidi ... 551
İnzibati həbs ... 551
İnzibati himayə (nəzarət) ... 551
İnzibati hüquq ... 552
İnzibati hüquqpozma ... 552
İnzibati xəbərdarlıq ... 552
İnzibati xəta ... 552
İnzibati Xətalar Məcəlləsi ... 552
İnzibati icraat ... 552
İnzibati komissiya ... 552
İnzibati qaydada gətirilmə ... 552
İnzibati qaydada götürmə ... 552
İnzibati qaydada saxlama ... 553
İnzibati qaydada tutma ... 553
İnzibati məhkəmə islahatı ... 554
İnzibati məhkəmələr ... 554
İnzibati məsuliyyət ... 554
İnzibati proses ... 554
İnzibati- prosessual hüquq ... 554
İnzibati sürgün ... 555
İnzibati tənbeh ... 555
İnzibati yurisdiksiya ... 555
İpoteka ... 555
İpoteka bankı ... 555
İpoteka borcu ... 555
"İpoteka haqqında" Azərbaycan Respublikasının qanunu ... 555
İpoteka hüququ ... 556
İpoteka istiqrazı ... 556
İpoteka kağızı ... 556
İpoteka krediti ... 556
İpoteka müqaviləsi ... 556
İpotekanın dövlət qeydiyyatı ... 556





İpotekanın növləri ... 557
İpoteka ssudası ... 557
İpoteka verilməsi xərcləri ... 557
İradə muxtariyyəti ... 557
İrqi ayrı-seçkilik (apartheid) ... 557
İrqi senz ... 558
İrsi tranmissiya ... 558
İslahat ... 558
İslahedici psixologiya ... 558
İslah işləri ... 558
İslah işləri növündə cəzanın icrası ... 558
İslam hüququ ... 559
İslam hüquq məktəbləri ... 559
İsopolitiya ... 559
İspravnik ... 559
İsraf etmə ... 559
İsteblişment ... 560
İstehkam ... 560
İstehkamçı (sapyor) ... 560
İstehlak ... 560
İstehlakçı ... 560
"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu ... 560
İstehlak krediti bankları ... 560
İstehsal ... 560
İstehsalat birliyi (kombinant) ... 560
İstehsalat markası ... 560
İstehsalat tullantıları ... 560
İstehsalat vahidi (struktur vahidi) ... 560
"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının qanunu ... 561
İstehsalçı ... 561
İstefa ... 561
İsteriya ... 561
İstibdad ... 561
İstibdad hakimiyyət ... 561
İstifadə hüququ ... 561
İstiqlaliyyət bəyannaməsi ... 561
İstiqraz ... 561
İstiqraz kursu ... 562
İstiqraz şəklində borc öhdəliyi ... 562
İstiqraz vərəqəsi ... 562
İstinad məktəbi ... 562
İstintaq ... 562
İstintaq aidiyyəti ... 562
İstintaq çantası ... 562
İstintaq eksperimenti ... 563
İstintaq fərziyyəsi ... 563
İstintaq hakimi ... 563
İstintaq hərəkətləri ... 564
İstintaq komissiyaları ... 564
İstintaq komitəsi ... 564
İstintaq metodikası ... 564
İstintaq müayinəsi ... 564
İstintaq situasiyası ... 564
İstintaq taktikası ... 565
İstintaq təcridxanası ... 565
İstirahət ... 565
İstirahət günləri ... 565
İstirahət hüququ ... 565
İstirahət (rekreasiya) təyinatlı torpaqlar ... 565
İstirahət vaxtı ... 565
İstismar tələbləri ... 566
İş ... 566
İşçi ... 566
İşçilərin attestasiyası ... 566
İşçilərin haqq-hesab sənədləri ... 567
İşçilərin iş yerinin və orta əməkhaqqının saxlandığı hallar ... 567
İşçilərin məzuniyyət hüququ ... 568
İşçilərin nümayəndəli orqanı ... 569
İşçilərin sosial sığortası ... 569
İşçinin əmək funksiyası ... 569
İşçinin işdən kənar edilməsi ... 569
İşçinin müəssisənin gəlirindən pay almaq hüququ ... 570
İşçinin pozulmuş hüquqlarının bərpasını iddia etmək hüququ ... 570
İş dilləri ... 570
İş evi (işçi evi) ... 571
İşə baxılmasının təxirə salınması ... 571
İşəgötürən ... 571
İşəgötürənin lokaut elan etmək hüququ ... 572
İşəgötürənin və işçinin qarşılıqlı maddi məsuliyyəti ... 572

İşəgötürənlərin nümayəndəli orqanı ........ 572
İşə qiyabi baxılması ........ 572
İşgəncə ........ 573
İşgəncə vermə ........ 573
İş görülməsi ........ 573
İş günü ........ 573
İşğal ........ 573
İşğalçı ........ 573
İşğal niyyəti ........ 573
İşğal rejimi ........ 573
İş həftəsi ........ 574
İş ili ........ 574
İşi şəxsən yerinə yetirmək vəzifəsi ........ 574
İşlərin görüldüyü və xidmətlərin göstərildiyi yer ........ 574
İşlərin vəziyyəti haqqında hesabat ........ 574
İşləyib ödəmə ........ 574
İşsizlik ........ 574
İşsiz vətəndaşlar ........ 574
İş stajı ........ 575
İştirakçılığın növləri ........ 575
İştirakçılıq ........ 575
İştirakçılıqla törədilmiş cinayətə görə cəza təyin edilməsi ........ 575
İştirakçının tam ortaqlıqdan çıxması ........ 575
İş üzrə icraata xitam verilməsi ........ 575
İş üzrə icraatın dayandırılması ........ 576
İş üzrə icraatın dayandırılması və təzələnməsi qaydası ........ 576
İş üzrə icraatın təzələnməsi ........ 577
İş yeri ........ 577
İş vaxtı ........ 577
İtmiş heyvanlar və əşyalar ........ 577
İttifaq ........ 577
İttifaq dövləti ........ 577
İttifaq əraziləri ........ 577
İttifaqlar azadlığı ........ 577
İttifaq Məclisi ........ 577
İttifaq müqaviləsi ........ 577
İttifaq Soveti ........ 577
İttifaq Şurası ........ 578
İttiham ........ 578
İttihamçı ........ 578
İttihamnamə ........ 578
İttiham tərəfi ........ 578
İt və pişik saxlama qaydalarını pozma ........ 578
İyerarxiya ........ 578
İyul monarxiyası ........ 578
İzahat ........ 579
İzdivac ........ 579
İzlər ........ 579
"İzolyasionizm" ........ 579
İzolyator ........ 579





**İbn** *(ər. oğul)* – ərəblərdə və ərəbdilli digər xalqlarda şəxsin kimin oğlu olduğunu (bir növ soyadını) bildirmək üçün atasının adından əvvəl işlədilən söz. Məsələn, İbn Məsud (Məsudun oğlu), İbn ən-Nədim (Nədimin oğlu) və i.a. Ərəb Xilafətinin tərkibində olduğu dövrdə Azərbaycanın da bir çox elm və mədəniyyət xadimlərinin adlarında i. sözündən istifadə edilmişdir. Məsələn, İbn Məkki əl-Bərdəi, Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani və i.a.

**İbtidai araşdırma** – cinayət-prosessual qanunvericiliyə görə cinayət işi üzrə ibtidai istintaq və təhqiqat növündə məhkəməyədək aparılan icraat.

İ.a. cinayətin törədildiyi yerdə (müvafiq inzibati ərazi vahidində) aparılır. Cinayət işi üzrə məhkəməyədək icraatın hərtərəfli, tam, obyektiv və vaxtında aparılmasını təmin etmək məqsədi ilə i.a. Azərbaycan Respublikası Baş prokurorunun qərarı əsasında cinayətin aşkar olunduğu, şübhəli və ya təqsirləndirilən şəxsin, habelə şahidlərin əksəriyyətinin olduğu yerdə də aparıla bilər.

AR CPM-in 217.1-ci maddəsinə uyğun olaraq ibtidai istintaq və ya təhqiqat şəklində ibtidai araşdırma (hadisə yerinə baxış keçirilməsindən başqa bütün istintaq hərəkətləri daxil olmaqla) yalnız cinayət işinin başlanması haqqında qərar çıxarıldıqdan sonra aparılır.

İ.a. aşağıdakı müddətlər ərzində başa çatdırılmalıdır: 1) böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə – cinayət işinin başlanmasından ən geci 2 ay keçdikdən sonra; 2) az ağır cinayətlər üzrə – cinayət işinin başlanmasından ən geci 3 ay keçdikdən sonra; 3) ağır cinayətlər üzrə – cinayət işinin başlanmasından ən geci 3 ay keçdikdən sonra; 4) xüsusilə ağır cinayətlər üzrə – cinayət işinin başlanmasından ən geci 4 ay keçdikdən sonra (AR CPM-in 218-ci maddəsi).

İ.a. ittihamnamənin tərtib edilməsi ilə, tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün cinayət işinin məhkəməyə göndərilməsi haqqında və ya cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarla qurtarır.

**İbtidai həbs** – cinayət-prosessual qanunvericiliyə görə azadlıqdan məhrumetmə növündə cəza təyin edilə biləcək cinayətə görə şübhə edilən və ya təqsirləndirilən şəxs barəsində tətbiq edilən qətimkan tədbiri. İ.h. qaydası barələrində çıxarılmış hökmlərin hələ qanuni qüvvəyə minmədiyi, həbsdə saxlanan məhkumlara da şamil edilir.

**İbtidai istintaq** *(bax: istintaq).*

**İbtidai məktəb** – məktəbyaşlı uşaqlara ibtidai təhsil verən ümumtəhsil təlim-tərbiyə müəssisəsi. İ.m. icbari təhsilin birinci pilləsidir. İ.m.-ə daxil olan uşaqların yaşı və həmin məktəblərdə təhsil müddəti ayrı-ayrı ölkələrdə müxtəlifdir. Məsələn, Azərbaycan Respublikasında ibtidai təhsil 7 yaşından, Böyük Britaniyada 5 yaşından, ABŞ və Fransada 6 yaşından başlayır. Təhsil müddəti Azərbaycanda 4 il, Böyük Britaniyada 6 il, ABŞ-da 6 və ya 8 il, Fransada isə 6 ildir.

**İcarə** – əmlaka (əşyaya), torpağa və digər təbii ehtiyatlara müqavilə əsasında əvəzi ödənilməklə müddətli sahib olmaq və bunlardan istifadə etmək. Azərbaycan Respublikasında icarə münasibətləri "İcarə haqqında" Azərbaycan Respublikasının 30 aprel 1992-ci il tarixli qanunu ilə və mülki qanunvericiliklə, habelə digər normativ-hüquqi aktlarla tənzimlənir. İcarəyə təsərrüfatın

bütün sahələrində yol verilir və o, mülkiyyətin bütün formalarının və növlərinin əmlakı barəsində tətbiq edilə bilər. İ. münasibətlərinin obyekti ola bilməyən əmlakın dairəsi və növləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

**İcarəçi birlikləri** – icarə haqqında qanunvericiliyə görə icarəçilər könüllülük əsasında assosiasiyalar, ittifaqlar, başqa birliklər yaratmaq, onların fəaliyyətini maliyyələşdirmək və öz nizamnamələrinə uyğun olaraq onların tərkibindən sərbəst surətdə çıxmaq hüququna malikdirlər.

**İcarəçilər** – əmlakı icarəyə götürən hüquqi və fiziki şəxslər.

**İcarəçinin əmlak hüquqlarının müdafiəsi** – icarə haqqında qanunvericiliyə görə icarəçinin icarəyə götürülən əmlak üzərində hüququnun müdafiəsi mülkiyyətçinin hüququnun müdafiəsi ilə eyni əsasda təmin edilir. O, icarəyə götürülmüş əmlakın hər hansı qanunsuz sahiblikdən qaytarılmasını, ondan istifadə edilməsində maneələrin aradan qaldırılmasını, bütün şəxslərin, o cümlədən icarəyəverənin əmlaka vurduğu zərərin ödənilməsini tələb edə bilər. İcarəyəverənin borcları üzrə tələbin icarəyə verilmiş əmlaka yönəldilməsinə yol verilmir. İcarəçinin əmlakı ondan yalnız məhkəmənin qərarı ilə geri alına bilər ("İcarə haqqında" qanunun 15-ci maddəsi).

**İcarə haqqı** – icarə haqqında qanunvericiliyə görə icarə haqqının məbləği və ödənilməsi qaydası müqavilədə şərtləşdirilir. Həm də i.h.-nın məbləği icarəyə götürülən əsas fondların dəyəri və vəziyyəti, müəssisənin inkişaf perspektivləri və digər amillər, habelə icarəyə götürülmüş əmlakın istismarından əldə edilməli olan minimum gəlir nəzərə alınmaqla müəyyən edilir.

İcarə müqaviləsində başqa hal nəzərdə tutulmadıqda, icarəyə götürülmüş əmlakın dəyərindən amortizasiya ayırmaları icarə haqqına daxil edilir. İcarəyə götürülmüş əmlakın təkrar istehsalını tamamilə icarəçi həyata keçirdikdə, amortizasiya ayırmaları icarəyəverənə verilmir və yalnız icarəçiyə məxsus olur.

Əmlakdan istifadənin müqavilədə nəzərdə tutulmuş şərtləri və ya əmlakın vəziyyəti icarəçinin cavabdeh olmadığı səbəblər üzündən xeyli pisləşdikdə, icarəçinin icarə haqqının azaldılmasını tələb etmək hüququ vardır. İ.h. tərəflərin hüququ ilə natura, pul formalarında və ya qarışıq formalarda müəyyən edilə bilər ("İcarə haqqında" qanunun 8-ci maddəsi).

**"İcarə haqqında" Azərbaycan Respublikasının qanunu** – icarəçinin dairəsi və obyektləri, icarə obyektlərindən istifadə ilə əlaqədar olan, habelə icarəyəverənlərə icarəçilər (icarəyə götürənlər) arasında yaranan münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 30 aprel 1992-ci il tarixdə qəbul olunmuş, ona hal-hazıra qədər 7 əlavə və dəyişiklik edilmişdir. Qanun 21 maddədən ibarətdir.

**İcarə müəssisəsinin yaradılması** – icarə haqqında qanunvericiliyə görə dövlət və bələdiyyə müəssisəsinin əmək kollektivinin icarəçilər təşkilatı əsasında icarə müəssisəsi yaratmaq üçün müstəqil hüquqi şəxs kimi belə təşkilat yaratmağa ixtiyarı vardır. İcarəçilər təşkilatını və onun idarə orqanlarını yaratmaq haqqında qərarı əmək kollektivinin ümumi yığıncağı kollektiv üzvlərinin səslərinin azı üçdə iki hissəsi ilə qəbul edilir.







İcarəçilər təşkilatı həmkarlar ittifaqları komitəsi ilə birlikdə icarə müqaviləsinin layihəsini hazırlayır və onu müəssisənin mülkiyyətçisinə və dövlət, bələdiyyə müəssisələrinin icarəyə vermək üçün mülkiyyətçi tərəfindən vəkil edilmiş orqana göndərir. Onlar müqavilənin layihəsini aldığı gündən etibarən 30 gün ərzində nəzərdən keçirməlidirlər. Müqavilə imzalandıqdan sonra icarəçilər təşkilatı icarə müəssisə statusunu əldə edir.

İcarə müəssisəsi öz əmək kollektivinin ümumi yığıncağı tərəfindən təsdiq edilmiş nizamnamə əsasında fəaliyyət göstərir. İcarə müəssisəsi Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktı ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusu alır ("İcarə haqqında" qanunun 16-cı maddəsi).

**İcarə müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. İ.m. əmlak kirayə müqaviləsidir. Bu müqaviləyə görə kirayəyə verən (icarəyə verən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı bəhərdən istifadə etmək və gəlir götürmək hüququ da verir. İcarəçi icarəyə verənə müəyyənləşdirilmiş icarə haqqı ödəməyə borcludur. İcarə predmeti torpaq sahələri, binalar, daşınar əşyalar, hüquqlar və müəssisələr ola bilər (AR MM-in 700-cü maddəsi).

AR MM-in 704-cü maddəsinə uyğun olaraq, əgər hər hansı torpaq sahəsinin, hüququn və ya müəssisənin icarə müqaviləsi bağlanarkən icarə müddəti müəyyənləşdirilməyibsə, müqavilənin ləğvinə yalnız azı altı aylıq xəbərdarlıq müddətini gözləmək şərti ilə ilin sonunda yol verilir.

Əgər icarə üzrə hüquq münasibətlərinə xitam verildikdən sonra icarəçi icarəyə götürdüyü obyekti qaytarmırsa, icarəyə verən obyektin saxlandığı müddət üçün kompensasiya kimi müəyyənləşdirilmiş illik icarə haqqından icarəçinin həmin il ərzində əldə etdiyi və ya əldə edə biləcəyi icarə faydaları hissəsinə uyğun olan hissəsinin verilməsini tələb edə bilər. Digər zərərin əvəzinin ödənilməsi barədə iddia da istisna edilmir (AR MM-in 705-ci maddəsi).

**İcarə müqaviləsinin dəyişdirilməsi, pozulması, xitamı və uzadılması** – icarə haqqında qanunvericiliyə görə icarə müqaviləsi şərtlərinin dəyişdirilməsinə, onun pozulmasına və onun xitam verilməsinə AR MM-də və digər normativ hüquqi aktlarda müəyyən edilmiş qaydada, habelə tərəflərin razılığı ilə yol verilir ("İcarə haqqında" qanunun 13-cü maddəsinin 1-ci hissəsi).

**İcarə podratı** – icarə haqqında qanunvericiliyə görə icarə podratı müqaviləsinə uyğun olaraq icarə kollektivi müqavilədə nəzərdə tutulmuş məhsulu (işləri, xidmətləri) istehsal etmək və müəssisəyə vermək, yaxud onun göstərişi ilə digər müəssisələrə və ya vətəndaşlara satmaq barəsində öhdəlik götürür.

İ.p. zamanı müəssisə müəyyən edilmiş qaydada bütövlükdə müəssisənin fəaliyyətinin nəticələri üzrə büdcə, bank və yuxarı orqan ilə hesablaşmalar aparır. İ.p. müqaviləsi ilə müəssisənin xərclərində və tədiyələrində, o cümlədən istehsalın, elm və texnikanın inkişafına, sosial ehtiyaclara çəkilən xərclərdə icarə kollektivinin iştirakının miqyası və qaydası müəyyən edilir. Müqavilə tərəflərin müqavilə üzrə öhdəliklərinin icra olunması və ya lazımınca icra olunmaması üçün onların məsuliyyəti müəyyən edilir.

Müəssisə bölmənin icarə kollektivinə müəssisə adından təsərrüfat müqavilələri

bağlamaq hüququ verə bilər. Belə icarə kollektivinin bank müəssisəsində hesab açmaq ixtiyarı vardır. İcarə kollektivi ona təhkim edilmiş əmlak üçün müqavilələr üzrə məsuliyyət daşıyır. Əmlak kifayət qədər olmadıqda icarə kollektivinin öhdəlikləri üzrə məsuliyyəti icarəyəverən müəssisə daşıyır ("İcarə haqqında" qanunun 20-ci maddəsi).

**İcarəyə götürülmüş torpağın təsviri** – mülki qanunvericiliyə görə icarə müqaviləsi üzrə hüquq münasibətlərinə girməzdən əvvəl icarəyə verən və icarəçi icarəyə verilən torpağın təsvirini birlikdə tərtib etməlidirlər. Təsvirdə torpağın həcmi, habelə verildiyi an olduğu vəziyyət göstərilir. Təsvir hüquq münasibətlərinə xitam verildikdə də tərtib edilir. Təsvirinə onun tərtib olunduğu günün tarixi qoyulmalı və müqavilənin hər iki iştirakçısı imzalamalıdır.

Müqavilə iştirakçılarından biri təsvirin tərtibində iştirakdan imtina etdikdə və ya tərtib zamanı mühüm ixtilaflar yarandıqda, müqavilənin istənilən iştirakçısı təsvirin ekspert tərəfindən tərtib edilməsini tələb edə bilər (AR MM-in 707-ci maddəsi).

**İcarəyəverənlər** – əmlakı icarəyə vermək hüququna malik olan mülkiyyətçilər, əmlakı icarəyə vermək üçün mülkiyyətçilərin vəkil etdikləri orqanlar, təşkilatlar və fiziki şəxslər, habelə əmlak tam təsərrüfat idarəsinə, yaxud əməli idarəsinə verilmiş hüquqi şəxslər.

Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin icarəsinə dövlət və bələdiyyə mülkiyyəti obyektləri yalnız mülkiyyətçinin razılığı ilə verilir.

**İcarə zamanı mülkiyyət** – icarə haqqında qanunvericiliyə görə əmlakın icarəyə verilməsi bu əmlak üzərində mülkiyyət hüququnun verilməsinə səbəb olmur. İcarəçinin icarəyə götürdüyü əmlakdan istifadə nəticəsində əldə etdiyi məhsul və gəlir, habelə icarəyə götürülmüş əmlakdan alınan gəlir hesabına əldə etdiyi əmlak onun mülkiyyətidir. İcarə müqaviləsində başqa halın nəzərdə tutulmadığı hallarda, icarəyə götürülmüş ərazidə icarəyəverənin razılığı ilə icarəçinin vəsaiti hesabına tikilmiş, aparılması mümkün olmayan binalar və qurğular icarəçiyə məxsusdur. Müqavilənin müddəti qurtardıqda və ya müqavilə pozulduqda icarəyəverən həmin binaların və qurğuların bazar dəyərini icarəçiyə ödəməlidir. İcarəyə götürülmüş ərazidə icarəyəverənin razılığı olmadan icarəçinin vəsaiti hesabına tikilmiş, aparılması mümkün olmayan binalar və qurğular icarəyəverənə məxsusdur. İcarəyəverən bunların sökülməsini tələb etdikdə icarəçi onları öz hesabına sökməyə və ya sökülmə xərclərini ödəməyə borcludur.

İcarəyə götürülmüş əmlak icarəyəverənin razılığı ilə yaxşılaşdırıldıqda müqavilənin müddəti qurtardıqdan və ya müqavilə pozulduqdan sonra icarəçi, qanunda və ya müqavilədə başqa halın nəzərdə tutulmadığı halda, bu məqsədlə çəkdiyi bütün xərclərin ödənilməsini tələb etməyə haqlıdır. İcarəyəverənin icazəsi olmadan icarəçinin istifadə etdiyi və icarəyə götürülmüş əmlaka zərər vurmadan ondan ayrıla bilməyən yaxşılaşdırmalar müqavilənin müddəti qurtardıqdan və ya müqavilə pozulduqdan sonra əvəzi ödənilmədən icarəyəverənə keçir. İcarəyəverənin icazəsi olmadan icarəçinin istifadə etdiyi və icarəyə götürülmüş əmlaka zərər vurmadan ondan ayrıla bilməyən yaxşılaşdırmaların dəyərini icarəyəverən ödəməyə razı





olmadıqda, icarəçi bu yaxşılaşdırmaları geri götürə bilər ("İcarə haqqında" qanunun 9-cu maddəsi).

**İcbari sığorta** – mülki qanunvericiliyə görə icbari sığorta qanunla nəzərdə tutula bilər. İcbari sığorta barəsində AR MM-in 50-ci fəslinin qaydaları tətbiq edilir, bir şərtlə ki, bu, icbari sığorta haqqında qanunvericiliyə zidd olmasın. Təkrar sığorta ilə bağlı münasibətlər qanunla müəyyənləşdirilmiş qaydada tənzimlənir (AR MM-in 885-ci maddəsi).

**İcbari təhsil** – ümumtəhsil məktəblərində qanunla müəyyən edilmiş məcburi təhsil. İ.t. keçmiş SSRİ-də 1934-cü ildə ibtidai, 1956-cı ildə yeddiillik, 1965-ci ildə isə səkkizillik təhsil kimi həyata keçirilmişdir.

**İcbari tibbi müayinələr** – əmək qanunvericiliyinə görə ağır, zərərli və təhlükəli istehsalatlarda işçilərlə əmək müqaviləsi bağlanarkən onların hökmən ilkin tibbi müayinədən, sonralar isə vaxtaşırı icbari tibbi müayinədən keçməsi işəgötürənin hesabına təmin edilməlidir. İşçilər icbari tibbi müayinədən keçməkdən boyun qaçırdıqda və ya keçirilmiş müayinələrin nəticələrinə əsasən həkim komissiyalarının verdikləri tövsiyələri yerinə yetirmədikdə, işəgötürən AR ƏM-in 62-ci maddəsində nəzərdə tutulan qaydada onları işdən kənar edə, habelə müvafiq intizam məsuliyyətinə cəlb edə bilər (AR ƏM-in 226-cı maddəsi).

**İcma (islamda)** – hər hansı məsələ haqqında ümumi rəyə, qərara gəlmək. İ. müsəlman hüququnun mənbələrindən biri kimi hüququn və ictimai həyatın müxtəlif məsələlərinə aid olan ümumi razılıq rəyidir. İ., müsəlman hüququnda cavabı Quranda və Sünnədə tapılmayan problemlər barəsində qərar qəbul etməyin yol verilən mümkün üsuludur. Beləliklə, i. müsəlman hüququnun əslində bütün məzhəblər tərəfindən tanınan başlıca mənbələrindən biridir.

**İcma mülkiyyəti** *(bax: mülkiyyət)*.

**İcma palatası** – Böyük Britaniya və Kanadada parlamentin aşağı palatasının adı. Böyük Britaniyada i.p.-na seçkilər 1949-cu il Seçki Qanunu əsasında aparılır. İ.p.-nın deputatları başlıca olaraq iki əsas partiyanın – leyboristlər və mühafizəkarlar partiyalarının nümayəndələrindən ibarətdir. İ.p. ümumi, bərabər və birbaşa seçki yolu ilə 5 il müddətinə seçilir. Palataya sədr (spiker) başçılıq edir. O, baş nazirdən sonra dövlətdə ikinci dərəcəli vəzifəli şəxs hesab olunur. İ.p. hökumətin fəaliyyətinə nəzarət edir, ona etimad (və ya etimadsızlıq) göstərir, qanun layihələrini müzakirə və qəbul edir.

**İcma torpaq sahibliyi** – torpaq münasibətlərinin ən qədim formalarından biri; müəyyən torpaq sahəsinin kəndli (qonşu icmaya) icmasına mənsubiyyətini ifadə edirdi. İ.t.s. Avropa və Asiya ölkələrində icma münasibətlərinin dağıldığı dövrdə meydana gəlmişdir.

**İcraatın təzələnməsi** – mülki-prosessual qanunvericiliyə görə işin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan sonra, işdə iştirak edən şəxslərin ərizisi üzrə və ya məhkəmənin təşəbbüsü ilə iş üzrə icraat təzələnir.

İş üzrə icraatın dayandırılması və onun təzələnməsi barədə məhkəmə qərardad çıxarır (AR MPM-in 257 və 258.1-ci maddəsi).

**İcraçı** – cinayət hüququna görə cinayəti bilavasitə törətmiş və ya başqa şəxslərlə

həll etmək üçün xüsusi olaraq təşkil edilən iqtisad məhkəmələrinin qətnamələrinin və xarici məhkəmələrin qətnamələrinin icrası həyata keçirilir.

**İctihad** *(ər. müstəqil qərar çıxarmaq)* – mötəbər faqihin – ilahiyyatçı-hüquqşünasın Quran və Sünnə əsasında və faqihin əsas metodlarını (qiyasi, rəyi) rəhbər tutmaqla dini və ictimai həyatın mühüm məsələləri barəsində müstəqil surətdə qərar çıxarmaq bacarığı və hüququ. Bütün müsəlman icmasının qərarı olan i. prinsip etibarı ilə düzgün qərar hesab olunur. Təcrübədə ən nüfuzlu qanunvericilər i.-ın nümayəndələri sayılmışlar. Fikri ilə müsəlmanların bütün icmasının və ya böyük qrupunun hesablaşdığı faqih müctəhid adlanır.

**İctimai birlik** – mənafe ümumiliyi əsasında vətəndaşların öz iradəsini azad ifadə etməsi nəticəsində yaratdıqları könüllü birləşmə. İ.b.-lər könüllülük, üzvlərinin (iştirakçılarının) hüquq bərabərliyi, özünüidarə, qanunçuluq və aşkarlıq əsasında yaradılır və fəaliyyət göstərir.

İ.b.-lərin yaradılmasının və fəaliyyətinin məqsəd-ləri onların nizamnamələri (əsasnamələri, digər əsas sənədləri) ilə müəyyən edilir və qanunvericiliyə zidd ola bilməz. İ.b.-lərin yaradılmasının təşəbbüsçüləri təsis yığıncağı (qurultayı, konfransı) çağırırlar. Burada nizamnamə (əsasnamə, yaxud onların məqsədlərini müəyyən edən digər əsas sənəd) qəbul olunur.

İ.b.-in fərdi və kollektiv üzvlüyü ola bilər. Azərbaycan Respublikasında yaşayan hər bir şəxs i.b.-in üzvü ola bilər. İ.b.-in fəaliyyətində vətəndaşın iştirak edib – etməməsi onun hüquq və azadlıqlarının məhdudlaşdırılması, yaxud müəyyən edilmiş vəzifələri yerinə yetirməsi üçün əsas ola bilməz. İ.b.-lərin fəaliyyətinə yenidən təşkil edilmək (qovuşmaq, birləşmək, ayrılmaq) və ya ləğv olunmaq yolu ilə xitam verilə bilər. İ.b.-lər onların qurultaylarının (konfranslarının) və ya ümumi yığıncaqlarının qərarları ilə yenidən təşkil edildikdən sonra i.b.-lər "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının 13 iyun 2000-ci il tarixli qanununun 16-cı maddəsində müəyyən edilmiş qaydada qeydə alınır. İ.b. qurultayın (konfransın) və ya ümumi yığıncağın qərarı ilə, yaxud yuxarıda xatırladılan qanunun 20-ci maddəsində nəzərdə tutulmuş əsaslarla və qaydada ləğv edilir.

**İctimai birliklərin mülkiyyəti** – hüquqi şəxslər hesab olunan ictimai birliklərə məxsus olan əmlak. İctimai birliklərin, onların təşkilatlarının mülkiyyətində binalar, qurğular, mənzillər, avadanlıq, inventar, pul vəsaiti, səhmlər, digər qiymətli kağızlar və onların nizamnamələrində (digər əsas sənədlərində) nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün lazım olan başqa əmlak ola bilər. İ.b.m.-ndə həmin birliklərin nizamnamələrində (digər əsas sənədlərində) onların məqsədlərinə müvafiq surətdə öz vəsaitləri hesabına yaradılan nəşriyyatlar, digər müəssisələr, xeyriyyə idarələri də ola bilər.

Dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə görə, yaxud beynəlxalq müqavilələrə müvafiq surətdə ictimai birliklərin mülkiyyətində ola bilməyən əmlakın növləri Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilə bilər.

**İctimai fond** – məqsədi könüllük əsasında yığılan üzvlük haqları və qanunla qadağan olunmayan sair vəsaitlər hesabına əmlakın formalaşdırılmasından və həmin əmlakdan ictimai faydalı işlərə istifadədən ibarət olan fond. İ.fı.-un rəhbər orqanları onun təsisçiləri və (və ya) iştirakçıları tərəfindən, yaxud İ.f.-un təsisçilərinin qərarı ilə formalaşdırılır.

**İctimai hərəkat** – iştirakçıları tərəfindən dəstəklənən sosial, siyasi və sair ictimai faydalı məqsədlər güdən hərəkat. Qurultay (konfrans) və ya hərəkat iştirakçılarının ümumi yığıncağı i.h.-ın ali rəhbər orqanı hesab olunur. Qurultay (konfrans) qarşısında hesabat verən seçkili kollegial orqan i.h.-ın daimi fəaliyyət göstərən rəhbər orqanıdır.

**İctimai işlər** – cinayət qanunvericiliyinə görə ictimai işlər məhkumun əsas işindən və ya təhsilindən asudə vaxtlarında haqqı ödənilmədən cəmiyyətin xeyrinə ictimai faydalı işlər yerinə yetirməsindən ibarətdir. Belə işlərin növləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. İ.i. 60 saatdan 240 saatadək müəyyən edilir və gün ərzində 4 saatdan çox ola bilməz. Bu cəzaya məhkum olunmuş şəxs həmin işlərin yerinə yetirilməsindən qərəzli boyun qaçırdıqda, i.i. azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilir. Bu zaman azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının müddəti müəyyən olunarkən məhkumun ictimai işləri yerinə yetirdiyi müddət nəzərə alınır və 8 saat ictimai işə bir gün azadlığın məhdudlaşdırılması və ya 12 saat ictimai işə bir gün müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası hesabı ilə hesablanır.

İ.i. aşağıdakı şəxslərə tətbiq oluna bilməz: 1) birinci və ikinci qrup əlillərə; 2) hamilə qadınlara; 3) himayəsində 8 yaşınadək uşağı olan qadınlara; 4) pensiya yaşına çatmış qadın və kişilərə; 5) hərbi xidmətə çağırış üzrə müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara (AR CM-in 47-ci maddəsi).

**İctimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmət qaydalarını pozma** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 340-cı maddəsində nəzərdə tutulur.

**İctimai qəbiristanlıq** – vəfat edənlərin iradə ifadəsi nəzərə alınmaqla və ya ixtisaslaşmış xidmətlərin (dəfn işləri üzrə təşkilatların) qərarı ilə dəfn üçün nəzərdə tutulmuş qəbiristanlıq. İ.q.-lar müvafiq dövlətin icra hakimiyyəti, eləcə də yerli özünüidarə orqanlarının ixtiyarında ola bilər. Azərbaycan Respublikasında 1 və 2-ci Fəxri Xiyaban, habelə Şəhidlər Xiyabanı mövcuddur.

**İctimai quruluş (quruculuq)** – konstitusiya hüququ nəzəriyyəsində ictimai münasibətlərin tarixən təşəkkül tapmış konkret sistemi, yəni istehsalın müəyyən səviyyəsi, məhsulların bölgüsü və mübadiləsi, ictimai həyatın müxtəlif sahələrində ictimai şüurun və adamların qarşılıqlı fəaliyyət ənənələrinin səciyyəvi xüsusiyyətləri ilə şərtləşən ictimai-təşkilati quruluş. İ.q. dövlət və hüquq tərəfindən mühafizə olunur.

**İctimai məhkəmələr** – XX yüzilliyin 90-cı illərinin ortalarınadək keçmiş Almaniya Demokratik Respublikasında (ADR-də) ölkə qanunvericiliyi əsasında fəaliyyət göstərmiş məhkəmələr. Bu məhkəmələrin tərkibinə müəssisələrdə yaradılan münaqişə komissiyaları və yaşayış yeri üzrə

təsis edilən münsiflər məhkəmələri daxil idi. İ.m. az əhəmiyyətli deliktlərə baxırdılar. Həmin işlər mülki hüquq və əmək hüququ sahəsində yaranan mübahisəli məsələlərdən ibarət idi. İ.m. ədalət mühakiməsi sisteminin tərkib hissəsini təşkil edirdilər.

**İctimai mənəviyyat əleyhinə olan cinayətlər** – AR CM-in 27-ci fəslində nəzərdə tutulmuş cinayətlər. Bu cinayətlərə pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma (AR CM-in 242-ci maddəsi), fahişəliyə cəlb etmə (AR CM-in 243-cü maddəsi), əxlaqsızlıq yuvaları saxlama (AR CM-in 244-cü maddəsi), qəbir üzərində təhqiredici hərəkət (AR CM-in 245-ci maddəsi) və tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama (AR CM-in 246-cı maddəsi) daxildir.

**İctimai müəssisə** *(bax: ictimai birlik).*

**İctimai müqavilə** – dövlətin mənşəyinə dair nəzəriyyələrdən biri. İ.m. hollandiyalı H. Qrotsi, habelə T. Hobbs, D. Didro, J.-J. Russo və başqaları tərəfindən irəli sürülmüşdür. Bu nəzəriyyənin tərəfdarları belə hesab edirdilər ki, dövlət adamlar arasındakı müqavilə nəticəsində yaranmışdır. Müqavilədə xüsusi şəxslərin özlərinin bir sıra təbii hüquqlarından dövlət hakimiyyətinin xeyrinə könüllü imtina etmələri də nəzərdə tutulurdu.

**İctimai münasibətlər** – insanlar arasında onların birgə təcrübi və mənəvi fəaliyyəti prosesində yaranan münasibətlər. İ.m. maddi və ideoloji münasibətlərə bölünür.

**İctimai rəy** – insanların sosial gerçəkliyin hadisə və faktlarına, müxtəlif qrupların və ayrı-ayrı şəxsiyyətlərin fəaliyyətinə münasibətini (gizli və ya açıq şəkildə) təsbit edən qeyri-rəsmi kütləvi şüurun mövcud olması üsulu. İ.r.-də insanların həyat hadisələrinə, siyasi partiyaların, ayrı-ayrı qurumların fəaliyyətinə münasibəti öz əksini tapır.

**İctimai rəy sorğusu** – Azərbaycan Respublikasının seçki qanunvericiliyinə görə kütləvi informasiya vasitələri seçkilərlə bağlı ictimai rəy sorğusunun nəticələrini dərc etdikdə rəy sorğusu keçirən təşkilatları, onun keçirilməsi vaxtını, dəqiq ifadə edilmiş sualları, sorğuda iştirak edənlərin sayını bildirməlidir. Səsvermə gününə 24 saat qalmış ictimai rəy sorğusu nəticələrinin, seçkilərin nəticələri barədə proqnozların kütləvi informasiya vasitələrində dərc edilməsinə yol verilmir (AR SM-in 76-cı maddəsi).

**İctimai sərvət** – müəlliflik hüququ haqqında qanunvericilikdə müəllifin əsərindən maneəsiz istifadə etmək imkanını bildirən anlayış (kateqoriya). Müəlliflik hüququnun müddətinin bitməsi əsərlərin is.-ə keçməsi deməkdir. Azərbaycan Respublikasının ərazisində heç vaxt mühafizə altında olmamış əsərlər də i.s. hesab olunurlar. İ.s.-dən istifadə edən şəxs müəlliflik hüquqlarına, ad hüququna və müəllifin nüfuzunun müdafiəsi hüququna əməl etməlidir.

**İctimai təhlükəlilik** – cinayətin mühüm əlamətlərindən biri. Cinayət qanunu dövlətin mühafizə etdiyi ictimai münasibətlərə qəsd edən əməli ictimai təhlükəli cinayət kimi səciyyələndirir. İ.t. tam mənada bütün cəmiyyət üçün təhlükə hesab olunur. İ.t. dərəcəsi cinayətin obyektindən, motiv və məqsədindən, eləcə də təqsirin formasından asılıdır. İ.t.-in müəyyən edilməsi üçün cinayətkarın şəxsiyyətinin mühüm əhəmiyyəti vardır.

**İctimai təhlükəsizlik** *(hüquqda)* – ictimai münasibətlər və hüquq normaları sistemi. İ.t. ictimai asayişi, əhalinin həyat və sağlamlığının toxunulmazlığını, vətəndaşların normal əmək şəraiti və istirahətini, dövlət təşkilatları və ictimai təşkilatların, idarə və müəssisələrin normal fəaliyyətini təmin etmək məqsədi ilə həyata keçirilir. İ.t.-i dövlət, ictimai təşkilatlar və vətəndaşlar qoruyur.

**İctimai təşkilat** *(bax: ictimai birlik).*

**İctimai və dini təşkilat** – mənəvi və ya sair qeyri-maddi tələbatların ödənilməsi üçün mənafe ümumiliyi əsasında vətəndaşların qanunla müəyyən edilmiş qaydada birləşdikləri könüllü birli. İ. və d.t. qeyri-kommersiya təşkilatıdır. O, sahibkarlıq fəaliyyəti ilə yalnız öz məqsədlərinə nail olmaq üçün məşğul ola bilər.

**İçməli suyun sənaye məqsədləri üçün istifadəsinin məhdudlaşdırılması** - Azərbaycan Respublikasının su qanunvericiliyinə görə təbii fəlakət, qəza və digər fövqəladə şərait hallarında və ya müəssisə tərəfindən içməli su ayrılmış limitdən artıq işlədikdə, müvafiq icra hakimiyyəti orqanları birinci növbədə əhalinin içməli su və məişət ehtiyaclarının ödənilməsi xeyrinə su kəmərlərindən sənaye məqsədləri üçün içməli suyun götürülməsini məhdudlaşdıra və ya qadağan edə bilər, habelə ayrı-ayrı müəssisələrin, idarələrin və təşkilatların tabeliyində olan içməli su kəmərlərindən içməli suyun sənaye məqsədləri üçün götürülməsini müvəqqəti azalda bilər (AR Su.M-in 60-cı maddəsi).

**İdalqo** *(isp. hidalgò)* – orta əsrlər İspaniyasında cəngavərlərin aşağı və orta təbəqəsi. "İ." termini XII yüzilliyin sonlarından məlumdur. XIV yüzilliyə doğru bütün cəngavərlər təbəqəsini adlandırmaq üçün qəti olaraq kök salmışdır.

**İdarə** – müəyyən növ işlərin həyata keçirilməsi üzrə fəaliyyət yeri.

Azərbaycan Respublikasında dövlət idarələri və ictimai idarələr fəaliyyət göstərir. İ. hüquqi şəxs hesab olunmur.

AR MM-in 54-cü maddəsinə uyğun olaraq hüquqi şəxsin idarəetmə, sosial-mədəni və ya digər qeyri-kommersiya xarakterli funksiyaların həyata keçirilməsi üçün yaratdığı təşkilat idarə sayılır. İ. hüquqi şəxs hesab olunmur və hüquqi şəxsin təsdiq etdiyi əsasnamə (nizamnamə) üzrə fəaliyyət göstərir. İ. ona təhkim edilmiş əmlak barəsində qanunla müəyyənləşdirilmiş hədlərdə, öz fəaliyyətinin məqsədlərinə, hüquqi şəxsin tapşırıqlarına və əmlakın təyinatına uyğun sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirir. İ.-nin öhdəlikləri üçün məsuliyyət i.-ni yaratmış hüquqi şəxsin üzərinə düşür. Dövlət idarələrinin və digər idarələrin ayrı-ayrı növlərinin hüquqi vəziyyətinin xüsusiyyətləri qanunvericiliklə müəyyən edilir.

**İdarə aidiyyəti** – müxtəlif orqanlar arasında funksional səlahiyyət bölgüsü. Azərbaycan Respublikası qanunvericiliyində məhkəmələrin, inzibati orqanların, iqtisad məhkəməsinin və i.a. idarə aidiyyəti müəyyən edilmişdir.

**İdarə aktivləri** *(bax: müəssisə aktivləri).*

**İdarə arbitrajı** *(bax: arbitraj).*

**İdarəçilik formaları** – ali dövlət hakimiyyəti orqanlarının (dövlət başçısı, parlament, hökumət) strukturu və hüququ vəziyyəti, habelə onların arasında qarşılıqlı münasibətlər qaydası. İ.f.-nın xarakteri ilk növbədə ali dövlət hakimiyyətinin təşkilindən irəli gəlir. Dövlət başçısının (respublikada seçkili, monarxiyada irsi) hüqu-

qi statusu i.f.-nın başlıca, müəyyənedici əlamətidir. Müasir dövlətlər üçün iki i.f. səciyyəvidir. Respublika – parlamentli respublika (məsələn, Almaniya, İtaliya, İsveçrə, Finlandiya) və prezidentli respublika (məsələn, Azərbaycan, ABŞ, Braziliya, Meksika), habelə yarımparlamentli (məsələn, Türkiyə), yaxud yarımprezidentli (məsələn, Fransa) respublika, eləcə də monarxiya, bir qayda olaraq, konstitusiyalı (parlamentli) monarxiya (məsələn, Böyük Britaniya, İspaniya, Yaponiya) xarakterik i.f.-ları hesab olunur.

**İdarəetmə qaydası əleyhinə olan cinayətlər** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə idarəetmə fəaliyyəti sahəsində törədilən cinayətlər. AR CM-in 34-cü fəslində nəzərdə tutulmuşdur. Bu cinayətlərə hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə (AR CM-in 315-ci maddəsi), cinayət prosesində iştirak edən şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma (AR CM-in 316-cı maddəsi), cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalarının normal fəaliyyətini pozma (AR CM-in 317-ci maddəsi), Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə (AR CM-in 318-ci maddəsi), Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq dəyişmə (AR CM-in 319-cu maddəsi), rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə (AR CM-in 320-ci maddəsi), hərbi xidmət keçməkdən boyun qaçırma (AR CM-in 321-ci maddəsi), özbaşınalıq (AR CM-in 322-ci maddəsi), Azərbaycan dövlətinin başçısının – Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma (AR CM-in 323-cü maddəsi), Azərbaycan Respublikasının dövlət bayrağı və ya Azərbaycan Respublikasının dövlət gerbi barədə təhqiredici hərəkətlər (AR CM-in 324-cü maddəsi), dövlət təltiflərini və rəsmi sənədi əldə etmə və ya satma (AR CM-in 325-ci maddəsi), rəsmi sənədləri, ştampları, möhürləri oğurlama və ya məhv etmə (AR CM-in 326-cı maddəsi) daxildir.

**İdarə heyəti** – Azərbaycan Respublikasının səhmdarlar cəmiyyəti haqqında qanunvericiliyinə uyğun olaraq səhmdar cəmiyyətində təşkil edilən və fəaliyyət göstərən kollegial icra orqanı. İ.h. cəmiyyətin nizamnaməsi əsasında fəaliyyət göstərir. O, səhmdarların ümumi yığıncağının və direktorlar şurasının (müşahidə şurasının) qərarlarını yerinə yetirir. İ.h.-nin səlahiyyətinə cəmiyyətin rəhbərliyinin cari fəaliyyətinin bütün məsələləri (səhmdarların müstəsna səlahiyyətlərinə aid edilən məsələlər istisna olmaqla) aid edilir.

**İdarə iqtisad məhkəməsi** *(bax: iqtisad məhkəməsi).*

**İdarə mənzil fondu evlərində yaşayış sahəsi verilməsi qaydası** – Azərbaycan Respublikasının mənzil qanunvericiliyinə uyğun olaraq idarə mənzil fondu evlərində yaşayış sahəsi vətəndaşlara idarə, müəssisə və təşkilatın müdriyyətinin və həmkarlar ittifaqı təşkilatının rayon, şəhər (şəhərdə rayon), qəsəbə, kənd icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş birgə qərarı ilə verilir. Yaşayış sahələri mənzil uçotunda olan vətəndaşların tərtib edilmiş siyahısı əsasında və növbəlilik qaydasında verilir (AR Mən. M-in 45-ci maddəsi).





**İddia** – pozulmuş və ya mübahisəli hüququn, qanunla qorunan mənafeyin müdafiəsi üçün məhkəməyə, iqtisad məhkəməsinə və ya münsiflər məhkəməsinə edilən müraciət. İddianın verilməsi, o cümlədən iddia ərizəsinin forması və məzmunu mülki-prosessual qanunvericiliklə müəyyən edilir.

AR MPM-in 149-cu maddəsinə uyğun olaraq iddia ərizəsi məhkəməyə yazılı formada verilir. O, iddiaçı və ya bunu imzalamağa səlahiyyəti olan nümayəndə (iddiaçının qanuni nümayəndəsi) tərəfindən imzalanır. Ərizədə aşağıdakılar göstərilməlidir: 1) ərizənin verildiyi məhkəmənin adı; 2) işdə iştirak edən şəxslərin adları, onların ünvanları; 3) iddiaçının və ya ərizəçinin tələbi, onların öz tələblərini əsaslandırdıqları hallar, qanunlara və digər normativ-hüquqi aktlara əsaslanan tələbin əsaslandırıldığı hüquqi təfsir, iddia bir neçə cavabdehə qarşı verildikdə isə onların hər birinə qarşı yönələn tələb; 4) müqavilə ilə və ya həmin kateqoriya işlər üçün qanunla bu, nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyə qədər (pretenziya) qaydasında nizama salınmasına riayət edilməsinə dair məlumat; 5) ərizəyə əlavə edilən sənədlərin siyahısı.

Məhkəmə iddianın yolverilməzliyinə görə iddia ərizəsi qəbul etməkdən imtina edə bilər; Məhkəməyə daxil olan iddia ərizəsi mütləq qeydiyyatdan keçməlidir. Hakim aşağıdakı hallarda iddia ərizəsini qəbul etməkdən imtina edə bilər: a) ərizə məhkəmə qaydasında baxılmalı olmadıqda; b) eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi ilə əlaqədar iş üzrə icraatın xitam edilməsi və ya tərəflərin barışıq sazişinin təsdiq edilməsi haqqında məhkəmənin qərardadı olduqda.

İddia ərizəsini qəbul etməkdən imtina barədə qərardaddan şikayət verilə bilər. Qərardad ləğv edildikdə, iddia ərizəsi məhkəməyə müraciət edildiyi ilk gündən verilmiş hesab edilir.

**İddiaçı** – mülki hüquqda pozulmuş və ya mübahisəli hüququn, qanunla qorunan mənafelərin müdafiəsi üçün məhkəməyə, iqtisad məhkəməsinə və münsiflər məhkəməsinə iddia ərizəsi ilə müraciət edən fiziki, yaxud hüquqi şəxs. Mülki prosesdə öz hüquqlarını pozulmuş və ya mübahisəli hesab edən vətəndaş, yaxud hüquqi şəxs o zaman iddiaçı hesab edilir ki, onun hüquqlarının müdafiəsi üçün mülki iş başlanmış olsun.

**İddiaçının seçilməsinə görə aidiyyət** – AR MPM-in 36-cı maddəsinə uyğun olaraq yaşayış yeri məlum olmayan, yaxud Azərbaycan Respublikasında yaşayış yeri olmayan cavabdehə iddia onun əmlakının olduğu yerə görə və ya məlum olan axırıncı yaşayış yerinə görə verilə bilər. Rəsmi yaşayış yeri, olduğu yer və ya hüquqi ünvanı müxtəlif olan bir neçə cavabdehə iddia cavabdehlərdən birinin rəsmi yaşayış yeri və ya hüquqi ünvanı üzrə verilə bilər.

Alimentin alınması və atalığın müəyyən edilməsi haqqında iddialar iddiaçı tərəfindən özünün yaşadığı yerə görə də verilə bilər. Psixi pozuntu ilə əlaqədar qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilmiş şəxslərə, habelə cinayət törətməyə görə 3 ildən artıq müddətə azadlıqdan məhrum olunmağa məhkum olunmuş şəxslərə qarşı nikahın pozulması haqqında iddialar iddiaçının

yaşadığı yerə görə verilə bilər. İddiaçının yanında yetkinlik yaşına çatmayan uşaqlar olduqda və ya iddiaçı səhhətinə görə cavabdehin yaşadığı yerə getməyə çətinlik çəkdikdə də nikahın pozulması haqqındakı iddialar iddiaçının yaşadığı yerə görə verilə bilər. Şikəstetmə və ya səhhəti sair şəkildə zədələmə ilə, habelə ailəni dolandıranın ölümü ilə vurulan ziyan haqqında iddialar ziyan vuranın yaşadığı yerə görə və ya ziyan vurma yerinə görə verilə bilər.

İddiaçının seçilməsinə görə aidiyyətin digər halları AR MPM-in 36.7-36.13-cü maddələrində nəzərdə tutulmuşdur.

**İddiadan imtina** *(bax: iddia).*

**İddia ərizəsi** *(bax: iddia).*

**İddia hüququ** – pozulmuş və ya mübahisəli hüququn, qanunla qorunan mənafeyin müdafiəsi üçün vətəndaşın, yaxud təşkilatın məhkəməyə, iqtisad məhkəməsinə və münsiflər məhkəməsinə müraciət etmək hüququ. İ.h. qanunla müəyyən edilmiş hallarda yarana bilər. İ.h.-nun yaranması üçün iddianın əsası olmalıdır. Əsası olmayan iddia səlahiyyətli orqanlar tərəfindən baxılmamış (təmin edilməmiş) saxlanılır.

**İddia icraatı** *(bax: iddia).*

**İddia icraatına keçid** – mülki-prosessual qanunvericiliyə görə borclunun etirazı prosessual baxımdan iddia ərizəsinə bərabər tutulur. Əgər o, vaxtında verilmişdirsə, hakim əmri ləğv edir və materiallar AR MPM ilə müəyyən edilmiş ümumi müddəalara uyğun olaraq iddia icraatına keçir (AR MPM-in 283-cü maddəsi).

**İddiaların birləşdirilməsi** – bir neçə iddia tələblərinə bir icraatda baxılması üçün onların birləşdirilməsi. İddialar subyektiv və obyektiv cəhətdən birləşdirilə bilər. İddiaların subyektiv cəhətdən birləşdirilməsi zamanı prosessual birgə iştirakçılıqda bir iddiaçının bir neçə cavabdehə qarşı tələbləri birləşdirilir. Obyektiv cəhətdən birləşdirmə zamanı isə bir iddiaçının bir neçə tələbi bir cavabdehə qarşı yönəldilir.

**İddia müddəti** – vətəndaşın, yaxud təşkilatın pozulmuş və ya mübahisəli hüququnun müdafiəsi üçün qanunla müəyyən edilmiş müddət. AR MM-in 373-cü maddəsinə uyğun olaraq ümumi iddia müddəti on il təşkil edir. Müqavilə tələbləri üzrə iddia müddəti üç il, daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti isə altı ildir. Vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti üç ildir. Tələblərin ayrı-ayrı növləri üçün bu məcəllə ilə ümumi müddətə nisbətən qısaldılmış və ya uzadılmış xüsusi iddia müddətləri təyin edilə bilər. Bu məcəllənin bu fəslində müəyyənləşdirilmiş qaydalar, əgər qanunla ayrı hal müəyyənləşdirilməyibsə, xüsusi iddia müddətlərinə də şamil edilir.

**İddianın cavabdehin olduğu yerə görə verilməsi** – AR MPM-in 35-ci maddəsinə uyğun olaraq qanunla başqa halın nəzərdə tutulmadığı hallarda, iddia cavabdehin rəsmi qeydə alındığı yerin məhkəməsinə verilir. Hüquqi şəxsə iddia hüquqi şəxsin ünvanının olduğu yerə görə verilir. Hüquqi şəxsin törəmə müəssisəsinin fəaliyyətindən əmələ gələn iddialar müəssisənin ünvanın olduğu yerə görə verilir. Qarşılıqlı iddia, aidiyyətindən asılı olmayaraq, ilkin iddianın baxıldığı yerin məhkəməsinə verilir.

**İddianın dəyişdirilməsi** - mülki-prosessual qanunvericiliyə uyğun olaraq iddiaçı məhkəmə tərəfindən qətnamə qəbul edilənədək iddianın əsasını və ya predmetini dəyişməyə, iddia tələbinin həcmini artırmağa və ya azaltmağa haqlıdır (AR MPM-in 53-cü maddəsi).





**İddianın etirafı** – cavabdehin, ona qarşı verilmiş iddianın tələblərinə razılığını bildirməsi. İ.e. iddianın təmin edilməsinə səbəb olur. İ.e. zamanı cavabdeh iddiaçı ilə maddi-hüquqi mübahisəni kəsir və onun prosesi udması üçün şəraiti təmin edir.

**İddianın qiyməti** – mülki-prosessual qanunvericiliyə uyğun olaraq iddianın qiyməti aşağıdakı qaydada müəyyən edilir: 1) pul vəsaiti alınması haqqındakı iddialarda – alınan məbləğlə; 2) əmlakın tələb edilməsi haqqındakı iddialarda - tələb edilən əmlakın dəyəri ilə; 3) aliment alınması haqqındakı iddialarda - bir il ərzində ödəmənin məcmusu ilə; 4) müddətli verilmə və ya ödəmə haqqındakı iddialarda - bütün verme və ya ödəmələrin məcmusu ilə, lakin 3 ildən artıq olmamaqla; 5) müddətsiz və ya ömürlük ödəmələr haqqındakı iddialarda - ödəmələrin 3 illik məcmusu ilə; 6) ödəmənin azaldılması, artırılması haqqındakı iddialarda - ödəmənin azaldıldığı və ya artırıldığı məbləğdə, lakin 1 ildən artıq olmamaq şərti ilə; 7) ödəməyə xitam verilməsi haqqındakı iddialarda - qalan ödəmə və ya vermənin məcmusu ilə, lakin 3 ildən artıq olmamaq şərti ilə; 8) əmlak icarəsi müqaviləsinin vaxtından əvvəl pozulması haqqındakı iddialarda - müqavilənin qüvvədə olmasının qalan müddəti ərzində əmlakdan istifadə etməyə görə ödəmənin məcmusu ilə, lakin 3 ildən artıq olmamaq şərti ilə; 9) fiziki şəxslərə mülkiyyət hüququ üzrə məxsus olan tikintilərə mülkiyyət hüququ haqqındakı iddialarda – tikintilərin qiyməti ilə, lakin inventar qiymətindən az olmamaq şərti ilə, bu olmadıqda sığorta müqaviləsi üzrə məbləğdən az olmamaq şərti ilə, hüquqi şəxslərə məxsus olan tikintilər üçün isə balans qiymətindən az olmamaq şərti ilə; 10) bir neçə müstəqil tələbdən ibarət olan iddialarda - bütün tələblərin ümumi məbləği ilə; 11) tutulma mübahisəsiz (qeydsiz) qaydada həyata keçirilən icra sənədinin və digər sənədin icra edilməli sənəd hesab edilməsi barədəki iddialarda – mübahisə edilən məbləğlə; 12) torpaq sahəsi tələbi barədəki iddialarda – torpağın müəyyən edilmiş qiyməti ilə, bu olmadıqda isə bazar qiyməti ilə.

İ.q.-nə həm də iddia ərizəsində göstərilən dəbbə pulu məbləğləri (cərimələr, peniyalar) da daxil edilir. Qarşılıqlı iddia da əsas iddia qaydasında ödənilir. İ.q. iddiaçı tərəfindən göstərilir. Qiymət düzgün göstərilmədikdə, həmin qiymət məhkəmə tərəfindən müəyyən edilir (AR MPM-in 112-ci maddəsi).

**İddianın təmin edilməsi** - iddia tələbinin təmin edilməsi. Mülki-prosessual qanunvericiliyə uyğun olaraq i.t.e. üçün əsaslar olmalıdır. AR MPM-in 157-ci maddəsinə əsasən hakim işdə iştirak edən şəxsin ərizəsi ilə iddianı təmin etmək üçün tədbirlər görə bilər. İ.t.e.-nə prosesin istənilən mərhələsində yol verilir. Qətnamənin gələcəkdə icrasını təmin etmək məqsədilə iddianı təmin etmək barədə hakimin qəbul etdiyi qərardan müvəqqəti xarakter daşıyır və işi qabaqcadan mahiyyəti üzrə həll etmir.

İddianı təmin etmək haqqında ərizəyə mübahisəni həll edən hakim tərəfindən təxirə salınmadan baxılır. Nəticə barəsində

qərardad çıxarılır və bu barədə işdə iştirak edən şəxslərə dərhal xəbər verilir. Qərardad məhkəmə qətnamələrinin icrası üçün müəyyən edilmiş qaydada dərhal icra edilir. Qərardada əsasən icra vərəqəsi verilir.

AR MPM-in 162.1-ci maddəsinə uyğun olaraq iddianın təmin edilməsi məhkəmənin təşəbbüsü ilə və ya tərəflərin xahişi ilə həmin məhkəmənin özü tərəfindən ləğv oluna bilər. Bu, məhkəmə iclasında həll edilir.

İddianı təmin etmək məsələləri üzrə bütün qərardadlardan şikayət verilə bilər. Qərardaddan şikayət verilməsi həmin qərardadın icrasını dayandırmır.

**İddia tələbi** – fiziki və ya hüquqi şəxsin pozulmuş, yaxud mübahisəli hüququnun bərpa edilməsi üçün qanunda müəyyən edilmiş tələb *(həmçinin bax: iddia)*

**İdentifikasiya** *(lat. identificare – eyniləşdirmə)* – obyektlərin eyniliyini qəbul etmə, tanıma *(həmçinin bax: eyniləşdirmə)*.

**İdeologiya** – siyasi, hüquqi, etik, estetik, dini, fəlsəfi, iqtisadi və i.a. baxışlar sistemi. "İ." terminini ilk dəfə fransız filosofu və iqtisadçısı Destyut de-Trasi işlətmişdir.

**İdeoloji təxribat** – hər hansı dövlətin və onun xalqının mənəvi dəyərlərini zəiflətmək, yaxud ona ideya – siyasi cəhətdən mənfi təsir göstərmək məqsədi ilə müxtəlif təsir vasitələrindən (kütləvi informasiya vasitələrindən, o cümlədən kino-filmlərdən, video kasetlərdən, müxtəlif mətbuat növlərindən) istifadə edilməsi, habelə insan əxlaqına zidd olan materialları yayma.

**İdxalat** – daxili bazarda realizə etmək üçün başqa ölkələrdən əmtəə gətirilməsi. İ. ixracatın əksindən ibarətdir.

**İdxalat gömrüyü** *(bax: gömrük rüsumları).*

**İdxalın vaxtı** – Azərbaycan Respublikasının vergi qanunvericiliyinə görə mallar üçün gömrük rüsumları tutulduğu vaxt malların idxal edilməsi vaxtı sayılır. Əgər idxal olunan mallar gömrük rüsumlarından azad edilirsə, malların idxal edilməsi vaxtı onların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt hesab olunur (AR VM-in 170-ci maddəsi).

**İdmançı** – mütəmadi surətdə idmanla məşğul olan və idman yarışlarında iştirak edən şəxs.

**İdman silahı** – idman oyunçuları üçün nəzərdə tutulan odlu mülki silah növü.

**İdman və həvəskar balıq ovu üçün su obyektlərindən istifadə** – Azərbaycan Respublikasının su qanunvericiliyinə görə qoruqlar, balıqartırma və balıqyetişdirmə təsərrüfatları istisna olmaqla, bütün sututarlardan Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydalara riayət etməklə idman və həvəskar balıq ovu üçün istifadə edilə bilər. Müvafiq icra hakimiyyəti orqanları göstərilən məqsədlər üçün sututarları və ya onların müəyyən hissəsini ayırmalıdırlar. Balıqçılıq təsərrüfatlarının təşkili üçün ayrılmış su obyektlərində idman və həvəskar balıq ovu, həmin obyektlərin mülkiyyətçilərinin və istifadəçilərinin razılığı ilə həyata keçirilə bilər.

**İfadə** – hüquqda sübutların bir növü. Bu növ sübutlardan mülki işlərin və cinayət işlərinin düzgün həllində əhəmiyyəti olan halların müəyyən edilməsi üçün istifadə olunur. Qanunda, dindirməyə çağırılmış hər bir vətəndaşın çağırışla gəlmək və düzgün ifadə vermək vəzifəsi müəyyən edilmişdir. İfadə verməyə məcbur etməyə





(AR CM-in 293-cü maddəsi), bilə-bilə yalan ifadə verməyə... (AR CM-in 297-ci maddəsi) və ifadə verməkdən boyun qaçırmağa... (AR CM-in 299-cu maddəsi) görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

**İfadələrin yerində yoxlanması** – cinayət-prosessual qanunvericiliyə görə ifadələrin yerində yoxlanması şahidin, zərər çəkmiş, şübhəli və təqsirləndirilən şəxslərin dəqiq məlum olan yerdə baş vermiş hadisə ilə bağlı ifadələrinin düzgünlüyünü müəyyən etmək və ya dəqiqləşdirmək məqsədi ilə aparılır. Təqsirləndirilən və ya şübhəli şəxsin ifadələrinin yerində yoxlanmasında həmçinin onun müdafiəçisi iştirak etmək hüququna malikdir. Bu istintaq hərəkətinin aparılması barədə müstəntiq tərəfindən əvvəlcədən xəbərdar edilmiş müdafiəçi ifadələrin yerində yoxlanmasında iştirak etmək arzusunu bildirdikdə, müstəntiq onun bu hüququnu təmin etməlidir. Zəruri hallarda ifadələrin yerində yoxlanmasında müstəntiqin dəvəti ilə, həmçinin tərcüməçi, mütəxəssis, ifadəsi yoxlanılan cinayət prosesi iştirakçısının qanuni nümayəndəsi və ya nümayəndəsi, habelə müəllim, həkim və digər şəxslər iştirak edirlər.

Müstəntiq, ifadəsi yoxlanılan şəxslə birlikdə onun göstərdiyi yerə gəlir və ona əvvəllər haqqında ifadə verdiyi və ya hazırda verə biləcəyi şəraiti, habelə əşyaları göstərməsini (və ya təsvir etməsini) təklif edir. Bu halda dindirilmiş (dindirilən) şəxs hadisə yerinə gedən yolu, əvvəllər haqqında ifadə verdiyi və ya hazırda verə biləcəyi şəraiti və əşyaları göstərir, həmçinin müstəntiqin suallarına cavab verir. Müstəntiqin göstərişi və ya icazəsi ilə ifadələrin yerində yoxlanması zamanı foto,video və kino çəkilişindən və ya digər yazı texniki vasitələrindən istifadə edilə bilər.

İfadələrin yerində yoxlanması zamanı iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşya və sənədlər aşkar edildikdə onlar CPM-in 243.1-ci maddəsində nəzərdə tutulmuş qərara əsasən götürülür. Müstəntiq götürülmüş əşya və sənədləri imkan daxilində qablaşdırmalı, möhürləməli, habelə götürmə hallarını ifadələrin yerində yoxlanması protokolunda göstərməlidir (AR CPM-in 260-cı maddəsi).

**İfadə vermək üzrə immunitet** – cinayət-prosessual qanunvericiliyə görə AR CPM-in 437.0.1 - 437.0.4, 437.0.6 - 437.08-ci maddələrində sadalanmış şəxslər şahid və zərər çəkmiş şəxs qismində ifadə verməyə bilərlər, belə ifadələri verməyə razı olduqları halda isə bundan ötrü müstəntiqin, ibtidai araşdırmaya prosesual rəhbərliyi həyata keçirən prokurorun yanına və məhkəməyə gəlməyərək yazılı şəkildə təqdim edə bilərlər. Həmin şəxslərin ibtidai istintaqda zərər çəkmiş şəxs və şahid qismində ifadə verdikləri, lakin məhkəmə iclasına gəlmədikləri halda məhkəmə onların ifadələrini elan edə bilər.

Konsulluqların rəhbərləri və digər vəzifəli şəxsləri onların xidməti vəzifələrinin yerinə yetirilməsi ilə bağlı olan məsələlər istisna olmaqla, şahid və zərər çəkmiş şəxs sifətində ifadə verməkdən imtina edə bilməzlər. Konsulluqların vəzifəli şəxsləri şahid ifadələrini verməkdən imtina etdikdə, onlar barəsində prosessual məcburiyyət tədbirləri tətbiq edilə bilməz.

AR CPM-in 440.1-ci maddəsində göstərilən razılıq alındıqda, həmin şəxslərə ünvanlanmış çağırışda onların cinayət prosesini həyata keçirən orqana gəlməmələrinə görə prosessual məcburiyyət tədbirləri ilə hədə olmamalıdır.

Diplomatik immunitetə malik olan şəxslər onların xidməti vəzifələrinin yerinə yetirilməsinə aid olan yazışma və digər sənədləri istintaq orqanına, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və məhkəməyə verməyə borclu deyillər.

**İfadə verməyə məcbur etmə** – ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 293-cü maddəsində nəzərdə tutulur. Prokuror, müstəntiq və ya təhqiqatçı tərəfindən və ya onların təhriki ilə dindirmə zamanı hədələməklə, şantajla, ləyaqəti alçaltmaqla və ya sair qanunsuz hərəkətlər tətbiq etməklə şübhə edilən şəxsi, təqsirləndiriləni, zərər çəkmiş şəxsi, şahidi ifadə verməyə, habelə eksperti rəy verməyə məcbur etmədə ifadə olunur.

**İftira** – cinayət hüququnda təqsirləndirilən şəxsin, zərər çəkmiş şəxsin, şahidin başqa şəxs tərəfindən cinayət törədilməsi haqqında yalan ifadəsi. Yalan xəbərçilikdən fərqli olaraq, i. yalnız şahidin və ya zərər çəkmiş şəxsin ibtidai istintaq orqanlarında, yaxud məhkəmədə dindirilməsi prosesində, cinayət məsuliyyətinə cəlb edilib-edilməməsindən asılı olmayaraq hər bir şəxs barəsində edilə bilər. İ. vicdanlı surətdə yanılmanın, yaxud bilə-bilə yalan ifadə vermənin nəticəsi də ola bilər. Bu zaman iftiraçı cəzalandırılır. Təqsirsiz şəxs barəsində bilə-bilə i. demə məsuliyyəti ağırlaşdıran hal kimi qiymətləndirilə bilər.

**İğtişaş** *(bax: kütləvi iğtişaş).*

**İxracat** [1] *(ər. xərclər)* – orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda mövcud olmuş vergi növü. Xüsusi divan dəftərində qeyd olunan i. ordunun ehtiyaclarını, vəzifəli şəxslərin yol xərcini ödəmək və i.a. üçün toplanırdı. Sonralar əyanların, məmurların və onları müşayiət edən şəxslərin xeyrinə yığılan fövqəladə vergiyə çevrilmişdir. Ağqoyunlu hökmdarı Gödək Əhməd 1497-ci ildə xüsusi fərmanla i.-ı ləğv etsə də, bu vergi onun ölümündən sonra da toplanmışdır. Səfəvilər dövründə "i." termini bir neçə vergi və mükəlləfiyyət növünü ("İxtiracat-i divani", "İxracat-i məmləkə") bildirirdi. Belə mükəlləfiyyətlərdən biri də XVIII yüzillikdə mövcud olmuş "Şahzadə ixracatı" idi. Bu termin altında şahzadələrin xərclərini təmin etmək üçün rəiyyətdən toplanan vergi nəzərdə tutulurdu.

**İxracat** [2] – əmtəələrin xarici bazarda realizə edilməsi üçün xaricə aparılması (idxalatın əksi).

**İxracat gömrüyü** *(bax: gömrük rüsumları).*

**İxracat krediti** – ixracatçı firmaların, bankların, yaxud hökumətin kreditor ölkədən əmtəə almaq üçün xərci müəssisələrə və dövlətlərə verdikləri kredit.

**İxracın vergiyə cəlb edilməsi** – Azərbaycan Respublikasının vergi qanunvericiliyinə görə aksizli malların ixracı sıfır dərəcəsi ilə vergiyə cəlb olunur (AR VM-in 187-ci maddəsi).

**İxtisas** – insanın əmək fəaliyyətinin bir növü. İ. hər hansı istehsal sahəsində məşğul olmağa imkan yaradan bilik və əməli vərdişlər kompleksindən ibarətdir.

**İxtisaslı əmək** – müəyyən işlərin yerinə yetirilməsi üçün işçidən xüsusi hazırlıq, səriştə, bacarıq və bilik tələb edən əmək. İ.ə. ixtisassız (sadə) əməkdən fərqli olaraq mürəkkəb əmək kimi çıxış edir; ixtisassız əməklə müqayisədə i.ə.-ə daha yüksək haqq verilir.





**İxtisas təhsili** – elm, texnika, sənaye, fermer təsərrüfatı, tibb və mədəniyyətin müxtəlif sahələrində çalışmaq üçün nəzəri biliklər verən və əməli vərdişlər aşılayan xüsusi təhsil.

**İxtira** – sözün geniş mənasında – texnikanın mövcud səviyyəsini yüksəltməklə məsələnin yeni texniki həlli. Məhdud mənada i. dövlətin ixtira kimi tanıdığı və ölkənin mövcud qanunvericiliyinə uyğun olaraq mühafizə etdiyi texniki nəticədir.

**İxtiraçılıq hüququ** - texniki yaradıcılıqla, texniki yeniliklə əlaqədar münasibətləri tənzimləyən hüquq normalarının məcmusu. İ.h.-nun əsas prinsip və müddəaları Azərbaycan Respublikasının mülki qanunvericiliyində və digər normativ-hüquqi aktlarında nəzərdə tutulmuşdur. İxtiralar və kəşflər Azərbaycan Respublikasında hüquqi qaydada mühafizə edilir.

**İxtiraçılıq və patent hüquqlarını pozma** – insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 166-cı maddəsində nəzərdə tutulur. İxtiraçılıq və patent hüquqlarını pozma ixtiradan və ya səmərələşdirici təklifdən qanunsuz istifadə etmədə və ya ixtira, yaxud səmərələşdirici təkliflərin mahiyyəti barədə məlumatları müəllifin razılığı olmadan və rəsmi dərc edilənədək yaymada, müəllifliyi mənimsəmədə, şərikli müəllifliyə məcbur etmədə və bu əməllər nəticəsində xeyli miqdarda ziyan vurula bilməsi ehtimalında ifadə olunur.

**İxtiyarlı şəxsin və yüklü olan mülkiyyətçinin hüquqlarının müdafiəsi** – mülki qanunvericiliyə görə, əgər servitutun həyata keçirilməsi zamanı ixtiyarlı şəxs hüquqlarının həyata keçirilməsində maneələrlə qarşılaşarsa, bunların aradan qaldırılması üçün o, vicdanlı sahib ilə eyni hüquqlara malikdir. Əgər servitutun həyata keçirilməsi zamanı ixtiyarlı şəxsin və onun daşınmaz əşyasının tələbatı dəyişərsə, yüklü olan mülkiyyətçini əlavə yüklü etmək imkanına yol verilmir.

Servitutun həyata keçirilməsi üçün qurğu olduğu halda, ixtiyarlı şəxs onun saxlanılması xərclərini çəkməlidir. Qurğu həm də yüklü olan mülkiyyətçinin mənafelərinə xidmət üçün nəzərdə tutulduqda, onların hər ikisi qurğunun saxlanması xərclərini öz mənafelərinə mütənasib surətdə çəkirlər. Yüklü olan mülkiyyətçi ixtiyarlı şəxsin tələbatını nəzərə alaraq servitutun bir yerdən başqa yerə keçirilməsini bu şərtlə tələb edə bilər ki, özünün yerdəyişmədə maraqlı olduğunu sübuta yetirsin və yerdəyişmə xərclərini öz öhdəsinə götürsün (AR MM-in 259-cu maddəsi).

**"İxvan əs-səfa"** - "Saflıq qardaşları" X yüzillikdə İraqın Bəsrə şəhərində meydana gəlmiş dini-fəlsəfi, ictimai-siyasi cərəyan. Gizli fəaliyyət göstərən "i.ə.-s."-nın Azərbaycanda, İranda, Orta Asiya ölkələrində, Suriyada və bir sıra başqa ölkələrdə üzvləri olmuşdur. Antifeodal demokratik ictimai-siyasi hərəkatdan ibarət olan bu cəmiyyətin üzvləri fəlsəfi və ictimai-siyasi bilikləri yaymaq məqsədi ilə 50-dən artıq risalə yazmış, orijinal dini-fəlsəfi sistem yaratmışdılar. "İ.ə.-s." cəmiyyətinin elmi ideyaları Azərbaycanın siyasi və hüquqi fikrinin zənginləşməsində mühüm rol oynamışdır.

**İkiarvadlılıq (və ya çoxarvadlılıq)** – nikahın qeydə alınıb-alınmamasından asılı olmayaraq ümumi təsərrüfatı birgə idarə etməklə iki və ya daha çox qadınla faktiki yaşama. İ. təknikahlılıq prinsipini pozur.

**İkihakimiyyətlilik** – 1917-ci ilin fevral - iyul aylarında Rusiyada iki hakimiyyətin – burjua müvəqqəti hökuməti ilə fəhlə, əsgər və kəndli deputatları sovetlərinin ziddiyyətli çulğalaşması. İ.-i Fevral burjua-demokratik inqilabının (1917) qələbəsi ilə yaranmış mürəkkəb şərait meydana gətirmişdir.

**İkiqat anbar şəhadətnaməsi** – anbar tərəfindən əmtəələrin qəbulunu təsdiq etməklə əlaqədar verilən qiymətli kağız, anbar sənədi. İ.a.ş. iki hissədən ibarətdir: a) anbar şəhadətnaməsi; b) girov şəhadətnaməsi (varrant). Anbar şəhadətnaməsinə və varranta sahib olan şəxs anbarda saxlanan əmtəələr üzərində tam həcmdə sərəncam vermək hüququna malik olur. Varrantdan ayrıca anbar şəhadətnaməsinə malik olan şəxs anbardakı əmtəələr üzərində sərəncam verməyə haqlı olsa da, varrant üzrə verilmiş kreditin ödənilməsinədək anbardan əmtəə götürmək hüququna malik olmur. Varrantın sahibi əmtəə üzərində girov şəhadətnaməsi üzrə verilmiş miqdarda girov hüququna malik olur.

**İkiqat gömrük tarifi** – özündə gömrük rüsumlatı məzənnəsinin iki sırasını (maksimum və minimum) ehtiva edən mürəkkəb tarif. Bu tariflərdən hər biri müəyyən dövlətlərlə ticarət-siyasi münasibətlərdən asılı olaraq, onların mallarına tətbiq edilir.

**İkiqat kurs** – dövlət valyuta tənzimləməsi metodu; bu metoda uyğun olaraq milli valyuta kursu ikiqat məzənnə ilə müəyyən edilir. Məzənnənin biri kommersiya, digəri isə maliyyə əməliyyatları üzrə müəyyənləşdirilir.

**İkiqat qeyd** – mühasibat uçotu metodu; bu metodun tətbiqi zamanı hər bir təsərrüfat əməliyyatı eyni məbləğdə, lakin iki hesabda – bir hesabın debetində, digərinin isə kreditində təsvir edilir.

**İkiqat sığorta** – Azərbaycan Respublikasının *ticarət gəmiçiliyi qanunvericiliyinə* görə sığorta obyektinin bir neçə sığortaçıda sığortalanması nəticəsində sığorta məbləğinin ümumi cəmi onun sığorta dəyərindən artıq olduğu halda (ikiqat sığorta), bütün sığortaçılar yalnız sığorta dəyəri miqdarında məsuliyyət daşıyırlar. Belə halda hər bir sığortaçı özünün bağladığı müqaviləyə müvafiq sığorta məbləğinin bütün bağlanmış müqavilələr üzrə ümumi sığorta məbləğinə olan nisbətinə mütənasib olan miqdarında məsuliyyət daşıyır. Əgər gəmi sahibinin bir məsuliyyəti bir neçə sığortaçıda sığorta edilibsə (ikiqat sığorta), hər bir sığortaçı özünün bağladığı müqavilədə müəyyənləşdirilmiş məsuliyyətinə müvafiq olan miqdarda məsuliyyət daşıyır (AR TGM-in 206-cı maddəsi).

**İkiqat sığortanın etibarsızlığı** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə əgər sığortalı ikiqat sığortanı qanunsuz gəlir əldə etmək məqsədi ilə rəsmiləşdirərsə, bu məqsədlə bağlanan hər bir müqavilə etibarsız sayılır (AR MM-in 912-ci maddəsi).

**İkiqat vergi qoyuluşu** – müxtəlif dövlətlər tərəfindən vergi qoyuluşunun ayrı-ayrı sistemlərinin tətbiq edilməsi nəticəsində yaranan situasiya. Məsələn, çoxmillətli şirkətin xarici gəliri həm ölkədə, həm də şirkətin yerləşdiyi hüquqi ünvan üzrə vergi qoyuluşuna məruz qalır.

**İkiqat votum** *(bax: plüral votum)*

**İkili tarif** *(bax: gömrük tarifləri).*

**İkili valyuta** *(bax: bimetalizm).*





**İkili vətəndaşlıq** *(bax: bipatridlər).*

**İkinci imperiya** – Fransada dövlət çevrilişi nəticəsində hakimiyyətə gələrək İkinci respublikanı ləğv edən imperator III Napoleonun hakimiyyət dövrü (1852-ci il dekabrın 2-dən 1870-ci il sentyabrın 4-dək olan dövr). İ.i. 1870-ci ildə baş vermiş Sentyabr inqilabı nəticəsində süquta uğramışdır.

**İkinci instansiya** *(bax: məhkəmə instansiyası).*

**İkinci ipoteka** – artıq girov qoyulmuş mülkiyyətə kredit vermək.

**İkinci respublika** – İyul monarxiyasının süqutundan sonra 1848-ci il fevralın 25-də Fransada bərqərar olmuş respublika idarəçilik forması. 1851-ci il dekabrın 2-dən formal olaraq 1852-ci il dekabrın 2-dək (İkinci imperiyanın elan olunmasınadək) mövcud olmuşdur.

**İkinikahlılıq** – bəzi ölkələrdə (məsələn, Almaniyada) nikah və ailə əleyhinə olan cinayət. İkiarvadlılıqdan (çoxarvadlılıqdan) fərqli olaraq i. həm kişi, həm də qadın üçün eyni zamanda birdən artıq nikahda olmağa görə hüquqi cəhətdən bərabər *məsuliyyət* yaradır.

**İkipalatalı sistem (bikameralizm)** – ümummilli nümayəndəli idarənin – parlamentin quruluşu. İ.p.s.-ə uyğun olaraq parlament müxtəlif yolla yaradılır və səlahiyyətinə görə bir-birindən fərqlənən iki palatadan ibarət olur. İlk burjua dövlətlərinin parlamentləri yarandığı vaxtdan iki palatadan (yuxarı və aşağı) ibarət olmuşdur. Ənənəyə görə aşağı palata parlamentin nisbətən demokratik qaneadı hesab olunur. Yuxarı palata isə aşağı palata ilə müqayisədə hökmran mövqe tutur. O, birbaşa olmayan seçki yolu ilə və kriteriyalara görə yaradılır. Aşağı palata isə adətən əhali tərəfindən seçilir. Məsələn, Hollandiya və Fransada senat, Avstriyada İttifaq Şurası birbaşa olmayan seçki yolu ilə formalaşdırılır. ABŞ-da, İtaliyada, Avstraliyada və Yaponiyada isə parlament birbaşa seçki yolu ilə təşkil edilir. Bəzi ölkələrdə yuxarı palatalar irsi əlamətlərə görə (məsələn, Böyük Britaniyada Lordlar Palatası) yaradılır, yaxud onların üzvlərini dövlət başçısı təyin edir (məsələn, Kanadada). Yuxarı palatalar qarışıq yollarla da yaradılır. Belə ki, palata üzvlərinin bir hissəsi seçilir, digər hissəsi təyin edilir, qalan hissəsi isə irsi prinsipə əsasən (məsələn, Belçikada, İrlandiyada) irəli sürülür.

**İkipartiyalı sistem** – bir sıra dövlətlərdə bərqərar olmuş siyasi partiya sistemi; bu sistemdə ölkənin iki əsas partiyası hakimiyyət başında vaxtaşırı bir-birini əvəz edir. İ.s. ABŞ, Böyük Britaniya, Kanada və bəzi başqa ölkələr üçün səciyyəvidir.

**İkivalyutalı istiqraz** – faizlərin bir valyuta, əsas məbləğin isə digər valyuta ilə ödənildiyi istiqraz.

**İki və ya daha çox gəmi mülkiyyətçisinin birgə məsuliyyəti** – Azərbaycan Respublikasının ticarət gəmiçiliyi qanunvericiliyinə görə iki və ya daha çox gəminin cəlb olunduğu hadisə nəticəsində çirkləndirmədən zərər vurulduqda, hadisə ilə bilavasitə əlaqəsi olan gəmilərin mülkiyyətçiləri onların arasında ağlabatan qaydada bölüşdürülə bilməyən çirkləndirmədən vurulan bütün zərərə görə, əgər onlar AR TGM-in 251-ci maddəsinə əsasən məsuliyyətdən azad edilmirlərsə, birgə məsuliyyət daşıyırlar (AR TGM-in 252.1-ci maddəsi).

Hadisəyə cəlb olunmuş gəmilərin mülkiyyətçiləri onların hər birinə AR TGM-in 253.1-ci maddəsinə müvafiq olaraq tətbiq edilə bilən məsuliyyətin məhdudlaşdırılması hüququna malikdirlər.

**İqab** *(ər.)* – cəza, fiqhin ən mühüm kateqoriyalarından biri. İ. aşkar edilmiş hüquq pozuntusuna görə yalnız qanunla müəyyən edilmiş qaydada, yəni məhkəmənin hökmü, ədalət mühakiməsini həyata keçirən imamın, yaxud ictimai qaydaya nəzarət edən şəxsin sərəncamı ilə təyin edilə bilər. Bu cəza tədbiri, demək olar ki, tam şəkildə islamaqədərki hüquq qaydasından əxz edilmişdir. İ.-ın məqsədi ölümə məhkum etmək, bütövlükdə cəmiyyəti cinayətkarlardan təcrid etməkdən ibarətdir. İ. həyata keçirilmə üsuluna görə cismani cəzaya, azadlıqdan məhrumetməyə, sürgünə, cəriməyə və ictimai məzəmmətə bölünür. Cəza cinayətin ağırlıq dərəcəsinə müvafiq olmalıdır. Ölüm cəzası (qətl) islam əleyhinə qiyam qaldırmağa görə təyin edilir.

**İqamətgah** – dövlət başçısının, hökumətin, yaxud yüksək rütbəli ali inzibati şəxslərin olduğu, fəaliyyət göstərdiyi yer (inzibati bina). İ. xüsusi mühafizə altında olur.

**İqta** *(ər. torpaq payı)* – orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində feodallara verilən şərti torpaq mülkiyyəti. İ. torpaq mülkiyyəti VII yüzilliyin sonlarından məlumdur. VIII-X yüzilliklərdə Abbasilər sülaləsinin hakimiyyəti dövründə geniş yayılmışdır. IX yüzillikdən başlayaraq xəlifə tərəfindən əmirlərin ixtiyarına verilmiş vilayətlər də i. adlanmağa başlamışdır. İ. torpaqları dövlət torpaqları hesab edilsə də, IX yüzillikdən faktiki olaraq feodal torpaq mülkiyyətinə çevrilmişdir. İ. torpaqlarından vergilərin toplanması hüququ iqtadarların əlində cəmləşmişdi. İ. torpaq sahibliyi Azərbaycanda XIX yüzilliyin birinci yarısınadək mövcud olmuşdur.

**İqtadar** – iqta sahibi; iqta torpaqlarından vergi toplayan şəxs. "İ." termini XI yüzillikdən məlumdur. Səlcuqilər, Eldəgəzlər və Elxanilər dövründə Azərbaycanda geniş torpaq sahələrinə malik olan çoxlu i. olmuşdur.

**İqtidar** – müvafiq ölkədə hakimiyyət başında olan qüvvələrin adını bildirən termin. İ. adətən, öz komandasına malik olur, hökuməti təmsil olunduğu partiya nümayəndələrindən təşkil edir.

**İqtisadi azadlıq** – hüquqi kateqoriya kimi dövlət tərəfindən sanksiyalaşdırılmış və təminatlandırılmış hüquqi rejimi nəzərdə tutan azadlıq. İ.a. şəraitində vətəndaşlara və hüquqi şəxslərə leqal sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa mane olan inhisarların hər hansı formasının aradan qaldırılması həyata keçirilir. İ.a. şəraitində sahibkarlıq fəaliyyətinə dövlət nəzarəti olmur, yaxud minimuma endirilir, xüsusi sahibkarlığı sıxışdıran normativ-hüquqi reqlamentləşdirmənin qarşısı alınır.

**İqtisadi blokada** – blokadaya alınan dövlətin iqtisadi cəhətdən təcrid edilməsi; ölkənin iqtisadiyyatında pozğunluq törətmək, onu xammaldan, əmtəə satışı bazarlarından məhrum etmək məqsədi güdür.

**İqtisadi cinayətkarlıq** *(kriminologiyada)* – bir qayda olaraq, ictimai istehsal, fərdi fəaliyyət və sair çoxaspektli iqtisadi münasibətlər sahəsində müəyyən funksiyaları yerinə yetirən şəxslər tərəfindən mülkiyyətə, təsərrüfatın idarəçiliyi qaydalarına və vətəndaşlarla qarşılıqlı iqtisadi münasibətlərə tamahkar qəsdlərin məcmusu. İ.c. zamanı





şəxsi mənfəət əldə etmək, qanunsuz yolla əldə edilmiş gəlirləri gizlətmək üçün müəyyən iqtisadi potensialdan istifadə olunması da bu cinayətlərin tərkibini yaradır.

İ.c.-ın strukturunda xarici iqtisadi cinayətlərin, o cümlədən onların qeyri-ənənəvi formalarının – valyutaların saxtalaşdırılmasının, dövlət orqanları məmurlarının korrupsiyasının, proqram vasitələrinin və informasiyanın digər növlərinin EHM-in yaddaşından oğurlanmasının, rəqabətçilərin kommersiya sirlərini əldə etmənin və i.a. xüsusi çəkisi artır.

Müasir i.c. üçün sadəcə olaraq dövlətin iqtisadi təhlükəsizliyinə qəsd edən konkret cinayətlərin deyil, həm də ictimai nəzarət altından çıxan cinayətkar iqtisadi fəaliyyətin sürətlə və fövqəladə dərəcədə yayılması səciyyəvidir.

**İqtisadi fəaliyyət sahəsində olan cinayətlər** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə iqtisadi fəaliyyət – xüsusi sahibkarlıq fəaliyyəti sahəsində törədilən cinayətlər. AR CM-in 24-cü fəslində nəzərdə tutulmuşdur. Bu cinayətlərə qanuni sahibkarlıq fəaliyyətinə mane olma (AR CM-in 190-cı maddəsi), torpaqla əlaqədar qanunsuz əqdlərin qeydiyyatı (AR CM-in 191-ci maddəsi), qanunsuz sahibkarlıq (AR CM-in 192-ci maddəsi), yalançı sahibkarlıq (AR CM-in 193-cü maddəsi), bilə-bilə cinayət yolu ilə əldə edilmiş əmlakı alma və ya satma (AR CM-in 194-cü maddəsi), qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə (AR CM-in 195-ci maddəsi), kreditor borclarını ödəməkdən qəsdən yayınma (AR CM-in 196-cı maddəsi), əmtəə nişanlarından qanunsuz istifadə etmə (AR CM-in 197-ci maddəsi), bilə-bilə yalan reklam etmə (AR CM-in 198-ci maddəsi), inhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma (AR CM-in 199-cu maddəsi), istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma (AR CM-in 200-cü maddəsi), əqdin bağlanmasına və ya onun bağlanmasından imtinaya məcbur etmə (AR CM-in 201-ci maddəsi), kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yayma (AR CM-in 202-ci maddəsi), qiymətli kağızların buraxılması (emissiyası) qaydalarını pozma (AR CM-in 203-cü maddəsi), saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma (AR CM-in 204-cü maddəsi), saxta kredit və ya hesab kartlarının və ya başqa ödəniş sənədlərini hazırlama və ya satma (AR CM-in 205-ci maddəsi), qaçaqmalçılıq (AR CM-in 206-cı maddəsi), Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları Azərbaycan Respublikasına qaytarmama (AR CM-in 207-ci maddəsi), xarici valyuta vasitələrini xaricdən qaytarmama (AR CM-in 208-ci maddəsi), gömrük ödənişlərinin ödənilməsindən yayınma (AR CM-in 209-cu maddəsi), müflisləşmə zamanı qanunsuz hərəkətlər (AR CM-in 210-cu maddəsi), qəsdən müflisləşmə (AR CM-in 211-ci maddəsi), saxta müflisləşmə (AR CM-in 212-ci maddəsi), vergi ödəməkdən yayınma (AR CM-in 213-cü maddəsi) daxildir.

**İqtisadi kriminologiya** – kriminologiyanın iqtisadiyyat sahəsində cinayətkarlığı, onun spesifik səbəblərini, iqtisadi cinayətkarın və iqtisadi cinayətdən zərər çəkmiş şəxsin şəxsiyyətini, bu cinayətkarlığın qarşısının alınması məsələlərini öyrənən sahəsi.

**İqtisadi mübahisələr** – sahibkarlıq fəaliyyəti və digər iqtisadi fəaliyyət sahəsində yaranan mübahisələr. Mülki, inzibati və sair hüquq münasibətlərindən yaranan i.m. üzrə işlərə iqtisad məhkəməsində baxılır. İqtisad məhkəməsi tərəfindən həll edilməli olan belə mübahisələrə adətən aşağıdakılar aid edilir: a) bağlanması qanunla nəzərdə tutulmuş müqavilənin şərtləri ilə bağlı narazılıqlar; b) müqavilələrin şərtlərinin dəyişdirilməsi və ya onların ləğv edilməsi ilə əlaqədar mübahisələr; c) öhdəliklərin icra edilməməsi, yaxud lazımi qaydada icra edilməməsi ilə bağlı məsələlər; ç) mülkiyyət hüququnun tanınması haqqında məsələ; d) mülkiyyətçi və ya sair qanuni sahib tərəfindən əmlakın qanunsuz sahibdən tələb edilməsi haqqında mübahisələr və s.

**İqtisadi siyasət tədbirləri** – gömrük qanunvericiliyinə görə Azərbaycan Respublikasının iqtisadi siyasət baxımından müəyyən edilən və özündə kvotalaşdırma, lisenziyalaşdırma, limitləşdirmə, minimum və maksimum qiymətlərin müəyyən edilməsi, həmçinin Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatı ilə qarşılıqlı əlaqələrini tənzimləyən digər tədbirləri cəmləşdirə bilən, malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından aparılması üzrə stimullaşdırıcı və məhdudlaşdırıcı tədbirlər sistemi.

**İlhaq** – başqa dövlətin və ya xalqın ərazisinin bütünlüklə, yaxud onun bir hissəsinin digər dövlətin torpağına zorla qatılması (zəbt edilməsi). Məsələn, 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə Azərbaycan Demokratik Respublikasının bütün ərazisi bolşeviklər Rusiyası tərəfindən ilhaq olunmuş və ölkənin böyük bir hissəsi Rusiyanın XI qızıl ordusu tərəfindən zəbt edilmişdir. Müasir beynəlxalq hüquqa görə i. dövlətin hüquqazidd hərəkətidir. BMT Nizamnaməsi hər hansı dövlətin ərazi toxunulmazlığına, siyasi müstəqilliyinə qarşı zor işlədilməsini və ya zor işlətməklə hədələməsini qadağan edir.

**"İlin fəsilləri cəmiyyəti"** - 1837-1838-ci illərdə Parisdə fəaliyyət göstərmiş gizli inqilabi təşkilat. Təşkilatın məqsədi İyul monarxiyası rejiminə son qoymaq, respublika yaratmaq idi. O.Blanki, A.Barbes və M.Bernar i.f.c.-nin baniləri hesab olunurlar. Cəmiyyət 30-cu illərin əvvəlinin gizli cəmiyyətlərinə nisbətən eqalitar (bərabərlik) inqilabi ideyalarını daha ardıcıllıqla müdafiə edirdi. 1839-cu ildə təşkilatın mindən artıq (başlıca olaraq fəhlə və sənətkarlardan ibarət) üzvü olmuşdur. Sui-qəsdçi (blankiçi) taktikası 1839-cu ilin 12-13 may üsyanından sonra təşkilatın iflasına səbəb olmuşdur.

**İlkin aksept** – ödənişin (ödəmə tələbinin) ancaq onun müddətinin keçməsi ilə, yəni ödəyənin ilkin razılığından sonra həyata keçirildiyi aksept. Ödəmə tələbi akseptin müddətinin bitdiyi gündən sonra növbəti gün ödənilir.

**İlkin əməliyyatlar** – Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə görə malların və nəqliyyat vasitələrinin əsas gömrük rəsmiləşdirilməsi və müəyyən gömrük rejimi altında yerləşdirilməsinə qədər gömrük işinə aid olan bütün hərəkətlər ilkin əməliyyatlardır.

İ.ə. malların və nəqliyyat vasitələrinin əsas gömrük rəsmiləşdirilməsinin və onların müəyyən gömrük rejimi altında yerləşdirilməsinin asanlaşdırılmasına və tezləşdirilməsinə xidmət edir. İ.ə. zamanı Azərbaycan Respublikası gömrük orqanları Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından aparılması qadağan olunmuş mallar və nəqliyyat vasitələrinin gətirilməsinə və aparılmasına yol vermirlər.





Bu zaman həmin malların və nəqliyyat vasitələrinin gömrük məqsədləri üçün eyniləşdirilməsinə yönələn ilkin gömrük rəsmiləşdirilməsi aparılır (AR GM-in 135-136-cı maddəsi).

**İlkin qərarlar** – gömrük qanunvericiliyinə görə Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı, həmçinin həmin orqanın müəyyən etdiyi Azərbaycan Respublikasının ayrı-ayrı gömrük orqanları, maraqlı şəxslərin yazılı sorğusu əsasında konkret mallarla və əməliyyatla əlaqədar malların təsnifatı, onların gömrük dəyəri və malların mənşə ölkəsi, gömrük ödənişlərinin məbləği və gömrük işi üzrə qanunvericiliyin tətbiqinin digər məsələlərinə aid ilkin qərar qəbul edə bilər. İlkin qərar Azərbaycan Respublikası gömrük orqanları üçün məcburidir. İlkin qərar, ərizəçi tərəfindən Azərbaycan Respublikasının sərhədindən keçiriləcək mallarla əlaqədar bir il müddətində qüvvədə olur. İlkin qərarın qəbulu üçün Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanının Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müəyyən etdiyi məbləğdə haqq tutulur.

İlkin qərarın qəbul edilməsində marağı olan şəxs AR GM-in 389-cu maddəsində göstərilən Azərbaycan Respublikası gömrük orqanına yazılı sorğu göndərir. İlkin qərarı qəbul etmək üçün zəruri olan bütün məlumatlar sorğuda olmalıdır. Malların əyar və nümunələri, təsviri, fotoşəkli, şəkilləri, çertyojları, kommersiya və digər sənədləri, sorğu olunan ilkin qərarın xarakterindən asılı olaraq istənilən digər zəruri məlumatlar sorğuya əlavə edilməlidir. İlkin qərarın çıxarılması mümkün olmadıqda, sorğu qəbul edilmir.

Azərbaycan Respublikası gömrük orqanları tərəfindən və ya Azərbaycan Respublikasının aşağı gömrük orqanları tərəfindən qəbul edilən ilkin qərarları ləğv edə, dəyişə və ya geri ala bilərlər (AR GM-in 389-391-ci maddələri).

**İlkin müqavilə** – mülki qanunvericiliyə görə müqavilənin bir növü. Bu müqaviləyə görə tərəflər həmin müqavilədə nəzərdə tutulmuş şərtlərlə əmlakın verilməsi, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi barədə gələcəkdə müqavilə (əsas müqavilə) bağlamağı öhdələrinə götürürlər. İ.m. əsas müqavilə üçün nəzərdə tutulmuş formada, əsas müqavilənin forması müəyyənləşdirilmədikdə isə yazılı formada bağlanır. İ.m.-nin formasına dair qaydalara əməl edilməməsi onun əhəmiyyətsizliyinə səbəb olur. İ.m.-də əsas müqavilənin predmetini, habelə digər mühüm şərtlərini müəyyənləşdirməyə imkan verən şərtlər göstərilməlidir.

İ.m.-də tərəflərin əsas müqaviləni hansı müddətə bağlamağı öhdələrinə götürdükləri göstərilir. Əgər i.m.-də bu müddət müəyyənləşdirilibsə, əsas müqavilə i.m.-nin bağlandığı andan bir il müddətində bağlanmalıdır. Əgər əsas müqavilə tərəflərin onu bağlamalı olduğu müddət qurtarana qədər bağlanmazsa və ya tərəflərdən biri digər tərəfə həmin müqaviləni bağlamaq barədə təklif göndərməzsə, i.m.-də nəzərdə tutulmuş öhdəliklərə xitam verilir. Niyyət razılaşmasında (niyyət protokolunda və s.) tərəflərin ona i.m. qüvvəsi

vermək iradəsi birbaşa ifadə olunmayıbsa, o, mülki-hüquqi nəticələr doğurmur (AR MM-in 402-ci maddəsi).

**İlkin sübutlar** – hadisəni bilavasitə gözü ilə görən şahidin verdiyi məlumatlar, yaxud iş üçün əhəmiyyət kəsb edən fakt haqqında sənədin əslində əks olunan və ilkin mənbədən alınan məlumatlar, yəni müəyyən edilməli faktlar haqqında ilk mənbədən alınan məlumatlar. İ.s. həm ittihamedici, həm də bəraətverici ola bilərlər.

**İlkin şikayət vermə** – gömrük qanunvericiliyinə görə Azərbaycan Respublikası gömrük orqanlarının, həmçinin onların vəzifəli şəxslərinin qərarından, hərəkətləri və ya hərəkətsizliklərindən ilkin şikayət müvafiq surətdə Azərbaycan Respublikasının yuxarı gömrük orqanına və ya vəzifəli şəxsinə verilir. Şəxslərin ərizə və şikayətlərini baxılmaq üçün qanuna zidd hərəkətlərindən (hərəkətsizliklərindən) şikayət edilən orqanlara və ya vəzifəli şəxslərə göndərmək qadağandır.

İ.ş. şəxsə qərar və ya hərəkətin törədilməsi barədə məlumat verildiyi gündən 3 ay ərzində verilir. Qəbul edilmiş qərar haqqında şəxsə məlumat verilmədikdə, i.ş. qərar qəbul edildiyi gündən 6 ay ərzində verilə bilər. İ.ş.-ə 1 ay ərzində əlavə öyrənilməsi və yoxlanılması tələb edilməyən şikayətə isə 15 gün ərzində baxılır. Şikayət yazılı formada verilir və Azərbaycan Respublikasının müvafiq gömrük orqanına və ya vəzifəli şəxsinə ünvanlanır (AR GM-in 402, 403-cü və 405-ci maddələri).

**İlkin vəziyyəti bərpa etmək vəzifəsi** – mülki qanunvericiliyə görə zərərin əvəzini ödəməyə borclu olan şəxs əvəz ödəməyə borclu edən hal baş verməsəydi, mövcud olacaq vəziyyəti bərpa etməlidir. Əgər bədən xəsarəti və ya sağlamlığa zərər vurulması nəticəsində zərərçəkən əmək qabiliyyətini itirmişsə və ya bu qabiliyyəti azalmışsa, yaxud onun tələbatı artırsa, zərərçəkənə zərərin əvəzi aylıq dolanacaq xərcinin verilməsi ilə ödənilməlidir. Zərərçəkən müalicə xərclərini qabaqcadan tələb edə bilər. Yeni peşəyə yiyələnmək zərurəti yarandıqda da eyni qayda qüvvədə olur. Əgər vacib əsaslar olduğu aşkardırsa, zərərçəkən dolanacaq xərclərinin əvəzinə kompensasiya verilməsini tələb edə bilər.

İlkin vəziyyətin bərpası yolu ilə zərərin əvəzinin ödənilməsi mümkün olmadıqda və ya bunun üçün tənasübsüz surətdə böyük xərclər zərurəti yarandıqda, kreditora pul əvəzi verilə bilər. Qabaqcadan razılaşmaya əsaslanaraq, öhdəliyin pozulması nəticəsində vurulan zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan imtina etmək yolverilməzdir. Zərərin həcmi müəyyən edilərkən öhdəliyin lazımi qaydada icrası barəsində kreditorun mənafeləri də nəzərə alınmalıdır. Zərərin həcmi müəyyən edilməsi üçün müqavilənin icra olunması yeri və vaxtı da nəzərə alınmalıdır (AR MM-in 459-cu maddəsi).

**İlk sığorta haqqı** – mülki qanunvericiliyə görə əgər müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa, ilk və ya birdəfəlik sığorta haqqı vaxtında ödənilənədək sığortaçı öz vəzifələrindən azaddır (AR MM-in 900-cü maddəsi).

**İlotlar** – Qədim Spartada zülmə məruz qalan əhalinin əsas kütləsi. İ.-ın sayı onların üzərində hökmranlıq edən spartalıların sayından qat-qat çox olmuşdur. Bu kütlənin vəziyyəti antik dövrdə adi kölələrin vəziyyətindən





fərqlənirdi. İ. öz təsərrüfatlarına və əmək alətlərinə malik azad vətəndaşlardan ibarət idilər. Onlar yüngül silahlanmış hərbçilər kimi hərbi xidmətə də cəlb olunurdular.

**İltizam** – **1)** cinayət-prosessual hüquqda kənara, başqa yerə getməməkhaqqında qətimkan tədbiri. İ. təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun, məhkəmənin icazəsi olmadan, şübhə edilən və ya təqsirləndirilən şəxsə daimi yaşayış, yaxud müvəqqəti olduğu yerdən başqa yerə getməməkhaqqında göstərişdən ibarətdir; **2)** gəlmək haqqında iltizam – Azərbaycan Respublikasında təqsirləndirilən şəxsin təhqiqatçının, müstəntiqin, prokurorun və məhkəmənin çağırışı ilə gəlməsi, habelə yaşayış yerinin dəyişməsini onlara xəbər verməsi barədə yazılı öhdəliyi. Gəlmək haqqında iltizam qətimkan tədbiri deyil. İltizam pozulduqda təqsirləndirilən şəxs polis orqanları vasitəsi ilə məcburi qaydada gətirilə bilər.

**İmam** *(ər. öndə gedən, öndər, rəhbər)* – **1)** müsəlmanlarda dini rəhbər, icma başçısı; **2)** sünni təriqətində mövcud olan dörd məzhəbin (hənəfiliyin, malikiliyn, şaafiliyin və hənbəliliyin) başçılarının adı; **3)** şiə təriqətində baş ruhani; **4)** teokratik müsəlman dövlətlərində hökmdar (məsələn, Abbasilər xilafətində xəlifə, Yəmən hökmdarı və i.a.); **5)** məsciddə cümə namazına başçılıq edən ruhani.

**İmamlıq** – **1)** müsəlmanlar üzərində ali dini və dünyəvi hökmranlığın irsən keçməsi haqqında islam müddəası; **2)** müsəlman teokratiyasının formalarından biri; **3)** Dağıstan və Çeçen-İçkeriya respublikasında müridlərin dövləti. Burada imamlıq XIX yüzilliyin 20-ci illərinin sonunda Qafqaz xalqlarının Rusiya çarizminin müstəmləkə siyasətinə qarşı mübarizəsi gedişində təşəkkül tapmışdır. Şeyx Şamilin hakimiyyəti illərində (1834-1859) imamlıq özünü xüsusilə bariz şəkildə büruzə vermişdir.

**İmbesillik** *(lat. imbecillius – zəif, gücsüz, əldən düşmüş)* – anadan gəlmə ağıl zəifliyi. Oliqofreniyanın orta dərəcəsi.

**İmbibisiya** *(kriminalistikada)* – meyitin toxumalarının və orqanlarının qanı, ödü və başqa mayeləri canına hopdurması. Ölümün baş verməsi müddətinin müəyyən olunmasının əlamətlərindən biridir.

**İmic** *(kriminologiyada)* – insanın şüurunda formalaşan stereotipli obraz.

**İmmiqrant** – "İmmiqrasiya haqqında" Azərbaycan Respublikasının 22 dekabr 1998-ci il tarixli qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikası ərazisində yaşamaq hüququ alaraq Azərbaycan Respublikasına gələn əcnəbi və ya vətəndaşlığı olmayan şəxs. Azərbaycan Respublikasında yaşamağa gələn i. (onun ailə üzvləri) Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş qaydada qeydiyyata alınır. İ. yaşayış yerinin dəyişməsi haqqında 3 gün ərzində müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.

**İmmiqrant statusu** – immiqrantların Azərbaycan Respublikasında Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikasının qanunu ilə, habelə digər qanunvericilik aktları ilə müəyyən edilən statusu.

Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər immiqrasiya kvotalarına riayət olunmaqla "İmmiqrasiya haqqında" qanun-

la müəyyən edilmiş qaydada immiqrasiyaya icazə aldıqda Azərbaycan Respublikasına daimi və ya müvəqqəti yaşamağa gələ bilərlər və bu halda immiqrant statusu alırlar. Kvotadan kənar immiqrant statusu aşağıdakı şəxslərə verilə bilər: 1) Azərbaycan Respublikasının vətəndaşı ilə yaxın qohumluğu olan və ondan Azərbaycan Respublikasına daimi yaşamağa gəlməyə dəvət alan əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə; 2) Azərbaycan Respublikasında daimi yaşayan şəxslə nikah bağlayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər; 3) Azərbaycan Respublikası vətəndaşının himayəsində və ya qəyyumluğunda olan əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə; 4) Azərbaycan Respublikasının vətəndaşına himayəçilik və ya qəyyumluq edən əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə; 5) elm, texnika və digər sahələrdə yüksək ixtisaslı mütəxəssislərə, incəsənət xadimlərinə və idmançılara.

İmmiqrantlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün müəyyən edilən hüquq və azadlıqlardan istifadə edirlər və müvafiq vəzifələri yerinə yetirirlər. İmmiqranta müvafiq icra hakimiyyəti orqanı tərəfindən onun statusunu təsdiq edən sənəd verilir. İmmiqrant statusunu təsdiq edən sənədin forması Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edilir.

**İmmiqrasiya** – əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvafiq dövlətə daimi, yaxud müvəqqəti yaşamağa gəlməsi. Bu, Azərbaycan Respublikasında "İmmiqrasiya haqqında" Azərbaycan Respublikasının 22 dekabr 1998-ci il tarixli qanunu ilə müəyyən edilir.

**"İmmiqrasiya haqqında" Azərbaycan Respublikasının qanunu** – əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına immiqrasiyasını və bununla bağlı münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 22 dekabr 1998-ci il tarixdə qəbul edilmişdir. Qanun beş fəsil və 18 maddədən ibarətdir. Bu qanuna 4 əlavə və dəyişiklik edilib.

**İmmiqrasiya haqqında vəsatət** – "İmmiqrasiya haqqında" qanunun 4-cü maddəsinə uyğun olaraq 18 yaşına çatmış fəaliyyət qabiliyyəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasına immiqrasiya üçün müvafiq icra hakimiyyəti orqanına, bilavasitə və ya Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi, yaxud konsul idarələrinin vasitəsilə vəsatət verə bilər. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər vəsatətlərində Azərbaycan Respublikasına immiqrasiyanı əsaslandırmalıdırlar. İmmiqrasiya haqqında vəsatətə notarial və ya ona bərabər tutulan qaydada təsdiq edilən aşağıdakı sənədlər əlavə olunur: 1) doğum haqqında şəhadətnamə və ya ona bərabər tutulan başqa sənəd; 2) ailə tərkibi haqqında (ailə üzvlərinin adı, soyadı, təvəllüdü, məşğuliyyəti, yaşadığı və ya olduğu yer göstərilməklə) arayış, nikah haqqında şəhadətnamənin surəti, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə immiqrasiya edən 14 yaşından 18 yaşınadək olan uşaqların immiqrasiya haqqında yazılı razılığı; 3) immiqrasiya edən şəxslərin sağlamlığı haqqında arayış; 4) Azərbaycan Respublikası vətəndaşı və ya Azərbaycan Respublikası ərazisində daimi yaşayan şəxs ölkədə qaldıqları vaxtda təminatı öz üzərinə götürdüyü istisna olmaqla, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin və onlarla gələn ailə üzvlərinin minimal tələbatını ödəyə bilən vəsaiti olması barədə sənəd; 5) əcnəbilərin vətəndaşlığını, vətəndaşlığı olmayan şəxslərin isə vətəndaşsızlığını təsdiq edən sənəd; 6) əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin peşə ixtisasını təsdiq edən sənədlər.

Azərbaycan Respublikasına immiqrasiya haqqında vəsatətin rədd edilməsi əsaslarının mövcudluğunun müəyyən edilməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən əlavə sənədlər tələb oluna bilər.

İmmiqrasiya haqqında vəsatətə müvafiq icra hakimiyyəti orqanı tərəfindən 6 ay müddətində baxılır və qərar qəbul olunur. Vəsatətə baxılması qaydalarını, immiqrasiyanın növlərini və müddətlərini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Vəsatət verildikdə qanunvericilikdə müəyyən edilmiş qaydada dövlət rüsumu tutulur. Vəsatətin rədd edilməsinin əsasları "İmmiqrasiya haqqında" qanunun 7-ci maddəsində nəzərdə tutulmuşdur. İmmiqrasiya vəsatətinə təkrar baxıla bilər. Vəsatətin rədd edilməsi haqqında qərardan şikayət verilə bilər.

**İmmiqrasiya kvotası** – "İmmiqrasiya haqqında" Azərbaycan respublikasının 22 dekabr 1998-ci il tarixli qanununun 15-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasına immiqrasiya sahəsində dövlət tənzimini həyata keçirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən immiqrasiya kvotaları müəyyən edilir. Hər yeni ilin başlanmasında üç ay qalmış müvafiq icra hakimiyyəti orqanı tərəfindən immiqrasiya kvotası müəyyən olunur. Zəruri hallarda immiqrasiya kvotaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən məhdudlaşdırıla bilər.

**İmmunitet** *(lat. immunitas – azad olma)* – **1)** feodal hüququnda Qərbi Avropada feodalın öz malikanəsində (ərazisində) bəzi dövlət vəzifələrini həyata keçirdiyi hüquqların (məhkəmə, vergi toplamaq funksiyaları) məcmusu. Mərkəzi dövlət hakimiyyəti feodalın bu hüquqlarına müdaxilə edə bilmirdi; **2)** dövlətdə xüsusi mövqe tutan şəxslərə bəzi ümumi qanunlara tabe olmamağa dair verilən müstəsna hüquq. Məsələn, deputat immuniteti - qanunvericilik orqanı üzvünün şəxsi toxunulmazlıq hüququ. Belə ki, qanunvericilik orqanının razılığı olmadan deputat həbs edilə və ya məhkəmə məsuliyyətinə cəlb edilə bilməz. Diplomatik immunitet – xarici dövlətlərin ərazilərindəki diplomatik nümayəndələrə verdiyi hüquq və imtiyazların məcmusu.

**İmperativ aidiyyət** – bir neçə yurisdiksiyalı orqanlar tərəfindən qanunla müəyyən edilmiş ardıcıllıqla baxılan işin aidiyyəti. Məsələn, pensiya ilə əlaqədar mübahisələrə əvvəlcə yuxarı sosial təminat orqanı, sonra isə məhkəmə tərəfindən baxılır.

**İmperativ mandat** – nümayəndəli hakimiyyət orqanı deputatının seçicilərin sorğuları ilə və özünün bütün fəaliyyəti ilə əlaqədar seçicilər qarşısında məsul olmasını bildirən qayda. Belə halda seçicilərin etimadını doğrultmayan deputatın vaxtından əvvəl geri çağırılması mümkünlüyü qanunvericiliklə təsbit edilir. Bu qayda əvvəllər əsasən sosialist arientasiyalı dövlətlərdə mövcud olmuşdur. Liberal demokratiyalı ölkələrdə isə o, bir qayda olaraq, milli nümayəndəlik prinsipinə zidd olduğuna görə tətbiq edilməmişdir.

**İmperativ normalar** – imperativ normaların tələbləri hökm, əmr kimi "bu hərəkəti və məhz həmin hərəkəti etmək" modeli üzərində qurulur. İ.n.-da müəyyən hərəkətlərin edilməsi barədə qəti göstərişlər olur və bu göstərişlər hüquq subyektlərinin iradəsi ilə dəyişdirilə bilməzlər.

**İmperator** *(lat. imperator – hökmdar, sərkərdə)* – Roma Respublikasında sərkərdənin fəxri titulu. İ. titulu Avqustun hakimiyyəti dövründən başlayaraq dövlət başçılarının daşıdığı titul olmuşdur.

**İmperiya** *(lat. imperium – hakimiyyət, dövlət)* – başçısı imperator olan monarxiya idarəçilik formasına malik dövlət. Çoxlu müstəmləkələri olmuş bəzi iri dövlətlər də imperiya adlandırılmışdır. Məsələn, Osmanlı imperiyası, Bizans imperiyası, Böyük Britaniya imperiyası, SSRİ və i.a.

**İmperiya cəngavərləri** – "Müqəddəs Roma imperiyası"nda (1806-cı ilədək) feodal zadəganlarının aşağı təbəqəsi (əksəriyyət hissəsi Almaniyanın cənub və qərb vilayətlərində məskunlaşmışdı). İ.c. imperiyanın töycülərini ödəyir və imperatordan birbaşa vassal asılılığında olurdular. Reyxstaqda təmsil olunmurdular. XV-XVI yüzilliklərdə knyazlarla mübarizədə var-yoxdan çıxmış, onların tabeliyinə keçmişlər. İmperiyanın ləğvi (1806) ilə i.c.-nin mülkləri Reyn İttifaqı dövlətinin tərkibinə qatılmışdır.

**İmperiya seymi** – "Müqəddəs Roma imperiyası"nın silki-nümayəndəli orqanının (orta əsrlər reyxstaqı) tarix ədəbiyyatında geniş yayılmış adı.

**İmpiçment** *(ing. impeachment)* – bir sıra ölkələrdə (ABŞ-da, İngiltərədə) dövlətin yüksək rütbəli vəzifəli şəxslərinin parlament məsuliyyətinə cəlb edilməsi qaydası. Məsələn, ABŞ Konstitusiyasının 1-ci maddəsinin 2-ci bölməsində göstərilir ki, nümayəndələr palatası öz spikerini və digər vəzifəli şəxsləri seçir; impiçment qaldırmaq üçün müstəsna hüquqa yalnız bu palata malikdir.

**İmplementasiya** *(beynəlxalq hüquqda)* – geniş mənada beynəlxalq hüquqların icrası üzrə beynəlxalq hüquq normalarının və dövlət daxili hüquq normalarının həyata keçirilməsi, habelə beynəlxalq və dövlətdaxili səviyyədə belə həyata keçirmə üçün şərtlər yaradılması deməkdir. "İmplementasiyanın mexanizmi", "implementasiya maddələri" ifadələri beynəlxalq aləmdə geniş yayılmışdır. Birinci, adətən, beynəlxalq müqavilə ilə nəzərdə tutulur, tədbirlər sistemini və həmin tədbirlərin həyata keçirilməsi üzərində nəzarəti bildirir. İkinci isə tədbirlər sistemini nəzərdə tutan müqavilənin maddələri deməkdir.

**İmport** *(bax: idxalat)*.

**İmportçu** – xaricdən malları gətirən və ya xidmətləri alan təşkilat. İ. termini import qaydasında mallar gətirən dövlətə də şamil oluna bilər.

**İmport əqdi** – predmeti malların satın alınmasından, xaricdə xidmətlər göstərilməsindən və onları ölkəyə gətirməkdən ibarət olan əqd.

**İmport gömrük rüsumları** – Azərbaycan Respublikasının gömrük qanunvericiliyi ilə import malların dəyərindən faizlərlə müəyyən edilən rüsumlar. Rüsumlar manatla ödənilir. Malların gömrük dəyərinin müəyyən edilməsi qaydası Azərbaycan Respublikasının hökuməti tərəfindən müəyyənləşdirilir.





**İmport karantin icazəsi** – bitkilərin karantini üzrə dövlət xidməti tərəfindən müəyyən edilən şərtlərlə malların, habelə karantin altında olan tranzit materialların ölkəyə gətirilməsinə icazə verən sənəd.

**İmport kvotası** – **1)** müəyyən malların ölkəyə gətirilməsini məhdudlaşdıran qeyri-tarif kəmiyyət (dəyərlə və ya natura ilə) üsulları; **2)** bütövlükdə milli təsərrüfat, habelə məhsulların müxtəlif növləri üzrə ayrı-ayrı istehsal sahələri üçün importun əhəmiyyətini səciyyələndirən iqtisadi göstərici.

**İmport lisenziyası** – səlahiyyətli orqan tərəfindən (importa münasibətdə qüvvədə olan qaydalara uyğun olaraq) verilən sənəd. Bu sənədə uyğun olaraq şəxsə həmin sənəddə göstərilən şərtlərlə müəyyən dövr ərzində məhdudlaşdırılmış (qeyri-məhdudlaşdırılmış) sayda aparılması hüququ verilir.

**İmport lizinqi** – avadanlıqların xarici firmalardan lizinq şirkəti tərəfindən satın alınması və həmin avadanlıqların öz ölkəsinin icarəçilərinə verilməsi.

**İmport rüsumları** – ölkəyə import edilən mallardan və nəqliyyat vasitələrindən tutulan gömrük rüsumları. İ.r. dövlət gəlirlərinin mədaxili, xarici malların daxili bazara müdaxiləsinin qarşısını almaq və i.a. üçün tətbiq edilir. İ.r.-nın məzənnəsi, bir qayda olaraq, malların emal dərəcəsindən asılıdır. Hazır məlumatlar üçün məzənnə xammala nisbətən yüksəkdir.

**İmport tənzimləməsi** – milli iqtisadiyyatın mənafeləri naminə ölkəyə gətirilən malların və xidmətlərin nizamlanmasına yönələn tarif və qeyri-tarif xarakterli tədbirlər sistemi.

**İmpresario** *(ita. impresario)* – bəzi ölkələrdə xüsusi sahibkar, tamaşa müəssisələrinin təşkilatçısı, yaxud hansısa artistin agenti. Agent artistin adından hərəkət edir, onun üçün teatr tamaşaları ilə əlaqədar kontraktlar bağlayır.

**İmpulsiv hərəkətlər** – qəflətən yaranan güclü ruhi həyəcan nəticəsində törədilən hərəkətlər. İ.h.-in əsas formaları piromaniyadan, kleptomaniyadan, dromomaniyadan və ya poriomaniyadan ibarətdir. İ.h.-in xarakterini aydınlaşdırmaq üçün məhkəmə-psixiatriya ekspertizasının təyin edilməsi zəruridir. Anlaqsızlıq o halda müəyyənləşdirilməlidir ki, impulsiv hərəkətlər ruhi xəstəlik nəticəsində yaranmış olsun.

**İmtahan** – şagird və tələbələrin bilik, bacarıq və biliklərə yiyələnmək vərdişlərini yoxlamaq üsulu. İlk dəfə eramızdan əvvəl II yüzillikdə Çində, sonralar isə dünyanın bir sıra başqa ölkələrində tətbiq edilmişdir.

**İmtahan bileti** – şifahi imtahanlarda şagird və tələbələrin cavab verəcəkləri yazılı (və ya şifahi) suallar. Ümumtəhsil məktəblərinin buraxılmış imtahanları üçün imtahan biletləri Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən tərtib edilir.

**İmtahan-yoxlama sessiyası** – ali məktəblərin (texnikumların) tədris planında müəyyən fənn üzrə nəzərdə tutulan imtahan dövrü. Bir qayda olaraq, tədris ilində iki – qış (yanvar) və yaz (iyun) imtahan-yoxlama sessiyası olur.

**İmtiyaz** – müstəsna hüquq, üstünlük, güzəşt. İ. xüsusi kateqoriyadan olan şəxslərə (yaradıcı adamlara – yazıçıya, rəssama, jurnalistə, gənc mütəxəssislərə, pedaqoqlara və i.a.) müxtəlif sosial sahələrdə, məsələn,

yaşayış sahəsi almaqda, kommunal xidmətləri ödəməklə və i.a. verilən güzəştdir. İ. xüsusi vəsiqə verilməklə təsdiq edilir.

**"İmtiyazlı tarif"** – çar Rusiyası hökumətinin 1821-ci il oktyabrın 8-dən Zaqafqaziyada tətbiq etdiyi ticarət siyasəti. "İ.t."-ə əsasən xarici ölkələrdən (əslində yalnız Qərbi Avropadan) Zaqafqaziyaya gətirilən mallara cəmi 5 faiz gömrük rüsumu qoyulmuşdu. Çarizm bununla Zaqafqaziya ticarətini canlandırmaq məqsədini güdərək, dövlət xəzinəsi üçün əlavə gəlir mənbəyi yaratmaq istəyirdi. Lakin "i.t." əks nəticə verdi. Zaqafqaziya tacirlərinin Leypsiq yarmarkası vasitəsilə Qərbi Avropa ilə ticarəti təqribən 4 dəfə artdı, onların Nijni Novqorod yarmarkasında əməliyyatları isə müvafiq surətdə azaldı. Rusiyanın ticarət və sənaye burjuaziyası "i.t."-in ləğvini tələb etdi. 1931-ci il iyunun 3-də "i.t." ləğv olundu. Qərbi Avropadan Zaqafqaziyaya gətirilən mallara daha yüksək gömrük rüsumu qoyuldu.

**İnauqurasiya** *(lat. inaugurio – həsr edirəm)* – **1)** Qədim Romada kiminsə vəzifəyə təntənəli surətdə gətirilməsi mərasimi; **2)** dövlət başçısının öz vəzifəsinə başlamasının təntənəli proseduru, monarxın tacqoyma mərasimi.

**İndeks** *(lat. index – göstərici, siyahı)* – adlar, sərlövhələr və i.a. göstəricisi, siyahısı; hərflərdən, rəqəmlərdən, yaxud hər ikisinin qarışığından alınan şərti işarələr sistemi.

**İndeks qeyd-şərti** – borclunun əsas öhdəliyinin indeks müqaviləsindəki dəyişikliklərə uyğun olaraq dəyişdiyini nəzərdə tutan müqavilə şərti. İ.q.-ş. əmək sazişlərində ("həyatın dəyəri" indeksini özündə ehtiva etməsilə əlaqədar) daha geniş tətbiq edilir.

**İndeksləşdirmə** – inflyasiyadan müdafiə vasitəsi kimi kontraktlar və öhdəliklər üzrə ödənişlərin qiymətlərin indeksi ilə qarşılıqlı münasibəti. Adətən, büdcə təşkilatları işçilərinin əməyinin ödənilməsi, dövlət pensiyaları təqaüdlər, sosial müavinətlər, vətəndaşların banklardakı əmanətləri və i.a. indeksləşdirilir.

**İndeksli cinayətlər** – Amerika kriminologiyasında daha ağır və ya yayılmış cinayətlərin qrupunu bildirən cinayət statistikasının göstəricisi. Belə cinayətlər qruplaşdırılaraq ABŞ-ın bütün ərazisi üzrə FTB tərəfindən qeydiyyatdan keçirilir. Bu əməllərə səkkiz cinayət, o cümlədən adamöldürmə, quldurluq, soyğunçuluq, 50 dollardan artıq məbləğdə oğurluq, avtomobil oğurluğu, berqleri) ağır cinayət törətmək, məsələn, yanğın törətmək məqsədilə mənzilə soxulma) aiddir.

**İndemnitet** *(alm. indemnitat)* – **1)** bəzi ölkələrdə parlamentdə çıxış etmək və səsvermə azadlığı. İ.-in gücü ilə deputatın parlamentdəki fəaliyyətinə görə onun məsuliyyətə cəlb olunmasına yol verilmir; **2)** zərərin, kompensasiyanın ödənilməsi (adətən, beynəlxalq hüquqda).

**İndent** *(ing. indent)* – **1)** qopardılan dublikatlı sənəd; **2)** bir ölkənin importçusu tərəfindən digər ölkənin komisyonçusuna müəyyən miqdar malların satın alınması üzrə etdiyi sifariş.

**İndent-agent** – xaricdə komisyon əsaslarla əcnəbi tədarükçüdən daxil olan malların satışı üzrə əməliyyatları aparan agent.

**İndependentlər** *(ing. independents, hərfi mənası müstəqillər)* –XVII yüzillikdə İngiltərə burjua inqilabı dövründə dini-siyasi şüarlarla çıxış edən aparıcı partiyalardan biri. İ.-in dini-siyasi şüarlarından biri hər bir icma üçün tam müstəqilliyin və özünüidarənin təmin edilməsi tələbindən ibarət idi. Onlar ingilis kilsəsinin krala tabeliyinin ləğv olunmasını və özgəninkiləşdirilə bilməyən azadlığın bərqərar olmasını tələb edirdilər. İ.-in siyasi tələbləri özünəməxsus mötədilliyi ilə seçilirdi. Onlar respublikaya üstünlük versələr də, konstitusiyalı monarxiyanın bərqərar olmasına da hazır olduqlarını bildirirdilər. İ.-in ideologiyasının parlaq ifadəçisi Con Milton (1608-1674) olmuşdur.

**İndigenat** *(fr. indigenat)* – **1)** müvafiq dövlətin vətəndaşlığı (təbəəliyi); **2)** fransız müstəmləkələri əhalisinin xüsusi hüquqi statusu; **3)** beynəlxalq müqavilələrlə nəzərdə tutulan hüquqlardan istifadə edilməsi.

**İndikativ tənzimləmə** - iqtisadi vasitələrin köməyi ilə dövlətin istehsala təsiri.

**İndossament** *(alm. indossament – arxa)* – ötürücü yazı – veksel, çek, konosament və bir sıra digər qiymətli kağızların arxa tərəfində həmin sənədlər üzrə hüquqların bir şəxsdən (indossantdan) digərinə verilməsi üçün qeyd edilən yazı.

**İndossant** *(alm. indossant)* – vekselin, çekin və digər qiymətli kağızların arxa tərəfində həmin sənədin verilməsi imzasını icra edən şəxs.

**İndossantın məsuliyyəti** - mülki qanunvericiliyə görə, əgər razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, indossant aksept və ödəniş üçün məsuliyyət daşıyır. İndossant öz indossamentində sonrakı indossamenti qadağan edirsə, veksel xeyrinə indossament edilmiş şəxslərin qarşısında məsuliyyət daşımır (AR MM-in 1018-ci maddəsi).

**İndossat** *(alm. indossat)* – indossantın verilmə imzası ilə xeyrinə vekselin, çekin və digər qiymətli kağızın köçürüldüyü şəxs.

**İndossent** – "indossant" termininin yazılışının başqa variantı; bu variant bəzi müəlliflər tərəfindən daha diqqətəlayiq hesab olunur.

**İndulgensiya** *(lat. indulgentia – mərhəmət, şəfqət)* – katolik kilsəsində "günahların" tam və ya qismən bağışlanması; həmçinin kilsənin "günahların bağışlanması haqqında" verdiyi şəhadətnamə. XII-XIII yüzilliklərdə katolik kilsəsinin i.-nı varlanmaq məqsədi ilə geniş miqyasda satması humanist mütəfəkkirlərin (humanistlərin) ciddi etirazına səbəb olmuşdur. İ. satışını ləğv etmək reformasiyanın əsas tələblərindən biri olmuşdur.

**İndult** *(beynəlxalq hüquqda)* – silahlı münaqişənin yaranmasını bilməyən və müsadirədən qaçmaq üçün tədbir görmək imkanına malik olmayan qeyri-dost ticarət gəmisinin müsadirədən azad edilməsinin priz hüququ normaları ilə nəzərdə tutulan imkanı. İ.-u yaradan bəzi normalar açıq hərbi əməliyyatlar zamanı qeyri-dost ticarət gəmilərinin vəziyyəti haqqında 1907-ci il VI Haaqa konvensiyasında təsbit edilmişdir.

**İndus hüququ** - induizm dininə etiqad edən icmaların hüquq sistemi. Dinlə üzvi əlaqədə olması İ.h.-nun başlıca səciyyəvi cəhətidir. İ.h.-nun mənbələri adətlər və indusların müqəddəs yazıları ilə yanaşı qanunlardan ibarətdir. Müasir şəraitdə qüvvədə olan İ.h.-nun normalarına nikah və boşanma da daxil olmaqla şəxsi statusun reqlamenti, yetkinlik yaşına çatmayanlar və himayəçiliklə əlaqədar olan məsələlər, övladlığa götürmə, ailə mülkiyyəti, vərəsilik, birgə mülkiyyət, dini institutlar məsələsi daxildir.

**İnfamis** *(lat. infamis – gülünc sözdən istifadə edən)* – Roma hüququnda cəza, şərəfsiz məşğuliyyət, məsələn, xəbərçilik nəticəsində həmvətənləri arasında hörmətini itirmiş şəxs. Buna görə həmin şəxsin hüquqları (passiv seçki hüququndan məhrum etmə) məhdudlaşdırılırdı. Artıq XII Cədvəl Qanunlarında i.-ə dair qərar nəzərdə tutulurdu.

**İnfant** *(lat. infans – gənc, uşaq)* – İspaniya və Portuqaliyada kral ailəsi şahzadələrinin titulu; qadınlar infanta adlandırılırdı.

**İnfanteriya** *(ita. infanteria – gənc, piyada)* – Qərbi Avropanın bir sıra ölkələrində qoşun növü kimi piyada hissələrə verilən ad. XVIII yüzilliyin başlanğıcından XX yüzilliyin əvvəllərinədək Rusiyada rəsmi sənədlərdə "piyada" termini ilə yanaşı işlədilmişdir. 1796-cı ildə rus ordusunda infanteriya generalı hərbi rütbəsi də təsis edilmişdi.

**İnfantilizm** *(kriminologiyada)* – yaşlı fərddə uşaq davranışının xüsusiyyətlərinin – özünütənqidin zəifliyinin, özünə qayğının yüksək tələbkarlığının və eqosentrizmin qalması.

**İnflyasiya** *(lat. inflatio – hədsiz artırılma)* – əmtəələrə olan real təkliflə müqayisədə tədavüldə olan kağız pulların kütləsinin həddən artıq artırılması. Pulun qiymətdən düşməsinə və ictimai məhsulun, milli gəlirin təsərrüfat sahələri arasında və əhali qrupları arasında yenidən bölüşdürülməsinə səbəb olur.

**İnflyasiya qeyd-şərti** – **1)** göstəricilərin həyati dəyərdən bəzi səviyyədə yüksək olduğu halda əməkhaqqının avtomatik surətdə artmasını nəzərdə tutan əməkhaqqı barəsində sazişdəki qeyd-şərt; **2)** kontraktda, məsələn, tikinti obyekti üçün inflyasiya zamanı dəyərinin artırılmasına icazə verən qeyd-şərt.

**İnformasiya** – təqdimat formasından asılı olmayaraq şəxslər, əşya, fakt, hadisə və proseslər haqqında məlumatlar. İ. mülki hüquqların obyektlərindən biridir.

**İnformasiya ehtiyatları** – informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və i.a.) olan sənədlər və sənəd kütləsi, habelə ayrıca mövcud olan sənədlər və onların kütləsi.

**İnformasiya ehtiyatlarından istifadə qaydalarını pozma** – inzibati xətalar haqqında qanunvericiliyə görə informasiya ehtiyatlarından istifadə qaydalarının pozulması cərimə növündə inzibati məsuliyyətə və cəzaya səbəb olur (İXM-in 181-ci maddəsi).

**İnformasiya hüquq sistemi** – EHM-də müəyyənləşdirilən və xüsusi proqram kompleksinin köməyi ilə müxtəlif növ axtarış funksiyasını yerinə yetirən hüquqi informasiya məlumatlarının avtomatlaşdırılmış bankı. İ.h.s. etiva olunan informasiya qeyri-rəsmi səciyyə daşıyır; ondan ancaq məlumat üçün istifadə etmək olar.

**İnformasiya hüququ** – informasiyanın (informasiya ehtiyatlarının) yaradılması, istifadəsi, yığılması və müdafiəsi sahəsində ictimai münasibətləri tənzimləyən hüquq normalarının formalaşan sahələrarası kompleksi. İ.h.-nun qanunvericiliyin ümumi kütləsindən ayrılması müasir cəmiyyətin informasiyalaşdırılması və informasiya münasibətlərinin vacibliyinin, əhəmiyyətinin artması ilə şərtləşir. "İ.h." termini kompyuter hüququna nisbətən geniş anlayışdır. Çünki informasiya hüququ sahəsində yalnız elektron şəkilində deyil, istənilən halda informasiya yerləşir.







**"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunu** – informasiyanın yaranması, yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması əsasında informasiya ehtiyatlarının formalaşdırılması, informasiya sistemləri, texnologiyaları, onların təminat vasitələrinin yaradılması və onlardan istifadə olunması, informasiyanın mühafizəsi ilə əlaqədar olaraq yaranan münasibətləri tənzimləyən və informasiya proseslərində iştirak edən subyektlərin hüquqlarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 3 aprel 1998-ci il tarixdə qəbul edilmişdir. O, altı fəsil və 21 maddədən ibarətdir.

**İnformasiya istifadəçisi** – özü üçün zəruri informasiyanın alınması məqsədi ilə bilavasitə informasiya sisteminə və ya vasitəçiyə müraciət edən və ondan ancaq istifadə hüququna malik olan subyekt.

**İnformasiyalaşdırma** – informasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün idarə, müəssisə və təşkilatların, vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsinin optimal şəraitinin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi-texniki proses.

**İnformasiya modeli** – tədqiq edilən hadisəni nəzərə çarpacaq dərəcədə bəsitləşdirən obyekt haqqında məcmu prinsipinin müəyyənliyinə görə mütəşəkkil informasiya. Bu modeldən müasir kriminologiyada geniş istifadə olunur.

**İnformasiya mühafizə qaydalarını pozma** – inzibati xətalar haqqında qanunvericiliyə görə informasiyanın mühafizəsi sahəsində fəaliyyətin lisenziya ilə nəzərdə tutulmuş şərtlərinin pozulması cərimə növündə inzibati məsuliyyətə və cəzaya səbəb olur (AR İXM-in 182-ci maddəsi).

**İnformasiya prosesləri** – informasiyanın yaradılması, yığılması, işlənməsi, saxlanması, axtarışı və yayılmasından ibarət olan proseslər.

**İnformasiya sistemi** – informasiya texnologiyaları və sənədlərinin təşkilatı və texniki qaydada, o cümlədən hesablama texnikasından istifadə etməklə tənzimlənmiş məcmusu.

**İnformasiya texnologiyaları** – informasiya prosesləri zamanı, o cümlədən hesablama və rabitə texnikasının tətbiqi ilə istifadə edilən üsul və vasitələr sistemi.

**İnform-cinayətkarlıq** *(kriminologiyada)* – **1)** mətbuat vasitələrinin müvafiq təsiri altında əhali arasında cinayətkarlığın və onun ayrı-ayrı növlərinin haqqında yayılan yalan təsəvvürlər; **2)** kütləvi informasiya vasitələri tərəfindən yalan təbliğ olunan, təfriqəsalıcı cinayətkarlıq; **3)** kütləvi informasiya vasitələrində cinayətkarlıq haqqında təhrif edilmiş təsəvvürlər.

Çezare Lombrozo artıq özünün 1878-ci ildə yazdığı birinci əsərində *empirik* tədqiqatlar mövqeyindən kriminogen amilləri izah etməyə səy göstərərək diqqəti bu problemə yönəltmişdi. Müəllif "Cinayətkar insan..." kitabının XIV fəslində qeyd edirdi ki, cinayətkarlıq sivilizasiyaya təsir

göstərir, Lombarzo münaqişəli xronikalar yayan dövrü mətbuatın rolunu aydınlaşdırmağa səy edirdi. Bir amil kimi kütləvi informasiya vasitələrinin rolu, o cümlədən cinayətkarlıq üzərində sosial nəzarətin zəifləməsi haqqında məsələ bir çox kriminoloji konsepsiyalarda – E. Ferrinin, E. Saterlendin, U. Reklessin, A. Bilinin və başqalarının əsərlərində də nəzərdən keçirilmişdir. E. Saterlendin fikrincə, kütləvi informasiya vasitələri cinayətkarlığa yanaşı təsir edirdilər; onlar cinayətkar davranış modellərinə meylin yaranmasına kömək edirdilər.

**İnfraksiya** – müqavilənin (kontraktın) şərtlərinin pozulması.

**İngilis-amerikan hüquq sistemi** – İngiltərədə, habelə (çox və ya az xalis halda) ABŞ-da, Avstraliyada, İrlandiyada, Kanadada və digər keçmiş ingilis müstəmləkələrində qüvvədə olan hüquq sistemi. İ.-a.h.s. üçün statutlu hüququn (statute low) olmaması səciyyəvidir. Bu hüququn mənbəyi parlament aktları və ümumi hüquqdur (common low), hüququn ümumi və xüsusi hüquqa bölgüsü yoxdur, normalar əsasən kazuistik (mücərrəd deyil) səciyyə daşıyırlar, məhkəmə presedenti və hüququn mənbələri içərisində hüquqi doktrinalar böyük əhəmiyyət kəsb edirlər. Hüquq ədəbiyyatında bəzən i.-a.h.s. ingilis-sakson hüquq sistemi də adlandırılır, lakin bu, düzgün deyil. Çünki ingilis-sakson hüquq sistemi bu sözün dəqiq mənasında İngiltərədə yalnız normandların XI yüzillikdəki işğalınadək mövcud olmuşdur. Müqayisəli hüquqşünaslıqda i-a.h.s. "ümumi hüquq sistemi"nin sinonimidir.

**İngilis-sakson pravdaları** *(anglo-saxon lows)* – VII-IX yüzilliklərdə anqlsakslarda adət hüququ yazıları. Latın dilində yazılmış digər barbar pravdalarından fərqli olaraq i.-s.p. qədim ingilis dilində qələmə alınmış və onlarda Roma hüququnun təsiri hiss olunmur. İ.-s.p. cəmiyyətin əyanlara (erllərə, gezitlərə) və sıravi azad icmaçılara (kerllərə) münasibətdə başlayan differensiasiyasını əks etdirirlər. "Alfredin Uesseks Qanunları" (IX yüzilliyin sonu) qanunnamənin müəyyən hissələrinin cəhətlərini özündə qoruyub saxlayaraq artıq kral və kilsə qərarlarının toplusundan ibarətdir. Həmin qərarlar Alfredin hakimiyyəti altında olan ərazilərdə qanun qüvvəsinə malik idi.

**İnhisar** *(ər. məhdudlaşdırma) – (bax: inhisar hüququ).*

**İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 199-cu maddəsində nəzərdə tutulmuşdur. İnhisarcasına yüksək və ya inhisarcasına aşağı qiymət təyin etməklə, habelə bazarı bölüşdürməklə, bazara daxil olma imkanını məhdudlaşdırmaqla, oradan iqtisadi fəaliyyətin digər subyektlərini kənarlaşdırmaqla, vahid qiymət təyin etməklə və ya saxlamaqla inhisarçılıq hərəkətlərini etmədə ifadə olunur.

**İnhisar fəaliyyəti** – təsərrüfat subyektlərinin, yaxud icra hakimiyyəti orqanlarının və ya yerli özünüidarə orqanlarının antiinhisar qanunvericiliyə zidd olan hərəkətləri (hərəkətsizlikləri). İ.f. başlıca olaraq rəqabətə yol verilməməsinə, onun məhdudlaşdırılmasına və ya aradan qaldırılmasına yönəldilir.

**İnhisar hüququ** – müəyyən sahədə dövlətin (məsələn, xarici ticarət inhisarı), təşkilatların, firmaların və i.a. müstəsna hüququ.





**İnhisar qiyməti** – əmtəənin bazar qiymətinin spesifik forması; dəyərdən, yaxud istehsal qiymətindən uzaqlaşır və inhisarların üstün mənfəət götürmələrini təmin edir. İ.q. istehsal xərcləri və yüksək inhisar mənfəətindən ibarətdir. İ.q.-nin iki növü fərqləndirilir: 1) yüksək inhisar qiyməti; 2) aşağı inhisar qiyməti. İnhisarlar öz məhsullarını yüksək qiymətə satır, xammal və məhsulları isə aşağı inhisar qiymətinə alırlar.

**İnhisar mənfəəti** – gəlir forması, inhisarçı ticarət və sənaye kapitalı fəaliyyətinin məqsədi və nəticəsi.

**İnhisar rentası** – torpaq rentasının xüsusi forması. Əmtəələrin inhisar qiyməti üzrə satışından yaranır. İ.r. torpaq sahəsi mülkiyyətçisinin əlavə gəliridir. İ.r.-nın mənbəyi izafi dəyərdir.

**İnjinirinq** *(ing. ingineering)* – mühəndis-məşvərət xidmətləri, istehsal prosesinin hazırlığı və təmin edilməsi və məhsulların realizə olunması, sənaye, infrastruktur və fermer təsərrüfatı obyektlərinin tikintisinə və istismarına xidmət üzrə fəaliyyət sahəsi. İ. xidmətlərinin bütün məcmusu iki qrupa bölünür: 1) istehsal prosesinin hazırlığı ilə əlaqədar olan xidmətlər; 2) istehsal prosesinin normal gedişinin və məhsulların realizəsinin təmin olunması ilə bağlı olan xidmətlər.

**İnkassator** – banka təhvil vermək üçün idarə, müəssisə və təşkilatlardan pulların qəbulunu həyata keçirən şəxs.

**İnkasso** *(ita. incasso)* – bank əməliyyatı. İ. zamanı müştəriyə çatmalı olan pul məbləğini onun tapşırığı ilə pul, əmtəə, yaxud hesablaşma sənədləri əsasında bank alır. Bir sıra ölkələrdə i. əməliyyatı kommersiya xidməti xarakteri daşıyır. Banklar bu xidməti yerinə yetirməklə haqq alırlar. Banklar səhm, istiqraz vərəqəsi, habelə xarici valyutaları da qəbul edirlər.

**İnkasso sənədi** – ödənişlərin alınması və onların əmanətçinin hesabına keçirilməsi üçün inkassoyo verilən sənəd.

**İnkassosiyalaşdırılmalı olan ödəmə tələbləri** – trassat-aksept və ya ödəniş üçün trassantın adından hərəkət edən bank tərəfindən verilən köçürmə vekseli və ya anoloji sənəd.

**İnkassosiyalaşdırma** – bankda veksel, çek üzrə nağd pul alma; inkasso maliyyə əməliyyatı aparma.

**İnkasso şöbəsi** – əmanətçilərin hesablarına müvafiq məbləğləri keçirmək sərəncamı ilə onlardan alınan çeklərlə, veksellərlə, kuponlarla və sair ödəmə sənədləri ilə əməliyyat aparan bank şöbəsi.

**İnkasso tapşırığı** – təşkilatlara vəsaitlərin mübahisəsiz silinməsi hüququnun verildiyi hallarda onların tərtib etdikləri hesablaşma sənədi. İ.t. ilə birlikdə banka vəsaitlərin silinməsinə dair sənədlərin əsli və ya dublikatı da verilir.

**İnkasso tapşırığının icrası** – mülki qanunvericiliyə görə hər hansı sənəd olmadıqda və ya sənədlər zahiri əlamətlərinə görə inkasso tapşırığına uyğun gəlmədikdə icraçı bank inkasso tapşırığını aldığı şəxsə bu barədə dərhal məlumat verməlidir. Göstərilən qüsurlar aradan qaldırılmadıqda bank sənədləri icra etmədən qaytara bilər. Sənədlər alındıqları formada ödəyiciyə təqdim edilir, amma inkasso əməliyyatının rəsmiləşdirilməsi üçün zəruri olan bank qeydləri və yazıları istisna edilir. Əgər sənədlər təqdim olunduqda ödənilməlidirsə, icraçı bank inkasso tapşırığını

aldıqdan dərhal sonra sənədləri ödənişə təqdim etməlidir. Əgər sənədlər başqa müddətdə ödənilməlidirsə, icraçı bank ödəyicinin akseptini almaq üçün sənədləri inkasso tapşırığını aldıqdan dərhal sonra aksептə təqdim etməlidir, ödəniş isə sənəddə göstərilmiş ödəniş müddətinin çatdığı gündən gec olmayaraq tələb olunmalıdır.

Alınmış (inkasso edilmiş) məbləğlər icraçı bank tərəfindən dərhal emitent bankın sərəncamına verilməli, həmin bank isə bu məbləğləri müştərinin hesabına salmalıdır. İcraçı bank inkasso edilmiş məbləğlərdən ona çatan muzdu və xərclərin əvəzini tuta bilər (AR MM-in 985-ci maddəsi).

**İnkasso vekseli** – veksel üzrə hesablaşmalar qaydasını nəzərdə tutan veksel – inkasso əməliyyatı.

**İnkişaf bankı** – sənayeni, kənd təsərrüfatını, tikintini və başqa sahələri uzunmüddətli kreditləşdirmə ilə məşğul olan xüsusi dövlət və yarımdövlət (adətən, xüsusi) investisiya institutu. Kommersiya bankından fərqli olaraq i.b. əmanətçilərdən və müəssisələrdən depozitlər almır, hesablaşma və ödəmə əməliyyatlarını həyata keçirmir, qısamüddətli sudalar vermirlər.

**İnkorporasiya** *(lat. incorporatio)* – **1)** öz tərkibinə daxiletmə, birləşdirmə; **2)** bir qrup şəxsə qanuna uyğun olaraq korporasiya statusunun verilməsi; **3)** topluda birləşdirmə və ya hüquqi aktları xronoloji, əlifba sırası ardıcıllığı ilə və başqa qaydada (məsələn, hüququn ayrı-ayrı sahələri üzrə) toplama yolu ilə qüvvədə olan hüququn sistemləşdirilməsi üsulu. Məcəlləşdirmədən fərqli olaraq i. hüquqi aktların məzmununun yeniləşdirilməsi məqsədi daşımır. O, ilkin hüquqi aktların məzmununa sonrakı rəsmi dəyişiklik və əlavələri daxil etmək, ləğv edilmiş normaları çıxarmaq imkanı verir. Rəsmi i. və qeyri-rəsmi i. fərqləndirilir. Beynəlxalq müqavilələrin mətnində i. və qeyri-rəsmi i. fərqləndirilir. Beynəlxalq müqavilələrin mətnində "inkorporasiya" termini bəzən bir dövlətin digərinin tərkibinə saziş üzrə daxil edildiyini göstərmək üçün tətbiq edilir.

**İnkoterms** – xarici ticarət kontraktlarında tez-tez təsadüf olunan kommersiya terminlərinin və ifadələrinin təfsirinin beynəlxalq qaydası. Termin və ifadələrin təfsirləri Beynəlxalq Ticarət Palatası tərəfindən buraxılır. İlk nəşr "İnkoterms 1936" olmuşdur. Sonra bu nəşrə 1953-cü, 1967-ci, 1976-cı, 1980-ci və 1990-cı illərdə qaydaların toplusunu yaratmaqdan ötrü əlavə və dəyişikliklər edilmişdir. Əgər xarici ticarət kontraktlarının bağlanması zamanı tərəflər i.-də qeyd-şərt olunmuş şərtlərə istinad edirlərsə, bu, müxtəlif ölkələrin ticarət qaydalarının ayrı-ayrı təfsirlərindən irəli gələn problemləri aradan qaldırır.

**İnkriminallaşdırma** *(lat. in+crimen – təqsir, cinayət)* – konkret şəxsə cinayəti törətməsi ilə əlaqədar ittihamın elan olunması.

**İnkvilin** *(lat. incola – sakin)* – Qədim Roma hüququ mənbələrində mənzilin kirayəçisi kimi xatırladılır.

İ. II yüzilliyin ikinci yarısından, ola bilsin bir qədər də əvvəl öz tarlasına (əkin sahəsinə) malik olmayan şəxs, kədli-icarəçi mənasını verən termin kimi də göstərilir.

**İnkvizisiya** *(lat. inquisitio – təhqiqat)* – **1)** azadlıq hərəkatı ilə, yereslər (bidətçilər) və azadfikirlilərlə mübarizə aparılması, papa hakimiyyətinin rəqiblərinin təqib edilməsi üçün katolik kilsəsi tərəfindən erkən orta əsrlərdə yaradılmış kilsə məhkəmə-istintaq orqanı; **2)** dəhşətli cəza və işgəncələr vermə orqanı. İ. XIX yüzilliyin başlanğıcınadək mövcud olmuşdur.

**İnkvizisiya prosesi** – məhkəmə prosesinin (çəkişmə ilə yanaşı) tarixi formalarından biri; xidmət borcu üzrə icraat olması ilə səciyyələndirilir. İkvizisiya prosesi gizli və yazılı aparılırdı. Prosessual nümayəndəlik yolverilməz idi. Həm hakim, həm də müstəntiq kimi fəaliyyət göstərən hakim hökmləri təkbaşına çıxarırdı.

**İnkvizitor** – **1)** inkvizisiya orqanının üzvü; **2)** amansız və sərt (cəllad) adam, qəddarcasına işgəncələr verən şəxs.

**İnqilabi tribunallar** – **1)** sovet hakimiyyətinin ilk illərində yaradılmış məhkəmə orqanları. Bu məhkəmələr əksinqilabçıların, təxribatçıların və digər təhlükəli cinayətkarların cinayət məsuliyyətinə cəlb edilməsi üçün yaradılmışdılar. İ.t. 1922-ci ildə vətəndaş müharibəsi qurtardıqdan sonra ləğv edilmişdir. Azərbaycanda sovet hakimiyyətinin qurulmasının (28 aprel 1920-ci il) ertəsi günü Ali İnqilabi Tribunal təsis edilmişdi; **2)** Böyük Fransa burjua inqilabı dövründə əksinqilabla mübarizə aparmaq üçün yaradılan fövqəladə məhkəmə orqanları. İ.t. mühakimə icraatının ən bəsit formasına malik olmaları ilə fərqlənirdilər. Belə ki, ibtidai istintaq aparılmır, müqəssir birbaşa məhkəmə iclasında dindirilir, müdafiəyə və hökmdən şikayətə yol verilmirdi. Yeganə cəza növü ölüm cəzası idi. 1795-ci ildə ləğv edilmişdir.

**İnqumasiya** – ölüləri yandırmadan dəfnetmə mərasimi, adəti. İ. mustye dövründən məlumdur. Zaqafqaziyada, eləcə də Azərbaycanda eneolit dövründən geniş yayılmış kremasiya (ölüyandırma) ilə yanaşı, i. da mövcud olmuşdur.

**İnnovasiya bankı** – kommersiya bankının bir növü; başlıca vəzifəsi istehsalın texniki səviyyəsinin yüksəldilməsinə yönəldilən ixtiraların və yeniliklərin maliyyələşdirilməsindən və kreditləşdirilməsindən, habelə yeni, yüksək səmərəli məhsul növlərinin buraxılışından ibarətdir.

**İnnovasiya fəaliyyəti** – intellektual məhsulun istehsalı və ondan istifadə, bazarda hazır əmtəənin realizəsinə qədər yeni orijinal ideyaların verilməsi (ekspertizaların təşkili, ixtiraların tətbiqi və tirajlaşdırılması, nou-hau, elmi texniki tədqiqatlar, elmi əsərlər, kəşflər, sənaye nümunələri, əmtəə nişanları və i.a.) üzrə fəaliyyət.

**İnpol ( INPOL)** – polisin fəaliyyətinin səmərəliliyini yüksəltmək məqsədi ilə 1972-ci ildə yaradılmış xüsusi informasiya-məlumat sistemi. Onun mərkəzi xidmətin cinayət polisinin federal idarəsində yerləşdirilmişdir. Həmin xidmət torpaqlarda (əyalətlərdə), gömrüklərdə və sərhəd mühafizəsində idarənin cinayət polisinin analoji bölmələri ilə bilavasitə əlaqəsini təmin edir. Əyalət idarəsinin informasiya xidməti i. vasitəsi ilə polisin ərazi idarələri arasında informasiya mübadiləsini həyata keçirir.

Kriminologiya yeni mühüm sahələrindən biri olan bu sistemin əsas vəzifələrindən biri polis xidməti tərəfindən operativ məlumatların toplanmasından, onların araşdırılmasından və mərkəzi idarəyə verilməsindən ibarətdir. Cinayət işlərinin təhqiqatı, axtarış əməliyyatlarının aparılması, cinayəti törətməkdə şübhə edilən şəxslərin tutulması və i.a. Həmin sistemin vəzifələrinin

tərkib hissəsidir. Hazırda sistemin fəaliyyətinin vahid qaydası qüvvədir.

**İnsan hüquqları** – geniş mənada insan hüquqları dedikdə cəmiyyət üzvü olan fərdin hüquqları, şəxsiyyətin hüquqları başa düşülür. Bəşəriyyətin tarixi gedişi inkişafında demokratik və humanist təlimlər, ictimai-siyasi hərəkat və cərəyanlar, siyasi-hüquqi doktrinalar və konsepsiyalar şəxsiyyətin yüksəldilməsinə, insan azadlıqları və hüquqlarının müdafiəsinə yönəldilmişdir.

**İnsan hüquqları haqqında müahidələr** – beynəlxalq sənədlər seriyası. Müahidələr 1966-cı il dekabrın 16-da BMT-nin Baş Məclisi tərəfindən bəyənilmişdir. Həmin sənədlər İqtisadi, Sosial və Mədəni hüquqlar haqqında Beynəlxalq Müahidədən ibarətdir. Bunlar insan hüquqlarının müdafiəsi sahəsində mühüm beynəlxalq-hüquqi aktlardır. BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsindən fərqli olaraq İnsan Hüquqları haqqında Müahidələr onları təsdiq (ratifikasiya) edən dövlətlərin üzərinə bu hüquqlara riayət etmək barəsində öhdəlik qoymuşdur.

**İnsan Hüquqları haqqında Ümumi Bəyannamə** – BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsi. Bəyannamə 1948-ci il dekabrın 10-da BMT-nin Baş Məclisi tərəfindən qəbul edilmişdir. Bəyannamə preambul və 30 maddədən ibarətdir. Keçmiş SSRİ bəyannamə qəbul edilərkən səsvermədə bitərəf qalmışdır.

**İnsan Hüquqları üzrə Komissiya** – BMT-nin İqtisadi və Sosial Şurasının funksional komissiyası. İHK İqtisadi və Sosial Şuraya kömək məqsədi ilə 1946-cı il fevralın 16-da yaradılmışdır. Kommissiya 50 dən artıq dövlətin nümayəndəsindən ibarətdir. Nümayəndələr İqtisadi və Sosial Şura tərəfindən 3 il müddətinə seçilir. Nümayəndələrin təmsil olunduğu dövlətlərin 11 Amerika, 9 Asiya, 8 Latın Amerikasında, 10-dan artığı Qərbi Avropada, 5 isə Şərqi Avropadandır. Komissiyanın funksiyası insan hüquqları sahəsində tədqiqatlar aparmaqdan, İqtisadi və Sosial Şuraya tövsiyələr verməkdən, beynəlxalq bəyannamələrin, sazişlərin və i.a. sənədlərin layihələrini hazırlamaqdan ibarətdir.

**İnsan Hüquqları üzrə Komitə** – BMT-nin Baş Məclisinin köməkçi orqanı. İHK vətəndaş hüquqları və siyasi hüquqlar haqqında 1966-cı il Beynəlxalq müahidəsinə uyğun olaraq 1966-cı il dekabrın 16-da yaradılmışdır. Komitə 18 ekspertdən ibarətdir. Ekspertlər müahidənin iştirakçıları olan dövlətlər tərəfindən 4 il müddətinə seçilir. Komitə tərəfindən xüsusi fəaliyyət qaydaları işlənib hazırlanmışdır. Komitənin vəzifəli şəxsləri (sədr, onun müavini, məruzəçilər) 2 il müddətinə seçilir. Komitənin iclasları adətən BMT-nin mərkəzi idarələrində aparılır. Komitədə rəsmi dil ingilis, ispan, çin, rus və fransız dilləridir.

**İnsan immunçatışmazlığı virusu ilə yoluxdurma** – cinayət qanunvericiliyinə görə həyat və sağlamlıq əleyhinə olan cinayətlərdən biri. AR CM-in 140-cı maddəsində nəzərdə tutulur. Bilə-bilə başqa şəxsi insan immunçatışmazlığı virusu ilə yoluxma təhlükəsi qarşısında qoymada, eləcə də bu xəstəliyə yoluxmuş şəxsin bu xəstəliyi başqa şəxsə yoluxdurmasında ifadə olunur.

**"İnsan immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin yayılmasının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunu** – bütün dünyada pandemiya xarakteri alan insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin ağır sosial-iqtisadi nəticələrini nəzərə almaqla Azərbaycan Respublikası ərazisində yayılmasına yol verməmək üçün hüquqi təminatlar yaradan qanunvericilik aktı.

Bu qanun 16 aprel 1996-cı il tarixdə qəbul olunmuş, ona 4 əlavə və dəyişiklik edilmişdir. Qanun beş fəsil və 19 maddədən ibarətdir.

**İnsanların xilas edilməsi** – Azərbaycan Respublikasının ticarət gəmiçiliyi qanunvericiliyinə görə xilas edilmiş insanlardan heç bir mükafat alınmır. Xilasetmənin zəruriliyinə səbəb olmuş hadisə ilə bağlı xidmətlərin göstərilməsində iştirak etmiş insanları xilas edənlər, gəmini və ya başqa əmlakı xilas etdiklərinə və yaxud ətraf mühitə vurula biləcək zərərin qarşısını aldıqlarına və ya azaltdıqlarına görə xilas edənlərə verilən məbləğdən ədalətli pay almaq hüququna malikdirlər (AR TGM-in 273-cü maddəsi).

**İnsanları zorakılıqla yoxa çıxarma** – cinayət qanunvericiliyinə görə sülh və bəşəriyyət əleyhinə olan cinayətlərdən biri. AR CM-in 110-cu maddəsində nəzərdə tutulur. Dövlətin və ya siyasi təşkilatın göstərişi, dəstəyi və ya razılığı ilə uzun müddət ərzində qanuni müdafiədən kənarlaşdırmaq məqsədilə şəxsi tutma, həbs etmə və ya oğurlama və sonradan şəxsin azadlıqdan məhrum edilməsini danma və ya onun aqibəti və ya yeri barədə məlumat verməkdən imtina etmədə ifadə olunur.

**"İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının qanunu** – müasir elmi nailiyyətlərə və tibbi təcrübəyə əsaslanaraq insan orqan və (və ya) toxumalarının transplantasiyası (köçürülməsi) ilə bağlı münasibətləri tənzim edən qanunvericilik aktı.

Bu qanun 28 oktyabr 1999-cu il tarixdə qəbul edilmişdir. O, dörd fəsil və 19 maddədən ibarətdir.

**İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi** – Böyük Fransa burjua inqilabının aktı. Bəyannamə 1789-cu il avqustun 26-da Müəssisələr Məclisində qəbul edilmişdir. Həmin akt hüquq bərabərliyini insana xas olan təbii keyfiyyət hesab edərək vətəndaşların qanun qarşısında bərabərliyini, heç kəsin qanunda nəzərdə tutulduğu hallardan başqa cəzalandırılması prinsipini irəli sürürdü. Bəyannamə bütün vətəndaşlar üçün şəxsiyyət toxunulmazlığı, söz, mətbuat, vicdan azadlığı müəyyən edir, onların bilavasitə və ya nümayəndələri vasitəsi ilə qanunvericilik orqanında iştirak etmək hüququnu bəyan edirdi.

**İnsayder** *(ing. insider)* – özünün xidməti və ya ailə vəziyyəti sayəsində şirkətin işləri haqqında konfidensial informasiya əldə etməyə malik olan şəxs; korporasiyanın çoxsaylı səhmlərinə malik olan şəxs; korporasiyanın çoxsaylı səhmlərinə malik olan vəzifəli şəxsi, direktoru və ya əsas səhmdarlarından biri, yaxud onun yaxın qohumları. Bu qrupa korporasiya haqqında konfidensial informasiyalar əldə edən şəxslər də daxil edilir.

**İnsest** *(lat. incestus – natəmiz, cinayətkarcasına)* – ilk əvvəllər Roma dini hüququnda, hər şeydən əvvəl, ümumiyyətlə, mərasim natəmizliyi mənasında, sonralar dini natəmizliyə zidd olan intim cinayətlərə işarə mənasında işlədilmişdir. Zaman keçdikcə bu anlayış dünyəvi hüquqa gətiril-

miş və yaxın qohumlar arasında cinsi cinayətlərə şamil edilmişdir. İ.-ə görə cinayətkarı ölüm cəzası, əmlak müsadirəsi və i.a. gözləyirdi.

**İnsinuasiya** *(lat. insinuatio – yaltaqlıq, hiyləgərlik)* – kimi isə rüsvay etmək üçün böhtan xarakterli düşüncələr; bədxah uydurma, böhtan.

**İnspirasiya** *(lat. inspiratio – ruhlandırmaq, təlqin etmək)* – təlqin etmək; təhrik etmək.

**İnstansiya** *(bax: məhkəmə stansiyası).*

**İnstinkt** *(kriminologiyada)* – əsas qızışdırıcılara təsir zamanı aktivləşən fitri (anadangəlmə) davranış komplekslərinin məcmusu.

**İnstitusionalizm** – **1)** XX yüzillikdə burjua dövlətşünaslığı və hüquqşünaslığının cərəyanlarından biri. İ. cəmiyyət, dövlət və hüquq problemlərini "institusiya" əsasında həll etməyə səy göstərirdi. İnstitusiya dedikdə, insanların müəyyən məqsədlərə nail olmaq üçün hər cür sabit birlikləri (ailə, siyasi partiya, dövlət) başa düşülürdü.

**İnstitusiyalar** *(lat. institutio – öyüd, nəsihət)* – **1)** Qədim Roma hüquqşünaslarının ibtidai, elementar dərsliklərinin adı; əsasən qüvvədə olan xüsusi hüquqa dair bilik verirdilər. İ.-ın ən qədimləri Roma hüquqşünası Qay (II yüzillikdə) tərəfindən yazılmışdır. Roma mənbələrinə görə Qay 400-dək belə institusiyanın müəllifi olmuşdur; **2)** Yustinianın Külliyyatının tərkib hissələrindən biri kimi qanun qüvvəsinə malik olan rəsmi Roma hüququ dərslikləri. Romada Martsialın, Kallistratın, Pavel Ulpianın da i. mövcud olmuşdur. Lakin Yustinian Külliyyatına Qayın İnstitusiyası daxil edilmişdir; **3)** hər hansı orqanı və ya müəssisəni adlandırmaq üçün "institut" termini söz forması kimi istifadə olunur.

**İnstitusiya sistemi** – Fransada qəbul edilmiş (1804-cü ildə Napoleon Məcəlləsi) mülki məcəllənin düzülüş sistemi (bu sistem bir çox başqa ölkələrdə də qəbul edilmişdir). İ.s. zamanı məcəllə üç hissəyə (kitaba) bölünür. Məsələn, Fransanın mülki məcəlləsinin birinci kitabı şəxslərə, ikinci kitabı əmlak və müxtəlif dəyişən mülkiyyət məsələlərinə, üçüncü kitabı isə əmlak hüquqlarının əldə edilməsinin müxtəlif üsullarına həsr edilmişdir. Məcəllədə ümumi hissə yoxdur. Bu isə pandekt sisteminə ziddir. Belə ki, pandekt sisteminin ümumi hissəsi əşya, öhdəliklər, ailə və vərəsəlik hüququ məsələlərinə həsr edilir. Məsələn, Azərbaycan Respublikasının Mülki Məcəlləsi pandekt sistemi üzrə düzülüşə malikdir.

**İnstitut** *(bax: hüquq institutu).*

**İnsurreksiya** *(beynəlxalq hüquqda)* – bu və ya digər səbəblərə görə diplomatın öz funksiyasını yerinə yetirməkdən imtina etməsi. İ. diplomatik nümayəndənin öz fəaliyyətini dayandırmasının növlərindən biridir.

**İnteqrasiya** *(lat. inteqratio – bərpa etmə; tamamlama)* – iqtisadi və istehsalat sahəsində əməkdaşlığı qarşılıqlı surətdə genişləndirmə prosesi; milli təsərrüfatın iki və ya daha artıq dövlətdə birləşdirilməsi, təsərrüfat həyatının beynəlmiləlləşdirilməsi forması.

**İntellektual investisiyalar** – kurslarda mütəxəssislər hazırlanması və təcrübə mübadiləsi, lisenziyalar və nou-hau, birgə elmi tədqiqatların aparılması və i.a. üçün əsaslı vəsaitlər qoyuluşu.

**İntellektual mülkiyyət** – beynəlxalq sazişlərdə, habelə bəzi dövlətlərin qanunvericiliyində istifadə edilən şərti ümumi termin.





Buraya ədəbiyyat, incəsənət əsərlərinə və elmi əsərlərə, aktyorların ifaçılıq fəaliyyətinə, səsyazma, radio və televiziya verilişlərinə olan hüquqlar (müəlliflik hüquqları), elmi kəşflərə, ixtiralara olan hüquqlar və sənaye mülkiyyəti ilə bağlı digər hüquqlar, habelə vicdansız rəqabətdən müdafiə olunmaqla əlaqədar hüquqlar aiddir. İ.m. anlayışından ilk dəfə Ümumdünya İntellektual Mülkiyyəti Təşkilatını təsis etmiş 1967-ci il konvensiyasında istifadə edilmişdir.

**İntellicens servis** *(ing. Intellegence servise)* – Böyük Britaniyanın kəşfiyyat və əkskəşfiyyat xidmətləri şəbəkəsinin ümumi adı.

**İntendant** *(fr. indendant – müdir)* – silahlı qüvvələrdə qoşunun ərzaq, yem və nəqliyyat-təsərrüfat müxəlləfatı ilə təchizi, həmçinin şəxsi heyətin mənzil və məişət xidmətinin təşkilinə nəzarə edən vəzifəli şəxs. Bəzi ordularda müxtəlif dövrlərdə i.-lar qoşunların tibb və baytarlıq ləvazimatı, pul və i.a. təchizi ilə də məşğul olmuşlar.

**İntendant xidməti** – silahlı qüvvələrdə ərzaq, silah, nəqliyyat-təsərrüfat müxəlləfatı ilə təchizi, həmçinin şəxsi heyətin mənzil və məişət işləri ilə məşğul olan xidmət növü. İ.x.-nə, bir qayda olaraq, idarə orqanları və indendant müəssisələri (anbarlar, emalatxanalar, dəyirmanlar, çörəkxanalar və i.a.) daxil idi. İ.x. Fransada XVII yüzillikdə, Rusiyada isə 1700-cü ildə yaranmışdı. 1959-cu ildə SSRİ Silahlı Qüvvələrində ləğv edilmişdir. Avstriya, İspaniya və bir sıra başqa ölkələrdə indi də qalmaqdadır.

**İnteraksionist konsepsiyalar** *(kriminologiyada)* – kriminologiyada əsasən hüquqi əhəmiyyətli qarşılıqlı hərəkətlərin təhlilinə (Q. Bekker, D. Kitsus, K. Erikson, E. Lemert, Y. Qofman və başqalarının tədqiqatlarına) əsaslanan liberal-sosial-psixoloji konsepsiya. Bu zaman sosial rəmz dedikdə fərdin sosial (hüquq normaları ilə) normalarla qarşılıqlı münasibəti başa düşülür. Hazırda sosial rəmz kontekstində stiqma, yəni cinayətkardakı nişan və ya damğa, məsələn, məhkumluq başa düşülür *(bax: stiqmatlaşdırma).*

İnteraksionistlər cinayətkara bir növ rəğbətlə yanaşaraq onun cinayətkar davranışına ona cinayət sanksiyalarının tətbiqinin nəticəsi kimi baxırdılar.

**İnterdikt** *(lat. interdictum – qadağan etmə)* – **1)** Qədim Roma hüququnda mübahisə aparan tərəflərdən birinin hər hansı hərəkətini qadağan etmək üçün pretorun verdiyi əmr; **2)** orta əsrlərdə katolik kilsəsinin kilsə cəzalarının formalarından biri. İ. ibadəti tam və ya qismən qadağan edən göstəriş idi. XI-XII yüzilliklərdə geniş tətbiq edilmişdir. Hazırda əvvəlki əhəmiyyətini itirmiş, yalnız kanonik (kilsə hüququnda) hüquqda saxlanmışdır.

**İntergessoi** *(lat. intergessio – etiraz)* – Qədim Romada yüksək vəzifə tutan magistratın artıq həyata keçirilmiş rəsmi aktı etibarsız elan etmək hüququ. Məsələn, xalq tribunu konsulların qərarını ləğv edə bilərdi. Bu hüquq mahiyyətinə görə xalq tribunu səlahiyyətlərinə malik olan Roma imperatorlarının hakimiyyətinin əsasını təşkil edirdi.

**İnternat məktəb** – 1956-cı ildə keçmiş SSRİ-də uşaqların təhsil alıb yaşadıqları ümumtəhsil məktəbi (əsasən 8 illik). İ.m.-ə ilk növbədə yetimlər və çoxuşaqlı ailələrin (aztəminatlı) uşaqları qəbul olunurdu. Şi-

kəst və ağıldankəm uşaqlar əlahiddə i.m.-lərində tərbiyə olunur və təhsil alırdılar. İ.m.-lərində saxlanma xərcini valideynlər qismən ödəyirdilər; yetim və anormal uşaqlar isə dövlətin hesabına saxlanırdılar.

**İnternirləşdirmə** – **1)** azadlıqları məhdudlaşdırmanın xüsusi (müəyyən yaşayış yerinə göndərmə və i.a.) rejimi; döyüşən tərəflərdən birinin digər tərəfin ərazisində yaşayan mülki şəxslərinin neytral dövlətin ərazisində yerləşdirilməsi; **2)** kiminsə təcrid edilməsi, müvəqqəti həbs edilməsi.

**İnternunsi** *(beynəlxalq hüquqda)* – Vatikanın diplomatik nümayəndəsi. İ. diplomatik nümayəndənin ikinci dərəcəsinə, yəni diplomatik əlaqələr haqqında 1961-ci il Vena konvensiyasının 14-cü maddəsinin 6 (1) - ci bəndinə uyğun olaraq elçi dərəcəsinə müvafiqdir və nunsi dərəcəsi ilə fəaliyyət göstərir.

**İnterpelliyasiya** *(lat. interpellatio – nitqin kəsilməsi; məhkəmə qarşısında şikayət)* – parlament deputatının hökumətə və ya ayrıca nazirə sorğusunun xüsusi növü. İ.-ya görə sorğunun cavabı parlamentdəki müzakirəni ləğv edə bilər.

**İnterpol** *(fr. interpol – beynəlxalq cinayət; polis idarəsi – qısaldılmış şəkildə KRO)* - Qərbi Avropa ölkələri tərəfindən 1923-cü ildə Vyanada yaradılmış idarə. İ. beynəlxalq cinayət polisi (kriminal polis) komissiyası kimi yaradılmışdır. Qüvvədə olan nizamnaməsi 1956-cı ildə qəbul edilmişdir. İ.-un üzvü olan ölkələrdə onun milli mərkəzi buroları yaradılır.

**İnterpolzasiya** *(lat. interpoltatio)* – hüquqşünaslıqda, xüsusilə də Yustinian dövründə Roma Hüququnun məcəlləşdirilməsi zamanı, hər şeydən əvvəl, Roma yurisdiksiyasının (qanunvericiliyinin) klassik dövründəki mətnlərində (bu mətnlər mühakimə icraatının mövcud təcrübəyə uyğunlaşdırılması və məhkəmə işlərinə baxılması üçün yaradılmışdı) edilən dəyişikliklər deməkdir. İ. sahəsində tədqiqatlar XVIII yüzillikdə xüsusilə populyar olmuşdur. Həmin tədqiqatlar Yustinianın Qanunlar Külliyyatından klassik hüquqların üzvlərə ayrılmasına istiqamətləndirilmişdi.

**İnterpretasiya** *(lat. interpretatio – hamilik; şərh; izah)* – hüquqşünaslıqda hakim və ya vəkil tərəfindən məcəllənin hər hansı maddəsindəki "xüsusi" ifadələrin adı, həyati dildə "tərcüməsi", izahı (təfsiri), habelə tətbiqi üzrə tövsiyələri.

**İntersessiya** – mülki hüquqda müqavilənin tərəfinə borclunun (özgəsinin borcunu öz üzərinə götürən borclunun; zaminlik) birləşdirilməsi.

**İntihar zamanı əvəz ödəmədən azad edilmə** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə həyat sığortası zamanı sığortalanmış şəxsin intihar etdiyi halda onun vərəsələri və ya faydalanan şəxs sığortalanmış şəxsin müqaviləyə öz təşəbbüsü ilə xitam verildiyi vaxt ala biləcəyi miqdarda ödəniş ala bilərlər (AR MM-in 934-cü maddəsi).

**İntiqam** *(bax: qan intiqamı).*

**İntizam** – cəmiyyətin hüquq və əxlaq normalarına, yaxud hər hansı sosial qrupun, təbəqənin, kollektivin tələblərinə uyğun olaraq insanların müəyyən davranış, rəftar qaydası. İ. cəmiyyətin normal fəaliyyətinin vacib şərtidir. Cəmiyyətdə iki cür i. mövcuddur: 1) ümumi-icbari intizam; 2) xüsusi intizam. İ., bir qayda olaraq, ictimai münasibətlərə görə müəyyən edilir və onları qoruyub saxlayır.





**İntizam batalyonu** *(bax: intizam xarakterli hərbi hissələr).*

**İntizam həbsi** – intizam məsuliyyətinin bir növü. İ.h. xidməti intizamı (qulluq intizamını) və ya ictimai qaydanı pozmağa görə tətbiq edilir. İ.h.-nə alınan hərbi qulluqçular hauptvaxtda saxlanılır. İ.h. qadın hərbi qulluqçulara tətbiq edilmir.

**İntizam xarakterli hərbi hissədə saxlama** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə hərbi xidmətə çağırış üzrə müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara, habelə kontrakt (bağlaşma) əsasında sıravi və gizir vəzifələrində hərbi xidmətdə olan hərbi qulluqçulara, əgər onlar hökm çıxarılanadək qanunla müəyyən edilmiş xidmət müddətini başa vurmamışdırsa, üç aydan iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama növündə cəza təyin edilə bilər. Həmin cəza hərbi xidmət əleyhinə törədilmiş cinayətlərə görə AR CM-in xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda, habelə təqsirkarın şəxsiyyəti və cinayətin xarakteri iki ilədək müddətə azadlıqdan məhrum etmənin həmin müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə əvəz olunmasına imkan verdiyi hallarda tətbiq edilir.

Azadlıqdan məhrum etmə cəzası intizam xarakterli hərbi hissədə saxlama cəzası ilə əvəz edildikdə, azadlıqdan məhrum etmə cəzasının müddəti intizam xarakterli hərbi hissədə saxlama cəzasının müddətinə günə gün hesabı ilə hesablanır (AR CM-in 54-cü maddəsi).

**İntizam xarakterli hərbi hissələr** – yalnız müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular barəsində tətbiq edilən xüsusi növ cəzanı çəkmək üçün nəzərdə tutulmuş xüsusi hərbi hissələr. İ.x.h.h.-də saxlama müddətini (üç aydan iki ilədək) hərbi tribunal müəyyən edir. Hər hansı başqa hərbi xidmət əleyhinə olan hərbi cinayətə görə 3 ilədək müddətə azadlıqdan məhrum etmə cəzasını dəyişdirmə qaydasında (günə gün hesabı ilə) bu cəza təyin edilə bilər. Əvvəllər azadlıqdan məhrumetmə növündə cəza çəkmiş şəxslər barəsində azadlıqdan məhrum etmə əvəzinə i.x.h.h.-ə göndərmə tətbiq edilə bilməz.

**İntizam xətası** – idarə, müəssisə və təşkilat işçilərinin, eləcə də hərbi qulluqçuların və hərbi vəzifəli şəxslərin əmək, yaxud xidmət intizamını hüquqazidd surətdə təqsirli şəkildə qəsdən və ya ehtiyatsızlıqla pozması. İ.x. intizam məsuliyyətinə səbəb olur. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edən hərbi qulluqçuların intizam məsuliyyəti İntizam Nizamnaməsi ilə müəyyən edilir.

**İntizam məsuliyyəti** - intizamı pozmağa görə vətəndaşların məsuliyyəti. İ.m. intizam xətasına yol verən şəxslər barəsində tətbiq edilən ictimai təsir tədbirlərindən biridir. İntizamı pozmağa görə şəxsə irad tutula, xəbərdarlıq edilə, töhmət verilə bilər.

**İntizam nizamnaməsi** – Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi qulluqçuların və hərbi vəzifəli şəxslərin hərbi qulluq çəkməyə dair fəaliyyətini tənzim edən normativ (hərbi hüquqi) akt.

**İntizam təcridxanası** – intizam xarakterli hərbi hissələrdə saxlanma rejimini pozanların müvəqqəti (müəyyən müddətə) yerləşdirildiyi kamera. Daha yüngül şəraitinə görə i.t. cərimə təcridxanasından fərqlənir. İ.t. saxlama müddəti 10, cərimə təcridxanasında saxlama müddəti isə 15 sutkayadək olur.

**İntizam tənbehi** *(bax: intizam məsuliyyəti).*

**İntuisiya** *(kriminologiyada)* – insanın xüsusi məntiqi mühakiməyə əl atmadan həqiqəti qəflətən bilavasitə duymaq, müəyyən istiqamətdə təfəkkür fəaliyyətinin fəndlərini yüksək ümumiləşdirmək nəticəsində naməlum hadisələrin mahiyyətinə nüfuz etmək qabiliyyəti.

**İnvestisiya** *(alm. investition – qoymaq)* – gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarət uzunmüddətli sərmayə qoyuluşu.

Belə vəsait və sərvətlər aşağıdakılardır: 1) pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar; 2) daşınar və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər); 3) müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər; 4) bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq potentləşdirilməmiş, texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu ("nou-hau"); 5) torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqdan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn və başqa əmlak hüquqları; 6) başqa sərvətlər.

**İnvestisiya bankları** – kapital qoyuluşlarının maliyyələşdirilməsini və kreditləşdirilməsini həyata keçirən kredit təşkilatları. İ.b.-nın fəaliyyəti əsas fondların yenidən canlandırılmasının genişləndirilməsi, iqtisadiyyatın inkişafının kompleks proqramının realizə olunması ilə əlaqədardır.

**İnvestisiya fəaliyyəti** – investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərin məcmusu. İnvestisiya fəaliyyəti özünəməxsus aşağıdakı növlərə malikdir: 1) Azərbaycan Respublikasının vətəndaşları, qeyri-dövlət müəssisə, idarə, təşkilat və qurumları tərəfindən həyata keçirilən özəl investisiya fəaliyyəti; 2) dövlət hakimiyyət və idarəetmə orqanları, habelə dövlət müəssisə, idarə və təşkilatları tərəfindən büdcələrin, büdcədənkənar fondların özlərinə məxsus və borc vəsaitinin hesabına həyata keçirilən dövlət investisiya fəaliyyəti. 3) Azərbaycan Respublikasının və xarici dövlətlərin vətəndaşları, hüquqi şəxsləri dövlətlər tərəfindən həyata keçirilən birgə investisiya fəaliyyəti

İstehsalata və sosial sahəyə elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq etmək üçün investisiya fəaliyyətinin bir forması kimi innovasiya fəaliyyəti həyata keçirilə bilər.

**"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasının ərazisində investisiya fəaliyyətinin (sərmayədarlığının) ümumi sosial, iqtisadi və hüquqi şərtlərini müəyyənləşdirən qanunvericilik aktı.

Bu qanun 13 yanvar 1995-ci il tarixdə qəbul edilmişdir. Qanun dörd fəsil və 21 maddədən ibarətdir. Ona 7 əlavə və dəyişiklik edilib.

**İnvestisiya fondu** – Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq öz səhmlərinin emissiya hesabına kapital qoyuluşları üçün vəsaitlər cəlb edən, habelə investisiya qiymətli kağızlarına malik olan açıq səhmdar cəmiyyəti. Banklar, sığorta şirkətləri i.f. ola bilməzlər.

**İnvestisiya hüququ** – ölkə daxilində investisiya fəaliyyətini, o cümlədən xarici investisiyaların rejimini tənzimləyən hüquq normalarının məcmusu. İ.h. terminindən xarici ölkələrin investisiya təcrübəsində və elmi ədəbiyyatda geniş surətdə istifadə olunur. İ.h. hüquq normalarının sahələrarası kompleksindən ibarətdir. Bu kompleksə konstitusiya, inzibati, mülki, maliyyə və bəzi hüquq normaları da daxildir.

**İnvestisiya institutu** – müstəsna surətdə qiymətli kağızlarla əməliyyatlar üzrə fəaliyyəti həyata keçirən hüquq institutu. İ.i. öz fəaliyyətini qiymətli kağızlar bazarında vasitəçi, investisiya məsləhətçisi, investisiya şirkəti, investisiya fondu qismində də həyata keçirə bilər.

**İnvestisiya qiymətli kağızı** – qiymətli kağızların bir növü; belə kağız ancaq o halda investisiya qiymətli kağızı kimi tanınır ki, o, birja fondlarında hamılıqla tanınsın və ya investisiyalaşdırma vasitəsi kimi tədavüldə olsun.

**İnvestisiya layihəsi** – kapital qoyuluşlarının həyata keçirilməsinin məqsədəuyğunluğunun (iqtisadi cəhətdən səmərəliliyinin), həcminin və müddətlərinin əsaslandırılması layihəsi. İ.l. qanunvericiliyə uyğun surətdə hazırlanan zəruri layihə-smeta sənədi hesab olunur.

**İnvestisiya mübahisələri** – ölkədə investisiya fəaliyyəti ilə əlaqədar olaraq dövlətlə xarici iş adamları və xüsusi sahibkarlar (sərmayəçilər) arasında meydana çıxan mübahisələrin xüsusi kateqoriyası. İ.m. anlayışı elmə dövlətlə digər dövlətin hüquqi və fiziki şəxsləri arasında yaranan investisiya mübahisələrinin tənzimlənməsinə dair konvensiyanın imzalanmasından sonra gətirilmişdir.

**İnvestisiya payı** – investorun investisiya payını satın almaq üzrə tələbini və hüququnu təsdiq edən adlı qiymətli kağız. Hər bir i.p. onun sahibinə eyni hüquqları verir. Buraxılmalı olan i.p.-nın sayı şirkətin direktoru tərəfindən müəyyən edilir. Məhz direktorun özü i.p. emissiya layihəsinin qeydiyyatını və dərc olunmasını həyata keçirir.

**İnvestisiya sertifikatı** – xarici ölkələrin təcrübəsində qiymətli kağızların xüsusi fondunda (investisiya fondunda) pay haqqında şəhadətnamə. Şəhadətnamə müəyyən gəliri əldə etmək hüquq verir. İ.s. nə möhkəm (sabit) faizli qiymətli kağızlara, nə də səhmlərə hesablanmır. İ.s.-nın qiyməti səhmlərə tələbatlardan asılı olaraq dəyişir.

**İnvestisiya siyasəti** – vəsaitlərdən istifadənin daha böyük iqtisadi səmərəliliyə nail olmaq məqsədi ilə ölkə daxilində və xaricdə kapital qoyuluşlarının istiqamətini və səfərbərliyini müəyyənləşdirən daxili və xarici siyasətin ümumi yönümü nəzərə alınmaqla sosial-iqtisadi və təsərrüfat xarakterli qərarların məcmusu.

**İnvestisiya şirkəti** – öz qiymətli kağızlarının emissiyası yolu ilə xüsusi investorların pul vəsaitlərini akkumuliyasiya edən müxtəlif kredit-maliyyə institutlarının bir növü. Xoldinq şirkətlərindən fərqli olaraq i.ş. korporasiyaların fəaliyyətinə nəzarəti həyata keçirmir.

**İnvestisiya vergi krediti** – dövlət orqanları tərəfindən müvafiq müəssisələrə vaxtı uzadılmaqla verilən vergi ödənişləri.

**İnvestitura** *(lat. investire – qoymaq)* - **1)** qədim german hüququnda daşınmaz əmlak üzərində mülkiyyət hüququnun bir sıra rəmzi və formal aktlarda verilməsi üsulu; **2)** Qərbi Avropada orta əsr feodalları arasında qarşılıqlı münasibətlərdə torpaq sahibliyinin verilməsinin rəmzi mərasimi; 3) Qərbi Avropanın feodal kilsə hüququnda kilsədə vəzifəyə təyinetmə qaydası.

**İnvestor** *(ing. investor)* – investisiya (sərmayə) qoyan fiziki şəxs; investisiyanı həyata keçirən hüquqi şəxs və ya dövlət. Azərbaycan Respublikasında xarici investisiyanın, habelə investisiya qoyuluşu sahəsində xarici investorların (sərmayədarların) fəaliyyətinin hüquqi rejimi respublikanın hüquqi şəxslərinin və vətəndaşlarının əmlakı, onların əmlak hüquqları, eləcə də investisiya fəaliyyəti üçün yaradılmış rejimdən az əlverişli ola bilməz.

**İnzibatçı** – idarə, müəssisə və təşkilatın (məsələn, yol, mehmanxana inzibatçısı) rəhbəri. İ. şəxsləri işə götürmək, işdən çıxarmaq, idarə, müəssisə və təşkilata məxsus vəsaitlər üzərində sərəncam vermək, müəssisənin fəaliyyətinə uyğun olaraq qüvvədə olan qanunvericilik çərçivəsində iş rejimi müəyyən etmək, işçiləri mükafatlandırmaq, tənbeh etmək, təmsil etdiyi təşkilatın adından başqa yerdə çıxış etmək hüququna malikdir.

**İnzibatçılıq** – konkret rəhbərlik əvəzinə quru əmr və ya sərəncamlar verməklə idarə etmək. İ. totalitar rejimli dövlətlərdə həmin rejimin prinsiplərini rəhbər tutmaqla həyata keçirilən idarəetmə növüdür.

**İnzibati akt** – dövlət idarəetmə orqanının aktı; normativ aktdan fərqli olaraq ümumi qaydanı deyil, konkret hüquq münasibətini müəyyən edir, dəyişdirir və ya ona xitam verir. İ.a.-ın hüquqi qüvvəsi onun hansı orqan tərəfindən verilməsi ilə müəyyən edilir.

**İnzibati araşdırma** – Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinə görə maliyyə, vergi, gömrük işi, ətraf mühitin mühafizəsi, yol hərəkəti qaydalarının və ya yanğın təhlükəsizliyi sahəsində inzibati xəta aşkar edildikdən sonra kifayət qədər vaxt tələb edən ekspertizanın və ya digər prosessual hərəkətlərin aparılması zərurətindən irəli gələn araşdırma (AR İXM-in 413.1-ci maddəsi).

İnzibati xəta haqqında iş üzrə icraatın başlanması və i.a. aparılması haqqında qərardad AR İXM-ə uyğun olaraq inzibati xəta haqqında protokol tərtib etməyə səlahiyyəti olan vəzifəli şəxs tərəfindən qəbul edilir. İnzibati xəta haqqında iş üzrə icraatın başlanması və İ.a. aparılması haqqında prokuror qərar qəbul edir. Qərardadda aşağıdakılar göstərilir:

1) qərardadın tərtib edildiyi yer və tarix; 2) qərardadı tərtib edən şəxsin vəzifəsi, soyadı, adı və atasının adı; 3) inzibati xəta haqqında iş üzrə icraatı başlamaq üçün səbəblər və inzibati xəta hadisəsinin olduğunu müəyyən edən məlumatlar; 4) inzibati xətaya görə inzibati məsuliyyət nəzərdə tutan AR İn. XM-in müvafiq maddəsi.

İ.a. inzibati xəta törədilən, yaxud aşkar edilən yerdə aparılır. Araşdırmanın aparılması müddəti icraatın başlama vaxtından 1 aydan artıq olmamalıdır. Bu müddət müstəsna hallarda yuxarı vəzifəli şəxs tərəfindən 1 ayadək müddətə uzadıla bilər.

**İnzibati baxış** – inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərindən biri. İ.b. inzibati xətanın bilavasitə obyekti olmuş əşya və predmetlərin müəyyən edilməsi məqsədilə aparılır.





**"İnzibati" baş nazir** – konstitusiya hüququ elmində bir sıra prezidentli respublikalarda baş nazir vəzifəsini göstərmək üçün tətbiq edilən termin. "İ".b.n. dövlətin siyasətini müəyyən (bunu prezident edir) etmir. O, yalnız hökumətin əməli fəaliyyətini həyata keçirir və onun qeyri-rəsmi iclaslarını aparır. "İ".b.n. vəzifəsinin təsis edilməsi onun öz faktiki rəhbəri – prezident qarşısında deyil, formal olaraq parlament qarşısında məsuliyyətini müəyyən etməyə imkan verir.

**İnzibati cərimə** – AR İXM-də nəzərdə tutulmuş hallarda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təyin edilən və təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləği (AR İXM-in 25.1-ci maddəsi). İ.c. əsas inzibati tənbeh növlərindən biridir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, i.c. dövlətin büdcəsinə keçir.

**İnzibati çıxarma** *(Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma)* – əcnəbi vətəndaşlara və ya vətəndaşlığı olmayan şəxslərə tətbiq edilən inzibati tənbeh edilən növlərindən biri. İ.ç. göstərilən şəxslərin Azərbaycan Respublikasının dövlət sərhədlərindən məcburi qaydada və nəzarət altında çıxarılmasından ibarətdir.

**İnzibati ədliyyə** – dövləti idarəetmə fəaliyyəti sahəsində qanunçuluğa əməl edilməsinə nəzarət edən xüsusi orqanlar sistemi; daha məhdud mənada vətəndaş, yaxud təşkilat və dövləti idarəetmə orqanları arasında inzibati hüquq mübahisələrini həll etmək üçün xüsusi prosessual qayda. İ.ə. xüsusi sistem kimi XIX yüzilliyin birinci yarısında dövləti idarəetmənin zəruri elementi kimi meydana gəlmişdir.

**İnzibati ərazi quruluşu (bölgü)** – dövlət ərazisinin ayrı-ayrı hissələrə bölgüsü; vilayət, quberniya, departament və i.a. Bu hissələrə uyğun olaraq yerli orqanların sistemi qurulur və fəaliyyət göstərir. İkihəlqəli (ABŞ-da), üçhəlqəli (Böyük Britaniya və Fransada) və dördhəlqəli (AFR-də) inzibati ərazi quruluşu da ola bilər. Ən kiçik dövlətlərdə (məsələn, Maltada, Bəhreyndə) i.ə.q., ümumiyyətlə, mövcud deyildir.

**İnzibati ərazi vahidi** – inzibati ərazi quruluşunun struktur hissəsi (elementi). İ.ə.v. siyasi müstəqilliyə malik deyil və o, müəyyən birgə tabelikdə olur. Azərbaycan Respublikasında i.ə.v.-nin ən geniş yayılmış növünü rayon (şəhərdə rayon), şəhər təşkil edir.

**İnzibati həbs** – yalnız müstəsna hallarda inzibati hüquqpozmaların ayrı-ayrı növlərinə görə 15 sutkayadək müddətə tətbiq edilir. İ.h. məhkəmə (hakim) tərəfindən təyin edilən inzibati təhbeh tədbirlərindən biridir. Hamilə qadınlar, öhdəsində 12 yaşadək uşaqları olan qadınlar, 18 yaşına çatmayan şəxslər, I və II qrup əlillər barəsində i.h. tətbiq edilə bilməz.

**İnzibati himayə (nəzarət)** – bir sıra xarici dövlətlərin konstitusiya hüququnda mərkəzi hökumətin yerli özünüidarə orqanlarının fəaliyyətinə nəzarətinin formalarından biri. Bu nəzarət hökumət tərəfindən təyin edilmiş şəxs (prefekt, qubernator və i.a.) tərəfindən həyata keçirilir. İ.h.-ni həyata keçirən şəxs yerli özünüidarə orqanının qeyri-qanuni aktlarını ləğv etmək, onun orqanlarının hər hansı hərəkətlərinə

qadağan qoymaq, yaxud onlara məcburi göstərişlər vermək hüququna malikdir.

**İnzibati hüquq** – dövlət idarəetmə orqanlarının təşkili və icra-sərəncam fəaliyyəti prosesində yaranan ictimai münasibətləri tənzim edən hüquq sahəsi. Azərbaycan Respublikası inzibati hüququnun səciyyəvi cəhəti onun eyni zamanda maddi və prosessual münasibətləri tənzimləməsindən ibarətdir. İ.h. normaları dövləti idarəetmə orqanlarının təşkili və fəaliyyət qaydasını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, vəzifəli şəxslərin hüquq və səlahiyyətlərini, vəzifələrini və məsuliyyətini idarəetmə orqanları ilə vətəndaşlar arasındakı qarşılıqlı münasibətləri müəyyən edir.

**İnzibati hüquqpozma** – dövlət qaydasına və ya ictimai qaydaya, dövlət mülkiyyətinə, xüsusi mülkiyyətə, vətəndaşların hüquq və azadlıqlarına, müəyyən edilmiş idarəetmə qaydalarına qəsd edən, hüquqa zidd olan, təqsirli sayılan (qəsdlə və ya ehtiyatsızlıqla törədilən) və inzibati məsuliyyətə səbəb olan hərəkət və ya hərəkətsizlik.

**İnzibati xəbərdarlıq** – hüquqazidd əməlin yolverilməzliyi barədə şəxslərə edilən rəsmi xəbərdaredici tədbir. Xəbərdarlıq əsas inzibati tənbeh növlərindən biridir. Xəbərdarlıq yazılı formada edilir (AR İXM-in 24-cü maddəsi).

**İnzibati xəta** *(bax: inzibati hüquqpozma)*.

**İnzibati Xətalar Məcəlləsi** – Azərbaycan Respublikasının sistemləşdirilmiş qanunvericilik aktı; hansı ictimai təhlükəli əməllərin inzibati xətalardan (inzibati hüquqpozmalardan) ibarət olduğunu və onlara görə inzibati cəza tədbirlərini, habelə inzibati-hüquqi xarakterli sair tədbirləri müəyyən edir. AR İXM ümumi və xüsusi hissələrdən, 6 bölmə, 35 fəsil və 458 maddədən ibarətdir. AR İXM 11 iyul 2000-ci il tarixdə təsdiq edilmiş və həmin il sentyabrın 1-dən qüvvəyə minmişdir.

**İnzibati icraat** – idarəetmə işlərinin eynicinsli qrupuna baxılmasını və onların həll edilməsini tənzimləyən inzibati-prosessual normaların məcmusu. İnzibati hüquq elmində vətəndaşların təklifləri, ərizələri və şikayətləri, *mükafatlandırma* haqqında işlər, inzibati xətalar barəsində işlər və inzibati hüquqpozmalar haqqında işlər üzrə icraat fərqləndirilir.

**İnzibati komissiya** – bir sıra ölkələrin inzibati ərazi vahidlərində icra hakimiyyəti strukturuna daxil olan kollegial orqan. İ.k.-nın funksiyası adətən inzibati işlərə baxıb onları həll etməkdən və müvafiq inzibati tədbirləri tətbiq etməkdən və həyata keçirməkdən ibarətdir.

**İnzibati qaydada gətirilmə** – inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərindən biri. AR İXM-in 420.3-cü və 423.3-cü maddələrində nəzərdə tutulmuş hallarda, eləcə də barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs, onun qanuni nümayəndəsi, hüquqi şəxsin nümayəndəsi və ya şahidlər gətirilə bilərlər. 16 yaşına çatmayan şəxslər, hamilə qadınlar barəsində i.q.g. tətbiq edilə bilməz.

**İnzibati qaydada götürmə** – inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərindən biri.

AR İXM-in 404.1-ci maddəsinə uyğun olaraq inzibati xətanın baş verdiyi yerdə və ya fiziki şəxsin axtarışı zamanı, yaxud onun əşyalarına və ya nəqliyyat vasitəsinə baxış zamanı aşkar edilmiş və iş üçün sübuti əhəmiyyəti olan şeylərin və sənədlərin, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olan predmetin götürülməsi inzibati xəta haqqında iş üzrə icraatı aparan vəzifəli şəxs tərəfindən iki hal şahidinin iştirakı ilə həyata keçirilir.

**İnzibati qaydada saxlama** – gömrük qanunvericiliyinə görə digər təsir tədbirləri tükəndikdə, gömrük qaydalarının pozulmasının qarşısını almaq, işə vaxtında və düzgün baxılmanı, habelə iş üzrə qərarın icra edilməsini təmin etmək məqsədilə, hüquqpozmanın həmin şəxs tərəfindən törədilməsini göstərən məlumat olduqda, fiziki şəxs və ya vəzifəli şəxs üç saata qədər müddətə inzibati qaydada saxlanıla bilər. Fiziki şəxsin və ya vəzifəli şəxsin malları və digər əşyaları öz bədənində gizlətməklə Azərbaycan Respublikası gömrük sərhədindən keçirməsi haqqında kifayət qədər məlumat olduqda, şəxs Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən şəxsi yoxlama aparılmasına müqavimət göstərərsə, yaxud gömrük qaydalarının pozulmasına görə ifşa ediləcəyi üçün gömrük qaydalarını pozduğu yerdən qaçıb gizlənməyə cəhd edərsə, həmçinin gömrük qaydalarının pozulmasına görə məsuliyyətə cəlb edilən şəxs öz şəxsiyyətinin müəyyən edilməsinə mane olarsa, şəxs saxlama anından 24 saat ərzində müvafiq prokurora yazılı məlumat verilməklə 3 sutkayadək saxlanıla bilər. İ.q.s. həmin gömrük orqanının rəisi və ya onun müavininin qərarı ilə həyata keçirilir.

Fiziki şəxsin və ya vəzifəli şəxsin i.q.s. müddəti Azərbaycan Respublikası gömrük orqanının xidməti binasına və ya zəruri hərəkətlərin keçirilməsi mümkün olan digər binalara gətirildiyi vaxtdan, sərxoş vəziyyətdə olan şəxslərin isə ayıldığı vaxtdan hesablanır. İ.q.s. haqqında protokol tərtib edilir və xüsusi qayda tətbiq edilibsə, bu barədə protokolda qeyd edilir. İ.q.s. haqqında qərardan saxlanılan şəxs, onun vəkili və ya nümayəndəsi tərəfindən Azərbaycan Respublikasının yuxarı gömrük orqanına, rayon (şəhər) məhkəməsinə və prokurora şikayət verilə bilər. Şikayətin verilməsi İ.q.s.-ya xitam verilməsi üçün kifayət qədər əsas sayıla bilməz.

**İnzibati qaydada tutma** - inzibati xətalar haqqında qanunvericiliyə görə inzibati qaydada tutma, yəni fiziki şəxsin azadlığının qısa müddətə məhdudlaşdırılması, müstəsna hallarda inzibati xəta haqqında işə düzgün və vaxtında baxılmasının və ya inzibati xəta haqqında iş üzrə qərarın icrasının təmin edilməsi üçün zəruri hesab edildikdə tətbiq edilə bilər. İ.q.t. aşağıdakı səlahiyyətli orqanlar (vəzifəli şəxslər) tərəfindən həyata keçirilir: 1) Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri xırda xuliqanlıq edildikdə, şəxs polis işçisinin, habelə hərbi qulluqçunun qanuni sərəncamlarına və ya tələbinə qəsdən tabe olmadıqda, şəxs insan ləyaqətini alçaldan və ictimai mənəviyyatı təhqir edən sərxoş vəziyyətdə ictimai yerlərə gəldikdə, ov, balıq ovu və balıq ehtiyatlarının mühafizə qaydalarını pozduqda; 2) Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri – sərhəd rejimi, sərhədboyu (sərhədboyu zolaq) rejim və ya Azərbaycan Respublikasının dövlət sərhə-

dinin buraxılış məntəqələrində rejim pozulduqda; 3) mühafizə olunan obyektin olduğu yerdə hərbiləşdirilmiş mühafizə dəstəsinin yuxarı vəzifəli şəxsi – mühafizə edilən obyektlərə, digər dövlət əmlakına və ya ictimai əmlaka qəsd edilməsi ilə əlaqədar inzibati xətalar törədildikdə; 4) Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri – Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nəqliyyat vasitələrini idarə edən sürücülər və ya başqa şəxslər tərəfindən yol qaydaları pozulduqda; 5) fövqəladə vəziyyət elan olunmuş yerin komendantlığının və xüsusi idarəetmə orqanlarının vəzifəli şəxsləri - fövqəladə vəziyyət rejimi pozulduqda.

İnzibati xəta törətmiş şəxsin i.q. tutulması AR İXM-in 399.2-ci və 399.3-cü maddələri istisna olmaqla, 3 saatdan çox ola bilməz. AR İXM-in 399.2-ci maddəsində göstərildiyi hallarda i.q.t. 24 saatadək müddətə və ya inzibati xəta törədənin şəxsiyyətini təsdiq edən sənədlər olmadıqda, hakimin qərarı ilə 3 günədək müddətə tutula bilər.

**İnzibati məhkəmə islahatı** – Zaqafqaziyada komendant idarəetmə üsulunu ləğv və inzibati sistemini təsis edən islahat. 1840-cı il aprelin 10-da çar Rusiyası hökumətinin "Zaqafqaziya ölkəsinin idarə olunmasına dair idarə" haqqında qanununa əsasən həyata keçirilmişdir. İslahata əsasən Zaqafqaziya ölkəsini general-qubernator hüququna malik olan baş rəis idarə edirdi. O, eyni zamanda da Zaqafqaziya qoşunlarının ali baş komandanı idi. İmperator tərəfindən təyin edilən baş rəis gömrük, tədris, poçt idarələrinə də rəhbərlik edirdi. İslahata görə Zaqafqaziyanın məhkəmə işləri quberniya, vilayət və dairə məhkəmələrinin ixtiyarına verilmişdi. İstisna hal kimi kəbin-talaq işləri şəriət məhkəmələrinin səlahiyyətinə aid edilmişdi.

**İnzibati məhkəmələr** – bir sıra xarici ölkələrdə (AFR-də, Fransada, Finlandiyada, İsveçdə) adi məhkəmələrlə yanaşı, məhkəmələrin xüsusi növü. İ.m. adətən inzibati ədalət mühakiməsini həyata keçirirlər. İ.m.-in sistemi, təşkilinin və fəaliyyətinin prinsipləri, bir qayda olaraq, ümumi məhkəmələrdə olduğu kimidir. Azərbaycan Respublikasında belə məhkəmələr yoxdur.

**İnzibati məsuliyyət** – vətəndaşın, yaxud vəzifəli şəxsin nisbətən az ictimai təhlükəli olan hüquqazidd hərəkətinə (hərəkətsizliyinə) görə dövlət qarşısında məsuliyyəti. İ.m. üçün 16 yaş aşağı yaş həddi müəyyən edilmişdir. Son zərurət vəziyyəti meydana çıxdıqda, zəruri müdafiə həddi aşıldıqda və anlaqsız vəziyyətdə törədilən az ictimai təhlükəli hüquq pozuntusu inzibati məsuliyyətə səbəb olmur.

**İnzibati proses** – idarəetmə sahəsində konkret inzibati işlərin həll edilməsi üzrə dövlət orqanlarının fəaliyyəti. İ.p.-in normaları ilə vətəndaşların ərizə və şikayətlərinə baxılır, inzibati tənbeh tədbirləri tətbiq edilir.

**İnzibati-prosessual hüquq** – dövləti idarəetmə sahəsində fərdi inzibati işlərə baxılması və onların həll edilməsi zamanı meydana çıxan və formalaşan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu. İ.-p.h. normaları idarəetmə sahəsində vətəndaşların təklif, ərizə və şikayətlərinin qəbulu, onlara baxılması və onların həll edilməsi, inzibati hüquq münasibətlərinin tərəfləri arasında mübahisələrin həlli qaydalarını, vətəndaşların və inzibati prosesin digər iştirakçılarının hüquqlarının prosessual təminatlarını, inzibati xətalara dair işlərin istintaqı (araşdırılması), onlara baxılması və qəbul olunmuş qərarların icrası qaydalarını və i.a. müəyyən edir.

**İnzibati sürgün** – çar Rusiyasında bəzi kateqoriya cinayətkarların məhkəməsiz, çarın, 1850-ci illərdən bəzi nüfuzlu qubernatorların, 1860-cı illərdən isə daxili işlər orqanlarının sərəncamı ilə sürgünə göndərilməsi. Keçmiş sovet qanunvericiliyində i.s. nəzərdə tutulmasa da, lakin qanunçuluğun kobud surətdə pozulması ilə XX yüzilliyin ortalarında (xüsusilə də 50-ci illərdək) tətbiq edilmişdir.

**İnzibati tənbeh** – inzibati cəza tədbiri. İ.t. inzibati hüquq pozuntusuna yol vermiş şəxsə tətbiq edilir. Xəbərdarlıq, xüsusi hüquqlardan (nəqliyyat vasitəsini idarə etməkdən - sürücülük vəsiqəsindən, ov etməkdən və i.a.) məhrum etmə, islah işləri, inzibati həbs i.t.-in növləridir.

**İnzibati yurisdiksiya** - dövləti idarəetmə orqanlarının və vəzifəli şəxslərin fərdi inzibati işlərinin həll edilməsi və müvafiq hüquqi sanksiyaların inzibati qaydada (məhkəməyə müraciət etmədən) tətbiq edilməsi üzrə fəaliyyəti. İ.y. qanunvericilik aktları ilə müəyyən edilir. O, hüquq normaları yaratmır. İ.y. idarəetmə orqanlarının qərarları əsasında və onların icrası üçün həyata keçirilən hüquq-mühafizə fəaliyyətinin tərkib hissəsi kimi çıxış edir.

**İpoteka** – *(yun. hurotheke – girov)* – **1)** daşınmaz əmlakın (torpağın, tikilinin) ssuda almaq üçün girov qoyulması; **2)** ipoteka ssudası (ipoteka krediti) – daşınmaz əmlakın girov qoyulması ilə bank tərəfindən verilən borc şəhadətnaməsi.

**İpoteka bankı** – daşınmaz əmlakın girovu (torpağın, tikilinin) ilə uzunmüddətli pul ssudası verən, habelə girov qoyulmuş daşınmaz əmlaka təmin edilən girov vərəqələri buraxan kredit təşkilatı.

**İpoteka borcu** – mülki qanunvericiliyə görə torpaq sahəsi elə yüklü edilə bilər ki, xeyrinə yüklülük müəyyənləşdirilən şəxsə torpaq sahəsi üzrə müəyyən pul məbləği (ipoteka borcu) ödənilməli olar. Yüklülük elə şəkildə də müəyyənləşdirilə bilər ki, pul məbləği üzrə faizlər ödənilməli olar, habelə daşınmaz əmlak üzrə digər əlavə öhdəliklər icra edilməli olar. İpoteka borcuna müvafiq surətdə ipoteka haqqında göstərişlər tətbiq edilir, bu şərtlə ki, onlardan ipoteka borcunun arxasında tələblərin ehtimal olunduğu irəli gəlməsin. Tərəflərin razılaşması ilə ipoteka ipoteka borcuna, o isə ipotekaya keçirilə bilər (AR MM-in 321-ci maddəsi).

AR MM-in 322-ci maddəsinə uyğun olaraq ipoteka borcu elə verilə bilər ki, müntəzəm təkrarlanan müddətlərdə daşınmaz əmlak üzrə müəyyən pul məbləği (renta borcu) ödənilməli olar.

**"İpoteka haqqında" Azərbaycan Respublikasının qanunu** – mülki-hüquqi müqavilələrdən irəli gələn öhdəliklərin icrasının təmin edilməsi ilə bağlı ipotekanın yaranması əsaslarını, onun dövlət qeydiyyatı, təmin olunmuş borcun və digər mülki-hüquqi öhdəliyin ipoteka hesabına ödənilməsi qaydalarını, tərəflərin hüquq və vəzifələrini müəyyən edir, habelə bu sahədə digər münasibətləri tənzimləyir. Qanun 15 aprel 2005-ci ildə qəbul edilmiş 9 iyun 2005-ci ildə qüvvəyə minmişdir. Qanun 7 fəsildən və 59 maddədən ibarətdir.

**İpoteka hüququ** – fiziki şəxslər tərəfindən ssuda almaq üçün daşınmaz əmlakı girov qoymaq və bankdan pul ssudası ilə əlaqədarolaraq vətəndaşlarla bank müəssisəsi arasında yaranan münasibətləri tənzim edən hüquq normalarının məcmusu. İ.h. həmçinin borclu əsas öhdəliyi icra etmədikdə ipoteka saxlayanın ipoteka predmetinə tutmanın yönəldilməsi hüququdur.

**İpoteka istiqrazı** – hüquqi şəxslərin ipoteka ilə, yəni daşınmaz girovla təmin edilən istiqrazı.

**İpoteka kağızı** – ipoteka hüququnu təsbit edən adlı qiymətli kağızdır.

**İpoteka krediti** – bank tərəfindən daşınmaz əmlakın girovu ilə verilən uzunmüddətli kredit.

**İpoteka müqaviləsi** – mülki hüquqda müqavilələrin bir növü, əsas öhdəliyin icrasının təmin edilməsi üçün ipoteka saxlayan və ipoteka qoyan arasında bağlanılan əqddir. AR MM-in 307-ci maddəsinə uyğun olaraq ipoteka müqaviləsində tərəflərin adı və yaşayış yeri (olduqları yer), ipotekanın predmeti, ipoteka ilə təmin edilən öhdəliyin mahiyyəti, ölçüsü və icra müddəti göstərilməlidir.

İpotekanın predmeti müqavilədə onun adı, olduğu yer göstərilməklə və eyniləşdirilməsi üçün yetərli olan təsviri verilməklə müəyyənləşdirilir. İpoteka müqaviləsində ipotekanın predmeti olan əşyanın hansı hüquqa əsasən ipoteka verənə mənsub olduğu və ipoteka verənin bu hüququnu qeydə almış dövlət orqanı göstərilməlidir. İpoteka müqaviləsində ipoteka ilə təmin edilmiş öhdəlik, onun məbləği, əmələ gəlməsi əsasları və icra müddəti göstərilməlidir. Bu öhdəliyin hansısa müqaviləyə əsaslandığı hallarda həmin müqavilənin tərəfləri, bağlandığı yer və tarix göstərilməlidir. Əgər ipoteka ilə təmin edilmiş öhdəliyin məbləği gələcəkdə müəyyənləşdirilməlidirsə, ipoteka müqaviləsində onun müəyyənləşdirilməsinin qaydası və digər zəruri şərtləri göstərilməlidir.

Əgər ipoteka ilə təmin edilən öhdəlik hissə-hissə icra olunmalıdırsa, ipoteka müqaviləsində müvafiq ödənişlərin müddətləri və ya dövriliyi, onların məbləğləri və ya bu məbləğləri müəyyənləşdirməyə imkan verən şərtlər göstərilməlidir. İpoteka müqaviləsi ipoteka verən və ipoteka saxlayan tərəfindən, habelə ipoteka verən borclu deyildirsə, borclu tərəfindən imzalanmış bir sənədin tərtibi yolu ilə yazılı formada bağlanmalıdır. İpoteka müqaviləsi notariat qaydasında təsdiq edilməlidir.

**İpotekanın dövlət qeydiyyatı** – mülki qanunvericiliyə görə daşınmaz əmlakın ipotekası haqqında müqavilə daşınmaz əmlakın dövlət reyestrində daşınmaz əmlakın ipotekası haqqında müqavilə isə dövlət qeydiyyatına alınmalı olan daşınar əmlakın rəsmi reyestrində qeydə alınmalıdır. Qeydiyyat ipotika ilə yüklü edilməli əşyanın mülkiyyətçisi həmin əşyanı və kreditorun notariat qaydasında təsdiqlənmiş sənədlərini təqdim etdikdə müəyyənləşdirilmiş qaydada aparılır. Həmin sənədlərdə əşyanın mülkiyyətçisi, kreditor, ehtimal edilən borclu – üçüncü şəxs, habelə təmin edilmiş tələbin həcmi, fayda və icra müddəti göstərilməlidir (AR MM-in 309-cu maddəsi).

Daşınmaz əşyanın reyestrini aparan orqan ən geci 5 iş günü müddətində daşınar əşyanın ipotekasının dövlət qeydiyyatını aparır və reyestrdən çıxarışı ipoteka saxlayana təqdim edir. Dövlət qeydiyyatı





üçün təqdim olunmuş sənədlər dövlət qeydiyyatı orqanında saxlanılır. Qeydiyyat orqanı ipoteka haqqında məlumat bazasını yaradaraq məlumatın saxlanılmasını təmin etməlidir. Qeydiyyata alınmış ipoteka müqaviləsinin surəti, ipoteka kağızı verildikdə isə ipoteka kağızının surəti dövlət qeydiyyatı orqanının arxivində saxlanılır ("İpoteka haqqında" AR qanunu, m. 12)

**İpotekanın növləri** – mülki qanunvericiliyə görə ümumi ipoteka elə ipotekadır ki, onun predmeti bir neçə əşyadır və ümumi tələbin ödənilməsi üçün əşyaların hər birindən istifadə edilir. Kreditorun tələbi onun arzusu ilə istənilən əşya hesabına ödənilə bilər. Mülkiyyətçinin ipotekası o deməkdir ki, təmin edilməsi üçün ipotekanın mövcud olduğu tələb əmələ gəlmir, ona xitam verilir və ya həmin tələb əşyanın mülkiyyətçisinə keçdikdə ipoteka da ona keçir (AR MM-in 308-ci maddəsi).

**İpoteka ssudası** – eynilə ipoteka krediti; bank tərəfindən daşınmaz əmlakın girovu ilə verilən uzunmüddətli pul ssudası.

**İpoteka verilməsi xərcləri** – mülki qanunvericiliyə görə əgər müqavilədə başqa şərt qoyulmayıbsa, ipoteka verilməsi xərclərini borclu çəkir. Əgər əşya ipoteka ilə yüklü edilmişsə və əgər ipoteka verildikdən sonra mülkiyyətçi ipotekada dəyişikliklər və ya ona əlavələr etmişsə və bu zaman onları da həmin tələbin təminatı kimi verməyə borclu deyilsə, həmin dəyişiklikləri və əlavələri geri götürərək əşyanın əvvəlki vəziyyətini bərpa edə bilər. Daşınmaz əşyanın dəyərinin azalması üçün məsuliyyət mülkiyyətçinin üzərinə düşür (AR MM-in 318-ci maddəsi).

**İradə muxtariyyəti** – beynəlxalq xüsusi hüquqda institut; bu instituta uyğun olaraq müxtəlif dövlətlərin hüquq qaydaları ilə bağlı əlaqələrə malik olan əqd tərəfləri öz aralarında qarşılıqlı münasibətləri tənzimləyəcək və tətbiq edəcəkləri, yaxud məhkəmə müəssisəsi və ya (zəruri hallarda) digər səlahiyyətli orqanlar tərəfindən tətbiq ediləcək hüququ özləri seçə bilərlər. Bu, beynəlxalq xüsusi hüquqda tərəflərin seçdiyi qanun da adlanır. İ.m. daha geniş planda sivilist (mülki-hüquqi) münasibətləri tənzimləyən əsas prinsiplərlə əlaqələndirilir və müqavilə azadlığı, tərəflərin azad mülahizəsi kimi mülki hüquq prinsiplərinin xüsusi halı kimi çıxış edir.

**İrqi ayrı-seçkilik (apartheid)** – sülh və bəşəriyyət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 111-ci maddəsində nəzərdə tutulur. İ.a.-s. hər hansı bir irqi qrupu əsarət altında saxlamaq üçün digər irqi qrup tərəfindən üstünlüyü təşkil və təmin etmək məqsədilə aşağıdakılarda ifadə olunur:

1) irqi qrupa və ya qruplara mənsub olan şəxslərin yaşamaq və azadlıq hüquqlarını inkar etmə, yəni irqi qrupa və ya qruplara mənsub olan şəxsləri öldürmə, onların sağlamlığına ağır zərər vurma və ya əqli qabiliyyətlərinə ciddi zərər vurma, işgəncə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq etmə, yaxud özbaşınalıqla həbs və qanunsuz olaraq azadlıqdan məhrum etmə;

2) irqi qrupun və ya qrupların, bütövlükdə və ya qismən, fiziki məhvi ilə nəticələnə biləcək yaşayış şəraiti yaratma;

3) irqi qrupun və ya qrupların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında iştirakının qarşısını almaq, habelə qrupa və ya qruplara mənsub olan şəxslərin işlə-

mək, həmkarlar təşkilatlarını yaratmaq, təhsil almaq, ölkədən getmək və ölkəyə qayıtmaq, vətəndaşlıq, hərəkət etmək və ya yaşayış yerini seçmək, fikir və söz azadlığı, toplaşmaq və birləşmək hüquqları daxil olmaqla əsas insan hüquq və azadlıqlarını inkar etməklə tam inkişafın qarşısını almaq məqsədilə hər hansı qanunverici və digər tədbiri həyata keçirmə;

4) düşərgə və gettoların yaradılması ilə əhalini irqi qruplara bölmək, irqi qruplar arasında qarışıq nikahları qadağan etmək, irqi qrupa və ya qruplara və ya onların üzvlərinə mənsub olan torpaq sahələrini onların razılığı olmadan almaq məqsədilə, qanunverici tədbirlər daxil olmaqla, hər hansı bir tədbiri həyata keçirmə;

5) irqi qrupa və ya qruplara mənsub olan şəxslərin əməyini istismar etmə;

6) aparteidə qarşı çıxan şəxsləri və təşkilatları əsas hüquq və azadlıqlardan məhrum etmə vasitəsilə təqib etmə.

**İrqi senz** – qanunun tələbi; bu tələbə uyğun olaraq seçki hüquqları ancaq müəyyən irqə mənsub olan vətəndaşlara verilir. Bu tələbin tətbiqinə son onillikdə dünya təcrübəsində çox nadir hal kimi təsadüf edilmişdir. Sonuncu i.s. Cənubi Afrika Respublikasında (CAR-da) 1993-cü ildə ləğv edilmişdir.

**İrsi transmissiya** – mülki qanunvericiliyə görə, əgər vərəsə miras açıldıqdan sonra, lakin miras qəbul edilənədək ölərsə, mirasdan pay almaq hüququ onun vərəsələrinə keçir (irsi transmissiya). Ölmüş vərəsənin vərəsələri mirası onun qəbulu müddətinin sonunadək qalmış vaxt ərzində qəbul etməlidirlər. Əgər bu müddət üç aydan azdırsa, üç ayadək uzadılmalıdır.

Mirasın irsi transmissiya üzrə qəbul edilməməsi vərəsəni bilavasitə ölən vərəsəyə çatası mirası almaq imkanından məhrum etmir. Əmlakı irsi transmissiya üzrə almaqdan imtina edildikdə, əmlak ölmüş vərəsələrlə birlikdə mirası qəbul etməyə çağırılmış şəxslərə keçir (AR MM-in 1252-1253-cü maddələri).

**İslahat** *(bax: hüquqi islahat).*

**İslahedici psixologiya** *(kriminologiyada)* – hüquqi psixologiyanın hüququ pozanların sosialsızlaşması, onların sosial-dəyərli yeni yönümü və sosial cəhətdən adaptasiya olunmuş davranışlarının formalaşması proseslərini öyrənən sahəsi.

**İslah işləri** – cinayət qanunvericiliyinə görə azadlıqdan məhrum etmədən ibarət olmayan əsas cəza növlərindən biri. İ.i. növündə cəza tədbiri məhkəmə tərəfindən iki aydan iki ilədək müddətə təyin edilir və həmin cəza məhkumun iş yeri üzrə çəkilir. İ.i.-nə məhkum olunmuş şəxsin qazancından dövlət nəfinə beş faizdən iyirmi faizədək məbləğdə pul tutulur.

İ.i.-nə məhkum olunmuş şəxs qəsdən həmin cəzanı çəkməkdən boyun qaçırdıqda, məhkəmə islah işlərinin çəkilməmiş hissəsini azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edə bilər. Bu zaman yeni cəzanın müddəti müəyyən olunarkən bir gün islah işlərinə bir gün azadlığın məhdudlaşdırılması, yaxud üç gün islah işlərinə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır (AR CM-in 49-cu maddəsi).

**İslah işləri növündə cəzanın icrası** – islah işləri növündə cəza məhkumun əsas iş yeri üzrə çəkilir. İslah işləri növündə cəzaya məhkum olunmuş şəxslər məhkum edilməzdən əvvəl işlədikləri vəzifədə və ya işdə qalırlar. Bu şəxslər başqa vəzifəyə və ya işə yalnız əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və ümumi əsaslarla keçirilə bilərlər.

İslah işləri növündə cəza çəkən məhkumların islah edilməsi onların ictimai-faydalı əməkdə iştirakı əsasında həyata keçirilir. Cəzanın çəkildiyi yer üzrə işəgötürən məhkumun davranışına nəzarət edir və onunla tərbiyə işinin aparılmasında məhkəmə icraçısına kömək edir.

İslah işləri növündə cəzanın çəkilməsi hökm qanuni qüvvəyə mindiyi gündən icraya yönəldilir. İşsiz məhkum özü işə düzəlməli və ya məhkəmə icraçısının iştirakı ilə məşğulluq xidməti orqanında qeydiyyata durmalıdır. Məhkum məşğulluq xidməti orqanının ona təklif etdiyi işdən imtina edə bilməz.

İ.i.n.c.i müddəti məhkumun ümumi iş stajına daxil edilir. Bu şəxslər əmək qanunvericiliyi ilə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər. Cəzanın icrası müddəti məhkumun işlədiyi və onun qazancından tutulmalar aparıldığı aylar və günlərlə hesablanır. Məhkumun üzrlü səbəblərə görə işləmədiyi və qanuna uyğun olaraq onun əməkhaqqı saxlandığı vaxt cəzanın icrası müddətinə hesablanır. Tibbi sənədlərə təsdiq edilmiş əmək qabiliyyətinin itirildiyi vaxt, habelə sosial məzuniyyətlərdə olma vaxtı bu müddətə daxil edilir (AR CİM-in 40-45-ci maddələri).

**İslam hüququ** *(bax: müsəlman hüququ).*

**İslam hüquq məktəbləri** – islamın erkən dövrlərində onun siyasi və hüquqi ideologiyasında meydana gəlmiş məzhəblər (islam hüquq məktəbləri).

Əməvilər sülaləsi hakimiyyətinin erkən dövründə fiqh alimləri ictihad nöqteyi-nəzərindən iki əsas məzhəbə – Əhl ər-Rai Əhl əl-Hədis məzhəbinə bölünürdülər. Abbasilər xilafətinin və ictihadın süqutundan sonra məzhəblərin sayı dörd olmuşdur. Bu məzhəblər bir-birindən tamamilə ayrılaraq, demək olar ki, bir-birinə qarşı duran hüquq məktəbləri kimi fəaliyyət göstərirdilər.

İslamın siyasi və hüquqi ideologiyasında dörd əsas hüquq məktəbi fərqləndirilir: 1) hənəfilər məzhəbi *(bax: hənəfi hüquq məktəbi)*; 2) malikilər məzhəbi *(bax: maliki hüquq məktəbi)*; 3) şafiilər məzhəbi *(bax: şafiilər hüquq məktəbi)*; 4) hənbəlilər məzhəbi *(bax: hənbəli hüquq məktəbi).*

Bu məzhəblərdən başqa islam aləmində əüzay məzhəbi, zahidi məzhəbi, layt məzhəbi, tauri məzhəbi, zahiri məzhəbi və cəriri məzhəbi də mövcud olmuşdur.

**İsopolitiya** – vətəndaşlıq hüquqlarının bərabərliyi. Ellinizm dövründə yunan dövlət ittifaqlarında simpolitiya – ittifaqın bütün üzvləri üçün vətəndaşlığın ümumi hüququ ilə yanaşı, bütün ittifaq hüdudlarında öz vətəndaşlığını saxlamaq imkanı mövcud idi. Şəhərlər vətəndaşlıq hüquqlarını bir-birinə qarşılıqlı təqdim etsələr də bu, sabit və möhkəm siyasi birliyə aparıb çıxarmamışdır.

**İspravnik** – XVIII-XIX yüzilliklərdə Rusiyada qəza polisi başçısı. İ. 1775-1862-ci illərdə zadəganlar tərəfindən seçilir (bu zaman kapitan – ispravnik adlanırdı), sonra isə hökumət tərəfindən təyin olunurdu.

**İsraf etmə** – *(bax: mənimsəmə və ya israf etmə)*

**İsteblişment** *(ing. establishment – bərqərar etmə; əsas; müəssisə)* – cəmiyyətdə hakimiyyətə və təsirə malik olan dövlət institutları, iqtisadi, sosial-siyasi institutlar və təşkilatlar, habelə bu institutlarda və təşkilatlarda əsas mövqe tutan qruplar, şəxslər.

**İstehkam** – düşməndən müdafiə məqsədi ilə yaradılan qurğu.

**İstehkamçı (sapyor)** – istehkamçı (mühəndis-istehkamçı) bölmələrinin və mühəndis qoşunları hissələrinin hərbi xidmətçisi. 1678-ci ildə Fransada və 1712-ci ildə Rusiyada i.-lar xüsusi hissə və bölmələrdə birləşdirilirdi. XIX-XX yüzilliklərdə i.-ların tərkibindən rabitəçilər, dəmiryolçular, avtomobilçilər və başqaları ayrılmışdır.

**İstehlak** – iqtisadi tələbatın ödənilməsi prosesində ictimai məhsulun istifadə edilməsi; təkrar istehsal prosesinin son fazası.

**İstehlakçı** – şəxsi tələbatını ödəmək məqsədi ilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxs.

**"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasının ərazisində istehlakçılar üçün bərabər şərait yaradılması məqsədi ilə alqı-satqı prosesində, iş görülməsində və xidmət göstərilməsində istehlakçı ilə istehsalçı, satıcı və icraçı arasında münasibətlərin eyni cür tənzimlənməsinin, habelə istehlakçıların hüquqlarının müdafiəsinin ümumi hüquqi, iqtisadi və sosial əsaslarını və mexanizmini müəyyənləşdirən qanunvericilik aktı.

Bu qanun 19 sentyabr 1995-ci il tarixdə qəbul edilmişdir. O, dörd fəsil və 27 maddədən ibarətdir. Ona 7 əlavə və dəyişiklik edilmişdir.

**İstehlak krediti bankları** – istehlak predmetləri almaq, yaxud məişət xidmətlərini ödəmək üçün əhaliyə kredit verən bank müəssisələri.

**İstehsal** – cəmiyyətin mövcud olması və inkişafı üçün zəruri olan maddi nemətlərin yaradılması (istehsalı) prosesi. İ. insan həyatının təbii şərti olub, digər fəaliyyət növlərinin də maddi əsasını təşkil edir.

**İstehsalat birliyi (kombinat)** – ixtisaslaşmış vahid istehsal-təsərrüfat kompleksi. İ.b.-nin tərkibinə aralarında istehsal əlaqələri olan fabrik və zavodlar, elmi-tədqiqat, konstruktor təşkilatları, texnoloji bölmələr, mərkəzləşdirilmiş yardımçı və xidmət göstərən istehsal sahələri daxil olur. İ.b.-ləri keçmiş SSRİ-də XX yüzilliyin 60-cı illərində yaradılmışdır. İ.b.-ləri təsərrüfat hesabı əsasında fəaliyyət göstərirlər.

**İstehsalat markası** – istehsalçının fərqləndirilməsi məqsədi ilə müəssisənin buraxdığı məlumatın və ya məhsulun üzərinə vurulan damğa (ştamp). İ.m.-nda istehsalçı müəssisənin tam, yaxud qısaldılmış adı, olduğu yer, malın keyfiyyəti, çeşidi, qiyməti, standartı, texniki şərtləri və i.a. haqqında məlumatlar göstərilir. İ.m. qeydiyyatdan keçirilir və əmtəə nişanı ilə yanaşı tətbiq edilir.

**İstehsalat tullantıları** – tərkibində təhlükəli xüsusiyyətlərə malik toksiki, infeksion, partlayıcı, yüksək reaksiya və yanma qabiliyyətli maddələr olan, əhalinin sağlamlığı və ətraf mühit üçün bilavasitə və ya potensial təhlükə yaradan tullantılar.

**İstehsalat vahidi (struktur vahidi)** – elmi-istehsalat birliyinin və yaxud istehsalat birliyinin tərkibinə daxil olan vahid.





**"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında insan fəaliyyəti nəticəsində əşya və maddə şəklində əmələ gələn istehsalat və məişət tullantılarından ətraf mühitin qorunması, onların təhlükəli təsirinin azadılması, təbiətdə ekoloji tarazlığın təmin olunması, təkrar xammal kimi tullantıların istifadəsi sahəsində dövlət siyasətini müəyyən edən, zərərli qazlar, çirkab suları və radioaktiv tullantılar istisna olmaqla, tullantılarla bağlı münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 30 iyun 1998-ci il tarixdə qəbul edilmişdir. O, beş fəsil və 24 maddədən ibarətdir.

**İstehsalçı** – mülkiyyət formasından və təşkilati-hüquqi formasından asılı olmayaraq satış üçün mal istehsal edən idarə, müəssisə, təşkilat və ya sahibkar.

**İstefa** – **1)** inqilabaqədərki Rusiyada (XVIII yüzillikdən başlayaraq) dövlət qulluğundan hər cür azad olunma (o cümlədən şəxsin öz xahişi ilə); **2)** silahlı qüvvələrdən yüksək rütbəli zabitlərin, generalların, admiralların hərbi xidmətdən buraxılma növü; **3)** dövlət və ya hökumət başçısının öz səlahiyyətindən əl çəkməsi. Hökumət i.-ya adətən ona etimad göstərilmədikdə və ya hökumətdaxili böhran, mübahisələr baş verdikdə gedir.

**İsteriya** *(kriminologiyada)* – müdafiə xarakterinə malik olan, xasiyyətin (xarakterin) fövqəladə reaksiyalarından ibarət nevrozu və ya xüsusiyyəti.

**İstibdad** *(bax: despotizm).*

**İstibdad hakimiyyət** *(bax: despotiya).*

**İstifadə hüququ** – mülki qanunvericiliyə görə əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanı. İstifadədən fayda gəlir, artım, bəhər, törəmə şəklində və formalarda ola bilər.

İstifadə hüququna şəxsin öz əmlakından (əşyasından) istifadə etməməsi imkanı da daxildir. Əgər əşyanın tətbiq edilməməsi və ya ona qulluq olunmaması ictimai mənafelərə qəsd edirsə, istifadə və ya qulluq və saxlama vəzifəsi müəyyənləşdirilə bilər. Bu halda mülkiyyətçinin üzərinə həmin vəzifələri özü icra etmək və ya müvafiq muzd müqabilində əşyanı başqa şəxslərin istifadəsində vermək vəzifəsi qoyula bilər (AR MM-in 152-ci maddəsi).

**İstiqlaliyyət bəyannaməsi** – Şimali Amerikada istiqlaliyyət uğrunda müharibə (1775-1783) dövründə İngiltərə müstəmləkələri nümayəndələrinin 2-ci Kontinental Konqresində 1776-cı il iyunun 4-də qəbul edilən bəyannamə. İ.b. müstəmləkələrin metropoliyadan ayrılmasını və yeni müstəqil dövlətin – Amerika Birləşmiş Ştatlarının yaranmasını elan etdi. Bəyannamə xalqın suverenliyi ideyasını, inqilab (üsyan) hüququnu, bütün insanların qanun qarşısında bərabərliyini, "yaşamaq, azadlıq və xoşbəxtlik arzusunda olmaq" hüququnu təsbit etdi. Alman mütəfəkkırı K.Marks i.b.-ni "İlk insan hüquqları bəyannaməsi" kimi səciyyələndirmişdir.

**İstiqraz** – öz sahibinin nəzərdə tutulan müddət ərzində istiqrazı buraxan şəxsdən onun nominal dəyərini və ya sair əmlak ekvivalentini almaq hüququnu təsdiq edən qiymətli kağız.

**İstiqraz kursu** – dövlət istiqrazlarının satış və alış qiyməti. İstiqrazların nominal qiyməti onların buraxıldığı zaman müəyyən olunur və dövlət borcuna daxil edilərək istiqraz sahibləri tərəfindən ödənilir. Dövlət həm də istiqrazların banklara satılan emissiya kursunu – qiymətini müəyyən edir. Emissiya qiyməti adətən praktiki olaraq nominal qiymətdən aşağı olur. İstiqrazların bazar kursu (qiyməti) maliyyə bazarında məzənnələşdirmə yolu ilə müəyyən olunur və birja bülletenlərində dərc edilir.

**İstiqraz şəklində borc öhdəliyi** – mülki qanunvericiliyə görə istiqraz onun sahibinin onu buraxmış şəxsdən istiqrazda nəzərdə tutulan müddətdə istiqrazın nominal dəyərini və ya sair əmlak ekvivalentini almaq hüququnu təsdiq edən qiymətli kağızdır. İstiqraz öz sahibinə həm də onun nominal dəyərindən faiz almaq hüququ və ya digər əşya hüquqları verir. İstiqrazlar adsız borc öhdəlikləri və ya borc istiqrazları, girov şəhadətnamələri, səhmdar cəmiyyətinin mənfəətində iştirak hüququ verən borc öhdəlikləri, pulsuz yeni səhmlər, sabit dividendli səhmlər və i.a. şəklində ola bilər (AR MM-in 1070-ci maddəsi).

**İstiqraz vərəqəsi** – qiymətli kağız; öz sahibinə müəyyən edilmiş faiz formasında gəlir əldə etmək hüququ verir. Gəlir xüsusi tirajlarda oynanılan uduş, yaxud kupon ödəmək formasında ola bilər. Azərbaycan Respublikasında daxili istiqrazlar üzrə i.v. buraxmaq hüququ dövlətə məxsusdur. İ.v. xüsusi növ vətəndaş-hüquq öhdəliyini rəsmiləşdirir. Burada borc alan dövlət, borc verən isə vətəndaşlardır. İ.v.-ni əmanət bankları sərbəst satır və həm də alırlar. İ.v.-ndən və onun uduşlarından vergi tutulmur. İ.v.-lərini səhmdar cəmiyyətləri də buraxırlar.

**İstinad məktəbi** – bir neçə qonşu məktəbin metodik mərkəzi hesab edilən ümumtəhsil məktəbi. Keçmiş SSRİ-də başlıca vəzifəsi pedaqoji elmin nailiyyətlərini və qabaqcıl müəllimlərin təcrübəsini təbliğ etməkdən və yaymaqdan ibarət olmuşdur. Hazırda Azərbaycan Respublikasında belə məktəblər fəaliyyət göstərmir.

**İstintaq** – cinayət prosesində sübutetmə predmetinə daxil olan halların aydınlaşdırılması üçün zəruri olan və kifayət edən sübutların toplanması və yoxlanması. İ. toplayıcı anlayışdır və o, aşağıdakıları əhatə edir: a) cinayət prosesinin müstəqil mərhələsindən ibarət olan ibtidai istintaq (ibtidai araşdırma) və cinayət işi başlama; b) birinci instansiya məhkəməsində məhkəmə baxışının tərkib hissəsi olan məhkəmə istintaqı. Təqsirləndirilən şəxsin, müdafiəçinin, zərər çəkmiş şəxsin qanuni nümayəndəsinin, mülki iddiaçının və mülki cavabdehin (onların nümayəndələrinin) iştirakı ilə gedən məhkəmə istintaqı gedişində məhkəmə (hakim) məhkəmə iclasında iş üzrə sübutların bilavasitə tədqiqini həyata keçirir. Bu zaman ibtidai istintaqda (təhqiqatda) toplanmış sübutlar yoxlanılır, eləcə də yeni sübutlar toplanılır və yoxlanılır. Məhkəmə istintaqının hədləri ittihamnamə ilə müəyyən edilir. Hökmün (qərardadın) əsasını yalnız məhkəmə istintaqında tədqiq olunan sübutlar təşkil edə bilər.

**İstintaq aidiyyəti** *(bax: cinayət işləri üzrə ibtidai istintaqın aparılması).*

**İstintaq çantası** *(kriminalistikada)* – müstəntiqin bir sıra hərəkətlərini həyata keçirdiyi zaman istifadə etdiyi elmi-texniki vasitələrin yerləşdirildiyi (qablaşdırıldığı) xüsusi çanta. İ.ç.-nda yerləşdirilmiş vasitələr şərti olaraq bir neçə qrupa bölünür: maddi sübutların aşkar edilməsi və götürülməsi, habelə müayinəsi üçün zəruri olan vasitələr (lupa, elektrik fənəri, rezin əlcək); əl-barmaq izləri ilə işləmək üçün (müxtəlif kimyəvi tozlar, daktiloskopik plyonkalar və i.a.); ayaq izlərinin, nəqliyyat vasitələri izlərinin, sındırma-alət izlərinin götürülməsi və qeyd edilməsi üçün vasitələr (gips, çiləyici kimyəvi pastalar və i.a., ölçmə və plan çəkmə, sxem hazırlama vasitələri).

**İstintaq eksperimenti** – istintaqı aparılan hadisəyə maksimum yaxınlaşdırılmış, xüsusi yaradılmış şəraitdə təcrübələrin aparılmasından, yeni törədilmiş cinayətin canlandırılmasından ibarət olan istintaq hərəkəti. İ.e. yalnız cinayət işi başlandıqdan sonra aparılır. Onun aparılması məcburi deyil, yalnız zəruri hallarda müstəntiqin mülahizəsindən asılı olaraq aparıla bilər. İ.e.-nin aparılması üçün əsaslı qərar çıxarılması tələb olunmur. Yoxlanılan faktlardan asılı olaraq eksperimentin yerini müstəntiq müəyyən edir. Eksperimentin aparılmasında hal şahidlərinin iştirakı vacibdir. Bu istintaq hərəkəti iştirakçılarının çoxluğu ilə səciyyələndirilir. İ.e.-nin aparılmasına o halda yol verilir ki, onun iştirakçılarının şəxsiyyəti və ləyaqəti alçaldılmasın və təcrübələr onların sağlamlığı üçün təhlükə yaratmasın.

AR CPM-in 262.2-ci maddəsinə uyğun olaraq təqsirləndirilən şəxsin və ya şübhəli şəxsin iştirakı ilə aparılan istintaq eksperimentində onun müdafiəçisi də iştirak etmək hüququna malikdir. Bu istintaq hərəkətinin aparılması barədə müstəntiq tərəfindən əvvəlcədən xəbərdar edilmiş müdafiəçi istintaq eksperimentinin aparılmasında iştirak etmək arzusunu bildirdikdə, müstəntiq onun bu hüququnu təmin etməlidir.

Müstəntiqin dəvəti ilə istintaq eksperimentinin aparılmasında həmçinin şahid, mütəxəssis, müəllim, həkim və digər şəxslər iştirak edə bilərlər. Müstəntiqin göstərişi və icazəsi ilə istintaq eksperimentinin aparılmasında foto, video və kino çəkilişindən və ya digər yazı texniki vasitələrindən istifadə edilə bilər (AR CPM-in 262.3 və 262.4-cü maddəsi).

**İstintaq fərziyyəsi** – cinayət hadisəsi və ya onun ayrı-ayrı epizodlarına (hallarına) dair müstəntiqin faktiki məlumatlara əsaslanan, deduksiyanın məntiqi qaydaları üzrə yoxlanılmalı olan ehtimal formasından ibarət əqli nəticəsi. İ.f.-ləri cinayət mühakimə icraatı çərçivəsində qurulur və yoxlanılır. Onlar faktiki məlumatlarla keçmişdə mövcud olmuş faktların səbəbli əlaqəsinə dair elə ehtimallardır ki, onlar öz məzmununa görə cinayət işinin istintaqı və məhkəmədə həlli üçün əhəmiyyət kəsb edirlər. İ.f.-ləri xüsusi üsulla – sübutların toplanmasının cinayət-prosessual qanunvericilikdə müəyyən edilmiş üsulları ilə yoxlanılırlar. İ.f-lərinin qurulması və yoxlanılmasının məqsədi istintaqı aparılan cinayət işi üzrə obyektiv həqiqəti müəyyənləşdirməkdən, cinayəti törətməkdə təqsiri olan şəxsin həqiqətən təqsirli olub-olmamasını aydınlaşdırmaqdan ibarətdir.

**İstintaq hakimi** – Fransada və bir sıra başqa ölkələrdə cinayət prosesinin ibtidai istintaq mərhələsində məhdudlaşdırıcı tədbirlər (məsələn, həbsə alma, axtarış apa ma, götürmə həyata keçirmə, valideynlik hüquqlarından məhrum etmə və i.a.) haqqında qərar qəbul edən hakim. İ.h. həmçinin təqsirləndirilən şəxsin və şahidlərin təminatverici dindirməsini həyata keçirir.

**İstintaq hərəkətləri** – cinayət-prosessual hüquqda sübutların aşkar edilməsindən, götürülməsindən və yoxlanmasından ibarət olan prosessual hərəkətlər. İ.h.-ni müəyyən edilmiş qaydada müstəntiq, təhqiqat aparan şəxs və məhkəmə həyata keçirir. İ.h.-nə dindirmə, üzləşdirmə, axtarış və götürmə, baxış, şəxsi müayinə, hadisə yerinin müayinəsi, istintaq eksperimenti, tanımaya təqdim etmə, müqayisəli tədqiqat üçün nümunələri əldə etmə daxildir. İ.h. cinayət işi başlandıqdan sonra həyata keçirilir.

**İstintaq komissiyaları** *(beynəlxalq hüquqda)* – mübahisənin istintaq vasitəsilə (dinc yolla) nizama salınması üçün bilavasitə mübahisə aparan tərəflər və ya üçüncü ölkələrin birgə nümayəndələri, yaxud beynəlxalq təşkilatların iştirakı ilə təşkil edilən orqanlar. İ.k. mübahisə aparan tərəflərin xüsusi sazişi əsasında təsis edilir. Belə komissiyaların yaradılması ilk dəfə beynəlxalq toqquşmaların dinc yolla həlli haqqında 1907-ci il Haaqa konvensiyası ilə müəyyən edilmişdir. Müasir dövlətlərarası təcrübə üçün i.k.-nın müvafiq ikitərəfli sazişlər əsasında yaradılması səciyyəvidir.

**İstintaq komitəsi** – Rusiya Federasiyası tərkibindəki bir sıra respublikalarda (Tatarıstanda, Başqırdıstanda, Tıvada) dövlət hakimiyyətinin xüsusi muxtar orqanı. Konstitusiya ilə bu orqanlara ibtidai istintaqı həyata keçirmək səlahiyyəti həvalə edilmişdir. İ.k.-nin sədri, bir qayda olaraq, RF-nin tərkibindəki müvafiq respublikanın qanunvericilik orqanı tərəfindən həmin respublikanın prezidentinin (yüksək vəzifəli şəxsinin) təqdimatı əsasında təyin edilir.

**İstintaq metodikası** – cinayətlərin cinayət-hüquqi kriminalistik xarakteristikası və cinayət-prosessual tələblərinin nəzərə alınması ilə istintaq vəzifələrinin daha səmərəli həll edilməsi üçün işlənib hazırlanmış, cinayətlərin müxtəlif növlərinin spesifik şəraitdə istintaqında müstəntiqin fəaliyyətinin optimal üsul və vasitələrinin sistemi.

**İstintaq müayinəsi** – cinayətin izlərini və digər maddi sübutları aşkar etmək, cinayətin törədilməsi şəraitini, habelə cinayətin açılması üçün əhəmiyyəti olan digər halları aydınlaşdırmaq məqsədilə aparılan istintaq hərəkətlərindən biri *(həmçinin bax: şəxsi müayinə).*

**İstintaq situasiyası** *(kriminalistikada)* – cinayətlərin istintaqının həyata keçirildiyi məqamda mövcud olan şəraitin məcmusu. İ.s.-nın formalaşması obyektiv və subyektiv amillərin təsiri altında baş verir. Obyektiv amillərə müstəntiqin sərəncamında olan sübutların olması və xarakteri, habelə yönümlü informasiya, hələ istifadə olunmamış sübut mənbələrinin sabit mövcudluğunun olması, sübutların yox olması prosesinin intensivliyi və bu prosesə təsir göstərən amillərin olması, həmin məqamda istintaqı aparılan hadisənin cinayət-hüquqi qiymətinin mövcudluğu aid edilir.

Cinayət işinin iştirakçısı olan şəxslərin psixoloji vəziyyəti, müstəntiqin psixoloji vəziyyəti, onun bilik və bacarıq səviyyəsi, təcrübəsi, o cümlədən həmin cinayətlər kateqoriyasına aid olan işlər sahəsində təcrübəsinin kifayət qədər olub-olmaması və i.a. subyektiv amillərə daxildir.

İ.s. dinamik sistemdir. Onun barəsindəki məlumatlar müstəntiqin təsəvvüründə özünəməxsus informasiya modeli yaradır. İ.s. tipik və spesifik, mövcud və fasiləli, son, münaqişəli və münaqişəsiz, ümumi halda isə istintaq üçün əlverişli və əlverişsiz istintaq situasiyasına bölünür. "İ.s." termini 1967-ci ildə A.N.Kolesniçenko tərəfindən təklif edilmişdir.





**İstintaq taktikası** – kriminalistikanın istintaqın və istintaq hərəkətləri gedişinin təşkili və planlaşdırılmasına dair elmi müddəa və tövsiyyələrdən ibarət olan sahəsi. İ.t. şərti olaraq iki hissəyə bölünür: 1) ibtidai istintaqın, məhkəmə istintaqının təşkili və planlaşdırılması; 2) ayrı-ayrı istintaq və məhkəmə hərəkətlərinin (məsələn, hadisə yerinin müayinəsi, axtarış, dindirmə və i.a. ), habelə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin taktiki üsulları.

**İstintaq təcridxanası** – Azərbaycan Respublikasında təqsirləndirilən və ya şübhə edilən şəxslərin saxlanması üçün nəzərdə tutulan müəssisə; burada həbs qətimkan tədbiri qismində həbsə alınmış şəxslər saxlanılır. Azərbaycan Respublikasında 1 və 2 saylı i.t.-ları fəaliyyət göstərir.

**İstirahət** – iş qabiliyyətini bərpa edən sakit vəziyyət. İ. aktiv və passiv olur. Passiv i. yuxu və uzanmaqdan ibarətdir. İ.-lə iş ardıcıl olaraq növbələşdikdə insanın əmək fəaliyyətinin əsasını təşkil edən şərti reflekslərin əlaqəsi möhkəmlənir.

**İstirahət günləri** – Azərbaycan Respublikasının əmək qanunvericiliyinə görə hər bir işçiyə həftələrarası fasiləsiz istirahət günlərindən istifadə etməyə şərait yaradılmalıdır. Həftələrarası fasiləsiz istirahət günlərinin sayı beşgünlük iş həftəsində iki gün, altıgünlük iş həftəsində isə bir gün olmalıdır. Həftəlik fasiləsiz istirahət müddəti 42 saatdan az olmamalıdır. İş vaxtının cəmlənmiş uçotu zamanı istirahət günləri, həmkarlar ittifaqları təşkilatı ilə razılaşdırılmış növbə cədvəlinə uyğun olaraq verilir. Həmkarlar ittifaqları təşkilatı olmayan iş yerlərində isə bu qayda əmək müqaviləsi ilə tənzimlənir (AR ƏM-in 104-cü maddəsi).

**İstirahət hüququ** – vətəndaşların konstitusiya qanunu ilə təsbit edilmiş əsas hüquqlarından biri. Azərbaycan Respublikasının Konstitusiyasının 37-ci maddəsində göstərilir ki, hər kəsin istirahət hüququ vardır. Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir.

**İstirahət (rekreasiya) təyinatlı torpaqlar** – Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə görə əhalinin istirahətini, turizm, bədən tərbiyəsi və idman fəaliyyətinin təşkili üçün nəzərdə tutulan və istifadə edilən torpaqlar istirahət (rekreasiya) təyinatlı torpaqlar sayılır.

İstirahət (rekreasiya) təyinatlı torpaqlardan təyinatı üzrə istifadə edilməsinə maneçilik törədən hər hansı fəaliyyət qadağan edilir (AR TM-in 28-ci maddəsi).

**İstirahət vaxtı** – əmək qanunvericiliyinə görə iş günü ərzində işçilərə verilən asudə vaxt (nahar fasiləsi vaxtı). Fasilənin verilməsi və vaxtı müəssisədaxili intizam qaydaları, növbə cədvəlləri və ya əmək müqaviləsi, kollektiv müqavilə ilə müəyyən edilir. Əmək şəraitinin xarakterinə görə işi dayandırmaqla fasilənin vaxtını və davamiyyətini müəyyən etmək mümkün olmadıqda, işəgötürən işçiyə nahar etməyə şərait yaratmalıdır.

İşçinin bir iş günü ilə növbəti iş günü arasındakı gündəlik istirahət vaxtı azı 12 sa-

at olmalıdır. Növbəti iş vaxtı rejimində işçilərin istirahət vaxtının müddəti müvafiq növbə cədvəlləri ilə tənzimlənir. İstirahət və nahar fasilələrinin müddəti iş vaxtına daxil edilmir. İstirahət və nahar fasilələrindən işçi öz mülahizəsi ilə istədiyi kimi istifadə edə bilər (AR ƏM-in 103-cü maddəsi).

**İstismar tələbləri** – hava gəmilərinin istismarına, hava gəmisinin heyətinə, marşrutlara, aerodromlara, texniki xidmətə, daşıma fəaliyyətinə, material hissələrinin mübadiləsinə, kütləyə və hava gəmilərinin mərkəzi nöqtəyə uyğunlaşdırılmasına icazələr və istismarçı sertifikatına qoyulan məhdudiyyətlər.

**İş** – ictimai faydalı əmək. Bu, şəxsin gün ərzində qanunla müəyyən edilmiş müddətdə məşğulluğundan ibarətdir.

**İşçi** – işəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxs. Əmək hüquqlarına malik olan i. qanunvericiliyə və kontrakta uyğun olaraq əmək vəzifələri də daşıyır. Əmək müqaviləsi ilə deyil, mülki-hüquqi müqavilə (podrat, tapşırıq, müəlliflik müqaviləsi) əsasında işi yerinə yetirən şəxsə əmək qanunvericiliyi ilə i. qismində baxıla bilməz. Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Heç kəs zorla işlədilə bilməz.

Ümumi qaydada görə 15 yaşına çatmış hər bir şəxs işçi kimi əmək müqaviləsinin tərəfi ola bilər. AR ƏM-in 42-ci maddəsinin 1-ci hissəsinə uyğun olaraq əmək müqavilələri sərbəst bağlanır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

**İşçilərin attestasiyası** – işçilərin peşəkarlıq səviyyəsini, ixtisasına, sənətinə uyğun olaraq onların tutduğu vəzifəyə (peşəyə müvafiq olduğunu aşkara çıxarmaq məqsədi ilə aparılan yoxlama. Dairəsi qanunvericilikdə müəyyən edilmiş işçilər istisna olmaqla, bütün işçilərin attestasiyası keçirilə bilər. Hər bir işçi 3 ildə bir dəfədən çox olmayaraq belə yoxlamadan keçə bilər. Yalnız müvafiq iş yerində azı 1 il çalışan işçilər attestasiyasından keçirilir.

Əmək qanunvericiliyinə uyğun olaraq işəgötürənin əmri (sərəncamı) ilə işçilərin attestasiyasının keçirilməsi üçün təcrübəli, yüksək peşəkarlıq qabiliyyətinə malik, obyektivliyi və qərəzsizliyi ilə seçilən nüfuzlu şəxslərdən, habelə həmkarlar ittifaqları təşkilatının nümayəndəsindən ibarət attestasiya komissiyası yaradılır. İşəgötürən, işçinin müvafiq iş yeri üzrə rəhbəri attestasiya komissiyasının üzvü ola bilməz. Attestasiya komissiyası azı 5 nəfərdən ibarət olmaqla bütün hallarda onun say tərkibi təkrəqəmli olmalıdır. Komissiyanın səlahiyyət müddəti onun yaradılması haqqında müvafiq əmrlə (sərəncamla) müəyyən edilir.

Attestasiya komissiyasının üzvləri tərəfindən işçiyə yalnız tutduğu vəzifəyə (peşəyə), əmək funksiyasına, ixtisasına (peşəsinə) dair, yerinə yetirdiyi işlər və onun nəticələri barədə, habelə tutduğu vəzifəyə (peşəyə) uyğunluğunu müəyyən etmək üçün zəruri olan əmək müqaviləsi ilə müəyyən edilmiş hüquqları, vəzifələri dairəsinə aid olan məsələlərlə əlaqədar suallar verilə bilər. Attestasiya olunan işçinin siyasi baxışlarına, mənəvi, əxlaqi kamilliyinə, şəxsiyyətinə, etiqadına və digər sırf şəxsi dəyərlərinə görə, o cümlədən onun intizamlıq dərəcəsinə görə peşəkarlıq sə-





viyyəsinin qiymətləndirilməsi yolverilməzdir. Komissiyanın işi aşkarlıq şəraitində, obyektiv, qərəzsiz və qanunvericiliyin tələblərinə əməl edilməklə aparılmalıdır (AR ƏM-in 65-ci maddəsi).

AR ƏM-in 66-cı maddəsinə uyğun olaraq aşağıdakı işçilərin attetasiyası keçirilmir: 1) vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda yaralanmış və əlil olmuş işçilər; 2) Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi zamanı göstərdiyi şücaətlərə görə dövlət təltiflərinə və fəxri adlarına layiq görülmüş işçilər; 3) bir vəzifədə (peşədə) 5 ildən az müddətdə çalışan məcburi köçkün və qaçqın statusu olan işçilər; 4) hamilə qadınlar; 5) uşağın 3 yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınlar; 6) yaşı 18-dən az olan işçilər; 7) bir vəzifədə (peşədə) azı 3 dəfə attestasiya olunaraq 1 ildən az müddətdə çalışan işçilər; 8) eyni vəzifədə (peşədə) azı 3 dəfə attestasiya olunaraq tutduğu vəzifəyə uyğun olduğu müəyyən edilmiş işçilər; 9) kollektiv müqavilələrdə (sazişlərdə) nəzərdə tutulan hallarda attestasiya olunmayan işçilər.

**İşçilərin haqq-hesab sənədləri** – işçilərin əməkhaqqının hesablanması, ödənilməsi və ondan tutmaların aparılması haqqında bütün mühasibat hesablamalarını əks etdirən tərtib edilmiş kitabçalar, vərəqələr və çeklər.

AR ƏM-in 173-cü maddəsinə uyğun olaraq İ.h.-h.s-ndə aşağıdakı məlumatlar göstərilir: a) hesablanmış əməkhaqqının ümumi məbləği; b) əməkhaqqına əlavələr, mükafatlar, habelə digər ödənclər, onların növü və məbləğləri; c) əməkhaqqından tutulan məbləğlər – tutulmanın adı, növü, səbəbi və məbləği; ç) faktiki ödənilən məbləğ; d) tərəflərin birinin digərinə ödənilməmiş pul borcu və onun məbləği.

Haqq-hesab sənədləri (kitabçaları, vərəqələri, çekləri) onları tərtib edən mühasib tərəfindən imzalanır və hər dəfə əməkhaqqı verilərkən işçiyə təqdim edilir. İşçinin arzusu ilə haqq-hesab sənədi (kitabçası, vərəqəsi, çeki) mühasibatda saxlanıla bilər. ƏM-in 173-cü maddəsi ilə müəyyən edilmiş əməkhaqqının hesablanması, ödənilməsi və ondan tutulmaların aparılması barədə bütün mühasibat hesablamaları kompyuter proqramları vasitəsilə də aparıla bilər. Hər dəfə əməkhaqqı verilərkən işçinin tələbi ilə o, kompyuter yaddaşında saxlanılan bu hesablamalarla tanış edilir. Bu məlumatlar işçinin xahişi ilə çap edilib ona verilə bilər.

**İşçilərin iş yerinin və orta əməkhaqqının saxlandığı hallar** – qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada dövlət vəzifələrinin və ya ictimai vəzifələrin yerinə yetirilməsinə cəlb edilmiş işçilərin bu müddət ərzində iş yerinin, vəzifəsinin (peşəsinin) və orta əməkhaqqının saxlanması.

AR ƏM-in 179-cu maddəsinin 2-ci hissəsinə uyğun olaraq aşağıdakı hallarda işçinin iş yeri və orta əməkhaqqı saxlanılır: 1) şahid, zərər çəkmiş şəxs, ekspert, mütəxəssis, tərcüməçi, hal şahidi qismində təhqiqat, ibtidai istintaq və məhkəmə orqanlarına çağırıldıqda; 2) andlılar, münsiflər və kollektiv mübahisələrin həlli üçün yaradılan iqtisad məhkəməsinin tərkibinə daxil edilidikdə; 3) dövlət hakimiyyəti və bələdiyyə orqanlarına seçkilər keçirilərkən müvafiq seçki komissiyalarının tərkibinə daxil edildikdə; 4) müvafiq dövlət ha-

kimiyyəti orqanlarının, ictimai təşkilatların keçirdiyi forumlarda, müşavirələrdə, iclaslarda və digər tədbirlərdə iştirak etmək üçün işəgötürən tərəfindən və ya onun razılığı ilə cəlb olunduqda; 5) kollektiv danışıqların aparılmasına, kollektiv müqavilələrin, sazişlərin hazırlanması və bağlanmasında iştirak etməyə, kollektiv əmək mübahisələrinin həlli üçün barışdırıcı, vasitəçi, arbitr və digər nümayəndə qismində cəlb edildikdə; 6) fərdi əmək mübahisələrinin həlli zamanı məhkəmə araşdırmalarının aparılmasında iştirak etdikdə; 7) mülkiyyətçinin maraqlarının və qanuni mənafelərinin müdafiəsi üçün məhkəmələrdə iqtisadi mübahisələrin həllində iştirak etmək üçün cəlb edildikdə; 8) hərbi mükəlləfiyyətlə bağlı vəzifələrin yerinə yetirilməsi üçün hərbi və xüsusi toplanışlara və səlahiyyətləri daxilində hərbi komissarlıqların cəlb etdiyi digər hərbi tədbirlərdə iştirak etdikdə; 9) hərbi və fövqəladə vəziyyətlə əlaqədar, habelə təbii fəlakətin nəticələrinin aradan qaldırılması üçün müvafiq işlərin görülməsinə cəlb olunduqda; 10) işəgötürən tərəfindən istehsalatdan ayrılmaqla ixtisasartırma kurslarına göndərildikdə; 11) yaşadığı inzibati ərazi vahidindən başqa bölgəyə, habelə xarici ölkələrə ezamiyyətə göndərildikdə; 12) müvafiq tədbirlərdə mülkiyyətçinin maraqlarını və qanuni mənafelərini müdafiə etmək və işəgötürəni təmsil etmək üçün iş yerindən kənara göndərildikdə; 13) kollektiv müqavilələrdə nəzərdə tutulduğu hallarda; 14) donor olan işçilər tibbi müayinədən keçdikləri, qan və qan komponentlərini verdikləri gün; 15) tibbi müayinədən keçirilən zaman işçilər tibb müəssisəsində olduqları vaxt ərzində; 16) işçilərin öz ixtiralarını və səmərələşdirici təkliflərini əsas iş yerindən kənarda tətbiqi işlərində iştirak etdikdə; 17) bilavasitə qanunvericilikdə nəzərdə tutulmuş, habelə işəgötürən tərəfindən müəyyən edilən digər hallarda.

**İşçilərin məzuniyyət hüququ** – əmək qanunvericiliyinə görə işçilər vəzifəsindən (peşəsindən), əmək şəraitindən və əmək müqaviləsinin müddətindən asılı olmayaraq, AR ƏM ilə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər. Əlavə iş yerində əvəzçiliklə işləyən işçilərin də ƏM ilə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququ vardır. İşçilərin ƏM ilə müəyyən edilmiş məzuniyyət hüququ və ondan istifadə qaydaları məhdudlaşdırıla bilməz.

Məzuniyyətdə olduğu müddət ərzində işçinin iş yeri, vəzifəsi (peşəsi) və AR ƏM-də nəzərdə tutulmuş hallarda orta əməkhaqqı saxlanılır, habelə işəgötürənin təşəbbüsü ilə əmək müqaviləsinin pozulması və işçinin intizam məsuliyyətinə cəlb edilməsi yolverilməzdir. Bu müddət işçinin əmək stajına, həmçinin ixtisası üzrə stajına daxil edilir. Əmək müqaviləsində, habelə kollektiv müqavilələrdə məzuniyyətdə olan işçilər üçün əlavə təminatların verilməsi nəzərdə tutula bilər.

İşçilərin məzuniyyət hüququ aşağıdakı məzuniyyət növləri ilə təmin edilir: a) əsas və əlavə məzuniyyətlərdən ibarət olan əmək məzuniyyəti; b) uşağına qulluq etmək üçün qadınların sosial məzuniyyəti; c) təhsilini davam etdirmək və elmi yaradıcılıqla məşğul olmaq üçün verilən təhsil və yaradıcılıq məzuniyyəti; ç) ödənişsiz məzuniyyət. Əmək müqaviləsində, habelə kollektiv müqavilələrdə məzuniyyətlərin digər növləri nəzərdə tutula bilər (AR ƏM-in 110-112-ci maddələri).





**İşçilərin nümayəndəli orqanı** – əmək, sosial, iqtisadi hüquqlarını və qanuni mənafelərini müdafiə etmək məqsədi ilə işçilərin könüllü birləşib yaratdıqları nizamnamə və müvafiq qanunvericilik əsasında fəaliyyət göstərən həmkarlar ittifaqları təşkilatları (birlikləri).

**İşçilərin sosial sığortası** – müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulan hallarda işçilərin əmək münasibətləri prosesində itirdikləri gəlirlərinin və əmək haqlarının, əməkhaqqına əlavələrin, başqa ödənclərin, həmçinin digər xərclərin müəyyən olunmuş qaydada və məbləğdə əvəzinin ödənilməsi, habelə onların itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat forması.

Kollektiv müqavilələrdə müəssisənin əmək kollektivinin üzvlərinin qanunvericilikdə nəzərdə tutulan sığortalanma şərtlərindən daha üstün sosial sığorta olunmasının əlavə formaları, qaydaları, sığorta məbləğləri, sığorta mənbələri müəyyən edilə bilər.

İ.s.s. məcburi dövlət sığortası, onların özləri tərəfindən könüllü sığortalanması və işəgötürən tərəfindən aparılan əlavə sığorta formalarında həyata keçirilir. İşçilərin məcburi dövlət sığortası işəgötürənlər tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada və məbləğdə həyata keçirilən sosial sığortalanmadır. İşçilər öz vəsaitləri hesabına müəyyən olunmuş qaydada sosial sığorta müqavilələri əsasında könüllü surətdə sığorta oluna bilərlər.

İşçilərin sosial sığorta olunması prinsipləri, sosial sığorta hadisələri və onların müəyyən edilməsi, sosial sığorta üzrə ödəmələrin növləri, sosial sığorta iştirakçılarının hüquq və vəzifələri, məcburi dövlət sosial sığorta haqqı, ödəmələrin təyin edilməsinin şərtləri və qaydası, vəsaitlərin mənbələri, könüllü və əlavə sığorta üzrə ödəmələrin növləri, habelə sosial sığorta sahəsində digər münasibətlər AR ƏM ilə, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının 18 fevral 1997-ci il tarixli qanunu və onun əsasında qəbul edilmiş "Sığorta haqqında" 25 iyun 1999-cu il tarixli qanunla və digər normativ-hüquqi aktlarla tənzimlənir. İşçilərin sosial sığorta hüquqlarını məhdudlaşdıran və ya pozan hər hansı fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq məsuliyyətə cəlb edilir (AR ƏM-in 304-307-ci maddələri).

**İşçinin əmək funksiyası** – əmək qanunvericiliyinə görə işəgötürən işçinin əmək müqaviləsində nəzərdə tutulan, bir və ya bir neçə vəzifə, ixtisas, yaxud peşə üzrə yerinə yetirməli olduğu müvafiq işin və ya göstərməli olduğu xidmətin dairəsini dəqiq və birmənalı müəyyən etməlidir. Əmək funksiyasının həcmi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş Vahid Tarif-İxtisas Sorğu Kitabçasına əsasən və ya işəgötürən tərəfindən müəyyən edilərək əmək müqavilələrində təfsilatı ilə göstərilir.

Əmək funksiyasının dəyişdirilməsinə yalnız tərəflərin qarşılıqlı razılığı ilə yol verilir. Birtərəfli qaydada əmək funksiyasının dəyişdirilməsinə, onun dairəsinin azaldılmasına və ya artırılmasına yol verilmir. Əgər müəyyən səbəblərdən işəgötürən göstərilən işlərlə işçini təmin edə bilmədiyinə görə ona peşə-ixtisas dərəcəsinə uyğun olan başqa iş verəcəksə, işçi həmin işləri yerinə yetirməkdən yalnız orta əməkhaqqı saxlanılmadıqda imtina edə bilər (AR ƏM-in 57-ci maddəsi).

**İşçinin işdən kənar edilməsi** – əmək qanunvericiliyinə görə işəgötürən aşağıdakı hallarda mülkiyyətçinin və işçilərin mənafeyini qorumaq, baş verə biləcək əmə-

yin mühafizəsi qaydalarının pozulmasının qarşısını almaq və əmək intizamını təmin etmək məqsədi ilə işçini müvafiq iş vaxtı ərzində işdən kənar edə bilər: a) işçi alkoqollu içkilər, narkotik, toksik və digər zəhərli maddələr qəbul edərək sərxoş vəziyyətdə işə gəldikdə, habelə işə gəldikdən sonra iş yerində həmin içkiləri və ya maddələri qəbul edərək sərxoş vəziyyətdə olduqda; b) AR ƏM-in 226-cı maddəsi ilə müəyyən edilmiş hallarda işçi icbari tibbi müayinə olunmaqdan boyun qaçırdıqda və ya keçirilmiş müayinələrin nəticələrinə əsasən hakim komissiyalarının verdikləri tövsiyələri yerinə yetirmədikdə; c) iş vaxtı ərzində işçi bilavasitə iş yerində müvafiq səlahiyyətli orqanın qərarı ilə təsdiqlənən hüquqpozmaları və ya cinayət tərkibi olan ictimai təhlükəli əməllər törətdikdə.

İşçinin işdən kənar edilməsi hər bir konkret halda müvafiq sübutlar (həkim rəyi, işçilərin izahatları, arayışlar və digər rəsmi sənədlər) toplanaraq sənədləşdirilməlidir. İşdən kənar edilən vaxt ərzində işçiyə əməkhaqqı verilmir. İşdən kənar edilmiş işçiyə inzibati məsuliyyətə və ya cinayət məsuliyyətinə cəlb edilib-edilməməsindən asılı olmayaraq, işəgötürən AR ƏM-in 186-cı maddəsində nəzərdə tutulmuş intizam tənbehlərindən birini tətbiq edə bilər. İşdən kənar edilməsini işəgötürənin və ya başqa vəzifəli şəxslərin ona qarşı qərəzli münasibətinə, saxta sənədlər əsasında həyata keçirildiyinə və digər faktlara görə qanunsuz və əsassız hesab edən işçi pozulmuş hüquqlarının bərpa edilməsi, şərəf və ləyaqətinin müdafiə olunması üçün məhkəməyə müraciət edə bilər (AR ƏM-in 62-ci maddəsi).

**İşçinin müəssisənin gəlirindən pay almaq hüququ** – AR ƏM-in 180-ci maddəsinə uyğun olaraq işçilər, qanunvericiliklə müəyyən edilmiş qaydada yaradılan səhmdar cəmiyyətlərinin, habelə mülkiyyət payı bəlli olan digər müəssisələrin nizamnamələrində (əsasnamələrində) müəssisənin nəzərdə tutulan qaydada və məbləğdə müəyyən edilən gəlirinin müvafiq hissəsi miqdarında pay almaq hüququna malikdirlər. İşçilərin bu hüququnu məhdudlaşdıran və ya onları bu hüquqdan məhrum edən işəgötürən qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

**İşçinin pozulmuş hüquqlarının bərpasını iddia etmək hüququ** – əmək hüququna görə işçi AR ƏM-in 288-ci maddəsində göstərilmiş məsələlərlə bağlı hüquqlarının və ya qanunla qorunan mənafelərinin pozulduğunu aşkar etdikdə ƏM-də nəzərdə tutulmuş qaydada fərdi əmək mübahisələrini həll edən orqanlara müraciət edərək pozulmuş hüquqlarının bərpa edilməsini tələb edə bilər. Pozulmuş hüquqlarının bərpa edilməsi barədə işçi məhkəməyə, yaxud ƏM-in 294-cü maddəsində nəzərdə tutulmuş məhkəməyə qədər əmək mübahisələrini həll edən müvafiq orqana müraciət edə, habelə ƏM-in 295-ci maddəsi ilə müəyyən edilmiş şərtlərlə və qaydada təkbaşına tətil edə bilər. Pozulmuş hüquqlarının bərpası üçün işçi onun müvəkkil etdiyi nümayəndəsi vasitəsi ilə də əmək mübahisəsini həll edən orqana müraciət edə bilər. Hüquqlarının müdafiəsini həyata keçirmək üçün işçi öz nümayəndəsinə qanunvericilikdə nəzərdə tutulan qaydada tərtib edilmiş etibarnamə verməlidir (AR ƏM-in 292-ci maddəsi).

**İş dilləri** – beynəlxalq təşkilatların gündəlik işində qəbul olunmuş rəsmi dillər. Məsələn, BMT-nin rəsmi dilləri ingilis, fransız, rus, Çin dillərindən, iş dili isə ancaq ingilis və fransız dilindən ibarətdir.





**İş evi (işçi evi)** – XVII yüzillik – XX yüzilliyin başlanğıcında Avropanın bir sıra ölkələrində simasını itirmiş elementlərin məcburi saxlanması və istismarı üçün nəzərdə tutulmuş xüsusi ev. İ.e. XVII-XVIII yüzilliklərdə İngiltərədə geniş yayılmışdır. XIX yüzillikdə i.e. ideyası "təhlükəli vəziyyətin" daşıyıcılarına, yəni cinayət törətməyə meyilli olan şəxslərə qarşı sosioloji hüquq məktəbi tərəfindən preventiv tədbir qismində irəli sürülmüşdür. İ.e. ideyası XX yüzillikdə Latın Amerikası ölkələrində də yayılmışdır. Məsələn, Çilinin 1954-cü il Qanununa uyğun olaraq "sosial təhlükəlilikdən" ibarət olan şəxslər 5 il müddətinə i.e.-lərində və ya xüsusi kənd təsərrüfatı koloniyalarında yerləşdirilə bilərdilər.

**İşə baxılmasının təxirə salınması** – mülki-prosessual qanunvericiliyə görə işə baxılmasının təxirə salınmasına AR MPM ilə nəzərdə tutulmuş hallarda, habelə əgər hakim həmin məhkəmə iclasında işə baxılmasını qeyri-mümkün hesab edərsə, işdə iştirak edən şəxslərdən hər hansı biri gəlmədiyinə, qarşılıqlı iddia verildiyinə, əlavə sübutlar təqdim və tələb etmək zərurəti olduğuna, işdə iştirak etməyə digər şəxs cəlb edildiyinə, hər hansı digər prosessual hərəkətlər edilməyə görə yol verilir. İşə baxılması təxirə salındıqda, proses iştirakçılarını çağırmaq və ya sübutlar tələb etmək üçün zəruri olan vaxt nəzərə alınmaqla, məhkəmə iclasının yeni günü təyin edilərək, gəlmiş şəxslərə imzalamaqla bu barədə xəbər verilir. Gəlməmiş və işdə iştirak etməyə yeni cəlb edilmiş şəxslərə yeni məhkəmə iclasının vaxtı və yeri haqqında müəyyən olunmuş qaydada xəbər verilir.

Tərəflər məhkəmə iclasında olarsa, işə baxılması təxirə salındıqda məhkəməyə gəlmiş şahidləri dindirə və prosessual hərəkətlər edə bilər. Həmin şahidlərin yeni məhkəmə iclasına ikinci dəfə çağırılması və ya təkrar prosessual hərəkətlərin edilməsinə yalnız zəruri hallarda yol verilir (AR MPM-in 188-189-cu maddələri).

**İşəgötürən** – tam fəaliyyət qabiliyyətli olub işçilərlə əmək müqaviləsi (kontrakt) bağlamaq, ona xitam vermək, yaxud onun şərtlərini dəyişdirmək hüququna malik mülkiyyətçi və ya onun təyin etdiyi (müvəkkil etdiyi) müəssisənin rəhbəri, səlahiyyətli orqanı, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs.

Əmək münasibətləri sahəsində i. aşağıdakı hüquqlara malikdir: 1) qanunla müəyyən edilmiş qaydada işçilərlə əmək müqavilələri bağlamaq, onların şərtlərini dəyişdirmək, habelə əmək müqavilələrini ləğv etmək; 2) işçilərdən əmək müqaviləsi ilə müəyyən edilmiş şərtlərin, öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini tələb etmək; 3) işgüzar keyfiyyətinə, əməyinin nəticələrinə, peşəkarlıq səviyyəsinə uyğun olaraq işçini müvafiq vəzifələrə (peşələrə) irəli çəkmək; 4) işçilər əmək müqaviləsinin şərtlərini, müəssisədaxili intizam qaydalarını pozduqda və qanunvericiliklə müəyyən olunmuş qaydada onları intizam məsuliyyətinə cəlb etmək; 5) işçilərin ona və ya mülkiyyətçiyə vurduğu maddi ziyanın ödənilməsi üçün qanunvericiliyə müvafiq tədbirlər görmək; 6) əmək kollektivləri ilə və ya həmkarlar ittifaqları təşkilatı ilə kollektiv müqavilə bağlamaq və bu müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsinə nəzarət etmək; 7) əmək müqaviləsi bağlayarkən AR ƏM ilə müəyyən edilmiş qaydada və müddətə sınaq müddətini müəyyən etmək.

İ.-in əsas vəzifələri əmək müqaviləsinin şərtlərinə və onlarda nəzərdə tutulmuş

öhdəliklərə əməl etməkdən, AR ƏM-in və əmək qanunvericiliyinə aid digər normativ-hüquqi aktların tələblərini yerinə yetirməkdən, kollektiv müqavilələrin, sazişlərin şərtlərinə, onlarda nəzərdə tutulmuş öhdəliklərə əməl etməkdən, fərdi, kollektiv əmək mübahisələri üzrə məhkəmə qərardadını (qətnamələrini) yerinə yetirməkdən, işçilərin ərizə və şikayətlərinə qanunvericiliklə nəzərdə tutulmuş müddətdə və qaydada baxmaqdan və i.a. ibarətdir.

İşçilərin hüquqlarını pozan, əmək müqaviləsi üzrə öz öhdəliklərini yerinə yetirməyən, habelə AR ƏM-in tələblərinə əməl etməyən i. qanunvericilikdə müəyyən olunmuş qaydada müvafiq məsuliyyətə cəlb edilir.

**İşəgötürənin lokaut elan etmək hüququ** – əmək qanunvericiliyinə görə işəgötürən aşağıdakı hallarda həmkarlar ittifaqları təşkilatını və müvafiq icra hakimiyyəti orqanını azı 10 gün qabaqcadan yazılı xəbərdar etməklə müəssisəni bağlayacağı barədə lokaut elan edə bilər: 1) işəgötürənin qarşısında qoyulan kollektiv tələblərin yerinə yetirilməsi onun istehsal, iqtisadi, maliyyə və digər imkanlarına açıq-aşkar uyğun olmadıqda; 2) qanunsuz elan olunmuş tətil davam etdirildikdə; 3) onunla rəqabətdə olan işəgötürən (işəgötürənlər) və ya digər şəxslər tərəfindən tətilin keçirilməsinə işçilərin sövq edildiyi barədə təkzibolunmaz sübutlar, faktlar olduqda (AR ƏM-in 284-cü maddəsi).

**İşəgötürənin və işçinin qarşılıqlı maddi məsuliyyəti** – əmək qanunvericiliyinə görə əmək münasibətləri prosesində əmək müqaviləsi üzrə işəgötürən və işçi öhdəliklərini yerinə yetirərkən birinin digərinə vurduğu ziyana görə AR ƏM-də və müvafiq normativ-hüquqi aktlarda göstərilmiş qaydada qarşılıqlı maddi məsuliyyət daşıyırlar.

Aşağıdakı şərtlərin eyni zamanda hər üçü olduqda tərəflərin birinin digərinə qəsdən və ya ehtiyatsızlıqla vurduqları ziyana görə maddi məsuliyyəti yaranır: 1) ziyanın həqiqətən vurulduğu aşkar olduqda; 2) təqsirkarın əməli, yəni hərəkət və ya hərəkətsizliyi qanuna zidd olduqda; 3) təqsirkarın qanunazidd əməli ilə həmin əməlin nəticəsi arasında səbəbli əlaqə olduqda (AR ƏM-in 191-ci maddəsi).

**İşəgötürənlərin nümayəndəli orqanı** – sahibkarlıq fəaliyyətləri ilə əlaqədar sosial-iqtisadi hüquqlarını, mülkiyyət, istehsal və əmək münasibətləri ilə bağlı mənafelərini müdafiə etmək məqsədi ilə işəgötürənlərin könüllü birləşib yaratdıqları nizamnamə və müvafiq qanunvericilik əsasında fəaliyyət göstərən birlik.

İ.n.o.-nın hüquqları, vəzifələri, fəaliyyət istiqamətləri və qaydaları müvafiq normativ-hüquqi aktlarla və onun nizamnaməsi (əsasnaməsi) ilə tənzim edilir. İ.n.o. üçün işçilərin nümayəndəli orqanlarına nisbətən hər hansı üstün hüquqların, güzəştlərin, imtiyazların müəyyən edilməsi yolverilməzdir.

**İşə qiyabi baxılması – 1)** cinayət prosesində məhkəmənin işə təqsirləndirilən şəxsin iştirakı olmadan baxması. Azərbaycan Respublikasında buna yalnız birbaşa qanunda nəzərdə tutulmuş müstəsna hallarda yol verilir. Həmin hallara aşağıdakılar aid edilir: a) təqsirləndirilən şəxs Azərbaycan Respublikasının hüdudlarından kənarda olub məhkəməyə gəlməkdən imtina etdikdə; b) azadlıqdan məhrum etmə ilə əlaqədar olaraq ceza təyin edilə bilən cinayətlərə dair işlər üzrə təqsirləndirilən şəxs işə qiyabi baxılması barəsində vəsatət verdikdə; **2)** mülki prosesdə məhkəmənin iddiaçı, yaxud cavabdehin və ya hər ikisinin iştirakı olmadan işə baxılması. Üzrlü səbəb olmadan hər iki tərəf ikinci çağırışdan sonra məhkəməyə gəlmədikdə və işi əldə olan materiallar əsasında həll etmək mümkün hesab edildikdə, məhkəmə işə qiyabi baxılması haqqında qərar çıxara bilər.





**İşgəncə** – sülh və bəşəriyyət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 113-cü maddəsində nəzərdə tutulur. Tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərə fiziki ağrılar və ya psixi iztirablar verməmdə ifadə olunur.

**İşgəncə vermə** – həyat və sağlamlıq əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 133-cü maddəsində nəzərdə tutulur. Qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma əlamətləri olmadan mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə fiziki və ya psixi iztirablar verməmdə ifadə olunur.

**İş görülməsi** – haqqı ödənilən hər hansı işlərin görülməsi. İ.g. zamanı istifadə olunan mallar ayrıca təqdim edilmirsə və ya işlərin dəyərinə daxil edilməyən kompensasiyalı xərclər müqavilədə və ya ödəniş sənədlərində ayrıca göstərilmirsə, həmin mallar və ya xərclər iş görülməsinin ayrılmaz tərkib hissəsi hesab edilir.

**İş günü** (*hüquqda*) – **1)** növbəlilik cədvəlinə və ya iş qaydasına (istirahət günlərindən fərqli olaraq) uyğun olan iş günü; **2)** gündəlik işin davamiyyətinin – gün ərzində iş vaxtının saat və dəqiqələrinin qanunla müəyyən edilən norması.

**İşğal** (*hərbi işğal*) – beynəlxalq hüquqa görə düşmən ərazisinin silahlı qüvvələr vasitəsi ilə müvəqqəti olaraq tutulması (zəbt edilməsi). İ. zamanı ərazisi zəbt edilmiş dövlətin fəaliyyəti əslində dayandırılır, işğal olunmuş ərazini inzibati cəhətdən işğal qoşunlarının komandanlığı beynəlxalq hüquq normalarına riayət etməklə idarə edir.

**İşğalçı** – beynəlxalq hüquqda işğal aktı törətmiş dövlət. İ. qismində hər bir işğalda faktiki olaraq iştirak etmiş dövlətlər qrupu (məsələn, bir-birinə hərbi yardım göstərmək haqqında müqavilə bağlamış dövlətlər) çıxış edə bilərlər.

**İşğal niyyəti** – beynəlxalq hüquqda konkret situasiyada işğal aktının mövcudluğunun müəyyən edilməsi zamanı BMT-nin Təhlükəsizlik Şurası tərəfindən nəzərə alınan kriteriyalardan biri. Təhlükəsizlik Şurası işğal aktını nəzərdən keçirərək işğal niyyəti olan dövlətin əvvəlcə hərəkətlərinin başlanğıcını aydınlaşdırır. Məsələn, qüvvələr tətbiq etməklə ərazinin anneksiyasına cəhdlərin göstərilməsini, digər dövlətin ərzisinin hərbi cəhətdən zəbt edilməsini aydınlaşdırır.

**İşğal rejimi** – işğal edilmiş dövlətin ərazisində işğalçı dövlətin qoşunları tərəfindən müəyyən edilmiş rejim. İ.r. müharibə adətlərinə və qanunlarına (müharibə aparma adətlərinə) dair 1899-cu il və 1907-ci il Haaqa, 1949-cu il Cenevrə konvensiyaları ilə müəyyən edilmişdir. İ.r.-nə dair beynəlxalq hüquq normalarını pozmuş dövlət siyasi, maddi və mənəvi məsuliyyət daşıyır, bilavasitə təqsirkar şəxslər isə cinayət məsuliyyətinə cəlb edilirlər. İkinci dünya müharibəsi illərində faşist Almaniyası və onun müttəfiqlərinin işğal edilmiş

ərazilərdə törətdikləri cinayətlər İ.r.-nin amansızcasına pozulmasına misal ola bilər.

Müharibədən sonrakı i.r. hərbi işğaldan fərqlənir. Müharibədən sonrakı i.r., bir qayda olaraq, müvafiq dövlətlərin xüsusi beynəlxalq sazişləri əsasında (konkret olaraq hər hansı ölkə və ya ərazi üçün) müəyyən edilir.

**İş həftəsi** – hüquqda iş vaxtının təqvim həftəsində davamiyyətinin qanunla müəyyən edilmiş norması.

**İş ili** *(hüquqda)* – **1)** bir idarə, müəssisə və ya təşkilatda işçi və ya qulluqçu qismində işə daxil olma günündən hesablanan il; **2)** müvafiq təqvim ilində iş vaxtının davamiyyət norması; il ərzində təqvim üzrə iş günlərinin cəminin 6 günlük iş həftəsində iş gününün uzunluğuna vurulması yolu ilə hesablanır.

**İşi şəxsən yerinə yetirmək vəzifəsi** – mülki qanunvericiliyə görə podratçı işi şəxsən yerinə yetirməyə yalnız bunun müqaviləddən, yaxud konkret hallardan və ya işin xarakterindən irəli gəldiyi hallarda borcludur (AR MM-in 755-ci maddəsi).

**İşlərin görüldüyü və xidmətlərin göstərildiyi yer** – vergi qanunvericiliyinə görə AR VM-in məqsədləri üçün işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer aşağıdakılar sayılır; 1) daşınmaz əmlakın olduğu yer – işlər (xidmətlər) bilavasitə bu əmlakla bağlıdırsa; 2) işlərin faktiki görüldüyü (xidmətlərin faktiki göstərildiyi) yer - bunlar daşınan əmlakla bağlıdırsa; 3) xidmətlərin faktiki göstərildiyi yer – xidmətlər mədəniyyət, incəsənət, təhsil, bədən tərbiyəsi və ya idman sahəsində, yaxud digər anoloji fəaliyyət sahələrində göstərilirsə; 4) nəqletmənin faktiki həyata keçirildiyi yer - işlər (xidmətlər) bu nəqletmə ilə bağlıdırsa; 5) iş görənin və ya xidmət göstərənin nümayəndəliyinin yerləşdiyi yer – bu iş və ya xidmət həmin daimi nümayəndəliklə bilavasitə bağlıdırsa (AR VM-in 168-ci maddəsi).

**İşlərin vəziyyəti haqqında hesabat** – mülki qanunvericiliyə görə həcmləri AR MM-in 122.1-ci maddəsində göstərilənlərdən yüksək olan hüquqi şəxslər işlərin vəziyyəti haqqında hesabat tərtib etməlidirlər. Hesabatda ən azı illik hesabatın tərtib edildiyi ana qədər hüquqi şəxsin işlərinin gedişi və əmlak vəziyyəti əks etdirilməli, həm də elə əks etdirilməlidir ki, faktiki vəziyyətə uyğun mənzərə əldə olunsun. İşlərin vəziyyəti haqqında hesabatda təsərrüfat işinin sonunadək həyata keçirilmiş xüsusi əhəmiyyətli əməliyyatlar üzərində dayanılmalı, habelə hüquqi şəxsin cari ildə və imkan daxilində növbəti təsərrüfat ilində ehtimal olunan inkişafı göstərilməlidir (AR MM-in 125-ci maddəsi).

**İşləyib ödəmə** – Rusiyada XIX yüzilliyin ikinci yarısı və XX yüzilliyin əvvəllərində kəndlilərin icarəyə götürülmüş torpaq (əsasən torpaq kəsikləri), borc taxıl və pul, istifadə olunan biçənək və meşə materialları müqabilində öz avadanlığı və əməyi ilə mülkədar torpaqlarını becərməsi sistemi.

**İşsizlik** – cəmiyyətin ictimai quruluşunun sosial problemlərindən biri. İ. şəraitində əmək qabiliyyəti olan vətəndaşların bir hissəsi iş tapmadığına görə bir növ "artıq" əhaliyə, cəmiyyətin ehtiyat ordusuna çevrilir.

**İşsiz vətəndaşlar** – işi olmayan və əməkhaqqı almayan, əlverişli iş axtarışı məqsədilə məşğulluq xidməti orqanlarında qeydiyyatda olan və iş axtaran əmək qabiliyyətli vətəndaşlar.





**İş stajı** *(bax: əmək stajı).*

**İştirakçılığın növləri** – cinayət hüququna görə cinayətin icrası ilə birlikdə, təşkilatçısı, təhrikçisi və köməkçisi cinayətin iştirakçıları sayılırlar. Cinayəti bilavasitə törətmiş və ya başqa şəxslərlə birlikdə onun törədilməsində bilavasitə iştirak etmiş şəxs icraçı, cinayətin törədilməsini təşkil etmiş və ya həmin cinayətin törədilməsinə rəhbərlik etmiş, eləcə də mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) yaratmış və ya bunlara rəhbərlik etmiş şəxs cinayətin təşkilatçısı, ələ alma, sövdələşmə, hədə-qorxu gəlmə və ya digər üsullarla başqa şəxsi cinayət törətməyə sövq edən şəxs cinayətin təhrikçisi hesab olunur.

Cinayətin törədilməsində məsləhətləri, göstərişləri və məlumatları ilə, cinayət törədilməsi üçün alət və ya vasitələr verməklə və ya maneələri aradan qaldırmaqla yardım etmiş şəxs, habelə cinayət törətmiş şəxsi, cinayət alətlərini və ya vasitələrini, cinayətin izlərini, yaxud cinayət yolu ilə əldə edilmiş alətləri gizlətməyi, belə alətləri almağı və yaxud satmağı qabaqcadan vəd etmiş şəxs köməkçi sayılır (AR CM-in 32-ci maddəsi).

**İştirakçılıq** *(bax: cinayətdə iştirakçılıq).*

**İştirakçılıqla törədilmiş cinayətə görə cəza təyin edilməsi** – cinayət qanunvericiliyinə görə iştirakçılıqla törədilmiş cinayətə görə cəza təyin edilərkən iştirakçılardan hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakteri və dərəcəsi, cinayətkar məqsədə nail olunmasında belə iştirakın əhəmiyyəti, vurulmuş zərərin həcminə və xarakterinə onun təsiri nəzərə alınır. Cəzanı yüngülləşdirən və ya ağırlaşdıran hallar iştirakçılardan birinə aid olduqda, cəza təyin edilərkən yalnız həmin şəxsə münasibətdə nəzərə alınır (AR CM-in 64-cü maddəsi).

**İştirakçının tam ortaqlıqdan çıxması** – mülki qanunvericiliyə görə tam ortaqlıq iştirakçısının ortaqlıqda iştirakdan imtina etdiyini bildirərək ortaqlıqdan çıxmağa ixtiyari vardır. İştirakçı tam ortaqlıqda iştirakdan imtina etdiyini ortaqlıqdan faktiki çıxmasına ən geci altı ay qalmış bildirməlidir. Ortaqlıqdan çıxmaq hüququndan imtina haqqında ortaqlıq iştirakçıları arasında razılaşma əhəmiyyətsizdir.

Tam ortaqlıqdan çıxmış iştirakçıya, əgər nizamnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, həmin iştirakçının şərikli kapitaldakı payına uyğun ortaqlıq əmlakı hissəsinin dəyəri ödənilir. Çıxan iştirakçı ilə qalan iştirakçılar arasında razılaşmaya əsasən əmlak dəyərinin ödənilməsi əmlakın naturada verilməsi ilə əvəz edilə bilər. Çıxan iştirakçıya ortaqlıq əmlakından çatası hissə və ya onun dəyəri AR MM-in 80-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, onun çıxdığı məqamda tərtib edilən balans üzrə müəyyənləşdirilir (AR MM-in 77-78-ci maddələri).

**İş üzrə icraata xitam verilməsi** – mülki-prosessual qanunvericiliyə uyğun olaraq hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir: 1) iş məhkəmədə baxılmalı deyildirsə; 2) eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraatın xitam edilməsi haqqında məhkəmənin qərardadı olarsa; 3) eyni tərəflər arasında,

eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair xarici dövlətin məhkəməsinin qanuni qüvvəyə minmiş qətnaməsi varsa və həmin qətnamə Azərbaycan Respublikasının Ali məhkəməsi tərəfindən tanınmış və icraya qəbul edilmişsə; 4) iddiaçı iddiadan imtina etmişsə və bu imtina məhkəmə tərəfindən qəbul olunmuşsa; 5) tərəflər barışıq sazişi bağlamışlarsa və bu saziş məhkəmə tərəfindən təsdiq edilmişsə; 6) eyni tərəflər arasında, eyni predmet və eyni əsaslar üzrə mübahisəyə dair, məhkəmə münsiflər məhkəməsinin qətnaməsinin məcburi icra olunması üçün icra vərəqəsi verməkdən imtina etdiyi və ya işi yenidən baxılmaq üçün qətnaməni qəbul etmiş münsiflər məhkəməsinə qaytardığı, lakin işə həmin münsiflər məhkəməsində baxılmasının mümkün olmadığı hallardan başqa, münsiflər məhkəməsinin qanuni qüvvəyə minmiş qətnaməsi olarsa; 7) iş üzrə tərəflərdən biri olan şəxs öldükdən sonra mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə yol verməzsə; 8) işdə iştirak edən hüquqi şəxs ləğv olunmuşsa; 9) məhkəməyə müraciət etmiş maraqlı şəxs mübahisənin qabaqcadan məhkəmədən kənar həll edilməsi barəsində müəyyən kateqoriyadan olan işlər üçün qoyulmuş qaydada əməl etməmişsə və bu qaydanı tətbiq etmək imkanı itirilmişsə.

İş üzrə icraata xitam verilməsi barədə məhkəmə qərardad çıxarır. İşin icraatına xitam verildikdə eyni tərəflər arasında, eyni predmet haqqında və eyni əsaslar üzrə mübahisə barəsində məhkəməyə təkrar müraciət edilməsinə yol verilmir. Məhkəmənin qərardadından şikayət verilə bilər (AR MPM-in 261-262-ci maddələri).

**İş üzrə icraatın dayandırılması** – mülki-prosessual qanunvericiliyə görə hakim aşağıdakı hallarda iş üzrə icraatı dayandırmalıdır: 1) işdə tərəf olan şəxs öldükdə və ya hüquqi şəxs yenidən təşkil edildikdə, mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə və ya işdə tərəf olan hüquqi şəxsin xitamına yol verərsə; 2) tərəf fəaliyyət qabiliyyətini itirərsə; 3) iddiaçı, yaxud cavabdeh Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi əməliyyatlarında olarsa; 4) Konstitusiya Məhkəməsinin icraatı qaydasında, mülki, inzibati qaydada və ya cinayət qaydasında baxılan başqa bir iş həll edilməyincə işə baxmaq mümkün olmazsa; 5) Azərbaycan Respublikası Ali Məhkəməsinin icraatında eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair xarici dövlətin məhkəməsinin qərarının tanınması və icra edilməsi haqqında ərizə olarsa. Məhkəmə qanunla nəzərdə tutulan digər hallarda da iş üzrə icraatı dayandırır (AR MPM-in 254-cü maddəsi).

AR MPM-in 255-ci maddəsinə uyğun olaraq hakim işdə iştirak edən şəxslərin ərizəsi üzrə və ya öz təşəbbüsü ilə aşağıdakı hallarda iş üzrə icraatı dayandıra bilər: 1) tərəf Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və başqa silahlı birləşmələrində çağırış üzrə hərbi xidmətdə olduqda və ya digər dövlət vəzifəsini yerinə yetirməyə cəlb edildikdə; 2) tərəf uzunmüddətli qulluq ezamiyyətində olduqda; 3) tərəf müalicə müəssisəsində olduqda; 4) AR MPM ilə nəzərdə tutulan hallarda cavabdeh axtarıldıqda; 5) məhkəmə tərəfindən ekspertiza təyin olunduqda.

**İş üzrə icraatın dayandırılması və təzələnməsi qaydası** – mülki-prosessual qanunvericiliyə görə iş üzrə icraatın dayandırılması və onun təzələnməsi barədə məhkəmə qərardad çıxarır. Məhkəmənin bu qərardadından şikayət verilə bilər (AR MPM-in 258-ci maddəsi).





**İş üzrə icraatın təzələnməsi** – mülki-prosessual qanunvericiliyə görə işin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan sonra işdə iştirak edən şəxslərin ərizəsi üzrə və ya məhkəmənin təşəbbüsü ilə iş üzrə icraat təzələnir (AR MPM-in 257-ci maddəsi).

**İş yeri** – işçi (və ya işçilər qrupu) tərəfindən istehsalat funksiyalarının yerinə yetirilməsi üçün nəzərdə tutulan müəyyən məkanın bir hissəsi.

**İş vaxtı** – hüquqda təqvim müddətinin bir hissəsi; işçi və ya qulluqçu bu müddət ərzində ona göstərilən yerdə tapşırılmış işi və ya sair əmək öhdəliyini yerinə yetirməlidir.

**İtmiş heyvanlar və əşyalar** – mülki qanunvericiliyə görə, əgər təbii fəlakət və ya təsadüfi hadisələr nəticəsində əşyalar özgə torpaq sahəsinə düşərsə və ya vəhşi heyvanlar istisna olmaqla, heyvanlar özgə ərazisinə keçərsə, həmin torpaq sahəsinin mülkiyyətçisi ixtiyarlı şəxsin onların arxasınca gəlib onları götürməsinə icazə verməlidir. Bu zaman dəyən zərər üçün o, əvəz ödənilməsini tələb edə bilər və bununla əlaqədar həmin əşyaları saxlamaq hüququna malikdir (AR MM-in 177-ci maddəsi).

**İttifaq** – **1)** bir neçə dövlətlərin (məsələn, Yuqoslaviya İttifaq dövləti) və ya özünüidarə müstəmləkələrindən ibarət (məsələn, Avstraliya İttifaqı) vahid ali (mərkəzi) hakimiyyətə malik olan dövlət; **2)** ictimai birliklər, təşkilatlar (bu mənada "ittifaqlar azadlığı" anlayışından istifadə olunur); **3)** Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə hüquqi şəxslərin birliklərindən birinin adı.

**İttifaq dövləti** *(bax: federasiya).*

**İttifaq əraziləri** – Hind Federasiyasında altı özünü idarə etməyən subyektin (i.ə. istisna olmaqla; bu əraziyə 25 ştat daxildir) adı. Hindistan Konstitusiyasına uyğun olaraq i.ə. ölkə prezidenti tərəfindən onun təyin etdiyi şəxslər vasitəsilə idarə olunurdular. Hazırda i.ə.-nin bir hissəsini federal hökumət tərəfindən təyin edilən inzibatçılar (baş komissarlar), digər hissələrini isə leytenant-qubernatorun təyinatı yanında seçkili məclislər idarə edirlər.

**İttifaqlar azadlığı** *(bax: birləşmək hüququ).*

**İttifaq Məclisi** – İsveçrədə ali federal qanunvericilik orqanı; əhali tərəfindən 4 il müddətinə seçilir. İ.m. bərabərhüquqlu iki palatadan – Milli Şura və Kantonlar Şurasından ibarətdir. İM İttifaq Şurasının üzvlərini, İsveçrə prezidentini, silahlı qüvvələrin ali baş komandanını və başqa yüksək vəzifəli şəxsləri seçir. Xarici əlaqələr, büdcənin təsdiqi, ali ədliyyə nəzarəti və i.a. İM-in səlahiyyətinə aiddir.

**İttifaq müqaviləsi** – **1)** beynəlxalq hüquqda iki və ya bir neçə dövlət arasında bağlanan müqavilə; tərəflər öz üzərində müəyyən situasiyalarda birgə hərəkət etmək (məsələn, müharibə olduğu şəraitdə bir-birinə qarşılıqlı yardım göstərmək) öhdəliyini götürürlər; **2)** ittifaq (federativ dövlətin) dövlətinin yaradılması haqqında (məsələn, keçmiş SSR İttifaqının təşkili haqqında 30 dekabr 1922-ci il müqaviləsi) müqavilə.

**İttifaq Soveti** – keçmiş SSRİ Ali Sovetinin iki palatasından biri; ümumi, bərabər, birbaşa seçki hüququ əsasında gizli səs-

verma yolu ilə əhalisinin sayı bərabər olan seçki dairələri üzrə seçilirdi. İ.s. SSRİ Ali Sovetinin digər palatası – Millətlər Soveti ilə bərabər hüquqlara və səlahiyyətə, eyni dərəcədə qanunvericilik təşəbbüsü hüququna malik idi.

**İttifaq Şurası** – İsveçrədə ali federal icra hakimiyyəti orqanı, federal hökumət. İŞ İttifaq Məclisinin (parlamentin) 4 il müddətinə seçdiyi 7 üzvdən ibarətdir. Üzvlərdən hər biri departamentlərdən (siyasi, hərbi, daxili işlər, ədliyyə, polis, iqtisadiyyat, nəqliyyat, rabitə və energetika) birinə başçılıq edir. İttifaq Məclisi İŞ üzvlərindən (növbə ilə) İsveçrə prezidenti və vitse-prezidentini (1 il müddətinə) seçir.

**İttiham** – cinayət-prosessual qanunvericilikdə müəyyən edilmiş qaydada şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş konkret əməli törətməsinin israr edilməsi.

İ. cinayət məsuliyyətinə cəlb edilmiş şəxsin təqsirinin sübut edilməsinə yönəldilmiş prosessual fəaliyyətdir. İ.-ı qanunla nəzərdə tutulmuş orqanlar, yaxud buna səlahiyyəti olan vəzifəli şəxslər həyata keçirirlər. Dövlət ittihamı və xüsusi ittiham fərqləndirilir. Dövlət i.-nı prokuror, xüsusi i.-ı isə zərər çəkmiş şəxs və ya onun qanuni nümayəndəsi həyata keçirir.

**İttihamçı** *(bax: prokuror).*

**İttihamnamə** – prosessual sənəd. İ.-də iş üzrə cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin ittihamın formulu və işin məhkəmə aidiyyətinə görə verilməsi üçün prokurora göndərilməsi haqqında müstəntiqin (təhqiqat aparan şəxsin) son qərarı şərh edilir və əsaslandırılır. İ. istintaq başa çatdığı anda elan olunur.

**İttiham tərəfi** – cinayət-prosessual qanunvericiliyə görə birlikdə götürülmüş təhqiqatçı, müstəntiq, prokuror, həmçinin zərər çəkmiş şəxs, xüsusi ittihamçı və mülki iddiaçı.

**İt və pişik saxlama qaydalarını pozma** – inzibati xətaların bir növü. İnzibati xətalar haqqında qanunvericiliyə görə şəhərlərdə və ya digər yaşayış məntəqələrində it, pişik və ya başqa ev heyvanlarını saxlama qaydalarını pozma cərimə növündə inzibati cəzaya səbəb olur (AR İXM-in 126-cı maddəsi).

**İyerarxiya** *(yun. hierarchia, hier os – müqəddəs+arche – hakimiyyət)* – bütöv bir sistemin hissələrinin yuxarıdan aşağıya doğru yerləşməsi. "İ." termininə ilk dəfə V yüzilliyin ikinci yarısında Afina yepiskopu Dionisi Yalançı-Areopagitin traktatlarında təsadüf edilmiş və XIX yüzilliyədək xristian kilsəsinin quruluşun səciyyələndirmək üçün istifadə edilmişdir. Sosial elmlərdə i. əvvəllər antaqonist sinifli cəmiyyətin (məsələn, feodal iyerarxiyası) sosial təbəqə bölgüsünü təsvir etmək və hakimiyyətin strukturunu, xüsusilə də bürokratiyanı səciyyələndirmək üçün istifadə edilmişdir.

**İyul monarxiyası** – Fransa tarixində restavrasiya rejiminə son qoymuş İyul inqilabından (1830) İkinci respublikanın yaradılması ilə nəticələnən Fevral inqilabınadək (1848) olan dövr. İ.m. zamanı kral Lui Filippin şəxsində "...bütün fransız burjuaziyası deyil, onun yalnız bir fraksiyası... – maliyyə aristokratiyası adlananlar hökmranlıq edirdilər" *(K.Marks. bax: Marks Karl, Engels Fridrix. Seçilmiş əsərləri. 3 cilddə 1-ci cild. S.219).*





**İzahat** – Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə görə cinayət prosesi iştirakçılarının və ya ərizəçilərin özlərinin, yaxud təmsil etdikləri şəxsin tələblərini əsaslandırmaq üçün göstərdikləri şifahi və yazılı dəlillər.

**İzdivac** *(islamda)* – nikah bağlanması, nikah, ürs. İ. bərabərhüquqlu nikahdır. İ. qaydası islamda hələ islamaqədərki ailə hüquq normalarının kompleksi əsasında təşəkkül tapmış və islamın formalaşdığı ilk dövrlərdə işlənib hazırlanmışdır. Nikah islamda Allaha qaillik işi kimi qiymətləndirildiyinə görə bütün müsəlmanlar üçün müsbət hal hesab olunur. Hətta natamam hüquqlu və fəaliyyət qabiliyyəti olmayan müsəlmanların da nikaha daxil olmasına müsbət iş kimi baxılır. Müsəlman kişinin xristian və ya idudey qadınla nikaha daxil olmasına icazə verilsə də, müsəlman qadınının qeyri-müsəlmana ərə getməsi mümkün hesab olunmur. Müsəlman qadın yalnız müsəlman kişi ilə evlənə bilər. İslam aləmində nikah üçün məhdudiyyətlər son dərəcə azlıq təşkil etsə də, nikaha daxil olanların yaşa və ictimai vəziyyətə görə bir-birinə uyğunluğu tövsiyə olunur.

Şəriətə görə birinci nikahda qızın (gəlinin) razılığı tələb olunmur, onun atasının və ya himayəçisinin razılığı onun nikaha daxil olması üçün kifayət edir. Dul və ya boşanmış qadın isə öz razılığını etibar etdiyi şəxsin vasitəsilə bildirir. Nikaha daxil olanlar arasında qan qohumluğu yanakı xətlə qohumluğun üçüncü dərəcəsinə yaxın olmamalıdır. Düzünə xətlə qohumlar arasında isə nikah, ümumiyyətlə, qadağan olunur. Süd qohumluğu ikinci dərəcəyə yaxın olmalıdır. Ağanın öz kölə qadını ilə birgə yaşamasına yol verilsə də, ağanın öz köləsi ilə evlənməsi və ya qadının öz köləsinə ərə getməsi qadağan edilir. Özgə kölələrlə nikaha daxil olmağa, habelə yalnız ağanın icazəsi ilə kölələr arasında nikaha icazə verilir.

**İzlər** *(kriminalistikada)* – törədilmiş cinayətlə əlaqədar baş verən maddi nəticələr. İ.-in öyrənilməsi cinayətin şəraiti və xarakteri, cinayətin alətləri, cinayətkarın şəxsiyyəti haqqında mühakimə yürütməyə, istintaq fərziyyələri qurmağa və eyniləşdirmə aparmağa imkan verir.

**"İzolyasionizm"** – XIX yüzilliyin ortalarında başlıca olaraq ABŞ-ın xarici siyasət xəttini ifadə etmək üçün işlədilən termin; əsasını Avropa işlərinə, ümumiyyətlə, Amerika qitəsindən kənarda silahlı münaqişələrə qarışmamaq ideyası təşkil edirdi. ABŞ-ın yarandığı ilk dövrlərdə meydana gəlmiş "i." Amerika millətçiliyinin özünəməxsus ifadəsi olub, gənc ABŞ dövlətini, Amerika burjuaziyasının mənafelərini monarxist Avropadan (ilk növbədə, Amerika qitəsində itirilmiş mövqelərini bərpa etməyə səy göstərən Böyük Britaniyadan) qorumaqda mühüm rol oynamışdır.

**İzolyator** *(fr. isolateur – ayırmaq, təcrid etmək)* – hüquqda təcrid etmək mənasında işlədilir *(həmçinin bax: istintaq təcridxanası).*

# -J-


Jandarm ........ 581
Jandarmeriya ........ 581
Jeton ........ 581
Jirant ........ 581
Jirat ........ 581
Jirat etmək ........ 581
Jiro ........ 581
Jirobanklar ........ 581
Jiroçeklər ........ 581
Jiro hesablaşmalar ........ 581
Jirondistlər ........ 581
Jiroşöbələr ........ 581
Jupa ........ 581
Jurnalist ........ 581
Jurnalistin akkreditəsi (qeydə alınması) ........ 581
Jurnalist statusu ........ 582
Jüri ........ 582






**Jandarm** *(fr. gendarme)* – jandarmeriyada xidmət edən şəxs.

**Jandarmeriya** *(fr. gandarmerie)* – hərbi təşkilata malik olan və ölkə daxilində, habelə orduda mühafizə funksiyasını yerinə yetirən polis (səhra jandameriyası). J. 1791-ci ildə Fransada yaradılmışdır. J. Avropanın digər ölkələrində, o cümlədən 1827-1917-ci illərdə çar Rusiyasında da fəaliyyət göstərmişdir. O, Rusiyada siyasi təminatlı polis qoşun növü kimi mövcud olmuşdur. J. hazırda Fransada, Avstriyada, Türkiyədə, Böyük Britaniyada və Argentinada mövcuddur.

**Jeton** *(fr. jeton)* – **1)** hər hansı bir cəmiyyətə, quruma mənsubiyyəti əks etdirən metal nişan; **2)** nəyi isə əldə etməyə hüquq verən və metal sikkəni əvəz edən metal dairəcik.

**Jirant** *(ita. jirante)* – pul (veksel) və əmtəə-sərəncam sənədlərində, o cümlədən sığorta polisində imza edən şəxs.

**Jirat** *(ita. jirate)* – ixtiyarına vekselin və ya əmtəə-sərəncam sənədinin köçürüldüyü şəxs.

**Jirat etmək** – köçürmə qeydi vasitəsi ilə vekseli başqa şəxsin ixtiyarına köçürmə.

**Jiro** *(ita. giro – dövriyyə, tədavül)* – bir sıra xarici ölkələrdə nağdsız hesablaşmaların bir növü *(həmçinin bax: indosamment)*.

**Jirobanklar** – öz müştəriləri arasında nağdsız hesablaşmalar aparan banklar. Hazırda kommersiya və emissiya banklarının meydana gəlməsi ilə əlaqədar j.-a təsadüf olunmur. Lakin müasir banklar öz jiroşöbələrinə malikdirlər.

**Jiroçeklər** – öz jirohesabından çek sahibinin hesabına müəyyən pul məbləğinin köçürülməsi haqqında banka çekverənin əmrini özündə ehtiva edən çeklər. Çek üzrə alıcının və ödəyicinin jirohesabının olduğu bir bank daxilində nağdsız hesablaşmaların aparılması üçün istifadə olunur.

**Jiro hesablaşmalar** – bazar iqtisadiyyatına malik ölkələrin bankları və əmanət kassaları tərəfindən məbləğlərin bir hesabdan digərinə keçirməsi yolu ilə aparılan nağdsız hesablaşmaların bir növü. "J." terminindən həm də nağdsız hesablaşmaların bütün sisteminin adlandırılması üçün istifadə olunur.

**Jirondistlər** – Böyük Fransa burjua inqilabı dövründə siyasi qruplaşma (əslində siyasi partiya), respublikaçı ticarət-sənaye və əkinçilik burjuaziyasını təmsil edənlər.

**Jiroşöbələr** *(bax: jirobanklar)*.

**Jupa** – cənub və qərb slavyanlarında inzibati ərazi vahidinin adı. "J." terminine ilk dəfə X yüzilliyin ortalarına aid mənbələrdən erkən feodal Xorvat dövlətinin inzibati bölgü vahidi kimi rast gəlinir.

**Jurnalist** – qeydiyyatdan keçmiş kütləvi informasiya vasitəsi redaksiyası üçün məlumatların və materialların redaktə edilməsi, toplanması və ya hazırlanması ilə məşğul olan şəxs.

**Jurnalistin akkreditəsi (qeydə alınması)** – "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli qanununun 50-ci maddəsinə görə kütləvi informasiya vasitələri dövlət orqanlarının, idarə, müəssisə

və təşkilatların, ictimai birliklərin razılığı ilə müəyyən etdikləri akkreditə qaydalarına əməl etməklə onların nəzdində öz jurnalistlərini akkreditə etdirə bilərlər. Həmin orqanlar akkreditə olunmuş jurnalistə, qapalı tədbirlər istisna olmaqla, iclas-müşavirə və başqa tədbirlər barədə qabaqcadan məlumat verir, onun stenoqramlarla, protokollarla və başqa sənədlərlə tanış olması üçün şərait yaradırlar.

Jurnalist və ya redaksiya akkreditə qaydalarını pozduqda, akkreditə etmiş təşkilatın şərəf və ləyaqətini ləkələyən, yaxud təhrif olunmuş və ya həqiqətə uyğun olmayan məlumatlar yaydıqda həmin təşkilat jurnalisti akkreditədən məhrum edə bilər. Kütləvi informasiya vasitələri redaksiyalarının xüsusi müxbirlərinin akkreditəsi də bu qaydanın tələblərinə müvafiq olaraq həyata keçirilir.

**Jurnalist statusu** – "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli qanununa uyğun olaraq jurnalistin qanunla müəyyən edilmiş statusu aşağıdakılara şamil edilir: 1) kütləvi informasiya vasitəsinin məlumat toplamaq, hazırlamaq, redaktə etmək və istehsal etməklə (yaymaqla) məşğul olan ştatlı müxbirlərinə; 2) kütləvi informasiya vasitəsinin məlumat toplaması, hazırlanması və redaktəsi ilə bağlı tapşırıqlarını yerinə yetirən ştatdankənar müxbirlərinə.

**Jüri** *(fr. jury)* – Fransada, Böyük Britaniyada, ABŞ-da və bəzi ölkələrdə təqsirləndirilən şəxsi (müqəssiri) məhkəməyə verən və ya məhkəmə *verdiktini* çıxaran andlılar kollegiyası.





# -K-


Kabinet ........ 590
Kabotaj ........ 590
Kadast ........ 590
Kadastr ........ 590
Kadet korpusları ........ 590
Kadetlər ........ 590
Kadrlar ........ 590
Kaf ........ 590
Kalım ........ 590
Kalkulyasiya ........ 590
Kalliqrafiya ........ 590
Kalvinizm ........ 591
Kambio ........ 591
Kambist ........ 591
Kamera ........ 591
Kameral vergi yoxlaması ........ 591
Kamer-kollegiya ........ 591
"Kanoner diplomatiyası" ........ 591
Kanonik hüquq ........ 591
Kanonik proses ........ 592
Kanselinq ........ 592
Kansler ........ 592
Kanton ........ 592
Kantonistlər (kantoçular) ........ 592
Kapellan ........ 592
Kaperçilik ........ 592
Kapital ........ 593
Kapitan ........ 593
Kapitaniya ........ 593
Kapitoli ........ 593
Kapitulyasiya ........ 593
Kapral ........ 593
Karabinyerlər ........ 593
Karantin ........ 593
Karantin nəzarəti ........ 593
Karantin sertifikatı ........ 593
Kardinal ........ 594
Karqo ........ 594
Karma ........ 594
"Karolina" ........ 594
Karser ........ 594
Kart-blanş ........ 594
Kartel ........ 594
Kartel hüququ ........ 594
Kartel qiyməti ........ 594
Kartel sazişi ........ 594
Kasko ........ 594
Kassa ........ 594
Kassa dövriyyəsi ........ 595
Kassa əməliyyatı ........ 595
Kassa intizamı ........ 595
Kassa nağdlığı ........ 595
Kassa orderi ........ 595
Kassasiya ........ 595
Kassasiya icraatı ........ 595
Kassasiya instansiyası ........ 595
Kassasiya məhkəməsi ........ 595
Kassasiya şikayəti ........ 595
Kassir ........ 596
Kasta ........ 596
Kastet ........ 596
Kastrasiya ........ 596
Katarlar ........ 596
Katarsis ........ 596
Katib ........ 596
Katorqa ........ 596
Kaudilo ........ 597
Kayzer ........ 597
Kazak ........ 597
Kazak cəmiyyəti ........ 597
Kazak dairəsi ........ 597
Kazak icması ........ 597
Kazaklıq ........ 597
Kazino ........ 597

Kazual təfsir ... 597
Kazuistika ... 597
Kazus ... 598
Kazus belli ... 598
Kazus federis ... 598
"Kenquru" ... 598
Kerllər ... 598
Kesar ... 598
Keşikçi (qarovulçu) ... 598
Kəbin ... 598
Kələntər (kəlantər) ... 598
Kələntərlik ... 598
Kəmağıllıq (oliqofreniya) ... 598
Kəndxuda (kətxuda, kətta) ... 599
Kəndli (fermer) təsərrüfatı ... 599
"Kəndli (fermer) təsərrüfatı" haqqında" Azərbaycan Respublikasının qanunu ... 599
Kəniz ... 599
Kəsbkarlıq ... 599
Kəsiklər ... 599
Kəşf hüququ ... 599
Kəşfiyyat aviasiyası ... 600
"Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının qanunu ... 600
Kidneppinq ... 600
Killer ... 600
Kilsə hüququ ... 600
Kimyəvi silah ... 600
"Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının qanunu ... 600
Kirayəçinin ölümünün nəticələri ... 600
Kirayə müqaviləsi ... 601
Kirayə verənin girov hüququ ... 601
Kirill-medofi cəmiyyəti ... 601
Kisten ... 601
"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunu ... 601
Kizelqur ... 602
Klan ... 602
Klaustrofobiya ... 602
Klauzula ... 602
Kleptomaniya ... 602
Kler ... 602
Klerikal dövlət ... 602
Klerk ... 602
Klerkal ... 602
Klerkalizm ... 602
Kleruhiyalar ... 603
Kleruhlar ... 603
Kleymslar ... 603
Kleyton qanunu ... 603
Klinik kriminologiya ... 603
Klinik ölüm ... 603
Klirinq ... 603
Klirinq əməliyyatları ... 603
Klirinq fəaliyyəti (klirinq) ... 603
Klirinq hesablaşmaları ... 604
Klirinq müəssisəsi ... 604
Klirinq sazişi ... 604
Klirinq valyutaları ... 604
Kliyent ... 604
Knesset ... 604
Knyaz ... 604
Knyazlıq ... 604
Koalision hökumət ... 604
Koalisiya ... 604
Koqnat icraatı ... 604
Koqnatlar ... 605
Koqnomen ... 605
Koll ... 605
Kollec ... 605
Kollegiallıq ... 605
Kollegium ... 605
Kollegiya ... 605
Kollegiyalar ... 605
Kollektiv danışıqlar ... 605
Kollektiv hüquqlar ... 606
Kollektiv müqavilə ... 606
Kollektiv mülkiyyət ... 606
Kollektiv nişan ... 606
Kollektiv saziş ... 607
Kollektiv tədbirlər ... 607
Kollektiv təhlükəsizlik ... 607
Kollektiv tələblər ... 607
Kollektiv valyuta ... 607
Kollizion bağlılıq ... 608
Kollizion norma ... 608
Kolliziya ... 608
Kolliziya hüququ ... 608
Kolon ... 608





Kolonat ... 608
Koloniya ... 608
Komanda ... 608
Komanda məntəqəsi ... 608
Komandor ... 609
Kombatantlar ... 609
Komendant ... 609
Komendant saatı ... 609
Komendant üsul-idarəsi ... 609
Komendor ... 610
Komissar ... 610
Komissional sistem ... 610
Komissioner ... 610
Komissiya ... 610
Komissiya müqaviləsi ... 610
Komisyonçu ... 610
Komisyonçunun satış hüququ ... 610
Komisyonçunun təminat hüququ ... 611
Komisyon qiyməti ... 611
Komisyon muzdu ... 611
Komisyon rimessası ... 611
Komisyon ticarəti ... 611
Komitent ... 611
Komitsiyalar ... 611
Kommandist ... 611
Kommandit ortaqlığı ... 611
Kommendasiya ... 612
Kommersant ... 612
Kommersiya ... 612
Kommersiya aktı ... 612
Kommersiya bankları ... 612
Kommersiya kodu ... 612
Kommersiya konsessiyası ... 612
Kommersiya krediti ... 612
Kommersiyalaşdırma ... 612
Kommersiya məhkəmələri ... 612
Kommersiya nümayəndəsi ... 613
Kommersiya riski ... 613
Kommersiya sirri ... 613
Kommersiya subkonsessiya müqaviləsi ... 613
"Kommersiya şirkəti arasında sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi haqqında" Azərbaycan Respublikasının qanunu ... 613
Kommersiya təmsilçiliyi ... 613
Kommersiya təşkilatı ... 613
Kommersiya turizmi ... 613
Kommersiya vasitəçisi ... 613
Kommersiya vekseli ... 614
Kommersiya və ya bank sirri olan məlumatları qanunsuz əldə etmə və ya yayma ... 614
Kommivoyajer ... 614
Kommuna ... 614
Kommutasiya ... 614
Kommutativ müqavilə ... 614
Kompanonajlar ... 614
Komparativizm ... 614
Kompensasiya ... 614
Kompensasiya əqdi ... 614
Kompensasiya ödəmələri ... 614
Kompensasiya müqaviləsi ... 614
Kompensasiya rüsumları ... 614
Kompensasiya sazişləri ... 615
Kompensasiya ticarəti ... 615
Kompensator restitusiyası ... 615
Kompilyasiya ... 615
Kompleks ekspertiza ... 615
Komplektlik ... 615
Komplementari ... 615
Kompozisiya ... 615
Komprador ... 615
Kompromat ... 615
Kompyuter ... 615
Kompyuter cinayətləri ... 615
Kompyuter hüququ ... 616
Kompyuter informasiyasına qanunsuz olaraq daxil olma ... 616
Kompyuter virusu ... 616
Kondiksion iddia ... 616
Kondisiya ... 616
Kondominat ... 616
Kondominimum ... 616
Konfederasiya ... 616
Konfessial nümayəndəlik ... 617
Konfessionalizm ... 617
Konfirmasiya ... 617
Konformluq ... 617
Konfrans ... 617
Konfutsiçilik ... 617

Konfuziya ... 617
Konklav ... 618
Konklyudent hərəkətlər ... 618
Konkordat ... 618
Konkret cinayət ... 618
Konkret həyat situasiyası ... 618
Konkubinat ... 618
Konqlomerat ... 618
Konqres ... 618
Konosament ... 619
Konsaltinq ... 619
Konsaltinq firması ... 619
Konsendent ... 619
Konsensual əqd ... 619
Konsensus ... 619
Konsentrik dairələr ... 619
Konsern ... 620
Konservasiya ... 620
Konsessiya ... 620
Konsessiya müqaviləsi ... 620
Konsessiyonçu ... 620
Konsiqnant ... 620
Konsiqnasiya ... 620
Konsiqnasiya agenti ... 620
Konsiqnator ... 620
Konsistoriya ... 620
Konslager ... 620
Konsoli ... 620
Konsorial saziş ... 620
Konsorsium ... 620
Konspirasiya ... 621
Konstebl ... 621
Konstituanta ... 621
Konstitusionalizasiya ... 621
Konstitusionalizm ... 621
Konstitusiya ... 621
Konstitusiya adəti ... 621
Konstitusiya assambleyası ... 621
Konstitusiya ədalət mühakiməsi (konstitusiya ədliyyəsi) ... 621
Konstitusiya ədliyyəsi ... 622
Konstitusiya hüquq adətləri ... 622
Konstitusiya hüquq pozuntusu ... 622
Konstitusiya hüququ ... 622
Konstitusiya komissiyası ... 622
Konstitusiya qanunçuluğu ... 622
Konstitusiya qanunu ... 622
Konstitusiya qaydası ... 622
Konstitusiya quruluşu ... 622
Konstitusiyalı federasiya ... 623
Konstitusiyalı monarxiya ... 623
Konstitusiya meylliyi ... 623
Konstitusiya məhkəməsi ... 623
"Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının qanunu ... 623
Konstitusiya-müqaviləli federasiya ... 623
Konstitusiya nəzarəti ... 623
Konstitusiya prinsipləri ... 624
Konstitusiya prosesi ... 624
Konstitusiya-prosessual hüququ ... 624
Konstitusiya referendumu ... 624
Konstitusiya sazişi ... 624
Konstitusiya şikayəti ... 624
Konstitusiya şurası ... 624
Konstitusiya vəzifəsi ... 624
Konstitusiya yığıncağı ... 625
Konstruktiv etimadsızlıq votumu ... 625
Konsul ... 625
Konsulat ... 625
Konsul dairəsi ... 625
Konsul dərəcələri ... 625
Konsul ekzekvaturası ... 625
Konsul fakturası ... 626
Konsul hüququ ... 626
Konsul immuniteti ... 626
Konsul imtiyazları ... 626
Konsul konvensiyaları ... 626
Konsul leqallaşdırılması ... 626
Konsul lövhəsi ... 626
Konsulluq ... 626
Konsul nizamnaməsi ... 627
Konsul nümayəndəliyi ... 627
Konsul patenti ... 627
Konsul vəzifəli şəxs ... 627
Konsul yığımları ... 627
Konsul yurisdiksiyası ... 627
Kontanqo ... 627
Kontinental hüquq ... 627
Kontinental şelf ... 627
Kontingent ... 628
Kontingentdaxili dövlətlər ... 628
Kontingentləşdirmə ... 628
Kontingent müqavilələri ... 628
Kontinutet nəzəriyyə ... 628
Kontokorrent ... 628
Kontrabanda ... 628
Kontrafaksiya ... 628
Kontrafakt nüsxələr ... 629
Kontragent ... 629
Kontrakt ... 629
Kontraktant ... 629
Kontraktasiya ... 629
Kontraktasiya müqaviləsi ... 629
Kontraktın valyuta şərtləri ... 629
Kontrakt məsuliyyəti ... 629
Kontrasiqnasiya ... 629
Kontrasiqnatura ... 629
Kontrbalans ... 629
Kontribusiya ... 629
Kontrmarketinq ... 629
Kontroferta ... 629
Kontrreklam ... 630
Kontrstaliya ... 630
Konvensial normalar ... 630
Konvensiya ... 630
Konvensiya cinayətləri ... 630
Konvensiya prioriteti ... 630
Konvensiya tarifi ... 630
Konvent ... 630
Konvoy ... 630
Kooperasiya ... 631
Kooperativ ... 631
Kooperativ mülkiyyəti ... 631
Kooperativ payı (pay haqqı) ... 631
Kooptasiya ... 631
Kopiholderlər ... 631
Kopirayt ... 631
Korner ... 631
Kornet ... 631
Koroner ... 631
Korporasiya ... 632
Korporasiyaların cinayətkarlığı ... 632
Korporativ dövlət ... 632
Korporativ hüquq ... 632
Korporativizm ... 632
Korporativ muxtariyyət ... 632
Korporativ nümayəndəlik ... 632
Korpus yuris kanonisi ... 633
Korpus yuris sivilis ... 633
Korreal öhdəlik ... 633
Korrelyasiya ... 633
Korrupsiya ... 633
"Korrupsiya haqqında" Azərbaycan Respublikasının qanunu ... 633
Korrupsiya hüquqpozmaları ... 634
Korteslər ... 634
Kosmik məkan ... 634
Kosmos hüququ ... 635
Koşitse imtiyazı ... 635
Kotterlər ... 635
Kovernot ... 635
Kovxa (koxa) ... 635
Kovxalıq ... 635
Koza nostra ... 635
Köçürmə ... 635
Köçürmə vekseli ... 635
Köləlik ... 636
Köln mühakiməsi ... 636
Köməkçilik ... 636
Könüllü imtina ... 636
Könüllülər ... 636
Könüllü ödənişlər ... 637
Kral ... 637
Kredit ... 637
Kredit xətti ... 637
Kredit intizamı ... 637
"Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının qanunu ... 637
Kredit kortoçkası ... 637
Kredit kooperasiyası ... 638
Kredit kooperativləri ... 638
Kreditləşdirmə ... 638
Kredit məktubu ... 638
Kredit müqaviləsi ... 638
Kredit-nota ... 638
Kreditor ... 638
Kreditor borcu ... 638
Kreditor borcunu ödəməkdən qəsdən yayınma ... 638
Kredit restriksiyası ... 638

Kredit riski ... 638
Kredit sanksiyası ... 638
Kredit sazişi ... 638
Kredit sistemi ... 638
Kredit təşkilatı ... 639
Kredit valyutası ... 639
Kremasiya ... 639
Kremola ... 639
Kriminal ... 639
Kriminal ailə ... 639
Kriminal diatez ... 639
Kriminalist ... 639
Kriminalistika ... 639
Kriminalistika taktikası ... 639
Kriminalistika texnikası ... 640
Kriminalistik ballistika ... 640
Kriminalistik ekspertiza ... 640
Kriminalistik eyniləşdirmə ... 640
Kriminalistik fərziyyə ... 640
Kriminalistik fonoskopiya ... 640
Kriminalistik fotoqrafiya, kinematoqrafiya, videoyazı ... 640
Kriminalistik kibernetika ... 640
Kriminalistik kolleksiyalar ... 641
Kriminalistik qoloqrafiya ... 641
Kriminalistik metodika ... 641
Kriminalistik model ... 641
Kriminalistik modernləşdirmə ... 641
Kriminalistik odorologiya ... 641
Kriminalistik partlayıcı texnika ... 641
Kriminalistik poliqon ... 641
Kriminalistik proqnozlaşdırma ... 642
Kriminalistik uçot ... 642
Kriminalistik üsul ... 642
Kriminalistik vasitə və metodlar ... 642
Kriminal psixologiya ... 643
Kriminal simptomatologiya (fenomenologiya) ... 643
Kriminal sistem ... 643
"Kriminal şəxsiyyət" ... 643
Kriminalitet ... 643
Kriminofamilistika ... 643
Kriminogen amil ... 643
Kriminogenizm ... 644
Kriminogenlik ... 644
Kriminogen motivləşdirmə ... 644
Kriminogen situasiya ... 644
Kriminogen şərait ... 644
Kriminologiya ... 644
Kriminoloji (kriminogen) determinasiya ... 644
Kriminoloji eksperiment ... 644
Kriminoloji ekspertiza ... 645
Kriminoloji fəaliyyət ... 645
Kriminoloji (profilaktik) hüquq ... 645
Kriminoloji xarakteristika ... 645
Kriminoloji xidmət ... 645
Kriminoloji informasiya ... 645
Kriminoloji məktəb ... 645
Kriminoloji nəzarət ... 646
Kriminoloji nəzəriyyə ... 646
Kriminoloji pedaqogika ... 646
Kriminoloji planlaşdırma ... 646
Kriminoloji profilaktika ... 646
Kriminoloji proqnostika ... 646
Kriminoloji proqnoz ... 646
Kriminoloji proqnozlaşdırma ... 647
Kriminoloji proqramlaşdırma ... 647
Kriminoloji psixiatriya ... 647
Kriminoloji residiv ... 647
Kriminoloji situasiya ... 647
Kriminoloji siyasət ... 647
Kriminoloji tədqiqatlar ... 647
Kriminoloji viktimologiya ... 647
Kriminoloq ... 647
Kriminopnologiya ... 648
Kriptoqrafiya ... 648
Kross-kurs ... 648
"Kşatrilər" ... 648
Kuluarlar ... 648
Kumulyasiya ... 648
Kumulyativ cəza ... 648
Kumulyativ imtiyazlı səhm ... 648
Kumulyativ səsvermə ... 648
Kumulyativ votum ... 648
Kupon ... 648
Kupon vərəqəsi ... 649
Kurator ... 649





Kurfyuristlər ... 649
Kuriallar ... 649
Kurial sistem ... 649
Kuriat komitsiyası ... 649
Kuriat yığıncaqları ... 649
Kuriya ... 649
Kurort ... 649
Kurtaj ... 649
Kurul edilləri ... 649
Kuryer vərəqəsi ... 650
Kutyumlar ... 650
Kuzen nikahı ... 650
Kütləvi iğtişaş ... 650
Kütləvi informasiya ... 650
Kütləvi informasiya vasitələri ... 650
"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının qanunu ... 650
Kütləvi informasiya vasitəsi məhsulunun yayılması ... 650
Kütləvi informasiya vasitəsinin məhsulu ... 650
Kütləvi informasiya vasitəsinin redaksiyası ... 651
Kvazikontraktlar ... 651
Kvazikorporasiya ... 651
Kvestor ... 651
Kvestura ... 651
Kvirit hüququ ... 651
Kviritlər ... 651
Kvorum ... 651
Kvota ... 651
Kvotalaşdırma ... 651
Kvo varranto ... 651

**Kabinet** *(fr. cabinet)* – **1)** müəyyən işlə məşğul olmaq üçün nəzərdə tutulan otaq; **2)** Nazirlər Kabineti – bəzi ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında, Böyük Britaniyada hökumətin və ya onun bir hissəsinin adı.

**Kabotaj** *(fr. cabotage)* – bir ölkənin limanları arasında ticarət gəmiçiliyi. K.-ın iki növü fərqləndirilir: kiçik və böyük k. Kiçik k. dedikdə ölkənin bir dənizdə yerləşən limanları arasında gəmiçilik başa düşülür. Böyük k. bir dövlətin müxtəlif dənizlərdə yerləşən limanları arasında gəmiçilikdən ibarətdir. Müasir dövlətlərin əksəriyyətində k. gəmiçilik, müvafiq limanların məxsus olduğu dövlətin milli bayrağı altında üzən gəmilərin müstəsna hüququdur. Azərbaycan Respublikasının limanları arasında yük və sərnişin daşımaları ölkənin bayrağı altında üzən gəmilərdə müstəsna qaydada həyata keçirilə bilər.

**Kadast** *(fr. cadastre)* – **1)** can vergisi verməli olan şəxslərin siyahısı; **2)** müəyyən obyekt üzərində müntəzəm və ya fasiləsiz qaydada müşahidələr üçün tərtib edilən sistemli məlumatlar toplusu; **3)** rəsmi orqanların tərtib etdiyi siyahı, reyestr (cədvəl). Məsələn, torpaq kadastrı.

**Kadastr** – özündə obyektlərin qiyməti və orta mənfəətliliyi haqqında məlumatları ehtiva edən reyestr *(həmçinin bax: kadast).*

**Kadest korpusları** – 1918-ci ilədək Rusiyada əsasən zabitlərin uşaqları üçün təsis edilmiş qapalı orta hərbi-tədris müəssisəsi.

**Kadetlər** *(fr. cadet – kiçiklər)* – **1)** Feodal Fransasında və Prussiyasında zabit olanadək əsgər rütbəli və hərbi xidmətdə olan gənc zadəganlar; **2)** inqilabaqədərki Rusiyada və bəzi başqa dövlətlərdə kadet korpuslarının yetişdirmələri, XX yüzilliyin 80-ci illərindən isə ABŞ-da, Fransada hərbi tədris müəssisələrinin kursantları.

**Kadrlar** *(fr. cadre – şəxsi heyət)* – müəyyən idarə, müəssisə və təşkilatın əsas işçilərinin (ştatlı işçilərin) heyəti; bütün daimi işçilər.

**Kaf** – beynəlxalq ticarət termini. K. öz adını ingiliscə ifadə olunan "cost and freight" – dəyər və fraxt sözlərinin ilk hərflərindən götürmüşdür. KAF əqdinə görə satıcının vəzifəsi yükü dəniz yolu ilə gəmi limanına çatdırmaqdan ibarətdir. Gəmi daşıması müddətində yükü sığorta etdirmək vəzifəsi alıcının üzərinə düşür. Lakin satıcı yükün sığortalanması üçün zəruri olan bütün məlumatları alıcıya vaxtında bildirməlidir. Bu tələbə əməl edilməməsi yükün dəniz daşıması müddətində satıcının riskində olması kimi qiymətləndirilir.

**Kalım** – evlənərkən gəlinin mənsub olduğu tayfaya, sonralar isə onun valideynlərinə, yaxud qohumlarına verilən pul və ya mal. K. matrilokal nikahın patrilokal nikahla əvəz edildiyi dövrdə meydana gəlmişdir. O, ailə üçün işçi qüvvəsi hesab olunan gəlinin və onun cehizinin (əmlakının) itirilməsinin əvəzinə verilirdi. Bir çox tayfa və xalqlarda (Orta Asiya, Sibir, Qafqaz) yayılmış k. Azərbaycanda başlıq adı ilə mövcud olmuşdur.

**Kalkulyasiya** *(lat. calculatio – hesab)* – məhsul vahidlərinin və ya yerinə yetirilmiş işin maya dəyərinin hesablanması.

**Kalliqrafiya** *(yun. kalligraphia – gözəl xətt)* – hüsnxətt yazı mədəniyyəti. XVIII yüzilliyin sonu – XIX yüzilliyin başlanğıcında kriminalistikada sənədlərin tədqiqatının kalliqrafiya metodu tətbiq edilməyə başlamışdır. Bu vaxt yazının məhkəmə tədqiqatı üçün peşə məşğuliyyətinə görə müxtəlif xətlər üzrə xüsusi qabiliyyəti olan şəxslər cəlb edilməyə başlamışdır. Onlar adətən müəllimlərdən, iş icraçılarından, notariuslardan, hüsnxətt müəllimlərindən ibarət olmuşdur.

**Kalvinizm** – XVI yüzillikdə Qərbi Avropada reformasiya ideyalarının yayıldığı şəraitdə İsveçrədə təşəkkül tapmış dini-siyasi təlim. K.-in əsası Jan Kalvin tərəfindən qoyulmuşdur. J. Kalvin 1536-cı ildə nəşr etdirdiyi "Xristian etiqadına nəsihət" traktatında həmin təlimin dini əsaslarını işləyib hazırlamışdır. K.-ə görə allah adamların bir qisminin xilasını və müqəddəsliyini, digər qisminin isə məhvə məhkumluğunu qabaqcadan möhkəm şəkildə müəyyən etmişdir. Adamlar allahın iradəsini dəyişdirməkdə gücsüzdürlər. K. dini vasitələrlə burjua sosial-iqtisadi praktikasının formalaşmasına, Qərbi Avropada təşəkkül tapmaqda olan kapitalizm münasibətlərinin mənəvi iqliminə qüdrətli təkan vermişdir. Dövlət haqqında məsələlərdə çox diqqətli olan Kalvin törətdiyi zorakılığa, özbaşınalığa və qanunsuzluqlara görə feodal-monarxiya üsul-idarəsini tənqid etmiş və bütün hakimiyyətin ilahi səciyyə daşıdığını israr etmişdir. K. siyasi-hüquqi ideologiyası Qərbi Avropada ilk burjua (Niderland inqilabının) müvəffəqiyyətlə baş verməsinə mühüm təsir göstərmişdir.

**Kambio** *(ita. cambio – xırdalama)* – borc məktubu, veksel.

**Kambist** *(ita. cambist – dəyişdim)* – veksel əməliyyatları və xarici sikkə ticarəti ilə məşğul olan şəxs.

**Kamera** *(lat. camera – otaq)* – **1)** xüsusi təyinatlı qapalı otaq (məsələn, həbsxana kamerası); **2)** bəzi dövlət, hər şeydən əvvəl, məhkəmə idarələrinin (məsələn, məhkəməyə vermə kamerası) adı.

**Kameral vergi yoxlaması** – vergi yoxlaması; vergi ödəyənlər tərəfindən təqdim edilən bəyannamələr və sənədlər əsasında vergi orqanının yerləşdiyi yerdə (səyyar yoxlamadan fərqli olaraq) aparılır. K.v.y.-nın aparılması qaydası qanunvericiliklə müəyyən edilir.

**Kamer-kollegiya** – Rusiya imperiyasında 1718-ci ildən 1801-ci ilədək fasilələrlə fəaliyyət göstərmiş mərkəzi idarə. Dövlət vergilərinin müəyyən edilməsi, rüsumların toplanması ilə məşğul olmuş və natural mükəlləfiyyətlərin icrasını müşahidə etmişdir.

**"Kanoner diplomatiyası"** – kapitalist dövlətləri arasında geniş yayılmış təcavüzkar siyasət metodlarından biri; zəif ölkələri əsarətə almaq məqsədilə onların daxili işlərinə kobud müdaxilə üçün silahlı qüvvələrdən istifadə. "K.d." ifadəsi bu siyasətdə hərbi gəmilərdən – kanonerlərdən geniş istifadə olunması ilə əlaqədar yaranmışdır. Hələ 1897-ci ildə Almaniya bu "üsuldan" istifadə edərək dəniz desantının köməyi ilə Çinin Szyaçjou limanını tutmuş və Çində qeyri-bərabər müqavilə bağlamışdır. ABŞ hökuməti də "k.d." -na tez-tez əl atmış, təzyiq göstərmək istədiyi ölkələrin sahillərinə hərbi dəniz qüvvələri (məsələn, Dominakan Respublikasına, İran hadisələri ilə əlaqədar Hind okeanına və Fars körfəzinə) göndərmişdir.

**Kanonik hüquq** – kilsə kanonlarında, kilsə tərəfindən müəyyən edilən və həm kilsə, kilsə idarələrinin quruculuğuna, kil-

sə ilə qarşılıqlı əlaqələrinə, həm də möminlərin həyatına aid qaydalarda ehtiva olunan hüquq (qanun). Apostol qaydaları, kilsə qərarları, papaların qərar və sərəncamları k.h.-a aid edilir. K.h. xristianlığın Romada IV yüzillikdə hakim din kimi tanınmasından sonra sürətlə inkişaf etmişdir. Qərbi Avropada xüsusilə inkişaf edən k.h. XII yüzillikdə artıq məcəlləşdirilmişdir. Boloniya monarxı Qratsian kanonik hüquq toplusunu tərtib etdirmişdir ki, bu da tarixə Qratsian Dekreti (Decretum Gratiani) adı altında daxil olmuşdur. Dekret XVI yüzillikdə kanonik hüquq toplusunun – *corpus iuris canonici*-nin əsas hissəsinə çevrilmişdir. K.h. feodalizmin möhkəmlənməsinə və kilsənin feodal cəmiyyəti həyatına təsirinin güclənməsinə kömək etmişdir.

**Kanonik proses** – orta əsr Qərbi Avropasında kilsə məhkəmələrində təşəkkül tapmış mühakimə icraatı qaydası. X-XII yüzilliklərdə sübutlar sistemində su (soyuq və ya qaynar) ilə sınaqdan çıxarma k.p.-də əsas yer tutmuşdur. Belə sınaqlar əsasən ittiham olunan bidətçilərə (yeresləre) tətbiq edilmişdir. Ordalinin bu növü "kanonik təmizləmə" adını almışdır. K.p.-in sınaqdan çıxarma kimi inkvizisiya qaydası əvvəllər kilsə xidmətçiləri tərəfindən törədilən cinayətlərə görə onlara tətbiq edilir. Sonralar isə bidətçilərin və katolik kilsənin tənqidçilərinin təqibində və cəzalandırılmasında geniş tətbiq edilməyə başlamışdır.

**Kanselinq** – dəniz daşıması müqaviləsində gəmi sahibi ilə gəminin yüklənmiş vəziyyətdə verilməli olduğu fraxtaçı arasında müəyyən edilən son müddət. Gecikdirmə fraxtaçıya çarterin qüvvəsini kanselinqləşdirmə (dayandırma) hüququ verir; belə müqaviləyə xitam vermə aktı.

**Kansler** *(alm. kanzier)* – **1)** Avropanın bir sıra dövlətlərində kral dəftərxanasının rəisi, dövlət başçılarının sarayında adətən katiblərin vəzifələrini icra edən vəzifəli şəxs; **2)** Çar Rusiyasında dövlət kansleri – ali mülki rütbə; **3)** Almaniyada 1871-1945-ci illərdə reyxskansler, hökumətin başçısı, habelə Avstriyada hökumətin başçısı – federal kansler; **4)** Böyük Britaniyada maliyyə-xəzinə kansleri – maliyyə naziri; lord-kansler – lordlar palatasının sədri və kabinetin üzvü.

**Kanton** *(fr. canton – dairə, mahal)* – **1)** İsveçrədə federal ərazi vahidinin adı. Hər k.-un öz konstitusiyası, qanunvericilik və icra orqanı vardır; **2)** Belçika və Fransada inzibati ərazi vahidi. Fransada departamentin Baş Şurasına seçkilər zamanı seçki dairələri də k. adlanır.

**Kantonistlər (kantonçular)** – **1)** Prussiyada 1733-1813-cü illərdə kantonlardan (mahallardan) hərbi xidmətə çağırılan şəxslər. Hər bir kanton öz alayını komplektləşdirirdi; **2)** XIX yüzilliyin birinci yarısında Rusiyada təhkimçilik hüququ əsasında, doğulduğu gündən hərbi qeydiyyata alınan əsgər oğulları k. adlanırdı.

**Kapellan** *(lat. capellanus)* – **1)** kiçik kilsə (kapella) və ya ev kilsəsi yanında geniş; həmçinin prixod keşişinin köməkçisi; **2)** ordu keşişi burjua dövlətlərində, bir qayda olaraq, zabit və ya general rütbəsi olur. Dini vəzifələrdən əlavə əsgər və zabitlərin mənəvi-siyasi əhval-ruhiyyəsinə k. nəzarət edir.

**Kaperçilik** *(hol. caper – dəniz quldura)* – rəqibin və bitərəf dövlətlərin yük daşıyan gəmiləri ələ keçirmək və məhv etmək üçün dövlətdən xüsusi icazə (kaper şəhadətnaməsi) almış şəxsi ticarət gəmilərinin hərbi əməliyyatları. K. orta yüzilliklərdə daha geniş yayılmışdır. Əslində dəniz quldurluğuna çevrilən k. ticarətin inkişafına ziyan vurmuşdur. 1856-cı ildə Paris konqresində k.-i qadağan edən bəyannamə imzalanmışdır. Müasir beynəlxalq hüquqda əsasən müharibə dövründə hərbi gəmisi olmayıb hərbi əməliyyatlar aparan gəmilərin hərəkətləri dəniz quldurluğu kimi qiymətləndirilir.







**Kapital** *(alm. kapital; fr. capital – başlıca əmlak, başlıca məbləğ)* – kapitalizm şəraitində muzdlu fəhlələrin istismar olunması münasibətlərini ifadə edən iqtisadi kateqoriya.

**Kapitan** *(fr. capitan – sərkərdə)* – bir sıra dövlətlərin ordusunda, o cümlədən Azərbaycan Respublikasının Silahlı Qüvvələrində zabit rütbəsi. K. rütbəsi ilk dəfə Fransada təsis edilmiş və orta əsrlərdə əlahiddə hərbi dairələrin rəislərini k. adlandırmışlar. İdman oyunlarında komandaya başçılıq edən, kollektivin oyun intizamına məsul olan oyunçu da kapitan adlandırılır.

**Kapitaniya** – XVI yüzillikdə - XIX yüzilliyin başlanğıcında Braziliyada və Portuqaliyanın digər müstəmləkələrində – Madeyra, Azorsk, Kabo-Verde adalarında inzibati ərazi vahidi.

**Kapitoli** *(capital)* – Vaşinqtonda ABŞ Konqresinin və ayrı-ayrı ştatların qanunvericilik məclisinin binası.

**Kapitulyasiya** *(beynəlxalq hüquqda)* – müharibə dövründə döyüşən tərəflərdən birinin döyüş əməliyyatlarını tam və qəti surətdə dayandırmaq üsulu və ya ayrı-ayrı qarnizonları mühasirəyə almış qruplaşmalara təslim etmək üsulu. K. zamanı bütün hərbi texnikanı və hərbi əmlakı qalib gələn tərəf əldə edir, silahlı qüvvələrin şəxsi heyəti isə hərbi əsirlər vəziyyətinə keçirlər. K. formal olaraq müharibə vəziyyətinin bitməsi demək deyildir.

**Kapral** *(fr. capral)* – bəzi xarici dövlətlərin ordularının (məsələn, Polşanın, ABŞ-ın, İtaliyanın və i.a.) kiçik komandir heyətində əsgər rütbəsi.

**Karabinyerlər** *(fr. carabinier)* – İtaliyada, Çilidə və digər dövlətlərdə, habelə Moldovanın daxili qoşunlarında jandarmeriyanın şəxsi heyətinin adı.

**Karantin** *(ita. quarantina – qırx gün)* – infeksion xəstəliklərin epidemik ocaqlarından yayılmasının qarşısını alan, habelə infeksiya ocaqlarını ləğv edən inzibati sanitariya və tibbi-sanitariya tədbirləri kompleksi. İlk dəfə XIV yüzillikdə İtaliyada tətbiq edilmişdir. Müasir k. tədbirləri IV Ümumdünya Səhiyyə Təşkilatının qəbul etdiyi beynəlxalq sanitariya qaydaları ilə tənzimlənir.

**Karantin nəzarəti** – ölkədə yoluxucu epidemik xəstəliklərin və kənd təsərrüfatı zərərvericilərinin ləğv edilməsi üzrə dövlət tərəfindən həyata keçirilən sanitar tədbirləri.

**Karantin sertifikatı** – import (eksport) edilən bitkilərin, bəhər və tərəvəzlərin zərərvericilər və ya xəstəliklərə tutulmadığını təsdiq edən sanitar sənəd.

**Kardinal** *(lat. cardinalis – baş)* – katolik kilsəsi iyerarxiyasında Roma papasından sonra ikinci hesab olunan və yepiskopdan yüksək pilləni tutan dini vəzifəli şəxs. K. papanın kilsəni idarəetmə işləri üzrə müşaviri və köməkçisi sayılır. O, papa tərəfindən təyin edilir.

**Karqo** *(isp. carqo – yük, yükləmə)* – gəmidə daşınmalı olan və dəqiq adının göstərilmədiyi hallarda yükün sığortalanmalı olduğunu bildirən termin.

**Karma** – Qədim Hindistanın siyasi və hüquqi fikrində siyasi-hüquqi kateqoriyalardan biri. K. dini davranış qaydalarının təmin edilməsi metodu olmuşdur. O, borca əməl edilməsinə görə mükafatlandırmada, əməl edilməməsinə görə isə cəzalandırmada (dendidə) ifadə olunurdu. "K." sanskrit sözüdür və hər cür formada – fikirdə, fiziki hərəkətdə və sözdə insan fəaliyyəti deməkdir. K.-ya ilahi fəaliyyətin nəticəsi kimi baxılmışdır. Buddizmdə o, ali qüvvələrin qarışmasından asılı olmayaraq təxirəsalınmaz qanun kimi başa düşülmüşdür. K. doktrinası sosial bərabərsizliyə və təbəqə-kasta (varnalar) quruluşuna haqq qazandırmışdır.

**"Karolina"** – ümumgerman cinayət qanunları toplusu; 1532-ci ildə V Karl hökmranlıq etdiyi dövrdə tərtib edilmiş və adını da buradan götürmüşdür. Cəza tədbirlərinin xüsusi amansızlığı ilə fərqlənmişdir.

"K." XVIII yüzilliyin sonunadək qüvvədə olmuşdur.

**Karser** *(lat. carser – dustaqxana, türmə)* – ictimai təhlükəli əməl törətməkdə təqsirli bilinən şəxslərin müvəqqəti olaraq tək saxlandığı yer. Cəzaçəkmə yerlərində qanun pozuntusuna (həbsxananın daxili qaydalarının pozuntusuna) yol verən məhbuslar da müəyyən müddətə k.-də saxlanılırlar.

**Kart-blanş** *(fr. carte blanche)* – **1)** başqa şəxsə bu blankı mətnlə doldurmaq hüququnu verən şəxs tərəfindən imzalanan təmiz (doldurulmamış) blank; **2)** qeyri-məhdud səlahiyyətlər, hərəkətlərin tam azadlığı.

**Kartel** *(fr. cartel)* – müəssisələrin müqavilə əsasında birləşməsi. K. iştirakçıları maliyyə və istehsalat müstəqilliklərini saxlamaqla, qiymətyaratmanın ümumi siyasətini müəyyən edir, patent və texnologiya mübadiləsi aparır, istehlak bazarında təsir sferalarını genişləndirirlər.

**Kartel hüququ** – Avropa İttifaqı ölkələrində antiinhisar qanunvericiliyin adı. Bu qanunvericilik iqtisadiyyatın ayrı-ayrı sahələrindəki (məsələn, fermer (kəndli) təsərrüfatında) kartellər istisna olmaqla bütün növdən olan kartellərin qadağan olunmasına yönəldilmişdir. İqtisadiyyatın müəyyən bir sahəsində kartelin fəaliyyət göstərməsinə xüsusi şərtlərlə yol verilir.

**Kartel qiyməti** – rəqabətçilərin aradan qaldırılması məqsədi ilə kartel iştirakçıları tərəfindən müəyyən edilən inhisar qiymətlərinin bir növü.

**Kartel sazişi** – rəqabət mübarizəsini yüngülləşdirmək və ümumi maliyyə və istehsal siyasətinin müəyyən edilməsi əsasında daha yüksək mənfəətlər əldə etmək məqsədi ilə istehsalçılar və ya istehlakçılar arasında eyniadlı məhsullara dair bağlanan saziş.

**Kasko** *(ita. casco)* – nəqliyyat vasitələrinin (gəmilərin, təyyarələrin, avtomobillərin) sığorta edilməsi zamanı tətbiq edilən termin. K. ancaq daşıyıcı vasitələrin özünün zədələnməsindən və ya məhv olmasından irəli gələn zərərin ödənilməsini nəzərdə tutur və sərnişinlərin, daşınan əmlakın, üçüncü şəxslər qarşısında məsuliyyətin sığortasını özündə ehtiva etmir.

**Kassa** *(ita. cassa – qutu)* – **1)** təşkilatın malik olduğu nağd pullar; **2)** idarə, müəssisə və təşkilatların kassa əməliyyatlarını





yerinə yetirən struktur bölməsi; **3)** mühasibat uçotunda "nağd pulların hərəkətini, mədaxil və məxaricini əks etdirən hesab; **4)** pulların və digər sərvətlərin qəbulu, saxlanması, verilməsi üçün xüsusi qurğulaşdırılmış bina.

**Kassa dövriyyəsi** – təşkilatın kassasından keçən nağd vəsaitlərin dövriyyəsi.

**Kassa əməliyyatı** – nağd pulların qəbulu, saxlanması və verilməsi. Bu qayda maliyyə hüquq normaları ilə tənzimlənir və xüsusi hüquq institutunu təşkil edir.

**Kassa intizamı** – idarə, müəssisə və təşkilatlar tərəfindən nağd pullarla əlaqədar mədaxil və məxaric qaydalarının, pulların xərclənməsinin, kassa qalıqları limitlərinin yerinə yetirilməsi.

**Kassa nağdlığı** – idarə, müəssisə və təşkilatların kassalarında olan nağd pullar.

**Kassa orderi** – idarə, müəssisə və təşkilatlara nağd pulların verilməsi və onlardan qəbulu üzrə kassa əməliyyatlarını rəsmiləşdirən pul sənədi.

**Kassasiya** *(lat. cassatio – ləğv, məhv etmə)* – **1)** qanunların pozulması və ya mühakimə icraatı qaydalarına aşağı məhkəmə instansiyası tərəfindən əməl edilməməsi səbəblərinə görə onların hökm və qərarlarının (qərardad və qətnamələrinin) yuxarı instansiya məhkəməsi tərəfindən ləğv edilməsi, yaxud onlara yenidən baxılması; **2)** seçkilərin kassasiyası – seçkilərin etibarsız hesab edilməsi və konstitusiyanın, yaxud seçki qanunlarının pozulması nəticəsində onların ləğv edilməsi.

**Kassasiya icraatı** *(bax: kassasiya instansiyası).*

**Kassasiya instansiyası** *("ikinci instansiya")* – hökmlərdən, qərar, qərardad və qətnamələrdən verilən kassasiya şikayəti və ya protest üzrə işlərə və birinci instansiya məhkəməsinin qərardadlarından və həmin hakimin qərarlarından verilən xüsusi şikayətlərə baxan məhkəmə instansiyası. Azərbaycan Respublikasında k.i. hökmü, yaxud qətnaməni çıxarmış məhkəməyə görə yuxarı məhkəmədir. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi üçün Azərbaycan Respublikasının Ali Məhkəməsinin Mülki İşlər üzrə Məhkəmə Kollegiyası, Cinayət İşləri üzrə Məhkəmə Kollegiyası kassasiya instansiyasıdır.

**Kassasiya məhkəməsi** – bir sıra dövlətlərdə işlərə kassasiya instansiyası qismində baxan, habelə hüquq normalarının təfsirini verən və aşağı məhkəmələr tərəfindən qanunlara əməl edilməsinə nəzarət edən xüsusi yuxarı məhkəmələrin adı. Məsələn, İtaliyada ölkənin yüksək məhkəmə orqanı k.m., Belçika və Fransada K.m. adlandırılır.

**Kassasiya şikayəti** – məhkəmənin qanuni qüvvəyə minməmiş hökmündən, qətnaməsindən verilən şikayət. Cinayət işləri üzrə məhkəmə hökmündən məhkum, onun müdafiəçisi və qanuni nümayəndəsi, zərər çəkən şəxs və onun nümayəndəsi, mülki işlərdə iddiaçı, cavabdeh və işdə iştirak edən digər şəxslər k.ş. verə bilər. Prokuror hər bir qanunsuz və əsassız çıxarılmış hökm, yaxud qərardan kassasiya protesti verməlidir. Azərbaycan Respublikasının Ali Məhkəməsi istisna olmaqla, bütün məhkəmələrin hökm və qərarlarından k.ş. verilə bilər. Kassasiya instansiyasında işlərə kollegial surətdə (3 hakimdən ibarət tərkibdə) baxılır. Kassasiya instansiyası hökm və ya qəra-

rı dəyişmədən saxlaya, yaxud ləğv edə, işi yenidən istintaqa, habelə yenidən məhkəmədə baxılmaq üçün qaytara bilər.

**Kassir** – kassaya rəhbərlik edən vəzifəli şəxs; pulları, qiymətli kağızları qəbul edir və verir, habelə biletləri satır.

**Kasta** *(port. casta – icma, nəsil)* – **1)** Şərq ölkələrində öz nəsillərinin mənşəyi və hüquqi vəziyyəti ilə bağlı olan ictimai qrup, zümrə, silk. Məsələn, Hindistandakı kastalar indi də mövcuddur. Cəmiyyətin kastalara bölgüsü sosial bərabərsizliyin mənbəyidir; **2)** öz silki imtiyazı ilə öz mənşəyini qısqanclıqla qoruyan ictimai zümrə, qrup, təbəqə.

**Kastet** – polad lövhəcik halında barmaqlara geyilən və yumruqla bükülən soyuq silah (beşbarmaq). Mülki və xidməti silah kimi dövriyyəsi qanunla qadağan edilmişdir.

**Kastrasiya** – üzərində cərahiyyə aparılmış cinsiyyət funksiyasını məhv edən cərahiyyə əməliyyatı. K.-ya bəzi xarici ölkələrin cinayət hüququ tarixində preventiv təsir tədbirlərindən (antropoloji və sosioloji cinayət hüquq məktəbi ideyalarının təsiri altında) biri kimi baxılmışdır. K. cinsi cinayətlərə meyilli olan şəxslər üçün nəzərdə tutulmuş, belə cərrahiyyə əməliyyatına cinayət törətmək meyli psixikanın qüsurları nəticəsində irsən keçən şəxslər də məruz qalmışdır. K. ilk dəfə 1913-cü ildə ABŞ-ın İndiana ştatında, sonra isə digər ştatlarda tətbiq edilmiş, Danimarkanın Cinayət Məcəlləsində (1930) cinayət əməli kimi nəzərdə tutulmuşdur. İkinci dünya müharibəsi dövründə Hitlerçilər tərəfindən yüz minlərlə irsi, fiziki və psixi çatışmazlığı olan xəstələrə tətbiq edilmişdir. Bu əməliyyata məruz qalanların əksəriyyəti yəhudi və polyaklardan ibarət olmuşdur. Ölkələrin böyük əksəriyyətinin müasir cinayət qanunvericiliyində k.-nın tətbiqinə görə cinayət məsuliyyəti nəzərdə tutulmur.

**Katarlar** *(yun. katharos – təmiz)* – XI-XIII yüzilliklərdə Qərbi Avropada sosial-siyasi zəmində feodal kilsə istismarı və milli zülm əleyhinə mübarizə aparan bidətçilər (yereslər). K.-ın müxalifətçi mövqeyi, hər şeydən əvvəl katolik kilsəsinin kəskin tənqidi ilə bağlı idi. K. katolik kilsəsinin iyerarxik strukturunu, təmtəraqlı ayinlərini, kilsənin Məsihin həqiqi təlimini təhrif etməsini qəbul etmirdilər. K. nəinki rəsmi kilsəni və onun institutlarını, həm də dövlətçiliyi və sosial həyatın bütün quruluşunu inkar edirdilər. Onların cəmiyyətin ən yoxsul təbəqələrinin mənafelərini ifadə edən proqramı katolik kilsəsini ən erkən xristianlığın ideyalarına qayıtmağa çağırırdı.

**Katarsis** *(kriminologiyada)* – incəsənət əsərinin insana təsiri ilə əlaqədar olaraq onda əmələ gələn emosional titrəmə, daxili saflaşma və mənəvi gərginlik.

**Katib** *(ər. yazan)* – idarə, müəssisə, təşkilat, ayrı-ayrı şəxslər üçün kargüzarlıqla məşğul olan xidmətçi. İclasın, məclisin və ya yığıncağın protokolunu tərtib edən şəxs də k. adlanır. Elmi müəssisələrdə cari işlərə (elmi katib) və ya icra orqanına (dövlət katibi) rəhbərlik edən vəzifəli şəxs k. adlandırılır.

**Katorqa** *(yun. caterga)* – zorakı hüquqi adət və qanunlarla idarə edilən dövlətlərdə məhbusları ağır fiziki əməyə cəlb etməklə bağlı olan xüsusi cəza növü. "K." termini orta əsrlərdə yaranmışdır. Məhbuslardan gəmilərdə avar çəkənlər qismində istifadə edilmiş, daş karxanalarında işlərə cəlb edilmiş məhbuslar hətta ayaqları zəncirlənmiş vəziyyətdə işlədilmişlər. K. cəzası Rusiyada XVII yüzilliyin ortalarından tətbiq edilməyə başlamışdır. Məhkum olunanlar arasında əsas yeri siyasi məhbuslar tuturdu.





**Kaudilo** *(isp. caudillo – başçı)* – 1939-1975-ci illərdə İspaniyada dövlət başçısının – keneralissimus F. Frankonun rəsmi titulu. K. dövlətə rəhbərlikdə, siyasi və hərbi sahədə qeyri-məhdud səlahiyyətlərə malik idi.

**Kayzer** *(alm. kaiser)* – "Müqəddəs Roma imperiyasının" (962-1806-cı illərdə) və alman imperiyasının (1871-1918-ci illərdə) imperatoru.

**Kazak** *(türk dillərində – qoçaq, azad adam)* – **1)** XIV-XVII yüzilliklərdə Rus dövlətinin sərhəd rayonlarında məskunlaşmış vergidən azad kəndlilər; **2)** sosial mühit ilə əlaqəni kəsmiş və Rus dövlətini qonşu feodal dövlətlərinin, yarımköçəri xalqların torpaqlarından ayıran ərazilərdə məskunlaşmış qaçqın təhkimli kəndlilər, xoloplar, şəhər yoxsulları; **3)** XVIII yüzillikdən 1917-ci ilədək Rusiyada torpaqdan güzəştli istifadə müqabilində hərbi xidmətdə olan hərbi təbəqənin nümayəndəsi.

**Kazak cəmiyyəti** – dövlət qulluğu çəkməyi öz üzərinə könüllü götürmüş kazak təşkilatı; Rusiya Federasiyasının kazak cəmiyyətlərinin dövlət reyestrinə daxil edilmişdir və müvafiq kazak icmasının tərkib hissəsidir.

**Kazak dairəsi** – kazak icmasının, kazak cəmiyyətinin nümayəndəli orqanı, kazaklar icmasından, cəmiyyətindən çağırılan kazaklar birliyi və ya kazaklar birliyinin seçkili nümayəndələri.

**Kazak icması** – kazak özünüidarəsinin təşkili, qorunması və məişət, təsərrüfat ənənələrinin, mədəni adətlərin, torpaq sahibliyinin və ondan istifadənin inkişafı məqsədi ilə yerlərdə yaşamaq üçün yaradılan kazak ərazi birliyi.

**Kazaklıq** – XVIII yüzillikdə - XX yüzilliyin başlanğıcında Rusiyada hərbi təbəqə. XIV-XVII yüzilliklərdə icarə üzrə işləyən azad adamlar; sərhəd rayonlarında hərbi xidmət çəkən adamlar (qorodovoylar və mühafizəçi kazaklar); XV-XVI yüzilliklərdə Rusiya dövlətinin sərhədləri xaricində (Dneprdə, Donda, Volqada, Uralda və Terekdə) azad kazakların özünüidarə icmaları (əsasən qaçqın kəndlilərin) yaranmışdır. Çar hökuməti k.-dan sərhədlərin mühafizəsi üçün istifadə edirdi. XVIII əsrdə k.-ı özünə tabe edən hökumət onlardan müharibələrdə də istifadə etməklə onları imtiyazlı hərbi təbəqəyə çevirmişdi. XX yüzilliyin başlanğıcında II kazak qoşunu (Don, Kuban, Zabaykalye və i.a.) mövcud olmuşdur. K. 1920-ci ildə ləğv edilmiş, 1980-ci illərin sonundan başlayaraq isə kazak təşkilatları yenidən dirçəlməyə başlamışdır.

**Kazino** *(fr. carino; italyanca carino – evcik)* – ruletdən, oyun stollarından kart və aşıq oyunları üçün), habelə digər oyun qurğularından istifadə edilməklə və pul, yaxud əmlak uduşlarının elan olunması ilə həyata keçirilən qumar oyunları binası.

**Kazual təfsir** *(bax: qanunun kazual təfsiri).*

**Kazuistika** – **1)** hüquq normalarına uyğun olaraq həll edilmə baxımından məhkəmə işlərinin (kazusların) ayrı-ayrı nümunələrinə baxılması; **2)** yalan və şübhəli müddəaların sübut edilməsində fəndgirlik, zirəkçilik və ya fərasətlilik; **3)** süründürməçilik, əngəl törətmə.

**Kazus** *(lat. casus)* – **1)** hadisə, hüquq pozuntusunun zahiri əlamətlərinə malik olan, lakin təqsir elementindən məhrum olan və buna görə də cəzalandırılmayan təsadüfi hərəkət; **2)** mürəkkəb və ya dolaşıq iş.

**Kazus belli** *(lat. casus belli)* – dövlətlər arasında müharibə vəziyyətinin yaranması üçün bilavasitə formal bəhanə. K.b. keçmişdə açıq hərbi əməliyyatlar üçün qanuni əsas olmuş, müharibəyə və onun həqiqi səbəblərinin gizlədilməsi məqsədlərinə haqq qazandırılmasına xidmət etmişdir. Müharibə aparmaq hüququnun ləğvi ilə bərabər k.b. üçün əsaslar da aradan çıxmışdır.

**Kazus federis** *(lat. casus feoderis)* – meydana çıxması beynəlxalq müqavilədə tərəflərə müəyyən hərəkətləri etməyi başlamağa, yaxud etməkdən çəkinməyə əsas verən şərti və ya hüquqi fakt. Məsələn, beynəlxalq konvensiyalarda müharibə aparmaq qaydaları haqqında aktlarda k.f. hərbi münaqişədə iştirak edən dövlətlərin özləri tərəfindən müəyyən edilmiş humanitar hüquq normalarını tətbiq etməyə və onlara əməl etməyə borclu olduqları anın müəyyən edilməsinə xidmət edir.

**"Kenquru"** – Böyük Britaniyanın və bəzi başqa ölkələrin parlament təcrübəsindən qəbulun adı. "K." mahiyyəti ondan ibarətdir ki, spiker billin məruzə edilməsi mərhələsində təklif edilmiş düzəlişlərdən hansının qanun layihəsi ilə əlaqədar müzakirəyə çıxarılıb-çıxarılmamasını müəyyən edir. Məsələ spikerin mülahizəsi əsasında həll edilir.

**Kerllər** – erkən orta əsrlərdə İngiltərədə sıravi azad icmaçılar. IX-XI yüzilliklərdə k. feodal-asılı kəndlilərə çevrilmişlər.

**Kesar** *(lat. caesar – sezar)* – **1)** Qədim Romada Yuli Sezarın mənsub olduğu Yuli ailəsinin qollarından birinin adı; **2)** imperiya dövründə imperator və onun varislərinin titulu; **3)** XI yüzilliyin sonunadək əksərən Bizans imperatorlarının ailə üzvlərinə verilən rütbə.

**Keşikçi (qaravulçu)** – müəyyən obyekti (mülki və ya hərbi obyekti) qoruyan silahlı (və ya silahsız) şəxs.

**Kəbin** *(bax: nikah).*

**Kələntər (kəlantər)** – orta əsrlərdə Yaxın Şərqin bəzi ölkələrində, o cümlədən Azərbaycanda mövcud olmuş vəzifə, şəhər rəisi. K.-lər şəhərin inzibati və mülki işlərinə rəhbərlik edirdilər. İri şəhərlərin k.-ləri adətən şah, XVIII yüzilliyin ikinci yarısından isə xan tərəfindən (Azərbaycanda) təyin edilirdilər. K. vergilərin miqdarının müəyyən edilməsinə və toplanmasına da nəzarət edirdi. Kəndlərdə k. vəzifəsini kəndxuda icra edirdi.

**Kələntərlik** – orta əsrlərdə Yaxın Şərqin bəzi ölkələrində, o cümlədən Azərbaycanda kələntərin xeyrinə əhalidən toplanan vergi. Miqdarı dəqiq deyildi və əsasən şəhər əhalisindən toplanırdı. Qarabağ xanlığında geniş yayılmışdı.

**Kəmağıllıq (oliqofreniya)** – anadangəlmə və ya uşaqlıq dövründə meydana gələn əqli zəiflik vəziyyəti, ya da getdikcə şiddətlənən bu və ya digər psixi xəstəlik nəticəsində inkişaf edən əqli zəiflik vəziyyəti. K. psixi xəstəlik deyil, əqli cəhətdən inkişafın olmamasıdır. O, daimi xarakter daşıyır. Belə xəstələrin əksəriyyəti adətən anlaqlı hesab olunurlar. Öz hərəkətlərini ölçüb-biçmək və ya idarə et-





mək iqtidarında olmayan oliqofrenlər cinayət məsuliyyətinə cəlb olunmurlar. Belə şəxslərə cinayət qanunvericiliyinə uyğun olaraq tibbi xarakterli məcburi tədbirlər tətbiq edilir.

**Kəndxuda (kətxuda, kətta)** – feodalizmə qədər İran və Orta Asiyada böyük ailə icmasının başçısı. Feodalizmdə hakim sülalə üzvlərinə məxsus təsərrüfatı idarə edən k. (XIII yüzilliyədək) kənd, yaxud məhəllə başçısı, kovxa və i.a. mənalarda işlədilmişdir. Kəndin (məhəllənin) bir neçə kəndxudası ola bilərdi. XVI-XIX yüzilliklərdə Azərbaycan kəndlərində də çoxlu kəndxudalar olmuşdur. Onlar əsasən yerlərdə inzibati-polis vəzifəsini yerinə yetirirdilər.

**Kəndli (fermer) təsərrüfatı** – mülkiyyətinə verilmiş torpaq üzərində əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalı, emalı və satışı ilə məşğul olan vətəndaşların əmək birliyi olmaqla, sərbəst sahibkarlıq formalarından biri. K.t. ailə üzvlərinin və onlarla birgə daimi işləyən digər şəxslərin ümumi mülkiyyətində olan istehsal alət və vasitələrinə, əsasən, bir ailə üzvlərinin əməyinə əsaslanan, hüquqi şəxs statusuna malik olan müstəqil təsərrüfat subyektidir. K.t. bir nəfərdən ibarət ola bilər. Bu təsərrüfatla əlaqədar münasibətlər "Kəndli (fermer) təsərrüfatı haqqında" Azərbaycan Respublikasının 8 aprel 1992-ci il tarixli qanunu ilə tənzim edilir.

**"Kəndli (fermer) təsərrüfatı haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında kəndli (fermer) təsərrüfatlarının təşkilinin və fəaliyyətinin iqtisadi, sosial və hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı. Qanun Azərbaycan Respublikası vətəndaşlarının kəndli təsərrüfatları yaratmaq hüququnu elan edir, bu hüquqa təminat verir və təsərrüfatçılığın digər formaları ilə yanaşı onların bərabər inkişafı üçün şərait yaradır.

Bu qanun 8 aprel 1992-ci il tarixdə qəbul olunmuş, ona 5 noyabr 1996-cı il, 25 aprel 1997-ci il tarixdə əlavə və dəyişikliklər edilmişdir. Qanun 6 bölmə və 43 maddədən ibarətdir.

Bu qanun 14 may 2002-ci ildə qüvvədən düşmüş, əvəzində 14 iyun 2005-ci ildə "Ailə kəndli təsərrüfatı haqqında" qanun qəbul edilmiş və həmin qanun 23 noyabr 2005-ci ildə qüvvəyə minmişdir.

**Kəniz** *(ər. qaravaş, qulluqçu)* – keçmişdə Yaxın Şərqin bir sıra ölkələrində, o cümlədən Azərbaycanda saraylarda varlı şəxslərin evlərində xidmət edən (hüquqsuz) qadın. Qaravaş bəzən cariyə də adlandırılırdı. Müharibə vaxtı əsir düşmüş, yaxud bir hakim tərəfindən digərinə bağışlanmış və ya qul kimi satılmış (satın alınmış) qız və ya gəlin də k. hesab olunurdu.

**Kəsbkarlıq** – kəndlilərin qazanc dalınca müvəqqəti olaraq sənaye və kənd təsərrüfatı sahələrində işləməyə getməsi. Feodalizm quruluşunun sonlarında meydana çıxan bu proses kapitalizmin inkişafı dövründə xüsusilə güclənmişdir. Kənddə əmtəə-pul münasibətlərinin inkişafı, sosial təbəqələşmənin dərinləşməsi k.-ın başlıca səbəbləri olmuşdur.

**Kəsiklər** – Rusiyada 1861-ci il kəndli islahatından sonra mülkədarların xeyrinə ayrılan və kəndlilərin istifadəsində olan torpaqların bir (kəsik) hissəsi.

**Kəşf hüququ** – kəşf müəllifinin əldə etdiyi hüquq. Kəşfin müəllifi kəşfə öz müəllifliyinin və kəşfin açılmasında öz birinciliyinin qəbul edilib, ona kəşflər, ixtiralar

və səmərələşdirici təkliflər haqqında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş əsasnamə ilə nəzərdə tutulan hallarda və qaydada diplom verilməsini tələb etmək hüququna malikdir. Kəşfin müəllifi diplomu alarkən haqq almaq, habelə kəşflər, ixtiralar və səmərələşdirici təkliflərə dair əsasnamə ilə nəzərdə tutulmuş güzəştlərdən istifadə etmək hüququna malik olur. Kəşfin müəllifi öldükdə, kəşf üçün diplom və haqq almaq hüququ qanunla müəyyən edilmiş qaydada vərəsələrə keçir. Kəşfə müəlliflik (şərikli müəlliflik) ilə əlaqədar mübahisələr məhkəmə qaydasında həll edilir.

**Kəşfiyyat aviasiyası** – uzaq (strateji) cəbhə aviasiyası və Hərbi Dəniz Donanması aviasiyası növü. Quru və dəniz (okean) ərazisində gedən hərbi əməliyyatlar haqqında məlumat əldə etmək üçün hava kəşfiyyatı aparır. Çox inkişaf etmiş ölkələrin orduları gündüz və gecə vaxtı müxtəlif üsullarla (vizual, fotoşəkilçəkmə, radiolokasiya) kəşfiyyat aparmağa imkan verən xüsusi pilotlu və pilotsuz uçuş aparatları (təyyarə, avtomatik aerostat və i.a.) ilə təchiz olunurlar.

**"Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən olunmuş azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməyən digər iqtisadi fəaliyyət növü ilə məşğul olmaq hüququnun həyata keçirilməsi məqsədi daşıyan və Azərbaycan Respublikasında kiçik sahibkarlığa dövlət köməyinin iqtisadi, hüquqi, təşkilati əsaslarını, forma və üsullarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 4 iyun 1999-cu il tarixdə qəbul edilmişdir. O, 18 maddədən ibarətdir.

**Kidneppinq** *(ing. kidnapping – uşaq oğurluğu)* – hədə-qorxu ilə mənfəət əldə etmək məqsədi ilə adamların, başlıca olaraq uşaqların oğurluğu.

**Killer** *(ing. killer)* – muzdlu qatil.

**Kilsə hüququ** *(bax: kanonik hüquq).*

**Kimyəvi silah** – zəhərləyici maddələr və bunların tətbiqi üçün vasitələrdən ibarət kütləvi qırğın silahı. Tətbiq vasitələrinə zəhərləyici maddələrlə təchiz edilmiş müxtəlif növ raketlər, reaktiv mərmilər, aviasiya bombaları, minalar, artilleriya mərmiləri və i.a. daxildir.

**"Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında kinematoqrafiyaya dövlət himayəsinin formalarını, kinematoqrafiya fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyənləşdirən, incəsənətin spesifik növü olan kinematoqrafiyanın qorunması və inkişafı sahəsində dövlət siyasətinin həyata keçirilməsinə hüquqi təminat yaradan qanunvericilik aktı.

Bu qanun 3 iyul 1998-ci il tarixdə qəbul edilmişdir. O, dörd fəsil və 16 maddədən ibarətdir.

**Kirayəçinin ölümünün nəticələri** – mülki qanunvericiliyə görə kirayəçinin öldüyü halda kirayə müqaviləsi üzrə hüquq münasibətləri, əgər başqa kirayəçilər varsa, onlarla davam etdirilir. Başqa kirayəçilər olmadıqda kirayə müqaviləsi üzrə hüquq münasibətləri vərəsələrlə davam etdirilir. Növbəti kirayəçinin və ya vərəsənin qanunla müəyyənləşdirilmiş xəbərdarlıq müddətlərini gözləməklə kirayə müqaviləsi üzrə hüquq münasibətlərinin ləğvinə





dair bildiriş vermək hüququ vardır. Kirayəçinin arvadı (əri) və ya ailə üzvləri kirayə hüquq münasibətlərinə daxil olduqdan sonra kirayəçinin ölümündən əvvəl əmələ gəlmiş öhdəliklər üzrə vərəsə ilə yanaşı birgə borclular kimi məsuliyyət daşıyırlar. Arvad (ər) və ya ailə üzvləri ilə münasibətlərdə vərəsə məsuliyyəti tək daşıyır. Əgər kirayə hüquq münasibətlərində girən vərəsə, arvad (ər) və ya ailə üzvü kirayə müqaviləsinin ləğvi üçün vacib əsaslar verilərsə, kirayəyə verən qanunla müəyyənləşdirilmiş xəbərdarlıq müddətlərini gözləməklə kirayə müqaviləsinin ləğvinə dair bildiriş verə bilər (AR MM-in 695-ci maddəsi).

**Kirayə müqaviləsi** *(bax: əmlak kirayəsi).*

**Kirayəyə verənin girov hüququ** – mülki qanunvericiliyə görə hər hansı torpaq sahəsini və ya hər hansı otaqları kirayəyə verən kirayə hüquq münasibətlərindən irəli gələn tələbləri üzrə kirayəçinin həmin torpaq sahəsində və ya həmin otaqlarda olan əşyaların girov qoyulması hüququna malikdir. Girov hüququ cari və növbəti ildən uzun müddət üçün zərərin əvəzinin ödənilməsi və kirayə haqqının verilməsi haqqında gələcək tələblər üzrə həyata keçirilə bilməz. Bu hüquq girov qoyula bilməyən əşyalara şamil edilir. Torpaq sahəsindən və ya otlaqlardan əşyaların aparılması kirayəyə verənin girov hüququnu ləğv edir, amma əşyaların kirayəyə verənə xəbər verilmədən və ya onun şikayəti üzrə aparıldığı hallar istisnalıq təşkil edir. Əgər əşyalar kirayəçinin müəssisəsinin hüquqa uyğun işi çərçivəsində aparılmışdırsa və ya qalan əşyalar kirayəyə verənin təmin edilməsi üçün aşkar yetərlidirsə, kirayəyə verən əşyaların aparılması barədə şikayət verə bilməz. Əgər kirayəyə verənin girov hüququnun şamil edildiyi hər hansı əşya başqa kreditor üçün girov götürülürsə, həbs qoyulmasından və bir il əvvəldən çox müddət üçün kirayə haqqı ilə bağlı girov hüququ həmin kreditora qarşı irəli sürülə bilməz (AR MM-in 698-ci maddəsi).

**Kirill-medofi cəmiyyəti** – 1845-ci ilin dekabrı - 1846-cı ilin yanvarında Kiyevdə yaradılmış gizli siyasi təşkilat. Məqsədi Ukrayna başda olmaqla demokratik slavyan federasiyası yaratmaqdan, təhkimçilik hüququnun, zadəgan imtiyazlarının, feodal təsisatlarının və i.a. ləğvinə nail olmaqdan ibarət olmuşdur. N.İ. Kostomarov, N.İ. Qulak, T.Q. Şevçenko və başqaları təşkilatın fəal üzvləri olmuşlar. Cəmiyyət yaranmaqda olan Ukrayna burjuaziyasının mənafeyini müdafiə etmiş və liberal-islahatçı mövqelərdə dayanmışdır. K.-m.c. 1847-ci ilin martında öz üzvlərinin həbsi ilə əlaqədar fəaliyyətini tamamilə dayandırmışdır.

**Kisten** – qısa dəyənək şokilli soyuq silah; bir ucunda metal kürəcik (qısa kəmər və ya zəncir vasitəsilə) asılır. Mülki və ya xidməti silah qismində dövriyyəsi qadağan edilmişdir.

**"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirilmə mənbələrini, kitabxanadan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 29 dekabr 1998-ci il tarixdə qəbul edilmişdir. O, altı fəsil və 34 maddədən ibarətdir.

**Kizelqur** *(alm. kiselgur)* – diatomik yosunlardan ibarət olan qeyri-üzvi aşqar. Məsələn, yanmayan bir çox şkafların istidən müdafiəsi üçün belə təcridedici aşqarlardan istifadə olunur. K.-a bəzən digər təcridedici maddələr (şüşə qırıntıları və ya dəmir tozları) də əlavə edilir.

**Klan** *(kelt dilində clann – törəmə, nəsil)* – **1)** kelt xalqlarında, başlıca olaraq irlandlarda, şotlandlarda və uelslilərdə nəslin (qismən tayfanın) adı. Sonralar tayfa münasibətlərinin parçalandığı dövrdə bir nəfərin adını daşıyan qan qohumları qrupunu, qədim bir nəslin törəmələrinin mənsubiyyətini bildirmişdir; **2)** müasir etnoqrafiyada nəsil, qəbilə termininə uyğundur.

**Klaustrofobiya** *(lat. claustra – manеə, sədd; yun. phobos – qorxu)* – qapalı və ya darısqal binaya (məkana) daxil olmazdan qabaq hiss edilən qorxu, vahimə. K. anlayışından məhkəmə psixologiyasında, məhkəmə psixiatriyasında və kriminalistika metodikasında istifadə olunur.

**Klauzula** *(lat. clausula – müqavilə)* – beynəlxalq müqavilə və ya sazişdə xüsusi müddəa. K. müxtəlif cür xüsusi müddəa və şərtləri adlandırmaq üçün tətbiq edilir. Məsələn, beynəlxalq məhkəmə orqanının məcburi yurisdiksiyası haqqında klauzula.

**Kleptomaniya** *(yun. klepto – oğurlayıram + ... maniya)* – oğurluğa meyli olan və aradan qaldırıla bilməyən hal. K. bəzi psixi xəstəliklər zəminində inkişaf edir. Kleptomanlar oğurladıqları əşyalardan heç bir mənfəət güdmür, habelə onları gəlir mənbəyi hesab etmirlər.

**Kler** *(yun. kler – püşk)* – erkən qədim yunan polislərində və xüsusilə də koloniyalarda torpaq sahələrinin vətəndaşlar arasında püşklə bölüşdürülməsi. Heç kəs torpaqsız qalmasın deyə k. müntəzəm surətdə keçirilirdi. Xüsusi mülkiyyətin təşəkkül tapması ilə əlaqədar olaraq torpaqların vərəsəlik üzrə keçməsini k. əvəz etmişdir. Lakin "k." anlayışının özü, hərbi torpaq sahibliyinin (kleruhiyanın) meydana gəlməsi *(bax: kleruhiyalar)* ilə əlaqədar qorunub saxlanmışdır.

**Klerikal dövlət** – dövlət hakimiyyətinin təşkili forması; belə formada kilsə iyerarxiyası qanunvericiliklə müəyyən edilmiş institutlar vasitəsi ilə müəyyənedici tərzdə dövlət siyasətinə və ictimai həyat sferasına təsir edir. İran İslam Respublikası k.d.-ə misal ola bilər. Burada dünyəvi orqanlarla (parlamentlə, prezidentlə, hökumətlə) yanaşı onların üzərində ömürlük dövlət rəhbəri hesab edilən və rəsmi olaraq ölkənin dini başçısı və siyasi lideri olan imam da mövcuddur.

**Klerk** *(fr. clerc; lat. clericus)* – **1)** bir sıra ölkələrdə parlamentdə, notariusda, ticarət-sənaye müəssisələrində və i.a. işləri idarə edən və hesabatları tərtib edən katib (xidmətçi); **2)** Fransada və İngiltərədə orta yüzilliklərdə ruhani şəxs.

**Klerkal** *(lat. clericalis – kilsə)* – **1)** ruhanilik rütbəsi olan kilsə nümayəndəsi; **2)** öz siyasi prinsiplərini dini ehkamlarla əsaslandıran, dövlətin siyasi və mədəni həyatında kilsə hökmranlığına tərəfdar çıxan şəxs.

**Klerkalizm** – bir sıra ölkələrdə cəmiyyətin siyasi və mədəni həyatında kilsənin rolunu gücləndirməyi tələb edən ictimai-siyasi cərəyan. K.-in ən fəal qanadı katolik k.-idir.





**Kleruhiyalar** – tabe, yaxud müttəfiq dövlətlərin ərazisində qədim yunan hərbi-əkinçilik məskənləri. K.-ı daha çox afinalılar (xüsusilə Delos ittifaqı dövründə) yaratmışdılar. K. müttəfiqlərin narazılığına səbəb olurdu. 2-ci Afina dəniz ittifaqı yaradılana (eramızdan əvvəl 178-377-ci illər) qədər afinalılar k.-dan imtina etmək məcburiyyətində qalmışlar. K. ellinizm dövründə Misirdə hərbi xidmətlə əlaqədar torpaq sahibliyi forması kimi mövcud olmuşdur.

**Kleruhlar** – klerin, yəni torpaq sahələrinin sahibləri. Belə torpaq sahələri Afinanın müttəfiqlərinə (o cümlədən dəniz müttəfiqlərinə) məxsus olan torpaqlar içərisindən afinalılar üçün ayrılırdı *(bax: kleruhiyalar)*.

**Kleymslar** *(ing. claims)* – tədarük edilmiş malların keyfiyyətində və ya vəziyyətində çatışmazlıqlarla əlaqədar satıcıya qarşı yönələn pretenziyalar, tələblər.

**Kleyton qanunu** – 1914-cü ildə ABŞ-da qəbul edilmiş antitrest qanunu. Trestlərin fəaliyyətinin məhdudlaşdırılmasını və onların üzərində nəzarət üzrə federal ticarət komissiyasının yaradılmasını nəzərdə tuturdu. K.q. 1890-cı il Şerman qanununa görə fəhlələri və fermer təşkilatlarını təqibetmədən azad etmişdir.

Qanun layihəsini hazırlamış konqresmen Q. Kleytonun adı ilə adlandırılmışdır.

**Klinik kriminologiya** – kriminologiyada cinayətkarların şəxsiyyətinin bioloji və psixi xassələrinin tədqiqi, cinayətkarlığın etiologiyasında onların rolunun aydınlaşdırılması və cinayətkarlığın tibbi-psixoloji profilaktikasına dair tədbirlərin işlənib hazırlanması ilə əlaqədar olan istiqamət. Bu istiqamət Almaniyada inkişaf etmişdir. Cinayətkarlığın etiologiyasının öyrənilməsi istiqamətində Qərbi Avropa kriminoloqları tərəfindən tədqiq edilən istiqamətlərdən biri məhz konkret cinayətin səbəblərinin aydınlaşdırılmasıdır. Bu istiqamətdə cinayətkarın və zərər çəkmiş şəxsin şəxsiyyətinə xeyli diqqət yetirilir.

K.k.-nın nəzəri əsasları ilk dəfə italiyalı professor Benino De Tullionun əsərində ifadə edilmişdir. Müəllifin fikrincə, cinayətkarın konstitusional tipi ağır cinayətlər törədilməsi yönümündə mövcuddur. J. Pinatel k.k. çərçivəsində təhlükəli vəziyyət konsepsiyasını inkişaf etdirmişdir.

**Klinik ölüm** – nəfəsin və qan dövranının dayanmasınadək həyati funksiyaların məhv olması (bir neçə dəqiqə ərzində tibbi yardım göstərilməsi şərtilə).

**Kliring** *(ing. clearing)* – **1)** hesablaşmalar qaydası; bu qaydanın təbiqi zamanı bankın hesablaşma orqanı (palata, maliyyə-hesablaşma mərkəzi, əməliyyat idarəsi və i.a.) kommersiya (birja) əqdləri üzrə bütün alıcılar qarşısında konsolidasiya edilmiş alıcı rolunda çıxış edir və bu vaxt kontraktların iştirakçılarını mümkün itkilərdən sığorta edərək bağlanmış kontraktların icrasına təminat verir; **2)** xarici ticarət əqdləri üzrə ödəmələrin qarşılıqlı məqbulu.

**Kliring əməliyyatlar** – Azərbaycan Respublikasında nağdsız hesablaşmalar haqqında əsasnamə ilə müəyyən edilən qaydalara görə kliringin aparılmasını təmin edən hərəkətlərin ardıcıllığı.

**Kliring fəaliyyəti (klirinq)** – qarşılıqlı öhdəliklərin (qiymətli kağızlara dair əqdlər üzrə məlumatların toplanması, yoxlan-

ması və korrektə edilməsi, həmin məlumatlar əsasında mühasibat sənədlərinin hazırlanması) müəyyən edilməsi, qiymətli kağızların və onlar üzrə hesablaşmaların ödənilməsi ilə bağlı fəaliyyət.

**Kliринq hesablaşmaları** – kliринq müəssisəsi vasitəsi ilə hesablaşmalar.

**Klirinq müəssisəsi** – Azərbaycan Respublikası qanunvericiliyinə görə ölkədə özünü qarşılıqlı hesablaşmaların mərkəzi qismində təqdim edən və hüquqi şəxs kimi fəaliyyət göstərən təşkilat.

**Klirinq sazişi** – xarici ticarətdə qarşılıqlı tələblərin mərkəzləşdirilmiş qarşılıqlı ödəməsi haqqında bir neçə ölkə hökumətləri və ya mərkəzi bankları arasında bağlanan saziş.

**Klirinq valyutaları** – hesablaşma valyuta vahidləri; bu vahidlərdən istifadə edilməklə banklarda hesablar aparılır və kliринq tipli ödəmə sazişləri bağlamış tərəflər arasında müxtəlif əməliyyatlar aparılır. K.v. müstəsna dərəcədə nağdsız formada fəaliyyət göstərirlər.

**Kliyent** – **1)** Qədim Romada patronun himayəsi altında və ondan asılı vəziyyətdə olan azad insan; **2)** vəkilin, notariusun, bankın xidmətlərindən istifadə edən şəxs. Nəqliyyat ekspedisiyası müqavilələrinin tərəflərindən birinin adı.

**Knesset** – İzrailin birpalatalı parlamentinin adı.

**Knyaz** *(pol. kniaz)* – orta əsrlərdə slavyanlarda və digər xalqlarda feodal monarxiya dövlətinin və ya ayrıca siyasi qurumun (udel knyazlığının) başçısı. Zadəgan tituluna malik olan K. feodal aristokratiyasının nümayəndəsi idi. O, əvvəllər tayfa, hərbi dəstə başçısı olmuşdur. XVIII yüzilliyədək Rusiyada k. rütbəsi irsən keçirdi. Sonralar isə çar xüsusi xidmətlərinə görə yüksək rütbəli əyanlara da k. titulu verirdi.

**Knyazlıq** – başında knyaz duran suveren və vassal dövləti. Şərq slavyanlarında və Qədim Rus dövlətində k.-lar VIII-IX yüzilliklərdə meydana gəlmişdir. Böyük adlandırılan iri k.-lar udel knyazlıqları kimi tanınmışdır. Bunlar XV-XVII yüzilliklərdə mərkəzləşmiş Rus dövlətinin tərkibinə daxil olmuşlar. Rusiya imperiyasında 1809-1917-ci illərdə Finlandiya böyük k. adlanırdı.

Almaniyada ərazi k.-ı alman imperiyasının yaranmasınadək (1871-ci ilədək) mövcud olmuşdur. Hindistanda k.-lar 1950-ci ilədək mövcud olmuşdur. Bəzi xarici k.-lar müasir dövrdə (Lixtenşteyn, Monako; ərəb k.-ları (əmirliklər) də mövcuddurlar.

**Koalision hökumət** – koalisiyaya aid olub, onun əsasında və onun prinsiplərinə uyğun təşkil edən hökumət. K.h. müxtəlif siyasi partiyaların nümayəndələrindən ibarət olur və saziş əsasında fəaliyyət göstərir.

**Koalisiya** *(lat. coalitio – ittifaq)* – **1)** iki və ya daha çox dövlətin hər hansı bir dövlətə qarşı birgə fəaliyyət üçün bağladığı müvəqqəti hərbi-siyasi ittifaq; **2)** iki və ya daha çox siyasi partiya arasında bağlanan saziş. Çox zaman parlamentdə həmin partiyaların çoxluğuna əsaslanan hökumət (koalision hökumət) təşkil etmək üçün yaradılır.

**Koqnat icraatı** *(lat. cognitio – iş üzrə təhqiqat, istintaq)* – Roma ədliyyəsində xüsusi iddialar üzrə təşəkkül tapmış tarixən üçüncü iş icraatı forması. İmperiya dövründə əyalət rəhbərlərinə həm əmlaka, həm də cavabdehin şəxsiyyətinə aid olan məhkəmə işlərini həll etmək hüququnun verilməsilə əlaqədar yaranmışdır. K.i. xüsusi (ekstraordinar) qaydada həyata keçirilirdi. İkimərhələli formulyar prosesdən fərqli olaraq k.i. zamanı işi əvvəldən axıradək peşəkar hüquqşünasın məsləhətindən istifadə edən inzibatçı-məmur araşdırır və həll edirdi. Bu prosesdə formulalar artıq tətbiq edilmirdi. Tərəflər öz əvvəlki hüquqlarını itirmişdilər, belə ki, köhnə prosessual normalar qüvvəsini itirmişdi.





**Koqnatlar** *(lat. cognatus – qan qohumu)* – Qədim Roma hüququna görə ailə başçısının hakimiyyəti altında olmayan, kişi və qadın xətti ilə qan qohumları *(bax: aqnatlar)*.

**Koqnomen** – romalıların mülkiyyətdən və nəslin (tayfanın) adından sonra üçüncü yerdə dayanan soyadlı adı. K. əvvəllər şəxsin əlavə adı olmuş, daha sonralar isə vərəsəlik üzrə keçməyə başlamış və şəxsin mənsub olduğu ailə nəslinin adının göstəricisinə çevrilmişdir.

**Koll** – opsionun qüvvədə olma müddətinin keçməsinədək istənilən vaxt müəyyənləşdirilmiş qiymətlə satın alma opsionunu, mal almaq, qiymətli kağızları və ya fyuçers kontraktı hüququnu bildirən birja termini.

**Kollec** *(ing. college)* – Böyük Britaniyada, Millətlər Birliyinə daxil olan ölkələrdə, həmçinin ABŞ-da fəaliyyət göstərən tədris müəssisəsi. K.-in 3 əsas növü var: ali, ali-orta və ortaməktəb səviyyəsində olan k.-lər. Böyük Britaniyada k.-lər XIII yüzilliyin əvvəlində yaranmış və bir sıra qədim universitetlərin (Oksford, Kembric və i.a.) tərkibində indiyədək qalmışdır. ABŞ-da ilk k.-lər XVII yüzillikdə yaranmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra burada keçən yüzilliyin 90-cı illərində bir sıra k.-lər yaradılmışdır.

**Kollegiallıq** – dövlət idarəçiliyinin formalarından biri. K. müxtəlif məsələlərin həllində (kollegiya tərəfindən) bərabər hüquqlara malik olan bir qrup şəxsin həyata keçirdiyi rəhbərlik, idarəçilik prinsipində ifadə olunur. Hər hansı məsələ üzrə qərarların təkbaşına deyil, kollegiyanın fikir və təkliflərinin nəzərə alınması ilə qəbul edilməsi formasıdır.

**Kollegium** *(lat. collegium – yoldaşlıq, birlik)* - XVI -XVIII yüzilliklərdə Qərbi Avropada orta, bəzi hallarda ali təhsil verən qapalı məktəb. Başlıca olaraq yezuitlərin yaratdıqları k.-larda yalnız hakim təbəqələrin uşaqları təhsil alırdılar.

**Kollegiya** *(lat. collegium)* – **1)** hər hansı inzibati və ya məşvərətçi orqanı (məsələn, nazirlər, vəkillər, redaktorlar kollegiyası) təşkil edən şəxslər qrupu; **2)** Qədim Romada ümumi peşəyə və bərabər hüquqlara malik olan şəxslərin ittifaqı, birliyi (məsələn, Romada kahinlər, sənətkarlar, dəfnetmə kollegiyaları və dini kollegiya mövcud olmuşdur).

**Kollegiyalar** – çar Rusiyasında mərkəzi dövlət idarələri. K.-ı 1718-ci ildə I Pyotr yaratmışdı. K. imperatora və senata tabe idilər. 1775-ci ildə keçirilmiş quberniya islahatı nəticəsində yerlərdə geniş idarəetmə şəbəkəsi yaradılmış və k.-ın bəzi funksiyaları onlara verilmişdir. 1802-ci ildə nazirliklərin təsis edilməsi ilə k. ləğv olunmuşdur.

**Kollektiv danışıqlar** – kollektiv müqavilənin və sazişin hazırlanması, bağlanması və onlarda dəyişikliklər edilməsi üçün aparılan danışıqlar. Belə danışıqlar aparmaq tə-

şəbbüsünə öz səlahiyyətləri daxilində həmkarlar ittifaqları təşkilatları, əmək kollektivləri, işəgötürənlər, müvafiq icra hakimiyyəti və işəgötürənlərin nümayəndəli orqanları malikdirlər. Təşəbbüskar tərəf danışıqların başlanması haqqında digər tərəfi yazılı surətdə xəbərdar edir. Xəbərdar olunan tərəf 10 gündən gec olmayaraq danışıqlara başlamağa borcludur. Həmkarlar ittifaqları təşkilatının (birliyinin) olmadığı müəssisələrdə əmək kollektivi k. d. aparmaq üçün xüsusi səlahiyyətli komissiya yaradır.

Azərbaycan Respublikasının əmək qanunvericiliyinə görə kollektiv müqavilənin və sazişin və ya onlara dəyişikliklərin layihələrinin hazırlanması məqsədi ilə danışıqlar aparmaq üçün tərəflər, müvafiq səlahiyyətlər verilmiş bərabərsaylı nümayəndələrdən ibarət komissiya yaradırlar. Komissiyanın tərkibi, danışıqların gündəliyi, keçirilmə yeri və müddəti tərəflərin birgə qərarı ilə müəyyən edilir. Tərəflər kollektiv müqavilənin və sazişin məzmununa aid məsələlərin seçilməsi və müzakirə edilməsində sərbəstdirlər (AR ƏM-in 26-cı maddəsi).

**Kollektiv hüquqlar** – assosiasiyalar, yığıncaqlar, nümayişlər və i.a. azadlığı.

**Kollektiv müqavilə** – işəgötürənin, əmək kollektivinin və ya həmkarlar ittifaqı təşkilatının arasında yazılı formada bağlanan əmək, sosial-iqtisadi, məişət və digər münasibətləri tənzimləyən müqavilə.

K.m.-nin hazırlanması və bağlanması zəruriliyi haqqında qərarı həmkarlar ittifaqları təşkilatı qəbul edir. Müəssisədə bu təşkilat olmadıqda k.m.-nin hazırlanması və bağlanması haqqında qərarı əmək kollektivinin ümumi yığıncağı (konfransı) qəbul edir. K.m.-nin bir tərəfi işəgötürən, digər tərəfi həmkarlar ittifaqları təşkilatıdır. Müəssisədə həmkarlar ittifaqları təşkilatı olmadıqda isə k.m.-nin ikinci tərəfi qismində əmək kollektivi çıxış edir.

K.m.-nin layihəsinin hazırlanması, bağlanması qaydaları və müddəti tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir və rəsmiləşdirilir. Bu məqsədlə tərəflər bərabərsaylı nümayəndələrdən ibarət müvafiq komissiya (işçi qrupu) yarada bilərlər. K.m.-nin layihəsi iclasda (konfransda) iştirak edənlərin səs çoxluğu ilə qəbul və təsdiq edilir. Müqavilənin məzmununu tərəflər müəyyən edirlər. K.m. 1 ildən 3 ilədək müddətə bağlana bilər. Müqavilə imzalandığı və müqavilədə göstərildiyi gündən qüvvəyə minir. Müəyyən edilmiş müddət qurtardıqdan sonra k.m. yenisi bağlananadək qüvvədə olur. K.m.-nin qüvvədə olduğu müddətdə ona əlavə və ya dəyişikliklər edilməsi yalnız tərəflərin qarşılıqlı razılığı əsasında, k.m.-də müəyyən edilmiş qaydada aparılır. Müqavilənin yerinə yetirilməsinə nəzarəti tərəflər və müvafiq icra hakimiyyəti orqanı həyata keçirir. Tərəflər k.m.-nin yerinə yetirilməsi haqqında müqavilədə nəzərdə tutulmuş müddətdə, lakin ildə bir dəfədən az olmayaraq əmək kollektivinə hesabat verməlidirlər (AR ƏM-in 28-34-cü maddələri).

**Kollektiv mülkiyyət** – bir sıra dövlətlərin qanunvericiliyinə görə dövlət mülkiyyəti və xüsusi (şəxsi) mülkiyyətlə yanaşı mövcud olan mülkiyyətin müstəqil forması. K.m. dedikdə adətən kooperativlərə məxsus olan mülkiyyət başa düşülür.

**Kollektiv nişan** – ittifaqın, təsərrüfat assosiasiyasının və ya sair könüllü idarə birliklərinin istehsal və realizə etmədikləri





əmtəələrin işarə edilməsi üçün nəzərdə tutulan əmtəə nişanı. K.n. vahid keyfiyyət xarakteristikasına və sair göstəricilərə malikdir. K.n. və ona olan hüquq digər şəxslər tərəfindən istifadə oluna bilməz.

**Kollektiv saziş** – müvafiq icra hakimiyyəti orqanı, həmkarlar ittifaqlarının və işəgötürənlərin respublika, peşələr, sahələr və ya ərazi üzrə birlikləri arasında bağlanan, işçilərin əmək şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi, məşğulluğun təmin edilməsi və digər sosial müdafiə tədbirlərinin həyata keçirilməsi sahəsində birgə fəaliyyətə dair tərəflərin öhdəliklərini müəyyən edən razılaşma *(həmçinin bax: kollektiv müqavilə)*.

**Kollektiv tədbirlər** – beynəlxalq hüquqda iki, yaxud daha çox dövlət və ya regional və universal, beynəlxalq sülhün və təhlükəsizliyin müdafiəsini və bərpasını təmin etməyə müvəkkil edilmiş təşkilat tərəfindən həyata keçirilən silahsız və ya silahlı hərəkətlər. Silahsız xarakterli k.t. özündə iqtisadi münasibətlərin, dəmir yolu, dəniz, hava daşımalarının, poçt, teleqraf, radio və ya sair məlumat vasitələrinin tam və ya qismən dayandırılmasını, habelə diplomatik münasibətlərin kəsilməsini ehtiva edə bilər. Silahlı xarakterli k.t. dəniz, hava və quru qüvvələri ilə, habelə blokada ilə hərbi əməliyyatların aparılmasından ibarətdir.

**Kollektiv təhlükəsizlik** – beynəlxalq sülhü qorumaq, müharibə təhlükəsinin qarşısını almaq və aradan qaldırmaq, zəruri hallarda isə təcavüz aktlarını dəf etmək sahəsində dövlətlərin əməkdaşlığı. K.t. haqqında sazişə təcavüzkarlara kollektiv surətdə müqavimət göstərmək və təcavüzün qurbanı olan tərəfə kollektiv kömək (o cümlədən hərbi) tədbirləri sistemi daxildir. K.t. sistemi ya ümumi, universal beynəlxalq (məsələn, BMT), ya da məhəlli təşkilat və saziş çərçivəsində həyata keçirilir.

**Kollektiv tələblər** – kollektiv müqavilələrin, sazişlərin bağlanması, onlara dəyişikliklərin edilməsi və icrası, habelə digər əmək, sosial və iqtisadi məsələlərlə bağlı işçilərin, ya da həmkarlar ittifaqları orqanının işəgötürən, onların birlikləri və ya müvafiq icra hakimiyyəti orqanları qarşısında irəli sürdüyü tələblər.

Kollektiv müqavilə və sazişlərin icra edilməsi və ya tam həcmdə icra edilməməsi, habelə digər əmək məsələləri və sosial məsələlərlə əlaqədar k.t. işçilərin və ya həmkarlar ittifaqları təşkilatının (birliyinin) ümumi yığıncağında (konfransında) irəli sürülür. Qərar işçilərin səs çoxluğu ilə, həmkarlar ittifaqları təşkilatında (birliyində) isə onun nizamnaməsində digər qərarlar üçün nəzərdə tutulmuş qaydada qəbul olunur.

İşəgötürən k.t.-in ona təqdim edildiyi vaxtdan 5 iş günü müddətində öz qərarını yazılı formada işçilərə və ya həmkarlar ittifaqı təşkilatına bildirməlidir. İşəgötürən k.t.-dən tam və ya qismən imtina etdikdə və ya tələblərə cavab vermədikdə, yaxud bu cavabı gecikdirdikdə kollektiv əmək mübahisəsi başlanmış olur.

İşəgötürənin iqtisadi imkanlarına uyğun olmayan tələblərə yol verilmir. Tələblər iqtisadi imkanlarına uyğun olmadıqda işəgötürən bunu auditor rəyinə əsasən sübut etməlidir (AR ƏM-in 262-263-cü maddələri).

**Kollektiv valyuta** – dövlətlərarası iqtisadi təşkilatlar çərçivəsində (məsələn, Avropa Şurası çərçivəsində yevro) beynəlxalq hesablaşmalar üçün istifadə olunan valyuta.

**Kollizion bağlılıq** – hüquq münasibətlərinin müvafiq növünə tətbiq edilməli olan qanuna (hüquq sisteminə) göstərişdən (istinadan) ibarət olan kollizion normanın tərkib hissəsi. Bütün k.b.-lar bir neçə tiplərə bölünürlər. Belə tiplər adətən bağlılığın formulaları və ya kollizion prinsiplər adlandırılırlar. Məsələn, şəxsin vətəndaşlıq qanunu (lex patriae) , əşyanın yerləşdiyi yer qanunu (lex reisitae), müqavilənin bağlandığı yer qanunu (lex loci contractus), öhdəliklərin icra olunduğu yer qanunu (lex loci solutions), zərərin vurulduğu yer qanunu (lex loci delicti commissi) və i.a.

**Kollizion norma** – beynəlxalq həyatda baş verən mülki-hüquqi xarakterli münasibətlərdə (qanunların toqquşması ilə əlaqədar) hansı hüququn tətbiq edilməsini bildirən hüquq norması. K.n. beynəlxalq hüquq münasibətləri iştirakçılarının hüquq və vəzifələrini özü müəyyən etmir, yalnız hansı hüquq normasının ( öz ölkəsinin, yaxud xarici dövlətin) rəhbər tutulmasını, yaxud tətbiqini göstərir.

**Kolliziya** *(bax: hüququn kolliziyası).*

**Kolliziya hüququ** – dövlətin təbiq etdiyi kollizion normaların məcmusu. K.h.-na beynəlxalq xüsusi hüquq normaları aiddir. Həmin normalar bir-birilə toqquşan, ziddiyyət və ya münaqişədə olan iki qanundan birinin – öz ölkəsinin, yaxud xarici dövlətin qanununun tətbiq edilməli olduğunu müəyyən edir. İlk dəfə XVII yüzillikdə Hollandiya hüquqşünaslarının əsərlərində təsadüf edilən "k.h" termini XX yüzillikdə geniş yayılmışdır. Qüvvədə olan beynəlxalq sazişlər nisbətən azsaylı ölkələri əhatə etməklə, yalnız bir sıra kolliziya qaydalarını unifikasiya edirlər.

**Kolon** *(lat. colonus – əkinçi, kəndli)* – Roma imperiyasında iri torpaq sahibinin kiçik torpaq sahəsinin icarəyə verildiyi şəxs. K. torpaqdan istifadə haqqını natura və ya pulla ödəyir, habelə natural mükəlləfiyyəti yerinə yetirirdi. Nəticədə icarəçilər iri torpaq sahiblərinin təhkimlilərinə çevrilirdilər. K.-lar orta əsr təhkimli kəndlilərin sələfləri idi.

**Kolonat** *(lat. colonatus – əkinçi)* - iri torpaq mülkiyyətçisi ilə xırda kənd təsərrüfatı istehsalçısı olan kolon arasındakı istehsal münasibətlərinin xüsusi forması. K. Roma imperiyasında geniş yayılmış, imperiyanın varlığının sonunda feodal münasibətlərinin əmələ gəlməsi əsasında xidmət etmişdir.

**Koloniya** *(lat. colonia – məskən)* – **1)** qədim yunanların və romalıların başqa torpaqlarda saldığı məskən; **2)** bir dövlətin vətəndaşlarının digər dövlətdə birgə yaşayış məskəni.

**Komanda** *(fr. commande – tapşırıram, əmr edirəm)* – **1)** xidməti tapşırıqları və ya hər hansı işi yerinə yetirmək üçün nəzərdə tutulmuş, sayı 3 və daha çox adamdan ibarət olan müvəqqəti və ya daimi hərbi təşkilat vahidi; **2)** komandirin (hərbi rəisin) hərbi nizamnamə və təlimatla dəqiq müəyyən edilən qısa şəkildə ifadə olunmuş əmri. K. ilkin və icra mərhələsindən ibarət olur.

**Komanda məntəqəsi** – döyüş əməliyyatlarının hazırlanması və aparılması gedişində qoşunların (qüvvələrin) idarə olunduğu əsas məntəqə. K.m. səyyar və qeyri-səyyar olur. K.m.-ndə komandir (komandan), onun müavinləri, qərargahın əsas heyəti, qoşun növləri və xidmət rəisləri (öz idarə orqanları ilə birlikdə) yerləşir. Əsas k.m.-ndən başqa əlavə idarəolunma məntəqələri də (ehtiyat məntəqəsi, arxa məntəqə) yaradıla bilər.





**Komandor** *(fr. commandeur)* – **1)** orta yüzilliklərdə ruhani cəngavər ordenlərində ali rütbələrdən biri; **2)** mason iyerarxiyasında ali dərəcələrdən biri; **3)** kapitan-komandor – Böyük Britaniyada, Hollandiyada və bəzi başqa ölkələrdə gəmi dəstəsinin admiral rütbəsi olmayan rəisi; 4) Rusiyada XVIII yüzilliyin əvvəlindən XIX yüzilliyin əvvəlinədək donanmada rütbə.

**Kombatantlar** *(fr. combattant)* – beynəlxalq hüquqda münaqişədə olan tərəflərin silahlı qüvvələrinə daxil olan və hərbi əməliyyatlarda bilavasitə iştirak etmək hüququna malik şəxs. Müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il tarixli Cenevrə konvensiyasının 43-cü maddəsinin 2-ci bəndinə edilmiş 1977-ci il saylı protokoluna əlavədə nəzərdə tutulmuşdur. K. quru, hərbi-dəniz və hərbi-hava qüvvələrinin şəxsi heyətini; partizanları, xalq qoşunlarının və könüllü dəstələrinin şəxsi heyətini, dəniz ticarət gəmilərinin və mülki aviasiya təyyarələrinin ekipajlarını əhatə edirlər (əgər bunlar hərbi qaydada yenidən təchiz edilmişlərsə). Açıq silah gəzdirdikləri və müharibə qanunlarına və adətlərinə əməl etdikləri hallarda üsyançıların və müqavimətçilərin istənilən qeyri-nizami dəstələri k. hesab oluna bilərlər. Qeyri-kombatantlardan fərqli olaraq k. hərbi əməliyyatlar gedişində məhvetməyədək, istənilən zorakılıq tədbirindən istifadə edə bilərlər.

**Komendant** *(fr. commandant – komandir, rəis)* – **1)** müxtəlif dövlətlərin silahlı qüvvələrində vəzifəli şəxs (zabit, general). XVI yüzillikdən başlayaraq qala qarnizonunun rəisi də k. adlanırdı; **2)** hər hansı müəssisəyə, yaxud tədris ocağına məxsus olan binanın müdiri (məsələn, yataqxana komendantı).

**Komendant saatı** – sutkanın müəyyən edilmiş vaxtında hər hansı yaşayış məntəqəsi sakinlərinin xüsusi icazə olmadan küçəyə çıxmalarını qadağan edən fövqəladə tədbir. Asayişi qorumaq, qoşunlara, hərbi və ya mülki hakimiyyət orqanlarına, həmçinin hərbi sənaye obyektlərinə qarşı təxribat, kəşfiyyat və i.a. düşmənçilik fəaliyyətinin qarşısını almaq, habelə vətəndaşların təhlükəsizliyini təmin etmək məqsədi ilə tətbiq edilir.

**Komendant üsul-idarəsi** - Rusiyanın tərkibinə zorla qoşulduqdan sonra çarizmin Azərbaycanda tətbiq edildiyi hərbi-inzibati idarəetmə sistemi. Müvəqqəti xarakter daşıyan və müstəmləkə idarəetmə sistemi olan k.ü.-i. 1806-1811-ci illərdə Bakı və Qubada, 1819-1826-cı illərdə Qarabağ, Şəki, Şirvan və Talışda tətbiq edilmişdir. Azərbaycanın ərazisi Qafqaz Baş komandanının təyin etdiyi rus zabitləri – komendantlar tərəfindən idarə olunan Bakı, Quba, Şəki, Şirvan, Qarabağ, Talış əyalətlərinə, Yelizavetpol və Car-Balakən dairələrinə bölünmüşdü. Qazax və Şəmsəddil distansiyaları həmin inzibati bölgüyə daxil edilməmişdi. Məmurların vəzifəyə təyin edilməsi, Rusiyaya sadiq olmayan bəylərin torpaqlarının müsadirə edilməsi və paylanması, dövlət vergilərinin bölünməsinə və onların toplanmasına nəzarət, neft quyularının, duz mədənlərinin və balıq vətəgələrinin istismara verilməsi komendantların səlahiyyətinə daxil idi. Eyni zamanda hərbi rəis, məhkəmə sədri, hakim vəzifələrini icra edən komendantlar xəzinə gəlirinin bölüşdürülməsinə də nəzarət edirdilər.

Komendantlar tərəfindən mahal naibliyinə çarizmə sadiq olan bəylər təyin edilirdi. Bütün kargüzarlıq işləri rus dilində aparılırdı. K.ü.-i. çar hökumətinin Zaqafqaziyada inzibati islahatı (1840) nəticəsində 1841-ci il yanvarın 1-dən ləğv edilmişdir.

**Komendor** – Rusiyada (XVIII yüzilliyin əvvəlindən 1917-ci ilədək) və keçmiş sovet, həmçinin bəzi xarici ölkələrin hərbi-dəniz donanmasında gəmi toplarından atəş açmaq üçün ixtisaslaşmış dənizçiyə verilən rütbə.

**Komissar** *(fr. comissarie – müvəkkil edilmiş)* – müxtəlif ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında hökumət tərəfindən xüsusi səlahiyyətlər verilmiş vəzifəli şəxsin vəzifə adı (məsələn, hərbi komissar).

**Komissional sistem** – ABŞ-da və bir sıra ingilis-sakson hüquq sistemli ölkələrdə yerli özünüidarənin təşkili üsulu. K.s. ondan ibarətdir ki, şəhəri idarə etmək üçün bələdiyyə şurası adətən həm də mer titulunа malik olan mütəxəssis-menecer tutur. Belə mer bələdiyyə şurasının məmuru olmaqla, onun tapşırıqlarını yerinə yetirməklə ondan tam asılı vəziyyətdə olur.

**Komissioner** *(bax: komisyonçu).*

**Komissiya** *(lat. comissio – tapşırıq)* – **1)** hər hansı tapşırığın yerinə yetirilməsi üçün səlahiyyətlər verilmiş şəxslər qrupu (məsələn, parlament, seçki, qəbul komissiyası); **2)** dövlət aparatında və ya beynəlxalq təşkilatlarda ixtisaslaşdırılmış orqan (məsələn, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Ali Attestasiya Komissiyası); **3)** şəxsin başqa bir şəxsin tapşırığı üzrə və onun hesabına, lakin öz komisyonunun adından yerinə yetirdiyi əqd, habelə bu əqdin bağlanması üçün ödəniş.

**Komissiya müqaviləsi** – mülki-hüquqi müqavilənin bir növü. Bu müqaviləyə görə bir tərəf (komisyonçu) digər tərəfin (komitentin) tapşırığı ilə muzd müqabilində öz adından, lakin komitentin hesabına bir və ya bir neçə əqd bağlamağı öhdəsinə götürür. Komisyonçunun üçüncü şəxslə bağladığı əqd üzrə hüquqları, əqddə komitent adlandırılmış olduqda və ya əqdin icrası üzrə üçüncü şəxslə bilavasitə münasibətlərə girdikdə belə, komisyonçu əldə edir və komisyonçu mükəlləfiyyətli olur.

K.m. müəyyən müddətə və ya qüvvədə olma müddəti göstərilmədən, icra ərazisi göstərilməklə və ya göstərilmədən, komitentin onun mənafeləri üçün və onun hesabına bağlamağı komisyonçu tapşırdığı əqdləri bağlamaq hüququnu üçüncü şəxslərə verməmək öhdəliyi nəzərdə tutulmaqla və ya nəzərdə tutulmadan, komissiya predmeti olan malların çeşidi barəsində şərtlər qoyulmaqla və ya qoyulmadan bağlana bilər (AR MM-in 808-ci maddəsi).

**Komisyonçu** *(fr. commissionnaire – tapşırıq)* – komisyon əqdlərində vasitəçi. K. komitentin xeyrinə öz adından, lakin komisyonçunun hesabına müəyyən muzd almaq müqabilində hərəkət edən fiziki və ya hüquqi şəxsdir. Onun hüquq və vəzifələrini, eləcə də məsuliyyətini müəyyən edən normalar mülki qanunvericilikdə nəzərdə tutulur.

**Komisyonçunun satış hüququ** – mülki qanunvericiliyə görə əgər komitent müqaviləyə və ya şəraitə uyğun komisyon malına sahibliyə başlamalı olsa da, bunu etmirsə, komisyonçu komisyon malının satışını həyata keçirmək hüququnu əldə edir. Əgər mal korlanmaya meyillidirsə və ya sonradan malla onun qiymətdən düşməsinə səbəb ola biləcək dəyişikliklər aşkar edilərsə və komitentlə əlaqə yaratmağa vaxt olmazsa, komisyonçu komitentə qabaqcadan bildiriş verməklə, malın satılması qayğısına qalmaq hüququna malikdir (AR MM-in 817-ci maddəsi).

**Komisyonçunun təminat hüququ** – mülki qanunvericiliyə görə komisyonçunun hər hansı komisyon əqdindən və ya əvvəlki komisyon əqdlərindən komitentə qarşı əmələ gəlmiş tələbləri əsasında komisyonçu sənədlərə əsasən sahiblik etdiyi və ya sərəncam verə bildiyi komisyon malına qanuni girov hüququ əldə edir. Komisyon malının komitentin mülkiyyətində olmadığı, lakin komisyonçunun həmin malı onun komitentə mənsub olduğunu vicdanlı qəbul etdiyi halda da komisyonçu bu mala girov hüququnu əldə edir. Komisyonçu komisyon əqdinin icrası əsasında üçüncü şəxsə qarşı mövcud olan tələblər üzrə təminat ala bilər (AR MM-in 820-ci maddəsi).

**Komisyon qiyməti** – malların komisyon ticarət vasitəsi ilə realizə edildiyi qiymət.

**Komisyon muzdu** – mülki qanunvericiliyə görə komisyonçu komitentin hesabına bağlanmış əqdin üçüncü şəxs tərəfindən icra edildiyi halda və ya komitentin cavabdeh olduğu səbəblərdən əqdin icra edilmədiyi halda komisyon muzdu tələb edə bilər. K.m.-nun miqdarı komissiya müqaviləsi ilə, belə qeyd-şərt olmadıqda isə, əgər komisyon əqdləri komisyonçunun müəssisəsinin fəaliyyət predmetinə aiddirsə, yerli işgüzar adətlər əsasında müəyyənləşdirilir (AR MM-in 815-ci maddəsi).

**Komisyon rimessası** – beynəlxalq hesablaşmalarda müxtəlif xarici valyuta hesablaşmaları üzrə əməliyyatlara görə komisyonçu tərəfindən tutulan ödəmə.

**Komisyon ticarəti** – komitentin tapşırığı ilə komisyonçunun öz adından, lakin komitentin hesabına malların həyata keçirilən satışı.

**Komitent** *(lat. commitenc – tapşırıq verən)* – başqa bir şəxsə (komisyonçuya) müəyyən əqdi bağlamaq üçün tapşırıq verən şəxs. K.-in hüquq və vəzifələri, habelə məsuliyyətinə dair normalar mülki qanunvericiliklə müəyyən edilir.

**Komitsiyalar** *(lat. comitia)* - Qədim Romada xalq yığıncağı; vəzifəli şəxsləri seçir, qanunlar qəbul edir, müharibə və sülh məsələlərini həll edirdi. K.-ın üç növü olmuşdur: kuriatlar – kuriyalar üzrə yığıncaqlar; senturiyalar – senturiyalar üzrə yığıncaqlar; tribunatlar – ərazi dairələri triblər üzrə bütün vətəndaşların yığıncaqları.

**Kommandist** – müəyyən birliyin iştirakçıları ilə yanaşı həmin birliyin adından sahibkarlıq fəaliyyətini həyata keçirən və birliyin öhdəlikləri üzrə məsuliyyət daşıyan şəxs.

**Kommandit ortaqlığı** – mülki qanunvericiliyə görə kommandit ortaqlığı elə bir ortaqlıqdır ki, ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığın öhdəlikləri üzrə öz əmlakı ilə məsuliyyət daşıyan iştirakçıları (tam ortaqlar) ilə yanaşı ortaqlığın fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların məbləği həddində risk daşıyan və ortaqlığın sahibkarlıq fəaliyyətində iştirak etməyən bir və ya bir neçə iştirakçısı – maya qoyanı (kommandisti) vardır. (AR MM-in 82-ci maddəsi).

K.o.-da iştirak edən tam ortaqların hüquqi vəziyyəti və ortaqlığın öhdəlikləri üzrə

onların məsuliyyəti AR MM-nin tam ortaqlıq iştirakçıları haqqında normaları ilə müəyyən edilir. Şəxs yalnız bir k.o.-nda tam ortaq ola bilər. Tam ortaqlığın iştirakçısı k.o.-nda tam ortaq ola bilməz. K.o.-ndakı tam ortaq tam ortaqlığın iştirakçısı ola bilməz.

**Kommendasiya** *(lat. commendo – inanıram, verirəm)* – Qərbi Avropada erkən yüzilliklər dövründə öz-özünü daha "güclü", qüdrətli bir insanın himayəsi altına vermək. K. həm vassallıq münasibətləri, həm də kəndlinin feodaldan tam asılılığı kimi rəsmiləşdirilə bilərdi.

**Kommersant** – inkişaf etmiş xarici ölkələrin hüququnda, ümumiyyətlə, sahibkarı bildirən anlayış. Məsələn, ABŞ-ın Vahid Ticarət Məcəllesinin 2-104-cü maddəsinə uyğun olaraq kommersant müəyyən malların əməliyyatlarını həyata keçirən şəxsdir. O, özünün bir sıra məşğuliyyətləri ilə əlaqədar əqdlərin predmeti olan əməliyyatlara və mallara münasibətdə xüsusi biliyə və ya təcrübəyə malik olmalıdır. Belə biliklərə və təcrübəyə malik olan və vasitəçilərin (agentlərin, brokerlərin) xidmətlərindən istifadə edən şəxs kommersant hesab olunur.

**Kommersiya** *(lat. commercium – ticarət)* – daha geniş mənada gəlir, mənfəət əldə edilməsinə yönəldilmiş fəaliyyət (məşğuliyyət) növü. Malların satılması və xidmətlərin göstərilməsi üzrə fəaliyyət, yaxud kömək göstərmə də k. sayılır.

**Kommersiya aktı** – yükün, yaxud baqajın çatışmazlığını, zədələnməsini və ya xarab olmasını təsdiq edən, yüklərin və baqajın çatdırıldığı yerdə tərtib edilən sənəd. K.a. yüklərin alıcısı tərəfindən itkilərin ödənilməsinə dair pretenziyaların verilməsi əsasında xidmət edir.

**Kommersiya bankları** – ölkələrin böyük əksəriyyətində bank təşkilatlarının əsas həlqələrindən biri. K.b.-nın əməliyyatları 3 qrupa bölünür: a) passiv (vəsaitlərin cəlb edilməsi) əməliyyatlar; b) aktiv (vəsaitlərin yerləşdirilməsi) əməliyyatlar; c) vasitəçilik (komisyon əsaslarla müştərilərin tapşırıqlarının yerinə yetirilməsi) əməliyyatları.

**Kommersiya kodu** – malların markalaşdırılması zamanı istifadə olunan rəqəmli və hərfli şifrələrdən ibarət şərti işarələrin məcmusu. K.k. sahibkarlar tərəfindən vaxta, xərclərə qənaət etmək məqsədi ilə və kompyuter texniki vasitələrinin əlverişli istifadəsi üçün teleqraf yazışmalarında tətbiq edilir. Son illərdə xarici ölkələrin ticarət təcrübəsində ştrixli k.k.-ndan geniş istifadə edilir.

**Kommersiya konsessiyası** *(bax: konsessiya müqaviləsi).*

**Kommersiya krediti** – avans, ilkin ödəniş şəklində, işlərin yerinə yetirilməsinə və ya xidmətlərin göstərilməsinə görə verilən kredit. K.k.-nin sair qaydaları mülki qanunvericiliklə müəyyən edilir.

**Kommersiyalaşdırma** – dövlət müəssisələrinin özəlləşdirilməsi yolunun birinci mərhələsi; bu mərhələdə dövlət müəssisələrini idarə edənlər müəssisənin maliyyə fəaliyyətinin nəticələrinə görə məsuliyyət daşıyırlar. Dövlət isə itkilərin silinməsi üçün dotasiyaların verilməsini dayandırır.

**Kommersiya məhkəmələri** – bir sıra ölkələrdə əsasən XIX yüzillikdə və XX yüzilliyin başlanğıcında ticarət məsələlərinə dair işlərə baxmaq üçün təsis edilmiş xüsusi məhkəmə orqanı. Rusiyada XIX yüzillikdə meydana gəlmişdir. Anoloji məhkəmə





orqanları Fransada da mövcud olmuşdur. Rusiyada 1917-ci ildə ləğv edilmişdir.

**Kommersiya nümayəndəsi** – sahibkarlıq sahəsində sahibkarların bağladıqları müqavilələrin rəsmiləşdirilməsi prosesində sahibkarlar adından daimi və müstəqil sədrlik edən şəxs. Sahibkarlıq fəaliyyətinin ayrı-ayrı sahələrində k.n.-nin fəaliyyəti qanunla və sair normativ-hüquqi aktlarla müəyyən edilir.

**Kommersiya riski** – proseslərin inkişaf yolları və ya bazarın vəziyyəti haqqında etibarlı məlumatların olmaması ilə, qeyri-müəyyənlik şəraitində qərarların qəbulu və ya hərəkətlərin edilməsilə əlaqədar gəlirlərin mümkün aşağı düşməsi, yaxud itirilməsi. Mənfi nəticələrin aradan qaldırılması üçün müəssisələrdə k.r. fondu yaradıla bilər.

**Kommersiya sirri** – bir sıra xarici dövlətlərdə səhmdarlar cəmiyyətinin, firmasının, bankının və i.a. öz fəaliyyətinə aid sənədləri (ticarət kitabları, balansları və i.a.) gizli saxlamaq hüququ.

**Kommersiya subkonsessiya müqaviləsi** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq kommersiya konsessiya müqaviləsi ilə istifadəçinin ona kompleks halda verilmiş müstəsna hüquqlardan başqa şəxslərin istifadəsinə icazə vermək hüququ vardır.

**"Kommersiya şirkəti arasında sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi haqqında" Azərbaycan Respublikasının qanunu** – Xəzər dənizinin Azərbaycan sektorunun "Qarabağa" perspektiv strukturunun və onu əhatə edən ərazinin kəşfiyyatına, işlənməsinə və hasilatın pay bölgüsünə dair Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Lukoyl İnterneşnl LTD, ACİP Azərbaycan V.V., Lukacip N.V., Pennzoyl Kaspian Development Korporeyşn və ARDNŞ Ortaq Kommersiya Şirkəti arasında sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi haqqında Azərbaycan Respublikasının 13 fevral 1996-cı il tarixdə qəbul etdiyi qanunvericilik aktı.

**Kommersiya təmsilçiliyi** – sahibkar fəaliyyəti sahəsində müqavilələr bağlanarkən sahibkarları daimi və müstəqil surətdə təmsil edən şəxsin fəaliyyəti (AR MM-in 361-ci maddəsi)

Əqddə müxtəlif tərəflərin eyni vaxtda k.t.-nə həmin tərəflərin razılığı ilə və AR MM-də nəzərdə tutulmuş digər hallarda yol verilir. K.t. şərtləndirilmiş muzdu və tapşırığın icrası zamanı xərclərin əvəzini müqavilə tərəflərinin bərabər paylarla ödənilməsini tələb edə bilər, bu şərtlə ki, onlar arasında razılaşmada başqa qayda nəzərdə tutulmasın.

**Kommersiya təşkilatı** – hüquqi şəxs olan və öz fəaliyyətinin əsas məqsədi qismində mənfəət əldə etməyi güdən təşkilat. Mülki qanunvericiliyə görə hüquqi şəxs olan k.t.-ları təsərrüfat ortaqlıqları və cəmiyyətlər formasında təşkil edilirlər. Onlar istehsalat kooperasiyaları, dövlət və bələdiyyə unitar müəssisələri qismində də təşkil oluna bilərlər.

**Kommersiya turizmi** – nadir tapılan malların satışından maksimum gəlir götürmək məqsədi ilə həmin malların satın alınması üçün həyata keçirilən sistematik səfərlər (turist səfərləri).

**Kommersiya vasitəçisi** *(bax: kommersiya nümayəndəsi).*

**Kommersiya vekseli** – borc verən tərəfindən malların girovu ilə verilən veksel.

**Kommersiya və ya bank sirri olan məlumatları qanunsuz əldə etmə və ya yayma** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 202-ci maddəsində nəzərdə tutulmuşdur. Kommersiya və ya bank sirlərini təşkil edən məlumatların toplanması həmin məlumatları yaymaq və ya onlardan qanunsuz istifadə etmək məqsədi ilə sənədləri oğurlamaqla, satın almaqla hədələməklə, habelə digər qanunsuz üsulla törədilmədə ifadə olunur.

**Kommivoyajer** *(fr. commis voyageur)* – bazarlar üzrə yerləşdirilən səyyar satış vasitəçisi; sadə vasitəçi rolunu yerinə yetirir və ya öz müştərilərinin (satıcının) tapşırıqları üzrə hərəkət edir.

**Kommuna** *(fr. commine; lat. communis – ümumi)* – **1)** icma, orta əsrlərdə Qərbi Avropada özünüidarə hüququ qazanmış şəhər icması; **2)** Böyük Fransa inqilabı dövründə bələdiyyə özünüidarəsi; **3)** Fransada fəhlələrin inqilabi (Paris Kommunası) hökuməti; **4)** Fransa, İtaliya, Belçika və i.a. dövlətlərdə aşağı inzibati ərazi vahidini təşkil edən şəhər və ya kənd tipli yaşayış məntəqəsi.

**Kommutasiya** *(lat. commutatio – dəyişmə, əvəzetmə)* – feodal istismarına məruz qalmış kəndlilərin biyar mükəlləfiyyəti və natural töycü əvəzinə pul rentasına keçməsi. K. əmtəə-pul münasibətlərinin inkişafı və bunların feodal kəndinə nüfuz etməsi nəticəsində baş vermişdir. "K." terminini adətən Qərbi Avropa ölkələrinin aqrar münasibətlərinə uyğun olaraq işlədirlər.

**Kommutativ müqavilə** – mülki hüquq nəzəriyyəsində müqavilələrdən birinin adı; bu müqavilənin bağlanması anı tərəflərə qarşılıqlı surətdə məlum olur.

**Kompanonajlar** *(fr. compagnonnages – kargər)* – Fransada kargər ittifaqları; bu ittifaqların böyük əksəriyyəti gizlidir. Fransada XII-XIII yüzilliklərdə meydana gəlmiş, XIX yüzilliyin ortalarında öz yerini həmkarlar ittifaqı təşkilatlarına vermişdir.

**Komparativizm** *(bax: müqayisəli hüquqşünaslıq).*

**Kompensasiya** *(lat. compentatio – ödəmə)* – **1)** mülki hüquqda öhdəliklərin dayandırılması üsullarından biri (qarşılıqlı tələblərin ödənilməsi yolu ilə); **2)** qanunla müəyyən edilmiş hallarda işçilərin müxtəlif kateqoriyalarına verilən ödəmələr.

**Kompensasiya əqdi** – kontragentlərin maraqlarının hər hansı formada qarşılıqlı təmin edilməsi, yaxud malların qarşılıqlı tədarükü. K.ə. zamanı müəyyən dəyərə malik olan malların digər mallarla və ya xidmətlərlə mübadiləsi baş verir.

**Kompensasiya ödəmələri** – əmək hüququnda əmək öhdəliklərinin yerinə yetirilməsi ilə əlaqədar işçilərə əlavə xərclərin (məsələn, ezamiyyət, mənzil, sair kommunal) ödənilməsi üçün verilən pul məbləği.

**Kompensasiya müqaviləsi** – qarşılıqlı ticarətin və ya barter əməliyyatlarının bir növü; malların bir hissəsinin dəyərinin pulla (yaxud valyuta ilə) ödənildiyi vaxt bağlanır.

**Kompensasiya rüsumları** – Azərbaycan Respublikasının "Gömrük tarifi haqqında" qanunu ilə nəzərdə tutulmuş gömrük rüsumlarının xüsusi növü. K.r. malların Azərbaycan Respublikasının gömrük ərazisinə gətirildiyi zaman tətbiq edilir.





**Kompensasiya sazişləri** – xarici ticarət sazişlərinin bir növü; belə sazişlər zamanı malın alıcısı onun dəyərini tədarük edilən digər malların dəyəri müqabilində ödəyir.

**Kompensasiya ticarəti** – ticarət sistemi; belə sistemdə eksportçu malın import edildiyi ölkədən malın ödəmə hesabına alınmasına öz razılığını verir.

**Kompensator restitusiyası** – işğalçı dövlətin maddi beynəlxalq-hüquqi məsuliyyətinin bir növü; adi restitusiyanın qeyri-mümkün olduğu hallarda tətbiq edilir və zərər çəkən dövlətə vurulmuş zərərin əvəzinin eyni növdən olan predmetlərə maddi qaydada kompensasiya (ödənilməsindən) edilməsindən ibarətdir.

**Kompilyasiya** *(lat. compilatio – soyğunçuluq; çıxarışların, sənədlərin toplanması)* – **1)** qanunların xüsusi və ya rəsmi dərc (toplanması) olunması; **2)** mənbələrin müstəqil tədqiqi olmadan özgəsinin tədqiqatların, əsərləri əsasında əsərlərin tərtib edilməsi; belə metodla tərtib edilən əsərlər.

**Kompleks ekspertiza** – bu və ya digər məsələnin həlli üçün ayrı-ayrı elm sahələrinin birgə biliyini tələb edən ekspertiza. K.e. cinayət işlərinin istintaqı zamanı elm və texnikanın müvafiq nailiyyətlərindən prosessual formada istifadə edilməsi deməkdir. Bu ekspertizanın təyini və aparılması yalnız uyğun elmlər sahəsindəki mütəxəssislərin biliyinə ehtiyac yarandıqda mümkündür.

**Komplektlik** – tədarük edilən məhsulların, onlardan istifadə olunması məqsədi ilə bütün hissələrinin, detallarının, aqreqatlarının və i.a. yerində olması.

**Komplementari** – özünün bütün durumu ilə qeyri-məhdud məsuliyyət daşıyan cəmiyyət (ortaqlıq) üzvü (tam üzv).

**Kompozisiya** *(lat. compotisio)* – vurulmuş ziyana görə zərərin ödənilməsi. Hələ ibtidai icma quruluşunun dağıldığı dövrdə mövcud olmuş k. ilk əvvəllər heç nə ilə məhdudlaşdırılmayan qan intiqamı, sonralar isə dalionla (əvəz-əvəzi prinsipi ilə) əvəz edilmişdir. Dövlətin meydana gəlməsi ilə K.-nın sistemi ümumi qaydaya çevrilmiş və qanunvericiliklə təsbit edilmişdir. Məsələn, Hammurapi Qanunlarına görə, k. bədən xəsarətlərinin yetirildiyi hallarda tətbiq edilirdi.

**Komprador** *(isp. comprador – alıcı)* – müstəmləkə dövlətlərində, həmçinin asılı ölkələrdə xarici kapitalla milli bazar arasında vasitəçilik edən yerli ticarətçi. K. burjua dövlətlərinin iri kapitalistləri ilə bağlı olan yerli burjuaziya təbəqəsinin ticarət nümayəndəsi hesab olunur.

**Kompromat** *(ing. compromise documents)* – XX yüzilliyin 30-cu illərində təqsirkara, şübhə edilən şəxsə və şantajçıya aid olan ifşaedici sənəd; ibtidai istintaq jarqonlarından biri sayılırdı.

**Kompyuter** *(ing. computer – hesab edirəm)* – eynilə elektron hesablama maşını (EHM). Elmi ədəbiyyatda özünün geniş populyarlığını tapmış termindir.

**Kompyuter cinayətləri** – kompyuter informasiyası sahəsində törədilən ictimai təhlükəli əməllər. Bu cinayətlər AR CM-in otuzuncu fəslində nəzərdə tutulur. Həmin cinayətlərə kompyuter informasiyasına qanunsuz daxil olma (AR CM-in 271-ci maddəsi), elektron hesablama maşınların üçün

ziyanverici proqramlar yaratma, onlardan istifadə etmə və ya onları yayma (AR CM-in 272-ci maddəsi) və elektron maşınların (EHM), EHM sisteminin və ya onların şəbəkələrinin istismarı qaydalarını pozma (AR CM-in 273-cü maddəsi) daxildir.

**Kompyuter hüququ** – Azərbaycan Respublikası qanunvericiliyinin yeni sahəsi; EHM-in, EHM sisteminin və ya onların şəbəkələrinin istismarı prosesində yaranan ictimai münasibətlər kompleksini tənzimləyən hüquq normalarının məcmusundan ibarətdir.

Hüquq ədəbiyyatında "kompyuter hüququ" termini ilə yanaşı digər terminə – "informatika hüququ", yaxud "informasiya hüququ" termininə də rast gəlinir. "İnformatika hüququ" və ya "informasiya hüququ" k.h.-na nisbətən daha geniş anlayışdır, çünki o, bütövlükdə informasiya fəaliyyəti sahəsində yaranan ictimai münasibətləri tənzim edir.

**Kompyuter informasiyasına qanunsuz olaraq daxil olma** – kompyuter informasiyası sahəsində olan cinayətlərin bir növü. AR CM-in 271-ci maddəsində nəzərdə tutulmuşdur. Qanunla qorunan kompyuter informasiyasına, yəni maşın daşıyıcılarında, elektron hesablama maşınlarında, elektron hesablama maşınlar sistemində və ya onların şəbəkələrində olan informasiyalara qanunsuz olaraq daxil olma, bu hərəkətlər informasiyanın məhv edilməsi, təcrid olunması, modifikasiya olunması, onun surətinin çıxarılması, yaxud EHM-in işinin, sisteminin və ya onların şəbəkəsinin fəaliyyətinin pozulmasında ifadə olunur.

**Kompyuter virusu** – kompyuterdən xəbərsiz və onun istəyi ziddinə olaraq EHM-in proqramlı təminatlı iş qabiliyyətini pozmaqla özbaşına artan (çoxalan) və yayılmaq qabiliyyətinə malik olan EHM proqramı. İlk dəfə XX yüzilliyin 80-cı illərində ABŞ-da meydana gəlmişdir. 1996-cı ilə doğru k.v.-nun onlarca müxtəliflikləri qeydə alınmışdır. K.v. ilə mübarizə aparmaq üçün antivirus proqramları işlənib hazırlanır.

**Kondiksion iddia** – mülki hüquq elmində qanunsuz varlanmadan irəli gələn iddianın adı.

**Kondisiya** – norma, standart, keyfiyyət; müqavilənin şərtlərinə uyğun olaraq bu və ya digər mal həmin normalara, standartlara, yaxud keyfiyyətlərə müvafiq olmalıdır.

**Kondominat** *(bax: kondominimum).*

**Kondominimum** *(lat. condominium: con – birlikdə + dominium – sahiblik)* – birlikdə əldə etmə, hökmranlıq. Beynəlxalq hüquqda k. müəyyən dövlətin ərazisində hakimiyyətin iki və ya daha çox dövlət tərəfindən birgə həyata keçirilməsi deməkdir.

**Konfederasiya** *(lat. confoederatio)* – **1)** hər hansı təşkilatların ittifaqı, birliyi; **2)** bəzi məsələlər üzrə fəaliyyətlərini əlaqələndirmək məqsədilə dövlətlərin öz müstəqilliyini (suverenliyini) saxlamaqla yaratdıqları müvəqqəti (və ya) daimi ittifaq; **3)** Polşada XVI-XVIII yüzilliklərdə öz silki mənafelərini müdafiə etmək üçün silahlı qrupların yaratdığı müvəqqəti siyasi ittifaq; **4)** "K." terminindən (ittifaq mənasında) müxtəlif təşkilatların adlandırılmasında da istifadə olunur. Məsələn, Azərbaycan Respublikasının Həmkarlar İttifaqları Konfederasiyası, Fransa Ümumi Əmək Konfederasiyası, Yaponiya Əmək Konfederasiyası və i.a.





**Konfessial nümayəndəlik** – ayrı-ayrı polikonfessial dövlətlərdə nümayəndəli hakimiyyətin təşkili prinsipi; bu prinsipə uyğun olaraq nümayəndəli müəssisələrin deputatları onları təmsil edən dini icmalardan (konfessilər tərəfindən) seçilirlər.

**Konfessionalizm** *(lat. confessio – etiqad etmə)* – konstitusiya hüququna tətbiq edilən, dövlət hakimiyyətinin cəmiyyətin dini icmalara bölgüsünə əsasən təşkilini bildirən termin. Hazırda k. Livanda saxlanılır. Burada 1943-cü il milli müahidəsinə uyğun olaraq dövlət başçısı (prezident) xristian-maronit, parlamentin sədri şiə-müsəlman, baş nazir sünni-müsəlman olmalıdır. Parlamentdəki yerlər də proporsional şəkildə dini icmalar arasında bölüşdürülü. Bu qayda Kiprdə 1960-74-cü illərdə mövcud olmuşdur. K. hər iki halda vətəndaş müharibəsinə və ölkənin parçalanmasına gətirib çıxarmışdır.

**Konfirmasiya** *(lat. confirmatio – təsdiq etmə)* – məhkəmə hökmünün ali hakimiyyət tərəfindən təsdiq edilməsi.

**Konformluq** *(kriminologiyada)* – şəxsiyyətin davranışının konformluğu. Şəxsiyyətin davranışı gözləmələrə (davranış normalarına, dəyərli səmtlərə, rollara, göstərişlərə, mülahizələrə, davranış standartlarına) və sosial mühitə (qruplara, strukturlara, cəmiyyətlərə) uyğun olduqda, yaxud qrupların gözləmələrinə uyğun dəyişikliyə uğradıqda k. yaranır. Eksperimentlər əsasında nəticə çıxarılmışdır ki, k. üçüncü şəxslərin aşkar təzyiqi olmadan formalaşır.

**Konfrans** *(lat. conferentia – bir yerdə toplanmaq)* – hökumətin, ictimai təşkilatın, siyasi partiyaların, elmi-tədqiqat müəssisələrinin nümayəndələrinin hər hansı məsələnin müzakirəsi və həlli üçün keçirdikləri yığıncaq, müşavirə, toplantı.

**Konfutsiçilik** – Qədim Çində meydana gəlmiş və iki min ildən artıq dövr ərzində Çinin siyasi həyatı və sosial quruluşuna, etik-mənəvi mədəniyyətinə böyük təsir göstərmiş ictimai-siyasi və hüquqi təlim (doktrina). K. eramızdan əvvəl ÜI yüzillikdə məşhur Çin mütəfəkkiri Konfutsinin ardıcılları tərəfindən ideoloji məktəb kimi yaradılmış və fəaliyyət göstərmişdir. K. təxminən beş yüzillik ərzində Qədim Çində yeganə ictimai -siyasi və hüquqi ideoloji cərəyan olmuşdur. K. öz mahiyyətinə mürtəce məzmuna malik olmuş, cəmiyyətin istismarçılara və istismar olunanlara bölgüsünə haqq qazandırmışdır. "Jen" (humanizm) anlayışı k.-in əsas prinsiplərindən biri olsa da, Konfutsinin özü cəmiyyət üzvlərini "yaxşı" adamlara və "qara" adamlara bölən ilk mütəfəkkirlərdən biri olmuşdur. Hökmdar hakimiyyətinin ilahiləşdirilməsi k.-in cəmiyyətə təlqin etdiyi prinsip idi. O, hökmdarın özünün şəxsiyyətinə ilahilik verməklə onu "səma" oğlu kimi təqdim edirdi. K. sonrakı dövrlərdə moistlər tərəfindən tənqidlə qəbul edilmişdir.

**Konfuziya** *(lat. confusio - qarışmaq)* - **1)** dəyişməli əşya üzərində ümumi mülkiyyət hüququnun yaranması. Bu, konkret şəxslərin qarışıq və ya birləşdirilmiş əmlakının fərqləndirilməsini qeyri-mümkün edir; **2)** borclunun və kreditorun bir timsalda olduğu vaxt öhdəliklərə xitam verilməsi; **3)** xidmətçilərin və torpaq sahələrinin hökmranlığının bir əldə cəmləşdiyi vaxt mülkiyyət hüququnun qarışması nəticəsində servituta xitam verilməsi.

**Konklav** *(lat. conclave – qadağan otağı)* – yeni papanın seçilməsi üçün Roma papasının ölümündən sonra çağırılmış (1274-cü ildə) kardinallar yığıncağı. Xarici aləmdən təcrid edilmiş binada (otaqda) keçirilir.

**Konklyudent hərəkətlər** *(lat. concludo – yekunlaşdırıram, nəticə çıxarıram)* – şəxsin şifahi və ya yazılı iradə ifadə formasında deyil, öz davranışı ilə hüquq münasibəti müəyyən etməkdə (məsələn, əqd bağlamaq) iradəsini ifadə etməkdə ifadə olunan hərəkətləri. İnkişaf etmiş iqtisadi dövriyyə malları və xidmətləri əldə etmək qaydasını asanlaşdıran avtomatik vasitələrdən istifadə etmək şəraitində k.h. mülki hüquq münasibətləri doğuran hüquqi fakt kimi çıxış edirlər. Ona görə də geniş yayılmışdır. K.h. yolu ilə bağlanan əqdlər bəzən onların bağlanması ilə eyni vaxtda da icra olunurlar. Buna pərakəndə satış ticarətində daha tez-tez təsadüf olunur. Qanunla birbaşa nəzərdə tutulmuş bəzi hallarda şəxsin susması hüquqi nəticələr doğurur. Buna həmin şəxsin hüquqlarının əmələ gəlməsinə və ya öz üzərində öhdəliklər götürməsinə yönələn iradə ifadəsi kimi baxılır.

**Konkordat** *(lat. concordatum – müqavilə, saziş)* – Roma papası ilə ayrı-ayrı dövlətlərin hökumətləri arasında bağlanan müqavilə. K. katolik kilsəsinin həmin dövlət vəziyyətini, ailə-nikah münasibətlərini, məktəb məsələsi sahəsində və i. a. sahələrdə onun hüquqlarını müəyyən edir. İlk k. (Vorms k.-ı) 1122-ci ildə papa ilə Almaniya imperatoru arasında imzalanmışdır.

**Konkret cinayət** – müstəqil cinayət tərkibi yaradan, nəticə ilə bağlı olan, yaxud olmayan, qəsdən, yaxud ehtiyatsızlıqla törədilən vahid hərəkət (hərəkətsizlik). K.c.-lər sadə və mürəkkəb növə bölünürlər: 1) sadə konkret cinayətlərin aşağıdakı növləri fərqləndirilir: a) bir ictimai təhlükəli hərəkətdən (hərəkətsizlikdən) ibarət olan əməllər; b) alternativ hərəkətlərlə törədilən əməllər; c) iki və daha çox ictimai təhlükəli hərəkətlə törədilən əməllər; ç) bir ictimai təhlükəli nəticə doğuran hərəkətdən (hərəkətsizlikdən) ibarət olan əməllər; 2) konkret mürəkkəb cinayətlər. Bu əməllər zahiri cəhətdən cinayətlərin çoxluğuna bənzəyirlər. Konkret mürəkkəb cinayətlərin uzanan, davam edən, mürəkkəb tərkibli əməllər kimi növləri fərqləndirilir.

**Konkret həyat situasiyası** *(kriminologiyada)* – konkret cinayətin məkan-zaman, predmet və şəxsiyyətin hallarını özündə ehtiva edən cinayətkar davranış mexanizminin elementi.

**Konkubinat** *(lat. concubinatus)* – **1)** Qədim Roma hüququna görə ərdə olmayan qadınla uzun müddət nikahsız yaşamağa icazə verən hüquq norması, qanun. K. nikahından doğulan uşaqlar qeyri-qanuni (nikahdan kənar) doğulmuş uşaqlar hesab edilirlər; **2)** qeyri-qanuni (nikahdan kənar) birgə yaşama.

**Konqlomerat** *(lat. conglameratus – toplanmış)* – **1)** təşkilati təsisat; belə təşkilatda, təsisatda istehsalatın, sığorta işinin, elmi tədqiqatların, layihələşdirmələrin və məsləhətləşmələrin, habelə nəşr işlərinin texnoloji cəhətdən əlaqəsi olmayan sahələri müəssisənin vahid maliyyə nəzarəti altında cəmləşdirilir; **2)** holdinq şirkəti.

**Konqres** *(lat. congressus – görüş, yığıncaq)* – **1)** dövlət, ərazi, təşkilat rəhbərlərinin, yaxud nümayəndələrinin görüşü, yığıncağı, həmçinin beynəlxalq yığıncaqlar növü; **2)** bir sıra ölkələrdə (ABŞ-da, Boliviyada, Braziliyada, Venesuelada, Kolumbiyada, Meksikada, Hondurasda) ali qanunvericilik orqanı, yaxud onun palatalarından birinin adı. Fransada k. parlamentin hər iki palatasının birgə iclasıdır; **3)** bəzi dövlətlərdə bir sıra milli təşkilatların adı. Məsələn, Hindistan Milli Konqres Partiyası, Böyük Britaniya Trudiyunionları Konqresi və i.a.





**Konosament** *(ing. bill of lading; alm. konossement)* – yüklərin dəniz daşımasında özündə müqavilənin şərtlərini ehtiva edən sənəd. K. müqavilənin olması faktını təsdiqləyir və daşınan yükün yük daşıyan tərəfindən qəbul edilməsinin sübutuna xidmət edir. K. onun sahibinin yük üzərində sərəncam vermək hüququndan ibarət olan nəqliyyat sərəncamverici sənədidir (qiymətli kağızdır).

**Konsaltinq** *(ing. consulting)* – təsərrüfat və hüquqla, o cümlədən xarici ticarət sahəsindəki məsələlərlə əlaqədar istehsalçılarla, satıcılarla və alıcılarla iqtisadi məsələlərin geniş dairəsi üzrə aparılan məsləhətləşmələr. Məsələn, bazarın tədqiqi və proqnozlaşdırılması (mallar, xidmətlər, lisenziyalar, nou-hau və i.a.), dünya əmtəə bazarlarının qiymətləri, ticarət-siyasi şərtlərin, eksport-import əməliyyatları, beynəlxalq əməkdaşlıq obyektlərinin texniki-iqtisadi şərtlərinin hazırlanması və birgə müəssisələrin yaradılması, eksport strategiyasının hazırlanması, kompleks marketinq tədqiqatlarının aparılması, marketinq proqramlarının tərtib edilməsi, daxili və xarici mühit nəzərə alınmaqla müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin təhlili, habelə müəssisələrin eksport-import əməliyyatlarını həyata keçirdikləri konkret bazarların xarakteristikası üzrə xidmət növlərinin göstərilməsi k.-ə aiddir. İnkişaf etmiş ölkələrdə k. firmaları ərazi bazarlarında, mal qruplarında ixtisaslaşdırılır, yaxud sahəvi ixtisaslaşmaya malik olurlar.

**Konsaltinq firması** – bazarın, xidmətlərin tədqiqi və proqnozlaşdırılması ilə əlaqədar məsləhət yardımı göstərən, habelə xüsusi, o cümlədən istehsalın modernləşdirilməsi üzrə layihələr işləyib hazırlamaqla məşğul olan təşkilat.

**Konsendent** – konsessiya təqdim edən dövlət.

**Konsensual əqd** *(bax: əqdlər)*.

**Konsensus** *(lat. consensus – razılıq)* – beynəlxalq konfranslarda, danışıqlarda mübahisəli məsələlər üzrə iştirakçı dövlətlərin əldə etdikləri ümumi razılıq. K. son nəticədə beynəlxalq müqavilələrin bağlanması üçün əsas ola bilər.

**Konsentrik dairələr** *(kriminologiyada)* – cinayətkarlığın mövcud olduğu dairələr; şəhərdə konsentrik dairələr üzrə cinayətkarlığın və delinkventliyin yayılması nəzəriyyəsi. Bu nəzəriyyənin əsası ABŞ-ın Çikaqo Universitetinin sosioloqları R. Park və E. Bercess tərəfindən qoyulmuş, sonra isə Amerikanın bir çox alimləri vasitəsilə fəal tədqiqatlar aparılmışdır.

Ətraf mühitin cinayətkara təsirini tədqiq edən alimlər belə bir nəticəyə gəlmişlər ki, Çikaqoda ən böyük konsentrik delinkventlik onun mərkəzi hissəsində yerləşir və həmin mərkəzdən uzaqlaşmaq dərəcəsi ilə konsentrik delinkventliyin səviyyəsi aşağı düşür. Çikaqodan iki millik məsafədə yerləşən beş şəhərdə, yaxud dairədə onların hər birində mərkəzdən uzaqlaşdıqca cinayətkarlığın səviyyəsinin tədricən aşağı düşməsi müşahidə edilmişdir.

K.d. sosial-iqtisadi və sair amillərin, məsələn, əhalinin sosial tərkibinin, həyatın maddi cəhətdən qeyri-sabitliyinin, sosial institutların və i.a. eyni səviyyədə olmaması ilə izah olunur. K.d. nəzəriyyəsi konkret kriminoloji tədqiqatlara (Şounun, Makkeyin, Taftın, İnqlendin və başqalarının tədqiqatlarında) əsaslanan cinayətkarlığın zonaları haqqında çoxsaylı müfəssəl konsepsiyalara malikdir. Hazırda "K.d." termini altında "cinayətkarlığın zonası"nı başa düşmək lazımdır.

**Konsern** *(ing. consern)* – sənaye, ticarət, nəqliyyat müəssisələrinin, maliyyə və elmi-tədqiqat idarələrinin birləşməsi forması. Konqlameratdan fərqli olaraq k.-də vahid mülkiyyət, nəzarət formasına malik olan idarə və müəssisələr birləşirlər.

**Konservasiya** *(lat. conservatio – saxlama)* – sübuti əhəmiyyətə malik olan obyektlərin zəruri müddətlər üçün qorunub saxlanmasını təmin edən, habelə sübutların qeyd edilməsinin predmet formasına xidmət edən tədbirlərin məcmusu. K. kriminalistikada geniş tətbiq edilir.

**Konsessiya** *(lat. conssesio – icazə, güzəşt)* – 1) faydalı qazıntıların çıxarılması, müxtəlif qurğuların tikintisi və i.a. hüququ ilə torpaq sahəsinin dövlət tərəfindən sahibkarlara və xarici firmaların sənaye müəssisələrinə istifadəyə (istismara) verilməsinə dair müqavilə; 2) belə müqavilə əsasında təşkil edilən müəssisənin özü.

**Konsessiya müqaviləsi** *(bax: konsessiya).*

**Konsessiyonçu** – konsessiyanın sahibi, konsessiya almış şəxs.

**Konsiqnant** *(ing. consignor)* – komisyonçunun (konsiqnatorun) köməyi ilə sərhəddən keçməklə xaricə aparılan malların sahibi.

**Konsiqnasiya** *(lat. consignatio – yazılı sübut, sənəd)* – komisyon müqaviləsinin bir növü. Bu müqaviləyə görə komisyonçu əmtəə sahibinin tapşırığı ilə konsiqnasiya anbarından (öz anbarından) əmtəənin satışını təşkil edir. K. komisyon müqaviləsi bir çox ölkələrin ticarət, xüsusilə də xarici ticarət şəbəkəsində geniş yayılmışdır.

**Konsiqnasiya agenti** – başqa dövlətin bazarında prinsipialın mallarının satışını öz üzərinə götürmüş şəxs. Adi agentdən fərqli olaraq k.a.-nin fəaliyyəti konsiqnasiya müqaviləsi əsasında həyata keçirilir.

**Konsiqnator** – mal sahibinin (konsiqnantın) tapşırığı ilə malların satışını öz anbarından (konsiqnasiya anbarından) həyata keçirən komisyonçu. K.-un xidmətindən, xarici ticarət əməliyyatlarında istifadə olunur.

**Konsistoriya** *(lat. consistorium – yığıncaq, şura yeri)* – **1)** inqilabaqədərki Rusiyada eparxial arxiyer yanında kilsə-inzibati və kilsə-məhkəmə funksiyasını həyata keçirən idarə; **2)** katolik kilsəsində papanın sədrliyi altında kardinalların müşavirəsi; **3)** protestantizmdə inzibati kilsə orqanı.

**Konslager** *(bax: ölüm düşərgəsi).*

**Konsoli** *(ing. consols – məsləhətləşdirilmiş renta)* – Böyük Britaniyada uzunmüddətli (konsolidasiyalaşdırılmış) dövlət borcları istiqrazları.

**Konsorial saziş** *(bax: konsorsium).*

**Konsorsium** *(lat. consortium – birgə iştirak, birlik)* – sifarişlərin birgə yerləşdirilməsi, iri miqyasda istehsalat, kredit-maliyyə və marketinq əməliyyatlarının aparılması, sənaye tikintisində qlobal layihələrin həyata keçirilməsi, mənfəətli sifarişlər əldə edilməsindən və onların birgə icra edilməsindən ötrü bütün sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi üçün müstəqil sahibkarlıq strukturlarının müvəqqəti birliyi (sazişi). K. konsorial sazişlə rəsmiləşdirilir. Əlaqələndirmə adətən ən iri strukturun k. liderinə həvalə olunur. Lider k.-un bütün iştirakçılarının mənafelərini təmsil edir, ona verilmiş səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir və bunun üçün birgə fəaliyyətin nəticələri müqabilində müvafiq məbləğ alır.

**Konspirasiya** *(lat. conspiratio – yekdillik, razılıq, əlbirlik)* – hər hansı fəaliyyətin sirlərinə əməl etmə, onları gizli saxlama. K. müvafiq dövlətlərin xarici kəşfiyyat xidmətinin prinsiplərindən biridir. Həmin prinsipə bir sıra digər hüquq-mühafizə orqanlarının, habelə əməliyyat-axtarış strukturlarının fəaliyyətində əməl edilir.

**Konstebl** *(ing. constable)* – **1)** Böyük Britaniya və ABŞ-da aşağı polis rütbəsi; **2)** Feodal İngiltərəsində yüksək saray rütbəsi. İlk əvvəllər mehtərbaşılara "böyük mehtərbaşı", yəni k. deyilirdi.

**Konstituanta** – Fransada və bəzi başqa dövlətlərdə konstitusiyanın işlənib hazırlanması üçün yaradılan təsisedici məclis.

**Konstitusionalizasiya** – hər hansı müddəanın konstitusiyanın mətnində təsbit edilməsi, ona konstitusiya qüvvəsi verilməsi.

**Konstitusionalizm** – **1)** real olaraq konstitusiya ilə məhdudlaşdırılan idarəçilik konstitusiyaya arxalanan siyasi sistem, idarəçiliyin konstitusiya metodları; **2)** konstitusiya quruluşunun müəyyən edilməsi zəruriliyinə əsaslanan siyasi-hüquqi təlim (nəzəriyyə).

**Konstitusiya** *(lat. constitutio – quruluş, təsisat)* – dövlətin yüksək hüquqi qüvvəyə malik olan əsas qanunu. K. ölkənin iqtisadi, siyasi və hüquqi, qanunvericilik sisteminin əsaslarını təsbit edir, dövlət orqanlarının təşkili və fəaliyyətinin prinsiplərini, dövlət hakimiyyətinin və dövlət idarəçiliyinin başlıca müddəalarını, məhkəmə hakimiyyətinin sistemini, habelə vətəndaşların, ictimai təşkilatların və birliklərin, hərəkatların, müxtəlif qurumların hüquq və azadlıqlarını və i.a. müəyyən edir. Formasına görə yazılmış və yazılmamış k.-lar fərqləndirilir.

**Konstitusiya adəti** – dövlət hakimiyyəti və idarəetmə orqanlarının fəaliyyətində uzun müddət tətbiq edilən qayda. K.a.-nə bəzən konstitusiya sazişi, konstitusiya norması, konstitusiya əxlaqı və i.a. da deyilir. K.a. Böyük Britaniyada, ABŞ-da və ingilis-sakson hüquq sisteminə daxil olan ölkələrdə daha geniş yayılmışdır. Məsələn, Böyük Britaniyada ali icra hakimiyyəti hüquqi cəhətdən krala (kraliçaya), əslində isə k.a. əsasında nazirlər kabinetinə (baş nazirə) məxsusdur. ABŞ-da, Hindistanda hökumət (nazirlər kabineti) yalnız k.a. əsasında (lakin konstitusiyada həmin orqanlar nəzərdə tutulmur) mövcuddur.

**Konstitusiya assambleyası** *(fr. constituant)* – təsisedici məclisin adlarından biri.

**Konstitusiya ədalət mühakiməsi (konstitusiya ədliyyəsi)** – məhkəmə orqanlarının predmeti konstitusiya-hüquqi məsələlərdən ibarət olan işlərə baxmaq sahəsindəki fəaliyyəti. Belə məsələlərə

dövlət orqanları, ilk növbədə parlament tərəfindən konstitusiya və onun əsasında qəbul edilmiş və hüquqi nəticələrə səbəb olan qərarlara əməl olunmasının təmin edilməsi aid edilir. Normativ-hüquqi aktların konstitusiya uyğunluğunun yoxlanması k.ə.m.-nin səlahiyyətinə daxil deyil və o, konstitusiyanın aliliyini, konstitusiya hüquq və azadlıqlarının müdafiəsini, hakimiyyətlərin bölgüsü prinsipinə əməl edilməsini təmin etməyə xidmət edir.

K.ə.m. konstitusiya nəzarətinin əsas formalarından biridir və bu, konstitusiya məhkəmələri, ali məhkəmələr və ya istənilən ümumi məhkəmələr, habelə kvazi-məhkəmə orqanları (məsələn, konstitusiya şuraları) tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi belə orqana aiddir.

**Konstitusiya ədliyyəsi** *(bax: konstitusiya ədalət mühakiməsi).*

**Konstitusiya hüquq adətləri** *(bax: konstitusiya adəti).*

**Konstitusiya hüquq pozuntusu** – konstitusiya hüququ subyektinin konstitusiyanın göstərişlərini (normalarını) pozan və bu zaman nə cinayəti, nə də inzibati, mülki və intizam xətasını təşkil etməyən təqsirli davranışı. K.h.p. konstitusiya məsuliyyətinin meydana çıxması üçün əsasdır.

**Konstitusiya hüququ** – konstitusiyada və normativ-hüquqi aktlarda təsbit olunan münasibətləri tənzim edən hüquq normalarının məcmusu. K.h. dövlət hakimiyyəti və idarəetmə orqanlarının, eləcə də dövlətin iqtisadi, siyasi və hüquqi sisteminin, dövlət orqanlarının təşkili və fəaliyyəti prinsiplərinin, vətəndaşların hüquq və azadlıqlarının əsaslarını öyrənən hüquq sahəsidir.

**Konstitusiya komissiyası** – bəzi dövlətlərdə daimi fəaliyyət göstərən orqan. Məsələn, Rusiya Federasiyasında 1990-1993-cü illərdə RF-nin yeni konstitusiyasının layihəsinin hazırlanması məqsədilə RSFSR Xalq Deputatları Qurultayının 1990-cı il 16 iyun tarixli qərarı ilə yaradılmışdı. 1993-cü ilin sentyabrında RF Ali Sovetinin buraxılması ilə öz varlığını faktiki olaraq itirmişdir.

**Konstitusiya qanunçuluğu** – konstitusiya hüququnda aşağıdakı iki aspektdə istifadə olunan anlayış: 1) dövlətin konstitusiyasında birbaşa təsbit edilən və ya konstitusiya müddəalarından irəli gələn norma və tələblərə əməl edilməsi; 2) dövlətin bütün qanunlarına və sair normativ-hüquqi aktlarına (ümumi tələb kimi) əməl edilməsi. Bu halda "k.q." termini öz mahiyyətinə görə qanunçuluq tələbinin həmişə k.q.-ndan ibarət olduğunu əks etdirir. Çünki qanunçuluğun ümumi zəminləri dövlətin konstitusiyasında təsbit edilir və konstitusiyaqüvvəli normativ-hüquqi aktlarda inkişaf etdirilir.

**Konstitusiya qanunu** – müvafiq dövlətin konstitusiyası əsasında, konstitusiya normalarına uyğun olaraq verilən qanun.

**Konstitusiya qaydası** – konstitusiya normalarından irəli gələn və onlara uyğun olan, dövlət işlərinin gedişini insanların həyatının təşkilini müəyyən edən qayda (əsas qayda). K.q. qanunçuluq, təhlükəsizlik və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində təzahür edir.

**Konstitusiya quruluşu** – dövlətin və cəmiyyətin həyatında real mövcud olan dayaqların konstitusiyada əks etdirilməsi. Azərbaycan Respublikasında mövcud olan k.q. bir sıra əsas müddəalarla səciyyələndirilir. Həmin





müddəalar xalq hakimiyyətindən (xalqın hakimiyyətin mənbəyi olmasından), xalq suverenliyindən, insanın hüquq və azadlıqlarının yüksək dəyərlər kimi tanınmasından, demokratiyanın həyat tərzinin və siyasi rejimin əsası olmasından, siyasi plüralizmdən, iqtisadi fəaliyyət azadlığından və mülkiyyətin formalarının müxtəlifliyindən ibarətdir.

**Konstitusiyalı federasiya** *(bax: müqaviləli federasiya).*

**Konstitusiyalı monarxiya** *(bax: monarxiya).*

**Konstitusiya meyilliyi** *(kriminologiyada)* – tibbi-kriminoloji konsepsiya; ideyası ondan ibarətdir ki, cinayətkar davranış insanın fiziki konstruksiyasından və ya konstitusiyadan (düzülüşdən) asılıdır. Başqa tədqiqatçıların da belə fikrinə impuls verən Avstriya psixiatoru E. Kreçmer adamların konstitusiya tiplərinin təsnifatının işlənib hazırlanması əsasında sübut etmişdir ki, adamların indiki tipi müxtəlif psixi tutumlarına (tiplərinə) görə fərqlənirlər. Bu tiplərin əlaqələndirilməsi (fiziki və psixi xarakterin) davranışın, o cümlədən cinayətkar davranışın tipini şərtləndirir və müəyyən edir.

Belə tədqiqatları A. Xuton, onun şagirdi V. Şelden də apararaq morfoloji tip nəzəriyyəsini işləyib hazırlamışlar.

**Konstitusiya məhkəməsi** – bir sıra ölkələrdə xüsusi orqan. K.m.-nin yeganə və əsas funksiyası konstitusiya nəzarətinin həyata keçirilməsindən ibarətdir. K.m. üzvlərini ya parlament seçir (məsələn, AFR-də), ya da dövlət başçısı təyin edir (Avstriyada). K.m. üzvlərini bəzən parlament və digər dövlət hakimiyyəti və ədliyyə orqanları (məsələn, İtaliyada prezident, parlament və magistratura) təyin edir.

**"Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi əsasını təşkil edən qanunvericilik aktı. Bu barədə ilk qanun 21 oktyabr 1997-ci il tarixdə qəbul edilmiş, qanun 8 fəsil və 98 maddədən ibarət olmuşdur. Lakin Azərbaycanda dövlət quruculuğunun yeni mərhələyə daxil olması, məhkəmə-hüquq sistemində islahatların aparılması ilə əlaqədar 23 dekabr 2003-cü ildə "Konstitusiya Məhkəməsi haqqında" yeni qanun qəbul edilmişdir. Qanun 9 fəsildən və 79 maddədən ibarətdir.

**Konstitusiya-müqaviləli federasiya** *(bax: müqaviləli federasiya).*

**Konstitusiya nəzarəti** – qanunların və sair normativ-hüquqi aktların dövlətin konstitusiyasına uyğunluğunu təmin etməyə yönələn və dövlət orqanları tərəfindən həyata keçirilən fəaliyyət. K.n.-nin mahiyyəti ondan ibarətdir ki, nəzarət edən orqan daxil olan siqnallar üzrə və ya öz təşəbbüsü ilə hüquqi aktların konstitusiyaya uyğunluğunu müşahidə edir, konstitusiyaya zidd olan halları aşkar etdikdə, müvafiq orqanlara həmin hüquqi aktları ləğv etməyi təklif edir. Nəzarət orqanının özü konstitusiyaya zidd olan hüquqi aktları ləğv etmək hüququna malik deyil, çünki o, sırf nəzarət (müşahidə) funksiyasını yerinə yetirir. Lakin əgər o, eyni zamanda da konstitusiya nəzarəti orqanı olarsa, belə aktları özü də ləğv edə bilər.

K.n. funksiyasını müxtəlif dövlət orqanları (prezident, prokurorluq) həyata keçirirlər. Lakin k.n., bir qayda olaraq, buna müvəkkil edilmiş xüsusi orqana, məsələn, RF-də olduğu kimi Konstitusiya Nəzarəti Komitəsinə (KNK) tapşırılır.

**Konstitusiya prinsipləri** – konkret dövlətlərin konstitusiyasında əsas başlanğıcların ifadə edilməsi; konstitusiya-hüquqi tənzimetmənin obyekti olan ictimai münasibətlərin məzmununu müəyyən edir. K.p. həm bütövlükdə dövlətin konstitusiya quruluşuna, həm də onun ayrı-ayrı elementlərinə (institutlarına), məsələn, siyasi sistemə, insan və vətəndaşın hüquqi statusuna, iqtisadi sistemə, dövlətin ərazi təşkilatına aid edilir. K.p. konstitusiyanın bütün məntiqi və hüquqi məzmununu özünə tabe edir. Azərbaycan Respublikası Konstitusiyasına əsasən ölkənin konstitusiya quruluşunun əsasını aşağıdakı K.p. təşkil edir: a) respublika idarəçilik forması; b) xalqın suverenliyi; insanın və vətəndaşın hüquq azadlıqlarının üstünlüyü və yenilməzliyi; v) hakimiyyətlərin bölgüsü.

**Konstitusiya prosesi** – **1)** geniş mənada dövlət hakimiyyətinin ali orqanlarının konstitusiya hüquq normaları ilə müəyyən edilmiş formalardakı bütün fəaliyyəti; konkret cəmiyyətdə və ya dünyada bütün konstitusiya-hüquq institutlarının inkişafı və təkmilləşdirilməsi prosesi; **2)** məhdud mənada konstitusiya məhkəmələrinin və konstitusiya nəzarəti üzrə kvaziməhkəmə orqanlarının konstitusiya hüquqi mübahisələrə və konstitusiya hüquq pozuntuları haqqında işlərə baxmaq üzrə fəaliyyəti. Bu halda "konstitusiya-məhkəmə prosesi" termini də tətbiq edilə bilər.

**Konstitusiya-prosessual hüququ** – bəzi ölkələrdə (məsələn, AFR-də) konstitusiya hüququnun konstitusiya məhkəmələrində işlərin icraatını tənzimləyən əlahiddə normalarının məcmusu. K.-p.h. normaları konstitusiya məhkəmələri və onların reqlamenti haqqındakı qanunlarda nəzərdə tutulur. K.-p.h. parlament prosedur normalarını da əhatə edir.

**Konstitusiya referendumu** *(bax: referendum).*

**Konstitusiya sazişi** – bir sıra ölkələrdə (Böyük Britaniyada, Yeni Zelandiyada və i.a.) konstitusiya hüququnun mənbələrindən biri, hüquqi adətin bir növü. Siyasi təcrübə qaydalarından ibarətdir və məcburi hesab olunur. K.s. ilə müəyyən edilmiş göstərişlər məhkəmə vasitəsi ilə həyata keçirilə bilməz.

**Konstitusiya şikayəti** – vətəndaşların konstitusiya hüquq və azadlıqlarının müdafiəsinin prosessual vasitələrindən biri. Konstitusiya şikayətinə aşağıdakı hallarda yol verilir: a) qanun vətəndaşların hüquq və azadlıqlarına toxunduqda; b) qanun konkret işdə tətbiq edilən və ya tətbiq edilməli olduqda.

**Konstitusiya şurası** – Fransada və onun bir sıra keçmiş müstəmləkələrində mövcud olan konstitusiya nəzarətinin kvaziməhkəmə orqanı. Bu və ya digər qanunun, inzibati aktın, yaxud müvafiq məsələ ilə əlaqədar şura üzvlərindən birinin təqdim etdiyi məruzənin müzakirə olunması ilə bağlı tədbirin konstitusiyaya uyğunluğunu nəzərdən keçirir. K.ş. konstitusiya məhkəməsi kimi formalaşdırılır. Onun üzvlərinin bir hissəsi prezident, digər hissəsi isə parlamentin palatalarının sədrləri və ya digər orqanlar tərəfindən təyin edilir.

**Konstitusiya vəzifəsi** – əsas vəzifə; vətəndaşın dövlətin konstitusiyasında təsbit edilmiş vəzifəsi. K.v. digər vəzifələrdən fərqli olaraq məhz ən mühüm konstitusiya vəzifəsi kimi təsbit edildiyinə görə fərqlənir və o, vətəndaşların bir çox digər vəzifələrini qabaqcadan müəyyən edir.





Azərbaycan Respublikası vətəndaşlarının əsas vəzifələrinə, məsələn, dövlət rəmzlərinə hörmət (Azərbaycan Respublikası Konstitusiyasının 75-ci maddəsi), vətəni müdafiə (76-cı maddə), qanuna zidd vəzifələrin icrasına yol verilməməsi (79-cu maddə), məsuliyyət (80-ci maddə) və i.a. aid edilir.

**Konstitusiya yığıncağı** – bir sıra dövlətlərdə dövlətin konstitusiyasının nəzərdən keçirilməsi məqsədi ilə yaradılan orqan (məsələn, Rusiya Federasiyasının k.y.). K.y.-nın çağırılması müvafiq ölkənin konstitusiyasında birbaşa nəzərdə tutulur.

**Konstruktiv etimadsızlıq votumu** – hökumətin başçısına etimadsızlıq votumunun xüsusi forması; parlament üzvlərinin və parlamentin, hökumətin onun qarşısında məsul olan palatasının səs çoxluğu ilə hökumətin varisinin seçilməsində ifadə olunur. AFR-in, Sloveniyanın, Papua-Yeni və bir sıra digər ölkələrin konstitusiyasında nəzərdə tutulur. K.e.v. xüsusi hökumət böhranlarından qaçmağa imkan verir.

**Konsul** *(lat. consul)* – **1)** Qədim Romada respublika dövründə iki seçkili yüksək vəzifəli şəxsin titulu. İmperiya dövründə isə yalnız fəxri rütbə olmuşdur; **2)** Fransada 18-ci brumer çevrilişindən (9 noyabr 1799-cu il) sonra imperiyanın bərqərar olmasınadək (1804-cü ilədək) ali icra hakimiyyətinə malik üç şəxsin titulu; **3)** dövlətin başqa bir dövlətdə daimi nümayəndəsi olub, öz dövlətinin, onun vətəndaşlarının hüquqi mənafelərini müdafiə edən vəzifəli şəxs. K.-un təyin edilməsi, onun öz fəaliyyətinə başlaması hər bir dövlətin daxili qanunvericiliyinə uyğun həyata keçirilir. K.-un vəzifə və funksiyaları onu təyin etmiş dövlətin qanunvericiliyi, konsullar haqqında konvensiya və bir sıra sazişlərlə müəyyən edilir. K. müəyyən hüquq və imtiyazlardan (şəxsi toxunulmazlıq, mənzil və iş yerinin toxunulmazlığı, məhkəmə immuniteti) istifadə edir. Azərbaycan Respublikasının xarici ölkələrdəki konsulların hüquq və vəzifələri Azərbaycan Respublikasının 8 fevral 1994-cü il (həmin il martın 1-dən qüvvəyə minmişdir) tarixli Konsul Nizamnaməsi ilə müəyyən edilir.

**Konsulat** *(bax: konsulluq).*

**Konsul dairəsi** – konsulluğun yerləşdiyi dövlətin müəyyən ərazisi; razılığa gəlmiş dövlətlərin hökumətləri arasında sazişə uyğun olaraq konsul vəzifəli şəxsi üzərinə düşən vəzifələri yerinə yetirir. Bir sıra hallarda k.d. ən yaxşı əlverişli şərait yaratma haqqında şərtlərin tətbiqinin qüvvəsi ilə müəyyən edilir. Konsul funksiyalarının k.d.-ndən kənarda yerinə yetirilməsinə konsulluğun yerləşdiyi dövlətin razılığı ilə mümkündür. Konsul idarəsi k.d.-ndə yerləşməlidir.

**Konsul dərəcələri** – konsul vəzifəli şəxslərinin qulluq mövqeyi ilə əlaqədar olan rütbələri. Konsul idarələri başçılarının k.d. bu idarələrin statusundan asılıdır. Bu cəhətdən dövlətlərin təcrübəsi vahiddir; tərəflərin sazişi ilə konsul idarəsinin dərəcəsi müəyyən edilir (məsələn, baş konsul, konsul, vitse-konsul, konsul agenti). Dövlətin nümayəndələri tərəfindən təyin edilən qalan konsul heyəti ciddi beynəlxalq-hüquqi təsnifata malik deyil.

**Konsul ekzekvaturası** – konsul idarəsinin konsul dairəsi çərçivəsində öz funksiyalarını yerinə yetirməsi üçün konsulun gəldiyi dövlətin adətən xarici əlaqələr idarəsi vasitəsilə verdiyi icazə. K.e.-nı alanadək konsul idarəsinin başçısı öz vəzifə-

lərinin icrasına müvəqqəti başlaya bilər. Konsulun gəldiyi dövlət k.e.-nı verməkdən imtina edə, habelə onu istənilən vaxt geri ala bilər. Bu zaman dövlət öz hərəkətlərinin səbəblərini izah etməyə borcludur.

**Konsul fakturası** – gömrük fakturasının xüsusi forması. İmportçe ölkələrin müvafiq import lisenziyalaşdırılması predmetinin təsdiqinin (leqallaşdırılmasının) tələb etdiyi vaxt rəsmiləşdirilir. Belə rəsmiləşdirmə gömrük prosedurlarını sadələşdirir, yaxud yerli konsulların saxlanması üçün vəsaitlərin toplanmasına yardım edir. K.f.-nın verilməsinin qəbul edilmədiyi ölkələrdə belə fakturanın verilməməsi malların gömrük təmizlənməsi zamanı mürəkkəbliyə, yaxud importçunun böyük məbləğdə cərimə olunmasına səbəb ola bilər. K.f.-nın rəsmiləşdirilməsi haqqında tələb, hər şeydən əvvəl, Latın Amerikası ölkələrində irəli sürülür.

**Konsul hüququ** – konsulun hüquqi vəziyyətini və fəaliyyətini tənzim edən hüquq normalarının (həm dövlətin daxili qanunvericiliyinin, həm də beynəlxalq hüquq normalarının) məcmusu. K.h.-nun əsas mənbəyi konsul haqqında dövlətlər arasında bağlanmış sazişlərdir. XX yüzillikdə konsul məsələlərinə dair bir neçə çoxtərəfli konvensiyalar bağlanmışdır. 1911-ci il Karakas, 1928-ci ildə Haaqa, 1963-cü il Vyana konvensiyalarını buna misal göstərmək olar.

**Konsul immuniteti** – konsulun gəldiyi dövlətin hüquq qaydasından götürülən, konsul vəzifəli şəxslərinə, onların ailə üzvlərinə və əmlakına münasibətdə şamil olunan konsulluğun yerləşdiyi dövlətin orqanlarının məcburi məhkəmə, inzibati və fiskal tədbirləri (həbs, iddia, axtarış, dindirmə, vergilər, embarqo, rekvizisiya və i.a.). K.i. funksional səciyyə daşıyır, yeni konsul funksiyalarının həyata keçirilməsilə əlaqədardır.

**Konsul imtiyazları** – konsulun gəldiyi dövlətdə konsul nümayəndəliyinə, vəzifəli şəxslərə və onların ailə üzvlərinə hüquq normaları və ya beynəlxalq nəzakət qaydaları əsasında verilən xüsusi üstünlüklər. Belə imtiyazlara konsulluq nümayəndəliyinin qəsd və təhqirlərdən müdafiə edilməsi tədbirləri, dövlət bayrağından, konsul embleminden, müxtəlif əlaqə vasitələrindən, o cümlədən kuryerdən, şifrlərdən, fəxri görüş, gömrük baxışından azad olma və i.a. hüquqları daxildir.

**Konsul konvensiyaları** – dövlətlər arasında bağlanmış sazişlər. K.k.-nın məzmunu konsul hüquq normalarından ibarətdir. Konsul nümayəndəliyinin təyinat, geri çağırılmaq qaydasını, onun fəaliyyət dairəsini, hüquq və imtiyazlarını, konsulluğun vəzifəli şəxslərinin və əməkdaşlarının immunitetini müəyyən edir. K.k.-nın sayı hazırda mindən yuxarıdır.

**Konsul leqallaşdırılması** *(bax: leqallaşdırma).*

**Konsul lövhəsi** – öz ölkəsinin gerbinin təsvirindən və konsulun təmsil etdiyi dövlətin və gəldiyi dövlətin dillərində konsul idarəsinin adının yazılmasından ibarət olan lövhə. K.l. konsul nümayəndəliyinin ərazisində baş girişin xarici tərəfində asılır.

**Konsulluq** – **1)** Qədim Romada və Fransada konsulların idarə etdiyi tarixi dövr; **2)** dövlətin başqa dövlət ərazisində qarşılıqlı razılaşma əsasında müəyyən funksiyaları icra edən xarici əlaqələr orqanı. K.-un hüquq, imtiyaz və immunitetlərinə aşağıdakılar daxildir: a) öz dövlətinin bayrağından və gerbindən istifadə etmək; b) yerləşdiyi binanın toxunulmazlığı; c) vergilərdən azadolma. K.-un öz hökuməti, diplomatik nümayəndəliyi, öz ölkəsinin digər konsulluqları ilə (onların harada yerləşməsindən asılı olmayaraq) əlaqə saxlamaq hüququ vardır.

**Konsul nizamnaməsi** – konsul idarəsinin təşkilini və işini tənzimləyən, habelə konsul vəzifəli şəxslərinin funksiyalarını və fəaliyyət qaydalarını müəyyən edən qaydaların toplusu.

**Konsul nümayəndəliyi** – dövlətin xarici əlaqələr orqanlarından biri; iki dövlət arasında konsul münasibətlərinin yaradılması nəticəsində təşkil edilir. K.n.-nin yerləşdiyi yer, ayrı-ayrı hallarda isə heyətinin sayı hökumət nümayəndələri arasında və konsulun gəldiyi dövlətin hökuməti ilə razılaşdırılır. Baş konsulluq, konsulluq, vitse-konsulluq və konsul agentliyi fərqləndirilir. K.n.-nin işi təmsil olunan ölkənin Xarici İşlər Nazirliyi (XİN) və səfirlik tərəfindən istiqamətləndirilir. K.n. ştatlı və ya ştatdankənar (fəxri) ola bilər. K.n.-nin statusu ikitərəfli və ya çoxtərəfli (əsasən konsul əlaqələri haqqında 1963-cü il Vena Konvensiyası ilə ) müqavilələrlə müəyyən edilir.

**Konsul patenti** – təmsil edilən dövlətin səlahiyyəti orqanları tərəfindən verilən və müvafiq şəxsin müstəqil konsul idarəsinin başçısı təyin edildiyini təsdiq edən sənəd. Həmin sənəddə təyin edilən şəxsin tam adı, vətəndaşlığı, dərəcəsi, tutduğu vəzifə, konsul dairəsi və konsulluğun yerləşdiyi yer göstərilir. Bu sənəd konsulun gəldiyi dövlətə göndərilir.

**Konsul vəzifəli şəxsi** – müvafiq funksiyaların yerinə yetirilməsi tapşırılmış konsul idarəsinin başçısı da daxil (baş konsul, konsul, vitse-konsul, konsul agenti və konsul idarəsinin katibi) olan istənilən şəxs, habelə qulluğa hazırlıq üçün konsul idarəsinə ezam edilmiş şəxs. Konsul idarəsinin xarakterindən asılı olaraq K.v.ş. ştatlı və ya ştatdankənar (fəxri) ola bilər.

**Konsul yığımları** – müəyyən edilmiş tarifə uyğun olaraq konsul idarəsinin təmsil etdiyi ölkənin vətəndaşlarının və ya xarici vətəndaşların xahişi ilə yerinə yetirdiyi hərəkətlərə görə tutulmalı olan ödənişlər. Razılığa gəlmiş dövlətlərin qarşılıqlı maraqları əsasında bu və ya digər hərəkətə görə k.y.-ndan azad etmə tətbiq edilə bilər. K.y.-ndan azad etmə haqqında qərar konsul tərəfindən də qəbul edilə bilər.

**Konsul yurisdiksiyası** əcnəbi vətəndaşların yalnız öz dövlətinin konsul hakimiyyətinə tabe olması. K.y. təslim (kapitulyasiya) aktının rejiminin əsas elementlərindən biridir. Hazırda k.y.-na xalis halda təsadüf olunmur.

**Kontanqo** - birja termini; bu termin aşağıdakıları ifadə edir: 1) qiymətlərin qarşılıqlı münasibətini; bu zaman əqdlər üzrə qiymətlər nağd malın qiymətlərini ötüb keçir; 2) brokerə ödənilən muzd.

**Kontinental hüquq** *(bax: roman-german hüquq sistemi).*

**Kontinental şelf** – dəniz dibi (onun təki də daxil olmaqla) rayonun ərazi sularına bitişik olan müəyyən eni; sahil dövləti həmin en məkanında kəşfiyyatlar və onun təbii ehtiyatlarının tədqiqi məqsədi ilə öz suveren hüquqlarını həyata keçirir. K.ş.-in xarici sərhədləri kontinental qitənin sualtı hüdudlarının xarici sərhədləri üzrə və ya sahildən 200 mil məsafədən keçir. K.ş.-in

xarici sərhədləri bütün hallarda 350 dəniz milindən və ya 2500 metrlik izobatdan 100 dəniz milindən uzaqda yerləşə bilməz.

**Kontingent** *(bax: kontingentləşdirmə).*

**Kontingentdaxili dövlətlər** – dənizə çıxışı olmayan dövlətlər. Dünyada 30-dan artıq k.d. vardır. Onların əksəriyyəti Afrika (14 ölkə) qitəsində, 5-i Asiya qitəsində, 2-i Latın Amerikasında, 9-u isə Avropa qitəsindədir. Spesifik coğrafi vəziyyətlərlə əlaqədar olaraq k.d. üçün müasir beynəlxalq hüquqda belə dövlətlərin xüsusi hüquqlarını müəyyən edən normalar işlənib hazırlanmışdır. Dənizə giriş və ondan çıxış, tranzit hüquqlara dair hüquqları buna misal göstərmək olar. K.d.-in xüsusi hüquqları 1958, 1965 və 1982-ci il açıq dənizdə tranzit ticarət haqqında konvensiyalar ilə tənzim edilir.

**Kontingentləşdirmə** – import və eksport kvotalarının (kontingentlərinin) müəyyən edilməsi vasitəsi ilə xarici ticarətin dövlət tənzimlənməsi. K.-nin məqsədi milli sənayenin mənafelərini müdafiə etməkdən ibarətdir. Buna bu və ya digər malların gətirilməsi və ya çıxarılmasının həll edilməsi yolu ilə nail olunur. Müəyyən edilmiş kontingentlər hüdudlarında mallarla ticarət lisenziyalarla həyata keçirilir. K. adətən müəyyən və ya hansısa hadisə ilə əlaqədar tətbiq olunur.

**Kontingent müqavilələri** – müəyyən sayda malların çıxarılmasına, gətirilməsinə və ya tranzitinə görə dövlətə təminat verən müqavilələr.

**Kontinutet nəzəriyyə** – burjua hüquq nəzəriyyəsi doktrinasında geniş yayılmış keçmiş təlim. Bu nəzəriyyəyə görə dövlətin hüquq subyektliliyi hər hansı daxili dəyişikliklərdən asılı olmayaraq identik və fasiləsizdir. Bu identiklik həmin dövlət üçün beynəlxalq müqavilələrin fasiləsiz qüvvəsi ilə qırılmaz surətdə bağlıdır. Hazırda k.n. öz tərəfdarlarını itirmişdir. Bunu dövlətlərin təcrübəsi göstərir.

**Kontokorrent** *(ita. conto corrente – cari hesab)* – bankı müştəri ilə bütün əməliyyatlarının nəzərə alındığı vahid bank hesabı. K.-də bir tərəfdən bankın ssudaları və müştərinin tapşırığı ilə hesabdan bütün ödəmələri, digər tərəfdən əmanətlər şəklində banka daxil olan vəsaitlər, kreditlərin qaytarılması və i.a. əks olunur. K. üzrə hesablaşmalar hər bir ayrı-ayrı əqd üzrə deyil, müntəzəm surətdə məsələn, hər rübdə) saldo üzrə həyata keçirilir.

**Kontrabanda** *(ita. contrabando: contra – əleyhinə + bando – hökumət fərmanı)* – **1)** gömrük qanunvericiliyinin pozulması ilə malların, valyutaların və digər qiymətli sərvətlərin dövlət sərhədindən qanunsuz keçirilməsi; **2)** dövlət sərhədindən qanunsuz keçirilən malın özü (qaçaqmal); **3)** qadağan edilmiş gizli keçirilən qaçaqmal; **4)** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-cı maddəsində nəzərdə tutulmuş ictimai təhlükəli əməl (qaçaqmalçılıq).

**Kontrafaksiya** *(fr. contrafaction – saxta; lat. contra – əleyhinə + facere – etmək)* – **1)** başqasının əsərlərini özününkü etmə və yayma yolu ilə müəlliflik hüquqlarını pozma; **2)** xarici ölkələrin (xüsusilə Qərbi Avropa dövlətlərinin) hüququnda ayrı-ayrı firmaların istehsal etdikləri malların üzərinə xaincəsinə (vicdansız rəqabət) aparmaq və alıcıları aldatmaq məqsədi ilə firmaların geniş şöhrət qazanmış əmtəə nişanlarını vurması.







**Kontrafakt nüsxələr** – əsərlərin nüsxələri və fonoqramları, habelə EHM üçün proqramların nüsxələri və ya məlumat bazaları; bu nüsxələrin hazırlanması və yayılması müəlliflik hüquqlarının və qarışıq hüquqların pozulmasına səbəb olur. Azərbaycan Respublikasında mühafizə olunan əsərlərin və fonoqramların, habelə EHM üçün proqramların nüsxələri də k.n. hesab olunur.

**Kontragent** *(lat. contrahens – saziş bağlayan)* – müqavilənin tərəflərindən biri.

**Kontrakt** *(lat. contractus)* – razılığa gələn tərəflərin qarşılıqlı öhdəlikləri (çox zaman yazılı) ilə bağlanan müqavilə, yaxud saziş.

**Kontraktant** – kontrakt üzrə müəyyən öhdəlikləri öz üzərinə götürmüş şəxs.

**Kontraktasiya** *(bax: kontraktasiya müqaviləsi).*

**Kontraktasiya müqaviləsi** – alqı-satqı müqaviləsinin bir növü. K.m.-nə görə kənd təsərrüfatı məhsullarının istehsalçısı yetişdirdiyi (istehsal etdiyi) kənd təsərrüfatı məhsullarını tədarükçüyə – belə məhsulları emal etmək və ya satmaq üçün onları satın alan şəxsə vermoyi öhdəsinə götürür. Bu münasibətlərdə malların tədarük müqaviləsi – malların dövlət ehtiyacları üçün tədarükü haqqında müqavilənin ümumi qaydaları tətbiq edilir.

**Kontraktın valyuta şərtləri** – eksportçu ilə importçu arasında xarici ticarət kontraktları bağlanarkən razılaşdırılan şərtlər. K.v.ş. özündə aşağıdakıları ehtiva edir: 1) kontraktın qiymət valyutasını; 2) eksportçu ilə importçu arasında həyata keçiriləcək hesablaşmanın ödəmə valyutasını; 3) müxtəlif növ valyuta qeyd-şərtlərini.

**Kontrakt məsuliyyəti** – kontrak üzrə öhdəliklərin pozulmasından əmələ gələn məsuliyyət. Məsuliyyət öhdəliklərin yerinə yetirilməsinin gecikdirildiyi və ya icra edilmədiyi zaman meydana çıxır. Məsuliyyət borclunun bunda öz təqsirinin olmadığını sübut edə bilmədiyi halda mövcud olur. İtkilər qarşısıalınmaz qüvvənin nəticəsi kimi meydana çıxdıqda, onların əvəzi ödənilmir.

**Kontrasiqnasiya** *(bax: kontrasiqnatura).*

**Kontrasiqnatura** *(lat. contra – əleyhinə + signare – imzalamaq)* – bir sıra xarici ölkələrdə nazirin hüquqi aktındakı imzası. Həmin akt dövlət başçısı tərəfindən verilir və o deməkdir ki, nazir öz üzərinə həmin akta görə hüquqi və siyasi məsuliyyət öhdəliyi götürür.

**Kontrbalans** *(fr. contre – balancer – bərabərləşdirmək)* – balansın və ya onun hər hansı bir hissəsini yoxlamaq və təhlil etmək məqsədi ilə mühasibat məlumatları əsasında tərtib edilən cədvəl.

**Kontribusiya** *(lat. contributio)* – **1)** məğlub edilmiş dövlətdən qalib dövlətin müharibədən sonra məcburi qaydada aldığı ödəniş; **2)** müharibənin aparıldığı dövrdə yadelli qoşunların işğal etdikləri ərazinin əhalisindən məcburi surətdə aldıqları pul və natura ödəmələri. K. müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında 1949-cu il Cenevrə konvensiyası ilə qadağan olunmuşdur. K. təzminatdan fərqlənir.

**Kontrmarketinq** – istehsalçının, rəqabətçinin və ya ictimaiyyətin məmulatların hər hansı növünə, məsələn, alkoqollu içkilərə, tütün məmulatlarına və i.a. olan tələbatının azaldılmasına yönələn fəaliyyəti.

**Kontroferta** – alınmış oferta əsasında edilən qarşılıqlı təklif; müqavilə bağlamaq

təklifinin qəbulu haqqında bəyanat (lakin birinci ofertadan fərqli olaraq belə müqavilə sair şərtlərlə bağlanır).

**Kontrreklam** – lazımi qaydada olmayan reklamın səbəb olduğu nəticələri ləğv etmək məqsədi ilə həmin reklamın təkzib edilməsi. "Reklam haqqında" Azərbaycan Respublikasının 3 oktyabr 1997-ci il tarixli qanununun 27-ci maddəsinin 1-ci hissəsinə uyğun olaraq qanunvericiliyin pozulması faktları aşkar edildikdə, qanunu pozan reklam fəaliyyətinin subyekti müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi müddət ərzində əks reklamı həyata keçirməyə borcludur. Əks reklamın həyata keçirilməsi üçün tələb olunan bütün xərclər qanunu pozan tərəfindən ödənilir.

**Kontrstaliya** – tərəflərin sazişi ilə müəyyən edilməli olan vaxt (kontrstaliya vaxtı); bu vaxt ərzində gəmi yüklənmə və ya boşaldılma üçün müəyyən edilmiş vaxtdan artıq gözləmə üçün saxlanıla bilər. Gəmi bu vəziyyətdə limanda saxlanıla bilər. Gəmi dayanacağından fərqli olaraq (bu staliya vaxtı ərzində ödəniş ödənmir), k. xüsusi məzənnə – demerc üzrə ödənilir.

**Konvensial normalar** – konstitusiya sazişlərində ehtiva olunan normalar. K.n.-ın bəzən "konvensial konstitusiya" da adlandırırlar.

**Konvensiya** *(lat. conventio – müqavilə, saziş)* – hər hansı xüsusi məsələyə dair bağlanan beynəlxalq müqavilə, saziş.

**Konvensiya cinayətləri** – törədildiklərinə görə məsuliyyətin beynəlxalq cinayət hüquq normaları ilə nəzərdə tutulduğu cinayətlər. Cinayətkar yolla əldə edilmiş pulların "yuyulması", terrorçuluq, mühari-bə qanunlarını və adətlərini pozma, hava gəmisində törədilən cinayətlər və i.a. k.c.-nə aid edilir.

**Konvensiya prioriteti** – patent hüququ obyektinin (onun mühafizə olunması şərti kimi) yeniliyini müəyyən edən tarix. Sənaye mülkiyyətinin mühafizəsi haqqında 1883-cü il 20 mart tarixli Paris konvensiyasının 4-cü maddəsi bütün iştirakçı ölkələrin patentləşdirilməsi üçün imtiyazlı qayda nəzərdə tutur. Paris konvensiyasına görə k.p. ixtiralar üçün 12 ay, faydalı nümunələr və ya əmtəə nişanları üçün 6 ay ərzində qüvvədə olur.

**Konvensiya tarifi** – razılığa gəlmiş bir dövlətin ərazisindən digərinin ərazisinə aparılan malların ayrı-ayrı növləri üçün dövlətlərarası ticarət sazişlərində müəyyən edilən gömrük rüsumlarının məzənnəsi. K.t.-nin məzənnəsi birtərəfli aktla müəyyən edilən muxtar tariflərə nisbətən aşağıdır.

**Konvent** *(lat. conventus – yığıncaq)* – **1)** konstitusiyanın işlənib hazırlanması və ya ona dəyişikliklər edilməsi üçün bəzi ölkələrdə çağırılan qanunvericilik orqanının adı; **2)** milli konvent – Böyük Fransa inqilabı dövründə kralın devrilməsindən (10 avqust 1792-ci il) sonra çağırılmış yığıncaq. Milli konvent Fransanı respublika elan etmiş və 1792-ci il mayın 31-dən iyunun 2-dək mövcud olmuş yakobinçilər inqilabi diktaturasını elan etmişdir; **3)** bir sıra dövlətlərdə siyasi partiyaların, təşkilatların tərkib hissəsinin adı.

**Konvoy** *(hol. konvooi)* – **1)** mühafiyə (yaxud həbs) altında olan dustağı qaçmamaq xəbərdarlığı ilə müşayiət edən silahlı dəstə; **2)** nəqliyyat və ticarət gəmilərini (onlar yolda olarkən) düşmən basqınından qoruyan hərbi korabllar və ya təyyarələr.





**Kooperasiya** *(lat. cooperatio – əməkdaşlıq)* – sosial-iqtisadi fəaliyyətin müxtəlif sahələrində ümumi məqsədə nail olmaq üçün fiziki şəxslərin təşkilati cəhətdən rəsmiləşdirilmiş könüllü birliyi. K.-nın yaşı o qədər də qədim deyildir. O, sosial-iqtisadi problemlərin həlli vasitəsi kimi XIX yüzilliyin ortalarında Qərbi Avropada meydana gəlmişdir. K.-nın növlərinə mənzil-tikinti kooperativi, kredit kooperativi, sənət kooperativi, satış kooperativi, təchizat kooperativi, kəndli (fermer) kooperativi və i.a. daxildir.

**Kooperativ** *(bax: kooperasiya).*

**Kooperativ mülkiyyəti** – ayrı-ayrı kooperativlərin və kooperasiya birliklərinin mülkiyyəti. Kooperativ təşkilatları, onların birlikləri və nizamnamələri əsasında mülkiyyət hüququ ilə onlara məxsus olan əmlaka sahiblik edir, həmin əmlakdan istifadə edir və onun üzərində sərəncam verir. Kooperativ təşkilatları və onların birliklərinin mülkiyyətində olan əmlak üzərində sərəncam vermək hüququ yalnız mülkiyyətçiyə məxsusdur.

**Kooperativ payı (pay haqqı)** – kooperativ üzvü tərəfindən ödənilən pul məbləği – üzvlük (payı) haqqı. K.p. kooperativin mülkiyyətinə daxil olur və onun, yəni kooperativin şəxsi hesab fondunun vasitəsi ilə birliyin ehtiyaclarına sərf edilir.

**Kooptasiya** *(lat. cooptatio – əlavə seçki)* – seçkili kollegial orqana əlavə seçki keçirilmədən, özünün qərarı ilə həmin orqana yeni üzvlərin daxil edilməsi. K., bir qayda olaraq, sonradan müvafiq təşkilatın növbəti ümumi yığıncağında təsdiq edilir.

**Kopiholderlər** *(ing. copyholders, sirdən – surət + holder – saxlayan)* – İngiltərədə feodalizmin sonrakı dövründə feodaldan asılı kəndlilər; bu kəndlilər, hər şeydən əvvəl, ömürlük olaraq nadeldən istifadə işinə daxil olarkən surət – manorial məhkəməsinin protokolundan çıxarış əldə edirdilər. K. məhkəmənin yuridik müdafiəsi və lordun icazəsi olmadan nadel üzərində sərəncam vermək hüquqlarından məhrum edilmişdilər.

**Kopirayt** *(ing. copyright, sirdən – surət + right – hüquq)* – **1)** müəlliflik hüququ; ədəbiyyat, incəsənət əsərlərinin və i.a. əsərlərin nəşri və onlardan istifadə ilə əlaqədar münasibətləri tənzim edən hüquq normaları; **2)** © həmin əsərin müəlliflik hüququ ilə mühafizə edildiyini və məhz kimə məxsus olduğunu göstərən © işarəsi.

**Korner** *(ing. corner – künc)* – hər hansı əmtəəni (sonradan möhtəkirlik məqsədi ilə satmaq üçün) satın almaq üçün bağlanan saziş. K. fond birjasında hər hansı şirkətin səhmlərini satın almaq, səhm nəzarəti zərflərini alıb-satmaq, yaxud əldə etmək üçün də yaradılır.

**Kornet** *(fr. cornette – bayraq, bayraq gəzdirən zabit)* – XV-XX yüzilliklərin əvvəllərində bir sıra ölkələrin suvari qoşunlarında kiçik zabit rütbəsi. Əvvəllər rota bayrağını aparan zabit k. adlandırılırdı. Rusiyada 1801-ci ildə təsis, 1917-ci ildə isə ləğv edilmişdir.

**Koroner** *(ing. coroner)* – Böyük Britaniyada, ABŞ-da və bir sıra başqa ölkələrdə qeyri-adi və ya şübhəli şəraitdə baş vermiş ölümün səbəblərini aydınlaşdırmaq vəzifəsini yerinə yetirən xüsusi hakim. Zorakı

bölüm faktı müəyyən edildikdə k. işi məhkəməyə verir.

**Korporasiya** *(lat. corporatio – birlik)* – **1)** orta yüzilliklərdə sənətkarların, tacirlərin birliyi (sexlər, gildiyalar); **2)** hər hansı məqsədə nail olmaq üçün birləşən və müstəqil hüquq subyekti – hüquqi şəxs əmələ gətirən şəxslərin birliyi. İlk k.-lar XIX yüzilliyin ortalarında yaranmışdır. Müasir şəraitdə o, ABŞ-ın bütün təsərrüfat sahələrində aparıcı mövqe tutur.

**Korporasiyaların cinayətkarlığı** *(kriminologiyada)* – ABŞ-da cinayət sosiologiyasının nümayəndələri tərəfindən tətbiq edilən termin. Radikal kriminologiya və onun nümayəndələri "ağ yaxalıqlı cinayətkarlıq" və k.c. arasında şüurlu surətdə sərhəd müəyyən edirlər. AFR-də belə bölgü mövcud deyil. Hər iki anlayış iqtisadi cinayətkarlıq anlayışına daxildir. K.c. dedikdə, korporasiyanın rəhbərliyi adından onun nümayəndələri və ya rəhbərlərin özləri tərəfindən törədilən hüquqazidd hərəkətlər başa düşülür. K.c.-nın fərqləndirici cəhəti onun bir fərd deyil, bir qrup adamlar tərəfindən törədilməsidir. Bu, məqsədlərə nail olmanı təmin edən norma və qaydaların kollektiv formada pozulmasından ibarətdir. AFR-də heç vaxt k.c.-nın tədqiqatları aparılmamışdır.

**Korporativ dövlət** – avtoritar rejimli dövlət formalarından birini ifadə edən termin. Dövlət nəzəriyyəsinin tərəfdarları siniflər əvəzinə "korporasiyalar" anlayışını işlədirlər. Mürtəce diktaturanın həyata keçirilməsinin ən əlverişli forması olan korporativizm ideyaları faşist rejimli dövlətlərdə daha geniş yayılmışdır.

**Korporativ hüquq** – **1)** mülki hüququn tərkib hissəsi, təsərrüfat cəmiyyətlərinin və ortaqlıqların yaradılması və fəaliyyət qaydasını, hüquqi statusunu tənzim edən hüquq normalarının məcmusu. Bu mənada k.h. anlayışı səhmdar hüququna nisbətən genişdir, çünki onun normaları səhmdar cəmiyyətləri ilə yanaşı kommersiya təşkilatlarının digər növlərinə də aiddir; **2)** idarənin (kommersiya təşkilatının) mülkiyyətçisi və *ya müdiriyyəti tərəfindən* müəyyən edilən və müxtəlif firmadaxili münasibətləri (məsələn, iş bölgüsü qaydasını) tənzim edən qaydaların sistemi.

**Korporativizm** – cəmiyyətin sosial təşkilinin (icma və ya vətəndaş cəmiyyəti ilə yanaşı) bir növü; hakimiyyətin sərt iyerarxiyalı sisteminin olması ilə xarakterizə olunur. *Belə sistemdə fəhlələri və sahəvi əlamət* üzrə sahibkarları birləşdirən korporasiyalar dövlətsizləşdirilir, vətəndaş cəmiyyətinin institutları ciddi nəzarət altına götürülür, *yaxud onlar ləğv edilir.* Məsələn, B. Mussolini tərəfindən XX yüzilliyin əvvəllərində İtaliyada yaradılmış sistem.

**Korporativ muxtariyyət** – muxtariyyətin ekstra ərazi iki növündən biri; milli məsələnin həllinin və köklü azsaylı xalqların mənafelərinin müdafiəsinin nisbi yeni üsulu. K.m. qaydasında etnik azlıq ümumdövlət səviyyəsində öz mənafelərini təmsil edən orqanlarını yarada bilər. Məsələn, Finlandiyada İsveç Xalq Məclisi (75 üzvü var), Saam Parlamenti (25 üzvü var) mövcuddur.

Saam parlamenti İsveçdə və Norveçdə də mövcuddur. Avstriya hökuməti nəzdində müxtəlif milli azlıqlara şuraları da vardır.

**Korporativ nümayəndəlik** – nümayəndəli hakimiyyətin təşkili prinsipi; bu prinsipə uyğun olaraq deputatlar ölkənin





bütün əhalisini, onun ayrı-ayrı ərazilərini deyil, onları bilavasitə seçən peşəkar qrupları (korporasiyaları) təmsil edirlər. K.n. çoxəsrlik tarixə malikdir və ancaq XX yüzillikdə demokratik dövlətlərin konstitusiyalı quruluşu təcrübəsi nəticəsində rədd edilmişdir. Çünki bu prinsip bərabər sayda nümayəndəlik prinsipini pozur və deməli, vətəndaşların hüquq bərabərliyinin özüllü konstitusiya prinsipinə ziddir. K.n. hazırda İndoneziyada mövcuddur.

**Korpus yuris kanonisi** *(lat. corpus juris canonici)* – kilsə hüquq normalarının katolik kilsəsindəki toplusu. 1582-ci ildə Papa XIII Qriqori tərəfindən nəşr etdirilmişdir. Toplu kilsə hüququnun yarandığı gündən və 1582-ci ilin sonunadək olan dövr ərzində əmələ gələn normalarının mənbələrinin tarixi qaydada sistemləşdirilməsindən ibarətdir. Sonrakı dövrdə yeni papa dekretaliləri və digər kilsə hüquq aktları da topluya daxil edilmişdir.

**Korpus yuris sivilis** *(lat. corpus juris civilis)* – Roma hüququ külliyyatı (Yustinian məcəlləşdirilməsinin adı). Məcəlləşdirmə VI yüzillikdə imperator Yustinian tərəfindən qanunvericilikdə faktiki olaraq imperator hakimiyyətinin qeyri-məhdudluğu prinsipini təsbit etmək məqsədi ilə həyata keçirilmişdir. K.y.s. 4 hissədən – institusiyalardan, digestlərdən, məcəllədən və novellalardan ibarətdir. İnstitusiya 4 kitabdan – titullar kitablarından, digestlər və məcəllə isə təkcə titullar kitabından deyil, ayrı-ayrı qanunlardan və fraqmentlərdən ibarətdir. Külliyyata k.y.s. adı yalnız XII yüzillikdə verilmişdir.

**Korreal öhdəlik** – mülki hüquqda bütövlükdə bütün borcluların üzərinə öhdəliklərin yerinə yetirilməsinə görə məsuliyyət qoyan solidar öhdəlik.

**Korrelyasiya** *(lat. correlatio – qarşılıqlı münasibət)* – kriminologiyada cinayətkarlığı, cinayətkarın şəxsiyyətini, cinayətkarlıq amilini səciyyələndirən təsadüfi yüksəlişlərlə kütləvi hadisə kimi onlarla mübarizə tədbirləri arasındakı asılılıq növü.

**Korrupsiya** – *(lat. corruptio – rüşvətlə satın alma)* – vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxsin ələ alınması. K.-nın ən tipik təzahürü dövlət məmurlarının və ictimai-siyasi xadimlərin satın alınması, nemətlərin və üstünlüklərin qanunsuz və ya qanuni verilməsi üçün rüşvətxorluq, proteksionizm - işçiləri qohumluq, yerliçik, şəxsi sədaqət və yaxınlıq əlamətlərinə görə irəli çəkmədən ibarətdir. K. bürokratiyanın artması, tayfabazlığın genişlənməsi şəraitində daha böyük vüsət alır və hakimiyyət imtiyazlarına, səlahiyyətlərinə malik olanların xüsusi sosial qüvvəsinə çevrilir. "Kölgəli iqtisadiyyatın" fəaliyyəti, cəmiyyətin sosial təbəqələşməsi və ictimai-siyasi həyatda mənəviyyatın zəifləşməsi şəraitində k. bütün bunların tərkib elementi kimi çıxış edir.

**"Korrupsiya haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan

Respublikasında korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına, sosial ədalətin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiə olunmasına, iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılmasına, dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsinə yönəldilmiş qanunvericilik aktı.

Bu qanun 13 yanvar 2004-cü il tarixdə qəbul edilmişdir. Qanun dörd fəsil və 14 maddədən ibarətdir.

**Korrupsiya hüquqpozmaları** – bilavasitə korrupsiya hüquqpozmalarından və korrupsiyaya şərait yaradan hüquqazidd əməllərdən ibarət olan hüquqpozmalar. Belə hüquqpozmalar aşağıdakılardan ibarətdir: 1) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və güzəştlər tələb etməsi, əldə etməsi və ya belə maddi və sair nemətlərin, imtiyazların və güzəştlərin verilməsi ilə bağlı təklif və ya vədi qəbul etməsi; 2) xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün fiziki və ya hüquqi şəxs tərəfindən birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və güzəştlər təklif olunması, vəd edilməsi və ya verilməsi; 3) vəzifəli şəxs tərəfindən xidməti vəzifələrinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində qanunsuz olaraq alınmış əmlakdan özü və ya üçüncü şəxslər üçün mənfəət əldə etmək məqsədi ilə istifadə edilməsi; 4) vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar maddi və ya sair nemətləri, imtiyazları və güzəştləri haqqı ödənilmədən və ya bazar qiymətlərindən və ya dövlət tərəfindən tənzimlənən qiymətlərdən aşağı qiymətə (tariflə) əldə edilməsi; 5) vəzifəli şəxsin xidməti vəzifələrinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan, royaltidən və ya icarədən Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olaraq gəlir götürməsi; 6) müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən hər hansı şəxsə birbaşa və ya dolayı yolla maddi və sair nemətlərin, imtiyazların və güzəştlərin təklif olunması, vəd edilməsi və ya verilməsi; 7) müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən şəxs tərəfindən maddi və sair nemətlərin, imtiyazların və güzəştlərin qəbul edilməsi və ya belə maddi və sair nemətlərin, imtiyazların və güzəştlərin verilməsi ilə bağlı təklifin və ya vədin qəbul edilməsi.

**Korteslər** – İspaniyada parlamentin ənənəvi adı.

**Kosmik məkan** – Yer planetinin hava sferası hüdudlarından kənarda olan məkan; hüququ rejimi beynəlxalq kosmos hüququ ilə müəyyən edilir. Hazırda k.m.-nın hamılıqla qəbul edilmiş müəyyən tərifi yoxdur. Onun rejimi qüvvədə olan beynəlxalq sazişlərlə müəyyən edilmişdir. Həmin sazişlərə uyğun olaraq k.m. tədqiqatlar aparılması və istifadədən ötrü bütün dövlətlər üçün açıqdır. Bu baxımdan heç bir diskriminasiya ola bilməz. K.m.-da nüvə silahının və kütləvi qırğın silahlarının bütün digər növlərinin yerləşdirilməsi qadağan olunmuşdur.





**Kosmos hüququ** *(beynəlxalq kosmos hüququ)* – kosmik fəaliyyəti həyata keçirməklə əlaqədar dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin hüquq və vəzifələrini, həmçinin kosmik fəza, Ay və digər göy cisimlərinin beynəlxalq-hüquqi rejimini müəyyən edən hüquq normalarının məcmusu. K.h. XX yüzilliyin 60-cı illərin başlanğıcında formalaşmışdır. Onun mənbəyini beynəlxalq adət və müqavilələr təşkil edir. 1959-cu ildən BMT-nin kosmik fəzadan (məkandan) dinc məqsədlər üçün istifadə edilməsi məqsədi ilə xüsusi komitəsi fəaliyyət göstərir.

**Koşitse imtiyazı** – 1374-cü il sentyabrın 17-də Koşitse şəhərində Polşa kralı I Ludovikin şlyaxta nümayəndələri ilə danışıqlardan sonra verdiyi fərman. Bu fərmana görə şlyaxta kralın xanədanlıq iddialarına razılıq verirdi; şlyaxta isə bütün mükəlləfiyyətlərdən (az miqdarda torpaq vergisi istisna olmaqla) və hərbi xidmətdən azad olunur, dövlət vəzifələrini tutmaq üçün fövqəladə hüquqlar əldə edilirdi.

**Kotterlər** *(ing. cotter; lat. cotarius – muzdur)* – orta əsrlərdə və Yeni dövrün əvvəllərində İngiltərədə feodal asılılığında olan kəndli təbəqəsi. K. kiçik torpaq sahələrinə malik idilər. Kənddə burju istehsal münasibətlərinin inkişafı ilə əlaqədar k. muzdlu kənd təsərrüfatı (və ya manufaktura) fəhlələrinə çevrilmişlər.

**Kovernot** – sığorta edən tərəfindən (sığorta dəllalları, sığorta agenti tərəfindən) verilən sənəd. Sığortaçıya onun təlimatlarının yerinə yetirildiyini bildirir, yaxud agent tərəfindən həyata keçirilən sığortanı təsdiq edir.

**Kovxa (koxa)** – XVI-XIX yüzilliklərdə Azərbaycanda və bəzi qonşu ölkələrdə mövcud olmuş vəzifə; kəndxuda sözünün sinonimidir. Azərbaycan kəndlərinin hər birinin k.-sı olmuşdur. XVIII yüzilliyin əvvəllərində ticarət gəmilərində ərzaq məsələlərinə baxan şəxs də k. adlanırdı. K. vəzifəyə mahalın bəyi tərəfindən təyin edilirdi.

**Kovxalıq** – orta yüzilliklərdə Azərbaycanda və bəzi qonşu ölkələrdə mükəlləfiyyət. Kəndlilər kovxanın torpaqlarını becərməli, taxılını daşımalı və i.a. mükəlləfiyyətləri yerinə yetirməli, öz məhsullarının müəyyən hissəsini ona verməli idilər. Kovxanın iştirakı ilə baxılan münaqişələr zamanı alınan cərimələr də onun xeyrinə toplanırdı.

**Koza nostra** *(ita. cosa nostra – hərfən bizim iş)* – gizli fəaliyyət göstərən mafioz təşkilat (ABŞ-da qanqster qruplaşmalarının birinin adını daşıyır).

**Köçürmə** *(bax: məcburi çıxarma).*

**Köçürmə vekseli** – mülki qanunvericiliyə görə köçürmə vekseli aşağıdakı rekvizitlərin olduğu sənəddir: 1) sənədin mətninə daxil edilmiş "veksel" adı; 2) veksel verənin müəyyən məbləği ödəmək barəsində sadə və heç nə ilə şərtləşdirilməmiş göstərişi; 3) kim ödəməlidirsə, onun (ödəyicinin) adı; 4) ödəniş kimə və ya kimin sərəncamı ilə icra edilmişdirsə, onun adı; 5) vekselin tərtib edildiyi tarix; 6) veksel verənin imzası; 7) vekselin tərtib edildiyi yer; 8) vekselin ödənilməsi vaxtı (veksel üzrə ödə-

niş müddəti); 9) ödənişin icra edilməli olduğu yer (AR MM-in 1005.1-ci maddəsi).

**Köləlik** – insanın insan tərəfindən istismarının tarixən ilk və ən kobud, qeyri-insani forması. K.-də istehsal vasitələri ilə yanaşı, kölə (qul) da öz ağasının mülkiyyəti hesab olunurdu. Tam hüquqsuz olan kölə hüququn subyekti deyil, obyekti idi. Qulların hüquqi və xüsusi vəziyyəti bəzən zahiri əlamətlərlə (damğa, boyun zənciri, xüsusi geyim və i.a.) də qeyd edilirdi. K. ibtidai cəmiyyət dağıldıqdan sonra onu əvəz etmiş quldarlıq quruluşunun əsasını təşkil etmişdir. K.-in klassik forması Qədim Yunanıstanda və xüsusilə də Romada mövcud olmuşdur. Məsələn, Romada daş karxanalarında, yolların çəkilişində, qalaların tikintisində və ev təsərrüfatında çalışan kölələr fərqləndirilmişdir. K.-in ən dəhşətli forması qladiatorluq olmuşdur. Qədim Romada qladiatorların sonu iki nəfərdən birinin mütləq ölümü ilə nəticələnməli olan təkbətək döyüşündən son dərəcə zövq alan yuxarı təbəqə nümayəndələri (hətta onların aiiə üzvləri) belə döyüşə əyləncə kimi baxırdılar.

Patriarxal k. dövründə kölə tam hüquqsuz üzv kimi öz ağasının ailəsinə daxil idi. Orta yüzilliklərdə Qərbi Avropada k. aradan (feodal münasibətlərinin tam bərqərar olduğu şəraitdə) qalxsa da, qul alveri Venetsiya və Genuyada XVI yüzilliyədək davam etmişdir.

**Köln mühakiməsi** – kommunistlərin Köln mühakiməsi; Prussiya dövlətinə qarşı "sui-qəsddə" ittiham olunan Kommunistlər İttifaqının 11 nəfər xadiminə qarşı Köln şəhərində 4 oktyabr – 12 noyabr 1852-ci il tarixdə təşkil edilmiş məhkəmə prosesi. Londondan müttəhimlərin müdafiəsinə rəhbərlik edən K. Marksın irticanın böhtanlarını ifşa etməsinə baxmayaraq, hökumət müxtəlif saxta sənədlərdən istifadə edərək məhkəmə məsuliyyətinə cəlb edilən kommunistlərin əksəriyyəti üçün cəza hökmü çıxarılmasına nail olmuşdur. Q. Bekker, Q. Bürgers, F. Lessner, P. Notunq, K. Otto, V. Reyf, P. Ryezer müxtəlif müddətlərə həbs cəzasına məhkum olunmuşdur.

**Köməkçilik** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə cinayətdə iştirakçılığın növlərindən biri. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 32.5-ci maddəsinə uyğun olaraq cinayətin törədilməsinə məsləhətləri, göstərişləri və məlumatları ilə, cinayət törədilməsi üçün alət və ya vasitələr vermək və ya maneələri aradan qaldırmaqla yardım etmiş şəxs, habelə cinayət törətmiş şəxsi, cinayətin alətlərinə və ya vasitələrini, cinayətin izlərini, yaxud cinayət yolu ilə əldə edilmiş alətləri gizlətməyi, belə alətləri almağı və yaxud satmağı qabaqcadan vəd etmiş şəxs köməkçi sayılır.

**Könüllü imtina** – cinayəti etməkdən könüllü imtina etmə, yəni şəxsin başladığı cinayəti başa çatdırmaq imkanı olduğu halda öz arzusu ilə onu törətməkdən başqa bir təsir olmadan, könüllü surətdə çəkinməsi. Hərəkətlərində başqa cinayət tərkibi olmadıqda, həmin şəxs cinayət məsuliyyətinə cəlb edilmir. K.i. cinayətə hazırlıq və cinayətə sui-qəsd mərhələsində mümkündür.

**Könüllülər** *(beynəlxalq hüquqda)* – **1)** döyüşən tərəflərdən birinin ordusuna könüllü daxil olan şəxslər. Belə şəxslər öz ölkəsinin təcavüzündən və ya xarici zülmdən müdafiə və azad etmək üçün müharibə aparan orduya formal olaraq daxil olduqda, onların





hərəkətləri hüquqauyğun hesab olunur. Muzdlulardan fərqli olaraq k. tamah deyil, mənəvi niyyətləri rəhbər tuturlar; **2)** xeyriyyə təşkilatlarının mənafeləri naminə əvəzsiz işləmək formasında xeyriyyə fəaliyyətini həyata keçirən vətəndaşlar. Xeyriyyə təşkilatı k.-in xərclərini (məsələn, ezamiyyətə, nəqliyyat vasitələrindən istifadəyə çəkilən xərcləri) ödəyə bilər.

**Könüllü ödənişlər** – mülki qanunvericiliyə görə oyun və mərc prosesində könüllü verilmiş ödənişlər; belə ödənişlər geri tələb edilə bilməz. AR MM-in 1085.2-ci maddəsinə uyğun olaraq oyunda və ya mərcdə uduzulan məbləği ödəmək məqsədi ilə oyunçunun və ya mərc gələnin imzaladığı, mövcud borcun etirafına dair müqavilə və ya qiymətli kağız, onun verilməsinə baxmayaraq, reallaşdırıla bilməz.

**Kral** *(Böyük Karlın adından)* – krallıq statusu olan monarxiya dövlətinin başçısı; imperatordan sonra ali monarxiya titulu. K. (slavyan xalqlarında knyaz, skandinaviyalılarda konunq) hakimiyyəti ibtidai cəmiyyətin dağıldığı dövrdə yaranmışdır. German tayfalarının Qərbi Roma ərazisinə yerləşməsi gedişində Avropada V-VI yüzilliklərdə barbar krallığı yaranmışdır (məsələn, Frank krallığı). Orta əsrlərdə İngiltərənin, İspaniyanın ərazisində bir sıra dövlət, sonralar Danimarka, İsveç, Norveç krallıq olmuşdur. Müasir dövrdə Belçika, Böyük Britaniya, İordaniya, İsveç, İspaniya, Mərakeş, Hollandiya, Səudiyyə Ərəbistanı və i.a. dövlətlər krallıqdır.

**Kredit** *(lat. creditum – borc)* – **1)** ayrı-ayrı şəxslər, sosial qrup və dövlətlər arasında iqtisadi münasibətlər, bu münasibətlər natura və pul formasında olan dəyərlərin qaytarılması və bir qayda olaraq, faizinin ödənilməsi şərtilə müvəqqəti istifadəyə verildiyi zaman yaranır; **2)** mühasibat hesabının sağ tərəfi. Aktiv hesabda k.-dəki qeydiyyat mövcud əsas və ya dövriyyə vəsaitinin azalmasını, passiv hesabda isə artmasını göstərir. Əməliyyat hesablarında hesabın təyinatından və strukturundan asılı olaraq k.-in müxtəlif mənaları təzahür edir. Belə ki, istehsalın kalkulyasiyası hesabında k., buraxılan məhsulun maya dəyərini, realizənin müqayisəli hesabında isə məhsulun satışından əldə edilən pulu göstərir.

**Kredit xətti** – razılaşdırılmış limit çərçivəsində bankın və ya digər kredit təşkilatının borclu qarşısında öhdəliyin hüquqi cəhətdən rəsmiləşdirilməsi və müəyyən dövr ərzində ona təqdim edilməsi. Açıq k.x. təcrübədə bir və ya bir neçə kredit müqaviləsinin bağlanması yolu ilə rəsmiləşdirilir.

**Kredit intizamı** – borclular tərəfindən kreditləşdirmə qaydalarına və kredit əqdinin şərtlərindən irəli gələn öhdəliklərə əməl edilməsi.

**"Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasının kredit İttifaqlarının yaradılması və fəaliyyət göstərməsinin iqtisadi, hüquqi və təşkilati əsaslarını müəyyən edən qanunvericilik aktı. Bu qanun beş fəsil və 24 maddədən ibarətdir. Qanun 2 may 2000-ci il tarixdə qəbul edilmişdir.

**Kredit kartoçkası** – bank və ya ticarət firması tərəfindən buraxılan, sahibinə pərakəndəsatış ticarətində nağdlı ödəmə olmadan malların və xidmətlərin əldə etməsinə hesab hüququ verən adlı pul sənədi.

**Kredit kooperasiyası** – xırda əmtəə istehsalçılarının kreditə olan tələbatlarını təmin edən birliyi.

**Kredit kooperativləri** – istehlak kooperativlərinin bir növü. K.k. öz üzvlərinin qarşılıqlı kreditləşdirilməsi və pul vəsaitlərinin qorunması üçün təşkil edilirlər.

**Kreditləşdirmə** – **1)** kredit vermə; **2)** məbləğin kredit hesabında (mühasibat hesabının sağ tərəfində) əks etdirilməsi.

**Kredit məktubu** – ünvanlandığı şəxsə kredit tapşırığından ibarət olan sənəd. K.m. verən şəxs belə kredit üzrə qarant sayılır.

**Kredit müqaviləsi** – mülki-hüquqi müqavilənin bir növü. Bu müqaviləyə görə bank və ya kredit təşkilatı (kreditor) borcluya pul vəsaitlərini (krediti) verməyi, borclu isə aldığı pul məbləğini qaytarmağı və onun faizini ödəməyi götürür.

**Kredit-nota** – hesablaşma münasibətlərində olan tərəflərdən birinin göndərdiyi bildirişdən ibarət olan hesablaşma sənədi.

**Kreditor** – **1)** mülki hüquqda öhdəlik üzrə digər tərəfdən – borcludan müəyyən hərəkətləri etməklə, yaxud onları etməkdən çəkinməklə əlaqədar vəzifələrin icrasını tələb etmək hüququna malik olan tərəf. İkitərəfli-müqavilələrdə tərəflərin hər ikisi k. hesab olunur. Məsələn, alqı-satqı müqaviləsində alıcı - k. satıcıdan malın ona verilməsini, satıcı - k. isə alıcıdan həmin malın dəyərinin ödənilməsini tələb etmək hüququna malikdir; **2)** əsassız əldə edilmiş əmlakı geri tələb etmək hüququna malik olan şəxs.

**Kreditor borcu** – təşkilat və ya fiziki şəxs tərəfindən müvəqqəti olaraq alınmış və müvafiq hüquqi şəxslərə, yaxud vətəndaşlara qaytarılmalı olan pul vəsaitləri. K.b. hesabların və öhdəliklərin qüvvədə olan müddətləri çərçivəsində normal (qanuni) hesab olunur.

**Kreditor borcunu ödəməkdən qəsdən yayınma** – iqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərin bir növü. AR CM-in 196-cı maddəsinə uyğun olaraq məhkəmənin qanuni qüvvəyə minmiş müvafiq qərarına əsasən təşkilat rəhbərinin və ya vətəndaşın kreditor borclarını, yaxud qiymətli kağızları ödəməkdən qəsdən yayınması nəticəsində xeyli miqdarda ziyanın vurulmasında ifadə olunur.

**Kredit restriksiyası** – banklar və dövlətlər tərəfindən qızıl ehtiyatlarının xaricə axımının qarşısını almaq üçün kreditlərin miqdarının məhdudlaşdırılması. Bankların iflasa uğramasından və inflyasiya proseslərindən qaçmağa xidmət edir.

**Kredit riski** – borclu tərəfindən kreditora münasibətdə öhdəliklərin yerinə yetirilməməsi riski.

**Kredit sanksiyası** – qanunvericiliklə və ya müvafiq müqavilələrlə nəzərdə tutulan iqtisadi təsir tədbiri; banklar tərəfindən öz öhdəliklərini yerinə yetirməyən, maliyyə, kassa, kredit və ya hesablaşmalar intizamının pozuntusuna yol verən təşkilatlara tətbiq edilir. Kreditləşdirmənin tam və ya qismən dayandırılması, ssudaların vaxtından əvvəl tələb edilməsi, kreditləşdirmənin xüsusi rejiminin tətbiq olunması və i.a. k.s.-larına aid edilir.

**Kredit sazişi** – kreditorla borclu arasında kreditin miqdarını və verilməsi şərtlərini, kredit münasibətləri subyektlərinin hüquq və vəzifələrini müəyyən edən müqavilə.

**Kredit sistemi** – **1)** müvafiq dövlətdə kreditləşdirmənin forma və metodlarının məcmusu; **2)** ölkənin kredit təşkilatlarının (banklar, sığorta cəmiyyətləri, lombardlar və i.a.) ümumi adı.

**Kredit təşkilatı** – xüsusi icazə (lisenziya) əsasında fəaliyyətinin başlıca məqsədi gəlirlər əldə etməkdən ibarət olan hüquqi şəxs. K.t. qanunvericiliklə nəzərdə tutulmuş əməliyyatları həyata keçirmək hüququna malikdir. K.t. mülkiyyətin istənilən forması əsasında yaradıla bilər.

**Kredit valyutası** – tərəfdaşlar tərəfindən müəyyən edilən kredit valyutası. Eksport kreditləri həm eksportçunun və ya importçunun milli valyutasında, həm də üçüncü dövlətlərdə və ya beynəlxalq hesablaşma vahidlərində təmsil oluna bilər. K.v.-nın seçimi müqavilə predmetidir.

**Kremasiya** *(lat. crematio – yandırma; ing. cremation)* – meyitlərin xüsusi sobalarda yandırılması; dəfn mərasimlərindən biri. K. neolitin sonları – Tunc dövrünün əvvəllərində meydana gəlmişdir. Yunanlar, romalılar və başqa xalqlar, o cümlədən slavyanlar arasında meyitin tonqalda yandırılması geniş yayılmışdı. Hələ qədimdə Yaponiya və Hindistanda, Cənub-Şərqi Asiyanın, əsasən, buddizm və hinduizmə etiqad edilən bir çox ölkələrdə də k. adəti mövcud olmuşdur. Azərbaycanda Qarabağ, Gəncəçay, Qəbələ və i.a. ərazilərdəki kurqanlarda aparılmış arxeoloji qazıntılar zamanı meyityandırma adətinin qalıqlarına təsadüf edilmişdir. K. hazırda xüsusi avadanlıqla təchiz olunmuş binalarda (krematori) aparılır. İlk krematori 1876-cı ildə Milanda açılmışdır.

**Kremola** – XVI-XVII yüzilliklərdə Rusiyada dövlət əleyhinə olan cinayətlərin (antidövlət cinayətlərinin) adı.

**Kriminal** *(lat. criminalis – cinayət)* – cinayət, cinayətkar əməl.

**Kriminal ailə** – **1)** üzvlərindən hər hansı birinin inkişafına mənfi təsir sayəsində cinayətin törədilməsinə şərait yaradan ailə; **2)** cinayətkarlığın sisteminin daxili sistemlərindən biri; özündə ailədaxili cinayətlərin elementini ehtiva edir, habelə bütövlükdə ailə institutunun sosial institut səviyyəsində kriminogen amillərini əks etdirir.

**Kriminal diatez** – ingilis həkimi K. Hopinq tərəfindən formulə edilmiş anlayış. 3000 residivisti və müəyyən sayda tələbələri, əsgərləri, "stasionar xəstələri" öyrənən Hopinq belə nəticəyə gəlmişdir ki, cinayətkarlığın etiologiyasında varislik, cinayətlərin törədilməsinə ailəvi meyil – "kriminogen diatez" mühüm rol oynayır.

**Kriminalist** – **1)** kriminalistika sahəsində mütəxəssis; **2)** cinayət hüququ üzrə mütəxəssis.

**Kriminalistika** *(lat. criminalis – cinayətə aid olan)* - cinayətlərin üstünün açılması və qarşısının alınması məqsədilə sübutların aşkar edilməsi, götürülməsi və qeydə alınması, onların tədqiqi üzrə cinayət-prosessual qanunu ilə nəzərdə tutulan hərəkətlərin yerinə yetirilməsi üçün tətbiq edilən texniki vasitələr, taktiki üsullar və metodlar haqqında hüquq elmi. K.-nın tərkib hissələrini kriminalistika texnikası, cinayətlərin istintaqı taktikası (kriminalistika taktikası) və cinayətlərin ayrı-ayrı növlərinin istintaqı metodikası təşkil edir.

**Kriminalistika taktikası** – kriminalistikanın, özündə ibtidai istintaqın və məhkəmə istintaqının təşkili və planlaşdırılması üzrə tövsiyələr əsasında işlənib hazırlanan elmi

müddəalar sistemini əhtiva edən, ibtidai istintaqı və məhkəmə istintaqını həyata keçirən şəxslərin davranış xəttini müəyyənləşdirən bölməsi. Kriminalistika elminin formalaşmasının başlanğıc mərhələsində k.t. (cinayət taktikası) özündə sonradan kriminalistika texnikasına aid edilən bir sıra müddəaları, habelə əməliyyat-axtarış fəaliyyətinin ayrı-ayrı məsələlərini əhtiva etmişdir.

K.t.-nın əsaslandığı elmi müddəalar sisteminə aşağıdakılar daxildir: a) kriminalistik fərziyyə və istintaqın planlaşdırılması haqqında təlim; b) istintaq situasiyasının anlayışı və onun qiymətləndirilməsinin prinsipləri və istintaqın mənafeləri üçün istifadə edilməsi; c) taktiki qərar və taktiki olaraq risk anlayışı; ç) müstəntiqin təhqiqat orqanları, digər dövlət təşkilatları və ictimai təşkilatlarla, kütləvi informasiya vasitələri ilə qarşılıqlı fəaliyyəti; d) istintaq və məhkəmə araşdırması prosesində xüsusi biliklərdən istifadə edilməsinin forma və metodları.

K.t.-nın mərkəzi həlqəsini taktiki üsullar təşkil edir. Bu üsulların sistemi bu və ya digər istintaq və ya məhkəmə hərəkətinin taktikasını (müayinə, dindirmə taktikası) və onların sistemini yaradır. Həmin üsullar özündə ayrı-ayrı taktiki üsulları, yaxud onların əlaqələndirilməsini və komplektini (dəstini), yəni taktiki fəndləri də əhtiva edə bilər.

**Kriminalistika texnikası** – cinayətlərin üstünün açılması və istintaqının aparılması məqsədilə elmi-texniki müddəaların, müvafiq texniki üsul və vasitələrin, habelə metodların sistemi. F.t. kriminalistik ekspertizanın müxtəlif növlərinin, ekspert tədqiqatının aparılmasının və rəylərin tərtib edilməsinin məntiqi məsələlərinin elmi əsaslarını, texniki vasitələrini, metodlarını və xüsusi metodlarını işləyib hazırlayırlar.

**Kriminalistik ballistika** *(bax: ballistika).*

**Kriminalistik ekspertiza** – iş üzrə sübutedici əhəmiyyətə malik olan məsələlər üzrə rəy almaq məqsədilə aparılan prosessual hərəkət. Trasoloji, ballistik ekspertizalar, odlu silahın ekspertizası k.e.-nın ən geniş yayılmış növləridir. Məhkəmə ekspertizası k.e. anlayışından genişdir.

**Kriminalistik eyniləşdirmə** *(bax: eyniləşdirmə).*

**Kriminalistik fərziyyə** – təhlil edilən cinayətkar əmələ bütövlükdə, yaxud onun ayrı-ayrı hallarına, cəhətlərinə və aspektlərinə aid olan əsaslandırılmış ehtimal. Ümumi və xüsusi k.f.-lər; tipik və konkret k.f.-lər; istintaq, məhkəmə, ekspert və əməliyyat-axtarış k.f.-ləri fərqləndirilir.

**Kriminalistik fonoskopiya** *(bax: fonoskopiya).*

**Kriminalistik fotoqrafiya, kinematoqrafiya, videoyazı** – cinayətlərin istintaqı vəzifələrinin həlli zamanı qeyd və tədqiqat məqsədləri ilə obyektlərin və faktların təsvirinin əldə edilməsinin elmi müddəalar, texniki vasitə və metodlar sistemindən ibarət olan kriminalistika texnikası sahəsi.

**Kriminalistik kibernetika** – kriminalistikaya aid nəzəriyyənin bir hissəsi olub, öz təbiətinə görə cinayətlərin üstünün açılması və istintaqı sahəsində onun optimallaşdırılması və səmərəliliyinin yüksəldilməsi məqsədilə işlənib hazırlanan və istifadə olunan informasiya proseslərinin, eləcə də sistemlərinin riyaziləşdirilməsi və avtomatlaşdırılmasının ümumi qanunauyğunluqları, habelə konkret metodları haqqında kompleks biliklər sahəsi. K.k.-nın mühüm istiqaməti dərk edilən hadisənin





konkret kriminalistik xarakteristikası nəzərə alınmaqla istintaq hərəkətləri və təhqiqatın xüsusi metodlarının alqoritmləşdirilməsi problemlərinin tədqiqindən ibarətdir. K.k.-nın əsasını riyazi aparatın yaradıcılıqla şərtləndirilməsi, kibernetikanın ideya və texniki vasitələri təşkil edir.

**Kriminalistik kolleksiyalar** – axtarış, eyniləşdirmə və diaqnostik məqsədlər üçün zəruri olan müxtəlif obyekt-nümunələrin (silahların, döyüş sursatlarının, avtoqələm üçün mürəkkəb cövhərlərinin və i.a.) toplanması. Belə toplama məhkəmə-ekspert idarələrində və bölmələrdə həyata keçirilir.

**Kriminalistik qoloqrafiya** – işıq sahəsinin və ya görünməz dəyişikliklərin informasiyasını əldə etmək metodu. K.q. obyektin tam qorunub saxlanmasını təmin etməyə, onun mikrostrukturunun forma və xüsusiyyətlərini üç ölçüdə yenidən tam canlandırmağa imkan verir.

**Kriminalistik metodika** – ayrı-ayrı cinayətlərin istintaqının metodikası, xüsusi metodika; cinayətlərin konkret növlərinin şərtlərinin və vəzifələrinin spesifikliyinə uyğun olaraq kriminalistika texnikası və kriminalistika taktikasının müddəalarını birləşdirən kriminalistika bölməsinin sintezindən ibarətdir. K.m. özündə cinayətlərin istintaqının təşkili və həyata keçirilməsi, cinayətlərin qarşısının alınması üzrə müddəaların sistemini əhtiva edir. Ümumi müddəalarla yanaşı, həmin sistemə xüsusi kriminalistik metodikalar da daxildir.

K.m.-nın əsaslandığı elmi müddəalar sisteminə aşağıdakılar daxildir: a) cinayətlərin kriminalistik xarakteristikası; b) cinayətlərin istintaqının ümumi prinsipləri; c) istintaqın metodikasının quruluşu və cinayətlərin qarşısının alınması prinsipi. Konkret k.m. tipikləşdirilmiş xarakterə malik məsələlərdən, yəni cinayətlərin müəyyən növünün istintaqı və qarşısının alınması üçün tipik olub, müstəntiqin hərəkətlərinin özünəməxsus proqramından (alqoritmindən) ibarətdir. Xüsusi k.m. tövsiyələrlə yanaşı özündə həmin tövsiyyələrin əsaslandırılması üçün zəruri olan elmi və ya emprik müddəaları (məsələn, bu və ya digər istintaq hərəkətinin taktikasının xüsusiyyətlərinin əsaslandırılması) da əhtiva edir.

**Kriminalistik model** *(bax: model).*

**Kriminalistik modernləşdirmə** – cinayət prosesində qavranılmalı olan və qavranılan obyektlərin düzülüşü, öyrənilməsi və onlardan istifadə edilməsi prosesi.

**Kriminalistik odorologiya** – cinayət prosesində eyniləşdirmə vəzifələrinin həll edilməsi üçün sonradan istifadə məqsədi ilə qoxulu (iyli) izlərin aşkar edilməsi, götürülməsi, saxlanması və tədqiq olunmasından ötrü elmi cəhətdən hazırlanmış metodların və texniki vasitələrin sistemi.

**Kriminalistik partlayıcı texnika** – cinayətkar məqsədlərlə tətbiq edilən partlayıcı maddələri, partladıcı qurğuları, onların hərəkət izlərini öyrənən və bunun əsasında cinayətlərin üstünün açılması və aradan qaldırılması məqsədilə partladıcı qurğuların və partlayışların izlərinin aşkar edilməsi, götürülməsi, müayinəsi və tədqiqi üçün xüsusi texniki vasitə və metodları hazırlayan kriminalistik sahə.

**Kriminalistik poliqon** – sübutların aşkar olunması, götürülməsi, qeyd və tədqiq edilməsi üzrə təcrübi məşğələ və tapşırıqlar üçün nəzərdə tutulan məşq kompleksi. K.p.-da yerləşdirilən obyektlər müxtəlif

istintaq hərəkətlərinin – müayinənin, istintaq eksperimentinin, axtarışın və i.a. aparılması şəraitini imitasiya etməyə imkan yaradır.

**Kriminalistik proqnozlaşdırma** – xüsusi kriminalistik nəzəriyyələrdən biri; özündə kriminalistik proqnozların, o cümlədən cinayətkarlıqla mübarizənin yollarının, üsul və vasitələrinin formalaşması prinsiplərinin məcmusunu ehtiva edir. K.p. cinayətkarlıqla mübarizənin üsul və vasitələrinin kəmiyyət və keyfiyyət dəyişilmələrinin mümkünlüyünü nəzərə alır. Cinayətlərin törədilməsi və gizlədilməsi üsulları, cinayətkar fəaliyyətin izləri, cinayətkar qəsdin predmeti, cinayətin törədilməsinin məkan-zaman şəraiti, cinayət işində iştirakçı olan şəxslərin davranış xüsusiyyətləri, texniki-kriminalistik vasitələr və taktiki üsullar, istintaq situasiyası, cinayətlərin istintaqı metodikası və i.a. k.p.-nın obyektləridir. Mücərrədləşdirmə, analogiya, müqayisə, ekstrapolyasiya və modelləşdirmə k.p.-nın metodları hesab olunur.

**Kriminalistik uçot** – cinayət qeydiyyatı; cinayətlərin üstünün tezliklə və tam açılması və onların aradan qaldırılması məqsədi ilə istifadə olunan obyektlərin uçot sistemi. İnformasiyaların toplanması, sistemləşdirilməsi, qeydə alınmış obyektlərin eyniləşdirilməsi, arayış informasiyanın verilməsi. K.u.-un elementləridir. K.u.-un aşağıdakı növləri fərqləndirilir: a) tutulan və məhkum olunan cinayətkarların soyadla (əlifba sırası ilə) uçotu; b) cinayətkarların daktiloskopik uçotu; c) üstü açılmamış cinayət yerlərində əl-barmaq izlərinin kartotekası; ç) tanınmamış meyitlərin və xəbərsiz itkin düşmüş şəxslərin uçotu; d) oğurlanan, habelə cinayətkarların üstündə tapılan və götürülən əşyaların uçotu; e) itirilən, oğurlanan, götürülən, könüllü verilən və tapılan odlu silahların uçotu; ə) oğurlanan qədim predmentlərin və təsviri incəsənət əsərlərinin uçotu; f) oğurlanan, itirilən pasportların, habelə gizlənən cinayətkarların pasportlarının üçotu; g) oğurlanan və nəqliyyatda çatışmazlıqla tədarük edilən yüklərin uçotu; ğ) üstü açılmamış ən təhlükəli qəsdən adamöldürmələrin, quldurluqların və oğurluqların uçotu; h) avtonəqliyyat vasitələrinin, onların sahiblərinin və sürücülərinin uçotu.

**Kriminalistik üsul** – sübutların toplanması, tədqiqi, qiymətləndirilməsi və onlardan istifadə edilməsi zamanı ən rasional və səmərəli hərəkət üsulu, yaxud davranışın ən məqsədəuyğun xətti. Texniki (texniki-kriminalistik) və taktiki k.ü. fərqləndirilir. Texniki k.ü. dedikdə, texniki-kriminalistik vasitələrdən və kriminalistika texnikasının elmi müddəalarından (məsələn, izyaratma mexanizmi haqqında elmi müddəalar əsasında izlərin aşkar edilməsi üsulları) istifadə üsulları başa düşülür. Taktiki k.ü. dedikdə isə ibtidai istintaqın və məhkəmə istintaqının təşkili və planlaşdırılması, ayrı-ayrı təşkilati-texniki tədbirlərin, istintaq və məhkəmə hərəkətlərinin hazırlanması və həyata keçirilməsi üsulları nəzərdə tutulur.

**Kriminalistik vasitə və metodlar** – məhkəmə tədqiqatının həyata keçirilməsi və cinayətlərin qarşısının alınması üçün kriminalistika tərəfindən işlənib hazırlanmış aparatlar, alətlər, hərəkət üsulları, xüsusi tövsiyələr və i.a. K.v.m. mənşə mənbəyinə, məzmununa (texniki, taktiki, metodiki vasitə və metodlar), məqsədlərinə (sübutlar işləmək, cinayətlərin qarşısını almaq üçün





zəruri olan vasitə və metodlar) və tətbiqetmə subyektinə görə fərqləndirilir. K.v.m. həmçinin müstəntiq və təhqiqat orqanlarının əməliyyat əməkdaşı üçün nəzərdə tutulan vasitə və metodlar kimi şərti təsnifləşdirmək olar (məsələn, məhkəmə və ekspert üçün zəruri olan vasitə və metodlar).

**Kriminal psixologiya** – hüquqi psixologiyanın sahələrindən biri; hüquq pozuntusuna yol vermiş şəxslərin psixologiyasını, cinayətin törədilməsinin psixoloji mexanizmini öyrənir.

**Kriminal simptomatologiya (fenomenologiya)** – kriminologiyanı elmi fənn (məsələn, Polşa kriminoloqlarının konsepsiyasına müvafiq surətdə) aşarlayan bölmə. Bu bölmə cinayətkarlığın, onun növ və qruplarının, coğrafiyasının və sair xüsusiyyətlərinin, strukturunun, dinamikasının, cinayətkarların, cinayətkar aləmin peşəkarlığının öyrənilməsinə həsr edilmişdir. Xatırladılan hadisələrin kriminoloji xarakteristikasının tərtibi də həmin bölmənin predmetinə daxildir.

**Kriminal sistem** – kriminoloji determinasiyanın izahında və öyrənilməsində sistemli metodun tətbiqi yolu ilə formalaşdırılan səbəbli-istintaq əlaqələrinin modeli. K.s. iyerarxik cəhətdən konstruksiya edilmiş qarşılıqlı fəaliyyət göstərən elementlərin aşağıdakı inteqrativ təsisatlarından ibarətdir:

1) mikrosistem – konkret cinayətlərin törədilməsi səbəbləri və şəraiti;

2) sistemqüvvəli – cinayətlərin ayrı-ayrı qruplarından (kateqoriyalarının) törədilməsi səbəbləri və şəraiti;

3) makrosistemlər – cinayətkarlığın bütövlükdə səbəb və şəraitinin sistemi və ya "cinayətkarlığın tam səbəbləri".

**"Kriminal şəxsiyyət"** – "cinayətkarın şəxsiyyəti" anlayışının eksplikasiyasından ibarətdir və cinayəti törədən və onun təkrarlanmasına meyil edən subyektin xarakteristikasını əks etdirir. "K.ş." özünün məzmunu nöqteyi-nəzərindən (kriminogenliyi baxımından) insanda sosial-mənəvi cəhətlərin və onun biopsixi xüsusiyyətlərinin formalaşması fəndindən ibarətdir. Həmin cəhət və xüsusiyyətlər yeni effekt – hüquqazidd yolla hərəkət etmək qabilliyyətini doğurur. Bu isə o deməkdir ki, kriminogenlik anadangəlmə xassə deyil və o, insanın mənfi makromühitdə fərdi xüsusiyyətləri ilə qarşılıqlı əlaqəsinin yaranması prosesində təşəkkül tapır.

**Kriminalitet** *(kriminologiyada)* – **1)** gölgəli cinayət siyasətini həyata keçirən cinayətkarların elitar birliyi; "qanunda oğruların" rəhbər fəaliyyətinin təzahür forması; cinayətkar aləmin şənlikləri, nümayəndələrinin qurultayları; təsir sferasının kriminal qəyyumluğu; təşkilati və idarəetmə sahəsindəki münasibətlərin, habelə mühüm sosial-iqtisadi əhəmiyyət kəsb edən sair münasibətlərin (məsələn, korrupsiyaya cəlbetmə vasitəsilə) kriminal transformasiyası; **2)** cinayətkar aləmin cəmiyyət həyatının müxtəlif, ilk növbədə iqtisadi sahəsinə təsiredici (diktator) qüvvəsi.

**Kriminofamilistika** – kriminologiyanın sahəsi; cinayətkarlığın ailə-məişət təzahürlərini, cinayətkarlığın səbəb və şəraitini, cinayətkarın şəxsiyyətini, cinayətkarlıqla mübarizə tədbirlərinin nəticələrini və spesifik sistemini öyrənir.

**Kriminogen amil** – cinayətkarlığın (onun ayrı-ayrı növlərinin) qorunub saxlanmasına və artmasına şərait yaradan hal.

**Kriminogenizm** – konkret şəraitdə konkret şəxsin fərdi cinayətkar davranışının formalaşması prosesi.

**Kriminogenlik** – məcmusu ayrı-ayrı situasiyalarda 'cəmiyyət əleyhinə hüquqaziddd (kriminogen) motivləşməyə səbəb olan şəxsi xassə, qabiliyyət, yəni şəxsiyyətdənkənar amillər. Bu xassə öz təsir dərəcəsinə və qabiliyyətinə görə müxtəlif ola bilər və buna görə də müxtəlif kriminogen effekt yarada bilər. K.-yin dərəcəsi cinayətkarların tipikləşdirilməsinin mühüm kriteriyasıdır.

**Kriminogen motivləşdirmə** *(bax: motivləşdirmə).*

**Kriminogen situasiya** – ayrı-ayrı adamlarda delinkvent davranışın və kriminal motivləşmənin, hüquqi nihilizmin, antipolis əhval-ruhiyyəsinin formalaşmasına və insanların həyati fəaliyyətinin müəyyən sahəsində cinayətkar əməllərin realizəsi üçün əlverişli şərait yaradan fiziki və sosial mühitin obyektiv amillərinin (hərəkətvericilərinin) və xassələrinin məcmusu.

K.s. müxtəlif xarakterə malik ola bilər və buna görə də kriminologiyada onun növləri göstərilir. Məsələn, kriminogenlik dərəcəsinə görə o, şərait yaradıcı və təhrikedici ola bilər. Zaman müddətinə görə nisbi uzanan ola bilər. Viktimoloji amillərə görə cinayətkarın və zərər çəkmiş şəxsin qarşılıqlı münasibətlərində ifadə oluna bilər. Səviyyəsinə və ya miqyasına görə müəyyən ərazidən başlayaraq bütövlükdə ölkə ərazisində yayılan ola bilər. Çatışmazlıq kriteriyalarına görə hüquq-mühafizə fəaliyyətində təşkilati-idarəetmə xarakteri daşıya bilər.

**Kriminogen şərait** – müəyyən ərazidə cinayətkarlığın (onun ayrı-ayrı növlərinin) qorunub saxlanmasına və artmasına şərait yaradan amillərin məcmusu.

**Kriminologiya** *(lat. crimen – cinayət + yun. logos – təlim)* – cinayət haqqında təlim. "K." termini mətbuatda ilk dəfə XIX yüzilliyin sonunda "Qızıl əsr" adlı cinayət ədəbiyyatı nəşrində işlədilmişdir. Bu terminin 1879-cu ildə Topinar tərəfindən işlədilməsi güman edilir. Digər bir mülahizəyə görə hesab olunur ki, "k." termini ilk dəfə 1885-ci ildə nəşr edilmiş monoqrafiyada işlədilmişdir.

Rafael Qarofalo 1888-ci ildə dərc etdirdiyi cinayət hüququ dərsliyini "Kriminologiya" adlandırmışdır. Belə bir dərslik Ç. Lombrozo tərəfindən də nəşr etdirilmişdir. Zaman keçdikdə k. müstəqil hüquq elmi kimi təşəkkül tapmışdır.

**Kriminoloji (kriminogen) determinasiya** – sosial determinasiyanın 32 növlərindən biri, yaxud üçdə birindən azının aşkar edildiyi sosial şərtlilik. K.(k) d.-nın sistemini aşağıdakı determinatlar təşkil edir: səbəblər, şərait, korrelyantlar. Səbəblər – bunlar (məsələn, antisosial məişət psixologiyası) sanki bilavasitə başqalarını (məsələn, "məişət cinayətlərini") yaradan hadisələrdir. Şərait – səbəblərdən sonrakı determinatdır və o, səbəblərin yaranmasını və nəticədə onların realizəsini təmin edir. Korrelyantlar – aralarında qarşılıqlı asılılıq olan kütləvi görünən sistemlərin amilləri. K.(k.) d. sisteminə cinayətkarlığın özünüdeterminasiyasını da daxil etmək olar.

**Kriminoloji eksperiment** – cinayətkarlıq, cinayətkarın şəxsiyyəti, cinayətkarlığın amilləri və nəticələri, məlum təsirlər vasitəsilə cinayətkarlıqla mübarizə tədbirləri haqqında informasiyaların əldə edilməsi metodu.





**Kriminoloji ekspertiza** – **1)** əsasən yetkinlik yaşına çatmayan cinayətkarların öyrənilməsinin Avropa kriminoloqları tərəfindən işlənib hazırlanmış kompleks öyrənmə metodu; **2)** mütəxəssislər (ekspertlər) tərəfindən qanunvericilik aktlarının, ayrı-ayrı hüquq normalarının, dövlət hakimiyyəti və idarəetmə orqanlarının qərarlarının tədqiq edilməsi.

**Kriminoloji fəaliyyət** – cinayətkarlığı, onun səbəblərini, cinayətkarlıqla mübarizənin vasitə və metodlarının öyrənilməsi ilə bağlı olan məşğuliyyət növü. K.f. konkret məşğuliyyət formalarında (məsələn, cinayət-statistik müşahidə, ümumiləşdirmə, sosioloji sorğu, cinayətkarlıq haqqında informasiyaların toplanması, cinayətkarlığın ayrı-ayrı problemlərinin öyrənilməsi və i.a.) realizə olunur.

**Kriminoloji (profilaktik) hüquq** – cinayətkarlığın, onun səbəblərinin öyrənilməsi və qarşısının alınması sahəsində ictimai münasibətləri reqlamentləşdirən normaların sistemini əhatə edən hüquq sahəsi. K. (p.) sahəsi A.İ. Alekseyev, S.V. Borodin, A.E. Jalinski, V.S.Ustinov, D.A. Şestakov və digər kriminoloqlar tərəfindən işlənib hazırlanmışdır.

**Kriminoloji xarakteristika** – kriminoloji cəhətdən əhəmiyyətli olan hadisə və proseslərin, onların fərqləndirici cəhətlərinin və səciyyəvi xüsusiyyətlərinin elmi təsviri; həmin hadisə və proseslərin daxili qanunauyğunluqlarının aşkar edilməsi və onların kriminogenliyinin aşağı salınmasına dair tövsiyələr hazırlanması məqsədilə aparılır.

**Kriminoloji xidmət** – təcrübi yönümdə kriminoloji tədqiqatlar aparan təşkilat (onun fəaliyyəti). AFR-in "Cəzanın icrası haqqında" qanununun 165-ci paraqrafının mətninə uyğun olaraq k.x. cinayət mühakiməsi icraatında zəruri metodların və tədqiqatların nəticələrinin istifadə edilməsi istiqamətin cəzanın icrası institutunun daha da inkişaf etdirilməsi əlaqədar fəaliyyəti həyata keçirir.

**Kriminoloji informasiya** – cinayətkarlıq, onun səbəbləri, cinayətləri törədən şəxslər və zərər çəkənlər, cinayətlərin qarşısının alınması üçün əhəmiyyət kəsb edən sair hadisə və proseslər haqqında məlumatların məcmusu. K.i., birincisi, cinayətkarlığın qarşısının alınması üzrə məqsədəyönlü fəaliyyətin əsasına xidmət edir, ikincisi o, həmin fəaliyyətin elementi, vasitə və predmetidir, üçüncüsü, xəbərdaredici təsirin nəticəsinin komponenti qismində çıxış edir.

**Kriminoloji məktəb** – kriminologiyada istiqamət; bu istiqamət çərçivəsində cinayətkarlığa və cinayətləri törədən şəxslərə baxışlarda bu və ya digər qohum, yaxın konsepsiyaların inkişafı baş verir. Kriminoloji nəzəriyyənin inkişafında müxtəlif istiqamətlər formalaşmışdır. Kriminoloqların əksəriyyəti kriminalistlər kimi, iki analoji böyük məktəbi – klassik və pozitivist məktəbi fərqləndirirlər.

I. Klassik məktəbin başlanğıcı, yəni cinayətin hərtərəfli qiymətləndirilməsi hüquqşünas Çezare Bekkarianın (1738-1794) "Cinayətlər və cəzalar haqqında" (1764) əsərinin işıq üzü görməsi ilə əlaqələndirilir. Bekkaria Ş. Monteskyenin görüşlərini inkişaf etdirərək güman edilir ki, cinayəti mürəkkəb və dəyişkən ictimai münasibətləri təhlil etmədən öyrənmək olmaz. Cinayətlərin öyrənilməsinə klassik, yəni hərtərəfli yanaşma V. Blekstoun, İ. Bentam, S. Romilli, A. Feyerbax, E. Livinqstoun və başqaları üçün səciyyəvi olmuşdur.

2. Pozitivist məktəbin əsasını məhkəmə təbabəti üzrə professor Çezare Lombrozo (1835-1909) qoymuşdur. Onun 1876-cı ildə nəşr etdirdiyi risalə 20 ildən sonra "Cinayətkar insan" adlı böyük bir əsərin meydana gəlməsinə səbəb olmuşdur. Ç. Lombrozo bir kriminalist kimi orijinal ideyaları içərisində cinayətkar davranışın sosial (iqtisadi, siyasi və i.a.) təbiətini izah edən, insanın (cinayətkarın) xarakteri və davranışının bioloji təbiəti haqqında antropoloji ideya irəli sürmüşdür. Bu ideya onun ardıcılları R. Qarofalo və E. Ferri tərəfindən inkişaf etdirilmişdir.

**Kriminoloji nəzarət** – cinayətkarlığın və xəbərdaredici tədbirlərin realizəsinin vəziyyətinə nəzarət edilməsi məqsədi ilə yoxlayıcı, tədqiqedici tədbirlər sistemindən ibarət kriminoloji fəaliyyət növü.

K.n. əsasən cinayət-statistik müşahidə formasında həyata keçirilir. K.n. öz məqsədlərinə görə kriminoloji tədqiqatların aparılmasından da ibarət ola bilər. Kriminoloji tədqiqatlar kriminologiyanın predmetinə, kriminoloji fəaliyyətə aid olan sosial hadisələrin elmi cəhətdən öyrənilməsindən ibarətdir. K.n. həm kriminologiya elminin (nəzəri aspekt) özünün inkişaf etdirilməsi, cinayətkarlığın qarşısının alınmasına dair fəaliyyətin (təcrübü aspekt) və fəaliyyət tədbirlərinin təkmilləşdirilməsi məqsədi ilə aparılır. Lakin kriminoloji idrakın bu iki səviyyəsi arasında prinsipial fərqlər mövcud deyildir.

**Kriminoloji nəzəriyyə** – cinayətkarlığın, onun səbəblərinin, cinayətkarın (cinayət törətmiş şəxslərin) şəxsiyyətinin, cinayətdən zərər çəkmiş şəxslərin, cinayətkarlığa xəbərdaredici təsir tədbirlərinin qavranılması təcrübəsinin ifadəsindən ibarət olan elmi prinsiplərin və ideyaların sisteminin bir növü.

**Kriminoloji pedaqogika** – işlənib hazırlanmış xüsusi kriminoloji nəzəriyyə (müəllifi A.İ. Alekseyev hesab olunur). K.p. cinayətkarlığın səbəbli-istintaq əlaqələrində pedaqoji amillərin təzahüretmə qanunauyğunluqlarını öyrənir və cinayətlərin qarşısının alınması üzrə fəaliyyətin elmi-pedaqoji cəhətdən təmin edilməsinin üsul və şərtlərini tədqiq edir.

**Kriminoloji planlaşdırma** – cinayətkarlığın proqnozlaşdırılması əsasında cinayətkarlıqla mübarizənin məqsəd və vəzifələrinin həll edilməsinə yönələn yolların və vasitələrin mərhələlərlə işlənib hazırlanması.

**Kriminoloji profilaktika** – cinayətkarlıqla mübarizənin, onun səbəb və şəraitinin aradan qaldırılmasının və cinayətlərin qarşısının alınmasının tədbirlər sisteminə daxil olan fəaliyyətin bir növü.

**Kriminoloji proqnostika** – kriminologiyanın cinayətkarlığın vəziyyəti və dinamikası, onun ayrı-ayrı xassələri, amilləri, cinayətkarlıqla mübarizə tədbirləri və onun nəticələri, habelə cinayətkarlıqla mübarizə tədbirləri proqnozunun tərtibi qanunauyğunluqlarını öyrənən sahəsi.

**Kriminoloji proqnoz** – cinayətkarlığın, cinayətkarın şəxsiyyətinin, cinayətkarlığın amillərinin, onunla mübarizə tədbirlərinin və nəticələrinin gələcək vəziyyəti, ənənələri, inkişaf dövrləri haqqında elmi cəhətdən əsaslandırılmış ehtimal olunan mülahizə. K.p.-un növləri aşağıdakılardır: a) dövrü qabaqlama müddəti üzrə proqnoz; b) proqnozlaşdırmanın obyekti üzrə proqnoz; c) proqnozlaşdırmanın predmeti üzrə proqnoz.





**Kriminoloji proqnozlaşdırma** – kriminologiyanın cinayətkarlığın və onun səbəblərinin gələcək vəziyyətinin qabaqcadan elmi əsaslandırılması üzrə funksiyası (təyinatlardan biri) və fəaliyyəti. K.p.-nın məqsədləri aşağıdakılardan ibarətdir: a) perspektivdə cinayətkarlığın dəyişkənliyini səciyyələndirən ən ümumi göstəricilərin müəyyən edilməsi; b) bunun əsasında arzuolunmaz ənənələrin və qanunauyğunluqların aşkar olunması; c) bu ənənələri və qanunauyğunluqları düzgün məcraya yönəltmək üçün üsulların axtarılması.

**Kriminoloji proqramlaşdırma** – kriminologiyanın cinayətkarlıqla və onun ayrı-ayrı növləri ilə mübarizə proqramlarının (planlarının) işlənib hazırlanması qanunauyğunluqlarını öyrənən sahəsi.

**Kriminoloji psixiatriya** – psixiatriya təşəkkül tapmış yeni istiqamət; bu istiqamətin əsasını akademik Q.N. Krıjanovski tərəfindən işlənib hazırlanmış patoloji sistemin formalaşması nəzəriyyəsi təşkil edir. K.p. insan hərəkətlərinin, insanın psixi simasının və bir sıra kriminogen keyfiyyətlərinin təhlilini nəzərdə tutur.

**Kriminoloji residiv** – əvvəllər törədilmiş cinayətə görə məhkum olunma faktından asılı olmayaraq, ardıcıl olaraq iki və daha çox cinayət əməli törədən şəxs (həm də faktiki residiv).

**Kriminoloji situasiya** – cinayətkarlığın xarakterinə və dərəcəsinə (kriminogenlik, antikriminogenlik), cinayətkarlığın qarşısının alınması üzrə fəaliyyətin vəziyyətinə, habelə bu fəaliyyətə müxtəlif cür təsir göstərən amillərə müxtəlif təsirə malik müəyyən fiziki və sosial mühitin amillərinin məcmusu. K.s.-nın xarakteristikası iqtisadi, sosial, sosial-psixoloji və sair sahələrdə hüquqi əhəmiyyətli hadisə və proseslərin öyrənilməsi vasitəsi ilə müəyyən edilir.

**Kriminoloji siyasət** – cinayətkarlığı xəbərdaredici təsir tədbirlərinin mürəkkəb sisteminin idarə olunması mədəniyyəti. Bu siyasət cinayətkarlığın və onun səbəblərinin dərindən öyrənilməsinə və eləcə də zəruri tədbirlər sisteminin təkmilləşdirilməsinə, yeni üsul və metodların axtarılıb-tapılmasına əsaslanır.

**Kriminoloji tədqiqatlar** – kriminologiyanın nəzəri müddəalarının tədqiqi və təhlili məqsədi ilə aparılan elmi tədqiqatlar, araşdırmalar; adətən, ali hüquq məktəblərinin kriminologiya kafedralarında və elmi-tədqiqat institutlarında aparılır.

**Kriminoloji viktimologiya** – cinayətin qurbanları, cinayət situasiyasında onun təbiəti və rolu haqqında təlim. Zərər çəkmiş şəxsin məruz qaldığı cinayətin "töhfəsi"nin öyrənilməsinə pozitivist məktəbin (məsələn, kriminoloji məktəblərin) nümayəndələri, o cümlədən Lombrozo, Qarofalo, Tard və başqaları böyük diqqət yetirmişdir. K.v. delikt viktimologiyasının və ya hüquqi (cinayət) viktimologiyanın növlərindən biridir. Cinayət hüquqi və cinayət-prosessual viktimologiyadan fərqli olaraq k.v.-nin obyektini cinayətdən fiziki, mənəvi və ya maddi ziyan çəkən hər bir insan təşkil edir. K.v.-nın predmetini zərər çəkmiş şəxslə cinayətkar arasında səbəbli-istintaq əlaqələri və ya münasibətləri təşkil edir. K.v.-nın məqsədi aşağıdakılardan ibarətdir: a) konkret cinayətdə zərər çəkmiş şəxsin viktimliyinin rolu və ya xarakterinin, "kriminoloji təqsirin" növünün və dərəcəsinin müəyyənləşdirilməsi; b) xəbərdaredici xarakterli tədbirlərin işlənib hazırlanması.

**Kriminoloq** – **1)** cinayətkarlığı, onun səbəblərini öyrənən, habelə cinayətkarlığın

qarşısının alınması, onun səbəb və şəraitinin aradan qaldırılması üzrə tədbirlər işləyib hazırlayan mütəxəssis; **2)** kriminologiya kursunu orta və ali məktəblərdə tədris fənni kimi tədris edən işçi.

**Kriminopenologiya** – kriminologiyanın sahəsi; cinayətkarlığı, onun səbəblərini, şəraitini, cinayətkarın şəxsiyyətini, cinayətkarlıqla mübarizə tədbirlərinin və azadlıqdan məhrumetmə yerlərində cinayətkarlığın nəticələrinin sisteminin spesifikliyini öyrənir.

**Kriptoqrafiya** *(yun. kryptos – gizli + grapho – yazıram)* – gizli yazı, həsr edilməmiş şəxslər üçün mətni anlaşılmaz etmək məqsədi ilə yazının dəyişdirilməsi sistemi. K. cinayətkarların gizli cinsiyyət üsullarından birinə xidmət edir.

**Kross-kurs** – iki valyuta arasında qarşılıqlı əlaqə (münasibət); bu valyutaların hər hansı üçüncü valyutaya münasibətdə kursu əsasında müəyyən edilir.

**"Kşatrilər"** *(sanskritcə – kşatriya – hökmranlıq, hakimiyyət)* – Qədim Hindistanda dörd əsas kastalardan (varnalardan) biri. K. hərbi-tayfa aristokratiyasından ibarət idi. Onlar brahmanlardan sonra Hindistanın ictimai iyerarxiya nərdivanında ikinci pilləni tuturdular. Onların əsas fəaliyyət sahəsini hərb təşkil edirdi. "Manu Qanunları"na görə k. yalnız öz kastalarına mənsub olan qadınlarla evlənə bilərdilər. Qanunlar brahmanlara k.-dən qız almağa (brahmanlara k.-ə qız verməyə icazə verilmirdi) icazə verilirdi. K.-in vayşiyələrlə və ya şudrlarla evlənməsi qadağan olunurdu.

**Kuluarlar** *(fr. couloirs – dəhlizlər)* – **1)** istirahət, qeyri-rəsmi görüşlər üçün nəzərdə tutulan (parlamentdə, qurultayda və i.a.) binalar; **2)** qeyri-rəsmi görüşlərin və danışıqların xarakteristikası üçün tətbiq edilən keçici mənalı ifadə; qəbul edilən rəsmi sənədlərin, qanunların və i.a. məzmununun şərhi ehtiva olunur.

**Kumulyasiya** *(lat. cumulatio – artırma, toplaşma)* – sığorta işində sığortalanmış obyektlərin məhdud məkanda (bir gəmidə, bir limanda, bir anbarda) toplanması.

**Kumulyativ cəza** – bir sıra cinayətlərə görə tətbiq edilən summar cəza növü.

**Kumulyativ imtiyazlı səhm** – imtiyazlı səhm; bu səhm vasitəsi ilə ödənilməmiş və ya tam ödənilməmiş dividend toplanır və nəticədə ödənilir. Belə səhmlərin buraxılması mümkünlüyü səhmdar cəmiyyətləri haqqında qanunvericiliklə nəzərdə tutulur.

**Kumulyativ səsvermə** – səhmdarların ümumi yığıncağında səsvermə qaydası; digər məsələlər (namizədlər) üzrə səsvermədən imtina etmək hesabına yığılma nəticəsində bir deyil, bir neçə səsdən (bir sıra məsələlər üzrə) istifadə etməyə imkan verir. Xırda səhmdarların hüquqlarının mühafizəsi üçün tətbiq edilir.

**Kumulyativ votum** – çoxmandantlı seçki dairələrində səsvermə qaydası; bu zaman seçici topladığı səslərin bir hissəsini və ya hamısını namizədlərdən birinə vermək hüququna malik olur.

**Kupon** – qiymətli kağızın kəsil talon halında olan hissəsi; müəyyən məbləğ faizin həmin talonda göstərilən müddətdə alınmasına hüquq verir. K. adətən əskinasa bərkidilir, bəzən müstəqil satın alana və satıla bilər. O, hər bir halda əskinasla eyniləşdirilməlidir. K. özündə aşağıdakı rekvizitləri nəzərdə tutmalıdır; borclu firmanın adını, əskinasın adını və nömrəsini, ödəyici bankın adını, kuponun məbləğini, hərəkətlərin sıra nömrəsini və müddətini.





**Kupon vərəqəsi** – qiymətli kağızın (səhmin və ya əskinasın) hissəsi; həmin hissə kəsilir və dividendin, yaxud faizin alınması üçün qiymətli kağızın sahibinə verilir. K.v. üzərində ödəmə göstərilən ayrıca kuponlardan ibarət olur. Müddəti çatdıqda müvafiq kuponlar kəsilir və ödəniş üçün səhmdar cəmiyyətinə, qiymətli kağızı buraxmış hökumətə, yaxud səhmdar şirkətin və hökumətin tapşırığı ilə kuponları ödəyən banka verilir.

**Kurator** *(lat. curator – hami, qəyyum)* – müəyyən işin (yaxud işlərin, xidmətlərin) gedişini izləyən, icrasına nəzarət edən şəxs.

**Kurfyuristlər** *(alm. kurfursten, hərfən seçici – knyaz; kur – seçki, seçmək və furst – knyaz)* – "Müqəddəs Roma imperiyasında" knyazlar və arxiyepiskoplar; XIII yüzillikdən başlayaraq kralı (imperatoru) seçmək hüququ onlara həvalə olunmuşdu. K.-in hüquqları və xüsusi imtiyazları 1356-cı il Qızıl bullası ilə müəyyən edilmişdi. K. kollegiyası 1806-cı ilədək mövcud olmuş və həmin vaxt imperiya ilə birlikdə ləğv edilmişdir.

**Kuriallar** – Roma imperiyasında şəhər əhalisinin yüksək təbəqəsini təşkil edən İtaliya və əyalət şəhərlərinin şəhər şuralarının üzvləri. K. şəhər təsərrüfatına xərc çəkməklə yanaşı, həm də dövlət vergilərinin toplanmasına, vergilərin xəzinəyə düzgün mədaxil edilməsinə nəzarət edirdilər.

**Kurial sistem** – nümayəndəli orqanlara (idarə və müəssisələrə) seçkilərin sistemi; bir sıra ölkələrdə uzun müddət mövcud olmuşdur. K.s. seçicilərin silk senzi və ya digər senz prinsipi üzrə bir neçə dərəcələrə, yaxud kuriyalara bölgüsü ilə səciyyəvi olmuşdur.

**Kuriat komitsiyası** *(lat. comitia curiata)* – Qədim Romada 30 nəfər patrisinin iştirak etdiyi yığıncaq.

**Kuriat yığıncaqları** *(bax: xalq yığıncağı).*

**Kuriya** *(lat. curia)* – **1)** Qədim Romada 10 patrisi nəslinin məcmusu. 10 kuriya bir tribunu təşkil edirdi. Qədim Romada senatın toplandığı bina da k. adlanırdı; **2)** Roma imperiyasında şəhər əyalət senatı; **3)** Qərbi Avropada orta əsrlərdə senyorlar (öz vassalları ilə) şurası. Kral kuriyası (İngiltərədə) kral tərəfindən çağırılan iri feodal yığıncağından ibarət idi; **4)** bəzi xarici ölkələrdə seçicilərin əmlak əlamətlərinə, milli əlamətlərə və i.a. görə seçici dərəcəsi.

**Kurort** – müalicə-profilaktik məqsədlər üçün nəzərdə tutulan, xüsusi mühafizə olunan təbii ərazidə yerləşən və təbii müalicəvi ehtiyatlara malik olan müəssisə. Yerli və regional əhəmiyyətli K.-lar fəaliyyət göstərir. K. ərazilər (rayonları) dövlətin xüsusi mühafizəsi altında olur.

**Kurtaj** – birja əqdlərinin bağlanması zamanı göstərdiyi vasitəçiliyə görə brokerə verilən mükafat (muzd). K.-ın məzənnəsi qiymətli kağızların və malların kateqoriyasından, habelə əqdlərin həcmindən asılıdır. K.-ın miqdarı birjaların nizamnamələri və ya birja əqdlərinin iştirakçılarının sazişi ilə müəyyən edilir.

**Kurul edilləri** – Roma Respublikasının aşağı magistratları. K.e. həm də məhkəmə səlahiyyətlərinə malik idilər.

**Kuryer vərəqəsi** – diplomatik poçtun daşınmasına hüquq verən rəsmi sənəd. Bu sənəddə diplomatik kuryerin statusu və diplomatik poçtu təşkil edən yerlərin sayı göstərilir. K.v. diplomatik poçtu daşıma-

nın etibar edildiyi mülki təyyarə ekipajının komandirinə də verilə bilər. Bu halda ancaq poçtu təşkil edən yerlərin sayı göstərilir, çünki mülki təyyarənin komandiri diplomatik kuryer hesab olunmur.

**Kutyumlar** *(fr. coutume – adətlər)* – feodal Fransasında adət hüquq normaları. Fransanın cənubundan fərqli olaraq onun şimalında qüvvədə olan k.-a görə şimal "adət hüquqi ölkəsi" adlandırılmışdır. Fransada k.-ın 360-a yaxın sistemi olmuşdur. K. ailə və vərəsəlik münasibətlərini də tənzimləyirdilər. K.-a uyğun olaraq vərəseliyin doğmalara verilməsi qadağan olunurdu. Cehiz adəti müəyyən edilmişdi. K. kəndlilərin feodalların xeyrinə mükəlləfiyyətlərini də müəyyən edirdi. XIII yüzillikdən başlayaraq hüquqşünaslar k.-ın toplularını tərtib etmişdilər. Orta əsr hüquqşünası Bomanuar tərəfindən k.-ın ən məşhur toplusu olan Bovezi 1280-1283-cü illərdə, "Müqəddəs Lüdovikin təşəkkülü" adlı toplu 1273-cü ilə yaxın tərtib edilmişdir. K. 30 mart 1804-cü il qanunu ilə ləğv edilmişdir.

**Kuzen nikahı** – nikah formalarından biri; qəbilə quruluşu dövründə dual təşkilatla əlaqədar olmuşdur. K.n.-nın iki əsas forması mövcud olmuşdur: ortokuzen və krosskuzen nikah. Əmi oğlu ilə əmi qızı arasında nikah ortokuzen, dayı oğlu ilə dayı qızı arasındakı nikah isə krosskuzen nikah adlanırdı. K.n. qalıq kimi Orta Asiya, Qafqaz (o cümlədən azərbaycanlılar) xalqları arasında mövcud olmuşdur. K.n. irsiyyət və sağlamlıq üçün çox zərərli nikah forması hesab olunur.

**Kütləvi iğtişaş** – ictimai təhlükəsizlik əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 220-ci maddəsində nəzərdə tutulmuşdur. Zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi, odlu silahın, partlayıcı maddələrin və ya qurğuların tətbiq edilməsi, yaxud hakimiyyət nümayəndəsinə müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmədə ifadə olunur.

**Kütləvi informasiya** – axtarılması, əldə olunması, hazırlanması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudlaşdırılmayan, ümumi istifadə üçün nəzərdə tutulmuş mətbu, audio, audiovizual xəbər və digər məlumatlar.

**Kütləvi informasiya vasitələri** – dövri mətbu nəşrlər, teleradio proqramları, kinoxronika proqramları və digər yayım formaları.

**"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında kütləvi informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını, habelə mətbuatın, informasiya agentliklərinin, televiziya və radio təşkilatlarının vətəndaşların tam, doğru-dürüst və operativ informasiya almaq hüququnun həyata keçirilməsinə yönəldilmiş fəaliyyətinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 7 dekabr 1999-cu il tarixdə qəbul edilmişdir. Qanun on fəsil və 62 maddədən ibarətdir.

**Kütləvi informasiya vasitəsi məhsulunun yayılması** – dövri mətbu nəşrlərin, teleradio proqramlarının, audio və ya videoyazıların satılması və ya paylanması, teleradio proqramlarının yayımı, kinoxronika proqramlarının nümayişi.

**Kütləvi informasiya vasitəsinin məhsulu** – mətbu nəşrin bir nömrəsinin





tirajı, yaxud onun bir hissəsi, teleradio, kinoxronika proqramlarının ayrıca buraxılışı, proqramın audio və ya videoyazıların tirajı, yaxud tirajının bir hissəsi.

**Kütləvi informasiya vasitəsinin redaksiyası** – kütləvi informasiya vasitəsinin istehsalını və yayımını həyata keçirən təşkilat, müəssisə, idarə və ya vətəndaş, yaxud vətəndaşlar birliyi.

**Kvazikontraktlar** – mülki hüquq nəzəriyyəsində əsassız varlanmadan, başqa şəxsin xeyrinə hərəkətlərdən əmələ gələn öhdəlik.

**Kvazikorporasiya** – İngiltərə hüququnda yalnız müəyyən məqsədlər üçün vahid tam - hüquqi şəxs qismində tanınan şəxslərin ittifaqı. Məsələn, həmkarlar ittifaqı belə təşkilata aid edilir.

**Kvestor** *(lat. quaestor)* – **1)** Qədim Romada maliyyə və məhkəmə işlərini həyata keçirən vəzifəli şəxs; **2)** bir sıra ölkələrdə parlamentin, inzibati-təsərrüfat sahəsinin işlərini aparan vəzifəli şəxs; **3)** İtaliyada polis məmuru.

**Kvestura** *(lat. quaestura)* – **1)** kvestorun vəzifəsi; **2)** İtaliyada yerli polis idarəsi.

**Kvirit hüququ** – Qədim Roma hüququnun institutlarından biri. K.h. dinlə, sadə əxlaq normaları ilə bağlı olması və hüquqi anlayışları inkişaf etdirməsi ilə səciyyəvi olmuşdur. Formalizm, mühafizəkarlıq, məhdudluq, kazuallıq və i.a. k.h.-nun xarakterik cəhətlərindən idi. K.h. məhdud ərazidə fəaliyyət göstərirdi və ancaq yerli əhəmiyyətə malik idi.

**Kviritlər** *(lat. quirites)* – Qədim Romada tam hüquqlu Roma vətəndaşlarının rəsmi adı. K. mülki hüquqların müstəqil daşıyıcıları hesab olunurdular. Məhz buna görə də qədim romalılar özlərini kvirit adlandırırdılar. "K.h." termini də buradan meydana gəlmişdir.

**Kvorum** *(lat. quorum)* – parlamentdə, yaxud hər hansı orqanın iclaslarında və yığıncaqlarında iştirak edən nümayəndələrin qanunla və ya nizamnamə ilə (reqlamentlə) müəyyən edilmiş sayı (yetərsay). Yalnız k. olduğu halda hər hansı qərarın qəbul edilməsi səlahiyyətli hesab olunur.

**Kvota** *(lat. quota – hər nəfərə düşən hissə, lat. nə qədər)* – **1)** pay, hissə, norma. Vergi kvotası – müəyyən əsaslı qoyuluş vahidindən tutulmalı olan verginin həddi; **2)** kartel sazişi iştirakçıları arasında mənfəət kvotasının həcminə uyğun surətdə bölüşdürülür.

**Kvotalaşdırma** – malların (işlərin, xidmətlərin) müəyyən nomenklaturasının natural və ya dəyər ifadəsinin *(həmçinin bax: lisenziya)* import və eksport həcminin müəyyən dövr üçün dövlət tərəfindən müəyyən edilən kəmiyyət və ya dəyər məhdudiyyətləri. K.-dan eksport-import əməliyyatlarının dövlət tənzimləməsinin qeyri-tarif vasitəsi kimi istifadə olunur.

**Kvo varranto** *(lat. quo warranto)* – ingilis-amerikan hüquq sistemli ölkələrdə inzibati orqanın bu və ya digər hərəkətinin qanuniliyinin yoxlanılması ilə əlaqədar verilən məhkəmə əmri. K.v. insanın konstitusiya əhəmiyyətli hüquq və azadlıqlarının müdafiəsinin prosessual vasitələrindən biridir.

# -Q-

Qabiliyyət ..... 656
"Qabitossurət" ..... 656
Qablaşdırma ..... 656
Qaçaq ..... 656
Qaçaq hərəkatı ..... 656
Qaçaqmalçılıq ..... 656
Qaçqın ..... 656
Qaçqın düşərgələri ..... 657
"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" qanun ..... 657
Qaçqın şəhərcikləri ..... 657
Qaçma ..... 657
Qadağanedici hüquq normaları ..... 657
Qadağan etmə ..... 657
"Qadağan qanunu" ..... 657
Qadın əməyi ..... 657
Qadın hərəkatı ..... 658
Qadın hüquqları ..... 659
Qadınların Vəziyyəti üzrə Komissiya (QVK) ..... 659
Qadın məsələsi ..... 659
Qafqaz canişinliyi ..... 659
Qaimə ..... 660
Qaimə məsrəfləri ..... 660
Qanbahası ..... 660
Qandal (buxov) ..... 660
Qandizm ..... 660
Qan intiqamı ..... 661
"Qan, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" qanun ..... 661
Qan qarışığı (invest) ..... 661
Qanqohumluğu ailəsi ..... 661
Qanqster ..... 661
Qanqsterlik ..... 661
"Qanlı qanunvericilik" ..... 662
Qanun ..... 662
Qanunauyğun davranış ..... 662
Qanunazidd davranış ..... 662
Qanun-çərçivə ..... 662
Qanunçuluq ..... 662
Qanundankənar elan etmə ..... 662
Qanuni dəbbələmə ..... 663
Qanuni qüvvə ..... 663
Qanuni nümayəndələr ..... 663
Qanuni sahibkarlıq fəaliyyətinə mane olma ..... 663
Qanunqüvvəli hüquq normaları ..... 663
"Qanunların müharibəsi" ..... 663
Qanunlar Toplusu (QT) ..... 663
Qanun layihəsi ..... 664
Qanun-məşvərətçi orqanlar ..... 664
Qanunsuz abort etmə ..... 664
Qanunsuz ağac kəsmə ..... 664
Qanunsuz azadlıqdan məhrum etmə ..... 664
Qanunsuz cinayət məsuliyyətindən azad etmə ..... 664
Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə ..... 664
Qanunsuz övladlığa götürmə ..... 664
Qanunsuz psixiatriya xəstəxanasına yerləşdirmə ..... 665
Qanunsuz radio ..... 665
Qanunsuz sahibkarlıq ..... 665
Qanunsuz silah hazırlama ..... 665
Qanunsuz tutma, həbsə alma və ya həbsdə saxlama ..... 665
Qanunun dərc (elan) edilməsi ..... 665
Qanunun doktrinal təfsiri ..... 665
Qanunun elan olunması ..... 666





Qanunun genişləndirici təfsiri ..... 666
Qanunun geriyə qüvvəsi ..... 666
Qanunun kazual təfsiri ..... 666
Qanunun kolliziyası ..... 667
Qanunun qeyri-rəsmi təfsiri ..... 667
Qanunun qüvvəsi ..... 667
Qanunun məhdudlaşdırıcı təfsiri ..... 667
Qanunun məntiqi təfsiri ..... 667
Qanunun mətni (qrammatik) təfsiri ..... 667
Qanunun normativ təfsiri ..... 668
Qanunun rəsmi təfsiri ..... 668
Qanunun sistematik təfsiri ..... 668
Qanunun tarixi-siyasi təfsiri ..... 668
Qanunun təfsiri ..... 668
Qanun üzrə vərəsəlik ..... 668
Qanunvericilik ..... 668
Qanunvericilik dekretləri ..... 669
Qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma ..... 669
Qanunvericilik hakimiyyəti ..... 669
Qanunvericilik korpusu ..... 669
Qanunvericilik qaydası ..... 669
Qanunvericilik məclisi ..... 669
Qanunvericilik muxtariyyəti ..... 670
Qanunvericilik normaları ..... 670
Qanunvericilik orqanları ..... 670
Qanunvericilik prosesi ..... 670
Qanunvericilik referendumu ..... 670
Qanunvericilik sistemi ..... 670
"Qanunvericilik tarazlaşdırması" ..... 670
Qanunvericilik təşəbbüsü ..... 670
"Qanunvericilik vetosu" ..... 671
Qanunvericiliyin kazual sistemi ..... 671
Qanunvericiliyin sistemləşdirilməsi (hüququn sistemləşdirilməsi) ..... 671
Qanunverici məclis ..... 671
Qanunyaratma ..... 671
Qapalı məhkəmə ..... 671
"Qara məcəllələr" ..... 671
Qarant ..... 672
Qarantiya ..... 672
"Qardaş demokratlar" ..... 672
Qardaşlaşma ..... 672
Qarışıq aidiyyət ..... 672
Qarışıq hüquqlar ..... 672
Qarışıqlıq ..... 672
Qarışıq müqavilə ..... 672
Qarışıq mülkiyyət (mülkiyyətin qarışıq forması) ..... 673
Qarışıq polislər ..... 673
Qarışıq proses ..... 673
Qarışıq respublika ..... 673
Qarışıq seçki sistemi ..... 673
Qarışıq tipli respublika ..... 673
Qarışmamaq prinsipi ..... 673
Qarnizon ..... 673
Qarovul ..... 674
Qarovul xidmətinin nizamnamə qaydalarını pozma ..... 674
Qars müqaviləsi ..... 674
Qarşılıqlı əlaqəli şəxslər ..... 674
Qarşılıqlı fond ..... 674
Qarşılıqlı iddia ..... 674
Qarşılıqlı investisiya fondu ..... 675
Qarşılıqlı kredit ..... 675
Qarşılıqlı sığorta ..... 675
Qarşılıqlı tələb ..... 675
Qarşılıqlı tələblərin ödənilməsi ..... 675
Qarşılıqlı veksel ..... 675
Qarşısıalınmaz qüvvə (forsmajor) ..... 675
"Qastrolluq edən cinayətkarlar" ..... 675
Qayda ..... 675
Qazamat ..... 675
Qazan xan islahatları ..... 675
Qazəsgər ..... 676
Qazı ..... 676
Qazın istehsalı sahəsində fəaliyyət ..... 677
Qazın paylanması ..... 677
Qazla zəhərləmə ..... 677
"Qaz təchizatı haqqında" qanun ..... 677
Qeyri-məhdud hakimiyyət ..... 677
Qeyri-müəyyən aksept ..... 678
Qeyri-rəsmi təfsir ..... 678
Qeyz ..... 678
Qeyri-dövlət pensiyası ..... 678

Qeyri-hökumət təşkilatı ... 678
Qeyri-hökumət təşkilatının nizamnaməsi ... 678
"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanun ... 678
Qeyri-hüquqi ... 679
Qeyri-kombatantlar ... 679
Qeyri-kommersiya təşkilatı ... 679
Qeyri-kommersiya təşkilatının muxtariyyəti ... 679
Qeyri-leqal emiqrasiya ... 679
Qeyri-maddi aktivlər ... 679
Qeyri-maddi nemətlər ... 679
Qeyri-motivli cinayət ... 680
Qeyri-təbii ölüm ... 680
Qəbalə ... 680
Qəbirə ... 680
Qəbir üzərində təhqiredici hərəkətlər ... 680
Qənimət ... 680
Qərar (hüquqda) ... 680
Qərardad ... 681
Qərbçilər ... 681
Qərbi Avropa İttifaqı (QAİ) ... 681
Qərmətilik ... 681
Qəsd ... 681
Qəsdən adam öldürmə ... 682
Qəsdən müflisləşmə ... 682
Qəsdən sağlamlığa ağır zərər vurma ... 682
Qəsdən sağlamlığa az ağır zərər vurma ... 682
Qəsdən sağlamlığa yüngül zərər vurma ... 682
Qətimkan tədbiri ... 682
Qətl ... 683
Qətnamə ... 683
Qəyyum ... 683
Qəyyumluq ... 683
Qəyyumluq Şurası ... 684
Qəza[1] ... 684
Qəza[2] ... 684
Qəza bondu ... 684
Qəza haqqı ... 684
Qəza-xilasetmə birliyi ... 684
Qəza-xilasetmə xidməti ... 684
Qəza-xilasetmə işləri ... 684
Qəza-xilasetmə vasitələri ... 685
Qəza iltizamı ... 685
Qəza komissarı ... 685
Qəza sertifikatı ... 685
Qəzəb ... 685
"Qırmızı kitab" ... 685
"Qırmızı storno" ... 686
Qısa bəyannamə ... 686
Qısamüddətli veksel ... 686
Qızıl bulla ... 686
Qızıl ehtiyat ... 686
Qızıl qeyd-şərt ... 686
Qızıl paritet ... 686
Qızıl rubl ... 686
Qızıl sertifikatlar ... 687
"Qızıl səhm" ... 687
Qızıl sikkə standartı ... 687
Qızıl standart ... 687
Qızıl təminat ... 687
Qızıl valyuta ... 687
Qızıl valyuta ehtiyatları ... 687
QİÇS (qazanılmış immunçatışmazlığı sindromu) ... 687
Qisas ... 687
Qismən fəaliyyət qabiliyyəti ... 688
Qismən veto ... 688
Qitə hüququ ... 688
Qitə şelfi ... 688
Qiyabi hökm ... 688
Qiyabi məhkəmə ... 688
Qiyas ... 688
Qiymət ... 688
Qiymət FAS ... 689
Qiymət FOB ... 689
Qiymət franko ... 689
Qiymətin indeksi ... 689
"Qiymət qayçısı" ... 689
"Qiymətləndirmə fəaliyyəti haqqında" qanun ... 689
Qiymətli kağız ... 689
Qiymətli kağızlar bazarı ... 689
"Qiymətli kağızlar bazarında investorların hüquqlarının müdafiəsi haqqında" qanun ...





Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları ... 690
"Qiymətli kağızlar haqqında" qanun ... 690
Qiymətli kağızların buraxılışı ... 690
Qiymətli kağızların buraxılması (emissiyası) qaydalarını pozma ... 690
Qiymətli kağızların emissiyası ... 690
Qiymətli kağızların emitenti ... 691
Qiymətli kağızların tədavülü ... 691
Qiymətli kağızları satın alma ... 691
Qiymət SİF ... 691
Qiymət valyutası ... 691
Qladiatorlar ... 691
Qlobal müharibə ... 691
Qlossa ... 691
Qlossator ... 692
Qocalığa görə pensiya ... 692
Qohumluq ... 692
Qoloqrafiya ... 692
Qoloskop ... 692
Qomindan ... 692
Qonşuluq hüququ ... 692
Qoşa nikah ... 693
Qraf ... 693
Qraflıq ... 693
Qrafologiya ... 693
Qrammatik təfsir ... 693
Qramota ... 693
Qrandlar ... 693
Qrantdan vergitutma ... 693
Qrant-element ... 694
"Qrant haqqında" qanun ... 694
Qrantlar ... 694
Qrefye ... 694
"Qreşem Qanunu" ... 694
Qridlər ... 694
Qrif ... 694
Qrossmühasibat ... 695
Qrup cinayəti ... 695
Qrup kvotası ... 695
Qrup mənsubiyyəti ... 695
Qrup nikahı ... 695
Qrup sığortası ... 695
Quba ... 696
Quba idarəsi ... 696
Quba islahatı ... 696
Quba qramotları ... 696
Quba müəssisələri ... 696
Qubernator ... 696
Quberniya ... 696
Qudvill ... 696
Qulaq ... 696
Qul alveri ... 697
Quldarlıq hüququ ... 697
Quldurluq ... 697
Qulluğa səhlənkar yanaşma ... 697
Qulluqçular ... 697
Quran ... 697
Qurultay[1] ... 698
Qurultay[2] ... 698

**Qabiliyyət** – şəxsiyyətin müəyyən fəaliyyət sahəsində daha çox yararlı olduğunu göstərən, müəyyən işi müvəffəqiyyətlə icra etməsi üçün subyektiv şərt olan fərdi psixi xüsusiyyəti (*həmçinin bax: fəaliyyət qabiliyyəti; hüquq qabiliyyəti*).

**"Qabitossurət"** – rus kriminalist-alimi V.A. Snetkovun "qabitossurət" kursuna dair ilk ali məktəb dərsliyi. 1979-cu ildə nəşr edilmişdir. Dərslik 6 fəsildən ibarətdir. Birinci fəsildə kriminalistik təlimlərin xüsusi hissəsindən biri kimi qabitossurətin anlayışı, ikinci fəsildə insanın zahiri görkəminin elementlərinin və əlamətlərinin anlayışı verilir, üçüncü fəsildə insanın kriminalistikada istifadə edilən zahiri görkəminin əks olunması növləri nəzərdən keçirilir. Dördüncü fəsil insanın zahiri görkəmi haqqında məlumatların toplanmasının xüsusi texniki-kriminalistik üsul və metodlarının ifadəsinə həsr edilmişdir. Nəhayət, dərsliyin beşinci və altıncı fəsillərində kriminalistik-portret ekspertizalarının aparılması metodikası, habelə tibbi-kriminalistik ekspertizanın istifadə üsulları nəzərdən keçirilir.

**Qablaşdırma** – malı və ətraf mühiti zədələnmə və itkilərdən müdafiəni təmin edən, mallarla rəftar etmə prosesini yüngülləşdirən vasitə və ya vasitələr kompleksi. "Q." termini geniş mənada tara anlayışını da özündə ehtiva edir. Məhdud mənada isə o, taradan birdəfəlik xarakterinə görə fərqlənir.

**Qaçaq** – **1)** XIX yüzillikdə və XX yüzilliyin əvvəllərində Azərbaycanda xanlara, bəylərə və çar məmurlarına qarşı mübarizə aparan qaçqın. Azərbaycanda qaçaq hərəkatı kəndli çıxışlarının özünəməxsus formalarından biri olmuşdur; **2)** soyğunçuluq, quldurluqla məşğul olan qaçqın cinayətkar.

**Qaçaq hərəkatı** – XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda kəndlilərin xanlara, bəylərə, çar məmurlarına və istismarçı siniflərə qarşı mübarizə formalarından biri. Azərbaycanda qaçaq hərəkatının məşhur başçılarından Qaçaq Nəbi, Qatır Məmməd, Qaçaq Adıgözəl, Qaçaq Yusif, Qaçaq Zahid, Qandal Nağı və başqaları geniş şöhrət qazanmışdır. Kiçik dəstələrdə birləşmiş qaçaqlar bəylərin, tacirlərin, çar məmurlarının malikanələrinə hücum edir, onların əmlakını ələ keçirərək yoxsullara paylayırdılar. Q.h.-nın sosial mahiyyəti geniş xalq kütləsinin onları müdafiə etməsi, onlara rəğbəti və kömək etməsi ilə təsdiq olunur. Q.h. qeyri-mütəşəkkil, kortəbii olub, yerli xarakter daşıyırdı və siyasi şüurluluqdan uzaq idi.

**Qaçaqmalçılıq** (*bax: kontrabanda*).

**Qaçqın** – Azərbaycan Respublikasının vətəndaşı olmayıb, irqi əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubiyyətinə və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölkədən kənarda qalan və eyni ehtiyat üzündən həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl adətən yaşadığı ölkədən kənarda qalan, ehtiyat üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxs ("Qaçqınların və köçkünlərin statusu haqqında" Azərbaycan Respublikası qanununun 1-ci maddəsi).

Qaçqın statusu vermə və qaçqın statusundan məhrum etmə məsələlərinə dair





qərarları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları qəbul edirlər. Qaçqın statusu almaq niyyətində olan şəxslər onlara qaçqın statusu verilməsi haqqında ərizə ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına müraciət etməli və orada qeydiyyatdan keçməlidirlər. Belə statusun verilməsi haqqında vəsatətə baxılması qaydasını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Şəxsə qaçqın statusu verməkdən imtina edildikdə, bu barədə ona qərarın qəbul edildiyi vaxtdan 5 gün müddətində imtinanın səbəbləri və qəbul edilmiş qərardan şikayət verilməsi qaydası göstərilməklə yazılı məlumat verilir.

Aşağıdakılara qaçqın statusu verilmir: a) beynəlxalq hüquqda təyin edildiyi kimi, sülhə qarşı cinayət, bəşəriyyətə və ya insanlığa qarşı cinayət törətdiyi müəyyən edilmiş şəxsə; b) Azərbaycan Respublikasının ərazisinə gələnə qədər onun hüdudlarından kənarda qeyri-siyasi xarakterli ağır cinayət törətmiş şəxslərə; c) Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd əməllər törətməkdə müqəssir olan şəxsə.

**Qaçqın düşərgələri** – Qərbi Azərbaycanın ərazilərindən (indiki Ermənistanın) zorla departasiya olunmuş, həmçinin Azərbaycanın Dağlıq və Aran Qarabağ bölgəsindən qaçqın düşmüş vətəndaşların Azərbaycan Respublikasının müxtəlif ərazilərində müvəqqəti olaraq məskunlaşdıqları yerlər.

**"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" qanun** – Azərbaycan Respublikasında qaçqınların və məcburi köçkünlərin hüquqi statusunu müəyyən edən qanunvericilik aktı. Qanun 21 may 1999-cu il tarixdə qəbul edilmişdir. O, dörd fəsil, 21 maddə və yekun müddəalarından ibarətdir.

**Qaçqın şəhərcikləri** – Qərbi Azərbaycanın (indiki Ermənistanın) ərazilərindən zorla departasiya olunmuş, həmçinin Azərbaycanın Dağlıq və Aran Qarabağ bölgəsindən qaçqın düşmüş vətəndaşların Azərbaycan Respublikasının müxtəlif ərazilərində yaşamaları üçün xüsusi olaraq inşa edilmiş yaşayış məntəqələri.

**Qaçma** – cinayət qanunvericiliyinə görə azadlıqdan məhrum etmə yerindən, həbsdən və ya mühafizə altından qaçmada ifadə olunan cinayətkar əməl. Ədalət mühakiməsi əleyhinə olan cinayətlərə aiddir. AR CM-in 304-cü maddəsində nəzərdə tutulmuşdur. Cəza çəkən və ya ibtidai həbsdə olan şəxsin azadlıqdan məhrum etmə yerlərindən, həbsdən və ya mühafizə altından qaçmasında ifadə olunur.

**Qadağanedici hüquq normaları** – şəxs tərəfindən hər hansı hərəkətlərin edilməsinin yolverilməzliyini göstərən hüquq normaları. Məsələn, mülki hüquq normalarına uyğun olaraq öhdəliklərin icrasından birtərəfli qaydada imtina etmək və ya müqavilənin şərtlərini bir tərəfli dəyişdirmək yolverilməzdir.

**Qadağan etmə** – icazə verilməyən, yolverilməz bir şeyi etməməkhaqqında xəbərdarlıq; qanunla icazə verilməyən, yol verilməsi yasaq edilən göstəriş vermə.

**"Qadağan qanunu"** – spirtli içkilərin istehsalını və satışını qadağan edən qanun. ABŞ-da (1920-1933-cü illərdə), Rusiyada (1914-1924-cü illərdə) və digər dövlətlərdə (Finlandiyada, İslandiyada) qüvvədə

olmuşdur. Bir sıra dövlətlərdə (Belçikada, Fransada, Norveçdə) məhdudiyyətlər qismən xarakter (içkilərin tündlüyünə görə) daşımışdır. "Q.q."-nun verilməsində əsas məqsəd sərxoşluğun (alkoqolizmin) aradan qaldırılmasından, millətin sağlamlığının yaxşılaşdırılmasından və hüquq qaydasının möhkəmləndirilməsindən ibarət olmuşdur. Lakin belə qanunun tətbiqi arzuolunmaz nəticələr də vermişdir. Qanunun qüvvədə olduğu müddətdə alkoqollu içkilərin qaçaqmalçılığı ilə bağlı cinayətlərin sayı xeyli artmış, alkoqollu içkilərin gizli şəkildə kustar şəraitdə istehsalı geniş yayılmışdır. Buna görə də qadağan tədricən aradan qaldırılmış və ya yüngülləşdirilmişdir. Hazırda spirtli içkilərin istehsalı və satışı (istehlakı) bir sıra müsəlman ölkələrində (İranda, Səudiyyə Ərəbistanında, Sudanda və i.a.) qadağan edilmişdir.

**Qadın əməyi** – ictimai istehsal prosesində qadınların iştirakı. Q.ə.-nin xarakteri cəmiyyətin sosial-siyasi quruluşu və iqtisadi quruluşu ilə müəyyən edilir. Qadınlar dünya işçi qüvvəsinin böyük potensialını təşkil edirlər. Onların yeni istehsal sahələrində – elektronika, elektrotexnika, radio-televiziya sənayesi və i.a. sahəsində əməyinin rolu xeyli genişlənmişdir.

**Qadın hərəkatı** – Qadınların cəmiyyətdə sosial-iqtisadi, siyasi və mədəni sahələrdə kişilərlə bərabər hüquq və azadlıqlar əldə etmələri uğrunda mübarizəsi, həmçinin ümumi siyasi mübarizədə iştirakı. Q.h. özünün mübarizə tarixində bir neçə mərhələdən keçmişdir. Mütəşəkkil q.h. ilk dəfə Böyük Fransa inqilabı (XVIII əsr) gedişində meydana çıxmış, XVIII yüzilliyin sonu - XX yüzilliyin əvvəllərində feminizim və sufrajizm adı ilə dünyanın bir çox ölkəsində yayılmışdır. XVIII yüzillikdə ABŞ-da Mersi Uorren, Fransada Olimpia de Quj, İngiltərədə Meri Uolstonkraft və başqaları qadın azadlığının mübarizə carçıları olmuşlar. 1888-ci ildə Amerika feministlərinin təşəbbüsü ilə ilk beynəlxalq qadın təşkilatı – Beynəlxalq Qadın Şurası təşkil edilmişdir. Sonralar isə 50-dək ölkədə qadınların milli şuraları yaradılmışdır. 1893-cü ildə bunlar Beynəlxalq Qadın Şurasında birləşmişlər.

Şərq ölkələrində q.h. XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəllərindən başlamış, tədricən genişlənmişdir. Ərəb Şərqində ilk feminist qadın suriyalı Vərdə əl-Yazıçi olmuşdur. Bu dövrdə Misirdə "əl-Fəqət" ("Qız"), "Fəqət üş-Şərqi" ("Şərq qızı"), Suriyada "əl-Hüsnət" ("Gözəl") və i.a. jurnallar nəşr edilirdi.

XIX yüzilliyin ikinci yarısında proletar q.h. formalaşmağa başlamışdır. Proletar q.h. Almaniyada daha mütəşəkkil olmuşdur. Burada K. Setkin, E. İrer, R. Lüksemburq kimi görkəmli inqilabçı qadınlar fəaliyyət göstərirdilər. Faşizmin və Yaponiya militarizminin məğlubiyyəti, milli-azadlıq hərəkatının genişlənməsi beynəxalq demokratik q.h.-nın inkişafında yeni mərhələ olmuşdur. XX yüzilliyin 40-50-ci illərindən Latın Amerikası ölkələrində kütləvi demokratik qadın təşkilatları meydana çıxmışdır. Asiya və Afrikanın inkişaf etməkdə olan ölkələrində qadınlar iqtisadi, ictimai-siyasi həyatda daha yaxından iştirak etməyə başlamışlar. Bu ölkələrdə milli və regional qadın təşkilatları yaradılmışdır. 1945-ci ilin dekabrında Beynəlxalq Demokratik Qadınlar Federasiyasının (BDQF) yaradılması ümumdünya demokratik q.h.-nın yeni qələbəsi idi. Hazırda beynəlxalq qadın təş-





kilatları (BDQF, Beynəlxalq Qadınlar Şurası, Hüquqşünas Qadınların Federasiyası və i.a. bir-biri ilə əlaqə saxlayır, BMT-nin fəaliyyətində iştirak edirlər.

**Qadın hüquqları** – ümumi insan hüquqları, həmçinin qadının bioloji xüsusiyyətləri, sosial və ailə statusunun spesifikliyi ilə şərtləşən hüquq və azadlıqlarının məcmusu. 1945-ci ildən (İkinci dünya müharibəsindən) sonra q.h. beynəlxalq-hüquqi tənzimetmənin ən mühüm obyektlərindən birinə çevrilmişdir.

**Qadınların Vəziyyəti üzrə Komissiya (QVK)** – BMT-nin İqtisadi və Sosial Şurasının funksional komissiyası. QVK 1946-cı il fevralın 16-da təsis edilmişdir. Tərkibi 40-dan artıq dövlətin nümayəndəsindən ibarətdir. Nümayəndələr BMT-nin İqtisadi və Sosial Şurası tərəfindən 4 il müddətinə seçilirlər. QVK BMT-nin İqtisadi və Sosial Şurasına qadınlar tərəfindən sosial-iqtisadi və siyasi sahələrdə əldə edilən və hüquq bərabərliyinə nail olmağa yönələn məsələlər üzrə məsləhətlər, eləcə də qadın hüquqları sahəsində təxirəsalınmaz məsələlərə dair tövsiyələr verir. QVK 2 ildə bir dəfə iclas keçirir. O, qadınların siyasi hüquqları haqqında 1952-ci il konvensiyasının hazırlanmasında iştirak etmişdir.

**Qadın məsələsi** – qadının ailədə və cəmiyyətdə vəziyyəti, ana və uşaq mühafizəsi məsələlərini əhatə edən sosial problemlər kompleksi. Hələ XIX yüzillikdə qadının hüquqi cəhətdən və faktiki bərabərsizliyi burjua müəlliflərinin çoxunun əsərlərində öz nəzəri əsasını tapmışdır. Fransız mütəfəkkiri (filosof) O. Kontun fikrincə, cəmiyyətdə qadının qeyri-bərabər vəziyyəti qadın orqanizminin təbii zəifliyi ilə müəyyən edilir. Qadınla kişi arasında "ictimai bərabərlik ola bilməz". "Qadının müstəsna vəzifəsi ailə işləridir". Q.m.-nin belə bioloji həlli ilə əlaqədar nəzəri fikirlər hazırda öz əhəmiyyətini itirmişdir. İndi dövlət ana-qadını və onun hüquqlarını daim mühafizə edir və bunu öz təminatı altında saxlayır.

**Qafqaz canişinliyi** – Qafqazı idarə etmək üçün yaradılmış inzibati ərazi vahidi. 1844-cü il noyabrın 27-də təsis edilmişdir. Mərkəzi Tiflis şəhəri idi. Q.c.-nin təşkilində əsas məqsəd dağlıların azadlıq hərəkatını və Zaqafqaziyada kəndli çıxışlarını yatırmaqdan, Qafqazın rus-çarizminin müstəmləkəsinə çevrilməsini sürətləndirməkdən və xalq kütlələrinin mütləqiyyət tərəfindən istismarına əlverişli şərait yaratmaqdan ibarət olmuşdur. Qafqazda ilk canişin rus çarizminin müstəmləkəçilik siyasətini həyata keçirən Novorossiysk general-qubernatoru M.S. Vorontsov (1844-1854) olmuşdur. Bütün mülki və hərbi hakimiyyət canişinin əlində cəmləşmişdi. O, canişinlik daxilində onun fəaliyyətinə qarışmaq hüququndan məhrum edilmiş bütün nazirliklərin (o cümlədən ədliyyə nazirliyinin, daxili işlər nazirliyinin) səlahiyyətlərini həyata keçirirdi. Geniş cəza hüququna malik olan canişin bilavasitə çara tabe idi. Onun yanında məşvərətçi orqan – Baş İdarə Şurası fəaliyyət göstərirdi.

1881-ci ildə Rusiyada irticanın baş qaldırması, hakimiyyətin mərkəzləşdirilməsi meyillərinin güclənməsi canişinliyin saxlanmasını qeyri-mümkün etmiş və o, 1881-ci il fevralın 22-də ləğv edilmiş, lakin 1905-ci il fevralın 26-da inqilabi hərəkata qarşı mübarizə məqsədi ilə yenidən bərpa olunmuşdur. 1905-1915-ci illərdə Q.c.-nə höku-

mətin fövqəladə səlahiyyətlər verdiyi qraf Vorontsov-Daşkov başçılıq etmişdir. 1917-ci ilin martında Müvəqqəti hökumət sonuncu canişin N.N. Romanovu hakimiyyətdən kənar etmiş və Q.c. ləğv olunmuşdur.

**Qaimə** – **1)** əmtəə qaiməsi – ilkin mühasibat sənədi; bu sənəd əmtəə-maddi sərvətlərin buraxılması və qəbulu üçün nəzərdə tutulur. Sənəddə onu yazmış təşkilatın adı, verilmə tarixi və nömrəsi, əmtəənin adı, sayı, çeşidi, qiyməti, kim tərəfindən buraxılması və i.a. haqqında məlumatlar ehtiva olunur; **2)** nəqliyyat qaiməsi – yükü dəmir yolu, daxili su yolları, hava və avtomobil nəqliyyatı ilə daşıyan, göndərən və alan arasında münasibətləri müəyyən edən yük daşıma sənədi; yük daşıma müqaviləsi ilə rəsmiləşdirilir və təsdiq olunur. Nəqliyyat q.-si məlum yükü alanın adına yükü göndərən tərəfindən tərtib edilir (müəyyən edilmiş formada) və imzalanır. Yük göndərən nəqliyyat q.-ində göstərilən məlumatların düzgünlüyü üçün yükdaşıyan qarşısında məsuliyyət daşıyır. Yükdaşıyan öz növbəsində həmin məlumatların düzgünlüyünü yoxlayır. Nəqliyyat q.-si bütün yol boyu yükü müşayiət edir və yükü alana təyinat yerində yüklə birlikdə təqdim olunur. O, yükün daşınmasına aid bütün mühüm məlumatları (adını, çəkisini, yerinin sayını, daşımaya qəbul və təyinat yerinə çatdırılması vaxtını və i.a.) təsdiqləyir. Buna görə də nəqliyyat q.-si daşıma müqaviləsinin bağlanması faktının təsdiqi üçün böyük sübuti əhəmiyyət kəsb edir.

**Qaimə məsrəfləri** – istehsala, xidmətə və idarəetmənin təşkilinə sərf olunan xərclər. Q.m. istehsalata sərf edilən əsas xərclərin əlavəsi kimi çıxış edirlər və onlar məhsulun (işlərin, xidmətlərin) maya dəyərinə daxil olunurlar.

**Qanbahası** – müsəlman ölkələrində şəriət normalarına uyğun olaraq tökülmüş qana görə verilən cərimə (diyə). Q. şəriətin müəyyən etdiyi cinayət əməlləri üstündə təyin edilən cəza növlərindən biridir. Şəriət qan tökmək üstündə altı növ q. müəyyən edir: 1) 100 baş altıyaşar dəvə; 2) 200 döngə; 3) 1000 qoyun; 4) 200 hüllə (erkən orta əsrlərdə hüllə adlanan naxışlı parça Yəməndə hazırlanırdı və hər hüllə 2 dəst paltardan ibarət idi); 5) 1000 misqal qızıl; 6) 1000 dirhəm (gümüş sikkə).

Q. olan diyə islamın erkən mərhələsində törədilmiş qətlə görə ödənilirdi. Sonralar bədənin ayrı-ayrı hissələrinə yetirilən xəsarətlərə görə də diyə ödənilməyə başlamışdır. Bununla əlaqədar şəriət yetirilmiş xəsarətlərə görə diyənin 12 növünü (qətlə görə diyə əsasında) müəyyən etmişdir. Bir qədər sonralar diyə ev heyvanlarını öldürməyə və ya onlara xəsarət yetirməyə görə də tətbiq edilmişdir. Məsələn, ev heyvanını zədələyən, yaxud onun ətindən tikə qoparan şəxs heyvanın sahibinə onun tam dəyərinin yarısı həcmində qanbahası verməli idi.

**Qandal (buxov)** – zəncirlə bərkidilmiş iki və ya dörd metal halqa. Cəzanı ağırlaşdırmaq və qaçışın qarşısını almaq üçün qandal, adətən məhbusun əllərinə taxılır. Xüsusi təhlükəli cinayətkarlara (residivistlərə) qarşı geniş tətbiq edilir.

**Qandizm** – hind xalqının öz istiqlaliyyəti uğrunda mübarizəsi dövründə meydana gəlmiş və onun banisi olan M.K. Qandinin (1869-1949) adı ilə adlandırılan fəlsəfi və sosial-siyasi təlim. Geniş xalq kütlələrini öz hüquqi azadlıqları, qanuni mənafeləri uğrunda





mübarizəyə cəlb etmək, Hindistanın milli müstəqilliyinə nail olmaq və milli sülh əldə etmək qandizmin əsas prinsiplərindən idi.

**Qan intiqamı** – dövlətəqədərki cəmiyyətdə (bir qəbilədən olanların) qohumların həyatını, şərəfini və əmlakını qorumağın universal vasitəsi kimi yaranıb inkişaf etmiş qisasalma adəti. Q.i. adəti müxtəlif şəkildə olmuşdur: bəzi xalqlarda zərər vuranın nəslindən birini (təqsirkarın özünü mütləq mənada öldürmək vacib deyildi) öldürmək kifayət idi. Bəzilərində isə q.i. hər iki tərəfdən öldürülənlərin sayı bərabərləşənədək davam edirdi. Dövlətin meydana gəldiyi ilk dövrlərdə q.i. ləğv edilməmiş, lakin bir qədər məhdudlaşdırılmışdır. Eyni zamanda kompozisiyalar sistemi – vurulmuş zərərin maddi cəhətdən ödənilməsi qaydası tətbiq edilmişdir. Q.i. və kompozisiyalar bu şəkildə bir çox ölkələrdə qalmış, bəzilərində (Albaniyada, Serbiyada, Cənubi İtaliyada, Korsikada, Yaponiyada və i.a.) isə XX yüzilliyədək davam etmişdir. Q.i. Azərbaycanda da mövcud olmuşdur. Xanlıqlar dövründə hətta müqəssir tutulub zərər çəkən şəxsin qohumlarının ixtiyarına verilirmiş. Bununla yanaşı, qanbahasını ödəmək və tərəfləri barışdırmaq üçün müxtəlif adətlər (qohumluq əlaqələri yaratmaq, xüsusi mərasim keçirmək və i.a.) də olmuşdur.

**"Qan, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" qanun** – Azərbaycan Respublikasında qan və onun komponentlərinin donorluğunun inkişafı ilə əlaqədar münasibətləri, qan və onun komponentlərinin donorluğunun təşkilində kompleks tədbirlərin təmin edilməsini tənzimləyən, qan xidmətinin təşkilinin əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun ilk dəfə 26 mart 1996-cı il tarixdə qəbul edilmiş, dörd fəsil və 19 maddədən ibarət olmuşdur. Lakin qanın, qan komponentlərinin donorluğu sahəsində münasibətlərin yeni inkişaf səviyyəsi ilə əlaqədar bu qanun qüvvədən düşmüş, 3 may 2005-ci ildə yeni qanun qəbul edilmişdir. Qanun dörd fəsil və 18 maddədən ibarətdir.

**Qan qarışığı (insest)** - yaxın qohumlar arasında cinsi bağlılıq (əlaqə). Yüzilliklər ərzində bütün sivilizasiyalı xalqlarda cinayət kimi cəzalandırılmışdır. Azərbaycan Respublikasının qüvvədə olan CM-də belə cinayət nəzərdə tutulmur.

**Qanqohumluğu ailəsi** – L. Morqanın ehtimal etdiyi qrup ailəsinin ən qədim xüsusi forması. Onun fikrincə, qanqohumluğu ailəsi dövründə müxtəlif nəsildən olan qohumlar arasında nikah qadağan idi və yalnız eyni nəsildən olan qohumlar evlənə bilərdilər. Polineziyaların etnoqrafiyasına əsasən Morqan qanqohumluğu ailəsi anlayışını (bunun XX yüzillikdə yanlış olduğu aşkar edilmişdir) irəli sürmüşdür. Hazırda ailələrin əksəriyyəti qanqohumluğu ailəsi nəzəriyyəsini inkar edir, iki ekzoqam qəbilənin qarşılıqlı nikahını qrup ailəsi və qrup nikahının ən qədim forması hesab edirlər.

**Qanqster** *(ing. gangster – dəstə, banda)* – cinayətkarların mütəşəkkil dəstəsinin üzvü, iştirakçısı; ABŞ-da və bir çox başqa ölkələrdə bandit adlanır. Q.-lər əsasən qətl və adam oğurluqları ilə məşğul olurlar.

**Qanqsterlik** - mütəşəkkil cinayətkarlıq. Q. müasir dövrdə cinayətkar güruhlara və inhisarlara, həmçinin bu inhisarların "böyük biznes" ilə qovuşduqları hallarda onların mənafeyinə xidmət edir. Q.-lə məşğul

olanlar öz hərəkətlərində əsasən zorakı metodlardan istifadə edirlər. İnsanları qətlə yetirmək, yanğınlar törətmək, kütləvi qarətlər və adamlara qarşı terrorçuluq hərəkətləri etmək q.-ə xas olan cəhətlərdir.

**"Qanlı qanunvericilik"** – XV yüzilliyin sonu - XVI yüzillikdə İngiltərədə avaralar və yoxsullar əleyhinə verilmiş qanunlar. Avaralıqla və hakimiyyət orqanlarının icazəsi olmadan mərhəmət ummaqda ittiham edilən şəxslər bu qanunlar vasitəsilə qəddarcasına cəzalandırılmışdır. Onlar damğalanır, köləliyə verilir, kölelikdən qaçdıqda isə ömürlük qul edilirdilər. Köləlikdən təkrar qaçış ölüm cəzası ilə nəticələnirdi. Bu repressiyaların əsas qurbanları torpaqlardan qovulan kəndlilər olmuşdur.

**Qanun** *(hüquqda)* – ali dövlət hakimiyyəti orqanının müəyyən olunmuş qaydada qəbul etdiyi yüksək hüquqi qüvvəyə malik olan normativ aktı. Q. digər dövlət orqanları və ictimai təşkilatların aktları ilə müqayisədə ən ali hüquqi qüvvəyə malikdir. O, müasir cəmiyyətdə hüquqi ifadənin formasıdır. Q.-un yüksək hüquqi qüvvəsi onun rəddedilməzliyində (qanunvericilik orqanından savayı heç bir orqan qanunu ləğv edə, yaxud onu dəyişdirə bilməz) və dövlətin digər normativ-hüquqi aktlarının ona tam uyğun olmasındadır. Q.-lar hüquq normalarının əhəmiyyətinə və xarakterinə görə konstitusiya qanunlarına və adi qanunlara bölünürlər. Konstitusiya qanunlarında ictimai quruluşun və dövlət quruluşunun əsasları və prinsipləri, dövlət orqanlarının təşkili və fəaliyyəti, habelə onların səlahiyyətləri, ölkənin seçki sistemi, vətəndaşların əsas hüquq və azadlıqları, vəzifələri, hüquq-mühafizə orqanlarının sistemi və i.a. təsbit edilir. Azərbaycan Respublikası Konstitusiyasının 93-cü maddəsinə uyğun olaraq Konstitusiya qanunlarının və qanunların qəbulu Azərbaycan Respublikasının Milli Məclisinə məxsusdur.

**Qanunauyğun davranış** *(bax: hüquqauyğun davranış).*

**Qanunazidd davranış** *(bax: hüquqazidd davranış).*

**Qanun-çərçivə** – Fransada və bir sıra ölkələrdə (keçmiş fransız müstəmləkələrində) parlament tərəfindən qəbul edilən qanunvericilik aktlarının xüsusi forması. Q.-ç. hər hansı sahənin tənzimlənməsinin yalnız ümumi prinsiplərini müəyyən edir. Bundan sonra reqlamentar hakimiyyətin müvafiq aktları qəbul olunur. İngilis-sakson hüquq sistemli ölkələrdə q.-ç. skeletli qanun adlandırılır.

**Qanunçuluq** – qanunların və onlara uyğun olaraq verilən digər normativ-hüquqi aktların (normativ və fərdi aktların) dövlət orqanları, vəzifəli şəxslər, ictimai təşkilatlar və vətəndaşlar tərəfindən düzgün və dönmədən yerinə yetirilməsi (qanunun aliliyi). Qanunçuluq demokratiya və qanunvericiliklə sıx əlaqədə və qarşılıqlı münasibətdə olan mürəkkəb hadisədir. O, demokratiyanın və hüquqi dövlətin əsas elementlərindən biridir. Q.-a əməl etmək dövlət aparatının fəaliyyəti və təşkilinin demokratik prinsiplərinin, qanunların eyni cür anlaşılmasının təmin edilməsi, habelə buna uyğun olaraq onların dəqiq və olduğu kimi yerinə yetirilməsinin, vətəndaşların hüquq və azadlıqlarının və qanuni mənafelərinin, bütövlükdə hüquq qaydasının mühafizəsinin təmin edilməsi deməkdir.

**Qanundankənar elan etmə** – şəxsin dövlət tərəfindən mühafizə olunmasından tam və ya qismən məhrum edilməsi. Cəzanın ən qədim növlərindən biri kimi bir sıra dövlətlərdə XX yüzilliyin başlanğıcınadək mövcud olmuşdur. Qanundankənar elan edilmiş şəxs istənilən adam tərəfindən öldürülə (buna dövlət icazə verirdi) də bilərdi. Q.e.e. cəza növü kimi RSFSR-in 1919-cu il "Cinayət hüququnun rəhbər başlanğıcları"nda da xatırladılırdı.

**Qanuni dəbbələmə** – dəbbələmə, qanunla müəyyən edilmiş ölçü.

**Qanuni qüvvə** – formal q.q. o deməkdir ki, hökmdən daha şikayət verilə bilməz; maddi q.q. isə hökmün məzmununun dəyişdirilməsi deməkdir.

**Qanuni nümayəndələr** – qanuna əsasən xüsusi səlahiyyəti olmadan bütün idarələrdə, o cümlədən məhkəmədə fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olub, lakin fiziki vəziyyətinə (xəstəliyə, qocalığa və i.a.) görə öz hüquqlarını şəxsən həyata keçirə və vəzifələrini icra edə bilməyən vətəndaşların şəxsi və əmlak hüquqlarını və qanuni mənafelərini müdafiə edən şəxslər. Mülki qanunvericiliyə görə q.n. qanunla onlara verilmiş hüquqlar çərçivəsində təmsil etdikləri şəxslərin adından və onların xeyrinə lazımi əqdlər bağlayır, onlara öz hüquqlarını həyata keçirməyə və mənafelərini icra etməyə kömək edir, habelə onları üçüncü şəxslərin qəsdindən qoruyurlar.

**Qanuni sahibkarlıq fəaliyyətinə mane olma** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 190-cı maddəsində nəzərdə tutulmuşdur. Fərdi sahibkarın və ya kommersiya təşkilatının qeydiyyatından qanunsuz olaraq imtina etmə və ya onların qeydiyyatından boyun qaçırmada, müəyyən fəaliyyət növünü həyata keçirmək üçün xüsusi razılığın (lisenziyanın) verilməsindən qanunsuz olaraq imtina etmə və ya onun verilməsindən boyun qaçırmada, təşkilati-hüquqi və ya mülkiyyət formasından asılı olmayaraq fərdi sahibkarın və ya kommersiya təşkilatının hüquqlarını və ya qanuni maraqlarını məhdudlaşdırmada, habelə fərdi sahibkarın və ya kommersiya təşkilatının müstəqilliyini qanunsuz məhdudlaşdırma və ya onların fəaliyyətinə başqa cür qanunsuz müdaxilə etmədə ifadə olunur.

**Qanunqüvvəli hüquq normaları** – qanunların icra olunması üçün verilən hüquq normaları.

**"Qanunların müharibəsi"** – keçmiş SSRİ-nin hüquqi publisistikasında XX yüzilliyin 90-cı illərinin başlanğıcında meydana çıxmış termin. RSFSR və digər müttəfiq respublikalar tərəfindən ittifaq qanunvericiliyinə zidd olan qanunların qəbul edilməsi demək idi. SSRİ-nin dağılmasından sonra eyni mənzərə Rusiya Federasiyasında müşahidə edilməyə başlamışdır. Rusiya Federasiyası Ədliyyə Nazirliyinin 1999-cu ilə olan məlumatına görə RF subyektləri tərəfindən qəbul edilən hər üç qanunvericilik aktından biri federal qanunvericiliklə ziddiyyət təşkil edir.

**Qanunlar toplusu (QT)** – bir nəşrdə müəyyən (sistemli, xronoloji və i.a.) qaydada və ardıcıllıqla toplanmış, qüvvədə olan normativ-hüquqi aktların toplusu. Q.T.-nun nəşri dünya təcrübəsində ən qədim dövrlərdən geniş yayılmışdır. Hindistanda "Manu Qanunları"nı, Babilistanda "Hammurapi Qanunları"nı, Romada Drakont və Solon qanunlarını, "XII Cədvəl Qanunla-

n"nı, Yustinian məcəllələşdirilməsini ("Digestlər"i) və i.a. buna misal göstərmək olar. Həmin təcrübə Azərbaycanda da həmişə aparılmış və aparılmaqdadır.

**Qanun layihəsi** – qanunvericilik orqanına (parlamentə) və ya referenduma verilmək üçün hazırlanmış qanunun qəbul edilməyə təqdim olunan mətni. Q.l.-nin hazırlanması prosesi özündə onun işlənib hazırlanmasını, mətninin işlənməsini, müzakirəsini, ilkin layihənin işlənməsinin başa çatdırılmasını, layihənin bütün əlaqədar orqanlarla və təşkilatlarla razılaşdırılmasını ehtiva edir. Q.l.-nin hazırlanması baş çatdıqdan sonra o, baxılmaq üçün qanunvericilik təşəbbüsü qaydasında qanunvericilik orqanına təqdim edilir. Qanunvericilik təşəbbüsünün subyektlərinə görə q. layihələri ilkin və deputat qanun layihələrinə bölünürlər.

**Qanun-məşvərətçi orqanlar** – dövlət orqanlarının xüsusi kateqoriyası. Bu orqanların əsas funksiyasını qanun layihələrini, onları qəbul etmək hüququ olmadan nəzərdən keçirmək təşkil edir. Həmin orqanlar başlıca olaraq mütləq monarxiya idarəçilik formasına malik olan ölkələrdə (məsələn, Birləşmiş Ərəb Əmirliklərində Federal Milli Məclis), eləcə də konstitusiyalı monarxiyalarda (məsələn, Küveytdə Milli Məclis) yaradılır. Q.-m.o. təşkil edilmə və fəaliyyət qaydasına görə parlamenti xatırladırlar.

**Qanunsuz abort etmə** – həyat və sağlamlıq əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 141-ci maddəsində nəzərdə tutulmuşdur. Həkim tərəfindən tibb müəssisələrindən kənarda abort etmədə ifadə olunur.

**Qanunsuz ağac kəsmə** – ekoloji cinayətlərin bir növü. AR CM-in 259-cu maddəsində nəzərdə tutulmuşdur. Qoruyucu, sanitariya-gigiyena və sağlamlaşdırma funksiyasını yerinə yetirən meşələrdə, qoruq-meşələrində, milli və ya təbii parklarda ağacların və ya kolların qanunsuz kəsilməsində ifadə olunur.

**Qanunsuz azadlıqdan məhrum etmə** – şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 145-ci maddəsində nəzərdə tutulmuşdur. Adam oğurluğu ilə bağlı olmayan qanunsuz azadlıqdan məhrum etmədə ifadə olunur.

**Qanunsuz cinayət məsuliyyətindən azad etmə** – ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 291-ci maddəsində nəzərdə tutulmuşdur. Prokuror, müstəntiq və ya təhqiqatçı tərəfindən cinayətin törədilməsində şübhə edilən və ya təqsirləndirilən şəxsi qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmədə ifadə olunur.

**Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 195-ci maddəsində nəzərdə tutulmuşdur. Təşkilatın rəhbəri və ya fərdi sahibkar tərəfindən təşkilatın, yaxud fərdi sahibkarın təsərrüfat və ya maliyyə vəziyyəti barədə bilə-bilə yalan məlumatlar verməklə kreditin, güzəştli şərtlərlə kreditin və ya məqsədli dövlət kreditinin alınması, habelə ondan təyinatı üzrə istifadə edilməsində ifadə olunur.

**Qanunsuz övladlığa götürmə** – yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 174-cü maddəsində nəzərdə tutulmuşdur. Uşaqların övlalığa götürülməsi, qəyyumluğa (himayəçiliyə) və ya himayədar ailəyə tərbiyə olunmaq üçün verilməsi





ilə bağlı qanunsuz hərəkətlərin tamah məqsədi ilə törədilməsində ifadə olunur.

**Qanunsuz psixiatriya xəstəxanasına yerləşdirmə** – şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 146-cı maddəsində nəzərdə tutulmuşdur. Psixi cəhətdən sağlam olan şəxsi bilə-bilə psixiatriya xəstəxanasına yerləşdirmədə ifadə olunur.

**Qanunsuz radio** – beynəlxalq münasibətlərin sabitliyinə qəsd edən beynəlxalq xarakterli cinayət. Q.r.-ya görə cinayət məsuliyyəti 1965-ci il Beynəlxalq elektroəlaqə konvensiyası və BMT-nin 1982-ci il dəniz hüququ üzrə konvensiyası ilə müəyyən edilmişdir. Belə məsuliyyət həmçinin milli ərazidə yerləşməyən stansiyadan radionun həyata keçirilməsinin qarşısının alınması haqqında Avropa sazişi (1965-ci il) ilə nəzərdə tutulmuşdur. Bu sazişlərin və konvensiyaların iştirakçısı olan dövlətlər öz üzərlərinə qeydə alınmamış radio və ya televiziya verilişlərini həyata keçirməkdə təqsiri olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi öhdəliyini götürmüşdür.

**Qanunsuz sahibkarlıq** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 192-ci maddəsində nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan və ya xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan, həmçinin lisenziyalaşdırma şərtlərinin pozulması ilə və ya xüsusi icarə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olma vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdar ziyan vurulmasında, xeyli miqdarda gəlir əldə edilməsi ilətörədilməsində ifadə olunur.

**Qanunsuz silah hazırlama** – ictimai təhlükəsizlik əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 229-cu maddəsində nəzərdə tutulmuşdur. Qanunsuz olaraq odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları hazırlamada, habelə odlu silahı təmir etmədə ifadə olunur.

**Qanunsuz tutma, həbsə alma və ya həbsdə saxlama** – ədalət mühakiməsi əleyhinə olan cinayətlərin biri növü. AR CM-in 292-ci maddəsində nəzərdə tutulmuşdur. Bilə-bilə qanunsuz tutmada, həbsdə almada və ya həbsdə saxlamada ifadə olunur.

**Qanunun dərc (elan) edilməsi** – qanunun müəyyən nəşrdə dərc edilməsi yolu ilə onun hamının diqqətinə çatdırılması. Q.d.e.-nin rəsmi və qeyri-rəsmi növü fərqləndirilir. Qanunun rəsmi dərc edilməsi qanunvericilik prosesinin müstəqil mərhələsidir və o, qəbul edilmiş qanunun rəsmi mətninin dublikatlarının yaradılması, onun qüvvəyə minmə vaxtının müəyyən edilməsi üçün zəruridir. O, formalyuridik əhəmiyyətə malikdir və qəbul edilmiş qanunun tam və dəqiq mətninin hüquqyaratma orqanının adından elan olunmasının normativ tənzimindən ibarətdir. Qanunun qeyri-rəsmi dərc edilməsi nəşriyyatlar, idarəetmə orqanları, elmi müəssisələr və xüsusi tərtibatçılar tərəfindən həyata keçirilir.

**Qanunun doktrinal təfsiri** – qanunun elmi məlumatlara əsasən aparılan elmi təfsiri. Bu, qeyri-rəsmi təfsirin mühüm növüdür. Q.d.t. hüquq elmi tərəfindən, təcrübi işlərdə çalışan hüquqşünaslar tərəfindən el-

mi məqalə və monoqrafiyalarda, şərhlərdə və i.a. (əgər o, rəsmi səciyyə daşımırsa, yəni mühazirələrdə və ya mətbuat səhifələrindəki çıxışlarda ifadə edilirsə) verilir.

**Qanunun elan olunması** *(bax: qanunun dərc edilməsi).*

**Qanunun genişləndirici təfsiri** – normanın həqiqi məzmununun onun sözlə ifadə edildiyindən bir qədər geniş başa düşülməsində ifadə olunan təfsir. Hərfi təfsirdən fərqli olaraq, q.g.t. qanunun mənasının onun mətninə nisbətən genişləndirilməsinə gətirib çıxarır. Konkret hüquq normasının təfsiri zamanı təfsirçi qanunverici tərəfindən onun məzmununda nəzərdə tutulmuş fikri əsas götürməlidir. Q.g.t. zamanı qanunun mənası onun mətninə nisbətən genişləndirilir.

**Qanunun geriyə qüvvəsi** – qanunun qüvvəsinin həmin qanunun verilməsinədək baş vermiş münasibətlərə aid edilməsi. Bir qayda olaraq, qanunun geriyə qüvvəsi yoxdur. Yeni qanun qüvvəyə mindikdən sonra yalnız mövcud olan münasibətlərə tətbiq edilir. Zərurət olduqda qanunvericinin xüsusi göstərişi ilə bu və ya digər qanuna geriyə qüvvə verilə bilər, yəni yeni qəbul edilən qanun əvvəllər mövcud olmuş münasibətlərə (əsasən yüngülləşdirici hallarda) şamil edilə bilər. Azərbaycan Respublikasında əməlin cəzaya müvafiqliyini aradan qaldıran, yaxud cəzanı yüngülləşdirən cinayət qanunlarına da geriyə qüvvə verilir. Bu, əvvəllər cinayət hesab edilən, lakin yeni qanun verilən zaman əvvəlki ictimai təhlükəli xarakterini itirən hərəkətlərə görə, ümumiyyətlə cəzalandırmanın (yaxud çox ciddi cəzalandırmanın) məqsədəuyğun olmadığından çıxış edən Azərbaycan hüququnun humanist təbiətini ifadə edir.

**Qanunun kazual təfsiri** – konkret bir iş üzrə həmin işə baxan orqan tərəfindən verilən təfsir. Q.k.t. məcburi qüvvəyə malikdir. Normativ təfsirdən fərqli olaraq, kazual təfsir yalnız konkret bir iş üçün məcburidir. O, başqa işlərə, hətta eyni növdən olan işlərə də şamil edilmir. Konkret iş üzrə hüquq normasını izah edən məhkəmə hökmü və ya qərardadı qanunun kazual təfsirinə misal ola bilər. İnzibati orqanların konkret hadisələrə dair aktlarında q.k.t. verilə bilər. Məhkəmələrin və digər orqanların işinin yaxşılaşdırılması, hüququn tətbiqi təcrübəsinin unifikasiyası üçün bu təfsirin böyük əhəmiyyəti vardır.

**Qanunun kolliziyası** *(lat. collisio – toqquşma)* – eyni bir məsələyə dair formal olaraq qüvvədə olan iki, yaxud daha artıq normativ-hüquqi aktın seçilməsi yolu həll edilir. Eyni hüquqyaratma orqanının verdiyi aktlar arasında uyğunsuzluq olarsa, vaxt etibarı ilə sonradan qəbul edilmiş akt tətbiq edilir. Q.k. ona görə əmələ gəlir ki, yeni akt qəbul edilərkən köhnə qanun heç də həmişə dərhal ləğv edilmir. Ümumi və xüsusi aktlar arasında uyğunsuzluq olarsa, xüsusi akta üstünlük verilir (əgər vaxt etibarı ilə sonradan qəbul edilmiş ümumi aktlar ləğv edilməmişdirsə). Müxtəlif orqanların qəbul etdikləri aktların normaları uyğun gəlmədikdə, yuxarı orqanın qəbul etdiyi norma tətbiq edilir.

**Qanunun qeyri-rəsmi təfsiri** – məcburi qüvvəsi olmayan təfsir. Q.q.-r.t. qanunu tətbiq edən subyekt tərəfindən nəzərə alına da, alınmaya da bilər. O, həm mətbuatda çıxış edib hüquq normasının düzgün şərh edilməsi formasında vətəndaşlar tərəfindən, həm





də rəsmi təfsir etmə hüququ olmayan vəzifəli şəxslər tərəfindən verilə bilər. Q.q.-r.t. hüquqi əhəmiyyətə malik olmasa da, onun əhalinin hüquq düşüncəsi və qanunun mahiyyətini, tələblərini dərk etmək ruhunda tərbiyə edilməsində müəyyən rolu vardır. Bu təfsir qanunçuluğun möhkəmləndirilməsi işində zəruri olan hüquq mədəniyyətinin inkişafına kömək edir. Q.q.-r.t. də rəsmi təfsir kimi ümumi və kazual fərdi ola bilər.

**Qanunun qüvvəsi** – qanunun (yaxud digər hüquqi aktın) zamana, məkana və şəxslərin dairəsinə görə məcburilik (tətbiq edilmə və ya edilməmə) həddini müəyyən edən anlayış. Qanunun zamana görə qüvvəsi onun qüvvəyə minməsi anı ilə (yəni onun göstərişləri riayət və tətbiq edilmək üçün məcburi olduğu zaman) və qüvvəsini itirdiyi anla müəyyən edilir. Ümumi qaydaya görə, qanun onun özündə göstərilən müddətdə və ya rəsmi nəşrdə dərc edildikdən müəyyən müddət keçdikdən sonra qüvvəyə minir. Qanunun məkana görə qüvvəsi qanunvericilik orqanının hakimiyyətinin ərazi hüdudu (adətən bu, dövlətin sərhədləri daxilindəki bütün quru, su və hava hüdudlarıdır) ilə müəyyən edilir. Qanunun şəxslərin dairəsinə görə qüvvəsi həmin qanuna riayət və onu icra etməyə borclu olan orqanların, təşkilatların və vətəndaşların dairəsi ilə müəyyən edilir. Qanun bir qayda olaraq onda xüsusi qeyd olunan bəzi istisnalardan savayı, bütün şəxslər barəsində qüvvədə olur. Ancaq müəyyən kateqoriya şəxslər və ya peşə sahibləri üçün qüvvədə olan qanunlar da verilir.

**Qanunun məhdudlaşdırıcı təfsiri** – hüquq normasının məzmununu onun mətninə nisbətən məhdud mənada izah edən təfsir. Genişləndirici təfsirdən fərqli olaraq, q.m.t. qanunun mənasının onun mətninə nisbətən məhdudlaşdırılmasına gətirib çıxarır. Belə təfsirə yalnız o halda yol verilir ki, bu, obyektiv olaraq qanunun məzmunundan və mənasından irəli gəlsin. Nə genişləndirici təfsir, nə də məhdudlaşdırıcı təfsir qanunun mənasını, qanunvericinin fikrini təhrif etməməlidir. Əks təqdirdə bu, qanunçuluğun pozulmasına səbəb olardı.

**Qanunun məntiqi təfsiri** – hüquq normalarının mənasının, onların qanunçuluğun ümumi prinsiplərinə əsasən aydınlaşdırılmasını nəzərdə tutan təfsir. Q.m.t. müstəqil təfsir üsulu olmaqla, qanunun mənasını məntiq qanunlarını tətbiq etməklə aydınlaşdırmaqdan ibarətdir və o, bütün təfsir növlərinə tətbiq edilir. Q.m.t. sistematik təfsirdən onunla fərqlənir ki, belə təfsirdə hüquq normalarının hüquq sistemindəki yerini müəyyən etməyə ehtiyac qalmır. Normanın quruluşunu təşkil edən elementlərin (hipoteza, dispozisiya və sanksiyanın) aşkar və müqayisə edilməsi də qanunun məntiqi təfsirinə daxildir.

**Qanunun mətni (qrammatik) təfsiri** – öyrənilən hüquq normasının, onun mətninin zahiri formasını və hərfi mənasını təhlil edən təfsir. Q.m.t. zamanı qanunu tətbiq edən subyekt təkcə bir sözün ayrılıqda mənasını deyil, həm də qanunvericinin fikrini ifadə edən bütöv bir cümlənin mənasını izah edir. Hüquq normasının qrammatik qaydalar nöqteyi-nəzərindən təfsiri, onun mənasının qrammatika qanunlarının tətbiq edilməsi ilə aydınlaşdırılması qanunun mətni təfsirinin bir formasıdır. Q.m.t. hüquq normasının həcmini nə genişləndirmir, nə də məhdudlaşdır-

mır. O, normanın məzmununu qanunun mətninə uyğun olaraq müəyyən edir.

**Qanunun normativ təfsiri** – konkret bir iş üçün nəzərdə tutulmayıb, hüquq normasının tətbiq edildiyi bütün hallara şamil edilən təfsir. Q.n.t. rəsmi təfsirin növlərindən biridir və həm də o, məcburi qüvvəyə malikdir. Q.n.t. hər hansı bir yeni hüquq norması yaratmır, ancaq qüvvədə olan hüquq normalarını izah edir. Q.n.t.-nin bir növü də leqal təfsirdir. Leqal təfsirə görə səlahiyyətli dövlət orqanı digər orqanlar tərəfindən verilmiş aktları izah edir. Dövlət orqanının bu səlahiyyəti adətən qanunla müəyyən edilir. Q.n.t.-nin digər növünü autentik təfsir təşkil edir. Hüquq normasının autentik təfsiri həmin normanı müəyyən edən orqanın özü tərəfindən verilən təfsirdir. Q.n.t. səlahiyyətli dövlət orqanları – Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumu tərəfindən verilə bilər.

**Qanunun rəsmi təfsiri** – hüquq normasının səlahiyyətli dövlət orqanları tərəfindən verilən təfsiri. Q.r.t. məcburi qüvvəyə malikdir. Dövlət orqanları qanunun onlara verdiyi səlahiyyət daxilində qanunla müəyyən edilmiş formada və ona uyğun olaraq hüquqi aktlar qəbul edir və hüquq normalarının onları tətbiq edən şəxslər üçün ümumi məcburi qüvvəyə malik olan təfsirini verirlər.

**Qanunun sistematik təfsiri** – hüquq *normasının digər, məzmunca ona oxşar olan* normalarla əlaqəsini və qarşılıqlı asılılığını, onun normativ aktın strukturunda tutduğu yeri müəyyən edən təfsir. Q.s.t. zamanı hü*quq norması həm eyni sahənin digər hüquq* norması ilə, həm də başqa sahədən olan hüquq norması ilə müqayisə edilə bilər.



**Qanunun tarixi-siyasi təfsiri** – hüquq normasının sosial əhəmiyyətini, onun məqsədini, qanunvericinin məqsədini, hansı sosial-siyasi şəraitdə dərc edildiyini öyrənən təfsir. Q.t.-s.t. hüquq normasının qanunvericinin iradəsinə uyğun olub-olmamasını aydınlaşdırmaqdan, qanunvericinin həmin normanı verərkən nəyi əsas tutduğunu və nə kimi məqsədlər güddüyünü aşkara çıxarmaqdan, normanın məzmununun onun meydana çıxdığı tarixi şəraitlə əlaqələndirilməsini aydınlaşdırmaqdan ibarətdir.

**Qanunun təfsiri** – dövlət orqanlarının, təşkilatların, vəzifəli şəxslərin, ayrı-ayrı vətəndaşların hüquq normalarının məzmununun müəyyən edilməsi, qanunvericiliyin həmin normalardakı iradəsinin aşkara çıxarılması üzrə fəaliyyəti. Qanunlar hüquqyaratma prosesində, qanunvericiliyin sistemləşdirilməsində, hüquq subyektləri tərəfindən hüquq normalarının tətbiqində, elmi fəaliyyətdə və hüquqi fənlərin tədrisində təfsir edilir. Şərhetmə üsullarına görə qanunun mətni (qrammatik), sistematik və tarixi-siyasi təfsiri fərqləndirilir. Normanın həqiqi məzmunu və onun zahiri rəsmiləşdirilməsi arasında uyğunsuzluq əmələ gəldikdə genişləndirici və ya məhdudlaşdırıcı təfsirdən istifadə olunur. Hüquqi nəticələrinə görə rəsmi, qeyri-rəsmi və normativ təfsir bir-birindən fərqləndirilir. Məhkəmə təcrübəsində kazual, hüquq elmi ilə məşğul olan təcrübi işçilər tərəfindən doktrinal təfsirdən də istifadə edilir.

**Qanun üzrə vərəsəlik** *(bax: vərəsələr).*

**Qanunvericilik** – **1)** dövlətin öz funksiyalarını həyata keçirməsinin əsas metodlarından biri olub, dövlət hakimiyyəti orqanlarının qanunlar verməsindən ibarətdir.





Hələ eramızdan əvvəl VII-VI yüzilliklərdə Yunanıstanda və Romada hökmranlıq edən adət hüququ ayrı-ayrı qanunvericilər (Drakont, Solon) və ya onların qrupları tərəfindən (məsələn, XII Cədvəl Qanunları) sistemləşdirilmişdir. Yunanıstanda demokratiyanın bərqərar olması və Romada respublika konstitusiyasının qəbulu ilə qanunvericilik hakimiyyəti xalq yığıncağında mərkəzləşdirilmişdir. Romada magistratın təklifi ilə xalq yığıncağı tərəfindən qəbul edilən qanunlar leges rogatae, imperiyanın daşıyıcısı tərəfindən qəbul edilən qanunlar isə leges datae adlanırdı. Eramızdan əvvəl 287-ci ildən (Qortenzini Qanunu) plebisitin qərarları qanun qüvvəsi almışdır. Qanunlar bürünc və ya daş lövhələr üzərində həkk edilirdi. İmperiya dövründə qanunları tədricən senatın qərarları (senatus consultum) və imperatorun fərmanları (constitutiones) əvəz etmişdir; **2)** bütövlükdə ictimai münasibətləri, yaxud ictimai münasibətlərin hər hansı növünü (məsələn, mülki qanunvericiliyi, cinayət qanunvericiliyini və i.a.) tənzim edən hüquq normalarının məcmusu. Azərbaycan Respublikasında "q." anlayışı Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Konstitusiya qanunlarını, Azərbaycan Respublikası Milli Məclisinin qanunlarını, Azərbaycan Respublikası prezidentinin fərmanlarını və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını əhatə edir. Lakin qanunvericiliyin tərkibi hüququn hər bir sahəsi üçün öz xüsusiyyətlərinə malikdir.

**Qanunvericilik dekretləri** – İtaliyada, İspaniyada və bəzi başqa ölkələrdə hökumətin qanunvericiliyi həyata keçirmək qaydasında verdiyi, qanun qüvvəsinə malik olan aktlarının adı.



**Qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma** – dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 279-cu maddəsində nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratmada, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmədə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri qüvvə ilə təchiz etmədə ifadə olunur.

**Qanunvericilik hakimiyyəti** ali dövlət hakimiyyəti orqanlarının qanun vermək səlahiyyəti. "Q.h." termini həmçinin qanunvericilik orqanlarının özünü də əhatə edir. Hüquqi dövlətlərdə q.h. "hakimiyyətlərin bölgüsü" (qanunvericilik, icra və məhkəmə hakimiyyəti) prinsipinə əsasən həyata keçirilir. Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir.

**Qanunvericilik korpusu** - ayrı-ayrı qanunvericilik idarələrinin ümumiləşdirilmiş adı və ya qanunvericilik orqanının bütün palatalarının deputatlarının məcmusu.

**Qanunvericilik qaydası** *(bax: qanunvericilik prosesi).*

**Qanunvericilik məclisi** – Salvadorda birpalatalı parlamentin adı. Rusiya Federasiyasında bir sıra subyektlərin, məsələn, Adıgey, Kabardin-Balqar, Kareliya respublikalarının, Krasnoyar, İrkutsk, Kaluqa, Penza, Perm, Rostov, Tver diyarlarının və bəzi vilayətlərin qanunvericilik orqanları da q.m. adlanır.

**Qanunvericilik müxtariyyəti** *(bax: muxtariyyət).*

**Qanunvericilik normaları** *(bax: hüquq normaları).*

**Qanunvericilik orqanları** – demokratik dövlətlərdə dövlət hakimiyyətinin nümayəndəli orqanları; qanunvericilik hakimiyyətinin həyata keçirilməsi konstitusiya ilə əsas funksiya qismində bu orqanlara həvalə edilir. Bundan başqa, q.o.-na adətən dövlət büdcəsini təsdiq və icra hakimiyyəti orqanlarının (hökumətin, prezidentin və i.a.) fəaliyyətinə nəzarət etmək hüququ, habelə bir sıra başqa səlahiyyətlər – yüksək vəzifəli şəxslərin müəyyən dairəsinin (hakimlərin, auditorların, ombudsmanların və i.a.) seçilməsi, yəni onların təsdiqi və ya azad edilməsi, beynəlxalq müqavilələrin ratifikasiyası, amnistiya elan edilməsi də məxsusdur. Federasiyalarda və bəzi unitar dövlətlərdə ümummilli və regional q.o. fərqləndirilir.

**Qanunvericilik prosesi** - qanunvericilik hakimiyyəti orqanının adətən konstitusiyada təsbit edilən və müvafiq nümayəndəli orqanın reqlamentində nəzərdə tutulan qanunların yaradılması üzrə fəaliyyət qaydası. Q.p. üçün dürüst hüquqi reqlamentləşdirmə səciyyəvidir.

Azərbaycan Respublikasında q.p. 4 mərhələdən ibarətdir: 1) qanunvericilik təşəbbüsü olan orqanın Azərbaycan Respublikasının Milli Məclisinə qanun layihəsi verməsi; 2) qanun layihəsi verən orqanın çıxış və təklifləri əsasında layihənin Milli Məclisdə müzakirəsi; 3) qanunun səsvermə yolu ilə qəbul edilməsi; 4) qəbul edilmiş qanunun Azərbaycan Respublikası Milli Məclisi Sədrinin imzası ilə rəsmi orqanlarda dərc olunması.

**Qanunvericilik referendumu** *(bax: referendum).*

**Qanunvericilik sistemi** – səlahiyyətli dövlət orqanları tərəfindən dövlət idarəçiliyinin müxtəlif sahələri üzrə verilən qanun və qanunqüvvəli aktların məcmusu. Q.s. hüquq sisteminin təzahürü, hüquq normalarının ifadə formasıdır. Bu mənada q.s. hüququn formaları (mənbələri) ilə eyniləşir. Q.s. əsasən dövlət idarəçiliyi sahələrindən asılı olaraq bölünür. Q.s. başlıca olaraq subyektiv amillərin ifadəsidir. Onun quruluşunda qanunvericinin iradəsinin hansı formada – qanun, fərman, qərar, sərəncam, əsasnamə, təlimat və i.a. formasında ifadə olunması məhz qanunvericidən asılıdır.

**"Qanunvericilik tarazlaşdırması"** – parlamentin palataları arasında fikir ayrılıqlarının aradan qaldırılması metodu; bu metoda uyğun olaraq mübahisəli qanun layihəsi palatalardan birinin digərinin təklifləri ilə razılaşmamasınadək və ya qanun layihəsini qəti olaraq rədd etməməsinədək bir palatadan başqasına göndərilir. Həmin metod Argentinanın, Venesuelanın, Fransanın və bir sıra başqa ölkələrin parlamentlərində tətbiq edilir.

**Qanunvericilik təşəbbüsü** – səlahiyyətli idarələrin və ya şəxslərin qanunvericilik orqanında baxılmaq üçün qanun layihəsi vermək, yaxud yeni qanun qəbul edilməsi, qüvvədə olan qanunun dəyişdirilməsi, yaxud onun ləğv edilməsi haqqında təklif irəli sürmək hüququ.

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun





layihələrini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikası prezidentinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikası Prokurorluğuna və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məxsusdur.

**"Qanunvericilik vetosu"** – ABŞ-ın konstitusiya təcrübəsində Konqresin – ABŞ parlamentinin palatalarının birgə qətnamələrində (və ya palatalardan birinin qətnaməsində) ABŞ prezidentinə əvvəllər verilmiş səlahiyyətlərin, yaxud prezident tərəfindən verilmiş aktların və ya bu səlahiyyətlərin həyata keçirilməsi üçün prezidentə tabe olan idarələrin verdiyi aktların ləğv edilməsi haqqında bəyanat (qərar). ABŞ-ın Ali Məhkəməsi 1983-cü ildə "q.v.-nu" konstitusiyaya zidd qayda hesab etmişdir.

**Qanunvericiliyin kazual sistemi** - qədim dövrün və orta əsrlər dövrünün hüquqi texnikası; qanunvericinin bütün həyati situasiyaları nəzərdə tutmaq səyi ilə səciyyələndirilir. Belə səy hüququn ümumi, mücərrəd normalarını formulə etməklə əlaqədar olmuşdur. Məsələn, rus hüququnda kazual normalardan mücərrəd normalara keçid XVIII yüzilliyin başlanğıcında baş vermişdir.

**Qanunvericiliyin sistemləşdirilməsi (hüququn sistemləşdirilməsi)** – məzmunlarının xarici və daxili təhlili yolu ilə normativ-hüquqi aktların vahid şəklə salınması prosesi. Q.s.-in inkorporasiya (konsolidasiya) və məcəlləşdirmə növü fərqləndirilir.

**Qanunverici məclis** – **1)** Fransada 1791 və 1848-ci il konstitusiyaları ilə təsbit edilən qanunverici təsisatların adı; **2)** bir sıra dövlətlərdə (məsələn, Kosta-Rikada, Salvadorda) parlamentin adı.

**Qanunyaratma** *(bax: hüquqyaratma).*

**Qapalı məhkəmə** – dövlət sirrinin, hərbi və ya diplomatik sirrin mühafizəsi, eləcə də zorlama cinayətinə dair işlərdə tərəflərin intim həyatına aid halların yayılmaması məqsədi ilə aparılan məhkəmə iclası. Məhkəmənin qapalı iclasında işə mühakimə icraatının bütün qaydalarına əməl etməklə baxılır. Məhkəmənin hökmü bütün hallarda açıq elan olunur. İşdə iştirak edən şəxslərin həyatının gizli cəhətləri haqqında məlumatların yayılmasının qarşısını almaq, habelə övladlığa götürmənin gizliliyini təmin etmək məqsədi ilə məhkəmənin əsaslandırılmış qərardadı üzrə işlərə q.m.-də baxılmasına yol verilir. Q.m. iclasında işə baxılmasında iştirak edən şəxslər və onların nümayəndələri, məhkəmə tərəfindən işə baxılmasında iştirak etməyə buraxılan ictimai təşkilatların və hər hansı kollektivin nümayəndələri, zəruri hallarda isə şahidlər, ekspertlər və tərcüməçilər iştirak edirlər. 16 yaşına çatmamış vətəndaşlar (əgər şahid və ya iştirakçı deyillərsə) məhkəmənin iclas zalına buraxılmırlar.

**"Qara məcəllələr"** - 1865-1866-cı illərdə ABŞ-ın bir sıra cənub ştatlarında verilən qanunlar. "Q.m." zəncilərin vətəndaşlıq hüquqlarını məhdudlaşdırır, habelə hinduların yığıncaqlar keçirməsini və ağdərililərlə ailə qurmasını qadağan edirdi. Florida və Merilend ştatlarında bu qanunları pozanlar 10 ilədək müddətə həbs cəzasına məhkum olunurdular. ABŞ Konstitusiyasında edilmiş düzəlişlər (1866-cı,

1868-ci və 1870-ci illərdə edilmiş düzəlişlər) ölkə vətəndaşlarının bərabərliyini (hindulardan savayı) elan etsə də, "qara məcəllələr"in maddələrinin çoxu bir sıra ştatların konstitusiyasına, o cümlədən cinayət qanunvericiliyinə daxil edilmişdi.

**Qarant** *(fr. garant)* – təminat verən; hər hansı təminatı verən dövlət, təşkilat və ya fiziki şəxs.

**Qarantiya** *(fr. garantie – təmin etmək)* – öhdəliyin icrasının təmin edilməsi üsullarından biri. Q. yalnız dövlət təşkilatları arasındakı münasibətlərdə tətbiq edilir. Q. müqaviləsinə görə onu verən təşkilat kredit verən təşkilat qarşısında borclu təşkilatın borcunu ödəməkhaqqında öhdəlik götürür. Q.-dan yalnız kredit münasibətlərində başlıca olaraq banklar istifadə edirlər.

**"Qardaş demokratlar"** – beynəlxalq inqilabi demokratik cəmiyyət; 1845-1853-cü illərdə fəaliyyət göstərmişdir. Çartizmin sol cinahının nümayəndələri (C. Harni, E. Cons) və inqilabçı mühacirlər (L. Oborski və başqaları) tərəfindən Londonda yaradılmışdır. "Q.d."-da proletar elementləri üstünlük təşkil etsə də, o, xırda burjua təsiri altında olmuş, cəmiyyətin "bütün insanlar qardaşdır" şüarı da buradan meydana gəlmişdir. Cəmiyyət zəhmətkeşlərin beynəlxalq həmrəyliyi ideyalarının təbliğində mühüm rol oynamışdır.

**Qardaşlaşma** – **1)** qan qohumluğu olmayan iki, yaxud bir neçə kişinin qarşılıqlı dostluq əsasında birliyi, ittifaqı. Əsasən ibtidai icma quruluşunun dağılması dövründə yayılmışdır. Qardaşlaşanlar təhlükə və ehtiyac vaxtı bir-birinə qarşılıqlı kömək etməli, bəzi xalqlarda isə bir-birinin intiqamını almalı idilər. Qardaşlaşanlar bir-birinin yaxın qohumları ilə evlənə bilməzdilər. Q. adəti dünyanın bütün xalqlarında yayılmışdı. Azərbaycanda q. adətinə indi də təsadüf olunur; **2)** Birinci və İkinci dünya müharibələri cəbhələrində vuruşan tərəflərin əsgər və matroslarının imperialist müharibələri əleyhinə etiraz əlaməti olaraq bir-biri ilə dostluq əlaqəsi yaratması; **3)** ümumdünya qardaş şəhərlər federasiyasının (1957-ci ildə yaradılmışdır) üzvü olan şəhərlərin birinin digəri ilə dostluğu, əməkdaşlığı. İlk dəfə 1942-ci ildə İngiltərənin Koventri şəhəri qələbə naminə Stalinqradla dostluq və əməkdaşlıq ittifaqı bağlamış və qardaşlaşmışdır. Bakı şəhəri ilə Seneqalın Dakar, İtaliyanın Neapol, İraqın Bəsrə və Yuqoslaviyanın Sarayevo şəhərləri ilə qardaşlıq ittifaqı yaratmışdır.

**Qarışıq aidiyyət** – hər şeydən əvvəl, imperativ və alternativ əlamətləri nəzərə alan aidiyyət.

**Qarışıq hüquqlar** - müəllif hüquqlarından törəmə olsalar da, onlarla tam üst-üstə düşməyən müstəsna hüquqların bir növü. Müəllif əsərinin icraçılarının, fonoqramların istehsalçılarının və verilişlər aparan təşkilatların q.h.-ı fərqləndirilir. Q.h.-ın əsas məzmunu ondan ibarətdir ki, müəllif əsərlərindən üçüncü şəxslərin istifadə etməsi üçün müvafiq q.h.-ın subyektlərinin razılığı tələb olunur.

**Qarışıqlıq** *(bax: iğtişaş).*

**Qarışıq müqavilə** - qanunla və ya sair hüquqi aktlarla nəzərdə tutulan müxtəlif müqavilələrin elementlərini özündə ehtiva edən mülki-hüquqi müqavilə. Belə müqavilələr zamanı tərəflərə münasibətdə elementləri q.m.-də nəzərdə tutulan müqavilələr haqqında qayda tətbiq edilir.







**Qarışıq mülkiyyət (mülkiyyətin qarışıq forması)** – bir sıra ölkələrdə ümumi mülkiyyəti – mülkiyyətin müxtəlif formaları subyektlərinin müəyyən əmlakını bildirən kateqoriya deməkdir. Keçmiş sovet respublikalarının, o cümlədən Belorusun, Qırğızıstanın, Qazaxıstanın və Özbəkistanın qanunvericiliyində nəzərdə tutulmuşdur.

**Qarışıq polislər** – gəmilərin ancaq müəyyən reys üçün deyil, müəyyən zaman dövrü ərzində sığorta edilməsi üzrə polislər.

**Qarışıq proses** – cinayət prosesinin axtarış (inkvizisiya) və çəkişmə proseslərini də özündə ehtiva edən tarixi tiplərindən biri. Q.p.-də bir tərəfdən məhkəmə baxışının demokratik prinsipləri (şifahilik, açıqlıq, çəkişmə, bilavasitəçilik), digər tərəfdən isə ən qədim formalarının elementləri ifadə olunurdu. Həmin qədim formalar müttəhimin prosessual hüquqlarının və ibtidai istintaqda onun müdafiəsinin məhdudlaşdırılmasında təzahür edirdi. Cinayət prosesinin qarışıq tipi müasir dövrdə Fransada, Almaniyada və Avropa qitəsinin digər ölkələrində mövcuddur.

**Qarışıq respublika** *(bax: qarışıq tipli respublika).*

**Qarışıq seçki sistemi** - bir sıra dövlətlərdə (Rusiya Federasiyasında, AFR-də, Litvada) proporsional və majoritar seçki sistemlərinə əsaslanan seçki sistemi. Son dövrlərdə q.s.s. daha çox (hər şeydən əvvəl, Mərkəzi və Şərqi Avropanın bir çox dövlətlərində) istifadə olunmağa başlamışdır.

**Qarışıq tipli respublika** – respublika idarəçilik formasının bir (yarımprezidentli respublika) növü. Belə idarəçilik formasında prezidentli respublikanın elementləri ilə parlamentli respublikanın elementləri əlaqələndirilir. Prezident (dövlətin başçısı), bir qayda olaraq, ümumi seçkilərdə seçilir və o, hüquqi, real böyük səlahiyyətlərə malik olur. Lakin hökumət parlament yolu ilə formalaşdırılır və o, nəinki prezident, həm də parlament qarşısında məsul olur. Prezident baş nazir tərəfindən rəhbərlik edilən hökumətə ümumi rəhbərliyi həyata keçirir və parlamenti buraxmaq hüququna (adətən hökumətə etimadsızlıq votumu ifadə edildikdə) malikdir. Q.t.r. üçün icra hakimiyyətinin dualizmi səciyyəvidir. 1958-ci il Konstitusiyasına görə Fransa Q.t.r.-ya klassik nümunə ola bilər. Konstitusiya hüququ elmində Portuqaliya, Finlandiya, İrlandiya da belə respublikaya aid olunur. Q.t.r. keçmiş sosialist respublikalarında (Polşada, Rumıniyada, Bolqarıstanda, Litvada, Ukraynada, Moldovoda) geniş yayılmışdır. Bir sıra formal-hüquqi əlamətlərinə görə Rusiya Federasiyasını da belə respublikaya aid etmək olar.

**Qarışmamaq prinsipi** – beynəlxalq hüququn əsas prinsiplərindən biri; dövlətlərə (beynəlxalq təşkilatlara) digər dövlətlərin və xalqların daxili işlərinə hər hansı formada qarışmağı qadağan edən prinsip. Q.p. çoxsaylı ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdə, hər şeydən əvvəl, BMT-nin Nizamnaməsində təsbit edilmişdir. Q.p. silahlı, iqtisadi, diplomatik yolla, casuslar və təxribatçılar göndərmək yolu ilə, həmçinin düzünə və dolayı qarışmağı yasaq edir.

**Qarnizon** *(fr. garnison, garnir – təchiz etmək, silahlandırmaq)* – **1)** müəyyən yaşayış məntəqəsi və ya rayonda daimi və ya müvəqqəti yerləşmiş hərbi hissə, hərbi məktəb və ya müəssisə; **2)** dayaq məntəqəsini və ya möhkəmləndirilmiş rayonda

uzunmüddətli müdafiə tikilisini qoruyan bir və ya bir neçə bölmə. Keçmişdə bəzən qalaları qoruyan qoşun da q. adlanırdı.

**Qarovul** – *(türk. karakol – qara qul)* – hərbi obyektləri müdafiə və mühafizə etmək, hərbi ehtiram göstərmək məqsədi ilə ayrılmış silahlı bölmə. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində qarnizon (düşərgə) daxili (gəmi) və fəxri qarovul növləri vardır. Fəxri qarovul təntənəli iclaslara bayraqlar gətirilməsi, dövlət abidələrinin açılışı, xarici dövlət nümayəndələrinin qarşılanması (və ya yola salınması) və başqa təntənəli günlərdə təyin edilir.

**Qarovul xidmətinin nizamnamə qaydalarını pozma** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 336-cı maddəsində nəzərdə tutulmuşdur. Qarovulun (növbənin) tərkibinə daxil olan şəxs tərəfindən qarovul (növbə) xidmətinin nizamnamə qaydalarının pozulmasında ifadə olunur.

**Qars müqaviləsi** – Azərbaycan, Gürcüstan və Ermənistan sovet sosialist respublikaları ilə Türkiyə arasında 1921-ci ildə bağlanmış müqavilə. RSFSR-in iştirakı ilə oktyabrın 13-də Qars şəhərində bağlanmışdır. Azərbaycan SSR nümayəndə heyətinə B. Şahtaxtinski başçılıq etmişdir. Sentyabrın 26-da başlanmış danışıqlar gedişində türk nümayəndə heyətinin ayrılıqda Azərbaycan, Gürcüstan və Ermənistan ilə müqavilə bağlamaq səyi baş tutmamışdır. Q.m. 1921-ci il martıq 16-da RSFSR ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsinin eyni idi. Müqavilənin qüvvədə qalması müddəti göstərilməmişdir.

**Qarşılıqlı əlaqəli şəxslər** – qohum və ya birgəsahibli müəssisələr olan əqdlərin iştirakçıları. Bu şəxsləri bir-birinə əmək münasibətləri bağlayır. Onlar üçüncü şəxsin ya bilavasitə, ya da dolayı nəzarəti altında olurlar.

**Qarşılıqlı fond** – kapital, istiqraz, xəzinə kağızları qoyuluşu məqsədi ilə öz səhmdarlarının (payçılarının) vəsaitlərini birləşdirən investisiya şirkəti. Ümumi fond üzvlər arasında proporsional şəkildə bölüşdürülür.

**Qarşılıqlı iddia** – cavabdehin iddiaçıya qarşı müstəqil iddia tələbi. Q.i. məhkəmədə, yaxud iqtisad məhkəməsində artıq başlanmış prosesdə ilk iddia ilə birlikdə baxılmaq üçün verilir. Q.i. cavabdehin ona qarşı qaldırılmış iddiasından müdafiə olunmaq vasitəsidir. AR MPM-in 155-ci maddəsinə uyğun olaraq iş üzrə qətnamə çıxarılana qədər cavabdeh ilk iddia ilə birlikdə baxılmaq üçün iddiaçıya qarşılıqlı iddia verməyə haqlıdır. Qarşılıqlı iddia işin baxılmasına başlanan kimi verilməlidir. Məhkəmə baxışı zamanı qarşılıqlı iddia o halda verilə bilər ki, onun verilməsi üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun. Qarşılıqlı iddianın verilməsi iddia verilməsinin ümumi qaydaları əsasında həyata keçirilir.

Hakim qarşılıqlı iddianı aşağıdakı hallarda qəbul edir: 1) qarşılıqlı tələb ilk tələbin qarşılıqlı ödənilməsinə yönəlmişsə; 2) qarşılıqlı iddianın təmin edilməsi ilk iddianın tam və ya qismən təmin edilməsini aradan qaldırırsa; 3) qarşılıqlı və ilk iddia arasında qarşılıqlı əlaqə vardırsa və onlara birlikdə baxılması mübahisələrə daha tez və düzgün baxmaqla nəticələnərsə.

Qarşılıqlı iddianın qəbul edilməsi məsələsinə zəruri hallarda və yaxud iddia verən şəxsin vəsatəti üzrə iddianı verən şəxsin və yaxud işdə iştirak edən şəxslərin iştirakı ilə baxıla bilər (AR MPM-in 156-cı maddəsi).





**Qarşılıqlı investisiya fondu** – digər şirkətlərin qiymətli kağızlarına pul qoyuluşları üçün öz səhmlərinin buraxılışı mənfəətindən istifadə edən investisiya şirkəti tipi. Adətən bir şirkətin səhmlərinin 5-10 faizinə malik olur və bununla da holdinqdən fərqlənir. Belə investisiyalar cari bazar qiymətləri nəzərə alınmaqla əlaqələndirilir.

**Qarşılıqlı kredit** *(bax: kredit).*

**Qarşılıqlı sığorta** – vətəndaşlar və hüquqi şəxslər tərəfindən öz əmlakını və sair əmlak mənafelərini cəmiyyətlərdə birləşmək yolu ilə sığortalama. Q.s. cəmiyyəti qeyri-kommersiya təşkilatıdır. Q.s. yolu ilə məcburi sığortanın həyata keçirilməsinə qanunla nəzərdə tutulan hallarda yol verilir.

**Qarşılıqlı tələb** *(bax: qarşılıqlı tələblərin ödənilməsi).*

**Qarşılıqlı tələblərin ödənilməsi** – mülki hüquqda öhdəliklərə xitam verilməsi üsullarından biri. Q.t.ö. bir neçə öhdəliyə əsaslanan tələblərin tam və ya qismən ödənilməsi müddəti göstərilməyən, yaxud müddəti tələb etmə vaxtı ilə müəyyən edilən eyni növ qarşılıqlı tələb üzrə hesabların çürüdülməsi yolu ilə xitam verilir. Hesabların çürüdülməsi üçün bir tərəfin bildirişi kifayətdir. İddia müddəti ötmüş tələblər, səhhətin zədələnməsinə və ya ölümə səbəb olan zərərin ödənilməsi tələbləri, şəxsi ömürlük saxlamaq tələbləri və i.a. tələblər üzrə olduqda qarşılıqlı tələblərin ödənilməsinə yol verilmir.

**Qarşılıqlı veksel** – iki şəxsin bir-birinə münasibətdə həm kreditor və həm də borclu kimi çıxış etdikləri veksel. Q.v. belə şəxslər tərəfindən öz aralarındakı əqd əsasında deyil, belə veksellərin bankda uçotu məqsədi ilə verilir.

**Qarşısıalınmaz qüvvə (forsmajor)** – fövqəladə və həmin şəraitdə qarşısı alına bilməyən hadisə (təbii fəlakət – daşqın, zəlzələ, ictimai hadisələr, hərbi əməliyyatlar və i.a.). Q.q. mülki hüquqda mülki məsuliyyəti istisna edən hallardan biridir. Hadisədən fərqli olaraq, q.q. müqavilə öhdəliyini pozmuş, yaxud müqavilədənkənar zərər vurmuş şəxsin fəaliyyətindən kənar təbii, yaxud ictimai hadisədir. Müqavilədə göstərilən və ya əmlakı saxlayanın saxlanc müddəti qurtardıqda, əmlak onu saxlanca verən şəxs tərəfindən geri alınmazsa, saxlayan bu əmlakın sonradan itməsinə, əskik çıxmasına və ya zədələnməsinə görə yalnız onun tərəfindən qəsd və ya kobud ehtiyatsızlıq olduğu halda məsuliyyət daşıyır.

**"Qastrolluq edən cinayətkarlar"** – kriminologiyada taktiki mülahizələrə görə cinayətləri öz yaşayış yerlərindən kənarda törədən cinayətkarlar və ya öz peşə mobilliyi sayəsində (uzaq reyslərdə olan sürücülər) müxtəlif yerlərdə cinayət təqibi orqanlarının nəzər diqqətini cəlb edən cinayətkarlar.

**Qayda** *(bax: hüquq qaydası).*

**Qazamat** *(fr. casemate)* – **1)** müdafiə qurğularında şəxsi heyətin, silahların və döyüş sursatlarının müdafiəsi üçün nəzərdə tutulan bina; **2)** hərbi gəmidəki artilleriya mərmilərinin quraşdırılması və şəxsi heyətin müdafiəsi üçün nəzərdə tutulan zirehli yer; **3)** inqilabaqədərki Rusiyada və bir sıra burjua ölkələrində siyasi məhbusların saxlandığı qala həbsxanası, dustaqxana.

**Qazan xan islahatları** – Hülakülər dövlətini iqtisadi və siyasi böhrandan çıxarmaq məqsədi ilə Qazan xan (1295-1304-cü illər) tərəfindən həyata keçirilmiş ciddi tədbirlər sistemi. İslahatların keçirilməsin-

də başlıca məqsəd dövlətin iqtisadiyyatını dirçəltməkdən, mərkəzi hakimiyyəti möhkəmləndirməkdən, xəzinənin gəlirini nizama salmaqdan ibarət olmuşdur. İslahatların hazırlanmasında Rəşidəddinin böyük rolu olmuşdur. İslahatlar torpaq mülkiyyəti, vergi, pul, ölçü, çəki və i.a. sahəsini əhatə edirdi. Bu tədbirlər həm də monqol əyanlarının özbaşınalıqlarına son qoymaq məqsədinə xidmət edirdi. 1303-cü il fərmanına əsasən kəndlilərin bir yerdən başqa yerə keçməsi qadağan olunurdu. Torpaq sahiblərinin zülmündən qaçmış rəiyyətlərin icbari qaydada geri qaytarılması üçün 30 illik müddət müəyyən edilirdi. Qaçqınları gizlətməyə heç kəsin ixtiyarı yox idi.

Qazan xan vergilərin növü, miqdarı, toplanması üsulu və vaxtı haqqında dəqiq qayda-qanun müəyyən etmişdi. Vergi verənlərin siyahısı tərtib edilir, hər bir kəndin, şəhərin ödəyəcəyi vergi məbləği lövhələrdə həkk olunub baxımlı yerlərdə nümayiş etdirilirdi.

Ölkədə hökm sürən hüquq pozuntularının və qanunsuzluqların, məhkəmə işinin həddən artıq dolaşıq olmasının, özbaşınalıqların və rüşvətxorluğun qarşısının alınmasını, qazı vəzifəsinin icarəyə verilməsinin mənfi nəticələrinin aradan qaldırılmasını zəruri hesab edən Qazan xan vəziyyəti normallaşdırmaq üçün məhkəmə islahatı da keçirmişdir. Əsas diqqət qazı vəzifəsinə layiqli din xadimlərinin təyin olunmasına, ədalət mühakiməsinin həyata keçirilməsində dolaşıqlığa son qoyulmasına, alqı-satqı məsələlərində möhkəm qayda-qanun yaradılmasına yönəldilmişdi. İslahat nəticəsində 30 illik tarixə malik olan iddiaların öz qanuni qüvvəsini itirdiyi elan olundu. Ədalət mühakiməsinin həyata keçirilməsi üçün toplanan rüsumların dəqiq məbləği müəyyən edildi. Məhkəmə sədri – qazı vəzifəsinə təyin edilənlərdən qanuna ciddi əməl edəcəkləri haqqında qəbz alınması qaydası tətbiq edilmişdi. Cinayəti törətməkdə təqsiri olanların cinayətin ağırlıq dərəcəsinə müvafiq olan cəza ilə cəzalandırılması istiqamətində ciddi işlər aparılmışdır. Lakin Qazan xanın məhkəmə islahatı tam həcmdə həyata keçirilə bilməmişdir.

Q.x.i. əsasən oturaq müsəlman feodalların mənafeyinə xidmət edirdi. Bununla yanaşı, həmin islahatlar obyektiv olaraq əhalinin sosial-iqtisadi vəziyyətinin nisbətən yaxşılaşmasına, ölkə iqtisadiyyatının dirçəldilməsinə xidmət etmişdir.

**Qazəsgər** *(türk. kazasker – hərfi mənada ordu hakimi)* – XIV yüzilliyin ortalarından Osmanlı imperiyasında ordunun baş hakimi, hərbi məhkəmənin (tribunalın) başçısı, sultan divanının üzvü. Q. divana daxil olan şikayətlərə, Şeyxülislam vəzifəsi təsis edilənədək dini işlərə də baxırdı. II Sultan Mahmudun (1808-1839) hərbi islahatları nəticəsində q. əvvəlki geniş səlahiyyətlərini itirmişdir. Lakin sultanlıq ləğv edilənədək (1922-ci ilədək) yüksək dini rütbə kimi qalmaqda davam etmişdir.

**Qazı** *(ər. icra edən)* – müsəlman ölkələrində şəriət normaları əsasında mühakimə icraatını həyata keçirən hakim. Q. orta əsrlərdə həm də notariusu əvəz etmişdir. Xilafət dövründə q. müvafiq ərazinin əmrinə tabe olmaqla onun tərəfindən təyin edilirdi. IX yüzillikdən başlayaraq isə onu xəlifə, sonrakı dövrlərdə isə dövlətin başçısı təyin edirdi. XIX əsrin sonu - XX əsrin əvvəllərində dünyəvi məhkəmənin inkişafı ilə əlaqədar olaraq q.-nın səlahiyyəti əsasən mülki (ailə, vərəsəlik və dini) məsələlərin həlli ilə məhdudlaşmışdır. XX yüzillikdə bəzi müsəlman ölkələrində (Misirdə, Tunisdə və Türkiyədə) şəriət məhkəməsinin ləğvi ilə əlaqədar qazı institutu da ləğv edilmişdir. Azərbaycanda bir sıra mülki işlərin qazılar tərəfindən baxılıb həll edilməsi XIX yüzilliyin ortalarınadək davam etmişdir.





**Qazın istehsalı sahəsində fəaliyyət** – xüsusi icazə əsasında həyata keçirilən fəaliyyət. Xüsusi icazə müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir. Xüsusi icazə almaq üçün sifarişə aşağıdakılar əlavə olunur: a) nəzərdə tutulan fəaliyyətin əsas göstəricilərinin təsviri; b) qaz qurğularının, müvafiq avadanlıqların sənədləri, sifarişçinin və onun işçilərinin peşə ixtisasları; c) ictimai təhlükəsizlik haqqında memorandum; ç) nəzərdə tutulan fəaliyyətlə məşğul olan şəxslərin sağlamlığının və təhlükəsizliyinin təmin olunması qaydaları üzrə tərtib edilən sənədlər; d) qazdan səmərəli istifadə haqqında sənədlər; e) ətraf mühitə təsir haqqında tədqiqat və əsas məlumatlar.

**Qazın paylanması** – "Qaz təchizatı haqqında" qanunun 13-cü maddəsinə uyğun olaraq energetika müqaviləsinə müvafiq surətdə qaz paylayıcısı müqavilə ərazisində istənilən şəxsin sifarişilə onu qaz şəbəkəsinə birləşdirib təchiz etməlidir və paylayıcının şəbəkəsinə qoşulan istehlakçıların tələblərinin keyfiyyət və kəmiyyətcə daim təmin ediləcəyi dərəcədə qazın istehsalını, alınmasını və ötürülməsini təşkil etməlidir.

Qazın istehsalını, alınmasını, saxlanmasını və topdansatış təchizatını etibarlı və müvafiq qiymətlərlə təşkil və təmin etmək qaz paylayıcılarına assosiasiya və müəssisələrlə birləşməyə icazə verilir. Qaz təchizatçılarının qaz paylayıcıları tərəfindən təchizatının ümumi şərtləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalarla təyin edilə bilər. Qaz paylayıcıları tərəfindən təyin edilmiş qaz təchizatı qiymətləri müvafiq icra hakimiyyəti orqanları və qazpaylaşdırma ərazisi üzrə yerli özünüidarə orqanları ilə razılaşdırılmış tariflərə müvafiq olmalıdır. Qaz paylayıcısı ancaq aşağıdakı hallarda qazın verilməsini dayandıra və ya kəsə bilər: a) istehlakçının müvafiq müraciəti olarsa; b) çox vacib və ya təxirəsalınmaz işlər tələb olunarsa; c) istehlakçının qurğusu müvəqqəti və ya daim müvafiq tələblərə cavab verməzsə; ç) paylayıcının istehlakçıya verdiyi qazın hesabı bir ay müddətində tam ödənilməzsə.

**Qazla zəhərləmə** – ölüm cəzasının icrası üsulu; ABŞ-da tətbiq edilir. Bu üsul zamanı ölüm cəzasına məhkum olunmuş şəxs xüsusi hazırlanmış (germetik) kameraya salınır və oraya güclü təsir edən qaz buraxılır, bu da boğulma nəticəsində ölümə səbəb olur. Məhkumun sinəsinə qabaqcadan qonşu otaqdan müşahidəyə imkan verən stetoskop bərkidilir. Həkim onun köməyilə ölüm prosesini müşahidə edir.

**"Qaz təchizatı haqqında" qanun** – Azərbaycan Respublikasında qaz və maye halında enerji daşıyıcısı kimi işlədilən bütün (təbii qazlar da daxil olmaqla) qaz növlərinin istehsalı, emalı, nəqli, saxlanması, paylanması, satılması və istifadəsi üzrə fəaliyyətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 30 iyun 1998-ci il tarixdə qəbul edilmişdir. O, yeddi fəsil və 24 maddədən ibarətdir.

**Qeyri-məhdud hakimiyyət** *(bax: despotiya).*

**Qeyri-müəyyən aksept** – özündə əlavə məsələləri və ya oferentin şərtlərini ehtiva edən aksept. Tərəflərin qarşılaşdığı zaman məsələlərin razılaşdırılmasını (dəqiqləşdirilməsini) və ya sair üsullarını nəzərdə tutur. Bu halda müqavilənin bağlanması ilə əlaqədar vəzifələr yaranmır. Akseptdən imtina etmək istənilən formada ifadə oluna bilər. Potensial akseptantın susması öhdəliklərin yaranmasına gətirib çıxarmır və o, müqavilə münasibətlərinə daxil olmaqdan imtina etmək kimi təzahür edir.

**Qeyri-rəsmi təfsir** *(bax: qanunun qeyri-rəsmi təfsiri).*

**Qeyz** – şəxsiyyət öz iradəsinin, arzu və tələbatının ziddinə olan hadisələrlə qarşılaşdıqda, onda baş qaldıran güclü emosional hiss. Qəzəb hissinin şiddətli forması olan q. qısa sürən affektiv partlayış kimi təzahür edir *(bax: affekt).*

**Qeyri-dövlət pensiyası** – pensiya müqaviləsinin şərtlərinə uyğun olaraq vətəndaşa qeyri-dövlət pensiya fondlarından ödənilən pensiya. Q.-d.p., bir qayda olaraq, dövlət pensiyası ilə müqayisədə əlavə xarakterə malik olan pensiya sayılır.

**Qeyri-hökumət təşkilatı** – müəyyən məqsədlərə nail olmaq üçün ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılan könüllü, özünüidarədən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən təşkilat.

Q.-h.t. Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan olunmamış məqsədlər üçün yaradılır və fəaliyyət göstərir. O, Azərbaycan Respublikası Prezidentinin, Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz, siyasi partiyalara maliyyə yardımı və başqa yardım göstərə bilməz. Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq q.-h.t.-ları (xarici fiziki və hüquqi şəxslər, nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan Azərbaycan Respublikasının hüquqi şəxsləri tərəfindən qrant alan və ya başqa cür maliyyələşdirilən q.-h.t.-ları istisna olmaqla) Azərbaycan Respublikasında keçirilən seçkiləri, Milli Məclisə seçkiləri və bələdiyyələrə seçkiləri müşahidə edə bilərlər. Q.-h.t. Azərbaycan Respublikasının qanunlarında və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada normativ-hüquqi aktların təkmilləşdirilməsi təklifləri ilə çıxış edə bilərlər.

**Qeyri-hökumət təşkilatının nizamnaməsi** – qeyri-hökumət təşkilatının nizamnaməsində onun adı və yerləşdiyi yer, fəaliyyətinin məqsədləri və idarəolunma qaydası, üzvlərin hüquq və vəzifələri, ictimai birliyin üzvlüyünə qəbulu və ondan çıxmanın şərtləri və qaydası, qeyri-hökumət təşkilatının əmlakının formalaşma mənbələri, nizamnamənin qəbulu, ona əlavə və dəyişikliklərin edilməsi qaydası, qeyri-hökumət təşkilatının ləğv edilməsi və ləğv edildiyi halda əmlakının istifadə qaydası müəyyən edilir.

**"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanun** – ictimai birliklərin və fondların yaradılması və fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyən, hüquqi şəxslər kimi qeyri-hökumət təşkilatlarının yaradılmasını, fəaliyyətini, yenidən təşkil edilməsi və ləğv edilməsi qaydalarını, qeyri-hökumət təşkilatlarının fəaliyyətini, idarə olunmasını, dövlət hakimiyyəti orqanları ilə münasibətlərini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 13 iyun 2000-ci il tarixdə qəbul edilmişdir. O, yeddi fəsil, 33 maddə və yekun müddəalarından ibarətdir.

**Qeyri-hüquqi** *(bax: hüquqaziddilik).*

**Qeyri-kombatantlar** *(beynəlxalq hüquqda)* – funksiyaları yalnız xidmətlər göstərməkdən və silahlı qüvvələrin döyüş fəaliyyətini təmin etməkdən ibarət olub silahlı qüvvələrin heyətinə daxil olan şəxslər. Belə şəxslər ancaq özünümüdafiə məqsədilə silah tətbiq etmək hüququna malikdirlər. Müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il Cenevrə konvensiyalarına və bu konvensiyalara 1977-ci il I Əlavə protokoluna uyğun olaraq q.-a tibbi heyət, intendant heyəti, hərbi hüquqşünaslar, müxbirlər, reportyorlar, dini şəxslər aid edilir. Q. düşmənin silahlı hücumunun bilavasitə obyekti ola bilməzlər.

**Qeyri-kommersiya təşkilatı** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə əsas məqsədi mənfəət götürməklə və əldə edilmiş mənfəəti iştirakçılar arasında bölüşdürməklə əlaqədar olmayan hüquqi şəxs. Hüquqi şəxs olan Q.-k.t. istehlak kooperativləri, ictimai birliklər və ya dini təşkilatlar formasında yaradıla bilər. Belə birliklər müəssisələrin mülkiyyətçiləri, xeyriyyə fondları və digər fondlar, assosiasiyalar və ittifaqlar tərəfindən maliyyələşdirilirlər. Q.-k.t.-ları yalnız öz məqsədlərinə xidmət edən həddə sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər.

**Qeyri-kommersiya təşkilatının muxtariyyəti** – təhsil, səhiyyə, mədəniyyət, elm, hüquq, bədən tərbiyəsi və idman və i.a. sahədə xidmətlər göstərilməsi məqsədilə vətəndaşların və (və ya) hüquqi şəxslərin əmlak könüllülüyü əsasında üzv olduqları üzvlüyə malik olmayan qeyri-kommersiya təşkilatı, müəssisəsi.

Q.-k. təşkilatına təsisçilər tərəfindən verilən əmlak bu təşkilatın mülkiyyəti hesab olunur. Təsisçilərin belə əmlak üzərində hüquqları saxlanılmır və onlar təsis etdikləri q.-k. təşkilatının öhdəlikləri üçün məsuliyyət daşımırlar. Q.-k.t. özünün müəyyən məqsədlərinə nail olmaq üçün sahibkarlıq fəaliyyətini həyata keçirməyə haqlıdır. Q.-k.t.-nın təsisçiləri onun xidmətlərindən digər şəxslərlə ancaq bərabər şərtlərlə istifadə edə bilərlər.

**Qeyri-leqal emiqrasiya** – dövlətin iqtisadi və sosial inkişafına, həmçinin onun suverenliyinə qəsd edən beynəlxalq xarakterli cinayət. Başqa dövlətdə (adətən iqtisadi motivlərə görə) məskunlaşmaq məqsədilə oraya qanunsuz getmədən ibarətdir. Q.-l.e. müasir şəraitdə cinayətkar biznesə çevrilmişdir. Dövlətlərin cinayətkarlıqla mübarizəyə dair milli cinayət qanunvericiliyinə istinadlı blanket normalar Beynəlxalq Əmək Təşkilatının (BƏT) konvensiyalarında nəzərdə tutulmuşdur.

**Qeyri-maddi aktivlər** – dəyər ifadəsinə malik olan və fiziki obyektlər olmayan (məsələn, qudvill, icarə hüquqları, lisenziyalar, patentlər, əmtəə nişanları, nou-hau və digər intellektual obyektlər) sərvətlər.

**Qeyri-maddi nemətlər** – Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə mühafizə olunan mülki hüquqların müstəqil obyektlər qrupu. AR MM-in 137-ci maddəsinə uyğun olaraq başqa şəxslərə

verilə bilən və ya sahibinə maddi fayda vermək və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar qeyri-maddi əmlak nemətləridir.

İnsanın həyat və sağlamlığı, şəxsi ləyaqəti, şəxsi toxunulmazlığı, şərəfi və təmiz adı, işgüzar nüfuzu, şəxsi həyat toxunulmazlığı, şəxsi və ailə sirri, azad yerdəyişmək hüququ, azad yaşayış yeri seçmək hüququ, ad və müəlliflik hüququ və digər şəxsi qeyri-əmlak hüquqları q.-m.n. sayılır.

**Qeyri-motivli cinayət** *(kriminologiyada)* – həqiqi motivi cinayətkarların özlərinə aydın olmayan, yaxud ətrafdakılardan gizlədilən cinayətləri bildirən şərti termin.

**Qeyri-təbii ölüm** – məhkəmə hökmünün icra olunması, qətl törədilməsi, özünüöldürmə (intihar etmə) və ya baş vermiş bədbəxt hadisə nəticəsində meydana çıxan ölüm. Tibbi heyətin qəsdən səhvi və ya təqsirli davranışı ilə müşayiət olunmayan (tibbi əməliyyat nəticəsində baş vermiş ölüm) ölüm də Q.-t.ö. kimi qiymətləndirilir.

**Qəbalə** *(ər. hər hansı bir şeyin alınması üçün verilən qəbz, öhdəlik)* – adətən borcla əlaqədar olan şəxsi asılılığın bir forması. Borc öhdəliyini rəsmiləşdirən hüquqi akt da q. adlanırdı. Misirdə VIII yüzillikdə ayrıca şəxsin bütün icma üçün dövlətə qabaqcadan verdiyi vergi öhdəliyi q. hesab olunurdu. Sonralar İraqda və Misirdə iqta sahibinin dövlət xəzinəsinə ödədiyi dəyişməz, birdəfəlik müəyyən edilmiş məbləğ q. adlandırılmışdır. Şərti torpaq sahibliyi forması kimi iqta rəsmiləşdirildikdən sonra q. öz əhəmiyyətini (İraqda X, Misirdə isə XIII yüzillikdə) itirmişdir. Q. müsəlman xalqlarının dilinə "borc öhdəliyi" mənasında daxil olmuşdur.

**Qəbirə** – böyük, ağır günah. İslam aləmində q.-nin tərifinə münasibətdə faqihlərin və ilahiyyatçıların arasında fikir ayrılığı mövcuddur. Belə fikir ayrılığı q.-ni törətmiş şəxsə (sahib əl-Qəbirəyə) münasibətdə də mövcuddur. Q.-yə, adətən adamöldürmə, zinakarlıq, sərxoşluq və i.a. aid edilmişdir. Küfr ("inamsızlıq") ən ağır, mütləq q, (əl-qəbirə əl-mütləqa) hesab olunmuşdur. Xaricilər təriqətinin nümayəndələri q. törətmiş insanı möminlikdən imtina edən, mütəzililər təriqətinin ardıcılları isə etiqadçı ilə qeyri-etiqadçı arasında aralıq vəziyyətində olan insan hesab edirdilər. Bütövlükdə islamın sünni təriqətində mürcililərin nöqteyi-nəzərinə yaxın olan müddəa üstünlük təşkil etməyə başlamışdır.

**Qəbir üzərində təhqiredici hərəkətlər** – ictimai mənəviyyat əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 245-ci maddəsində nəzərdə tutulmuşdur. Qəbir və ya meyit üzərində təhqiredici hərəkətlərin törədilməsində ifadə olunur.

**Qənimət** *(islamda)* – hərbi qənimət. Nəzəri cəhətdən hərbi əsirlərdən, əsirlərdən və daşınar əmlakdan başqa daşınmaz əmlak da q.-ə aid edilirdi. Əslində isə Məhəmməd peyğəmbərin ölümündən sonra q. bölməyə daxil olmur və faqihlərin özü bu barədə qənimət bölməsi haqqında maddələrdən danışmırdılar.

**Qərar** ***(hüquqda)*** – **1)** dövlət orqanının və ya vəzifəli şəxsin öz səlahiyyətləri daxilində müəyyən bir məqsədlə qəbul etdiyi və hüquqi nəticələr doğuran aktı; **2)** icra hakimiyyəti orqanlarının qəbul etdikləri aktların forması; **3)** məhkəmənin mülki işlər üzrə çıxardığı hüquqi akt *(bax: qətnamə)*; **4)** İqtisad məhkəməsində dövlətin və ya müəssisənin təsərrüfat mübahisələrinə dair qəbul edilən akt.

**Qərardad** – **1)** mülki-prosessual hüquqi akt; **2)** birinci instansiya məhkəməsinin cinayət işinin, yaxud mülki işin gedişində əmələ gələn ayrı-ayrı prosessual məsələlər, habelə işin xitam edilməsi barədə qərarı; **3)** apellyasiya və nəzarət instansiyası məhkəməsinin hər hansı qərarı; **4)** tibbi xarakterli məcburi tədbirlərin təyin edilməsi haqqında qərar; **5)** müvafiq təşkilatların və ya vəzifəli şəxslərin diqqətini hüquq pozuntularına şərait yaradan hallara cəlb etmək üçün məhkəmənin çıxardığı qərar (məhkəmənin xüsusi qərardadı).

**Qərbçilər** – XIX yüzilliyin 40-50-ci illərində rus ictimai-siyasi fikrinin cərəyanlarından biri. Q. təhkimçilik hüququnun ləğvini tələb edir və Rusiyanın Qərbi Avropa (q. adı da buradan götürülmüşdür) inkişaf yolu ilə getməsini zəruri sayırdılar. Q.-in əksəriyyəti zadəgan-mülkədar nəslindən idilər. Onların arasında raznoçinlər və varlı tacir təbəqəsindən olanlar da var idi. Q. inqilab yolunu, utopik sosializm ideyalarını qəbul etmir, I Pyotru və onun siyasətini yüksək qiymətləndirirdilər. Q.-in ictimai fəaliyyəti və görüşləri, onların mürtəce rəsmi ideologiyaya qarşı mübarizəsi, slavyanpərəstlərin liberal-mühafizəkar mövqelərini tənqid etmələri həmin dövrdə müəyyən mütərəqqi əhəmiyyət kəsb etmişdir. 1861-ci il kəndli islahatından sonra kapitalist münasibətlərinin inkişafı şəraitində qərbçilik ictimai-siyasi fikir cərəyanı kimi aradan çıxmışdır.

**Qərbi Avropa İttifaqı (QAİ)** – Böyük Britaniya, Fransa, AFR, İtaliya, Belçika, Hollandiya və Lüksemburqdan ibarət hərbi-siyasi qruplaşma. Paris sazişlərinə (1954) müvafiq olaraq 1955-ci ilin mayında, Qərb blokunun yenidən təşkili, İtaliya və AFR-in ona cəlb edilməsi nəticəsində yaradılmışdır. QAİ ilə Şimali Atlantika müqaviləsi təşkilatı arasında sıx əlaqələr mövcuddur. QAİ haqqında müqavilə Avropada "basqına" məruz qalmış hər hansı iştirakçı ölkəyə kömək, o cümlədən hərbi yardım göstərməyi, habelə iqtisadi, siyasi və digər məsələlər barədə məsləhətləşmələr keçirməyi nəzərdə tutur.

**Qərmətilik** – islamın dini-siyasi ideologiyasında fikir cərəyanlarından biri. Q. ismaililiyin iki əsas cərəyanlarından birinin – yeddilərin davamçıları hesab olunurlar. Q. geniş kəndli və sənətkar kütlələrini ictimai-siyasi hərəkata cəlb edə bilmişdi. Hərəkat sosial motivlərin, bərabərlik və ədalət ideyalarının güclənməsinə səbəb olmuşdur. Q.-in təbliği üçün ən əlverişli zəmin Bəhreynin köçəri və oturaq əhalisi arasında tapılmışdır. Qərmətilər 899-cu ildə burada öz xilafətlərini yaratmışdılar. Qullara ümumi sahiblik əsasında özlərinin bərabərlər icması idealını həyata keçirməyə çalışan q. uğursuzluğa düçar olmuş, XI yüzillikdə xırda təriqətlərə parçalanaraq həyat səhnəsindən getmişdir.

**Qəsd** – təqsirin formalarından biri. AR CM-in 25.1-ci maddəsinə uyğun olaraq birbaşa və ya dolayı qəsdlə törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) qəsdən törədilmiş cinayət sayılır. Q. anlayışında əqli və iradəvi momentləri fərqləndirmək lazımdır. Əməlin ictimai təhlükəliliyinin

dərk olunması və onun ictimai təhlükəli nəticələrinin qabaqcadan görülməsi birbaşa qəsdin əqli momentini, əməlin ictimai təhlükəli nəticələrinin baş verməsinin arzu olunması isə birbaşa qəsdin iradəvi momentini xarakterizə edir. Cinayət hüququ nəzəriyyəsində qabaqcadan düşünülmüş qəsd, qəflətən baş vermiş qəsd, konkretləşdirilməmiş (qeyri-müəyyən) qəsd və alternativ qəsd də fərqləndirilir.

**Qəsdən adam öldürmə** – həyat və sağlamlıq əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 120-ci maddəcində nəzərdə tutulmuşdur. Digər şəxsi qəsdən həyatdan məhrum etmədə ifadə olunur. Azərbaycan Respublikasının cinayət qanunvericiliyində q.a.ö.-nin 12 növü müəyyən edilir.

**Qəsdən müflisləşmə** – iqtisadi fəaliyyət sahəsində cinayət. AR CM-in 212.1-ci maddəsinə uyğun olaraq kommersiya təşkilatının rəhbəri və ya mülkiyyətçisi, habelə fərdi sahibkar tərəfindən kreditorlara olan borcun azaldılmasına nail olmaq və ya borcu ödəməkdən yayınmaq üçün kreditorları aldatmaq məqsədi ilə özünü bilə-bilə yalandan ödəmə qabiliyyəti olmayan elan etmə (saxta müflisləşmə). Bu əməl xeyli miqdarda ziyan vurma ilə də müşayiət oluna bilər.

**Qəsdən sağlamlığa ağır zərər vurma** – həyat və sağlamlıq əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 126-cı maddəsində nəzərdə tutulmuşdur. İnsan həyatı üçün təhlükəli olan və ya görmə, eşitmə, nitq qabiliyyəti və ya hər hansı bir orqanın, yaxud bu orqanın funksiyasının itirilməsinə, psixi pozuntuya və ya sağlamlığın başqa cür pozulmasına, əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmamaqla uzun müddətə itirilməsi ilə və ya təqsirkar üçün aşkar surətdə zərərçəkmiş şəxsin peşəkar əmək qabiliyyətinin tam itirilməsi ilə əlaqədar olan və ya hamiləliyin pozulmasına, şəxsin narkomanlıqla və ya toksikomanlıqla xəstələnməsinə səbəb olan, yaxud sifətin silinməz dərəcədə eybəcərləşdirilməsində ifadə olunur.

**Qəsdən sağlamlığa az ağır zərər vurma** – həyat və sağlamlıq əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 127-ci maddəsində nəzərdə tutulmuşdur. Zərərçəkmiş şəxsin həyatı üçün təhlükəli olmayan və Cinayət Məcəlləsinin 126-cı maddəsində nəzərdə tutulan nəticələrə səbəb olmayan, lakin sağlamlığın uzun müddət pozulmasına səbəb olmuş və ümumi əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmaqla əhəmiyyətli dərəcədə itirilməsi ilə nəticələnən zərər vurmada ifadə olunur.

**Qəsdən sağlamlığa yüngül zərər vurma** – həyat və sağlamlıq əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 128-ci maddəsində nəzərdə tutulmuşdur. Sağlamlığın qısa müddətə pozulmasına və ümumi əmək qabiliyyətinin cüzi itirilməsinə səbəb olmuş zərər vurmada ifadə olunur.

**Qətimkan tədbiri** – cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən şübhəli, yaxud təqsirləndirilən şəxsin hüquqlarını müvəqqəti məhdudlaşdırmaqla onun haqqında seçilən prosessual məcburiyyət tədbiri.

Q.t. cinayət işi üzrə icraatda şübhəli və ya təqsirləndirilən şəxsin qanuna zidd davranışının qarşısını almaq və hökmün icrasını təmin etmək məqsədi ilə tətbiq edilir. AR CPM-in 154.2-ci maddəsinə uyğun olaraq qətimkan tədbirləri aşağıdakılardır: 1)





həbs; 2) ev dustaqlığı; 3) girov; 4) başqa yerə getməmək barədə iltizam; 5) şəxsi zaminlik; 6) təşkilatın zaminliyi; 7) polisin nəzarəti altına vermə; 8) nəzarət altına vermə; 9) komandanlığın müşahidəsi altına vermə; 10) vəzifədən kənarlaşdırma.

Həbs, ev dustaqlığı və girov yalnız təqsirləndirilən şəxsin barəsində seçilə bilər. Nəzarət altında saxlama yalnız yetkinlik yaşına çatmayan şəxsin barəsində seçilə bilər. Komandanlığın müşahidəsi altına vermə yalnız hərbi qulluqçu və ya hərbi toplantıda təlim keçdiyi müddətdə hərbi mükəlləfiyyətli şəxs barəsində seçilə bilər (AR CPM-in 154.3-cü maddəsi).

Q.t. müvafiq surətdə təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin qərarına əsasən seçilir. Onun seçilməsi barədə qərarda şübhəli və ya təqsirləndirilən şəxsin törətdiyi cinayətə və ya ilkin sübutlara istinad edilməklə qətimkan tədbirinin seçilməsi zəruriliyinin əsasları göstərilməlidir. Həbs və ya vəzifədən kənarlaşdırma müstəntiqin vəsatəti əsasında və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı, habelə cinayət işinə baxan məhkəmənin öz təşəbbüsü ilə və yalnız məhkəmənin qərarına əsasən seçilə bilər. Ev dustaqlığı və ya girov həbsin əvəzinə müdafiə tərəfinin vəsatəti üzrə məhkəmə tərəfindən seçilə bilər. Cinayət prosesini həyata keçirən orqan q.t.-nin seçilməsi haqqında qərarı şübhəli və ya təqsirləndirilən şəxsə dərhal elan edir və qərarın surətini ona təqdim edir.

**Qətl** – **1)** qanuna zidd olaraq qəsdən və ya ehtiyatsızlıqla insanı həyatdan məhrum etməklə nəticələnən, şəxsiyyət əleyhinə yönəldilən ağır cinayət (adamöldürmə); **2)** işğal edilmiş ərazidə ölkənin dinc əhalisinin kütləvi surətdə öldürülməsi.

**Qətnamə** – **1)** hər hansı məsələnin kollegial orqanın, məclisin və i.a. iclasında (qurultayda, konfransda, sessiyada) müzakirəsi nəticəsində qəbul edilən qərar; **2)** məhkəmə qətnaməsi – Azərbaycan Respublikası hüququna görə birinci instansiya məhkəməsinin mülki işə mahiyyəti üzrə baxması və həll edib qurtarması barədə qərarı. Məhkəmə qətnaməsi məhkəmə baxışında iştirak edən hakimlərin səs çoxluğu ilə və müşavirə otağının sirrinə riayət edilməklə çıxarılır, yazılı formada şərh edilir və onun qəbulunda iştirak etmiş bütün hakimlər tərəfindən imzalanır. Q. işə baxıldıqdan dərhal sonra çıxarılır. Q.-dən şikayət vermə müddəti bitdikdə, o, qanuni qüvvəyə minmiş hesab olunur. Azərbaycan Respublikası Ali Məhkəməsinin qətnaməsi elan edildikdən dərhal sonra qüvvəyə minir.

**Qəyyum** *(bax: qəyyumluq).*

**Qəyyumluq** – Azərbaycan Respublikasında vətəndaşların şəxsi və əmlak mənafelərinin hüquqi müdafiəsi formalarından biri. Q. dövlət orqanları tərəfindən həyata keçirilir. Q.-un məqsədi aşağıdakılardan ibarətdir: a) yetkinlik yaşına çatmayanların (15 yaşınadək) tərbiyə edilməsi, onların şəxsi və əmlak hüquqlarının müdafiəsi; b) valideynlər vəfat etdikdə və ya xəstələndikdə, valideynlik hüququndan məhrum edildikdə, habelə uşaqlar hər hansı səbəbdən himayəsiz qaldıqda, yaxud valideynlər uşağı tərbiyə etməkdən boyun qaçırdıqda onların dövlət tərəfindən himayəyə götürülməsi; c) fəaliyyət qabiliyyəti olmayan yetkinlik yaşına çatmayanların (ru-

hi xəstələrin, kəmağılların) şəxsi və əmlak hüquq və mənafelərinin müdafiəsi.

Yalnız 18 yaşına çatmış və qəyyumluq funksiyalarını üzərinə könüllü olaraq götürən şəxs qəyyum ola bilər. Qəyyumluqda olan 15 yaşına çatdıqda q. dayandırılır, qəyyum isə heç bir xüsusi qərar olmadan bu funksiyasını dayandırır. Q. ehtiyacı olan şəxsin, yaxud qəyyumun yaşayış yeri üzrə icra hakimiyyəti orqanının xüsusi qərarı ilə müəyyən edilir. Q. vəzifələrini təhsil şöbələri, fəaliyyət qabiliyyəti olmayan şəxslərin qəyyumluq vəzifələrini isə səhiyyə orqanları həyata keçirir.

**Qəyyumluq Şurası** *(bax: Birləşmiş Millətlər Təşkilatının Qəyyumluq Şurası).*

**Qəza**[1] *(dəniz hüququnda)* – **1)** ümumi qəza – baş verəcək ümumi təhlükənin, yaxud itkilərin qarşısını almaq məqsədi ilə gəmiyə və ya yükə qəsdən vurulan əmlak zərəri; **2)** xüsusi qəza – gəmiyə və ya yükə qəsdən vurulmayan qəza, yaxud onların xarab olması ilə əlaqədar meydana çıxan itkilər. Xüsusi qəza zamanı vurulan zərər zərərçəkənin, yaxud qəza üçün məsuliyyət daşıyanın üzərinə düşür. Azərbaycan Respublikasının qanunvericiliyində ümumi və xüsusi qəza məsələləri ticarət gəmiçiliyinə dair normalarla tənzim edilir. Beynəlxalq ticarətdə baş verən ümumi və xüsusi qəza ilə əlaqədar münasibətlər York-Antverpen qaydaları ilə tənzim edilir.

**Qəza**[2] – **1)** inqilabaqədərki Rusiyada inzibati ərazi vahidi. Qəza XVIII yüzilliyin başlanğıcında quberniyanın tərkib hissəsi olmuşdur. Azərbaycanda XIX yüzilliyin 40-cı illərindən tətbiq edilmişdir; **2)** keçmiş SSRİ-də, o cümlədən Azərbaycan SSR-də 1929-cu ilədək inzibati ərazi vahidi olmuşdur. Latviya, Litva və Estoniya SSR-də 1949-1950-ci illərədək mövcud idi.

**Qəza bondu** – ümumi qəza hesab oluna bilən itkilərin və xərclərin mövcud olduğu halda yükü alan zaman yükü alan və ya yükü sığorta edən tərəfindən yükdaşıyana verilən iltizam. İltizamda yükü alanın üzərinə yükün dəyərini elan etmək və dispaşaya uyğun olaraq ümumi qəza üzrə hesablanan payı ödəmək öhdəliyi qoyulur. Yükdaşıyan ona q.b.-nun təqdim edilməsinədək yükü verməməyə haqlıdır.

**Qəza haqqı** – gəmi sahibi və ya onun adından dispaşer tərəfindən yükü alandan (yükün sahibindən) ümumi qəza xərclərinin ödənilməsini təmin etmək üçün tələb edilən pul məbləği. Gəmi sahibinin q.h.-nı keçirmək tələbi haqqında yükü alan sığortaçıya dərhal məlumat verir. Q.h. beynəlxalq təcrübədə depozit adını daşıyır.

**Qəza-xilasetmə birliyi** – qəza-xilasetmə işlərinin həyata keçirilməsi üçün nəzərdə tutulan, müstəqil və ya qəza-xilasetmə xidməti strukturunun tərkibinə daxil olan bölmə. Q.-x.b.-nin əsasını xüsusi texnika ilə, qurğularla, alət və materiallarla təchiz edilmiş xilasedicilər təşkil edir.

**Qəza-xilasetmə xidməti** – fövqəladə situasiyaların qarşısının alınması və ləğv edilməsi üzrə vəzifələrin həlli üçün nəzərdə tutulan idarəetmə orqanlarının, qüvvələrin və vasitələrin məcmusu. Q.-x.x.-nin əsasını qəza-xilasetmə birləşmələri təşkil edir.

**Qəza-xilasetmə işləri** – adamların, maddi və mədəni sərvətlərin xilas edilməsi, fövqəladə situasiyalar zonasında təbii mühitin müdafiəsi, fövqəladə situasiyaların lokallaşdırılması və təhlükəli amillərin mümkün səviyyəsinin minimuma endirilməsi üzrə yerinə yetirilən hərəkətlər. Q.-x.i. xüsusi hazırlıq və təchizat tələb edirlər.

**Qəza-xilasetmə vasitələri** – qəza-xilasetmə işlərinin aparılması üçün nəzərdə tutulan texniki, elmi-texniki, intellektual məhsullar, o cümlədən ixtisaslaşdırılmış rabitə və idarəetmə vasitələri, texnika, avadanlıqlar, əmlak və materiallar, metodiki, video-kino-foto materialları, qəza-xilasetmə texnologiyasına dair məhsullar, elektron hesablama maşınları və sair vasitələr üçün məlumat bazaları.

**Qəza iltizamı** – yükü alanın dispaşaya uyğun olaraq ondan ümumi qəza payının hesablanan məbləği ödəmək öhdəliyi. Ümumi qəza vaxtı yükdaşıyan yükü alanın depoziti keçirməsinədək yük üzərində hüquqa malik olur.

**Qəza komissarı** – sığorta edilmiş gəmilər və yüklər üzrə itkinin səbəblərini, xarakterini və miqdarını müəyyən etməklə məşğul olan şəxs və ya firma. Q.k.-nın adı və kordinatları sığorta sertifikatında və ya polisdə göstərilir. Sığorta hadisəsinin meydana çıxdığı zaman sığortaçı q.k.-na müraciət etməyə borcludur. Q.k.-nın funksiyaları çox genişdir və o, sığortaçının təlimatları ilə müəyyən edilir. Q.k. itkinin səbəblərini, xarakterini və miqdarını təsdiq edən qəza sertifikatını tərtib edir, bunun da əsasında sığortaçı sığorta olunanın iddiasını təmin və ya onu rədd etmək haqqında qərar qəbul edir.

**Qəza sertifikatı** – sığorta edilmiş əmlakda itkinin səbəblərini, xarakterini və miqdarını təsdiq edən sənəd. Q.s. qəza komissarı tərəfindən tərtib olunur və bir qayda olaraq xərclərin hesabı ödənildikdən və qəza komissarı mükafatlandırıldıqdan sonra maraqlı şəxsə təqdim edilir.

**Qəzəb** – şəxsiyyətin inamına, səyinə qarşı duran, onun istəyinə çatmaq üçün fəaliyyətini sıxışdıran hadisələrin doğurduğu güclü emosional hiss. Q. hadisəyə mənfi münasibəti bildirməklə əlaqədar olan hərəkətlərdə təzahür edir. O, insana xas olan ilkin emosiyalardan biridir. Q. hissinin təzahür formalarından asılı olaraq, qəzəb sosial cəhətdən həm əhəmiyyətli, həm də zərərli ola bilər *(bax: affekt).*

**"Qırmızı kitab"** – planetimizdə nəsli kəsilmək təhlükəsinə məruz qalan heyvan və bitkilər haqqında faktlar və illüstrasiyalar toplanmış kitab. Təbiətin təkraredilməz varlığı olan hər bir canlının mühafizəsi çox vacib ümumbəşəri vəzifələrdən biridir. Təbiəti mühafizə üzrə görkəmli beynəlxalq xadimlər olan ingilis zooloq-alimləri C. Fişer, N. Saymon, C. Vinsentin işləri dərc edilmiş "Q.k."-da nəsli kəsilmə təhlükəsinə məruz qalmış və beynəlxalq nəzarət altına alınmış vəhşi heyvanların və bitkilərin yayılması tarixi, onların vəziyyəti və sayı barəsində məlumatlar verilmişdir.

"Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası qanununun (4 iyun 1999-cu ildə qəbul edilmişdir) 33-cü maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisində təbii şəraitdə yaşayan, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan növləri xüsusi mühafizə edilir və Azərbaycan Respublikasının "Qırmızı kitabı"na daxil edilmişdir. Bu heyvan növlərinin mühafizəsi, törəyib artması və istifadəsi qaydaları və tələbləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş, Azərbaycan Respublikasının Qırmızı kitabı haqqında əsasnamə ilə müəyyən edilir.

"**Qırmızı storno**" – *(ita. storno – hesabın köçürülməsi)* – **1)** mühasibat uçotunda səhvən aparılmış əməliyyatın qırmızı mürəkkəblə yazılmasından və yekun məbləğdən hesabın çıxarılmasından ibarət olan səhvlərin düzəldilməsi üsulu; **2)** müəyyən hesabat tarixi üçün uzunmüddətli həyat sığortasına dair qüvvədə olan müqavilələrin sığorta portfelinin azalmasını səciyyələndirən göstərici.

**Qısa bəyannamə** – malların və nəqliyyat vasitələrinin müəyyən gömrük rejimi altında yerləşdirilməsinədək tətbiq edilən bəyannamə. AR GM-in 141-ci maddəsinə uyğun olaraq qısa bəyannamənin formasını və orada göstərilməli məlumatların siyahısını Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı müəyyən edir.

Azərbaycan Respublikası gömrük orqanının icazəsi ilə nəqliyyat, kommersiya sənədlərindən və həmçinin Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxslərinin bildiyi xarici dillərdə tərtib edilmiş sənədlər də daxil olmaqla qanunvericilikdə göstərilən məlumatları əks etdirən digər sənədlərdən qısa bəyannamə kimi istifadə edilə bilər. Qısa bəyannamə daşıyıcı tərəfindən mallar və nəqliyyat vasitələrinin təqdim edilməsi ilə eyni vaxtda, yaxud Azərbaycan Respublikası gömrük orqanının icazəsi ilə mallar və nəqliyyat vasitələrinin təqdim edildiyi gündən sonrakı növbəti iş günündən gec olmayaraq verilir.

Mallar göstərilən müddətdə hər hansı bir gömrük rejimi altında yerləşdirilənədək qısa bəyannamə verilmir. Qısa bəyannamə vermək üçün daşıyıcı tərəfindən xüsusi səlahiyyət verilmiş nümayəndə olmadıqda, nəqliyyat vasitəsini idarə edən kapitan, sürücü və ya başqa fiziki şəxs gömrük məqsədləri üçün belə nümayəndə sayılır. Daşıyıcının nümayəndəsi qısa bəyannamənin rəsmiləşdirilməsində Azərbaycan Respublikası gömrük orqanlarına kömək göstərməlidir.

**Qısamüddətli veksel** – tələb üzrə və ya çox qısa zaman kəsiyi ərzində ödənilməli olan veksel.

**Qızıl bulla** – "Müqəddəs Roma imperiyasının" imperiya seymi tərəfindən qəbul olunmuş və 1356-cı ildə imperator IV Karl tərəfindən təsdiq edilmiş qanunvericilik aktı. Q.b. imperatorun kurfyuristlər kollegiyası tərəfindən seçilməsini qanunilləşdirmiş və onların digər imtiyazlarını təsbit etmişdir. O, Almaniyanın siyasi pərakəndəliyinə yardım etmişdir. Q.b. 1806-cı ilədək qüvvədə olmuşdur.

**Qızıl ehtiyat** – mərkəzi emissiya bankının, dövlətin maliyyə orqanlarının və ya beynəlxalq valyuta-kredit təşkilatlarının sərəncamında olan mərkəzləşdirilmiş qızıl (külçə və sikkələr halında) ehtiyatı.

**Qızıl qeyd-şərt** – valyuta təminatının mümkün itkilərindən qaçmaq məqsədi ilə əvvəllər beynəlxalq sazişlərə, ödəmə və ticarət sazişlərinə daxil edilən, habelə valyuta ödəməsinin qızılla məzmununu ifadə edən müdafiə qeyd-şərti. 1970-ci illərin sonunda öz əhəmiyyətini itirmişdir.

**Qızıl paritet** – dövlət tərəfindən müəyyən edilən və qanunla qeydə alınan xalis qızılın ölkənin pul vahidində məzmunu (çəkisi). Təminat qismində müəyyən edilən qızılın çəkisi üzrə iki pul vahidinin qarşılıqlı əlaqəsi də qızıl paritet hesab olunur.

**Qızıl rubl** – Rusiyanın şərti pul (0,774235 qram xalis qızıl) vahidi. 1895-1897-ci illər islahatından sonra dövriyyəyə buraxılmış, qızıl monometallizmini müəyyən etmişdir. Qızıl sikkələr 5, 10, habelə 15 rul (imperiallar) və 7 rubl 50 qəpik (yarımimperiallar) dəyərində kəsilirdi. 1914-cü ilədək tədavüldə olmuşdur. 1921-1922-ci illərdə hesab vahidi kimi istifadə edilmişdir.





**Qızıl sertifikatlar** – büdcə xərclərinin aradan qaldırılması üçün dövriyyəyə dövlət tərəfindən buraxılan qiymətli kağızların bir növü. Sertifikatın nominalı 0,9999 əyarlı 10 kq qızıldır.

"**Qızıl səhm**" – öz sahibinə – dövlətə bütün digər səhmdarlarla müqayisədə özəlləşdirilməli olan müəssisələrə dövlət nəzarətini həyata keçirmək məqsədi ilə xüsusi hüquqlar verən xüsusi səhm növü. "Q.s." Avropa ölkələrində (məsələn, Fransada, Böyük Britaniyada) dövlət müəssisələrinin özəlləşdirilməsi prosesində böyük rol oynamışdır.

**Qızıl sikkə standartı** *(bax: qızıl standart).*

**Qızıl standart** – qızıl monometallizm, pul sistemi; burada ümumi ekvivalent rolunu qızıl oynayır, tədavüldə isə qızıl sikkələr, yaxud qızıla dəyişdirilən pul nişanları işlədilir. Qızıl monometallizm sistemi Böyük Britaniyada hələ XVIII yüzilliyin sonlarında tətbiq edilməyə başlamış, digər burjua dövlətlərində isə yalnız XIX yüzilliyin axırıncı rübündən geniş yayılmağa başlamışdır. Bu sistem Rusiyada 1895-1897-ci illərdəki pul islahatından sonra tam təşəkkül tapmışdır. Q.s. 1931-1936-cı illərdə burjua ölkələrində bütünlüklə ləğv edilmişdir. ABŞ dollarının qızıla dəyişdirilməsi 1971-ci il avqustun 15-də rəsmən ləğv edilmişdir.

**Qızıl təminat** – miqdarı hökumət tərəfindən müəyyən edilən bank emissiyalarının aradan qaldırılması üçün həmin ölkənin qızıl ehtiyatı.

**Qızıl valyuta** – bilavasitə qızıla dəyişdirilən pul vahidi.

**Qızıl valyuta ehtiyatları** – mərkəzi bankların və xəzinələrin rəsmi qızıl və xarici valyuta ehtiyatları. Mərkəzi banklar və xəzinələr həmin ehtiyatlardan beynəlxalq hesablaşmaların və ödəmələrin, ödəmə balansı çatışmazlığının aradan qaldırılmasının, beynəlxalq bazarlarda valyuta kursunun sabitliyinin həyata keçirilməsi üçün istifadə edirlər.

**QİÇS (qazanılmış immunçatışmazlığı sindromu)** *(AİDS – Acquied İmmune Deficiencu Syndrom)* – insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəlik; belə patoloji vəziyyət nəticəsində immun sisteminin pozulması ilə orqanizmin müdafiə qüvvələrinin zəifləməsi prosesi gedir. İnsanın immunçatışmazlığı virusundan irəli gələn xəstəliyi Viç-infeksiya üçün daha səciyyəvidir. Təbabət aləminə 1982-ci ildən məlumdur və dünyanın bütün ölkələrində qeydə alınır. İnfeksiyanın mənbəyi virusun daşıyıcısıdır. Bu xəstəliyə yoluxma başlıca olaraq cinsi əlaqə (xüsusilə də homoseksual əlaqələrdə), qan köçürülməsi və infeksiyaların keçməsi zamanı baş verir. İnsan immunçatışmazlığı virusu ilə yoluxdurmaya görə AR CM-in 140-cı maddəsində cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

**Qisas** *(ər. bərabər əvəz, "mükafat və cəza")* – müsəlman hüququnda qətlə, yaralamaya və ya digər bədən xəsarətləri yetirməyə görə əvəz çıxmaq, cəzalandırmaq dərəcəsi. Q. talionun qədim formalarından

irəli gəlmişdir. İslam dini tərəfindən o, bəzi dəyişikliklərə uğradılmış və nisbətən yüngülləşdirilmişdir. Q. qəsdən adamöldürməyə görə ölüm cəzası müəyyən edir. Əgər hüquqi varis qatilin sağ qalmasına razılıq verərsə, təqsirkar və onun qohumları diyə (qanbahası) verməlidirlər. Ehtiyatsızlıqla (təcrübəsizlik, diqqətsizlik üzündən) adamöldürmə diyə ilə cəzalandırılır. Şikəst etmə hallarında təqsirkar eyni dərəcədə şikəst edilməklə cəzalandırılır. Məsələn, təqsirkarın qulağı və ya barmağı kəsilə bilər, lakin boynu vurula və başı əzilə bilməz. Belə hallarda diyə verilir. Q. yalnız məhkəmənin hökmü ilə təyin edilir. Q.-dan irəli gələn cəza - əvəz isə cəllad, yaxud zərər çəkmiş şəxsin qohumlarından biri tərəfindən həyata keçirilir. Təqsirkar məhkəmədən gizləndikdə o, qiyabi olaraq ölkədən qovulmağa məhkum olunur, qohumları isə diyə verməyə məcbur edilirlər. Q. hazırda bir çox müsəlman ölkələrində mövcud hüquq normalarından biri olsa da, o, yalnız fövqəladə hallarda tətbiq edilir. Q. əsasən diyə verilməsi ilə reallaşır.

**Qismən fəaliyyət qabiliyyəti** – 14 yaşdan 18 yaşadək yetkinlik yaşına çatmayanların və 6 yaşdan 14 yaşadək olan azyaşlıların fəaliyyət qabiliyyəti.

**Qismən veto** *(bax: VETO).*

**Qitə hüququ** *(bax: Roman-german hüquq sistemi).*

**Qitə şelfi** – kəşfiyyat və təbii ehtiyatların tədqiqi məqsədilə sahil dövlətinin öz suveren hüquqlarını həyata keçirdiyi dənizin dibi (onun təki də daxil olmaqla) rayonunun ərazi sularına bitişik müəyyən genişlik. Q.ş.-nin xarici sərhədləri qitə materikinin sualtı ətrafından və ya sahildən 200 dəniz mili məsafəsindən keçir. Q.ş.-nin xarici sərhədi sahildən 350 mildən artıq məsafədə yerləşə bilməz.

Sahil dövlətinin q.ş.-nə olan hüquqları su örtüyünün və onun üzərindəki hava məkanının statusuna toxuna bilməzlər. Sahil dövləti tərəfindən bu hüquqların realizə olunması gəmiçiliyə və BMT-nin dəniz hüququ üzrə 1982-ci il Konvensiyasında nəzərdə tutulmuş digər hüquq və azadlıqların həyata keçirilməsinə mane olmamalıdır. Bütün dövlətlər q.ş.-ndə konvensiyanın müddəalarına uyğun olaraq sualtı kabellər və boru kəmərləri çəkmək hüququna malikdirlər.

**Qiyabi hökm** – təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda olub, məhkəməyə gəlməkdən (sığındığı ölkənin hökuməti tərəfindən verilmədikdə) imtina etdiyi halda çıxarılan hökm *(həmçinin bax: işə qiyabi baxılması).*

**Qiyabi məhkəmə** *(bax: işə qiyabi baxılması).*

**Qiyas** *(ər. ölçü)* – müsəlman hüququnun mənbələrindən biri. Q. bənzətmə əsasında mühakimə yürütməkdən ibarətdir. Müsəlman həyatının bütün məsələlərinin həlli üçün ən mötəbər istinadgahlar Quran və Sünnədir. Bu mənbələrin konkret suala cavab verə bilmədikləri hallarda üçüncü mənbədən – İcmadan, yəni həmin məsələ barəsində qanunvericilik sahəsindəki alimlərin rəyindən istifadə olunur və yalnız bundan sonra (əgər İcmada müvafiq cavab tapılmazsa) Q.-a müraciət olunur. Q. mübahisəli məsələni Quranda və Sünnədə olan müddəalara bənzətmək yolu ilə həll etməyə imkan verir.

**Qiymət** – mülki hüquqa görə əmtəə dəyərinin pul ilə ifadəsi. Q. əmtəə istehsalına sərf olunmuş ictimai zəruri iş vaxtı





miqdarının dolayı ölçülməsinə xidmət edən iqtisadi kateqoriyadır. Q.-dən həmçinin müqavilənin məbləğinin və ya tərəflərin pul öhdəliklərinin müəyyənləşdirilməsi üçün istifadə olunur.

**Qiymət FAS** – yükü göndərənin yükü körpüyədək daşıma ilə nəqliyyat-ekspeditor xərclərini məhdudlaşdıran qiymət.

**Qiymət FOB** – satıcının daşıma və sığorta üzrə xərclərin yalnız bir hissəsini (o cümlədən malın ancaq gəminin bortuna daşınması anınadək olan xərcləri) ödədiyini nəzərdə tutan qiymət.

**Qiymət franko** – məhsulun sifarişçiyə tədarük edilməsi üzrə nəqliyyat xərclərinin ödənilməsinin nəzərdə tutulmuş qaydası nəzərə alınmaqla müəyyən edilən topdansatış qiyməti.

**Qiymətin indeksi** – əmtəələrin qiymət dinamikasının (pərakəndə, topdansatış qiymətlərinin) göstəricisi; müəyyən dövr ərzində qiymətlərin orta səviyyəsindəki dəyişikliklərin göstəricisi.

**"Qiymət qayçısı"** – müəyyən dövr ərzində əmtəə istehsalçıları tərəfindən satılmış əmtəələrin qiymətlərinin dinamikasının müqayisəli təhlilinin nəticəsini səciyyələndirən və bu qiymətlər arasındakı uyğunsuzluğu göstərən termin. Daha çox sənaye və kənd təsərrüfatı arasında məhsul mübadiləsi sahəsində qiymətlərin hərəkətinin öyrənilməsi zamanı işlədilir.

**"Qiymətləndirmə fəaliyyəti haqqında" qanun** – Azərbaycan Respublikasında əmlakın qiymətləndirilməsi fəaliyyətinin ümumi prinsiplərini müəyyən edən, habelə bununla əlaqədar yaranan təşkilati, iqtisadi və hüquqi münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 25 iyun 1998-ci il tarixdə qəbul edilmişdir. O, 18 maddədən ibarətdir.

**Qiymətli kağız** – öz sahibinin əmlak və qeyri-əmlak hüquqlarını və bu hüquqların verilməsi imkanını müəyyən edilmiş formaya və məcburi rekvizitlərə riayət etməklə təsdiqləyən sənəd.

**Qiymətli kağızlar bazarı** – qiymətli kağızların dövriyyəsi üzrə münasibətlərin məcmusu; maliyyə bazarlarından biri. Bu münasibətlər Azərbaycanda "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının qanunu (14 iyul 1998-ci ildə qəbul edilmişdir) ilə tənzimlənir.

Qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi aşağıdakılardan ibarətdir: 1) *emitentlərin, qiymətli kağızlar bazarının* peşəkar iştirakçılarının fəaliyyətinə məcburi tələblərin və onun standartlarının müəyyən edilməsi; 2) qiymətli kağızlar buraxılışının və emissiya prospektlərinin qeydə alınması və onlarda nəzərdə tutulmuş şərtlərə və öhdəliklərə emitentlər tərəfindən riayət olunmasına nəzarət edilməsi; 3) qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının xüsusi razılıq sisteminin tətbiq edilməsi və bu fəaliyyətə nəzarət edilməsi; 4) qiymətli kağızların sahiblərinin hüquqlarının müdafiəsi və onların hüquqlarına emitentlər və qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən riayət edilməsinə nəzarət sisteminin yaradılması; 5) qiymətli kağızlarla peşəkar fəaliyyətin həyata keçirilməsi qaydalarının müəyyən edilməsi; 6) qiymətli kağızlarla əməliyyatlara məcburi tələblərin, qiymətli kağızların açıq yerləşdirilməsinə, tədavülünə, məzənnəsinə (qiymətləndirilməsinə), listinginə və

delistinginə, hesablaşma-depozitari fəaliyyətinə qoyulan normalarının müəyyən edilməsi; 7) emitentlər və qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən qiymətli kağızlar haqqında Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə riayət edilməsinə nəzarətin həyata keçirilməsi və i.a. (qanunun 3-cü maddəsi).

Qiymətli kağızlar bazarında münasibətlərin dövlət tənzimlənməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**"Qiymətli kağızlar bazarında investorların hüquqlarının müdafiəsi haqqında" qanun** – Azərbaycan Respublikasında qiymətli kağız sahibləri olan hüquqi və fiziki şəxslərin qiymətli kağızlar bazarında hüquqlarının dövlət və ictimai müdafiəsi sahəsində münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 16 iyun 2000-ci il tarixdə qəbul edilmişdir. O, 11 maddədən ibarətdir.

**Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları** – qanunvericilik əsasında qiymətli kağızlar bazarında xüsusi razılıq əsasında fəaliyyət göstərən hüquqi və fiziki şəxslər. Fəaliyyət göstərən və qeyri-kommersiya prinsipləri əsasında fəaliyyətini quran qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının könüllü birliyi, ittifaqı, assosiasiyası və i.a. qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının öz-özünü tənzimləyən təşkilatı hesab olunur. Öz-özünü tənzimləyən təşkilatın bütün gəlirləri onun tərəfindən yalnız nizamnamə vəzifələrini yerinə yetirmək üçün istifadə olunur və onun üzvləri arasında bölüşdürülmür.

Öz-özünü tənzimləyən təşkilat, peşəkar fəaliyyət göstərməsi və qiymətli kağızlarla əməliyyatlar aparması tələblərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş, qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin həyata keçirilməsinin öz üzvləri üçün qaydalarını müəyyən edir və onlara riayət edilməsinə nəzarəti həyata keçirir. Öz-özünü tənzimləyən təşkilatın fəaliyyətinə müvafiq icra hakimiyyəti orqanı nəzarət edir.

**"Qiymətli kağızlar haqqında" qanun** – Azərbaycan Respublikasında qiymətli kağızların buraxılışı və tədavülü qaydalarını müəyyən edən, qiymətli kağızlar bazarı iştirakçılarının fəaliyyətini tənzimləyən qanunvericilik aktı.

Bu qanun 14 iyul 1998-ci il tarixdə qəbul edilmişdir. O, altı fəsil, 32 maddə və yekun müddəalarından ibarətdir.

**Qiymətli kağızların buraxılışı** – sahiblərinə eyni həcmdə hüquqları təmin edən, eyni emissiya (ilkin yerləşdirmə) şərtləri və bir dövlət qeydiyyat nömrəsi olan qeydə alınan bir emitentin qiymətli kağızlarının məcmusu.

**Qiymətli kağızların buraxılması (emissiyası) qaydalarını pozma** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 203-cü maddəsində nəzərdə tutulmuşdur. Qiymətli kağızların emissiyası prospektinə bilə-bilə etibarlı olmayan məlumatların daxil edilməsində, həmçinin bilə-bilə etibarlı olmayan məlumatları özündə əks etdirən emissiya prospektinin təsdiq edilməsi və ya bilə-bilə etibarlı olmayan emissiya nəticələrinin təsdiq edilməsində ifadə olunur.

**Qiymətli kağızların emissiyası** – emitentin emissiya qiymətli kağızlarının yerləşdirilməsi üzrə hərəkətlərinin ardıcıllığı. Q.k.e. aşağıdakı mərhələləri əhatə





edir: 1) qanunvericiliyə uyğun olaraq emissiya qiymətli kağızlarının buraxılışı haqqında emitentin qərar qəbul etməsi; 2) emissiya qiymətli kağızlarının buraxılışının qeydə alınması; 3) emissiya qiymətli kağızlarının emissiya prospektinin qeydə alınması (əgər o, nəzərdə tutulursa); 4) emissiya qiymətli kağızlarının yerləşdirilməsi; 5) emissiya qiymətli kağızları buraxılışının nəticələri haqqında hesabatın qeydə alınması.

**Qiymətli kağızların emitenti** – qiymətli kağızların sahibi qarşısında onlarda təsbit edilmiş hüquqların həyata keçirilməsi üzrə öz adından öhdəliklər daşıyan hüquqi şəxs, icra hakimiyyəti və ya bələdiyyə orqanı.

**Qiymətli kağızların tədavülü** – qiymətli kağızlara mülkiyyət hüquqlarının keçməsinə səbəb olan mülki-hüquqi əqdlərin bağlanması.

**Qiymətli kağızları satın alma** – **1)** səhmdar cəmiyyəti tərəfindən buraxılan qiymətli kağızların əldə edilməsi üçün səhmdarların həyata keçirdiyi üstün hüquq (belə hüququn həyata keçirilməsi); **2)** qiymətli kağızların buraxılması haqqında qeyd edilən sənədlərdə göstərilənlərdən artıq buraxılmış qiymətli kağızların emitent tərəfindən əldə edilməsi.

**Qiymət SİF** – yükün daşınması, gömrük tutmalarının və sığortanın ödənilməsi, habelə malın məhv olması və ya xarab olması riski üçün satıcının malların təyinat yerinə çatdırılmasınadək məsuliyyət daşıması üzrə bütün xərcləri özündə ehtiva edən qiymət.

**Qiymət valyutası** – xarici ticarət kontraktında əmtəənin qiymətinin ifadə olunduğu pul vahidi. Buna valyuta əqdi (kontraktı da) də deyilir.

**Qladiatorlar** – *(lat. gladiatores, gladius – qılınc)* – Qədim Romada amfiteatr səhnələrində bir-biri ilə və ya heyvanlarla silahlı döyüş üçün xüsusi təlim keçmiş qullar, hərbi əsirlər, məhkum edilmiş cinayətkarlar və başqa şəxslər. Q. sərt rejimli xüsusi məktəblərdə (Roma, Kapuya şəhərlərində) öyrədilirdilər. Qladiator döyüşlərində məqsəd "çörək və tamaşa" istəyən plebeyləri əyləndirmək idi. Döyüşlər əksər hallarda ölümlə nəticələnməli idi. Romanın əsilzadələri, hətta onların arvadları ölümlə nəticələnməli olan qladiator döyüşünü şəstlə "canlı gimnastika" adlandırırdılar. Eramızdan əvvəl 74-71-ci illərdə qullar üsyanına başçılıq etmiş frakiyalı Spartak da q.-dan olmuşdur.

**Qlobal müharibə** *(fr. global – ümumi, lat. globus – kürə)* – bütün yer kürəsini bürüyə biləcək dünya müharibəsi. "Q.m." termini XX yüzilliyin 50-ci illərindən ABŞ-da işlənməyə başlamış və burjua ölkələrində "ümumdünya nüvə müharibəsi" termini ilə yanaşı istifadə edilmişdir. Məhdud və lokal müharibələrdən fərqli olaraq q.m. kütləvi qırğın silahlarının bütün növlərinin tətbiqi ilə əməliyyatların bütün qitələrdə, dəniz və okeanlarda, həmçinin yerətrafı kosmosda aparılmasını nəzərdə tutur. Tərəqqipərvər bəşəriyyət belə təcavüzkar siyasətin əleyhinədir.

**Qlossa** *(yun. glossa; ing. gloss)* – əsasən qədim yazılı abidələrdə aydın olmayan sözlərin və ya söz birləşmələrinin, müxtəlif ifadələrin tərcüməsi, yaxud təfsiri; qanunların və ya məhkəmə qərarlarının elmi şərhi.

**Qlossator** *(lat., ing. glossator)* – XI-XIII yüzilliklərdə İtaliyanın Boloniya Universitetində yaradılmış hüquqşünaslar məktəbinin nümayəndəsi. Məktəbin əsasını İrneri qoymuşdur. Qlossatorlar klassik Roma hüququnu, başlıca olaraq Yustinian Məcəlləsini tədris və təcrübədə istifadə üçün dirçəltməklə yanaşı, qədim hüquq ədəbiyyatındakı köhnəlmiş və az istifadə edilən söz və ifadələrin təfsiri ilə də məşğul olmuşlar. Qlossatorlar eyni zamanda da qanunların və məhkəmə qərarlarının təfsirçiləri, şərhçiləri kimi tanınırdılar.

**Qocalığa görə pensiya** – Azərbaycan Respublikasının pensiya qanunvericiliyinə görə, əmək pensiyasının bir növü. Ümumi əsaslarla kişilər 60 yaşa çatdıqda və 25 ildən az əmək stajı olmamaqla; qadınlar 55 yaşa çatdıqda və 20 ildən az əmək stajı olmamaqla q.g.p. ilə təmin edilirlər. Güzəştli kateqoriyalar üçün aşağı yaş həddi və aşağı əmək stajı kifayət edir.

**Qohumluq** *(hüquqda)* – insanlar arasında qan birliyi (qan qohumluğu). Q.-la əlaqədar olaraq qanun hüquq və vəzifələrin əmələ gəlməsini, dəyişməsini və ya onların xitamını əlaqələndirir. Azərbaycan Respublikasında həm düz xətlə, yəni birbaşa olan (məsələn, ata-oğul, nənə-nəvə), həm də yanakı, yəni dolayı qohumluğun (belə qohumluq ümumi əcdadın olmasına əsaslanır, məsələn, qardaş-bacı, əmi-qardaşoğlu) hüquqi əhəmiyyəti vardır.

Düz xətlə olan qohumluq yuxarı düz *xətlə qohumluğa* (nəvədən babayadək) və aşağı düz xətlə qohumluğa (babadan nəvəyədək) ayrılır. Bacı və qardaşlar doğma (ümumi ata və anadan olanlar) və ögey ola bilərlər. Bir atadan, lakin ayrı-ayrı anadan doğulanlar atabir, bir anadan, lakin ayrı ayrı atadan doğulanlar anabir qohum hesab olunurlar. Qohumlar arasında qan birliyinin yaxınlığını göstərən qohumluq dərəcələri də fərqləndirilir. Məsələn, valideynlər və uşaqlar birinci dərəcəli, bacı və qardaşlar ikinci dərəcəli qohumlardır. Övladlığa götürən və övladlığa götürülənlər arasındakı münasibətlər də hüquqi cəhətdən qohumluğa bərabər tutulur. Ər-arvad arasındakı münasibətlər qohumluq deyil. Qədim Azərbaycanda ayrıca "süd qohumluğu" anlayışı da mövcud olmuşdur. Belə qohumluq ananın özgə uşağını əmizdirməsinə əsaslanırdı. Bu da hüquqi cəhətdən qohumluğa bərabər tutulurdu.

**Qoloqrafiya** *(bax: kriminalistik qoloqrafiya).*

**Qoloskop** *(yun. holos – çəki, tam + skoreo – nəzərdən keçirirəm, müşahidə edirəm)* – düzünə görünmə zonasından kənarda olan həcmli obyektlərin qeydə alınması üçün istifadə olunan kompakt qurğu. Q.-un köməyi ilə işığa həssas materiala dair məlumatın yazılması həyata keçirilir *(həmçinin bax: kriminalistik qoloqrafiya).*

**Qomindan** *(hərfi mənası – siyasi partiya)* – Çində əvvəllər (1912-ci ildən), mütərəqqi rol oynamış, sonralar isə (1927-ci ildən) burjua-mülkədar irticasının hakim partiyasına çevrilmiş siyasi partiya. Q. partiyasının hakimiyyəti Çin xalqı tərəfindən 1949-cu ildə devrilmişdir.

**Qonşuluq hüququ** – mülkiyyət hüququnun məhdudlaşdırılmasının müddəalarından biri. AR MM-in 170.1-ci maddəsinə uyğun olaraq ikitərəfli təsirlərin törəyə biləcəyi hər bir torpaq sahəsi və ya digər daşınmaz əmlak qonşunun sahəsi və ya əmlakı sayılır.

Öz mülkiyyət hüququnu həyata keçirən hər kəs qonşunun mülkiyyətinə hər cür həd-





siz təsirlərdən çəkinməlidir. Heç kəsə icazə verilmir ki, suyun təbii axımını qonşunun ziyanına dəyişdirsin. Aşağı torpaq sahəsi üçün zəruri olan su yuxarı torpaq sahəsi üçün olan həcmdə axıdıla bilər. Bir neçə torpaq sahəsindən axan tullantı və yeraltı suların istiqamətini dəyişdirmək, başqa torpaq sahələrində suyun miqdarını azaltmaq və ya keyfiyyətini pisləşdirmək yolverilməzdir.

**Qoşa nikah** – ibtidai icma quruluşunda mövcud olmuş təknikahlıq forması. Q.n.-lıq monoqamiyadan ailənin xüsusi iqtisadi özəyi təşkil etməməsi ilə fərqlənmişdir. Q.n.-ın asanlıqla pozulması və möhkəm olmaması da bununla əlaqədar idi. Çox geniş yayılmış nəzəriyyəyə görə q.n. qrup nikahını əvəz etmişdir. Q.n.-da qrup nikahlarının qalıqlarına (nikaha qədər və nikahdankənar əlaqələr, "əsas" ər və arvadla yanaşı "əlavə" ər və arvadın da olması) yol verilməsi buradan irəli gəlmişdir. Başqa bir nəzəriyyəyə görə, cinslər arasındakı qrup münasibətləri elementləri ilə çulğaşan q.n. ən qədim nikah forması olmuşdur.

**Qraf** *(alm. graf)* – **1)** erkən orta əsrlərdə Qərbi Avropada məhkəmə hakimiyyətinə, inzibati və hərbi hakimiyyətə malik olan şəxs; **2)** feodal pərakəndəliyi dövründə sahibkar feodal; **3)** zadəganların yuxarı təbəqəsinin irsi titulu. Bu titul Rusiyada I Pyotr tərəfindən təsis edilmişdir.

**Qraflıq** – **1)** Qərbi Avropada feodalizm dövründə başında qrafın durduğu irsi feodal sahibliyi; **2)** qrafın titulu; **3)** İngiltərədə, ABŞ-da və bəzi Qərbi Avropa ölkələrində inzibati ərazi vahidi.

**Qrafologiya** – *(yun. grapho – yazıram + logos – söz, anlayış, təlim; ing. graphology)* – xətt haqqında təlim, onun yazıda əks olunması nöqteyi-nəzərindən xassələrinin və yazan şəxsin psixoloji vəziyyətinin tədqiq edilməsi. Q. o cümlədən kriminalistikada tətbiq edilir.

**Qrammatik təfsir** *(bax: qanunun mətni (qrammatik) təfsiri).*

**Qramota** *(yun. grammata – qiraət və yazı)* – **1)** hər hansı beynəlxalq sazişi təsdiq və ya hansısa hüquqi əlaqələri müəyyən edən (ratifikasiyaedici qramota, etimad qramotası və i.a.) rəsmi yazılı akt; **2)** Rusiyada X yüzillikdə - XX yüzilliyin başlanğıcında şəxsə xüsusi mükafat, yaxud *təltif kimi verilən* rəsmi və ya xüsusi (məsələn, fərqlənmə qramotası) yazılı akt.

**Qrandlar** – orta əsr İspaniyasında cəmiyyətin yuxarı təbəqəsinə mənsub olan (həm dini, həm də dünyəvi) zadəganlar. XVI-XX yüzilliklərdə (1931-ci ilədək) qrand zadəgan *titulu kimi mövcud olmuşdur.*

**Qrantdan vergitutma** – "Qrant haqqında" Azərbaycan Respublikası qanununun 5-ci maddəsinə uyğun olaraq qrant haqqında müqaviləyə və ya qərara əsasən qrant kimi alınan pul və (və ya) hər hansı digər maddi yardım bütün növ vergilərdən və dövlət büdcəsinə icbari ödənişlərdən azaddır. Qrantdan istifadə zamanı layihə və proqramların yerinə yetirilməsində iştirak edən hüquqi şəxslər resipiyentdən aldıqları haqdan qüvvədə olan qanunvericiliyə müvafiq surətdə vergilər ödəyirlər.

Qrantdan istifadə zamanı layihə və proqramların yerinə yetirilməsində iştirak edən fiziki şəxslərin resipiyentdən aldıqları haqdan mövcud qanunvericiliyə müvafiq olaraq gəlir vergisi tutulur. Fiziki şəxslərə ödədiyi

haqq müqabilində resipiyent icbari ödənişlərdən azaddır. Qrant predmeti olan layihə başa çatdırıldıqdan sonra resipiyentin sərəncamında qalan maliyyə vəsaiti, yaxud qrant kimi verilən və ya qrant hesabına əldə edilən dəyərlərin satılıb pula çevrilməsi yolu ilə onun sərəncamına daxil olan və qrant predmeti ola biləcək layihə və proqramların həyata keçirilməsinə yönəldilən maliyyə vəsaiti vergitutma obyekti deyil.

**Qrant-element** – beynəlxalq statistikada inteqral göstərici; kreditlərin və borcların verilməsi şərtlərinin müqayisə edilməsi üçün istifadə olunur. Q.-e. kreditin (borcun) güzəştli şərtlərlə verilməsi nəticəsində ödəmələrin hansı hissəsinin borcun ödənilməsi hesabına keçmədiyini və kreditorun onu ala bilmədiyini göstərir.

**“Qrant haqqında” qanun** – Azərbaycan Respublikasında qrantların verilməsi, alınması və istifadəsi ilə bağlı iqtisadi və hüquqi münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 17 aprel 1998-ci il tarixdə qəbul edilmişdir və 6 maddədən ibarətdir.

**Qrantlar** – humanitar, sosial və ekoloji layihələri, müharibə və təbii fəlakət nəticəsində ziyan çəkmiş ərazilərdə dağılmış istehsal, sosial təyinatlı obyektlərin və infrastrukturun bərpası üzrə işləri təhsil, səhiyyə, mədəniyyət, hüquqi məsləhət, informasiya, nəşriyyat və idman sahələrində proqramları, elm, tədqiqat və layihələşdirmə proqramlarını, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən digər proqramları hazırlamaq və həyata keçirmək üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada göstərilən yardımlar.

Q. yalnız müəyyən məqsəd (məqsədlər) üçün verilir. O, maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada verilə bilər. Onun əvəzi hər hansı bir şəkildə geri istənilə bilməz. Birbaşa mənfəət əldə etmək üçün istifadə edilən maddi yardım qrant hesab olunmur. Bilavasitə siyasi hakimiyyət uğrunda mübarizə məqsədləri, qanunların və digər qanunvericilik aktlarının qəbul etdirilməsi üzrə lobbiçilik fəaliyyəti, siyasi reklam, hər hansı siyasi təşkilatın (təşkilatların) və ya siyasi xadimin (xadimlərin) seçki kompaniyasının maliyyələşdirilməsi üçün istifadə edilən maddi yardım qrant sayılmır.

**Qrefye** *(fr. greffier)* – Fransada və Belçikada parlament və ya məhkəmə yanında rəsmi hesabatları tərtib, sənədləri redaktə edən vəzifəli şəxs.

**“Qreşem qanunu”** – XVI yüzillikdə İngiltərənin dövlət xadimi və maliyyəçisi T. Qreşem tərəfindən müəyyən edilmiş iqtisadi qanun. Qreşemə görə, “pis pul yaxşı pulu tədavüldən çıxarır”. Əslində isə bu müddəa artıq Qreşemə qədər məlum idi. Çünki belə bir şeyə diqqət yetirilmişdi ki, nominal qiyməti eyni, lakin dəyəri müxtəlif olan sikkələrin tədavülü zamanı tədavül vasitəsi funksiyasını natamam qiymətli sikkələr yerinə yetirir, tam qiymətli sikkələr isə tədavüldən çıxır. Onlar ya dəfinəyə çevrilir, ya əridilərək külçə halına salınır, ya da xaricə aparılırlar. Bu qanunu hələ 1526-cı ildə N. Kopernik müəyyən etmişdi.

**Qridlər** – Qədim Rus dövlətində knyaz drujinaları, knyazın cangüdənləri (mühafizəçiləri). Q. IX-XII yüzilliklərdə fəaliyyət göstərmişlər.

**Qrif** – **1)** imza nümunəli və ya hər hansı mətnə malik olan möhür, ştempel, habelə belə möhürün və ya ştempelin sənəddə izi; **2)** sənəddə və ya dərc olunmuş nəşrdə ondan istifadənin xüsusi qaydasını müəyyən edən yazı. Məsələn, “xidməti istifadə üçün” qrifi.





**Qrossmühasibat** – mühasibatda hesabların və mədaxil-məxaric əməliyyatlarının məlumatlarını əks etdirən əsas kitab.

**Qrup cinayəti** – qrup (iki və ya daha artıq şəxs) tərəfindən törədilən cinayət. Bir cinayətkar tərəfindən törədilmiş analoji cinayət əməli ilə müqayisədə q.c. daha böyük ictimai təhlükəlilikdən ibarətdir. Kriminalistikada cinayətkar qrupların aşağıdakı tipləri fərqləndirilir: a) kompaniya tipli təsadüfi cinayətkar qrup; b) mütəşəkkil cinayətkar qrup; c) cinayətkar təşkilat. Mütəşəkkil cinayətkar qrup daha ictimai təhlükəlidir. O, öz tərkibinin sabitliyi, sərt intizamı, xüsusi davranış normaları və dəyərli yönümləri ilə xarakterizə olunur. Belə qrupa onun təşkilatçısı və rəhbəri olan lider başçılıq edir. Qrup üzvləri differensiasiyalaşmış və inkişaf etmiş rola malik olurlar. İnkişaf etmiş funksional struktur sayəsində mütəşəkkil qrup cinayətlərin törədilməsinin mürəkkəb üsullarından istifadə edə bilər. Həmin üsullar adətən uzun sürən hazırlıq, müxtəlif texniki vasitələrin və alətlərin, nəqliyyatın, törədilmiş cinayətlərin və cinayətkar fəaliyyətin nəticələrinin gizlədilməsi üçün müxtəlif vasitələrin tətbiqi ilə əlaqədardır.

Cinayətkar qruplar özünün yüksək mütəşəkkillik dərəcəsinə və təşkilatçılığına görə cinayətkar təşkilatlara çevrilirlər. Cinayətkar təşkilat öz liderləri və ciddi konspirasiyaları olan ayrı-ayrı bloklardan və həlqələrdən ibarətdir. Onun strukturuna müdafiə, mühafizə blokları və ya qrupları daxildir. Həmin tərkibə idarə və müəssisələrin, bunların müdiriyyətinin bəzi nümayəndələri, hüquq-mühafizə və nəzarət orqanlarının əməkdaşları cəlb oluna bilərlər.

Q.c.-lərinin istintaqı özünəməxsus bir sıra xüsusiyyətlərə malikdir. Q.c. işləri üzrə sübutetmənin xüsusiyyətləri bunlara aid edilir, çünki belə hallarda sübutların mənbələrinin çoxluğu mövcud olur.

**Qrup kvotası** – seçki kvotasının növlərindən biri. Verilmiş səslərin sayının sonradan əlavə olunmuş mandat vahidlərinin sayına bölünməsi yolu ilə hesablanır. Litvada, Çexiyada və bir sıra başqa ölkələrdə tətbiq edilir.

**Qrup mənsubiyyəti** *(kriminalistikada)* – ekspert tədqiqatlarında obyektin qrup adlandırılan çoxluğa mənsubiyyəti. Qrupun həcmindən asılı olaraq q.m.-ni cinsi (növə malik) mənsubiyyət adlandırırlar. Q.m.-nin müəyyən edilməsi ekspertizanın aparılması zamanı müstəqil ekspert vəzifələrinin (məsələn, obyektin müəyyən bir qrupa aid edilməsi) məzmununu təşkil edə və ya eyniləşdirmə mərhələsi qismində çıxış edə bilər. “Q.m.” termini keçmiş SSRİ-də 1951-ci ildə kriminalist-alimlər G.M. Minkovski və N.P. Yablokov tərəfindən təklif edilmişdir.

**Qrup nikahı** – nikahın ən qədim forması. Q.n. bir fratriyanın, yaxud müəyyən bir qəbilənin bütün kişiləri ilə digər bir qəbilədaxili qrupun qadınları arasında olan nikah münasibəti idi. İlkin intim promiskuitetdən (cinslər arasında məhdudlaşdırılmayan cinsi əlaqədən) yaranmış və öz inkişafında qoşa nikahla əvəz olunmuşdur. Qədim dövrlərdə nikahın bu formasının mövcud olması avstraliyalıların və geridə qalmış bəzi başqa xalqların etnoqrafik tədqiqatları nəticəsində müəyyən edilmişdir.

**Qrup sığortası** – şəxsi sığorta növlərindən biri. Q.s. müqavilələri müəssisələrin müdiriyyətləri və ya həmkarlar ittifaqları ilə bağlanır.

**Quba** – XVI-XVII yüzilliklərdə Moskva dövlətində ərazi məhkəmə-polis dairəsi. Belə dairədə quba idarəsi fəaliyyət göstərirdi. Volostların qubalara ilk bölgüsü Pskov torpağında meydana gəlmişdir. Moskva dövlətində q.-nın ölçüsü (ərazisi) qeyri-müəyyən idi və o, inzibati ərazi bölgüsü ilə üst-üstə düşmürdü.

**Quba idarəsi** – Moskva dövlətində XVI yüzilliyin 30-cu illərində yaranan, cinayət polisi və ən mühüm cinayət işləri üzrə məhkəmə funksiyasını həyata keçirən yerli özünüidarə orqanı. Q.i.-nin başında (əgər quba xeyli ölçüyə malik olardısa, iki və ya daha çox olardısa) əhalinin bütün təbəqələri tərəfindən seçilən, lakin mütləq zadəgan, yaxud boyar uşaqlarından olan quba starostası dururdu. Quba starostası öz təsdiqini Moskvadan alırdı. Q.i. 1702-ci ildə qəti olaraq ləğv edilmişdir.

**Quba islahatı** – XVI yüzilliyin 30-50-ci illərində Rus dövlətində keçirilmiş tədbir. Bu islahat nəticəsində oğrular və quldurlar haqqında cinayət işləri canişinlər məhkəməsindən alınaraq quba müəssisələrinə verilmişdir.

**Quba qramotları** – XVI yüzilliyin 40-cı illərindən başlayaraq Moskva hökumətinin quba müəssisələri yaratdığı, yerli icmalara və inzibati vahidlərə oğruları və quldurları müstəqil surətdə təqib etmək və cəzalandırmaq hüququ verdiyi aktlar. Bunun nəticəsində quba müəssisələrinin məhkəmə funksiyaları xeyli genişlənmişdir.

**Quba müəssisələri** – XVI yüzilliyin 30-40-cı illərindən 1702-ci illədək Rusiyada quba miqyaslarında fəaliyyət göstərmiş yerli özünüidarə orqanları. Əvvəlcə cinayət işləri üzrə məhkəmə funksiyasını yerinə yetirmiş, sonra isə cari idarəçiliklə əlaqədar digər məsələlərlə məşğul olmuşdur.

**Qubernator** *(lat. gubernator – hökmdar)* – bir sıra dövlətlərin ərazi vahidlərində seçilən və ya təyin olunan ali inzibati şəxs. Q., bir qayda olaraq, ştatların və federasiyanın digər subyektlərinin icra hakimiyyətinə başçılıq etsə də, o, şəhər idarəçiliyinin başında da dura bilər.

**Quberniya** – bir sıra ölkələrdə mövcud olmuş inzibati ərazi vahidi. Q. Rusiyada 1708-ci ildən mövcud olmuş, 1929-cu ildə ləğv edilmişdir. Rusiyada q. qəzalara bölünürdü. Bəzi q.-lar general-qubernatorluqda birləşmişdilər. 1917-ci ilə doğru 78 q. olmuş, onların 25-i Polşaya, Finlandiyaya və Baltikyanı ölkələrə keçmişdir. 1923-1929-cu illərdə q.-ların əvəzinə diyar və vilayətlər yaradılmışdır.

**Qudvill** *(ing. good will – xoş məram, iradə)* – şirkətin aktivləri kimi onun qiymətləndirilə və xüsusi hesaba daxil edilə bilən müştərilərinin və kadrlarının nüfuzu, işgüzarlığı, əlaqələri. Q. müstəqil bazar dəyərinə malik olmasa da, ödəmələr zamanı başlıca rol oynayır.

**Qulaq** – islah-əmək düşərgələrinin və həbs yerlərinin baş idarəsinnin abbreviaturası. 1934-1956-cı illərdə keçmiş SSRİ-də XDİK-nın (DİN-in) islah-əmək düşərgələrinin sisteminə rəhbərlik etmiş bölməsi. Düşərgələrdə ağır və sərt rejim müəyyən edilmişdi. Ən adi insan hüquqlarına əməl edilmir, rejimin ən xırda pozuntusuna görə sərt tədbirlər tətbiq edilirdi. Məhbuslar kanalların tikintisində, yolların salınmasında, Uzaq Şimalın və Uzaq Şərqin müxtəlif sənaye obyektlərində pulsuz işlədilirdilər.





**Qul alveri** *(bax: köləlik).*

**Quldarlıq hüququ** – quldarlıq cəmiyyətində quldarların hüquqi vəziyyətini möhkəmləndirən, onların mənafelərinə xidmət edən və kölələrin hüquqsuz vəziyyətini qanuniləşdirən hüquq tipi. Q.h.-na görə qullar əşya, "danışan alət" (instrumentum vocale) hesab olunurdular. Qullar hüququn subyekti deyil, obyekti idilər və onların barəsində əqdlər bağlana bilərdi. Q.h. öz normalarında qulların ən amansız şəkildə istismarını təsbit edir, onlarla ən qəddar rəftara (onların quldarlar tərəfindən öldürülməsi də daxil olmaqla) haqq qazandırırdı. Q.h.-nun səciyyəvi cəhətlərindən biri quldarların öz aralarında, azad əhali içərisində hüquq bərabərsizliyinin mövcud olması idi. Belə ki, Qədim Yunanıstanda Solonun, Romada Servi Tullinin qanunları azad vətəndaşların hüquqi vəziyyətini onların əmlakının miqdarından asılı olaraq müəyyən edirdi.

Q.h.-nun müxtəlif mənbələri məlumdur. Ən qədim mənbə adətlər hesab olunur. Mənbələr içərisində məhkəmə presedentləri mühüm yer tuturlar. Əslində isə məhkəmə kazuslarına dair qərarlar hüquq normaları hesab olunur və bütün oxşar işlərə baxılmasında məcburi qanuni qüvvə kəsb edirdilər. Ayrı-ayrı vəzifəli şəxslərin – imperatorların, konsulların və i.a. hüquqi qüvvə kəsb edən müxtəlif qərarları quldarlıq hüququnun formaları (mənbələri) kimi mühüm əhəmiyyətə malik olmuşdur. Qədim Romada pretor edikləri məhz belə aktlardan idi. Pretorlar məhkəmə hakimlərinə verdikləri göstərişləri xüsusi aktlarda – ediktlərdə təsbit edirdilər ki, bu da "pretor hüququ"nun əmələ gəlməsinə səbəb olmuşdur.

**Quldurluq** – özgənin əmlakını ələ keçirmə məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı olan basqın. AR CM-in 181-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlidir. Q. əməli hücum etmə anından başa çatmış cinayət hesab olunur və yalnız düzünə qəsdlə törədilir.

**Qulluğa səhlənkar yanaşma** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 342-ci maddəsində nəzərdə tutulmuşdur. Rəisin və ya vəzifəli şəxsin öz xidməti borcuna səhlənkar yanaşmasında ifadə olunur.

**Qulluqçular** – qeyri-fiziki və əqli (intellektual) əmək sahəsində çalışan, sabit müəyyən edilmiş əməkhaqqı alan işçilər.

**Quran** *(ər. mütaliə, oxu)* – müsəlmanların müqəddəs kitabı. Məhəmməd peyğəmbərə nazil olmuş "ilahi vəhylərin" məcmusundan ibarətdir. Quran "surə" adlanan 114 fəsilə bölünür. Quran Məhəmməd peyğəmbərə təqribən 23 il ərzində Allah tərəfindən vəhy olunmuşdur. Vəhy sözünün hərfi mənası "gizli səs", "gizli danışıq", "rəmz" və "ilham" deməkdir.

Quranın vahid kitab şəklində tərtibinə ilk dəfə Ömərin təşəbbüsü ilə Əbu Bəkrin xəlifəliyi dövründə başlanmış, sonra bu iş Osmanın xəlifəliyi dövründə davam etdirilmişdir. Quran müxtəlif qiraət variantlarına və bölgülərə görə 6204, yaxud 6236 ayədən, 77934 sözdən ibarətdir.

Dünya mədəniyyətinin ən möhtəşəm abidələrindən biri olan Quran müsəlmanlığın dini-fəlsəfi, hüquqi qaynağı olmaqla yanaşı, həm də çox mühüm ədəbi-tarixi salnamədir. Quranda ərəblərin islamdan əvvəlki tarixinə, adət-ənənələrinə, həyat tərzinə,

dinlərinə, əxlaqına, sami xalqlarının dünyagörüşünə, ictimai-siyasi görüşlərinə dair çox qiymətli məlumatlar vardır. Quran bütün elmləri, ictimai-siyasi həyatın ən mühüm problemlərini, cəmiyyəti düşündürən və narahat edən məsələlərin cavabını, müsəlman icmasının əsas hüquqi məsələlərini özündə cəmləşdirən yeganə nüfuzlu mənbədir. Quran müsəlman hüququnun ən başlıca və mötəbər mənbəyi hesab olunur. Hətta ondan sonrakı digər mənbələrə istinad edildiyi zaman həmin mənbələrdən götürülən müddəalar Quranın göstərişlərinə uyğunlaşdırılır.

Quran bütün müsəlmanlar üçün başlıca dini təlim mənbəyi olmaqla yanaşı, həm də etik, hüquqi, təsərrüfat xarakterli təlimatlar, qaydalar, qadağanlar və göstərişlər qaynağıdır. Sosial həyatın elə bir sahəsi yoxdur ki, Quranın müddəaları ilə əhatə olunmasınlar.

Quran müsəlman Şərqinin ictimai-siyasi və hüquqi fikrinin, ümumiyyətlə isə islamın dini-fəlsəfi və sosial-siyasi ideologiyasının öyrənilməsi, həmçinin tədqiq edilməsi baxımından tükənməz bir məlumat xəzinəsidir. Onun ictimai münasibətlərdən və qismən də olsa hüquq normalarından bəhs edən müddəaları şəriətin əsasını təşkil edir. Quran insan şəxsiyyətini toxunulmaz, mülkiyyəti müqəddəs, qadını ən ülvi və ehtirama layiq varlıq elan edir. O, insanın hüquq və azadlıqlarını ən qiymətli nemət kimi qiymətləndirir, bütün yer üzündə sosial ədaləti və bərabərliyi, əbədi sülhü və dincliyi ali sərvətlər zirvəsinə qaldırır. Quran cinayəti qəti surətdə pisləyir, əliəyriliyi, dələduzluğu, etibardan sui-istifadəni, yalanı və iftiranı, hər cür vicdansızlığı labüd cəzaya məhkum edir. Quran cəzanı şər əməlin, qeyri-əxlaqi davranışın və insanlığa qarşı hər hansı qanunsuzluğun zəruri mükafatı kimi qiymətləndirir.

Quran dünyanın bütün xalqlarını bərabər səviyyəli varlıqlar kimi təqdim edir. Qurana görə, nə millətin, nə də xalqın pisi yoxdur; yaxşı və pis insan var. Bütün dünya dövlətlərinin və dövlət başçılarının ən ümdə vəzifəsi insanı qorumaqdan, onun hüquq və azadlıqlarını təmin etməkdən, bəşəriyyəti qanlı müharibələrdən müdafiə və xilas etməkdən ibarətdir. Quranın bütün göstərişləri, hər şeydən əvvəl, bütün yer üzünün insanlarının, onların yaratdıqları nemətlərin və nəhayət, dünyanın özünün asayişinin qorunmasına istiqamətlənmişdir.

**Qurultay**[1] *(monqolca xurultay; müasir monqol dilində – xuraldan; türk dilində – məclis, yığıncaq, toplanış)* – **1)** inqilabdan əvvəlki Monqolustanda hakim feodal sinfi nümayəndələrinin yığıncağı. Q. Monqolustan ərazisində ibtidai cəmiyyətin dağılması və ilk feodal dövlət birləşmələrinin yaranması (VIII-XI yüzilliklər) dövründən məlumdur. XII-XVII yüzilliklərdə mühüm dövlət məsələlərinin həlli, o cümlədən Monqolustanın böyük xanlarının seçilməsi üçün müntəzəm çağırılırdı; **2)** 1921-ci il Monqolustan xalq inqilabından sonra demokratik yolla seçilən xalq nümayəndələri məclisi; **3)** Rusiyada Böyük Oktyabr dövlət çevrilişindən sonra Xarəzm Sovet Respublikasında və Buxara Sovet Respublikasında ali dövlət hakimiyyəti orqanı.

**Qurultay**[2] – hər hansı təşkilatın və ya əhali qruplarının, hər hansı sahə xadimlərinin nümayəndələrinin yığıncağı. Məsələn, yazıçılar, rəssamlar ittifaqlarının qurultayı, siyasi partiyanın qurultayı və i.a.





# -L-

Lafet ... 701
Lakey ... 701
Laqtinq ... 701
Lal-kar və kor şəxsin vəsiyyətnaməsi ... 701
Landrat ... 701
Landrixtyorlar ... 701
Landsknext ... 701
Landstinq ... 701
Landtaq ... 701
Lassalçılıq ... 702
Latent cinayətkarlıq ... 702
Latentlik ... 702
Lateran sazişləri ... 702
Latifundiya ... 702
Latronlar ... 702
Lebiyanlıq ... 703
Legion ... 703
Legisaksion proses ... 703
Legislativa ... 703
Legislatura ... 703
Legistlər ... 703
Legitimist ... 703
Legitimizm ... 703
Legitimləşdirmə ... 703
Legitimlik ... 704
Lekaj ... 704
Leqal ... 704
Leqallaşdırma ... 704
Leqallıq ... 704
Leqasiya ... 704
Leqat ... 704
Leqatari ... 704
Lemma ... 704
Len ... 704
Lençi ... 704
Lend-liz ... 704
Lendlord ... 704
Lendlordizm ... 704
Len hüququ ... 705
Leninizm ... 705
Le Şapelye Qanunu ... 705
Levellerlər ... 705
Leyboristlər ... 705
Leydeys ... 705
Leypsiq mühakiməsi ... 705
Leytenant ... 706
Ləğvetmə balansı ... 706
Ləğvetmə komissiyası ... 706
Ləngitmə hüququ ... 706
Libellyar proses ... 706
Liberal ... 706
Liberalizm ... 706
Liberum-veto ... 706
Lider ... 706
Lifo ... 706
Liktorlar ... 706
Liman adətləri ... 707
Liman-franko ... 707
Liman hakimiyyət orqanları ... 707
Liman hakimiyyət orqanlarının çəkdiyi xərclərin əvəzinin ödənilməsi ... 707
Liman yedəkləməsində məsuliyyət ... 707
Limit ... 707
Linç məhkəməsi ... 707
Linkor (müntəzəm işləyən gəmi) ... 707
Lion yoxsulları ... 707
Lisenziar ... 708
Lisenziat ... 708
Lisenziya ... 708
Lisenziyalaşdırma ... 708

Lisenziya müqaviləsi ........ 708
Lisenziya ödəməsi ........ 708
Lisenziya pasportu ........ 708
Lisenziya yığımı ........ 708
Listinq ........ 708
Litlər ........ 708
Litsini və Seksti qanunları ........ 708
Litteral kontraktlar (müqavilələr) ........ 709
Liturgiya ........ 709
Litva statutları ........ 709
Livoniya ordeni ........ 709
Lizholderlər ........ 709
Lizinq ........ 709
Lizinqalan ........ 709
Lizinq əqdi ........ 709
Lizinq fəaliyyəti ........ 709
Lizinq haqqı ........ 710
Lizinq xidməti ........ 710
"Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının qanunu ........ 710
Lizinq qəbul protokolu ........ 710
Lizinq müəssisəsi ........ 710
Lizinq müqaviləsi ........ 710
Lizinq ödəmələri ........ 710
Lizinq şirkətləri (firmaları) ........ 710
Lizinqverən ........ 710
Lobbi ........ 710
Lobbizm ........ 710
Lofoskopiya ........ 711
Lokal normativ akt ........ 711
Lokarno müqavilələri ........ 711
Lokarno sazişləri ........ 711
Lokaut ........ 711
Loko ........ 711
Loqofet ........ 711
Loqoqraflar ........ 711
Loqotip ........ 711
Lollardlar ........ 711
Lombard ........ 712
Lombard krediti ........ 712
Lombard məzənnəsi ........ 712
Lombrozoçuluq ........ 712
Lord ........ 712
Lord-kansler ........ 712
Lordlar palatası ........ 712
Loro-hesab (lorokonto) ........ 712
Lot ........ 712
Lotereya ........ 712
Lotereya bileti ........ 713
Lotereyalara və uduş tirajlarına dair müqavilə ........ 713
Loyal rəqabət ........ 713
Loyallıq ........ 713
LTD ........ 713
Lüblin uniyasiya ........ 713
Lümpsum ........ 713
Lüstrasiya ........ 713







**Lafet** *(alm. lafette)* – artilleriya silahının lüləsini bərkitmək üçün dəzgah. Atəş açmazdan əvvəl lüləni lazımi vəziyyətə gətirmək (nişanlayıcı mexanizmlər vasitəsilə), atəş açılan zaman təpmə enerjisini neytrallaşdırmaq (əks-hərəkət qurğusu ilə), həmçinin silahlı hərəkət etdirmək (bir yerdən başqa yerə aparmaq) üçündür. L.-in stasionar və yarımstasionar növləri mövcuddur.

**Lakey** *(fr. laguais)* – **1)** nökər, qulluqçu; **2)** məcazi mənada yaltaq, riyakar.

**Laqtinq** – Norveç parlamentinin yuxarı (aşağı palatası odelstinq adlanır) palatası (norveç parlamenti stortinq adlanır).

**Lal-kar və kor şəxsin vəsiyyətnaməsi** – mülki qanunvericiliyə görə, əgər vəsiyyət edən lal-kardırsa və ya lal-kar və savadsızdırsa, vəsiyyət sərəncamını o, notariusda iki şahidin və işin məğzini ona izah edə bilən və vəsiyyətnamənin məzmununun vəsiyyət edənin iradəsinə uyğunluğunu öz imzası ilə təsdiqləyən bir nəfər şəxsin yanında tərtib edilməlidir. Kor və ya savadsız olan vəsiyyət edən vəsiyyət sərəncamını notariusda üç şahidin yanında tərtib etməlidir. Bu barədə müvafiq qeyd yazılıb ona oxunmalıdır.

Əgər vəsiyyət edən lal-kak-kordursa və ya lal-kar-kor və savadsızdırsa, vəsiyyət sərəncamını notariusda dörd şahidin və işin məğzini ona izah edə bilən və vəsiyyətnamənin məzmununun vəsiyyət edənin iradəsinə uyğunluğunu öz imzası ilə təsdiqləyə bilən bir nəfər şəxsin yanında tərtib etməlidir.

Vəsiyyətnaməni şahidlər yaza və oxuya bilərlər, lakin vəsiyyətnaməni onu yazan oxumamalıdır. Qeyddə onu kimin yazdığı və vəsiyyət edənə oxuduğu göstərilməlidir. Qeyd şahidlər tərəfindən imzalanmalı və notarius tərəfindən təsdiqlənməlidir (AR MM-in 1183-cü maddəsi).

**Landrat** *(alm. landrat – şura, müşavir)* – **1)** Rusiyada 1713-1719-cu illərdə qəza zadəganlarının müşaviri; I Pyotr tərəfindən təsis edilmişdi. Quberniyanı idarə etmək üçün 8-12 l.-dan ibarət quberniya kollegiyası yaradılırdı. 1719-cu ildə l. voyevoda vəzifəsi ilə əvəz edilmişdir; **2)** AFR-də yerli idarəetmənin rayon orqanının başçısı; **3)** İsveçrədə bəzi katonlarda qanunverici orqanın adı.

**Landrixtyorlar** – XVIII yüzilliyin başlanğıcında Rusiyada Senat tərəfindən (qubernatorun təqdimatı ilə) bir və ya iki quberniya üzrə təyin edilən məmur. Məhkəmə, axtarış, bəzən də maliyyə işlərini aparırdılar. Ayrı-ayrı hallarda qubernatoru əvəz edə də bilərdilər.

**Landsknext** *(alm. landsknecht – muzdur, əsgər)* – XV-XVII yüzilliklərdə öz silahı ilə xidmət etməyə gələn muzdlu alman piyadası. L.-lərdən ibarət qoşun yoxsullaşmış zadəganlardan, sənətkarlardan, kəndli və şəhərlilərdən komplektləşdirilirdi. XVI yüzillikdən Fransada, Avstriyada, İspaniyada və digər ölkələrdə l. dəstələrindən geniş istifadə edilirdi. XVII yüzilliyin ikinci yarısından başlayaraq (daimi milli, nizami orduların yaranması ilə) ləğv olunmuşdur.

**Landstinq** – **1)** Aland adalarında parlamentin adı; **2)** İsveç vilayətlərində (lendlərində) 1862-ci ildən nümayəndəli özünüidarə orqanı; **3)** 1953-cü ilədək Danimarkada parlamentin yuxarı palatasının adı.

**Landtaq** *(lat. landtag – məclis, yığıncaq)* – **1)** orta əsr alman dövlətlərində (knyazlıqlarında) silki-nümayəndəli orqan; **2)** XVI-XVII yüzilliklərdə ayrı-ayrı alman

knyazlıqlarında yerli hakimiyyət orqanı; **3)** 1871-ci ildə Almaniya imperiyası yarananadək Şimali Almaniya İttifaqında nümayəndəli orqan; **4)** bir sıra dövlətlərdə nümayəndəli orqanın adı; **5)** 1419-1516-cı illərdə Livoniyada seçkili nümayəndəli orqanın adı. Sonralar Kurlyandiya, Liflyandiya və Estlyandiyada zadəgan məclisləri də l. adlandırılmışdır.

**Lassalçılıq** – Almaniya fəhlə hərəkatında opportunizmin və xırda burjua sosializminin bir növü. XIX yüzilliyin 60-cı illərinin əvvəllərində meydana gəlmiş və Almaniya Fəhlə İttifaqında hakim cərəyana çevrilmişdir. L.-ın ideoloji əsasını cərəyanın banisi F.Lassalın ümumi seçki hüququnun işçilərin kapitalist istismarından azad edilməsi yolunda universal siyasi vasitə olması, dövlətin köməyi ilə sosializmin cəmiyyətə tətbiqini təmin edən istehsalat birliklərinin yaradılması, kapitalist dövlətinin dinc yolla "xalq dövlətinə" çevrilməsi, əməkhaqqının "dəmir qanunu"na dair ehkamları təşkil edirdi.

**Latent cinayətkarlıq** – müəyyən ərazidə müəyyən zaman ərzində dövlətin hüquq-mühafizə orqanlarına məlum olmayan və buna görə də rəsmi cinayət statistikasında əks olunmayan cinayət cəhətdən cəzalanmalı əməl. Ümumiyyətlə, qeydə alınmayan cinayət cəhətdən cəzalanmalı əməllər mütləq l.c.-ğa aid edilir. Cinayətin qurbanı cinayətkarın özü və ya üçüncü şəxs əməli cinayət kimi qavrasa da, bu barədə hüquq-mühafizə orqanlarına məlumat vermədikdə cəzasız qalan əməl isə nisbi l.c.-ğa daxildir.

L.c. anlayışı həm də gizlədilən və gizlədilməyən cinayətkarlığın qarşılıqlı əlaqəsini əks etdirir. Xüsusi hüquq ədəbiyyatında l.c.-ın başqa defisiniyasına da təsadüf olunur. Məsələn, bəzən l.c. dedikdə hüquq-mühafizə orqanlarına məlum olan, lakin onları törədən cinayətkarın naməlum qaldığı cinayətlərin məcmusu da nəzərdə tutulur. L.c. daimi yüksəlişdə olan hadisə deyil. Onun səviyyəsi haqqında qeydə alınmış cinayətkarlığın səviyyəsi əsasında mülahizə yürütmək olar.

**Latentlik** – kriminalistikada müəyyən kəmiyyət xarakteristikası (gizlədilən cinayətlərin rəqəmləri) ilə səciyyələndirilən latent cinayətkarlığın vəziyyəti. Kriminoloji mənada l. dedikdə üstü açılmayan, aşkar olunmayan və barələrində dövlətin hüquq-mühafizə orqanlarına məlumat verilməyən törədilmiş cinayətkar əməllər başa düşülür.

**Lateran sazişləri** – İtaliya dövləti ilə Vatikan arasında bağlanmış sazişlər; 1929-cu il fevralın 11-də imzalanmış bu sazişlər 1984-cü ilin redaksiyasında hazırda da qüvvədədir. L.s.-n məzmununu maliyyə konvensiyalarından, konkordatdan ibarət olan müqavilələr təşkil edir. Həmin sazişlər "Roma məsələsinə" son qoymuşdur. Müqavilələr Roma şəhərinin ərazisində Vatikan suveren dövlətinin yaranmasını tanımışdır.

**Latifundiya** – Latın Amerikası ölkələrində xüsusi mülkiyyətdə olan geniş torpaq sahibliyinin adı. Müasir şəraitdə də onların bəzilərində əməyin yarımfeodal forması tətbiq edilir.

**Latronlar** *(lat. quldurlar)* – artıq Roma respublikası dövrü üçün, başlıca olaraq vətəndaş müharibəsindən sonra quldur dəstələrin fəallaşması səciyyəvi hal olmuşdur. Quldurluq bəzən kəndlilərin və kölələrin sinfi mübarizə formalarından biri kimi təzahür etmişdir. Ona görə də quldurluqla mübarizə üçün





bir sıra xüsusi qanunlar qəbul olunmuşdur. İmperiya dövründə imperatorların səylərinə baxmayaraq, yollarda təhlükəsizliyin tam təmin edilməsinə nail olunmamışdır.

**Lesbiyanlıq** *(Lesbos adalarının yunanca adından)* – qadının qadınla cinsi ehtirasının təmin edilməsi. Bir sıra ölkələrin cinayət qanunvericiliyində belə hərəkətlərə (məsələn, RF-in CM-sinin 132-ci maddəsi) görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

**Legion** *(lat. legio; legionis – toplayıram, yığıram)* – **1)** Qədim Roma ordusunda əsas təşkilatı və taktiki vahid. L.-a piyada və süvari qoşun daxil idi; **2)** XVI-XIX yüzilliklərdə Fransada, İngiltərədə, Almaniyada, Polşada və Rusiyada müxtəlif qeyri-daimi heyətli əsgəri birləşmələr; **3)** müasir dövrdə bir sıra ölkələrdə iğtişaşları, milli-azadlıq hərəkatlarını yatırtmaq üçün nəzərdə tutulmuş qoşun və polis birləşmələri.

**Legisaksion proses** – Qədim Roma ədliyyəsində xüsusi iddialar üzrə həyata keçirilən mühakimə icraatının tarixən ilk inkişaf forması. Prosesin adı qədim hüququn iddialarının adından götürülmüşdür, belə ki, həmin iddialar müstəsna dərəcədə qanunun (xüsusilə də XII Cədvəl Qanunlarının) göstərişlərinə əsaslanmışdır. L.p.-in normalarına əməl edilməsi iddiaçının pretenziyasının son dərəcə qanuni və formal olduğunu, iddianın elementlərinin analogiyadan ibarət olmadığını və söhbətin ancaq qanunla müəyyən edilmiş nəticələr haqqında gedəcəyini nəzərdə tuturdu. Əslində isə qanunda nəzərdə tutulan nəticələr iddiaçı üçün heç bir əmlak marağı doğurmurdu.

**Legislativa** *(fr. legislatuve)* – 1791-1792-ci illərdə (Koeventədək olan dövrdə) Böyük Fransa inqilabı dövründə, habelə 1849-1851-ci illərdə Fransada qanunvericilik məclisinin qısaldılmış adı.

**Legislatura** *(lat. legislator – qanun layihəsini təklif edən)* – **1)** nümayəndəli orqanın (parlamentin, bələdiyyə şurasının), yaxud seçkili vəzifəli şəxsin (prezidentin, vitse prezidentin, qubernatorun, merin) səlahiyyət müddəti; **2)** federativ idarəçilik formasına malik dövlətlərdə bəzən federasiyanın subyektlərinə verilən ad; **3)** hüquq ədəbiyyatında və siyasi ədəbiyyatda parlament termininin sinonimi.

**Legistlər** *(fr. legiste; lex – qanun)* – Roma hüququnu Qərbi Avropada yayan orta əsr hüquqşünasları. L. Qədim Roma hüququnu təcrübədə tətbiq etməyə səy göstərirdilər. Onlar XIII yüzillikdə Fransada xüsusi əhəmiyyət kəsb etmiş, kralın iri feodallarla mübarizəsində ona tərəfdar çıxmışlar.

**Legitimist** *(fr. legitimiste)* – devrilmiş monarxiyanın tərəfdarı olan şəxs.

**Legitimizm** *(fr.legitimiste; lat. legitimus – qanunilik)* – Fransa diplomatı Şarl Taleyranın Vyana konqresində (1814-1815-ci illər) irəli sürdüyü siyasi prinsip. L. prinsipi Fransanın 1792-ci il yanvarın 1-dək mövcud olan sərhədlərinin saxlanmasını da Prussiya ərazisinin genişləndirilməsinə yol verilməməsini nəzərdə tutur. Çar Rusiyası və Prussiyanın ilhaqçılıq planlarına mane olduğu üçün l. prinsipi qəbul edilməmişdi.

**Legitimləşdirmə** *(lat. legitimus – qanuni, qanuniləşdirilmiş)* – **1)** pasport sistemi olmayan xarici dövlətlərdə vətəndaşın şəxsiyyətini təsdiq etmə forması. L. səlahiyyətli hakimiyyət orqanının tələbi ilə vətəndaşın şəxsiyyətini təsdiq edən sə-

nədlərin ona təqdim edilməsindən ibarətdir; **2)** bir sıra xarici ölkələrin mülki hüququnda vətəndaşın müəyyən hüquqi hərəkətləri həyata keçirmək hüququnun sübutu.

**Legitimlik** – ölkə sakinlərinə, böyük qruplara, ictimai rəyə (o cümlədən xarici ölkə ictimaiyyətinin rəyinə), konkret dövlətdə fəaliyyət göstərən hakimiyyət institutlarına və onların hüquqiliyinə müsbət münasibəti bildirən siyasi-hüquqi anlayış.

**Lekaj** – nəqliyyat vasitələrindən boşaldılan zaman malların çəkisində və ya həcmində baş verən itki.

**Leqal** *(lat. legalis)* – qanuni, qanunla tanınan, qanunla icazə verilən.

**Leqallaşdırma** – qanuniləşdirmə, qanuni hesab etmə, qanuni qüvvə vermə, qanuni vəziyyətə gətirmə.

**Leqallıq** – qanunilik *(həmçinin bax: leqal; leqallaşdırma).*

**Leqasiya** *(lat. legatio – səfirlik, leqatın vəzifəsi)* – papa səfirliyi.

**Leqat** *(lat. legatus – səfir)* – **1)** Qədim Romada senatın təyin etdiyi səfir, yaxud siyasi tapşırığı (dövlət tapşırığını) yerinə yetirən müvəkkil. Respublikanın son dövründə əyalət sərkərdəsi və canişinin köməkçisi l. adlandırılırdı; **2)** papa leqatları – Roma papasının ali rütbəli (dərəcəli) nümayəndələri (səfirlər). Çox zaman hər hansı bir səfirə və diplomatik nümayəndəyə (agentə) də l. deyilirdi.

**Leqatari** – xeyrinə vəsiyyətdən imtina edilən şəxsin adı (leqat).

**Lemma** – veksel qeydi, yəni "veksel" sözlü sənədin adı; bu söz vekselin mətninə sənədin tərtib edildiyi dildə daxil edilir.

**Len** *(alm. lehn – borc vermək)* – orta əsrlər Almaniyasında hər hansı bir şəxsə hərbi və ya inzibati xidmət müqabilində bağışlanmış torpaq sahəsi (və ya başqa gəlir yeri, mənfəət mənbəyi). L. əvvəlcə benefist mənasında işlədilmişdir. Belə torpaq sahəsi XII yüzillikdə əsasən irsi xarakter daşımışdır. L. bəxşişləri nəticəsində Almaniyada feodal torpaq sahibliyinin pilləli sistemi təşəkkül tapmışdır. Bir sıra ölkələrdə torpaq sahibliyinin oxşar formaları da l. adlandırılmışdır.

**Lençi** – len asılılığında olan, lenə malik (sahib) olan şəxs.

**Lend-liz** *(ing. lend-lease – borc vermək)* – ikinci dünya müharibəsi dövründə ABŞ-ın antihitler koalisiyası üzrə müttəfiq olan ölkələrə silah, döyüş sursatı, strateji xammal, ərzaq, müxtəlif mallar və xidmətlər borc verməsi (və ya icarəyə verməsi) sistemi. L.-l. haqqında qanun 1941-ci il martın 11-də qəbul olunmuşdu. ABŞ-ın l.-l üzrə xərcləri (borcları və ya icarə haqları) 1941-ci il martın 11-dən 1945-ci il avqustun 1-dək 46 milyard dollar təşkil etmişdir. Bunun 9,8 milyard dolları ancaq keçmiş SSRİ-nin payına düşürdü.

**Lendlord** *(ing. landlord – mülkədar, torpaq lordu)* – orta əsrlərdə İngiltərədə iri feodal torpaq sahibi, lord. Böyük Britaniyada kapitalist münasibətlərinin formalaşması və inkişafı nəticəsində l. iri torpaq mülkiyyətçisi, kapitalist torpaq rentasının alıcısı kimi formalaşmışdır.

**Lendlordizm** *(ing. landlordism)* – Böyük Britaniyanın aqrar quruluşu üçün səciyyəvi olan kapitalist tipli torpaq sahibliyi sistemi. L.-in əsasını lendlordların tor-





paq üzərindəki inhisarı təşkil edirdi. Onlar torpaq sahələrini fermer-sahibkarlara icarəyə verir və bunun müqabilində kapitalist torpaq rentası alırdılar.

L. İngiltərədə XIV-XV yüzilliklərdə meydana gəlmişdir. Lendlordlar mühafizəkarlar partiyasının sıralarında mühüm rol oynamışlar.

**Len hüququ** – vassalla süzeren arasında münasibətləri müəyyən edən hüquq. Orta əsrlər Almaniyasının hüquq sistemində l.h. ali feodal təbəqəsinə aid olan hüquq normalarının (zem, şəhər hüququ və kanonik hüquqla yanaşı mövcud olmuşdur) ələhiddə kompleksindən ibarət olmuşdur.

**Leninizm** *(bax: marksizm – leninizm).*

**Le Şapelya qanunu** – Böyük Fransa inqilabı dövründə (1791-ci ildə) iri burjuaziyanın mənafelərini müdafiə edən deputat İ.R.Le Şapelyenin təklifi ilə Fransa Müəssisələr Məclisinin qəbul etdiyi fəhlələr əleyhinə qanun. Qanun fəhlələrin həmkarlar ittifaqlarında və i.a. təşkilatlarda birləşməsini, tətillərin keçirilməsini qadağan edirdi. Le Şapelyeni əksinqilabi fəaliyyətdə təqsirləndirərək edam etməsinə (1794-cü ildə) baxmayaraq, Yakobin diktaturası həmin qanunu qüvvədə saxlamışdı. Qanunun tətilləri qadağan edən hissəsi yalnız 1864-cü ildə ləğv edilmişdir. Həmkarlar ittifaqlarının fəaliyyət azadlığı isə 1884-cü ildə bərpa olunmuşdur.

**Levellerlər** *(ing. levellers – bərabərlik tərəfdarları)* – XVII yüzillikdə İngiltərədə burjua inqilabı dövründə radikal xırda demokratik burjuaziyanın nümayəndələri. Müstəqil ümummilli sosial-siyasi və qismən də hüquqi qruplaşma kimi 1547-ci ildə formalaşmışdır.

Həmin vaxtadək independentlərin sol cinahı kimi fəaliyyət göstərmişdir. Parlamentli (birpalatalı) respublika yaradılması, vətəndaşların qanun qarşısında bərabərliyi, azad ticarət, vergilərin azaldılması və i.a. l.-in əsas tələbləri olmuşdur. Lakin zadəgan torpaq sahibliyinin və xüsusi mülkiyyətin ləğvi əleyhinə çıxan l. ilə özlərini "Həqiqi l." adlandıran diggerlər arasında kəskin ixtilaflar mövcud idi. 1649-cu ilin may və sentyabr aylarında l.-in təşkil etdikləri əsgər üsyanları yatırıldıqdan sonra onların siyasi mövqeləri zəifləmiş, o, ictimai-siyasi bir hərəkat kimi XVII yüzilliyin ortalarında öz varlığını itirmişdir. L.-in sosial-siyasi və hüquqi ideyaları siyasi və hüquqi fikir tarixinin inkişafına təsir göstərmişdir.

**Leyboristlər** *(ing. labourists – əmək, zəhmət)* – Böyük Britaniyada, Avstraliyada, Yeni Zelandiyada və bir sıra başqa ölkələrdə mövcud olan leyborist partiyasının üzvləri.

**Leydeys** *(ing. laydays)* – gəminin yüklənməyə verilməsinin ən tez müddətini əks etdirən tarix. Həmin tarixədək fraxtverən gəmini qəbul edə və onun boş dayanması üçün cavab verə bilməz.

**Leypsiq mühakiməsi** – alman faşistlərinin kommunistlərə qarşı təşkil etdikləri fitnəkar məhkəmə prosesi; kommunistlər Reyxstaqı qəsdən yandırmaqda ittiham olunmuşlar. Proses 1933-cü il sentyabrın 21-dən dekabrın 23-dək davam etmişdir. Almaniyanın Leypsiq şəhərində keçirilmiş bu məhkəmə prosesi dünya ictimaiyyətinin geniş etirazına səbəb olmuş, hətta görkəmli hüquqşünaslardan təşkil edilmiş beynəlxalq komissiya (Londonda toplaşmışdılar) təkzibedilməz faktlarla Reyxstaqın məhz hitlerçilərin özləri tərəfindən yandırıldığını sübut etmişdir.

**Leytenant** *(fr. lieutenant – ilkin mənası müavin)* – bir sıra ölkələrin silahlı qüvvələrinin kiçik zabitlər heyətində rütbə. L. adı rütbə (vəzifə) kimi XV yüzillikdə Fransada təsis edilmişdir. XVII yüzillikdən başlayaraq orduda və donanmada hərbi rütbə kimi mövcuddur. Keçmiş SSRİ-də 1935-ci ildən təsis edilmişdir.

**Ləğvetmə balansı** *(bax: hüquqi şəxsin ləğv edilməsi).*

**Ləğvetmə komissiyası** – bağlanmaqda, ləğv edilməkdə və ya yenidən təşkil edilməkdə olan idarə, müəssisə və təşkilatların işlərinin, eləcə də pretenziyaların baxılmasının ləğv olunmasının tapşırıldığı müvəqqəti orqan.

**Ləngitmə hüququ** – mülki hüquqa görə borclunun kreditor barəsində öhdəlik icra edilənədək öz öhdəliyinin icrasından imtina etmiş hüququ (AR MM-in 562.1-ci maddəsi).

Belə hüquq AR MM-ə və ya müqaviləyə görə borclunun kreditor barəsində hüququ və ya bununla əlaqədar ödəniş müddəti çatmış tələbin olduğu hallarda yarana bilər. Ləngitmə predmetinin qanunsuz əldə edildiyi halda, l.h. istisna olunur. Əgər qarşılıqlı icra olunan öhdəliklər qarşılıqlı müqavilənin predmeti deyildirsə, kreditor qarantiyalar verməklə yolu ilə l.h.-nun həyata keçirilməsinin qarşısını ala bilər. L.h. kreditorun iddiası üzrə yalnız o zaman həyata keçirilə bilər ki, borcluya öhdəliyin ancaq kreditorun öz öhdəliyini icra etdiyi vaxt icra etmək (eyni vaxtda icra) vəzifəsi tapşırıla bilsin (AR MM-in 562.3,4 və 5-ci maddəsi).

**Libellyar proses** *(bax: ekstraordinar proses).*

**Liberal** *(lat. liberalis – azadlığa aid, azad)* – **1)** ilkin mənada azadfikirli, bəzən ifrat dərəcədə lütfkar, güzəştə gedən adam; **2)** liberalizmin tərəfdarı; məhdud mənada bir sıra dövlətlərdə liberallar partiyasının üzvü.

**Liberalizm** *(lat. liberalis – azad)* – **1)** feodal-təhkimçilik quruluşu və mütləq monarxiya ilə mübarizə dövründə (şəraitində) sənaye burjuaziyasının mənafeyini ifadə edən burjua siyasi və ideoloji cərəyanı. Monarxın hüquqlarını parlamentlə məhdudlaşdırmağı, konstitusiyalı quruluş yaradılmasını, burjuaziyanın dövlətin idarə olunmasında iştirakını, vətəndaşlara bir sıra azadlıqlar verilməsini tələb edirdi; **2)** məcazi mənada sosial həyatda mənfi təzahürlərə qarşı fəal mübarizə apara bilməmək, prinsipsiz sazişçilik, zərərli laqeydlik, səhlənkarlıq.

**Liberum-veto** *(lat. liberum – azad və veto – qadağan edirəm)* – XVI-XVIII yüzilliklərdə feodal-şlyaxta Polşasında istənilən seym üzvünün öz protesti ilə seymin qərarını ləğv etmək hüququndan ibarət olan konstitusiya ənənəsi. L.-v. ilk dəfə 1652-ci ildə tətbiq, 1791-ci ildə isə ləğv edilmişdir.

**Lider** *(ing. leader – aparıcı, rəhbər)* - **1)** siyasi partiyanın, həmkarlar ittifaqının, yaxud digər ictimai təşkilat və ya hərəkatın başçısı, rəhbəri; **2)** hər hansı dövlətdə cəmiyyət tərəfindən birmənalı şəkildə tanınan ümummilli öndər, ictimai-siyasi xadim.

**Lifo** *(ing. method LIFO)* – **1)** əmtəə-maddi sərvətlərin sonuncu daxil olmuş partiyasının qiyməti üzrə mühasibat uçotu metodu; **2)** əmanətin müəyyən bir hissəsinin bankdan vaxtından əvvəl götürülməsi zamanı faizlərin hesablanması metodu.

**Liktorlar** *(lat. lictores – mühafizəçilər)* – Qədim Romada aşağı dövlət vəzifələrindən biri. L. əvvəllər magistratların sərəncamlarını yerinə yetirir, sonralar isə onların yanında mühafizə və parad (fəxri keçid) funksiyalarını icra edirdilər.







**Liman adətləri** – yüklərin dəniz və çay daşımalarında tərəflərin davranış, qarşılıqlı münasibət qaydaları. L.a. yük əməliyyatlarının normalaşdırılmasına, bəzən isə staliya vaxtının və i.a. müəyyən edilməsinə xidmət edirlər. Belə adətlər dəniz və ya çay daşıması müqaviləsində nəqliyyat prosesi üzrə müvafiq müddəaların olmadığı hallarda tətbiq edilirlər.

**Liman-franko** – limanlarda azad gömrük zonalarının tarixi adı. Məsələn, XIX yüzillikdə Rusiyanın Odessa şəhəri 40 il ərzində Rusiyanın ümumi gömrük ərazisindən təcrid edilmiş şəraitdə heç bir rüsum və ya məhdudiyyətlər olmadan azad gömrük zonalarından biri olmuşdur.

**Liman hakimiyyət orqanları** – müvafiq icra hakimiyyəti orqanı tərəfindən onların üzərinə qoyulmuş inzibati-hakimiyyət səlahiyyətlərini və digər səlahiyyətləri həyata keçirən dəniz limanlarının müvafiq orqanları.

**Liman hakimiyyət orqanlarının çəkdiyi xərclərin əvəzinin ödənilməsi** – ticarət gəmiçiliyi qanunvericiliyinə görə dənizdə batmış əmlakın AR TGM-in 84.1-ci maddəsinə uyğun olaraq qaldırılması, uzaqlaşdırılması və ya məhv edilməsi ilə əlaqədar liman hakimiyyət orqanlarının çəkdiyi xərclərin əvəzinin ödənilməsinə dair tələbin həmin əmlaka yönəldilməsi Azərbaycan Respublikasının mülki qanunvericiliyinə əsasən həyata keçirilir (AR TCM-in 85-ci maddəsi).

**Liman yedəkləməsində məsuliyyət** – Azərbaycan Respublikasının ticarət gəmiçiliyi qanunvericiliyinə görə liman yedəkləməsi yedəyə alınan gəminin və ya digər üzən obyektin kapitanının idarəetməsi ilə həyata keçirilir. Əgər yedəyə alınan gəminin sahibi zərərin vurulmasında təqsirinin olmadığını sübuta yetirə bilməzsə, o, liman yedəkləməsi zamanı yedəkçi gəmiyə və ya həmin gəmidə olan insanlara və ya əmlaka vurulan zərərə görə məsuliyyət daşıyır (AR TGM-in 179-cu maddəsi).

**Limit** *(lat. limes – sərhəd)* – nəyinsə hüdud kəmiyyəti, hüdud norması; pul vəsaitlərinin sərf edilməsinin, materialların hər hansı bir fondan buraxılmasının hüdud ölçüsünü müəyyənləşdirən sənəd.

**Linç məhkəməsi** – ABŞ-da zəngilərə və mütərəqqi fikirli ağdərililərə istintaqsız və məhkəməsiz divan tutulması (özbaşına cəzalandırma). XVIII yüzillikdən başlayaraq işlədilən "l.m." termini amerikalı polkovnik Lençin adı ilə bağlıdır.

**Linkor (müntəzəm işləyən gəmi)** – dəniz döyüşündə müxtəlif gəmi növlərini məhv etmək və düşmənin sahil obyektlərinə güclü artilleriya zərbəsi endirmək üçün buxarla işləyən ən iri suüstü gəmi. L. müasir dövrdə öz hərbi əhəmiyyətini və təyinatını itirmişdir.

**Lion yoxsulları** – orta əsrlərdə fəaliyyət göstərmiş bidətçilik tərəfdarları. Həmin yoxsullar katolik kilsəsini kəskin tənqidə məruz qoymaqla yanaşı, onun mülkiyyət və gəlirlərdən əl çəkməsini tələb edir, hərbi xidmət, feodal məhkəməsi və xüsusilə də ölüm cəzası əleyhinə çıxırdılar. Hazırda l.y.-nın əsasən İtaliyada tərəfdarları qalmaqdadır.

**Lisenziar** *(bax: lisenziya müqaviləsi).*

**Lisenziat** *(bax: lisenziya müqaviləsi).*

**Lisenziya** *(lat. licentia – hüquq, icazə)* – **1)** xarici ticarətdə – müəyyən miqdar əmtəələrin aparılıb-gətirilməsi üçün dövlət orqanlarından alınan xüsusi icazə, yaxud bəzi malların azad surətdə aparılıb-gətirilməsini qadağan edən tranzit; **2)** digər şəxslərin, yaxud təşkilatların patentlə mühafizə olunan ixtiradan, habelə texniki nailiyyətlərdən, istehsal təcrübəsi və sirrindən, ticarət markasından və i.a. istifadə etmələrinə verilən icazə. L., bir qayda olaraq, kommersiya əqdi hesab olunur.

**Lisenziyalaşdırma** – lisenziyaların verilməsi, lisenziyaların olduğunu təsdiq edən sənədlərin yenidən rəsmiləşdirilməsi, lisenziyaların fəaliyyətinin dayandırılması və ya onların ləğv edilməsi ilə əlaqədar həyata keçirilən tədbirlər.

**Lisenziya müqaviləsi** – müqavilə növü. L.m.-nə görə bir tərəf (lisenziya verən, yaxud lisenziar) ixtiralardan və ya digər texniki nailiyyətlərdən istifadə etmək hüququ (lisenziya) verir, digər tərəf (lisenziya alan, yaxud lisenziat) bunun üçün müvafiq məbləği ödəyir. Lisenziya alan şəxsin vətəndaşı olduğu ölkənin qanunlarına görə ixtira hesab olunan texniki məsələlər lisenziya müqaviləsinin obyekti ola bilər. Digər texniki nailiyyətlər, o cümlədən istehsalat sirləri ("nou-hau") də lisenziya müqaviləsinin obyektləri kimi çıxış edə bilərlər.

**Lisenziya ödəməsi** – fiziki və ya hüquqi şəxs tərəfindən mülkiyyətin sahibinə, yaxud nəyinsə (mal nümunəsinin, istehsalat nailiyyətinin və i.a.) ixtiraçısına həmin mülkiyyətdən kommersiya məqsədləri üçün istifadə etmək hüququna görə verilən ödəmə.

**Lisenziya pasportu** – lisenziya müqaviləsində nəzərdə tutulmuş şərtlər əsasında obyektin alıcıya satılması mümkünlüyünü əsaslandıran sənəd. L.p. özündə lisenziya obyektinə aid olan texniki sənədləşdirmənin həcmi, elmi tədqiqatlara və təcrübə-konstruktor işlərinə sərf edilən vəsaitlər haqqında məlumatları ehtiva edir.

**Lisenziya yığımı** – importçuların və eksportçuların malları və nəqliyyat vasitələrini gömrük sərhədindən keçirərkən həmin ölkənin səlahiyyətli orqanlarından yazılı sanksiya aldıqları zaman ödədikləri vergi.

**Listinq** *(ing. listing – siyahıya daxil etmə)* – qiymətli kağızların birjaya buraxılması, onların məzənnə siyahısına daxil olunması. Əgər buraxılmış qiymətli kağızlar birjada qeydiyyatdan keçirilmişdirsə, onların alqı-satqı əməliyyatlarını keçirmək mümkün olur. L.-ə daxil edilməmiş səhmlər "piştaxtalardan", "küçə" bazarında satılırlar.

**Litlər** – frankların və saksların alman qəbilələrindəki əhalinin yarımazad təbəqəsi (lanqobardlarda aldilər, ingilis-saksonlarda isə letlər). L. azad icmaçılarla qullar arasında aralıq mövqe tuturdular. Feodal münasibətlərinin formalaşması prosesində l. feodallar sinfindən asılı kəndlilərə çevrilmişlər.

**Litsini və Seksti qanunları** – Qədim Romada xalq tribunları olmuş Q. Litsini Stolo və L. Seksti Leteranın plebeylərin xeyrinə verdikləri qanunlar. Litsini və Seksti qanunları eramızdan əvvəl 367-ci ildə verilmişdir. Litsini qanunu ilə borclar qismən ləğv edilmiş, Seksti qanunu ilə isə normadan artıq torpağa sahib olmaq qadağan olunurdu. Litsini və Sekstinin 3-cü qanununa görə konsullardan birinin mütləq plebeylər içərisindən olması da müəyyən edilirdi.





**Litteral kontraktlar (müqavilələr)** – mülki hüquq elmində qanuna görə yazılı formada bağlanmalı olan müqavilələrin adlandırılması üçün istifadə olunan termin.

**Liturgiya** *(yun. leiturgia – ictimai vəzifə)* – qədim yunan polislərində mövcud olmuş dövlət mükəlləfiyyəti. L.-nı varlı vətəndaşlar və meteklər (üç və daha artıq talantlıq əmlakı olan yadellilər və azad qullar) ödəyirdilər. L. bəzi mühüm dövlət xərclərinə də aid edilirdi. O, adi və fövqəladə ola bilərdi. L. eramızdan əvvəl V-IV yüzilliklərdə, xüsusilə də Afinada geniş tətbiq edilmişdir. L. ellinlər və Roma Misirində, Roma imperiyasında və Bizansda da yayılmışdı.

**Litva statutları** – Böyük Litva knyazlığının feodal hüququnun sistemləşdirilmiş toplusu (məcəlləsi). L.s. 1529-cu, 1566-cı və 1588-ci illərdə təsdiq edilmişdir. Məcəllə belorus dilindədir. Adət hüquq normaları, knyazların fərmanları və məhkəmə təcrübəsi əsasında hazırlanmış statutlar özündə mülki hüquq, cinayət hüququ, dövlət hüququ, məhkəmə prosesi və digər hüquq normalarını ehtiva edir. L.s. 1840-cı ildə ləğv edilmişdir.

**Livoniya ordeni** – Tevton ordeni cəngavərlərinin katolik və hərbi-siyasi təşkilatı; 1237-ci ildə yaradılmışdı. L.o. işğalçılıq müharibələri (xaç və səlib yürüşləri təşkil etmiş) aparmış, ələ keçirdiyi ərazidə (Şərqi Baltikyanı ərazidə) öz dövlətini yaratmışdı. Orden 1562-ci il martın 5-də tamamilə ləğv edilmişdir.

**Lizholderlər** *(ing. leaseholder – icarə sahibi)* – orta əsrlərdə İngiltərədə mövcud olmuş torpaq icarəçiləri. L. domeni (iri lizhold) və ya domenin bir hissəsini (xırda lizhold) lord tərəfindən müəyyən edilmiş müddətə icarəyə götürürdülər.

**Lizinq** – istehlakçının sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya orta və uzun müddətə icarəyə vermək məqsədi ilə həyata keçirilən xidmət növü. L. xidməti yönəldilən vəsaitin mənbəyinə, lizinq haqqının tərkibinə, lizinq müqaviləsi subyektlərinin iştirakına görə əsasən aşağıdakı formalarda həyata keçirilir: 1) lizinq xidmətinin həyata keçirilməsinə yönəldilən vəsaitin mənbəyinə görə: a) lizinq müəssisəsinin öz vəsaiti hesabına həyata keçirilən xidmət; b) lizinq müəssisəsinin öz vəsaiti və digər mənbələrdən cəlb olunmuş vəsait hesabına həyata keçirilən xidmət; 2) lizinq haqqının tərkibinə görə: a) əmlakın satınalma dəyəri, habelə lizinq müəssisəsinin mənfəəti daxil edilməklə lizinq haqqı ödənilən xidmət; b) əmlakın satınalma dəyəri və lizinq müəssisəsinin mənfəəti daxil edilməklə lizinq haqqı ödənilən xidmət; 3) lizinq müqaviləsi subyektlərinin iştirakına görə: a) üç müxtəlif tərəfin iştirakı ilə (satıcı, lizinq müəssisəsi və icarəçi) həyata keçirilən xidmət; b) iki tərəfin iştirakı ilə həyata keçirilən xidmət.

**Lizinqalan** – lizinq müqaviləsinə uyğun olaraq müvəqqəti sahiblik və istifadə şərti ilə müəyyən müddətə, müəyyən ödəmə ilə lizinq predmetini qəbul etməyə borclu olan fiziki və ya hüquqi şəxs.

**Lizinq əqdi** *(bax: lizinq müqaviləsi).*

**Lizinq fəaliyyəti** – lizinq müqaviləsi üzrə lizinq verən tərəfindən yerinə yetirilən fəaliyyət. Lizinq şirkətlərinin, habelə fərdi sahibkarlar qismində qeydiyyatdan keçmiş vətəndaşların l.f. Azərbaycan Respub-

likası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada əldə olunan icazələr (lisenziyalar) əsasında yerinə yetirilir.

**Lizinq haqqı** – icarəyə götürülmüş əmlak üçün icarəçinin lizinq müəssisəsinə ödədiyi haqq.

**Lizinq xidməti** *(bax: lizinq).*

**"Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında lizinq münasibətlərini tənzim edən, lizinq müqaviləsi subyektlərinin hüquq və vəzifələrini müəyyənləşdirən qanunvericilik aktı.

Bu qanun 29 noyabr 1994-cü ildə qəbul edilmişdir. O, beş fəsil və 16 maddədən ibarətdir.

**Lizinq qəbul protokolu** – lizinq müqaviləsinin obyekti olan əmlakın qəbul edilməsi, quraşdırılması və istismara verilməsi haqqında lizinq müqaviləsi subyektlərinin imzaladığı sənəd.

**Lizinq müəssisəsi** – lizinq müqaviləsinin obyekti olan əmlakı satın almaqla onu istehlakçıya icarə verən müəssisə.

**Lizinq müqaviləsi** – mülki-hüquqi müqavilənin bir növü. Bu müqaviləyə görə lizinq verən müəyyən əşyanı müqavilə ilə şərtləşdirilmiş müəyyən haqla, müəyyən müddətlə və digər şərtlərlə (lizinq alana əmlakı satın almaq hüququnun verilməsi də daxil olmaqla) lizinq alanın istifadəsinə verməyə borcludur. Lizinq alan müəyyənləşdirilmiş dövriliklə muzd ödəməyə borcludur. Lizinq verən müqavilədə nəzərdə tutulan əmlakı hazırlamağa və ya əldə etməyə borcludur. L.m.-nə görə lizinq alana müqavilə müddəti qurtardıqdan sonra lizinq predmetini əldə etmək və ya kirayələmək vəzifəsi həvalə edilə bilər və ya belə hüquq verilə bilər, bu şərtlə ki, müqavilə öz predmetinin tam amortizasiyası ilə bitməsin. Qəti dəyər hesablanarkən amortizasiya faktı bütün hallarda nəzərə alınmalıdır. Əgər müqavilədə müvafiq müddəa yoxdursa, lizinq alanın lizinq predmetini əldə etməyə ixtiyarı çatır (AR MM-in 747-ci maddəsi).

**Lizinq ödəmələri** – lizinq müqaviləsi üzrə verilmiş əmlaka sahibliyə və ondan istifadəyə görə verilən ödəmələr. Ödəmənin üsulu, forması və müddəti tərəflərin razılığı üzrə lizinq müqaviləsində müəyyən edilir.

**Lizinq şirkətləri (firmaları)** – öz təsisedici sənədlərinə uyğun olaraq lizinq verənlərin funksiyalarını yerinə yetirən və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada lizinq fəaliyyətinin həyata keçirilməsi üçün icazə (lisenziya) alan kommersiya təşkilatları.

**Lizinqverən** – lizinq müqaviləsinin realizə olunması gedişində cəlb edilən vəsaitlər və ya öz vəsaitləri hesabına əmlakı mülkiyyətinə qəbul edən və onu lizinqin predmeti qismində müəyyən şərtlərlə, müəyyən müddətə və müəyyən ödəmə ilə lizinqalana verən fiziki və ya hüquqi şəxs.

**Lobbi** *(ing. lobby – kuluar)* – ABŞ-ın qanunvericilik orqanları nəzdində iri inhisarların xeyrinə qanunvericilərə və dövlət məmurlarına təzyiq göstərən kontor və agentliklər sistemi.

**Lobbizm** *(ing. lobbysim – kuluarlar)* – şəxsi və ya digər müraciət yolu ilə, yaxud başqa üsulla (kütləvi petisiyaların təşkili, məktubların və nəşrlərin axını) hər hansı qrup və ya





şəxslər tərəfindən parlamentə təzyiqlər göstərilməsi. Belə təzyiqlərdə əsas məqsəd qanun layihəsinin qəbuluna və ya onun rədd edilməsinə nail olmaqdır. L. ABŞ-da meydana gəlmişdir. Məhz burada 1946-cı ildə l. barəsində xüsusi qanun qəbul edilmişdir. L. hazırda bütün demokratik dövlətlərdə mövcuddur. Lobbistlər qanunvericilik orqanlarında çox zaman öz kontorlarına malik olurlar.

**Lofoskopiya** – daktiloskopiyanın sinonimi. Müasir kriminalistikada praktiki olaraq istifadə edilmir.

**Lokal normativ akt** – yerli özünüidarə orqanının normativ-hüquqi aktı. "L.n.a." termini həm də korporativ sənədlərin, yəni müəssisələrdə və digər təşkilatlarda qəbul edilən idarəetmə aktlarının adlandırılması üçün tətbiq edilir.

**Lokarno müqavilələri** *(bax: lokarno sazişləri).*

**Lokarno sazişləri** – Almaniyanın qərb sərhədlərinin təminatı və arbitraj məsələlərinə dair 1925-ci ildə qəbul edilmiş müqavilələr. L.s. İsveçrənin Lokarno şəhərində keçirilmiş konfransda 1925-ci ilin oktyabrında paraflanmış, həmin il dekabrın 1-də isə Londonda imzalanmışdır. L.s.-nin əsas sənədi olan Reyn müahidəsi (Almaniya, Belçika, Fransa, İtaliya və Böyük Britaniya arasında imzalanmış ümumi təminat müqaviləsi) Versal sülh müqaviləsi (1919-cu il) ilə müəyyən olunmuş ərazi status-kvosunun qüvvədə saxlanmasını, Almaniya-Fransa və Almaniya-Belçika sərhədlərinin toxunulmazlığına hörmət edilməsini, Almaniya, Fransa və Belçikanın bir-birinə hücum etməmək barədə öhdəlik götürmələrini və i.a. nəzərdə tuturdu. Müqavilə 1926-cı ilin sentyabrından qüvvəyə minmişdir.

**Lokaut** *(ing. lock out – hərfən kim olursa-olsun üzünə qapını bağlamaq)* – kollektiv əmək mübahisəsi və tətil elan olunması, habelə idarənin, filialın, yaxud nümayəndəliyin ləğv edilməsi (yenidən təşkili) ilə əlaqədar işəgötürənin təşəbbüsü ilə işdən çıxarma.

**Loko** *(ita. loco)* – **1)** əqdin şərti; o deməkdir ki, malın qiyməti onun sonrakı nəqli ilə əlaqədar əlavə məbləğlərini özündə ehtiva etmir; **2)** xarici valyutanın və ya qiymətli kağızların alqı-satqı əqdi; bu zaman nağd hesablaşma əqdin bağlandığı birjada aparılır.

**Loqofet** – Bizans dövlət aparatında fəaliyyət göstərmiş məmur. VII yüzillikdən başlayaraq dövlət idarəsinin (xəzinənin, poçtun) rəhbəri olmuşdur.

**Loqoqraflar** *(yunanca logos sözündəndir, əsər deməkdir)* – eramızdan əvvəl V yüzilliyin sonundan başlayaraq Afinada kliyentlərin adından onların xarakterinə, savadlılığına və i.a. aid məhkəmə nitqlərinin tərtibçiləri; nitqlər kliyentlərin məhkəmədə şəxsən iştirak etmələri üçün tərtib olunurdu. Lisi l.-ın ən görkəmlisi olmuşdur.

**Loqotip** – firmanın (və ya həmin firmanın bir qrup mallarının) xüsusi olaraq işlənib hazırlanmış, tam və ya qısaldılmış şəkildə orijinallıqla rəsm edilmiş adı.

**Lollardlar** *(ing. lollard – hərfən burun altında dua oxuyan)* – XIV yüzillikdə İngiltərədə, həmçinin bir sıra Qərbi Avropa ölkələrində antikatolik bidətçilik xarakteri almış kəndli-plebey hərəkatının iştirakçıları. L. feodalizm quruluşunun ədalətsizliklərini tənqid edir, silki bərabərsizliyin ləğv edilməsini tələb edirdilər. L. Uot Tayler

üsyanının (1381-ci il) ideoloji cəhətdən hazırlanmasında böyük rol oynamışlar.

**Lombard** – daşınar əmlakın girov qoyulması müqabilində borc pul verən kredit idarəsi. L. ilk dəfə Fransada kral XI Lüdovikin hakimiyyəti (1461-1483-cü illər) dövründə Lombardiyadan (İtaliyadan) gəlmiş sələmçilər tərəfindən təsis edilmişdir. Azərbaycan Respublikasında dövlət lombardları 1923-cü ilin sentyabrında təsis edilmişdir. Bakı, Gəncə və Sumqayıt şəhərlərində L.-lar fəaliyyət göstərirlər. L.-ların əsas vəzifəsi əhaliyə ödəmələr hesabına şəxsi istifadədə olan predmetlərin və ev əşyalarının, bəzək məlumatlarının saxlanmasına, borc pul alınmasına imkan yaratmaqdan ibarətdir. L.-lar icra hakimiyyəti orqanlarının məişət xidməti idarələri sisteminə daxildir və özünümaliyyələşdirmə əsasında fəaliyyət göstərirlər. L.-a qəbul edilən əmlak girov qoyanın hesabına sığorta edilir.

**Lombard krediti** – asanlıqla realizə olunan daşınar əmlakın girov qoyulması ilə verilən qısamüddətli bank krediti.

**Lombard məzənnəsi** – **1)** qiymətli kağızlarla təmin edilən kommersiya banklarının kreditləri üzrə mərkəzi bankın rəsmi məzənnəsi; **2)** kommersiya bankının təmin edilmiş kredit üzrə müştərinin məzənnəsi.

**Lombrozoçuluq** – cinayət hüququnun antropoloji məktəblərindən birinin adı ( italiyalı həkim-psixiator Çezare Lombrozonun adı ilə adlandırılmışdır).

**Lord** *(ing. lord)* – **1)** orta əsrlər İngiltərəsində feodal torpaq sahibi (lord manora, lendlord). L. kralı saxlayan iri feodal baronu hesab olunurdu. L. adı (titulu) Lordlar palatasını təşkil edən perlərə (XIV yüzillikdən) verilirdi. L. titulu kişi xətti ilə irsən keçirdi, lakin bu titulu kral da bəxşiş kimi verə bilərdi. XIX yüzillikdən isə l. titulu iri kapital nümayəndələrinə, siyasi xadimlərə, elm və mədəniyyət xadimlərinə və i.a. verilməyə başlamışdır; **2)** Böyük Britaniyada bir sıra ali və yerli vəzifəli şəxslərin rəsmi adının tərkib hissəsi. Məsələn, lord-kansler, lord-mer və i.a.; **3)** XV-XVII yüzilliklərdə lord-protektor titulunun tərkib hissəsi.

**Lord-kansler** – lordlar palatasının başçısı (Böyük Britaniya parlamentinin yuxarı palatası), habelə ali məhkəmənin sədri və Böyük Britaniya hökumətinin yüksək hüquqi müşaviri.

**Lordlar palatası** – Böyük Britaniya parlamentinin yuxarı palatası. L.p. dünyəvi və dini lordlardan (perlərdən) ibarətdir. Palatanın sədri lord-kansler adlanır.

**Loro-hesab (lorokonto)** – **1)** bankın öz bank-müxbirləri üçün açdığı hesab; bank-müxbirlərin tapşırığı ilə alınan və ya verilən bütün məbləğlər həmin hesaba daxil edilir; **2)** bank yazışmalarında "loro" terminindən üçüncü bankın müxbir hesabına münasibətdə istifadə olunur.

**Lot** – müqavilə üzrə göndərilməli olan malların partiyası. Bu addan hərrac ticarətində geniş istifadə olunur. Sıra nömrəsinə malik olan hər bir hərrac l.-un öz qiyməti müəyyən edilir.

**Lotereya** *(ita. lotteria)* – lotereya biletlərinin satılması yolu ilə əhalidən könüllü surətdə vəsait cəlb edilməsi forması; vəsaitin bir hissəsi pul, yaxud şey uduşu şəklində oynanılır.





**Lotereya bileti** – qiymətli kağızların bir növü. L.b. mülki-hüquqi öhdəliklərin əmələ gəlməsi əsaslarına xidmət edən qiymətli kağızlardan biridir. L.b.-nin sahibi lotereya oyununun təşkilatçısından uduşun məbləğini (əgər uduş həmin biletə düşmüşdürsə) tələb etmək hüququna malikdir.

**Lotereyalara və uduş tirajlarına dair müqavilə** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə lotereyalar və uduş tirajları üzrə tələb yalnız o halda əmələ gəlir ki, lotereya və ya uduş tirajı keçirən müəssisə Azərbaycan Respublikasından onları keçirmək üçün xüsusi icazə (lisenziya) almış olsun. Xüsusi icazə (lisenziya) olmadıqda lotereyalar və uduş tirajları üzrə heç bir tələb əmələ gəlmir. Lotereyanın qanunvericiliklə nəzərdə tutulmuş hallarda dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi lotereya biletinin (ona bərabər tutulan digər məlumat daşıyıcısının) sahibinin lotereya təşkilatçısına qarşı uduşların verilməsi (ödənilməsi) tələbini istisna etmir (AR MM-in 1086-cı maddəsi).

**Loyal rəqabət** – mülki qanunvericiliyə görə müqavilə münasibətləri qurtardıqdan sonra tərəflərin öz aralarında apardıqları rəqabət; mülki qanunvericilik belə rəqabəti müqavilə tərəflərinin borcu kimi müəyyən edir (AR MM-in 729-cu maddəsi). Bununla əlaqədar olaraq Françayz alanın müəyyən ərazinin hüdudları daxilində rəqabət aparması üzərində ən çoxu bir il müddətinə qadağan qoyula bilər. Əgər rəqabət aparmağın qadağan edilməsi Françayz alanın peşə fəaliyyəti üçün təhlükə yarada bilərsə, müqavilə müddətinin bitməsinə baxmayaraq ona müvafiq maliyyə kompensasiyası verilməlidir.

**Loyallıq** – **1)** hakimiyyət orqanlarının qüvvədə olan qanunlarına, qərarlarına sadiqlik (bəzən hətta zahiri və formal şəkildə); **2)** hər hansı fərdə, yaxud bir şeyə nəzakətli, xeyirxah münasibət.

**LTD, ltd** *(ing. limited)* – bəzi firmaların (məsələn, Monument Resorsez Kaspian Limited – LTD) qısaldılmış adı; həmin firmanın məhdud məsuliyyətlə cəmiyyət növündə yaradıldığını göstərir.

**Lüblin uniyası** – Polşa və Böyük Litva knyazlığının vahid dövlət – Reç Pospolitada birləşməsi haqqında 1569-cu il iyunun 28-də Lüblində imzalanmış və həmin il iyulun 1-də təsdiq edilmiş saziş. L.u. Polşa və Litvada eyni idarəçilik formasına malik dövlət quruluşu, vahid pul sistemi və ümumi seym yaratmağı nəzərdə tuturdu. Böyük Litva knyazlığının bir hissəsinin Polşa taxt-tacına birləşdirilməsi təsdiq olunurdu. Dövlətin başında Polşa və Litva feodallarının seçdiyi kral dururdu. Bəzi məsələlərdə Litvanın müstəqilliyi saxlansa da, 1791-ci ildə bunlar da əslində ləğv edilmişdi.

**Lümpsum** – daşınan yükün faktiki kəmiyyətinə aid olmamaqla bütün gəmiyə görə akkord şəkildə tutulmalı olan daşıma ödəməsi. L. ödəmə adətən müxtəlif xarakterli yüklərin daşındığı, belə yüklərin kütləsinin və həcminin çətin müəyyən edildiyi, yaxud fraxtaçıların gəminin tam yüklənməsinə təminat verə bilmədikləri hallarda tətbiq edilir.

**Lüstrasiya** *(lat. lustratio – təmizləmə)* – Şərqi Avropanın bir sıra ölkələrində Macarıstanda, Çexiyada, Estoniyada, Latviyada, Rumıniyada) məsul dövlət vəzifəsi tutan şəxslərin, habelə bu vəzifələrə namizədlərin yoxlanması qaydası.

# -M-

Maaf ........ 720
Maarifçilik ........ 720
Maarifçi mütləqiyyət ........ 720
Maddə ........ 720
Maddi hüquq ........ 720
Maddi məsuliyyət[1] ........ 720
Maddi məsuliyyət[2] ........ 721
Maddi-məsul şəxs ........ 721
Maddi sübutlar ........ 721
Maddi tərkibli cinayətlər ........ 721
Maddi ziyan ........ 721
Madərşahlıq ........ 721
Mafiya ........ 721
Magistr ........ 721
Magistral boru kəmərlərinin inşası, istismarı və ya təmir edilməsi zamanı təhlükəsizlik qaydalarını pozma ........ 721
Magistrat ........ 721
Magistratura ........ 722
Maharaca ........ 722
Majoritar seçki sistemi ........ 722
Makiavellizm ........ 722
Makkaren-vud qanunu ........ 722
Makkartizm ........ 722
Makler ........ 722
Maqate ........ 722
Maqdeburq hüququ ........ 723
Maqnat ........ 723
Mal ........ 723
Malcəhət ........ 723
Mal əs-silah ........ 723
Mal-girov krediti ........ 723
Malın ümumi ofertası ........ 723
Malikanə ........ 723
Maliyyə ........ 724
Maliyyə agenti ........ 724
Maliyyə hüququ ........ 724
Maliyyə icarə müqaviləsi ........ 724
Maliyyə ili ........ 724
Maliyyə intizamı ........ 724
Maliyyə nəzarəti ........ 724
"Maliyyə-sənaye qrupu haqqında" Azərbaycan Respublikasının qanunu ........ 724
Maliyyə vekseli ........ 724
Mal krediti ........ 725
Malların eksportu ........ 725
Malların idxalı ........ 725
Malların reimportu ........ 725
Malların təkrar idxalı ........ 725
Malların təkrar ixracı ........ 725
Malların təqdim edilməsi ........ 725
Mancanaq, məncəniq ........ 725
Mandamus ........ 725
Mandant ........ 725
Mandat ........ 725
Mandatari ........ 725
Mandat əraziləri ........ 725
Mandat komissiyası ........ 726
Manifest ........ 726
Manilik ........ 726
Maniya ........ 726
Manko ........ 726
Mansipasiya ........ 726
Mansipiləşdirmə ........ 726
Mantiya ........ 727
Manufaktura ........ 727
Manukapi ........ 727
Manu qanunları ........ 727
Manumissiya ........ 727
Manus ........ 727
Marcin ........ 727
Marginal qruplar ........ 727
Marixuana ........ 728
Marja ........ 728





Marka ........ 728
Markalama ........ 728
Marketinq ........ 728
Markiz ........ 728
Markqraf ........ 728
Marksizm ........ 728
Marksizm-leninizm ........ 728
Marş ........ 729
Marşal ........ 729
Maskalanma ........ 729
Maşınları idarə etmə və istismar qaydalarını pozma ........ 729
Matriarxat ........ 729
Matrilokal nikah ........ 729
Matrimonial ........ 729
Matrona ........ 729
Maydanek ........ 729
Mayor ........ 729
Mayorat ........ 730
Mayordom ........ 730
Mazoxizm ........ 730
Mediasiya ........ 730
Mediator ........ 730
Mehmandar ........ 730
Mehr ........ 730
"Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının qanunu ........ 730
Meliorativ sistemlər ........ 731
Memarbaşı ........ 731
Memarlıq fəaliyyəti ........ 731
"Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu ........ 731
Memarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin hüquqları ........ 731
Memarlıq layihəsi ........ 732
Memarlıq obyekti ........ 732
Memorandum ........ 732
Menecer ........ 732
Menecment ........ 732
Menmortabli ........ 732
Mer ........ 732
Merçandayzinq ........ 732
Meritokratiya ........ 732
Merkantilizm ........ 733
Mesenat ........ 733
Meşəbərpa qaydası ........ 733
Meşəbərpa qırması ........ 733
Meşə bileti ........ 733
Meşə fondu ........ 733
Meşə fondu sahələri ........ 733
Meşə hərracı ........ 733
Meşə hüququ ........ 734
Meşə istifadəçiləri ........ 734
Meşə kadastrı ........ 734
Meşəqırma bileti ........ 734
Meşə quruluşu işləri ........ 734
Meşələri məhv etmə və ya korlama ........ 734
Meşələrin monitorinqi ........ 734
Meşə Məcəlləsi ........ 734
Meşə müsabiqəsi ........ 735
Meşə pozuntusu ........ 735
Meşə servitutu ........ 735
Meşə vergisi ........ 735
Meta ........ 735
Meteklər ........ 735
Metropoliya ........ 735
Meyitin müayinəsi ........ 735
Məcburi çıxarma ........ 736
Məcburi işlər ........ 736
"Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu ........ 736
Məcburi lisenziya ........ 736
Məcburi müalicə ........ 736
Məcburi tədbirlər ........ 736
Məcburi yurisdiksiya ........ 737
Məcəllə ........ 737
Məcəllələşdirmə ........ 737
Məclis ........ 737
"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunu ........ 738
Mədrəsə ........ 738
Məhbus ........ 738
Məhdudlaşdırıcı təfsir ........ 738
Məhdud məsuliyyətli cəmiyyət ........ 738
Məhəlli sazişlər ........ 738
Məhkəmə ........ 739
Məhkəmə aidiyyəti ........ 739
Məhkəmə-avtotexniki ekspertizası ........ 739
Məhkəmə baxışı ........ 740

Məhkəmə baxışının bilavasitəliyi, fasiləsizliyi və şifahiliyi ............ 740
Məhkəmə ballistikası ............ 740
Məhkəmə ekspertizası ............ 740
Məhkəmə ekspertologiyası ............ 740
Məhkəmə fotoqrafiyası ............ 740
Məhkəmə hakimiyyəti ............ 740
Məhkəmə hökmü ............ 741
Məhkəmə xərcləri ............ 741
Məhkəmə iclasına sədrlik edən ............ 741
Məhkəmə icraçısı ............ 741
Məhkəmə instansiyası ............ 741
Məhkəmə kollegiyası ............ 741
Məhkəmə istintaqı ............ 741
Məhkəmə qanunu ............ 741
Məhkəmə qərardadı ............ 741
Məhkəmə qərarı ............ 742
Məhkəmə qərarının müstəsnalığı ............ 742
Məhkəmə qətnaməsi ............ 742
Məhkəmə quruluşu ............ 742
"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının qanunu ............ 742
Məhkəmə məsrəfləri ............ 742
Məhkəmə müdafiəsi ............ 742
Məhkəmə-mühasibat ekspertizası ............ 742
Məhkəmə nəzarətçiləri ............ 742
"Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında" Azərbaycan Respublikasının qanunu ............ 742
Məhkəmə nəzarəti ............ 743
Məhkəmənin binagüzarlıq iclası ............ 743
Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə ............ 743
Məhkəmənin kollegiallığı ............ 743
Məhkəmənin səyyar iclası ............ 743
Məhkəmə odorologiyası ............ 743
Məhkəmə-psixatriya ekspertizası ............ 744
Məhkəmə psixatriyası ............ 744
Məhkəmə psixologiyası ............ 744
Məhkəmə sistemi ............ 744
Məhkəmə statistikası ............ 744
Məhkəmə tapşırığı ............ 744
Məhkəmə təbabəti ............ 745
Məhkəmə-tibb ekspertizası ............ 745
Məhkəmə toksikologiyası ............ 745
Məhkəmə və hüquq-mühafizə orqanları işçiləri barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma ............ 745
"Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunu ............ 745
"Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu ............ 745
Məhkəməyə hörmətsizlik ............ 746
Məhkum ............ 746
Məhkumluğun götürülməsi ............ 746
Məhkumluğun indeksi ............ 746
Məhkumluğun ödənilməsi ............ 746
Məhkumluğun ödənilməsi müddətləri ............ 746
Məhkumluq ............ 746
Məxfi ekspedisiya ............ 747
Məişət bürovuzu ............ 747
Məlumat azadlığı ............ 747
"Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının qanunu ............ 747
Məmlüklər ............ 747
Mənbə ............ 747
Məndub ............ 747
Mənəvi zərər ............ 748
Mənfi aksept ............ 748
Mənimsəmə və ya istiraf etmə ............ 748
Məntiqi təfsir ............ 748
Mənzil hüququ ............ 748
Mənzil-istismar sahəsi ............ 748
Mənzil şəraitini yaxşılaşdırma ............ 748
Mənzil-tikinti kooperativi (MTK) ............ 748
Mənzil toxunulmazlığı ............ 749
Mənzil toxunulmazlığını pozma ............ 749
Mərkəzi banklar ............ 749
Mərkəzi depozitari ............ 749
Mərzban ............ 749
Məsuliyyəti ağırlaşdıran hallar ............ 749
Məsuliyyəti yüngülləşdirən hallar ............ 749
Məşğulluq ............ 749
"Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunu ............ 750





Məşvərətçi səs ............ 750
Mətni (qrammatik) təfsir ............ 750
Məzalim ............ 750
Məzdəkilik ............ 751
Məzənnə ............ 751
Məzənnə fərqi ............ 751
Məzənnə qiyməti ............ 751
Məzənnələşdirmə ............ 751
Məzhəb ............ 751
Məzmununda dövlət sirri olan sənədləri itirmə ............ 752
Məzun ............ 752
Mxitar Qoş Qanunnaməsi ............ 752
Miçman ............ 753
Midhəd Konstitusiyası ............ 753
Mikrohissəcik ............ 753
Mikroiz ............ 753
Mikrotrasologiya ............ 753
Miqrant ............ 753
Miqrasiya ............ 753
Miqrasiya xidməti ............ 753
Miqyaslı fotoqrafiya ............ 753
Milis ərazi sistemi ............ 753
Militarizm ............ 753
Millət ............ 754
Millətlər Birliyi ............ 754
Millətlər Cəmiyyəti ............ 754
Milli banklar ............ 754
Milli borc ............ 754
Milli dil ............ 754
Milli dövlət ............ 754
Milli dövlət muxtariyyəti ............ 755
Milli əmlak ............ 755
Milli ərazi muxtariyyəti ............ 755
Milli hökumət ............ 755
Milli hüquq bərabərliyi ............ 755
Milli, irqi və ya dini düşmənçiliyin salınması ............ 755
Milli komitə ............ 755
Milli konqress ............ 755
Milli konvent ............ 755
Milli qvardiya ............ 755
Milli Məclis ............ 755
Milli-mədəni muxtariyyət ............ 755
Milli rejim ............ 756
Milli sərvət (xalq sərvəti) ............ 756
Milli suverenlik ............ 756
Milli təbiət parkları ............ 756
Milli təhlükəsizlik ............ 756
Milli valyuta ............ 756
Milli valyuta sistemi ............ 756
Milli yığıncaq ............ 756
Milli yurisdiksiya ............ 756
Minbaşı ............ 756
Ministeriallar ............ 757
Minorat ............ 757
Mirab ............ 757
Miralay ............ 757
Miranda qaydası ............ 757
Miras ............ 757
Mirasda məcburi pay ............ 758
Miras əmlak ............ 758
Mirasın bölüşdürülməsi ............ 758
Mirut mühakiməsi ............ 758
Misdiminor ............ 758
Missioner ............ 758
Missioner fəaliyyət ............ 759
Missionerlik ............ 759
Missiya ............ 759
Mitinq ............ 759
Mizan ............ 759
Mizandar ............ 759
Modeks-Arm ............ 759
Model qanun (çərçivə qanun) ............ 759
Modifikasiya ............ 760
Modus prosedendi ............ 760
Modus vivendi ............ 760
Monarx ............ 760
Monarxiya ............ 760
Mondializm ............ 760
Monetarizm ............ 760
Monitorinq ............ 761
Monodaktiloskopiya ............ 761
Monoginiya ............ 761
Monokameralizm ............ 761
Monokratik respublika ............ 761
Monoqamiya ............ 761
Monoqramma ............ 761
Monometallıq ............ 761
Monopsoniya ............ 761

Monro doktrina ........ 761
Moratorium ........ 761
Morfoloji əlamətlər ........ 762
Morqan nikahı ........ 762
Motiv ........ 762
Mövsümçülük ........ 762
Mövsümi fəhlələr (işçilər) ........ 762
Mövsümi istehsal ........ 762
Mövsümi qiymətlər ........ 762
Muxtar büdcələr ........ 762
Muxtar qeyri-kommersiya təşkilatı ........ 762
Muxtar respublika ........ 762
Multiplikand ........ 762
Mu Məcəlləsi ........ 762
Munisipiyalar ........ 763
Muzdlu ........ 763
Muzdlu iş ........ 763
Muzdluluq ........ 763
Muzdlu ordu
"Muzeylər haqqında"
Azərbaycan Respublikasının qanunu ........ 763
Müavinət ........ 763
Müayinə ........ 764
Mübahisəsiz faktlar ........ 764
Mübahisəsiz seçkilər ........ 764
Mücərrəd konstitusiya nəzarəti ........ 764
Müctəhid ........ 764
Müdafiə ........ 764
Müdafiəçi ........ 764
"Müdafiə haqqında"
Azərbaycan Respublikasının qanunu ........ 764
Müdafiə olunan nişanlardan sui-istifadə ........ 764
Müdafiə tərəfi ........ 764
Müdaxilə ........ 764
Müddətdən artıq xidmət ........ 765
Müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə ........ 765
Müddətlər ........ 765
Müəllif ........ 765
Müəlliflik hüquqlarını və əlaqəli hüquqları pozma ........ 765
Müəlliflik hüququ ........ 765
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının qanunu ........ 766
Müəlliflik prezumpsiyası ........ 766
Müəlliflik şəhadətnaməsi ........ 766
Müəssisə ........ 766
Müəssisə aktivi ........ 766
Müəssisədaxili intizam qaydaları ........ 766
Müəssisələrin valyuta fondları ........ 766
Müəssisə passivi ........ 767
Müəyyən müddətə azadlıqdan məhrum etmə ........ 767
Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrumetmə ........ 767
Müflisləşmə ........ 767
"Müflisləşmə və iflas haqqında"
Azərbaycan Respublikasının qanunu ........ 767
Müfti ........ 767
Mühacirət ........ 768
Mühacirlər ........ 768
Mühakimə ........ 768
Mühakimə icraatı ........ 768
Müharibə aparma vasitələrini düşmən üçün qoyub getmə ........ 769
Müharibə cinayətləri ........ 769
Müharibə qanunlarını və adətlərini pozma ........ 769
Müharibə qanunları və adətləri ........ 769
Müharibənin qadağan olunmuş vasitələri ........ 769
Müharibə təbliğatı ........ 769
Müharibə vəziyyəti ........ 769
Mühasibat balansı ........ 770
Mühasibat ekspertizası ........ 770
Mühasibat uçotu ........ 770
"Mühasibat uçotu haqqında"
Azərbaycan Respublikasının qanunu ........ 770
Mühasirə ........ 770
Mühəndis qoşunları ........ 770
Müxalifət ........ 770
Müxbir hesabı ........ 771
Müxbir müqaviləsi ........ 771
Mükəlləfiyyət ........ 771
Mükətab ........ 771
Müqaitə ........ 771
Müqavilə ........ 771
Müqavilə aidiyyəti ........ 771
Müqavilə azadlığı ........ 771
Müqavilədənxaric öhdəliklər ........ 772
Müqaviləli federasiya ........ 772
Müqavilə nəzəriyyəsi ........ 772
Müqavilənin bağlandığı yer qanunu ........ 773
Müqavilənin forması ........ 773
Müqavilənin icra edildiyi yer qanunu ........ 773
Müqavilənin standart şərtləri ........ 773
Müqavilənin təfsiri ........ 773
Müqavimət göstərmə (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) ........ 774
Müqayisəli hüquqşünaslıq ........ 774
Müqəddəs ittifaq ........ 774
Müqəssir ........ 774
Müqta ........ 774
Mülazim ........ 774
Mülk ........ 775
Mülkədarlar ........ 775
Mülkədar təbəi ........ 775
Mülki cavabdeh ........ 775
Mülki dövriyyə ........ 775
Mülki edam ........ 776
Mülki əhali ........ 776
Mülki hüquq ........ 776
Mülki hüquqlar ........ 776
Mülki hüquqların müdafiəsi ........ 776
Mülki hüquq pozuntuları (deliktlər) ........ 776
Mülki iddia ........ 777
Mülki iddiaçı ........ 777
Mülki iş ........ 777
Mülki Məcəllə ........ 777
Mülki məsuliyyət ........ 778
Mülki müdafiə ........ 778
"Mülki müdafiə haqqında"
Azərbaycan Respublikasının qanunu ........ 778
Mülki nikah ........ 778
Mülki ölüm ........ 778
Mülki proses ........ 778
Mülki-prosessual hüquq ........ 778
Mülki senz ........ 778
Mülki silah ........ 779
"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" Azərbaycan Respublikasının qanunu ........ 779
Mülkiyyət əleyhinə olan cinayətlər ........ 779
Mülkiyyət hüququ ........ 779
Mültəzim ........ 779
Münsiflər məhkəməsi ........ 779
Müsabiqə ........ 780
Müsabiqə icraatı ........ 780
Müsabiqə idarəedicisi ........ 780
Müsabiqə immuniteti ........ 780
Müsabiqə kreditorları ........ 780
Müsabiqə kütləsi ........ 780
Müsadirə ........ 781
Müsbət aksept ........ 781
Müsəlman hüququ ........ 781
Müstəqil Dövlətlər Birliyi (MDB) ........ 781
Müstəmləkə ........ 781
Müstəmləkəçilik ........ 781
Müstəntiq ........ 782
Müstəsna aidiyyət ........ 782
Müstəsna cəza ........ 782
Müstəsna hüquq ........ 782
Müşahidəçi ........ 782
Müşahidə məntəqəsi ........ 782
Müşavir ........ 782
Müşavirə otağı ........ 783
Müşavirlər palatası ........ 783
Müştərək məsuliyyət ........ 783
Müştərək müqavilə ........ 783
Mütə ........ 783
Mütəxəssis ........ 783
Mütəşəkkil cinayətkarlıq ........ 783
Mütəşəkkil dəstə ........ 784
Mütəşəkkil qrup ........ 784
Mütəzərrir ........ 784
Mütləq hüquqlar ........ 784
Mütləq xəta ........ 784
Mütləqiyyət (mütləq monarxiya) ........ 784
Mütləq məsuliyyət ........ 784
Mütləq veto ........ 785
Mütləq votum ........ 785
Mütləq yurisdiksiya ........ 785
Müttəhim ........ 785
Müvəqqəti başqa yerə getmə ........ 785
Müvəqqəti işlər vəkili ........ 785
Müvəqqəti sakinlər ........ 785

**MAAF** – Yaxın Şərqin bir sıra ölkələrində, o cümlədən Azərbaycanda mövcud olmuş kəndli kateqoriyası. Hər cür vergi və mükəlləfiyyətlərdən azad olan m.-lar xanlıqlar dövründə siyasi həyatda mühüm rol oynayırdılar. M.-lar xanın hərbi dəstələrində xidmət etməli və xanlığın sərhəd rayonlarını basqınlardan qorumalı idilər. İctimai zümrə kimi m.-lar hüquqi vəziyyətlərinə görə bəylərdən aşağı pillədə dururdular.

**Maarifçilik** – kapitalizmə keçid dövründə təşəkkül tapmaqda olan burjua münasibətlərinin və xalq kütlələrinin feodalizmə qarşı mübarizəsi ilə bağlı olan siyasi-hüquqi ideya cərəyanı. M. ideyaları Qərbi Avropanın bir sıra ölkələrində XVIII yüzillikdə (İngiltərədə isə XVII yüzilliyin sonunda) yayılmışdı. "M." terminini özlərinin siyasi-hüquqi ideyalarında ilk dəfə Volter və Herder işlətmişdir. Termin İ. Kantın "Maarifçilik nədir?" (1784) məqaləsindən sonra tam bərqərar olmuşdur. Həmin dövrdə təbii hüquq nəzəriyyəsi də geniş yayılmışdı. "Maarifçi monarx"a ümid bəsləyən maarifçilər iqtisadiyyat sahəsində azad ticarət, xüsusi mülkiyyəti feodal özbaşınalıqları və məhdudiyyətlərindən qorumaq hüququ tələb edirdilər. Azərbaycanda A. Bakıxanov və M.F. Axundov maarifçiliyin görkəmli nümayəndələri hesab olunurlar.

**Maarifçi mütləqiyyət** – XVIII yüzilliyin II yarısında Avropanın bir sıra ölkələrində mütləqiyyət rejimlərinin yeritdikləri siyasət. M.m. bir sıra silki imtiyazların ləğv edilməsi, feodal pərakəndəliyinin aradan qaldırılmasına yönəldilmiş inzibati islahatların həyata keçirilməsi ilə səciyyələndirilirdi. Bütövlükdə isə o, siyasəti feodal hökmranlığının möhkəmləndirilməsinə istiqamətləndirmişdi. Bununla belə, m.m. dövründə aparılmış bəzi islahatlar obyektiv şəkildə burjua münasibətlərinin inkişafına xidmət və kömək etmişdir.

**Maddə** – rəsmi hüquqi aktın, sənədin bir bölməsi (bəndi). Məsələn, qanunun maddəsi, beynəlxalq müqavilənin və ya sazişin maddəsi və s.

**Maddi hüquq** – konkret ictimai münasibətləri tənzim edən hüquq normalarının məcmusu. M.h. normaları mülkiyyətin formalarını, əmlakın və şəxslərin hüquqi vəziyyətini nəzərdə tutur, dövlət orqanlarının təşkili qaydasını və strukturunu, hüquq pozuntularına görə məsuliyyətin əsaslarını və həddini müəyyən edir. Təsərrüfat, mülki, əmlak, ailə və digər hüquq münasibətləri m.h.-un obyektidir. M.h. prosessual hüquqla qırılmaz surətdə bağlıdır.

**Maddi məsuliyyət**[1] – işçilərin işlədikləri idarəyə (müəssisəyə) vurduqları əmlak zərərinin ödəmələri. Qanunvericilikdə iki əsas və bir əlavə m.m. növü nəzərdə tutulur: məhdud və tam m.m. Məhdud m.m., bir qayda olaraq, orta aylıq əməkhaqqı məbləğindən asılı olaraq ödənilir. Tam m.m. isə aşağıdakı halda müəyyən edilir: fərdi m.m., müəyyən hallarda isə kollektiv m.m. haqqında müqavilə bağlanmışdırsa, habelə işçi əmlakı və digər sərvətləri birdəfəlik etibarnamə və ya digər birdəfəlik sənədlər əsasında təhtəlhesabla qəbul etmişdirsə, zərər işçinin hərəkətləri ilə vurulduqda və bu hərəkətlərdə cinayət qaydasında təqib edilən əməllərin əlaməti olduqda, habelə bəzi digər hallarda. Zərərin məbləği mühasibat uçotunun məlumatı əsasında faktiki zərər nəzərə alınmaqla müəyyən edilir.





**Maddi məsuliyyət**[2] – beynəlxalq hüquq subyektlərinin beynəlxalq hüququn digər subyektlərinə (və ya onların fiziki və hüquqi şəxslərinə) vurduqları maddi zərərin ödənilməsi ilə əlaqədar olan məsuliyyət forması. M.m. -in əsas növlərinə restitusiya, zərərin ödənilməsi və reparasiya aiddir. Reparasiya adətən müharibənin vurduğu zərərin ödənilməsilə əlaqədardırsa, zərərin ödənilməsi başqa hallarda (məsələn, hava nəqliyyatında, kosmik fəzanın tədqiqi ilə əlaqədar hadisələrdə) əlaqədar mövcud ola bilər.

**Maddi-məsul şəxs** – əmək qanunvericiliyinə uyğun olaraq təhtəlhesabla ona etibar edilmiş sərvətlərin salamatlığının təmin edilməməsi nəticəsində meydana çıxmış zərərə görə tam maddi məsuliyyət daşıyan şəxs, işçi.

**Maddi sübutlar** *(bax: sübutlar).*

**Maddi tərkibli cinayətlər** – şəxsin öz hərəkət və ya hərəkətsizliyinin ictimai təhlükəli xarakterini dərk etməsilə müşayiət edilən əməllər. Şəxsin öz əməlinin ictimai təhlükəli nəticələrini qabaqcadan görməsi m.t.c.-in səciyyəvi cəhətidir. Məsələn, şəxsiyyət əleyhinə olan cinayətlərin hamısı m.t.c. hesab olunurlar.

**Maddi ziyan** *(bax: ziyan).*

**Madərşahlıq** – qəbilə-tayfa quruluşunun dağılması və sinifli cəmiyyətə keçid dövründə mövcud olmuş ictimai quruluş formalarından biri *(həmçinin bax: matriarxat).*

**Mafiya** *(ita. mafia, maffia)* – qeyri-iqtisadi məcburiyyət və zorakılıq, terror və qətl metodlarından istifadə edən gizli təşkilat. XVIII yüzilliyin sonunda Siciliya adalarının kənd yerlərində meydana gəlmiş m. XX yüzillikdə İtaliya şəhərlərində də yayılmışdır. M. polis, məhkəmə və müəyyən siyasi dairələrlə (yuxarı elita ilə) bağlı olur. 1950-60-cı illərdən İtaliya hökuməti demokratik qüvvələrin təzyiqi altında m.-ya qarşı rəsmi mübarizəyə başlamışdır. Lakin bu mübarizə m.-nın fəaliyyətini dayandıra bilməmişdir. Siciliya m.-si ABŞ-dakı qanqster təşkilatları (məsələn, "Koza nostra" - italyanca "bizim işimiz") ilə sıx bağlıdır.

**Magistr** *(lat. magister – rəis, hami)* – **1)** Qədim Romada bəzi vəzifəli şəxslərin titulu; **2)** Bizansda yüksək saray titulu; **3)** Qərbi Avropada orta əsrlərdə dini-cəngavər katolik ordeninin başçısı (çox zaman böyük magistr), humanitar elmləri tədris edən şəxs; **4)** ABŞ-da, Böyük Britaniyada və ingilis-sakson (ingilis-amerikan) ali təhsil sisteminə malik olan digər ölkələrdə universiteti və ya ona bərabər olan ali təhsil məktəbini bitirən və bakalavr dərəcəsinə malik, 1-2 il ərzində əlavə kurs keçmiş, xüsusi imtahan verərək dissertasiya müdafiə etmiş şəxsə verilən ikinci akademik dərəcə.

**Magistral boru kəmərlərinin inşası, istismarı və ya təmir edilməsi zamanı təhlükəsizlik qaydalarını pozma** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyində hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı əleyhinə olan cinayətlərdən biri. AR CM-in 268-ci maddəsində nəzərdə tutulmuşdur. Magistral boru kəmərlərinin inşası, istimarı və ya təmiri zamanı təhlükəsizlik qaydalarının pozulmasında, ehtiyatsızlıq nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasında, yaxud külli miqdarda ziyan vurulmasında ifadə olunur.

**Magistrat** *(lat. magistratus)* – **1)** Qədim Romada dövlət vəzifəsini tutan hakimiy-

yət nümayəndəsi (konsul, pretor, tribun) olan şəxs; **2)** Rusiyada I Pyotrun dövründən 1885-ci ilədək seçkili şəhər idarəsi (inzibati-məhkəmə işlərini yerinə yetirmişdir); **3)** bəzi ölkələrdə şəhər idarəsi (bələdiyyə); **4)** bir sıra xarici ölkələrdə aşağı məhkəmə instansiyası və ya polis vəzifəsini icra edən şəxs.

**Magistratura** – **1)** Qədim Romada ali dövlət vəzifəsi, eləcə də həmin vəzifəni tutan şəxslərin məcmusu; **2)** bir sıra xarici ölkələrdə dövlət məmurlarının və xüsusilə də məhkəmə məmurlarının məcmusu; **3)** magistratın, dövlət məmurlarının vəzifələrinin həyata keçirilməsi müddəti.

**Maharaca** *(sanskritcə böyük hakim)* – Hindistanda hökmdar titulu. Orta əsrlərdə iri feodallara, müstəqil knyazlıqların hakimlərinə, yeni və ən yeni dövrlərdə isə bəzi knyazlara da m. titulu verilmişdir. 1956-cı ildə m.-lar siyasi hakimiyyətdən məhrum edilmişdir.

**Majoritar seçki sistemi** *(fr. majorite – çoxluq)* – bir sıra xarici dövlətlərdə (ABŞ-da, Böyük Britaniyada, Almaniyada, Ekvadorda, Kanadada) mərkəzi və yerli nümayəndəli orqanlara seçkilərdə, prezident seçkilərində və başqa vəzifəli şəxslərin seçilməsində səsvermənin nəticələrini müəyyənetmə sistemi. Müasir dövlətlərdə majoritar sistemin 3 növü tətbiq edilir: 1) mütləq səs çoxluğu; 2) nisbi səs çoxluğu; 3) ixtisaslı səs çoxluğu.

**Makiavellizm** – qarşıya qoyulan siyasi məqsədlər naminə hər cür vasitədən istifadəni mümkün və ədalətli hesab edən siyasət. "M." termini görkəmli italyan mütəfəkkiri, İntibah dövrünün böyük nümayəndələrindən biri və siyasi-hüquqi fikir tarixinin inkişafında mühüm xidmətləri olmuş Nikkolo Makiavellinin adından götürülmüşdür.

**Makkaren-vud qanunu** – ABŞ-da qəbul edilmiş daxili təhlükəsizlik haqqında qanun. Bu qanun ABŞ konqresində senator Makkerenin və nümayəndələr palatasının üzvü Vudun təklifi ilə 1950-ci il sentyabrın 23-də qəbul edilmişdir. Qanun ABŞ-ın demokratik və sol-radikal təşkilatlarına, başlıca olaraq kommunist partiyasına qarşı yönəldilmişdi.

**Makkartizm** – XX yüzilliyin 50-ci illərində ABŞ-da "Soyuq müharibə"ni gücləndirməyə, antidemokratik qanunlar verməyə, antikommunist isteriyasını qızışdırmağa çağıran ifrat mürtəce siyasi cərəyan. "Antiamerika fəaliyyəti" təhqiq edən senator C. Makkartinin adı ilə bağlıdır. M. tərəfdarlarına hədə-qorxu, şantaj, təhdid və məhkəmə yolu ilə divan tutmaq metodları xas idi.

**Makler** *(alm. makler)* – fond, əmtəə və valyuta birjalarında əqdlərin, bəzən isə sığorta, fraxt, mənzil müqavilələrinin və digər müqavilələrin bağlanması zamanı edilən hərəkətlərdə vasitəçi.

**Maqate** – Atom Enerjisi üzrə Beynəlxalq Agentlik. 1955-ci ildə yaradılmışdır. Hökumətlərarası təşkilatdır və 1956-cı ildən BMT ilə saziş əsasında Birləşmiş Millətlərin ümumi sisteminə daxildir. Maqate aşağıdakı səlahiyyətlərə malikdir: a) atom enerjisindən bütün dünyada praktiki olaraq mülki məqsədlər üçün istifadə olunmasını inkişaf etdirmək, bu sahənin öyrənilməsini müdafiə etmək və mükafatlandırmaq; b) öz üzvləri arasında onların istəyi ilə xidmətlərin və materialların mübadiləsində vasitəçilik etmək; c) atom enerjisinin sülh məqsədləri üçün istifadə edilməsi sahəsində materiallardan, xidmətlərdən və avadanlıqlardan istifadəni təmin etmək; ç) atom enerjisindən dinc istifadə sferasında elmi və texniki informasiya mübadiləsini mükafatlandırmaq; d) nüvə materiallarından müharibə məqsədləri üçün istifadənin qarşısını almaqdan ötrü tədbirlər qəbul etmək və s.





**Maqdeburq hüququ** - orta əsrlər şəhər hüququnun ən məşhur sistemlərindən biri. XIII yüzillikdə alman şəhəri Maqdeburqda təşəkkül tapmış və bir neçə Avropa şəhərləri tərəfindən əxz (mənimsənilmişdir) edilmişdir. Hüquqi cəhətdən şəhərlilərin hüquq və azadlıqlarını, onların özünüidarə hüququnu təsbit etmişdir.

**Maqnat** *(lat. magnas və ya magnatus – varlı, adlı-sanlı)* – Avropanın bəzi ölkələrində, xüsusilə də feodal-təhkimçilik Polşasında və Macarıstanda iri feodal, varlı və əsilli şəxs. Məcazi mənada iri sənaye və ya maliyyə kapitalisti.

**Mal** *(ər. əmlak, var-dövlət, pul)* – feodalizm dövründə Zaqafqaziyada, Orta Asiyada, Yaxın və Orta Şərq ölkələrində əsasən daşınar əmlak (mülkdən fərqli olaraq); pul, əmtəə, pul vergisi, sonralar isə hər cür vergi. XV-XIX yüzilliklərin rəsmi sənədlərində Azərbaycanda, İranda mal-cəhət – torpaq vergisi də m. adlanırdı. Xərac və bəhrə m.-ın sinonimləridir.

**Malcəhət** – orta əsrlərdə Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda torpaqdan istifadə edən kəndlilərdən məhsulla (buğda, arpa, düyü, pambıq və i.a.) alınan feodal rentası. M. XV yüzillikdən "xərac" terminini əvəz etmişdir. M.-in miqdarı ayrı-ayrı dövrlərdə müxtəlif həcmdə (adətən, məhsulun 1/10 - 1/3 hissəsi) olmuşdur. Xanlıqlar dövründə bəhrə, dəhyek və i.a. adlarda toplanırdı.

**Mal əs-silah** *(ər.)* – orta əsrlərdə Yaxın Şərqin bir sıra ölkələrində, o cümlədən Azərbaycanda vergi. Müharibələr üçün silah və sursat əldə etmək məqsədi ilə dövlətin xeyrinə toplanırdı. Miqdarı qeyri-müəyyən idi. Monqol işğalı dövründə ən ağır mükəlləfiyyətlərdən birinə çevrilmişdir. M.s.s. xanlıqlar dövrünədək mövcud olmuşdur.

**Mal-girov krediti** – malların müəyyən partiyasının girovla verilməsini nəzərdə tutan kredit.

**Malın ümumi ofertası** - mülki qanunvericiliyə görə pərakəndə alqı-satqı müqaviləsinin bütün mühüm şərtlərini əhatə etməklə malın qeyri-müəyyən şəxslər dairəsinə ünvanlanmış reklamda, kataloqlarda və malların təsvirlərində təklif edilməsi (AR MM-in 616.1-ci maddəsi).

Satış yerlərində (piştaxtalarda, vitrinlərdə i.a.) malların qoyulması, onların nümunələrinin nümayiş etdirilməsi və ya satılan mallara dair məmulatların (malların təsirlərinin, kataloqlarının, fotoşəkillərinin və i.a.) təqdim edilməsi qiymətin və pərakəndə alqı-satqı müqaviləsinin digər mühüm şərtlərinin göstərilib-göstərilmədiyindən asılı olmayaraq ümumi oferta s.. yılır, amma satıcının müəyyən malların satış üçün nəzərdə tutulmadığını aşkar müəyyənləşdirdiyi hal istisnalıq təşkil edir (AR MM-in 616.2-ci maddəsi).

**Malikanə** – yaşayış, təsərrüfat, park və i.a. tikililərdən ibarət vahid memarlıq kompleksi. Mülkədar m.-ləri ağalıq evin-

dən, bir və ya bir neçə kiçik tikilidən (fligeldən), oranjereya və parkdan, təsərrüfat həyətindən ibarət olmuşdur. XVIII yüzilliyin sonu - XIX yüzilliyin əvvəllərində yaranmış şəhər tipli m.-lərə şəxsi ev, "xidmət yeri" (tövlə, kareta saxlanan tikili və i.a.), həyət, yaxud kiçik bağ daxil idi. Böyük m.-lərdə çox vaxt təsviri və dekorativ-tətbiqi sənət əsərləri toplanırdı. Azərbaycanın ərazisində, o cümlədən Gəncədə, Abşeronda (əsasən kəndlərdə) m.-lər olmuşdur.

**Maliyyə** – pul vəsaiti fondlarının yaradılması və istifadəsi prosesində baş verən iqtisadi münasibətlərin məcmusu; əmtəə-pul mübadiləsinin müntəzəm şəkil aldığı şəraitdə dövlətin inkişafı və onun vəsaitə tələbatının artması ilə əlaqədar meydana gəlmişdir.

**Maliyyə agenti** – pul tələblərinin güzəşti ilə maliyyələşdirmə müqaviləsinin bir tərəfi.

**Maliyyə hüququ** – dövlətin maliyyə fəaliyyəti prosesində əmələ gələn ictimai münasibətləri tənzim edən hüquq normalarının məcmusu. M.h. hüququn müstəqil sahəsidir. O, konstitusiya hüququ və inzibati hüquqdan törəmədir, onların başlıca prinsiplərinə və ümumi müddəalarına əsaslanır. M.h. normaları dövlətin zəruri pul vəsaitinin toplanması, bölüşdürülməsi və ondan istifadə edilməsi prosesində əmələ gələn təşkilati-maliyyə (maliyyələşdirmə) münasibətlərini tənzimləyir.

**Maliyyə icarə müqaviləsi** *(bax: lizinq müqaviləsi).*

**Maliyyə ili** – qanunvericiliklə müəyyən edilmiş illik müddət; bu müddət ərzində vergi hüquq normalarına uyğun olaraq təsərrüfat subyektlərinin fəaliyyətinin müxtəlif təşkilati-hüquqi formaları haqqında maliyyə hesabatı tərtib olunur. M.i.-nin başlanğıcı və sonu, bir qayda olaraq, büdcə ilinin başlanması və bitməsi tarixi ilə üst-üstə düşür. Azərbaycan Respublikasında m.i. təqvim ilinə uyğundur.

**Maliyyə intizamı** – idarə, müəssisə və təşkilatların qanunvericiliyə uyğun olaraq və onun əsasında verilən digər aktlarla müəyyən edilmiş büdcə, kredit hesablaşma və digər maliyyə öhdəliklərinə dəqiq və vaxtında əməl etməsi. M.i. dövlət intizamının bir növüdür. M.i.-nın pozulması maliyyə sanksiyalarının (büdcə, kredit, hesablaşma sanksiyaları) tətbiqinə səbəb olur. Müəssisə rəhbərləri, habelə onların baş (böyük) mühasibləri m.i.-nın pozulmasına görə inzibati məsuliyyət və intizam məsuliyyəti, qərəzli hallarda isə cinayət məsuliyyəti daşıyırlar.

**Maliyyə nəzarəti** – dövlət nəzarətinin mühüm növlərindən biri. M.n. pul formasında həyata keçirilir. M.n.-nin aşağıdakı formaları fərqləndirilir: a) ümumdövlət maliyyə nəzarəti; b) idarədaxili maliyyə nəzarəti; c) təsərrüfatdaxili maliyyə nəzarəti.

**"Maliyyə-sənaye qrupu haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında maliyyə-sənaye qruplarının yaradılması, fəaliyyəti və ləğv edilməsinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 23 aprel 1996-cı il tarixdə qəbul edilmişdir. O, altı fəsil və 19 maddədən ibarətdir.

**Maliyyə vekseli** – mal örtüyünə malik olmayan veksel; əsas təyinatı pul vəsaitlərini yerləşdirməkdən ibarətdir. Bank, xəzinə veksellləri, hüquqi şəxslərin vaxtı keçmiş kredit borcları üzrə saxta veksellər m.v.-nin növlərinə aiddir.





**Mal krediti** – mülki hüquqda kredit müqaviləsinin bir növü. Kredit müqaviləsinə görə tərəflər arasında bir tərəfin digər tərəfə müəyyən cinsi əlamətlərə malik olan əşyaları vermək öhdəliyini nəzərdə tutan müqavilə bağlana bilər.

**Malların eksportu** *(bax: malların ixracı).*

**Malların idxalı** – gömrük qanunvericiliyinə uyğun olaraq təkrar ixrac malları sayılan malları idxal etmiş şəxsin həmin malları idxal edəndən sonra təqdim etmədən və idxal olunduğu andakı vəziyyətdə ixrac etməsi.

**Malların reimportu** – gömrük ərazisindən aparılmış Azərbaycan Respublikası mallarının ixrac rejiminə uyğun olaraq müəyyən edilmiş müddətdə gömrük rüsumları və vergiləri tutulmadan geri gətirilməsi ilə əlaqədar olan gömrük rejimi.

**Malların təkrar idxalı** – gömrük qanunvericiliyinə uyğun olaraq təkrar idxal malları sayılan malları təqdim etmədən və ixrac olunduğu andakı vəziyyətdə ixrac etmiş şəxsin həmin malları idxal etməsi.

**Malların təkrar ixracı** – xarici malların AR GM-ə və gömrük işi üzrə Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq idxal gömrük rüsumları, vergilər alınmadan və ya qaytarılmaqla, həmçinin iqtisadi siyasət tədbirləri tətbiq edilmədən Azərbaycan Respublikasının gömrük ərazisindən icra olunmasından ibarət gömrük rejimi.

**Malların təqdim edilməsi** – mallar üzərində mülkiyyət hüququnun başqasına verilməsi, o cümlədən bunlarla məhdudlaşdırılmayan, malların satışı, mübadiləsi, hədiyyə verilməsi, natura şəklində əməkhaqqı ödənilməsi və natura şəklində digər ödəmələr, həmçinin girov qoyulmuş mallar üzrə mülkiyyət hüququnun girov saxlayana keçməsi (AR VM-in 13.2.10-cu maddəsi).

**Mancanaq, məncəniq** – silah növü; atıcı qurğu. Orta əsrlərdə Yaxın Şərqin bir sıra ölkələrində, o cümlədən Azərbaycanda yayılmışdı. Hündür divarlarla əhatə olunmuş şəhər və qalaların alınması zamanı istifadə edilirdi. Düşmən müdafiəsini yarmaq üçün daş atan M. arradədən böyük olurdu. Odlu silahın yaranması ilə sıradan çıxmışdır.

**Mandamus** *(lat. mandamus)* – ingilis-sakson hüquq sistemli ölkələrdə bu və ya digər şəxsin adına qanunun vəzifə kimi tapşırdığı hərəkətləri etmək haqqında verilən məhkəmə əmri. M. adətən vəzifəli şəxslərə verilirdi. M. insanın hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin konstitusiya vasitələrindən biridir.

**Mandant** *(bax: mandatari).*

**Mandat** *(lat. mandatum)* – **1)** səlahiyyət, sorğu, tapşırıq; **2)** hər hansı bir şəxsin hüquq və səlahiyyətlərini təsdiq edən sənəd (məsələn, deputat mandatı); **3)** Roma hüququnda "mandat" termini tapşırıq müqaviləsi mənasında işlədilmişdir; **4)** Millətlər Cəmiyyətinin adından keçmiş Osmanlı imperiyası ərazisinin bir hissəsini, yaxud Almaniya müstəmləkələrini idarə etmək üçün verilən səlahiyyətə də m. deyilirdi.

**Mandatari** – digər şəxsin hüquqi əhəmiyyətə malik bu və ya digər tapşırığını (mandatını) yerinə yetirməyi üzərinə götürən şəxs.

**Mandat əraziləri** – Almaniyanın keçmiş müstəmləkələrinin və Osmanlı imperiyasından qoparılmış ərazi hissələrinin ümumi adı. Birinci dünya müharibəsindən sonra

həmin ərazilər Millətlər Cəmiyyəti tərəfindən mandat əsasında qalib ölkələrin idarəçiliyinə verilmişdi. İkinci dünya müharibəsindən sonra mandat sistemi BMT-nin qəyyumluq sistemi ilə əvəz edilmişdir.

**Mandat komissiyası** – bir sıra ölkələrin dövlət hakimiyyətinin nümayəndəli və yerli özünüidarə orqanlarında həmin orqanın birinci sessiyasının işə başlamasının başlanğıcında yaradılan daimi komissiyalardan biri. Seçilmiş deputatların səlahiyyətlərinin, seçkilər haqqında qanunvericiliyin pozulduğu hallarda isə müvafiq deputatlara münasibətdə onların etibarsızlığının tanınmasını təklif edir. Deputatın öz səlahiyyətlərin vaxtından əvvəl xitam verməsi ilə əlaqədar olan bütün məsələlərə dair rəy verir.

**Manifest** *(lat. manifestum – çağırış)* – **1)** hər hansı təşkilatın öz siyasi görüşləri barəsində rəsmi müraciəti, bəyannaməsi; **2)** dövlət başçısının, yaxud ali hakimiyyət orqanının hər hansı bir mühüm siyasi hadisə ilə əlaqədar xalqa müraciət aktı.

**Manilik** – III yüzillikdə Azərbaycanın və İranın ərazisində yayılmış dini-fəlsəfi və ictimai-siyasi hərəkat. M. hərəkatı onun banisi Maninin adı ilə adlandırılmışdır. M. özündə zərdüştilik, xristianlıq və buddizmin dini-fəlsəfi elentlərini ehtiva edirdi. M. ümumdünya dininə çevrilməli idi. M. təliminə görə dünyada iki qüvvə – İşıq və Qaranlıq arasında əbədi mübarizə gedir. Dünya şeytan əməlləri ilə doludur. İnsan ilk növbədə şər elementlərin təsirindən xilas olmalı və hakimiyyətə can atmalıdır. M.-in ardıcılları dünyanın bir çox nemətlərindən, hətta ailə qurmaqdan belə imtina etməyə çağırırdılar. M. xüsusi mülkiyyətə qarşı çıxmır, mala, mülkə sahib olanlara m. təlimini yayanlara maddi yardım göstərməyi tövsiyə edirdi. Şər qüvvələrə etiraz əlaməti olaraq m. xalq kütlələrinin mənafelərini qorumağa səsləyirdi. Lakin bu təlim mövcud quruluşun silah gücü ilə aradan qaldırılmasını təbliğ etmirdi.

M. qısa müddət ərzində Roma imperiyasının ucqarlarında (Afrikada və İspaniyada), eləcə də Orta Asiyada geniş yayılmışdır. M. mövcud cəmiyyətin qayda-qanunlarına qarşı mübarizə apardığına görə həmişə təqib edilmişdir. Dövlət hakimiyyəti əleyhinə çevrilmiş bu təlim Azərbaycanın siyasi və hüquqi fikir tarixinin inkişafında mühüm rol oynamışdır.

**Maniya** *(yun. mania – sərsəmlik, ağılsızlıq, ehtiras)* – **1)** mühərrik qıcıqlanması, pozğun təfəkkür və deyingənliklə xarakterizə olunan psixi pozğunluq; **2)** patoloji səy (cəhd), ehtiras (məsələn, qrafomaniya); **3)** "sərsəmləmə" sözünün sinonimi.

**Manko** *(ita. manco – çatışmazlıq)* – əmtəənin çəkisindəki çatışmazlıq; səhvlər nəticəsində kassa məbləğlərində yaranan çatışmazlıq və ya kassirin hesabda yol verdiyi səhv.

**Mansipasiya** *(lat. mansipatio – mülkiyyətə vermə)* – müqavilə öhdəliyinin bir növü. M. Qədim Roma hüququna görə müəyyən formada həyata keçirilən mülki-hüquqi əqdlərdən biridir. Bu müqaviləyə görə tərəflərdən biri öz əmlakını başqasının mülkiyyətinə verir, yaxud əmlak üzərində sərəncam vermək hüququ müəyyən bir şəxsə verilirdi. Müxtəlif predmet və əşyalar, o cümlədən qullar, torpaq sahəsi və mal-qara mülkiyyətə verilə bilərdi.

**Mansipiləşdirmə** – Roma hüququnda müəyyən formaya əməl etməklə əşyanı satmaq, vermək, habelə şəxsi ailə başçısının hakimiyyəti altında olmağa qəbul etmək.

**Mantiya** *(yun. mantion – örtük, plaş)* – yerədək sallanan, başqa bir paltarın üstündən geyilən enli üst geyimi. M. hökmdarların, Roma papasının və pravoslav kilsəsi ali ruhanilərinin geyimidir. Bəzi ölkələrdə, o cümlədən Azərbaycanda hakimlər, təntənəli mərasimlər zamanı isə elmi cəmiyyətlərin və akademiyaların üzvləri m. geyinirlər.

**Manufaktura** *(lat. manufactura; manus – əl və factura – hazırlama)* – əmək bölgüsü və əl işi texnikasına əsaslanan kapitalist müəssisəsi. XVI yüzilliyin ortalarından Qərbi Avropada sadə kapitalist kooperasiyasından sonra yaranmışdır. XVIII yüzilliyin 60-70-ci illərində maşınlı istehsalla əvəz olunmuşdur. M. iki yolla əmələ gəlmişdir: 1) müxtəlif ixtisaslı sənətkarların bir emalatxanada birləşməsi (bu halda məhsul tam hazır olanadək bir sənətkarın əlindən keçirdi); 2) eyni ixtisaslı sənətkarların ümumi emalatxanada birləşməsi (bu halda sənətkarlar fasiləsiz olaraq eyni əməliyyatı yerinə yetirirdilər).

M. istehsalının inkişafına 3 forma uyğun gəlirdi: 1) dağınıq (sahibkar müstəqil sənətkarların məhsulunu alır və satır, onları xammal və istehsal alətləri ilə təchiz edirdi); 2) qarışıq (mərkəzləşdirilmiş emalatxanalarda ayrı-ayrı əməliyyatların ev işi ilə əlaqələndirilirdi); 3) mərkəzləşdirilmiş (muzdlu fəhlələr bir emalatxanada birləşirdi).

**Manukapi** *(lat. manucapio)* – Roma hüququnda girov qoyma əsasında azad etmə.

**Manu qanunları** – qədim hind siyasi-hüquqi abidəsi, adət normaları və qanunlar toplusu. M.q. eramızdan əvvəl təqribən II yüzillikdə və eramızın I yüzilliyində tərtib edilmişdir. O, Hindistan quldarlıq cəmiyyətinin dini-fəlsəfi, əxlaqi, siyasi və hüquqi ideyalarının səciyyəvi cəhətlərini özündə ehtiva edir. Toplu 12 fəsil və 2685 paraqrafdan (maddədən) ibarətdir. M.q.-nda hind quldarlıq cəmiyyətinin ictimai və dövlət quruluşu, müxtəlif hüquq institutları və mühakimə icraatı, habelə cəmiyyətin varnalara (kastalara) bölgüsü haqqında müddəalar öz əksini tapmışdır.

**Manumissiya** *(lat. manumissio – əldən vermək, əldən çıxarmaq)* – müxtəlif hüquqi formulalar (vəsiyyət, razılıq – quldarın senz vərəqəsindəki razılığı ilə) vasitəsilə qulların azad edilməsi. M. xristianlıq dövründə (yeni xristian dini meydana gəldikdən sonra) yepiskop və icma üzvlərinin iştirakı ilə həyata keçirilirdi.

**Manus** *(lat. manus – əl)* – əlin yalnız müdafiə deyil, həm də hakimiyyətin rəmzi olduğuna görə Qədim Romada "m." termini əvvəllər ailə başçısının bütün ailə üzvləri və evin əmlakı üzərində mütləq hakimiyyəti demək idi. Sonralar belə hakimiyyət yalnız arvad üzərində tətbiq edilmişdir. Belə ki, kişinin (ərin) arvadı öldürmək və onun əmlakı (cehizi) üzərində sərəncam vermək hüququ var idi. M. eramızdan əvvəl I yüzilliyin sonuna doğru sıradan çıxmışdır.

**Marcin** – dəniz daşımaları müqaviləsinin şərti; bu şərtə uyğun olaraq qabsız və ya tökülən yüklərin daşınması üçün çarterdə yükün minimal kəmiyyəti arasındakı fərqlər qeyd-şərt edilir.

**Marginal qruplar** – öz aralarında az qədər ümumiliyə malik olan və ya heç bir ümumiliyə malik olmayan kifayət qədər müxtəlif sosial hadisələri əhatə edən termin. M.q. anlayışı özündə evsizləri, məhbusları, narko-

manları, psixi xəstələri, qoca adamları və əlilləri ehtiva edir. Submədəniyyətlər, anticəmiyyət həyat tərzi və bayağı mədəniyyət də həmin anlayışa daxildir. Bu termindən kriminologiyada geniş istifadə olunur.

**Marixuana** – hind çətənəsindən alınan məhsul; narkotik maddə.

**Marja** *(fr. marge)* – **1)** müəyyən vaxtda əmtəənin birja qiyməti ilə bu əmtəəyə verilə bilən borcun maksimum həcmi arasındakı fərq; **2)** satıcı tərəfindən təyin edilən və birja bülletenində göstərilən qiymətlə alıcının təklif etdiyi qiymət arasındakı fərq.

**Marka** *(alm. mark)* – **1)** Qərbi Avropanın bir sıra ölkələrində orta yüzilliklərdə kəndli icması; **2)** Frank və Almaniya dövlətində başında markqrafın durduğu sərhədyanı dairə (ərazi).

**Markalama** – yarlıq və ya taranın, yaxud məhsulun üzlərində yaxılmış hərf, rəqəm, yazı və şərti işarə.

**Marketinq** *(ing. marketing, market – bazar)* – müəssisələrin idarə edilməsi sistemlərindən biri; təsərrüfata dair qərar qəbul olunması məqsədi ilə bazarda baş verən proseslərin dəqiq uçotunun aparılmasını nəzərə tutur. M. XX yüzilliyin əvvəllərində ABŞ-da meydana gəlmişdir. O, maksimum mənfəət götürmək məqsədi ilə istehsalı ictimai tələbata və bazarın tələblərinə uyğunlaşdırmaq üçün şərait yaradır, bazar konyunkturasını öyrənmək, satışı daha da intensivləşdirmək, habelə məhsulların rəqabət qabiliyyətini yüksəltmək üzrə təşkilati-texniki tədbirlər sistemi işləyib hazırlayır. M.-in əsas funksiyalarına tələbatı, qiymətin əmələ gəlməsi, reklam və satışın həvəsləndirilməsi məsələlərini öyrənmək, əmtəə çeşidlərini, satışı və ticarət əməliyyatlarını planlaşdırmaq, əmtəəni saxlamaq, daşımaq və digər təşkilati fəaliyyət daxildir.

**Markiz** *(fr. marquis)* – **1)** Karolinqlər imperiyasında markqrafa uyğun olan vəzifə; **2)** orta əsrlərdə Fransada və İtaliyada (X yüzillikdə) iyerarxiya nərdivanındakı vəziyyətinə görə qraf ilə hersoq arasında duran iri feodal; 3) Qərbi Avropanın bir sıra ölkələrində (Fransa, İtaliya və İspaniyada) irsi zadəgan titulu.

**Markqraf** *(alm. markgraf – marka qrafı)* – ilk əvvəllər Karolinqlər imperiyasında və "Müqəddəs Roma imperiyası"nda vəzifəli şəxs. Böyük Karl markaları idarə etmək üçün təsis etmişdi. Adi qrafa nisbətən m.-ın daha geniş səlahiyyətləri (həmçinin hərbi hakimiyyəti) var idi. Feodalizmin inkişafı ilə m.-lar yarımmüstəqil və müstəqil vilayət sahiblərinə, knyazlara (Almaniyada) çevrilmişlər. Fransa, İspaniya və İtaliyada m. (markiz) ali zadəgan titullarından idi.

**Marksizm** *(bax: marksizm-leninizm).*

**Marksizm-leninizm** – fəhlə və kəndlilərin dünyagörüşünü, elmi ideologiyasını, beynəlxalq kommunist hərəkatının nəzəri əsasını, dünyanın dərk olunması və inqilabi yolla dəyişdirilməsi elmini təşkil edən fəlsəfi, iqtisadi və siyasi-hüquqi baxışların bütöv sistemi. Marksizm XIX yüzilliyin 40-cı illərində, leninizm isə XX yüzilliyin başlanğıcında meydana gəlmiş, 1917-ci ilin oktyabrında Rusiyada baş vermiş dövlət çevrilişindən və dünyada ilk sovet dövləti yarandıqdan sonra həmin baxışlar sistemi m.-l. adlandırılmağa başlamışdır.

**Marş** *(fr. marche – yürüş, hərəkət etmə)* – **1)** müəyyən rayona çıxmaq üçün qoşunların yürüş cərgələri ilə mütəşəkkil yerdəyişməsi. Hərbi əməliyyatların hazırlanması və keçirilməsində mühüm yer tutur və manevr etmənin əsasını təşkil edir. M. döyüş maşınlarında, nəqliyyat vasitələrində, bəzən də piyada və ya xizəkdə həyata keçirilir; **2)** ritmik müntəzəm yürüş.

**Marşal** *(fr. marechal – nökər)* – **1)** orta əsrlərdə Fransada saray rütbəsi, kralın atlara baxan xidmətçisi. XIII-XV yüzilliklərdə kral qoşununun bir hissəsinin komandanı idi; **2)** bir sıra ölkələrin ordularında ali hərbi rütbə. İlk dəfə XVI yüzillikdə Fransada tətbiq edilmişdir. Avropanın bəzi dövlətlərində general-feld marşal rütbəsinə müvafiq idi; **3)** Polşada bəzi mülki vəzifəli şəxslərin rütbəsi.

**Maskalanma** – **1)** hərbdə – qoşunların döyüş əməliyyatlarının və gündəlik fəaliyyətinin təchizat növü; **2)** məcazi mənada – əsl, həqiqi simasını gizlətmə, pərdələmə, fəaliyyət və niyyət haqqında yanlış təsəvvür yaratma.

**Maşınları idarə etmə və istismar qaydalarını pozma** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 351-ci maddəsində nəzərdə tutulmuşdur.

Döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarəetmə və istismar qaydalarını pozmada, ehtiyatsızlıq nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurmada ifadə olunur.

**Matriarxat** *(lat. mater; matris – ana + yun. arche – başlanğıc, hakimiyyət; hərfən qadın hakimiyyəti)* – qəbilə quruluşunun dağılması və sinifli cəmiyyətə keçid dövründə mövcud olmuş ictimai quruluş formalarından biri. Qadının ictimai istehsalda birinci dərəcəli rol oynaması, əmlak və vəzifə vərəseliyinin ana xətti ilə müəyyənləşdirilməsi, nikahın matrilokal və ya dislokal xarakter daşıması m.-ın əsas xüsusiyyətləri olmuşdur. M. dövrünü ilk dəfə qədim klassik mifologiyanın təhlili əsasında İsveçrə alimi İ. Baxofen (1815-1887) müəyyən etmişdir.

**Matrilokal nikah** *(lat. mater; matris - ana + locus – yer)* – matriarxat dövründə yayılmış kəbin forması. Kişi yaşamaq üçün qadının icmasına köçürdü. M.n. qəbilə icmasının ana xətti ilə ailə icmasına çevrilməsinə və kişinin qəbilədən kənar ayrıca mülkiyyətinin yaranmasına səbəb olmuşdur. Ər-arvadın müvəqqəti olaraq arvadın valideyninin yanına köçməsi, ərin onun əvəzinə işləməsi və i.a. adətləri m.n.-ın qalıqlarıdır.

**Matrimonial** *(lat. matrimonium – nikah)* – nikahın ən qədim formalarından biri.

**Matrona** *(lat. matrona)* – **1)** Qədim Romada azad doğulmuş, qanuni nikahda olan qadın. Geniş mənada ailənin anası, hörmətli qadın; **2)** məcmu halda – Qədim Romada və onun əyalətlərində (xüsusilə Qalliya, Almaniya və Böyük Britaniyada) müəyyən yaşayış məskəninin və ya qəbilətayfa icmasının hamisi olan ilahələr.

**Maydanek** – Lüblin şəhəri (Polşa) yaxınlığında qəsəbə. 1941-ci ilin payızında m.-də faşist Almaniyasının ölüm düşərgəsi yaradılmışdır. M.-in qaz kameralarında təqribən 1,5 milyon nəfər məhv edilmişdir. M.-də gizli antifaşist təşkilat fəaliyyət göstərmişdir. Düşərgə 1944-cü il iyulun 23-də sovet qoşunları tərəfindən ləğv edilmişdir.

**Mayor** *(lat. major – böyük)* – bir çox dövlətlərin silahlı qüvvələrində, o cümlədən Azərbaycan Respublikasının silahlı qüvvələrində hərbi zabit rütbəsi.

**Mayorat** *(lat. majoratus – baş, böyük)* – feodal və burjua hüququnda daşınmaz əmlakın (ilk növbədə torpağın) vərəsələrə ailə, yaxud nəsildə ilkinlik (yaşa görə) prinsipinə görə keçməsi. M. ilk dəfə qədim hind qanunvericilik toplularında, Afina hüququnda və i.a. əks etdirilmişdir. Avropa ölkələrində M. XI-XIII yüzilliklərdə torpaq mülkiyyətinin parçalanmasına yol verməmək məqsədilə müəyyən edilmişdir. İngiltərədə m. qanunvericilik yolu ilə Vestminster statutlarında təsbit edilmişdir. Yalnız böyük oğul feodun varisi hesab olunurdu. Azərbaycanda vərəsəlik məsələləri XII yüzilliyədək adət normaları, sonra isə müsəlman hüququ (şəriət) normaları ilə tənzim edilmişdir.

**Mayordom** *(lat. major domus – evin başçısı)* – Merovinqlər dövründə (V əsrin sonu - VIII əsrin ortaları) Fransa dövlətində yüksək vəzifəli şəxs (palata meri). M. VII yüzilliyin ortalarından başlayaraq hakimiyyətin xeyli hissəsini öz əlində cəmləşdirmişdi. M. Pipin Korotki 751-ci ildə Karolinqlər sülaləsinin başlanğıcını qoymuşdur.

**Mazoxizm** – cinsi hiss pozğunluğu. Avstriya yazıçısı Leopold Zuher – Mazoxun (1836-1895) adı ilə adlandırılmışdır. M. zamanı şəxsi həzzin alınması üçün tərəfdaşın fiziki və mənəvi hərəkətlərini hiss etmək zərurəti yaranır *(həmçinin bax: sadizm)*.

**Mediasiya** *(lat. mediatio – vasitəçilik)* – beynəlxalq hüquqda mübahisədə iştirak etməyən dövlətin, yəni üçüncü tərəfin beynəlxalq mübahisədə vasitəçiliyi.

**Mediator** *(lat. mediator – vasitəçi)* – beynəlxalq mübahisədə vasitəçi qismində iştirak edən dövlət.

**Mehmandar** *(fars. qonaqpərəst, qonaqsevər)* – orta əsrlərdə bəzi Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Azərbaycanda saray məmuru. M. adətən hökmdar, əmir, vali, xan və başqalarının sarayına gələn qonaqları, elçiləri (səfiri, əyalət hakimlərini və başqalarını) qarşılamalı, onları yerləşdirməli və başqa xidmətlər göstərməli idi.

**Mehr** *(türk. mehr)* – bərabərhüquqlu nikahın (zəvacın) bağlandığı zaman kişi (ər) tərəfindən qadına (arvada) ayrılan əmlak. M.-in ödənilməsi bərabərhüquqlu nikahın başlıca şərtidir və ona nikah münasibətlərinə görə arvada ödəmə kimi baxılır (islamda). M. ancaq arvada məxsusdur və ərin tələbi ilə boşanma baş verdikdə o, arvadı, yaxud dul qalmış qadını təmin etməyə xidmət edir. M.-in minimum həddi 10 dirhəmdir (30 qram gümüş), maksimum həddi isə qeyri-məhduddur. M. nikaha daxil olan tərəflərin nümayəndələrinin razılığı ilə müəyyən edilir. M.-in miqdarı və ödənilməsi şərtləri xüsusi olaraq nikah müqaviləsində müəyyənləşdirilir. M. həm nikah bağlandıqdan dərhal sonra, həm də hissə-hissə, yaxud boşanma zamanı ödənilə bilər. Mehrin xeyli hissəsini adaxlı toya ziynət əşyaları və bahalı geyim şeyləri qismində mütləq gətirməlidir. Bu da nikah müqaviləsində xüsusi olaraq qeyd edilməlidir.

M. müstəsna islam institutudur və buna görə də onu başlıqla eyniləşdirmək düzgün olmazdı. Başlıq islamaqədərki ən qədim nikah adətlərindən biridir və o, qadını bir növ satın almaqdan ibarətdir.

**"Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında meliorasiya və irriqasiya sahəsində fəaliyyə-







tin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 5 iyun 1996-cı il tarixdə qəbul edilmişdir. O, yeddi fəsil və 32 maddədən ibarətdir.

**Meliorativ sistemlər** – meliorasiya olunmuş torpaqlarda su, duz, hava, istilik və qida rejimini tənzimləmək üçün istifadə olunan qarşılıqlı əlaqəli hidrotexniki və digər qurğular və tikililər kompleksi (meliorasiya olunmuş torpaqlarda yerləşən kanallar, kollektorlar, boru kəmərləri, su anbarları, bəndlər, nasos stansiyaları, sugötürücülər və digər qurğular və tikililər), habelə qoruyucu meşə əkinləri.

**Memarbaşı** – XVI yüzillikdə Səfəvilər dövlətində şah emalatxanalarında çalışan sənətkarlara rəhbərlik edən vəzifəli şəxs. M. şahın fərmanı ilə təyin olunurdu və bir sıra imtiyazlara malik idi. Məsələn, o, sənətkar təşkilatlarında birləşən sənətkarlardan fərqli olaraq xüsusi vergi növü olan boniçədən azad idi, həm də cirə *(bax: cirə)* adlı ərzaq payı alırdı.

**Memarlıq fəaliyyəti** – memarlıq əsəri yaradan şəxslərin (memarların) peşəkar fəaliyyəti olaraq memarlıq layihəsinin hazırlanmasına və həyata keçirilməsinə müəllif nəzarəti, tikinti, yenidənqurma və bərpa layihə sənədlərinin hazırlanmasında ümumi əlaqələndirmə, memarlıq sahəsində elmi tədqiqatları və tədris, habelə müvafiq icra hakimiyyəti orqanlarında şəhərsalma və memarlıq məsələləri ilə məşğul olan bölmələrin (idarələrin, şöbələrin), şəhər və rayon baş memarlarının fəaliyyəti.

**"Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında cəmiyyətin və insanın həyatı, fəaliyyəti, maddi və mənəvi tələbatının təmin edilməsi üçün göstərilən peşəkar memarlıq yaradıcılığı fəaliyyətini tənzim edən qanunvericilik aktı.

Bu qanun 15 may 1998-ci il tarixdə qəbul edilmişdir. O, üç fəsil və 14 maddədən ibarətdir.

**Memarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin hüquqları** – "Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 15 may 1998-ci il tarixli qanununun 7-ci maddəsinə uyğun olaraq memarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin hüquqları aşağıdakılardır: 1) müvafiq orqanlara sorğu vermək və memarlıq əsərinin layihəqabağı tədqiqatları, layihələşdirmə, tikinti üçün zəruri memarlıq-planlaşdırma tapşırıqlarını, digər məlumatları və ilkin sənədləri almaq; 2) ekspertiza və baxış zamanı obyektin sifarişçi ilə razılaşdırılmış memarlıq layihəsini müvafiq orqanlarda müdafiə etmək; 3) sifarişçinin tapşırığı ilə tikinti üçün sənədləşdirmələrin bütün bölmələrinin işlənməsinə rəhbərliyi həyata keçirmək, qəbul edilmiş layihənin memarlıq həllinin bütün dəyişikliklərini müvafiq icra hakimiyyəti və müvafiq dövlət ekspertiza orqanları ilə razılaşdırmaq, sənədlərin tərtibatına müqavilə əsasında köməkçilər, məsləhətçilər və texniki işçilər cəlb etmək; 4) memarlıq obyektinin inşası üçün podrat müqaviləsi bağlanarkən sifarişçinin tapşırığı ilə onun mənafeyini təmsil və müdafiə etmək, tikinti müqaviləsi ilə bağlı müsabiqənin təşkilinə kömək etmək; 5) memarlıq obyektinin inşasına müəllif nəzarətini həyata keçirmək; 6) tikinti materiallarının və tikinti-quraşdırma işlərinin keyfiyyətinə və həcminə nəzarəti həyata keçirərək sifarişçinin tapşırığı ilə həmin obyektin tikintisində onun cavabdeh nümayəndəsi olmaq; 7) memarlıq obyektinin istismara qəbul

olunmasında iştirak etmək və sifarişçinin tapşırığı ilə onun cavabdeh nümayəndəsi olmaq; 8) memarlıq layihələrinin ekspertizasını keçirmək, sərmayə qoyuluşu məsələləri, memarlıq obyektlərinin inşası və istismarı üzrə məsləhətlər vermək və sifarişçinin digər funksiyalarını həyata keçirmək.

**Memarlıq layihəsi** – memarlıq obyektinin yaradılması üçün hazırlanan, memarlıq obyektinin həcm-məkan quruluşunu və bədii həllini müəyyənləşdirən ümumi layihə sənədlərinin (memarlıq obyekti layihəsinin) memarlıq hissəsi.

**Memarlıq obyekti** – binalar, tikililər və onların kompleksləri, interyerləri, memarlıq layihəsi əsasında yaradılan bağlar, parklar, kurortlar və digər istirahət yerləri, memarlıq abidələri, memarlıq sahəsində elmi tədqiqatların nəticələri, xatirə abidələri və onların kompleksləri.

**Memorandum** *(lat. memorandum – yadda saxlanmalı şey)* – **1)** beynəlxalq münasibətlərdə diplomatik yazışma forması. M. xatırlatma notasının oxşarıdır. Burada m.-un göndərilmə səbəbi ilə əlaqədar məsələnin faktiki hüquqi, yaxud sənəd hissəsi şərh edilir. M. çox zaman möhürsüz və imzalanmadan müstəqil sənəd kimi təqdim edilir; **2)** sığorta zamanı (xüsusilə dəniz daşımalarında) sığortaçının zərəri ödəməkdən imtina etməsi haqqında tərtib edilən siyahı.

**Menecer** *(ing. manager – idarə etmək)* – **1)** istehsal üsulunda muzdlu idarəedici, idarəetmə üzrə mütəxəssis; **2)** şirkətlərin, bankların, maliyyə idarələrinin struktur bölmələrinə rəhbərlik edən heyət.

**Menecment** *(ing. management – idarə, təşkilat)* – istehsalın idarəçiliyi; istehsalın səmərəliliyinin yüksəldilməsi və gəlirin artırılması məqsədi ilə ABŞ-da və inkişaf etmiş digər ölkələrdə işlənib hazırlanan və tətbiq edilən istehsalatı idarəetmə prinsipləri, metodları, üsul və formalarının məcmusu.

**Menmortabli** *(fr. mainmortables – ölü əl)* - XIV-XVIII yüzilliklərdə Fransada, başlıca olaraq ölkənin şərq rayonlarında feodal asılılığında olan kəndli kateqoriyası. Servlərin bir növü olmuş m. şəxsi azadlıqların məhdudluğu (sahiblik hüquqlarının, nikah azadlığının, məhkəmədə çıxış etmək hüququnun məhdudluğu) ilə fərqlənmişdir. Kişi cinsindən olan vərəsələrin olmadığı halda m.-nin torpaq sahəsi, yaxud onun bir hissəsi və sair əmlakı onun ölümündən sonra senyorun mülkiyyətinə keçirdi. Torpaqda işləməkdən imtina edən m. azadlıq əldə edirdi.

**Mer** *(fr. maire; ing. mayor; lat. major – böyük)* – bir sıra ölkələrdə, o cümlədən ABŞ, İngiltərə və Fransada bələdiyyənin başçısı.

**Merçandayzinq** *(ing. merchandising)* – marketinqin tərkib hissəsi, pərakəndə ticarət sferasında malın intensiv hərəkətinin təmin olunmasına yönələn fəaliyyət. Malların və reklamedici xidmətlərin istehlakçıya yaxınlaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsindən ibarətdir.

**Meritokratiya** *(lat. meritus – layiq + yun. kratos – hakimiyyət)* – idarəçilik forması; bu idarəçilik formasının əsasını fərdi xidmətlər prinsipi təşkil edir. M. şəraitində cəmiyyət ən ləyaqətli, hünərli, istedadlı adamlar tərəfindən idarə olunur. Bu termin elmə ingilis sosioloqu M. Yanq tərəfindən 1958-ci ildə gətirilmiş, lakin daha tam və konstruktiv şəkildə postsənaye cəmiyyəti konsepsiyasında işlənmişdir. M. ideyası liberalizm – imkanların bərabərliyi prinsipindən irəli gəlir.





Postsənaye cəmiyyətində "nail olmaq prinsipi" fəaliyyət göstərir, yəni hakimiyyətə şəxsi ləyaqət, yüksək savad səviyyəsi və nüfuz sayəsində nail olunur. Belə cəmiyyətdə hakimiyyətin statusunun sosial bazası dəyişdirilir. Əldə edilmiş bilik və yüksək ixtisas şəxsi və mənəvi keyfiyyətlərlə məcmu halda hakimiyyət iyerarxiyasında yüksək mövqeyə nail olmanın əsasına xidmət edə bilər. Postsənaye cəmiyyəti bilik cəmiyyəti olduğuna, onun mərkəzi institutları isə biliklərin cəmləşdiyi universitetlər olduğuna görə, hakimiyyət strukturunda ən yüksək yeri alimlər və yüksək ixtisaslı mütəxəssislər tuturlar. Məhz onlar meritokratik elitanı təşkil edirlər. Eyni zamanda da m. idarəçilik forması cəmiyyətdə sosial bərabərsizliyin mənbəyi kimi təzahür edə bilər.

**Merkantilizm** *(ita. mercante – ticarətçi)* – XVI-XVIII yüzilliklərdə mövcud olmuş iqtisadi təlim və iqtisadi siyasət. Həmin təlimə və siyasətə uyğun olaraq gəlir mübadilə sferasında yaradılır, millətin sərvəti puldan ibarətdir və kapitalın toplanmasına dövlət hakimiyyətinin köməyi ilə nail olmaq olar.

**Mesenat** *(Romanın dövlət xadimi Mesenatın adından götürülmüşdür)* – elm və incəsənətin böyük hamisi; ümumiyyətlə, kiminsə hansısa işə himayədarlıq etməsi *(həmçinin bax: sponsor)*.

**Meşəbərpa qaydası** – meşə qanunvericiliyinə görə meşəbərpa işlərinin həcminin, onların aparılma üsullarının və bərpa olunacaq ağac cinslərinin müəyyənləşdirilməsi, həmçinin beşəbərpa tədbirlərinin, meşə toxumları tədarükü və əkin materialları yerləşdirilməsi işlərinin aparılması, meşə fondunda baş vermiş dəyişiklikləri nəzərə almaqla meşə quruluşu layihələrinə uyğun olaraq meşə təsərrüfatı müəssisələri tərəfindən yerinə yetirilir (AR Me.M-in 55-ci maddəsi).

**Meşəbərpa qırması** – meşələrin vəziyyətini yaxşılaşdırmaq və təbii qoruyucu funksiyaları gücləndirmək məqsədi ilə qırma yaşı çatmış və ya ötmüş ağaclıqlarda aparılan qırma.

**Meşə bileti** – sahibinə əlavə meşə istifadələri üçün hüquq verən sənəd. M.b.-ndə meşə fondundan istifadənin növü, yeri, miqdarı, vaxtı, şərtləri və qiyməti göstərilir. Biletin forması, onun uçotu, saxlanılması, doldurulması və verilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Meşə fondu** – Azərbaycan Respublikasının meşə qanunvericiliyinə uyğun olaraq müdafiə torpaqlarında və yaşayış məntəqələrində, habelə meşə ilə örtülü (meşə və qeyri-meşə torpaqları) olmasa da, meşə fonduna aid edilən torpaqlarda yerləşən meşələr istisna olmaqla, bütün meşələrin məcmusu. M.f.-nun sərhədləri meşə fondu torpaqlarının sair torpaqlardan ayrılması yolu ilə müəyyən edilir.

**Meşə fondu sahələri** – meşə sahələri, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaq sahələri. Azərbaycan Respublikasında meşə fondu sahələri dövlətə məxsusdur və onun mülkiyyətidir. Meşələr və meşə fondunun torpaqları özəlləşdirilə bilməz.

**Meşə hərracı** – açıq-aşkar (şifahi) və qeyri-aşkar ticarətlər; belə ticarətlərdə alıcıların bilavasitə iştirakı zamanı meşədən istifadənin həyata keçirilməsinə dair lisen-

ziyaların satışı aparılır. Satış həmin lisenziyaya ən böyük qiymət verənlərlə aparılır.

**Meşə hüququ** – meşə ehtiyatlarından istifadə və onların mühafizəsi üzrə ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemi. M.h. meşə qanunvericiliyinin müstəqil sahəsi, habelə elmi-hüquqi fənn və tədris fənnidir. M.h.-nun predmetini meşə fonduna həm daxil olan, həm də olmayan meşələrdən istifadə, onların mühafizəsi, müdafiəsi və bərpası sahəsindəki münasibətlər təşkil edir.

**Meşə istifadəçiləri** – Azərbaycan Respublikası Meşə Məcəlləsinin 10-cu maddəsinə uyğun olaraq meşə fondu sahələrindən istifadə hüququ verilən fiziki və hüquqi şəxslər.

**Meşə kadastrı** – Azərbaycan Respublikasında meşə ehtiyatları haqqında məlumatların sistemləşdirilmiş toplusu. M.k. meşələrdən səmərəli istifadə olunmasını təşkil etmək, onları qorumaq, bərpa və mühafizə etmək, meşə təsərrüfatının inkişafını və meşə fondunun yerləşdirilməsini planlaşdırmaq məqsədi ilə aparılır. Azərbaycan Respublikasında meşələrin uçota alınması, m.k.-nın sistemləşdirilməsi vahid sistem üzrə dövlət hesabına həyata keçirilir. Həmin sistemi və meşələrin uçota alınmasına dair qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

**Meşəqırma bileti** – oduncaq və ikinci dərəcəli meşə materiallarının tədarükü, daşınması üçün hüquq verən sənəd. M.b.-ndə meşə quruluşu layihələri əsasında meşə fondundan istifadə üçün ayrılmış sahənin yeri, oduncağın və ikinci dərəcəli materialların miqdarı, keyfiyyəti, onların qiyməti, işin aparılma müddəti, qırma yerlərinin tənzimlənməsi meşənin bərpa edilməsi şərtləri və qaydaları göstərilir. M.b.-nin forması, uçotu, saxlanılması, doldurulması və verilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Meşə quruluşu işləri** – meşə fondundan səmərəli istifadə, meşə təsərrüfatının səmərəli aparılması, bu sahədə vahid elmi-texniki siyasətin həyata keçirilməsini təmin etməyə yönəldilmiş tədbirlər sistemi.

**Meşələri məhv etmə və ya korlama** – cinayət qanunvericiliyinə görə ekoloji cinayətlərin bir növü. AR CM-in 260-cı maddəsində nəzərdə tutulmuşdur. Odla və ya digər yüksək təhlükə mənbələri ilə ehtiyatsız davranma üzündən meşələri və ya meşə fonduna aid olmayan ağac və ya kol əkilillərini məhv etmə və ya korlamada ifadə olunur.

**Meşələrin monitorinqi** – meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası, onların ekoloji funksiyalarının artırılması sahəsində dövlət idarəetməsi məqsədi ilə meşə fondunun vəziyyətinin və dinamikasının qiymətləndirilməsi və proqnozlaşdırılması sistemi. M.m.-nin həyata keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Meşə Məcəlləsi** – Azərbaycan Respublikasının ərazisində meşə münasibətlərinin tənzimlənməsinin, meşələrdən istifadənin, onların mühafizəsinin, qorunmasının, bərpasının, ekoloji və ehtiyat potensialının yüksəldilməsinin hüquqi əsaslarını müəyyən edən sistemləşdirilmiş qanunvericilik aktı.

AR MM 30 dekabr 1997-ci ildə qəbul edilmiş, 1998-ci il martın 3-dən qüvvəyə minmişdir (dərc edildiyi gündən). Məcəlləyə indiyə qədər bir sıra əlavə və dəyişikliklər edilmişdir. Məcəllə on fəsil və 80 maddədən ibarətdir.

**Meşə müsabiqəsi** – ticarət prosesləri olmadan meşədən istifadə üçün lisenziyaların verilməsi qaydası. Adətən lisenziya xüsusi sosial əhəmiyyətli ekoloji və texnoloji şərtləri nəzərdə tutduğu hallarda tətbiq edilir.

**Meşə pozuntusu** – meşələrdən istifadənin, meşələrin mühafizəsinin, müdafiəsinin və bərpasının müəyyən edilmiş qaydalarına, vətəndaşların meşə mülkiyyəti, əşya və sair hüquqlarına qarşı yönəldilən təqsirli hüquqazidd hərəkət (hərəkətsizlik).

**Meşə servitutu** – meşə qanunvericiliyinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə başqa hallar nəzərdə tutulmamışdırsa, fiziki şəxslər sərbəst surətdə meşələrdə olmaq hüququna malikdirlər (kütləvi meşə servitutu). Meşə fondu sahələrindən və meşə fonduna daxil olmayan sahələrdən fiziki və hüquqi şəxslərin istifadə hüquqları müqavilələr, habelə məhkəmə qərarları əsasında başqa maraqlı şəxslərin xeyrinə məhdudlaşdırıla bilər (xüsusi meşə servitutu). Azərbaycan Respublikasının mülki, torpaq və başqa qanunvericilik aktlarının müddəaları meşə servitutlarına Meşə Məcəlləsinin tələblərinə zidd olmayan həddə tətbiq edilir (AR Me.M-in 13-cü maddəsi).

**Meşə vergisi** – Azərbaycan Respublikasının Meşə Məcəlləsində və digər qanunvericilikdə nəzərdə tutulmuş hallardan başqa meşə fondundan və meşə sərvətlərindən istifadəyə görə tutulan vergi. Meşə fondundan və meşə sərvətlərindən istifadənin bütün növləri ödənişlidir. Ödəmələr meşə məzənnələri əsasında hesablanır.

**Meta** *(ita. meta – yarısı)* – sahibkarlıq hüququnda əqdlərin bağlanması şərti; bu şərtə uyğun olaraq əqdin iştirakçıları gəlirləri və itkiləri yarıya bölürlər.

**Meteklər** *(yun. metoikos – mühacir, yadelli)* – Qədim Yunanıstanda bu və ya digər polisə köçüb yerləşmiş yadellilər və azadlığa buraxılmış qullar. Afina m.-i haqqında məlumatlar daha çoxdur. Eramızdan əvvəl V-IV yüzilliklərdə Attika əhalisinin xeyli hissəsini təşkil etmiş m. şəhərin iqtisadiyyatında mühüm rol oynamışlar.

**Metropoliya** *(yun. metropolis; meter – ana + polis – şəhər)* – **1)** müstəmləkələri olan qədim yunan şəhərləri (polisləri); **2)** müstəmləkə işğalları dövründə "m." terminindən müstəmləkəsi (adətən xaricdə) olan dövlətləri bildirmək üçün istifadə edilmişdir; **3)** bəzi dövlətlərdə (məsələn, Kanadada) əyalətin, yaxud vilayətin mərkəz şəhəri. Bəzi dövlətlərin mərkəz şəhərlərinə də m. deyilir.

**Meyitin müayinəsi** – **1)** cinayət prosesində istintaq hərəkətlərindən biri. M.m. müstəntiq və ya təhqiqat aparan şəxs tərəfindən meyitin aşkar edildiyi yerdə onun şəxsiyyətini, ölümün baş vermə səbəblərini, vaxtını müəyyənləşdirməyə imkan verən əlamətləri aşkara çıxarmaq məqsədi ilə aparılır. M.m. hal şahidlərinin, məhkəmə-tibb ekspertinin iştirakı ilə aparılır. Onun gedişi və nəticələri ya hadisə yerinin müayinəsi protokolunda, ya da meyitin müayinəsi protokolunda rəsmiləşdirilir; **2)** meyit yarılanadək aparılan məhkəmə-tibb ekspertizasının tərkib hissəsi. Meyitin belə müayinəsi anatomik əlamətlərin (cinsin, yaşın, bədən quruluşunun və i.a.) və bədənin ayrı-ayrı hissələrinin patoloji dəyişikliklərinin, habelə

xəsarətlərin (əgər onlar varsa) zahirən öyrənilməsindən ibarətdir. M.m.-nin nəticələri ekspertin rəyində əks etdirilir.

**Məcburi çıxarma** – cinayət qanunvericiliyinə görə əlavə cəza növlərindən biri. AR CM-in 52-ci maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə uyğun olaraq Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma əcnəbilərə, onların ağır və ya xüsusilə ağır cinayət törətdiklərinə görə təyin olunmuş əsas cəza növünü çəkdikdən sonra AR CM-in 58.3-cü maddəsində göstərilmiş hallar nəzərə alınmaqla tətbiq edilə bilər.

M.ç. cəza növü aşağıdakı şəxslərə şamil edilmir: 1) barəsində ittiham hökmü qanuni qüvvəyə minənədək beş il Azərbaycan Respublikasının ərazisində daimi yaşayan şəxslərə; 2) barəsində ittiham hökmü qanuni qüvvəyə minənədək Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olan şəxslərə; 3) Azərbaycan Respublikasında doğulmuş şəxslərə; 4) valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxslərə; 5) qaçqın statusuna malik olan və ya Azərbaycan Respublikası tərəfindən siyasi sığınacaq verilmiş şəxslərə; 6) himayəsində yetkinlik yaşına çatmayan uşağı, habelə fəaliyyət qabiliyyəti olmayan və ya I və II qrup əlili olan şəxslərə; 7) məcburi çıxarıldığı zaman gedəcəyi ölkədə işgəncəyə və ya təqibə məruz qala biləcəyinə ciddi əsaslar olduğu ehtimal edilən şəxslərə.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə AR CM-in 52.1 və 52.2-ci maddələri arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir.

**Məcburi işlər** – keçmiş SSR İttifaqının cinayət hüququnda 1933-cü ilədək mövcud olmuş islah işlərinin adı.

**"Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin məskunlaşdırılması, sosial müdafiəsi tədbirlərini və bununla əlaqədar dövlət orqanlarının vəzifələrini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 21 may 1999-cu ildə qəbul edilmişdir. O, 15 maddədən ibarətdir. Qanuna indiyə qədər bir sıra əlavə və dəyişikliklər edilmişdir.

**Məcburi lisenziya** – patentləşdirilmiş ixtiradan istifadəyə icazə verilməsi. Belə icazə səlahiyyətli orqanlar tərəfindən patent sahibinin razılığı olmadan, məhkəmənin və ya dövlət idarəetmə orqanının qərarı ilə verilir. Elə bu orqanlar da ixtiradan istifadə şərtlərini, lisenziya muzdunun miqdarını müəyyən edirlər.

**Məcburi müalicə** *(bax: tibbi xarakterli məcburi tədbirlər).*

**Məcburi tədbirlər** *(beynəlxalq hüquqda)* – sülhə qarşı təhlükənin, sülhün pozulmasının aradan qaldırılması və ya işğal aktının ləğv edilməsi məqsədi ilə BMT Nizamnaməsi əsasında dövlətlərin birliyi tərəfindən tətbiq edilən kollektiv tədbirlər. Belə tədbirlər son zərurət hallarında tətbiq edilir. BMT Nizamnaməsi kollektiv məcburi tədbirlərin 2 növünü nəzərdə tutur: 1) silahlı qüvvələrdən istifadə etməklə tətbiq edilən məcburi tədbirlər; 2) belə qüvvələrdən istifadə etməməklə tətbiq edilən məcburi tədbirlər. M.t.-in tətbiqinə dair qərarı qəbul etmək səlahiyyətinə malik olan yeganə orqan BMT-nin Təhlükəsizlik Şurasıdır.





**Məcburi yurisdiksiya** *(beynəlxalq hüquqda)* – beynəlxalq məhkəmə orqanlarının beynəlxalq müqavilə ilə müəyyən edilmiş səlahiyyətlərinin məcmusu. Bu səlahiyyətlər dövlətlər arasındakı hüquqi mübahisələri nəzərdən keçirmək və həll etmək üçün verilir. Öhdəliyin qarşılıqlı səciyyə daşıdığı hallarda mübahisə beynəlxalq məhkəməyə verilə bilər. Beynəlxalq məhkəməyə vermə mübahisə edən tərəflərdən yalnız birinin (digər tərəfin razılığı olmadan) tələbi ilə olur. M.y-nın tanınması məcburi deyil, könüllüdür. Müqavilənin iştirakçısı olan, özünün mübahisələrin məhkəmə qaydasında həllinə münasibətdə əlaqədarlığını arzu etməyən dövlət, bir qayda olaraq, müvafiq qeyd-şərt edə bilər. BMT-nin Beynəlxalq Məhkəməsinin yurisdiksiyası Məhkəmə Statusunun 36-cı maddəsinə görə ümumi əsaslar əsasında Məhkəmə Statusunun iştirakçıları olan dövlətlər tərəfindən məcburi qaydada tanına bilər.

**Məcəllə** – ictimai münasibətlərin müəyyən sahəsini tənzim edən vahid sistemləşdirilmiş qanunvericilik aktı (məsələn, Mülki Məcəllə, Cinayət Məcəlləsi, Ailə Məcəlləsi və i.a.). Müəyyən sistem üzrə (məsələn, ümumi və xüsusi hissə) qurulmuş m.-nin səciyyəvi cəhəti onun hüquq sahəsinin normalarını sistemli surətdə əks etdirməsidir. Ona görə də m. həm mahiyyətinə, həm də formasına görə əvvələr qüvvədə olan bütün normativ materialları əvəz edən yeniləşdirilmiş qanunvericilik aktıdır.

**Məcəlləşdirmə** – ictimai münasibətlərin müəyyən sahəsini tənzimləyən qanunların (normaların) və digər normativ aktların sistemləşdirilmiş forması. Qədim Romada Yustinian, Feodisi məcəlləşdirilməsi, 1804-cü il Fransa Mülki (Napoleon Məcəlləsi) Məcəlləsi, XVI yüzillikdə Almaniyada mülki qanunvericiliyin məcəlləşdirilməsi və i.a. məcəlləşdirmənin diqqətəlayiq nümunələridir. Azərbaycanda 1960-70-ci illərdə Azərbaycan SSR-in Cinayət, Cinayət-Prosessual məcəllələri, Mülki, Mülki-Prosessual məcəllələri, Torpaq, Su, Ailə və Nikah, Əmək Qanunları, Meşə məcəllələri, daha sonra isə Yerin Təki haqqında Məcəllə, İslah-Əmək Məcəlləsi, İnzibati Hüquqpozmalar haqqında Məcəllə, 1982-ci ildə Mənzil Məcəlləsi və i.a. qəbul edilmişdir.

1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etdikdən sonra ölkədə aparılan hüquqi islahatlar həm də məcəllələrin təzələnməsi və bir sıra yeni məcəllələrin qəbul edilməsi və qüvvəyə minməsi ilə müşayiət olunmuşdur. Belə ki, 1997-ci ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsi, 2000-ci ildə Cəzaların İcrası Məcəlləsi və 2001-ci ildə Ticarət Gəmiçiliyi Məcəlləsi qəbul edilmişdir. 1999-cu ildə Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsi, Mülki-Prosessual Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, Əmək Məcəlləsi, Cinayət Məcəlləsi və Cinayət-Prosessual Məcəlləsi, 2000-ci ildə isə Ailə Məcəlləsi qəbul edilmişdir.

**Məclis** *(ər. iclas, yığıncaq, iclas yeri; türkcə meclis)* – **1)** iclas, yığıncaq, müşavirə və onların keçirildiyi yer, cəmiyyət; **2)** İranda və Türkiyədə ali qanunvericilik hakimiyyəti orqanı. İranda İslam Respublikasının Şura Məclisi, Türkiyədə isə Böyük Millət Məclisi fəaliyyət göstərir.

**"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli mədəniyyət sərvəti obyektlərinin qorunub saxlanılmasının və inkişafının, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarə olunmasının, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə formalarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 6 fevral 1998-ci il tarixdə qəbul edilmişdir. O, doqquz fəsil və 51 maddədən ibarətdir. Qanuna müxtəlif illərdə bir sıra əlavə və dəyişikliklər edilmişdir.

**Mədrəsə** *(ər. məktəb – öyrənmək)* - Yaxın və Orta Şərq ölkələrində dövlət aparatı xidmətçiləri, din xadimləri (mollalar), müsəlman ibtidai məktəbləri üçün müəllimlər hazırlayan müsəlman ali və orta məktəbi. M. IX-XIII yüzilliklərdə əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan ölkələrdə geniş yayılmışdı. M.-lər əsasən böyük məscidlərin nəzdində fəaliyyət göstərmişdir.

Azərbaycanda m.-lər XI yüzillikdə yaradılmışdır. Orta əsrlərdə Bakı, Gəncə, Şamaxı, Şuşa şəhərlərində və digər şəhərlərdə açılmış orta məktəb tipli m.-lərdə dini və dünyəvi elmlər (ərəb və fars dilləri, şəriət, ədəbiyyat, fəlsəfə, məntiq, psixologiya və i.a.) tədris edilmişdir. Ali məktəb tipli m.-lərdə təhsil almaq məqsədi ilə İranın Tehran, Nəcəf, Təbriz və digər şəhərlərinə gedərdilər. M.-yə qəbul 16 yaşdan idi. Tələbələrin dərsləri mənimsəmə dərəcəsindən asılı olaraq təhsil müddəti 10-15 il, bəzi hallarda isə 20 ilədək davam edirdi. Buxarada Mir Ərəb m.-si indi də fəaliyyət göstərir.

**Məhbus** – qətimkan tədbiri qaydasında həbs edilən şəxs. M.-un pul köçürmək, bağlama almaq, nağdsız hesablaşmalar üzrə yeyinti məhsullarını və ən zəruri istehlak şeylərini satın almaq, özünün cinayət işinə aid sənədləri yanında saxlamaq və i.a. hüquqları vardır. Qadın məhbuslar 2 yaşınadək uşağını yanında saxlaya bilər. M.-lara qohumlarla görüş ayda 1 dəfə verilir. Vəkillə (müdafiəçi ilə) görüşə məhdudiyyət qoyulmur. M.-lar ibtidai həbs yerinin ərazisində işə cəlb oluna bilərlər.

**Məhdudlaşdırıcı təfsir** *(bax: qanunun məhdudlaşdırıcı təfsiri).*

**Məhdud məsuliyyətli cəmiyyət** – mülki qanunvericiliyə görə bir və ya bir neçə şəxs tərəfindən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət (AR MM-in 87.1-ci maddəsi). M.m.c.-in iştirakçıları onun öhdəlikləri üzrə məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar. M.m.c.-in firma adında cəmiyyətin adı, habelə "məhdud məsuliyyətli cəmiyyət" sözləri göstərilməlidir. M.m.c.-in hüquqi vəziyyəti, habelə onun iştirakçılarının hüquq və vəzifələri AR MM ilə müəyyən edilir.

**Məhəlli sazişlər** – regional sazişlər – müəyyən coğrafi rayonda (regionda) yerləşən dövlətlər arasında bağlanmış çoxtərəfli beynəlxalq müqavilələr. M.s. BMT-nin Nizamnaməsi ilə nəzərdə tutulmuşdur. İqtisadi, siyasi, hərbi, elmi-texniki, mədəni və hüquqi xarakterli məqsədlərlə bağlanır. M.s., bir qayda olaraq, yerli (məhəlli) xarakterli mübahisələrin həlli, yaxud kollektiv hərəkətləri həyata keçirmək üçün





yaradılır. Siyasi təcavüzkar təşkilatlar və bloklar yaradıldıqda m.s. prinsipi pozulur.

**Məhkəmə** – ədalət mühakiməsini həyata keçirən xüsusi dövlət orqanı. M. öz səlahiyyətləri daxilində və qanunla müəyyən edilmiş qaydada mühakimə icraatı fəaliyyətini yerinə yetirən yeganə və müstəqil orqandır və o, yalnız qanuna tabedir. M. ədalət mühakiməsini mülki işlərə və cinayət işlərinə, inzibati işlərə və müvafiq dövlətin qanunu ilə müəyyən edilmiş qaydada digər kateqoriya işlərə baxmaq və onları həll etmək formasında həyata keçirir.

Mühakimə icraatı qanunla ciddi müəyyən edilmiş prosessual qaydalara əməl etməklə həyata keçirilir. İcraat mülki və cinayət mühakimə icraatından ibarətdir.

M.-lər adi və fövqəladə məhkəmələrə bölünürlər. Fövqəladə məhkəmələrin yaradılması, demək olar ki, müasir dövlətlərin əksəriyyətinin konstitusiyası ilə qadağan olunur. Adi məhkəmələr isə ümumi səlahiyyətli məhkəmələrə və ixtisaslaşmış məhkəmələrə ayrılırlar. İxtisaslaşdırılmış m.-lərə hərbi məhkəmələr (Azərbaycan Respublikasında hərbi tribunallar adlandırılır) və iqtisad məhkəmələri aiddir.

Konstitusiya məhkəməsi və inzibati məhkəmə m.-nin xüsusi növünü təşkil edir. Ayrı-ayrı ölkələrdə dini (islam respublikaları olan İranda, Pakistanda, Sudanda və başqalarında şəriət məhkəmələri) məhkəmələr də mövcuddur. Bir sıra dövlətlər adət hüququ məhkəmələri (məsələn, Tropik Afrikanın bəzi ölkələrində və Okeaniyada qəbilə məhkəmələri) də fəaliyyət göstərirlər.

Federativ quruluşa malik olan bəzi ölkələrdə federal məhkəmələr və federasiya subyektlərinin məhkəmələri mövcuddur (məsələn, Rusiya Federasiyasında, ABŞ-da və i.a.).

M.-lər instansiya üzrə də fərqləndirilir. Məsələn, birinci instansiya, apellyasiya, kassasiya və nəzarət məhkəmələri; ərazi səviyyəsinə görə – rayon, dairə məhkəmələri və ali məhkəmə.

Dövlət məhkəmələri ilə yanaşı, ictimai məhkəmələrin də aşağıdakı müxtəlif növləri mövcuddur: a) münsiflər məhkəməsi; b) arbitraj komissiyaları; c) keçmiş SSR İttifaqında mövcud olmuş yoldaşlıq məhkəməsi; ç) zabitin şərəf məhkəməsi.

Beynəlxalq hüquq sistemində ən müxtəlif xarakterli beynəlxalq məhkəmələr mövcuddur. Məsələn, BMT-nin Beynəlxalq Məhkəməsi, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, beynəlxalq tribunallar, daimi beynəlxalq münsiflər məhkəmələri və i.a.

Azərbaycan Respublikasında adi (ümumi səlahiyyətli məhkəmələr və hərbi tribunallar) məhkəmələr, apellyasiya məhkəməsi, iqtisad məhkəmələri və Konstitusiya Məhkəməsi mövcuddur.

**Məhkəmə aidiyyəti** – birinci instansiya məhkəməsində baxılmalı olan işlərin məhkəmələr üzrə ayrılması. Hüquqda predmetə (növə), əraziyə və işlərin arasında əlaqəyə görə m.a. fərqləndirilir. Predmetə görə m.a. işlərin cinayətin növünə, yaxud predmetinə və mülki işin xarakterinə görə ayrılmasıdır. Əraziyə görə m.a. işlərin cinayətin törədildiyi yerdən, cavabdeh kimi çıxış edən fiziki şəxsin yaşadığı yerdən asılı olaraq ayrılmasıdır. İşlərin arasındakı əlaqəyə görə m.a. bir-biri ilə əlaqəsi ol... işlərin eyni məhkəmənin (bir məhkəmənin) səlahiyyətinə aid edilməsidir.

**Məhkəmə-avtotexniki ekspertizası** –nəqliyyat vasitəsinin texniki vəziyyətini, yaxud onun ayrı-ayrı mexanizmlərinin

sazlığını, yolun texniki vəziyyətini, əyləc yoluna görə nəqliyyat vasitəsinin sürətini müəyyən etmək üçün təyin edilən və aparılan ekspertiza növü.

**Məhkəmə baxışı** – cinayət prosesinin və ya mülki prosesin mühüm mərhələsi. M.b. Azərbaycan Respublikasında cinayət qanunvericiliyi və mülki qanunvericilik, eləcə də cinayət və mülki-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir. M.b., bir qayda olaraq, açıq aparılır. Qapalı m.b.-larına qanunda birbaşa nəzərdə tutulmuş müstəsna hallarda yol verilir.

**Məhkəmə baxışının bilavasitəliyi, fasiləsizliyi və şifahiliyi** – mühakimə icraatının mühüm prinsipləri. Bilavasitəlik məhkəmənin işə baxarkən bütün materiallarla tanış olması və sübutları bilavasitə tədqiq etməsidir. Fasiləsizlik başlanmış işə baxılıb qurtarmamış həmin tərkibdəki məhkəmə tərəfindən digər işlərə baxılmasını, qərarın (hökmün) məhkəmə baxışı qurtaran kimi dərhal çıxarılması və hakimlərin müşavirəsindən sonra elan edilməsini nəzərdə tutur. Hakimlərdən biri əvəz edildikdə, işə yenidən baxılmalıdır. Şifahilik təqsirləndirilən şəxsin, zərər çəkmiş şəxsin, mülki iddiaçının, mülki cavabdehin (mülki işlərdə iddiaçının, cavabdehin) və prosesin digər iştirakçılarının şifahi izahat və ifadələr verməsi deməkdir.

**Məhkəmə ballistikası** *(bax: ballistika).*

**Məhkəmə ekspertizası** – ekspertin həyata keçirdiyi prosessual fəaliyyət. M.e. cinayət işləri və mülki işlər üzrə faktiki məlumatları müəyyən etmək üçün ekspert tərəfindən işin hallarının qanunda nəzərdə tutulmuş qaydada tədqiq edilməsindən ibarətdir. M.e. təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun qərarına, habelə məhkəmənin qərardadına əsasən aparılır. Tədqiqatın nəticələri ekspertin rəyində əks olunur.

**Məhkəmə ekspertologiyası** – hüquq elminin sahələrindən biri. M.e. məhkəmə ekspertizalarının qanunauyğunluqlarını, metodologiyasını, onların elmi əsaslarının formalaşmasını və inkişafı prosesini öyrənir, habelə ekspertizaların obyektivliyini tədqiq edir. Bu proses əsas elmlərdən götürülən və məhkəmə ekspertizaları məsələlərinin həll edilməsinin elmi üsulu, vasitə və metodikası sisteminə çevrilən xüsusi biliklər əsasında öyrənilir.

**Məhkəmə fotoqrafiyası** – maddi sübutları təsvir etmək məqsədi ilə istintaq hərəkətləri keçirilərkən tətbiq edilən şəkilçəkmə metodları və texniki vasitələr sistemi. M.f.-nin obyektləri aşağıdakılardır: hadisə yeri, istintaq eksperimenti, meyit, canlı obyektlər, sənədlər, cinayətin alət və vasitələri, izlər və i.a. M.f.-nda təsviredici və təsdiqedici fotoqrafiya metodlarından istifadə edilir. Təsviredici metoda panoram, makrofotoqrafiya, reproduksiya fotoqrafiyası və i.a. aiddir. Təsdiqedici metoda isə mikrofotoqrafiya, infraqırmızı, ultrabənövşəyi, rentgen şüaları vasitəsilə aparılan fotoqrafiya və i.a. daxildir.

**Məhkəmə hakimiyyəti** – hakimiyyətlərin bölgüsü prinsipinə uyğun olaraq ümumi hakimiyyətin (qanunvericilik və icra hakimiyyəti ilə yanaşı) sərbəst və müstəqil sferası. M.h. ədalət mühakiməsinin həyata keçirilməsi üzrə səlahiyyətlərdən, yəni mülki, inzibati işlərə və cinayət işlərinə baxılması və həll edilməsi üzrə prosessual qanunla müəyyən edilmiş qaydada müəyyən edilmiş səlahiyyətlərdən ibarətdir.





Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinə əsasən Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının İqtisad Məhkəməsi, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər. Məhkəmə hakimiyyəti konstitusiya, mülki və cinayət mühakimə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir. Konstitusiya icraatı istisna olmaqla, ədalət mühakiməsinin həyata keçirilməsində Azərbaycan Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir.

**Məhkəmə hökmü** *(bax: hökm).*

**Məhkəmə xərcləri** – dövlət rüsumundan və işə baxılması ilə əlaqədar olan məsrəflər (xərclər). M.x. mülki-prosessual hüquqda mübahisə predmetinə dair müstəqil tələblər irəli sürən üçüncü şəxsin ərizəsindən, xüsusi icraat işləri üzrə ərizədən (şikayətdən) tutulan dövlət rüsumlarıdır. Cinayət işlərində m.x. aşağıdakılardan ibarət olur: şahidlərə, zərər çəkmiş şəxslərə, ekspertlərə, mütəxəssislərə, tərcüməçilərə və hal şahidlərinə verilən məbləğlər. İttiham hökmü çıxarıldıqda m.x. məhkum olunmuş şəxsin və ya dövlətin üzərinə qoyulur.

**Məhkəmə iclasına sədrlik edən** – Azərbaycan Respublikasında məhkəmə iclasının gedişinə məhkəmə tərkibi adından rəhbərlik edən şəxs (hakim). M.i.s.e. şəxs ədalət mühakiməsinin həyata keçirilməsi, işin bütün hallarının tam, hərtərəfli və obyektiv araşdırılması, nəzərdə tutulan bütün tədbirlərin görülməsi üçün məhkəmə iclasında lazımi qaydanı təmin edir.

**Məhkəmə icraçısı** – məhkəmənin mülki işlər üzrə qərardadlarının və qərarlarının, məhkəmənin cinayət işləri üzrə hökmlərinin, xüsusi qərardadlarının və qərarlarının əmlakın müsadirə edilməsinə dair hissəsinin, məhkəmə tərəfindən təsdiq edilən barışıq sazişlərinin, notariat orqanlarının icra qeydlərinin, qanunla nəzərdə tutulan hallarda iqtisad məhkəməsinin, münsiflər məhkəməsinin qətnamələrinin məcburi icrasını həyata keçirən vəzifəli şəxs. M.i.-na etiraz etmək olar. Etiraz haqqında məsələni məhkəmə həll edir.

**Məhkəmə instansiyası** *(bax: instansiya).*

**Məhkəmə kollegiyası** – **1)** konkret işə baxan məhkəmənin tərkibi; **2)** Azərbaycan Respublikasında Ali Məhkəmənin struktur bölməsi. Hər bir m.k. müəyyən kateqoriya işlərə (cinayət işlərinə və mülki işlərə) baxır.

**Məhkəmə istintaqı** *(bax: istintaq).*

**Məhkəmə qanunu** *(lex fori)* – təhkimetmə formulası; bu formulaya uyğun olaraq mübahisənin baxıldığı dövlətin hüququ (məhkəmədə, arbitrajda və digər orqanda) tətbiq edilir. Həmin formulaya görə məhkəmə və ya digər hüquqtətbiqetmə orqanı baxılan hüquq münasibətinin tərkibində xarici elementlərin olmasına baxmayaraq, öz ölkəsinin hüququnu rəhbər tutmalıdır. M.q.-dən mülki hüquq münasibətlərinin istənilən növü sferasında kolliziya məsələlərinin həlli prosesində istifadə olunur.

**Məhkəmə qərardadı** *(bax: qərardad).*

**Məhkəmə qərarı** *(bax: qərar).*

**Məhkəmə qərarının müstəsnalığı** – işdə iştirak edən şəxslər və onların hüquq varisləri, habelə məhkəmə üçün məhkəmə tərəfindən həll edilmiş eyni qərara oxşar qərar qəbul olunmasının və tələbə baxılmasının qeyri-mümkünlüyü.

**Məhkəmə qətnaməsi** *(bax: qətnamə).*

**Məhkəmə quruluşu** – **1)** məhkəmələrin təşkili və fəaliyyəti prinsiplərini, strukturunu və səlahiyyətlərini, vəzifələrini müəyyən edən normaların məcmusu. Azərbaycan Respublikasında m.q. haqqında normalar Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir; **2)** məhkəmə orqanlarının sistemi *(bax: məhkəmə sistemi).*

**"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş müstəqil məhkəmə hakimiyyətinin yaradılmasına yönəldilən qanunvericilik aktı.

Bu qanun 10 iyun 1997-ci il tarixdə qəbul edilmişdir. O, iyirmi bir fəsildən, 123 maddədən və keçid müddəalarından ibarətdir. Qanuna indiyə qədər 18 əlavə və dəyişikliklər edilmişdir.

**Məhkəmə məsrəfləri** *(bax: məhkəmə xərcləri).*

**Məhkəmə müdafiəsi** – vətəndaşların hüququ, habelə şərəf və ləyaqətin, həyat və sağlamlığın, şəxsi azadlıqların və əmlakın cinayətkar qəsdlərdən müdafiəsinə yönələn prosessual hərəkətlərin məcmusu; ittihamın təkzib edilməsi və ya məsuliyyətin yüngülləşdirilməsi (cəzanın yüngülləşdirilməsi); cinayət işləri və mülki işlər üzrə mühakimə icraatında müdafiəçinin (vəkilin) iştirakı ilə təmin edilən hüquq.

**Məhkəmə-mühasibat ekspertizası** – müəyyən maliyyə-təsərrüfat və mühasibat uçotu əməliyyatlarını əks etdirən sənədlərin tədqiq edilməsi məqsədi ilə aparılan ekspertiza.

**Məhkəmə nəzarətçiləri** – Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası İqtisad Məhkəməsinin, Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair Azərbaycan Respublikası İqtisad Məhkəməsinin, yerli iqtisad məhkəmələrinin, Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin, hərbi məhkəmələrin, Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin, rayon (şəhər) məhkəmələrinin müəyyən edilmiş fəaliyyət qaydasını təmin edən vəzifəli şəxslər.

**"Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının işlərinin təşkilinin hüquqi əsaslarını, onların fəaliyyətinin istiqamətlərini, səlahiyyətlərini və hüquq və vəzifələrinin dairəsini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 28 dekabr 1999-cu il tarixdə qəbul edilmişdir. O, üç fəsil, 13 maddə və keçid müddəalarından ibarətdir. Qanuna indiyə qədər bir sıra əlavə və dəyişikliklər edilmişdir.





**Məhkəmə nəzarəti** – məhkəmələrin hökmlərinin, qərardadlarının, qətnamələrinin və qərarlarının qanuniliyinin və əsaslılığının yoxlanması, qanunvericiliyin tətbiqinə dair məhkəmə orqanlarına rəhbər izahların verilməsi, habelə məhkəmələr arasındakı mübahisələrin həll edilməsi üzrə məhkəmələrin prosessual fəaliyyəti. M.n. məhkəmə səhvlərinin düzəldilməsinin, qanunların düzgün və eyni cür tətbiqinin təminatlarından biridir. M.n. işlərə kassasiya şikayətləri və protestləri, qanuni qüvvəyə minmiş qərardadlara və ya hökmlərə nəzarət qaydasında baxılması yolu ilə həyata keçirilir. M.n. məhdud mənada nəzarət icraatı deməkdir.

**Məhkəmənin binagüzarlıq iclası** – cinayət prosesinin məhkəməyə vermə mərhələsində keçirilən iclas. Bütün məhkəmələrin m.b.i.-nda cinayət işlərinə hakimdən və 2 nəfər andlı iclasçıdan ibarət tərkibdə baxılır. M.b.i.-nda prokurorun iştirakı məcburidir. Yetkinlik yaşına çatmayanların cinayətləri haqqında və ömürlük həbs cəza tədbirinin tətbiq edilə biləcəyi cinayətlərə dair işlər üzrə, habelə ittihamnamənin nəticələri ilə hakimin razılaşmadığı hallarda və ya təqsirləndirilən şəxs barəsində seçilmiş qətimkan tədbirini dəyişdirmək zərurəti yarandıqda m.b.i. keçirilir.

**Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə** – cinayət qanunvericiliyinə görə ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 306-cı maddəsində nəzərdə tutulmuşdur. Qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını və ya qərarını qərəzli olaraq icra etməməkdə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətməkdə ifadə olunur.

**Məhkəmənin kollegiallığı** – mühakimə icraatının əsas prinsiplərindən biri. Azərbaycan Respublikasında bütün məhkəmələrdə mülki işlərə qanunla müəyyən edilmiş qaydada təyin edilmiş hakimlər və andlı iclasçılar tərəfindən baxılır. Birinci instansiya məhkəmələrində mülki işlərə hakimdən və 2 nəfər andlı iclasçıdan ibarət tərkibdə baxılır. İşlərə kassasiya və ya nəzarət qaydasında baxılması 3 nəfər hakimin iştirakı ilə həyata keçirilir. Hakimlərin müşavirəsi zamanı onlardan heç biri bitərəf qala bilməz. Adətən sədrlik edən hakim birinci səs verir. Azlıqda qalan hakim öz xüsusi rəyini yazılı surətdə bildirmək hüququna malikdir.

**Məhkəmənin səyyar iclası** – cinayət işinə cinayətin törədildiyi yerdə (ərazidə), təqsirləndirilən və zərər çəkmiş şəxsin (mülki işlərdə isə iddiaçının və ya cavabdehin) yaşadığı, işlədiyi, yaxud təhsil aldığı yerdə baxılması. M.s.i.-nın məqsədi ictimaiyyətin diqqətini həmin prosesə cəlb etməkdən, digər hüquq pozuntularının qarşısını almaqdan və onların başvermə səbəblərini, şəraitini aradan qaldırmaqdan ibarətdir. M.s.i.-nın keçirilməsi təşəbbüsünü məhkəmə və ya prokuror qaldıra bilər. Təqsirləndirilən şəxsin, yaxud zərər çəkmiş şəxsin (iddiaçının və ya cavabdehin) yaşadığı, işlədiyi və ya təhsil aldığı yerin ictimaiyyəti də bu barədə vəsatət qaldıra bilər.

**Məhkəmə odorologiyası** – şəxsiyyətin müəyyən edilməsi məqsədi ilə qoxulardan istifadə edilməsi haqqında təlim. Hər bir insanın özünəməxsus fərdi qoxuya malik olmasına dair ehtimala əsaslanır. Güman edilir ki, insanın fərdi qoxuya malik olması bir sıra fizioloji proseslərlə, habelə istehsalat və məişət qoxuları ilə şərtləşir. İnsa-

nın fərdi qoxusu bina (ev, mənzil, otaq) atmosferində, predmetlərdə, paltarda, izlərdə və sənədlərdə qalır. Əməliyyat-axtarış fəaliyyəti və ya istintaq hərəkətlərinin aparılması prosesində qoxu informasiyasının əldə edilməsi və qorunması məqsədilə qoxuların alınması həyata keçirilir. M.o. odoroloji ekspertizanın elmi əsaslarına xidmət edir. Kriminalistikada m.o.-na münasibət birmənalı deyilir. Ondan əməliyyat-axtarış fəaliyyətində istifadə olunması mübahisə doğurmasa da, onun sübutedicilik əhəmiyyəti etirazlara səbəb olur.

**Məhkəmə-psixatriya ekspertizası** – insanların psixi vəziyyətinin və təqsirləndirilən şəxsin anlaqlığının müəyyən edilməsi məqsədi ilə təyin edilən və aparılan ekspertiza.

**Məhkəmə psixatriyası** – psixatriya sahəsi. M.p. insanın psixi fəaliyyətinin pozğunluqlarını cinayət prosesinin və mülki prosesin bəzi normalarına münasibətdə öyrənir. Həmin normalarla qanunun psixi xəstələrə və psixi kamilliyi şübhə doğuran şəxslərə münasibəti bildirilir. Buna uyğun olaraq m.p. ilk növbədə şəxsin törədilmiş əmələ görə cinayət məsuliyyəti daşıması qabiliyyətindən, habelə mülki hüquqlara malik olması və mülki hüquq və vəzifələri daşıması qabiliyyətindən kənar edilməsinin təbii (psixatriya) əsaslarını tədqiq edir. Cinayət hüququna görə anlaqsız vəziyyətdə törədilən əməl cinayət, onu törədən şəxs isə cinayətkar hesab olunmur. Psixi kamilliyi şübhə doğuran şahidlər, zərər çəkmiş şəxslər də m.p.-nın öyrəndiyi obyektlərdir. Psixi xəstəliyin olub-olmamasını təhqiqat və ya istintaq orqanının, məhkəmənin təyin etdiyi məhkəmə-psixatriya ekspertizası müəyyən edir.

**Məhkəmə psixologiyası** – psixologiyanın sahələrindən biri. M.p. cinayət prosesi iştirakçılarının psixoloji xüsusiyyətlərini (şahid ifadələrinin psixologiyasını, təqsirləndirilən şəxsin əxlaqi-psixoloji xassələrini, ibtidai istintaqa dair psixoloji tələbləri) tədqiq edir.

**Məhkəmə sistemi** – müvafiq dövlətin bütün məhkəmələrinin məcmusu. M.s.-nin həlqələrindən hər biri eyni səlahiyyətli məhkəmələrin məcmusunu təşkil edir. Azərbaycan Respublikasının məhkəmə sistemi Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilir. Hazırda Azərbaycan Respublikasının m.s.-nə adi (ümumi səlahiyyətli və hərbi məhkəmələr – tribunallar) məhkəmələr, iqtisad məhkəməsi və apellyasiya məhkəməsi daxildir. Azərbaycan Respublikasının yüksək məhkəmə orqanı Ali Məhkəmədir. Xüsusi məhkəmə orqanı kimi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi fəaliyyət göstərir.

**Məhkəmə statistikası** – statiskanın sahələrindən biri. M.s. səlahiyyətli dövlət orqanlarında cinayətlərə və sair hüquq pozuntularına dair məlumatları toplayır, öyrənir və belə hallarla mübarizə tədbirlərinin uçotunu aparır. M.s. hüquq pozuntularının vəziyyətini, dinamikasını və artım (enmə) səviyyəsini əks etdirir. Azərbaycan Respublikasında m.s.-nın işinə Respublikanın Ədliyyə Nazirliyi rəhbərlik edir.

**Məhkəmə tapşırığı** – mülki işə baxan məhkəmənin sübutların toplanması üçün başqa yerdə yerləşən məhkəməyə müəyyən prosessual hərəkətləri etməyi tapşırması. M.t. məhkəmənin qərardadı ilə rəsmiləşdirilir. Qərardadın icrası məcburidir və o, 10 gün ərzində yerinə yetirilməlidir. İştirakçıların məhkəmə baxışına gəlməməsi tapşırığın yerinə yetirilməsinə mane ola bilməz. Tapşırıq yerinə yetirilərkən toplanan bütün materiallar dərhal işə baxan məhkəməyə göndərilir.





**Məhkəmə təbabəti** – ibtidai istintaq, məhkəmə orqanlarının fəaliyyəti prosesində təsadüf olunan tibbi-bioloji problemləri öyrənən tibb elmi sahəsi. M.t.-nə məhkəmə-tibb ekspertizasının prosessual və təşkili kimi əsasları, səhhətin (sağlamlığın) pozulması və ölümün səbəblərinin öyrənilməsi, salamat adamların, habelə meyitlərin ekspertizası və i.a. aiddir. M.t. XVI yüzillikdən başlayaraq tətbiq edilir və intensiv surətdə inkişaf etdirilir.

**Məhkəmə-tibb ekspertizası** – meyitin, canlı şəxsin və maddi sübutların ekspertizası. M. -t.e.-nin obyektləri meyitlər, canlı şəxslər, bioloji xarakterli maddi sübutlar (qan, tük, sperma, tüpürcək, daxili orqanların hissələri və i.a.) ola bilər.

**Məhkəmə toksikologiyası** *(kriminalistikada)* – zəhərlərin xassələrini, onların təsir mexanizmini, öldürmək məqsədi ilə zəhərləmə əlamətlərini, özünü zəhərləməklə intiharın əlamətlərini, istehsalatda və məişətdə bədbəxt hadisə zamanı dərman maddələrinin tətbiqini öyrənən məhkəmə təbabəti və ümumi toksikologiya sahəsi.

**Məhkəmə və hüquq-mühafizə orqanları işçiləri barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma** – cinayət qanunvericiliyinə görə ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 301-ci maddəsində nəzərdə tutulmuşdur. Hakimlər, andlı iclasçılar, məhkəmə nəzarətçiləri, məhkəmə icraçıları, prokurorlar, müstəntiqlər, təhqiqatçılar, əməliyyat-axtarış fəaliyyətini, gömrük işini həyata keçirən, ictimai qaydanın mühafizəsini və milli təhlükəsizliyi təmin edən, habelə istintaq orqanlarının və ya prokurorların qərarlarını icra edən şəxslər və ya onların qohumları barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatların yayılmasında ifadə olunur.

**"Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə onların həyatının və sağlamlığının dövlət icbari şəxsi sığortası qaydalarını və şərtlərini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 5 oktyabr 1999-cu il tarixdə qəbul edilmişdir. O, on maddədən ibarətdir. Qanuna bir sıra əlavə və dəyişikliklər edilmişdir.

**"Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında özlərinin təhlükəsizliyinə qarşı qəsdlərə səbəb ola biləcək funksiyaları yerinə yetirən məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsini təmin etmək, habelə ədalət mühakiməsinin həyata keçirilməsinə, cinayətlərə qarşı mübarizəyə lazımi şərait yaratmaq məqsədi ilə göstərilən şəxslərin və ya onların yaxın qohumlarının həyatının, sağlamlığının, mənzilinin və əmlakının dövlət müdafiəsi üzrə tədbirlər sistemini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 11 dekabr 1998-ci il tarixdə qəbul edilmişdir. O, beş fəsil və 21 mad-

dədən ibarətdir. Qanuna 5.10.2001-ci və 23.11.2001-ci il tarixlərində əlavə və dəyişikliklər edilmişdir.

**Məhkəməyə hörmətsizlik** – cinayət qanunvericiliyinə görə ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 289-cu maddəsində nəzərdə tutulmuşdur. Məhkəmə baxışı iştirakçılarını təhqir etməklə məhkəməyə hörmətsizlik etməkdə ifadə olunur.

**Məhkum** – məhkəmənin hökmü ilə cinayət törətməkdə təqsirli bilinən və cəzaya məruz qalan şəxs. Cinayət-prosessual qanunvericiliyə görə, haqqında ittiham hökmü çıxarılmış (qanuni qüvvəyə minməməsinə baxmayaraq) şəxs məhkum adlanır. Azərbaycan Respublikasında m.-un hüquq və vəzifələrinin məhdudlaşdırılması qanunvericiliklə müəyyən edilir və təyin edilmiş cəzanın ağırlığından, həmin cəzanı çəkmək üçün müəyyən edilmiş rejimdən asılıdır. Məhkəmənin təyin etdiyi cəzanın ağırlıq və ya yüngüllük dərəcəsi m.-un hüquqlarının məhdudiyyət dairəsini müəyyən edir. Məhkəmə əsas cəza ilə yanaşı m.-un hüquqlarının məhdudlaşdırılmasını nəzərdə tutan (məsələn, müəyyən müddətə sürücülük hüququndan, həkimlik etmək hüququndan və i.a. məhrum etmə) əlavə cəza növü də müəyyən edə bilər.

**Məhkumluğun götürülməsi** – şəxsin yeni cinayət törətməklə qanunda nəzərdə tutulan müvafiq məhkumluq müddətinin kəsilməsi. İttiham hökmünün müddətinin keçməsi ilə cəzadan azad edilən şəxslər, məhkəmədə işə baxılan zaman şəxsin ictimai təhlükəli olmadığının təsdiq edilməsi ilə cəzadan azad edilən şəxslər, şərti olaraq məhkum edilmiş, lakin sınaq müddətində yeni cinayət törətməmiş şəxslər məhkumluğu olmayan şəxslər hesab olunurlar. Cəzanı çəkib qurtarmış şəxs məhkumluğun ödənilməsi müddəti qurtaranadək yenidən cinayət törədərsə, məhkumluğun ödənilməsi müddətinin axımı kəsilir. Birinci cinayətə görə məhkumluğun ödənilməsi müddəti axırıncı cinayətə görə cəza (əsas və əlavə cəza) faktiki olaraq çəkilib qurtardıqdan sonra yenidən hesablanır. Belə hallarda şəxs, həmin cinayətlərin ən ağırı üçün məhkumluğun ödənilməsi müddəti qurtaranadək hər iki cinayətə görə məhkum olunmuş hesab edilir. Əvvəllər törətdiyi cinayətlərə görə bir neçə məhkumluğu olan şəxs bağışlama qaydasında məhkumluğu götürülməklə cəzanı çəkməkdən azad edildikdə, əvvəlki cinayətlərə görə də mövcud olan məhkumluq onun üzərindən götürülmüş olur.

**Məhkumluğun indeksi** – cinayətkarlığın ictimai təhlükəliliyinin dolayı göstəricisi; müəyyən dövrdə, əhalisi 100 000 nəfərlə hesablanan müəyyən ərazidə (yaşı 14 yaşdan yuxarı olan əhali arasında) törədilmiş cinayətə görə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə cinayət cəzasına məhkum olunmuş şəxslərin sayı ilə səciyyələndirilir.

**Məhkumluğun ödənilməsi** *(bax: məhkumluğun götürülməsi).*

**Məhkumluğun ödənilməsi müddətləri** – cinayət qanunvericiliyinə görə AR CM-in 83-cü maddəsində nəzərdə tutulan müddətləri cinayət törətmiş yetkinlik yaşına çatmayanlar üçün qısaldılır və aşağıdakı müddətlər:

1) böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilib qurtardığı gündən bir il;





2) ağır və ya xüsusilə ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilib qurtardığı gündən üç il keçdikdə məhkumluq ödənilmiş hesab edilir (AR CM-in 92-ci maddəsi).

**Məhkumluq** – törədilmiş cinayətə görə məhkum edilmənin hüquqi nəticələrindən biri. M. cinayət məsuliyyətinin elementlərindən biridir. M.-u yaradan xüsusi nəticələr cinayət törətməkdə təqsirli bilinən şəxs barəsində ittiham hökmünün çıxarılması və hər hansı cinayət cəzasının təyin edilməsi ilə meydana gəlir. M.-u olan şəxs yenidən cinayət törətdikdə m. məsuliyyəti ağırlaşdırır və əməlin maddənin daha ağır məsuliyyət müəyyən edən hissəsi ilə tövsif edilməsinə təsir göstərir. M. qanunda nəzərdə tutulan hallarda cəza çəkmiş şəxslər barəsində yaşayış yeri seçmək, müəyyən növ peşə seçmək sahəsində ümumhüquq xarakterli məhdudiyyətlər də yarada bilər.

**Məxfi ekspedisiya** – Rusiyada fəaliyyət göstərmiş mərkəzi dövlət idarəsi, siyasi axtarış orqanı (1762-1801-ci illərdə mövcud olmuşdur). M.e. II Yekaterinanın göstərişi ilə Sankt-Peterburqda yaradılmış, məxfi dəftərxananı əvəz edən orqan olmuşdur. M.e.-nin Moskvada şöbəsi yaradılmışdır. Bu orqan mühüm siyasi işlərin istintaqı və məhkəmə baxışını həyata keçirirdi. M.e. ləğv edildikdən sonra onun funksiyaları Senatın 1-ci və 5-ci departamentlərinə keçmişdir.

**Məişət bürovuzu** – məişətdə işlədilən ev əşyalarının, musiqi alətlərinin və idman ləvazimatlarının, minik avtomobillərinin və digər əmlakların (məişət bürovuzu) dövlət təşkilatları və ictimai təşkilatlar tərəfindən əvəzi ödənilməklə vətəndaşların müvəqqəti istifadəsinə verilməsi. M.b. müqaviləsinin müddəti müvafiq birtipli müqavilə ilə müəyyən edilən müddətdən artıq olmamalıdır. M.b. müqaviləsi üzrə əmlakın kirayəçisi istədiyi vaxt məişət bürovuzu müqaviləsindən imtina etməyə haqlıdır.

**Məlumat azadlığı** – vətəndaşların əsas konstitusiya hüquq və azadlıqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsinə əsasən hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

**"Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında məlumat azadlığının həyata keçirilməsi ilə əlaqədar əmələ gələn münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 19 iyun 1998-ci il tarixdə qəbul olunmuş, 1 fevral 2000-ci il tarixdə ona əlavə və dəyişiklik edilmişdir. Qanun 15 maddədən ibarətdir.

**Məmlüklər** – Əyyubilər sülaləsinin (1171-1250) seçmə qoşun dəstələrini təşkil etmiş döyüşçü qullar. M. Misirdə yaşayan türklərdən, həmçinin qıpçaqlardan, gürcülərdən, çərkəzlərdən və başqa Qafqaz xalqlarından ibarət olmuşlar. Qoşunun ümumi sayı təqribən 9-12 min nəfərdən ibarət olmuşdur. M. bəyləri 1811-ci ildə məhv edilmişdir.

**Mənbə** *(bax: hüququn mənbəyi).*

**Məndub** *(islamda – "tövsiyə edilən")* – fiqhdə – tələb edilməyən və ya məcburi

olmayan, lakin törədilməsi ətrafdakılar tərəfindən yüksək qiymətləndirilən hərəkətlər və xətalar. Bu, cəsarətin, mərhəmətin, hünərin və dini şəfqətin təzahürü kimi qiymətləndirilirdi. Bu hərəkətləri edən insanın özü digərlərindən özü üçün hər hansı bir üstünlüyü tələb etməməli idi, yaxud hər şey ürəyin istəyi ilə edilməli idi. M. islam etikasında mühüm yer tutur.

**Mənəvi zərər** *(hüquqda)* – qeyri-əmlak xarakterli ziyan; fiziki və ya hüquqi şəxsi şərəf və ləyaqətdən, nüfuzdan salmaq, ona mənəvi və fiziki əzab vermək və i.a. ilə ifadə olunur. Müasir dövlətlərin bir çoxlarının qanunvericiliyinə görə m.z. məhkəmə qaydasında zərəri vuranın cərimə olunması ilə həll edilir. Cərimənin miqdarı məhkəmə tərəfindən müəyyən edilir.

**Mənfi aksept** – akseptin rəsmiləşdirilməsi qaydası; bu zaman aksептə yazılı formada ancaq rədd cavabı verilir (ödənişə razılığın inkar edilməsi). M.a. zamanı ödənişə razılıq sənədlərlə rəsmiləşdirilmir.

**Mənimsəmə və ya israf etmə** – cinayət qanunvericiliyinə görə mülkiyyət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 179-cu maddəsində nəzərdə tutulmuşdur. Təqsirkara etibar edilmiş özgə əmlakının talanmasında ifadə olunur.

**Məntiqi təfsir** *(bax: qanunun məntiqi təfsiri).*

**Mənzil hüququ** – vətəndaşların mənzilə olan ehtiyaclarının ödənilməsindən və ya mənzil şəraitinin yaxşılaşdırılmasından, mənzillərin (bələdiyyə fondu evlərində) bölüşdürülməsindən, eləcə də onlardan istifadədən irəli gələn münasibətləri tənzim edən hüquq normalarının məcmusu. M.h. hüququn müstəqil sahəsidir. M.h. mülki hüquqdan törəmə hüquq sahəsidir. Azərbaycan Respublikasında mənzil münasibətləri Respublikanın Mənzil Məcəlləsi, mülkiyyət haqqında qanun və digər normativ-hüquqi aktlarla tənzimlənir.

**Mənzil-istismar sahəsi** – Azərbaycan Respublikasında mənzil təsərrüfatı sisteminin ilkin həlqəsi, vahid idarəetmə və vahid təsərrüfat-maliyyə planı ilə birləşmiş ev sahibliyi kompleksi. M.i.s. özünümaliyyələşdirmə əsasında fəaliyyət göstərir. Əsas vəzifəsi ev təsərrüfatını düzgün aparmaqdan, yaşayış evlərinin cari və əsaslı təmir işlərini müntəzəm surətdə həyata keçirməkdən və mənzil fondunu qorumaqdan ibarətdir.

**Mənzil şəraitini yaxşılaşdırma** – qanunla müəyyən edilmiş əsaslar olduqda mənzil şəraitini yaxşılaşdırmağa ehtiyac yaranır. Həmin əsaslar Azərbaycan Respublikası MM-in 29-cu maddəsində nəzərdə tutulmuşdur. Bu əsaslar aşağıdakılardır: a) mənzilin sahəsi qanunla müəyyən edilmiş normadan aşağı olduqda; b) kirayə müqaviləsi ilə yaşayan və başqa mənzil sahəsinə malik olmama; c) yataqxanada yaşamaq; ç) yaşayış sahəsi sosial və texniki tələblərə cavab vermədikdə.

**Mənzil-tikinti kooperativi (MTK)** – kooperasiyanın əsas növlərindən biri. MTK-lar vətəndaşların mənzilə olan ehtiyaclarını ödəmə vasitəsi kimi meydana gəlmişdir. MTK könüllü orqan, hüquqi şəxs olmaqla yanaşı, həm də ictimai-siyasi xarakterli təşkilatdır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə kooperasiyanın, o cümlədən mənzil kooperasiyasının müxtəlif formaları mövcuddur. ABŞ-da və Böyük Britaniyada mənzil kooperativləri öz üzvlərinə yaşayış evləri tikmək, yaxud əldə etmək məqsədi ilə borc pul vəsaiti (kredit) verir. Almaniyada isə kooperativ yaşayış evlərini kooperativ təşkilatları özü tikir, sonradan isə onları öz üzvlərinə satır və ya icarəyə verirlər.

**Mənzil toxunulmazlığı** – Azərbaycan Respublikasında vətəndaşların konstitusiyada təsbit edilmiş hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsinə əsasən hər kəsin mənzil toxunulmazlığı hüququ vardır. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla, mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

M.t. dövlət tərəfindən mənzilin qanunsuz müdaxilələrdən mühafizə olunmasını nəzərdə tutur. Vətəndaşlar yalnız zəbt etdikləri yaşayış sahəsindən inzibati qaydada, yaxud məhkəmənin qərarı ilə məcburi qaydada çıxarıla bilərlər.

**Mənzil toxunulmazlığını pozma** – cinayət qanunvericiliyinə görə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 157-ci maddəsində nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan, mənzildə yaşayanın iradəsi ziddinə mənzilə daxil olmada ifadə olunur.

**Mərkəzi banklar** – müvafiq ölkədə iqtisadiyyatın pul-kredit tənzimləməsi ilə məşğul olan dövlət orqanları; banknotlar üzərində inhisar hüququna malikdirlər. M.b. pulların tədavülünü tənzimləyir, kredit təşkilatlarına nəzarət edir (bank nəzarəti), "banklar bankı" funksiyasını həyata keçirir, rəsmi qızıl-valyuta ehtiyatlarını qoruyurlar. Müxtəlif ölkələrdə m.b. müxtəlif adla adlandırılır. Məsələn, "milli bank", "dövlət bankı", "xalq bankı" və i.a. Azərbaycan Respublikasında Azərbaycanın Milli Bankı fəaliyyət göstərir.

**Mərkəzi depozitari** – bəzi dövlətlərdə bütün ölkə miqyasında qiymətli kağızlar üzrə mərkəzləşdirilmiş uçotu və onlarla əlaqədar əməliyyatları həyata keçirən təşkilat. M.d. bundan başqa qiymətli kağızların sertifikatlarını qoruyur. M.d. müfəssəl informasiya sistemindən istifadə etməklə depozitari fəaliyyətini həyata keçirir.

**Mərzban** – İranda Sasanilər dövründə (III-VII yüzilliklərdə) əsasən ucqar əyalətlərin (V yüzillikdən bütün əyalətlərin) hakimi, canişin. Yerlərdə mülki, inzibati və hərbi işlərə təkbaşına rəhbərlik edirdi. M. adətən hökmdar sülaləsi nümayəndələrindən təyin edilirdi. 457-ci ildə Albaniyada (Qafqaz) Sasani zülmünə qarşı üsyan amansızlıqla yatırıldıqdan sonra alban hökmdarlarının hakimiyyəti ləğv edilmiş və III Vaçaqana (təqribən 487-510-cu illərdə) qədər ölkəni m.-lər idarə etmişdir.

**Məsuliyyəti ağırlaşdıran hallar** *(bax: cəzanı ağırlaşdıran hallar).*

**Məsuliyyəti yüngülləşdirən hallar** *(bax: cəzanı yüngülləşdirən hallar).*

**Məşğulluq** – vətəndaşların şəxsi və ictimai tələbatları təmin etməsi ilə əlaqədar fəaliyyəti; belə fəaliyyət qanunlara zidd olmamalı, həmin şəxsə əməkhaqqı və mənfəət gətirməlidir. Azərbaycan Respublikasında m. məsələsi dövlət siyasətinin tərkib hissəsidir və bununla əlaqədar əhalinin işsiz hissələri içərisində onların siyahıları tərtib edilir, zəruri hallarda isə əhalinin işlə təmin edilməsi məqsədi ilə əmək yarmarkaları təşkil edilir.

**"Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunu** – məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi iqtisadi və təşkilati əsaslarını, eləcə də vətəndaşların əmək sahəsində və işsizlərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edir. Qanun 5 fəsil və 29 maddədən ibarətdir. Qanuna 15 noyabr 2001-ci il, 3 dekabr 2002-ci ildə əlavə və dəyişikliklər edilmişdir. Qanunda "məşğulluq", "müvəqqəti məşğulluq", "əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhali", "işsiz vətəndaş", "vakansiya", "özünüməşğulluq", "əmək bazarı", "kvota", "ilk dəfə iş axtaranlar" kimi əsas anlayışların tərifləri verilmişdir. Qanunda məşğulluq sahəsində dövlət siyasətinin əsas istiqamətləri göstərilmişdir: 1) irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, ailə vəziyyətindən, ictimai-sosial mənşəyindən, yaşayış yerindən, əmlak vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara əmək və məşğulluğu sərbəst seçmək hüququnun həyata keçirilməsində bərabər imkanların təmin edilməsi; 2) vətəndaşların qanun çərçivəsində həyata keçirilən əmək və sahibkarlıq təşəbbüsünün müdafiə edilməsi, sahibkarlığın inkişaf etdirilməsi məqsədi ilə onlara köməklik göstərilməsi; 3) əmək fəaliyyətinin və məşğulluq növünün seçilməsində vətəndaşların öz iradəsini sərbəst ifadə etməsinə şərait yaradılması; 4) işsizlərin sosial müdafiəsinin təmin edilməsi, işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsinə köməklik göstərən xüsusi tədbirlərin görülməsi; 5) məşğulluq sahəsində fəaliyyətin iqtisadi və sosial siyasətin digər istiqamətləri ilə əlaqələndirilməsi; 6) sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün əlavə iş yerləri yaradan işəgötürənlərin həvəsləndirilməsi; 7) məşğulluğun təmin edilməsinə yönəldilmiş tədbirlərin hazırlanmasında və həyata keçirilməsində, onların yerinə yetirilməsinə nəzarətdə Azərbaycan Respublikasının dövlət orqanlarının, həmkarlar ittifaqlarının, işəgötürənlər birliklərinin fəaliyyətinin əlaqələndirilməsi; 8) Azərbaycan Respublikası vətəndaşlarının ölkə hüdudlarından kənarda, habelə vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyəti ilə məşğul olmasına şərait yaradılması; 9) beynəlxalq əmək normalarına riayət olunması.

**Məşvərətçi səs** *(hüquqda)* – seçkili orqanların, yaxud beynəlxalq təşkilatların işində yalnız məsləhət funksiyaları (yəni heç bir məsələdə səs vermək hüququ olmadan) ilə iştirak etmək hüququ.

**Mətni (qrammatik) təfsir** *(bax: qanunun mətni təfsiri).*

**Məzalim** *(qısa şəkildə hökm əl-məzalim və ya həzər əl-məzalim sözündəndir, qanunsuz hərəkətlərə baxılması deməkdir)* – ədalətsizliklə əlaqədar şikayətlərə baxılması; proses dövlət başçısı və ya onun səlahiyyətli apellyasiya məhkəməsi tərəfindən həyata keçirilirdi. İslamda m. qaydası islamaqədərki tayfalararası adətlərə və qəbiləda-xili münasibətlərdən doğan mübahisələrə baxılmasına aparıb çıxarır. M. qaydasında birinci instansiya məhkəməsinin ədalətsiz hərəkətlərinə dair şikayətlərə də baxılırdı.

İslamın bərqərar olduğu ilk əsrlərdə bu qayda az dəyişikliyə uğramışdır. Lakin apellyasiya şikayətinin verildiyi (baxılmaq üçün) yeganə şəxs xəlifənin özü olmuşdur və buna görə də həmişə ona müraciət edilmişdir.

**Məzdəkilik** – V yüzilliyin sonunda İranda yaranmış, sonralar Azərbaycanda və bir sıra qonşu ölkələrdə geniş yayılmış dini-fəlsəfi və ictimai-siyasi hərəkat. M. feodal üsul-idarəsinə və ümumiyyətlə, mövcud ictimai-siyasi quruluşa qarşı çevrilmiş güclü xalq hərəkatının ideologiyası olmuşdur. Həmin hərəkatda Sasanilər İranında xırda və orta torpaq sahiblərinin də tərəfdar çıxdıqları aşağı sosial təbəqələr - kəndlilər və şəhər yoxsulları da iştirak etmişdir.

M.-in adı həmin hərəkatın rəhbəri Məzdəkin adı ilə bağlıdır. Məzdək manilikdə mövcud olmuş radikal və demokratik istiqamətin tərəfdarı olmuşdur. Məzdək təliminin əsas müddəası hamının bərabər olduğu ədalətli cəmiyyət qurmaq, insanlar arasında əmlak bərabərliyi yaratmaq idi. Tarixi qaynaqların birində bu ideya belə şərh olunmuşdur: "Allah insanlara ona görə əmlak vermişdir ki, onlar bunu öz aralarında bərabər bölüşdürsünlər. Lakin insanlar bir-birlərini ağır ədalətsizliyə düçar edirlər. Onlar (məzdəkilər) deyirdilər ki, (əmlakı) varlılardan alıb yoxsullara vermək və bununla da varlıların hesabına onlara öz mülkiyyətini qaytarmaq istəyirlər". M.-ə görə, Xeyirin Şər üzərində qələbəsini Allahın və İşıqlı qüvvələrin köməyi ilə təmin etmək olar. Məzdək ədalətli cəmiyyətin qurulmasını mübarizə aparmaq yolu ilə mümkün hesab edirdi.

Məzdəkilər hərəkatı məğlub olsa da, onun ideyaları xalq kütlələri arasında uzun müddət yaşamış, özündən sonrakı ictimai-siyasi hərəkatların və onların sosial-siyasi ideyalarının formalaşmasında mühüm tarixi rol oynamışdır. M. təlimi Azərbaycan xalqının ictimai-siyasi və hüquqi fikir tarixinin zənginləşməsinə xidmət etmişdir.

**Məzənnə** – **1)** bir ölkənin pul vahidinin digər ölkənin pul vahidində ifadə olunan qiyməti; **2)** səhm, veksel, istiqraz vərəqəsi və digər qiymətli kağızların birjada alınıb-satılan qiyməti.

**Məzənnə fərqi** – xarici valyutanın və qiymətli kağızların bazar qiymətlərindəki fərq; fond və valyuta birjalarında məzənnələrin dəyişilməsi ilə əlaqədar əmələ gəlir. Məzənnələrin qalxması qiymətli kağızları əvvəlcədən nağd pulla almış inhisarlara və ayrı-ayrı şəxslərə məzənnə mənfəəti, aşağı düşməsi isə məzənnə itkisi gətirir.

**Məzənnə qiyməti** – dövlətlərin fond birjalarında səhm, istiqraz vərəqəsi və digər qiymətli kağızların, habelə xarici valyutaların alqı-satqısında sövdələşmə qiyməti. Xarici valyutanın m.q. qızıl pariteti əsasında müəyyən edilir.

**Məzənnələşdirmə** – birjada xarici valyutaların, qiymətli kağızların (səhm və istiqrazların), yaxud malların qiymətlərinin məzənnələrinin müəyyən edilməsi; qiymətli kağızların və ya malların birjada tədavülü; qiymətli kağızların, xarici valyutaların və malların birja məzənnələri haqqında rəsmi nəşr.

**Məzhəb** *(islamda "yol")* – islamın bütün sahələrində – ilahiyyatda, fiqhdə (hüquqda), hədislərdə, fəlsəfədə və sufilikdə istifadə olunan texniki termin; sünni müsəlman təriqətində istiqamət mənasında istifadə edilən dini-hüquqi məktəb və sistem.

**Məzmununda dövlət sirri olan sənədləri itirmə** – cinayət qanunvericiliyinə görə dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 285-ci maddəsində nəzərdə tutulmuşdur. Məzmununda dövlət sirri olan sənədlərin, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların, etibar olunan şəxs tərəfindən göstərilən sənədlərlə və ya əşyalarla Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş davranış qaydalarının pozulması nəticəsində onların ehtiyatsızlıqdan itirilməsində və ağır nəticələrə səbəb olmasında ifadə olunur.

**Məzun** *(islamda – "icazə almış şəxs")* – ticarət-sənət, o cümlədən ağanın işlərini aparmaq üçün ağadan icazə almış qul. Qul müəyyən icazə çərçivəsində nəyi isə satın ala və sata, hər hansı əşyanı borc götürə və ya borc verə, habelə girov götürə və ya verə bilərdi. O, icazə verilmiş işi aparmaq üçün azad hərəkət edə bilərdi. Qalan işlərdə onun hüquqi vəziyyəti dəyişmirdi və m.-un statusu təhkimliyə yaxın idi. İşlərin həll edilməsi zamanı meydana çıxmış borclar m.-n üzərinə düşürdü. Onların ödənilməsi üçün, əgər ağa onun əvəzinə borcu ödəməzdisə, qul satıla bilərdi. Ağa icazəni ləğv edə bilərdi və bunu etməyə haqlı idi. Lakin o, bu barədə ya məsciddə, ya da bazarda açıq şəkildə elan verməli idi. İlahiyyatçı hüquqşünasların bir qismi qulun əldə etdiyi əmlakı onun özünün, digər qismi isə ağanın mülkiyyəti hesab edirdi.

**Mxitar Qoş Qanunnaməsi** – 1184-cü ildə Mxitar Qoşun tərtib etdiyi qanunnamə. Qanunnamə o dövrdə ictimai-siyasi proseslərin kontekstində formalaşmış Azərbaycanın siyasi-hüquqi fikrinin öyrənilməsi və tədqiqi baxımından tutarlı mənbələrdən biridir. O, X-XII yüzilliklərdə Azərbaycanın ərazisində təşəkkül tapmış Albaniya dövlətinin sosial-iqtisadi, siyasi həyatını və hüquqi vəziyyətini əks etdirir.

M.Q. Qanunnaməsi girişdən və iki hissədən ibarətdir. Girişlə toplunun məqsədi və əhəmiyyəti ətraflı şəkildə əsaslandırılır, habelə kimin hakim və kimin şahid ola bilməsi, həmçinin bir sıra digər məsələlər təfsir edilir. Girişdə həmçinin Almaniya dövlətinin ərazisində məhkəmə quruluşu və mühakimə icraatı məsələləri geniş işıqlandırılır.

Qanunnamənin "Ali kanonlar" adlanan birinci hissəsi özündə 124 maddəni ehtiva edir. Qanunnamənin 130 maddədən ibarət olan "Dünyəvi kanonlar" adlı ikinci hissəsi xüsusi maraq doğurur. Bu hissə mülki qanunlardan və cinayət qanunlarından ibarətdir. Cinayət qanunları dövləti, inam və mənəviyyat, nikah və ailə əleyhinə, əmlaka və şəxsiyyətə qarşı olan cinayətlərə görə cəza tədbirlərini nəzərdə tuturlar.

Qanunnamədəki mülki və mülki-prosessual hüquq normaları ailə və nikah, torpaq mülkiyyəti və torpaqdan istifadə, vərəsəlik, borc, girov və ticarət qaydaları haqqında münasibətlərin tənzimlənməsinə həsr edilmişdir. Mülki-hüquqi müqavilələr barəsində məlumatlar da abidədə mühüm yer tutur.

Qanunnamədə ölüm cəzası (edam), fiziki (cismani) işgəncələr vermə, sürgün etmə və əlavə cəza növü kimi əmlak müsadirəsi növündə cəza tədbirləri nəzərdə tutulmuşdur.

M.Q. Qanunnaməsinin tədqiq edilməsi əsasında erkən orta əsrlər alban cəmiyyətində sosial-iqtisadi, siyasi və hüquqi münasibətlərin təşəkkülünə, eləcə də Azərbaycanda dövlət quruculuğu ənənələrinin inkişafına dair mülahizələr yürütmək olar. Qanunnamə Azərbaycanın siyasi və hüquqi təlimlər tarixinin öyrənilməsi və tədqiq edilməsi nöqteyi-nəzərindən də mühüm əhəmiyyət kəsb edən zəngin materiala malik tarixi sənədlərdən biridir.





**Miçman** *(ing. midshipman)* – bir sıra dövlətlərin Hərbi-Dəniz Donanmasında starşina heyətində ən yüksək rütbə.

**Midhəd Konstitusiyası** – Midhəd paşanın fəal iştirakı ilə hazırlanmış ilk Türkiyə Konstitusiyası. MK 1876-cı il dekabrın 23-də elan edilmişdir. O, Türkiyədə konstitusiyalı monarxiyanı təsbit etsə də, sultanın hüquqlarını tam dərəcədə deyil, cüzi həcmdə məhdudlaşdırırdı. 1878-ci ildə ildə II Əbdülhəmid MK-ya əsasən seçilmiş məclisi buraxmış və müstəbid (despotik) mütləqiyyət rejimi yaratmışdı. 1908-ci ildə baş vermiş gənc türklər inqilabı nəticəsində II Əbdülhəmid MK-nı bərpa etməyə məcbur olmuşdur.

**Mikrohissəcik** *(kriminalistikada)* – görünən maddi obyekt; forma və ölçülərini adi gözlə müəyyən etmək qeyri-mümkündür. Qəbul olunmuş tərifə görə həmin obyektin ölçüləri bütün ölçmələrdə 2 mm-ri aşmamalıdır. M.-in tədqiqi ilə mikrotarsologiya məşğul olur.

**Mikroiz** *(kriminalistikada)* – trasologiyada iz yaradan obyektin relyef fraqmentinin əks etdirilməsi; forma və ölçülərin müəyyən edilməsi üçün optik vasitələrdən, məsələn, lupadan, mikroskopdan və i.a. istifadə olunur. M.-in tədqiqi ilə mikrotrasologiya məşğul olur.

**Mikrotrasologiya** *(kriminalistikada)* – trasologiyanın bölmədaxili institutlarından biri; mikroobyektlərin – mikroizlərin və mikrohissəciklərin tədqiq edilməsinin metodlarını, vasitələrini öyrənir və işləyib hazırlayır.

**Miqrant** – xarici ölkəyə miqrasiya (mühacirət) edən şəxs.

**Miqrasiya** – yaşayış yerinin dəyişdirilməsi ilə əlaqədar əhalinin bir yerdən başqa yerə keçməsi.

**Miqrasiya xidməti** – qaçqınlara (miqrantlara) dövlət daxilində və dövlətlərarası səviyyədə əlverişli şərait yaradılması (müavinətlər verilməsi, işə düzəltmə, məişət şəraiti yaradılması və i.a.).

**Miqyaslı fotoqrafiya** *(kriminalistika texnikası sahəsi)* – ölçücü fotoşəkil çəkmə metodu. M.f. fotoşəkli çəkilən predmetlərin və onların hissələrinin miqyasın təsviri vasitəsi ilə xətti ölçüsünü müəyyən etməyə imkan verir.

**Milis ərazi sistemi** *(hərbdə)* – dinc dövrdə hərbi birləşmə və hissələrdə minimum sayda hərbi qulluqçu kadrların saxlanmasına (başlıca olaraq komanda heyətinin) əsaslanan sistem. M.ə.s. İsveçrədə mövcuddur. Keçmiş SSR İttifaqında 1923-1935-ci illərdə hərbi kadr sistemi ilə yanaşı tətbiq edilmişdir.

**Militarizm** *(fr. militarisime – hərbi)* – xarici siyasətində işğala meyilli olan bir sıra dövlətlərin hakim dairələrinin qəsbkar müharibələrə hazırlaşmaq, ölkə daxilində demoratik qüvvələrin çıxışlarını yatırmaq məqsədilə hərbi hazırlıq tədbirlərini genişləndirməyə yönəldilmiş mürtəce siyasəti. Silahların və silahlı qüvvələrin, hərbi xərclərin durmadan artırılması, dövlət iqtisadiyyatında və siyasətində hərbi sənaye kompleksinin təsirinin gücləndi-

rilməsi, şovinist təbliğatın genişlənməsi m.-in səciyyəvi cəhətləridir. M. tarixən feodal dövlətinin siyasətində təzahür etmişdir. "M." termini ilk dəfə XIX yüzilliyin ortalarında Fransada III Napoleon rejimini səciyyələndirmək üçün işlədilmişdir. M. Fransa-Prussiya müharibəsindən (1870-1871) sonra daha geniş vüsət almışdır.

**Millət** – insanların tarixi birliyi; ümumi əraziyə, ümumi etnik dilə, ümumi iqtisadi və mənəvi həyat birliyinə (adət-ənənələrə) malik olan böyük insan qrupu. M.-dən əvvəl insanların qəbilə, tayfa, xalq birlik formaları olmuş və tarixi inkişaf prosesində bunlardan biri digərini əvəz etmişdir.

**Millətlər Birliyi** – Böyük Britaniya və onun keçmiş müstəmləkələrindən ibarət birlik. MB hüquqi cəhətdən Vestminster statutları (1931) ilə rəsmiləşdirilmişdir. MB əvvələr şəxsi uniya olmuşdur, çünki İngiltərə kralı hər bir dominionun dövlət başçısı hesab edilirdi (kralı onun təyin etdiyi general-qubernator təmsil edirdi). İkinci dünya müharibəsindən sonra MB monarxiya xarakterini itirmişdir (məsələn, Hindistan Respublikası müstəqilliyini elan etdikdən sonra da MB-nin tərkibində qalmışdır). Müasir dövrdə MB-yə İngiltərə kralını (kraliçasını) özlərinin dövlət başçısı hesab edən keçmiş dominionlarla yanaşı, öz dövlət başçısı olan digər ölkələr (məsələn, Kanada, Keniya, Şri-Lanka) də daxildir. MB-yə daxil olan dövlətlər öz aralarında və digər dövlətlərlə adi diplomatik münasibətlər saxlayırlar. Buraya daxil olan dövlətlər arasındakı münasibətlər və əlaqələr daha çox rəmzi səciyyə daşıyır. Hər bir ölkə birtərəfli qaydada MB-dən danışıqsız olaraq çıxmaq hüququna malikdir. Böyük Britaniyanın MB-də xüsusi vəziyyəti hüquq normaları ilə deyil, Böyük Britaniya ilə müvafiq dövlətlər arasındakı iqtisadi, siyasi münasibətlər və maliyyə münasibətləri ilə müəyyən edilir.

**Millətlər Cəmiyyəti** – Birinci və İkinci dünya müharibələri arasında fəaliyyət göstərmiş beynəlxalq təşkilat. 1919-1920-ci illərdə Paris sülh konfransında təşkil edilmişdir. MC-yə əvvəlcə 44 dövlət qoşulmuşdur. Bunlardan 31-i Antanta tərəfində vuruşmuş, 13-ü isə Birinci dünya müharibəsi dövründə bitərəf qalan dövlətlər idi. MC 1946-cı ilin aprelində rəsmən buraxılmışdır.

**Milli banklar** - **1)** müvafiq dövlətdə xarici bankların əksinə olaraq qeydə alınmış banklar; **2)** Azərbaycanda Azərbaycan Respublikasının Milli Bankı; **3)** ABŞ-da kommersiya banklarının adı; bunların fəaliyyəti federal qanunvericiliklə tənzim edilir; **4)** bəzi ölkələrdə mərkəzi bankların adı.

**Milli borc** – **1)** mərkəzi hökumətin daxili və xarici borcu; **2)** bütün daxili borcların, o cümlədən dövlət borclarının məcmusu.

**Milli dil** – xalqın millətə çevrilməsi prosesində xalq dili əsasında formalaşan dil, millətin yazılı və şifahi ünsiyyət dili. M.d. millətin ictimai həyatının bütün sahələrində ünsiyyət vasitəsi kimi işlənir.

**Milli dövlət** – dövlətin konstitusiya-hüquqi statusunun xarakteristikası; konkret millətin (etnik-mədəni mənada) öz müqəddəratını təyin etmək forması deməkdir, hər şeydən əvvəl isə məhz həmin millətin iradəsini ifadə edir. Dövlətin milli xarakteri haqqında müddəa, məsələn, Rumıniya Respublikası Konstitusiyasının 1-ci maddəsində təsbit edilmişdir.





**Milli dövlət muxtariyyəti** - ərazi muxtariyyətinin bir növü; milli məsələnin həlli üsullarından biri. Unitar dövlətin ayrıca bir hissəsinin (müəyyən hissələrinin) əhalisinin əksəriyyətinin milli azlığın təşkil etdiyi əhaliyə verilməsi deməkdir. Məsələn, Azərbaycan Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası (NMR) mövcuddur.

**Milli əmlak** – Böyük Fransa inqilabı dövründə bərqərar olmuş, sonradan, ümumiyyətlə, dövlətin müsadirə etdiyi daşınar və daşınmaz əmlakı bildirmək üçün tarix ədəbiyyatında işlənən termin.

**Milli ərazi muxtariyyəti** *(bax: milli dövlət muxtariyyəti).*

**Milli hökumət** – konstitusiya hüquq prinsipi; bu prinsipə uyğun olaraq ümummilli qanunvericilik (nümayəndəli orqana) orqanına deputat seçilən şəxs həmin orqanda öz millətini təmsil edir.

M.h. deputatda azad mandatın olduğunu, yəni öz seçicilərinin tapşırıqlarını (iradəsini) yerinə yetirmək vəzifəsinin olmadığını nəzərdə tutur. M.h. həm də o deməkdir ki, konkret deputatın seçildiyi ərazi itirildikdə bu, onun deputat səlahiyyətlərinin xitam olunmasına səbəb olmur.

**Milli hüquq bərabərliyi** – konstitusiya prinsipi; özündə aşağıdakıları ehtiva edir: a) bir dövlətin vətəndaşlarının milli mənsubiyyətlərindən asılı olmayaraq hüquq bərabərliyi; b) milliyyətindən asılı olmayaraq insan hüquqlarının bərabərliyi; c) konkret dövlətdə milli birliklərin hüquq bərabərliyi.

**Milli, irqi və ya dini düşmənçiliyin salınması** – dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 283-cü maddəsində nəzərdə tutulmuşdur. Milli, irqi və ya dini düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlərdə, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə edilməklə törədilməkdə ifadə olunur.

**Milli komitə** – bir sıra qeyri-hökumət xarakterli beynəlxalq təşkilatların milli üzvünün adı.

**Milli konqres** – Braziliyada, Dominikan Respublikasında və Çilidə ikipalatalı parlamentin adı.

**Milli konvent** *(bax: konvent).*

**Milli qvardiya** *(fr. Garge Nationale)* – **1)** XVIII-XIX yüzilliklərdə bir sıra Qərbi Avropa ölkələrində mövcud olmuş silahlı könüllü dəstə. İlk dəfə Böyük Fransa inqilabı dövründə Parisdə yaradılmışdır. Fransa-Prussiya müharibəsində (1870-1871) böyük rol oynamışdır. Parisin müdafiəsi əsasən m.q.-nin əsgərlərindən təşkil edilmişdir. Paris Kommunasının (1971) qurulmasında böyük xidməti olmuş, kommunanın süqutundan sonra buraxılmışdır; **2)** hazırda bir sıra ölkələrdə (ABŞ-da, CAR-da) mövcud olan və nizami qoşun üçün ehtiyat hissəsi sayılan hərbi birləşmə.

**Milli Məclis** *(bax: Azərbaycan Respublikasının Milli Məclisi).*

**Milli-mədəni muxtariyyət** – Rusiya Federasiyasında vətəndaşların ictimai birləşməsindən ibarət olan öz müqəddəratını təyin etmənin milli-mədəni forması. M.-m.m. statusu müvafiq qanunvericilik aktı ilə müəyyən edilir.

**Milli rejim** *(beynəlxalq hüquqda)* – beynəlxalq müqavilələrdə və daxili qanunvericilikdə tətbiq edilən prinsip. Beynəlxalq müqavilələrdə m.r. prinsipinin gücü ilə razılığa gəlmiş dövlətlərdən birinin hüquqi və fiziki şəxslərinə razılaşmış digər dövlətin ərazisində hüquqlar, imtiyazlar və üstünlüklər verilir. Azərbaycan Respublikası qanunvericiliyində m.r. xarici vətəndaşların Azərbaycanda hüquqi vəziyyəti haqqında qanunvericilik aktı ilə müəyyən edilir.

**Milli sərvət (xalq sərvəti)** – ölkənin iqtisadi qüdrətinin ən mühüm göstəricilərindən biri; cəmiyyətin istehsal fəaliyyətinin bütün dövrü ərzində toplanmış və pulla ifadə olunan bütün istehlak dəyərli məcmusu (müəyyən tarixə olan vəziyyətinə görə hesablanır).

**Milli suverenlik** *(bax: suverenlik).*

**Milli təbiət parkları** – "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının 8 iyun 1999-cu il tarixli qanununa uyğun olaraq xüsusi mühafizə olunan, xüsusi ekoloji, elmi, mədəni, estetik əhəmiyyət daşıyan təbiət komplekslərindən və obyektlərdən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan fauna və flora növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq və su məkanı (akvatoriya) sahələri.

**Milli təhlükəsizlik** *(bax: təhlükəsizlik).*

**Milli valyuta** – hesablaşmalar və ödənişlər üçün müvafiq dövlətin ərazisində istifadə edilməkdən ötrü dövlət (dövlət bankı və ya mərkəzi bank) tərəfindən emitasiya olunan valyuta.

**Milli valyuta sistemi** – ölkənin xarici iqtisadi əlaqələrinin təmin edilməsi üçün valyutanın fəaliyyətini nəzərdə tutan iqtisadi, pul-kredit münasibətlərinin məcmusu. M.v.s. özündə aşağıdakı əsas elementləri ehtiva edir: a) milli valyutanı; b) valyuta ehtiyatlarının müəyyən həcmini və tərkibini; c) valyuta paritetini; ç) milli valyutanın kursunu və onun hərəkət qaydasını; d) valyutanın məzənnələşdirilməsi şərtini; e) valyuta məhdudiyyətlərinin olmasını (olmamasını), onun əsas formalarını və metodlarını; ə) beynəlxalq hesablaşmaların və hesablaşmaların formalarının kredit alətlərindən istifadənin qüvvədə olan rejimini; f) milli orqanların və müəssisələrin statusunu; g) valyuta və qızıl milli bazarının fəaliyyətinin şərtlərini.

**Milli yığıncaq** – **1)** 1789-cu, 1848-ci və 1871-ci illərdə Fransada, 1848-ci və 1919-cu illərdə Almaniyada, bəzi başqa ölkələrdə təsisedici yığıncaq; **2)** Fransada Üçüncü Respublika dövründə (1870-1940) parlamentin hər iki palatasının respublika prezidenti seçmək üçün birləşmiş yığıncağı; **3)** bir sıra ölkələrdə (məsələn, Fransada, İordaniyada, Tunisdə və başqalarında) parlamentin və ya onun palatalarından birinin adı.

**Milli yurisdiksiya** – **1)** beynəlxalq yurisdiksiyadan fərqli olaraq eynilə dövlətin yurisdiksiyası; **2)** ərazi yurisdiksiyasından fərqli olaraq dövlətin yurisdiksiyasının növü.

**Minbaşı** – orta əsrlərdə Yaxın Şərqin bəzi ölkələrində, o cümlədən Azərbaycanda mövcud olmuş hərbi vəzifə. Min nəfərlik qoşuna başçılıq edən m.-ların orduda xüsusi imtiyazları var idi. Müdafiə qalalarına hakimlər adətən m.-lardan təyin edilirdi. M.-ların bir neçə nəfərdən ibarət yüzbaşı naibi (müavini) olurdu. Müharibə dövründə min nəfərlik hərbi dəstə göndərən əyalət hakimləri, bəzən köçəri tayfa başçıları da m. adlanırdı.





**Ministeriallar** *(lat. ministerum – xidmət, vəzifə)* – orta əsrlər Qərbi Avropasında krala və iri feodallara xidmət göstərən adamlar; saraydaxili, təsərrüfat-inzibati və hərbi xidməti yerinə yetirir, bunun müqabilində isə torpaq sahələri (lenlər) əldə edirdilər.

**Minorat** *(lat. minor – az)* – **1)** əsasən, bəzən isə müstəsna hallarda ailənin kiçik yaşlı qohumlarına miras kimi verilən əmlak. M. prinsipi orta əsr Avropa hüququnda təsbit edilmişdi. Mayoratdan fərqli olaraq, m. başlıca olaraq kəndlilər arasında geniş yayılmışdı; **2)** nəslin kiçik yaşlı üzvünə miras kimi qalan əmlak.

**Mirab** *(ər. hakim, əmir + fars. su)* - keçmişdə bir sıra Şərq ölkələrində, o cümlədən Azərbaycanda suvarma işlərini idarə edən şəxs. M.-lar çaylarda bənd və dəhnələrin tikilməsinə, suvarma kanallarının çəkilməsinə, suyun bölgü ilə paylanmasına nəzarət edirdilər. Adətən üç ildən bir seçilən m.-lar əməkhaqqından əlavə, kəndlilərdən zorla pul və i.a. da alırdılar. M. vəzifəsinə əsasən bəy və mülkədarın nümayəndələri seçilirdi.

**Miralay** *(türk. miralay – alay başçısı)* - **1)** alay komandiri; **2)** Azərbaycanda müsavat ordusunda və Türkiyə ordusunda (1930-cu illərədək) polkovnik rütbəli hərbi qulluqçu.

**Miranda qaydası** – ABŞ-ın hüquq sistemində cinayət prosesinin 1966-cı ildə Ali Məhkəmə tərəfindən yaradılmış demokratik norması. Miranda işi üzrə qərarda göstərilirdi ki, dindirmədən qabaq müqəssir susmaq, həmçinin ancaq vəkilin iştirakı ilə ifadə vermək hüququna malik olmaq barədə xəbərdar edilməli idi. Müqəssir, məsələn, qanunsuz yolla əldə edilmiş hər cür etirafı rədd etməyi tələb edə bilərdi. M.q. şübhə edilən şəxslərə şamil edilmirdi. Yəni əgər dindirmə zamanı şübhə edilən şəxslər həbs altında olmazdılarsa və ya ifadələri dindirmədə suallara cavab şəklində deyil, polisə könüllü verərdilərsə, m.q. tətbiq edilmirdi.

**Miras** – **1)** ölən şəxsdən (vəsiyyət edəndən) vərəsələrə vərəsəlik qaydasında keçən əmlak. M. özündə mülkiyyət hüququnu, digər əşya hüquqlarını, intellektual fəaliyyətin nəticələri üzərində müstəsna hüquqları, habelə ölənin şəxsiyyəti ilə sıx bağlı olan hüquqlar istisna olmaqla, bu hüquqlardan irəli gələn öhdəlikləri ehtiva edir; **2)** islamda – sahibinin ölümündən sonra digər şəxsə keçən vərəsəlik, əmlak, hüquq və vəzifələr. M.-ın bütün kompleksi, yəni onun əldə edilməsi və bölüşdürülməsi qaydası Ərəbistanın oturaq əhalisinə hələ islamaqədərki dövrdən məlum olmuş və sonra onun hüquqi cəhətləri Quranla təsbit edilmişdir. M. "Ülm əl-fəraid" xüsusi hüquq fənninin predmetinə daxildir. İslamda m. anlayışına ölənin əmlakının vərəsələrə keçməsindən başqa, ölənin borclarının ödənilməsi, onun qalmış öhdəliklərinin yerinə yetirilməsi, vəsiyyət üzrə sərəncamların icra olunması və ölənin ailə üzvlərinin himayəyə götürülməsi və i.a. daxildir. Vərəsələr arasında miras qalmış əmlakın üçdə iki hissəsi bölüşdürülür. Vəsiyyət üzrə vərəsəlikdə isə mirasın üçdə biri də vəsiyyət edilə bilər. Ölənin vərəsəlik hüququna malik olan qohumları üç kateqoriyaya bölünürlər: 1) birinci dərəcəli qohumlar – valideynlər, arvad, uşaqlar; 2) ikinci dərəcəli qohumlar – babalar, nənələr, qardaşlar və bacılar, nəvələr; 3) üçüncü dərəcəli qohumlar – dayı və xalalar,

əmi oğlanları və əmi qızları. Bu zaman qan qohumları və yanakı qohumlar bərabər hesab olunurlar. Övladlığa götürülmüş uşaqlar doğma uşaqlara bərabər tutulurlar. Birinci dərəcəli qohumlar olmadıqda, ikinci dərəcəli qohumlar, birinci və ikinci dərəcəli qohumlar olmadıqda isə üçüncü dərəcəli qohumlar vərəsə ola bilərlər.

**Mirasda məcburi pay** – vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq malik olmalı olduqları pay. Bu pay qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi payı) təşkil etməlidir (AR MM-in 1193-cü maddəsi). Məcburi payı tələb etmək hüququ mirasın açıldığı an əmələ gəlir. Bu cür tələb hüququ vərəsəlik üzrə keçir. Məcburi payın tam həcmi vəsiyyət tapşırığını və ya ümumi faydalı məqsədlər üçün hər hansı hərəkəti yerinə yetirməkdən ötrü nəzərdə tutulan əmlak da daxil olmaqla, bütün mirasdan müəyyənləşdirilir (AR MM-in 1194-1195-ci maddələri).

Məcburi pay almaq hüququ olan vərəsə onu qəbul etməkdən imtina edə bilər, lakin bu imtina digər vərəsələrin məcburi payının artmasına səbəb olmur. Onun payı vəsiyyət üzrə vərəsələrə keçir. Məcburi payın qəbul edilməsi və ya ondan imtina olunması müəyyən edilmiş vaxt ərzində həyata keçirilməlidir. Məcburi pay almaq hüququndan məhrumetmə, ümumiyyətlə, vərəsəlik hüququndan məhrumetməyə səbəb olan hallar olduqda mümkündür. Məcburi pay almaq hüququndan məhrumetməni miras qoyan hələ öz sağlığında məhkəməyə müraciət etmək yolu ilə həyata keçirə bilər. Məcburi pay almaq hüququndan məhrum edilmiş vərəsənin payı vəsiyyət üzrə vərəsələrə keçir (AR MM-in 1202-1204-cü maddələri).

**Miras əmlak** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu. Mirasa ümumi mülkiyyətdən ölənə çatası pay, əmlakın naturada bölünməsi mümkün olmadıqda isə bu əmlakın dəyəri daxildir (AR MM-in 1151-ci maddəsi).

**Mirasın bölüşdürülməsi** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq miras onu qəbul edən vərəsələrin razılaşması üzrə onların hər birinə qanun və ya vəsiyyətnamə üzrə düşən paya uyğun bölüşdürülür. Miras qoyulan vəsiyyətnamədə mirasın bölüşdürülməsi qaydasını müəyyənləşdirə bilər, o cümlədən mirası bölüşdürməyi üçüncü şəxsə etibar edə bilər. Üçüncü şəxsin qərarı aşkar surətdə ədalətsiz səciyyə daşıyarsa bu, vərəsələr üçün məcburi sayıla bilməz. Belə halda bölgü məhkəmənin qərarı əsasında həyata keçirilir (AR MM-in 1274-1275-ci maddələri).

**Mirut mühakiməsi** – Merath şəhərində (Mirut, Hindistan) 32 nəfər fəhlə hərəkatı liderinin mühakiməsi. 1929-cu ildən 1932-ci ilədək davam etmişdir. M.m.-ndə fəhlə hərəkatının bir sıra sol təmayüllü xadimləri yalandan, Britaniya Hindistanda kralı hakimiyyətdən məhrum etmək məqsədi ilə təşkil edilmiş sui-qəsddə ittiham olunaraq müxtəlif müddətə azadlıqdan məhrum edilmişlər.

**Misdiminor** *(ing. misdemeanour)* – ABŞ-ın və Böyük Britaniyanın cinayət hüququnda inzibati hüquq pozuntularına yaxın tutulan az təhlükəli cinayətlər kateqoriyası. M. xırda cinayətlər qrupuna daxil edilir.

**Missioner** – açıq dini tədbirlərin təşkil edilməsi yolu ilə dini etiqadı yayan dini birliyin nümayəndəsi. Bu anlayış bir sıra dövlətlərin qanunvericiliyində nəzərdə tutulur.

**Missioner fəaliyyət** – dini birliklərin və onların nümayəndələrinin fəaliyyəti; açıq dini tədbirlərin təşkil edilməsi ilə bağlı fəaliyyət. Bəzi ölkələrdə həmin fəaliyyət növü qanunvericiliklə müəyyən edilir.

**Missionerlik** – dini təşkilatların və kilsələrin fəaliyyət formalarından biri. Missionerlərin məqsədi başqa dinlərə etiqad edənləri öz dinlərinə etiqada qaytarmaqdan və kilsədən üz çevirənləri kilsəyə cəlb etməkdən ibarətdir. Əslində isə m. xidmət göstərdiyi sosial qrupların, hökumətlərin siyasi məqsədlərinin həyata keçirilməsinə kömək edir. Eramızdan əvvəl III yüzillikdən başlayaraq buddizmdə m.-i çox zaman zəvvar-rahiblər həyata keçirmişdir. M. xristianlıqda eramızın IV yüzilliyində meydana gəlmişdir. Xristian m.-i XIII-XVI yüzilliklərdən başlayaraq Hindistana, Çinə Yaponiyaya nüfuz etmişdir. Şərqi Avropada xristianlığın katolik formasında yayılması alman feodalizminin müstəmləkə ekspansiyasını ideoloji cəhətdən ört-basdır etməyə yönəldilmişdi. Katolik kilsəsinin m.-i İspaniya və Portuqaliya müstəmləkə imperiyaları yarandıqdan (XV-XVI yüzilliklər) sonra daha da fəallaşmışdır. M. yeni ərazilərin zəbt edilib mənimsənilməsində müstəmləkəçilərə kömək etmişdir. XVII-XVIII yüzilliklərdə Niderland və Böyük Britaniya müstəmləkəçilik siyasətinə başlayarkən m. fəaliyyətini həmin dövlətlərin protestant kilsələri həyata keçirmişdir. XIX yüzilliyin əvvəllərində missioner cəmiyyətləri ABŞ-da da meydana gəlməyə başlamışdır.

**Missiya** *(lat. missio – göndəriş, tapşırıq)* – **1)** beynəlxalq görüşlərdə və konfranslarda dövlətin nümayəndə heyəti. M. başçısı və üzvlərinin hüquq və vəzifələri missiya haqqında 1971-ci il tarixli Beynəlxalq Konvensiya ilə müəyyən edilmişdir; **2)** diplomatik nümayəndəlik. M.-ya elçi, yaxud işlər vəkili başçılıq edir. M.-nın rejimi diplomatik əlaqələr haqqında 1961-ci il tarixli Vyana konvensiyası ilə tənzim edilir.

**Mitinq** – şəxslərin və təşkilatların hərəkətlərinə, ictimai-siyasi həyatın hadisə və proseslərinə öz münasibətlərini açıq surətdə ifadə edən vətəndaşların kütləvi toplantısı, yığıncağı. M. adətən açıq və görüntülü yerlərdə keçirilir və qərar qəbul edilməsi ilə başa çatır.

**Mizan** *(ər. ölçü, tərəzi, çəki)* – orta əsrlərdə Yaxın Şərqin bir sıra ölkələrində, o cümlədən Azərbaycanda bazarda malları çəkmək üçün istifadə edilən tərəzi. M.-da çəkilən mallardan xüsusi gömrük haqqı (m. pulu) alınmırdı. M. pulunu tərəziyə nəzarət edən mizandarlar toplayırdılar.

**Mizandar** – mizan tərəzisinə nəzarət edən və çəkmə xidmətini göstərmə müqabilində mizan pulu toplayan şəxslər *(bax: mizan)*.

**Modeks-arm** *(kriminalistikada)* – fərdi EHM-də realizə edilən və nəqliyyat vasitələrinin toqquşması ilə əlaqədar ekspert vəzifələrinin həlli üçün nəzərdə tutulan proqram kompleksi. Ekspert-avtomexanikin avtomatlaşdırılmış iş yerinin (ARM-A) proqram təminatının müstəqil struktur elementi.

**Model qanun (çərçivə qanunu)** – Fransada və keçmiş fransız müstəmləkələri olmuş bir sıra ölkələrdə parlament tərəfindən qəbul edilmiş qanunvericilik aktlarının xüsusi forması. M.q. hansısa sahənin tənzim edilməsinin yalnız ümumi

prinsiplərini müəyyən edir. Bundan sonra reqlamentləşdirmə hakimiyyəti tərəfindən müvafiq qanunvericilik aktları qəbul olunur. İngilis-sakson hüquq sisteminə daxil olan dövlətlərdə skelet qanun adlandırılır.

**Modifikasiya** *(kriminalistikada)* – yeni xassələrin meydana gəlməsi ilə xarakterizə olunan nəyinsə dəyişdirilməsi, yenidən qurulması. Kriminalistikada və məhkəmə ekspertizasında digər elmlərin metodları əsasında yeni metodların formalaşması prosesini, əlamətlərin yenidən yaranmasını və i.a. səciyyələndirir.

**Modus prosedendi** *(lat. modus prosedendi)* – hərəkət tərzi. M.p. diplomatik təcrübədə bu və ya digər hərəkətin hansı tərzdə və qaydada yerinə yetirilməli olduğunu bildirən və bu məqsədlə istifadə olunan termindir.

**Modus vivendi** *(lat. modus vivendi)* – mövcud şəraitlə əlaqədar olaraq daimi sazişə nail olmağın mümkün olmadığı zaman öz həllini tələb edən məsələlər üzrə bağlanan müvəqqəti saziş. M.v. özünün daimi sazişlə əvəz edilməsinə imkan yaradır.

**Monarx** *(yun. monarchos; monos – tək + archos – hökmdar)* – monarxiya idarəçilik formasına malik dövlətin başında duran şəxs (kral, imperator, sultan, şah, çar və i.a.). M.-ın hakimiyyəti irsən keçir. Bəzi dövrlərdə və ölkələrdə m. həm də seçkili vəzifə olmuşdur. Məsələn, feodal Polşasında kralın seym tərəfindən, Rusiyada 1613-cü ildə Mixail Romanovun Zemstvo yığıncağı tərəfindən, XIII yüzillikdə monqol-tatar xanı Çingiz xanın seçilməsi tarixə məlumdur.

**Monarxiya** *(yun. monarchia – təkhakimiyyətlik, mütləqiyyət)* – dövlət hakimiyyətinin tək şəxsin – monarxın əlində cəmləşdiyi dövlət idarəçilik forması. M. əsasən feodalizm formasiyası üçün səciyyəvi olmuşdur. Müasir ölkələr üçün konstitusiyalı (parlamentli) m. idarəçilik forması xarakterikdir. Konstitusiyalı m.-nın iki növü mövcuddur: 1) dualist m. (bu zaman monarx icra hakimiyyətini öz əlində birləşdirir, hökuməti təşkil edir, parlamenti buraxmaq, veto hüququna və i.a. malik olur. Məsələn, İordaniyada, Birləşmiş Ərəb Əmirliklərində, Küveytdə, Bəhreyndə); 2) parlamentli m. Bu idarəçilik forması Böyük Britaniyada, Yaponiyada, Belçikada, Danimarkada, İsveçdə, Norveçdə və i.a. ölkələrdə mövcuddur. Parlamentli m.-da dövlət hakimiyyətinin bütün sahələrində monarxın səlahiyyətləri məhdudlaşdırılır. Belə ki, monarxın aktları nazirlər tərəfindən bəyənilməlidir. Buna kontrasiqnasiya deyilir. Parlamentli m.-da icra hakimiyyətini hökumət (baş nazir) həyata keçirir və o, parlament qarşısında məsul olur.

**Mondializm** *(fr. mondial – dünyəvi, ümum-dünya, qlobal)* – vəzifəsi bütün dünya üzərində geosiyasi nəzarəti bərqərar və vahid dünyəvi (ümumdünya) hökumət hakimiyyətini müəyyən etməyə nail olmaqdan ibarət olan bir sıra dövlətlərdə ictimai-siyasi hərəkat.

**Monetarizm** *(lat. moneta – sikkə)* – pul kütləsi artımının inflyasiyanı müəyyən etdiyini və buna görə də maliyyə siyasətinin ilk növbədə dövriyyənin məhdudlaşdırılmasına və pul nişanlarının sabitləşdirilməsinə yönəldilməli olduğunu təsdiq edən iqtisadi nəzəriyyə. M. nəzəriyyəsinə görə pulların dövriyyədəki kəmiyyəti təsərrüfat konyunkturlarının formalaşmasında müəyyənedici amildir və dövriyyədə pul kütləsinin həcminin dəyişməsi ilə milli





gəlirin artımı arasında düzünə əlaqə mövcuddur. Monetarçıların fikrincə, dövlət özünün təsərrüffat həyatına müdaxiləsini (ənənəvi funksiyaları yerinə yetirməklə yanaşı) məhdudlaşdırmalı və buna ancaq pul kütləsinin artım sürətinin sabitliyini qorumaqla nail olmalıdır.

**Monitorinq** *(ing. monitoring)* – **1)** hansısa prosesin arzu olunan nəticəyə və ya ilkin ehtimallara uyğunluğunu aşkar etmək məqsədi ilə həmin prosesin daimi surətdə müşahidə edilməsi; **2)** insanın təsərrüfat fəaliyyətilə əlaqədar olaraq ətraf mühitin vəziyyətinin müşahidə edilməsi və proqnozlaşdırılması; **3)** hər hansı məsələyə dair ictimai rəyin öyrənilməsi məqsədi ilə informasiyaların toplanması.

**Monodaktiloskopiya** *(kriminalistikada)* – daktiloskopiyanın bir bölməsi; belə qeydiyyat zamanı əlin bir barmağının papilyar naxışlarının əlamətlərindən istifadə olunur.

**Monoginiya** *(yun. monos – tək + gyne – qadın, arvad)* – təkarvadlılıq.

**Monokameralizm** *(bax: birpalatalı sistem).*

**Monokratik respublika** *(bax: fövqəlprezidentli respublika).*

**Monoqamiya** *(yun. monos – tək + gamos – nikah)* – kişi ilə qadının birgəyaşayışından ibarət olan təkkəbinli nikah forması. Tarixən ibtidai icma cəmiyyətinin dağılmağa başladığı dövrdə təşəkkül tapmışdır. M. bəzi xalqlarda yalnız ən yeni dövrdə *(bax: poliqamiya)* formalaşmışdır.

**Monoqramma** *(kriminalistikada)* – şəxsin adının və soyadının, yaxud atasının adının baş hərflərinin əlaqələndirilməsi. M. kriminalistikada xətt tədqiqatlarının obyektidir.

**Monometallıq** – pul sistemi; belə sistem şəraitində ancaq bir metal valyuta (qızıl və ya gümüş) ümumi ekvivalent (bütün əmtəələrin dəyər ölçüsü) qismində çıxış edir.

**Monopsoniya** *(yun. monos – tək + opsonia – məhsul satın alma)* – bazar strukturu tipi; belə bazar şəraitində müəyyən malın tək alıcısının inhisarı mövcud olur.

**Monro doktrina** *(beynəlxalq hüquqda)* – 1823-cü il dekabrın 2-də ABŞ prezidenti D. Monronun konqresə məktubu formasında elan edilmişdir. M.d.-nın məzmunu 3 müddəadan ibarət olmuşdur: 1) Amerika dövlətlərinin Avropanın daxili işlərinə qarışmaması; 2) Avropa dövlətlərinin Amerikanın daxili işlərinə qarışmaması; 3) Avropa dövlətlərinin Amerika dövlətlərinin müstəqilliyinə müstəmləkə yolu ilə hər hansı formada sui-qəsdinin hər cür cəhdlərinə mane olmaqda qətiyyət göstərilməsi. M.d. heç də ümumi müstəmləkəçilik əleyhinə deyil, ancaq Avropa dövlətlərinin Amerika qitəsindəki müstəmləkəçiliyinə qarşı yönəldilmişdi.

**Moratorium** *(lat. moratorius – ləngidici, təxirəsalıcı)* – **1)** mülki hüquqda - öhdəliyin icrasının müəyyən müddətə və ya hər hansı fövqəladə hadisə (məsələn, təbii fəlakət, müharibə) qurtaranadək hökumət tərəfindən təxirə salınması. Azərbaycan Respublikasında m. respublikanın nazirlər kabineti tərəfindən müəyyən edilir. M.-un qüvvədə olduğu müddət ərzində iddia müddətinin axımı dayandırılır; **2)** beynəlxalq hüquqda – müəyyən hüdud və ya müvəqqəti hədlərdə beynəlxalq hüquq subyektlərinin hər hansı fəaliyyətinə möhlət verilməsi, yaxud onun təxirə salınması. M. xüsusi şəraitin yaranması ilə əlaqələndirilir

və xüsusi məsələlər üzrə beynəlxalq müqavilələrin bağlanması haqqında danışıqlar aparılması ilə əlaqədar müəyyən edilir.

**Morfoloji əlamətlər** *(kriminalistikada)* – obyektin xarici və daxili (məsələn, ovucun papilyar naxışlarının əlamətləri) düzümünü əks etdirən əlamətlər. M.ə.-dən ekspert tədqiqatlarında, zahiri görkəmin şifahi portret metodu üzrə təsvirində istifadə olunur.

**Morqan nikahı** – hökmranlıq edən, kral evinə mənsub olan şəxslərin hökmranlıq edən, kral nəslindən olmayan, yaxud kral taxt-tacının varisi olmayan şəxslərlə bağladığı nikah.

**Motiv** *(bax: cinayətin motivi).*

**Mövsümçülük** – kəndlilərin yaşayış yerlərindən müvəqqəti olaraq qazanc dalınca getmələri. Hələ feodalizm dövründə mövcud olan M. burjua münasibətlərinin yaranması və inkişafı ilə əlaqədar daha da genişlənmişdir. Azərbaycanda kəndlilər əsasən kənd təsərrüfatı işlərinə və balıq vətəgələrinə, tikintiyə, dəmiryol çəkilişinə, həmçinin sənayenin müxtəlif sahələrinə m.-ə gedirdilər. Kəsbkarlığın bir növü olan m. adətən bir neçə aydan çox olmurdu.

**Mövsümi fəhlələr (işçilər)** – təbii və iqlim şəraiti ilə əlaqədar müəyyən dövr (mövsüm) ərzində 6 aydan çox olmamaqla işlə məşğul olan işçilər. Mövsümlərarası fasilə müddəti fasiləsiz staj hesab olunmur.

**Mövsümi istehsal** – mövsümdən asılı olaraq il ərzində məhsulun qeyri-bərabər istehsalı. İlin ayrı-ayrı dövrlərində istehsalın yüksəlməsi, azalması və ya tamamilə dayandırılması ilə ifadə olunur. M.i.-ın aradan qaldırılması məhsul buraxılışını çoxaltmağa, əmək ehtiyatlarından və əsas fondlardan dolğun istifadəyə imkan yaradır.

**Mövsümi qiymətlər** – bəzi kənd təsərrüfatı məhsullarının, məsələn, kartofun, tərəvəzin, meyvənin mövsümdən asılı olaraq dəyişən satınalma və pərakəndə qiymətləri.

**Muxtar büdcələr** – mərkəzi hökumətlərin büdcələrindən nisbi asılılıqda olmayan müstəqil mədaxil və məxaric smetaları. M.b. dövlət idarə və müəssisələrinə, qarışıq idarə və müəssisələrə, habelə xüsusi hökumət fondlarına (məsələn, sosial sığorta fondu) malikdirlər.

**Muxtar qeyri-kommersiya təşkilatı** – təhsil, səhiyyə, mədəniyyət, elm, hüquq, bədən tərbiyəsi, idman sahəsində xidmətlər göstərilməsi məqsədi ilə vətəndaşlar və (və ya) hüquqi şəxslər tərəfindən könüllü əmlak payları əsasında təsis edilən təşkilat. Təsisçilər tərəfindən verilən əmlak m.q.-k.t.-nın mülkiyyəti hesab olunur.

**Muxtar respublika** – muxtariyyətin bir forması; müstəqil, suveren dövlətin tərkibində muxtar dövlət. M.r. öz konstitusiyasına, ali qanunvericilik orqanına və digər atributlara malik olur. Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikası (NMR) mövcuddur.

**Multiplikand** *(kriminologiyada)* – kontent-təhlil prosesində kəmiyyət baxımından qiymətləndirilməli olan konkret obyekt (məsələn, söz, söz birləşməsi, mövzu və i.a.).

**Mu Məcəlləsi** – Qədim Çində Çjou dövründə mövcud olmuş cinayət hüququ külliyyatı. M.M.-nin tərtib edilməsini Mu adlı hökmdarın (eramızdan əvvəl təqribən X yüzillik) adı ilə əlaqələndirirlər. M.M.-nin mənbəyi adət hüququ hesab olunur. Məcəllə məhkəmə qərarlarının qeydiyyatından yaranmış 3000 maddədən ibarət olmuşdur. M.M. özündə qəddar və amansız cəza növlərini (məsələn, ölüm cəzası, şikəstetmə) ehtiva etməsi ilə səciyyəvi olmuşdur.





**Munisipiyalar** *(lat. municipium)* – eramızın 212-ci ilinədək Roma dövlətində şəhər statusu; Roma ilə müqavilə əsasında bu şəhərlərin azad əhalisi tam və ya qismən Roma vətəndaşlığı hüququ alırdı. M. 2 kateqoriyaya bölünürdü: 1-ci kateqoriya m.-ın (Roma m.-ın) sakinləri bütün mülki və siyasi hüquqlara malik olurdular. 2-ci kateqoriya m.-ın vətəndaşları siyasi hüquqlardan məhrum idilər.

**Muzdlu** – milli-azadlıq hərəkatları əleyhinə hüquqazidd müstəmləkəçi, rasist və i.a. rejimlərin müdafiəsində silahlı mübarizəyə muzd almaq üçün könüllü daxil olmuş şəxs. Hərbi əməliyyatlarda iştirak edən dövlətin vətəndaşı deyil və onun ərazisində (daimi) yaşamır. M. kombatant və ya hərbi əsir statusuna malik olmayan cinayətkardır.

**Muzdlu iş** – əmək qanunvericiliyinə uyğun olaraq müqavilə (kontrakt) əsasında haqqı ödənilməklə yerinə yetirilən əmək fəaliyyəti. Muzdla işləyən şəxs Azərbaycan Respublikası Vergi Məcəlləsinin məqsədləri üçün "işçi", belə fiziki şəxsin işçi kimi göstərdiyi xidmətlərin haqqını ödəyən şəxs "işəgötürən", bu cür haqq isə "əməkhaqqı" adlandırılır (AR VM-in 13.2.34-cü maddəsi).

**Muzdluluq** – müharibə cinayətlərinin bir növü. AR CM-in 114-cü maddəsində nəzərdə tutulmuşdur. Muzdlular yığma, onlara təlim keçmə, maliyyələşdirmə və başqa cür maddi təminat vermə, habelə onlardan hərbi münaqişədə və ya hərbi əməliyyatlarda istifadə etmədə ifadə olunur.

**Muzdlu ordu** – quldarlıq münasibətlərinin inkişafı dövründə dövlətlər, iri şəhərlər və ya quldarlar tərəfindən muzdla tutulan peşəkar döyüşçülərdən ibarət qoşun. M.o.-lar Qədim Misirdə, İranda, Karfagendə, xüsusilə də Qədim Romada mövcud olmuşdur. XIV yüzilliyin əvvəllərində Qərbi Avropada krallar xüsusi muzdlu qoşun yaratmağa başlamışlar. XV yüzilliyin sonu - XVI yüzillikdə m.o. və muzdlu donanmalar bir sıra ölkələrdə əsas hərbi qüvvə sayılmışdır. XVI yüzillikdən daimi m.o.-lar təşkil olunmağa başlamışdır. Müasir dövrdə milli-azadlıq hərəkatlarını yatırmaq məqsədi ilə bir sıra dövlətlərdə xüsusi muzdlu dəstələrdən istifadə olunur. İrqçi rejimlər muzdlu dəstələrdən cəza məqsədi ilə istifadə edirlər.

**"Muzeylər haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında muzeylərin fəaliyyətinin təşkilati-hüquqi, iqtisadi əsaslarını müəyyən edən və bunlarla bağlı münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 24 mart 2000-ci il tarixdə qəbul edilmişdir. O, beş fəsil və 28 maddədən ibarətdir. Qanuna indiyə qədər bir sıra əlavə və dəyişikliklər edilmişdir

**Müavinət** – qanunvericiliklə nəzərdə tutulan hallarda vətəndaşlara verilən pul ödənişi. M. qocalığa, xəstəliyə və ya əmək qabiliyyətinin itirilməsinə görə verilən maddi təminat formalarından biridir. M. 3 qrupa bölünür: 1) dövlət təqaüdü almayan və heç bir gəlir mənbəyi olmayan qocalara və əlillərə, anadangəlmə əlil olanlara verilən m.; 2) müvəqqəti olaraq əmək qabiliyyətini itirənlərə, hamilə və zahı qadınlara verilən m.; 3) uşaqlı (çoxuşaqlı ailələrə, tək analara, aztəminatlı ailələrə və i.a.) ailələrə verilən m.

**Müayinə** *(bax: şəxsi müayinə).*

**Mübahisəsiz faktlar** – mülki hüquqda və mülki prosesdə mülki işin düzgün həlli üçün əhəmiyyəti olan faktlar. Əgər belə faktlar iddiaçı və cavabdeh tərəfindən, həmçinin tərəflərdən birinin izahatı ilə təsdiq və digər tərəfin bu təsdiqi etiraf etməsi ilə təsdiq edilirsə, m.f. mövcud olur.

**Mübahisəsiz seçkilər** – bir sıra xarici dövlətlərdə ancaq bir namizədin qeydiyyatdan keçdiyi halda keçirilən seçki qaydası; belə halda namizəd avtomatik olaraq seçilmiş hesab olunur.

**Mücərrəd konstitusiya nəzarəti** *(bax: konstitusiya nəzarəti).*

**Müctəhid** *(islamda)* – fiqhin mühüm məsələləri üzrə müstəqil qərar çıxarmaq hüququna malik olan ilahiyyatçı-alim. Ənənəyə görə Məhəmməd peyğəmbərin bütün silahdaşları və onun ən yaxın ardıcılları m. hesab olunurlar. Sonrakı nəsillər məhz m.-lər vasitəsilə hüquqi biliklərə yiyələnmiş, habelə fiqhi öyrənmiş və şəriət elminin formalaşmasında mühüm rol oynamışlar. VIII yüzilliyin ikinci yarısından başlayaraq m.-ləri ilahiyyatçı hüquq məktəblərinin (məzhəblərin) baniləri adlandırmağa başlamışlar. M.-lərin üç dərəcəsi fərqləndirilmişdir: 1) bütövlükdə şəriət səviyyəsində olan m. (müctəhid fi-əş-şər) – mənbələri özü müəyyən edən və onları rəhbər tutmaqla özü təfsir edən m.; 2) məzhəb səviyyəsində olan m. (müctəhid fi-əl-məzhəb) – öz məzhəbinin banisinin müəyyən etdiyi mənbələrə arxalanaraq onun prinsiplərini rəhbər tutan m.; 3) ayrı-ayrı məsələləri həll etmək səviyyəsində olan m. (müctəhid fi-ət-tərcih) – öz sələflərinin həll edə bilmədiklərini tədqiq edə bilən m.

**Müdafiə** – **1)** məhkəmədə – ittihamın təkzib edilməsi, yaxud təqsirləndirilən şəxsin məsuliyyətinin yüngülləşdirilməsinə və ya cinayət cəzasından azad edilməsinə yönəldilmiş prosessual fəaliyyət; cinayət-prosessual hərəkətlərin (müdafiə xarakterli) məcmusu; **2)** hərbdə – düşmənin hücumunu pozmaq və dəf etmək, onu məğlubiyyətə uğratmaq, tutduğu mövqeyi qoruyub saxlamaq və hücuma keçmək üçün şərait yaratmaq məqsədi ilə tətbiq edilən döyüş əməliyyatı növü.

**Müdafiəçi** *(bax: vəkil).*

**"Müdafiə haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında ölkənin müdafiəsinin təşkili əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 26 noyabr 1993-cü il tarixdə qəbul edilmişdir. O, beş bölmə və 18 maddədən ibarətdir.

**Müdafiə olunan nişanlardan sui-istifadə** – cinayət qanunvericiliyinə görə müharibə cinayətlərinin bir növü. AR CM-in 119-cu maddəsində nəzərdə tutulmuşdur. Hərbi əməliyyat rayonunda Qızıl Xaç və ya Qızıl Aypara nişanlarını daşımaq hüququ olmayan şəxslər tərəfindən həmin nişanları daşımada, habelə müharibə zamanı Qızıl Xaç və ya Qızıl Aypara bayraqlarından və ya nişanlarından və ya sanitariya köçürmə nəqliyyat vasitələrinin rəngindən sui-istifadə etmədə ifadə olunur.

**Müdafiə tərəfi** – cinayət-prosessual qanunvericiliyə görə birlikdə götürülmüş şübhəli və ya təqsirləndirilən şəxs, onun müdafiəçisi və mülki cavabdeh.

**Müdaxilə** *(beynəlxalq hüquqda)* – bir dövlətin başqa dövlətin daxili işlərinə, yaxud onun üçüncü dövlətlə münasibətlərinə qarışması. Müasir beynəlxalq hüquq m.-ni qadağan edir və ona beynəlxalq delikt (cinayət) kimi baxır. M. bir sıra beynəlxalq müqavilə və sazişlə, o cümlədən BMT Nizamnaməsi ilə hüquqazidd hərəkət hesab edilmişdir.

**Müddətdən artıq xidmət** – sıravi heyət və kiçik komanda heyətində həqiqi hərbi xidmət müddəti qurtardıqdan sonra başlayan xidmət. M.a.x. kadr ordularında geniş yayılmışdır. Azərbaycan Respublikasının Ordusunda və hərbi-Dəniz Donanmasında da tətbiq edilir.

**Müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə** – AR CM-in 75-ci maddəsinə uyğun olaraq cinayət törətdiyi gündən aşağıda müəyyən edilən müddətlər keçdikdə, şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz:

1) böyük ictimai təhlükə törətməyən cinayətin törədildiyi gündən iki il keçdikdə; 2) az ağır cinayətin törədildiyi gündən beş il keçdikdə; 3) ağır cinayətin törədildiyi gündən on il keçdikdə; 4) xüsusilə ağır cinayətin törədildiyi gündən on beş il keçdikdə.

Müddətlər cinayətin törədildiyi gündən ittiham hökmünün qanuni qüvvəyə mindiyi anadək hesablanır. Şəxs yeni cinayət törətdikdə hər bir cinayətə görə müddət müstəqil hesablanır. Cinayət törətmiş şəxs istintaqdan və ya məhkəmədən gizlənərsə, müddətin axımı dayanır. Bu halda müddətin axımı, həmin şəxs tutulduğu və ya könüllü gəlib təqsirini boynuna aldığı vaxtdan bərpa olunur. Ömürlük azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutulan cinayəti törətmiş şəxs barəsində müddətin tətbiq olunması məsələsi məhkəmə tərəfindən həll edilir. Sülh və bəşəriyyət əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş şəxslərə bu maddənin müddəaları tətbiq olunmur.

**Müddətlər** *(hüquqda)* – əşya hüququ əldə etmək üçün (kəsbedici müddətlər) və pozulmuş hüquqların müdafiə edilməsindən ötrü (iddia müddətləri) qanunla müəyyən edilmiş müddətlər, həmçinin qanunda nəzərdə tutulan şərtlər olduqda, cinayət məsuliyyətinə cəlbetmə və ya ittiham hökmünün icrası müddəti. Bəzi ölkələrin qanunvericiliyinə görə kəsbedici müddətlər özgəsinin əmlakı üzərində faktiki sahiblik etmə zamanı əşya hüququ əldə etmək üçün əsas olur. İddia müddətləri (yəni pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmə) isə əksər ölkələrin qanunvericiliyində mövcuddur.

**Müəllif** – "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının 5 iyun 1996-cı il tarixli qanununun 4-cü maddəsinə əsasən əsərin yaradıcısı olan fiziki şəxs.

**Müəlliflik hüquqlarını və əlaqəli hüquqları pozma** – cinayət qanunvericiliyinə görə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 165-ci maddəsində nəzərdə tutulmuşdur. Müəlliflik hüququ və ya əlaqəli hüquq obyektlərindən qanunsuz istifadə etmədə, yəni özgənin elmi, ədəbi, bədii və ya başqa əsərini öz adı ilə nəşr etdirmədə və ya özgənin müəllifliyini başqa cür mənimsəmədə, bu cür əsəri qanunsuz olaraq yenidən dərc etmədə və ya yaymada, habelə şərikli müəllifliyə məcbur etmədə ifadə olunur.

**Müəlliflik hüququ** – təyinatın, dəyərindən və məzmunundan, habelə ifadə for-

masından və üsulundan asılı olmayaraq yaradıcılıq fəaliyyətinin nəticəsi olan həm açıqlanmış, həm də açıqlanmamış əsərlərin, elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması və onlardan istifadə ilə əlaqədar yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu.

**"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikası ərazisində elm, ədəbiyyat və incəsənət əsərlərinin (müəlliflik hüququ), habelə ifaların, fonoqramların, efir və ya kabel yayımı təşkilatlarının verilişlərinin (əlaqəli hüquqlar) yaradılması və istifadəsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 5 iyun 1996-cı il tarixdə qəbul edilmişdir. O, beş bölmə, dörd fəsil və 47 maddədən ibarətdir.

**Müəlliflik prezumpsiyası** – "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının 5 iyun 1996-cı il tarixli qanununun 8-ci maddəsinə uyğun olaraq əsəri yaradan şəxs onun müəllifi sayılır. Əsərə müəlliflik, digər sübutlar yoxdursa, adı altında açıqlanmış şəxsə məxsusdur. Mübahisə yaranan hallarda, digər sübutlar olmadıqda, qeydiyyat haqqında şəhadətnamə məhkəmə tərəfindən müəlliflik prezumpsiyası kimi tanınır.

**Müəlliflik şəhadətnaməsi** – öz əsərini qeydiyyatdan keçirən şəxsə müəyyən edilmiş nümunədə verilən sənəd. Bu şəhadətnamə müəlliflik prezumpsiyası kimi çıxış etmir. Mübahisə yaranan hallarda və digər sübutlar olmadıqda, həmin şəhadətnamə məhkəmə tərəfindən müəlliflik prezumpsiyası kimi tanınır.

**Müəssisə** – mülkiyyətçinin təşkilati-hüquqi formasından, adından və fəaliyyət növündən asılı olmayaraq Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq yaratdığı hüquqi şəxs, onun filialı, nümayəndəliyi.

**Müəssisə aktivi** – müəssisənin əsas vəsaitindən, digər uzunmüddətli vəsait qoyuluşundan, dövriyyə vəsaitindən və maliyyə aktivlərindən (qeyri-maddi aktivlər də daxil olmaqla) ibarət əmlak.

**Müəssisədaxili intizam qaydaları** – əmək qanunvericiliyinə görə müəssisələrdə əmək müqavilələri, habelə bağlanmış kollektiv müqavilələr üzrə tərəflərin öhdəliklərinin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsi, əmək qanunvericiliyinin gözlənilməsi və əmək intizamının təmin olunması məqsədi ilə qəbul edilən qaydalar.

Müəssisələr birliyinin nizamnaməsində nəzərdə tutulmuş hallarda m.i.q. birliyin müvafiq icra orqanı tərəfindən həmin birliyə daxil olan müəssisələr üçün də qəbul oluna bilər. M.i.q. AR ƏM-ə, habelə əmək qanunvericiliyi üzrə digər normativ-hüquqi aktlara uyğun tərtib edilməlidir. Bu normativ-hüquqi aktlara zidd olan M.i.q.-nın müvafiq müddəaları və onların tətbiqinin hüquqi nəticələri etibarsız hesab edilir (AR ƏM-in 182-ci maddəsi).

**Müəssisələrin valyuta fondları** – hökumət tərəfindən təsdiq edilmiş normativlər üzrə xarici bazarda malların (xidmətlərin) reallaşdırılması nəticəsində əldə olunmuş xarici valyutadan ibarət olan pul vəsaitləri. M.v.f. müəssisələrin özlərinin valyuta hesablarında qorunur, eksport əməliyyatları, istehsalat ehtiyacları və kollektivin tələbatları üçün istifadə olunur.





**Müəssisə passivi** - müəssisənin kreditor borcu da daxil olmaqla borc və cəlb edilmiş vəsaitdən (subvensiyalar, dotasiyalar və i.a. istisna olmaqla) ibarət öhdəlik.

**Müəyyən müddətə azadlıqdan məhrum etmə** – cinayət qanunvericiliyinə görə əsas cəza növlərindən biri; məhkumun koloniya məntəqəyə, ümumi, ciddi və xüsusi rejimli islah koloniyasına və ya həbsxanaya yerləşdirilməsi yolu ilə onun cəmiyyətdən təcrid olunmasından ibarətdir. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş, lakin hökm çıxarılanadək on səkkiz yaşı tamam olmamış şəxslər ümumi və ya möhkəm rejimli tərbiyə koloniyalarında yerləşdirilirlər.

M.m.a.m.e. cəzası üç aydan on beş ilədək müddətə təyin edilir. İctimai işlər, islah işləri və ya azadlığın məhdudlaşdırılması azadlıqdan məhrum etmə cəzası ilə əvəz edildikdə, azadlıqdan məhrum etmə üç aydan az müddətə də təyin oluna bilər. Cinayətlərin məcmusu üzrə cəza təyin edilərkən azadlıqdan məhrum etmə müddətinin qismən və ya tamamilə toplandığı hallarda, azadlıqdan məhrum etmənin yuxarı həddi on beş ildən, hökmlərin məcmusu üzrə isə iyirmi ildən artıq ola bilməz (AR CM-in 55-ci maddəsi).

**Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə** - cinayət qanunvericiliyinə uyğun olaraq müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə dövlət orqanlarında, yerli özünüidarə orqanlarında konkret vəzifə tutmağın və ya konkret peşə və ya digər fəaliyyətlə məşğul olmağın qadağan edilməsindən ibarətdir. Bu cəza növü əsas cəza kimi bir ildən beş ilədək, əlavə cəza kimi isə bir ildən üç ilədək müddətə təyin edilir.

Törədilmiş cinayətin xarakterini və ictimai təhlükəliliyini, təqsirkar şəxsin şəxsiyyətini nəzərə alaraq, məhkəmə onun müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququnun saxlanılmasını qeyri-mümkün hesab edərsə, həmin şəxsə AR CM-in xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmayan hallarda da müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəza növünü əlavə cəza kimi təyin edə bilər. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəza növünün ictimai işlərə, islah işlərinə əlavə olaraq təyin edildiyi hallarda, habelə şərti məhkum etmə zamanı əlavə cəzanın müddəti hökmün qanuni qüvvəyə mindiyi andan hesablanır. Bu cəza növü intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrum etmə cəzalarına əlavə olaraq təyin edildiyi hallarda, əlavə cəza əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə, hökmdə bu cəza növü üçün müəyyən edilmiş müddətə şamil olunur.

**Müflisləşmə** – borclunun öz öhdəliklərini ödəmə qabiliyyətinin olması.

**"Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında müflisləşməyə, iflas olmaya və iflas prosesinə dair münasibətləri tənzim edən qanunvericilik aktı.

Bu qanun 13 iyun 1997-ci il tarixdə qəbul edilmişdir. O, on beş fəsil və 61 maddədən ibarətdir.

**Müfti** *(ər. qərar çıxaran)* – dini-hüquqi məsələlərə dair qərar çıxarmaq, şəriət normalarının icrasını təfsir etmək hüququ olan müsəlman ali ruhanisi. M.-nin çıxar-

dığı qərar *(bax: fitva)* həmin ölkədə yayılmış islam təriqətinin (Sünniliyin), həmçinin məzhəbin dini-hüquqi qaydalarına əsaslanır. Hazırda hər bir müsəlman dövlətində ölkənin baş müftisi vardır. Əslində isə o, icmanın başçısıdır.

**Mühacirət** – adamların ölkədən könüllü getməsi və ya məcburən köçürülməsi. Əsasən iqtisadi (işsizlik), yaxud siyasi (ictimai-siyasi hərəkat, müharibə) səbəblərdən irəli gəlir. Ölkədən məcburi sürgün edilmə deportasiya, mühacirlərin vətənə qayıtması isə repatriasiya adlanır.

**Mühacirlər** – iqtisadi, siyasi, dini və i.a. səbəbdən öz ölkəsini könüllü və ya məcburən tərk edib başqa ölkəyə keçən vətəndaşlar. Vətəndaşlığını itirən və yenisini əldə etməyən m. apatridlər adlanırlar. Siyasi m.-ə adətən, sığınacaq hüququ verilir. M.-in mühacirət etdiyi ölkənin vətəndaşlığını qəbul etməsi qaydası həmin ölkənin qanunvericiliyi ilə müəyyən edilir.

**Mühakimə** *(islamda)* – məhkəmə prosesi; VIII yüzilliyin ortalarında təşəkkül tapmışdır. M. üç əsas prinsipə əsaslanırdı: 1) tərəflərin prosesdə şəxsən iştirakı; 2) prosesin aşkarlığı; 3) prosesin fasiləsizliyi. Məhkəmə prosesi şifahı aparılmalı idi. Yazılı sübutlara isə ancaq yaddaşa yazılı hökmetmə kimi baxılırdı. İttihamı tərəflər özləri irəli sürür və özləri də müdafiə olunurdular. Zəruri olan hallarda istintaq qazı və ya onun etibarlı nümayəndəsi tərəfindən aparılırdı. Tərəflərdən birinin prosesdə iştirak edə bilmədiyi halda qazının razılığı ilə onun səlahiyyətli nümayəndəsi (vəkil) iştirak edə bilərdi. Tərəflər, prosesdə iştirak edən vəkillərin hüquqi yardımından istifadə edə bilərdilər. Lakin məhkəmə belə vəkillərə şahidlər qismində baxırdı. Aşkarlığın daha geniş şəkildə təmin edilməsi üçün proses camaatın toplaşdığı yerdə – meydanda, hökmdarın və ya qazının evi qarşısında, yaxud xüsusi binada keçirilirdi. Məhkəmə heyəti daimi deyildi. Onun tərkibi qazının mülahizəsinə görə komplektləşdirilirdi. Məhkəmənin tərkibi katibdən, tərcüməçilərdən, kuryerlərdən və başqalarından ibarət olurdu. Xərclər məhkəmənin ümumi smetasından ödənilirdi.

Məhkəmə prosesi gedişində həqiqət ya tərəflərdən birinin digərinin haqlı olduğunu etiraf etməklə, ya da şahidlərin ifadələri ilə müəyyən edilirdi. Tərəflərdən birinin özünün haqlı olduğu barədə içdiyi and da həqiqətin müəyyən edilməsinə xidmət edirdi. Proses aşağıdakı qaydada aparılırdı: ittiham irəli sürüldükdən və ya iddia verildikdən sonra qazı tərəflərin məhkəməyə gəlmək imkanını qiymətləndirir və prosesin keçirildiyi yeri və işə baxılma vaxtını təyin edirdi. Prosesin başlanğıcında ittiham edən tərəf öz ittihamını və ya tələbini elan edir, zərurət olduqda sübutlar və şahid ifadələrini təqdim edirdi. İttiham olunan tərəf gətirdiyi arqumentlərlə özünü müdafiə edirdi. Əgər tərəflərin sübutları və şahid ifadələri onlardan birinin haqlı olduğunu təsdiq edə bilmirdisə, onlar and içməyə gətirilirdilər. İlk andı ittiham edən tərəf içməli idi. Bütün bu imkanların bitdiyi və tələbin sübuta yetirilmədiyi halda prosesə xitam verilirdi. Prosesdən sonra ittihamçı tərəf yeni sübutlar təqdim etdikdə, proses təzələnirdi.

**Mühakimə icraatı** – cinayət işlərinə və mülki işlərə baxılması qaydası; məhkəmə hakimiyyətinin həyata keçirilməsi forması. Ən məhdud mənada m.i. dedikdə işlərə məhkəmələr tərəfindən baxılması qaydası nəzərdə tutulur. Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin I hissəsinə əsasən Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.





**Müharibə aparma vasitələrini düşmən üçün qoyub getmə** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 343-cü maddəsində nəzərdə tutulmuşdur. Rəisin, döyüş şəraitinin tələb etmədiyi halda döyüş texnikasını və müharibə aparmaq üçün başqa vasitələri düşmənə kömək etmək məqsədi olmadan döyüş meydanında qoyub getmədə ifadə olunur.

**Müharibə cinayətləri** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə sülh və bəşəriyyət əleyhinə cinayətlər kateqoriyasına aid edilən ictimai təhlükəli əməllər. M.c. AR CM-in yeddinci bölməsində (on yeddinci fəsildə) nəzərdə tutulmuşdur. Muzdluluq (AR CM-in 114-cü maddəsi), müharibə qanunlarını və adətlərini pozma (115-ci maddə), silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma (116-cı maddə), silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə (117-ci maddə), hərbi soyğunçuluq (118-ci maddə) və müdafiə olunan nişanlardan sui-istifadə etmə (119-cu maddə) m.c.-nə aid edilir.

**Müharibə qanunlarını və adətlərini pozma** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə müharibə cinayətlərinin bir növü. AR CM-in 115-ci maddəsində nəzərdə tutulmuşdur. Əsirləri, beynəlxalq humanitar hüquqla müdafiə olunan digər şəxsləri əsir götürmüş tərəfin silahlı qüvvələrində xidmət etməyə, habelə düşmən dövlətin vətəndaşlarını öz ölkələrinə qarşı yönəlmiş hərbi əməliyyatlarda iştirak etməyə məcbur etmədə ifadə olunur.

**Müharibə qanunları və adətləri** – müharibə aparılması ilə əlaqədar olaraq dövlətlər arasında münasibətləri tənzim edən beynəlxalq hüquq normaları və prinsiplərinin məcmusu. M.q. və a. ən qədim dövlərdə təşəkkül tapmışdır. XIX yüzillikdə isə müharibə aparmaq qaydaları haqqında beynəlxalq aktlar qəbul edilmişdir. Həmin qaydalar müharibə qanunları və adətləri haqqında 1899-cu il və 1907-ci il Haaqa konvensiyalarında, müharibədə boğucu, zəhərləyici və ya digər qazların, habelə bakterioloji silahların tətbiqinin qadağan olunması haqqında 1925-ci il Cenevrə protokolunda, müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il Cenevrə konvensiyasında və i.a. beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulmuşdur. Belə qanun və adətləri pozma ağır beynəlxalq hərbi cinayət hesab olunur.

**Müharibənin qadağan olunmuş vasitələri** – beynəlxalq hüquqa görə tətbiq edilməsi yolverilməz olan vasitələr. Belə vasitələrə (onların tətbiqinə) hərbi cinayət və ya insanlıq əleyhinə cinayət kimi baxılır və hüquqi məsuliyyətə səbəb olur. Həddən artıq xəsarətlər yetirməyə və ya əzab-əziyyətə səbəb olan silahların, güllələrin, müharibə aparma vasitə və metodlarının tətbiq edilməsi qadağan olunur.

**Müharibə təbliğatı** – sülhə və dinc yanaşı yaşamağa qarşı yönəldilən təhlükəli vasitə. Beynəlxalq-hüquqi aktlarla qadağan olunan m.t. sülh və bəşəriyyət əleyhinə yönəldilən ən təhlükəli vasitələrdən biri hesab olunur.

**Müharibə vəziyyəti** – aralarında bir-birinə müharibə elan edildiyi andan (və ya döyüş əməliyyatlarının faktiki olaraq baş-

landığı vaxtdan) onun başa çatmasınadək dövlətlər arasındakı münasibət.

**Mühasibat balansı** – hesabat dövrünün son gününə müəssisənin, idarənin, təşkilatın və digər təsərrüfat subyektlərinin əmlak və maliyyə vəziyyətini əks etdirən maliyyə hesabatı forması.

**Mühasibat ekspertizası** – məhkəmə ekspertizasının bir növü. M.e. dövlət mülkiyyətinin külli miqdarda oğurlandığı, talan, qarət və ya israf edildiyi hallarda təyin edilir. Məhkəmə-mühasibat ekspertizası müəyyən maliyyə-təsərrüfat və mühasibat uçotu əməliyyatlarını əks etdirən sənədlərin tədqiq edilməsi üçün aparılır.

**Mühasibat uçotu** – idarə, müəssisə, təşkilatın və digər təsərrüfat subyektlərinin əmlakının, öhdəliklərinin, kapitalının, dövriyyə vəsaitlərinin və ümumiyyətlə, bütün maliyyə-təsərrüfat fəaliyyətinin, natural göstəricilər əsasında, pul ifadəsində, fasiləsiz, başdan-başa, sənədləşdirilmiş və mühasibat registrlərində qarşılıqlı əlaqələndirilmiş bütün təsərrüfat əməliyyatlarının mühasibat hesablarında ikili yazılış üsulu ilə yığılması və qaydada salınması sistemini özündə əks etdirən uçot.

**"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında mühasibat uçotunun dövlət tərəfindən tənzimlənməsi qaydasını, o cümlədən mühasibat uçotunun təşkilinin və aparılmasının ümumi prinsiplərini, bu sahədə idarə, müəssisə, təşkilat və digər təsərrüfat subyektlərinin hüquqlarını, vəzifələrini və məsuliyyətini, mühasibat (maliyyə) hesabatlarının nəşri qaydasını, mühasibat məlumatlarının düzgünlüyünün təminatını və ölçülərini müəyyən edən qanunvericilik aktı. Bu qanun ilk dəfə 24 mart 1995-ci ildə qəbul olunmuş və ona bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanun yeddi fəsil və 41 maddədən ibarət olmuşdur. Nəhayət, 29 iyun 2004-cü ildə eyniadlı yeni qanunun qəbul edilməsi ilə qüvvədən düşmüşdür. Yeni qanun 6 fəsildən və 19 maddədən ibarətdir.

**Mühasirə** *(hərbdə)* – düşmənin (rəqibin) müəyyən qruplaşmasını məhv etmək və ya əsir almaq məqsədi ilə onun digər qoşunlarından təcrid edilməsi. M. geri çəkilən rəqibi təqib etdikdə, əks-həmlə və əks-zərbə vurduqda, yaxud sahilboyu əməliyyatlarında həyata keçirilə bilər. Əlverişli şəraitdə qüvvələrin bərabər olduğu təqdirdə də m. mümkündür.

**Mühəndis qoşunları** – döyüş əməliyyatlarının mühəndis təchizatı üçün nəzərdə tutulmuş xüsusi qoşunlar; silahlı qüvvələrin bütün növdən olan hissə və birləşmələrinin tərkibinə daxildir. M.q. aşağıdakı hissə və bölmələrdən ibarətdir: mühəndis-istehkam, mühəndis-yol, ponton-körpü, keçirmə-desant (amfibiya), mühəndis-körpütikmə (körpü), mühəndis-mövqe, su əldə etmə (səhra su təchizatı), mühəndis-inşaat və i.a. Sudan keçirmə, maskalanma, elektro texniki, yükqaldırma vasitələrinə, həmçinin kəşfiyyat, su əldə etmə və təmizləmə, minalama və minadan təmizləmə və i.a. vasitələrinə də malikdir.

**Müxalifət** *(ər. ziddinə olmaq)* – **1)** əkskəşfiyyat, müqavimət, öz baxışlarını və siyasətini digər baxışlara və siyasətə qarşı qoymaq; **2)** çoxluğun rəyinə və ya hakim fikrə zidd çıxan qrup, yaxud partiya. Parlament müxalifəti – hökumətin təşkilində iştirak etməyən, bir sıra məsələlərdə hökumətin siyasətinə qarşı çıxan qrup





və ya partiya. Partiyadaxili müxalifət – partiyanın və onun rəhbər orqanlarının hər hansı siyasi xəttinin prinsipial məsələlərinin əksinə çıxan qruplaşma.

**Müxbir hesabı** – müxbir müqaviləsi əsasında bir bankın tapşırığı ilə və onun hesabına digər bankın apardığı əməliyyatın əks olunduğu hesab. M.h.-nın iki növü fərqləndirilir: 1) "nostro" – bankın bank-müxbirdəki hesabı; 2) "loro" – bank-müxbirin bankdakı hesabı.

**Müxbir müqaviləsi** – ölkə daxilində və ya onun hüdudlarından kənarda banklar arasında (bir bankın digər bankın ödəmə və hesablaşmalar üzrə tapşırıqlarını yerinə yetirməsilə əlaqədar) bağlanan saziş. Bu zaman banklar hansı hesablar üzrə hesablaşmaların qarşılıqlı surətdə aparılmasına dair razılığa gəlirlər.

**Mükəlləfiyyət** *(ər.)* – **1)** müəyyən vəzifəni, yaxud işi yerinə yetirmək məcburiyyəti; **2)** dövlət ehtiyaclarını, yaxud yerli əhəmiyyətli ehtiyacları təmin etmək üçün əhalinin müəyyən təbəqələrinin icra etdiyi vəzifə, iş (məsələn, hərbi mükəlləfiyyət, əmək mükəlləfiyyəti).

**Mükətab** *(islamda)* – fiqhdə özünün satın alınması haqqında yazılı saziş bağlamış qul (qul qadın). Saziş satınalmanın miqdarını, ödəmə müddətini və şərtlərini müəyyən edirdi. Müqavilənin bağlandığı andan özünün qul üzərindəki hüquqlarının bir hissəsini itirir. Belə halda, faqihlərin mülahizəsinə görə qul ağanın sahibliyi altından çıxsa da, onun mülkiyyəti olaraq qalır. Müqavilə bağlandıqdan sonra qul qadın ağanın qadınlar üçün müəyyən etdiyi status əldə edir. Belə ki, ağa artıq qul qadınla birgə yaşamaq hüququnu itirir və bunun pozulmasına görə cinayət məsuliyyəti daşıyır.

**Müqaitə** *(ər. kəsmək)* – dövlətə müəyyən miqdarda pul ödəmək müqabilində ayrı-ayrı şəxslərə verilən vergi toplamaq hüququ. M. orta əsrlərdə Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda geniş yayılmışdır. M. sələmçiliklə sıx bağlı olmuşdur. Azərbaycanda XIX yüzilliyin ikinci yarısında ləğv edilmişdir.

**Müqavilə** *(mülki hüquqda)* – iki və ya daha artıq şəxsin (hüquqi və ya fiziki şəxslərin) mülki hüquq və vəzifələrinin yaranmasına, dəyişməsinə və ya xitam edilməsinə yönələn saziş. İştirakçıların sayından asılı olaraq m. ikitərəfli və çoxtərəfli olur. M.-yə görə bir tərəf üçün yalnız hüquq, digər tərəf üçün isə yalnız vəzifə öhdəliyi yarandıqda m. birtərəfli (məsələn, borc müqaviləsi), hər iki tərəf üçün həm hüquq, həm də öhdəlik yarandığı hallarda m. ikitərəfli (məsələn, alqı-satqı, dəyişmə, daşıma və i.a.) adlanır. Əmələgəlmə əsaslarına görə planlı və plandankənar, bağlanma qaydasına və tərəflər üçün hüquq və vəzifələr əmələ gətirməsi vaxtından asılı olaraq konsensual, real və formal m.-lər mövcuddur.

**Müqavilə aidiyyəti** – tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilən aidiyyət. Məsələn, vətəndaşlar öz aralarındakı qarşılıqlı razılaşma əsasında istənilən mübahisəni (əmək və ailə münasibətlərindən irəli gələn mübahisələr istisna olmaqla) baxılmaq üçün münsiflər məhkəməsinə verməyə haqlıdırlar.

**Müqavilə azadlığı** – mülki qanunvericiliyə uyğun olaraq fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu

müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Onlar AR MM-də nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər. Müqavilə onun bağlandığı vaxt qüvvədə olan qanunla və digər hüquqi aktlar ilə müəyyənləşdirilmiş, tərəflər üçün məcburi qaydalara (imperativ normalara) uyğun gəlməlidir. Müqavilə bağlamaq vəzifəsinin AR MM-də və ya könüllü götürülmüş öhdəlikdə nəzərdə tutulduğu hallar istisna olmaqla, müqavilə bağlamağa məcbur etməyə yol verilmir. Müqavilə şərtləri tərəflərin istəyi ilə müəyyənləşdirilir, amma müvafiq şərtin məzmununun AR MM-də göstərildiyi hallar istisnalıq təşkil edir. Əgər müqavilə şərti onun iştirakçıları tərəfindən və ya dispozitiv norma ilə müəyyənləşdirilməyibsə, müvafiq şərtlər tərəflərin münasibətlərinə tətbiq edilə bilən işgüzar adətlərlə müəyyənləşdirilir (AR MM-in 390-cı maddəsi).

**Müqavilədənxaric öhdəliklər** – qarşılıqlı iradə ifadəsi yolu ilə deyil, tərəflərdən birinin hərəkətləri nəticəsində yaranmış mülki-hüquqi öhdəlikləri, əsassız varlanmanı və i.a. misal göstərmək olar.

**Müqaviləli federasiya** – dövlətlər və ya müvafiq dövlətin tərkibinə daxil olmağı qərara almış digər ərazi vahidləri arasında federativ müqavilənin bağlanması yolu ilə yaradılan federativ dövlət. Digər variant – federasiyanın subyektləri olmuş dövlətlərin hissələri arasında federativ müqavilənin bağlanması ilə unitar dövlətin federativ dövlətə çevrilməsi. Konstitusiya-müqaviləli federasiya da mövcuddur. Bu halda əvvəlcə müqavilə bağlanır, sonra isə konstitusiya tətbiq edilir. Hər iki sənəd tətbiq edildiyinə görə onlar eyni qüvvəyə malik olurlar.

**Müqavilə nəzəriyyəsi** – dövlətin (o cümlədən hüququn) mənşəyinə dair mövcud nəzəriyyələrdən biri. M.n.-nə görə dövlət insanlar arasındakı müqavilənin məhsuludur. Bu nəzəriyyə müxtəlif variantlarda Holandiyada Huqa Qrotsi, Benedikt (Barux) Spinoza, İngiltərədə Tomas Hobbs, Con Lokk, Fransada Jan-Jak Russo tərəfindən irəli sürülmüş və tədqiq edilmişdir. XIII yüzillikdə yaşamış dahi Azərbaycan mütəfəkkiri Nəsirəddin Tusinin də siyasi-hüquqi təlimində dövlətin insanların birliyinin və ittifaqının məhsulu olması ideyası ilk dəfə irəli sürülmüşdür. Beləliklə o, Qərbi Avropa mütəfəkkirlərini bu sahədə təqribən üç əsr qabaqlamışdır.

Dövlətin mənşəyinə dair m.n.-nin tərəfdarları öz konsepsiyalarını insanın təbii hüquqları ilə əsaslandırırdılar. Məsələn, C. Lokk dövləti insanların ünsiyyətə, hakimiyyət yaratmağa can atmasının məhsulu hesab edirdi. Hobbsa görə, dövlət insanların müharibə vəziyyətindən çıxması üçün bağladıqları ictimai müqavilə əsasında meydana gəlmişdir. J.-J. Russo daha radikal fikir irəli sürərək dövləti yer üzündə xüsusi mülkiyyətin meydana gəlməsinin və cəmiyyətin varlılara, yoxsullara parçalanmasının nəticəsi hesab edirdi. N. Tusinin fikrincə, dövlət insanlar arasında qarşılıqlı ittifaqın yaranması əsasında təşəkkül tapmışdır və o, insanlar arasında qarşılıqlı ünsiyyətin ən yüksək formasıdır.

M.n. şübhəsiz ki, orta əsrlər üçün mütərəqqi əhəmiyyət kəsb etmiş və dövlətin mənşəyinə dair nəzəriyyələrin ən uzun ömürlüsü olmuşdur. Lakin bununla belə həmin nəzəriyyə dövləti insanların zəkasına müncər etməklə idealist xarakter daşıyırdı.





**Müqavilənin bağlandığı yer qanunu** *(lex loci contractus)* – əşyanın yerləşdiyi yer qanunu ilə yanaşı, kolliziya hüququnda müqavilənin ərazisində bağlandığı dövlətin hüququnun tətbiq edilməsini bildirən və tarixən təşəkkül tapan qanun. M.b.y.q.-dan alqı-satqı, podrat, barter müqavilələrindən və i.a. müqavilələrdən irəli gələn öhdəliklərin tənzim edilməsi üçün istifadə olunur.

**Müqavilənin forması** – mülki qanunvericiliyə görə müqavilə əqdlərinin bağlanması üçün nəzərdə tutulan forma. Müqavilə istənilən formada bağlana bilər, bir şərtlə ki, bu, AR MM-in həmin müqavilə növü üçün müəyyən etdiyi formaya zidd olmasın. Müqavilənin etibarlılığı üçün AR MM-də müəyyən forma təyin edildikdə və ya müqavilə üçün bu formanı tərəflər nəzərdə tutduqda, müqavilə yalnız həmin formaya dair tələbin icrasından sonra qüvvəyə minir. Əgər tərəflər müqaviləni müəyyən formada bağlamaq barəsində şərtləşiblərsə, həmin müqavilə növü üçün AR MM-də belə forma tələb edilməsə də, müqavilə şərtləşdirilmiş formaya salındıqdan sonra bağlanmış sayılır. Yazılı formada müqavilə tərəflərin imzaladığı bir sənədin tərtibi yolu ilə, habelə poçt, teleqraf, teletayp, telefon, elektron rabitəsi və ya sənədin müqavilə üzrə tərəfdən gəldiyini dürüst müəyyənləşdirməyə imkan verən digər rabitə vasitəsilə sənədlər mübadiləsi yolu ilə bağlana bilər (AR MM-in 406-cı maddəsi).

**Müqavilənin icra edildiyi yer qanunu** *(lex loci solutionis)* – təsbitetmə formulası; bu formulaya uyğun olaraq ərazisində müqavilədən irəli gələn öhdəliklərin icra edildikləri dövlətin hüququ tətbiq edilir. Müqavilənin bağlandığı yer qanununda olduğu kimi, bu qanundan da müqavilə öhdəliklərinin tənzim edilməsi üçün istifadə olunur.

**Müqavilənin standart şərtləri** – mülki qanunvericiliyə görə müqavilənin standart şərtləri əvvəlcədən ifadə edilmiş, dəfələrlə istifadə üçün nəzərdə tutulan elə şərtlərdir ki, bunları bir tərəf (təklif edən) digər tərəfə təqdim edir və əvvəlcədən müəyyənləşdirilmiş normalardan fərqlənən və bu normaları tamamlayan qaydalar onların vasitəsilə müəyyənləşdirilir. Əgər tərəflər müqavilənin şərtlərini müfəssəl müəyyənləşdirmişlərsə, bunlar müqavilənin standart şərtləri sayılmır. Tərəflərin bilavasitə razılaşdırdıqları şərtlərə standart şərtlərə nisbətən üstünlük verilir (AR MM-in 417-ci maddəsi).

**Müqavilənin təfsiri** – mülki qanunvericiliyə görə müqavilə şərtlərini təfsir edərkən məhkəmə təkcə müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini nəzərə alır. Bu zaman bütün müvafiq hallar, o cümlədən müqaviləyəqədərki danışıqlar və yazışmalar, tərəflərin qarşılıqlı münasibətlərində yaranmış təcrübə, işgüzar adətlər, tərəflərin sonrakı hərəkətləri nəzərə alınır. Əgər müqavilənin ayrı-ayrı ifadələri müxtəlif cür təfsir edilə bilərsə, müqaviləni bağlamış tərəflərin yaşayış yerində adətən qəbul olunmuş mənaya üstünlük verilir. Tərəflərin yaşayış yerləri müxtəlif olduqda, akseptantın yaşayış yeri həlledici sayılır. Müqavilədə bir-birini istisna edən və ya çoxmənalı ifadələr olduqda, müqavilənin məzmununa digərlərindən daha çox uyğun gələn mənaya üstünlük verilməlidir. Qarışıq

müqavilələr təfsir edilərkən icranın mahiyyətinə daha yaxın olan və ona uyğun gələn müqavilələr haqqında normalar tətbiq edilir (AR MM-in 404-cü maddəsi).

**Müqavimət göstərmə (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə)** – cinayət qanunvericiliyinə görə idarəetmə qaydası əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 315-ci maddəsində nəzərdə tutulmuşdur. Xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə zor tətbiq etmədə, zor tətbiq etməklə müqavimət göstərmədə və ya onun yaxın qohumlarına qarşı həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmədə və ya belə zor tətbiq etmə hədəsi ilə hədələmədə ifadə olunur.

**Müqayisəli hüquqşünaslıq** – müxtəlif dövlətlərin hüquq sistemini (qanunvericilik sistemini) öyrənmə metodlarından bəhs edən hüquq sahəsi. M.h. İkinci dünya müharibəsindən sonra yayılmağa başlamışdır. Onun yayılması dövlətlər arasında beynəlxalq məsələlərin, o cümlədən iqtisadi əlaqələrin genişlənməsi, beynəlxalq gərginliyin zəiflədilməsilə əlaqədar olmuşdur. Mövcud hüquq sistemlərinin tipologiyası və təsnifləşdirilməsi məsələsi m.h.-ya aiddir. Ayrı-ayrı hüquq normalarının, hüquqi kateqoriyaların, hüquq institutlarının müqayisəsi mikromüqayisə adlanır. Hüquq növlərinin, yaxud milli hüquq sistemlərinin müqayisəsinə (məsələn, alman və ingilis hüququnun müqayisəsinə) makromüqayisə deyilir. Federasiya prinsipinə əsaslanan hüquq sisteminin öyrənilməsi üçün tətbiq edilən müqayisə metodu daxili müqayisə hesab olunur. M.h. elmi əhəmiyyət kəsb etdiyi kimi, mühüm təcrübi-tətbiqi əhəmiyyətə də malikdir. Qanunverici orqanın hüquqyaratma prosesində, hüquqi problemlərin məhəlli və beynəlxalq miqyasda unifikasiyasında m.h.-ın məlumatlarından istifadə olunur.

**Müqəddəs ittifaq** – Napoleon imperiyasının süqutundan sonra inqilabi hərəkata və milli-azadlıq hərəkatlarına qarşı mübarizə və Vyana konqresi (1814-1815) qərarlarının toxunulmazlığını təmin etmək üçün bağlanmış ittifaq. M.i. haqqında sənədi 1815-ci il sentyabrın 26-da Rusiya imperatoru I Aleksandr, Avstriya imperatoru I Frans və Prussiya kralı III Fridrix Vilhelm imzalamışdır. Noyabrın 19-da Fransa kralı XVIII Lüdovik, daha sonra əksər Avropa monarxları da m.i.-a qoşulmuşlar. Böyük Britaniya m.i.-a qoşulmasa da, bir sıra məsələlərdə onun siyasətini müdafiə etmişdir. M.i.-ın razılığı və təhriki ilə Avstriya Neapol (1820-1821) və Pyemont (1821) inqilablarını amansızcasına yatırmış, Fransa qoşunları isə 1823-cü ildə İspaniyaya soxulmaq haqqında razılıq əldə edərək burada mütləqiyyət rejimi yaratmışdır. Avropa ölkələri arasında ziddiyyətlərin kəskinləşməsi və inqilabi hərəkatın genişlənməsi m.i.-ı sarsıtmışdır. XIX yüzilliyin 20-ci illərinin sonu və 30-cu illərinin əvvəllərində m.i. tamamilə süqut etmişdir.

**Müqəssir** *(bax: təqsirləndirilən şəxs).*

**Müqta** *(ər.)* – iqta sahibi.

**Mülazim** *(ər. indiki leytenant rütbəsi)* – orta əsrlərdə Yaxın Şərqin bəzi ölkələrində, o cümlədən Azərbaycanda mövcud olmuş kiçik rütbəli hərbi qulluqçu. M.-lər bir növ şəxsi qvardiyaçı kimi hökmdar, əyalət hakimi, xan və başqalarının xidmətində olur, hərbi və inzibati vəzifə daşıyırdılar. M.-lər Səfəvilər və xanlıqlar dövründə nökər adlandırılmışlar.





**Mülk** *(ər. mülkiyyət, əmlak, malikanə)* – Ərəb Xilafəti dövründə Yaxın və Orta Şərq ölkələrində, Orta Asiyada və Azərbaycanda torpaq mülkiyyəti formalarından biri. M. iri və ya orta feodal malikanəsinin, fedal torpaq mülkiyyətinin şərtsiz və irsi forması idi. M. sahibi mərkəzi hökumət qarşısında icbari xidmətə və ya mükəlləfiyyətləri yerinə yetirməyə cəlb edilmirdi. M. şərti torpaq hesab edildiyinə görə o, satıla, bağışlana, girov qoyula bilərdi. M. torpaq mülkiyyəti forması Azərbaycanda 1920-ci il 5 may tarixli dekretlə ləğv edilmişdir.

**Mülkədarlar** – feodal torpaq sahibləri; Rusiyada XV yüzilliyin sonunda meydana gəlmişlər. XIX yüzillikdə və XX yüzilliyin əvvəllərində adətən şəxsi torpaqları olan zadəganlar m. adlanırdı. Bəzi ölkələrdə feodal və yarımfeodal tipli iri torpaq sahiblərini bildirmək üçün "m." terminindən istifadə edilir.

**Mülkədar tabei** – Azərbaycanda xan, bəy və ağa torpaqlarında yaşayıb işləyən kəndlilər (rəiyyət, rəncbər, nökər və başqaları). "M.t." termininin adı ilk dəfə rəsmi olaraq çar hökumətinin 1847-ci il 20 aprel və 28 dekabr tarixli "kəndli əsasnamələrində çəkilmişdir. M.t. müxtəlif mükəlləfiyyətləri ödəməli idi. O, mülkədara taxıl məhsulunun 1/10-i həcmində malcəhət adı ilə vergi verməli, biyar və əvəz günləri (ildə 19 gün) mülkədarın təsərrüfatında və həyətyanı sahəsində işləməli, otlaq və örüşlərdən istifadə müqabilində çöpbaşı ödəməli idi. Mülkədar torpaqlarında yaşayan kəndlilərə xəzinə torpağına köçmək rəsmən, mülkədar torpağına köçmək isə fələn qadağan edilmişdi. Mülkədarın kəndliyə cismani cəza vermək hüququ var idi. 1870-ci il 14 may aqrar islahatdan sonra kəndlilərin hüquqi cəhətdən şəxsən azad elan edilmələri nəticəsində m.t. məfhumu da aradan çıxmışdır.

**Mülki cavabdeh** – cinayət-prosessual qanunvericiliyə görə cinayət prosesinin gedişi zamanı haqqında iddia verilməsi ilə əlaqədar təqsirləndirilən şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsi nəticəsində vurulmuş maddi ziyana görə qanunla üzərinə maddi məsuliyyət qoyula biləcək şəxs (AR CPM-in 93.1-ci maddəsi).

M.c. qismində tanınmaq haqqında qərar təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən çıxarılır. İddia verilən anda şəxsin M.c. qismində tanınması üçün əsaslar kifayət qədər olmadıqda, həmin qərar kifayət qədər əsaslar müəyyən edilən kimi dərhal çıxarılır. Kifayət qədər əsasların olmadığı müəyyən edildikdə təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə əsaslandırılmış qərarı ilə şəxsin cinayət prosesində m.c. qismində iştirakına xitam verir. M.c. cinayət prosesini həyata keçirən orqan tərəfindən şahid qismində dindirilə bilər. M.c. şəxsən və ya nümayəndəsi vasitəsilə öz hüquqlarından istifadə edir və vəzifələrini yerinə yetirir.

**Mülki dövriyyə** – hüquqi faktların (planlı aktlar və digər normativ aktlar, əqdlər, hadisələr və i.a.) və bunun əsasında yaranan hüquq münasibətlərinin məcmusu. M.d. nəticəsində əmlak hüququn bir subyektindən digərinə keçir. Azərbaycan Respublikasında fiziki və hüquqi şəxslər m.d.-nin iştirakçılarıdırlar. M.d. əmlakın həm bir şəxsdən digər şəxsin mülkiyyətinə və əməli idarəçiliyinə,

həm də müvəqqəti sahibliyinə və istifadəsinə keçməsini ifadə edir. İştirakçıların hüquq bərabərliyi m.d.-nin fərqləndirici xüsusiyyətidir. Dövlətin müstəsna mülkiyyətində olmayan hər bir əmlak m.d.-nin (alqı-satqının) predmeti ola bilər.

**Mülki edam** – Rusiyada XVIII - XIX yüzilliklərdə zadəganlar üçün rüsvayçı cəza növü. Bu cəzaya məhkum olunmuş şəxs rüsvayedici dirəyə bağlanır və bütün hüquqlardan məhrum edilmə əlaməti kimi onun başı üzərində qılınc sındırılırdı.

**Mülki əhali** *(bax: dinc əhali).*

**Mülki hüquq** – Azərbaycan Respublikası hüququnun ən mühüm sahələrindən biri; özündə mülki hüquq elmini və mülki qanunvericiliyi, həmçinin eyni adlı tədris fənnini – "Mülki hüququ" ehtiva edir. M.h. əmlak münasibətlərini və bu münasibətlərlə əlaqədar şəxsi qeyri-əmlak münasibətlərini tənzim edir. Azərbaycan Respublikasının Mülki Məcəlləsi m.h.-un əsas mənbəyidir.

**Mülki hüquqlar** – **1)** ABŞ-ın və bir sıra digər ölkələrin konstitusiya-hüquq terminologiyasında vətəndaşların siyasi hüquq və azadlıqlarının adı; **2)** beynəlxalq hüququn leksikonunda "şəxsi hüquqlar", şəxsiyyətin hüquqları anlayışının analoqu; **3)** mülki hüquqda – özündə mülki hüquq münasibətlərinin məzmununu ehtiva edən hüquqların (mülki vəzifələrlə yanaşı) adlandırılması üçün istifadə olunan anlayış. M.h. öz məzmununa görə şəxsi və şəxsi qeyri-əmlak hüquqlarına bölünürlər.

**Mülki hüquqların müdafiəsi** – mülki qanunvericiliyə görə bütün dövlət hakimiyyəti orqanları, yerli özünüidarə orqanları, siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları, fiziki və hüquqi şəxslər mülki hüquqlara hörmət bəsləməyə və onların müdafiəsinə kömək göstərməyə borcludurlar. Mülki hüquqların məhkəmə müdafiəsini Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin müəyyənləşdirdiyi iş aidiyyətinə uyğun olaraq ümumi yurisdiksiya məhkəmələri və iqtisad məhkəmələri həyata keçirirlər. Müqavilədə tərəflər arasındakı mübahisənin məhkəməyə müraciət edilənədək nizama salınması nəzərdə tutula bilər. Mülki hüquqların inzibati qaydada müdafiəsi yalnız qanunvericilikdə nəzərdə tutulmuş hallarda həyata keçirilir. İnzibati qaydada qəbul edilmiş qərardan məhkəməyə şikayət verilə bilər (AR MM-in 17-ci maddəsi).

**Mülki hüquq pozuntuları (deliktlər)** - mülki qanunvericiliyə görə hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərər çəkən şəxsə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqazidd (mülki qanunvericiliyin normalarını pozan) əməl (hərəkət və ya hərəkətsizlik).

Mülki hüquq pozuntusuna (deliktə) yol vermiş şəxs mülki məsuliyyət daşıyır. Qanunla müəyyənləşdirilmiş hallarda obyektiv surətdə hüquqazidd əməllər üçün məsuliyyət meydana çıxa bilər.

Mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir. Qanunla zərərin əvəzini ödəmək vəzifəsi zərəri vurmayan şəxsin üzərinə qoyula bilər. Mülki hüquq pozuntusu (delikt) törətmiş şəxs zərərin





onun təqsiri üzündən vurulmadığını sübuta yetirərsə, zərərin əvəzini ödəməkdən azad edilir (AR MM-in 1097-ci maddəsi).

**Mülki iddia** *(cinayət prosesində)* – törədilmiş cinayət nəticəsində vurulmuş maddi və mənəvi ziyanın ödənilməsi haqqında zərər çəkmiş şəxsin təqsirləndirilən şəxsə qarşı tələbi. Cinayət mühakimə icraatında m.i. AR CPM-in müddəaları ilə müəyyən edilmiş qaydalara əsasən verilir, sübut və həll olunur. M.i. üzrə qərar iddianın predmetindən asılı olaraq mülki qanunvericiliyin və digər qanunvericilik sahələrinin normalarına uyğun qəbul edilir. Cinayət mühakimə icraatında m.i.-ya mülki hüquq və hüququn digər sahələri üçün müəyyən edilmiş iddia müddəti tətbiq edilmir (AR CPM-in 179-cu maddəsi).

Cinayət mühakimə icraatı zamanı verilmiş m.i. üzrə dövlət rüsumu alınmır. M.i. cinayət təqibi başlanandan məhkəmə istintaqı başa çatanadək istənilən an verilə bilər. M.i. törədilmiş cinayət haqqında ərizə və ya şikayətlə eyni vaxtda verilə bilər. M.i. təqsirləndirilən şəxsə və ya onun əməlinə görə üzərinə əmlak məsuliyyəti qoyula bilən şəxsə verilir. İddia yalnız yazılı formada verilə bilər.

**Mülki iddiaçı** *(cinayət prosesində)* – cinayət-prosessual qanunvericiliyə görə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi nəticəsində maddi ziyan vurulması qənaətinə gəlməyə kifayət qədər əsaslar olduqda onun cinayət mühakimə icraatı qaydasında ödənilməsi barədə cinayət işinin icraatı zamanı iddia vermiş fiziki və ya hüquqi şəxs (AR CPM-in 89.1-ci maddəsi).

M.i. qismində tanınma haqqında qərar təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən qəbul edilir. M.i. şəxsən və ya nümayəndəsi vasitəsilə öz hüquqlarından istifadə edir və vəzifələrini yerinə yetirir.

**Mülki iş** – vətəndaşların və hüquqi şəxslərin hüquqlarına və qanunla mühafizə olunan mənafelərinə toxunan mülki hüquq mübahisəsi. M.i. qanunla müəyyən edilmiş hallarda inzibati orqanların, yaxud vəzifəli şəxslərin öz səlahiyyət həddini aşmaqla etdikləri hərəkətlərdən, vətəndaşların hüquq və azadlıqlarını məhdudlaşdıran hərəkətlərindən şikayət verilməsi üzrə işdən ibarətdir. M.i. eyni zamanda da hüquqi əhəmiyyət kəsb edən faktın müəyyən edilməsinə dair məhkəmə işidir. M.i.-in 3 növü mövcuddur: 1) iddia icraatı üzrə işlər – mülki, ailə və əmək münasibətlərindən əmələ gələn mübahisələr; 2) inzibati hüquq münasibətlərindən əmələ gələn mübahisələr; 3) xüsusi icraat qaydasında işlər. M.i. maraqlı şəxsin iddia ərizəsi, şikayət və ya ərizə verməsi əsasında məhkəmədə qaldırılır.

**Mülki Məcəllə** – Azərbaycan Respublikasında mülki hüquq subyektlərinin əmlak və şəxsi-qeyri-əmlak münasibətlərini tənzimləyən, onların qanuni mənafelərini müdafiə edən, fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi həyatının və şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qoruyan, mülki dövriyyəni təmin edən, sahibkarlıq fəaliyyətini dəstəkləyən və sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaradan sistemləşdirilmiş qanunvericilik aktı (məcəllə).

AR MM 28 dekabr 1999-cu il tarixdə qəbul edilmiş, 2000-ci il sentyabrın 1-dən isə qüvvəyə minmişdir.

MM on bölmə, yetmiş dörd fəsil və 1325 maddədən ibarətdir.

**Mülki məsuliyyət** – vətəndaşın, yaxud hüquqi şəxsin mülki hüquq münasibətlərindən ibarət vəzifələri (öhdəlikləri) pozmağa görə meydana çıxan məsuliyyəti. M.m. əmlak xarakteri daşıyır. Zərərin və dəbbə pulunun (cərimənin) ödənilməsi m.m.-in ən geniş yayılmış formasıdır. M.m. həm də qeyri-əmlak xarakterli sankiyaların tətbiqi formasında həyata keçirilə bilər. M.m. kompensasiya (əvəz) xarakteri daşıyır. Buna görə də onun həcmi vurulmuş zərərin və ya ödənilən zərərin məbləğinə uyğun olmalıdır.

**Mülki müdafiə** – dinc dövrdə və ya müharibə dövründə əhalinin (Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respubliksının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) və ərazinin (Azərbaycan Respublikası ərazisinin hüdudları daxilində torpaq, su və hava məkanının, istehsal və sosial təyinatlı obyektlərin, habelə ətraf mühitin) təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilən tədbirlər sistemi.

**"Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında mülki müdafiənin hüquqi əsasını və prinsiplərini müəyyən edən, mülki müdafiə sahəsində ictimai münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 30 dekabr 1997-ci il tarixdə qəbul edilmişdir. Qanun 21 maddədən ibarətdir.

**Mülki nikah** – kilsənin (məscidin) iştirakı olmadan müvafiq dövlət hakimiyyəti orqanı tərəfindən rəsmiləşdirilən nikah. M.n.-ı bəzən faktiki nikah da adlandırırlar.

**Mülki ölüm** *(fr. morte civile)* – 1854-cü ilədək Fransada mövcud olmuş cinayət cəzası; bu cəzaya uyğun olaraq məhkum olunan şəxs bütün mülki və siyasi hüquqlardan, təbəqə imtiyazlarından və titullardan məhrum edilir, nikahı dağılırdı. Həyat və sağlamlığının mühafizəsi belə məhkumun yeganə hüququ kimi saxlanılırdı.

**Mülki proses** – mülki işlərə baxılması və həll edilməsi zamanı məhkəmə ilə məhkəmə baxışının digər subyektləri arasında yaranan, mülki-prosessual hüquq normaları ilə tənzim edilən hərəkətlərin və münasibətlərin məcmusu. M.p. geniş mənada özündə mülki-hüquqi mübahisələrin həlli üzrə həm məhkəmənin, həm də digər orqanların (münsiflər məhkəməsinin, iqtisad məhkəməsinin, inzibati orqanların) fəaliyyətini ehtiva edir.

**Mülki-prosessual hüquq** – məhkəmə tərəfindən mülki işlərə baxılması və həll edilməsi qaydasını, habelə məhkəmə qətnamələrinin və digər aktlarının, bir sıra orqanların qərarlarının icrası qaydalarını tənzim və müəyyən edən hüquq sahəsi. M.-p.h. normaları məhkəmənin, məhkəmə icraçısının və prosesin digər iştirakçılarının fəaliyyətini tənzimləyir. Mülki-prosessual qanunvericiliklə yanaşı "m.-p.h." anlayışı eyni adlı elmi və tədris fənnini – "Mülki prosesi" də əhatə edir.

**Mülki senz** – konstitusiya və ya seçki qanunu ilə müəyyən edilən tələb (kriteriyar, meyar); bu tələbə uyğun olaraq seçici, yaxud seçkili vəzifəyə namizəd həmin dövlətin vətəndaşlığına malik olmalıdır. M.s. ən geniş yayılmış seçki senzlərindən biridir və praktiki olaraq bütün dünyada tətbiq edilir. Yalnız bəzi dövlətlərdə yerli özünüidarəetmə orqanlarına seçkilərdə həmin dövlətin vətəndaşı olmayan şəxslərin iştirakına yol verilir.





**Mülki silah** – müvafiq dövlətin vətəndaşları tərəfindən özünümüdafiə məqsədilə, ov və idmanla məşğul olmaq üçün istifadə edilməkdən ötrü nəzərdə tutulan silah. M.s.-dan növbəli atəşlər açılması istisna edilir və onun darağında 10 ədəddən artıq patron ola bilməz.

**"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması ilə bağlı məsələləri insan hüquqlarının üstünlüyü və bu hüquqların təmin edilməsi üçün dövlətin məsuliyyəti əsasında qanunvericilik yolu ilə tənzimləyən qanunvericilik aktı.

Bu qanun 30 iyun 1995-ci il tarixdə qəbul edilmişdir. O, altı fəsil və 34 maddədən ibarətdir.

**Mülkiyyət əleyhinə olan cinayətlər** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə iqtisadi sahədə cinayətlər kateqoriyasına aid edilən ictimai təhlükəli əməllər. M.ə.o.c. AR CM-in doqquzuncu bölməsində (iyirmi üçüncü fəsildə) nəzərdə tutulmuşdur. Oğurluq (CM-in 177-ci maddəsi), dələduzluq (178-ci maddə), mənimsəmə və ya israf etmə (179-cu maddə), soyğunçuluq (180-ci maddə), quldurluq (181-ci maddə), hədə-qorxu ilə tələb etmə (182-ci maddə), xüsusi dəyəri olan əşyaları talama (183-cü maddə), aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə əmlak ziyanı vurma (184-cü maddə), talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə (185-ci maddə), əmlakı qəsdən məhv etmə və ya zədələmə (186-cı maddə), əmlakı ehtiyatsızlıqdan məhv etmə və ya zədələmə (187-ci maddə), torpaq üzərində mülkiyyət hüququnu pozma (188-ci maddə) və telefon xətlərinə qanunsuz daxil olmaqla danışıqlar aparma (189-cu maddə) m.ə.o.c.-ə daxildir.

**Mülkiyyət hüququ** – Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada və şərtlərlə yaranan hüquq. M.h.-na görə mülkiyyətçi özünə məxsus əmlaka öz mülahizəsi əsasında sahiblik, ondan istifadə etmək və onun üzərində sərəncam vermək hüququna malikdir. Mülkiyyətçi bu hüquqları başqa şəxsə verə bilər, əmlakdan girov kimi və ya əməli idarəçilik üçün başqa şəxsə verə bilər, habelə öz əmlakı barəsində qanuna zidd olmayan istənilən hərəkətləri etməyə haqlıdır. Mülkiyyətçi əmlakdan hər hansı sahibkarlıq fəaliyyəti üçün istifadə edə bilər və qanunla qadağan olunmamış digər fəaliyyətlə məşğul olmaq məqsədləri üçün istifadə edə bilər. M.h. 14.05.2004-cü ilə qədər Azərbaycan Respublikasının "Mülkiyyət haqqında" 9 noyabr 1991-ci il tarixli qanunu ilə tənzim edilirdi. Bu tarixdən etibarən bu hüquq AR MM-dətənzimlənir. Azərbaycan Respublikasında mülkiyyət dövlət mülkiyyətindən, bələdiyyələrin mülkiyyətindən, kollektiv mülkiyyətdən və xüsusi (şəxsi) mülkiyyətdən ibarətdir.

**Mültəzim** *(bax: iltizam).*

**Münsiflər məhkəməsi** – mübahisənin bütün iştirakçılarının xüsusi sazişi ilə təşkil edilən məhkəmə. Vətəndaşlar, əmək və ailə münasibətlərindən irəli gələn mübahisələr istisna olmaqla, aralarında baş vermiş hər hansı mübahisəni m.m.-nində baxılmağa verə bilərlər. M.m. tərəflərin mülahizə-

sinə görə hər bir tərəfin eyni sayda seçdiyi bir hakimdən və ya bir neçə hakimdən və tərəflərin ümumi seçiminə görə bir hakimdən ibarət tərkibdə təşkil edilir. M.m.-nin qətnaməsi səs çoxluğu ilə qəbul olunur. Qətnamə bütün hakimlər (hakim) tərəfindən imzalanır. İmzadan imtina edən hakim qətnaməyə öz xüsusi rəyini əlavə edir. M.m. öz əsasnaməsi ilə fəaliyyət göstərir.

**Müsabiqə** *(ər. yarış)* – **1)** kommersiya müsabiqəsi – hərracla yanaşı ticarətin formalarından biri. Müsabiqə komissiyasının rəyinə görə ticarətin təşkilatçısı tərəfindən qabaqcadan təyin edilən, ən yaxşı şərti təklif edən şəxs müsabiqənin qalibi hesab olunur; **2)** ali məktəblərdə və tədqiqat müəssisələrində boş olan yerlərin tutulması üçün verilmiş elan əsasında keçirilən tədbir; **3)** xarici (beynəlxalq) terminologiyada və Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında tender adlandırılan terminin sinonimi.

**Müsabiqə icraatı** – iqtisad (arbitraj) məhkəməsi tərəfindən müflisləşmiş şəxs kimi tanınan borcluya kreditorun tələbini müvafiq (bərabər) olaraq təmin etmək məqsədilə tətbiq edilməli olan müflisləşmə qaydası. Borclunu müflis olmuş şəxs qismində tanıyan və m.i.-nı açıq elan edən iqtisad (arbitraj) məhkəməsi müsabiqə idarəedicisi təyin edir. Borclunun işlərinin idarə edilməsi üzrə bütün səlahiyyətlər, o cümlədən onun əmlakı üzərində sərəncam vermək səlahiyyəti müsabiqə idarəedicisinə keçir.

Müsabiqə idarəedicisi müsabiqə kütləsi toplayır. Bu məqsədlə o, borclu qarşısında borcu olan üçüncü şəxslərə tələblər verir, borclunun əmlakının axtarışı, aşkar edilməsi və geri qaytarılması istiqamətində tədbirlər görür, habelə digər tədbirləri həyata keçirir. Müsabiqə idarəedicisi kreditorların tələblərini nəzərdən keçirir. Kreditorlarla idarəedici arasında tələblərin miqdarı və onların növbəliliyinin təmin edilməsi üzrə fikir ayrılıqlarına iqtisad (arbitraj) məhkəməsində baxılır. Borclunun əmlakının realizə edilməsindən sonra müsabiqə idarəedicisi kreditorlarla növbəlilik qaydasında hesablaşmalar aparır.

**Müsabiqə idarəedicisi** *(bax: müsabiqə icraatı).*

**Müsabiqə immuniteti** – borclunun müflis olduğunun və müsabiqə icraatının elan olunduğu andan kreditorlardan heç birinin borcluya qarşı sair tələbi həyata keçirə bilməməsini bildirən anlayış. Müsabiqə kreditorları öz tələblərini ancaq müsabiqə icraatı üçün müəyyən edilmiş qaydalar üzrə həyata keçirə bilərlər. Borclunun hər hansı əmlakının ayrı-ayrı kreditorların xeyrinə həbsinə və ya alınmasına yol verilmir. M.i. ancaq kreditorlara münasibətdə və yalnız müsabiqə icraatı gedişində qüvvədə olur. Müsabiqə icraatı başa çatdıqdan sonra kifayət qədər təminatlanmayan kreditorlar, yaxud heç nə əldə etməyən ayrı-ayrı kreditorlar öz tələblərini müstəqil surətdə adi iddia qaydasında verə bilərlər.

**Müsabiqə kreditorları** – həyat və sağlamlığa ziyan vurulmasına görə borclunun qarşılarında məsuliyyət daşıdığı vətəndaşlar, habelə borclunun təsisçiləri (iştirakçılar) – belə iştirakdan irəli gələn öhdəliklər üzrə hüquqi şəxslər istisna olmaqla, pul öhdəlikləri üzrə kreditorlar.

**Müsabiqə kütləsi** – müflisləşmiş borclunun əmlakı; müsabiqə icraatı gedişində kreditorların pretenziyaları həmin əmlak hesabına ödənilir (təmin edilir). M.k. borclunun balansında olan sosial-mədəni sfera obyektləri də daxil olmaqla, onun bütün əmlakını əhatə edir. Mənzil fondu, məktəbəqədər uşaq müəssisələri, həmin region üçün həyati əhəmiyyəti olan ayrı-ayrı istehsalat obyektləri və kommunal infrastrukturlar istisnalıq təşkil edir. Borclunun icarəyə götürdüyü və ya saxlamaq üçün məsuliyyət daşıdığı əmlak, habelə idarə işçilərinin əmlakı m.k.-nin obyekti ola bilməz.





**Müsadirə** *(bax: əmlak müsadirəsi).*

**Müsbət aksept** – ödəniş tələblərinin ödəyicinin bankına daxil olması ilə əməliyyat günü ərzində ödənilən aksept (aksept ödənişdən sonra aparılır).

**Müsəlman hüququ** – VII-X yüzilliklərdə Ərəb Xilafətində təşəkkül tapmış hüquq sistemi; yalnız müsəlman dünyasında qüvvədədir. Quran, Sünnə, İcma, Qiyas, Fitva və adətlər m.h.-nun mənbələri hesab olunurlar. Quran və Sünnə əsas mənbələrdir. M.h. presedentli hüquqdur. Müsəlman hüququ (əsasən şəriət normaları) islam aləminin bütün sahələrinə aid olan ictimai münasibətləri tənzim edir.

M.h. özünün ən ilk mövqeyini müasir dövrdə yalnız ayrı-ayrı (məsələn, Səudiyyə Ərəbistanında, Birləşmiş Ərəb Əmirliklərində, Küveytdə və İordaniyada) ərəb ölkələrində saxlamışdır. Müsəlman ölkələrinin əksəriyyətində (məsələn, Misirdə, Bəhreyndə, Suriyada) m.h. ictimai münasibətlərin yalnız ayrı-ayrı sferasını, məsələn, hüquq subyektliyini, nikahı, vərəsəliyi, vəsiyyət və i.a. tənzimləyir. Bu ölkələrdə hüquq sisteminin ayrı-ayrı sahələrini roman-german və ya ümumi hüquq sistemindən əxz edilmiş qanunvericilik əhatə edir. Lakin hazırda bir sıra müsəlman dövlətlərində, o cümlədən Əfqanıstanda, İranda, Sudanda, Pakistanda, Liviyada və Yəməndə 1980-1990-cı illərdə m.h. öz təsir dairəsini daha da genişləndirmişdir. O cümlədən cinayət hüququ islamlaşdırılmışdır.

**Müstəqil Dövlətlər Birliyi (MDB)** - Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında 1991-ci il dekabrın 8-də Belarusiyanın paytaxtı Minsk şəhərində imzalanmış saziş əsasında yaradılan dövlətlərarası birlik. Sazişin imzalanmasında SSRİ-nin üç respublikasının – RSFSR-in, Belarusiya SSR-in və Ukrayna SSR-in nümayəndələri iştirak etmişdir. Saziş RSFSR Ali Sovetinin qərarı ilə 1991-ci il dekabrın 12-də ratifikasiya edilmişdir. MDB-nin 1993-cü il yanvarın 22-də Minskdə qəbul edilmiş nizamnaməsi həmin il aprelin 12-də Rusiya Federasiyasının Ali Soveti tərəfindən ratifikasiya edilmişdir.

MDB-də keçmiş SSRİ-nin 12 respublikası – Rusiya Federasiyası, Ukrayna, Qazaxıstan, Özbəkistan, Belarus, Azərbaycan, Gürcüstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Moldova və Ermənistan respublikaları iştirak edirlər. MDB orqanlarının rəsmi görüş yeri Minsk şəhəridir. MDB-nin əsas institutları (məşvərətçi və əlaqələndirici orqanları) aşağıdakılardır: a) Birlik Dövlət Başçılarının Şurası; b) Hökumət Başçılarının Şurası; c) MDB-nin İcraedici Katibliyi; ç) Beynəlxalq İqtisadi Komitə; d) MDB-nin İqtisad Məhkəməsi; e) MDB-nin İştirakçı Dövlətlərinin Parlamentlərarası Məclisi.

**Müstəmləkə** – xarici dövlətin (metropoliyanın) hakimiyyəti altında olan, xüsusi rejim əsasında siyasi və iqtisadi müstəqillikdən və idarəetmədən məhrum edilən dövlət və ya ərazi.

**Müstəmləkəçilik** – bəşəriyyət əleyhinə yönəldilən beynəlxalq cinayət; dənizətrafı əraziləri soymaq və iqtisadi cəhətdən is-

tismar etmək məqsədi ilə həmin ərazilərin zəbt olunmasında və yerli əhalinin əsarət altına alınmasında ifadə olunur.

Müasir dövrdə m. sistemi ləğv edilmiş, demək olar ki, bütün keçmiş müstəmləkələr istiqlaliyyət əldə etmişdir. ABŞ-ın, Böyük Britaniyanın, Fransanın, Niderlandın və bir sıra başqa ölkələrin müstəmləkəsi altında müstəmləkə kimi baxıla bilən kiçik ərazilər (başlıca olaraq adalar) qalmışdır. Lakin həmin ərazilərin əhalisi metropoliyanın əhalisinin malik olduqları və bu hüquqlara yaxın olan hüquq və azadlıqlara malikdirlər. Onlar yerli özünüidarə hüquqlarından geniş istifadə etməklə yanaşı, metropoliya ölkələrdən maliyyə-iqtisadi yardım da alırlar. Məhz bunun sayəsində m.-in faktiki olaraq klassik bir beynəlxalq cinayət növü kimi ləğvindən danışmaq olar.

**Müstəntiq** – cinayət-prosessual qanunvericiliyə görə qanunun tələblərini rəhbər tutaraq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun qanuni göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edən, istintaq hərəkətlərini və digər prosessual hərəkətləri həyata keçirən vəzifəli şəxs (AR CPM-in 85.1-ci maddəsi).

İbtidai istintaqı apararkən m. təqsirləndirilən şəxs qismində cəlb edilməsi, qətimkan tədbirinin seçilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi, cinayətin tövsifi, ittihamın həcmi, işin icraatına xitam verilməsi və ya məhkəməyə göndərilməsinə dair ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişi, yaxud qərarı ilə razılaşmadıqda öz əsaslandırılmış etirazını yuxarı prokurora göndərməyə haqlıdır. Bu halda yuxarı prokuror onun dəlilləri ilə razılaşır və ya razılaşmayaraq ibtidai istintaqın aparılmasını başqa müstəntiqə tapşırır. Prokurorun yazılı göstərişlərindən edilən etiraz bu göstərişlərin icrasını dayandırmır (AR CPM-in 85.5-ci maddəsi).

**Müstəsna aidiyyət** – qanunun məlum kateqoriya işləri ancaq hər hansı bir növdən olan orqanların (məsələn, ancaq məhkəmə aidiyyəti) ixtiyarına aid etməsini əks etdirən aidiyyət.

**Müstəsna cəza** *(bax: ölüm cəzası).*

**Müstəsna hüquq** – yalnız müəyyən bir dövlət orqanına, yaxud vəzifəli şəxsə verilmiş hüquq. Məsələn, Azərbaycan Respublikasında qanunların qəbul edilməsi Azərbaycan Respublikası Milli Məclisinin, yaxud fövqəladə vəziyyət rejiminin tətbiq edilməsi Azərbaycan Respublikası Prezidentinin müstəsna hüququdur.

**Müşahidəçi** – Azərbaycan Respublikasının seçki qanunvericiliyinə görə seçkilərin (referendumun) keçirilməsi zamanı seçkiləri (referendumu) müşahidə etmək üçün siyasi partiyalar, qeyri-hökumət təşkilatları, referendum üzrə təşviqat qrupları, namizədlər tərəfindən təyin edilən və Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada müvafiq seçki (referendum) komissiyasında qeydə alınmış şəxs (AR SM-in 1.1.19-cu maddəsi).

**Müşahidə məntəqəsi** *(hərbdə)* – düşmən tərəfinin və öz qoşunlarının hərəkətini müşahidə etmək üçün hazırlanmış xüsusi yer. Komandir m.m.-ndə olduqda, həmin yer bölmələri idarə məntəqəsinə çevrilir.

**Müşavir** *(bax: ədliyyə müşaviri).*





**Müşavirə otağı** – Azərbaycan Respublikasında məhkəmənin baxdığı iş üzrə hökm, qətnamə, qərar və ya qərardad çıxarılması üçün xüsusi ayrılmış otaq. Müşavirə zamanı m.o.-nda yalnız həmin iş üzrə məhkəmə heyətinin tərkibinə daxil olan şəxslər (hakimlər və andlı iclasçılar) ola bilər. M.o. sirrinin pozulması məhkəmənin hökm, qətnamə və qərardadının ləğvinə səbəb olur.

**Müşavirlər palatası** - Yaponiya parlamentinin yuxarı palatasının adı. M.p. 252 deputatdan ibarətdir. Tərkibinin yarısı hər 3 ildən bir təzələnir.

**Müştərək məsuliyyət** *(bax: mülki məsuliyyət).*

**Müştərək müqavilə** - 1904-cü ildə Rusiyada sahibkarlarla fəhlələr arasında bağlanmış ilk müqavilə. M.m. 1904-cü ildə Bakıda da bağlanmışdır. Müqavilənin əsas şərtləri 8 saatlıq iş gününə keçirilməsindən, əməkhaqqının artırılmasından, ayda 4 gün istirahət gününün və ildə bir aylıq məzuniyyətin müəyyən edilməsindən ibarət olmuşdur. Xəstəlik günləri üçün əməkhaqqı verilməsi, mənzil şəraitinin yaxşılaşdırılması, fəhlələrin evlərində axtarışların aparılmasının ləğv edilməsi və i.a. fəhlələrin əsas tələbləri kimi m.m.-də öz ifadəsini tapmışdır.

**Mütə** *(islamda)* – müəyyən müddətə (bir gündən 99 ilədək) bağlanan müvəqqəti, müqaviləli nikah; boşanma zamanı qadına mükafat verilməsi nəzərdə tutulurdu. M. islamaqədərki Ərəbistanda adi hal olmuşdur. Lakin zaman keçdikcə m. mənəviyyatsız nikah forması kimi qiymətləndirilməyə başlamışdır. M. nikahına görə qadın möhr əvəzinə saxlanırdı. Lakin hüquqi vəziyyətinə görə belə nikahla ərdə olan qadın mehrlə saxlanan arvada bərabər tutulurdu.

**Mütəxəssis** - cinayət-prosessual qanunvericiliyə görə cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında istintaq hərəkətlərinin və digər prosessual hərəkətlərin aparılmasında elm, texnika, incəsənət və digər peşə sahəsindəki xüsusi bilik və bacarığından istifadə edərək kömək göstərmək üçün cinayət prosesini həyata keçirən orqan tərəfindən təyin edilmiş şəxs (AR CPM-in 96.1-ci maddəsi). Yetkinlik yaşına çatmamış zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsin, habelə şahidlərin dindirilməsində iştiraka dəvət olunmuş müəllim-pedaqoq (təlim-tərbiyəçi) m. hesab olunur.

Hər hansı şəxs cinayət prosesində müəyyən hüquqi məsələlər üzrə məsləhətlər verən mütəxəssis qismində iştirak edə bilməz. M. yalnız öz bilik sahəsinə dair məsləhətlər verə bilər. M.-in ifadə etdiyi fikir və mülahizələr ekspert rəyi kimi qəbul oluna, yaxud onu əvəz edə bilməz. M.-in öz vəzifələrini icra etməməsi, yaxud bundan imtina etməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Mütəşəkkil cinayətkarlıq** - uzun müddətə hesablanan və başlıca olaraq iqtisadiyyat sahəsində peşə növündə törədilən sistematik cinayətkar fəaliyyət; bu fəaliyyətin strategiya və taktikası yüksək mənfəət əldə edilməsi və ictimai həyatın müəyyən sahəsinə təsir göstərmək üçün cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən planlaşdırılır və həyata keçirilir. Cinayətkar təşkilatlar bəzən həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə müəyyən struktura malik olurlar. M.c., hər şeydən əvvəl, qeyri-leqal malların və xidmətlərin dövriyyəsini əlaqələndirir və ona nə-

zarət edir. Belə malların və xidmətlərin dövriyyəsi bir tərəfdən qanunvericiliklə qadağan edilir, digər tərəfdən isə cəmiyyətin fiziki və mənəvi sağlamlığı üçün böyük təhlükə törədir. Məsələn, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-leqal dövriyyəsi, qaçaqmalçılıq və i.a. M.c.-ın xüsusi təhlükəliliyi ondan ibarətdir ki, o, beynəlxalq səviyyədə demək olar ki, nəzərə çarpmadan işgüzar aləmdə hökmran mövqeyə malik olur. "Kripo" işçi qrupu tərəfindən yaradılmış ekspert komissiyası hələ də m.c.-də tərif verməyə nail ola bilməmişdir. Həmin komissiya öz məzmunu ilə m.c.-ın mövcudluğuna işarə edən əlamətlərin siyahısını tərtib etmişdir. Hansı əlamətlərin məcmusunun olması sayəsində m.c. haqqında danışmağın mümkünlüyü barədə ekspertlər arasında vahid fikir yoxdur. Buna görə də m.c. bəzən qrup cinayətkarlıqla eyniləşdirilir.

**Mütəşəkkil dəstə** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə bir neçə cinayətin törədilməsi üçün qabaqcadan birləşmiş iki və ya daha çox şəxsdən ibarət olan sabit cinayətkar qrup.

**Mütəşəkkil qrup** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə cinayətin törədilməsi üçün qabaqcadan razılaşmaqla və əlbir olan iki və ya daha çox şəxsin birliyi. M.q. yaratmış, yaxud ona rəhbərlik etmiş şəxs AR CM-in xüsusi hissəsinin müvafiq maddələri ilə nəzərdə tutulmuş hallarda onun təşkilatçısı və rəhbəri kimi cinayət məsuliyyətinə cəlb edilir. M.q.-un digər iştirakçıları AR CM-in xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda belə qrupda birgə iştiraklarına və həmçinin hazırlanmasında və ya törədilməsində iştirak etdikləri cinayətə görə cinayət məsuliyyəti daşıyırlar (AR CM-in 34.2-ci maddəsi).

**Mütəzərrir** *(bax: zərər çəkmiş şəxs).*

**Mütləq hüquqlar** – subyektiv hüquqlar. M.h.-ın daşıyıcısına qarşı çıxan şəxslərin sayı qeyri-müəyyən olur. Qanuna görə m.h. hər bir kəsdən müdafiə edilir, yəni onlar qeyri-müəyyən dairədə olan şəxslərdən qorunur. Çünki m.h-u hamı poza bilər. Bir sıra əmlak hüquqları (məsələn, mülkiyyət hüququ), habelə bütün şəxsi qeyri-əmlak hüquqları m.h.-a aiddir. Bəzi hüquq münasibətlərində m.h. nisbi hüquqlarla birləşir.

**Mütləq xəta** *(bax: xəta).*

**Mütləqiyyət (mütləq monarxiya)** – feodal dövlətin son idarəçilik forması. M. feodal münasibətlərinin dağıldığı və burjua münasibətlərinin təşəkkül tapmağa başladığı dövrdə meydana gəlmişdir. Mütləq monarxın qeyri-məhdud hakimiyyəti, dövlət hakimiyyətinin mərkəzləşməsi və geniş bürokratik dövlət aparatı, daimi ordu, məhkəmə, polis yaradılması ilə səciyyəvi olan m. müəyyən tarixi mərhələdə mütərəqqi rola malik olmuşdur. Burjua münasibətlərinin möhkəmlənməsi nəticəsində m. onun inkişafına manə olan idarəçilik forması kimi öz əhəmiyyətini tədricən itirməyə başlamışdır. XVII-XVIII yüzilliklərin erkən burjua inqilabları dövründə İngiltərə və Fransada m. ləğv edilmişdir. Rusiyada isə m. bir qədər gec – 1917-ci ilin fevralında (burjua inqilabı nəticəsində) süqut etmişdir.

**Mütləq məsuliyyət** *(beynəlxalq hüquqda)* – beynəlxalq-hüquqi məsuliyyətin bir növü. M.m. beynəlxalq hüquq subyektinin digər subyektə vurduğu maddi zərəri ödə-





mək öhdəliyindən ibarətdir. M.m. bəzən obyektiv məsuliyyət də adlandırılır. Bu məsuliyyətin meydana çıxması üçün əsasa konkret sahədə xüsusi beynəlxalq müqavilə xidmət edir. O elə müqavilədir ki, ondan irəli gələn öhdəliklərin pozulması maddi zərərin ödənilməsini zəruri edir.

**Mütləq veto** *(bax: veto).*

**Mütləq votum** – bəzi dövlətlərdə hüquq qabiliyyəti olan bütün vətəndaşların dövlət hakimiyyət orqanlarına cərimə hədəsi altında seçkilərdə iştirakını nəzərdə tutan hüquqi vəzifə.

**Mütləq yurisdiksiya** – beynəlxalq müqavilə iştirakçılarının istənilən və ya bəzi məsələlər üzrə aralarında yaranmış mübahisəni könüllü olaraq müqavilədə müəyyən edilmiş beynəlxalq məhkəmə orqanına və ya beynəlxalq arbitraja vermək üzrə öz üzərlərinə götürdükləri öhdəlik.

**Müttəhim** *(bax: təqsirləndirilən şəxs).*

**Müvəqqəti başqa yerə getmə** – kirayəçinin (mənzil-tikinti kooperativində payçının və ya onun ailə üzvlərinin) və ya onun ailə üzvlərinin müvəqqəti başqa yerə getməsi. Müvəqqəti başqa yerə gedən vətəndaşların yaşayış sahəsi aşağıdakı hallarda daha uzun müddətə saxlanılır: 1) müddətli həqiqi hərbi xidmətə çağırıldıqda; 2) ezamiyyətə göndərildikdə; 3) uşaqlar tərbiyə edilmək üçün dövlət uşaq müəssisəsinə göndərildikdə; 4) qəyyumluq (himayəçilik) vəzifəsinin yerinə yetirilməsi üçün getdikdə; 5) müalicə üçün getdikdə; 6) həbsdə olduqda, yəni istintaqda və ya məhkəmədə olduğu bütün müddət ərzində; 7) altı aydan artıq müddətə azadlıqdan məhrumetməyə məhkum edildikdə, sürgün olunduqda və köçürməyə məhkum edildikdə – hökm icra edilənədək.

**Müvəqqəti işlər vəkili** – diplomatik nümayəndəliyin başçısının vəzifələrini müvəqqəti icra edən diplomat. M.i.v.-nin hüquqi statusu ilk dəfə diplomatik əlaqələr haqqında 1961-ci il tarixli Vena konvensiyasında verilmişdir. M.i.v. nümayəndəliyin başçısı postu boş olduqda və ya o öz funksiyalarını yerinə yetirə bilmədikdə təyin edilir. Onun soyadı Xarici İşlər Nazirliyinə nümayəndəliyin başçısı tərəfindən, bir qayda olaraq, ölkədən getmə ərəfəsində şəxsi məktub vasitəsilə bildirilir. Bəzi protokol təntənələrindən başqa, m.i.v. diplomatik nümayəndəliyin başçısının bütün hüquq və imtiyazlarından istifadə edir.

**Müvəqqəti sakinlər** *(mənzil hüququnda)* – yaşayış sahəsinin kirayəçisinin və onun ailə üzvlərinin qarşılıqlı razılığı əsasında, əsas kirayəçidən kirayəyə götürmə müqaviləsi bağlamadan və sahə üçün istifadə haqqı verməyən vətəndaşlar. M.s. kirayəçinin və ya onun ailə üzvlərinin tələbi ilə yaşayış sahəsini dərhal boşaltmalıdırlar. M.s. bundan imtina etdikdə, məhkəmə qaydasında çıxarılırlar və onlara başqa yaşayış sahəsi verilmir.

# -N-


Nağd mal ... 789
Nağdsız hesablaşmaların formaları ... 789
Nağdsız qiymətli kağız ... 789
Nağdsız pul dövriyyəsi ... 789
Nağdsız pullar ... 789
Nağd və nağdsız hesablaşmalar ... 789
Naqan ... 789
Naib ... 789
Naiblik ... 789
Namizədlik minimumu ... 790
Napoleon Məcəlləsi ... 790
Narkobiznes ... 790
Narkomafiya ... 790
Narkoman ... 790
Narkomanlıq ... 790
Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Komitə ... 790
Narkotik vasitələr (narkotiklər) ... 791
"Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikasının qanunu ... 791
Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə ... 791
Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama ... 791
Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş pul vəsaitini və ya digər əmlakı leqallaşdırma ... 792
Narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları talama və ya hədə-qorxu ilə tələb etmə ... 792
Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma ... 792
Narkotizm ... 792
Naşir ... 792
Natamam iş vaxtı ... 792
Natural əməkhaqqı ... 793
Naturallaşdırma ... 793
Natural öhdəliklər ... 793
Natural vergi ... 793
Nazir ... 793
Nazirlər kabineti ... 793
Nazirlik ... 793
Nazir-sədr ... 794
Neksum ... 794
Neqator iddia ... 794
Neqosiant ... 794
Neqosiya ... 794
Nemezida (nemesida) ... 794
Neofaşizm ... 794
Nepotizm ... 794
Netto ... 794
Nevrozlar ... 794
Neytrallıq ... 795
Nəqliyyat ... 795
Nəqliyyatda biletsiz getmə ... 795
Nəqliyyatda sığorta ... 795
Nəqliyyat ekspedisiyası ... 795
Nəqliyyat ekspedisiyası müqaviləsi ... 795
"Nəqliyyat haqqında" Azərbaycan Respublikasının qanunu ... 795
Nəqliyyat hüququ ... 796







Nəqliyyat qaiməsi ... 796
Nəqliyyat müəssisəsi ... 796
Nəqliyyat vasitələri ... 796
Nəqliyyat vasitələrini keyfiyyətsiz təmir etmə və ya onları texniki cəhətdən nasaz vəziyyətdə işə buraxma ... 796
Nəqliyyat vasitələrinin istismarının qadağan edilməsi ... 796
Nəqliyyat vasitələrinin saxlanılması ... 796
Nəqliyyat vasitələrinin təhlükəsiz işlənməsini təmin edən qaydaları pozma ... 797
Nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma ... 797
Nəqliyyat vasitəsində biletsiz sərnişin aparılması ... 797
Nəqliyyat vasitəsinə baxış
Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrumetmə ... 797
Nəsil ... 797
Nəşriyyat ... 797
Nəşriyyat işi ... 797
"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının qanunu ... 798
Nəşriyyat məhsulu ... 798
Nəşriyyat müqaviləsi ... 798
Nəşriyyat proqramı ... 798
Nəşriyyat redaksiyası ... 798
Nəvvab ... 798
Nəzarət ... 798
Nəzarət altına vermə ... 798
Nəzarət hakimiyyəti ... 798
Nəzarətsiz heyvanlar ... 799
Nəzarət Şurası ... 799
Nəzarət-təftiş komissiyası ... 799
Nikah ... 799
Nikahın etibarsızlığı ... 799
Nikahın məhkəmə qaydasında pozulması ... 800
Nikahın pozulması ... 800
Nikah müqaviləsi ... 800
Nikah yaşı ... 800
Ninqidrin ... 800
Nisbi hüquqlar ... 801
Nisyə satılmış əşyanın ödənilməsi ... 801
Nişan (nişanlanma) ... 801
Nişangah ... 801
Nizam ... 801
Nizami ordu ... 801
Nizamnamə ... 801
Nizamnamə fondu ... 802
Nizamnamə kapitalı ... 802
Nizə ... 802
Nizəatan ... 802
Nobilitet ... 802
Nobillər ... 802
Noqay Ordası ... 802
Nom ... 802
Nomarx ... 803
Nominal ... 803
Nomokanon ... 803
Nomos ... 803
Nonvalyor ... 803
Nonkombatantlar ... 803
Norma ... 803
Normal məktəb ... 803
Normativ akt ... 803
Normativ hüquqi aktın dili ... 803
Normativ hüquqi aktın strukturu ... 804
"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının qanunu ... 804
Normativ hüquqi aktların dərci ... 804
Normativ hüquqi aktların qüvvəyə minməsi ... 805
Normativ hüquqi aktların məkana və subyektlərə görə qüvvəsi ... 805
Normativ hüquqi aktların şərhi ... 805
Normativizm ... 805
Normativizm hüquq məktəbi ... 806
Normativlər ... 806
Normativ təfsir ... 806
Notariat vəsiyyətnaməsinin üstünlüyü ... 806

Nortabllar ........ 806
Nostro ........ 806
Nostro hesabı ........ 806
Nota ........ 806
Notabli ........ 806
Notarial akt ........ 806
Notarial dairə ........ 806
Notarial əqd ........ 807
Notarial hərəkətlər ........ 807
Notarial ödəmə ........ 807
Notarial palata ........ 807
Notarial sirr ........ 807
Notariat ........ 807
"Notariat haqqında"
Azərbaycan Respublikasının qanunu ........ 807
Notarius ........ 808
Notariusa bərabər tutulan şəxslər ........ 808
Notifikasiya ........ 808
Notis ........ 808
"Nou-hau" ........ 808
Novasiya ........ 809
Novellalar ........ 809
Novruzi ........ 809
Noyon ........ 809
Nökərlər ........ 809
Növbəli aksept ........ 809
Nunçaku ........ 809
Nunsi ........ 809
Nümayəndələr palatası ........ 809
Nümayəndəliklər və filiallar ........ 810
Nümayəndə təyin etmək hüququ ........ 810
Nürnberq prosesi ........ 810








**Nağd mal** - faktiki mövcud olan mal; təcili əqdlərin obyekti olan mallardan fərqli olaraq n.m. dərhal və ya şərtləşdirilmiş müddətdə tədarük oluna bilər.

**Nağdsız hesablaşmaların formaları** - mülki qanunvericiliyə görə nağdsız hesablaşmalar aparılarkən ödəniş tapşırıqları ilə, akkreditiv üzrə hesablaşmalara, inkassa üzrə, çeklərlə, ödəniş kartları ilə, elektron şəklində hesablaşmalara, habelə qanunla, qanuna uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə və bank təcrübəsində tətbiq edilən işgüzar dövriyyə adətləri ilə nəzərdə tutulmuş digər formalarda hesablaşmalara yol verilir (AR MM-in 972-ci maddəsi).

**Nağdsız qiymətli kağız** - qeydə alınması və əlaqədar hüquqların verilməsi xüsusi hesablar üzrə qeydlərin edilməsi yolu ilə həyata keçirilən qiymətli kağızlar. N.q.k.-lar belə bir xüsusiyyətə malikdirlər ki, onlarla bağlı əqdlərin bağlanması qiymətli kağızların sertifikatlarının fiziki yerləşdirilməsi tələb olunmur.

**Nağdsız pul dövriyyəsi** - pul dövriyyəsinin bir hissəsi; kredit müəssisələrində pulların hesablar üzrə və qarşılıqlı tələblərə görə köçürülməsi.

**Nağdsız pullar** - banklarda, yeni əsaslı qoyuluşun maliyyələşdirilməsi üçün hesablaşma hesablarında, cari, cari valyuta, müxbir hesablarında müştərilərin müxtəlif hesablarının kredit qalıqlarını ifadə edən iqtisadi kateqoriya.

**Nağd və nağdsız hesablaşmalar** - nağd pulla və ya bunsuz aparılan hesablaşmalar. Mülki qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin iştirakı ilə hesablaşmalar onların sahibkarlıq fəaliyyətini həyata keçirməsi ilə bağlı deyilsə, məbləğ məhdudlaşdırılmadan nağd pullarla və ya nağdsız qaydada aparıla bilər. Hüquqi şəxslər arasında hesablaşmalar, habelə fiziki şəxslərin iştirakı ilə aparılan və onların sahibkarlıq fəaliyyətini həyata keçirməsi ilə bağlı olan hesablaşmalar nağdsız qaydada icra edilir. Nağdsız hesablaşmalar banklar, müvafiq hesabların açıldığı başqa kredit təşkilatları vasitəsi ilə aparılır, bu şərtlə ki, hesablaşmaların istifadə edilən forması ilə başqa qayda şərtləşdirilməsin (AR MM-in 971-ci maddəsi).

**Naqan** - belçikalı silah ustası L.Naqan tərəfindən XIX yüzilliyin sonunda hazırlanmış tapança. 1895-ci il nümunəsi (7,62 mm kalibri) bir çox ordularda geniş yayılmışdır. N.-ın 7 patronluq sandıqçası olur. Atəş məsafəsi 100 metrədəkdir. Hazırda n. avtomat tapançalarla (pistoletlə) əvəz edilmişdir.

**Naib** *(ər. əvəz edən, müavin, canişin, vali)* - orta əsr müsəlman dövlətlərində əyalət hakimi (hökmdarın, əmirin, xanın müavini). Osmanlı imperiyasında n.-lər əsasən şəriət hakiminin (qazının) və ya baş qazının müavini vəzifəsini icra edirdilər. Qafqaz xalqlarının Rusiya çarizminin müstəmləkə siyasəti əleyhinə mübarizəsi dövründə Şeyx Şamilin hərbi-inzibati müvəkkilləri də n. adlanırdı. Azərbaycanda xanlıqlar dövründə n.-lər mahal hakimi vəzifəsini icra edirdilər. Müasir dövrdə bəzi Yaxın Şərq ölkələrində hər hansı rəisin və ya nüfuzlu ruhaninin müavinləri, habelə yerli polis idarəsinin rəisi n. adlanır.

**Naiblik** - orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbay-

canda inzibati-ərazi vahidi. N. bir növ mahal termininin sinonimi kimi işlədilmişdir. Naibin idarə etdiyi inzibati-ərazi vahidi n. adlandırılırdı.

**Namizədlik minimumu** – ali məktəblərdə və elmi-tədqiqat institutlarında aspirantların və dissertantların elmlər namizədi alimlik dərəcəsi almaq üçün verdikləri imtahan. N. m. adətən, fəlsəfədən, xarici dillərdən birindən və ixtisasdan verilir. N. m. verən şəxs namizədlik dissertasiyasını müdafiə etmək hüququ əldə edir.

**Napoleon Məcəlləsi** *(code civil)* – 1804-cü ildə Napoleonun bilavasitə iştirakı ilə tərtib edilmiş Fransa Mülki Məcəlləsinin adı. Məcəllə Fransada burjua münasibətlərinin qələbəsini təsbit edən qanunvericilik aktlarından biridir. 1807-ci ildə məcəlləyə "Napoleon Məcəlləsi" adı verilmişdir. Napoleon devrildikdən sonra o, 1816-cı ildə "Mülki Məcəllə" adı ilə nəşr edilmişdir. 1852-ci il dekreti ilə ona yenidən "Napoleon Məcəlləsi" adı verilmişdir. Fransada respublika quruluşu bərqərar olduqdan sonra o, yenidən Mülki Məcəllə adlandırılmışdır. N.M. 3 kitabdan ibarətdir. Birinci kitabda şəxslər (şəxsi hüquq, ailə hüququ), ikinci kitabda əmlak, mülkiyyət hüququ, servitutlar, üçüncü kitabda isə mülkiyyət hüququnun əldə edilməsinə dair (vərəsəlik, bağışlama, vəsiyyət, təminat vasitələri, müddətlər) müxtəlif normalar nəzərdə tutulur. N.M. artıq 200 ildir ki, mövcuddur.

**Narkobiznes** – müvafiq ölkənin milli qanunvericilik və o cümlədən beynəlxalq hüquq normaları ilə qadağan edilmiş əməllərin məcmusundan ibarət olan cinayətlərin ən təhlükəli növlərindən biri. N. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının istehsalından, saxlanmasından, daşınmasından və ya göndərilməsindən ibarətdir.

**Narkomafiya** – narkobizneslə, narkosənaye ilə, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş çirkli pulların leqallaşdırılması ilə məşğul olan cinayətkar təşkilat.

**Narkoman** – narkotik vasitələr və ya psixotrop maddələr qəbul edən, narkomanlığa aludə, yaxud narkotiklərdən fiziki və ya psixi asılılıqda olan şəxs. N. bütün ölkələrdə dövlət tərəfindən cinayət-hüquqi və tibbi vasitələrlə təqib olunurlar. İnkişaf etmiş ölkələrdə narkotiklərlə bağlı olan cinayətlərlə mübarizədə dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biri n.-nın dəqiq siyahısını aparmaqdan və onları məcburi müalicəyə cəlb etməkdən ibarətdir.

**Narkomanlıq** *(ing. narke – bihuşluq + maniya)* – narkotik vasitələri və ya psixotrop maddələri mütəmadi surətdə orqanizmə yeritməklə həyat fəaliyyətini müəyyən səviyyədə saxlayan, fiziki və psixi funksiyaların üzgünlüyünə səbəb olan xəstəlik. Bir narkotik vasitəyə aludəlik mononarkomanlıq, iki və ya daha çox narkotik vasitəyə aludəlik isə polinarkomanlıq törədir. N. sosial xəstəliklərin ən geniş yayılmış və təhlükəli, sağalmaz formasıdır. Narkotiklərin orqanizmə təkrar yeridilməsindən psixi və intellektual pozğunluqlar baş verir. Əsəbilik, apatiya, depressiya müşahidə olunur, yaddaş və təfəkkür zəifləyir və həyata laqeydlik əmələ gəlir.

**Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Komitə** – narkotik vasitələrə nəzarət üzrə beynəlxalq təşkilat. Hazırda bu komitənin tərkibi, onun hüquq və vəzifələri narkotik vasitələr haqqında 1961-ci il Vahid konvensiyanın və psixotrop maddələr haqqında 1971-ci il konvensiyasının müvafiq müddəaları ilə tənzimlənir. Komitə BMT-nin İqtisadi və Sosial Şurası tərəfindən 3 və ya 5 il müddətinə seçilən 13 nəfər müstəqil ekspertdən ibarət tərkibdə fəaliyyət göstərir. Komitə üzvlüyünə hökumət nümayəndəsi olmayan və şəxsi keyfiyyətləri ilə fərqlənən şəxslər seçilir. Komitənin əsas funksiyası narkotiklərin tibbi və elmi məqsədlərlə istehsalı və istehlakı arasında tarazlığın saxlanması üçün dünyada narkotik vasitələrin və psixotrop maddələrin qanuni mübadiləsinə nəzarət etməkdən, narkotiklərin qanunsuz dövriyyəyə axımının qarşısını almaqdan, narkotiklər üzərində nəzarət və onların qanunsuz dövriyyəsi ilə mübarizə aparmaqla əlaqədar problemlərin həllində ölkələrə və regionlara yardım etməkdən ibarətdir. Komitə ildə 2 dəfə öz sessiyasını keçirir. Komitənin katibliyi inzibati və maliyyə cəhətdən BMT-nin Baş Katibinə tabedir.

**Narkotik vasitələr (narkotiklər)** – "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikasının 18 iyun 1999-cu *il tarixli qanununun* (həmin qanuna 19 aprel 2002-ci il tarixdə əlavə və dəyişikliklər edilmişdir) və 28 iyun 2005-ci il tarixli qanununun 1-ci maddələrinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə bu cür təsnif edilmiş və dövriyyəsi məhdudlaşdırılmış narkotik xassəli bitkilər, xammallar, təbii və ya süni vasitələr, habelə qanunvericiliklə nəzərdə tutulan kriteriyalara aid edilmiş və sui-istifadə zamanı insanların sağlamlığı üçün təhlükə yaradan digər vasitələr və materiallar.

**"Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə bağlı hüquq pozuntularının təhlükəliliyini vurğulayaraq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə bağlı cinayətkar fəaliyyətin qarşısının alınmasının, həmin əməlləri törədən şəxslərin aşkar edilməsinin və cəzalandırılmasının hüquqi əsaslarını və bununla əlaqədar dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 18 iyun 1999-cu il tarixdə qəbul olunmuş, ona bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanun altı fəsil və 29 maddədən ibarət olmuşdur. 28 iyun 2005-ci ildə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursarlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının qanununun qəbul edilməsi ilə bu qanun qüvvədən düşmüşdür. Yeni qanun 6 fəsil, 33 maddədən ibarətdir.

**Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə** – narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olan cinayətlərin bir növü. AR CM-in 236-cı maddəsində nəzərdə tutulmuşdur. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmədə ifadə olunur.

**Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama** – narkotik vasitələrin və psixotrop maddələrin

qanunsuz dövriyyəsi ilə əlaqədar olan cinayətlərin bir növü. AR CM-in 238-ci maddəsində nəzərdə tutulmuşdur. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmədə, saxlamada və ya bu məqsədlər üçün istifadəyə binalar vermədə ifadə olunur.

**Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş pul vəsaitini və ya digər əmlakı leqallaşdırma** – narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olan cinayətlərin bir növü. AR CM-in 241-ci maddəsində nəzərdə tutulmuşdur. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş pul vəsaitlərindən və ya digər əmlakdan istifadə etməkdə maliyyə əməliyyatları və digər əqdlər həyata keçirmədə, habelə sahibkarlıq və ya digər iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün göstərilən vəsaitlərdən və ya digər əmlakdan istifadə etmədə ifadə olunur.

**Narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları talama və ya hədə-qorxu ilə tələb etmə** – narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olan cinayətlərin bir növü. AR CM-in 235-ci maddəsində nəzərdə tutulmuşdur. Narkotik vasitələri və ya psixotrop maddələri talama və ya hədə-qorxu ilə tələb etmədə ifadə olunur.

**Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma** – narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olan cinayətlərin bir növü. AR CM-in 239-cu maddəsində nəzərdə tutulmuşdur. Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermədə və ya saxtalaşdırmada ifadə olunur.

**Narkotizm** – 1) mənfi sosial və kriminal hadisə; insan orqanizminin narkotik vasitələri daimi qəbul etməsi nəticəsində bu vasitələrdən fiziki və psixi asılı olma xəstəliyi ilə şərtləşən cəmiyyət əleyhinə əməllərin (onları törədən şəxslərin əməllərinin) məcmusundan ibarətdir; 2) narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi.

**Naşir** – nəşriyyat məhsullarının istehsalını maddi-texniki cəhətdən təmin edən (maliyyələşdirən) nəşriyyat və yaxud əsas fəaliyyəti bu sahə ilə əlaqədar olmayan fiziki və ya hüquqi şəxs.

**Natamam iş vaxtı** – Azərbaycan Respublikasının əmək qanunvericiliyinə görə əmək müqaviləsi bağlanarkən, habelə əmək münasibətləri prosesində işçi ilə işəgötürənin qarşılıqlı razılıq ilə natamam iş vaxtı – natamam iş günü, yaxud natamam iş həftəsi müəyyən edilə bilər. N.i.v.-nın müddəti və onun qüvvədə olduğu zamanın–ayın, ilin davamiyyəti tərəflərin razılığı ilə müəyyən edilir. İşçinin səhhəti və ya fizioloji vəziyyəti (hamiləlik, əlillik), habelə xroniki xəstəliyi olan uşağının və digər ailə üzvünün səhhəti müvafiq tibbi rəyə görə əmək funksiyasının natamam iş vaxtında yerinə yetirilməsini tələb edərsə, habelə 14 yaşına çatmamış, yaxud 16 yaşınadək əlil uşağı olan qadınlara ərizələri ilə işəgötürən natamam iş vaxtı (iş günü, yaxud iş həftəsi) müəyyən etməlidir. N.i.v. əməyin ödənilməsi ya əmək funksiyasının icrasına sərf olunan vaxta mütənasib, ya da tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir. Əmək funksiyasının N.i.v.-nda yerinə yetirən işçilərin AR ƏM-lə və ya əmək müqaviləsi ilə müəyyən edilmiş əmək hüquqlarının hər hansı şəkildə məhdudlaşdırılması yolverilməzdir (AR ƏM-in 94-cü maddəsi).

AR ƏM-in 171-ci maddəsinə uyğun olaraq natamam iş günü və ya natamam iş həftəsi ilə işləyən işçilərə əməkhaqqı işə sərf edilmiş vaxta mütənasib və ya görülən işin faktiki hasilatına görə ödənilir.





**Natural əməkhaqqı** – əməkhaqqının bir hissəsi. N.ə. işçiyə məhsul, əşya, yaxud pulsuz xidmətlər, yəni "natura" şəklində verilir.

**Naturallaşdırma** *(fr. naturaliser)* – əcnəbinin ərizəsi ilə onun vətəndaşlığa fərdi qadada qəbul olunması. N. adətən əcnəbinin müvafiq dövlətin ərazisində müəyyən müddət yaşamasından sonra mümkün olur. Bəzən n. üçün şərt (kriteriya) qismində həmin dövlətin rəsmi dilini (məsələn, Latviyada, Estoniyada) bilmək, yaşamaq üçün müəyyən maddi imkanın olması, nöqsansız nüfuz və i.a. tələb olunur. Bir sıra dövlətlərdə həmin dövlətlə etnik və ya linqvist əlaqəyə malik olan şəxslər üçün n.-nın ümumi qaydası ilə yanaşı yüngülləşdirilmiş qaydası da müəyyən edilir. Məsələn, Braziliyada portuqaldilli əcnəbilərin n.-sı yüngülləşdirilmişdir. Bəzən naturallaşdırılmış vətəndaşların hüquqlarının dairəsi köklü vətəndaşların hüquqları ilə müqayisədə bir qədər məhdudlaşdırılır. Məsələn, ABŞ-da və Estoniyada dövlətin prezidenti ancaq bu dövlətlərdə doğulmuş vətəndaşlar ola bilər.

**Natural öhdəliklər** – Roma hüququnda və müasir mülki hüquqda iddia müdafiəsindən (məsələn, mərcdən irəli gələn öhdəlik) istifadə etməyən öhdəliklər. Lakin belə öhdəliklər üzrə ödənilmişlər geri tələb oluna bilməz.

**Natural vergi** – kənd təsərrüfatı istehsalı məhsulları üçün dövlət tərəfindən tutulan vergi.

**Nazir** *(fr. ministre – xidmətçi)* – hökumət strukturuna daxil olan dövlət idarəçiliyinin ən mühüm orqanlarının – nazirliklərin rəhbərlərinin adı. N. hökumətin üzvü olur. N. ayrı-ayrı ölkələrdə müxtəlif adla adlandırılır. Məsələn, ABŞ-da, Meksikada və bəzi ölkələrdə bütün n.-lər və ya onların bir hissəsi dövlət katibi adlandırılır. Böyük Britaniyada n.-i kansler adlandırırlar. Bir çox ölkələrdə n.-lər xüsusi kateqoriyalara bölünürlər. Məsələn, Böyük Britaniyada sahəvi nazirliklərə başçılıq edən n.-lər, portfelsiz n., nazirliklərin faktiki müavinləri olan dövlət n.-ləri, n.-in parlamentlə əlaqəsini təmin edən kiçik n., yeni parlament katibi mövcuddur.

**Nazirlər kabineti** – bir sıra dövlətlərdə (Böyük Britaniyada, Yaponiyada, Keniyada, Hindistanda, Tanzaniyada, Zambiyada, o cümlədən Azərbaycan Respublikasında) hökumətin rəsmi adı. N.k.-nə baş nazir (Böyük Britaniyada, Hindistanda, Yaponiyada), yaxud dövlət başçısı – prezident (ABŞ-da, Zambiyada, Tanzaniyada, Keniyada) başçılıq edir.

**Nazirlik** *(lat. ministro – xidmət edirəm, idarə edirəm)* – hökumət strukturuna daxil olan dövlət idarəçiliyinin ən mühüm mərkəzi orqanlarının adı. İlk dəfə Qərbi Avropada

XVI-XVII yüzilliklərdə təşkil edilmişdir. Keçmiş SSRİ-də təsis edilmiş n. 1917-1946-cı illərdə "xalq komissarlıqları" adlanırdı.

**Nazir-sədr** – Bolqarıstanda (1879-cu il konstitusiyası ilə yaradılmış ənənəyə görə), Macarıstanda hökumətin başçısı.

**Neksum** *(lat. nexum)* – Qədim Roma hüququnda (XII Cədvəl Qanunları üzrə) şəxsi azadlığın girov qoyulmasından yaranan borc öhdəliyi, yəni borclunun özünü girov qoyması. Ödəmənin qanuni müddətləri keçdikdə kreditor borclunu həbs etməyə və onu özünün ev həbsxanasına (borc həbsxanası) salmağa haqlı idi. Kreditor ayda üç dəfə və o cümlədən bazar günləri borclunu qul bazarına aparır və onun əvəzinə kiminsə (qohumunun və ya kənar adamların) borcu ödəyəcəyinə ümid edirdi. N. eramızdan əvvəl 326-cı ildə ləğv edilmşdir.

**Neqator iddia** *(lat. negatorius – mənfi)* – mülkiyyətçinin sahiblikdən məhrum edilməsi ilə əlaqədar olmayan öz pozulmuş hüquqlarını müdafiə haqqında tələbi. Bu zaman mülkiyyətçinin əmlak üzərində sahiblik hüququ saxlanılır. N.i. hələ Qədim Roma hüququnda (actio negatoria adı ilə) mövcud olmuşdur. N.i. əşyalar olan iddiadan ibarətdir. O, mülkiyyətçinin hüquqlarının hər cür pozuntusuna qarşı yönəldilmişdir.

**Neqosiant** *(lat. negotians – tacir)* – əsasən ölkəsinin hüdudlarından kənarda iri topdansatış ticarəti ilə məşğul olan tacir.

**Neqosiya** *(ita. negozio)* – kommersiya əqdi; ticarət (tarixizmdir).

**Nemezida (nemesida)** *(yun. nemesis)* – **1)** qədim yunan mifologiyasında əvəzçıxma, cinayətə görə cəzavermə ilahəsi; **2)** əvəzçıxma.

**Neofaşizm** – İkinci dünya müharibəsindən (1939-1945) sonra kapitalizmin ümumi böhranının kəskinləşməsi şəraitində yaranmış ifrat dərəcədə mürtəce, sağ ekstremist hərəkatları birləşdirən anlayış. N. siyasi və ideoloji cəhətdən faşizmin davamı hesab olunur.

**Nepotizm** *(lat. nepos; nepotis)* – **1)** Roma papaları tərəfindən öz qohumlarına gəlirli vəzifələrin, yüksək rütbələrin, torpaq sahələrinin verilməsi. N. papalar tərəfindən öz hakimiyyətlərini möhkəmləndirmək üçün verilirdi; **2)** qohumlara və öz yaxın adamlarına xidməti himayədarlıq (kirvəlik, qohumbazlıq, dostbazlıq) göstərilməsi.

**Netto** *(ita. netto, hərfən təmiz, xalis)* – əmtəənin tarasız (qabsız) xalis kütləsi; məhsulun xalis kütləsi; itkilər, ayırmalar və i.a. çıxıldıqdan sonra mənfəətin, büdcənin həcmi.

**Nevrozlar** – psixonevrozlar, yəni sinir sisteminin pozğunluqlarına kəskin, yaxud uzunmüddətli psixotravmatik təsirlərdən baş verən xəstəliklər qrupu. N.-ın əmələ gəlməsinə psixi travmalar, mənfi emosiyalar (qorxu, təşviş), iztirab, xoşagəlməz hadisələr və i.a. səbəb olur. "N." terminini ilk dəfə 1776-cı ildə şotlandiyalı həkim U.Kullen irəli sürmüşdür. İlk vaxtlar etiologiyası məlum olmayan müxtəlif xəstəliklər (epilepsiya, dalğın skleroz və i.a.) n.-a aid edilirdi. Sonralar sinir sisteminin funksional pozğunluqlarının hamısı n. adlandırılmışdır. Hazırda n. dedikdə psixogen mənşəli, yəni psixi travmalar, psixi xarakterli pozğunluqlar başa düşülür.

Məhkəmə təbabətində n.-a adətən daxili və ya xarici qıcıqlandırmaya reaksiyanın tipi kimi baxılır. Belə reaksiya nəticəsində güclü ruhi həyəcan, sarsıntı keçirmə (ailə üzvlərindən kiminsə ölümü və i.a.) cinayətə təhrik etmənin səbəbi ola bilər.





**Neytrallıq** *(lat. neutralis – birinə və ya digərinə mənsub olmayan)* – **1)** iki tərəf arasındakı mübarizədə özgə mübahisəsinə qarışmama; **2)** beynəlxalq hüquqda – ölkələr arasındakı müharibədə iştirak etməyən, onlarla sülh münasibətlərini saxlayan və ya hər hansı müharibədə iştirak etməmək öhdəliyini götürən dövlətin beynəlxalq-hüquqi vəziyyəti; **3)** pozitivi neytrallıq – dinc dövrdə hərbi bloklara daxil olmayan (qoşulmayan) və sülh uğrunda fəal mübarizə aparan bir sıra dövlətlərin xarici siyasət xətti.

**Nəqliyyat** – Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış yüklərin və insanların daşınma vasitələri; o cümlədən dəmir yolu, avtomobil, dəniz, daxili su, hava, şəhər və şəhərətrafı elektrik, metropoliten, həmçinin Azərbaycan Respublikasının ərazisində yerləşən magistral boru kəmərləri.

**Nəqliyyatda biletsiz getmə** – Azərbaycan Respublikasının inzibati xətalar haqqında qanunvericiliyinə görə hava, dəniz, çay və dəmiryolu nəqliyyatında olan qaydalar əleyhinə inzibati xətaların bir növü. AR İXM-in 149-cu maddəsində inzibati xəta kimi nəzərdə tutulmuşdur.

**Nəqliyyatda sığorta** – "Nəqliyyat haqqında" Azərbaycan Respublikası qanununun 23-cü maddəsinin 1-ci hissəsinə uyğun olaraq qanunla və ya beynəlxalq müqavilə ilə başqa hallar nəzərdə tutulmayıbsa, nəqliyyat sahəsində yüklərin, sərnişinlərin və nəqliyyat vasitələrinin sığortası qanunvericiliyə uyğun olaraq könüllü formada həyata keçirilir.

Qanunla nəzərdə tutulmuş hallarda nəqliyyat vasitələrinin istismarına onların sahiblərinin (daşıyıcıların) mülki məsuliyyətinin məcburi sığorta olunması şərti ilə icazə verilir. Beynəlxalq daşımalar üzrə məcburi sığorta müvafiq beynəlxalq müqavilələrə və (və ya) qanuna uyğun olaraq həyata keçirilir.

**Nəqliyyat ekspedisiyası** *(bax: nəqliyyat ekspedisiyası müqaviləsi).*

**Nəqliyyat ekspedisiyası müqaviləsi** – bu müqaviləyə görə bir tərəf (ekspeditor) digər tərəfin (müştərinin) mükafatı ilə və onun hesabına yükün daşınması ilə əlaqədar xidmətlərin təşkilini və ya yerinə yetirilməsini öhdəsinə götürür. Ekspeditor yük göndərənin göstərişlərinə əməl etməlidir. O, daşıyıcıları öz məsuliyyəti ilə seçir. Əgər ekspeditor daşımanı tamamilə və ya qismən özü həyata keçirirsə, daşıyıcının hüquq və vəzifələrinə malik olur. Əgər bir neçə yük göndərənin əşyalarının aralıq və son təyinat yerləri eynidirsə, ekspeditor bu əşyaları qruplaşdıraraq yığma nəqliyyat təşkil edə bilər. Bütün hallarda o, yük göndərənin mənafelərini qorumalı və onun göstərişlərinə əməl etməlidir. O, qarşıya çıxan bütün çətinliklər barəsində yük göndərənə məlumat verməlidir (AR MM-in 852-ci maddəsi).

**"Nəqliyyat haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında nəqliyyatın fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 11 iyun 1999-cu il tarixdə qəbul edilmişdir. O, beş fəsil və 26 maddədən ibarətdir. Qanuna 15 noyabr 2001-ci il və 23 aprel 2002-ci il tarixlərində əlavə və dəyişikliklər edilmişdir.

**Nəqliyyat hüququ** – nəqliyyat müəssisələrinin təşkili və fəaliyyəti ilə əlaqədar yaranan ictimai münasibətləri, nəqliyyat müəssisələri ilə onların müştəriləri arasında və həmçinin müəssisələrin öz aralarında həm bir, həm də müxtəlif növ nəqliyyat vasitələri ilə əlaqədar yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu, iri qanunvericilik sahəsi. N.h. özündə qanunvericiliyin hava hüququ, dəniz hüququ kimi müstəqil sahələrini ehtiva edir.

**Nəqliyyat qaiməsi** – daşıyıcı, yük göndərən və dəmir yolu, daxili su yolu ilə, hava və avtomobil nəqliyyatı ilə göndərilən yükü alan arasında münasibətləri tənzimləyən əsas sənəd. N.q. müəyyən yük alanın adına yük göndərən tərəfindən müəyyən edilmiş formada tərtib edilir və yük göndərən tərəfindən imzalanır. N.q. özündə yükün adını, yükün göndərilmə tarixini, kütləsini, yükün təyinat yerini, daşınmaya qəbul edilməsi vaxtını, markalanmasını, tədarük tarixini və i.a. ehtiva edir.

**Nəqliyyat müəssisəsi** – qanunvericiliyə və öz təsis sənədlərinə uyğun fəaliyyət göstərən, yük, sərnişin, baqaj və poçt daşımaları, nəqliyyat vasitələrinin saxlanılması, texniki və təmir, yükləmə-boşaltma və liman xidmətləri göstərən hüquqi şəxs.

**Nəqliyyat vasitələri** – Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə görə sərnişinlərin və malların beynəlxalq daşınmaları üçün istifadə olunan istənilən vasitələr, o cümlədən konteynerlər və digər nəqliyyat avadanlıqları.

**Nəqliyyat vasitələrini keyfiyyətsiz təmir etmə və ya onları texniki cəhətdən nasaz vəziyyətdə işə buraxma** – hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 265-ci maddəsində nəzərdə tutulmuşdur. Nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlıqlarının keyfiyyətsiz təmir edilməsində, habelə nəqliyyat vasitələrinin texniki vəziyyətinə cavabdeh olan şəxs tərəfindən texniki cəhətdən nasaz nəqliyyat vasitələrinin istismara buraxılmasında ifadə olunur.

**Nəqliyyat vasitələrinin istismarının qadağan edilməsi** – Azərbaycan Respublikasının inzibati xətalara dair qanunvericiliyinə görə əyləc sistemi və ya sükan idarə mexanizmi nasaz olan və ya xarici işıqlandırma cihazları və ya qabaq şüşənin şüşə silgəcləri və şüşəyuyanları və ya təkərləri və şinləri, yaxud konstruksiyasının digər elementləri nasaz olan və belə nasazlığın aradan qaldırılması mümkün olmayan nəqliyyat vasitəsinin istismarı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən qadağan edilir.

**Nəqliyyat vasitələrinin saxlanılması** – Azərbaycan Respublikasının inzibati xətalara dair qanunvericiliyinə uyğun olaraq müəyyən edilmiş dayanma və durma qaydalarının pozulduğu hallarda nəqliyyat vasitələrinin müvəqqəti olaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının mühafizə olunan duracağında saxlanılması.

Üç saat ərzində nəqliyyat vasitəsinin saxlanılması səbəbini yerində aradan qaldırmaq mümkün olduqda, nəqliyyat vasitəsi onu yol hərəkətində iştirakdan kənarlaşdırmış Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının əməkdaşının yanında saxlanılır. Həmin saat ərzində səbəbi aradan qaldırmaq mümkün





olmadıqda, nəqliyyat vasitəsi müvafiq icra hakimiyyəti orqanının mühafizə olunan duracağına gətirilir. N.v.s. iki nüsxədə olan aktla rəsmiləşdirilir, onun birinci nüsxəsi inzibati xəta haqqında protokola əlavə edilir, surəti isə nəqliyyat vasitəsini idarə edən şəxsə verilir.

**Nəqliyyat vasitələrinin təhlükəsiz işlənməsini təmin edən qaydaları pozma** – hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 267-ci maddəsində nəzərdə tutulmuşdur. Sərnişin, piyada və ya yol hərəkətinin digər iştirakçıları tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasında ifadə olunur.

**Nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma** – hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 266-cı maddəsində nəzərdə tutulmuşdur. Dağıtmaq, zədələmək və ya başqa üsulla yolların, nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlığının yararsız vəziyyətə salınmasında ifadə olunur.

**Nəqliyyat vasitəsində biletsiz sərnişin aparılması** – hava, dəniz, çay və dəmir yolu nəqliyyatında olan qaydalar əleyhinə inzibati xətaların bir növü. AR İXM-in 150-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta.

**Nəqliyyat vasitəsinə baxış** – nəqliyyat vasitəsinin konstruktiv bütövlüyünü pozmadan inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetlərin müəyyən edilməsi məqsədi ilə aparılan müayinə.

N.v.b. nəqliyyat vasitəsi sahibinin və iki hal şahidinin iştirakı ilə aparılır. Təxirə salınmayan hallarda n.v.b. nəqliyyat vasitəsi sahibinin iştirakı olmadan da aparıla bilər. Zəruri hallarda maddi sübutların qeydə alınması məqsədilə fotoşəkillərin çəkilməsi, videoyazıların aparılması tətbiq edilir. Baxış haqqında protokol tərtib olunur.

**Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrumetmə** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda həm əsas, həm də əlavə cəza növü kimi tətbiq edilən cəza tədbiri (AR CM-in 43-cü maddəsi). CM-in 45-ci maddəsinə uyğun olaraq N.v.i.h.m. cəza növü CM-in xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda, cinayətin xarakteri, təqsirkar şəxsin şəxsiyyəti və cinayətin digər halları nəzərə alınmaqla, bir ildən beş ilədək müddətə təyin edilə bilər.

**Nəsil** – qan qohumluğuna əsaslanan insan qrupu, birlik. N. çox vaxt ümumi əcdadın adı ilə adlanır. Hələ ibtidai icma quruluşunda (bu dövr nəsil quruluşu da adlanır) qəbilə və tayfaları n.-lər təşkil edirdi. Nəsli quruluş ana nəsli və ata nəsli mərhələsinə bölünür. Ata nəsli dövründə cəmiyyətin sosial özəyini patriarxal ailə və onun parçalanması nəticəsində kiçik ailələr təşkil edirdi.

**Nəşriyyat** – əsas fəaliyyət sahəsi müəllifə sifariş verilməklə və ya müəllifin (müəlliflik hüququ sahibinin) sifarişi ilə nəşriyyat məhsullarının hazırlanması, istehsalı və (və ya) yayımından ibarət olan ixtisaslaşmış mədəniyyət müəssisəsi.

**Nəşriyyat işi** – nəşriyyat məhsullarının hazırlanması, istehsalı və yayımı ilə məşğul olan hüquqi və fiziki şəxslərin təşkilati-ya-

radıcılıq və istehsalat-təsərrüfat fəaliyyətini əhatə edən ictimai münasibətlər sahəsi.

**"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında nəşriyyat işinin ümumi prinsiplərini müəyyən edən, nəşriyyat fəaliyyətinin təşkili və həyata keçirilməsi ilə əlaqədar nəşriyyat işinin subyektləri arasında münasibətləri tənzimləyən, onların hüquq və vəzifələrini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 30 may 2000-ci il tarixdə qəbul edilmişdir. O, üç fəsil və 29 maddədən ibarətdir.

**Nəşriyyat məhsulu** – çap üsulundan və formasından asılı olmayaraq nəşriyyatların (naşirlərin) sifarişi ilə istehlakçı üçün nəzərdə tutulan kitab, risalə, albom, plakat, buklet, açıqca, elektron nəşrlər və digər nəşriyyat məhsullarının məcmusu.

**Nəşriyyat müqaviləsi** – mülki-hüquqi müqavilənin bir növü; bu müqaviləyə görə tərəflərdən biri (nəşriyyat) digər tərəfin (müəllifin) yaratdığı əsəri nəşr etməyi (yenidən, təkrar nəşri) öhdəsinə götürür. Əsərin nəşr edilməsi (onun müəllif tərəfindən nəşriyyata təqdim edilməsi) müddəti müqavilədə müəyyən edilir. N.m. müəlliflik hüquqları haqqında ümumi müddəalara tabedir.

**Nəşriyyat proqramı** – nəşriyyatın nizamnaməsinə, istiqamətinə uyğun olaraq nəşriyyatın (naşirin) tərtib və təsdiq etdiyi rüblük, illik və çoxillik tematik layihə.

**Nəşriyyat redaksiyası** – nəşriyyat məhsullarının hazırlanması ilə məşğul olan, əsərləri çap üçün hazırlayan əsas struktur bölmə.

**Nəvvab** *(ər. naib – canişin sözünün cəmi nüvvabdan)* – XVII yüzillikdə Monqol imperiyasında əyalət canişini. İmperiyanın süquta başlaması ilə XVIII yüzilliyin birinci yarısında bir çox əyalətlərin (Benqaliya, Arkot, Aud və i.a.) n.-ları əslində müstəqil hakimlərə çevrilmişlər.

**Nəzarət** – dövlət orqanlarının qanunçuluğun və hüquq qaydasının təmin edilməsi üzrə fəaliyyətinin formalarından biri. Məhkəmə, konstitusiya nəzarəti və inzibati nəzarət növləri fərqləndirilir. Müəllif nəzarəti n.-in xüsusi növünü təşkil edir.

**Nəzarət altına vermə** – Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə görə yetkinlik yaşına çatmamış şübhəli və ya təqsirləndirilən şəxsin valideynlərinin, qəyyumlarının, himayəçilərinin, yaxud onun saxlandığı qapalı uşaq müəssisəsi müdiriyyətinin üzərinə yetkinlik yaşına çatmamış şübhəli və ya təqsirləndirilən şəxsin ictimai qaydaya riayət etməsi, cinayət prosesini həyata keçirən orqanın çağırışına gəlməsi və digər prosessual vəzifələri icra etməsi və daxil olan davranışını təmin etmə vəzifəsinin qoyulmasından ibarət olan qətimkan tədbiri (AR CPM-in 170.1-ci maddəsi).

**Nəzarət hakimiyyəti** – konstitusiya hüququ elmindəki nəzəriyyələrdən birinə uyğun olaraq qanunverici, icra və məhkəmə hakimiyyəti ilə yanaşı hakimiyyətlərin bölgüsü sistemində müstəqil yer tutan hakimiyyət. Əksər dövlətlərdə n.h. dövlətin xüsusi növdən olan ali orqanlarına (konstitusiya məhkəmələrinə, hesablama palatalarına, fövqəlintendantlara, ombudsmanlara) verilmişdir. İdarə nəzarətindən və inzibati nəzarətdən fərqli olaraq n.h. müstəqil yer tutur və o, hakimiyyətin digər "budaqları"ndan əlahiddə mütəşəkkilliyi ilə seçilir. N.h. orqanları təhqiqatla, yoxlama ilə və işlərin vəziyyətinin öyrənilməsi ilə məşğul olurlar. Bu orqanlar yoxlamaların nəticələri haqqında adətən müvafiq qərarlar qəbul etmək səlahiyyətinə malik olan dövlət orqanlarına hesabat verirlər.

**Nəzarətsiz heyvanlar** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə nəzarətsiz və ya otlamağa buraxılmış mal-qaranı və ya digər nəzarətsiz heyvanları tutan şəxs onları mülkiyyətçisinə qaytarmalıdır. Heyvanların mülkiyyətçisi və ya onun olduğu yer bilinmədikdə isə, həmin şəxs onları tutduğu andan ən geci üç gün keçənədək aşkar etdiyi heyvanlar barədə polisə xəbər verməlidir. Polis mülkiyyətçinin axtarılması üçün tədbirlər görməlidir. Heyvanları tutan şəxs mülkiyyətçinin axtarıldığı müddətdə onları özündə saxlaya və istifadə edə bilər, yaxud saxlanmaq və istifadə üçün başqa şəxsə verə bilər. Nəzarətsiz heyvanları tutan şəxsin xahişi ilə polis onları saxlamaq üçün lazımi şəraiti olan şəxsi axtarır və heyvanları ona verir. Nəzarətsiz heyvanları tutan şəxs, habelə saxlanmaq və istifadə üçün onların verildiyi şəxs heyvanları lazımi qaydada saxlamalıdırlar. Həmin şəxslər heyvanların tələf olmasında və ya azarlamasında təqsirli olduqda, onların dəyəri həddində məsuliyyət daşıyırlar (AR MM-in 192-ci maddəsi).

**Nəzarət Şurası** – 1945-ci ildə SSRİ, ABŞ, Böyük Britaniya və Fransa tərəfindən Almaniyada onun işğalı dövründə ali hakimiyyəti həyata keçirmək üçün təsis edilmiş birgə nəzarət orqanı. SSRİ ilə qərb dövlətləri arasında münaqişələrin yaranması ilə əlaqədar həmin orqanın fəaliyyətinə 1948-ci ilin martında xitam verilmişdir.

**Nəzarət-təftiş komissiyası** – müvafiq təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət etmək üçün həmin təşkilatın ali rəhbər orqanları (qurultayı, konfransı) tərəfindən seçilən kollegial orqan. Bu orqan həm də təşkilatın nizamnaməsinə əməl olunmasına nəzarəti həyata keçirir. N.-t.k.-nın üzvləri eyni vaxtda təşkilatın idarəetmə orqanlarında rəhbər və sair vəzifələri tuturlar.

**Nikah** – ailə hüququnda ailə qurmaq üçün bağlanan, qadınla kişi arasında, o cümlədən ər-arvadla onların uşaqları arasında qarşılıqlı hüquq və vəzifələr doğuran könüllü, bərabərhüquqlu ittifaq (kişi ilə qadın arasındakı ittifaq). N. müvafiq icra hakimiyyəti orqanında nikaha daxil olmaq istəyən şəxslərin bu barədə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlanır. Üzrlü səbəblər olduqda nikahın bağlanma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən azaldıla və ya 1 aydan çox olmayan müddətə uzadıla bilər. Xüsusi hallarda (hamiləlik, uşağın doğulması və digər hallarda) nikah ərizə verilən gün bağlana bilər (AR Ai.M-in 9-cu maddəsi).

**Nikahın etibarsızlığı** – AR Ai.M-in 10-12-ci maddələrində və 13.3-cü maddəsində nəzərdə tutulmuş şərtlər pozulduqda, eləcə də tərəflərdən birinin və ya hər ikisinin ailə qurmaq niyyəti olmadıqda bağlanan nikah (saxta nikah) etibarsız sayılır (AR Ai.M-in 25-ci maddəsi).

Nikah məhkəmə qaydasında etibarsız sayılır. Məhkəmə nikahın etibarsız sayılması barədə qanuni qüvvəyə minmiş qətnamədən çıxarışı 3 gün müddətində nikahın bağlandığı müvafiq icra hakimiyyəti

orqanına göndərməyə borcludur. Etibarsız hesab edilmiş nikah onun bağlandığı gündən etibarsız sayılır.

**Nikahın məhkəmə qaydasında pozulması** – AR Ai.M-in 17.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olduqda və ya ər (arvad) nikahın pozulmasına razı olmadıqda nikah məhkəmə qaydasında pozulur. Ər-arvadın razılığı olduqda, lakin onlardan biri müvafiq icra hakimiyyəti orqanında nikahın pozulmasından yayındıqda (ərizə verməkdən imtina etdikdə, nikahın pozulmasının dövlət qeydiyyatına gəlmədikdə) nikahın pozulması məhkəmə qaydasında həyata keçirilir (AR Ai.M-in 19-cu maddəsi).

**Nikahın pozulması** *(bax: boşanma).*

**Nikah müqaviləsi** – ailə qanunvericiliyinə görə nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və (və ya) nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən saziş. N.m. ilə ər-arvad birgə mülkiyyətin qanunla müəyyən olunmuş rejimini dəyişərək, ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər. N.m. ər-arvadın mövcud olan və gələcəkdə əldə edəcəkləri əmlaka dair bağlana bilər.

Ər-arvad n.m.-ində bir-birinin qarşılıqlı saxlanması, bir-birinin gəlirlərində iştirak üsulları, hər birinin ailə xərclərində iştirak qaydası ilə bağlı hüquq və vəzifələrini, nikah pozulduqda hər birinə düşəcək əmlakı və ər-arvadın əmlak münasibətlərinə dair hər hansı başqa müddəanı müəyyənləşdirmək hüququna malikdirlər. N.m.-ində nəzərdə tutulmuş hüquq və vəzifələr müəyyən müddətlərlə məhdudlaşa bilər, müxtəlif şəraitin yaranıb-yaranmamasından asılı ola bilər. N.m.-ində ər-arvadın hüquq və fəaliyyət qabiliyyətini, öz hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququnu, uşaqlara münasibətdə hüquq və vəzifələrini, eləcə də ər-arvad arasındakı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən, ehtiyacı olan və əmək qabiliyyəti olmayan ərin (arvadın) saxlanılması üçün vəsait almaq hüququnu məhdudlaşdıran, ər-arvaddan birini çox əlverişsiz vəziyyətə salan və ailə qanunvericiliyinin əsaslarına zidd olan müddəalar nəzərdə tuta bilməz (AR Ai.M-in 38-ci maddəsi).

**Nikah yaşı** – Azərbaycan Respublikasının ailə qanunvericiliyinə görə Azərbaycan Respublikasında nikah yaşı kişilər üçün 18 yaş, qadınlar üçün 17 yaş müəyyən edilmişdir. Üzrlü səbəblər olduqda nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azadılmasına icazə verə bilər (AR A.i.M-in 10-cu maddəsi).

**Ninqidrin** *(kriminalistikada)* – triketoqidrindengidrat – $C_9H_6O_4$, – sarı rəngli kristal vasitə; kağız, karton və ağac üzərində uzunmüddətli görünməz əl-barmaq izlərinin aşkar edilməsi üçün trasologiyada istifadə olunur. Daktiloskopik tədqiqatlarda asetonda qarışdırılmış 0,6-2,0 faizli sıyıq halında tətbiq edilir. Aşkar edilmiş iz dərhal rəngini itirdiyinə görə o, aşkar olunduqdan dərhal sonra onun fotoşəklinin çəkilməsi zəruridir.





**Nisbi hüquqlar** – mütləq hüquqların əksi. N.h. bir şəxsin (vətəndaşın və ya fiziki şəxsin) üzərinə müəyyən öhdəlik götürmüş digər şəxslərə münasibətdə olan hüquqlarından ibarətdir. Öhdəlik hüquqları, yəni plan aktlarından, müqavilələrdən, əmlaka və ya səhhətə ziyan vurulmasından, əmlakı əsassız olaraq əldə etməkdən və saxlamaqdan, digər hüquqi faktlardan əmələ gələn hüquqlar n.h.-a aid edilir. Mütləq hüquqlardan fərqli olaraq n.h. hər kəsin və hamının deyil, üzərinə müəyyən öhdəlik götürmüş şəxsin törətdiyi pozuntulardan qorunmalıdır.

**Nisyə satılmış əşyanın ödənilməsi** – mülki qanunvericiliyə görə alqı-satqı müqaviləsində əşyanın alıcıya verildikdən müəyyən müddət sonra ödənilməsinin (əşyaların nisyə satışının) nəzərdə tutulduğu halda alıcı ödənişi müqavilədə nəzərdə tutulan müddətdə, müqavilədə belə müddət nəzərdə tutulmadıqda isə AR MM-in 427-ci maddəsinə uyğun müəyyənləşdirilmiş müddətdə həyata keçirməlidir (AR MM-in 600.1-ci maddəsi).

Əşyaların nisyə satışı satış günü qüvvədə olmuş qiymətlər üzrə həyata keçirilir. Nisyə satılmış əşyaların qiymətinin sonradan dəyişməsi, əgər müqavilədə sair qayda nəzərdə tutulmamışdırsa, yenidən hesablaşmaya səbəb olmur. Satıcı əşyanı vermək vəzifəsini icra etmədikdə AR MM-in 441-ci maddəsində nəzərdə tutulmuş qaydalar tətbiq edilir.

**Nişan (nişanlanma)** – qız evinin razılığı alınandan (elçilikdən) sonra qohumluğu rəsmiləşdirmə mərasimi. Mərasim zamanı oğlan evi qız üçün n. (üzük, paltar, şirniyyat və i.a.) aparır. N. mərasimində qızın barmağına üzük (n. üzüyü) salınır. N.-dan sonra oğlanla qız toy mərasiminədək nişanlı (adaxlı) sayılır və tərəflər arasında qohumluq əlaqələri başlanır.

**Nişangah** – odlu silahlı və ya raket silahlarını hədəfə tuşlamaq üçün cihaz və mexanizmlər (nişanalma vasitələri). N. vasitəsi ilə silah lüləsinin oxuna fəzadə lazımi üfüqi və şaquli tuşlama bucaqları verilir. N.-ın mexaniki, optik, elektron-optik və i.a. növləri mövcuddur. Avtomatik və qeyri-avtomatik n.-lar vardır. Müasir silahların əksəriyyəti gecə atəş açmaq üçün xüsusi n.-la təchiz olunmuşdur. Birbaşa və vasitəli tuşlama prosesi üçün iki n.-lı müasir silahlar daha geniş yayılmışdır.

**Nizam** *(hərbdə)* – hərbi qulluqçuların, bölmə və hissələrin nizamnamə ilə müəyyən edilmiş düzülüşü. N. hərbi intizamı möhkəmləndirir, qoşunların idarə olunmasını, mütəşəkkil və sürətli hərəkətini təmin edir. N.-ın əsasını müəyyən olunmuş interval və məsafə üzrə düzülmüş əsgər cərgələri (maşın sıraları) təşkil edir.

**Nizami ordu** – **1)** qanuniləşdirilmiş qaydada ştat təşkilatına, silah növünə, komplektləşdirmə sisteminə, hərbi xidmət qaydasına, şəxsi heyətin xüsusi təlim və tərbiyə üsuluna, geyim formasına, habelə mərkəzləşdirilmiş vahid idarə və təchizat sisteminə malik olan daimi ordu. Qərbi Avropa dövlətlərinin əksəriyyətində, həmçinin Yaponiyada n.o. XVII-XVIII yüzilliklərdə, Rusiyada XVIII yüzilliyin 70-ci illərində yaradılmışdır. Azərbaycanda n.o. Azərbaycan Demokratik Respublikasının yarandığı dövrdə – 1918-ci ildə yaradılmışdır; **2)** nizami quru qoşunlarının adı.

**Nizamnamə** *(ər. qayda, sistem + namə)* – **1)** idarə və təşkilatların fəaliyyətini, onların digər təşkilatlar və vətəndaşlarla qarşılıqlı münasibətlərini, dövlət idarəçiliyi və ya təsərrüfat fəaliyyəti sahəsindəki hüquq və vəzifələrini tənzim edən qaydaların məcmusu; **2)** beynəlxalq təşkilatların (məsələn, BMT-nin Nizamnaməsi), siyasi partiyaların, müxtəlif birliklərin və ictimai-siyasi hərəkatların nizamnaməsi. .

**Nizamnamə fondu** *(bax: nizamnamə kapitalı).*

**Nizamnamə kapitalı** – müəssisələrin, səhmdarlar cəmiyyətinin və müxtəlif sahibkarlıq birliklərinin fəaliyyətə başlaması üçün zəruri olan və onların yaradılması haqqındakı nizamnamə, yaxud müqavilə ilə müəyyən edilmiş kapital, onu məbləği. Səhmdar cəmiyyətinin nizamnamə kapitalı cəmiyyətin kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. O, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmiş miqdardan az ola bilməz. Səhmdar cəmiyyətinin təsisçiləri cəmiyyət qeydə alınanadək nizamnamə kapitalını tamamilə ödəməyə borcludurlar. Səhmdar cəmiyyəti təsis edilərkən onun bütün səhmləri təsisçilər arasında bölünməlidir (AR MM-in 103.2-103.3-cü maddələri).

**Nizə** – **1)** Qədim silah növü. Paleolit dövründən məlum olan n.-dən dünyanın əksər xalqları müharibə və ov zamanı istifadə etmişdir. Əvvəlcə ucuna daş və ya sümük, Tunc dövründə isə metal ucluqlar taxılan n.-nin uzunluğu 1,5 metrdən 5 metrədək olurdu. N. piyada qoşun hissələrində XVII yüzilliyin sonu - XVIII yüzilliyin əvvəllərinə, süvari dəstələrində isə XX yüzilliyin əvvəllərinədək saxlanmışdır; **2)** yüngül atletikada n. tullamaq üzrə yarışlarda istifadə olunan alət.

**Nizəatan** – qədim silah növü; zərbənin uzaqlığını, güclülüyünü və sərrastlığını artırmaq məqsədi ilə işlədilən qurğu. Paleolit dövründən məlumdur. Avstraliya, Okeaniya, Şimali və Cənubi Amerika hinduları arasında geniş yayılmışdı.

**Nobilitet** *(bax: nobillər).*

**Nobillər** – Qədim Roma vətəndaşlarının yüksək təbəqəsi; bu təbəqənin tərkibi iri torpaq sahiblərindən ibarət idi. N. Romanın respublika dövrünün ikinci yarısında rəsmiləşmişdi. Ümumi qaydaya görə, magistratlar n.-dən seçilir, senat da onlardan təşkil edilirdi. Buna görə də nibilitet bəzən "senator təbəqəsi" adlandırılırdı.

**Noqay Ordası** – türkdilli köçəri tayfaların feodal dövlət qurumu. XIV yüzilliyin sonu - XV yüzilliyin əvvəlində, Yedigeyin dövründə Qızıl Ordadan ayrılmış, onun oğlu Nurəddinin (1426-1440) vaxtında formalaşmışdır. N.O. murzaların idarə etdiyi uluslara bölünürdü.

Ordada hakimiyyət irsən keçirdi. XVI yüzilliyin ikinci yarısında Kazan və Həştərxan xanlıqları Rusiyaya birləşdirildikdən sonra N.O. müstəqil dövlət qurumlarına parçalanmışdır.

**Nom** *(yun. nomos – vilayət, mahal)* – **1)** Qədim Misirdə inzibati mahal (misirlilərin dilində senat). Qədim Misirdə hər bir n. bir növ müstəqil dövlət qurumunu xatırladırdı. Belə ki, n.-un müəyyən sərhədi, siyasi və dini mərkəzi, ordusu, gerbi və himayəçi allahları olurdu. N.-u nomarx idarə edirdi. N.-ların sayı və ərazisi vaxtaşırı dəyişilirdi. Mənbələrin şəhadətinə görə Qədim Misirdə 40-a yaxın n. mövcud olmuşdur; **2)** müasir Yunanıstanda inzibati-ərazi vahidi.





**Nomarx** *(yun. nomarches)* – nomun hökmdarı, başçısı. Yuxarı və Aşağı Qədim Misir çarının canişini olan n. öz nomu ərazisində inzibati aparata, məhkəmə hakimiyyətinə və orduya rəhbərlik edirdi. Qədim Misirdə mərkəzi hakimiyyətin zəiflədiyi məqamlarda n. müstəqil siyasət də yeridirdilər.

**Nominal** *(lat. nominalis – adlı; nomen – ad)* – **1)** qiymətli kağızlarda, kağız pul nişanlarında, sikkələrdə göstərilən nominal dəyər; **2)** preyskurantda, yaxud əmtəənin özündə göstərilən nominal qiymət; **3)** kitab nominalı – satış üçün nəzərdə tutulan kitab, not, təsviri və dövri mətbuat məhsullarında, eləcə də coğrafi və başqa xəritələrdə göstərilən kompleks pərakəndə qiymət.

**Nomokanon** *(yun. nomokanon; nomos – qanun + kanon – qayda)* – Bizans imperiyasında məişətə və ailə hüququna aid olan kilsə kanonları və mülki qanunlar toplusu. N. Rusiyada kilsə məhkəməsinə və kilsənin digər fəaliyyəti sahəsinə xidmət edirdi.

**Nomos** *(yun. nomos – adət, əxlaq, qayda, qanun)* – ümumməcburi və dəyişməz xarakterə malik olan hüquq norması, yaxud ənənəvi adət norması. N. sonradan yunan polisinin təşkili prinsipinin əsas normasından biri olmuşdur. N. əsasən mülki icma həyatının müxtəlif cəhətlərinin təşkilini sanksiyalaşdırmışdır. Eramızdan əvvəl IV yüzillikdən başlayaraq n. Yunanıstanda xüsusi qanunvericilik komissiyalarının qərarları qismində çıxış etmişdir.

**Nonvalyor** *(fr. nonvaleurs)* – hazırda nəzərə alınmayan, əqdlərin bağlanmasında istifadə edilməyən, aşağı, qeyri-müəyyən dəyərə malik olan qiymətli kağızlar; belə xassələri həmin kağızların bazara çıxarılmasını qeyri-mümkün edir.

**Nonkombatantlar** *(fr. non-combattants)* – beynəlxalq hüquqda döyüşən dövlətlərin silahlı qüvvələrinə daxil olmayan şəxslər; həmçinin silahlı qüvvələrin tərkibinə xidmətlər göstərən heyətin üzvü kimi daxil olsalar da, kombatantlardan fərqli olaraq hərbi əməliyyatlarda bilavasitə iştirak etməyən şəxslər.

**Norma** *(bax: hüquq norması).*

**Normal məktəb** – bir sıra xarici dövlətlərdə, əsasən ibtidai məktəb müəllimləri hazırlayan tədris müəssisəsi. İlk dəfə 1777-ci ildə Avstriyada təşkil edilmişdir. Hazırda Fransada, Belçikada, Lüksemburqda, Kanadada və İsveçrənin fransız rayonlarında, həmçinin Latın Amerikası və Afrikanın bir sıra ölkələrində n.m.-lər fəaliyyət göstərir.

**Normativ akt** – hüququn mənbələrindən biri olan hüquqi akt. N.a. hüquq normalarının müəyyən edilməsi, dəyişdirilməsi və xitam edilməsi məqsədi ilə dövlətin səlahiyyətli orqanı tərəfindən verilən aktdır. N.a. ictimai münasibətlərin müəyyən sahəsini tənzim edir.

**Normativ hüquqi aktın dili** – "Normativ huquqi aktlar haqqında" Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli qanununun 27-ci maddəsinə uyğun olaraq aktın mətni sadə, ədəbi dildə verilməlidir. Köhnəlmiş, çoxmənalı söz və ifadələrdən, obrazlı ifadələrdən, epitet və metaforalardan istifadə edilməsinə yol verilmir.

**Normativ hüquqi aktın strukturu** – özündə hüquq normalarını əks etdirən maddə və ya bənd. Hüquq normaları "maddə" adı altında maddələr şəklində qanunlara daxil edilir. Digər normativ hüquqi aktlar "bənd" sözü yazılmadan bəndlərdən ibarətdir.

Normativ hüquqi aktların məzmunca yaxın maddələri (bəndləri) fəsillərdə birləşə bilərlər. Məzmunca yaxın olan bir neçə fəsil bölmələrdə birləşə bilər. N.h.a. maddələri ayrı-ayrı hüquq normalarını əks etdirən bəndlərə, bəndlər isə yarımbəndlərə bölünə bilər. Maddə, bənd və yarımbəndlərin daxilində abzaslara ayrılan hissələr ola bilər. Məcəllənin daxili strukturu digər əsaslar üzrə qurula bilər.

N.h.a. qəbul edilməsinin məqsəd və səbəblərini, onun qarşısına duran əsas vəzifələri izah etmək zərurəti olan hallarda normativ hüquqi akta giriş hissəsi (preambul) verilir. Zəruri hallarda normativ hüquqi aktda istifadə edilən termin və anlayışların mənasını izah edən maddə həmin normativ hüquqi akta daxil edilə bilər. N.h.a. fəsillərin və maddələrin adları olmalıdır. Həcmcə kiçik, fəsilsiz olan normativ hüquqi aktın maddələri abzas ola bilər. N.h.a.s.-na əlavələr daxil edilə bilər. Məcəllənin, zəruri halda həcmcə iri normativ hüquqi aktın strukturuna mündəricat daxil edilir.

**"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında dövlət qanunlarının və başqa normativ hüquqi aktların hazırlanması, qüvvəyə minməsi, şərhi və bunlarla əlaqədar müvafiq dövlət orqanlarının qarşılıqlı fəaliyyət qaydalarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 26 noyabr 1999-cu il tarixdə qəbul edilmişdir. O, doqquz fəsil və 53 maddədən ibarətdir. Qanuna 22 aprel 2005-ci il tarixdə əlavə və dəyişikliklər edilmişdir.

**Normativ hüquqi aktların dərci** – normativ hüquqi aktların mətbuat orqanlarında dərc olunması. Referendumla qəbul olunmuş aktlar, qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları istisna olmaqla, özündə dövlət sirlərini əks etdirən normativ hüquqi aktların yayılması və qüvvəyə minməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Rəsmi qaydada dərc olunmuş normativ hüquqi aktlar qüvvəyə mindikdən sonra onların hər hansı orqan tərəfindən yerlərə göndərilmə faktından asılı olmayaraq, bütün dövlət orqanları və vəzifəli şəxslər tərəfindən tətbiq və icra olunmalıdır.

Azərbaycan Respublikasının qanunları, Respublika Prezidentinin fərmanları və sərəncamları rəsmi nəşrlər sayılan "Azərbaycan" qəzetində və "Azərbaycan Respublikasının qanunvericilik toplusu"nda dərc olunur. Azərbaycan Respublikası Milli Məclisinin qərarları "Azərbaycan" qəzetində və "Azərbaycan Respublikası Milli Məclisinin məlumatı"nda dərc olunur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları rəsmi nəşr sayılan "Azərbaycan Respublikasının qanunvericilik toplusu" və "Respublika" qəzetində dərc olunur, zəruri hallarda onların dərhal və geniş yayımının təmini üçün digər kütləvi informasiya vasitələrinin köməyindən istifadə olunur.

Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi





aktları müvafiq icra hakimiyyəti orqanı tərəfindən rəsmi nəşr sayılan "Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarının bülleteni"ndə dərc olunur. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının Milli Məclisi və müvafiq icra hakimiyyəti orqanları qəbul etdikləri normativ hüquqi aktları rəsmi dərc edə bilərlər.

**Normativ hüquqi aktların qüvvəyə minməsi** – normativ hüquqi aktların qüvvəyə minməsi müddətləri. Azərbaycan Respublikasının qanunları, Respublika Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, onların özündə başqa müddət nəzərdə tutulmamışdırsa, dərc edildiyi gündən qüvvəyə minir.

Müvafiq icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları, yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının və Azərbaycan Respublikası Milli Bankının normativ aktları müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçdikdən sonra özlərində başqa qayda nəzərdə tutulmamışdırsa, dərc edildiyi gündən qüvvəyə minir.

Normativ hüquqi aktın hissəsinin (fəslinin, maddəsinin, bəndinin) qüvvəyə minməsi üçün normativ hüquqi aktın bütövlükdə qüvvəyə minməsinə dair müəyyən edilmiş müddətdən fərqli müddət müəyyən edilə bilər. Normativ hüquqi aktların qüvvəsinin geriyə şamil edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsi ilə tənzimlənir.

**Normativ hüquqi aktların məkana və subyektlərə görə qüvvəsi** – normativ hüquqi aktlar müvafiq olaraq Azərbaycan Respublikasının bütün ərazisində və ya inzibati ərazi vahidinin ərazisində qüvvədə olur. Normativ hüquqi aktların qüvvəsi qanunla müəyyən edilmiş hallar istisna olmaqla, Azərbaycan Respublikası vətəndaşlarına, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, habelə dövlət orqanlarının, yerli orqanların və yerli özünüidarə orqanlarının, siyasi partiyaların, ictimai birliklərin, həmkrlar ittifaqları təşkilatlarının və başqa hüquqi şəxslərin vəzifəli şəxslərinə tətbiq edilir.

**Normativ hüquqi aktların şərhi** – normativ hüquqi aktın məzmununun müəyyən edilməsi, məna və məqsədlərinin, qanunvericilikdə istifadə olunan istilahların və terminlərin aydınlaşdırılması.

Rəsmi şərh buna səlahiyyəti olan orqanlar tərəfindən verilə bilər. Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikası qanunlarının rəsmi şərhini Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi verir. Muvafiq icra hakimiyyəti orqanları qəbul etdikləri normativ hüquqi aktları rəsmi şərh edə bilərlər. Normativ hüquqi akt şərh edilərkən ona dəyişikliklər edilməsinə, konkretləşdirici normalar əlavə olunmasına yol verilmir. Genişləndirici, yaxud məhdudlaşdırıcı təfsirə yalnız normativ hüquqi aktın mətni və mənası arasında açıq-aşkar fərq olduqda yol verilir.

**Normativizm** – XX yüzilliyin burjua hüquq nəzəriyyəsi cərəyanlarından biri. Normativist hüquq "xalis halda" ictimai varlıqla əlaqəsiz şəkildə öyrənməyi təbliğ edir. Buna görə də n. bəzən "xalis hüquq nəzə-

riyyəsi" də adlandırılır. N. hüquq elminin vəzifəsini yalnız qüvvədə olan hüququ təfsir etməkdə və sistemləşdirməkdə, onun mahiyyətinə varmadan hüquqi pozitivizmə əsaslanır. Neokantçılığın irəli sürdüyü "davranışın yalnız ağıldan törəməsi" haqqında müddəa n.-in fəlsəfi əsasını təşkil edir. N. hüququ "mahiyyətdən", yəni sosial-siyasi amillərdən asılı olmayan xüsusi normativ sahə hesab edir. Normativizm hüquq məktəbinin əsası Avstriya hüquqşünası Q. Kelzen tərəfindən qoyulmuşdur.

**Normativizm hüquq məktəbi** *(bax: normativizm).*

**Normativlər** – iş vaxtı, maddi ehtiyatlar və pul ehtiyatları sərfini hesablayan kəmiyyətlər. N. idarə, müəssisə və təşkilatların, istehsalat birliklərinin istehsal və təsərrüfat fəaliyyətinin normalaşdırılması, planlaşdırılması və idarə edilməsində tətbiq edilir. N. natural şey və dəyər formasında müəyyən edilir, mütləq və nisbi kəmiyyətlərlə ifadə olunur.

**Normativ təfsir** *(bax: qanunun normativ təfsiri).*

**Notariat vəsiyyətnaməsinin üstünlüyü** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə əgər bir şəxs bir neçə vəsiyyətnamə tərtib etmişdirsə və onlardan yalnız biri notariat formasında tərtib edilmişdirsə, notariat formasında tərtib edilmiş vəsiyyətnaməyə üstünlük verilir. Notariat vəsiyyətnaməsi başqa formalı vəsiyyətnamə ilə ləğv edilə bilməz (AR MM-in 1223-cü maddəsi).

**Nortabllar** *(fr. notables – mühüm, görkəmli)* – XIV-XVIII yüzilliklərdə Fransada xüsusi tipli məclisin (Nortablar Məclisinin) üzvləri. Məclis dövlət işlərini, başlıca olaraq maliyyə işlərini və inzibati işləri müzakirə etmək üçün kral tərəfindən çağırılırdı. Məclis zadəganların, ali din xadimlərinin, şəhərlərin yüksək dairələrinin (elitanın) ən görkəmli nümayəndələrindən ibarət olurdu. N.-ın sonuncu məclisi 1788-ci ildə çağırılmışdır.

**Nostro** *(ita. nostro conto – bizim hesab)* – bankın öz bank-müxbirində malik olduğu hesab; bütün məxaric və mədaxillər bu hesab vasitəsilə ödənilir.

**Nostro hesabı** – eynilə nostro; qarşılıqlı ödəmələrdə ifadə olunur.

**Nota** *(lat. nota – işarə, məzəmmət, məktub)* – diplomatik aktın bir növü. N. vasitəsilə hər hansı bir hüquq və ya tələb, digər dövlətin düzgün olmayan aktlarına qarşı etiraz bildirilir. N.-lar mübadiləsi yolu ilə saziş (müqavilə) də bağlanır. N. yalnız informasiya (məlumat) xarakteri də daşıya bilər. Lakin hətta belə olduqda da o, hüquqi məna kəsb edir, çünki hökumətin nöqteyi-nəzərini ifadə edir. N. 3 formada olur: 1) imzalı nota (yaxud şəxsi nota); 2) verbal nota (rəsmi bəyanat şəklində verilən nota); 3) ümumi nota. N., bir qayda olaraq, fərdi diplomatik akt hesab olunur. Lakin müasir təcrübədə kollektiv n.-lara da təsadüf edilir.

**Notabli** *(bax: nortabllar).*

**Notarial akt** – bəzi növ müqavilələrin (məsələn, mənzillərin alqı-satqısının, evlərin özəlləşdirilməsinin və ya girov müqavilələrinin) bağlanması üçün mütləq qaydada əməl edilməli olan forma.

**Notarial dairə** – notariusun fəaliyyət göstərdiyi ərazi. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə uyğun olaraq müəyyən edilir. Rayonlara və sair inzibati bölgüyə malik olan şəhərlərdə onun bütün ərazisi n.d.-yə aid edilir.







**Notarial əqd** – bağlanması üçün notarial formanın müəyyən edildiyi əqd. Azərbaycan Respublikasında aşağıdakılar n.ə. hesab olunur: a) yaşayış sahəsinin (mənzilin, evin) alqı-satqısı; b) yaşayış sahələrinin dəyişdirilməsi və bağışlanması; c) yaşıyış sahəsinin vəsiyyət edilməsi (vərəsəlik yolu ilə verilməsi); ç) yaşayış sahələrinin girov qoyulması.

**Notarial hərəkətlər** – notariusların hüquqi əhəmiyyət kəsb edən hərəkətləri. Notariat kontorları olmayan yaşayış məntəqələrində n.h.-i müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər. Digər dövlətlərin ərazisində Azərbaycan Respublikasının adından n.h.-i Azərbycan Respublikasının həmin dövlətlərdəki konsulluqlarının səlahiyyətli vəzifəli şəxsləri aparırlar.

**Notarial ödəmə** – Azərbaycan Respublikasının notariat haqqında qanunvericiliyinə görə miras əmlakın saxlanmasına görə mühafizəçiyə, qəyyuma və digər şəxslərə vərəsənin (vərəsələrin) qanunvericiliklə nəzərdə tutulmuş qaydada ödəməli olduqları haqq (ödəniş).

"Notariat haqqında" Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli qanununun (bu qanuna 18 aprel 2000-ci il və 20 fevral 2001-ci il tarixdə əlavə və dəyişikliklər edilmişdir) 53-cü maddəsinə uyğun olaraq miras əmlakın saxlanmaq üçün verildiyi mühafizəçi, qəyyum və digər şəxslər əgər vərəsə deyildirlərsə, onlar vərəsələrdən miras əmlakı saxlamağa görə mülki qanunvericilikdə nəzərdə tutulmuş qaydada haqq ala bilərlər. Göstərilən şəxslərə miras əmlakdan istifadə nəticəsində əldə edilmiş faktiki fayda çıxılmaqla, miras əmlakı saxlamaq və idarə etmək üçün zəruri xərclər də ödənilməlidir.

**Notarial palata** – bir sıra ölkələrdə fəaliyyət göstərən xüsusi notariusların peşəkar birliyi.

**Notarial sirr** – peşə sirrinin bir növü. "Notariat haqqında" Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli qanununun (bu qanuna 18 aprel 2000-ci il və 20 fevral 2001-ci il tarixdə əlavə və dəyişikliklər edilmişdir) 32-ci maddəsinə uyğun olaraq notariuslar, notariat hərəkətləri aparan digər vəzifəli şəxslər və xidməti vəzifələrini yerinə yetirmələri ilə əlaqədar notariat hərəkətlərindən xəbərdar olan şəxslər bu hərəkətlərin sirrini saxlamağa borcludurlar. Notariat hərəkətləri sirrinin açılmasında təqsiri olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşımalıdırlar.

**Notariat** – Azərbaycan Respublikasında "Notariat haqqında" Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli qanununun (bu qanuna 18 aprel 2000-ci il və 20 fevral 2001-ci il tarixdə əlavə və dəyişikliklər edilmişdir) 1-ci maddəsinə əsasən hüquqi hərəkətləri aparmağa müvəkkil edilmiş şəxs (şəxslər birliyi).

Azərbaycan Respublikasında rəsmi və doğru sənədlərin tərtibi üçün hüquqların, hüquqi əhəmiyyətli faktların təsdiqi və digər notariat hərəkətlərinin aparılması notariat fəaliyyətinə məxsusdur və belə fəaliyyət yalnız "Notariat haqqında" Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilmiş qaydada və nəzərdə tutulmuş şəxslər tərəfindən həyata keçirilir.

**"Notariat haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması ilə əlaqədar münasibətləri tənzim edən qanunvericilik aktı.

Bu qanun 26 noyabr 1999-cu il tarixdə qəbul olunmuş, ona indiyə qədər bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanun on doqquz fəsil, 94 maddə və iki əlavədən ibarətdir.

**Notarius** *(lat. notarius – katib)* – notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olan şəxs. N. müxtəlif növ hüquqi aktların (müqavilələrin, etibarnamələrin, vəsiyyətnamələrin və i.a.) rəsmiləşdirilməsi və təsdiqi funksiyalarını həyata keçirir. Belə vəzifəli şəxs həm də dövlət notariusu adlanır.

"Notariat haqqında" qanunun 3-cü maddəsinə əsasən dövlət notariusu və ya xüsusi notarius kimi işləmək istəyən şəxs, Azərbaycan Respublikasının hər bir vətəndaşı ali hüquq təhsilli olmalı, mənəvi keyfiyyətlərə və peşə biliklərinə malik olmalıdır. İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, vəzifəsinin icrası ilə bağlı əvvəllər qanunvericiliyin tələblərini pozduğuna görə işdən azad edilmiş, qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunan, əvvələr qəsdən cinayət törətmiş və buna görə məhkum olunmuş, barəsində notariat fəaliyyəti ilə məşğul olmasının məhdudlaşdırılması və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı çıxarılmış, habelə bəraətverici əsaslar olmadan qəsdən cinayətin törədilməsi üzrə cinayət işinin xitam olunması haqqında qanuni qüvvəyə minmiş istintaq orqanı və ya məhkəmənin qərarı olan şəxs notarius ola bilməz.

**Notariusa bərabər tutulan şəxslər** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə vəsiyyətnamə təsdiqlənərkən aşağıdakılar notariusa bərabər tutulurlar: a) xəstəxananın, hospitalın, digər müalicə müəssisəsinin, sanatoriyanın baş həkimi, rəisi, onların tibbi hissə üzrə müavinləri və növbətçi həkimi və ya əlillər və qocalar evinin baş həkimi – əgər vəsiyyət edən bu müəssisədə müalicə edilirsə və ya yaşayırsa; b) axtarış, coğrafi və digər bu cür ekspedisiyaların rəisi – əgər vəsiyyət edən belə ekspedisiyadadırsa; c) dəniz və ya hava gəmisinin kapitanı – əgər vəsiyyət edən dəniz və ya hava gəmisindədirsə; ç) hərbi hissənin, birləşmənin, müəssisənin və ya məktəbin komandiri (rəisi) – əgər hərbi hissənin yerləşdiyi məntəqədə notarius yoxdursa və əgər vəsiyyət edən hərbi hissədə hərbi qulluqçudursa və ya həmin hissədə qulluq edən mülki şəxs, yaxud onun ailə üzvüdürsə; d) azadlıqdan məhrumetmə yerinin rəisi – əgər vəsiyyət edən azadlıqdan məhrumetmə yerindədirsə (AR MM-in 1181-ci maddəsi).

**Notifikasiya** *(lat. notificare – məlum olanı etmək)* – **1)** beynəlxalq hüquqda – bir dövlət tərəfindən digər dövlətə beynəlxalq həyatın bu və ya digər məsələlərinə dair öz mövqeyi barəsində məlumatı; **2)** vekseli saxlayan tərəfindən vekselçiyə verilmiş vekselə etiraz haqqında bildiriş.

**Notis** *(ing. notice) (dəniz hüququnda)* – gəminin boşaldılmağa və ya yüklənməyə tam hazır olması haqqında gəmi kapitanı tərəfindən fraxtçıya və yaxud onun agentinə verilən yazılı bildiriş.

**"Nou-hau"** *(ing. know-how, hərfən – bunu necə etməyi bilmək)* – texniki məsələni, yaxud digər məsələni həll etmək üçün texniki biliklər, təcrübə, istehsalat sirləri. Çox zaman "n.-h." dedikdə texniki yaradıcılığın nəticəsi başa düşülür. Müəyyən məhsulun istehsalı üçün zəruri olan texniki və i.a. informasiya haqqında hər hansı səbəbdən bu və ya digər ölkədə patent verilməmiş, lakin ixtira səviyyəsində yerinə yetirilmiş





texniki məsələləri adlandırmaq üçün də "n.-h." terminindən istifadə edilir. Elmi-texniki informasiyanın gizli saxlanması "n.-h."-nun əsas əlamətlərindən biridir. Bəzi ölkələrdə "n.-h."-nun mühafizəsinə dair qanunvericilik norması yoxdur. Mühafizə, bir qayda olaraq, müqavilə qaydasında lisenziya müqavilələrinin və i.a. sazişlərin şərtlərinə uyğun olaraq həyata keçirilir.

**Novasiya** *(lat. novatio – yeniləşmə, dəyişmə)* – mülki hüquqda tərəflərin götürdükləri öhdəliyi başqası ilə əvəz etmək (dəyişdirmək) barəsində saziş. Mülki qanunvericiliyə görə n. vətəndaşlar, habelə hüquqi şəxslər arasında, əsasən kredit-hesablaşmalara dair münasibətlərdə tətbiq edilir.

**Novellalar** *(lat. novellae leges – yeni qanunlar)* – hüququn rəsmi məcəlləşdirilməsindən sonra (məsələn, Feodisi Məcəlləsi tərtib edildikdən sonra) Romada verilmiş qanunlar. Yustinian Məcəlləsinin ikinci nəşrindən sonra Yustinianın və onun xələflərinin qanunları da n. adlandırılırdı. N. Roma qanunlar külliyyatının sonrakı hissəsi kimi tərtib edilmişir. Müasir dövrdə parlamentin müzakirəsinə verilən qanun novella adlandırılır. Bu vaxtadək 168 qədim novellalar qorunub saxlanmışdır. Hər bir novella girişdən, mətndən (təsviri hissədən) və nəticədən ibarət olur.

**Novruzi** – orta əsrlərdə Azərbaycanda və bir sıra qonşu ölkələrdə Novruz bayramı münasibətilə əhalidən dövlət məmurları və feodalların xeyrinə toplanan vergi. Həcmi qeyri-müəyyən olub. XV-XVI yüzilliklərdə verilmiş fərmanlarda adı çəkilir. N. qeyri-qanuni vergi hesab olunsa da, əslində məcburi vergilərdən biri kimi mövcud olmuşdur.

**Noyon** – Monqolustanda dünyəvi feodal (ağa, knyaz). XI-XII yüzilliklərdə qədim monqol aristokratiyası nəslinin və feodallaşmış əyanların nümayəndəsi. Monqol imperiyasında (XIII-XIV yüzilliklərdə) feodal sinfi, sonralar feodal pərakəndəliyi dövründə müstəqil hakimlər n. adlanırdı. 1940-cı ildə Monqolustan Xalq Respublikasında feodal sinfinin ləğv edilməsi ilə aradan çıxmışdır.

**Nökərlər** *(monqolca nöxər – dost, yoldaş)* – XI-XII yüzilliklərdə Monqolustanda feodal münasibətlərinin yarandığı dövrdə əyanların silahlı dəstəsinin üzvləri. XIII yüzilliyin əvvəllərindən monqol xanlarının (Çingiz xanın və başqalarının) şəxsi qvardiyasını təşkil etmişlər. N.-dən müharibə vaxtı döyüşçü, dinc dövrdə isə keşikçi, "ev qulluqçusu" kimi istifadə olunmuşdur. XIV yüzillikdən nökər ifadəsi Azərbaycanda, İranda və Orta Asiyada "xidmətçi", "qulluqçu" mənasında işlədilmişdir.

**Növbəli aksept** – ödəmə tələbinin bu tələbin ödəyicinin bankına daxil olması ilə əməliyyat günü ərzində ödənilən aksept (aksept ödənişdən sonra aparılır).

**Nunçaku** *(bax: soyuq silah).*

**Nunsi** *(lat. nuntius)* – Roma papasının daimi diplomatik nümayəndəsi. Diplomatik əlaqələr haqqında 1961-ci il Vena Konvensiyasına uyğun olaraq n. səfir dərəcəsinə bərabər tutulur. N. dövlət başçısı yanında akkreditivləşdirilir. Bir çox katolik ölkələrində mövcud ənənələrə uyğun olaraq n. öz etimadnaməsini təqdim etdiyi tarixdən asılı olmayaraq, diplomatik korpusun duayeni hesab olunur. Bir sıra dövlətlərdə isə bu, yerli təcrübədən asılıdır.

**Nümayəndələr palatası** – ABŞ-da, Yaponiyada, Belçikada, Kolumbiyada, Avstraliyada, Yamaykada və bir sıra digər ölkələrdə parlamentin aşağı palatasının adı. Pa-

raqvay və Yeni Zelandiyada n.p. birpalatalı parlamentdən ibarətdir. N.p. ilk dəfə 1787-ci ildə ABŞ-da ölkə konstitusiyasına əsasən təşkil edilmişdir.

**Nümayəndəliklər və filiallar** – hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölmə – nümayəndəlik (AR MM-in 53.1-ci maddəsi). Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca bölmə – filial (AR MM-in 53.2-ci maddəsi).

N. və f. hüquqi şəxs hesab olunmurlar və hüquqi şəxsin təsdiq etdiyi əsasnamələr üzrə fəaliyyət göstərirlər. Bu bölmələrin rəhbərləri hüquqi şəxs tərəfindən təyin edilir və onun etibarnaməsi əsasında fəaliyyət göstərirlər.

**Nümayəndə təyin etmək hüququ** – Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyinə görə tərəfin Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayış yeri, olduğu yer, yaxud ofisi vardırsa və onun Azərbaycan Respublikasında yaşayan nümayəndəsi yoxdursa, o, Azərbaycan Respublikasında səlahiyyətli nümayəndə təyin edə bilər (AR MPM-in 461-ci maddəsi).

**Nürnberq prosesi** – İkinci dünya müharibəsində faşist Almaniyasının müharibə canilərinin Nürnberq (Almaniya) şəhərində Beynəlxalq Hərbi Tribunalının baxdığı məhkəmə prosesi. N.p. 1945-ci il noyabrın 20-dən 1946-cı il oktyabrın 1-dək davam etmişdir. Cinayət məsuliyyətinə 24 nəfər əsas (yüksək rütbəli) alman hərbi canisi cəlb edilmişdir: Gerinq, Ribbentrop, Gess, Kaltenbruner, Rozenberq, Frank, Borman, Frik, Ley, Zaukel, Şpeer, Funk, Şaxt, Papen, Krupp, Neyrat, Şirax, Zeyse-İnkvart, Ştreyxer, Keytel, İodl, Friçe, Reder və Denits.

Məhkəmə 19 nəfər cani haqqında ittiham hökmü çıxarmışdır. Onlardan 12 nəfəri edam olunmaqla (asılmaqla) ölüm cəzasına, 3 nəfəri ömürlük həbs cəzasına, 12 nəfəri 20 il, 1 nəfəri 15 il, 1 nəfəri isə 10 il həbs cəzasına məhkum olunmuşdur.

N.p. 4 dildə – ingilis, alman, rus və fransız dillərində aparılmışdır. Bormandan savayı bütün müqəssirlər özünü təqsirli hesab etmişdir. Proses müddətində tribunalın 403 açıq məhkəmə iclası keçirilmişdir. İttiham üzrə 33 şahid dindirilmiş, 19 nəfər müqəssirdən əlavə 61 nəfər müdafiə üzrə şahid dindirilmişdir. Daha 143 nəfər müdafiə üzrə şahid sorğu vərəqələrinə yazılı cavablar təqdim etməklə ifadə vermişdir. Hərbi tribunal özü işin təşkili üzrə 22 nəfər şahid dindirmişdir.

Ayrı-ayrı müttəhimlərin ittihamı üzrə sübut qismində təqdim edilən sənədlər bir neçə min sayla hesablanmışdır. Prosesin tam stenoqramı aparılmış, məhkəmədə deyilənlərin hamısı yazıya alınmışdır.

Beynəlxalq tribunalın ittihamçıları qismində Böyük Britaniyadan Ceffi Lorens, SSRİ-dən İona Nikitçenko, ABŞ-dan Frensis Biddl, Fransadan Anri de Vabr çıxış etmiş və ittiham hökmü bu şəxslər tərəfindən imzalanmışdır. ABŞ-dan Robert Cekson, SSRİ-dən R.A. Rudenko, Böyük Britaniyadan Xartli Şoukrossa, Fransadan Şampete de Riba prosesin əsas ittihamçıları olmuşlar.

İttiham hökmü 1946-cı il oktyabrın 1-də çıxarılmış və həmin il oktyabrın 15-dən 16-na keçən gecə icra olunmuşdur. Hərbi canilər edam edilmiş, meyitləri yandırılmış və külləri təyyarədən havaya səpələndirilmişdir.





# -O-


OAS ... 812
Ober ... 812
Obliqasiya ... 812
Obliqo ... 812
Obroqasiya ... 812
Obstruksiya ... 812
Obyekt ... 812
Obyektiv cəhət ... 812
Obyektiv hüquq ... 812
Odlu silahı diqqətsiz saxlama ... 812
Odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə ... 812
Odlu silahlar ... 812
Odoroloji ekspertiza ... 812
Oferent (offerent) ... 813
Oferta ... 813
Offisial ... 813
Offşor ... 813
Offşor ərazi ... 813
Offşor mərkəz ... 813
Offşor şirkət ... 813
Oğurluq ... 813
Ox ... 813
Oxlokratiya ... 813
Oxşar müqavilələr ... 814
Oktrua ... 814
Olderman ... 814
Oliqarxiya ... 814
Oliqofreniya ... 814
Oliqopoliya ... 814
Oliqopsoniya ... 814
Ombudsman ... 814
Ommaj ... 815
On İki Cədvəl Qanunları ... 815
Onkol ... 815
Onkol əqdi ... 815
Onkol krediti ... 815
Opinio yuris ... 815
Opsion ... 815
Opsion borc ... 815
Opsion divident ... 815
Opsion əqdi ... 815
Opsion kontraktı ... 816
Opsion şəhadətnaməsi ... 816
Optant ... 816
Optasiya ... 816
Orda ... 816
Ordali ... 816
Orden ... 816
Order ... 816
Orderli kağızlar ... 817
Ordonanslar ... 817
Ordu ... 817
Ordu qrupu ... 817
Orqan ... 817
Orta əməkhaqqı ... 817
Ortaqlıq ... 817
Osmanizm ... 818
Ostan ... 818
Ostandar ... 818
Ostrakizm ... 818
Otaqxərci ... 818
Oturaqlıq senzi ... 818
Ov ... 818
Ovçuluq ... 818
Ovçuluq bileti ... 819
Ovçuluq təsərrüfatı ... 819
Ovçu silahı ... 819
Overdraft ... 819
Oversold ... 819

**OAS** – gizli silahlı təşkilat; XX yüzilliyin 60-cı illərinin əvvəlində Fransada terrorçu hərbi faşist qruplaşması kimi meydana gəlmişdir. 1961-ci ilin yazında qatı müstəmləkəçi zabitlər və ifrat sağ siyasi xadimlər tərəfindən yaradılmışdır. Təşkilatın başlıca məqsədi Əlcəzairə istiqlaliyyət verilməsinə mane olmaqdan ibarət idi. 1962-ci ildə Əlcəzair öz istiqlaliyyətini əldə etdikdən sonra bu təşkilat əsas fəaliyyətini Fransada və onunla qonşu olan ölkələrdə cinayətkar dəstə kimi davam etdirmişdir. OAS Fransanın demokratik qüvvələrinin təzyiqi altında ləğv edilmiş, onun başçıları uzunmüddətli həbs cəzalarına məhkum olunmuşdur. Lakin təşkilatın başçıları 1968-ci il amnistiyasına əsasən azad edilmişlər.

**Ober** *(alm. ober – yuxarı, baş)* – bir sıra dövlətlərdə bəzi hərbi rütbələri və mülki vəzifələri bildirən sözlərin əvvəlinə artırılan sözönü. Məsələn, ober-leytenant (baş leytenant), ober-konduktor (baş konduktor) və i.a.

**Obliqasiya** *(lat. obligatio – öhdəlik)* – qiymətli kağız *(bax: istiqarz vərəqəsi).*

**Obliqo** – **1)** veksel üzrə borcun məbləği; **2)** hesaba alınmış veksel üzrə öhdəlikləri olan şəxslər tərəfindən banka olan borcu nəzərdə tutan bank kitabı.

**Obroqasiya** – köhnə (köhnəlmiş) qanuna qismən dəyişikliklərin edilməsi.

**Obstruksiya** *(lat. obstructio)* – parlament iclasının, yığıncağının və i.a. işinin pozulmasına yönəldilən etiraz növü, yaxud mübarizə metodu. O, səs-küy qaldırmaqda, müzakirə edilən məsələyə aid olmayan uzun nitqlər söyləməkdə və ya çıxışlar etməkdə ifadə olunur.

**Obyekt** *(bax: cinayətin obyekti).*

**Obyektiv cəhət** *(bax: cinayətin obyektiv cəhəti).*

**Obyektiv hüquq** – müəyyən bir dövlətdə qüvvədə olan hüquq normalarının bütün məcmusunun adlandırılması üçün onun yurisprudensiyasında işlədilən termin (obyektiv mənada hüquq).

**Odlu silahı diqqətsiz saxlama** – cinayət qanunvericiliyinə görə ictimai təhlükəsizlik əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 230-cu maddəsində nəzərdə tutulmuşdur. Odlu silahın diqqətsiz saxlanması ilə yaranmış şərait nəticəsində həmin silahdan başqa şəxsin istifadə etməsində ifadə olunur.

**Odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə** – cinayət qanunvericiliyinə görə ictimai təhlükəsizlik əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 232-ci maddəsində nəzərdə tutulmuşdur. Odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamada, yaxud onları hədə-qorxu ilə tələb etmədə ifadə olunur.

**Odlu silahlar** – lülə kanalındakı döyüş sursatını (gülləni, mərmini, minanı) hədəfə atmaq üçün partlayıcı maddənin (məsələn, barıtın) kimyəvi parçalanma enerjisindən istifadə olunan silahlar. O.s. döyüş sursatından, onu hədəfə atan vasitədən (top, pulemyot, tüfəng, minaatan və i.a.) ibarətdir. Müasir o.s.-ın artilleriya, atıcılıq və qumbaraatan növləri vardır.

**Odoroloji ekspertiza** – qoxuların (iylərin) təbii biodetekoru qismində əməliyyat-





axtarış itlərindən istifadə edən ekspertiza. Bu ekspertiza insan qoxusunun fərdi və nisbi sabitliyinə əsaslanır. İnsanın qoxulu izlər üzrə eyniləşdirilməsində tətbiq edilir.

**Oferent (offerent)** – oferta ilə çıxış edən fiziki və ya hüquqi şəxs.

**Oferta** *(lat. offertus – təklif edilən)* – mülki qanunvericiliyə görə müqavilə bağlanması haqqında təklif (oferta). AR MM-in 408-ci maddəsinə uyğun olaraq müqavilə bağlanması haqqında təklif (oferta) o zaman verilmiş sayılır ki, bir və ya bir neçə şəxsə ünvanlanmış bu təklifdə onu vermiş şəxsin (oferentin) razılıq (aksept) olduqda, öz təklifinin icrasına hazır olduğu ifadə edilsin. O.-da müqavilənin mühüm şərtləri ifadə olunmalıdır. Şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış təklifdə bilavasitə ayrı qayda göstərilməyibsə, bu təklif ofertaya dəvət sayılır.

**Offisial** – Roma imperiyasında imperatorun yanında fəaliyyət göstərən hərbi ("zabit" adı da məhz buradan meydana gəlmişdir) məmur. Orta əsrlərdə qrafın köməkçisi, yəni onun məktub daşıyanı, həmçinin yepiskopun yurisdiksiyasına aidiyyəti olan işlər üzrə məhkəmə icraatçısı olan vəzifəli şəxs o. adlanırdı.

**Offşor** *(ing. off shore – sahildən kənar)* – dünya maliyyə mərkəzləri, habelə bank əməliyyatları növləri üçün tətbiq edilən termin. "O." termini ilk dəfə 1950-ci ildə ABŞ-da meydana gəlmişdir. Maliyyə idarələri mərkəzlərində qeydiyyatdan keçmək üçün xüsusi güzəştli vergi rejimi yaradılır. Bu zaman vergilərdən tamamilə azad etmə də mümkündür. Vergisiz ərazilərdə fəaliyyət göstərən beynəlxalq biznes şirkətlərini (offşor şirkətlərini) "o." termini ilə adlandırırlar.

**Offşor ərazi** – vergisiz rejimin qüvvədə olduğu dövlət ərazisinin bir hissəsi. Belə ərazilərdə qeydiyyatdan keçən xarici şirkətlər yalnız adi qeydiyyat rüsumu ödəyirlər. "O.ə." termini vergisiz ərazi, vergisiz mərkəz sözlərinin sinonimidir.

**Offşor mərkəz** *(bax: offşor ərazi).*

**Offşor şirkət** – offşor ərazidə qeydiyyatdan keçmiş xarici şirkət; beynəlxalq biznes şirkətinin sinonimi.

**Oğurluq** – cinayət qanunvericiliyinə görə mülkiyyət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 177-ci maddəsində nəzərdə tutulmuşdur. Özgənin əmlakını gizli yolla talamada ifadə olunur.

**Ox** – qədim silah növü. Kamandan atılan o. ucluq, ağac gövdə (düz çubuqlardan, bəzən də qarğıdan) və lələkdən ibarət olur. O. ucluqları əsasən çaxmaq daşından, sümükdən, sonralar isə tunc və ya dəmirdən düzəldilirdi. Eramızdan əvvəl I minilliyin axırlarında dəmir ucluqlu o.-lar geniş yayılmışdır.

**Oxlokratiya** *(yun. ochlokratia – hərfən kütlənin hakimiyyəti)* – **1)** qiyamların, iri küçə iğtişaşlarının və qaragüruhun törətdiyi pozuntular nəticəsində kütlənin siyasi hakimiyyəti ələ aldığı vəziyyət; ən pozucu təhriklərin və hərəkətlərin – döymənin, qrup halda zorlamaların, mühakiməsiz qətllərin, maddi sərvətlərin mənasız dağıdılmasının və məhv edilməsinin və i.a. təzahür etməsi ilə fərqlənir; **2)** populist əhval-ruhiyyəli ictimai-siyasi qrupların hakimiyyəti.

**Oxşar müqavilələr** – mülki qanunvericiliyə görə hazırlanmalı və ya istehsal edilməli olan malların göndərilməsinə dair müqavilələr. AR MM-in 604-cü maddəsinə uyğun olaraq, əgər sifarişçi həmin malların hazırlanması və ya istehsalı üçün zəruri materialların mühüm hissəsini göndərməyi öz öhdəsinə götürürsə, habelə əgər mal göndərən tərəfin vəzifələrinin daha böyük hissəsi işlərin görülməsindən və ya başqa xidmətlərin göstərilməsindən ibarət deyildirsə, oxşar müqavilələr alqı-satqı müqavilələrinə bərabər tutulur.

**Oktrua** – orta əsrlərdə malların feodal, şəhər ərazisinə gətirilməsi zamanı alınan tutmalar (daxili vergilər). XVI-XVIII yüzilliklərin inhisarçı ticarət şirkətlərinin üstünlükləri də o. adlanırdı. O. XIX yüzillikdə vahid daxili bazarın meydana gəlməsi nəticəsində əksər ölkələrdə ləğv edilmişdir.

**Olderman** *(ing. olderman – ağsaqqallar)* – İngiltərədə qraflar şurasının və şəhər şurasının əhali tərəfindən seçilməyən üzvü. ABŞ-da şəhər şurasının üzvü də o. adlanır.

**Oliqarxiya** *(yun. oligarchia – azlığın hakimiyyəti; oligos – az + arche – hakimiyyət)* – idarəçilik forması. Belə idarəçilik formasında dövlət hakimiyyəti bir qrup, adətən, iqtisadi cəhətdən qüdrətli olan şəxslərə məxsus olur. Maliyyə oliqarxiyası termini də buradan meydana gəlmişdir. Ayrılıqda götürülmüş hökmran qruplar da o, adlandırılır. "O." termininə ilk dəfə qədim yunan mütəfəkkirlərinin (Aristotelin, Polibinin) əsərlərində təsadüf edilmişdir. Bu mütəfəkkirlər o.-nı aristokratiyanın aradan çıxması nəticəsində meydana gələn idarəçilik forması (dövlət quruluşu) kimi izah edirdilər.

**Oliqofreniya** *(bax: kəmağıllıq).*

**Oliqopoliya** *(oliqo...+ yun. poleo – satıram, ticarət edirəm)* – müasir iqtisad elmində işlədilən termin. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə təsərrüfat sahələrinin bazar strukturunu ifadə edir.

**Oliqopsoniya** *(yun. oligos – az + opsonia – məhsulun satın alınması)* – bazar strukturu tipi; belə bazar şəraitində malların müəyyən alıcı qruplarının inhisarı mövcud olur.

**Ombudsman** *(isv. ombudsman – kiminsə mənafelərinin nümayəndəsi)* – müxtəlif növ inzibati orqanlar tərəfindən insan hüquqlarına əməl edilməsinə nəzarət etmək üçün xüsusi olaraq seçilən (təyin olunan) vəzifəli şəxs; bəzi ölkələrdə xüsusi şəxslər və birliklər tərəfindən seçilən nümayəndə. Prokuratordan fərqli olaraq o. ancaq qanunçuluq deyil, həm də səmərəlilik, məqsədəuyğunluq, vicdanlılıq və ədalətlilik mövqeyindən nəzarəti həyata keçirir və təhqiqat aparır. Bu qəbildən olan vəzifəli şəxslər müxtəlif adlara malikdirlər. Skandinav ölkələrində o.-nı ombudsman, İspaniya və Kolumbiyada xalq müdafiəçisi, Fransada vasitəçi, Rumıniyada xalq vəkili adlandırırlar. Azərbaycanda o. elə bu adla çağırılır. O. həm seçilə, həm də təyin (Azərbaycanda təyin edilir) oluna bilər. Məsələn, İspaniyada o. parlament tərəfindən 5 il müddətinə seçilir; Namibiyada prezident tərəfindən təyin edilir; Fransada Nazirlər Şurası tərəfindən təyin olunur. Ölkələrin əksəriyyətində istənilən vətəndaş o.-a bilavasitə müraciət etməyə haqlıdır. Çatışmazlıq və ya sui-istifadə halı aşkar edən o. bu barədə müvafiq orqana, yaxud vəzifəli şəxsə müraciət və nöqsanları aradan qaldırmağı təklif edir. İmtina edildi-





yi halda o. ədalət mühakiməsi orqanına və ya parlamentə müraciət edə bilər. O. nəinki vətəndaşların şikayətləri ilə əlaqədar, həm də öz şəxsi təşəbbüsü ilə hərəkət edir.

**Ommaj** *(fr. hommage – vassal mənasında insan)* – Qərbi Avropada orta əsrlər dövründə vassal müqaviləsinin bağlanmasını rəsmiləşdirən xüsusi rəmzi mərasim. XI yüzillikdən başlayaraq o., bir qayda olaraq, vassala torpaq feodunun verilməsi ilə müşayiət olunmuşdur.

**On İki Cədvəl Qanunları *(leges duodecim tabilarum)*** – qədim Roma hüququnun əsas mənbəyi hesab olunan qanunlar külliyyatı. Külliyyat eramızdan əvvəl 451-450-ci illərdə tərtib edilmişdir. Həmin qanunlar 12 ədəd taxta lövhə üzərinə həkk edilmiş və şəhərin görkəmli yerindəki meydanda asılmışdır. Bu, onunla əlaqədar idi ki, əhali qanunları bilmədiyini və ya onlardan xəbərsiz olduğunu deyə bilməsin. Qanunların əsl mətni dövrümüzədək gəlib çatmamışdır. Roma tarixçisi Tit Livi qanunları Roma hüququnun əsas mənbəyi kimi qiymətləndirmişdir. Külliyyatda mülki hüquqa, cinayət hüququna, ailə və vərəsəlik hüququna dair normalar nəzərdə tutulurdu.

**Onkol** *(ing. on call – tələb üzrə; kredit, hesab)* – qısamüddətli kommersiya kreditinin bir növü. O. kreditorun ilk tələbi ilə debitor tərəfindən ödənilməlidir.

**Onkol əqdi** – real malın satın alınması sistemi; alıcının tələb etməsinədək malın qiyməti ifadə olunmur. Əsasən pambığın alqı-satqısında tətbiq edilir.

**Onkol krediti** *(bax: onkol).*

**Opinio yuris** *(lat. opinio yuris)* – beynəlxalq hüquq subyektlərinin hüquq normalarının yuridik sağlamlığına (etibarlılığına) inamı. Bu, təcrübədə müəyyən qaydanın beynəlxalq hüquq norması qismində dövlət tərəfindən tanınması deməkdir. Beynəlxalq hüququn hər bir norması özünün mənbəyindən və tətbiqedilmə qaydasından asılı olmayaraq öz formalaşmasının iki mərhələsindən keçir: 1) qaydanın məzmununun işlənib hazırlanması; 2) həmin qaydanın beynəlxalq hüququn məcburi norması qismində tanınması. İkinci mərhələ həlledicidir. Belə ki, beynəlxalq hüququn subyekti yaranmış norma ilə bağlı olur.

**Opsion** *(alm. option – seçmə)* – **1)** dəniz (çarter) daşımaları müqaviləsində limanın fraxtçısı tərəfindən yükün yüklənməsi, yaxud boşaldılmasını və ya yükün daşıma üçün yüklənməsini seçmə hüququnu nəzərdə tutan şərt, habelə müqavilədə nəzərdə tutulmuş yükün başqa yüklə əvəz edilməsi hüququ; **2)** birja əqdinin müddətinə daxil edilən şərt; **3)** şirkət tərəfindən öz yüksək rütbəli qulluqçularına səhmləri sabit qiymətə satmaq üçün verilən hüquq.

**Opsion borc** – opsionla borc, borc forması və ya borc öhdəliyi forması; belə formada kreditora müəyyən edilmiş həddə borcun ödənilməsi şərtini seçmək hüququ verilir. Məsələn, borcludan borcu və ya onun müəyyən hissəsini valyuta ilə ödəməyi tələb etmək.

**Opsion dividend** – dividendin alınması formasını (pullarla və ya yeni səhmlər növündə) seçmək hüququnu nəzərdə tutan dividend.

**Opsion əqdi** – birja malına və ya birja malının daşınmasına dair kontrakta münasibətdə gələcəkdə hüquqların güzəşti ilə əlaqədar olan birja əqdi.

**Opsion kontraktı** – kontraktda (opsionda) müəyyən edilmiş qiymətlə həmin qiymətli kağızı müəyyənləşdirilmiş müddətdə satın almaq hüququ (lakin öhdəlik deyildir).

**Opsion şəhadətnaməsi** – özündə sahibinin qiymətli kağızları satın alma və ya satma hüququnu ehtiva edən adlı qiymətli kağız.

**Optant** *(lat. optans – arzu edən, istəyən)* – optasiya, vətəndaşlığı seçmək hüququna malik olan şəxs.

**Optasiya** *(lat. optatio – arzu, seçim)* – iki və daha çox vətəndaşlığı olan şəxsin bir vətəndaşlığı seçməsi. O. maraqlı dövlətlərin sazişi, yaxud onların milli qanunvericiliyi əsasında həyata keçirilir. O. dövlətlər arasında ərazinin dəyişdirilməsi, əhali mübadiləsi və ya nikahla əlaqədar baş verir. Belə halda uşaqlar, valideynlərinin vətəndaşlığını qəbul edirlər.

**Orda – 1)** türk və monqol xalqlarında hərbi-inzibati təşkilat, köçəri düşərgəsi. Orta əsrlərdə hökmdarın qərargahı, iqamətgahı və paytaxt şəhər də o. adlandırılırdı. Türk və monqollarda köçəri tayfa ittifaqlarının və iri feodal dövlətlərinin (Qızıl Orda, Noqay Ordası) adı da buradan meydana gəlmişdir; **2)** ibtidai insanın ilk, icmayaqədərki birliklərini bildirən köhnəlmiş termin – "ibtidai insan sürüsü"nün sinonimi; **3)** qeyri-mütəşəkkil insan dəstəsi.

**Ordali** *(lat. ordalium – hökm, məhkəmə)* – "ilahi məhkəmə" – orta əsrlərdə tətbiq edilmiş sınaq növü. Məhkəmə o.-nin köməyi ilə guya həqiqəti müəyyən edirdi. O. hər şeyin Allaha məlum olmasına, Allahın günahsızı müdafiə, günahkarı isə ittiham etməsi haqqında təsəvvürlərə əsaslanırdı. O. hələ "Hammurapi Qanunları"nda (Babilistan) və "Manu Qanunları"nda (Hindistan) norma kimi nəzərdə tutulurdu. Soyuq (buzlu) və ya isti (qaynar) su ilə, odla, qızdırılmış və ya əridilmiş dəmirlə sınama o.-nin ən geniş yayılmış formaları idi. Şəxsin əl-qolunu bağlayıb çaya atmaq, boğazına əridilmiş məhlul tökmək, qaynar su ilə doldurulmuş qabı şəxsin belinə bağlamaq, yanmaqda (xüsusi olaraq yandırılan) olan müəyyən sahədən yeritmək və i.a. cəza növü kimi tətbiq edilirdi. Xristianlığın meydana gəlməsi ilə o.-nin də yeni növləri – xaça, "müqəddəs" cəsədlərə and içmək və i.a. təşəkkül tapmışdır. O. Qərbi Avropada XVII yüzilliyədək mövcud olmuşdur.

**Orden** *(alm. orden – sıra, dərəcə)* – fərqlənmə nişanı, xüsusi xidmətlərə görə dövlətin verdiyi fəxri mükafat. O.-in mənşəyi Qərbi Avropada XII yüzillikdən monarx ordenləri formasında mövcud dini-cəngavər və cəngavər ordenləri ilə əlaqədardır.

Rusiyada ilk o.-ləri I Pyotr təsis etmişdi. Məsələn, müqəddəs Aleksandr Nevski O.-ni, müqəddəs Georgi O.-ni, müqəddəs Anna O.-ni və i.a. Digər xarici ölkələrin o.-lərindən "Qırmızı ürək", "Dəniz xaçı", "Gümüş Ulduz" (ABŞ), "Viktoriya xaçı", "Xidmətlərə görə", "Şərəf" (Böyük Britaniya), "Fəxri legion" (Fransa) o.-ləri daha məşhurdur.

Azərbaycanda o.-lər ölkə müstəqillik əldə etdikdən sonra təsis edilmişdir. Belə ki, 1993-cü ildə "İstiqlal", "Şah İsmayıl", "Azərbaycan bayrağı" və "Şöhrət" o.-ləri təsis olunmuşdur.

**Order** *(alm. order – sıra, qayda-qanun)* – **1)** yazılı əmr, göstəriş, sərəncam. Məsələn, pulun verilməsi haqqında əmr, təqsirləndirilən şəxsin həbs edilməsi barəsində





yazılı göstəriş, istintaq orqanlarının şəxsi axtarış və ya müəyyən yerdə axtarış aparması haqqında yazılı sərəncam; **2)** mülki qanunvericiliyə görə bir şəxsin (çıxarıcının) başqa şəxsə (ödəyiciyə) çıxarıcının hesabına remitentə pul, qiymətli kağızlar və ya digər əvəzolunan əşyaları verməsinə dair tapşırıqdan ibarət olan sənəd (AR MM-in 998.1-ci maddəsi).

**Orderli kağızlar** – mülki qanunvericiliyə görə qiymətli kağız üzrə ixtiyarlı şəxsin öz sərəncamı ilə öz əvəzinə başqa ixtiyarlı şəxsi təyin etməsini nəzərdə tutan qiymətli kağız (AR MM-in 991.1-ci maddəsi).

**Ordonanslar** *(fr. ordonnance)* – **1)** XII-XVIII yüzilliklərdə və 1814-1830-cu illərdə Fransada verilən kral fərmanları, o cümlədən XIII-XVI yüzilliklərdə İngiltərə krallarının fərmanları; **2)** Fransada və bir sıra başqa ölkələrdə hökumətin verdiyi akt. O. Fransada eyni zamanda Baş Ştatların iştirakı ilə verilirdi. Mütləqiyyətin bərqərar olması və inkişafı ilə əlaqədar kral tərəfindən verilən hər cür ordonans ölkənin ali orqanında – parlamentdə qeydiyyatdan keçməli idi.

**Ordu** – **1)** dövlətin silahlı qüvvələrinin məcmusu. O. dövlətin apardığı müharibədə hücum və ya müdafiə məqsədi ilə saxladığı silahlı qüvvələrin mütəşəkkil birliyidir; **2)** silahlı qüvvələrin, ilk növbədə quru qoşunlarının bir hissəsi; **3)** müharibə vaxtı döyüş əməliyyatlarında iştirak edən qoşunlar (məsələn, döyüşən ordu); **4)** bir neçə birləşmədən və müxtəlif qoşun növləri və xüsusi qoşunların əlahiddə hissələrindən ibarət operativ birlik. O.-nun ümumqoşun, tank, hava və dəniz qoşun növləri mövcuddur.

**Ordu qrupu** – bir və ya bir neçə qoşun növü birləşmələrindən ibarət müvəqqəti ümumqoşun birliyi; operativ-strateji birləşmə. O.q. əlahiddə (xüsusi) operativ məqsədləri müstəqil şəkildə və ya cəbhə (ordular qrupu) daxilində yerinə yetirmək üçün yaradılır. O.q.-nun heyəti daimi deyil. O, tapşırıqlardan, qüvvələr nisbətindən və şəraitdən asılı olaraq dəyişilir.

**Orqan** *(hüquqda)* – **1)** təşkilati birliyə, özünəməxsus səlahiyyətlərə və xüsusi təyinata (qanunvericilik, icra, məhkəmə) malik olan dövlət strukturu, yaxud ictimai struktur; **2)** özünün idarəetmə səlahiyyətlərinə malik olan hüquqi şəxsin struktur bölməsi, yaxud təşkilatda bu təşkilatın nizamnaməsi əsasında və ya qanuna əsasən idarəetmə funksiyalarını yerinə yetirən fiziki şəxs.

**Orta əməkhaqqı** – işçilərin xüsusi qaydalar üzrə və müəyyən dövr üçün hesablanmış əməkhaqqının miqdarı. O.ə. əməkhaqqı sistemləri ilə şərtləşdirilmiş müntəzəm ödəmələri əks etdirir. İşçilərin o.ə.h. növbəti məzuniyyətdə və ezamiyyətdə olarkən, dövlət vəzifələrini və ictimai vəzifələri yerinə yetirərkən saxlanılır. Hamilə və südəmər uşaqları olan qadınlar daha yüngül işə keçirilərkən onların da o.ə. saxlanılır.

**Ortaqlıq** – XX yüzilliyin 20-ci illərinədək Azərbaycanda yayılmış qarşılıqlı yardım forması. Torpağın şumlanması, əkilməsi, taxılın döyülməsi proseslərində iki ailə hərə bir baş qoşqu heyvanı qoyaraq, "ortaqlıq" adlanan birlik yaradırdı. Buna xalq arasında "taybir olmaq" da deyilirdi. Qara kotan ətrafında yaradılan o.-da 5-6 nəfər birləşir və ortaq üzvlərinin əkin sahəsi onların işçi və ya qoşqu qüvvəsinə uyğun əkilib-becərilirdi.

**Osmanizm** – Osmanlı imperiyasında siyasi doktrina. Bu doktrina XIX yüzilliyin sonunda "Gənc türklər" cəmiyyəti tərəfindən irəli sürülmüşdü. O. əvvələr dini mənsubiyyətindən asılı olmayaraq Osmanlı imperiyasının bütün təbəqələrinin bərabərliyini elan etmiş, lakin sonralar gənc türklərin hakimiyyət başına keçməsi (1908) ilə imperiyanın qeyri-türk xalqlarının milli tələblərinə qarşı mübarizədə və "vahid osmanlı milləti"ni yaratmaq məqsədi ilə onların türkləşdirilməsində ideoloji silaha çevrilmişdir.

**Ostan** *(fars. vilayət, əyalət)* – İranda 1937-ci ildən inzibati ərazi vahidi. O.-ı dövlət başçısı tərəfindən təyin edilən və Daxili İşlər Nazirliyinə tabe olan ostandar (general-qubernator) idarə edir. O. öz növbəsində şəhristanlara ayrılır.

**Ostandar** – İranda inzibati ərazi vahidindən ibarət olan vilayəti (əyaləti) idarə edən vəzifəli şəxs (general-qubernator). O. dövlətin başçısı tərəfindən təyin edilir, lakin Daxili İşlər Nazirliyinin tabeliyində fəaliyyət göstərir.

**Ostrakizm** *(yun. ostrakismos – saxsı qırığı)* – Qədim Afinada xalq yığıncağının qərarı ilə ayrı-ayrı şəxslərin şəhərdən qovulması. O. eramızdan əvvəl VI yüzilliyin sonundan başlayaraq qəddarlığın (tiraniyanın) bərpası əleyhinə tədbir kimi tətbiq edilmişdir. Xalq yığıncağında səs hüququna malik olan hər bir kəs təhlükəli hesab etdiyi şəxsin adını saxsı qırığına yazaraq yığıncağa təqdim edirdi. Əleyhinə 6 mindən az olmayaraq səs verilən şəxs 10 gün ərzində Afinanın hüdudlarını tərk etməli idi. Həmin şəxs 10 il müddətinə vətəndaşlıq və mülkiyyət hüququndan da məhrum edilirdi.

**Otaqxərci** – Azərbaycanda xanlıqlar dövründə (XVIII yüzillikdə) şəhər əhalisindən alınan vergi. Əsasən Bakı və Qarabağ xanlıqlarında geniş yayılmışdı. Hər evdən adam başına ildə bir dəfə toplanırdı. O.-nin həcmi qeyri-müəyyən idi. Müxtəlif xanlıqlarda tüstüpulu, başpulu, evpulu alınırdı.

**Oturaqlıq senzi** – konstitusiya hüququnda qanunla müəyyən edilmiş tələb; bu tələbə uyğun olaraq aktiv və ya passiv seçki hüququnun mövcudluğu həmin yerdə və ya ölkədə müəyyən müddət yaşamaqla əlaqədar müəyyən edilir. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 100-cü maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan Azərbaycan Respublikası vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər. Bir sıra ölkələrdə seçicilər üçün həddən artıq yüksək olan o.s. antidemokratik və irqi ayrı-seçkilik xarakteri daşıyır.

**Ov** – vəhşi heyvanların və quşların əldə edilməsi; insanın təsərrüfat fəaliyyətinin ən qədim sahələrindən biri. Ov ödənişlidir və müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilmiş xüsusi icazə və ovçuluq biletləri əsasında həyata keçirilir. Vəhşi heyvanların ov obyektlərinə aid edilməsi, ov yerlərinin ayrılması, ovçuluq təsərrüfatının təşkili və onun həyata keçirilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzim edilir.

**Ovçuluq** – əhalinin maddi və mənəvi, iqtisadiyyatın xammal, material və digər tələbatlarının ödənilməsi məqsədi ilə təbii sərbəstlik şəraitində yaşayan ovçuluq obyektlərinə aid edilmiş vəhşi heyvanların izlənməsi, təqib edilməsi, tutulması və vu-





rulması. O. fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən ovçuluq cəmiyyətləri, fiziki və hüquqi şəxslər üçün ayrılmış ov yerlərində həyata keçirilir. O. təsərrüfatının təşkili və aparılması məqsədi ilə vəhşi heyvanların nəsil artırdığı ərazilər o. yerləri kimi istifadə olunur.

**Ovçuluq bileti** – Azərbaycan Respublikasında ovetmə hüququnun təsdiqinə xidmət edən rəsmi, vahid formalı sənəd. O.b.-ni ovçuluq təsərrüfatının yerləşdiyi yerin müvafiq icra hakimiyyəti orqanı və ovçular cəmiyyəti verir. Biletsiz ovçuluq qanunsuz hesab olunur.

**Ovçuluq təsərrüfatı** – Azərbaycan Respublikasının qanunvericiliyinə görə təsərrüfat sahəsinin bir növü; əsas vəzifəsi dövlətin ov məhsullarına olan tələbatını təmin etməkdən ibarətdir.

**Ovçu silahı** – ov üçün nəzərdə tutulan odlu və soyuq mülki silah (tüfəng).

**Overdraft** *(ing. overdraft)* – müştərinin hesabı üzrə vəsaitlərin silinməsi ilə həyata keçirilən qısamüddətli kredit forması.

**Oversold** *(ing. overcold)* – müəyyən qiymətli kağızların və ya malların qiymətlərinin qəflətən aşağı düşməsi nəticəsində yaranan situasiya; qiymətli kağızların və ya malların bazara həddən artıq böyük həcmdə daxil olması ilə şərtləşir.

# -Ö-

Ödəmə balansı ... 821
Ödəmə balansının aktiv saldosu ... 821
Ödəmə balansının passiv saldosu ... 821
Ödəmə cədvəli ... 821
Ödəmə dövriyyəsi ... 821
Ödəmə ittifaqları ... 821
Ödəmə kartoçkası ... 821
Ödəmə sazişi ... 821
Ödəmə sistemi ... 821
Ödəmə-tapşırıq hesabı ... 821
Ödəmə tələb-tapşırığı ... 821
Ödəmə valyutası ... 821
Ödəmə vasitəsi ... 822
Ödənişli təhsil məzuniyyətləri ... 822
Ödəniş müddətindən sonra indossament ... 822
Ödənişsiz məzuniyyətlər ... 822
Ödəniş tapşırıqları və hesablaşmalar ... 822
Ögey ana ... 822
Ögey ata ... 822
Öhdəlik ... 822
Öhdəlik hüququ ... 823
Öhdəliyin xitamı ... 823
Öhdəliyin icrası ... 823
Öhdəliyin pozulmasına görə məsuliyyət ... 823
Öhdəliyin təmini ... 823
"Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunu ... 824
Öldürmə inyeksiyası ... 824
Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə ... 824
"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının qanunu ... 824
Ölmüş elan etmə ... 824
Ölüm ... 824
Ölüm cəzası ... 824
Ölüm düşərgələri (həbs düşərgələri)
Ömürlük həbs ... 825
Ömürlük vəsait ... 825
Özbaşına (məhkəməsiz) cəzalandırma ... 825
Özbaşınalıq ... 826
Özbaşına tikinti ... 826
Özəlləşdirmə ... 826
Özəlləşdirmə çeki (vauçer) ... 826
"Özəlləşdirmə haqqında" Azərbaycan Respublikasının qanunu ... 826
Özəl tibb fəaliyyəti ... 827
"Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu ... 827
Özəl tibbi müəssisə ... 827
Özəl tibbi praktika ... 827
Özgə işlərini tapşırıqsız aparma ... 827
Özgəninkiləşdirilməyən insan hüquqları ... 827
Özgəninkiləşdirmə ... 827
Özgənin uşağını dəyişdirmə ... 827
Öz-özünə etiraz ... 827
Öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma ... 828
Özünəyardım ... 828
Özünüidarə ... 828
Özünüöldürmə ... 828
Özünüöldürmə həddinə çatdırma ... 828
Özüyeriyən artilleriya ... 828
Özüyeriyən artilleriya qurğusu ... 828
Övdətnamə ... 828
Övladlığa götürmə ... 829
Övladlığa götürmənin gizli saxlanması ... 829
Övladlığa götürmə sirrini yayma ... 829







**Ödəmə balansı** – ölkənin xaricə və xaricdən daxil olan ödəmə balansı. Ö.b. beynəlxalq hesablaşmaların ən geniş yayılmış balans növlərindən biridir. Mədaxil ödəmədən yüksək olduqda balans aktiv (aktiv saldoya malik olmaq) hesab olunur. Əks təqdirdə isə balans passiv (passiv saldoya malik olmaq) sayılır. Ö.b.-nın sxemlərinin düzülüşünün beynəlxalq standartları ölkələrin əksəriyyəti tərəfindən qəbul edilmişdir. Həmin sxemləri Beynəlxalq Valyuta Fondu hazırlayır.

**Ödəmə balansının aktiv saldosu** – cari əməliyyatlar üzrə balansın və əsaslı qoyuluşların hərəkət balansının aktiv saldosu *(həmçinin bax: ödəmə balansı).*

**Ödəmə balansının passiv saldosu** – maliyyə orqanının vergi ödəyicisinin məbləğ və ödənişlərin köçürülməsi müddətləri haqqında xəbərdarlıq etdiyi sənəd (bildiriş).

**Ödəmə cədvəli** – mühasibat kassa sənədi; işçilərə və qulluqçulara əməkhaqqı, mükafatlar, əmək qabiliyyətsizliyinə görə müavinətlər verilməsi üçün nəzərdə tutulur. Digər ödəmələrin verilməsi üçün də belə cədvəllər tərtib edilir.

**Ödəmə dövriyyəsi** – pul dövriyyəsinin bir hissəsi; bu zaman pullardan öhdəliklərin ödənilməsi üçün istifadə olunur. Nağd və nağdsz formalarda həyata keçirilə bilər.

**Ödəmə ittifaqları** - bir qrup ölkələr çərçivəsində dövlətlərarası sazişlərdə rəsmiləşdirilən valyutaların, hesablaşmaların və onlara müvafiq olaraq kredit münasibətlərinin xüsusi imtiyaz sistemi. Ö.i.-nın məqsədi iştirakçı ölkələrin qarşılıqlı iqtisadi münasibətlərini, ümumdünya əmək bölgüsündə iştirakı inkişaf etdirməkdən ibarətdir.

**Ödəmə kartoçkası** – plastik kartoçka formasında sənəd; elektron ödəmə terminallarının köməyi ilə nağdsız satın almalara imkan verir.

**Ödəmə sazişi** – geniş mənada ticarət və qeyri-ticarət əməliyyatları üzrə hesablaşmaların sistemini və qaydasını müəyyən edən müqavilə. Ö.s., bir qayda olaraq, hökumətlərarası səviyyədə (ikitərəfli və ya çoxtərəfli əsasda) bağlanır və beynəlxalq ö.s. adlanır. Ö.s. bir sıra hallarda müqavilələrin (ticarət, kredit və i.a. müqavilələrinin) tərkib hissəsi kimi çıxış edir.

**Ödəmə sistemi** – iqtisadi dövriyyə iştirakçıları arasında pulların köçürülməsi, hesablaşmaların həyata keçirilməsi və borc öhdəliklərinin tənzimlənməsi üçün tətbiq edilən alətlərin və metodların məcmusu. Müxtəlif ölkələrin ö.s. bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Bu isə iqtisadi inkişafın səviyyəsi, bank qanunvericiliyinin xüsusiyyətləri və ödəmə adətləri ilə əlaqədardır.

**Ödəmə-tapşırıq hesabı** – hesablaşma sənədlərinin bir növü; ödəyicinin banka, buraxılmış mallara görə pul vəsaitlərinin onun hesabından köçürülməsi haqqında yazılı formada tapşırığının rəsmiləşdirilməsindən ibarətdir.

**Ödəmə tələb-tapşırığı** - nağdsız hesablaşmalar zamanı istifadə olunan ödəniş sənədi; daşıyıcının alıcıya məhsulun dəyərinin, yerinə yetirilmiş işlərin və göstərilmiş xidmətlərin əvəzini ödəməyə dair tapşırığından ibarətdir.

**Ödəmə valyutası** – xarici ticarət əqdində və ya beynəlxalq kreditin ödənilməsində malın dəyərinin faktiki ödənişinin baş verdiyi pul vahidi. Ö.v. xüsusilə də ödə-

nişlərin klirinq formasında valyuta əqdi ilə üst-üstə düşməyə bilər. Xarici ticarət əqdlərində və ya kredit kontraktlarında ö.v. əqdlə üst-üstə düşmədikdə, yenidən hesablaşmaların kursunun müəyyən edilməsi zərurəti yaranır.

**Ödəmə vasitəsi** *(bax: pullar).*

**Ödənişli təhsil məzuniyyətləri** – işləməklə yanaşı təhsil alan işçilərə verilən məzuniyyətlər. Əmək qanunvericiliyinə görə işçilərə aşağıdakı təhsil məzuniyyətləri verilir: a) müvafiq tədris mövsümü sessiyalarında tədris-təlimdə iştirak etmək, laboratoriya işlərini yerinə yetirmək, yoxlamaları və imtahanları vermək; b) dövlət imtahanlarını vermək; c) diplom layihəsini (işini) hazırlamaq və müdafiə etmək üçün verilən məzuniyyətlər (AR ƏM-in 123-cü maddəsi).

**Ödəniş müddətindən sonra indossament** – mülki qanunvericiliyə görə ödəniş müddətindən sonra icra edilmiş indossament həmin müddətdən əvvəl icra edilmiş indossamentlə eyni nəticələrə səbəb olur. Tarixi qoyulmamış indossament nə qədər ki, əksi sübuta yetirilməmişdir, müddət bitənədək icra edilmiş hesab olunur (AR MM-in 1022-ci maddəsi).

**Ödənişsiz məzuniyyətlər** – qohumluq borcunun yerinə yetirilməsi ilə bağlı ailə, məişət və başqa sosial məsələləri təxirə salmadan həll etmək, təhsil almaq, yardımçı elmi işlə məşğul olmaq üçün, habelə yaşına, fizioloji keyfiyyətlərinə görə işdən ayrılmaq zərurəti ilə əlaqədar istifadə olunan məzuniyyətlər (AR ƏM-in 128-ci maddəsi).

Ö.m. AR ƏM-də nəzərdə tutulmuş hallarda işçilərin xahişi və tərəflərin (işəgötürənlə işçinin) qarşılıqlı razılığı ilə verilir. İşəgötürənlə işçinin qarşılıqlı razılığına əsasən, həmçinin kollektiv müqavilələrində nəzərdə tutulan hallarda, o cümlədən əmək müqaviləsi ilə müəyyən edilən şərtlərlə işçilərə müddəti tərəflərin mülahizəsinə əsasən müəyyən edilən ödənişsiz məzuniyyətlər verilə bilər.

**Ödəniş tapşırıqları və hesablaşmalar** – mülki qanunvericiliyə görə ödəniş tapşırığı ilə hesablaşma zamanı bank ödəyicinin tapşırığı ilə onun hesabında olan vəsait hesabına müəyyən pul vəsaitini bu və ya başqa bankda ödəyicinin göstərdiyi şəxsin hesabına qanunla nəzərdə tutulmuş və ya qanuna uyğun təyin edilmiş müddətdə köçürməyi öhdəsinə götürür, bu şərtlə ki, bank hesabı müqaviləsində daha qısa müddət nəzərdə tutulmasın və ya bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə daha qısa müddət müəyyənləşdirilməsin (AR MM-in 973.1-ci maddəsi).

**Ögey ana** – uşaqları olan kişi ilə nikah bağlamış qadın. Ö.a. özünün yetkinlik yaşına çatmamış, habelə yetkinlik yaşına çatmış, lakin əmək qabiliyyəti olmayan ögey oğul və qızlarını saxlamağa borcludur. Ögey oğul və qızlar da öz növbəsində onları tərbiyə etmiş və ya saxlamış ö.a.-nı saxlamağa borcludurlar.

**Ögey ata** – başqa nikahdan uşaqları olan qadının əri. Ö.a. özünün yetkinlik yaşına çatmamış, habelə yetkinlik yaşına çatmış, lakin əmək qabiliyyəti olmayan oğul və qızlarını saxlamağa borcludur. Ögey oğul və qızlar da öz növbəsində onları tərbiyə etmiş və ya saxlamış ö.a.-nı saxlamağa borcludurlar.

**Öhdəlik** – mülki hüquq münasibəti. AR MM-in 385.1-ci maddəsinə uyğun olaraq öhdəliyə əsasən bir şəxs (borclu) başqa





şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır. Öz məzmunundan və xarakterindən asılı olaraq, ö. tərəflərdən hər birinin üzərinə digər tərəfin hüquqlarına və əmlakına xüsusi qayğı göstərmək vəzifəsini qoya bilər.

Ö.-də onun tərəflərindən hər biri – kreditor və ya borclu kimi bir şəxs və ya bir neçə şəxs iştirak edə bilər. Ö. tərəf kimi onda iştirak etməyən şəxslər (üçüncü şəxslər) üçün vəzifələr yaratmır. Tərəflərin razılaşmasında nəzərdə tutulmuş hallarda ö. üçüncü şəxslər üçün öhdəliyin bir və ya hər iki tərəfi barəsində hüquqlar yarada bilər (AR MM-in 387-ci maddəsi).

**Öhdəlik hüququ** – əmlakın verilməsi, işlərin yerinə yetirilməsi, xidmətlər göstərilməsi və ya pulun ödənilməsi ilə əlaqədar əmələ gələn ictimai münasibətləri tənzimləyən mülki hüquq normalarının məcmusu. Ö.h. qeyri-qanuni hərəkətlərdən yaranan münasibətləri də tənzim edir. Məsələn, başqasının hüququnu pozmuş şəxs zərər çəkən şəxsə vurulmuş ziyanı tam həcmdə ödəməlidir.

**Öhdəliyin xitamı** – lazımi qaydada icra edilməyən öhdəliyin fəaliyyətinin dayandırılması. Öhdəlik lazımi qaydada icra edilmədikdə ona xitam verilir və bu, öhdəliklərin icra yolu ilə xitamı adlanır. Öhdəliklərin xitamı yolları aşağıdakılardır: 1) öhdəliklərə hesabların çürüdülməsi yolu ilə xitam verilməsi; 2) öhdəliyə tərəflərin razılığı ilə xitam verilməsi; 3) icranın mümkün olmaması nəticəsində öhdəliyə xitam verilməsi; 4) müqavilə şərtlərinin dəyişdirilməsi nəticəsində öhdəliyə xitam verilməsi; 5) borclu ilə kreditor eyni şəxs olduqda öhdəliyə xitam verilməsi; 6) vətəndaşın ölümü və ya hüquqi şəxsin ləğv edilməsi ilə öhdəliyə xitam verilməsi (AR MM-in 527-559-cu maddələri).

**Öhdəliyin icrası** – öhdəliyin məzmununu təşkil edən hərəkətlərin yerinə yetirilməsi. Öhdəliklər lazımi qaydada və qanunun, müqavilənin göstərişlərinə uyğun olaraq, belə göstərişlər olmadıqda isə müvafiq surətdə irəli sürülən adi tələblərə uyğun, müəyyən edilmiş müddətdə icra olunmalıdır (AR MM-in 425-441-ci maddələri).

**Öhdəliyin pozulmasına görə məsuliyyət** – öhdəliyin məzmunundan irəli gələn şərtlərin yerinə yetirilməməsinə görə məsuliyyət. Borclu öhdəliyi icra etmədikdə və ya lazımi qaydada icra etmədikdə o, öz hərəkətləri ilə kreditora vurduğu ziyanı ödəməyə borcludur (AR MM-in 448-459-cu maddələri). Mülki qanunvericiliyə görə öhdəliklərin ayrı-ayrı növləri üzrə öhdəliklərin icra edilməməsi və ya lazımi qaydada icra edilməməsi üçün məhdud məsuliyyət müəyyən edilə bilər.

**Öhdəliyin təmini** – tərəfləri öhdəlikdən irəli gələn şərtləri dəqiq icra etməyə məcbur etmək üçün əlavə əmlak tədbirləri. Mülki hüquqa görə həmin tədbirlər aşağıdakılardan ibarətdir: dəbbə pulu (cərimə, peniya), girov, beh, zaminlik və təminat; onlar həmçinin öhdəliyin icra edilməməsi və ya lazımi qaydada icra edilməməsi nəticəsində tərəflərin birinə vurulmuş ziyanı ödəmək (tam və ya qismən) vasitəsidir. Dəbbə pulu, girov, zaminlik vətəndaşlar və təşkilatlar tərəfindən, beh vətəndaşlar arasındakı öhdəliklərdə, təminat isə yalnız

təşkilatlar arasında tətbiq edilir (AR MM-in 460-492-ci maddələri).

**"Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında ölçmələrin vəhdətinin təmin edilməsinin hüquqi əsaslarını müəyyən edən, ölçmə vəsaitlərinin işlənib hazırlanması, istehsalı, yoxlanması, sınağı, istismarı, təmiri, satışı, idxalı və ixracı sahəsində münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 13 iyun 2000-ci il tarixdə qəbul edilmişdir. O, 20 maddədən ibarətdir.

**Öldürmə inyeksiyası** – ABŞ-ın bəzi ştatlarında tətbiq edilən ölüm cəzasının icra edilməsi üsulu. Ö.i. o deməkdir ki, ölüm cəzasına məhkum olmuş şəxsin daxilinə şüurun itirilməsinə və sonra isə ürəyin dayanmasına səbəb olan preparatların kominasiyası yeridilir.

**Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə** – həyat və sağlamlıq əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 134-cü maddəsində nəzərdə tutulmuşdur. Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmədə, hədənin icra ediləcəyi üçün real əsasların olmasında ifadə olunur.

**"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikası vətəndaşının Azərbaycan Respublikasından getmək və Azərbaycan Respublikasına gəlmək hüquqlarına təminat verən və bu hüquqlardan azad surətdə istifadə etməyə dair münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 14 iyun 1994-cü il tarixdə qəbul olunmuş və ona 12 may 1995-ci il, 25 aprel, 26 iyun və 14 noyabr 1997-ci il tarixdə əlavə və dəyişikliklər edilmişdir. Qanun 17 maddədən ibarətdir.

**Ölmüş elan etmə** *(mülki hüquqda)* – mülki qanunvericiliyə görə, əgər şəxsin yaşayış yerində onun harada olması barədə beş il ərzində məlumat olmazsa, habelə o, ölüm təhlükəsi törədən və ya hansısa bədbəxt hadisədən həlak olduğunu güman etməyə əsas verən şəraitdə xəbərsiz itkin düşərsə və altı ay ərzində xəbər çıxmazsa, o, məhkəmə qaydasında ölmüş elan edilə bilər. Hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçu və ya digər şəxs hərbi əməliyyatların qurtardığı gündən ən azı iki il keçdikdən sonra məhkəmə qaydasında ölmüş elan edilə bilər. Şəxsin ölmüş elan edilməsi haqqında məhkəmə qərarının qanuni qüvvəyə mindiyi gün onun ölüm günü sayılır (AR MM-in 41-ci maddəsi).

**Ölüm** – məhkəmə təbabətində əsas anlayışlardan biri; orqanizmin həyat fəaliyyətinin dayanmasından və bunun nəticəsində canlı sistem sayılan fərdin məhv olmasından ibarətdir.

**Ölüm cəzası** – bir sıra ölkələrin cinayət qanunvericiliyində ən ağır cəza növü; ancaq xüsusilə ağır cinayətlərə görə təyin edilir (əsasən şəxsiyyətin həyat və sağlamlığı əleyhinə olan cinayətlərə, insan həyatına edilən qəsdə görə). Yetkinlik yaşına çatmayanlara belə cəza növü təyin edilmir. Ö.c. hazırda dünyanın 72-dən artıq ölkəsində ləğv edilmiş, daha 30 dövlətdə onun tətbiqinə de-fakto moratorium qoyulmuşdur. Bu cəza növü Azərbaycan Respublikasında ləğv edilərək, ömürlük həbs cəzası ilə əvəz edilmişdir.





**Ölüm düşərgələri (həbs düşərgələri)** – alman faşistlərinin hərbi əsirləri və işğal edilmiş ərazilərin mülki (dinc) əhalisini amansız fiziki işgəncələrə məruz qoyduqları, kütləvi surətdə məhv etdikləri həbs yerləri (konslagerlər). Ö. d. Almaniyada 1933-cü ilin yanvarında hakimiyyətə gəlmiş nasist partiyası tərəfindən yaradılmağa başlamışdır. Faşist terror rejiminin tərkib hissəsi olan ö.d.-nin yaradılmasının "hüquqi əsasına" Reyxsfürerin (Adolf Hitlerin) "Respublikanın müdafiəsi haqqında" 28 fevral 1933-cü il tarixli fərmanı xidmət etmişdir. Bu fərman hakimiyyət dairələrinə faşizm əleyhinə olanları istintaqsız və məhkəməsiz ö.d.-ndə qeyri-müəyyən müddətə saxlamaq hüququ verirdi. Faşistlərin özünün təsnifatına görə ö.d. 3 kateqoriyaya bölünürdü: 1) az ictimai təhlükəli cinayət törədənlər üçün nəzərdə tutulan düşərgələr; 2) təhlükəli cinayətlər törədənlər üçün nəzərdə tutulan düşərgələr; 3) xüsusilə təhlükəli cinayətlər törədənlər üçün nəzərdə tutulan düşərgələr. Sonralar meydana gəlmiş bütün düşərgələr 3-cü kateqoriyaya aid edilmişdir.

1934-cü ildən başlayaraq ö.d.-nin idarəçiliyini və mühafizəsini SS orqanları həyata keçirmişdir. İkinci dünya müharibəsi ərəfəsində və müharibə dövründə Almaniya və Avstriyanın ərazisində 6 ö.d. olmuşdur: Dahau, Zaksenhauzen, Buhenvald, Flossenburq, Mauthauzen və Ravensburq. SS orqanlarının məlumatına görə 1942-ci ilin aprelinə doğru əsas ö.d.-nin sayı 15-ə; onların filiallarının sayı isə 100-ə yaxın olmuşdur. 1944-cü ilin aprelində isə 20 əsas ö. d. mövcud olmuşdur. 1944-cü ilin sonuna doğru filialların sayı 1000-ə çatmışdır. Ştutqof Osvensim, Treblinka və Maydanlek ö.d.-ndə məhv edilənlərin sayı son dərəcə çox olmuşdur.

**Ömürlük həbs** – ömürlük azadlıqdan məhrum etmə. AR CM-in 57.1-ci maddəsinə uyğun olaraq ömürlük azadlıqdan məhrum etmə yalnız sülh və bəşəriyyət əleyhinə, müharibə cinayətləri ilə əlaqədar, şəxsiyyət və dövlət hakimiyyəti əleyhinə törədilmiş xüsusilə ağır cinayətlərə görə müəyyən edilir. Bu cəza tədbiri cinayətin törədildiyi anda yetkinlik yaşına çatmamış (18 yaşı tamam olmamış) şəxslərə, qadınlara və məhkəmənin hökmü çıxarılanadək 65 yaşına çatmış kişi cinsindən olan şəxslərə tətbiq olunmur.

**Ömürlük vəsait** – şəxsi ömürlük saxlamaq şərti ilə evi (mənzili) özgəninkiləşdirmə müqaviləsi. Bu müqaviləyə görə əmək qabiliyyəti olmayan bir tərəf (özgəninkiləşdirən) özünə məxsus olan evi (və ya onun bir hissəsini) digər şəxsin (əldə edənin) mülkiyyətinə verir, o isə bunun əvəzində həmin şəxsə mənzil, yemək, xidmət və lazımi kömək şəklində ömürlük maddi təminat verməyi öhdəsinə götürür.

**Özbaşına (məhkəməsiz) cəzalandırma** – həqiqi, yaxud ehtimal olunan cinayətə görə istintaqsız və ya məhkəməsiz cəzalandırma. Ö.c. Qərbi Avropada orta əsrlərdə müxtəlif formalarda mövcud olmuşdur. Onun bəzi formaları bir sıra dövlətlərdə müasir dövrdə də qalmaqdadır. ABŞ-dakı "Linç məhkəməsi"ni buna misal göstərmək olar. İctimai yerlərdə partlayışlar törətməklə, nəqliyyat vasitələrini qəzaya uğratmaqla insanı qətlə yetirmək ö.c.-nın müasir formalarıdır. Qan intiqamı da belə cəzalandırma formalarından biri kimi qiymətləndirilə bilər.

**Özbaşınalıq** – cinayət qanunvericiliyinə görə idarəetmə qaydası əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 322-ci maddəsində nəzərdə tutulmuşdur. Qanunla və ya digər normativ aktla müəyyən edilmiş davranış qaydasına zidd olaraq qanuniliyi vətəndaş və ya təşkilat tərəfindən təkzib edilən hər hansı hərəkətin özbaşına törədilməsində ifadə olunur.

**Özbaşına tikinti** – mülki qanunvericiliyə görə tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evi, digər tikili, qurğu və ya başqa daşınmaz əmlak (AR MM-in 180.1-ci maddəsi).

Ö.t. aparmış şəxs onun üzərində mülkiyyət hüququ əldə etmir. Şəxs belə tikili üzərində hər hansı sərəncamı verməyə (satmağa, bağışlamağa, icarəyə verməyə, yaxud onunla əlaqədar digər əqdlər bağlamağa) haqlı deyildir.

**Özəlləşdirmə** – vətəndaşlar, səhmdar cəmiyyətləri tərəfindən müəssisələrin, sexlərin, müstəqil müəssisələrə çevrilmiş istehsal sahələrinin, müəssisələrin digər bölmələrinin, ləğv edilmiş müəssisələrin və onların bölmələrinin avadanlıqlarının, tikililərinin lisenziyalarının, patentlərinin və digər maddi və qeyri-maddi aktivlərinin; dövlət və icra hakimiyyətləri səhmdar cəmiyyətləri (şirkətləri) kapitalından payların (səhmlərin), eləcə də özəlləşdirilməli müəssisələrin, digər səhmdar cəmiyyətlərin (şirkətlərin), assosiasiyaların, konsernlərin, birliklərin, habelə dövlət fonduna daxil olan yaşayış sahələrinin (mənzillərin) dövlət və icra hakimiyyətlərindən alınıb şəxsi mülkiyyətə verilməsi.

Özəlləşdirilməli olan və olmayan obyektlərin dairəsi qanunvericiliklə müəyyən edilir. Dövlət əmlakının özəlləşdirilməsinə dair sərəncam vermək hüququ Azərbaycan Respublikasının Dövlət Əmlak Komitəsinə, onun yerlərdəki idarələrinə və icra hakimiyyəti orqanlarına məxsusdur.

**Özəlləşdirmə çeki (vauçer)** – dövlətin məqsədli təyinata malik olan qiymətli kağızı. Müstəsna dərəcədə özəlləşdirilən dövlət və bələdiyyə mülkiyyətinin ödənilməsi üçün nəzərdə tutulur. Ö.ç.-nin fəaliyyət müddəti Azərbaycan Respublikası hökuməti tərəfindən həmin çekin üzərində göstərilməklə müəyyən edilir.

**"Özəlləşdirmə haqqında" Azərbaycan Respublikasının qanunu** – dövlət əmlakının özəlləşdirilməsi haqqında Azərbaycan Respublikasının qanunu 16 may 2000-ci ildə qəbul edilmiş, 11 avqust 2000-ci ildə tətbiq edilməsi barədə, 23 dekabr 2000-ci ildə isə qanunun icrası ilə bağlı əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı verilmişdir. Qanun üç fəsildən və otuz üç maddədən ibarətdir.

**Özəl tibb fəaliyyəti** – qanunvericiliklə müəyyən olunmuş qaydada hüquqi şəxs yaratmaqla həyata keçirilən tibbi fəaliyyət növü.

**"Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında özəl tibb fəaliyyətinin subyektləri arasında münasibətləri tənzimləyən, onların hüquq və vəzifələrini, bu fəaliyyətin təşkilati-hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 30 dekabr 1999-cu il tarixdə qəbul olunmuş, 20 fevral 2001-ci il, 19 aprel 2002-ci il və 20 aprel 2004-cü il tarixlərdə ona əlavə və dəyişikliklər edilmişdir. Qanun dörd fəsil və 19 maddədən ibarətdir.





**Özəl tibbi müəssisə** – əmlakı xüsusi mülkiyyətə, yaxud icarə müqaviləsi əsasında istifadə olunan mülkiyyətə əsaslanan tibb müəssisəsi.

**Özəl tibbi praktika** – ali və ya orta tibbi təhsili olan şəxslər tərəfindən hüquqi şəxs yaratmadan qanunvericiliklə müəyyən olunmuş qaydada verilən xüsusi razılıq əsasında ixtisasa uyğun olaraq həyata keçirilən tibbi yardım göstərilməsi üzrə fəaliyyət.

**Özgə işlərini tapşırıqsız aparma** – mülki qanunvericiliyə görə özgəsinin (sahibkarın) işlərini tapşırıq və ya digər əsas olmadan aparan şəxs (icraçı) onu vicdanla aparmağa borcludur. İşlərin tapşırıqsız aparılmasını sonradan sahibkar bəyəndikdə AR MM-in səkkizinci bölməsinin müddəaları əvəzinə tapşırıq haqqında müddəalar tətbiq olunur (AR MM-in 1087-ci maddəsi).

**Özgəninkiləşdirilməyən insan hüquqları** – demokratik respublikalarda konstitusiya quruluşunun və insanın konstitusiya-hüquqi statusunun əsas prinsiplərindən biri. Ö.i.h. o deməkdir ki, insan hüquqları ona anadangəlmə məxsusdur və onlar təbii səciyyə daşıyırlar. Dövlət isə onların həyata keçirilməsini tənzim edə və onlar üçün təminatlar müəyyənləşdirə bilər. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin I hissəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir.

**Özgəninkiləşdirmə** – əmlakı digər şəxsin mülkiyyətinə vermə. Ö. mülkiyyətçinin öz əmlakı üzərində sərəncam vermək hüququnun həyata keçirilməsi üsullarından biridir. Əvəzli ö. (alqı-satqı) və əvəzsiz ö. (bağışlama) bir-birindən fərqləndirilir. Ö. əmlaka sahib olmaq barəsində mülkiyyətçinin iradəsi ilə və ya bilavasitə iştirakı ilə bağlanan müqavilə əsasında həyata keçirilir. Ö. bütün hallarda mülkiyyətçinin dəyişməsi ilə müşayiət olunur. Bu səbəbə görə bir dövlət təşkilatının digərinə əmtəə məhsulunu, yaxud başqa əmlakı satması (göndərməsi) sözün əsl mənasında ö. hesab oluna bilməz, çünki belə halda mülkiyyətçi dəyişmir.

**Özgənin uşağını dəyişdirmə** – yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 172-ci maddəsində nəzərdə tutulmuşdur. Tibb müəssisələrində uşağın mühafizəsi və ya ona qayğı göstərilməsi vəzifəsini daşıyan şəxs tərəfindən tamah məqsədilə, intiqam niyyəti və sair alçaq niyyətlə özgənin uşağını dəyişdirmədə ifadə olunur.

**Öz-özünə etiraz** – mülki-prosessual qanunvericiliyə görə hakimin, ekspertin, mütəxəssisin, tərcüməçinin, məhkəmə iclas katibinin zəruri hesab etdikdə öz-özünə etiraz etməsi. İşə baxılmasında iştirak etməyə etiraz etmə və ya öz-özünə etiraz etmə yazılı formada əsaslandırılır və işə mahiyyəti üzrə baxılmasınadək bu barədə ərizə verilir. Sonradan etiraz etməyə və ya öz-özünə etiraza yalnız o halda yol verilir ki, etirazın əsasları məhkəməyə və etiraz edən şəxsə işə baxılmağa başlanandan sonra məlum olsun. Etiraz edən tərəf etirazın səbəblərini məhkəməyə sübut etməlidir.

Mülki mühakimə icraatında işə təkbaşına baxan hakimə etiraz edilməsi məsələsi məhkəmənin sədri tərəfindən həll edilir. Ekspertə, mütəxəssisə, tərcüməçiyə və

məhkəmənin iclas katibinə etiraz haqqında məsələ işə baxan hakim və məhkəmə tərəfindən həll edilir (AR MPM-in 21-22-ci maddələri).

**Öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 335-ci maddəsində nəzərdə tutulmuşdur. Hərbi qulluqçunun öz sağlamlığına hər hansı zərərvurma və ya özünü xəstəliyə vurma, sənədləri saxtalaşdırma və ya sair aldatma yolu ilə hərbi xidmətdən boyun qaçırmasında, habelə hərbi xidmət vəzifəsini yerinə yetirməkdən imtina etməsində ifadə olunur.

**Özünəyardım** – mülki hüquqların həyata keçirilməsi formalarından biri. AR MM-in 565.1-ci maddəsinə uyğun olaraq səlahiyyətli dövlət orqanlarının köməyi vaxtında yetişmədikdə və təcili müdaxilə edilmədən hüququn həyata keçirilməsinin qeyri-mümkün olacağı və ya xeyli çətinləşəcəyi təhlükəsi olduqda özünəyardım məqsədi ilə əşyanı alan, məhv edən və ya zədələyən, yaxud gizlənə biləcək mükəlləfiyyətli şəxsi tutan və ya özünün yerinə yetirməli olduğu hərəkətlər barəsində mükəlləfiyyətli şəxsin müqavimətinin qarşısını alan şəxsin hərəkətləri hüquqa zidd sayılır.

**Özünüidarə** – ərazi birliyinin, təşkilatın və ya kollektivin işlərinin onların üzvləri tərəfindən müstəqil olaraq seçkili orqan vasitəsilə və ya bilavasitə (yığıncaq, referendum və i.a. köməyi ilə) idarə edilməsi. Ö.-nin əsas elementləri aşağıdakılardır: a) dövlət hakimiyyətinin əhaliyə, yaxud müvafiq ərazinin seçicilərinə, ictimai təşkilatın, kollektivin üzvlərinə məxsus olması; b) daxili həyati məsələlərin həllində müstəqillik; c) kənardan təyin edilən orqanların olmaması. Ö.-nin bir növünü də yerli özünüidarə təşkil edir.

**Özünüöldürmə** – özünü həyatdan məhrum etmə niyyəti, intihar. Bir sıra ölkələrdə (məsələn, inqilabaqədərki Rusiya hüququnda cinayət) cinayət hesab edilir. ABŞ-da özünüöldürməyə kömək etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulur və bu, evtanaziya problemi ilə əlaqədar xüsusi aktuallıq kəsb edir. Azərbaycanda ö. sosial-mənəvi cəhətdən iradə zəifliyi (müəyyən mənada ictimai həyatın çətinliklərindən qorxaqlıq) kimi qiymətləndirilir.

**Özünüöldürmə həddinə çatdırma** – həyat və sağlamlıq əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 125-ci maddəsində nəzərdə tutulmuşdur. Təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı vəziyyətdə olmuş zərər çəkmiş şəxsin onunla amansız rəftar etmədə, onun ləyaqətini mütəmadi olaraq alçaltmada, ona hədə-qorxu gəlmə yolu ilə özünüöldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırmada ifadə olunur.

**Özüyeriyən artilleriya** – özüyeriyən zirehli artilleriya silahlarından (top, haubitsa, təpməyən silahlar və i.a.) ibarət artilleriya növü. Artilleriya qurğusu adətən tank, zirehli transportyor şassisi üzərində quraşdırılır. Ö.a. yüksək çevikliyə, manevretmə və keçid qabiliyyətinə malikdir.

**Özüyeriyən artilleriya qurğusu** – tank şassisi üzərində quraşdırılmış özüyeriyən zirehli artilleriya topu. Tankları hücumda müşayiət etmək, düşmən tanklarına qarşı mübarizə aparmaq üçündür.

**Övdətnamə** *(beynəlxalq hüquqda)* – diplomatik nümayəndənin tutduğu vəzifədən





geri çağırılması haqqında sənəd. Ö. diplomatik nümayəndəni göndərən dövlətin başçısının adından diplomatik nümayəndənin müvəkkil ediliş dövlətin başçısının adına göndərilir. Ö. adətən yeni təyin edilmiş diplomatik nümayəndə öz etimadnaməsini təqdim edərkən verilir.

**Övladlığa götürmə** – hüquqi akt. Ailə qanunvericiliyinə görə ö.g.-yə yetkinlik yaşına çatmayanlar barəsində və yalnız onların mənafeyi naminə yol verilir. Bir uşaq iki şəxs tərəfindən övladlığa götürülə bilməz (ər-arvad istisna olmaqla). Ər (arvad) özünün nikahdan olmayan uşağını və ya arvadının (ərinin) uşağını övladlığa götürə bilər. Uşağın mənafeyinə cavab verən hallar istisna olmaqla, qardaş və bacıların müxtəlif şəxslər tərəfindən övladlığa götürülməsinə yol verilmir.

Ö.g. uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) verdiyi ərizə əsasında məhkəmə tərəfindən həyata keçirilir. İşə müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə mülki-prosessual qanunvericilikdə nəzərdə tutulmuş xüsusi icraat qaydasında baxılır. Övladlığa götürənlərin və övladlığa götürülən uşaqların hüquq və vəzifələri bu barədə qətnamənin qanuni qüvvəyə mindiyi gündən yaranır. Qətnamə qüvvəyə mindiyi gündən 3 gün müddətində ondan çıxarış müvafiq icra hakimiyyəti orqanına göndərilməlidir.

Hər hansı şərtlər altında, hər hansı müddətə və ya nümayəndələr vasitəsi ilə övladlığa götürmək yolverilməzdir. Uşaq öldükdə ö.g.-yə yol verilmir. Övladlığa götürülən uşaqların uçotu Ai.M-in 115.5-ci maddəsində müəyyən olunmuş qaydada həyata keçirilir. Uşaqların ö.g.-yi arzu edən şəxslərin uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

Övladlığa götürən şəxs nikahda deyilsə, onunla övladlığa götürülən uşağın yaş fərqi 16-dan az olmamalıdır. Məhkəmə tərəfindən üzrlü hesab edilən səbəb olduqda, yaş fərqi qısaldıla bilər. Ögey ata (ögey ana) uşağı övladlığa götürəndə Ai.M-in 121.1-ci maddəsində nəzərdə tutulmuş yaş fərqinin olması tələb edilmir. Valideynləri olan uşaq Ai.M-in 123-cü maddəsində göstərilən istisna olmaqla, yalnız valideynlərinin razılığı ilə övladlığa götürülə bilər (Ai.M-in 117-ci, 118-ci, 119-cu, 121-ci və 122-ci maddəsi).

**Övladlığa götürmənin gizli saxlanması** – ailə qanunvericiliyinə görə övladlığa götürmənin sirri qanunla mühafizə olunur. Övladlığa götürənlərin razılığı olmadan, onlar öldükdə isə qəyyumluq və himayə orqanının razılığı olmadan övladlığa götürmə haqqında hər hansı məlumat vermək, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarından övladlığa götürənlərin övladlığa götürülənin doğma valideynləri olmadığını göstərən çıxarışlar vermək qadağan edilir. Övladlığa götürənin iradəsi ziddinə övladlığa götürmə sirrini yaymış şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar (Ai.M-in 130-cu maddəsi).

**Övladlığa götürmə sirrini yayma** – cinayət qanunvericiliyinə görə yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 175-ci maddəsində nəzərdə tutulmuşdur. Övladlığa götürənin iradəsi ziddinə olaraq övladlığa götürmə faktını xidməti və ya peşə sirri kimi qorumağa borclu olan şəxs və ya digər şəxs tərəfindən tamah, qisas və ya sair alçaq niyyətlə yaymada ifadə olunur.

# -P-

Padşah ... 834
Pakt ... 834
"Pakta sunt servanda" ... 834
Palata ... 834
Palmoskopiya ... 834
Panafrikanizm ... 834
Panamerikanizm ... 834
Pança şila ... 834
Pançayat ... 835
Pandekt hüquq ... 835
Pandektlər ... 835
Pandekt sistem ... 835
Pangermanizm ... 835
Paniranizm ... 835
Pansion ... 836
Pansionlaşdırma ... 836
Panslavizm ... 836
Papilyar cizgi ... 836
Papilyar xətlər ... 836
Papilyarskop (daktiloskop) ... 836
Papilyarskop lupa ... 836
Para ... 836
Parad ... 837
Paradiqma ... 837
Paraflama ... 837
Paralel valyuta ... 837
Paralel yurisdiksiya ... 837
Paranomiya ... 837
Parantella ... 837
Paritet ... 837
Parlament ... 838
Parlamentarizm ... 838
Parlament çıxışları ... 838
Parlamentdənxaric referendum ... 838
Parlament dinləmələri ... 838
Parlament etikası ... 838
Parlament hüququ ... 838
Parlament immuniteti ... 838
Parlament istintaqı ... 839
Parlamentli monarxiya ... 839
Parlamentli respublika ... 839
Parlament məsələləri ... 839
Parlament nəzarəti ... 839
Parlament tətilləri ... 839
Parlament toxunulmazlığı ... 840
Parlamentyor ... 840
Parol ... 840
Parsel təsərrüfatı ... 840
Partiya ... 840
Partiya senzi ... 840
Partiya sistemi ... 840
Partiya siyahısı ... 841
Partizan ... 841
Partlayıcı, tez alışan maddələrin və ya pirotexniki məmulatın uçotu, saxlanması, daşınması və istifadə edilməsi qaydalarını pozma ... 841
Partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ... 841
Pasifizm ... 841
Paskvil ... 841
Pasport ... 841
Pasport sistemi ... 841
Passinq-of ... 842
Passiv ... 842
Passiv seçki hüququ ... 842
Paşa ... 842
Paşalıq ... 842
Patent ... 842
"Patent haqqında" Azərbaycan Respublikasının qanunu ... 842
Patent hüququ ... 842
Patentin pozulması ... 843
Patent qabiliyyəti ... 843
Patentli lisenziya ... 843
Patentli pul ... 843
Patent müvəkkili ... 843
Patent rüsumu ... 843
Patent sahibi ... 843
Patent təmizliyi ... 843
Pater familias ... 843
Paternalizm ... 843
Patoloji sərxoşluq ... 844
Patriarx ... 844
Patriarxal ailə ... 844
Patriarxat ... 844
Patrilokal nikah ... 844
Patrimonium ... 844
Patrisiat ... 844
Patrisilər ... 844
Patron ... 844
Patronaj ... 844
Patronat ... 845
Patronimiya ... 845
Patrosini ... 845
Patrul ... 845
Pauşal məbləğ ... 845
Pauşal ödəniş ... 845
Pay ... 845
Pay almağın təmin edilməsi öhdəliyi ... 846
Payçı ... 846
Payın bərabərləşdirilməsi ... 846
Payın kompensasiyası ... 846
Pedel ... 846
Pederastiya ... 846
Pekuli ... 846
Penitensiar ... 846
Penitensiar residiv ... 846
Peniya ... 846
Penologiya ... 847
Pensionar ... 847
Pensiya ... 847
Pensiya ehtiyatları ... 847
Pensiya əsasları ... 847
Pensiya kapitalı ... 847
Pensiya müqaviləsi ... 847
Pensiya sxemi ... 847
Pensiya təminatı ... 847
Pensiya yığımı ... 847
Peonaj ... 848
Peonlar ... 848
Per ... 848
Pereqrinlər ... 848
Perieklər ... 848
Perlüstrasiya ... 848
Perserversiya ... 848
Persona ... 848
Persona qrata ... 848
Persona non qrata ... 848
Perversiya ... 849
Peşə xəstəlikləri ... 849
Peşəkar cinayətkarlıq ... 849
Peşəkar ordu ... 849
Peşə senzi ... 849
Peşə sirri ... 849
Peşə yönümü ... 849
Peşə zəhərlənməsi ... 849
Petisiya ... 850
Petisiyalar azadlığı ... 850
Petisiyalar hüququ ... 850
Petisiyalı referendum ... 850
Petitor iddia ... 850
Pədərşahlıq ... 850
Pərakəndə alqı-satqı müqaviləsi ... 850
Pərakəndə qiymətlər ... 850
Pərakəndə ticarət ... 850
Pəşva ... 850
Pfalsqraf ... 851
Piastr ... 851
Piket ... 851
Piromaniya ... 851
Plagiat ... 851
Plastik bank kartoçkası ... 851
Platforma (siyasi) ... 851
"Platt düzəlişi" ... 851
Plebeylər ... 852
Plebey tribunları ... 852
Plebissit ... 852
"Plebissit demokratiyası" ... 852
Plebs ... 852
Plenum ... 852
Plomb ... 852
Plutokrat ... 852
Plutokratiya ... 852

Plüral ... 852
Plüralizm ... 853
Plüral votum ... 853
Plürilaterial müqavilə ... 853
Poçt göndərişləri ... 853
Poçt markası ... 853
Poçt rabitəsi ... 853
Podpolkovnik ... 853
Podratçı ... 853
Podrat müqaviləsi ... 853
Poliandriya ... 854
Poliginiya ... 854
Poliqamiya ... 854
Polinominal dairələr ... 854
Polis[1] ... 854
Polis[2] ... 854
Polisa statutu ... 854
Polis əməkdaşı ... 854
"Polis haqqında"
Azərbaycan Respublikasının qanunu ... 854
Polis hüququ ... 855
Polis nəzarəti ... 855
Polkovnik ... 855
Pontifikat ... 855
Pontifiki ... 855
Popolanlar ... 855
Populistlər ... 855
Populyarlar ... 855
Pornoqrafik materialları və ya
əşyaları qanunsuz yayma ... 855
Pornoqrafiya ... 855
Poroskopiya ... 856
Porta ... 856
Portye ... 856
Post ... 856
Postqlossatorlar ... 856
Potensial ... 856
Pozitiv hüquq (müsbət hüquq) ... 856
Praymeriz ... 856
Prayvesi ... 857
Preambul ... 857
Predmetlərin və sənədlərin tədqiqi ... 857
Prefekt ... 857
Prefektura ... 857
Preferensial fərq ... 857
Preferensial səsvermə ... 857
Preferensiya ... 858
Prekari ... 858
Preklüziv (axıcı) müddətlər ... 858
Prekursorlar ... 858
Preliminari ... 858
Preliminar sülh müqaviləsi ... 858
Presedent ... 858
Presedent hüququ ... 859
Press-reliz ... 859
Presviterlər ... 859
Pretenziya ... 859
Pretenziya qaydası ... 859
Pretor ... 859
Pretor ədliyyəsi ... 859
Pretor hüququ (jus praetorizm) ... 860
Pretor hüququnun prezumpsiyası ... 860
Pretorianlar ... 861
Pretura ... 861
Prevensiya ... 861
Preventiv həbs ... 861
Preventiv tədbirlər ... 861
Preyudisial faktlar ... 861
Preyudisiallıq ... 861
Prezentant ... 862
Prezentasiya ... 862
Prezidensionalizm ... 862
Prezident ... 862
Prezident idarəçiliyi ... 862
Prezident immuniteti ... 862
Prezidentlik ... 863
Prezidentli respublika ... 863
Prezidentura ... 863
Prezumpsiya ... 863
Prikazlar ... 863
Prima ... 863
Prinseps ... 863
Prinsipat ... 863
Prinsipial ... 864
Priorat ... 864
Pristav ... 864
Priz hüququ ... 864
Priz məhkəməsi ... 864
Probasiya ... 864





Prodüser ... 864
Professor ... 865
Profilaktik fəaliyyət ... 865
Profiloqrafiya ... 865
Profisit büdcə ... 865
Proxiron ... 865
Prokonsul ... 865
Prokurator ... 865
Prokurist ... 865
Prokuror ... 865
Prokurorluq ... 866
"Prokurorluq haqqında"
Azərbaycan Respublikasının qanunu ... 866
Proletarlar ... 866
Prolonqasiya ... 866
Promessa ... 866
Promulqasiya ... 867
Proniya ... 867
Prorektor ... 867
Proroqasiya ... 867
Proroqasiya sazişləri ... 867
Proses ... 867
Prosessual forma ... 867
Prosessual hüquq ... 867
Prosessual hüquq varisliyi ... 867
Prosessual iştirakçılıq ... 868
Prosessual müddətlər ... 868
Prosessual təminatlar ... 868
Proskripsiya ... 868
Proteksionizm ... 868
Protektor ... 869
Protektorat ... 869
Protest ... 869
Protestant ... 869
Protestat ... 869
Protokol ... 869
Protokollar ... 869
Provizor ... 869
Prussiya Zem Məcəlləsi
(Prussiya Mülki Məcəlləsi) ... 870
Psixi anomaliya ... 870
Psixiatriya ... 870
Psixi pozğunluq ... 870
Psixoloji hüquq məktəbi ... 870
Psixopatiya ... 870
Psixotrop maddələr ... 870
Pskov məhkəmə qramotası ... 870
Puanson ... 871
Publikanlar ... 871
Publisi iddiası ... 871
Pul ... 871
Pul akkreditivi ... 871
Pul islahatı ... 871
Pul-kredit siyasəti ... 871
Pul-kredit tənzimləməsi ... 871
Pul kütləsi ... 871
Pullar ... 872
Pul nişanları ... 872
Pul nişanlarının saxtalaşdırılması ... 872
Pul vahidi ... 872
Pul vəsaitləri ... 872
Pul öhdəliklərinin icrası ... 872
Pul öhdəlikləri valyutası ... 872
Pul öhdəliyi ... 872
Pul sistemi ... 872
Pul tədavülü ... 873
Puritanlar ... 873

**Padşah** – Yaxın və Orta Şərqin bir sıra ölkələrində dövlət başçısının titulu. P. titulu ilk dəfə qədim İranda meydana gəlmişdir. XV yüzillikdən başlayaraq Osmanlı imperiyasının hökmdarı – sultan p. adlandırılmışdır. Sultanlıq ləğv edilənədək (1992-ci ilədək) p. titulu saxlanmışdır. Azərbaycanda Ağqoyunlu, Səfəvi hökmdarları da p. adlandırılmışdır.

**Pakt** *(lat. pactum – müqavilə, saziş)* – müxtəlif beynəlxalq müqavilələri ifadə etmək üçün işlədilən termin. P. adətən daha konkret səciyyə daşıyır. O, bir qayda olaraq, qarşılıqlı, yaxud kollektiv təhlükəsizlik, qarşılıqlı yardım, hücum etməmək kimi mühüm siyasi əhəmiyyətli məsələləri əhatə edir.

**"Pakta sunt servanda"** *(lat. "pacta sunt servanda" – müqavilələrə mütləq riayət olunmalıdır)* – beynəlxalq hüququn əsas prinsiplərindən biri; hər bir dövlətin öz beynəlxalq vəzifələrini vicdanla və bütünlüklə yerinə yetirməsi öhdəliyi. Qədim dövrlərdən məlum olan "p.s.s." prinsipi müasir dövrdə BMT Nizamnaməsi və bir sıra digər beynəlxalq-hüquqi sənədlərdə təsbit edilmişdir. Bu prinsipin pozulması beynəlxalq delikt hesab olunur.

**Palata** *(hüquqda)* – **1)** nümayəndəli orqanın, yaxud onun tərkib hissəsinin adı; **2)** bəzi dövlət təşkilatlarının və ya ictimai təşkilatların adı (məsələn, ticarət palatası, kitab palatası və i.a.); **3)** bəzi ölkələrdə (İtaliyada, Meksikada) parlamentin aşağı deputatlar palatası; **4)** monarxiya idarəçilik formasına malik olan dövlətlərdə yuxarı aristokratlar palatası – perlər palatası; **5)** icma palatası – ingilis parlamentinin seçkili aşağı palatası. Lordlar palatası – ingilis parlamentinin irsən keçən və ya kral (kraliça) tərəfindən təyin edilən yuxarı palatası; **6)** nümayəndələr palatası – ABŞ-da, Yaponiyada və digər ölkələrdə aşağı qanunvericilik palatası.

**Palmoskopiya** *(lat. palma – ovuc+yun. skopeo – baxıram)* – kriminalistikanın daktiloskopiya bölməsində əlin ovuc hissəsinin papilyar xətlərini öyrənən sahə.

**Panafrikanizm** – ilk vaxtlar irqi əsarət və bərabərsizliyə qarşı mübarizədə dünyanın bütün zəncilərini birləşdirmək məqsədilə yaradılmış ideya-siyasi hərəkat; tədricən Afrika xalqlarının siyasi müstəqilliyi, iqtisadi azadlığı və birliyi uğrunda çıxış edən Afrika millətçilərinin hərəkatına çevrilmişdir. XIX-XX yüzilliklərin ayrıcında irqi ayrı-seçkiliyə son qoyulmasını, qara dərili insanlara vətəndaşlıq və siyasi hüquqlar verilməsini tələb edən ABŞ və Vest-Hind ziyalı zəncilərinin təşəbbüsü ilə yaradılmışdır.

**Panamerikanizm** – faktların ziddinə gedərək və tarixi prosesin şərhində təhriflərə yol verərək ABŞ-ın və Amerikanın digər ölkələrinin tarixinin, iqtisadiyyat və mədəniyyətinin ümumiliyini iddia edən mürtəce siyasi doktrina. XIX yüzilliyin əvvəllərində mürtəce Avropa dövlətlərinin Amerikanın daxili işlərinə qarışmasına etiraz əlaməti olaraq meydana gəlmiş p.-dən ABŞ XIX yüzilliyin sonlarından başlayaraq Latın Amerikası ölkələrinə ekspansiyasını gücləndirmək məqsədilə istifadə etmiş və indi də etməkdədir.

**Pança şila** – 1954-cü ildə Hindistan və Çin tərəfindən irəli sürülmüş beş prinsip. Həmin prinsiplərə ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmət etməkdən, hücum etməməkdən, bir-birinin daxili işlərinə qarışmamaqdan, bərabərlikdən və qarşılıqlı mənfəətdən, dinc, yanaşı yaşamaqdan ibarətdir.

**Pançayat** – **1)** Hindistanda və Cənubi Asiyanın bir sıra digər dövlətlərində yerli özünüidarə orqanı; **2)** Milli Pançayat - Nepalın ali qanunvericilik orqanı.

**Pandekt hüquq** *(alm. pandektenrecht)* – Almaniyada XVI-XIX yüzilliklərdə qüvvədə olmuş xüsusi hüquq. P.h. qlossatorların yenidən işlədikləri Qədim Roma hüququna kanonik hüquq normalarının əlavə edilməsi və alman feodal adət hüququ əsasında formalaşmışdır. P.h. həm də Almaniyanın ümumi hüququ hesab olunurdu. XVIII-XIX yüzilliklərdə hüququn məcəllələşdirilməsilə əlaqədar subsidiar (əlavə) məna kəsb etmiş, Almaniyanın 1900-cü il Mülki Qanunlar Külliyyatının tətbiq edilməsilə ləğv edilmişdir. "P.h." terminindən alman mülki hüquq elmini ifadə üçün də istifadə olunmuşdur. Bu hüquq əsasında bir çox burjua ölkə hüquqşünasları mülki hüququn ümumi nəzəriyyəsini işləyib hazırlamışlar.

**Pandektlər** *(lat. pandectae – hər şeyi əhatə edən)* – Qədim Romada məşhur klassik hüquqşünasların əsərləri. P. qanunlardan və böyük hüquqşünasların, əvvəlki müəlliflərin əsərlərindən edilmiş qısa çıxarışlardan ibarət olmuşdur. Onlar eyni zamanda da Yustinian Digestlərinin sinonimləri hesab olunurlar. XIX yüzillikdə Almaniyada p. elmi və pandektistika inkişaf etmişdir.

**Pandekt sistem** – institusionalizmlə yanaşı dünya təcrübəsində təşəkkül tapmış xüsusi hüquq normalarının sistemləşdirilməsi üsullarından biri. P.s. ondan ibarətdir ki, mülki məcəllənin normaları ümumi və xüsusi hissədən ibarət olan normalara bölünürlər. Məcəllənin ümumi hissəsinə müvafiq surətdə ümumi məsələləri (məsələn, hüququn obyektlərini və subyektlərini, hüquq qabiliyyətini, fəaliyyət qabiliyyətini, hüquq münasibətlərinin yaranması və xitam olunması əsaslarını) tənzimləyən normalar daxil edilir. Almaniyanın 1896-cı il Mülki Məcəlləsi p.s. üzrə tərtib edilmişdir. Bu sistem Azərbaycan Respublikasının Mülki Məcəlləsinə də aiddir.

**Pangermanizm** – Almaniya burjuaziyası və yunkerlərinin təcavüzkarlıq və ekspansionist niyyətlərini əks etdirən mürtəce siyasi doktrina. XIX yüzilliyin 80-ci illərində Avstriya-Macarıstanda meydana gəlmişdir. P. ideyalarının daşıyıcısı Panalmaniya ittifaqı yaratmaqdan ibarət idi. P.-in tərəfdarları təcavüzkar "Dranq nax Osten" siyasətinin ən fəal təbliğatçıları idilər. Onlar bütün dünyada alman imperializminin hökmranlığına nail olmaq xülyaları ilə yaşayırdılar. P. alman faşizminin ideya sələfi olmuşdur.

**Paniranizm** – İran mülkədar-burjua dairələrinin qatı millətçi hissəsinin şovinist nəzəriyyəsi. XIX yüzilliyin ortalarında meydana gəlmişdir. P. Əhəməni və Sasani imperiyaları sərhədi çərçivəsində "Böyük İran" dövləti yaradılması ideyasına əsaslanır. Paris sülh konfransına (1919-1920) İran hökumətinin verdiyi memorandumda Qafqaz, Orta Asiya, Əfqanıstan və i.a. ərazilərin İrana "qaytarılması" tələbi p.-in xarici siyasətdə ilk təzahürü olmuşdur. Berlində çıxan "Kavə" və "İranşəhr", Tehranda nəşr olunan "Ayəndə" jurnalları p.-in yayılmasında xüsusi rol oynamışdır.

**Pansion** – *(fr. pension, lat. pensio – ödəmə, icarə və ya kirayə haqqı)* – **1)** bir sıra xarici ölkələrdə, həmçinin böyük oktyabr silahlı çevrilişinədək Rusiyada hakim sinfin uşaqları üçün yataqxanası və yeməkxanası olan qapalı orta (bəzən ali) məktəb. İlk p.-lar VI-VIII yüzilliklərdə Qərbi Avropada (Almaniyada, İngiltərədə) meydana gəlmişdir. XVIII-XIX yüzilliklərdə geniş yayılmışdır. Bakıda ilk p. 1869-cu ildə (Bakı realnı məktəbi nəzdində), sonralar isə Şuşa, Gəncə və başqa şəhərlərdə (dövlət məktəbləri və xüsusi məktəblər nəzdində) açılmışdır. P.-lar öz fəaliyyətini 1920-ci ilin aprelindən sonra dayandırmışdır; **2)** bir sıra xarici ölkələrdə tam xidmət göstərilməklə kirayənişini saxlayan mehmanxana.

**Pansionlaşdırma** – mərkəzi bankda və ya kommersiya bankında veksellərin kommersiya bankları tərəfindən aparılan uçotu. Belə p. daha aşağı olan uçot məzənnəsi ilə aparılır.

**Panslavizm** – XIX yüzilliyin ikinci yarısında – XX yüzilliyin əvvəllərində rus zadəganları və burjuaziyası arasında millətçilik ideologiyası və ona müvafiq olan siyasi cərəyan. P. ideologiya kimi Rusiyada Krım müharibəsindəki (1853-1856) məğlubiyyət və Polşa üsyanının (1863-1864) yatırılması ilə əlaqədar meydana gəlmişdir. N.Y. Danilevski, N.N. Straxov, A.İ. Koşelev və başqaları p.-in ideoloqları olmuşlar. Onların xalqların mədəni-tarixi tipləri haqqında idealist konsepsiyasına görə mədəni-tarixi xalqlardan biri də "Avropadan" (yəni roman-german tiplərindən) fərqlənən və öz xüsusiyyətini guya qorumalı olan slavyanlardır. Slavyanlığın tarixi inkişafının xüsusiyyəti haqqındakı nəzəri müddəalar Rusiya başda olmaqla bütün slavyan xalqlarının (lakin Polşasız, çünki Polşa öz tarixi taleyinə görə guya slavyan xarakterini itirmiş və "Qərbə" mənsubdur) ittifaq yaratmasının zəruriliyi haqqında siyasi nəticə çıxarmaq üçün əsas idi. Qeyri-bitkin siyasi hərəkat kimi p. səthi xarakterdə olub bürokrat, hərbi və ziyalı dairələrinin bir hissəsini əhatə edirdi.

**Papilyar cizgi** – papilyar xətlərin yaratdıqları cizgi. Kriminalistikada ovucun p.c.-ləri eyniləşdirmə baxımından daha əhəmiyyətli əlamətlər hesab olunur. P.c.-lərin üç əsas tipi fərqləndirilir: a) dairəvi p.c.-lər; b) ilgəkvari p.c.-lər; c) qövsvari p.c.-lər.

**Papilyar xətlər** – əlin ovuc hissəsinin üzərində və ayağın pəncə, daban hissəsində dəri relyefinin detalları. Onların strukturu epidermisin və dermanın birləşdiyi zonada iki sırada yerləşən məməciklərlə müəyyən edilir. Onlar bir-birilə paralel şəkildə gedir və bir-birindən aralarında yerləşən şırım vasitəsilə ayrılırlar. P.x. kriminalistikada mühüm eyniləşdirici əlamətlərdən biri hesab olunur.

**Papilyarskop (daktiloskop)** – papilyar cizgi izlərinin böyüdülmüş halda öyrənilməsi və eyniləşdirmə tədqiqatı üçün kriminalistikada tətbiq edilən optik cihaz.

**Papilyarskop lupa** – papilyar cizgi izlərinin öyrənilməsi və eyniləşdirmə tədqiqatı üçün kriminalistikada istifadə olunan optik cihaz. Daktiloskopik lupadan onunla fərqlənir ki, p.l. iki linzaya, xüsusi şəbəkəyə və izlərin fotoşəklinin lazımi vəziyyətdə yerləşdirilməsi və qeydi üçün cihaza malikdir.

**Para** *(türk. para)* – **1)** 1623-cü ildən Türkiyədə tədavüldə olmuş gümüş sikkə; XVII yüzilliyin sonundan piastrın 1/4-nə bərabər əsas pul vahidi. 1930-cu ildən P.-dan yalnız





hesab vahidi (quruşun 1/40-i) kimi istifadə olunur; **2)** XVII yüzillikdə Krım xanlığının gümüş sikkəsi; **3)** 1771-1774-cü illərdə Rusiyanın Moldaviya və Valaxiya üçün buraxdığı mis sikkə. 2 para 3 qəpiyə bərabər idi; **4)** Yuqoslaviyanın dinarının 1/100-nə bərabər olan xırda pul. Tədavüldə 50, 20, 10 və 5 p.-lıq sikkələr vardır.

**Parad** *(fr. parade)* – **1)** rəsmi keçid; **2)** qoşun növlərinin silah və texnika ilə birgə təntənəli keçidi (hərbi parad); **3)** bədən tərbiyəçilərinin, digər təşkilat və kollektivlərin bayramlarda rəsmi yürüşü.

**Paradiqma** *(kriminologiyada)* – elm tarixinə, o cümlədən kriminologiyaya 1962-ci ildə Tomas Kun tərəfindən gətirilmiş konsepsiya və anlayış. T.Kun bu anlayışdan ilk dəfə özünün 1962-ci ildə nəşr etdirdiyi "Elmi inqilabların strukturu" kitabında istifadə etmişdir. Müəllif kriminologiyada istifadə olunan üç paradiqma və onların perspektivini göstərmişdir. Plüralizm, konsensus və münaqişə birinci növbəli perspektivə daxil edilmişdir.

**Paraflama** *(fr. paraphe – ixtisarlı imza, üzərində möhür olan imza)* – beynəlxalq müqavilənin işlənib hazırlanmasında iştirak edən nümayəndələrin soyadının, adının və atasının adının baş hərfləri göstərilməklə edilən ilkin imzalama. P. beynəlxalq müqavilənin bağlanmasında məcburi mərhələ deyil və o, tərəflərin razılığı ilə həyata keçirilir. P.-nın hüquqi əhəmiyyəti ondan ibarətdir ki, müqaviləni imzalamış şəxslər artıq mətni bəyənilmiş hesab edir və öz üzərlərinə ona riayət etmək öhdəliyini götürürlər. Lakin p. dövlətlər üçün hüquqi məcburiyyət yaratmır. Tərəf olan dövlətlərin hökumətləri müqavilə layihəsində istənilən dəyişiklikləri edə bilərlər.

**Paralel valyuta** – iki metal sikkə arasında qanunvericiliklə müəyyən edilməmiş müəyyən qarşılıqlı əlaqəni əks etdirən pul sistemi.

**Paralel yurisdiksiya** – beynəlxalq cinayət hüquq institutu; bu instituta uyğun olaraq milli və beynəlxalq məhkəmələr beynəlxalq humanitar hüquq əleyhinə olan və hərbi cinayətlər törətmiş şəxslərin cinayət təqibini həyata keçirməyə haqlıdırlar. Yuqoslaviya üzrə 1993-cü il Hərbi Tribunalının nizamnaməsində və Ruanda üzrə 1995-ci il Beynəlxalq Cinayət Tribunalının nizamnaməsində müəyyən edilmişdir ki, Beynəlxalq Hərbi Tribunalın yurisdiksiyası milli məhkəmələrin yurisdiksiyasına münasibətdə prioritetə malikdir. Cinayətlərin ibtidai istintaqının və məhkəmə baxışının istənilən mərhələsində Beynəlxalq Hərbi Tribunal bu məhkəmələrdən işi onun icraatına verilməsini xahiş etməyə haqlıdır.

**Paranomiya** *(yun. paranomia – qanuna-zidd, qanunsuzluq)* – qanunların məzmunundakı ziddiyyətlilik, uyğunsuzluq, qeyri-müvafiqlik.

**Parantella** – bəzi xarici dövlətlərin (məsələn, Almaniyanın, İsveçrənin) vərəsəlik hüququnda ümumi əcdadlarla birləşmiş qan qohumları qrupu. Birinci p.-ya vəsiyyətçinin özü və ondan törəyənlər, ikinciyə vəsiyyət edənin valideynləri və onlardan törəyənlər daxildir. Qohumlar vərəsəliyə p. ilə çağırılırlar. Beləliklə, vəsiyyəti edəndən törəyənlər birinci dərəcəli vərəsələr sayılırlar. İkinci p.-ya daxil olanlar isə ikinci dərəcəli vərəsələr sayılırlar.

**Paritet** *(lat. paritas – bərabərlik)* – tərəflərin bərabər nümayəndəliyi prinsipi. Sərhəd münaqişələrini, əmək mübahisələrini və münaqişələrini həll etmə zamanı p.

prinsipinə riayət olunur. Belə ki, mübahisələri həll edən hər hansı tərkib (komissiya) və ya heyət bərabər saylı nümayəndələrdən təşkil edilir.

**Parlament** *(ing. parliament – danışmaq)* – **1)** dünya dövlətlərində ali nümayəndəli qanunvericilik orqanı (bütövlükdə və ya qismən seçkili yolla yaradılır); **2)** ilk dəfə XIII yüzillikdə İngiltərədə ali silki nümayəndəli orqan kimi meydana gəlmişdir. İngiltərədə p., ABŞ-da Konqres, İsveçdə Riqsdaq, Norveçdə Stortinq, Türkiyə Böyük Millət Məclisi, Polşada Seym, Rusiyada Duma, Monqolustanda Böyük Xalq Xuralı, Azərbaycanda isə Milli Məclis adlanan p. vahid orqan kimi – qanunvericilik orqanı kimi tanınır. P. bir və ya ikipalatalı ola bilər. İkipalatalı p.-in aşağı palatası və birpalatalı p. birbaşa seçki əsasında təşkil edilir, yuxarı palata birbaşa (ABŞ və İtaliyada), yaxud dolayı, çoxdərəcəli seçki (Fransa və Hindistanda) yolu ilə yaradılır; **3)** XVIII yüzillikdə Fransada burjua inqilabınadək məhkəmə orqanı.

**Parlamentarizm** – bir sıra xarici dövlətlərdə cəmiyyətə siyasi dövlət rəhbərliyinin fəaliyyət sistemi. P. qanunvericilik və icra funksiyalarının dəqiq bölüşdürülməsi və qanunvericilik orqanı olan parlamentə digər dövlət orqanlarına üstünlük verilməsilə səciyyələnir. P. şəraitində hökumət parlament tərəfindən təşkil edilir və onun qarşısında məsul olur. Yəni formal olaraq p. dövlət hakimiyyəti və idarəetmə mexanizmində seçkili orqanın əsas mövqe tutmasıdır. P. burjua münasibətlərinin yaranmasının erkən dövrünə xas olmuşdur.

**Parlament çıxışları** – deputatlar tərəfindən qanun layihələrinin və ya parlamentin, yaxud onun ayrıca palatasının plenar iclasında qətnamə layihələrinin müzakirəsi. Parlamentin reqlamenti ilə müəyyən edilmiş qaydada aparılır.

**Parlamentdənxaric referendum** – parlament qaydası əvəzinə və ya ondan yan keçməklə keçirilən məsələ və ya qanun layihəsi üzrə seçicilərin səsverməsi. P.r.-da qərar və ya qanun ilkin parlament baxışı olmadan qəbul olunur, referendumda bəyənilir və parlamentin təsdiqi olmadan qüvvəyə minir.

**Parlament dinləmələri** – parlamentin və ya onun palatalarının fəaliyyət formalarından biri; parlament üzvlərinin, dövlət xadimlərinin və ictimai xadimlərin, habelə konkret qanun layihəsi və ya sair məsələ üzrə ekspertlərin rəylərinin dinlənilməsindən ibarətdir. Açıq və ya qapalı p.d. fərqləndirilir. Belə dinləmələr nəticəsində yekun rəy (tövsiyə) qəbul oluna bilər.

**Parlament etikası** *(bax: deputat etikası).*

**Parlament hüququ** – parlamentlərin və onların palataları üzvlərinin fərdi və kollektiv hərəkətlərdə əməl etdikləri yazılı və adi normaların məcmusu, parlamentin "daxili qanunu", onun müstəsna səlahiyyəti. P.h.-nun başlıca mənbəyi parlamentin (parlament palatasının) reqlamentidir.

**Parlament immuniteti** – parlament deputatlarının, bəzən isə dövlət hakimiyyəti orqanlarının digər nümayəndələrinin toxunulmazlığı; deputatın bütün hərəkətlərinə, o cümlədən parlament vəzifələrini icra etməməsinə görə həbs edilməsinin və ya məhkəmə məsuliyyətinə cəlb olunmasının qadağan edilməsi deməkdir. Deputat p.i.-dən ancaq deputat mandatının qüvvədə olduğu dövrdə istifadə edir. Deputat toxunulmazlıq hüququndan üzvü olduğu palata tərəfindən məhrum edilə bilər.

**Parlament istintaqı** – dövlət hakimiyyəti orqanlarının, o cümlədən hökumətin və onun ayrı-ayrı üzvlərinin fəaliyyətinə parlament nəzarətinin həyata keçirilməsi üsullarından biri. Bir qayda olaraq, xüsusi olaraq yaradılmış parlament (istintaq) komissiyaları tərəfindən həyata keçirilir. P.i. adətən parlamentin nəzarəti altında olan icra hakimiyyəti orqanlarının qanunsuz hərəkətlərilə əlaqədar aparılır. Bu üsuldan yol verilmiş pozuntu siyasi xarakter daşıdığı hallarda istifadə olunur.

**Parlamentli monarxiya** – dualist monarxiya ilə yanaşı konstitusiyalı monarxiyanın iki növündən biri. Monarxın öz funksiyalarını xalis nominal şəkildə yerinə yetirməsilə səciyyələndirilir. P.m.-da hökumət formal və faktiki olaraq parlament qarşısında məsuldur, çünki dövlətin digər orqanları içərisində ali mövqe konstitusiya ilə məhz parlamentə məxsusdur.

**Parlamentli respublika** – respublika idarəçilik formasının bir növü; aşağıdakılarla səciyyələndirilir: birincisi, parlament hüquqi cəhətdən tamhakimiyyətli orqandır və öz qarşısında məsul olan hökuməti formalaşdırır, yalnız dövlət başçısı olan prezidenti seçir. Prezident öz səlahiyyətlərini, bir qayda olaraq, ancaq baş nazir tərəfindən başçılıq edilən hökumətin təklifi ilə həyata keçirir; ikincisi, parlament etimadsızlıq votumu ifadə etməklə hökuməti istefaya göndərə bölər. Bu halda prezident hökumətin təklifi ilə parlamenti buraxmaq və vaxtından qabaq seçkilər elan etmək hüququna malik olur. P.r.-nın klassik modeli AFR-də və İtaliyada mövcuddur.

**Parlament məsələləri** – parlamentli dövlətlərdə parlamentin hökumətin fəaliyyəti üzərində nəzarət formalarından biri. Parlamentin reqlamenti p.m.-nin mümkünlüyü qaydasını müəyyən edir. Deputatlar tərəfindən verilən suallar şifahi və yazılı ola bilər. Hökumət və ya onun nazirləri cavabları reqlamentlə müəyyən edilmiş müddətdə təqdim etməlidirlər. Cavablar verilmiş sualların formasına uyğun olaraq verilir. Parlamentin sualları və hökumətin onlara verdiyi cavablar hökumətə etimad haqqında məsələnin qaldırılması üçün müstəqil səbəb xidmət (interpellyasiyadan fərqli olaraq) edə bilməz.

**Parlament nəzarəti** – dövlət nəzarətinin formalarından biri. Ümumi parlament, nadir hallarda isə inzibati səciyyə daşıyır. Parlamentli və yarımprezidentli respublikalarda p.n. hökumətin fəaliyyəti üzərində həyata keçirilir. Belə nəzarətin başlıca forma və metodları etimad, məzəmmət qətnaməsi, interpellyasiya, parlament sualları və parlament istintaqı haqqında məsələnin qaldırılmasıdır. Prezidentli respublikalarda hökumətin fəaliyyəti üzərində p.n. böyük məna kəsb etmir. Belə ölkələrdə əsas vasitə qismində parlament istintaqı çıxış edir. Adətən impiçment proseduru tətbiq olunur. Son onillikdə insan hüquqlarına əməl olunmasına p.n.-nin həyata keçirilməsi daha mühüm əhəmiyyət kəsb etməyə başlamışdır *(bax: ombudsman).* Parlamentin xüsusi orqanları – hesablama palatası, hesablama məhkəmələri və i.a. vasitəsilə həyata keçirilən maliyyə və maliyyə-iqtisadi nəzarət p.n.-nin xüsusi növünü təşkil edir. P.n.-nin bu növü inzibati səciyyə daşıyır.

**Parlament tətilləri** – parlamentin işində fasilə; deputatların tətilə buraxılması.

**Parlament toxunulmazlığı** *(bax: parlament immuniteti).*

**Parlamentyor** – beynəlxalq hüquqda qeyri-dost tərəflə danışıqlar aparmaq üçün hərbi komandanlıq tərəfindən müvəkkil edilmiş şəxs. Quru müharibələrinin qanunları və adətləri haqqında 1907-ci il Haaqa konvensiyasının 32-ci maddəsində deyilir: "Həm parlamentyorun özü, həm də onun onu müşayiət edən şeypurçusu, təbilçisi, bayrağı aparan şəxs və tərcüməçi toxunulmazlıq hüququndan istifadə edir". P. rəqib tərəfindən həm qəbul oluna, həm də geri qaytarıla bilər, lakin hər bir halda onun təhlükəsiz qayıtması təmin edilməlidir. P.-un toxunulmazlığının pozulması hərbi cinayət hesab olunur. P. öz mövqeyindən sui-istifadə etdiyi halda o, saxlanıla və toxunulmazlıq hüququndan məhrum edilə bilər.

**Parol** *(fr. parole – söz)* – müəyyən edilmiş gizli söz. Ölkənin silahlı qüvvələrində p. hər bir qarovul üçün hər gün həmin ölkə şəhərlərinin birinin adı şəklində müəyyən edilir. P. həm qarovul xidməti, həm də kəşfiyyat və mühafizə zamanı tətbiq edilir.

**Parsel təsərrüfatı** *(fr. parselle – hissə, hissəcik)* – ailə-fərdi kəndli təsərrüfatı; sinifli cəmiyyətə keçid şəraitində təşəkkül tapmışdır. P.t. antik polislərdə daha çox inkişaf etmişdi. Kapitalizməqədərki cəmiyyətlərdə kənd təsərrüfatı istehsalının əsas forması olmuşdur. P.t. natural istehlak xarakterlidir, universallığı, əkinçiliyin və ev sənayesinin əlaqələndirilməsi ilə fərqlənir.

**Partiya** *(lat. pars, partis – hissə, dəstə, qrup)* – müəyyən ictimai qrupun (təbəqənin) siyasi məqsəd və mənafeyini təmsil edən təşkilat. Azərbaycan Respublikasında partiyalar "Siyasi partiyalar haqqında" 3 iyul 1992-ci il tarixli Azərbaycan Respublikasının qanunu əsasında fəaliyyət göstərirlər. Respublikada 40-a yaxın rəsmi qeydiyyatdan keçmiş partiya vardır *(həmçinin bax: siyasi partiya).*

**Partiya senzi** – bir sıra dövlətlərdə (adətən, birpartiyalı ölkələrdə) tələb; bu tələbə uyğun olaraq passiv seçki hüququna ancaq hakim siyasi partiyanın üzvləri malik olurlar. P.s. çoxpartiyalı sistemə malik olan dövlətlərdə (Meksikada, Peruda, Tailandda) başqa şəkildə mövcuddur. Bu ölkələrdə siyasi partiyalar parlamentə seçkilərdə öz namizədlərini irəli sürmək hüququna malikdir ki, bu da əslində bitərəfləri passiv seçki hüququndan məhrum edir.

**Partiya sistemi** – cəmiyyətin siyasi təşkilini xarakterizə edən institut; özü isə bir tərəfdən siyasi partiyalarla dövlət arasındakı münasibətləri, digər tərəfdən partiyaların siyasi sistemin digər ictimai elementləri və vətəndaşları arasındakı qarşılıqlı münasibətləri ilə səciyyələndirilir. Onlarca dövlətdə (məsələn, Butanda, Əmmanda, Qatarda, Küveytdə, Səudiyyə Ərəbistanında və başqalarında) rəsmi şəkildə qadağan edildiklərinə görə siyasi partiyalar mövcud deyil. Qalan dövlətlərdə isə ya birpartiyalı, ya da çoxpartiyalı sistem mövcuddur. Konstitusiya hüququ elmində bir partiyanın dominionluq etdiyi çoxpartiyalı – "yarımpartiyalı" sistem (Yaponiyada, Meksikada, İsveçdə), iki partiyanın – "ikipartiyalılığın" aparıcı olduğu (ABŞ-da, Böyük Britaniyada) sistem fərqləndirilir. Birpartiyalı sistem totalitar və ya avtoritar rejimin mövcud olduğu dövlətlər üçün səciyyəvidir. Hazırda birpartiyalı sistem Koreya Xalq Demokratik Respublikasında, Laosda, Vyetnamda və Kubada mövcuddur. Çin Xalq Respublikasında aparıcı kommunist partiyası ilə yanaşı, bir neçə "cırtdan" partiyalar da fəaliyyət göstərir və adətən kommunist partiyasını dəstəkləyirlər.

**Partiya siyahısı** – siyasi partiyalar və seçki birlikləri (blokları) tərəfindən nümayəndəli orqanlara seçkilərdə (proporsional seçki sisteminin mövcud olduğu ölkələrdə) irəli sürdükləri namizədlərin siyahısı.

**Partizan** *(fr. partisan – tərəfdar, ardıcıl)* – düşmən tərəfindən tutulmuş (yaxud işğalçı rejimin nəzarəti altında olan) ərazidə, vətənin azadlığı və istiqlaliyyəti uğrunda mütəşəkkil silahlı partizan qüvvələrinin tərkibində könüllü döyüşən şəxs. P. müharibəsinin hüquqi cəhətdən tənzimlənməsi cəhdləri XIX yüzilliyin ikinci yarısında başlanmışdır. P.-lığın ilk beynəlxalq hüquqi statusunu Haaqa konvensiyaları (1899 və 1907) müəyyən etmişdir.

**Partlayıcı, tez alışan maddələrin və ya pirotexniki məmulatın uçotu, saxlanması, daşınması və istifadə edilməsi qaydalarını pozma** – ictimai təhlükəsizlik əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 224-cü maddəsində nəzərdə tutulmuşdur. Partlayıcı, tez alışan maddələrin və ya pirotexniki məmulatın uçotu, saxlanması, daşınması və istifadə edilməsi qaydalarını pozmaqda, habelə bu maddələri və məmulatları poçtla və baqajla qanunsuz olaraq göndərmədə ifadə olunur.

**Partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma** – ictimai təhlükəsizlik əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 223-cü maddəsində nəzərdə tutulmuşdur. Partlayış təhlükəli obyektlərdə və ya partlayış təhlükəli sexlərdə təhlükəsizlik qaydalarının pozulmasında ifadə olunur.

**Pasifizm** *(alm. pacificus – əmin-amanlıq yaradan)* – bir sıra ölkələrdə müharibə əleyhinə hərəkat. P.-in tərəfdarları xarakter və məqsədlərindən asılı olmayaraq hər cür müharibəyə qarşı çıxır, ədalətli azadlıq müharibələrinin də qanunauyğunluğunu inkar edirlər. P., liberal burjua ideologiyası ilə bağlı cərəyan kimi XIX yüzilliyin 30-cu illərində Böyük Britaniyada və ABŞ-da meydana gəlmiş, həmin yüzilliyin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərində geniş yayılmışdır.

**Paskvil** *(alm. pasquill; XV yüzillikdə yaşamış italyan pinəçisi, yüksək rütbəli məmurları damğalayan Pasquinonun adından götürülmüşdür)* – publisistik formada təhqiredici, böhtanatıcı əsər (pamfletə yaxındır).

**Pasport** *(fr. passport – ilkin mənası – limandan keçmək üçün icazə)* – vətəndaşların şəxsiyyətini təsdiq edən sənəd. P. diplomatik, xidməti və adi (ümumvətəndaş) pasportdan ibarətdir. Diplomatik p. sahibləri xarici ölkədə imtiyazlardan istifadə edirlər. Xidməti p.-lar Azərbaycan Respublikası ticarət nümayəndəlikləri işçilərinə, diplomatik və konsul nümayəndəliklərinin xidməti və köməkçi işçilərinə, onların ailə üzvlərinə verilir.

**Pasport sistemi** – şəxsiyyəti təsdiq edən vahid sənədin – pasportun aparılması vasitəsilə vətəndaşların uçot qaydasını, onların yaşayış yerləri üzrə qeydiyyatını və müvəqqəti məskunlaşmasını, habelə ünvan-məlumat işlərini müəyyən edən qaydaların məcmusu. P.s.-nin əsas vəzifələ-

rindən biri hüquq qaydasını mühafizə etməkdir. P.s. yerdəyişmə və yaşayış yeri seçmək haqqında konstitusiya hüquq və azadlığını pozmamalıdır.

**Passinq-of** – özgəsinin adı altında aparılan kommersiya; ingilis-sakson (ingilis-amerikan) hüququna görə cinayət.

**Passiv** – təşkilatın borc vəsaitləri, borc və öhdəliklərinin məcmusu (aktivin əksi).

**Passiv seçki hüququ** – dövlət orqanlarına və yerli özünüidarə orqanlarına, habelə seçkili dövlət və ya bələdiyyə vəzifələrinə seçilmək hüququ. Dövlətlərin əksəriyyətində p.s.h.-na malik olmaq müxtəlif senzlərlə (yaş, oturaqlıq, təhsil, qulluq senzi) şərtləşdirilir. Ən çox təsadüf olunan artırılmış yaş senzidir. Məsələn, ABŞ-da, Yaponiyada, Hindistanda parlamentin aşağı palatasına seçkilərdə iştirak etmək üçün p.s.h. ilə 25 yaş, yuxarı palataya isə 30 yaş; Fransa və Rumıniyada müvafiq surətdə 23 və 35 yaş; İtaliyada 25 və 40 yaş həddi müəyyən edilmişdir. Azərbaycan Respublikasında 21 yaşına çatmış vətəndaşlar p.s.h.-ndan istifadə edirlər.

**Paşa** *(türk. paşa)* – XV yüzillikdən XX yüzilliyin əvvəllərinədək Osmanlı imperiyasında ali hərbi və mülki məmurların fəxri titulu. P. titulu bir, iki və üç tuğlu olurdu. Üç tuğlu p. vəzir vəzifəsinə bərabər (uyğun) idi. P. titulu Türkiyə Respublikasında 1923-cü ildən general və marşallar üçün saxlanılmış, 1934-cü ildə isə qəti olaraq ləğv edilmişdir. P. titulu Misirdə 1952-ci ilədək, İraqda isə 1958-ci ilədək mövcud olmuşdur.

**Paşalıq** – Osmanlı imperiyasında paşanın idarəçiliyi altında olan əyalət, yaxud vilayət (sancaq).

**Patent** *(lat. patens – şəhadətnamə, fərman)* – **1)** irəli sürülən təklifin dövlət tərəfindən ixtira kimi tanınmasını təsdiq edən və həmin ixtira üzərində şəxsin müstəsna hüququnu təsbit edən sənəd. P. verilmiş ixtiradan patent alanın razılığı ilə istifadə olunur. P.-in qüvvədə olması müddəti (adətən 15-20 il) milli qanunvericiliklə müəyyən edilir. P. verilən zaman patent rüsumu tutulur; **2)** ticarət, sənət və i.a. məşğul olmaq, bəzi ölkələrdə isə müəyyən vəzifəni tutmaq üçün hüquq verən sənəd.

**"Patent haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikası ərazisində ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin yaradılması, hüquqi mühafizəsi və istifadəsi ilə əlaqədar yaranan əmlak münasibətlərini və onlarla bağlı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən qanunvericilik aktı.

Bu qanun 25 iyul 1997-ci il tarixdə qəbul edilmişdir. O, yeddi fəsil və 43 maddədən ibarətdir.

**Patent hüququ** – ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin yaradılması ilə əlaqədar yaranan əmlak münasibətlərini və onlarla bağlı şəxsi qeyri-əmlak münasibətlərini tənzim edən qanunvericilik sahəsi, hüquq normalarının məcmusu. Patent verilməsi yolu ilə göstərilən obyektlər üzərində hüquqların mühafizə edilməsi sistemini müəyyən edir. P.h. intellektual mülkiyyət haqqında qanunvericiliyin tərkib hissəsidir.

**Patentin pozulması** – patent hüquqlarının pozulması. "Patent haqqında" Azərbaycan Respublikası qanununun 24-cü maddəsinə uyğun olaraq patentlə mühafizə edilən sənaye mülkiyyəti obyektindən bu qanunun





müddəalarının pozulması ilə istifadə edilən istənilən hüquqi və ya fiziki şəxs, patent hüquqlarını pozan şəxs qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilə bilər. Patent sahibi patenti pozmuş hüquqi və ya fiziki şəxslə ona dəymiş zərərin ödənilməsi barədə razılığa gəlmədiyi halda mübahisələrə qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmədə baxılır.

**Patent qabiliyyəti** – müvafiq ölkədə qüvvədə olan qanunvericilik əsasında mövcud olmadan ixtira hesab edilməyən texniki qərarın xassələrinin məcmusu. "Patent haqqında" Azərbaycan Respublikasının 25 iyul 1997-ci il tarixli qanununun 7-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq yeni, ixtira səviyyəli olan və sənayedə tətbiq edilə bilən ixtira obyektinə hüquqi mühafizə verilir.

**Patentli lisenziya** – patentləşdirilmiş ixtiraya (digər texniki nailiyyətə) verilən lisenziya.

**Patentli pul** – öz sərəncamlarında olan patentləri təqdim edən və onlardan istifadə üçün lisenziya ticarətini həyata keçirən ayrıca firmanın yaradılması haqqında bir neçə firmanın sazişi.

**Patent müvəkkili** – patent müvəkkillərinin Dövlət reyestrində qeydiyyata alınan vətəndaş. "Patent haqqında" Azərbaycan Respublikasının 25 iyul 1997-ci il tarixli qanununun 6-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikası ərazisində daimi yaşayan, ali təhsili olan, Azərbaycan Respublikasının dövlət dilini bilən, patent müvəkkillərinin reyestrində qeydiyyata alınan Azərbaycan Respublikası vətəndaşı patent müvəkkili ola bilər.

**Patent rüsumu** – patentin verildiyi zaman dövlət orqanları tərəfindən alınan məbləğ (rüsum). Patentin qüvvədə olduğu müddətdə illik rüsum tutulur.

**Patent sahibi** – patentin verildiyi şəxs. "Patent haqqında" Azərbaycan Respublikasının 25 iyul 1997-ci il tarixli qanununun 12-ci maddəsinə əsasən patent aşağıdakı şəxslərə verilir: a) sənaye mülkiyyəti obyektinin müəllifinə (müəlliflərinə) və ya onun (onların) varisinə; b) patent verilməsi barədə iddia sənədində, yaxud sənaye mülkiyyəti obyekti qeydiyyata alınana qədər müvafiq icra hakimiyyəti orqanına verilmiş ərizədə müəllifin (müəlliflərin) və ya onun (onların) hüquqi varislərinin göstərdikləri hüquqi və ya fiziki şəxslərə (onların razılığı ilə); c) "Patent haqqında" qanunun 13-cü maddəsində nəzərdə tutulmuş hallarda işəgötürənə.

**Patent təmizliyi** – texniki obyektin hüquqi xassəsi; həmin ölkənin ərazisində qüvvədə olan patentlərin təhlükəsizliyini pozmadan onlardan azad istifadə edilə bilməsindən ibarətdir.

**Pater familias** *(lat. pater familias – ailə başçısı)* – Qədim Romada ailə başçısı, qeyri-məhdud ata hakimiyyəti (arvad və uşaqlar üzərində). P.f. qullar və ailənin bütün mülkiyyəti üzərində mütləq hakimiyyətə malik idi. Yalnız p.f. yuridik cəhətdən mülkiyyət hüququna malik idi. O, uşaqlarının (oğullarının) qullarının əldə etdikləri bütün əmlak üzərində də mülkiyyət hüququna malik idi. Oğullar emansipasiya qaydasında, qızlar isə ərə getməklə p.f.-ın hakimiyyətindən azad ola bilərdilər.

**Paternalizm** *(lat. paternus – atalıq, pater – ata)* – bəzi xarici dövlətlərdə sosial siya-

sət və sosial demoqogiya forması; sahibkarların zahiri xeyriyyəçiliyini, mülkiyyətçinin, yaxud müəssisə müdiriyyətinin zəhmətkeşlərin ehtiyaclarına qayğısını ifadə edir.

**Patoloji sərxoşluq** *(bax: alkoqolizm).*

**Patriarx** *(yun. patriarches, pater – ata + archö – idarə edirəm)* – bir sıra ölkələrdə müstəqil (avtokefal) pravoslav xristian kilsəsi başçısının yüksək rütbəsi. P. rütbəsi xristian kilsəsinin qərb (katolik) və şərq (pravoslav) kilsəsinə bölünməsindən sonra, yəni 451-ci ildə təsis edilmişdir.

**Patriarxal ailə** – qəbilə quruluşunun dağılması, xüsusi mülkiyyətin meydana gəlməsi və cəmiyyətin sosial təbəqələrə bölünməsi ilə ailənin bütün varidatının kişinin (atanın) hakimiyyəti altına düşməsi, qadının ailədə iqtisadi rolunun (təsərrüfat həyatında iştirakının) azalması nəticəsində yaranmış ailə.

**Patriarxat** *(yun. pater – ata + archö – idarə edirəm; hərfən ata hakimiyyəti)* – ibtidai icma cəmiyyətinin dağılması şəraitində kişinin ailədə, təsərrüfatda və cəmiyyətdə üstün rolu ilə səciyyəvi olan icma münasibətlərinin geniş yayılmış forması. P.-a keçid məhsuldar qüvvələrin daha çox inkişafı və təsərrüfatın bütün sahələrində əmək məhsuldarlığının artması prosesində baş vermişdir. İstehsalın inkişafı mübadilənin artmasına və xüsusi mülkiyyətin yaranmasına səbəb olmuşdur. Əsas istehsal sahələrində kişilər qadınları sıxışdırmış, nəticədə qadın əməyi ev işləri ilə məhdudlaşmışdır.

**Patrilokal nikah** *(lat. pater – ata+ locus – yer)* – patriarxat dövründə kəbin forması. P.n.-a görə qadın ərin icmasına, yaxud evinə köçürdü. Bu nikah forması ana nəslindən ata nəslinə keçid dövründə yaranmışdır. P.n.-ın müvəqqəti forması da mövcud olmuşdur. Bu vaxt ər-arvad nikahdan sonra yalnız müəyyən müddət (çox vaxt uşaq doğulanadək) ərin valideynləri ilə yaşayır, sonra isə arvadın ailəsinə qayıdırdılar.

**Patrimonium** *(lat. patrimonium)* – vərəsəlik (miras əmlak) əmlakı; nəslə məxsus əmlak.

**Patrisiat** *(bax: patrisilər).*

**Patrisilər** *(lat. patricii)* – Qədim Romada nəsli icmaya daxil olan və plebeylərə qarşı duran yerli əhali. Eramızdan əvvəl VI yüzilliyin sonunda dövlətin yaranması dövründə p. Roma Respublikasında hakim təbəqəyə çevrilmişdir. P.-in iqtisadi hökmranlığının əsasını ictimai torpaqlardan istifadə etmək üçün müstəsna hüquqa malik olmaları təşkil edirdi. Plebeylərin hüquqları p.-lə bərabərləşdirildikdən sonra (eramızdan əvvəl III yüzilliyin əvvəlləri) p.-lə plebeylərin yuxarı təbəqəsi birləşib nobilitet təşkil etmişdir.

**Patron** *(lat. patronus – himayəçi, müdafiəçi)* – **1)** Qədim Romada yüksək mənsəb sahibi olan Roma vətəndaşı. P. asılı kliyentlərin və azadlığa buraxılmış şəxslərin himayəçisi, onların məhkəmədə müdafiəçisi idi; **2)** xarici ölkələrdə müəssisənin və ya firmanın sahibi; **3)** kiminsə bilavasitə rəisi.

**Patronaj** – yetkinlik yaşına çatmamış fəaliyyət qabiliyyəti olan vətəndaş üzərində müəyyən edilən qəyyumluq forması. P. adətən, sağlamlıq vəziyyətinə görə öz hüquqlarını müstəqil surətdə həyata keçirə bilməyən və vəzifələrini icra etmək iqtidarında olmayan şəxs üzərində onun öz xahişi ilə müəyyən edilir. Qəyyum (köməkçi) himayəçilik və qəyyumçuluq orqanları tərəfindən ancaq vətəndaşın öz xahişi ilə təyin olunur, vətəndaşın xahişi ilə bağlanmış müqavilə əsasında onun əmlakı üzərində sərəncam verir, məişət əqdləri və sair əqdlər bağlayır.

**Patronat** *(lat. patronatus)* – Qədim Romada himayəçiliyin xüsusi forması. Əslində isə p. tam hüququ olmayan və yoxsul vətəndaşları varlılardan asılı vəziyyətə salırdı. Qəbilə quruluşunun dağıldığı dövrdə icmanın yoxsullaşmış üzvləri və bəzi plebeylər nüfuzlu və varlı şəxslərin himayəsinə keçib onların kliyentlərinə çevrilirdilər. P. kliyenti öz ailəsinə (nəslinə) daxil edir, ona öz adını verir, torpaq payı ayırır və onu məhkəmədə müdafiə edirdi. Roma imperiyasının son dövründə xırda torpaq sahibləri, hətta bütöv kənd və şəhərlər də patronatlığı qəbul etmişdi.

**Patronimiya** *(yun. patrönymia – ata adı ilə)* – patriarxal ailə üçün səciyyəvi ictimai təşkilat forması. P. vahid təsərrüfat, ictimai, ideoloji birliyə malik qohum ailələr qrupundan ibarət olmuşdur. P.-nı ilk dəfə 1931-ci ildə rus alimi M.O.Kosven müəyyən etmiş və öyrənmişdir. P. bir çox Qafqaz, Orta Asiya xalqlarında, habelə qərb və cənub slavyanlarında və başqa xalqlarda mövcud olmuşdur. Azərbaycanda p.-ya mənsub olan ailələr yaylaq, qışlaq, meşə, dəyirman, arx və i.a. birgə istifadə edirdilər. Qarşılıqlı yardım, qonaqpərvərlik və i.a. adətlər p. üçün səciyyəvi idi.

**Patrosini** *(lat. patrosinium)* – adət hüququnda azadlığa buraxılanların, kalonların, bukselyarların və bunlara bənzər digər kateqoriya şəxslərin patrondan asılılığı. P.-yə feodal münasibətlərinin inkişafı prosesində azad şəxslərin və əyanların qarşılıqlı əlaqələrinin olması səciyyəvi idi.

**Patrul** *(fr. patrouiller – gəzə-gəzə keşik çəkmək, yoxlamaq)* – **1)** düşməni müşahidə etmək, müəyyən ərazi (marşrut sahəsi) rayonunun (zolağının), həmçinin qarovul xidməti zamanı obyektlərin mühafizəsi və müdafiəsi üçün nəzərdə tutulmuş hərbi qulluqçular qrupu (bəzən kiçik hərbi bölmə); **2)** qarnizonda asayişi və hərbi qulluqçular arasında nizam-intizamı mühafizə etmək üçün yaradılan hərbi qulluqçular qrupu. Silahlı qüvvələrdə p. bir qayda olaraq, p. rəisindən və p. üzvlərindən (2-3 nəfər) ibarət olur.

**Pauşal məbləğ** – məbləğin hissəsini təşkil edən differensiasiyanın olmadığı ümumi məbləğ. Məsələn, ticarət əqdində malın partiyası, müəyyən xidmətlər üçün ödənilən ümumi məbləğ.

**Pauşal ödəniş** – predmetdən istifadəni iqtisadi səmərə (gəlir) əldə olunanadək lisenziyalı müqavilənin həmin predmetindən istifadə hüququna görə eynivaxtlı mükafat.

**Pay** *(hüquqda)* – **1)** hər hansı bir şirkətdə, səhmdar cəmiyyətində iştirakçılıq hissəsi, payı. P. müəyyən əmlak hüquq və vəzifələri yaradır; **2)** mənzil-tikinti kooperativi, kollektiv bağçılıq, qaraj tikinti üzvünün ödədiyi pay, pul məbləği. P. kooperativin mülkiyyətinə daxil olur və kooperativ tərəfindən təyinatı üzrə xərclənir. P.-ın təbiətinə aşağıdakı xüsusiyyətlər xasdır: a) payçı kooperativ üzvlüyündən çıxdıqda, yaxud xaric edildikdə ödədiyi məbləği tam həcmdə geri almaq hüququna malikdir; b) pay, vəfat etmiş payçının vərəsəlik əmlakını təşkil edir; c) pay ər-arvadın ümumi-birgə əmlakı hesab oluna bilər. P. xüsusi mülkiyyət hüququnun obyektidir.

**Pay almağın təmin edilməsi öhdəliyi** – mülki qanunvericiliyə görə mirasın bölüşdürülməsinin təmini üsullarından biri. AR MM-in 1289-cu maddəsinə uyğun olaraq hər bir miras şəriki digər miras şəriklərinin müvafiq payları almasını təmin etməyə borcludur. Miras şəriki bölgü nəticəsində tələb hüququ əldə etdikdə, digər miras şərikləri borclunun ödəniş qabiliyyətinə bölgü məqamında, bu cür öhdəliyin icra müddəti çatmadıqda isə öhdəliyin icrası məqamında öz paylarına uyğun kömək göstərməlidirlər.

**Payçı** *(hüquqda)* – **1)** hər hansı şirkətdə, səhmdar cəmiyyətində şəxsi vəsaiti ilə iştirak edən fiziki və ya hüquqi şəxs; **2)** mənzil-tikinti kooperativinin, kollektiv bağçılığın, qaraj-tikinti kooperativinin təşkilində şəxsi vəsaiti ilə iştirak edən fiziki şəxs.

**Payın bərabərləşdirilməsi** – mülki qanunvericiliyə görə mirasın bölüşdürülməsinin təmini üsullarından biri. AR MM-in 1295-ci maddəsinə uyğun olaraq vərəseliyə çağırılmış vərəsələr miras onların arasında bölüşdürülənədək öz paylarını bərabərləşdirmək üçün, əgər miras qoyan ayrı qayda müəyyənləşdirməyibsə, miras qoyanın sağlığında ondan valideynlərin əmlakından ayırma şəklində aldıqlarının hamısını mirasa aid etməlidirlər.

**Payın kompensasiyası** – mülki qanunvericiliyə görə mirasın bölüşdürülməsinin təmini üsullarından biri. AR MM-in 1284-cü maddəsinə uyğun olaraq torpaq sahəsini ala bilməyən vərəsə başqa əmlakdan müvafiq pay, belə əmlak kifayət etmədikdə isə müəyyənləşdirilmiş qaydada müvafiq kompensasiya alır.

**Pedel** – **1)** Orta yüzilliklərdə Qərbi Avropada məhkəmə nəzdində xidmətçi; **2)** inqilabaqədərki Rusiyada və digər ölkələrdə ali təhsil müəssisələrinin nəzarətçisi.

**Pederastiya** *(yun. pais – nəsil, paidos – oğlan və erao – sevirəm)* – eynilə kişi homoseksualizmi, uşaqbazlıq.

**Pekuli** *(lat. peculium – mülkiyyət, əmlak)* – Qədim Romada daşınar və daşınmaz əmlak. P. məlum şərtlərlə quldar əyan tərəfindən istifadə üçün onun öz oğullarına, ondan (özündən) asılı olan şəxslərə və qullara verilirdi. Belə halda qullar həmin əmlak üzərində öz mülkiyyət hüququnu saxlayırdı.

**Penitensiar** *(lat. poeniten tiarius – islah)* – cəzaya, əsasən də cinayət cəzasına aiddir. Cinayət əməlləri törətmiş şəxslərə islahedici təsir tədbirlərinin tətbiq edilməsindən ibarətdir. "P." termini XVIII yüzilliyin sonunda – Amerika kvakerlərinin dini təriqətinin Pensilvaniya ştatında gəlmələrin vəsaitləri hesabına həbsxana yaratdıqları vaxt yayılmışdır. Kvarkerlərin əqidəsinə görə xarici aləmdən təcrid edilən cinayətkarlar həbsxana şəraitində öz vicdanı ilə üz-üzə qalır və dinin köməyi ilə islah olunaraq öz tanrısına qovuşur.

**Penitensiar residiv** – residiv cinayətkarlığın bir növü; residivin elə formasından ibarətdir ki, bu zaman əvvəllər törətdiyi cinayətə görə azadlıqdan məhrumetmə növündə cəzasını artıq çəkib qurtarmış şəxs yenidən törətdiyi əmələ görə cəzanın bu növü ilə məhkum olunur.

**Peniya** *(lat. penoa – cəza)* – mülki qanunvericiliyə görə dəbbə pulu forması. Dəbbə pulu (cərimə, peniya) öhdəliklər icra edilmədiyi və ya lazımi qaydada icra edilmədiyi halda, o cümlədən icra müddəti gecikdirildikdə qanunla və ya müqavilə ilə borclunun kreditora verməli olduğu pul məbləğidir. Dəbbə pulu ilə ancaq həqiqi tələb təmin edilə bilər. Öhdəliyin icra edilməməsi və ya lazımi qaydada icra edilməməsi üçün borclu məsuliyyət daşımırsa, kreditor ondan dəbbə pulu tələb etməyə haqlı deyildir.





**Penologiya** – cəzanın icra olunması haqqında təlim; kriminologiyanın xüsusi bölməsi. P. elmi-təcrübi əsaslarla cəzanın optimal sanksiyalarını və cinayətkarın sosiallaşdırılması tədbirlərini işləyib hazırlayır.

**Pensionar** *(lat. pensionarius – ödənc)* – Niderlandın əyalətlərində yüksək vəzifəli şəxslərdən biri. XVI-XVIII yüzilliklərdə Birləşmiş Əyalətlər Respublikasında Hollandiya əyalətinin böyük p.-ı stathauder vəzifəsini tuturdu. O, baş ştatlarda əyaləti təmsil edir, ölkənin xarici siyasətinə rəhbərliyi həyata keçirirdi.

**Pensiya** *(lat. pensio – ödəmə)* – vətəndaşlara qocalığa, əlilliyə (şikəstliyə), ailə başçısının itirilməsinə, habelə uzunmüddətli xidmətə görə dövlət hesabına verilən aylıq pul ödəməsi. Azərbaycan Respublikasında vətəndaşların pensiya ilə əlaqədar münasibətləri "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının 23 sentyabr 1992-ci il tarixli qanunu ilə tənzim edilir. Azərbaycan Respublikasının ərazisində dövlət pensiya təminatı ilə yanaşı, müxtəlif ictimai və şəxsi pensiya təminatı sistemi də mövcud ola bilər. Bu sistemlərin fəaliyyəti müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

**Pensiya ehtiyatları** – qeyri-dövlət pensiya fondunun mülkiyyətində olan və qeyri-dövlət pensiyalarının ödənilməsinin təmin edilməsi üçün nəzərdə tutulan vəsaitlərin məcmusu.

**Pensiya əsasları** – qeyri-dövlət pensiya fondu iştirakçısı tərəfindən qeyri-dövlət pensiyası almaq hüququ verən şərtlər.

**Pensiya kapitalı** – müvafiq olaraq fərdi hesabın sığorta hissəsində qeydə alınan və fərdi hesabın yığım hissəsində toplanan vəsaitlərin məbləği.

**Pensiya müqaviləsi** – qeyri-dövlət pensiya fondu ilə əmanətçi arasında fond iştirakçısının xeyrinə bağlanan saziş. P.m.-nə görə əmanətçi öz üzərinə pensiya haqlarını müəyyən edilmiş müddətdə və məbləğdə fonda götürmək, fond isə qeyd-dövlət pensiyasını seçilmiş sxem üzrə iştirakçıya ödəməyi öhdəsinə götürür.

**Pensiya sxemi** – pensiya yığımlarının formalaşması, qeyri-dövlət pensiya fondu tərəfindən pensiyaların ödənilməsi qaydasını müəyyən edən şərtlərin məcmusu.

**Pensiya təminatı** – qanunla müəyyən edilmiş hallarda vətəndaşların dövlət və ya sair subyektlər tərəfindən maddi (pul) təminatının forması. Azərbaycan Respublikasının qanunvericiliyinə görə p.t. üçün əsaslara aşağıdakılar xidmət edir: a) müvafiq yaş həddinə çatma; b) əlillik (şikəstlik); c) ailə başçısının ölümü (onun ailəsinin fəaliyyət qabiliyyəti olmayan üzvləri üçün); ç) müəyyən peşə fəaliyyəti ilə uzun müddət məşğul olma.

**Pensiya yığımı** – qeyri-dövlət pensiya fondu iştirakçısının xeyrinə toplanan və onun pensiya hesabında nəzərə alınan, iştirakçı qarşısında fondun pul öhdəliklərinin miqdarını müəyyən edən pensiya haqlarının məbləği.

**Peonaj** *(fr. peonage – günəmuzd, muzdur)* - bilavasitə istehsalçının (əsasən kəndlinin) feodal-təhkimçilik istismarı forması; istehsalçıların mülkədardan, yaxud sahibkardan son dərəcə asılı olan irsi borclara – peonlara çevrilməsinə əsaslanırdı. P. XVI yüzilliyin ikinci yarısında Amerikada İspaniya müstəmləkələrində meydana gəlmiş, XVII və xüsusilə də XVIII yüzillikdə geniş yayılmışdır. P. sistemi dəyişilmiş formada Latın Amerikasının bir çox ölkələrində indi də mövcuddur.

**Peonlar** *(bax: peonaj).*

**Per** *(fr. pair; ing. peer; lat. per – bərabər)* – Böyük Britaniyada və Fransada ali zadəgan rütbəsi. P. rütbəsi orta yüzilliklərdə meydana gəlmişdir. Fransada 1789-cu il dekreti ilə ləğv edilmiş, 1814-1848-ci illərdə yenidən bərpa edilmişdir. P. rütbəsi Böyük Britaniyada indi də mövcuddur. P. rütbəsi Lordlar Palatasına üzv olmaq hüququ verir.

**Pereqrinlər** *(lat. peregrini)* – Roma vətəndaşlarının hüquqlarına malik olmayan azad əhali təbəqəsi. P. üçün təbii hüquq (yus naturali), xalqlar hüququnun (yus gentiumun) antik forması qüvvədə olsa da, onların öz icmaları da mövcud olmuşdur. İcmalar Roma ailə hüququna (ius conubii) və ya ticarət hüququna *(ius commercii)* malik idilər. P. hüquqi cəhətdən Romada pretorun, əyalətlərində isə məmurun ixtiyarında idilər. Latın vətəndaşları xüsusi statusa malik olduqları üçün onlar p. hesab olunmurdular. Afinada meteklər p.-i xatırladan statusa malik idilər. Sonradan Antoninin 212-ci il konstitusiyası ilə Roma dövlətlərində p. olmamışdır.

**Perieklər** *(yun. perioikoi, hərfən ətrafda yaşayanlar)* – bəzi qədim yunan polislərinin (Spartanın, Arqosun, Elidanın, Fessaliyanın) tam hüquqa malik olmayan əhalisi. İlotlardan fərqli olaraq p. şəxsən azad idilər. Onlar torpaq hüququna malik olsalar da, siyasi hüquqlardan məhrum idilər. P. ağır silahlı piyada qoşununda xidmət edirdilər və etməli idilər. Onların icması məhdud özünüidarə hüququna malik idi. P. həmçinin sənətkarlıq və ticarətlə məşğul ola bilərdilər.

**Perlüstrasiya** *(lat. perlustro – kəsirəm)* - poçtla göndərilən məlumatın gizli surətdə açılması (kriminalistikada geniş tətbiq edilir).

**Perserversiya** *(kriminologiyada)* – bir dəfə səmərəli nəticəyə gətirib çıxarmış təsəvvürlərə yönələn "xəstə ehtiras". Bu anlayış polisin fəaliyyətilə əlaqədar terminologiyada peşəkar, vərdişkar cinayətkarın müntəzəm olaraq cinayət törətməyə möhkəm surətdə daim hazır olması deməkdir. P. həm eynitipli cinayətlərin törədilməsində, cinayətkar tərəfindən əməlin törədilməsi zamanı eynitipli metodlardan istifadə etməsində, həm də yüksək cinayətkar fəallıqda təzahür edə bilər. P. nəzəriyyəsi 1912-ci ildə Prussiyada yaradılmış kriminal polis xidmətinin fəaliyyətinin əsasını təşkil etmişdir.

**Persona** *(lat. persona)* – şəxsiyyət, zat.

**Persona qrata** *(lat. persona grata – arzu olunan şəxs)* – diplomatik təcrübədə işlədilən termin. P.q., namizədliyinə, diplomatik nümayəndə vəzifəsinə təyin edilmək üçün göndəriləcəyi ölkənin hökumətinin müsbət razılığı alınmış şəxsə deyilir. Məskunlaşacağı dövlətə gəlmək üçün razılıq (gəlmə vizası) almış hər bir diplomatik işçi də p.q. hesab olunur.

**Persona non qrata** *(lat. persona non grata – arzu olunmayan şəxs)* – diplomatik təcrübədə işlədilən termin. P.n.q. diplomatik nümayəndə vəzifəsinə təyin ediləcəyi ölkə hökumətinin razılıq vermədiyi şəxsə deyilir. Məskunlaşacağı ölkə hökuməti tərəfindən arzu olunmaz şəxs elan edilən hər hansı digər diplomatik işçi də p.n.q. hesab olunur. Müvafiq xəbərdarlıq aldıqda dövlət öz nümayəndəsini geri çağırmalıdır. Məskunlaşdığı ölkənin hökumətini və ya digər dövlət orqanını açıq tənqid etmək, yaxud həmin ölkənin daxili işlərinə hər hansı yolla qarışmaq, onun adət-ənənələrinə və qanunlarına hörmət etməmək, diplomatik imtiyaz və immunitetlərdən sui-istifadə etmək, diplomat davranışın hamılıqla qəbul edilmiş normalarını pozmaq və i.a. diplomatik işçinin arzuolunmaz şəxs elan edilməsinin motivi ola bilər. Diplomatik işçinin p.n.q. elan edilməsi ilə əlaqədar məsələlər diplomatik əlaqələr haqqında 1962-ci il Vena konvensiyasının müvafiq maddələri ilə tənzim edilir.

**Perversiya** – cinsi pozğunluq (cinsi əlaqənin qeyri-təbii forması); sadizm, mazoxizm, homoseksualizm, pedofiliya (uşaqların cinsi əlaqəsi), fetişizm (bədənin müəyyən hissəsinə və ya seksual tərəfdaşın müəyyən predmetinə yönələn cinsi əlaqə forması) və i.a. p.-ya aiddir.

**Peşə xəstəlikləri** – əməyin əlverişsiz şəraiti nəticəsində yaranan xəstəliklər qrupu. P.x. adətən zərərli peşələrin (zərərli istehsalat sexlərinin) orqanizmə təsirindən baş verir.

**Peşəkar cinayətkarlıq** – **1)** aşağıdakı əlamətlərlə səciyyələndirilən cinayətkarlıq: a) cinayətkar məşğuliyyətin sabit növü (ixtisaslaşma); b) cinayətkarlarda müəyyən bilik (bacarıq) və vərdişlərin olması; c) kriminalın mövcud olma vasitəsinin mənbəyi olması; ç) antisosial aləmlə sabit əlaqələrin olması; **2)** peşəkar cinayətkarların məcmusu.

**Peşəkar ordu** – hərbi xidmətin bütün şəxsi heyəti üçün əsas peşə və fəaliyyət növü hesab olunduğu ordu. P.o. Qədim Yunanıstanda, Qədim Romada və digər yerlərdə, XIV-XVIII yüzilliklərdə muzdlu ordular şəklində Qərbi Avropa ölkələrində (Fransada, İtaliyada, Almaniyada) mövcud olmuşdur. Rusiyada XVIII yüzillikdə və XIX yüzilliyin birinci yarısında rekrut mükəlləfiyyəti ilə komplektləşdirilən ordu əslində p.o. olmuşdur. P.o. hazırda ABŞ-da, Böyük Britaniyada və i.a. dövlətlərdə mövcuddur.

**Peşə senzi** – peşə fəaliyyəti, tutduğu vəzifə əlamətinə görə vətəndaşın ixtira hüquqlarını məhdudlaşdıran ixtira qanununun müddəası. Məsələn, bütün Latın Amerikası ölkələrində və Afrikanın bir çox dövlətlərində hərbi qulluqçular, polis və təhlükəsizlik orqanları işçiləri səs hüququna malik deyillər. Meksikada, Paraqvayda və Tailandda dindarlar passiv seçki hüququndan məhrumdurlar. P.s. onunla izah edilir ki, bir sıra peşələrin xarakteri prinsip etibarilə siyasi həyatda fəal iştirakla və ya deputat mandatı ilə bir araya sığmır.

**Peşə sirri** – qanunla mühafizə olunan sirlər qrupunun ümumi adı; əməl edilməsi zərurəti ayrı-ayrı peşələrin etibaredici xarakterindən irəli gəlir. P.s.-nə adətən vəkillik sirri həkimlik sirri və notariat sirri aid edilir.

**Peşə yönümü** – gənclərin peşə seçməyə hazırlanması, münasib peşəyə yiyələnməsi və işə düzəlməsi məqsədi ilə həyata keçirilən ictimai-pedaqoji tədbirlər sistemi.

**Peşə zəhərlənməsi** – istehsalat şəraitində zəhərli maddələrdən kəskin və ya xroniki zəhərlənmə.

**Petisiya** *(lat. petitio)* – yuxarı dövlət hakimiyyəti orqanlarına yazılı formada təqdim edilən kollektiv xahiş ərizəsi.

**Petisiyalar azadlığı** *(bax: petisiyalar hüququ).*

**Petisiyalar hüququ** – vətəndaşlara konstitusiya ilə verilmiş siyasi hüquqlardan biri; yazılı tələb, təklif, şikayətlə dövlət hakimiyyəti orqanlarına müraciət etməkdən ibarətdir. Petisiyalarla qanunla müəyyən edilmiş qaydada reaksiya vermək hakimiyyət orqanlarının vəzifəsidir. Bəzi dövlətlərin konstitusiyalarında (məsələn, Macarıstanda) p.h. nəinki vətəndaşın, həm də istənilən insanın hüququ kimi tanınır. Bəzi ölkələrin (məsələn, İspaniyanın və başqalarının) konstitusiyası ayrı-ayrı kateqoriya (bir qayda olaraq, hərbi qulluqçuların, təhlükəsizlik orqanları qulluqçularının və mühafizə xidməti işçilərinin) vətəndaşların p.h.-nu onların bu hüquqdan ancaq fərdi qaydada istifadə edə bilməsi kimi müəyyən edir.

Azərbaycan Respublikasının Konstitusiyasında "p." terminindən istifadə olunmasa da, müraciət etmək hüququ birbaşa təsbit edilmişdir. Konstitusiyanın 57-ci maddəsinin 1 hissəsinə əsasən Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

**Petisiyalı referendum** – müvafiq qanunun qəbul edilməsi haqqında petisiyanı imzalamış müəyyən sayda vətəndaşların iştirakını tələb edən qanun layihəsi üzrə xalq səsverməsi. ABŞ-ın əksər ştatlarında, İtaliyada isə yerli hakimiyyət orqanlarının təşəbbüsü ilə tətbiq edilir. Xalq təşəbbüskarlığını p.r.-dan fərqləndirmək lazımdır.

**Petitor iddia** – Qədim Romada əmlaka malik olan qeyri-mülkiyyətçi əleyhinə əmlaka malik olmayan mülkiyyətçini müdafiə edən iddia formasının adı *(həmçinin bax: vindikasiya iddiası).*

**Pədərşahlıq** – kişinin ailədə, təsərrüfat və cəmiyyətdəki üstünlüyü ilə səciyyələnən icma quruluşu formalarından biri *(həmçinin bax: patriarxat).*

**Pərakəndə alqı-satqı müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. Pərakəndə alqı-satqı müqaviləsinə görə malların pərakəndə satışı üzrə sahibkarlıq fəaliyyətini həyata keçirən satıcı sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan şəxsi, ailə, ev və ya digər istifadə üçün nəzərdə tutulan malı alıcıya verməyi öhdəsinə götürür (AR MM-in 614.1-ci maddəsi).

P.a.-s.m. ümumi müqavilə hesab olunur. Fiziki şəxs olan alıcının iştirakı ilə pərakəndə alqı-satqı müqaviləsilə əlaqədar AR MM ilə tənzimlənməyən münasibətlərə istehlakçıların hüquqlarının qorunması haqqında qanun və ona uyğun qəbul edilmiş digər normativ hüquqi aktlar tətbiq edilir.

**Pərakəndə qiymətlər** – əhaliyə və digər istehlakçılara realizə olunan malların və göstərilən xidmətlərin qiyməti.

**Pərakəndə ticarət** – daxili ticarət forması; istehlak mallarının tədavülündə son faza hesab olunur. P.t.-də mallar və xidmətlər əhalinin pul gəlirlərinə mübadilə olunmaqla realizə edilir.

**Pəşva** – Marath dövlətində XVII yüzillikdə mövcud olmuş böyük nazir. XVIII yüzillikdən p. irsən keçən vəzifəyə çevrilmişdir. 1818-ci ildə ingilis müstəmləkəçiləri Marathı tamamilə işğal edənədək p.-lar Maharaştranı idarə edirdilər. Marath əmirləri ittifaqının müstəqil hakimləri hesab olunurdular.







**Pfalsqraf** *(alm. pfalzgraf, hərfən – saray qrafı)* – Frank dövlətində və orta əsrlər Almaniyasında ilk əvvəllər kralın məhkəmə funksiyasına malik vəzifəli şəxsi, sonra isə pfalsqraflığın (knyazlığın) başçısı olmuşdur.

**Piastr** *(ita. piastra, hərfən – gümüş lövhəcik)* – **1)** qədim ispan sikkəsi pesonun italyanca adı; **2)** quruş – 1844-cü il və 1916-cı ilin qanununa əsasən Türkiyənin pul vahidi. Əslində türk lirəsinin 1/100-nə bərabər xırda pul. 40 paraya bölünür; **3)** Misir, Suriya, Sudan və Livanın pul vahidi, funtun 1/100-i. Bu ölkələrdə xırda pul və banknot şəklində tədavüldədir; **4)** İordaniya dinarının 1/100-i.

**Piket** *(fr. piquet, hərfən – paya)* – **1)** kiçik keşikçi dəstəsinin və ya zastavanın, səhra qarovulunun adı. P. XVIII-XIX yüzilliklərdə Rusiya, Fransanın və digər dövlətlərin ordularında mövcud olmuşdur; **2)** bir qrup vətəndaşın öz əhval-ruhiyyə və görüşlərini bildirmək üçün təşkil etdiyi açıq nümayiş. Küçə yürüşünün formalarından biridir. Piketçilər adətən binaların (parlament, hökumət və ya səfirlik binasının) çıxış yerlərində, yaxud hər hansı bir yerdə əllərində plakatlar tutmaqla toplaşırlar.

**Piromaniya** *(yun. pyr – alov və mania – sərsəmlik, ağılsızlıq, ehtiras)* – yanğınlar törətməyə impulsiv şəkildə yaranan patoloji cəhd.

**Plagiat** *(lat. plagio – oğurlayıram)* – müəllifin, yaxud ixtiraçının hüquqlarının pozulması növlərindən biri. P.-lıq başqasının elmi, ədəbi, musiqi və ya bədii əsərini, yaxud ixtirasını və ya səmərələşdirici təklifini öz adı ilə nəşr etdirmə və ya başqasının müəllifliyini qəsdən gizlətməklə mənimsəməkdən ibarətdir. P.-lıqda təqsirli bilinən şəxs mülki qaydada, yaxud cinayət-hüquqi qaydada məsuliyyət daşıyır.

**Plastik bank kartoçkası** – mağazalarda malların nağdsız satın alınması və ya nağd pul əldə edilməsi zamanı eyniləşdirmə üçün istifadədən ötrü bank tərəfindən müştəriyə verilən sənəd. P.b.k.-ları ilə hesablaşmaların əsasında əməliyyatların əsas iştirakçıları arasındakı müqavilə münasibətləri sistemi durur. Tərəflər qismində banklar, mağazalar və servis müəssisələri, habelə bankların müştəriləri (kartoçka sahibləri) çıxış edirlər.

**Platforma (siyasi)** – partiya, qrup və ya təşkilatın irəli sürdüyü fəaliyyət proqramı, tələblər. P. adətən, dövlətin nümayəndəli orqanlarına seçkilər, habelə prezident seçkiləri ərəfəsində irəli sürülür.

**"Platt düzəliş"i** – 1901-ci ildə ABŞ-ın Kubaya zorla qəbul etdirdiyi və İspaniya-Amerika müharibəsi (1898) gedişində işğal olunmuş Kubanın əslində ABŞ-ın müstəmləkəsinə çevrilməsini təsbit edən öhdəlik. Əsasını senator O.Plattın 1901-ci ildə konqresə təqdim etdiyi düzəliş təşkil edirdi. "P.d."-nə görə, Amerika imperializmi istənilən vaxt Kubanı işğal etmək, orada hərbi-dəniz bazası yaratmaq, onun xarici siyasətinə nəzarət etmək hüququ qazanırdı. Kuba xalqının etirazı nəticəsində 1934-cü ildə "p.d."-nin rəsmi ləğv olunduğu elan edildi. Əslində isə "p.d." Kuba inqilabının (1959) qələbəsindən sonra qəti olaraq ləğv olunmuşdur.

**Plebeylər** *(lat. plebeii, plebs – sadə xalq)* – Qədim Romada azad əhalinin sosial təbəqələrindən biri. P. eramızdan əvvəl III yüzilliyin əvvəllərinədək icma torpaqlarından istifadə etmək hüququna malik olmamışlar. Onlar ancaq xüsusi mülkiyyətçilər kimi kiçik torpaq sahələrinə malik idilər. P. əkinçiliklə yanaşı, sənətkarlıq və ticarətlə də məşğul olurdular. P. eramızdan əvvəl V yüzilliyin əvvəlindən III yüzilliyin əvvəllərinədək patrisilərə qarşı apardıqları mübarizə nəticəsində onlarda eyni dərəcədə vətəndaşlıq hüquqlarına və siyasi hüquqlara nail olmuşlar. Onlar da Roma xalqının tərkibinə daxil edilmiş və patrisilərlə birlikdə nobilitet yaratmışdılar. "Plebey" termini eramızdan əvvəl III-II yüzilliklərdə tam hüquqlu, lakin əsilzadə (aristokrat) olmayan vətəndaşlara da aid edilirdi.

**Plebey tribunları** *(bax: xalq tribunları).*

**Plebissit** *(lat. plebiseitum, plebs – sadə xalq + seitum – xalqın qərarı)* – **1)** ümumxalq səsverməsi, əhali arasında aparılan rəy sorğusu. P., bir qayda olaraq, müəyyən ərazinin taleyini müəyyən etmək məqsədilə aparılırdı. Bəzi ölkələrdə (məsələn, Fransada) "p." termini referendumun sinonimi kimi işlədilir. Formal hüquqi baxımdan p.-in keçirilməsi qaydası (həll edilən məsələdən asılı olmayaraq) referendumun keçirilməsi qaydasından fərqlənmir; **2)** Qədim Romada plebeylərin yığıncağında qəbul olunan qərar. P. respublika dövrünün başlanğıcında yalnız plebeylər üçün etibarlı olmuşdur. Eramızdan əvvəl təqribən 287-ci ildən, yaxud eramızdan əvvəl 449-cu ildən p.-in qanuni qüvvəsi müəyyən edilmiş, o, bütün romalılar üçün qanun kimi tanınmış və respublikanın sonunadək qanunvericiliyin normal formasından ibarət olmuşdur.

**"Plebissit demokratiyası"** – qollist dövründə Fransanın V Respublikasının siyasi təcrübəsi bazasında işlənib hazırlanmış siyasi-hüquqi nəzəriyyə. "P.d." nəzəriyyəsinə uyğun olaraq yüksək inkişaf etmiş sənaye cəmiyyətinin mövcud olması şərtləri bütün siyasi və inzibati hakimiyyətin dinamik ümummilli liderin ("güclü prezidentin") əlində cəmlənməsini və ona tabe olan yüksək ixtisaslı bürokratik aparatda mərkəzləşməsini tələb edirlər. Tam siyasi sabitliyin təmin edilməsi üçün prezident parlamentin qanunlarına deyil, bilavasitə plebissit vasitəsilə ifadə olunan millətin iradə ifadəsinə arxalanmalıdır.

**Plebs** *(bax: plebeylər).*

**Plenum** *(lat. plenum – tam)* – hər hansı bir təşkilatın seçkili rəhbər orqan üzvlərinin və ya yüksək məhkəmə üzvlərinin tam tərkibdə yığıncağı.

**Plomb** *(fr. plomb – qurğuşun)* – qurğuşunlu (və ya sair materialdan hazırlanmış) möhür növü; gömrük hüququnda gömrük təminatının vasitələrindən biridir.

**Plutokrat** *(yun. bax: plutokratiya)* – hökmran təbəqənin yuxarı pilləsinin ən varlı nümayəndəsi. P. öz sərvəti ilə hakimiyyətə təsir göstərə bilən varlı şəxs idi.

**Plutokratiya** *(yun. plutokratia, plutos – sərvət + kratos – hakimiyyət, qüdrət)* – **1)** varlıların hökmranlığı, ölkədə dövlət hakimiyyətinin hökmran təbəqənin – bir ovuc ən varlı şəxslərə məxsus olduğu siyasi quruluş; **2)** ölkədə varlı təbəqələrin, plutokratların ən varlı nümayəndələrindən ibarət olan hökmranlıq, idarə edən qrup.

**Plüral** *(lat. pluralis)* – əsasən XIX yüzillikdə bəzi burjua ölkələrində mövcud olan və





seçicilərin əmlak, təhsil senzindən asılı olaraq bir neçə səsdən istifadə etmək hüququ.

**Plüralizm** *(lat. pluralis – çoxlu)* – monizmə zidd konsepsiya. P.-ə görə varlığın bir-birindən asılı olmayan və bir-birinə müncər edilməyən çoxlu başlanğıcları mövcuddur. P. siyasi-hüquqi təlimlərdə işlədilən terminlərdən biridir. Bu mənada p. dedikdə vətəndaş cəmiyyətinin və hüquqi dövlətin özüllü prinsiplərindən biri nəzərdə tutulur. Həmin nəzəriyyəyə görə iqtisadi, siyasi və mədəni həyatın formaları və subyektlərinin çoxluğu təmin edilməlidir.

**Plüral votum** – konstitusiya hüququnda bir seçiciyə bir neçə dəfə səs vermək imkanının verilməsi. XIX yüzillikdə Böyük Britaniyada, Almaniyada və Qərbi Avropanın bir sıra digər ölkələrində geniş tətbiq edilmişdir. Belə bir qayda mövcud idi ki, seçki siyahısına yaşayış yeri üzrə daxil edilmiş vətəndaş həm də daşınmaz əmlakın və ya ali təhsil haqqında diplom aldığı universitetin yerləşdiyi dairənin siyahısına daxil edilirdi. P.v. XX yüzillikdə öz əhəmiyyətini itirmişdir. Hazırda iri mülkiyyət sahiblərinin yerli özünüidarə orqanlarına seçkilərdə bir neçə səsə malik olduğu Avstraliyanın bəzi ştatlarında və Yeni Zenlandiyada saxlanmaqdadır.

**Plürilaterial müqavilə** – digər dövlətlərin qoşulması üçün açıq olan beynəlxalq müqavilə.

**Poçt göndərişləri** – məktub və poçt kartoçkaları, banderollar (bağlamalar və kiçik zərflər, poçt konteynerləri və müvafiq surətdə qablaşdırılan nəşrlər).

**Poçt markası** – poçt bağlamalarının göndərilməsi müqabilində rüsum ödənişi nişanı; poçt idarələri tərəfindən buraxılırlar.

**Poçt rabitəsi** – poçt göndərişlərinin, pul vəsaitlərinin köçürülməsinin qəbulunu, emalını, daşınmasını və tədarükünü təmin edən, həmçinin müqavilə əsasında ekspeditorlaşdırmanı, dövri mətbuatın daşınmasını və yayılmasını, pensiyaların, müavinətlərin və təyinat məqsədli digər ödəmələrin tədarükünü təşkil edən və Azərbaycan Respublikasının yurisdiksiyası altında olan müəssisələrin və nəqliyyat vasitələrinin vahid texnoloji şəbəkəsi. Poçt göndərişinin və poçt tranzitinin azadlığına Azərbaycan Respublikasının bütün ərazisində təminat verilir və bu sahədəki münasibətlər "Rabitə haqqında" Azərbaycan Respublikasının 20 iyun 1997-ci il tarixli qanunu ilə tənzimlənir.

**Podpolkovnik** – bir sıra dövlətlərin silahlı qüvvələrində yuxarı zabit heyətində rütbə. Rusiyada XVII yüzillikdə vəzifə, sonra isə polkovnik köməkçisinə verilən rütbə idi. Keçmiş SSRİ-də 1939-cu il sentyabrın 1-dən təsis edilmişdir. Hərbi-Dəniz Donanmasında 2-ci dərəcəli kapitan rütbəsinə müvafiqdir.

**Podratçı** *(bax: podrat müqaviləsi).*

**Podrat müqaviləsi** – mülki-hüquqi müqavilənin bir növü. Podrat müqaviləsinə görə, podratçı müqavilədə nəzərdə tutulan işi icra etməyi, sifarişçi isə podratçıya razılaşdırılmış muzd ödəməyi öhdəsinə götürür. Əgər podratda hər hansı məmulatın hazırlanması nəzərdə tutularsa və podratçı onu özünün əldə etdiyi materiallardan hazırlayarsa, hazırlanmış məmulata mülkiyyəti sifarişçiyə verir. Əgər əvəz edilən əşya hazırlanmışdırsa, alqı-satqı qaydaları tətbiq edilir. Podratla bağlı smetanın tərtibi, əgər razılaşmada ayrı qayda müəyyənləşdirilməyibsə, ödənilmir (AR MM-in 752-ci maddəsi).

**Poliandriya** *(poli...+ yun. aner, andros – kişi, ər)* – çoxərlilik; nikahın tarixi formalarından biridir. Belə nikah zamanı qadının bir neçə əri olurdu. Nikahın bu forması matriarxat dövrünə aid edilir. XX yüzilliyədək p. qismən aleutlarda və eskimosların bir neçə qrupunda, həmçinin Tibet və Hindistanın bəzi etnoqrafik qrupu arasında qalmışdı.

**Poliginiya** *(poli...+ yun. gyne – qadın, arvad)* – çoxarvadlılıq. P. nikahın tarixi formalarından biri kimi daha çox patriarxata xas olmuşdur. P. bəzi müsəlman xalqlarında hakim təbəqələrin imtiyazı kimi qorunub saxlanmışdır. "P." terminindən düzgün olmayaraq "poliqamiya" termininin əvəzi kimi də istifadə olunur.

**Poliqamiya** *(poli...+ yun. gamos – kəbin)* – çoxnikahlılıq. "P." terminindən çox vaxt düzgün olmayaraq çoxarvadlılığı ifadə etmək üçün də istifadə edirlər *(həmçinin bax: poliginiya)*.

**Polinominal dairələr** *(bax: seçki dairələri)*.

**Polis** [1] *(yun. polis, lat. civitas)* – şəhər-dövlət. Qədim Yunanıstan və Qədim Roma cəmiyyətinin sosial-iqtisadi və siyasi təşkilatının xüsusi forması olan p. şəhərdən və ona bitişik olan ərazidən ibarət olmuşdur. P.-in iqtisadi əsasını torpaq mülkiyyətinin antik forması təşkil edirdi. P.-lər siyasi quruluşuna görə müxtəlif idi. Spartada oliqarxiya, Afinada isə demokratik respublika forması daha geniş yayılmışdı. P. üçün tam hüquqlu vətəndaşların (kişilərin) xalq məclisi, şura, seçkili vəzifəli şəxslər və i.a. səciyyəvi olmuşdur. Quldarlıq formasiyasının inkişafı ilə p. də quldarlıq dövlətinin idarəçilik formasına çevrilmişdir. Yunanıstanda p.-in yüksəliş dövrü eramızdan əvvəl V yüzilliyə, tənəzzülü isə VI yüzilliyə təsadüf edir. Romada eramızdan əvvəl V-III yüzilliklər p.-in yüksəlişi, III-I yüzilliklər isə tənəzzül dövrü olmuşdur.

**Polis** [2] *(yun. politeia – dövləti idarəetmə, müdiriyyət)* – **1)** dünya dövlətlərində xüsusi nəzarət orqanları sistemi, habelə mövcud ictimai quruluşu mühafizə edən daxili təyinatlı ordu. Əsas fəaliyyət istiqamətlərinə görə idarəetmə polisi, təhlükəsizlik polisi, cinayət (kriminal polis) polisi, inzibati polis, siyasi (gizli) polis, ədliyyə polisi, vergi polisi və hərbi polis fərqləndirilir; **2)** Rusiyada müstəqil orqan kimi 1718-ci ildə I Pyotr tərəfindən təsis edilmişdir; **3)** Azərbaycan Respublikasında – dövlətin icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanı. "Polis haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli qanunu ilə fəaliyyət göstərir.

**Polisa statutu** – orta əsrlərin hüquq normaları külliyyatı. P.s. XIX yüzilliyin əvvəlinədək Polisada (Dalmasiyada vilayət) qüvvədə olmuşdur. P.s.-nun ilk maddələri ya 1400-cü ildə, ya da XV yüzilliyin ortalarında tərtib edilmişdir. P.s. mülki hüquq, cinayət hüququ və prosessual hüquq normalarını birləşdirmiş və XV-XVIII yüzilliklərdə Polisa icmalarında sosial-iqtisadi münasibətləri və bəzi ümumslavyan təsisatlarını əks etdirmişdir.

**Polis əməkdaşı** – polis orqanlarında müəyyən vəzifə tutan və "Polis haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli qanunu ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən dövlət qulluqçusu.

**"Polis haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında polis orqanlarının təşkili





və fəaliyyətinin hüquqi əsaslarını müəyyənləşdirən qanunvericilik aktı.

Bu qanun 28 oktyabr 1999-cu il tarixdə qəbul edilmişdir. O, beş fəsil və 38 maddədən ibarətdir.

**Polis hüququ** – inqilabaqədərki Rusiyada qanunvericilik sahələrindən biri və müasir inzibati hüququn proobrazı olmuş elmi fənn. P.h. elminin predmetini daxili idarəetmə təşkil edir. Lakin p.h.-nun məzmunu və metodu 1917-ci il oktyabr dövlət çevrilişinədək dəqiq müəyyən edilməmişdir.

**Polis nəzarəti** – XIX yüzilliyin başlanğıcında çar Rusiyasında tətbiq edilən inzibati tədbir. P.n. 1882-ci ildə qanuniləşdirilmişdir. Nəzarət altında olan şəxs yaşayış yerini dəyişmək, dövlət qulluğunda və ya ictimai qulluqda olmaq hüququna malik deyildi. Leqal və qeyri-leqal, müvəqqəti və ömürlük p.n. fərqləndirilirdi.

**Polkovnik** – bir sıra dövlətlərin silahlı qüvvələrində zabit rütbəsi. P. rütbəsi hərbi-dəniz donanmasında 1-ci dərəcəli kapitan rütbəsinə bərabərdir.

**Pontifikat** *(lat. pontificatus)* – katolik kilsəsində hakimiyyət və Roma papasının idarəçiliyi dövrü. Pontifeks (pontifex – ilk müqəddəs) papanın titullarından biridir.

**Pontifiki** – Qədim Romada yüksək səviyyəli kahin korporasiyasının adı; ilk əvvəllər qanunları təfsir etmək hüququna (bu hüququn dünyəvi hüquqşünaslara keçməsinədək) olmuşdur.

**Popolanlar** *(ita. popolani – xalq)* – XII-XVI yüzilliklərdə Şimali və Mərkəzi İtaliyada şəhərlərin sexlərdə birləşmiş ticarətçi və sənətkar təbəqələri.

**Populistlər** – XIX yüzilliyin sonunda ABŞ-da fermerlər partiyası. Əsas proqram tələbləri korporasiyalardan artıq torpaqların alınması və köçüb gələnlərə paylanmasından, dəmir yollarının, teleqraf və telefonun dövlət mülkiyyətinə keçməsindən, vergilərin azaldılmasından, 8 saatlıq iş gününə keçilməsindən və i.a. ibarət olmuşdur. P.-in fəaliyyətinə 1900-cü ildə son qoyulmuşdur.

**Populyarlar** *(lat. populares – xalq)* – eramızdan əvvəl II yüzilliyin sonu və I yüzilliyin sonunadək Romada fəaliyyət göstərmiş ideya-siyasi cərəyan; şəhər və kənd plebeylərinin mənafelərini müdafiə etmişdir. P. aqrar məsələnin həlli və demokratiya uğrunda mübarizə aparırdılar. P.-ın əsas dayağı xalq yığıncağı idi. P.-ın Qrakx qardaşları, Apuley Satirnin və Q.Qlavsiya kimi nümayəndələri Roma Respublikasının ictimai-siyasi həyatında mühüm rol oynamışlar.

**Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma** – ictimai mənəviyyat əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 242-ci maddəsində nəzərdə tutulmuşdur. Pornoqrafik materialları və ya əşyaları yayma və ya reklam məqsədilə qanunsuz hazırlamada, yaymada, reklam etmədə, habelə pornoqrafik xarakterli nəşrlər, kino və ya video materiallar, şəkillər və sair əşyalar ilə qanunsuz ticarət etmədə ifadə olunur.

**Pornoqrafiya** *(yun. porne – əxlaqsız qadın və grapho – yazıram)* – bədii və ya elmi dəyərə malik olmayan müxtəlif təzahürlü cinsi əlaqə aktının açıq natural təsvirindən və ya yazısından ibarət olan əsər,

dərc olunmuş buraxılış, təsvir, kompyuter proqramı, filmlər, videoyazılar, televiziya və radio verilişləri. P. faktı hər bir halda xüsusi bədii ekspert komissiyasının rəyi ilə müəyyən edilir.

**Poroskopiya** – kriminalistik dastiloskopiyanın bölməsi; əl-barmaq izlərində məsamələrin təsviri üzrə şəxsiyyətin eyniləşdirilməsi metodikasını öyrənir. "P." terminini kriminalistikaya fransız kriminalisti Lokar gətirmişdir. O, eyniləşdirmə məqsədilə məsamənin təsvirindən istifadə etmək ideyasını irəli sürmüşdür. Lokar 1911-ci ildə bu sahədə müşahidələr aparmış və belə nəticəyə gəlmişdir ki, məsamələr nə sayına, nə də bir-birinə münasibətdə vəziyyətinə görə dəyişməzdir. Əl-barmaq izlərinin əmələgəlmə mexanizmindən asılı olmayaraq onların əksi dəyişmir. Eyni zamanda məsamələr formasına, ölçüsünə, vəziyyətinə və sayına görə son dərəcə müxtəlifdirlər. Buna əsaslanan Lokar poroskopik ekspertiza metodikasını işləyib hazırlamışdır.

**Porta** *(fr. porte, ita. porta, hərfən qapı, darvaza)* – Osmanlı imperiyası hökumətinin, bəzən də imperiyanın özünün Avropada diplomatik sənədlərdə və ədəbiyyatlarda təsadüf edilən adı.

**Portye** *(fr. portier)* – mehmanxanada qapıçı, dalandar.

**Post** *(fr. poste, lat. positus – qoyulmuş)* – mühafizə və müdafiə üçün gözətçiyə tapşırılmış obyekt, həmçinin onun öz funksiyasını yerinə yetirdiyi yer və ya ərazi sahəsi. Xüsusi tapşırığı yerinə yetirən hərbi qulluqçu və ya qrup (kiçik bölmə), həmçinin tapşırıq yerinə yetirilən yer (məntəqə) də p. adlanır.

**Postqlossatorlar** – Orta əsrlərdə hüquq normalarının və Yustinian Məcəlləsindən çıxarışları təfsir edən italyan və fransız hüquqşünasları. Şərhçiləri də p. adlandırırdılar və bu, onların Roma hüququnu mənbələr üzrə deyil, qlossalar (şərhlər) üzrə öyrənmələri ilə əlaqədar olmuşdur. P.-ın fəaliyyəti Roma hüququnun resepsiyasında (mənimsənilməsində) mühüm rol oynamışdır.

**Potensial** *(hərbdə)* – dövlətlərin (koalisiyaların) dinc və hərbi dövrdə silahlı qüvvələri saxlamaq və təkmilləşdirmək, onların döyüş qabiliyyətini yüksəltmək, təlim keçmiş kadrlarla təmin etmək, müasir silah və hərbi texnika, azuqə və paltarla təchiz etmək imkanı. İqtisadi, elmi və əxlaqi-siyasi p.-la qarşılıqlı əlaqədə olan hərbi p. dövlətin hərbi qüdrətində əksini tapır.

**Pozitiv hüquq (müsbət hüquq)** – fəaliyyətdə olan hüquq. Cəmiyyətdə yayılmış arzu olunan hüquq haqqında hüquqi görüşləri və təsəvvürləri, yaxud qüvvədə olan hüquq normaları olmayan hüquqi tələbləri, layihələri və i.a. p.h.-dan fərqləndirmək lazımdır. Təbii hüquq məktəbinin nümayəndələri təsdiq edirdilər ki, öz məzmunu ilə zamana görə dəyişkən olan və müxtəlif ölkələrdə müxtəlif cür təzahür edən p.h. dəyişmədən fəaliyyət göstərir.

**Praymeriz** *(ing. primaries)* – ABŞ-da qabaqcadan (ilkin) keçirilən seçkilər. Belə seçkilər gedişində mərkəzi və yerli nümayəndəli orqanlara deputatlığa namizədlər, digər seçkili vəzifələrə namizədlər, milli partiya konventlərinə nümayəndələr, Demokratlar və Respublikaçılar partiyaları komitələrinə üzvlər irəli sürülür. 1842-ci ildən tətbiq edilir.





**Prayvesi** *(ing. privacy – sirr, xəlvət yer, şəxsi həyat)* – ingilis-amerikan hüquq sistemində xüsusi hüquqi kateqoriya; insanın şəxsi həyatının məxfiliyi və toxunulmazlığı, intim həyat sferası deməkdir. "Prayvesi" termininin Azərbaycan dilində ekvivalenti yoxdur. O, bir halda şəxsi həyatı, digər halda isə şəxsi həyat hüququnu ifadə edə bilər. Həmin termindən şəxsi həyat toxunulmazlığının müdafiəsi hüququnu ifadə etmək üçün də istifadə oluna bilər.

**Preambul** *(fr. preambule, lat. preambulus – qabaqda gedən)* – qanunvericilik aktının, yaxud digər normativ hüquqi aktın, habelə bəyannamənin, yaxud beynəlxalq müqavilənin giriş və ya müqəddimə hissəsi. P.-da adətən həmin aktın məqsəd və vəzifələri, onun qəbulunun zəruriliyi və şəraiti, məramı və motivləri qısa şəkildə ifadə olunur. Beynəlxalq aktların p.-unda, bir qayda olaraq, həmin aktın (müqavilənin, sazişin) tərəfləri, iştirakçıları və i.a. sadalanır.

**Predmetlərin və sənədlərin tədqiqi** – əməliyyat-axtarış tədbirlərindən biri; özündə cinayətkar fəaliyyətin, cinayətin alətlərinin izlərini saxlayan predmetlərin və sənədlərin tədqiq edilməsindən ibarətdir. P.s.t. əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların tapşırığı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və digər səlahiyyətli orqanların xüsusi əməliyyat-axtarış və kriminoloji bölmələri tərəfindən cinayət işinin başlamasınadək aparılır. Mütəxəssislərin əməliyyat-texniki nəticələr üzrə rəyləri prosessual əhəmiyyət kəsb etmədiyinə görə cinayət işlərinə əlavə edilmirlər.

**Prefekt** *(lat. praefectus – rəis; praeficio – başçı təyin edirəm)* – **1)** Qədim Romada prefekturaya başçılıq edən vəzifəli şəxs. İmperator Avqustun dövründən (eramızdan əvvəl I yüzilliyin sonundan) başlayaraq p. Misiri, sonralar isə bütün əyalətləri idarə etmiş, habelə məhkəmə və əlahiddə idarə işlərini yerinə yetirmişdir; **2)** Fransada mərkəzi hökumətin nümayəndəsi kimi departamentə başçılıq edən şəxs. P. prezident tərəfindən təyin edilirdi və geniş hüquqlara malik olmuşdur.

**Prefektura** *(lat. praefectura – dəftərxana)* – **1)** Qədim Roma imperiyasında (IV yüzilliyin əvvəlində) inzibati-ərazi vahidi. Roma imperiyası 4 p.-ya bölünmüşdü; **2)** bir sıra ölkələrdə (məsələn, Fransada) inzibati-ərazi vahidinin idarəetmə orqanı; **3)** Yaponiyada qubernatorun başçılıq etdiyi əsas inzibati-ərazi vahidi.

**Preferensial fərq** – ən əlverişli gömrük rüsumu məzənnəsi rejimi ilə analoji mallar üçün preferensial rüsum məzənnəsi arasında mütləq böyüklük (kəmiyyət) fərqi.

**Preferensial səsvermə** – majoritar sistemdə mütləq əksəriyyətin səsvermə metodu; seçkilərin məhsuldarlığını təmin edir və ikinci turun keçirilməsi zəruriliyini aradan qaldırır. P.s. zamanı seçici 1, 2, 3 və i.a. rəqəmləri göstərməklə (kimi ilk, kimi isə ikinci növbədə görmək istədikdə) bülletendə öz preferensiyasını (seçimini) qeyd edir. Nəticələrin müəyyən edilməsi zamanı ilk növbədə birinci preferensiya namizədlərin topladıqları səslər toplanır. Heç kəsin səslərin mütləq çoxluğunu toplamadığı halda, ona verilmiş səslər digər namizədlərə verilir, onun özü isə növbəti səs toplanmasından kənar edilir. Bu qayda namizədlərdən hər hansı birinin səslərin mütləq çoxluğunu toplamasınadək davam

edir. P.s.-in alternativ formaları (alternativ səsvermə, vahid səsvermə sistemi) Avstraliyada, Hindistanda, İrlandiyada və bir sıra başqa dövlətlərdə tətbiq edilir. P.s. partiya siyahısında mandat hüququ olan namizədləri müəyyən etmək metodu kimi proporsional sistemi də tamamlaya bilər (məsələn, İtaliyada olduğu kimi).

**Preferensiya** *(lat. praeferentia – üstünlük)* – müəyyən dövlətin başqa ölkənin bütün, yaxud bəzi malları üçün müəyyən etdiyi xüsusi güzəştli idxalat gömrük rüsumu (digər ölkələrin mallarına aid edilmir).

**Prekari** *(lat. precarium, preces – xahiş)* – Qədim Romada və orta yüzilliklərdə torpaqdan istifadə hüququ. Yazılı xahişlə müraciət edildikdə sahibkar tərəfindən nisbətən uzun müddətə (p. müqaviləsini 5 ildə bir dəfə təzələmək şərtilə) verilirdi. Orta yüzilliklərdə p.-nin bir neçə növü mövcud olmuşdur.

**Preklüziv (axıcı) müddətlər** – öz hüququnu qoruyub saxlamaq və ya öz mənafelərini müdafiə etməkdən ötrü zəruri olan müəyyən akt üçün qanunla verilən vaxt (müddətlər). Digər tərəfin bildirişi və ya sair hərəkətləri (məsələn, malların tədarükü zamanı onların sayında, yaxud keyfiyyətində çatışmazlıqların aşkar edilməsi haqqında pretenziya irəli sürülməsi) etməsi belə akt ola bilər. Qanunda müddətin müəyyən edilməsi ilə digər hüquqların müəyyən edilməsi, müdafiəsi və ya dəyişməsinə dair hər hansı hüquqların əlaqələndirildiyi vaxt söhbət həmişə iddia müddəti haqqında deyil, p.m. barəsində gedir. P.m. məhz buna görə iddia müddətindən fərqlənirlər. Məcburi qaydada müdafiə oluna bilməməsinə baxmayaraq, iddia müddətinin keçdiyi zaman hüququn özü mövcud olmaqda davam edir, p.m. keçdikdən sonra isə müvafiq hüquqlar artıq mövcud olmurlar. P.m. bütün şəxslər əleyhinə axır və prosesin istənilən tərəfi istinad etməyə haqlıdır. Bu müddət artırıla və ya kəsilə bilməz.

**Prekursorlar** – Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə, Birləşmiş Millətlər Təşkilatının narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi əleyhinə mübarizə haqqında 1988-ci il konvensiyasına uyğun olaraq narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısına daxil edilən, Azərbaycan Respublikasının nəzarətində olan narkotik vasitələrin və psixotrop maddələrin istehsalında, hazırlanmasında, emalında tez-tez istifadə olunan maddələr.

**Preliminari** – ilkin danışıqlar aparılması, sazişlər bağlanması; müvəqqəti beynəlxalq qərarların qəbul edilməsi.

**Preliminar sülh müqaviləsi** *(lat. pre – nədənsə qabaq)* – döyüşən dövlətlər arasında hərbi əməliyyatların dayandırılmasına və tammiqyaslı sülh müqaviləsi bağlanmasına dair formal saziş. XVIII və XIX yüzilliklərin diplomatik təcrübəsi üçün səciyyəvi olmuşdur. Müasir beynəlxalq hüquqda tətbiq edilmir.

**Presedent** *(lat. praecendens, praecendentis – əvvəlki, qabaqca olan)* – müəyyən vəziyyətdə davranış. Oxşar hallarda belə davranış nümunə hesab edilir. Məhkəmə presedenti məhkəmənin konkret iş üzrə çıxardığı qərar və ya qətnamədən ibarətdir. Belə qərarlar oxşar işlərə baxılarkən bütün məhkəmələr üçün məcburi əhəmiyyət kəsb edir. P. əslində məhkəmə orqanlarına hüquqyaratma (qanunyaratma) funksiyaları verilməsi deməkdir. Azərbaycan hüququ presedent tanımır. Böyük Britaniyada, ABŞ-da, Avstraliyada, Kanadada, anql-saks hüquq sisteminə malik olan və ümumi hüququ (yəni məhkəmə presedentini əsas hüquq mənbəyi hesab edən hüquq sistemini) qəbul etmiş digər ölkələrdə məhkəmə presedenti hüququn əsas mənbələrindən biridir.





**Presedent hüququ** – **1)** ingilis-amerikan hüquq sisteminə malik olan dövlətlərin hüququnun tərkib hissəsi; statut hüququndan fərqli olaraq, məhkəmə presedentini yaradır. P.h. çərçivəsində hüququn özünəməxsus iki budağı təşəkkül tapmışdır: a) ümumi hüquq; b) ədalət hüququ; **2)** hüququn əsas mənbəyinin məhkəmə presedenti olduğunu hesab edən hüquq sistemi.

**Press-reliz** – kütləvi informasiya vasitələri işçiləri üçün nəzərdə tutulmuş xüsusi bülleten; hökumət müəssisələri, hər hansı beynəlxalq təşkilatların rəhbər orqanları tərəfindən buraxılır və təcili dərc edilməli olan materialları özündə ehtiva edir.

**Presviterlər** *(yun. presbyteros – hərfən – ağsaqqal)* – protestant kilsələrində və xristian sektalarında fəal dindarlardan seçilən və kilsənin ali orqanları tərəfindən təsdiq olunan icma başçıları.

**Pretenziya** *(lat. praetensio – tələb)* – kreditorun borcun qaytarılması, vurulmuş zərərin ödənilməsi, cərimənin verilməsi, göndərilmiş məhsulun, satılmış malın, görülmüş işin və göstərilmiş xidmətlərin qüsurlarının aradan qaldırılması haqqında borcluya qarşı verdiyi tələb.

**Pretenziya qaydası** – mülki hüquqları müdafiə qaydalarından biri. Mübahisənin məhkəməyə, yaxud iqtisad məhkəməsinə və ya digər orqana verməzdən qabaq onun kreditorla borclu arasında tənzim edilməsi. P.q.-na uyğun olaraq kreditor borcluya üzərinə götürdüyü öhdəliyi icra etmək haqqında tələb (pretenziya) irəli sürməli, borclu isə müəyyən edilmiş müddətdə ona cavab verməlidir. Borclu pretenziyanı ödəməyi (ona cavab verməyi) rədd etdikdə, kreditor iddia vermək hüququ əldə edir. Pretenziyalar 6 ay ərzində verilir və onlara 3 ay ərzində baxılır. Cərimə və mükafatların ödənilməsi haqqında pretenziyalar 45 gün müddətində verilə bilər.

**Pretor** *(lat. praetor – irəlidə gedən, başçılıq edən)* – Qədim Romada vəzifəli şəxslər qrupu. Eramızdan əvvəl 367-ci ildən başlayaraq əvvəlcə inzibati və hərbi işlərə, sonradan isə cinayət işləri və mülki işlər üzrə məhkəmə hakimiyyətinə rəhbərlik etmişlər. Sonradan asayişin mühafizəsi üzrə inzibati funksiyalar xüsusi magistratlara – edillərə (imperiya dövründə) keçmiş, p.-lar əsasən məhkəmə hakimiyyətini həyata keçirmişlər. Şəhər p.-ları (Roma vətəndaşlarının işlərini aparırdılar) və pereqrin p.-ları (pereqrinlərin, yəni yadellilərin işlərini aparırdılar) fərqləndirilirdi. P. konsulun köməkçisi qismində də fəaliyyət göstərmişdir. P. ediktlər vermək hüququna malik idi. Onların Roma hüququnun inkişafına böyük təsiri olmuşdur *(bax: pretor hüququ)*. Müasir İtaliyada preturaların hakimləri p. adlandırılır.

**Pretor ədliyyəsi** – ədalət mühakiməsinin həyata keçirilməsi üzrə pretorun fəaliyyətini adlandırmaq üçün istifadə olunan termin. Formulyar prosesə keçid mühakimə icraatında pretorun rolunun və bunun-

la əlaqədar onun hüquqyaratma fəaliyyətinin güclənməsinə kömək etmişdir. Pretor hüquq normalarını təfsir və tətbiq etmək hüququna malik idi. Roma hüququnun jus honorarium və ya jus praetorium kimi mənbələrinin inkişafı ancaq formulyar proseslə bağlı olmuşdur. Legisaksion proses zamanı pretor mühakimə icraatını dəyişə və ya onu dayandıra bilməzdi. O, ancaq öz ədalət mühakiməsi hakimiyyətini sanksiyalaşdıra bilərdi. Formulyar prosesdə isə pretor mərkəzi yeri tuturdu.

P.ə. çərçivəsində hüquq normaları və qanunlar son dərəcə geniş təfsir edilsələr də, lakin formal olaraq tanınırdılar. Xüsusi şikayətlər üzrə hüquqların müdafiəsinin spesifik pretor üsulu təşəkkül tapmışdı. Xüsusi şikayətlər təklif olunan iddia ərizələrinin verilməsilə müşayiət olunurdu. Pretor şikayətə səbəb olmuş mübahisənin faktiki hallarını şəxsən nəzərdən keçirə bilərdi. Əgər iş əşya hüquqlarının pozulmasına aid olardısa, o, imperium səlahiyyətinə arxalanaraq işə qanunla müəyyən edilən qaydada baxılmasınadək bu və ya sair hərəkətlərin, yaxud xüsusi baxış olmadan bütün hərəkətlərin qadağan olunması haqqında xüsusi və konkret ünvanlı sərəncam (interdikt) verə bilərdi.

İnterdiktlər bəzi müxtəlifliklərə malik idilər: a) qeyri-hüquqi yolla sahiblikdən çıxmış bu və ya digər əşyaya münasibətdə şəxsin sahiblik hüququnun bərpası ilə əlaqədar əmrlə müşayiət olunan interdikt; b) mübahisənin predmetinə xidmət edən əşyanın təqdim edilməsilə əlaqədar əmrlə müşayiət olunan interdikt; c) şəxsiyyətə münasibətdə, yaxud pretor müdafiəsinə müraciət etmiş şəxslərin hüquqlarına qarşı zorakılığın qadağan olunması ilə əlaqədar əmrlə müşayiət olunan interdikt; ç) tam dəyərli mülkiyyət hüququnun müvəqqəti əvəzedici qismində xüsusi əşya hüququnun ("sahiblik hüququ") möhkəmləndirildiyi xüsusi sahiblik interdikti. Hüquqların qanuni sahibə keçməsi bəzi əlavə formallıqlar və sivil hüquq üzrə halları tələb edirdi.

**Pretor hüququ (jus praetorium)** – Qədim Romada vəzifəli şəxslərin – pretorların mülki mühakimə icraatı prosesində hazırladıqları hüquq normaları (qanunlar). Hər bir pretor vəzifə tutduqda yeni iddialar və digər prosessual vasitələr tətbiq edilməsini nəzərdə tutan edikt verirdi. Edikt 1 il müddətinə verilirdi. Lakin hər bir yeni pretor əvvəlki ediktlərin göstərişlərini öz ediktində təkrar edə və yeni qaydalarla tamamlaya bilərdi. P.h. məhz belə yaranmışdır. Romanın respublika dövrünün sonunda p.h. əslində hüququn müstəqil sisteminə çevrilmişdir. Onun əsasında mülkiyyətin yeni forması – bonitar mülkiyyət ("pretor vərəsəliyinin" xüsusi forması) və i.a. təşəkkül tapmışdır. İmperator hakimiyyətinin möhkəmlənməsilə pretorun hüquqyaratma fəaliyyəti, demək olar ki, dayandırılmışdır. II yüzillikdə imperator Adrianın göstərişi ilə hüquqşünas Yulian pretor hüququnu "daimi edikt" adı ilə məcəlləşdirmişdir.

**Pretor hüququnun prezumpsiyası** – Roma hüququnda ciddi sübut edilməyən və ancaq ehtimal olunan faktların ilkin aydınlaşdırılması əsasında işin hallarını səciyyələndirən hüquqi müddəa. P.h.p. prosesdə rasionallaşdırma rolunu oynamışdır, çünki bütün, hətta ən kiçik qarşılıqlı əlaqəli faktların və hüquq münasibətlərinin qabaqcadan sübut edilməsi zərurəti mövcud deyildi. Bununla yanaşı, mübahisəsiz heç bir prezumpsiya mövcud deyildi; əksər hallarda proses gedişində prezumpsiyaların sübut edilməklə təkzib olunmasına yol verilirdi.

**Pretorianlar** *(lat. praetoriani)* – Qədim Romada əvvəlcə sərkərdələrin şəxsi mühafizə dəstəsinin, sonralar imperator qvardiyasının əsgərləri. II yüzilliyin sonundan Romanın siyasi həyatında mühüm rol (dövlət çevrilişində iştirak edirdilər) oynamışlar. P. qvardiyasını IV yüzillikdə imperator Konstantin ləğv etmişdir. P.-ı mənada kobud qüvvə tətbiq etməklə hakimiyyətin dayağı olan muzdlu qoşunlar da adlandırmışlar.

**Pretura** *(ita. pretura)* – müasir İtaliyada məhkəmə sisteminin aşağı həlqəsini (dünyəvi hakimlər nəzərə alınmamaqla) təşkil edən məhkəmələrin adı. P.-nın xüsusiyyəti *ondan ibarətdir ki*, məhkəmə funksiyası ilə yanaşı ona bir çox istintaq funksiyaları da məxsusdur. P.-da işlərə pretor tərəfindən təkbaşına baxılır.

**Prevensiya** – preventiv təsir (xəbərdarlıq) tədbiri; gələcəkdə cinayətin törədilməsinə yol verilməməsi, cinayətkarlığın, habelə cinayətin törədilməsinə şərait yaradan bilən səbəblərin aradan qaldırılması məqsədi ilə tətbiq edilir. Kriminoloji baxımdan cinayətkarlığın səbəblərinin aradan qaldırılmasına konkret cinayətkara preventiv təsir tədbiri tətbiq edilməklə nail oluna bilər. Cinayətlərin törədilməsinə şərait yaradan situasiyanın aradan qaldırılmasına yönələn preventiv tədbir texnopreventiv adlanan tədbirlər – yaşayış mikrorayonlarının və küçələrin işıqlandırılması, səs siqnalları, qaz silahları, elektron müşahidə üçün texniki vasitələr aid edilir. O cümlədən ABŞ-da bütöv bir yaşayış məhəlləsinin hasara alınması kimi texnopreventiv tədbirdən istifadə olunur.

**Preventiv həbs** – kriminoloji nöqteyi-nəzərdən "islah etmə və təhlükəsizlik tədbiri"; cinayətkar tərəfindən azadlıqdan məhrum edilmə növündə cəzanın çəkilməsindən sonra icra olunur. Müasir AFR-də p.h. peşəkar və "islaholunmaz" cinayətkarlara təhlükəsizlik tədbiri kimi tətbiq edilir. İndoneziyada isə p.h.-dən siyasi repressiya tədbiri qismində istifadə (1966-cı ildən) olunur. P.h. keçən yüzilliyin 30-40-cı illərində Hitler Almaniyasında repressiv cəza tədbiri kimi geniş tətbiq edilmişdir.

**Preventiv tədbirlər** *(bax: prevensiya).*

**Preyudisial faktlar** *(bax: preyudisiallıq).*

**Preyudisiallıq** *(lat. praejudicio – qabaqcadan həll etmə)* – prosessual hüquqda işə baxan bütün məhkəmələr üçün məhkəmənin qanuni qüvvəyə minmiş qərarı və ya hökmü ilə əvvəllər müəyyən edilmiş faktların yoxlamadan və sübut etmədən qəbul etmək vəzifəsi. Prosessual qərarların preyudisial əhəmiyyəti qanunvericilikdə birbaşa nəzərdə tutulmuşdur. Belə ki, AR CPM-in 65.1-ci maddəsinə uyğun olaraq cinayət prosesini həyata keçirən orqanın ləğv edilmiş qərarı həmin məsələ üzrə yeni qərar çıxarılmasına yol vermir. Cinayət prosesini həyata keçirən orqanın qərarı, şəxsin cinayət təqibini istisna edən qərarlardan başqa, hökmün və ya məhkəmələrin digər yekun qərarının çıxarılması ilə əlaqədar məcburi qüvvəyə malik deyildir. Birinci və apellyasiya instansiyası məhkəməsi üçün şəxsin əvvəllər məhkum edilməsinə və ya bəraət almasına dair qanuni qüvvəyə minmiş hökm şərtsiz məcburidir. Məhkəmənin mülki iş üzrə qanuni qüvvəyə minmiş qərarı cinayət prosesini həyata keçirən orqan və cinayət işinə baxan məh-

kəmə üçün yalnız hadisənin olub-olmaması hissəsində məcburidir (AR CPM-in 65.6-cı və 65.7-ci maddələri).

**Prezentant** – vekseli təqdim edən şəxs.

**Prezentasiya** – **1)** ödənişi (trassatı) icra etməyə borclu olan köçürücü şəxsə vekselin təqdim, elan edilməsi; **2)** yenidən yaradılmış firmanın, yeni layihənin, filmin, təzə nəşr edilmiş kitabın və i.a. təntənəli surətdə təqdimetmə mərasimi.

**Prezidensionalizm** – özündə prezident isntitutunu ehtiva edən konstitusiyalı sistem.

**Prezident** *(lat. praesidens – öndə, qabaqda oturan)* – respublika idarəçilik formasına malik olan ölkələrdə dövlət başçısı. P.-in konstitusiya statusu və səlahiyyətlərinin dairəsi respublikanın tipindən asılı olaraq əhəmiyyətli dərəcədə fərqlənir. Klassik nümunəsi ABŞ olan prezidentli respublikada p. nəinki dövlətin, həm də icra hakimiyyətinin (ABŞ-da, Latın Amerikası ölkələrində) və ya hökumətin başçısıdır. Məsələn, Zambiyada, Belarusda, Qazaxıstanda və Özbəkistanda. Belə ölkələrdə baş nazir vəzifəsi, yoxdur. P. qeyri-parlament yolu ilə, yəni xalq tərəfindən (birbaşa və ya dolayı) seçilir. Parlamentli respublikada (AFR-də, İtaliyada) p. yalnız dövlətin başçısıdır. Real icra hakimiyyəti baş nazirin başçılıq etdiyi hökumətə məxsusdur. Bu da o cümlədən aktların əksəriyyətinin kontrassiqnasiyası zərurətində ifadə olunur. P. parlament tərəfindən və ya parlamentin iştirakı ilə seçilir. Qarışıq tipli və ya yarımprezidentli respublikalarda (Fransada, Portuqaliyada, Polşada) ancaq dövlət başçısı olan p. real hakimiyyət səlahiyyətlərinə malikdir ki, bu da ona faktiki olaraq hökumətə başçılıq etmək imkanı verir. Bu sistemdə p., ümumi seçkilərdə seçilir. Prezidentlik modelindən asılı olmayaraq konstitusiyaya görə p. aşağıdakı səlahiyyətlərə malik olur: a) ölkəni beynəlxalq münasibətlərdə təmsil etmək; b) beynəlxalq müqavilələr bağlamaq; c) hökumət üzvlərinin və hakimlərin təyin olunmasında iştirak etmək; ç) qanunları təsdiq və promulqasiya etmək; d) fərmanlar vermək; e) qanunvericilik təşəbbüsü və veto hüququndan istifadə etmək; ə) orden və medallarla təltif etmək, yüksək hərbi rütbələr vermək; f) bağışlamaq hüququnu həyata keçirmək; g) vətəndaşlıq məsələlərini həll etmək; ğ) diplomatik missiyaların başçılarını təyin etmək və geri çağırmaq. P. müəyyən hallarda parlamenti buraxmaq və vaxtından əvvəl seçkilər təyin etmək hüququna da malikdir.

Bir sıra ictimai və elmi idarələrin (məsələn, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti), şirkət və assosiasiyaların seçkili rəhbəri, başçısı da prezident adlandırılır.

**Prezident idarəçiliyi** *(bax: federal müdaxilə).*

**Prezident immuniteti** – dövlət başçısı kimi prezidentin toxunulmazlığı; öz postunda olduğu zaman prezidentin həbs edilə bilməməsi, saxlanmaması (tutulmaması), məhkəmə məsuliyyətinə cəlb edilməməsi (edilə bilməməsi) deməkdir. P.i. ancaq prezidentin konstitusiya ilə nəzərdə tutulmuş xüsusi qaydada (impiçment qaydasında) öz vəzifəsindən kənarlaşdırıldığı halda onun üzərindən götürülür. Bundan sonra prezident adi qaydada (ABŞ-da, Braziliyada, Venesuelada) məhkəmə təqibinə məruz qalır, yaxud onun təqibi həmişəlik olaraq (Çexiyada) istisna edilir. Fransada





və bir sıra başqa ölkələrdə parlamentin qərarı ilə ancaq dövlətə xəyanət etdiyi halda xüsusi məhkəməyə verilə bilər.

**Prezidentlik** – **1)** prezident vəzifəsi; **2)** prezidentin fəaliyyət göstərdiyi dövr.

**Prezidentli respublika** – respublika idarəçilik formasının bir növü; bir qayda olaraq, xalq tərəfindən seçilmiş prezidentin hüquqi və faktiki cəhətdən dövlətin və icra hakimiyyətinin başçısı olması ilə səciyyələndirilir. Dünya dövlətləri içərisində p.r.-nın bir neçə modeli mövcuddur. Klassik modelə (ABŞ-ın nümunəsində) görə, prezident parlamentin yuxarı palatasının (senatın) razılığı ilə administrasiyanı formalaşdırır, onun üzvləri isə ancaq prezident qarşısında siyasi məsuliyyət daşıyırlar. O, parlamenti buraxa, parlament isə prezidenti impiçment qaydasında vəzifədən kənarlaşdıra bilər. Latın Amerikasının p.r.-ları üçün prezidentin tam sərbəstliyi səciyyəvidir. Məsələn, o, administrasiya üzvlərini azad surətdə təyin və vəzifədən kənar edir. Lakin Kosta-Rikada və Uruqvayda prezidentin kabinet üzvləri parlament qarşısında məsuliyyət daşıyırlar. Şərq yarımkürəsinin p.r.-ları üçün (Zambiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Belarus) icra hakimiyyətinin ələhiddə kollegial orqanı - prezident tərəfindən başçılıq edilən hökumətin, habelə baş nazir postunun olması səciyyəvidir.

**Prezidentura** – hər hansı şəxsin prezident postunda səlahiyyət müddəti, habelə onun fəaliyyət göstərdiyi dövr.

**Prezumpsiya** *(lat. praesumptio)* – hələ əksinin sübut olunmadığı etibarlı hesab edilən ehtimal. Hüquqda bir neçə p. mövcuddur: a) müəlliflik prezumpsiyası; b) mülki hüquqda borclunun təqsir prezumpsiyası; c) cinayət hüququnda təqsirsizlik prezumpsiyası.

**Prikazlar** – XVI-XVIII yüzilliklərdə Rusiyada mərkəzi idarəçilik orqanları. Bilavasitə çara və Boyar dumasına tabe idilər. XVII yüzilliyin ortalarında Rusiyada təxminən 80 prikaz mövcud olmuşdur. Mürəkkəb və bürokratik idarəetmə aparatı olan p.-ın səlahiyyətləri çox geniş olmuşdur, lakin onun dairəsi dəqiq müəyyənləşdirilməmişdir. P. mütləq monarxiyanın formalaşması ilə əlaqədar ləğv edilmişlər və onları 1719-cu ildə kollegiyalar əvəz etmişdir.

**Prima** – Veksel tədavülündə köçürmə vekselinin birinci nüsxəsi. P.-da aşağıdakı məzmunda qeyd-şərt edilir: "Əgər ikinci və üçüncü nüsxə üzrə ödəniş aparılmamışdırsa, bu birinci nüsxə üzrə ödəyin". Hər bir nüsxədə onun hansı hesab üzrə aparılması işarə edilir: birinci – "P", ikinci –"sekunda", üçüncü –"tersiya".

**Prinseps** *(lat. princeps – birinci)* – Romada respublika dövründə senatın siyahısında birinci olan və birinci olaraq səs verən senatorların adı. P. imperiya dövründə imperatorun titulu olmuşdur. P. adı dövlət-hüquqi əhəmiyyət daşımışdır. İmperatorun hakimiyyəti, hər şeydən əvvəl, ona səlahiyyətlər verən xalq tribununun hakimiyyətinə əsaslanırdı. P. imperiyanın prokonsulu və Romanın bütün qoşununun ali komandanı idi; orta əsrlərdə, eləcə də yeni dövrdə o hakim nəslin üzvü olan şahzadə kimi tanınır.

**Prinsipat** *(lat. principatus)* – Qədim Romada imperiyanın ilk dövründə monarxiyanın spesifik formasını əks etdirən, ifadə edən şərti termin. P. sistemi imperator Avqustun haki-

miyyəti dövründə formalaşmağa başlamışdır. Avqust və onun xələfləri senatda prinseps (birinci şəxs) hesab olunurdular. Respublika quruluşu, yeni senat, xalq yığıncağı formal qorunub saxlansa da, əslində bütün hakimiyyət prinsepsin əlində cəmləşmişdi.

**Prinsipial** – əqddə öz hesabına iştirak edən şəxs; başqa şəxsi agent qismində fəaliyyət göstərməyə müvəkkil edən şəxs.

**Priorat** *(ita. priorato)* – hakimiyyətin popolanların əlində olduğu Mərkəzi İtaliyanın bəzi orta əsrlər şəhər kommunalarında (məsələn, Florensiyada, Aressoda, Volterredə və başqalarında) şəhər idarəçiliyi orqanı; sinyorluq da adlanırdı.

**Pristav** – nəzarətçi, vəzifəli şəxs. XVIII yüzilliyədək Rusiyada cavabdehləri və şahidləri məhkəməyə çağırmaq vəzifəsi də p.-a həvalə edilmişdi. 1864-cü il məhkəmə islahatı ilə məhkəmə p. vəzifəsi də təsis edilmişdi. Polis p.-ı və xüsusi p. 3 vəzifələri də mövcud olmuşdur. Şimali Azərbaycanın Rusiya tərəfindən ilhaq edilməsindən sonra Azərbaycanda da p. vəzifəsi postu tətbiq edilmişdir.

**Priz hüququ** – döyüşən dövlətlər tərəfindən düşmənin və bitərəf ölkələrin dənizdə üzən ticarət gəmilərinin tutulması qaydalarını və əsaslarını tənzim edən beynəlxalq hüquq normalarının məcmusu. Düşmənin ticarət gəmisi və onda olan əmlak priz adlanır. Bitərəf ölkələrin ticarət gəmilərinin və onlardakı mülkiyyətin qaçaqmaldan ibarət olduğu və ya düşmənə xidmət göstərdiyi halda da gəmi və ondakı əmlak priz hesab olunur. P.h. əsasında ələ keçirilən əmlak, onu ələ keçirən dövlətin mülkiyyəti, gəminin şəxsi heyəti isə hərbi əsirlər hesab olunurlar. Elmi-tədqiqat gəmiləri və səyyar xəstəxana gəmiləri istisnalıq təşkil edirlər.

**Priz məhkəməsi** *(beynəlxalq hüquqda)* – silahlı münaqişə dövründə döyüşən dövlətlərin ticarət gəmilərinin tutulmasının qanuniliyinə baxılması üçün yaradılan xüsusi məhkəmə orqanı. P.m.-ləri milli məhkəmə orqanlarıdır. Beynəlxalq hüquq normaları ilə nəzərdə tutulmadığına görə döyüşən dövlət belə məhkəmələri öz mülahizələri əsasında təşkil edirlər. P.m.-ləri 2 instansiyadan – liman instansiyasından və yüksək instansiyadan ibarət ola bilərlər. Bəzi ölkələrdə (Böyük Britaniyada, ABŞ-da) p.m. baxışı fəaliyyətdə olan və müharibə dövründə priz səlahiyyətlərinə malik məhkəmə orqanları tərəfindən həyata keçirilir. Digər ölkələrdə (məsələn, Fransada) priz yurisdiksiyası inzibati məhkəmə orqanları tərəfindən həyata keçirilir. Beynəlxalq p.m. yaratmaq səyləri baş tutmamışdır. 1907-ci il Haaqa konfransında beynəlxalq priz palatası yaradılması haqqında hazırlanmış konvensiya qüvvəyə minməmişdir.

**Probasiya** *(lat. probatio – sınaq)* – bir sıra ölkələrdə təqsirkarın şərti məhkum olunması. Böyük Britaniyanın və ABŞ-ın cinayət qanunvericiliyində cəza növü kimi tətbiq edilir. P. zamanı məhkum olunmuş şəxs məhkəmə tərəfindən müəyyən edilən müəyyən sınaq müddəti keçir, ona xüsusi orqanlar tərəfindən nəzarət edilir. Bir sıra əlavə məhdudiyyətlər (müəyyən yerlərə getməmək, müəyyən şəxslərlə ünsiyyətdə olmamaq və i.a.) də mümkündür.

**Prodüser** *(ing. producer, producer sözündən – istehsal edirəm, yaradıram)* – dövlətlərin kinematoqrafiyasında (kino şirkətlərində) kino şirkətinin filmin çəkilişinə ideya-bədii və təşkilati-maliyyə cəhətdən nəzarət edən etibarlı nümayəndə. Bəzi məşhur kino ulduzları, ssenaristlər, o cümlədən rejissorlar da p. kimi fəaliyyət göstərirlər.





**Professor** – Azərbaycan Respublikasının ali məktəblərində elmi rütbə; elmlər doktoru alimlik dərəcəsi aldıqdan sonra verilir. P. elmi rütbəsi adətən ali təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan, elmin müvafiq sahəsində elmi tədqiqatlar aparan və elmi-metodiki işlərlə məşğul olan elmlər doktorlarına (müstəsna hallarda elmlər namizədlərinə) verilir.

**Profilaktik fəaliyyət** – **1)** müstəntiqin cinayətlərin qarşısının alınması üzrə həm prosessual, həm də qeyri-prosessual formada həyata keçirdiyi fəaliyyət. Müstəntiqin prosessual formada həyata keçirdiyi p.f. konkret cinayətin istintaqı zamanı onun törədilməsi (baş verməsi) səbəblərini və şəraitini müəyyən etməkdən və onların aradan qaldırılması üçün təqdim qəbul etməkdən ibarətdir. Qeyri-prosessual forma əsasən cinayətlərin qarşısını almaqla əlaqədar ictimaiyyətlə qarşılıqlı əlaqələrin qurulmasında təzahür edir; **2)** ekspertizaların aparılması zamanı ekspertin cinayətin baş verməsinə səbəb olmuş halların tədqiqi ilə əlaqədar fəaliyyəti.

**Profiloqrafiya** *(kriminalistikada)* – trasologiyada profiloqrafların (profilometrlərin) köməyi ilə izlərin mikroqeyri-bərabər səthinin relyef təsvirinin (profiloqramlarının) əldə edilməsi metodu. Eyni vaxtda izlərin səthinin kəmiyyət və keyfiyyət xarakteristikasını qiymətləndirməyə imkan verir.

**Profisit büdcə** – büdcə mədaxillərinin onun məxaricləri üzərində artırılması.

**Proxiron** *(yun. procheiros – əl altında olan)* – Bizansda mülki hüquqların, cinayət və qismən də məhkəmə, habelə kilsə hüququnun (kanonik hüququn) bəzi əsas qaydalarının sistemləşdirilməsi. P. imperator I Vasilinin əmri ilə 879-cu ildə həyata keçirilmişdir. P. rəsmi qanunlar külliyyatı olmayıb, hakimlər üçün icbari göstərişlərdən ibarət olmuşdur.

**Prokonsul** *(lat. proconsul, pro – yerinə + consul – konsul)* – Qədim Romada dövlət vəzifəsi. P. vəzifəsi əsasən bir il müddətinə müəyyən edilirdi. P. əvvəllər Romadan kənarda hərbi tapşırıqları yerinə yetirirdi. Əyalətlərin yaradılması ilə ali hüquqi, inzibati və hərbi hakimiyyəti də p. həyata keçirmişdir.

**Prokurator** *(lat. procurator, hərfən himayəçi)* – **1)** Qədim Romada evin təsərrüfat müdiri, habelə Roma vətəndaşının məhkəmə və ticarət işləri üzrə etibarlı (bir qayda olaraq, azadlığa buraxılmış qullardan təyin edilirdi) adamı; **2)** Romada imperiya dövründə iri təsərrüfatların (malikanələrin) müdiri, əyalət rəisi, vergi toplayanlar, maliyyə və təsərrüfat idarələrinin başçısı.

**Prokurist** *(lat. procurare – kiminsə adından nəyisə idarə etmək)* – bəzi dövlətlərdə ticarət müəssisəsinin hər cür əqdləri bağlamaq sahəsində geniş səlahiyyətlərə malik olan etibarlı nümayəndə (prokuror).

**Prokuror** *(lat. procurare – qayğısına qalmaq)* – prokurorluq orqanlarının vəzi fəli şəxsi. P. məhkəmədə dövlət ittihamçısı funksiyasını yerinə yetirməklə dövlət ittihamını müdafiə edir. Cinayət işləri üzrə mühakimə icraatında prokurorun səlahiyyətini yalnız qanunla müəyyən edilmiş qaydada təyin edilən prokurorlar, onların

müavinləri və köməkçiləri həyata keçirirlər. AP CPM-in 84.1-ci maddəsinə uyğun olaraq cinayət təqibini həyata keçirərkən prokuror cinayət işinin bütün hallarının tədqiqi nəticəsinə əsaslanaraq yalnız qanunun tələblərini və daxili inamını rəhbər tutur. P. seçkili və digər dövlət hakimiyyəti, eləcə də yerli özünüidarə orqanlarının, ictimai birliklərin, habelə siyasi məqsədlər güdən siyasi hərəkatların üzvü ola və onların fəaliyyətində iştirak edə bilməz.

P. ali hüquq təhsilli, seçkilərdə iştirak etmək hüququna, prokuror vəzifələrinin yerinə yetirilməsi üçün zəruri peşə keyfiyyətlərinə malik Azərbaycan Respublikasının vətəndaşları ola bilər. P. vəzifəsinə prokurorluq orqanlarında ən azı 5 il iş stajı olan şəxs təyin edilə bilər.

**Prokurorluq** *(lat. procurare – qayğısına qalıram, idarə edirəm)* – cinayət işi başlamaq, ittihamı müdafiə etmək, məhkəmə prosesində dövlətin mənafelərini qorumaq səlahiyyətlərinə malik olan xüsusi dövlət orqanı (orqanlar sistemi). P. ilk dəfə XIV yüzillikdə Fransada yaradılmışdır. Azərbaycanda 1920-ci ildə təşkil edilmişdir.

Dünya ölkələrinin bir qismində p. məhkəmənin tərkib hissəsi kimi fəaliyyət göstərir. Bir sıra dövlətlərdə isə o, təşkilati cəhətdən məhkəmədən ayrılmış orqandır. P. bəzi ölkələrdə (məsələn, ABŞ-da, Fransada, Niderlandda, Avstriyada, Yaponiya və Polşada) Ədliyyə Nazirliyinin sisteminə daxildir.

"Prokurorluq haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli qanununun 2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının Baş prokurorun tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

**"Prokurorluq haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında prokurorluğun sistemini və təşkili qaydalarını müəyyənləşdirən, prokurorluq orqanlarının fəaliyyət istiqamətlərini nəzərdə tutan, prokurorluq orqanları işçilərinin hüquqi və sosial müdafiəsi ilə əlaqədar münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 7 dekabr 1999-cu il tarixdə qəbul olunmuş, bir sıra ona əlavə və dəyişikliklər edilmişdir. Qanun səkkiz fəsil və 45 maddədən ibarətdir.

**Proletarlar** *(lat. proletarii – nəsil)* – **1)** Qədim Romada Servi Tulinin adına çıxılan islahata görə əmlak senzinə malik olmayan vətəndaşlar. Son respublika və imperiya dövründə cəmiyyətin siniflərə daxil olmayan təbəqələri, dövlətin və varlıların hesabına yaşayanlar (lümpen proletarlar); **2)** burjua cəmiyyətində fəhlə sinfinə verilən ad.

**Prolonqasiya** *(lat. prolongatio – uzadıram)* – **1)** beynəlxalq hüquqda müqavilə müddətinin uzadılması. P. 3 yolla – müqavilənin özündə nəzərdə tutulması, xüsusi bəyanat verilməsi və ya saziş bağlanması yolu ilə həyata keçirilir; **2)** bank tərəfindən idarə, müəssisə və təşkilatlara verilən borcların ödənilməsi müddətinin uzadılması.

**Promessa** – **1)** udmuş lotereya bileti istiqrazı sahibinin müəyyən mükafat müqabilində uduşu digər şəxsə (əgər o, yaxın tirajda həmin istiqraza düşürsə) güzəştə getməsini əks etdirən sənəd; **2)** istiqraz satıcısının onu dəyişdirmək öhdəliyi.





**Promulqasiya** *(lat. promulgatio – açıq elan etmə, bildirmə)* – bir sıra xarici dövlətlərin konstitusiya hüququnda parlamentin qəbul etdiyi hər hansı qanunun rəsmən elan edilməsi. P. qanun layihəsinin dövlət başçısı tərəfindən konstitusiyada müəyyən edilmiş qaydada və müddətdə (adi, yaxud qısaldılmış müddətdə) sanksiyalaşdırılması, habelə qanunun rəsmi surətdə dərc edilməsindən ibarətdir. Qanun yalnız p.-dan sonra məcburi qüvvə alır. Bir sıra ölkələrdə bütün hüquqi aktların p.-sını dövlət başçısı həyata keçirir.

**Proniya** *(yun. pronoia – himayə)* – bizans hüququnda müəyyən ərazilərdən alınmış dövlət vergilərinin ömürlük bəxşiş verilməsi; X-XI yüzilliklərdən məlumdur. XIII yüzillikdən başlayaraq torpaq sahələri (o cümlədən irsi torpaqlar) p. kimi bəxşiş verilmişdir. P. müəyyən cəhətlərinə görə Qərbi Avropada mövcud olmuş benefisi ilə oxşarlığa malikdir. P. institutu XIV yüzillikdə Serbiya və bir sıra digər cənubi slavyan əyalətləri tərəfindən əxz edilmişdir.

**Prorektor** - rektorun müavini; ali təhsil müəssisələrində adətən elmi işlər, tədris hissəsi və təsərrüfat işləri üzrə p. vəzifəsi olur.

**Proroqasiya** – **1)** dövlət başçısının (respublika prezidentinin və ya monarxın) qərarı ilə parlamentin iclaslarının təxirə salınması; **2)** beynəlxalq hüquqda məhkəmə aidiyyətinin müqaviləli tərifi.

**Proroqasiya sazişləri** – beynəlxalq ticarət təcrübəsində məhkəmə aidiyyətini, yəni xarici ticarət əqdləri üzrə mübahisələrin hansı ölkə məhkəməsinin (arbitraj, yaxud münsiflər məhkəməsinin) həll etməyə səlahiyyətli olduğunu müəyyən edən sazişlər.

**Proses** *(lat. processus – irəli çəkmə, irəliləyiş)* – məhkəmədə və ya inzibati orqanlarda işlərə baxılması qaydası; mühakimə icraatı; məhkəmə işi *(həmçinin bax: mülki proses; cinayət prosesi).*

**Prosessual forma** – cinayət işlərində və mülki işlərdə istintaq və məhkəmə hərəkətlərinin həyata keçirilməsi, qərarların qəbul edilməsi, proses iştirakçılarının qarşılıqlı münasibətlərinin qanunla müəyyən edilmiş forması. P.f mühakimə icraatının demokratik prinsiplərinə əsaslanır və eyni zamanda da onların həyata keçirilməsi formasıdır.

**Prosessual hüquq** – cinayətlərin istintaqı, cinayət işlərinə, mülki işlərə və təsərrüfat (iqtisadi işlərə) işlərinə baxılması və onların həll edilməsi, habelə inzibati hüquq pozuntuları və konstitusiya mühakimə icraatı qaydasında baxılmalı olan işlərə baxılması və onların həlli prosesində yaranan münasibətləri tənzimləyən hüquq sistemi normalarının bir hissəsi. P.h. maddi hüquqla sıx və qırılmaz surətdə bağlıdır. Prosessual qanunvericilik qanunçuluq prinsipi əsasında ədalət mühakiməsinin həyata keçirilməsi üçün zəruri olan formaları nəzərdə tutur, habelə onun demokratik qaydada aparılmasını təmin edir.

**Prosessual hüquq varisliyi** – mülki prosesdə tərəf olan bir şəxsin digəri ilə əvəz olunması. AP MPM-in 58-ci maddəsinə uyğun olaraq mübahisə edilən hüquq münasibətlərində və ya qətnamə ilə müəyyən edilən hüquq münasibətində tərəflərdən biri sıradan çıxdıqda (şəxs öldükdə, hüquqi şəxs yenidən təşkil edildikdə, tələb güzəşt edildikdə, borc köçürüldükdə və maddi hüquq münasibətlərində şəxslərin dəyişməsinin digər hallarında) məhkə-

mə həmin tərəfi onun hüquq varisi ilə əvəz etməyə yol verir. Hüquq varisliyi prosesin hər bir mərhələsində mümkündür. Hüquq varisi prosesə daxil olanadək prosesdə edilmiş bütün hərəkətlər onun əvəz etdiyi şəxs üçün məcburi olduğu kimi hüquqi varisi üçün də məcburidir.

**Prosessual iştirakçılıq** – **1)** cinayət prosesində iki və ya daha çox şəxsin eyni cinayətə görə təqsirləndirilən şəxs qismində iştirak etməsi. Cinayət prosesində təqsirləndirilən şəxslər cinayətdə iştirakçılıqda, cinayəti qabaqcadan vəd etmədən gizlətməkdə və ya xəbər verməməkdə ittiham edildikdə və bəzi başqa hallarda eyni əməli törətdiklərinə görə iştirak edirlər. Təqsirləndirilən şəxslərin hamısı eyni hüquqlara malik olur; **2)** mülki prosesdə iki və ya daha çox iddiaçının, yaxud iki və ya daha çox cavabdehin bir mülki işdə iştirakı. Məcburi prosessual iştirakçılıq və fakultativ iştirakçılıq mövcuddur. Məcburi prosessual iştirakçılıq bir neçə iddiaçının, yaxud bir iddiaçının bir neçə cavabdehə qarşı tələbinin predmeti eyni olduqda baş verir. Fakultativ prosessual iştirakçılığı isə məhkəmə müəyyən edir.

**Prosessual müddətlər** – qanunla nəzərdə tutulan və ya məhkəmə (hakimlər) tərəfindən ayrı-ayrı prosessual hərəkətlərin yerinə yetirilməsi, yaxud hərəkətlər məcmusunun başa çatdırılması üçün təyin edilən müddətlər. Konkret prosessual müddətlərin ünvanlandığı subyektlərdən asılı olaraq, onları aşağıdakı üç qrupa bölmək olar: 1) məhkəmənin (hakimlərin) özü tərəfindən edilən hərəkətlər üçün təyin edilən müddətlər; 2) cinayət prosesinin iştirakçıları (mülki prosesin tərəfləri üçün təyin edilən müddətlər; 3) məhkəmənin (hakimin) göstərişlərini yerinə yetirməyə borclu olan digər şəxslər üçün təyin edilən müddətlər.

**Prosessual təminatlar** – mühakimə icraatının lazımi qaydada həyata keçirilməsini təmin etmək üçün qanunla müəyyən edilmiş hüquqi vasitələr. P.t. sisteminə demokratik prinsiplər institutlarının prosessual forma və hüquq münasibətləri kompleksi, mühakimə icraatı qaydası daxildir. Mühakimə icraatında iştirak edən vətəndaşların (şübhə edilən şəxsin, zərər çəkmiş şəxsin, mülki iddiaçının, mülki cavabdehin və i.a.) hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün bir çox vasitələr mövcuddur. Təqsirləndirilən şəxs nədə ittiham olunduğunu, şübhə edilən şəxs nədə şübhəli olduğunu bilməyə, ifadə verməyə, sübutlar təqdim etməyə, müstəntiqin, prokurorun və məhkəmənin hərəkətlərindən və qərarlarından şikayət verməyə haqlıdır.

**Proskripsiya** *(lat. proscriptio, hərfən yazılı elanetmə)* – Qədim Romada qanundankənar elan olunan şəxslərin siyahısı. Siyahıya daxil edilmiş şəxsin tutulub verilməsi və öldürülməsi üçün mükafat, gizlədilməsi üçün isə edam təyin edilirdi. P.-ya məruz qalan əmlak müsadirə olunur, şəxsin nəsli isə fəxri hüquqlardan məhrum edilirdi. P. eramızdan əvvəl I yüzillikdə – respublikanın sonuna doğru meydana gəlmişdi və siyasi rəqiblər, varlanma əleyhinə kütləvi terror kimi diktatorlar tərəfindən geniş tətbiq edilmişdir.

**Proteksionizm** – dövlətin milli iqtisadiyyatı xarici rəqabətdən müdafiə etməyə yönələn iqtisadi və hüquqi siyasəti. Vətən sənayesinin maliyyə cəhətdən mükafatlandırılması, eksportun stimullaşdırılması və importun məhdudlaşdırılması vasitəsilə realizə olunur.





**Protektor** *(lat. protector)* – **1)** himayəçi, müdafiəçi; **2)** protektoratı həyata keçirən dövlət.

**Protektorat** *(lat. protector – himayəçi)* – müstəmləkə asılılığı forması. P. şəraitində bir dövlət xüsusi beynəlxalq müqavilə ilə digər dövlətə onu xarici əlaqələrdə təmsil etmək hüququ verir. Eyni zamanda himayəyə götürülən dövlətə daxili işlər üzrə müşavir, yaxud rəhbər (prezident) göndərilir. P. bəzən birtərəfli aktla da müəyyən edilir. Belə ki, Böyük Britaniya 1914-cü ildə birtərəfli bəyannamə ilə 1882-ci ildə işğal etdiyi Misir üzərində, 1939-cu ildə Hitler Almaniyası Çexiya və Moraviya üzərində p. müəyyən etmişdi. P. BMT Nizamnaməsində təsbit edilmiş və hamılıqla tanınan (qəbul edilən) prinsiplərin pozulması deməkdir.

**Protest** *(lat. protestor – açıq-aşkar etiraz edirəm)* – etiraz. P. hüquqda qanunlara riayət edilməsinə nəzarətin həyata keçirilməsi formalarından biridir. Məhkəmə nəzarəti qaydasında protest qanuni qüvvəyə minmiş məhkəmə hökmlərinin, qərar və qətnamələrinin ləğv edilməsi, yaxud onların dəyişdirilməsi barədə qanunla müəyyən edilmiş səlahiyyətli şəxslərin müvafiq məhkəmə orqanlarına təqdim etdikləri etirazdır. Kassasiya protesti birinci instansiya məhkəmələrinin qanuni qüvvəyə minməmiş hökm və qətnamələrindən qanunla müəyyən edilmiş müddətdə prokurorun müvafiq yuxarı məhkəmə orqanına təqdim etdiyi etirazdır. Xüsusi protest birinci instansiya məhkəmələrinin cinayət işləri və mülki işlər üzrə ayrı-ayrı məsələlər haqqında qəbul etdiyi qərarlardan prokurorun yuxarı məhkəmə orqanına təqdim etdiyi yazılı etirazdır.

**Protestant** – tələbi ilə vekseldən protest verilən şəxs.

**Protestat** – hərəkətləri vekseldən verilən protestlə təsdiq edilən şəxs.

**Protokol** *(fr. protocole – manuskriptin birinci vərəqəsi)* – **1)** hər hansı faktiki halların (iclasın, prosessual hərəkətlərin və ya istintaq hərəkətlərinin, məhkəmə iclasının) qeyd edildiyi rəsmi sənəd; **2)** beynəlxalq hüquqda – beynəlxalq müqaviləyə əlavə edilən və onu dəqiqləşdirən (hər şeydən əvvəl, əsas müqaviləyə edilən əlavədən ibarət olur) rəsmi sənəd. Az əhəmiyyətli məsələlər üzrə müqavilə və konvensiyalarda həll edilməli olan ayrı-ayrı beynəlxalq sazişlər də p. adlandırıla bilər. Lakin bəzi mühüm siyasi saziş də p. adlandırılır. Məsələn, müharibədə boğucu, zəhərləyici və ya digər bu kimi qazların və bakterioloji vasitələrin tətbiqinin qadağan edilməsi haqqında 1925-ci il Cenevrə protokolu buna nümunə ola bilər.

**Protokollar** *(yun. protokollon – muniskriptə yapışdırılan birinci vərəqə)* – **1)** rəsmi sənəd (inzibati xəta faktı ilə əlaqədar tərtib edilmiş protokol; istintaq hərəkətinin gedişini və nəticələrini əks etdirən istintaq hərəkəti protokolu; məhkəmə baxışının gedişi və məzmunu haqqında məhkəmənin iclas protokolu). Protokolun əsas rekvizitləri və onun tərtib edilməsi qaydası qanunvericiliklə müəyyən edilir; **2)** diplomatik protokol – hökumətlərin, xarici işlər nazirliklərinin, diplomatik nümayəndələrin, diplomatik işçilərin və digər rəsmi şəxslərin beynəlxalq əlaqələrdə riayət etdikləri qayda, ənənə və şərtlərin məcmusu; **3)** iclasda, yığıncaqda və müşavirədə baş verən hadisələrin qeydiyyatından ibarət olan sənəd.

**Provizor** *(lat. provisor – hazırlayan)* – əczaçılıq institutunu bitirən şəxsə verilən

(verilməli olan) rütbə; həmin rütbə məzuna apteki idarə etmək hüququ verir (ali əczaçılıq təhsilli aptek işçisi).

**Prussiya Zem Məcəlləsi (Prussiya Mülki Məcəlləsi)** – Prussiya krallığının yerli hüquq normalarının 1794-cü ildə həyata keçirilmiş məcəlləşdirilməsi. Məcəllənin mənbəyinə Roma hüququ (Yustinian Külliyyatı), "Sakson aynası", Maqdeburq hüquqi və təbii hüquq məktəbi nümayəndələrinin (Volfun və Qrotsinin) görüşləri xidmət etmişdir. Məcəllədə burjua xüsusi hüquq normaları ilə yanaşı, kral mütləqiyyəti, polis rejimi, kənddə təhkimçilik hüquq münasibətləri və zadəganların imtiyazları da təsbit edilirdi.

**Psixi anomaliya** – norma ilə psixi xəstəlik arasında sərhədli psixi vəziyyət; prosessual qanunvericilikdə "psixi çatışmazlıq" adlandırılır. P.a. ruhi fəaliyyətin, kəmağıllığın müvəqqəti pozğunluğudur. Debillik, psixopatiya, xroniki alkoqolizm, epilepsiya, müxtəlif reaktiv vəziyyətlər, psixofiziki infantilizm p.a.-ya aid edilir.

**Psixiatriya** *(psixi... və yun. iatreia – müalicə)* – kliniki təbabət sahəsi; psixi xəstəliklərin təzahürlərini, səbəbləri və inkişaf mexanizmlərini öyrənir, onların müalicə edilmə metodlarını işləyib hazırlayır. Xəstəliyin müəyyən edilməsində məhkəmə psixiatriya ekspertizası aparılır.

**Psixi pozğunluq** – ruhi fəaliyyətin müvəqqəti pozğunluğu; kəmağıllıq (psixi xəstəlik). P.p.-un olması tibbi kriteriyadır və hüquqi kriteriya ilə yanaşı (öz hərəkətlərinin mənasını dərk etməmək və ya öz hərəkətlərinə rəhbərlik etmək iqtidarında olmamaq) şəxsin anlaqsız vəziyyətdə olmasını müəyyən edir.

**Psixoloji hüquq məktəbi** – müasir yurisprudensiyada elmi cərəyanlardan, istiqamətlərdən biri; XIX yüzilliyin sonu və XX yüzilliyin əvvəllərində Avropada formalaşmışdır. Q. Tard (Fransa), L. Knapp, A. Birlinq, E. Leninq (Almaniya), Ross, R. Vest, o cümlədən rus hüquqşünasları L.İ. Petrajitski və P.A. Sorokin p.h.m.-nin nümayəndələridirlər. Bu məktəbin nümayəndələri hüququn əmələ gəlməsini və fəaliyyətini cəmiyyətin sosial-iqtisadi həyat şəraiti ilə deyil, şəxsiyyətin (bir qrup şəxsin) psixologiyası ilə əlaqələndirirlər. Onlar hüququ psixoloji vəziyyətlərin, hiss və həyəcanların, emosiyaların və instinktlərin nəticəsi kimi qiymətləndirirlər.

**Psixopatiya** – psixi xəstəliklər qrupu; bu və ya digər xarakterik əlamətlərin çatışmazlığı, yaxud həddindən artıq olması ilə müşahidə olunur. Psixopat antisosial, aqressiv və yüksək dərəcədə impulsiv şəxsiyyət kimi təsəvvür edilir. Belə şəxslər cinayəti əsasən affekt vəziyyətində törədirlər.

**Psixotrop maddələr** – Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə, o cümlədən psixotrop maddələr haqqında 1971-ci il konvensiyasına uyğun olaraq narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısına daxil edilən, Azərbaycan Respublikasının nəzarətində olan sintetik və ya təbii mənşəli vasitələr, preparatlar, təbii materiallar.

**Pskov məhkəmə qramotası** – Pskov Feodal Respublikasının 1467-ci ildə tərtib edilmiş qanunlar külliyyatı; külliyyat Pskov veçesinin ayrı-ayrı qərarları, boyarlar şurasının qərarları, knyaz qramotaları, "Rus pravdası" və adət hüquq normaları əsasında tərtib edilmişdir. P.m.q. 120





maddədən ibarət olmuşdur. "Rus pravdası" ilə müqayisədə mülki hüquq münasibətləri və institutları, öhdəlik və məhkəmə hüququ qramotada daha ətraflı reqlamentləşdirilmişdir. Külliyyatda siyasi cinayətlərə və dövləti cinayətlərə dair normalar da nəzərdə tutulurdu.

**Puanson** *(kriminalistikada)* – ştamplama və ya presləmə (sıxma) məmulatlarının hazırlanması zamanı istifadə olunan ştamp detalı, mexanizmi. Sənədlərin texniki-kriminalistik tədqiqatında eyniləşdirmə məqsədləri üçün istifadə oluna bilər.

**Publikanlar** *(lat. publicani – dövlət əmlakı)* – Qədim Romada hərrac, ticarət və icarə məqsədilə, həmçinin dövlət vergilərini yığmaq və i.a. üçün dövlət əmlakı (torpaq və i.a.) alan şəxslər (adətən süvarilərdən ibarət idilər). İmperiya dövründən başlayaraq p.-ın fəaliyyəti məhdudlaşdırılmış, vergilərin yığılması dövlət məmurlarına tapşırılmışdır.

**Publisi iddiası** – Qədim Romada qüvvədə olmuş vindikasiya iddiasının bir növü. Bu iddia növü pretor Publisi tərəfindən bonitar mülkiyyətin müdafiəsi üçün formalaşdırılmışdır. Publisi iddiasına görə mülkiyyətçi deyil, vicdanlı sahib mülkiyyəti tələb etmək hüququna o vaxt malik olur ki, o, kvirit, sivil hüquqa görə mülkiyyətçi olmuşdur.

**Pul** *(ing. pool)* – hər hansı xüsusi vəzifənin (tapşırığın) həll edilməsi üçün təsərrüfat agentləri arasında bağlanan saziş formalarından biri. Belə saziş zamanı gəlir ümumi fonda daxil olur və p. iştirakçıları tərəfindən əvvəlcədən müəyyən edilmiş kvotalara uyğun olaraq bölüşdürülür.

**Pul akkreditivi** – bank-emitent tərəfindən öz şöbəsinə və ya həmin ölkənin, yaxud xarici dövlətin bankına ünvanlanan adlı sənəd.

**Pul islahatı** – pul dövriyyəsini qaydaya salmaq və möhkəmləndirmək məqsədilə dövlət tərəfindən pul sisteminin tam və ya qismən yenidən təşkili. P.i. müxtəlif formalarda aparılır. Belə formalara valyutaların denominasiyası, köhnə pul vahidinin əvəzinə yeni pul vahidinin (və ya köhnə pul vahidi ilə paralel) tədavülə buraxılması, milli valyutanın devalvasiyası və ya revalvasiyası, ayrı-ayrı pul nişanlarının yeni nümunələrlə əvəz edilməsi və i.a. aid edilir.

**Pul-kredit siyasəti** – pul dövriyyəsi və kredit sahəsində iqtisadi artımın, inflyasiyanın qarşısının alınmasının, məşğulluğunun və ödəmə balansının tarazlığının təmin edilməsinə yönələn tədbirlərin məcmusu. P.-k.s. dövlətin yenidən istehsal prosesinə qarışmasının ən mühüm metodlarından birinə xidmət edir.

**Pul-kredit tənzimlənməsi** – dövlətin iqtisadi proseslərə təsirinin əsas vasitələrindən biri. Azərbaycan Respublikası iqtisadiyyatında p.-k.t. dövlətin milli bankı tərəfindən həyata keçirilir. Göstərilən tənzimləmə qaydasında o, məcburi ehtiyat normalarını, kreditlər üzrə uçot məzənnələrini, kommersiya bankları üçün iqtisadi normativləri müəyyən edir, eləcə də qiymətli kağızlarla əməliyyatlar aparır.

**Pul kütləsi** – dövriyyədə olan pul nişanları; hesablarda hüquqi şəxslərin, vətəndaşların əmanətlərində olan pul vəsaitləri; bankların digər şərtsiz pul öhdəlikləri.

**Pullar** – xüsusi əmtəə, bütün digər əmtəələr üçün ümumi ekvivalent, dəyər forması; Azərbaycan Respublikası qanunvericiliyinə görə banknotlar və sikkələr halında pul nişanları, mülki hüquqların obyektlərindən biri. Mülki hüquqda p. da qiymətli kağızlar kimi cinsi və əvəz edilən əşyaların növlərindən biri hesab olunur. Borcludakı pul nişanlarının məhvi onu kreditora müvafiq məbləği ödəmək öhdəliklərindən azad etmir. P. vicdanlı istehlakçıdan tələb edilə bilməzlər.

**Pul nişanları** – dəyər nişanları; müəyyən saylı qiymətli metalların dövriyyəsində yerləşdirilirlər. P.n. qismində qeyri-qiymətli metallardan (nikeldən, misdən və i.a.) hazırlanan sikkələr, habelə kağız pullar və ya bank biletləri çıxış edirlər.

**Pul nişanlarının saxtalaşdırılması** *(beynəlxalq hüquqda)* – beynəlxalq deliktlərin (cinayətlərin) bir növü. Bu cinayətlə mübarizənin zəruriliyi pul nişanlarını saxtalaşdırma ilə mübarizə haqqında 1929-cu il konvensiyası ilə müəyyən edilmişdir. Konvensiyada nəzərdə tutulur ki, pul nişanlarını saxtalaşdırma cinayətini törətmiş şəxs onların hansı dövlətə məxsus olmasından asılı olmayaraq, cinayət məsuliyyətinə cəlb edilir.

**Pul vahidi** – ölkə pullarının qanunvericiliklə müəyyən edilmiş qaydada adı (manat, marka, lirə və i.a.). P.v. milli pul sisteminin elementi hesab olunur. İstifadənin əlverişli olması üçün p.v. xırda proporsional hissələrə bölünür. Məsələn, 1 manat =100 qəpik və i.a.

**Pul vəsaitləri** – birliklərin, idarə, müəssisə və təşkilatların (o cümlədən büdcə, kredit və sığorta təşkilatlarının) təsərrüfat dövriyyəsində olan və onlar tərəfindən öz məqsədləri üçün istifadə olunan müxtəlif növ gəlirlərin və mədaxillərin bankların hesablarında pul formasında akkumuliasiya edilməsi.

**Pul öhdəliklərinin icrası** – mülki qanunvericiliyə görə öhdəliklərin icrası üsullarından biri. AR MM-in 439.1-ci maddəsinə uyğun olaraq pul öhdəliyi manatla ifadə edilməlidir. Əgər tərəflərdən biri xarici fiziki və ya hüquqi şəxsdirsə, tərəflər pul öhdəliyini, əgər bu, qanunda qadağan edilməyibsə, xarici valyutada da müəyyənləşdirə bilərlər.

Əgər xarici valyutada olan pul öhdəliyi Azərbaycan Respublikasında ödənilməlidirsə, ödənişin xarici valyutada aparılmalı olduğunun şərtləşdirildiyi hallardan başqa, o, manatla ödənilir. Yenidən hesablama ödəniş anında ödəniş yerinin məzənnə qiyməti üzrə aparılır (AR MM-in 439.2-ci maddəsi).

**Pul öhdəlikləri valyutası** – pulun qiymətinə məxsus öhdəliyin dəyərində ifadə olunan (müqavilənin məbləği) valyuta vahidi. Mülki hüquqa görə pul öhdəlikləri pul vahidində (məsələn, manatda) ifadə edilməlidir. Azərbaycan Respublikasının ərazisində xarici valyutadan, habelə xarici valyutada ifadə olunan ödəmə sənədlərindən istifadəyə o halda yol verilir ki, bu qanunla nəzərdə tutulan şərtlərlə müəyyən edilsin.

**Pul öhdəliyi** – öhdəliklərin bir növü; belə öhdəlik sayəsində borclu müəyyən məbləğdə olan pul nişanlarını kreditorun mülkiyyətinə verir.

**Pul sistemi** – ölkədə pul dövriyyəsinin təşkili forması; özündə aşağıdakı elementləri ehtiva edir: a) rəsmi pul vahidini; b) nağd pulların emissiya qaydasını; c) pul





dövriyyəsinin təşkilini və tənzimlənməsini. Azərbaycan Respublikasında rəsmi pul (valyuta) vahidi manatdır. Azərbaycan Respublikasının ərazisində digər pul vahidlərinin tətbiqi və pul surroqatlarının buraxılışı qadağan edilir.

**Pul tədavülü** – pulların nağd və nağdsız formada hərəkəti; malların dövriyyəsinə, həmçinin qeyri-mal ödənişlərinə və hesablaşmalarına xidmət edir. P.t.-nün iki növü mövcuddur. Birincisi, bu, nağd pulların, yəni banknotların və sikkələrin tədavülüdür. Bu halda ödəniş vasitəsi qismində mallar üçün bir subyekt tərəfindən digərinə verilən real pul nişanları çıxış edir. İkincisi, bu, nağdsız pul tədavülüdür. O, bank müəssisələrində müəyyən məbləğin bir subyektin hesabına keçirilməsindən ibarətdir.

**Puritanlar** *(ing. puritans – təmizlik)* – XVI yüzilliyin ikinci yarısı və XVII yüzilliyin birinci yarısında İngiltərə və Şotlandiyada dini və ictimai-siyasi cərəyanın nümayəndələri, kalvinizmin ardıcılları. Feodal-zadəgan əxlaqına qarşı çıxan p. siyasi həyata qədəm qoymuş burjua-respublikaçı təbəqələri təmsil edirdilər. Onların ideyaları siyasi və hüquqi fikrin inkişafına az da olsa, öz təsirini göstərmişdir. P. XVII yüzillikdə İngiltərə burjua inqilabında mühüm rol oynamışlar.

# -R-


Rabitə fəaliyyəti ........ 877
"Rabitə haqqında" ........ 877
Azərbaycan Respublikasının qanunu ........ 877
Rabitə müəssisəsi (operator) ........ 877
Rabitə şəbəkəsi ........ 877
Raca ........ 877
Racutlar ........ 877
Rada ........ 877
Radiasiya qəzası ........ 877
Radiasiya mənbələri ........ 877
Radiasiya təhlükəsizliyi ........ 877
Radioaktiv maddə ........ 878
Radioaktiv materialları talama və ya hədə-qorxu ilə tələb etmə ........ 878
Radioaktiv materiallarla qanunsuz davranma ........ 878
Radioaktiv tullantılar ........ 878
Rahdar ........ 878
Rahdari ........ 878
Rahiblik ........ 878
Rahib ordenləri ........ 878
Ramburs ........ 878
Ramburs krediti ........ 878
Ramburslaşdırma ........ 879
Ranq ........ 879
Rantye ........ 879
Rantye dövlət ........ 879
Raport ........ 879
"Rasionallaşdırılmış parlamentrizm" ........ 879
Ratifikasiya ........ 879
Ratifikasiya edən referendum ........ 879
Ratman ........ 879
Ratnik ........ 879
Rayon ........ 880
Rayon icra hakimiyyəti ........ 880
Reabilitasiya ........ 880
Reaktiv vəziyyət ........ 880
Real əqdlər ........ 880
Real əmtəə birjası ........ 880
Realist hüquq məktəbi ........ 880
Real məcmu ........ 880
Real vergilər ........ 880
Reç Pospolita ........ 881
Redemarkasiya ........ 881
Reduksiya ........ 881
Reeksport mallar ........ 881
Refaksiya ........ 881
Referendum ........ 881
Referendumun keçirilməsini ........ 881
istisna edən hallar ........ 881
Referendumun keçirilməsinin məcburiliyi ........ 881
Referensiya ........ 881
Refleksiya ........ 882
Regent ........ 882
Regentlik ........ 882
Region ........ 882
Regional iqtisadiyyat ........ 882
Regional qiymətlər ........ 882
Regional muxtariyyət ........ 882
Regional nümayəndəlik ........ 883
Regional saziş ........ 883
Regional sazişlər ........ 883
Reimport mallar ........ 883
Reinteqrasiya ........ 883
Reinvestisiya ........ 883
Rejim ........ 884
Rekambio ........ 884
Reket ........ 884
Reklam ........ 884







Reklam agentliyi ........ 884
Reklamasiya ........ 884
Reklam daşıyıcısı ........ 884
"Reklam haqqında" Azərbaycan Respublikasının qanunu ........ 884
Reklam istehlakçısı ........ 884
Reklam materialı ........ 884
Reklam sifarişçisi ........ 885
Reklam yayıcısı ........ 885
Rekonversiya ........ 885
Rekreditiv ........ 885
Rekrut ........ 885
Rekrut mükəlləfiyyəti ........ 885
Reks ........ 885
Rektor ........ 885
Rekto-veksel ........ 885
Rekuperatorlar ........ 885
Rekvirent ........ 885
Rekvizisiya ........ 885
Rekvizitlər ........ 886
Reqali ........ 886
Reqlament ........886
Reqlamentar hakimiyyət ........ 886
Reqres hüququn yolverilməzliyi ........ 886
Reqres iddia (əks tələb) ........ 886
Reqressant (reqrediyent) ........ 886
Reqressat ........ 886
Reqressiv vergi qoyma ........ 887
Releqasiya ........ 887
Remedium ........ 887
Reminissensiya ........ 887
Remissiya ........ 887
Remitent ........ 887
Remitləşdirmə ........ 887
Remiz ........ 887
Renc ........ 887
Renta ........ 887
Renta istiqrazı ........ 887
Renta müqaviləsi ........ 887
Rentinq ........887
Reparasiya ........ 888
Repatriant ........ 888
Repatriasiya ........ 888
Replikalar ........ 888
Report ........ 888
Report əqdi ........ 888
Repressali ........ 888
Repressiyalar ........ 888
Resepissa ........ 888
Resepsiya ........ 888
Residiv cinayətkarlıq ........ 888
Residiv cinayətlər ........ 888
Residivə görə cəzanın təyin edilməsi ........ 889
Residivist ........ 889
Resipiyent ........ 889
Res kommunis ........ 889
Reskript ........ 890
Res nullius ........ 890
Respublika ........ 890
Restantlar ........ 890
Restitusiya ........ 890
Retorsiya ........ 891
Retragent ........ 891
Retratta ........ 891
Retrfəallıq ........ 891
Retrosedent ........ 891
Retrosession müqavilə ........ 891
Retrosessiya ........ 891
Revalvasiya ........ 891
Revanş ........ 891
Revanşizm ........ 891
Revers ........891
Reversiya ........891
Revokasiya ........ 891
Revolver krediti ........ 892
Reyestr ........ 892
Reyxsbank ........ 892
Reyxskansler ........ 892
Reyxsmarka ........ 892
892Reyxstaq ........ 892
Reytar ........ 892
Rezervasiya (rezervatlar) ........ 892
Rezident ........ 892
Rezidentlik ........ 893
Rəcm ........ 893

Rəisə qarşı zorakı hərəkətlər etmə ......... 893
Rəiyyət ......... 893
Rəiyyətvari ......... 893
Rəncbər ......... 893
Rəsmi dil ......... 894
Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə ......... 894
Rəsmi sənədləri, ştampları, möhürləri oğurlama və ya məhv etmə ......... 894
Rəsmi təfsir ......... 894
Rəy ......... 894
Rielter ......... 894
Rielter fəaliyyət ......... 894
Riksdaq ......... 894
Riqsdaq ......... 895
Rimessa ......... 895
Risk ......... 895
Ristorno (ritorno) ......... 895
Roba ......... 895
Robberi ......... 895
Rodos dəniz qanunu ......... 895
Roll-over krediti ......... 895
Roman-german hüquq sistemi ......... 895
Roma-holland hüququ ......... 895
Roma hüququ ......... 896
Roma hüququnun resepsiyası ......... 896
Roma kuriyası ......... 896
Roma müttəfiqləri (socii) ......... 896
Rota ......... 896
Rotasiya prinsipi ......... 896
Rotmistr ......... 897
Royalistlər ......... 897
Royalti ......... 897
Ruhi həyəcan (güclü rühi həyəcan vəziyyəti) ......... 897
Ruhi xəstəlik (psixi xəstəlik) ......... 897
"Rus qanunu" ......... 897
"Rus pravdası" ......... 898
Rüsum ......... 898
Rüsumlar ......... 898
Rüsumsuz ticarət mağazası ......... 898
Rüşvət ......... 898
Rüşvət alma ......... 898
Rüşvətxorluq ......... 898
Rüşvət vermə ......... 898
Ryadoviçlər ......... 898







**Rabitə fəaliyyəti** – rabitə istifadəçilərinə rabitə xidməti göstərilməsi və bu məqsədlə müvafiq rabitə vasitələri və şəbəkələrinin yaradılması, qurulması, habelə istismarı ilə əlaqədar digər hərəkətlərin məcmusu.

**"Rabitə haqqında" Azərbaycan Respublikasının qanunu** - Azərbaycan Respublikasında rabitə fəaliyyəti ilə əlaqədar rabitə fəaliyyətinin təşkilati, iqtisadi və hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 20 iyun 1997-ci il tarixdə qəbul olunmuş, ona bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanun səkkiz fəsil və 42 maddədən ibarətdir.

**Rabitə müəssisəsi (operator)** – təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq elektrik və poçt rabitəsi xidmətləri göstərmək hüququ olan və belə xidmətlər göstərən hüquqi və ya fiziki şəxs.

**Rabitə şəbəkəsi** – müvafiq əşya və ya məlumat mübadiləsinin təmin edilməsi üçün vahid texniki və texnoloji sistemdə birləşdirilmiş müxtəlif rabitə vasitələri və qurğularının məcmusu.

**Raca** *(sanskritcə padşah)* – Hindistanda titul; qədim dövrlərdə rəhbər və hakimlərin geniş yayılmış adı; orta əsrlərdə hinduist dininə mənsub olan nüfuzlu feodal, mülkədar; müstəmləkə (Böyük Britaniya hökmranlığı) dövründə bəzi iri torpaq sahiblərinin titulu.

**Racutlar** *(sanskritcə – racanın oğlu)* – orta əsrlər Hindistanında hərbi kasta-təbəqə; müasir Hindistanda kasta qrupları.

**Rada** – **1)** Ukrayna, Belorus, Litva və Polşada (məsələn, Pereyaslav Radası, "Qara Rada" və i.a.), o cümlədən Rusiyada (Seçilmiş Rada) xalq yığıncaqlarının və nümayəndələr şuralarının tarixi adı; **2)** 1917-1918-ci illərdə Belorus və Ukraynada hakimiyyətin separatçı orqanlarının adı (məsələn, Belorus Radası, Mərkəzi Rada); **3)** Ukraynada şura (Ali Rada).

**Radiasiya qəzası** – "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il tarixli qanununun 1-ci maddəsinə əsasən texniki qurğuların nasazlığı, işçilərin (heyətin) səhvi, təbii fəlakətlər və digər səbəblərdən ionlaşdırıcı şüa mənbələri üzərində idarəetmənin itirilməsi nəticəsində insanların müəyyən olunmuş normadan artıq şüalanmasına və ya ətraf mühitin radioaktiv çirklənməsinə gətirib çıxaran qəza.

Radiasiya qəzası baş vermə ehtimalı olan müəssisə və təşkilatlar potensial radiasiya qəzalarının siyahısına, qəbul edilməsi zəruri olan qərarların meyarlarına, müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılmış tədbirlər planına, tibbi yardım göstərilməsi üçün vasitələrə və qəza-xilasetmə dəstələrinə malik olmalıdırlar.

**Radiasiya mənbələri** – nüvə qurğuları kompleksinə aid olmayan radioaktiv maddələrin saxlandığı qurğular, aparatlar, avadanlıqlar və məmulatlar.

**Radiasiya təhlükəsizliyi** – indiki və gələcək nəsillərin sağlamlığının ionlaşdırıcı şüalanmaların təsirindən (zərərli təsirindən) qorunması. Radioasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət idarəetməsini və nəzarətini öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər. Radioaktiv şüa mənbələri sahəsində qəzasız fəaliyyətin, əhalinin radiasiya təhlükəsindən qorunması və sağlamlığının mühafizə edilməsinin hüquqi əsasları 30

dekabr 1997-ci il tarixli "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilir.

**Radioaktiv maddə** – kənar (xarici) təsir olmadan atom nüvəsinin çevrilməsi nəticəsində ionlaşdırıcı şüa buraxan izotoplar (atomlar).

**Radioaktiv materialları talama və ya hədə-qorxu ilə tələb etmə** – cinayət qanunvericiliyinə görə ictimai təhlükəsizlik əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 227-ci maddəsində nəzərdə tutulmuşdur. Radioaktiv materialları talama və ya hədə-qorxu ilə tələb etmədə ifadə olunur.

**Radioaktiv materiallarla qanunsuz davranma** – cinayət qanunvericiliyinə görə ictimai təhlükəsizlik əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 226-cı maddəsində nəzərdə tutulmuşdur. Radioaktiv materialları qanunsuz əldə etmədə, saxlamada, istifadə etmədə, satmada, başqasına verməde və ya dağıtmada ifadə olunur.

**Radioaktiv tullantılar** – gələcəkdə istifadəsi nəzərdə tutulmayan və məqsədəuyğun hesab edilməyən nüvə materialları və radioaktiv maddələr.

**Rahdar** *(fars)* – Azərbaycanda xanlıqlar dövründə rüsum toplayan məmur. Əvvəllər bir sıra Yaxın Şərq ölkələrində, həmçinin Azərbaycanda bacdar adlandırılırdı.

**Rahdari** – orta əsrlərdə Azərbaycanda və bəzi qonşu dövlətlərdə mövcud olmuş mükəlləfiyyət. R. ticarət vergisindən, gömrük rüsumundan ibarət olmuşdur. Şəhərə gətirilən malın miqdarı, keyfiyyəti, ölçüsünə görə alınırdı. Əvvəllər sərhəd gömrüklərinin, sonralar isə əsasən xəzinə xeyrinə toplanmışdır. R. ticarət əlaqələrinin inkişafı ilə əlaqədar olaraq geniş yayılmışdır.

**Rahiblik** – ruhanilərin mühüm hissəsindən ibarət dini sosial qrup. Xristianlıqda və buddizmdə geniş yayılmışdır. R.-ə hazırlaşan şəxs tərki-dünya, yoxsul və müti olmağa, nikahsız yaşamağa and içir. Rahiblərin əsas yaşayış yeri monastırlar olmuşdur. R. katolik kilsəsində papalığın əsas dayaqlarından biridir.

**Rahib ordenləri** – katolik kilsələrinin xüsusi nizamnaməyə malik olan təşkilatları. Katolik kilsəsinin nüfuzunu möhkəmləndirmək, "başqa cür düşünənlər"i təqib etmək, bidətçilərə qarşı mübarizə (inkvizisiya) məqsədilə yaradılmışlar. R.o.-nin mərkəzləşdirilmiş təşkilatlarına "general" və ya "baş magistr" başçılıq etmişdir. İlk katolik ordeni benediktçilər olmuşdur (VI yüzillikdə İtaliyada təşkil edilmişdir). R.o. içərisində mühüm yeri dilənçi ordenləri tutur. Nizamnaməyə görə bu ordenlərin (fransiskçilər, dominikçilər, karmelitlər və i.a.) üzvləri şəxsi əmlakdan imtina etməli, sədəqə hesabına yaşamalı idilər. 1534-cü ildə yaradılmış Yezuitlər Ordeni ən mürtəce və hərbçi dini təşkilatlardan biri olmuşdur. Orta əsrlərdə papalıq bir sıra hərbi r.o. (Tevton, Livoniya, Qılıncılar, Qospitalyerlər) təşkil etmişdi. Hazırda dünyada təqribən 180 r.o. fəaliyyət göstərir. Sıralarında 1,5 milyon rahibi birləşdirən bu təşkilatlar Vatikanın siyasətinin, katolisizmin və missioner fəaliyyətinin təbliğində mühüm rol oynayırlar.

**Ramburs** – **1)** borcun üçüncü şəxs vasitəsilə ödənilməsi; **2)** beynəlxalq ticarətdə satın alınmış əmtəənin dəyərinin bank vasitəsilə ödənilməsi.

**Ramburs krediti** – ticarət əməliyyatlarının qısamüddətli bank kreditləşdirilməsi; satıcı





tərəfindən bankda alıcının göstərdiyi köçürmə vekselinin köməyi ilə həyata keçirilir.

**Ramburslaşdırma** – borcları, tutmaları qaytarmaq, ödəmək; borcları üçüncü şəxs vasitəsilə ödəmək.

**Ranq** *(fr. rang – yer, rütbə)* – fərqlənmə dərəcəsi, rütbə, kateqoriya və s. Bir sıra müasir dövlətlərin silahlı qüvvələrində əsgəri rütbələrə görə hərbi qulluqçuların bəzi kateqoriyaları müvafiq r.-lara bölünürlər. Məsələn, Azərbaycan Respublikasının Hərbi-Dəniz Donanmasında 1-ci, 2-ci və 3-cü dərəcəli kapitan rütbələri vardır. Dünya dövlətlərinin əksəriyyətində diplomatik r.-lar – diplomatik rütbələrin dərəcələri də mövcuddur.

**Rantye** *(fr. rentier, rente – renta)* – bir sıra xarici dövlətlərdə pul kapitalından götürülən faiz, yaxud qiymətli kağızlardan gələn gəlir hesabına yaşayan şəxslər qrupu. Ən iri r. qrupları maliyyə oliqarxiyasının tərkib hissəsi olmaqla pul və saxta kapitalın böyük hissəsini öz əlində cəmləşdirir və beləliklə də ölkənin iqtisadiyyatına nəzarət etmək imkanı əldə edirlər.

**Rantye dövlət** *(bax: rantye).*

**Raport** *(fr. rapport – xəbər vermək)* – **1)** xidməti fəaliyyətin müxtəlif məsələləri üzrə hərbi (və ya mülki) qulluqçunun öz rəisinə verdiyi şifahi, yazılı məlumat. Hərbi qulluqçuların ərizələri, təklif və şəxsi xahişləri, müraciətləri qərargahda r. kimi qeydə alınır; **2)** öhdəliyin yerinə yetirilməsi haqqında verilən hesabat-məlumat.

**"Rasionallaşdırılmış parlamentarizm"** – hökumətin siyasətinə qanunvericilik nəzarəti də daxil olmaqla, parlament sisteminin əsas cəhətləri saxlanmaqla hökumətin sabitliyinin mükafatlandırılmasına yönələn konstitusiya üsullarının (metodlarının, tədbirlərinin) məcmusu. "R.p"-in cəhətlərini kabinetin məsuliyyət sistemində, onun formalaşdırılması qaydasında və parlamentin vaxtından əvvəl buraxılması cəhdlərindən qaçmaqda tapmaq olar (məsələn, hökumətə etimad haqqında məsələ sadə çoxluğu, etimadsızlığı ifadə etmək üçün isə ixtisaslaşmış çoxluğu tələb edir). "R.p."-in ən "güclü" üsullarından biri konstruktiv votum hesab olunur. R.p. zamanı etimadsızlıq ifadə edilən hökumət istefaya getməyi arzu etmədikdə, parlamenti buraxa bilər.

**Ratifikasiya** *(lat. ratificatio, ratus – təsdiq edilmiş + facre – etmək)* – dövlətin ali hakimiyyət orqanının həmin dövlətin müvəkkili tərəfindən bağlanmış beynəlxalq müqaviləni təsdiq etməsi. Əksər dövlətlərin konstitusiyası beynəlxalq müqavilələrin r. hüququnu dövlət başçısının, yaxud bilavasitə ali qanunvericilik orqanının səlahiyyətinə aid edir. Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 4-cü bəndinə əsasən dövlətlərarası müqavilələrin təsdiqi və ləğv edilməsi hüququ Azərbaycan Respublikasının Milli Məclisinə məxsusdur.

**Ratifikasiya edən referendum** – qanun parlament tərəfindən qəbul edildikdən sonra, lakin onun qüvvəyə minməsinədək, yaxud icra hakimiyyəti və ya seçicilər qrupu tərəfindən hazırlanmış qanun layihəsi üzrə nümayəndəli orqandan yan keçməklə onunla əlaqədar xalq səsverməsi.

**Ratman** *(alm. ratmann)* – XVIII-XIX yüzilliklərdə Rusiya imperiyasında şəhər magistratının seçilmiş üzvü, ratuş.

**Ratnik** – **1)** Qədim rus dövlətində əsgər. Knyaz drujinası döyüşçülərindən fərqli

olaraq kənd əhalisindən (smerdlərdən) və şəhərlilərdən toplanırdı; **2)** Rusiyada dövlətin təşkil etdiyi könüllü dəstənin əsgəri. R. 3-cü dərəcəli ehtiyat hesab edilmiş və 1917-ci ilədək mövcud olmuşdur.

**Rayon** *(fr. rayon)* – **1)** hər hansı xüsusiyyətlərinə, əlamətlərinə görə fərqlənən ərazi. R . taksonomik vahidlərdən biri hesab olunur (məsələn, coğrafi-fiziki rayon); **2)** Azərbaycan Respublikasında inzibati-ərazi vahidi; **3)** əhalisi 100 min nəfərdən çox olan şəhərlərdə yaradılan inzibati-ərazi vahidi; **4)** bir sıra dövlətlərdə inzibati-ərazi vahidi.

**Rayon icra hakimiyyəti** *(bax: icra hakimiyyəti).*

**Reabilitasiya** *(lat. rehabilitatio – bərpa etmə)* – **1)** təmizə çıxarma; **2)** hüquqların bərpa edilməsi.

**Reaktiv vəziyyət** – ağır ruhi həyəcan və sarsıntılardan irəli gələn psixi pozğunluq. Müvəqqəti psixi pozğunluq hallarından biridir.

**Real əqdlər** – bağlanmaları üçün yalnız sazişin kifayət etmədiyi və əşyaların (latınca res – əşya adı məhz buradan meydana gəlmişdir) da verilməsi zəruri olan əqdlər. Əmlakın və ya digər əşya hüququnun (məsələn, borc) verilməsinə dair bəzi əqdlər, habelə əşyaların müvəqqəti verilməsi üzrə əqdlər real hesab olunurlar. Bu o deməkdir ki, əşyanı vermədən borcun verilməsinin vəd olunması hüquqi nəticələrə səbəb olmur. R.ə.-in əksini konsensual əqdlər təşkil edirlər.

**Real əmtəə birjası** – əqdlərin əmtəələrin başlanğıc partiyaları ilə bağlandığı əmtəə birjasının ilkin başlanğıc forması. R.ə.b.-nda ticarət istehsalçı ilə istehlakçı (eksportyor) arasında əlaqə müəyyən edir. Bu, eksportyorla istehlakçı arasında yaranan əlaqədir. Hazırda yalnız bir sıra ölkələrdə mövcuddur və az dövriyyəyə malikdir. R.ə.b., bir qayda olaraq, yerli əhəmiyyətli əmtəələrin topdansatış ticarətinin formalarından biridir və inkişaf etmiş dövlətlərdə adətən milli mənafelərin müdafiəsi üçün yaradılır.

**Realist hüquq məktəbi** – ABŞ-da hüquq elminin cərəyanlarından biri; XX yüzilliyin 20-ci illərində meydana gəlmişdir. Bu hüquq məktəbinin nümayəndələri hüquqa məhkəmə fəaliyyətinin nəticəsi kimi baxır, hüququn yaradıcı xarakterinin ləğvinə gətirib çıxaran sabit qanunun rolunu inkar edirlər. Onların ideyasına görə, hüquq qayda deyil, hakimlərin fəaliyyətinin konkret qərarının nəticəsidir.

Cer Frenk (1889-1957) və Karl Llevellin (1893-1962) r.h.m.-nin əsas nümayəndələridirlər.

**Real məcmu** *(bax: Cinayətlərin real məcmusu).*

**Real vergilər** – birbaşa (düzünə) vergilərin növü; ödəyicinin əmlakının ayrı-ayrı növlərindən tutulur. Bu vergilərə obyektdən asılı olaraq torpaq vergisi, ev vergisi, sənət vergisi və qiymətli kağızlar (səhm, istiqraz və i.a.) vergisi aid edilir. R.v. zamanı obyektin xarici əlamətləri – torpaq vergisində sahənin ölçüsü, ev vergisində qapıların, pəncərələrin sayı, tikililərin ölçüsü, sənət vergisində işçilərin və ya dəzgahların sayı nəzərə alınır. Həmin obyektlərin sahibkara gətirdiyi faktiki mənfəətlər nəzərə alınmır. Ödəmə kadastrla müəyyən edilən orta gəlir üzrə aparılır. Real vergilərin məzənnəsi proporsionaldır və





payın faizi ilə bir neçə faizlərədək nisbətdə götürülür. R.v. yerli vergilərə aiddir.

**Reç Pospolita** *(pol. Rezczpospolita – respublika)* – XV yüzilliyin sonu və XVIII yüzillikdə Polşa dövlətinin ənənəvi adı; seym tərəfindən seçilən kral başda olmaqla silkinümayəndəli monarxiyanın spesifik forması. Lüblin Uniyasından (1569-cu il) 1795-ci ilədək Polşa-Litva dövlətinin rəsmi adı. R.P. 1918-1939-cu illərdə Polşanın hakim dairələrinin mənafelərinə xidmət edən idarəçilik forması kimi mövcud olmuşdur.

**Redemarkasiya** – dövlət sərhədində sərhəd nişanlarının bərpa olunması və ya dəqiqləşdirilməsi.

**Reduksiya** *(lat. reductio – qayıtmaq, geri çəkilmək)* – qiymətli kağızların birja məzənnəsinin və ya birja qiymətlərinin aşağı düşməsi.

**Reeksport mallar** – gömrük rejimi; bu rejim çərçivəsində xarici mallar Azərbaycan Respublikasının gömrük ərazisindən gömrük rüsumları və vergiləri tutulmadan və iqtisadi siyasət tədbirləri tətbiq edilmədən aparılırlar. Malların faktiki aparılması gömrük bəyannaməsi qəbul edildiyi gündən altı aydan gec olmayaraq həyata keçirilməlidir. Həmin müddətdə mallar faktiki olaraq aparılmazsa, gömrük rüsumları, vergilər, həmçinin Azərbaycan Respublikası Milli Bankının verdiyi kreditlər üzrə həmin bankın müəyyən etdiyi dərəcələrlə onlardan faizlər alınır (AR GM-in 100-cü maddəsi).

**Refaksiya** *(fr. refaction – güzəşt)* – göndərilən malların keyfiyyəti müqavilədə, standartda və texniki şərtlərdə nəzərdə tutulduğundan aşağı olduqda topdansatış qiymətlərində (yaxud əmtəələr kütləsində) edilən güzəşt. Xarici ticarət sövdələşmələrində daha geniş yayılmışdır.

**Referendum** *(lat. referendum – xəbər verməli olan)* – ən mühüm dövlət məsələlərinin ümumxalq səsverməsinə çıxarılması. R. -un şərti və xüsusiyyətləri, habelə üsulu müvafiq ölkənin konstitusiyası və qanunvericiliyi ilə tənzim edilir. R.-un məcburi və fakultativ növləri mövcuddur. Konstitusiyada təsbit edilmiş məsələlər üzrə r. keçirilməsi məcburidir. Fakultativ r.-un keçirilməsi isə qanunverici orqandan asılıdır.

**Referendumun keçirilməsini istisna edən hallar** - referendumun keçirilməsinə aid ümumi müddəalardan biri. AR CM - nin 121-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisində və ya onun ərazisinin 25 faizdən çoxunda hərbi və ya fövqəladə vəziyyət elan edildikdə, hərbi və ya fövqəladə vəziyyət zamanı, həmçinin hərbi və ya fövqəladə vəziyyətin ləğv edilməsindən sonra 3 ay müddətində referendum keçirilə bilməz. Eyni bir məsələyə dair təkrar referendum ilkin referendumda qəbul edilən aktın dərc edilməsi günündən başlayaraq yalnız 1 il keçdikdən sonra keçirilə bilər.

**Referendumun keçirilməsinin məcburiliyi** – referendumun keçirilməsinə aid ümumi müddəalardan biri. AR CM-in 120-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanları tərəfindən bu və ya digər məsələyə dair qərarın qəbul edilməsi məsələyə dair referendumun keçirilməsini istisna edə bilməz.

**Referensiya** *(lat. referre – məlumat vermək)* – işgüzar münasibətlərdə fərdi sahibkara və ya təşkilata digər şəxs (təşkilat və ya vətəndaş) tərəfindən verilməli olan xa-

rakteristika (rəy). Belə xarakteristikanı (rəyi) adətən işgüzar dairələrdə nüfuza malik olan şəxs verir. R.-da həmin şəxsin işgüzar keyfiyyətləri və kredit qabiliyyəti göstərilir.

**Refleksiya** *(lat. reflexio – geriyə müraciət)* – insan şüurunun özü-özünə, özünün daxili aləminə, öz keyfiyyətlərinə, vəziyyətinə müraciəti; özünümüşahidə və özünü dərketmə. R. birgə fəaliyyət predmetinə aid olduqda onun xüsusi forması – predmet-refleksli münasibətlər inkişaf edir. Bunlar kriminalistikada cinayət prosesinin istintaqa qarşı əks mövqedə dayanan iştirakçılarının davranış və hərəkətlərinin qabaqcadan görünməsi üçün bazaya xidmət edir, habelə bu və ya digər taktiki üsulun seçilməsinə və ya işlənib hazırlanmasına yardım edirlər. R.-nın köməyi ilə şəxslərin və predmetlərin axtarışının istiqamətləri də müəyyən edilir.

**Regent** *(regens regentis – idarə edən)* – monarxiya idarəçilik formasına malik olan dövlətlərdə müvəqqəti hökumət. R. taxt-tac boş olduqda, habelə monarxın (imperatorun və ya kralın) xəstəliyi, yaxud yetkinlik yaşına çatmaması ilə əlaqədar onun öz səlahiyyətlərini uzun müddət yerinə yetirə bilmədiyi hallarda təyin edilir.

**Regentlik** – monarxiya idarəçilik formasına malik olan dövlətlərdə dövlət başçısının (monarxın, imperatorun, kralın) səlahiyyətlərini müvəqqəti olaraq kollegial surətdə (regentlik şurası), yaxud təkbaşına həyata keçirmə. R.-in müəyyən edilməsi və həyata keçirilməsi qaydası konstitusiya və ya xüsusi qanunla tənzim edilir.

**Region** *(fr. region)* – **1)** Fransada 1982-ci ildən ən böyük inzibati ərazi vahidi (cəmi 28 r. mövcuddur). 1982-ci il qanununa uyğun olaraq r.-un əhalisi vilayət əhəmiyyətli məsələləri həll etməyə müvəkkil edilən regional şuranı seçir. R.-da icra orqanı funksiyası şuranın sədrinə həvalə olunur. Regional şuranın və onun sədrinin fəaliyyətinə nəzarəti hökumət tərəfindən təyin edilən respublika komissarı həyata keçirir; **2)** Belçikada 1993-cü ildən federasiyanın iki tipindən biri; birlikdən fərqli olaraq ərazi əsasında yaradılır.

**Regional iqtisadiyyat** – iqtisadiyyat elmi sahəsi, ictimai istehsalın ərazi üzrə təşkili qanunauyğunluqlarını və fəaliyyət mexanizmini öyrənir. Ayrı-ayrı regionların və ərazi-istehsal kompleksləri təsərrüfatlarının inkişafı ilə bağlı iqtisadi hadisə və prosesləri tədqiq edir.

**Regional qiymətlər** – **1)** daxili ticarətdə – differensiasiyalaşdırılmış qiymətlər; müxtəlif regionlarda əmtəənin ictimai dəyərinin formalaşmasının iqtisadi-coğrafi şərtlərini əks etdirir; **2)** dünya ticarətində – ayrı-ayrı satış bazarlarında xərclərin formalaşması şərtlərini, eləcə də qapalı iqtisadi qruplara daxil olan ölkələrin xarici ticarətinin xüsusi şərtlərini əks etdirən qiymətlər.

**Regional muxtariyyət** – unitar dövlətdə hakimiyyətin mərkəzsizləşdirilməsi üsullarından biri. R.m. subyektlərinin statusu adi inzibati ərazi vahidlərinin statusu ilə müqayisədə yüksək, federasiyanın milli-dövlət subyektlərinin statusuna nisbətən isə aşağıdır. R.m. subyekti dövlət təsisatı əlamətlərinə malik deyil. R.m. onda subyektlərin müstəqil formalaşdırılan icra və qanunvericilik hakimiyyəti orqanlarının olmasında ifadə olunur. Bu orqanlar mərkəz tərəfindən müəyyən edilmiş məsələlərin





dairəsi üzrə qanunlar vermək səlahiyyətinə malikdirlər. Hüquqi status ümumdövlət qanunu ilə müəyyən edilməli və ya təsdiq olunmalı xüsusi aktla (statusla) müəyyənləşdirilir. R.m. subyektinin orqanları öz fəaliyyətini mərkəzi hakimiyyət orqanlarının nəzarəti altında həyata keçirirlər. Bunun üçün mərkəz öz nümayəndələrini (qubernatorları, komissarları və i.a.) təyin edir. Regional qanunlar ümumdövlət mənafelərinə zidd olduqda, onlar mərkəz tərəfindən ləğv edilə bilərlər.

**Regional nümayəndəlik** – nümayəndəli hakimiyyətin təşkili prinsipi; bu prinsipə uyğun olaraq deputatlar bütün milləti deyil, dövlətin hansısa ərazi hissəsinin (adətən federasiya subyektlərinin) mənafelərini təmsil edirlər. Bu zaman r.n.-in orqanları ya bilavasitə əhali (ABŞ-da, Braziliyada, Venesuelada), tərəfindən ya da onların üzvlərinin dövlət hakimiyyəti orqanları tərəfindən ərazilərə təyin edilməsi yolu ilə (AFR-də, RF-də) formalaşdırılır. Federasiyalarda r.n.-in orqanı, bir qayda olaraq parlametin yuxarı palatası hesab olunur, aşağı palata isə milli nümayəndəlik orqanı kimi çıxış edir.

**Regional saziş** – işçilərlə işəgötürənlər arasında sosial-əmək münasibətlərini tənzimləyən və federasiyanın subyekti səviyyəsində bağlanan hüquqi akt. R.s. federasiyanın subyektləri səviyyəsində sosial-əmək münasibətlərinin tənziminin ümumi prinsiplərini müəyyən edir.

**Regional sazişlər** *(beynəlxalq hüquqda)* – müəyyən coğrafi regionda yerləşən dövlətlər tərəfindən bağlanan və həmin regiona aid olan öhdəlikləri özündə ehtiva edən sazişlər (məhəllə sazişlər).

**Reimport mallar** – gömrük rejimi; bu rejim çərçivəsində Azərbaycan Respublikasının gömrük ərazisindən eksport rejiminə uyğun olaraq aparılmış Azərbaycan Respublikası malları müəyyən edilmiş müddətdə gömrük rüsumları və vergiləri tutulmadan, habelə iqtisadi siyasət tədbirləri tətbiq edilmədən geri gətirilirlər. AR GM-in 32-ci maddəsinə uyğun olaraq təkrar idxal gömrük rejimi altında yerləşdirilmək üçün mallar: a) təbii aşınma nəticəsində dəyişikliklər, normal şəraitdə daşınma və saxlanc itkiləri, həmçinin Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilən digər hallar istisna edilməklə aparıldığı vəziyyətdə olmalıdır; b) aparıldığı andan on il müddətində Azərbaycan Respublikasının gömrük ərazisinə qaytarılmalıdır.

Mallar aparıldığı andan üç il ərzində təkrar idxal edildikdə Azərbaycan Respublikasının gömrük orqanı ödənilmiş ixrac gömrük rüsumlarının və vergilərin məbləğini qaytarır. Malların təkrar idxalı zamanı malları keçirən şəxs malların aparılması zamanı verilən güzəştlər nəticəsində əldə etdiyi bütün məbləğləri qaytarır (AR GM-in 33-cü maddəsi).

**Reinteqrasiya** – əvvəllər malik olmuş, lakin sonradan onu itirmiş şəxslərin hər hansı dövlətin vətəndaşlığına bərpa olunması. R.-nın mənası, hər şeydən əvvəl, vətəndaslığa bərpa olunmanın qaydasını sadələşdirməkdən ibarətdir. R. müvafiq qanunlarda, xüsusi qanunvericilik aktlarında və ya adi qanunvericilikdə nəzərdə tutula bilər. R. adi qanunvericilikdə nəzərdə tutulduqda, ona naturallaşmanın bir növü kimi baxılır.

**Reinvestisiya** *(lat. re – təkrar hərəkət və lat. investio – geyindirirəm)* – sərmayə qo-

yulmuş obyektlərin istismarından əldə edilmiş vəsaitlərin sərmayə kimi təkrar qoyuluşu. R. Azərbaycan Respublikasının ərazisində sahibkarlıq fəaliyyəti obyektlərinə sərmayə qoymuş əcnəbi investorların əldə etdikləri gəlirlər hesabına obyektlərə (eyni, həmin obyektlərə) əsaslı qoyuluşu həyata keçirmələri kimi başa düşülür.

**Rejim** *(fr. regime, lat. regimen – idarə)* – **1)** dövləti idarətmə üsulu; **2)** müəyyən məqsədlərə nail olmaq üçün tətbiq edilməli olan lazımi qaydaların, norma və tədbirlərin məcmusu.

**Rekambio** – **1)** etiraz olunmuş vekseli ödəyən şəxs tərəfindən veksel üzrə öhdəliyi olanlardan birinə verilən tələb; şəxsin verdiyi tələb veksel məbləğinin ona qaytarılması və etiraz üzrə faizlərin, peniya və xərclərin ödənilməsini əhatə edir; **2)** vekselin inkassosuna qəbul edilmiş etirazla əlaqədar xərclərin ödənilməsinə dair bankın müştəriyə verdiyi hesab.

**Reket** *(ing. racket – hay-küy)* – ABŞ qanunvericiliyində ağır cinayət; qismən hədə-qorxu ilə tələb etməyə oxşayır. R. "hədə-qorxu və ya zorakılıq vasitəsilə ticarət üçün hay-küy salmaq" kimi müəyyən edilir (ABŞ-ın Qanunlar Külliyyatı, Titul 18, fəsil 95). Azərbaycan Respublikası qanunvericiliyində bu termindən istifadə edilməsə də, son illərin hüquqi mətbuatında ona tez-tez təsadüf olunur.

**Reklam** – fiziki və hüquqi şəxslər, əmtəə, ideya və yeniliklər (reklam informasiya) haqqında maraq formalaşdırmaq və ya bu marağı saxlamaq, əmtəənin satılmasına, ideya və yeniliklərin həyata keçirilməsinə kömək göstərmək məqsədi ilə yayılan informasiya.

**Reklam agentliyi** – hüquqi şəxs olan, reklam istehsalı və yayımı ilə bağlı kompleks xidmətlər göstərən peşəkar təşkilat.

**Reklamasiya** *(lat. reclamatio – ucadan etiraz etmək, bəyənməmək)* – mülki hüquqda məhsulun lazımi keyfiyyətdə olmaması ilə əlaqədar alıcının (sifarişçinin) satıcıya (mal göndərənə, podratçıya) qarşı irəli sürdüyü iddia, qüsurların aradan qaldırılması, qiymətin aşağı salınması, zərərin ödənilməsi haqqında tələb. R. məhsulun keyfiyyəti müqavilə şərtlərinə, dövlət standartlarına, mexaniki şərtlərə və nümunələrə uyğun gəlmədikdə irəli sürülür.

**Reklam daşıyıcısı** – mülkiyyət formasından asılı olmayaraq, reklamın istehlakçıya bilavasitə çatdırılması üçün istifadə olunan (kütləvi informasiya vasitələri, kino, audio, video və nəşr məhsulları, stasionar, mobil və digər texniki qurğu və avadanlıqlar) istənilən vasitə.

**"Reklam haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin əmtəə, iş və xidmət bazarında reklam istehsalı, yerləşdirilməsi və yayımı prosesində meydana çıxan münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 3 oktyabr 1997-ci il tarixdə qəbul olunmuş, ona indiyə qədər bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanun beş fəsil və 30 maddədən ibarətdir.

**Reklam istehlakçısı** – reklam informasiyasını yayım üçün tam və ya qismən hazırlayan fiziki və ya hüquqi şəxs.

**Reklam materialı** – kataloqlar, prospektlər, risalələr, plakatlar və digər nəşr materialları, habelə dəyərinə görə açıq reklam xarakteri daşıyan predmetlər. Bu termindən gömrük hüququnda istifadə olunur.





**Reklam sifarişçisi** – reklamın istehsalı, yerləşdirilməsi və yayılması üçün reklam informasiyasının mənbəyi olan fiziki və ya hüquqi şəxs.

**Reklam yayıcısı** – əmlakdan, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə və ya onun istifadəyə verilməsi yolu ilə və digər üsullarla reklamı yerləşdirən (yayan) fiziki və ya hüquqi şəxs.

**Rekonversiya** *(re...+ lat. conversio – çevrilmə, qayıtma)* – müharibədən sonra ölkə iqtisadiyyatının mülki məhsullar istehsalına keçirilməsi. Bir çox hallarda pul islahatı keçirilməsini, təsərrüfat fəaliyyətinin hüquqi qaydalarının dəyişdirilməsini nəzərdə tutur.

**Rekreditiv** – beynəlxalq hüquqda hökumətin öz diplomatik nümayəndəsini geri çağırmaq haqqında övdətnaməsi.

**Rekrut** *(alm. rekrut)* – hərbi xidmətə muzdla və ya mükəlləfiyyətlə qəbul edilən şəxs. 1705-1874-cü illərdə Rusiya ordusunda orduya rekrut mükəlləfiyyəti *(bax: rekrut mükəlləfiyyəti)* ilə götürülən şəxs. 1874-cü ildə "r" termini "yeni əsgər" sözü ilə əvəz edilmişdir.

**Rekrut mükəlləfiyyəti** – XVIII-XIX yüzilliklərdə Rusiyada nizami ordunun və hərbi dəniz donanmasının komplektləşdirilməsi sistemi. R.m. qanunvericilik aktları əhalinin orduya və donanmaya müəyyən sayda rekrut verilməsini nəzərdə tuturdu. İlk dəfə 1705-ci ildə I Pyotr tərəfindən elan edilmişdir. R.m.-ndə xidmət müddəti 1793-cü ilədək ömürlük, sonra 25 illik, 1834-cü ildən 20 illik olmuş, 1855-1872-ci illərdə müxtəlif müddətlərdə azaldılmışdır.

**Reks** *(lat. rex)* – Roma dövlət-polisinin erkən dövrlərində Roma xalqının rəhbəri, qədim yunan bazileyinin analoqu. R. xalq yığıncağı tərəfindən seçilirdi. Lakin bir sıra hallarda bu seçki ehtimal olunur, yalnız formal xarakter daşıyırdı. R., hər şeydən əvvəl, qoşun başçısı, bundan başqa, ali kahin və qəbilələrarası işlər üzrə hakim idi. O, qeyri-məhdud hakimiyyətə malik olmamış və ilk növbədə ümumqəbilə mənafelərinin nümayəndəsi qismində çıxış etmişdir. Eramızdan əvvəl 500-cü ildə r. devrilmişdir. Onu patrisilər içərisindən seçilən iki yüksək vəzifəli şəxs – pretor əvəz etmişdir.

**Rektor** *(lat. rector – idarə edən, rəhbər)* – ali məktəbə, Fransada tədris dairəsinə ("akademiya") rəhbərlik edən şəxs. İntibah dövründə baş müəllimlər və çoxsinifli məktəblərin müdirləri r. adlanırdı.

**Rekto-veksel** – üzərində "vermək hüququ olmadan" qeydi olan veksel.

**Rekuperatorlar** *(recuperatores)* – Qədim Romada Roma vətəndaşları ilə əcnəbiləri mühakimə edən xüsusi magistrlər.

**Rekvirent** *(ing. requirent – tələb edən)* – sahibkarlıq fəaliyyətində veksel sahibi, notariusa vekselə etiraz etmək tələbi ilə müraciət edən şəxs.

**Rekvizisiya** *(lat. requisitio – tələb)* – həcz, yəni dövlətin mülkiyyətçidən dəyəri ödənilməklə əmlakı məcburi surətdə alması. Azərbaycan Respublikasında r. xüsusi zərurət olduqda və fövqəladə vəziyyət şəraitində (müharibə, təbii fəlakət, epidemiya) yalnız qanunla müəyyən edilmiş qaydada tətbiq edilir. Alınmış əmlakın dəyəri dövlət

qiyməti ilə 1 aydan gec olmayaraq ödənilir. Fövqəladə vəziyyət şəraitində r. bəzən müvəqqəti həyata keçilir. Vəziyyət normallaşdıqdan sonra əmlak sahibinə qaytarılır. AR MM-in 209.2-ci maddəsinə uyğun olaraq əmlakı rekvizisiya edilmiş şəxs rekvizisiya üçün əsas götürülmüş halların təsiri qurtardıqda, əmlakından qalanın qaytarılmasını məhkəmə yolu ilə tələb edə bilər.

**Rekvizitlər** – sənədin (məsələn, müqavilənin) etibarlı hesab olunması üçün onda mütləq göstərilməli olan məlumatlar. Həmin məlumatlar aşağıdakılardan ibarətdir: sənədin adı və tərtib edildiyi tarix; sənədi tərtib edən hüquqi şəxsin adı və ünvanı; əməliyyatda iştirak edən tərəflər; əməliyyatın məzmunu; əməliyyatın ölçü vahidləri və həcmi; məsul şəxslərin imzası.

**Reqali** *(lat. regalis – çar)* – **1)** feodal Avropasında müəyyən gəlirlərin (məhkəmə cərimələrinin, bazar rüsumlarının və i.a.) əldə olunmasına dair kral imtiyazı, yəni xəzinənin gəlir preroqativi. Bu mənada "r." terminindən hazırda hüquq elmində "gömrük reqalisi", "məhkəmə reqalisi" kimi söz birləşmələrində istifadə olunur; **2)** monarxiya hakimiyyətinin zahiri nişanı – tac, skipetr və i.a. fərqlənmə nişanları (orden, medal) da bəzən r. adlandırılmışdır.

**Reqlament** *(pol. reglament, fr. reglement – qayda)* – **1)** dövlət orqanlarının, idarə və təşkilatlarının iş qaydasını müəyyən edən qaydaların məcmusu; **2)** nümayəndəli orqanın iclasının, müşavirəsinin və konfransının aparılması qaydası; **3)** beynəlxalq konfrans və konqreslərin bəzi aktlarının (məsələn, 1815-ci il Vyana reqlamenti) adı; **4)** parlamentin, yaxud palatanın daxili quruluşu və fəaliyyət formasını, həmçinin deputatın hüquqi vəziyyətini tənzim edən qaydalar.

**Reqlamentar hakimiyyət** – İspaniya, Fransa və bir sıra digər dövlətlərdə hökumətin ictimai münasibətləri hüquqi qüvvəsi qanundan aşağı olan aktlarla (reqlamentlərlə) tənzimləmək hüququ. Lakin belə reqlamentləri qanunqüvvəli aktlar hesab etmək olmaz, çünki onlar qanunla tənzim edilməyən məsələlər üzrə qəbul edilə (məsələn, Fransada) bilərlər. "P.h." anlayışı müəyyən dərəcədə "fərman hüququ" anlayışına uyğun gəlir.

**Reqres hüququnun yolverilməzliyi** – mülki qanunvericiliyə görə sığorta müqaviləsinin (fərdi qəza sığortası müqaviləsinin) şərtlərindən biri. AR MM-in 942-ci maddəsinə uyğun olaraq sığortalının zərər üçün məsul olan şəxs barəsində reqres hüququ yoxdur.

**Reqres iddia (əks tələb)** – mülki hüquqda başqasının vurduğu ziyanı ödəyən vətəndaşın və ya təşkilatın vermiş olduğu ödəniş miqdarında digər şəxsə qarşı tələbi. R.i. məhkəməyə, yaxud da iqtisad məhkəməsinə verilir. Vurulmuş ziyan üçün məsul olan təşkilat və ya vətəndaşlar, onların təqsiri üzündən baş vermiş xəstəlik və ya şikəstliklə əlaqədar zərər çəkmiş şəxsə (zərər çəkmiş şəxs öldükdə isə qanunla göstərilən şəxslərə) verilmiş müavinətləri və ya təqaüdü dövlət sosial sığortası və sosial təminat orqanının reqres tələbi üzrə ödəməyə borcludur.

**Reqressant (reqrediyent)** – itkilərin ödənilməsi haqqında digər şəxsə (r.-ın xeyrinə verdiyi şəxsə) əks (reqres) tələb verən şəxs.

**Reqressat** – əleyhinə reqressantın tələbinin yönəldiyi şəxs.





**Reqressiv vergi qoyma** – vergi qoyma qaydası; bu zaman vergi bazasının artımı ilə əlaqədar olaraq vergi məzənnələrinin miqdarında ixtisar baş verir. Yəni vergi qoyma normaları vergi ödəyicilərinin gəlirlərinin artım dərəcəsinə uyğun olaraq azaldılır.

**Releqasiya** – XIX yüzillikdə Fransada sürgün növlərindən biri. R. əlavə cəza kimi təyin edilirdi. Həmin cəza cəzasını həbsxanada çəkib qurtardıqdan sonra ən təhlükəli residivistlərə tətbiq edilirdi. XX yüzilliyin başlanğıcında da tətbiq edilirdi.

**Remedium** *(lat. remedium – nəyinsə əleyhinə vasitə)* – qiymətli metallardan hazırlanan sikkələrin kütləsinin və əyarlarının müəyyən edilmiş normadan artıq həddinin qanunla yol verilən həddi.

**Reminissensiya** *(lat. reminiscentia – xatirə)* – dumanlı xatirə; ilk əvvəl müvəqqəti unudulmuş hadisənin yenidən xatırlanması. Kriminalistikada r. hadisəsi dindirmədə, o cümlədən təkrar dindirmədə nəzərə alınır və belə dindirmə məhz r. nəzərə alınmaqla aparıla bilər.

**Remissiya** *(bax: ruhi xəstəlik).*

**Remitent** *(bax: veksel sahibi).*

**Remitləşdirmə** – hesablaşmalar üsulu; bu zaman borclu milli valyuta bazarında öz ölkəsinin valyutası ilə xarici valyutanı (trattanı, çeki, teleqraf göndərişini) satın alır və onu öz borcunu ödəmək üçün kreditora göndərir.

**Remiz** *(fr. remise)* – **1)** birja dəllalları (remizye) ilə qiymətli kağızlar almaq istəyən müştərilər arasında səyyar vasitəçilərə verilən komisyon haqqının bir hissəsi; **2)** pulun köçürmə vekseli yolu ilə ödənilməsi.

**Renc** *(ing. range)* – dəniz hüququnda müəyyən limanlar arasında sahil zolağının kəsiyi. Çarterdə r.-in xatırladılması fraxtaçıya gəmini istənilən təhlükəsiz limana göndərmək hüququ verir.

**Renta** *(alm. rente, fr. rente, lat. reddita – geri verilmiş, qaytarılmış)* – kapitaldan, torpaqdan, əmlakdan müntəzəm götürülən və sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan gəlir. Torpaq sahibləri *torpaq rentası* alırlar. Bir çox ölkələrdə dövlət istiqrazları üzrə ödənilən faizlər də r. adlanır. R. hesabına yaşayan şəxslər cəmiyyətin tüfeyli təbəqəsini – rantyeni əmələ gətirirlər.

**Renta istiqrazı** – dövlət istiqrazlarının bir növü; dövlət onun ödənilmə müddətini müəyyən etmədikdə və borcun kapital məbləğini qaytarmaq öhdəliyini öz üzərinə götürmədikdə istiqraz sahiblərinə renta adlanan müntəzəm möhkəm gəlirlər təminatını verir.

**Renta müqaviləsi** – mülki hüquqi müqavilənin bir növü. Renta müqaviləsinə görə bir tərəf (renta alan) əmlakı digər tərəfin (renta ödəyicisinin) mülkiyyətinə verir, renta ödəyicisi isə alınmış əmlakın müqabilində renta alana vaxtaşırı müəyyən pul məbləği şəklində renta ödəməyi öhdəsinə götürür. Renta müqaviləsinə görə rentanı müddətsiz ödəmək (daimi renta) və ya renta alanın ömrü boyu ödəmək (ömürlük renta) vəzifəsinin müəyyənləşdirilməsinə yol verilir (AR MM-in 864-cü maddəsi).

**Rentinq** *(ing. renting)* – maşın və avadanlıqların qısamüddətli dövr üçün icarəyə verilməsi. R.-in lizinqdən mühüm fərqi ondan ibarətdir ki, icarədar icarə müddəti başa çatdıqdan sonra maşın və ya avadanlıqları əldə etmək hüququna malik ol-

mur. Maşın və avadanlıqların mülkiyyətçisi onların təmiri üzrə xərcləri həyata keçirən rentinq cəmiyyəti olur.

**Reparasiya** *(lat. reparatio – bərpaetmə) (bax: təzminat).*

**Repatriant** *(lat. repatrians; ing. repatriate)* – repatriasiya ilə öz vətəninə qayıdan şəxs.

**Repatriasiya** *(lat. re – yenidən, geri + patria – vətən)* – hərbi əsirlərin, yerlərini dəyişmiş şəxslərin, qaçqınların, məcburi köçkünlərin, emiqrantların (mühacirlərin) öz vətəninə qayıtması.

**Replikalar** *(lat. replico – etiraz edirəm)* – tərəflərin çıxışlarının bir hissəsi; məhkəmə prosesində əsas çıxışlar edildikdən sonra tərəflərin mübadilə etdikləri etirazlardan ibarətdir.

**Report** *(fr. report)* – qiymətli kağızları müəyyən müddət keçdikdən sonra yeni, daha yüksək kursla satın almaq öhdəliyi ilə bağlanan birja əqdi. Bu termin altında əqdin özü deyil, onun şərtləri başa düşülür. Həmin şərtlərə görə satıcı möhlət verməyi, alıcı isə qiymətə edilən əlavəni ödəməyi öhdəsinə götürür.

**Report əqdi** – möhtəkir tərəfindən qiymətli kağızların banka günün kursu ilə satışı; əsas şərt həmin qiymətli kağızların müəyyən müddət keçdikdən sonra yüksək kursla satın alınmasından ibarətdir.

**Repressali** *(lat. repressaliae)* – beynəlxalq hüquqda dövlətin digər dövlət tərəfindən pozulmuş hüquqlarını hədə və güc tətbiq etməklə əlaqədar olmayan hərəkətlərin köməyi ilə bərpasına yönələn hüquqauyğun məcburiyyət hərəkətləri.

Qanunsuz balıq ovladığına görə balıqçı gəmisinin tutulması, onun üzərinə həbs qoyulması və əmlakının müsadirə edilməsi r.-yə misal ola bilər. R.-yə müraciət etmək yalnız o halda hüquqauyğun hesab olunur ki, pozuntuya yol vermiş dövlət zərəri ödəməkdən və yaxud dinc prosedurun tətbiqi nəticəsində qəbul edilmiş digər qərarı yerinə yetirməkdən imtina etsin. R. pozuntuya uyğun olmalıdır və ona "ilkin vəziyyətin bərpa edildiyi" andan xitam verilir.

**Repressiyalar** *(lat. repressaliae – tuturam, saxlayıram)* – beynəlxalq hüquqda dövlətlərarası münasibətlərdə hüquqi müdafiə vasitələrindən biri. R. zərər çəkmiş dövlətin digər dövlətin hüquqazidd hərəkətlərinə qarşı fərdi qaydada oxşar cavab tədbirlərinə əl atmasından ibarətdir. R. təqsirkar dövləti vurduğu zərəri ödəməyə, yaxud gələcəkdə onu hüquq pozuntusu törətməkdən çəkinməyə məcbur etmək məqsədinə xidmət edirlər.

Repressiya həm də dövlət orqanları tərəfindən tətbiq edilən divantutucu tədbir, cəzadır.

**Resepissa** – malların əldə edilməsi üçün ilkin iltizam.

**Resepsiya** *(bax: hüququn resepsiyası).*

**Residiv cinayətkarlıq** – bütövlükdə cinayətkarlığın tərkib hissəsindən ibarət olan təkrar cinayətkarlıq. R.c.-ın kriminoloji xarakteristikası bütövlükdə cinayətkarlığın xarakteristikası kimi üç elementdən - cinayətkarlığın vəziyyətindən, strukturundan və dinamikasından ibarətdir.

**Residiv cinayətlər** – cinayətlərin çoxluğunun bir növü. AR CM-in 18.1-ci maddəsinə uyğun olaraq qəsdən cinayət törətməyə görə əvvələr məhkum olunmuş şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi cinayətin residivini yaradır. Cinayətlərin residivi aşağıdakı hallarda təhlükəli sayılır: 1) qəsdən cinayət törətməyə görə əvvəllər iki dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs, yenidən qəsdən cinayət törətməyə görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunduqda; 2) ağır cinayət törətməyə görə əvvəllər azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən ağır cinayət törətdikdə.

Cinayətlərin residivi aşağıdakı hallarda xüsusilə təhlükəli sayılır: 1) qəsdən az ağır və ya ağır cinayət törətməyə görə əvvəllər hər hansı ardıcıllıqla üç dəfədən az olmayaraq azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən qəsdən cinayət törətməyə görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunduqda; 2) ağır cinayət törətməyə görə əvvəllər iki dəfə və ya xüsusilə ağır cinayət törətməyə görə əvvəllər bir dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən ağır cinayət törətdikdə. AR CM-in 83-cü maddəsi ilə nəzərdə tutulmuş qaydada götürülmüş və ya ödənilmiş məhkumluqlar, habelə 18 yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərə görə məhkumluqlar residivin müəyyən olunması zamanı nəzərə alınmır. CM-də nəzərdə tutulmuş əsaslarla və hədlərdə cinayətlərin residivinə görə daha sərt cəza tətbiq edilir.

**Residivə görə cəzanın təyin edilməsi** – AR CM-in 65-ci maddəsinə uyğun olaraq residivə, təhlükəli residivə və xüsusilə təhlükəli residivə görə cəza təyin edilərkən əvvəllər törədilmiş cinayətlərin sayı, xarakteri, ağırlığı və nəticələri, əvvəlki cəzanın islah təsirinin yetərli olmamasına səbəb olan hallar, habelə yeni cinayətin xarakteri, ağırlığı və nəticələri nəzərə alınır. Residivə görə cəzanın müddəti törədilmiş cinayətə görə CM-in xüsusi hissəsinin müvafiq maddəsində müəyyən edilmiş daha ciddi cəza növünün yarısından, təhlükəli residivə görə üçdə ikisindən, xüsusi təhlükəli residivə görə isə dörddə üçündən az ola bilməz. Cinayət törətmiş şəxsin məhkumluğu CM-in xüsusi hissəsinin maddəsində tövsifedici əlamət kimi göstərildikdə, habelə CM-in 62-ci maddəsində nəzərdə tutulmuş müstəsna hallar olduqda, residivə, təhlükəli residivə və ya xüsusilə təhlükəli residivə görə cəza CM-in 65.2 -ci maddəsində müəyyən edilmiş qaydalar nəzərə alınmadan təyin olunur.

**Residivist** *(lat. residivis – qayıdan; hər hansı hadisənin, məsələn, cinayətin təkrar törədilməsi)* – əvvəllər cinayət törətdiyinə görə məhkum olunmuş, sonra isə yenidən cinayət törətmiş (adətən eyni cinayət əməlini) şəxs, cinayətkar. R., hər şeydən əvvəl, böyük ictimai təhlükəli şəxs olması ilə xarakterizə olunur. Cinayət hüququnda xüsusi təhlükəli residivist (yeni cinayət obyektinə, təqsirin formasına, hərəkətlərin xarakterinə görə əvvəllər törədilmiş cinayətə oxşar cinayət törədən şəxs) və ümumi residivist (oxşar olmayan cinayətlər törətmiş şəxs) fərqləndirilir.

**Resipiyent** *(lat. transplantasiya).*

**Res kommunis** *(lat. res communis)* – Roma hüququnda termin. "R.k." termini ümumi mülkiyyətdə olan əşyanı bildirir. R.k. konsepsiyasından orta əsrlərdə açıq dənizdən bütün dövlətlər tərəfindən ümumi istifadəni əsaslandırmaq və açıq dəniz üzərin-

də bəzi dövlətlərin suverenlik iddialarının rədd edilməsi üçün istifadə edilmişdir. Müasir beynəlxalq hüquq nəzəriyyəsində bu konsepsiya ikili təfsirə malikdir: 1) R.k. ümumi mülkiyyətin müxtəlif anlayışlarından biridir (bu anlayış inkişaf etməkdə olan dövlətlərin əksəriyyəti tərəfindən qəbul edilir); 2) R.k. açıq dənizdən bütün dövlətlərin ümumi istifadəsi deməkdir (bu, inkişaf etməkdə olan dövlətlərin əksəriyyəti tərəfindən qəbul edilir). R.k. rejimi üzərində dövlətin ərazi suverenliyinin inkarı hər iki təfsir üçün ümumidir.

**Reskript** *(lat. rescriptum – yazılı cavab)* – **1)** Qədim Romada imperatora təqdim edilmiş suala onun verdiyi yazılı cavab. Bu cavab, yəni r. qanun qüvvəsinə malik idi. Romanın imperiya dövründə yüksək vəzifəli şəxslərin (məsələn, magistratın) sualına cavab verilirdi. Artıq II yüzilliyin ikinci yarısında imperator r.-lərinin külliyyatı tərtib edilmişdi ki, bunun da Roma hüququnun inkişafına böyük təsiri olmuşdur; **2)** monarxiya idarəçilik formasında dövlət başçısının (monarxın, imperatorun, kralın) müəyyən vəzifəli şəxsə (məsələn, nazirə) göndərdiyi hüquqi akt. Belə akt qanun qüvvəsinə malik idi.

**Res nullius** *(lat. res nullius)* – Roma hüququnda termin. "R.n." termini əşyanın heç kimin mülkiyyətinə aid olmadığını bildirir. Əşya, onu birinci olaraq ələ keçirənin mülkiyyəti olur. R.n. termini beynəlxalq hüquqa böyük coğrafi kəşflər dövründə hər hansı bir dövlətin suverenliyi altında olmayan yeni ərazilərin adlandırılması üçün daxil edilmişdir. R.n.-un köməyi ilə sahilyanı dövlətlərin qitə şelfi üzərində suveren hüquqları əsaslandırılmışdır. Müasir qərb doktrinası bu konsepsiyadan dəniz qatının dərinliklərindəki mineral ehtiyatların azad istismarını əsaslandırmaq üçün istifadə edir.

**Respublika** *(lat. respublica, res – iş + publicus – ictimai, ümumxalq)* – idarəçilik forması. R. idarəçilik formasında bütün ali hakimiyyət orqanları ya seçilir, ya da parlament tərəfindən yaradılır. R.-nın iki növü mövcuddur: 1) Prezidentli R.; 2) parlamentli r. Prezidentli r.-da dövlət başçısının və hökumətin səlahiyyətləri seçkili prezidentin əlində cəmləşir (ABŞ-da, Braziliyada). Parlamentli r. isə formal olaraq parlamentin üstünlüyü prinsipinə əsaslanır. Hökumət parlament qarşısında məsuldur. Parlamentli respublikada hökumət parlament yolu ilə deputatlardan, hakim partiyanın, yaxud bir neçə partiyanın (koalision hökumət) siyasi xadimlərindən təşkil edilir.

**Restantlar** – **1)** idarə, müəssisə və təşkilatın balansının yekunlaşdırılması ilə əlaqədar zamana görə hesablanan borclar; **2)** anbarda yığılıb qalan mallar, qalıqlar.

**Restitusiya** *(lat. restitutio – bərpa etmək)* – **1)** mülki-hüquqi müqavilələrin bir növü; əqd etibarsız hesab edildikdə tərəflərin müqavilənin icrasına görə əldə etdiklərini geri qaytarması. Mülki hüquqda ikitərəfli r. ümumi qayda hesab olunur. Müqavilə etibarsız və ya qeyri-qanuni hesab edildikdə hər iki tərəf aldığını digər tərəfə qaytarmalı və ya dəyərini ödəməlidir. Əgər müqavilə (əqd) aldatma, hədə-qorxu gəlmə yolu ilə bağlanmışdırsa, yalnız təqsirli olan tərəf aldığının hamısını qaytarır və çəkilən xərcləri ödəyir, zərər çəkənin təqsirli tərəfdən aldığı isə dövlətin nəfinə keçir (birtərəfli restitusiya); **2)** beynəlxalq hüquqda – bir dövlətin müharibə nəticəsində digər





dövlətə vurduğu ziyanı ödəməsi, yaxud ələ keçirdiyi əmlakı geri qaytarması.

**Retorsiya** *(lat. retorsio – əks hərəkət)* – beynəlxalq hüquqda bir dövlətin ədalətsiz, yaxud qeyri-səmimi hərəkətlərinə digər dövlətin cavab hərəkətləri. R. müxtəlif formalarda həyata keçirilir (məsələn, həmin dövlətlə ticarət əlaqələrinin məhdudlaşdırılması, onun vətəndaşlarının öz ərazisinə gəlməsinə icazə verilməməsi) və ayrı-seçkilik tədbirləri aradan götürüldükdən sonra dərhal dayandırılmalıdır.

**Retragent** – girov qoyulmuş predmetlərin satın alınması ilə məşğul olan şəxs.

**Retratta** – geriyə köçürmə vekseli; etiraz edilmiş trattanı ödəyən şəxs tərəfindən tratta iştirakçılarından birinə göstərilir. R.-nın göstərilməsilə əlaqədar hesablaşmalar hesabı rekambio adlanır.

**Retrfəallıq** – qiymətli kağızların ilkin bildirişlə və qabaqcadan razılaşdırılmış şərtlərlə onların sahibi tərəfindən satın alınması imkanı.

**Retrosedent** – yenidən sığortada qəbul olunmuş riskləri retrosessiyaya verən sığorta və ya yenidənsığorta şirkəti.

**Retrosession müqavilə** – müqavilə növü; bu müqaviləyə uyğun olaraq yenidənsığortaya qəbul olunmuş risklərin sonradan yenidənsığortası həyata keçirilir.

**Retrosessiya** – yenidənsığortaçı tərəfindən artıq öz üzərinə götürdüyü riski digər yenidənsığortaçılara verməsi. R.-ya risk növlərini sonradan parçalamaqla nail olunur. Bəzən yenidənsığorta müqavilələrində "r. hüququ olmadan" qeyd-şərti edilir.

**Revalvasiya** *(re...+ lat. valeo – əhəmiyyətim var, dəyərim var)* – dövlətin pul vahidinin qızıl tərkibinin rəsmən artması, yaxud valyuta məzənnəsinin faktiki artması. Dövlətin tədiyyə və ticarət balansına, daxili konyunkturanın vəziyyətinə, daxili qiymətlər sisteminə və i.a. ciddi təsir göstərir. R. iqtisadiyyata təsirinə görə devalvasiyanın əksidir.

**Revanş** *(fr. revanche – intiqam, əvəz)* – məğlubiyyətə görə çıxarılan əvəz, alınan qisas *(həmçinin bax: revanşizm).*

**Revanşizm** *(fr. revanchisme – intiqam, qisas)* – qisasçılıq – müharibədə məğlub olmuş ölkənin şovinist dairələrinin müharibəyəqədərki sərhədləri və dövlətlərarası münasibətlər sistemini bərpa etmək bəhanəsi ilə yeni müharibə hazırlığına yönəldilmiş siyasəti.

**Revers** *(ing. reverse, lat. revertor – geriyə dönürəm, qayıdıram)* – ticarət hüququnda bir şəxsin digər şəxsə verdiyi yazılı öhdəlik; belə öhdəlikdə adətən nəyəsə təminat verilir, nə isə təsdiq olunur. Məsələn, yükgöndərən tərəfindən gəmi kapitanına verilən təminat məktubu. Həmin məktubda yükgöndərən mümkün itkilərə görə riski öz üzərinə götürür.

**Reversiya** – **1)** əmlakın ilkin sahibinə qaytarılması; **2)** öhdəliyin ödənilməsindən sonra öhdəliyin təmin edilməsi üçün hər hansı qiymətli sərvətlərin müvəqqəti olaraq kreditora verilməsi.

**Revokasiya** – **1)** müvafiq səncamın, yaxud tapşırığın rədd edilməsi; **2)** verilmiş çekin rədd edilməsinə dair çek verənə edilən təklif.

**Revolver krediti** *(ing. revolve – qayıtmaq, müntəzəm olaraq əvəz etmək)* – yeniləşdirilməli olan kredit; buna uyğun olaraq kredit borcun müəyyən edilmiş limiti çərçivəsində və borcun istənilən vaxt ödənilməsi müddətində kredit sazişi tərəfləri arasında əlavə danışıqlar olmadan verilir.

**Reyestr** *(lat. registrum – siyahı)* – **1)** siyahı, kitabça; **2)** işləri, sənədləri, əmlakı və i.a. qeydəalma kitabı (siyahısı).

**Reyxsbank** *(alm. reichsbank, reich – dövlət, imperiya + bank – bank)* – Almaniyanın 1875-ci ildən İkinci dünya müharibəsinin sonunadək fəaliyyət göstərmiş mərkəzi emissiya bankı. Faşist Almaniyasının təcavüzü üçün maliyyə ehtiyatlarının səfərbər edilməsində son dərəcə mühüm rol oynamışdır. 1945-ci ildə Berlin (Postdam) konfransının qərarına əsasən ləğv edilmişdir.

**Reyxskansler** *(alm. reichskanzler)* – **1)** 1871-1918-ci illərdə Almaniya imperiyasında imperatorun təyin etdiyi vahid ümumalmaniya naziri və bundesratın sədri; **2)** Veymar Respublikasında 1919-1933-cü illərdə Reyxstaqın razılığı ilə təyin etdiyi dövlət başçısı.

**Reyxsmarka** *(alm. reichsmark)* – 1924-1948-ci illərdə Almaniyada 100 reyxspfenniqə bərabər pul vahidi. İkinci dünya müharibəsində işğal olunmuş ərazilərdə də tədavül olunmuşdur. 1948-ci ildə ləğv edilmişdir.

**Reyxstaq** *(alm. reichstag, reich – hökumət, imperiya + tag – məclis)* – **1)** "Müqəddəs Roma imperiyası"nın alman imperatoru yanında silki – nümayəndəli orqanı (XII əsrdən); imperiya seymi adlanırdı; **2)** Almaniya imperiyasında müəssislər məclisi, sonralar isə Şimali Almaniya İttifaqının aşağı palatası (1867-1871-ci illərdə). R. 1871-1918-ci illərdə qanunvericilikdə iştirak edən seçkili orqan olmuşdur; **3)** Veymar Respublikasında parlamentin aşağı palatası. R. faşist Almaniyasında 1933-cü ildən yalnız formal olaraq saxlanılırdı. O, 1945-ci ildə ləğv edilmişdir.

**Reytar** *(alm. reiter – atlı, süvari)* – XVI - XVII yüzilliklərdə Qərbi Avropanın bir sıra ordularında və Rusiyada ağır silahlanmış süvari. İlk dəfə X yüzilliyin ortalarında alman knyazlıqlarında meydana gəlmişdir. R.-lar cəlbetmə yolu ilə yığılır, uzun qılınc, 2 tapança, tüfəng və ya karabinlər silahların, başlarına dəbilqə qoyur və sinəbənd taxırdılar. Rusiyada R.-lar XVII yüzilliyin əvvəllərində meydana gəlmişdir. XIII yüzilliyin əvvəllərində draqun alayları ilə əvəz edilmişdir.

**Rezervasiya (rezervatlar)** – ölkənin köklü sakinlərinin məskunlaşdırılması üçün nəzərdə tutulan ayrı-ayrı ərazilər.

Hazırda ABŞ-da, Kanadada və Amerika qitəsinin bir sıra digər dövlətlərində hinduların, Avstraliyada avstraliyalı aborigenlərin məskunlaşdırılması üçün mövcuddur.

**Rezident** *(fr. resident, lat. residens – öz yerində qalan)* – **1)** orta əsrlərdə göndərildiyi dövlətlərdə daimi qalan xarici diplomatik nümayəndə; **2)** metropoliyanın protektoratdakı nümayəndəsi; **3)** kəşfiyyatın xarici ölkədə yaşayan nümayəndəsi; **4)** maliyyə qanunvericiliyinə görə aşağıda göstərilən tələblərin birinə cavab verən istənilən fiziki şəxs: a) təqvim ilində başa çatan hər hansı ardıcıl olan 12 aylıq dövr ərzində üst-üstə 182 gündən artıq vaxtda həqiqətən Azərbaycan Respublikasının ərazisində olan; b) təqvim ili içərisində, yaxud bir təqvim ili ərzində xarici ölkədə Azərbaycan Respublikasının dövlət xidmətində olan; c) AR VM-in 13.2.5.1-ci maddəsinin 2-ci və 3-cü abzaslarında







Azərbaycan Respublikasının ərazisində və ya xarici ölkədə (hər hansı birində) fiziki şəxsin olma müddəti 182 gündən artıq olmadıqda, həmin fiziki şəxs aşağıdakı ardıcıllıqla göstərilən meyarla Azərbaycan Respublikasının Prezidenti sayılır: daimi yaşayış yeri; həyati mənafelərinin mərkəzi; adətən yaşadığı yer; Azərbaycan Respublikasının vətəndaşlığı.

**Rezidentlik** *(lat. residentia)* – dövlət, hökumət başçılarının xarici ölkəyə rəsmi səfərə gəldikdən sonra onlar üçün ayrılmış yer, bina (iqamətgah).

**Rəcm** *(islamda)* – ancaq zinakarlığa görə tətbiq edilən ölüm cəzası növü, daşqalaq etmək. R. haqqında məsələ bütünlüklə fiqhin üqubət bölməsinə aiddir. R. islamaqədərki adət hüquq normalarından mənimsənilmişdir və o, Quran və Sünnədə təsdiq edilir. R. ancaq məhkəmənin hökmü ilə tətbiq edilir; hökm qazının və ya onun müvəkkil etdiyi şəxsin nəzarəti altında çıxarılır. Xüsusi olaraq ayrılmış yerdə toplanmış adamlar məhkum olunmuş şəxsi ölənədək daşla vururlar. Zinakarlığın şahid ifadələri ilə təsdiq edildiyi hallarda birinci daşları şahidlər, əməl etiraf edildikdə isə daşları birinci imam və ya qazı atır. Cəzalandırılmış şəxs qaçmamaq üçün qolları bağlı, ya dizlərinə, ya da qurşağadək torpağa basdırılır. Məhkum edilmiş qadınlar barəsində hökmün icrası zamanı onun üzərinə örtük atılır. R.-ə məhkum olunmuş şəxsin anlaqsız olduğu aşkar edildikdə cəza ləğv edilir. Belə cəzaya hamilə qadın məhkum edildikdə məzhəblərdən birinə görə r. qadının hamiləlikdən azad olmasınadək təxirə salınır, digər məzhəbə görə isə uşağı əmizdirib qurtaranadək, yaxud birdəfəlik cəzadan azad olunur.

**Rəisə qarşı zorakı hərəkətlər etmə** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 330-cu maddəsində nəzərdə tutulmuşdur. Rəisin hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi ilə əlaqədar onun sağlamlığına yüngül zərər vurmada və ya onu döymədə ifadə olunur.

**Rəiyyət** *(ərəb. təbəə)* – orta əsrlərdə Yaxın və Orta Şərqin bir sıra ölkələrində, o cümlədən Azərbaycanda əvvəllər bütün təbəələri, sonralar isə vergi verən xüsusi kəndli və şəhərli təbəqəsini bildirən termin. Sonrakı dövrlərdə əsasən xərac verənlər təbəə adlandırılmışdır. Osmanlı imperiyasında XVIII yüzillikdən başlayaraq ictimai vəziyyətindən asılı olmayaraq, qeyri-müsəlman əhali rəaya (rəiyyətin cəmi) adlandırılırdı.

**Rəiyyətvari** – Hindistanda torpaq-vergi sistemi; XVIII yüzillikdə ingilis müstəmləkəçiləri təsis etmişdilər. R.-nin tətbiq edildiyi yerlərdə torpaqların hamısı (əkin yerləri və həyətyanı sahələr istisna olaraq) Ost-Hind şirkəti tərəfindən müsadirə edilir və dövlət xəzinəsinə renta – vergi verən icma başçıları – icarədarlara təhkim edilirdi.

**Rəncbər** – XVI-XIX yüzilliklərdə Azərbaycanda, İranda kəndli kateqoriyası. R.-lər feodaldan torpaq, su, toxum, qoşqu heyvanı və i.a. alır, bunun müqabilində isə məhsulun müəyyən hissəsinin 2/3-dən 4/5 hissəsinədək) ona verirdi. Azərbaycanın bəzi xanlıqlarında ancaq mülkədarın şəxsi təsərrüfatında çalışanlar r. adlanırdı. Rəiyyətdən fərqli olaraq kənd icmasına daxil olmayan r.-lər torpağa deyil, şəxsən sahibkara təhkim idilər. Xanın əmri ilə rəiyyət r.-ə çevrilə bilərdi. Başqa xanlıqlardan qaçanlar və əsirlər hesabına r.-lərin sayı artırdı. Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra, 1845-ci il fərmanına əsasən r.-lər təhkimli kəndli kateqoriyasına daxil edilmişdilər.

**Rəsmi dil** – dövlətin qanunvericilikdə, rəsmi kargüzarlıqda, mühakimə icraatında, təhsildə və i.a. istifadə etdiyi əsas dil. Çoxmillətli ölkələrdə (məsələn, Kanadada, Hindistanda, İsveçrədə, İspaniyada) rəsmi dil (dillər) konstitusiya ilə müəyyən edilir. Bir sıra dövlətlərin konstitusiyasında r.d. haqqında xüsusi müddəa nəzərdə tutulmur və ölkə əhalisinin əsas dili r.d. hesab olunur. Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir.

**Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə** – idarəetmə qaydası əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 320-ci maddəsində nəzərdə tutulmuşdur. Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırmada və ya bu cür sənədi satmada, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlamada və ya satmada ifadə olunur.

**Rəsmi sənədləri, ştampları, möhürləri oğurlama və ya məhv etmə** – idarəetmə qaydası əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 326-cı maddəsində nəzərdə tutulmuşdur. Rəsmi sənədləri, ştampları və ya möhürləri tamah məqsədi və ya digər şəxsi niyyətlə oğurlama, məhv etmə, zədələmə və ya gizlətmədə ifadə olunur.

**Rəsmi təfsir** *(bax: qanunun rəsmi təfsiri).*

**Rəy** *(ərəb. fikir, mülahizə)* – fiqh məsələlərində şəxsi fikir, mülahizə. Bəzi sünni məzhəblərinin nümayəndələri müsəlman hüququ mənbələrindən biri kimi r.-in tətbiq edilməsinin mümkünlüyünü iddia edirlər. "R." spesifik anlayışının yaranması xəlifə Ömərin (634-644-cü illər) adı ilə əlaqələndirilir. Xəlifə Ömər Məhəmməd peyğəmbərin tərəfdarlarından olan Abdullah ibn Məsud tərəfindən hakim qismində İraqa göndərilmiş və ona "necə görürsən və güman edirsən" prinsipi ilə mühakimə etmək ixtiyarı verilmişdir. Bu zaman xəlifə izah edirdi ki, r. dedikdə analogiya (qiyas) və ictimai fayda (məsləhət) üzrə mühakimə etmək, mülahizə yürütmək başa düşülür. R. kateqoriyaları anlayışından istifadə etmək bacarığı ilahiyyatçı-hüquqşünasın (faqihin) peşə ustalığının əsas elementlərindən birini təşkil edir.

**Rielter** – xüsusi lisenziya əsasında daşınmaz əmlak bazarında vasitəçilik fəaliyyətini və digər fəaliyyət növünü həyata keçirən hüquqi şəxs (və ya fərdi sahibkar). Bəzi normativ aktlarda "r." istilahı "Rieltor" termini kimi də göstərilir.

**Rielter fəaliyyət** – hüquqi şəxslər və ya digər fərdi sahibkarlar tərəfindən maraqlı şəxslə müqavilə (yaxud etibarnamə) əsasında onun adından və onun hesabına, yaxud öz adından, lakin maraqlı şəxsin hesabına torpaq sahələrinə, binalara, tikililərə, qurğulara, yaşayış və ya qeyri-yaşayış sahələrinə dair mülki-hüquqi əqdlərin bağlanması ilə həyata keçirilən fəaliyyət. Daşınmaz əmlakın qiyməti üzrə xidmətlər r.f. hesab olunmur.

**Riksdaq** – İsveçdə birpalatalı parlamentin adı. 18 yaş həddinə çatmış vətəndaşlar tərəfindən 3 il müddətinə seçilir. R.-a talman başçılıq edir.





**Riqsdaq** – 1953-cü ilədək Danimarkada parlamentin adı.

**Rimessa** – beynəlxalq hesablaşmalarda xarici valyuta ilə ödəmə sənədi (tratta, çek, pul köçürməsi); borclu tərəfindən üçüncü şəxsdən milli valyuta ilə alınır və borcun ödənilməsi üçün xarici kreditor göndərilir.

**Risk** *(bax: təsadüfi tələf olma riski).*

**Ristorno (ritorno)** – hüquq verən halların meydana çıxması nəticəsində digər tərəfin müqaviləyə xitam verdiyi zaman sığortaçı tərəfindən sığorta mükafatının saxlanması. Adətən ikiqat sığorta zamanı mövcud olur.

**Roba** – Qədim Rus dövlətində kölə qadın. "Rus pravdası"na görə r.-nın öz ağasından olan uşaqları ağanın ölümündən sonra anaları ilə birlikdə azadlıq əldə edirdilər. Xolopun da arvadı r. adlanırdı.

**Robberi** – ingilis-amerkan hüququnda zorakılıq və ya quldurluqla (şəraitdən asılı olaraq) müşayiət olunan soyğunçuluq.

**Rodos dəniz qanunu** – Bizansda VII-VIII yüzilliklərdə tərtib olunmuş dənizçilik və dəniz ticarəti qaydaları külliyyatı. İri ticarət mərkəzi olan Rodos adasının adı ilə bağlıdır. Gəmiqayırma və gəminin idarə olunması (gəmiçilik elmi), yük və sərnişin daşınması. Gəmi icarəsi, qəza hallarında yüklərin gəmidən tullanması və i.a. aid qaydalardan ibarət olmuşdur. R.d.q.-nun bir sıra normaları beynəlxalq ticarətdə XV yüzilliyədək tətbiq edimişdir.

**Roll-over krediti** – üzən məzənnə üzrə verilən orta və ya uzunmüddətli kredit; kreditin bütün müddəti ərzində marja artıq bazar məzənnəsi dəyişilməz qalır.

**Roman-german hüquq sistemi** – müasir dövrün əsas hüquq sistemlərindən (ingilis-sakson və müsəlman hüquq sistemi ilə yanaşı) biri. R.-g.h.s.-nin fərqləndirici əlamətlərindən biri onun Roma hüququ əsasında formalaşmasıdır. Hazırda hüququn bu ailəsinə Avropa qitəsinin bütün ölkələri (buna görə də onu bəzən qitə hüquq sistemi adlandırırlar) daxildir. Bundan başqa, Latın Amerikası ölkələrinin, Afrika və Asiyanın xeyli hissəsinin hüquq sistemi bu ailəyə aiddir.

R.-g.h.s. bir çox ölkələrdə yerli, ənənəvi hüquqla əlaqələndirilir. Yaxın Şərq – müsəlman ölkələrində, Yaponiyada ənənəvi etik-hüquq normaları, Afrika ölkələrində adət hüququ r.-g.h.s.-nə xeyli uyğunlaşdırılmışdır.

R.-g.h.s. üçün normaların optimal ümumiləşdirilməsi (mücərrədlik), hüququn ümumi və xüsusi hüquqa bölgüsü, hüququn müxtəlif sahələrə bölgüsü səciyyəvidir. Hüququn başlıca mənbəyi qanun hesab olunur. Qanunverici hüququn bütün əsas sahələrini məcəlləşdirməyə səy göstərir. İngilis-sakson hüquq sistemindən fərqli olaraq məhkəmə presedenti yardımçı mənbə təyinatına malikdir, yaxud ümumiyyətlə o, mənbə qismində tanınmır. R.-g.h.s. mənbə qismində adətlərə də son dərəcə məhdud dairədə yanaşır.

**Roma-holland hüququ** – XV-XVIII yüzilliklərdə Hollandiyanın Niderland əyalətində mövcud olmuş hüquq sistemi. Roma hüququnun yerli ticarət adətləri ilə yenidən işləmiş qarışığından ibarət olmuşdur. Napoleon tərəfindən Niderlandda fransız hüququnun tətbiqindən sonra r.-h.h. XIX yüzilliyin başlanğıcında yalnız İngiltərənin hakimiyyəti altına düşən holland müstəmləkələrində saxlanmışdır. Hazırda r.-h.h. Cənubi Afrika Respublikasının (CAR), Namibiyanın, Lesotunun, Zimbab-

venin, Svazilendin, Bostvanın ərazisində, habelə qismən Şri-Lankada qüvvədədir. R.-h.h. sistemi güclü dəyişikliyə məruz qalaraq ingilis hüququ ilə qarışmışdır.

**Roma hüququ** – Qədim Romanın ən çox inkişaf etmiş hüquq sistemi. R.h. antik cəmiyyətin bəşəriyyətə bəxş etdiyi hüquqi fikrin və hüquq mədəniyyətinin zəngin xəzinəsidir.

Romanın klassik dövr hüquqşünasları hüququ ümumi hüquqa (jus publicum) və xüsusi hüquqa (jus privatum) bölürdülər. Roma ümumi hüququ azömürlü olmuş, onun yalnız bəzi terminləri, lakin başqa məzmunda qorunub saxlanmışdır. Əksinə, Romanın xüsusi (mülki hüquq) hüququ orta əsrlərdə və yeni dövrdə bir çox ölkələrin mülki qanunvericiliyinin formalaşmasında və inkişafında müstəsna rol oynamışdır. R.h.-nun əsasını təşkil edən xüsusi mülkiyyət hüququ yeni dövrdə Qərbi Avropa ölkələrində burjua hüququnun təşəkkülündə mühüm əhəmiyyət kəsb etmişdir. Roma imperatoru Yustinianın dövründə r.h. məcəllələşdirilmişdir (VI yüzillikdə). Üç toplu – İnstitusiyalar, Digestlər və İmperator konstitusiyalarından ibarət olan məcəllə tərtib edilmiş və həmin aktlara qanun qüvvəsi verilmişdir. Sonralar bu toplulara dördüncü toplu – Novellalar da birləşdirilmişdir. R.h. bu gün Azərbaycan Respublikasının da mənsub olduğu roman-german hüquq sisteminin yaranmasının əsasına xidmət etmiş, bu və ya digər dərəcədə bütün digər müasir hüquq sistemlərinin inkişafına böyük təsir göstərmişdir.

**Roma hüququnun resepsiyası** – orta əsrlərdə və yeni dövrdə Roma hüququnun Qərbi Avropa və dünyanın digər dövlətləri tərəfindən mənimsənilməsi. R.h.r. XII yüzillikdən başlayaraq XVI yüzilliyin sonunadək böyük sürətlə davam etmiş və öz inkişafının ən yüksək pilləsinə qalxmışdır. R.h.r. Almaniyada daha dərin iz buraxmışdır. Burada Roma hüququ bir qədər dəyişdirilmiş halda (pandekt hüququ) XIX yüzilliyədək qüvvədə olmuşdur. Fransanın 1804-cü il Mülki Məcəlləsi (Napoleon Məcəlləsi) Roma xüsusi (mülki) hüququnun prinsip və müddəaları əsasında tərtib edilmişdir.

**Roma kuriyası** – katolik kilsəsinin və Vatikanın başçısı olan Roma papasının tabeliyində olan idarələr. R.k. ilk dəfə XII yüzillikdə papa sarayının müxtəlif idarələri əsasında yaranmışdır. R.k.-na müxtəlif konqreqasiyalar (kilsə nazirlikləri), ali kilsə məhkəmələri və dəftərxanaları daxildir.

**Roma müttəfiqləri (socii)** – qədim dövrdə mövcud olmuş İtaliya icmaları; əvvəllər suveren olub yalnız müqavilə əsasında Roma ilə bağlı idilər. Eramızdan əvvəl 338-ci ildə Romanın tabeliyinə keçmişlər. Özünüidarə cəhətdən latınlar adlanan r.m.-nin daha böyük imtiyazları olmuşdur. Onlar tam özünüidarədən və Roma vətəndaşlarının bir sıra hüquqlarından istifadə edirdilər. R.m.-nin aşağı kateqoriyasını deditisilər təşkil edirdilər. Onların yalnız məhdud özünüidarə hüquqları var idi.

**Rota** *(alm. Rotte – kütlə dəstə)* – əksər dövlətlərin silahlı qüvvələrində taktiki bölmə. Atıcı (motorlu atıcı), tank, minaatan, radiotexniki, istehkam, avtomobil, dəniz piyadası və i.a. r.-ları vardır. İlk dəfə XV yüzilliyin sonu və XVI yüzilliyin əvvəllərində Qərbi Avropa muzdlu ordularında yaradılmışdır. Azərbaycanda ilk r.-lar 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti tərəfindən ölkə Silahlı Qüvvələrində yaradılmışdır.

**Rotasiya prinsipi** – konstitusiya hüququnda nümayəndəli hakimiyyət orqanlarının (məsələn, ABŞ Konqresi senatının 1/3 hissəsi iki ildən bir yenidən seçilir) qismən yeniləşdirilməsi prinsipi. Deputat korpusunun tərkibində gözlənilməz dəyişikliklərdən qaçmağa, nümayəndəli orqanın işində sabitliyin və varisliyin təmin olunmasına imkan yaradır.





**Rotmistr** *(alm. rittmeister; ritt – süvarilər dəstəsi + meister – rəis)* – bəzi xarici orduların və çar Rusiyası ordusunun süvari qoşunlarında zabit rütbəsi; piyada qoşununda kapitan, kazak qoşununda yesaul rütbəsinə uyğun idi.

**Royalistlər** *(fr. royaliste – kral adamı)* – kral hakimiyyəti adamları, monarxistlər. "R." termini ilk dəfə Böyük Fransa inqilabı dövründə Burbonlar monarxiyasının tərəfdarlarını, inqilabın düşmənlərini bildirmək üçün işlədilmişdir.

**Royalti** – Azərbaycan Respublikasının vergi qanunvericiliyinə görə ədəbiyyat, incəsənət, yaxud elm əsərləri, proqram təminatı, kinematoqrafik filmlər üzərində müəllif hüquqlarından istifadə olunması, yaxud istifadə hüquqlarının verilməsinə görə, istənilən planetə, ticarət markasına, dizayn, yaxud modelə, plana, məxfi düstura, yaxud prosesə, sənaye, kommersiya, yaxud elmi təcrübəyə aid olan informasiyaya, sənaye, kommersiya və ya elmi avadanlıqdan istifadə, yaxud istifadə hüquqlarının verilməsinə görə mükafat şəklində alınan ödənişlər.

**Ruhi həyəcan (güclü ruhi həyəcan vəziyyəti)** – cinayət hüququnda cinayət törətmiş şəxsin məsuliyyətini yüngülləşdirən hallardan biri (AR CM-in 59.1.8-ci maddəsi). R.h. insanı öz hərəkətlərini ölçüb-biçmək və ifadə etmək iqtidarından məhrum etmir, lakin özünə nəzarəti və qəbul edilən qərarlara tənqidi yanaşmanı mühüm dərəcədə çətinləşdirir. R.h. özlüyündə deyil, yalnız zərər çəkmiş şəxsin qeyri-qanuni hərəkətləri nəticəsində baş verdikdə məsuliyyəti yüngülləşdirən hal kimi qiymətləndirilir.

**Ruhi xəstəlik (psixi xəstəlik)** – normal psixi fəaliyyətin pozulmasında ifadə olunan xəstəlik. R.x. şəxsin öz hərəkətləri barəsində özünə hesabat verməmək və ya hərəkətlərinə rəhbərlik etmək imkanına böyük təsir göstərir. R.x. qavrama, təfəkkür, yaddaş, emosiya, diqqət, iradə, həvəs və davranışın pozulmasında ifadə olunur. Aşağıdakılar r.x. hesab olunur: şizofreniya, epilepsiya, paranoya, oliqofreniya və i.a. Qanunvericilik r.x.-ə tutulmuş fəaliyyət qabiliyyətinin müəyyən dərəcədə məhdudlaşdırılmasını nəzərdə tutur. Mülki qanunvericiliyə uyğun olaraq ruhi xəstələr fəaliyyət qabiliyyəti olmayan şəxslər hesab edilə bilər və onların üzərində qəyyum təyin olunur. İkisindən biri fəaliyyət qabiliyyətini itirmiş şəxs hesab edilən şəxslər arasında nikah bağlanmasına yol verilmir, bağlandıqda isə belə nikah etibarsız sayılır. Cinayət qanunvericiliyinə uyğun olaraq ictimai təhlükəli əməl törətmiş şəxsdə ruhi xəstəliyin olduğu müəyyən edildikdə o, anlaqsız sayılır və ona tibbi xarakterli məcburiyyət tədbirləri tətbiq olunur.

**"Rus qanunu"** – IX-X yüzilliklərdə şərqi slavyanların və Kiyev Rus dövlətinin adət hüququ. Rusiyanın yunanlarla 911-ci və 944-cü il müqavilələrində, habelə "Rus pravdası"nda qismən əks etdirilmişdir. Cinayət, vərəsəlik, ailə hüququ və prosessual hüquq normalarından ibarət olmuşdur.

**"Rus pravdası"** – qədim rus hüquq külliyyatı; əsasını X-XI yüzilliklərin adət hüquq normaları təşkil edirdi. Külliyyatda knyaz məhkəmə təcrübəsi də ehtiva olunurdu. "R.p." özündə "Rus qanunu"nun ayrı-ayrı normalarını, Yaroslav Mudrının Pravdasını, Yaroslaviçin Pravdasını, Vladimir Monomaxın Nizamnaməsini və i.a. ehtiva edirdi.

Külliyyatın üç redaksiyası – Qısa, Geniş və İxtisar edilmiş "r.p." məlumdur. "R.p." mülkiyyət hüququnu, borc münasibətlərini, vərəsəlik hüququnu, ailə münasibətlərini tənzimləyir, mühakimə icraatı, cinayət istintaqı təhqiqat qaydalarını, həmçinin şahidlərin dindirilməsi qaydasını nəzərdə tuturdu. "R.p." bütövlükdə rus dövlətində feodal münasibətlərini əks etdirirdi. Kənd sakinlərinin (smerdlərin, xolopların, zakupların) iqtisadi və şəxsi asılılığını gücləndirir, cəmiyyətin sosial differensiasiyasını dərinləşdirir və ticarətin inkişafını müəyyən edirdi.

**Rüsum** *(ərəb. "rəsm", "vergi", "gömrük", "kirayə haqqı")* – orta əsrlərdə bir sıra Şərq ölkələrində, o cümlədən Azərbaycanda, ümumiyyətlə, vergi, gömrük mənasında işlədilmiş termin. Bəzən rüsumat da adlandırılmışdır.

**Rüsumlar** *(bax: yerli vergilər və rüsumlar).*

**Rüsumsuz ticarət mağazası** – Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq mallardan gömrük rüsumları, vergilər alınmadan və onlara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən Azərbaycan Respublikasının gömrük ərazisində (beynəlxalq hava və dəniz limanlarında və Azərbaycan Respublikası gömrük orqanları tərəfindən müəyyən edilmiş digər yerlərdə) həmin malların gömrük nəzarəti altında satılmasından ibarət gömrük rejimi (AR GM-in 51-ci maddəsi).

**Rüşvət** *(bax: rüşvətxorluq).*

**Rüşvət alma** – dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 311-ci maddəsində nəzərdə tutulmuşdur. Rüşvət verənin və ya onun təmsil etdiyi şəxsin xeyrinə hərəkətlərə (hərəkətsizliyə) görə, bu hərəkətlərin (hərəkətsizliyin) edilməsi vəzifəli şəxsin vəzifə səlahiyyətlərinə daxil olduqda və ya o öz qulluq mövqeyinə görə belə hərəkətlərə (hərəkətsizliyə) yardım edə bildikdə, eləcə də xidmət üzrə ümumi himayədarlığa və ya laqeydliyə görə vəzifəli şəxs tərəfindən şəxsən və ya vasitəçidən istifadə etməklə pul, qiymətli kağızlar, digər əmlak və ya əmlak xarakterli mənfəət şəklində rüşvət almada ifadə olunur.

**Rüşvətxorluq** – cinayət hüququnda iki növ (rüşvət alma, rüşvət vermə) cinayət tərkibini əhatə edən anlayış. R.-da vasitəçilik rüşvətin bir şəxsdən digərinə verilməsinə yönələn hərəkətlərin (məsələn, rüşvət predmetinin bilavasitə verilməsi, bunun üçün şərait yaradılması, xüsusi yer seçilməsi və i.a.) edilməsidir.

**Rüşvət vermə** – dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 312-ci maddəsində nəzərdə tutulmuşdur. Şəxsən və ya vasitəçidən istifadə etməklə vəzifəli şəxsə rüşvət verməkdə ifadə olunur.

**Ryadoviçlər** – Qədim Rus dövlətində müqavilə (ryad) üzrə feodala xidmət edən və beləliklə, ondan müəyyən iqtisadi, şəxsi asılılıqda olan şəxslər.





# -S-

Sabit girov ........ 904
Sablet ........ 904
Sabotaj ........ 904
Sadə veksel ........ 904
Sadizm ........ 904
Sağlam ətraf mühitdə yaşamaq hüququ ........ 904
Sağlamlığın qorunması hüququ ........ 904
Sahib divan ........ 905
Sahibkarlıq ........ 905
Sahibkarlıq fəaliyyəti ........ 905
"Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu ........ 905
Sahiblik ........ 905
Sahibsiz əmlak ........ 905
Sahil hüququ ........ 905
Sahilyanı şelf haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozma ........ 905
Saxlama ........ 906
Saxlama müqaviləsi ........ 906
Saxlanc ........ 906
Saxlanc müqaviləsi ........ 906
Saxta çek ........ 906
Saxta kredit və ya hesab kartlarını və ya başqa ödəniş sənədlərini hazırlama və ya satma ........ 906
Saxtalaşdırılmış (qondarma) veksel ........ 906
Saxta müflisləşmə ........ 907
Saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma ........ 907
Saxta veksel ........ 907
Sakko-Vansetti mühakiməsi ........ 907
"Sakson güzgüsü" ........ 907
Saldo ........ 907
"Saliç pravdası" ........ 907
Samuraylar ........ 908
Sanasiya ........ 908
Sanasiya prosesi ........ 908
"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının qanunu ........ 908
Sanksiya ........ 908
Sapalaq ........ 909
Satellit ........ 909
Satisfaksiya ........ 909
Satrop ........ 909
Satropluq ........ 909
Saziş ........ 909
Sbir ........ 909
Seçici ........ 909
Seçici siyahıları ........ 909
Seçki birlikləri ........ 910
Seçki blokları ........ 910
Seçki bülleteni ........ 910
"Seçki coğrafiyası" ........ 910
Seçkiçilər ........ 910
Seçki dairələri ........ 910
Seçki girovu ........ 910
Seçki hakimiyyəti ........ 910
"Seçki həndəsəsi" ........ 910
Seçki hərəkatı ........ 910
Seçki hüquqlarının həyata keçirilməsinə mane olma ........ 910
Seçki hüququ ........ 911
Seçki hüququnun həyata keçirildiyi yer ........ 911
Seçki ixtisasları ........ 911
Seçki kampaniyası ........ 911
Seçki komissiyaları ........ 911
Seçki komissiyalarının qanuni fəaliyyətinə mane olma ........ 911
Seçki korpusu ........ 911
Seçki kuriyaları ........ 911
Seçki kvotası ........ 912
Seçki qutusu ........ 912
Seçkili vəzifələr ........ 912
Seçki metri ........ 912
Seçki Məcəlləsi ........ 912
Seçki məntəqələri ........ 912
Seçki orqanları ........ 912
Seçki ortası ........ 912

Seçki prosesi ............ 912
Seçki senzləri ............ 913
Seçki sistemi ............ 913
Seçki və ya ümumxalq səsverməsi (referendum) sənədlərini saxtalaşdırma, bilə-bilə səsləri düzgün hesablamama, yaxud səsvermənin gizliliyini pozma ............ 913
Sedent ............ 913
Sexlər ............ 914
Seksual xarakterli hərəkətlərə məcbur etmə ............ 914
Seksual xarakterli zorakılıq hərəkətləri ............ 914
Sekvestr ............ 914
Seqreqasiya ............ 914
Sequn ............ 914
Sequnluq ............ 914
"Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının qanunu ............ 914
Senat [1] ............ 915
Senat [2] ............ 915
Senator ............ 915
Senatuskonsult ............ 915
Seneşal ............ 915
Sensitometriya ............ 915
Sentensiya ............ 915
Senturion ............ 915
Senturiya ............ 915
Senyor ............ 916
Senyoriya, senyeriya ............ 916
Senyorluq ............ 916
Senz ............ 916
Senzitari ............ 916
Senziva ............ 916
Senzor ............ 916
Senzura ............ 916
Separatçılıq ............ 916
Separat sülh (birtərəfli sülh) ............ 916
Serjant ............ 917
Sertifikat ............ 917
Sertiorari ............ 917
Servaj ............ 917
Servitutlar ............ 917
Servlər ............ 917
Sessiya ............ 917
Setessiya ............ 917
Settlment ............ 917
Seyid ............ 917
Seym ............ 918
Səbəbli əlaqə ............ 918
Sədəqə ............ 918
Sədr-i əzəm ............ 918
Səfərbərlik ............ 919
Səfir ............ 919
Səfirlik ............ 919
Səfirlik hüququ ............ 919
Səhlənkarlıq ............ 919
Səhm ............ 919
Səhmdar ............ 920
Səhmdar banklar ............ 920
Səhmdar cəmiyyəti ............ 920
Səhmdar hüququ ............ 920
Səhmdar kommanditası ............ 920
Səhmdar registri ............ 920
Səhm kapitalı ............ 920
Səhmlər konversiyası ............ 920
Səhmlər sertifikatı ............ 920
Səhmləşdirmə ............ 920
Səhm məzənnəsi ............ 920
Səhm nəzarət paketi ............ 920
Səlahiyyət ............ 920
Səlahiyyətli banklar ............ 920
Sələmçi ............ 921
Sələmçilik ............ 921
Sələm kapitalı ............ 921
Səmimi peşmançılıq ............ 921
Sənəd ............ 921
Sənədləşdirilmiş akkreditiv ............ 921
Sənədləşdirilmiş informasiya (sənəd) ............ 921
Sənədləşdirilmiş tratta ............ 921
Sənədləşdirilmiş veksel ............ 921
Sənədli inkasso ............ 921
Sənədli köçürmə vekseli ............ 921
Sənədsiz qiymətli kağızlar ............ 921
Sənət vergisi ............ 922
Səpuhlar (sepuhlar) ............ 922
Səranə ............ 922
Sərbaz ............ 922
Sərbəst anbar ............ 922
Sərbəst gömrük zonası ............ 922
Sərbəst nümunələr ............ 922
Sərbəst toplaşmaq azadlığı ............ 922
"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının qanunu ............ 922
Sərdar ............ 922
Sərəncam ............ 922
Sərəncam hüququ ............ 923





Sərəsgər ............ 923
Sərhəd xidməti qaydalarını pozma ............ 923
Sərhəd komissarları ............ 923
"Sərhəd qoşunları haqqında" Azərbaycan Respublikasının qanunu ............ 923
Sərhəd qoşunu ............ 923
Sərhədlərin delimitasiyası ............ 923
Sərhədlərin demarkasiyası ............ 923
Sərhəd münaqişələri ............ 924
Sərhəd nişanı ............ 924
Sərhəd nümayəndələri ............ 924
Sərhəd rejimi ............ 924
Sərhəd sazişləri ............ 924
Sərhəd suları ............ 924
Sərhəd zonası ............ 924
Sərhəng ............ 924
Sərxoş halda törədilmiş cinayətə görə məsuliyyət ............ 924
Sərxoşluq ............ 924
Sərkərdə ............ 925
Sərmayə ............ 925
Sərnişin daşınması müqaviləsi ............ 925
Sərtib ............ 925
Səsvermə turu ............ 925
Səyyar vergi yoxlaması ............ 925
Sığınacaq ............ 925
Sığınacaq hüququ ............ 925
Sığorta ............ 926
Sığorta agenti ............ 926
Sığorta aktı ............ 926
Sığorta brokeri ............ 926
Sığortaçı ............ 926
Sığorta dəyəri ............ 926
Sığortaedənlər ............ 926
Sığorta ehtiyatları ............ 926
Sığorta eksperti ............ 927
Sığorta hadisəsi ............ 927
Sığorta haqqı ............ 927
"Sığorta haqqında" Azərbaycan Respublikasının qanunu ............ 927
Sığorta hüququ ............ 927
Sığorta kooperativləri ............ 927
Sığorta qeyd-şərti ............ 927
Sığortalı ............ 927
Sığorta məbləği ............ 927
Sığorta müqaviləsi ............ 928
Sığorta müqayisəsi ............ 928
Sığorta nəzarəti ............ 928
Sığorta olunanlar ............ 928
Sığorta ödənişi ............ 928
Sığorta polisi ............ 928
Sığorta portfeli ............ 928
Sığorta riski ............ 928
Sığorta sertifikatı ............ 928
Sığorta şəhadətnaməsi ............ 928
Sığorta taarifi ............ 928
Sığorta təminatı ............ 928
Sığorta yığımı ............ 928
Sınaq müddəti (işə qəbul zamanı sınaq) ............ 929
Sınama üçün alqı-satqı müqaviləsi ............ 929
Sif ............ 929
Sifariş ............ 929
Siğə ............ 929
Sikkə ............ 929
Sikkə pariteti ............ 929
Sikkə reqaliyası ............ 930
Silah ............ 930
Silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların mühafizəsi üzrə vəzifələri lazımınca yerinə yetirməmə ............ 930
Silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma ............ 930
Silahlı qiyam ............ 930
Silahlı qüvvələr ............ 930
Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq qaydalarını pozma ............ 930
Silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə ............ 931
Silk ............ 931
Silki monarxiya ............ 932
Silki nümayəndəlik ............ 932
Simmaxiya ............ 932
Simulyasiya ............ 932
Sindik ............ 932
Sindikat ............ 932
Sinod ............ 933
Sinoykizm ............ 933
Sintetik hesablar ............ 933
Sinyoriya ............ 933
Sipahi ............ 933
Sipəhsalar (isfəhsalar) ............ 933
Sistem ............ 933
Sistematik təfsir ............ 933
Siti (city) ............ 934

Sivil ... 934
Sivil hüquq ... 934
Sivilist ... 934
Sivilistika ... 934
"Siyahıların birləşdirilməsi" ... 934
Siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş, yaxud müsadirə olunmalı əmlak barəsində qanunsuz hərəkətlər ... 934
Siyasət ... 934
Siyasi blok ... 934
Siyasi cinayətlər ... 934
Siyasi fəaliyyət qabiliyyəti ... 935
Siyasi hakimiyyət ... 935
Siyasi hüquq qabiliyyəti ... 935
Siyasi hüquq və azadlıqlar ... 935
Siyasi məsuliyyət ... 935
Siyasi muxtariyyət ... 936
Siyasi mühacirlər ... 936
Siyasi partiya ... 936
"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunu ... 936
Siyasi rejim ... 936
Siyasi repressiyalar ... 936
Siyasi sistem ... 937
Siyasi sığınacaq ... 937
Siyasi sığınacaq hüququ ... 937
Siyasi və hüquqi təlimlər tarixi ... 937
Skalp çıxartmaq ... 937
Skotlend-yard ... 937
Sloboda ... 937
Smerdlər ... 938
Smeta ... 938
Sofistlər ... 938
Sokieta ... 938
Solidar məsuliyyət ... 938
Solisitor ... 938
Solo-veksel ... 938
Son zərurət [1] ... 938
Son zərurət [2] ... 939
Sosial determinizm ... 939
Sosial dəyişikliklər ... 939
Sosial dövlət ... 939
Sosialist hüququ ... 940
Sosial qanunvericilik ... 940
Sosial quruluş ... 940
Sosiallaşma ... 940
Sosial müavinətlər ... 940
"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunu ... 940
Sosial müdafiə ... 941
Sosial normalar ... 941
Sosial pensiya ... 941
Sosial reklam ... 941
Sosial sığorta ... 941
"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanunu ... 942
Sosial sığorta stajı ... 942
Sosial sığorta şəhadətnaməsi (polisi) ... 942
Sosial stratifikasiya ... 942
Sosial struktur ... 942
Sosial terapiya ... 942
Sosial təminat ... 942
Sosial təminat hüququ ... 942
Sosial turizm ... 943
Sosial vergilər ... 943
Sosial yayınmalar ... 943
Sosioloji cinayət hüquq məktəbi ... 943
Sosioloji hüquq məktəbi (sosioloji hüquqşünaslıq) ... 943
"Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikasının qanunu ... 943
Soyğunçuluq ... 943
Soyqırım ... 943
"Soyuq müharibə" ... 944
Soyuq silah ... 944
Soyurqal ... 944
Soyurqal sahibi ... 944
Söz azadlığı ... 944
Spartiatlar ... 944
Spektral təhlil ... 944
Spesifikatiya ... 944
Spiker ... 944
Sponsor ... 945
Sponsorluq ... 945
Spot ... 945
Spot-prompt ... 945
Spred ... 945
Spreder ... 945
Staqnasiya ... 945
Staliya (staliya vaxtı) ... 945
Standart ... 945
Standartlaşdırma ... 945
"Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının qanunu ... 946
Stathauder ... 946
"Statistika haqqında" Azərbaycan Respublikasının qanunu ... 946
Status ... 946
Status-kvo ... 946
Statut ... 946
Statut hüququ ... 946
Staz ... 946
Stellaj ... 946
Steytment ... 946
Stiqmalaşdırma ... 947
Stiqma nəzəriyyəsi ... 947
Stipulyasiya ... 947
Stividor ... 947
Stividor xərclər ... 947
Stividor işlər ... 947
Stoiklər ... 947
Storno ... 948
Storno etmə ... 948
Stortinq ... 948
Stredl ... 948
Subagent ... 948
Suberbout-çarter ... 948
Subhesablar ... 948
Subkomissiya ... 948
Sublisenziya ... 948
Sublizinq ... 948
Submədəniyyət ... 949
Subordinasiya ... 949
Subsidiar məsuliyyət ... 949
Subsidiya ... 949
Substitusiya ... 949
Substitutiv məsuliyyət ... 949
Subtaym-çarter ... 949
Subvensiya ... 949
Subyekt ... 949
Subyektiv cəhət ... 949
Subyektiv hüquq ... 949
Subyektiv təqsirləndirmə ... 950
Sudan istifadə qanunu ... 950
Su ehtiyatları ... 950
Sufrajizm ... 950
Sui-qəsd ... 950
Suisidial ... 950
Suisidologiya ... 950
Su istehlakçıları ... 950
Su kadastrı ... 950
Su qanunvericiliyi ... 951
Suların zərərli təsiri ... 951
Sultan ... 951
Sultanlıq ... 951
Sulu horizont ... 951
Su Məcəlləsi ... 951
Summar proses ... 951
Su obyekti ... 951
Su obyektinin istifadəçisi ... 951
Su obyektlərinin çirklənməsi ... 951
Su obyektlərinin zibillənməsi ... 951
Superfisi ... 951
Superfisiari ... 952
Superkarqo ... 952
Superarbitr ... 952
"Superprezidentli" respublika ... 952
Suprefekt ... 952
Sutener ... 952
Sutenerlik ... 952
"Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının qanunu ... 952
Su təsərrüfatı obyekti ... 953
Suveren ... 953
Suveren hüquqlar ... 953
Suverenlik ... 953
Suyu (su mənbələrini) çirkləndirmə ... 953
Sübutetmə ... 953
Sübutetmə vəzifəsi ... 953
Sübutetmə yükü ... 954
Sübut hüququ ... 954
Sübutlar ... 954
Sübutların qiymətləndirilməsi ... 954
Sübutların tədqiqi ... 954
Sübutları saxtalaşdırma ... 954
Sübutlar nəzəriyyəsi ... 954
"Sükutlu" aksept ... 955
Sükutlu razılıq ... 955
Sülalə ... 955
Sülh ... 955
Sülh müqaviləsi ... 955
Sülh və bəşəriyyət əleyhinə cinayətlər ... 955
Süngü ... 955
Sünnə ... 956
Süzeren ... 956
Süzerenlik ... 956
Svinq ... 956
Svitç ... 956
Svop ... 956

**Sabit girov** – mülki qanunvericilikdə girovun bir növü. AR MM-in 305-ci maddəsinə uyğun olaraq sabit girov elə girovdur ki, onun predmeti girov saxlayanın qıfılı altında və ya girovu ifadə edən nişanlar vurulmaqla, girov qoyanda saxlanılır.

**Sablet** *(ing. sublet)* – beynəlxalq sahibkarlıq təcrübəsində bir fraxtaçı tərəfindən digər fraxtaçı üçün üzərlərinə götürdükləri müqavilə öhdəliklərinin yerinə yetirilməsinə görə əsas fraxtaçının məsuliyyətinin məcburi şərtilə icrası üçün çarterin verilməsi.

**Sabotaj** *(fr. sabotage)* – **1)** müəyyən vəzifələri başlıca olaraq əmək vəzifələrini şüurlu surətdə və qəsdən icra etməmə; **2)** hər hansı tədbiri qəsdən pozma, işdən yayınma, yaxud tapşırılmış işi qəsdən vicdansızcasına icra etmə. Keçmiş sovet cinayət hüququnda s. sovet dövlətini sarsıtmaq məqsədilə tapşırılmış vəzifələri şüurlu surətdə icra etməmə, yaxud onları qəsdən səhlənkarcasına icra etmə kimi müəyyən edilirdi. 1958-ci ilədək sovet cinayət qanunvericiliyində s.-a görə cinayət məsuliyyəti nəzərdə tutan xüsusi norma olmuşdur. Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyində s.-ı müstəqil cinayət kimi nəzərdə tutan norma mövcud deyil.

**Sadə veksel** – orderli qiymətli kağızların bir növü. S.v. özünəməxsus rekvizitlərə malikdir. AR MM-in 1048-ci maddəsinə uyğun olaraq s.v.-də aşağıdakılar göstərilməlidir: a) mətnin özünə daxil edilmiş "veksel" adı; b) müəyyən məbləği ödəmək barəsində sadə və heç nə ilə şərtləşdirilməmiş vəd; c) AR MM-in 1005.1.4-1005.1.9-cu maddələrində göstərilmiş rekvizitlər. s.v.-i verən köçürmə vekselinin akseptantı ilə eyni əsaslar üzrə məsuliyyət daşıyır. Təqdim edildikdən sonra müəyyən müddətli s.v.-lər veksel verənə AR MM-in 1014.4-ü maddəsində göstərilmiş müddətlər ərzində təqdim edilməlidir. Veksel verən vekselin təqdim edildiyi günü göstərməklə və öz imzasını qoymaqla təsdiqləməlidir. Təqdim edildikdən sonra müəyyən müddətin axımı təqdim edilmə haqqında qeydin edildiyi gündən başlanır. Qalan məsələlərdə s.v.-lərə köçürmə vekselləri üçün qüvvədə olan müddəalar tətbiq edilir.

**Sadizm** *(ing. sadism)* – cinsi pozğunluq, yeni cinsi ehtirası başqa formada, mənəvi (təhqir etmə), yaxud fiziki əzab vermə ilə təmin etmə. "S" termini 1740-1814-cü illərdə yaşamış, cinsi ehtirasını təmin etmək normalarından ifrat dərəcədə kənara çıxmış fransız yazıçısı Markiz de Sadın adı ilə adlandırılır. Markiz de Sad öz romanlarında əsasən zorlama və qəddarlıqla bağlı olan cinsi cinayətləri təsvir etmişdir. S. qəddarlıq, qeyri-normal cinsi əlaqə və özgəsinin əzablarından həzz almaq mənasında işlədilir.

**Sağlam ətraf mühitdə yaşamaq hüququ** – vətəndaşların və insanın əsas konstitusiya hüquqlarından biri. Azərbaycan Respublikası Kontitusiyasının 39-cu maddəsinə görə hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

**Sağlamlığın qorunması hüququ** – vətəndaşların və insanın əsas konstitusiya hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinə görə hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır. İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.

**Sahib divan** – orta əsrlərdə Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda vəzifə. Dövlətin mülki və maliyyə işlərinə başçılıq edən s. d. vergilərin toplanması, mədaxil və məxaricin qeydiyyatının aparılması ilə də məşğul olurdu. S.d. vəzifəsinə X yüzillikdə təsadüf olunur .

**Sahibkarlıq** *(bax: sahibkarlıq fəaliyyəti).*

**Sahibkarlıq fəaliyyəti** – fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyəti.

**"Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında sahibkarlığın prinsiplərini, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarını və vəzifələrini, onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının forma və üsullarını, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyən edən qanunvericilk aktı.

Bu qanun 15 dekabr 1992-ci il tarixdə qəbul olunmuş, ona indiyə qədər bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanun dörd bölmə və 17 maddədən ibarətdir.

**Sahiblik** – əşyaya faktiki olaraq malik olma. S. əşyanın sahibi üçün onun üzərində bilavasitə sərəncam vermək imkanı yaradır. Mülki hüquqda yalnız qanuna əsaslanan s. müdafiə olunur. Sahiblik hüququ mülkiyyətçinin hüquq qabiliyyətindən biridir. Əmlak kirayəsi müqaviləsinə görə əmlakı kirayəyə götürmüş, əvəzsiz istifadə haqqında müqaviləyə görə əmlakı almış şəxs, girov saxlayan, yük daşıyan, əmlakı saxlayan, komisyonçu və başqaları da qanuni sahib ola bilər. Qanunsuz vicdanlı sahiblik və qanunsuz vicdansız sahiblik ola bilər. Əşyanı qaytarmaq haqqında tələb irəli sürüldükdə, qanunda vicdanlı sahibin və vicdansız sahibin məsuliyyəti fərqləndirilir.

**Sahibsiz əmlak** – mülki hüquqda mülkiyyətçisi olmayan (mülkiyyətçi əmlakdan könüllü imtina etdikdə), yaxud mülkiyyətçisi məlum olmayan əmlak. S.ə. dövlət mülkiyyətinə məhkəmə qaydasında verilir. S.ə.-ın aşkara çıxarılma və uçota alınma qaydası Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən müəyyən edilir.

**Sahil hüququ** *(yus naufragii)* – orta əsrlərdə sahilyanı ərazilərdə yaşayan sakinlərin və ya dövlətlərin onların sahillərində qəzaya uğramış gəmiləri və onların əşyalarını əldə etmələrini müəyyən edən geniş yayılmış hüquq. Orta əsrlər Almaniyasında s.h. bu sözün geniş mənasında dəniz və çay sahillərinə tullanmış əşyaları əldə etmək hüququ kimi də təşəkkül tapmışdı.

**Sahilyanı şelf haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozma** – ekoloji cinayətlərin bir növü. AR CM-in 253-cü maddəsində nəzərdə tutul-

muşdur. Qanunsuz olaraq Azərbaycan Respublikasının sahilyanı şelfində tikililər və ya başqa qurğular ucaltma, onların ətrafında təhlükəsizlik zonası yaratma, habelə quraşdırılan tikililərin və dəniz gəmiçiliyinin təhlükəsizliyinin təmin edilməsi vasitələrinin tikintisi, istismarı, mühafizəsi və ya ləğv olunması qaydalarını pozmada ifadə olunur.

**Saxlama** – mülki qanunvericiliyə görə öhdəliklərin icrasının təmin edilməsi üsullarından biri. AR MM-in 468-ci maddəsinə uyğun olaraq borcluya və ya borclunun göstərdiyi şəxsə verilməli əmlak kreditorda olduqda, əgər borclu həmin əmlakı ödəmək və ya kreditora bununla bağlı xərclərin və digər zərərin əvəzini ödəmək öhdəliyini vaxtında icra etməzsə, kreditorun həmin əmlakı müvafiq öhdəlik icra edilənədək saxlamaq ixtiyarı vardır.

Əmlakın və ya ona çəkilən xərclərin və digər zərərin əvəzinin ödənilməsi ilə bağlı olmasa da, tərəflərin sahibkarlar kimi fəaliyyət göstərən öhdəlikdən əmələ gələn tələblər də əmlakın saxlanması ilə təmin edilə bilər. Kreditor onda olan əmlakı həmin əmlak kreditorun sahibliyinə daxil olduqdan sonra əmlaka hüquqları üçüncü şəxsin əldə etməsinə baxmayaraq saxlaya bilər.

**Saxlama müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. AR MM-in 822-ci maddəsinə uyğun olaraq saxlama müqaviləsinə görə bir şəxs (yük götürən, saxlayıcı) başqa şəxsin (yük verənin, tapşıranın) ona verdiyi daşınar əşyanı saxlamağı və müqavilənin qüvvəsi sona çatdıqda qaytarmağı öhdəsinə götürür.

**Saxlanc** – mülki qanunvericiliyə görə girovun bir növü. AR MM-in 301-ci maddəsinə uyğun olaraq saxlanc elə girovdur ki, onun predmeti girov saxlayanın sahibliyinə verilir.

**Saxlanc müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. Belə öhdəlik müqaviləyə və ya qanuna əsasən yaranır. Həmin müqaviləyə görə bir tərəf (saxlayan) digər tərəfin ona verdiyi əmlakı saxlamağı və salamat geri qaytarmağı öhdəsinə götürür. S.m. əvəzsiz müqavilədir. Müqavilənin bu xarakteri qanun və ya müqavilə ilə dəyişdirilə bilər. Öz fəaliyyətinə görə saxlanc əməliyyatı aparan təşkilat əmlakın itməsi, əskik gəlməsi və ya zədələnməsi qarşısıalınmaz qüvvə nəticəsində baş verdikdə məsuliyyətdən azad edilir. Qanunda və ya müqavilədə başqa qaydalar müəyyən edilmədikdə, s.m.-nə dair qaydalar saxlancın digər müqavilələrə və ya qanunun göstərişlərinə əsasən həyata keçirildiyi hallarda da tətbiq edilir.

**Saxta çek** – öz mətnində xarici müayinə zamanı görünməyən sanksiyalaşdırılmamış dəyişiklikləri ehtiva edən çek. AR MM-in 1065-ci maddəsinə uyğun olaraq qəlp və ya saxta çekin ödənişi ilə əlaqədar zərəri ödəyici çəkir, bu şərtlə ki, çekdə göstərilən çek verən təqsirli olmasın, məsələn, ona tapşırılmış çek blanklarını etinasız saxlamış olmasın.

**Saxta kredit və ya hesab kartlarını və ya başqa ödəniş sənədlərini hazırlama və ya satma** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 205-ci maddəsində nəzərdə tutulmuşdur. Qiymətli kağız sayılmayan saxta kredit və hesab kartlarını və ya başqa ödəniş sənədlərini satış məqsədi ilə hazırlamada və ya satmada ifadə olunur.

**Saxtalaşdırılmış (qondarma) veksel** – buna səlahiyyəti olmayan hər hansı şəxs tərəfindən tərtib olunan, veksel verənin və (və ya) akseptantın, bir sıra hallarda isə onun digər iştirakçılarının həqiqi imzasını özündə ehtiva edən veksel.

**Saxta müflisləşmə** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 212-ci maddəsində nəzərdə tutulmuşdur. Kommersiya təşkilatının rəhbəri və ya mülkiyyətçisi, habelə fərdi sahibkar tərəfindən kreditorlara olan borcun ödənilməsini təxirə salmaq və ya möhlət almaq, habelə borcun azaldılmasına nail olmaq və ya borcu ödəməkdən yayınmaq üçün kreditorları aldatmaq məqsədi ilə özünü bilə-bilə yalandan ödəmə qabiliyyəti olmayan elan etmədə ifadə olunur.

**Saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 204-cü maddəsində nəzərdə tutulmuşdur. Satış məqsədi ilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlamada, habelə satmada ifadə olunur.

**Saxta veksel** – öz mətnində xarici müayinə zamanı görünməyən sanksiyalaşdırılmamış dəyişiklikləri ehtiva edən veksel.

**Sakko-Vansetti mühakiməsi** – saxta ittihamlar əsasında mənşəcə italiyalı inqilabçı fəhlələr – Nikola Sakko və Bartolomeo Vansettinin üzərində keçirilmiş məhkəmə prosesi. Proses 1927-ci ildə keçirilmişdir. Məhkəmənin hökmü ilə hər iki inqilabçı müstəsna cəzaya: ölüm cəzasına məhkum edilmişdir. Müdafiəçilərin tutarlı dəlillərinə baxmayaraq ABŞ-ın federal məhkəmə orqanları işə yenidən baxmaqdan imtina etmişlər. Sakko və Vansetti 1927-ci il avqustun 23-də elektrik stulunda edam olunmuşlar. ABŞ Ali Məhkəməsinin 1980-ci ilin mayında keçirilmiş xüsusi iclası Sakko və Vansettinin tamamilə təqsirsiz olduqlarını sübuta yetirmişdir.

**"Sakson güzgüsü"** – german feodal hüququ külliyyatı. "S.g." 1230-cu ildə anqalt cəngavəri və hakim Eyke fon Retof tərəfindən tərtib edilmişdir. Külliyyatın əsasında sakson hüquq normaları dururdu. O, özündə yerli adət hüquq normalarının böyük bir hissəsini ehtiva edirdi. "S.g."-nün birinci hissəsi zem hüququndan, yəni dövlət hüququ, mülki, prosessual hüquq və cinayət hüquq normalarından, ikinci hissəsi isə feodallar arasındakı münasibətləri müəyyən və tənzim edən müddəalardan ibarət len hüquq normalarından ibarət idi. "S.g." Almaniyanın şimalında yayılmış və Maqdeburq hüququnun əsasına xidmət etmişdir. Ondan cənubi Almaniyanın bir sıra yerlərində, həmçinin Hollandiya və Liflandiyada istifadə edilmişdir.

**Saldo** *(ita. saldo – hesablaşma, qalıq)* – **1)** mühasibat uçotunda hesabların debet və kredit üzrə yazılarının yekunları arasındakı fərq. Debet saldosu balansın aktivində, kredit saldosu isə passivində göstərilir. Saldosu olmayan hesab bağlı hesab adlanır; **2)** xarici ticarət münasibətlərində s. idxalat və ixracatın, yaxud tələbnamə və öhdəliklərin cəmləri arasındakı fərqdir.

**"Saliç pravdası "** *(lex salica)* – saliç franklarının adət hüququndan bəhs edən yazısı, ən qədim barbar pravdalarından biri. "S.p." V yüzillikdə, bəzi mənbələrin şəhadətinə görə VI yüzilliyin əvvəllərində tərtib edilmişdir. Bu yazı kral Holdviqin çarlığı dövrünə təsadüf edir. Sonralar kral I Hildobertin və I Hlotarın dövründə ona bə-

zi əlavələr edilmişdir. "S.p."-nın ilkin mətni dövrümüzədək gəlib çatmışdır. Bizə məlum olan ən qədim əlyazmaları Pipina Korotko və Böyük Karlın (VIII yüzillik) çarlığı dövrünə aid edilir. Yazının məzmununu cinayət hüququ və mühakimə icraatı məsələləri təşkil edir. "S.p."-nda torpaq üzərində icma mülkiyyətinə dair münasibətləri tənzim edən, eləcə də iri torpaq sahiblərinin mülkiyyət hüququnu möhkəmləndirən normalar da nəzərdə tutulmuşdur.

**Samuraylar** *(samuray yapon sözündəndir, xidmət etmək deməkdir)* – XIII-XIX yüzilliklərdə feodal Yaponiyasında xırda zadəganların hərbi-feodal təbəqəsi. Geniş mənada s. dedikdə bütün dünyəvi feodallar təbəqəsi başa düşülürdü.

**Sanasiya** *(lat. sanatio – müalicə)* – sağlamlaşdırma; borclunun ləğv edilməsinin qarşısını almaq məqsədilə onun mülkiyyətçisi, kreditorlar və digər hüquqi və fiziki şəxslər tərəfindən maliyyə yardımı göstərilməsi yolu ilə borclunun yenidən təşkil edilməsi üsulu. Məhkəməyəqədərki sanasiya və məhkəmə sanasiyası mövcuddur.

**Sanasiya prosesi** – borclunun bütün öhdəliklərinin yerinə yetirilməsinə dair tədbirlər sistemi. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının 13 iyun 1997-ci il tarixli qanununun 40-cı maddəsinin 3-cü hissəsinə uyğun olaraq borclu sağlamlaşdırma məsələsinə baxılması məqsədi ilə iflas prosesinin dayandırılması barədə istənilən vaxt məhkəməyə müraciət edə bilər. Məhkəmə iki həftə müddətində vəsatətə baxır və onun təmin edilməsi, yaxud rədd edilməsi barədə qərar qəbul edir.

**"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında əhalinin sağlamlığını möhkəmlətməklə, xəstəliklərin profilaktikası, insanların yaşayış mühiti ilə və həyat fəaliyyəti şəraitini sağlamlaşdırmaqla əlaqədar dövlət, regional və yerli proqramların həyata keçirilməsi sahəsində münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 10 noyabr 1992-ci il tarixdə qəbul edilmişdir. O, yeddi fəsil və 41 maddədən ibarətdir.

**Sanksiya** *(lat. sanctio-pozulmaz qərar)* – **1)** dövlətin hüququ pozana qarşı tətbiq etdiyi qoruyucu tədbir. Dövlət s.-nı həyata keçirməklə cəmiyyət üzvlərinə hüquq qaydasına riayət olunması zəruriliyini aşılayır. Hüquq qaydasının mühafizəsini və bununla da ictimai münasibətlərin normal inkişafını təmin edir. Aşağıdakı s.-lar mövcuddur: a) yalnız məhkəmənin tətbiq etdiyi cinayət qanunu sanksiyası (məsələn, azadlıqdan məhrumetmə, islah işləri); b) polisin, dövlət müfəttişlərinin tətbiq etdikləri inzibati sanksiya (məsələn, cərimə); c) müdiriyyətin və vəzifəli şəxslərin xidməti tabelikdə olanlar barəsində tətbiq etdikləri intizam sanksiyaları (məsələn, xəbərdarlıq, töhmət və s.); ç) məhkəmənin və iqtisad məhkəməsinin tətbiq etdiyi əmlak sanksiyası; **2)** hüquq normasının tərkib hissəsi. Hüquq normasının s. hissəsində həmin normanı pozana qarşı dövlətin təsir tədbiri nəzərdə tutulur; **3)** beynəlxalq hüquqda – öz beynəlxalq öhdəliklərini, yaxud beynəlxalq hüquq normalarını pozan dövlət barəsində tətbiq edilən təsir tədbiri *(bax: delikt)*





**Sapalaq** – Azərbaycanda xanlıqlar dövründə otlaqlardan istifadə müqabilində əhalidən toplanan natural vergi. Sonralar pulla əvəz edilmişdir. Qafqaz canişinliyi hər qoyun üçün bir qəpik almaq şərti ilə 1882-ci ildə s.-ı ləğv etmişdir. Azərbaycanın bəzi ərazilərində s. bəzən çöpbaşı, yaxud sərkarpulu da adlandırılmışdır.

**Satellit** *(lat. satelles, satellitis – mühafizəçi, yol yoldaşı)* – **1)** Qədim Romada öz sahibini müşayiət edən silahlı muzdur; **2)** əslində digər güclü bir dövlətə tabe olan formal müstəqil dövlət; **3)** başqasının iradəsini yerinə yetirən, başqasından qul kimi asılı olan insan, əlaltı.

**Satisfaksiya** *(beynəlxalq hüquqda)* – beynəlxalq-hüquqi məsuliyyət forması. S. beynəlxalq hüquq normasını pozan dövlətin zərər çəkmiş dövləti razı salmasında ifadə olunur. S.-nın növləri aşağıdakılardır: a) təəssüfünü bildirmək; b) açıq surətdə üzr istəmək; c) təqsirkarları cəzalandırmaq; ç) zərər çəkmiş dövləti xüsusi şəkildə şərəfləndirmək və i.a. Bunların tətbiqi vurulmuş zərərdən və konkret siyasi situasiyadan asılı olur.

**Sartop** *(yun. satrapes; qədim fars dilində xşatrapavan, hərfən vilayətin qoruyucusu)* – satropluğun canişini, inzibati işlərin rəhbəri. S. vergilərin toplanması üçün məsuliyyət daşıyır, gümüş və mis sikkələr kəsdirir, əyalət məmurlarına nəzarət edirdi. S. vəzifəsi Əhəmənilər imperiyasının yarandığı vaxtdan mövcud olmuşdur. Kirin və Kambizin hakimiyyəti illərində mülki və hərbi hakimiyyət s.-un əlində cəmləşmişdi. Dara isə s.-ların və hərbi reislərin funksiyalarında dəqiq bölgü aparmışdı. S.-lar yalnız mülki işləri: məhkəmə funksiyasını və öz satropluğunun sərhədlərinin təhlükəsizliyini qorumaq funksiyasını həyata keçirirdilər.

**Satropluq** – Əhəmənilər dövlətində hərbi-inzibati mahal (əyalət). Eramızdan əvvəl təqribən 518-ci ildə I Dara dövləti 20 satropluğa bölmüşdü. Satropluqların sərhədləri əksər hallarda Əhəmənilər imperiyasına daxil olan ayrı-ayrı dövlətlərin (məsələn, Babilistanın, Misirin, Midiyanın) sərhədlərinə uyğun gəlirdi. S.-lar siyahısı yunan tarixçisi Herldotun əsərlərində xatırladılır. 20 s. 70-ə yaxın xalqı əhatə edirdi ki, onların da hamısı Əhəmənilər imperiyasının tərkibinə daxil idi. Hər bir s.-a "çarın mühafizəçisi" adlanan satrop başçılıq edirdi.

**Saziş** *(bax: müqavilə)*.

**Sbir** *(fr. sbire; lat sbirro)* – **1)** inkvizisiyanın aşağı rütbəli qulluqçusu; **2)** İtaliyada və bir sıra ölkələrdə məhkəmə və polis mühafizəçisi.

**Seçici** – müvafiq dövlətin aktiv seçki hüququna malik olan vətəndaşı. Bəzi hallarda əcnəbi vətəndaş və ya vətəndaşlığı olmayan şəxs (adətən, ancaq yerli seçkilərdə) də s. ola bilər.

**Seçici siyahıları** – seçki ərəfəsində tərtib olunan siyahılar AR SM-in 46-cı maddəsinə uyğun olaraq seçicilərin daimi siyahısı hər bir seçki məntəqəsi üzrə məntəqə seçki komissiyası tərəfindən Mərkəzi Seçki Komissiyasının (MSK) müəyyən etdiyi formada hər il mayın 30-dək təsdiq edilir və səsvermə gününə azı 35 gün qalmış dəqiqləşdirilir. Bu müddətdən sonra səsvermə gününədək (səsvermə günü də daxil olmaqla) seçici siyahısına seçici siyahısına yalnız məhkəmənin qərarı əsasında əlavə edilə bilər (bu halda məhkəmənin qərarı seçici siyahısına əlavə edilir).

**Seçki birlikləri** – seçki qanunvericiliyinə uyğun olaraq seçkilərdə namizədlər irəli sürmək və seçki prosesində digər şəkildə iştirak etmək hüququna malik müvəqqəti və ya daimi xarakterli təşkilatlar.

**Seçki blokları** – dövlət başçısı seçkilərində, mərkəzi və yerli nümayəndəli orqanlara seçkilərdə namizəd irəli sürmək və ya namizədlər siyahısı təqdim etmək haqqında bir neçə siyasi partiyanın qanunvericiliyinə uyğun surətdə və hər şeydən əvvəl seçki sisteminin xüsusiyyətlərindən asılı olaraq müəyyən edilir.

**Seçki bülleteni** – gizli səsvermə üçün təsdiq edilmiş formadan ibarət olan seçki sənədi. Rəsmi (dövlət tərəfindən çap edilən ) və qeyri-rəsmi (məsələn, Fransada irəli sürülmüş namizədlər, partiyalar tərəfindən çap edilir; Norveçdə seçici sadə ağ kağız vərəqəsindən istifadə edə bilər) s.b. fərqləndirilir.

**"Seçki coğrafiyası"** – bərabər nümayəndəlik prinsipini kobud surətdə pozan seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi təcrübəsi *(həmçinin bax: cerrimenderinq)*.

**Seçkiçilər** – müasir dövlətlərdə (ABŞ-da, Fransada, Finlandiyada, Almaniyada və i.a.) dolayı seçkilər zamanı səsvermə hüququ olan şəxslər. S. məhz yalnız həmin funksiyanı icra etmək üçün seçilirlər (məsələn, ABŞ-da prezident yalnız prezidentliyə namizəd olanlardan birinə səs vermək üçün seçilmiş şəxslər seçir). Vəzifəyə görə seçkilər də mövcuddur (məsələn, Fransada baş şuraların üzvləri senata seçkilər zamanı vəzifəyə görə seçkiçilər hesab olunurlar).

**Seçki dairələri** – seçkili nümayəndəli orqanların üzvlərinin seçildikləri ərazi vahidi. Azərbaycan Respublikasında seçki dairələri AR SM-in 29-cu maddəsinin tələblərinə uyğun olaraq yaradılır. Azərbaycan Respublikası Prezidentinin seçilməsi və referendum keçirilməsi nəzərdə tutulan vahid seçki dairəsi Azərbaycan Respublikasının bütün ərazisini əhatə edir.

**Seçki girovu** – deputatlığa namizədin namizədliyi qeydə alındıqdan sonra dövlətin nəfinə keçirməyə borclu olduğu pul məbləği. Seçkilər nəticəsində o, dairə üzrə verilmiş səslərin müəyyən edilmiş saydan azını topladıqda həmin məbləğ ona qaytarılmır.

**Seçki hakimiyyəti** – Latın Amerikasının bir sıra dövlətlərinin (Kolumbiyanın, Nikaraquanın və i.a.) rəsmi konstitusiya doktrinasına uyğun olaraq dövlətdə müstəqil və sərbəst ümumi hakimiyyətlərdən (qanunvericilik, icra və məhkəmə hakimiyyəti ilə yanaşı) biri. Seçki korpusunu təşkil edən vətəndaşlar tərəfindən həyata keçirilir. Bu hakimiyyət özünün təşkilat ifadəsini seçki tribunallarının yaradılmasında (elektoral ədliyyə) tapır, seçkilər haqqında mübahisələri həll edirlər.

**"Seçki həndəsəsi"** *(bax: seçki coğrafiyası)*.

**Seçki hərəkatı** – vətəndaşların siyasi xarakterli müvəqqəti birliyi; əsas vəzifəsi öz namizədlərinin maksimum sayda qələbəsini təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının qüvvədə olan seçki qanunvericiliyində belə anlayış nəzərdə tutulmamışdır.

**Seçki hüquqlarının həyata keçirilməsinə mane olma** – insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 159-cu maddəsində nəzərdə tutulmuşdur.





Vətəndaşın seçki hüquqlarının həyata keçirilməsinə, habelə ümumxalq səsverməsində (referendumda) iştirak etməsinə mane olmada ifadə olunur.

**Seçki hüququ** – **1)** dövlət orqanlarının seçilməsi qaydasını tənzim edən hüquq normalarının məcmusu. S.h. konstitusiya hüququnun mühüm institutlarından biridir. S.h.-nun əsas prinsipləri konstitusiyada və seçki qanunvericiliyində müəyyən edilir; **2)** vətəndaşların seçmək və seçilmək hüququ; aktiv, yaxud ümumi seçki hüququ fərqləndirilir. Aktiv seçki hüququ, yəni seçmək hüququ, səsvermə hüququdur. Aktiv seçki hüququ həm də referendumda iştirak etmək imkanı verir. Aktiv seçki hüququ bir qayda olaraq dövlətin yalnız qanunla müəyyən edilmiş tələblərə cavab verən vətəndaşlarına verilir. Müasir dövlətlərdə aktiv seçki hüququ üçün yaş senzi müəyyən edilmişdir. Passiv seçki hüququ vətəndaşların müxtəlif dövlət orqanlarına seçilmək hüququdur. Dövlətlərin əksəriyyətində passiv seçki hüququ müxtəlif senzlərlə müəyyən edilir *(bax: seçki senzləri)*. Passiv seçki hüququ üçün yaş senzi 25 yaşdır.

**Seçki hüququnun həyata keçirildiyi yer** – AR SM-in 9.1-ci maddəsinə uyğun olaraq SM-in 35.4-35.6-cı maddələri nəzərə alınmaqla seçkilərin elan edildiyi gündən əvvəlki 12 ayın azı 6 ayı ərzində vətəndaşların daimi yaşadıqları seçki məntəqəsində aktiv seçki hüququ həyata keçirilir.

Müharibə, hərbi münaqişələr, iğtişaşlar və ya təbii fəlakət nəticəsində öz daimi yaşayış yerlərini tərk etmiş vətəndaşlar aktiv seçki hüquqlarını MSK-nın müəyyən etdiyi qaydada həyata keçirirlər.

**Seçki ixtisasları** *(bax: seçki senzləri)*

**Seçki kampaniyası** – qarşıdakı seçkilərdə seçicilərin maksimum dəstəyini qazanmaq məqsədi ilə siyasi partiyalar və müstəqil namizədlər tərəfindən aparılan təşviqat tədbirləri sistemi. S.k.-nda həmçinin müxtəlif insan qrupları, ictimai birliklər, kütləvi informasiya vasitələri və i.a. iştirak edirlər. S.k.-nın əsas formaları (vasitələri) seçkiqabağı yığıncaqların və ya mitinqlərin keçirilməsidir.

**Seçki komissiyaları** – bilavasitə vətəndaşlar tərəfindən seçilən orqanlara seçkilərin keçirilməsi üçün təşkil edilən xüsusi kollegial orqanlar. S.k.-nın sistemi, yaradılması qaydası və səlahiyyətləri bir qayda olaraq seçkilər haqqında qanunlarla müəyyən edilir.

**Seçki komissiyalarının qanuni fəaliyyətinə mane olma** – insan və vətəndaşların konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 160-cı maddəsində nəzərdə tutulmuşdur. Seçki komissiyalarının qanuni fəaliyyətinə mane olmada ifadə olunur.

**Seçki korpusu** – qanuna uyğun olaraq səsvermə (aktiv seçki hüququ ilə) hüququna malik olan vətəndaşların cəmi (yuridik seçki korpusu), yaxud real səs verən vətəndaşların məcmusu (faktiki seçki korpusu).

**Seçki kuriyaları** – seçicilərin milli əlamətləri, peşə əlamətləri və digər əlamətlərə görə bölündükləri xüsusi dərəcələr, həmçinin bu dərəcələri təşkil edən seçicilərin özü. Öz say tərkibindən asılı olmayaraq hər bir s.k. deputatların müəyyən sayını qabaqcadan seçir. Hazırda s.k.-na bölgüyə çox nadir hallarda təsadüf olunur,

çünki bu, bərabər nümayəndəlik prisipinə ziddir. Milli s.k.-na bölgüyə Ficidə, peşə s.k.-na bölgüyə isə İndoneziyada ("Funksional qruplar") rast gəlmək olar.

**Seçki kvotası** – bir nəfər deputatın seçilməsi üçün zəruri olan səslərin sayının adı. S.k. həm hər bir seçki dairəsi, həm də bütövlükdə ölkə üçün müəyyən edilə bilər.

**Seçki qutusu** – seçkilərin aksessuarının rəsmi adı; seçki məntəqələrində qoyulur və doldurulmuş bülletenlər onun içinə atılır. Səsvermədən qabaq s.q. möhürlənməli və ona plomb vurulmalıdır. Stasionar və səyyar seçki qutuları fərqləndirilir. Stasionar seçki qutuları seçki məntəqələrində qoyulur. Səyyar qutular isə zərurət olduqda xəstəliyə və ya əlilliyə görə seçki məntəqəsinə gəlmək imkanı olmayan seçicinin yerləşdiyi yerə aparılır.

**Seçkili vəzifələr** – dövlət aparatında, yaxud ictimai təşkilatlarda seçki yolu ilə tutulan vəzifələr. S.v.-ə seçilməklə əlaqədar başqa işə keçdikdə, işçinin fasiləsiz əmək stajı saxlanılır.

**Seçki metri** *(bax: seçki kvotası).*

**Seçki Məcəlləsi** – Azərbaycan Respublikasının sistemləşdirilmiş qanunvericilik aktlarından (məcəllələrindən) biri. Azərbaycan Respublikasının Seçki Məcəllesi 27 may 2003-cü ildə qəbul edilmiş, həmin il iyunun 3-də qüvvəyə minmişdir. Seçki Məcəlləsi altı bölmə, 38 fəsil, və 246 maddədən ibarətdir.

**Seçki məntəqələri** – səsvermənin aparılması və səslərin hesablanması üçün yaradılan ərazi vahidləri. AR SM-in 35.1-ci maddəsinə uyğun olaraq səsvermənin keçirilməsi və səslərin hesablanması məqsədi ilə bələdiyyə qurumlarının ərazilərində qeydə alınmış seçicilərin sayı nəzərə alınmaqla hər beş ildən bir seçki məntəqələri yaradılır. Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılan seçki məntəqələrində AR SM-in 35.7-ci və 109-cu maddələrində göstərilən məlumatların dərci məsələsi, yerli şərait nəzərə alınmaqla, Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndələrinin və ya konsul idarələrinin rəhbərləri tərəfindən həll edilir.

**Seçki orqanları** – konstitusiya hüququnda seçkilərin hazırlanmasını və keçirilməsini praktiki olaraq təmin edən orqanlar. S.o. müxtəlif dövlətlərdə həm xüsusi seçki komissiyalarından, həm də artıq mövcud olan dövlət orqanlarından, bələdiyyələrdən, məhkəmələrdən və daxili işlər orqanlarından ibarət ola bilər.

AR SM-in 17.1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında seçkilər seçki komissiyaları tərəfindən təşkil edilir və keçirilir. AR SM-in 18-ci maddəsinə görə Azərbaycan Respublikasında seçki komissiyaları sisteminə MSK, dairə seçki komissiyaları, məntəqə seçki komissiyaları daxildir.

**Seçki ortası** *(bax: seçki kvotası).*

**Seçki prosesi** – seçki sisteminin əsas elementlərindən biri. S.p.-nə aşağıdakılar daxildir: **1)** seçkilərin təyin edilməsi (bu, bir qayda olaraq dövlət başçısının və ya qanunvericilik orqanının səlahiyyətinə aiddir); **2)** qanunla müəyyən edilmiş qaydada seçicilərin qeydiyyatı; **3)** seçki dairələrinin və seçki məntəqələrinin təşkili (nümayəndəlik prinsiplərinə uyğun olaraq formalaşdırılırlar); **4)** namizədlərin irəli sürülməsi (bir qayda olaraq siyasi partiyalar, seçki blokları, bəzən seçicilərin yığıncaqları, əmək kollektivləri və i.a. tərəfindən həyata keçirilir); **5)** səsvermənin keçirilməsi (bir və ya iki turda); **6)** səsvermənin hesablanması və deputat mandatlarının bölgüsü (yerli və mərkəzi seçki orqanları tərəfindən həyata keçirilir.)





**Seçki senzləri** – seçki hüququndan istifadə etmək üçün konstitusiya və ya seçki qanunu ilə müəyyən edilmiş şərtlər. S.s.-i hələ XVIII-XIX yüzilliklərdə tətbiq edilmişdir. Ən çox yayılmış s.s.-i aşağıdakılar olmuşdur: a) əmlak senzi (yəni seçici müəyyən məbləğdə əmlaka malik olmalı idi); b) təhsil senzi (seçkilərdə iştirak etmək üçün müəyyən təhsilə malik olmaq tələb olunurdu); c) oturaqlıq senzi (bir ölkədə, şəhərdə müəyyən müddət yaşamaq tələbi); ç) vətəndaşlıq senzi (seçki hüququ yalnız müəyyən müddət ərzində bir dövlətin vətəndaşı olan şəxslərə verilirdi). Bir çox ölkələrdə cins, yüksək yaş senzi və i.a. da tətbiq edilirdi. Hazırda bəzi ölkələrdə passiv seçki hüququ üçün 20-25 yaş, parlamentin yuxarı palatasına seçilmək üçün isə İtaliyada 40, İsveçdə 35, ABŞ-da isə 30 yaş tələb edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinə əsasən Azərbaycan Respublikasının yaşı 25-dən aşağı olmayan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilər.

**Seçki sistemi** – **1)** dövlətin seçkili (ilk növbədə nümayəndəli) orqanlarının təşkili və vətəndaşların öz seçki hüquqlarını həyata keçirməsi qaydası. S.s. seçki hüquq normaları ilə tənzimlənir. Seçkilər birbaşa (nümayəndəli orqanların deputatlarını bilavasitə vətəndaşlar seçir), yaxud dolayı, çoxdərəcəli (nümayəndəli orqanların deputatlarını aşağı seçkili orqanlar və ya aşağı nümayəndəli orqanların deputatları və ya hər ikisindən ibarət kollegiya seçir) olur; **2)** səsvermənin nəticələri müəyyən edildikdən sonra seçkili orqanlarda yerlərin bölüşdürülməsi sistemi. İki əsas seçki sistemi məlumdur: majoritar sistem və bərabər (praporsional) nümayəndəlik sistemi.

Azərbaycan Respublikası Konstitusiyasının 83-cü maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst və şəxsi, gizli səsvermə yolu ilə seçilirlər.

**Seçki və ya ümumxalq səsverməsi (referendum) sənədlərini saxtalaşdırma, bilə-bilə səsləri düzgün hesablamama, yaxud səsvermənin gizliliyini pozma** – insan və vətəndaşların konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 161-ci maddəsində nəzərdə tutulmuşdur. Seçki və ya ümumxalq səsverməsi (referendum) komissiyasının üzvü tərəfindən seçki və ya ümumxalq səsverməsi (referendum) sənədlərinin saxtalaşdırılmasında, bilə-bilə səslərin düzgün hesablanmamasında və ya səsvermənin nəticələrinin düzgün müəyyənləşdirilməməsində və ya səsvermənin gizliliyinin pozulmasında ifadə olunur.

**Sedent** *(lat. cedere)* – tələbin güzəşti; öz tələb hüququnu başqa şəxsə verən kreditor (tsessiya). S.-ə yalnız onun qanuna zidd olmadığı hallarda yol verilir. Belə ki, s. qanunla yanaşı digər hüquqi aktlara və müqaviləyə zidd olmamalıdır. Kreditorun şəxsiyyətinin borclu üçün mühüm əhəmiyyət kəsb etdiyi öhdəliyə görə borclunun razılığı olmadan s.-ə yol verilə bilməz. Sadə ya-

zılı və ya notarial formada bağlanan əqdə əsaslanan s. eyni formada da başa çatmalıdır. Əqd üzrə dövlət qeydiyyatı tələb edən s. həmin əqdin qeydiyyatı üçün müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilməlidir. Buna qanunla başqa qaydanın nəzərdə tutulmadığı hallarda yol verilir. Orderli qiymətli kağız üzrə s.-ə həmin qiymətli kağızın indossamenti yolu ilə icazə verilir.

**Sexlər** – feodalizm cəmiyyətində şəhərlərdə iqtisadi cəhətdən müstəqil olan xırda istehsalçıların – sənətkarların peşə təşkilatları. XI-XII yüzilliklərdə Qərbi Avropa dövlətlərindən Fransa, Almaniya və İngiltərədə (ehtimal ki, İtaliyada daha əvvəl) meydana gəlmiş, XIII-XIV yüzilliklərdə tam inkişaf etmişdir. XVIII yüzilliyin sonu və XIX yüzilliyin əvvəllərində s. qanunvericiliklə ləğv olunmuşdur.

**Seksual xarakterli hərəkətlərə məcbur etmə** – şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 151-ci maddəsində nəzərdə tutulmuşdur. Əmlakın məhv edilməsi, zədələnməsi və ya götürülməsi hədəsi ilə və yaxud zərər çəkmiş şəxsin maddi və ya sair asılılığından istifadə etməklə onu cinsi əlaqəyə girməyə, uşaqbazlığa və ya seksual xarakterli digər hərəkətlərə məcbur etmədə ifadə olunur.

**Seksual xarakterli zorakılıq hərəkətləri** – şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 150-ci maddəsində nəzərdə tutulmuşdur. Zərər çəkmiş şəxsə və ya başqa şəxslərə zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərər çəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə uşaqbazlıq və ya seksual xarakterli digər zorakılıq hərəkətləri etmədə ifadə olunur.

**Sekvestr** *(lat. sequestro – kənar edirəm)* – burjua mülki hüququnda hər hansı əmlakdan (partlayıcı maddədən, narkotik vasitədən və i.a.) istifadə edilməsinin dövlət tərəfindən qadağan edilməsi və ya məhdudlaşdırılması.

**Seqreqasiya** *(lat. segregatio – ayrılma)* – bir sıra dövlətlərdə ölkə əhalisinin irqi qruplara bölgüsünün məcburi saxlanması. S. bu və ya digər milli qrupun ayrı-seçkiliyə məruz qalmasını ifadə edir. S.-nın iki forması mövcuddur: 1) institusional s. – paralel müəssisələrdə, yaxud eyni müəssisələrdə "qaralar və ağdərililər" üçün xüsusi şöbələr yaratmaq yolu ilə ictimai həyatın bütün sferalarını əhatə edir; 2) ərazi s.-sı – irqi qrupların xüsusi ayrılmış ərazilərdə (məhəllələrdə) yerləşdirilməsini əks etdirir.

**Sequn** – Yaponiyada 1192-ci ildən ölkəni imperatorun adından idarə edən (real hakimiyyətdən məhrum edilmiş) hərbi-feodal sülalələrinin hökmdarlarının adı. Sonuncu s. 1867-1868-ci illərdə baş vermiş Meydzi burjua inqilabı nəticəsində devrilmişdir.

**Sequnluq** – 1192-1868-ci illərdə feodal Yaponiyasında sequnların hökuməti (bakufu – yapon termini). Sequnluq şəraitində inzibati aparat hərbi silkin (businin) əlində olmuş, qanunvericilik və icra hakimiyyəti, inzibati və hərbi orqanlar arasında bölgü mövcud olmamışdır.

**"Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında seleksiya nailiyyətlərinin qeydiyyatı, istifadəsi və mühafizəsinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.





Bu qanun 15 noyabr 1996-cı il tarixdə qəbul olunmuş, ona bir sıra əlavə və dəyişikliklər edilmişdir. O, səkkiz fəsil və 34 maddədən ibarətdir.

**Senat** [1] *(lat. senatus, senex – qoca)* – Qədim Romada ali dövlət orqanlarından biridir. S. patrisi nəsillərinin ağsaqqallar şurası əsasında eramızdan əvvəl təqribən VI yüzillikdə yaradılmış və çarın yanında dövlət şurasından ibarət olan orqan kimi fəaliyyət göstərmişdir. Respublika dövründə plebeylərlə patrisilərin silki-təbəqə mübarizəsi nəticəsində s.-ın bəzi hüquqları komitsiyalara (xalq yığıncaqlarına) keçmişdir. Eramızdan əvvəl III-I yüzilliklərdə s.-ın vəzifələrinə qanun layihələrinin qabaqcadan nəzərdən keçirilməsi, hərbi işlərə, xarici siyasətə və i.a. məsələlərə ali rəhbərlik də daxil edilmişdir. S. üzvlərinin siyahısını (eramızdan əvvəl 88-ci ilədək 300, sonra isə 600 nəfər) senzor tərtib edirdi. İmperiya dövründə s.-ın hüquqları daha da məhdudlaşdırılmış, Diokletianın dövründə isə o, Roma şəhər şurasına çevrilmişdir.

**Senat** [2] – dünya dövlətlərinin əksəriyyətində parlamentin yuxarı palatasının adı. Bəzi ölkələrdə s. birbaşa (ABŞ-da, İtaliyada), yaxud çoxdərəcəli (Fransada) seçki yolu ilə yaradılır. Bir sıra dövlətlərdə isə s.-ın üzvlərini bütünlüklə dövlət başçısı (Kanadada, İordaniyada) təyin edir. İrlandiyada isə dövlət başçısı s.-ın üzvlərini rəsmən təyin edir. Ölkələrin bəzilərində s.-ın tərkibi 2-3 ildən bir qismən təzələnir.

**Senator** *(lat. senator)* – **1)** Qədim Romada senatın üzvü. S. eramızdan əvvəl I yüzilliyin sonunda, həm də ali silkin nümayəndəsi hesab olunurdu. S. adı ömürlük verilirdi. S. adı Romada imperiya dövründə irsən keçirdi, yaxud imperator tərəfindən bəxş edilirdi; **2)** müasir dövlətlərdə senatın üzvü. S.-lar parlamentin aşağı palatasının deputatları ilə eyni hüquqlara malikdirlər.

**Senatuskonsult** *(lat. senatusconsultum)* – Romada imperiya (prinsipat) dövründə senatın qəbul etdiyi qanunvericilik aktlarının adı. S. öz mahiyyətinə görə prinsepsin sərəncamlarından ibarət idi. Senatın qərarı (senatuskonsult) hüququn əsas mənbələrindən biri idi.

**Seneşal** *(fr. senechal)* – 1789-cu ilə qədər Cənubi Fransada məhkəmə məmurlarının daşıdığı ad.

**Sensitometriya** *(kriminalistikada)* – fotomaterialların müxtəlif xarakteristikasının ölçülməsi haqqında təlim. Sensitometr s.-da standart şəraitdə tədqiq edilən fotomaterialın işıqlandırılması üçün tətbiq edilən cihazdır.

**Sentensiya** *(lat. sententio – fikir, mülahizə)* – hökm.

**Senturion** *(lat. centurio)* – Qədim Roma ordusunda bölmə komandiri; senturiyanın, manipulanın başçısı. S. adətən cəsur və təcrübəli döyüşçülərdən təyin edilirdi. S.-lar sıravi legionerlərlə müqayisədə müəyyən imtiyazlara malik olub sərt nizam-intizamın qorunmasında böyük rol oynayırdılar.

**Senturiya** *(lat. centurio, centum – yüz)* – **1)** eramızdan əvvəl VI-II yüzilliklərdə Qədim Romada vətəndaşların hərbi-siyasi bölgüsü. Hər bir s. xalq yığıncağında bir səsə malik idi. Qədim Romada cəmi 193 (eramızdan əvvəl III yüzillikdən eramızın 373-cü ilinədək) s. olmuşdur; **2)** eramızdan əvvəl VI-IV yüzilliklərdə Qədim Romada əsas təşkilati qoşun vahidi. S. bir qayda olaraq 60 nəfər-

dən (bəzi hallarda 30 nəfərdən) ibarət olurdu. S.-nın başında senturion dururdu.

**Senyor** *(lat. senior – böyük, başçı)* – senyoriya (votçina) mülkiyyətçisi, feodal senyor torpaq sahibi kimi feodal asılılığında olan kəndlilər üzərində hüquqlara malik olan şəxs. Məhdud mənada s. vassallar qrupunun başçısı idi. Ərazinin ali senyoru (kral, knyaz, hersoq) süzeren adlanırdı.

**Senyoriya, senyeriya** *(fr. seigneurie)* – tarix ədəbiyyatında feodal torpaq mülkiyyəti kompleksini və onunla əlaqədar feodal-asılı kəndli hüquqlarını adlandırmaq üçün istifadə edilən termin. Belə geniş mənada s. votçinanın sinonimi kimi çıxış edir. Daha məhdud mənada s. votçinanın növlərindən biridir.

**Senyorluq** – **1)** orta əsrlərdə Qərbi Avropada asılılığında kəndlilər (o cümlədən şəhərlilər) olan feodal, torpaq mülkiyyətçisi; **2)** şəxsi asılılığında ən xırda feodalların: vassalların olduğu feodal.

**Senz** *(lat. census. censeo – siyahıya alıram)* – **1)** Qədim Romada əmlakları göstərməklə vətəndaşların siyahıya alınması. S. sosial-siyasi, hərbi vəziyyəti və vergilərin vəziyyətini müəyyən etmək üçün keçirilirdi. Antik ənənəyə görə s.-i çar Servi Tulli eramızdan əvvəl VI yüzillikdə tətbiq etmişdir. O, vətəndaşları əmlak vəziyyətinə görə 5 dərəcəyə bölürdü. S.-in əsasını nadel torpağı, yaxud daşınar əmlak təşkil edirdi. Sonralar s. pulla da ifadə olunmuşdur. S. 5 ildə bir dəfə keçirilirdi. Onun keçirilməsinə çar, sonralar – imperiya dövründə isə imperatorlar nəzarət edirdilər; **2)** orta əsrlərdə Qərbi və Mərkəzi Avropada kəndli vergisi, töycü; **3)** şəxsin hər hansı siyasi (ilk növbədə seçki) hüquqlarından istifadə etməsinə yol verən məhdud şərt. Bir sıra ölkələrin hüququnda əmlak senzi, təhsil senzi və oturaqlıq senzi də mövcuddur.

**Senzitari** *(bax: senziva).*

**Senziva** *(lat. censiva)* – orta əsrlər Fransasında qeyri-zadəgan, əsasən kəndli irsi torpaq sahəsi. S.-nın sahibi (sezitari) hər il senzora senz (pul rentası, bəzən natural renta) və dövlətə Talya ödəyirdi. S. 1793-cü ildə ləğv edilmişdir.

**Senzor** *(lat. censor, censeo – siyahıya alma)* – **1)** Qədim Romada ali magistratlardan biri. S.-lar iki nəfər tərkibdən ibarət olub, 5 il müddətinə seçilirdilər. Antik ənənəyə görə eramızdan əvvəl 443-cü ildə meydana gəlmiş s. senzi həyata keçirir, dövlətin maliyyə işlərinə nəzarət edirdi. İmperiya dövründə s. vəzifəsi ləğv edilmişdir; **2)** senzuranı həyata keçirən şəxs; **3)** nəşr işlərinə nəzarət edən şəxs.

**Senzura** *(lat. censura)* – **1)** Qədim Romada senzorun vəzifəsi; **2)** rəsmi hakimiyyətin (dünyəvi, yaxud dini hakimiyyətin) çap məhsullarının məzmunu, nəşri və yayılması üzərində nəzarəti. Orta əsrlərdə meydana gəlmiş s. kilsəyə və mütləqiyyətə qarşı zidd ideologiya əleyhinə mübarizə vasitələrindən biri olmuşdur.

**Separatçılıq** *(fr. separatisme – ayrıca)* – ayrılmağa (aralanmağa), əlahiddə olmağa göstərilən cəhd; dövlətin bir hissəsinin ayrılması və yeni dövlət təsisatının yaradılması uğrunda hərəkat. Milli-azadlıq hərəkatından fərqli olaraq s. subyektiv (qiymətləndirici) səciyyə daşıyır.

**Separat sülh (birtərəfli sülh)** – müharibə aparan dövlətlərin koalisiyasına daxil olan dövlətlərdən birinin müttəfiqlərin xəbəri və razılığı olmadan düşmənlə bağladığı sülh. "S.s." termini ilk dəfə Birinci dünya müharibəsi dövründə alman koalisiyası dövlətlərinin birtərəfli sülh bağlamaq cəhdləri zamanı işlədilmişdir.

**Serjant** *(fr. sergent – xidmətçi)* – bir çox dövlətlərin silahlı qüvvələrində aşağı komanda (unter zabit) heyətində rütbə. İlk dəfə XV yüzillikdə Fransa ordusunda meydana gəlmişdir. Rus ordusunda XVII yüzillikdən, keçmiş Sovet ordusunda 1940-cı ildən tətbiq olunmuşdur.

**Sertifikat** *(fr. certificat, son lat. sertifico – təsdiq edirəm)* – **1)** müəyyən bir faktı təsdiq edən sənəd; **2)** xüsusi dövlət istiqraz vərəqələrinin adı; **3)** sığorta sertifikatı – sığorta müqaviləsi şərtlərini əks etdirən və sığorta polisini əvəz edən sənəd; **4)** xarici ticarətdə keyfiyyət sertifikatı – səlahiyyətli orqanların verdiyi və əmtəənin keyfiyyətini təsdiq edən sənəd.

**Sertiorari** *(lat. certiorari)* – ingilis-sakson hüquq sisteminə daxil olan ölkələrdə aşağı instansiya məhkəməsinin icraatında işin tələb edilməsi üçün verilən məhkəmə əmri. Konstitusiya əhəmiyyətli insan hüquq və azadlıqlarının məhkəmə qaydasında müdafiəsinin prosessual formalarından biridir.

**Servaj** – orta əsrlər Qərbi Avropasında təhkimçilik hüququna bənzər feodal asılılığı növü *(bax: servlər).*

**Servitutlar** *(lat. servitutis – tabeçilik)* – əşya hüququnun xüsusi növü. S. müəyyən edilmiş həddə özgəsinin əşyasından istifadə etmək, yaxud onun mülkiyyətçisini müəyyən dərəcədə məhdudlaşdırmaq hüququndan ibarətdir. S. institutu Roma hüququnda formalaşmışdır. Torpaq servititu (məsələn, başqasının sahəsinə keçmək hüququ), şəxsi servitut (məsələn, ömürlük olaraq başqasının əşyasından istifadə hüququ – uzufrukt) məlum idi. Feodalizm dövründə Roma hüququnu mənimsəmiş ölkələrdə yayılmışdır. Burjua hüququ da s.-ı saxlamışdır. Diplomatik təcrübədə və beynəlxalq hüquq ədəbiyyatında "s." terminindən bir dövlətin ərazi hüquqlarının başqa dövlətin xeyrinə məhdudlaşdırılmasını bildirmək üçün istifadə edilir (məsələn, özgə ərazidə hərbi dəniz bazalarının, settimentlərin yaradılması və i.a.).

**Servlər** *(lat. servus – kölə)* – orta əsrlər Qərbi Avropasında hüquqları çox məhdudlaşdırılmış feodaldan asılı kəndlilər kateqoriyası. S. bir sıra senyoriyadan digərinə keçmək, torpağı özgəninkiləşdirmək, əmlakı vəsiyyət etmək, azad nikah hüququna malik deyildilər. Onlar xüsusi vergi ödəyirdilər. XVI yüzilliyə doğru s.-in yalnız qalıqları qalmışdır.

**Sessiya** *(lat. sessio – iclas)* – **1)** nümayəndəli orqan, beynəlxalq təşkilat və elmi konfransın iş dövrü; **2)** məhkəmə orqanlarının səyyar iclasları.

**Setessiya** *(lat. secessio)* – dövlətin hər hansı bir hissəsinin onun tərkibindən çıxması.

**Settlment** *(ing. settlement)* – **1)** ingilis-sakson hüquq sisteminə daxil olan dövlətlərin mülki prosesində tərəflər arasında bağlanan müqavilə. S.-ə əsasən məhkəmə baxışı hələ qərar çıxarılmazdan əvvəl dayandırılır; **2)** Çində XIX-XX yüzilliklərdə bir sıra iri şəhərlərdə əcnəbilərə icarəyə verilən xüsusi məhəllələr. S.-lər ekstərazilik hüququna malik idilər. Qərb ölkələri həmin hüquqdan 1943-cü ildə imtina etmişdir.

**Seyid** *(ərəb. rəhbər, ağa, cənab)* – islamaqədərki Ərəbistanda tayfa aristokratiyası-

nın nümayəndəsi, tayfa başçısı."S." Məhəmməd peyğəmbərin nəslindən olan müsəlmanların fəxri tituludur. Bu termindən müsəlman hökmdarları bir titul kimi geniş istifadə etmişlər. Bir sıra müsəlman dövlətlərində bu tituldan indi də istifadə olunur. Yəməndə XX yüzilliyin son dövrlərinədək seyidlər ənənəvi sosial iyerarxiyanın yüksək təbəqəsini təşkil edirdilər. Bu ölkədə tayfa mübahisələrinin həllində münsiflər məhkəməsi funksiyasını seyidlər yerinə yetirirdirlər. "S." terminindən "cənab" istilahı kimi neytral mənada da istifadə edilir.

**Seym** *(pol. seym)* – **1)** feodal Polşasında və Litvada (həmçinin Reç Pospolitada), Çexiyada XIII-XIV əsrlərdə və XX əsrin əvvəllərində silki-nümayəndəli orqan; **2)** Rusiya imperiyası tərkibinə daxil olan Böyük Finladiya knyazlığında (1809-1917-ci illərdə) parlamentin rusca adı; **3)** burjua Litvasında 1922-1940-cı illərdə və burjua Latviyasında 1922-1934-cü illərdə parlamentin adı, burjua Polşasında 1922-1939-cu illərdə parlamentin aşağı palatası; **4)** hazırda Polşada ali qanunvericilik hakimiyyəti orqanı.

**Səbəbli əlaqə** – törədilən cinayət əməli ilə meydana çıxmış nəticələr arasındakı əlaqə. S.ə. cinayət məsuliyyətinin mühüm şərtlərindən biridir. Təqsirləndirilən şəxsin törətdiyi ictimai təhlükəli əməl məhz ona görə cinayət hesab edilir ki, o, cinayət qanunu ilə nəzərdə tutulan zərərli nəticələri doğurur. S.ə.-nin olmadığı hallarda əməllə baş vermiş zərərli nəticələr arasındakı obyektiv əlaqə aradan qalxır və beləliklə, cinayət məsuliyyətinin obyektiv əsası istisna olunur.

Mülki hüquqda səbəbli əlaqə borclunun hüquqazidd hərəkətləri ilə kreditor üçün əlverişli olmayan nəticə arasında olan əlaqədir. S.ə.-nin olub-olmaması məsələsi hüququ pozmuş şəxsin tələblərinə, müqavilə öhdəliklərinin pozulması nəticəsində, yaxud müqaviləyə əsaslanmayan ziyan vurulması nəticəsində dəymiş zərərin ödənilməsi haqqında tələblərə, habelə üzərinə öhdəlik götürmüş şəxsin hüquqazidd hərəkətləri nəticəsində əmələ gəlmiş tələblərə baxılarkən həll edilməlidir. S.ə. faktının müəyyən edilməsi bir qayda olaraq özlüyündə mülki-hüquqi məsuliyyətə cəlb etmək üçün əsas deyildir.

**Sədəqə** *(islamda)* – mərhəmət, Quranda təsbit edilmiş norma. S. haqqında məsələləri fiqhin üqubət və əhkam bölmələri izah edir. S., buna imkanı olan bütün müsəlmanların vəzifəsinə şamil edilir. Bu hərəkət məndub dərəcəsinə aid olunur. S.-ni ancaq o kəs qəbul edir ki, özü bu vəzifəni yerinə yetirmək iqtidarında deyil. S. vermək iqtidarında olan şəxsin onu qəbul etməsi dələduzluq kimi qiymətləndirilir. S.-nin aşağıdakı növləri mövcuddur: a) xeyriyyə aktı; b) günahın yuyulmasına yönələn hərəkət, yəni cərimə; c) öz əmlakından və ya gəlirlərindən yoxsullara əl tutmaq və i.a.

Hədislərdə və fiqhə aid ədəbiyyatda "s." termini ilə zəkat da adlandırılır. Belə ki, s. və zəkat ilk əvvəllər eyni anlayışlar olmuşlar. Yəni s. vəsaitlərindən istifadə etmək hüququna malik olan şəxs, eynilə zəkat vəsaitlərindən də istifadə etmək hüququna malik idi.

**Sədr-i-əzəm** – Osmanlı imperiyasında (XVI yüzillikdən) və İranda (XIX yüzillikdən) baş nazir, hökumət başçısı. Osmanlı imperiyasındakı baş vəzir, yaxud vəzir-i əzəm titulunun sinonimidir. İranda 1905-1911-ci illər inqilabı, Türkiyədə isə 1922-ci ildə ləğv edilmişdir.





**Səfərbərlik** – müəyyən məqsədə nail olmaq naminə qüvvə və vasitələrin cəmləşdirilməsi (səfərbər edilməsi).

**Səfir** *(bax: diplomatik rütbələr).*

**Səfirlik** – səfirin, yaxud 1-ci dərəcəli diplomatik nümayəndənin başçılıq etdiyi diplomatik orqan. Beynəlxalq münasibətlər təcrübəsində bir ölkədən digərinə hər hansı mərasimdə (məsələn, milli bayram təntənələrində, dövlət başçısının dəfnində və i.a.) iştirak etmək üçün göndərilən fövqəladə səfirlik olur. Müasir beynəlxalq münasibətlər təcrübəsində çox zaman xüsusi hökumət nümayəndə heyəti fövqəladə səfirlik adlandırılır.

**Səfirlik hüququ** – dövlətlərin xarici münasibətlər orqanlarının (səfarətxana və missiyaların) və diplomatik hüquqdan istifadə edən ticarət nümayəndəliklərinin təşkili və fəaliyyət qaydalarını tənzim edən hüquq normalarının məcmusu. Diplomatik münasibətlərdə iştirak edən dövlətlərin xarici nümayəndələri qəbul etmək üzrə suveren səlahiyyətlərinə passiv səfirlik hüququ, özünün nümayəndələrinin xarici dövlətlərə göndərilməsini təmin edən qaydalara isə aktiv səfirlik hüququ deyilir.

**Səhlənkarlıq** – dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 314-cü maddəsində nəzərdə tutulmuşdur. Vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsində və ya lazımi qaydada yerinə yetirməməsində ifadə olunur.

**Səhm** – səhmdar cəmiyyətində üzvlüyü və ya sahibinin (səhmdarın) səhmdar cəmiyyəti mənfəətinin bir hissəsini dividendlər şəklində almaq, səhmdar cəmiyyəti işlərinin idarə olunmasında iştirak etmək hüququnu və cəmiyyətin ləğvindən sonra qalan əmlakın bir hissəsinə hüququnu təsdiqləyən qiymətli kağız.

S.-lər yalnız emissiya prospekti əsasında açıq abunə yazılışı üçün buraxıla və ya birjaya çıxardıla bilər. Emissiya prospektində aşağıdakı məlumatlar olmalıdır: 1) hüquqi şəxslərin dövlət reyestrində emitent barəsində olan məlumatlar; 2) səhmlərin miqdarını, nominal dəyərini və növlərini, habelə səhmlərin ayrı-ayrı kateqoriyalarının imtiyazlarını göstərməklə səhmdar kapitalının miqdarı və tərkibi; 3) kapitalın icazə verilmiş və ya şərtləşdirilmiş artırılması haqqında qərarlar; 4) sabit dividendli səhmlərin və ya dividend kuponlarının miqdarı və bunlardan irəli gələn hüquqların məzmunu; 5) müstəqil auditorun auditor hesabatı ilə birlikdə, emitentin sonuncu balansı və toplu maliyyə hesabatı, habelə balansın tərtib edildiyi gündən 6 aydan çox keçdikdə, auditorun yoxladığı aralıq balansların məzmunu; 6) emitentin təsis edildiyi andan bəri və ya emitentin, heç olmasa, son 5 maliyyə ilində ödənilmiş dividendlər; 7) səhmdar cəmiyyətinin idarəetmə orqanının yeni səhmlərin buraxılışı haqqında qərarı.

S. sahibi səhmdar cəmiyyətinə qoyduğu kapitalı geri götürməyə haqlı deyil, lakin s.-i fond birjasında sata bilər. S.-də göstərilən məbləğ onun nominal dəyəridir, faktiki satış qiyməti isə s. məzənnəsi adlanır və adətən nominal dəyərə uyğun gəlir. S.-lər istifadə xarakterinə görə adlı və adsız, gəlir gətirmə həcminə görə isə adi və imtiyazlı səhmlərə bölünürlər.

**Səhmdar** – səhmdarlar cəmiyyətinin səhminə və ya müvəqqəti səhm şəhadətnaməsinə malik olan fiziki, yaxud hüquqi şəxs.

**Səhmdar banklar** – səhmdarlar cəmiyyəti formasında təşkil edilmiş banklar.

**Səhmdar cəmiyyəti** – təsərrüfat fəaliyyətini həyata keçirmək məqsədilə nizamnamə fondunu səhm buraxmaq yolu ilə formalaşdıran fiziki və (və ya) hüquqi şəxslərin könüllü sazişi əsasında yaradılan müəssisə. S.c. qapalı, açıq tipli səhmdar cəmiyyəti formasında yaradılır. Cəmiyyətin təsisçisi (səhmdar) olan hüquqi şəxslər öz təsərrüfat müstəqilliyini və hüquqi şəxs statusunu saxlayırlar.

**Səhmdar hüququ** – səhmdarlar cəmiyyətinin və onun iştirakçılarının statusunu müəyyən edən hüquq normalarının məcmusu. S.h.-nun predmetini həm də səhmdarlar və cəmiyyətlər arasında yaranan korporativ (üzvlük) münasibətləri təşkil edir.

**Səhmdar kommanditası** – bir sıra xarici ölkələrdə səhmdarlar cəmiyyəti və kommandit birliklərində birləşmiş şirkətlər (birliklər) növü. İştirakçılarının bir qismi – əmanətçilər özlərinin bütün əmlakı ilə s.k.-nın öhdəlikləri üzrə cavab verirlər. Digər iştirakçılar – səhmdarlar isə yalnız öz əmanətləri həddində cavab verirlər.

**Səhmdar registri** – qeydiyyatdan keçmiş səhmlərin sahiblərinin siyahısı; siyahı şirkət və ya şirkətin tapşırığı üzrə xüsusi registr-təşkilat tərəfindən tərtib edilir.

**Səhm kapitalı** *(bax: səhm; səhmdar cəmiyyəti).*

**Səhmlər konversiyası** – səhmlərin (istiqrazların və digər qiymətli kağızların) başqa tipdən olan (eyni şirkət tərəfindən buraxılan) qiymətli kağızlara dəyişdirilməsi.

**Səhmlər sertifikatı** – emitent tərəfindən buraxılan və sertifikatda göstərilən səhmlərin sayını və onlara olan hüquqları təsdiq edən sənəd. S.s. emissiya qiymətli kağızlar sertifikatlarının ən geniş yayılmış növüdür.

**Səhmləşdirmə** – dövlət və bələdiyyə müəssisələrinin açıq səhmdarlar cəmiyyətlərinə çevrilməsi yolu ilə həyata keçirilən özəlləşdirmə üsulu. Belə təcrübə Rusiya Federasiyasında 1992-ci ildən özünün geniş inkişafını tapmışdır.

**Səhm məzənnəsi** *(bax: səhm).*

**Səhm nəzarət paketi** – səhmdarlar cəmiyyətində səhm sahibinin tam nəzarətini və faktiki hökmranlığını təmin edən səhm payı. S.n.p. maliyyə kapitalı maqnatlarının əlində cəmləşir. Onlar iştirak sistemi vasitəsilə səhm nəzarət paketi 20-30 faiz, bəzən isə 5-10 faiz olduqda belə (səhmdarlar cəmiyyətində hökmranlığı təmin etmək üçün səhmin miqdarı formal olaraq 50 faizdən çox olmalıdır) səhmdarlar cəmiyyətində tam ixtiyar sahibi olurlar.

**Səlahiyyət** *(ərəb.)* – dövlət orqanının və ya vəzifəli şəxsin qanun, nizamnamə, yaxud əsasnamə ilə müəyyən edilmiş hüquq və vəzifələri. Məhkəmə orqanlarının s.-i qanunla müəyyən edilir. S.-in özbaşına genişləndirilməsi hüquq pozuntusu kimi qiymətləndirilir.

**Səlahiyyətli banklar** – **1)** Azərbaycan Respublikasının Milli Bankından lisenziya almış banklar və digər kredit təşkilatları (valyuta əməliyyatları aparmaq hüququna malikdirlər); **2)** beynəlxalq valyuta-kredit







təşkilatlarında öz ölkəsinin hökumətinin mənafelərini təmsil edən banklar; **3)** dövlət hakimiyyəti, regional və ya yerli hakimiyyət orqanları tərəfindən müvafiq büdcənin kassa icrasının, valyuta sərvətlərinin qorunmasının tapşırıldığı banklar.

**Sələmçi** – yüksək faiz məbləğində borc pul verən şəxs.

**Sələmçilik** – bir sıra ölkələrdə yüksək faiz müqabilində borc pul verilməsi ilə bağlı olan məşğuliyyət. Adətən belə borclardan kapital kimi deyil, alıcılıq və ödəmə vasitəsi kimi istifadə olunur.

**Sələm kapitalı** – kapitalın kapitalizməqədərki formasiyalar üçün xarakterik forması. Borc kapitalın sələfi olmaqla sahibinə yüksək gəlir (faiz şəklində) gətirir. S.k. ibtidai cəmiyyətin dağıldığı dövrdə meydana gəlmişdir.

**Səmimi peşmançılıq** – cinayət məsuliyyətini yüngülləşdirən hallardan biri; məhkəməyə maddənin sanksiyası çərçivəsində cəza tədbirini aşağı salmağa imkan verir. S.p. adətən təqsirləndirilən şəxsin təhqiqat, istintaq gedişində və ya məhkəmə baxışı prosesində törətdiyi cinayətin bütün halları barəsində verdiyi könüllü ifadələr, həmçinin özünün və birgə iştirakçıların hərəkətlərinə mənfi qiymət verməsində ifadə olunur. Təqsiri artıq sübuta yetirilmiş şəxsin sonradan ifadə etdiyi peşmançılıq s.p. kimi qiymətləndirilə bilməz.

**Sənəd** – informasiyanın mətn, səsyazma və təsvir formasında qeydə alınan, müəyyən zaman və məkan daxilində informasiyanın verilməsi məqsədini daşıyan maddi obyekt . Məzmununa görə elmi-texniki (məqalələr, kitablar, patentlər, çertyojlar və i.a.), hüquqi (qərarlar, fərmanlar, müqavilələr və i.a.), idarəedici (əmrlər, direktivlər) sənədlər fərqləndirilir.

**Sənədləşdirilmiş akkreditiv** – kommersiya (əmtəə) akkreditivinin bir növü; bu akkreditivə uyğun olaraq boşaltma və ödənişi almaq hüququnu təsdiq edən digər kommersiya sənədlərinin, vekselin təqdim edildiyi zaman bank alıcının ödənişini ödəyir.

**Sənədləşdirilmiş informasiya (sənəd)** – maddi daşıyıcıda eyniləşdirilməyə imkan verən rekvizitlərlə rəsmiləşdirilmiş informasiya.

**Sənədləşdirilmiş tratta** – əmtəə sənədlərinin əlavə edildiyi tratta.

**Sənədləşdirilmiş veksel** – əmtəə-sərəncamverici sənədlərlə (veksel bu sənədlər əsasında tərtib edilir) müşayiət olunan veksel.

**Sənədli inkasso** – kommersiya sənədləri (hesablarla, nəqliyyat və sığorta sənədləri və i.a.) ilə müşayiət olunan maliyyə sənədlərinin inkassosu, həmçinin ancaq kommersiya sənədlərinin inkassosu. Əgər alıcı ödəmədən imtina edərsə, sənədlər ona verilmir və o, malın üzərində sərəncam vermək hüququndan məhrum olur. Alıcının ödəmədən imtina etdiyi halda satıcı mal və sənədlərlə nə etməyin lazım olması barədə banka dürüst təlimat verməlidir.

**Sənədli köçürmə vekseli** – nəqliyyat qaiməsinin, konosamentin və digər sənədlərin əlavə edildiyi köçürmə vekseli.

**Sənədsiz qiymətli kağızlar** – mülki qanunvericilikdə qiymətli kağızların bir növü. AR MM-in 996.4-cü maddəsinə uyğun olaraq sənədsiz qiymətli kağızlarla əməliyyat-

lar aparıla bilər. Hüquqların başqasına verilməsi, təqdim olunması və məhdudlaşdırılması rəsmi yazıların salamatlığı, onların məxfiliyinin təmin edilməsi, bu cür yazılar haqqında düzgün məlumatlar verilməsi, aparılmış əməliyyatlar haqqında rəsmi qeydlərin yazılması üçün məsuliyyət daşıyan bu şəxs tərəfindən rəsmən təsbit edilməlidir.

**Sənət vergisi** – ölkə daxilində xırda və yerli sənaye ilə məşğul olan müəssisələrin və artellərin ödədiyi vergi. Qərbi Avropa ölkələrinin təcrübəsində mövcuddur.

**Səpuhlar (sepuhlar)** – erkən feodalizm dövründə Qafqaz Albaniyasında torpaq sahibləri. Səpuh torpaq sahibliyi qədim mayorat vərəsəlik sisteminin əvəzində meydana gəlmiş torpaq üzərində feodal xüsusi mülkiyyət formalarından biri olmuşdur.

**Səranə** *(fars.)* – orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda rəiyyətdən alınan can vergisi. Səfəvilər dövründə geniş yayılmışdır.

**Sərbaz** – İran İslam Respublikasının Silahlı Qüvvələrində sıravi əsgər.

**Sərbəst anbar** *(bax: sərbəst gömrük zonası).*

**Sərbəst gömrük zonası** – xarici mallardan gömrük rüsumları və vergilər alınmadan, həmçinin göstərilən malların iqtisadi siyasət tədbirləri tətbiq edilmədən onların müvafiq ərazi sərhədlərində və ya binalarında (yerlərdə) yerləşdirilməsi və istifadəsindən, Azərbaycan mallarının isə AR GM ilə müəyyən edilən qaydada ixrac gömrük rejiminə müvafiq olaraq malların aparılmasına tətbiq edilən şərtlərlə yerləşdirilməsi və istifadə olunmasından ibarət gömrük rejimi.

**Sərbəst nümunələr** – ekspertizası təyin edilmiş işin başlanmasınadək və onunla əlaqədar olmayaraq tədqiq edilən obyektin güman edilən icraçısı tərəfindən icra olunan və ekspertə müqayisəedici material qismində təqdim olunan əlyazmalar. S.n.-in xüsusiyyətləri ondan ibarətdir ki, icraçı onun əlyazmalarından ekspertizanın aparılmasında müqayisəli material qismində istifadə ediləcəyini güman etmir. Buna görə də, bir qayda olaraq, onların öz xəttini (imzasını) şüurlu surətdə dəyişdirmək niyyəti olmadan icra edir.

**Sərbəst toplaşmaq azadlığı** – insan və vətəndaşın kontitusiyada təsbit edilmiş əsas hüquq və azadlıqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinə əsasən hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır. Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır.

**"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında vətəndaşların sərbəst toplaşması, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirməsi və piketlər düzəltməsi ilə əlaqədar münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 13 noyabr 1998-ci il tarixdə qəbul edilmişdir. O, beş fəsildən və 17 maddədən ibarətdir.

**Sərdar** *(fars. türk. serdar)* – **1)** sərkərdə, komandan, baş komandan; **2)** canişin

**Sərəncam** – **1)** konstitusiya hüququnda və inzibati hüquqda dövlət idarəçilik orqanının aktı. S. hökmlü səciyyə daşımaqla vəzifəli şəxsə, dövlət orqanına verilmiş səlahiyyət daxilində çıxarılır (verilir) və müvafiq vətəndaşlar, habelə fiziki şəxslər üçün məcburi xarakter daşıyır. Konkret hadisə barəsində verilən birdəfəlik və ümumi s.-lar, yəni uzun müddət üçün qüvvədə olan s.-lar fərqləndirilir. Lakin hər iki halda s. qanuni qüvvəyə malik olan akt kimi çıxış edir. Qərardan fərqli olaraq s. normativ xarakter daşımır; **2)** mülki hüquqda s. əşyanın mülkiyyətçisinin, habelə təhkim edilmiş əmlak üzərində təsərrüfatçılıq hüququnu həyata keçirən dövlət təşkilatlarının səlahiyyətlərindən biridir. S. hüququna əsasən mülkiyyətçi alqı-satqı, tədarük, bağışlama, əmlak kirayəsi və i.a. əqdlər vasitəsilə əmlak üzərində s. verməklə *onu iqtisadi dövriyyəyə daxil edir.* S. aktı ilə əmlak özgəninkiləşdirilir, girov qoyulur, saxlanca, müvəqqəti sahibliyə və istifadəyə verilir. S. vasitəsilə əmlak mülki dövriyyəyə buraxılır. Əşyanın hüquqi taleyi s.-ın verilməsilə müəyyən edilir.

**Sərəncam hüququ** – əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanı *(bax: sərəncam).*

**Sərəsgər** – **1)** orta əsrlərdə bəzi müsəlman dövlətlərində hərbi rütbə; keçmiş türk ordusunda baş komandan; **2)** Osmanlı imperiyasında hərbi nazir.

**Sərhəd xidməti qaydalarını pozma** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 339-cu maddəsində nəzərdə tutulmuşdur. Sərhəd dəstəsinin tərkibinə daxil olan şəxs tərəfindən və ya sərhəd xidməti üzrə sair vəzifələri yerinə yetirən şəxs tərəfindən sərhəd xidməti qaydalarını pozmada ifadə olunur.

**Sərhəd komissarları** – həmhüdud dövlətlərin nümayəndələri (müvəkkilləri). S.k. dövlət sərhəd rejimini saxlamaqla əlaqədar məsələləri həll etmək, həmçinin sərhəd münaqişələrini tənzimləmək üçün sərhəd qoşunları zabitlərindən təyin edilirlər. S.k.-nın qərarları məcburi və qəti xarakter daşıyır. S.k. tərəfindən tənzim edilmiş məsələlər diplomatik qaydada həll edilir.

**"Sərhəd qoşunları haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında dövlət sərhədinin mühafizəsi və toxunulmazlığının təmin edilməsilə əlaqədar münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 6 yanvar 1994-cü il tarixdə qəbul olunmuş, ona bir sıra əlavə və dəyişiklik edilmişdir. Qanun beş fəsil və 40 maddədən ibarətdir.

**Sərhəd qoşunu** – bəzi dövlətlərdə sərhəd mühafizə dəstələri. Dövlətin siyasi, hərbi, iqtisadi mənafelərini qorumaq, quru və dəniz sərhədlərinin silahlı müdafiəsi üçün nəzərdə tutulur.

Azərbaycan Respublikasında s.q. ölkə *Silahlı Qüvvələrinin tərkib* hissəsi olub, dövlət sərhədinin mühafizəsini və təhlükəsizliyini təmin edir.

**Sərhədlərin delimitasiyası** *(lat. delimitatio – sərhədlərin müəyyən edilməsi)* – həmhüdud dövlətlər arasındakı sazişə əsasən dövlət sərhədlərinin vəziyyətinin və istiqamətinin müəyyən edilməsi. S.d. müvafiq müqavilədə, yaxud s.d. haqqında başqa sənəddə ifadə olunur. Sərhəd xidmətinin müqavilədə müəyyənləşdirilmiş vəziyyəti müqavilənin tərkib hissəsini təşkil edən coğrafi xəritəyə köçürülür.

**Sərhədlərin demarkasiyası** – dövlət sərhəd xəttinin ərazidə müəyyən edilməsi. S.d.-nın həyata keçirilməsi üçün razılığa gəlmiş tərəflər qarışıq komissiya yara-

dırlar. Bu komissiya s.d. haqqında müqavilləni rəhbər tutaraq xüsusi sərhəd nişanları (sərhəd dirəkləri, piramidalar və i.a.) qoyurlar. S.d. üzrə bütün hərəkətlər barəsində xüsusi sənədlər – sərhəd xətləri və nişanlarının təsviri verilmiş protokollar (protokollara fotoşəkillər və sxemlər də əlavə olunur) tərtib edilir. Əvvəllər demarkasiya edilmiş sərhədlərin yoxlanmasına və sərhəd nişanlarının bərpasına, yaxud dəyişdirilməsinə redemarkasiya deyilir.

**Sərhəd münaqişələri** – həmhüdud dövlətlər arasındakı ziddiyyətlər. S.m. bəzən dövlət sərhədində açıq toqquşmalar, yaxud sərhədin pozulması ilə nəticələnir. Müasir beynəlxalq hüquqa görə s.m. dinc vasitələrlə həll edilməlidir.

**Sərhəd nişanı** – müvafiq yerlərdə Azərbaycan Respublikasının dövlət sərhədinin göstərilməsi üçün nəzərdə tutulan xüsusi predmet. S.n.-nın təsviri və yerləşdirilməsi qaydası Azərbaycan Respublikasının beynəlxalq müqavilələri, Azərbaycan Respublikası hökumətinin qərarları ilə müəyyən edilir.

**Sərhəd nümayəndələri** *(bax: sərhəd komissarları).*

**Sərhəd rejimi** – Azərbaycan Respublikasının dövlət sərhədinə çıxışa malik sərhəd zonalarının, ərazi sularının, həmçinin daxili suların rejimi. S.r. müstəsna dərəcədə dövlət sərhədinin mühafizəsi üçün zəruri şəraitin yaradılmasına xidmət edir.

**Sərhəd sazişləri** – həmhüdud dövlətlərin bağladıqları beynəlxalq sazişlər. S.s. dövlət sərhədlərinə dair məsələləri tənzim edir. S.s.-nə ilk növbədə sərhədlərin delimitasiyası və sərhədlərin demarkasiyası haqqında müqavilələr, dövlət sərhəd rejimi və sərhəd münaqişələrini tənzim edən qaydalar haqqında müqavilələr aiddir.

**Sərhəd suları** – sərhəd zolağının keçdiyi sahələrin hüdudlarındakı su məkanları. Dövlət sərhədinin keçdiyi həm yeraltı, həm də yerüstü sular s.s.-na aid edilir. S.s.-nın hüquqi rejimi dövlətin daxili qanunvericiliyi, eləcə də həmhüdud dövlətlərlə bağlanmış müqavilələrlə tənzim edilir.

**Sərhəd zonası** – quruda, Azərbaycan Respublikasının dəniz sahilində və sərhəd çaylarının Azərbaycan sahillərində Azərbaycan Respublikasının dövlət sərhədi boyunca 5 km-dək enində olan yer zonası. Yaşayış məntəqələri, sanatoriyaların, istirahət evlərinin və digər sağlamlıq müəssisələrinin yerləşdikləri yerlər s.z.-na daxil edilməyə bilərlər.

**Sərhəng** *(fars.)* – İran ordusunda hərbi rütbə; polkovnik.

**Sərxoş halda törədilmiş cinayətə görə məsuliyyət** - cinayət qanunvericiliyinə görə cinayət məsuliyyətinin şərtlərindən biri. AR CM-in 23-cü maddəsinə uyğun olaraq səbəbindən asılı olmayaraq (alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə nəticəsində) sərxoş halda cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad olunmur.

**Sərxoşluq** – cinayət hüququnda alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən və ya başgicəlləndirici digər vasitələrdən istifadə nəticəsində yaranan psixi vəziyyət; insanın öz hərəkətlərinə cavab vermək və onlara rəhbərlik etmək iqtidarında olmamasında ifadə olunur. Sərxoşluq vəziyyətində törədilmiş cinayət təqsirləndirilən şəxsi cinayət məsuliyyətindən azad etmir.





Kriminologiyada məişət cinayətkarlığı səviyyəsinə xüsusilə güclü təsir edən kriminogen amillərdən biri kimi qiymətləndirilir. Adi sərxoşluğu patoloji sərxoşluqdan fərqləndirmək lazımdır.

**Sərkərdə** *(fars. qoşun başçısı)* – ordu başçısı, qoşun rəisi. Ordu və birləşmələrə, qoşun hissələrinə məharətlə rəhbərlik edərək düşmən üzərində qələbə qazanmaq bacarığı s. üçün mühüm şərtdir.

**Sərmayə** *(bax: investisiya).*

**Sərnişin daşınması müqaviləsi** - mülki-hüquqi müqavilələrin bir növü. AR MM-in 842.1-ci maddəsinə uyğun olaraq sərnişin daşınması müqaviləsinə görə daşıyıcı müəyyən nəqliyyat növü ilə sərnişini, habelə onun əl yükünü yola düşmə yerindən təyinat yerinə çatdırmağı, sərnişin isə daşımanın dəyərini ödəməyi öhdəsinə götürür.

Sərnişin daşınması müqaviləsi sərnişinin daşıyıcıdan sərnişin daşıması üçün nəqliyyat sənədi (gediş bileti) aldığı andan və ya daşıyıcının razılığı ilə sərnişinin nəqliyyat vasitəsində yer tutması nəticəsində bağlanmış hesab olunur.

**Sərtib** *(fars.)* – İran ordusunda hərbi rütbə; general-mayor; briqada generalı, briqada komandiri.

**Səsvermə turu** – seçkilərin seçicilərin səs verməsini və səsvermənin yekunlarının müəyyən edilməsini əhatə edən mərhələsi. Qanunla səsvermənin bir neçə turu da nəzərdə tutula bilər və buna adətən ilk turda namizədlərin tələb olunan səsləri toplaya bilmədikləri hallarda zərurət yaranır.

**Səyyar vergi yoxlaması** – vergi nəzarətinin formalarından biri. AR VM-in 38.1-ci maddəsinə uyğun olaraq səyyar vergi yoxlaması vergi orqanının qərarına əsasən həyata keçirilir. Belə yoxlama növbəli və növbədənkənar ola bilər. Növbəli s.v.y. yoxlamanın başlanmasından azı 15 gün əvvəl yazılı formada bildirilir. O, ildə bir dəfədən az olmayaraq keçirilir və bir aydan artıq davam edə bilməz. Növbədənkənar s.v.y. vergiyə dair hesabat sənədləri vaxtında təqdim edilmədikdə, belə sənədlər vergi orqanının xəbərdarlığından sonra təqdim edilmədikdə, yoxlamaların nəticələri üzrə tərtib edilmiş aktda təhrif edilmiş məlumatlar aşkar edildikdə keçirilə bilər. S.v.y. iş günü və vergi ödəyicisinin iş vaxtı ərzində keçirilir.

**Sığınacaq** – əhalini və ya qoşunların şəxsi heyətini bütün qırğın vasitələrinin zədələyici təsirindən qorumaq üçün tikilən xüsusi qurğu. S. möhkəm inşaat materiallarından tikilir (nüvə partlayışı və bakterioloji maddələrdən qorunmaq üçün), ventilyasiya ilə təchiz olunur və burada adamların 2-3 gün qalması üçün şərait yaradılır. S. əsas və yardımçı otaqlardan (ərzaq, su ehtiyatları saxlanılan otaqlardan) ibarət olur.

**Sığınacaq hüququ** – vətənində, yaxud hər hansı bir ölkədə siyasi, elmi, dini görüşlərinə və fəaliyyətinə görə təqib edilən şəxslərə başqa dövlət tərəfindən onun ərazisində təhlükəsiz yaşamaq üçün verilən hüquq. S.h. hələ qədim dövrlərdən 3 formada mövcud olmuşdur: 1) ərazi sığınacaq hüququ (təqib edilənin başqa ölkənin ərazisində müdafiə olunması); 2) diplomatik sığınacaq hüququ (səfirlik və konsulluqların binalarında himayəyə götürmə); 3) dini sığınacaq hüququ (təqib edilənin ibadət yerlərində – məscidlərdə, kilsələrdə gizlədilməsi). Müasir beynəlxalq hüquqda yalnız ərazi sığınacaq hüququ ta-

nınır. Hər bir dövlət öz ərazisində s.h.-dan istifadə etmək hüququ olan şəxsləri qanunvericiliklə müəyyən edir. S.h. almış mühacirlərə müəyyən hüquqlar (mülki, əmək və i.a.) verilir. Onlar məcburi qaydada geri verilmir (qaytarılmır).

**Sığorta** – sığortalının əmlakının və əmlak mənafelərinin müdafiəsi sahəsində münasibətlər. S. sistemi müvafiq icra hakimiyyəti orqanından, sığortaçılarından, sığorta brokerləri, agentləri və ekspertlərindən ibarətdir. Sığorta sahəsində münasibətlər "Sığorta haqqında" Azərbaycan Respublikasının 25 iyun 1999-cu il tarixli qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və müvafiq beynəlxalq müqavilələr, habelə müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktları ilə tənzimlənir.

**Sığorta agenti** – təşkilati-hüquqi formasından asılı olmayaraq hər hansı hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs. Agent müqavilə ilə sığortaçının adından və onun verdiyi səlahiyyət daxilində vasitəçilik fəaliyyəti göstərir, o cümlədən sığortaçını təmsil edərək onun adından sığorta müqaviləsini bağlaya bilər.

**Sığorta aktı** – sığorta edilmiş əmlaka vurulmuş zərərin səbəblərinin və miqdarının, yerinin və vaxtının, həmçinin ekspertin rəyinin göstərildiyi sənəd. Sığorta təşkilatı tərəfindən sığorta olunanın iştirakı, yaxud onun nümayəndəsinin iştirakı ilə tərtib olunur və sığorta haqqının ödənilməsinə xidmət edir.

**Sığorta brokeri** – sığorta müqaviləsində sığortalını təmsil edən, sığortaçının seçilməsi zamanı birtərəf və müstəqil mövqe tutaraq sığorta müqaviləsinin imzalanması üçün hazırlıq işlərini həyata keçirən və lazım olarsa, bu müqavilənin həyata keçirilməsinə köməklik göstərən hüquqi şəxs (broker təşkilatı) və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs. Təkrar sığorta brokeri təkrar sığorta üzrə sığortaçı ilə təkrar sığortaçı arasında vasitəçilik fəaliyyətini həyata keçirən brokerdir.

**Sığortaçı** – yalnız sığorta və təkrar sığorta fəaliyyətini göstərmək məqsədilə yaradılmış, qanunvericiliklə müəyyənləşdirilmiş qaydada xüsusi razılıq almış hüquqi şəxs olan sığorta təşkilatı.

**Sığorta dəyəri** – sığorta obyektinin həqiqi, faktiki dəyəri. S.d.-nin hesablanması müxtəlif dövlətlərdə öz xüsusiyyətlərinə malikdir və qüvvədə olan milli qanunvericiliyə, həmçinin təcrübəyə əsaslanır. Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq sığorta müqaviləsində müəyyən edilmiş əmlakın sığorta dəyəri tərəflər arasında mübahisə predmeti ola bilməz. İstisna hal sığorta olunanın sığorta edənin onu qəsdən aldatdığını sübut etməsi ola bilər.

**Sığortaedənlər** – Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün işəgötürənlər, habelə başqasını sosial sığorta edən digər şəxslər.

**Sığorta ehtiyatları** – öz fəaliyyətinin sabitliyini təmin etmək üçün sığortaçıların "Sığorta haqqında" Azərbaycan Respublikasının 25 iyun 1999-cu il tarixli qanununun 44-cü maddəsinə uyğun olaraq vergi tutmadan qabaq sığorta haqları hesabına yaratdıqları ehtiyatlar. S.e. müqavilə üzrə öhdəliklərin göstərildiyi valyutada hesablama tarixinə birja məzənnəsi üzrə hesablanır. Sığortaçı vergini ödədikdən sonra başqa ehtiyatlar və fondlar da yarada bilər.

**Sığorta eksperti** – sığorta hadisəsi nəticəsində vurulan zərərin miqdarını, səbəblərini, xüsusiyyətlərini müəyyənləşdirmək üçün ekspertiza, yoxlama və ya araşdırmanı həyata keçirən mütəxəssis. S.e.-nin fəaliyyət göstərməsi qaydasını və ona verilən ixtisas tələblərini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Sığorta hadisəsi** – qanuna və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin, sığortalıya və ya üçüncü şəxslərə ödənilməsi üçün əsas olan hal.

**Sığorta haqqı** – sığorta müqaviləsinə və ya "Sığorta haqqında" Azərbaycan Respublikasının 25 iyun 1999-cu il tarixli qanununa uyğun olaraq sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği. Sığortalı s.h.-nı yalnız sığortanı təsdiq edən sənədi aldıqdan sonra ödəməlidir. Əgər sığortaya maraq itmişdirsə, sığortaçı s.h.-nın öz üzərinə götürdüyü riskin müddətinə uyğun hissəsini tələb edə bilər. Sığortaçı göstərilmiş xidmətə uyğun muzd tələb edə bilər. (AR MM-in 899-cu maddəsi).

**"Sığorta haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında sığorta işinin inkişaf etdirilməsinə və etibarlı şəkildə həyata keçirilməsinə, sığortalıların hüquq və mənafelərinin qorunmasına yönəldilən, sığortaçıların maliyyə sabitliyinin təmin edilməsinə, sığorta sahəsində fiziki və hüquqi şəxslərin peşəkar fəaliyyət (ekspert, aktuar, agentlik, broker və produktor fəaliyyəti) göstərməsinə, sığorta müqavilələrindən irəli gələn münasibətlərin tənziminə, sığorta sahəsində dövlətin müəyyən edilmiş səlahiyyətlərinə dair münasibətləri müəyyənləşdirən qanunvericilik aktı.

Bu qanun 25 iyun 1999-cu il tarixdə qəbul edilmişdir. O, altı fəsil və 55 maddədən ibarətdir.

**Sığorta hüququ** – sığorta münasibətlərini və sığorta işinin təşkilinə dair münasibətləri tənzim edən hüquq normalarının sahələrarası kompleksi. S.h.-nun əsasını mülki hüququn müvafiq normaları təşkil edirlər. Lakin sığorta münasibətlərinin tənzimlənməsində, xüsusilə də məcburi sığorta sferasında maliyyə hüquq normalarının da əhəmiyyətli rolu vardır. S.h.-nun tərkibinə inzibati hüququn, cinayət hüququnun, beynəlxalq xüsusi hüququn bir sıra digər sahələrinin ayrı-ayrı normaları da daxildir.

**Sığorta kooperativləri** – istehlak kooperativlərinin bir növü. Şəxsi və tibbi əmlak (torpaqlar, əkinlər) sığortası üzrə müxtəlif xidmətlərin göstərilməsi üçün təşkil edilirlər.

**Sığorta qeyd-şərti** – sığorta müqaviləsində nəzərdə tutulan şərt: qeyri-standart situasiyalarda müqavilə iştirakçılarının hərəkətlərini reqlamentləşdirir. Məsələn, yüklərin sığorta edilməsi zamanı müqavilə "risklərin bütün növlərinin" 14 qeyd-şərtini nəzərdə tutur.

**Sığortalı** – sığortaçı ilə müqavilə bağlayan (sığorta etdirən) və ya xeyrinə sığorta müqaviləsi bağlanan (sığorta olunan), yaxud qanuna görə sığortalanmış hesab olunan fiziki şəxs (fəaliyyət qabiliyyəti məhdud olan və ya fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılan, eləcə də fəaliyyət qabiliyyəti olmayan şəxslərdən başqa) və ya hüquqi şəxs.

**Sığorta məbləği** – sığorta müqaviləsinə və ya qanuna uyğun olaraq sığorta obyek-

tinin sığortalandığı və sığortaçının öhdəliklərinin son həddi olan pul məbləği.

**Sığorta müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. AR MM-in 883.1-ci maddəsinə uyğun olaraq zərərdən sığorta müqaviləsinə görə bir tərəf (sığortaçı) müqavilə ilə şərtləşdirilmiş haqq (sığorta haqqı) müqabilində digər tərəfə (sığortalıya) və ya sığorta müqaviləsi xeyrinə bağlanmış başqa şəxsə (faydalanan şəxsə) müqavilədə nəzərdə tutulan hadisənin (sığorta hadisəsinin) baş verdiyi təqdirdə həmin hadisə nəticəsində sığortalanmış əmlaka dəymiş zərərin əvəzini, yaxud sığortalının digər əmlak mənafeləri ilə bağlı zərərin əvəzini müqavilə ilə müəyyənləşdirilmiş məbləğ (sığorta məbləği) həddində ödəməyi (sığorta ödənişi verməyi) öhdəsinə götürür.

**Sığorta müqayisəsi** – mülki qanunvericiliyə görə zərərdən sığorta ilə əlaqədar olan müqayisə. AR MM-in 906.1-ci maddəsinə uyğun olaraq əgər sığorta məbləğinin sığortalanmış mənafeyin dəyərindən (sığorta dəyərindən) xeyli yüksək olduğu aşkara çıxarsa, həm sığortalı, həm də sığortaçı ifrat sığortanın qarşısını almaq məqsədi ilə sığorta haqqının dərhal müvafiq surətdə azaldılaraq sığorta məbləğinin aşağı salınmasını tələb edə bilərlər.

**Sığorta nəzarəti** – sığorta təşkilatlarının fəaliyyətinə dövlət orqanları tərəfindən həyata keçirilən nəzarət.

**Sığorta olunanlar** – xeyrinə sığorta fəaliyyəti həyata keçirilənlər.

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə sığortalının əmlakına və ya əmlak mənafelərinə dəyən zərərin yerini doldurmaq üçün pul və ya natura şəklində ödənilən vəsait.

**Sığorta polisi** – bir qayda olaraq sığorta təşkilatı tərəfindən sığorta olunana sığorta müqaviləsinin təsdiqi üçün verilən adlı sənəd.

**Sığorta portfeli** – sığortalanmış sığorta obyektlərinin faktiki sayı və ya müəyyən vaxt ərzində sığorta cəmiyyəti tərəfindən bağlanmış müqavilələrin ümumi kəmiyyəti.

**Sığorta riski** – ehtimal olunan elə hadisədir ki, onun baş verməsinə qarşı sığorta aparılır. S.r. sayılan hadisənin təsadüf əlamətləri olmalıdır.

**Sığorta sertifikatı** – sığorta olunana sığortanın bağlandığının və sığorta polisinin yazıldığının təsdiqi üçün verilən sənəd. S.s. yalnız o halda hüquqi qüvvəyə malik olur ki, onun müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş sığorta polisi olsun.

**Sığorta şəhadətnaməsi** – sığortaçının sığortalıya sığorta müqaviləsinə dair təqdim etdiyi imzalı sənəd - şəhadətnamə. Sığortalanmış şəxsin sığortaçının mənfəətində iştirak etməsi şərti ilə həyat sığortası zamanı s.ş.-ndə mənfəətin bölüşdürülməsi qaydası, dəyişkən sığorta məbləğində həyat sığortası zamanı isə sığorta haqlarının yığılan hissəsinin yerləşdirilməsi qaydası göstərilməlidir (AR MM-in 886.3-cü maddəsi).

**Sığorta taarifi** – sığorta haqqının hesablanması üçün aktuari hesablamalarına əsasən müəyyən edilən dərəcə.

**Sığorta təminatı** – əmlak sığortasında məbləğin mütləq (dəyər) ifadəsi; sığorta olunanın ayrı-ayrı obyektlərinin və ya bütün əmlakının sığorta edildiyini ifadə edir.

**Sığorta yığımı** – **1)** səmişinlərin sığorta üzrə gediş haqqına daxil edilən ödəniş; **2)** idarə





sığortası qaydasında rabitə orqanları tərəfindən baqajın daşınmasına görə alınan ödəniş.

**Sınaq müddəti (işə qəbul zamanı sınaq)** – əmək hüququna görə əmək müqaviləsi bağlanarkən işçilərin ona tapşırılan işə yararlı olub-olmamasından yoxlanılması. S.m. sıravi işçilər üçün 1 həftədən, ixtisassız və daha az məsuliyyətli iş sahələrində çalışan qulluqçular üçün 2 həftədən və məsul işçilər üçün 1 aydan çox ola bilməz.

**Sınama üçün alqı-satqı müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. AR MM-in 658.1-ci maddəsinə uyğun olaraq sınama və ya yoxlama üçün alqı-satqı müqaviləsi alıcının həmin predmeti almağa razılıq verdiyi vaxtadək təxirəsalıcı şərtlə bağlanan alqı-satqı müqaviləsidir.

Müqaviləyə görə satıcı alıcıya predmeti nəzərdən keçirməyə icazə verməlidir. Alıcı sınama və ya yoxlama üçün aldığı predmet haqqında razılığın yalnız müəyyən edilmiş müddət ərzində, bu müddət müəyyənləşdirilmədikdə isə yalnız satıcının alıcı üçün müəyyən etdiyi müddət başa çatanadək bildirə bilər. Əgər predmet sınama və ya nəzərdən keçirilmək üçün alıcıya verilmişdirsə, alıcının susması razılıq əlaməti kimi qiymətləndirilir.

**Sif** *(ing. cif, cost – dəyər, insurance – sığorta, fright – fraxt sözlərinin baş hərfləri)* – xarici ticarət mallarının su yolları ilə gətirilməsi və sığortası ilə bağlı alqı-satqı müqaviləsi növü. S. müqaviləsinə görə malın dəyəri, sığortalanması və göndərilən limandan təyinat limanına daşınması xərcləri də malın qiymətinə daxil edilir. S. satqı müqaviləsi alq-satqı əqdini tənzim edən ümumi normalarla nizamlanır. S. satqı əqdinin tipik beynəlxalq qaydaları da mövcuddur. Bu qaydalar yalnız o halda tətbiq edilə bilər ki, bunu tərəflər bağladıqları müqavilədə müəyyən etsinlər.

**Sifariş** – hüquqda kəmiyyət, çeşid, keyfiyyət, müddət və i.a. zəruri məlumatlar göstərilməklə sifarişçinin (alıcının) məhsulu (malı) hazırlamaq, göndərmək (satmaq) haqqında və yaxud iş görmək, xidmət göstərmək barəsində təklifi. S. tədarük müqaviləsi üzrə spesifikasiya formasında təqdim edilir. S. oferta növüdür. Podratçının (tədarükçünün) sifarişi qəbul etməyə razılığı məktub, teleqraf formasında göndərilir, razılıq sifariş sənədində tədarükçünün imzası ilə təsdiq edilir.

**Sifarişçi** – tikinti, yenidənqurma, memarlıq obyektini bərpa etməyi həyata keçirmək niyyətinə malik olan vətəndaş və ya hüquqi şəxs; inşasına icazə tələb olunan tikinti memarlıq- planlaşdırma tapşırıqlarına uyğun olaraq yerinə yetirilmiş memarlıq layihəsinə malik olmalıdır.

**Siğə** – müsəlman ölkələrində keçmişdə şəriət normaları əsasında bağlanan müvəqqəti nikah forması, yaxud dul qadınla kişi arasında müvəqqəti kəbin. S. bir neçə saatdan tutmuş 99 il müddətinə bağlana bilərdi. S. əsasında doğulmuş uşaq qanuni nikahdan doğulan uşağa bərabər tutulurdu. Uzunmüddətli s. yazılı müqavilə formasında bağlanırdı.

**Sikkə** – pul nişanı; müxtəlif metaldan – qızıldan, gümüşdən, misdən və mis ərintilərindən, yeni dövrdə mis, nikel və alüminiumun müxtəlif ərintilərindən hazırlanır. Tədavül və tədiyyə vasitəsidir.

**Sikkə pariteti** – **1)** sikkədə qanunvericiliklə müəyyən edilmiş valyuta metalının tərkibi; **2)** müxtəlif dövlətlərin pul vahid-

lərinin müvafiq sikkələrdəki qanunvericiliklə müəyyən edilmiş xalis qızılın (gümüşün) miqdarına olan nisbəti.

**Sikkə reqaliyası** – sikkə kəsilməsi və tədavülə buraxılması üçün dövlətin inhisar hüququ. S.r. əsasında dövlət sikkə qanunvericiliyini həyata keçirir, sikkələrin adını, materialını, əyarını, çəkisini, ölçüsünü, xarici fərqləndirici xüsusiyyətlərini, remediumunu və i.a. müəyyən edir.

**Silah** *(hüquqda)* – Azərbaycan Respublikasında yivli odlu silah (adətən döyüş silahı) yalnız polis orqanlarının xüsusi icazəsi ilə fərdi istifadədə ola bilər. Yivsiz lüləli silahlar (ov tüfəngləri) yalnız ovçuluqla məşğul olmağa xüsusi icazəsi olan şəxslərə satılır. Respublikanın cinayət qanunvericiliyi (AR CM-in 231-ci və 250-ci maddələri) müvafiq icazə olmadan odlu silah gəzdirmə, saxlama, əldə etmə, hazırlama, satma, oğurlama və diqqətsiz saxlamağa görə məsuliyyət müəyyən edir. Xəncər, fin bıçağı və digər soyuq silahların gəzdirilməsi, hazırlanması və satılması, milli geyim ləvazimatı olan hallar istisna olmaqla, həmçinin cinayət hesab olunur.

**Silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların mühafizəsi üzrə vəzifələri lazımınca yerinə yetirməmə** – ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlərin bir növü; AR CM-in 231-ci maddəsində nəzərdə tutulmuşdur. Odlu silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların mühafizəsi tapşırılmış şəxs tərəfindən öz vəzifəsini lazımınca yerinə yetirməməsində ifadə olunur.

**Silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 350-ci maddəsində nəzərdə tutulmuşdur. Silahla, hərbi sursatla, radioaktiv materiallarla, partlayıcı maddələrlə, habelə ətrafdakılar üçün yüksək təhlükə törədən maddə və əşyalarla davranış qaydalarını pozmada ifadə olunur.

**Silahlı qiyam** – dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 280-ci maddəsində nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Konstitusiya quruluşunu zorla dəyişdirmək və ya Azərbaycan Respublikasının ərazi bütövlüyünü parçalamaq məqsədilə silahlı qiyam təşkil etmədə və ya qiyamda fəal iştirak etmədə ifadə olunur.

**Silahlı qüvvələr** – dövlətin silahlı təşkilatı. S.q.-in təyinatı, onun quruculuğu, şəxsi heyətinin təlim və tərbiyəsi prinsiplərinin ölkənin ictimai, dövlət quruluşu və siyasəti müəyyən edir. S.q.-in yaranması cəmiyyətin siniflərə bölünməsi və dövlətin meydana gəlməsilə əlaqədardır. S.q.-in ən başlıca təyinatı isə dövləti xarici düşmənlərin silahlı hücumundan qorumaqdan və müdafiə etməkdən ibarətdir.

Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsinə əsasən Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir.

**Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq qaydalarını pozma** – müharibə cinayətlərinin bir növü. AR





CM-in 116-cı maddəsində nəzərdə tutulmuşdur. Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozmada, yəni mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etmədə, ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurmada, sülhməramlı tədbirlərin həyata keçirilməsinə və ya humanitar yardımın göstərilməsinə cəlb olunmuş şəxsi heyətə, o cümlədən Qızıl Xaç və ya Qızıl Aypara fərqləndirici emblemləri olan heyətə, tikililərə, qurğulara, nəqliyyat vasitələrinə hücum etmədə, hərbi əməliyyatların aparılması üsulu kimi mülki əhali arasında yaranmış aclıqdan istifadə etmədə, yetkinlik yaşına çatmayanları silahlı qüvvələrə cəlb etmədə, hərbi zərurətdən irəli gəlməyən geniş miqyaslı dağıntılar törətmədə, müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmədə, hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən, o cümlədən xüsusi mühafizə olunan tarixi, dini, təhsil, incəsənət, elm, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmədə, müvəqqəti barışıq haqqında və ya həlak olanların və yaralıların döyüş meydanından aparılması, dəyişdirilməsi və ya daşınması məqsədilə döyüş əməliyyatlarının dayandırılması barədə sazişi pozmada, mülki əhaliyə və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə hücum etmədə, hərbi əməliyyat bölgələrində əhaliyə qarşı zorakılıq göstərmə, quldurluq etmə, əmlakları məhv etmə, habelə zərurət bəhanəsi ilə əmlakı qanunsuz olaraq almada, dağıdılması mülki əhali arasında böyük itkilərə səbəb ola bilən və ya mülki obyektlərə əhəmiyyətli zərər vura bilən qurğulara hücum etmədə, hərbi əməliyyatlarda birbaşa iştirakını təqsirkar üçün aşkar surətdə dayandırmış, həmçinin silahı olmayan və ya silahını yerə qoymaqla təslim olan, yaxud yaralanma və ya başqa səbəbdən müqavimət göstərə bilməyən şəxsə hücum etmədə, işğal olunmuş ərazilərdə öz mülki əhalisinin bir hissəsini yerləşdirmədə, hərbi əsirlərin və mülki şəxslərin vətənə qaytarılmasını əsassız olaraq gecikdirmədə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə qadağan edilmiş silahları, müharibə vasitələrini və üsullarını silahlı münaqişələrdə tətbiq etmədə, zorlama, cinsi köləlik, məcburi fahişəlik, məcburi terilizasiya, habelə cinsi zorakılıqla əlaqədar başqa hərəkətlər etmədə, CM-in 115.1-ci maddəsində göstərilən şəxsləri beynəlxalq hüquq normalarına zidd olaraq həbs etmə və ya başqa cür azadlıqdan məhrum etmə, habelə prosessual hüquqlardan məhrum etmədə ifadə olunur.

**Silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə** – müharibə cinayətlərinin bir növü. AR CM-in 117-ci maddəsində nəzərdə tutulmuşdur. Rəis və ya vəzifəli şəxs tərəfindən silahlı münaqişə zamanı tabeliyində olanlara CM-in 115-116-cı maddələrində nəzərdə tutulan cinayətlərin qarşısının alınması məqsədilə öz səlahiyyətləri dairəsində bütün imkanlardan qəsdən istifadə etməmədə, döyüş bölgələrində heç kəsin sağ buraxılmayacağını bəyan etmə və ya bu barədə tabeliyində olan şəxsə və CM-in 115-116-cı maddələrində nəzərdə tutulan cinayətlərin edilməsinə yönəldilən bilə-bilə cinayətkar əmr və ya sərəncam vermədə ifadə olunur.

**Silk** – kapitalizməqədərki cəmiyyətlərdə adət, yaxud qanunlarda təsbit edilmiş və

nəsildən-nəslə irsən keçən hüquq və vəzifələrə malik sosial qrup, zümrə. Bu və ya digər s.-ə mənsubiyyət irsi səciyyə daşıyırdı. Bir çox ölkələrdə (xüsusilə də vaxtı keçmiş feodal münasibətlərinin qalıqlarının mövcud olduğu dövlətlərdə) s.-i bölgü indi də qalmaqdadır.

**Silki monarxiya** *(silki – nümayəndəli monarxiya)* – XIII-XIV yüzilliklərdə Avropanın əksər dövlətlərində bərqərar olmuş feodal dövlət idarəçilik forması. Silki monarx hakimiyyəti zadəganların, ruhanilərin və şəhərlərin silki-nümayəndəli orqanlarının fəaliyyəti ilə əlaqələndirilirdi. S.m. zemstvo yığıncağı formasında Rusiyada XVI-XVII yüzilliklərdə mövcud olmuşdur. Sonradan Avropanın bir çox ölkələrində s.m.-nı mütləq monarxiya (mütləqiyyət) əvəz etmişdir.

**Silki nümayəndəlik** – hakimiyyətin təşkili prinsipi; bu prinsipə uyğun olaraq müəssisələr tərəfindən seçilən deputatlar ölkə əhalisinin hamısını deyil, onun yalnız ayrı-ayrı ərazilərinin müəyyən əhali qrupunu təmsil edir. Yəni seçilən deputatlar qapalı sosial qrupları – təbəqələri (bu deputatları bilavasitə seçən təbəqələri) təmsil edirlər. S.n. tarixən ilk nümayəndəlik sistemi (Qərbi Avropada silki- nümayəndəli monarxiya bəzi ehtimallara görə hələ XII yüzillikdə meydana gəlmişdir) hesab olunur. Bu sistem Avropada XX yüzilliyin əvvəllərinədək mövcud olmuşdur. XX yüzillikdə isə o, yerini milli nümayəndəliyə vermişdir. Hazırda s.n.-in rudimenti, məsələn, lordlar palatası hesab oluna bilər.

**Simmaxiya** *(yun. symmachia – hərbi ittifaq)* – qədim yunan polisləri arasında ya müdafiə (epimaxiya), ya da hücum məqsədləri üçün bağlanan müttəfiqlik müqaviləsi. S.-nın mahiyyəti ondan ibarətdir ki, müttəfiqlər eyni rəqiblərə, yaxud dostlara malik olurdular.

**Simulyasiya** *(lat. simulatio – sünilik, riyakarlıq)* – mövcud olmayan xəstəlik və ya onun ayrı-ayrı simptomlarının süni görünüşünü yaratmaq. Qəsdən edilən s. adətən, tamah məqsədi (məsələn, hərbi xidmətdən yayınmaq, maddi imtiyazlar almaq, cinayət məsuliyyətindən azad olmaq və i.a.) güdür. Patoloji s. insanın xəstə vəziyyətilə şərtləşir və faktiki olaraq bu xəstəliyin simptomlarından biri kimi təzahür edir (məsələn, isteriya). Aqqravasiyanı s.-dan fərqləndirmək lazımdır. S.-nın əksi dissimulyasiyadır – xəstəliyin qəsdən gizlədilməsi. S. istintaq prosesində ekspert tərəfindən müəyyən edilir və bu ekspertiza növü kriminalistikada geniş tətbiq olunur.

**Sindik** *(yun. syndikos)* – Qədim Yunanıstanda məhkəmədə müdafiəçi. Orta əsrlərdə Avropa ölkələrindəki sex yüzbaşıları da sindik adlandırılırdı. Bəzi ölkələrdə hər hansı idarənin məhkəmə işini həyata keçirən vəzifəli şəxsə də sindik deyilirdi. İtaliyada s. icma özünüidarə təşkilatının başçısı olmuşdur.

**Sindikat** *(lat. syndikos – baxıram, yoxlayıram)* – **1)** kartel tipli inhisarçı saziş formalarından biri; yüksək inhisar mənfəəti götürmək üçün, əsasən, yekcins kütləvi məhsullar bazarına nəzarət etməklə xammal ticarəti sahəsində s. iştirakçıları arasındakı rəqabəti aradan qaldırmaq məqsədi güdür. S.-ın bütün iştirakçılarına aid malların realizəsini və xammal alınmasını vahid təşkilat – satış kontoru həyata keçirir. S. adətən səhmdarlar cəmiyyəti formasında yaradılır; **2)** bir sıra ölkələrdə həmkarlar ittifaqlarının adı; **3)** keçmiş SSRİ-





də 1922-1930-cu illərdə təsərrüfat təşkilatı, trestlərin birləşmiş qrupu.

**Sinod** *(Müqəddəs Sinod – yun. synodos sözündən – yığıncaq)* – 1721-1917-ci illərdə Rusiyada ali dövlət orqanlarından biri. Provoslav kilsəsinin işlərini idarə edirdi. S. dini ehkamların təfsirini verir, ayinlərə əməl edilməsinə nəzarət edir, dini senzura və maarif məsələlərini həll edir, yereslərlə mübarizə aparırdı. S.-a ober-prokuror başçılıq edirdi. 1917-ci ildən sonra Müqəddəs S. Moskva patriarxı və Bütün Rusiyanın məşvərətçi orqanına çevrilmişdir.

**Sinoykizm** *(yun. synoikismos – birgə məskunlaşıram)* – antik dövlətlərdə (Yunanıstanda, Romada) əvvəllər müstəqil olmuş məskən və şəhərlərin vahid polisdə birləşməsi prosesi. S. nəticəsində tayfa pərakəndəliyi tədricən aradan qalxmışdır. S. bir neçə üsulla həyata keçirilə bilərdi: 1) yeni şəhərin, yəni artıq mövcud olan polisin mərkəz şəhərinin yaradılması; 2) sakinlərin artıq mövcud möhkəmləndirilmiş şəhərə köçürülməsi; 3) müstəqil icmaların, artıq mövcud olan şəhərlərin ətrafında birləşdirilməsi.

**Sintetik hesablar** – ayrı-ayrı əmlak növləri, öhdəliklər, kapital, maliyyə nəticələri haqqında informasiyanın ümumiləşdirmək üçün müəyyən əlamətlər və təyinatlar üzrə qruplaşdırılan mühasibat uçotu hesabları (məsələn, əsas vəsaitlərin, qeyri-maddi aktivlərin, materialların hesabları).

**Sinyoriya** *(ita. signoria, hərfən – hökmranlıq, hakimiyyət)* – **1)** XIII-XIV yüzilliklərdə İtaliyanın şəhər kommunalarında şəhər özünüidarə orqanı (priorat); **2)** XIII yüzilliyin ikinci yarısında və XVI yüzilliyin ortalarında Mərkəzi və Şimali İtaliyanın bir sıra şəhər dövlətlərində siyasi quruluş forması; bütün mülki və hərbi hakimiyyətin təkbaşına hökmdarın sinyorun (tiranın, müstəbidin) əlində cəmləşməsi ilə xarakterizə olunur. Sinyorun hakimiyyəti əvvəlcə ömürlük olmuş, sonra irsi hakimiyyətə çevrilmişdir.

**Sipahi** *(türk. sipahi – döyüşçü, əsgər)* – **1)** Osmanlı imperiyasında hərbi xidmətə görə sultandan torpaq payı alan və bunun müqabilində müəyyən miqdarda süvari əsgər saxlayan hərbi len sahiblərinin ümumi adı. XV-XVI yüzilliklərdə türk ordusunun əsas hissəsini təşkil etmişdir; **2)** XV-XVIII yüzilliklərdə daimi qoşunların süvari dəstələrində xidmət edən əsgər. Hindistanın Böyük Britaniyanın müstəmləkəsi olduğu dövrdə (əsasən XVIII yüzilliyin ortalarında) Avropa müstəmləkəçilərinin (portuqal, fransız, əsasən ingilis) yerli əhalidən təşkil olunmuş ordularında xidmət edən muzdlu əsgər.

**Sipəhsalar (isfəhsalar)** – orta yüzilliklərdə Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Azərbaycanda silahlı qüvvələrin ali baş komandanı; Abbasilər dövründən məlumdur. S. vəzifəsinə adətən ən görkəmli sərkərdələr təyin edilirdi. Samanilər, Qəznəvilər və Səlcuqlar dövründə s. ölkənin siyasi həyatında mühüm rol oynamışdır. Eldənizlər dövlətində Şəmsəddin Eldənizin kiçik oğlu Qızıl Arslan hakimiyyət başına gələnədək "s.-i kəbir" ("böyük s.") vəzifəsində idi. Səfəvilər dövlətində Azərbaycan bəylərbəyisi s. titulu daşıyırdı. Qacarlar dövründə "s.-i əzəm" ("böyük s.") hökmdarların naibi hesab olunurdu.

**Sistem** *(bax: hüququn sistemi; hüquqi sistem)*

**Sistematik təfsir** *(bax: qanunun sistematik təfsiri).*

**Siti (city)** – **1)** bəzi ingilis dilli ölkələrdə hüquqlarına, imtiyazlarına, yaxud möveyinə görə fərqləndirilən şərhlər; **2)** Londonun mərkəzi hissəsi, tarixi mərkəzi. S. İngiltərə maliyyə oliqarxiyasının sinonimidir.

**Sivil** *(lat. civils)* – mülki. Sivil konstitusiyalı monarxiyada qanunla müəyyən edilmiş qaydada hər il monarxa onun şəxsi istifadəsi və sarayın saxlanması üçün verilən vəsaitdən ibarətdir.

**Sivil hüquq** *(lat. jus civile; cevitas – şəhər, siyasi birlik, xalq, dövlət)* – Qədim Romada məxsusi olaraq Romanın "milli" hüququ; heç bir digər hüquq sistemində analoqu olmamışdır. S.h.-a On İki Cədvəl Qanunları və bu qanunlardan sonra xalq yığıncağı tərəfindən qəbul edilən bütün digər qanunlar aid edilirdi. S.h.-un tərkibinə Roma hüquqşünaslarının təfsirləri də daxil idi (resronsa, sententia).

**Sivilist** *(lat. civilist – mülki)* – mülki hüquq üzrə mütəxəssis.

**Sivilistika** *(lat. civilis – mülki)* – mülki hüquq elmi. S.-nın əsasları Qədim Romada meydana gəlmişdir.

**"Siyahıların birləşdirilməsi"** – partiyaların seçkilərdə qeydiyyatdan keçməsinin xüsusi forması; partiyalar arasında öz namizədlərinin tərtib edilmiş siyahılarını birləşdirmək barədə sazişə gəldikləri halda bu partiyaların siyahıları üzrə verilən səslər partiyaların birləşdirilmiş ümumi siyahısına verilmiş səslər hesab olunur.

**Siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş, yaxud müsadirə olunmalı əmlak barəsində qanunsuz hərəkətlər** – ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 303-cü maddəsində nəzərdə tutulmuşdur. Siyahıya alınmış və ya üzərinə həsb qoyulmuş əmlakın etibar olunmuş şəxs tərəfindən israf edilməsi, özgəninkiləşdirilməsi, həmçinin dəyişdirilməsi, gizlədilməsi, habelə üzərinə həbs qoyulmuş pul vəsaitləri (əmanətləri) ilə bank əməliyyatlarının bank və ya digər kredit təşkilatının nümayəndəsi tərəfindən həyata keçirilməsində ifadə olunur.

**Siyasət** – dövləti, hüququ, siyasi partiyaları, seçki formasını, qərarların qəbul olunması mexanizmini, siyasi prosesləri, siyasi münasibətləri, siyasi mədəniyyəti və i.a. özündə birləşdirən fəaliyyət sahəsi. S. anlayışına aşağıdakılar daxildir: a) müəyyən strukturu və funksional yönümü olan dövlət hakimiyyəti; b) ictimai münasibətlərin xüsusi növü olan siyasi münasibətlər; c) dövlət hakimiyyətini həyata keçirən, yaxud bu və ya digər şəkildə onun fəaliyyəti ilə əlaqədar olan müəssisələr, xüsusi sosial təsisatlar sistemi; ç) kütlələrin həyati fəaliyyətinin, sosial davranışının müəyyən təzahürləri – hakimiyyət uğrunda mübarizə, ona nəzarət və i.a.

**Siyasi blok** – birgə çıxış etməklə ümumi siyasi məqsədlərə nail olmaq üçün dövlətlər, partiyalar, qruplar arasında bağlanan daimi, yaxud müvəqqəti saziş (ittifaq).

**Siyasi cinayətlər** – hakimiyyət, dövlət quruluşu, cəmiyyət quruculuğu münasibətlərinə bu və ya digər dərəcədə toxunan cinayətlər qrupunun adı. Dünya dövlətlərinin milli cinayət qanunvericiliyi s.c.-i bir qayda olaraq ümumi cinayətlərdən düzünə şəkildə ayırmırlar. Bəzi ölkələrin qanunvericiliyində bu qrup cinayətlər "dövləti cinayətlər", yaxud "dövlətin konstitusiya







quruluşu əleyhinə olan cinayətlər" kimi nəzərdə tutulur. Buna görə də "s.c" terminindən başlıca olaraq elmi və siyasi leksikonda istifadə olunur. Latın Amerikası ölkələrində s.c. dolayı şəkildə ekstradissiyaya (məsələn, Venesuelanın, Kolumbiyanın Cinayət Məcəlləsində) həsr edilmiş normalarda nəzərdə tutulur. Bu dövlətlərin qanunvericiliyində "siyasi cinayətkarlara" münasibətdə xüsusi imtiyazlar da müəyyən edilir. Belə ki, onlara ölüm cəzası tətbiq edilmir, yaxud onlar məcburi fiziki işlərə cəlb edilmirlər. AR CM-də (otuz birinci fəsil) dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər nəzərdə tutulmuşdur.

**Siyasi fəaliyyət qabiliyyəti** – vətəndaşın öz siyasi hüquq və azadlıqlarını sərbəst surətdə həyata keçirmək üçün malik olduğu qabiliyyət; vətəndaşın belə hüququ konstitusiya ilə müvafiq ölkənin qanunları ilə təminatlandırılır. Hər hansı vətəndaşın s.f.q. onun ümumi fəaliyyət qabiliyyəti ilə birlikdə məhdudlaşdırıla bilər (məsələn, şəxsin ruhi xəstəliyə tutulduğu halda).

**Siyasi hakimiyyət** – fərdin, yaxud qrupun müvafiq cəmiyyətin hüquq normalarında qanuniləşdirilmiş iradəsini həyata keçirmədən ibarət olan real qabiliyyəti. S.h. ağalıq, rəhbərlik, idarəetmə və nəzarət formalarında mövcud ola bilər. S.h. dövlət hakimiyyətindən *(bax: dövlət hakimiyyəti)* geniş anlayışdır. O, təkcə dövlət çərçivəsində həyata keçirilmir. S.h.-in bir forması olan dövlət hakimyyəti bütün əhali üçün məcburi olan qanunlar verməkdən ibarət olmaqla inhisar hüququna malikdir. S.h. müəyyən mənada bütün digər hakimiyyət növlərinin davamıdır. O, bütün digər hakimiyyət növlərinə aiddir və onun fəaliyyəti yalnız o halda normal olur ki, cəmiyyətdə mövcud olan mənafelər düzgün əlaqələndirilmiş olsun. S.h. mürəkkəb və çoxplanlı bir hadisədir. Onun universallığı aliliyində ifadə olunur.

**Siyasi hüquq qabiliyyəti** – vətəndaşın siyasi hüquq münasibətlərinin subyekti, yəni siyasi hüquq və azadlıqlara malik olmaq qabiliyyəti. S.h.q. konstitusiya hüquq normaları ilə təminatlandırılır və bununla əlaqədar vətəndaş həm də müəyyən vəzifələr daşıyır. Demokratik dövlətlərdə s.h.q.-nə bütün vətəndaşlar doğulduğu andan, həmçinin bir sıra istisnalarla vətəndaşlığa yeni qəbul edilmiş şəxslər malik olurlar.

**Siyasi hüquq və azadlıqlar** – şəxsi, sosial, iqtisadi və bəzi digər hüquqlarla yanaşı vətəndaşların əsas konstitusiya hüquq və azadlıqlarının bir qrupu. Bu hüquq və azadlıqlar vətəndaşlara ölkənin ictimai və siyasi həyatında iştirak etmək imkanı verirlər. Onlar ictimai işlərin və dövlət işlərinin idarəçiliyində, seçki hüquqlarının həyata keçirilməsində, birləşmək hüquqlarının realizə olunmasında, yığıncaqlar, mitinqlər, küçə yürüşləri, informasiya əldə etmək azadlıqlarının reallaşmasında mühüm rol oynayırlar. S.h. və a. malik olma adətən vətəndaşın müvafiq dövlətə mənsubiyyətilə əlaqələndirilir.

**Siyasi məsuliyyət** *(beynəlxalq hüquqda)* – beynəlxalq hüquq subyektlərinin beynəlxalq öhdəlikləri pozduqlarına görə meydana çıxan beynəlxalq məsuliyyət forması. Məsuliyyətin dərəcəsi hüquqazidd əməlin ağırlıq dərəcəsindən asılı olaraq müəyyən edilir. Beynəlxalq sanksiyalar növündə (hərbi məcburetmə tədbiri də qəbul edil-

məklə) ən ciddi s.m. daha ağır beynəlxalq deliktlərin – beynəlxalq hüquq qaydasının köklü əsaslarına qəsd edən beynəlxalq cinayətlərin törədilməsinə görə meydana çıxır. İşğal, genosid (soyqırım), apartheid, hərbi cinayətlər və i.a. belə ağır beynəlxalq qəsdlərə aid edilir. Beynəlxalq sanksiyalar BMT Nizamnaməsində nəzərdə tutulmuşdur *(bax: beynəlxalq sanksiyalar).*

**Siyasi muxtariyyət** *(bax: muxtariyyət)*

**Siyasi mühacirlər** – siyasi sığınacaq almış şəxslər *(bax: siyasi sığınacaq hüququ).* Bu şəxslərin statusu mahiyyətinə görə vətəndaşlığı olmayan şəxslərin statusu ilə eyni olsa da, bəzi hallarda s.m.-ə bir sıra imtiyazların (mənzil, işə düzəlmə və i.a.) verilməsinə yol verilir.

**Siyasi partiya** – ümumi siyasi ideyaları və məqsədləri olan, ölkənin siyasi həyatında iştirak edən vətəndaşların birliyi s.p.-lar ökənin konstitusiyasına və qanunlarına uyğun olan vəzifələrini və məqsədlərini rəhbər tutaraq ölkə vətəndaşlarının siyasi iradəsinin formalaşmasında iştirak edirlər. S.p.-lar assosiasiyalar azadlığı, könüllülük, üzvlərinin hüquq bərabərliyi, özünüidarə, qanunçuluq və aşkarlıq prinsipləri əsasında yaradılır və fəaliyyət göstərirlər. S.p.-nın adı, nizamnaməsi, qeyd edilmiş üzvlüyü, adının qısaldılmış şəkli və rəmzləri olur. Azərbaycan Respublikasında s.p.-ların təşkili və fəaliyyətinin qanunvericilik əsası Azərbaycan Respublikasının Konstitusiyasından, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunundan (3 iyun 1992-ci ildə qəbul edilmişdir) və bunlara uyğun olaraq qəbul edilmiş digər qanunvericilik aktlarından ibarətdir.

**"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında siyasi partiyaların təşkili və fəaliyyəti ilə əlaqədar münasibətləri tənzim edən qanunvericilik aktı.

Bu qanun 3 iyun 1992-ci il tarixdə qəbul olunmuş, ona bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanun dörd fəsil və 21 maddədən ibarətdir.

**Siyasi rejim** – dövlətin öz hakimiyyətini həyata keçirməsi vasitələrinin və üsullarının məcmusu. S.r. demokratik və qeyri-demokratik ola bilər. S.r.-i dövlət rejimindən fərqləndirmək lazımdır *(bax: dövlət rejimi).* S.r. anlayışı dövlət rejimi anlayışından genişdir. S.r. cəmiyyətdə bütün siyasi hakimiyyətin, siyasi həyatın və bütövlükdə siyasi sistemin həyata keçirilməsi üsulları və metodlarını əhatə edir. S.r. siyasi, habelə milli qüvvələrin nisbəti, fərdlərin və vətəndaş cəmiyyətinin siyasi yetkinliyi, coğrafi şərait, rəhbər dövlət xadimlərinin (siyasi liderlərin) şəxsiyyətilə şərtləşir. S.r.-in təsnifatı: 1) hakimiyyətin sosial bazasına görə: a) demokratiya – xalqın əksəriyyətinin hakimiyyəti; b) aristokratiya – nəcib mənşəyə malik insanlar qrupunun, elitanın hakimiyyəti; c) plutokratiya – varlı, yuxarı təbəqələrin hakimiyyəti; ç) oliqarxiya – maliyyəçi və sənayeçi qrupların hakimiyyəti; d) teokratiya – din xadimlərinin, yaxud onların ideoloji cəhətdən müstəqil (seçilmiş) təşkilatlarının hakimiyyəti; e) oxlokratiya – kütlənin (keçid dövründə və inqilabi sarsıntılar şəraitində təsadüf edilir) hakimiyyəti; 2) siyasi fəaliyyət metodlarına görə: a) demokratiya – parlamentli prezident; b) totalitarizm: c) avtoratizm; 3) sosial tərəqqiyə münasibətinə görə: inqilabi; mütərəqqi; liberal, mühafizəkar; irticaçı.

**Siyasi repressiyalar** – siyasi motivlərə görə dövlət tərəfindən həyatdan və ya azadlıqlardan məhrum etmə. Həbsxanaya salma növündə müxtəlif cəza tədbirləri, habelə psixiatriya müalicə müəssisəsində məcburi müalicə üçün yerləşdirilmədən, ölkədən çıxarılmadan və vətəndaşlıqdan məhrum edilmədən, əhalinin müəyyən qrupunun öz yaşayış yerindən başqa ərazilərə məcburi qaydada köçürülməsindən, sürgün edilmədən, məcburi əməyə cəlb edilmədən və i.a. ibarət olan cəza tədbirləri (divan tutma).

**Siyasi sistem** – dövlət təsisatlarının, siyasi partiyaların və ictimai birliklərin (təşkilatların) kompleksi. Sosial hakimiyyət və dövlət hakimiyyəti bu kompleks çərçivəsində həyata keçirilir. S.s.-in əsası cəmiyyətin siyasi cəhətdən təşkilindən ibarətdir. Hakimiyyətin təsisatlı quruluşu prinsipi öz əksini onda tapır. S.s.-in başlıca funksiyası cəmiyyəti səmərəli surətdə idarə etməkdir. İdarəetmə müvafiq dövlət orqanları tərəfindən qərarların qəbul edilməsi və yerinə yetirilməsi (icrası) prosesidir. S.s.-də hakim yer dövlətə məxsusdur. Dövlət bütün cəmiyyətin təşkili çərçivələrini müəyyən edir. Hüquq normalarının köməyilə öz vətəndaşlarının davranışını formalaşdırır. Mülki təşkilatların fəallıq formalarını müəyyən edir.

**Siyasi sığınacaq** *(bax: siyasi sığınacaq hüququ)*

**Siyasi sığınacaq hüququ** – insan və vətəndaşın əsas konstitusiya hüquq və azadlıqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 70-ci maddəsinə əsasən hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir. Siyasi əqidəsinə görə, habelə Azərbaycan Respublikasında cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir.

**Siyasi və hüquqi təlimlər tarixi** hüquq elminin müstəqil sahəsi. S. və h.t.t. dövlət və hüququn təşəkkül tapdığı dövrdən başlayaraq bəşəriyyətin tarixi inkişaf dövrlərində cəmiyyət, dövlət, hüquq, qanun, qanunvericilik, siyasət və digər sosial hadisələr haqqında meydana gəlmiş ideya və nəzəriyyələri, ayrı-ayrı mütəfəkkirlərin və fəlsəfi-dini, siyasi-hüquqi məktəblərin, hərəkatların və cərəyanların göstərilən hadisələrə dair konsepsiyalarını və görüşlərini, təlimləri, habelə onların inkişaf qanunauyğunluqlarını öyrənən hüquq elmidir. S. və h.t.t. müəyyən tarixi, sosial-iqtisadi, siyasi və mədəni şəraitdə siyasi-hüquqi ideya və təlimləri onların yaranması prosesi və inkişafı istiqamətində xronoloji ardıcıllıqla öyrənən tarixi-hüquqi yönümlü elm sahəsidir. Bu elm ictimai şüurun tərkib hissəsidir.

**Skalp çıxartmaq** bir sıra xalqlarda öldürülmüş düşmənin başının dərisini (skalp) qənimət kimi soyub çıxartmaq adəti. Hələ qədim dövrlərdə qall və skif tayfaları arasında mövcud olmuşdur. Şimali Amerikanın Avropa tərəfindən işğal edilməsinədək yerli sakinlər olan hindular arasında geniş yayılmamışdı. XVII-XIX yüzilliklərdə ingilis və fransız müstəmləkəçiləri düşmən qəbilə üzvlərinin skalpını gətirən hinduları mükafatlandırdıqdan sonra s.ç. adəti burada geniş inkişafını tapmışdır.

**Skotlend-yard** *(ing. Skotland - Şotlandiya +yard – həyət)* – Böyük Britaniyada mərkəzi cinayət polisi idarəsi.

**Sloboda** – feodalizm dövründə Rusiyada sakinləri vergi və mükəlləfiyyətlərdən azad ( adı da buradandır -- svoboda) yaşa-

yış məntəqələri. XVIII yüzillikdə mövcudluğunu itirmiş, adı isə yalnız toponimlərdə qalmışdır.

**Smerdlər** – IX-XIV yüzilliklərdə qədim rus dövlətində icma kəndliləri. Əvvəllər azad olmuş, feodal münasibətlərinin inkişafı ilə tədricən asılı vəziyyətə düşmüşlər.

**Smeta** – **1)** büdcə idarələrinin smetası – idarə və təşkilatların xərclərini dövlət büdcəsindən maliyyələşdirmək üçün əsas plan sənədi; **2)** istehsal xərcləri smetası – müəssisənin, birliyin məhsul istehsalına və xidmətlər göstərilməsinə sərf olunmuş xərclərin plan məbləğinin hesablanması.

**Sofistlər** *(yun. sorhistes – müdrik, ixtiraçı, yalançı aqil)* – peşəkar "müdriklik" və "natiqlik sənəti" müəllimləri olan qədim yunan filosoflarına (eramızdan əvvəl V yüzillik) verilmiş ad. S. hər hansı vahid məktəbi təşkil etmirdilər. Onlar müxtəlif fəlsəfi, siyasi və hüquqi görüşləri inkişaf etdirirdilər. Artıq ən qədim dövrdə s.-in iki nəsli fərqləndirilirdi: böyük (Protaqor, Qorki, Prodik, Yippi, Antifont və başqaları) və kiçik (Frasimax, Kallik, Likofron və başqaları) s. Kiçik s. arasında demokratiyanın tərəfdarı olanlarla yanaşı digər idarəçilik formalarının (aristokratiyanın, tiraniyanın) tərəfdarları da olmuşdur. Böyük s. içərisində demokratik ideyaları Protaqor inkişaf etmişdir. S. arasında ilk dəfə olaraq Kippi təbii hüquq ideyaları ilə çıxış etmişdir. Təbii hüquq ideyasını Antifont da inkişaf etdirmişdir. Aristotelin məlumatına görə sofist Likofron dövlət ünsiyyətini adamlar arasında qarşılıqlı ittifaq haqqında müqavilənin nəticəsi kimi səciyyələndirmişdir. S.-in siyasi-hüquqi görüşləri siyasi və hüquqi təlimlər tarixinin zənginləşməsində və inkişafında mühüm rol oynamışdır.

**Sokieta** *(lat. societas)* – Qədim Roma mülki hüququnda şirkət müqaviləsi. S.-ya görə iki və ya daha çox şəxsin ümumi təsərrüfat məqsədlərinə nail olmaq üçün müqavilə vasitəsi ilə birləşməsi idi. Şirkət müqaviləsinə görə iki və ya daha çox şəxs ümumi əmlakı, yaxud şəxsi fəaliyyəti ümumi təsərrüfat məqsədlərini həyata keçirmək üçün birləşdirilər. Ümumi işin aparılması nəticəsində əldə edilən gəlir bərabər bölüşdürülür, meydana çıxan itkilərin yeri qarşılıqlı surətdə doldurulurdu.

**Solidar məsuliyyət** – hüquqda mülki məsuliyyətin bir növü; öhdəliyə görə bir neçə borclu olduqda meydana çıxan məsuliyyət. Paylı məsuliyyətdən fərqli olaraq s.m. solidar müqavilə, yaxud qanunla nəzərdə tutulmuş hallarda əmələ gəlir. Məsələn, qanuna görə s.m. öhdəliyin predmetini bölmək mümkün olmadıqda, zərər çəkmiş şəxsə bir neçə şəxsin birlikdə ziyan vurduğu hallarda meydana çıxır. S.m. bəzən o vaxt müəyyən edilir ki, müqavilədə sair hal nəzərdə tutulmasın.

**Solisitor** *(ing. solicitor)* – **1)** İngiltərədə yuxarı instansiya məhkəmələrində işləri aparmaq hüququna malik olmayan aşağı rütbəli vəkil; **2)** bir sıra ölkələrdə hökumətin yanında, yaxud dövlət departamentində və ya şəhər hökuməti yanında xüsusi hüquqi vəzifə.

**Solo-veksel** – **1)** eynilə sadə veksel; **2)** ancaq ödənişi ödəməyə borclu olan şəxsin imzasının olduğu veksel.

**Son zərurət**[1] – cinayət hüququnda əməlin cinayət olmasını aradan qaldıran hallardan biri. AR CM-in 38-ci maddəsinə uyğun olaraq son zərurət vəziyyətində, yəni şəxsin özünün və ya başqa şəxslərin həyatını, sağ-





lamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini bilavasitə qorxu altına alan təhlükəni aradan qaldırmaq üçün CM ilə qorunan obyektlərə zərər vurmaq yolu ilə törədilmiş hərəkət, əgər həmin vəziyyətdə bu təhlükəni başqa vasitə ilə aradan qaldırmaq mümkün deyildirsə və bu zaman son zərurət həddinin aşılmasına yol verilməmişdirsə, cinayət sayılmır.

Baş vermiş təhlükənin xarakterinə və dərəcəsinə, habelə həmin təhlükənin aradan qaldırılması şəraitində aşkar surətdə uyğun olmayan zərər vurulması və vurulmuş zərərin qarşısı alınmış zərərə bərabər və ya ondan artıq olması son zərurət həddini aşma sayılır. Son zərurət həddini bu qaydada aşma, yalnız qəsdən zərər vurulduqda cinayət məsuliyyətinə səbəb olur.

**Son zərurət**[2] *(beynəlxalq hüquqda)* – törədilmiş hərəkətlər üçün məsuliyyəti istisna edən və beynəlxalq hüquq normalarına zidd olan hal, vəziyyət. Pozitiv hüquq məktəbinin təsiri altında beynəlxalq hüquqda təsbit edilən s.z. konsepsiyası "təhlükənin" qarşısının alınması üçün xəbərdaredici hərəkətlər edilməsinə haqq qazandıraraq, özünümüdafiənin təbii-hüquqi konsepsiyasını dəqiqləşdirmişdir. S.z. konsepsiyası tərəfdarlarının təsdiq etdiyi kimi, xəbərdaredici hərəkətlərə haqq qazandıran təhlükə elə xarakter daşımalıdır ki, dövlətin mövcudluğu, onun ərazi bütövlüyü təhlükə altına alınsın. Özünümüdafiə konsepsiyası kimi, hazırda s.z. konsepsiyasına istinaddan BMT Nizamnaməsinə zidd olan hərəkətlərə haqq qazandırılması üçün "ümumi beynəlxalq hüquq" üzrə özünümüdafiə tərəfdarları istifadə edirlər. Beynəlxalq hüquqda s.z. -in müasir konsepsiyası məhdud dairədə tətbiq edilir.

**Sosial determinizm** – kriminologiyada prinsip; səbəbiyyətin obyektiv xarakterini, cinayətkar davranışın və cinayətkarlığın determinasiyasında sosial amillərin rolunun öyrənilməsində tədqiqatçının yönümünü təsdiq edir. Kriminologiyada s.d.-ə müraciət edilməsi XIX yüzillikdə demoqrafik, sonra isə cinayət statistikasının inkişafı ilə bağlıdır.

**Sosial dəyişikliklər** – kriminologiyada cəmiyyətin strukturunda, eləcə də onun mövcud strukturlarının daxilində baş verən əsas dəyişiklikləri ifadə edən anlayış. Məsələn, cinayətkarlığın cəmiyyətin müxtəlif sosial təbəqələri arasında dəyişkənliyi, sosial davranışdakı dəyişikliklər, yaş və peşə ilə əlaqədar sosial strukturda, habelə hakimiyyət münasibətləri strukturunda baş verən dəyişikliklər. Belə dəyişikliklər cinayətkarlığın dinamikası ilə əlaqələndirilir.

**Sosial dövlət** – dövlətin konstitusiya-hüquqi statusuna aid olan, insanın və vətəndaşın iqtisadi, sosial hüquq və azadlıqlarının konstitusiya təminatının və dövlətin müvafiq vəzifələrini nəzərdə tutan xarakteristika (prinsip). S.d. o deməkdir ki, dövlət cəmiyyətə xidmət edir, haqq qazandırılmayan sosial fərqləri yox etməyə və ya minimuma endirməyə səy göstərir. Dövlətin sosial xarakteri ilk dəfə AFR-in 1949-cu il Konstitusiyasında elan edilmişdir. S.d.-in siyasəti başlıca olaraq insanın ləyaqətli həyatını və azad inkişafını təmin edən şəraitin yaradılmasına yönəlir. S.d. insanların həyat və sağlamlığının mühafizəsini təmin edir, ailə, analıq, atalıq və uşaqlar dövlət tərəfindən müdafiə olunur. S.d.-də sosial xidmətlər sistemi inkişaf etdirilir, dövlət pensiyaları, müavinətləri və digər sosial müdafiə təminatları müəyyən olunur.

**Sosialist hüququ** – keçmiş SSRİ-də 1917-ci il oktyabr dövlət çevrilişindən sonra bərqərar olmuş müstəqil hüquq sistemi. İkinci dünya müharibəsindən sonra sosialist inkişafı yoluna qədəm qoymuş bir sıra dövlətlər (Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya, Çexoslovakiya) tərəfindən qəbul edilmişdir. S.h.-nun qitə (roman-german) hüquq sisteminin bir çox cəhətlərini özündə ehtiva etməsinə baxmayaraq, o, digər hüquq sistemlərindən dövlətin hüquq üzərində hökmranlığı ilə seçilmişdir.

**Sosial qanunvericilik** – bir sıra ölkələrdə muzdla işləyənlərin vəziyyətini, həmçinin dolanmaq üçün vəsaiti olmayanlara yardım tədbirlərini tənzim edən hüquq normalarının məcmusu. Əmək qanunvericiliyi və sosial təminat hüququ s.q.-in əsasını təşkil edir. Azərbaycan Respublikasında "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında" 25 avqust 1992-ci il, "Sosial müavinətlər haqqında" 7 fevral 2006-cı il, "Ünvanlı dövlət sosial yardımı haqqında" 21 oktyabr 2005-ci il tarixli qanunlar və s. digər normativ hüquqi aktlar fəaliyyət göstərir.

**Sosial quruluş** – müəyyən ictimai, istehsal münasibətləri və cəmiyyətin siyasi cəhətdən təşkili ilə səciyyələndirilən ictimai quruluş və dövlət quruluşu sistemi. Məsələn, feodalizm, kapitalizm quruluşu. S.q. anlayışı bəzi hallarda ictimai-iqtisadi formasiya anlayışının sinonimi kimi də işlədilir.

**Sosiallaşma** *(kriminologiyada)* – şəxsiyyətin sosial keyfiyyətlərinin bərqərar olması prosesi. S. anlayışı elm aləminə təqribən XIX yüzilliyin sonunda daxil olmuşdur. S. ideyası nəzəriyyəsinin işlənib hazırlanması Dürkheymə məxsusdur. Onun əsas konsepsiyaları isə Freyd, Mid, Parson və Piaje tərəfindən irəli sürülmüşdür. S. nəzəriyyəsinə görə sosiallaşma prosesi fərdin həyatının bütün sferalarını əhatə edir və ona başa çatmış proses kimi baxıla bilər. "S." terminindən irəli gələn əsas müddəa ondan ibarətdir ki, sosial mühit fərdin sosial davranışına təsir edir. Şəxsiyyətə "çatışmazlıqlara malik olan varlıq" kimi baxılır.

**Sosial müavinətlər** – "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli qanunu ilə müəyyən edilmiş qaydada ayrı-ayrı kateqoriyalı şəxslərə sosial yardım göstərilməsi məqsədi ilə aylıq və ya birdəfəlik ödənilən pul vəsaiti.

**"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında sosial müavinətlərin təyin olunması və verilməsinin hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan digər münasibətləri tənzimləyir. Bu qanunla aşağıdakı müavinətlərin təyin edilməsi müəyyənləşdirilmişdir: a) aylıq müavinətlər: 1) dövlət qulluqçularına ömürlük müavinət; 2) yaşa görə müavinət; 3) əlilliyə görə müavinət; 4) 16 yaşadək əlil uşaqlara müavinət; 5) ailə başçısını itirməyə görə müavinət; 6) müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət; 7) üç yaşınadək uşağa qulluğa görə müavinət; 8) müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərin 16 yaşadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşadək) uşaqlarına müavinət; 9) valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət; 10) bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət; b) birdəfəlik müavinətlər: 1) radiasiya qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkərək əlil olmuş şəxslərə hər il müalicə üçün müavinət; 2) uşağın anadan olmasına görə müavinət; 3) dəfn üçün müavinət.

Qanun 7 fevral 2006-cı il tarixdə qəbul edilmiş və onun tətbiqi barədə 24 fevral 2006-cı ildə fərman verilmişdir. Qanun 14 maddədən ibarətdir.

**Sosial müdafiə** *(kriminologiyada)* – sosial hərəkatın bir növü; S.m. hərəkatı İkinci dünya müharibəsindən sonra başlanmışdır. S.m. konsepsiyası ilk əvvələr Genuya məktəbinin radikal qərarlarının axtarışına yönəlmişdir. Bu məktəb vəkil Fillipo Qrammatikanın adı ilə əlaqələndirilir. S.m. məsələləri üzrə III beynəlxalq konqresdə s.m. məktəbi nümayəndələrinin Marks Ansel tərəfindən təklif edilən mötədil qanadı yaradılmışdır.

S.m. doktrinasının əsas prinsipi cəzanın istisna edilməsidir. Belə ki, s.m. nəzəriyyəsi "təqsir" kimi hüquqi terminindən istifadə etmir. Bu nəzəriyyəyə görə, əgər cinayətkar anlaqlıdırsa, ona cəza tədbiri deyil, islahedici və tərbiyəvi tədbirlər tətbiq edilməlidir. Anlaqsız cinayətkar isə müalicəvi tibbi tədbirə məruz qalmalıdır.

**Sosial normalar** – adət, əxlaq, hüquq normalarını, ictimai təşkilatların normalarını, siyasi, təşkilati, estetik, texniki və i.a. normaları özündə ehtiva edən normalar sistemi. S.n. sistemində siyasi normalar aparıcı rola malikdir. Belə ki, onlar cəmiyyətdə bütün sosial normaların əsasını təşkil edir. S.n. bir-biri ilə daxili vəhdətdədir, çünki onların iqtisadi və siyasi əsası ümumidir. Bütün s.n.-ın məqsəd və vəzifələri də eynidir. S.n.-ın əsasını demokratik prinsiplər təşkil edir. S.n. bir-birinə qarşılıqlı nüfuz edərək vahid məqsədə – ictimai münasibətlərin möhkəmləndirilməsi, mühafizə olunması və inkişaf etdirilməsi məqsədinə nail olmaq üçün ictimai münasibətlərin tənziminə qarşılıqlı şəkildə kömək edirlər.

**Sosial pensiya** – əmək fəaliyyəti və digər ictimai faydalı fəaliyyətilə əlaqədar (hər hansı səbəbə görə) pensiya hüququ olmayan vətəndaşlara dövlət tərəfindən müəyyən edilən pensiya. S.p. I və II qrup əlillər, həmçinin uşaqlıqdan əlil olan şəxslər və III qrup əlillər üçün müəyyən edilir. Bu pensiya həmçinin 16 yaşadək olan uşaq əlillərə, bir və ya hər iki valideynini itirmiş 18 yaşadək olan uşaqlara da təyin edilir. Müvafiq surətdə 60 yaşa çatmış qadınlara və 65 yaşa çatmış kişilərə də s.p. təyin edilə bilər.

**Sosial reklam** – reklamın xüsusi növü; ictimai mənafeləri və dövlət mənafelərini təmsil edir və xeyriyyəçilik məqsədlərinə nail olunmasına yönəldilmişdir. S.r.-da kommersiya təşkilatları və fərdi sahibkarlıq, həmçinin konkret markalar (modellər, artikullar), qeyri-kommersiya təşkilatlarının sahibkarlıq fəaliyyətinin nəticələri olan mallar xatırladılmırlar.

**Sosial sığorta** – "Sosial sığorta haqqında" qanunla nəzərdə tutulmuş hallarda fiziki şəxslərin itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat forması. S.s. məcburi dövlət sığortası və könüllü

(əlavə) sığorta formalarında olur. Məcburi s.s. işəgötürənlər tərəfindən bütün əmək müqaviləsi (kontraktı) üzrə işləyənlərin barəsində həyata keçirilir. Digər şəxslər də məcburi dövlət s.s.-na cəlb olunurlar.

**"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında sosial sığorta sahəsində münasibətləri tənzimləyir, sosial sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

Qanun 18 fevral 1997-ci ildə qəbul edilmiş və onun tətbiqi barədə 7 aprel 1997-ci ildə 568 saylı fərman verilmişdir. Qanun 5 fəsildən və 31 maddədən ibarətdir. İndiyə qədər qanuna 10 əlavə və dəyişiklik edilmişdir.

**Sosial sığorta stajı** – əmək pensiyası hüququnun müəyyən edilməsi zamanı nəzərə alınan iş və ya digər fəaliyyət dövrlərinin (müvafiq icra hakimiyyəti orqanına dövlət sosial sığorta haqları ödəmək şərti ilə) və eləcə də müvafiq qanunvericiliklə sığorta stajına daxil edilən digər dövrlərin məcmusu.

**Sosial sığorta şəhadətnaməsi (polisi)** – sosial sığortaçı tərəfindən sığortaedilənə verilən sənəd. S.s.ş.-nin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

**Sosial stratifikasiya** – burjua sosialogiyasının əsas anlayışlarından biri; cəmiyyətdə bərabərsizliyin, sosial təbəqələşmənin əlamət və meyarlar sistemini, cəmiyyətin sosial strukturunu ifadə edir.

**Sosial struktur** – siniflərin və digər sosial qrupların münasibətlərindən, əmək bölgüsündən, sosial institutların xarakterindən irəli gələn sosial sistemin elementləri arasındakı sabit və tənzim edilmiş əlaqələr şəbəkəsi. S.s. bütövlükdə cəmiyyətin sosial quruluşuna (bütün ictimai münasibətlərin məcmusunu əhatə edir), onun ayrı-ayrı sistem və sahələrinin (istehsalın, siyasətin, elmin, mədəniyyətin və i.a.) sosial strukturuna ayrılır.

**Sosial terapiya** – cinayətkara təhlükəsizlik və islah tədbirinin tətbiqini nəzərdə tutan kriminoloji anlayış. Həmin tədbir AFR-in Cinayət Məcəlləsinin 65-ci paraqrafında (1969-cu və 1984-cü illərin redaksiyasında) nəzərdə tutulmuşdur. Bu tədbir azadlıqdan məhrum etmə cəzası ilə birlikdə təyin edilirdi. Məhkum edilmiş şəxs 5 ildən artıq olmayan müddətə sosial-terapevtik müəssisədə yerləşdirilirdi. 65-ci paraqrafın müddəası heç vaxt qanunvericilik qüvvəsinə malik olmamışdır. Bu normanın qüvvəyə minməsi təklifi 3 dəfə irəli sürülmüş və belə addım sonuncu dəfə 1985-ci ildə atılmışdır. Lakin hələ 1984-cü ildə s.t.-ya aid olan bütün normalar CM-dən çıxarılmışdır.

**Sosial təminat** – vətəndaşların qocaldıqda, əmək qabiliyyətini müvəqqəti olaraq itirdikdə, əlil olduqda aldıqları maddi təminat; ana və uşaqların hərtərəfli təminatı, tibbi xidmət və müalicə üzrə dövlətin sosial-iqtisadi tədbirlər sistemi.

**Sosial təminat hüququ** – vətəndaşların qocaldıqda, əmək qabiliyyətini itirdikdə, əlil olduqda maddi təminat, ana və uşaqların hərtərəfli təminat, ailəyə dövlət yardımı ilə əlaqədar tibbi yardım və müalicə, pensiya və bəzi başqa münasibətləri, habelə hüquqi faktların müəyyən edilməsi və mübahisələrin həlli üzrə bu münasibətlərlə sıx əlaqədə olan prosessual münasibətləri tənzim edən hüquq normalarının sistemi. C.t.h.-nun





predmetini təşkil edən ictimai münasibətlərin əsas növü və özülü (təməli) pensiya münasibətləridir. Sosial təminatın ayrı-ayrı növləri vətəndaşlarla müvafiq icra hakimiyyəti orqanları arasında hüquq münasibətlərinin obyektləri qismində çıxış edirlər.

**Sosial turizm** – bir sıra dövlətlərdə dövlət tərəfindən sosial ehtiyaclara ayrılan vəsaitlər hesabına maliyyələşdirilən və həyata keçirilən səyahət.

**Sosial vergilər** – işəgötürənlər, işçilər və sahibkarlar tərəfindən ixtisaslaşdırılmış sosial fondlara edilən məqsədli vergilər qrupu. Belə fondlara Azərbaycan Respublikasının pensiya fondu, sosial sığorta fondu, məcburi tibbi sığorta fondu və əhalinin məşğulluğu fondu daxildir.

**Sosial yayınmalar** – oxşar sosial şəraitlərdə müəyyən miqyası, sabitliyi və yayılması ilə səciyyələndirilən sosial normaların pozuntusu. Pozulan sosial normalardan asılı olaraq s.y.-ın müxtəlif və çoxsaylı növləri fərqləndirilir. Cinayətkarlıq kimi anticəmiyyət hərəkətləri, sosial parazitizmq, sərxoşluğu və alkoqolizmi, narkomanlığı, qeyri-əxlaqi xətaları, bürokratizmi, suisidiyanı (intiharı) s.y.-ın növlərinə aid etmək olar. Ən "qərəzli" anticəmiyyət xarakterinə malik olan s.y. kriminologiyada cinayətkarlıqla əlaqədar olan mənfi sosial hadisələr kimi öyrənilir.

**Sosioloji cinayət hüquq məktəbi** – burjua cinayət hüquq elmində cərəyan. Bu cərəyan XIX yüzilliyin sonu və XX yüzilliyin əvvəlində meydana gəlmişdir. Məktəbin nümayəndələri F.List (Almaniya), Ç.Lombrozo, E.Ferri (İtaliya), İ.Y.Foynitski, S.V.Poznışev (Rusiya) insanın cinayətkar davranışının sosial cəhətdən şərtləndiyini göstərməklə yanaşı, belə hesab edirdilər ki, ona bioloji (o cümlədən irsiyyət), fiziki (ilin fəsli, iqlim, gün ərzi və i.a.) və digər amillər təsir edir. S.c.h.m.-nin müasir nümayəndələri cinayətkarlıq amillərinin çoxcəhətliliyi nəzəriyyəsini irəli sürmüşlər.

**Sosioloji hüquq məktəbi (sosioloji hüquqşünaslıq)** – XX əsr burjua hüquqşünaslığında meydana gəlmiş cərəyanlardan biri. S.h.m. "canlı hüququ", yəni hüquq münasibətləri sistemini, insanların hüquq sahəsində davranışını və i.a. öyrənir. Bu məktəbin nümayəndələri qanunvericilik normalarını ("kitab hüququnu") yanlış olaraq "həyatdakı hüquqa" qarşı qoyur və sonuncunu "həqiqi hüquq" hesab edirlər. S.h.m.-nin tərəfdarları hüququ normalar sistemi deyil, "münasibətlər qaydası" hesab edirlər.

**"Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında sovxozların, kolxozların, təsərrüfatlararası və digər kənd təsərrüfatı istehsalı müəssisələrinin istifadəsindəki (balansındakı) torpaqdan və əmlakdan pay almaq hüququ olan şəxslər tərəfindən təsərrüfatın (müəssisənin) hər hansı təşkilati-hüquqi formasının könüllü seçilməsinə və yaradılmasına təminat verən qanunvericilik aktı.

Bu qanun 18 fevral 1995-ci il tarixdə qəbul edilmişdir. O, dörd fəsil və 24 maddədən ibarətdir.

**Soyğunçuluq** – mülkiyyət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 180-ci maddəsində nəzərdə tutulmuşdur. Özgənin əmlakını açıq talamada ifadə olunur.

**Soyqırım** – sülh və bəşəriyyət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 103-cü maddəsində nəzərdə tutulmuşdur. Hər

hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmədə ifadə olunur.

**"Soyuq müharibə"** – İkinci dünya müharibəsindən sonra dünyanın bir sıra dövlətlərinin bir-birinə qarşı yeritdiyi təcavüzkar siyasət. "S.m." siyasəti Böyük Britaniyanın Baş naziri U.Çörçillin 1946-cı il martın 5-də ABŞ-ın Fulton şəhərindəki davakar nitqində elan edilmişdir.

**Soyuq silah** – barıt və odlu silah yaradılanadək əlbəyaxa döyüş üçün işlədilən silah. S.s.-ın zərbə ( gürz, toppuz, əmud və i.a.), batan (nizə, qılınc, süngü və i.a.) və atma silah (kaman, cida, sapand, atıcı maşınlar) növləri vardır. S.s.-ın bəzi növləri (süngü, ordu bıçağı, kortik) müasir ordularda indi də qalmaqdadır.

**Soyurqal** *(monqolca hərfi mənası ehsan, bəxşiş, hədiyyə, güzəşt)* – orta əsrlərdə hərbi xidmət müqabilində feodal əyanlara bağışlanılan torpaq sahəsi, mülk. Qızıl Orda, Orta Asiya, İran, İraq və Azərbaycanda (XIV-XIX yüzilliklərdə), habelə Hindistanda (XVI-XIX yüzilliklərdə) və bir sıra başqa ölkələrdə geniş yayılmışdı. Hərbi len sistemi olan s. iqta termini ilə yanaşı işlədilirdi. Bəzən yüzlərlə kəndə, hətta ayrı-ayrı vilayətlərə s. verilirdi. Sonralar ali rütbəli ruhanilərə, inzibati vəzifələrdə çalışanlara da s. paylanması geniş yayılmışdı. Zaman keçdikcə s. tiyul torpaq sahibliyi ilə əvəz olunmuşdur.

**Soyurqal sahibi** – soyurqal mülkiyyəti almış feodal əyan. Hərbi dəstəsi ilə müharibədə iştirak etməyə borclu olan S.s.-nin öz xeyrinə vergi toplamaq, mühakimə etmək və i.a. imtiyazları var idi. Belə sahiblik irsi xarakter daşımışdır. XV yüzillikdə bir çox din xadimləri, şairlər və inzibati vəzifədə çalışanlar da iri s.s.-nə çevrilmişlər.

**Söz azadlığı** *(bax: demokratik azadlıqlar).*

**Spartiatlar** – Qədim Spartada hərbi torpaq sahibləri. S. onlar üçün ayrılmış torpaq sahələrindən əldə etdikləri gəlirin hesabına yaşayırdılar. Torpaq sahələrini s. üçün ilotlar becərirdilər. S.-ın hər hansı təsərrüfat fəaliyyəti ilə məşğul olmaq hüquqları yox idi.

**Spektral təhlil** *(kriminalistikada)* – ekspert tədqiqatlarında maddələrin keyfiyyət və kəmiyyət tərkibinin müəyyən edilməsinin fiziki metodu; optik spektral üzrə aparılır. Atom və molekulyar s.t. emission (çıxartma spektrləri üzrə) və absorbsion (hopdurma spektrləri üzrə) s.h. fərqləndirilir.

**Spesifikatiya** *(lat. specificatio)* – Qədim Roma hüququna görə özgə materialın ondan yeni şey almaq məqsədilə emal olunması. Sabinian hüquq məktəbi nümayəndələrinin fikrincə, köhnə şeyin mülkiyyətçisi həmin şeyin yeni növündə də onun mülkiyyətçisi olaraq qalır. Prokulian hüquq məktəbinin nümayəndələri isə belə hesab edirdi ki, yeni şey mülkiyyət hüququna əsasən onu yaradana (emal edənə) məxsusdur.

**Spiker** *(ing. speaker, hərfən natiq)* – bir sıra ölkələrdə parlamentin aşağı palatasının (yaxud birpalatalı parlamentin) sədri. S. vəzifəsi ilk dəfə 1377-ci ildə İngiltərədə təsis edilmişdir.





**Sponsor** *(lat. spondeo – zamin oluram)* – **1)** tapşırıq verən, nəyə isə təminat verən şəxs; **2)** ictimai təşkilatın fəaliyyətini maliyyələşdirən fiziki və ya hüquqi şəxs (məsələn, xeyriyyəçilik, yaradıcılıq fəaliyyətinə, ekoloji fəaliyyətə maliyyə yardımı göstərilməsi).

**Sponsorluq** *(bax: sponsor).*

**Spot** – **1)** nağd malın dərhal verilməsi şərtilə onun alqı-satqısına dair birja əqdi; **2)** valyuta əməliyyatları sahəsində – nağd valyuta əqdi; belə əqdin bağlanması zamanı əqdin bağlandığı tarix nəzərə alınmamaqla ödəniş ikinci iş günündə aparılır. Bu zaman fərqi beynəlxalq təcrübə ilə müəyyən edilmişdir və bağlanmış əqdin banklarda rəsmiləşdirilməsilə bağlıdır.

**Spot-prompt** – gəminin yüklənməyə dərhal hazır olması şərtilə çarter.

**Spred** – birja terminologiyasında aşağıdakıları bildirir: a) müxtəlif müddətli tədarüklə eyni və ya iki müxtəlif, lakin qarşılıqlı əlaqəli malın fyuçers kontraktları ilə eyni zamanda alqısı və satqısı; b) ödənilən vergiləri aşağı salmaq məqsədilə qarşılıqlı əlaqədə olmayan malları fyuçers kontraktları ilə eyni vaxtda alma və satma; c) eyni tipdən olan opsionları eyni vaxtda alma və satma; ç) qiymətlər, kurslar və məzənnələr arasındakı fərq.

**Spreder** – müxtəlif zaman dövrlərində, bir qayda olaraq ay ərzində kontraktları eyni vaxtda alan və satan birja taciri.

**Staqnasiya** *(lat. stagnum – axmayan, durğun su)* – istehsalatda, ticarətdə və i.a. durğunluq.

**Staliya (staliya vaxtı)** – malın gəmiyə yüklənməsi və ya ondan boşaldılması müddəti; müddət tərəflərin sazişi ilə müəyyən edilir. Tərəflərin belə sazişinin olmadığı halda müddətlər adətən həmin limanda müəyyən edilir.

**Standart** *(ing. standard – norma, nümunə, ölçü)* – səlahiyyətli dövlət orqanı tərəfindən təsdiq edilmiş normativ-texniki sənəd (NTS). S. maraqlı tərəflərin əksəriyyətinin razılığı əsasında hazırlanmış və müvafiq səlahiyyətli təşkilat və ya orqanlar tərəfindən təsdiq edilən kütləvi istifadə üçün nəzərdə tutulmuş məhsulların (işlərin, xidmətlərin) keyfiyyətinə və təhlükəsizliyinə dair tələbləri müəyyən edir.

**Standartlaşdırma** – məhsullar (işlər, xidmətlər) üçün norma, qayda və xarakteristikaları müəyyən edən fəaliyyət. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 16 aprel 1996-cı il tarixli qanununun 1-ci maddəsinə uyğun olaraq standartlaşdırma aşağıdakıları təmin etmək məqsədi daşıyır: 1) məhsulların (işlərin, xidmətlərin) insanın həyatı, sağlamlığı, əmlakı və ətraf mühit üçün təhlükəsizliyini; 2) məhsulların (işlərin, xidmətlərin) texniki, texnoloji və informasiya uyğunluğunu, eləcə də qarşılıqlı əvəz olunmasını; 3) məhsulların (işlərin, xidmətlərin) elm; texnika və texnologiyanın inkişafına uyğunluğunu və onların rəqabət qabiliyyətinin yüksəldilməsini; 4) ölçmələrin dəqiqliyini və vəhdətini; 5) bütün növ ehtiyatların qənaətini; 6) təbii və texnogen qəzaların və habelə digər fövqəladə vəziyyətlə-

rin yaranması ehtimalları nəzərə alınmaqla təsərrüfat obyektlərinin təhlükəsizliyini; 7) ölkənin müdafiə qabiliyyətini və səfərbərliyə hazırlığını; 8) istehlakçıların məhsulların (işlərin, xidmətlərin) nomenklaturası və keyfiyyəti haqqında tam və səhih informasiyaya malik olmalarını.

**"Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında bütün dövlət ixrac hakimiyyətinin orqanları, yerli özünüidarəetmə orqanları, müəssisələr, təşkilatlar, sahibkarlar, habelə ictimai birliklər üçün məcburi hesab olunan standartlaşdırmanın hüquqi və iqtisadi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 16 aprel 1996-cı il tarixdə qəbul edilmişdir. O, dörd fəsil və 14 maddədən ibarətdir.

**Stathauder** *(hol. stadouder – malik olan, sahib)* – XV-XVI yüzilliklərdə Burqund hökmdarının canişini (ştatqalter), sonra isə Niderlandda habsburger sülaləsi; Niderland burjua inqilabından (XVI əsr) sonra Birləşmiş Əyalətlər Respublikasında icra hakimiyyətinin başçısı (XVIII yüzilliyin sonunadək).

**"Statistika haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında statistika işinin aparılması sahəsində hüquq münasibətlərini tənzimləyən, dövlət statistika orqanlarının səlahiyyət və funksiyalarını müəyyən edən, vahid dövlət məlumatlandırma sisteminin təşkilinə imkan yaradan qanunvericilik aktı.

Bu qanun 18 fevral 1999-cu il tarixdə qəbul olunmuş, ona bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanun beş fəsil və 17 maddədən ibarətdir.

**Status** *(lat. status – vəziyyət)* – vətəndaşın, yaxud hüquqi şəxsin hüquqi vəziyyəti.

**Status-kvo** *(lat. status-quo, hərfən – mövcud vəziyyət)* – mövcud olan, yaxud müəyyən məqamda mövcud olmuş faktiki və ya hüquqi vəziyyəti ifadə etmək üçün işlədilən termin.

**Statut** *(lat. statutum, statuo – qərara alıram)* – **1)** dövlətlərarası və beynəlxalq təşkilatların təşkili və fəaliyyət qaydasını müəyyən edən əsasnamə, nizamnamə (məsələn, BMT-nin Beynəlxalq Məhkəməsinin Statutu); **2)** orta əsrlərdə şəhərlərin və şəhərdaxili birliklərin (sexlərin, tacir gildiyalarının) hüquqi vəziyyətini əks etdirən nizamnamə; **3)** hər hansı bir orqan haqqında əsasnamə (məsələn, orden statutu); **4)** Böyük Britaniya parlamentinin bəzi qanunvericilik aktları (məsələn, 1931-ci il Vestminster statutu); **5)** ABŞ-da konqresin bəzi aktları.

**Statut hüququ** – ingilis-amerikan hüquq sistemli ölkələrdə özündə statusları ehtiva edən normalar; ümumi hüquqla yanaşı fəaliyyət göstərir. S.h. qanunvericilik orqanları tərəfindən müəyyən edilən hüququn başlıca hissəsidir.

**Staz** *(yun. stasis – hərəkətsizlik)* – məhkəmə təbabətində qanın damarlarda, kapilyarlarda və venalarda dayanması; meyit ləkələrinin, onların sabitliyinin artması ilə xarakterizə olunan inkişafın ikinci mərhələsi.

**Stellaj** – məlum muzdlar müəyyən edilmiş məzənnə üzrə müəyyən sayda olan birja sərvətlərinin tərəflərdən birinin alqı və ya satqı hüququ əsasında bağlanan şərti birja əqdi.

**Steytment** – staliya vaxtının uçotu və hesablanması üçün zəruri şəraitin olmadığı





hallarda taymşitin əvəzinə tərtib edilən sənəd (staliya). Gəminin limana gəlmə vaxtı, staliya vaxtından istifadə etmə (müddət və səbəblər göstərilməklə) haqqında məlumatları özündə ehtiva edir.

**Stiqmalaşdırma** – kriminoloji nəzəriyyələrdən birinə uyğun olaraq ictimai təhlükəli əməl törətmiş şəxsin dövlət tərəfindən cinayətkar adlandırılması prosesi (və ya nəticəsi), cinayətkar statusu ("damğa"). Bir dəfə cinayətkar kimi damğalanmış şəxsin gələcəkdə bu stiqmadan qurtulması çətindir. Bu isə öz növbəsində antisosial şəxsiyyətlərin bütöv bir təbəqəsinin təzahür etməsinə gətirib çıxarır.

**Stiqma nəzəriyyəsi** *(yun. stigma – nişan, damğa)* – kriminoloji konsepsiya; bu konsepsiyaya uyğun olaraq heç bir hərəkət öz-özlüyündə cinayət deyil və bu, qanunun sayəsində belə hesab olunur. Hər hansı hərəkətin cinayət qismində müəyyən edilməsi müstəsna dərəcədə həmin hərəkətə cəmiyyətin reaksiyasından asılıdır. İnsan ilk növbədə ona görə cinayətkar olur ki, onun davranışı cinayət ədliyyəsi sistemi tərəfindən həyata keçirilən stiqmalaşdırma nəticəsində kriminal hərəkət kimi qiymətləndirilir.

**Stipulyasiya** *(lat. stipulatio)* – Qədim Roma hüququnda əsas verbal kontrakt. Kreditorun sualı ilə öhdəlik üzrə borclu ola bilən şəxsin üst-üstə düşən sualına verilən cavab vasitəsilə bağlanan şifahi müqavilə stipulyasiya adlanırdı. S. öhdəliyi birtərəfli idi, tərəflərdən biri yalnız hüquqa malik idi (öhdəliklə bağlı olmayan hüquqa), digəri isə yalnız vəzifə (onun hüququnu müşayiət etməyən vəzifəni) daşıyırdı. S.-dan irəli gələn öhdəlik mücərrəd səciyyə daşıyırdı.

**Stividor** – **1)** gəmilərin yüklənməsini və yüklərin boşaldılmasını həyata keçirən ixtisaslaşdırılmış təşkilatların və firmaların adı; **2)** gəmilərin yüklənməsinə və ya yüklərin boşaldılmasına bilavasitə nəzarəti həyata keçirən stividor təşkilatının nümayəndəsi.

**Stividor xərclər** – dəniz nəqliyyatında yükləmə və boşaltma işləri ilə əlaqədar olan xərclər. Xarici limanlarda adətən gəmi daşımalarındakı tariflərə hesablanan əlavələr hesabına gəmiçilik təşkilatı tərəfindən ödənilir.

**Stividor işlər** – gəmilərin yüklənməsi və yüklərin boşaldılması, gəmidə yüklərin qablaşdırılması ilə əlaqədar olan işlər. Fraxtlaşdırma şərtlərindən asılı olaraq ya fraxtaçı, ya da gəmi sahibi tərəfindən ödənilir.

**Stoiklər** – Qədim Romada eramızdan əvvəl IV-III yüzilliklərdə fəaliyyət göstərmiş stoisizm fəlsəfi cərəyanının nümayəndələri. Stoisizmin banisi Zenon hesab olunur. Kleanf, Xrisipp bu cərəyanın ən qədim nümayəndələri olmuşlar. Orta stoisizmin aparıcı nümayəndələri Paneti və Posidoni sayılır. Seneka, Epiktet və Mark Avreli isə yeni stoisizmin nümayəndələri olmuşlar. S.-in etik və siyasi-hüquqi konsepsiyasında "kainat" anlayışı başlıca yer tuturdu. S.-in fikrincə, "kainat" bütövlükdə, o cümlədən bununla qarşılıqlı əlaqədə olan səma və yer hadisələri tale tərəfindən idarə olunur. Tale "təbii" qanun qismində izah olunurdu. Zenonun məntiqinə görə "təbii qanun ilahi qanundur və hökmedici qüvvəyə malikdir". S.-in nəzərində dövlət süni, şərti və müqaviləli təsisat deyil, təbii birlik kimi təsəvvür edilirdi.

Filosof Platon ruhunda ailə və fərdi nikah əleyhinə çıxmaq, qadınların ictimailəşdirilməsi uğrunda çıxış etmək s. üçün

səciyyəvi cəhət olmuşdur. Ailədən başqa, ictimai həyatın və siyasi mədəniyyətin məhkəmələr, məbədlər, məktəblər, ticarət, pul və i.a. kimi institutları da s.-in tənqidi hücumlarına məruz qalmışdır. S. öz təbii-hüquqi təsəvvürləri sayəsində ictimai həyat hadisəsi və sosial-siyasi institut kimi köləliyi pisləmişlər. Onların fikrincə, kölelik ümumi qanuna və adamların dünyəvi birgəvətəndaşlığına ziddir.

S.-in bu kimi və buna bənzər mülahizələri öz real məzmununa və konkret sosial-siyasi mənasına görə mühafizəkar-mühafizəçi səciyyə daşımış və cəmiyyətdə mövcud olan qayda və qanunları işıqlandırmışdır. S. siyasi-hüquqi fikrin inkişafına xidmət etmiş mütəfəkkirlər hesab olunurlar.

**Storno** *(ita. storno – hesabın keçirilməsi)* – **1)** mühasibat hesabında səhvin düzəldilməsi üsulu; əməliyyata səhvən daxil edilən ("qırmızı" storno) mürəkkəblə qeyd edilməsindən və onun hesabın yekun məbləğindən çıxarılmasından ibarətdir; **2)** uzunmüddətli həyat sığortasına dair qüvvədə olan müqavilələrin sığorta portfelinin azaldılmasını səciyyələndirən göstərici.

**Storno etmə** – geriyə qeyd etmək *(bax: storno).*

**Stortinq** – Norveçdə birpalatalı parlamentin adı.

**Stredl** – birja terminologiyasında aşağıdakıları bildirir: a) mal bazarlarında – eyni vaxtda bir malın alınması və digərinin satılmasının əlaqələndirilməsi; səhmlər bazarında – qiymətli kağızların sahibinin onları müəyyən qiymətə satmaq və ya almaq hüququndan ibarət olan saziş; b) opsionlar üzrə əqdlərlə – qiymətli kağızların sahibinə onları müəyyən qiymətə almağa və ya satmağa hüquq verən ikiqat opsion, yaxud stellaj əqdi.

**Subagent** *(bax: agent müqaviləsi).*

**Suberbout-çarter** – ekipajsız gəminin subfraxtlaşdırılması müqaviləsi. Berbout-çarterlə sair halın nəzərdə tutulmadığı halda fraxtaçı öz adından üçüncü şəxslə ekipajsız gəminin fraxtlaşdırılması müqaviləsini bağlaya bilər. Müqavilə berbout-çarterin qüvvədə olduğu bütün müddətə və ya həmin müddətin müəyyən hissəsi üçün bağlanır.

**Subhesablar** – kommersiya və digər özünümaliyyələşdirmə təşkilatlarının banklara açılmış əsas hesablarına əlavə edilən yardımçı hesablar (hesablaşma hesabları, cari hesablar, müxbir hesabları). S. mülkiyyətçi tərəfindən maliyyələşdirilən müəssisələrə, filiallara, onların yerləşdiyi yerlər üzrə şöbələrə malik olurlar. S. olduqda hər bir məbləğin ayrıca köçürülməsi zərurəti aradan qalxır və bu da bankların və müştərilərin işini sadələşdirir.

**Subkomissiya** – komissiya müqaviləsinə münasibətdə yardımçı müqavilə. Mülki qanunvericiliyə uyğun olaraq komissiya müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, komissiyaçı s. müqaviləsini digər şəxslə bağlaya bilər. Bu zaman o, hərəkətlərinə görə komitentin qarşısında məsul olur.

**Sublisenziya** – lisenziarın lisenziata üçüncü şəxsin öz hüquqları çərçivəsində ixtira üçün patentdən istifadə hüququnu vermək səlahiyyətlərinə dair şərt.

**Sublizinq** – lizinq predmetindən istifadə hüquqlarından üçüncü şəxsə güzəştə getmə ilə əlaqədar yaranan münasibətlərin xüsusi növü; sublizinq müqaviləsi ilə rəsmiləşdirilir. S.-i həyata keçirən şəxs lizinq predmetini lizinq sahibindən ( lizinq müqaviləsi ilə ) alır və onu lizinqalana (sublizinq müqaviləsi ilə) müvəqqəti istifadəyə verir. Bu zaman lizinqverənin yazılı razılığının olması zəruridir. Lizinq ödənişlərinin ödənilməsi üzrə öhdəliklərin üçüncü şəxsə güzəştə gedilməsinə yol verilmir.

**Submədəniyyət** *(kriminologiyada)* – şəxsləri onların mənsub olduqları cəmiyyətin qalan üzvlərindən fərqləndirən struktur və funksional təsisat. S. cəmiyyətin bütün sosial təbəqələrində (rəssamlardan, memarlardan başlayaraq, evsiz, məhkum olunanlaradək) mövcuddur. Kriminologiya yetkinlik yaşına çatmayanların (məsələn, cinayətkarlıq nəzəriyyələrində), həmçinin islah müəssisələrindəki s.-ə xüsusi əhəmiyyət verir.

**Subordinasiya** *(sub.. + lat. ordinatio – qaydaya salmaq)* – xidməti intizam qaydalarına əsasən kiçik vəzifəli şəxsin böyük vəzifəli şəxsin xidməti tabeliyində olması.

**Subsidiar məsuliyyət** – mülki qanunvericiliyə görə öhdəliklərin icra edilməməsi üçün müəyyən edilmiş məsuliyyətin növlərindən biri. AR MM-in 453.1-ci maddəsinə uyğun olaraq kreditor MM-ə və ya öhdəliyin şərtlərinə görə əsas borclu olan digər şəxsin məsuliyyətinə əlavə məsuliyyət (subsidiar məsuliyyət) daşıyan şəxsə qarşı tələblərini irəli sürənədək əsas borcluya qarşı tələb irəli sürməməlidir.

**Subsidiya** *(lat. subsidium – yardım, kömək)* – ölkənin dövlət büdcəsi vəsaiti hesabına yerli hakimiyyət orqanlarına, fiziki və hüquqi şəxslərə, başqa dövlətlərə əsasən pul formasında göstərdiyi yardım. Bir sıra ölkələrdə s.-dan maliyyə yardımı ilə qurulmuş siyasəti həyata keçirmək üçün istifadə edilir.

**Substitusiya** *(lat. substitutio – təyin edirəm sözündən)* – vərəsəlik hüququnda vəsiyyətnamədə ehtiyat vərəsə göstərmə. S. vərəsənin vəsiyyət açılanadək ölməsi və ya vərəsəliyi qəbul etməkdən imtina etməsi halları üçün edilir. Qanuna görə bir şəxs eyni zamanda birinin vərəsəsi, digərinin isə ehtiyat vərəsəsi təyin edilə bilər.

**Substitutiv məsuliyyət** – hüquqda digər şəxslərə diqqətsizliyə görə məsuliyyət.

**Subtaym-çarter** – gəminin vaxtında subfraxta edilməsi müqaviləsi. Taym-çarterlə başqa halın nəzərdə tutulmadığı hallarda fraxtaçı (taym-çarterlə ona verilmiş hüquqlar çərçivəsində) üçüncü şəxslə öz adından taym-çarterin qüvvədə olduğu bütün müddət üçün gəminin fraxta edilməsi müqaviləsini bağlaya bilər. S.ç.-in bağlanması fraxtaçını onun taym-çarteri icra etməsindən azad etmir.

**Subvensiya** *(lat. subvenire - köməyə gəlir)* Azərbaycan Respublikasının digər səviyyəli büdcə sistemi tərəfindən büdcəyə və ya hüquqi şəxsə müəyyən məqsədli xərclərin həyata keçirilməsi üçün əvəzsiz və geri qaytarmama əsasında verilən vəsaitlər. Dotasiyadan fərqli olaraq s. ciddi surətdə məqsədli təyinat üzrə istifadə edilməlidir.

**Subyekt** *(bax: cinayətin subyekti).*

**Subyektiv cəhət** *(bax: cinayətin subyektiv cəhəti).*

**Subyektiv hüquq** – müəyyən şəxsin (fiziki və ya hüquqi şəxsin) konkret hüququ, yəni müəyyən tərzdə hərəkət etmək və digər

şəxslərdən müəyyən hərəkətləri (yaxud hərəkətsizliyi) tələb etmək üçün qanunla təsbit edilmiş imkan. S.h.-lara malik olan şəxs bu hüququn pozulduğu hallarda öz hüququnun həyata keçirilməsi və müdafiəsi üçün məhkəməyə müraciət edə bilərlər.

**Subyektiv təqsirləndirmə** – cinayət hüququnun prinsipi; bu prinsipə uyğun olaraq ekstremal şərait və əsəb-psixiki vəziyyətlə əlaqədar fəaliyyəti həyata keçirən şəxs ancaq o halda təqsirkar hesab oluna bilər ki, onun subyektiv keyfiyyətləri situasiyanın obyekiv tələblərinə uyğun olsun və şəxs öz hərəkətlərinin (hərəkətsizliyinin) ictimai təhlükəliliyini dərk etsin, onların nəticələrini qabaqcadan görmüş olsun və ya olmasın, onları görə və onların qarşısını ala bilməsin.

**Sudan istifadə qanunu** *(1890)* – Zaqafqaziyada, o cümlədən Bakı və Gəncə quberniyalarında suvarma qaydalarını rəsmiləşdirmiş sənəd. 1890-cı il dekabrın 3-də çar hökuməti "Zaqafqaziyada su üzərində hüquq və torpaqların suvarılması haqqında" qanun vermişdi. Qanun iki hissədən – "Əsas" və "Qaydalar"dan ibarət idi. "Əsasnamə"də su sahibliyi, su üzərində hüquq, suvarma üzrə inzibati bölgü, su idarələrinin quruluşu və vəzifələri, suvarma üzrə vəzifəli şəxslərin (mirab, cuvar, su vəkilləri) hüquqları, sudan istifadə qaydaları və i.a. əksini tapmışdır. "Qaydalar" isə sudan istifadə hüququna aid müddəaları əhatə edirdi. S.i.q.-na əsasən suvarma idarə sistemində xüsusi dövlət orqanları hesab edilən su müfəttişi, su mühəndisi və su vəkili vəzifələri yaradılmışdır. Bu sənəd Azərbaycan tarixində suvarma qaydalarını rəsmiləşdirən ilk qanuvericilik aktı olmuşdur.

**Su ehtiyatları** – su obyektlərində yerləşən, istifadə edilən və ya istifadə oluna bilən yerüstü suların həcmi.

**Sufrajizm** *(ing. suffragism – səs hüququ)* – qadınlara kişilərlə bərabər və eyni seçki hüquqlarının verilməsi uğrunda mübarizə aparan qadın hərəkatı. S. XIX yüzilliyin ikinci yarısında Böyük Britaniyada meydana gəlmişdir.

**Sui-qəsd** *(hüquqda)* – cinayətin törədilməsi mərhələlərindən biri. Cinayət hüququna görə bilavasitə cinayət törətməyə yönəldilmiş, lakin təqsirləndirilən şəxsin iradəsindən asılı olmayan səbəblərdən başa çatdırılmamış qəsdən edilmiş hərəkət sui-qəsd hesab olunur. Təqsirləndirilən şəxsin öz cəhdini həyata keçirmək üçün zəruri hesab etdiklərinin hamısını yerinə yetirib-yetirməməsindən asılı olaraq qurtarmış və qurtarmamış s.-q., seçilmiş vasitələrdən asılı olaraq yararlı və yararsız s.-q. ola bilər. S.-q.-ə görə cinayət cəza üstündə məsuliyyəti nəzərdə tutan maddə üzrə təyin edilir. Bu zaman hərəkətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, cinayətkar qəsdin həyata keçirilməsi dərəcəsi və cinayətin başa çatdırılmaması səbəbləri nəzərə alınır.

**Suisidial** – özünüöldürməyə (məsələn, "suisidial meyillilik") aid olan anlayış və ya özünüöldürməyə meyillilik ("suisidial şəxsiyyət").

**Suisidologiya** – mənfi sosial davranış kimi özünüöldürmə haqqında təlim.

**Su istehlakçıları** – öz ehtiyaclarını təmin etmək üçün su obyektlərinin istifadəçisindən su alan fiziki və ya hüquqi şəxslər.

**Su kadastrı** – Azərbaycan Respublikasının ərazisində təbii su ehtiyatları haqqında sistemləşdirilmiş külliyyat. Qüvvədə olan qanunvericiliyə uyğun olaraq s.k.-na aşağıdakılar daxildir: a) suların kəmiyyət və keyfiyyət göstəriciləri üzrə uçota alınması; b) sulardan istifadənin qeydə alınması; c) sulardan istifadənin uçota alınması. S.k.-nı müvafiq icra hakimiyyəti orqanı aparır.





**Su qanunvericiliyi** – sulardan istifadə və onların mühafizəsi sahəsində münasibətləri tənzim edən hüquq normalarının məcmusu. S.q.-nin vəzifələri indiki və gələcək nəsillərin mənafeləri naminə əhalinin və təsərrüfatın ehtiyacları üçün sulardan səmərəli istifadəni təmin etməkdən, suları çirkləndirməkdən, zibilləməkdən və azalmaqdan qorumaqdan, suların zərərli təsirinin qarşısını almaqdan və onu ləğv etməkdən və i.a. ibarətdir. Azərbaycan Respublikasında sular dövlətin mülkiyyətindədir.

**Suların zərərli təsiri** – su altında, subasma, müəyyən əraziyə və ya obyektə yerüstü və yeraltı suların digər təsiri.

**Sultan** *(ərəb. türk. sultan – hakim, hökmdar)* – müsəlman ölkələrində hökmdar titulu. S. titulu Türkiyədə 1922-ci ilədək, Mərakeşdə 1957-ci ilədək qalmışdır. XIII yüzillikdə və XIV yüzilliyin əvvəllərində, eləcə də 1914-1922-ci illərdə Misirdə dövlət başçısı s. adlandırılırdı. Qərbi Afrikanın müsəlman ölkələrində ali feodallar, Oman hökmdarı, Cənubi Ərəbistanda qəbilə başçıları s. titulu daşıyırdılar. XVI-XIX yüzilliklərdə İranda və Azərbaycanda rütbəcə xandan aşağı olan və kiçik əyalətlərdə başçı olan feodallara da s. deyilirdi.

**Sultanlıq** – başında sultanın durduğu monarxiya, idarəçilik formasına malik olan dövlət.

**Sulu horizont** – yerin təkində geoloji struktur daxilində yerləşən, məsamələrində, çatlarında və boşluqlarında hidravlik əlaqəli sular toplanmış süxurlar təbəqəsi (lay).

**Su Məcəlləsi** – Azərbaycan Respublikasında su obyektlərinin istifadəsi və mühafizəsi ilə bağlı hüquq münasibətlərini tənzim edən sistemləşdirilmiş qanunvericilik aktı. Azərbaycan Respublikasının Su Məcəlləsi 26 dekabr 1997-ci ildə qəbul edilmiş və dərc edildiyi gündən qüvvəyə minmişdir. Məcəllə dörd bölmə, on yeddi fəsil və 105 maddədən ibarətdir.

**Summar proses** – İngiltərədə, ABŞ-da və bir sıra başqa ölkələrdə cinayət işlərinin müəyyən kateqoriyasına baxılmasının sadələşdirilməsi və tezləşdirilməsi qaydası.

**Su obyekti** – relyef formasına uyğun olaraq yerin üstündə və ya yerin təkində suların toplandığı sərhədləri, ölçüləri və xüsusi su rejimi əlamətləri olan təbii formalaşmış landşaft, yaxud geoloji struktur.

**Su obyektinin istifadəçisi** – su obyektlərindən istifadə hüququ verilmiş fiziki və ya hüquqi şəxs.

**Su obyektlərinin çirklənməsi** – suların keyfiyyətini pisləşdirən, su obyektlərinin səthinə, dibinə və ətrafına mənfi təsir edən zərərli maddələrin tökülməsi və ya axıdılması.

**Su obyektlərinin zibillənməsi** – su obyektlərindən istifadəni çətinləşdirən əşyaların, bərk maddə hissəciklərinin müxtəlif çeşidli texnogen mənşəli və məişət tullantılarının tökülməsi.

**Superfisi** *(lat. superficio – tikilinin yerüstü hissəsi)* – Qədim Roma hüququna görə özgə şeyə olan hüquq; özgəninkiləşdirmə

və vərəsəlik hüququ üzrə vermə hüququna görə özgə sahədə tikinti aparma və həmin tikilidən istifadə etmə hüququ. Tikili üzərində mülkiyyət hüququ. S. qaydalarına görə torpaq sahəsinin mülkiyyətçisinə məxsus idi. S.-nin subyekti mülkiyyətçiyə icarə haqqı verməyə borclu idi. 3 il ərzində icarə haqqını ödəməmə s.-nin xitamına səbəb olurdu. S.-nin müdafiəsi üçün mülkiyyətçinin hüquqlarının müdafiəsində tətbiq edilən eyni iddialar tətbiq edilirdi. Buna analoji iddia forması deyilirdi.

**Superfisiari** – superfisi hüququna malik olan şəxsin adı.

**Superkarqo** *(ing. supercargo)* – fraxtaçıların etibarlı şəxsi; fraxtaçıların mənafelərinə lazımi qaydada əməl olunmasına nəzarət üçün taym-çarterdə fraxta edilmiş gəmini müşayiət edir. S. gəmisürmə və gəmini idarəetmə sferasına qarışmağa haqlı deyildir.

**Superarbitr** *(super... +arbitr)* – mübahisəyə iqtisad məhkəməsində baxılarkən hakimlər arasında ziddiyyət olduqda tərəflərin seçdiyi, yaxud qanunla müəyyən edilmiş qaydada təyin edilən hakim.

**"Superprezidentli" respublika** – konstitusiya hüququ elmində respublika idarəçilik formasının xüsusi növünün adlandırılması üçün istifadə edilən termin; dövlət hakimiyyətinin bütünlüklə hüquqi və faktiki cəhətdən prezidentin əlində cəmləşməsi ilə səciyyələndirilir. Bu halda prezident nəinki dövlətin, həm hökumətin başçısı və hakim partiyanın lideri kimi çıxış edir. Bəzən konstitusiya belə prezidentə parlamenti buraxmaqda, ölkədə fövqəladə vəziyyət elan etməkdə, qanun qüvvəsinə malik olan dekretlər verməkdə, yerli administrasiyaların başçılarını, hakimləri və i.a. təyin və azad etməkdə qeyri-məhdud hüquqlar verir. Belə idarəçilik formasında prezidentin öz postundan kənarlaşdırılmasının konstitusiya mexanizmi praktiki olaraq mövcud olmur.

**Suprefekt** *(fr. sous-prefet)* – Fransada və bir sıra başqa ölkələrdə hökumətin nümayəndəsi, müəyyən bir dairədə administrasiyanın başçısı.

**Sutener** *(fr. souteneur)* – cinayətkar peşə kimi fahişəliyin təşkilatçısı; o, bu məqsədlə başqalarını da fahişəliklə məşğul olmağa cəlb edir, sonradan fahişələrə hamilik edərək onların fəaliyyətinə nəzarət, onları mühafizə edir, münaqişələri araşdırır, " iş zonaları"nı bölür, fahişələri nəqliyyatla, mənzillə, rabitə ilə və i.a. təmin edir. Bir çox ölkələrdə sutenerlik cinayət cəhətdən cəzalanmalı hərəkət hesab edilir.

AR CM-in 243-cü maddəsində fahişəliyə cəlb etməyə və 244-cü maddəsində əxlaqsızlıq yuvaları saxlamaya görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

**Sutenerlik** – fahişəliklə məşğul olan şəxslərdən seksual istismar məqsədləri üçün istifadə edilməsi; tamah məqsədilə törədilir. S.-i vasitəçilikdən fərqləndirmək lazımdır.

**"Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında əhalinin, müəssisə, idarə və təşkilatların dövlət standartlarının tələblərinə cavab verən keyfiyyətli və lazımi miqdarda su ilə təmin edilməsi, tullantı sularının axıdılması sahəsində münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 28 oktyabr 1999-cu il tarixdə qəbul edilmişdir. O, yeddi fəsil və 72 maddədən ibarətdir.





**Su təsərrüfatı obyekti** – su ehtiyatlarının istifadəsi, bərpası və mühafizəsi ilə əlaqədar yaradılmış sistemlər və qurğular.

**Suveren** *(fr. souverain)* – **1)** ali hakimiyyətin daşıyıcısı; **2)** ali hakimiyyəti həyata keçirən; **3)** suverenliyə malik olan (suveren).

**Suveren hüquqlar** – suveren (müstəqil) dövlətlərin malik olduqları hüquqlar (məsələn, özünün daxili siyasi və sosial – iqtisadi quruluşunu müstəqil surətdə müəyyən etmək hüququ; beynəlxalq müqavilələr, sazişlər bağlamaq, ərazi sığınacağı vermək hüququ).

**Suverenlik** *(alm. souveranitat – ali hakimiyyət)* – dövlətin öz daxili və xarici siyasətində müstəqilliyi, hüquqi mənada "s." termini ilk dəfə XVI yüzillikdə fransız mütəfəkkiri Jan Boden tərəfindən işlədilmişdir. S. bilavasitə dövlətin hüquqları (o cümlədən suveren hüquqlar) sistemində təzahür edir. Dövlətin tam ixtiyarlı olması həqiqi dövlət hakimiyyətinin həyata keçirilməsini və beləliklə, dövlətin suverenliyini təmin edir. Dövlətlərarası əlaqələr suveren dövlətlər arasındakı ünsiyyətdir.

**Suyu (su mənbələrini) çirkləndirmə** – ekoloji cinayətlərin bir növü. AR CM-in 250-ci maddəsində nəzərdə tutulmuşdur. Yerüstü, yeraltı suların, istifdə olunan su mənbələrinin çirkləndirilməsi, tükənməsi və ya onların təbii xassələrinin başqa cür dəyişdirilməsi, heyvanlar və ya bitki aləminə, balıq ehtiyatlarına, meşə və ya kənd təsərrüfatına zərər vurulmasında ifadə olunur.

**Sübutetmə** – müəyyən edilməsi cinayət işinin düzgün həll edilməsi üçün zəruri olan hallar barəsində faktiki məlumatların toplanması, yoxlanması və qiymətləndirilməsi üzrə cinayət mühakimə icraatının digər subyektlərinin iştirakı ilə təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının cinayət-prosessual qanunla reqlamentləşdirilmiş fəaliyyəti. Cinayət-prosessual qanunvericiliyə görə sübutetmə ittihamın qanuni, əsaslı və ədalətli həlli üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədilə sübutların əldə edilməsindən, yoxlanılmasından və qiymətləndirilməsindən ibarətdir.

AR CPM-in 139-cu maddəsinə uyğun olaraq cinayət təqibi üzrə icraat zamanı aşağıdakılar yalnız sübutlara əsasən müəyyən edilir: 1) cinayət hadisəsinin baş vermə faktı və halları; 2) şübhəli və ya təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqəsi; 3) cinayət qanunu ilə nəzərdə tutulmuş əməldə cinayətin əlamətləri; 4) cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində şəxsin təqsirliliyi; 5) cinayət qanunu ilə nəzərdə tutulmuş cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar; 6) CPM ilə başqa hal nəzərdə tutulmamışsa, cinayət prosesi iştirakçısının və ya cinayət prosesində iştirak edən digər şəxsin öz tələbini əsaslandırdığı hallar.

**Sübutetmə vəzifəsi** – cinayət işləri və mülki işlər üzrə icraat zamanı işin həlli üçün əhəmiyyəti olan halların mövcudluğunun əsaslandırılması vəzifəsinin proses iştirakçıları arasında bölüşdürülməsi qaydası. Cinayət prosesində sübutetmə vəzifəsi iş üzrə icraatı aparan orqanın (təhqiqat orqanı, müstəntiq, prokuror, məhkəmə) sübutları toplama, yoxlama və qiymətləndirmə yolu ilə işin düzgün həlli üçün zəruri olan bütün hallarını tam, hərtərəfli, obyektiv surətdə müəyyən etmək vəzifəsidir. Mülki prosesdə sübutetmə vəzifəsi tərəflərin öz tələblərini və etirazlarını əsaslandıran halları sübut etmələridir. Hər bir

konkret işdə sübut edilməli olan faktların həcmi müvafiq hüquq münasibətlərini tənzim edən normalarla müəyyən edilir.

**Sübutetmə yükü** – mülki qanunvericiliyə görə malın, işin və ya xidmətin qüsurları nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi üsullarından biri. AR MM-in 1132-ci maddəsinə uyğun olaraq malın, işin və ya xidmətin qüsurları nəticəsində vurulmuş zərər üçün məsuliyyət halında sübutetmə yükü zərər çəkənin öhdəsinə qoyulur.

**Sübut hüququ** – cinayət-prosessual hüququn iş üzrə nəyin sübuta xidmət etdiyini, sübut edilməli olan halların dairəsini, sübutetmə vəzifəsinin kimin üzərinə düşdüyünü, həmçinin sübutların toplanması, yoxlanması və qiymətləndirilməsi qaydasını müəyyən edən normaları.

**Sübutlar** – məhkəmə sübutları, yəni cinayət prosesində və mülki prosesdə obyektiv həqiqətin aşkara çıxarılması vasitəsi, faktiki məlumatlar. S.-ın cinayət işinin, yaxud mülki işin düzgün həlli üçün mühüm əhəmiyyəti vardır. Onlar qanunla müəyyən edlimiş qaydada əldə olunur və işin materiallarında əks etdirilir. Cinayət prosesində s. əsasında aşağıdakılar müəyyən edilir: a) cinayət hadisəsinin olub-olmaması; b) şəxsin cinayəti törətməkdə təqsiri; c) cinayətin motivləri; ç) təqsirləndirilən şəxslərin məsuliyyət dərəcəsi; d) zərərin xarakteri və məbləği; e) cinayətin törədilməsinə kömək etmiş səbəb və şərait. Mülki prosesdə sübutların köməyi ilə tərəflərin və işdə iştirak edən digər şəxslərin iddialarını, tələblərini, habelə etirazlarını şərtləndirən halları, eləcə də tərəflərin həqiqi hüquq və vəzifələrinin aydınlaşdırılması üçün zəruri olan bütün halların olub-olmaması aşkar edilir. Sübuti əhəmiyyəti olan hallara şahidlərin, zərər çəkmiş şəxslərin, şübhə edilən şəxslərin, təqsirləndirilən şəxsin ifadələri, maddi sübutlara isə ekspertlərin rəyləri, istintaq hərəkətlərinin protokolları və i.a. aid edilir. Cinayət işi üzrə sübutları iş üzrə icraat aparan orqanlar toplayır. Mülki işlər üzrə isə onların tərəfləri və işdə iştirak edən şəxslər təqdim edirlər.

**Sübutların qiymətləndirilməsi** – məhkəmə tərəfindən sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxıldıqdan sonra həmin sübutlara tətbiq edilməli olan hüquq normalarına müvafiq surətdə qiymət verilməsi. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

**Sübutların tədqiqi** – sübutların aidiyyətini, mümkünlüyünü, etibarlılığını və kifayət qədər olduğunu aydınlaşdırmaq məqsədi ilə onların məhkəmə tərəfindən işdə iştirak edən şəxslərlə (onların nümayəndələri ilə) birlikdə hərtərəfli öyrənilməsi və təhlil edilməsi. Bu məqsədə nail olmaq üçün sübutlar müxtəlif üsullarla tədqiq edilir. Belə ki, işdə iştirak edən şəxslərin izahatları nəzərdən keçirilir, onlar dinlənilir, şahidlər dindirilir, yazılı sübutlar (onların məzmunu və forması nöqteyi-nəzərindən) öyrənilir, maddi sübutlar müayinə edilir və i.a.

**Sübutları saxtalaşdırma** – ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 294-cü maddəsində nəzərdə tutulmuşdur. Mülki iş üzrə işdə iştirak edən şəxs və ya onun nümayəndəsi, cinayət işi üzrə təhqiqatçı, müstəntiq, prokuror və ya müdafiəçi tərəfindən sübutların saxtalaşdırılmasında ifadə olunur.

**Sübutlar nəzəriyyəsi** – cinayət prosesi elminin tərkib hissəsi; təhqiqatda, ibtidai





istintaqda və məhkəmədə sübutetmə prosesinin öyrənilməsinə həsr olunmuş nəzəriyyədir. S.n. sübutetmənin real mövcud olan normativ qaydasını və onun praktiki realizəsini təsvir edir. O, kifayət qədər yüksək səviyyədə sübutetmə prosesinin əsas anlayışlarını və prinsiplərini formalaşdırır. Bu nəzəriyyə sübutetmə prosesinin tənziminin müxtəlif qaydalarının daxili qarşılıqlı əlaqələrini aşkar edir.

**"Sükutlu" aksept** – ödənişin həyata keçirilməsi üçün imtinanın olmaması (müəyyən zaman ərzində); bu zaman ödəmə tələbi akseptli hesab olunur.

**Sükutlu razılıq** *(beynəlxalq hüquqda)* – beynəlxalq hüquq subyektinin açıq ifadə edilməyən iradə ifadəsi forması. Bərabər s.r. (konsensus, müqavilənin prolonqasiyası və i.a.) hallarında beynəlxalq hüquq normaları ilə müəyyən edilən etirazların olmaması s.r. əlamətidir. S.r. beynəlxalq hüquqyaratmada böyük əhəmiyyət kəsb edir. Bundan başqa, s.r. beynəlxalq hüququn adət normalarının yaranmasında da təzahür edir. S.r.-a adətən müqavilə normalarının əmələ gəlməsində təsadüf olunur.

**Sülalə** *(ərəb.)* – monarxiya idarəçilik formasına malik olan dövlətlərdə eyni bir nəsildən (ailədən) olmaqla taxt-tacda bir-birini əvəz edən (etmiş) bir neçə monarx (məsələn, Azərbaycanda Eldənizlər, Şirvanşahlar, Səfəvilər; Rusiyada Romanovlar; Avstriya-Macarıstanda Habsburqlar; Fransada Valua və Burbonlar sülaləsi və i.a.).

**Sülh** *(beynəlxalq sülh)* – xarici siyasətin qeyri-zorakı yollarla yeridilməsinə və üzərinə götürülmüş (adətən müqavilə ilə möhkəmləndirilmiş) öhdəliklərə riayət olunmasına əsaslanan xalqlar və dövlətlər arasındakı münasibətlər; dövlətlər arasında mütəşəkkil silahlı mübarizənin olmaması. Xalqlar arasında daimi sülh bütün tərəqqipərvər bəşəriyyətin əzəli arzusu və istəyidir.

**Sülh müqaviləsi** – müharibə vəziyyətini dayandıran beynəlxalq müqavilə növü.

**Sülh və bəşəriyyət əleyhinə cinayətlər** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə sülh sahəsində törədilən cinayətlər kateqoriyasına aid edilən ictimai təhlükəli əməllər. S.və b.ə.c. AR CM-in yeddinci bölməsində (on altıncı fəsil) nəzərdə tutulmuşdur. Təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma (CM-in 100-cü maddəsi), təcavüzkar müharibəni başlamağa açıq çağırışlar (CM-in 101-ci maddəsi), beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə (CM-in 102-ci maddəsi), soyqırım (CM-in 103-cü maddəsi), soyqırımın törədilməsinə təhrik etmə (CM-in 104-cü maddəsi), əhalini məhv etmə (CM-in 105-ci maddəsi), köləlik (CM-in 106-cı maddəsi), əhalini deportasiya etmə və ya məcburi köçürmə (CM-in 107-ci maddəsi), cinsi zorakılıq (CM-in 108-ci maddəsi), təqib (CM-in 109-cu maddəsi), insanları zorakılıqla yoxa çıxarma (CM-in 110-cu maddəsi), irqi ayrı-seçkilik (apartheid) (CM-in 111-ci maddəsi), beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə (CM-in 112-ci maddəsi), işgəncə (CM-in 113-cü maddəsi) s.və b.ə.c.-ə daxildir.

**Süngü** – tüfəng, karabin, avtomat və i.a. lüləsinin ağız hissəsinə bərkidilən soyuq silah. XVII yüzillikdə Fransada meydana gəlmişdir. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində bıçaq formalı (avtomata, snayper tüfənginə bərkidilən) və tiyəli (karabinə bərkidilən) s.-lər vardır.

**Sünnə** *(ərəb. adət, ənənə, qanun)* – Məhəmməd peyğəmbər və onun kəlamları haqqındakı hədisləri təşkil edən "müqəddəs rəvayətlər" məcmusu, sünnilik məzhəbinə etiqad edən müsəlmanların müqəddəs kitabları. S. VII-IX yüzilliklərdə Məhəmməd peyğəmbərin tərəfdarları tərəfindən yaradılmışdır. S. müsəlman hüququnun əsas mənbələrindən biridir.

**Süzeren** *(fr. suzerain)* – Qərbi Avropada feodalizm dövründə vassalların başçısı, hökmdarı olan böyük feodal (kral, knyaz, qraf və i.a.). Adətən kral ali süzeren hesab olunurdu.

**Süzerenlik** *(alm. suzeranitat)* – **1)** süzerenin öz vassalları olan feodallar üzərindəki hüquqlarının məcmusu; **2)** bir dövlətin digər dövlət (vassal dövlət) üzərində ali hüququ.

**Svinq** *(ing. swing – tərəddüd)* – klirinq hesablaşmaları zamanı qarşılıqlı kreditləşdirmənin həddi. Klirinq sazişlərində kreditorun (s.-in həddi qaldırıldığı halda) borcluya tələbləri nəzərdə tutulur.

**Svitç** – **1)** qiymətli kağızların və ya valyutaların bir qismi ilə öhdəliklərin ləğv edilməsi və əqdin digər qiymətli kağızlarla və ya valyutalarla bağlanması; **2)** klirinq hesabında və ya digər ikitərəfli hesabda qalıqların rəsmi məzənnəyə qarşı məzənnə ilə üçüncü şəxs tərəfə güzəşt edilməsi; **3)** bağlanmış hesabın istifadəsi üzrə aparılan əməliyyat.

**Svop** – birja termini; belə termin dedikdə aşağıdakılar başa düşülür: 1) növbəti satış təminatı ilə müvəqqəti satın alma; 2) qiymətli kağızlarla eynivaxtlı mübadilə əməliyyatı; 3) müəyyən müddətdən sonra geriyə mübadilə öhdəliyi ilə milli valyutanın xarici valyuta ilə mübadilə edilməsi əməliyyatı; 4) müəyyən edilmiş müddətdə eyni zamanda satın alma ilə nağd valyutanın satışı (spot).





# -Ş-


Şafii hüquq məktəbi ... 958
Şah ... 958
Şahid ... 958
Şahid ifadəsi ... 958
Şahzadə ... 958
Şaxtı mühakiməsi ... 958
Şampar ... 958
Şantaj ... 958
Şef ... 958
Şeffenlər ... 959
Şeffenlər məhkəməsi ... 959
Şerif ... 959
Şerman qanunu ... 959
Şeyx ... 959
Şeyxülislam ... 959
Şevaj ... 959
Şevalye ... 960
Şəhadətnamə ... 960
Şəhər kommunaları (şəhər icmaları) ... 960
Şəhərsalma ... 960
"Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının qanunu ... 960
Şəhnə ... 960
Şəxs ... 961
Şəxsi axtarış və götürmə ... 961
Şəxsi amnistiya ... 961
Şəxsi həyatın toxunulmazlığını pozma
Şəxsi hüquqlar ... 961
Şəxsi qeyri-əmlak hüquqları ... 961
Şəxsi müayinə ... 961
Şəxsi mülkiyyət ... 962
Şəxsin tanınması ... 962
Şəxsi servitutlar ... 962
Şəxsi sığorta ... 962
Şəxsi toxunulmazlıq hüququ ... 962
Şəxsi uniya ... 962
Şəxsi vergilər ... 962
Şəxsiyyət ... 963
Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər ... 963
Şəxsiyyətin hüquqi statusu ... 963
Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər ... 963
Şərab inhisarı ... 963
Şərait ekspertizası ... 963
Şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə ... 964
Şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi ... 964
Şəriət ... 964
Şəriət məhkəməsi ... 964
Şərikli müəlliflik ... 964
Şərti aidiyyət ... 965
Şərti buraxılış ... 965
Şərti əqdlər ... 965
Şərti maliyyə vahidi ... 965
"Şərti maliyyə vahidi haqqında" Azərbaycan Respublikasının qanunu ... 965
Şərti məhkum etmə ... 965
Şifahi əqd ... 966
Şifahi şəkil ... 966
Şikana ... 966
Şikayət ... 966
Şikəstlik ... 966
Şiltaqat ... 966
Şizo ... 966
Şizofreniya ... 966
Şlyaxta ... 967
Ştamp ... 967
Ştat ... 967
Ştat cədvəli ... 967
Ştatdankənar işçilər ... 967
Ştathalter ... 967
Ştatlar ... 967
Şturman iltizamı ... 967
Şudrlar ... 967
Şura ... 968
Şübhəli şəxs ... 968
"Şvab güzgüsü" ... 968

**Şafii hüquq məktəbi** – islamın dörd əsas hüquq (fiqh) məktəblərindən biri. Bu məktəbin banisi əş-Şafii hesab olunur. Ş.h.m. orta əsrlərdə Azərbaycanda, Xorasanda, İraqda, Misirdə və Suriyada geniş yayılmış, uzun müddət hənəfi hüquq məktəbi ilə münaqişə vəziyyətində olmuşdur. Azərbaycanın orta əsr hüquqşünaslarının (ilahiyyatçı-faqihlərin) formalaşmasında ş.h.m.-nin mühüm rolu olmuşdur.

**Şah** *(fars.)* – Yaxın və Orta Şərqin bəzi ölkələrində və Dehli sultanlığında monarxın titulu. Ş. titulu ilk dəfə Sasanilər dövlətində işlənməyə başlamışdır. İranda şahlıq rejimi devrilənədək ş. şahənşah adı ilə mövcud idi. Padşah (şahlar şahı, hökmdarı – farsca) titulu şahənşah (Yaxın və Orta Şərqdə), imperator (əsasən Qərbdə) titullarına uyğundur.

**Şahid** – cinayət işinin, yaxud mülki işin düzgün həlli əhəmiyyət kəsb edən hər hansı halı müşahidə edən, yaxud bu hallar barəsində məlumatı olan və bu barədə qanunla müəyyən edilmiş qaydada təhqiqat, istintaq və məhkəmə orqanlarına məlumat verən şəxs. Ş. cinayət işi üçün əhəmiyyəti olan bütün hallar barəsində, o cümlədən təqsirləndirilən şəxsin, zərər çəkmiş şəxsin şəxsiyyəti və bu şəxslərlə özünün əlaqələri haqqında ifadələr verə bilər. Ş.-in ifadələri *(bax: şahid ifadəsi)* başqa şəxslərin məlumatlarına əsaslandıqda həmin şəxslər də dindirilir.

**Şahid ifadəsi** – cinayət işi, yaxud mülki iş üçün əhəmiyyəti olan məlumatlar haqqında təhqiqat, istintaq və məhkəmə orqanlarına verdiyi məlumat. Ş.i.-nin predmetini təkcə cinayət hadisəsi barəsində olan məlumatlar deyil, həm də cinayətdən əvvəl və ya onun törədilməsi zamanı baş verən hallar da təşkil edir. Bununla yanaşı, mənbəyi məlum olmayan məlumatlara əsaslanan ş.i.-ləri sübutlar kimi qəbul edilə bilməz. Ş.i.-ləri ziddiyyətli olduqda, müstəntiq bunun səbəblərini aydınlaşdırmağa borcludur. Bu zaman Ş.i.-nin dəyişməsinin motivini, ona təqsirləndirilən, zərər çəkən şəxs, yaxud digər şəxslər tərəfindən təzyiq göstərilə bilməsi aydınlaşdırılmalıdır. Ş.i.-lərinin doğru və düzgünlüyü, bir qayda olaraq, işdə olan digər faktlarla müqayisə etmək yolu ilə və ya zərurət yarandıqda istintaq eksperimenti aparılması vasitəsilə yoxlanılır.

**Şahzadə** – şah oğlu, şah nəslindən olan şəxs. Keçmişdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda hökmdarların oğlan uşaqlarına ş. deyilirdi.

**Şaxtı mühakiməsi** – Donbasın (Rusiya) daş kömür sənayesində əksinqilabi təxribatçılıq fəaliyyəti ilə məşğul olan antisovet əhval-ruhiyyəli mütəxəssislərin işi üzrə keçirilmiş məhkəmə prosesi. Mühakimə 1928-ci il 18 may - 6 iyul tarixdə Moskvada keçirilmişdir.

**Şampar** *(fr. champart)* – feodal Fransasında mövcud olmuş senyorun xeyrinə məhsul növündə ödənilən vergi. Böyük Fransa inqilabı nəticəsində ləğv edilmişdir.

**Şantaj** *(fr. chantage)* – ifşaedici və rüsvayedici məlumatlar yayma hədəsi ilə nəyisə tələb etməkdən ibarət olan və bu məqsədlə şantaj edilən şəxsi hansısa hərəkətləri etməyə nail olmaqdan ibarət olan əməl. Azərbaycan Respublikasının cinayət hüququnda ş. cinayətin törədilməsi vasitələrindən biri kimi müəyyən edilsə də, müstəqil cinayət tərkibi kimi nəzərdə tutulmur.

**Şef** *(fr. chef)* – **1)** müəssisə, təşkilat rəhbəri, idarə rəisi; **2)** kimin və ya nəyinsə üzərində hamiliyi üzərinə götürən fiziki, yaxud hüquqi şəxs.





**Şeffenler** *(bax: şeffenler məhkəməsi).*

**Şeffenler məhkəməsi** – Avropanın bir sıra ölkələrində andlılar məhkəməsindən fərqli olaraq, xalq nümayəndələrinin iştirakı ilə fəaliyyət göstərən peşəkar hakimlərdən ibarət vahid məhkəmə kollegiyası. Ş.m.-nin müasir rolu və təşkili qaydası müəyyən dəyişikliklərə uğramışdır. VIII-XVI yüzilliklərdə feodal Avropasında (Almaniyada, İtaliyada və başqa ölkələrdə) o, "qayda yaradanlar" (şeffenlər, skabinlər, rahimburqlar) məhkəməsi kimi adətlərə uyğun yaradılır və hakim-məmurlarla yanaşı inkvizisiya prosesi formasında məhkəmə baxışını həyata keçirirdilər. XIX yüzilliyin ortalarından başlayaraq ş.m. Almaniyada tac hakimindən və iki iclasçıdan (şeffendən) ibarət tərkibdə fəaliyyət göstərirdi. Bu məhkəmələr az əhəmiyyətli cinayətlərə dair işlərə baxırdılar. Mürəkkəb epizodlu cinayət işləri andlılar məhkəməsinin səlahiyyətinə aid idi. Lakin o, 1924-cü ildə 3 hakim-məmur və 6 şeffendən ibarət tərkibdə böyük ş.m. ilə əvəz edildi. Faşist İtaliyasında da ş.m.-ini 1931-ci ildə andlılar məhkəməsi əvəz etdi (burada ş.m. hakimdən və 5 şeffendən ibarət idi). Şeffenlər mötəbər məmurlar içərisindən seçilir, ədliyyə naziri tərəfindən təsdiq edilir və kralın fərmanı ilə təyin edilirdilər. 1950-ci ildən AFR-də ş.m. əhəmiyyətli cinayətlərə dair işlərə baxır. Məhkəmənin tərkibinə sahə hakimi (sədr), müvafiq məhkəmə sahəsinin ərazisində yaşayan vətəndaşlar içərisindən seçilən iki iclasçı (şeffen) daxildir.

**Şerif** *(ing. sheriff)* – ABŞ-da, Böyük Britaniyada, İrlandiyada və bəzi ölkələrdə müəyyən inzibati funksiyanı və məhkəmə funksiyasını icra edən vəzifə sahibi.

**Şerman qanunu** – ABŞ-da 1890-cı ildə qəbul edilmiş "antitrest qanunu". Qanun layihəsinin müəllifi C.Şerman olmuşdur (senator). Ş.q. fəhlə və fermerlərin inhisarlara qarşı hərəkatının təzyiqi altında qəbul edilmişdir. Trest formasında, yaxud başqa formada olan bütün birlikləri, həmçinin ticarətin məhdudlaşdırılmasına yönəldilən hər cür sazişi qeyri-qanuni elan edən bu qanun nə köhnə trestlərin fəaliyyətinə, nə də yeni trestlərin yaranmasına mane olmurdu. Əksinə o, fəhlə ittifaqlarına qarşı yönəldilmişdi. Bunu 1890-cı ildən 1897-ci ilin martınadək olan dövrdə yalnız Ali Məhkəmənin fəhlə ittifaqlarına qarşı çıxardığı 12 qərar da sübut edir.

**Şeyx** *(ərəb. qoca, ağsaqqal)* – ərəblərdə qəbilə, tayfa və ya tayfa ittifaqı başçısı. Ərəbistan yarımadasının cənubunda və İran körfəzi rayonunda yerləşən kiçik ərəb əmirliklərinin başçıları, Səudiyyə Ərəbistanında yuxarı palata üzvləri, bəzi müsəlman xalqlarında (məsələn, müsəlman kürdlərində) kəndxudalara da ş. deyilir.

**Şeyxülislam** – müsəlman ölkələrində XI yüzillikdən mövcud olan şəriət üzrə görkəmli ilahiyyatçı-hüquqşünasların (faqihlərin), ilahiyyatçı-alimlərin (üləmaların), sonralar isə ali ruhani xadimlərinin fəxri titulu. Türkiyədə (XVI yüzilliyin ortalarından 1924-cü ilədək) sultan tərəfindən təyin edilən və fiva vermək hüququna malik olan, yüksək dini vəzifə daşıyan baş ruhani (baş müfti), Səfəvilər dövlətində şahın təyin etdiyi baş qazı da ş. titulunu daşıyırdı.

**Şevaj** *(fr. chef - başçı)* – orta əsrlər Fransasında böyük olmayan can vergisi. Ş.

servlər tərəfindən ödənilir və onların feodaldan şəxsi asılılığını rəmzləşdirirdi. Ş. öz əhəmiyyətini hələ XVI yüzillikdə servlərin tənəzzülə uğraması ilə itirmişdi. Lakin o, feodalizmin nadir qalığı qismində ölkənin ucqar ərazilərində 1789-1793-cü illər Böyük Fransa inqilabınadək saxlanmışdır.

**Şevalye** *(fr. chevalier – cəngavər)* – feodal Fransasında zadəgan titulu.

**Şəhadətnamə** – hüquqi əhəmiyyəti olan hər hansı faktı (məsələn, doğumu, nikahı, ölümü və i.a.), yaxud şəxsin hüququnu (məsələn, müəllifliyi) təsdiq edən rəsmi sənəd. Ş.-nin forması və rekvizitləri (tərtibi şərtləri) müvafiq hüquqi aktlarla müəyyən edilir və onlara əməl edilməməsi sənədin etibarsız hesab olunmasına səbəb ola bilər. Ş.-nin məzmununa dair mübahisələr (iddialar) yalnız məhkəmə qaydasında həll edilə bilər. Bəzi hallarda ş.-nin xüsusi adı olur. Məsələn, təhsil haqqında diplom, professor elmi rütbəsinin verilməsi haqqında attestat və i.a.

**Şəhər kommunaları (şəhər icmaları)** – orta əsrlərdə Qərbi Avropada özünüidarə orqanlarına malik olan şəhərlər. Ş.k. şəhərlilərin feodallarla (XI yüzillikdən başlayaraq şəhər senyorları ilə) mübarizəsi nəticəsində formalaşmışdır. Feodal monarxiyalarında dövlətin mərkəzləşməsinin möhkəmlənməsi nəticəsində ş.k. kral hakimiyyətinin tabeliyinə keçmiş, əslində isə ləğv olunmuşlar.

**Şəhərsalma** – istehsal qüvvələrinin səmərəli yerləşdirilməsi şərti ilə məskunlaşma sisteminin ərazi-məkan təşkilində milli, tarixi-mədəni irsin xüsusiyyətləri, ekoloji, hidroekoloji, seysmik tələblər nəzərə alınmaqla şəhərsalma planlaşdırılmasında, layihələndirilməsində, tikintisində və yenidən qurulmasında müvafiq icra hakimiyyəti orqanlarının, hüquqi və fiziki şəxslərin fəaliyyəti

**"Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında əhalinin həyat və fəaliyyətinin əlverişli şəraitlə təmin olunması məqsədi ilə, məskunlaşdırma sistemlərinin səmərəli formalaşdırılması, ərazilərin, şəhərlərin və digər yaşayış məskənlərinin planlaşdırılması, tikintisi və abadlaşdırılması, onların istehsal, sosial, mühəndis nəqliyyat infrastrukturunun inkişafı, təbiətdən səmərəli istifadə edilməsi, tarixi-mədəni irsin və ətraf mühitin mühafizəsi sahəsində şəhərsalma fəaliyyətinin hüquqi bazasını formalaşdıran, şəhərsalma münasibətlərini tənzimləyən, dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin fəaliyyətində səlahiyyətlərini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 1999-cu il 11 iyun tarixdə qəbul edilmişdir. O, beş fəsil və 27 maddədən ibarətdir. İndiyə qədər qanuna bir sıra əlavə və dəyişikliklər edilmişdir.

**Şəhnə** *(şihnə; ərəb. dəstə, polis)* – orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində və o cümlədən Azərbaycanda inzibati vəzifə. Əsasən "hərbi canişin", "şəhər rəisi", "komendant", "polis rəisi", "vilayət", yaxud mahal hakimi" və i.a. mənalarında işlədilmişdir. Ş.-lər təyin olunduqları ərazilərdə təhlükəsizliyi, asayişi qorumalı, həmçinin vergilərin toplanmasına, bazarlarda qayda-qanunlara əməl edilməsinə nəzarət edən şəxslərə kömək etməli idilər. Monqolların işğalı dövründə yüksək vəzifəli ş.-lərə üzəri naxışlanmış xüsusi lövhəciklər ("payza") verilirdi.





**Şəxs** *(bax: fiziki şəxs; hüquqi şəxs).*

**Şəxsi axtarış və götürmə** – istintaq hərəkətlərindən biri. AR CPM-in 246-cı maddəsinə uyğun olaraq müstəntiq iş üzrə sübuti əhəmiyyətə malik ola biləcək, barəsində istintaq hərəkəti aparılan şəxsin paltarında, əşyalarında və ya bədənində ola bilən əşya və sənədləri, bir qayda olaraq, məhkəmənin qərarı əsasında götürə bilər. Məhkəmənin qərarı alınmadan ş.a. aşağıdakı hallarda aparıla bilər: 1) şübhəli şəxs tutulduqda və polis və ya digər hüquq-mühafizə orqanına gətirildikdə; 2) təqsirləndirilən şəxs barəsində həbsə alma qətimkan tədbiri tətbiq edildikdə; 3) axtarış və ya götürmənin aparıldığı binada olan şəxsin cinayət təqibi üzrə sübuti əhəmiyyətə malik ola biləcək əşya və sənədləri gizlətməsini güman etməyə kifayət qədər əsaslar olduqda. Ş.a. və götürmə müstəntiq tərəfindən mütəxəssisin və barəsində ş.a. aparılan şəxslə eyni cinsdən olan azı 2 hal şahidinin iştirakı ilə aparılır.

**Şəxsi amnistiya** *(bax: əfv).*

**Şəxsi həyatın toxunulmazlığını pozma** – insan və vətəndaşların konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 156-cı maddəsində nəzərdə tutulmuşdur. Şəxsi həyatın və ailə həyatının sirri olan məlumatların qanunsuz toplanmasında ifadə olunur.

**Şəxsi hüquqlar** – insanın ona doğulduğu andan məxsus olan və onun konkret dövlətlə əlaqəsindən asılı olmayaraq təbii və özgəninkiləşdirilməyən əsas hüquq və azadlıqlarının məcmusu. Ş.h. və azadlıqlar insanın hüquqi statusunun əsasını təşkil edirlər. Belə hüquq və azadlıqlara yaşamaq, azadlıq, fiziki sağlamlıq və şəxsi toxunulmazlıq, insan ləyaqətini alçaldan işgəncələrə, yaxud qəddarlığa və ya qanunsuz cəzaya məruz qalmamaq, şərəf və təmiz adın müdafiəsi, azad yerdəyişmə, sərbəst yaşayış yeri seçmək, öz ölkəsini tərk etmək və öz ölkəsinə azad qayıtmaq, məhkəmə və ədalət mühakiməsi, dünyanın istənilən ölkəsində öz hüquq subyektliliyinin tanınması, fikir, vicdan və din azadlığı, söz və digər ifadə azadlığı, özünün milli mənsubiyyətini azad müəyyən etmək və ana dilindən istifadə etmək hüququ və digər hüquqlar aiddir. Şəxsi hüquq və azadlıqlar Azərbaycan Respublikası Konstitusiyasının 24-71-ci maddələrində də təsbit edilmişdir.

**Şəxsi qeyri-əmlak hüquqları** – subyektiv hüquqların bir növü. Qeyri-əmlak əhəmiyyətli və insan şəxsiyyətindən ayrılmaz olan hüquqlar (ad, müəlliflik, şərəf və ləyaqət) ş.q.-ə.h. sayılırlar. Bu hüquqlar, bir qayda olaraq, mütləq hüquqlar kateqoriyasına aid edilirlər. Hüquqda aşağıdakı ş.q.-ə.h. fərqləndirilir: a) müəyyən dərəcədə əmlak hüquqları ilə bağlı olan ş.q.-ə.h.; b) əmlak hüquqları ilə bağlı olmayan ş.q.-ə.h. Birinci qrupa vətəndaşların konstitusiyada təsbit edilən və təminatlandırılan əsas hüquqları, ikinci qrupa isə ad hüququ, şərəf və ləyaqət hüququ daxildir.

**Şəxsi müayinə** – istintaq hərəkətlərindən biri. AR CPM-in 238-ci maddəsinə uyğun olaraq məhkəmə-tibb ekspertizasının keçirilməsi tələb edilmədiyi halda şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və ya şahidin bədənində cinayətin izlərini və ya xüsusi əlamətləri aşkar etmək məqsədilə müstəntiq onların şəxsi müayinəsini apara bilər. Ş.m. aparılması haqqında məhkəmənin və ya müstəntiqin

qərarı barəsində qərar çıxarılmış şəxs üçün məcburidir. Şəxsin tutulması və ya həbs edilməsi halları istisna olmaqla, insanın iradəsində zidd onun ş.m. yalnız məhkəmənin qərarı əsasında aparılır. Təqsirləndirilən və ya şübhəli şəxs üzərində ş.m.-nin aparılmasında onun müdafiəçisi iştirak etmək hüququna malikdir. Zəruri hallarda ş.m. həkimin və ya məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı ilə aparılır. Barəsində ş.m. aparılan şəxsin soyundurulması ilə müşayiət edilən ş.m. eyni cinsdən olan şəxslərin iştirakı ilə aparılır.

**Şəxsi mülkiyyət** – vətəndaşlara məxsus olan mülkiyyət forması. Vətəndaşın şəxsi mülkiyyətində daşınar və daşınmaz əmlak, əmək qənaətləri və i.a. ola bilər.

**Şəxsin tanınması** – şəxsin və əşyaların tanınması ilə əlaqədar istintaq hərəkəti. AR CPM-in 239-cu maddəsinə uyğun olaraq hər hansı şəxsin şahidə, zərər çəkmiş, şübhəli və təqsirləndirilən şəxsə tanınma üçün təqdim etmə zərurəti yarandıqda müstəntiq əvvəlcədən onları həmin şəxsin xarici görkəmi və əlamətləri barədə, habelə tanıyanın tanınanı gördüyü hallar barədə dindirir və bu barədə müvafiq protokol tərtib edilir. Müstəntiq təqsirləndirilən və ya şübhəli şəxsin tanınmasında həmçinin onun müdafiəçisinin iştirakını əvvəlcədən təmin etməlidir. Tanıyan şəxsin tələbi ilə ş.t. tanıyan şəxsin vizual müşahidəsi olmadan aparıla bilər. Zərurət olduqda tanınma xarici görkəminə və geyiminə görə kəskin fərqlənməyən müxtəlif şəxslərin fotoşəkilləri üzrə də aparıla bilər.

**Şəxsi servitutlar** – əmlaka (əşya servitutları kimi) deyil, konkret şəxsiyyətə yönələn servitutlar; özgə əşyadan ömürlük istifadə etmək hüququndan ibarətdir. O, cümlədən uzufrukt və özgə evində ömürlük yaşamaq hüququ ş.s.-a aid edilir.

**Şəxsi sığorta** – dövlət sığortasının bir növü. Ş.s. vətəndaşların müəyyən yaşa çatdıqda, nigaha daxil olduqda, ümumi əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə, sığortalanmış şəxs bədbəxt hadisə nəticəsində və sığorta qaydalarında göstərilmiş digər səbəblərdən öldükdə onların maddi təminatının formalarından birini təşkil edir. Ş.s. qanun üzrə (məcburi), yaxud könüllü (müqavilə ilə) əsaslarla həyata keçirilir. Məcburi ş.s. və könüllü ş.s. üzrə sığorta məbləği dövlət sosial sığortası, sosial təminat və vurulmuş zərərin ödənilməsi qaydasında məbləğin ödənilməsindən asılı olmayaraq ödənilir.

**Şəxsi toxunulmazlıq hüququ** – insan və vətəndaşın əsas konstitusiya hüquqlarından biri. Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsində göstərilir ki, hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi həyata müdaxilə etmək qadağandır. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanmasına, saxlanmasına, istifadəsinə və yayılmasına yol verilmir. Ş.t.h. insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə dair beynəlxalq müşahidələrdən irəli gəlir.

**Şəxsi uniya** – orta əsrlər və yeni dövr hüququnda bir şəxs tərəfindən başçılıq edilən dövlətlərin ittifaqı; monarxiya idarəçilik forması ilə bağlıdır. Ş.u. hüququna görə bir monarx eyni vaxtda iki və ya beynəlxalq hüququn müstəqil subyektləri olmaqda davam edən daha çox dövlətin eyni vaxtda başçısı ola bilər.

**Şəxsi vergilər** – birbaşa vergilərin növlərindən biri; fiziki və hüquqi şəxslərin gəlir





mənbələrindən tutulan və ya bəyannamə üzrə alınan gəlir və əmlak vergisindən ibarətdir. Real vergilərdən fərqli olaraq bu zaman ödəmə obyektləri fərdən nəzərə alınır. Əksər dünya dövlətlərində ş.v.-i gəlir vergiləri təşkil edir və o, əhalidən tutulur.

**Şəxsiyyət** – ictimai münasibətlərin fəal subyekti olan insan. Ş. anlayışı vətəndaş, əcnəbi vətəndaş, vətəndaşlığı olmayan şəxslər kateqoriyalarını da əhatə edir.

**Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə şəxsiyyət əleyhinə olan cinayətlər kateqoriyası. AR CM-in on doqquzuncu fəslində nəzərdə tutulmuşdur. Həmin cinayətlərə adam oğurluğu (CM-in 144-cü maddəsi), qanunsuz azadlıqdan məhrum etmə (CM-in 145-ci maddəsi), qanunsuz olaraq psixiatriya xəstəxanasına yerləşdirmə (CM-in 146-cı maddəsi), böhtan (CM-in 147-ci maddəsi) və təhqir (CM-in 148-ci maddəsi) daxildir.

**Şəxsiyyətin hüquqi statusu** – şəxsiyyətin dövlət tərəfindən tanınmış və qanunvericilikdə təsbit edilmiş hüquqları, azadlıqları və vəzifələri, həmçinin qanuni mənafeləri sistemi (onların məcmusu). Şəxsiyyətin statusunu müəyyən edən hüquq və azadlıqlar dövlət tərəfindən tanınmış və təminatlandırılan sosial imkanlardır. Vəzifələr isə dövlətin şəxsiyyətə (vətəndaşa), onun davranışına olan tələblərini ifadə edən sosial imkanlardır. Qanuni mənafelər şəxsiyyətin qanunla müəyyənləşdirilmiş hüquq və azadlıqlarının dövlət tərəfindən mühafizə edilməsindən və qanunla qorunmasından ibarət olan mənafelərdir. Hüquqi status və onun hüquqi təminatları şəxsiyyətin hüquqi vəziyyəti ilə, ilk növbədə şəxsin konkret dövlətə mənsubiyyəti – onun vətəndaşlığı ilə müəyyən edilir. Bu baxımdan həmin dövlətin vətəndaşlarının, əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin özünəməxsus hüquqi statusu müəyyən edilmişdir. Ş.h.s. bəzi beynəlxalq sənədlərdə də təsbit edilmişdir. "İnsan hüquqlarının ümumi bəyannaməsi"ndə göstərilir ki, "harada olmasından asılı olmayaraq hər bir insanın özünün hüquq subyektliliyinin tanınması hüququ var" (6-cı maddə). Bəyannamənin 15-ci maddəsinə görə: "1. Hər bir insanın vətəndaşlıq hüququ var. 2. Heç kəs əsassız olaraq vətəndaşlıqdan, yaxud vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz".

**Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə görə şəxsiyyət əleyhinə olan cinayətlər kateqoriyası. AR CM-in iyirminci fəslində nəzərdə tutulmuşdur. Həmin cinayətlərə zorlama (CM-in 149-cu maddəsi), seksual xarakterli zorakılıq hərəkətləri (CM-in 150-ci maddəsi), seksual xarakterli hərəkətlərə məcbur etmə (CM-in 151-ci maddəsi), on altı yaşı olmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə (CM-in 152-ci maddəsi) və əxlaqsız hərəkətlər (CM-in 153-cü maddəsi) daxildir.

**Şərab inhisarı** – dövlətin və ya ayrı-ayrı fiziki şəxslərin (adətən, sahibkarların) spirtli içkilərin istehsalı və satışı üzərində müstəsna hüququ.

**Şərait ekspertizası** – kriminalistikada müstəntiqin qərarına və ya məhkəmənin qərardadına əsasən hadisənin hallarını müəyyən etmək məqsədilə ekspertlər tərəfindən aparılan kompleks (hadisə yerinin tədqiqi) tədqiqat.

**Şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə** – cinayət qanunvericiliyinə görə cinayət məsuliyyətindən azad etmənin bir növü. AR CM-in 74-cü maddəsinə uyğun olaraq şəraitin dəyişməsi nəticəsində törədilmiş əməlin və ya bu əməli törətmiş şəxsin ictimai təhlükəli olmadığı müəyyən edildikdə, ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət və ya az ağır cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.

**Şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi** – mülki hüquq və vəzifələrin müdafiəsinin bir növü. AR MM-in 23.1-ci maddəsinə uyğun olaraq fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi həyatının sirrini və ya toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin. Faktiki məlumatlar natamam dərc edildikdə də, əgər bununla şəxsin şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunulursa, eyni qayda tətbiq edilir. Marağı olan şəxslərin tələbi ilə fiziki şəxsin şərəf və ləyaqətinin müdafiəsinə onun ölümündən sonra da yol verilir.

**Şəriət** *(ərəb. yönəltmək, qanun vermək)* – müsəlman qanunlarının hüquq və əxlaq, məişət, dini, həmçinin təsərrüfat həyatı normalarının, davranış qaydalarının sistemləşdirilmiş toplusu. Ş. dövlət, cinayət, ailə, vərəsəlik, maliyyə, mülki və məhkəmə hüquq normalarını nəzərdə tutur. Ş.-in işlənib hazırlanması XI-XII yüzilliklərdə Yaxın və Orta Şərqdə feodalizmin inkişafı dövründə başa çatmışdır. Ş.-in başlıca mənbəyini Quran və Sünnə təşkil edir. Lakin o, Qiyasa (analogiyaya), İcmaya (nüfuzlu faqihlərin – hüquqşünas-ilahiyyatçıların ümumi rəyi), Fitvaya (nüfuzlu din xadimlərinin rəyi) və başqa davranış qaydalarına da əsaslanır. Müsəlman aləmində ş.-in VIII-X yüzilliklərdə formalaşmış 4 sünni (hənəfi, maliki, hənbəli, şafii) və bir şiə (imami) məktəb geniş yayılmışdır. Quran və Sünnədə izahı olmayan həyat məsələlərinin həllində ş. müəyyənedici rol oynayır. Ş.-in əsas problemləri fiqhdə (hüquqda) həll edilir. Fiqh insanların hərəkətlərini qiymətləndirmək, onları yaxşı və pis hərəkətlər kimi təsnif etmək üçün əsasdır. Ş. fiqh ilə sıx bağlı olduğuna görə çox vaxt bu iki termin eyni mənada işlədilir.

**Şəriət məhkəməsi** – müsəlman dövlətlərində qazı tərəfindən başçılıq edilən ədalət mühakiməsi orqanı. Ş.m.-nin təşkili və səlahiyyətləri, həmçinin onun həyata keçirilməsinin prosessual qaydaları fiqhlə, hər şeydən əvvəl, fiqhin qazının statusuna, sübutlara, şahid ifadələrinə və məhkəmə işlərinin qeydlərinə toxunan institutları ilə tənzim edilir. 13 əsrdir ki, ş.m. müsəlman hüququnun tətbiq edildiyi əsas institutdur. XIX yüzilliyədək ş.m.-ləri islam ölkələrinin məhkəmə sistemində mərkəzi yer tutmuşdur. Hazırda bir sıra müsəlman ölkələrində (məsələn, Misirdə, Tunisdə, Liviyada) ş.m.-ləri və onların funksiyaları ləğv olunmuş, onların bütün səlahiyyətləri ümummülki məhkəmələrə keçmişdir. Lakin bir çox (xüsusilə də islam ölkələrində) dövlətlərdə ş.m. qorunub saxlanmış, yaxud müstəqil məhkəmə orqanı kimi indi də yaradılmışdır.

**Şərikli müəlliflik** – iki və ya daha çox şəxsin birgə yaradıcılıq məhsulu olan elm, incəsənət, ədəbiyyat əsərinə, ixtiraya və





i.a. birgə müəlliflik hüququ. Şərik müəlliflərdən hər birinin kollektiv əsərdəki müstəqil əhəmiyyətli bölməsi əsərin o hissəsidir ki, digər hissələr olmadan da ondan istifadə etmək mümkün olur. Şərik müəlliflər arasındakı münasibətlər onların qarşılıqlı razılığı ilə müəyyən edilir. Belə razılıq olmadıqda kollektiv əsərə müəlliflik hüququ şərik müəlliflərin hamısı tərəfindən birlikdə həyata keçirilir. Onların arasında müəlliflik haqqı (qonorar) Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bölüşdürülür.

**Şərti aidiyyət** – işə məhkəmədə (iqtisad məhkəməsində) yalnız qanunla nəzərdə tutulmuş şərtlərin meydana çıxdığı zaman baxılmasını müəyyən edən aidiyyət.

**Şərti buraxılış** – Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin müəyyən olunmuş məhdudiyyətlərə, tələblərə və ya şərtlərə riayət edilməsi haqqında şəxsin öhdəlikləri ilə müşayiət olunan buraxılış.

**Şərti əqdlər** – mülki hüquqa görə hüquqi nəticələri naməlum hallardan (hadisələrdən və ya üçüncü şəxsin hərəkətlərindən) asılı olan əqdlər. Göstərilən hal əqdin bağlandığı anda meydana çıxdıqda həmin əqd şərti hesab olunmur.

**Şərti maliyyə vahidi** – "Şərti maliyyə vahidi haqqında" Azərbaycan Respublikası qanununun 2-ci maddəsi ilə müəyyənləşdirilən, 1 manat 19 qəpiyə bərabər olan məbləğ.

**"Şərti maliyyə vahidi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında aylıq əmək haqqının minimum məbləği əsasında hesablanan əmək haqqlarının, dövlət rüsumlarının, cərimələrin, maliyyə sanksiyalarının və digər ödənişlərin hesablanması qaydalarını müəyyən edir.

Qanun 26 dekabr 2000-ci ildə qəbul edilmiş, indiyə qədər ona 2 əlavə və dəyişiklik olunmuşdur. Qanun 4 maddədən ibarətdir

**Şərti məhkum etmə** – cinayət qanunvericiliyinə görə törədilmiş cinayətin xarakteri, ictimai təhlükəlilik dərəcəsi, məhkumun şəxsiyyəti, habelə cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar nəzərə alınmaqla məhkəmə tərəfindən təyin edilən cəza növü. AR CM-in 70.1-ci maddəsinə uyğun olaraq islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama, azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edən məhkəmə, məhkumun cəza çəkmədən islah olunmasını mümkün sayırsa, həmin cəzanın şərti olaraq tətbiq edilməsi haqqında qərar çıxara bilər.

Belə cəza təyin edilərkən məhkəmə tərəfindən sınaq müddəti də müəyyən edilir. Məhkum bu müddət ərzində öz davranışı ilə islah olunmasını sübut etməlidir. Sınaq müddəti 6 aydan 5 ilədək müddətə müəyyən edilir. AR CM-in 71.1-ci maddəsinə uyğun olaraq sınaq müddətinin azı yarısı keçdikdən sonra şərti məhkum edilmiş şəxs öz davranışı ilə islah olunduğunu sübut edərsə, məhkəmə məhkumun üzərində nəzarəti həyata keçirən dövlət orqanının təqdimatı əsasında şərti məhkum etmənin ləğv edilməsi və məhkumluğun götürülməsi barədə qərar qəbul edə bilər.

Şərti məhkum edilmiş şəxs məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırdığına və ya

hind siyasi-hüquqi abidəsi olan "Manu Qanunları"nda öz əksini tapmışdır.

**Şura** *(ərəb. məsləhət)* – islamın sünni məzhəbinin hüquq institutları konsepsiyasına uyğun olaraq islam dövlətinin təşkili və fəaliyyətinin əsasında duran məşvərət prinsipi. Bu baxımdan ş.-nın mövcudluğunda başlıca rol din xadimlərinə məxsusdur. Bir sıra ərəb ölkələrində (Qətərdə, Birləşmiş Ərəb Əmirliklərində, Omanda) dövlət başçısı yanında məşvərətçi orqan fəaliyyət göstərir. Qətərdə Məşvərət Şurası əmir tərəfindən təyin edilir. Dövlət başçısı qanunları ancaq şura ilə məsləhətləşdikdən sonra qəbul edə bilər.

**Şübhəli şəxs** – cinayəti törətməkdə şübhə edildiyinə görə tutulan, yaxud ittiham elan edilənədək barəsində qətimkan tədbiri seçilən şəxs. AR CPM-in 90.1-ci maddəsinə uyğun olaraq ş.ş. qismində aşağıdakı fiziki şəxs tanınır: 1) ittiham elan olunması üçün barəsində tutulma haqqında qərar çıxarılmış şəxs; 2) cinayət törətməkdə şübhələndiyinə görə tutulmuş şəxs; 3) haqqında həbs, girov və ya ev dustaqlığı istisna olmaqla, qətimkan tədbiri seçilməsi barədə qərar çıxarılmış şəxs.

Cinayət prosesini həyata keçirən orqan aşağıdakı müddətlərdə şəxsi ş.ş. vəziyyətində saxlamağa haqlı deyildir: a) tutulmuş şəxsi – 48 saatdan artıq; b) həbs, girov və ya ev dustaqlığı istisna olmaqla, haqqında qətimkan tədbiri seçilmiş ş.ş.-i – qətimkan tədbiri seçilməsi barədə qərarın elan edildiyi andan 10 gündən artıq. AR CM-in 90.5-ci maddəsinə uyğun olaraq şəxs azad edildiyi, haqqında seçilmiş qətimkan tədbiri ləğv olunduğu və ya təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərar çıxarıldığı andan ş.ş. vəziyyətindən çıxmış hesab olunur.

Ş.ş. cinayət-prosessual qanunvericiliklə nəzərdə tutulmuş bütün hüquq və vəzifələrə malikdir. Yetkinlik yaşına çatmayan və fəaliyyət qabiliyyəti olmayan ş.ş.-in hüquqlarını onun əvəzinə AR CPM-də nəzərdə tutulmuş qaydada qanuni nümayəndəsi həyata keçirir.

**"Şvab güzgüsü"** – alman hüquq toplusu; 1273-cü və 1282-ci illər arasında naməlum şəxs tərəfindən tərtib edilmişdir. "Bavariya" və "Alleman" pravdaları, kapitulyarilər, Roma hüququ və kanonik hüquq, Bibliya, frantsisklərin moizələri (az dərəcədə) və adət hüququ bu toplunun mənbəyi olmuşdur. "Şvab güzgüsü"nü imperator hüququ da adlandırırlar. Topluda alman imperatoru ilə Roma papası arasında olmuş qarşılıqlı münasibətlərə xeyli yer verilmişdir.





# - T -

Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma ... 973
Tabellion ... 973
Tabor ... 973
Tabu ... 973
Tabul raz konsepsiyası ... 973
Tac ... 973
Tacir ... 973
Tacirlər ... 973
Taft-Hartli qanunu ... 974
Tağarbaşı ... 974
"Taxıl haqqında" Azərbaycan Respublikasının qanunu ... 974
Taxt ... 974
Taksasiya ... 974
Taktika ... 974
Taktiki əməliyyat ... 974
Taktiki kombinasiya ... 974
Taktiki qaydalar ... 974
Taktiki qərar ... 974
Taktiki risk ... 975
Taktiki üsul ... 975
Taqım ... 975
Talaq ... 975
Talama ... 975
Talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə ... 975
Talançılıq ... 975
Talion ... 975
Talion qanunu ... 975
Talman ... 975
Talman iltizamı ... 975
Talmud ... 975
Talon ... 976
Talya ... 976
Tamah (tamah niyyəti) ... 976
Tamğa ... 976
Tamixtiyar ... 976
Tam ortaqlıq ... 976
Tanatofobiya ... 976
Tanatologiya ... 977
"Tanrı məhkəməsi" ... 977
Tantema ... 977
Tapıntı ... 977
Tapşırıq müqaviləsi ... 977
Tara ... 977
Tarxan ... 977
Tarif ... 978
Tarif cədvəli ... 978
Tarif dərəcəsi ... 978
Tarif güzəştləri ... 978
Tarif kvotaları ... 978
Tarifləşdirmə ... 978
Tarif məzənnəsi ... 978
Tarif preferensiyası ... 978
Tarif rəhbərliyi ... 978
Tarif sistemi ... 978
Tarixi hüquq məktəbi ... 978
Tarixi-siyasi təfsir ... 978
Tarix-mədəniyyət təyinatlı torpaqlar ... 978
Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama ... 979
Tat ... 979
Tatba ... 979
Taunşip ... 979
Tauri məzhəbi ... 979
Tayxore ... 979
Taym-çarter ... 979
Taymşit ... 979
Texniki ekspertiza ... 979
Texniki hüquq normaları ... 979
"Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunu ... 980
Texnopolis ... 980
Telefon xətlərinə qanunsuz daxil olmaqla danışıqlar aparma ... 980
Tel-kel ... 980

Tender ... 980
"Tender haqqında"
Azərbaycan Respublikasının qanunu ... 980
Tender keçirən ... 980
Tender komissiyası ... 981
Tender proseduru ... 981
Tender sənədi ... 981
Tender təklifi ... 981
Teokratik dövlət ... 981
Teokratiya ... 981
Teoloji nəzəriyyə ... 981
Terezi Məcəlləsi ... 982
Terror ... 982
Terror aksiyası ... 982
Terror aktı ... 982
Terrorçu ... 982
"Terrorçuluğa qarşı mübarizə haqqında"
Azərbaycan Respublikasının qanunu ... 982
Terrorçuluq ... 982
Terror əleyhinə aparılan əməliyyatlar ... 982
Terror əleyhinə aparılan
əməliyyat zonası ... 982
Terror fəaliyyəti ... 983
Terrorizm ... 983
Terrorizmə qarşı mübarizə ... 983
Terror qrupu ... 984
Terror təşkilatı ... 984
Tersiya vekseli ... 984
Tevton ordeni ... 984
Təbəəlik ... 984
Təbiəti mühafizə hüququ ... 984
Təbiəti mühafizə təyinatlı torpaqlar ... 984
Təbii hüquq nəzəriyyəsi ... 984
"Təbii inhisarlar haqqında"
Azərbaycan Respublikasının qanunu ... 985
Təbii qoruq təyinatlı torpaqlar ... 985
"Təbii" kvota ... 985
Təcavüz ... 985
Təcavüz aktı ... 985
Təcavüzkar ... 985
Təcavüzkar müharibəni
başlamağa açıq çağırışlar ... 985
Təcavüzkar müharibəni planlaşdırma,
hazırlama, başlama və ya aparma ... 985
Təcili sövdə (əqd) ... 985
Təcili veksel ... 985
Tədhiş ... 985
Təfavüt ... 985
Təfsir ... 986
Təftiş aktı ... 986
Təhdid etmək ... 986
Təhkimçilik ... 986
Təhkimçilik hüququ ... 986
Təhkimli ... 986
Təhqiqat ... 986
Təhqiqatçı ... 986
"Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında"
Azərbaycan Respublikasının qanunu ... 987
Təhqiqat və ya ibtidai istintaq
məlumatlarını yayma ... 987
Təhqir ... 987
Təhlükədə qoyma ... 987
Təhlükəsizlik ... 987
Təhlükəsizlik texnikası ... 987
Təhlükəsiz yaşamaq hüququ ... 988
Təhrikçi ... 988
Təhrikçilik ... 988
Təhsil hüququ ... 988
Təhsil senzi ... 988
Təxribat ... 988
Təkbaşına hakimiyyət ... 988
Təkmili istintaq ... 988
Təkrar ekspertiza ... 988
Təkrar seçkilər ... 989
Təkzib hüququ ... 989
Təqdimat ... 989
Təqib ... 989
Təqlid ... 989
Təqsir ... 989
Təqsiri olmadığını bilə-bilə şəxsi
cinayət məsuliyyətinə cəlb etmə ... 990
Təqsirləndirilən şəxs ... 990
Təqsirləndirmə ... 990
Təqsirnamə ... 990
Təqsirsizlik prezumpsiyası ... 990
Tələb ... 990
Tələbin güzəşti ... 990
Tələfetmə ... 991
Təlimat ... 991
Təminat fondu ... 991
Təminatlı beh ... 991
Təminatlı istismar müddəti ... 991
Təminatlı kredit ... 991
Təminatlı öhdəlik ... 991
Təminatlı saxlama müddəti ... 991
Təminat məktubu ... 991
Təminat müddəti ... 991
Təminat sığortası ... 991
Təminat vekseli ... 992
Tənzimləmə ... 992
Tərcüməçi ... 992
Tərəflərin barışması ... 992
Tərh ... 992
Tərxis ... 992
Tərk-silah ... 992
Təsdiq edilməmiş akkreditiv ... 993
Təsdiq edilmiş akkreditiv ... 993
Təslim ... 993
Təsviyə ... 993
Təşkilat ... 993
Tətil ... 993
Tətil hüququ ... 993
Təzminat ... 993
Tırnovo Konstitusiyası ... 993
Tibbi ekspertiza ... 994
Tibbi hüquq ... 994
Tibbi xarakterli məcburi tədbirlər ... 994
Tibbi sığorta ... 994
"Tibbi sığorta haqqında"
Azərbaycan Respublikasının qanunu ... 994
Tibbi-sosial ekspertiza ... 994
Tibbi sterilizasiya ... 995
Ticarət adətləri ... 995
Ticarət agenti ... 995
Ticarət balansının aktiv saldosu ... 995
Ticarət evi ... 995
Ticarət gəmiçiliyi ... 995
Ticarət Gəmiçiliyi Məcəlləsi ... 995
Ticarət hüququ ... 995
Ticarət markası ... 996
Ticarət Məcəlləsi ... 996
Ticarət nümayəndəliyi ... 996
Ticarət nümayəndəsi (agent) ... 996
Ticarət nümayəndəsi (agent)
haqqında müqavilə ... 996
Ticarət palatası ... 996
Ticarət reyestri ... 996
Ticarət-sənaye palatası ... 996
Ticarət vekseli ... 996
Tikinti, mədən işlərinin və sair
işlərin aparılmasının təhlükəsizlik
qaydalarını pozma ... 997
Tikintiyə vərəsəlik hüququ ... 997
Timar ... 997
Timarçı ... 997
Timokratiya ... 997
Tipik proformalar ... 997
Tiran ... 997
Tiranlıq ... 997
Titul ... 998
Titul millət ... 998
Titul sahiblik ... 998
Titul siyahısı müşavir ... 998
Tiun ... 998
Tiyul ... 998
Tiyuldar ... 998
Tobar doktrinası ... 998
"Toxumçuluq haqqında"
Azərbaycan Respublikasının qanunu ... 999
Tokio prosesi ... 999
Toksikologiya ... 999
Toksikomaniya ... 999
Tolling ... 999
Torpağın normativ qiyməti ... 999
Torpaq bazarı ... 1000
"Torpaq bazarı haqqında"
Azərbaycan Respublikasının qanunu ... 1000
Torpaq ehtiyatları ... 1000
Torpaq hüququ ... 1000
"Torpaq icarəsi haqqında"
Azərbaycan Respublikasının qanunu ... 1000
Torpaq icarəsi müqaviləsi
"Torpaq islahatı haqqında"
Azərbaycan Respublikasının qanunu ... 1000
Torpaq istifadəçiləri ... 1000
Torpaqla əlaqədar qanunsuz
əqdlərin qeydiyyatı ... 1001
Torpaqları korlama ... 1001
Torpaqların bonitirləşdirilməsi ... 1001
Torpaqların çirklənməsi ... 1001
Torpaqların hüquqi rejimi ... 1001
Torpaqların məqsədli təyinatı ... 1001
Torpaqların monitorinqi ... 1001
Torpaqların mühafizəsi ... 1001
Torpaqların münbitliyi ... 1001
"Torpaqların münbitliyi haqqında"
Azərbaycan Respublikasının qanunu ... 1001
Torpaqların münbitliyinin artırılması ... 1002
Torpaqların münbitliyinin bərpası ... 1002
Torpaqların münbitliyinin mühafizəsi ... 1002
Torpaq Məcəlləsi ... 1002
Torpaq münasibətləri ... 1002
Torpaq rentası ... 1002

Torpaq sahələrinin dövriyyəsi ............ 1002
Torpaq sahələrinin geri alınması ............ 1002
Torpaq sahəsi ............ 1003
Torpaq sahəsinin bağışlanması ............ 1003
Torpaq sahəsinin dəyişdirilməsi ............ 1003
Torpaq sahəsi üzərində birgə hüquqlar ............ 1003
Torpaq sahəsi üzərində istifadə hüququ ............ 1003
Torpaq sahibliyi ............ 1003
Torpaq üzərində xüsusi mülkiyyət hüququ ............ 1003
Torpaq vergisi ............ 1003
Totalitar dövlət ............ 1004
Totalitarizm ............ 1004
Toyxərci ............ 1004
Törəmə sübutlar ............ 1004
Törəmə təsərrüfat cəmiyyəti ............ 1004
Tövsif ............ 1004
Tövsiyə olunan beynəlxalq təcrübə ............ 1004
Töycü ............ 1005
Traktat ............ 1005
Trampov gəmiçilik ............ 1005
Transaksiya ............ 1005
Transfer-agent ............ 1005
Transfert ............ 1005
Transfert ödəmələr ............ 1005
Transfert sazişlər ............ 1005
Transformasiya ............ 1005
Transmilli banklar ............ 1005
Transmilli cinayətkarlıq ............ 1005
Transmilli korporasiyalar ............ 1006
Transmilli şirkət ............ 1006
Transplantasiya ............ 1006
Transportasiya ............ 1006
Transşipment ............ 1006
Transvestisizm ............ 1006
Tranşa ............ 1007
Tranzit ............ 1007
Tranzit hesabı ............ 1007
Tranzit hüququ ............ 1007
Tranzit mallar ............ 1007
Tranzit sənədi ............ 1007
Tranzit yüklər ............ 1007
Trasologiya ............ 1007
Trasoloji ekspertiza ............ 1007
Trassant ............ 1007
Trassat ............ 1008
Trast ............ 1008
Tratta ............ 1008
Traybalizm ............ 1008
Trest ............ 1008
Treyder ............ 1008
Triaj ............ 1008
Triba ............ 1008
Tribun ............ 1008
Tribunal ............ 1008
Tribut komitsiyaları ............ 1008
Tribut yığıncaqları ............ 1009
Tripartitum ............ 1009
Triplikat ............ 1009
Trizn ............ 1009
Tsessiya ............ 1009
Tur ............ 1009
Turagent ............ 1009
Turagentlik ............ 1009
Turist ............ 1009
Turist xidmətlərinin göstərilməsinə dair müqavilə ............ 1009
Turizm ............ 1010
Turizm ehtiyatları ............ 1010
Turizm fəaliyyəti ............ 1010
"Turizm haqqında" Azərbaycan Respublikasının qanunu ............ 1010
Turizm infrastrukturu ............ 1010
Turizm məhsulu ............ 1010
Turizm vauçeri ............ 1010
Turizm yollayışı ............ 1010
Turoperator ............ 1010
Tutma ............ 1010
Tutulma ............ 1011
Tüfəng ............ 1011
Türmə ............ 1011







**Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 332-ci maddəsində nəzərdə tutulmuşdur. Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozmada, habelə zərər çəkmiş şəxsin şərəf və ləyaqətini alçaltmaqla və ya ona qarşı zor tətbiq etməklə əlaqədar hərəkətlərdə ifadə olunur.

**Tabellion** *(lat. tabellio)* – Qədim Romada notarius, xüsusi katib (mirzə); haqqı ödənilməklə tərəflər üçün zəruri yazılı sənədlər hazırlayan şəxs. O, bəzən hazırladığı sənədlərin məzmunu və həqiqiliyi barədə şahidlik də edirdi. Ona görə də t.-dan təmizlik və vicdanlılıq tələb edilirdi. İmperator Yustinianın hakimiyyəti dövründə bu peşə ilə məşğul olmaq üçün rəsmi icazənin olması zəruri idi.

**Tabor** *(çexcə tabor)* – **1)** çexlərdə, polyaklarda, rumın və macarlarda düşərgə; **2)** keçmişdə kazak qoşunlarının məskunlaşdığı düşərgə (qoşun düşərgəsi); **3)** bir hissəsi qohum olan qaraçı köçü; **4)** keçmişdə türk qoşun bölməsi (indiki batalyon).

Naxçıvanda sovet hakimiyyəti uğrunda mübarizə zamanı Abasqulu Ağa Şadlinskinin başçılıq etdiyi partizan dəstəsi "Qırmızı tabor" adlanırdı.

**Tabu** *(polineziya dillərində)* – dövlətəqədərki cəmiyyətdə müəyyən qadağanlar sistemi. Məsələn, polineziyalılarda allahlara və ruhlara aid bütün müqəddəs əşyalardan, qəbilə başçılarına və kahinlərə məxsus olan predmetlərdən istifadə edilməsi qadağan edilmişdir. T. insan həyatının mühüm sahələrini (xüsusilə də nikah ekzoqamiya normalarına riayət olunmasını) tənzim edirdi. Totemizmlə bağlı olmuş t. ehtimal ki, fərdin davranışını qəbilənin mənafelərinə tabe etmək tələbatından irəli gəlmişdir.

**Tabul raz konsepsiyası** *(lat. tabula rasa)* – yenidən yaradılmış dövlətin öz sələfi tərəfindən digər dövlətlər qarşısında heç bir öhdəliklərlə çətinliyə salınmaması konsepsiyası. Hazırda bu konsepsiya müstəqilliyə nail olmaq nəticəsində yaranan yeni dövlətlərə tətbiq edilən 1978-ci il müqavilələrinə münasibətdə dövlətlərin hüquqi varisliyi haqqında Vena konvensiyasında qeydə alınmışdır. T.r.k.-nı xalis şəkildə tətbiq etmək mümkün deyil. Əvvəlki müqavilələrin yeni müstəqil dövlət tərəfindən bütünlüklə ləğv edildiyinə və onların həmin dövlətin ərazisinə heç bir aidiyyəti olmadığına görə tabul raz prinsipi son dərəcə qətedicidir.

**Tac** *(fars.)* – hakimiyyət rəmzi olan baş geyimi. Qiymətli metallardan (əsasən qızıldan) düzəldilən t.-lar çoxlu daş-qaş və mirvari ilə bəzədilirdi. İlk dəfə qədim dünya dövlətlərində (Şumerdə, Misirdə, Romada) istifadə edilmiş, sonralar isə Qərbi Avropa ölkələrinə yayılmışdır. T. Azərbaycanda da qədim dövrlərdən məlum olmuşdur.

**Tacir** *(bax: tacirlər).*

**Tacirlər** – xüsusi mülkiyyətin hökmranlığı şəraitində ticarətlə məşğul olan xüsusi sosial təbəqə. Tacir mənfəət götürmək, yəni əmtəəni sonradan satmaq məqsədilə satın alır və beləliklə, istehsalçı ilə istehlakçı (yaxud müxtəlif növ əmtəə istehsalçıları) arasında vasitəçilik edir. Ticarət vasitəçiləri (dəllallar) hələ ibtidai icma mü-

nasibətlərinin dağıldığı dövrdə meydana gəlmişdir. T. qədim dünyanın bir sıra dövlətlərinin (Karfagenin, ellinist dövlətlərinin, Yunanıstanın və Romanın) iqtisadiyyatında mühüm rol oynamışlar.

**Taft-Hartli qanunu** – ABŞ-da əmək münasibətlərini tənzim edən qanun. Bu qanun 1947-ci ildə qəbul edilmişdir. Taft-Hartli qanunu ABŞ-da əmək münasibətlərinə dair qüvvədə olan əsas qanunvericilik aktlarından biridir. Senator R.A.Taft və nümayəndələr palatasının üzvü F.Hartlinin adı ilə bağlıdır.

**Tağarbaşı** – Azərbaycanda xanlıqlar dövründə mövcud olmuş vergi növü. T. xanədan torpaqlarında becərilən taxıldan alınırdı. Xanlığın xüsusi məmuru olan qisimdar tərəfindən məhsulun miqdarı dəqiqləşdirilir və hər tağar hesabına onun müəyyən hissəsi dövlətin xeyrinə keçirilirdi.

**"Taxıl haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında taxıl istehsalının, tədarükünün və bazarının təşkilinin, taxılın və taxıl emalı məhsullarının keyfiyyətinin idarə edilməsinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 16 iyun 2000-ci il tarixdə qəbul edilmişdir. O, beş fəsil və 17 maddədən ibarətdir.

**Taxt** – **1)** hündür yerdə qoyulan zəngin bəzədilmiş kürsü – rəsmi mərasimlərdə padşahın, çarın, kralın yeri; **2)** hakimiyyət rəmzi (məsələn, taxta çıxmaq, padşahlığa başlamaq, taxt-taca sahib olmaq və i.a.).

**Taksasiya** *(lat. taxatio – qiymətlərin müəyyən edilməsi)* – məzənnələrin müəyyən edilməsi; malların dəqiq qiymətlərinin və ya göstərilən xidmətlərin mükafatlandırılması dərəcələrinin, həmçinin əmək məsrəflərinin dəyərinin müəyyənləşdirilməsi.

**Taktika** *(bax: istintaq taktikası).*

**Taktiki əməliyyat** *(kriminalistikada)* – yaranmış situasiya şəraitində istintaqın konkret vəzifələrinin həlli üçün müstəntiq tərəfindən həyata keçirilən istintaq hərəkətlərinin nisbi müstəqil spesifik sistemi. T.ə. müxtəlif əsaslara görə aparılır. Həmin əsaslara aşağıdakılar aid edilir: a) taktiki əməliyyatın aparıldığı şəraitdə istintaq situasiyalarının xarakteri; b) sübutetmə predmeti; c) istintaq hərəkətlərinin xarakteri və məzmunu; ç) istintaqın mərhələləri; d) həll edilən vəzifələrin məzmunu; e) təşkilati struktur; ə) ümumiliyin səviyyəsi; f) istintaqı aparılan işlərin xarakteri və i.a.

**Taktiki kombinasiya** *(kriminalistikada)* – vahid niyyətlə birləşən və konkret istintaq situasiyası ilə şərtləşən taktiki üsulların, istintaq hərəkətlərinin və digər hərəkətlərin əlaqələndirilməsi. Bir istintaq hərəkəti çərçivəsində t.k. taktiki üsulların əlaqələndirilməsindən ibarətdir. Konkret cinayət işinin istintaqı zamanı t.k. eyniadlı və müxtəlif adlı istintaq hərəkətlərinin əlaqələndirilməsi kimi çıxış edir.

**Taktiki qaydalar** – kriminalistikada prosedur, metodiki xarakterli tipik, formallaşdırılmış və alternativsiz aktlar; taktiki üsullarla yanaşı istintaq hərəkətlərinin hazırlanması və aparılması zamanı müstəntiq tərəfindən həyata keçirilir.

**Taktiki qərar** *(kriminalistikada)* – bütövlükdə istintaq situasiyasına və ya onun ayrı-ayrı komponentlərinə, istintaq prosesinin gedişinə və nəticələrinə taktiki təsir məqsədinin seçilməsi və məqsədə nail olma metodlarının, üsul və vasitələrinin müəyyən edilməsi. T.q. müstəntiq tərəfindən təkbaşına qəbul edilir, lakin bu qərarların seçilməsi prosesinə kollektiv yardımın bir sıra formaları da mövcuddur. Məsələn, istintaq situasiyasının iş həmkarları ilə birgə təhlil edilməsi, mümkün t.q.-ların kollektiv müzakirəsi, əməliyyat işçiləri ilə birlikdə t.q.-ların realizə edilmə planının hazırlanması və i.a.





**Taktiki risk** *(kriminalistikada)* – istintaq hərəkətlərinin aparılması zamanı mənfi nəticələrin meydana çıxması mümkünlüyü. T.r. taktiki qərarların qəbulu zamanı mütləq nəzərə alınmalıdır.

**Taktiki üsul** *(kriminalistikada)* – obyektə (obyektiv hərəkət fraqmentinə, sənədə, predmetə, insana) ifadəli və ifadəsiz təsir üsulunun adekvat situasiyası; informasiyaların səmərəli toplanması və istifadəsinə, istintaq hərəkətlərinə hazırlıq və onların aparılması zamanı digər vəzifələrin həllinin optimistləşdirilməsinə kömək edir.

**Taqım** – vzvod; rotanın, batalyonun tərkibinə daxil olan taktiki bölmə. Motorlu, atıcı atəş, tank, kəşfiyyat, istehkam, rabitə və t.-lar vardır.

**Talaq** *(ərəb. boşanma, boşamaq)* – şəriət normalarına görə nikahın pozulması (nikaha xitam verilməsi) qaydası. Şəriətə görə, ancaq kişilərin nikahı pozub arvadını boşamaq hüququ vardır. Bunun üçün ərin müvafiq kəlamı şahidlərin yanında üç dəfə ucadan təkrar etməsi kifayət idi. T. zamanı nikah müqaviləsindəki boşama haqqı (mehr) və cehiz geri qaytarılırdı.

**Talama** – özgənin əmlakının gizli oğurluğu *(həmçinin bax: oğurluq).*

**Talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə** – mülkiyyət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 185-ci maddəsində nəzərdə tutulmuşdur. Avtomobil və ya başqa nəqliyyat vasitəsini talama məqsədi olmadan qanunsuz ələ keçirmədə (qaçırmada) ifadə olunur.

**Talançılıq** *(bax: talama).*

**Talion** *(lat. talion. talionis – cinayətə bərabər cəza)* – icma cəmiyyətində tətbiq edilmiş cəza tədbiri. T. vurulmuş ziyana görə təqsirkara eyni ziyanı (əvəz-əvəz) yetirməkdən ibarət olmuşdur. T. Hammurapi Qanunlarında, qədim yəhudi hüququnda daha aydın şəkildə ifadə edilmişdir. O, XII Cədvəl Qanunlarında qismən nəzərdə tutulurdu. T.-un məqsədi qan intiqamını məhdudlaşdırmaqdan ibarət olmuşdur. Yeni dövrdə t.-a dair ideyalar İ.Kantın, H.Hegelin hüquqi görüşlərində, həmçinin burjua cinayət hüququ elmində öz əksini tapmışdır. Sonradan bu cəza tədbiri cərimə ilə əvəz edilmişdir.

**Talion qanunu** *(bax: talion).*

**Talman** – gəminin yüklənməsi və boşaldılması zamanı malların hesabını aparan şəxs. T.-ın xidmətlərindən adətən daşınan yüklərin qəbulu və təhvil verilməsi zamanı istifadə olunur. İri xarici limanlarda andlı hesabdarların təşkilatları mövcudur.

**Talman iltizamı** – gəminin qəbulu və ya onun təyinat limanına təhvil verildiyi zaman yüklərin miqdarını və onun vəziyyətini təsdiq edən yük sənədi.

**Talmud** *(qədim yəhudi dilində hərfi mənası öyrənmə)* – *iudaizmin* ehkamçı, dini-etik və hüquqi müddəalarının külliyyatı.

Eramızdan əvvəl IV və eramızın V yüzilliyində yaranmışdır. T.-da insanın Allahdan asılı olması, sosial qanun-qaydanın dəyişməzliyi təlqin edilirdi.

**Talon** *(fr. talon)* – **1)** nəyinsə əldə edilməsi hüququnu təsdiq edən nəzarət sənədi növü; **2)** sənədin dublikatı; **3)** qiymətli kağızın (məsələn, səhmin və i.a.) əsas hissəsi.

**Talya** *(fr. taille)* – feodalizm dövründə Fransada başlıca olaraq kəndlilərdən tutulan birbaşa vergi. XIII yüzilliyin sonunda Böyük Fransız inqilabı zamanı ləğv edilmişdir.

**Tamah (tamah niyyəti)** – cinayətin motivlərindən biri. Cinayət hüququnda t. cinayət məsuliyyətinin zəruri şərti və ya məsuliyyəti ağırlaşdıran hallardan biridir. T. bəzi cinayət tərkibləri üçün zəruri əlamətdir (məsələn, oğurluq, mənimsəmə və i.a.). Bir sıra cinayətlərdə isə o, ağırlaşdırıcı hal hesab olunur. Məsələn, adamöldürmənin tamah məqsədilə törədilməsi məsuliyyəti ağırlaşdıran hal sayılır. Qanunda xüsusi olaraq cinayətin motivi kimi nəzərdə tutulmadığı digər hallarda həmin cinayətin tamah niyyəti ilə törədilməsi məsuliyyəti ağırlaşdıran hal hesab olunur.

**Tamğa** – qədim türkdilli xalqlarda və monqollarda şəxsi mülkiyyət nişanı, möhür. Sonralar xanın möhürü vurulmuş rəsmi sənəd və ya fərman da t. ilə möhürlənirdi. t. müxtəlif əşyalara (silahlara), habelə heyvanlara da vurulurdu. Monqol işğalına məruz qalmış ölkələrdə, o cümlədən Azərbaycanda t. geniş yayılmışdı. Monqolların tacirlərdən, sənətkarlardan, müxtəlif istehsal sahələrində çalışanlardan pul formasında topladıqları vergi də t. adlanırdı. T. çox vaxt icarəyə verilir və müqavilə üsulu ilə həyata keçirilirdi. T. Azərbaycanda 1565-ci ildə Səfəvi hökmdarı I Təhmasib tərəfindən ləğv edilmişdir.

**Tamixtiyar** – hüquq münasibətləri iştirakçılarının müəyyən hərəkətləri həyata keçirmək, yaxud həmin hüquq münasibətinin digər iştirakçılarından müvafiq hərəkəti etməyi tələbetmə imkanı (bu imkan qanunla müəyyən edilirdi). T. müstəqil subyektiv hüquq və ya onun tərkib hissələrindən biri ola bilərdi. Məsələn, mülkiyyət hüququnda üç t.-lıq nəzərdə tutulmuşdur: 1) əşyaya sahiblik; 2) əşyadan istifadə; 3) əşya üzərində sərəncam vermək hüququ. Dövlət t.-lığın reallığını təmin edir. Hər hansı bir şəxs öz vəzifələrini yerinə yetirmədikdə, digər tərəf öz hüququnu müdafiə etmək üçün məhkəməyə, iqtisad məhkəməsinə, yaxud digər dövlət orqanına müraciət edə bilər.

**Tam ortaqlıq** – mülki qanunvericiliyə görə hüquqi şəxslər arasındakı ortaqlıq. AR MM-in 69.1-ci maddəsinə uyğun olaraq ortaqlıq o halda tam ortaqlıq sayılır ki, onun iştirakçıları ( tam ortaqları) nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ortaqlığın öhdəlikləri üçün onlara mənsub əmlakla məsuliyyət daşıyırlar. Hər bir şəxs yalnız bir tam ortaqlığın iştirakçısı ola bilər. T.o.-ın firma adına onun bütün iştirakçılarının adları və "tam ortaqlıq" sözləri daxil edilməli və ya "və ortaqları" və "tam ortaqlıq" sözləri əlavə edilməklə bir və ya bir neçə iştirakçının adı daxil edilməlidir.

**Tanatofobiya** *(kriminalistikada)* – qəflətən baş vermiş ölümün vahiməsi. T. anlayışına məhkəmə-psixiatriya ekspertizasının aparılması zamanı təsadüf olunur.





**Tanatologiya** – məhkəmə təbabətində ölüm haqqında təlim. Ölmənin səbəbləri, ölümün baş verməsi mexanizmini (tanatogenez), meyitdə ölüm dəyişikliklərini, habelə ölmə prosesinə (reanimatologiya) həkimin müdaxiləsi məsələlərini öyrənir.

**"Tanrı məhkəməsi"** – antik dövrdə və erkən orta əsrlərdə "məhkəmə həqiqəti"nin müəyyən edilməsi məqsədilə müxtəlif sınaqlarla (odla, su ilə, dərin çaya, gölə qolları bağlı tullanmaqla və i.a.) həyata keçirilən məhkəmə prosesi. Bu barədə "Hammurapi Qanunları"nda, barbar pravdalarında, "Ruskaya pravda"da və i.a. qədim hüquq abidələrində məlumat verilir.

**Tantema** *(fr. tantieme – hissə)* – xalis gəlirdən faiz şəklində səhmdar cəmiyyətlərinin direktorlarına, idarə heyəti üzvlərinə və yüksək qulluqçularına, həmçinin kommersiya təşkilatlarının digər növlərinə ödənilən əlavə mükafat. T. terminindən Azərbaycan Respublikasının bir sıra beynəlxalq müqavilələrində istifadə edilir.

**Tapıntı** – mülki qanunvericiliyə görə, mülkiyyət hüququnun əldə edilməsinə səbəb olan hallardan biri. AR MM-in 186.1-ci maddəsinə uyğun olaraq itirilmiş əşyanı tapan şəxs tapıntı barədə onu itirmiş şəxsə, onun mülkiyyətçisinə, səlahiyyətli şəxsə və ya əgər mülkiyyəti məlum deyilsə, polisə dərhal xəbər verməli və həmin əşyanı verməlidir.

Əşyanı tapan şəxsə mülkiyyətçinin məlum olduğu və ya mülkiyyətçinin əşyaya hüququnun artıq polisə bildirildiyi hallar istisna olmaqla, əşyanı tapan şəxs bu barədə xəbər verdiyi vaxtdan birillik müddət keçdikdən sonra tapıntıya mülkiyyət hüququ əldə edir. Mülkiyyət hüququnun əldə edilməsi ilə bir vaxtda həmin əşyaya bütün hüquqlara xitam verilir.

**Tapşırıq müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. AR MM-in 777-ci maddəsinə uyğun olaraq tapşırıq müqaviləsinə görə tapşırığı həyata keçirməyi öhdəsinə götürən şəxs (vəkalət alan) başqa şəxsin (vəkalət verənin) ona tapşırdığı əqdləri, işləri və ya digər xidmətləri konkret nəticə əldə olunmasına təminat vermədən icra etməyi öhdəsinə götürür. Tapşırıq müqaviləsi həm şifahi, həm də yazılı formada bağlana bilər. Müqavilə vəkalət alanın tapşırığı qəbul etməsindən sonra qüvvəyə minir.

T.m.-nin məzmununu vəkalət alanın tapşırığı vicdanla icra etməsi və bu zaman vəkalət verənin haqlı mənafelərinin müdafiəsi təşkil edir. Vəkalət alan tapşırığı qəsdən və ya ehtiyatsızlıq üzündən kifayət qədər vicdanla icra etməməsi nəticəsində vəkalət verənə vurulan zərər üçün məsuliyyət daşıyır. Vəkalət verən tapşırığın icrası gedişində vəkalət alana vurulan zərər üçün, əgər zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, vəkalət alan qarşısında məsuliyyət daşıyır. Əgər tapşırığı bir neçə şəxs birlikdə vermişsə, vəkalət alan qarşısında onlar birgə borclular kimi məsuliyyət daşıyırlar. T.m.-nin hər bir iştirakçısı istənilən vaxt müqaviləni ləğv edə bilər.

**Tara** *(ita. tara)* – əmtəənin qablaşdırılması, saxlanması və daşınması üçün məlumat. T. təkrar istehsal prosesinin fasiləsizliyini təmin edən maddi şərtlərdən biridir.

**Tarxan** *(türk)* – bəzi türkdilli xalqlarda orta əsrlərdə vergi imtiyazlarından istifadə edən feodalların adı. T.-lar özlərinə məxsus olan torpaqlardan və əldə etdikləri

əmlakdan vergi verməkdə imtiyazlı (güzəştli) hüquqa malik idilər.

**Tarif** *(fr. tarif)* – idarələrə, müəssisələrə, təşkilatlara və vətəndaşlara müxtəlif istehsal və qeyri-istehsal xidmətlərinə görə verilən ödəmə məzənnəsi sistemi. T. kateqoriyasına həmçinin məzənnələr sistemi, əməyin ödənilməsi, hər bir iş növünün qiymətləndirilməsi aid edilir. Xarici ticarətin tənzimlənməsinin klassik aləti gömrük tarifi hesab olunur.

**Tarif cədvəli** *(bax: tarif sistemi).*

**Tarif dərəcəsi** – tarif cədvəlinin əsas elementlərindən biri. İşçinin ixtisasına uyğun ona t.d. verilir. T.d.-nin verilməsi tələbləri tarif-ixtisas soraq kitabçasında müəyyən edilir.

**Tarif güzəştləri** – Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallara münasibətdə qarşılıqlı şərtlərlə və ya birtərəfli qaydada verilən güzəştlər; əvvəllər ödənilmiş rüsumların qaytarılması; rüsumdan azad etmək; rüsumun məzənnəsini aşağı salmaq.

**Tarif kvotaları** – malların (işlərin, xidmətlərin) kəmiyyət və ya eksport və import həcminin dövlət tərəfindən müəyyən dövr üçün müəyyən edilməsi.

**Tarifləşdirmə** – ödəmə obyektlərinin bu və ya digər təsnifatı əsasında tarifin müəyyən edilməsi.

**Tarif məzənnəsi** – işçinin saata və ya günə görə əməyinin ödənilməsi.

**Tarif preferensiyası** *(bax: tarif güzəştləri)*

**Tarif rəhbərliyi** – sistemləşdirilmiş buraxılış (nəşr); dəmir yolu nəqliyyatında işlərə və xidmətlərə görə tarifə daxil edilmiş qiymətlərin müəyyən edilmiş qaydada təsdiq edilmiş ödəmə məzənnələri nəşr edilir.

**Tarif sistemi** - əməyin ödənilməsinin təşkilində mühüm element; əməyin sahələr üzrə, sahələr və müəssisələr daxilində planlaşdırılmasında, eləcə də işçilərin mükafatlı əməkhaqqı sisteminin işlənilməsi əsasından ibarətdir.

**Tarixi hüquq məktəbi** - XIX yüzilliyin birinci yarısında hüquq elmində yaranmış cərəyanlardan biri. T.h.m. Almaniyada daha geniş yayılmışdır. Bu məktəb feodal qayda-qanunlarının müdafiəsilə çıxış etmişdir. T.h.m.-nin nümayəndələri adətləri hüququn ən mühüm mənbəyi hesab edərək, məcəlləşdirmənin əleyhinə çıxmışlar. Bu məktəbin banisi H.Hüqo olmuşdur. T.h.m.-nin konsepsiyasına görə, hüquq öz inkişafında 3 mərhələdən keçir: 1) xalq içərisində adət hüquq normalarının kortəbii yaranması; 2) hüquqşünas alimlərin şərh etdikləri hüquq; 3) məcəlləşdirilmiş hüquq. T.h.m.-nin nümayəndələri Roma hüququnun mənimsənilməsini və öyrənilməsini hüquqşünaslığın əsas məqsədi hesab edirdilər.

**Tarixi-siyasi təfsir** *(bax: qanunun tarixi-siyasi təfsiri).*

**Tarix-mədəniyyət təyinatlı torpaqlar** – Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə görə xüsusi olaraq qorunan ərazilərin torpaqlarının bir növü. AR TM-in 29-cu maddəsinə uyğun olaraq tarix-mədəniyyət təyinatlı torpaqlara tarix-mədəniyyət qoruqlarının, xatirə parklarının, qəbiristanlıqların, məzarların, arxeoloji abidələrin və nadir geoloji törəmələrin torpaqları aiddir. Tarix-mədəniyyət təyinatlı torpaqlarda





onların məqsədli təyinatına zidd olan hər hansı fəaliyyət qadağan edilir.

**Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama** – ictimai mədəniyyət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 246-cı maddəsində nəzərdə tutulmuşdur. Dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələrini qəsdən məhv etmədə və ya korlamada ifadə olunur.

**Tat** – Qədim Rus dövlətində oğrunun adı.

**Tatba** – Qədim rus abidəsi olan "Rus pravdası"na görə oğurluq. Belə oğurluq hərəkətinin qapalı binalardan edildiyi ehtimal olunur.

**Taunşip** *(in. township)* – ABŞ-ın 22 ştatında aşağı inzibati ərazi vahidlərinin adı.

**Tauri məzhəbi** – islamda mövcud olmuş hüquq məktəblərindən biri. Əsası VII yüzillikdə İmam Süfyan ət-Tauri (719-777-ci illər) tərəfindən qoyulmuşdur. Bu məzhəbin nümayəndələri hənəfilik hüquq məktəbi nümayəndələrinin siyasi-hüquqi görüşlərinə tərəfdar çıxmışlar. Lakin hənəfilərdən fərqli olaraq taurilər qiyasın və istihsanın tətbiqinin əleyhinə çıxmışlar.

**Tayxore** *(Tayxo Məcəlləsi)* – yapon feodal hüququ məcəlləsi; 701-ci ildə tərtib edilmişdir. Məcəllənin başlıca 9-cu bölməsi torpaqdan istifadənin Tayka islahatı ilə müəyyən edilmiş nadel sistemini tənzimləyən torpaq qanunudur. Torpaq qanununa uyğun olaraq dövlət mülkiyyəti hesab olunan torpaq sahələri kəndli ailəsinə və ya kəndli həyətinin adambaşına görə istifadəyə verilirdi. Adambaşı nadellərindən başqa, qanun dövlət qulluğuna və xüsusi xidmətlərə görə imtiyazlı nadelləri də nəzərdə tuturdu. T.-nin digər bölmələri özündə mərkəzi dövlət aparatı, yerli hakimiyyət orqanları, məmurların əməkhaqqı, rütbələr, əhalinin mükəlləfiyyətləri və i.a. haqqında qanunları ehtiva edirdi. Məcəllə dövlət qullarının və şəxsi qulların müxtəlif kateqoriyalarının hüquqi vəziyyətini də müəyyən edirdi.

**Taym-çarter** – gəminin müəyyən müddətə fraxta müqaviləsi. Bu müqaviləyə görə gəmi sahibi şərtləşdirilmiş ödəmə (fraxta) müqabilində gəmini və onun ekipaj üzvlərinin xidmətlərini yüklərin və sərnişinlərin daşınması üçün müəyyən müddətə istifadəyə verir.

**Taymşit** *(ing. time sheet)* – xarici dəniz daşımalarında gəminin yük əməliyyatları altında dayanma müddətinin uçot sənədi. T. gəmi müdiriyyəti və yükgöndərənin nümayəndələri tərəfindən təsdiq edilir. T. staliya müddətindən istifadəni təsdiq edir və o, demercin və ya dispaçın hesablanması üçün hesab olunur.

**Texniki ekspertiza** – dəmir yolu, su, hava və avtomobil nəqliyyatında qəza baş verməsilə əlaqədar olaraq təyin edilən ekspertiza. T.e. istintaq və məhkəmə təcrübəsində məcburi xarakter daşıyır. Buna görə də Azərbaycan Respublikası Ali Məhkəməsinin qərar və qərardadlarında, eləcə də Azərbaycan Respublikası prokurorluğunun səhəvi göstərişlərində zəruri olan hallarda t.e. aparılmasının məcburiliyi göstərilir.

**Texniki hüquq normaları** – hüquqi aktlarda təsbit edilən və bunun sayəsində yuridik qüvvə əldə edən texniki normalar. Bunlar əsasən maddi-istehsal və idarəetmə sferasında qüvvədə olan normalardır. Yanğına qarşı təhlükəsizlik, bütün növdən olan nəqliyyat vasitələrinin istismarı, atom

stansiyalarının istismarı, tikinti işlərinin aparılması, elektrik təchizatı, partlayıcı və toksik maddələrin saxlanması və yerləşdirilməsi, silahla, xüsusilə də nüvə silahı ilə davranma və i.a. qaydaları texniki hüquq normalarına aiddir.

**"Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının hüquqi, iqtisadi və sosial əsaslarını müəyyənləşdirən, həmin obyektləri istismar edən hüquqi və fiziki şəxslərin bu obyektlərdə baş verə biləcək qəzaların qarşısını almağa və baş vermiş qəzaların nəticələrini aradan qaldırmağa yönələn fəaliyyətini tənzimləyən qanunvericilik aktı.

Bu qanun 2 noyabr 1999-cu il tarixdə qəbul edilmişdir. O, 19 maddə və bir əlavədən ibarətdir.

**Texnopolis** – azad iqtisadi zonanın formalarından biri; yüksək texniki səviyyəli məhsulların emalı və istehsalat cəhətdən mənimsənilməsi üzrə regional mərkəzlərin köməyilə innovasiya prosesinin fəallaşmasına xidmət edir. T.-in çoxyönümlü fəaliyyəti fundamental və tətbiqi tədqiqatların dövlət layihələrinin iştirakı ilə həyata keçirilir.

**Telefon xətlərinə qanunsuz daxil olmaqla danışıqlar aparma** – mülkiyyət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 189-cu maddəsində nəzərdə tutulmuşdur. Abonentə məxsus olan telefon nömrəsinə aid rabitə xəttinə qanunsuz daxil olmaqla danışıqlar aparmada ifadə olunur.

**Tel-kel** *(fr. "olduğu kimi")* – bəzi məhsulların, xüsusilə də taxıl məhsullarının satış şərti; həmin şərtə görə alıcı məhsulu elə halda qəbul etməlidir ki, o, təyinat yerinə çatdırılanadək vəziyyətini (keyfiyyətini) dəyişməsin. Belə şərtlərlə satış zamanı adətən keyfiyyət sertifikatı verilir.

**Tender** *(ing. tender)* – hər hansı bir işin, xidmətin ən səmərəli üsul və aşağı xərclə yerinə yetirilməsi üçün iddiaçılar arasında birinin (bir neçəsinin) seçilərək həmin işin (xidmətin) müqavilə əsasında ona (onlara) həvalə edilməsi məqsədi ilə keçirilən müsabiqə. İstehsal, alqı-satqı, barter, layihələşdirmə, tikinti, təmir, bərpa, nəqliyyat daşımaları, faydalı qazıntı yataqlarının işlənməsi və yerin təkindən istifadə, təbiətin mühafizəsi, xidmət göstərilməsi, icra məsələləri və digər məsələlərlə bağlı hər cür iş (xidmət) t. predmeti ola bilər.

**"Tender haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında tenderin hazırlanması və keçirilməsinin iqtisadi, hüquqi və təşkilati prinsiplərini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 11 fevral 1997-ci il tarixdə qəbul olunmuş, ona bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanun beş fəsil və 34 maddədən ibarət olmuşdur. 27 dekabr 2001-ci ildə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanununun qəbul edilməsi və onun 3 fevral 2002-ci ildə qüvvəyə minməsi ilə əlaqədar bu qanun qüvvədən düşmüş və tenderlərlə bağlı bütün müddəalar həmin qanunun 2, 4, 5, 11, 17-19, 22-40-cı maddələrinə daxil edilmişdir.

**Tender keçirən** – Azərbaycan Respublikası adından və ya öz adından tender hazırlayan, elan edən, keçirən və nəticəsi üzrə müəyyən öhdəlikləri yerinə yetirən, yaxud bunları (tenderin nəticəsi üzrə öhdəliklər götürərək icra etməkdən başqa) müqavilə əsasında hər hansı bir icraçıya həvalə edən hüquqi şəxs. Tender komissiyasının təklifi əsasında t.k.-in qərarı ilə tender, bir qayda olaraq, açıq və ya qapalı formalarda keçirilə bilər. Azərbaycan Respublikasında və beynəlxalq miqyasda yayılan kütləvi informasiya vasitəsilə elan edilən tender predmeti üzrə potensial iddiaçıların əksəriyyətinin iştirak imkanını təmin edən tender açıq tender hesab olunur. Qapalı tender isə tender keçirənin qabaqcadan müəyyənləşdirdiyi məhdud sayda potensial iddiaçılar arasında keçirilən tenderdir.

**Tender komissiyası** – iddiaçıların ilkin təsnifatını hazırlayan, tenderə təqdim olunmuş təklifləri müqayisə və təhlil edən, qiymətləndirən və qalibi müəyyənləşdirən müvəqqəti qurum. T.k.-nın tərkibini (tender komissiyasının sədrini göstərməklə) tender keçirən orqanın (müəssisənin) birinci şəxsi, o olmadıqda isə onun vəzifəsini icra edən şəxs təsdiq edir. T.k. öz işinə tenderin nəticəsi haqqında qərar çıxarılması zamanı səsvermə hüququ olmayan müxtəlif ixtisaslı ekspertləri də cəlb edə bilər. Ekspertlərin tərkibi tender prosedurunun başlandığı vaxta qədər gizli saxlanılır.

**Tender proseduru** – tenderin keçirilməsi qaydası. T.p. tender komissiyası tərəfindən müəyyən edilir. İddiaçı və ya onun notarius tərəfindən təsdiq olunmuş sənədlə müvəkkil etdiyi şəxs, bir qayda olaraq, t.p.-nda iştirak edir və tender komissiyası üzvlərini maraqlandıran əlavə suallara cavab verir. T.p.-nun elan olunmuş vaxtı çatdıqda komissiyanın sədri tenderə daxil olmuş bütün sənədlər haqqında məlumat verir, iddiaçı kimi qeydə alınanların siyahısını oxuyur.

**Tender sənədi** – tenderin təşkili, obyektləri və predmetinin xarakteristikası haqqında məlumatlardan ibarət olan sənəd. Sənəddə tenderin prosedur qaydaları barədə də məlumatlar ehtiva olunur.

**Tender təklifi** – tenderə iddiaçı tərəfindən verilən (daxil olan) təklif. Hər bir iddiaçı bir tenderə yalnız bir təklif verə bilər. İddiaçı öz təklifində tender predmetini səciyyələndirən bütün zəruri predmetləri, o cümlədən işin icrasını, texniki cəhətləri, dəyər, vaxt, yer, işi idarə etmə qaydası, haqqın ödənilməsi forması və sair göstəricilər üzrə təkliflər irəli sürməlidir. İddiaçı tender predmeti olan işi icra edəcəyi barədə istənilən məlumatı öz təklifinə daxil edə bilər. Təklifdəki bütün rəqəmlər həm də sözlə yazılır. Təklifdə dəyişiklik və düzəliş olmamalıdır.

**Teokratik dövlət** *(yun. teos – Allah, kratos – hakimiyyət)* – xüsusi idarəçilik formasına malik olan dövlət; hakimiyyətin bütünlükdə və ya böyük hissəsinin məscid (kilsə) iyerarxiyasına məxsus olduğu dövlət. Hazırda belə dövlətə ən parlaq nümunə Vatikan hesab olunur. Şəhər-dövlət hesab olunan Vatikanda mütləq teokratik monarxiya mövcuddur. Bu şəhər-dövlətdə qanunvericilik, icra və məhkəmə hakimiyyəti kardinallar kollegiyası tərəfindən ömürlük seçilən Roma papasına məxsusdur.

**Teokratiya** *(yun. theokratia, hərfən – Allahın hakimiyyəti)* – siyasi və dini hakimiyyətin ruhanilərə məxsus olduğu dövlət idarəçilik forması. T. hazırda Vatikanda və bəzi Şərq ölkələrində (İranda, Küveytdə və i.a.) mövcuddur.

**Teoloji nəzəriyyə** – dövlət və hüququn ilahi mənşəyi haqqında nəzəriyyə (teokra-

tik nəzəriyyə). Qədim Şərqdə meydana gəlmişdir. Qədim Şərq ölkələrində (Misirdə, Hindistanda, Çində və Babilistanda) dini təsəvvürlər siyasi-hüquqi ideologiyaya nüfuz edərək, hökmdarın (fironun, imperatorun) hakimiyyətini və şəxsiyyətini ilahiləşdirirdi. Orta əsrlərdə t.n.-nin ən böyük nümayəndələri olan Oma Akvinat, Bossyue Jozef de Mestr və başqaları bu nəzəriyyə vasitəsilə sosial bərabərsizliyi və feodal iyerarxiyasını müdafiə etmişlər.

**Terezi Məcəlləsi** – 1768-ci ildə Avstriya ers-Hersoqovinası Mariya-Terezinin ("Müqəddəs Roma imperiyası"nın imperatoru) təsis etdiyi məcəlləşdirmə komissiyası tərəfindən tərtib edilmiş vahid cinayət məcəlləsi. Məcəllədə əsasən feodal cinayət hüququnun normaları ehtiva olunurdu.

**Terror** – fiziki (fiziki cəhətdən məhv etməyədək) zorakılıq, siyasi rəqiblərin xüsusi amansızlıqla qətlə yetirilməsi.

**Terror aksiyası** – partlatma, yandırma, nüvə partlayıcı qurğularının tətbiqi ilə və ya tətbiqi hədəsi ilə müşayiət olunan formada törədilən terror xarakterli cinayətkar aksiya.

**Terror aktı** – dövlət xadimlərinin, yaxud ictimai-siyasi xadimlərin həyatına qəsd və ya onlara qarşı digər formada edilən zorakılıq aktı (adətən siyasi məqsədlərlə törədilir). Cinayət hüququna görə xüsusilə ağır və ən təhlükəli cinayətlərdən biri hesab olunur. Müasir beynəlxalq hüquq dövlət və hökumət başçılarını, diplomatik nümayəndəlik üzvlərini qətlə yetirməyi, yaxud onlara qarşı digər cinayətkar qəsdləri, xarici diplomatları oğurlamağı və ya girov götürməyi, silah tətbiq etməklə təyyarələri qaçırtmağı və ya bu məqsədlə törədilən sui-qəsdləri t.a. kimi qiymətləndirir.

**Terrorçu** – hər hansı bir formada terror fəaliyyətinin həyata keçirilməsində iştirak edən şəxs.

**"Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında terrorizmə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən edən, terrorizm əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının fəaliyyətini əlaqələndirən, habelə həmin orqanların və vətəndaşların hüquqlarını və vəzifələrini təsbit edən qanunvericilik aktı.

Bu qanun 18 iyun 1999-cu il tarixdə qəbul edilmişdir. O, beş fəsil və 22 maddədən ibarətdir. Qanuna indiyə qədər bir sıra əlavə və dəyişikliklər edilmişdir.

**Terrorçuluq** – ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 214-cü maddəsində nəzərdə tutulmuşdur. Adamların həlak olmasında, əhəmiyyətli əmlak ziyanının vurulmasında, habelə başqa ağır nəticələrin baş verməsi təhlükəsi törədən partlayışların, yanğınların və ya digər hərəkətlərin edilməsində ifadə olunur.

**Terror əleyhinə aparılan əməliyyatlar** – terror aksiyalarının qarşısının alınması, fiziki şəxslərin təhlükəsizliyinin təmin edilməsi, terrorçuların tərk-silah edilməsi, zərərsizləşdirilməsi, habelə terror aksiyası nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsi məqsədilə həyata keçirilən xüsusi tədbirlər.

**Terror əleyhinə aparılan əməliyyat zonası** – ərazinin və ya akvatoriyanın ayrıca sahələrində, nəqliyyat vasitələrində, binalarda, tikililərdə, qurğularda, yaşayış







evlərində və onlara bitişik olan ərazilərdə və ya akvatoriyada əməliyyatların aparıldığı hüdudlar.

**Terror fəaliyyəti** – terror aksiyalarını təşkil etmə, planlaşdırma, hazırlama və həyata keçirmə, fiziki və hüquqi şəxslər üzərində zorakılıq etmə, terror məqsədilə maddi obyektləri məhv etmə və ya zədələmə, terror aksiyalarının həyata keçirilməsi məqsədilə qanunsuz silahlı birləşmələr, cinayətkar qruplar yaratma, habelə belə aksiyalarda iştirak etmə, bilərəkdən terror təşkilatlarını və ya terror qruplarını maliyyələşdirmə və ya onlara digər yardımlar etmə ilə bağlı olan fəaliyyət.

T.f. ilə bağlı cinayətlərə, habelə terror aksiyaları nəticəsində vurulan ziyanın ödənilməsi üzrə işlərə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmənin (hakimin) qərarı ilə qapalı məhkəmə iclasında baxıla bilər. T.f. ilə əlaqəsinə görə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təşkilat (onun filialı, nümayəndəliyi) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmənin qərarı əsasında ləğv edilə bilər. T.f. ilə əlaqəsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilmiş təşkilat ləğv edilərkən ona məxsus olan əmlak Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilir və dövlətin nəfinə keçir.

**Terrorizm** – ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və ya dövlət hakimiyyəti orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədilə insanların kütləvi surətdə qırılmasına, onlara bədən xəsarətləri yetirilməsinə, yaxud səhhətinə başqa cür zərər vurulmasına və ya onların əmlakının məhv edilməsinə (zədələnməsinə) və ya başqa ağır nəticələrə səbəb olan əməllər törədilməsi və ya bu cür əməllərin törədilməsinə yönəldilmiş hədə.

**Terrorizmə qarşı mübarizə** terror fəaliyyətinin aşkar edilməsi, qarşısının alınması, habelə terror nəticəsində vurula biləcək zərərin minimuma endirilməsi ilə bağlı olan fəaliyyət. T.q.m. aşağıdakı məqsədlərlə həyata keçirilir: a) insan hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi; b) terrorizmin aşkar edilməsi, qarşısının alınması və terrorizm nəticəsində gözlənilən zərərin minimuma endirilməsi; c) terrorizmin yaranması və həyata keçirilməsi səbəbinin və şəraitinin aşkar və ləğv edilməsi. Azərbaycan Respublikasında terrorizmə qarşı mübarizə aşağıdakı prinsiplərə əsaslanır: 1) qanunçuluğun təmin edilməsi; 2) terror fəaliyyətinin həyata keçirilməsinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş cəzanın labüdlüyü; 3) terrorizmə qarşı mübarizə zamanı açıq və gizli metodların əlaqələndirilməsi; 4) hüquqi siyasi, sosial-iqtisadi və təşkilati profilaktik tədbirlərin kompleks istifadəsi; 5) terror fəaliyyəti nəticəsində təhlükəyə məruz qalmış şəxslərin hüquqlarının müdafiəsinin üstünlüyü; 6) terrorizm əleyhinə aparılan əməliyyatlara cəlb olunmuş qüvvələrin idarə edilməsində təkbaşçılıq; 7) terrorizm əleyhinə aparılan əməliyyatların həyata keçirilməsində iştirak edən şəxsi heyətin, o cümlədən bu məqsədlə istifadə edilən texniki üsulların və taktikanın elan edilməsində minimal aşkarlıq.

**Terror qrupu** – terror fəaliyyətinin həyata keçirilməsi məqsədilə iki və ya daha çox şəxsin birləşməsi (birləşdiyi qrup).

**Terror təşkilatı** – terror fəaliyyətinin həyata keçirilməsi məqsədilə yaradılan və ya öz fəaliyyətində terrorizmdən istifadəni mümkün hesab edən təşkilat. Əgər struktur bölmələrindən biri təşkilatın hər hansı bir rəhbər orqanının razılığı ilə terror fəaliyyəti ilə məşğuldursa, həmin təşkilat terror təşkilatı hesab olunur.

**Tersiya vekseli** – köçürmə vekselinin üçüncü nüsxəsi; sahibinə borcludan pul məbləğini mübahisəsiz almaq (öhdəliyin müddəti bitdikdən sonra) hüququ verir. Pul məbləğinin göstərildiyi nüsxə t.v. hesab olunur.

**Tevton ordeni** *(alman ordeni, səlibçilər ordeni)* – XII yüzilliyin sonunda səlib yürüşləri zamanı Fələstində yaranmış katolik ruhani-cəngavər ordeni. 1198-ci ildə papa III İnnokenti tərəfindən müstəqil orden kimi təsdiq edilmişdir. T.o.-nə zadəgan mənşəli alman cəngavərləri (rıtsarlar) qəbul olunurdu. Ordenin başında ömürlük seçilən qrossmeyster (baş magistr) dururdu.

**Təbəəlik** *(bax: vətəndaşlıq).*

**Təbiəti mühafizə hüququ** – Azərbaycan Respublikasında təbiətin hüquqi mühafizəsi, təbii sərvətlərin qorunması, bərpası və yaxşılaşdırılması sahəsində münasibətləri tənzim edən hüquq normalarının (hüquqi tədbirlərin) məcmusu. Təbiətin mühafizəsi tələblərinə riayət etməməklə vurulmuş maddi ziyan ödənilməlidir. Ətraf mühitin qorunması haqqında qanunları pozan vəzifəli şəxslər (vətəndaşlar isə qanunla müəyyən edilmiş qaydada) məsuliyyətə (cinayət məsuliyyəti də daxil olmaqla) cəlb edilirlər. İnkişaf etmiş ölkələrdə ətraf mühitin çirkləndirilməsilə mübarizə üçün milli proqramlar işlənib hazırlanmışdır. Belə mübarizə hazırda beynəlxalq miqyasda aparılır.

**Təbiəti mühafizə təyinatlı torpaqlar** – Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə görə, xüsusi qorunan ərazi torpaqlarının bir növü. T.m.t.t.- a yerüstü su axınlarının və sututarların suqoruyucu zonalarının, kürü tökülməsi üçün mühafizə zolaqlarının, qoruyucu vəzifələri yerinə yetirən meşələrin, otlaqqoruyucu, tarlaqoruyucu, suqoruyucu və eoziyaya qarşı meşə əkmələrinin, təbiəti mühafizə vəzifələrini yerinə yetirən digər torpaq sahələri aiddir.

**Təbii hüquq nəzəriyyəsi** – XVI-XVII yüzilliklərdə Qərbi Avropada burjua münasibətlərinin təşəkkül tapdığı dövrdə meydana gəlmiş nəzəriyyə. Bu nəzəriyyəyə görə, dövlət və hüquq Allah tərəfindən deyil, insan zəkasının qanunlarına uyğun olaraq adamlar arasında bağlanan müqavilə nəticəsində yaranmışdır. T.h.n.-nin nümayəndələri (Hüqo Qrotsi, Benedikt Spinoza, Con Lokk və başqaları) cəmiyyətə və dövlətə fərdlər arasındakı müqavilənin məhsulu kimi baxırdılar. Holland mütəfəkkiri H.Qrotsiyə görə, təbii hüququn mənbəyi insan zəkası və insan təbiətidir. O, təbii hüququ "ilahi" və "bəşəri" hüquqa bölürdü. Digər holland mütəfəkkiri B.Spinozanın konsepsiyasına görə, dövlət və hüquq müqavilə yolu ilə yaranmışdır. O, monarxiyanı boşluq, köləlik və barbarlıq adlandıraraq, demokratiyanı ən münasib *idarəçilik forması hesab etmişdir.* T.h.n. o dövrün siyasi və hüquqi fikrinin inkişafında mütərəqqi rol oynamışdır.





**"Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında təbii inhisarlarla bağlı dövlət tənzimlənməsinin təşkilati və hüquqi əsaslarını müəyyən edən, təbii inhisar subyektləri ilə istehlakçıların maraqlarının uzlaşdırılmasını təmin edən qanunvericilik aktı.

Bu qanun 15 dekabr 1998-ci il tarixdə qəbul edilmişdir. O, 13 maddədən ibarətdir.

**Təbii qoruq təyinatlı torpaqlar** – Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə görə xüsusi qorunan ərazi torpaqlarının bir növü. T.q.t.t.-a qoruqların, yasaqlıqların (ov yasaqlıqları istisna edilməklə) təbiət abidələrinin, təbii (milli) dendroloji və zooloji parkların, nəbatət bağlarının torpaqları aiddir.

**"Təbii" kvota** – seçki metrinin (kvotasının) növlərindən biri; dairə üzrə verilmiş ümumi səslərin seçilməli olan deputatların sayına görə bölünməsi yolu ilə hesablanır.

**Təcavüz** – BMT Nizamnaməsinə zidd olaraq bir dövlətin (bir qrup dövlətin) digər dövlətin, yaxud xalqın (millətin) suverenliyi, ərazi bütövlüyü, siyasi müstəqilliyi əleyhinə *silahlı qüvvə tətbiq etməsi.* Ən təhlükəli təcavüz forması silahlı (birbaşa) təcavüzdür. Silahlı t. müasir beynəlxalq hüquqda ən ağır beynəlxalq cinayət – sülhə və bəşəriyyətin təhlükəsizliyinə qarşı cinayət hesab olunur. Dolayı, iqtisadi və ideoloji təcavüz anlayışı da mövcuddur. Beynəlxalq hüquqda t.-ə görə cinayət məsuliyyəti nəzərdə tutulur. Sülhə qarşı cinayət törətmiş dövlət siyasi və maddi məsuliyyət, fiziki şəxslər isə fərdi cinayət məsuliyyəti daşıyır. Siyasi məsuliyyət həm fərdi, həm də kollektiv tədbirlərdən ibarət ola bilər. Fərdi məsuliyyət t.-ün planlaşdırılması, hazırlanması, başlanması, yaxud həyata keçirilməsində təqsiri olan şəxslərin, həmçinin t. prosesində müharibə qanunlarına və adətlərinə qarşı cinayətlər törətmiş şəxslərin cinayət məsuliyyətini nəzərdə tutur.

**Təcavüz aktı** *(bax: təcavüz).*

**Təcavüzkar** – müasir beynəlxalq hüquqda təcavüz törədən dövlət. T. qismində bir dövlət, yaxud əgər hər biri faktiki olaraq təcavüzdə iştirak etmişdirsə, dövlətlər qrupu (məsələn, hərbi yardım haqqında müqavilə ilə əlaqədar) iştirak edə bilər.

**Təcavüzkar müharibəni başlamağa açıq çağırışlar** – cinayət qanunvericiliyinə görə sülh və bəşəriyyət əleyhinə cinayətlərin bir növü. AR CM-in 101-ci maddəsində nəzərdə tutulmuşdur. Təcavüzkar müharibəni başlamağa açıq çağırışlarda ifadə olunur.

**Təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma** – cinayət qanunvericiliyinə görə, sülh və bəşəriyyət əleyhinə cinayətlərin bir növü. AR CM-in 100-cü maddəsində nəzərdə tutulmuşdur. Təcavüzkar müharibəni planlaşdırma, hazırlama və ya başlamada ifadə olunur.

**Təcili sövdə (əqd)** - birjalarda qiymətli kağızlarla (vekssellərlə, çeklərlə, istiqrazlarla), yaxud əmtəələrlə həyata keçirilən sövdə (əqd növü; sövdələşmə).

**Təcili veksel** – ödəniş müddəti ilə rəsmiləşdirilmiş (qeydə alınmış) veksel.

**Tədhiş** *(bax: terror aktı).*

**Təfavüt** *(ərəb. fərq, müqayisə)* – orta əsrlərdə bəzi Yaxın Şərq ölkələrində, o cümlədən

Azərbaycanda mövcud olmuş qeyri-qanuni vergi növü. Adətən vergi həcmindən artıq toplanmış vəsait və ya ümumiyyətlə, vergilərin miqdarının çoxaldılması nəticəsində əldə olunmuş məhsul nəzərdə tutulurdu.

**Təfsir** *(bax: qanunun təfsiri).*

**Təftiş aktı** – idarə, müəssisə və təşkilatların, həmçinin birliklərin təsərrüfat – maliyyə fəaliyyətinin yoxlanmasının nəticələrinin rəsmiləşdirildiyi sənəd.

**Təhdid etmək** *(bax: hədələmə).*

**Təhkimçilik** – təhkimçilik hüququnun hökmranlığına əsaslanan təsərrüfat sistemi. Feodalizm dövründə dünyanın bir çox ölkələrində burjua münasibətlərinin formalaşmasınadək mövcud olmuşdur. T. təsərrüfat sistemi təhkimli kəndlinin öz ağasından, mülkədardan tam iqtisadi asılılığına əsaslanırdı.

**Təhkimçilik hüququ** – feodalizm dövründə dünyanın bir sıra ölkələrində təhkimli kəndlinin feodaldan tam iqtisadi asılılığını müəyyən edən təhkimli ilə mülkədar (ağa) arasında şəxsi və təsərrüfat-iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusu. T.h. Rusiyada 1861-ci ildə ləğv edilmişdir. Lakin kəndlilərə vəd edilib verilməli olan pay torpaqları onlara verilməmiş, yaxud həmin torpaqların satış qiyməti həddən artıq yüksək olduğuna görə kəndlilər onları satın almaq iqtidarında olmamışlar. Əslində isə təhkimçilikdən qurtulan kəndlilər yenidən mülkədarlardan asılı vəziyyətə düşmüş, lakin onlar artıq öz ağalarının təsərrüfatından istədikləri vaxt azad surətdə getmək hüququ əldə etmişlər.

**Təhkimli** – adətən təhkimli kəndli; feodalizm dövründə əsasən rus dövlətində və Qərbi Avropanın bir sıra ölkələrində mülkədardan (ağadan) şəxsən asılı, tam iqtisadi asılılıqda olan kəndli.

**Təhqiqat** – cinayətin istintaqı formalarından biri. Aşağıdakı t.-lar fərqləndirilir: a) ibtidai istintaqın aparılması məcburi olan işlər üzrə təhqiqat; b) ibtidai istintaqın aparılması məcburi olmayan işlər üzrə təhqiqat. Birinci halda t. yalnız cinayət işi başlama və cinayətin izlərinin müəyyən edilməsi və möhkəmləndirilməsi üçün təxirəsalınmaz istintaq hərəkətləri (hadisə yerinin müayinəsi, axtarış, götürmə, şəxsi müayinə, dindirmə və i.a.) aparmaqdan ibarətdir. Bu istintaq hərəkətlərini yerinə yetirdikdən sonra t. orqanı işin materiallarını müstəntiqə verir. İkinci halda isə t. cinayət işinin tam istintaqından ibarətdir. T. polis orqanlarının əməkdaşları, hərbi hissələrin komandanlıqları və hərbi idarənin rəisləri, milli təhlükəsizlik orqanlarının əməkdaşları, cəzaçəkmə müəssisələrinin rəisləri, dövət yanğından mühafizə orqanları, sərhəd mühafizəsi orqanları aparırlar.

**Təhqiqatçı** – Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə görə, öz səlahiyyətləri daxilində AR CPM-də nəzərdə tutulmuş hallarda və qaydada cinayət təqibi üzrə təhqiqat aparan şəxs (AR CPM-in 7.0.25-ci maddəsi). AR CPM-in 86-cı maddəsinə uyğun olaraq cinayət təqibini həyata keçirərkən t. qanununun tələblərini rəhbər tutaraq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edir, öz səlahiyyətləri daxilində istintaq və ya digər prosessual hərəkətləri həyata keçirir. Cinayət təqibini həyata keçirən t. səlahiyyətləri daxilində istintaq hərəkətlərinin və ya digər prosessual hərəkətlərin qanuni və vaxtında aparılmasına görə məsuliyyət daşıyır. T. öz icraatında olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirləri həyata keçirməyə haqlı deyildir. Cinayət işi prokurorun və ya müstəntiqin icraatına qəbul edildikdən sonra t. ayrı-ayrı istintaq hərəkətlərini, habelə müvafiq əməliyyat-axtarış tədbirlərini yalnız prokurorun və ya müstəntiqin göstərişləri ilə işlədiyi təhqiqat orqanı vasitəsilə həyata keçirir.







**"Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikasının qanunu** Azərbaycan Respublikasında təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi hüququnun təmin edilməsini tənzimləyən qanunvericilik aktı. Bu qanun 29 dekabr 1998-ci il tarixdə qəbul edilmişdir. O, 14 maddədən ibarətdir.

**Təhqiqat və ya ibtidai istintaq məlumatlarını yayma** ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 300-cü maddəsində nəzərdə tutulmuşdur. Qanunla müəyyən edilmiş qaydada yayılmaması barədə xəbərdarlıq edilmiş şəxs tərəfindən təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmə nəzarəti funksiyasını həyata keçirən hakimin icazəsi olmadan təhqiqat və ya ibtidai istintaq məlumatlarının yayılmasında ifadə olunur.

**Təhqir** – şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 148-ci maddəsində nəzərdə tutulmuşdur. Kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltmada ifadə olunur.

**Təhlükədə qoyma** – həyat və sağlamlıq əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 143-cü maddəsində nəzərdə tutulmuşdur. Həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə olan və özünü qorumaq üçün tədbir görmək imkanından məhrum olan şəxsi bilə-bilə köməksiz qoymada ifadə olunur.

**Təhlükəsizlik** – şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati mühüm mənafelərinin daxili və xarici təhlükələrdən müdafiə olunması vəziyyəti. T.-in əsas obyektləri aşağıdakılardır: a) şəxsiyyət, onun hüquq və azadlıqları; b) cəmiyyət, onun maddi və mənəvi sərvətləri; c) dövlət, onun konstitusiya quruluşu, suverenliyi və ərazi bütövlüyü. T.-in təmin edilməsilə əlaqədar mühüm ictimai münasibətlər Azərbaycan Respublikasının *Konstitusiyası ilə tənzim* edilir (31-ci maddə; 32-ci maddənin I və II hissələri). Bundan başqa, belə mühüm ictimai münasibətlər həm də Azərbaycan Respublikasının "Əhalinin radiasiya təhlükəsizliyi haqqında", "Texniki təhlükəsizlik haqqında" qanunu, cinayət qanunvericiliyi ilə və digər qanunvericiliklərlə, həmçinin digər hüquqi aktlarla tənzimlənir.

**Təhlükəsizlik texnikası** – avtomatik nəzarət və tənzimləyici cihazlar, qoruyucu qurğular, müşahidə, xəbərvermə, rabitə vasitələri və təhlükəsizliyi təmin edən digər texniki tədbirlər kompleksi.

**Təhlükəsiz yaşamaq hüququ** – əsas insan və vətəndaş hüquqlarından biri. Vətəndaşların konstitusiya hüquqlarından biridir. Azərbaycan Respublikası Konstitusiyasının 31-ci maddəsinə əsasən hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

**Təhrikçi** – cinayət qanunvericiliyinə görə cinayətin birgə iştirakçılarından biri; AR CM-in 32.4-cü maddəsinə uyğun olaraq ələ alma, sövdələşmə, hədə-qorxu gəlmə və ya digər üsullarla başqa şəxsi cinayət törətməyə sövq edən şəxs təhrikçi sayılır.

**Təhrikçilik** *(bax: təhrikçi).*

**Təhsil hüququ** – əsas insan və vətəndaş hüquqlarından biri. Vətəndaşların konstitusiya hüquqlarından biridir. Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsasən hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlət zəmanət verir. Dövlət minimum təhsil standartlarını müəyyən edir.

**Təhsil senzi** – seçki qanununun tələblərindən biri; bu tələbə uyğun olaraq seçki hüququ (aktiv və ya passiv) ancaq müəyyən təhsil səviyyəsinə malik olan vətəndaşlara (müəyyən sənədlə qeydə alınma əsasında) verilir.

**Təxribat** – cinayət qanunvericiliyinə görə, dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 282-ci maddəsində nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının müdafiə qabiliyyətini və iqtisadi təhlükəsizliyini zəiflətmək məqsədi ilə müəssisələrin, qurğuların, yolların əlaqə və rabitə vasitələrinin, əhalinin həyat təminatı obyektlərinin dağılmasına, yaxud zədələnməsinə yönəldilən partlayışlar, yanğınlar və sair hərəkətlər törətmədə, həmçinin eyni məqsədlə kütləvi surətdə zəhərləmə və ya insanlar və ya heyvanlar arasında yoluxucu xəstəliklər yaymada ifadə olunur.

**Təkbaşına hakimiyyət** *(bax: mütləq monarxiya)*

**Təkmili istintaq** – ibtidai istintaqın düzgün aparılmadığı, istintaq prosesində qanun pozuntularına yol verildiyi, yaxud sübut edilməli bir sıra halların aydınlaşdırılmadığı hallarda prokuror və ya məhkəmə tərəfindən cinayət işinin əlavə (təkmili) istintaqa qaytarılması. Prokuror cinayət işini müstəntiqə qaytararkən öz əlavə göstərişlərini ittihamnaməyə əlavə edir, istintaqın hansı istiqamətdə aparılmasını və bunun üçün hansı istintaq hərəkətlərinin yerinə yetirilməsini göstərir.

**Təkrar ekspertiza** – təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun və ya məhkəmənin ekspertin rəyinin əsassız olması ilə əlaqədar onun ilkin rəyi ilə razı olmadığı halda ekspertə və ya ekspertlərə tapşırılmaqla təyin edilən ekspertiza. T.e. təyin edilərkən əlavə ekspertizadan fərqli olaraq, ilkin ekspertizanın rəyi sübut növü kimi rədd edilir. T.e. təyin edilərkən müstəntiqin qərarında və ya məhkəmənin qərardadında ilkin ekspertizanın rəyi ilə razı olmamanın motivi göstərilməlidir.





**Təkrar seçkilər** – seçki baş tutmadıqda və ya onun nəticələri etibarsız hesab olunduqda təyin edilən seçkilər. AR SM-in 243-cü maddəsinə uyğun olaraq bələdiyyə seçkiləri baş tutmadıqda və ya etibarsız sayıldıqda, Mərkəzi Seçki Komissiyasının qərarı ilə təkrar seçkilər keçirilir. Bu zaman AR SM-in 240-cı maddəsinin müddəaları əsas götürülür.

**Təkzib hüququ** – Azərbaycan Respublikasının kütləvi informasiyaya dair qanunvericiliyinə görə, kütləvi informasiya vasitəsində fiziki və hüquqi şəxslərin şərəf və ləyaqətini ləkələyən böhtan və təhqir xarakterli məlumatlar verildikdə, fikirlər təhrif olunduqda fiziki şəxsin özünün və ya nümayəndəsinin, hüquqi şəxsin rəhbərlərinin, yaxud səlahiyyətli nümayəndəsinin həmin kütləvi informasiya vasitəsində altı ay müddətində cavab vermək, həqiqətə uyğun olmayan məlumatın təkzib olunmasını, düzəliş verilməsini, habelə üzr istənilməsini tələb etmək, yaxud birbaşa məhkəməyə müraciət etmək hüququ. Şikayətçi müraciət edərkən, yaxud məhkəmə qərar çıxararkən kütləvi informasiya vasitəsi müvəqqəti olaraq dayandırılmışsa və ya onun istehsalına (yayımına) xitam verilmişsə, təkzib cavabdehin vəsaiti hesabına iddiaçının istədiyi kütləvi informasiya vasitələrindən birində dərc oluna (efirə verilə) bilər.

**Təqdimat** – **1)** prokurorun təqdimatı – prokuror fəaliyyəti aktı. T. qanun pozuntusunun, pozuntunun səbəblərinin və buna imkan yaradan şəraitin ləğvi barəsində əsaslandırılmış təklifdir. T. nöqsanları aradan qaldırmağa səlahiyyəti olan dövlət orqanına, ictimai təşkilata, yaxud vəzifəli şəxslərə ünvanlanır (göndərilir). T.-a təxirə salınmadan baxılmalıdır. Qanunların icrasının yoxlanması, konkret qanunun icrasına nəzarət, istintaq və məhkəmə təcrübəsinin ümumiləşdirilməsi materiallarının, qanun pozuntularının strukturunun, dinamikasının və səbəblərinin öyrənilməsi t. vermək üçün əsasa xidmət edir. T.-da aşağıdakılar göstərilir: a) t.-ın göndərildiyi orqanın adı; b) onun ünvanlanmasının əsasına xidmət etmiş faktların mənbəyi; c) aşkar edilmiş pozuntuların təhlili; ç) pozuntunun baş verməsinə şərait yaratmış halların aradan qaldırılmasına dair prokurorun təklifləri və i.a.; **2)** müstəntiqin təqdimatı – cinayət prosesində, ibtidai istintaqla (təhqiqatda) toplanmış sübutlar əsasında tərtib edilmiş istintaq sənədi. T.-ın tərtib edilməsi və göndərilməsi müstəntiqin qanunla müəyyən edilmiş vəzifəsidir. Müstəntiq həm məhkəməyə verilmiş cinayət işləri, həm də icraatına xitam verilmiş cinayət işləri üzrə t. verə bilər.

**Təqib** – sülh və bəşəriyyət əleyhinə cinayətlərin bir növü. AR CM-in 109-cu maddəsində nəzərdə tutulmuşdur. Siyasi, irqi, milli, etnik, mədəni, dini, cinsi və ya beynəlxalq hüquq normaları ilə qadağan edilmiş digər əsaslara görə müəyyən edilmiş hər hansı bir qrupu və ya təşkilatı təqib etmədə, yəni qrupa və ya təşkilata mənsub olduqlarına görə insanları əsas hüquqlardan kobudcasına məhrum etmədə ifadə olunur.

**Təqlid** *(islamda)* – hansısa bir məzhəbdən olan müctəhidin fiqhin xüsusi məsələlərinin tədqiqində onun nüfuzuna ehtiramla yanaşma, onu təqlid etmə.

**Təqsir** – hüquq normasının tələblərini pozan şəxsin ictimai təhlükəli hərəkət və ya hərəkətsizliyinə daxili-psixi və obyektiv münasibəti.

**Təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etmə** – ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 290-cı maddəsində nəzərdə tutulmuşdur. Təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etmədə ifadə olunur.

**Təqsirləndirilən şəxs** – cinayət-prosessual qanuvericiliyinə uyğun olaraq müstəntiqin, prokurorun və ya məhkəmənin təqsirləndirilən şəxs qismində cəlb etmə barədə haqqında qərar çıxarıldığı fiziki şəxs. Anlaqsız vəziyyətdə və ya cinayət məsuliyyəti yaradan müəyyən yaş həddinə çatmamış cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsi istinaq edilən şəxs də təqsirləndirilən şəxs kimi tanınır. O, AR CPM-in müddəaları ilə nəzərdə tutulmuş əlavə və istisnalarla yanaşı təqsirləndirilən şəxsin hüquqlarına malikdir və onun vəzifələrini daşıyır. Şəxsin barəsində cinayət təqibinə xitam verildiyi andan o, təqsirləndirilən şəxs vəziyyətindən çıxmış hesab olunur.

Müstəntiq, prokuror və ya məhkəmə təqsirləndirilən şəxsin hüquqlarını təmin etməli və ona qanunla qadağan edilməyən bütün vasitə və üsullardan istifadə etməklə müdafiə hüququnu həyata keçirməsinə mane olmamalı və onun xahişi ilə müdafiəyə hazırlıq üçün kifayət qədər vaxt verilməlidir (AR CPM-in 91-ci maddəsi).

**Təqsirləndirmə** – hər hansı cinayətin törədilməsində ittiham etmə. T. ittihamın elan edilməsilə həyata keçirilir. Bu hərəkətin yerinə yetirilməsi təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarda ittihamın elan edilmə tarixi göstərilməklə təqsirləndirilən şəxsin və müstəntiqin imzası ilə təsdiq edilir.

**Təqsirnamə** *(bax: ittihamnamə).*

**Təqsirsizlik prezumpsiyası** *(lat. güman)* – hüquqda vəziyyət, yaxud hal. T.p.-na əsasən təqsirləndirilən şəxs, təqsiri qanunla müəyyən edilmiş qaydada sübut edilməyənədək təqsirli hesab oluna bilməz. T.p. ilk dəfə "İnsan və vətəndaş hüquqları" bəyannaməsində (1789-cu il) elan edilmişdir. Bu prinsip müasir hüquq elmi (cinayət-prosessual hüquq elmi) tərəfindən hamılıqla qəbul edilmişdir. Həmin prinsip 1948-ci ildə qəbul edilmiş "İnsan hüquqları bəyannaməsi"ndə də nəzərdə tutulur. Həmin aktın 11-ci maddəsində göstərilir ki, cinayət törətməkdə ittiham edilən hər bir insanın hüququ vardır ki, ona müdafiə üçün hər cür imkan verilən şəraitdə keçirilən açıq məhkəmə baxışında onun təqsirsizliyi sübut edilənədək özünü təqsirsiz hesab etsin. Həmin prinsip Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsində təsbit edilmişdir. Orada deyilir: "Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır. Məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz".

**Tələb** *(bax: iddia tələbi).*

**Tələbin güzəşti** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi (mülki-hüquqi öhdəliklərin bir növü). AR MM-in 194-cü maddəsinə uyğun olaraq tələbin sahibi (kreditor) borclunun razılığı olmadan tələbi üçüncü şəxsə güzəşt edə bilər (tələbin güzəşti), bu şərtlə ki, həmin güzəşt öhdəliyin mahiyyətinə, onun borclu ilə razılaşmasına





və ya qanunvericiliyə zidd olmasın. Güzəştin yolverilməzliyi barədə borclu ilə razılaşma yalnız borclunun üzrlü mənafeyi olduqda mümkündür. T.g. tələbin sahibi ilə üçüncü şəxs arasında bağlanan müqavilə ilə həyata keçirilir. Belə hallarda ilk sahibin yerini üçüncü şəxs tutur.

**Tələfetmə** *(bax: əmlakı məhv etmə).*

**Təlimat** *(ərəb. idarəetmə aktı)* – qanun qüvvəli akt. T. hər hansı fəaliyyətin həyata keçirilməsi qaydasını və şərtlərini tənzim edən norma və qaydalardan ibarət olan hüquqi aktdır. T.-lar, bir qayda olaraq, nazirliklər, dövlət komitələri və baş idarələr tərəfindən verilir. Dövlət əhəmiyyətli ən mühüm t.-lar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

**Təminat fondu** – hesablama palatası üzvlərinin vəsaitləri hesabına yaranan birja fondu. Fondun vəsaitinin miqdarı firmanın böyüklüyündən və onun apardığı əməliyyatların həcmindən asılıdır. T.f. bankda saxlanılır və hesablama palatası direktorlarının xüsusi icazəsi olmadan həmin fond götürülə bilməz.

**Təminatlı beh** – birjada müştərinin maliyyə öhdəliklərinin təminatı şəklində hər bir birja kontraktı bağlanarkən hesablama palatasında birja üzvləri tərəfindən ödənilən pul məbləği. İlkin (depozit) və dəyişkən (marka) t.b. fərqləndirilir.

**Təminatlı istismar müddəti** – istismar qaydalarına əməl edilməsi şərtilə məhsulun keyfiyyət göstəricilərinin sabitliyi barədə istehsalçının istehlakçıya təminat verdiyi zaman müddəti.

**Təminatlı kredit** – bankın və ya hökumət orqanının tapşırığı (təminatı) ilə müəssisələrin bir-birinə verdikləri kredit.

**Təminatlı öhdəlik** – borcludan məbləğin vaxtında ödənilməsini təmin etmək üçün zəmanət verən tərəfindən kredit verənə təqdim edilən öhdəlik. T.ö. hüququ olan hökumət orqanları, banklar və digər təşkilatların şəxsində dövlət tərəfindən verilə bilər. Müasir şəraitdə eksport (ixrac) krediti üzrə dövlətin təminatlı öhdəliyi geniş yayılmışdır.

**Təminatlı saxlama müddəti** – istismar göstəricilərinin müəyyən edilmiş bütün standartlarının saxlanmasına və onun saxlanması qaydalarına istehlakçı tərəfindən əməl edilməsi şərtilə məhsulun istehlak xassələrinə istehsalçı tərəfindən təminat verildiyi zaman müddəti.

**Təminat məktubu** – mülki hüquqda sənəd; bu sənədə uyğun olaraq qarant (tapşırıq verən) müəyyən öhdəlikləri öz üzərinə götürür. Bu öhdəliklər məktubda qeyd edilən şərtlərin meydana çıxmadığı zaman realizə oluna bilər.

**Təminat müddəti** – boclunun, verilmiş əşyanın, yaxud yerinə yetirilmiş işin keyfiyyətinə görə kreditorun qarşısında cavab verməsi müddəti. T.m.-ndən alqı-satqı, daşıma, podrat müqavilələrində geniş istifadə olunur. T.m.-nin beş növü mövcuddur: 1) istismar müddəti; 2) saxlanc (saxlama) müddəti; 3) yararlılıq (sazlıq) müddəti; 4) işləmə müddəti; 5) xidmət müddəti. Alqı-satqı müqavilələrində yalnız istismar təminat müddəti tətbiq edilir.

**Təminat sığortası** – könüllü əmlak sığortasının bir növü; bu sığortaya görə ci-

nayətkar hərəkətlər, səhlənkarlıq və etinasızlıq nəticəsində vurulmuş zərərin əvəzi müəssisəyə ödənilir.

**Təminat vekseli** – veksel sahibinin adından veksel verən tərəfindən vekseldə göstərilən məbləğ əldə edilmədən təsərrüfat əqdinin təmin olunması üçün verilən veksel.

**Tənzimləmə** – ictimai münasibətləri hüquqi cəhətdən tənzim etmə üsulu. Bu üsul ictimai münasibətlər iştirakçılarına subyektiv hüquq və vəzifələrin verilməsini nəzərdə tutur. İctimai münasibətləri tənzim etmə əxlaqi, siyasi və i.a. xarakterdə olur. Hüquqi tənzimetmənin xüsusiyyəti ondan ibarətdir ki, o, dövlət tərəfindən həyata keçirilir, müdafiə olunur və ictimai münasibətlərin yalnız müəyyən tənzimetmə mexanizminin ilk (statik) mərhələsidir. Bu mərhələdə hüquq normaları və onlara müvafiq olan hüquq münasibətlərinin müxtəlif ictimai münasibətləri ifadə olunur.

**Tərcüməçi** *(hüquqda)* – Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə görə cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında icraatın materiallarını, habelə məhkəmə iclasının gedişi, istintaq və ya digər prosessual hərəkətlərin aparılması zamanı səslənən bütün danışıqları tərcümə etmək üçün cinayət prosesini həyata keçirən orqan tərəfindən təyin edilmiş şəxs (AR CPM-in 99.1-ci maddəsi). T. cinayət prosesi iştirakçılarının təklif etdikləri şəxslər içərisindən də təyin edilə bilər. Hakim, andlı iclasçılar, prokuror, müstəntiq, təhqiqatçı, müdafiəçi, qanuni nümayəndə və prosesin digər iştirakçıları, o cümlədən hal şahidləri, məhkəmənin iclas katibi, ekspertlər, mütəxəssislər, şahidlər tərcümə edilməli olan dili bilsələr də t. təyin edilə bilməzlər. T.-nin öz vəzifəsini icra etməməsi Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulan məsuliyyətə səbəb olur. T. yerinə yetirdiyi vəzifəyə görə haqq almaq hüququna malikdir.

**Tərəflərin barışması** *(bax: barışıq sazişi).*

**Tərh** – orta əsrlərdə bəzi Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda xüsusi feodal qayda-qanunu. T. xüsusi tədbir kimi iki şəraitdə həyata keçirilirdi: 1) ölkədə qıtlıq baş verdikdə dövlət xəzinəsinə zəruri olan hər hansı məhsul, mal, əmtəə və i.a. əhalidən bazar qiymətindən dəfələrlə ucuz qiymətə alınırdı; 2) dövlət anbarları və xəzinəsində toplanmış artıq məhsullar bazar qiymətindən xeyli baha qiymətə satılırdı. T., bir qayda olaraq, məcburi qaydada həyata keçirilirdi.

**Tərxis** *(ərəb. rüsxət, müsaidə, buraxma)* – **1)** müharibənin qurtarması, həqiqi hərbi xidmətin başa çatması, xəstəlik, yaxud ailə vəziyyətilə əlaqədar hərbi qulluqçunun ölkənin silahlı qüvvələrindən buraxılması (tərxis edilməsi); **2)** silahlı qüvvələrin və müharibə ilə əlaqədar olaraq hərbiləşdirilmiş bütün istehsal sahələrinin hərbi vəziyyətdən dinc (mülki) vəziyyətə gətirilməsi.

**Tərk-silah** – müharibə aparma vasitələrinin tamamilə məhv edilməsi, yaxud əhəmiyyətli dərəcədə məhdudlaşdırılması, dünya nüvə müharibəsi təhlükəsinin aradan qaldırılması üçün əlverişli şərait yaradılmasına yönəldilmiş tədbirlər sistemi. Silahlı münaqişələrə, toqquşmalara qarşı tutarlı vasitə kimi t. ideyası çoxdan məlumdur. Lakin bu ideyadan bəzi separatçı, müharibəpərəst və işğala yönümlü qüvvələr tərəfindən siyasi manevr, düşmən tərəfin hərbi cəhətdən zəifləndilməsi və öz hərbi cəbbəxanasını pərdələmək üçün də istifadə edilmişdir.







**Təsdiq edilməmiş akkreditiv** – icraçı bank tərəfindən ödənişin təsdiqinin olmadığı akkreditiv.

**Təsdiq edilmiş akkreditiv** – təsdiq edilmiş akkreditivin açıldığı bankdan vəsaitlərin daxil olmasından asılı olmayaraq ödəməni həyata keçirən bankın akkreditivdə göstərilən məbləği ödəmək öhdəliyini üzərinə götürdüyü akkreditiv.

**Təslim** *(hərbdə – təslim aktı)* – qalib gəlmiş tərəfin hökmü və ya sazişlərlə əldə edilmiş razılıq nəticəsində silahlı qüvvə ilə müqavimətin dayandırılması. T.-dən sonra, bütün silahlar, hərbi gəmilər və təyyarələr, möhkəmləndirilmiş məntəqələr və hərbi mühəlləfat qalib tərəfə verilir, şəxsi heyət isə hərbi əsirlər kimi rəqibin ixtiyarına keçir.

**Təsviyə** *(bax: xitam vermə).*

**Təşkilat** – hər hansı proqramı, yaxud məqsədi birlikdə həyata keçirən, eləcə də müəyyən edilmiş üsul və qaydalar əsasında fəaliyyət göstərən insanların birliyi.

**Tətil** – kollektiv və fərdi əmək mübahisəsini həll etmək məqsədi ilə işçilərin (işçinin) müvəqqəti olaraq öz əmək funksiyasının icrasından tam və ya qismən könüllü imtina etməsi (AR ƏM-in 3.17-ci maddəsi).

**Tətil hüququ** – əsas insan və vətəndaş hüquqlarından biri. T.h. konstitusiya hüququdur. Azərbaycan Respublikasının Konstitusiyasının 36-cı maddəsinə əsasən hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır. Əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və digər silahlı birləşmələrdə xidmət edən hərbi qulluqçular və mülki şəxslər tətil edə bilməzlər. Fərdi və kollektiv əmək mübahisələri qanunla müəyyənləşdirilmiş qaydada həll edilir.

**Təzminat** *(beynəlxalq hüquqda)* – dəymiş ziyanı ödəməyi (adətən, pulla) nəzərdə tutan əvəzetmə. T. sülh müqaviləsi, yaxud başqa beynəlxalq aktlar əsasında həyata keçirilir. T. ilk dəfə 1919-cu ildə Versal sülh müqaviləsində əsaslandırılmışdır. Faşist Almaniyası və onun müttəfiqlərinin İkinci dünya müharibəsində vurduqları ziyanın t. formasında ödənilməsi 1945-ci ildə Krım konfransında və həmin ildə keçirilən Potsdam konfransında müəyyən edilmişdir. 1947-ci il müqavilələrində Almaniyanın tərəfindən vuruşan dövlətlərdən də t. almaq nəzərdə tutulurdu. T. restitusiya formasında da həyata keçirilə bilər.

**Tırnovo Konstitusiyası** – Bolqarıstanın Osmanlı hökmranlığından azad olmasından sonra 16 aprel 1879-cu il tarixdə Tırnovoda Müəssislər Məclisi tərəfindən qəbul edilmiş siyasi-hüquqi sənəd (konstitusiya). Bir sıra demokratik azadlıqlar (seçki hüququ, söz, mətbuat, təşkilatlanma azadlığı və i.a.) elan etməsinə baxmayaraq, T.K. ölkədə hakimiyyəti əslində monarxın ixtiyarına verirdi. İlk vaxtlar monarxın qanunvericilik hakimiyyəti parlament vasitəsilə xeyli məhdudlaşdırılmışdır. 1934-cü ildə faşist çevrilişindən sonra T.K.-nın fəaliyyəti dayandırılmışdır. T.K. rəsmi surətdə 1947-ci il dekabrın 4-də Böyük Xalq Məclisinin qərarı ilə ləğv edilmişdir.

**Tibbi ekspertiza** – Azərbaycan Respublikasında insanın sağlamlıq vəziyyətini (səhhətini), o cümlədən müvəqqəti əmək qabiliyyətsizliyi faktını, əlilliyin səbəblərini və qrupunu və i.a. müəyyənləşdirmək məqsədilə müəyyən edilmiş qaydada aparılan tədqiqat. T.e.-nın aşağıdakı növləri fərqləndirilir: a) müvəqqəti əmək qabiliyyətsizliyinin ekspertizası; b) tibbi-sosial ekspertiza; c) hərbi-həkim ekspertizası; ç) məhkəmə-tibb ekspertizası; d) məhkəmə-psixiatriya ekspertizası; e) müstəqil-tibbi ekspertiza.

**Tibbi hüquq** – təbabətdə və tam mənası ilə sağlamlığın mühafizəsi sahəsində əmələ gələn münasibətləri tənzim edən hüquq sahəsi. T.h. ancaq təbabətə deyil, insan sağlamlığının mühafizəsi sahəsində yurisprudensiyanın təcrübi tətbiqi haqqında kompleks təsəvvürlərin məcmusundan ibarətdir.

**Tibbi xarakterli məcburi tədbirlər** – Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə müəyyən edilən tədbirlər sistemi. T.x.m.t. məhkəmə tərəfindən AR CM-də nəzərdə tutulmuş əsaslara (CM-in 93-cü maddəsi) uyğun olaraq təyin edilir. Belə tədbirlərin tətbiq edilməsinin məqsədi əməli (hərəkət və ya hərəkətsizliyi) anlaqsız vəziyyətdə, psixi xəstəlik, yaxud psixi pozuntu vəziyyətində törətmiş, habelə cinayət törətmiş, alkoqolizmdən və ya narkomanlıqdan müalicəyə ehtiyacı olan şəxslərə onlar tərəfindən yeni cinayət törədilməsinin qarşısının alınmasından ibarətdir (CM-in 94-cü maddəsi). Cinayət qanunvericiliyində t.x.m.t.-in aşağıdakı növləri fərqləndirilir: 1) məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi; 2) ümumi tipli psixiatriya stasionarlarında məcburi müalicə; 3) ixtisaslaşdırılmış psixiatriya stasionarlarında məcburi müalicə; 4) ixtisaslaşdırılmış psixiatriya stasionarlarında intensiv müşahidə altında məcburi müalicə. Tədbirlər məhkəmə tərəfindən təyin edilir (CM-in 5-ci maddəsi).

**Tibbi sığorta** – Azərbaycan Respublikasında sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi formalarından biri. Qanunvericiliyə görə, sığorta hadisəsi baş verdikdə Azərbaycan Respublikası əhalisinin tibbi və dərman yardımı almasına təminat verir. T.s. icbari və könüllü formada həyata keçirilir. İcbari t.s. dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, icbari tibbi sığorta proqramına müvafiq həcmdə əhalinin tibbi yardım və dərman yardımı almasını təyin edir. Könüllü t.s. icbari t.s. proqramında müəyyənləşdirildiyindən əlavə könüllü t.s. müqaviləsi əsasında əhalinin tibbi və digər xidmət almasını təmin edir. ("Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli qanununun 1-ci maddəsi).

**"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında əhalinin tibbi sığortasının təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edən, tibbi sığortanın subyektləri arasındakı münasibətləri tənzim edən qanunvericilik aktı.

Bu qanun 28 oktyabr 1999-cu il tarixdə qəbul edilmişdir. O, beş fəsil və 17 maddədən ibarətdir. Qanuna 20 fevral 2001-ci il tarixdə əlavə və dəyişikliklər edilmişdir.

**Tibbi-sosial ekspertiza** – Azərbaycan Respublikasında tibbi ekspertizanın bir növü. T.-s.e əlilliyin səbəbini və qrupunu, əmək qabiliyyətinin itirilməsi dərəcəsini; reabilitasiya aparılmasının növünü, həcmini və müddətlərini və sosial müdafiə tədbirlərini müəyyən edir, vətəndaşların işə düzəlməsinə dair tövsiyələr verir. T.-s.e. əhalinin sosial müdafiəsi sisteminə daxil olan müəssisələr tərəfindən aparılır. T.-s.e. müəssisəsinin vətəndaşların işə düzəlməsinə dair tövsiyələri mülkiyyət formasından asılı olmayaraq müəssisələrin müdiriyyəti üçün məcburidir.

**Tibbi sterilizasiya** – insanı döl vermək qabiliyyətindən məhrum etmək məqsədi ilə xüsusi müdaxilə. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası qanununun 31-ci maddəsinə uyğun olaraq tibbi sterilizasiya insanı nəsil artımı vermək qabiliyyətindən məhrum etmək, yaxud qadını hamiləlikdən qorumaq məqsədilə tətbiq edilir. T.s yalnız müdaxilə olunan şəxsin yazılı ərizəsinə və tibbi göstərişlərə əsasən həyata keçirilir. T.s.-ya dair göstərişlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir və dövlət, yaxud qeyri-dövlət tibb müəssisələrində aparılır. T.s.-nın qeyri-qanuni aparılmasına görə təqsirli olan şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Ticarət adətləri** – beynəlxalq ticarət dövriyyəsində uzun müddət işlənmə nəticəsində yaranmış adətlər. T.a. bu və ya digər formada dövlət tərəfindən sanksiyalaşdırıldıqda (məsələn, qanunda həmin t.a.-nə istinad edilməsi, onun məhkəmə təcrübəsində tətbiq edilməsi yolu ilə) hüququn mənbəyi hesab olunur.

**Ticarət agenti** – məhsulun istehsalçısı ilə istehlakçısı arasında vasitəçi. T.a. malların sahibi deyil. O, hər şeydən əvvəl, istehsalçının müəyyən regionda fəaliyyət göstərən nümayəndəsidir. T.a. malların müəyyən hissəsinin və ya hamısının satışını həyata keçirə, məhsulun potensial alıcılarının axtarışını həyata keçirə, istehlakçılara müəyyən xidmətlər göstərə bilər.

**Ticarət balansının aktiv saldosu** – ölkənin əmtəə ixracının onun əmtəə idxalını üstələməsi.

**Ticarət evi** – malların və xidmətlərin geniş nomenklaturası üzrə əsasən idxal-ixrac ticarət əməliyyatlarını həyata keçirən, istehsalın, elmi-texniki əməkdaşlığın beynəlxalq kooperasiyasını təşkil edən istehsalat-ticarət təşkilatı.

**Ticarət gəmiçiliyi** – gəmilərdən istifadə etməklə həyata keçirilən fəaliyyət növü. T.g.-nin fəaliyyət növləri aşağıdakılardır: 1) yüklərin, sərnişinlərin və onların baqajlarının, poçt göndərişlərinin daşınması; 2) su bioloji ehtiyatlarının ovu; 3) gəmilərin dəniz bələdçisi ilə keçirilməsi; 4) dənizin dibində və təkində mineral ehtiyatların kəşfiyyatı və hasilatı; 5) yedəkləmə, buzqırma, axtarış və xilasetmə əməliyyatları; 6) dənizdə batmış əmlakın qaldırılması; 7) dəniz mühitinin qorunması və saxlanması; 8) digər təsərrüfat, elmi, tədris, idman və mədəni məqsədlər üçün istifadə.

**Ticarət Gəmiçiliyi Məcəlləsi** – Azərbaycan Respublikasında ticarət gəmiçiliyinin fəaliyyətinin hüquqi əsaslarını, onun səmərəli təşkili və məqsədli inkişafından yaranan münasibətləri tənzim edən sistemləşdirilmiş qanunvericilik aktı. AR TGM 22 iyun 2001-ci il tarixdə qəbul edilmişdir. Məcəllə 24 fəsil və 335 maddədən ibarətdir.

**Ticarət hüququ** – bir sıra ölkələrdə ticarət və sahibkarlıq sahəsində münasibətləri tənzim edən, mülki hüquqdan ayrılmış əlahiddə hüquq sahəsi. T.h. orta əsrlərdə

İtaliyada tacir hüququ kimi meydana gəlmişdir. O, şəhər statutlarında təsbit edilirdi. T.h.-nun məcmuələri də mövcud olub. Rodos dəniz hüququ və Raquzin statutları məcmuələrini buna misal göstərmək olar. Ticarət şirkətlərinin fəaliyyətini, qiymətli kağızların dövriyyəsini, ticarət əqdlərini tənzim edən t.h. müasir iqtisadi münasibətlərin inkişafında mühüm rol oynayır.

**Ticarət markası** – bir sıra xarici dövlətlərin qanunvericiliyinə görə, bir satıcının və ya satıcılar qrupunun mallarının və ya xidmətlərinin eyniləşdirilməsi və onların mallarından və xidmətlərindən rəqabətçilərin differensiasiya edilməsi üçün nəzərdə tutulan ad, termin, rəmz, nişan, rəsm və ya onların əlaqələndirilməsi.

**Ticarət Məcəlləsi** – bir sıra ölkələrdə ticarət şirkətlərinin və fərdi ticarətlə məşğul olan ayrı-ayrı şəxslərin (tacirlərin) fəaliyyətini tənzim edən sistemləşdirilmiş qanunvericilik aktı. TM Fransada (1807-ci il Ticarət Məcəlləsi), Almaniyada (1900-cü il Almaniya Ticarət Məcəlləsi) və Yaponiyada (1899-cu il Ticarət Məcəlləsi) qüvvədədir.

**Ticarət nümayəndəliyi** – bir sıra ölkələrdə dövlətin xaricdə xarici iqtisadiyyat sahəsində hüquqlarını həyata keçirən dövlət orqanı.

**Ticarət nümayəndəsi (agent)** *(bax: ticarət agenti).*

**Ticarət nümayəndəsi (agent) haqqında müqavilə** – mülki-hüquqi müqavilələrin bir növü. AR MM-in 789.1-ci maddəsinə uyğun olaraq ticarət nümayəndəsi haqqında müqaviləyə görə, sənətkarlıq şəklində müstəqil fəaliyyətlə məşğul olan şəxsə (ticarət agentinə) alqı-satqı müqavilələrinin, habelə xidmətlər yaradılmasına dair müqavilələrin (ticarət əqdlərinin) bağlanmasında hər hansı istehsalçının, sənayeçinin və ya tacirin (tapşıranın) adından və hesabına vasitəçilik xidmətləri göstərmək və (və ya) bunları bağlamaq barəsində uzunmüddətli tapşırıq verilir.

**Ticarət palatası** – eynilə Ticarət-sənaye palatası. Bu ad qarışıq və xarici ticarət-sənaye palataları üçün daha səciyyəvidir. Xarici ticarət münasibətlərinin inkişafına kömək edən t.p.-nın hüquqi vəziyyəti onun nizamnaməsi ilə müəyyən edilir. 1920-ci ildə Parisdə (Fransa) yaradılan Beynəlxalq Ticarət Palatası (BTP) 100-dən artıq ölkənin işgüzar dairələrini və ayrı - ayrı firmalarını birləşdirir. BTP qeyri-hökumət təşkilatıdır. Onun əsas vəzifəsi müxtəlif ölkələr arasında ticarətin şərtlərini və bir sıra beynəlxalq iqtisadi problemləri həll etməkdən ibarətdir.

**Ticarət reyestri** – Qərbi Avropa dövlətlərində hüquqi sənəd. T.r.-ndə kommersiya fəaliyyətini həyata keçirən fiziki və hüquqi şəxslər (şirkətlər) məcburi qaydada qeydə alınırlar. T.r.-ni məhkəmə orqanları aparırlar. Reyestrdə qeydə alınan fakt fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini müəyyən edir.

**Ticarət-sənaye palatası** - müəssisələrə və sahibkarlara müxtəlif növ xidmətlərin (informasiya, məsləhət, münsiflər xidməti) göstərilməsi üçün onları birləşdirən qeyri-dövlət kommersiya təşkilatı. T.-s.p. həm ölkə daxilində, həm də xaricdə ticarət nümayəndəliklərinin kollektiv mənafelərini müdafiə və təmsil edir.

**Ticarət vekseli** - malların əldə edilməsinə görə hesablaşmalar üçün ticarət təşkilatı tərəfindən verilən və ya akseptləşdirilən əmtəə vekselinin bir növü.

**Tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarını pozma** - ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 222-ci maddəsində nəzərdə tutulmuşdur. Tikintinin planlaşdırılması, ona rəhbərlik edilməsi, habelə tikinti obyektinin sökülməsi və ya bu obyektdə yenidənqurmanın aparılması zamanı işlərin, eləcə də mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizliyi qaydalarının pozulmasında ifadə olunur.

**Tikintiyə vərəsəlik hüququ** - mülki qanunvericiliyə görə əşyadan istifadə hüququnun bir növü. AR MM-in 250-ci maddəsinə uyğun olaraq torpaq sahəsi elə yüklü ola bilər ki, onun üstündə və ya altındakı binaya malik olmaq hüququ - özgəninkiləşdirilən və vərəsəlik üzrə keçən hüquq xeyrinə yükləmə aparılan şəxsə mənsub olar. Tikintiyə vərəsəlik hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır. Tikintiyə vərəsəlik hüququ tikinti üçün zəruri olmayan, lakin binadan daha yaxşı istifadə etməyə imkan verən torpaq sahəsi hissəsinə şamil edilə bilər. Tikintiyə vərəsəlik hüququnun müddəti tərəflərin razılaşması ilə müəyyənləşdirilir, lakin doxsan doqquz ildən çox ola bilməz.

**Timar** *(türk. timar)* orta əsrlərdə Osmanlı imperiyasında şərti irsi torpaq sahibliyi. T. dövlət torpaq fondundan hərbi xidmətə görə verilirdi. T. sahibi türk ordusunun hərbi yürüşlərində silahlı atlı dəstəsi ilə iştirak etməli idi Xüsusi xidmətlərə görə t.-ın sahəsi artırılırdı. T. sistemi XIX yüzilliyin 30-cu illərində ləğv edilmişdi.

**Timarçı** – timar sahibi *(bax: timar).*

**Timokratiya** *(yun. timokratio)* - qədim yunan siyasi-hüquqi fikrinə (Aristotelə) görə vətəndaşlara onların əmlak vəziyyətindən asılı olaraq siyasi hüquqlar verən dövlət quruluşu. T. oliqarxiyanın xüsusi formasıdır. Vətəndaşların pul vəsaitlərinin miqdarını, hərbi mükəlləfiyyətini və son həddə siyasi hüquqlarını müəyyən edən əmlaka görə bölgü təcrübəsi eramızdan əvvəl VII yüzilliyə aid edilir. Afinada Solon tərəfindən vətəndaşların dərəcələrə bölgüsünün aparılması böyük nəticələrə səbəb olmuşdur. Dərəcələrə bölgünün əsasını torpaqdan əldə edilən gəlirlər təşkil edirdi. Eramızdan əvvəl V yüzillikdən başlayaraq dərəcələrə bölgü tədricən öz əhəmiyyətini itirmişdir. Eramızdan əvvəl IV yüzilliyin sonunda Afinada timokratik qanunlar yenidən müvəqqəti olaraq fəaliyyət göstərməyə başlamışdır.

**Tipik proformalar** – beynəlxalq ticarət hüququnun yardımçı mənbələrindən biri. Xarici iqtisadi müqavilələr üçün bu müqavilələrə daxil edilən şərtlərin tipikləşdirilməsi səciyyəvidir ki, bu da müxtəlif ümumi şərtlərdən, tipik kontraktlardan istifadədə geniş ifadə olunur. BMT-nin Avropa İqtisadi Komissiyası (AİK) tərəfindən hazırlanan ümumi şərtlər və tipik kontraktlar çox məşhurlaşmışdır.

**Tiran** *(yun. tyrannos)* – **1)** Qədim Yunanıstanda və XIII-XVI yüzilliklərdə İtaliyanın şəhər-respublikalarında hakimiyyəti zorakılıqla ələ keçirən şəxs; **2)** ölkəni zorakılıqla, qəddarlıq və amansızlıqla, sərt qanunlarla idarə edən müstəbid, zalım imperator (kral, monarx).

**Tiranlıq** *(yun tyrannis)* – Qədim Yunanıstanda eramızdan əvvəl VII yüzilliyin sonundan başlayaraq ellinizm dövrünədək

mövcud olmuş dövlət idarəçilik forması. Eramızdan əvvəl VII-VI yüzilliklərdə ictimai-iqtisadi yenidənqurmanın nəticəsi olmaqla, aristokratiya ilə xalq kütlələri arasında mübarizə prosesində meydana gəlmiş t. iqtisadi cəhətdən yüksək dərəcədə inkişaf etmiş şəhər - respublikalarda təzahür etmişdir. T.-ın mənfi qiyməti ilk dəfə demokratik idarəçiliyin münasib bilindiyi dövrdə verilmiş, təkbaşına hakimiyyət prinsipinin əsasları rədd edilmişdir. Korinfli Kipsel və Periandr, Polikrat, Afinalı Pisistrat, Birakuzalı Gelon və I Gieron, Miletalı Frasibul məşhur tiranlar hesab olunurlar.

**Titul** *(lat. titulus)* – **1)** feodalizm cəmiyyətində yuxarı zadəgan nümayəndələrinə verilən, yaxud irsən keçən (məsələn, hersoq, knyaz, qraf, markiz, baron, milord; Azərbaycanda bəy, ağa, mirzə və i.a.) fəxri ad, rütbə; **2)** hüquqda – hər hansı hüququn əsası (məsələn, alğı-satqı, bağışlama titulu və i.a.); **3)** titul siyahısı.

**Titul millət** – dövlətin əhalisinin bir hissəsi; bu əhalinin milliyyəti müvafiq dövlətin rəsmi adını müəyyən edir.

**Titul sahiblik** – müvafiq yuridik faktdan (məsələn, əşyaların alqı-satqısına əsaslanan və ya əmlakın vərəsəlik yolu ilə keçməsindən irəli gələn mülkiyyət hüququ) yaranan hər hansı hüquqa əsaslanan hüquqi əsaslarla əşyaya sahiblik. Bundan fərqli olaraq titulsuz (faktiki) sahiblik hər hansı hüquqa əsasən mübahisə predmeti ola bilməz.

**Titul siyahısı** – Azərbaycan Respublikasında müəyyən edilmiş qaydada təsdiq edilməklə müəyyən tikinti barəsində əsas məlumatlardan ibarət olan və sifarişçi, podratçı, plan, maliyyə və təchizat orqanı tərəfindən hökmən icra olunmalı olan sənəd. Siyahıda tikintinin adı və yerləşdiyi yer, başlanması və qurtarması ili, layihə gücü, smeta dəyəri əsaslı vəsait qoyuluşunun həcmi üzrə tapşırıqları, əsas fondların işə salınması göstərilir.

**Titulyar müşavir** - Rusiyada 9-cu dərəcəli rütbə. 1845-ci ildən başlayaraq şəxsi zadəganlıq verirdi.

**Tiun** – XI-XIII yüzilliklərdə Qədim Rus dövlətində feodal təsərrüfatını idarə edən imtiyazlı knyaz və boyar xidmətçilərinin adı. XIV-XVII yüzilliklərdə böyük knyazın t.-u onun təsərrüfatında çalışır, volost və şəhərləri idarə edirdi.

**Tiyul** – orta əsrlərdə bəzi Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda, Türkiyədə, İranda və Orta Asiya ölkələrində mövcud olmuş şərqi torpaq sahibliyi. XV-XIX yüzilliklərdə xüsusilə geniş yayılmışdır. T. torpaqlarından toplanan məhsulun 1/5-1/10 hissəsi xəzinəyə ödənilirdi. Azərbaycan Rusiyanın müstəmləkəsinə çevrildikdən sonra, 1846-cı il fərmanı ilə t. torpaq sahibliyi irsi elan olunmuşdur.

**Tiyuldar** – tiyul sahibi. T. vergi toplamaq və məhkəmə-inzibati hüquqlara malik olsa da, tiyul sahəsi onun xüsusi mülkiyyəti hesab olunmurdu. Sonralar, xüsusilə də xanlıqlar dövründə t.-lar mütəmadi şəkildə xan təliqəsi ilə təsdiqlənirdilər. Quba xanlığında rəiyyətin t.-dan şəxsi asılılığı və ona xidmət göstərməsi xanın əmri ilə qanuniləşdirilirdi.

**Tobar doktrinası** *(beynəlxalq hüquqda)* – daxili dövlət çevrilişindən sonra hakimiyyət başına gəlmiş hökumətin, öz ölkəsində əhalisi tərəfindən tanınması ilə əla-





qədar olaraq başqa dövlətlərin onu tanımaması haqqında Ekvadorun xarici işlər naziri K.Tobar tərəfindən 1907-ci ildə irəli sürülən beynəlxalq-hüquqi doktrina. T.d. Amerikanın 5 dövləti (Qvatemala, Honduras, Kosta-Rika, Nikaraqua, Salvador) arasında 1907-ci və 1923-cü ildə bağlanmış 2 müqaviləyə daxil edilmişdir.

**"Toxumçuluq haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında toxum istehsalının, tədarükünün və istifadəsinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 11 mart 1997-ci il tarixdə qəbul edilmişdir. O, altı fəsildən və 30 maddədən ibarətdir.

**Tokio prosesi** - Yaponiyanın əsas müharibə canilərinin üzərində qurulmuş beynəlxalq məhkəmə prosesi. Bu proses 1946-cı il mayın 3-dən 1948-ci il noyabrın 12-dək Yaponiyanın paytaxtı Tokio şəhərində aparılmışdır. Prosesdə 28 nəfər müharibə canisi mühakimə olunmuşdur. Onlardan 25 nəfəri, o cümlədən 4 nəfər keçmiş baş nazir (Todzio, Xiranuma, Xirota, Kosyo), 11 nəfər keçmiş nazir (Araki, Xata, Xosino, İtaraki, Kayya, Kido, Simoda, Sudzuki, Toqo, Sigemitsu, Minami), 2 nəfər səfir (Osima, Siratari), 8 nəfər general (Dioxara, Kimura, Muto, Oka, Sato, Ymedzu, Matsui, Xasimoto) haqqında hökm çıxarılmışdır. Müttəhimlər faşist Almaniyasının və İtaliyanın başçıları ilə birgə dünya hökmranlığına, digər xalqları əsarətə almağa cəhd göstərməkdə ittiham edilmişdir. Tribunal Todzio, İtaqaki, Xirota, Matsui, Doixara, Kimura və Mutonu edam olunmaqla ölüm cəzasına, Toqonu 20 il və Sigemitsunu 7 il azadlıqdan məhrumetmə cəzasına, qalan 16 nəfəri isə ömürlük həbs cəzasına məhkum etmişdir. Nürnberq prosesi kimi Tokio prosesi də təcavüzü ən ağır cinayət hesab edən müasir beynəlxalq hüququn prinsip və normalarının təsdiq edilməsində mühüm əhəmiyyət kəsb etmişdir.

**Toksikologiya** – zəhərli maddələr, onların mənşəyi, kimyəvi tərkibi və xassələri, canlı orqanizmə təsiri, aşkar edilməsi üsulları, zəhərlənmələrlə mübarizə və onların profilaktikası haqqında elm. Məhkəmə təbabətinin və kriminalistika texnikasının hissəsi kimi t. zəhərli maddələrin aşkar edilməsi (bioloji materiallarda, meyitin hissələrində, mədədə, bədənin mayeli hissəsində) ilə məşğul olur.

**Toksikomaniya** – normativ aktlarla narkotiklər qismində tanınmayan maddələrdən (dərman bitkilərindən) sui-istifadə.

**Tollinq** – müəssisənin sifarişçinin öz materialından hazırlanmış xammalla işləməsi. Bunun mexanizmi aşağıdakılardan ibarətdir: vasitəçi firma tollinq zavodu ilə müqavilə bağlayır, bu müqaviləyə uyğun olaraq idxal olunmuş xammalı və onun emalını müəyyənləşdirir, zavodda görülən işlərin haqqını ödəyir və məhsulun mülkiyyətçisi və həmin xammaldan hazırlanmış məhsulların sahibi olur.

**Torpağın normativ qiyməti** – torpağın qiymətləndirilməsi və torpaq haqqının müəyyən edilməsinin formalarından biri. AR TM-in 95-ci maddəsinə uyğun olaraq torpağın normativ qiyməti torpaq sahəsinin təbii və iqtisadi potensialına ekvivalent götürülən dəyər göstəricisidir. Torpağın normativ qiymətindən meyar kimi aşağıdakı hallarda istifadə edilir: a) torpaq sahələri mülkiyyətçilərdən geri alındıqda və ya müsadirə edil-

dikdə; b) torpaq sahələri alınıb satıldıqda, girov (ipoteka) qoyulduqda, nizamnamə (pay) fonduna və icarəyə verildikdə, sığorta edildikdə; c) torpaq sahəsi bir kateqoriyadan başqa kateqoriyalara keçirildikdə.

**Torpaq bazarı** – torpaq dövriyyəsi proseslərində torpaq sahələrinin alqı-satqısı, girov qoyulması, bağışlanması, habelə mülkiyyət, istifadə və icarə hüquqlarının digər formalarda dəyişməsi ilə bağlı dövlət orqanları, bələdiyyələr, fiziki və hüquqi şəxslər arasında yaranan iqtisadi və hüquqi münasibətlər.

**"Torpaq bazarı haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında torpaq bazarının təşkilinin və torpaq bazarında iqtisadi və hüquqi münasibətlərin tənzimlənməsinin əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 7 may 1999-cu il tarixdə qəbul edilmişdir. O, beş fəsil və 23 maddədən ibarətdir.

**Torpaq ehtiyatları** – istifadə olunan və ya istifadə oluna bilən torpaqlar. T.e.-nın istifadəsi və mənimsənilməsi müvafiq icra hakimiyyəti orqanlarının və bələdiyyələrin ərazinin inkişafının planlaşdırılması haqqında qərarları əsasında həyata keçirilir. T.e.-dan istifadənin planlaşdırılması sosial-iqtisadi proqramlar, yerquruluşu, şəhərsalma, təbiətqoruyucu və digər sənədlər əsasında ərazinin uzunmüddətli inkişaf perspektivlərini müəyyən etmək məqsədilə aparılır.

**Torpaq hüququ** – torpaq ehtiyatlarına sahiblik, onlardan istifadə və onların üzərində sərəncam vermək üzrə münasibətləri tənzim edən hüquq normalarının məcmusu. T.h. torpaqlardan səmərəli istifadə edilməsi, vətəndaşların və təşkilatların torpaq sahələrindən istifadəyə dair hüquqlarının müdafiə olunması, eləcə də torpaqların mühafizə edilməsi, torpaq münasibətləri sahəsində qanunçuluğun möhkəmləndirilməsi üzrə vəzifələri həyata keçirir. Digər təbii ehtiyatlar kimi torpaqlar da Azərbaycan Respublikasının mülkiyyətindədir. Azərbaycan Respublikasında t.h.-nun mənbəyi ölkə Konstitusiyası və AR TM-dir.

**"Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında, dövlət, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan torpaqların icarəyə verilməsinin və icarə münasibətlərinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 11 dekabr 1998-ci ildə qəbul olunmuş, ona bir sıra əlavə və dəyişikliklər edilmişdir. O, beş fəsil və 31 maddədən ibarətdir.

**Torpaq icarəsi müqaviləsi** – mülki-hüquqi müqavilələrin bir növü. AR MM-in 706.1-ci maddəsinə uyğun olaraq torpaq icarəsi müqaviləsinə əsasən icarəyə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan bütün kateqoriyalara aid torpaqlar verilə bilər.

**"Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında torpaq islahatının aparılmasının hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 16 iyul 1996-ci il tarixdə qəbul edilmişdir. O, yeddi fəsil və 26 maddədən ibarətdir.

**Torpaq istifadəçiləri** – torpağı müddətsiz, uzunmüddətli və müvəqqəti istifadəyə götürən şəxslər. Mülki hüququn praktiki olaraq bütün subyektləri t.i. ola bilər. Bu





zaman təşkilati-hüquqi formalar, mülkiyyətin formaları əhəmiyyət kəsb etmir.

**Torpaqla əlaqədar qanunsuz əqdlərin qeydiyyatı** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 191-ci maddəsində nəzərdə tutulmuşdur. Vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə tamah məqsədilə və ya sair şəxsi niyyətlə torpaqla əlaqədar bilə-bilə qanunsuz əqdləri qeydiyyata almada, Dövlət torpaq kadastrının uçot məlumatlarını təhrif etmədə, habelə torpaq haqqının miqdarını qəsdən azaltmada ifadə olunur.

**Torpaqları korlama** – ekoloji cinayətlərin bir növü. AR CM-in 254-cü maddəsində nəzərdə tutulmuşdur. Saxlanması, istifadə edilməsi, yaxud daşınması zamanı gübrələrlə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə davranış qaydalarının pozulması nəticəsində təsərrüfat və ya başqa fəaliyyətin zərərli məhsulları ilə torpaqların zəhərlənməsində, çirkləndirilməsində, yaxud onların başqa cür korlanmasında ifadə olunur.

**Torpaqların bonitirləşdirilməsi** – torpaq sahələrinin müayinə edilməsi əsasında onların ballarla keyfiyyətinin müqayisəli xarakteristikası. Torpaqların iqtisadi cəhətdən qiymətləndirilməsi, torpaq kadastrının aparılması və meliorasiya işlərinin həyata keçirilməsi üçün zəruridir.

**Torpaqların çirklənməsi** – insanların sağlamlığına, ətraf mühitə və torpağın münbitlik xassələrinə zərərli təsir göstərəcək miqdarda müxtəlif mənşəli kimyəvi birləşmələrin, ağır materialların, radioaktiv elementlərin, məişət və istehsalat tullantılarının patogen və digər zərərli orqanizmlərin torpaqlarda toplanma prosesi.

**Torpaqların hüquqi rejimi** – torpaqların istifadəsinin, mühafizəsinin, uçotu və monitorinqinin həyata keçirilməsi sahəsində torpaq, şəhərsalma, su, meşə, yerin təki və təbiəti mühafizə haqqında qanunvericilik aktları ilə müəyyən edilmiş qaydaların məcmusu.

**Torpaqların məqsədli təyinatı** – torpağın kateqoriyasına uyğun olaraq onun konkret məqsədlər üçün istifadəsinin AR TM-də və digər normativ hüquqi aktlarda müəyyən edilmiş qaydaları, şərtləri və hədləri.

**Torpaqların monitorinqi** – torpaqların münbitlik xassələrini səciyyələndirən ayrı-ayrı göstəricilərdə dəyişikliklərin vaxtında aşkara çıxarılması, qiymətləndirilməsi, mənfi proseslərin qarşısının alınması və onların təsiri nəticələrinin aradan qaldırılması üçün torpaq fondunun vəziyyətinə uzunmüddətli müşahidə-nəzarət sistemi.

**Torpaqların mühafizəsi** – torpaqlardan səmərəli istifadə edilməsi, daha qiymətli torpaqların kənd təsərrüfatı və meşə təsərrüfatı dövriyyəsindən əsassız çıxarılmasına yol verilməməsi, onların zərərli təbii və antropogen təsirlərdən qorunması, habelə torpaqların münbitliyinin, meşə fondunun bərpası və artırılması məqsədilə həyata keçirilən hüquqi, təşkilati, iqtisadi və digər tədbirlər sistemi.

**Torpaqların münbitliyi** – torpağın əlverişli morfoloji, fiziki-kimyəvi, mexaniki və bioloji şəraitdə bitkiləri qida elementləri, rütubət ehtiyatı və onların həyatı üçün digər vacib maddələrlə müntəzəm təmin etmə qabiliyyəti.

**"Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının qanunu**

– Azərbaycan Respublikasında dövlət, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan torpaqların münbitliyinin bərpasının, artırılmasının və mühafizəsinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktı.

Bu qanun 30 dekabr 1999-cu il tarixdə qəbul edilmişdir. O, altı fəsil və 24 maddədən ibarətdir.

**Torpaqların münbitliyinin artırılması** – düzgün becərilmsi nəticəsində təbii münbitliyi aşağı düşmüş torpaqların münbitliyinin yüksəldilməsi sahəsində aparılan aqrotexniki, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər kompleks tədbirlər sistemi.

**Torpaqların münbitliyinin bərpası** – təbii və antropogen proseslərin təsiri nəticəsində torpaqların itirilmiş münbitliyini yaxşılaşdırmaq məqsədilə həyata keçirilən aqrotexniki, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər kompleks tədbirlər sistemi.

**Torpaqların münbitliyinin mühafizəsi** – hazırda təsərrüfat dövriyyəsində olan, habelə münbitliyi bərpa edilmiş və yaxşılaşdırılmış torpaqların münbitliyinin qorunub saxlanmasına yönəldilmiş aqrotexniki, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər kompleks tədbirlər sistemi.

**Torpaq Məcəlləsi** – Azərbaycan Respublikasında torpaq üzərində mülkiyyətin müxtəlif növlərinin tətbiqi əsasında yaranan torpaq münasibətlərinin tənzimlənməsinə, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin torpaqla bağlı vəzifələrinin yerinə yetirilməsinə və torpaq üzərində hüquqlarının müdafiəsinə yönələn sistemləşdirilmiş qanunvericilik aktı. AR TM 25 iyun 1999-cu il tarixdə qəbul edilmişdir. Məcəllə 22 fəsil və 113 maddədən ibarətdir.

**Torpaq münasibətləri** – dövlət orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslər arasında torpağa sahiblik, torpaqdan istifadə və torpaq barəsində sərəncam vermək sahəsində, habelə torpaq ehtiyatlarından istifadənin dövlət tərəfindən idarə edilməsi sahəsindəki ictimai münasibətlər.

T.m.-nin iştirakçıları Azərbaycan Respublikasının dövlət orqanları, bələdiyyələr, Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri, habelə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, xarici dövlətlərdir.

**Torpaq rentası** – müvafiq torpaq sahəsinin mülkiyyətçisinə torpaq istifadəçisi-icarəçisi tərəfindən müntəzəm surətdə ödənilən ödəmə.

**Torpaq sahələrinin dövriyyəsi** – Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada torpaq sahələri üzərində mülkiyyət, istifadə və icarə hüquqlarının dəyişməsi, torpaqların bir kateqoriyadan digərinə keçməsi və kateqoriyalar daxilində transformasiyası.

**Torpaq sahələrinin geri alınması** – torpaq sahələrinin dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün geri alınması. AR TM-in 70-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq torpaq sahələri mülkiyyətçilərin, istifadəçilərin və icarəçilərin razılığı olduqda müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarı (və ya müqavilə) əsasında geri alına bilər (satın alına bilər). Xüsusi mülkiyyətdə olan torpaqların məcburi satın alınmasına yalnız mühüm dövlət bələdiyyə obyektlərinin və ictimai obyektlərin yerləşdirilməsi məqsədilə yol verilir. Torpağın geri alınması barədə qərarlardan məhkəmə qaydasında şikayət verilə bilər.

**Torpaq sahəsi** - dövlət torpaq kadastrında və torpaq üzərində hüquqların dövlət qeydiyyatı sənədlərində sərhədləri, ölçüləri, coğrafi mövqeyi, hüquqi statusu, rejimi, təyinatı və digər göstəriciləri əks etdirilmiş yer səthinin bir hissəsi.

**Torpaq sahəsinin bağışlanması** - torpaq sahələrinin dövriyyəsinin formalarından biri. AR TM-in 91-ci maddəsinə uyğun olaraq torpağın mülkiyyətçisi Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş qaydada və formada bağışlama müqaviləsi ilə həmin torpaq sahəsini və ya onun bir hissəsini əvəzsiz olaraq Azərbaycan Respublikasının hər hansı vətəndaşının və ya hüquqi şəxsin, habelə dövlətin və ya bələdiyyənin mülkiyyətinə verə bilər.

**Torpaq sahəsinin dəyişdirilməsi** – torpaq sahəsinin dövriyyəsinin formalarından biri. AR TM-in 90-cı maddəsinə uyğun olaraq xüsusi mülkiyyətdə olan torpaq sahələri Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq hər hansı nisbətdə bir-biri ilə dəyişdirilə bilər. T.s.d. Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

**Torpaq sahəsi üzərində birgə hüquqlar** - iki və ya daha çox şəxsin mülkiyyətində, istifadəsində və icarəsində torpaq sahəsi olduqda, habelə mülkiyyətçi, istifadəçi və icarəçi arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanan müqavilə əsasında onlara məxsus olan torpaq sahələrinin birləşdirilməsi zamanı yaranan hüquqlar (AR TM-in 52-ci maddəsinin 1-ci hissəsi). İki və daha çox şəxsin mülkiyyətində, istifadəsində və icarəsində olan torpaq sahəsi həmin şəxslərin birgə mülkiyyət, birgə istifadə və ya birgə icarə hüququna məxsus ola bilər.

**Torpaq sahəsi üzərində istifadə hüququ** – müvafiq qərar (müqavilə) əsasında torpaqdan daimi və ya müvəqqəti istifadə etmək hüququ (AR TM-in 50-ci maddəsinin 1-ci hissəsi). Torpağın istifadəyə verilməsinə görə torpaq vergisindən başqa haqq alınmır. Əvvəlcədən müddəti müəyyən edilmədən həyata keçirilən istifadə torpaqdan daimi istifadə hesab olunur.

**Torpaq sahibliyi** – müəyyən hüquqi əsaslarla müəyyən torpaq sahəsinə faktiki malik olmaq. Bu sahiblik torpaq sahibinin müvafiq hüquq və vəzifələrinin yaranması ilə şərtləşir. Torpaq sahəsi üzərində sərəncam vermək forması istehsalın mühüm vasitələrindən biri kimi təzahür edir.

**Torpaq üzərində xüsusi mülkiyyət hüququ** – hüquqi və fiziki şəxslərin torpaq sahəsi üzərində hüquqlarının formalarından biri. AR TM-in 49-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq hüquqi və fiziki şəxslərin torpaq üzərində xüsusi mülkiyyət hüququ – torpaqlar üzərində qanunla və müqavilə ilə müəyyən edilən məhdudiyyətlərə və digər şərtlərə riayət etməklə sahiblik, istifadə və sərəncam hüququdur.

**Torpaq vergisi** – torpaqların qiymətləndirilməsindən irəli gələn vergi. AR TM-in 98-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında torpaqdan istifadə pulludur. Mülkiyyətində və istifadəsində torpaq sahəsi olan hüquqi və fiziki şəxslər torpaq vergisi ödəyirlər. Torpaq vergisi torpaq

mülkiyyətçilərinin və istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə sabit tədiyyə formasında hesablanır. Torpaq vergisinin dərəcələri torpağın təyinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş qaydada müəyyənləşdirilir. Torpaq vergisinin müəyyən edilməsi üçün dövri olaraq onun renta qiymətləndirilməsi aparılır. Keyfiyyət xarakteristikası müəyyən edilməmiş torpaq sahələrinə görə torpaq vergisini hesablamaq məqsədilə torpaq sahəsinin daxil olduğu inzibati rayon (şəhər) üzrə torpağın orta bonitet balı qəbul edilir.

**Totalitar dövlət** – avtoritar dövlət idarəçilik formasına malik olan dövlət. T.d. dövlətin bütün cəmiyyət üzərində tam nəzarəti prinsipi ilə fəaliyyət göstərir. Belə dövlətlər və rejimlər bütün leqal təşkilatların milliləşdirilməsi, hakimiyyətin diskresion (heç bir qanunla məhdudlaşdırılmamış) səlahiyyəti, demokratik hüquq və azadlıqların yalnız sözdə olması ilə səciyyələndirilir.

**Totalitarizm** *(lat. totalis – dolğunluq, bütövlük)* – avtoritar dövlət formalarından biri *(bax: totalitar dövlət).*

**Toyxərci** – Azərbaycanda xanlıqlar dövründə (XVIII əsr) mövcud olmuş qeyri-qanuni vergilərdən biri. Həcmi qeyri-müəyyən olmuşdur. Kəndli ailəsində toy olduqda feodalın (xanın, bəyin və başqalarının) xeyrinə "hədiyyə" adı ilə toplanırdı.

**Törəmə sübutlar** – şahidin verdiyi məlumatların bilavasitə özünün müşahidəsinə deyil, başqasının dediklərinə əsaslanan, yaxud fakt haqqında məlumatların sənədin əslindən deyil, onun surətindən alınan, yəni ilk mənbədən əldə edilməyən məlumatlar. İlkin sübutlar itdikdə, yaxud digər səbəblərə görə olmadıqda, t.s.-dan yeganə sübutetmə vasitəsi kimi istifadə edilir. T.s. həm ittihamedici, həm də bəraətverici ola bilər. T.s. müəyyən edilməli olan fakt haqqındakı məlumatların natamam, təhrif olunmuş şəkildə verilməsini aradan qaldırır. T.s.-ın vasitəsilə ilkin və digər törəmə sübutlar nəinki aşkar edilir və prosessual cəhətdən möhkəmləndirilir, həm də bu sübutların doğruluğunu yoxlamaq mümkün olur.

**Törəmə təsərrüfat cəmiyyəti** – kommersiya təşkilatlarının növlərindən biri. AR MM-in 67-ci maddəsinə uyğun olaraq təsərrüfat cəmiyyəti o halda törəmə cəmiyyət sayılır ki, digər (əsas) təsərrüfat ortaqlığı və ya cəmiyyəti onun nizamnamə kapitalında üstün iştirakına görə və ya onlar arasında bağlanmış müqaviləyə müvafiq surətdə həmin cəmiyyətin qəbul etdiyi qərarları müəyyənləşdirmək imkanına malik olur. Törəmə cəmiyyət əsas ortaqlığın və ya cəmiyyətin borcları üçün cavabdeh deyildir. Törəmə cəmiyyət əsas ortaqlığın və ya cəmiyyətin təqsiri üzündən müflis olduqda əsas ortaqlıq və ya cəmiyyət onun borcları üzrə subsidiar məsuliyyət daşıyır. Törəmə cəmiyyət yalnız əsas ortaqlığın və ya cəmiyyətin onun üçün məcburi göstərişini icra etməsi nəticəsində müflis olduqda əsas ortaqlığın və ya cəmiyyətin təqsiri üzündən müflis olmuş sayılır.

**Tövsif** *(bax: cinayətlərin tövsifi).*

**Tövsiyə olunan beynəlxalq təcrübə** – hava gəmilərinin və ya aviasiya məmulatının fiziki xassələrinə, konfiqurasiyalarına, material hissələrinə, texniki xüsusiyyətlə-





rinə, habelə aviasiya personalına dair tətbiqi Beynəlxalq Mülki Aviasiya Təşkilatı tərəfindən məqsədəuyğun sayılan tələblər.

**Töycü** – feodaldan asılı kəndlilərin feodallara verdiyi ərzaq, yaxud pul ödəmələri; ərzaq (natural t.), yaxud pul (pul t.-sü) feodal torpaq rentası formasında olmuşdur. Biyardan fərqli olaraq t. feodal tərəfindən onun təsərrüfatında işləyən kəndlinin istehsal etdiyi izafi məhsulun (yaxud onun pul ekvivalentinin) mənimsənilməsini nəzərdə tuturdu.

**Traktat** *(lat. tractatus – müzakirə)* – beynəlxalq-hüquqi müqavilə, saziş.

**Trampov gəmiçilik** – malların, kütləvi yük axınlarının dəniz daşımalarına xidmət edən nəqliyyat növü. T.g. zamanı yük gəmilərinin işi daimi üzmə rayonları, malların yüklənməsi və ya boşaldılması, yüklərin növləri ilə məhdudlaşmır. Daşıma qiymətləri isə fraxt bazarının konyukturlarından asılı olaraq tərəflərin razılığı ilə müəyyən edilir.

**Transaksiya** *(lat. transactio – saziş, əqd)* – **1)** qarşılıqlı güzəştlə müşayiət olunan (siyasi-hüquqi) saziş; **2)** hər hansı bir məqsəd üçün pul vəsaitlərinin (o cümlədən xarici ölkəyə) köçürülməsilə əlaqədar olan bank əməliyyatı.

**Transfer-agent** – emitentin adından və onun tapşırığı ilə qiymətli kağızlar buraxan, onları qeydiyyatdan keçirən və ödəyən təşkilat, hər şeydən əvvəl bank.

**Transfert** *(fr. transfert – köçürmə)* – **1)** bir ölkənin digərinə xarici valyuta köçürülməsi; **2)** adlı qiymətli kağızlara sahiblik hüququnun bir şəxs tərəfindən digər şəxsə verilməsi; **3)** dövlətlər arasında beynəlxalq sazişə əsasən aparılan əhali mübadiləsi, vətəndaşlığın öz-özünə dəyişməsi.

**Transfert ödəmələr** – büdcə vəsaitlərinin yenidən bölüşdürülməsinin formalarından biri. Dövlət borcları üzrə faizlərin, sosial ehtiyacların (pensiyaların, müavinətlərin və əmək qabiliyyəti olmayanlara, işsizlərə digər maliyyə yardımları göstərilməsi) ödənilməsi üçün bölüşdürülür.

**Transfert sazişlər** – xarici ticarət iştirakçılarının mallarının və ya valyutalarının mübadiləsini, alqı-satqısını müqavilə şərtləri ilə nəzərdə tutan kommersiya əqdlərinin bir növü.

**Transformasiya** *(lat. transformatio)* – beynəlxalq hüquq normasının dövlətdaxili hüquq normasına çevrilməsi üsullarından biri. T. problemi beynəlxalq hüququn və milli hüququn müxtəlif sistemlərinin bir-biri ilə qarşılıqlı əlaqədə olmalarına baxmayaraq, onların müstəqil olmalarına görə bəzi fərqləri də mövcuddur. Onlar bir-birindən subyektlərinə, hüquq münasibətlərinin predmetinə və normayaratma metodlarına görə fərqlənirlər. Beynəlxalq hüquq norması özlüyündə yalnız subyektləri üçün hüquq və vəzifələr yaradır. Bununla yanaşı, beynəlxalq hüququn subyektləri təcrübədə öz hüquqlarının realizə olunmasını və öz milli subyektləri (rəsmi orqanlar, fiziki və hüquqi şəxslər) vasitəsilə malik olduqları vəzifələrə əməl olunmasını təmin edirlər.

**Transmilli banklar** – bir qayda olaraq, xarici nümayəndəliklərin geniş şəbəkəsinə malik olan iri kredit-maliyyə kompleksləri; dünya bazarında dövlətin valyutasını və kredit əməliyyatlarını müdafiə edir və belə əməliyyatlara nəzarəti həyata keçirirlər.

**Transmilli cinayətkarlıq** – kriminologiyada cinayətkarlığın bir növü; müəyyən

dövr ərzində törədilən (onları törədən şəxslərin) cinayətlərin məcmusu. T.c. iki və ya daha çox dövlətə, yaxud iki və ya daha çox dövlətin hüquqi və fiziki şəxslərinin mənafelərinə ziyan vurur.

**Transmilli korporasiyalar** – BMT-nin işləyib hazırladığı tərifə görə mənşə ölkəsindən asılı olmayaraq iki və ya daha çox dövlətdə qəbul edilmiş qərarlar sisteminə uyğun fəaliyyət göstərən strukturlara malik xüsusi, qarışıq müəssisələr və dövlət müəssisələri.

**Transmilli şirkət** – öz əməliyyatlarının əsas hissəsini xaricdə, hətta bir neçə dövlətdə həyata keçirən firma.

**Transplantasiya** *(lat. transplantare – köçürmək)* – orqanların (və ya) toxumaların (həmin) orqanizmə, yaxud digər orqanizmə yerləşdirilməsi (köçürülməsi). Azərbaycan Respublikasının "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" 28 oktyabr 1999-cu il tarixli qanununun 5-ci maddəsinə görə digər tibbi üsullarla və meyit orqan (və ya) toxumaları vasitəsilə insan həyatının saxlanması və ya sağlamlığının bərpası mümkün olmadıqda resipiyentə donordan orqan və (və ya) toxumaların transplantasiyasına yol verilir. Donorun yaşı 18-ə çatmadıqda ondan sümük iliyi istisna olmaqla, transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsi qadağandır. Resipiyentin *sağlamlığı üçün təhlükə törədən* xəstəliyi olan şəxslərdən orqan və (və ya) toxumaların götürülməsi qadağandır. Resipiyentin qulluq tabeliyində və ondan fiziki, mənəvi, maddi cəhətdən asılı olan və ya həbsdə olan şəxslərdən, hərbi əsirlərdən və ruhi xəstələrdən transplantasiya məqsədilə orqan və (və ya) toxumaların götürülməsi yolverilməzdir. Donordan orqan və (və ya) toxumaların götürülməsi mütəxəssis-həkimlərin konsiliumu nəticəsində müəyyən edilir və donorun yazılı razılığı əsasında həyata keçirilir. Hər hansı şəxsi orqan və (və ya) toxumaların götürülməsinə məcbur edənlər qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

Orqan və (və ya) toxumaların götürülməsi, hazırlanması (konservasiyası) və saxlanması yalnız ixtisaslaşdırılmış dövlət tibb müəssisələrində aparılır. T. məqsədilə orqan və (və ya) toxumaların köçürülməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən ixtisaslaşdırılmış tibb müəssisələrində aparılır. Orqan və (və ya) toxumaların götürülməsi, hazırlanması (konservasiyası) və saxlanması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Transportasiya** – XIX yüzillikdə Fransada cinayət qanunvericiliyinə görə tətbiq edilən sürgün (cəza) növü. Rvianiyaya və Fransanın okeanarxası ərazilərinə sürgün etməklə katorqa işləri növündə kompleks cəza tədbirlərindən ibarətdir.

**Transşipment** *(ing. transshipment – boşaldıb yükləmə)* – konosamentin şərti; bu şərtə uyğun olaraq dəniz daşıyıcısı yükü və ya onun istənilən hissəsini istənilən vaxt və istənilən səbəbə görə gəmidən boşalda, sahildə yerləşdirə, daşıyıcıya məxsus olub-olmamasından asılı olmayaraq digər gəmiyə yükləyə bilər. Bu zaman o, müqavilənin yerinə yetirilməsinə görə gəmi sahibi qarşısında məsul olur.

**Transvestisizm** – geyim daşımağın və özünü başqa cinsin şəxsi kimi aparmağın patoloji istəyi (məsələn, qadın libası geyinmiş kişinin özünü qadın kimi aparması istəyi).





**Tranşa** *(ing. tranche)* – bir qayda olaraq, seriyalarla buraxılan beynəlxalq istiqraz vərəqəsinin seriyası və ya onun bir hissəsi.

**Tranzit** *(lat. transitus – keçmə, keçid)* – sərnişinin və ya yükün bir məntəqədən aralıq məntəqələrini keçməklə digər məntəqəyə (məntəqələrə) daşınması. T. həm ölkə daxilində, həm də ayrı-ayrı ölkələr arasında mümkündür (sərnişinlərin və yüklərin bir ölkədən digər ölkənin ərazisindən keçməklə üçüncü ölkəyə daşınması).

**Tranzit hesabı** – ixrac gəlirlərinin daxil olduğu bank hesabı; bu gəlirlərdən müəyyən şərtlər, məsələn, gəlirlərin müəyyən edilmiş faizinin dövlətə satışı yerinə yetirildikdən sonra istifadə oluna bilər.

**Tranzit hüququ** – sərnişinlərin və yüklərin bir dövlətin ərazisindən digərinə üçüncü dövlətin ərazisi (quru, su, hava yolu ilə) vasitəsilə keçməsi ilə əlaqədar münasibətləri tənzimləyən hüquq normalarının məcmusu. T.h. maraqlı dövlətlər arasında bağlanmış ikitərəfli və ya çoxtərəfli müqavilələr əsasında həyata keçirilir. Müasir beynəlxalq hüquq tranzitin azad olması barəsində şərtsiz normalar nəzərdə tutmur. Dövlət öz milli qanunlarını, qayda və normalarını rəhbər tutaraq suveren ərazisindən tranzitə icazə verir. Dövlət tranzitdən imtina etməyə haqlıdır. Kontinentdaxili (qitədaxili) dövlətlərin qonşu sahilyanı dövlətin ərazisindən azad tranziti mümkündür.

**Tranzit mallar** – malların bir gömrük ərazisindən digər gömrük ərazisinə üçüncü ölkənin (ölkələrin) ərazisindən keçmək vasitəsi ilə yenidən yerləşdirilməsi. Əksər digər ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da t.m. gömrük nəzarətindən keçir, lakin rüsum alınmır.

**Tranzit sənədi** – yüklərin tranzit proseduru üzrə daşınması zamanı daşınmanı həyata keçirən nəqliyyat təşkilatı, deklarant və ya gömrük orqanının tərəfindən milli qanunvericiliyə uyğun olaraq tərtib edilən sənəd. Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri – Tranzit haqqında sazişin iştirakçıları t.s. qismində yük gömrük bəyannaməsi blanklarından istifadə edirlər.

**Tranzit yüklər** – yüklərin bir ölkədən digərinə üçüncü ölkə vasitəsilə daşınması.

**Trasologiya** *(fr. trase – iz + logiya – izlər haqqında təlim)* – kriminalistikanın tərkib hissələrindən biri. T. izlərin aşkar edilməsi, qeydə alınması, götürülməsi, qablaşdırılması və tədqiq edilməsinin kriminalistik üsul və vasitələrini öyrənir. Aşağıdakı izlər fərqləndirilir: a) insan izləri (homoskopiya); b) cinayət alətlərinin və istehsalat mexanizmlərinin izləri (mexanoskopiya); c) nəqliyyat vasitələrinin izləri; ç) heyvanların ayaq izləri.

**Trasoloji ekspertiza** – kriminalistik ekspertizanın bir növü. T.e. əl, barmaq, ayaq, diş, dırnaq, sındırma-alət izlərinin ekspertizasından ibarətdir. Bu ekspertiza həmçinin sındırma mexanizmlərinin müəyyən edilməsi məqsədilə tamın hissələr üzrə eyniləşdirilməsi tədqiqatından ibarətdir. T.e. nəqliyyat vasitələrinin və onların növünün müəyyən edilməsi (nəqliyyat-trasoloji ekspertiza və i.a.) üçün də təyin edilir. T.e.-nın nəticəsi məhkəmə sübutu növlərindən biridir.

**Trassant** – trattanın (köçürmə vekselinin) veksel verəni. Veksel üzrə akseptə və ödəməyə görə cavab verir. T.-ın imzası trattanın məcburi rekvizitləridir. O, ödə-

məyə görə deyil, eksептə görə məsuliyyəti öz üzərinə götürə bilər.

**Trassat** – tratta (köçürmə vekseli) üzrə ödəyici (borclu). T.-ın göstərişi trattanın məcburi rekvizitidir. T. ancaq vekselin akseptindən sonra məsul şəxs olur.

**Trast** *(ing. trust – etibar)* – eynilə etibar edilən mülkiyyət.

**Tratta** *(ita. tratta)* – eynilə köçürmə vekseli.

**Traybalizm** *(ing. tribalism – qəbilə)* – konstitusiya hüququ elmində tropik Afrikada, Okeaniyada və dünyanın digər regionlarında qəbilələrin müxtəlifliyini adlandırmaq üçün tətbiq edilən termin. T. təcrübəsi etnik qrupların birinin içərisində olan qəbiləyə imtiyazların verilməsindən ibarətdir. T. vətəndaşların hüquq bərabərliyi prinsipini sıfra endirir. O, bu zəmində Ruandada, Somalidə, həmçinin Liberiyada vətəndaş müharibəsinə gətirib çıxarmışdır. Bir sıra ölkələrdə dövlət aparatı üçün kadrlar seçilməsi və yerləşdirilməsində də t. tətbiq edilir.

**Trest** *(ing. trust, hərfən etibar)* – inhisar forması; bu formada birləşən bütün müəssisələr özünün kommersiya və istehsal müstəqilliyini itirir və vahid idarəyə tabe olur. XIX yüzilliyin 3-cü qərinəsində ABŞ-da meydana gəlmiş və geniş yayılmışdır. İlk t. C.D.Rokfellerin 1879-cu ildə "Standart oyl" adı ilə yaratdığı və ABŞ neft sənayesinin çox hissəsini əhatə etdiyi birlik olmuşdur. T.-in hüquqi cəhətdən yaradılması o deməkdir ki, əvvəllər müstəqil olan müəssisələr üzərindəki nəzarət iri inhisarçılar qrupuna – t.-i yaradanlara verilir (səhv nəzarət paketi, yaxud xüsusi vəkalət sertifikatı formasında).

**Treyder** *(ing. trader – ticarətçi)* – birja terminalogiyasında: a) broker firmasının bilavasitə birja ticarətində iştirak edən işçisi *(bax: broker)*; b) birjada əqd bağlamaq hüququna malik olan istənilən hüquqi və fiziki şəxs.

**Triaj** *(fr. triage – ayırmaq)* – Fransada adət və hüquq; bu adət və hüquqa uyğun olaraq senyor ona ayrılmış icma məhsulunun hissəsini (bir qayda olaraq 1/3-ni) tələb edə bilərdi. XVIII yüzilliyin sonunda fransız inqilabı nəticəsində ləğv edilmişdir.

**Triba** *(lat. tribus)* – Qədim Romada əhalinin bölündüyü seçki dairələrinin adı. T. qədim yunan filasına (qəbilə tayfa birliyinə) uyğun gəlirdi. Üç triba (hərəsi 100, sonra 300 nəfərdən ibarət) mövcud olmuşdur. Eramızdan əvvəl III yüzilliyin ortalarında Romada təqribən 35 t. olmuşdur. Hər t. bir səsə malik idi.

**Tribun** *(lat. tribunus)* – Qədim Romada bəzi vəzifəli şəxslərin adı (məsələn, plebeylərin hüquqlarını patrisilərin qəsdlərindən qoruyan xalq tribunalları).

**Tribunal** *(lat. tribunal – mühakimə edən)* – **1)** məhkəmə kollegiyası, yaxud fövqəladə və ya ixtisaslaşdırılmış məhkəmə; **2)** Fransada və İtaliyada birinci instansiya məhkəməsi; barışdırıcı məhkəmənin baxdığı işlər üçün apellyasiya instansiyası; **3)** Azərbaycan Respublikasında vahid məhkəmə sisteminə daxil olan hərbi tribunal (məhkəmə) *(bax: Hərbi tribunallar)*.

**Tribut komitsiyaları** – Qədim Romada xalq yığıncaqlarının bir növü. Erkən respublika dövründə tribalar üzrə plebeylərin yığıncaqlarından törəmişdir. Sonrakı dövrlərdə xalq yığıncaqlarının əsas növlərindən birinə çevrilmişdir. T.k.-nda magistratlar seçilir, bəzi məhkəmə işləri araşdırılırdı. Eramızdan əvvəl III yüzillikdən başlayaraq t.k. Romanın əsas qanunvericilik orqanına çevrilmişdir. T.k.-nda tribanın əksəriyyətinin qərarı (35-dən 18-nin) qanun qüvvəsi əldə edirdi. Romada respublikanın tənəzzülü ilə əlaqədar t.k. öz əhəmiyyətini itirmişdir.

**Tribut yığıncaqları** *(bax: tribut komitsiyaları)*.

**Tripartitum** *(lat. tripartitus – üç hissədən ibarət olan)* – XVI yüzilliyin başlanğıcından 1848-ci ilədək Macarıstanda əsas hüquqi akt; 1498-ci ildə İ.Verbetsi tərəfindən tərtib edilmişdir. Təbəqə bölgüsünü, zadəganların imtiyazlarını (xırda və orta zadəganlar maqnatlarla bərabər hüquqlar əldə edirdilər) və dindarlığı təsbit edirdi. Kəndlilər yerdəyişmək hüququndan məhrum edilirdi.

**Triplikat** – sənədin üçüncü nüsxəsi.

**Trizn** *(ing. treason – xəyanət)* – İngiltərənin cinayət hüququnda tarixən təşəkkül tapmış cinayətlərin kateqoriyalarından biri (feloniya və misdiminorla yanaşı). T. ən ağır cinayət kimi feloniyadan hələ XIV yüzillikdə ayrılmışdı. T. 1945-ci ildə ləğv edilmişdir.

**Tsessiya** *(lat. cessio)* – arada bağlanmış sazişə görə bir dövlətin ərazisinin başqa dövlətə verilməsi. Əvvəllər işğalçı dövlətlər tərəfindən başqa dövlətlərin və onların xalqlarının mənafeyi nəzərə alınmadan həyata keçirilmişdir. Müasir beynəlxalq hüquq bir dövlətin yalnız böyük olmayan ərazisinin xalqların öz müqəddəratını təyin etmək hüquqlarının pozulmaması şərtilə başqa dövlətə verilməsinə yol verir. T. bərabər həddə kompensasiya tələb edir. O, müxtəlif formada ifadə oluna bilər. Bundan başqa, ərazinin bu qayda ilə verilməsi müvafiq dövlətlər arasında müasir beynəlxalq hüququn bütün əsas prinsiplərinə cavab verən beynəlxalq münaqişənin bağlanmasını tələb edir.

**Tur** – konkret müddətdə konkret marşrut üzrə fərdi və ya qrup halında səfərdən ibarət olan turizm məhsulunun vauçer şəklində satılan forması.

**Turagent** – turoperator tərəfindən turların satışı, turizm məhsulunun hərəkətə gətirilməsi və satışı üzrə vasitəçilik fəaliyyəti göstərən fiziki və ya hüquqi şəxs.

**Turagentlik** – turizm və ekskursiya yollayışının satışı, habelə turizm-ekskursiya fəaliyyətinin təşkili üzrə (informasiya, reklam, marketinq və i.a.) digər xidmətlər göstərilməsi ilə məşğul olan vasitəçi təşkilat.

**Turist** – istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və i.a.), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyyətlə məşğul olmamaq şərtilə 24 saatdan 12 ayadək müddətdə müvəqqəti olan şəxs.

**Turist xidmətlərinin göstərilməsinə dair müqavilə** – mülki-hüquqi müqavilələrin bir növü. AR MM-in 862-ci maddəsinə uyğun olaraq turist xidmətlərinin göstərilməsinə dair müqaviləyə görə bu xidmətlərin təşkilatçısı istifadəçiyə məcmu halda turist xidmətləri göstərməyi (turist səfəri) öhdəsinə götürür, turist isə turist xidmətlərinin təşkilatçısına şərtləşdirilmiş xidmətlərə görə şərtləşdirilmiş muzd ödəməyə borcludur. Turist xidmətlərinin məzmununa turist səfərinin əhatə etdiyi bir və ya bir neçə yerə aparma, habelə geriyə, səfərin başlandığı yerə gətirmə daxil ola bilər. Lakin turist xidmətləri (turist səfəri) göstəril-

məsi yalnız o halda baş verir ki, onun təşkilatçısı daşımadan əlavə heç olmasa aşağıdakı xidmətlərin birini göstərir: a) qidalanma; b) mehmanxanalarda yerləşdirmə; c) təyinat məntəqəsində seyretmə və ya mədəni tədbirlərdə iştirak.

**Turizm** – Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələri (səyahətləri).

**Turizm ehtiyatları** – səfər edilən ölkənin (yerin) təbii, mədəni, tarixi sağlamlaşdırma obyektləri və turistlərin ayrı-ayrılıqda və ya kompleks halında tələb və ehtiyaclarını təmin edə bilən, onların fiziki və mənəvi qüvvələrinin bərpası və inkişafına kömək edə bilən digər obyektlər məcmusu.

**Turizm fəaliyyəti** – turoperator və turagent fəaliyyəti, habelə səlahiyyətlərin təşkili üzrə digər fəaliyyət.

**"Turizm haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edən və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyən, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirən qanunvericilik aktı. Bu qanun 4 iyun 1999-cu il tarixdə qəbul edilmişdir. O, 17 maddədən ibarətdir.

**Turizm infrastrukturu** – turizm məhsulu istehsalı təşkilinin kompleksli sistemi və yaxud mehmanxana və digər yerləşdirmə – yerdəyişmə, nəqliyyat vasitələrinin, ictimai iaşə, əyləncə obyektləri və vasitələrinin, tanış olma, idraki, iş-peşə, sağlamlaşdırma, idman və digər təyinatlı obyektlərin, turoperator və turagent fəaliyyətini həyata keçirən ixtisaslaşdırılmış müəssisə və təşkilatların, həmçinin ekskursiya və bələdçi (bələdçi-tərcüməçi) xidmətləri göstərən təşkilatların məcmusu.

**Turizm məhsulu** – turistlərə göstərilən xidmətlər kompleksi (turistlərin yerləşdirilməsi, daşınması, yeməyi üzrə xidmətlər kompleksi, ekskursiya, həmçinin bələdçi (bələdçi-tərcüməçi) xidmətləri və səfərin məqsədindən asılı olaraq göstərilən digər xidmətlər.

**Turizm vauçeri** – xarici turistlərə xidmət göstərilməsi və firma ilə qarşılıqlı ödəmələr aparılması üçün əsas olmaqla turun tərkibinə daxil olan xidmətlər üzərində turistin hüququnu müəyyənləşdirən və xidmətlərin göstəriləcəyi faktını təsdiq edən sənəd.

**Turizm yollayışı** – ciddi hesabatlı blank olub, proqramla nəzərdə tutulmuş xidmətlərin ödənildiyini təsdiq edən sənəd.

**Turoperator** – turların komplektləşdirilməsi, turizm məhsulunun formalaşdırılması, hərəkətə gətirilməsi və satışı ilə məşğul olan turizm təşkilatı.

**Tutma** – cinayət-prosessual qanunvericilikdə qısamüddətli məcburiyyət tədbiri. T. tədbiri cinayəti törətməkdə şübhə edilən şəxsə tətbiq edilir və onun cinayətdə iştirakını aydınlaşdırmaq və barəsində həbsəalma növündə qətimkan tədbiri seçmə məsələsini həll etmək üçün tətbiq edilir. T.-nı təhqiqat orqanı və müstəntiq azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayəti törətməkdə şübhə edilən şəxs barəsində yalnız aşağıdakı əsaslardan biri olduqda tətbiq edir: a) həmin şəxs cinayət törədərkən və ya onu bilavasitə törətdikdən sonra yaxalandıqda; b) hadisəni bilavasitə görənlər, o cümlədən zərər çəkmiş şəxs məhz həmin şəxsin cinayət törətdiyini göstərdikdə; c) şübhə edilən şəxsdə və ya onun paltarında və ya mənzilində cinayətin izləri aşkar edildikdə. T. prosessual qaydalara əməl edilməklə həyata keçirilir. Prokuror t.-nın qanuni və əsaslı olmasına nəzarət edir. T. haqqında bütün hallarda protokol tərtib edilir. T. barəsində, bir qayda olaraq tutulan şəxsin ailəsinə dərhal xəbər verilir.

**Tutulma** – AR CPM-də tutulmuş hallarda və qaydada şəxsin azadlığını qısa müddətə məhdudlaşdırmaqla onun müvəqqəti saxlanılma yerində saxlanılması.

**Tüfəng** – lüləli fərdi odlu silah. Döyüş və ov tüfənglərinə ayrılır. T. XIV-XV yüzilliklərdə ixtira edilmişdir. XVI yüzillikdə fitilli t. (muşket), XVII yüzillikdə isə çaxmaqdaşlı t. ixtira edilmişdir. XIX yüzillikdə lülə kanalında vintvari yivləri olan t. meydana gəlmişdir. Hamarlüləli tüfənglərdən ancaq ov t.-ləri kimi istifadə olunur. Optik nişanı olan t. snayper t.-i adlanır.

**Türmə** *(bax: həbsxana).*

# -U-


Uçot faizi (diskont) ........ 1013
Uçuşların təhlükəsizliyi ........ 1013
Uçuş vaxtı ........ 1013
Uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma ........ 1013
Ultimatum ........ 1013
Ultimo ........ 1013
Ulus ........ 1013
Unidrua ........ 1013
Unifikasiya ........ 1013
Unifikasiyalaşdırılmış istiqrazlar ........ 1013
Uninominal dairələr ........ 1013
Unitar ........ 1013
Unitar dövlət ........ 1013
Unitarizm ........ 1013
Unitar müəssisə ........ 1013
Universal hüquq varisliyi ........ 1014
Universallar ........ 1014
Uniya ........ 1014
Unter-zabit ........ 1014
Uryadnik ........ 1014
Usta ........ 1014
Usta əlaltısı ........ 1014
Ustaşlar ........ 1014
Uşaq baxımsızlığı ........ 1014
Uşaqbazlıq ........ 1015
Uşaq cinayətkarlığı ........ 1015
Uşaq əməyi ........ 1015
Uşaq hüquqları ........ 1015
Uşaq Hüquqları Bəyannaməsi ........ 1015
"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının qanunu ........ 1015
Uşaqlar (hüquqi vəziyyətləri) ........ 1015
Uşaqlara və ya valideynlərə kömək göstərməkdən qərəzli boyun qaçırma ........ 1015
Uşaq nəzarətsizliyi ........ 1015
Uşaqsaldırma ........ 1016
Utopik dövlət ........ 1016
Uydurma əqd ........ 1016
Uydurma ifadə ........ 1016
Uydurulmuş veksel ........ 1016
Uzanan cinayətlər ........ 1016
Uzans ........ 1016
Uzufrukt ........ 1016
Uzufruktari ........ 1016
Uzukapiya ........ 1017
Uzun Həsənin Qanunnaməsi ........ 1017
Uzunmüddətli kredit ........ 1017
Uzunmüddətli öhdəliklər ........ 1017
Uzun parlament ........ 1017
Uzurpasiya ........ 1017
Uzurpator ........ 1017
Uzus ........ 1017






**Uçot faizi (diskont)** – veksellərin uçotu zamanı bankların tutduğu (aldığı) faiz.

**Uçuşların təhlükəsizliyi** – Aviasiya qəzaları və insidentləri baş vermədən, insanın həyatına, sağlamlığına və əmlakına zərər vurulmadan və bütövlükdə hər hansı narahatçılığa yol verilmədən uçuşların həyata keçirilməsi.

**Uçuş vaxtı** – hava gəmisinin uçub-qalxma məqsədi ilə dartıcı qüvvəsi hesabına hərəkətinin başlandığı andan uçuş başa çatdıqdan sonra dayandığı anadək olan ümumi vaxt.

**Uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma** – hərbi xidmət əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 352-ci maddəsində nəzərdə tutulmuşdur. Hərbi uçuş aparatlarının uçuş, uçuşa hazırlıq və ya sair istismar qaydalarını pozmada ifadə olunur.

**Ultimatum** *(lat. ultimatum – hərfən sona çatdırılma, sonuncu)* – bir dövlətin başqa dövlətə müəyyən şərtləri yerinə yetirmək (məsələn, müəyyən mövqe tutmaq, konkret hərəkət etmək və i.a.) haqqında qəti tələbi. U. diplomatik sənəddə, yaxud şifahi formada bildirilir. U.-un yerinə yetirilməməsi həmin dövlətə qarşı təsir tədbirlərinin (məsələn, retorsiya, restitusiya, embarqo və i.a.) tətbiq edilməsinə səbəb ola bilər.

**Ultimo** *(ita. ultimo – sonuncu, axırıncı)* – əqdin icra olunmasının müddəti kimi müəyyən edilmiş müəyyən bir vaxtın (dövrün) – ayın, rübün, ilin sonuncu günü.

**Ulus** *(türk. ulus – dövlət, xalq, insanlar)* – **1)** monqol dövlətinin formalaşması dövründə (XIII yüzillik) noyonlara tabe olan və onların torpaqlarında köçərilik edən ailə qrupu; **2)** XVIII yüzilliyin əvvəllərindən XIX yüzilliyin sonunadək Yakutiyada rayon statusuna malik olan inzibati ərazi vahidi.

**Unidrua** – Romada xüsusi hüququn unifikasiyası üzrə beynəlxalq institut; 1926-cı ildə yaradılmış hökumətlərarası təşkilat.

**Unifikasiya** *(lat. unificatio)* – bir və ya bir neçə dövlətin səlahiyyətli orqanlarının müəyyən növ ictimai münasibətləri eyni formada tənzim edən hüquq normalarının hazırlanmasına yönəldilmiş fəaliyyəti. Dövlət və ictimai quruluşu müxtəlif olan dövlətlər arasında da u. prosesi həyata keçirilir.

**Unifikasiyalaşdırılmış istiqrazlar** – əvvəllər buraxılmış bir neçə istiqrazın bir yeni istiqraza mübadilə edilməsi (dəyişdirilməsi). Dövlət borclarının idarə olunması üsulu.

**Uninominal dairələr** *(bax: seçki dairələri).*

**Unitar** *(fr. unitaire, lat. unitas – birlik)* – *vahid, birgə, tam birlik təşkil etmə.*

**Unitar dövlət** – dövlət quruluşu forması. U.d.-in ərazisi federasiyadan fərqli olaraq federativ vahidlərə (ştatlara, irpaqlara və i.a.) deyil, inzibati ərazi vahidlərinə (rayonlara, şəhərlərə və i.a.) bölünür. U.d.-də ölkənin vahid konstitusiyası, vahid dövlət hakimiyyəti orqanları və qanunvericilik sistemi, ümumi hüquq sistemi qüvvədə olur. Böyük Britaniya, Fransa, İtaliya və Yaponiya kimi iri dövlətlər unitar dövlət quruluşuna malikdirlər. Azərbaycan Respublikası unitar dövlətdir.

**Unitarizm** *(fr. unitarisme)* – inzibati ərazi vahidlərinə mərkəzi rəhbərlik (rəhbərliyin həyata keçirilməsi), yaxud xüsusi (müstəqil) dövlət təsisatının olmaması ilə xarakterizə edilən dövlət quruluşu.

**Unitar müəssisə** – Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə təhkim edilmiş əmlak üzərində mülkiyyət hü-

rətinin zəifləməsi, yaxud heç olmaması. U.n. adətən uşaq cinayətkarlığı ilə nəticələnir.

**Uşaqsaldırma** *(bax: abort).*

**Utopik dövlət** – antik quldarlıq cəmiyyətinin sosial gerçəkliyinə zidd olan dövlət quruluşu haqqında meydana gəlmiş sosial utopiya. Mənbələr u.d.-in 2 əsas növü barəsində təlimat verirlər: 1) mücərrəd (həm mütərəqqi, həm də mürtəce) lahiyələr; 2) konstruktiv sosial modellər (nümunələr). Artıq eramızdan əvvəl IV yüzillikdə Apalon özünün "Dövlət haqqında" əsərində aristokratik ideal dövlətin mürtəce modelini hazırlamışdı.

Azərbaycanda (o cümlədən Yaxın və Orta Şərqdə) sosial utopiyanın ən böyük və görkəmli nümayəndəsi Nizami Gəncəvi hesab olunur. Onun sosial utopiyasının mütərəqqiliyi Platon utopiyasını belə kölgədə qoymuşdur.

**Uydurma əqd** *(bax: yalançı əqd).*

**Uydurma ifadə** *(bax: yalançı ifadə vermə).*

**Uydurulmuş veksel** *(bax: saxta veksel).*

**Uzanan cinayətlər** – müəyyən zaman ərzində fasiləsiz olaraq həyata keçirilən ictimai təhlükəli əməllər (cinayətlər). Cinayətkar əməl törədilməsinin başlanğıc və başa çatma məqamı ilə məhdudlaşır. Cinayətin başa çatma anı müəyyən nəticəyə nail olma ilə üst-üstə düşür. Məsələn, oğurluq özgəsinin əmlakını ələ keçirmə anından başa çatmış hesab olunur. Lakin cinayət hüququna elə cinayətlər də məlumdur ki, onlar qısa və ya uzun zaman ərzində fasiləsiz həyata keçirilər. Fərariliyi buna misal göstərmək olur. Bu əməl, şəxsin özünün cinayətkar fəaliyyətini dayandırdığı, yaxud hakimiyyət orqanları tərəfindən tutulduğu andan başa çatmış hesab olunur. U.c.-i davam edən cinayətlərdən fərqləndirmək zəruridir.

**Uzans** *(lat. usus – adət )* - sahibkarlıq hüququnda ticarət adəti; müqavilədə öz düzünə kəsini tapmamış əqdlərin iştirakçılarının iradəsinin müəyyən edilməsi üçün istifadə olunur. "U". anlayışının sinonimi "uzansiya" hesab edilir.

**Uzufrukt** *(lat. usufructus – istifadə + fructau – bəhər, gəlir)* – Roma hüququnda şəxsi servitut növü, təsərrüfat təyinatlı özgə əşyaların toxunulmazlığının qorunması zamanı onlardan əldə olunan bəhərlərdən (gəlirlərdən) istifadə etmək və ya mənfəət götürmək hüququ. U. hüququna malik olan şəxs (uzufruktari) həm əşyanın özündən istifadə, həm də ondan gəlir əldə edə bilərdi. Lakin həmin şəxs bu zaman əşyanı dəyişdirə və ya ona xəsarət yetirə bilməzdi. O, əşyadan istifadənin bütün qaydalarına əməl etməyə borclu idi. U.-un predmetləri ancaq istifadəsi mümkün olan, istehlakı və ya məhv edilməsi qeyri-mümkün olan əşyalar ola bilərdi.

AR MM-in 263.1-ci maddəsinə uyğun olaraq u. əşyanın və ya hüquqların elə yüklülüyüdür ki, bu zaman xeyrinə yüklülük müəyyənləşdirilən şəxs (uzufruktuar) onlardan istifadə etmək və fayda götürmək hüququna malikdir, lakin mülkiyyətçilərdən fərqli olaraq bu əşyanı və hüquqları girov qoymaq, özgəninkiləşdirmək və vərəsəlik üzrə vermək hüququna malik deyildir. U. ayrı-ayrı faydaların istisna edilməsilə məhdudlaşdırıla bilər.

**Uzufruktari** – şəxsi sevituta malik olan şəxsin adı; yəni özgə əşyadan fərdi qaydada istifadə etmək hüququna malik olan şəxs.





**Uzukapiya** *(lat. usucapio)* - Roma hüququnda faktiki sahiblik müddəti sayəsində mülkiyyətin əldə edilməsi, həmçinin müddətli sahibliyin özü.

**Uzun Həsənin Qanunnaməsi** – XV yüzillikdə Azərbaycanın Ağqoyunlu dövlətinin başçısı Uzun Həsən tərəfindən tərtib (1470-1477-ci illərdə) edilmiş qanunvericilik aktı. Təkcə Azərbaycanda deyil, Uzun Həsənin hakimiyyəti altında olan bütün ərazilərdə qüvvədə olmuşdur. "Qanunnamə" dövrümüzədək gəlib çatmamışdır. U.H.Q. əsasən aqrar və vergi məsələlərilə əlaqədar münasibətlərin tənzimlənməsinə yönəldilmişdi. "Qanunnamə" təqribən 85 ilə ərzində qüvvədə olmuşdur. Bu qanunvericilik aktının kənd təsərrüfatı və vergilər sahəsində aparılmış hüquqi islahat kimi də qiymətləndirmək olar.

"Qanunnamə"də qismən mühakimə icraatı, qazıların vəzifəyə təyinatı və mülki hüququn iddialar institutuna, həmçinin iddia müddətlərinin hesablanması məsələlərinə də toxunulmuşdur. Belə ki, qazılar bu vəzifəyə artıq bilik və bacarıqları yoxlamaqla təyin edilir, bəzən isə seçilirdilər. Məhkəmədə iddia qaldırmaq müddəti xeyli qısaldılmışdır. U.H.Q. Azərbaycanın dövlət və hüquq, o cümlədən siyasi və hüquqi fikir tarixinin öyrənilməsi baxımından qiymətli mənbə hesab oluna bilər.

**Uzunmüddətli kredit** - uzun müddətə verilən və başlıca olaraq əsas kapitalın geniş təkrar istehsalına xidmət edən kredit. U.k.-in mühüm sahəsi, həmçinin dövlət krediti və mənzil tikintisinin kreditləşdirilməsi (maliyyələşdirilməsi). U.k. beynəlxalq iqtisadi münasibətlər sahəsində də geniş tətbiq edilir.

**Uzunmüddətli öhdəliklər** – ödənilmə müddəti bir ildən artıq (bir ili aşan) olan borc öhdəlikləri.

**Uzun parlament** *(ing. long parlament – uzunmüddətli parlament)* – İngiltərə kralı I Karl Sütüartın 1640-cı il noyabrın 3-də çağırdığı və əslində yenicə başlanmış İngiltərə burjua inqilabının qanuverici orqanına çevrilmiş parlament. Gödək (qısa) parlamenti əvəz etmişdir. U.p. 12 ildən çox fəaliyyət göstərmiş və adı da buradan meydana gəlmişdir. U.p. 1653-cü il aprelin 20-də O.Kromvel tərəfindən buraxılmışdır.

**Uzurpasiya** – *(lat. usurpatio – zəbt edirəm)* – nəyisə qanunsuz olaraq ələ keçirmə, yaxud özgəsinin hüquqlarını zorakılıq yolu ilə mənimsəmə. Siyasətdə u. şəxsi diktatura yaratmaq məqsədilə hakimiyyətin qanunsuz olaraq zəbt edilməsi, yaxud dövlət başçısı səlahiyyətlərinin dövlət çevrilişi yolu ilə uzurpatorlar tərəfindən mənimsənilməsindən ibarətdir.

**Uzurpator** *(bax: uzurpasiya).*

**Uzus** *(lat. usus)* – adət; Roma hüququnda özgəsinin əşyasından istifadə etmə. Müasir sahibkarlıq təcrübəsində u. uzans kimi məlumdur.

# -Ü-

Üçüncü silk ........ 1019
Üçüncü şəxsin xeyrinə müqavilə ........ 1019
Üçüncü şəxslər ........ 1019
Üləfa (ülufə) ........ 1019
Üləma ........ 1019
Ümumxalq səsverməsi ........ 1019
Ümumi barışıq ........ 1019
Ümumi əfv ........ 1019
Ümumi əsgəri vəzifə ........ 1019
Ümumi hüquq ........ 1019
Ümumi korporasiya ........ 1020
Ümumi müqavilə ........ 1020
Ümumi mülkiyyət ........ 1020
Ümumi mülkiyyətin girovu ........ 1020
Ümumi nəzarət ........ 1020
Ümumi oferta ........ 1020
Ümumi prevensiya ........ 1020
"Ümumi rifah dövləti nəzəriyyəsi" ........ 1020
Ümumi seçki hüququ ........ 1021
Ümumi səfərbərlik ........ 1021
Ümumi təhsil ........ 1021
Ümumtəhsil məktəbi ........ 1021
Ünvan ........ 1021
Ünvanlı dövlət sosial yardımı ........ 1021
"Ünvanlı dövlət sosial yardımı haqqında" Respublikasının qanunu ........ 1021
Ürf ........ 1021
Ürs ........ 1021
Üsul əl-fiqh ........ 1022
Üsuli ........ 1022
Üsul-idarə ........ 1022
Üşr ........ 1022
Üzləşdirmə ........ 1022







**Üçüncü silk** *(fr. tries etat)* - XV - XVIII yüzilliklərdə Fransanın vergi verən əhalisi (tacirlər), sənətkarlar, kəndlilər, sonradan həm də xırda burjuaziya və fəhlələr. Bu silki vergidən azad edilmiş birinci və ikinci silklərdən (ruhanilərdən və zadəganlardan) fərqləndirmək üçün belə adlandırmışlar. Böyük fransız inqilabı dövründə silki fərqlərin aradan qaldırılması ilə ü.s. də ləğv edilmişdir.

**Üçüncü şəxsin xeyrinə müqavilə** – mülki - hüquqi müqavilələrin bir növü (tərəflərin sazişi). AR MM-in 403-cü maddəsinə uyğun olaraq üçüncü şəxsin xeyrinə müqavilə elə müqavilədir ki, onun tərəfləri borclunun icranı müqavilədə göstərilmiş və ya göstərilməmiş, öhdəliyin öz xeyrinə icrasını borcludan tələb etmək hüququ olan üçüncü şəxsə həyata keçirməli olduğunu müəyyənləşdirirlər.

**Üçüncü şəxslər** *(hüquqda)* – mülki prosesdə iddiaçı və cavabdeh arasındakı mübahisənin nəticəsi ilə hüquqi cəhətdən maraqlı olan iştirakçılar. Ü.ş.- in 2 kateqoriyası fərqləndirilir: 1) mübahisə predmeti barəsində müstəqil tələb irəli sürən ü.ş. Bunlar artıq başlanmış prosesə öz hüquqlarını və ya qanunla qorunan mənafelərini müdafiə etmək üçün bir tərəfə, yaxud hər iki tərəfə ümumi əsaslarla iddia verməklə daxil olurlar; 2) mübahisə predmeti barəsində müstəqil iddia irəli sürməyən ü.ş. Bunlar iddiaçı, yaxud cavabdeh tərəfindən öz təşəbbüsləri ilə prosesə daxil olur və ya tərəflərin, prokurorun vəsatəti, yaxud məhkəmənin təşəbbüsü ilə prosesə cəlb olunurlar.

**Üləfa (ülufə)** – orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda mövcüd olmuş vergi növü.

**Üləma** *( ərəb.)* – ilahiyyatın və dini hüququn tanınmış və nüfuzlu bilicilərinə – imamlara, faqihlərə, müftilərə, qazılara və başqalarına verilən ad (alimlər). Ü. başqa vəzifələrlə yanaşı, həm də dini hakim qazı vəzifəsini yerinə yetirir.

**Ümumxalq səsverməsi** *(bax: referendum).*

**Ümumi barışıq** *(hərbdə)* – hərbi əməliyyatların (döyüşlərin) getdiyi bütün ərazilərdə hərbi əməliyyatların müvəqqəti dayandırılması; bir qayda olaraq, hökumətlərarası sazişlər əsasında həyata keçirilir. Ü.b. bəzən hərbi əməliyyatların tam dayandırılmasına səbəb olur.

**Ümumi əfv** *( bax: amnistiya).*

**Ümumi əsgəri vəzifə** - silahlı qüvvələrdə qulluq etmə, ordudankənar müxtəlif formalarda hərbi hazırlıq keçmək və ölkənin müdafiəsilə əlaqədar digər vəzifələri icra etmək sahəsində vətəndaşların qanunla müəyyən edilmiş hərbi borcu (vəzifəsi). "Ümumi əsgəri vəzifə haqqında" qanun əsasında və silahlı qüvvələrin xüsusiyyətlərindən irəli gələn bir sıra yeni qanunlar və digər hüquqi aktlarla ü.ə.v.-nin aşağıdakı formaları müəyyən edilir: a) həqiqi hərbi qulluqdan və ehtiyatda olan qulluqdan ibarət hərbi qulluq; b) əhalinin ordudankənar (hərbi vəzifəli şəxslərin) hazırlığı.

**Ümumi hüquq** *(ing. common low)* – hüquq sistemi. Ü.h. məhkəmə presedentini hüququn əsas mənbəyi hesab edir. Bu sistemdə qanunlar yalnız ayrı-ayrı münasibətlər sahəsini tənzim edir, lakin vahid sistemdə birləşdirilmir. Qanunla tənzim edilməyən sahələr isə, həmçinin qanunların təfsiri və onların tətbiqi ü.h.-la müəyyən edilir. Ü.h. ilk dəfə İngiltərədə XIII-XIV yüzilliklərdə meydana gəlmişdir. Ü.h. Böyük Britaniyada (Şotlandiya istisna olmaqla), ABŞ-da (Luiziana ştatı istisna olmaqla), Kanadada, Avstraliyada, Yeni Zelandiyada qüvvədədir.

**Ümumi korporasiya** – İngiltərədə dövlətin adından, lakin hüququn müstəqil subyekti qismində iqtisadi və sosial xarakterli funksiyaları yerinə yetirən hüquq institutu. Ü.k. öz fəaliyyətinə görə hökumətin şəxsində dövlət qarşısında məsuldur, lakin eyni zamanda da öz əmlakına malik olmaqla yanaşı, həm də kommersiya müəssisəsinin hüquqi əlamətlərinə malikdir. Almaniya və Fransada analoji institutlar ümumi müəssisə adlandırılırlar.

**Ümumi müqavilə** – mülki-hüquqi müqavilələrin bir növü. AR CM -in 400-cü maddəsinə uyğun olaraq kommersiya təşkilatının bağladığı və öz fəaliyyətinin xarakterinə görə ona müraciət edəcək hər kəs barəsində malların satışı, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi (pərakəndə ticarət, ümumi istifadədə olan nəqliyyatla daşıma, rabitə xidmətləri, enerji təchizatı, tibb, mehmanxana xidməti və s.) sahəsində bu təşkilatın həyata keçirməli olduğu vəzifələri müəyyənləşdirən müqavilə.

Kommersiya təşkilatının ü.m. bağlamasında bir şəxsə nisbətən digərinə üstünlük verməyə ixtiyarı yoxdur. Malların, işlərin və xidmətlərin qiyməti, habelə ü.m.-nin digər şərtləri bütün istehlakçılar üçün eyni cür müəyyənləşdirilir. İstehlakçıya müvafiq mallar vermək, xidmətlər göstərmək, müvafiq işlər görmək imkanı olduğu halda, kommersiya təşkilatının ü.m. bağlamaqdan imtina etməsinə yol verilmir.

**Ümumi mülkiyyət** – mülki qanunvericiliyə görə mülkiyyət hüququnun xüsusi növlərindən biri. AR MM-in 213-cü maddəsinə uyğun olaraq iki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya onlara ümumi mülkiyyət hüququ əsasında məxsusdur. Əşya mülkiyyət hüququnda mülkiyyətçilərin hər birinin payı müəyyənləşdirilməklə (paylı mülkiyyət) və ya belə paylar müəyyənləşdirilmədən (birgə mülkiyyət) ü.m.-də ola bilər. Əşyaya ü.m., qanunvericilikdə həmin əşyaya birgə mülkiyyət hüququnun yaramasının nəzərdə tutulduğu hallar istisna olmaqla, paylı mülkiyyət sayılır. Ü.m. təyinatı dəyişdirilmədən bölünə bilməyən əşyanın ( bölünməz əşya ) və ya MM-ə görə bölünməli olmayan əşyanın iki və ya bir neçə şəxsin mülkiyyətinə daxil olması zamanı yaranır.

**Ümumi mülkiyyətin girovu** – mülki qanunvericiliyə görə girov hüququnun formalarından biri. AR MM-in 277-ci maddəsinə uyğun olaraq ümumi birgə mülkiyyətdə olan əşya yalnız bütün mülkiyyətçilərin yazılı razılığı olduqda girov qoyula bilər. Ümumi paylı mülkiyyətin mülkiyyətçilərindən hər hansı biri ümumi əşyaya hüquqdakı payını digər mülkiyyətçinin razılığı olmadan girov qoya bilər. Girov saxlayanın tələbi ilə həmin paya tutma yönəldikdə və o satıldıqda AR MM-in satın alınmaqda üstünlük hüququ haqqında qaydaları tətbiq edilir.

**Ümumi nəzarət** *( bax: nəzarət )* .

**Ümumi oferta** *(bax: oferta).*

**Ümumi prevensiya** cinayət hüquq nəzəriyyəsində anlayışlardan biri; cinayət-hüquqi qadağanın təsiri altında cinayətlərin profilaktikası (qarşısının alınması ) deməkdir.

**"Ümumi rifah dövləti nəzəriyyəsi"** – kapitalizm cəmiyyəti və burjua dövlətinin mahiyyəti haqqında müasir burjua-reformist məddahlıq nəzəriyyələrindən biri. Kapitalizmin yeni iqtisadi formasiya kimi transformasiyası haqqında yanlış ideyanın bir hissəsidir. Nəzəri mənbəyi keynsçilik və reformist ideologiyadır.







"Ümumi rifah dövləti" konsepsiyası müstəqil anlayış kimi İkinci dünya müharibəsindən sonra yayılmış və rəsmi burjua təbliğatının, eləcə də müxtəlif partiya platformaları və proqramlarının ayrılmaz elementinə çevrilmişdir.

**Ümumi seçki hüququ** seçki hüququ sistemi. Qanunla müəyyən yaşa çatmış bütün vətəndaşlara nümayəndəli orqanlara seçkilərdə seçki senzləri tətbiq edilmədən iştirak etmək hüququ verilir. Ü.s.h əksər ölkələrin konstitusiyasında təsbit edilmişdir. Azərbaycan Respublikası vətəndaşlarının seçki hüququ ölkə Konstitusiyasının 56-cı maddəsində təsbit edilmişdir.

**Ümumi səfərbərlik** silahlı qüvvələrin hərbi vəziyyətə gətirilməsi, iqtisadiyyatın və dövlət idarələrinin müharibənin ehtiyaclarını təmin etmək məqsədilə yenidən qurulması üçün həyata keçirilən kompleks tədbirlər. Ü.s.-ə hazırlıq dinc dövrdə, səfərbərliyin özü isə ölkənin imkanları nəzərə alınaraq hazırlanmış plana uyğun sürətdə, müharibə ərəfəsində və ya müharibə başlandıqda keçirilir. Ü.s. ölkənin bütün ərazisində, silahlı qüvvələrdə, bütün iqtisadiyyatda və müxtəlif sahələrdə aparılır.

**Ümumi təhsil** gələcək ixtisas və peşəsindən asılı olmayaraq hamı üçün zəruri olan biliklərin, bacarıq və vərdişlərin öyrənilməsi prosesi və nəticəsi. Ü.t.-i ümumtəhsil məktəblərində həmçinin müstəqil təhsil yolu ilə alırlar.

**Ümumtəhsil məktəbi** – ümumi təhsil verən dövlət məktəbi, ictimai və ya xüsusi məktəb. Rusiyada ibtidai, yüksəktipli ibtidai, gimnaziya, realni, kommersiya məktəbləri və kabet korpusları ü.m. hesab olunurdu. Müasir ölkələrdə kolleclər, litseylər, ali məktəblər ü.m.- ləri hesab olunur.

**Ünvan** *( ərəb.)* – **1)** idarə, müəssisə və təşkilatın yerləşdiyi, yaxud fiziki şəxsin yaşadığı (yaşayış yeri) yer; **2)** fiziki və ya hüquqi şəxsə təqdim edilən yazılı təbrik.

**Ünvanlı dövlət sosial yardımı** – aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımı. Sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması və s.) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan asılı olaraq aztəminatlı ailələr malikdirlər.

**"Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında ünvanlı dövlət sosial yardımının göstərilməsinin məqsəd və prinsiplərini, təyin olunmasının hüquqi əsaslarını və bu sahədə yaranan digər münasibətləri tənzim edən qanunvericilik aktı.

Həmin qanun 16 noyabr 2005-ci il tarixdə qəbul edilmişdir, 12 maddədən ibarətdir.

**Ürf** – müsəlman hüququnun mənbələrindən biri; ənənə və adətlərdən tərtib edilən adət hüquq normalarından ibarətdir.

**Ürs** *(islamda)* – toy şənliyi; toy mərasiminin mərhələlərindən biri. Bu mərhələdə nikah müqaviləsi (siğə) elan olunur və başlıq kimi mehr, yaxud onun bir hissəsi (sədəq) ödənilir. Ü. nikah müqaviləsinin formal şəkildə bağlanmasından ibarətdir. Lakin ü.-dən faktiki nikah münasibətlərinə daxil olanadək uzun müddət (zaman fasiləsi) keçə bilər. Belə ki, ü. hələ gələcəkdə

nikaha daxil olmalı olanların uşaqlıq dövründə təntənəli surətdə bayram edilə bilər.

**Üsul əl - fiqh** – fiqhin "kökləri" (mənbələri); müsəlman hüququnun mənbələrindən biri. Ü.ə. - f. müsəlman hüququnun əsaslarından, hüquq metodologiyasından ibarətdir. Bunlara Quran, Sünnə, İcma və Qiyas daxildir. Hüququn bu dörd kökünü (mənbəyini) islamın bütün hüquq məktəbləri tədricən tanımışdır. Klassik islam konsepsiyasına uyğun olaraq ü.ə.- f. xüsusi hüquq fənni kimi dərhal deyil, əl-fiqhin nəticələrinin sistemləşdirilməyə başladığı vaxt təşəkkül tapmışdır. İslam hüquqşünaslarının hüquqi görüşlərində qəbul edilmiş qaydaya görə VIII yüzilliyin ikinci yarısına doğru artıq əl-fiqhin tədqiqinə iki aparıcı yanaşma təşəkkül tapmışdır. Onlar bir-birindən əl-fiqhin normalarının formalaşmasının müxtəlif üsullu olmasına görə fərqlənmişlər. Onlardan biri (mədrəsət, yaxud əshab əl-hədis), hər şeydən əvvəl, peyğəmbərin Sünnələrini əsas götürür, digəri isə (mədrəsə, yaxud əshab ər-rəy) əl - fiqhin məsələlərinin rasional üsullarını rəhbər tuturdu. Belə hesab olunudu ki, VIII yüzilliyin sonu - IX yüzilliyin başlanğıcında göstərilən cərəyanlar çərçivəsində ü.ə.- f.-in əsas təfsirləri formalaşmışdır.

**Üsuli** ***(islamda)*** – imami şiələrin dini-hüquqi məktəbi. Bu məktəbin tərəfdarları (müasir imamilərin əksər hissəsi) fiqh məsələlərində mötəbər ruhanilərin Qiyas (müstəqil mühakimə) və İcma əsasında çıxartdıqları hökm və qərarlarından geniş istifadə edilməsini məqbul hesab edirlər.

**Üsul-idarə** *(bax : rejim).*

**Üşr** *(ərəb. ondabir )* – orta əsrlərdə müsəlman dövlətlərində mövcud olmuş natural vergi. Şəriətə əsasən kənd təsərrüfatı, heyvandarlıq, balıqçılıq, neft məhsulları; duz və i.a. istehsalı məhsullarının 1/10 -i həcmində toplanılırdı. Azərbaycanda dəhyek, salariyə, ondabir və i.a. adlarla da məlum olmuşdur. U. XIX yüzilliyin ikinci yarısında aradan çıxmışdır. Ü. Əlcəzairdə 1918-ci, Türkiyədə 1925-ci, Tunisdə 1935-ci ildə ləğv edilmişdir. O, Səudiyyə Ərəbistanı və bir sıra başqa müsəlman ölkələrində indi də mövcuddur.

**Üzləşdirmə** – cinayət prosesində qabaqcadan dindirilmiş iki şəxsin ifadələrində mühüm ziddiyyətlər olduqda onların eyni vaxtda (bir - birinin iştirakı ilə) dindirilməsi. Ü. ifadələrdəki ziddiyyətlərin səbəbini aşkar etmək və onları aradan qaldırmaq, ifadələrin düzgünlüyünü qiymətləndirməyə kömək edən əlavə məlumatlar əldə etmək üçün aparılır. Ü. yalnız müstəntiq tərəfindən qabaqcadan (əvvəllər) dindirilmiş şəxslər arasında aparılır. Onun eyni vaxtda iki nəfərdən artıq şəxs arasında aparılmasına yol verilmir.

AR CPM-in 235-ci maddəsinə uyğun olaraq ü. şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı ilə aparıldıqda, müstəntiq həmin istintaq hərəkətinin aparılmasında həmçinin onun müdafiəçisinin iştirakını əvvəlcədən təmin etməlidir. Ü.- nin əvvəlində aralarında ü. aparılan şəxslərin bir-birini tanıması və onların münasibətləri dəqiqləşdirilir. Ü.-yə dəvət olunmuş şəxslər müstəntiqin icazəsi ilə bir-birinə suallar verə bilərlər. Ü. iştirakçılarının əvvəlki dindirmələrdə verdikləri ifadələrin səsləndirilməsinə onların ü. zamanı ifadə verməsindən və həmin ifadələrin protokola daxil edilməsindən sonra icazə verilir. Müstəntiq ü. - ni video və kino çəkilişində və ya digər yazan texniki vasitələrdən istifadə etməklə həyata keçirmək hüququna malikdir.





# -V-


Vaxmistr ........ 1026
Vaxtamuzd əməkhaqqı ........ 1026
Vaxtanq (VI Vaxtanqın) qanunları ........ 1026
Vaxt büdcəsi (əhalinin vaxt büdcəsi) ........ 1026
Vaxt xidməti ........ 1026
Vaxtı uzadılmış veksel ........ 1026
Vaxt metodu ........ 1026
Vaxt norması ........ 1026
Vakansiya ........ 1027
Vaqner Qanunu ........ 1027
Vali ........ 1027
"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanun ........ 1027
Valideynlik hüququ ........ 1027
Valideynlik hüquqlarının məhdudlaşdırılması ........ 1027
Valiza ........ 1028
Valorizasiya ........ 1028
Valvasiya ........ 1028
Valyuta ........ 1028
Valyuta arbitrajı ........ 1028
Valyuta ayırmaları ........ 1028
Valyuta bazarları ........ 1028
Valyuta dempinqi ........ 1028
Valyuta ehtiyatları ........ 1028
Valyuta əməliyyatları ........ 1028
Valyuta əmsalı ........ 1029
Valyuta əraziləri ........ 1029
Valyuta gömrük nəzarəti ........ 1029
Valyuta hesabatı ........ 1029
Valyuta hesabı ........ 1029
Valyuta hərəkətləri ........ 1029
Valyuta hərracı ........ 1029
Valyuta inhisarı ........ 1029
Valyuta inteqrasiyası ........ 1029
Valyuta kassası ........ 1030
Valyuta klirinqi ........ 1030
Valyuta kursu ........ 1030
Valyuta qanunvericiliyi ........ 1030
Valyuta qeyd-şərti ........ 1030
Valyutaların konversiyası ........ 1030
Valyutalaşdırılmış polis ........ 1030
Valyuta lisenziyası ........ 1030
Valyuta məhdudiyyətləri ........ 1030
Valyuta məzənnəsi ........ 1031
Valyuta möhtəkirliyi ........ 1031
Valyuta mövqeyi ........ 1031
Valyuta mübadiləsi ........ 1031
Valyuta müdaxilələri ........ 1031
Valyuta müdaxiləsi ........ 1031
Valyuta mükafatı ........ 1031
Valyuta münasibətləri ........ 1031
Valyuta nəzarəti ........ 1031
Valyuta opsionu ........ 1032
Valyuta pariteti ........ 1032
Valyuta riski ........ 1032
Valyuta səbəti ........ 1032
Valyuta sərvətləri ........ 1032
Valyuta sistemi ........ 1032
Valyuta siyasəti ........ 1032
"Valyuta tənzimi haqqında" qanun ........ 1033
Valyuta tənzimlənməsi ........ 1033
Valyuta zonaları ........ 1033
Vandalizim ........ 1033
Van Man islahatları ........ 1033
Vansya müqaviləsi ........ 1033
"Varidata təminat verilməsi haqqında" konstitusiya qanunu ........ 1033
Varis ........ 1034
Varislik ........ 1034
Varrant ........ 1034
Vasitəçilik[1] ........ 1034
Vasitəçilik[2] ........ 1034
Vassal ........ 1034
Vassal dövlət ........ 1034
Vassallıq ........ 1034
Vauçer ........ 1034

Vayşilər ........ 1034
Veçe ........ 1035
Vedalar ........ 1035
Veksel ........ 1035
Veksel aksepti ........ 1035
Veksel brokeri ........ 1035
Veksel əldə edən şəxs ........ 1035
Vekselə malik olan şəxs ........ 1035
Veksel hüququ ........ 1036
Veksel intizamı ........ 1036
Vekselin uçotu ........ 1036
Vekselin verilməsi ........ 1036
Veksel krediti ........ 1036
Veksel kursu ........ 1036
Veksel qanunvericiliyi ........ 1036
Veksel qrasiyası ........ 1036
Veksellərin domisilyasiyası ........ 1036
Veksellərin yenidən uçotu ........ 1036
Veksel müqavilələri ........ 1036
Veksel nişanı ........ 1037
Veksel nizamnamələri ........ 1037
Veksel öhdəlikləri ........ 1037
Veksel reqressi ........ 1037
Veksel rekvizitləri ........ 1037
Veksel portfeli ........ 1037
Veksel protesti ........ 1037
Veksel tədavülü ........ 1037
Veksel valyutası ........ 1037
Veksel verən şəxs ........ 1037
Veksel vizası ........ 1037
Veksel yarmarkası ........ 1038
Vençur biznes ........ 1038
Vençur əməliyyatları ........ 1038
Vençur firması ........ 1038
Vençur kapitalı ........ 1038
Vençur müəssisələri ........ 1038
"Vendidad" ........ 1038
Verbal nota ........ 1039
Verden müqaviləsi ........ 1039
Verdikt ........ 1040
Vergeld ........ 1040
Vergi ........ 1040
Vergi agenti ........ 1040
Vergi güzəştləri və azadolmaları ........ 1040
"Vergi havanları" (vergi sığınacaqları) ........ 1041
Vergi hesabatı ........ 1041
Vergi hesab-fakturaları ........ 1041
Vergi hüquq pozuntusu ........ 1041
Vergi hüququ ........ 1041
Vergi ili ........ 1041
Vergi immuniteti ........ 1041
Vergi kvotası ........ 1042
Vergiqoyma ........ 1042
Vergiqoyma metodu ........ 1042
Vergiqoyma obyekti ........ 1042
Vergiqoyma predmeti ........ 1042
Vergilərin antisipasiyası ........ 1042
Vergi Məcəlləsi ........ 1042
Vergi mənbəyi ........ 1042
Vergi məzənnəsi ........ 1042
Vergi nəzarəti ........ 1042
Verginin hesablanması ........ 1043
Vergi orqanları ........ 1043
Vergi ödəməkdən yayınma ........ 1043
Vergi ödəyiciləri ........ 1043
Vergi ödəyicisi ........ 1043
Vergi öhdəliyi ........ 1043
Vergi polisi ........ 1043
Vergi sistemi ........ 1044
Vergisiz zona ........ 1044
Vergi tətilləri ........ 1044
Vergitutma bazası ........ 1044
Vergitutma obyekti ........ 1044
Vergitutmanın formaları ........ 1044
Vergi yoxlamaları ........ 1044
Vermaxt ........ 1044
Vermal kontraktlar (əqdlər) ........ 1044
Verv ........ 1045
Veteran ........ 1045
"Veteranlar haqqında" qanun ........ 1045
Veto ........ 1045
Veto hüququ ........ 1045
Veymar Konstitusiyası ........ 1045
Vəhhabi cinayətləri ........ 1046
Vəhhabilik ........ 1047
"Vəhşi" vira ........ 1047
Vəkalətnamə ........ 1047
Vəkil ........ 1047
Vəkil etikası ........ 1048
Vəkil sirri ........ 1048
Vəkilin andı ........ 1048
Vəkillər Kollegiyası ........ 1048
"Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanun ........ 1048
Vəkilliyin rəmzləri ........ 1049





Vəqf ........ 1049
Vəliəhd ........ 1049
Vərdişkar cinayətkar ........ 1049
Vərəsə ........ 1050
Vərəsələr ........ 1050
Vərəsəlik ........ 1050
Vərəsəlik hüququ ........ 1050
Vərəsəlik şəhadətnaməsi ........ 1050
Vərəsəlik transmissiyası ........ 1051
Vərəsəsiz əmlak ........ 1051
Vəsatət ........ 1051
Vəsiqə ........ 1051
Vəsiyyət ........ 1052
Vəsiyyətnamə ........ 1052
Vəsiyyətnamənin etibarsızlığı ........ 1052
Vəsiyyətnamənin icrası ........ 1053
Vəsiyyətnamənin icrası subyektləri ........ 1053
Vəsiyyətnamə sirri ........ 1053
Vəsiyyət tapşırığı (leqat) ........ 1053
Vəsiyyət üzrə vərəsəlik ........ 1054
Vətəndaş ........ 1054
Vətəndaş cəmiyyəti ........ 1054
"Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" qanun ........ 1054
"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanun ........ 1054
"Vətəndaşların pensiya təminatı haqqında" qanun ........ 1055
Vətəndaşlığı olmayan şəxslər ........ 1055
Vətəndaşlıq ........ 1055
Vətəndaşlıqdan məhrum etmə ........ 1055
Vətəndaşlıq senzi ........ 1055
Vətəndaşlıq vəziyyəti aktları ........ 1055
Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı (VVAQ) ........ 1056
Vətəndaş müharibəsi ........ 1056
Vətəni müdafiə vəzifəsi ........ 1056
Vətən vekseli ........ 1056
Vəzifə ........ 1056
Vəzifə cinayətləri ........ 1056
Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə ........ 1056
Vəzifə saxtakarlığı ........ 1056
Vəzifə səlahiyyətlərindən sui-istifadə ........ 1057
Vəzifə səlahiyyətlərini aşma ........ 1057
Vəzifə təlimatı ........ 1057
Vəzifəverici hüquq normaları ........ 1057
Vəzifəli şəxs ........ 1057
Vəzir ........ 1057
Vəzirlik ........ 1058
Vicdan azadlığı ........ 1058
Vicdansız emissiya ........ 1058
Vicdansız rəqabət ........ 1058
Vicdansız reklam ........ 1058
Viç-infeksiya ........ 1058
Vidok ........ 1058
Viktim davranış ........ 1058
Viktimiyalaşdırma ........ 1058
Viktimlik ........ 1058
Viktimologiya ........ 1058
Vilayəti-fəqih ........ 1058
Villanlar ........ 1058
Vindikasiya ........ 1059
Vidikasiya iddiası ........ 1059
Vinodol qanunu ........ 1059
Vira ........ 1059
Vislis-Petrokovsk statutları ........ 1059
"Vispered" ........ 1059
"Vitse" ........ 1060
Vitse-admiral ........ 1060
Vitse-konsul ........ 1060
Vitse-krallıq ........ 1060
Vitse-qubernator ........ 1060
Vitse-mer ........ 1060
Vitse-prezident ........ 1060
Viza ........ 1060
Vizalama ........ 1061
Vizasız getmə ........ 1061
Vizitasiya ........ 1061
Volost ........ 1061
Volostel ........ 1061
Volost idarəsi ........ 1061
Volost məhkəməsi ........ 1061
Volost starşinası ........ 1061
Volost yığıncağı ........ 1061
Votçina ........ 1061
Votçina məhkəməsi ........ 1062
Votum ........ 1062
Voyevoda ........ 1062
Vulqar hüquq ........ 1062
Vyana arbitrajları ........ 1062

**Vaxmistr** *(alm. wachtmeister – kiçik komanda heyətində rütbə)* – 1917-ci ilədək Rusiya ordusunun süvari hissələrində və süvari artilleriyasında, həmçinin jandarmeriyada kiçik zabit heyətinin rütbəsi, vəzifəsi. V. adına1711-ci ildən təsadüf edilir. V. nizami təlimin keçirilməsində, təsərrüfatın və daxili intizamın təşkilində eskadron (batareya) komandirinə kömək edirdi. V. rütbəsi digər qoşun növlərində feldfebel rütbəsinə uyğun idi.

**Vaxtamuzd əməkhaqqı** – əməkhaqqı formalarından biri. Bu formada əməkhaqqı işə sərf olunmuş faktiki vaxtdan və işçinin ixtisasından asılı olaraq verilir. V.ə.h. sistemində işçilər üçün onlara təhkim edilmiş qurğulara, aqreqatlara xidmət normaları, yaxud müəyyən dövr üçün normalaşdırılmış istehsalat tapşırıqları müəyyən edilir. Ayrı-ayrı funksiyaları və ya işləri yerinə yetirmək üçün işçilərin say normativləri müəyyən edilə bilər.

**Vaxtanq (VI Vaxtanqın) qanunları** – Gürcüstan feodal hüququnun sistemləşdirilmiş qanunlar toplusu (məcəllə). Məcəllə 1705-1708-ci illərdə Kartli çarı VI Vaxtanqın rəhbərliyi ilə tərtib edilmiş, XIX yüzilliyin ikinci yarısınadək qüvvədə olmuşdur. Tövratdan çıxarışlar, Bizans, gürcü qanunlarından və VI Vaxtanqın öz Qanunnmanəsindən ibarət idi. Məcəllələşdirmə zərurəti ölkədəki iqtisadi və siyasi dəyişikliklərdən irəli gəlmişdir. V.q. təhkimçiliyi hüquqi cəhətdən rəsmiləşdirmişdir. Bu qanunların mənbəyini başlıca olaraq Gürcüstanın adət hüququ təşkil edirdi. Toplu ayrı-ayrı redaksiyalarda müxtəlif qayda üzrə tərtib edilməklə 7 hissədən və 1415 maddədən ibarət idi. V.q. öz qüvvəsini İmereti və Quridə 1859-cu ildə, Minqrelidə isə 1870-ci ildə itirmişdir.

**Vaxt büdcəsi (əhalinin vaxt büdcəsi)** – ayrıca işçinin və onun ailəsinin, eləcə də əhalinin müəyyən qrupunun istifadə növlərinə görə vaxt sərfi bölgüsünü (sutka, həftə, ay, il) səciyyələndirən göstəricilər sistemi. Xüsusi tədqiqatların aparılması ilə öyrənilir. Bunların öyrənilməsi prosesində müəyyən vaxt ərzində və qəbul olunmuş təsnifata uyğun olaraq vaxt sərfi nəzərə alınır. V.b.-nin ətraflı tədqiqi əhalinin həyat məişətinin öyrənilməsinin mühüm vasitəsidir. V.b.-nin ümumi fondunun aşağıdakı bölgüləri qəbul olunub: a) iş vaxtı; b) işdənkənar vaxt.

**Vaxt xidməti** – elmi-tədqiqat institutu, rəsədxana və başqa müəssisələrdə ixtisaslaşmış laboratoriyalar, yaxud həmin müəssisələrdən biri. Onlar vaxtı təyin edir, qoruyur və vaxt haqqında lazımi ünvanlara məlumat verirlər.

**Vaxtı uzadılmış veksel** – ödəniş müddəti veksel ə malik olan şəxsin razılığı ilə uzadılmış veksel.

**Vaxt metodu** – istehsal obyektlərinin (sahələrinin) müəssisədən xeyli konarlaşdırılması və işlərin adi metodlarla yerinə yetirilməsinin məqsədə uyğun olmamasının hesab edildiyi zaman tətbiq olunan işlərin təşkili sistemi. İşlər xüsusi qəsəbələrdə, səhra şəhərlərində və i.a. yaşayan növbəli heyət tərəfindən həyata keçirilir.

**Vaxt norması** – müəyyən təşkilati-texniki şəraitdə müvafiq ixtisaslı bir və ya bir qrup işçinin vahid məhsul hazırlaması və ya hər hansı işi yerinə yetirməsi üçün müəyyən olunmuş vaxt. Adam-saat və ya adam-dəqiqə ilə hesablanır.





**Vakansiya** *(fr. vacance – boş, azad)* – dövlət idarə və ya müəssisələrində tutulmamış vəzifə, azad, boş yer.

**Vaqner Qanunu** – əmək münasibətlərinin tənzimino dair milli qanun; antitrest qanunvericiliyə aid olan bu qanun ABŞ-da 1935-ci ildə əmək münasibətlərinin tənzimi ilə əlaqədar senator R.Vaqnerin təşəbbüsü ilə qəbul edilmişdir. Qanunun əsas məqsədi onun adında formulə edilmişdir: "Əmək münaqişələrinin səbəblərinin aradan qaldırılması haqqında" qanun". Bu mühüm qanunvericilik aktının preambulunda sonayedə tətillərin, mübarizənin digər formalarının və ya ixtişaşların baş verməsi səbəblərinin qarşısının alınması və aradan qaldırılması zəruriliyi haqqında danışılır. Qanunun ən mühüm müddəaları onun 7 və 8-ci maddəsində ehtiva olunur. Həmin maddələrdə tətil təşkil etmək, kollektiv müqavilə bağlamaq hüququ konkretləşdirilir. Məsələn, 7-ci maddədə müəyyən edilir ki, fəhlələr "öz təşkilatlarını yaratmaq, fəhlə ittifaqları təsis etmək, belə ittifaqlara qoşulmaq və onlara kömək etmək, nümayəndələri vasitəsi ilə kollektiv danışıqlar aparmaq, kollektiv müqavilə bağlamaq və ya qarşılıqlı yardımın və müdafiənin digər növlərini təmin etmək üçün birgə hərəkət etmək hüququna" malikdirlər.

**Vali** *(türk. hərfi mənada hakim, məmur)* – vilayət hökmdarı. Türkiyədə 1976-cı ildə vilayət hakimi. V. əvvəllər xəlifə və sultan tərəfindən təyin edilir, inzibati və yerli özünüidarə orqanlarına rəhbərlik edirdi. Orta əsrlərdə Azərbaycanda v.-lər müxtəlif vilayətlərə hakim vəzifələrinə təyin edilirdilər. İranda general-qubernator (ostandar) da vali adlanır.

**"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanun** – Azərbaycan Respublikasında valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasında 23 yaşınadək olan şəxslərin sosial müdafiəsi üzrə dövlət təminatının məzmununu, tədbirləri müəyyən edən, həmin təminatın verilməsi və həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyən qanunvericilik aktı. Bu qanun 22 iyun 1999-cu il tarixdə qəbul edilmişdir və 10 maddədən ibarətdir.

**Valideynlik hüququ** – uşaqları layiqincə tərbiyə və maddi cəhətdən təmin etmək, habelə onların hüquq və mənafelərini qorumaq üçün valideynlərə qanunla verilən hüquq və əmlak hüququ. Azərbaycan Respublikasında ata və ana eyni hüquqlara malikdir və uşaqlarına münasibətdə bərabər vəzifələr daşıyırlar. AR Ai.M-in 56.2-ci maddəsinə uyğun olaraq uşaqlar yetkinlik yaşına çatdıqda, yetkinlik yaşına çatmayan şəxslər nikah bağladıqda, eləcə də yetkinlik yaşına çatmayan uşaqlar qanunvericiliklə müəyyən edilmiş hallarda tam fəaliyyət qabiliyyəti əldə etdikdə valideynlərin ailə qanunvericiliyi ilə nəzərdə tutulan hüquq və vəzifələrinə xitam verilir.

**Valideynlik hüquqlarının məhdudlaşdırılması** – Azərbaycan Respublikasının ailə qanunvericiliyinə görə valideynlik hüquqlarının məhkəmə qaydasında məhdudlaşdırılması. AR Ai.M-in 68.1-ci maddəsinə uyğun olaraq məhkəmə valideynlik hüquqlarından məhrum etmədən uşağın mənafeyini nəzərə almaqla, valideynlərdən (onlardan birindən) uşağın alınması barədə qətnamə qəbul edə bilər.

Uşağın valideynlərlə (onlardan biri ilə) qalması onlardan asılı olmayan hallarda (psixi pozğunluq və ya başqa xroniki xəstəliklər, ağır vəziyyət və i.a.) uşağın həyatı üçün təhlükə yaradarsa, v.h.m.-na yol verilir. Uşağın yaxın qohumları, yetkinlik yaşına çatmayan uşaqları müdafiə edən orqanlar, məktəbəqədər, ümumtəhsil müəssisələri və digər müəssisələr bu hüquqların məhdudlaşdırılması barədə iddia qaldıra bilərlər.

**Valiza** *(fr. valise – çemodan)* – toxunulmazlıq hüququndan istifadə edən diplomatik (konsul kuryerinin) kuryerin poçt kisəsi (çantası, paketi, zərfi). V. heç bir müşayiətedici vasitə olmadan adi rabitə vasitəsi ilə də göndərilə bilər.

**Valorizasiya** – **1)** dövlətin həyata keçirdiyi tədbirlərin köməyi ilə əmtəələrin qiymətlərinin, qiymətli kağızların kursunun yüksəldilməsi; **2)** revalvasiyanın eyni deməkdir.

**Valvasiya** *(fr. evaluation – qiymət)* – milli pul vahidində xarici valyutanın müəyyən qiyməti, dəyəri.

**Valyuta** *(ita. valuta, hərfən dəyər)* – **1)** əsasında dövlətin pul sistemi (məsələn, Azərbaycan Respublikasında manat, Rusiya Federasiyasında rubl, ABŞ-da dollar) duran pul vahidi; **2)** dövlətin pul sistemi tipi (məsələn, qızıl valyuta, kağız valyuta); **3)** xarici ölkələrin beynəlxalq hesablaşmalarda (xarici valyuta) istifadə etdikləri pul nişanları (banknotlar, xəzinə biletləri, sikkələr), kredit və ödəmə (veksellər, çeklər və i.a) sənədləri.

**Valyuta arbitrajı** – müəyyən vaxt ərzində, hər şeydən əvvəl, kursun tərəddüdləri hesabına gəlir əldə etmək məqsədi ilə valyutanın növbəti bağlanan əqdlə əlaqədar satın alınması (satışı) üzrə əməliyyat.

**Valyuta ayırmaları** – müəssisələr tərəfindən xüsusi kursla dövlətin valyuta fonduna satılmalı olan valyuta qazancının bir hissəsi. V.a.-nın faizləri və belə satışın kursu dövlət tərəfindən müəyyən edilir.

**Valyuta bazarları** – milli və beynəlxalq banklar, birjalar və digər təşkilatlar; xarici valyutanın, çeklərin, veksellərin, köçürmələrin və xarici ticarətlə, xarici kapital qoyuluşu ilə və turizmlə əlaqədar digər pul hesablaşmaları vasitəsilə həmin qiymətli kağızların alqı-satqısı aparılır. V.b. həm valyuta məhdudiyyətləri ilə sıxışdırılmayan azad, həm də valyuta əməliyyatlarının aparılması üçün müvafiq icazənin lazım olduğu qeyri-azad bazarlardan ibarət ola bilər.

**Valyuta dempinqi** *(bax: dempinq).*

**Valyuta ehtiyatları** – ölkənin mərkəzi bankında və maliyyə orqanlarında, yaxud beynəlxalq valyuta - kredit təşkilatlarında xarici valyutanın rəsmi ehtiyatları. V.e. beynəlxalq hesablaşmalar üçün nəzərdə tutulur.

**Valyuta əməliyyatları** – valyuta sərvətlərilə əlaqədar milli qanunvericilik və ya beynəlxalq sazişlər tərəfindən tənzimlənən əqdlər. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası qanununun 1-ci maddəsinin 7-ci bəndinə yuğun olaraq valyuta əməliyyatları: a) valyuta sərvətlərinə mülkiyyət hüququnun və digər hüquqların keçməsi ilə əlaqədar əməliyyatlar, o cümlədən ödəniş vasitəsi kimi xarici valyutadan və xarici valyutada ödəniş sənədlərindən istifadə edilməsini; b) valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və göndərilməsi, eləcə də Azərbaycan Respublikasından çıxarılması və göndərilməsi; c) beynəlxalq pul köçürmələrinin həyata keçirilməsi əhatə edir.







**Valyuta əmsalı** – qiymətlərin və pul məbləğlərinin bir valyutadan digərinə yenidən hesablanması zamanı kursun qarşılıqlı əlaqəsi. Bəzi ölkələrdə milli valyuta kursunun tətbiq edilən formalarından biridir. V.ə.-nın yüksəkliyi bir çox hallarda xarici iqtisadi fəaliyyətin müəyyən sahəsində valyutanın alıcılıq qabiliyyəti ilə müəyyənləşdirilir.

**Valyuta əraziləri** – vahid valyuta iqtisadi siyasət yeridən ölkələr qrupu.

**Valyuta gömrük nəzarəti** – dövlət nəzarətinin bir növü. Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq v.g.n.-ni valyuta nəzarəti orqanı olan Azərbaycan Respublikasının Gömrük Komitəsi, AR GK-nın tabeliyində olan, valyuta nəzarəti agentlərindən ibarət AR-in sair gömrük orqanları həyata keçirirlər. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası qanununun 16-cı maddəsinə uyğun olaraq valyuta nəzarəti orqanları öz səlahiyyətləri daxilində bütün rezident və qeyri-rezidentlər tərəfindən Azərbaycan Respublikasında icrası məcburi hesab edilən normativ aktlar qəbul edirlər. Valyuta nəzarəti orqanları və agentləri öz səlahiyyətləri daxilində: a) Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlər tərəfindən həyata keçirilən valyuta əməliyyatlarının mövcud qanunvericiliyə, lisenziya və icazələrin şərtlərinə nə dərəcədə uyğun gəlməsinə, həmçinin valyuta nəzarət orqanlarının aktlarının yerinə yetirilməsinə nəzarət edirlər; b) rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatlarını yoxlayırlar; c) rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatları üzrə uçotun, hesabatın və sənədləşmələrin forması və qaydalarını müəyyən edirlər.

**Valyuta hesabatı** – valyuta əməliyyatlarını həyata keçirməyə müvəkkil edilmiş hüquqi və fiziki şəxslər tərəfindən dövlət valyuta nəzarəti orqanlarına valyuta hesablarının vəziyyəti haqqında təqdim edilən məlumat. V.h.-nın forması milli qanunvericiliklə müəyyən edilir.

**Valyuta hesabı** – fiziki şəxsin (müştərinin) bank müəssisəsindəki hesabı. Bu şəxslərin vəsaitləri xarici valyutada toplanır və xərclənir.

**Valyuta hərəkətləri** – müqavilələr bağlanması və (və ya) nəticəsində valyuta hesabları yaranan (yerli və xarici fiziki və hüquqi şəxslər arasında valyuta sərvətlərinə mülkiyyət, yaxud onlara sahiblik hüquqlarının yenidən bölüşdürülməsi, köçürmələrin verilməsi, valyuta sərvətlərinin ödənişləri) sair hərəkətlərin edilməsi, habelə valyuta sərvətlərinin fiziki və hüquqi şəxslərdən xaricə verilməsinin, ölkəyə gətirilməsinin və ya ölkədən aparılmasının baş verməsi.

**Valyuta hərracı** – ölkənin valyuta bazarının təşkil edilməsi metodlarından biri; açıq valyuta ticarətindən ibarətdir. V.h.-nın obyektləri təşkilatların valyuta ayırmalarıdır. Məqsəd valyutanın mərkəzləşdirilmiş fondlardan qazana və ya satın ala bilməyən idarələrə onları əldə etmək imkanı verməkdən ibarətdir. Belə ticarətin predmeti qismində, bir qayda olaraq, valyutanın özü deyil, ondan istifadəyə verilən icazə çıxış edir.

**Valyuta inhisarı** – dövlətin və onun orqanlarının şəxsində valyuta əməliyyatları üzərində və iqtisadi agentlər tərəfindən qazanılan bütün valyuta üzərində dövlət inhisarı.

**Valyuta inteqrasiyası** – regional ərazilərin (zonaların) yaradılmasının obyektiv cə-

hətdən şərtləndirilmiş (iştirakçı dövlətlərin fəal köməyi ilə) prosesi. Belə regional ərazilərin daxilində valyutaların sabit kurslarına aid qarşılıqlı münasibətlər, iştirakçı ölkələrin valyutalarla əlaqədar qarşılıqlı əlaqələrinin birgə tənzimlənməsi, üçüncü ölkələrə münasibətdə valyuta siyasətinin vahid xəttinin yeridilməsi təmin olunur.

**Valyuta kassası** – ölkənin xarici valyutadakı mədaxil və ödənişlərinin məcmusu. V.k. hesablarda və əmanətlərdə nağd pullardan və vəsaitlərdən ibarətdir.

**Valyuta klirinqi** – beynəlxalq əmtəə tədarüklərinin dəyər bərabərliyindən və hökumətlərarası saziş əsasında həyata keçirilən göstərilməli xidmətlərdən irəli gələn qarşılıqlı tələb və öhdəliklərin qarşılıqlı ödənilməsi.

**Valyuta kursu** – bir tərəfin pul vahidinin digər tərəfin pul vahidində (yaxud onun ondəfəlik yüksəkliyində) ifadə olunan qiyməti. V.k. beynəlxalq valyuta vahidlərinə münasibətlərdə milli valyutalarda daha tez-tez tətbiq edilir.

**Valyuta qanunvericiliyi** – ölkə daxilində, bir ölkənin təşkilatları və vətəndaşları ilə digər ölkənin təşkilatları və vətəndaşları arasında valyuta sərvətləri ilə əqdlərin bağlanması, habelə milli və xarici valyutaların və digər valyuta sərvətlərinin xaricdən gətirilməsi və xaricə aparılması, köçürülməsi və ya göndərilməsi qaydalarını tənzimləyən hüquq normalarının məcmusu.

**Valyuta qeyd-şərti** – beynəlxalq kredit, ödəmə sazişinə və digər sazişə, habelə müqavilənin bağlandığı anla onun ödənilməsi anı arasında valyuta kursunun aşağı düşməsi riskindən sığorta məqsədi ilə xarici ticarət kontraktına daxil edilən şərt. V.q.ş.-nin iki əsas növü mövcuddur: 1) sabit valyutada əmtəənin və ya kreditin məbləğinin razılaşdırılması. Onun kursunun aşağı salınması zamanı valyutada ödəmə qiyməti (kreditin məbləği) müvafiq surətdə artır; 2) əqdin valyuta kursuna münasibətdə tərəflərin arasında razılaşdırılmış valyuta ödəməsi kursunda baş verən dəyişiklik proporsiyasına əmtəənin qiymətinin və ya kredit məbləğinin dəyişməsi haqqında şərtin daxil edilməsi.

V.q.-ş. import kontraktları bağlanarkən əqdin valyuta kursunun artırılmasının gözlənildiyi vaxt importyorun mənafelərinin təmin edilməsi üçün də tətbiq edilir.

**Valyutaların konversiyası** – xarici iqtisadi fəaliyyət prosesində milli pul nişanlarının rəsmi valyuta kursuna uyğun olaraq xarici pul nişanlarına sərbəst surətdə dəyişdirilməsi (mübadiləsi). V.k. – bu, valyutanın hər hansı bir ölkədə ödəniş vasitəsi funksiyasını yerinə yetirmək qabiliyyətidir. Hazırda tam konversiyalaşdırılan valyutalara yalnız bəzi daha çox inkişaf etmiş dünya ölkələri (ABŞ, Kanada, Yaponiya və Avropanın bir sıra ölkələri) malikdir.

**Valyutalaşdırılmış polis** – sığorta məbləğinin qeydə alındığı sığorta polisi. Əsasən yüklərin sığortalaşdırılması zamanı tətbiq edilir.

**Valyuta lisenziyası** – xarici valyutanın müəyyən məbləğini əmtəələrin dəyərini ödəmək üçün importyora icazə verən, dövlətin səlahiyyətli orqanı tərəfindən verilən sənəd.

**Valyuta məhdudiyyətləri** – inzibati qaydada və ya qanunvericilik qaydasında müəyyən edilən, xarici valyuta və digər valyuta sərvətləri ilə əməliyyatların məhdudlaşdırılmasına yönələn normativ qaydaların sistemi (əməliyyatlar üzərində dövlət nəzarəti, xaricə köçürmələrin məhdudlaşdırılması və i.a.).

**Valyuta məzənnəsi** – xarici valyuta kurslarının qüvvədə olan normalara və təcrübədə təşəkkül tapmış qaydalara uyğun surətdə müəyyən edilməsi. V.m.-ni dövlət (milli banklar) bankları və ya iri kommersiya bankları düzünə, yaxud dolayı üsulla həyata keçirirlər. İngiltərə istisna olmaqla bütün ölkələr tərəfindən qəbul olunmuş düzünə üsul zamanı xarici valyutanın pul vahidi kursu milli valyutanın bəzi sayında ifadə olunur. İngiltərə də bunun əksinədir.

**Valyuta möhtəkirliyi** – bankların, digər təşkilatların və fiziki şəxslərin valyuta kursunun dəyişməsindən gəlir əldə etmək məqsədi ilə apardıqları əməliyyat.

**Valyuta mövqeyi** – xarici valyutada bankın (firmanın) tələb və öhdəliklərinin qarşılıqlı əlaqəsi. Tələb və öhdəliklərin bərabər olduğu halda v.m. bağlı, tələb və öhdəliklərin üst-üstə düşmədiyi halda v.m. açıq hesab olunur. Tələblərin öhdəliklərin artıq olduğu halda mövqe "uzun", bunun əksi olan situasiyada isə "qısa" adlanır. Açıq v.m. valyuta riski ilə bağlıdır və bankların (firmaların) əlavə xərclərinə və ya itkilərinə aparıb çıxarır.

**Valyuta mübadiləsi** – müəyyən kurs üzrə bir ölkənin valyutasının digər ölkənin valyutasına dəyişdirilməsi (mübadilə edilməsi).

**Valyuta müdaxilələri** – milli mərkəzi bankların pul-kredit siyasətinin əsas alətlərindən (metodlarından) biri. V.m. xarici valyutanın milli mərkəzi bank tərəfindən valyuta bazarında alqı-satqısından ibarətdir. Belə alqı-satqı milli valyutanın kursuna və summar sorğuya, pul təklif olunmasına təsir göstərmək üçün həyata keçirilir.

**Valyuta müdaxiləsi** – *(bax: valyuta müdaxilələri).*

**Valyuta mükafatı** – formal və qüvvədə olan valyuta kursu arasında müsbət fərq.

**Valyuta münasibətləri** – xarici ticarətin həyata keçirildiyi, iqtisadi və texniki yardımın göstərildiyi, valyutaların satın alınması ilə əlaqədar əqdlərin bağlandığı zaman yaranan pul əlaqələri. Dövlətlər, beynəlxalq təşkilatlar, hüquqi və fiziki şəxslər v.m.-nin iştirakçıları sayılırlar. V.m.-nin əmələ gəlməsinin, dəyişməsinin və ya xitam olunmasının hüquqi əsasına beynəlxalq müqavilələr və dövlətdaxili normativ-hüquqi aktlar xidmət edirlər.

**Valyuta nəzarəti** – valyuta əməliyyatlarının həyata keçirildiyi zaman valyuta qanunvericiliyinə əməl olunmasına dövlətin səlahiyyətli orqanlarının və onların agentlərinin nəzarəti; maliyyə və gömrük nəzarətinin tərkib hissəsidir. Azərbaycan Respublikasının Milli Bankı, habelə Azərbaycan Respublikası hökuməti v.n. orqanları, müvəkkil edilmiş banklar və AR qanunvericiliyinə uyğun olaraq v.n.-ni həyata keçirə bilən digər təşkilatlar valyuta nəzarəti agentləri hesab olunurlar.

"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası qanununun 14-cü maddəsinə uyğun olaraq valyuta nəzarətinin məqsədi valyuta əməliyyatları aparılarkən valyuta qanunvericiliyinə əməl olunmasını təmin etməkdən ibarətdir. Valyuta nəzarətinin əsas istiqamətləri aşağıdakılardır: a) aparılan valyuta əməliyyatlarının qüvvədə olan qanunvericiliyə uyğunluğunu və bunun üçün lisenziya və icazələrin

olmasını müəyyən etmək; b) dövlət qarşısında xarici valyuta üzrə və Azərbaycan Respublikasının valyuta bazarında valyutanın satışı üzrə öhdəliklərin rezidentlər tərəfindən yerinə yetirilməsi vəziyyətini yoxlamaq; c) xarici valyuta ilə ödənişlərin əsaslandırılmış olduğunu yoxlamaq; ç) valyuta əməliyyatları, o cümlədən qeyri-rezidentlərin milli valyuta ilə əməliyyatları üzrə uçot və hesabatın tamlığı və obyektivliyini yoxlamaq.

**Valyuta opsionu** – kontraktın alterantiv valyuta şərtlərini seçmək hüququ. V.o. əqddə qeyd-şərt edilir və müvafiq tərəf onu müəyyən edilmiş müddətdə, yaxud valyuta arbitrajı üçün imkan yaradan müəyyən halların meydana çıxdığı zaman təqdim edir.

**Valyuta pariteti** – qanunvericilik qaydasında müəyyən edilən iki valyuta arasında qarşılıqlı əlaqə; adətən paritetdən yayınan valyuta kursunun əsasını təşkil edir. Müasir şəraitdə Beynəlxalq Valyuta Fondunun (BVF) Nizamnaməsi v.p.-nin borc götürmənin xüsusi hüquqları əsasında müəyyən edilməsini nəzərdə tutur.

**Valyuta riski** – xarici valyuta kursunda dəyişikliklərlə əlaqədar xarici ticarət valyuta əməliyyatlarında və digər əməliyyatlarda itkilərin meydana çıxması təhlükəsi. Risk valyutaların qabaqcadan satın alınması, habelə təcili əqdlərin bağlanması sığortası ilə aradan qaldırıla bilər.

**Valyuta səbəti** – xarici valyutalar məzənnələşdirilərkən istifadə olunan dəst; milli və ya beynəlxalq (regional) valyutanın kursunu müəyyən edir. V.s. mübadilənin ümumiqtisadi şərtlərinin dəyişməsini, valyutaların alıcılıq qabiliyyətini daha əsaslandırılmış şəkildə nəzərə almağa imkan verir. V.s.-ndən həm də beynəlxalq hesablama pul vahidlərinin yaradılmasında, beynəlxalq iqtisadi münasibətlərdə valyuta qiymətlərinin və valyuta borclarının indeksləşdirilməsində istifadə olunur.

**Valyuta sərvətləri** – "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası qanununun 1-ci maddəsinin 4-cü bəndinə uyğun olaraq aşağıdakılardır: a) xarici valyuta; b) xarici valyutada qiymətli kağızlar – xarici valyutada ifadə edilmiş ödəniş sənədləri (çeklər, vekseller, akkreditivlər və s.), fond sərvətləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri; c) qiymətli metallar – zərgərlik, digər məişət məmulatı və bu məmulatın qırıntıları istisna olmaqla, hər hansı növdə və halda olan qızıl, gümüş, platin və platin qrupundan olan metallar (palladium, iridium, rodium, rutenium və osmium); ç) xam və emal edilmiş (zərgərlik, digər məişət məmulatı və bu məmulatın qırıntıları istisna olmaqla) təbii daş-qaş (almaz, yaqut, zümrüd, sapfir, aleksandrit, mirvari). Qiymətli metallardan və qiymətli təbii daş-qaşdan hazırlanmış məmulatın zərgərlik və digər məişət məmulatına, yaxud onların qırıntılarına aid edilməsi qaydası və şərtlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

**Valyuta sistemi** - təsərrüfat həyatının beynəlmiləlləşdirilməsi və beynəlxalq müqavilələrdə, habelə dövlət-hüquqi normalarda təsbit edilmiş dünya bazarının inkişafı əsasında təşəkkül tapmış pul-kredit münasibətlərinin məcmusu. Dünya, ərazi və milli v.s.-ləri fərqləndirilir.

**Valyuta siyasəti** - valyuta münasibətləri sahəsində dövlət orqanları, mərkəzi







bank və maliyyə idarələri, beynəlxalq valyuta-maliyyə təşkilatları tərəfindən həyata keçirilən iqtisadi, hüquqi, təşkilati tədbirlərin və formaların məcmusu. Cari və uzunmüddətli v.s. fərqləndirilir.

"**Valyuta tənzimi haqqında**" **qanun** - Azərbaycan Respublikasında valyuta əməliyyatlarının həyata keçirilməsi prinsiplərini, valyuta tənzimi və valyuta nəzarəti orqanlarının səlahiyyətlərini və funksiyalarını, hüquqi və fiziki şəxslərin valyuta sərvətlərinə sahib olmaq, bu sərvətlərdən istifadə etmək və onlar barəsində sərəncam vermək sahəsində hüquqlarını və vəzifələrini, valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edən qanunvericilik aktı. Bu qanun 21 oktyabr 1994-cü ildə qəbul edilmişdir. Qanun üç fəsil və 19 maddədən ibarətdir.

**Valyuta tənzimlənməsi** dövlətin beynəlxalq hesabları və valyuta sərvətləri ilə əlaqədar əqdlərin bağlanması qaydasını tənzimləməyə istiqamətləndirilmiş fəaliyyəti.

**Valyuta zonaları** *(bax: valyuta əraziləri).*

**Vandalizm** mədəni və maddi sərvətlərin, habelə əmlakın və sair qurğuların məhv və ya xarab edilməsi. V. termini 455-ci ildə Roma şəhərini dağıdıb antik mədəniyyət abidələrini məhv edən qədim german tayfaları vandalların adından yaranmışdır. İkinci dünya müharibəsində alman faşistlərinin şəhərləri və sənət əsərlərini, erməni işğalçılarının Azərbaycanın Qarabağ bölgəsində mədəniyyət abidələrini yerlə-yeksan etməsi v.-in bariz nümunəsidir.

**Van Man islahatları** – eramızdan əvvəl I yüzillikdə qədim Çinin dövlət xadimi (eramızın 9-cu ilindən Çinin imperatoru olmuşdur) Van Man tərəfindən həyata keçirilmiş islahatlar. Onun bu islahatları nəticəsində torpaq üzərində xüsusi mülkiyyət hüququ ləğv edilmiş, torpaq sahələrinin və kölələrin alqı-satqısı qadağan olunmuşdur. İslahatların həyata keçirilməsilə hər bir ailəyə istifadə üçün pay torpaqları verilmiş, sikkələr kəsilməsi, duz, dəmir, şərabçılıq və çaylarda balıq ovu etmək üzərində dövlətin tam nəzarəti yaradılmışdır. Lakin iri torpaq sahibləri olan varlı əyanların təzyiqi altında eramızın 12-ci ilində torpaq üzərində xüsusi mülkiyyət hüququ və kölələrin alqı-satqısı yenidən bərpa olunmuşdur. V.M.i. Çin cəmiyyətində mövcud olan sosial-siyasi ziddiyyətləri aradan qaldıra bilməmişdir. Eramızın 15-ci ilində Çində üsyan baş vermiş, 23-cü ildə Van Man üsyançı dəstələr tərəfindən qətlə yetirilmişdir.

**Vansya müqaviləsi** – ABŞ-ın Çinə zorla qəbul etdirdiyi ilk qeyri-bərabər müqavilə; 1844-cü ildə bağlanmışdır. Müqavilə 1844-cü il iyulun 3-də Aomın (makao) yaxınlığındakı Vansya kəndində imzalanmışdır. V.m.-nə görə, İngiltərənin Nankin müqaviləsi (1942) üzrə Çində aldığı imtiyazlar eyni ilə ABŞ-a da verilirdi. Bundan başqa ABŞ əlavə olaraq güzəştli şərtlərlə kabotaj hüququ, eksterritoriallıq hüququ və i.a. da əldə etmişdi.

"**Varidata təminat verilməsi haqqında**" **konstitusiya qanunu** – bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan Respublikasının milli iqtisadiyyatı əsaslarının formalaşması üçün respublika ərazisində ayrı-ayrı şəxslərdə və qeyri-dövlət hüquqi şəxslərində olan puldan, valyutadan və digər varidatdan sərbəst istifadə olunmasını təmin etməyə xidmət edən qanunvericilik aktı; 15 yanvar 1993-cü ildə

(1995-ci il 13 iyun tarixdə edilmiş əlavə və dəyişikliklə) qəbul edilmişdir.

**Varis** *(ərəb.)* – şəxsin ölümündən sonra yaxın qohumluq və ya vəsiyyət yolu ilə onun mülkiyyətinə sahib olmaq hüququna malik olan şəxs, vərəsə; ata-anasından, o cümlədən nəslindən hər hansı əmlakı miras almış şəxs.

**Varislik** *(bax: hüquq varisliyi).*

**Varrant** – **1)** törəmə qiymətli kağız; tədavülə buraxılmalarınadək nominal üzrə qiymətli kağızlar paketinin əldə edilməsi imkanını nəzərdə tutan sertifikat növü. Sertifikatın və qiymətli kağızların əldə edilməsi müddətlərindəki fərq v.-ın xüsusiyyətidir; **2)** müəyyən müddətin keçməsi ilə sahibinə əlavə imtiyazlar hüququ verən qiymətli kağızın şəhadətnaməsi.

**Vasitəçilik** [1] *(beynəlxalq hüquqda)* – dövlətlər arasındakı münasibətləri üçüncü dövlətin (vasitəçinin) iştirakı və təklif etdiyi şərtlərə əsasən danışıq yolu ilə həlletmə vasitələrindən biri. V. üsulu 1899-cu və 1907-ci il Haaqa konvensiyaları və BMT Nizamnaməsi (33-cü maddə) ilə tənzimlənir. BMT-nin Nizamnaməsinə, konvensiyalara və mövcud təcrübəyə əsasən üçüncü dövlət öz təşəbbüsü, tərəflərdən birinin xahişi və ya mübahisəyə dəxli olmayan dövlətlərin təklifi ilə v. edir.

**Vasitəçilik** [2] *(bax: cinayətdə vasitəçilik).*

**Vassal** *(fr. vassal – xidmətçi, nökər sözündən)* – **1)** Qərbi Avropada orta əsrlərdə daha iri feodaldan – senyordan torpaq sahibliyi asılılığında olan feodal; buna görə də o, bir sıra mükəlləfiyyətləri yerinə yetirməli idi; **2)** tabelikdə olan asılı fiziki şəxs və ya dövlət.

**Vassal dövlət** – başqa, daha güclü dövlətdən (süzerendən) asılı olan feodal dövləti. V.d.-in əsas vəzifəsi hərbi yardım etmək və xərac verməkdən ibarət idi. Belə dövlətin daxili işlərdə bəzi müstəqilliyi olsa da, beynəlxalq aləmdə onu süzeren təmsil edirdi. Burjua münasibətlərinin inkişafı ilə vassallıq tədricən öz əhəmiyyətini itirmişdir.

**Vassallıq** – orta əsrlərdə bir feodalın (vassalın) digər nüfuzlu feodaldan (senyordan) şəxsi asılılıq münasibətləri sistemi V. VIII-IX yüzilliklərdə Frank dövlətində meydana gəlmişdir. Burada kral və iri feodallar onlara qulluq edənlərə torpaq, daşınar əmlak, yaxud başqa gəlir mənbəyi verirdilər. Vassalın əsas vəzifəsi müəyyən müddət ərzində (adətən ildə 40 gün) öz hesabına hərbi xidmətdə olmaqdan, həmçinin senyorun məhkəməsində və şurasında iştirak etməkdən və i.a. ibarət idi. V. haqqında müqavilə xüsusi ayinlə rəsmiləşdirilirdi.

**Vauçer** *(ing. voucher)* – **1)** özəlləşdirilən müəssisənin səhmlərini əldə etmək üçün verilən əmlak kuponu *(bax: özəlləşdirmə çeki)*; **2)** yazılı şəhadətnamə, tapşırıq, təminat və ya tövsiyə; **3)** adlı özəlləşdirmə çeki.

**Vayşilər** – Qədim Hindistanda (quldarlıq cəmiyyətində) brahmanizmin dini-fəlsəfi və siyasi-huquqi ideologiyasına əsaslanan, sonradan isə "Manu Qanunları"nda hüquqi cəhətdən möhkəmləndirilən cəmiyyətin kastalara bölgüsünə görə üçüncü varnanı təşkil edən təbəqə. V. təbəqəsi əsasən tacir və sənətkarlardan, habelə müxtəlif peşə adamlarından ibarət olunmuşdur. Onların əsas vəzifəsi özlərindən yüksəkdə duran iki ali varnanı – brahmanları və kşatriləri maddi nemətlərlə təmin etməkdən ibarət idi. Brahmanizm təlimindəki mifoloji tə-







səvvürə görə, v. allah Puruşun baldırından yaranmışdır. Onlar yalnız ticarət və müxtəlif sənətlərlə məşğul ola bilərdilər.

**Veçe** *(qədim slavyanlarda vet - şura)* – X-XIV yüzilliklərdə Qədim Rus dövlətində və orta əsrlər Rusiyasında xalq yığıncağı. V. müharibə və sülh məsələlərini həll edir, knyazları fəaliyyətə dəvət edir və ya vəzifəsindən qovur, qanunlar qəbul edir, digər dövlətlərlə müqavilələr bağlayırdı. Novqorod və Pskov şəhər-respublikalarında ali qanunvericilik səlahiyyəti və məhkəmə hakimiyyəti v.-yə məxsus olmuşdur. Novqorod, Pskov və Vyatsk torpaqlarında v. XV əsrin sonu XVI əsrin başlanğıcınadək qorunub saxlanmışdır.

**Vedalar** *(sanskritcə veda hərfi mənada bilik)* – qədim hind dini-fəlsəfi və ictimai-siyasi fikrinin abidələri. V.-ın yaradılması eramızdan əvvəl II minilliyin sonu - I minilliyin I-ci yarısına təsadüf edir. V. 4 məcmuədən – "Riqved"dən, "Samaved"dən, "Yacurved"dən və "Atxarvaved"dən ibarətdir. "Riqved" ("Allahlar haqqında himn") məcmuələrin ən qədimi hesab olunur. V.-da cəmiyyətin kastalara bölgüsü dini məzmunda ifadə olunmuş, sonrakı dövrlərdə isə bu özünün hüquqi təsbitini "Manu Qanunları" toplusunda, habelə dövləti idarə etmək mədəniyyətindən bəhs edən "Arthaşastra" kimi mühüm abidədə tapmışdır. Qədim Hindistanın siyasi-hüquqi fikrinin ilk rüşeymləri məhz v.-da parlaq ifadəsini tapmışdır.

**Veksel** *(alm. wechsel – hərfi mənada mübadilə)* – qiymətli kağız növü. Qanunla ciddi müəyyən edilmiş formada verilən pul öhdəliyidir. V. şərtsiz və mübahisəsiz borc sənədidir. İki növü fərqləndirilir: a) sadə veksel; b) köçürmə vekseli. Sadə veksel borc alan tərəfindən yazılır və onun aşağıdakı mütləq əlamətləri vardır: a) vekselin verilmə yeri və vaxtı; b) borc öhdəliyinin məbləği; c) vekselin ödənilmə müddəti və yeri; ç) ödənişi icra edən şəxsin soyadı. Sadə veksel onu verən tərəfindən imzalanır. Köçürmə vekseli (tratta) kreditor tərəfindən yazılır və müəyyən məbləğdə pulu vekseldə adı göstərilən üçüncü şəxsə (remitentə) və ya vekseli təqdim edənə (əgər veksel adsızdırsa) göstərilən müddətdə ödəmək barədə kreditorun (trassantın) borc alana (trassata) yazılı əmridir. Köçürmə vekseli trassatın vekseli ödəməyə razılığını bildirən imzası ilə təsdiq edilir. Vekseldən nağd pul əvəzində tədavül vasitəsi kimi istifadə edilir.

**Veksel aksepti** – vekseli ödəmə razılığı; akseptantın veksel üzərindəki yazısına uyğun şəkildə rəsmiləşdirilir. Aksent, hər şeydən əvvəl, trattalarla əlaqədardar. Trattalar isə sadə veksellərdən fərqli olaraq kreditor tərəfindən yazılırlar. Ayrı-ayrı hallarda pul borc alan trassant tratta verir. Remitent isə bu tratta əsasında aksept alır, sonra isə bankdan trassantın hesabı olan ödəmə vekselini əldə edir. Bank akseptinə malik olan veksellər ödəməyə həvəslə qəbul olunurlar ki, bu da onların dövriyyə sferasını genişləndirir.

**Veksel brokeri** – veksellərin uçotu və onların yenidən uçotu üzrə əqdlərdə vasitəçi. V.b. Böyük Britaniyada daha geniş yayılmışdır. Lakin veksellərin uçotunun və yenidən uçotunun əsasən banklar və uçot evləri tərəfindən yerinə yetirilməsilə əlaqədar olaraq v.b.-nin rolu bu ölkədə də əhəmiyyətli surətdə azalmaqdadır.

**Veksel əldə edən şəxs** – **1)** sadə vekseli (benefisiarı) və ya köçürmə vekselini

**Vençur biznes** – texnoloji yeniliklərin tətbiq edilməsilə şərtləşən riskin yüksəldilməsi ilə əlaqədar olan sahibkarlıq fəaliyyəti. V.b. mükəmməl elmi potensiallı və ilk növbədə yüksək texnologiyaya malik olan sahələrdə elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasının təzahürüdür. Məhz gələcək perspektivlərə təminat verilməyən belə sahələrdə ağırlıq mərkəzi riskin üzərinə düşür.

Vençur müəssisələrin yaradıcıları olan Qərbi investorlar yeni layihələr həyata keçirmək məqsədi ilə məşhur menecerlər, hüquqşünaslar, alimlər, böyük təcrübəyə malik mütəxəssislərdən ibarət "komanda" yaratmaq qərarına gəlmişlər. Onlar bunun üçün ilk 2-3 il ərzində zəruri olan vəsaitlər də ayırmışlar. Əvvəlcədən razılaşdırılmış biznes-planın yerinə yetirilməsinə xüsusi diqqət yetirilir, işlərin başa çatdırılması müddətlərinə əməl edilməsi isə əlavə vəsaitlərin əldə edilməsinin şərti hesab olunur. ABŞ-dakı belə şirkətlər ənənəvi maliyyə mənbələrinə yol tapa bilmədiklərinə görə, vəsaitləri riskli kapital fondlarından, xüsusi şirkətlərin əmanətlərindən, habelə pensiya kassalarının kapital qoyuluşundan əldə edirlər. Riskli investisiyaların əmanətlərinin ümumi həcmi 40 faiz təşkil edir. İnvestorlar mənfəətlərin şirkətlərin müvəffəqiyyətə nail olmalarından sonra əldə olunmuş səhmlərin satışı hesabına qazanırlar.

**Vençur əməliyyatları** – elmi-texniki tədqiqatların və kəşflərin kreditləşdirilməsi, maliyyələşdirilməsi ilə əlaqədar olaraq əsasən investisiya bankları tərəfindən həyata keçirilən əməliyyatlar. V.ə. risk dərəcəsinin yüksəldilməsi ilə səciyyələndirilir.

**Vençur firması** – elmi tədqiqatlarla və mühəndis tədqiqatları ilə və onların kreditləşdirilməsi ilə məşğul olan xırda və ya orta investisiya firması. V.f. yeni ideyalara yiyələnmək və onları maliyyələşdirməklə elmi-texniki tərəqqinin yeni və ən yeni istiqamətlərinin işlənib hazırlanmasında iri firmalara kömək edirlər.

**Vençur kapitalı** – vençur müəssisələrinə qoyulmaq üçün istiqamətləndirilən pul vəsaitlərinin və fondların bir hissəsi.

**Vençur müəssisələri** – adətən təsərrüfatın mühüm elmi potensiallı sahələrində fəaliyyət göstərən kiçik firmalar. V.m., bir qayda olaraq, elmi tədqiqatlar, mühəndis tədqiqatları, yeni texnologiyanın yaradılması və tətbiq edilməsi, o cümlədən iri firmaların və dövlət subkontraktlarının sifarişləri ilə, habelə vençur biznesi üçün səciyyəvi olan sair fəaliyyətlə məşğul olurlar.

**"Vendidad"** – "Divlər əleyhinə qanunlar". Azərbaycan xalqının siyasi və hüquqi fikrinin mühüm abidəsi olan "Avesta"nın tərkib hissəsidir. "V." 22 fərqərddən (paraqrafdan) ibarətdir. O, məzmununa görə məzdailik təliminin müddəalarından və qanunlar külliyyatından ibarətdir. Bu külliyyat Ahura Məzda və zərdüştilik dininin banisi Zərdüşt arasında dialoq formasında ifadə olunmuş şərhləri özündə ehtiva edir. "V."-da mülki hüquq (müqavilələrin bağlanması, onların bağlanması formaları, pozulmasına görə məsuliyyət və i.a.), ailə-nikah münasibətləri, cinayət və cəza məsələləri mühüm yer tutur. Külliyyatda mülki müqavilələrin bağlanmasının altı növü qeyd edilir. O, Məzda qanunları, dini ayinlər və təbiət qüvvələri, habelə heyvanlar







(əsasən ev heyvanları) əleyhinə olan şər əməlləri ağır cinayətlərə aid edir və belə hərəkətlərə görə ciddi cəza növləri nəzərdə tutur. "V." insan və heyvanlar (canlı məxluqlar) üçün müxtəlif cəza növləri müəyyən edərək, onlara cinayətlərin eyni hüquqi vəziyyətə malik olan subyektləri qismində yanaşır. Heyvanlara qarşı cinayətlər və "cinayətkar heyvanların" cəzalandırılması haqqında dini təsəvvür (əqidə) faydalı və xeyir verən heyvanların Ahura Məzda ordusunun bir hissəsi və onların şüur sahibi hesab olunması prinsipinə əsaslanırdı.

**Verbal nota** – diplomatik yazışmaların və siyasi məsələlərdən tutmuş xidməti məsələlərin ən müxtəlif dairəsi üzrə (protokol xarakterli informasiya, viza verilməsi haqqında sorğu) diplomatik aktların ən geniş yayılmış forması. V.n. *şifahi formada* verilir.

**Verden müqaviləsi** – Böyük Karl imperiyasının bölüşdürülməsi haqqında 843-cü ildə bağlanmış müqavilə. V.m. Karlın nəvələri Lotar, alman Lüdovik və Daz Karl arasında Verdendə imzalanmışdır. İtaliya, Reyn və Rona çayları boyundakı torpaqlar Lotara (imperator titulunu da saxlamaq şərtilə), Reyndən şərqdəki ərazi (Şərqi Frank krallığı) alman Lüdovikə, Reyndən qərbdəki torpaqlar (Qərbi Frank krallığı) Daz Karla verilmişdir. Frank dövlətinin V.m.-nə görə bölüşdürülməsi fransız, alman və italyan xalqlarının yerləşdiyi məskənlərin sərhədlərinə uyğun idi və əslində Fransa, Almaniya, İtaliya kimi üç böyük dövlətin əsasını qoymuşdur.

**Verdikt** *(lat. vere dictum – hərfi mənada düz söylənilmiş)* – andlılar məhkəməsində müttəhimin və ya cavabdehin təqsirinin olub-olmaması haqqında andlı iclasçıların qərarı, hökmü (ittiham, yaxud bəraət verdikti). Müxtəlif dövlətlərin qanunvericiliyində və məhkəmə təcrübəsində yazılı və şifahi verdikt mövcuddur. Verdikt əsasında məhkəmə cəza haqqında qərar qəbul edir. Verdikt yekdilliklə, yaxud andlı iclasçıların səs çoxluğu ilə qəbul olunur.

Andlı iclasçılar kollegiyasının müzakirə zamanı müəyyən edilmiş müddətdə yekdil qərara gələ bilmədikləri vaxt ittiham verdikti qəbul edilmiş hesab olunur, bir şərtlə ki, qoyulmuş 3 əsas sualdan hər birinə təsdiqedici cavablara andlı iclasçıların əksəriyyəti səs vermiş olsunlar. Əgər qoyulmuş 3 əsas sualdan hər hansı birinə andlı iclasçıların ən azı 6 üzvü mənfi cavabla səs verərsə, bəraət verdikti qəbul edilmiş hesab olunur. Digər suallara cavablar sadə səs çoxluğu ilə müəyyən edilir. Səslər yarı bölündükdə isə, müttəhim üçün ən əlverişli olan cavab qəbul olunur.

Sual vərəqəsində qoyulmuş və həll edilməli olan hər bir suala cavab ya "hə" təsdiqedici, ya da "xeyr" inkaredici ibarədən ibarət olmalıdır. Bu zaman cavabın mahiyyətini aşkarlayan məcburi izahedici sözdən və ya söz birləşməsindən istifadə olunur: "bəli, təqsirkardır", "xeyr, təqsirkar deyil"; "bəli, təqsirkardır, lakin həyatdan məhrum etmək niyyəti olmamışdır"; "xeyr, sübut olunmadı"; "bəli, mərhəmətə layiqdir".

Suallara cavablar andlı iclasçıların başçısı tərəfindən hər bir müvafiq suala bilavasitə cavabdan sonra sual vərəqəsinə daxil edilir. Əgər əvvəlki suala cavab növbəti suala cavab vermək zərurətini istisna edirsə, başçı andlı iclasçıların əksəriyyətinin razılığı ilə ondan sonra "cavabsız" sözünü yazır. Suala cavabın səsvermə ilə qəbul edildiyi halda başçı cavabdan sonra

səslərin hesablanması nəticəsini göstərir. Sual vərəqəsi cavablarla birlikdə andlı iclasçıların başçısı tərəfindən imzalanır.

**Vergeld** *(alm. wergeld – insanın dəyəri)* – alman (german) barbar pravdalarında azad insanın öldürülməsinə görə ödənilən pul ödənişi. V. qan intiqamının alternativi kimi əmələ gəlmiş və tədricən onu sıxışdırmışdır. Cismani zərərin əvəzi qətlə yetirilənin ailəsinə, nəslinə və xəzinəyə ödənilirdi. V.-in ödənilməsində (adətən zərərin miqdarı yüksək olduqda) nəinki təqsirkarın özü, həm də onun bütün ailə üzvləri və nəsli iştirak edirdi. V.-in məbləği öldürülən şəxsin yaşından, cinsindən və sosial statusundan asılı idi. XII-XIII yüzilliklərə doğru v. Qərbi Avropa ölkələrinin təcrübəsindən tamamilə yox olmuş, öz yerini məsuliyyətin başqa növlərinə vermişdir. Qədim Kiyev Rus dövlətində v.-in analoqu vira olmuşdur.

**Vergi** – dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə, habelə məqsədli dövlət fondlarına köçürülən məcburi, fərdi, əvəzsiz ödəniş.

**Vergi agenti** – vergini hesablamağa, onu vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə borclu olan şəxs. V.a. müvafiq vergiləri düzgün və vaxtında hesablamağa, onları vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə; vergi ödəyicilərinə ödənilən gəlirlərin, onlardan tutulan və təyinatı üzrə köçürülən vergilərin, o cümlədən hər vergi ödəyicisi üzrə ayrıca uçotunu aparmağa; vergilərin hesablanmasının, tutulmasının və ödənilməsinin düzgünlüyünə nəzarət etmək üçün zəruri sənədləri dövlət vergi orqanlarına verməyə; vergi ödəyicisindən vergilərin tutulmasının mümkün olmadığı hallarda, bu barədə və vergi ödəyicisinin borcunun məbləği barədə vergi orqanlarına 30 gün müddətində öz qeydiyyat (uçot) yeri üzrə yazılı məlumat verməyə; AR VM ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirməyə borcludur (AR VM-in 17-ci maddəsi).

V.a. qanunla ona həvalə edilmiş vəzifələri yerinə yetirməməyə və ya lazımınca yerinə yetirməməyə görə VM ilə və digər qanunlarla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır. V.a. birbaşa və ya dolayı yolla tabe olduğu şəxsin təqsiri üzündən ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə vergi agentinin bilavasitə və ya dolayısı ilə tabe olduğu şəxs vergi qanunvericiliyi ilə və digər qanunlarla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

**Vergi güzəştləri və azadolmaları** – AR VM-in 199-cu maddəsinə uyğun olaraq dövlət hakimiyyət orqanları, büdcə təşkilatları və yerli özünüidarəetmə orqanları, Azərbaycan Respublikasının Milli Bankı və onun qurumları, dövlət fondları və əlillərin ictimai təşkilatları əmlak vergisini ödəməkdən azaddır. Misgərlik, qalayçılıq, dulusçuluq və saxsı məmulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallarından məişət alətlərinin hazırlanması sahəsində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sənətkarlıq emalatxanalarının binaları və ya binaların bu emalatxanalar yerləşən hissələri əmlak vergisinə cəlb edilmir.

Binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla AR VM-in 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği aylıq gəlirin vergi tutulmayan məbləğinin 1.5 misli qədər azaldılır.

**"Vergi havanları" (vergi sığınacaqları)** – vergi güzəştləri və digər güzəştlər vermək yolu ilə xaricdən maliyyə kapitallarının cəlb edilməsi siyasəti yeridən kiçik dövlətlər və ərazilər. Aşağı vergilər bəzən vergilərin ancaq bəzi növlərinə şamil olunur. Məsələn, Lüksemburqda banklar üçün güzəştli vergi rejimi mövcuddur. "V.h." offşor zonalarından (mərkəzlərindən) onunla fərqlənir ki, burada güzəştlər ancaq xarici deyil, həm də yerli şirkətlərə şamil olunur.

**Vergi hesabatı** – vergi bəyannaməsindən ibarət olan rəsmi sənəd. VM-ə və ona müvafiq olaraq qəbul edilmiş qanunlara uyğun olaraq v.h.-nı verməyə borclu olan vergi ödəyiciləri v.h.-nı vergi qanunvericiliyində göstərilən müddətlərdə müvafiq icra hakimiyyəti orqanlarının müəyyənləşdirdiyi formada və yerdə vergi orqanına verməlidirlər. V.h.-nı vergi ödəyicisi, yaxud onun müəyyən edilmiş qaydada vəkil edilmiş nümayəndəsi imzalamalıdır. Vergi ödəyicisinin v.h.-nın tərtib edilməsində müstəqil auditor iştirak edirsə o, v.h.-nı imzalamalı, möhür vurmalı və öz vergi ödəyicisinin eyniləşdirmə nömrəsini göstərməlidir. Hesabatı bir nəfərdən çox tərtibatçı hazırlayırsa, onu ancaq baş tərtibatçı imzalayır.

**Vergi hesab-fakturaları** – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə hazırlanan, ciddi uçotu aparılan və özündə vergi qanunvericiliyində nəzərdə tutulan məlumatları əks etdirən sənəd.

**Vergi hüquq pozuntusu** – vergi münasibətləri iştirakçılarının vəzifələrini, hüquqlarını və qanuni mənafelərini pozan hüquqazidd, təqsirli hərəkət (və ya hərəkətsizlik). V.h.p.-larına görə hüquqi məsuliyyət müəyyən edilir. Belə pozuntuların aşağıdakı qrupları fərqləndirilir: 1) vergi sistemi əleyhinə olan hüquq pozuntuları; 2) vergi ödəyicilərinin hüquq və azadlıqlar əleyhinə olan hüquq pozuntuları; 3) büdcələrin gəlir hissələrinin icrası əleyhinə olan hüquq pozuntuları; 4) vergi opqanlarının nəzarət funksiyaları əleyhinə olan hüquq pozuntuları; 5) mühasibat uçotunun aparılması, mühasibət və vergi hesabatlarının tərtibi və təqdim edilməsi qaydası əleyhinə olan hüquq pozuntuları; 6) vergilərin ödənilməsi üzrə vəzifələr əleyhinə olan hüquq pozuntuları.

**Vergi hüququ** – müvafiq dövlətdə vergilərin növlərini və tutulması qaydasını müəyyən edən, vergi öhdəliklərinin əmələ gəlməsi, dəyişməsi və xitam olunması ilə əlaqədar münasibətləri tənzimləyən hüquq normalarının məcmusu; maliyyə hüququnun daxili sahələrindən biri. V.h.-nun mənbəyini konstitusiya və vergi qanunvericiliyi (Vergi Məcəlləsi) təşkil edir.

**Vergi ili** – AR VM-in 129-cu maddəsinə uyğun olaraq təqvim ili.

**Vergi immuniteti** – milli, yaxud beynəlxalq hüquqa uyğun olaraq ayrı-ayrı hüquqi

və ya fiziki şəxslərə vergiləri ödəmək vəzifəsindən azad olmağa dair verilən güzəşt.

**Vergi kvotası** *(bax: vergi məzənnəsi).*

**Vergiqoyma** – vergilərin hesablanması sistemi və onların ödənilməsi forması. Vergi qanunvericiliyinə uyğun olaraq v.-nın elementləri aşağıdakılardır: a) vergiqoyma obyekti; b) vergi bazası; c) vergi dövrü; ç) vergi məzənnəsi (kvotası); d) verginin hesablanması qaydası; e) verginin ödnilməsi qaydası və müddətləri.

**Vergiqoyma metodu** – vergi bazasının artımından asılı olaraq vergi məzənnəsinin (kvotasının) dəyişdirilməsi qaydası. V.m-nun dörd əsas növü fərqləndirilir: a) bərabər; b) proporsional; c) proqressiv; ç) reqressiv vergiqoyma metodu.

**Vergiqoyma obyekti** – subyektin vergini ödəmək vəzifəsini şərtləndirən hüquqi faktlar (hərəkətlər, hadisələr, vəziyyət). Qanunda hər bir vergi növünə dair hansı öhdəliklərin olduğu zaman ödəmək vəzifəsi barəsindən danışılır. "V.o." anlayışı öz təyinatına görə "vergiqoyma predmeti" termininə yaxındır. Məsələn, torpaq vergisinin obyekti bilavasitə torpaq sahəsi (bu sahə vergiqoyma predmetidir) deyil, torpaq sahəsi üzərindəki mülkiyyət hüququdur.

**Vergiqoyma predmeti** – müvafiq verginin tutulmasını əsaslandıran faktiki (qeyri-yuridik) xarakterli əlamətlər. Məsələn, əgər torpaq vergisinin obyekti torpaq sahəsi üzərindəki mülkiyyət hüququdursa, v.p. torpaq sahəsinin özüdür *(həmçinin bax: vergiqoyma obyekti).*

**Vergilərin antisipasiyası** – vergilərin dövlət tərəfindən vaxtından əvvəl, bəzən isə məcburi qaydada tutulması. Bu qayda sosial ədalət nöqteyi-nəzərindən özünü doğrultmamaqla yanaşı, sahibkarlıq fəaliyyətinin müdafiəsinə və onun mükafatlandırılması prinsipinə zidd hesab olunur. V.a. adətən büdcə çatışmazlığının əməli surətdə aradan qaldırılması və ya azaldılması üçün iqtisadi böhranlar şəraitində tətbiq edilir.

**Vergi Məcəlləsi** – Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliklərindən) şikayət edilməsi qaydalarını müəyyən edən sistemləşdirilmiş qanunvericilik aktı.

AR-in VM 2000-ci il iyulun 11-də qəbul edilmiş, 2001-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. Məcəllə ümumi və xüsusi hissələrdən, 17 fəsil və 221 maddədən ibarətdir.

**Vergi mənbəyi** – verginin ödənilməsi üçün istifadə olunan ehtiyat; vergi ödəyicisinin gəliri və kapitalı (məsələn, torpaq vergisinin mənbəyi – torpaq sahəsindən istifadə olunmasından və ya onun realizəsindən əldə edilən gəlir).

**Vergi məzənnəsi** – vergiqoyma norması. Vergi ödəyicisinin gəlirlərinə qoyulmuş faizlərlə ifadə olunan v.m. adətən vergi kvotası adlanır.

**Vergi nəzarəti** – vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotuna, habelə vergi qanunvericiliyinə riayət olunmasına nəzarəti həyata keçirən vahid sistem. Vergi orqanları vergilərin tam və vaxtında yığılmasını təmin etmək məqsədi ilə bu nəzarəti həyata keçirirlər.

V.n. vergi orqanlarının və gömrük orqanlarının, onların vəzifəli şəxslərinin səlahiyyətləri həddində AR VM-ə, AR GM-ə və digər qanunvericilik aktlarına müvafiq olaraq həyata keçirilir. Vergi orqanları v.n.-ni vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunu aparmaqla, uçot və hesabat məlumatlarını yoxlamaqla, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, gəlir əldə etmək üçün istifadə olunan binalara baxış keçirməklə və VM ilə müəyyən edilmiş digər formalarda həyata keçirirlər.

**Verginin hesablanması** konkret hesabat dövrü üçün vergi ödəyicisinin ödəməli olduğu vergi məbləğinin vergi orqanının uçot sənədlərində qeyd edilməsi. AR VM-in 83.1-ci maddəsinə uyğun olaraq hesablanmış vergi məbləğlərinin vergi orqanları tərəfindən VM ilə müəyyən edilmiş hallarda yenidən hesablanması və uçot sənədlərində qeyd edilməsi də vergilərin hesablanması deməkdir.

**Vergi orqanları** Azərbaycan Respublikasında müvafiq icra hakimiyyəti orqanları və bilavasitə onlara tabe olan ərazi orqanları. V.o. öz səlahiyyətləri çərçivəsində hüquq-mühafizə orqanlarının səlahiyyətlərini həyata keçirirlər. Onlar öz fəaliyyətini yerli dövlət hakimiyyəti orqanlarından asılı olmayaraq müstəqil həyata keçirirlər. V.o. tərəfindən onların səlahiyyətləri daxilində qəbul edilən qərarlar bütün hüquqi və fiziki şəxslər üçün məcburidir. Bu orqanlar vergilərin (yol vergisi, idxal-ixrac əməliyyatları üzrə vergilərdən başqa) tam və vaxtında ödənilməsinə nəzarət edirlər.

**Vergi ödəməkdən yayınma** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 213-cü maddəsində nəzərdə tutulmuşdur. Xeyli miqdarda vergilərdən yayınmaq məqsədi ilə vətəndaşlar tərəfindən gəlirlər və xərclər barədə bilə-bilə təhrif olunmuş məlumatların deklorasiyada (bəyannamədə) göstərilməsində ifadə olunur.

**Vergi ödəyiciləri** – rezident və qeyri-rezidentlərdən ibarət fiziki şəxslər. Azərbaycan Respublikasında rezident və qeyri-rezident müəssisələr də mənfəət vergisinin ödəyiciləri hesab olunurlar.

**Vergi ödəyicisi** - AR-in VM-in 13.2.4-cü maddəsinə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergi ödəyən istənilən şəxs.

**Vergi öhdəliyi** - vergi ödəyicisinin vergi qanunvericiliyində göstərilən hallarda və qaydada müəyyən edilən vergini ödəmək vəzifəsi. V.ö.-nin əmələ gəlməsi, dəyişməsi və ya onun xitam olunması üçün əsaslar, həmçinin v.ö.-nin yerinə yetirilməsi qaydası və şərtləri yalnız vergi qanunvericiliyi ilə müəyyən edilir.

AR VM-in 77.3-cü maddəsinə uyğun olaraq vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin ödənilməsi üçün cavabdehdir.

**Vergi polisi** - bir sıra dövlətlərdə hüquq-mühafizə orqanlarının bir növü. V.p. vergi sferasında törədilən cinayətlərin və ya inzibati xətaların (müxtəlif hüquq pozuntularının) aşkar edilməsinə və istintaqının aparılmasına, onların aradan qaldırılmasına və qarşısının alınmasına xidmət edir. Azərbaycan Respublikasında belə hüquq-mühafizə orqanı hələ yaradılmamışdır.

**Vəkil etikası** – "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun 18-ci maddəsinə uyğun olaraq vəkil peşə fəaliyyətini həyata keçirərkən bu qanunla müəyyən edilmiş qaydada öz vəzifələrini mükəmməl icra etməli, vəkil sirrindən özünün şəxsi və başqalarının tamahkarlıq və digər məqsədləri üçün istifadə etməməli, hüququ müdafiə fəaliyyəti ilə bir araya sığmayan hərəkətlərə, qanunsuz hərəkətlərin törədilməsinə çağırışlara, insanın şərəf və ləyaqətini alçaldan kobud, təhqiramiz hərəkətlərə və sözlərə yol verməli, məhkəmə iclasını aparan hakimə mane olmamalı, bu iclasda çıxış edənlərin *sözlərini kəsməməli*, iclasın iş qaydasını pozmamalı və vəkillər kollegiyasının ümumi yığıncağı tərəfindən qəbul olunmuş vəkillərin davranış qaydaları haqqında əsasnamə ilə müəyyən edilmiş vəkil etikasının digər tələblərinə riayət etməlidir.

**Vəkilin andı** – "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun 14-cü maddəsinə uyğun olaraq Vəkillər Kollegiyasına üzv qəbul olunmuş şəxs kollegiyanın rəyasət heyətinin iclasında Azərbaycan Respublikasının dövlət bayrağı önündə aşağıdakı məzmunda and içir:

"Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməklə vəkil vəzifələrimi şərəflə və vicdanla yerinə yetirməyə, ədalətli və prinisipial olmağa, insan hüquq və azadlıqlarını mərdliklə və dönmədən müdafiə etməyə, peşə sirrini qorumağa təntənəli surətdə and içirəm".

Vəkillərin səlahiyyətləri and içdiyi vaxtdan başlayır. Vəkillər andın *mətninə* imza edir və bu sənəd vəkillərin şəxsi işində saxlanılır.

**Vəkillər Kollegiyası** – Azərbaycan Respublikasında qeyri-dövlət, müstəqil, özünü idarə edən və bütün vəkillərin daxil olduğu kollegiya. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun 9-cu maddəsinə uyğun olaraq vəkillər kollegiyasının üzvü olmayan şəxslər Vəkillik Fəaliyyəti ilə məşğul ola bilməzlər.

VK hüquqi şəxsdir. Onun təşkili və fəaliyyəti "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunla və qanuna müvafiq olaraq VK üzvlərinin ümumi yığıncağı (konfransı) tərəfindən qəbul edilmiş nizamnamə ilə müəyyən edilir. VK-nın ali orqanı ümumi yığıncaq (konfrans), ali icra orqanı isə rəyasət heyətidir. VK aşağıdakı vəzifələri həyata keçirir: a) qanunun tələblərinə uyğun olaraq kollegiya üzvlüyünə qəbul və kollegiya üzvlüyündən xaric olunma məsələlərini həll edir; b) qanunun tələblərinə uyğun olaraq intizam nəzarətini həyata keçirir; c) hüquq-mühafizə orqanlarının və məhkəmələrin tələbi əsasında vəkillik fəaliyyəti ilə bağlı məsələlərə rəy verir və başqa məsələləri həll edir.

**"Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanun** – Azərbaycan Respublikasında fiziki və hüquqi şəxslərə yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi üzrə vəkillik fəaliyyətinin əsas prinsiplərini, vəkillərin hüquqi statusunu və onların özünüidarəsinin əsaslarını müəyyən edən *qanunvericilik* aktı.

Qanun Azərbaycan Respublikasının ərazisində hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini həyata keçirmək üçün özünün seçdiyi vəkilə müraciət etmək, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən









istifadə etmək hüquqlarının təmin olunmasının və başqa məsələlər üzrə hüquqi yardım göstərən vəkillərin fəaliyyətinin tənzimlənməsi məqsədi ilə qəbul edilmişdir.

Bu qanun 28 dekabr 1999-cu il tarixdə qəbul olunmuşdur. O, 26 maddədən və keçid müddəalarından ibarətdir.

**Vəkilliyin rəmzləri** – "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun 6-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında vəkilliyin rəmzləri Azərbaycan Respublikasının dövlət bayrağından, dövlət gerbindən və *vəkillərin rəsmi* emblemindən ibarətdir.

Azərbaycan Respublikasının vəkilləri məhkəmə iclaslarında xüsusi geyimdə (qiyafədə) iştirak edirlər. Vəkillərin rəsmi embleminin və xüsusi geyim formasının təsvirini vəkillər kollegiyasının ümumi yığıncağı təsdiq edir.

**Vəkil sirri** – vəkilin peşə vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar aldığı məlumatlar, verdiyi məsləhətlər və arayışlar. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun 17-ci maddəsinə uyğun olaraq peşə vəzifələrini həyata keçirərkən məlum olan ibtidai istintaqın sirrini təşkil edən məlumatların vəkil tərəfindən yayılması yalnız prokurorun və yaxud müstəntiqin icazəsi ilə ola bilər. İbtidai istintaqın sirrini təşkil edən məlumatların yayılmasında təqsiri olan vəkillər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. Müraciət etmiş şəxsə hüquqi yardımın göstərilməsi ilə əlaqədar olaraq vəkilə məlum olmuş hallar barədə o, şahid kimi çağırıla və dindirilə bilməz. Vəkil göstərilən hallar barədə izahat verməməli və ona etibar edən şəxsin bildirdiyi məlumatı yaymamalıdır. Vəkil sirrini təşkil edən məlumatlar vəkilin hüquqi yardım göstərdiyi cinayət işi, mülki və inzibati işlər üzrə, həmçinin həmin vəkilin iştirakı ilə aparılan məhkəmə prosesində sübut kimi qiymətləndirilə bilməz.

**Vəqf** *(ər.)* – dini məqsədlə və ya xeyriyyə məqsədi ilə dövlətin, yaxud ayrı-ayrı şəxslərin könüllü olaraq bağışladığı daşınar və daşınmaz əmlak. V. XII-VIII yüzilliklərdə yaranmış, orta əsrlərdə müsəlman ölkələrində geniş yayılmışdır. Əmlakın v. edilməsi xüsusi fərmanla (vəqfnamə ilə) rəsmiləşdirilirdi. V. edilmiş əmlak satıla və ya bağışlana bilməzdi. V.-ə ayrı-ayrı kəndlər, tikililər, yol kənarlarında və yaşayış məntəqələrindəki su quyuları, dəyirmanlar, meyvə ağacları və i.a. verilə bilərdi. V. bəzən bütöv vilayətləri də əhatə edirdi. V.-i idarə edən şəxs mütəvəlli və ya nazir adlanırdı. Mütəvəllini çox zaman v. qoyan şəxs təyin edirdi. Bu vəzifə irsən keçə bilərdi. Mütəvəlli v. gəlirlərinin toplanması və xərclənməsinə nəzarət edirdi. Qazan xanın dövründə iri v. yerlərinə xüsusi idarə divanı (divan-i) baxırdı. Hazırda bəzi müsəlman ölkələrində (məsələn, Səudiyyə Ərəbistanında) v. indi də qalmaqdadır.

**Vəliəhd** – Qərbi Avropada kral evinin hakimiyyət başında olmayan üzvünün titulu. Uels V. ingilis taxt-tacının varisinin titulu-dur. "V." terminindən bir sıra Şərq dövlətlərinin (Laos, Kamboca və Tailand) taxt-tacının *varislərinin titulu kimi* də istifadə olunur.

**Vərdişkar cinayətkar** *(kriminologiyada)* – "vərdişlər" əsasında cinayətkar əməllər törətmək meyillərinə malik olan

insan, "təhlükəli vəziyyətdə" olan şəxs. Bir sıra xarici dövlətlərin cinayət hüququnda şəxsin "V.c." qismində tanınması, ona təhlükəsizlik tədbirləri, o cümlədən preventiv həbs etməyə kifayət edir.

**Vərəsə** *(bax: varis).*

**Vərəsələr** – AR MM-in 1134.1-ci maddəsinə uyğun olaraq qanun üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqları ola bilərlər. Vəsiyyət üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın sağlığında mayası bağlanmış və onun ölümündən sonra doğulmuş şəxslər, bu şəxslərin onun uşaqları olub-olmadığına, habelə hüquqi şəxslər olub-olmadığına baxmayaraq ola bilərlər.

**Vərəsəlik** – AR MM-in 1133-cü maddəsinə uyğun olaraq ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

**Vərəsəlik hüququ** – miras qoyanın əmlakının digər şəxslərə keçməsilə əlaqədar yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu. V.h. hələ Qədim Romada ətraflı şəkildə işlənmişdi. Roma hüququndan götürülən bir sıra hüquqi anlayışlar və terminlər indi də bir sıra ölkələrin milli qanunvericiliyində istifadə olunur (məsələn, vərəsələrin qanuni və vəsiyyət üzrə vərəsələr kimi fərqləndirilməsi, vərəsəliyin növbəli olması və i.a.). Azərbaycan Respublikasında v.h. qanunla mühafizə olunur. O, aşağıdakıları müəyyən edir: a) vərəsəliyin əsaslarını (qanun, yaxud vəsiyyət üzrə); b) vərəsəliyin açıldığı vaxtı (miras qoyanın ölüm günü, şəxs ölmüş elan edildikdə isə məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi gün, yaxud məhkəmə qətnaməsində göstərilən gün); c) vərəsəliyin açıldığı yeri (miras qoyanın sonuncu daimi yaşayış yeri, bu yer məlum olmadıqda, əmlakın, yaxud onun əsas hissəsinin yerləşdiyi yer); ç) vərəsə ola bilən şəxslərin dairəsini (miras qoyanın öldüyü məqamda sağ olan şəxslər).

V.h. vəsiyyətnamələrin tərtib edilməsi, vərəsəliyin qəbul olunması və ondan imtina edilməsi qaydasını, vərəsəliyin dövlətə keçməsi hallarını, vərəsələrin miras qoyanın borcları üzrə məsuliyyət qaydasını və həcmini və i.a. tənzim edir. Vərəsəlik hüquq normalarının əksəriyyəti Azərbaycan Respublikasının mülki qanunvericiliyində (AR MM-in X bölməsi) daxil edilmişdir. V.h.-nun bir sıra normaları digər qanunvericilik aktları (məsələn, notariat orqanları və kredit müəssisələri haqqında aktlarla) ilə tənzimlənir.

**Vərəsəlik şəhadətnaməsi** – AR MM-in 1321-ci maddəsinə uyğun olaraq vərəsəliyə çağırılmış şəxslər mirasın açıldığı yerdəki notariat orqanından vərəsəlik şəhadətnaməsi tələb edə bilərlər. Qanunda nəzərdə tutulmuş hallarda vərəsəlik şəhadətnaməsinin alınması məcburidir.

V.ş. vərəsələrə mirasın açıldığı gündən altı ay ərzində istənilən vaxt verilir. Əgər notariat orqanında şəhadətnamə tələb edən şəxslərdən savayı, başqa vərəsələrin olmadığı barədə məlumat olarsa, v.ş. altı aydan





da tez verilir. Mülki qanunvericiliklə müəyyən edilmiş müddətdə mirası qəbul etməyən vərəsələr mirası qəbul etmiş vərəsələrin hamısının razılığı ilə v.ş.-nə yazıla bilərlər. Razılıq v.ş. verilənədək yazılı surətdə ifadə edilməlidir. Əgər mirası qəbul etməyə çağırılmış vərəsə miras açıldıqdan sonra onu müəyyən edilmiş müddətdə qəbul etməyə macal tapmadan ölərsə, onun vərəsələri ilkin miras qoyanın ölümündən sonra qalmış əmlaka v.ş. ala bilərlər.

V.ş. həm bütün miras, həm də onun bir hissəsi üçün verilə bilər. Şəhadətnamə həm bütün vərəsələrə birlikdə, həm də ayrılıqda hər birinə arzularına uyğun olaraq verilir. Vərəsələrdən birinə mirasın bir hissəsi üçün v.ş.-nin verilməsi digər vərəsələri mirasın qalan hissəsi üçün şəhadətnamə almaq hüququndan məhrum etmir.

**Vərəsəlik transmissiyası** – qanun üzrə və ya vəsiyyət üzrə vərəsəliyə çağırılmış vərəsə, vərəsəlik açıldıqdan sonra onu qəbul edənə qədər ölərsə, ona çatmalı olan miras payını almaq hüququ onun vərəsələrinə keçir. Ölmüş vərəsənin həmin hüququ mirası qəbul etmək üçün qalan müddət ərzində ümumi əsaslar üzrə onun vərəsələri tərəfindən həyata keçirilə bilər.

**Vərəsəsiz əmlak** – mülki hüquqa görə miras qoyanın vərəsələrə keçməyən əmlakı. V.ə. miras qoyanın nə qanun, nə də vəsiyyət üzrə vərəsələri olmadıqda, yaxud vərəsələr vəsiyyətlə vərəsəlik hüququndan məhrum edildikdə, habelə vərəsələrin heç biri mirası qəbul etmədikdə əmələ gəlir. Qanun üzrə vərəsələr olmadıqda, yaxud miras qoyanın əmlakının hamısı deyil, ancaq bir hissəsi vəsiyyət edildikdə, əmlakın vəsiyyət edilməyən hissəsi də v.ə. hesab olunur. V.ə. vərəsəliyin açıldığı gündən 6 ay keçdikdən sonra notariat orqanının şəhadətnaməsi əsasında vərəsəlik hüququ üzrə dövlətin nəfinə keçir. Dövlət (yerli maliyyə orqanlarının timsalında) miras qoyanın borcları üzrə ona çatan əmlakın həqiqi dəyəri həcmində məsuliyyət daşıyır. Dövlətin nəfinə keçən əmlak müxtəlif təşkilatların istifadəsinə verilə bilər.

**Vəsatət** – **1)** dövlət orqanlarının və ya ictimai təşkilatların müvafiq instansiyalara göndərdikləri rəsmi xahiş, tövsiyə və yaxud təqdimat; **2)** mühakimə icraatında *proses iştirakçısının prosessual və yaxud məhkəmə hərəkətlərinin həyata keçirilməsi haqqında konkret iş üzrə qətnamələrin və ya digər qərarların qəbul edilməsi haqqında xahişlə cinayət işi üzrə icraatı aparan vəzifəli şəxsə, yaxud dövlət orqanına yazılı və ya şifahi müraciəti.*

V. mülki prosesin və ya cinayət prosesinin istənilən mərhələsində verilə bilər. V. vermək hüququ proses iştirakçılarının hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin mühüm təminatıdır. Təhqiqat aparan şəxs, müstəntiq, prokuror və məhkəmə (hakim) b. vermək hüququnu proses iştirakçısına izah və təmin etməyə borcludur. Məhkəmə baxışında iştirak edənlərin hamısı b. verməkdə bərabər hüquqlara malikdirlər.

**Vəsiqə** – **1)** təqdim edənin şəxsiyyətini və hüquqi statusunu (məsələn, parlamentin deputatı, dövlət orqanının və ya ictimai təşkilatın işçisi, hərbi qulluqçu) təsdiq edən rəsmi sənəd. Bəzən v. (məsələn, hərbi qulluqçular üçün) pasportu əvəz edir və eyni zamanda şəxsi, həm də xidməti sənəd kimi çıxış edir; **2)** müəyyən hüquqi faktları (məsələn, *ezamiyyətdə olmanı, səsvermə hüququnu*) təsdiq edən rəsmi sənəd. V. müəyyən edilmiş formalı blankda olur, səlahiy-

V.t.-nı alan onun miras açılan gündən hesablanan üç illik iddia müddəti ərzində icrasını tələb edə bilər. V.t.-nı alan miras qoyanın borcları üçün məsuliyyət daşımır. V.t.-nı alan onu qəbul etməkdən imtina edə bilər. Bu halda mirasın müvafiq hissəsi v.t.-nın həvalə olunacağı vərəsəyə qalır.

**Vəsiyyət üzrə vərəsəlik** *(bax: vərəsələr)*

**Vətəndaş** – hüquqi əsasla müəyyən dövlətə məxsus olan şəxs. V. müəyyən hüquq qabiliyyətinə, hüquq və azadlıqlara malik olmaqla yanaşı, vəzifələr də daşıyır. Konkret dövlətin v.-ı öz hüquqi vəziyyətinə görə həmin dövlətin ərazisindəki xarici vətəndaşlardan və vətəndaşlığı olmayan şəxslərdən fərqlənir. Belə ki, siyasi hüquq və azadlıqlar ancaq v.-a məxsusdur. Azərbaycan Respublikasının mülki qanunvericiliyində, əgər xüsusi olaraq sair hal müəyyən edilmirsə, "v." termini dedikdə hər bir fiziki şəxs başa düşülür.

**Vətəndaş cəmiyyəti** – konstitusiya hüququ nəzəriyyəsində iqtisadiyyatda, mədəniyyətdə və digər sahələrdə dövlətdən asılı olmayaraq demokratik cəmiyyət çərçivəsində inkişaf edən münasibətlərin məcmusu. V.c.-nin əsas elementləri aşağıdakılardır: a) mülkiyyətin formalarının müxtəlifliyi və bərabərliyi; b) əmək və sahibkarlıq azadlığı; c) ideoloji müxtəliflik və məlumat azadlığı; ç) insanın hüquq və azadlıqlarının əyilməzliyi; d) özünüidarənin inkişafı; e) sivilizasiyalı hüquqi hakimiyyət. Son illərdə bir sıra ölkələrdə v.c.-nin əsaslarına kompleks şəkildə konstitusiya-hüquq institutunun daxil edilməsi ənənəsi müşahidə olunmaqdadır.

**"Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" qanun** – Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə təsbit edilmiş Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi qaydalarını müəyyənləşdirən, habelə vətəndaşların hüquq və azadlıqlarının məhkəmə təminatı ilə əlaqədar yaranan münasibətləri tənzim edən qanunvericilik aktı.

Bu qanun 11 iyun 1999-cu il tarixdə qəbul edilmişdir. O, 10 maddədən ibarətdir.

**"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanun** – Azərbaycan Respublikası vətəndaşlarının təklif, ərizə, şikayət və müraciətlərinin qəbulu, onların müraciətlərinə baxılması (müddətləri) qaydaları ilə əlaqədar münasibətləri tənzimləyən qanunvericilik aktı.

Bu qanun 10 iyun 1997-ci il tarixdə qəbul olunmuş, ona müxtəlif illərdə bir sıra əlavə və dəyişikliklər edilmişdir. O, 12 maddədən ibarətdir.

**"Vətəndaşların pensiya təminatı haqqında" qanun** – vətəndaşlar qocaldıqda, əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə, habelə ailə başçısını itirdikdə onların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş maddi təminat hüququna zəmanət verməklə dövlətin vahid pensiya təminatı sistemini müəyyən edən qanunvericilik aktı. Qanun həmçinin Azərbaycan Respublikası vətəndaşlarının, eləcə də digər dövlətlərin Azərbaycan Respublikası ərazisində daimi yaşayan vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin pensiya təminatı məsələlərini tənzimləyir. Həmin qanun dolanacaq xərcləri dəyişdikcə pensiya məbləğlərinin də müntəzəm surətdə dəyişdirilməsi yolu ilə pensiyaçıların sosial müdafiəsinə təminat verir.

Bu qanun 23 sentyabr 1992-ci il tarixdə qəbul olunmuş, ona indiyə qədər bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanun 11 fəsil və 116 maddədən ibarətdir.

**Vətəndaşlığı olmayan şəxslər** *(bax: apatridlər)*.

**Vətəndaşlıq** – şəxsin müəyyən-konkret dövlətə mənsubiyyəti və onunla sabit hüquqi bağlılığı. Bu dövlətin qanunvericiliyi ilə vətəndaşlar üçün konstitusiyada təsbit edilmiş hüquq və vəzifələr həmin şəxsə şamil olunur və hər hansı xarici ölkədə olduğu zaman mənsub olduğu dövlətin himayəsindən istifadə edir. Monarxiya idarəçilik formasına malik olan dövlətlərdə "v" termini, bir qayda olaraq, "təbəəlik" termininə uyğun gəlir. V. ölkənin hakimiyyəti altında olan şəxslərlə dövlət arasında qarşılıqlı münasibətlərdən biri kimi təzahür edir. Dövlət insanın hüquq və azadlıqlarını tanıyır və onlara təminat verir, onu müdafiə edir. Vətəndaş da öz növbəsində mənsub olduğu dövlətin qanunlarına qeyd-şərtsiz əməl edir və üzərinə düşən vəzifələrə uyğun olaraq dövlətin göstərişlərini yerinə yetirir. Bu hüquq və vəzifələrin məcmusu vətəndaşın siyasi-hüquqi statusunu təşkil edir, onu xarici vətəndaşlardan və vətəndaşlığı olmayan şəxslərdən fərqləndirir.

"V." terminindən vətəndaş-dövlətlərin – konfederasiya üzvlərinin (məsələn, Avropa İttifaqı vətəndaşlığı) statusunun unifikasiyasının xüsusi hüquqi rejiminin adlandırılması üçün də istifadə olunur.

**Vətəndaşlıqdan məhrum etmə** – dövlətin səlahiyyətli orqanlarının qərarı ilə vətəndaşlığın itirilməsi; belə qərar həmin orqanların təşəbbüsü ilə müvafiq şəxsin və ya şəxslərin müvafiq dövlətə münasibətdə öz qeyri-loyallığını nümayiş etdirdiyi hallarda qəbul olunur. Dövlətə qarşı düşmənçilik fəaliyyətilə məşğul olmanı misal göstərmək olar. Hazırda belə tədbir dövlətlərin əksəriyyətində yolverilməz hal kimi qiymətləndirilir. Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin 1 hissəsində deyilir: "Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilə bilməz".

**Vətəndaşlıq senzi** – konstitusiya və ya seçki qanunu ilə müəyyən edilən tələb; bu tələbə uyğun olaraq seçkili vəzifənin seçicisi və ya həmin vəzifəyə namizəd həmin dövlətin vətəndaşlığına malik olmalıdır. V.s. ən geniş yayılmış seçki senzlərindən biridir və praktiki olaraq bütün dünyada yayılmışdır. Yalnız bəzi dövlətlərdə yerli özünüidarə orqanlarına seçkilərdə həmin dövlətlərin vətəndaşları olmayan şəxslərin iştirakına yol verilir.

**Vətəndaşlıq vəziyyəti aktları** – doğum, ölüm, nikahın bağlanması və pozulması, övladlığa götürmə, atalığın müəyyən edilməsi, adın, atanın adının və soyadın dəyişdirilməsi faktlarının qeydiyyatı və uçotu aktları. Qanun v.v.a.-nın qeydiyyatı və uçotu ilə mühüm əhəmiyyət kəsb edən hüquq münasibətlərinin əmələ gəlməsini, dəyişməsini və xitam olunmasını əlaqələndirir. Qeydiyyat və uçot müvafiq kitablarda aparılır, vətəndaşlar isə qanunla müəyyən edilmiş formada müvafiq sənədlər (doğum, nikah və i.a. haqqında şəhadətnamə) əldə edirlər. Bəzi qeydlər üçün qanunla mütləq vaxt müəyyən edilmişdir. Belə ki, uşağın doğulması 1 aydan gec ol-

mayaraq, ölüm hadisəsi onun baş verdiyi və ya meyitin tapıldığı vaxtdan 3 gündən gec olmayaraq qeydə alınmalıdır. V.v.a.-nın qeydiyyatı Azərbaycan Respublikasında vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı (VVAQ) orqanlarında aparılır.

**Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı (VVAQ)** *(bax: vətəndaşlıq vəziyyəti aktları).*

**Vətəndaş müharibəsi** – silahlı fəaliyyətin yol verilən üsul və metodlarına, habelə yaralılarla və hərbi əsirlərlə davranışa, dinc əhalinin və mədəni sərvətlərin müdafiəsinə münasibətdə müharibə qurbanları və adətləri ilə tənzim edilməsinə baxmayaraq, hər hansı dövlətin ölkədaxili işi. V.m.-ndə hər hansı kənar dövlətin, eləcə də beynəlxalq təşkilatların işə qarışması və müdaxiləsi yolverilməzdir. V.m. hər hansı ölkə daxilində dövlət hakimiyyəti uğrunda müxtəlif ideyalı ictimai-siyasi qruplar arasında aparılan mütəşəkkil silahlı fəaliyyətdir.

**Vətəni müdafiə vəzifəsi** – əksər dövlətlərdə vətəndaşların əsas konstitusiya vəzifələrindən (bir sıra konstitusiya doktrinalarına uyğun olaraq vətəndaşların eyni vaxtda əsas hüquqlarından) biri. Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinin 1 hissəsinə əsasən vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər.

**Vətən vekseli** – öhdəlikləri həmin ölkə rezidentlərinin üzərinə qoyulan veksel.

**Vəzifə** *(bax: hüquqi vəzifə).*

**Vəzifə cinayətləri** – Azərbaycan Respublikasının cinayət hüququna görə, dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlər. V.c.-nin əlamətləri aşağıdakılardır: vəzifəli şəxsin öz vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə qulluq mövqeyinə qəsdən zidd olaraq istifadə etməsi və bunun nəticəsində vətəndaşların və ya təşkilatların hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurması.

Bu əməllər ümumi (idarəçiliyin, yaxud təsərrüfatın bütün sahələrində baş verə bilən vəzifə cinayətləri) və xüsusi v.c.-nə bölünürlər. Ümumi v.c. aşağıdakılardır: 1) vəzifə səlahiyyətlərindən sui-istifadə (AR CM-in 308-ci maddəsi); 2) vəzifə səlahiyyətlərini aşma (AR CM-in 309-cu maddəsi); 3) rüşvət alma (AR CM-in 311-ci maddəsi); 4) vəzifə saxtakarlığı (AR CM-in 313-cü maddəsi); 5) səhlənkarlıq (AR CM-in 314-cü maddəsi). Xüsusi v.c. adətən hər hansı bir konkret sahədə (sənayedə, ticarətdə, məhkəmə orqanının fəaliyyətində) baş verə bilər.

**Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə** – dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 310-cu maddəsində nəzərdə tutulmuşdur. Özbaşına özünün vəzifəli şəxs kimi səlahiyyətlərinin mənimsənilməsi ilə əlaqədar vətəndaşların və ya təşkilatların hüquqlarının və qanuni mənafelərinin əhəmiyyətli dərəcədə pozulmasına səbəb olan hərəkətlər törədilməsində ifadə olunur.

**Vəzifə saxtakarlığı** – dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in







313-cü maddəsində nəzərdə tutulmuşdur. Vəzifəli şəxs, eləcə də vəzifəli şəxs olmayan dövlət qulluqçusu və ya yerli özünüidarə orqanı qulluqçusu tərəfindən rəsmi sənədlərə bilə-bilə yalan məlumatların daxil edilməsində, habelə göstərilən sənədlərdə onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsində ifadə olunur.

**Vəzifə səlahiyyətlərindən sui-istifadə** dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 308-ci maddəsində nəzərdə tutulmuşdur. Vəzifəli şəxsin tamah və ya sair şəxsin marağı üzündən öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə zidd olaraq istifadə etməsində ifadə olunur.

**Vəzifə səlahiyyətlərini aşma** dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 309-cu maddəsində nəzərdə tutulmuşdur. Vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər edilməsində ifadə olunur.

**Vəzifə təlimatı** müvafiq vəzifə vərdişləri və səlahiyyətlərinin tələb etdiyi əsas vəzifələrin qısa ifadəsi.

**Vəzifəverici hüquq normaları** – şəxslər üçün müəyyən müsbət hərəkətləri etməyi məqbul hesab edən hüquq normaları. Məsələn, vətəni müdafiə, dövlət rəmzlərinə hörmət etmək, vergiləri və başqa dövlət ödənişlərini ödəmək və i.a. bu kimi göstərişlər hər bir şəxsin vəzifəsidir.

**Vəzifəli şəxs** – Azərbaycan hüququna görə, daimi və ya müvəqqəti olaraq təyinat və ya seçki əsasında, pulla ödənilməklə və ya ictimai əsaslarla hakimiyyət nümayəndəsi funksiyasını həyata keçirən, həmçinin dövlət idarələrində və ya ictimai idarələrdə, təşkilatlarda və ya müəssisələrdə təşkilati-binagüzarlıq və ya inzibati-təsərrüfat vəzifələrinin yerinə yetirilməsilə əlaqədar vəzifələri tutan, yaxud göstərilən idarə və ya müəssisələrdə həmin vəzifələri xüsusi səlahiyyətlər üzrə yerinə yetirən şəxs.

**Vəzir** *(ər.)* – bəzi müsəlman dövlətlərində nazirlərin və ali əyanların titulu. Sasanilər dövründən məlumdur. Xilafət dövründə v. əvvəllər xəlifənin dəftərxanasını idarə edirdi. Sonralar isə Dövlət Şurasına başçılıq etmişdir. Xilafətin süqutundan sonra bütün müsəlman feodal ölkələrində v. vəzifəsi daimi olmuşdur. Osmanlı imperiyasında bir çox saray əyanlarına və əyalət canişinlərinə v. titulu verilmişdi. Baş vəzir (vəzir-i əzəm, sonralar sədr-i əzəm) hökumətin başçısı olmaqla sultanın adından fərmanlar verir, sülh müqavilələri imzalayırdı. Səfəvilər və Qacarlar dövründə baş vəzir etimad üd-dövlə adlanırdı. XIX yüzilliyin əvvəllərinədək Azərbaycanda mövcud olmuş ayrı-ayrı feodal dövlətlərində də v. vəzifəsi var idi. Türkiyədə 1876-cı il Konstitusiyasına görə, baş vəzir nazirlər şurasının sədri idi (bu vəzifə 1922-ci ildə sultanlıqla birlikdə ləğv edilmişdir).

**Vəzirlik** – Azərbaycanda xanlıqlar dövründə maliyyə divanı başçısının (vəzirin) xeyrinə toplanan vergi. Bu vergi bəzi hallarda məhsulu hesablayıb verginin miqdarını müəyyən edən mirzənin xeyrinə də toplanırdı. V. pul və ya natura ilə alınırdı. V. əhalini maliyyə cəhətdən ağır vəziyyətə salan vergilərdən biri olmuşdur.

**Vicdan azadlığı** *(bax: dini etiqad azadlığı).*

**Vicdansız emissiya** – qiymətli kağızların emissiya qaydalarını pozma. O cümlədən emitent tərəfindən qanunvericiliyin pozulması; onun tərəfindən etibarsız məlumatların verilməsi; emissiyalı qiymətli kağızların buraxılışının qeydə alınmasından imtina edilməsi.

**Vicdansız rəqabət** – təsərrüfatla məşğul olan subyektlərin sahibkarlıq fəaliyyətində üstünlüklər əldə olunmasına yönələn qanunvericiliyə, işgüzar dövriyyə adətlərinə, vicdanlı, ağıllı və ədalətli davranışın tələblərinə zidd olan hər cür hərəkəti.

**Vicdansız reklam** *(bax: haqsız reklam).*

**Viç-infeksiya** *(bax: QİÇS).*

**Vidok** – qədim rus hüququna görə şahid.

**Viktim davranış** – zərər çəkmiş şəxsin cinayətin törədilməsi üçün şərait yaradan yüngül fikirli, qeyri-əxlaqi və ya hüququazidd davranışı *(həmçinin bax: viktimologiya).*

**Viktimiyalaşdırma** – şəxsi cinayətkar qəsdin qurbanına çevirmə prosesi, habelə bunun nəticəsində prosesin tək və ya kütləvi hal alması.

**Viktimlik** – bəzi keyfiyyətlər (mənəvi, peşə və fiziki) sayəsində insanın müəyyən hallarda (şəraitdə) insanın cinayətin obyekti olmasının yüksəlmiş qabiliyyəti.

**Viktimologiya** *(lat. victima – qurban)* – kriminologiyanın xüsusi bölməsi, cinayətin qurbanı haqqında təlim. Cinayətkarlığın qarşısını almaq məqsədi ilə cinayətin qurbanlarının şəxsiyyətini, cinayətkarla cinayətin qurbanı arasındakı münasibətləri öyrənir. V. bunun əsasında cinayətin qurbanı olmaq ehtimalını, qurbanlarla iş metodlarını və potensial qurbanların müdafiəsi üsullarını proqnozlaşdıran nəzəriyyə işləyib hazırlayır.

V. həm də kriminalistikaya aid olan bilik sahəsidir. Kriminalistik viktimologiyanın predmetini cinayətkar ilə onun əməlinin qurbanı arasında qanunauyğun şəkildə meydana çıxan, təqsirdə ifadə olunan, hüquq pozuntusunun mənşəyini və onun sonrakı inkişafını, eləcə də cinayətin və onun izlərinin gizlədilməsinə yönələn hərəkətləri şərtləndirən qarşılıqlı əlaqə və bağlılıq təşkil edir.

**Vilayəti-fəqih** *(ər. qanunşünas teoloqun, ilahiyyatçının hakimiyyəti deməkdir)* – imamlıqla vilayətin bağlılığı haqqında təsəvvürə, yəni müsəlman icmasında hakimiyyətin vərəsəlik yolu ilə imamdan imama fasiləsiz olaraq keçməsinin təsdiq edilməsinə əsaslanan müasir şiə doktrinası. İmam-vali guya idarə etmək üçün Allah tərəfindən təyin edilmiş və buna görə də ona xüsusi qabiliyyət verilmişdir. Şiə teoloqlarının və dini rəhbərlərinin əksəriyyəti belə hesab edir ki, ruhanilər islam dövlətlərinin müqəddəratını öz əllərinə almalı və deməli, siyasi hakimiyyəti də həyata keçirməlidirlər. V.-f. doktrinasını ümumiləşdirilmiş şəkildə Ayətulla Xomeyni "İslam hakimiyyəti" ("Hökumət-islam") kitabında ifadə etmişdir. Siyasi hakimiyyətin ruhanilərin əlində olması ideyalarını İranın bir çox teoloqları açıq şərh etmişdir.

**Villanlar** – *(lat. villa – malikanə)* – orta əsrlər Fransası, İtaliyası və Almaniyasında şəxsən azad, lakin torpağın sahibi kimi feodaldan asılı vəziyyətdə olan kəndlilər; XV-XVI yüzilliklərədək İngiltərədə təhkimli kəndlilər də villanlar adlanırdı.





**Vindikasiya** *(lat. vindicatio – iddia edirəm, tələb edirəm)* – mülkiyyət hüququnun müdafiə edilməsi üsulu. Bu üsulla mülkiyyətçi öz əmlakını, ona qanunsuz yiyələnmiş özgə şəxsin sahibliyindən tələb edə bilər. İddianın bu forması hələ Qədim Roma hüququnda formalaşmışdı. Vindikasiya iddiası tələb edilən əmlakın mülkiyyət hüququnun hansı növünə aid olması, şəxsin həmin əmlaka vicdanlı, yaxud vicdansız yiyələnməsi, onu əvəzli və ya əvəzsiz əldə etməsi halları nəzərə alınmaqla həll edilir.

**Vindikasiya iddiası** *(bax: vindikasiya).*

**Vinodol qanunu** – qədim Xorvat hüququnun mühüm abidəsi. Qanun indiki Fiume rayonunda Adriatik dənizinin sahil xətti boyunda yerləşən kiçik yarımada knyazlığı olan Vinodolun dini və dünyəvi feodallarının qurultayında 1288-ci ildə hazırlanmış və təsdiq edilmişdir. Qanunu təşkil edən hüquq normaları öz qədimliyi və digər slavyan hüquq abidələri ilə ümumi cəhətlərə malik olması ilə diqqəti cəlb edir. Vinodolun ictimai və dövlət quruluşunda ibtidai-icma münasibətləri qalıqlarının mövcud olduğuna görə, bu normalar məlum dərəcədə köhnə adətlərin yazılı ifadəsidir. O, başlıca olaraq feodal dövlətindəki münasibətləri möhkəmləndirən və tənzim edən normaları əhatə edirdi.

**Vira** – Qədim Rus dövlətində azad insanın öldürülməsinə görə knyazın xeyrinə tutulan pul cəriməsi. Cinayət nəticəsində vurulan şikəstliyə görə viranın yarısı ödənilirdi.

**Vislis-Petrokovsk statutları** – 1368-ci ildə Vislis şəhərində keçirilən dini və dünyəvi feodalların seymində təsdiq edilmiş Polşa Məcəlləsi. V.-P.s. Polşa kralı III Böyük Kazimirin rəhbərliyi altında həyata keçirilən çoxillik məcəlləşdirmə fəaliyyətinin nəticəsində qəbul edilmişdir. Əvvəlcə (1347-ci ildə) Kiçik və Böyük Polşa üçün ayrı-ayrı statutlar işlənib hazırlanmışdır. 1368-ci ildə onlar birləşdirilmiş və V.-P.s. adını almışdır. 1423-cü ildə bu statutlara Varta seymində yenidən baxılmış və o vaxtdan Reç Pospolitanın sonunadək, yəni 1795-ci ilədək Polşanın qüvvədə olan hüququ kimi qalmışdır. Statutlar tipik feodal məcəlləsidir və o, panların təbəqə imtiyazlarının müstəsnalığını təsbit edirdi. O, Polşa kəndlilərinin hüquqsuzluğunu və onların üzərində feodalların böyük və qeyri-məhdud hakimiyyətini möhkəmləndirirdi. Statutlar özündə mülki, cinayət, inzibati hüquq normalarını və prosessual hüququ ehtiva edirdi. Normaların bir hissəsinin qədim adətlərdən götürüldüyü şübhə doğurmur.

**"Vispered"** – "Bütün hakimlər". Azərbaycanın mühüm siyasi və hüquqi abidəsi olan Avestanın tərkib hissələrindən biridir. Avestanın bu hissəsi mövcud hissələrin həcmi ilə müqayisədə az və həm də pərakəndədir. "V." təqribən 25 fəsildən (müxtəlif əlyazmalarda fəsillərin sayının 23, 24 və 26 olduğu da göstərilir) ibarətdir və həmin fəsillər müxtəlif allahlara dua ilə müraciətləri təşkil edir. Zərdüştiliyin dini ehkamlarını öyrənmək baxımından əhəmiyyətli olan Lu hissə öz məzmununa, forma və dilinə görə Avestanın hissələrindən biri olan Yəsnaya çox yaxındır. "V."-in və Yəsnanın allahlara ibadətdən bəhs edən ayrı-ayrı hissələri bəzən bir-biri ilə birləşir.

"V."-də ehtiva olunmuş ideyalar Avestanın əsasını təşkil edən dünyanın işıqlı və qaranlıq başlanğıcının dualist ideyasıdır.

İşıq və qaranlıq işıqlı və xeyirxah ruhlar obrazında təcəssüm olunur. İşıqlı ruhların başında Ahura Məzda, qaranlıq ruhların başında isə Əhrimən durur. Bu baxımdan "V." Azərbaycan xalqının ulu əcdadlarının ictimai-siyasi görüşlərinin ilkin və ən primitiv rüşeymlərini təşkil edən dəyərli materiallardan biridir. Azərbaycanın siyasi və hüquqi fikir tarixinin öyrənilməsi baxımından onun böyük əhəmiyyəti danılmazdır.

**"Vitse"** *(lat. vice – yerinə, əvəzinə)* – "müavin", "köməkçi" mənasına uyğun gələn mürəkkəb sözlərin başlanğıc hissəsi (məsələn, vitse-prezident, vitse-admiral və i.a.).

**Vitse-admiral** – Hərbi-Dəniz Donanmasında rütbə. Ümumi qoşun növlərində general-leytenant rütbəsinə uyğundur. Rusiyada I Pyotr tərəfindən, keçmiş SSRİ-də 1940-cı ildə təsis edilmişdir.

**Vitse-konsul** – ayrıca vitse-konsulluğa başçılıq edən və ya daha yüksək dərəcəli konsul idarəsində bu rütbəyə malik olan vəzifəli şəxs. Daha yüksək dərəcəli konsul idarəsində konsul nümayəndələrinin sayından asılı olaraq bir neçə v.-k. ola bilər. Ayrıca vitse-konsulluğa başçılıq edən v.-k. həmin idarəyə (baş konsul, konsula) aid olan bütün funksiyaları həyata keçirir.

**Vitse-krallıq** – XVI yüzillikdən 1810-1826-cı illər Amerika müstəmləkələrinin istiqlaliyyəti uğrunda müharibəyədək İspaniyanın Amerika müstəmləkələrində vitse-kralın (kral hakimiyyəti sədrinin) idarəçiliyi altında olan inzibati-ərazi vahidi.

**Vitse-qubernator** – Rusiyada 1708-ci ildə I Pyotr hakimiyyəti dövründə quberniyaların yaradılması ilə əlaqədar təsis edilmiş vəzifə. Quberniyalar haqqında 1775-ci il əsasnaməsinə görə, v.-q.-lar xəzinə palatalarının sədrləri vəzifəsində çalışmaqla qubernatorlar müvəqqəti olmadıqda və ya xəstələndikdə onları əvəz edirdilər. Həmin vəzifə 1837-ci ildə quberniya idarəsi tərkibinə daxil edilmişdir.

**Vitse-mer** – merin müavini. V.m.-lər onlara şəhərlərin merləri tərəfindən verilmiş səlahiyyətlər çərçivəsində şəhərlərin icra hakimiyyəti orqanlarına əməli rəhbərliyi həyata keçirirlər.

**Vitse-prezident** – **1)** respublika idarəçilik formasına malik olan bir sıra ölkələrdə (ABŞ-da, Braziliyada, Hindistanda, Qazaxıstanda və i.a.) prezidentin səlahiyyət müddəti dövründə daimi müavini. V.-p., bir qayda olaraq, prezidentlə birlikdə onun seçildiyi müddətə seçilir. Bir sıra dövlətlərin *(ABŞ-ın, Hindistanın, Argentinanın)* konstitusiyalarına uyğun olaraq v.-p. vəzifəsinə görə parlamentin yuxarı palatasının sədridir. Bir sıra hallar meydana çıxdıqda (öldükdə, istefa verdikdə, vəzifədən kənarlaşdırıldıqda, xəstələndikdə, müvəqqəti olmadıqda) prezidenti v.p. ya avtomatik surətdə (məsələn, ABŞ-da, Argentinada) əvəz edir, ya da onun vəzifəsini mövcud hallarla əlaqədar müvəqqəti (məsələn, Hindistanda) tutur. Azərbaycan Respublikası Konstitusiyası ilə Azərbaycanda v.-p. vəzifəsi nəzərdə tutulmur; **2)** müxtəlif milli və beynəlxalq təşkilatlarda (məsələn, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti) prezidentin müavini.

**Viza** *(fr. visa, lat. visus – görülmüş, baxılmış sözündən)* – geniş mənada müvafiq vəzifəli şəxsin hər hansı sənədin və ya aktın həqiqiliyini təsdiq edən, yaxud ona hüquqi qüvvə verən qeydi. Məhdud mənada







şəxsin bir ölkəyə gəlməsinə, oradan getməsinə, yaxud keçməsinə icazəni bildirməklə pasportda edilən qeyd. Gəlmə, getmə, yaxud tranzit vizaları mövcuddur.

**Vizalama** – sənəd üzərində, yaxud pasportda viza qoyulması.

**Vizasız getmə** – dövlətin səlahiyyətli hakimiyyət orqanlarından viza almaq zərurəti olmadan oraya getmə. V.g. (əgər bu, adi getmə və gəlməni tələb edən qısamüddətli gedib-gəlmədən ibarətdirsə), bir qayda olaraq, dövlətlər arasında saziş əsasında müəyyən edilir. Bu, həm şəxslərin ayrı-ayrı kateqoriyalarına (məsələn, xidməti işlərlə əlaqədar getmə), həm də ölkənin bütün vətəndaşlarına – saziş iştirakçılarına şamil oluna bilər. V.g. prinsip etibarilə getmə və gəlmənin icazəverici sistemini istisna etmir. V.g. zamanı da xarici pasporta malik olmaq zəruridir.

**Vizitasiya** *(lat. visitatio – yoxlama, müayinə)* – beynəlxalq dəniz hüququnda hərbi gəminin açıq dənizdə üzən və şübhə doğuran ticarət gəmisindən və ya qeyri-hərbi gəmidən gəmi sənədlərini təqdim etmələrini tələb etmək hüququ.

**Volost** – **1)** Qədim Rus dövlətində bir hakimiyyətə, əsasən knyaz hakimiyyətinə tabe olan ərazi; **2)** inqilabaqədərki Rusiyada və 1929-cu ilədək Rusiyada aşağı inzibati-ərazi vahidi. Öz torpaqları ilə əhatə olunan bir neçə kənddən ibarət olan qəzalara bölünürdü; **3)** Rusiya Federasiyasında 1993-cü ildən onun bir sıra subyektlərində (məsələn, Pskov vilayətində) aşağı inzibati-ərazi vahidinin adı.

**Volostel** – XI yüzillikdən XVI yüzilliyin ortalarınadək rus knyazlıqlarında volosta başçılıq edən və inzibati funksiyanı, maliyyə və məhkəmə funksiyasını həyata keçirən vəzifəli şəxs.

**Volost idarəsi** – XIX yüzilliyin ikinci yarısı və XX yüzilliyin başlanğıcında Rusiyada yerli kəndli özünüidarə orqanı. V.i. volost yığıncağı tərəfindən seçilən volost starşinasından, kənd starostalarından və digər vəzifəli şəxslərdən ibarət idi.

**Volost məhkəməsi** – XIX yüzilliyin ikinci yarısı və XX yüzilliyin başlanğıcında Rusiyada xırda cinayət işlərinin və mülki işlərin araşdırılması üçün fəaliyyət göstərən seçkili kəndli məhkəmə orqanı. V.m. cismani cəza, cərimə və qısamüddətli həbsə alma haqqında hökm çıxara bilərdi.

**Volost starşinası** – XIX yüzilliyin ikinci yarısı və XX yüzilliyin başlanğıcında Rusiyada kənd idarəsinin seçkili vəzifəli şəxsi. Volost yığıncağına başçılıq edirdi. Yığıncaq tərəfindən üç il müddətinə seçilir, dünyəvi vasitəçi tərəfindən təsdiq olunur, sonra isə zem rəisi tərəfindən təsdiqlənirdi. İnzibati-polis hakimiyyətinə malik idi.

**Volost yığıncağı** – XIX yüzilliyin ikinci yarısı və XX yüzilliyin başlanğıcında Rusiyada yerli kəndli özünüidarə orqanı. Seçkili kənd və volost vəzifəli şəxslərindən və kəndli-ev sahiblərindən ibarət idi. Məhdud inzibati-məhkəmə, polis funksiyalarını və fiskal funksiyanı həyata keçirirdi. V.y.-na dünyəvi vasitəçilər və zem rəisləri nəzarət edirdilər.

**Votçina** – **1)** Rusiyada torpaq mülkiyyətinin irsən keçən ən qədim növü. X-XI yüzilliklərdə (knyaz, boyar, monastır votçinası) meydana gəlmişdir. XIII-XV yüzilliklərdə torpaq sahibliyinin hökmran forması olmuşdur. XV yüzilliyin sonundan malika-

nəyə qarşı çıxmış, lakin XVIII yüzilliyin başlanğıcında ona yaxınlaşaraq, mülkün yeganə növü kimi çıxış etmişlər. V. sonradan feodal torpaq mülkiyyətinin vahid növünə çevrilmişdir; **2)** rus tarix ədəbiyyatında feodal torpaq mülkiyyəti kompleksini adlandırmaq üçün istifadə olunan termin.

**Votçina məhkəməsi** - 1861-ci ilin fevralında təhkimçilik hüququnun ləğv olunmasınadək çar Rusiyasında XVI-XVII yüzilliklərdə boyarların özləri, sonra isə mülkədarlar tərəfindən öz təhkimli kəndliləri üzərində həyata keçirilən məhkəmə. V.m.-nin hakimiyyəti qramotalarla – votçina hakimlərinin votçina sahiblərindən aldıqları sorğular ilə müəyyən edilirdi.

**Votum** *(lat. votum – istək, iradə)* - seçki korpusunun və ya nümayəndəli təsisatın iradə ifadəsi olan, yaxud səslərin əksəriyyəti ilə qəbul olunan təklif və ya qərar *(həmçinin bax: etimad votumu; etimadsızlıq votumu; dolayı votum; məcburi votum; seçki votumu; çoxluq votumu)*. Bir sıra ölkələrdə mövcud olan plüral votum seçki qaydasından ibarətdir. Həmin qaydaya görə müəyyən kateqoriya seçicilər iki, yaxud daha çox səsə malik olurlar.

**Voyevoda** – slavyan xalqlarında hərbi rəis, hökmdar. Rus dövlətinə X yüzillikdən məlum olmuşdur. V. Rus dövlətində XV əsrin sonu - XVIII əsrin başlanğıcında alaya və dəstəyə, XVI yüzilliyin ortalarından 1775-ci ilədək şəhərə, 1719-1775-ci illərdə isə əyalətə başçılıq etmişdir.

**Vulqar hüquq** – eramızın IV yüzilliyində klassik Roma hüququnun (hər şeydən əvvəl Qərbi imperiyada) güclü sadələşdirilməsi nəticəsində yaradılan və ictimai münasibətləri tənzimləyən hüquq normaları sistemi. Roma hüquqşünaslarının klassik əsərlərinin həddən artıq ixtisar edilməsi, yəni onların məzmununun ifrat dərəcədə dəqiqləşdirilməsi və genişləndirilməsi dəyişən şəraitdə istifadə oluna bilməmişdir. Hüquq təcrübəsində belə müxtəsərlik, prosessual hüququn xırdalıqlara parçalanması və ya mülki-hüquqi terminologiyanın müxtəlifliyi öz mənasını itirmişdir. V.h. barbar krallıqlarda hüququn formalaşmasına xeyli təsir göstərmişdir.

**Vyana arbitrajları** – Çexoslovakiya və Rumıniya ərazisinin xeyli hissəsinin Macarıstana verilməsi haqqında Almaniya və İtaliyanın faşist hökumətləri nümayəndələrinin 1938-ci və 1940-cı illərdə Vyanada imzaladıqları iki qərarın adı. Birinci qərara (2 noyabr 1938-ci il) görə Çexoslovakiya Slovakiyanın və Zakarpat Ukraynasının rayonlarını, ikinci qərara (30 avqust 1940-cı il) görə isə Rumıniya Şimali Transilvaniyanı Macarıstana verməyə məcbur oldu. Almaniya ikinci arbitraj nəticəsində Rumıniya və Macarıstan arasında ziddiyyətlərin kəskinləşməsindən onların hər ikisini özündən tam asılı vəziyyətə salmaq üçün istifadə etdi. V.a. 1947-ci il Paris sülh müqaviləsinə əsasən rəsmən ləğv edilmişdir.





# -Y-

Yabanı meyvə meşələri ........ 1066
Yalan ........ 1066
Yalançı əqd ........ 1066
Yalançı sahibkarlıq ........ 1066
Yalan şahidlik ........ 1066
Yanakı sübutlar ........ 1066
Yandırıcı döyüş sursatı ........ 1066
Yandırıcı maddələr ........ 1066
Yanğın ........ 1066
Yanğından mühafizə ........ 1066
Yanğın deposu ........ 1066
Yanğın profilaktikası ........ 1066
Yanğın-texniki ekspertizası ........ 1066
Yanğın təhlükəsizliyi ........ 1066
"Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu ........ 1067
Yanğın təhlükəsizliyi qaydalarını pozma ........ 1067
Yaradıcı işçi ........ 1067
Yaradıcılıq azadlığı ........ 1067
Yaradıcılıq fəaliyyəti ........ 1067
Yaradıcılıq məzuniyyətləri ........ 1067
Yardarlıq ........ 1068
Yardımçı məktəb ........ 1068
Yarıqa ........ 1068
Yarımmüstəmləkə ........ 1068
Yarlıq ........ 1068
Yarmarka ........ 1068
Yasa (qanun) ........ 1068
Yasaq ........ 1068
Yasaq etmə ........ 1068
Yasaqlıq (təbii yasaqlıq) ........ 1069
Yasavul ........ 1069
Yaşamaq hüququ ........ 1069
Yaşayış binasının tərkib hissələrinə birgə mülkiyyətin idarəçisi ........ 1069
Yaşayış binasının tərkib hissələrinin vahidləri ........ 1069
Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ ........ 1070
Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ ........ 1070
Yaşayış evi ........ 1070
Yaşayış məntəqələrinin torpaqları ........ 1070
Yaşayış məntəqələrinin torpaqlarından istifadə ........ 1071
Yaşayış məntəqələrinin torpaqlarının hüdudları ........ 1071
Yaşayış otağı kirayəçisinin şikayət vermək hüququ ........ 1071
Yaşayış sahəsi ........ 1072
Yaşayış sahəsini bronlama ........ 1072
Yaşayış sahəsindən çıxarma ........ 1072
Yaşayış sahəsindən istifadə haqqı ........ 1072
Yaşayış sahəsinin dəyişdirilməsi ........ 1072
Yaşayış sahəsinin kirayə müqaviləsi ........ 1072
Yaşayış sahəsinin orderi ........ 1072
Yaşayış sahəsini zəbt etmə ........ 1072
Yaşayış sahəsi norması ........ 1073
Yaşayış vəsiqəsi ........ 1073
Yaşayış yeri ........ 1073
Yaşayış yeri seçmək hüququ ........ 1073
"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının qanunu ........ 1073
Yaşıllıq zonalarının meşələri ........ 1073
Yaşlıların cinayətkarlığı ........ 1073
Yaşlılar məktəbi ........ 1073
Yaş senzi ........ 1074
Yatab ........ 1074
Yatağan ........ 1074
Yataqxana ........ 1074
Yavər ........ 1074
Yazılı əqd ........ 1074
Yazılı korrespondensiya ........ 1074

Yazılı sübutlar ........ 1074
Yazışma sirri ........ 1075
Yeddi arxa ........ 1075
Yeddi partid ........ 1075
Yedəkləmə ........ 1075
Yedəkləmə müqaviləsi ........ 1075
Yekdillik prinsipi ........ 1076
Yeni açılmış hallar üzrə icraat ........ 1076
Yenidən sığorta ........ 1076
Yenidən sığortaçı ........ 1077
Yenidən sığorta edən ........ 1077
Yenidən sığorta komissiyası ........ 1077
Yenidən sığorta kvotası ........ 1077
Yenidən sığorta müqaviləsi ........ 1077
Yenidən sığorta slipi ........ 1077
Yeni kreditorun tələblərinin sübutu ........ 1077
Yeni Kriminologiya Cəmiyyəti ........ 1077
Yeni oferta ........ 1077
Yeparxiya ........ 1077
Yeraltı su hövzəsi ........ 1078
Yeraltı suların mühafizəsi ........ 1078
Yeraltı su obyektləri ........ 1078
Yerində müayinə ........ 1078
Yerinə yetirilmiş iş üçün muzd ödənilməsi və işin qəbulu ........ 1078
Yerin təki ........ 1078
"Yerin təki haqqında" Azərbaycan Respublikasının qanunu ........ 1078
Yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma ........ 1079
Yerin təki üzərində mülkiyyət hüququ ........ 1079
Yerin və binanın baxışı ........ 1079
Yerquruluşu ........ 1079
Yerli özünüidarə ........ 1079
Yerli rəy sorğusu ........ 1079
"Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikasının qanunu ........ 1079
Yerli valyuta ........ 1080
Yerli vergi və rüsumlar ........ 1080
Yerüstü su obyektləri ........ 1080
Yesaul ........ 1080
Yetimələrin öz faktiki tərbiyəçilərini saxlamaq vəzifəsi ........ 1080
Yetkinlik yaşı ........ 1080
Yetkinlik yaşına çatmayanlar ........ 1080
"Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının qanunu ........ 1080
Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər ........ 1081
Yetkinlik yaşına çatmayan şahidin dindirilməsi ........ 1081
Yetkinlik yaşına çatmayan şəxsin sağlamlığı pozulduqda zərərin əvəzinin ödənilməsi ........ 1081
Yetkinlik yaşına çatmayan şəxsin tutulması ........ 1081
Yetkinlik yaşına çatmayan valideynlərin hüquqları ........ 1082
Yetkinlik yaşına çatmış övladların valideynlərini saxlamaq vəzifəsi ........ 1082
"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının qanunu ........ 1082
Yığıncaq ........ 1082
Yığıncaqlar azadlığı ........ 1082
Yoxlama ........ 1083
"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının qanunu ........ 1083
Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ........ 1083
Yollayış ........ 1083
Yol nəqliyyat hadisəsi yerindən qaçma ........ 1083
Yol vergisi ........ 1083
Yol vergisinin dərəcələri ........ 1083
Yolvermə ........ 1084
"Yumruq hüququ" ........ 1084
YUNESKO ........ 1084
YUNİDO ........ 1085
Yunker ........ 1085
YUNKTAD ........ 1085
YUNSİTRAL ........ 1085
Yurisdiksiya ........ 1085
Yurisprudensiya ........ 1085
Yus gentium ........ 1085
Yus kogens ........ 1085
Yus naturali ........ 1085
Yus sivili ........ 1085
Yustinian məcəlləıəşdirilməsi ........ 1086







Yustinian Məcəlləsi ........ 1086
Yuvenal cinayət qanunvericiliyi ........ 1086
Yükalan ........ 1086
Yük daşınması müqaviləsi ........ 1087
Yükə girov hüququ ........ 1087
Yükgöndərən ........ 1087
Yük götürənin (saxlayıcının) hüquq və vəzifələri ........ 1087
Yük qəbzi ........ 1087
Yükə aid sənədlər ........ 1088
Yüklər haqqında məlumat ........ 1088
Yüklərin daşınması üçün qəbulun müvəqqəti dayandırılması və ya məhdudlaşdırılması ........ 1088
Yüklərin daşınması zamanı iddia müddətləri ........ 1088
Yüklülüklər və vergilər ........ 1089
"Yüksək komissiya" ........ 1089
Yüksək məhkəmə ........ 1089
Yükü almaq üçün hüququ olan şəxs ........ 1089
Yükü qəbul edənin səlahiyyəti ........ 1089
Yükü qəbul edənlərin hüquq və vəzifələri ........ 1089
Yükün birbaşa daşınması ........ 1090
Yükün boşaldılıb yüklənməsi ........ 1090
Yükün dəyişdirilməsi ........ 1090
Yükün haqqının hesablanması ........ 1090
Yükün qablaşdırılması və markalanması ........ 1090
Yükün qaiməsi və ona əlavə edilən sənədlər ........ 1090
Yükün saxlamaya təhvil verilməsi ........ 1091
Yükün tarası, qablaşdırılması və nişanlanması ........ 1091
Yükün və poçtun müntəzəm daşınması haqqında müqavilə ........ 1091
Yükün zədələnməsi və ya məhv olması nəticəsində vurulan zərər ........ 1092
Yük üzərində sərəncam vermək hüququ ........ 1092
Yük verənin (tapşıranın) vəzifələri ........ 1092
Yükvuranın limanı və yeri ........ 1092
Yükvurmanın vaxtından əvvəl qurtarmasına görə mükafat ........ 1093
Yüzbaşı ........ 1093
"Yüz gün" ........ 1093
Yüzlük ........ 1093

**Yabanı meyvə meşələri** – meşə fondu ərazisində təbii bitən, yaxud süni yolla yaradılan və tərkibində təsərrüfat əhəmiyyətli miqdarda qiymətli meyvə, giləmeyvə və qərzəkliklər olan meşələr, meşə bağları, bağlar və həmin cinslərin plantasiyaları.

**Yalan** – həqiqətin təhrif olunmuş ifadəsi. Psixoloji baxımdan y. qəsdən və ya bilməyərəkdən (ehtiyatsızlıqdan) ifadə oluna bilər. Qəsdən y. zamanı insan həqiqəti başa düşərək təhrif edir və başqalarına bu barədə yanlış məlumat verir. Bilməyərəkdən deyilmiş y. insanın özünün anlamadığı həqiqətin təhrifidir.

**Yalançı əqd** – başqa əqdi pərdələmək üçün bağlanmış əqd. Mülki qanunvericilikdə nəzərdə tutulmuş formanın pozulması ilə bağlanmış əqdlər bilavasitə qanunda göstərildiyi hallarda etibarsız hesab olunurlar.

**Yalançı sahibkarlıq** – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. AR CM-in 193-cü maddəsində nəzərdə tutulur. Kredit almaq, rüsumlardan azad olmaq və ya digər əmlak mənfəəti əldə etmək, yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədi ilə sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan müəssisə və ya digər hüquqi şəxsin yaradılması ilə əlaqədar xeyli miqdarda, yaxud külli miqdarda ziyan vurmada ifadə olunur.

**Yalan şahidlik** – bilə-bilə yalan ifadə verməklə, yaxud bilə-bilə yalan xəbərçilik etməklə edilən şahidlik.

**Yanakı sübutlar** *(bax: dolayı sübutlar).*

**Yandırıcı döyüş sursatı** – tezalışan obyektləri, döyüş texnikasını, habelə canlı qüvvəni tərkibindəki yandırıcı maddələrin təsiri ilə məhv edən qumbara, artilleriya mərmiləri və aviasiya bombaları.

**Yandırıcı maddələr** – yandırıcı döyüş sursatına (bomba, mərmi, mina, güllə və i.a.) doldurulan, alışıb yana bilən pirotexniki maddələr, yaxud onların qarışığı. Odsaçan silaha doldurulan qarışıqlar da y.m.-ə aid edilirlər.

**Yanğın** – maddi nemətlərin məhv olması ilə nəticələnən, idarə oluna bilməyən, insan həyatı üçün təhlükəli yanma prosesi.

**Yanğından mühafizə** – yanğınların qarşısının alınmasının və söndürülməsinin təşkili, bununla əlaqədar ümdə qəza-xilasetmə işlərinin aparılması üçün yaradılmış idarəetmə orqanlarının, qüvvələrin və vasitələrin məcmusu.

**Yanğın deposu** – növbətçi dəstənin və yanğınsöndürmə texnika vasitələrinin yerləşdiyi bina. Y.d.-na qaraj, rabitə məntəqəsi, sinif otaqları, şəxsi heyətin istirahət otaqları, avtomobillərə texniki xidmət postları, su şlanqları və yanğından mühafizə avadanlığı saxlanılan anbar və i.a. otaqlar daxildir.

**Yanğın profilaktikası** – yanğının qarşısını almaq, baş verdikdə yayılmasına imkan verməmək və ya dərhal söndürmək, yanan binalardan adamları çıxarmaq məqsədi ilə dövlət tərəfindən görülən tədbirlər sistemi.

**Yanğın-texniki ekspertizası** – baş vermiş yanğının texniki səbəblərini, yanğının baş vermə mənbəyini və yerini, habelə vaxtını müəyyən edən və yanğının başvermə səbəblərini öyrənən ekspertiza.

**Yanğın təhlükəsizliyi** – şəxsiyyətin, əmlakın, cəmiyyətin və dövlətin yanğınlardan müdafiə olunma vəziyyəti.

**"Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının qanunu** – Azərbaycan Respublikasında insanların həyatının və sağlamlığının, milli sərvətin, mülkiyyətin bütün növlərinin yanğından qorunması məqsədilə fəaliyyət göstərən yanğın təhlükəsizliyi və dövlət yanğın nəzarəti sisteminin təşkilinin hüquqi əsaslarını və prinsiplərini müəyyən edən qanunvericilik aktı.

Bu qanun 10 iyun 1997-ci il tarixdə qəbul edilmişdir. O, beş fəsil və 36 maddədən ibarətdir.

**Yanğın təhlükəsizliyi qaydalarını pozma** - ictimai təhlükəsizlik əleyhinə olan cinayətlərin bir növü. AR CM-in 225-ci maddəsində nəzərdə tutulur. Üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulmasında ifadə olunur.

**Yaradıcı işçi** – mədəni sərvətləri yaradan və ya interpretasiya (izahını verən) edən, öz yaradıcılıq fəaliyyətini həyatının ayrılmaz hissəsi hesab edən, yaradıcı işçi qismində tanınan və habelə tanınmanı tələb edən fiziki şəxs.

**Yaradıcılıq azadlığı** – Azərbaycan Respublikası Konstitusiyasının 51-ci maddəsinə uyğun olaraq hər kəsin yaradıcılıq azadlığı vardır. Dövlət ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir.

Hər kəs öz maraqlarına və qabiliyyətinə uyğun istənilən yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq hüququna malikdir. Bu hüquq həm peşəkar, həm də həvəskar əsaslarla həyata keçirilə bilər. Müəlliflik hüququ, əqli mülkiyyət hüququ, yaradıcılıq fəaliyyətinin nəticələrindən sərbəst istifadə etmə və dövlət tərəfindən dəstəklənmə baxımından yaradıcılıq fəaliyyəti ilə məşğul olan şəxslər bərabər hüquqludurlar.

**Yaradıcılıq fəaliyyəti** – mədəni sərvətlərin yaradılmasından və onların interpretasiyasının (izahının verilməsindən) edilməsindən ibarət olan fəaliyyət.

**Yaradıcılıq məzuniyyətləri** – əmək hüququna görə işəgötürənlə əmək münasibətlərində olmaqla yanaşı aspiranturada, doktoranturada müvafiq elmi dərəcə almaq üçün təhsilini davam etdirən işçilərə dissertasiya işlərini tamamlamaq, həmçinin müəlliflərə dərsliklər və ya dərs vəsaiti yazmaq üçün ödənişli yaradıcılıq məzuniyyətləri verilə bilər. Elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya işini tamamlamaqdan ötrü iki təqvim ayınadək, elmlər doktoru alimlik dərəcəsini almaq üçün dissertasiya işini tamamlamaqdan ötrü isə üç təqvim ayınadək ödənişli yaradıcılıq məzuniyyəti verilir. Bu yaradıcılıq məzuniyyətlərindən işçi müvafiq elmi şuranın qərarına uyğun olaraq ona verilən arayış əsasında istifadə edir. İşləməklə yanaşı doktoranturada, aspiranturada təhsil alan (o cümlədən aspiraturaya daxil olmaq üçün) işçilərə hər tədris ilində 30 təqvim günü ödənişli məzuniyyət verilir. Dərsliklər və ya dərs vəsaitləri yazmaqla məşğul olan işçilərə müvafiq icra hakimiyyəti orqanının qərarı ilə və arayışı əsasında 3 ayadək ödənişli yaradıcılıq məzuniyyəti verilə bilər. Müvafiq elmi şura və ya müvafiq icra hakimiyyəti orqanı yaradıcılıq məzuniyyətlərinin müddətlərini və onlardan istifadə olunması məsələlərini

Yaş

obyekti ola bilər; bu hissələr və bölümlər mənzil kimi və ya işgüzar və ya digər məqsədlər üçün otaq vahidləri kimi qapalı olmalı və onların öz girişi olmalıdır. lakin tərkiblərində ayrı-ayrı yardımçı otaqlar ola bilər. Bu cür vahidlər "yaşayış binasının tərkib hissələrinin vahidləri" adlandırılır (AR MM-in 230-cu maddəsi).

**Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ** – mülki qanunvericiliyə görə yaşayış binasının tərkib hissəsi mülkiyyətçisinin ailə üzvləri və digər şəxslər yaşayış binasından istifadə hüququna bu şərtlə malikdirlər ki, həmin hüquq daşınmaz əmlakın dövlət reyestrində qeydə alınsın. İstifadə hüququnun əmələ gəlməsi, həyata keçirilməsi şərtləri və xitamı mülkiyyətçi ilə bağlanan, notariat qaydasında təsdiqlənən yazılı razılaşma ilə müəyyənləşdirilir. İstifadə hüququna xitam verilməsi haqqında razılaşma olmadıqda, bu hüquqa mülkiyyətçinin məhkəmə qaydasında tələbinə əsasən bazar qiyməti ilə müvafiq kompensasiya verməsi yolu ilə xitam verilə bilər. İstifadə hüququ alqı-satqının, girovun və icarənin müstəqil predmeti ola bilməz. İstifadə hüququ olan şəxs, mülkiyyətçi də daxil olmaqla istənilən şəxsdən həmin yaşayış binasına olan hüququnun pozulmasını aradan qaldırmağı tələb edə bilər (AR MM-in 228-ci maddəsi).

**Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ** – mülki qanunvericiliyə görə ümumi paylı daşınmaz mülkiyyətə olan hüquq; yəni binanın müəyyən hissələrindən müstəsna istifadə etmək və onların içərisində bəzək-tamamlama işləri aparmaq üçün mülkiyyətçinin xüsusi hüquq əldə etməsi.

Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi öz otaqlarını idarə etməkdə, onlardan istifadə etməkdə və bəzək-tamamlama işləri aparmaqda sərbəstdir, lakin o, digər belə mülkiyyətçinin eyni hüquqları həyata keçirməsini çətinləşdirməməli və ümumi tikinti elementlərini, qurğularını zədələməməli və ya onların funksiyasını və ya zahiri görkəmini pisləşdirməməlidir. O, öz otaqlarını bütün binanın qüsursuz vəziyyətdə saxlanması və ya onun yaxşı zahiri görkəminin qorunması üçün tələb edilən tərzdə saxlamalıdır.

Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi ona məxsus yaşayış otağına sahiblik, ondan istifadə və ona dair sərəncam hüquqlarını otağın təyinatına uyğun həyata keçirir. Mülkiyyətçi otağı müqavilə əsasında icarəyə verə bilər. Yaşayış binalarında sənaye istehsalatlarının yerləşdirilməsinə yol verilmir (AR MM-in 226-cı maddəsi).

**Yaşayış evi** – vətəndaşların mülkiyyət hüququ obyektlərindən biri. Y.e. ilə bağlı münasibətlər Azərbaycan Respublikasında mülki qanunvericilik, mənzil qanunvericiliyi, mülkiyyət haqqında qanun, mənzil-tikinti kooperativləri (MTK) haqqında nizamnamə və digər normativ-hüquqi aktlarla tənzim edilir. Vətəndaş, ona xüsusi mülkiyyət hüququ əsasında məxsus olan y.e.-ni satmaq, bağışlamaq, vəsiyyət etmək, icarəyə vermək, habelə onun üzərində qanuna zidd olmayan bütün sərəncamları vermək hüququna malikdir.

**Yaşayış məntəqələrinin torpaqları** – Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə görə şəhər, qəsəbə və kəndlərin hüdudları daxilində yerləşən bütün torpaqlar.







Yaş

Y.m.t.-nın tərkibinə daxil olan torpaq sahələri AR TM-in 18-ci maddəsində sadalanır. İnzibati-ərazi bölgüsü və yaşayış məntəqələrinin hüdudları Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən edilir və dəyişdirilir (AR TM-in 18-ci maddəsinin 3-cü hissəsi).

**Yaşayış məntəqələrinin torpaqlarından istifadə** Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə görə yaşayış məntəqələrinin torpaqlarından onların baş planlarına, ərazinin planlaşdırılması və tikintisi layihələrinə və eləcə də yerquruluşu-təsərrüfat planlarına müvafiq surətdə istifadə edilir. Yaşayış məntəqələrinin baş planları mənzil, sənaye, mədəni-məişət obyektlərinin tikintisi və başqa tikintilər, əhalinin istirahət yerlərinin müəyyənləşdirilməsi və abadlaşdırılması üçün şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin torpaqlarından istifadənin əsas istiqamətlərini müəyyən edir. Baş plan əsasında hazırlanmış planlaşdırma və tikinti layihələri tikinti üçün torpaqlardan istifadəni müəyyən edir. Ərazinin yerquruluşu-təsərrüfat planları tikinti işləri aparılmalı olmayan və tikinti işləri müvəqqəti aparılmayan şəhər torpaqlarından istifadənin əsas istiqamətlərini müəyyən edir. Yaşayış məntəqələrinin ərazisindən torpaq sahələrinin yerquruluşu-təsərrüfat planları üzrə verilməsi və geri alınması qaydaları, habelə həmin sahələrdən istifadə edilməsi şərtləri AR TM ilə və digər normativ-hüquqi aktlarla müəyyən edilir (AR TM-in 20-ci maddəsi).

**Yaşayış məntəqələrinin torpaqlarının hüdudları** – torpaq hüququna görə şəhər, qəsəbə və kənd torpaqlarını digər torpaqlardan ayıran sərhəd. AR TM-in 19-cu maddəsinə uyğun olaraq yaşayış məntəqələrinin hüdudları təsdiq olunmuş şəhərsalma və yerquruluşu sənədləri əsasında müəyyənləşdirilir. Yaşayış məntəqəsinin hüdudu vətəndaşların və hüquqi şəxslərin torpaq sahələrinin sərhədləri üzrə müəyyən edilir. Torpaq sahəsinin şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin hüduduna daxil edilməsi torpaq üzərində mülkiyyət, torpaqdan istifadə və onun üzərində sərəncam və icarə hüquqlarına xitam verilməsinə səbəb olur.

**Yaşayış otağı kirayəçisinin şikayət vermək hüququ** – mülki qanunvericiliyə görə, əgər yaşayış otağının kirayəsi haqqında müqaviləyə uyğun olaraq hüquq münasibətlərinə xitam verilməsi kirayəçi və onun ailəsi üçün ağır nəticələrə gətirib çıxara bilərsə və buna hətta kirayəyə verənin əsaslı mənafelərini nəzərə almaqla haqq qazandırmaq mümkün olmazsa, kirayəçi müqavilənin ləğv edilməsi barədə şikayət verə bilər və kirayəyə verəndən həmin müqavilə üzrə hüquq münasibətlərini davam etdirməyi tələb edə bilər. Ağır nəticələr əvvəlki otağın əvəzinə münasib yaşayış otağının məqbul şərtlərlə verilməsminin mümkün olmadığı halda da baş verir. Kirayəyə verənin əsaslı mənafeləri nəzərə alınarkən yalnız ləğvetməyə dair bildirişdə göstərilmiş əsaslar qəbul edilir, bu şərtlə ki, onlar sonradan yaranmış olmasın.

Yuxarıda nəzərdə tutulan halda kirayəçi, bütün şərtlər nəzərə alınmaqla ağlabatan sayıla biləcək qədər hüquq münasibətlərinin davam etdirilməsini tələb edə bilər. Razılıq əldə edilmədikdə kirayə hüquq münasibətlərinin davam etdirilməsi və kirayə müddəti haqqında, habelə kira-

hüququna malikdir ("Aviasiya haqqında" AR qanununun 50-ci maddəsi).

**Yükün birbaşa daşınması** – ticarət gəmiçiliyi qanunvericiliyinə görə daşıyıcı daşımanın bir hissəsinin digər şəxs tərəfindən icra olunmasını nəzərdə tutan birbaşa konosament verdikdə, birbaşa konosamentdə daşıma üçün qəbul edilmiş yükün itirilməsi və ya zədələnməsi, yaxud çatdırılmasının gecikdirilməsinə görə, əgər bunlar digər şəxs daşımanın bir hissəsini icra etdikdə yük onun ixtiyarında olduğu zaman irəli gələn hallar nəticəsində baş veribsə, daşıyıcının məsuliyyət daşımaması nəzərdə tutula bilər. Daşınma üçün qəbul edilmiş yükün itirilməsini və ya zədələnməsinin, yaxud çatdırılmasının gecikdirilməsinin belə hallar nəticəsində baş vermədiyini sübuta yetirmək vəzifəsi daşıyıcının üzərinə düşür. Daşımanın bir hissəsini icra edən şəxs, yük onun ixtiyarında olduğu zaman, daşınma üçün qəbul etdiyi yükün itirilməsinə və ya zədələnməsinə, yaxud çatdırılmasının gecikdirilməsinə görə AR TGM-in müəyyən etdiyi qaydaya uyğun olaraq məsuliyyət daşıyır (AR TGM-in 136-cı maddəsi).

**Yükün boşaldılıb yüklənməsi** – yükün nəqliyyatın bir növündən digərinə, yaxud eyni nəqliyyat növlərinin birindən digərinə boşaldılıb yüklənməsi. Əsasən dəmir yolu və su nəqliyyatında yüklərin daşınması prosesində tətbiq edilir.

**Yükün dəyişdirilməsi** – ticarət gəmiçiliyi qanunvericiliyinə görə növü və çeşidi çarterdə müəyyən edilmiş yük digər növ yükə yalnız daşıyıcının razılığı ilə dəyişdirilə bilər (AR TGM-in 107-ci maddəsi).

**Yükün haqqının hesablanması** – yükün daşınması üçün *tariflərə* uyğun olaraq onun ödənilmə dəyərinin və əlavə xərclərinin hesablanması. Y.h.h. *tarif məsafəsinin* müəyyən edilməsindən, daşınma ödəmə məbləğlərinin və əlavə xərclərin hesablanmasından ibarətdir.

**Yükün qablaşdırılması və markalanması** – ticarət gəmiçiliyi qanunvericiliyinə görə daşıma və yenidən yükləmə zamanı yükün tam saxlanılmasını təmin etmək üçün tarada daşınmalı və (və ya) qablaşdırılmalı olan yüklər daşımaya lazımi tara və (və ya) qablaşdırma vasitələrində təqdim edilməlidir. Yükgöndərən yükü lazımi qaydada markalamalı və yük barəsində daşıyıcıya bütün zəruri məlumatları təqdim etməlidir. Yük xüsusi rəftar tələb etdiyi halda, yükgöndərən daşıyıcını yükün xüsusiyyətləri və onunla rəftar qaydası barədə məlumatlandırmalıdır (AR TGM-in 106-cı maddəsi).

**Yükün qaiməsi və ona əlavə edilən sənədlər** – Azərbaycan Respublikasının hava qanunvericiliyinə görə göndərici yükü daşınmaq üçün təhvil verdikdə yük qaiməsində yükün dəqiq adını, çəkisini (kütləsini), yerlərin sayını, yükün ölçüsünü və ya həcmini, qablaşdırma növünü və xüsusi xassələrini göstərməlidir. Bu məlumatın düzgünlüyünü yoxlamağa daşıyıcının ixtiyari vardır. Yükün daşınmaq üçün qəbulu zamanı tərəflər, daşıma qaydalarında başqa qaydanın nəzərdə tutulmadığı halda yükün çəkisini kütləsini müəyyənləşdirirlər.

Göndərici yük qaiməsi ilə birlikdə daşıyıcıya sanitariya, karantin qaydalarının və digər qaydaların tələb etdiyi bütün sənədləri verməlidir. Bu sənədlərin dəqiqliyini və kifayət edib-etməməsini yoxlamağa daşıyıcının ixtiyari vardır. Göndərici yük qaiməsində yük barəsində verdiyi məlumatın düzgünlüyü üçün cavabdehdir. Göndərici bu





məlumatın düzgün, dəqiq və ya tam olmaması nəticəsində daşıyıcıya və ya qarşısında daşıyıcının cavabdeh olduğu başqa şəxsə dəyən zərər üçün məsuldur ("Aviasiya haqqında" AR qanununun 48-ci maddəsi).

**Yükün saxlamaya təhvil verilməsi** – ticarət gəmiçiliyi qanunvericiliyinə görə yükün daşınması üçün bütün gəmi verilmədikdə və təyinat limanında yükalan bu yükü tələb etmədiyi, yaxud yükün müəyyən edilmiş vaxtda boşaldılmasına mane olan ləngitməyə yol verdiyi hallarda, daşıyıcının yükgöndərənə və ya fraxtedənə, habelə əgər ona məlumdursa, yükalana bildiriş verməklə yükü, yükə dair sərəncam verməyə səlahiyyəti olan şəxsin hesabına və riskinə anbara və ya başqa etibarlı yerə saxlamaya təhvil verməyə hüququ vardır. Yükün daşınması üçün gəmi bütöv verildikdə, yükün boşaldılması və saxlamaya təhvil verilməsi daşıyıcı tərəfindən staliya və kontrstaliya vaxtı bitdikdən sonra və staliya və kontrstaliya vaxtı ərzində yükgöndərənin və ya fraxtedənin, yaxud yükə dair sərəncam verməyə səlahiyyəti olan şəxsin başqa sərəncamının olmaması şərti ilə həyata keçirilir. Yükün saxlamaya təhvil verilməsinə daşıyıcının sərf etdiyi vaxt boşdayanma kimi qiymətləndirilir.

Gəminin limana gəldiyi gündən keçən iki ay ərzində saxlamaya təhvil verilmiş yük tələb olunmazsa və yükgöndərən bu daşıma ilə əlaqədar daşıyıcının çəkdiyi bütün xərclərin əvəzini ödəməzsə, daşıyıcı yükü müəyyən edilmiş qaydada sata bilər. Tələb edilməmiş tez xarab olan, habelə saxlanması dəyərindən baha başa gələn yük göstərilən müddət sona çatmamış da *satıla bilər*. Daşıyıcı *yükün satıldığı* barədə yükgöndərəni məlumatlandırmalıdır. Yükün satışından əldə edilən məbləğ daşıyıcı tərəfindən, özünə çatacaq haqq, saxlama və satılma üçün sərf edilən xərclər çıxılmaqla yükgöndərənə və ya fraxtedənə verilir. Əgər yükün satışından əldə edilən məbləğ daşıyıcıya çatacaq məbləğləri ödəmək üçün kifayət etməzsə, daşıyıcının yükgöndərəndən və ya fraxtedəndən çatışmayan məbləği tələb etmək hüququ vardır (AR TGM-in 123-cü maddəsi).

**Yükün tarası, qablaşdırılması və nişanlanması** – Azərbaycan Respublikasının hava qanunvericiliyinə görə salamat qalması üçün taraya və ya qaba ehtiyacı olan yüklər daşınmaq üçün standartlara uyğun gələn saz tarada və ya qabda, tarası və qabı üçün standartlar müəyyənləşdirilməmiş yüklərin isə daşınma və yenidən yüklənmə zamanı tamamilə salamat qalmasının saz təmin edilməsi vacibdir.

Kənd təsərrüfatı məhsulları daşınma zamanı yükün salamat qalmasını təmin edən qeyri-standart tarada da qəbul edilə bilər. Daşınma qaydalarına uyğun olaraq yüklər nişanlanmalıdır. Yük saz olmayan tarada və ya qabda, yaxud yükün növünə və xassələrinə, ya da hava nəqliyyatı ilə daşınma şərtlərinə uyğun gəlməyən tarada və ya qabda təqdim etdikdə, daşıyıcı bu yükü daşınmaq üçün qəbul etməkdən boyun qaçırmalıdır ("Aviasiya haqqında" AR qanununun 18 və 48-ci maddələri).

**Yükün və poçtun müntəzəm daşınması haqqında müqavilə** – Azərbaycan Respublikasının hava qanunvericiliyinə görə eyni bir göndərici müəyyən dövr ərzində hava yolu ilə müntəzəm surətdə yük və ya poçt daşıtdırdıqda daşıyıcı və

göndərici xüsusi müqavilə bağlaya bilərlər; müqavilədə bu daşımanın xüsusiyyətlərindən irəli gələn şərtlər müəyyən edilməlidir ("Aviasiya haqqında" AR qanununun 45-ci maddəsi).

**Yükün zədələnməsi və ya məhv olması nəticəsində vurulan zərər** – ticarət gəmiçiliyi qanunvericiliyinə görə ümumi qəzaya aid edilən yükün zədələnməsi və ya məhv olması nəticəsində vurulan zərər yükün boşaldığı anda yükalana təqdim edilən hesab əsasında təyin edilən dəyərə uyğun olaraq, belə hesab olmadıqda isə yükün yüklənildiyi anda olan dəyərinə əsasən müəyyənləşdirilir. Yükün boşaldıldığı anda olan dəyərinə sığorta və fraxt (əgər fraxt yük sahibinin riskində deyildirsə) xərcləri daxildir. Zədələnmiş yükün satıldığı halda əvəzi ödəniləcək zərər, AR TGM-in 239.1-ci maddəsinə uyğun olaraq müəyyən edilən yükün zədəsiz vəziyyətdə olan dəyəri ilə onun satışından əldə edilən xalis məbləğ arasındakı fərqlə müəyyənləşdirilir.

Gəmi sahibinin və ya onun dəniz agentinin xəbəri olmadan və ya qəsdən yanlış ad altında daşımaq üçün təhvil verilmiş yükün zədələnməsi və ya məhv olması nəticəsində vurulan zərər ümumi qəza hesab edilmir. Belə yüklər xilas edildikdə, onların sahibləri ümumi qəza ilə bağlı ödəmələrdə ümumi əsasla iştirak etməyə borcludurlar. Daşınma üçün təhvil verilərkən dəyərləri həqiqi dəyərlərindən az elan edilmiş yüklərin sahibləri ümumi qəza ilə bağlı ödəmələrdə yüklərin həqiqi dəyərinə müvafiq sürətdə iştirak edir, lakin vurulan zərərin əvəzini yalnız yüklərin elan edilmiş dəyərinə uyğun olaraq alırlar (AR TGM-in 239-cu maddəsi).

**Yük üzərində sərəncam vermək hüququ** – ticarət gəmiçiliyi qanunvericiliyinə görə yük yükalana verilənə kimi, habelə belə hüquq yükalana və ya üçüncü şəxsə verilənə kimi yükgöndərənin yük üzərində sərəncam vermək hüququ yaranır. Yük üzərində sərəncam vermək hüququ yükalana və ya üçüncü şəxsə verildikdə yükgöndərən bu barədə daşıyıcını məlumatlandırmalıdır (AR TGM-in 115.1-ci maddəsi).

**Yük verənin (tapşıranın) vəzifələri** – mülki qanunvericiliyə görə tapşıran saxlama müqaviləsinin icrası ilə bağlı saxlayıcının çəkdiyi zəruri xərclərin əvəzini ödəməlidir. Tapşıran saxlama üçün muzdu yalnız o halda ödəməlidir ki, bu, şərtləndirilmiş olsun və ya şərait nəzərə alınmaqla saxlama üçün muzd ödənilməsi qəbul edilmiş olsun. Zərurət olduqda muzd saxlamanın sonunda ödənilir. Müəyyən zaman hissələri üçün muzd ödənilməsi barədə razılaşma olduqda həmin muzd müvafiq olaraq ayrı-ayrı zaman hissələrinin sonunda hissələr şəklində ödənilir. Tapşıran saxlamaya götürülmüş əşyanın xarakteri ilə əlaqədar saxlayıcının düşdüyü zərərin əvəzini ödəməlidir, amma əşyanı saxlamaya verərkən onun təhlükəli xassələrini bilmədiyi və ya bilməli olmadığı və ya bu barədə saxlayıcıya bildiriş verdiyi və ya saxlayıcının bildirişsiz də bunu bildiyi hallar istisna təşkil edir (AR MM-in 823-cü maddəsi).

**Yükvuranın limanı və yeri** – ticarət gəmiçiliyi qanunvericiliyinə görə daşıyıcı gəmini çarterdə göstərilmiş və ya çarterin şərtlərinə uyğun olaraq fraxtedənin göstərdiyi dəniz limanına verməlidir. Fraxtedən təhlükəsiz yükvurma limanını göstərməyə borcludur. Fraxtedən yükvurma limanını göstərmədikdə; düzgün göstərmədikdə və







ya təhlükəsiz olmayan yükvurma limanını göstərdikdə, daşıyıcı dənizlə yük daşınması müqaviləsinin icrasından imtina edə və vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edə bilər. Yük çarter üzrə daşındıqda daşıyıcı gəmini fraxtedənin göstərdiyi yükvurma yerinə verməyə borcludur. Yükvurma yeri yükvurma üçün təhlükəsiz və yararlı olmalıdır (AR TGM-in 95-ci maddəsi).

**Yükvurmanın vaxtından əvvəl qurtarmasına görə mükafat** – ticarət gəmiçiliyi qanunvericiliyinə görə tərəflərin razılaşması ilə yükvurmanın staliya vaxtının bitməsindən tez başa çatdırılmasına görə fraxtedən üçün mükafat (dispaç) müəyyən edilə bilər (AR TGM-in 100-cü maddəsi).

**Yüzbaşı** – **1)** XIV-XIX yüzilliklərdə Yaxın Şərqin bəzi ölkələrində, o cümlədən Azərbaycanda mövcud olmuş hərbi rütbə və inzibati vəzifə. 100 nəfərlik hərbi dəstəyə başçılıq edən Y.-nın orduda xüsusi imtiyazları olmuşdur. O, müdafiə qalalarının hakimi olan minbaşıların naibi (müavini) hesab olunurdu. Azərbaycanın Rusiyaya zorla birləşdirilməsindən sonra nominal olaraq seçkili, əslində isə *irsi kənd hakiminə* çevrilmişdir; **2)** yüzbaşı (sotnik) – inqilabaqədərki çar Rusiyasında kazak qoşunlarında zabit rütbəsi; nizami qoşunlardakı poruçik rütbəsinə uyğun idi; **3)** XVI-XVIII yüzilliklərdə Ukraynada inzibati ərazi yüzlüyünün rəisi. Y. geniş hərbi, inzibati, məhkəmə və maliyyə hüquqlarına malik idi.

**"Yüz gün"** – Fransada I Napoleon Bonapartın ikinci hakimiyyət (1815-ci ilin martından həmin ilin 22 iyununadək) dövrü. Vaterloo yaxınlığındakı məğlubiyyətdən sonra (18 iyun) Fransada yenidən Burbonların hakimiyyəti bərqərar oldu. I Napoleon isə hakimiyyətdən kənar edildi.

**Yüzlük** – **1)** ibtidai icma cəmiyyətindən feodalizmə keçid dövründə germanlarla ictimai və hərbi təşkilat; **2)** Qədim Rusiya və bəzi Şərq ölkələrində qoşun bölməsi (Rusiyada sotnya adlanırdı); **3)** inqilabaqədərki Rusiyada kazak hissələrinin eskadrona uyğun gələn qoşun bölməsi; **4)** XVI-XVIII yüzilliklərdə Ukraynada sotnya adlanan hərbi vahid və inzibati-ərazi vahidi; **5)** Rusiyada XI-XVIII yüzilliklərdə silki-korporativ təşkilatlar.

# -Z-

Zabit ........ 1095
Zadəgan ........ 1095
Zadəganlıq ........ 1095
Zakup ........ 1095
Zakuplar ........ 1095
Zaminlik ........ 1095
Zaminlik müqaviləsi ........ 1095
Zay məhsul (ödənilməsi məsələləri) ........ 1096
Zem hüququ ........ 1096
Zem idarələri ........ 1096
Zem məclisi ........ 1096
Zem məhkəməsi ........ 1097
Zem sahə rəisi ........ 1097
Zemstvo ........ 1097
Zemstvo hərəkatı ........ 1097
Zemstvo islahatı ........ 1097
Zemstvo mükəlləfiyyəti ........ 1097
Zemstvo yığıncağı ........ 1097
Zenit-artilleriya kompleksi ........ 1097
Zenit artilleriyası ........ 1098
Zenit pulemyotu ........ 1098
Zenit-raket kompleksi ........ 1098
Zenit topu ........ 1098
Zevgitlər ........ 1098
Zəbt etmə ........ 1098
Zəkat ........ 1098
Zəmindar ........ 1098
Zərbə ........ 1099
Zərbxana ........ 1099
Zərdüştilik ........ 1099
Zərər ........ 1099
Zərər çəkmiş şəxs ........ 1100
Zərər çəkmiş şəxsin təqsirinin nəzərə alınması ........ 1100
Zərərin əvəzinin ödənilməsi haqqında iddia ........ 1100
Zərərin keçirilməsi ........ 1100
Zərərin qarşısının alınması ........ 1100
Zərərin qarşısının alınması və ya azaldılması ........ 1101
Zərərin ödənilməsi ........ 1101
Zərərin ödənilməsi üsulları ........ 1101
Zərərin ödənilməsi üzrə ödəmələr ........ 1101
Zərərin vurulduğu yer qanunu ........ 1101
Zərər və dəbbə pulu ........ 1102
Zərərvuranın əmlak vəziyyətinin nəzərə alınması ........ 1102
Zərər vurmuş şəxsə reqres hüququ ........ 1102
Zəruri müdafiə ........ 1102
Zərvanilik ........ 1102
Zərvanlar ........ 1102
Zəvac ........ 1102
Zina ........ 1103
Zinakarlıq ........ 1103
Zindan ........ 1103
Zirehli avtomobil ........ 1103
Zirehli gəmi ........ 1103
Zirehli qatar ........ 1103
Zirehli tank texnikası ........ 1103
Zirehli transportyor ........ 1104
Ziyan ........ 1104
Ziyana görə məsuliyyət ........ 1104
Ziyanın ödənilməsi ........ 1104
Ziyanın ödənilməsinə baxılma qaydası ........ 1104
Zona ........ 1104
Zorakılıq ........ 1104
Zorlama ........ 1104
Zöhrəvi xəstəliklər ........ 1105
Zöhrəvi xəstəlikləri yayma ........ 1105
Zülm ........ 1105





**Zabit** – silahlı qüvvələrin, həmçinin polisin komanda və rəis heyətində vəzifəli şəxs. Daimi muzdlu orduların yaradılması (Fransada, sonra isə Avropanın bir sıra başqa ölkələrində) ilə qoşun komandirlərini z. adlandırmağa başlamışlar. Z.-lər ali (yuxarı) və aşağı zabitlər heyətinə bölünürlər.

**Zadəgan** – irsi imtiyazlara malik olan dünyəvi torpaq sahiblərinin təbəqəsi.

**Zadəganlıq** – irsi imtiyazlara malik olan dünyəvi torpaq sahibləri təbəqəsinə (zümrəsinə) mənsub olan şəxs. Z. feodalizm cəmiyyətində hakim sinfin nümayəndələri idilər. Bu təbəqə öz imtiyazlarını kapitalizmdə də bu və ya digər dərəcədə qoruyub saxlamışdı. Feodalizmdə isə siyasi hakimiyyət bilavasitə bu nəsildən olan təbəqənin nümayəndələrinə məxsus idi. Z.-ın əsas siyasi və iqtisadi qüdrəti torpaq üzərində mülkiyyət hüququ ilə bağlı olmuşdur. Bu təbəqənin özü də müəyyən iyerarxiyaya (ali və aşağı zadəganlıq) malik idi. Ali z.-a adətən, aristokratiyanın qədim nəsli, aşağı z.-a isə kral yanında vəzifə tutan şəxslər, döyüşçülər (cəngavərlər) və vassallar daxil idilər. Hersoq, markiz, baron, qraf, vikont və i.a. z.-ın titulları hesab olunur.

**Zakup** – qədim rus hüququnda feodalın təsərrüfatında "kup", yəni borc üçün işləyən insan. Borcun tərkibinə müxtəlif sərvətlər – torpaq, mal-qara, taxıl, pul və i.a. daxil oluna bilərdi. İşlərin həcmi kreditor tərəfindən müəyyən edilirdi. Borc üzrə artan faizlər bəzən z.-un uzunmüddətli dəbbələnməsinə gətirib çıxarırdı.

**Zakuplar** – Qədim Rus dövlətində asılı əhali kateqoriyası. Z. feodaldan istehsal alətlərini aldıqları üçün onun torpağında işləməyə borclu idilər. Z.-ın öz torpaqları da var idi. Z. ancaq feodalın borclarını ödədikdən sonra azad ola bilərdilər. Z.-ı öldürmək olmazdı. Onlar feodalın yanından gedə, ondan məhkəməyə şikayət verə bilərdilər. Feodalın yanından qaçmış z. köləyə çevrilə bilərdilər. Z. qanunsuz kölə edildikdə isə onların borcu ləğv edilir, özləri də azad olunurdular.

**Zaminlik** – **1)** mülki hüquqda – öhdəliyin icrasını təmin edən üsullardan biri. Zamin duran şəxs öz üzərinə başqa şəxsin (əsas borclunun) kreditor qarşısında öhdəliyin icrası üzrə tam, yaxud qismən cavab vermək haqqında öhdəlik götürür; **2)** cinayət prosesində – qətimkan tədbirlərindən biri. Şübhə edilən şəxsin və ya təqsirləndirilən şəxsin özünü lazımi tərzdə aparmasını və təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun və məhkəmənin çağırışı ilə vaxtında gəlməsini təmin etmək barədə zamin duranların – ayrı-ayrı şəxslərin (iki nəfərdən az olmamaqla), yaxud ictimai təşkilatların yazılı iltizam verməsi deməkdir.

**Zaminlik müqaviləsi** – mülki qanunvericiliyə uyğun olaraq zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür. Zaminlik müqaviləsi gələcəkdə yaranacaq öhdəliyin təmin edilməsi üçün də bağlana bilər (AR MM-in 470-ci maddəsi).

Z.m. yazılı formada bağlanmalıdır. Yazılı formaya riayət edilməməsi müqavilənin etibarsızlığına səbəb olur. Borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, əgər MM-də və ya z.m.-ndə zaminin subsidiar məsuliy-

**Zirehli transportyor** – əsasən motorlu-atıcı piyada qoşun hissələrinin döyüş yerinə çatdırılması, onların atəşlə mühafizə olunması üçün keçid qabiliyyəti yüksək olan, tırtıllı və ya təkərli zirehli döyüş maşını; kəşfiyyat və gözətçilik məqsədləri üçün də işlədilir. Müasir z.t.-dan döyüşdə tanklarla birgə istifadə olunur.

**Ziyan** *(bax: zərər).*

**Ziyana görə məsuliyyət** – əmək qanunvericiliyinə görə mülkiyyətçi ilə əmək müqaviləsi əsasında fəaliyyət göstərən işəgötürən, özünün qanunazidd hərəkətləri nəticəsində mülkiyyətçiyə vurduğu ziyana görə AR ƏM ilə və digər normativ-hüquqi aktlarla müəyyən edilmiş qaydada və hallarda tam maddi məsuliyyət daşıyır. Mülkiyyətçi əmri (sərəncamı, qərarı) ilə işəgötürən tərəfindən ona vurulmuş ziyanın ödənilməsini təmin edə bilər və ya vurulmuş ziyanın məhkəmə qaydasında ödənilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görə bilər (AR ƏM-in 193-cü maddəsi).

**Ziyanın ödənilməsi** – əmək qanunvericiliyinə görə ziyan vurmaqda təqsirli olan tərəf cinayət məsuliyyətinə, habelə inzibati və digər məsuliyyətə cəlb edilməsindən asılı olmayaraq, müəyyən edilmiş qaydada maddi ziyanın məbləğini ödəməyə borcludur. Ziyan vurulduqdan sonra əmək münasibətlərinə xitam verilməsi təqsirkar tərəfi maddi məsuliyyətdən azad etmir (AR ƏM-in 194-cü maddəsi).

**Ziyanın ödənilməsinə baxılma qaydası** – əmək hüququna görə işçi ona vurulmuş maddi ziyanın məbləğinin ödənilməsi barədə işəgötürənə ərizə ilə müraciət etməlidir. İşəgötürən işçinin ərizəsində göstərdiyi iddiasını araşdırmalı və 15 gün müddətində müvafiq qərar qəbul edərək ona yazılı cavab verməlidir. İşçi, bütövlükdə və qismən işəgötürənin qərarı ilə razılaşmadıqda, habelə müəyyən edilmiş müddət ərzində ona yazılı cavab verilmədikdə dəyən ziyanın ödənilməsi barədə iddia ərizəsi ilə məhkəməyə müraciət edə bilər. Vurulan ziyanın ödənilməsi barədə məsələnin məhkəmə qaydasında həll edilməsindən çəkinmək məqsədi ilə tərəflər qarşılıqlı razılıqla belə mübahisələrin həlli üçün başqa qaydalar müəyyən edə bilərlər. Lakin bu qaydalar işçinin məhkəməyə müraciət etmək hüququnu məhdudlaşdıra bilməz (AR ƏM-in 197-ci maddəsi).

**Zona** – müəyyən xüsusi əlamətə, təyinata malik olan sahə, zolaq, qurşaq. Məsələn, sərhəd zonası, sükut zonası və i.a.

**Zorakılıq** – **1)** iqtisadi və siyasi hökmranlığa nail olmaq, yaxud onu əldə saxlamaq, müəyyən hüquq və ya imtiyazlar qazanmaq məqsədi ilə hər hansı sinfin (sosial qrupun) digər sinfə (sosial qrupa) qarşı məcburiyyətin müxtəlif formalarını tətbiq etməsi; **2)** vətəndaşların konstitusiyada təsbit edilmiş şəxsiyyət toxunulmazlığı hüququnu pozmaqla, bir şəxsin digər şəxsə fiziki və ya psixi təsir göstərməsi. Cinayətin zorakılıqla törədilməsi əməlin ictimai təhlükəlilik dərəcəsini artırır və daha ciddi cəzaya səbəb olur.

**Zorlama** – şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlərdən biri. AR CM-in 149-cu maddəsinə uyğun olaraq zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olmada ifadə olunur.







**Zöhrəvi xəstəliklər** – cinsi yolla yoluxan infeksion xəstəliklər qrupu (sifilis, süzənək, yumşaq şankr, qasıq limfoqranulomtozu, QİÇS və s.). Adı Zöhrə ilə əlaqədardır. Bu termini ilk dəfə 1527-ci ildə fransız alimi J. de Betankur təklif etmişdir. Z.x.-in mənşəyi bu vaxtadək tam öyrənilməmişdir. Qədim Misir, Babilistan, Hindistan, Çin və başqa ölkələrin təbabətə aid yazılı mənbələrində, Herodotun, Hippokratın, İbn Sinanın, Qalenin və digər mütəfəkkirlərin əsərlərində z.x. haqqında məlumatlar verilir. Z.x.-in daşıyıcıları cinayət-hüquqi təqibin obyektlərindən biridirlər.

**Zöhrəvi xəstəlikləri yayma** – həyat və sağlamlıq əleyhinə olan cinayətlərdən biri. AR CM-in 139-cu maddəsinə uyğun olaraq özündə zöhrəvi xəstəlik olduğunu bilən şəxsin bu xəstəliyi başqa şəxsə yoluxdurmasında ifadə olunur.

**Zülm** – islamda – qanunsuzluq, insanlar arasında münasibətlərin təşəkkül tapmış normalarının qəsdən, bilə-bilə pozulması, bədxahlıqlar nümayiş etdirilməsi. Sıxışdırma, incitmə, məcburiyyət, alçaltma, təhqir etmə, zorakılıq, əmlakı ələ keçirmə, yaxud talama, qətl və qarət z.-ün əsas təzahür formalarındır. Z. anlayışı altında ədalətə, dövlət başçısının, monarxın, kralın, əmirin, öz vətəndaşları barəsində sui-istifadələri nəzərdə tutulur. Şəriət normaları (müsəlman hüququ) dövlət başçısının etdiyi z.-ü lənətləyir, onun ölkənin mülkiyyətçilərinə, öz növbəsində mülkiyyətçilərin icarəçilərə, sahibkarların öz işçilərinə, xidmətçilərinə, böyük qohumların kiçik qohumlara, məmurların xalqa etdiyi z.-ü, habelə hakimlərin əsassız və qanunsuz hökm və qərarlarını böyük günahlardan biri hesab etməklə yanaşı, həm də z. kimi qiymətləndirir. Müsəlman ölkələrində z. hüquq pozuntularından biri kimi bütün islam hüquq məktəbləri, ayrı - ayrı məzhəb və təriqətlər tərəfindən birmənalı şəkildə qiymətləndirilir. Lakin z.-ə müqavimət göstərilməsi üsullarına müxtəlif cür yanaşılır. İslam qanunşünaslarının əksəriyyəti hesab edirlər ki, ədalətə ancaq sülh yolu ilə nail olmaq lazımdır, çünki birincisi, z. kimi görünən hal incidilmiş şəxsin, eləcə də zülm edənin səhvi də ola bilər. İkincisi, zülm edilmiş şəxs özünün mənəvi cəhətdən haqlı olduğunu qoruyub saxlayır ki, bu da çox qiymətlidir. Üçüncüsü, tabe olmama və qiyam qaldırma zülm kimi ağır nəticələrə səbəb ola bilər.

# İstifadə edilmiş ədəbiyyat


Azərbaycan Respublikasının Konstitusiyası.– B.: Qanun, 2002.
Azərbaycan Respublikasının Ailə Məcəlləsi.– B.: Qanun, 2002.
Azərbaycan Respublikasının Vergi Məcəlləsi.– B.: Qanun, 2002.
Azərbaycan Respublikasının Əmək Məcəlləsi.–B.: Qanun, 2002.
Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.– B.: Qanun, 2002.
Azərbaycan Respublikasının Gömrük Məcəlləsi.– B.: Qanun, 2002.
Azərbaycan Respublikasının Meşə Məcəlləsi.– B.: Qanun, 2002
Azərbaycan Respublikasının Mülki Məcəlləsi.– B.: Qanun, 2002.
Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi.– B.: Qanun, 2002.
Azərbaycan Respublikasının Seçki Məcəlləsi.– B.: Qanun, 2003.
Azərbaycan Respublikasının Su Məcəlləsi.– B.: Qanun, 2002.
Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsi.– B.: Qanun, 2003.
Azərbaycan Respublikasının Torpaq Məcəlləsi.– B.: Qanun, 2002.
"Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunu.– B.: Qanun, 2006.
Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi.– B.: Qanun, 2002.
Azərbaycan Respublikasının Cinayət Məcəlləsi.– B.: Qanun, 2002.
Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi.– B.: Qanun, 2002.
Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. II cild.– B.: Qanun, 2000.
Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. III cild.– B.: Qanun, 2001.
ASE. I cild. ASEBR.– B., 1976.
ASE. II cild. ASEBR.– B., 1978.
ASE. III cild. ASEBR.– B., 1979.
ASE. IV cild. ASEBR.– B., 1980.
ASE. V cild. ASEBR.– B., 1981.
ASE. VI cild. ASEBR.– B., 1982.
ASE. VII cild. ASEBR.– B., 1983.
ASE. VIII cild. ASEBR.– B., 1984.
ASE. IX cild. ASEBR.– B., 1986.
ASE. X cild. ASEBR.– B., 1987.
Бартошек Милан. Римское право: понятия, термины, определения.– М.: Юрид. лит. 1989.
Белкин Р.С. Криминалистическая энциклопедия.– М.: BEK. 1997.
Дипломатический словарь, Т. I.– М.: Наука, 1984.
Дипломатический словарь. Т. II.– М.: Наука, 1985.
Дипломатический словарь. Т. III.– М.: Наука. 1986.
Əliyev Aydın, Nuriyev
Nuriyev Cümşüd, Nuriyeva Günay. İqtisadiyyat və hüquq (ensiklopedik izahlı lüğət).– B, Qanun. 2002.
İslam: Энциклопедический словарь.– М.: Наука. 1991.
Криминология: словарь под общ. ред. В.П.Сальникова.– М.: Лан, 1999.
Общая теория государство и права. Академический курс) Отв. ред. М.Н. Марченко). Т.2. - М.: Зерцало, 1998.
Общая теория государство и право. Академический курс Отв.ред. М.Н. Марченко Т.2.– М.: Зерцало, 1998.
Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. B.: Hüquq ədəbiyyatı, 2002.
Словарь античности. - М.: Прогресс, 1989.
Словарь иностранных слов.- М.: Русский язык, 1984.
Теория государство и права. Курс лекций /Под ред. Н.И.Матузова.
А.В.Малько.- М.: ЮРИСТЪ, 1999.
Энциклопедический юридический словарь.- М.: Инфора-М, 1998.






# MÜNDƏRİCAT


Ön söz ........ 5
Şərti ixtisarlar ........ 7
Azərbaycan əlifbası ........ 9
A ........ 10
B ........ 114
C ........ 209
Ç ........ 238
D ........ 243
E ........ 320
Ə ........ 349
F ........ 401
G ........ 422
H ........ 441
X ........ 482
İ ........ 496
J ........ 580
K ........ 583
Q ........ 652
L ........ 699
M ........ 714
N ........ 786
O ........ 811
Ö ........ 820
P ........ 830
R ........ 874
S ........ 899
Ş ........ 957
T ........ 969
U ........ 1012
Ü ........ 1018
V ........ 1023
Y ........ 1063
Z ........ 1094
**İstifadə olunan ədəbiyyat ........ 1106**

Aqşin İsabala oğlu Quliyev

# HÜQUQ ENSİKLOPEDİYASI

*(Azərbaycan dilində)*

*Bakı -QANUN- 2007*

**NAŞİR:**

*Şahbaz XUDUOĞLU*

**NƏŞRİYYAT REDAKTORU:**

*Fəxrəddin AĞAZADƏ*

**KOMPÜTER TƏRTİBATI:**

*Rəmzi QULİYEV*

**YIĞICILAR:**

*Səadət NƏCƏFOVA*
*Aygün QƏMBƏROVA*

**TEXNİKİ REDAKTOR VƏ KORREKTOR:**

*Mehparə ƏSƏDOVA*

Çapa imzalanmışdır: 26.02.2007.
Formatı 70x100 1/16.
Fiziki ç/v 69,25;
Şərti ç/v 97,64.
Tirajı 300, Sifariş 13.
Qiyməti: 20 man

QANUN NƏŞRİYYATI

***II Alatava 9***
***Tel:** 4 311662; 4 375284*
***E-mail:** qanun@rambler.ru*
*ms@azdata.net*
***Web:** qanun-az.com*